AZƏRBAYCAN RESPUBLİKASININ
ALİ MƏHKƏMƏSİ

Mülki və Kommersiya kollegiyalarının məhkəmə təcrübəsinin vahidliyini təmin edən aktları

2020 - 2026

Toplu Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki və kommersiya işlərinin təşkili şöbəsi tərəfindən tərtib olunmuşdur.

Hazırkı toplu məhkəmələrin hüquqi məsələlərin həllinə yanaşmasının sabitliyini və normativ hüquqi aktların tətbiqi ilə bağlı hüquqi mövqeyinin proqnozlaşdırılan olmasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki və Kommersiya kollegiyalarının hüququn tətbiqi üzrə vahid məhkəmə təcrübəsini müəyyən edən qərardadları, habelə məhkəmə təcrübəsi baxımından mühüm əhəmiyyət kəsb edən (★★★) qərarlarından ibarət olmaqla hazırlanmışdır.

2020-2026-ci illər ərzində qəbul edilmiş məhkəmə aktlarını əhatə edən vəsait mülki və kommersiya mübahisələrində vahid məhkəmə təcrübəsinin öyrənilməsi və tətbiqi baxımından hakimlər, məhkəmə aparatı işçiləri, vəkillər və hüquq ictimaiyyəti üçün faydalıdır.

M Ü N D Ə R İ C A T

I FƏSİL

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki və Kommersiya kollegiyalarının məhkəmə təcrübəsinin vahidliyini təmin edən birgə qərardadlar

1. 01/2020 nömrəli, 2020-ci il 20 iyul tarixli qərardad - "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi üzrə ipoteka predmeti olan əmlakın ilkin satış qiymətinin müəyyən edilməsi məsələsinə dair 12

2. 04/2020 nömrəli, 2020-ci il 14 oktyabr tarixli qərardad - Apellyasiya və kassasiya şikayətlərinin mümkünlüyü və şikayətlərə baxılmasının hədləri ilə bağlı Mülki Prosessual Məcəllənin tətbiqi məsələlərinə dair 17

3. 01/2021 nömrəli, 2021-ci il 4 iyun tarixli qərardad - Mülki qanunvericiliyin lizinq müqaviləsinə dair münasibətləri tənzimləyən bəzi normalarının tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsinə dair 32

4. 02/2021 nömrəli, 2021-ci il 24 noyabr tarixli qərardad - İcra icraatı çərçivəsində borclunun əmlakının hərracdan satılması qaydası ilə bağlı qanunvericiliyin tətbiqi üzrə 43

5. 02/2022 nömrəli, 2022-ci il 14 iyun tarixli qərardad - Əqdə əsaslanan iddialara baxıldığı halda, ayrıca icraatda həmin əqdin etibarlılığının mübahisələndirilməsinin mümkünlüyünə dair qanunvericiliyin tətbiqi məsələləri üzrə 50

6. 03/2022 nömrəli, 2022-ci il 14 dekabr tarixli qərardad - Əqdə əsasən borclunun əmək haqqından akseptsiz qaydada tutmanın mümkün hədləri ilə bağlı qanunvericiliyin tətbiqi üzrə 61

7. 04/2022 nömrəli, 2022-ci il 14 dekabr tarixli qərardad - "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun 43.8-ci maddəsinə dair qanunvericiliyin tətbiqi məsələləri üzrə 66

8. 02/2023 nömrəli, 2023-cü il 22 iyun tarixli qərardad - "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun 59.4-cü maddəsinə dair qanunvericiliyin tətbiqi məsələləri üzrə 76

9. 04/2023 nömrəli, 2023-cü il 8 dekabr tarixli qərardad - Azərbaycan Respublikası Ailə Məcəlləsinin 55.3-cü maddəsinin tətbiqi üzrə 81

10. 01/2024 nömrəli, 2024-cü il 23 fevral tarixli qərardad - Məhkəmə qərarı ilə təsdiq edilmiş barışıq sazişinin etibarsızlığı barədə iddianın mümkünlüyünə dair qanunvericiliyin tətbiqi məsələləri üzrə 88

11. 02/2024 nömrəli, 2024-cü il 6 dekabr tarixli qərardad - Azərbaycan Respublikası Mülki Məcəlləsinin paylı mülkiyyətlə bağlı bəzi müddəalarının tətbiqi məsələləri üzrə 97

12. 02/2026 nömrəli, 2026-cı il 18 may tarixli qərardad - Daşınmaz əşyalara dair əşya hüquqlarının əldə edilməsində üçüncü şəxslərin vicdanlılığı ilə bağlı qanunvericiliyin tətbiqi üzrə 108

II FƏSİL

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki və Kommersiya kollegiyalarının hüququn tətbiqi üzrə vahid məhkəmə təcrübəsini müəyyən edən (★★★) qərarları

MADDİ HÜQUQ NORMALARININ TƏTBİQİ İLƏ BAĞLI QƏRARLAR

Subyektiv hüquq 127

1. 2(102)-12/2024 nömrəli, 2024-cü il 24 yanvar tarixli qərar - Təmsilçinin təmsil edilənin adından əri ilə bağladığı bağışlama müqaviləsinin onun şəxsən özü barəsində bağladığı əqd kimi mübahisələndirilməsi 127

2. 2(102)-52/2024 nömrəli, 2024-cü il 29 yanvar tarixli qərar - Kreditorun (tələbkarın) borclunun öz əmlakını icradan yayındırmaq məqsədilə bağladığı əqdlərin etibarsız sayılması barədə tələb irəli sürməyə subyektiv hüququ. 139

3. 2(102)-2856/2025 nömrəli, 2025-ci il 4 noyabr tarixli qərar - Müəllifin əmlak hüquqlarını kollektiv əsasla idarə edən təşkilatların subyektiv hüququ və belə tələblərdə sübutetmə yükü 150

Sahiblik hüququ 165

4. 2(102)-1870/2025 nömrəli, 2025-ci il 2 iyul tarixli qərar - əşyanın geri qaytarılması və ya pozuntuya son qoyulması barədə iddialara baxılarkən sahibliyin özbaşınalıqdan müdafiəsinə dair tələblərin hüquq haqqında mübahisələrdən fərqləndirilməsi 165

Mülkiyyət hüququnun məhdudlaşdırılması 176

5. 2(102)-1116/2025 nömrəli, 2025-ci il 22 aprel tarixli qərar- qonşuluq hüququnun göstərişlərini pozan binalara çıxıntılı binalar haqqında qaydaların tətbiq edilməsi 176

Daşınar əşyalara mülkiyyət hüququnun əldə edilməsi 194

6. 2(102)-1067/2025 nömrəli, 2025-ci il 6 may tarixli qərar – reyestrdə qeydə alınan daşınar əşyalar barəsində mübahisələrdə sübutetmə yükü (prezumpsiya) 194

Satın almaqda üstünlük hüququ 211

7. 2(102)-781/2024 nömrəli, 2024-cü il 29 fevral tarixli qərar - Pay satın almaqda üstünlük hüququ pozulmuş payçının hüquqlarının məhkəmədə müdafiəsi 211

8. 2(102)-1323/2024 nömrəli, 2024-cü il 20 may tarixli qərar - İpoteka predmeti olan əşyaya mülkiyyət hüququna xitam verildikdə və ipoteka qoyana başqa əşya və (və ya) müvafiq əvəz verildikdə ipoteka saxlayanın üstün təminat almaq hüququ. 226

Ər-arvadın əmlak bölgüsü 241

9. 2(102)-87/2024 nömrəli, 2024-cü il 19 fevral tarixli qərar - Ər-arvadın biri əcnəbi olduğu halda birgə nikah dövründə əldə edilmiş torpaq sahəsinə dair payın tanınması 241

10. 2(102)-1243/2024 nömrəli, 2024-cü il 16 may tarixli qərar - Ər-arvad arasında əmlak bölgüsünə dair barışıq sazişinin müqavilə sərbəstliyi prinsipi çərçivəsində qiymətləndirilməsi 256

Yaşayış binasının tərkib hissəsinə mülkiyyət hüququ 268

11. 2(102)-445/2025 nömrəli, 2025-ci il 2 iyun tarixli qərar - Çoxmənzilli binanın sahə mülkiyyətçilərinin binanın ümumi əmlakına paylı mülkiyyət hüququna müdaxilənin əsasları, binanın ümumi əmlakının idarə edilməsi məsələləri ilə bağlı subyektiv hüquq. 268

Yaşayış sahəsinə istifadə hüququnun itirilməsi 289

12. 2(102)-222/2024 nömrəli, 2024-cü il 16 yanvar tarixli qərar - Yaşayış sahəsinə istifadə hüququna kompensasiya ödənilməklə xitam verilməsi tələbləri üzrə ədalətli kompensasiya məbləğinin məhkəmə tərəfindən müəyyən edilməsinin məcburiliyi..... 289

13. 2(102)-233/2025 nömrəli, 2025-ci il 11 fevral tarixli qərar – Paylı mülkiyyətdə olan torpaq sahəsinin üzərində yerləşən, mülkiyyətçilərin birinin adına qeydə alınmış fərdi yaşayış evindən digər mülkiyyətçinin istifadə hüququna xitam verilməsinin vahid daşınmaz əşya konsepsiyası baxımından yolverilməzliyi 302

Əqdin etibarsızlığı..... 311

14. 2(102)-57/2024 nömrəli, 2024-cü il 29 yanvar tarixli qərar - Təmsilçinin təmsil edilənin adından şəxsən özü barəsində bağladığı əqdin bəyənilməsi 311

15. 2(102)-841/2024 nömrəli, 2024-cü il 18 aprel tarixli qərar - Eyni daşınmaz əşya üzərində mülkiyyət hüququna dair ikili qeydiyyat halında vicdanlı əldə edənin hüquqlarının qorunması ilə bağlı qaydaların tətbiqinin mümkünlüyü..... 322

16. 2(102)-1757/2024 nömrəli, 2024-cü il 14 iyun tarixli qərar - İlkin hərracda bir nəfərin iştirak etdiyi halda təkrar hərracın iki nəfərdən az alıcı gəlməsi əsası ilə baş tutmamış hesab edilməsinin mümkünsüzlüyü..... 335

17. 2(102)-1687/2024 nömrəli, 2024-cü il 24 sentyabr tarixli qərar - Əqdin təfsiri, yalan əqd - daşınar əşyalara münasibətdə..... 350

18. 2(102)-3757/2024 nömrəli, 2024-cü il 13 dekabr tarixli qərar - Əqdin təfsiri, yalan əqd - daşınmaz əşyalara münasibətdə..... 365

19. 2(103)-2697/2025 nömrəli, 2025-ci il 10 sentyabr tarixli qərar – torpaq sahəsinin alqı-satqısına dair müqavilənin bağlanmış hesab olunmasının əsas xüsusiyyətləri 384

20. 2(102)-3011/2025 nömrəli, 2025-ci il 9 dekabr tarixli qərar – MTK işçisinin fəaliyyət göstərdiyi şəraitdən irəli gələn təmsilçilik səlahiyyəti əsasında bağlanmış müqavilələrin etibarlılığı..... 400

İddia müddəti 434

21. 2(102)-2894/2023 nömrəli, 2023-cü il 2 oktyabr tarixli qərar - Gecikdirilmiş vaxt üçün illik beş faizin ödənilməsi barədə kreditorun tələbinə baxılarkən iddia müddətinin tətbiqi 434

22. 2(102)-2911/2023 nömrəli, 2023-cü il 2 oktyabr tarixli qərar - İddia müddəti fərdi müdafiə vasitəsi kimi 446

23. 2-2(102)-556/2023 nömrəli, 2023-cü il 30 oktyabr tarixli qərar - Aksessor tələblər üzrə iddia müddətinin tətbiqi..... 456

24. 2(102)-3884/2023 nömrəli, 2023-cü il 15 noyabr tarixli qərar - Podrat müqaviləsindən irəli gələn mübahisələrə baxılarkən iddia müddətinin axımının başlanması..... 472

25. 2(102)-4727/2023 nömrəli, 2023-cü il 19 dekabr tarixli qərar - Podrat müqaviləsindən irəli gələn mübahisələrə baxılarkən çoxmənzilli binadakı mənzilə münasibətdə iddia müddətinin hesablanması 481

26. 2(102)-324/2024 nömrəli, 2024-cü il 16 yanvar tarixli qərar - - İstehsalatda bədbəxt hadisəyə görə ödənc tələblərinə iddia müddətinin tətbiqi 492

27. 2(102)-46/2024 nömrəli, 2024-cü il 22 yanvar tarixli qərar - Sığorta ödənişi ilə bağlı reqress tələblər üzrə iddia müddətinin hesablanması 506

28. 2(102)-1049/2024 nömrəli, 2024-cü il 1 aprel tarixli qərar - Əmək haqqının ödənilməsi ilə bağlı tələblərə iddia müddətinin tətbiqi..... 516

29. 2(102)-3503/2024 nömrəli, 2024-cü il 29 oktyabr tarixli qərar - Təsbit xarakterli iddialarda iddia müddətinin tətbiqinin yolverilməzliyi 532

Kəsici müddət 546

30. 2(102)-1921/2024 nömrəli, 2024-cü il 01 avqust tarixli qərar – Lizinq müqaviləsindən irəli gələn mübahisələr üzrə zərərin ödənilməsi tələblərinə baxılarkən kəsici müddətin tətbiqi 546

Pul öhdəliyinin icra edilməməsinə görə məsuliyyət 555

31. 2(102)-603/2024 nömrəli, 2024-cü il 14 may tarixli qərar - Öhdəliyin icra edilməməsinə görə faizdən faiz tutulmasının yolverilməzliyi (Mülki Məcəllə, 449-cu maddə) 555

Öhdəliklərə xitam verilməsi 569

32. 2(102)-3953/2025 nömrəli, 2026-cı il 25 fevral tarixli qərar – İcrası mümkün olmadığına görə öhdəliyə xitam verilməsinin hüquqi əsasları 569

İcarə münasibətlərindən irəli gələn mübahisə 585

33. 2(102)-3394/2022 nömrəli, 2022-ci il 12 sentyabr tarixli qərar – icarə müqaviləsi əsasında təhvil verilməmiş əmlaka dair mübahisələrdə əşya və tələb hüquqlarının fərqləndirilməsi 585

Podrat münasibətlərindən irəli gələn mübahisə 595

34. 2-2(102)-573/2023 nömrəli, 2023-cü il 22 noyabr tarixli qərar - Podrat müqaviləsi üzrə öhdəliklərin icrası ilə əlaqədar sifarişçinin podratçıya verdiyi avansın geri qaytarılması 595

Bank hesabı müqaviləsi üzrə köçürmə əməliyyatlarının icrası zamanı risklərin bölüşdürülməsi 613

35. 2-2(102)-534/2024 nömrəli, 2024-cü il 9 oktyabr tarixli qərar - “İnternet banking” vasitəsi ilə göndərilmiş xarici valyutada köçürmə orderində məlumatların yanlış qeyd olunması nəticəsində pul vəsaitinin müqavilə və invoys məlumatlarına uyğun olmayan hesaba köçürülməsinə görə məsuliyyət..... 613

Əsassız varlanma 628

36. 2(102)-761/2022 nömrəli, 2022-ci il 31 yanvar tarixli qərar - Vicdanlı sahib tərəfindən torpaq sahəsinin yaxşılaşdırılmasına çəkilmiş xərclərin hesablanma qaydası..... 628

37. 2(102)-235/2024 nömrəli, 2024-cü il 17 yanvar tarixli qərar - Nikah məqsədilə verilmiş hədiyyənin nikahın baş tutmaması əsası ilə geri tələb edilməsi 642

38. 2(102)-789/2025 nömrəli, 2025-ci il 8 aprel tarixli qərar - Əsassız varlanmaya dayanan tələblər üzrə iddianın əsaslılığının yoxlanılma qaydası 653

Mülki hüquq pozuntuları (deliktlər) 666

39. 2(102)-1109/2025 nömrəli, 2025-ci Il 13 may tarixli qərar – zərərin ödənilməsi tələblərinə baxılarkən zərərin əvəzinin hansı üsulla ödənilməsinin (naturada və ya vurulmuş zərərin əvəzinin pul kompensasiyası ilə ödənilməsi yolu ilə) məhkəmə tərəfindən müəyyənləşdirilməsinin mümkünlüyü. 666

Mənəvi zərərin kompensasiyası 682

40. 2(102)-388/2023 nömrəli, 2023-cü il 6 mart tarixli qərar - Mənəvi zərər vurulmasına səbəb olan hadisədən ötən müddətin və təqsirin növünün təzminatın həcminə təsiri 682

41. 2(102)-3351/2023 nömrəli, 2023-cü il 27 sentyabr tarixli qərar - Cinayət mühakimə icraatında zərərlə bağlı barışıq əldə edilməsinin mülki-hüquqi nəticələri 696

42. 2(1-8)-1115/2026 nömrəli, 2026-cı il 4 iyun tarixli qərar – Çoxmənzilli yaşayış binasında müşahidə kamerasının quraşdırılması və qonşuların şəxsi həyatına müdaxilənin yolverilən hədləri haqqında 705

Fiziki şəxsin həyatına və ya sağlamlığına vurulmuş zərərin ödənilməsi 722

43. 2(102)-510/2025 nömrəli, 2025-ci il 11 mart tarixli qərar - Ailə başçısının itirilməsi ilə əlaqədar zərərin əvəzinin ödənilməsi tələbləri üzrə iddianın əsaslılığının yoxlanılma qaydası 722

Vərəsəlik mübahisələri 735

44. 2(102)-1192/2022 nömrəli, 2022-ci il 01 iyun tarixli qərar – Mirasda məcburi payın tamamlanması qaydası 735

45. 2(102)-900/2024 nömrəli, 2024-cü il 22 aprel tarixli qərar - Miras qoyanın borclarına dair kreditorların tələbləri üzrə miras aktivinin həcminin müəyyən edilməsi ilə bağlı sübutetmə yükü 750

46. 2(102)-1792/2024 nömrəli, 2024-cü il 10 iyun tarixli qərar - Mirasın qəbulu və ya ondan imtina barəsində mübahisə açılması müddətinin tətbiqi (Mülki Məcəllə maddə 1272) 766

47. 2(102)-3560/2024 nömrəli, 2024-cü il 26 noyabr tarixli qərar - Vərəsələr arasında ixtilafların həll edilməsi zamanı vərəsəlik şəhadətnamələrinin hüquqi əhəmiyyəti 782

48. 2(102)-766/2025 nömrəli, 2025-ci il 25 aprel tarixli qərar - vərəsənin əvəzlənməsi baxımından ər-arvaddan biri öldükdə onların birinin uşağının (digərinə münasibətdə ögey uşaq) valideyni olmayan digərinin mirasına hüququ 792

49. 2(102)-2739/2025 nömrəli, 2023-cü il 31 oktyabr tarixli qərar - Nikah münasibətlərinin faktiki xitamı zamanı vərəsəlik hüququndan məhrum edilmənin əsasları (Mülki Məcəllənin 1164-cü maddəsi) 805

Ailə-nikah münasibətlərindən irəli gələn mübahisələr 822

50. 2(1-8)-220/2026 nömrəli, 2026-cı il 23 fevral tarixli qərar - Nikahın bağlanmasına qanunla mane olan halın aradan qalxması səbəbindən nikahın etibarlı hala gəlməsi 822

Əmək mübahisələri 834

51. 2(102)-3249/2023 nömrəli, 2023-cü il 31 oktyabr tarixli qərar - Müəssisənin mülkiyyətçisinin dəyişməsi ilə əlaqədar əmək müqaviləsinə xitam verilməsi qaydası 834

52. 2(102)-4262/2023 nömrəli, 2023-cü il 21 noyabr tarixli qərar- Müddətsiz əmək müqaviləsi əsasında 5 ildən artıq müddət ərzində çalışmış işçi ilə işəgötürən arasında bağlanmış müddətli əmək müqaviləsinin nəticələri 855

53. 2(102)-929/2024 nömrəli, 2024-cü il 23 aprel tarixli qərar - Əmək müqaviləsinin ləğv olunması qadağan edilən işçilərə münasibətdə Əmək Məcəlləsinin 70-ci maddəsinin “ç” bəndinin tətbiqi 869

54. 2(102)-1335/2024 nömrəli, 2024-cü il 21 may tarixli qərar - 65 yaşına çatmış işçilərin həmin müəssisədə çalışma müddətinin uzadılması ilə bağlı tərəflərin hüquq və vəzifələri 885

55. 2(102)-415/2025 nömrəli, 2025-ci il 26 fevral tarixli qərar - İşçinin ərizəsində göstərilmiş xəbərdarlıq müddətini gözləmədən əmək müqaviləsinə xitam verilməsinin hüquqi nəticələri 901

56. 2(102)-2525/2025 nömrəli, 2025-ci il 1 oktyabr tarixli qərar – işçinin iş yerində seksual qısnamaya görə ona dəymiş mənəvi zərərin tutulması tələbinə baxılarkən nəzərə alınmalı hallar . 916

Əqli mülkiyyət hüququ 934

57. 2(1-8)-1332/2026 nömrəli, 2026-cı il 9 iyul tarixli qərar – 2. Şəxsi məqsədlər üçün audiovizual əsərin və fonoqramın gəlir götürmədən surəti çıxarılarkən müəlliflərin, ifaçıların, audiovizual əsər və fonoqram istehsalçılarının qonorar almaq hüququ 934

Vergi ödəyicisi və ya sığortaedən olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması 950

58. 2-2(102)-547/2024 nömrəli, 2024-cü il 6 noyabr tarixli qərar - Ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə ərizələrə baxılması zamanı cinayət işinin gedişatında maliyyə sanksiyasına etiraz edilməsinin əhəmiyyəti 950

PROSESSUAL HÜQUQ NORMALARININ TƏTBİQİ İLƏ BAĞLI QƏRARLAR 962

Mediasiya sessiyasında barışıq sazişinin təsdiq edilməsi 962

59. 2-2(102)-199/2024 nömrəli, 2024-cü il 17 may tarixli qərar - Mediasiya prosesi nəticəsində bağlanmış barışıq sazişinin təsdiq edilməsindən imtinanın əsaslarının yoxlanılması 962

60. 2(102)-385/2025 nömrəli, 2025-ci il 17 yanvar tarixli qərar - Mediasiya prosesi nəticəsində bağlanmış mövcud vəziyyətin saxlanılmasına (təsbit edilməsinə) dair barışıq sazişinin təsdiq edilməsi barədə ərizəyə baxılmasının yolverilməzliyi 971

İş üzrə icraata xitam verilməsi 979

61. 2-2(102)-532/2023 nömrəli, 2023-cü il 5 oktyabr tarixli qərar - İflas olmuş banka qarşı icra edilməmiş ödəniş tapşırıqlarına aid vəsaitlərin qaytarılması barədə kreditor tələblər üzrə icraatın növü. 979

62. 2(102)-3972/2023 nömrəli, 2023-cü il 24 oktyabr tarixli qərar – Mirasın qəbulu faktına ayrıca iddia icraatında baxılmasının yolverilməzliyi 989

63. 2-2(102)-600/2023 nömrəli, 2023-cü il 1 noyabr tarixli qərar - Müqavilənin əhəmiyyətli dərəcədə pozulmasına görə birtərəfli qaydada ləğvi tələbinə məhkəmə qaydasında baxılmasının mümkünlüyü 998

64. 2(102)-3740/2023 nömrəli, 2023-cü il 22 noyabr tarixli qərar - Mirasın qəbulu faktına ayrıca iddia icraatında baxılmasının yolverilməzliyi 1007

65. 2(102)-4074/2023 nömrəli, 2023-cü il 6 noyabr tarixli qərar - Ali təhsil müəssislərinin inzibati hüquq münasibətlərinin subyekti kimi çıxış etdiyi mübahisələr 1019

66. 2(102)-4022/2023 nömrəli, 2023-cü il 29 dekabr tarixli qərar - Reyestr qeydinin təkrar mübahisələndirilməsinin yolverilməzliyi (etibarsızlıq, ləğv və sair tələblər) 1031

67. 2-2(102)-222/2024 nömrəli, 2024-cü il 29 mart tarixli qərar - MMC-nin nizamnamə kapitalında 50% paya sahib iştirakçının ümumi yığıncağın keçirilməsi vəzifəsinin cəmiyyətin üzərinə qoyulması tələbinə məhkəmə qaydasında baxılmasının mümkünlüyü; 1040

68. 2(102)-1637/2024 nömrəli, 2024-cü il 1 may tarixli qərar - Aliment borcundan tam və ya qismən azad edilmə barədə tələbə iddia icraatı qaydasında baxılmasının yol verildiyi hallar 1050

69. 2-2(102)-634/2024 nömrəli, 2024-cü il 1 noyabr tarixli qərar - Hərrac xərclərinin və əldə edilmiş əmlakla bağlı digər xərclərin (vergilərin) icra işi üzrə borclulardan tutulması ilə bağlı ayrıca iddia tələbinə məhkəmə tərəfindən baxılmasının yolverilməzliyi 1057

70. 2(102)-3821/2024 nömrəli, 2024-cü il 19 noyabr tarixli qərar - Mediasiya qaydasında bağlanmış barışıq sazişi ilə razılaşdırılmış məsələlər üzrə qaldırılmış iddiaya baxılmasının yolverilməzliyi 1068

71. 2-2(102)-46/2025 nömrəli, 2025-ci il 8 yanvar tarixli qərar - MPM-in 261.0.2. maddəsi baxımından eyni tərəflər arasında eyni predmet barəsində qanuni qüvvəyə minmiş qətnamə olduğu halda fərqli əsaslar üzrə işlərə baxılmasının mümkünlüyü 1093

72. 2(102)-188/2025 nömrəli, 2025-ci il 21 yanvar tarixli qərar - Mənəvi zərərin kompensasiyası tələblərində hüquqi varisliyə yol verilən hallar 1102

73. 2-2(102)-168/2025 nömrəli, 2025-ci il 23 aprel tarixli qərar – Fərdi sahibkar statusuna malik olmayan fiziki şəxsin müflis elan edilməsi barədə ərizəyə baxılmasının yolverilməzliyi 1110

74. 2(102)-3152/2025 nömrəli, 2025-ci il 21 oktyabr tarixli qərar – İcra şöbəsinə qarşı icra sənədinin icrası zamanı vurulmuş ziyanın ödənilməsi tələbinin məhkəmə aidiyyəti 1119

Digər prosessual məsələlər 1131

75. 2(102)-3616/2023 nömrəli, 2023-cü il 18 sentyabr tarixli qərar - Ekspertin dindirilməsində müəyyən edilən hədlər 1131

76. 2-2(102)-575/2023 nömrəli, 2023-cü il 4 dekabr tarixli qərar - Kredit müqaviləsindən irəli gələn tələblər üzrə kredit öhdəliyinin mövcudluğunu sübut etmək vəzifəsi 1144

77. 2(102)-1481/2024 nömrəli, 2024-cü il 1 may tarixli qərar - İnformasiya subyektlərinə qarşı qaldırılmış tələblərdə iddiaya cavab verməli olan şəxsin müəyyən edilməsi 1153

78. 2-2(102)-664/2024 nömrəli, 2024-cü il 31 oktyabr tarixli qərar - İnzibati ərazi dairələri üzrə nümayəndəliklərin prosessual hüquq qabiliyyəti 1169

79. 2(102)-669/2025 nömrəli, 2025-ci il 10 aprel tarixli qərar – Mülki işlər üzrə preyudisial olan məhkəmə aktlarının dairəsi 1179

80. 2-2(102)-574/2025 nömrəli, 2025-ci il 20 avqust tarixli qərar - Azərbaycan Respublikası vətəndaşları və hüquqi şəxsləri arasında olan razılaşmada məhkəmə mübahisəsinin xarici dövlətin məhkəmələrində baxılmasına dair şərt olduğu halda mübahisəyə yerli məhkəmələr tərəfindən baxılmasının mümkünlüyü 1194

81. 2(102)-3376/2025 nömrəli, 2025-ci il 23 oktyabr tarixli qərardad - mübahisəsiz (akseptsiz) qaydada həyata keçirilən icra sənədinin və digər sənədin icra edilməməli sənəd hesab edilməsi barədə mülki işlər üzrə şikayətinin mümkünlüyü 1202

I FƏSİL

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki və Kommersiya kollegiyalarının məhkəmə təcrübəsinin vahidliyini təmin edən birgə qərardadları

Azərbaycan Respublikası Ali Məhkəməsinin

Mülki və Kommersiya kollegiyalarının

“İpoteka haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi üzrə ipoteka predmeti olan əmlakın ilkin satış qiymətinin müəyyən edilməsi məsələsinə dair

Q Ə R A R D A D I

№ 01/2020

Bakı şəhəri
20 iyul 2020-ci il

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki və Kommersiya kollegiyaları,

Mülki kollegiyanın sədri Hacıyev Sənan Firudin oğlunun (sədrlik edən) və hakimləri Əhmədova Mehparə Tofiq qızı, Əliyev Ələsgər Əliabbas oğlu, Xəlilov İsmayıl Kamil oğlu, Dəmirov İlqar Kamal oğlu, Əhmədov Əhməd Abbas oğlu, Nurməmmədov Əhməd Güləhməd oğlu, Vəliyeva Elşanə Rafiq qızı, Xələfov İlqar Rəhim oğlu, Quliyev Gündüz Ağababa oğlu, Əliyev Zaur Əli oğlu, Həsənov Vüqar Təvəkgül oğlu, Hüseynov Abiddin Qabil oğlu, Şamayev Elşad Yaquboviç və Abbasov Aqil Əzizağa oğlu, Kommersiya kollegiyasının sədri Abiyeva Kəmalə Nəbi qızı və hakimləri Məmmədli Bəhram Məmməd oğlu və Qəribov Bəhman Fərhad oğlundan ibarət tərkibdə,

Əkbərli Əkbər Eldar oğlunun katibliyi ilə,

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyasının Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra – Mülki Prosessual Məcəllə) 418-1-ci maddəsinin tələblərinə müvafiq qaydada verdiyi 2020-ci il 16 iyun tarixli təqdimatı əsasında ipoteka predmetinin ilkin satış qiymətinin müəyyən edilməsi ilə bağlı mübahisəli hüquqi məsələyə hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə baxaraq aşağıdakıları müəyyən etdi.

1. İşə kassasiya qaydasında baxılarkən Ali Məhkəmənin ayrı-ayrı məhkəmə tərkibləri arasında kredit müqaviləsi üzrə tutmanın ipoteka predmetinə yönəldilməsi və ipoteka ilə yüklü edilmiş əmlakın açıq hərracdan satılmasına dair mülki işlərdə ipoteka predmetinin ilkin satış qiymətinin müəyyən edilməsinə münasibətdə fərqli hüquqi yanaşmaların mövcud olduğu müəyyən olunmuşdur.

2. Ali Məhkəmədə bu tələblər üzrə əvvəllər baxılmış bir sıra işlərdə ipoteka predmetinin ilkin satış qiyməti əmlakın bazar qiyməti ilə müəyyən edilmişdir. Eyni zamanda mübahisəli hüquqi məsələyə dair kassasiya instansiyası məhkəməsi bir neçə qərarında ipoteka predmetinin ilkin satış qiymətinin likvid qiymətlə müəyyən edilməsinə dair də hüquqi mövqe bildirmişdir.

3. Bu baxımdan ipoteka predmetinin ilkin satış qiymətinin müəyyən edilməsi (əmlakın bazar qiyməti və yaxud likvid qiyməti əsasında) ilə bağlı "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – "İpoteka haqqında" Qanun) tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə Ali Məhkəmənin mübahisəli hüquqi məsələyə dair vahid hüquqi mövqeyini təsbit edən qərardadın qəbul edilməsi zərurəti yaranmışdır.

4. Mülki Prosessual Məcəllənin 2020-ci il martın 1-dən qüvvəyə minmiş 418-1ci maddəsinə müvafiq olaraq Ali Məhkəmənin məhkəmə tərkibi işə kassasiya qaydasında baxarkən Ali Məhkəmənin digər məhkəmə tərkibinin əvvəllər qəbul etdiyi qərarda müəyyən edilmiş hüquqi mövqedən fərqli yanaşmanın tətbiq edilməsini zəruri hesab etdikdə, həmin mübahisəli hüquqi məsələyə hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə Ali Məhkəmənin mülki və kommersiya kollegiyalarına daxil olan bütün hakimlərdən ibarət tərkibdə baxılır.

5. Beləliklə, ayrı-ayrı məhkəmə tərkibləri arasında fərqli yanaşmaların mövcudluğu nəzərə alınaraq, mübahisəli hüquqi məsələyə dair hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi üçün Mülki Prosessual Məcəllənin 418-1-ci maddəsində nəzərdə tutulmuş hüquqi mexanizmdən istifadə olunmuşdur.

6. Bununla əlaqədar olaraq, mübahisəli hüquqi məsələ hüquq ictimaiyyətinin diqqətinə çatdırılmış, bir çox maraqlı şəxslər, o cümlədən hüquqşünaslar və təşkilatlar yazılı formada əsaslandırılmış rəylərini (amicus curiae rəyi) Ali Məhkəməyə təqdim etmişlər.

7. Ali Məhkəmənin Mülki və Kommersiya kollegiyalarının hakimlərindən ibarət məhkəmə tərkibi qeyd edir ki, mübahisəli məsələyə qiymət vermək üçün ilk növbədə "İpoteka haqqında" Qanunun müvafiq müddəaları təhlil edilməlidir.

8. Belə ki, “İpoteka haqqında” Qanunun 39.3.3-cü maddəsinə əsasən məhkəmə ipoteka predmetinə tutmanın yönəldilməsi haqqında qərar qəbul edərkən qərarda ipoteka predmetinin ilkin satış qiymətini göstərməlidir.

9. Həmin Qanunun 1.0.9-cu maddəsinə əsasən ilkin satış qiyməti – qanunun tələbinə uyğun olaraq ipoteka predmetinin bazar dəyərinin müəyyənləşdirilməsi üçün müvafiq marketinq keçirilməsi vaxtının məhdudluğu şəraitində ipoteka predmetinin satış (likvid) qiymətidir.

10. Qanunun 1.0.9-cu maddəsindən göründüyü kimi, sözügedən normada ipoteka predmetinin ilkin satış qiymətinin anlayışı aydın şəkildə həmin əmlakın məhz likvid qiymətini ehtiva etməsi kimi verilmişdir.

11. İlk öncə likvid dəyərlə bağlı qeyd edilməlidir ki, “likvidlik” özü iqtisadi termin olaraq biznesdə, yaxud investisiya proseslərində aktivlərin bazarda əhəmiyyətli qiymət fərqi olmadan və dəyər itkisi yaratmadan tez reallaşdırıla (satıla) bilməsi qabiliyyətidir. Likvid dəyər bazar dəyərinin müəyyənləşdirilməsi üçün adekvat marketinqin keçirilməsi üçün vaxt məhdudluğu şəraitində mülkiyyətin satılmasından real əldə oluna biləcək pulun məbləğidir. Bu baxımdan aydın olur ki, əmlakın likvid qiyməti onun bazar qiymətinin açıq bazar şəraitində daha asan və tez satılma imkanı verən həddini ehtiva edir.

12. Məlumdur ki, “Kredit müqavilələri üzrə borcun tutulması, tutmanın ipoteka predmetinə yönəldilməsi, ipoteka predmetinin açıq hərracda satılması” tələblərinə dair işlərdə borcun vaxtında geri qaytarılmasından ibarət öhdəliyin icra edilməməsi özü-özlüyündə borc verənin birbaşa zərərə məruz qalması ilə nəticələnməklə yanaşı, sahibkarlara münasibətdə qaytarılmalı borcun dövriyyədə istifadə edilməməsi səbəbi ilə onların sahibkarlıq fəaliyyətinə də zərər vurmuş olur. Eyni zamanda məhkəmə mübahisələrinin kifayət qədər uzun müddət davam etməsi, habelə bununla bağlı borc alan və ya ipoteka qoyanlar tərəfindən yol verilən sui-istifadə halları da öz növbəsində zərər məbləğinin artmasının digər səbəblərindəndir. Bu vəziyyətdə borcun təminat vasitəsi olan ipoteka predmetinin satışına uzun müddətin sərf edilməsinin qarşısının alınması üçün qanunverici əmlakın real bazar dəyəri ilə deyil, onun daha tez realizə olunmasına imkan verən real bazar dəyərindən nisbətən aşağı, lakin əhəmiyyətli qiymət fərqi olmadan və dəyər itkisi yaratmayan likvid qiymətlə hərraca çıxarılmasını nəzərdə tutmuşdur. Təsadüfi deyil ki, “İpoteka haqqında” Qanuna edilmiş son dəyişikliklərlə ipoteka predmetinə tutmanın yönəldilməsi prosedurunun sadələşdirilməsi də məhz bu məqsədlərə xidmət edir.

13. O da qeyd edilməlidir ki, ipoteka predmetinin likvid qiymətlə satılması borc alanın və ipoteka qoyanın da qanuni maraqlarına zidd deyil. Belə ki, ipoteka predmetinin realizasiyasının likvid qiymət əsasında daha tez həyata keçirilməsi borcun vaxtında ödənilməməsinə görə Azərbaycan Respublikası Mülki Məcəlləsinin müvafiq maddələri ilə nəzərdə tutulmuş əlavə ödənişlərin tutulmasının qarşısını da almaqla borcluları əlavə zərərdən qorumuş olacaqdır. Digər tərəfdən, likvid qiymət real bazar dəyərindən nisbətən aşağı olsa da, əhəmiyyətli qiymət fərqi olmadan dəyər itkisi yaratmayan həddə olduğundan və yalnız məcburi qaydada satışa tətbiq edildiyindən ipoteka qoyanın maraqlarına da zidd kimi qiymətləndirilməməlidir. Belə ki, Qanun ədalətli yanaşma müəyyən edərək, ipoteka qoyana ipoteka predmetini hərrac yekunlaşana qədər borcu ödəməklə ipotekadan azad etmək, habelə ipoteka saxlayanla qarşılıqlı razılıq əsasında ipoteka predmetini könüllü olaraq satmaq imkanı vermişdir. Bundan əlavə, “İpoteka haqqında” Qanunun 39.3.3-cü maddəsində ipoteka predmetinin ilkin satış qiymətinin ipoteka qoyanla ipoteka saxlayanın razılaşması əsasında müəyyən edilməsi imkanı nəzərdə tutulmuşdur. Həmçinin qeyd edilməlidir ki, ipoteka predmeti olan əmlakın likvid qiymətlə açıq hərraca çıxarılması ipoteka predmetinin ilkin hərracda daha tez realizə edilərək, hərrac qaydalarına əsasən növbəti hərracdan mülkiyyətçinin mənafeyinə zidd şəkildə ucuz qiymətə satılmasının qarşısını almaqla, iş üzrə qəbul edilmiş məhkəmə aktlarının da vaxtında icra olunmasına yardım etmiş olacaqdır.

14. Qanunvericiliyin təhlili göstərir ki, borc üzrə tutmanın yönəldilməsi zamanı ipoteka predmeti olan torpaq sahələrinin ilkin satış qiyməti də likvid qiymətlə müəyyən edilməlidir.

15. Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 94-cü maddəsinin 2-ci bəndinə əsasən torpaqların qiymətləndirilməsində torpağın normativ qiymətindən və bazar qiymətindən istifadə olunur. Həmin Məcəllənin 96-cı maddəsinin 10-cu hissəsinə əsasən ipoteka predmeti olan torpaq sahəsinə tutma yönəldilərkən onun ilkin satış qiyməti ipoteka haqqında qanunvericiliyə uyğun olaraq bazar qiyməti nəzərə alınmaqla müəyyən edilir.

16. "Torpaq bazarı haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinə əsasən torpaq sahələrinin (ipoteka predmeti olan torpaq sahələri istisna olmaqla) hərraca (müsabiqəyə) çıxarılan ilkin qiyməti torpağın normativ qiymətindən az olmayaraq mövcud bazar məzənnəsinə uyğun müəyyən edilir.

17. Göründüyü kimi, torpaq qanunvericiliyində torpağın normativ və bazar qiymətindən istifadə edilməklə, ümumi qayda olaraq torpaq sahələrinin hərraca çıxarılan ilkin satış qiymətinin torpağın normativ qiymətindən az olmayaraq mövcud bazar qiyməti ilə müəyyən edilməsi şərtləndirilsə də, ipoteka predmeti olan torpaq sahələri ilə bağlı məsələ istisna edilərək, "İpoteka haqqında" Qanunun tənzimlənmə predmetinə aid edilmişdir.

18. "İpoteka haqqında" Qanunun 54-cü maddəsinə əsasən bu Qanuna müvafiq olaraq ipoteka predmeti olan torpaq sahəsinə tutma yönəldilərkən onun ilkin satış qiyməti bazar qiyməti nəzərə alınmaqla müəyyən edilir.

19. "İpoteka haqqında" Qanunun 54-cü maddəsinin və Torpaq Məcəlləsinin 96cı maddəsinin 10-cu hissəsindəki ipoteka predmeti olan torpaq sahəsinə tutma yönəldilərkən torpaq sahəsinin ilkin satış qiymətinin bazar qiyməti nəzərə alınmaqla müəyyən edilməsindən ibarət ifadə ilə bağlı qeyd edilməlidir ki, bu sadəcə olaraq ilkin satış qiymətinin müəyyənləşdirilməsi üsulunu göstərməklə, onun "İpoteka haqqında" Qanunun 1.0.9-cu maddəsinə uyğun olaraq likvid qiymətlə müəyyən edilməsini istisna etmir.

20. Beləliklə, Ali Məhkəmənin Mülki və Kommersiya kollegiyalarının hakimlərindən ibarət məhkəmə tərkibi mübahisəli məsələ ilə bağlı təqdimat vermiş məhkəmə tərkibi ilə razılaşaraq hesab edir ki, "İpoteka haqqında" Qanunun tələbi baxımından ipoteka predmetlərinin ilkin satış qiyməti məhz likvid qiymətlə müəyyən edilməlidir.

21. O da qeyd edilməlidir ki, kredit müqaviləsi üzrə borcun tutulması, tutmanın ipoteka predmetinə yönəldilməsi, ipoteka predmetinin açıq hərracda satılması barədə tələblər üzrə işlərə baxılarkən "İpoteka haqqında" Qanunun tələblərinə riayət etmək üçün ilkin satış qiymətinin müəyyən edilməsi ilə bağlı aparılan məhkəmə araşdırmasında qanunla müəyyən edilmiş ardıcıllığa riayət edilməlidir. Belə ki, ilk növbədə ipoteka qoyanla ipoteka saxlayanın ipoteka predmetinin ilkin satış qiymətinin ipoteka müqaviləsində, Qanunun 10.5-ci maddəsinin tələbinə uyğun olaraq qeyd edilmiş qiymətlə müəyyən edilməsinə münasibəti öyrənilməlidir. Bununla bağlı razılıq olmadıqda isə Qanunun 39.3.3-cü maddəsinə uyğun olaraq müqavilədə nəzərdə tutulduğundan fərqli həddə ilkin satış qiyməti ilə bağlı istinad edilən tərəflərin razılaşmasının olub-olmaması aydınlaşdırılmalıdır. Məhkəməyə təqdim olunan razılaşma Mülki Prosessual Məcəllənin 106.3 və 191.1-ci maddələrinin tələbləri baxımından yazılı şəkildə tərtib edilməli, ya məhkəmə iclas protokoluna imza edilməklə təsdiq olunmalı, ya da tərəflərin razılığı bu hərəkətlərin nəticəsi aydın surətdə şərh olunan, məhkəməyə göndərilən yazılı ərizələrdə ifadə olunmalıdır. Bu halda məhkəmə tərəflərin razılaşması ilə müəyyən edilmiş qiymətlə, onun əmlakın likvid və ya real bazar qiymətini təşkil edib-etməməsindən asılı olmayaraq bağlıdır. Buna baxmayaraq, məhkəmə Mülki Prosessual Məcəllənin 52.5 və 106.4-cü maddələrində sadalanan halların mövcudluğunu aşkar etdikdə həmin razılaşmanı nəzərə almaya bilər. Belə razılaşmanın əldə edilmədiyi, yaxud məhkəmə tərəfindən nəzərə alınmadığı hallarda isə ipoteka predmetinin ilkin satış qiyməti müstəqil qiymətləndiricinin rəyi (mütəxəssis rəyi) əsasında müəyyən edilməlidir. Nəzərə alınmalıdır ki, mütəxəssis rəyinin mübahisə tərəflərinin təqdim etməsindən, yaxud məhkəmə qərardadı ilə təyin edilmiş əmlakın

qiymətləndirilməsi ilə bağlı qərardadla alınmasından asılı olmayaraq, rəydə ipoteka predmetinin yalnız likvid qiyməti deyil, həmçinin likvid qiymətin ağlabatanlığının dəyərləndirməsi baxımından əhəmiyyətli olan real bazar qiyməti də əks olunmalıdır. Bu yanaşma "İpoteka haqqında" Qanunun 54-cü maddəsinin torpaq sahəsinin ilkin satış qiymətinin müəyyən edilməsi ilə bağlı tələbindən də irəli gəlir.

22. Yuxarıda göstərilənlərə əsasən Ali Məhkəmənin Mülki və Kommersiya kollegiyalarının hakimlərindən ibarət məhkəmə tərkibi kassasiya instansiyası məhkəməsində icraat zamanı "İpoteka haqqında" Qanunun tətbiqi baxımından ipoteka predmetinin ilkin satış qiymətinin müəyyən edilməsi ilə bağlı mübahisəli hüquqi məsələyə dair belə qənaətə gəlir ki, ipoteka predmetinin ilkin satış qiyməti onların real bazar qiyməti nəzərə alınmaqla müəyyən edilən likvid qiymətidir.

23. Ali Məhkəmənin Mülki və Kommersiya kollegiyalarına daxil olan bütün hakimlərdən ibarət məhkəmə tərkibi Mülki Prosessual Məcəllənin 418-1.1-ci maddəsini rəhbər tutaraq

QƏRARA ALDI:

"İpoteka haqqında" Qanunun 39.3.3-cü maddəsinə əsasən məhkəmə qətnaməsində göstərilən ilkin satış qiyməti ipoteka predmeti olan əmlakın likvid qiyməti ilə müəyyən edilməlidir.

Qərardad dərc edildiyi gündən qüvvəyə minir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin

Mülki və Kommersiya kollegiyalarının

Apellyasiya və kassasiya şikayətlərinin mümkünlüyü və şikayətlərə baxılmasının hədləri ilə bağlı Mülki Prosessual Məcəllənin tətbiqi məsələlərinə dair

Q Ə R A R D A D

№ 04/2020

Bakı şəhəri
14 oktyabr 2020-ci il

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki və Kommersiya kollegiyaları,

Mülki kollegiyanın sədri Hacıyev Sənan Firudin oğlunun (sədrlik edən) və hakimləri Dəmirov İlqar Kamal oğlu, Əhmədov Əhməd Abbas oğlu, Nurməmmədov Əhməd Güləhməd oğlu, Vəliyeva Elşanə Rafiq qızı, Xələfov İlqar Rəhim oğlu, Quliyev Gündüz Ağababa oğlu, Həsənov Vüqar Təvəkgül oğlu, Hüseynov Abiddin Qabil oğlu, Şamayev Elşad Yaquboviç, Abbasov Aqil Əzizağa oğlu və Əliyev Zaur Əli oğlu,

Kommersiya kollegiyasının sədri Abiyeva Kəmalə Nəbi qızı və hakimləri Dadaşov İlqar Ağababaş oğlu, Hüseynov Azər Soltanhəmid oğlu, Qəribov Bəhman Fərhad oğlu və Məmmədli Bəhram Məmməd oğlundan ibarət tərkibdə,

Əkbərli Əkbər Eldar oğlunun katibliyi ilə,

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyasının Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra – MPM) 418-1-ci maddəsinin tələblərinə müvafiq qaydada verdiyi 2020-ci il 27 avqust tarixli təqdimatı əsasında mübahisəli hüquqi məsələyə hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə baxaraq aşağıdakıları müəyyən etdi.

Mübahisəli hüquqi məsələnin məzmunu

1. Ali Məhkəmənin Mülki kollegiyasının icraatında olan “kredit müqaviləsi üzrə borcun ödənilməsi, ipoteka predmetinə tutmanın yönəldilməsi və ipoteka predmeti olan əmlakın açıq hərracdan satılması” tələblərinə dair mülki iş üzrə cavabdehlərdən birinin (kredit müqaviləsi üzrə borcu götürən şəxs) kassasiya şikayəti üzrə əvvəlki kassasiya icraatında apellyasiya instansiyası məhkəməsinin qətnaməsi iddianın təmin edilmiş hissəsində tam şəkildə yoxlanılaraq, qətnamənin kassatora münasibətdə dəyişdirilmədən saxlanıldığı qərara alınmışdır. Daha sonra digər cavabdeh (ipoteka qoyan) kassasiya şikayəti ilə məhkəməyə müraciət edərək apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ipoteka predmeti olan mənzilin ilkin satış qiymətinin müəyyən edilməsinə dair hissəsini mübahisələndirmişdir. Ali Məhkəmənin Mülki kollegiyasının müvafiq qərardadı ilə yeni verilmiş kassasiya şikayəti MPM-in tələblərinə (MPM-in 404-1, 405, 406 və 407-ci maddələri) cavab verməsi və onun geri qaytarılması üçün əsasların (MPM-in 408-ci maddəsi) olmaması baxımından icraata qəbul edilərək, məhkəmə baxışına təyin edilmişdir.

2. İşə kassasiya qaydasında baxılarkən oxşar məsələ ilə bağlı fərqli hüquqi yanaşmanın mövcud olduğu müəyyən olunmuşdur. Belə ki, Ali Məhkəmədə baxılmış analoji mülki iş üzrə cavabdehin kassasiya şikayəti digər cavabdehin daha əvvəl verdiyi şikayət əsasında kassasiya qaydasında yoxlanılmış hissə ilə bağlı olduğundan onun icraata qəbulundan imtina edilmişdir. Kassasiya şikayətinin qeyri-mümkünlüyünə dair qərardadında məhkəmənin hüquqi mövqeyi ondan ibarət olmuşdur ki, Ali Məhkəmənin Mülki kollegiyası tərəfindən cavabdehlərdən birinin kassasiya şikayəti əsasında apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin qanuniliyi və əsaslılığı bütövlükdə yoxlanılaraq, yekun qərarla bir dəfə artıq hüquqi qiymət verildiyindən həmin qətnamənin digər cavabdeh tərəfindən verilmiş kassasiya şikayəti üzrə təkrarən yoxlanılması yolverilməzdir. Məhkəmə qərardadındakı gəlinən nəticənin hüquqi əsası kimi M.İbrahimovun şikayəti üzrə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun 2017-ci il 8 iyun tarixli Qərarında nümayiş etdirilmiş hüquqi mövqeyə istinad edilmişdir. Belə ki, Konstitusiya Məhkəməsinin Plenumu həmin qərarında vurğulamışdır ki, məhkəmə müdafiəsi prosedurunun və konkret formasının seçilməsi məhkəmə qərarının qanuni qüvvəsini təmin edən, müxtəlif məhkəmə aktlarının kolliziyasının istisna edilməsinə yönələn məhkəmə qərarlarının stabilliyi prinsipi nəzərə alınmaqla həyata

keçirilməlidir. Belə ki, bu prinsip məhkəmə aktlarının bir-birinə zidd olmamasının, eləcə də hüquqi müəyyənlik prinsipinin təmin edilməsinə yönəlir.

3. Hazırda icraatda olan mülki işə baxan məhkəmə tərkibi həmin məsələyə dair fərqli hüquqi yanaşma sərgiləyərək qeyd edir ki, əvvəl baxılmış oxşar iş üzrə kassasiya şikayətinin geri qaytarılmasından ibarət hüquqi mövqe mülki prosessual qanunvericiliyin, tərəflərin məhkəmə aktlarından qanunla müəyyən edilmiş qaydada şikayət vermək hüququnu təmin edən müddəaları ilə (MPM-in 357.1 və 403.1-ci maddələri) ziddiyyət təşkil edir. Bu baxımdan məhkəmə tərkibinin qənaətinə görə tərəfin kassasiya şikayəti mülki prosessual qanunvericiliyin tələblərinə (MPM-in 404-1, 405, 406 və 407-ci maddələri) uyğun olaraq verildiyindən və onun geri qaytarılması üçün prosessual əsaslar (MPM-in 408-ci maddəsi) olmadığından hazırkı halda digər cavabdehin şikayət vermək hüququnun məhdudlaşdırılması yolverilməzdir və ona görə də, həmin kassasiya şikayəti icraata qəbul edilərək, kassasiya icraatı qaydasında baxılmalı və iş üzrə onun şikayətinə münasibətdə qərar qəbul edilməlidir.

4. Göründüyü kimi, qeyd edilən hüquqi məsələyə dair MPM-in tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi zərurəti yaranmışdır.

5. MPM-in 2020-ci il martın 1-dən qüvvəyə minmiş 418-1-ci maddəsinə müvafiq olaraq Ali Məhkəmənin məhkəmə tərkibi işə kassasiya qaydasında baxarkən Ali Məhkəmənin digər məhkəmə tərkibinin əvvəllər qəbul etdiyi qərarda müəyyən edilmiş hüquqi mövqedən fərqli yanaşmanın tətbiq edilməsini zəruri hesab etdikdə, həmin mübahisəli hüquqi məsələyə hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə Ali Məhkəmənin mülki və kommersiya kollegiyalarına daxil olan bütün hakimlərdən ibarət tərkibdə baxılır.

6. Bu məqsədlə Ali Məhkəmənin sədri tərəfindən hazırda işə baxan Mülki kollegiyanın məhkəmə tərkibinin təqdimatı təmin edilərək, hüququn tətbiqi üzrə qeyd edilən mübahisəli hüquqi məsələ Mülki və Kommersiya kollegiyalarına daxil olan bütün hakimlərin müzakirəsinə çıxarılmışdır.

7. Mübahisəli hüquqi məsələ hüquq ictimaiyyətinin diqqətinə çatdırılmış, yazılı formada əsaslandırılmış rəylər (amicus curiae rəyi) Ali Məhkəməyə təqdim edilmişdir.

I. Apellyasiya və kassasiya instansiyası məhkəmələrinin işə baxma hədləri

8. Ali Məhkəmənin Mülki və Kommersiya kollegiyalarının hakimlərindən ibarət məhkəmə tərkibi qeyd edir ki, məsələyə aydınlığın gətirilməsi və bu sahədə yanaşmanın müəyyənləşdirilməsi üçün ilk növbədə apellyasiya və kassasiya instansiyası məhkəmələrinin işə baxılma hədləri ilə bağlı qanunvericiliyin müddəaları, Konstitusiya Məhkəməsi Plenumunun məsələyə dair hüquqi mövqeyi, habelə bu müddəaların tətbiqi üzrə mövcud məhkəmə təcrübəsi nəzərdən keçirilməlidir.

9. Bu sahədə formalaşmış məhkəmə təcrübəsinin təhlili göstərir ki, çoxtərəfli mülki və kommersiya mübahisələrində həm apellyasiya, həm də kassasiya instansiyası məhkəmələri bir qayda olaraq bir iş üzrə qəbul edilmiş aidiyyəti məhkəmə qətnaməsini bütövlükdə və yaxud eyni hissədə iş üzrə tərəflərin ayrı-ayrılıqda verilmiş şikayətləri əsasında dəfələrlə yoxlanılmasını həyata keçirirlər. Qəbul edilən bu məhkəmə qərarları arasında kolliziyanın həlli yolu kimi isə qərarın şikayət verən şəxsə münasibətdə və ya şikayətə münasibətdə yoxlanılması kimi rəsmiləşdirilməsindən istifadə edilir.

10. MPM-in:

372.6-cı maddəsinə əsasən apellyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsinin qətnaməsinin əsaslılığını onun barəsində açıq və ya dolayısı ilə mübahisə edilən hissəsi üzrə, şikayət qərarın ləğv edilməsinə yönəldikdə və ya apellyasiya şikayətində

və ona etirazlarda ifadə olunmuş dəlillərə əsasən mübahisənin predmeti bölünməz olduqda isə tam yoxlayır;

372.7-ci maddəsinə əsasən apellyasiya instansiyası məhkəməsi şikayətin dəlillərindən asılı olmayaraq məhkəmənin maddi və prosessual hüquq normalarına riayət etməsini yoxlayır;

416-cı maddəsinə əsasən kassasiya instansiyası məhkəməsi apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hüquqi mövqeyi

11. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Azərbaycan Respublikası MPM-in 372-ci maddəsinin apellyasiya baxışının hədləri barədə müddəalarının həmin Məcəllənin 372.1 və 372.7-ci maddələri baxımından şərh edilməsinə dair 2011-ci il 20 may tarixli qərarında qeyd edilir ki, hədlərə qiymət verməmişdən öncə ilk növbədə apellyasiya qaydasında verilən şikayətin obyekti və predmeti aydınlaşdırılmalıdır.

12. Konstitusiya Məhkəməsinin Plenumu həmin qərarında qeyd etmişdir ki, apellyasiya instansiyası məhkəməsində icraata dair MPM-in 41-ci fəslinin, o cümlədən 372-ci maddəsinin təhlili göstərir ki, apellyasiya şikayətinin obyekti birinci instansiya məhkəməsinin qətnaməsi və yaxud onun bir hissəsidir və obyekt apellyasiya tələbləri ilə məhdudlaşa bilər. Şikayətin dəlilləri tərəfin qətnaməni mübahisələndirdiyi hissəsi ilə bağlı dəlillərdə özünü büruzə verir. Qətnamə tamamilə mübahisələndirildiyi halda şikayətin dəlilləri onun bütün hissələrinin əsassızlığı ilə bağlı, hissəvi mübahisələndirildikdə isə məhz həmin hissənin əsassızlığı ilə bağlı olmalıdır. Məhz bu dəlillər şikayətin obyektini müəyyən edir. O da qeyd edilməlidir ki, çəkişmə və dispozitivlik kimi mülki prosesin fundamental prinsiplərinin təmin edilməsi baxımından apellyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsinin qətnaməsini yalnız mübahisələndirilən hissədə yoxlamalı, mübahisələndirilməyən hissəsinə toxunmamalıdır.

13. Göründüyü kimi, qərarda qətnamənin tərəflərin mübahisələndirmədiyi və beləliklə də onun əsaslılığı şübhə altına alınmayan hissədə ləğv edilməsi, dəyişdirilməsi və ya qüvvədə saxlanılması dispozitivlik və çəkişmə prinsipinin pozulması kimi qiymətləndirilmişdir.

14. Bununla yanaşı, Konstitusiya Məhkəməsi eyni qərarında MPM-in 372.6-cı maddəsinin tələbləri baxımından apellyasiya instansiyası məhkəməsi tərəfindən birinci instansiya məhkəməsinin qətnaməsinin əsaslılığının tam yoxlanılmasını yalnız apellyasiya şikayəti ilə deyil, həmçinin mübahisənin predmeti bölünməz olduqda ona qarşı verilmiş etirazla da əlaqələndirmişdir. Mübahisənin predmetinin bölünməz olması məsələsi isə tərəflərin şikayət və etirazlarda irəli sürdükləri dəlillər nəzərə alınmaqla hər bir halda məhkəmə tərəfindən müəyyən olunmalıdır.

15. Şikayətin predmeti dedikdə, məhkəmənin verilmiş tələblərə baxılması və onların həlli zamanı yol verdiyi pozuntuların dairəsi başa düşülməlidir. Şikayətin predmeti birinci instansiya məhkəməsinin qətnaməsinin ləğvi və ya dəyişdirilməsi üçün əsas ola biləcək dəlillərlə məhdudlaşa bilər.

16. Şikayətin obyektinə dair olduğu kimi şikayətin predmetinə dair də apellyasiya instansiyası məhkəməsinin yoxlama səlahiyyətlərinin hədləri apellyasiya şikayətində müəyyənləşdirilir. Buna baxmayaraq, apellyasiya instansiyası məhkəməsi qanunçuluğun maraqlarına uyğun olaraq şikayətin dəlillərindən kənara çıxa bilər. Qanunçuluğun maraqları dedikdə, baxılan iş üzrə maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunması başa düşülməlidir. Doğrudur, apellyasiya instansiyası məhkəməsi öz təşəbbüsü ilə birinci instansiya məhkəməsinin mübahisəyə dair verdiyi hüquqi qiymətləndirməni yoxlamaq hüququna malik deyil, lakin apellyasiyanın əsasını birinci instansiya məhkəməsi tərəfindən düzgün olmayan maddi hüquq normasının tətbiq olunması, onun düzgün şərh olunmaması və ya mübahisənin

yanlış hüquqi qiymətləndirilməsi təşkil etdikdə, apellyasiya instansiyası məhkəməsi mübahisənin hüquqi qiymətləndirilməsini yenidən keçirməlidir. Eyni zamanda Konstitusiya Məhkəməsi bu məsələyə qiymət verərkən qeyd etmişdir ki, apellyasiya instansiyası məhkəməsi maddi hüquq normalarına riayət edilməsini yalnız birinci instansiya məhkəməsinin qətnaməsinin əsaslılığının mübahisələndirilən hissəsində yoxlamaq hüququna malikdir. Əks halda MPM-in 327.6-cı maddəsi öz əhəmiyyətini itirmiş olardı.

17. Maddi hüquq normalarından fərqli olaraq prosessual hüquq normalarına riayət olunub-olunmamasını apellyasiya instansiyası məhkəməsi apellyasiya şikayətinin obyektindən və predmetindən asılı olmayaraq yoxlayır. Konstitusiya Məhkəməsinin Plenumunun qərarında həmçinin qeyd edilmişdir ki, MPM-in həmin maddəsində nəzərdə tutulmuş prosessual pozuntuları iki qrupa bölmək olar. Birinci qrupa birinci instansiya məhkəməsinin qətnaməsinin hər bir halda ləğv olunmasına əsas olmuş prosessual pozuntular aiddir. Belə pozuntular kobud pozuntular adlandırılır. Həmin pozuntular MPMin 387.2.1-387.2.7-ci maddələrində göstərilmişdir və bu pozuntular şikayətin dəlillərindən asılı olmayaraq birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv edilməsinə şərtsiz əsasdır. İkinci qrupa elə prosessual pozuntuları aid etmək olar ki, onlar birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv edilməsi üçün əsas olmaya da bilər. Belə pozuntuları şərtli pozuntular da adlandırmaq olar. MPM-in 387.1-ci maddəsinə əsasən prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq edilməməsi qətnamənin ləğv edilməsinə yalnız o halda əsas olur ki, bu düzgün olmayan qətnamənin qəbul edilməsinə səbəb olsun. Bu və ya digər prosessual pozuntunun birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv edilməsinə əsas olub-olmamasını işin konkret hallarından asılı olaraq apellyasiya instansiya məhkəməsi həll edir. Birinci instansiya məhkəməsi tərəfindən işə baxılarkən yol verilmiş böyük əhəmiyyət kəsb etməyən prosessual pozuntular məhkəmənin yekun nəticəsinə təsir göstərməmişdirsə və ya göstərə bilməmişdirsə onlar qətnamənin ləğvi üçün əsas deyildir.

18. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun MPM-in 420-ci maddəsinin şərh edilməsinə dair 2012-ci il 28 fevral tarixli qərarında kassasiyanın səlahiyyət hədləri ilə bağlı məsələyə dair qeyd edilmişdir ki, 2000-ci ilin sentyabrın 1-dək qüvvədə olmuş mülki prosessual qanunvericiliyə görə kassasiya icraatı aşağı məhkəmələrin fəaliyyəti üzərində nəzarətin, məhkəmələr tərəfindən buraxılmış səhvlərin daha tez aradan qaldırılmasına və məhkəmələr tərəfindən qanunun birmənalı və dəqiq tətbiqinin təmin olunmasına imkan verən prosesin xüsusi növü kimi qəbul olunurdu. İşə kassasiya qaydasında baxılarkən məhkəmə işdə olan və əlavə materiallar əsasında qərarın qanuniliyini və əsaslılığını, yəni iş üzrə icraatın prosessual qaydasına riayət olunmasını və işin mahiyyəti üzrə həll olunmasını yoxlayırdı. Bu zaman kassasiya məhkəməsinin səlahiyyət hədləri yalnız şikayətdəki dəlillərlə məhdudlaşmırdı və iş tam həcmdə yoxlanılırdı.

19. Həmin qərarda qeyd edilmişdir ki, MPM-in 412.2-ci maddəsinə görə işdə iştirak edən şəxslər kassasiya şikayətinə dair etirazlarını və yaxud izahatlarını məhkəməyə göndərməyə haqlıdırlar. Etirazlarla bağlı, həmçinin nəzərə almaq lazımdır ki, etirazlar kassasiya şikayətində qaldırılan hüquqi dəlillərə qarşı tərəfin münasibətini ifadə etdiyindən, kassasiya şikayətinin dəlillərinə aid olmadığı və ya məhkəmə aktının kassasiya şikayətində mübahisələndirilməyən hissəsindən verildiyi halda, kassasiya məhkəməsi həmin etirazlara baxmamalıdır. Həmin tələblər kassasiya icraatının müvafiq şikayətin dəlilləri çərçivəsində həyata keçirilməsini şərtləndirən amillərdən olmaqla kassasiya icraatının mahiyyətindən irəli gəlir.

20. Qərarda habelə qeyd edilmişdir ki, kassasiya məhkəməsinin səyləri ərizəçinin kassasiya şikayətində göstərdiyi hüququn və qanuni maraqların pozulmasının aradan qaldırılmasına yönəlməlidir. Kassasiya şikayətində irəli sürülmüş dəlil hər hansı digər (mübahisələndirilməyən) hüquqi məsələ ilə qaçılmaz olaraq əlaqəli və ya ona münasibət bildirməkdən asılı olduqda isə kassasiya məhkəməsi Konstitusiyanın 127-ci maddəsinin VII hissəsində nəzərdə tutulmuş çəkişmə prinsipinə müvafiq olaraq bu məsələni tərəflərin

müzakirəsinə vermək şərtilə, müstəsna olaraq ona münasibət bildirə bilər. Eyni zamanda kassasiya şikayətində irəli sürülmüş hüquqi dəlili araşdırarkən kassasiya məhkəməsi şikayətçi tərəfindən bu dəlilə verilmiş hüquqi qiymətdən asılı deyil və Konstitusiya Məhkəməsi Plenumunun MPM-in 372.6-cı maddəsi ilə bağlı yuxarıda qeyd olunan 2011ci il 20 may tarixli Qərarında ətraflı şərh verilmiş iura novit curia – məhkəmə hüququ bilir hüquqi prinsipinə əsasən kassasiya şikayətinin hədlərində qaldırılmış məsələnin yenidən hüquqi qiymətləndirilməsinə əsaslanaraq da maddi və ya prosessual hüquq normalarına uyğun olmadığı üçün apellyasiya məhkəməsinin qərarını ləğv edə və ya dəyişdirə bilər.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin mövqeyi

21**.** İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Fimar Hacıyevanın Azərbaycana qarşı şikayəti ilə bağlı 2005-ci il 22 sentyabr tarixli qərardadında Avropa Məhkəməsinin ərizəçinin şikayətini qeyri-məqbul hesab edərkən göstərdiklərinə diqqət çəkmişdir. Belə ki, həmin qərardadda ərizəçi tərəfindən Ali Məhkəməyə verdiyi kassasiya şikayətinin əsaslandırılmayaraq, yalnız apellyasiya məhkəməsi tərəfindən prosessual pozuntulara yol verildiyi iddia edildiyindən, Avropa Məhkəməsi müvafiq dəlili irəli sürməyi şikayətçinin borcu kimi qiymətləndirərək kassasiya məhkəməsinin şikayətçinin dəlillərindən kənar araşdırma aparmaq vəzifəsinin olmaması qənaətinə gəldiyi qeyd edilmişdir.

Məhkəmə tərkibinin mövqeyi

22. İlk növbədə qeyd edilməlidir ki, apellyasiya baxışının obyekt və predmetini müəyyən edən MPM-in 372.6 və 372.7-ci maddəsinə əsasən apellyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsinin qətnaməsinin əsaslılığını onun barəsində açıq və ya dolayısı ilə mübahisə edilən hissəsi üzrə, şikayət qərarın ləğv edilməsinə yönəldikdə və ya apellyasiya şikayətində və ona etirazlarda ifadə olunmuş dəlillərə əsasən mübahisənin predmeti bölünməz olduqda isə tam yoxlayır, həmçinin şikayətin dəlillərindən asılı olmayaraq məhkəmənin maddi və prosessual hüquq normalarına riayət etməsini yoxlayır. Məhkəmə tərkibi istinad edilən prosessual normalar və bununla bağlı Konstitusiya Məhkəməsinin hüquqi mövqeyi baxımından hesab edir ki, mübahisə predmetinin bölünməz olduğu hallar istisna olmaqla, apellyasiya instansiyası məhkəməsinin yoxlaması şikayətin obyekti ilə, yəni qətnamənin mübahisələndirilən hissəsi ilə məhdudlaşsa da, məhkəmə həmin hissədə şikayətin predmetini təşkil edən maddi hüquq normasının pozuntusu ilə bağlı irəli sürülmüş dəlillərlə bağlı olmayıb, ondan kənara çıxma hüququna malik olmaqla mübahisələndirilən hissənin tam şəkildə təkrar hüquqi qiymətləndirilməsini keçirməlidir. Şikayətin predmetinə daxil olan prosessual normalara riayət edilib-edilməməsi məsələsinə gəldikdə isə məhkəmə bu halda qətnamənin hansı hissəsinin mübahisələndirilməsindən və verilmiş şikayətin prosessual pozuntularla bağlı irəli sürülmüş dəlillərindən asılı olmayaraq qətnaməni bütövlükdə və şikayətin dəlillərindən kənara çıxmaqla yoxlamalıdır. Həmçinin yoxlama zamanı nəzərə alınmalıdır ki, MPM-in 382.2.1-387.2.7-ci maddələrində nəzərdə tutulmuş və kobud prosessual pozuntular adlanan halların aşkar edilməsi qətnamənin ləğv edilməsinə şərtsiz əsasdır. Eyni zamanda digər prosessual pozuntuların qətnamənin ləğv edilməsinə əsas olub-olmamasını işin konkret hallarından asılı olaraq yuxarı instansiya məhkəməsi həll edir. Bu halda nəzərə alınmalıdır ki, qətnamənin mübahisələndirilməyən hissəsində yoxlanılması tərəflərin məhkəmə aktlarından şikayət vermək və əsaslandırılmış dəlillərini irəli sürmək kimi fundamental hüquqlarını məhdudlaşdırdığından qətnamənin ləğvinə əsas verən əhəmiyyətli prosessual pozuntudur.

23. Kassasiya baxışının hədlərinə gəldikdə isə ilk növbədə MPM-in 416-cı maddəsinin məzmununa diqqət yetirilməlidir. Belə ki, həmin maddəyə əsasən kassasiya instansiyası məhkəməsi apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır. Göründüyü kimi, apellyasiyanın hədlərini müəyyən edən MPM-in 372.7-ci maddəsindən fərqli olaraq qanunverici kassasiyanın hədlərini müəyyən edərkən "şikayətin dəlillərindən asılı olmayaraq" ifadəsindən istifadə etməmişdir. Digər tərəfdən qeyd edilməlidir ki, MPM-in 418.4-cü maddəsində apellyasiya instansiyası məhkəməsinin qətnaməsi və ya qərardadının şikayətin dəlillərindən asılı olmayaraq ləğv edilməli olduğu prosessual əsaslar nəzərdə tutulmuşdur.

24. Qanunvericiliyin bu tələbləri, həmçinin Konstitusiya Məhkəməsi Plenumunun MPM-in 420-ci maddəsinin şərh edilməsinə dair qərarında əks olunmuş hüquqi mövqeyi baxımından məhkəmə tərkibi bildirir ki, kassasiya icraatı qaydasında məhkəmə aktının yoxlanılması apellyasiya icraatında olduğu kimi şikayətin obyekti həddində olsa da, predmetinə münasibətdə fərqlidir. Belə ki, apellyasiya icraatından fərqli olaraq kassasiya icraatı qaydasında məhkəmənin yoxlaması, prosessual normalara riayət edilməsi istisna olmaqla, şikayətdə irəli sürülmüş dəlillərin həddi ilə məhdudlaşır. Eyni zamanda qeyd edilməlidir ki, kassasiya şikayətində irəli sürülmüş hüquqi dəlili araşdırarkən kassasiya məhkəməsi şikayətçi tərəfindən bu dəlilə verilmiş hüquqi qiymətdən asılı olmamaqla "iura novit curia" – "məhkəmə hüququ bilir" hüquqi prinsipinə əsasən kassasiya şikayətinin yuxarıda qeyd edilən hədlərində qaldırılmış məsələnin yenidən hüquqi qiymətləndirilməsinə əsaslanaraq maddi və ya prosessual hüquq normalarına uyğun olmadığı üçün apellyasiya məhkəməsinin qərarını ləğv edə və ya dəyişdirə bilər. Şikayətin predmetinə daxil olan prosessual normalara riayət edilib-edilməməsi məsələsində isə qətnamənin hansı hissəsinin mübahisələndirilməsindən və verilmiş şikayətin prosessual pozuntularla bağlı irəli sürülmüş dəlillərindən asılı olmayaraq kassasiya məhkəməsi qətnaməni bütövlükdə və şikayətin dəlillərinə bağlı olmadan yoxlamalıdır. Həmçinin yoxlama zamanı nəzərə alınmalıdır ki, MPM-in 418.4.1-418.4.3 və 418.4.6-418.4.9-cu maddələrində nəzərdə tutulmuş və kobud prosessual pozuntular adlanan halların aşkar edilməsi qətnamənin ləğv edilməsinə şərtsiz əsasdır. Eyni zamanda apellyasiya icraatında olduğu kimi, kassasiya icraatında da digər prosessual pozuntuların qətnamənin ləğv edilməsinə əsas olub-olmamasını işin konkret hallarından asılı olaraq yuxarı instansiya məhkəməsi həll edir. Bu halda nəzərə alınmalıdır ki, qətnamənin apellyasiya icraatı qaydasında mübahisələndirilməyən hissəsində yoxlanılması, tərəflərin məhkəmə aktlarından şikayət vermək və əsaslandırılmış dəlillərini irəli sürmək kimi fundamental hüquqlarını məhdudlaşdırdığından, qətnamənin ləğvinə əsas verən əhəmiyyətli prosessual pozuntudur. Həmçinin apellyasiya məhkəməsi tərəfindən işə baxılarkən yol verilmiş böyük əhəmiyyət kəsb etməyən prosessual pozuntular məhkəmənin yekun nəticəsinə təsir göstərməmişdirsə və ya göstərə bilməmişdirsə, onlar qərarın ləğvi üçün əsas ola bilməz.

25. Apellyasiya və kassasiyanın hədlərini tənzimləyən yuxarıda istinad edilən mülki prosessual hüquq normalarından və Konstitusiya Məhkəməsi Plenumunun apellyasiyanın və kassasiyanın hədləri ilə bağlı müəyyən etdiyi hüquqi mövqelərdən göründüyü kimi, prosessual doktrina məhkəmələrin qətnamənin yoxlanılmasını şikayəti verən şəxsə (in personum) münasibətdə deyil, mübahisələndirilən hissədə (in rem) həyata keçirilməsini müəyyən etmişdir.

26. Beləliklə, məhkəmə tərkibi həm prosessual qanunvericiliyin tələblərini, həm də həmin tələblərə dair Konstitusiya Məhkəməsi Plenumunun hüquqi mövqeyini nəzərə alaraq belə qənaətə gəlir ki, məhkəmə aktları şikayətə və ya şikayəti verən şəxsə münasibətdə deyil, mübahisələndirilən hissəyə münasibətdə yoxlanılmalıdır.

Məhkəmə aktının apellyasiya və ya kassasiya qaydasında yoxlanılmış hissəsinin, digər tərəfin şikayəti üzrə təkrarən yoxlanılmasının mümkünlüyü məsələsinə dair

Mübahisəli hüquqi məsələnin həlli baxımından əhəmiyyət kəsb edən digər hal formalaşmış təcrübəyə əsasən yuxarı məhkəmələr tərəfindən eyni iş üzrə bir tərəfin şikayəti əsasında tam, yaxud müəyyən hissədə yoxlanılaraq qanuni qüvvəsini almış məhkəmə qərarının, mübahisənin digər tərəfinin şikayəti əsasında təkrarən yoxlanılmasının mümkünlüyünə qiymətin verilməsidir.

27. Məhkəmələr tərəfindən bu şəkildə təkrar yoxlamanın həyata keçirilməsi iş üzrə tərəflərin məhkəmə qərarlarından şikayət vermək hüququnun məhdudlaşdırılmasının yolverilməzliyi ilə əsaslandırılır.

28. Məhkəmə tərkibi istinad edilən əsaslandırma ilə razılaşmayaraq, hesab edir ki qeyd edilən məsələ üzrə düzgün hüquqi yanaşmanın müəyyən edilməsi üçün ilk növbədə tərəflərin şikayət vermək hüquqları ilə hüquqi müəyyənlik və məhkəmə qərarlarının sabitliyi prinsiplərinə və onların qarşılıqlı təsirinə aydınlıq gətirilməlidir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hüquqi mövqeyi

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun M.İbrahimovanın şikayəti üzrə 2017-ci il 8 iyun tarixli qərarında Konstitusiyanın 60-cı maddəsinin I hissəsinə istinad edilərək qeyd edilmişdir ki, hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir. Məhkəmə müdafiəsi hüququ hər kəsin hüquqlarının əsas müdafiə forması olmaqla, tərəflərin mövcud hüquq və vəzifələrinin müəyyən edilməsini və qanunun düzgün tətbiqini tələb edir. MPM-in 4.1-ci maddəsində də hər kəsin qanunla müəyyən edilmiş qaydada məhkəməyə müraciət etmək hüququ nəzərdə tutulmuşdur. Həmin maddəyə əsasən bütün fiziki və hüquqi şəxslər özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququna malikdirlər.

30. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu MPM-in 420-ci maddəsinin şərh edilməsinə dair 2012-ci il 28 fevral tarixli qərarında qeyd etmişdir ki, məhkəməyə müraciət etmək hüququnun təmin edilməsi, öz növbəsində pozulmuş hüquq və azadlıqları qanunvericilikdə nəzərdə tutulan hədlər çərçivəsində səmərəli müdafiə və bərpa edə bilən ədalət mühakiməsinin həyata keçirilməsini şərtləndirir. Ədalət mühakiməsi vasitəsilə insan hüquq və azadlıqlarının təminatı sisteminin universal xarakteri, həmçinin şəxsin qanunsuz və əsassız məhkəmə qərarlarından müdafiə olunması məqsədilə müvafiq məhkəmələrə şikayət etmək imkanlarını əhatə edir.

31. Qeyd olunmalıdır ki, məhkəmə müdafiəsi hüququ mütləq deyil və prosessual qanunvericiliklə nəzərdə tutulmuş hədləri vardır. Pozulmuş və ya mübahisəli mülki hüquqların müdafiəsi mülki prosessual qanunvericiliyin müvafiq maddələrinə uyğun olaraq həyata keçirilməlidir. Yəni şikayət hüququ olan şəxslərin hüquqlarının bərpası üçün nəzərdə tutulmuş şikayətin verilməsindən ibarət prosessual təminatın həyata keçirilməsi qanunvericilikdə müəyyən edilmiş məhkəmə sisteminin mahiyyətinə xələl gətirməməlidir.

32. Konstitusiya Məhkəməsinin Plenumu istinad edilən qərarında vurğulamışdır ki, məhkəmə aktlarından apellyasiya şikayəti verilməsi qanuni qüvvəyə minməmiş məhkəmə aktlarına yenidən baxılmasına imkan yaradır və birinci instansiya məhkəmələrində qəbul edilmiş qətnamə və qərardadların qanuniliyini və əsaslılığını yoxlamaq məqsədi daşıyır. Birinci instansiya məhkəməsinin aktlarına apellyasiya instansiyası məhkəməsi tərəfindən yenidən baxılması işdə iştirak edən şəxslərin hüquqlarının və qanuni mənafelərinin təsdiq edilməsinin mühüm təminatı olmaqla, artıq qəbul edilmiş, lakin qanuni qüvvəyə minməmiş məhkəmə aktlarının mümkün qədər tez yoxlanılması üsuludur.

33. Konstitusiya Məhkəməsinin Plenumu məhkəmə qərarlarının stabilliyi prinsipinə riayət edilməsinə xüsusi önəm verərək, Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 28-ci maddəsinin şərh edilməsinə dair 2017-ci il 12 aprel tarixli Qərarında da göstərmişdir ki, qanuni qüvvəyə minmiş məhkəmə qərarlarının ləğvi və ya dəyişdirilməsi üçün əsaslar konstitusiya əhəmiyyətli məqsədlərə cavab verməli, hüquqi müəyyənlik və mütənasiblik prinsiplərinə uyğun olaraq məhkəmə qərarının ədalətliliyini, stabilliyini və tarazlığını pozmamalıdır.

34. Konstitusiya Məhkəməsi tərəfindən formalaşdırılmış hüquqi mövqeyə görə qanuni qüvvəyə minmiş məhkəmə aktlarının qanunvericilikdə nəzərdə tutulmuş müddətlər çərçivəsində deyil, qeyri-məhdud zaman kəsiyində mübahisələndirilməsi imkanının mövcudluğu illüziyasını yaradan vəziyyət, hüquqi müəyyənliyin tərkib hissəsi olan "res judicata" prinsipinin, ədalət mühakiməsinin ağlabatan müddətdə həyata keçirilməsi tələbinin inkar edilməsilə yanaşı, artıq həll olunmuş mübahisə üzrə qanuni qüvvəyə minmiş məhkəmə qərarlarının sabitliyinə, davamlılığına xələl gətirir.

35. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun MPM-in 403.2-ci maddəsinin şərh edilməsinə dair 2020-ci il 24 iyul tarixli Qərarında da qeyd edilmişdir ki, MPM-in mülki məhkəmə icraatının vəzifələrini təsbit edən 2-ci maddəsinə görə mülki işlər və kommersiya mübahisələri üzrə məhkəmə icraatının vəzifələri hər bir fiziki və yaxud hüquqi şəxsin Konstitusiyadan, qanunlardan və digər normativ hüquqi aktlardan irəli gələn hüquq və mənafelərinin məhkəmədə təsdiq olunmasıdır.

36. Məcəllənin 4.1-ci maddəsinə əsasən isə bütün fiziki və hüquqi şəxslər özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququna malikdirlər. Göründüyü kimi, bu maddələrdə fiziki və hüquqi şəxslərin hər cür mənafe və maraqlarının müdafiəsindən deyil, qanunlardan və digər normativ hüquqi aktlardan irəli gələn, başqa sözlə, qanunla qorunan mənafe və maraqlardan bəhs olunur. Həmçinin ümumi hüquq nəzəriyyəsində, eləcə də beynəlxalq hüquqi aktlarda bu hüququn, müəyyən hallar nəzərə alınaraq, məhdudlaşdırılmasına yol verilir. Belə ki, məhkəmə müdafiəsi hüququnun vacibliyinə baxmayaraq, o mütləq xarakter daşımır və qanunvericilik tərəfindən müəyyən edilmiş hədlərdə konkret məhdudiyyətlərə məruz qala bilər. Lakin məhkəmə müdafiəsi hüququnu məhdudlaşdıran tədbirlər Konstitusiyanın 60-cı maddəsinin I hissəsinin və 71ci maddəsinin II hissəsinin, habelə "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun 3-cü maddəsinin müddəaları baxımından legitim məqsədlərə nail olmaq üçün tətbiq edilməli, mütənasiblik meyarına cavab verərək onun əsas mahiyyətinə toxunmamalıdır (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 231.1-ci maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair" 2015-ci il 22 may tarixli qərarı). Qərarda Konstitusiya Məhkəməsinin Plenumu mülki prosessual qanunvericilikdə nəzərdə tutulmuş məhdudiyyətlərlə bağlı qeyd edir ki, hüquq və vəzifələrin həcminin prosessual qaydalar çərçivəsində məhdudlaşdırılması hüquqi müəyyənlik prinsipinin təmin edilməsinə, məhkəmə icraatı zamanı işdə iştirak edən şəxslərin qarşılaşa biləcəkləri hüquqi qeyrimüəyyənliyin aradan qaldırılmasına, ədalət mühakiməsinin daha səmərəli və ədalətli həyata keçirilməsinə xidmət edir. Eyni zamanda yalnız qanunvericilik səviyyəsində müəyyən oluna biləcək belə məhdudiyyətlər Konstitusiyada təsbit olunmuş hüquq və azadlıqları ləğv etməməlidir. Bu məhdudiyyətlər hər hansı şəxsin iradəsindən asılı olmayaraq müvafiq hüquqa mütənasib şəkildə qanunvericinin müəyyən etdiyi hədlər çərçivəsində düzgün tətbiq edilməlidir. MPM-də məhkəmə müdafiəsi hüququnu məhdudlaşdıran şikayətin mümkünlüyü, prosessual müddətlər, məhkəmə qərarlarından şikayət verə biləcək konkret şəxslərin dairəsi və s. amillər nəzərdə tutulmuşdur.

37. Beləliklə, Konstitusiya Məhkəməsi qərarlarında nümayiş etdirdiyi hüquqi mövqeyə əsasən məhkəmə müdafiəsi prosedurunun və konkret formasının seçilməsi məhkəmə qərarının qanuni qüvvəsini təmin edən, müxtəlif məhkəmə aktlarının kolliziyasının istisna edilməsinə yönələn məhkəmə qərarlarının stabilliyi prinsipi nəzərə alınmaqla həyata keçirilməlidir. Belə ki, bu prinsip məhkəmə aktlarının bir-birinə zidd olmamasının, eləcə də hüquqi müəyyənlik prinsipinin təmin edilməsinə yönəlir.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin mövqeyi

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent təcrübəsində "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın (bundan sonra – Avropa Konvensiyası) 6-cı maddəsinin tələbləri baxımından "res judicata" prinsipinə hörmət edilməsini ehtiva edən qanuni qüvvəyə minmiş məhkəmə qərarlarının bir qayda olaraq dəyişdirilmədən saxlanılmasını nəzərdə tutan preyudisiallıq və qanunun aliliyinin fundamental aspektlərindən olan hüquqi müəyyənlik prinsiplərinin təmin edilməsinə xüsusi önəm verilmiş, yalnız məhkəmə səhvlərinin düzəldilməsi və işin düzgün həlli üçün əhəmiyyət kəsb edən hallar aşkar olunduqda belə qərarlara yuxarı instansiya məhkəməsi tərəfindən yenidən baxılmasının mümkünlüyü əks olunmuşdur (Xotulyeva Rusiya Federasiyasına qarşı iş üzrə 2009-cu il 30 iyul tarixli, Kondraşov və digərləri Rusiya Federasiyasına qarşı iş üzrə 2009-cu il 8 yanvar tarixli qərarlar). Hüququn aliliyinin əsas aspektlərindən biri olan hüquqi müəyyənlik prinsipi digərləri ilə yanaşı, tələb edir ki, məhkəmələr tərəfindən tamamilə həll edilmiş iş üzrə qəbul olunan yekun qərar şübhə doğurmamalıdır (Brumaresku Rumıniyaya qarşı" iş üzrə 1999-cu il 28 oktyabr tarixli qərar). Hüquqi müəyyənlik, "res judicata" prinsipinə hörməti (yəni bir dəfə həll edilmiş işə təkrar baxılmanın yolverilməzliyini) nəzərdə tutur. Prinsip onu əks etdirir ki, tərəflərdən heç biri yalnız işə təkrar baxılması və yeni qərara nail olmaq məqsədilə yekun, qanuni qüvvəyə minmiş qərara yenidən baxılmanı tələb edə bilməz. İşə yenidən baxılması üzrə yuxarı məhkəmə instansiyasının səlahiyyəti işə mahiyyəti üzrə yenidən baxmaq məqsədilə deyil, məhkəmə səhvlərini, ədalət mühakiməsinin qeyri-düzgün aparılmasını aradan qaldırmaq məqsədilə həyata keçirilməlidir. Yenidən baxma şikayətin gizli forması hesab edilə bilməz, eyni zamanda yalnız bir məsələyə dair iki yanaşmanın mövcud olması yenidən baxma üçün əsas ola bilməz. Yalnız əsaslı və qarşısıalınmaz xarakterli hallara görə məcburiyyət qarşısında qalma bu prinsipdən geri çəkilməyə haqq qazandırır (Ryabıx Rusiyaya qarşı iş üzrə 2003-cü il 24 iyul tarixli qərar).

38. Şikayət hüququ Avropa Konvensiyasının 6-cı maddəsinin prizması baxımından da mütləq hüquq hesab edilmir. Belə ki, Konvensiya mülki icraat çərçivəsində ümumiyyətlə apellyasiya hüququnu nəzərdə tutmamışdır. Avropa Məhkəməsi formalaşdırdığı presedent hüququ ilə apellyasiya icraatının 6-cı maddədəki təminatlar baxımından qiymətləndirilməsinin mümkünlüyünü daxili qanunvericilikdə apellyasiya hüququnun nəzərdə tutulduğu halla şərtləndirmişdir (Delkur Belçikaya qarşı iş üzrə qərarı). Eyni zamanda qeyd etmişdir ki, apellyasiya icraatında bu təminatların tətbiq edilmə üsulu həmin proseslərin konkret xüsusiyyətlərindən asılıdır və bu zaman məhkəmə bütövlükdə dövlətdaxili hüquq sistemində həyata keçirilən proseslər, apellyasiya instansiyası məhkəməsinin hüquqi və praktiki funksiyaları, eləcə də tərəflərin səlahiyyətləri və onların maraqlarının hansı üsulla təmsil olunması və müdafiə edilməsini nəzərə almalıdır. Avropa Məhkəməsinin formalaşdırdığı presedent hüququna əsasən məhkəməyə müraciət etmək hüququ mütləq hüquq hesab edilmədiyindən məhdudlaşdırıla bilər. Lakin məhdudiyyətlər bu hüququn icrasını onun əsl mahiyyətini zədələyəcək şəkildə və miqyasda məhdudlaşdırmamalıdır. Onlar qanuni məqsəd daşımalı və istifadə edilən vasitələrlə qarşıya qoyulan məqsəd arasında müvafiq mütənasiblik olmalıdır (Qeren Fransaya qarşı və Omar Fransaya qarşı işləri üzrə qərarlar).

39. Avropa Məhkəməsi bir sıra qərarlarında yuxarı instansiya məhkəmələrində aparılan icraatın mümkünlüyü və hədlərinin qanuni məhdudiyyətlərə məruz qala bilməsini də yolverilən hesab etmişdir. Golder Birləşmiş Krallığa qarşı iş üzrə Qərarında Avropa Məhkəməsi göstərmişdir ki, məhkəməyə əlçatanlıq hüququ mütləq deyil və dolayı şəkildə yol verilən məhdudiyyətlərə məruz qala bilər. Bu xüsusilə də şikayətin mümkünlük şərtlərinə aiddir, çünki bu məsələ təbiət etibarilə, həmin sahədə müəyyən mülahizə sərbəstliyinə malik olan dövlət tərəfindən tənzimlənmə tələb edir (Luordo İtaliyaya qarşı iş üzrə 2003-cü il 17 oktyabr tarixli qərar).

Məhkəmə tərkibinin mövqeyi

Qeyd edilənlər baxımından məhkəmə tərkibi belə qənaətə gəlir ki, məhkəmələrin eyni iş üzrə bir tərəfin şikayəti əsasında tam, yaxud müəyyən hissədə yoxlanılaraq qanuni qüvvəsini almış məhkəmə qərarının mübahisənin digər tərəfinin şikayəti əsasında təkrarən yoxlanılması hüquqi müəyyənlik prinsipinə zidd olduğundan, bu şikayətlərə baxılması yolverilməz hesab edilməklə geri qaytarılmalıdır.

41. Məhkəmə tərkibi qeyd edir ki, şikayətin bu əsasla geri qaytarılması apellyasiya instansiyası məhkəmələri tərəfindən şikayətin mümkünlüyünün yoxlanılması mərhələsində, onun qeyri-mümkün hesab edilməsinə dair qərardadın qəbulu yolu ilə, kassasiya instansiyası məhkəməsi tərəfindən isə şikayətin icraata qəbulu mərhələsində şikayətin icraata qəbulundan imtina haqqında qərardadın qəbulu yolu ilə həyata keçirilməlidir.

42. Apellyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsindən fərqli olaraq şikayətin mümkünlük məsələsini yoxlayarkən onun MPM-in 361-ci maddəsində əks olunmuş formal tələblərə cavab verməsini qiymətləndirməklə yanaşı, verilmiş şikayətə apellyasiya qaydasında baxılması üçün prosessual əsasların olub-olmamasını da yoxlamalıdır. Belə ki, MPM-in 366.1-ci maddəsinə əsasən apellyasiya instansiyası məhkəməsi iş məhkəməyə daxil olduqdan sonra 15 gün müddətində apellyasiyanın mümkünlüyünü yoxlayır. Buraya işə apellyasiya qaydasında baxılmaq üçün prosessual əsasların olması daxildir. Bu Qərardadın 27-ci bəndində istinad edilən hallarda da, verilmiş yeni şikayət artıq daha əvvəl baxılaraq hüquqi qiymət verilmiş hissə ilə bağlı olduğundan, həmin şikayətə apellyasiya qaydasında baxılması üçün prosessual əsasların olmamasına görə şikayət qeyri-mümkün hesab edilməlidir.

43. Apellyasiya instansiyası məhkəməsi qeyri-mümkünlük haqqında qərardadı qəbul etməklə yanaşı, şikayət verən tərəfə mübahisələndirmək istədiyi həmin hissənin kassasiya qaydasında yoxlanılmadığı halda kassasiya şikayəti vermək hüququnu izah etməlidir. Belə ki, hər bir halda apellyasiya instansiyası məhkəməsi özünün qanuni qüvvədə olan və mübahisələndirilməyən qətnaməsi mövcud olduğu halda işə eyni hissədə digər tərəfin şikayəti əsasında yenidən baxmaqla həmin qətnamə ilə müəyyən edilmiş halları təkzib edə biləcək yeni qətnamə çıxarmaq imkanına malik olmadığından, həmin iş üzrə apellyasiya instansiyası məhkəməsinin qətnaməsi yalnız kassasiya instansiyası məhkəməsində mübahisələndirilə bilər. Çünki məhkəmənin qəbul etdiyi qərarın hüquqazidd olduğunu və onun qanuni qüvvəsini itirməsini yalnız qanunla müəyyən edilmiş qaydada müvafiq yuxarı instansiya məhkəməsi müəyyən edə bilər (Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun M.İbrahimovanın şikayəti üzrə 2017-ci il 8 iyun tarixli Qərarı).

44. Nəzərə alınmalıdır ki, qeyri-mümkünlük haqqında qərardaddan yuxarı instansiya məhkəməsinə şikayət nəzərdə tutulduğundan, sonuncunun apellyasiya şikayətinin qeyri-mümkünlüyünün qanuniliyinə qiymət vermək imkanı olacaqdır. Belə ki, MPM-in 366.4 və 402-ci maddələrinə əsasən apellyasiyanın qeyri-mümkün hesab edilməsi barədə qərardaddan kassasiya instansiyasına şikayət verilə bilər.

45. Analoji yanaşma bu Qərardadın 27-ci bəndində istinad edilən halda verilmiş kassasiya şikayətlərinə münasibətdə də tətbiq edilməlidir. Belə ki, kassasiya instansiyası məhkəməsi kassasiya şikayətinin icraata qəbulunun mümkünlüyünü yoxlayarkən, onun MPM-in 407-ci maddəsində əks olunmuş formal tələblərə cavab verməsini qiymətləndirməklə yanaşı, verilmiş şikayətə kassasiya qaydasında baxılması üçün prosessual əsasların olub-olmamasını da müəyyən etməlidir. Odur ki, apellyasiya instansiyası məhkəməsinin qətnaməsi hissəvi, yaxud tam şəkildə kassasiya qaydasında yoxlanıldığı və verilmiş yeni kassasiya şikayəti artıq baxılaraq hüquqi qiymət verilmiş hissə ilə bağlı olduğu halda, həmin şikayətə kassasiya qaydasında baxılması üçün prosessual əsasların olmamasına görə kassasiya instansiyası məhkəməsi tərəfindən MPM-in 411-ci maddəsinə əsasən şikayətin icraata qəbulundan imtina edilməli və şikayət geri qaytarılmalıdır.

46. Məhkəmə tərkibi vurğulayır ki, işdə iştirak edən şəxslərin belə hallarda məhkəmə aktlarından verdiyi şikayətin geri qaytarılması mütləq qaydada birinci, apellyasiya və kassasiya instansiyası məhkəmələri tərəfindən qanunvericiliyin müəyyən etdiyi aşağıda qeyd edilən prosessual təminatlara ciddi şəkildə riayət edilməsini tələb edir.

47. Bununla bağlı ilk növbədə qeyd edilməlidir ki, bütün instansiya məhkəmələrində mülki prosessual qanunvericiliyin mübahisə tərəflərinin məhkəmə iclasının vaxtı və yeri barədə rəsmi qaydada məlumatlandırılmasına dair tələbinə prosessual təminat hüququnun ayrılmaz tərkib hissəsi kimi riayət edilməlidir. Həmçinin məhkəmə sənədlərinin işdə iştirak edən şəxslərə çatdırılması və rəsmi qaydada verilməsinə dair MPM-in 135-138-ci maddələrinin tələbləri, eləcə də həmin sənədlərin "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə elektron qaydada çatdırılması imkanlarından istifadənin yolverilənliyi də nəzərə alınmalıdır. Bu, proses iştirakçılarının öz hüquqlarının müdafiəsinə imkan verməklə yanaşı, istinad edilən kolliziyaların yaranmasının da qarşısını almış olacaqdır. Avropa Məhkəməsi öz presedent hüququnda dəfələrlə qeyd etmişdir ki, Konvensiya nəzəri və ya xəyali hüquqları deyil, praktiki və səmərəli hüquqları təmin etməyə yönəlib. İş üzrə tərəf məhkəmə iclasında iştirak etmək imkanına malik olduğu tərzdə məlumatlandırılmadığı halda ədalətli və açıq məhkəmə araşdırılması hüququ mahiyyətindən məhrum edilmiş olur (Qroşev Rusiyaya qarşı iş üzrə 2005-ci il 20 oktyabr tarixli Qərar). Odur ki, məhkəmə qərarlarının apellyasiya və kassasiya instansiyalarında şikayətin dəlilindən asılı olmayaraq bu kobud prosessual pozuntunun olmasını yoxlayaraq, qətnaməni bu əsasla ləğv etməsi gələcəkdə bu Qərardadın qəbul edilməsi əsasını təşkil edən halların mövcudluğunun da qarşısını almış olacaqdır.

48. Daha sonra, tərəflərin hər birinə şikayət verməklə bağlı bərabər imkanların yaradılması baxımından əhəmiyyətli olan şikayət daxil olduqdan sonra işin yuxarı instansiya məhkəməsinə göndərilməsi müddətlərinə dair MPM-in 364 və 409-cu maddələrinin tələblərinə riayət edilməlidir. Belə ki, birinci və apellyasiya instansiyası məhkəmələri şikayətin MPM-in aidiyyəti üzrə 361 və 407-ci maddələrinin tələblərinə uyğunluğunu yoxladıqdan sonra ilk daxil olan şikayəti yuxarı instansiya məhkəməsinə mütləq şəkildə işdə iştirak edən bütün şəxslərə münasibətdə şikayət vermə müddətini gözlədikdən sonra göndərməlidir. Bu qaydaya riayət edilmədiyi halda yuxarı instansiya məhkəməsi həmin müddətin gözlənilməsi ilə bağlı prosessual tələblərə riayət edilməsinin təmin edilməsi üçün işi icraata qəbul etmədən müvafiq aşağı instansiya məhkəməsinə geri qaytarmalıdır. Bu mövqe, kassasiya şikayətinin icraata qəbul olunmasından sonra digər şəxslərin kassasiya şikayəti ilə apellyasiya məhkəməsinə müraciət edildiyi halda işin baxışdan çıxarılması ilə bağlı olan MPM-in 417.1.7-ci maddəsinin tələbləri ilə də uzlaşır.

49. Apellyasiya və kassasiya məhkəmələri tərəfindən şikayətin mümkün hesab edilərək, icraata qəbul edilməsindən sonra MPM-in aidiyyəti üzrə 367, 368 və 412, 415ci maddələri ilə nəzərdə tutulmuş vəzifələr müvafiq qaydada icra edilməlidir.

50. Məhkəmələr şikayətin surətinin tərəflərə göndərilməsi və məhkəmə iclasının keçirilməsi vaxtının qeyd edildiyi bildirişdə MPM-in 139.2.7-1-ci maddəsinin tələblərinə uyğun

olaraq izah edilməli prosessual hüquqlar və vəzifələr çərçivəsində verilmiş şikayətin obyektinin işdə iştirak edən digər şəxslərin mənafeyinə toxunduğu hallarda həmin şəxslərin şikayət vermək hüquqlarından vaxtında istifadə etməmələrinin, habelə dəlillərini irəli sürməmələrinin sonradan şikayət vermə hüquqlarının məhdudlaşdırılması ilə nəticələnəcəyini xüsusi olaraq izah etməlidir.

51. MPM-in 403.1-ci maddəsinə əsasən apellyasiya instansiyası məhkəməsinin qətnamələrindən və qərardadlarından tərəflər, üçüncü şəxslər, xüsusi icraat işləri üzrə isə ərizəçi və maraqlı şəxslərin tələbləri təmin olunmadığı hallarda şikayət verə bilərlər. Məhkəmə tərkibi xüsusi olaraq qeyd edir ki, istinad edilən maddə, bu Qərardadın 43-cü bəndində qeyd edilən əsaslarla apellyasiya şikayətinə baxılması yolverilməz hesab edilən şəxsin apellyasiya şikayəti vermədən kassasiya şikayəti vermək hüququna maneə kimi qiymətləndirilməməli və kassasiya şikayətinin icraata qəbulundan bu əsasla imtina edilməməlidir.

52. Belə ki, aşağı instansiya məhkəmələrində məhkəmə iclasının keçirilməsi yeri və vaxtı barədə məlumatlandırılmaması, yaxud da qəbul edilmiş məhkəmə aktının lazımi qaydada verilməməsi səbəbindən apellyasiya şikayət vermək imkanı olmamış şəxslərin, habelə apellyasiya şikayəti versə də, artıq qətnamənin həmin hissəsinin yoxlanılması əsası ilə şikayəti qeyri-mümkün hesab edilmiş şəxslərin kassasiya şikayəti vermək hüququ tanınmalıdır. Həmin şəxslərin şikayətləri üzrə kassasiya icraatı, bu şikayətlər üzrə mübahisələndirilən hissələrin digər tərəfin şikayəti üzrə kassasiya qaydasında yoxlanılmadığı halda mümkün olacaqdır.

53. Kassasiya instansiyası məhkəməsi apellyasiya şikayəti vermək imkanı olmayan şəxsin kassasiya şikayəti üzrə apellyasiya instansiyası məhkəməsinin qətnaməsini yoxlayarkən ümumi prosessual qaydaya uyğun olaraq yalnız mübahisələndirilən hissəyə qiymət verməlidir. Kassasiya şikayəti üzrə yoxlamanın həyata keçirilməsi zamanı kassasiyanın əsasını apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi hüquq normalarının pozulması və ya düzgün tətbiq edilməməsi təşkil etdikdə, kassasiya məhkəməsi öz səlahiyyətləri çərçivəsində maddi hüquq normalarının düzgün tətbiq olunub-olunmadığını bu dəlillərin digər tərəfin şikayəti üzrə apellyasiyanın predmetini təşkil edib-etməməsindən asılı olmayaraq yoxlamalıdır.

54. Kassasiya məhkəməsi tərəfindən apellyasiya instansiyası məhkəməsinin qətnaməsi mübahisələndirilən hissədə ləğv edilərək, yeni apellyasiya baxışına göndərilməsi ilə bağlı qərar qəbul edildikdə, apellyasiya instansiyası məhkəməsi işə təkrarən əvvəl verilmiş apellyasiya şikayəti üzrə və onun mübahisələndirdiyi baxış həddində baxmalıdır. Bununla yanaşı, apellyasiya şikayəti vermək imkanı olmamış şəxs yeni apellyasiya icraatı zamanı prosessual normaların tələblərinə uyğun qaydada apellyasiya şikayəti verərsə, şikayət icraata qəbul edilməli və onun dəlilləri üzrə də yoxlama həyata keçirilməlidir.

55. Kassasiya instansiyası məhkəməsi apellyasiya instansiyası məhkəməsi tərəfindən məhkəmə aktının baxış hədlərindən kənara çıxmaqla yoxladığını müəyyən etdiyi halda, işi həmin hissədə yeni apellyasiya baxışına göndərmədən sadəcə qətnamənin həmin hissədə ləğv edilməsi haqqında qərar qəbul etməli və şikayət vermiş tərəfə prosessual qanunvericiliyə uyğun olaraq apellyasiya şikayəti vermək hüququnu izah etməlidir.

56. Apellyasiya məhkəməsinin qətnaməsinin kassasiya qaydasında tam və yaxud qismən yoxlanıldığı halda isə yoxlanılan həmin hissə ilə bağlı digər şəxsin kassasiya şikayətinə baxılması mümkünsüz olacaqdır. Belə ki, kassasiya instansiyası məhkəməsi özünün qanuni qüvvədə olan və mübahisələndirilməyən qərarını yenidən yoxlamaq imkanına malik deyildir.

57. Bu baxımdan, məhkəmə tərkibi bir daha vurğulamağı məqsədəuyğun hesab edir ki, bütün instansiya məhkəmələrində olduğu kimi kassasiya icraatında da prosessual qanunvericiliyin verdiyi imkanlardan istifadə etməklə, tərəflərin məhkəmə iclasının keçirilməsi yeri və vaxtı barədə məlumatlandırılmasından ibarət mühüm vəzifənin icrasına riayət edilməlidir. Belə ki, bu vəzifələrin lazımi qaydada icra edilməməsi işdə iştirak edən şəxslərin hüquqlarının müdafiəsi imkanından məhrum edilməsi ilə nəticələnə bilər.

58. Eyni zamanda qeyd edilməlidir ki, məhkəmələr mübahisələndirilən hissəni müəyyən edərkən şikayətin nəticə hissəsində aktın tam və yaxud qismən ləğvinin tələb edilib-edilməməsindən asılı olmayaraq mübahisələndirilən hissəni şikayətin dəlilləri və şikayət verən şəxsin müvafiq hissəni mübahisələndirməsi ilə bağlı subyektiv hüququnun olub-olmaması baxımından müəyyən etməlidir. Əks halda, bu, bir tərəfdən şikayət verən şəxsin faktiki olaraq mübahisələndirmədiyi hissənin dispozitivlik prinsipinə zidd olaraq yoxlanılması, digər tərəfdən isə məhkəmə aktından şikayət verməmiş digər şəxslərin hüquqlarının əsassız məhdudlaşdırılması ilə nəticələnəcəkdir. Təsadüfi deyil ki, MPM-in 372.6-cı maddəsi birinci instansiya məhkəməsinin qətnaməsinin əsaslılığını onun həm düzünə, həm də dolayısı ilə mübahisələndirilən hissəsində yoxlanılmasını nəzərdə tutur.

59. O da qeyd edilməlidir ki, apellyasiya və kassasiya instansiyası məhkəmələri qəbul etdikləri aktların əsaslandırıcı hissəsində aşağı instansiyası məhkəməsinin qərarının hansı hissədə yoxladıqlarını aydın ifadə etməli, məhkəmə aktını hissəvi yoxladıqda isə nəticə hissəsində hansı hissənin ləğv edildiyini, dəyişdirildiyini və yaxud dəyişdirilmədən saxlanıldığını xüsusi olaraq göstərməli, dəyişdirilmədən saxlanılan hissənin isə mübahisələndirilib-mübahisələndirilmədiyinə diqqət yetirməlidilər.

60. Odur ki, işdə iştirak edən şəxslərin məhkəmə aktlarından verdikləri şikayətlərinin yuxarıda istinad edilən prosessual təminatların tətbiq edildiyi halda geri qaytarılması hüquqi müəyyənliyin və məhkəmə qərarlarının sabitliyinin təmin edilməsi kimi qanuni məqsədlər daşıdığından, qarşıya qoyulan məqsədə mütənasib olduğundan, habelə həmin müdaxilə cəmiyyətin ümumi maraqlarının tələbləri ilə şəxsin əsas hüquqlarının müdafiəsi tələbləri arasında ədalətli tarazlığı qoruyub saxladığından və qanunilik prinsipinin tələblərinə cavab verdiyindən yolverilən hesab edilməlidir.

61. Yuxarıda göstərilənlərə əsasən Ali Məhkəmənin Mülki və Kommersiya kollegiyalarının hakimlərindən ibarət məhkəmə tərkibi kassasiya instansiyası məhkəməsində icraat zamanı aşkar edilmiş mübahisəli hüquqi məsələyə baxaraq, belə qənaətə gəlir ki apellyasiya və kassasiya qaydasında məhkəmə aktları müvafiq olaraq şikayətə və ya şikayəti verən şəxsə münasibətdə deyil, mübahisələndirilən hissədə yoxlanılmalıdır. Məhkəmə aktlarının bir tərəfin (və ya tərəflərin) apellyasiya və ya kassasiya şikayəti əsasında yoxlanılmış hissələrinin, sonradan şikayət vermiş tərəfin şikayəti üzrə təkrarən apellyasiya və ya kassasiya qaydasında yoxlanılması yolverilməzdir. Məhkəmə aktlarının apellyasiya qaydasında yoxlanılmış hissələrindən verilmiş apellyasiya şikayəti (və ya şikayətləri) MPM-in 366.2-ci maddəsinə əsasən apellyasiya instansiyası məhkəməsi tərəfindən qeyri-mümkün hesab edilməlidir. Məhkəmə aktlarının kassasiya qaydasında yoxlanılmış hissələrindən verilmiş kassasiya şikayətinin (və ya şikayətlərinin) icraata qəbulundan kassasiya instansiyası məhkəməsi tərəfindən MPM-in 411-ci maddəsinə əsasən imtina edilməlidir.

Beləliklə, Ali Məhkəmənin Mülki və Kommersiya kollegiyalarına daxil olan bütün hakimlərdən ibarət məhkəmə tərkibi MPM-in 418-1.1-ci maddəsini rəhbər tutaraq

QƏRARA ALDI:

Apellyasiya və kassasiya qaydasında məhkəmə aktları müvafiq olaraq şikayətə və ya şikayəti verən şəxsə münasibətdə deyil, mübahisələndirilən hissədə yoxlanılmalıdır.

1. Məhkəmə aktlarının bir tərəfin (və ya tərəflərin) apellyasiya və ya kassasiya şikayəti əsasında yoxlanılmış hissələrinin, sonradan şikayət vermiş digər tərəfin şikayəti üzrə təkrarən apellyasiya və ya kassasiya qaydasında yoxlanılması yolverilməzdir.

2. Məhkəmə aktlarının apellyasiya qaydasında yoxlanılmış hissələrindən verilmiş apellyasiya şikayəti (və ya şikayətləri) apellyasiya instansiyası məhkəməsi tərəfindən MPM-in 366.2-ci maddəsinə əsasən qeyri-mümkün hesab edilməlidir.

3. Məhkəmə aktlarının kassasiya qaydasında yoxlanılmış hissələrindən verilmiş kassasiya şikayətinin (və ya şikayətlərinin) icraata qəbulundan kassasiya instansiyası məhkəməsi tərəfindən MPM-in 411-ci maddəsinə əsasən imtina edilməlidir.

4. Qərardad Azərbaycan Respublikası Ali Məhkəməsinin rəsmi internet səhifəsində və Azərbaycan Respublikası Ali Məhkəməsinin Bülletenində dərc edilsin.

Azərbaycan Respublikası Ali Məhkəməsinin

Mülki və Kommersiya kollegiyalarının

Mülki qanunvericiliyin lizinq müqaviləsinə dair münasibətləri tənzimləyən bəzi normalarının tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsinə dair

Q Ə R A R D A D

№ 1/2021

Bakı şəhəri
4 iyun 2021-ci il

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki və Kommersiya kollegiyaları,

Kommersiya kollegiyasının sədri Abiyeva Kəmalə Nəbi qızının (sədrlik edən) və hakimləri Məmmədli Bəhram Məmməd oğlu, Dadaşov İlqar Ağababaş oğlu və Qəribov

Bəhman Fərhad oğlu,

Mülki kollegiyanın sədri Hacıyev Sənan Firudin oğlu və hakimləri Nurməmmədov

Əhməd Güləhməd oğlu, Hüseynov Abiddin Qabil oğlu, Əliyev Zaur Əli oğlu, Vəliyeva Elşanə Rafiq qızı, Xələfov İlqar Rəhim oğlu, Şamayev Elşad Yaquboviç, Quliyev Gündüz Ağababa oğlu, Əliyev Ələsgər Əliabbas oğlu, Abbasov Aqil Əzizağa oğlu və Şəfiyev İsfəndiyar Əsəd oğlundan ibarət tərkibdə,

Həbibova Könül Əbülfəz qızının katibliyi ilə,

Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya kollegiyasının Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra – MPM) 418-1-ci maddəsinin tələblərinə müvafiq qaydada verdiyi təqdimatı əsasında mübahisəli hüquqi məsələyə hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə baxaraq aşağıdakıları müəyyən etdi.

I. Mübahisəli hüquqi məsələnin məzmunu

1. İlk iddia üzrə iddiaçı lizinq alanlar (bundan sonra – lizinq alan) cavabdeh lizinq verən MMC-yə (bundan sonra – lizinq verən) qarşı bir neçə tələblə, o cümlədən cavabdehlə bağladıqları lizinq müqavilələri üzrə lizinqə verilmiş yük avtomaşınlarının 2/5 hissəsi üzərində onların mülkiyyət hüquqlarının tanınması tələbi ilə məhkəməyə müraciət etmişlər.

2. İlk iddia tələbi onunla əsaslandırılmışdır ki, tərəflər arasında lizinq ödənişləri tam bitdikdən sonra avtomaşınların iddiaçıların mülkiyyətinə keçməsinə dair lizinq müqavilələri bağlanılmışdır. Müqavilələr üzrə cəmi lizinq ödənişləri edilmiş və müəyyən məbləğdə borc qalmışdır. Həmçinin lizinq verən lizinq obyektlərini özü alıb mülkiyyətinə keçirməli və mülkiyyətində olan əmlakı lizinqə verməli olduğu halda, lizinq obyektlərinin dəyərinin 40 faizindən də artıq hissəsini lizinq müqavilələri bağlanılmamışdan əvvəl lizinq obyektinin satıcısına lizinq alan kimi iddiaçılar ödəmişlər. Ona görə də, avtomaşınların yalnız 60 faizinə münasibətdə lizinq münasibətləri yaranmışdır. Belə olan təqdirdə lizinqə verilmiş avtomaşınların 2/5 hissəsi iddiaçıların mülkiyyətinə keçirilməli, lizinq ödənişinin ödənilməmiş qalan 60 faiz hissəsi hesablanaraq, həmin məbləğin ödənilməsi üçün iddiaçılara əlavə müddət verilməlidir.

3. Eyni zamanda cavabdeh MMC ilk iddia üzrə iddiaçılara qarşı qarşılıqlı iddia verərək onlardan lizinq müqaviləsi üzrə borcun tutulması, habelə lizinqə verilmiş avtomaşınların MMCyə qaytarılması barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

4. Qarşılıqlı iddia tələbi onunla əsaslandırılmışdır ki, lizinq müqavilələrini maliyyələşdirmək üçün tələb olunan vəsaitin çox hissəsi müvafiq Bankla bağlanmış müqavilə əsasında 36 ay müddətinə, illik faiz dərəcəsi 16 faiz olmaqla bağlanmış kredit müqavilələri hesabına, qalan hissə isə daxili vəsait hesabına cəlb edilmişdir. Qarşılıqlı iddia üzrə cavabdehlər lizinq ödənişlərini vaxtında təmin etmədiklərindən, kredit məbləğinə illik 26 faiz olmaqla cərimə faizlərini ödəməli olmuşdur. Lizinq alanlar bir ildən artıq lizinq ödənişlərini ödəməmiş, bununla da, onların lizinq müqavilələrinə xitam verildiyi tarixə lizinqverən MMC qarşısında lizinq ödənişləri üzrə borcu yaranmışdır.

5. Kassasiya icraatı zamanı mübahisəli hüquqi məsələyə dair kassasiya instansiyası məhkəməsinin əvvəlki məhkəmə tərkibinin ilk iddiaçıların lizinq müqavilələri üzrə avtomaşınlar üzərində mülkiyyət hüquqlarının tanınması tələbinə, eləcə də lizinq obyektləri olan avtomaşınların lizinq verənə - qarşılıqlı iddiaçıya qaytarılması tələbinə aid hissədə hüquqi mövqeyindən fərqli yanaşma tətbiq edilməsi müəyyən olunduğundan, hazırkı işə baxan

məhkəmə tərkibi hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Ali Məhkəməsinin sədrinə təqdimatla müraciət etmişdir.

6. Kassasiya instansiyası məhkəməsinin əvvəlki məhkəmə tərkibinin mövqeyinə görə müqavilələr üzrə ümumi ödənişlərin məbləği və lizinq obyektlərinin həmin məbləğlərə uyğun razılaşdırılmış dəyərləri nəzərə alınmaqla, dəyəri faktiki ödənilmiş avtomobillərin lizinq müqavilələrinin şərtlərinə müvafiq olaraq iddiaçıların mülkiyyətinə verilməsi məsələsi apellyasiya məhkəməsi tərəfindən düzgün qiymətləndirilməmişdir və işə yenidən baxılarkən bu məsələ hərtərəfli araşdırılaraq, işdəki sübutlar əsasında qanuni həllini tapmalıdır. Həmin məhkəmə tərkibi hesab etmişdir ki, iddiaçılardan həm borcun lizinq verənin xeyrinə tutulması, həm də faktiki dəyəri ödənilmiş yük avtomobilləri ilə birlikdə bütün avtomaşınların lizinq verənə qaytarılması barədə nəticəyə gəlməklə apellyasiya məhkəməsi müvafiq maddi və prosessual hüquq normalarının tələblərinə riayət etməmişdir.

7. Təqdimatın dəlillərinə görə isə həm mülki qanunvericiliyin lizinq münasibətlərini tənzimləyən müvafiq normalarının, həm də tərəflər arasında bağlanılmış lizinq müqavilələrinin şərtlərinə əsasən lizinq obyektlərinin üzərindəki mülkiyyət hüququnun lizinq verəndən lizinq alana keçməsinin əsas şərti bütün lizinq ödənişlərinin lizinq alan tərəfindən həyata keçirilməsidir. Həmin şərt lizinq alanlar tərəfindən yerinə yetirilmədiyi təqdirdə, avtomaşınların üzərində ilk iddiaçıların mülkiyyət hüququnun tanınmasına dair tələblərinin təmin edilməsi qeyri-mümkündür.

8. Göründüyü kimi, eyni iş üzrə Ali Məhkəmənin məhkəmə tərkibləri arasında mübahisəli məsələyə münasibətdə fərqli hüquqi yanaşmaların mövcud olduğu müəyyən olunur.

9. Beləliklə, lizinq mübhisələri üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsini zəruri edən, hazırkı qərardadla həll edilməli olan mübahisəli məsələlər aşağıdakılardan ibarətdir:

a) Lizinq alanın təqsiri üzündən lizinq müqaviləsinə vaxtından əvvəl xitam verildikdə lizinq müqaviləsinin qüvvədə olduğu müddət ərzində lizinq alan tərəfindən aparılmış ödənişlərin ümumi məbləği nəzərə alınaraq, ödənişə müvafiq hissədə lizinq obyektini təşkil edən bir və ya bir neçə əmlak üzərində lizinq alanın mülkiyyət hüququ tanına bilərmi?

b) Bir neçə lizinq müqaviləsi üzrə, lizinq alanlar tərəfindən lizinq obyektinin dəyəri üçün avans şəklində ödənilmiş ayrı-ayrı məbləğlərin cəmi nəzərə alınmaqla, lizinq obyektlərinin bir hissəsi üzərində lizinq alanların mülkiyyət hüquqları tanına bilərmi?

10. Ali Məhkəmə müzakirəyə çıxarılmış mübahisəli hüquqi məsələni ictimaiyyətin diqqətinə çatdıraraq maraqlı şəxsləri və təşkilatları yazılı formada əsaslandırılmış hüquqi rəyləri təqdim etməklə müzakirələrdə iştiraka dəvət etmiş, bununla bağlı rəylər məhkəməyə təqdim olunmuşdur.

11. Ali Məhkəmənin Kommersiya və Mülki kollegiyalarına daxil olan bütün hakimlərdən ibarət məhkəmə tərkibi mübahisəli məsələ ilə bağlı ilk növbədə lizinq münasibətlərinin mahiyyətinin, onun qanunvericilikdə tənzimlənməsi xüsusiyyətlərinin araşdırılmasını vacib hesab edir.

II. Lizinq münasibətlərinin mahiyyəti və onun qanunvericilikdə tənzimlənməsi

12. Lizinq mühüm iqtisadi-hüquqi hadisə olub, iqtisadiyyata investisiya qoyma forması, istehsalı maliyyələşdirmə üsuludur. Lizinq dünya kommersiya təcrübəsinə bəlli olan elə bir vasitədir ki, onun köməyi ilə sahibkar sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün lazım olan yeni əmlakı müvəqqəti istifadə üçün əldə edir, istifadə müddəti başa çatdıqda isə o, həmin əmlakı ya sahibinə qaytarır, ya istifadə müddətini uzadır, ya da mülkiyyət hüququ ilə əldə edir. Nə alqı-satqı, nə icarə, nə də kredit müqavilələrinin bu kimi kompleks məsələni ayrı-ayrılıqda həll etmək qabiliyyəti və imkanı vardır. Odur ki, lizinq, qeyd olunan müqavilələrin hər biri ilə müqayisədə əlverişli, sərfəli və münasib vasitədir. Bu səbəbdən, lizinqdən istifadə edilməsi

böyük üstünlüyə malikdir. Belə ki, istehsalı təşkil etmək və ya istehsalı yenidən qurmaq üçün az olmayan məbləğdə investisiya lazımdır. Əgər sahibkar lizinq vasitəsilə avadanlıq əldə edirsə, onda investisiyaya ehtiyac qalmır. Lizinqin üstünlüyü də məhz bundan ibarətdir.

13. Respublikamızda lizinq münasibətlərini tənzimləyən ilk qanunvericilik aktı 2003-cü il 9 avqust tarixədək qüvvədə olmuş "Lizinq xidməti haqqında" 1994-cü il 29 noyabr tarixli Qanun olmuşdur. Həmin Qanunla lizinqə xidmət kimi anlayış verilərək göstərilmişdir ki, "Lizinqistehlakçının sifarişi əsasında əmlakı satın almaqla onu istehlakçıya orta və uzun müddətə icarəyə vermək məqsədilə həyata keçirilən xidmət növüdür.".

14. 2000-ci il 1 sentyabr tarixindən qüvvədə olan Azərbaycan Respublikasının Mülki Məcəlləsi (bundan sonra – MM) lizinqə xüsusi anlayış vermədən onu mülki dövriyyə iştirakçılarının bağladıqları müqavilə növlərindən biri kimi müəyyən etmişdir. Lizinq müqaviləsinə görə lizinq verən müəyyən əşyanı müqavilə ilə şərtləşdirilmiş müəyyən haqla, müəyyən müddətə və digər şərtlərlə (lizinq alana əmlakı satın almaq hüququnun verilməsi də daxil olmaqla) lizinq alanın istifadəsinə verməyə borcludur. Lizinq alan müəyyənləşdirilmiş dövriliklə muzd ödəməyə borcludur (MM-in 747.1-ci maddəsi).

15. Lizinq müqaviləsinə görə lizinq alana müqavilə müddəti qurtardıqdan sonra lizinq predmetini əldə etmək və ya kirayələmək vəzifəsi həvalə edilə bilər və ya belə hüquq verilə bilər, bu şərtlə ki, müqavilə öz predmetinin tam amortizasiyası ilə bitməsin. Qəti dəyər hesablanarkən amortizasiya faktı bütün hallarda nəzərə alınmalıdır. Əgər müqavilədə müvafiq müddəa yoxdursa, lizinq alanın lizinq predmetini əldə etməyə ixtiyarı çatır (MM-in 747.3-cü maddəsi).

16. Lizinq müqaviləsinin subyektləri lizinq verən, lizinq alan və satıcıdır (mal verəndir).

Lizinq verən lizinq müqaviləsinə əsasən cəlb edilmiş və ya özünə məxsus maliyyə vəsaiti hesabına əldə etdiyi və mülkiyyətində olan əşyanı lizinq obyekti kimi lizinq alana müəyyən haqla, müəyyən müddətə və şərtlərlə (mülkiyyət hüququnun lizinq alana keçməsi və ya keçməməsi şərti də daxil olmaqla) müvəqqəti sahibliyə və ya istifadəyə verən hüquqi və ya fiziki şəxsdir;

Lizinq alan lizinq müqaviləsinə uyğun olaraq lizinq obyektini müəyyən haqla, müəyyən müddətə və şərtlərlə müvəqqəti sahibliyə və istifadəyə qəbul edən hüquqi və ya fiziki şəxsdir;

Satıcı (mal verən) alqı-satqı müqaviləsinə əsasən lizinq obyektini lizinq verənə satan hüquqi və ya fiziki şəxsdir;

Bu Məcəllə ilə müəyyənləşdirilmiş qaydada və hallarda Azərbaycan Respublikasının istənilən rezidenti və qeyri-rezidenti lizinq müqaviləsinin subyekti ola bilər (MM-in 747-1-ci maddəsi).

17. Maliyyə lizinqi zamanı lizinq obyektinə mülkiyyət hüququ, əgər maliyyə lizinqi müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, bütün lizinq ödənişlərinin verilməsi şərti ilə müqavilə müddəti başa çatmazdan əvvəl lizinq alana keçir (MM-in 748-2.5-ci maddəsi).

18. Mülki qanunvericiliyin həm lizinq müqaviləsinə verilən anlayışından, həm də lizinq münasibətlərinin iştirakçılarının dairəsindən göründüyü kimi, lizinq, lizinq predmeti olan əmlaka müvəqqəti istifadə və sahibliyi nəzərdə tutur. Qanunvericilik, eyni zamanda müqavilə müddəti qurtardıqdan sonra, lizinq alanın lizinq predmetini əldə etmək hüququnu da təsbit etmişdir.

19. MM-də müqavilənin subyektlərinə görə daxili və beynəlxalq lizinq fərqləndirilir. Məcəllənin 747-3-cü maddəsinə görə daxili lizinq hər ikisi Azərbaycan Respublikasının rezidentləri olan lizinq verən və lizinq alan arasında bağlanan müqavilədir. Beynəlxalq lizinqdə lizinq verən, yaxud lizinq alan (və ya onların hər ikisi) Azərbaycan Respublikasının qeyrirezidentləridir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hüquqi mövqeyi

20. MM-də lizinqin digər əlamətlərə görə növləri fərqləndirilməsə də, lizinq münasibətlərini tənzimləyən qanunvericiliyin şərhi ilə bağlı Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarlarında lizinqin növlərindən asılı olaraq xarakterik xüsusiyyətlərinə, lizinqin mahiyyətinə aydınlıq gətirilmişdir.

21. "Azərbaycan Respublikası Vergi Məcəlləsinin 140.6-cı maddəsinin həmin Məcəllənin 13.2.14.1, 140.2, 164.1.2-ci maddələri və Azərbaycan Respublikası Mülki Məcəlləsinin 747-1 və 747-5-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2017-ci il 12 yanvar tarixli Qərarı:

"... Lizinq, lizinq verənlə lizinq alan arasında əksər hallarda uzunmüddətli xarakter daşıyan maliyyə sazişidir. Lizinq müqaviləsinə görə lizinq verən lizinq alana lazım olan əmlakı satıcıdan mülkiyyət hüququ ilə əldə etməli və lizinq alanın müvəqqəti sahibliyinə və istifadəsinə verməlidir. Lizinqin bir sıra üstün cəhətləri vardır:

- lizinq üzrə maliyyələşdirmə bank kreditlərindən daha uzunmüddətlidir;
- əldə edilmiş mülkiyyət girov təminatı rolu oynayır;
- - vergi güzəştlərindən istifadə edilməsinə imkan yaradır və sair.

... mövcud qanunvericilikdə lizinq müqaviləsinin əsasən üçtərəfli saziş olması müəyyən olunmuşdur. Lizinq sövdələşməsinin iştirakçıları lizinq verən (lizinq şirkəti), lizinq alan və lizinqə veriləcək avadanlığın satıcısıdır. Lizinq sövdələşməsində ən azı iki müqavilənin bağlanması və ya bir üçtərəfli müqavilənin bağlanması nəzərdə tutulur:

1. Lizinq verən (lizinq şirkəti) və lizinq alan arasında (müştəri) lizinq müqaviləsinin bağlanması - lizinq alanın müraciəti təsdiq edildikdən sonra lizinq verən və lizinq alan arasında lizinq müqaviləsi bağlanır;

2. Alqı-satqı müqaviləsinin bağlanması – lizinq verən və avadanlığın satıcısı (mal verən) arasında alqı-satqı müqaviləsi bağlanır. Lizinq verən satıcı ilə alqı-satqı müqaviləsini lizinq alanın marağında bağlayır. Lizinq verən müqavilədə nəzərdə tutulan əmlakı hazırlamağa və ya əldə etməyə borcludur.

Eyni zamanda lizinq əməliyyatı özündə həm də satış elementini daşıyır.

... Beləliklə, lizinq müqaviləsinin əsas xüsusiyyətlərindən biri ondan ibarətdir ki, bu müqavilədə üç tərəf iştirak etməlidir. Mövcud mülki qanunvericilik lizinq əməliyyatlarının aparılmasında satıcının iştirakını vacib şərt kimi göstərir. Lizinqlə əlaqədar satıcı ilə alqı-satqı müqaviləsinin bağlanması mütləqdir. Mülki Məcəllənin 747-5-ci maddəsinin tələbinə əsasən lizinqlə əlaqədar bağlanmış alqı-satqı müqaviləsində mütləq lizinq obyektinin lizinq verən tərəfindən xüsusi olaraq lizinqə verilmək üçün əldə edildiyi göstərilməlidir. Hüquq ədəbiyyatında lizinqin əsasən 2 növü fərqləndirilir: 1) Əməliyyat (operativ) lizinqi; 2) Maliyyə lizinqi.

Maliyyə lizinqi lizinqin ən geniş yayılan formasıdır. Azərbaycan Respublikasının mülki qanunvericiliyində əsasən maliyyə lizinqi nəzərdə tutulmuşdur.

Maliyyə lizinqində avadanlığın uzun müddətli icarəyə verilməsi və müqavilə müddəti sonunda bu avadanlığın müqavilədə əvvəlcədən müəyyənləşdirilmiş qaydada lizinq alanın mülkiyyətinə keçməsi nəzərdə tutulur. Bu lizinq növündə müqavilələrin müddəti adətən avadanlıqların amortizasiya müddətləri ilə eyni olur. Maliyyə lizinqində avadanlıqları əsasən müştəri (lizinq alan) seçir və lizinq şirkətinə bu avadanlığın alınması üçün sifariş verir. Maliyyə lizinqində avadanlığın cari və əsaslı təmiri lizinq alan tərəfindən öz vəsaiti hesabına həyata keçirilir. Maliyyə lizinqi daha çox bir maliyyələşdirmə növüdür və müştəri tərəfindən seçilən avadanlığın lizinq şirkəti tərəfindən yalnız satın alınmasından ibarətdir.".

22**.** Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 747.1, 747-1.3 və 747-2-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair" 2020-ci il 28 dekabr tarixli Qərarı:

"... lizinq müqaviləsinin bağlandığı an əşyanın lizinq alanın mülkiyyətinə keçməsi və bununla da, mülkiyyətçinin dəyişməsi baş vermir. Satın alma şərtləşdirildiyi halda (bir qayda

olaraq lizinqin cəlbediciliyi bu şərtə görə mövcud olur) həmin əşya sonda lizinq alana satılır. Lizinq müqaviləsi lizinq verənin öz əmlakından daha yüksək dəyər əldə etməsinə, lizinq alanın isə aylıq haqq ödənişi müqabilində həmin əmlakdan faydalanmasına (gəlir götürməsinə, yaxud götürmədən istifadə etməsinə) imkan yaradır.

Beləliklə, lizinq daha çox mülkiyyətçinin öz əmlakını nisyə alğı-satqı yolu ilə hissəvi ödəniş əsasında satılmasına yönələn hərəkəti kimi xarakterizə edilir.

Lizinq alan ödənişi geri tələb etmir və lizinq alan müqavilənin hər hansı şərtini icra etmədiyinə görə lizinq verənin tələbi ilə lizinq obyekti üzərində sahiblik və istifadə hüquqlarından əvəzsiz olaraq məhrum edilə bilər".

Azərbaycan Respublikası Vergi Məcəlləsində maliyyə lizinqi

23**.** Vergi qanunvericiliyinin tələblərinə əsasən aşağıdakı hallarda əmlak icarəsi maliyyə lizinqi sayılır:

lizinq müqaviləsi ilə icarə müddəti qurtardıqdan sonra əmlakın mülkiyyətə verilməsi nəzərdə tutulur, yaxud icarə müddəti qurtardıqdan sonra icarəçi əmlakı müəyyən edilmiş və ya qabaqcadan güman edilən qiymətlərlə almaq hüququna malikdir, yaxud; icarə müddəti icarəyə götürülən əmlakın istismar müddətinin 75 faizindən artıqdır,

yaxud; icarə müddəti qurtardıqdan sonra əmlakın qalıq dəyəri icarənin əvvəlinə onun bazar

qiymətinin 20 faizindən azdır, yaxud; icarə haqqının ödəniləcək məbləği əmlakın icarənin əvvəlinə olan bazar qiymətinin ən

azı 90 faizinə bərabərdir və ya ondan artıqdır, yaxud; icarəyə götürülən əmlak icarəçi üçün sifarişlə hazırlanmışdır və icarə müddəti qurtardıqdan sonra icarəçidən başqa heç kəs tərəfindən istifadə edilə bilməz (Vergi Məcəlləsinin 140.2-ci maddəsi).

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"

24. Tədbir 2.4.1: Lizinq haqqında qanun layihəsinin hazırlanması Azərbaycanda lizinqin inkişafı üçün, ilk növbədə, vahid qanunun hazırlanması nəzərdən keçiriləcəkdir. Yeni qanun lizinq şirkətlərinin operativ lizinq xidmətləri göstərməsinə şərait yaradacaqdır. Yeni qanun əsasında müvafiq normativ hüquqi baza formalaşdırılacaq və lizinq şirkətlərinin fəaliyyəti üçün daha əlverişli şərait yaradılacaqdır.

25. Tədbir 2.4.2: Lizinq fəaliyyətinin tənzimlənməsi və güzəştlərin tətbiqi Lizinq bazarının daha sürətlə inkişaf etməsi üçün güzəştlərin tətbiq olunması təmin ediləcək və yeni tənzimlənmə mexanizmləri müəyyənləşdiriləcəkdir. Bundan əlavə, ölkə üçün xüsusi əhəmiyyət kəsb edən sektorlarda lizinq üçün əlavə güzəştlərin tətbiqi nəzərdən keçiriləcəkdir. Bu güzəştlər KOS subyektləri tərəfindən alternativ maliyyələşmə mənbəyi kimi lizinq xidmətlərindən istifadənin stimullaşdırılmasına şərait yaradacaqdır.

26. Göründüyü kimi, hazırda lizinq münasibətləri həm mülki, həm vergi qanunvericiliyi ilə, eləcə də Konstitusiya Məhkəməsi Plenumunun bu sahədə olan qanunvericiliyin şərh edilməsinə dair yuxarıda qeyd olunan Qərarları ilə tənzimlənsə də, lizinq xidmətlərinin əhəmiyyəti nəzərə alınaraq, lizinq haqqında vahid qanunun hazırlanması nəzərdə tutulmuşdur.

Lizinq müqaviləsi ilə bağlı beynəlxalq iqtisadi birliklərin mövqeyi və qabaqcıl xarici ölkə qanunvericiliklərindən istinadlar:

27. İlk növbədə qeyd olunmalıdır ki, lizinq üçün vahid beynəlxalq anlayış yoxdur. Bu lizinq münasibətlərinin çoxşaxəli olmasından, müxtəlif ölkələrin qanunvericiliyinin və vergi sisteminin fərqli yanaşmasından irəli gəlir.

28. Türkiyə Respublikasının 2012-ci il 21 noyabr tarixli 6361 saylı "Finansal kiralama, faktorinq və finansman şirkətləri" Qanunu:

Maddə 3, ç) bəndi. Maliyyə icarəsi (finansal kiralama): Maliyyə icarə müqaviləsinə əsasən bu qanuna və ya müvafiq qanunvericiliyə uyğun olaraq səlahiyyət verilmiş icarəyə verən tərəfindən maliyyələşdirmənin təmin edilməsi məqsədilə, icarə müddəti bitdikdən sonra əmlaka mülkiyyət hüququnun kirayəçiyə verilməsinə; kirayəçiyə icarə malların kirayə müddətinin sonunda malın mövcud dəyərindən (rayiç bədəl) aşağı qiymətə almaq hüququnun verilməsinə; kirayə müddətinin əmlakın iqtisadi ömrünün yüzdə səksənindən çoxunu əhatə etməsinə və ya maliyyə icarə müqaviləsinə uyğun olaraq həyata keçiriləcək icarə ödənişlərinin cari dəyərlərinin cəminin malın cari dəyərinin yüzdə doxsanında daha çox dəyər təşkil etməsinə imkan verən icarə əməliyyatdır.

29. ABŞ-ın Federal Mühasibat Standartı Şurası (Fedaral Accounting Standart Board) tərəfindən nəşr olunan 13 saylı Federal Mühasibat Standartına əsasən icarənin "maliyyə lizinqi" olması üçün aşağıdakı meyarlardan ən azı biri yerinə yetirilməlidir:

1) İcarə müqaviləsi kirayəyə götürülmüş əmlakı simvolik bir qiymətə almaq hüququnu verir;

2) İcarə müqaviləsi, icarəyə götürülmüş əmlaka mülkiyyətin müqavilənin sonunda avtomatik olaraq kirayəçiyə keçəcəyini nəzərdə tutur;

3) İcarə müddəti ərzində kirayəçinin ödəyəcəyi kirayələrin ümumi diskontlaşdırılmış cari dəyəri icarəyə götürülmüş əmlakın bazar dəyərinin ən azı 90%-nə bərabərdir;

4) Kirayə müddəti icarəyə götürülmüş əmlakın iqtisadi ömrünün ən azı 75%-nə bərabərdir;

5) İcarə predmeti olan daşınmaz əmlak, icarəçinin müəyyən etdiyi xüsusi tələblər üçün alınır və ya tikilir və kirayəçi xaricində başqaları tərəfindən istifadə olunma ehtimalı azdır.

30. İAS-17-lizinq üçün beynəlxalq mühasibat standartlarına görə lizinq-əmlakdan istifadə hüququnun razılaşdırılmış müddətə ödəniş və ya dövri ödənişlər əvəzində lizinq verənin lizinq alana verməsini nəzərdə tutan razılaşmadır.

31. Avropa Maliyyə Lizinqi Birliyi (European Leasing Association - ELA) tərəfindən verilən anlayışa görə maliyyə lizinqi müəyyən müddət üçün lizinq verən (lessor) və lizinq alan (lessee) arasında imzalanan və istehsalçıdan lizinq alan tərəfindən seçilən, lizinq verən tərəfindən satın alınan malın, lizinq verənin mülkiyyətinə, lizinq alanın sahibliyinə verilməsinə dair müqavilədir.

32. Beynəlxalq Mühasibat Standartları Komitəsi (International Accounting Standards Committee - IASC) (üzvləri: Avstraliya, Kanada, Fransa, Almaniya, Yaponiya, Meksika, Hollandiya, İngiltərə, İrlandiya və ABŞ-ın iqtisadi qurumları) tərəfindən verilmiş anlayışa görə icarə müqavilələrinin maliyyə lizinqi hesab edilməsi üçün aşağıdakı dörd şərtdən ən azı biri yerinə yetirilməlidir:

1) icarə müqaviləsində icarə müddəti bitdikdən sonra icarəyə götürülmüş əmlaka mülkiyyət hüququnun kirayəçiyə verilməsi;

2) icarə müqaviləsində kirayəçinin icarə sonunda icarəyə götürdüyü əmlakı müddətin sonundakı bazar qiymətindən aşağı qiymətə almaq hüququnun olması;

3) icarə müqaviləsində göstərilən icarə müddəti, icarəyə götürülmüş əmlakın iqtisadi ömrünün ən azı 75%-nə bərabər olması;

4) icarə müqaviləsində müəyyən edilmiş icarə müqavilənin başlanğıc tarixindəki malın bazar qiymətinin ən azı 90%-nə bərabər olması.

IASC, bu dörd şərtdən biri mövcud olduğu təqdirdə icarə müqaviləsini "maliyyə lizinqi" kimi qiymətləndirir.

III. Məhkəmə tərkibinin mövqeyi

a) Lizinq alanın təqsiri üzündən lizinq müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, lizinq müqaviləsi üzrə ödənişlərin ümumi məbləği nəzərə alınaraq, ödənişə müvafiq hissədə lizinq obyektinin bir hissəsi üzərində lizinq alanın mülkiyyət hüququ tanına bilərmi?

33. Mülki qanunvericiliyin tələblərinə görə lizinq obyekti Azərbaycan Respublikasının qanunlarına əsasən sərbəst mülki dövriyyədən çıxarılmış və ya mülki dövriyyəsi məhdudlaşdırılmış əşyalar istisna olmaqla, qanunvericiliklə müəyyənləşdirilmiş təsnifat üzrə əsas vəsaitə aid olan daşınar və ya daşınmaz əşyalardır (MM-in 747-2-ci maddəsi).

34. Anoloji yanaşma Vergi Məcəlləsinin (bundan sonra – VM) 140.1-ci maddəsində də qeyd olunmuşdur. Maddənin tələbinə əsasən maliyyə lizinqinin obyekti əsas vəsaitlərə aid edilən daşınar və daşınmaz əmlakdır.

35. Əsas vəsaitlərin anlayışı isə VM-in 13.2.17-ci maddəsində verilmişdir. Əsas vəsaitlər - istifadə müddəti bir ildən çox olan və dəyəri 500 manatdan çox olan, bu Məcəllənin 114-cü maddəsinə uyğun olaraq amortizasiya edilməli olan maddi aktivlərdir (VM-in 13.2.17-ci maddəsi).

36. Əsas vəsaitlərə aşağıdakıları aid etmək olar - binalar, tikintilər və qurğular; maşınlar və avadanlıq; yüksək texnologiyalar məhsulu olan hesablama texnikası; nəqliyyat vasitələri; digər əsas vəsaitlər (VM-in 114.3-cü maddəsi).

37. Bu sahədə formalaşmış məhkəmə təcrübəsinin təhlili göstərir ki, əksər hallarda, konkret dəyərə malik olan, fərdiləşdirilən, ayrıca rəsmi qeydiyyatın aparılması tələb olunan əsas vəsaitlər qismində nəqliyyat vasitələri bir müqavilə ilə vahid lizinq obyekti şəklində lizinqə verilir, lizinq obyektinin ümumi dəyəri göstərilməklə ödəniş qrafiki tərtib edilir.

38. Lakin lizinq müqavilələrinin belə məzmunda tərtib edilməsi, yuxarıda göstərilən mübahisəli məsələlərin (bax yuxarıda 9-cu bənd) yaranmasına zəmin yaradır.

39. Qeyd olunmalıdır ki, qanunvericilikdə əsas vəsaitlərin bir neçəsinin bir lizinq obyekti şəklində lizinqə verilməsini qadağan edən və ya hər bir əsas vəsait üzrə ayrıca lizinq müqaviləsinin bağlanmalı olmasına dair imperativ norma nəzərdə tutulmamışdır. Bu baxımdan göstərilən məsələni tərəflər müqavilə azadlığı prinsipinə uyğun olaraq bağladıqları müqavilənin şərtləri ilə müəyyən edirlər.

40. Hazırkı mübahisəli məsələ üzrə tərəflər arasında bağlanmış daxili maliyyə lizinqi müqavilələrindən biri üzrə hər biri ayrılıqda dəyəri olan bir neçə nəqliyyat vasitəsi, cəmi dəyər olmaqla bir lizinq obyekti şəklində lizinqə verilmiş, bütün nəqliyyat vasitələri üçün vahid ödəniş qrafiki tərtib edilmişdir.

41. Lizinq obyekti üzərində lizinq alanın mülkiyyət hüququnun yaranması ilə bağlı qeyd olunmalıdır ki, qanunvericiliyin yuxarıda istinad olunan müddəalarından (bax yuxarıda 17-18, 21-22-ci bəndlər) göründüyü kimi, yalnız maliyyə lizinqində lizinq obyektinin müqavilə müddətinin sonunda müqavilə ilə müəyyən edilmiş qaydada lizinq alanın mülkiyyətinə keçməsi nəzərdə tutulur.

42. Hazırkı halda tərəflər arasında bağlanmış daxili maliyyə lizinqi müqavilələrinin lizinq obyektinə mülkiyyət hüququnun keçməsi qaydasını müəyyən edən müvafiq bəndində nəzərdə tutulmuşdur ki, bu müqavilə üzrə lizinqin ümumi müddəti bitdikdən sonra müqavilə üzrə, habelə hesablanmış dəbbə pulu və cərimələrin ödənilməsi şərti ilə, lizinq alan lizinq obyektini öz mülkiyyətinə əldə edə bilər. Bunun üçün lizinq alan lizinq verənə lizinq obyektinin öz mülkiyyətinə əldə etməyə hazır olması barədə məlumat verməlidir. Bu halda lizinq obyektinin satınalma dəyəri lizinq ödənişi cədvəlinin son ayı üzrə lizinq ödənişinin məbləği (cari dəyər və faiz) təşkil edir. Son lizinq ödənişi, dəbbə pulu və cərimələr ödənildikdən sonra lizinq verən, lizinq alana lizinq obyektinə mülkiyyət hüququnu verən sənədlərin hazırlanmasını öhdəsinə

götürür. Lizinq obyektinə mülkiyyət hüququnun keçməsi/yenidən rəsmiləşdirilməsi ilə bağlı xərcləri lizinq alan ödəyir.

43. Həm mülki qanunvericiliyin (bax yuxarıda 17-ci bənd), həm də tərəflər arasında bağlanmış lizinq müqavilələrinin şərtlərinə əsasən lizinq obyekti üzərində mülkiyyət hüququnun lizinq verəndən lizinq alana keçməsinin əsas şərti lizinq alan tərəfindən bütün lizinq ödənişlərinin aparılmasıdır. Lizinq ödənişlərinin ümumi məbləği, lizinq müqaviləsinə əlavə formasında, lizinq verən və lizinq alan tərəfindən təsdiq edilir.

44. Tərəflər arasında bağlanmış daxili maliyyə lizinqi müqavilələrinə əsasən lizinq alan lizinq obyektindən istifadə üçün haqqı bu müqavilə ilə nəzərdə tutulan ödəniş müddətləri üzrə ardıcıl olaraq iki dəfədən artıq ödəmirsə, lizinq alanın lizinq obyektinə sahiblik və istifadə hüquqlarına lizinq verən tərəfindən birtərəfli qaydada xitam verilə bilər.

45. Müqavilənin həmin şərti MM-in 748-1.12-ci maddəsinin tələblərinə uyğundur. Belə ki, mülki qanunvericilik dörd halda lizinq verənə pul məbləğlərini və lizinq obyektini mübahisəsiz geri almaq və bununla da, lizinq müqaviləsini vaxtından əvvəl ləğv etmək hüququnu tanıyır. Bu hallardan biri, lizinq verənə lizinq alanın lizinq obyektindən istifadə üçün lizinq ödənişini müqavilə ilə nəzərdə tutulan ödəniş müddətləri üzrə ardıcıl olaraq iki dəfədən artıq ödəməməsidir.

46. MM-in lizinq müqaviləsinin iştirakçılarının hüquq və vəzifələrini müəyyən edən 7481-ci maddəsinin tələbinə görə lizinq müqaviləsinə xitam verildikdən sonra lizinq alan lizinq obyektini normal köhnəlmə (amortizasiya) nəzərə alınmaqla, lizinq verənə aldığı vəziyyətdə qaytarmalıdır.

47. Göründüyü kimi, həm mülki qanunvericilik, həm də tərəflərin təsdiq etdiyi lizinq müqaviləsi lizinq alan tərəfindən lizinq ödənişinin müqavilə ilə nəzərdə tutulan ödəniş müddətləri üzrə ardıcıl olaraq iki dəfədən artıq ödəməməsi halında hər hansı qeyd şərt olmadan, istisnasız olaraq lizinq obyektinin tam tərkibdə geri qaytarılmasını nəzərdə tutur.

48. Beləliklə, Ali Məhkəmənin Kommersiya və Mülki kollegiyalarının hakimlərindən ibarət məhkəmə tərkibi mülki qanunvericiliyin tələblərini və Konstitusiya Məhkəməsi Plenumunun yuxarıda qeyd olunan hüquqi mövqeyini nəzərə alaraq belə qənaətə gəlir ki, lizinq müqaviləsində ayrı qayda nəzərdə tutulmamışdırsa, lizinq alanın təqsiri üzündən lizinq müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, lizinq obyekti lizinq verənə qaytarılmalıdır. Lizinq müqaviləsinin qüvvədə olduğu müddət ərzində lizinq alan tərəfindən aparılmış ödənişlərin ümumi məbləği nəzərə alınaraq, ödənişə müvafiq hissədə lizinq obyektinin bir hissəsi üzərində lizinq alanın mülkiyyət hüququ tanına bilməz.

b) Lizinq müqavilələri üzrə lizinq obyektlərinə görə avans ödənişləri nəzərə alınmaqla, ödənişlərin məbləğinə müvafiq hissədə lizinq alanların mülkiyyət hüquqları tanına bilərmi?

49. Hüquq ədəbiyyatına görə avans gələcəkdə alınacaq mal və ya göstəriləcək xidmətlərin dəyərinin əvvəlcədən qismən pul şəklində ödənilmiş məbləğidir.

50. MM-in “Öhdəliklərin icrasının təmin edilməsi” adlanan XXIV fəslində yer alan 491-ci maddəsinə görə müqavilə üzrə tərəfin verəcəyi ödənişlər hesabına ödənilmiş məbləğin beh olub-olmadığına şübhə yarandıqda, o cümlədən bu Məcəllənin 491.2-ci maddəsində müəyyənləşdirilmiş qaydaya riayət edilməməsi nəticəsində şübhə yarandıqda həmin məbləğ, əgər əksi sübuta yetirilməsə, avans kimi ödənilmiş sayılır.

51. MM avansla bağlı konkret nizamlama müəyyən etmədiyindən, bu barədə razılaşmanın formasına da məhdudiyyət qoymamışdır. Bununla belə nəzərə alınmalıdır ki, Məcəllənin 491.3-cü maddəsi ümumi normadır və onun tətbiqi zamanı konkret müqavilənin xüsusiyyəti nəzərə alınmalıdır.

52. Lizinq münasibətlərində avans ödənişlərinin aparılmasının hüquqi əsasları ilə bağlı qeyd edilməlidir ki, MM-in müvafiq münasibətləri tənzimləyən normalarında lizinq alan tərəfindən avansın ödənilməli olmasına dair norma nəzərdə tutulmamışdır. Eləcə də, qanunvericiliklə, avansın ödənilməsi qadağan edilməmişdir.

53. Məhkəmə tərkibi hesab edir ki, məsələnin daha aydın şəkildə izahı və müqayisəsi üçün, avansın ətraflı şəkildə tənzimləndiyi "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun müddəaları nəzərdən keçirilə bilər: "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunu:

54**.**"Maddə 40-1. Satınalma müqaviləsi üzrə ödəmələr

40-1.1. Satınalan təşkilat satınalma müqaviləsinin yerinə yetirilməsi üçün qalib malgöndərənə (podratçıya) tender sənədlərində göstərilən həcmdə, lakin satınalma müqaviləsinin ümumi dəyərinin 30 faizindən çox olmayaraq avans ödəyə bilər. Avansın alınması üçün malgöndərən (podratçı) tərəfindən satınalan təşkilata avans ödənişinin ümumi həcmindən az olmayan məbləğdə bank zəmanəti təqdim olunmalıdır. Malgöndərən (podratçı) avans ödənişindən yalnız satınalma müqaviləsi ilə bağlı öhdəliklərin yerinə yetirilməsi üçün istifadə etməlidir;

40-1.3. Satınalma müqaviləsi üzrə ödəmələr (o cümlədən avans ödənişi) satınalan təşkilat tərəfindən tenderin əsas şərtlər toplusunda və satınalma müqaviləsinin xüsusi şərtlərində müəyyənləşdirilmiş qaydada və məbləğdə, malgöndərənin (podratçının) təqdim etdiyi sənədlər (qaimələr, hesab fakturalar, aktlar və digər sənədlər) əsasında, ən qısa müddət ərzində, lakin 15 bank günündən gec olmamaq şərti ilə aparılır;

40-1.5. Satınalma müqaviləsi üzrə ödəmələr (o cümlədən avans ödənişi) satınalma müqaviləsində müəyyən olunmuş müddətdə ödənilmədikdə gecikdirilmiş hər gün üçün satınalma müqaviləsində müəyyən olunmuş məbləğdə faiz hesablanır.".

55. Sadalanan normaların məzmunundan göründüyü kimi, mahiyyət etibarilə avans, mülki hüquqi əqd üzrə əvvəlcədən aparılan ödənişdir və podratçı avans ödənişindən yalnız müqavilə ilə bağlı öhdəliklərin yerinə yetirilməsi üçün istifadə etməlidir.

56. Hazırkı mübahisəli hüquqi məsələ üzrə lizinq alanlar lizinq obyektinin dəyərinin bir hissəsini avans ödənişi şəklində lizinq müqaviləsi bağlananadək lizinq obyektinin satıcısına ödəmələrinə istinadla, ödənişə müvafiq hissədə lizinq obyektləri üzərində mülkiyyət hüquqlarının yarandığını iddia edirlər.

57. Bununla bağlı tərəflər arasında bağlanmış lizinq müqavilələrində lizinq alanlar avans ödəməyi öhdələrinə götürmüşlər. Həmçinin müqavilədə belə şərt nəzərdə tutulmuşdur ki, lizinq alan avans məbləğini tam həcmdə ödəmədikdə müqaviləyə lizinq verənin təşəbbüsü ilə birtərəfli qaydada xitam verilir.

58. Göründüyü kimi, MM-də lizinq müqaviləsi bağlanarkən lizinq alanın avans ödəmək öhdəliyi nəzərdə tutulmasa da, tərəflər sərbəst iradə ifadələrinə uyğun olaraq müəyyən etdikləri müqavilə şərtləri ilə lizinq alan tərəfindən avansın ödəniləcəyinə dair razılıq əldə etmişlər.

59. Lakin həmin müqavilələrdə lizinq obyektinə görə avans ödənişinin təyinatı, müqavilə münasibətlərinə xitam veriləcəyi və mübahisə yaranacağı halda qarşılıqlı hesablaşmalar zamanı həmin ödənişin hansı qaydada nəzərə alınacağı barədə şərt müəyyən edilməmişdir. Odur ki, yuxarıda qeyd olunan mübahisəli məsələlərin yaranmasına zəmin yaratmamaq üçün lizinq müqaviləsi üzrə tərəflərin hazırda qüvvədə olan mülki qanunvericilikdə lizinq alanın avans ödəmək öhdəliyini tənzimləyən müvafiq normanın olmamasını nəzərə almaları, mübahisə halında qarşılıqlı hesablaşmaların aparılması qaydasına dair müqavilə şərtini müəyyən etmələri məqsədəuyğun olardı.

60. Həmçinin nəzərə alınmalıdır ki, lizinq alanların avans ödənişləri zamanı məqsəd əşya üzərində mülkiyyət hüququ əldə edilməsindən ibarət olmuşdursa, bunun hüquqi forması lizinq müqaviləsi deyil, alqı-satqı müqaviləsi ola bilərdi. Başqa sözlə, lizinq alanlar lizinq obyektlərinə

görə ödədikləri məbləğ həddində, lizinq müqavilələri bağlamadan da müvafiq əşyaları mülkiyyətlərinə almaları üçün alqı-satqı müqavilələri bağlaya bilərdilər.

61. Məhkəmə tərkibi mülki qanunvericiliyin tələblərini, tərəflər arasında bağlanmış hazırkı lizinq müqavilələrinin şərtlərini təhlil edərək, Konstitusiya Məhkəməsi Plenumunun yuxarıda qeyd olunan qərarlarında şərh olunmuş mövqeyini (bax yuxarıda 21-22-ci bəndlər) nəzərə alaraq belə qənaətə gəlir ki, bir neçə lizinq müqaviləsi üzrə, lizinq alanlar tərəfindən avans şəklində ödənilmiş ayrı-ayrı məbləğlərin cəmi nəzərə alınmaqla, lizinq obyektlərinin bir hissəsi üzərində lizinq alanların mülkiyyət hüquqları tanına bilməz.

62. Beləliklə, Ali Məhkəmənin Kommersiya və Mülki kollegiyalarına daxil olan bütün hakimlərdən ibarət məhkəmə tərkibi MPM-in 418-1-ci maddəsini rəhbər tutaraq

QƏRARA ALDI:

1. Lizinq müqaviləsində ayrı qayda nəzərdə tutulmamışdırsa, lizinq alanın təqsiri üzündən lizinq müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, lizinq obyekti lizinq verənə qaytarılmalıdır. Lizinq müqaviləsinin qüvvədə olduğu müddət ərzində lizinq alan tərəfindən aparılmış ödənişlərin ümumi məbləği nəzərə alınaraq, ödənişə müvafiq hissədə lizinq obyektini təşkil edən bir və ya bir neçə əmlak üzərində lizinq alanın mülkiyyət hüququ tanına bilməz.

2. Bir neçə lizinq müqaviləsi üzrə, lizinq alanlar tərəfindən lizinq obyektinin dəyəri üçün avans şəklində ödənilmiş ayrı-ayrı məbləğlərin cəmi nəzərə alınmaqla, lizinq obyektlərinin bir hissəsi üzərində lizinq alanların mülkiyyət hüquqları tanına bilməz.

3. Qərardad Azərbaycan Respublikasının Ali Məhkəməsinin rəsmi internet səhifəsində və Azərbaycan Respublikasının Ali Məhkəməsinin Bülletenində dərc edilsin.

Azərbaycan Respublikası Ali Məhkəməsinin

Mülki və Kommersiya kollegiyalarının

İcra icraatı çərçivəsində borclunun əmlakının hərracdan satılması qaydası ilə bağlı qanunvericiliyin tətbiqi üzrə

Q Ə R A R D A D

№ 02/2021

Bakı şəhəri
2021-ci il 24 noyabr

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki və Kommersiya kollegiyaları,

Mülki kollegiyanın sədri Hacıyev Sənan Firudin oğlunun (sədrlik edən) və hakimləri Əliyev Ələsgər Əliabbas oğlu, Hüseynov Abiddin Qabil oğlu, Əliyev Zaur Əli oğlu, Xəlilov İsmayıl Kamil oğlu, Əhmədova Mehparə Tofiq qızı, Vəliyeva Elşanə Rafiq qızı, Əhmədov Əhməd Abbas oğlu, Nurməmmədov Əhməd Güləhməd oğlu, Xələfov İlqar Rəhim oğlu, Həsənov Vüqar Təvəkgül oğlu, Şamayev Elşad Yaquboviç, Abbasov Aqil Əzizağa oğlu və Şəfiyev İspəndiyar Əsəd oğlu,

Kommersiya kollegiyasının sədri Abiyeva Kəmalə Nəbi qızı və hakimləri Dadaşov İlqar Ağababaş oğlu və Qəribov Bəhman Fərhad oğlundan ibarət tərkibdə,

Əkbərli Əkbər Eldar oğlunun katibliyi ilə,

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyasının Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra – MPM) 418-1-ci maddəsinin tələblərinə müvafiq qaydada verdiyi 2021-ci il 24 may tarixli təqdimatı əsasında mübahisəli hüquqi məsələyə hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə baxaraq aşağıdakıları müəyyən etdi.

Mübahisəli hüquqi məsələnin məzmunu

1. Hazırda Ali Məhkəmənin icraatında əvvəllər müəyyən edilmiş hüquqi mövqedən fərqli yanaşmanın tətbiqini zəruri edən “hərracın yekunlarına dair protokolun etibarsız hesab edilməsi tələbinə dair” mülki iş vardır.

2. Mülki işin hallarından göründüyü kimi, icra məmuru tərəfindən notariusun icra qeydinin icra edilməsi məqsədilə borclunun icra qaydasında üzərinə həbs qoyulmuş əmlakının hərracda satılmasına dair hərrac təşkilatına sifariş məktubu göndərilmişdir. Hərrac təşkilatı qeyd edilən sifariş əsasında hərracı “İpoteka haqqında” Azərbaycan Respublikasının Qanununda (bundan sonra – “İpoteka haqqında” Qanun) müəyyən edilmiş qaydada keçirmişdir. Belə ki, ilkin hərrac baş tutmadığından əmlak ilkin satış qiymətindən müəyyən faizlə aşağı qiymətə təkrar hərraca çıxarılmışdır. Təkrar hərrac da baş tutmadığından ilkin satış qiymətinə əlavə faiz endirimi tətbiq edilməklə tələbkara təklif edilmiş və tələbkar tərəfindən əmlak həmin qiymətə əldə edilmişdir.

3. İddiaçı tərəf kassasiya şikayəti verərək, icra sənədi üzrə borca görə tutmanın ipoteka predmeti olmayan əmlaka yönəldilməsi zamanı hərracın “İpoteka haqqında” qanunda müəyyən edilmiş qaydada keçirilməsinin qanunsuz olduğuna istinad etmişdir.

4. İşə kassasiya qaydasında baxılarkən kassasiya şikayətinin dəlilini təşkil edən məsələyə münasibətdə Ali Məhkəmənin ayrı-ayrı məhkəmə tərkibləri arasında fərqli hüquqi yanaşmaların mövcud olduğu müəyyən olunmuşdur.

5. Belə ki, Ali Məhkəmənin Mülki kollegiyasının bir sıra məhkəmə tərkibinin əvvəllər oxşar mübahisələr üzrə qəbul etdiyi qərarlarında işə baxan məhkəmə tərkibindən fərqli hüquqi mövqe ilə çıxış edilərək, hazırkı işdə olduğu kimi ipoteka predmeti olmayan, icra icraatı çərçivəsində tutmanın yönəldildiyi borclunun əmlakının qanunun analogiyası üzrə “İpoteka haqqında” Qanunda müəyyən edilmiş qaydaya uyğun keçirilmiş hərracdan satılması qanuni hesab edilmişdir.

6. Digər hüquqi mövqe isə ondan ibarətdir ki, icra sənədinin icrası qaydasında borclunun mülkiyyətində olan ipoteka predmeti olmayan əmlakının analogiya üzrə “İpoteka haqqında” Qanunda müəyyən edilmiş hərrac qaydalarına uyğun olaraq satılması qanunvericiliyə ziddir. Belə ki, ipoteka predmeti olmayan əmlaka icra sənədi üzrə tutmanın yönəldilməsi və hərracdan satılması qaydası “İcra haqqında” Azərbaycan Respublikası Qanununun (bundan sonra – “İcra

haqqında” Qanun) və Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra – Mülki Məcəllə) müvafiq müddəaları ilə tənzimlənir.

7. Göründüyü kimi, məhkəmə tərkibləri arasında fərqli hüquqi yanaşmalar mövcud olduğundan qeyd edilən hüquqi məsələyə dair qanunvericiliyin tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi zərurəti yaranmışdır.

8. MPM-in 418-1-ci maddəsinə müvafiq olaraq Ali Məhkəmənin məhkəmə tərkibi işə kassasiya qaydasında baxarkən Ali Məhkəmənin digər məhkəmə tərkibinin əvvəllər qəbul etdiyi qərarda müəyyən edilmiş hüquqi mövqedən fərqli yanaşmanın tətbiq edilməsini zəruri hesab etdikdə, həmin mübahisəli hüquqi məsələyə hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə Ali Məhkəmənin mülki və kommersiya kollegiyalarına daxil olan bütün hakimlərdən ibarət tərkibdə baxılır.

9. Bu məqsədlə Ali Məhkəmənin sədri tərəfindən hazırda işə baxan Mülki kollegiyanın məhkəmə tərkibinin təqdimatı təmin edilərək, hüququn tətbiqi üzrə qeyd edilən mübahisəli hüquqi məsələ Mülki və Kommersiya kollegiyalarına daxil olan bütün hakimlərin müzakirəsinə çıxarılmışdır.

10. Mübahisəli hüquqi məsələ hüquq ictimaiyyətinin diqqətinə çatdırılmış, yazılı formada əsaslandırılmış rəylər (amicus curiae rəyi) Ali Məhkəməyə təqdim edilmişdir.

Məhkəmə tərkibinin mövqeyi

11. Məhkəmə tərkibi hesab edir ki, icra sənədi üzrə tutmanın borclunun mülkiyyətindəki ipoteka predmeti olmayan əmlakına yönəldilməsi zamanı hərracın qanunun analogiyası üzrə “İpoteka haqqında” Qanunda müəyyən edilmiş qaydalara uyğun aparılmasının mümkünlüyünə qiymət vermək üçün ilk növbədə hərracla bağlı qanunvericiliyin müəyyən etdiyi bütün mümkün qaydalar nəzərdən keçirilməlidir.

12. Qanunvericiliyin təhlili onu göstərir ki, qüvvədə olan qanunvericilik hərracın keçirilməsinin müxtəlif qaydalarını müəyyən etmişdir və bu qaydalar biri-birindən əsasən əmlakın ilkin satış qiyməti, keçirilməsi mümkün olan hərracların sayı, hərracın baş tutmaması səbəbi ilə keçirilən növbəti hərracda qiymət endiriminin tətbiqinin mümkünlüyü və digər xüsusiyyətləri ilə fərqlənir.

13. Belə ki, “İpoteka haqqında” Qanunun 42 və 43-cü maddələrinə əsasən ipoteka predmeti olan əmlakın likvid qiymətlə satışa çıxarılması, ümumilikdə 2 hərracın keçirilməsi imkanı, üstəlik birinci və təkrar hərrac baş tutmadığı halda ilkin satış qiymətinin ardıcıl olaraq 15 və 25 faiz azaldılması və ən nəhayət təkrar hərracın baş tutmadığı halda ipoteka saxlayanın əmlakı 30 gün müddətində əldə etməsi imkanı nəzərdə tutulmuşdur.

14. Girov predmeti olan qiymətli kağızlara münasibətdə isə hərracın keçirilməsi qaydaları Mülki Məcəllənin 1078-23-cü maddəsi və maliyyə bazarlarına nəzarət orqanının “Qiymətli kağızların girovunun qeydiyyatı, ona xitam verilməsi və girov predmetinə tutmanın yönəldilməsi Qaydası”na əsasən tənzimlənməklə, fond birjası vasitəsilə girov müqaviləsində göstərilən qiymətlə, müqavilədə qiymət müəyyən edilmədikdə isə qiymətli kağızların nominal dəyər ilə satışa çıxarılması, satılmadıqda girov saxlayana təklif olunması nəzərdə tutulmuşdur.

15. Vergi borcu üzrə tutmanın vergi ödəyicisinin siyahıya alınmış əmlakına yönəldilməsi üzrə hərracın keçirilməsi isə Azərbaycan Respublikası Vergi Məcəlləsinin (bundan sonra – Vergi Məcəlləsi) 90-cı maddəsi ilə tənzimlənməklə, həmin əmlakın bazar qiyməti ilə satışa çıxarılmasını, 3 dəfə hərracın keçirilməsi imkanını, habelə hərracların baş tutmadığı hər növbəti halda qiymətin müvafiq olaraq 20 və 40 faiz azaldılması imkanını nəzərdə tutmuşdur.

16. Ən nəhayət Mülki Məcəllənin 415-ci maddəsi ilə, habelə "İcra haqqında" Qanunun 53, 61 və 62-ci maddələri ilə icra sənədi üzrə tələbin yönəldiyi əmlakın satışı üzrə hərracın keçirilməsi qaydaları müəyyən edilir ki, bu qaydalara əsasən də əmlakın bazar qiyməti ilə hərraca çıxarılması, hərracların keçirilməsi müddətləri, hərracın keçirilməsindən əvvəl, həm də hərracın baş tutmamasından sonra əmlakın tələbkara təklif edilməsi imkanı nəzərdə tutulmuşdur.

17. Göründüyü kimi, istinad edilən mümkün hərrac qaydalarının fərqliliyinin əsasını məhz satışa çıxarılan əmlakın hüquqi statusu təşkil edir.

18. Bu baxımdan icra sənədi üzrə tutmanın borclunun mülkiyyətindəki ipoteka predmeti olmayan əmlakına yönəldilməsi zamanı hərracın qanunun analogiyası üzrə

"İpoteka haqqında" Qanunda müəyyən edilmiş qaydalara uyğun aparılmasının mümkünlüyü qənaətinə gəlinməsi üçün girov predmeti olan əmlakların bu statusa malik olmayan əmlaklara münasibətdə fərqləndirici xüsusiyyətlərinə diqqət yetirilməlidir.

19. Mülki Məcəlləyə əsasən girov və ipoteka hüququ girov qoyanın əşyası barədə girov saxlayanın əşya hüququdur və eyni zamanda borclunun girov saxlayan qarşısında pul və ya başqa öhdəliyinin icrasının təmin edilməsi üsuludur. Girov və ya ipoteka qoyan müqavilə əsasında kreditorun şəxsi borcluya qarşı tələb hüququna öz əmlakı ilə təminat verməklə həmin əmlak üzərindəki mülkiyyət hüququnu məhdudlaşdırır. Belə ki, şəxsi borclu öz öhdəliyini yerinə yetirmədiyi halda kreditor girov qoyulmuş və ya ipoteka ilə yüklü edilmiş əmlakın satılmasını və dəyərindən alacağının qarşılanmasını təmin etmək imkanına malik olur. Bu baxımdan girov (ipoteka), kreditorun (girov saxlayanın) əsas tələb hüququna bağlı olan əlavə (aksessor) əşya hüququ sayılır.

20. Girov (ipoteka) olmadıqda isə icra sənədi üzrə borclunun əmlakı barədə tələbkarın məhdud əşya hüququ da olmur. Həmin tələbkarın öz alacağını borclunun əmlakının satılması hesabına əldə etmək hüququ "İcra haqqında" qanundan irəli gəlir. Belə ki, icra icraatı çərçivəsində tələbin borclunun əmlakına yönəldilməsi məcburi icra tədbiridir. Bu qaydada yönəltmə əmlakın üzərinə həbs qoyulmasından, götürülməsindən və satılmasından ibarətdir. Tələbkarın tələblərinin təmin edilməsi üçün borclunun yetərli pul vəsaitləri olmadıqda, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq tələbin yönəldilə bilmədiyi əmlak istisna olmaqla, tələb borcluya məxsus olan digər əmlaka yönəldilir.

21. Göründüyü kimi, hüququn ümumi prinsiplərinə əsasən statusları yüklülük baxımından eyni olmayan əmlaklarla bağlı münasibətlərə qanunverici ayrı-ayrı qaydalar tətbiq edir. Belə ki, ilk növbədə "İpoteka haqqında" qanun xüsusi olaraq mülki hüquqi müqavilələrdən irəli gələn öhdəliklərin icrasının təmin edilməsi ilə bağlı ipotekanın yaranması əsaslarını, onun dövlət qeydiyyatını, təmin olunmuş borcun və digər mülki hüquqi öhdəliyin ipoteka hesabına ödənilməsi qaydalarını, tərəflərin hüquq və vəzifələrini müəyyən edir, habelə bu sahədə digər münasibətləri tənzimləyir. Bu baxımdan, "İpoteka haqqında" qanunun 42 və 43-cü maddələri, hərracın Mülki Məcəllənin 415-ci maddəsindən fərqlənən xüsusiyyətlərini özündə əks etdirməklə, yalnız ipoteka predmeti olan əmlakın hərracda satılmasının xüsusi qaydasını müəyyən edir.

22. İpoteka predmeti olmayan əmlaka icra sənədi üzrə tutmanın yönəldilməsi və hərracdan satılması proseduru isə Mülki Məcəllənin 415-ci və "İcra haqqında" qanunun müvafiq müddəaları ilə tənzimlənir. Mülki Məcəllənin 415-ci maddəsi hərracın keçirilməsinin ümumi qaydasını müəyyən edir. "İcra haqqında" qanunun 45.6-cı maddəsinə əsasən icra qanunvericiliyinə əsasən tələbkarın tələblərinin təmin edilməsi üçün borclunun yetərli pul vəsaitləri olmadıqda tələb borcluya məxsus olan digər əmlaka yönəldilir. Həmin qanunun 53-

cü maddəsinə əsasən üzərinə həbs qoyulmuş həmin əmlak tələbkara təklif olunur, o, bundan imtina etdikdə həmin əmlak imtina günündən üç ay müddətində hərrac yolu ilə satılır. Əmlak satılmadıqda, həmin əmlak yenidən tələbkara təklif olunur. Tələbkar əmlakdan imtina etdikdə, əmlak borcluya, icra sənədi isə icra sənədini vermiş məhkəmə və ya digər orqana qaytarılır.

23. Yuxarıda göstərilənləri birlikdə təhlil edərək məhkəmə tərkibi mübahisəli hüquqi məsələyə münasibətdə qeyd edir ki, qanunverici kreditorların yönəltmə hüquqlarının mahiyyətini nəzərə alaraq, icra sənədi üzrə borclunun əmlakına yönəltmə ilə bağlı hərracın keçirilməsi qaydalarını (Mülki Məcəllənin 415-ci maddəsi, habelə "İcra haqqında" qanunun 45.6, 53, 61 və 62-ci maddələri) ipoteka predmeti olan əmlakın hərracda satışı qaydalarından ("İpoteka haqqında" qanunun 42 və 43-cü maddələri) fərqli şəkildə tənzimləmişdir.

24. İpoteka predmeti olmayan əmlakın hərracının "İpoteka haqqında" Qanunun tələblərinə uyğun keçirilməsi həmin tələbkarın ipoteka saxlayanla eyniləşdirilməsi anlamına gəlir. Eyni yanaşma borclunun vergi ödəyicisi kimi siyahıya alınmış əmlakına və girov predmeti olan qiymətli kağızlarına aid olmayan əmlaklarına da aiddir. Belə ki, istinad edilən kateqoriyaya aid olmayan əmlaklara digər qanunlarda nəzərdə tutulmuş xüsusi normaların tətbiqi borclu şəxslərin qanunda xüsusi bir göstəriş olmadığı halda müəyyən məhrumiyyətlərə məruz qalmasına səbəb olur. Halbuki hər kəsin hüquq və azadlıqları Azərbaycan Respublikasının Konstitusiyasında (bundan sonra – Konstitusiya) və qanunlarında müəyyən edilmiş əsaslarla, habelə digərlərinin hüquq və azadlıqları ilə məhdudlaşır. Hüquq və azadlıqların məhdudlaşdırılması dövlət tərəfindən gözlənilən nəticəyə mütənasib olmalıdır (Konstitusiyanın 71-ci maddəsinin II hissəsi).

25. Mülki Məcəllənin 11.1-ci maddəsinə görə mülki hüquq münasibətləri mülki qanunvericiliklə və ya tərəflərin razılaşması ilə birbaşa tənzimlənmədikdə və onlara tətbiq edilə bilən işgüzar adət olmadıqda həmin münasibətlərə, əgər bu, onların mahiyyətinə zidd deyildirsə, yalnız o zaman oxşar münasibətləri tənzimləyən mülki qanunvericilik normaları tətbiq edilir (qanunun analogiyası).

26. Beləliklə, məhkəmə tərkibi belə qənaətə gəlir ki, icra icraatı çərçivəsində borclunun ipoteka predmetinə, vergi ödəyicisi kimi siyahıya alınmış əmlaka və girov predmeti olan qiymətli kağızlara aid olmayan əmlaklarına tələbin yönəldilməsi və hərracdan satılması qaydaları Mülki Məcəllənin 415-ci və "İcra haqqında" Qanunun 45.6, 45.7, 51, 53, 61 və 62-ci maddələri ilə tənzimlənir və bu münasibətlərə qanunun analogiyası üzrə digər qanunvericilik aktlarında nəzərdə tutulmuş hərrac qaydaları tətbiq edilməməlidir.

27. Bununla yanaşı, qeyd edilməlidir ki, icra sənədi üzrə tələbin borclunun əmlakına yönəldilməsi icra məmuru tərəfindən bu məqsədlə keçirilməli olan qiymətləndirmənin qanunvericiliyə uyğun təşkil edilməklə, həmin əmlakın hərraca qanunla nəzərdə tutulmuş satış qiyməti ilə çıxarılmasını tələb edir. İpoteka predmetinə və girov predmeti olan qiymətli kağızlara aid olmayan əmlakın ipoteka haqqında qanunvericiliyə və ya digər qanunvericilik aktlarına analoji qaydada hərracdan bazar dəyərindən fərqlənən likvid qiymətlə satılması borclunun əmlak vəziyyətinin əsassız olaraq pisləşməsinə səbəb olur. Belə ki, həyata keçirilən məcburi icra tədbirləri borclunun mülkiyyət hüquqlarına ədalətsiz, qeyri-mütənasib müdaxiləyə rəvac verməməli, tələbkarın qanuni qüvvəyə minmiş məhkəmə qərarının icrası ilə bağlı ədalətli məhkəmə araşdırması hüququ ilə borclunun mülkiyyət hüquqlarının tarazlığı gözlənilməlidir.

28. "İcra haqqında" Qanunun 61.1 və 61.2-ci maddələrinə əsasən borclunun əmlakının satılması üzrə hərraclar, bu Qanunun 53.2-ci maddəsində göstərilən ixtisaslaşdırılmış müəssisələr tərəfindən müvafiq müqavilə əsasında təşkil edilir və keçirilir. İxtisaslaşdırılmış müəssisələr hərracı icra məmurunun sifarişi əsasında keçirirlər. Həmin sifarişdə hərraca

qoyulan əmlakın ilkin qiyməti göstərilir. Lakin “İpoteka haqqında” Qanundan fərqli olaraq “İcra haqqında” Qanunda hərraca qoyulan əmlakın ilkin satış qiymətinin hansı meyarla müəyyən olunması qeyd olunmamışdır. Yalnız Qanunun 51.1- ci maddəsinin birinci cümləsində təsbit olunmuşdur ki, borclunun əmlakının “İpoteka haqqında” Qanuna əsasən tərəflərin razılığı, yaxud məhkəmənin qərarı ilə qiymətləndirildiyi, habelə tənzimlənən qiymətlərin tətbiq olunduğu hallar istisna olmaqla, borclunun əmlakının qiymətləndirilməsinin “Qiymətləndirmə fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununa (bundan sonra – “Qiymətləndirmə fəaliyyəti haqqında” Qanun) uyğun olaraq qiymətləndirici tərəfindən həyata keçirildiyi qeyd edilir. Eyni zamanda istinad edilən qanunda qiymətləndirmənin nəticələri haqqında hesabatda əmlakın bazar və ya digər dəyərlərinin müəyyən olunmasından bəhs edilir.

29. Qeyd olunanlar ümumiləşdirilərək belə nəticəyə gəlmək olar ki, əmlakın hərracdan ilkin satış qiymətinin onun likvid dəyəri ilə müəyyən olunması “İpoteka haqqında” Qanunla ipoteka predmetlərinə münasibətdə təsbit edildiyindən, icra icraatı çərçivəsində borclunun ipoteka predmeti olmayan əmlakı hərracdan satılarkən onun ilkin satış qiyməti likvid deyil, bazar dəyəri ilə müəyyən olunmalıdır. Girov predmeti olan qiymətli kağızlara münasibətdə də Mülki Məcəllənin 1078-23-cü maddəsi və maliyyə bazarlarına nəzarət orqanının qəbul etdiyi “Qiymətli kağızların girovunun qeydiyyatı, ona xitam verilməsi və girov predmetinə tutmanın yönəldilməsi Qaydası”nda əmlakın girov müqaviləsində göstərilən qiymətlə, müqavilədə qiymət müəyyən edilmədikdə isə qiymətli kağızların nominal dəyər ilə satışa çıxarılması nəzərdə tutulduğu nəzərə alınmalıdır.

30. Prosedura gəldikdə isə ipoteka predmeti olmayan əmlak hərracdan Mülki Məcəllənin 415-ci və “İcra haqqında” Qanunun 51, 53, 61 və 62-ci maddələri ilə müəyyən edilmiş qaydada həyata keçirilməlidir. Belə ki, “İcra haqqında” Qanunun 51-ci maddəsinə əsasən əmlakın üzərinə həbsin qoyulmasından sonra icra məmuru əmlakın qiymətləndirilməsini həyata keçirərək, həmin Qanunun 53-cü maddəsinə əsasən tələbkara təklif etməlidir. Tələbkar əmlakı qəbul etməkdən imtina etdikdə isə həmin əmlak tələbkarın imtina etdiyi gündən üç ay müddətində (icra məmurundan müvafiq sifarişin alındığı gündən ən geci iki ay müddətində) Mülki Məcəllənin 415-ci maddəsində müəyyən edilən qaydada hərrac yolu ilə satılmalıdır. Göründüyü kimi, qanunvericilik ipoteka predmetinə, vergi ödəyicisinin siyahıya alınmış əmlakına və girov predmeti olan qiymətli kağızlara aid olmayan əmlakın icra icraatı çərçivəsində açıq hərracdan satılması üçün 3 aylıq müddət müəyyən etsə də, “İpoteka haqqında” Qanunda, Vergi Məcəlləsində və “Qiymətli kağızların girovunun qeydiyyatı, ona xitam verilməsi və girov predmetinə tutmanın yönəldilməsi Qaydası”nda olduğu kimi digər xüsusiyyətlərini müəyyən etməmişdir. Bu baxımdan, məhkəmə tərkibi belə qənaətə gəlir ki, icra icraatı çərçivəsində ipoteka predmetinə, vergi ödəyicisinin siyahıya alınmış əmlakına və girov predmeti olan qiymətli kağızlara aid olmayan əmlaka münasibətdə hərrac 3 aylıq müddət çərçivəsində hərracın keçirilməsi qaydasını pozmadan keçirməyə imkan verən sayda keçirilməlidir.

31. Qiymətin mübahisələndirilməsi qaydası ilə bağlı isə qeyd edilməlidir ki, “İcra haqqında” Qanunun 51-ci maddəsindən, habelə yuxarıda qeyd edilən digər müddəalarından belə qənaət hasil olur ki, icra icraatı çərçivəsində borclunun ipoteka predmeti olmayan əmlakının, notariusun icra qeydi əsasında tutma yönəldilmiş ipoteka predmeti olan əmlakının, habelə vergi ödəyicisi kimi siyahıya alınmış əmlakının ilkin (başlanğıc) satış qiyməti qiymətləndiricilərdən alınan rəylər əsasında icra məmuru tərəfindən müəyyənləşdirilir.

32. Bu baxımdan, məhkəmə tərkibi hesab edir ki, borclunun ipoteka predmeti olmayan əmlakının, notariusun icra qeydi əsasında tutma yönəldilmiş ipoteka predmeti olan əmlakının,

habelə vergi ödəyicisi kimi siyahıya alınmış əmlakının ilkin (başlanğıc) satış qiyməti hərracın keçirilməsinədək olan dövr ərzində iddia icraatı qaydasında deyil, icra icraatı çərçivəsində hərracı bu qiymət əsasında sifariş etmiş icra məmurunun hərəkətlərindən verilmiş şikayət qaydasında mübahisələndirilməlidir. Belə ki, "İcra haqqında" Qanunun 51-ci maddəsində icra məmurunun müvafiq qiymətləndiricini dəvət etmək səlahiyyəti nəzərdə tutulmuşdur. Bu baxımdan dəvət edilmiş qiymətləndiricinin rəyindəki müvafiq (başlanğıc) qiymətlə əmlakın hərraca çıxarılmasına dair sifariş vermək hüququ da icra məmuruna aiddir. Belə olan halda, hərrac keçirilənədək həmin qiymət onu öz sifarişində əsas götürən icra məmurunun hərəkətindən verilən şikayət qaydasında mübahisələndirilə bilər. Hərrac keçirildikdən sonra isə qiymət "Qiymətləndirmə fəaliyyəti haqqında" Qanunun 8-ci maddəsinə uyğun olaraq iddia icraatı qaydasında mübahisələndirilməlidir.

33. Beləliklə, Ali Məhkəmənin Mülki və Kommersiya kollegiyalarının hakimlərindən ibarət məhkəmə tərkibi MPM-in 418-1.1-ci maddəsini rəhbər tutub kassasiya instansiyası məhkəməsində icraat zamanı aşkar edilmiş mübahisəli hüquqi məsələyə baxaraq

QƏRARA ALDI:

İcra icraatı çərçivəsində borclunun ipoteka predmetinə, vergi ödəyicisi kimi siyahıya alınmış əmlakına və girov predmeti olan qiymətli kağızlara aid olmayan əmlaklarına tələbin yönəldilməsi və hərracdan satılması qaydaları Mülki Məcəllənin 415-ci və "İcra haqqında" Qanunun 45.6, 45.7, 51, 53, 61 və 62-ci maddələri ilə tənzimlənir və bu münasibətlərə qanunun analogiyası üzrə digər qanunvericilik aktlarında nəzərdə tutulmuş hərrac qaydaları tətbiq edilməməlidir.

İcra icraatı çərçivəsində borclunun ipoteka predmetinə və girov predmeti olan qiymətli kağızlarına aid olmayan əmlaklarına tutmanın yönəldilməsi zamanı əmlakın hərraca çıxarılan ilkin (başlanğıc) satış qiyməti onun bazar dəyəri ilə müəyyən olunur.

Borclunun ipoteka predmeti olmayan əmlakının, notariusun icra qeydi əsasında tutma yönəldilmiş ipoteka predmeti olan əmlakının, habelə vergi ödəyicisi kimi siyahıya alınmış əmlakının ilkin (başlanğıc) satış qiyməti hərracın keçirilməsinədək olan dövr ərzində icra icraatı çərçivəsində hərracı bu qiymət əsasında sifariş etmiş icra məmurunun hərəkətlərindən verilmiş şikayət qaydasında aidiyyəti məhkəmədə mübahisələndirilir. Hərrac keçirildikdən sonra isə qiymət "Qiymətləndirmə fəaliyyəti haqqında" Qanunun 8-ci maddəsinə uyğun olaraq iddia icraatı qaydasında mübahisələndirilir.

Qərardad Azərbaycan Respublikası Ali Məhkəməsinin rəsmi internet səhifəsində və Azərbaycan Respublikası Ali Məhkəməsinin Bülletenində dərc edilsin.

Azərbaycan Respublikası Ali Məhkəməsinin

Mülki və Kommersiya kollegiyalarının

Əqdə əsaslanan iddialara baxıldığı halda, ayrıca icraatda həmin əqdin etibarlılığının mübahisələndirilməsinin mümkünlüyünə dair qanunvericiliyin tətbiqi məsələləri üzrə

Q Ə R A R D A D

№ 02/2022

Bakı şəhəri
14 iyun 2022-ci il

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki və Kommersiya kollegiyaları,

Mülki kollegiyanın sədri Hacıyev Sənan Firudin oğlunun (sədrlik edən) və hakimləri Əliyev Ələsgər Əliabbas oğlu, Xəlilov İsmayıl Kamil oğlu, Əhmədova Mehparə Tofiq qızı, Əhmədov Əhməd Abbas oğlu, Nurməmmədov Əhməd Güləhməd oğlu, Vəliyeva Elşanə Rafiq qızı, Xələfov İlqar Rəhim oğlu, Həsənov Vüqar Təvəkgül oğlu, Hüseynov Abiddin Qabil oğlu, Şamayev Elşad Yaquboviç, Abbasov Aqil Əzizağa oğlu, Əliyev Zaur Əli oğlu və Şəfiyev İspəndiyar Əsəd oğlu,

Kommersiya kollegiyasının sədri Abiyeva Kəmalə Nəbi qızı və hakimləri Dadaşov İlqar Ağababaş oğlu, Qəribov Bəhman Fərhad oğlu və Məmmədli Bəhram Məmməd oğlundan ibarət tərkibdə,

Əkbərli Əkbər Eldar oğlunun katibliyi ilə,

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyasının Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra - MPM) 418-1-ci maddəsinin tələblərinə müvafiq qaydada verdiyi 2021-ci il 1 iyun tarixli təqdimatı əsasında mübahisəli hüquqi məsələyə hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə baxaraq aşağıdakıları müəyyən etdi.

Mübahisəli hüquqi məsələnin məzmunu

1. Hazırda Ali Məhkəmənin icraatında əvvəllər müəyyən edilmiş hüquqi mövqedən fərqli yanaşmanın tətbiqini zəruri edən “kredit müqaviləsinin etibarsız hesab edilməsi” tələbinə dair” mülki iş vardır.

“Kredit müqaviləsinin etibarsız hesab edilməsi” tələbinin əsaslandırılması

2. Mülki işin hallarından göründüyü kimi, “kredit müqaviləsinin etibarsız hesab edilməsi” tələbinə dair iş üzrə cavabdeh daha əvvəl məhkəmədə iddia qaldıraraq hazırda həmin kredit müqaviləsi üzrə borcun tutulmasına dair iddia irəli sürmüşdür. Həmin iş üzrə birinci instansiya məhkəməsinin qətnaməsi ilə iddia təmin edilmişdir. Qətnamədən qarşı tərəf apellyasiya şikayəti vermiş və işə apellyasiya instansiyası məhkəməsində baxılarkən “kredit müqaviləsinin etibarsız hesab edilməsi” tələbinə dair ayrıca icraatda iddianın verildiyi bildirilərək, bu əsasla həmin işə baxılıb yekunlaşanadək “kredit müqaviləsi üzrə borcun tutulması” tələbinə dair iş üzrə icraatın dayandırılması xahiş edilmişdir. Apellyasiya instansiyası məhkəməsinin qərardadı ilə vəsatət təmin edilmiş və “kredit müqaviləsinin etibarsız hesab edilməsi” tələbinə dair mülki iş üzrə yekun məhkəmə aktı qəbul edilənədək “kredit müqaviləsi üzrə borcun tutulması” tələbi üzrə icraat dayandırılmışdır.

3. “Kredit müqaviləsinin etibarsız hesab edilməsi” tələbi üzrə işə kassasiya qaydasında baxılarkən müəyyən edilmişdir ki, Ali Məhkəmənin Mülki kollegiyasının bir sıra məhkəmə tərkibləri eyni kateqoriyadan olan mübahisələr üzrə qəbul etdikləri qərarlarında hazırkı məhkəmə tərkibindən fərqli hüquqi mövqedən çıxış edərək, kredit müqaviləsi üzrə borcun tutulmasına dair qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsi olduğu halda, eyni müqavilənin etibarsız hesab edilməsinə dair iş üzrə kassasiya şikayətlərinə baxmış, kassatorların dəlillərinə Azərbaycan Respublikası Mülki Məcəlləsinin müqavilənin etibarsızlığı ilə bağlı müvafiq maddələrinə istinad edərək qiymət vermişlər.

4. Ali Məhkəmənin məhkəmə tərkiblərinin həmin işlər üzrə qərarlarındakı hüquqi mövqe ondan ibarət olmuşdur ki, şəxslərin məhkəməyə çatımlılıq hüququ təmin edilməlidir. Belə ki,

MPM-in 4-cü maddəsinə əsasən bütün fiziki və hüquqi şəxslər özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququna malikdirlər. Göstərilənləri əsas tutan Ali Məhkəmənin məhkəmə tərkibləri hesab etmişlər ki, kredit müqavilələri üzrə borcun tutulması barədə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsinin olması eyni tərəflər arasında ayrıca icraatda bu müqavilənin etibarsız hesab edilməsi tələbi üzrə işə baxılmasına mane olmamalıdır. Belə ki, bu mübahisələr eyni tərəflər arasında olsa da, iddia tələbləri fərqlidir. Ona görə də, şəxslərin məhkəməyə çatımlılıq hüququ qorunmalı, kredit borcunun tutulmasına dair qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsinin olmasına baxmayaraq, eyni tərəflər arasında həmin borcun tutulmasına əsas olan kredit müqaviləsinin etibarsız hesab edilməsinə dair iddialar icraata qəbul edilməli və həmin işlərə mahiyyəti üzrə baxılmalı, o cümlədən bu işlər üzrə qəbul edilən məhkəmə qətnamələrindən verilən apellyasiya və kassasiya şikayətlərinə mahiyyəti üzrə baxılıb hüquqi qiymət verilməlidir.

5. Digər hüquqi mövqe isə ondan ibarət olmuşdur ki, kredit müqavilələri üzrə verilmiş borcun tutulmasına dair iddia ərizələri məhkəmənin icraatına qəbul edildikdən və yaxud həmin iddialar üzrə məhkəmə qətnaməsi qəbul edildikdən sonra eyni tərəflər arasında ayrıca icraatda kredit müqaviləsinin etibarsız hesab edilməsi tələbinə dair iddia ərizələrinin icraata qəbul edilməsi və həmin işlərə mahiyyəti üzrə baxılması hüquqi müəyyənlik prinsipinə uyğun deyildir. Belə ki, kredit borcunun tutulması tələbinə dair işə baxan məhkəmə mübahisəni mahiyyəti üzrə həll edərkən iddianın əsaslı olub-olmadığını müəyyən etmək üçün ilk növbədə bu tələbin əsasını təşkil edən etibarlı borc müqaviləsinin bağlanıb-bağlanmadığını müəyyən etmək vəzifəsi daşıyır və həmin vəzifəni yerinə yetirməklə tələbin qanuni və əsaslı olmasına hüquqi qiymət verir. Ona görə də, bu mübahisəyə baxılan vaxt və yaxud baxıldıqdan sonra ayrıca icraatda kredit müqaviləsinin etibarsız hesab edilməsinə dair ayrıca iddia tələbinin irəli sürülməsi və həmin tələblərə mahiyyəti üzrə baxılması prosessual qanunvericiliyin normaları baxımdan mümkün deyildir.

6. Belə ki, MPM-in 153.2.2 və 153.2.4-cü maddələrinə görə eyni tərəflər arasında, eyni predmet barəsində və eyni əsaslar üzrə mübahisəyə dair məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi və ya iddiaçının iddiadan imtina etməsi ilə əlaqədar iş üzrə icraata xitam edilməsi və ya tərəflərin barışıq sazişinin təsdiq edilməsi haqqında məhkəmənin qərardadı olarsa və eyni tərəflər arasında, eyni predmet barəsində və eyni əsaslar üzrə mübahisəyə dair başqa məhkəmənin icraatında iş olarsa, hakim iddianın yolverilməzliyinə görə iddia ərizəsini qəbul etməkdən imtina edir.

7. Eyni zamanda MPM-in 259.0.4-cü maddəsinə əsasən eyni tərəflər arasında, eyni predmet barəsində və eyni əsaslarla mübahisə üzrə iş həmin və ya digər məhkəmənin icraatında varsa, məhkəmə ərizəni baxılmamış saxlayır.

8. Həmçinin MPM-in 261.0.2-ci maddəsinə görə eyni tərəflər arasında, eyni predmet barəsində və eyni əsaslar üzrə mübahisəyə dair xarici dövlətin məhkəməsinin qanuni qüvvəyə minmiş qətnaməsi varsa və həmin qətnamə Azərbaycan Respublikasının Ali Məhkəməsi tərəfindən tanınmış və icraya qəbul edilmişsə, hakim iş üzrə icraata xitam verir.

9. Göründüyü kimi, qeyd edilən hüquqi məsələyə dair qanunvericiliyin tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi zərurəti yaranmışdır.

10. MPM-in 2020-ci il martın 1-dən qüvvəyə minmiş 418-1-ci maddəsinə müvafiq olaraq Ali Məhkəmənin məhkəmə tərkibi işə kassasiya qaydasında baxarkən Ali Məhkəmənin digər məhkəmə tərkibinin əvvəllər qəbul etdiyi qərarda müəyyən edilmiş hüquqi mövqedən fərqli

yanaşmanın tətbiq edilməsini zəruri hesab etdikdə həmin mübahisəli hüquqi məsələyə hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə Ali Məhkəmənin mülki və kommersiya kollegiyalarına daxil olan bütün hakimlərdən ibarət tərkibdə baxılır.

11. Bu məqsədlə Ali Məhkəmənin sədri tərəfindən hazırda işə baxan Mülki kollegiyanın məhkəmə tərkibinin təqdimatı təmin edilərək, hüququn tətbiqi üzrə qeyd edilən mübahisəli hüquqi məsələ Mülki və Kommersiya kollegiyalarına daxil olan bütün hakimlərin müzakirəsinə çıxarılmışdır.

12. Mübahisəli hüquqi məsələ hüquq ictimaiyyətinin diqqətinə çatdırılmış, yazılı formada əsaslandırılmış rəylər (amicus curiae rəyi) Ali Məhkəməyə təqdim edilmişdir.

Məhkəmə tərkibinin mövqeyi

13. Məlum olduğu kimi, məhkəmələrdə əqdə əsaslanan müxtəlif növ iddialara baxılır. Bu xarakterli mübahisələrin ortaq cəhəti irəli sürülən tələblərin və ya etirazların əsasını hər hansı əqdin təşkil etməsidir. Ona görə də, belə mübahisələr üzrə işin düzgün həlli üçün tərəflərin istinad etdikləri əqdin mövcud olub-olmaması, əqd bağlandığı halda isə onun etibarlı olub-olmaması mütləq qaydada müəyyən edilməlidir. Bunun üçün mülki prosesdə tətbiq edilən dispozitivlik, çəkişmə, hüquqi həqiqət kimi prinsip və şərtlər də nəzərə alınmaqla məhkəmənin həmin xüsusatlar üzrə araşdırma aparması zəruridir.

14. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Mülki Məcəllənin 337, 339.6, 346.1 və 354-cü maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair 2021-ci il 2 aprel tarixli Qərarında (bundan sonra – Konstitusiya Məhkəməsi Plenumunun qərarı) nümayiş etdirdiyi hüquqi mövqeyə əsasən istənilən iddia tələbi ilə əlaqədar məhkəmə icraatının ən əsas vəzifəsi həmin tələbin hüquqi əsasının olub-olmadığının müəyyən olunmasıdır. Məhkəmələr bunu tərəflərin həmin tələblə bağlı hansı hüquqi əsaslandırmanı irəli sürmələrindən asılı olmayaraq müstəqil surətdə müəyyən etməlidirlər. Müəyyən bir əqd əsasında yarandığı hesab edilən hüquqla bağlı iddia tələbində məhkəmə icraatının ilk vəzifəsi həmin əqdin etibarlı olub-olmadığını təsbit etməkdir. İddia tələbinin əsaslandığı əqdin etibarsız olması birbaşa həmin əqd üzrə hüquqi nəticənin əmələ gəlmədiyini, yəni müqavilə üzrə iddia olunan subyektiv hüququn yaranmadığını göstərir. Ona görə də, hər hansı bir əqdə əsaslanaraq verilən iddianın düzgün hüquqi həlli üçün, ilk növbədə, istinad olunan həmin əqdin etibarlı olub-olmaması müəyyən edilməlidir. Etibarsız əqdə əsaslanaraq qaldırılan iddia tələblərində iddiaçının tələbinin əqd üzrə hüquqi əsası mövcud olmur. Çünki əqdin etibarsız olması həmin əqdin nəzərdə tutulan hüquqi nəticəni yaratmaması, yəni əqd üzrə mülki hüquq və öhdəliklərin əmələ gəlməməsi deməkdir. Əqdin etibarsızlığı əqdin bağlanması ilə əlaqədar yol verilən hüquqazidd halların nəticəsi olmaqla, bağlandığı andan etibarən öz təsir və nəticələrini göstərir.

15. Beləliklə, Konstitusiya Məhkəməsinin Plenumu vurğulayır ki, hər hansı əqdə istinad edilərək iddia verildiyi təqdirdə, həmin iddianın necə əsaslandırılmasından asılı olmayaraq, məhkəmənin ilk vəzifəsi həmin əqdin etibarlılığını müəyyən etməkdir.

16. Odur ki, bu xarakterli mübahisələrə baxılarkən tərəflərin söykəndikləri əqdin hüquqi nəticə yaradıb-yaratmaması müəyyən edilməlidir. Əqdin hüquqi nəticə doğurması onun etibarlı olmasından asılıdır. Əqd etibarsız olduqda isə tərəflər üçün hüquq və öhdəlik əmələ gətirmir (Mülki Məcəllə, maddə 337.4).

17. Nəzərə alınmalıdır ki, qanunvericilikdə birbaşa nəzərdə tutulmuş hallar istisna olmaqla, əqdin etibarlılığı və ya etibarsızlığı məsələləri iddia tələbindən və məhkəmədən kənarda mövcud olan hüquqi hadisələrdir. Etibarsızlıq əqdin etibarlılıq şərtləri ilə bağlı bir anlayışdır. Yəni əqd bağlanarkən qanunla müəyyən edilmiş etibarlılıq şərtlərinə uyğun olduqda etibarlı sayılır, uyğun olmadıqda isə etibarsız hesab edilir. Etibarlılıq şərtləri bir müqavilənin əsaslı hüquqi nəticələr yaratmasını təmin edən tələblərdir. Qanunda bütün əqdlər üçün tələb olunan (əqdi bağlayan şəxsin anlaqlı olması, əqdin məzmununun mümkünsüz, məcburi hüquq qaydalarına zidd olmaması, əqdi əmələ gətirən iradə ifadələrinin sağlam/zədələnməmiş olması, iradə bəyanlarının uydurma və ya yalan olmaması) və müəyyən növ əqdlər üçün tələb edilən (qanunda nəzərdə tutulmuş formaya uyğun olması, gərəkli razılığın verilmiş olması və s.) etibarlılıq şərtləri nəzərdə tutulmuşdur.

18. Konstitusiya Məhkəməsi Plenumunun qərarında qeyd edildiyi kimi, etibarsızlıq əqdin qanunvericiliyə zidd olması səbəbi ilə hüquqi nəticə yaratmadığı bütün halları ifadə edən ümumi anlayışdır (hal və nəticədir). Belə nəticəni, yəni etibarsızlıq halını yaradan səbəblər isə müxtəlif mahiyyət və xüsusiyyətlərə malik olur.

19. Məhz həmin səbəblərin müxtəlifliyi etibarsızlığın aşağıdakı fərqli növlərini meydana gətirir: əhəmiyyətsiz əqdlər, mübahisə edilən əqdlər, müvafiq razılığın olmamasına görə etibarsız olan əqdlər və məhkəmə qərarı ilə etibarsız sayılan əqdlər.

20. Əhəmiyyətsiz əqdlər forma və məzmun etibarilə məcburi hüquq qaydalarına zidd olduğu üçün hər hansı əlavə qayda və ya şərtdən, yəni müddətin keçməsindən, mübahisələndirilməsindən və ya müvafiq məhkəmə qərarından asılı olmayaraq, bağlandığı andan özü-özlüyündə etibarsızdır (Mülki Məcəllə, maddə 337.3). Belə əqdlərin etibarsızlığı (əhəmiyyətsizliyi) bir qayda olaraq qanunda birbaşa nəzərdə tutulur (Mülki Məcəllə, maddələr 329.1, 340.1, 340.2 və s.).

21. Əqdi bağlayan şəxsin iradəsi zədələndikdə isə belə əqdlər mübahisə edilən əqdlər sayılır. İradənin zədələnməsinə səbəb olan əsaslar Azərbaycan Respublikası Mülki Məcəlləsinin 339.1-339.4-cü və 347-ci maddələrində nəzərdə tutulmuşdur. Konstitusiya Məhkəməsinin qərarında tərəfin iradə ifadəsinin hakimiyyətdən sui-istifadə, aldatma, zorakılıq, hədə, vacib əhəmiyyətli yanılma və s. nəticəsində zədələnmiş olduğu hallarda əqdlərin mübahisələndirilməklə etibarsız hala gəldiyi qeyd edilmiş və bununla da mübahisə edilən əqdlərin dairəsi göstərilmişdir. Bu növ etibarsız əqdləri digər etibarsızlıq hallarından fərqləndirən mühüm xüsusiyyət odur ki, iradəsi zədələnmiş şəxs əqdi mübahisələndirənə qədər həmin əqd etibarlı sayılır və müvafiq hüquqi nəticələrə səbəb olur. Bununla belə, əqd bağlanarkən iradəsi zədələnmiş tərəfə qanunda nəzərdə tutulan müddətlərdə (Mülki Məcəllə, maddə 354.2) əqdi mübahisələndirmək, bununla da əqdi etibarsız etmək hüququ verilir. Başqa sözlə, bu halda iradə qüsurlu olsa belə, hüquqi baxımdan tanınan etibarlılıq mübahisələndirmə ilə pozulmuş olur (pozula bilən etibarlılıq). Mübahisələndirmə isə geriyə şamil olunaraq, əqdin bağlandığı andan etibarsız sayılmasını təmin edir.

22. Məhkəmə təcrübəsində bəzi hallarda “əqdi mübahisələndirmək” ifadəsi “əqdin etibarsız sayılmasına dair iddia qaldırmaq” kimi başa düşülür. Prosessual anlamda bu, yanlış olmasa da, əqdlərin etibarsızlığı ilə bağlı qaydalar çərçivəsində (maddi hüquqi mənada) əqdi mübahisələndirmək məhkəmədə iddia qaldırmaq deyil, iradəsinin zədələnməsi ilə əqd bağlamış şəxsin həmin əqdlə bağlı olmadığına dair iradə ifadəsini məhkəmədənkənar qaydada müqavilənin qarşı tərəfinə bildirmək hüququdur (Mülki Məcəllə, maddə 337.2). Başqa sözlə, etibarsızlığın digər növlərində əqdin etibarsız hesab edilməsi (məsələn, səlahiyyətsiz

təmsilçinin bağladığı əqdin etibarsız sayılması və s.) haqqında iddianın qaldırılması, onların mübahisə edilən əqdlər olması mənasına gəlmir. Bu baxımdan, maddi hüquqi mənada bir əqdin mübahisə edilən (mübahisələndirilən) sayılması üçün meyar onun etibarsızlığına dair iddianın qaldırılması deyil, etibarsızlığın yuxarıda sadalanan iradə zədələnməsi hallarından irəli gəlib-gəlməməsidir.

23. Bəzi əqdlər vardır ki, onlar bağlanarkən müvafiq razılığın alınmamasına görə etibarsız sayılır, lakin səlahiyyətli şəxsin bəyənməsi nəticəsində bu etibarsızlıq halı düzəldilmiş, yəni əqd etibarlı hala gətirilmiş olur (düzələ bilən etibarsızlıq). Mülki Məcəllənin 344, 345, 29.1 və 30.1-ci maddələrində nəzərdə tutulan etibarsızlıq və bəyənmə halları buna misal göstərilə bilər.

24. Qanunverici məcburi hüquq qaydalarının pozulması ilə bağlanan bəzi əqdlərin etibarsız sayılması üçün xüsusi bir qayda - məhkəmə aktının qəbul olunmasını tələb edir (Mülki Məcəllə, maddələr 416, 1078-27.1.3 və 1225.3). Belə əqdlər qanunvericiliyə zidd olmalarına baxmayaraq, məhkəmə tərəfindən etibarsızlığa dair qərar verilməyənədək müvafiq hüquqi nəticələr, yəni hüquq və öhdəliklər yaradan etibarlı əqd kimi qəbul olunur. Bu cür etibarsızlıq hallarının məhkəmədə mübahisələndirilməsi şəxsin öz iradəsindən kənarda baş verən qüsurlara (qanuni tələblərin pozulmasına) əsaslanır.

25. Konstitusiya Məhkəməsi Plenumu qərarında əhəmiyyətsiz və mübahisə edilən əqdlərlə yanaşı, son iki etibarsızlıq halını ayrıca növ kimi təsnif etməklə mülki qanunvericiliyimizdə əqdin etibarsızlığına səbəb olan halların tabe olduğu hüquqi rejim və şərtlərin fərqli şəkildə tənzimləndiyini vurğulamışdır.

26. Qeyd edildiyi kimi, hər hansı bir əqdə əsaslanaraq verilən iddianın düzgün hüquqi həlli üçün, ilk növbədə, istinad olunan əqdin etibarlı olub-olmaması müəyyən edilməlidir.

27. Məhkəmə əqdə əsaslanan mübahisəyə baxdıqda həmin əqdin etibarlı olubolmamasını hər hansı tələbdən və etibarsızlığın növündən asılı olmadan müəyyən etməlidir. Hakimin bu xüsusatlar üzrə qiymətləndirmə aparması ilə əqdin etibarsız sayılması (nəticəsinə gəlməsi) bir-birindən fərqləndirilməlidir. Sözügedən qiymətləndirmə əqdin etibarlı olub-olmaması ilə bağlı hüquqi vəziyyətin nədən ibarət olduğunun təsbit edilməsidir. Başqa sözlə, bu fəaliyyət etibarsızlığın növündən asılı olmayaraq, işin hallarına görə əqdin hüquqi nəticə yaradıb-yaratmaması barədə dəyərləndirmədir.

28. Əqdin etibarlı və ya etibarsız sayılması yuxarıda qeyd edilən qiymətləndirmə nəticəsində məhkəmənin gəldiyi qənaətdir. Yuxarıda qeyd edildiyi kimi, etibarsızlığa səbəb olan bütün hallar məhkəmədən kənarda baş verən qanunazidd hallardır. Bu halların əqdin etibarsızlığı nəticəsini yaradıb-yaratmaması isə onun növlərindən və müvafiq növün xüsusiyyətlərindən asılıdır. Belə ki, yuxarıda sadalanan ilk üç növdə, yəni əhəmiyyətsizlik, mübahisə edilən və müvafiq razılığın olmaması hallarında etibarsızlıq nəticəsini əqdin tərəflərinin hərəkət və ya hərəkətsizliyi (məsələn, əhəmiyyətsizlik halında əqdin məcburi formaya zidd şəkildə bağlanması, mübahisə edilən əqdlərdə tərəfin əqdi məhkəmədənkənar qaydada mübahisələndirməsi, əqdin etibarlı sayılması üçün müvafiq razılığın alınmaması və s.), məhkəmə qərarı ilə etibarsız hesab edilən əqdlərdə isə bu nəticəni məhkəmənin qərarı meydana gətirir. Ona görə də, məhkəmə əqdə əsaslanan mübahisəyə baxarkən bu halları təsbit etməklə iddianın və ya etirazın əsaslı olubolmamasını da müəyyən etmiş olur.

29. Bu səbəbdən Konstitusiya Məhkəməsinin qərarında xüsusi olaraq vurğulanmışdır ki, istər mübahisə edilən, istərsə də əhəmiyyətsiz əqdlərin etibarsızlığı məhkəmə qərarı nəticəsində yaranmır. Mübahisə edilən əqdlərdə tərəfin qanunla müəyyən edilmiş müddətlər çərçivəsində mübahisələndirmə ilə bağlı digər tərəfə yönəlmiş iradə ifadəsinin bəyan edilməsi,

əhəmiyyətsiz əqdlərdə isə əqdin bağlandığı andan zəruri etibarlılıq şərtlərinə uyğunsuzluğu əqdi etibarsız edir. Maraqlı tərəflər arasında əqdin etibarsızlığı və ya onun nəticələri ilə bağlı yaranan mübahisələrə dair məhkəmə tərəfindən verilən qərar əqdin etibarsızlığı faktının mövcud olub-olmadığını təsdiq etməklə tərəflər arasındakı hüquqi mübahisəni həll edir.

30. Odur ki, ayrıca iddia tələbinin irəli sürülməsindən asılı olmayaraq, məhkəmə işin halları və tərəflərin dəlilləri əsasında əqdin etibarlı olduğunu və ya etibarsızlığını müəyyən etdikdə həmin halı nəzərə almalıdır. Bu məsələdə etibarsızlığın hansı növdə (o cümlədən mübahisə edilən əqd) olmasının fərqi yoxdur.

31. Bir daha qeyd edilməlidir ki, mübahisələndirilən əqdi etibarsız hala gətirən hüquqi səbəb məhkəmə qərarı deyil, mübahisələndirmə faktının özüdür. Konstitusiya Məhkəməsinin də qərarında "Əqd barəsində mübahisə edildikdə əqd bağlandığı andan etibarsız hesab edilir. ...istər mübahisə edilən, istərsə də əhəmiyyətsiz əqdlərin etibarsızlığı məhkəmə qərarı nəticəsində yaranmır." kimi hüquqi mövqeləri ona dəlalət edir ki, mübahisə edilən əqdin etibarsız sayılması üçün məhkəmədə tələb irəli sürmək zərurəti yoxdur, etibarsızlıq nəticəsini mübahisələndirmə faktı (iddiadan və məhkəmədən kənarda) əmələ gətirir. Çünki etibarsızlıq bir nəticədirsə, həmin nəticəni əqdi mübahisə etmək hüququna malik olan şəxsin hərəkəti təmin edir. Bu hərəkətlə, yəni iradə ifadəsi qarşı tərəfə bildirilməklə etibarsızlıq nəticəsi qanuna əsasən yaranmış olur. Bunun üçün hüquq sistemimiz əlavə şərtlər - iddia tələbinin irəli sürülməsi, məhkəmənin qərar çıxarması və s. tələb etmir. Amma bu məsələlərlə bağlı tərəflər arasında mübahisə yarandıqda həmin ixtilaf təbii ki, məhkəmə tərəfindən həll olunur.

32. Bu baxımdan mübahisə edilən əqdlərin etibarsızlığı məhkəmə qərarından asılı olmadığına görə həmin qərarın çıxarılmasının prosessual əsası olan iddia tələbindən də asılı deyil. Çünki tələb məhkəmə qərarının alınması üçün irəli sürülür.

33. Belə olan halda, məhkəmə əqdə əsaslanan mübahisəyə baxarkən tərəf iradəsinin zədələnməsini və buna görə əqdi mübahisələndirməsini sübut etdikdə, yaxud məhkəmə işin halları əsasında bunu müəyyən etdikdə, etibarsızlıq nəticəsini xüsusi bir iddia tələbinin irəli sürülməsindən asılı olmayaraq nəzərə almalı və ona görə qərar verməlidir.

34. Bununla belə, diqqətdən qaçırılmamalıdır ki, mübahisələndirmə şəxsə bağlı olan hüquqdur. Əgər tərəf əqdlə bağlı olmadığına dair öz iradə bəyanını qarşı tərəfə bildirmirsə, etibarsızlıq nəticəsini doğuracaq hüquqi hərəkət (mübahisələndirmə) aidiyyəti şəxs tərəfindən edilməmiş olur. Bu halda məhkəmə işdən iradənin zədələnməsi faktlarını görsə belə, öz xidməti vəzifəsinə əsaslanaraq, əqdin etibarsızlığı ilə bağlı həmin halları araşdıra və nəzərə ala bilməz. Çünki şəxsə bağlı olan hüquqlar, əlaqədar şəxsdən başqa heç kim tərəfindən istifadə edilə bilməz. Elə Konstitusiya Məhkəməsi Plenumunun qərarının nəticə hissəsinin 7-ci bəndində də mübahisə edilən əqdlərlə bağlı etibarsızlıq halının tələb olmadan məhkəmə tərəfindən nəzərə alına bilinməyəcəyi xüsusi olaraq qeyd olunmuşdur.

35. Etibarsız sayılması üçün məhkəmə qərarı tələb olunan əqdlərlə bağlı mübahisələrə baxılarkən də qarşı tərəfin əqdin etibarsızlığı barədə dəlilləri məhkəmə tərəfindən əsaslı hesab edildiyi və əqdin etibarsızlığı müəyyən olunduğu halda, son nəticədə əqd məhkəmə qərarı əsasında etibarsız hesab edilmiş olur. Mülki qanunvericilikdə belə əqdlərin maraqlı şəxsin iddiası üzrə etibarsız sayıla bilməsi barədə norma (məsələn, Mülki Məcəllə, maddə 416.1) yuxarıda ifadə olunmuş mövqe ilə hər hansı ziddiyyət təşkil etmir, çünki bu, prosessual mənada iddianın irəli sürülməsini deyil, maddi hüquqi mənada əqdin etibarsızlığına dair istənilən formada iradəsinin bildirilməsini ehtiva edir.

36. Konstitusiya Məhkəməsinin qərarında “Müəyyən bir əqd əsasında yarandığı hesab edilən hüquqla bağlı iddia tələbində məhkəmə icraatının ilk vəzifəsi həmin əqdin etibarlı olub-olmadığını təsbit etməkdir.” məzmunundakı hüquqi mövqedən də görünür ki, əqdin etibarlılığının yoxlanılmasının zəruri şərti etibarsızlıq barədə tələbin irəli sürülməsi deyil, sadəcə tələbin əqdə söykənməsidir. Odur ki, məhkəmə “əqdin etibarsız sayılması, əqdən doğan öhdəliyin icrası üzrə və s.” tələbləri, yaxud bu iddialara etiraz əsasında tərəflərin faktiki münasibətlərində baş vermiş halları, varsa əqdi mübahisələndirmə (iradənin qarşı tərəfə çatdırılması) faktını araşdırır, əqdin etibarlı olub-olmamasına görə mübahisəni həll edir.

37. Bu baxımdan, əqdə əsaslanan iddia tələbinə mahiyyəti üzrə qiymət verildikdən sonra eyni tərəflər arasında müvafiq iddianın əsasını təşkil etmiş həmin əqdin etibarsız hesab edilməsi barədə ayrıca iddiaya baxılması mülki prosessual qanunvericiliyin aşağıdakı tələbləri baxımından yolverilməzdir.

38. Belə ki, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 2012-ci il 27 avqust tarixli qərarında ifadə edilmiş hüquqi mövqelərə görə mülki prosesdə iddianın predmeti dedikdə, iddiaçının barəsində qərar qəbul olunmasını xahiş etdiyi subyektiv hüquq başa düşülür. İddianın predmetinə qanunla qorunan maraqları, o cümlədən bütövlükdə hüquq münasibətlərini aid etmək olar... İddianın predmeti ilə iddianın obyekti fərqləndirilməlidir. İddianın obyekti – iddiaçının əldə etməyə çalışdığı maddi nemətdir: pul məbləği, qeyri-yaşayış sahəsi, sair konkret əmlak. İddianın obyekti iddianın predmetinə daxildir və müstəqil əhəmiyyət kəsb etmir.

39. Konstitusiya Məhkəməsinin qərarında, həmçinin qeyd olunmuşdur ki, iddianın əsasını irəli sürülən iddia tələblərinin əsaslandırıldığı hüquqi faktlar təşkil edir. Onlara əqdlər, xüsusi olaraq müqavilələr, müddətin bitməsi faktı, hüquqların pozulması, ziyanın vurulması və s. aid edilə bilər. İddianın əsası adətən bir faktdan deyil, iddianın faktiki tərkibi adlanan faktların məcmusundan ibarət olur. İddianın faktiki əsasını göstərməklə yanaşı, iddiaçı qanuna və digər normativ-hüquqi aktlara, cavabdeh tərəfindən pozulduğunu güman etdiyi hüquq normasına istinad etməyə də haqlıdır. Bu iddianın hüquqi əsasını təşkil edir. İddiaçı tələblərini tətbiq edilməli olmayan hüquq norması ilə əsaslandırdığı zaman məhkəmə qarşısında hansı hərəkətlərin edilməli olması məsələsi ortaya çıxa bilər. Burada ilk növbədə nəzərə almaq lazımdır ki, iddianın hüquqi əsaslandırılması onun faktiki əsası ilə eyniləşdirilməməlidir. İddianın hüquqi əsasının dəyişdirilməsi dedikdə, iddiaçının cavabdehə olan tələblərini əsaslandırdığı halların dəyişdirilməsi nəzərdə tutulur.

40. Bu baxımdan, iddianın predmeti iddia ərizəsinə əsasən tələb edilənlərlə məhdudlaşmayaraq, irəli sürülmüş tələblə ehtiva olunan və ona mahiyyəti üzrə baxılıb əsaslandırılmış qiymətin verilməsi üçün zəruri olan hüquq münasibətlərini də əhatə edir. Belə ki, iddianın predmeti barəsində qərar qəbul olunması xahiş edilən subyektiv hüquq olduğu üçün iddianın obyektinə aid olan konkret hərəkətlərin yerinə yetirilməsi, əşyaların alınıb verilməsi kimi tələblərlə eyniləşdirilməməlidir. Ayrı-ayrı iddia tələblərinin fərqli formada ifadə olunması və ya zahiri baxımdan fərqlənməsi iddianın predmetinin fərqli olması qənaətinə gəlmək üçün əsas ola bilməz. Odur ki, oxşar iddia tələblərinin eyni predmetli olub-olmamasının müəyyənləşdirilməsi üçün həmin tələblərə iddiaçının subyektiv hüququ, onun qanunla qorunan maraqları, o cümlədən bütövlükdə hüquq münasibətləri baxımından kompleks şəkildə qiymət verilməlidir.

41. Təsadüfi deyildir ki, MPM-in 261.0.2-ci maddəsi iş üzrə icraata xitam verilməsi üçün eyni tərəflər arasında, eyni tələb deyil, məhz eyni predmet barəsində və eyni əsaslar üzrə məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsinin olmasını yetərli hesab edir.

42. Digər tərəfdən, əqdə əsaslanan tələb üzrə işin icraatda olduğu və ya məhkəmə aktının qəbul edildiyi nəzərə alınmadan həmin əqdin etibarsız hesab edilməsinə dair tələblərin icraata qəbul edilməsi və baxılması hüquqi müəyyənlik prinsipinə də ziddir.

43. Konstitusiya Məhkəməsi Plenumunun C.İsmayılzadənin şikayəti üzrə 2007-ci il 13 fevral tarixli və G.İsmayılzadənin şikayəti üzrə 2016-cı il 29 noyabr tarixli qərarlarında qeyd olunmuşdur ki, qanuni qüvvəyə minmiş məhkəmə aktı özündə mübahisələndirilən maddi hüququn, yaxud belə hüquqa əsaslanan faktın mövcud olub-olmamasını qəti surətdə müəyyənləşdirir və səlahiyyətli şəxsin tələbi ilə hər hansı qeyd-şərt qoyulmadan onların həyata keçirilməsini ehtiva edir. Məhz bu baxımdan prosessual qanunvericilikdə nəzərdə tutulmuş bütün müdafiə vasitələri istifadə edildikdən sonra qanuni qüvvəyə minmiş məhkəmə aktı təkzibolunmazlıq, müstəsnalıq və məcburilik kimi hüquqi xassələrə malikdir. İşlərə eyni tərəflər arasında, eyni mübahisə predmeti üzrə fərqli məhkəmə icraatında baxılması mahiyyət etibarilə fərqli nəticələrə və sonda hüquqi müəyyənlik prinsipinin pozulmasına səbəb ola bilər.

44. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent təcrübəsində “İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında” Konvensiyanın 6-cı maddəsinin tələbləri baxımından “res judicata” prinsipinə hörmət edilməsini ehtiva edən qanuni qüvvəyə minmiş məhkəmə qərarlarının bir qayda olaraq dəyişdirilmədən saxlanılmasını nəzərdə tutan preyudisiallıq və qanunun aliliyinin fundamental aspektlərindən olan hüquqi müəyyənlik prinsiplərinin təmin edilməsinə xüsusi önəm verilmiş, yalnız məhkəmə səhvlərinin düzəldilməsi və işin düzgün həlli üçün əhəmiyyət kəsb edən hallar aşkar olunduqda belə qərarlara yuxarı instansiya məhkəməsi tərəfindən yenidən baxılmasının mümkünlüyü əks olunmuşdur (Xotulyeva Rusiya Federasiyasına qarşı iş üzrə 2009-cu il 30 iyul tarixli, Kondraşov və digərləri Rusiya Federasiyasına qarşı iş üzrə 2009-cu il 8 yanvar tarixli qərarlar). Hüququn aliliyinin əsas aspektlərindən biri olan hüquqi müəyyənlik prinsipi digərləri ilə yanaşı tələb edir ki, məhkəmələr tərəfindən tamamilə həll edilmiş iş üzrə qəbul olunan yekun qərar şübhə doğurmamalıdır (Brumaresku Rumıniyaya qarşı iş üzrə 1999-cu il 28 oktyabr tarixli qərar). Hüquqi müəyyənlik, “res judicata” prinsipinə hörməti (bir dəfə həll edilmiş işə təkrar baxılmanın yolverilməzliyini) nəzərdə tutur. Prinsip onu əks etdirir ki, tərəflərdən heç biri yalnız işə təkrar baxılması və yeni qərara nail olmaq məqsədilə yekun, qanuni qüvvəyə minmiş qərara yenidən baxılmasını tələb edə bilməz. İşə yenidən baxılması üzrə yuxarı məhkəmə instansiyasının səlahiyyəti işə mahiyyəti üzrə yenidən baxmaq məqsədilə deyil, məhkəmə səhvlərini, ədalət mühakiməsinin qeyridüzgün aparılmasını aradan qaldırmaq məqsədilə həyata keçirilməsidir. Yenidən baxma şikayətin gizli forması hesab edilə, eyni zamanda bir məsələyə dair iki yanaşmanın mövcud olması yenidən baxma üçün əsas ola bilməz. Yalnız əsaslı və qarşısıalınmaz xarakterli hallara görə məcburiyyət qarşısında qalma bu prinsipdən geri çəkilməyə haqq qazandırır (Ryabıx Rusiyaya qarşı iş üzrə 2003-cü il 24 iyul tarixli qərar).

45. Xüsusilə vurğulanmalıdır ki, əqdə əsaslanan iddialara baxılması ilə bağlı yuxarıda ifadə edilmiş hüquqi mövqe ədalətli məhkəmə hüququ ilə uyğunsuzluq yaratmır. Belə ki, əqdlə bağlı hər hansı mübahisəyə baxıldıqda qarşı tərəfin əqdin etibarsız olması ilə etiraz və ya qarşılıqlı iddia irəli sürmək, məhkəmə iclasının vaxtı və yeri barədə məlumatsız olduqda, etiraz və dəlilləri əsassız olaraq nəzərə alınmadıqda isə qəbul edilmiş məhkəmə aktından şikayət vermək hüquqları vardır.

46. İşdə iştirak edən şəxslərin əqdə əsaslanan tələblərə baxılarkən ona verilmiş prosessual hüquqlardan istifadə etmədən (etiraz və qarşılıqlı iddia vermədən, öz dəlil və sübutlarını təqdim etmədən) əqdin etibarsızlığına dair ayrıca iddia qaldırması həm də MPM-in 47.1-ci maddəsi ilə işdə iştirak edən şəxslərin üzərinə qoyulmuş prosessual hüquqlardan vicdanla istifadə etmək vəzifəsi və prosessual qənaət prinsipi ilə bir araya sığmır. Prosessual hüquqlardan belə sui-istifadə qəbul edilmiş məhkəmə qərarlarını uzun müddət icrası mümkün olmayan aktlara çevirməklə, digər şəxslərin ədalətli məhkəmə hüququnun pozulmasına şərait yaradır.

47. Qeyd edilənlərlə yanaşı, xüsusi olaraq vurğulanmalıdır ki, inzibati icraat qaydasında işlərə baxılmasından fərqli olaraq mülki icraat qaydasında hakimin tərəfə yardım etmə vəzifəsi olmasa da, MPM-in 14.1 və 184.1-ci maddələrindən irəli gələn işdə iştirak edən şəxslərə onların prosessual hüquq və vəzifələrini izah etmək, görüləcək, yaxud görülməyəcək hərəkətlərin nəticələri barədə onları xəbərdar etmək, onların prosessual hüquqlarının həyata keçməsinə kömək göstərmək, habelə işin və mübahisənin vəziyyətini müzakirə etmək kimi vəzifələri vardır.

48. Məhz bu vəzifələrin icrası baxımından hakim (məhkəmə) əqddən irəli gələn iddialara baxıldığı zaman tərəflərə əqdin etibarlılığına dair mümkün dəlil və etirazlarını, məhz bu icraat çərçivəsində irəli sürülməli olduğunu izah etməli, bu hüquqlardan vaxtında istifadə edilməməsinin isə sonradan həmin əqdin etibarsızlığına dair müstəqil iddia qaldırmaq imkanını aradan qaldıracağı haqda xəbərdar etməlidir.

49. Eyni zamanda nəzərə alınmalıdır ki, əqddən irəli gələn tələblərə baxıldığı zaman buna dair müstəqil tələb (iddia) irəli sürülmədən həmin əqdin (əqdlərin) etibarlılığına qiymətin verilməsi, yalnız əqdin bütün tərəflərinin işdə iştirak etməyə cəlb edildiyi halda əsaslı olacaqdır. Etibarsız sayılması üçün məhkəmə qərarının tələb olunduğu əqdlərə münasibətdə isə əqdin tərəfləri ilə yanaşı, müvafiq olaraq hərrac təşkilatı, notarius və digər aidiyyəti təşkilatlar işdə iştirak etməyə cəlb olunmalıdırlar. Belə ki, məhkəmənin işdə iştirak etməyə cəlb olunmamış şəxslərin hüquq və vəzifələrinə dair məsələni onların hüquqlarının pozulması ilə nəticələnən formada həll etməsi məhkəmə aktının ləğvi üçün əsasdır.

50. O da qeyd edilməlidir ki, əqdə əsaslanan iddia irəli sürülənədək tərəflər həmin əqdin etibarsız hesab edilməsinə dair tələblə məhkəməyə müraciət etməkdə sərbəstdirlər. Sadəcə olaraq bu tələbə baxılaraq qiymət verildiyi halda, sonradan həmin əqdə əsaslanan iddiaya baxılması zamanı əvvəlki iş üzrə etibarsızlıqla bağlı qanuni qüvvəsini almış məhkəmə aktı ilə müəyyən edilmiş hallar bu iş üçün preyudisial əhəmiyyət kəsb etməklə, təkrar qiymətləndirmə imkanını aradan qaldırmış olacaqdır.

51. Beləliklə, mülki prosessual qanunvericiliyin qeyd edilən tələbləri baxımından belə qənaət hasil olur ki, əqdə əsaslanan iddialara baxıldığı halda, işdə iştirak etmiş şəxslər tərəfindən ayrıca icraatda həmin əqdin etibarsız hesab edilməsi tələblərinin irəli sürülməsi və onlara baxılması yolverilməzdir.

52. Ona görə də, məhkəmənin icraatında əqdə əsaslanan iddialar olduğu halda, işdə iştirak etmiş şəxslər tərəfindən ayrıca icraatda həmin əqdin etibarsız hesab edilməsinə dair (etibarsızlığın növündən asılı olmayaraq) verilmiş iddia ərizəsinin qəbulundan MPM-in 153.2.4-cü maddəsinə əsasən imtina olunmalı, belə iddialar səhvən məhkəmənin icraatına qəbul edildiyi halda isə iddia ərizəsi MPM-in 259.0.4-cü maddəsinə əsasən baxılmamış saxlanılmalıdır.

53. Əqdə əsaslanan iddialar üzrə qanuni qüvvəsini almış məhkəmə aktı və ya iddiaçının iddiadan imtina etməsi və ya tərəflərin barışıq sazişinin təsdiq olunması ilə əlaqədar iş üzrə icraata xitam verilməsi haqqında məhkəmənin qərardadı olduğu halda, işdə iştirak etmiş şəxslər tərəfindən ayrıca icraatda həmin əqdin etibarsız hesab edilməsinə dair verilmiş iddia ərizəsinin qəbulundan MPM-in 153.2.2-ci maddəsinə əsasən imtina olunmalı, belə iddialar səhvən məhkəmənin icraatına qəbul edildiyi halda isə MPMin 261.0.2-ci maddəsinə əsasən iş üzrə icraata xitam verilməlidir.

54. O da vurğulanmalıdır ki, əqdə əsaslanan tələblər hüquqları əşya hüquqlarına söykənən iddialardan fərqləndirilməlidir. Məlum olduğu kimi, əşya hüquqlarının qeydə alındığı daşınmaz əmlakın dövlət reyestrinin məzmununun həqiqiliyi və tamamlığı prezumpsiyası vardır (Mülki Məcəllə, maddə 140). Bu prezumpsiya hüquq sahibini həmin qeydin əsaslılığını sübut etmək yükündən azad edir. Eyni zamanda daşınar əşyanın sahibi haqqında ehtimal edilir ki, o əşyaya mülkiyyətçi hüququ ilə sahiblik edir (Mülki Məcəllə, maddə 166.1). Bununla belə, aidiyyəti şəxs tərəfindən həmin qanuni ehtimalların əksi iddia və sübut oluna bilər.

55. Odur ki, əşya hüququnun əsaslandığı qeydin mötəbərliyinə aidiyyəti şəxs tərəfindən yazılı tələb irəli sürülməklə etiraz edilmədiyi halda, məhkəmənin həmin qeydin əsasında duran əqdin etibarlılığını yoxlamaq vəzifəsi yaranmır. Əks yanaşma Mülki Məcəllənin qeyd olunan prezumpsiyaları nəzərdə tutan normalarına, reyestrin mötəbərliyinə qarşı etiraz hüququna dair 141.2-ci maddəsinə, habelə MPM-in 5.1-ci maddəsində əks olunan dispozitivlik prinsipinə uyğun olmazdı.

56. Əksinə olaraq hüququ pozulmuş şəxs iddiaçının əşya hüququnun mövcudluğunu müvafiq qaydada mübahisələndirdikdə (məsələn, reyestr qeydinin düzəldilməsi və ya qeydin hüquqi səbəbini təşkil edən əqdin etibarsız sayılması barədə tələb irəli sürüldükdə) məhkəmə əqdin etibarlılığını ümumi qaydada yoxlamaqla, nəticəsindən asılı olaraq əşya hüququna söykənən tələbi həll etməlidir. Bu halda həmin əqdlərin etibarlı olub-olmaması ilə bağlı mübahisə birdəfəlik həll olunmuş sayılır və belə iddianın yenidən qaldırılmasına yol verilmir.

57. Beləliklə, Ali Məhkəmənin Mülki və Kommersiya kollegiyalarına daxil olan bütün hakimlərdən ibarət məhkəmə tərkibi MPM-in 418-1.1-ci maddəsini rəhbər tutaraq

QƏRARA ALDI:

Məhkəmənin icraatında əqdə əsaslanan iddialar olduğu halda, işdə iştirak edən şəxslər tərəfindən ayrıca icraatda həmin əqdin etibarsız hesab edilməsinə dair verilmiş iddia ərizəsinin qəbulundan MPM-in 153.2.4-cü maddəsinə əsasən imtina olunmalı, belə iddialar səhvən məhkəmənin icraatına qəbul edildiyi halda isə iddia ərizəsi MPM-in 259.0.4-cü maddəsinə əsasən baxılmamış saxlanılmalıdır.

Əqdə əsaslanan iddialar üzrə qanuni qüvvəsini almış məhkəmə aktı və ya iddiaçının iddiadan imtina etməsi və ya tərəflərin barışıq sazişinin təsdiq olunması ilə əlaqədar iş üzrə icraata xitam verilməsi haqqında məhkəmənin qərardadı olduğu halda, işdə iştirak etmiş şəxslər tərəfindən ayrıca icraatda həmin əqdin etibarsız hesab edilməsinə dair verilmiş iddia ərizəsinin qəbulundan MPM-in 153.2.2-ci maddəsinə əsasən imtina olunmalı, belə iddialar səhvən məhkəmənin icraatına qəbul edildiyi halda isə MPM-in 261.0.2-ci maddəsinə əsasən iş üzrə icraata xitam verilməlidir.

Qərardad Azərbaycan Respublikası Ali Məhkəməsinin rəsmi internet səhifəsində və Azərbaycan Respublikası Ali Məhkəməsinin Bülletenində dərc edilsin.

Azərbaycan Respublikası Ali Məhkəməsinin

Mülki və Kommersiya kollegiyalarının

Əqdə əsasən borclunun əmək haqqından akseptsiz qaydada tutmanın mümkün hədləri ilə bağlı qanunvericiliyin tətbiqi üzrə

Q Ə R A R D A D

№ 03/2022

Bakı şəhəri
14 dekabr 2022-ci il

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki və Kommersiya kollegiyaları,

Mülki kollegiyanın sədri Hacıyev Sənan Firudin oğlunun (sədrlik edən) və hakimləri Əliyev Ələsgər Əliabbas oğlu, Xəlilov İsmayıl Kamil oğlu, Əhmədova Mehparə Tofiq qızı, Nurməmmədov Əhməd Güləhməd oğlu, Hüseynov Abiddin Qabil oğlu, Əliyev Zaur Əli oğlu, Vəliyeva Elşanə Rafiq qızı, Əhmədov Əhməd Abbas oğlu, Abbasov Aqil Əzizağa oğlu, Həsənov Vüqar Təvəkgül oğlu, Şamayev Elşad Yaquboviç və Şəfiyev İspəndiyar Əsəd oğlu,

Kommersiya kollegiyasının sədri Abiyeva Kəmalə Nəbi qızı və hakimləri Dadaşov İlqar Ağababaş oğlu, Qəribov Bəhman Fərhad oğlu və Məmmədli Bəhram Məmməd oğlundan ibarət tərkibdə,

Şükürov Röyal Elman oğlunun katibliyi ilə,

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyasının Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 418-1-ci maddəsinin tələblərinə müvafiq qaydada verdiyi 2022-ci il 13 sentyabr tarixli təqdimatı əsasında mübahisəli hüquqi məsələyə hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə baxaraq aşağıdakıları müəyyən etdi.

Mübahisəli hüquqi məsələnin məzmunu

1. Hazırda Ali Məhkəmənin icraatında əvvəllər müəyyən edilmiş hüquqi mövqedən fərqli yanaşmanın tətbiqini zəruri edən “əmək haqqının yarısından artıq hissəsinin akseptsiz qaydada tutulmasının qadağan edilməsi tələbinə dair” mülki iş vardır.

2. Mülki işin hallarından göründüyü kimi, bank kredit borcunun təminatçısı kimi zaminin əmək haqqının tam hissəsinə tutma yönəltmiş və bunun əsası kimi aralarında bağlanmış zaminlik müqaviləsinin 9-cu bəndinə istinad etmişdir. Həmin bəndə əsasən zamin bu müqaviləni imzalamaqla kredit müqaviləsi üzrə əsas və faiz borcları, habelə dəbbə pulu ilə bağlı borcların zaminin sərəncamı olmadan akseptsiz qaydada (əlavə razılığı olmadan) onun istənilən bank hesabından bank tərəfindən tutulmasına (silinməsinə) razılıq bildirmişdir. Hazırkı iddia ilə iddiaçı (zamin) əmək haqqının yarısından artıq hissəsinin akseptsiz qaydada tutulmasının onun konstitusion hüquqlarını (yaşamaq, əmək və s.) pozduğunu bildirərək, məhkəmə tərəfindən cavabdehə qadağan edilməsini tələb etmişdir. Cavabdeh (bank) isə iddiaya etiraz edərək, müqavilə azadlığı prinsipinə istinad etmişdir.

3. İşə kassasiya qaydasında baxılarkən kassasiya şikayətinin dəlilini təşkil edən məsələyə münasibətdə Ali Məhkəmənin ayrı-ayrı məhkəmə tərkibləri arasında fərqli hüquqi yanaşmaların mövcud olduğu müəyyən olunmuşdur.

4. Belə ki, Ali Məhkəmənin Mülki kollegiyasında əvvəllər oxşar mübahisələr üzrə qəbul edilmiş qərarlarda qeyd edilmişdir ki, borclu (borc alan və ya zamin) ilə bank arasında bağlanmış müqaviləyə əsasən kreditora müqavilə üzrə yaranmış borcu əmək haqqının tam hissəsini akseptsiz qaydada tutmaq (silmək) hüququnun verilməsi mülki hüquq subyektlərinin iradə sərbəstliyi və müqavilə azadlığı prinsipləri çərçivəsində yolverilməndir.

5. Digər hüquqi mövqe isə ondan ibarətdir ki, kreditora borclunun əmək haqqını bütövlükdə silməyə imkan verən müqavilə şərti borclunun təməl konstitusion hüquqlarına, eyni zamanda əmək qanunvericiliyinə zidd olmaqla, etibarsız şərtdir. Ona görə də, kreditorun həmin müqavilə şərtinə istinadən borclunun bütün əmək haqqını akseptsiz qaydada silməsi əsaslı sayıla bilməz.

6. Göründüyü kimi, məhkəmə tərkibləri arasında fərqli hüquqi yanaşmalar mövcud olduğundan, qeyd edilən hüquqi məsələyə dair qanunvericiliyin tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi zərurəti yaranmışdır.

7. Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra – Mülki Prosessual Məcəllə) 418-1-ci maddəsinə müvafiq olaraq Ali Məhkəmənin məhkəmə tərkibi işə

kassasiya qaydasında baxarkən Ali Məhkəmənin digər məhkəmə tərkibinin əvvəllər qəbul etdiyi qərarda müəyyən edilmiş hüquqi mövqedən fərqli yanaşmanın tətbiq edilməsini zəruri hesab etdikdə, həmin mübahisəli hüquqi məsələyə hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə Ali Məhkəmənin mülki və kommersiya kollegiyalarına daxil olan bütün hakimlərdən ibarət tərkibdə baxılır.

8. Bu məqsədlə Ali Məhkəmənin sədri tərəfindən hazırda işə baxan Mülki kollegiyanın məhkəmə tərkibinin təqdimatı təmin edilərək, hüququn tətbiqi üzrə qeyd edilən mübahisəli hüquqi məsələ Mülki və Kommersiya kollegiyalarına daxil olan bütün hakimlərin müzakirəsinə çıxarılmışdır.

Məhkəmə tərkibinin mövqeyi

9. Məhkəmə tərkibi hesab edir ki, borca görə kreditor tərəfindən borclunun bütün əmək haqqının akseptsiz qaydada silinməsinin mümkün hədlərinə qiymət vermək üçün ilk növbədə hər bir şəxsin Azərbaycan Respublikasının Konstitusiyası (bundan sonra – Konstitusiya) ilə təsbit edilmiş konstitusion hüquqlarının mahiyyəti, eyni zamanda mülki qanunvericiliyin məqsədi, vəzifələri və prinsipləri, həmçinin müvafiq münasibətləri tənzimləyən normaların təyinatı, müqavilə azadlığı, əqdlərin etibarlılıq şərtləri əlaqəli şəkildə nəzərdən keçirilməlidir.

10. Konstitusiyanın 12-ci maddəsinin I hissəsinə əsasən insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir.

11. Konstitusiyanın 16-cı maddəsinin I hissəsinə əsasən Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır.

12. Şəxsin əmək hüququ onun konstitusion hüquqlarından biridir. Konstitusiyanın 35ci maddəsində göstərilir ki, əmək fərdi və ictimai rifahın əsasıdır. Hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək, heç bir ayrı-seçkilik qoyulmadan öz işinə görə dövlətin müəyyənləşdirdiyi minimum əmək haqqı miqdarından az olmayan haqq almaq hüququ vardır. Heç kəs zorla işlədilə bilməz.

13. Beləliklə, əhalinin rifahının yüksəldilməsi, onun sosial müdafiəsinin və layiqli həyat səviyyəsinin, habelə əmək hüquqlarının təmin edilməsi dövlətin insan hüquq və azadlıqlarının qorunmasına dair əsas məqsədlərinə daxildir və bu hüquqların məhdudlaşdırılması yalnız qanunvericiliklə müəyyən edilmiş qaydada mümkündür.

14. Azərbaycan Respublikası Əmək Məcəlləsinin (bundan sonra – Əmək Məcəlləsi) 176.1-176.3-cü maddələrinə əsasən hər dəfə əmək haqqı verilərkən tutulan bütün məbləğlərin ümumi miqdarı işçiyə verilməli olan əmək haqqının iyirmi faizindən və müvafiq qanunvericilikdə nəzərdə tutulmuş hallarda isə əlli faizindən artıq ola bilməz. Əmək haqqından bir neçə icra sənədinə əsasən məbləğlər tutularkən, bütün hallarda işçinin əmək haqqının əlli faizi saxlanmalıdır. Bu maddənin birinci və ikinci hissələri ilə müəyyən edilmiş məhdudiyyətlər islah işləri çəkərkən habelə alimentlərin tutulması, sağlamlığa vurulmuş ziyanın ödənilməsi, ailəni dolandıranın itkisi nəticəsində zərər çəkmiş şəxslərə vurulmuş ziyanın ödənilməsi və cinayət nəticəsində vurulmuş ziyanın ödənilməsi zamanı işçiyə verilən əmək haqqından məbləğlərin tutulmasına şamil edilmir.

15. Həmçinin "İcra haqqında" Azərbaycan Respublikası Qanununun 65.1-65.3-cü maddələrinin tələblərinə görə icra sənədi icra edilərkən borclunun əmək haqqından və ona bərabər sayılan digər gəlirlərindən tutmaların məbləği 50 faizdən çox ola bilməz. Tələb, bir neçə icra sənədi üzrə borclunun əmək haqqına və ona bərabər sayılan digər gəlirlərinə yönəldildikdə, qazancın 50 faizi borcluda qalmalıdır. Alimentlərin tutulması, sağlamlığa vurulmuş ziyanın ödənilməsi, ailəni dolandıranın itkisi nəticəsində zərər çəkmiş şəxslərə

vurulmuş ziyanın ödənilməsi və cinayət nəticəsində vurulmuş ziyanın ödənilməsi zamanı bu Qanunun 65.1 və 65.2-ci maddələri ilə müəyyən edilmiş məhdudiyyətlər tətbiq edilmir. Belə hallarda əmək haqqından və ona bərabər sayılan digər gəlirlərdən tutmaların məbləği 70 faizdən çox ola bilməz.

16. Göründüyü kimi, əmək qanunvericiliyi şəxsin əmək haqqından tutulmaların aparılması hədlərini konkret əsaslar istisna olmaqla, əmək haqqının 20 faizi həcmində məhdudlaşdırmışdır. Bu qaydanın tətbiq olunmasında əsas məqsəd şəxsin sosial müdafiəsini təmin etməklə ona yaşayış üçün minimum dolanacaq imkanı verməkdir.

17. Arzu olunan hüquqi nəticəni yaradan iradə ifadəsi olaraq əqd, o cümlədən onun ən geniş istifadə edilən növü olan müqavilələr bazar iqtisadiyyatı şəraitində mülki dövriyyənin sabitliyini və azadlığını təmin edən ən başlıca hüquqi vasitədir.

18. Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra – Mülki Məcəllə) 1ci maddəsində bu Məcəllənin məqsədinin üçüncü şəxslərin hüquqlarına xələl gətirmədən mülki dövriyyənin azadlığını onun iştirakçılarının bərabərliyi əsasında təmin etmək olduğu, əsas vəzifələr sırasında isə sərbəst bazar iqtisadiyyatının inkişafına şərait yaratmaq, sahibkarlıq fəaliyyətini dəstəkləmək olduğu göstərilmiş, mülki hüquq subyektlərinin iradə sərbəstliyi və müqavilə azadlığı prinsipləri isə mülki qanunvericiliyin başlıca prinsipləri sırasında nəzərdə tutulmuşdur (Mülki Məcəllə, maddələr 6.1.2 və 6.1.5).

19. Mülki hüquq subyektlərinin iradə sərbəstliyi olmadan azad sahibkarlıq fəaliyyəti və sərbəst bazar iqtisadiyyatından bəhs etmək mümkün deyil. Buna görə də, Mülki Məcəllədə təsbit olunmuşdur ki, fiziki və hüquqi şəxslər mülki hüquqları öz mənafelərini gerçəkləşdirmək üçün iradələrinə uyğun olaraq əldə edir və həyata keçirirlər (Mülki Məcəllə, maddə 6.2).

20. Lakin qanunverici tərəflərin mülki hüquqlarını iradə sərbəstliyi və müqavilə azadlığı prinsipləri əsasında həyata keçirməsini də müəyyən qanuni hədlərlə məhdudlaşdırmışdır. Belə ki, fiziki və hüquqi şəxslər müqavilə əsasında öz hüquq və vəzifələrini müəyyənləşdirməkdə və məhz qanunvericiliyə zidd olmayan hər hansı müqavilə şərtləri qoymaqda sərbəstdirlər (Mülki Məcəllə, maddə 6.2). Dövlət və ictimai təhlükəsizliyin, ictimai qaydanın, cəmiyyətin sağlamlığının və mənəviyyatının qorunması, digər şəxslərin hüquq və azadlıqlarının, şərəfinin və təmiz adının müdafiəsi üçün zəruri olduqda mülki hüquqlar yalnız qanunla məhdudlaşdırıla bilər (Mülki Məcəllə, maddə 6.3).

21. Göründüyü kimi, qanunverici mülki hüquq subyektləri arasında onların sərbəstliyi əsasında bağlanmış, lakin qanunvericiliyə zidd olmayan müqavilə şərtlərini etibarlı şərtlər kimi qəbul edir.

22. Mülki Məcəllədə müəyyənləşdirilmiş şərtləri pozmaqla bağlanmış əqd etibarsızdır. Əhəmiyyətsiz əqd məhkəmə tərəfindən etibarsız sayılıb-sayılmamasından asılı olmayaraq özlüyündə etibarsız olan əqddir. Etibarsız əqd onun etibarsızlığı ilə bağlı nəticələr istisna olmaqla, hüquqi nəticələrə səbəb olmur. Bu cür əqd bağlandığı andan etibarsızdır. (Mülki Məcəllə, maddələr 337.1, 337.3 və 337.4)

23. Nəzərə alınmalıdır ki, etibarsızlıq, əqdin etibarlılıq şərtləri ilə bağlı bir anlayışdır. Yəni əqd bağlanarkən qanunla müəyyən edilmiş etibarlılıq şərtlərinə uyğun olduqda etibarlı, olmadıqda isə etibarsız hesab edilir. Etibarlılıq şərtləri bir müqavilənin əsaslı hüquqi nəticələr yaratmasını təmin edən və qanunvericiliyə zidd olmayan şərtlərdir. Qanunda bütün əqdlər üçün tələb olunan (əqdi bağlayan şəxsin anlaqlı olması, əqdin məzmununun mümkünsüz, şəxsiyyətə və məcburi hüquq qaydalarına zidd olmaması, əqdi əmələ gətirən iradə ifadələrinin sağlam/zədələnməmiş olması, iradə bəyanlarının uydurma və ya yalan olmaması) və müəyyən növ əqdlər üçün tələb edilən (qanunda nəzərdə tutulmuş formaya uyğun olması, gərəkli razılığın verilmiş olması və s.) etibarlılıq şərtləri nəzərdə tutulmuşdur.

24. Eyni zamanda hazırkı hüquqi müzakirənin əsasında dayanan mülki işin xarakteri baxımından o da nəzərə alınmalıdır ki, qanunvericiliyin istehlakçı hüquqlarını tənzimləyən

normaları onların hüquqlarını qanunda nəzərdə tutulandan artıq həddə məhdudlaşdıran müqavilə şərtlərinin etibarsızlığı barədə xüsusi qayda müəyyən etmişdir.

25. Belə ki, "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 16-cı maddəsinə əsasən qanunvericiliklə nəzərdə tutulan hüquqlarla müqayisədə istehlakçıların hüquqlarını məhdudlaşdıran müqavilə şərtləri etibarsız sayılır.

26. Ona görə də, kreditora borclunun əmək haqqından qanunla müəyyən edilmiş həddlərdən artıq həcmdə akseptsiz qaydada tutmaq hüququ verən əqd və yaxud əqdin buna dair şərti şəxsin konstitusion hüquqlarına, mülki və əmək qanunvericiliyinin əsas prinsiplərinə və şərtlərinə, eyni zamanda dövlətin bu sahədə həyata keçirdiyi siyasətin məqsədlərinə ziddir.

27. Göstərilənlərə əsasən məhkəmə tərkibi belə qənaətə gəlir ki, kreditora borclunun əmək haqqının 20 faizindən artıq həcmdə akseptsiz qaydada pul vəsaiti tutmaq hüququ verən müqavilə şərti əhəmiyyətsiz olmaqla, etibarsızdır.

28. Beləliklə, Ali Məhkəmənin Mülki və Kommersiya kollegiyalarının hakimlərindən ibarət məhkəmə tərkibi Mülki Prosessual Məcəllənin 418-1.1-ci maddəsini rəhbər tutub, kassasiya instansiyası məhkəməsində icraat zamanı aşkar edilmiş mübahisəli hüquqi məsələyə baxaraq

QƏRARA ALDI:

Kreditora borclunun əmək haqqının 20 faizindən artıq həcmdə akseptsiz qaydada pul vəsaiti tutmaq hüququ verən müqavilə şərti etibarsızdır.

Qərardad Azərbaycan Respublikası Ali Məhkəməsinin rəsmi internet səhifəsində və Azərbaycan Respublikası Ali Məhkəməsinin Bülletenində dərc edilsin.

Azərbaycan Respublikası Ali Məhkəməsinin

Mülki və Kommersiya kollegiyalarının

“İpoteka haqqında” Azərbaycan Respublikası Qanununun 43.8-ci maddəsinə dair qanunvericiliyin tətbiqi məsələləri üzrə

Q Ə R A R D A D

№ 04/2022

Bakı şəhəri
14 dekabr 2022-ci il

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki və Kommersiya kollegiyaları,

Mülki kollegiyanın sədri Hacıyev Sənan Firudin oğlunun (sədrlik edən) və hakimləri Xəlilov İsmayıl Kamil oğlu, Əliyev Ələsgər Əliabbas oğlu, Əhmədova Mehparə Tofiq qızı, Əhmədov Əhməd Abbas oğlu, Nurməmmədov Əhməd Güləhməd oğlu, Vəliyeva Elşanə Rafiq qızı, Həsənov Vüqar Təvəkgül oğlu, Hüseynov Abiddin Qabil oğlu, Şamayev Elşad Yaquboviç, Abbasov Aqil Əzizağa oğlu, Əliyev Zaur Əli oğlu və Şəfiyev İspəndiyar Əsəd oğlu,

Kommersiya kollegiyasının sədri Abiyeva Kəmalə Nəbi qızı və hakimləri Dadaşov İlqar Ağababaş oğlu, Qəribov Bəhman Fərhad oğlu və Məmmədli Bəhram Məmməd oğlundan ibarət tərkibdə,

Şükürov Röyal Elman oğlunun katibliyi ilə,

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyasının Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 418-1-ci maddəsinin tələblərinə müvafiq qaydada verdiyi 2021-ci il 10 mart tarixli təqdimatı əsasında mübahisəli hüquqi məsələyə hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə baxaraq aşağıdakıları müəyyən etdi.

Mübahisəli hüquqi məsələnin məzmunu

1. Hazırda Ali Məhkəmənin icraatında əvvəllər müəyyən edilmiş hüquqi mövqedən fərqli yanaşmanın tətbiqini zəruri edən “ipotekaya xitam verilməsi” tələbinə dair mülki iş vardır.
2. İşin halları ondan ibarətdir ki, qanuni qüvvəsini almış məhkəmə qətnaməsi ilə tələbin ipoteka ilə yüklü edilmiş əmlaka yönəldilməsi barədə bankın iddiası qismən təmin edilərək, borcun tutulması və ipoteka ilə yüklü edilmiş əmlaka yönəldilməsi, həmin əmlakın açıq hərracda satılmaqla, əldə olunan vəsaitdən borcun ödənilməsi, yaşayış evinə tutma yönəldikdən və o satıldıqdan sonra keçmiş mülkiyyətçinin yaşayış sahəsini ən geci bir ay ərzində tərk etmədikdə oradan məcburi qaydada çıxarılması qət edilmiş, qətnamə qanuni qüvvəsini alaraq icraya yönəldilmişdir. 2017-ci ildə ipoteka predmetinin satılması üçün iki dəfə hərrac keçirilsə də, əmlak satılmamış, tələbkar da onu əldə etməmişdir. İcra məmuru 2019-cu il 14 yanvar tarixli qərarı ilə icra vərəqəsini “İcra haqqında” Azərbaycan Respublikası Qanununun (bundan sonra – “İcra haqqında” Qanun) 23.1.5-ci və “İpoteka haqqında” Azərbaycan Respublikası Qanununun (bundan sonra – “İpoteka haqqında” Qanun) 43-cü maddələrinə əsasən icra olunmadığından geri qaytarmışdır. Bundan sonra ipoteka qoyan təkrar hərracdan sonra keçən müddət ərzində tələbkarın əmlakı mülkiyyətinə qəbul etməməsini əsas tutaraq ipotekaya xitam verilməsi ilə bağlı mübahisə açmışdır.
3. Birinci instansiya məhkəməsi ipotekaya xitam verilməsi, həmin evə dair ipotekanın dövlət qeydiyyatının ləğv olunması qənaətinə gəlmişdir. Məhkəmə iddianı təmin edərkən ona əsaslanmışdır ki, ipoteka predmetinin satılması ilə bağlı 2017-ci ilin 27 mart və 1 may tarixlərində iki dəfə hərrac keçirilmiş, kütləvi informasiya vasitəsində ikinci hərracın baş tutmaması barədə elan verilmişdir. Buna baxmayaraq, tələbkar “İpoteka haqqında” Qanunun 43.8-ci maddəsinə əsasən əmlakı 30 gün ərzində əldə etmədiyi üçün ipotekaya xitam verilməlidir.
4. Bankın apellyasiya şikayəti əsasında işə baxan apellyasiya instansiyası məhkəməsi qətnaməni ləğv edərək, iddianın rədd edilməsi barədə yeni qətnamə çıxarmışdır.
5. Apellyasiya instansiyası məhkəməsinin mövqeyi belə olmuşdur ki, hərracın keçirilməsi ilə bağlı bildirişlərin tələbkara çatmasına dair sübutlar təqdim edilməmiş, əmlak hərracda satılmadığı halda, tələbkara təklif olunması barədə qaydalara riayət edilməmişdir. Məhkəmə “İpoteka haqqında” Qanunun 43.4-43.8 və 48-ci maddələrinin şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun (bundan sonra – Konstitusiya Məhkəməsi) 2014-cü il 28 oktyabr tarixli qərarına, eləcə də “İcra haqqında” Qanunun 53.3-cü maddəsinə istinad etmişdir.

6. İddiaçının qətnamədən verdiyi kassasiya şikayətinə baxılarkən müəyyən edilmişdir ki, Ali Məhkəmənin Mülki kollegiyasının bir sıra məhkəmə tərkibləri eyni kateqoriyadan olan mübahisələr üzrə qəbul etdiyi qərarlarında fərqli hüquqi mövqelərdən çıxış etmişlər.

7. Belə ki, "İpoteka haqqında" Qanunun 43-cü maddəsi hərracın baş tutmamış elan edilməsi qaydalarını nizamlayır. Həmin normaya görə hərracın təşkilatçısı hərracın baş tutmadığı barədə hərracın keçirilməsinə dair elanın verildiyi kütləvi informasiya vasitəsində və özünün rəsmi internet saytında məlumat dərc etdirir. Qanunun 43.8-ci maddəsinə əsasən ipoteka saxlayan təkrar hərrac baş tutmamış elan edildikdən sonra 30 təqvim günü ərzində ipoteka predmetini əldə etməzsə, ipotekaya xitam verilir.

8. Analoji işlərə baxılması təcrübəsi göstərir ki, məhkəmələr qeyd olunan 30 günlük müddəti hərrac təşkilatının və yaxud icra qurumunun ipoteka saxlayana əmlakı mülkiyyətinə qəbul etməsi ilə bağlı göndərdiyi təklifin alındığı gündən hesablayırlar.

9. Eyni zamanda qeyd olunan əsaslarla ipotekaya xitam verilməsi tələbi araşdırılarkən ipoteka saxlayan iddianın əsassız olmasını hərracın qanunsuz keçirilməsi barədə etirazlar ilə əsaslandırdıqda, bu barədə ayrıca iddia irəli sürülməsi təcrübəsindən istifadə olunur. Hazırkı işdə isə apellyasiya məhkəməsi belə tələb olmadan ipoteka saxlayanın məhkəmə baxışı zamanı hərracın etibarsızlığına dair vermiş olduğu etirazları yoxlayaraq, onları əsas götürməklə iddianı rədd etmişdir. Məhkəmə bu barədə mövqeyini onunla əsaslandırmışdır ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra – Mülki Məcəllə) 416.1-ci maddəsinə görə hərrac maraqlı şəxsin iddiası üzrə etibarsız sayıla bilər.

10. Bundan başqa, analoji işlərə baxılması təcrübəsi göstərir ki, təkrar hərracın baş tutmaması barədə elan verildikdən sonra 30 gün ərzində ipoteka saxlayan ipoteka ilə yüklü edilmiş əmlakı öz mülkiyyətinə götürmək barədə təklifi müsbət cavablandırmış olsa da, qanunda nəzərdə tutulan qaydalara riayət edilməklə əmlakın rəsmiləşdirilməsi həmin müddət ərzində başa çatmır.

11. Məlum olduğu kimi, "İpoteka haqqında" Qanunun 43.7-1-ci maddəsinə əsasən təkrar hərrac baş tutmamış elan edildikdə, ipoteka predmetinin ipoteka saxlayan tərəfindən əldə olunması barədə ipoteka saxlayan və hərracın təşkilatçısı 30 təqvim günü ərzində protokol imzalayırlar; bu protokol müqavilə qüvvəsinə malikdir.

12. Bu qəbildən olan mübahisələrə baxılarkən məhkəmələr bu normanın tətbiqi ilə bağlı da fərqli mövqelər nümayiş etdirirlər. Bir sıra hallarda bütün prosedurların 30 gün ərzində başa çatması mövqeyindən çıxış edilir, digər hallarda isə ipoteka saxlayanın əmlakı öz mülkiyyətinə götürmək barədə təklifi müsbət cavablandırması kifayət hesab edilir.

13. Göründüyü kimi, yuxarıda qeyd edilən mübahisələrə baxılarkən hüquqi məsələlərə dair qanunvericiliyin tətbiqi ilə bağlı mövqelər müxtəlifdir.

14. Odur ki, ipotekaya xitam verilməsi tələbinə baxılarkən ipoteka saxlayanın iddia tələbi olmadığı halda hərracın keçirilməsi qaydalarına riayət olunmamasına dair tərəfin etirazı əsasında hərracların qanuniliyinə qiymət verməklə iddianın rədd edilməsinin, həmin əsasla iddia tələbi rədd olunduğu təqdirdə icra sənədinin yenidən icraya yönəldilməsinin mümkünlüyü, təkrar hərracın baş tutmamasından sonra tələbkara rəsmi təklifin göndərilməsinin zəruri olub-olmaması, təkrar hərracdan keçən 30 gün ərzində tələbkar təklifə müsbət cavab verdikdən sonra əmlakın rəsmiləşdirilməsi baş vermədikdə həmin əsasla ipotekaya xitam verilməsinin mümkünlüyü məsələləri ilə bağlı vahid məhkəmə təcrübəsinin təmin edilməsinə zərurət yaranmışdır.

15. Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra – Mülki Prosessual Məcəllə) 418-1-ci maddəsinə müvafiq olaraq Ali Məhkəmənin məhkəmə tərkibi işə kassasiya qaydasında baxarkən Ali Məhkəmənin digər məhkəmə tərkibinin əvvəllər qəbul etdiyi qərarda müəyyən edilmiş hüquqi mövqedən fərqli yanaşmanın tətbiq edilməsini zəruri hesab etdikdə, həmin mübahisəli hüquqi məsələyə hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə Ali Məhkəmənin mülki və kommersiya kollegiyalarına daxil olan bütün hakimlərdən ibarət tərkibdə baxılır.

16. Bu məqsədlə Ali Məhkəmənin sədri tərəfindən hazırda işə baxan Mülki kollegiyanın məhkəmə tərkibinin təqdimatı təmin edilərək, hüququn tətbiqi üzrə qeyd edilən mübahisəli hüquqi məsələ Mülki və Kommersiya kollegiyalarına daxil olan bütün hakimlərin müzakirəsinə çıxarılmışdır.

17. Mübahisəli hüquqi məsələ hüquq ictimaiyyətinin diqqətinə çatdırılmış, yazılı formada əsaslandırılmış rəylər (amicus curiae rəyi) Ali Məhkəməyə təqdim edilmişdir.

Məhkəmə tərkibinin mövqeyi

18. İlk növbədə qeyd edilməlidir ki, ipoteka saxlayanın təkrar hərrac baş tutmamış elan edildikdən sonra 30 təqvim günü ərzində ipoteka predmetini əldə etmək hüququ olduğu kimi, ipoteka qoyanın da ipoteka saxlayanın sözügedən hüququndan istifadə etmədiyi və ya vaxtında istifadə etmədiyi halda ipotekaya xitam verilməsi ilə bağlı tələb irəli sürmək hüququ vardır. Nəzərə alınmalıdır ki, hüquq tətbiqetmə təcrübəsində vətəndaşın qanunvericilikdə nəzərdə tutulmuş imkanlardan istifadəsinin mümkünsüz hala gətirilməsi həmin imkanı özündə əks etdirən normanın deklarativ xarakter daşımasına gətirib çıxara bilər. Bu səbəbdən hər kəs qanunvericilikdə təsbit olunmuş hüquqlarının toxunulmazlığından, eləcə də qanunla müəyyən olunmuş qaydalara, o cümlədən ipoteka saxlayan tərəfindən ipoteka predmetinin təkrar hərracın baş tutmamış elan olunmasından sonra 30 təqvim günü ərzində ipoteka predmetini əldə etmədiyi və ya həmin müddətdən sonra əldə etdiyi halda mülkiyyətçi kimi ipotekaya xitam verilməsini tələb etmək imkanının mövcudluğundan əmin olmalıdır. Sonuncu xüsusat qanunun aliliyinin əsas elementlərindən biri kimi çıxış edən hüquqi müəyyənlik prinsipindən irəli gəlir.

19. Avropa İnsan Hüquqları Məhkəməsinin prinsipial hüquqi mövqeyi ondan ibarətdir ki, qanun qanunverici normaların kifayət qədər dəqiq ifadə olunmasını, bu və ya digər hərəkətin hansı nəticələrə səbəb olacağını görməyə imkan verməsini tələb edən müəyyən olunmuş standarta cavab verməlidir (Deryus Litvaya qarşı iş üzrə 2000-ci il 31 iyul tarixli qərar, Baranovski və Braniovski Polşaya qarşı iş üzrə 2000-ci il 28 mart və 2004-cü il 22 iyul tarixli qərarlar).

20. Konstitusiya Məhkəməsinin ifadə etdiyi hüquqi mövqeyə görə də konstitusiya hüququnun doktrinası hüquqi müəyyənlik prinsipini Konstitusiyanın Preambulasında öz əksini tapan qanunun aliliyinin əsas elementlərindən biri kimi tanıyır. Hüquqi müəyyənlik prinsipi isə mövcud hüquqi vəziyyətə aid aydınlığı və müəyyənliyi nəzərdə tutur

("Azərbaycan Respublikası Mülki Məcəlləsinin 228.5-ci maddəsinə dair" Konstitusiya Məhkəməsinin 2008-ci il 27 may tarixli Qərarı).

21. "İpoteka haqqında" Qanunda yuxarıda qeyd edilən əsasla ipotekaya xitam verilməsi göstərilsə də, bunun prosedur qaydası, yəni ipotekaya hansı orqan (məhkəmə və ya digər orqan) tərəfindən, hansı icraat qaydasında (iddia icraatı və ya məhkəmə qərarlarının icrası qaydasında) xitam verilməli olması qeyd olunmamışdır. Lakin "İpoteka haqqında" Qanunun 43.4-43.8 və 48-ci maddələrinin şərh edilməsinə dair Konstitusiya Məhkəməsinin 2014-cü il 28 oktyabr tarixli Qərarında həmin məsələyə aydınlıq gətirilərək qeyd edilmişdir ki, ikinci hərrac keçirildikdən sonra 30 təqvim günü ərzində ipoteka saxlayan ipoteka predmetini əldə etmədikdə, ipoteka qoyan mülki məhkəmə icraatı qaydasında ipotekaya xitam verilməsini tələb edə bilər.

22. "İpoteka haqqında" Qanunun 43.8-ci maddəsi öhdəliyin təminatı olaraq ipotekaya qoyulmuş əmlakın açıq hərrac vasitəsilə satılmasının mümkün olmadığı və ipoteka saxlayanın əmlakı əldə etmədiyi halda işə düşür. Ona görə də, qeyd olunan normanın dispozisiya şərtlərinin yaranması üçün aşağıdakı zəruri əsaslar məcmu halda mövcud olmalıdır: 1) ipoteka ilə yüklü edilmiş əmlak barəsində iki hərracın keçirilməsi; 2) hər iki hərracın baş tutmamış elan olunması; 3) təkrar hərracın baş tutmamış elan olunmasından 30 təqvim günü ərzində ipoteka saxlayanın ipoteka predmetini əldə etməməsi.

23. Həmin əsaslardan hər hansı birinin mövcud olmaması istinad olunan normanın tətbiqini istisna edir.

24. Odur ki, məhkəmələr “İpoteka haqqında” Qanunun 43.8-ci maddəsinə əsaslanan ipotekaya xitam verilməsi tələbinin təmin edilməsi üçün bu şərtlərin məcmu halda mövcudluğunun müəyyən edilməsi ilə kifayətlənməlidirlər.

25. İpotekaya xitam verilməsi tələbinə baxılan zaman istinad edilən şərtlərin qanuniliyinin yoxlanılmasının mümkünlüyü ilə bağlı isə aşağıdakılar qeyd edilməlidir.

26. Mülki Məcəllənin 416.1-ci maddəsinə əsasən bu Məcəllədə müəyyənləşdirilmiş qaydaları pozmaqla keçirilən hərrac maraqlı şəxsin iddiası üzrə məhkəmə tərəfindən etibarsız sayıla bilər. Həmin Məcəllənin 416.2-ci maddəsinə əsasən hərracın etibarsız sayılması hərracı udmuş şəxslə bağlanan müqavilənin etibarsızlığına səbəb olur.

27. Maddənin məzmunu onu deməyə əsas verir ki, qanunverici hərracın və onun nəticələrinə dair müqavilənin etibarsız sayılmasını yalnız məhkəmə qaydasında maraqlı şəxsin iddiası üzrə mümkün hesab edir. Lakin istinad edilən maddədə nəzərdə tutulan iddianın müstəqil tələblə yanaşı, iddiaya etirazı da ehtiva edib-etməməsi aydınlaşdırılmalıdır.

28. Qeyd edilən məsələyə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki və Kommersiya kollegiyalarının 2022-ci il 10 iyun tarixli 02/2022 nömrəli Qərardadında qiymət verilmişdir. Belə ki, həmin Qərardadda ifadə edilmiş hüquqi mövqeyə görə hərrac protokolunun etibarsızlığı daxil olmaqla, etibarsız sayılması üçün məhkəmə qərarı tələb olunan əqdlərlə bağlı mübahisələrə baxılarkən də qarşı tərəfin əqdin etibarsızlığı barədə dəlilləri məhkəmə tərəfindən əsaslı hesab edildiyi və əqdin etibarsızlığı müəyyən olunduğu halda, son nəticədə əqd məhkəmə qərarı əsasında etibarsız hesab edilmiş olur. Mülki qanunvericilikdə belə əqdlərin maraqlı şəxsin iddiası üzrə etibarsız sayıla bilməsi barədə norma (məsələn, Mülki Məcəllə, maddə 416.1) prosessual mənada iddianın irəli sürülməsini deyil, maddi hüquqi mənada əqdin etibarsızlığına dair istənilən formada iradənin bildirilməsini ehtiva edir.

29. Göründüyü kimi, “İpoteka haqqında” Qanunun 43.8-ci maddəsi çərçivəsində mübahisəyə baxılarkən hərracların və onların nəticələrinin qanuniliyinin yoxlanılması ipoteka saxlayanın tələbləri və ya buna bərabər tutulan etirazları əsasında mümkündür. Belə bir tələbin və ya etirazın olmadığı halda, məhkəmənin öz təşəbbüsü ilə həmin məsələni yoxlaması isə Mülki Prosessual Məcəllənin 5.1-ci maddəsində açıqlanan dispozitivlik prinsipinə və hərracların etibarsızlığına dair Mülki Məcəllənin 416.1-ci maddəsinə ziddir.

30. Məhkəmə tərkibi qeyd edir ki, ipoteka saxlayan öz etirazlarını bildirdikdə məhkəmə bu Qərardadın 24-cü bəndində göstərilən qiymətləndirmə ilə kifayətlənməyərək, hərracın qanuniliyini etirazın dəlilləri baxımından yoxlamalı və hərracın qanunvericiliyə zidd şəkildə keçirildiyi öz təsdiqini tapdığı halda, ipotekaya xitamın verilməsi tələbinə dair iddianı təmin etməməlidir.

31. Qeyd olunan əsaslarla ipotekaya xitam verilməsi barədə iddia tələbi təmin olunmadığı təqdirdə, icra edilməyən və ya qismən icra edilmə əsası ilə məhkəməyə qaytarılmış icra sənədi ipoteka saxlayanın müraciəti əsasında yenidən icraya yönəldilməlidir. Belə ki, “İcra haqqında” Qanunun 23.3-cü maddəsinə əsasən icra sənədinin qaytarılması bu Qanunun 23.1-ci maddəsində nəzərdə tutulan əsaslar (icra sənədini vermiş məhkəməyə və ya digər orqana qaytarılması əsasları) aradan qalxdıqdan sonra tələbkar müraciət etdikdə sənəd yenidən icraya yönəldilir.

32. Həmçinin ipotekaya xitam verilməsi tələbi hərracların müəyyənləşdirilmiş qaydaları pozulmaqla keçirilməsi əsası ilə təmin edilmədiyi təqdirdə, həmin əmlaklarla bağlı hərraclar keçirilməmiş hesab edildiyi üçün onların yenidən təşkili “İpoteka haqqında” Qanunun 43-cü maddəsinin (yalnız iki hərracın keçirilməsi) tələblərinə zidd olmayacaqdır.

33. “İpoteka haqqında” Qanunun 43.8-ci maddəsinə əsasən ipotekaya xitam verilmənin təkrar hərracın baş tutmamış elan edilməsindən 30 təqvim günü ərzində əldə edilməməsi şərti ilə bağlı isə qeyd edilməlidir ki, bu şərt özü-özlüyündə 2 məsələyə aydınlıq gətirilməsini tələb edir: 30 günlük müddətin axımının başlanması anı və ipoteka predmetinin ipoteka saxlayan tərəfindən əldə edilmə qaydası.

34. Bununla bağlı ilk növbədə qeyd edilməlidir ki, təkrar hərracın baş tutmaması barədə elan verildikdən sonra əmlakın əldə edilməsi üçün ipoteka saxlayana ayrıca sənəd şəklində təklifin göndərilməsi qanunvericilikdə nəzərdə tutulmamışdır.

35. Belə ki, "İpoteka haqqında" Qanunun 43.7-1 və 43.8-ci maddələrinə əsasən təkrar hərrac baş tutmamış elan edildikdə, ipoteka predmetinin ipoteka saxlayan tərəfindən əldə olunması barədə ipoteka saxlayan və hərracın təşkilatçısı 30 təqvim günü ərzində protokol imzalayırlar; bu protokol müqavilə qüvvəsinə malikdir. İpoteka saxlayan təkrar hərrac baş tutmamış elan edildikdən sonra 30 təqvim günü ərzində ipoteka predmetini əldə etməzsə, ipotekaya xitam verilir.

36. "İpoteka haqqında" Qanunun 43.1-ci maddəsində deyilir ki, hərracın təşkilatçısı hərraca iki nəfərdən az alıcı gəldikdə, hərracın iştirakçısı olmadıqda, hərracı udmuş iştirakçı hərracın nəticələri barədə protokol imzalamaqdan imtina etdikdə, hərracı udmuş iştirakçı bu Qanunla müəyyən olunmuş müddətdə alış qiymətini tamamilə ödəmədikdə (bu şərtlə ki, ipoteka saxlayanın razılığı ilə həmin müddət uzadılmasın) hərracın baş tutmadığı barədə hərracın keçirilməsinə dair elanın verildiyi kütləvi informasiya vasitəsində və özünün rəsmi internet saytında məlumat dərc etdirir.

37. Göründüyü kimi, qanunverici hərrac təşkilatları tərəfindən hərracın yekunlarına dair elanların həm hərracın keçirilməsinə dair elanın verildiyi kütləvi informasiya vasitəsində (media subyektlərində), həm də özünün rəsmi internet saytında dərc edilməsini tələb edir.

38. "İpoteka haqqında" Qanunun 43.8-ci maddəsini həmin Qanunun 43.1-ci maddəsinin məzmunu baxımından təhlil etdikdə belə qənaət hasil olur ki, təkrar hərracın baş tutmamış elan edilməsi anı hərrac təşkilatının media subyektlərində və özünün rəsmi internet saytında bununla bağlı məlumatı dərc etdirdiyi gün hesab olunur və ipoteka predmetinin ipoteka saxlayan tərəfindən əldə edilməsi üçün nəzərdə tutulmuş 30 günlük müddət növbəti gündən (Mülki Məcəllə, maddə 368) hesablanmağa başlayır.

39. O da nəzərə alınmalıdır ki, ipoteka predmetini əldə etmə müddəti hüququn mahiyyətinə uyğun olaraq kəsici müddətdir. Çünki ipoteka saxlayan təkrar hərracın baş tutmadığı elan edildikdən sonra 30 gün ərzində bu imkandan istifadə etməzsə, həm predmeti əldə etmək, həm də ipoteka hüququnu itirir. Odur ki, ipoteka saxlayan müvafiq elanın dərc olunduğu vaxtdan keçən 30 gün ərzində ipoteka predmetini əldə etməlidir.

40. Analoji mübahisələrə baxılarkən məhkəmələrin "İcra haqqında" Qanunun ipoteka saxlayana əmlakı qəbul etməsi ilə bağlı təklifin göndərilməsinə dair 53.3-cü maddəsinə əsaslanması maddi hüquq normalarının düzgün tətbiq olunmaması kimi qiymətləndirilməlidir. Belə ki, "İcra haqqında" Qanunun 53-cü maddəsi ipoteka predmetinə tutma qaydalarını deyil, üzərinə həbs qoyulmuş əmlakın satılması məsələlərini nizama salır.

41. Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki və Kommersiya kollegiyalarının "İcra icraatı çərçivəsində borclunun əmlakının hərracdan satılması qaydası ilə bağlı qanunvericiliyin tətbiqi üzrə" 2021-ci il 24 noyabr tarixli 02/2021 nömrəli Qərardadının 23-cü bəndində məhkəmə tərkibi qeyd etmişdir ki, qanunverici kreditorların yönəltmə hüquqlarının mahiyyətini nəzərə alaraq, icra sənədi üzrə borclunun əmlakına yönəltmə ilə bağlı hərracın keçirilməsi qaydalarını (Mülki Məcəllənin 415-ci maddəsi, habelə "İcra haqqında" Qanunun 45.6, 53, 61 və 62-ci maddələri) ipoteka predmeti olan əmlakın hərracda satışı qaydalarından ("İpoteka haqqında" Qanunun 42 və 43-cü maddələri) fərqli şəkildə tənzimləmişdir.

42. Həmin Qərardada əsasən icra icraatı çərçivəsində borclunun ipoteka predmetinə, vergi ödəyicisi kimi siyahıya alınmış əmlaka və girov predmeti olan qiymətli kağızlara aid olmayan əmlaklarına tələbin yönəldilməsi və hərracdan satılması qaydaları Mülki Məcəllənin 415-ci və "İcra haqqında" Qanunun 45.6, 45.7, 51, 53, 61 və 62-ci maddələri ilə tənzimlənir və bu münasibətlərə qanunun analogiyası üzrə digər qanunvericilik aktlarında nəzərdə tutulmuş hərrac qaydaları tətbiq edilməməlidir.

43. Beləliklə, "İpoteka haqqında" Qanunun 43.8-ci maddəsinə əsasən ipoteka saxlayanın təkrar hərrac baş tutmamış elan edildikdən sonra 30 təqvim günü ərzində ipoteka predmetini əldə etməməsi ipotekaya xitam verilməsi üçün qanuni əsas yaradır. Bununla bağlı tərəflər

arasında mübahisə olduqda ipotekaya xitam verilməsi haqqında məhkəmədə iddia qaldırıla bilər.

44. İpoteka predmetinin ipoteka saxlayan tərəfindən əldə edilmə qaydası ilə bağlı isə ilk növbədə qeyd edilməlidir ki, qanunverici hərracdan əmlakın əldə edilməsinin əsas qaydası kimi hərracın nəticələrinə dair müqavilə qüvvəli yekun protokolun imzalanmasını nəzərdə tutmuşdur.

45. Belə ki, Mülki Məcəllənin 415.5-ci maddəsinə əsasən hərracı udmuş şəxs və hərracın təşkilatçısı auksionun və ya müsabiqənin keçirildiyi gün hərracın nəticələri haqqında protokol imzalayırlar; bu protokol müqavilə qüvvəsinə malikdir.

46. Qanunverici "İpoteka haqqında" Qanunun 42.6-cı maddəsi ilə ipoteka predmetinin hərracdan əldə edilməsi üçün də eyni qaydanı müəyyən etmişdir.

47. Xüsusi ilə vurğulanmalıdır ki, hərracdan ipoteka predmeti olan və yaxud olmayan əmlakın əldə edilməsi qaydası qanunvericilikdə aydın şəkildə tənzimlənsə də, "İpoteka haqqında" Qanunun ilkin redaksiyasında ipoteka saxlayanın təkrar hərracın baş tutmamış elan edilməsindən sonra ipoteka predmetini əldə etməsi qaydası müəyyən edilməmişdi. Lakin sonradan həmin qanuna edilmiş dəyişikliklə belə əldə etmə də əmlakın hərracdan əldə edilməsinə dair müəyyən edilmiş ümumi qaydaya uyğun nizamlanmışdır.

48. Belə ki, "İpoteka haqqında" Qanuna 2021-ci il 25 may tarixli 327-VIQD nömrəli Qanunla əlavə edilmiş yeni 43.7-1-ci maddəyə əsasən təkrar hərrac baş tutmamış elan edildikdə, ipoteka predmetinin ipoteka saxlayan tərəfindən əldə olunması barədə ipoteka saxlayan və hərracın təşkilatçısı 30 təqvim günü ərzində protokol imzalayırlar və bu protokol müqavilə qüvvəsinə malikdir.

49. Göründüyü kimi, qanunverici təkrar hərrac baş tutmamış elan edildikdən sonra ipoteka predmetinin əldə etməyə müstəsna hüququ olan ipoteka saxlayanın həmin əmlakı əldə etməsi ilə bağlı xüsusi qaydasını əmlakın ümumi qaydada hərracdan əldə edilməsi ilə eyniləşdirmişdir.

50. Qanunvericinin mövqeyinə görə ipoteka predmetinin əldə edilməsi və bununla bağlı iradə ifadəsi hər hansı bir təklif məktubu və ya onun cavablandırılması ilə deyil, məhz tərəflər arasında təkrar hərracın baş tutmamış elan edildikdən 30 təqvim günü ərzində bununla bağlı müqavilə qüvvəsinə malik protokolun imzalanması ilə şərtləndirilmişdir.

51. Əmlakın hərracdan əldə edilməsinin ipoteka saxlayanın bununla bağlı hərrac təşkilatçısına ünvanlanmış iradə ifadəsinin çatdırılması (təklifin göndərilməsi) ilə deyil, məhz yekun protokolun imzalanması ilə şərtləndirilməsi "İpoteka haqqında" Qanunun 46.1ci maddəsi ilə də öz təsdiqini tapır. Belə ki, həmin maddəyə əsasən təkrar hərrac baş tutmamış elan edildikdə, ipoteka predmetinin ipoteka saxlayan tərəfindən əldə olunması barədə protokol imzalananadək əsas öhdəlik üzrə borclu və (və ya) ipoteka qoyan, yaxud hər hansı üçüncü şəxs ipoteka saxlayanın əsas öhdəlik üzrə bütün tələbini ödəyərək ipoteka predmetinə tutma yönəldilməsinə və onun satışına xitam verə bilər. Bu hüququ məhdudlaşdıran razılaşma əhəmiyyətsizdir.

52. Göründüyü kimi, qanunverici yekun protokolun imzalanmasınadək ipoteka qoyanın mülkiyyətçi statusunda qalmasını qəbul edərək, ona ipoteka saxlayanın əsas öhdəlik üzrə bütün tələbini ödəməklə ipoteka predmetinə tutmanın yönəldilməsinə xitam vermək hüququnu vermişdir. Bu hüququn mövcudluğu isə hərracın təkrar baş tutmamış elan olunmasından sonra ipoteka saxlayan tərəfindən əmlakın əldə edilməsinə dair göndərdiyi təklifin əmlakın əldə edilmə anı kimi qiymətləndirilməsini istisna edir.

53. Bundan başqa, "İpoteka haqqında" Qanunun 42.8-ci maddəsinə əsasən hərracın nəticələri haqqında protokol ipotekanın dövlət qeydiyyatı orqanına ipotekaya xitam verilməsi və yeni mülkiyyətçi haqqında qeydlərin müvafiq reyestrə daxil edilməsi üçün əsas hesab olunur. Həmçinin "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanun) 8.0.2-ci maddəsinə əsasən qanunla müəyyən edilmiş qaydada ixtisaslaşdırılmış təşkilatlar tərəfindən keçirilən açıq hərracın nəticələrinə dair yekun protokol, habelə təkrar hərrac baş tutmamış elan

edildikdə, ipoteka predmetinin ipoteka saxlayan tərəfindən əldə olunmasına dair protokol daşınmaz əmlak üzərində hüquqların əmələ gəlməsinin, başqasına keçməsinin, məhdudlaşdırılmasının (yüklülüyünün) və xitam verilməsinin dövlət qeydiyyatı üçün əsasdır.

54. Göründüyü kimi, istər "İpoteka haqqında" Qanun, istərsə də "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanun ipotekaya xitam verilməsi, yeni mülkiyyətçi haqqında qeydlərin müvafiq reyestrə daxil edilməsi, eləcə də daşınmaz əmlak üzərində hüquqların əmələ gəlməsinin, başqasına keçməsinin, məhdudlaşdırılmasının (yüklülüyünün) və xitam verilməsinin əsası kimi ipoteka predmetinin ipoteka saxlayan tərəfindən əldə olunmasına dair protokolun mövcudluğunu nəzərdə tutur.

55. Məhkəmə təcrübəsində ipoteka saxlayanın əmlakın əldə edilməsi ilə bağlı ipoteka haqqında qanunvericilikdə müəyyən edilmiş 30 təqvim günü ərzində onun iradəsindən asılı olmayan səbəblərdən (hərrac təşkilatının protokolu imzalamaqdan yayınması və ya imtina etməsi) hərrac protokolunun imzalanmaması hallarına rast gəlinir.

56. Hərrac təşkilatçısının hərrac protokolunu imzalamaqdan imtinasının hüquqi nəticələri və hərracın qalibi elan olunmuş tərəfin hüquqi müdafiə vasitələri Mülki Məcəllənin 415.5 və 415.7-ci maddələrində nəzərdə tutulsa da, "İpoteka haqqında" Qanunda hərrac təşkilatçısının ipoteka saxlayanın təkrar hərracın baş tutmamış elan edilməsindən sonra 30 təqvim günü ərzində ipoteka predmetini əldə etməsinə dair protokolu imzalanmasından imtinasının və ya yayınmasının hüquqi nəticələri ilə bağlı xüsusi qayda müəyyən edilməmişdir.

57. Bu baxımdan qeyd olunmalıdır ki, təkrar hərracın baş tutmamış elan edilməsindən sonra 30 təqvim günü ərzində ipoteka predmetinin əldə edilməməsi ipotekaya xitam verilməsinin qanuni əsası kimi çıxış etdiyindən, hərrac təşkilatının protokolu imzalamaqdan əsassız imtina etməsi və yaxud yayınması zamanı da ipoteka saxlayana onun pozulmuş hüququnun real bərpası imkanı tanınmalıdır. Məhkəmə tərkibi hesab edir ki, belə hallarda ipoteka saxlayan ipoteka predmetinin hərracdan əldə edilməsinə dair "Protokolun qanunla müəyyən edilmiş 30 günlük müddət ərzində imzalanmış hesab edilməsi və (və ya) zərərin əvəzinin ödənilməsi haqqında" iddia qaldıra bilər.

58. Nəzərə alınmalıdır ki, müqavilənin hərracda bağlanması mülki qanunvericiliyin müqavilənin bağlanmasına dair ümumi qaydalarından fərqlənən xüsusi bir prosedurdur (Mülki Məcəllə, maddə 414). Digər tərəfdən, ipoteka predmetinə tutmanın yönəldilməsi əmlakın hərracdan könüllü deyil, qanunvericiliklə müəyyən edilmiş qaydada məcburi satışını ehtiva edir. Könüllü keçirilən hərraclardan fərqli olaraq belə hərraclar zamanı hərrac təşkilatçısı əmlakın mülkiyyətçisi və ya əmlak hüququnun sahibi ilə müqavilə əsasında deyil, məcburi icra tədbirləri çərçivəsində icra məmurunun sifarişi əsasında hərəkət edir. Hərrac təşkilatçısı hərracın qanunla müəyyən edilmiş qaydalara uyğun keçirilməsini təmin etməklə, qaydalara uyğun keçirilmiş hərracın nəticələrinə dair protokolu imzalamaq vəzifəsini daşıyır. Bu baxımdan, qanunla müəyyən edilmiş qaydada protokolu imzalamaq vəzifəsinin hərrac təşkilatının üzərinə qoyulması müqavilə bağlamağa məcburetmə deyil, qanunla hərrac təşkilatının üzərinə qoyulmuş vəzifənin icra etməyə məcburetmə kimi qiymətləndirilməlidir. Bu isə Mülki Məcəllənin müqavilə bağlamağa məcburetməni qadağan edən 390.3-cü maddəsi ilə hər hansı ziddiyyət təşkil etmir.

59. Protokolun qanunla müəyyən edilmiş 30 günlük müddət ərzində imzalanmış hesab edilməsi tələbinə dair iddialara baxılarkən məhkəmələr ipoteka saxlayanın ipoteka predmetinin əldə edilməsi üçün qanunla nəzərdə tutulmuş müddət ərzində bütün zəruri tədbirləri gördüyünü və protokolu qanunla müəyyən edilmiş şərtlərlə imzalamağa razılığını ifadə etdiyini, lakin yekun protokolun ondan asılı olmayan səbəblərdən imzalanmadığını müəyyən edərlərsə, hərrac təşkilatçısının hərəkətini (hərəkətsizliyini) qanunsuz hesab etməklə, iddianı təmin edə bilərlər.

60. Bu zaman qəbul edilmiş məhkəmə aktı qanuni qüvvəsini aldıqdan sonra hərracın yekunlarına dair protokolu əvəz etməklə, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunun 8.0.4-cü maddəsinə əsasən ipoteka predmetinin ipoteka saxlayanın adına daşınmaz əmlakın dövlət reyestrində qeydə alınması əsasını təşkil etdiyi üçün məhkəmə qətnaməsində

əmlakın ipoteka saxlayan tərəfindən hansı şərtlərlə əldə edildiyi dəqiq göstərilməlidir. Həmçinin qeyd olunmalıdır ki, bu cür məhkəmə qətnamələri ilə ipoteka saxlayanın ipoteka predmetini qanunla müəyyən edilmiş 30 günlük müddət ərzində əldə etməsi müəyyən olunduğundan, bu hal həmin müddətin kəsici müddət olması ilə bağlı yuxarıda ifadə edilmiş hüquqi mövqe ilə hər hansı ziddiyyət təşkil etmir.

61. Bununla yanaşı, hüquqi müəyyənliklə bağlı yuxarıda nümayiş etdirilmiş hüquqi mövqelərdən çıxış edilərək vurğulanmalıdır ki, ipoteka predmetini əldə etmək istəyən ipoteka saxlayan hərrac təşkilatçısı onunla protokolun imzalanmasından imtina etdiyi və ya yayındığı halda hərrac təşkilatına qarşı müstəqil iddia ilə məhkəməyə Mülki Prosessual Məcəllədə müəyyən edilmiş qaydada və vicdanlılığın tələb etdiyi tərzdə müraciət etməlidir.

62. Mülki Məcəllənin vicdanlılıq prinsipini özündə ehtiva edən 425-ci maddəsinə əsasən öz hüquqlarını həyata keçirərkən və vəzifələrini icra edərkən tərəflərdən hər biri vicdanlılığın tələb etdiyi tərzdə, yəni şərtləşdirilmiş vaxtda və yerdə lazımi şəkildə, öhdəliyin şərtlərinə və bu Məcəllənin tələblərinə müvafiq surətdə, belə şərtlər və tələblər olmadıqda isə işgüzar adətlərə və ya adətən irəli sürülən digər tələblərə müvafiq surətdə hərəkət etməlidir.

63. Konstitusiya Məhkəməsinin 2014-cü il 28 oktyabr tarixli Qərarında da qeyd olunduğu kimi, "İpoteka haqqında" Qanunun 43.8-ci maddəsi hüquq münasibətlərinin müəyyənliyini və sabitliyini yaratmaq, habelə ipoteka saxlayanı öz hüquqlarından vaxtında istifadə etməsi üçün intizamlandırmaq məqsədini daşıyır.

64. Beləliklə, ipoteka saxlayan protokolun imzalanmış hesab edilməsi tələbinə dair müstəqil iddia ilə məhkəməyə müraciət etmədiyi halda, ipoteka qoyanın "İpoteka haqqında" Qanunun 43.8-ci maddəsinə əsasən ipotekaya xitam vermə tələbi, bu Qərardadın 24-cü bəndində qeyd edildiyi kimi, yəni həmin maddənin dispozisiya şərtlərinin mövcud olması əsası ilə təmin edilməlidir. Xüsusi olaraq vurğulanmalıdır ki, protokolun imzalanmış hesab edilməsi tələbi müstəqil iddia şəklində buna cavab verməli olan hərrac təşkilatçısına qarşı qaldırılmalı olduğundan, bununla bağlı verilmiş etirazlar ipoteka qoyana qarşı qaldırılmış ipotekaya xitam verilməsi tələbi çərçivəsində araşdırma predmeti və iddianın rədd olunması üçün əsas ola bilməz.

65. "İpoteka haqqında" Qanunun 43.8-ci maddəsinə əsasən ipotekaya xitam verilməsi tələbinə baxılarkən başqa məhkəmənin icraatında hərrac protokolunun imzalanmış hesab edilməsinə dair mülki işin olması Mülki Prosessual Məcəllənin 254.1.4cü maddəsinə əsasən icraatın dayandırılması, həmin iddianın təmin edilməsinə dair qanuni qüvvəsini almış məhkəmə aktının olması isə iddianın rədd edilməsi üçün əsas olacaqdır.

66. Şərh olunanları nəzərə alaraq, Ali Məhkəmənin Mülki və Kommersiya kollegiyalarına daxil olan bütün hakimlərdən ibarət məhkəmə tərkibi Mülki Prosessual Məcəllənin 418-1.1-ci maddəsini rəhbər tutaraq

QƏRARA ALDI:

1. İpoteka predmetinin ipoteka saxlayan tərəfindən əldə edilməsi üçün "İpoteka haqqında" Qanunun 43.8-ci maddəsində nəzərdə tutulmuş müddətin axımı hərrac təşkilatçısı tərəfindən hərracın keçirilməsinə dair elanın verildiyi kütləvi informasiya vasitəsində (media subyektlərində) və özünün rəsmi internet saytında təkrar hərracın baş tutmaması barədə elanların dərc edilməsindən sonrakı gün başlayır və 30-cu günün sonunda başa çatır. Bu müddətin başlanması üçün ipoteka saxlayana təkrar hərracın baş tutmaması barədə ayrıca məlumatın verilməsi və ya ipoteka predmetinin ona təklif olunmasına dair bildirişin göndərilməsi tələb olunmur.

2. İpoteka predmeti təkrar hərracın baş tutmamış elan edilməsindən sonra 30 təqvim günü ərzində ipoteka saxlayanla hərrac təşkilatçısı arasında "İpoteka haqqında" Qanunun 43.7-1-ci maddəsində nəzərdə tutulmuş müqavilə qüvvəsinə malik olan protokolun imzalanması ilə əldə edilir.

3. “İpoteka haqqında” Qanunun 43.8-ci maddəsində nəzərdə tutulmuş 30 günlük müddət kəsici müddətdir və həmin müddət ərzində ipoteka saxlayan tərəfindən ipoteka predmetinin əldə edilməməsi ipotekaya xitamın verilməsi üçün əsasdır. Tərəflər arasında bununla bağlı mübahisə olduqda ipotekaya xitam verilməsi haqqında məhkəmədə iddia qaldırıla bilər.

4. Hərrac təşkilatının protokolu imzalamaqdan imtina etməsi və yaxud yayınması zamanı ipoteka saxlayan ipoteka predmetinin hərracdan əldə edilməsinə dair protokolun qanunla müəyyən edilmiş 30 günlük müddət ərzində imzalanmış hesab edilməsi və (və ya) zərərin əvəzinin ödənilməsi haqqında iddia qaldıra bilər.

5. Protokolun qanunla müəyyən edilmiş 30 günlük müddət ərzində imzalanmış hesab edilməsi barədə məhkəmə qətnaməsinin qanuni qüvvəyə minməsi “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Qanunun 8.0.4-cü maddəsinə əsasən ipoteka predmetinin ipoteka saxlayanın adına daşınmaz əmlakın dövlət reyestrində qeydə alınması üçün əsasdır.

Azərbaycan Respublikası Ali Məhkəməsinin

Mülki və Kommersiya kollegiyalarının

“İpoteka haqqında” Azərbaycan Respublikası Qanununun 59.4-cü maddəsinə dair qanunvericiliyin tətbiqi məsələləri üzrə

Q Ə R A R D A D

№ 02/2023

Bakı şəhəri
22 iyun 2023-cü il

Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya və Mülki kollegiyaları,

Kommersiya kollegiyasının sədri Abiyeva Kəmalə Nəbi qızının (sədrlik edən) və hakimləri Dadaşov İlqar Ağababaş oğlu, Qəribov Bəhman Fərhad oğlu və Məmmədli Bəhram Məmməd oğlu,

Mülki kollegiyanın sədri Hacıyev Sənan Firudin oğlu və hakimləri Əliyev Ələsgər Əliabbas oğlu, Əhmədova Mehparə Tofiq qızı, Əhmədov Əhməd Abbas oğlu, Nurməmmədov Əhməd Güləhməd oğlu, Həsənov Vüqar Təvəkgül oğlu, Hüseynov Abiddin Qabil oğlu, Abbasov Aqil Əzizağa oğlu, Əliyev Zaur Əli oğlu, Şəfiyev İspəndiyar Əsəd oğlu, Məmmədov Vidadi Məmməd oğlu və Babayev Zəki Baba oğlundan ibarət tərkibdə,

Məmmədova Nərgiz Nəsimi qızının katibliyi ilə,

Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya kollegiyasının Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 418-1-ci maddəsinin tələblərinə müvafiq qaydada verdiyi 2023-cü il 28 mart tarixli təqdimatı əsasında mübahisəli hüquqi məsələyə hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə baxaraq aşağıdakıları müəyyən etdi.

Mübahisəli hüquqi məsələnin məzmunu

1. Hazırda Ali Məhkəmənin icraatında əvvəllər müəyyən edilmiş hüquqi mövqedən fərqli yanaşmanın tətbiqini zəruri edən “kredit müqaviləsi üzrə yaranmış borcun ödənilməsi və tutmanın ipoteka predmetinə yönəldilməsi” tələblərinə dair kommersiya mübahisəsi vardır.
2. İşin halları ondan ibarətdir ki, kredit vermiş bank ipoteka ilə təmin edilmiş kredit müqaviləsi üzrə öhdəliklərin yerinə yetirilməməsi, bunun nəticəsində də borcun yaranması ilə əlaqədar iki cavabdeh fiziki şəxsə qarşı kredit müqaviləsi üzrə yaranmış borcun ödənilməsi və tutmanın ipoteka predmetinə yönəldilməsi, ipoteka predmeti olan fərdi yaşayış evi satıldıqdan sonra ipoteka qoyan cavabdehin və onunla birlikdə yaşayan ailə üzvünün yaşayış sahəsini ən gec bir ay ərzində tərk etmədikdə və yaşayış sahəsindən çıxmadıqda, həmin şəxslərin fərdi yaşayış evindən məcburi qaydada çıxarılmaları və fərdi yaşayış evinin boşaldılması ilə bağlı iddia qaldırmışdır.
3. Birinci instansiya məhkəməsi iddianı qismən əsaslı hesab edərək, cavabdehlərdən kredit borcunun iddiaçının xeyrinə tutulması, tutmanın ipoteka qoyulmuş torpaq sahəsində yerləşən fərdi yaşayış evinə yönəldilməsi, həmin evin açıq hərrac yolu ilə satılması və satışdan əldə olunan vəsaitin kredit borcuna yönəlməsini qət etmiş, iddia tələbi qalan hissədə təmin olunmamışdır.
4. Apellyasiya instansiyası məhkəməsinin qətnaməsi ilə iddiaçının apellyasiya şikayəti təmin edilmiş, birinci instansiya məhkəməsinin qətnaməsi iddianın təmin edilmədiyi hissədə ləğv edilərək, iddia tələbi həmin hissədə təmin edilmiş, ipoteka predmeti olan fərdi yaşayış evinə tutma yönəldildikdən və satıldıqdan sonra cavabdehlər yaşayış sahəsini ən gec bir ay ərzində tərk etmədikdə və yaşayış sahəsindən çıxmadıqda, həmin cavabdehlərin fərdi yaşayış evindən məcburi qaydada çıxarılması və fərdi yaşayış evinin boşaldılması qət edilmişdir.
5. Apellyasiya instansiyası məhkəməsinin mövqeyi belə olmuşdur ki, ipoteka qoyulmuş fərdi yaşayış evinə və ya mənzilə tutma yönəldildikdə və o satıldıqda, ipoteka qoyan və onunla birlikdə yaşayan ailə üzvləri və digər şəxslərin yaşayış sahəsini ən geci bir ay ərzində boşaltmaları ipoteka predmetinə tutmanın yönəldilməsi qaydasının ayrılmaz tərkib hissəsidir və bu qayda ipoteka predmetinin hərracda realizə olunmasını asanlaşdırır. Bu zaman nəzərə alınır ki, iddiaçının belə bir tələbi olmadığı təqdirdə də, tələbin ipoteka predmetinə yönəldilməsi barədə icra sənədinə əsasən ipoteka predmeti satıldıqdan bir ay ərzində cavabdehlərin ipoteka predmetini boşaltmaları qanunda təsbit olunmuşdur.
6. Apellyasiya instansiyası məhkəməsi ipoteka predmetinin hərracda üçüncü şəxs tərəfindən alına biləcəyi, belə olduğu halda isə evin iddiaçıya deyil, onu hərracdan alan şəxsə veriləcəyinə dair birinci instansiya məhkəməsinin mövqeyinə münasibətdə qeyd etmişdir ki,

hazırkı iş üzrə tələb ipoteka predmeti hərracda satıldıqdan sonra onun iddiaçıya təhvil verilməsi ilə bağlı deyil, ipoteka qoyan və onunla birlikdə yaşayan ailə üzvünün ipoteka predmeti satıldıqda, onların yaşayış sahəsini ən geci bir ay ərzində boşaltmaları ilə bağlıdır. Belə tələb üzrə isə ipoteka predmetinin açıq hərracda kimin əldə etməsinin hər hansı bir əhəmiyyəti mövcud deyildir.

7. Cavabdehin qətnamədən verdiyi kassasiya şikayətinə baxılarkən müəyyən edilmişdir ki, eyni kateqoriyadan olan mübahisələr üzrə Ali Məhkəmənin Kommersiya və Mülki kollegiyalarının bir sıra məhkəmə tərkiblərində fərqli hüquqi yanaşmalar mövcuddur.

8. Analoji işlərə baxılması təcrübəsi göstərir ki, məhkəmələr sözügedən iddia tələblərinə bir qayda olaraq mahiyyəti üzrə baxmış, Ali Məhkəmənin Kommersiya və Mülki kollegiyaları apellyasiya instansiyası məhkəmələrinin belə qəbildən olan qətnamələrini dəyişdirmədən saxlamışdır. Digər hüquqi mövqe isə ondan ibarətdir ki, bu tələblərə məhkəmədə baxılmalı olmaması səbəbindən həmin tələblərə dair hissədə iş üzrə icraata xitam verilməlidir.

9. Göründüyü kimi, yuxarıda qeyd edilən mübahisələr üzrə hüquqi məsələlərə dair qanunvericiliyin tətbiqi ilə bağlı mövqelər müxtəlifdir. Odur ki, "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun 59.4-cü maddəsinə uyğun olaraq ipoteka qoyan və onunla birlikdə yaşayan ailə üzvləri və digər şəxslərin yaşayış sahəsini ən geci bir ay ərzində boşaltmalarına dair iddia tələblərinə məhkəmələr tərəfindən mahiyyəti üzrə baxılması və ya həmin tələblər üzrə icraata xitam verilməsi məsələləri ilə bağlı vahid məhkəmə təcrübəsinin təmin edilməsinə zərurət yaranmışdır.

10. Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra – Mülki Prosessual Məcəllə) 418-1-ci maddəsinə müvafiq olaraq Ali Məhkəmənin məhkəmə tərkibi işə kassasiya qaydasında baxarkən Ali Məhkəmənin digər məhkəmə tərkibinin əvvəllər qəbul etdiyi qərarda müəyyən edilmiş hüquqi mövqedən fərqli yanaşmanın tətbiq edilməsini zəruri hesab etdikdə, həmin mübahisəli hüquqi məsələyə hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə Ali Məhkəmənin mülki və kommersiya kollegiyalarına daxil olan bütün hakimlərdən ibarət tərkibdə baxılır.

11. Bu məqsədlə hazırda işə baxan Kommersiya kollegiyasının məhkəmə tərkibinin təqdimatı təmin edilərək, hüququn tətbiqi üzrə qeyd edilən mübahisəli hüquqi məsələ Kommersiya və Mülki kollegiyalara daxil olan bütün hakimlərin müzakirəsinə çıxarılmışdır.

Məhkəmə tərkibinin mövqeyi

12**.** Əvvəla, qeyd olunmalıdır ki, ipoteka qoyulmuş yaşayış evinə və ya mənzilə tutma yönəldildikdə və o satıldıqda ipoteka qoyanın, onunla birlikdə yaşayan ailə üzvlərinin və digər şəxslərin tutduqları yaşayış sahəsini ən geci bir ay ərzində tərk etməli olmaları "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – "İpoteka haqqında" Qanun) 59.3-cü maddəsinin tələblərindən irəli gəlir. Həmin maddənin tələbləri baxımından, bunun üçün aşağıdakı 2 şərtdən ən azı birinin mövcud olması zəruridir:

- yaşayış evi və ya mənzilin ipoteka müqaviləsi üzrə kreditin qaytarılması üçün ipoteka qoyulması və ya;
- ipoteka qoyanla birlikdə yaşayan yetkinlik yaşına çatmış ailə üzvləri və digər şəxslərin ipoteka müqaviləsi bağlanarkən həmin evə (mənzilə) tutma yönəldildikdə və o satıldıqda onu tərk etmək barədə notariat qaydasında təsdiq edilmiş öhdəlik götürmüş olmaları. İpoteka müqaviləsi bağlandıqdan sonra həmin evə və ya mənzilə qeydiyyata alınmış şəxslər belə öhdəlik götürmüş sayılırlar.

13. Beləliklə, təkcə fərdi yaşayış evi və ya mənzilin ipoteka müqaviləsi üzrə kreditin qaytarılması üçün ipoteka ilə yüklü edilməsi "İpoteka haqqında" Qanunun 59.3-cü maddəsindəki dispozisiya şərtinin reallaşması üçün yetərlidir. Bu zaman ipoteka qoyanla birlikdə yaşayan yetkinlik yaşına çatmış ailə üzvləri və digər şəxslərin ipoteka müqaviləsi bağlanarkən həmin evə (mənzilə) tutma yönəldildikdə və o satıldıqda onu tərk etmək barədə notariat qaydasında təsdiq edilmiş öhdəlik götürmələri tələb olunmur.

14. İpoteka müqaviləsi kredit müqaviləsinin deyil, digər müqavilələrin (podrat və s.) təminatı üçün bağlandığı hallarda isə "İpoteka haqqında" Qanunun 59.3-cü maddəsindəki vəzifənin reallaşması üçün mütləq ipoteka qoyanla birlikdə yaşayan yetkinlik yaşına çatmış ailə üzvləri və digər şəxslər ipoteka müqaviləsi bağlanarkən həmin evə (mənzilə) tutma yönəldildikdə və o satıldıqda onu tərk etmək barədə notariat qaydasında təsdiq edilmiş öhdəlik götürmüş olmalıdırlar.

15. İpoteka predmeti olan fərdi yaşayış evindən və ya mənzildən orada yaşayan şəxslərin çıxarılmasının ipoteka saxlayan tərəfindən tələb olunması qaydası "İpoteka haqqında" Qanunun hazırda qüvvədə olan redaksiyasının 59.4-cü maddəsində təsbit olunmuşdur.

16. Həmin normaya əsasən bu Qanunun 59.3-cü maddəsində nəzərdə tutulmuş müddətdə ipoteka qoyan və onunla birlikdə yaşayan ailə üzvləri və digər şəxslər ipoteka qoyulmuş yaşayış sahəsindən və yaşayış yeri üzrə qeydiyyatdan çıxmadıqda, həmin şəxslər evdən (mənzildən) və yaşayış yeri üzrə qeydiyyatdan ayrıca məhkəmə qərarı tələb olunmadan ipoteka predmetinə tutmanın yönəldilməsi barədə icra sənədi əsasında 10 təqvim günü müddətində məcburi qaydada çıxarılırlar.

17. Göründüyü kimi, "İpoteka haqqında" Qanunun 59.4-cü maddəsində ipoteka qoyanın, onunla birlikdə yaşayan ailə üzvləri və digər şəxslərin ipoteka predmeti olan yaşayış sahəsindən məcburi qaydada çıxarılması üçün ayrıca məhkəmə qərarının verilməsi qanunda nəzərdə tutulmamışdır. Yəni ipoteka saxlayan yalnız ipoteka predmetinə tutmanın yönəldilməsi barədə icra sənədi əsasında icra haqqında qanunvericiliyə uyğun olaraq ipoteka predmeti olan yaşayış evi və ya mənzilin boşaldılmasına məhkəmədənkənar qaydada nail ola bilər.

18. Bununla yanaşı, nəzərə alınmalıdır ki, "İpoteka haqqında" Qanunun 59.4-cü maddəsinin 2018-ci il 28 dekabr tarixədək mövcud olmuş redaksiyasında bu Qanunun 59.3-cü maddəsində nəzərdə tutulmuş müddətdə ipoteka qoyan və onunla birlikdə yaşayan ailə üzvləri və digər şəxslər ipoteka qoyulmuş yaşayış sahəsindən çıxmadıqda, həmin şəxslərin evdən və ya mənzildən müvafiq olaraq tutmanın yönəldilməsi barədə notariusun icra qeydi və ya məhkəmə qərarı əsasında məcburi qaydada çıxarılmaları nəzərdə tutulurdu.

19. Qeyd edilənlərdən belə nəticə hasil olur ki, "İpoteka haqqında" Qanunun 59.4cü maddəsinin əvvəlki redaksiyası ipoteka qoyanın və onunla birlikdə yaşayan ailə üzvləri və digər şəxslərin ipoteka qoyulmuş yaşayış sahəsindən çıxarılması ilə əlaqədar ipoteka saxlayan üçün alternativ iki sənəddən biri (tutmanın yönəldilməsi barədə notariusun icra qeydi və ya məhkəmə qərarı) ilə öz tələb hüququnu həyata keçirməyə imkan yaradırdı. Lakin sözügedən tarixdən sonra qanunverici bu proseduru sadələşdirərək, ipoteka qoyanın, onunla birlikdə yaşayan ailə üzvləri və digər şəxslərin ipoteka predmeti olan yaşayış sahəsindən və qeydiyyatdan məcburi qaydada çıxarılmanı yalnız ipoteka predmetinə tutmanın yönəldilməsi barədə icra sənədi əsasında mümkün hesab etmişdir.

20. Mülki Prosessual Məcəllənin 217.2-ci maddəsinə əsasən qətnamə mübahisəli hüquq münasibətinin yarandığı zaman qüvvədə olan maddi hüquq normalarına və işin baxılması zamanı qüvvədə olan prosessual hüquq normalarına uyğun çıxarılmalıdır.

21. Odur ki, sözügedən iddia tələblərinə dair mübahisələrə baxılarkən ilk növbədə tərəflər arasında mübahisəli hüquq münasibətinin yaranma tarixlərinə diqqət yetirilməlidir.

22. Əgər tərəflər arasında ipoteka müqaviləsi 2018-ci il 28 dekabr tarixədək, yəni "İpoteka haqqında" Qanunun 59.4-cü maddəsinə bu Qərardadın 16-cı bəndində göstərilən düzəliş edilənədək bağlanmışdırsa, ipoteka predmeti olan yaşayış evlərindən və mənzillərdən cavabdehlərin məcburi qaydada çıxarılmasına dair tələblərə mahiyyəti üzrə hüquqi qiymət verilməlidir.

23. Tərəflər arasında mübahisəli ipoteka müqaviləsi 2018-ci il 28 dekabr tarixdən sonra bağlanmışdırsa, sözügedən iddia tələblərinə məhkəmələrdə baxıla bilməz. Belə olan halda Mülki Prosessual Məcəllənin 153.2 və 153.2.1-ci maddələrinə uyğun olaraq iddia ərizəsinin ipoteka qoyan və onunla birlikdə yaşayan ailə üzvləri və digər şəxslərin ipoteka qoyulmuş

yaşayış sahəsindən və qeydiyyatdan çıxarılması hissəsində icraata qəbul edilməsindən imtina edilməli, əgər iddia artıq icraata qəbul edilmişdirsə, Mülki Prosessual Məcəllənin 261.0 və 261.0.1-ci maddələrinə uyğun olaraq iş üzrə icraata həmin hissədə xitam verilməli, iddiaçıya sözügedən tələblər üzrə icra qurumuna müraciət edə bilmələri bu Qərardadın 24-cü bəndinə uyğun şəkildə izah edilməlidir.

24. Belə ki, "İpoteka haqqında" Qanunun 59.4-cü maddəsinin məzmunundan göründüyü kimi, ipoteka predmetinə tutmanın yönəldilməsi barədə icra sənədi, ipoteka qoyanın, onunla birlikdə yaşayan ailə üzvləri və digər şəxslərin "İcra haqqında" Azərbaycan Respublikası Qanunu ilə müəyyən edilmiş qaydada icra məmurları tərəfindən ipoteka predmeti olan yaşayış sahəsindən və qeydiyyatdan məcburi qaydada çıxarılması üçün hüquqi əsasdır.

25. Şərh olunanları nəzərə alaraq, Ali Məhkəmənin Kommersiya və Mülki kollegiyalarına daxil olan bütün hakimlərdən ibarət məhkəmə tərkibi Mülki Prosessual Məcəllənin 418-1.1-ci maddəsini rəhbər tutaraq

QƏRARA ALDI:

1. Tərəflər arasında ipoteka müqaviləsi 2018-ci il 28 dekabr tarixədək bağlanmışdırsa, ipoteka qoyulmuş fərdi yaşayış evinə və ya mənzilə tutma yönəldildikdə və o satıldıqda "ipoteka qoyan və onunla birlikdə yaşayan ailə üzvlərinin və digər şəxslərin tutduqları yaşayış sahəsindən ən geci bir ay ərzində çıxarılmalarına dair" iddia tələblərinə mahiyyəti üzrə baxılmalıdır.

2. Tərəflər arasında ipoteka müqaviləsi 2018-ci il 28 dekabr tarixdən sonra bağlanmışdırsa, ipoteka qoyulmuş fərdi yaşayış evinə və ya mənzilə tutma yönəldildikdə və o satıldıqda "ipoteka qoyan və onunla birlikdə yaşayan ailə üzvlərinin və digər şəxslərin tutduqları yaşayış sahəsini ən geci bir ay ərzində tərk etmələrinə və qeydiyyatdan çıxarılmalarına dair" iddia tələbləri hissəsində iddia ərizəsinin icraata qəbulundan Mülki Prosessual Məcəllənin 153.1 və 153.2.1-ci maddələrinə əsasən imtina olunmalı, əgər iddia artıq icraata qəbul edilmişdirsə, Mülki Prosessual Məcəllənin 261.0 və 261.0.1-ci maddələrinə uyğun olaraq iş üzrə icraata həmin hissədə xitam verilməlidir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin

Mülki və Kommersiya kollegiyalarının

Azərbaycan Respublikası Ailə Məcəlləsinin 55.3-cü maddəsinin tətbiqi üzrə

Q Ə R A R D A D

№ 04/2023

Bakı şəhəri
8 dekabr 2023-cü il

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki və Kommersiya kollegiyaları,

Mülki kollegiyanın sədri Hacıyev Sənan Firudin oğlunun (sədrlik edən) və hakimləri Əhmədova Mehparə Tofiq qızı, Əhmədov Əhməd Abbas oğlu, Nurməmmədov Əhməd Güləhməd oğlu, Vəliyeva Elşanə Rafiq qızı, Həsənov Vüqar Təvəkgül oğlu, Hüseynov Abiddin Qabil oğlu, Şamayev Elşad Yaquboviç, Abbasov Aqil Əzizağa oğlu, Əliyev Zaur Əli oğlu, Şəfiyev İspəndiyar Əsəd oğlu, Məmmədov Vidadi Məmməd oğlu, Xıdırov Əhliman Mehman oğlu və Babayev Zəki Baba oğlu,

Kommersiya kollegiyasının sədri Abiyeva Kəmalə Nəbi qızı və hakimləri Dadaşov İlqar Ağababaş oğlu, Qəribov Bəhman Fərhad oğlu və Məmmədli Bəhram Məmməd oğlundan ibarət tərkibdə,

Abbaslı Əsgər Əbülfət oğlunun katibliyi ilə,

Azərbaycan Respublikası Ali Məhkəməsinin (bundan sonra – Ali Məhkəmə) Mülki kollegiyasının Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra – MPM) 418-1-ci maddəsinin tələblərinə müvafiq qaydada verdiyi 2023-cü il 9 iyun tarixli təqdimatı əsasında mübahisəli hüquqi məsələyə hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədi ilə baxaraq, aşağıdakıları müəyyən etdi:

Mübahisəli hüquqi məsələnin məzmunu

1. Ali Məhkəmənin icraatında olan, əvvəllər müəyyən edilmiş hüquqi mövqedən fərqli yanaşmanın müzakirəsini zəruri edən mülki işin hallarına görə iddiaçı cavabdehə qarşı nikahın pozulması, uşaqların ananın himayəsində saxlanılması və aliment tələbinə dair iddia ərizəsi ilə məhkəməyə müraciət etmişdir. Cavabdeh birinci instansiya məhkəməsində iddianı qismən etiraf etməklə yanaşı, məhkəmə qətnaməsi ilə müəyyən ediləcək aliment məbləğinin 50 faizinin uşaqların qidalanması, məişət qayğılarının çəkilməsi, tərbiyəsi və təhsili üçün tam kifayət edəcəyini əsas gətirərək, alimentin qalan hissəsinin uşaqların adına açılmış bank hesabına köçürülməsi barədə qətnamənin qəbul edilməsini xahiş etmişdir.

2. İşə baxan birinci və apellyasiya instansiyası məhkəmələri uşaqlar yetkinlik yaşına çatanadək tutulacaq aliment məbləğinin 50 faizinin uşaqların adına açılmış bank hesablarına köçürülməsinə dair cavabdehin tələbini təmin etməmişlər.

3. Apellyasiya instansiya məhkəməsi mövqeyini, xüsusən belə əsaslandırmışdır ki, işdə iddiaçının alimenti təyinatından kənar məqsədlər üçün xərclədiyini təsdiq edən sübut yoxdur, gələcəkdə alimentin təyinatı üzrə xərclənmədiyi müəyyən olunarsa, cavabdeh qətnamənin icrası qaydasının dəyişdirilməsi, yəni alimentin 50 faizdən çox olmayan hissəsinin uşaqların adına açılmış bank hesabına köçürülməsi üçün MPM-in 231-ci maddəsində müəyyən edilmiş icra icraatı qaydasında məhkəməyə müraciət edə bilər.

4. Cavabdehin kassasiya şikayətinə baxılarkən müəyyən edilmişdir ki, işə baxan məhkəmə tərkibindən fərqli olaraq alimentin Azərbaycan Respublikası Ailə Məcəlləsinin (bundan sonra – Ailə Məcəlləsi) 55.3-cü maddəsində nəzərdə tutulan qaydada ödənilməsi ilə bağlı tələbə əvvəllər Ali Məhkəmənin Mülki kollegiyasında həm alimentin tutulması ilə eyni vaxtda, həm də alimentin tutulması barədə məhkəmə qətnaməsinin qəbulundan sonra aliment ödəyən şəxsin müstəqil iddia tələbi əsasında iddia icraatı qaydasında baxılmışdır.

5. MPM-in 418-1-ci maddəsinə müvafiq olaraq Ali Məhkəmənin məhkəmə tərkibi işə kassasiya qaydasında baxarkən Ali Məhkəmənin digər məhkəmə tərkibinin əvvəllər qəbul etdiyi qərarda müəyyən edilmiş hüquqi mövqedən fərqli yanaşmanın tətbiq edilməsini zəruri hesab etdikdə, həmin mübahisəli hüquqi məsələyə hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə Ali Məhkəmənin mülki və kommersiya kollegiyalarına daxil olan bütün hakimlərdən ibarət tərkibdə baxılır.

6. Odur ki, Ailə Məcəlləsinin 55.3-cü maddəsinin tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi zərurəti yarandığından, Ali Məhkəmənin sədri tərəfindən hazırda

işə baxan Mülki kollegiyanın məhkəmə tərkibinin təqdimatı təmin edilərək, hüququn tətbiqi üzrə qeyd edilən mübahisəli hüquqi məsələ Mülki və Kommersiya kollegiyalarına daxil olan bütün hakimlərin müzakirəsinə çıxarılmışdır.

7. Mübahisəli hüquqi məsələ hüquq ictimaiyyətinin diqqətinə çatdırılmış, yazılı formada əsaslandırılmış rəylər (amicus curiae rəyi) Ali Məhkəməyə təqdim edilmişdir.

Məhkəmə tərkibinin mövqeyi

I. Alimentin bir hissəsinin yetkinlik yaşına çatmayan uşağın adına açılmış bank hesabına köçürülməsi məsələsinə baxılmalı olduğu icraat

8. Ailə Məcəlləsinin 55.3-cü maddəsinə əsasən məhkəmə uşağa görə aliment ödəyən valideynin tələbi ilə alimentin 50 faizdən çox olmayan məbləğini yetkinlik yaşına çatmayan uşağın adına açılmış bank hesabına köçürmək barədə qərar çıxara bilər.

9. İstinad edilən maddənin məzmunundan göründüyü kimi, aliment məbləğinin bir hissəsinin yetkinlik yaşına çatmayan uşağın adına açılmış bank hesabına köçürülməsi məsələsinə hansı prosessual icraat çərçivəsində baxılmalı olması qeyd edilməmişdir.

10. Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsində təsbit olunmuş məhkəmə müdafiəsi hüququ konstitusion hüquq və azadlıqların təminatlarından biridir.

11. Konstitusiyanın müddəalarına uyğun olaraq mülki prosessual qanunvericilikdə hər bir maraqlı şəxsin pozulmuş hüquqlarının və qanuni mənafelərinin müdafiəsi üçün məhkəməyə müraciət hüququ təsbit olunmuşdur. Belə ki, MPM-in 4.1-ci maddəsinə əsasən bütün fiziki və hüquqi şəxslər özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququna malikdirlər.

12. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun (bundan sonra – Konstitusiya Məhkəməsinin Plenumu) “MPM-in 372.5-ci maddəsinin həmin Məcəllənin 155, 156 və 372.4-cü maddələri ilə müqayisəli şəkildə şərh edilməsinə dair” 2012-ci il 27 avqust tarixli qərarında əks olunmuş hüquqi mövqeyə əsasən mülki prosesdə iddianın predmeti dedikdə, iddiaçının, barəsində qərar qəbul olunmasını xahiş etdiyi subyektiv hüquq başa düşülür. İddianın predmetinə qanunla qorunan maraqlar, o cümlədən bütövlükdə hüquq münasibətləri aid edilir. Təsbit olunmuş mülki hüquqların müdafiə vasitələrini nəzərə alaraq, iddiaçı məhkəmədən: 1) cavabdehi hər hansı hərəkəti yerinə yetirməyə məcbur etməyi və ya belə hərəkəti etməkdən çəkindirməyi; 2) hüquq münasibətlərinin, subyektiv hüquqların və ya öhdəliklərin mövcudluğunu və ya onların olmamasını etiraf etməyi tələb edə bilər və ya 3) iddiaçının tələbi əsasında məhkəmə hüquq münasibətlərini dəyişdirə və ya onlara xitam verə bilər. Bu zaman iddianın predmetini tərəflər arasında mövcud münasibətlərin dəyişdirilməsinə və ya onlara xitam verilməsinə dair iddiaçının birtərəfli iradə ifadəsi təşkil edir. İddianın obyekti - iddiaçının əldə etməyə çalışdığı maddi nemətdir: pul məbləği, qeyri-yaşayış sahəsi, sair konkret əmlak. İddianın obyekti iddianın predmetinə daxildir və müstəqil əhəmiyyət kəsb etmir.

13. Bu baxımdan, ilk növbədə Ailə Məcəlləsinin 55.3-cü maddəsində nəzərdə tutulan “tələb”in müstəqil maddi-hüquqi tələb olub-olması məsələsinə aydınlıq gətirilməlidir.

14. Məlumdur ki, uşağın saxlanması üçün aliment tələbinə dair iddianın predmetini birgə nikahdan doğulmuş və valideynlərdən birinin yanında qalan uşağın saxlanması üçün digər valideyndən vəsaitin tutulması, obyektini isə tutulmalı olan aylıq aliment məbləği təşkil edir.

15. Göründüyü kimi, iddianın predmetini təşkil edən müstəqil maddi-hüquqi tələb qismində alimentin tutulması çıxış etdiyindən, Ailə Məcəlləsinin 55.3-cü maddəsində nəzərdə tutulan aliment məbləğinin bir hissəsinin uşağın adına açılmış bank hesabına köçürülməsi tələbi, qətnamə ilə tutulan alimentin bir hissəsinin uşağın mənafeləri baxımından bank hesabına köçürülməsini təmin etmək imkanıdır (hüququdur). Bu hüququn məhkəmə vasitəsilə

reallaşdırılması üsulu isə mahiyyət etibarilə təyin olunmuş alimentin tutulması barədə məhkəmə qərarının icrası qaydalarının təsiri altına düşür.

16. Aliment məbləğinin bir hissəsinin aliment ödəyən şəxsin tələbi üzrə uşağın adına açılmış bank hesabına köçürülməsinə dair Ailə Məcəlləsinin 55.3-cü maddəsindəki şərt yuxarıda ifadə olunmuş mövqe ilə hər hansı ziddiyyət təşkil etmir. Çünki normada qeyd olunan "tələb" ifadəsi prosessual mənada iddianın irəli sürülməsini deyil, bu məsələyə dair müraciət etmək imkanını nəzərdə tutur.

17. Bu imkanın prosessual baxımdan hansı icraatda reallaşdırılacağı ilə bağlı qeyd olunmalıdır ki, MPM-in 231.1-ci maddəsinə əsasən işə baxmış hakim işdə iştirak edən şəxslərin ərizəsi üzrə tərəflərin əmlak vəziyyətinə və digər hallara əsasən qətnamənin icrasına möhlət verməyə və ya qətnaməni hissə-hissə icra etdirməyə, habelə onun icra üsulunu və qaydasını dəyişdirməyə haqlıdır.

18. MPM-in 220.6-cı maddəsinə görə isə məhkəmə qətnamənin icra qaydası və müddətini müəyyən etdiyi və ya onun icrasının təmin edilməsi üçün tədbirlər gördüyü hallarda, bunu qətnamənin nəticə hissəsində göstərməlidir.

19. Konstitusiya Məhkəməsi Plenumunun "MPM-in 231.1-ci maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair" 2015-ci il 22 may tarixli qərarında izah olunmuşdur ki, məhkəmə qətnaməsinin icra üsulları iş üzrə tərəflərdən birinin pozulmuş hüquqlarının bərpasına yönəlmiş hərəkətlər sistemini nəzərdə tutur. Məhkəmə qətnaməsinin icra qaydası isə müvafiq məhkəmə aktının icra üsullarının məzmununu təşkil edən, müəyyən ardıcıllıqla və müvafiq qaydalara riayət etməklə yerinə yetirilən hərəkətlərin məcmusudur.

20. Odur ki, yuxarıda qeyd edilənlər baxımından Ailə Məcəlləsinin 55.3-cü maddəsində nəzərdə tutulan alimentin 50 faizindən çox olmayan məbləğinin yetkinlik yaşına çatmayan uşağın adına açılmış bank hesabına köçürülməsi qətnamənin icrası qaydasıdır.

21. Belə olan halda, bu məsələ həm alimentin tutulması barədə qətnamədə, həm də alimentin tutulması barədə qətnamənin icrası mərhələsində həll edilə bilər.

22. Alimentin tutulması barədə müstəqil iddiaya baxılarkən və ya nikahın pozulmasına dair iddia çərçivəsində alimentin tutulması məsələsi həll edilərkən, aliment ödəməli olan tərəfin alimentin ödənilməsi qaydası ilə bağlı müraciəti olduqda, məhkəmə baxılan iddia çərçivəsində bu məsələyə hüquqi qiymət verməli və buna dair dəlillərlə razılaşdığı halda, MPM-in 220.6-cı maddəsinə əsasən icra qaydasını müəyyən edərək, alimentin hansı hissəsinin yetkinlik yaşına çatmayan uşağın adına açılmış bank hesabına köçürülməli olduğunu qətnamənin nəticə hissəsində göstərməlidir.

23. Fərqli vəziyyət alimentin tutulması barədə məhkəmə qətnaməsinin qanuni qüvvəyə minməsindən sonra aliment ödəyən şəxsin bu barədə müraciətlərinə baxılması zamanı yaranır.

24. Nəzərə alınmalıdır ki, alimentin tutulması barədə məhkəmə qətnaməsi qanuni qüvvəyə mindikdən sonra aliment ödəyən şəxsin Ailə Məcəlləsinin 55.3-cü maddəsində nəzərdə tutulan tələbinə baxıldıqda, aliment yenidən tutulmur və ya onun məbləği müəyyən edilmir, yalnız alimentin bir hissəsinin hansı qaydada ödəniləcəyi müəyyən olunur.

25. Buna görə də, bu müraciətə iddia icraatı qaydasında deyil, MPM-in 231.1-ci maddəsində nəzərdə tutulmuş icra icraatı qaydasında baxılmaqla, müvafiq qərardad qəbul edilməlidir.

26. Həmçinin alimentin ödənilməsinin müvafiq icra qaydası müəyyən edildikdən sonra uşaqların mənafeyi nəzərə alınmaqla mövcud qaydanın dəyişdirilməsi və ya ləğv edilməsi ilə bağlı əsaslar yaranarsa, aliment alan şəxslərin bu barədə müraciətləri də eyni qaydada, yəni MPM-in 231.1-ci maddəsində nəzərdə tutulmuş icra icraatı qaydasında baxılaraq, həll edilməlidir.

27. Alimentin ödənilməsinin Ailə Məcəlləsinin 55.3-cü maddəsində nəzərdə tutulan şəkildə icra qaydasının müəyyən edilməsi, habelə onun ləğvi və dəyişdirilməsi ilə bağlı müraciətlərə

yuxarıda göstərilən qaydada baxılması prosessual qənaət prinsipi baxımından da əlverişli olmaqla, alimentin ödənilməsi ilə bağlı məsələlərin daha çevik və qısa müddətlərdə həllinə imkan vermiş olacaqdır.

28. Bu baxımdan, qüvvədə olan məhkəmə qətnaməsi ilə tutulmuş alimentin bir hissəsinin Ailə Məcəlləsinin 55.3-cü maddəsinə uyğun şəkildə ödənilməsi, habelə bu icra qaydasının ləğvi və yaxud dəyişdirilməsi ilə bağlı müraciətlər iddia icraatı qaydasında verildikdə MPM-in 153.2.1ci maddəsinə əsasən iddia ərizəsinin qəbulundan imtina olunmalı, iş səhvən icraata qəbul edildikdə isə MPM-in 261.0.1-ci maddəsinə əsasən iş üzrə icraata xitam verilməlidir. Hər iki halda iddiaçıya MPM-in 231.1-ci maddəsinə əsasən qətnamənin icra qaydasının müəyyən edilməsi barədə ərizə ilə aidiyyəti məhkəməyə müraciət etmək hüququ izah olunmalıdır.

29. Qeyd edilənlərdən fərqli olaraq Ailə Məcəlləsinin 55.3-cü maddəsində nəzərdə tutulmuş qaydada uşağın adına açılmış bank hesabına yığılmış vəsaitə valideynlərdən birinin istəyi ilə sərəncam verilməsi barədə mübahisəyə həmin valideynin tələbi əsasında iddia icraatı qaydasında baxılır.

II. Sübutetmə yükünün tərəflər arasında bölüşdürülməsi

30. Azərbaycan Respublikası Konstitusiyanın 34-cü maddəsinin III və IV hissələrində müəyyən olunmuşdur ki, analıq, atalıq, uşaqlıq qanunla mühafizə edilir. Uşaqlara qayğı göstərmək, onları tərbiyə etmək valideynlərin həm hüququ, həm də borcudur.

31. "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə əsasən dövlət orqanları, bütün fiziki və hüquqi şəxslər öz fəaliyyətində uşaqların mənafelərini üstün tutmalı, onların hüquqlarının təmin olunmasına şərait yaratmalıdırlar. Azərbaycan Respublikasının normativ hüquqi aktları və müvafiq orqanların qərarları uşaq mənafelərinə zidd olmamalı və onların icrası uşaqların həyatına, inkişafına və tərbiyəsinə zərər gətirməməlidir. Uşağın hüquq və mənafelərini məhdudlaşdıran hər hansı əqd etibarsızdır.

32. Ailə qanunvericiliyi məhkəmə qaydasında tutulan alimentin miqdarını müəyyən edərkən məhkəmənin üzərinə bəzi hüquq və vəzifələr qoymuşdur. Belə ki, Ailə Məcəlləsinin 76.2-ci maddəsinə görə həmin Məcəllənin 76.1-ci maddəsində göstərilən payların miqdarının məhkəmə tərəflərin ailə və maddi vəziyyəti, eləcə də diqqətəlayiq olan başqa halları nəzərə almaqla azalda və artıra bilər. Həmin Məcəllənin 78.2-ci maddəsinə əsasən sabit pul məbləğinin miqdarı məhkəmə tərəfindən tərəflərin maddi və ailə vəziyyəti, diqqətəlayiq olan digər hallar nəzərə alınmaqla uşağın əvvəlki təminatının səviyyəsinin mümkün qədər maksimal saxlanılması əsas tutularaq müəyyən edilir.

33. Ali Məhkəmənin Plenumunun "Nikahın pozulması, boşanmadan sonra yetkinlik yaşına çatmayan uşaqların valideynlərdən hansının yanında qalması və uşaqlar üçün valideynlərdən aliment tutulması tələbinə dair işlərə baxılarkən qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" 2016-cı il 28 mart tarixli Qərarında məhkəmələrə izah edilmişdir ki, uşağın Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş minimum dolanacaq xərclərindən az olmayan maddi təminat almaq hüququ vardır ("Uşaq hüquqları haqqında" Qanunun 13-cü maddəsi). Məhkəmə tərəfindən alimentin miqdarı müəyyən edilərkən uşağın əvvəlki təminatının səviyyəsinin mümkün qədər maksimal saxlanması əsas meyar olmalı və yalnız bir tərəfin deyil, hər iki tərəfin ailə və maddi vəziyyəti öyrənilməlidir. Bu zaman məhkəmələr uşağın valideynlərinin birgə yaşadıqları dövrdə ailənin maddi vəziyyəti və yaxud ayrı yaşadıqları dövrdə uşağın saxlanılmasına valideynlərdən biri tərəfindən könüllü qaydada vəsait ödənilməsini və uşağın bu ödəmənin dayandırıldığı vaxtadək olan dövrdəki təminat səviyyəsini nəzərə almalıdırlar. Əlavə haqq ödənilməklə uşağın məktəbəqədər tərbiyə müəssisəsinə, musiqi, rəsm, idman, rəqs və digər dərnəklərə gedib-getməməsi də nəzərə alınmalıdır.

34. Qeyd olunmalıdır ki, Ailə Məcəlləsinin 55.1-ci maddəsinə əsasən aliment almaq uşağa məxsus olan hüquqdur və buna müvafiq olaraq aliment uşağa məxsus olan vəsait sayılır.

35. Ailə Məcəlləsinin 55.2-ci maddəsinə əsasən aliment, pensiyalar, müavinətlər şəklində uşağa ödənilən məbləğ valideynlərin (onları əvəz edən şəxslərin) sərəncamına daxil olur, onlar tərəfindən uşaqların saxlanmasına, tərbiyəsinə və təhsilinə xərclənir.

36. MPM-in 77.1-ci maddəsinə əsasən hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

37. Prosessual qanunvericilik sübutetmə yükünün tələb edən tərəfin üzərində olması barədə ümumi prinsipi əks etdirsə də, tələbin qanuni əsasını təşkil edən normalar tərəflərdən hansının işin hansı hallarını sübut etməli olması barədə fərqli qaydalar müəyyən edə bilər. Odur ki, hər bir mübahisənin qanuni həllinə imkan verən sübutetmə yükünün düzgün bölüşdürülməsi işin qanuni həlli baxımından vacib əhəmiyyətə malikdir.

38. Ali Məhkəmənin Plenumunun "Nikahın pozulması, boşanmadan sonra yetkinlik yaşına çatmayan uşaqların valideynlərdən hansının yanında qalması və uşaqlar üçün valideynlərdən aliment tutulması tələbinə dair işlərə baxılarkən qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" 2016-cı il 28 mart tarixli Qərarının 8.9-cu bəndində müəyyən edilmişdir ki, alimentin 50 faizdən çox olmayan məbləğinin aliment ödəyən valideynin tələbi ilə yetkinlik yaşına çatmayan uşağın adına açılmış bank hesabına köçürülməsi barədə qərar çıxarılarkən məhkəmə aliment alan valideynin buna münasibətini, belə qərarın gələcəkdə uşağın tam və hərtərəfli inkişafına (onun qidalanmasına, təhsilinə, tərbiyəsinə və s.) təsirini, uşağın saxlanması, tərbiyəsi, təhsili üçün ayrılan vəsaitin aliment alan valideyn tərəfindən lazımi qaydada icra olunub-olunmamasını və s. bu kimi halları nəzərə almalıdır.

39. Göründüyü kimi, alimentin məbləği uşağın əvvəlki təminat səviyyəsinin mümkün qədər maksimal saxlanılması əsas tutularaq müəyyən olunur.

40. Ödənilən alimentin məbləğinin ölkədə uşaqlar üçün müəyyən olunan yaşayış minimumundan yüksək olması özü-özlüyündə alimentin artıq olan hissəsinin bank hesabına köçürülməsi üçün əsas vermir. Belə ki, bu zaman uşağın yaşı, təhsili (ödənişli və ya ödənişsiz), o cümlədən əlavə haqq ödənilməklə uşağın məktəbəqədər tərbiyə müəssisəsinə, müxtəlif dərnəklərə getməsi, səhhəti, həmçinin bu qaydanın müəyyən edilməsinin uşağın mənafelərinə uyğunluğu da nəzərə alınmalıdır.

41. Ödənilən aliment məbləğinin yüksək olması əsası ilə onun bir hissəsinin bank hesabına köçürülməsi barədə müraciət edən şəxs bu qaydanın müəyyən edilməsinin məhz uşağın mənafeyinə xidmət etdiyini əsaslandırmaq və sübut etmək vəzifəsi daşıyır.

42. Müraciət, alimentin (bir hissəsinin) uşağa deyil, başqa məqsədlərə sərf olunması əsası ilə edildiyi halda da mülki prosessual qanunvericiliyin sübutetmə ilə bağlı ümumi prinsiplərinə uyğun olaraq sübutetmə yükü bu müraciəti edən tərəfin üzərinə düşür.

43. Nəzərə alınmalıdır ki, ödənilən alimentin məbləği uşağın ödənişli təhsilə, əlavə məşğələlərə cəlb edilməsinə, uşağın mənafeyinə xidmət edən daha yaxşı həyat şəraitinin təmin edilməsinə imkan verirsə, aliment ödəyən tərəfin yuxarıda qeyd edilən məsələlərlə bağlı xərclərə razılığı tələb edilmir. Belə ki, uşaq himayəsində saxlanılan valideyn məhkəmə qətnaməsi ilə xeyrinə tutulmuş alimentin məbləği, habelə öz şəxsi vəsaitləri və imkanları həddində uşağın saxlanılması, təhsili, tərbiyəsi və normal inkişafı üçün zəruri hesab etdiyi tədbirləri həyata keçirmək hüququna malikdir.

44. Aliment ödəyən tərəf müraciətinin təmin edilməsinə əsas verən sübutları təqdim etdiyi halda, aliment alan tərəf ödənilən alimentin mühüm hissəsini uşağın təhsilinə, müalicəsinə və digər təminatına xərclədiyinə dair etiraz irəli sürərsə, bununla bağlı etirazının əsaslarını sübut etmək vəzifəsini daşıyır. Bu zaman nəzərə alınmalıdır ki, uşağı saxlayan valideynin uşağın qidalanmasına, geyiminə, asudə vaxtının təşkili və digər xırda məişət məsələlərinə dair xərcləri barədə sübutlar təqdim etmək vəzifəsi yoxdur.

45. Şərh olunanları nəzərə alaraq, Ali Məhkəmənin Mülki və Kommersiya kollegiyalarına daxil olan bütün hakimlərdən ibarət məhkəmə tərkibi MPM-in 418-1.1-ci maddəsini rəhbər tutaraq

QƏRARA ALDI:

Ailə Məcəlləsinin 55.3-cü maddəsində nəzərdə tutulan tələb qətnamənin icra qaydasının müəyyən edilməsi barədə müraciətdir.

Alimentin tutulması tələbinə dair iddiaya baxılarkən bu barədə edilmiş müraciət MPM-in 220.6-cı maddəsində nəzərdə tutulan qaydada həll edilir.

Məhkəmə qətnaməsi ilə tutulan alimentə münasibətdə bu məsələ borclunun ərizəsi əsasında MPM-in 231.1-ci maddəsində nəzərdə tutulan qaydada həll edilir.

Alimentin ödənilməsinin Ailə Məcəlləsinin 55.3-cü maddəsində nəzərdə tutulan icra qaydasının müəyyən edilməsindən sonra həmin qaydanın dəyişdirilməsi və ya ləğv edilməsi ilə bağlı əsaslar yaranarsa, belə müraciətlərə də MPM-in 231.1-ci maddəsində nəzərdə tutulmuş icra icraatı qaydasında baxılır.

Məhkəmə qətnaməsi ilə tutulan alimentin bir hissəsinin Ailə Məcəlləsinin 55.3-cü maddəsinə uyğun şəkildə ödənilməsi, habelə bu icra qaydasının ləğvi və yaxud dəyişdirilməsi ilə bağlı müraciətlər iddia icraatı qaydasında verildikdə MPM-in 153.2.1-ci maddəsinə əsasən iddia ərizəsinin qəbulundan imtina olunmalı, iş səhvən icraata qəbul edildikdə isə MPM-in 261.0.1-ci maddəsinə əsasən iş üzrə icraata xitam verilməli, hər iki halda iddiaçıya MPM-in 231.1-ci maddəsinə əsasən qətnamənin icra qaydasının müəyyən edilməsi barədə ərizə ilə aidiyyəti məhkəməyə müraciət etmək hüququ izah olunmalıdır.

Ailə Məcəlləsinin 55.3-cü maddəsində nəzərdə tutulan qaydada uşağın adına açılmış bank hesabına yığılmış vəsaitə valideynlərdən birinin istəyi ilə sərəncam verilməsi barədə mübahisəyə həmin valideynin tələbi əsasında iddia icraatı qaydasında baxılır.

Qərardad Azərbaycan Respublikası Ali Məhkəməsinin rəsmi internet səhifəsində və Azərbaycan Respublikası Ali Məhkəməsinin Bülletenində dərc edilsin.

Azərbaycan Respublikası Ali Məhkəməsinin

Mülki və Kommersiya kollegiyalarının

Məhkəmə qərarı ilə təsdiq edilmiş barışıq sazişinin etibarsızlığı barədə iddianın mümkünlüyünə dair qanunvericiliyin tətbiqi məsələləri üzrə

Q Ə R A R D A D

№ 01/2024

Bakı şəhəri
23 fevral 2024-cü il

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki və Kommersiya kollegiyaları,

Mülki kollegiyanın sədri Hacıyev Sənan Firudin oğlunun (sədrlik edən) və hakimləri Əhmədova Mehparə Tofiq qızı, Əhmədov Əhməd Abbas oğlu, Nurməmmədov Əhməd

Güləhməd oğlu, Vəliyeva Elşanə Rafiq qızı, Həsənov Vüqar Təvəkgül oğlu, Hüseynov Abiddin Qabil oğlu, Şamayev Elşad Yaquboviç, Abbasov Aqil Əzizağa oğlu, Əliyev Zaur Əli oğlu, Şəfiyev İspəndiyar Əsəd oğlu, Məmmədov Vidadi Məmməd oğlu, Xıdırov Əhliman Mehman oğlu və Babayev Zəki Baba oğlu,

Kommersiya kollegiyasının sədri Abiyeva Kəmalə Nəbi qızı və hakimləri Dadaşov İlqar Ağababaş oğlu, Qəribov Bəhman Fərhad oğlu və Məmmədli Bəhram Məmməd

oğlundan ibarət tərkibdə,

Abbaslı Əsgər Əbülfət oğlunun katibliyi ilə,

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyasının Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra – MPM) 418-1-ci maddəsinin tələblərinə müvafiq qaydada verdiyi 2023-cü il 20 aprel tarixli təqdimatı əsasında mübahisəli hüquqi məsələyə hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə baxaraq aşağıdakıları müəyyən etdi.

Mübahisəli hüquqi məsələnin məzmunu

1. Hazırda Ali Məhkəmənin icraatında əvvəllər müəyyən edilmiş hüquqi mövqedən fərqli yanaşmanın tətbiqini zəruri edən, məhkəmənin təsdiq etdiyi “barışıq sazişinin etibarsız hesab olunması” tələbinə dair mülki iş vardır.

İddia tələbinin əsaslandırılması

2. İş üzrə iddiaçı məhkəmə qərardadı ilə təsdiq edilmiş barışıq sazişinin etibarsız sayılmasını tələb edir və iddiasını onunla əsaslandırır ki, sazişi təhdid altında, iradəsinə zidd şəkildə bağlamağa məcbur olmuşdur.

3. Birinci instansiya məhkəməsi MPM-in 261.0.1 və 261.0.2-ci maddələrinə istinad edərək işin icraatına xitam vermişdir. Məhkəmə qanuni qüvvəyə minmiş qərardadla təsdiq edilmiş barışıq sazişinin iddia qaldırılmaqla mübahisələndirilməsini mümkün saymamışdır. Apellyasiya instansiyası məhkəməsi də bu mövqe ilə razılaşaraq iddiaçının şikayətini rədd etmişdir.

4. İşə kassasiya qaydasında baxılarkən mübahisəli məsələyə münasibətdə Ali Məhkəmənin ayrı-ayrı məhkəmə tərkibləri arasında fərqli hüquqi yanaşmaların mövcud olduğu müəyyən edilmişdir.

5. Belə ki, Ali Məhkəmənin Mülki kollegiyasının bəzi tərkibləri məhkəmə qərardadı ilə təsdiq edilmiş barışıq sazişinin etibarsız sayılması haqqında ayrıca iddianın qaldırılmasını mümkün saymamışlar. Bu mövqe onunla əsaslandırılmışdır ki, məhkəmənin barışıq razılaşmasını təsdiqləməsi, eyni zamanda tərəflər arasında bağlanan sazişin etibarlılığının yoxlanılması anlamına gəlir və saziş təsdiq olunduqda qərardadın tərkib hissəsinə çevrilir. Barışıq sazişi ilə razı olmayan tərəf həmin sazişi mübahisələndirə bilməz. O, məhkəmə qərardadından mülki prosessual qanunvericilikdə nəzərdə tutulmuş qaydada şikayət verə bilər. Ona görə də, məhkəmənin təsdiqlədiyi barışıq sazişinin etibarsız sayılmasına dair iddia üzrə icraata xitam verilməsi əsaslıdır.

6. Məhkəmənin digər tərkiblərinin hüquqi mövqeyi ondan ibarətdir ki, sözügedən məhkəmə qərardadından prosessual qaydada şikayət vermək imkanı müstəqil əqd olan barışıq sazişinin etibarsızlığına dair maddi hüquqi əsaslarla ayrıca iddia qaldırmaq hüququnu istisna etmir.

7. Göründüyü kimi, qeyd edilən hüquqi məsələyə dair qanunvericiliyin tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi zərurəti yaranmışdır.

8. MPM-in 418-1-ci maddəsinə müvafiq olaraq Ali Məhkəmənin məhkəmə tərkibi işə kassasiya qaydasında baxarkən Ali Məhkəmənin digər məhkəmə tərkibinin əvvəllər qəbul etdiyi qərarda müəyyən edilmiş hüquqi mövqedən fərqli yanaşmanın tətbiq edilməsini zəruri hesab etdikdə həmin mübahisəli hüquqi məsələyə hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə Ali Məhkəmənin mülki və kommersiya kollegiyalarına daxil olan bütün hakimlərdən ibarət tərkibdə baxılır.

9. Bu məqsədlə Ali Məhkəmənin sədri tərəfindən hazırda işə baxan Mülki kollegiyanın məhkəmə tərkibinin təqdimatı təmin edilərək, hüququn tətbiqi üzrə qeyd edilən mübahisəli hüquqi məsələ Mülki və Kommersiya kollegiyalarına daxil olan bütün hakimlərin müzakirəsinə çıxarılmışdır.

10. Mübahisəli hüquqi məsələ hüquq ictimaiyyətinin diqqətinə çatdırılmış, Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Mülki hüquq kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Sərvər Süleymanlının, Halle-Vittenberq Universitetinin Beynəlxalq iqtisadi hüquq və müqayisəli hüquq üzrə professoru Azər Əliyevin, Ali Məhkəmənin sabiq hakimi Əsəd Mirzəliyevin, Xarici Təhsilli Hüquqşünaslar Assosiasiyasının, "Remells" hüquq firmasının, vəkillər Pərviz Məmmədovun və Arif Əyyubovun yazılı formada əsaslandırılmış rəyləri (amicus curiae rəyi) Ali Məhkəməyə təqdim edilmişdir.

Məhkəmə tərkibinin mövqeyi

11. Mübahisəli hüquqi məsələ məhkəməyə müraciət etmək imkanı ilə bağlı olduğu üçün bu hüququn təminatları və məhdudlaşdırılma əsasları nəzərdən keçirilməlidir.

12. Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya) 60-cı maddəsinin I hissəsinə əsasən hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir.

13. "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının (bundan sonra – Avropa Konvensiyası) 6-cı maddəsinin 1-ci hissəsinə görə hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsilə, ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir.

14. Eyni zamanda MPM-in 4.1-ci maddəsində nəzərdə tutulmuşdur ki, bütün fiziki və hüquqi şəxslər özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququna malikdirlər.

15. Göründüyü kimi, məhkəməyə müraciət etmək hüququ konstitusion səviyyədə təminat altına alınmış və qanunda xüsusi olaraq nəzərdə tutulmuşdur.

16. Ölkəmizdə insan hüquq və azadlıqlarının həyata keçirilməsini Avropa Konvensiyasına uyğunlaşdırmaq məqsədilə qəbul edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun 3.1 və 3.4-cü maddələrinə əsasən Konstitusiyada və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş insan hüquqları və azadlıqları yalnız qanunla məhdudlaşdırıla bilər. İnsan hüquqlarına və ya azadlıqlarına qoyulan məhdudiyyətlər Konstitusiyada və bu Konstitusiya Qanununda nəzərdə tutulan qanuni məqsədə yönəlməli və həmin məqsədə mütənasib olmalıdır.

17. Beləliklə, məhkəməyə müraciət etmək hüququna gətirilən məhdudlaşdırma qanunda nəzərdə tutulmalı, qanuni məqsədə yönəlməli və mütənasib olmalıdır.

18. Odur ki, mübahisəli hüquqi məsələnin düzgün həlli üçün həmin şərtlər ardıcıllıqla yoxlanılmalıdır. Onlardan birinin aşkar edilməməsi məhdudiyyət üçün əsasın olmadığı qənaətinə gəlməyə kifayət edir, digərlərinin araşdırılmasına gərək qalmır.

19. Baxılan iş üzrə icraata xitam verilməsi mahiyyət etibarilə iddiaçının məhkəməyə müraciət etmək hüququnu məhdudlaşdırdığı üçün bu məhdudiyyətin yuxarıda göstərilən əsaslara uyğun olub-olmadığına hüquqi qiymət verilməlidir.

20. Məhkəmələr işin icraatına xitam verilməsinin qanuni əsası kimi MPM-in 261.0.1 və 261.0.2-ci maddələrinə istinad etmişlər. Həmin normalara görə iş məhkəmədə və ya mülki məhkəmə icraatı qaydasında baxılmalı deyildirsə, habelə eyni tərəflər arasında, eyni predmet barəsində və eyni əsaslar üzrə məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi və ya iddiaçının iddiadan imtina etməsi və ya tərəflərin barışıq sazişinin təsdiq olunması ilə əlaqədar iş üzrə icraata xitam edilməsi haqqında məhkəmənin qərardadı olarsa, hakim iş üzrə icraata xitam verir.

21. Məhkəmələr mövqelərini belə əsaslandırmışlar ki, iddiaçının etibarsız sayılmasını tələb etdiyi barışıq razılaşması məhkəmənin qanuni qüvvəyə minmiş qərardadı ilə təsdiq edildiyi üçün həmin sazişin ayrıca iddia ilə mübahisələndirilməsi yolverilməzdir.

22. Məhkəmə tərkibi aşağıdakılara əsasən hesab edir ki, istinad olunan prosessual normalar iddiaçının məhkəməyə müraciət etmək hüququnu məhdudlaşdıran qanuni əsas(lar) hesab edilə bilməz.

23. Belə ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra – Mülki Məcəllə) 881.1 və 881.2-ci maddələrinə əsasən barışıq razılaşması haqqında müqaviləyə görə tərəflər öz aralarında hüquqlar və ya iddialar barəsində mübahisəni və ya qeyrimüəyyənliyi qarşılıqlı güzəştlər yolu ilə həll edirlər. Barışıq razılaşmasının qüvvəsi ondan ibarətdir ki, əvvəllər mübahisəli və ya qeyri-müəyyən olmuş hüquqlara və iddialara istinad edilməsi həmin razılaşmaya əsasən istisna edilir və hüquqi statusundan asılı olmayaraq iştirakçılar üçün yalnız barışıq razılaşmasında təsbit edilənlər etibarlı olur.

24. Barışıq sazişi, eyni zamanda "Mediasiya haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – "Mediasiya haqqında" Qanun) 1.0.7-ci maddəsində və "İcra haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – "İcra haqqında" Qanun) 20.1.2-ci maddəsində nəzərdə tutulmuşdur.

25. Göründüyü kimi, barışıq sazişi tərəflərin mübahisəli münasibətlərinə dair yeni bir hüquqi nəticə - hüquq və öhdəliklər əmələ gətirmək məqsədilə bağladıqları qarşılıqlı ikitərəfli (çoxtərəfli) müqavilədir. Barışıq sazişi tərəflər arasındakı mübahisənin və ya fikir ayrılığına səbəb olma potensialı daşıyan qeyri-müəyyənliyin aradan qaldırılmasına yönəlir.

26. Mülki qanunvericiliyin məqsədi mülki dövriyyə azadlığını təmin etmək, yəni subyektlərin öz şəxsi mənafelərini həyata keçirməyə hüquqi şərait yaratmaqdır (Mülki Məcəllə, maddə 1.1). İstər bu məqsəddən irəli gələn iradə sərbəstliyi (Mülki Məcəllə, maddə 6.1.2) və müqavilə azadlığı prinsipləri (Mülki Məcəllə, maddələr 6.1.5 və 390), istərsə də Mülki Məcəllənin 12.2-ci maddəsinin "Mülki hüquq münasibətlərinin subyektləri həm qanunla birbaşa qadağan olunmamış hərəkətləri, həm də qanunda bilavasitə nəzərdə tutulmamış hərəkətləri icra edə bilərlər" müddəası onu deməyə əsas verir ki, barışıq razılaşması da mülki qanunvericilikdə nəzərdə tutulan müqavilələrdən biri olmaqla, tərəflər arasında öhdəlik hüquq münasibətləri yaradan əqd növüdür.

27. Müqavilə dedikdə, iki və ya daha artıq şəxsin hüquqi nəticə əmələ gətirmək üçün ifadə etdikləri və bir-birinə uyğun olan iradə bəyanları başa düşülür. Başqa sözlə, şəxslər ifadə etdikləri iradələri ilə özlərinin mülki hüquq və vəzifələrini əmələ gətirir, dəyişdirir və ya xitam edirlər. İradə bəyanı şifahi, sadə yazılı və ya rəsmi (notarial) formada, birtərəfli və ya müqavilə

şəklində (ikitərəfli və ya çoxtərəfli) ola bilər, məsələn, vəsiyyətnamə, etibarnamə, müqavilə və s. (Mülki Məcəllə, maddələr 324.1, 324.2, 389.1 və 406).

28. Barışıq razılaşmasının bağlanması üçün bir qayda olaraq forma tələb olunmur, lakin razılaşmada hər hansı formanın gözlənilməsini tələb edən əqdlər vardırsa, razılaşma bu əqdlər üçün tələb edilən forma üzrə tərtib olunmalıdır (Mülki Məcəllə, maddə 881.3). Məsələn, daşınmaz əşyaya sərəncam verilməsi razılaşdırılırsa, belə saziş notarial qaydada təsdiqlənməlidir.

29. Qanunvericilikdə barışıq sazişinin digər formaları da nəzərdə tutulmuşdur. Belə ki, tərəflər arasında mediasiya prosesi nəticəsində əldə edilən barışıq sazişi yazılı formada bağlanır (“Mediasiya haqqında” Qanun, maddə 33.1). Məhkəmənin təsdiqlədiyi barışıq sazişi isə protokol şəklində tərtib olunur (Mülki Məcəllə, maddə 881.3).

30. Tərəflərin öz aralarında sadə yazılı və ya notarial formada bağladıqları, yaxud mediasiya prosesi nəticəsində və ya məhkəmədə əldə etdikləri barışıq sazişlərinin ortaq cəhəti ondan ibarətdir ki, həmin iradə bəyanları məhkəmədə olan mülki prosesin (yaxud məhkəməyə getmə potensialı olan mübahisənin) tamamlanmasını təmin edir.

31. MPM-in 191-ci maddəsində nəzərdə tutulmuşdur ki, tərəflərin barışıq sazişi şərtləri məhkəmə iclasının protokoluna yazılır və protokolu müvafiq surətdə iddiaçı, cavabdeh və ya hər iki tərəf imzalayır. Tərəflərin barışıq sazişi, bu hərəkətlərin nəticəsi aydın surətdə şərh olunan, məhkəməyə göndərilən yazılı ərizələrdə də ifadə oluna bilər. Tərəflərin barışıq sazişini təsdiq etdikdə məhkəmə bu barədə qərardad çıxararaq, bu qərardadla, eyni zamanda iş üzrə icraata xitam verir.

32. Göründüyü kimi, barışıq sazişi mübahisədə olan tərəflər arasında həm məhkəmədən kənar, həm də məhkəmə təsdiqi ilə bağlana bilər.

33. Bununla belə, məhkəmə təsdiqi barışıq sazişinin məcburi etibarlılıq şərti deyil, çünki barışıq sazişlərinin əmələ gəlməsi üçün məhkəmə təsdiqi qanunda məcburi şərt olaraq nəzərdə tutulmamışdır.

34. İddia icraatında məhkəmənin barışıq razılaşmasını təsdiq etməsi iki növ hüquqi ehtiyacı qarşılayır.

35. Birincisi, barışıq sazişi bağlayan tərəflər özləri həmin razılaşmanın qüvvəyə minməsi, yəni hüquqi müstəvidə etibarlı bir əqd kimi əmələ gəlməsi üçün onun məhz məhkəmə tərəfindən təsdiq olunmasını razılaşdıra bilərlər (belə razılaşma mediasiyada bağlanan sazişdə də nəzərdə tutula bilər). Yəni tərəflər sazişi imzalasalar da, razılaşma yalnız məhkəmənin təsdiqindən sonra qüvvəyə minir və hüquqi nəticə yaradır. Bu zaman məhkəmə təsdiqetmə üçün zəruri olan prosessual məsələləri (sazişi imzalayan şəxslərin səlahiyyətlərini, barışığın qanuna zidd olub-olmamasını, üçüncü şəxsin hüquqlarını pozubpozmamasını və s.) yoxlayır. Həmin xüsusatlar məhkəməyə təqdim olunmuş (görünən) məlumat və sənədlər əsasında aydınlaşdırılır. Təsdiqə mane olan hallar aşkar edilmədikdə barışıq məhkəmə tərəfindən təsdiqlənir. Məhkəmənin barışıq sazişini qərardadla təsdiq etməsi həmin əqdin əmələ gəlməsinin tamamlayıcı ünsürü kimi çıxış edir. Bu halda məhkəmə təsdiqi sazişin yaranmasını (əqdin qüvvəyə minməsini) təmin etməklə yanaşı, mülki prosesi tamamlayan (işin icraatına xitam verən) prosessual nəticə əmələ gətirir.

36. İkinci halda isə tərəflər sazişin qüvvəyə minməsini məhkəmə təsdiqindən asılı etmədən özləri təmin edirlər (məsələn, sadə yazılı müqaviləni imzalamaqla, yaxud notariat qaydasında təsdiqlətməklə). Eyni zamanda mediasiya prosesində bağlanan barışıq sazişi, əgər sazişdə ayrı şərt nəzərdə tutulmayıbsa, imzalandığı gündən tərəflər üçün məcburi xarakter daşıyır (“Mediasiya haqqında” Qanun, maddə 34.1). Bundan sonra barışıq razılaşması məhkəmənin icraatında olan işə xitam verilməsi üçün məhkəməyə təqdim olunur.

Belə ki, tərəflər məhkəmə işini bilavasitə özləri, yaxud mediasiya vasitəsilə barışıq sazişi bağlamaqla qurtara bilərlər (MPM, maddə 52.3). Bu halda da məhkəmə yuxarıda qeyd olunan prosessual şərtləri yoxlayaraq barışığı təsdiqləyir və ya bundan imtina edir.

37. Belə olan təqdirdə məhkəmənin sazişi qərardadla təsdiq etməsi həmin əqdin əmələ gəlməsi baxımından bir nəticə doğurmur. Bu nəticə: yəni tərəflərin hüquq və öhdəlikləri təsdiqə qədər barışıq sazişinin qüvvəyə minməsi ilə əmələ gəlmişdir. Hətta məhkəmə ona təqdim olunan razılaşmanı təsdiqləməkdən imtina etsə, tərəflər öz iradələri (iddiadan imtina, iddia ərizəsinin baxılmamış saxlanılması və s.) ilə mülki prosesi sonlandırmaqla həmin saziş üzrə münasibətlərini davam etdirməkdə sərbəstdirlər

(dispozitivlik prinsipi).

38. Odur ki, ikinci halda tərəflərin məhkəmədən kənar əmələ gətirdikləri barışıq sazişinin məhkəmə qərardadı ilə təsdiqi yalnız prosessual hüquqi nəticələr doğurur. Bu nəticələr işin icraatına xitam verilməsi ilə mülki prosesin tamamlanması, buna müvafiq olaraq eyni tərəflər arasında, eyni predmet haqqında və eyni əsaslar üzrə yenidən mübahisə açılmasının qarşısının alınması, habelə sazişin şərtləri pozulduqda onun məcburi icrasının təmin olunmasıdır.

39. Mediasiya prosesi nəticəsində əldə edilən barışıq sazişinin məhkəmə tərəfindən xüsusi icraatda təsdiqlənməsi isə yalnız razılaşmanın məcburi icrasını təmin etmək məqsədi daşıyır (“Mediasiya haqqında” Qanun, maddə 34.4; MPM, maddə 355-23.1).

40. Bundan əlavə, “İcra haqqında” Qanunun 20.1.2-ci maddəsinə əsasən məhkəmə tələbkar ilə borclu arasında barışıq sazişini təsdiq etdikdə icra sənədi üzrə icraata xitam verilir.

41. Beləliklə, barışıq sazişini təsdiqləyən məhkəmə qərardadı bir halda əqdin əmələ gəlməsini və prosessual hüquqi nəticələri təmin edir, digər halda isə yalnız prosessual nəticələr yaradır.

42. Göründüyü kimi, sazişin təsdiqləndiyi bütün hallarda barışıq razılaşması üzrə hər hansı iddiaya baxılmır, ona əsaslanan bir tələb (o cümlədən barışıq sazişinin etibarsızlığına dair mübahisə) həll edilmir. O da nəzərə alınmalıdır ki, qərardad işi mahiyyəti üzrə həll edən məhkəmə aktı sayılmır (MPM, maddə 263.1).

43. Belə olan halda, tərəflər arasında eyni predmet barədə və eyni əsaslar üzrə işə daha əvvəl baxılmasına dair məhkəmələrin mövqeləri əsassız olmuşdur.

44. Məhkəmə tərkibi qeyd edir ki, hakimin barışıq sazişini təsdiqləmək üçün qanunda nəzərdə tutulmuş prosessual tələblərə riayət etmək vəzifəsi barışıq razılaşmasının etibarlı olub-olmamasına qiymət verilməsi hesab edilmir.

45. Belə ki, MPM-in 52.5-ci maddəsinə görə tərəflərin barışıq sazişi qanuna zidd olarsa və ya hər hansı bir şəxsin hüquqlarını və qanunla qorunan mənafeyini pozarsa, məhkəmə belə hərəkətləri qəbul etmir. Belə hallarda məhkəmə mübahisəyə mahiyyəti üzrə baxır. Eyni yanaşma “Mediasiya haqqında” Qanunun 34.5-ci və MPM-in 355-26.1-ci maddələrində əks olunmuşdur.

46. Bu normalarda göstərilən qanunazidlik və ya başqa şəxslərin mənafeyi barışığın təsdiq olunmasının prosessual şərtlərini özündə ehtiva edir. Çünki əsas təyinatı tərəflərin və məhkəmənin prosessual hərəkətlərini tənzimləmək olan MPM-in həmin normalarının məqsədi təsdiqetmənin prosedurunu (üsulunu) müəyyən etməkdir. Belə ki, məhkəmə önündə barışıq prosessual icraat olduğundan onun təsdiqlənməsi də prosessual hüquqa tabedir. Bu səbəbdən məhkəmə barışığı təsdiqlədiyi anda onun görünən qanuni tələblərə uyğun olub-olmadığını (subyekt tərkibinə aid şərtləri – fiziki və ya hüquqi şəxsin mövcud olmasını, fəaliyyət qabiliyyətini, sazişi imzalayan təmsilçinin səlahiyyətlərini, razılaşmanın tərəflərin ifadə etdikləri iradələrini əks etdirməsini, sazişin şəxsiyyətin hüquqlarına, məcburi hüquq normalarına, ictimai

qaydaya və ya əxlaqa zidd olmamasını, yaxud hansısa şərtin etimad və vicdanlılıq prinsiplərinə zidd olaraq müqavilənin bir tərəfinə zərər vurubvurmadığını və s.) yoxlayır və protokollaşdırır. Əgər məhkəmə barışığın bu şərtlərə uyğun olduğu qənaətinə gələrsə, onu təsdiqləyərək işin icraatına xitam verir, əks halda təsdiqdən imtina edir. Təsadüfi deyil ki, bu xüsusatla bağlı MPM-in 52.5-ci maddəsində "məhkəmə belə hərəkətləri qəbul etmir" ifadəsi işlədilmişdir. Odur ki, məhkəmənin fəaliyyəti bu prosessual hərəkətlərin yerinə yetirilməsi ilə məhdudlaşır.

47. Mediasiya prosesi nəticəsində bağlanmış barışıq sazişinə məhkəmənin məhz xüsusi icraatda və on gün müddətində baxması (MPM, fəsil 40-7) proseduru da onu göstərir ki, belə təsdiqləmə (yaxud imtina) prosessual mahiyyət daşımaqla, mübahisəli maddi hüquqi məsələlərin araşdırılmasını ehtiva etmir.

48. MPM-in 52.5 və 355-26.1-ci maddələrində göstərilən halların yoxlanılmasının maddi hüquqi nəticələr də əmələ gətirməsi barədə mövqe ilə razılaşdıqda isə belə çıxır ki, məhkəmə barışıq sazişini təsdiqlədikdə razılaşmanın etibarlı olması faktını təsbit edir və əqdin etibarlılığına (o cümlədən tərəfin iradəsini zədələyən halların olmadığına) hüquqi qiymət verir. Məlum olduğu kimi, kassasiya instansiyası məhkəməsi də barışıq sazişini eyni əsaslarla təsdiq edərək işin icraatına xitam verə bilər (MPM, maddə 417.1.5). Halbuki kassasiya məhkəməsinin iş üzrə hər hansı faktı müəyyən etmək və ona qiymət vermək səlahiyyəti yoxdur. Bu hal bir daha onu təsdiqləyir ki, barışıq sazişinin qanuna zidd olması və ya hər hansı bir şəxsin hüquqlarını və qanunla qorunan mənafeyini pozmasının araşdırılması maddi hüquqi əsaslar üzrə yoxlama olmayıb, təsdiqetmə üçün prosessual tələblərin yerinə yetirilməsidir.

49. O da nəzərə alınmalıdır ki, bəzi hallarda məhkəmə barışıq sazişini təsdiq edərkən əqdin tərəflərinin iradəsinin təşəkkül tapmasına səbəb olan (məhkəmədən kənar) halları prosessual baxımdan yoxlamaq imkanında olmur. Bu vəziyyət müxtəlif səbəblərdən irəli gələ bilər: əqdin tərəfinin aldadıldığını, yaxud vacib əhəmiyyətli yanılmaya düşdüyünü özünün də bilməməsi, yaxud onu saziş bağlamağa məcbur edən hədənin hələ davam etməsi səbəbindən bu barədə məhkəməyə məlumat verməməsi və s. . Bu kimi halların mövcudluğuna baxmayaraq, görünən və yoxlanılan şərtlər əsasında sazişin imzalanması və təsdiqi, eləcə də razılaşma mətninin məhkəmə aktına daxil edilməsi, tərəfin qüsurlu davranışı, hakimin prosessual pozuntuya yol verməsi və səhv qərardad çıxarması kimi qiymətləndirilə bilməz. Belə olan halda, məhkəmə aktının ləğv edilməsi üçün prosessual hüquqi əsas mövcud olmur.

50. Digər tərəfdən, qeyd olunan prosessual hərəkətlər hüququ pozulmuş şəxsi iradəsinin zədələnməsi ilə bağlanmış əqdə bağlı qalmağa məcbur edə bilməz. Bu hallar mülki qanunvericiliyə uyğun qaydada araşdırılmalı və məsələyə hüquqi qiymət verilməlidir.

Həmin araşdırmanın predmetini isə məhkəmə qərardadı (onun prosessual qanunvericiliyə zidd olaraq çıxarılması) deyil, barışıq razılaşmasını əmələ gətirən iradənin zədəli olubolmaması kimi maddi hüquqi əsaslar təşkil edəcəkdir.

51. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun B.Qasımovun şikayəti üzrə 2019-cu il 9 dekabr tarixli qərarında oxşar məsələ ilə bağlı göstərilmişdir ki, "məhkəmələrdə hər hansı müqavilənin aldadılma nəticəsində bağlanması məsələsinə baxılarkən tərəflərin iradə ifadəsinin həqiqi məzmunu və hüquqi niyyətləri müəyyən edilməlidir. ...mübahisələndirilən müqaviləni tərəflərin imzalaması və notariat qaydasında təsdiqlənməsinin, ödəniş qəbzinin iddiaçı tərəfindən imzalanıbimzalanmadığının, ümumiyyətlə, mübahisə predmeti olmaması, mülki iş üzrə iddia tələbinin isə məhz həmin müqavilənin aldadılma nəticəsində bağlanması səbəbindən irəli sürülməsi nəzərə alınmamışdır. ...Belə ki, bu növ iddia tələbi üzrə araşdırılma zamanı məhkəmələr tərəfindən əqdi əmələ gətirən iradə ifadəsinin aldadılma nəticəsində edilib-edilmədiyi yalnız iradə ifadəsinin özünün deyil, həm də həmin iradənin formalaşmasına və ifadə edilməsinə əsas

olmuş şərait və motiv, məsələn, müqaviləyə qədərki danışıqlar, tərəflər arasındakı münasibətlər və tərəflərin sonrakı hərəkətləri nəzərə alınmaqla müəyyənləşdirilə bilər".

52. Barışıq sazişinin iradə zədələnməsi və digər səbəblərdən etibarsız olması ilə bağlı dəlillərin məhkəmə qərardadından verilən şikayət çərçivəsində araşdırılması da hüquqi baxımdan mümkün deyil.

53. Çünki şikayət icraatı ancaq məhkəmə aktına qarşı istifadə oluna bilən prosessual yoldur. Barışığın təsdiq edilməsi və işə xitam verilməsi prosessual fəaliyyət olduğu üçün bu barədə qərardaddan şikayət də prosessual səbəblərdən dolayı verilə bilər. Belə səbəblər dedikdə, prosessual hüquq qaydalarının yanlış tətbiq edilməsi nəzərdə tutulur. Ona görə də, şikayət icraatında maddi hüquqi fakt olan barışıq sazişi deyil, onu təsdiqləyən və prosesi sonlandıran məhkəmə aktının prosessual tələblərə (xüsusən bu qərarın 46-cı bəndində sadalanan şərtlərə) uyğun qəbul edilib-edilmədiyi yoxlanılır. Bu zaman tətbiq edilən hüququn prosessual normalar olması səbəbindən şikayətə baxan məhkəmənin araşdırma predmetini təsdiqetmənin MPM-ə uyğun aparılıb-aparılmaması təşkil edir. Odur ki, həmin araşdırma nəticəsində çıxarılan qərar barışıq razılaşmasının deyil, məhkəmə aktının qanuniliyinin yoxlanılması ilə bağlı olur. Əgər məhkəmə aktı prosessual qaydalara uyğun olmadan çıxarılmışsa, ləğv edilir. Bu halda mülki işin icraatı təzələnir, mübahisəyə yenidən baxılmasına prosessual imkan yaranır.

54. Beləliklə, məhkəmə tərkibi göstərilən hüquqi mövqelərə əsasən bu nəticəyə gəlir ki, məhkəmənin barışığı təsdiq və ya bundan imtina etməsi, yaxud qərardaddan şikayət verilməsi tamamilə prosessual hərəkətlərdir. Ona görə də, qərardaddan şikayət verilərkən sazişi təsdiqləyən məhkəmə aktının prosessual tələblərə uyğun çıxarılmadığına istinad oluna bilər. Şikayət icraatında aparılan araşdırmanın həddi həmin dəlillər əsasında qərardadın yoxlanılması ilə məhdudlaşır.

55. Bu səbəbdən məhkəmə aktından şikayət vermək imkanı barışıq sazişinin özünün etibarsızlığına dair maddi hüquqi əsaslarla iddia qaldırmaq hüququna təsir etmir. Çünki barışıq razılaşması tərəflərin anlaşması ilə bağlanır və məhkəmənin bu barədə, yəni barışığın daxili tərəfinə dair verilmiş bir qərarı olmur. Barışığın daxili tərəfini təşkil edən razılaşma (saziş) ancaq maddi hüquq əsasında yoxlanıla bilər. Ona görə də, iradəsi zədələnmiş, yaxud digər əsasla barışıq sazişinin etibarsızlığını irəli sürən şəxs, bu halların təsbit olunması üçün ayrıca iddia qaldırmaq hüququna malikdir. Belə iddiaya məhkəmə tərəfindən ümumi qaydada baxılmaqla barışıq razılaşmasının etibarsız sayılıbsayılmamasına hüquqi qiymət verilməlidir.

56. Mülki Məcəllənin 337.1-ci maddəsinə əsasən bu Məcəllədə müəyyənləşdirilmiş şərtləri pozmaqla bağlanmış əqd etibarsızdır.

57. Əqdin etibarsız sayılmasına əsas olan hallar Mülki Məcəllənin 339-347-ci və digər maddələrində göstərilmişdir. Həmin əsaslardan biri olduqda, qanunverici hər hansı meyara görə fərq qoymadan, hüququ pozulan şəxsin bütün əqdlərin etibarsızlığına dair iddia qaldırmaq hüququnu nəzərdə tutmuşdur. Başqa sözlə, məhkəmə qərardadı ilə təsdiqlənmiş əqdlərin etibarsızlığı ilə bağlı ümumi qaydada iddia qaldırmaq hüququ hansısa qanun norması ilə məhdudlaşdırılmamışdır.

58. Yuxarıda qeyd olunanlar eynilə mediasiyada bağlanmış barışıq sazişinin xüsusi icraatda təsdiq (yaxud bundan imtina) edilməsi haqqında qətnamədən və icra icraatında tərəflərin əldə etdikləri barışıq sazişinin təsdiq edilməsi barədə qərardaddan verilmiş şikayət icraatlarına aiddir.

59. Məhkəmə tərkibi onu da nəzərə alır ki, məhkəmə qərarı ilə təsdiq olunmuş barışıq sazişinin etibarsızlığına dair iddia qaldırmaq imkanı Türkiyə, Almaniya və Fransa kimi xarici ölkələrdə də tanınır. Eyni zamanda mülki hüquq nəzəriyyəsində məhkəmə qərarı ilə

təsdiqlənən barışıq sazişi müstəqil əqd kimi qəbul edilməklə, onun etibarsızlığının ümumi qaydada mübahisələndirilməsi mümkün sayılır.

60. Beləliklə, yuxarıda göstərilən hüquqi mövqelərə əsasən məhkəmə tərkibi bu qənaətə gəlir ki, iddiaçının barışıq sazişinin etibarsızlığına dair tələbinə mülki məhkəmə icraatı qaydasında baxılmalı olduğundan MPM-in 261.0.1-ci maddəsi ilə, eyni tərəflər arasında, eyni predmet barəsində və eyni əsaslar üzrə işə daha əvvəl baxılmadığından MPM-in 261.0.2-ci maddəsi ilə işin icraatına xitam verilməsi üçün əsaslar yoxdur.

61. Bu səbəbdən iddiaçının məhkəməyə müraciət etmək hüququnu məhdudlaşdıran qanun norması mövcud deyil. Belə olan halda, işin icraatına xitam verilməsi Konstitusiyanın 60-cı maddəsinin I hissəsində və Avropa Konvensiyasının 6-cı maddəsinin 1-ci hissəsində təsbit olunan məhkəmə müdafiəsi hüququnun pozulması kimi qiymətləndirilir.

62. Məhkəmə tərkibi onu da qeyd edir ki, barışıq sazişinin etibarsız sayılması barədə iddianın qaldırılması həmin sazişi təsdiqləyən məhkəmə qərardadı əsasında verilmiş icra sənədinin icrasının dayandırılmasına əsas vermir. Belə ki, "İcra haqqında" Qanunda icraatın dayandırılmasının belə bir əsası nəzərdə tutulmamışdır. Həmin Qanunun 17.1.4cü maddəsi isə məhkəmə tərəfindən verilmiş icra sənədlərinə aid deyil.

63. Göstərilənlərə əsasən Ali Məhkəmənin Mülki və Kommersiya kollegiyalarına daxil olan bütün hakimlərdən ibarət məhkəmə tərkibi MPM-in 418-1.1-ci maddəsini rəhbər tutaraq

QƏRARA ALDI:

Məhkəmə qərarı ilə təsdiq edilmiş barışıq sazişinin etibarsız sayılması barədə iddiaya əqdin etibarsızlığına dair qanunda nəzərdə tutulan ümumi əsaslarla baxıla bilər.

Qərardad Azərbaycan Respublikası Ali Məhkəməsinin rəsmi internet səhifəsində və Azərbaycan Respublikası Ali Məhkəməsinin Bülletenində dərc edilsin.

Azərbaycan Respublikası Ali Məhkəməsinin

Mülki və Kommersiya kollegiyaları

Azərbaycan Respublikası Mülki Məcəlləsinin paylı mülkiyyətlə bağlı bəzi müddəalarının tətbiqi məsələləri üzrə

Q Ə R A R D A D

№ 02/2024

Bakı şəhəri
6 dekabr 2024-cü il

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki və Kommersiya kollegiyaları,

Mülki kollegiyanın sədri Hacıyev Sənan Firudin oğlunun (sədrlik edən) və hakimləri Əhmədova Mehparə Tofiq qızı, Əhmədov Əhməd Abbas oğlu, Nurməmmədov Əhməd Güləhməd oğlu, Vəliyeva Elşanə Rafiq qızı, Həsənov Vüqar Təvəkgül oğlu, Abbasov Aqil Əzizağa oğlu, Əliyev Zaur Əli oğlu, Şəfiyev İspəndiyar Əsəd oğlu, Xıdırov Əhliman Mehman oğlu, Babayev Zəki Baba oğlu, Baxışova Vüsalə Ələkbər qızı və Şamayev Elşad Yaquboviç, Kommersiya kollegiyasının sədri Abiyeva Kəmalə Nəbi qızı və hakimləri Qəribov Bəhman Fərhad oğlu, Məmmədli Bəhram Məmməd oğlu və Qurbanov Raqib Əliddin oğlundan ibarət tərkibdə,

Bayramova Fidan Rafiq qızının katibliyi ilə,

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyasının Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra – MPM) 418-1-ci maddəsinin tələblərinə müvafiq qaydada verdiyi 2024-cü il 3 iyul tarixli təqdimatı əsasında mübahisəli hüquqi məsələyə hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə baxaraq aşağıdakıları müəyyən etdi.

Mübahisəli hüquqi məsələnin məzmunu

1. Ali Məhkəmənin icraatında olan, əvvəllər müəyyən edilmiş hüquqi mövqelərdən fərqli yanaşmanın müzakirəsini zəruri edən mülki işin hallarına görə iddiaçı cavabdehlə paylı mülkiyyətində olan daşınmaz əşyanın hərracdan satılmasını və əldə olunan vəsaitin paylarına mütənasib bölünməsini xahiş etmişdir. İşə baxan birinci instansiya məhkəməsi iddianı təmin etməklə əmlakın hərracdan satış qiymətini müəyyən etmişdir. Apellyasiya instansiyası məhkəməsi cavabdehin apellyasiya şikayətini təmin etməmiş, rayon məhkəməsinin qətnaməsini dəyişdirmədən saxlamışdır. Qətnamədən cavabdeh kassasiya şikayəti vermiş və kassasiya şikayətinin dəlilləri əsasən əmlakın hərracdan satış qiymətinin müəyyən edilməsi ilə bağlı olmuşdur.

2. İşə kassasiya qaydasında baxılarkən Ali Məhkəmənin ayrı-ayrı məhkəmə tərkibləri arasında mübahisəli məsələyə dair fərqli hüquqi yanaşmaların mövcud olduğu müəyyən edilmişdir.

3. Belə ki, Ali Məhkəmənin Mülki kollegiyasında analoji işlər üzrə bir sıra məhkəmə tərkibləri paylı mülkiyyətdə olan əşyanın bölünməsi və payın ayrılması anlayışlarına fərq qoymadan hər ikisinə dair iddia tələblərinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra – Mülki Məcəllə) 220-ci maddəsində nəzərdə tutulmuş ardıcıllıq gözlənilməklə həll edilməsi mövqeyində olmuşlar.

4. Digər mövqeyə əsasən isə paylı mülkiyyətdə olan əşyadan payın ayrılması və əşyanın bölünməsi fərqli hüquqi prosedurlar olmaqla, Mülki Məcəllənin müvafiq olaraq 220 və 221-ci maddələrində nəzərdə tutulmuş qaydada həll edilməlidir.

5. Eyni zamanda bir sıra məhkəmə tərkibləri arasında bu kateqoriyadan olan mübahisələr üzrə qanunla müəyyən edilmiş mərhələlərdən birini və ya bir neçəsini istisna etməklə, birbaşa növbəti və ya sonuncu mərhələnin tətbiqinin mümkünlüyü və mübahisə predmeti olan əşyanın hərracdan ilkin satış qiymətinin qətnamə ilə müəyyən edilməli olubolmaması barədə də fərqli hüquqi mövqelər mövcuddur.

6. Göründüyü kimi, qeyd edilən hüquqi məsələlərə dair qanunvericiliyin tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi zərurəti yaranmışdır.

7. MPM-in 418-1-ci maddəsinə müvafiq olaraq Ali Məhkəmənin məhkəmə tərkibi işə kassasiya qaydasında baxarkən Ali Məhkəmənin digər məhkəmə tərkibinin əvvəllər qəbul etdiyi qərarda müəyyən edilmiş hüquqi mövqedən fərqli yanaşmanın tətbiq edilməsini zəruri hesab etdikdə, həmin mübahisəli hüquqi məsələyə hüququn tətbiqi üzrə məhkəmə

təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə Ali Məhkəmənin mülki və kommersiya kollegiyalarına daxil olan bütün hakimlərdən ibarət tərkibdə baxılır.

8. Bu məqsədlə Ali Məhkəmənin sədri tərəfindən hazırda işə baxan Mülki kollegiyanın məhkəmə tərkibinin təqdimatı təmin edilərək, hüququn tətbiqi üzrə qeyd edilən mübahisəli hüquqi məsələ Mülki və Kommersiya kollegiyalarına daxil olan bütün hakimlərin müzakirəsinə çıxarılmış, mübahisəli hüquqi məsələ hüquq ictimaiyyətinin diqqətinə çatdırılmış, Xarici

Təhsilli Hüquqşünaslar Assosiyasiyasının ("FELAS"), "Bereau 28a" MMC Hüquq firmasının və Bakı Dövlət Üniversitetinin Mülki proses və kommersiya hüququ kafedrasının yazılı formada əsaslandırılmış rəyləri (amicus curiae rəyi) Ali Məhkəməyə təqdim edilmiş, eyni zamanda xarici dövlətlərin bu məsələlərlə bağlı təcrübələri öyrənilmişdir.

Məhkəmə tərkibinin mövqeyi

9. Mübahisəli hüquqi məsələnin həlli məqsədilə mülki qanunvericiliyin mülkiyyət hüququ, ümumi mülkiyyət hüququ, ümumi mülkiyyətdə olan əşyanın bölgüsü ilə bağlı müvafiq normaları nəzərdən keçirilməlidir.

10. Mülki Məcəlləyə əsasən mülkiyyət hüququ - subyektin ona mənsub əmlaka (əşyaya) öz istədiyi kimi sahib olmaq, ondan istifadə etmək və ona dair sərəncam vermək üzrə dövlət tərəfindən tanınan və qorunan hüququdur (Mülki Məcəllə, 152.1-ci maddə). İki və ya bir neçə şəxsin mülkiyyətində olan əşya onlara ümumi mülkiyyət hüququ əsasında mənsubdur. Əşya mülkiyyət hüququnda mülkiyyətçilərin hər birinin payı müəyyənləşdirilməklə (paylı mülkiyyət) və ya belə paylar müəyyənləşdirilmədən (birgə mülkiyyət) ümumi mülkiyyətdə ola bilər. Əşyaya ümumi mülkiyyət, qanunvericilikdə həmin əşyaya birgə mülkiyyət yaranmasının nəzərdə tutulduğu hallar istisna olmaqla, paylı mülkiyyətdir (Mülki Məcəllə, 213.1-213.3-cü maddələr).

11. Qüvvədə olan qanunvericiliyə əsasən ümumi mülkiyyətdə olan əşyanın ideal və real bölgüləri mümkündür. İdeal bölgü əşyanın fiziki cəhətdən bölünmədən əşya üzərində mülkiyyət hüququnda payların müəyyən edilməsini, real bölgü isə əşyanın fiziki cəhətdən mülkiyyətçilər arasında ideal paylarına müvafiq olaraq faktiki bölünməsini nəzərdə tutur. İdeal bölgüdən fərqli olaraq real bölgüdə hər bir mülkiyyətçi (və ya ayrılan mülkiyyətçi) öz hissəsi üzərində tam mülkiyyət hüququna malik olmaqla, fərdi mülkiyyətçi halına gəlir.

12. Qanunverici paylı mülkiyyətdə olan əşyanın real bölgüsündən əvvəl bütün mülkiyyətçilərin mənafelərini nəzərə almaqla paylı mülkiyyətdə olan əşyaya sahiblik, ondan istifadə və ona (və ya konkret paya) sərəncam verilməsinə dair aralarındakı ixtilafların həll edilməsi ilə bağlı aşağıda sadalanan bir sıra fərqli hüquqi mexanizmlər müəyyən etmişdir ki, bu da mülkiyyət hüququnun toxunulmazlığı prinsipi çərçivəsində bütün payçıların mülkiyyət hüquqlarının əlverişli şəkildə müdafiəsinə xidmət edir.

13. Ümumi paylı mülkiyyətdə olan əşyaya sahiblik və ondan istifadə qaydasının müəyyən edilməsi – paylı ümumi mülkiyyətin mülkiyyətçiləri ümumi mülkiyyətdə olan əşyaya sahiblik və ondan istifadə qaydası haqqında razılığa gələ bilərlər, razılaşma əldə edilmədikdə isə əşyaya sahiblik və ondan istifadə məhkəmənin müəyyənləşdirdiyi qaydada həyata keçirilir. Paylı mülkiyyətin mülkiyyətçisi ümumi əşyanın öz payına uyğun hissəsinin onun sahibliyinə və istifadəsinə verilməsi hüququna malikdir, bu mümkün olmadıqda isə onun payına düşən əşyaya sahiblik və ondan istifadə edən digər mülkiyyətçilərdən müvafiq əvəz ödəməyi tələb edə bilər (Mülki Məcəllə, 215.1-215.3-cü maddələr).

14. Paylı mülkiyyətdə olan əşya üzərində mülkiyyət hüququndakı paya dair sərəncam verilməsi - hər bir mülkiyyətçi öz payı üzərində sərəncam vermək hüququna malikdir. Bununla belə, fərdi mülkiyyətçilərdən fərqli olaraq paylı mülkiyyətçilər sərəncam səlahiyyətlərinin həyata keçirilməsində bəzi qanuni məhdudiyyətlərə tabedirlər. Belə ki, paylı mülkiyyətin hər bir mülkiyyətçisi öz payını sata, bağışlaya, vəsiyyət edə, girov qoya bilər və ya ona dair başqa

sərəncam verə bilər. Onu əvəzi ödənilməklə özgəninkiləşdirdikdə isə payı satın almaqda üstünlük hüququ ilə bağlı Mülki Məcəllənin 218-ci maddəsində müəyyən edilmiş qaydalara əməl etməlidir (Mülki Məcəllə, 215.5-215.6-cı maddələr).

15. Məhkəmə tərkibi qeyd edilən maddənin tətbiqi ilə bağlı təcrübədə fərqli hüquqi yanaşmaların olduğunu nəzərə alıb vurğulamağı zəruri hesab edir ki, ümumi paylı mülkiyyət hüququndakı pay satın almaqda üstünlük hüququ pozulmaqla satıldıqda hüququ pozulmuş payçının hüquqlarının məhkəmədə müdafiəsi qaydası (qaldıracağı iddianın predmeti) qanunvericilikdə dəqiq müəyyənləşdirilmişdir.

16. Belə ki, Mülki Məcəllənin 218.3-cü maddəsinə əsasən pay satın almaqda üstünlük hüququ pozulmaqla satıldıqda paylı mülkiyyətin hər hansı digər iştirakçısının üç aylıq kəsici müddət ərzində hüququ vardır ki, alıcının hüquq və vəzifələrinin ona keçirilməsini məhkəmə qaydasında tələb etsin. Göründüyü kimi, satın almaqda üstünlük hüququ pozulmuş şəxsin bu əsasa dayanaraq, həmin əqdin etibarsızlığı ilə bağlı deyil, alıcının hüquq və vəzifələrinin ona keçirilməsi barədə tələb irəli sürmək hüququ vardır.

17. Paylı mülkiyyətdə olan əşyanın mülkiyyətçilər arasında bölünməsi və ya mülkiyyətçinin əşyadakı payının ayrılması – bu məsələləri nizamlayan Mülki Məcəllənin 220 və 221-ci maddələrinin məzmunundan belə nəticəyə gəlmək olar ki, bölünmə və ayrılma anlayışları eynilik təşkil etməməklə, fərqli hüquqi mexanizmləri nəzərdə tutur. Paylı mülkiyyətdə olan əşyadan mülkiyyətçilərin birinin (və ya bir neçəsinin) payının ayrılması proseduru Mülki Məcəllənin 220.3-220.6-cı maddələri, ümumi paylı mülkiyyətdə olan əşyanın bölünməsi ilə əşya üzərində iştirakçıların paylı mülkiyyət hüquqlarına xitam verilməsi proseduru isə 221-ci maddəsi ilə tənzimlənir.

18. Hər iki prosedur ilk olaraq tərəflərin razılığı ilə, bu mümkün olmadıqda isə mübahisənin məhkəmədə həll olunmasını nəzərdə tutur (Mülki Məcəllə, 220.3-cü maddənin birinci cümləsi və 221-ci maddənin 2-ci cümləsi).

19. Qeyd olunan hüquqi prosedurlar arasındakı fərq isə ondan ibarətdir ki, paylı mülkiyyətdə olan əşyanın mülkiyyətçilər arasında bölünməsi maddənin başlığından da göründüyü kimi, bütün hallarda həmin şəxslərin əşya üzərində ümumi paylı mülkiyyət hüquqlarına xitam verilməsi ilə nəticələnir. Bu baxımdan əşyanın bölünməsi halı üçün Mülki Məcəllənin 221-ci maddəsində onun fiziki bölgüsü və hərracdan satışından ibarət iki ardıcıl hüquqi mexanizm müəyyən edilmişdir. Həmin maddə bütün paylı mülkiyyətçilər əşyanın bölünməsi ilə bağlı həmfikir olsalar da, aralarında paylı mülkiyyət hüququna xitam verilməsinin növü və ya forması (fiziki bölgü, hərracdan satış və s.) ilə bağlı mübahisə olduğu və ya payının ayrılmasını tələb etməyən mülkiyyətçi tək qaldığı, yəni ümumiliyin davam etdirilməsinin mümkün olmadığı hallarda tətbiq edilməlidir. Məsələn, bütün payçıların əşyanın paylarına uyğun bölünməsini tələb etdikləri və ya iki payçıdan biri, üç payçıdan ikisi ayrılmaq istədiyi hallarda əşyanın bölünməsi mexanizmi işə düşür.

20. Əşya üzərində mülkiyyət hüququndakı payın ayrılması isə bütün hallarda ümumi paylı mülkiyyət hüququna xitam verilməsi ilə nəticələnmir. Bu baxımdan əşyanın bölünməsi halından fərqli olaraq payın ayrılması halı üçün Mülki Məcəllənin 220.2-220.6-cı maddələrində payın naturada ayrılması, bu mümkün olmadıqda kompensasiya ödənilməklə paya xitam verilməsi və əşyanın açıq hərracdan satışından ibarət üç ardıcıl hüquqi mexanizm müəyyən edilmişdir. Bu zaman həmin ardıcıllıq gözlənilməklə payın naturada ayrılması baş tutduqda yalnız ayrılan şəxs(lər) ümumilikdən çıxaraq fərdi mülkiyyətçiyə çevrilir, bu mümkün olmadıqda isə kompensasiya ödənilməklə yalnız həmin şəxs(lər)in əşya üzərində mülkiyyət hüququna xitam verilir. Ayrılmayan iki və ya daha artıq payçı isə ümumi paylı mülkiyyət vəziyyətində qalmaqda davam edirlər. Məsələn, üç payçıdan birinin və ya dörd payçıdan ikisinin ayrılmaq istədiyi halda payın ayrılmasına dair prosedur tətbiq edilir. Yalnız əşyanın açıq hərracdan payçı olmayan digər şəxslərə satılması halında əvvəlki həmmülkiyyətçilərin əşya üzərində ümumi paylı mülkiyyət hüquqlarına xitam verilmiş olur.

21. Nəzərə alınmalıdır ki, paylı mülkiyyətçilər aralarındakı mübahisəli vəziyyətin həlli məqsədilə yuxarıda qeyd olunan hüquqi mexanizmlərdən (əşyaya sahiblik və ondan istifadə qaydasının müəyyən edilməsi, paylı mülkiyyətçinin öz payı üzərində sərəncam verməsi, paylı mülkiyyətdə olan əşyanın mülkiyyətçilər arasında bölünməsi və mülkiyyətçinin əşyadakı payının ayrılması) hər hansı birini seçməkdə sərbəstdirlər. Qanunverici bu mexanizmlərdən mərhələli şəkildə istifadə edilməsi ilə bağlı hər hansı imperativ qayda müəyyən etməmişdir. Paylı mülkiyyətçilər öz seçimləri əsasında onlardan mərhələli şəkildə istifadə edə və ya hər hansı birini seçməklə digərlərini aradan qaldıra bilərlər.

22. Məhkəmə təcrübəsindən görünür ki, paylı mülkiyyətçilər arasındakı müxtəlif məzmunlu mübahisələr üzrə iddia tələbləri bir qayda olaraq ümumi mülkiyyətdən payın ayrılması və ya ümumi paylı mülkiyyətdə olan əşyanın bölünməsi formasında ifadə edilir. Halbuki tələbin bu şəkildə qeyd olunması bir çox hallarda tərəflərin həqiqi arzusunu əks etdirmir. Məsələn, iddiaçının əldə etmək istədiyi hüquqi nəticə payının dəyərinə uyğun vəsait əldə etməklə ümumi paylı mülkiyyətdən çıxmaq və əldə edəcəyi vəsaiti ehtiyacları üzrə başqa istiqamətlərə yönəltməkdən ibarət olsa da, payına sərəncam vermək imkanı barədə məlumatlı olmadığından payının ayrılması ilə bağlı iddia qaldırmaqla, bu tələb üzrə qanunvericilikdə imperativ şəkildə müəyyən edilmiş mərhələli həll qaydasına məcbur olur.

23. Bu baxımdan məhkəmələr bu kateqoriyadan olan işlərə baxarkən bütün payçıların qanunla qorunan hüquq və mənafelərinin bərabər müdafiəsi məqsədilə ilk növbədə tərəflər arasındakı mübahisəli vəziyyətin nədən irəli gəldiyini, iddiaçının hazırkı iddia ilə əldə etmək istədiyi hüquqi nəticənin nədən ibarət olduğunu, çatmaq istədiyi hüquqi mənafeyə uyğun düzgün hüquqi mexanizm seçib-seçmədiyini aydınlaşdırmalı, uyğunsuzluq halında qanunvericilikdə nəzərdə tutulmuş bütün hüquqi müdafiə vasitələrindən istifadənin mümkünlüyünü tərəflərlə müzakirə etməlidirlər. Bu yolla paylı mülkiyyətçilər mülkiyyət hüquqlarının daha real və effektiv şəkildə realizəsinə nail olmaqla, aralarındakı mübahisənin buna zərurət olmadığı halda paya və ya bütünlükdə ümumi mülkiyyət hüquqlarına xitam verilməsi ilə nəticələnəcək şəkildə həllindən qorunmuş olurlar.

24. Bu məqsədlə hakim işi məhkəmədə baxılmağa hazırlayarkən qeyd edilən halları MPM-in 14.1 və 167.1-ci maddələrinə uyğun qaydada tərəflərlə müzakirə etməli, dəqiqləşdirmənin nəticələrini məhkəmənin iclas protokolunda aydın şəkildə əks etdirməlidir.

25. Məhkəmə iddiaçının çatmaq istədiyi hüquqi nəticənin ümumi mülkiyyətdə olan əşyadan payın ayrılması və ya əşyanın bölünməsindən ibarət olduğunu müəyyən edərsə, həmin tələbin qanuni əsasını təşkil edən Mülki Məcəllənin müvafiq olaraq 220.3-220.6-cı və 221-ci maddələrini tətbiq etməklə mübahisəni həll etməlidir.

26. Bu kateqoriya işlər üzrə məhkəmə təcrübəsinin vahidliyi baxımından həll edilməli ilk məsələ qeyd edilən maddələrdə göstərilən prosedurlara müvafiq olaraq hər bir mərhələ üzrə ayrıca tələbin irəli sürülməsinin zəruri olub-olmaması ilə bağlıdır.

27. İddia irəli sürmək iddiaçının dispozitiv hüququdur və dispozitivlik prinsipinə əsasən müdafiə üçün məhkəməyə müraciət etmək və ya etməmək, iddia qaldırmaq və onu geri götürmək, yaxud da tələb olunan müdafiənin həcmini müəyyən etmək şəxsin özündən asılı olmalıdır. Bundan irəli gələrək, öz məqsədinə nail olmaq üçün prosessual vasitələri seçmək də onun sərbəst sərəncamında olmalıdır (“Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 420-ci maddəsinin şərh edilməsinə dair” Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun (bundan sonra - Konstitusiya Məhkəməsinin Plenumu) 2012-ci il 28 fevral tarixli qərarı).

28. Bununla belə nəzərə alınmalıdır ki, qanunvericilikdə bu kateqoriya işlər üzə məcburi şəkildə mərhələli həll qaydası müəyyən edilmişdir.

29. Konstitusiya Məhkəməsinin Plenumunun “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 220.6 və 221-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair” 2014-cü il 4 aprel tarixli qərarında göstərilir ki, ...əmlakın açıq hərracdan satılaraq bölünməsindən əvvəl

Mülki Məcəllənin 220.3-220.4-cü maddələrində nəzərdə tutulmuş qaydalara əməl edilməlidir. Həmin qaydalar paylı mülkiyyətdə olan əmlakın bölünməsi və ondan payın ayrılmasının mərhələli formada tənzimlənməsini nəzərdə tutur. İlk növbədə, əmlakın naturada bölünməsinin mümkünlüyü müəyyən edilməlidir. Əmlakın naturada bölünməsi mümkün olmadığı halda, ayrılan mülkiyyətçi öz payının dəyərinin paylı mülkiyyətin digər mülkiyyətçiləri tərəfindən ona ödənilməsini tələb etmək hüququna malikdir. Digər mülkiyyətçilərin kompensasiya vermək imkanları olmadıqda və ya onlar kompensasiya vermək istəmədikdə, əmlakın məhkəmə qərarı əsasında hərracdan satılması məsələsinə baxıla bilər. Eyni zamanda payının naturada ayrılması mümkün olmadıqda və mülkiyyətçi payın əvəzinə pul kompensasiyasını almaqdan imtina etdikdə, həmin mülkiyyətçi əmlakın açıq hərracdan satılmasını tələb edə bilməz. Həmçinin paylı mülkiyyətin mülkiyyətçisi birbaşa əmlakın açıq hərracdan satılmasını tələb etmək hüququna malik deyil.

30. Bu iddialara baxılması zamanı mərhələli həll qaydasının müəyyən edilməsində məqsəd mülkiyyətçilərdən birinin (və ya bir neçəsinin) digər paylı mülkiyyətçiləri öz mülkiyyət hüquqlarından iradələrinə zidd şəkildə istədikləri vaxt istədikləri formada məhrum etmələrinə müəyyən məhdudiyyətlər qoymaqla, mülkiyyət hüququnun toxunulmazlığını qorumaqdan, həmçinin bütün mülkiyyətçilərin hüquqi mənafelərinin balanslı müdafiəsinə nail olmaqdan ibarətdir. Məhz bu məqsədlə qanunverici bu kateqoriyadan olan mübahisələrin həlli zamanı qanunla müəyyən edilmiş mərhələlərdən birini və ya bir neçəsini istisna etməklə, birbaşa növbəti və ya sonuncu mərhələnin tətbiqinin tələb edilməsini qadağan etmişdir. Bu baxımdan iddiaçının dispozitivlik prinsipindən çıxış edərək, birbaşa növbəti və ya sonuncu mərhələnin tətbiqini tələb etməsi iddianın rədd olunması üçün əsasdır.

31. Göstərilənləri nəzərə alaraq, məhkəmə tərkibi hesab edir ki, iddia tələbinin hansı formada ifadə olunmasından asılı olmayaraq qaldırılan iddianın predmeti ümumi paylı mülkiyyətdə olan əşyanın bölünməsi və ya payın ayrılmasından ibarət olduğundan, məhkəmə hər bir halda həmin tələbin qanuni əsasını təşkil edən maddənin dispozisiya şərtlərinə uyğun olaraq mübahisənin qanunla müəyyən edilmiş ardıcıllıq gözlənilməklə hər bir mərhələ üzrə həll edilməsinin mümkünlüyünü aydınlaşdırmalıdır. Bu, məhkəmənin qanundan irəli gələn xidməti vəzifəsi olmaqla, tələbdən kənara çıxma kimi qiymətləndirilə bilməz.

32. Beləliklə, iddia tələbləri natamam olduqda və ya aydın olmadıqda məhkəmə MPMin 14.1 və 167.1-ci maddələrinə əsasən tərəflərlə bu iddiaların predmeti, həmin predmet çərçivəsində araşdırmanın qanunla müəyyən edilmiş məcburi mərhələləri barədə müzakirə aparmalı, bunların hüquqi nəticələrini tərəflərə izah etməli və tələb üzrə yekun arzu olunan nəticənin nədən ibarət olmasını dəqiqləşdirməlidir.

33. Müzakirənin nəticəsində iddiaçı tələb üzrə araşdırmanın Mülki Məcəllənin 220 və 221-ci maddələrində göstərilən müvafiq ardıcıllıqla aparılmasına etiraz etməzsə, məhkəmə iddia tələbinin “payın ayrılması”, “paylı mülkiyyətdə olan əşyanın bölünməsi”, “payın dəyərinin ödənilməsi”, “əşyanın hərracdan satılması” və s. kimi ifadə olunduğu bütün hallarda qanunla müəyyən edilmiş ardıcıllıq üzrə yoxlama aparmalıdır.

34. O da qeyd olunmalıdır ki, kreditorun tələbi üzrə borclunun ümumi mülkiyyətdəki payına tutmanın yönəldilməsi barədə tələblər də ümumi paylı mülkiyyətdən payın ayrılması və ümumi paylı mülkiyyətdə olan əşyanın bölünməsi ilə bağlı bu qərardaddakı hüquqi mövqelər nəzərə alınmaqla Mülki Məcəllənin 224-cü maddəsində göstərilmiş dispozisiya şərtlərinə və ardıcıllığa müvafiq olaraq həll edilməlidir.

35. Həmin maddənin tələbinə görə paylı və ya birgə mülkiyyətçinin başqa əmlakı kifayət etmədikdə onun kreditoru borc üzrə tutmanın borclunun ümumi əşyadakı payına yönəldilməsi üçün həmin payın ayrılmasını tələb edə bilər. Əgər payın naturada ayrılması mümkün deyildirsə və ya paylı və ya birgə mülkiyyətin qalan iştirakçıları buna etiraz edirlərsə, kreditorun ixtiyarı var ki, borclunun öz payını bazar qiyməti ilə ümumi mülkiyyətin qalan iştirakçılarına satmasını və satışdan əldə edilmiş vəsaitin borcun ödənilməsinə yönəldilməsini tələb etsin.

Ümumi mülkiyyətin qalan mülkiyyətçiləri borclunun payını almaqdan imtina etdikdə kreditorun ixtiyarı var ki, tutmanın borclunun ümumi mülkiyyət hüququndakı payına onun açıq hərracdan satılması yolu ilə yönəldilməsini məhkəmə qaydasında tələb etsin.

36. Nəzərə alınmalıdır ki, borclunun barəsində çıxarılmış qətnamənin icrası qaydasında tələbin onun ümumi mülkiyyətdəki payına yönəldilməsi fərdi mülkiyyətində olan əşyasına yönəldilməsindən fərqli olaraq kreditorun tələbi üzrə iddia icraatı qaydasında həll edilməli məsələ olmaqla "İcra haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – "İcra haqqında" Qanun) 53-cü maddəsində nəzərdə tutulmuş qaydada qətnamənin icrası çərçivəsində həyata keçirilə bilməz.

Ümumi paylı mülkiyyətdə olan əşyadan payın ayrılması

37. İlk növbədə qeyd olunmalıdır ki, hər bir mülkiyyətçi yalnız özünə məxsus payın ayrılmasını tələb etmək hüququna malikdir. Digər mülkiyyətçinin payının naturada ayrılması və ya kompensasiya ödənilməklə ümumi mülkiyyətdəki payına xitam verilməsi barədə iddia qaldırıla bilməz. Bu qaydanın yeganə istisnası Mülki Məcəllənin 220.4-cü maddəsində nəzərdə tutulmuşdur. Həmin maddəyə əsasən mülkiyyətçinin payı cüzi olduqda, real surətdə ayrıla bilmədikdə və ümumi əmlakdan istifadə edilməsində onun mühüm mənafeyi olmadıqda, məhkəmə həmin mülkiyyətçinin razılığı olmadan da paylı mülkiyyətin qalan iştirakçılarının öhdəsinə ona kompensasiya ödənilməsi vəzifəsini qoya bilər.

38. Konstitusiya Məhkəməsinin Plenumu qeyd edilən maddənin tətbiqi ilə bağlı vurğulamışdır ki, ümumi paylı mülkiyyətə pay hüququndan məhrum etmək yalnız müstəsna hallarda mümkündür (Mülki Məcəllə, 220.4-cü maddə). Ümumi paylı mülkiyyətin mülkiyyətçisinin ümumi əmlakın istifadəsində mühüm mənafeyinin olub-olmaması məsələsi məhkəmələr tərəfindən hər bir konkret halda tərəflərin təqdim etdikləri sübutları məcmu şəklində tədqiq etməklə və qiymətləndirməklə həll olunur. Həmin maddənin üçüncü cümləsinin tətbiq olunması yalnız qanunverici tərəfindən sadalanan bütün şərtlərin eyni zamanda mövcud olması halında mümkündür: mülkiyyətçinin payı cüzi olduqda; naturada ayrılması mümkün olmadıqda; ümumi əmlakdan istifadə edilməsində onun mühüm mənafeyi olmadıqda. Bununla, Mülki Məcəllənin 220.4-cü maddəsində öz payının ümumi əmlakdan ayrılması tələbini irəli sürməyən mülkiyyətçinin əmlaka olan mülkiyyət hüququndan onun iradəsinə zidd olaraq digər mülkiyyətçilər tərəfindən kompensasiyanın ödənilməsi yolu ilə məhrum edilməsi nəzərdə tutulmamışdır, əks yanaşma mülkiyyət hüququnun toxunulmazlığı prinsipinə zidd olardı (Konstitusiya Məhkəməsinin Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 220.6 və 221-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair" 2014-cü il 4 aprel tarixli qərarı).

39. Mülki Məcəllənin 220-ci maddəsinin məzmunundan və Konstitusiya Məhkəməsinin Plenumunun həmin qərarındakı izahlardan müəyyən olunur ki, ümumi paylı mülkiyyətdə olan əşyadan payın ayrılması aşağıdakı üç mərhələdən ibarətdir:

1) ümumi paylı mülkiyyətdə olan əşyadan payın natura formasında ayrılması; 2) kompensasiya (payın dəyəri) ödənilməsi;

3) əşyanın məhkəmə qərarı ilə açıq hərracdan satılması və əldə olunan vəsaitin paylara mütənasib surətdə mülkiyyətçilər arasında bölüşdürülməsi.

40. Bu tələblər üzrə hər növbəti mərhələnin yoxlanılmasına özündən əvvəlki mərhələnin tətbiqi mümkün olmadığı halda yol verilir. Yəni əgər payın naturada ayrılmasına yol verilmirsə və ya bu, ümumi mülkiyyətdə olan əşyaya tənasübsüz zərər vurmadan mümkün deyildirsə, ayrılan mülkiyyətçi öz payının dəyərinin digər mülkiyyətçilər tərəfindən ona ödənilməsini tələb etmək hüququna malikdir. Bu qaydalara əsasən əvvəlki iki mərhələnin tətbiqi mümkün olmadığı halda isə əşya məhkəmə qərarı ilə açıq hərracdan satıla və əldə olunan vəsait paylara mütənasib surətdə mülkiyyətçilər arasında bölüşdürülə bilər.

41. Qeyd edilən məcburi qaydanın tətbiqi həm ayrılmaq istəyən paylı mülkiyyətçinin, həm də qalan mülkiyyətçilərin mülkiyyət hüquqlarının müdafiəsinə yönəlmişdir. Belə ki, bununla bir tərəfdən mülkiyyətçiyə əmlakdakı payına sərəncam vermək, digər tərəfdən isə qalan mülkiyyətçilərə əşyanı ümumi paylı mülkiyyətlərində saxlamaq imkanı verilir. Ona görə də, bu mərhələlərin yoxlanılması formal xarakter daşımamalı, tərəflər bundan istifadə etməklə bir-birinin hüquqlarını reallaşdırmağa maneə yaratmamalı, hüquqdan sui-istifadəyə yol verilməməlidir.

42. Birinci mərhələ üzrə məhkəmə tərəfindən ilk növbədə iddiaçının əşya üzərində mülkiyyət hüququndakı payının naturada bölgüsünün mümkün olub-olmadığı, ayrılan payın vahid daşınmaz əşya konsepsiyasına uyğun gəlib-gəlmədiyi istiqamətində araşdırma aparılmalıdır. Əşyanın xüsusiyyətləri nəzərə alınmaqla onun naturada bölgüsünün aşkar surətdə mümkünsüzlüyü halında məhkəmə hər hansı əlavə araşdırma aparmadan bu mərhələnin yoxlanılmasını yekunlaşdırmaqla, iddiaçının istəyinə uyğun olaraq ikinci mərhələyə keçid etməlidir.

43. Digər hallarda isə məhkəmə payın naturada ayrılmasının formaları barədə hər bir tərəfin təklifini dinləməli, mübahisəli məqamların alternativ həlli yolları ilə bağlı qarşılıqlı müzakirələr aparmalıdır. Bundan sonra yekun təkliflər əsasında, bunun mümkün olmadığı halda isə tərəflərin mənafelərinə bərabər şəkildə xidmət edəcək ən əlverişli formada naturada ayrılmanın mümkünlüyünü prosessual qanunvericiliyin yol verdiyi imkanlardan istifadə etməklə araşdırmalıdır.

44. Araşdırmanın nəticəsində payın naturada ayrılmasının mümkünlüyü müəyyən edilərsə, məhkəmə payın müəyyən etdiyi qaydada naturada bölgüsü barədə qətnamə qəbul etməlidir. İddiaçı məhkəmə tərəfindən müəyyən edilmiş naturada bölgünün qaydası ilə razı olmadıqda, qətnamədən apellyasiya və kassasiya şikayətləri vermək, eyni zamanda iddiadan imtina hüquqlarından istifadə edə bilər.

45. Bununla yanaşı, nəzərə alınmalıdır ki, Mülki Məcəllənin 220.4-cü maddəsinin ikinci cümləsində payın naturada ayrılmasının mümkünlüyü halında ayrılmanı tələb edən mülkiyyətçinin razılığı ilə naturada bölgünün əvəzinə qalan mülkiyyətçilər tərəfindən kompensasiyanın ödənilməsi imkanı da nəzərdə tutulmuşdur. Bu zaman məhkəmə yalnız kompensasiyanın məbləği ilə bağlı tərəflər arasında qarşılıqlı razılığın olduğu halda həmin məbləğin ödənilməsini qət edə bilər, əks halda isə müəyyən etdiyi qaydada naturada bölgü barədə qətnamə çıxarmalıdır.

46. İddiadan imtina edildiyi halda isə məhkəmə tərəfindən iddiaçıya yenidən eyni əşya barəsində eyni əsaslarla digər həmmülkiyyətçilərə qarşı payın naturada ayrılması, habelə payının dəyəri kimi kompensasiya ödənilməsi və ya əşyanın açıq hərracdan satılması barədə iddia qaldırmaq hüququnun olmadığı izah edilməlidir. İddiaçı qeyd edilən tələblərlə və ya onlardan biri ilə məhkəməyə müraciət edərsə, MPM-in 153.2.2-ci maddəsinə əsasən iddia ərizəsinin qəbulundan imtina olunmalı, iş səhvən icraata qəbul edildikdə isə MPM-in 261.0.2ci maddəsinə əsasən iş üzrə icraata xitam verilməlidir.

47. Naturada ayrılma mümkün olmadıqda ikinci mərhələnin tətbiqi ilə bağlı Konstitusiya Məhkəməsinin Plenumunun 2014-cü il 4 aprel tarixli qərarında göstərilmişdir ki,

...mülkiyyətçiyə düşən pay əvəzinə pul kompensasiyasının ödənilməsi yalnız payın naturada ayrılması mümkün olmadıqda və onun razılığı ilə həyata keçirilə bilər. Payın həcmindən asılı olmayaraq paylı mülkiyyətin istənilən mülkiyyətçisi pul kompensasiyasının ödənilməsi tələbini irəli sürmək hüququna malikdir. Əgər iddiaçı tərəfindən belə tələb irəli sürülməmişdirsə, məhkəmə öz təşəbbüsü ilə kompensasiyanın ödənilməsini müəyyən edə bilməz. Belə ki, məhkəmə iddia tələbinin hədlərindən kənara çıxa bilməz. Ümumi paylı mülkiyyətin mülkiyyətçisi yalnız ona pul kompensasiyasının ödənilməsini tələb edə bilər. Həmin mülkiyyətçi digər mülkiyyətçilərə pul kompensasiyasının ödənilməsini tələb etmək hüququna malik deyil.

48. Göründüyü kimi, payın naturada ayrılması mümkün olmadıqda ikinci mərhələ üzrə məhkəmə araşdırmasının aparılması iddiaçının iradəsindən asılı olmaqla, yalnız o, digər mülkiyyətçilərdən payının dəyəri kimi ona kompensasiyanın ödənilməsini tələb etdiyi halda mümkündür. İddiaçı payının dəyəri kimi kompensasiya ödənilməsini tələb etmədiyi halda isə məhkəmə araşdırması yekunlaşdırılmaqla ümumi mülkiyyətdən payın naturada ayrılması barədə iddiası rədd olunmalı və ona gələcəkdə ikinci mərhələdən başlanmaqla müvafiq ardıcıllıq üzrə iddia qaldırmaq hüququ izah edilməlidir.

49. Kompensasiyanın məbləği ilə bağlı tərəflər arasında mübahisə olmadığı halda məhkəmə iddianı təmin etməklə, tərəflərin qarşılıqlı razılaşmasına uyğun olan məbləği qət etməlidir. Əks halda isə məhkəmə tələb edilən kompensasiyanın məbləğindən asılı olmayaraq əşyanın bazar qiymətinə uyğun ədalətli kompensasiya məbləğini müəyyən etməli və cavabdeh tərəfin buna razılığı olduğu halda iddia tələbinə münasibətdə iddianın tam və yaxud qismən təmin olunmasına dair qətnamə qəbul etməlidir.

50. Nəzərə alınmalıdır ki, iddiaçının məhkəmə tərəfindən müəyyən edilmiş kompensasiyanın məbləği ilə razılaşmaması bu mərhələ üzrə araşdırmanın yekunlaşması və növbəti mərhələyə keçid edilməsi üçün əsas deyil. Məhkəmə hər bir halda cavabdehlərə iddiaçının payının dəyəri kimi müəyyən edilmiş kompensasiyanın ödənilməsini təklif etməlidir. Əks yanaşmada ayrılan mülkiyyətçi hüquqdan sui-istifadə edərək payına görə tənasübsüz yüksək kompensasiya tələb etməklə qalan mülkiyyətçiləri ağır vəziyyətə sala, yaxud əşyanın məcburi şəkildə hərraca çıxarılmasına nail ola bilər ki, bu da payın dəyərini ödəməyə razı olan cavabdehlərin mülkiyyət hüquqlarına müdaxilə təşkil edir.

51. İddiaçı məhkəmə tərəfindən müəyyən edilmiş kompensasiyanın məbləği ilə razılaşmadıqda qətnamədən apellyasiya və kassasiya şikayətləri vermək, eyni zamanda iddiadan imtina hüquqlarından istifadə edə bilər. İddiadan imtina etdiyi halda məhkəmə tərəfindən bu qərardadın 46-cı bəndində qeyd edilən qaydalar eynilə tətbiq edilməlidir.

52. Cavabdehlər və ya onlardan ən azı biri məhkəmə tərəfindən müəyyən edilmiş kompensasiyanın məbləğini ödəməyə razılıq verərsə, bu mərhələdə məhkəmə araşdırması tamamlanmış hesab olunmalı və kompensasiya ödənilməklə iddiaçının əşya üzərində mülkiyyət hüququndakı payına xitam verilməsi barədə qətnamə çıxarılmalıdır. Bu halda kompensasiya ödənilməsi vəzifəsi razılıq vermiş cavabdehin üzərinə qoyulmaqla, iddiaçının payı ona keçməlidir. Razılıq vermiş cavabdehlərin sayı birdən çox olduqda ayrılan pay aralarındakı razılığa müvafiq olaraq hər birinin ödədiyi kompensasiya məbləğinə mütənasib, razılıq olmadıqda isə bərabər şəkildə aralarında bölüşdürülməlidir.

53. Təcrübədən görünür ki, bəzi hallarda cavabdehlər məhkəmə prosesində müəyyən edilmiş kompensasiyanın məbləğini ödəməyə razılıq versələr də, sonradan qətnamənin icrası mərhələsində maddi vəziyyətlərinin pisləşməsi, hüquqdan sui-istifadə və ya hər hansı digər səbəbdən vədlərini yerinə yetirmirlər. Bu kimi neqativ halların qarşısını almaq məqsədilə məhkəmə qətnamənin nəticə hissəsində onun icrası üsulunu və qaydasını dəqiq şəkildə müəyyən etməlidir.

54. Konstitusiya Məhkəməsinin Plenumu “Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 231.1-ci maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair” 2015-ci il 22 may tarixli qərarında izah etmişdir ki, məhkəmə qətnaməsinin icra üsulları iş üzrə tərəflərdən birinin pozulmuş hüquqlarının bərpasına yönəlmiş hərəkətlər sistemini nəzərdə tutur. Məhkəmə qətnaməsinin icra qaydası isə müvafiq məhkəmə aktının icra üsullarının məzmununu təşkil edən, müəyyən ardıcıllıqla və müvafiq qaydalara riayət etməklə yerinə yetirilən hərəkətlərin məcmusudur. Qətnamənin icra qaydasının dəyişdirilməsi məhkəmə tərəfindən icra hərəkətlərinin yerinə yetirilməsi ardıcıllığının (növbəliliyinin), yaxud göstərilən hərəkətlərin məzmununun (həyata keçirilməsi şərtlərinin) dəyişdirilməsində ifadə olunur.

55. Bu məqsədlə qətnamə qəbul edilənədək kompensasiyasının ödənilməsi müddəti ilə bağlı tərəflərlə müzakirə aparılmalı və hər iki tərəfin razılığı ilə müddət müəyyən olunmalıdır.

Tərəflər arasında razılıq əldə edilmədikdə isə məhkəmə MPM-in 128.1-ci maddəsi baxımından "İcra haqqında" Qanunun 12.1-ci maddəsində bütün zəruri icra hərəkətlərinin həyata keçirilməsi üçün nəzərdə tutulmuş 2 aylıq müddət təyin etməlidir.

56. Bununla yanaşı, qətnamənin nəticə hissəsində cavabdehlər tərəfindən kompensasiyanın ödənilməsi ilə iddiaçının paylı mülkiyyət hüququna xitam verilməsinin eyni vaxtda icra edilməli olması və müəyyən edilmiş müddət ərzində kompensasiya ödənişinin həyata keçirilmədiyi halda, tələbkarın istəyinə uyğun olaraq əşyanın açıq hərracdan satılması və əldə olunan vəsaitin mülkiyyətçilərin paylarına uyğun olaraq aralarında bölünməli olması da göstərilməlidir.

57. Məhkəmə araşdırması zamanı cavabdehlərdən heç biri kompensasiya ödəmək istəmədikdə və ya hər hansı səbəbdən ödəyə bilmədikdə iddiaçının tələbi əsasında məhkəmə üçüncü mərhələyə keçid etməklə əşyanın birbaşa açıq hərracdan satılmasını qət etməlidir. İddiaçının əşyanın açıq hərracdan satılmasını tələb etmədiyi halda isə məhkəmə araşdırması yekunlaşdırılmaqla iddia rədd olunmalı və ona gələcəkdə yalnız üçüncü mərhələ üzrə iddia qaldırmaq hüququ izah edilməlidir.

58. Təcrübədə fikir ayrılığı yaradan məsələlərdən biri də mübahisə predmeti olan əşyanın açıq hərracdakı ilkin satış qiymətinin qətnamə ilə müəyyən edilməli olub-olmaması ilə bağlıdır.

59. Bununla bağlı ilk növbədə qeyd olunmalıdır ki, mülki qanunvericilikdə əşyanın açıq hərracdan satılması halında ilkin satış qiymətinin qətnamə ilə müəyyən edilməli olması barədə imperativ tələb yalnız ipoteka predmeti olan əşyaya münasibətdə nəzərdə tutulmuşdur ("İpoteka haqqında" Azərbaycan Respublikasının Qanunu, 39.3.3-cü maddə). Mülki Məcəllənin 220-ci maddəsində isə paylı mülkiyyətdə olan əşyanın açıq hərracdan satılması barədə qətnamə qəbul edilərkən ilkin satış qiymətinin məhkəmə tərəfindən müəyyən edilməli olması birbaşa göstərilməsə də, Məcəllədə bununla bağlı qadağanedici norma da nəzərdə tutulmamışdır.

60. Odur ki, əşyanın ilkin satış qiyməti ilə bağlı qətnamənin icrası mərhələsində yaranacaq yeni mübahisələrin və tərəflərin sui-istifadə hallarının qarşısının alınması məqsədilə məhkəmə paylı mülkiyyətdə olan əşyanın müəyyən etdiyi bazar qiyməti ilə ilkin satış qiymətini qətnamənin icra qaydası kimi onun nəticə hissəsində göstərməli və izah etməlidir ki, qətnamənin icrası mərhələsində paylı mülkiyyətdə olan əşyanın bazar qiymətinin əhəmiyyətli dərəcədə dəyişməsi səbəbindən tərəflər MPM-in 231-ci maddəsinin tələblərinə uyğun olaraq qətnamənin icra qaydasının dəyişdirilməsi barədə ərizə ilə məhkəməyə müraciət edərək, ilkin satış qiymətini yenidən müəyyənləşdirə bilərlər.

61. Paylı mülkiyyətdə olan əşyanın açıq hərracdan satılması proseduru isə "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun 42-43-cü maddələrinin tələbləri nəzərə alınmadan Mülki Məcəllənin 415-ci maddəsinə, "İcra haqqında" Qanunun müvafiq müddəalarına, eyni zamanda Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki və Kommersiya kollegiyalarının "İcra icraatı çərçivəsində borclunun əmlakının hərracdan satılması qaydası ilə bağlı qanunvericiliyin tətbiqi üzrə" 2021-ci il 24 noyabr tarixli 02/2021 nömrəli qərardadında qeyd olunmuş hüquqi mövqelərə uyğun həyata keçirilməlidir.

Ümumi paylı mülkiyyətdə olan əşyanın bölünməsi

62**.** Mülki Məcəllənin 221-ci maddəsinin məzmunundan müəyyən olunur ki, əgər iştirakçılar (paylı mülkiyyətçilər) arasında ümumi paylı mülkiyyət hüququna xitam verilməsi növünə (fiziki bölgü, öz istəyi ilə satış və ya hərracdan satış və satış pulunun bölünməsi və ya bütün əşyanın bir və ya bir neçə iştirakçının adına qeydə alınması və qalan iştirakçılara əvəz verilməsi) dair razılıq olmazsa və ya payının ayrılmasını tələb etməyən mülkiyyətçi tək qalarsa, yəni ümumiliyin davam etdirilməsi mümkün olmazsa, ümumi paylı mülkiyyətdə olan əşyanın

bölünməsi yuxarıda qeyd olunduğu kimi payın ayrılmasından fərqli olaraq aşağıdakı iki mərhələdən ibarətdir:

1) ümumi paylı mülkiyyətdə olan əşyanın naturada (fiziki) bölgüsü; 2) əşyanın məhkəmə qərarı ilə hərracdan satılması.

63. Birinci mərhələ (əşyanın fiziki bölgüsü) üzrə məhkəmə araşdırmasının predmeti ümumi mülkiyyətdə olan əşyadan payın ayrılmasının ilkin mərhələsi (əşyadan payın naturada ayrılması) ilə eynilik təşkil etdiyindən bu qərardadın 42-44 və 46-cı bəndlərində nəzərdə tutulan qaydalar nəzərə alınmalıdır.

64. Bu araşdırmanın nəticəsində əşyanın naturada bölgüsünün mümkün olmadığı müəyyən edilərsə, məhkəmə iddiaçıların tələbi əsasında ikinci mərhələyə keçid etməklə əşyanın hərracdan satılmasını qət etməlidir. İddiaçıların əşyanın hərracdan satılmasını tələb etmədikləri halda isə digər tərəfin bununla bağlı qarşılıqlı tələbi yoxdursa, məhkəmə araşdırması yekunlaşdırılmaqla iddia rədd olunmalı və onlara gələcəkdə yalnız ikinci mərhələ üzrə iddia qaldırmaq hüquqları izah edilməlidir.

65. Ümumi mülkiyyətdə olan əşyadan payın ayrılması prosedurundan fərqli olaraq əşyanın bölünməsi halında kompensasiya ödənilməsi mərhələsi olmadığından, əşya üzərində mülkiyyəti davam etdirmək niyyətində olan digər payçıların mülkiyyət hüquqlarının qorunması məqsədilə Mülki Məcəllənin 221-ci maddəsində qapalı hərracı ehtiva edən yalnız paylı mülkiyyətin iştirakçıları üçün hərracın keçirilməsi imkanı nəzərdə tutulmuşdur.

66. Hərracın forması tərəflərin mövqeləri nəzərə alınmaqla məhkəmə tərəfindən müəyyən olunmalıdır. Məhkəmə araşdırması zamanı bütün mülkiyyətçilərin və ya onlardan ən azı birinin əşya üzərində tam mülkiyyət hüququnu əldə etmək niyyətinin olduğu müəyyən edilərsə, qətnamənin nəticə hissəsində əvvəlcə yalnız paylı mülkiyyətin iştirakçıları üçün hərracın keçirilməsi, əşya həmin hərracda mülkiyyətçilərdən biri və ya bir neçəsi tərəfindən əldə edilmədiyi halda isə açıq hərracdan satılmalı olması göstərilməlidir.

67. Əşyanın ilkin satış qiyməti və hərracdan satılması proseduru ilə bağlı məsələlər isə bu qərardadın 59-61-ci bəndlərində göstərilən qaydada həll olunmalıdır.

68. Şərh olunanları nəzərə alaraq, Ali Məhkəmənin Mülki və Kommersiya kollegiyalarına daxil olan bütün hakimlərdən ibarət məhkəmə tərkibi MPM-in 418-1.1-ci maddəsini rəhbər tutaraq

QƏRARA ALDI:

Ümumi paylı mülkiyyətdə olan əşyadan mülkiyyətçilərin birinin (və ya bir neçəsinin) payının ayrılması məsələsi Mülki Məcəllənin 220.3-220.6-cı maddələri, ümumi paylı mülkiyyətdə olan əşyanın bölünməsi ilə əşya üzərində iştirakçıların paylı mülkiyyət hüquqlarına xitam verilməsi məsələsi isə həmin Məcəllənin 221-ci maddəsi tətbiq edilməklə, bu qərardadın əsaslandırıcı hissəsində qeyd olunan hüquqi mövqelərə uyğun həll olunmalıdır.

İddia tələbinin hansı formada ifadə olunmasından asılı olmayaraq qaldırılan iddianın predmeti ümumi paylı mülkiyyətdə olan əşyanın bölünməsi və ya payın ayrılmasından ibarət olduğundan, məhkəmələr həmin tələbin qanuni əsasını təşkil edən maddənin dispozisiya şərtlərinə uyğun olaraq mübahisənin qanunla müəyyən edilmiş ardıcıllıq gözlənilməklə hər bir mərhələ üzrə həll edilməsinin mümkünlüyünü aydınlaşdırmalıdırlar.

Ümumi paylı mülkiyyətdə olan əşyadan payın naturada ayrılması mümkün olmadıqda, iddiaçının tələbi üzrə məhkəmələr əşyanın bazar qiymətinə uyğun ədalətli kompensasiya məbləğini müəyyən etməli və cavabdeh tərəfin buna münasibəti baxımından müvafiq qərar qəbul etməlidirlər.

Ümumi paylı mülkiyyətdə olan əşyanın bölünməsi və əşyadan payın ayrılması barədə işlərə baxılarkən məhkəmələr qətnamənin nəticə hissəsində icra qaydası qismində əşyanın bazar dəyərinə uyğun hərracdan ilkin satış qiymətini göstərməlidirlər.

Azərbaycan Respublikası Ali Məhkəməsinin
Mülki və Kommersiya kollegiyaları

Daşınmaz əşyalara dair əşya hüquqlarının əldə edilməsində üçüncü şəxslərin vicdanlılığı ilə bağlı qanunvericiliyin tətbiqi üzrə

Q Ə R A R D A D

№ 02/2026

Bakı şəhəri
18 may 2026-cı il

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki və Kommersiya kollegiyaları,

Mülki kollegiyanın sədri Hacıyev Sənan Firudin oğlunun sədrliyi, hakimləri Baxışova Vüsalə Ələkbər qızı, Əliyev Zaur Əli oğlu, Babayev Zəki Baba oğlu, Həsənov Vüqar Təvəkgül oğlu, Əhmədov Əhməd Abbas oğlu, Abbasov Aqil Əzizağa oğlu, Nurməmmədov Əhməd Güləhməd oğlu, Xıdırov Əhliman Mehman oğlu, Şamayev Elşad Yaquboviç və Həsənov Rəşad Məhəmməd oğlu,

Kommersiya kollegiyasının sədri Abiyeva Kəmalə Nəbi qızı, hakimləri Qəribov Bəhman Fərhad oğlu və Qurbanov Raqib Əliddin oğlundan ibarət tərkibdə,

Bayramova Fidan Rafiq qızının katibliyi ilə,

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyasının Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra – MPM) 418-1-ci maddəsinin tələblərinə müvafiq qaydada verdiyi 2025-ci il 7 oktyabr tarixli təqdimatı əsasında mübahisəli hüquqi məsələyə hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədi ilə baxaraq aşağıdakıları müəyyən etdi.

Mübahisəli hüquqi məsələnin məzmunu

1. Ali Məhkəmənin icraatında olan, əvvəllər müəyyən edilmiş hüquqi mövqelərdən fərqli yanaşmanın müzakirəsini zəruri edən mülki işin hallarına görə, iddiaçının mülkiyyətində olmuş mənzil kirayəyə verdiyi şəxs (cavabdeh) tərəfindən saxta etibarnamə əsasında başqa şəxsin mülkiyyətinə keçirilmiş, bundan sonra mənzil eyni ildə qısa fasilələrlə iki ayrı şəxsə (digər cavabdehlərə) satılmışdır. İddiaçı mənzilə dair bağlanmış bütün alqı-satqı müqavilələrini mübahisələndirmiş, birinci instansiya məhkəməsi iddianı tam təmin etmiş, apellyasiya instansiyası məhkəməsi isə ilk müqavilə istisna olmaqla, sonrakı müqavilələrə aid hissədə alıcıları vicdanlı əldə edən hesab edərək iddianı rədd etmişdir. İddiaçı qətnamədən kassasiya şikayəti verərək, iddiasının tam təmin olunmasını xahiş etmişdir.

2. İşə kassasiya qaydasında baxılarkən Ali Məhkəmənin ayrı-ayrı məhkəmə tərkibləri arasında bu kateqoriyadan olan mübahisələr üzrə əşya hüquqlarının əldə edilməsi baxımından üçüncü şəxslərin vicdanlılığının xüsusiyyətləri, şərtləri, onu istisna edən hallarla bağlı, xüsusilə də sübutetmə yükü və standartları barədə fərqli hüquqi yanaşmaların mövcud olduğu müəyyən edilmişdir.

3. Belə ki, Ali Məhkəmənin Mülki kollegiyasında analoji işlər üzrə əvvəlki məhkəmə tərkibləri mülkiyyətindən məhrum olmuş iddiaçılar tərəfindən üçüncü şəxslərin vicdanlı olmadığına, yəni reyestrdəki qeydin əsassız olduğunu bildiklərinə dair təqdim edilmiş sübutları həmin halı birbaşa təsdiq edən düzünə sübutlar olmaması baxımından nəzərə almamışlar.

4. Təqdimatla müraciət edən məhkəmə tərkibinin mövqeyi isə ondan ibarətdir ki, əşyaya dair adına əsassız qeydiyyat aparılmış şəxslə üçüncü şəxs arasındakı danışıqlarda mülkiyyətçinin iştirak etməməsi səbəbindən sonuncunun üçüncü şəxsin reyestrdəki qeydin düzgün olmadığını bildiyinə dair birbaşa sübutlar təqdim etməsi, bir qayda olaraq, mümkün olmur. Bu baxımdan üçüncü şəxsin vicdanlı əldə edən olmadığına dair iddianın əsaslılığı yalnız buna dair düzünə sübutlarla deyil, həmçinin mülkiyyətçinin təqdim etdiyi bu halın mövcudluğu qənaətinə gəlməyə əsas verən dolayı sübutların məcmusu ilə də təsbit oluna bilər.

5. Eyni zamanda məhkəmə tərkibləri arasında vicdanlı əldəetmə ilə bağlı qaydaların daşınmaz əşyanı əvəzsiz əldə edən üçüncü şəxslərə də tətbiq olunub-olunmaması ilə bağlı fərqli hüquqi mövqelər vardır.

6. Göründüyü kimi, qeyd edilən hüquqi məsələlərə dair qanunvericiliyin tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi zərurəti yaranmışdır.

7. MPM-in 418-1-ci maddəsinə əsasən Ali Məhkəmənin məhkəmə tərkibi işə kassasiya qaydasında baxarkən Ali Məhkəmənin digər məhkəmə tərkibinin əvvəllər qəbul etdiyi qərarda müəyyən edilmiş hüquqi mövqedən fərqli yanaşmanın tətbiq edilməsini zəruri hesab etdikdə, həmin mübahisəli hüquqi məsələyə hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə Ali Məhkəmənin mülki və kommersiya kollegiyalarına daxil olan bütün hakimlərdən ibarət tərkibdə baxılır.

8. Bu məqsədlə Ali Məhkəmənin sədri tərəfindən hazırda işə baxan Mülki kollegiyanın məhkəmə tərkibinin təqdimatı təmin edilərək, hüququn tətbiqi üzrə qeyd edilən mübahisəli hüquqi məsələ Mülki və Kommersiya kollegiyalarına daxil olan bütün hakimlərin müzakirəsinə çıxarılmış, mübahisəli hüquqi məsələ hüquq ictimaiyyətinin diqqətinə çatdırılmış, Martin Lüter adına Halle-Vittenberq Universitetinin professoru Azər Əliyevin və ADA Universitetinin baş müəllimi Nicat Rəsulzadənin birgə rəyi, Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Mülki hüquq kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Sərvər Süleymanlının, Ali Məhkəmə yanında Elmi-Məsləhət Şurasının üzvü Əsəd Mirzəliyevin və Vəkillər Kollegiyasının üzvü Arif Əyyubovun yazılı formada əsaslandırılmış rəyləri (amicus curiae rəyi) Ali Məhkəməyə təqdim edilmiş, eyni zamanda xarici dövlətlərin bu məsələlərlə bağlı təcrübələri öyrənilmişdir.

Qərardadın predmeti:

9. Vicdanlılıq prinsipi (latınca “bona fides”, yəni xoş niyyət) mülki qanunvericiliyin fundamental prinsiplərindən biri olmaqla, Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra - Mülki Məcəllə) bir çox normalarında öz əksini tapmışdır. Bu prinsip mülki hüquqların əldə edilməsi, itirilməsi, onlardan istifadə olunması, öhdəliklərin yaranması, həcminin müəyyənləşdirilməsi və icrası, əqdin etibarlılığının müəyyən edilməsi, müqavilə şərtlərinin təfsir olunması və sair kimi məsələlərin həllində müxtəlif hüquqi funksiyalar yerinə yetirir.

10. Bu qərardadın predmetini yuxarıda sadalananlardan yalnız daşınmaz əşyalara dair əşya hüquqlarının əldə edilməsində üçüncü şəxslərin vicdanlılığı ilə bağlı mübahisəli hüquqi məsələlər təşkil edir.

Məhkəmə tərkibinin mövqeyi:

11. Əşya hüquqları, şəxsin ona məxsus əşya üzərində birbaşa hakimiyyətini təmin edən və hər kəsə qarşı irəli sürülə bilən hüquqlardır. Bu hüquqlar əşya üzərində təmin etdiyi səlahiyyətlərin həcmi baxımından tam əşya hüququ (mülkiyyət) və məhdud əşya hüquqları (servitut, ipoteka və sair) kimi təsnif edilir.

12. Əsas və fundamental insan hüquqlarından biri kimi mülkiyyət hüququ əşya üzərində tam həcmdə səlahiyyət (sahiblik, istifadə və sərəncam) təmin etdiyindən tam əşya hüququ adlandırılır.

13. Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya) 13-cü maddəsinin I hissəsinə və 29-cu maddəsinin I və II hissələrinə əsasən Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur. Hər kəsin mülkiyyət hüququ vardır. Mülkiyyətin heç bir növünə üstünlük verilmir. Mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ qanunla qorunur. Heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz

14. Qeyd olunmalıdır ki, Konstitusiya insan və vətəndaş hüquq və azadlıqlarına təminat verməklə yanaşı, bu hüquqların həyata keçirilməsinə mümkün qanuni və əsaslı müdaxilələri istisna etmir. Lakin hər hansı hüquqa, o cümlədən mülkiyyət hüququna müdaxilə qanuni olmalı, legitim məqsəd daşımalı və mütənasib olmalıdır, yəni cəmiyyətin və ya dövlətin ümumi maraqları ilə fərdin konstitusiya hüquqlarının qorunması arasında ədalətli tarazlığa nail olunmaqla həyata keçirilməlidir (Konstitusiyanın 71-ci maddəsinin II hissəsi).

15. Eyni hüquqi mövqe İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin (bundan sonra – Avropa Məhkəməsi) qərarlarında da əks olunmuşdur. Avropa Məhkəməsinin presedent hüququna əsasən "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyaya dair 1 saylı Protokolun 1-ci maddəsinin mühüm tələblərindən biri ondan ibarətdir ki, mülkiyyətdən maneəsiz istifadə hüququna dövlət hakimiyyəti orqanı tərəfindən edilən istənilən müdaxilə qanuni olmalıdır. Qanunilik prinsipi onu da nəzərdə tutur ki, daxili qanunvericiliyin tətbiq edilə bilən normaları kifayət qədər əlçatan, dəqiq olsun və tətbiq edilərkən onların nəticələrini öncədən görmək mümkün olsun. Konvensiya tərəfindən tanınan hüququn və ya azadlığın həyata keçirilməsinə hər hansı müdaxilə qanuni məqsəd daşımalıdır. Mülkiyyətdən maneəsiz istifadə etmək hüququna müdaxilə zamanı cəmiyyətin ümumi maraqları ilə fərdin əsas hüquqlarının müdafiəsi tələbləri arasında "ədalətli balans" gözlənilməlidir. Mülkiyyət hüququnun qanuni məhdudlaşdırılmasında proporsionallıq prinsipinin tələblərinə uyğun olaraq fərdin üzərinə qanunun məqsədlərindən kənar olan artıq yük düşməməlidir.[1]

16. Mülki Məcəllədə təsbit olunmuş vicdanlı əldəetmə institutu əşya hüquqlarına, o cümlədən mülkiyyət hüququna müdaxilənin qanuni əsaslarından birini təşkil edir. Bu institut yalnız əşya hüquqları (mülkiyyət, tikintiyə vərəsəlik, ipoteka və digər) üçün keçərlidir və reyestrdə qeydə alınıb-alınmamasından asılı olmayaraq tələb hüquqları (məsələn, daşınmaz əşyanın icarəsi, çoxmənzilli yaşayış binasının tərkib hissəsinə dair podrat müqaviləsi və sair) ilə bağlı münasibətlərə tətbiq olunmur.

17. Əşya hüquqlarının əldə edilməsi baxımından vicdanlılıq dedikdə, vəziyyətin tələb etdiyi bütün diqqətin göstərildiyi halda, hüququn qazanılmasına dair hansısa maneənin varlığının obyektiv olaraq fərqində olmamaq başa düşülür.

18. Nəzərə alınmalıdır ki, vicdanlı əldəetmə daşınmaz əşyalara dair sərəncamverici əqdlərdə yalnız özgəninkiləşdirənin adına aparılmış reyestr qeydinin əsassızlığı ilə bağlı etibarsızlıq halını aradan qaldırır, əqdin etibarsızlığına səbəb olan digər hüquqazidd hallara isə şamil edilmir. Məsələn, təmsilçinin etibarnaməsi saxta olduğu təqdirdə üçüncü şəxs özünün vicdanlı əldə edən olduğuna istinad edə bilməz. Çünki bu halda əqdin etibarsızlığı özgəninkiləşdirənin adına aparılmış reyestr qeydinin əsassızlığı ilə bağlı olmamışdır.

19. Vicdanlı əldəetmə ilə bağlı qaydalar hüquqi əməliyyatların etibarlı bir şəraitdə daha asan və sürətli realizəsinə şərait yaratmaqla, mülki dövriyyənin sabitliyinin və sürətliliyinin, eyni zamanda mülki hüquq subyektlərinin mənafelərinin təmin olunmasına, eləcə də əşya

hüquqlarından məhrumetmə ilə bağlı risklərinin bölüşdürülməsinə xidmət edir. Belə ki, bu kateqoriya mübahisələr üzrə eyni əşyaya dair qorunmalı iki mənafe olur – həqiqi hüquqi vəziyyətə görə mülkiyyətçinin və vicdanlı əldə edən üçüncü şəxsin mənafeyi. Onlardan biri üçün əşyaya olan hüququnu itirmək təhlükəsi qaçılmazdır.

20. Əşya hüquqları qazanmaq istəyən şəxs dövlət reyestrinə etimad etsə də, bəzi hallarda əldə olunan hüquqlar müəyyən risklərlə müşayiət olunur. Təcrübədən görünür ki, hətta hər şeydən xəbərsiz, əvvəlcədən sayıqlıq göstərmək imkanı olmayan, əşyaya sərəncam verilməsinə dair hər hansı şəkildə iradəsini ifadə etməmiş mülkiyyətçi də hüququndan məhrum olmaq riski ilə üzləşə bilir. Belə hallarda əsl mülkiyyətçi ilə müqayisədə üçüncü şəxsin riskləri idarə etmək imkanları daha genişdir. Çünki üçüncü şəxs əşya hüququnu əldə etməzdən öncə hüquqi araşdırma aparmaq, dövlət reyestrinin məlumatlarını yoxlamaq və əlavə təminatlar tələb etmək imkanına malikdir. Beynəlxalq təcrübə də göstərir ki, əşya hüquqları əldə edən şəxslər bu riskləri müxtəlif hüquqi və maliyyə vasitələri, o cümlədən sığorta mexanizmləri vasitəsilə minimallaşdıra bilərlər.

21. Risklərin hansı qaydada bölüşdürülməsi, yəni riskin mülkiyyətçinin, yoxsa əldə edən vicdanlı şəxsin üzərində qalacağı ilə bağlı seçim isə qanunvericiliyə aid olmaqla, daşınar və daşınmaz əşyalara münasibətdə onların xüsusiyyətləri nəzərə alınmaqla fərqli hüquqi tənzimləmələr nəzərdə tutulmuşdur.

22. Daşınmaz əşyalar mülki dövriyyədə yüksək iqtisadi dəyərə malik olmaqla mülki hüquq münasibətlərində mühüm yer tutur. Bu xüsusiyyətlər nəzərə alınaraq, qanunvericilikdə həmin əşyaların dövriyyəsi ilə bağlı xüsusi hüquqi təminat mexanizmləri müəyyən edilmişdir. Belə mexanizmlərə daşınmaz əşyalara dair müqavilələrin notariat qaydasında bağlanması, daşınmaz əşyalar üzərində hüquqların dövlət reyestrinin aparılması və bu reyestrə olan etimadın qorunması daxildir.

23. Bu mexanimzlərin mövcudluğu daşınmaz əşya üzərində hüquqların açıqlığını və hüquqi müəyyənliyi təmin edir. Bunun nəticəsi olaraq, mülki dövriyyə iştirakçıları dövlət reyestrinin məlumatlarının həqiqiliyinə və tamlığına etimad edir və qanunvericilik, bir qayda olaraq, həmin reyestrə güvənərək əşyanı vicdanlı əldə edən şəxslərin hüquqlarının qorunmasını təmin edir. Əks halda daşınmaz əşyaların dövriyyəsi qeyri-sabit, riskli və etibarsız bir mühitdə həyata keçirilər ki, bu da bütövlükdə iqtisadi münasibətlərin inkişafına mənfi təsir göstərər. Belə ki, əgər daşınmaz əşyalar üzərində hüquqların dövlət reyestrinə etimad prinsipi pozularsa, bu hal təkcə ayrı-ayrı hüquq münasibətlərinə deyil, bütövlükdə mülki dövriyyənin sabitliyinə ciddi mənfi təsir göstərər, mülki dövriyyə iştirakçıları üçün hüquqi müəyyənlik zəifləyər və hər bir əqd üzrə əlavə yoxlamaların aparılması zərurəti yaranar ki, bunun nəticəsində əməliyyatların həyata keçirilməsi çətinləşərək daha çox resurs tələb edər. Bu isə şəxsləri daşınmaz əmlak bazarında iştirakdan çəkindirə və investisiya aktivliyinin azalmasına səbəb ola bilər.

24. Daşınmaz əşyalarla bağlı müqavilələrin notariat qaydasında təsdiq edilməsi tələbi bu əşyalara sərəncam verilərkən mülki hüquq subyektlərini daha diqqətli olmağa sövq etməklə yanaşı, bağladıqları əqdin etibarlılığına dair əlavə bir təminat vermiş olur.

25. Sözügedən mübahisəli hüquq münasibətlərində, adətən, üç subyekt iştirak edir: 1) həqiqi hüquqi vəziyyətə görə mülkiyyətçi (əsl mülkiyyətçi); 2) daşınmaz əmlakın dövlət reyestrində mülkiyyətçi kimi görünən şəxs (özgəninkiləşdirən); 3) sonuncudan əşya hüquqlarını əldə edən üçüncü şəxs. Vicdanlılığın qorunması bu subyektlərdən yalnız üçüncü şəxslərə münasibətdə tətbiq olunan qaydadır. Belə ki, onlardan yalnız üçüncü şəxs hüquqlar

barədə reyestrin həqiqiliyi prezumpsiyasına etimad edərək əşyanı əldə edir və qanun da bu etimadın qorunmasını təmin edir.

26. Bununla belə, vicdanlı üçüncü şəxs statusu hüquq münasibətlərinin konkret mərhələsi və subyektlərin qarşılıqlı hüquqi vəziyyəti nəzərə alınmaqla qiymətləndirilməlidir. Belə ki, hüququndan məhrum olmuş mülkiyyətçi də həmin əşyaya dair əvvəlki hüquqi münasibətlər çərçivəsində öz hüquqi səlahiyyətlərinə münasibətdə vicdanlı üçüncü şəxs qismində çıxış edə bilər. Bu baxımdan vicdanlı əldəetmə institutunun məqsədi yalnız sonrakı əldə edəni qorumaqdan ibarət olmayıb, bütövlükdə mülki dövriyyədə hüquqi müəyyənliyin, dövlət reyestrinə etimad prinsipinin təmin edilməsinə və mülkiyyət hüququnun müdafiəsinə xidmət edir.

27. Daşınmaz əşya üzərində mülkiyyət hüququnu öz iradəsindən kənar itirmiş şəxslər bu hüququn müdafiəsi məqsədi ilə Mülki Məcəllənin 141.1 maddəsində nəzərdə tutulmuş iddia tələbi ilə məhkəməyə müraciət edə bilərlər. Belə iddiaların predmetini daşınmaz əmlakın dövlət reyestrində aparılmış qeydə düzəliş edilməklə mülkiyyət hüququnun onun adına bərpası təşkil edir. Əsl mülkiyyətçi əşyaya sahiblikdən də məhrum olduğu halda, Mülki Məcəllənin 157.2-ci maddəsinə uyğun olaraq əşyanın özgəsinin qanunsuz sahibliyindən geri tələb olunmasını da tələb edə bilər.

28. Reyestr qeydinin ləğv edilməsi və ya etibarsız sayılması barədə, habelə onun əsasında duran əqdin etibarsızlığına dair tələb mahiyyətcə əsaslı olmayan qeydiyyatın düzəldilməsi barədə iddiadır və onun predmetini hüququ pozulmuş şəxsin mənafeyi (subyektiv hüququ) təşkil edir. Bu mənafeyin təmin olunması üçün irəli sürülən tələblərin hansı formada (ləğv, etibarsızlıq, silinmə və sair) ifadə olunmasından asılı olmayaraq, iddianın predmeti dəyişmir, belə tələblərin hər biri eyni predmet (daşınmaz əmlakın dövlət reyestrindəki qeyddə düzəlişin aparılması) hesab edilir.

29. Bu baxımdan iddia tələblərinin əşyaya dair daşınmaz əmlakın dövlət reyestrindəki qeydə düzəliş edilməsi, yəni iddiaçının adına qeydin bərpa edilməsi şəklində qaldırılması yetərlidir. Bununla bağlı ayrıca tələb qoyulmasa da, məhkəmə əşyaya dair bağlanmış bütün əqdlərin etibarlılığını yoxlamalıdır. Bunun üçün iddiaçı əşyaya dair bağlanmış əqdlərin tərəflərini iş üzrə cavabdeh qismində göstərməli, əks halda məhkəmə həmin şəxsləri cavabdeh qismində cəlb etməyi iddiaçıya təklif etməli, sonuncu razılıq verməddikdə isə öz təşəbbüsü ilə müstəqil tələb irəli sürməyən üçüncü şəxs qismində işə cəlb etməlidir. Göstərilən tələblər üzrə daşınmaz əmlakın dövlət reyestrini aparan orqanın cavabdeh qismində işə cəlb edilməsi tələb olunmur.

30. İrəli sürülən tələblərdə hər hansı natamamlıq olduqda məhkəmə, işi məhkəmədə baxılmağa hazırlayarkən bu halları MPM-in 14.1 və 167.1-ci maddələrinə uyğun qaydada tərəflərlə müzakirə etməli, zərurət olduqda iddia tələbinin dəqiqləşdirilməsi barədə təklif verməli və dəqiqləşdirmənin nəticələrini məhkəmənin iclas protokolunda aydın şəkildə əks etdirməlidir.

31. Bu iddia tələblərinə baxılarkən məhkəmələr tərəfindən Mülki Məcəllənin daşınmaz əşya üzərində mülkiyyət (tam əşya) hüquqlarının əldə edilməsi ilə bağlı 139, 139-1.1.3, 140, 144, 146, 148.2 və 149.2-ci maddələri nəzərdən keçirilməli və aşağıdakı şərtlər üzrə yoxlama aparılmalıdır: 1) iddiaçının həqiqi hüquqi vəziyyətə görə mülkiyyət hüququnun olması (əşyaya dair ləğv edilmiş reyestr qeydinin mövcudluğu, vərəsəlik hüququnun olması və digər); 2) üçüncü şəxsin adına daşınmaz əmlakın dövlət reyestrində qeydiyyatın mövcudluğu; 3) üçüncü şəxslə bağlanmış etibarlı dövriyyə əqdinin mövcudluğu; 4) əşyanı üçüncü şəxsə

özgəninkiləşdirənin adına reyestr qeydinin əsaslı olub-olmadığı; 5) qeyd əsassız olduqda, əldə edən üçüncü şəxsin vicdanlı olub-olmadığı.

32. Birinci şərt iddiaçının bu tələb üzrə iddia qaldırmaq üçün subyektiv hüququnun olubolmadığını müəyyən edir. Bu şərtin ödənilməməsi digər şərtlərin yoxlanılmasına keçilmədən iddianın rədd edilməsi üçün əsasdır.

33. İkinci şərtin mövcudluğu müəyyən edilmədikdə üçüncü şəxsin mülkiyyət hüququnu əldə etmədiyi qənaətinə gəlinir. Belə ki, daşınmaz əşya üzərində mülkiyyət və sair əşya hüquqları müstəsna hallar xaricində dövlət reyestrində qeydiyyatın aparıldığı andan əmələ gəlir (Mülki Məcəllənin 14.3, 139.1 və 178.1-ci maddələri).

34. Bəzi hallarda üçüncü şəxslə daşınmaz əşyaya dair müqavilə bağlansa da, o, həmin müqavilədən irəli gələn hüququnu rəsmi reyestrdə qeydə aldırmadığından mülkiyyət hüququnu əldə edə bilmir. Belə olan halda, üçüncü şəxs mülkiyyəti qazanmadığından və qanunla yalnız mülkiyyət hüququ əldə etmiş vicdanlı şəxslərin hüquqları qorunduğundan iddia tələbi üzrə üçüncü şəxsə münasibətdə araşdırma yekunlaşdırılmalıdır.

35. Təcrübədən görünür ki, bəzən məhkəmələr səbəbindən asılı olmayaraq, hüququnu qeydə aldırmamış üçüncü şəxslərin bağladıqları əqdləri Mülki Məcəllənin 358-ci maddəsinə istinadən (satıcının sərəncam səlahiyyətinin olmaması əsası ilə) etibarsız hesab edirlər. Halbuki bu əqd sərəncam əqdi olmayıb, borclunun öhdəliyini yaradan borclandırıcı əqddir. Üçüncü şəxs həmin əqddən irəli gələn tələb hüquqlarını, o cümlədən öhdəliyin icra edilməməsindən doğan zərərin əvəzinin ödənilməsini borcludan tələb edə bilər. Bu hüquq münasibətlərinin mübahisəli daşınmaz əşyanın mülkiyyətçisinin mənafelərinə hər hansı təsiri yoxdur. Odur ki, bu halda məhkəmələr həmin əqdlərin göstərilən əsasla etibarsızlığı tələbini rədd etməklə, müqavilənin digər tərəfinə qarşı öhdəlik hüquq münasibətləri çərçivəsində tələb irəli sürmək hüququnu üçüncü şəxsə izah etməlidirlər.

36. İkinci şərt ödənildiyi halda üçüncü şərtin, yəni üçüncü şəxslə bağlanmış qanunda nəzərdə tutulmuş etibarlılıq şərtlərinə cavab verən mülki dövriyyə əqdinin mövcudluğu yoxlanılmalıdır.

37. İlk növbədə qeyd olunmalıdır ki, iqtisadi cəhətdən bir-birindən asılı olan eyni mənafedən çıxış edən şəxslər arasında mülkiyyətin keçidinin baş verməsi mülki dövriyyə kimi qəbul edilmir. Belə ki, mülki dövriyyəni təmsil edə bilmək üçün əldə edən üçüncü şəxslə özgəninkiləşdirən arasında belə bağlılıq olmamalıdır. Bu hallara nümunə kimi ailə üzvləri və hüquqi şəxsin iştirakçıları arasında bağlanılan əqdləri göstərmək olar. Bununla belə, həmin şəxslər bir-birindən iqtisadi cəhətdən müstəqil olduqda isə daşınmaz əşyanın özgəninkiləşdirilməsinə dair onlar arasında bağlanmış əqdlər dövriyyə əqdi kimi çıxış edə bilər. Bu səbəbdən dövriyyə əqdinin olub-olmaması hər bir konkret hala münasibətdə müstəqil olaraq müəyyən edilməlidir.

38. Etibarlılıq şərtləri isə bir müqavilənin əsaslı hüquqi nəticələr yaratmasını təmin edən tələblərdir. Etibarsızlığı yaradan səbəblər baxımından onun aşağıdakı növləri fərqləndirilir: əhəmiyyətsiz əqdlər (məsələn, məcburi formaya uyğun olmaması, uydurma və ya yalan olması, əqdin məzmununun mümkünsüz olması), mübahisə edilən əqdlər (məsələn, iradə ifadələrinin zədələnmiş olması), müvafiq razılığın olmamasına görə etibarsız olan əqdlər (məsələn, yetkinlik yaşına çatmayanların qanuni nümayəndələrinin razılığı olmadan əşyaya sərəncam verməsi) və məhkəmə qərarı ilə etibarsız sayılan əqdlər (məsələn, hərracın qanunsuzluğu).

39. Nəzərə alınmalıdır ki, vicdanlı əldəetmə ilə bağlı mübahisələr üzrə əsl mülkiyyətçi əşyaya dair üçüncü şəxsin bağladığı müqavilənin yalnız əhəmiyyətsizlik səbəbi ilə etibarsızlığı

barədə tələb irəli sürmək üçün subyektiv hüquqa malikdir. O, üçüncü şəxslə bağlanmış müqavilənin tərəfi olmadığından onların iradə ifadələrinin zədələnməsindən çıxış edərək, əqdi mübahisələndirə bilməz.

40. Bu mübahisələr üzrə məhkəmə təcrübəsində ən çox rast gəlinən etibarsızlıq halı uydurma əqdlərlə bağlıdır.

41. Mülki Məcəllənin 340.1-ci maddəsinə əsasən uydurma əqd ona uyğun hüquqi nəticələr yaratmaq niyyəti olmadan yalnız görünüş üçün bağlanmış əqddir. Uydurma əqd əhəmiyyətsizdir. Normanın məzmunundan göründüyü kimi, uydurma əqd reallıqda heç bir hüquqi nəticə (hüquq və öhdəlik) əmələ gətirmək niyyəti olmadan, sırf görünüş üçün bağlanan əqddir. Bu halda əqdin tərəfləri özləri üçün hüquq və öhdəliklər yaratmağı arzu etmir, əksinə belə nəticənin əmələ gəlməməsi barədə öz aralarında razılığa gəlmiş olurlar. Uydurma əqd, bir qayda olaraq, başqalarını (üçüncü şəxsləri) aldatmaq və həqiqətdə olmayan hüquq və öhdəlikləri sanki varmış kimi göstərmək məqsədilə bağlanır.

42. Qeyd olunan dispozisiya şərtləri əsasında əqdin həqiqətən arzu edilən hüquqi nəticəni yaratmaq niyyəti ilə, yoxsa belə niyyət olmadan başqa məqsədlərlə bağlandığı aydınlaşdırılmalıdır. Təcrübədən görünür ki, bu kateqoriya mübahisələr üzrə uydurma əqdlər əsasən "vicdanlı əldə edən görüntüsü" yaratmaqla əşyanın mülkiyyətçiyə qayıtmasının qarşısını almaq məqsədilə rəsmiləşdirilir.

43. Belə uydurma əqdlər üzrə "vicdanlı əldə edən görüntüsü" yaratmaq niyyəti aşağıda qeyd olunan faktların mövcudluğu ilə müəyyənləşdirilə bilər:

- əldə edənlə əqdin qarşı tərəfi arasında əlbirliyə işarə edən qohumluq, dostluq, asılılıq və ya digər yaxınlıq münasibətlərinin olması;
- buna dair ağlabatan əsaslar olmadan əşya ilə bağlı müqavilənin həqiqi bazar dəyərindən dəfələrlə aşağı qiymətlə rəsmiləşdirilməsi;
- buna dair ağlabatan əsaslandırma olmadan əldə edənin müqavilənin bağlanmasından öncə və ya sonra əşyaya şəxsən (və ya nümayəndəsi və ya qohumu vasitəsilə) baxış keçirməməsi, əşyanın xüsusiyyətləri barədə məlumatsız olması;
- buna dair ağlabatan əsaslandırma olmadan əşyanın üçüncü şəxsin sahibliyinə verilməməsi, onun da əşyaya yiyələnməklə bağlı real cəhdlərinin olmaması, əşyanın yeni hüquqi əsaslar olmadan əsl mülkiyyətçinin sahibliyində qalmaqda davam etməsi;
- əldə edənin real alıcılıq qabiliyyətini istisna edən maddi vəziyyətinin və həyat şəraitinin onun adına rəsmiləşmənin formal olmasına işarə etməsi;
- buna dair ağlabatan əsaslar olmadan əşyanın dəyərinin notariusun depozit hesabına satıcı və ya onun təmsilçisi tərəfindən qoyulması və ya vəsaitin alıcının özü tərəfindən geri götürülməsi;
- cavabdehin həqiqi niyyətinin olmasına dair istinad etdiyi mühüm halların məhkəmə araşdırmasında təkzib olunması;
- əldə edənin əşyaya həqiqi marağının olmamasına işarə edən davranışları (lazımi qaydada məlumatlandırılmasına baxmayaraq, buna dair ağlabatan əsaslar olmadan məhkəmə proseslərinə gəlməməsi, ona qarşı verilmiş iddia ərizəsinə etiraz etməməsi, əleyhinə çıxarılmış məhkəmə aktlarından şikayət verməməsi və sair); - əqdin görünüş üçün bağlandığına əsas verən digər hallar.

44. Əksər hallarda bu faktlardan yalnız birinin mövcudluğu əqdin görünüş üçün bağlanması qənaətinə gəlmək üçün kifayət etmir. Məsələn, əşyanın həqiqi dəyərindən aşağı qiymətə əldə edilməsinə dair təkbaşına halın mövcudluğu əqdin uydurma olmasının təsdiqi

üçün yetərli deyil. Əks yanaşma Mülki Məcəllənin müqavilə azadlığına və müqavilə qiymətinin tərəflərin razılaşması ilə müəyyənləşdirilməsinə dair 390 və 398.1-ci maddələrinin tələblərinə zidd olardı. Bu baxımdan, məhkəmə iş üzrə bütün faktiki halları ayrı-ayrılıqda deyil, onların qarşılıqlı əlaqəsini nəzərə almaqla, sübutların məcmusu əsasında qiymətləndirməlidir. Xüsusilə dolayı sübutlara əsaslanarkən bu sübutlar bir-birini tamamlamalı, uzlaşmalı və alternativ izahları istisna edən vahid məntiqi sistem yaratmalı, yəni onlar məcmu şəkildə yalnız bir nəticəyə - əqdin uydurma olması qənaətinə aparmalıdır. Bununla yanaşı, istisna hallarda elə bir yeganə faktın mövcudluğu da mümkün ola bilər ki, bu, özü-özlüyündə digər ağlabatan izahları aradan qaldıraraq mübahisə üçün həlledici əhəmiyyət kəsb etsin. Məsələn, alıcının real alıcılıq qabiliyyətini istisna edən maddi durumunun və həyat şəraitinin həddindən artıq ağır olmasına baxmayaraq, kifayət qədər yüksək dəyəri olan qeyri-yaşayış sahəsi əldə etməsi və bunun formal olmamasına dair hər hansı ağlabatan əsaslandırma verə bilməməsi.

45. Bu qaydada aparılan qiymətləndirmə əsasında əqdin uydurma olması təsdiq edilərsə, məhkəmə digər şərtlərin yoxlanılmasına keçmədən araşdırmanı yekunlaşdırmalı və reyestrdə üçüncü şəxsin adına aparılmış qeydin ləğvi barədə iddia onunla bağlanmış müqavilənin etibarsız (əhəmiyyətsiz) olması səbəbindən təmin edilməlidir.

46. Əqdin digər əsaslarla etibarsız sayılması hallarında da (əqdi bağlayan şəxsin anlaqlı olmaması, qanunla müəyyən edilmiş formaya riayət edilməməsi və sair) məhkəmə əvvəlki bənddə ifadə olunmuş yanaşmaya uyğun qərar qəbul etməlidir.

47. Dördüncü şərt əşyanı özgəninkiləşdirənin adına reyestr qeydinin əsaslı olubolmamasıdır. Bu şərt üçüncü şəxslə əqd bağlanarkən reyestrdə adı görünən həmin şəxsin həqiqi hüquqi vəziyyətə görə mülkiyyətçi olmaqla, əşyaya sərəncam vermək səlahiyyəti ilə bağlıdır.

48. Bu şərtin yoxlanılması zamanı nəzərə alınmalıdır ki, vicdanlı əldəetmə yalnız dövlət reyestrində özgəninkiləşdirənin adına aparılmış qeydə etimad etmiş üçüncü şəxslərin hüquqlarını qoruyur. Ona görə də, bu növ mübahisələr üzrə əvvəlcə özgəninkiləşdirənin adına daşınmaz əmlakın dövlət reyestrində əşyaya dair qeydin olub-olmadığı yoxlanılmalıdır. Bu problemə daha çox dövlət reyestrində qeydə alınmamış əşyalara dair müqavilələrin (məsələn, çoxmənzilli yaşayış binasının tərkib hissəsinə dair podrat müqavilələri) bağlanması zamanı təsadüf edilir. Bu zaman alıcı rəsmi reyestrdə qeydə alınmamış əşyanı yazılı müqavilə əsasında əldə etdiyindən reyestrə etimada əsaslanan vicdanlı əldəetmə halı yaranmır. Bəzən məhkəmə təcrübəsində səhvən həmin müqavilələr üzrə də əldə edənin vicdanlılığı məsələsi araşdırılır, halbuki yuxarıda da qeyd edildiyi kimi, qanunverici vicdanlılıq institutu ilə yalnız reyestrdəki qeydə etimad edən üçüncü şəxslərin hüquqlarını qoruyur.

49. Əşyanı özgəninkiləşdirənin səlahiyyəti yoxlanılarkən Mülki Məcəllənin 178.5-ci maddəsinin tələbləri də nəzərə alınmalıdır. Belə ki, həmin maddəyə əsasən, əgər daşınmaz əmlakın dövlət reyestrində əsassız qeydə alınmış mülkiyyətçi qeydəalmanın əsassız olduğunu bilməyərək, torpaq sahəsinə 10 il ərzində fasiləsiz və etirazsız sahiblik etmişsə, həmin şəxs bu torpaq sahəsinin mülkiyyətçisi sayılır. Bu baxımdan daşınmaz əşyaya sərəncam verən, reyestr qeydi əsassız olan şəxs bu maddənin tələbinə uyğun mülkiyyət hüququnu əldə etdikdən sonra üçüncü şəxsə özgəninkiləşdirərsə, bu zaman onun reyestr qeydi əsaslı hala gəldiyindən əşyaya sərəncam vermək səlahiyyəti də əmələ gəlmiş olur və artıq digər şərtlərin yoxlanılmasına zərurət qalmır. Çünki bu zaman hər hansı hüquqazidlik halı yoxdur, yəni üçüncü şəxsin etimad etdiyi reyestr qeydi əsaslıdır.

50. Daşınmaz əşyaya sərəncam vermək səlahiyyəti bir qayda olaraq onun mülkiyyətçisinə məxsusdur. Daşınmaz əşyanın mülkiyyətçisi ilə bağlı qanuni prezumpsiyaya

(ehtimala) görə, daşınmaz əmlakın dövlət reyestrində adına qeydiyyat aparılmış şəxs əşyanın mülkiyyətçisi hesab olunur (Mülki Məcəllənin 139 və 178.1-ci maddələri). Digər prezumpsiya daşınmaz əmlakın dövlət reyestrindəki qeydin həqiqiliyi ilə bağlıdır. Mülki Məcəllənin 140-cı maddəsinin birinci cümləsinə əsasən əşyanın mülkiyyətçisinə dair qeyd əksi sübuta yetirilməyincə həqiqi hesab olunur. Bununla belə, əsl mülkiyyətçi bu prezumpsiyanın əksini, yəni həmin qeydin əsassız aparıldığını, bu səbəbdən əşyaya sərəncam verənin buna əslində səlahiyyətinin olmadığını iddia və sübut edə bilər. Sübut etdiyi halda, əsl mülkiyyətçinin mülkiyyət hüququ qorunmaqla, onun adına olan reyestr qeydi bərpa olunur.

51. Bununla belə, əşyanın üçüncü şəxslərə özgəninkiləşdirildiyi hallarda özgəninkiləşdirənin adına reyestrdəki qeydin əsassızlığının sübuta yetirilməsi əsl mülkiyyətçinin hüququnun bərpası üçün yetərli olmur. Bu zaman iddiaçı Mülki Məcəllənin 140cı maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş prezumpsiya baxımından əlavə olaraq beşinci şərti, yəni əşyanı əldə edən üçüncü şəxsin vicdanlı olmadığını da sübut etməlidir. Belə ki, həmin normaya əsasən əqd əsasında özgəninkiləşdirənin adına qeydiyyata alınmış hər hansı bir hüququ əldə edən şəxsin xeyrinə reyestrdəki qeyd, bu qeydə dair etirazın reyestrə daxil edildiyi və ya əldə edən şəxsin qeydin qeyri-dəqiq olmasını bildiyi hallar istisna olmaqla, həqiqi hesab edilir.

52. Həmin Məcəllənin 148.2 və 149.2-ci maddələrində nəzərdə tutulmuşdur ki, daşınmaz əmlakın dövlət reyestrindəki qeydə əsaslanaraq mülkiyyət hüququ və ya daşınmaz əmlaka başqa hüquqlar əldə etmiş hər bir şəxsin bu hüquqları müdafiə edilməlidir. Əgər daşınmaz əmlaka hüquqların qeydiyyatı əsassızdırsa və ya əgər düzgün qeydiyyat əsassız çıxarılmışsa və ya dəyişdirilmişsə, bunun nəticəsində daşınmaz əmlaka olan hüquqlarına toxunulmuş istənilən şəxs qeydiyyatın çıxarılması və ya dəyişdirilməsi haqqında iddia qaldıra bilər. Bunun nəticəsində vurulmuş zərərin əvəzinin ödənilməsi üçün tələblərin irəli sürülməsi istisna edilmir. Bu zaman vicdanlı üçüncü şəxslərin qeydiyyatla əlaqədar əldə etdikləri hüquqları saxlanılır.

53. Göründüyü kimi, daşınmaz əmlakın dövlət reyestrində aparılmış qeydiyyat əsassız olsa belə, Mülki Məcəllənin 140-cı maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş istisnalar xaricində bu qeydə əsaslanaraq, əşya hüquqları əldə etmiş vicdanlı şəxslərin hüquqları qanunla qorunur.

54. Həmin maddədə daşınmaz əşyanı əldə edən üçüncü şəxsin vicdanlı hesab edilməsini istisna edən iki əsas nəzərdə tutulmuşdur: 1) özgəninkiləşdirənin adına aparılmış qeydə dair reyestrə etirazın daxil edilməsi; 2) əldə edənin reyestr qeydinin qeyri-dəqiq olduğunu bilməsi.

55. Daşınmaz əmlakın dövlət reyestrində aparılmış qeydə etirazın mövcudluğu əldə edənin vicdanlılığını birbaşa istisna edir. Yəni özgəninkiləşdirənin adına aparılmış qeydə dair reyestrə etiraz daxil edildiyi halda, hər hansı şərtdən, o cümlədən üçüncü şəxsin bu barədə məlumatlı olub-olmamasından asılı olmayaraq, əşya üzərində həqiqi mülkiyyətçinin hüquqları qorunmaqla, üçüncü şəxsin vicdanlılığı istisna olunur.

56. Belə ki, reyestrə etiraz daxil edilməsi institutu preventiv müdafiə vasitəsi kimi nəzərdə tutulmuşdur. Bu mexanizm vasitəsilə həqiqi mülkiyyətçi qabaqlayıcı tədbir kimi reyestrdə əşyaya dair aparılmış əsassız qeydə etiraz daxil etdirməklə öz hüquqlarını gələcək risklərdən müdafiə etmiş olur. Bu institutun məqsədi mülkiyyətçinin hüquqlarının effektiv müdafiəsini təmin etmək, daşınmaz əşyanın üçüncü şəxslərə özgəninkiləşdirilməsi risklərinin qarşısını almaq və mümkün məhkəmə mübahisələri zamanı onu ağır sübutetmə yükündən azad etməkdən ibarətdir. Ona görə də, reyestrə etiraz daxil etmiş mülkiyyətçi ilə bunu etməyən mülkiyyətçiyə eyni münasibət göstərilməsi bu institutun mahiyyətinə zidd olardı.

57. İkinci əsasla bağlı qeyd olunmalıdır ki, daşınmaz əşyalar üzərində hüquqi vəziyyətin üçüncü şəxslərə açıqlanması daşınarlarda olduğu kimi əşyaya faktiki malik olmaqla deyil, daşınmaz əmlakın dövlət reyestrindəki qeydiyyatla təmin olunur. Bu səbəbdən daşınar əşyalara sərəncam verən şəxsin buna səlahiyyətli olmadığını əldə edənin bilməsi ilə yanaşı, hal və şəraitə görə bilməli olması da vicdanlılığı aradan qaldırdığı halda (Mülki Məcəllənin 182.1-ci maddəsi), daşınmaz əşyalarda ikinci əlamət nəzərdə tutulmamışdır.

58. Məhkəmə təcrübəsindən görünür ki, əldə edənin reyestr qeydinin qeyri-dəqiq olduğunu bildiyinin sübuta yetirilməsi hər zaman asan olmur. Belə ki, mülki hüquq münasibətlərində "vicdanlılıq prezumpsiyadır" qaydası tətbiq olunur. Yəni əşyanı əldə edənin vicdanlı olduğu ehtimal edilir. Ona görə də, vicdanlılığın qorunması qaydasından yararlanan şəxs özünün vicdanlı olduğunu sübut etmək vəzifəsindən azaddır. Onun vicdanlı olmadığını sübuta yetirmək bundan fayda əldə edəcək tərəfin, yəni bunu iddia edənin üzərinə düşür.

59. İddiaçı (əsl mülkiyyətçi) reyestrdə adına əsassız qeydiyyat aparılmış şəxslə üçüncü şəxs arasındakı sövdələşmədə iştirak etmədiyindən, onun üçüncü şəxsin reyestrdəki qeydin düzgün olmadığını bildiyinə dair birbaşa sübutlar əldə etməsi əksər hallarda çətin olur. Bununla bağlı irəli sürdüyü dəlillər və sübutlar isə dolayı xarakter daşımaqla, əksər hallarda üçüncü şəxsin həmin halı (maneəni) bildiyini birbaşa təsdiq edə bilmir. Üçüncü şəxs isə "vicdanlı əldə edən görüntüsü" yaratmaq məqsədilə bağlanan uydurma əqdlərdən fərqli olaraq əşyanı əldə etməklə bağlı həqiqi niyyəti olsa da, buna dair hüquqi maneəni (qeydin əsassızlığını) bildiyini adətən gizlədir.

60. Bu baxımdan mübahisənin həlli üçün əhəmiyyət kəsb edən hallara münasibətdə sübutetmə yükü və standartları ilə bağlı aşağıdakıların qeyd olunması zəruridir.

61. Məlum olduğu kimi, mülki prosesdə sübut edilməli faktla sübut arasında bağlılığa görə

sübutların iki növü fərqləndirilir: birbaşa sübutlar və dolayı sübutlar.

62. Birbaşa sübutlar sübut edilən faktla birmənalı bağlıdır, yəni həmin faktın varlığı (və ya yoxluğu) barədə güvənli nəticə çıxarmağa əsas verir (məsələn: tərəflərin imzaladığı təhviltəslim aktı əşyanın verilməsini təsdiq edən düzünə sübutdur). Dolayı sübutlar isə sübut edilən fakt haqqında ehtimalla bir neçə nəticə çıxartmağa imkan verən sübutlardır. Onlar faktın varlığını ehtimal etməyə əsas verir.

63. Dolayı sübutlardan o vaxt istifadə edilir ki, iş üzrə düzünə sübutlar ümumiyyətlə və ya kifayət qədər olmur. Bundan əlavə, birbaşa sübutlarda olan məlumatların həqiqiliyi mübahisələndirildiyi hallarda da dolayı sübutların istifadəsi qaçılmaz olur. Dolayı sübutlardan istifadə edilən zaman faktla bağlı bütün sübutlar birgə tədqiq olunmalıdır. Çünki hər bir dolayı sübut bir neçə versiya əsasında və bir neçə ehtimalla nəticəyə gəlmək imkanı yaradır.

64. Əldə edənin bildiyini sübut etmək üçün bu sübutların məcmusu elə xarakter daşımalıdır ki, onun qeydin əsassız olduğunu bilməsindən ("əldə edən bilirdi") başqa qənaətə gəlmək və bu qənaəti hər hansı ağlabatan alternativ izahlarla zəiflətmək mümkün olmasın. Başqa sözlə, həmin sübutlar yalnız bir nəticəyə - əldə edənin bilməsi faktına aparmalı, hakimdə bu haqda qəti və birmənalı qənaət formalaşdırmalıdır.

65. Bu baxımdan məhkəmələr dolayı sübutlar əsasında nəticəyə gələrkən aşağıdakı şərtləri nəzərə almaqla onları birlikdə qiymətləndirməlidirlər:

- əsasən bir yox, bir neçə dolayı sübut olmalıdır;
- həmin sübutların mötəbərliyi şübhə doğurmamalıdır;
- sübutlar bir-birini təsdiq etməli, tamamlamalı və bir-birilə uzlaşmalıdır;

- onlar məcmu şəkildə sübut olunan faktın varlığı barədə birmənalı nəticə çıxarmağa əsas verən sistem yaratmalıdır.

66. Vicdanlılığın yoxlanılması zamanı da birbaşa sübutlar olmadığı halda, dolayı sübutetmə konsepsiyasından çıxış edilərək, əldə edənin qeydin əsassız olmasını bildiyi qənaətinə gəlinə bilər. Belə qənaət isə öz növbəsində bu qərardadın 43-cü bəndində sadalanan, habelə digər əhəmiyyətli faktların sübut olunması ilə formalaşdığından həmin faktların mövcudluğunu təsdiq edən sübutlar əldə edənin bildiyi faktına münasibətdə dolayı sübutlar qismində çıxış edir. Belə ki, bu qərardadın 43-cü bəndində sadalanan faktların əksəriyyəti həm də əldə edənin vicdanlılığının yoxlanılması zamanı reyestrdə qeydin əsassızlığını bildiyinə işarə edən faktlardır. Sadəcə olaraq, yuxarıda qeyd edildiyi kimi "vicdanlı əldə edən görüntüsü" yaratmaq məsqədilə bağlanan uydurma əqdlərdən fərqli olaraq bu halda üçüncü şəxsin əşyanı əldə etməklə bağlı həqiqi niyyəti olsa da, buna dair hüquqi maneəni (qeydin əsassızlığını) bildiyini gizlədir.

67. Qanunvericiliyin əsl məqsədi isə ilk baxışda formal olaraq vicdanlı görünən şəxsi deyil, həqiqətən vicdanlı olan şəxsi qorumaq olduğuna görə, mübahisənin səthi şəkildə araşdırılması və ya formal yanaşma əsasında həlli qəbuledilməzdir. Əks yanaşma həm mülkiyyətlə bağlı konstitusion hüquqi qorunma mexanizminə, həm də vicdanlı əldəetmə institutunun mahiyyətinə zidd olmaqla yanaşı, subyektləri hüquqazidd niyyət və əməllə başqalarının mülkiyyət hüquqlarını pozaraq haqsız əmlak nemətləri əldə etməyə sövq və təşviq edə bilər.

68. Vicdanlılığın qiymətləndirilməsi zamanı o da nəzərə alınmalıdır ki, doktrinada vicdanlılıq obyektiv və subyektiv meyarlara görə qiymətləndirilir. Obyektiv vicdanlılıq hüquq münasibətlərində iştirak edən şəxsdən gözlənilən çoxluğun qəbul etdiyi dürüst niyyət və düşüncə standartına uyğun hərəkəti nəzərdə tutur. Subyektiv vicdanlılıq isə konkret şəxsin hüquqi vəziyyətə dair bu standartdan kənar olsa da, qanunsuzluğu bilməməsi və ya bilməli olmaması ilə xarakterizə olunan özünəməxsus dürüst niyyət və düşüncəsini ehtiva edir.

69. İddiaçı tərəfindən təqdim edilən dolayı sübutların mövcudluğu halında əşyanı əldə edən üçüncü şəxs də prosessual fəallıq göstərməklə, həmin hallara dair öz münasibətini bildirə, onun vicdanlılığını şübhə altına almayan ağlabatan səbəbləri və bununla bağlı sübutları məhkəməyə təqdim edə bilər.

70. Beləliklə, bu kateqoriya işlər üzrə birbaşa sübutların olmadığı halda, dolayı sübutlar əsasında yuxarıda göstərilən qaydada qiymətləndirmə aparılmaqla, üçüncü şəxsin reyestrdəki qeydin düzgün olmadığını bildiyi nəticəsinə gəlmək olar. Bu zaman məhkəmənin gəldiyi nəticə aydın və sistemli şəkildə əsaslandırılmalı və anlaşılan olmalıdır. Əks yanaşma iddiaçını prosessual baxımdan mümkünsüz və həddən artıq ağır sübutetmə yükü altında qoymuş olar.

71. Əldə edənin bildiyinin yoxlanılması zamanı həmçinin nəzərə alınmalıdır ki, təmsilçinin vicdanlı olmaması əldə edənin də (təmsil olunanın) vicdanlı hesab olunmasını istisna edir. Belə ki, təmsilçi hüququn əldə edilməsində üçüncü şəxsin adından onun mənafeyi üçün çıxış etdiyindən, onun vicdanlı olmaması təmsil olunanın da vicdanlı hesab olunmaması nəticəsini əmələ gətirir.

72. Hüququn birgə əldə edilməsi zamanı da birgə əldə edənlərdən birinin vicdanlı olmaması digərlərinin də vicdanlı əldə edən hesab olunmasını istisna edir. Çünki həmin şəxslər ikitərəfli münasibətlərdə tərəflərdən birini təşkil edirlər. Yəni əldə edən tərəfin bir neçə şəxsdən ibarət olması hüquqi baxımdan əldə edənin birdən çox olması mənasına gəlmir və onlar bir əşya üzərində vahid mülkiyyət hüququ əldə etmiş olurlar. Ona görə də, ən azı birinin vicdanlı olmaması digərlərinin də vicdanlılığını istisna edəcəkdir.

73. Beləliklə, yuxarıda qeyd olunan qaydada aparılan qiymətləndirmə əsasında Mülki Məcəllənin 140-cı maddəsinin mətnində göstərilən istisna hallar müəyyən edilmədikdə həmin Məcəllənin 148.2 və 149.2-ci maddələrinə əsasən əşyanı vicdanlı əldə edən üçüncü şəxslərin hüquqları qorunur.

74. Bununla belə, aşağıda sadalanan bəzi hallarda həmin normaların da tətbiqi istisna olunur.

a) Ər-arvadın birgə mülkiyyətində olan daşınmaz əşyalara sərəncam verilməsi zamanı müvafiq qaydada razılığın alınmaması Mülki Məcəllənin 225.6-cı maddəsinə əsasən heç bir əlavə şərtdən asılı olmadan əqdin etibarsızlığına səbəb olur və bu qayda əldə edənin vicdanlı olduğu hallara da şamil edilir. Nəzərə alınmalıdır ki, bu maddə ər-arvaddan birinin razılığı olmadan sərəncam əqdi bağlandığı halda, əldə edənin vicdanlılığını istisna edir. Əgər bu əqd əsasında üçüncü şəxsin adına daşınmaz əmlakın dövlət reyestrində qeydiyyat aparılmışsa və sonradan onun tərəfindən əşyaya dair yeni sərəncam əqdi bağlanmışsa, sonuncu əqd üzrə əldə edənin vicdanlılığına bu qərardadda göstərilən meyarlar üzrə qiymət verilməli və vicdanlı olduğu müəyyən edilərsə, hüquqları qorunmalıdır. Çünki bu halda sərəncam əqdinin tərəfləri ər-arvaddan biri deyil, reyestrdəki mülkiyyətçi və qeydə etimad edən digər subyektlərdir.[2]

b) Mülkiyyətçinin reyestrdəki qeydi silinmədən (ləğv edilmədən) eyni əşyaya dair başqa bir şəxsin mülkiyyət hüququnun qeydiyyata alınması (ikili qeydiyyat) halında da sonrakı qeydiyyat üzrə mülkiyyətçi kimi görünən şəxsdən əşya hüquqları əldə edən şəxslər vicdanlı əldə etmə qaydalarına istinad edə bilməzlər. Ona görə ki, bu halda əvvəlki və sonrakı qeydiyyatdan deyil, ikili qeydiyyatdan söhbət gedir və üçüncü şəxslərin mənafelərinin toqquşduğu şəxs, reyestr qeydi silinmiş əvvəlki mülkiyyətçi deyil, bu hüququ reyestrdə, ümumiyyətlə, ləğv edilməmiş mövcud mülkiyyətçidir. Bu vəziyyətdə vicdanlı əldə edənin hüquqlarının qorunması ilə bağlı qaydanın tətbiqi istisna olunur. Bu halda mübahisə tərəflərin mülkiyyət hüququnun qeydə alınmasına əsas olan hüquqmüəyyənedici sənədlərin həqiqiliyi və qanuniliyinin yoxlanılması əsasında həll edilməlidir.

c) Xüsusi (özəl) mülkiyyət üçün əlverişli olmayan daşınmaz əşyalara dair bağlanmış əqdlər üzrə əldə edən üçüncü şəxslərin vicdanlılığı da istisna olunur. Belə ki, həmin əşyalar mülki dövriyyədə iştirak etmədiklərin, başqa sözlə mülki hüquqi mənada əşya sayılmadıqlarından onların xüsusi mülkiyyət kimi özgəninkiləşdirilməsi mümkün deyil. Məsələn, Azərbaycan Respublikasının ərazisində beynəlxalq, respublika və bölgə əhəmiyyətli xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri hər hansı fiziki və ya hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan dövlətinə mənsubdur və özgəninkiləşdirilə bilməz (“Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” Azərbaycan Respublikası Qanununun 4-cü maddəsi).

d) Məhkəmə təcrübəsində bəzi hallarda vicdanlı əldəetmə institutuna dair qaydaların daşınmaz əşyalar üzərində əşya hüquqlarını əvəzsiz əqdlər əsasında (məsələn, bağışlama yolu ilə) əldə edən üçüncü şəxslərə də şamil edilməsi müşahidə olunur. Lakin qeyd edilməlidir ki, mülki qanunvericilikdə daşınar əşyalardan fərqli olaraq, daşınmaz əşyaları əvəzsiz əldə edənlərin vicdanlı əldəetmə qaydaları çərçivəsində qorunmamasını birbaşa təsbit edən xüsusi norma nəzərdə tutulmasa da, bu hal onların hüquqi baxımdan qorunmalı olması nəticəsinə gətirib çıxarmır. Əks yanaşma qanunvericinin bu institutla qorumaq istədiyi məqsədlərə, onun hüquqi mahiyyətinə və təyinatına uyğun olmazdı. Belə ki, vicdanlı əldəetmə institutu ilk növbədə mülki dövriyyənin sabitliyini və təhlükəsizliyini təmin etmək məqsədilə əvəzli əsaslarla

əşya hüquqları əldə edən şəxslərin maraqlarının qorunmasına yönəlmişdir. Əvəzsiz əqdlər isə mülki dövriyyə əqdi hesab olunmur. Bu baxımdan əvəzsiz əqdlər üzrə əşya əldə edən şəxslər iqtisadi dövriyyədə risk daşıyan subyektlər hesab olunmadığından, onların əşyanı əvəzli əldə edən şəxslərlə eyni səviyyədə qorunması üçün əsas mövcud deyildir. Bu səbəbdən belə şəxslər əsl mülkiyyətçinin tələbləri qarşısında üstün hüquqi mövqedə çıxış edə bilməzlər.

75. Bu kontekstdə xüsusi vurğulanmalıdır ki, əşyanı reyestrdə adına əsassız dövlət qeydiyyatı aparılmış şəxsdən vərəsəlik yolu ilə əldə edən şəxslərin hüquqları da vicdanlı əldəetmə institutunun tətbiq dairəsinə daxil edilmir. Belə ki, vərəsələr həmin əşyanı müstəqil mülki dövriyyə əqdi əsasında deyil, qanun və ya vəsiyyətnamə əsasında hüquq varisliyi qaydasında miras qoyanın əşya üzərində hüquqi vəziyyətini olduğu kimi qəbul etdiklərindən, onların hüquqi statusu vicdanlı üçüncü şəxs kimi qiymətləndirilə bilməz.

76. Digər tərəfdən, vərəsəlik hüququnun predmeti yalnız mirasqoyana məxsus olan hüquq və vəzifələrdən ibarət olduğundan, mübahisə halında həmin şəxsin adına əsassız qeydiyyata alındığı müəyyən edilən əşya onun miras kütləsinin tərkib hissəsi hesab edilə bilməz. Bu səbəbdən həmin əşyaya hüququn vərəsəlik qaydasında ötürülməsi hər hansı hüquqi nəticə doğurmur.

77. Eyni məntiqdən çıxış edərək qeyd olunmalıdır ki, əgər əşyanı əldə etmiş üçüncü şəxs vicdanlı əldə edən kimi tanınmırsa, əşyanı onun mirası kimi vərəsəlik qaydasında əldə etmiş şəxslərin (vərəsələrin) də vicdanlı əldəetmə institutunun təmin etdiyi hüquqi müdafiədən yararlanması mümkün deyil.

78. Əşya hüquqlarının vicdanlılıq sayəsində əldə edilməsi baxımından vicdanlılığın tələb olunduğu an da xüsusi əhəmiyyət kəsb edir. Təcrübə göstərir ki, daşınmaz əşyalar baxımından vicdanlılığın hansı anda - əşyaya dair sərəncam əqdinin bağlanması, yaxud üçüncü şəxsin adına reyestrdə qeydiyyat aparılması zamanı tələb olunması ilə bağlı ziddiyyətli fikirlər mövcuddur. Vicdanlılıq hüququn qazanıldığı anda mövcud olmalıdır. Hüququn yaranmasından sonra üçüncü şəxsin sözügedən maneəni öyrənməsi onun əldə etdiyi hüquqa təsir etmir. Qanunvericiliyə əsasən daşınmaz əşyalar üzərində əşya hüquqları əldə edənin adına rəsmi dövlət reyestrində qeydiyyat aparıldığı anda yarandığından, vicdanlılıq məhz həmin anda mövcud olmalıdır. Məsələn, üçüncü şəxsin alqı-satqı müqaviləsi bağlanarkən satıcının adına aparılmış qeydiyyatın əsassız olmasından xəbəri olmasa da, sonradan mülkiyyətçi kimi reyestrdə adına qeydiyyat aparılanadək bundan xəbərdar olması onun vicdanlılığını istisna edir. Adına qeydiyyatın aparılmasından sonra məlumatı olması isə üçüncü şəxsin hüququna təsir etmir.

79. Beləliklə, yuxarıda qeyd olunan şərtlər əsasında aparılan yoxlama nəticəsində üçüncü şəxsin vicdanlı əldə edən olduğu müəyyən edilərsə və onun vicdanlılığı qanunla qorunarsa, əsl mülkiyyətçinin daşınmaz əmlakın dövlət reyestrindəki qeydə düzəliş edilməsi barədə iddiası rədd olunmalıdır. Əks halda, yəni üçüncü şəxsin vicdanlı əldə edən olmadığı, yaxud vicdanlılığının qorunmadığı hallarda isə Mülki Məcəllənin 141-ci maddəsinə uyğun olaraq əsl mülkiyyətçinin tələbi təmin edilməlidir. Hər iki halda hüququ pozulmuş şəxslərə vurulmuş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ izah edilməlidir.

80. Bu qərardadda mülkiyyət hüququnun əldə edilməsi baxımından vicdanlılıqla bağlı verilən izahlar digər əşya hüquqlarının əldə edilməsi zamanı vicdanlılığın yoxlanılması hallarına da eynilə tətbiq olunur. Məsələn, Mülki Məcəllənin girov (ipoteka) ilə bağlı 271.1-ci maddəsində göstərilir ki, əşyanı girov qoyan (ipoteka qoyan) yalnız onun mülkiyyətçisi ola bilər. Mülkiyyətçi olmayan şəxsdən ipoteka (girov) hüququnun əldə edilməsinin hüquqi

nəticələri bu Məcəllənin 140 və 182-ci maddələrinin müddəalarına uyğun olaraq müəyyən edilir.

Daşınmaz əşyalara dair hüquqların əldə edilməsində qeydiyyat orqanının və notariat sisteminin rolu:

81. Daşınmaz əşya üzərində hüquqların əldə edilməsi prosesində daşınmaz əmlakın dövlət reyestrini tərtib edən və aparan orqanın fəaliyyəti mühüm əhəmiyyət kəsb edir.

"Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinə əsasən daşınmaz əmlaka mülkiyyət və digər əşya hüquqlarının dövlət qeydiyyatı Mülki Məcəlləyə uyğun olaraq daşınmaz əmlaka hüquqların əmələ gəlməsinin, məhdudlaşdırılmasının (yüklülüyünün) başqasına keçməsinin və bu hüquqlara xitam verilməsinin dövlət tərəfindən tanınması və təsdiq edilməsi barədə hüquqi aktdır və daşınmaz əmlakın dövlət reyestrində aparılır. Yuxarıdakı bəndlərdə də qeyd edildiyi kimi dövlət reyestrinin əsas məqsədi daşınmaz əmlaka dair hüquqların rəsmi tanınmasını, onların dəqiqliyini və açıqlığını təmin etməkdən ibarətdir. Reyestrdə aparılan qeydlər mülki dövriyyə iştirakçıları üçün əşyanın hüquqi vəziyyəti barədə əsas informasiya mənbəyi olduğundan, bu məlumatların düzgünlüyü və vaxtında daxil edilməsi mülkiyyət hüquqlarının müdafiəsi və vicdanlı əldəetmə institutunun tətbiqi baxımından həlledici rol oynayır.

82. Bu səbəbdən qeydiyyat orqanı formal qeydiyyat funksiyasını həyata keçirməklə kifayətlənməməli, qeydiyyat üçün hüquqi əsasların mövcudluğunu və ziddiyyətli halların olubolmamasını diqqətlə yoxlamalı, aşkar uyğunsuzluqlar və ya hüquq pozuntularına işarə edən hallar mövcud olduqda qanunla nəzərdə tutulmuş müvafiq tədbirlər görməlidir.

83. Qeydiyyat orqanının vəzifəli şəxsləri dövlət reyestrində daşınmaz əmlaka hüquqların qeydiyyatının dəqiqliyinə və vaxtında aparılmasına, dövlət reyestrindən verilən məlumatın tam və düzgün olmasına cavabdehdirlər ("Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunun 23.1-ci maddəsi). Mülki Məcəllənin 146.8-ci maddəsinə əsasən daşınmaz əşyalara dair müqavilələrin dövlət reyestrində qeydə alınmamasına, qeydiyyatın düzgün olmamasına və ya natamam olmasına görə, qeydiyyat orqanının vəzifəli şəxsləri məsuliyyət daşıyırlar.

84. Vicdanlı əldə etmə institutu baxımından qeydiyyat orqanının məsuliyyətinə səbəb ola biləcək xarakterik pozuntular əsasən daşınmaz əşya üzərində hüququ olmayan şəxsin adına təqsirli şəkildə (qəsdən və ya ehtiyyatsızlıqla) əsassız qeydiyyatın aparılması; daşınmaz əşyanı əldə edən üçüncü şəxsin hüququnun əsassız olaraq qeydiyyata alınmaması, yaxud gecikdirilməsi və bu müddət ərzində əldə edənin reyestr qeydinin əsassız olduğunu bilməsi nəticəsində vicdanlılığının istisna olunması; eyni daşınmaz əşya üzərində ayrı-ayrı şəxslərin hüquqlarının paralel şəkildə qeydiyyata alınması (ikili qeydiyyat); daşınmaz əşya üzərində hüquqlara dair etirazın reyestrə daxil edilməməsi, yaxud gec daxil edilməsi nəticəsində əldə edənin vicdanlı hesab olunması əsası ilə əsl mülkiyyətçinin mülkiyyət hüququndan məhrum olması və yol verilmiş qanunverciliyə zidd digər hallarla bağlı olur.

85. Daşınmaz əşyalarla bağlı hüquqların əldə edilməsində notariatın da rolu böyükdür. Belə ki, notariatın məqsədi hüquqi münasibətlərdə etibarlılığın, hüquqi müəyyənliyin və tərəflərin hüquqlarının qorunmasının təmin edilməsindən ibarətdir. Notarius tərəfindən təsdiq edilmiş sənədlər hüquqi baxımdan daha etibarlı olduğundan, onun effektiv fəaliyyəti gələcəkdə mübahisələrin yaranması ehtimalını da azaltmalıdır. Göründüyü kimi, notariat məhkəməyə

qədər mərhələdə hüquq münasibətlərinin qanunauyğun və dürüst qurulmasına yardım edir və sonradan mübahisələrin yaranma riskini minimuma endirir.

86. Bu baxımdan daşınmaz əşyalara dair müqavilələrin notariat qaydasında təsdiqi zamanı notariusların üzərinə düşən vəzifələr, habelə onların vicdanlı əldə etmə ilə bağlı münasibətlərdə yerinə yetirdikləri funksiyalar xüsusi əhəmiyyət kəsb edir.

87. Belə ki, əşyanı özgəninkiləşdirənin adına reyestrdəki qeyd, onun yüklülüyü və ya bu qeydə dair etirazların mövcudluğu barədə məlumatlara əşyanı əldə etmək istəyən şəxslərin ilkin əlçatanlığı, adətən, müqavilənin rəsmiləşdirilməsi çərçivəsində notariat orqanında təmin edilir. Məhz bu səbəbdən, notariusun fəaliyyəti daşınmaz əşyalarla bağlı hüquqi əməliyyatların qanunauyğun aparılmasına, şəffaflığın və dürüstlüyün təmin olunmasına xidmət etməlidir. Bu baxımdan notarius əşyaya dair dövlət reyestrindəki məlumatları diqqətlə yoxlamalı və olduğu kimi tərəflərə açıqlamalıdır.

88. Mülki Məcəllənin 144.1-ci maddəsində də nəzərdə tutulmuşdur ki, notarius daşınmaz əşyalara sərəncam verilməsi haqqında müqavilələri təsdiq edərkən ilk növbədə əşyaya dair sərəncam verən tərəfin sərəncam hüququnu və müqavilənin qanunauyğunluğu ilə bağlı digər şərtlərin mövcudluğunu yoxlamalıdır.

89. Sərəncam hüququnun yoxlanılması zamanı nəzərə alınmalıdır ki, Mülki Məcəllənin 144.2-ci maddəsinə əsasən bu hüquq sərəncam verən tərəfin daşınmaz əmlakın dövlət reyestrinə əsasən bu hüquqa malik olması və ya ixtiyarlı şəxsin ona həmin səlahiyyəti qanunla müəyyən edilmiş qaydada verməsi ilə təsdiqlənir.

90. Müqavilənin qanunauyğunluğunun yoxlanılması yalnız sərəncam səlahiyyəti (reyestr qeydinin, etibarnamənin olması və sair) və digər formal tələblərin (reyestrdə qeydə dair etirazın, əşya üzərində yüklülüklərin olub-olmaması, əşyanın birgə nikah dövründə əldə edilibedilməməsi və sair) mövcudluğunun müəyyən edilməsindən ibarət olmayıb, həmçinin tərəflərin həqiqi iradə ifadələrinin səlahiyyətləri çərçivəsində aydınlaşdırılmasını da əhatə edir.

91. Tərəflərin iradə ifadəsi əqdin əsas qurucu ünsürü olduğundan, qanunverici əqdin məzmununun tərəflərin həqiqi niyyətinə uyğun olmadığı halları notariat hərəkətlərini aparmaqdan imtina edilməsi əsası kimi nəzərdə tutmuşdur (“Notariat haqqında” Azərbaycan Respublikası Qanununun 40-cı maddəsi).

92. Bu baxımdan, notarius tərəflərin iradəsinin həqiqi olduğunu müəyyən etmək üçün onlarla (və ya nümayəndələri ilə) birbaşa ünsiyyət quraraq, müqavilə bağlamaq niyyətlərini, hərəkətlərinin mahiyyətini və nəticələrini, o cümlədən əqdin mühüm şərtlərini qavrayıbqavramadıqlarını, hədə-qorxu, aldatma və ya yanılma altında olub-olmadıqlarını və bu kimi digər mühüm halların mövcudluğunu öz səlahiyyətləri çərçivəsində aydınlaşdırmalıdır.

93. Təcrübədən görünür ki, bəzi hallarda mülki dövriyyənin iştirakçıları daxil olduqları hüquq münasibətlərini onların həqiqi məzmununa uyğun olaraq lazımi qaydada yazılı şəkildə rəsmiləşdirmir və ya rəsmiləşdirə bilmirlər. Bu da əsasən bağlamaq istədikləri, qanunvericiliyə zidd olmayan, notariat təcrübəsi formalaşmamış əqdlərin rəsmiləşdirilməsindən notariuslar tərəfindən əsassız şəkildə imtina edilməsi ilə bağlı olur. Bu baxımdan notarius tərəflərin həqiqətdə hansı müqaviləni bağlamaq niyyətlərinin olmasını aydınlaşdırmaq üçün səlahiyyətləri çərçivəsində bütün zəruri addımları atmalı və tərəflərin arzu etdikləri müqavilə növünü təklif etməklə, rəsmiləşdirilməsini təmin etməlidir.

94. Notarius əqdin təmsilçi vasitəsilə bağlanıldığı zaman sərəncam səlahiyyətinin formal olaraq mövcudluğunu yoxlamaqla kifayətlənməməli, həmçinin etibarnamənin etibarlı olubolmadığını da qiymətləndirməli, o cümlədən aparılan hüquqi əməliyyatın təmsil olunanın

(mülkiyyətçinin) mənafeyinə zidd olmasına açıq şəkildə işarə edən halları aşkar etdikdə onun həqiqi iradəsinin müəyyən edilməsi üçün zəruri tədbirlər görməlidir. Məsələn, ər-arvadın nikah dövründə bir-birinə verdikləri etibarnamədən boşanmadan sonra istifadə olunması, daşınmaz əşyanın dəyərindən dəfələrlə ucuz qiymətə satılması və ya xarici ölkədə verilmiş fiziki etibarnamə əsasında daşınmaz əşyanın özgəninkiləşdirilməsi zamanı etibarnamə verən şəxslə telefonla, videogörüntü ilə danışmaqla və ya digər mümkün üsullarla onun həqiqi niyyəti müəyyən edilməlidir.

95. Bununla belə nəzərə alınmalıdır ki, etibarnamə birtərəfli əqd olmaqla daşınmaz əşyalara münasibətdə təmsil olunanın iradə ifadəsi yoxlanıldıqdan sonra notarius tərəfindən təsdiq olunur. Təmsil olunan təmsilçini seçməkdə, habelə etibarnamənin məzmununu və müddətini müəyyən etməkdə sərbəstdir və istənilən vaxt onu ləğv edə bilər. Bu qərardadın 94cü bəndində göstərilən aşkar hallar istisna olmaqla, digər hallarda notarius tərəfindən təmsil olunanın iradəsinin hər dəfə yenidən dəqiqləşdirilməsi tələb olunmur. Bu baxımdan təmsil olunan şəxs tərəfindən verilmiş və ləğv olunmamış etibarnamə əsasında həyata keçirilən əməliyyatlar birbaşa təmsil olunan şəxsin risk dairəsinə aid hallardır. Odur ki, etibarnamə verilərkən şəxslər onun məzmunu və müddətinə xüsusi diqqət etməli, habelə rəsmiləşdirməni aparan notarius tərəfindən də bu əməliyyatın hüquqi nəticələri onlara izah edilməlidir.

96. Müqavilə bağlamaq niyyəti yoxlanılarkən notarius öz səlahiyyətləri çərçivəsində bu qərardadın 43-cü bəndində göstərilən əqdin hüquqi nəticə yaratmadan, yalnız görünüş üçün bağlanılmasına, habelə əqdin yanılma, hədə-qorxu, aldadılmanın təsiri altında və ya pis niyyətlə razılığa gəlməklə bağlanılmasına, yaxud tərəflərin iradəsinin zədələnməsinə təsir göstərən digər əsasların mövcudluğuna dair aşkar hallar olduqda rəsmiləşdirmənin aparılmasından imtina etməlidir. Bu zaman imtinanın səbəbləri əsaslandırılmalı və notariuslar tərəfindən sui-istifadə hallarına yol verilməməlidir.

97. Əldə edənin həqiqi niyyəti şübhə doğurmadıqda isə notarius əməliyyatın riskli olmasına dair aşkar halların mövcudluğu barədə onu məlumatlandırmalıdır. Nəzərə alınmalıdır ki, bu qərardadın 43-cü bəndində sadalanan faktların əksəriyyəti həm də əldə edənin reyestrdə qeydin əsassızlığını bildiyinə işarə edən faktlara aid olduğundan onların mövcudluğu əməliyyatı riskli edə bilər. Bu barədə lazımi qaydada xəbərdar edilməsinə baxmayaraq, əqdin rəsmiləşdirilməsində israr etdiyi təqdirdə, gələcəkdə əşyaya dair hüquqları ilə bağlı riskləri əldə edən özü daşıyacaqdır. Mübahisə halında əldə edənin vicdanlılığına bu məqamlar və işin digər diqqətəlayiq halları əsasında məhkəmə tərəfindən qiymət veriləcəkdir.

98. Notariusun üzərinə qoyulmuş vəzifələrin icrası üçün qanunvericilikdə zəruri imkanlar da nəzərdə tutulmuşdur. Belə ki, notariusun notariat hərəkətlərinin aparılması üçün lazım olan məlumat və sənədləri idarələrdən, müəssisə və təşkilatlardan tələb etmək, habelə elektron informasiya sistemləri vasitəsi ilə real vaxt rejimində əldə etmək hüququ vardır (Mülki Məcəllənin 148.3-cü və “Notariat haqqında” Qanunun 36-cı maddələri).

99. Mülki Məcəllənin 144.1-ci və “Notariat haqqında” Qanunun 11-ci maddələrinə əsasən notarius qanunsuz hərəkətləri nəticəsində vurulmuş zərərə görə mülki məsuliyyət daşıyır. Notariusa qarşı zərər tələbinin maddi hüquqi əsası qismində istinad edilən normalarla yanaşı, Mülki Məcəllənin mülki hüququ pozuntusu (delikt) ilə bağlı müddəaları da çıxış edir.

100. Məhkəmələr bu tələblərə baxarkən deliktlə bağlı dispozisiya şərtlərinə uyğun yoxlama aparmalıdırlar. Bu zaman hüquqazidd əməl qismində notariusun peşəkar funksiyalarını qəsdən lazımi qaydada yerinə yetirməməsi, yaxud səhlənkarlığı, səhvi və ya yol verdiyi digər qüsurlar başa düşülür.

101. Notariusun hərəkətlərinin (hərəkətsizliyinin) hüquqazidd olub-olmadığına qiymət verilərkən yol verilmiş pozuntunun xarakteri nəzərə alınmalıdır. Belə ki, notarius tərəfindən müqavilənin rəsmiləşdirilməsi ilə bağlı formal tələblərə riayət olunmaması birbaşa hüquqazidd əməl sayıldığı halda, tərəflərin həqiqi niyyətinin müəyyən edilməsi zamanı yol verdiyi pozuntuların hüquqazidliyi onun rəsmiləşdirəcəyi əqdin etibarsızlığına səbəb olan aşkar halların mövcudluğunu əvvəlcədən bildiyi və ya bilməli olmasının sübuta yetirilməsi ilə şərtlənir. Tərəflərin gizlətdiyi iradə qüsurlarının (aldatma, hədə-qorxu və sair) sonradan məhkəmə icraatında sübuta yetirilməsi notariusun məsuliyyətinə səbəb ola bilməz.

102. Yuxarıda göstərilən hallarda təqsirin formasından (qəsd və ya ehtiyatsızlıqdan) asılı olmayaraq, notarius vurulmuş zərərə görə zərərçəkən qarşısında digər zərərvuranlarla birgə tam maddi məsuliyyət daşıyır. Zərərçəkən öz seçiminə uyğun olaraq birgə məsuliyyətlilərdən birinə, bir neçəsinə və ya eyni vaxtda hamısına qarşı iddia qaldıra bilər. Notariusun məsuliyyəti sığortalandığı hallarda, vurulmuş zərərin ödənilməsi tələbi üzrə cavabdeh qismində notariusla yanaşı, sığortaçı da qoyula bilər. Bununla yanaşı, iddiaçı tərəfindən cavabdeh qismində göstərilməmiş digər zərərvuranlar da məhkəmə tərəfindən iş üzrə müstəqil tələb irəli sürməyən üçüncü şəxs qismində cəlb olunmalıdırlar.

103. Birgə vurulmuş zərər nəticəsində zərərin əvəzini ödəmiş notarius (onun əvəzindən sığortaçı) Mülki Məcəllənin 1114.2-ci maddəsinə əsasən zərərin yaranmasında təqsiri olan digər şəxslərə qarşı onların təqsirinin dərəcəsinə uyğun məbləğdə reqres tələb irəli sürə bilər.

104. Qeyd edilənlər baxımından daşınmaz əşyalara dair sərəncam əqdlərinin etibarsızlığı ilə bağlı işlərə zəruri hallarda, yəni onların mənafeyi ilə bağlı məsələ həll edilərsə, müqaviləni rəsmiləşdirmiş notarius da cəlb olunmalıdır. Belə ki, notariusun gələcəkdə onlara qarşı yönəldilə biləcək zərər tələblərindən qorunmaq üçün əqdin rəsmiləşdirilməsi zamanı qanundan irəli gələn vəzifələrini lazımi qaydada icra etdiyinə dair mülahizələrini, habelə zərurət olduqda buna dair sübutlarını məhkəməyə təqdim etmək imkanı olmalıdır.

105. Şərh olunanları nəzərə alaraq, Ali Məhkəmənin Mülki və Kommersiya kollegiyalarına daxil olan bütün hakimlərdən ibarət məhkəmə tərkibi MPM-in 418-1.1-ci maddəsini rəhbər tutaraq

QƏRARA ALDI:

1. Daşınmaz əşyalara dair əşya hüquqlarının əldə edilməsi ilə bağlı mübahisələr üzrə iddianın predmetini əşyaya dair dövlət reyestrindəki qeydə iddiaçının xeyrinə düzəlişin edilməsi təşkil etdiyindən, məhkəmələr tələbdən asılı olmayaraq həmin qeydin aparılmasına əsas olmuş əqdlərin etibarlılığını yoxlamalıdırlar.

2. Daşınmaz əşyalara dair əşya hüquqlarının əldə edilməsində üçüncü şəxslərin vicdanlılığı ilə bağlı məsələlər (üçüncü şəxslərin vicdanlılığının müəyyən edilməsi, qorunması, vicdanlılığın istisna olunduğu hallar, sübutetmə standartları və digər) bu qərardadın əsaslandırıcı hissəsində göstərilən hüquqi mövqelərə uyğun həll edilməlidir.

II FƏSİL

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki və Kommersiya kollegiyalarının hüququn tətbiqi üzrə vahid məhkəmə təcrübəsini müəyyən edən

(★★★) qərarları

Subyektiv hüquq

1. 2(102)-12/2024 nömrəli, 2024-cü il 24 yanvar tarixli qərar - Təmsilçinin təmsil edilənin adından əri ilə bağladığı bağışlama müqaviləsinin onun şəxsən özü barəsində bağladığı əqd kimi mübahisələndirilməsi

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: təmsilçinin təmsil edilənin adından əri ilə bağladığı bağışlama müqaviləsinin onun şəxsən özü barəsində bağladığı əqd kimi mübahisələndirilməsi.

Qayınata (iddiaçının atası) hazırkı iş üzrə cavabdeh olan gəlininə özündə daşınmaz əmlaka dair sərəncam vermə səlahiyyətini də ehtiva edən etibarnamə vermiş, gəlin isə həmin etibarnamə əsasında əmlakı ərinə (iddiaçının qardaşına) bağışlamışdır. 2 ay sonra qayınata ölmüşdür. İddiaçı etibarnamə və bağışlama müqaviləsinin etibarsızlığı ilə bağlı tələb irəli sürmüşdür.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

İddiaçının hazırkı iddianı irəli sürməyə vərəsəlik hüququndan irəli gələn subyektiv hüququ vardır.

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 34.1-ci və Mülki Məcəlləsinin 225.2-ci maddəsinin təhlilindən görünür ki, təmsil edən mülkiyyətçinin ona verdiyi etibarnamə əsasında əmlakı mülkiyyətçinin adından öz ərinə bağışlasa da, bağışlama nəticəsində onun həmin əmlak üzərində mülkiyyət hüququ yaranmır, yəni həmin əmlak ər-arvadın birgə mülkiyyəti hesab olunmur.

Belə olan halda, məhkəmə təmsil edənin təmsil olunandan aldığı etibarnamədən öz iradəsinə və şəxsi maraqlarına uyğun istifadə etdiyini, əmlakı ərinə (təmsil olunanın oğluna) bağışlayarkən bu bağışlamanın nəyə görə əmlakın mülkiyyətçisi olmuş oğulun deyil, məhz gəlinin maraqlarına uyğun olması halı araşdırılmalı və əsaslandırmalıdır.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-12/2024

24.01.2024-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının

İddiaçının Cavabdeh 1, Cavabdeh 2, Astara rayon notariat ofisinə və maraqlı şəxs Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 10 saylı Lənkəran ərazi idarəsinə qarşı iş üzrə

Q Ə R A R I

(Açar sözlər: etibarnamənin və bağışlama müqaviləsinin etibarsız hesab edilməsi, subyektiv hüquq)

Azərbaycan Respublikasının Ali Məhkəməsi Mülki kollegiyasının hakimləri Xıdırov Əhliman Mehman oğlu (məruzəçi), Əhmədova Mehparə Tofiq qızı və Hüseynov Abiddin Qabil oğlundan ibarət tərkibdə,

İddiaçının cavabdehlər Cavabdeh 1, Cavabdeh 2, Astara rayon notariat ofisinə və maraqlı şəxs Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 10 saylı Lənkəran ərazi idarəsinə qarşı AR-I 790804 saylı, 12 iyun 2019-cu il tarixli etibarnamənin və 19 sentyabr 2019-cu il tarixli bağışlanma müqaviləsinin etibarsız hesab edilməsi tələbinə dair mülki iş üzrə Şirvan Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(106)-210/2023 nömrəli, 16 fevral 2023-cü il tarixli qətnaməsindən cavabdehlər Cavabdeh 1 və Cavabdeh 2 tərəfindən verilmiş kassasiya şikayətinə Ali Məhkəmənin inzibati binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları

1. X1 ilə X2 rəsmi nikaha daxil olaraq evlənmiş, onların birgə nikahlarından Cavabdeh 2 və İddiaçı adlı övladları anadan olmuşdur. Cavabdeh 2 ilə Cavabdeh 1 arasında 02 oktyabr 1992-ci ildə nikah bağlanmışdır.

2. Ünvan 1 sahəsində yerləşən 745,3 kv.m ümumi, 480,2 kv.m əsas, 261 kv.m köməkçi sahədən ibarət əmlak kompleksi X1in xüsusi mülkiyyətində olmuş, Cavabdeh 1 mülkiyyətçinin ona verdiyi AR-I xxxx saylı 12 iyun 2019-cu il tarixli etibarnamə əsasında həmin əmlakı həyat yoldaşı Cavabdeh 2 19 sentyabr 2019-cu il tarixli bağışlanma müqaviləsinə əsasən bağışlamışdır.

3. X1 10 noyabr 2019-cu il tarixdə vəfat etmişdir.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a)Birinci instansiya məhkəməsində icraat

4. İddiaçı cavabdehlər Cavabdeh 1, Cavabdeh 2, Astara rayon notariat ofisinə və maraqlı şəxs Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 10 saylı Lənkəran ərazi idarəsinə qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək xxxxx saylı, 12 iyun 2019-cu il tarixli etibarnamənin və 19 sentyabr 2019-cu il tarixli bağışlanma müqaviləsinin etibarsız hesab edilməsi və Cavabdeh 2 adına alınmış çıxarışın ləğv edilməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

5. İddiaçı tələbini onunla əsaslandırmışdır ki, Ünvan 1-də istifadədə olan 1.0704 ha torpaq sahəsində yerləşən 745,3 kv.m ümumi, 480,2 kv.m əsas, 261 kv.m köməkçi sahədən ibarət əmlak kompleksi kimi müəssisə (süd zavodu) mülkiyyət hüququ üzrə İddiaçının atası X1na məxsus olmuşdur. X1 2019-cu ildə ağır xəstə olmuşdur. Bundan istifadə edən oğlu Cavabdeh 2 arvadı Cavabdeh 1 adına etibarnamə alaraq, X1in mülkiyyətində olan həmin əmlak kompleksini bağışlama müqaviləsi bağlamaqla öz mülkiyyətinə keçirmişdir. Həmin müqavilə aldatma, mülkiyyətçinin sağlamlıq vəziyyətinin pis olmasından sui - istifadə etməklə bağlanmış müqavilədir. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 339.1-ci maddəssində qeyd edilir ki, hakimiyyətdən sui-istifadə, bir tərəfin nümayəndəsinin digər tərəflə pis niyyətlə razılı gəlməsi nəticəsində bağlanmış əqd, habelə şəxsin ağır vəziyyətə düşməsi və digər tərəfin bundan istifadə etməsi nəticəsində həmin şəxsin özü üçün son dərəcə əlverişsiz şərtlərlə bağlamağa məcbur olduğu əqd (ağır şərtli əqd) zərərçəkən tərəfindən mübahisələndirilə bilər. X1in nümayəndəsi Cavabdeh 1 pis niyyətlə Cavabdeh 2 ilə razılaşmış, onun ağır xəstə olmasından istifadə edərək ona ağır şərtlərlə əqd imzalatmışlar. Bu hal əqdin etibarsız hesab edilməsi üçün əsasdır. Həmin Məcəllənin 339.4-cü maddəsində qeyd edilir ki, xaraktercə şəxsə təsir göstərə bilən və ona şəxsən özünü və ya əmlakını real təhlükə gözlədiyini təlqin edə bilən məcburetmə əqdin etibarsızlığına səbəb olur. Məcburetmənin xarakteri qiymətləndirilərkən şəxsin yaşı və cinsi, həyat şəraiti nəzərə alınır. Məcburetmə tərəflərdən birinin arvad (ərinə), digər ailə üzvlərinə və ya yaxın qohumlarına qarşı yönəldikdə də əqdin mübahisələndirilməsinə əsas verir. Həm X1in nümayəndəsi, həm bağışlama müqaviləsində

tərəf olmuş hədiyyə alan Cavabdeh 2 xaraktercə əqdi bağlayana təsir göstərə biləcək, onun əmlakının real təhlükədə olmağını ona təlqin edə biləcək şəxslərdir ki, bu da məcburetmə kimi qiymətləndirilməlidir və bu zaman X1in həyat şəraiti, xəstə olması və artıq hərəkətlərinin nəticəsini başa düşməməsi kimi qiymətləndirilməlidir. Digər tərəfdən mərhum X1 tərəfindən cavabdeh Cavabdeh 1 verilmiş olan etibarnamədən cavabdehlər şəxsi mənafeləri üçün və qanunsuz olaraq istifadə etmişlər. Belə ki, həmin etibarnamə ilə Cavabdeh 1 mərhum X1i üçüncü şəxslər qarşısında təmsil etməli olduğu halda etməmiş, həmin etibarnamə ilə mərhum X1ə məxsus əmlakı öz adlarına, yəni əri Cavabdeh 2in adına bağışlama yolu ilə ələ keçirmişdir. X1 həmin bağışlama müqaviləsi bağlanmasından bir ay iyirmi gün sonra, yəni 10 noyabr 2019-cu il tarixdə vəfat etmişdir. Cavabdeh 1-in atasından miras qalmış əmlakla bağlı vərəsəlik məsələsi həll olunan zaman qeyd olunan etibarnamə və bağışlama müqaviləsi üzə çıxdığı üçün hazırki mülki mübahisə yaranmışdır.

6. İddiaçı məhkəmə iclasının gedişi zamanı iddia tələbinin həcmini azaldaraq AR-I 790804 saylı, 12 iyun 2019-cu il tarixli etibarnamənin və 19 sentyabr 2019-cu il tarixli bağışlanma müqaviləsinin etibarsız hesab edilməsini məhkəmədən xahiş etmişdir.

7. Astara Rayon Məhkəməsinin (hakim Z.İbrahimov) 2(018)-1162/2021 nömrəli, 17.11.2021-ci il tarixli qətnaməsi ilə iddia qismən təmin edilmiş, X1 ilə Cavabdeh 2 arasında bağlanılmış və Astara rayon notariat ofisinin xüsusi notariusu tərəfindən rəsmiləşdirilmiş 19 sentyabr 2019-cu il tarixli, x-xxx reyestr nömrəli daşınmaz əmlakın bağışlama müqaviləsi etibarsız hesab olunmuşdur.

8. Məhkəmənin mövqeyi ondan ibarət olmuşdur ki, cavabdeh Cavabdeh 1 mərhum X1dən aldığı etibarnamədən öz iradəsinə və şəxsi maraqlarına uyğun istifadə edərək, həmin əmlakı əvəzsiz olaraq əri, iş üzrə digər cavabdeh Cavabdeh 2 bağışlamış, nəticədə hər iki şəxs, yəni cavabdehlər ər və arvad kimi əvəzsiz olaraq, etibarnamə əsasında X1in əmlakına yiyələnmişlər. Bu isə hazırda iddiaçı olan İddiaçının vərəsəliklə və miras əmlakla bağlı hüquqlarının pozulmasına gətirib çıxarmışdır. Birinci instansiya məhkəməsi hesab etmişdir ki, iddia həmin hissədə təmin olunmalı, Astara rayon notariat ofisinin xüsusi notariusu tərəfindən rəsmiləşdirilmiş 19 sentyabr 2019-cu il tarixli, x-xxx reyestr nömrəli bağışlama müqaviləsi etibarsız hesab olunmalıdır.

9. Məhkəmə iddiaçının digər tələbi, yəni etibarnamənin ləğvi ilə bağlı onu qeyd etməyi zəruri hesab etmişdir ki, artıq Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 365.1.7-ci maddəsinə əsasən etibarnaməni vermiş fiziki şəxs öldüyü üçün etibarnamənin qüvvəsinə xitam verilmişdir. Ona görə də iddia həmin hissədə təmin olunmamalıdır.

10. Məhkəmə gəldiyi nəticəni Mülki Məcəllənin 337.1, 337.2, 337.4, 359.4, Mülki Prosessual Məcəllənin 119.1,14.2, 77.1, 217.4-cü maddələrə istinadla əsaslandırmışdır

b) Apellyasiya instansiyası məhkəməsindəki birinci icraat

11. Cavabdehlər Cavabdeh 2 və Cavabdeh 1 qətnamədən apellyasiya şikayəti verərək qətnamənin ləğv edilməsini və iddianın təmin edilməməsini xahiş etmişlər.

12. Apellyasiya şikayəti onunla əsaslandırılmışdır ki, birinci instansiya məhkəməsi işin faktiki hallarına maddi və prosessual hüquq normalarının tələblərinə müvafiq düzgün hüquqi qiymət verməmiş, işin müəyyən edilmiş hallarını hərtərəfli, tam və obyektiv araşdırmadan, tədqiq olunan sübutlara obyektiv qiymət vermədən, maddi və prosessual hüquq normalarının pozulması ilə nəticələnən qanunsuz və əsassız qətnamə qəbul etmişdir.

13. Şirvan Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(106)-525/2022 nömrəli iş üzrə 3 mart 2022-ci il tarixli qətnaməsi ilə (hakimlər — N.F.Mirzəyev (sədrlik edən və məruzəçi), S.İ.Mayılov və İ.Q.Əsədov) apellyasiya şikayəti təmin edilməmiş, Astara Rayon məhkəməsinin 17.11.2021-ci il tarixli qətnaməsi dəyişdirilmədən saxlanılmışdır

14. Apellyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsinin mövqeyi ilə razılaşaraq qeyd etmişdir ki, birinci instansiya məhkəməsi mülki mübahisəni işin faktiki hallarına uyğun, iş üzrə toplanılmış sübutlara faktlar nöqteyi nəzərindən hüquqi qiymət

verməklə, maddi və prosessual hüquq normalarını düzgün tətbiq etməklə düzgün nəticəyə gəlmişdir.

15. Apellyasiya instansiyası məhkəməsi iş üzrə gəldiyi nəticəni Mülki Məcəllənin 337.1, 337.2, 337.4, 359.4, Mülki Prosessual Məcəllənin 14.2, 77.1, 217.4-cü maddələrinə istinadla əsaslandırmışdır.

c) Kassasiya instansiyası məhkəməsindəki birinci icraat

16. Cavabdeh 2 və Cavabdeh 1 kassasiya şikayəti verərək qətnamənin ləğv edilməsi və işin yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilməsini xahiş etmişlər.

17. Kassasiya şikayəti onunla əsaslandırılmışdır ki, 19.09.2019-cu il tarixli bağışlama müqaviləsinin etibarsızlığına dəlalət edən, müqavilənin aldatma nəticəsində bağlanmasını göstərən hər hansı bir hal sübut mövcud deyil. X1 öz iradəsinə uyğun olaraq Cavabdeh 1ə 12.6.2019-cu il tarixdə etibarnamə vermişdir və bu əməliyyat notariusun iştirakı ilə həyata keçirilmişdir. Məhkəmə qətnaməsində cavabdehlərin öz mənafeləri üçün həmin bağışlama müqaviləsinin bağlanması göstərilmişdir. Halbuki, Cavabdeh 1 bağışlama müqaviləsi üzrə əmlakı mərhum X1in etibarnamə üzrə nümayəndəsi kimi həyat yoldaşı Cavabdeh 2 ilə bağlasa da, bu müqavilə onun öz mənafeyinə xidmət etmir. Ailə Məcəlləsinin 34.1-ci maddəsinin tələbinə uyğun olaraq, Cavabdeh 1 bağışlama müqaviləsini digər cavabdeh olan əri Cavabdeh 2 ilə bağlasa da, həmin müqavilə üzrə olan əmlak ümumi birgə mülkiyyət hesab edilməməklə yalnız Cavabdeh 2in mülkiyyəti sayılacaqdır. Belə olduğu təqdirdə, məhkəmə müqavilənin etibarnamə verilən şəxsin mənafeyinə uyğun olmasını müəyyən etməkdə haqlı olmamışdır. Qətnamə iş üzrə müəyyən edilmiş həqiqi hallara uyğun əsaslandırılmamışdır. Belə ki, məhkəmə təqdim edilmiş sübutları mötəbər saymamış, amma iddiaçının heç bir sübutla təsdiq edilməyən izahatlarını əsas gətirməklə bağışlama müqaviləsini etibarsız əqd kimi qiymətləndirmişdir. Məhkəmə iddiaçıdan öz iddia tələbini əsaslandıracaq mötəbər sübutları tələb etməmişdir. Belə ki, iddiaçı mərhum atası X1 ağır xəstə olması, öz hərəkətlərinin mənasını başa düşməməsi və aldatma nəticəsində etibarnamə verdiyini göstərsə də, bununla bağlı sübutları –tibbi sənədləri məhkəməyə təqdim etməmişdir. İddiaçı iddia tələbinin əsası kimi tibbi sənədləri mövcud idisə, həmin sənədləri məhkəməyə təqdim etməli iddi. Məhkəmə isə həmin sənədlər əsasında X1 12.06.2019-cu il tarixli etibarnamə verərkən öz hərəkətlərinin mənasını dərk edib, öz hərəkətlərini idarə etmək qabiliyyətinə malik olması məsələsinin müəyyən edilməsi üçün X1in ölümündən sonrakı məhkəmə psixiatrik ekspertizası təyin edilməli idi.

18. Azərbaycan Respublikası Ali Məhkəməsinin (hakimlər E.Vəliyeva, A.Abbasov, E.Şamayev) 2(102)-4066/2022 nömrəli, 10 oktyabr 2022-ci il tarixli qərarı ilə cavabdehlər Cavabdeh 1 və Cavabdeh 2 tərəfindən verilmiş kassasiya şikayəti təmin edilmiş, Şirvan Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(106)-525/2022 nömrəli, iş üzrə 03 mart 2022-ci il tarixli qətnaməsi ləğv edilmiş, işə yenidən baxılması üçün iş həmin məhkəməyə göndərilmişdir.

19. Kassasiya instansiyası məhkəməsinin göstərişləri ondan ibarət olmuşdur ki, işə baxan məhkəmə, o cümlədən tam hüquqlu məhkəmə kimi apellyasiya instansiyası məhkəməsi ilk növbədə iddia qaldırmış şəxsin müvafiq subyektiv hüquqa malik olub- olmamasını araşdırmalıdır.İddiaçının hazırki iddianı qaldırmağa subyektiv hüququ vərəsəlik hüququndan əmələ gəlir. Lakin onun bu hüququ yalnız qanunla müəyyən olunmuş qaydaya riayət edilməklə yaranır. İşə baxmış apellyasiya instansiyası məhkəməsi 10 noyabr 2019-cu il tarixdə vəfat etmiş X1 vərəsəsi kimi iddiaçının iddiasını təmin edərkən sonuncunun MM-in 1243.2-cü maddəsinə müvafiq olaraq mirası qəbul etməsini, yəni subyektiv hüququnun birinci elementinə malik olub-olmamasını müəyyən etməmişdir. Çünki iddiaçı əgər qanunla müəyyən edilmiş müddətdə mərhumun mirasını qanunla müəyyən edilmiş qaydada qəbul etməmişdirsə, hazırkı mübahisənin predmetini təşkil edən əmlaka dair bağışlama müqaviləsi etibarsız hesab edilərək

həmin əmlak miras kütləsinə daxil edilsə belə, həmin əmlakdan pay tələb etmək hüququ olmayacaqdır. Buna görə də miras əmlaka dair bağışlama müqaviləsinin etibarsız hesab edilməsi məsələsi həll edilərkən ilk növbədə iddia qaldırmış şəxsin miras əmlakı qəbul edib-etməmələri (rəsmi və ya faktiki) faktı müəyyən olunmasını göstərmişdir.

ç) Apellyasiya instansiyası məhkəməsindəki ikinci icraat

20. Şirvan Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(106)-210/2023 nömrəli iş üzrə 16 fevral 2023-cü il tarixli qətnaməsi ilə (hakimlər C.F.İmanov (sədrlik edən və məruzəçi), T.S.Kərimov və P.T.Əhmədov) cavabdehlər Cavabdeh 1 və Cavabdeh 2 tərəfindən verilmiş birgə apellyasiya şikayəti təmin edilməmiş, Astara Rayon Məhkəməsinin 2(018)-1162/2021 saylı, 17 noyabr 2021-ci il tarixli qətnaməsi cavabdehlər Cavabdeh 1 və Cavabdeh 2 birgə apellyasiya şikayətinə münasibətdə dəyişdirilmədən saxlanılmışdır.

21. Apellyasiya instansiyası məhkəməsi məhkəmə ilk növbədə iddiaçının hazırki tələblə iddia qaldırmaq üçün subyektiv hüququnun olub-olmaması məsələsini nəzərdən keçirilməsini zəruri hesab edir.

22. Aydındır ki, subyektin bu və ya digər şəkildə subyektiv hüququnun olması üçün qanunvericilikdə bü münasibətləri tənzimləyən maddi hüquq norması olmalıdır. Qanunvericilikdə bu və ya digər hərəkətlə əlaqədar imkan müəyyən edilmədikdə subyektiv hüquqların mövcudluğu qeyri-mümkün olur. Bununla bağlı məhkəmə qeyd edir ki, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin M.Bağırovun şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki işlər üzrə məhkəmə kollegiyasının 04 may 2007-ci il tarixli qərarının Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair 30 iyul 2008-ci il tarixli qərarında Konstitusiya Məhkəməsi "mülki mübahisənin qanuni həlli üçün işə baxan məhkəmə kimi apellyasiya məhkəməsi ilk növbədə iddia qaldırmış şəxsin müvafiq subyektiv hüquqa malik olub- olmamasını araşdırmalı" olmasını bildirib subyektiv hüququn elementlərini şərh edərək qeyd etmişdir ki, "subyektiv hüquq üç elementin məcmusu kimi qiymətləndirilə bilər: öz hərəkətlərinə hüquqi ixtiyar, başqa (borclu) şəxslərdən tələb etmək hüququ və müdafiə hüququ. Subyektiv hüququn ikinci və üçüncü elementi birinci elementin mövcudluğu ilə bağlıdır. Birinci element isə bəzən yalnız qanunla müəyyən olunmuş qaydaya riayət etməklə yaranır. Belə qaydalara riayət etmədən subyektiv hüququn digər elementlərinin, yəni başqa şəxslərdən tələb etmək hüququnun və müdafiə hüququnun yaranmasından, eləcə də, həyata keçirilməsindən söhbət gedə bilməz".

23. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1246, 1248.1 və 1268.2-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 14 oktyabr 2022-ci il tarixli qərarında göstərilir ki, Konstitusiya Məhkəməsinin Plenumu Mülki Məcəllənin 1246-cı maddəsi ilə müəyyən olunmuş müddətin xarakteri və mahiyyəti ilə bağlı müraciətdə qaldırılan məsələyə münasibətdə qeyd etməyi zəruri hesab edir ki, qanunvericinin müəyyən etdiyi bu müddətin vərəsəlik hüququnun yaranmasını şərtləndirən və ötürülməsi ilə bu hüququn xitamına səbəb olan müddət (kəsici müddət) kimi qiymətləndirilməsi yolverilməzdir. Belə ki, əvvəldə də qeyd olunduğu kimi, vərəsəlik hüququ miras qoyanın ölümü və ya ölmüş elan edilməsi nəticəsində mirasın açılması ilə yaranır, həmin gündən miras əmlakı təşkil edən hüquq və öhdəliklər vərəsələrin əmlakının müvafiq olaraq aktiv və passivinə daxil olmuş olur. Odur ki, mirasın açılması ilə artıq yaranmış olan vərəsəlik hüququnun, vərəsə statusunun prosedur xarakterli tələblərin (notariat qaydasında rəsmiləşdirilmənin) müəyyən müddət çərçivəsində həyata keçirilməməsi əsası ilə xitam olunması Konstitusiya ilə təminat verilən mülkiyyət və vərəsəlik hüquqlarının pozulmasına səbəb olar.

24. Buna görə də Konstitusiya Məhkəməsinin Plenum Qərarı göstərilənlər baxımından, Mülki Məcəllənin 1246-cı maddəsi ilə müəyyən edilmiş müddət (altı ay) mirasın qəbulunun notariat qaydasında realizəsi (rəsmiləşdirilməsi) üçün nəzərdə tutulmuş müddət olaraq qəbul edilməli, mirasın açıldığı gündən altı ay keçdikdən sonra mirasın qəbulunun notariat qaydada

rəsmiləşdirilməsinə yol verilməməlidir. Həmin müddətin ötürülməsindən sonra miras əmlakın qəbulu məsələsi məhkəmə qaydasında həll edilə bilər.

25. Konstitusiya Məhkəməsinin Plenumu onu da qeyd etməyi zəruri hesab etmişdir ki, Mülki Məcəllənin 1248.1-ci maddəsinə müvafiq olaraq, mirasın qəbul edilməsi üçün müəyyənləşdirilmiş altı aylıq müddətin uzadılması tələbi ilə bağlı işlərə baxarkən məhkəmələr tərəfindən həmin maddədə nəzərdə tutulmuş "üzrlü səbəb" anlayışı yalnız şəxsin iradəsindən asılı olmayaraq vərəsəlik hüququnun realizəsi üçün müraciət edə bilmədiyi hallarla məhdudlaşdırılmamalı, işin bütün halları, belə müraciətin qanunvericiliklə müəyyən edilmiş müddət ərzində edilməməsinin səbəbləri ətraflı araşdırılmaqla məsələyə hüquqi qiymət verilməlidir.

26. Məhkəmə kollegiyası Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1246, 1248.1 və 1268.2-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 14 oktyabr 2022-ci il tarixli qərarının məzmununda göstərilənlərə əsasən hesab etmişdir ki, iddiaçı cavabdehlərə qarşı hazırkı iddianı qaldırmaqda subyektiv hüquqa malik olmuşdur.

27. Məhkəmə işin faktiki hallarına əsasən müəyyən etmişdir ki, Cavabdeh 1in mərhum qaynatası X1dən aldığı etibarnamədən öz iradəsinə və şəxsi maraqlarına uyğun istifadə edərək, həmin əmlakı əvəzsiz olaraq əri, iş üzrə digər cavabdeh Cavabdeh 2 bağışlamış, nəticədə hər iki şəxs, yəni cavabdehlər olan ər və arvad etibarnamə əsasında öz aralarında bağışlama müqaviləsi bağlamaqla məhrum X1in əmlakına əvəzsiz olaraq yiyələnmiş, bu isə mərhum X1nun birinci növbə vərəsələrindən olan qızı iddiaçı İddiaçının atasından miras qalmış əmlakdan pay almaqı hüquqlarının pozulmasına gətirib çıxarmışdır.

28. Məhkəmə belə qənaətə gəlmişdir ki, birinci instansiya məhkəməsinin X1 ilə Cavabdeh 2 arasında bağlanılmış və Astara rayon notariat ofisinin xüsusi notariusu tərəfindən rəsmiləşdirilmiş 19 sentyabr 2019-cu il tarixli, ***** reyestr nömrəli daşınmaz əmlakın bağışlama müqaviləsinin etibarsız hesab edilməsinə dair gəldiyi nəticə qanuni və əsaslıdır.

29. Məhkəmə gəldiyi nəticənin əsası kimi Azərbaycan Respublikası Konstitusiyasının 13 və 29-cu maddələrinə, Mülki Məcəllənin 152.1, 337.1, 337.2, 337.4, 359.1, 359.3, 667.1-ci maddələrinə, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1246, 1248.1 və 1268.2-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 14 oktyabr 2022-ci il tarixli qərarına, "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 666.1, 670.1, 670.3 və 673.1-ci maddələrinin şərh edilməsinə dair" Azərbaycan Respublikası konstitusiya Məhkəməsi Plenumunun 19 dekabr 2012-ci il tarixli qərarına, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1193 və 1200-cü maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair 08 yanvar 2021-ci il tarixli Qərarına istinad etmişdir.

Kassasiya şikayətinin və ona etirazın dəlilləri

Kassasiya şikayətinin dəlilləri

30. Cavabdehlər Cavabdeh 1 və Cavabdeh 2 (vəkil) kassasiya şikayəti verərək qətnamənin ləğv edilib, iş materiallarını yenidən baxılması üçün Şirvan Apellyasiya Məhkəməsinə göndərilməsi barədə qərar qəbul edilməsini xahiş etmişlər.

31. Kassasiya şikayəti onunla əsaslandırılmışdır ki, Məhkəmə mübahisəyə Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 337 və 339-cu maddələrini tətbiq etməkdə haqlı olmamışdır. Belə ki, Azərbaycan Respublikasının Mülki Məcəllənin 337-ci maddəsi əqdlərin etibarsızlığını ehtiva edir. Mülki Məcəllənin 339-cu maddəsi isə, hakimiyyətdən sui-istifadə nəticəsində, aldatma, zorakılıq, hədə təsiri altında, bir tərəfin nümayəndəsinin digər tərəflə pis niyyətlə razılığa gəlməsi və ya şəxsin ağır vəziyyətə düşməsi nəticəsində bağlanmış əqdin etibarsızlığını ehtiva edir. Halbuki, hazırkı mübahisədə 19 sentyabr 2019-cu il tarixli bağışlama

müqaviləsinin etibarsızlığına dəlalət edən, müqavilənin aldatma nəticəsində bağlanmasını göstərən hər hansı bir hal –sübut mövcud deyil. Mərhum X1 öz iradəsinə uyğun olaraq cavabdeh Cavabdeh 1 12.06.2019-cu il tarixdə etibarnamə vermişdir və bu əməliyyat notariusun iştirakı ilə həyata keçirilmişdir. "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında" Təlimatda da qeyd edilir ki, notarius etibarnaməni rəsmiləşdirərkən məhz verilən etbarnamənin tərəfin iradəsinə uyğun olub-olmadığını aydınlaşdırır və eyni zamanda etibarnamənin verilməsinin hüquqi nəticələrini etibarnamə verən şəxsə izah edir. Notarius tərəfindən bu hərəkətlər həyata keçirildikdən sonra etibarnamə rəsmiləşdirilir. Mərhum etibarnamə verərkən notarius tərəfindən göstərilən hərəkətlər həyata keçirilmişdir.

32. Məhkəmə mübahisəyə Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 359-cu maddəsini düzgün qaydada tətbiq etməmişdir. Məhkəmə əsassız olaraq qətnamədə göstərmişdir ki, Cavabdeh 1 X1dən aldığı etibarnamədən öz iradəsinə və şəxsi maraqlarına uyğun istifadə edərək həmin əmlakı əvəzsiz olaraq əri iş üzrə digər cavabdeh Cavabdeh 2 bağışlamış, nəticədə hər iki şəxs, yəni cavabdehlər ər və arvad etibarnamə əsasında öz aralarında bağışlama müqaviləsi bağlamaqla mərhum X1in əmlakına əvəzsiz olaraq yiyələnmiş bu isə mərhum X1in birinci növbə vərəsələrindən olan qızı (iddiaçı) atasından miras qalmış əmlakdan pay almaq hüquqlarının pozulmasına gətirib çıxarmışdır. Halbuki, Azərbaycan Respublikasının Mülki Məcəllənin 359.3-cü maddəsində qeyd edilir ki, təmsilçi təmsil edilən adından şəxsən özü barəsində əqdlər bağlaya bilməz. Həmin Məcəllənin 362.1-ci maddəsinə əsasən isə, bir şəxsin üçüncü şəxslər qarşısında təmsilçilik üçün başqa şəxsə verdiyi vəkalət etibarnamə sayılır. Mərhum X1in Cavabdeh 1ə 12.06.2019-cu il tarixdə verdiyi etibarnamədə sonuncuya onun adından müqavilələr bağlamaq səlahiyyəti verilmişdir. Mərhumun sağlığı dövründə sözügedən bağışlama müqaviləsi bağlanmış və eibarnamə etibarsız hesab edilməmiş, mərhumun sağlığı dövründə özü tərəfindən ləğv edilməmişdir. Sadəcə Mülki Məcəllənin 365-ci maddəsinə əsasən etibarnamə verənin ölümü ilə etibarnaməyə xitam verilmişdir. Belə olduğu təqdirdə, qüvvədə olmuş etibarnamə əsasında bağlanan bağışlama müqaviləsi necə etibarsız hesab edilə bilərdi?!

33. Məhkəmə qətnaməsində cavabdehlərin öz mənafeləri üçün həmin bağışlama müqaviləsinin bağlanması göstərilmişdir. Halbuki, cavabdeh Cavabdeh 1 bağışlama müqaviləsi üzrə əmlakı mərhum X1in etibarnamə üzrə nümayəndəsi kimi həyat yoldaşı Cavabdeh 2 ilə bağlasa da, bu müqavilə onun öz mənafeyinə xidmət etmir. Belə ki, Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 34.1-ci maddəsinə əsasən, nikaha daxil olanadək onlara məxsus olan əmlak, habelə nikah dövründə hədiyyə şəklində və ya vərəsəlik qaydasında, digər əvəzsiz əqdlər üzrə əldə etdikləri əmlak ər-arvadın hər birinin ayrıca mülkiyyətindədir. Qanunvericiliyin bu normasından görünür ki, Cavabdeh 1 bağışlama müqaviləsini digər cavabdeh olan əri Cavabdeh 2 ilə bağlasa da, həmin müqavilə üzrə olan əmlak ümumi birgə mülkiyyət hesab edilməməklə yalnız Cavabdeh 2in mülkiyyəti sayılacaq. Belə olduğu təqdirdə, məhkəmə müqavilənin etibarnamə verilən şəxsin mənafeyinə uyğun olmasını müəyyən etməkdə haqlı olmamışdır. Etibarnamə əsasında isə etibarnamə verən şəxsin adından nümayədə kimi etibarnamə verilən şəxsin başqa şəxslə müqavilə bağlamasını qanunvericilik qadağan etmir.

34. Kassator Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 1243.2-ci və 1202-ci maddələrinə istinad edərəkj göstərmişdir ki, işə baxmış apellyasiya instansiyası məhkəməsi 10 noyabr 2019-cu il tarixdə vəfat etmiş X1in vərəsəsi kimi iddiaçının iddiasını təmin edərkən sonuncunun mirası qəbul etməsini, yəni subyektiv hüququnun birinci elementinə malik olub-olmamasını müəyyən etməmişdir. Kassasiya instansiya məhkəməsi 10.10.2022-ci il tarixli qərarında da iddiaçının subyektiv hüququnun olub-olmamasının araşdırılması göstərişini vermişdir.

35. İşə yenidən baxan Şirvan Apellyasiya Məhkəməsinin Mülki Kollegiyası Ali Məhkəmənin göstərişini düzgün araşdırmayaraq, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1246, 1248.1 və 1268.2-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair Azərbaycan

Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 14 oktyabr 2022-ci il tarixli qərarına istinad etməklə iddiaçının subyektiv hüququ malik olması qənaətinə gəlmişdir.

36. Məhkəmə qətnaməsi iş üzrə müəyyən edilmiş həqiqi hallara uyğun əsaslandırılmamışdır. Belə ki, məhkəmə tərəflərindən təqdim edilmiş sübutları mötəbər saymamış, amma iddiaçının heç bir sübutla təsdiq edilməyən izahatlarını əsas gətirməklə bağışlama müqaviləsini etibarsız əqd kimi qiymətləndirmişdir, iddiaçının isə subyektiv hüquqa malik olması qənaətinə gəlmişdir.

37. Məhkəmə iddiaçıdan öz iddia tələbini əsaslandıracaq mötəbər sübutları tələb etməmişdir. Belə ki, iddiaçı mərhum atası X1in ağır xəstə olması, öz hərəkətlərinin mənasını başa düşməməsi və aldatma nəticəsində etibarnamə verdiyini göstərsə də, bununla bağlı mötəbər sübutları — tibbi sənədləri (mərhumun hansı xəstəlikdən əziyyət çəkməsi, müstəqil olaraq iradə ifadəsini həyata keçirməyə mane ola biləcək xəstəliyinin olması barədə sənədlər) məhkəməyə təqdim etməmişdir. İddiaçı iddia tələbinin əsası kimi tibbi sənədləri mövcud idisə, həmin sənədləri məhkəməyə təqdim etməli idi. Məhkəmə isə həmin sənədlər əsasında mərhum X1in xx -xxxxx saylı, 12 iyun 2019-cu il tarixli etiabrnamə verərkən öz hərəkətlərinin mənasını dərk edib, öz hərəkətlərini idarə etmək qabiliyyətinə malik olması məsələsinin müəyyən edilməsi üçün X1in ölümündən sonrakı məhkəmə psixiatrik ekspertizası təyin etməli idi.

38. Məhkəmə təqdim etdikləri sübutlara düzgün hüquqi qiymət verməmiş, yalnız iddiaçının heç nə ilə təsdiq edilməyən izahatları əsas götürülmüşdür.

39. Məhkəmə tərəfindən tərəflərin bərabərliyi və çəkişmə prinsipinə riayət edilməmişdir.

Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

40. Kassasiya şikayətinə qarşı etiraz verilməmişdir.

Tətbiq edilən hüquq

Azərbaycan Respublikasının Mülki Məcəlləsi

41. Maddə 225.1. Ərlə arvadın nikah dövründə qazandıqları əmlak, əgər nikah kontraktında və ya onlar arasındakı razılaşmada ayrı qayda nəzərdə tutulmayıbsa, onların ümumi mülkiyyətidir.

42. 225.2. Nikaha girənədək ər-arvaddan hər birinə mənsub olmuş əmlak, habelə onlardan birinin nikah dövründə hədiyyə kimi və ya vərəsəlik qaydasında aldığı əmlak onun mülkiyyətidir.

43. Maddə 666.1. Bağışlama müqaviləsi sağ ikən bağlanan elə müqavilədir ki, onun əsasında hədiyyə verən öz əmlakının bir hissəsini bağışlamaqla hədiyyə alanı zənginləşdirir, həm də bu cür bağışlama hədiyyə alan tərəfindən heç bir cavab xidməti ilə şərtləndirilmir.

44. Maddə 667.1. Fəaliyyət qabiliyyətli şəxs öz əmlakına dair bağışlama yolu ilə o halda sərəncam verə bilər ki, həmin əmlak ər-arvadın ümumi mülkiyyəti və ya vərəsəlik hüququ ilə məhdudlaşmasın.

45. Maddə 337.1. Bu Məcəllədə müəyyənləşdirilmiş şərtləri pozmaqla bağlanmış əqd etibarsızdır. Etibarsız əqdlər mübahisə edilən əqdlər və ya əhəmiyyətsiz əqdlər ola bilər.

46. Maddə 337.2. Əqd barəsində mübahisə edildikdə, əqd bağlandığı andan etibarsızdır. Müqavilənin mübahisə edilməsi müqavilənin digər tərəfinə iradə ifadəsinin bildirilməsi yolu ilə həyata keçirilir. Digər tərəfə xətdə həyata keçirilmiş birtərəfli əqd həmin şəxsə qarşı mübahisə edilir.

47. Maddə 337.4. Etibarsız əqd onun etibarsızlığı ilə bağlı nəticələr istisna olmaqla, hüquqi nəticələrə səbəb olmur. Bu cür əqd bağlandığı andan etibarsızdır.

48. Maddə 359.1. Əqd təmsilçi vasitəsilə də bağlana bilər. Bir şəxsin (təmsilçinin) etibarnaməyə, qanunun göstərişinə və ya buna vəkil edilmiş dövlət və ya bələdiyyə orqanının aktına əsaslanan səlahiyyətə görə başqa şəxs (təmsil edilən) adından bağladığı əqd təmsil edilənin mülki hüquq və vəzifələrini bilavasitə yaradır, dəyişdirir və onlara xitam verir. Səlahiyyət həmçinin təmsilçinin fəaliyyət göstərdiyi şəraitdən də (pərakəndə ticarətdə satıcı,

kassir və i.a.) bəlli ola bilər.

49. Maddə 359.3 Təmsilçi təmsil edilən adından şəxsən özü barəsində əqdlər bağlaya bilməz. O, həmçinin, kommersiya təmsilçiliyi halı və qiymətli kağızlar bazarında investisiya şirkəti fəaliyyəti istisna olmaqla, eyni zamanda təmsilçisi olduğu şəxs barəsində bu cür əqdlər bağlaya bilməz.

Azərbaycan Respublikasının Ailə Məcəlləsi

50. Maddə 32.1. Nikah müddətində ər-arvadın əldə etdikləri əmlak onların ümumi birgə mülkiyyəti sayılır.

51. Maddə 34.1. Nikaha daxil olanadək onlara məxsus olan əmlak, habelə nikah dövründəhədiyyə şəklində və ya vərəsəlik qaydasında, digər əvəzsiz əqdlər üzrə əldə etdikləri əmlak ər-arvadın hər birinin ayrıca mülkiyyətindədir (ər-arvadın hər birinin əmlakıdır).

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi

52. Maddə 14.2 Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

53. Maddə 77.1 Hər bir tərəf öz tələblərinin əsası kimi istinad etdiyi halları sübut etməlidir.

54. Maddə 80. Məhkəmə işin gedişində təqdim olunmuş ancaq o sübutları qəbul edir və nəzərə alır ki, onlar işdə tərəflərin tələblərini müəyyən edən faktlarla və hallarla əlaqədardır.

55. Maddə 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

56. Maddə 217.4 Məhkəmə (hakim) öz qətnaməsini yalnız məhkəmə iclasında tədqiq olunmuş sübutlarla əsaslandırır.

57. Maddə 407.2. Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir.

58. Maddə 416.1 Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

Kassasiya baxışının hədləri

59. Qanunun tələbinə görə kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

60. Hazırkı kassasiya şikayətinə əsasən apellyasiya məhkəməsinin qətnaməsi tam yoxlanılır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

61. Məhkəmə kollegiyası kassasiya şikayətinin dəlillərinə hüquqi qiymət verərək qeyd edir ki, kollegiya apellyasiya instansiyası məhkəməsinin iddiaçının iş üzrə iddianı qaldırmağa subyektiv hüququnun olduğu barədə qənaəti ilə razılaşır. Belə ki Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1246 və 1273-1-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinin VII hissəsinə uyğunluğunun yoxlanılmasına dair” 26 dekabr 2023-cü il tarixli Qərarına əsasən qanunla müəyyən edilmiş müddət ərzində mirasdan imtina etməyən vərəsə mirası qəbul etmiş vərəsə hesab edilməli və vərəsələr arasında miras əmlakın bölüşdürülməsi Mülki Məcəllənin 1301-ci maddəsinə uyğun olaraq həyata keçirilməldir. Məhkəmə kollegiyası onu da qeyd edir ki, iş üzrə iddiaçının mirasdan imtina etdiyini təsdiq edən sübutlar yoxdur. Yuxarıda göstərilən

qərarla mülki dövriyyənin sabitliyinin təmin olunması baxımından bu Qərar qüvvəyə mindikdən sonra yaranacaq vərəsəlik münasibətlərinə və hazırda məhkəmələrin icraatında olan mübahisələr üzrə işlərə şamil edilməsi də qərara alınmışdır.

62. Apellyasiya instansiyası məhkəməsinin digər qənaəti ondan ibarət olmuşdur ki, Cavabdeh 1in mərhum qaynatası X1dən aldığı etibarnamədən öz iradəsinə və şəxsi maraqlarına uyğun istifadə edərək, həmin əmlakı əvəzsiz olaraq əri, iş üzrə digər cavabdeh Cavabdeh 2 bağışlamış, nəticədə hər iki şəxs, yəni cavabdehlər olan ər və arvad etibarnamə əsasında öz aralarında bağışlama müqaviləsi bağlamaqla məhrum X1in əmlakına əvəzsiz olaraq yiyələnmiş, bu isə mərhum X1in birinci növbə vərəsələrindən olan qızı iddiaçı İddiaçının atasından miras qalmış əmlakdan pay almaq hüquqlarının pozulmasına gətirib çıxarmışdır.

63. Məhkəmə kollegiyası apellyasiya instansiyası məhkəməsinin göstərilən mövqeyi ilə razılaşmır. Belə ki, işin məhkəmələr tərəfindən müəyyən edilmiş halıdır ki, Ünvan 1-də istifadədə olan 1.0704 ha torpaq sahəsində yerləşən 745,3 kv.m ümumi, 480,2 kv.m əsas, 261 kv.m köməkçi sahədən ibarət əmlak kompleksi X1in xüsusi mülkiyyətində olmuş, Cavabdeh 1 mülkiyyətçinin ona verdiyi xx-xx xx saylı 12 iyun 2019-cu il tarixli etibarnamə əsasında həmin əmlakı həyat yoldaşı Cavabdeh 2 19 sentyabr 2019-cu il tarixli bağışlanma müqaviləsinə əsasən bağışlamışdır.

64. Cavabdeh 2 ilə Cavabdeh 1 ər-arvad olsa da Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 34.1-ci maddəsinə əsasən nikaha daxil olanadək onlara məxsus olan əmlak, habelə nikah dövründə hədiyyə şəklində və ya vərəsəlik qaydasında, digər əvəzsiz əqdlər üzrə əldə etdikləri əmlak ər-arvadın hər birinin ayrıca mülkiyyətindədir (ər-arvadın hər birinin əmlakıdır).Həmçinin Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 225.2-ci maddəsinə əsasən nikaha girənədək ər- arvaddan hər birinə mənsub olmuş əmlak, habelə onlardan birinin nikah dövründə hədiyyə kimi və ya vərəsəlik qaydasında aldığı əmlak onun mülkiyyətidir. Göstərilən normaların təhlilindən görünür ki, Cavabdeh 1 mülkiyyətçinin ona verdiyi etibarnamə əsasında əmlakı mülkiyyətçinin adından öz əri Cavabdeh 2 bağışlasa da, bağışlama nəticəsində Cavabdeh 1 həmin əmlak üzərində mülkiyyət hüququ yaranmır, yəni həmin əmlak ər-arvadın birgə mülkiyyəti hesab olunmur.

65. Apellyasiya instansiyası məhkəməsi cavabdeh Cavabdeh 1 mərhum qaynatası X1dən aldığı etibarnamədən öz iradəsinə və şəxsi maraqlarına uyğun istifadə etdiyini qeyd etsə də bu mövqeyini kifayət qədər əsaslandıra bilməmişdir. Yəni əsaslandırılmamışdır ki, X1in əmlakı onun oğlu Cavabdeh 2 bağışlanarkən bu bağışlama nəyə görə əmlakın mülkiyyətçisi olmuş X1in deyil, məhz Cavabdeh 1 maraqlarına uyğun olmuşdur.

66. Azərbaycan Respublikasının MPM-in 217 və 220-ci maddələrinə əsasən qəbul edilmiş qətnamə iş üzrə müəyyən edilmiş hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalı, qətnamənin əsaslandırıcı hissəsində işin məhkəmə tərəfindən müəyyən edilən halları, işin halları barədə məhkəmənin əsaslandırıldığı sübutlar və məhkəmənin bu və ya digər sübutları və iclasda iştirak edən şəxslərin istinad etdiyi qanun və hüquqi aktları rədd etmək üçün gətirdiyi dəlillər, habelə məhkəmənin qətnamə çıxararkən rəhbər tutduğu qanunlar və normativ hüquqi aktlar göstərilməlidir.

67. Lakin işə baxmış apellyasiya instansiyası məhkəməsi mülki iş üzrə gəldiyi nəticəni maddi və prosessual hüquq normalarının tələbləri, xüsusilə MPM-in sübutetmə yükünün müəyyən edilməsi və sübutların qiymətləndirilməsi ilə bağlı müddəaları baxımından kifayət qədər əsaslandırmamışdır.

68. Nəzərə alınmalıdır ki, məhkəmə aktlarının əsaslandırılmış olması iş üzrə tərəflərdə qəbul edilmiş qərarın qanuni və ədalətli olduğuna inam yaratmaqla yanaşı, ümumilikdə məhkəmə hakimiyyətinə olan etimadın möhkəmlənməsinə xidmət edir.

69. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun «Məhkəmə qətnaməsi haqqında» 24 noyabr 2005-ci il tarixli 4 saylı qərarının birinci bəndində qeyd edilir ki, məhkəmə qətnaməsi mülki və kommersiya mübahisələrindən irəli gələn işlər üzrə ədalət mühakiməsinin yekun aktı olduğu üçün onun qəbul edilməsi ilə mübahisəli hüquq münasibətlərində müəyyənlik yaranmalı, pozulmuş və mübahisə edilən hüquqların və qanunla qorunan

mənafelərin real bərpası təmin olunmalıdır.

70. Məhkəmələr tərəfindən qəbul edilmiş qərarlarda həll olunan işə aid bütün zəruri məsələlərə aydınlıq gətirilməli, ziddiyyətli məqamlar aradan qaldırılmalıdır. Azərbaycan Respublikasının adından çıxarılan məhkəmə aktlarında işin ədalətli həllini şübhə altına alan, ziddiyyətlər yaradan və mübahisə üzrə iştirakçıların konstitusiya məhkəmə müdafiəsi hüququna təsir göstərən müddəalar olmamalıdır (N.Əbilovun şikayəti üzrə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 13 iyun 2008-ci il tarixli qərarı).

71. Məhkəmə, özü tərəfindən müəyyən olunmuş işin hallarını və qənaətini formalaşdıran sübutları, bu və ya digər sübutları rədd etmək üçün istinad etdiyi dəlilləri və rəhbər tutduğu qanunları qətnamədə göstərməklə onun hüquqi cəhətdən əsaslandırmalıdır. Məhkəmə sübutları sadalamaqla kifayətlənməməli, hər bir sübutun, o cümlədən şahid ifadələrinin məzmunu qətnamədə şərh edilməli, sübutlar əlaqələndirilməli, araşdırılan sübutların qəbul edilib-edilməməsinin səbəbləri aydın göstərilməlidir (S.Əliyevanın şikayəti üzrə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 31 may 2006-cı il tarixli qərarı).

72. Ona görə də cavabdehlər Cavabdeh 2 və Cavabdeh 1 tərəfindən verilmiş kassasiya şikayəti təmin edilməli, Şirvan Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 16 fevral 2023-cü il tarixli 2(106)-210/2023 nömrəli qətnaməsi ləğv edilərək iş yenidən baxılmaq üçün Şirvan Apellyasiya Məhkəməsinə göndərilməlidir.

73. Apellyasiya instansiyası mhəkməsi tərəfindən işə yenidən baxılarkən şərh edilən nöqsanlar aradan qaldırılmaqla maddi və prosessual hüquq normalarının tələbinə cavab verən, qanuni və əsaslı yekun məhkəmə aktı qəbul edilməlidir.

74. Göstərilənlərə əsasən və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 416, 417 və 419-cu maddələrini rəhbər tutub məhkəmə kollegiyası

Qərara aldı:

Cavabdehlər Cavabdeh 2 və Cavabdeh 1 tərəfindən verilmiş kassasiya şikayəti təmin edilsin.

Şirvan Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 16 fevral 2023-cü il tarixli 2(106)-210/2023 nömrəli qətnaməsi ləğv edilsin.

İş yenidən baxılmaq üçün Şirvan Apellyasiya Məhkəməsinə göndərilsin. Qərar qəbul edildiyi andan qüvvəyə minir.

2. 2(102)-52/2024 nömrəli, 2024-cü il 29 yanvar tarixli qərar - Kreditorun (tələbkarın) borclunun öz əmlakını icradan yayındırmaq məqsədilə bağladığı əqdlərin etibarsız sayılması barədə tələb irəli sürməyə subyektiv hüququ.

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: Kreditorun (tələbkarın) borclunun öz əmlakını icradan yayındırmaq məqsədilə bağladığı əqdlərin etibarsız sayılması barədə tələb irəli sürməyə subyektiv hüququ.

Qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsinə əsasən cavabdehdən iddiaçının xeyrinə 53000 manat pul tutulmuşdur. Qətnamə qanuni qüvvəyə mindikdən sonrakı 10 gün ərzində cavabdeh mülkiyyətində olan iki əmlakı, bir ay sonra isə üçüncü əmlakı digər cavabdehə satmışdır.

İddiaçı həmin alqı-satqı müqavilələrinin etibarsızlığına dair tələb irəli sürmüş, göstərmişdir ki, mübahisə olunan əqdlərin rəsmiləşdirilməsində məqsəd borclunun müqavilələrin predmeti olan əşyaların mülkiyyətçisi kimi görünməməsini təmin etməklə tələbin həmin əmlaka yönəldilməsinin qarşısını almaqdır. Belə olan halda, alacağının borclunun əmlakı hesabına ödənilməsi imkanı aradan qalxır və tələbkar kimi hüquqları pozulur.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Uydurma əqd bir qayda olaraq üçüncü şəxsləri aldatmaq və xarici aləmə həqiqətdə olmayan bir hüquqi vəziyyəti göstərmək məqsədilə bağlandığı üçün bu vəziyyətə görə mənafeyi pozulan hər bir şəxs həmin əqdin etibarsızlığına dair məhkəmədə iddia qaldırmaq hüququna malikdir. Mövcud vəziyyətdə həmin şəxsin subyektiv hüququnun olmaması barədə mövqe məhkəmə müdafiəsi hüququna ziddir.

Kreditorun (tələbkarın) borclunun öz əmlakını icradan yayındırmaq məqsədilə bağladığı əqdlərin etibarsız sayılması barədə tələb irəli sürməyə subyektiv hüququ vardır və belə iddia uydurma əqdə dair maddi hüquq normasının dispozisiya şərtləri əsasında həll edilməlidir.

Bu zaman məhkəmə məsələyə formal yanaşmamalı, işin düzgün həlli üçün əhəmiyyət kəsb edən halları, o cümlədən mübahisə olunan əqdlərin rəsmiləşdirilməsi ilə hədəflənən hüquqi nəticənin nədən ibarət olmasını, başqa sözlə əqdin tərəflərinin müqavilədə göstərilən hüquqi nəticəni əmələ gətirmək istədiklərini, yoxsa belə nəticə arzulamadan müqavilələrin sadəcə üçüncü şəxslərdə yanlış təsəvvür yaratmaq məqsədilə bağlanmasını, bu konteksdə müqavilələrin rəsmiləşdirildiyi dövrü, alıcının kimliyini və satıcı ilə münasibətlərinin nədən ibarət olmasını, əqdin tərəflərinin müqavilədən əvvəlki və sonrakı davranışlarını, əşyaların alıcının sahibliyinə verilib-verilməməsini, müqavilə bağlandıqdan sonra satıcının bu əşyalar üzərindəki faktiki sahiblik və idarəçiliyinin davam edib-etməməsini və digər xüsusatları aydınlaşdırılmaqla Mülki Məcəllənin 340.1-ci maddəsinin şərtləri ilə işin müəyyən olunmuş halları arasında uyğunluğun olub-olmamasına hüquqi qiymət verilməlidir.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-52/2024

29.01.2024-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından

Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki Kollegiyasının

İddiaçının cavabdehlər Cavabdeh 1, Cavabdeh 2-yə qarşı (üçüncü şəxslər "Asan xidmət" mərkəzində notariat ofisi, Gəncə şəhər 2 saylı notariat ofisi və Gəncə şəhər 3 saylı notariat ofisi) iş üzrə

Q Ə R A R I

(Açar sözlər: uydurma əqd, subyektiv hüquq)

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Əliyev Zaur Əli oğlu (məruzəçi hakim), Abbasov Aqil Əzizağa oğlu və Məmmədov Vidadi Məmməd oğlundan ibarət tərkibdə,

Gəncə Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(104)-1330/2023 nömrəli mülki iş üzrə 21 iyun 2023-cü il tarixli qətnaməsindən İddiaçı tərəfindən verilmiş kassasiya şikayətinə Ali Məhkəmənin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları

1. Mübahisəyə mahiyyəti üzrə baxan məhkəmələr işin hallarını araşdıraraq aşağıdakıları müəyyən etmişlər.

2. Gəncə Apellyasiya Məhkəməsinin 15 noyabr 2017-ci il tarixli, 2(104)-3746/2017 nömrəli qətnaməsi ilə apellyasiya şikayəti qismən təmin edilmiş, iş üzrə Gəncə şəhəri Nizami Rayon Məhkəməsinin 29 avqust 2017-ci il tarixli, 2(044)- 5584/2017 saylı qətnaməsinin ləğv edilməsi, yeni qətnamə çıxarılaraq, iddia tələbi qismən təmin edilməsi və Cavabdeh 1-dən 53000 (əlli üç min) ABŞ dollarının qətnamənin icra olunduğu günə olan manata məzənnəsi ilə hesablanması qaydasında alınaraq İddiaçıya verilməsi qət edilmişdir.

3. Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 18 may 2018-ci il tarixli, 2(102)-3284/2018 nömrəli qərarı ilə Gəncə Apellyasiya Məhkəməsinin 15 noyabr 2017-ci il tarixli, 2(104)-3746/2017 nömrəli qətnaməsi dəyişdirilmədən saxlanılmışdır.

4. AN-I seriyalı, ******* nömrəli, 26 may 2018-ci il tarixli, 4Ə-*** reyestr nömrəli daşınmaz əmlakın alqı-satqı müqaviləsinin surətinə əsasən satıcı Ünvan 1 ünvanında yerləşən ümumi sahəsi 59,1 kv,m, yaşayış sahəsi 40,5 kv,m yardımçı sahəsi 18,6 kv,m olan 3 otaqlı mənzilin tam mülkiyyət üzrə ona məxsus hissəsindən aşağıda göstərilən hissəsi alıcının mülkiyyətinə verir: Satılan daşınmaz əmlak aşağıdakı hüquqmüəyyənedici sənədə əsasən satıcıya məxsusdur: DTİ və MHQİ tərəfindən 22.10.2004-cü il tarixdə Cavabdeh 1-ə verilmiş ***** qeydə alma nömrəsi ilə ** nömrəli kitabın səhifəsində qeyd edilmiş qeydiyyat vəsiqəsinə əsasən tam mülkiyyət hüququ üzrə 59,1 kv,m, 3 otaq; daşınmaz əmlakın dövlət reyestrindən əldə edilmiş 25.05.2018-ci il tarixli, qeydiyyat nömrəsi *** olan arayışa əsasən müqavilə bağlananadək daşınmaz əmlakı ipoteka ilə yüklü edilməmiş, həbs altında deyil və özgəninkiləşdirilməsinə qadağan qoyulmamışdır. Satıcı daşınmaz əmlakı 20000 manat (iyirmi min manat) qiymətinə satdı. Alıcı isə həmin qiymətə aldı Alıcı Cavabdeh 2 satıcı Cavabdeh 1-dən satdığı tam hissəni (59,1 kv,m) ondan 20000 manat (iyirmi min manat) qiymətinə aldı.

5. AN-I seriyalı, ******* nömrəli, 28 iyun 2018-ci il tarixli, 4Ə-*** reyestr nömrəli daşınmaz əmlakın alqı-satqı müqaviləsinə əsasən, satıcı Ünvan 2 ünvanında yerləşən ümumi sahəsi 139,1 kv,m olan qeyri-yaşayış sahəsinin tam mülkiyyət üzrə ona məxsus hissəsindən aşağıda göstərilən hissəni alıcının mülkiyyətinə verir: Satıcı Cavabdeh 1 (tam hissə 139,1 kv,m) alıcı Cavabdeh 2. Satılan daşınmaz əmlak aşağıdakı hüquq müəyyənedici sənədə əsasən satıcıya məxsusdur: AR Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi tərəfindən 31.03.2006 tarixdə Cavabdeh 1-ə verilmiş seriya nömrəsi ****** olan şəhadətnaməyə əsasən tam mülkiyyət üzrə 139,1 kv,m; Daşınmaz əmlakın dövlət reyestrindən əldə edilmiş 27.06.2018 il tarixli, qeydiyyat nömrəsi *** olan arayışa əsasən müqavilə bağlananadək daşınmaz əmlak ipoteka ilə yüklü edilməmiş, həbs altında deyil və özgəninkiləşdirilməsinə qadağan qoyulmamışdır. Satıcı daşınmaz əmlakı 60000 manat (altmış min manat) qiymətinə satdı, alıcı isə həmin qiymətə aldı. Alıcı Cavabdeh 2 satıcı Cavabdeh 1-dən satdığı tam hissəsi (139,1 kv,m) ondan 60000 manat (altmış min manat) qiymətinə aldı.

6. AN-I seriyalı, ******* nömrəli, 29 may 2018-ci il tarixli, 4Ə-**** reyestr nömrəli daşınmaz əmlakın alqı-satqı müqaviləsinin surətinə əsasən, satıcı Ünvan 3 ünvanında yerləşən ümumi 41,7 kv,m yaşayış sahəsi 29,6 kv,m yardımçı sahəsi 12,1 kv,m olan 2 otaqlı mənzilin tam mülkiyyət üzrə ona məxsus hissəsindən aşağıda göstərilən hissəsini Alıcının mülkiyyətinə verir: Satıcı Cavabdeh 1 (tam hissə, 41,7 kv,m, 2 otaqlı mənzili) alıcı Cavabdeh 2-yə satdı.

Satılan daşınmaz əmlak aşağıdakı hüquqmüəyyənedici sənədə əsasən satıcıya məxsusdur. Daşkəsən TİB tərəfindən 20.09.2004 tarixdə Cavabdeh 1-ə verilmiş 4-**** qeydə alma nömrəsi ilə ** nömrəli kitabın səhifəsində qeydə alınmış qeydiyyat vəsiqəsinə əsasən tam mülkiyyət üzrə 41,7 kv,m 2 otaq; daşınmaz əmlakın dövlət reyestrindən əldə edilmiş 25.05.2018-ci il tarixli, qeydiyyat nömrəsi *** olan arayışa əsasən müqavilə bağlananadək daşınmaz əmlak ipoteka ilə yüklü edilməmiş, həbs altında deyil və özgəninkiləşdirilməsinə qadağa qoyulmamışdır. Satıcı daşınmaz əmlakı 13000 manata satdı, alıcı isə həmin qiymətə aldı.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a) Birinci instansiya məhkəməsində icraat

7. İddiaçı Gəncə Şəhər Məhkəməsinə müraciət edərək, cavabdehlər Cavabdeh 1 ilə Cavabdeh 2-nin arasında Ünvan 3 ünvandakı mənzilə dair bağlanmış 29.05.2018 tarixli, 4Ə-**** nömrəli, Ünvan 1 ünvandakı mənzilə dair bağlanmış 26.05.2018-ci il tarixli, 4Ə-*** nömrəli və Ünvan 2 ünvanda yerləşən obyektə (sabiq “XXX” mağazasına) dair bağlanmış 28.06.2018-ci il tarixli, 4Ə-*** nömrəli alqı-satqı müqavilələrinin əhəmiyyətsiz hesab edilməsinə dair qətnamə çıxarılmasını xahiş etmişdir.

8. İddiaçı tələblərini belə əsaslandırmışdır ki, Gəncə Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının pul tələbinə dair 15 noyabr 2017-ci il tarixli, 2(104)-3746/2017 nömrəli qətnaməsinə əsasən iddia təmin edilərək 53.000 ABŞ dolları qətnamənin icra olunduğu günə manata olan məzənnəsi ilə hesablanması qaydasında borcun ödənilməsi qərara alınmışdır. Qətnamədən narazı qalan cavabdeh Cavabdeh 1 Azərbaycan Respublikasının Ali Məhkəməsinə kassasiya şikayəti vermiş və məhkəmə kollegiyası şikayəti təmin etməmiş, Gəncə Apellyasiya Məhkəməsinin qətnaməsini dəyişdirmədən öz qüvvəsində saxlamışdır. Cavabdeh 1 Azərbaycan Respublikası Ali Məhkəməsinin qərarından məlumat aldıqdan 7 gün sonra borcun əmlaka yönəldilməməsi üçün ən azı 7 daşınmaz əmlakını, o cümlədən Yaponiya istehsalı "Toyota-Corolla" markalı minik avtomobilini uydurma alqı-satqı müqavilələri ilə arvadının və yaxın adamlarının adına keçirmişdir. Onun uydurma alqı-satqı yolu ilə nikah bağlamadığı lakin faktiki arvadı olan Cavabdeh 2-nin adına keçirdiyi Daşınmaz Əmlaklar aşağıdakılardır: 29.05.2018 tarixli, 4Ə-**** nömrəli alqı-satqı müqaviləsi ilə Ünvan 3 mənzili satmışdır. 26.05.2018-ci il tarixli, 4Ə-*** nömrəli alqı-satqı müqaviləsi ilə Ünvan 1 mənzili satmışdır. 28.06.2018-ci il tarixli, 4Ə-*** nömrəli alqı-satqı müqaviləsi ilə Ünvan 2 ünvanda yerləşən obyekti (sabiq “XXX” mağazasını) satmışdır. r. Bu 4 ev və mənzilin ümumi bazar dəyəri təxminən 250.000 manatdır. Cavabdeh 1 18.05.2018-ci il tarixli qətnamə qanuni qüvvəsini alandan sonra icra məmuruna yaşadığı yer barədə yanlış məlumatlar verərək, uzun müddət onu çaşdırmış, fırıldağı aşkar ediləndən sonra isə özünü gah Qarabağ uğrunda döyüşlərin iştirakçısı, gah şizofreniyaya mübtəla olan anlaqsız adam kimi qələmə vermiş, lakin ifşa olunduğundan, düşündüyü fırıldaqları həyata keçirə bilməmişdir. İcra məmuru onun barəsində 20.09.2018-ci il tarixdə axtarış qərarı vermiş, məcburi gətirilmə təqdimatı yazmış, Gəncə şəhəri Nizami Rayon Məhkəməsinin 25.02.2019-cu il tarixli, 8(044)-300/2019 nömrəli qərardadı ilə ölkədən çıxmaq hüququnu müvəqqəti məhdudlaşdırmış, nəhayət borc üzrə hər hansı ödəniş etməməsindən, ancaq yalan vədlər verməsindən bezmiş, Gəncə şəhəri Nizami Rayon Məhkəməsinin 08.07.2021-ci il tarixli, 3(044)-590/2021 nömrəli qərarı ilə İXM-nin 528.1-ci maddəsinin əsasında 500 manat cərimə etdirmişdir. Lakin bunun da təsiri olmamışdır. Cavabdeh 1 borcundan 1 manat da ödəməmiş və ödəmək fikrində deyildir. Onun borcunu ödəməyəcəyinə andı vardır. İşləri məhkəmədə olanda cavabdeh ona özü belə deməklə əsəbiləşdirməyə çalışmışdır. 16.03.2020-ci il tarixdə Gəncə şəhər Psixonevroloji Dispanserinin Həkimlər Komissiyası Cavabdeh 1-in həkim qardaşı X1-in hesabına onun barəsində fəaliyyət qabiliyyətli şəxs olmamasına dair rəy vermişdir. Lakin uydurma rəy Azərbaycan

Respublikasının Səhiyyə Nazirliyi "Məhkəmə Psixiatrik Ekspertiza Mərkəzi" tərəfindən ləğv olunmuşdur. Beləliklə cavabdehin borcdan yayınmaq üçün növbəti saxtakarlığı da ifşa olunmuşdur. Cavabdeh 1 həqiqətən psixi xəstədirsə, fəaliyyət qabiliyyəti yoxdursa, onun bağladığı müqavilələr, ələlxüsus arvadı ilə bağladığı müqavilələr bu halda da etibarsız (əhəmiyyətsiz) hesab edilməli, satılan əmlaklar Cavabdeh 1-in özünə qaytarılmalıdır. İndiki iddiasında iddiaçı yalnız Cavabdeh 1-in öz arvadı ilə bağladığı 3 uydurma alqı-satqı müqaviləsini mübahisələndirməyi lazım bilmişdir. Bu 3 əmlakın ümumi dəyəri Cavabdeh 1-in iddiaçıya olan borcunu ödəmək üçün yetərlidir. Cavabdeh 1 ilə Cavabdeh 2 bir evdə yaşayırlar. Onların birgə yaşayışından həddi-buluğa çatmamış bir uşaqları vardır. Azərbaycan Respublikası Ali Məhkəməsinin qətnaməsindən xəbər tutduqdan sonra Cavabdeh 1-in 2 gün ərzində 2 daşınmaz əmlakı, 1 aydan sonra isə daha bir daşınmaz əmlakı öz arvadına satmasında məntiq yoxdu çünki Cavabdeh 2 özü evdar qadındır və 15 ildir ki, işləmir, pensiya almır, biznesi yoxdur, oğru-quldur, çapqıncı deyildir. Təxmini qiyməti 200.000 manat olan bu 3 daşınmaz əmlakı hər hansı bir qazanc mənbəyi olmayan bu qadın ala bilməz. Həmin müqavilələrin əhəmiyyətsizliyini iddiaçı borc ödənişinin təmin edilməsi naminə məhkəmədə tələb etmək məcburiyyətində qalmışdır.

9. Cavabdeh 1 iddiaya etiraz edərək bildirmişdir ki, iddiaçı onun əvvəllər şəriki olmuş və onlar birlikdə alver və daşınmaz əmlakların alqı-satqısını etmişlər. 2011-ci ildə onlar dəri kurtka və şuba alveri ilə məşğul olmaq qərarına gəlmiş və Rusiya Federasiyasında yaşayan X2 adlı şəxsə bu işlə əlaqədar 46.000 ABŞ dolları məbləğində pul vermişlər. Razılaşmaya əsasən X2 adlı şəxs şubanın və dəri kurtkaların satışından əldə olunan məbləğdən onlara qazanc verməli idi. Təxminən 1 il müddətinə X2 adlı şəxs iddiaçıya və cavabdehə ayrı-ayrılıqda ümumilikdə 8.000 ABŞ dolları məbləğində pul vermişdir. Sonradan X2-nin işlədiyi Rusiya Federasiyasında olan "XXXXX" adına bazar bağlanmış və X2 adlı şəxs onlara artıq malların əlində qaldığını və hər hansı qazanc əldə edə bilmədiyini, buna görə də əlində olan şuba və dəri kurtkaları onlara geri qaytaracağını bildirmişdir. O, bu barədə iddiaçıya bildirdikdən sonra aralarında narazılıqlar yaranmış və iddiaçı ondan 23.000 ABŞ dolları pulu geri istəmişdir. Halbuki, iddiaçı həmin pulun 4.000 ABŞ dollarını qazanc götürmüş və Cavabdeh 1 iddiaçı kimi həmin alverdən 23.000 ABŞ dolları pul itirmişdir. Bundan başqa Cavabdeh 1-in iddiaçı ilə aralarında digər alver də olmuş və həmin alverdən onun iddiaçıya borcu qalmadığı təqdirdə ondan 30.000 ABŞ dolları ümumilikdə 53.000 ABŞ dolları pul tələb etmiş, Gəncə Apellyasiya Məhkəməsinin 15 noyabr 2017-ci il tarixli, 2(104)-3746/2017 saylı qərarına əsasən ondan 53000 ABŞ dolları alınaraq İddiaçıya verilməsi qərara alınmışdır. “Toyota-Corolla” markalı, **-TO-*** dövlət qeydiyyat nişanlı minik avtomobili ümumiyyətlə nə onun adına, nə də ki, ona məxsus olmamışdır. Həmin avtomaşın 17 avqust 2007-ci il tarixdən X3-ə məxsus olmuşdur. İddiaçının iddia ərizəsində göstərdiyi mülklərin kimə məxsus olmasını iddiaçının özü yaxşı bilir və onları tanıyır. Çünki iddiaçı həmin mülklərin hamısına dair alqı-satqının əhəmiyyətsiz hesab edilməsini xahiş etməmiş, yalnız digər cavabdeh olan Cavabdeh 2-nin adına qeydə alınmış əmlakların alqı-satqısını mübahisələndirmişdir. Onun digər cavabdeh olan Cavabdeh 2 ilə aralarında ər-arvad münasibəti yoxdur. Bundan əlavə o, iddiaçıya mülkiyyətində olan Ünvan 4 ünvanındakı təmir-tikinti idarəsinin bağçılıq təsərrüfatı ünvanında yerləşən fərdi yaşayış evini təklif etmiş, həmin mülk qiymətləndirilmiş və açıq hərraca çıxarılmışdır. Halbuki, iddiaçı iddia ərizəsində onun iddiaçıya məhkəmə qətnaməsi ilə olan borcunu ödəməyəcəyinə dair and içdiyini yazmışdır. Bundan əlavə o, səhhətində olan problemlərlə əlaqədar dəfələrlə Gəncə şəhər Psixatriya Xəstəxanasında qalmaqla müalicə almışdır. Axırıncı dəfə o, həmin xəstəxanada 01 sentyabr 2021-ci il tarixdən 30 sentyabr 2021-ci il tarixədək müalicə almışdır. Onun fəaliyyət qabiliyyətsizliyi ilə əlaqədar Gəncə Apellyasiya

Məhkəməsinin 06 noyabr 2019-cu il tarixli, 2(104)-4004/2019 saylı qərardadı ilə baxılmamış saxlanılmışdır. Hal-hazırda əlilliyinə görə aldığı müavinətin 50 faizi, yəni 135 manat pul vəsaiti iddiaçının xeyrinə tutulur. İddiaçı Iddiaçı iddia ərizəsində DƏDRX-nin Gəncə Ərazi İdarəsinin mülklərin alqı-satqısına dair 21 dekabr 2018-ci il tarixli məktubunu əlavə etmiş və məhkəmə iclasında da bildirmişdir ki, iddia ərizəsində göstərilən mülklərin onun tərəfindən başqa adamlara satılmasına dair xəbəri 2018-ci il tarixdən məlum olmuşdur. Bundan əlavə Gəncə şəhəri Nizami Rayon Məhkəməsinin 01 may 2019-cu il tarixli, 2(044)-1101/2019 saylı qətnaməsindən maraqlı şəxs İddiaçı apellyasiya şikayəi vermiş və şikayətində həmin əmlakların başqa şəxsə satılmasını bildirmişdir.

10. Məhkəmə iclasında iddiaçı, ərizəsinə uyğun izahat verərək bildirmişdir ki, o, Cavabdeh 1-ə qarşı pul tələbinə dair məhkəmədə iddia qaldıran zaman onun adında bir sıra əmlakların olmasını bilmişdir, lakin məhkəmədən həmin əmlakların üzərinə həbs qoyulması barədə ərizə verməmişdir. Cavabdeh iddia ərizəsində göstərilən əmlakları heç bir məhdudiyyət və həbs olmadığı dövrdə satmışdır. Cavabdehlər Cavabdeh 1 ilə Cavabdeh 2-nin arasında bağlanmış alqı-satqı müqavilələri etibarsız hesab edilərsə, sözügedən mülklər Cavabdeh 1-in mülkiyyətinə geri qayıdacaq və həmin mülklərə icra məmuru tərəfindən həbs qoyulacaqdır. Odur ki, iddia tələbinin təmin edilməsi barədə qətnamə çıxarılmasını məhkəmədən xahiş etmişdir.

11. Gəncə Şəhər Məhkəməsinin 2(125)-736/2023 nömrəli, 21.02.2023-cü il tarixli qətnaməsi ilə (hakim Zaman İmanov) iddia rədd edilmişdir.

12. Məhkəmə mövqeyini belə əsaslandırmışdır ki, ilk növbədə iddiaçının müvafiq subyektiv hüquqa malik olub-olmaması və cavabdehlər tərəfindən həmin hüququnun pozulub-pozulmaması araşdırılmalıdır. Yalnız belə subyektiv hüququn mövcudluğu və onun cavabdehlər tərəfindən pozulması faktı müəyyən edildikdən sonra pozulmuş hüququn məhkəmə tərəfindən bərpa edilməsinə yol verilə bilər. Ona görə də, məhkəmə icraatında olan hər bir idda tələbi üzrə qabaqcadan iddiaçının müvafiq subyektiv hüquqa malik olub-olmamasını, subyektiv hüququn pozulub-pozulmamasını, cavabdehlərin bu pozuntunu edib-etməməsi məsələlərini araşdırmalıdır. İddia irəli sürməyə imkan verən subyevtik mülki hüququn mövcudluğu məsələsini həll etməyən məhkəmə aktı daxilən ziddiyətli və əsassız olardı. Bu mənada məhkəmə qeyd edir ki, iddiaçı Iddiaçı iddia ərizəsində irəli sürdüyü tələbinin qanuni əsaslarını göstərə bilməmiş, eyni zamanda iddiaçı Cavabdeh 1 ilə digər Cavabdeh 2 arasında alqı-satqı müqavilələrinin bağlanmasında tərəf olmamış, mübahisəndirilən alqı-satqı müqavilələrinin bağlanması iddiaçının maraqlarına toxunmasını sübut edə bilməmiş, bununla da müəyyən olunur ki, iddiaçı subyektiv hüquqa malik olduğunu göstərə bilməmişdir.

13. Məhkəmə həmçinin qeyd etmişdir ki, iş materiallarına əlavə edilmiş Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin Yanında Daşınmaz Əmlakın Dövlət Resyestri Xidmətinin 3 saylı Gəncə Ərazi İdarəsi tərəfindən verilmiş ********** nömrəli, 21 dekabr 2018-ci il tarixli məktubuna əsasən İddiaçının mübahisələndirdiyi əmlaklar Ünvan 3-dəki mənzil , Gəncə şəhər 7 saylı notaiat kontorunun 31.08.2004-cü il tarixli, 4Ə-*-*** saylı alqı-satqı müqaviləsinə əsasən, Ünvan 1-dəki mənzil Gəncə şəhər 3 saylı notariat kontorunun 21.10.2004-cü il tarixli, 4Ə-*-*** saylı alqı-satqı müqaviləsinə əsasən və Ünvan 2-də yerləşən qeyri-yaşayış sahəsi Azərbaycan Respublikası Dövlət Əmlakının İdarə edilməsi üzrə Dövlət Komitəsinin 31.03.2006-cı il tarixli, ****** qeydiyyat nömrəli mülkiyyət hüququ haqqında şəhadətnaməyə əsasən Cavabdeh 1-in mülkiyyətinə verilmişdir. Yəni, iddiaçının mübahisəndirdiyi əmlaklar üzərində Cavabdeh 1-in birbaşa mülkiyyət hüququ olmuşdur. Cavabdeh 1 özünə məxsus olan adı çəkilən əmlakları digər cavabdeh olan Cavabdeh 2-yə əqdlərin etibarlı olması üçün qanunda nəzərdə tutulmuş dörd qrup şərt daxilində əqdin

subyektiv tərkibinə aid şərt, əqdin formasına aid şərt, əqdin məzmununa aid şərt və əqddə iradə və iradəni ifadə etmənin vəhdətinə aid edilən şərtlərə əməl etməklə satmışdır. Məhkəmə qeyd edir ki, cavabdeh Cavabdeh 1 ilə digər cavabdeh olan Cavabdeh 2 arasında bağlanmış AN-I seriyalı, ****** nömrəli, 29.05.2018-ci il tarixli, 4Ə-**** reyestr nömrəli, AN-I seriyalı, ******* nömrəli, 26.05.2018-ci il tarixli, 4Ə-*** reyestr nömrəli və AN-I seriyalı, ****** nömrəli, 28.06.2018-ci il tarixli, 4Ə-*** reyestr nömrəli alqı-satqı müqavilələrinin etibarsızlığı üçün qanunla müəyyən edilmiş müqavilənin subyekt tərkibinə, formasına, məzmununa və iradə ifadəsinə dair halların pozulması məhkəmə tərəfindən müəyyən edilmir və iş materiallarına əlavə edilmiş sübutlarla da öz təsdiqini tapmır.

14. Məhkəmə öz qərarını Azərbaycan Respublikası Konstitusiyasının 13 və 29-cu maddələrinə, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 152.1, 152.2, 152.3, 152.4, 324.1, 324.2, 324.4, 337.1, 337.3, 337.4, 340.1, 340.2-ci maddələrinə, "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 337, 339.6, 346.1 və 354-cü maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 02 aprel 2021-ci il tarixli Qərarına, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 14.2, 77.1, 88, 119.1, 217.4 218.1-cü maddələrinə istinad etmişdir.

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

15. İddiaçı apellyasiya şikayəti verərək birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv olunmasını və iddianın təmin edilməsini xahiş etmişdir. Apellyasiya şikayəti iddia ərizəsinə uyğun şəkildə əsaslandırılmışdır.

16. Gəncə Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının (hakimlər Şamil Rzaquliyev - sədrlik edən və məruzəçi, Loğman Süleymanov və Afiq Hüseynzadə) 2(104)-1330/2023 nömrəli, 21.06.2023-cü il tarixli qətnaməsi ilə apellyasiya şikayəti təmin edilməmiş, birinci instansiya məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanmışdır.

17. Apellyasiya məhkəməsi birinci instansiya məhkəməsinin iş üzrə gəldiyi nəticə və əsaslandırma ilə razılaşmışdır.

18. Məhkəmə kollegiyası gəldiyi nəticəni Azərbaycan Respublikası Mülki Məcəlləsinin 337.1, 337.2, 337.3, 337.4, 337.5, 340.1-ci maddələrinə, Azərbaycan Respublikası Ailə Məcəlləsinin 1.4-cü maddəsinə, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 14.2, 77.1, 88, 119.1, 217.2, 217.4, 218.1, 384.0.1, 385.2-ci maddələri ilə əsaslandırmışdır.

Kassasiya şikayətinin və ona qarşı etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

19. İddiaçı (vəkil) kassasiya şikayəti verərək, apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv edilməsini, işin mahiyyəti üzrə baxılması üçün apellyasiya məhkəməsinə göndərilməsini xahiş etmişdir.

20. Kassasiya şikayəti iddia ərizəsi və apellyasiya şikayəti ilə eyni məzmunda əsaslandırılmaqla göstərilmişdir ki, mübahisəli alqı-satqı müqavilələrinin uydurma olması onların imzalanma tarixindən bəllidir. Belə ki, cavabdehlər müqavilələri Azərbaycan Respublikası Ali Məhkəməsinin qərarından bir neçə gün sonra bağlamışdır və bu da cavabdeh Cavabdeh 1-in kassasiya instansiyası məhkəməsinin qətnaməsindən yayınması üçündür. Apellyasiya instansiya məhkəməsinin tərəflər arasında nikah və ailə münasibətlərinin hüquqi baxımdan tənzimlənməsi dövlət tərəfindən həyata keçirildiyi və yalnız müvafiq icra hakimiyyəti orqanında bağlanmış nikah tanındığı hissəsinə yanaşmada iddiaçı bildirmişdir ki, onun işə əlavə etdiyi fotoşəkillər, Cavabdeh 1-in başqa bir iş ilə bağlı verdiyi izahatlar cavabdehlər arasında faktiki nikah olmasa belə onların ər-arvad münasibətində olmalarının sübutudur.

21. Kassasiya şikayəti Azərbaycan Respublikası Mülki Məcəlləsinin 340.1, 560, 560.3.3-cü maddələrinə, Azərbaycan Respublikası Konstitusiyası Plenumunun M. Bağırovun şikayəti üzrə 30 iyul 2008-ci tarixli Qərarına, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 88, 220.4-cü maddələrinə əsaslandırılmışdır.

Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

22. Cavabdeh 1 etiraz edərək kassasiya şikayətinə etiraz edərək onun təmin olunmamasını xahiş etmişdir.

Azərbaycan Respublikasının Konstitusiyası

23. Maddə 60, hissə 1. Hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir.

"İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyası

24. Maddə 6, hissə. 1. Hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsi ilə, ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir.

Tətbiq edilən hüquq

Azərbaycan Respublikasının Mülki Məcəlləsi

25. Maddə 337.1. Bu Məcəllədə müəyyənləşdirilmiş şərtləri pozmaqla bağlanmış əqd etibarsızdır. Etibarsız əqdlər mübahisə edilən əqdlər və ya əhəmiyyətsiz əqdlər ola bilər.

26. Maddə 337.3. Əhəmiyyətsiz əqd məhkəmə tərəfindən etibarsız sayılıb-sayılmamasından asılı olmayaraq özlüyündə etibarsız olan əqddir.

27. Maddə 337.4. Etibarsız əqd onun etibarsızlığı ilə bağlı nəticələr istisna olmaqla, hüquqi nəticələrə səbəb olmur. Bu cür əqd bağlandığı andan etibarsızdır.

28. Maddə 337.5. Əqd etibarsız olduqda, əgər bu Məcəllədə onun etibarsızlığının ayrı nəticələri nəzərdə tutulmayıbsa, tərəflərdən hər biri əqd üzrə aldıqlarının hamısını digər tərəfə qaytarmağa, alınanları eyni ilə qaytarmaq mümkün olmadıqda isə (o cümlədən alınanlar əmlakdan istifadədə, görülmüş işdə və ya göstərilmiş xidmətdə ifadə olunduqda) onun dəyərini pulla ödəməlidir.

29. Maddə 340.1. Uydurma əqd ona uyğun hüquqi nəticələr yaratmaq niyyəti olmadan yalnız görünüş üçün bağlanmış əqddir. Uydurma əqd əhəmiyyətsizdir.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi

30. Maddə 4.1. Bütün fiziki və hüquqi şəxslər özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədi ilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququna malikdirlər.

31. Maddə 14.1. Məhkəmə həqiqətə nail olmaq üçün işin hərtərəfli, tam və obyektiv tədqiqinə lazımi şərait yaradır. Bunun üçün məhkəmə: işdə iştirak edən şəxslərə onların prosessual hüquq və vəzifələrini izah edir, görüləcək, yaxud görülməyəcək hərəkətlərin nəticələri barədə onları xəbərdar edir, onların prosessual hüquqlarının həyata keçməsinə kömək göstərir.

32. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin əsası kimi istinad etdiyi halları sübut etməlidir.

33. Maddə 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir.

34. Maddə 217.1. Məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır.

35. Maddə 217.3. Qətnamə iş üzrə müəyyən edilmiş hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır.

36. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

Kassasiya baxışının hədləri

37. Qanunun tələbinə görə, kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

38. Kassasiya şikayətində qətnamə tam mübahisələndirldiyi üçün apellyasiya instansiyası məhkəməsinin aktı bütövlükdə yoxlanılır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

39. Kassasiya məhkəməsi aşağıdakılara əsasən hesab edir ki, iş üzrə maddi və prosessual hüquq normaları düzgün tətbiq edilməmişdir.

40. Birinci instansiya məhkəməsi alqı-satqı müqavilələrinin etibarsız sayılması barədə iddianı rədd edərkən bir tərəfdən iddiaçının bu tələbi irəli sürməyə subyektiv hüququnun olmadığını bildirmiş, digər tərəfdən əqdlərin etibarsız sayılması üçün əsasların müəyyən edilmədiyini göstərmişdir. Apellyasiya məhkəməsi də bu mövqelərlə razılaşmışdır (§ 12, 13, 18).

41. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu M.Bağırovun şikayəti üzrə 30 iyul 2008-ci il tarixli qərarında vurğulamışdır ki, "apellyasiya instansiyası məhkəməsi ilk növbədə iddia qaldırmış şəxsin müvafiq subyektiv hüquqa malik olub- olmamasını araşdırmalıdır. Subyektiv hüquq üç elementin məcmusu kimi qiymətləndirilə bilər: öz hərəkətlərinə hüquqi ixtiyar; başqa (borclu) şəxslərdən tələb etmək hüququ; müdafiə hüququ. Subyektiv hüququn ikinci və üçüncü elementləri birinci elementin mövcudluğu ilə bağlıdır. Birinci element isə bəzən yalnız qanunla müəyyən olunmuş qaydaya riayət edilməklə yaranır. Belə qaydalara riayət edilmədən subyektiv hüququn digər elementlərinin, yəni başqa şəxslərdən tələb etmək hüququnun və müdafiə hüququnun yaranmasından, eləcə də həyata keçirilməsindən söhbət gedə bilməz".

42. Baxılan işdə iddiaçı Iddiaçı, cavabdehlər Cavabdeh 1 ilə Cavabdeh 2 arasında bağlanmış alqı-satqı müqavilələrinin etibarsız sayılması barədə tələbini onunla əsaslandırır ki, Cavabdeh 1-in ona 53.000 ABŞ dolları məbləğində borcu vardır. Cavabdeh 1 borcun əmlakına yönəldilməsi və məcburi satılması hesabına ödənilməsinin qarşısını almaq məqsədilə formal olaraq mübahisə olunan alqı-satqı müqavilələrini rəsmiləşdirməklə əslində uydurma əqd bağlamışdır.

43. Mülki Məcəllənin 340.1-ci maddəsinə görə uydurma əqd ona uyğun hüquqi nəticələr yaratmaq niyyəti olmadan yalnız görünüş üçün bağlanmış əqddir, uydurma əqd əhəmiyyətsizdir.

44. Normanın məzmunundan göründüyü kimi uydurma əqd, həqiqətdə heç bir hüquqi nəticə (hüquq və öhdəlik) əmələ gətitmək niyyəti olmadan, sırf görünüş üçün bağlanan əqddir. Bu halda əqdin tərəfləri hüquq və öhdəliklər yaratmağı arzu etmir, əksinə belə nəticənin əmələ gəlməməsi barəsində öz aralarında razılığa gəlmiş olurlar. Başqa sözlə, uydurma əqd, bir

qayda olaraq sırf başqalarını (üçüncü şəxsləri) aldatmaq və həqiqətdə olmayan hüquq və öhdəlikləri sanki varmış kimi göstərmək məqsədilə bağlanır.

45. İddiaçı ona istinad edir ki, mübahisə olunan əqdlərin rəsmiləşdirilməsində məqsəd borclunun müqavilələrin predmeti olan əşyaların mülkiyyətçisi kimi görünməməsini təmin etməklə tələbin həmin əmlaka yönəldilmənin qarşısını almaqdır. Belə olan halda, alacağının borclunun əmlakı hesabına ödənilməsi imkanı aradan qalxır və tələbkar kimi hüquqları pozulur.

46. Məhkəmə tərkibi qeyd edir ki, uydurma əqd bir qayda olaraq üçüncü şəxsləri aldatmaq və xarici aləmə həqiqətdə olmayan bir hüquqi vəziyyəti göstərmək məqsədilə bağlandığı üçün bu vəziyyətə görə mənafeyi pozulan hər bir şəxs həmin əqdin etibarsızlığına dair məhkəmədə iddia qaldırmaq hüququna malikdir. Mövcud vəziyyətdə həmin şəxsin subyektiv hüququnun olmaması barədə mövqe məhkəmə müdafiəsi hüququna ziddir.

47. Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin 1-ci hissəsinə əsasən, hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir.

48. "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının 6-cı maddəsinin 1-ci hissəsinə görə, hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsi ilə, ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir.

49. Eyni zamanda, MPM-in 4.1-ci maddəsində nəzərdə tutulmuşdur ki, bütün fiziki və hüquqi şəxslər özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını

qorumaq və təmin etmək məqsədi ilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququna malikdirlər.

50. Göstərilənlərə əsasən kassasiya məhkəməsi bu qənaətə gəlir ki, kreditorun (tələbkarın) borclunun öz əmlakını icradan yayındırmaq məqsədilə bağladığı əqdlərin etibarsız sayılması barədə tələb irəli sürməyə subyektiv hüququ vardır və belə iddia uydurma əqdə dair maddi hüquq normasının dispozisiya şərtləri əsasında həll edilməlidir.

51. Bu zaman məhkəmə məsələyə formal yanaşmamalı, işin düzgün həlli üçün əhəmiyyət kəsb edən halları, o cümlədən mübahisə olunan əqdlərin rəsmiləşdirilməsi ilə hədəflənən hüquqi nəticənin nədən ibarət olmasını, başqa sözlə əqdin tərəflərinin müqavilədə göstərilən hüquqi nəticəni əmələ gətirmək istədiklərini, yoxsa belə nəticə arzulamadan müqavilələrin sadəcə üçüncü şəxslərdə yalnış təsəvvür yaratmaq məqsədilə bağlanmasını, bu konteksdə müqavilələrin rəsmiləşdirildiyi dövrü, alıcının kimliyini və satıcı ilə münasibətlərinin nədən ibarət olmasını, əqdin tərəflərinin müqavilədən əvvəlki və sonrakı davranışlarını, əşyaların alıcının sahibliyinə verilib-verilməməsini, müqavilə bağlandıqdan sonra satıcının bu əşyalar üzərindəki faktiki sahiblik və idarəçiliyinin davam edib-etməməsini və digər xüsusatları aydınlaşdırılmaqla MM-in 340.1-ci şərtləri ilə işin müəyyən olunmuş halları arasında uyğunluğun olub-olmamasına hüquqi qiymət verilməlidir.

52. Baxılan işdə apellyasiya məhkəməsi yuxarıda göstərilən halları nəzərə almamış, sadalanan maddi və prosessual hüquq normalarına uyğun bir araşdırma aparmamış, iddiaçının irəli sürdüyü dəlillərə lazımi şəkildə qiymət verilməmiş, qətnamə iş üzrə müəyyən edilmiş hallara, tərəflərin qarşılıqlı münasibətinə və qanunvericiliyə uyğun əsaslandırılmamışdır (§ 31-35).

53. Nəzərə alınmalıdır ki, məhkəmə aktlarının əsaslandırılmış olması qəbul edilmiş qərarın iş üzrə tərəflərdə qanuni və ədalətli olduğuna inam yaratmaqla yanaşı, ümumilikdə məhkəmə hakimiyyətinə olan etimadın möhkəmlənməsinə xidmət edir. Məhkəmə aktı elə şəkildə tərtib olunmalıdır ki, onun qanuniliyini yoxlayan yuxarı instansiya məhkəməsi ifadə olunmuş qənaətin əsaslı olub-olmadığını, habelə maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilib-edilmədiyini müəyyənləşdirə bilsin.

54. Məhkəmə kollegiyası vurğulayır ki, mübahisəyə yuxarıda göstərilən şəkildə hüquqi qiymət vermədən, aidiyyəti maddi hüquq normalarını yoxlamadan, sadəcə bəzi qanunvericilik normalarını sadalayaraq, səthi və formal mülahizələrlə iddianın həlli barədə qənaəti əks etdirən qətnamə əsaslandırılmış məhkəmə aktı kimi qəbul edilə bilməz. Məhkəmə qərarlarının qanunvericiliyin tələblərinə əməl olunmadan, əsaslandırılmamış qaydada çıxarılması həmin qərarları ədalət mühakiməsinin aktı kimi qəbul etməyə imkan vermir.

55. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarında dəfələrlə qeyd edilmişdir ki, tərəflərin təqdim etdiyi arqumentlərin və sübutların düzgün şəkildə araşdırılmasını təmin etmək milli məhkəmələrin vəzifəsidir (Elsholz Almaniyaya qarşı iş üzrə 2000-ci il 13 iyul tarixli, Blucher Çex Respublikasına qarşı iş üzrə 2005-ci il 11 yanvar tarixli, Van de Hurk Hollandiya qarşı iş üzrə 1994-cü il 19 aprel tarixli qərarlar).

56. Eyni zamanda Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumu qərarlarında vurğulamışdır ki, məhkəmə, özü tərəfindən müəyyən olunmuş işin hallarını və qənaətini formalaşdıran sübutları, bu və ya digər sübutları rədd etmək üçün istinad etdiyi dəlilləri və rəhbər tutduğu qanunları qətnamədə göstərməklə onun hüquqi cəhətdən əsaslandırmalıdır. Məhkəmə sübutları sadalamaqla kifayətlənməməli, hər bir sübutun, o cümlədən şahid ifadələrinin məzmunu qətnamədə şərh edilməli, sübutlar əlaqələndirilməli, araşdırılan sübutların qəbul edilib-edilməməsinin səbəbləri aydın göstərilməlidir. Məhkəmələr tərəfindən qəbul edilmiş qərarlarda həll olunan işə aid bütün zəruri məsələlərə aydınlıq gətirilməli, ziddiyyətli məqamlar aradan qaldırılmalıdır (S.Əliyevanın şikayəti üzrə 31 may 2006-cı il tarixli, N.Əbilovun şikayəti üzrə 13 iyun 2008-ci il tarixli qərarlar).

57. Qeyd olunanları nəzərə alaraq, kassasiya kollegiyası bu qənaətə gəlir ki, apellyasiya məhkəməsinin qətnaməsi ləğv edilməli, iş yeni apellyasiya baxışına göndərilməlidir.

58. Təkrar apelyasiya baxışı zamanı tərəflərin izahatları və dəlilləri dinlənilməli, mübahisəli hallar, habelə bu hallar üzrə sübutetmə yükü düzgün müəyyən edilməklə işin hərtərəfli, tam və obyektiv tədqiqinə lazımi şərait yaradılmalı, təqdim olunmuş sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra onlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verilməli, tərəflərin dəlillərinin hansı səbəbdən qəbul edilib-edilməməsi əsaslandırılmalı, ədalətli məhkəmə araşdırması hüququ təmin olunmaqla mübahisəyə qanunvericiliyə uyğun qaydada yekun hüquqi qiymət verilməlidir.

59.Göstərilənlərə əsasən və MPM-in 416, 417 və 419-cu maddələrini rəhbər tutaraq, Məhkəmə kollegiyası

Qərara aldı:

Kassasiya şikayəti təmin edilsin.

Gəncə Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(104)-1330/2023 nömrəli mülki iş üzrə 21 iyun 2023-cü il tarixli qətnaməsi ləğv edilsin və iş yeni apellyasiya baxışına göndərilsin.

Qərar qətidir və qəbul edildiyi andan qüvvəyə minir.

3. 2(102)-2856/2025 nömrəli, 2025-ci il 4 noyabr tarixli qərar - Müəllifin əmlak hüquqlarını kollektiv əsasla idarə edən təşkilatların subyektiv hüququ və belə tələblərdə sübutetmə yükü

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: "Azərbaycan Müəllifləri" İctimai Birliyi şadlıq saraylarından birinə qarşı mətnli, yaxud mətnsiz musiqili əsərlərin kütləvi nümayişinin qadağan edilməsi, ödənilməmiş müəllif qonorarının və kompensasiyanın tutulması barədə iddia qaldırmışdır.

Cavabdeh iddiaya etirazını belə əsaslandırmışdır ki, iddiaçı bilavasitə hər hansı musiqi ilə bağlı müəlliflik hüquqlarına və bu hüquqların müdafiəsi ilə bağlı subyektiv hüquqa malik deyil, o cümlədən hansı müəlliflərə aid hansı musiqilərin kimlər tərəfindən hansı tarixlərdə müəllif hüquqları pozulmaqla ifa edildiyi göstərilməmiş, tələbin əsası kimi heç bir sübut təqdim edilməmişdir.

Məhkəmələr iddianı rədd edərkən ona əsaslanmışlar ki, iddiaçı hansı müəlliflərin müqavilə əsasında və ya üzv olmaqla özlərinin əmlak hüquqlarının idarəçiliyini birliyə həvalə etməsinə, həmin müəlliflərə aid hansı musiqilərin və ümumilikdə neçə gün ərzində cavabdehə aid ictimai iaşə obyektində (şadlıq evində) ifa edilməsinə dair sübutlar təqdim etməmişdir.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Müəlliflik hüququ və əlaqəli hüquqların sahibləri özlərinin əmlak hüquqlarının idarə olunması səlahiyyətini yazılı müqavilələr bağlamaqla və ya üzv olmaqla sözügedən təşkilatlara verə bilərlər. Odur ki, müəlliflər və əlaqəli hüquqların sahibləri tərəfindən onların əmlak hüquqlarının kollektiv əsasda idarə edilməsi üçün yaradılmış belə təşkilatların öz hüquqlarının idarəçiliyini onlara həvalə etmiş şəxslərin mənafeyi naminə müvafiq işləri görmək (qonoraın məbləğlərini və başqa şərtlərini razılaşdırmaq, istifadəçilərə lisenziya vermək, qonoraı yığmaq, hüquq sahibləri arasında bölüşdürmək, müəlliflik hüquqlarını pozan və ya pozmaq təhlükəsi yaradan hərəkətlərin dayandırılmasını tələb etmək və s.) səlahiyyəti qanunvericilikdə açıqca göstərilmişdir.

Hazırkı iddianı irəli sürən İctimai Birlik Ədliyyə Nazirliyində 2004-cü ildə rəsmi qeydiyyatdan keçmişdir və müvafiq sayda üzvləri vardır. Birliyin fəaliyyət predmeti və məqsədi isə musiqili əsər müəlliflərinin əmlak hüquqlarının təmin edilməsi məqsədilə bu hüquqların kollektiv əsasda idarə edilməsidir. Birliyin nizamnaməsində lisenziya verilən hallarda istifadəçi ilə qonoraın məbləğini və başqa şərtlərini razılaşdırmaq, qonoraı yığmaq, müəlliflik hüquqlarını pozan və ya pozmaq təhlükəsi yaradan hərkətlərin dayandırılmasını tələb etmək, eləcə də məhkəmədə iddiaçı kimi çıxış etmək hüquqları nəzərdə tutulmuşdur. Odur ki, sözügedən birliyin müqavilə bağladığı və ya üzvü olan müəllifləri, yaxud digər hüquq sahiblərini təmsil etmək və onların hüquqlarını müdafiə etmək məqsədilə hazırkı iş üzrə tələbləri irəli sürmək hüquqları vardır.

Sübutetmə yükü ilə bağlı isə qeyd edilmişdir ki, məhkəmə hansı halların sübuta yetirilməli olduğunu təsbit etdikdən sonra həmin halların sübut edilməsi yükünün kimin üzərinə düşdüyünü müəyyən etməlidir. Sübutetmə yükü qanunda xüsusi bir qayda nəzərdə tutulmadığı halda iddia edilən halın mövcudluğuna (baş verməsinə) bağlanan hüquqi nəticədən xeyir görən tərəfə aiddir. Bir qayda olaraq sübutetmə yükü iddiaçının üzərinə düşür. Bununla belə, ümumi qaydanın bəzi istisnaları vardır. Əgər sübutetmə yükü qanunla başqa tərəfin üzərinə qoyulubsa, yaxud şəxs qanuni və ya faktiki prezumpsiyaya, yəni normal bir vəziyyətin əksi olan hala istinad edirsə, sübutetmə vəzifəsi həmin tərəfə aid olur.

Baxılan işdə məhkəmələr müəlliflərə aid hansı musiqilər və ümumilikdə neçə gün ərzində cavabdehə aid ictimai iaşə obyektində ifa edilməsinə dair sübutları təqdim etmək yükünü iddiaçının üzərinə qoymaqda haqlı olmamışlar. Ona görə ki, həmin məlumatlar bir qayda olaraq əsərlərdən istifadə edən tərəfin əlində olduğundan iddiaçının onlara (və ya tamamına) çatımlılığı olmur. Təsadüfi deyil ki, "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanunun 42-ci maddəsinin 2-ci hissəsində əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatların əsərlərdən və əlaqəli hüquqların obyektlərindən istifadə edən şəxslərdən istifadə edilən əsərlər və gəlirləri haqqında müvafiq qaydada təsdiq olunmuş proqram və digər sənədlər almaq hüququ nəzərdə tutulmuşdur.

Eyni zamanda Nazirlər Kabinetinin adıçəkilən Qərarına 4 nömrəli Əlavənin 34-cü bəndinə əsasən, müəllif qonorarının bütün ödəyiciləri ifa olunan əsərlərin dəqiq qeydiyyatını aparmalı və müəlliflərin və əlaqəli hüquq sahiblərinin əmlak hüquqlarının kollektiv əsasda idarə edilməsi üzrə təşkilatın nümayəndəsinə faktiki ifa olunmuş əsərlərin adı, onların müəlliflərinin adı, soyadı və atasının adı (o cümlədən musiqinin, mətn və tərcümənin müəllifləri) haqqında məlumat verməlidirlər.

Qeyd edilənlər ona dəlalət edir ki, faktiki ifa olunmuş əsərlər barədə məlumatları təqdim etmək vəzifəsi onlardan istifadə edən şəxslərin üzərindədir.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-2856/2025

04.11.2025-ci il Bakı şəhəri

Azərbaycan Respublikası adından

Azərbaycan Respublikası Ali Məhkəməsi
Mülki kollegiyasının

İddiaçı “Azərbaycan Müəllifləri” İctimai Birliyinin Cavabdehə qarşı (Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin müstəqil tələb irəli sürməyən üçüncü şəxs qismində cəlb edildiyi) iş üzrə

Q Ə R A R I

(Açar sözlər: müəlliflik hüququ, müəlliflərin əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatlar)

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyası, hakimlər Əliyev Zaur Əli oğlu (məruzəçi), Babayev Zəki Baba oğlu və Baxışova Vüsalə Ələkbər qızından ibarət tərkibdə,

Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 26 may 2025-ci il tarixli, 2(103)-2422/2025 nömrəli qətnaməsindən iddiaçı tərəfindən kassasiya şikayətlərinə Azərbaycan Respublikası Ali Məhkəməsinin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları:

1. "Musiqili Əsər Müəlliflərinin Əmlak Hüquqlarının İdarəçiliyi" İctimai Birliyi xx xx 2004-cü il tarixdə dövlət qeydiyyatına alınmış, sonradan təşkilatın adı dəyişdirilərək "Azərbaycan Müəllifləri" İctimai Birliyi adlandırılmışdır. İctimai Birliyin hazırkı qanuni təmsilçisi X1dir.

İş üzrə qəbul edilmiş məhkəmə aktları:

a) Birinci instansiya məhkəməsində icraat

2. İddiaçı "Azərbaycan Müəllifləri" İctimai Birliyi iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, Cavabdehə XXX restoranında, şadlıq sarayında mətnli, yaxud mətnsiz musiqili əsərlərin kütləvi nümayişinin qadağan edilməsi, ödənilməmiş müəllif qonoraı olaraq 36550 manat, kompensasiya olaraq 35000 manat məbləğində pulun cavabdehdən iddiaçının xeyrinə tutulması barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

3. İddia ərizəsi onunla əsaslandırılmışdır ki, "Musiqili Əsər Müəlliflərinin Əmlak Hüquqlarının İdarəçiliyi" İctimai Birliyi xx xx 2004-cü il tarixindən müəlliflərin əmlak hüquqlarının kollektiv əsasda idarəçiliyi sahəsində fəaliyyət göstərir. 30 dekabr 2008-ci il tarixində İB-in nizamnaməsində dəyişiklik edilmiş və "Azərbaycan Müəllifləri" adı altında Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin qeyri-kommersiya qurumlarının dövlət reyestrində yenidən qeydiyyata alınmışdır. İddiaçı Ümumdünya Bəstəkar və Müəllif Təşkilatları Beynəlxalq Konfederasiyasının (SIZAK) dinləyicisidir. Müəllif-hüquq qanunvericiliyinin beynəlxalq pozulmasının qarşısının alınması ilə əlaqədar iddiaçı xarici dövlətlərdə fəaliyyət göstərən ictimai birliklərlə ikitərəfli müqavilələr imzalamışdır, o cümlədən Rusiya Federasiyasının "Rusiya Müəlliflər Cəmiyyəti" (RAO), Türkiyənin "MESAM" Cəmiyyəti, Belarus, Latviya, Litva, Estoniya və s. dövlətlərin müəllif təşkilatları ilə müqavilələr bağlamışdır. Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən bir çox iaşə obyektləri, konsert müəssisələri, televiziya və radio yayım müəssisələri iddiaçı ilə müqavilə bağlayaraq lisenziya ödənişləri ödəyir, ictimai birlik isə öz növbəsində müəlliflərə ödənişlər edir. Müəlliflərin əmlak hüquqlarının təmin edilməsi məqsədilə iddiaçı tərəfindən cavabdeh XXX restoran, şadlıq sarayı rəhbərliyinə rəsmi olaraq xx.xx.2023-cü il tarixli məktubla müraciət təqdim olunmasına baxmayaraq, bu günə qədər cavab verilməmişdir. Dəfələrlə telefon əlaqələrində isə qonorar ödənişlərindən imtina edilmişdir. Nəticə etibarilə, cavabdeh hal-hazırda müəllif hüququ və əlaqəli hüquqlar haqqında qanunvericiliyin müddəalarını pozmaqla musiqi əsərlərindən qanunsuz istifadə etməklə fəaliyyət göstərir. Bu fəaliyyəti nəticəsində müəllif cəmiyyətinə, pandemiyadan sonrakı keçən 42 ay ərzindətoy şənliklərində istifadə olunan musiqilər üçün 25800 manat, restoran fəaliyyətində isə 10750 manat (vergi və sosial ödənişlər daxil olmaqla) ziyan dəymişdir.

4. Cavabdeh iddiaya etiraz edərək bildirmişdir ki, iddiaçı bilavasitə hər hansı musiqi ilə bağlı müəlliflik hüquqlarına və bu hüquqların müdafiəsi ilə bağlı subyektiv hüquqa malik deyil. İddia ərizəsində hansı müəlliflərə aid, hansı musiqilərin, kimlər tərəfindən, hansı tarixlərdə müəllif hüquqları pozulmaqla ifa edildiyi göstərilməmiş, tələbin əsası kimi heç bir sübut ərizəyə

əlavə edilməmişdir. İddiaçı qeyrimüəyyən müəlliflərin hüquqlarının qorunması ilə bağlı qanuna, müqaviləyə, yaxud etibarnaməyə əsasən müvəkkil edilməmişdir.

5. Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin (hakim Fərid Hətəmzadə) 2(001)1197/25 nömrəli, 03 fevral 2025-ci il tarixli qətnaməsi ilə iddia rədd edilmişdir.

6. Məhkəmə qeyd etmişdir ki, müəlliflərin əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatlar yalnız könüllü olaraq təşkilatla yazılı müqavilələr bağlamaqla və ya təşkilata üzv olmaqla özlərinin əmlak hüquqlarının idarəçiliyini onlara həvalə etmiş müəlliflərin əmlak hüquqlarının kollektiv əsasda idarə edilməsi səlahiyyətinə malikdirlər və yalnız belə halda müəllifləri təmsil edə və hüquqlarının müdafiəsi məqsədi ilə məhkəməyə müraciət edə bilərlər. İş üzrə sübut etmə yükü iddiaçının üzərinə düşür və məhz o, sübut etməlidir ki, hansı müəlliflər müqavilə əsasında və ya üzv olmaqla özlərinin əmlak hüquqlarının idarəçiliyini birliyə həvalə etmişlər; həmin müəlliflərə aid hansı musiqilər və ümumilikdə neçə gün ərzində cavabdehə aid ictimai iaşə obyektində (şadlıq evində) ifa edilmişdir. İddiaçı isə, qeyd edilənlərə dair nəinki sübutlar təqdim etməmiş, iddia ərizəsində bu xüsusatları ümumiyyətlə əsaslandırmamışdır.

7. Məhkəmə öz mövqeyini "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun 6, 15, 30, 40, 41-ci, Mülki Prosessual Məcəllənin 14.2, 217.4-cümaddələrinə istinadla əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsində icraat

8. İddiaçı birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv edilməsini və iddianın təmin olunmasını xahiş etmişdir.

9. Apellyasiya şikayəti onunla əsaslandırılmışdır ki, iddiaçı tərəfindən cavabdehin müəllif hüquqlarını pozaraq musiqi əsərlərindən icazəsiz istifadə etdiyi faktı sübut edilmişdir. Məhkəmə tərəfindən tələb olunan detallı sübutlar (müəyyən müəlliflərin əsərlərinin neçə gün ifa edildiyi) praktiki olaraq mümkün deyil və bu, müəllif hüquqlarının müdafiəsi məqsədilə ziddiyyət təşkil edir. Qanun və qərarlarda iddiaçının hakim tərəfindən tələb etdiyi formada sübut etmə öhdəliyi qeyd olunmamışdır. Əksinə, Nazirlər Kabinetinin 38 saylı qərarının Əlavə 4, 34-cü bəndində hakimin istinad etdiyi məlumatların istifadəçilər tərəfindən birliyə verilməsi göstərilmişdir. Məhkəmə, "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanunun 15-ci, 41-ci, 42-ci, 43-cü, 44-cü və 45-ci maddələrinə əsasən, müəllif hüquqlarının kollektiv idarəedilməsi prinsipini nəzərə almamışdır (hakim qətnamədə 41, 44, 45-ci maddələrə münasibət bildirməmişdir). Məhkəmə qərarında "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanunun 15-ci, 42-ci, 43-cü maddələri və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 02 may 1997-ci il tarixli 38 saylı Qərarı əsas götürülməmişdir.

10. Üçüncü şəxsin nümayəndəsi məhkəmə kollegiyasının iclasında izahat verərərk bildirmişdir ki, "Azərbaycan Müəllifləri" İctimai Birliyi ona üzv olan müəlliflərin hüquqlarının müdafiəsi ilə bağlı restoranlara, şadlıq saraylarına və son nəticədə məhkəməyə müraciət edə bilər. Həmin restoranlar və şadlıq sarayları ilə Birlik arasında müqavilə bağlanmalı, həmin müəssisələr istifadə olunan müəllif əsərləri barədə müvafiq hesabat verməlidirlər. Birlik üzv olan müəlliflərin adından iddia qaldıra bilər. Həmçinin, Birliklə müəlliflər arasında müqavilə bağlanmalıdır.

11. Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının (hakimlər Akif İsgəndərov sədrlik edən və məruzəçi, Səadət Səlimova və Məhəmməd Rüstəmli) 26 may 2025-ci il tarixli, 2(103)-2422/2025 nömrəli qətnaməsi ilə iddiaçı "Azərbaycan Müəllifləri" İctimai Birliyinin apellyasiya şikayəti təmin edilməmiş, Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin 03 fevral 2025-ci il tarixli qətnaməsi dəyişdirilmədən saxlanılmışdır.

12. Belə ki, qanunvericilik sübutlar təqdim edilməsi və sübut edilməsi vəzifəsini hər bir tərəfin öz üzərinə qoymuş, öz zərərinə olan hər hansı sübutun təqdim edilməli olması şərt kimi nəzərdə tutulmamışdır.
13. Məhkəmə kollegiyasının qənaətinə görə müəlliflərin əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatlar yalnız könüllü olaraq təşkilatla yazılı müqavilələr bağlamaqla və ya təşkilata üzv olmaqla özlərinin əmlak hüquqlarının idarəçiliyini onlara həvalə etmiş müəlliflərin əmlak hüquqlarının kollektiv əsasda idarə edilməsi səlahiyyətinə malikdirlər və yalnız belə halda müəllifləri təmsil edə və hüquqlarının müdafiəsi məqsədi ilə məhkəməyə müraciət edə bilərlər.
14. Hazırkı işdə iddiaçı hansı müəlliflərin müqavilə əsasında və ya üzv olmaqla özlərinin əmlak hüquqlarının idarəçiliyini birliyə həvalə etməsi, həmin müəlliflərə aid hansı musiqilər və ümumilikdə neçə gün ərzində cavabdehə aid ictimai iaşə obyektində (şadlıq evində) ifa edilməsinə dair məhkəməyə sübutlar təqdim etməmişdir.
15. Qeyd olunanlara əsasən məhkəmə kollegiyası hesab etmişdir ki, birinci instansiya məhkəməsi iddianı rədd etməklə mübahisənin faktiki halları, tərəflərin qarşılıqlı münasibətləri və tətbiq edilməli olan hüquqla bağlı düzgün nəticəyə gəlmişdir. Apellyasiya şikayətinin dəlilləri qətnamənin ləğvi üçün əsas təşkil etmir.
16. Məhkəmə kollegiyası apellyasiya şikayətinin dəlillərini formal mülahizə xarakterli dəlillər sayaraq hesab etmişdir ki, MPM-nin 385.2-ci maddəsinin tələbinə əsasən həmin dəlillər faktlar nöqteyi-nəzərindən qanuni və əsaslı, mahiyyəti üzrə düzgün olan qətnamənin ləğvi üçün əsas ola bilməz.
17. Məhkəmə öz mövqeyini "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun 6, 15, 30, 40, 41-ci, Mülki Prosessual Məcəllənin 14.2, 77.1, 78.1, 217.4-cü maddələrinə istinadla əsaslandırmışdır.

Kassasiya şikayətinin və ona etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

18. İddiaçı "Azərbaycan Müəllifləri" İctimai Birliyi kassasiya şikayəti verərək apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv edilməsi və cavabdehin istifadəsində olan XXX restoran, şadlıq sarayında mətnli və ya mətnsiz musiqi əsərlərinin kütləvi nümayişi qadağan edilməsi, cavabdehdən ödənilməmiş müəllif qonoraro olaraq 36550 manat və kompensasiya olaraq 35000 manat məbləğində pul iddiaçının xeyrinə tutulmasını xahiş etmişdir.
19. Kassator şikayətini onunla əsaslandırmışdır ki, apellyasiya instansiya məhkəməsi formal və şəxsi mülahizələrlə çıxış etmişdir, qərarda istinad edilmiş qanunvericilik normaları düzgün təfsir edilməmiş və qəbul edilmiş müvafiq qərar məhkəmə tərəfindən qanuna müvafiq qaydada tam və düzgün əsaslandırılmamışdır. Belə ki, ifa olunan əsərlər və onların müəllifləri barədə məlumatı təqdim etmək istifadəçinin – cavabdehin vəzifəsidir. Apellyasiya instansiyası məhkəməsi iddiaçının təqdim etdiyi sübutları nəzərə almamış, əksinə, cavabdehin mülahizə xarakterli dəlillərinə istinad edərək iddianı təmin etməmişdir.
20. Kassator şikayətini Azərbaycan Respublikasının Konstitusiyasının 60 , 129-cu madəsinin III hissəsinin tələblərini, "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanununun 15-ci, 44-47-ci maddələri, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 may 1997-ci il tarixli 38 nömrəli qərarı ilə təsdiq edilmiş "Ədəbiyyat və incəsənət əsərlərinin kütləvi ifasına görə müəllif qonorarının minimum miqdarı" adlanan 3 nömrəli Əlavəsinin 31-ci və 32-ci bəndlərinə istinad etməklə əsaslandırmışdır.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

21. Cavabdeh kassasiya şikayətinə etiraz edərək onun təmin edilməməsini, Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 26 may 2025-ci il tarixli, 2(103)-2422/2025 nömrəli qətnaməsinin dəyişdirilmədən saxlanılmasını xahiş etmişdir.

Tətbiq edilən hüquq:

Azərbaycan Respublikasının Konstitusiyası:

22. Maddə 30, I hissə. Hər kəsin əqli mülkiyyət hüququ vardır.

23. Maddə 30, II hissə. Müəlliflik hüququ, ixtiraçılıq hüququ və əqli mülkiyyət hüququnun başqa növləri qanunla qorunur.

24. Maddə 60, hissə 1. Hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir.

«İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında» Avropa Konvensiyası:

25. Maddə 6, hissə. 1. Hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsi ilə, ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir.

“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikasının Qanunu:

26. Maddə 6, hissə 1. Mətnli və ya mətnsiz musiqi əsərləri müəlliflik hüququnun obyektləridir.

27. Maddə 15, hissə 2. Müəllifin özünün qonorardan imtina etdiyi hal və bu qanunla müəyyən edilmiş məhdudiyyətlər istisna olmaqla əsərdən istifadəyə görə müəllif qonoraro ödənilməlidir.

28. Maddə 15, hissə 4. Müəllifin əsərdən istifadənin hər növünə görə müəllif qonoraro almaq hüququ vardır (qonorar almaq hüququ). Bu qonoraron həcmi və hesablanması qaydası müəlliflərlə (hüquq sahibləri ilə) istifadəçilər arasında bağlanmış müəllif müqaviləsi və ya müəlliflərin verdikləri səlahiyyətlər həcmində əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatlarla istifadəçilər arasında bağlanmış müqavilələrlə müəyyən edilir.

29. Maddə 41, hissə 1. Müəlliflərin və əlaqəli hüquqların sahiblərinin əmlak hüquqlarının təmin edilməsini fərdi qaydada həyata keçirmək praktik olaraq mümkün olmadıqda (kütləvi ifa, o cümlədən radio və televiziyada; mexaniki, maqnit və s. yazılma üsulu ilə surətçıxarma, reprosurətçıxarma və başqa hallar) müvafiq qanunvericiliyə uyğun olaraq göstərilən şəxslərin əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatlar yaradıla bilər. Onlar müvafiq qaydada dövlət qeydiyyatına alınırlar.

Həmin təşkilatlara qanunvericiliklə mədəniyyət təşkilatlarına verilən güzəştlər şamil edilir.

30. Maddə 41, hissə 2. Müxtəlif hüquqlar və hüquq sahiblərinin müxtəlif kateqoriyaları üzrə ayrı-ayrı təşkilatların, yaxud bir kateqoriyadan olan hüquq sahiblərinin müxtəlif hüquqlarını və ya müxtəlif kateqoriyadan olan hüquq sahiblərinin bir növ hüquqlarını idarə edən təşkilatların yaradılmasına yol verilir.

Belə təşkilatlara əmlak hüquqlarını kollektiv əsasda idarə etmək səlahiyyətini bilavasitə müəlliflik hüququnun və əlaqəli hüquqların sahibləri könüllü olaraq yazılı müqavilələr əsasında və ya bu təşkilatlara üzv olmaqla verirlər.

Əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatlar yalnız qanunvericilikdə nəzərdə tutulan qaydada özlərinin əmlak hüquqlarının idarəçiliyini onlara həvalə etmiş müəllifləri və ya digər hüquq sahiblərini təmsil edirlər və onların hüquqlarının müdafiəsi məqsədi ilə məhkəməyə və ya digər təşkilatlara müraciət edə bilərlər.

31. Maddə 42, hissə 1. Əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatlar öz səlahiyyətlərinə uyğun olaraq aşağıdakı funksiyaları həyata keçirir:

1)lisenziya verilən hallarda istifadəçi ilə qonoraron məbləğlərini və başqa şərtləri razılaşdırır;

2)idarə edilməsi ilə məşğul olduğu hüquqlardan istifadə üçün istifadəçilərə lisenziya verir;

3)lisenziya vermədən qonorar yığılması ilə məşğul olduğu hallarda (bu Qanunun 12-ci maddəsinin 4-cü hissəsi, 17-ci maddəsinin 3-cü hissəsi və 37-ci maddəsinin 1ci hissəsi) istifadəçilərlə qonoraron məbləğlərini razılaşdırır;

4)lisenziya üzrə və (və ya) bu hissənin 3-cü bəndində nəzərdə tutulmuş qonoraro yığır;

5)yığılmış qonoraro onun təmsil etdiyi müəlliflik hüququnun və əlaqəli hüquqların sahibləri arasında bölüşdürür və ödəyir;

6)idarə etdiyi hüquqların qorunması üzrə vacib olan digər hüquqi hərəkətləri edir;

7)müəlliflik hüququnun və əlaqəli hüquqların sahiblərinin verdiyi səlahiyyətlərə uyğun olaraq digər işləri həyata keçirir.

32. Maddə 42, hissə 2. Əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatların əsərlərdən və əlaqəli hüquqların obyektlərindən istifadə edən şəxslərdən istifadə edilən əsərlər və gəlirləri haqqında müvafiq qaydada təsdiq olunmuş proqram və digər sənədlər almaq, həmçinin müəyyən olunmuş müddətdə qonoraro ödəməyi tələb etmək hüququ vardır.

33. Maddə 44, hissə 1. Müəlliflik hüququnun və əlaqəli hüquqların sahibləri, habelə müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum və əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatlar müəlliflik hüquqlarını və əlaqəli hüquqları pozan və ya pozmaq təhlükəsi yaradan hərəkətlərin dayandırılmasını tələb etmək hüququna malikdirlər.

34. Maddə 45, hissə 2. Məhkəmə müəlliflik hüququ və əlaqəli hüquqlar ilə əlaqədar mübahisələrə baxarkən mülki-hüquqi müdafiənin ümumi vasitələrindən başqa iddiaçının tələbi ilə aşağıdakılar barədə qərar qəbul edə bilər:

1) zərərin ödənilməsi əvəzinə pozuntuya yol verən şəxsdən müəlliflik hüququnun və əlaqəli hüquqların pozulması nəticəsində əldə etdiyi gəlirin tutulması;

2) zərərin ödənilməsi və ya gəlirin tutulması əvəzinə 110 manatdan 55 min manatadək məbləğdə kompensasiya ödənilməsi;

35. Maddə 45, hissə 4. Məhkəmə hüquq pozuntusu faktı sübut edildiyi halda vəkilə ödənilən haqq da daxil olmaqla hüquq sahibinin çəkdiyi ağlabatan xərclərin ödənilməsi barədə qərar çıxarmaq hüququna malikdir. Məhkəmə, həmçinin, hüquq pozuntusuna yol vermiş şəxsin bunu bilib-bilməməsindən asılı olmayaraq pozuntulara görə həmin şəxsin müəllifə (digər hüquq sahibinə) və ya əlaqəli hüquqların sahibinə kompensasiya ödəməsi barədə qərar çıxara bilər.

36. Maddə 45, hissə 5. Müəllifin və ya əlaqəli hüquqların sahibinin hüquq pozuntusuna yol verən şəxsdən kompensasiya ilə yanaşı, ona məxsus olan əsərdən və ya digər əqli mülkiyyət hüququ obyektindən normal istifadə zamanı əldə edə biləcəyi qonoraron ödənilməsini də tələb etmək hüququ vardır.

37. Maddə 47. Bu Qanunla nəzərdə tutulmuş müəlliflik hüququnun və əlaqəli hüquqların pozulmasına görə Azərbaycan Respublikası qanunvericiliyinə uyğun mülki, inzibati və cinayət məsuliyyəti nəzərdə tutulur.

“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı məsələlər haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı.

Əlavə 2 - Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi Müəllif müqaviləsi:

38. Bənd 5.2. Əsərlərin kütləvi ifasına, o cümlədən radio və televiziyada, mexaniki, maqnit və s. yazılma ilə surətçıxarmaya, reprosurətçıxarmaya və başqa istifadə üsullarına

görə müəllif qonorarının yığılması qanunvericiliyə görə müəllif(lər)in qanuni mənafelərini təmsil edən əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilat tərəfindən həyata keçirilir. Qanunvericilikdə nəzərdə tutulan hallarda müəlliflərin və digər hüquq sahiblərinin əmlak hüquqlarının kollektiv əsasda idarə edilməsi funksiyasını Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi (bundan sonra - Agentlik) yerinə yetirir.

39. 5.3. Müəllif qonorarının ödəyicisi olan bütün istifadəçi təşkilatlar müəllif(lər)dən və ya onların hüquqi varislərindən, yaxud müəlliflərin əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatdan icazə (lisenziya) almalıdırlar. Qanunvericilikdə nəzərdə tutulan hallarda müəlliflərin və digər hüquq sahiblərinin əmlak hüquqlarının kollektiv əsasda idarə edilməsi funksiyasını Agentlik yerinə yetirir.

Əlavə 3 - Ədəbiyyat və incəsənət əsərlərinin kütləvi ifasına görə müəllif qonorarının minimum miqdarı:

40. Bənd 31.Mətnli, yaxud mətnsiz musiqili əsərlərin tabeçiliyindən və mülkiyyət formasından asılı olmayaraq bütün klublarda, barlarda, gecə barlarında, kafelərdə, restoranlarda və digər ictimai yerlərdə (istər artist-ifaçıların ifasında, istərsə də mexaniki yazma şəklində) kütləvi ifasına görə (toy mərasimləri və konsert tədbirləri istisna olmaqla) bir hesabat ayı üçün Bakı, Sumqayıt və Gəncə şəhərləri üzrə 60 manat, digər şəhər və rayonlar üzrə 50 manat;

41. Bənd 32.Mətnli, yaxud mətnsiz musiqili əsərlərin tabeçiliyindən və mülkiyyət formasından asılı olmayaraq şadlıq evlərində, kafelərdə və restoranlarda (toy mərasimlərində) kütləvi ifasına görə Sumqayıt və Gəncə şəhərləri üzrə 25 manat, digər şəhər və rayonlar üzrə 20 manat.

Əlavə 4 - Ədəbiyyat və incəsənət əsərlərinin kütləvi ifasına görə müəllif qonorarının dərəcələrindən istifadə və müəllif qonorarının hesablanması və ödənilməsi qaydaları:

42. Bənd 1. Əsərlərin və proqramların kütləvi ifasına, kütləvi nümayişinə və radioteleviziya verilişləri vasitəsi ilə efir ifasına görə Azərbaycan dövlətinin ərazisində həmin fəaliyyət növü ilə məşğul olan tabeçiliyindən və mülkiyyət formasından asılı olmayaraq bütün hüquqi və fiziki şəxslər müəllif qonoraı ödəyirlər.

Müəllif qonorarının bu qərarla müəyyən edilmiş miqdarları minimum məbləğ sayılır və istifadəçi ilə müəllif və ya onun hüquqi varisi, yaxud əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilat arasında bağlanılmış müqavilədə başqa məbləğ müəyyən edilmədikdə və qonoraın miqdarı tərəflərin mübahisəsinə səbəb olmadıqda tətbiq edilir.

43. Bənd 2. Müəlliflik hüququ ilə qorunan və qorunmayan əsərlərdən ibarət olan konsert, şou və s. proqramların (o cümlədən dram əsərlərini müşayiət edən musiqinin) kütləvi ifasına görə müəllif qonoraı 3 saylı Əlavədə nəzərdə tutulmuş tarif dərəcələrinə uyğun qaydada tam həcmdə hesablanır.

44. Bənd 32. Əsərlərin kütləvi ifasına, o cümlədən radio və televiziyada, mexaniki, maqnit və s. yazılma üsulu ilə surətçıxarmaya, reprosurətçıxarmaya və başqa istifadə üsullarına görə müəllif qonorarının yığılması qanunvericiliyə görə müəllif(lər)in qanuni mənafelərini təmsil edən əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilat tərəfindən həyata keçirilir. Qanunvericilikdə nəzərdə tutulan hallarda müəlliflərin və digər hüquq sahiblərinin əmlak hüquqlarının kollektiv əsasda idarə edilməsi funksiyasını Agentlik yerinə yetirir.

45. Bənd 33. Müəllif qonorarının ödəyicisi olan bütün istifadəçi təşkilatlar müəllif(lər)dən və ya onların varislərindən, yaxud müəlliflərin əmlak hüquqlarını kollektiv əsasla idarə edən təşkilatdan icazə (lisenziya) almalıdırlar. Qanunvericilikdə nəzərdə tutulan hallarda müəlliflərin və digər hüquq sahiblərinin əmlak hüquqlarının kollektiv əsasda idarə edilməsi funksiyasını Agentlik yerinə yetirir.

46. Bənd 34. Müəllif qonorarının bütün ödəyiciləri ifa olunan əsərlərin dəqiq qeydiyyatını aparmalı və müəlliflərin və əlaqəli hüquq sahiblərinin əmlak hüquqlarının kollektiv əsasda idarə edilməsi üzrə təşkilatın və (və ya) qanunvericilikdə nəzərdə tutulan hallarda müəlliflərin və digər hüquq sahiblərinin əmlak hüquqlarının kollektiv əsasda idarə edilməsi funksiyasını yerinə yetirən Agentliyin nümayəndəsinə faktiki ifa olunmuş əsərlərin adı, onların müəlliflərinin adı, soyadı və atasının adı (o cümlədən musiqinin, mətn və tərcümənin müəllifləri) haqqında, həmçinin yığılan pulun məbləği (pullu girişdə), müqavilə üzrə təminatlı ödənişin məbləği (pulsuz giriş), rəqs meydançalarında musiqinin ifası zamanı isə ifaçılara çatacaq əmək haqqının miqdarı barədə məlumat verməlidirlər.

47. Bənd 35. Hesabat ayı başa çatandan sonra ödəyici 10 gün müddətində əsərlərdən istifadəyə görə müəllif qonorarının miqdarını özündə əks etdirən hesab vərəqlərini və ifa proqramını tələb olunan qaydada 3 nüsxədə tərtib edib, imza və möhürlə təsdiqləyəndən sonra onun 1 nüsxəsini özündə saxlamalı, iki nüsxəsini isə müəlliflərin və əlaqəli hüquq sahiblərinin əmlak hüquqlarının kollektiv əsasda idarə edilməsi üzrə təşkilatın və (və ya) qanunvericilikdə nəzərdə tutulan hallarda müəlliflərin və digər hüquq sahiblərinin əmlak hüquqlarının kollektiv əsasda idarə edilməsi funksiyasını yerinə yetirən Agentliyin nümayəndəsinə təqdim etməlidir. Hesab vərəqələrinin və ifa proqramının düzgün tərtib edilməməsinə və ya vaxtında təhvil verilməməsinə görə ödəyici təşkilatın rəhbərliyi mövcud qanunvericiliyə uyğun surətdə məsuliyyət daşıyır.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi:

48. Maddə 14.1. Məhkəmə həqiqətə nail olmaq üçün işin hərtərəfli, tam və obyektiv tədqiqinə lazımi şərait yaradır. Bunun üçün məhkəmə: işdə iştirak edən şəxslərə onların prosessual hüquq və vəzifələrini izah edir, görüləcək, yaxud görülməyəcək hərəkətlərin nəticələri barədə onları xəbərdar edir, onların prosessual hüquqlarının həyata keçməsinə kömək göstərir.

49. Maddə 76.1 Tərəflərin tələb və etirazlarını əsaslandıran halların və işi düzgün həll etmək üçün əhəmiyyəti olan başqa halların mövcud olduğunu və ya olmadığını məhkəmə müəyyən edərkən bu Məcəllədə və başqa qanunlarda müəyyən olunmuş qaydada əldə etdiyi məlumatlar sübutlar hesab olunur.

50. Maddə 76.2 Məlumatlar yazılı və maddi sübutlara, ekspertlərin rəyləri ilə, yerində müayinə keçirməklə, səs və video yazıları ilə, şahidlərin ifadələri ilə, işdə iştirak edən şəxslərin izahatları ilə müəyyən edilir.

51. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin və etirazının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

52. Maddə 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

53. Maddə 217.1. Məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır.

54. Maddə 217.3. Qətnamə iş üzrə müəyyən edilmiş hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır.

55. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

Kassasiya baxışının hədləri:

56. Qanunun tələbinə görə, kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş

materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

57. Kassasiya şikayətində qətnamə tam mübahisələndirildiyindən apellyasiya instansiyası məhkəməsinin aktı bütövlükdə yoxlanılır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

58. Baxılan işdə mübahisə müəlliflik hüquqlarının qorunması və pozulmuş hüquqların bərpası barədədir.

59. Belə ki, "Azərbaycan Müəllifləri" İctimai Birliyi iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, XXX şadlıq sarayında mətnli, yaxud mətnsiz musiqili əsərlərin kütləvi nümayişinin qadağan edilməsi, ödənilməmiş müəllif qonorarının və kompensasiyanın Cavabdehndan tutulmasını tələb edir. İddiaçı tələblərinin əsası kimi ona istinad etmişdir ki, birlik 31 mart 2004-cü il tarixindən müəlliflərin əmlak hüquqlarının kollektiv əsasda idarəçiliyi sahəsində fəaliyyət göstərir, Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır. Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən bir çox iaşə obyektləri onunla müqavilə bağlayaraq lisenziya ödənişləri ödəyir, birlik isə öz növbəsində müəlliflərə ödənişlər edir. Cavabdeh XXX restoranı, şadlıq sarayı rəhbərliyinə 25.05.2023-cü il tarixdə yazılı müraciət etməsinə baxmayaraq ona cavab verməmişdir (§ 2-3).

60. Cavabdeh isə iddiaya etiraz edərək bildirmişdir ki, iddiaçı bilavasitə hər hansı musiqi ilə bağlı müəlliflik hüquqlarına və bu hüquqların müdafiəsi ilə bağlı subyektiv hüquqa malik deyil, hansı müəlliflərə aid, hansı musiqilərin, kimlər tərəfindən, hansı tarixlərdə müəllif hüquqları pozulmaqla ifa edildiyi göstərilməmiş, tələbin əsası kimi heç bir sübut ərizəyə əlavə edilməmişdir (§ 4).

61. İşə mahiyyəti üzrə baxan məhkəmələr iddianı rədd edərkən mövqelərini belə əsaslandırmışlar ki, iddiaçı hansı müəlliflərin müqavilə əsasında və ya üzv olmaqla özlərinin əmlak hüquqlarının idarəçiliyini birliyə həvalə etməsi, həmin müəlliflərə aid hansı musiqilər və ümumilikdə neçə gün ərzində cavabdehə aid ictimai iaşə obyektində (şadlıq evində) ifa edilməsinə dair sübutlar təqdim etməmişdir (§ 6, 14).

62. Kassasiya instansiyası məhkəməsi aşağıdakılara əsasən hesab edir ki, iş üzrə maddi və prosessual hüquq normaları düzgün tətbiq edilməmişdir.

63. Müəlliflik hüququ, elm, ədəbiyyat, musiqi, incəsənət və digər sahələrdə fikir və yaradıcılıq məhsulu olan, obyektiv formada ifadə edilmiş əsərlərin müəllifinə həmin əsərin yaradıldığı andan məxsus olan şəxsi (qeyri-əmlak) və əmlak hüquqlarının məcmusudur. Əşya hüquqlarından fərqli olaraq, konkret bir əşya üzərində qurulmayan (bəlli bir maddi varlığa sahib olmayan) müəlliflik hüququnun obyektləri yazı, cizgi, naxış, not, səs, rəng kompozisiyası və s. kimi obyektiv şəkillərdə mövcud olur. Yaranması və həyata keçirilməsi üçün qeydiyyatı, yaxud başqa üsulla rəsmiləşdirilməsi tələb olunmayan, qanunun müəyyən etdiyi müddət(lər)də qüvvədə olan, istifadə olunduqca tükənməyən, başqasına verilə bilən, vərəsəlik qaydasında keçən bu hüquq, onu pozan hər kəsə qarşı irəli sürülə bilməsi baxımından da mütləq xarakterə malikdir.

64. Müəlliflik hüququ Azərbaycan Respublikasında konstitusion səviyyədə təminat altına alınmışdır. Konstitusiyanın 30-cu maddəsində bəyan edilir ki, hər kəsin əqli mülkiyyət hüququ vardır. Müəlliflik hüququ, ixtiraçılıq hüququ və əqli mülkiyyət hüququnun başqa növləri qanunla qorunur (§ 22-23).

65. Eyni zamanda əqli mülkiyyət sahəsində yaranan münasibətlər xüsusi normativ hüquqi aktlarla, o cümlədən "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Həmin Qanunun 14, 15, 44-cü və digər maddələrinə

əsasən, müəllifin şəxsi (qeyri-əmlak), əmlak (iqtisadi) hüquqları, o cümlədən əsərdən istifadənin hər növünə görə müəllif qonoraro almaq hüququ vardır (qonorar almaq hüququ). Bu qonoraro həcmi və hesablanması qaydası müəlliflərlə (hüquq sahibləri ilə) istifadəçilər arasında bağlanmış müəllif müqaviləsi və ya müəlliflərin verdikləri səlahiyyətlər həcmində əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatlarla istifadəçilər arasında bağlanmış müqavilələrlə müəyyən edilir. Müəlliflik hüququnun və əlaqəli hüquqların sahibləri, habelə müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum və əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatlar müəlliflik hüquqlarını və əlaqəli hüquqları pozan və ya pozmaq təhlükəsi yaradan hərəkətlərin dayandırılmasını tələb etmək hüququna malikdirlər (§ 27-28, 33).

66. Qeyd edilən müəlliflik hüquqlarının qorunması həmin hüququn sahibləri tərəfindən həyata keçirilə bilər. Bununla yanaşı onların əmlak mənafelərinin fərdi qaydada müdafiəsi mümkün olmadığı hallarda bu hüquqların kollektiv əsasda fəaliyyət göstərən təşkilatlar tərəfindən də qorunması imkanı qanunvericilikdə nəzərdə tutulmuşdur.

67. Adıçəkilən Qanunun 41-ci maddəsinə əsasən, müəlliflərin və əlaqəli hüquqların sahiblərinin əmlak hüquqlarının təmin edilməsini fərdi qaydada həyata keçirmək praktik olaraq mümkün olmadıqda (kütləvi ifa, o cümlədən radio və televiziyada; mexaniki, maqnit və s. yazılma üsulu ilə surətçıxarma, reprosurətçıxarma və başqa hallar) müvafiq qanunvericiliyə uyğun olaraq göstərilən şəxslərin əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatlar yaradıla bilər. Belə təşkilatlara əmlak hüquqlarını kollektiv əsasda idarə etmək səlahiyyətini bilavasitə müəlliflik hüququnun və əlaqəli hüquqların sahibləri könüllü olaraq yazılı müqavilələr əsasında və ya bu təşkilatlara üzv olmaqla verirlər. Əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatlar yalnız qanunvericilikdə nəzərdə tutulan qaydada özlərinin əmlak hüquqlarının idarəçiliyini onlara həvalə etmiş müəllifləri və ya digər hüquq sahiblərini təmsil edirlər və onların hüquqlarının müdafiəsi məqsədi ilə məhkəməyə və ya digər təşkilatlara müraciət edə bilərlər (§ 29-30).

68. “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı məsələlər haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarına 2 nömrəli Əlavənin 5.2-ci və 5.3-cü bəndlərinə əsasən, əsərlərin kütləvi ifasına və başqa istifadə üsullarına görə müəllif qonorarının yığılması qanunvericiliyə görə müəllif(lər)in qanuni mənafelərini təmsil edən əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilat tərəfindən həyata keçirilir. Müəllif qonorarının ödəyicisi olan bütün istifadəçi təşkilatlar müəllif(lər)dən və ya onların hüquqi varislərindən, yaxud müəlliflərin əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatdan icazə (lisenziya) almalıdırlar (§ 38-39).

69. Həmin Qərara 3 nömrəli Əlavənin 31-ci və 32-ci bəndlərində mətnli, yaxud mətnsiz musiqili əsərlərin tabeçiliyindən və mülkiyyət formasından asılı olmayaraq restoranlarda, o cümlədən şadlıq evlərində kütləvi ifasına görə müəllif qonorarının ərazilər üzrə minimum miqdarları müəyyən olunmuşdur (§ 40-41).

70. Qərara 4 nömrəli Əlavənin 32-ci bəndində isə göstərilir ki, əsərlərin kütləvi ifasına, o cümlədən radio və televiziyada, mexaniki, maqnit və s. yazılma üsulu ilə surətçıxarmaya, reprosurətçıxarmaya və başqa istifadə üsullarına görə müəllif qonorarının yığılması qanunvericiliyə görə müəllif(lər)in qanuni mənafelərini təmsil edən əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilat tərəfindən həyata keçirilir (§ 44).

71. Göründüyü kimi, müəlliflik hüququ və əlaqəli hüquqların sahibləri özlərinin əmlak hüquqlarının idarə olunması səlahiyyətini yazılı müqavilələr bağlamaqla və ya üzv olmaqla sözügedən təşkilatlara verə bilərlər. Odur ki, müəlliflər və əlaqəli hüquqların sahibləri tərəfindən onların əmlak hüquqlarının kollektiv əsasda idarə edilməsi üçün yaradılmış belə təşkilatların öz hüquqlarının idarəçiliyini onlara həvalə etmiş şəxslərin mənafeyi naminə

müvafiq işləri görmək (qonorarın məbləğlərini və başqa şərtlərini razılaşdırmaq, istifadəçilərə lisenziya vermək, qonorarı yığmaq, hüquq sahibləri arasında bölüşdürmək, müəlliflik hüquqlarını pozan və ya pozmaq təhlükəsi yaradan hərəkətlərin dayandırılmasını tələb etmək və s.) səlahiyyəti qanunvericilikdə açıqca göstərilmişdir (§ 31, 33).

72. Hazırkı işə əlavə olunmuş sənədlərdən görünür ki, iddianı irəli sürən "Azərbaycan Müəllifləri" İctimai Birliyi Ədliyyə Nazirliyində 31.03.2004-cü ildən rəsmi qeydiyyatdan keçmişdir və müvafiq sayda üzvləri vardır. Birliyin fəaliyyət predmeti və məqsədi isə musiqili əsər müəlliflərinin əmlak hüquqlarının təmin edilməsi məqsədilə bu hüquqların kollektiv əsasda idarə edilməsidir. Birliyin Nizamnaməsinin 3-cü bölməsində lisenziya verilən hallarda istifadəçi ilə qonorarın məbləğini və başqa şərtlərini razılaşdırmaq, qonorarı yığmaq, müəlliflik hüquqlarını pozan və ya pozmaq təhlükəsi yaradan hərkətlərin dayandırılmasını tələb etmək, eləcə də məhkəmədə iddiaçı kimi çıxış etmək hüquqları nəzərdə tutulmuşdur.

73. Qeyd edilənlər ona dəlalət edir ki, "Azərbaycan Müəllifləri" İctimai Birliyi müqavilə bağladığı və ya üzvü olan müəllifləri, yaxud digər hüquq sahiblərini təmsil etmək və onların hüquqlarını müdafiə etmək məqsədilə hazırkı iş üzrə tələbləri irəli sürmək hüquqları vardır.

74. İddianın həlli üçün əhəmiyyət kəsb edən halları (o cümlədən məhkəmələrin istinad etdikləri - hansı müəlliflərin öz əmlak hüquqlarının idarəçiliyinini birliyə həvalə etməsi, həmin müəlliflərə aid hansı musiqilər və ümumilikdə neçə gün ərzində cavabdehə aid ictimai iaşə obyektində ifa edilməsi) sübutetmə yükü ilə bağlı isə məhkəmə tərkibi aşağıdakıları qeyd edir.

75. Mülki Prosessual Məcəllənin 77.1-ci maddəsinə görə, hər bir tərəf öz tələblərinin və etirazının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

76. Sübutetmə dedikdə, iddianın əsaslandığı bir hüququn və ya buna qarşı etirazın söykəndiyi halların (hadisələrin) olub-olmadığı haqqında məhkəmənin qənaətə gəlməsi üçün həyata keçirilən prosessual fəaliyyət başa düşülür. Bu baxımdan sübutetmənin predmetini tərəflərin mübahisələndirdikləri hal(lar) təşkil edir. O mübahisəli hallar ki, qanunverici onların mövcud olub-olmamasına hüquqi bir nəticə bağlayır. Başqa sözlə, hansısa halın baş verib-verməməsi şəxsin hüququnun yaranması, itirilməsi və s. kimi hüquqi nəticə yaradır. Məhz bu cür halların sübuta yetirilməsi üçün tərəflərin məhkəməyə dəlil təqdim etmələri zəruridir. Bu baxımdan tərəflərin tələb və etirazlarını əsaslandıran halların və işi düzgün həll etmək üçün əhəmiyyəti olan başqa halların mövcud olduğu və ya olmadığı barədə məhkəmənin əldə etdiyi məlumatlar sübutlar hesab olunur (§ 49-50).

77. Məhkəmə hansı halların sübuta yetirilməli olduğunu təsbit etdikdən sonra həmin halların sübut edilməsi yükünün kimin üzərinə düşdüyünü müəyyən etməlidir. Nəzərə alınmalıdır ki, sübutetmə yükü qanunda xüsusi bir qayda nəzərdə tutulmadığı halda iddia edilən halın mövcudluğuna (baş verməsinə) bağlanan hüquqi nəticədən xeyir görən tərəfə aiddir. Bir qayda olaraq sübutetmə yükü iddiaçının üzərinə düşür.

78. Bununla belə, ümumi qaydanın bəzi istisnaları vardır. Əgər sübutetmə yükü qanunla başqa tərəfin üzərinə qoyulubsa, yaxud şəxs qanuni və ya faktiki prezumpsiyaya, yəni normal bir vəziyyətin əksi olan hala istinad edirsə, sübutetmə vəzifəsi həmin tərəfə aid olur.

79. Hazırkı işdə üzv olan müəlliflərin özlərinin əmlak hüquqlarının idarəçiliyini Ədliyyə Nazirliyində qeydiyyatdan keçmiş "Azərbaycan Müəllifləri" İctimai Birliyinə həvalə etmələri nəzərə alındıqda birliyin üzvlərinin mənafeyi üçün hazırkı iddianı irəli sürmək hüququ şübhə doğurmur. Bununla belə, məhkəmə iddianın düzgün həlli üçün zəruri hesab etdikdə hüquqlarının idarəçiliyini birliyə həvalə etmiş müəlliflər və əlaqəli hüquqların sahibləri barədə sübutları iddiaçıdan tələb edə bilər.

80. Nəzərdən qaçırılmamalıdır ki, Mülki Prosessual Məcəllənin 14.1-ci maddəsi məhkəmənin üzərinə həqiqətə nail olmaq üçün işin hərtərəfli, tam və obyektiv tədqiqinə lazımi

şərait yaratmaq vəzifəsi qoyur. Bunun üçün məhkəmə: işdə iştirak edən şəxslərə onların prosessual hüquq və vəzifələrini izah edir, görüləcək, yaxud görülməyəcək hərəkətlərin nəticələri barədə onları xəbərdar edir, onların prosessual hüquqlarının həyata keçməsinə kömək göstərir (§ 48).

81. Hazırkı işdə isə mənafeyi üçün iddia qaldırılan müəlliflər və əlaqəli hüquqların sahibləri (yaxud birliyin üzvləri) barədə məlumatların təqdim edilməsi zərurətinin və həmin sübutların verilməməsinin nəticələrinin məhkəmə tərəfindən qeyd olunan normaya uyğun şəkildə iddiaçı ilə müzakirəsi aşkar edilmir.

82. Bundan əlavə, Kollegiya heab edir ki, baxılan işdə məhkəmələr müəlliflərə aid hansı musiqilər və ümumilikdə neçə gün ərzində cavabdehə aid ictimai iaşə obyektində ifa edilməsinə dair sübutları təqdim etmək yükünü iddiaçının üzərinə qoymaqda haqlı olmamışlar.

83. Ona görə ki, həmin məlumatlar bir qayda olaraq əsərlərdən istifadə edən tərəfin əlində olduğundan iddiaçının onlara (və ya tamamına) çatımlılığı olmur. Təsadüfi deyil ki, "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununun 42-ci maddəsinin 2-ci hissəsində əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatların əsərlərdən və əlaqəli hüquqların obyektlərindən istifadə edən şəxslərdən istifadə edilən əsərlər və gəlirləri haqqında müvafiq qaydada təsdiq olunmuş proqram və digər sənədlər almaq hüququ nəzərdə tutulmuşdur (§ 32).

84. Eyni zamanda Nazirlər Kabinetinin adıçəkilən Qərarına 4 nömrəli Əlavənin 34-cü bəndinə əsasən, müəllif qonorarının bütün ödəyiciləri ifa olunan əsərlərin dəqiq qeydiyyatını aparmalı və müəlliflərin və əlaqəli hüquq sahiblərinin əmlak hüquqlarının kollektiv əsasda idarə edilməsi üzrə təşkilatın nümayəndəsinə faktiki ifa olunmuş əsərlərin adı, onların müəlliflərinin adı, soyadı və atasının adı (o cümlədən musiqinin, mətn və tərcümənin müəllifləri) haqqında məlumat verməlidirlər (§ 46).

85. Qeyd edilənlər ona dəlalət edir ki, faktiki ifa olunmuş əsərlər barədə məlumatları təqdim etmək vəzifəsi onlardan istifadə edən şəxslərin üzərindədir. Belə olan halda məhkəmələr sözügedən məlumatları təqdim etmək yükünü cavabdehin deyil, iddiaçının üzərinə qoyması qanunvericiliyin tələbinə uyğun olmamışdır.

86. Beləliklə, Kollegiya göstərilənləri nəzərə alaraq bu qənaətə gəlir ki, apellyasiya məhkəməsi yuxarıda sadalanan hüquq normalarının tələblərini nəzərə almamış, sübutetmə yükünü düzgün müəyyən etməmiş, həqiqətə nail olmaq üçün işin hərtərəfli, tam və obyektiv tədqiqinə lazımi şərait yaratmamış, nəticə etibarilə qətnaməni tərəflərin qarşılıqlı münasibətinə və qanunvericiliyə uyğun əsaslandırmamışdır (§ 51, 53-54).

87. Bu qaydalara riayət edilməməsi Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsi ilə təminat verilən hüquq və azadlıqların məhkəmə müdafiəsi hüququnun, İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Avropa Konvensiyasının 6-cı maddəsində əks olunmuş ədalətli məhkəmə araşdırması hüququnun pozulmasına dəlalət edir (§ 24-25).

88. Ona görə də apellyasiya məhkəməsinin qətnaməsi ləğv edilməli, iş yeni apellyasiya baxışına göndərilməlidir. Təkrar apellyasiya baxışı işdə iştirak edən şəxslərin izahatları və dəlilləri dinlənilməli, mübahisəli hallar, habelə bu hallar üzrə sübutetmə yükü düzgün müəyyən edilməklə işin hərtərəfli, tam və obyektiv tədqiqinə lazımi şərait yaradılmalı, təqdim olunmuş sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra onlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verilməli, tərəflərin dəlillərinin hansı səbəbdən qəbul edilib-edilməməsi əsaslandırılmalı, ədalətli məhkəmə araşdırması hüququ təmin olunmaqla mübahisəyə qanunvericiliyə uyğun qaydada yekun hüquqi qiymət verilməlidir.

89. Göstərilənlərə əsasən və MPM-in 416, 417 və 419-cu maddələrini rəhbər tutaraq, Məhkəmə kollegiyası

Qərara aldı:

Kassasiya şikayəti qismən təmin edilsin.

Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 26 may 2025-ci il tarixli, 2(103)-2422/2025 nömrəli qətnaməsi ləğv edilsin, iş yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilsin.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

Sahiblik hüququ

4. 2(102)-1870/2025 nömrəli, 2025-ci il 2 iyul tarixli qərar - əşyanın geri qaytarılması və ya pozuntuya son qoyulması barədə iddialara baxılarkən sahibliyin özbaşınalıqdan müdafiəsinə dair tələblərin hüquq haqqında mübahisələrdən fərqləndirilməsi

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: Mübahisəli torpaq sahəsi 2003-cü ildə beş il müddətinə iddiaçının icarəsinə verilmiş, sonuncu cavabdeh tərəfindən torpaq sahəsi üzərində sahibliyinə müdaxilə olunduğunu bildirərək, onun torpaq sahəsindən çıxarılması barədə iddia qaldırmışdır.

Məhkəmələr tələbi rədd edərkən ona əsaslanmışlar ki, mübahisəli torpaq sahəsinə dair iddiaçının icarə müqaviləsinin müddəti 2008-ci ildə bitdiyindən, onun cavabdehə qarşı hazırkı tələbi irəli sürməyə subyektiv hüququ yoxdur.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Məhkəmələr nəzərə almamışlar ki, iddiaçı torpaq üzərindəki sahibliyinin özbaşınalıqdan qorunması üçün iddia qaldırmışdır. Bu tələbi irəli sürən iddiaçı əşya üzərində qanuna və ya müqaviləyə əsasən hüquqa malik olduğunu sübuta yetirməyə borclu deyil. Belə ki, əşyanın geri qaytarılması və ya pozuntuya son qoyulması barədə iddialar aşağıdakı növlərdə ola bilər:

a) hüquq haqqında mübahisələr – vindikasiya iddiası (Mülki Məcəllə, maddə 157.2), neqator iddia (Mülki Məcəllə, maddə 157.4) və sair;

b) sahibliyin özbaşınalıqdan müdafiəsinə dair iddialar – geriqaytarma tələbi (Mülki Məcəllə, maddə 164.2) və pozuntuya son qoyulması tələbi (Mülki Məcəllə, maddə 165.1).

Hüquq haqqında mübahisələrdə iddiaçı mübahisənin obyektinə münasibətdə özünün mülki hüquqlarını - mülkiyyət haqqını, qanundan və ya müqavilədən irəli gələn əmlak hüquqlarını sübuta yetirməyə borcludur. Bu mübahisələrdə tələb edilən əşya üzərində tərəflərin hüquq sahibi olub-olmaması önəm kəsb edir və iddianın həllinə təsir göstərir.

Bununla belə, sahibliyin müdafiəsi məqsədilə qaldırılan iddialar mülki qanunvericiliyimizdə hüquq haqqında mübahisə kimi yox, özbaşınalığın qarşısının alınmasını təmin edən tələblər kimi nəzərdə tutulmuşdur.

Sahiblik institutunun mülki hüquq münasibətlərində əsas funksiyalarından biri məhz cəmiyyətdəki nizamı və sosial sülhü qorumaqla bağlıdır. Heç kəsə icazə verilmir ki, (hətta əşya üzərində hüquq sahibi olsa belə) cəmiyyətdəki hüquq qaydasını və nizamı pozaraq, başqasının hakimiyyəti altında olan bir əşyanı özbaşına qəsb etsin, yaxud sahibliyə manea törətsin. Başqa sözlə, heç kəs əşyanı sahibliyində saxlayan şəxsin əslində buna haqqı olmadığını irəli sürərək, özbaşına şəkildə onun əlindən ala və ya sahibliyini poza bilməz. Əks halda cəmiyyətdə qarşısıalınmaz bir özbaşınalıq vəziyyəti meydana gələr.

Bu səbəbdən Mülki Məcəllənin 164.1-ci maddəsində sahibin iradəsi olmadan sahiblikdən məhrumetmə və onu pozma qadağan edilmiş özbaşınalıq sayılır.

Özbaşınalıq dedikdə, bir şəxsin qanunla və ya digər normativ hüquqi aktla müəyyən edilmiş davranış qaydasına, eləcə də sahibin iradəsinə zidd olaraq onun sahiblikdən məhrum edilməsi və ya sahibliyinin pozulması başa düşülür. Onun əsas əlamətlərindən biri müdaxilənin qanunazidd olmasıdır. Diqqət edilməlidir ki, müdaxilənin qanuniliyi və ya qanunsuzluğu özbaşınalıq edənin əşyaya münasibətdə hüquqa malik olub-olmaması ilə deyil, onun hərəkətinin sahibə münasibətdə yolverilən olub-olmaması ilə ölçülür.

Beləliklə, qanunverici cəmiyyətdəki nizam və sosial sülhü qorumaq məqsədilə, əşya üzərində hüquq sahibi olsun və ya olmasın, hər bir şəxsə özbaşınalıqdan operativ şəkildə müdafiə olunmaq imkanı tanıyır. Hətta qanunsuz sahibin əşya üzərindəki sahibliyi özbaşınalıqdan qorunur. Odur ki, belə iddialara baxılarkən əşya üzərindəki mübahisəli subyektiv hüquqlar (mənfəətlər) araşdırılmadan və onlara hüquqi qiymət verilmədən özbaşınalığa məruz qalmış sahibin tələbi əsasında öncəki faktiki vəziyyət (status-kvo) sürətli şəkildə bərpa edilir. Bununla da özbaşınalığın, yəni üçüncü şəxslərin başqasının sahibliyinə qanunsuz müdaxilə etməsinin qarşısı alınır və cəmiyyətdəki sosial nizam təmin olunur.

Sahibliyin müdafiəsi ilə bağlı iddianın dərhal, uzağı məhrumetmə və ya pozuntu anından başlayaraq bir il ərzində qaldırılması ilə bağlı qayda (Mülki Məcəllə, maddə 165.2) da özbaşınalığın qarşısının təxirə salınmadan alınmasına yönəlmişdir. Göstərilən müddətlər keçdikdən sonra yaranan sahiblik vəziyyəti yeni bir status-kvo kimi qəbul edilir və bu səbəbdən sahibliyin müdafiəsi iddiaları istisna olunur. Əslində məhkəmələr də özbaşınalıqdan müdafiə haqqında iddialara mümkün olan ən qısa müddətdə baxmalı və yekun qərar çıxarmalıdırlar. Bunun üçün sahiblik iddialarının şərtlərinin sürətli şəkildə araşdırılması kifayət edir.

Sahiblik iddialarının təyinatı özbaşınalığın qarşısını almaq olduğu üçün belə tələblərə baxılarkən hüquq haqqında mübahisəli halların, o cümlədən əşyaya sahiblik hüququ verən əsasların sübut edilməsinə, yaxud cavabdehin əşyaya daha üstün bir hüquqa malik olması barədə etirazların dinlənilməsinə və bu dəlillərin araşdırılmasına gərək yoxdur. Çünki, əşya üzərindəki mülki hüquqlar sahiblik iddiasının predmeti xaricində qalmaqla mübahisənin həlli üçün əhəmiyyət kəsb etmir. Yəni, sahiblik iddiasını həll etmiş məhkəmə aktı mübahisənin obyekti üzərində tərəflərdən hansınınsa hüququnu tanımış və ya təkzib etmiş olmur. Bu qərar yalnız özbaşınalıqla pozulmuş sahiblik vəziyyətini bərpa edir, onu ilkin vəziyyətə qaytarır. Ona görə də, sahibliyin müdafiəsinə dair iddianın həllindən (nəticəsindən) asılı olmayaraq, hər bir tərəfin həmin əşya barəsində ayrıca icraatda hüquq haqqında mübahisə açmaq imkanı var.

Kollegiya xüsusilə vurğulamışdır ki, sahibliyin müdafiəsi haqqında tələbin həllinə dair məhkəmə qərarı eyni əşyaya münasibətdə qaldırılan hüquq haqqında mübahisəyə dair işdə preyudisial əhəmiyyət kəsb etmir.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-1870/2025

02.07.2025-ci il Bakı şəhəri

Azərbaycan Respublikası adından

Azərbaycan Respublikası Ali Məhkəməsi
Mülki kollegiyasının

İddiaçı 1, İddiaçı 2 və İddiaçı 3-ün Cavabdehə qarşı iş üzrə
Q Ə R A R I

(Açar sözlər: sahiblik, sahibliyin özbaşınalıqdan müdafiəsi)

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Əliyev Zaur Əli oğlu (məruzəçi), Babayev Zəki Baba oğlu və Baxışova Vüsalə Ələkbər qızından ibarət tərkibdə,

Şirvan Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(106)-7/2025 nömrəli iş üzrə 10 fevral 2025-ci il tarixli qətnaməsindən iddiaçılar İddiaçı 1 və İddiaçı 2 tərəfindən verilmiş kassasiya şikayətinə Azərbaycan Respublikası Ali Məhkəməsinin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları:

1. Ağcabədi Rayon İcra Hakimiyyətinin 24 mart 2003-cü il tarixli, 12 saylı sərəncamı ilə rayonun inzibati ərazisində yerləşən X adlanan qış otlağında 53 ha torpaq sahəsi beş il müddətinə Laçın rayonunun kənd sakini İddiaçı 1in icarəsinə verilmişdir.

2. İddiaçılar torpaq sahəsi üzərində sahibliklərinə Cavabdeh tərəfindən müdaxilə olunduğunu bildirərək aşağıdakı tələbləri irəli sürmüşlər.

İş üzrə qəbul edilmiş məhkəmə aktları:

a) Birinci instansiya məhkəməsində icraat

3. İddiaçılar İddiaçı 1, İddiaçı 2 və İddiaçı 3 15.01.2021-ci il tarixdə Ağcabədi Rayon Məhkəməsində iddia qaldıraraq Cavabdehin onların istifadəsinə verilmiş, Ağcabədi rayonu, 12-ci sahə X Qışlaq Otlaq sahəsində apardığı şumlama işlərinin dayandırılması və onun həmin torpaq sahələrindən çıxarılmasına dair qətnamə qəbul edilməsini xahiş etmişlər.

4. İddiaçılar tələblərini belə əsaslandırmışlar ki, mübahisəli sahə icra qaydasında onların istifadələrinə verilmişdir. Cavabdeh xx xx 2021-ci il tarixdə traktorla gəlib onların istifadəsində olan torpaqları özbaşına şumlamış, sahəni güclə onların sahibliyindən çıxarmışdır. Qanunazidd olduğu üçün bu hərəkətə son qoyulmasını tələb edirlər.

5. Məhkəmə iclasında Cavabdeh iddiaya etiraz edərək bildirmişdir ki, tərəfindən iddiaçılara məxsus əmlaka müdaxilə olunmamış, iddiaçılara aid torpaq sahəsini zəbt və istifadə etməmişdir. İddiaçıların heç bir əsaslı sənədi yoxdur. Mübahisəli ərazidə dostu X1ə 15 il müddətinə rayon İcra Hakimiyyəti tərəfindən 55 ha torpaq sahəsi verilmişdir. O, X1 ilə birlikdə torpaqdan istifadə edir və oranı əkirlər.

6. Ağcabədi Rayon Məhkəməsinin (hakim S.Ləzimov) 13 aprel 2021-ci il tarixli, 2(017)-235/2021 saylı qətnaməsi ilə iddia rədd edilmişdir.

7. Məhkəmə mövqeyini belə əsaslandırmışdır ki, mübahisəli torpaq sahəsinə dair Ağcabədi Rayon İcra Hakimiyyəti Başçısının 24 mart 2003-cü il tarixli sərəncamı ilə beş il müddətinə İddiaçı 2 və İddiaçı 1 ila bağlanmış icarə müqaviləsinin müddəti xx xx 2008-ci ildə bitmişdir. Müqavilə müddətinin bitməsindən 11 il keçməsinə baxmayaraq iddiaçılar tərəfindən icarə müqaviləsinin onların adına yenilənməsi barədə Ağcabədi Rayon İcra Hakimiyyətinə müraciət etməmişlər. Bundan başqa Ağcabədi rayonunun inzibati ərazisində yerləşən dövlət mülkiyyətinə aid qış otlaq sahəsindən 55 ha torpaq sahəsi Ağcabədi şəhər sakini X1ə 15 il müddətinə icarəyə verilmiş və torpaq icarə müqaviləsi təsdiq edilmişdir.

8. Məhkəmə öz mövqeyini Konstitusiyanın 29, 60, 129-cu, Mülki Məcəllənin (bundan sonra - MM) 14.1, 14.2.7, 719.1-ci, Torpaq Məcəlləsinin 66.2, 67.1, 84.3-cü maddələrinə, Nazirlər Kabinetinin 42 saylı 15.03.2000-ci il tarixli qərarı ilə təsdiq edilmiş “Örüş, otlaq və biçənək sahələrinin istifadəyə və icarəyə verilməsi, habelə istifadə edilməsi” qaydalarının 3-cü bəndinə, Mülki Prosessual Məcəllənin (bundan sonra - MPM) 14.2, 77.1, 88-ci maddələrinə istinadla əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsində icraat

9. İddiaçılar apellyasiya şikayəti verərək birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv, iddianın təmin edilməsini xahiş etmişlər.

10. Şirvan Apellyasiya Məhkəməsi Mülki kollegiyasının (hakimlər T.Heydərov - sədrlik edən və məruzəçi, M.Əsədli və A.Novruzova) 10 fevral 2025-ci il tarixli, 2(106)-7/2025 nömrəli qətnaməsi ilə apellyasiya şikayəti təmin edilməmiş, Ağcabədi Rayon Məhkəməsinin 13 aprel 2021-ci il tarixli qətnaməsi dəyişdirilmədən saxlanılmışdır.

11. Apellyasiya instansiyası məhkəməsi rayon məhkəməsinin gəldiyi nəticə və əsaslandırma ilə razılaşaraq bildirmişdir ki, iddiaçıların bu tələbi irəli sürməyə subyektiv hüquqları yoxdur.

12. Məhkəmə öz mövqeyini Mülki Məcəllənin 148.2, 152.5, 157.2, 157.8, 158.1,158.2, 238.1, 238.3, 239.2-ci və Torpaq Məcəlləsinin 111-ci maddələrinə istinadla əsaslandırmışdır.

Kassasiya şikayətinin və ona qarşı etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

13. İddiaçılar kassasiya şikayəti verərək, apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv edilməsini və işin yenidən baxılması üçün həmin məhkəməyə qaytarılmasını xahiş etmişlər.

14. Kassasiya şikayəti onunla əsaslandırılmışdır ki, iddiaları əsaslı olmuş, buna baxmayaraq apellyasiya məhkəməsi hüquq normalarını düzgün tətbiq etməyərək iddianı rədd etmişdir. Bundan əlavə, məhkəmə iclasda iddiaçıların iştirakını təmin etməməklə hüquqlarını pozmuşdur.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

15. Kassasiya şikayətinə qarşı etiraz daxil olmamışdır.

Tətbiq edilən hüquq:

Azərbaycan Respublikasının Konstitusiyası:

16. Maddə 60, hissə 1. Hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir.

İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Avropa Konvensiyası:

17. Maddə 6, hissə. 1. Hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsi ilə, ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir.

Azərbaycan Respublikasının Mülki Məcəlləsi:

18. Maddə 159. Sahiblik əşyaya faktik sahibliyə nail olmaqla əldə edilir.

19. Maddə 163.1. Sahiblik əşyanın özünün verilməsi ilə verilir. Əvvəlki sahibin iradəsi ilə əldə edən əşyaya faktik sahibliyi həyata keçirməyə qadir olduqda verilmə baş tutur.

20. Maddə 164.1. Sahibin iradəsi olmadan sahiblikdən məhrumetmə və onu pozma qadağan edilmiş özbaşınalıq sayılır. Hər bir sahibin qadağan edilmiş özbaşınalıqdan müdafiə üçün güc işlətmək ixtiyarı vardır. Bu zaman o, şəraiti nəzərə almaqla, əsassız güc hərəkətlərindən çəkinməlidir.

21. Maddə 164.2. Sahiblikdən məhrum olan onun üçün qanunsuz sahibdən sahibliyin qaytarılmasını tələb edə bilər. Sahiblikdən məhrumetmə faktik sahib və ya onun hüquq sələfi barəsində səhv addım olduqda və sahiblik məhrumetmədən əvvəlki ildə əldə edildikdə iddia istisna edilir.

22. Maddə 165.1. Sahiblik qadağan edilmiş özbaşınalıq yolu ilə pozulduqda sahib pozucudan pozuntulara son qoymağı tələb edə bilər. Pozuntuların davam edəcəyindən ehtiyat olunduqda sahib onlara son qoyulması üçün iddia verə bilər. Pozucu və ya onun hüquq sələfi üçün sahib qanunsuz olduqda və sahiblik məhrumetmədən əvvəlki ildə əldə edildikdə bu cür iddia istisna edilir.

23. Maddə 165.2. Qadağan edilmiş özbaşınalıq üzrə iddiaya yalnız o halda yol verilir ki, sahib qəsdin və təqsirkarın ona məlum olmasından dərhal sonra əşyanın qaytarılmasını və ya pozuntunun aradan qaldırılmasını tələb etsin. İddia müddəti, hətta qəsd və təqsirkar sahibə sonralar da məlum olarsa, məhrumetmə və ya pozuntu anından başlayaraq bir il təşkil edir.

24. Maddə 166.3. Yalnız o şəxsin torpaq sahəsinə mülkiyyət hüququnun və sahiblik haqqında iddia hüququnun olduğu ehtimal edilir ki, onun sahiblik hüququ torpaq sahəsinin daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmasından irəli gəlir. Lakin torpaq sahəsinin faktik sahibi sahiblikdən özbaşına məhrumedilmə və ya sahibliyin pozulması barədə iddia verə bilər.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi:

25. Maddə 14.1. Məhkəmə həqiqətə nail olmaq üçün işin hərtərəfli, tam və obyektiv tədqiqinə lazımi şərait yaradır. Bunun üçün məhkəmə: işdə iştirak edən şəxslərə onların prosessual hüquq və vəzifələrini izah edir, görüləcək, yaxud görülməyəcək hərəkətlərin nəticələri barədə onları xəbərdar edir, onların prosessual hüquqlarının həyata keçməsinə kömək göstərir.

26. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

27. Maddə 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir.

28. Maddə 217.1. Məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır.

29. Maddə 217.3. Qətnamə iş üzrə müəyyən edilmiş həqiqi hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır.

30. Maddə 217.4. Məhkəmə (hakim) öz qətnaməsini yalnız məhkəmə iclasında tədqiq olunmuş sübutlarla əsaslandırır.

31. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

Kassasiya baxışının hədləri

32. Kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apelyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

33. Kassasiya şikayətində qətnamə tam mübahisələndirildiyi üçün apellyasiya instansiyası məhkəməsinin aktı bütövlükdə yoxlanılır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

34. Məhkəmələr tələbi rədd edərkən ona əsaslanmışlar ki, mübahisəli torpaq sahəsinə dair iddiaçının 2003-cü ildə bağladığı 5 illik icarə müqaviləsinin müddəti 2008-ci ildə bitmiş və sonradan uzadılmamışdır. Bundan əlavə, həmin ərazidə 55 ha torpaq sahəsinin 15 il müddətinə X1in icarəsinə verilməsi haqqında müqavilə bağlanmışdır. Bu səbəblərdən iddiaçıların Cavabdehə qarşı hazırkı tələbi irəli sürməyə subyektiv hüquqları yoxdur.

35. Məhkəmələr nəzərə almamışlar ki, iddiaçılar torpaq üzərindəki sahibliyinin özbaşınalıqdan qorunması üçün iddia qaldırmışlar. Bu tələbi irəli sürən iddiaçı əşya üzərində qanuna və ya müqaviləyə əsasən hüquqa malik olduğunu sübuta yetirməyə borclu deyil.

36. Belə ki, əşyanın geri qaytarılması və ya pozuntuya son qoyulması barədə iddialar aşağıdakı növlərdə ola bilər:

a) hüquq haqqında mübahisələr – vindikasiya iddiası (MM, m.157.2), neqator iddia (MM, m.157.4) və sair;

b) sahibliyin özbaşınalıqdan müdafiəsinə dair iddialar – geriqaytarma tələbi (MM, m.164.2) və pozuntuya son qoyulması tələbi (MM, m. 165.1).

37. Bu iddia növləri mahiyyəti və təyinatı etibarilə bir-birindən əhəmiyyətli dərəcədə fərqlənirlər.

38. Hüquq haqqında mübahisələrdə iddiaçı mübahisənin obyektinə münasibətdə özünün mülki hüquqlarını - mülkiyyət haqqını, qanundan və ya müqavilədən irəli gələn əmlak hüquqlarını sübuta yetirməyə borcludur. Bu səbəbdən vindikasiya iddiasını irəli sürən şəxs MM-in 157.2-ci maddəsinə əsasən ilk növbədə özünün mülkiyyətçi olduğunu, yaxud MM-in 288.1-ci maddəsinə əsasən, girov qoyulmuş əşyanı özgəsinin qanunsuz sahibliyindən, o cümlədən girov qoyanın sahibliyindən tələb edən girov saxlayan özünün girov hüququnu sübut etməlidir. Əks halda həmin normalara söykənən tələblər təmin edilə bilməz.

39. Göründüyü kimi, hüquq haqqında mübahisələrdə tələb edilən əşya üzərində tərəflərin hüquq sahibi olub-olmaması önəm kəsb edir və iddianın həllinə təsir göstərir.

40. Bununla belə, sahibliyin müdafiəsi məqsədilə qaldırılan iddialar mülki qanunvericiliyimizdə hüquq haqqında mübahisə kimi yox, özbaşınalığın qarşısının alınmasını təmin edən tələblər kimi nəzərdə tutulmuşdur.

41. Bu baxımdan kassasiya məhkəməsi sahiblik və sahibliyin qorunmasına dair normaların mahiyyətini və təyinatını nəzərdən keçirməyi zəruri hesab edir.

42. MM-in 159-cu maddəsinə əsasən, sahiblik əşyaya faktik sahibliyə nail olmaqla əldə edilir (§ 18).

43. Sahiblik (possessio) hüquqi vəziyyət olaraq, bir şəxsin əşya üzərində iradəvi şəkildə əməli (faktiki) hakimiyyət qurması, əşyaya fiziki malik olması, yaxud əşyanı özünün təsir dairəsində saxlamasıdır. Şəxs öz iradəsi ilə bu hakimiyyəti tərk edənədək və ya iradəsi xaricində başqa biri onu ələ keçirənədək və ya hakimiyyəti başqa səbəbdən sona çatanadək əşyanın sahibi sayılır.

44. Sahiblik, bir şəxsin əşya üzərində faktiki hakimiyyəti özünün iradəsi ilə ilkin olaraq qazanması (məsələn, sahibsiz daşınar əşyanın mənimsənilməsi - MM, m.184), yaxud başqası tərəfindən sahibliyin ona verilməsi (MM, m.181.1) və ya vərəsəlik yolu ilə əldə edilə bilər (MM, m.1255).

45. Sahiblik institutu mülki hüquq münasibətlərində bir neçə əhəmiyyətli funksiyanı yerinə yetirir. Onlar aşağıdakılardır: əşya üzərindəki hüquqları üçüncü şəxslərə göstərən açıqlığı təmin edən funksiya (MM, m.166); əşya hüquqlarının bir şəxsdən digərinə verilməsini və ya qazanılmasını təmin edən funksiya (MM, m.181.1); cəmiyyətdəki nizamı və sosial sülhü qoruma funksiyası (MM, m.164,165). Hazırkı işin halları baxımından sonuncu funksiya xüsusi önəm kəsb edir.

46. Heç kəsə icazə verilmir ki, (hətta əşya üzərində hüquq sahibi olsa belə) cəmiyyətdəki hüquq qaydasını və nizamı pozaraq, başqasının hakimiyyəti altında olan bir əşyanı özbaşına qəsb etsin, yaxud sahibliyə maneə törətsin. Başqa sözlə, heç kəs əşyanı sahibliyində saxlayan şəxsin əslində buna haqqı olmadığını irəli sürərək, özbaşına şəkildə onun əlindən ala və ya sahibliyini poza bilməz. Əks halda cəmiyyətdə qarşısıalınmaz bir özbaşınalıq vəziyyəti meydana gələr.

47. Bu səbəbdən MM-in 164.1-ci maddəsində sahibin iradəsi olmadan sahiblikdən məhrumetmə və onu pozma qadağan edilmiş özbaşınalıq sayılır (birinci cümlə, § 20).

48. Normanın mahiyyətini və məqsədini nəzərə alsaq qeyd etmək olar ki, özbaşınalıq dedikdə, bir şəxsin qanunla və ya digər normativ hüquqi aktla müəyyən edilmiş davranış

qaydasına, eləcə də sahibin iradəsinə zidd olaraq onun sahiblikdən məhrum edilməsi və ya sahibliyinin pozulması başa düşülür.

49. Məhrumetmə və pozulma özbaşınalığın iki ayrı formasını təşkil edir. Birincisində sahib əşya üzərindəki faktiki hakimiyyətini itirirərək ondan məhrum olur. İkinci halda isə şəxs əşya üzərindəki sahibliyini itirməsə də, özbaşınalıq nəticəsində əşyadan sərbəst və təyinatı üzrə istifadə edə bilmir, onun sahibliyinə əngəl törədilir.

50. Özbaşınalığın əsas əlamətlərindən biri müdaxilənin qanunazidd olmasıdır. Diqqət edilməlidir ki, müdaxilənin qanuniliyi və ya qanunsuzluğu özbaşınalıq edənin əşyaya münasibətdə hüquqa malik olub-olmaması ilə deyil, onun hərəkətinin sahibə münasibətdə yolverilən olub-olmaması ilə ölçülür. Məsələn, mülkiyyətçisi özünün saatını başqa bir şəxsin qolunda gördükdə (hətta sonuncunun əşyaya hüquqi əsas olmadan sahiblik etdiyi aşkar olduqda) "mənimdir" düşüncəsi ilə onu qəsb edərsə, yaxud qeyri-yaşayış sahəsini kirayəyə vermiş mülkiyyətçi "bura onsuz da mənim mülkiyyətimdədir" deyib, kirayəçinin oraya daxil olmasını əngəlləyərsə, hər iki halda mülkiyyətçi özbaşınalıq etmiş sayılar. Ona görə ki, özbaşınalıq hərəkətinin meyarı əşya üzərindəki hüquq deyil, sahibə qarşı edilmiş hərəkətin (sahiblik vəziyyətinə müdaxilə aktının) hüquqa uyğun olubolmamasıdır.Halbuki,misalda göstərilən eyni hərəkətləri bir müstəntiq götürmə və ya digər istintaq hərəkəti çərçivəsində etmiş olsa, belə müdaxilə özbaşınalıq sayılmayacaq.

51. Beləliklə, qanunverici, cəmiyyətdəki nizam və sosial sülhü qorumaq məqsədilə, əşya üzərində hüquq sahibi olsun və ya olmasın, hər bir şəxsə özbaşınalıqdan operativ şəkildə müdafiə olunmaq imkanı tanıyır. Hətta qanunsuz sahibin əşya üzərindəki sahibliyi özbaşınalıqdan qorunur. Bu baxımdan,qadağan edilmiş özbaşınalıqdan müdafiə üçün güc işlətmək hüququnun kimlərə aid olduğunu göstərən MM-in 164.2-ci maddəsində "hər bir sahib" ifadəsindən istifadə edilməsi təsadüfi deyil.

52. Odur ki, belə iddialara baxılarkən əşya üzərindəki mübahisəli subyektiv hüquqlar (mənfəətlər) araşdırılmadan və onlara hüquqi qiymət verilmədən özbaşınalığa məruz qalmış sahibin tələbi əsasında öncəki faktiki vəziyyət (status-kvo) sürətli şəkildə bərpa edilir. Bununla da özbaşınalığın, yəni üçüncü şəxslərin başqasının sahibliyinə qanunsuz müdaxilə etməsinin qarşısı alınır və cəmiyyətdəki sosial nizam təmin olunur.

53. Sahibliyin müdafiəsi ilə bağlı iddianın dərhal, uzağı məhrumetmə və ya pozuntu anından başlayaraq bir il ərzində qaldırılması ilə bağlı qayda (MM, m.165.2) da özbaşınalığın qarşısının təxirəsalınmadan alınmasına yönəlmişdir. Göstərilən müddətlər keçdikdən sonra yaranan sahiblik vəziyyəti yeni bir status-kvo kimi qəbul edilir və bu səbəbdən sahibliyin müdafiəsi iddiaları istisna olunur.

54. Qeyd edilənlər həm də onu deməyə əsas verir ki, əslində məhkəmələr də özbaşınalıqdan müdafiə haqqında iddialara mümkün olan ən qısa müddətdə baxmalı və yekun qərar çıxarmalıdırlar. Bunun üçün sahiblik iddialarının şərtlərinin sürətli şəkildə araşdırılması kifayət edir (bu barədə daha ətraflı bax: § 67-69).

55. Sahiblik iddialarının təyinatı özbaşınalığın qarşısını almaq olduğu üçün belə tələblərə baxılarkən hüquq haqqında mübahisəli halların, o cümlədən əşyaya sahiblik hüququ verən əsasların sübut edilməsinə, yaxud cavabdehin əşyaya daha üstün bir hüquqa malik olması barədə etirazların dinlənilməsinə və bu dəlillərin araşdırılmasına gərək yoxdur. Çünki, əşya üzərindəki mülki hüquqlar sahiblik iddiasının predmeti xaricində qalmaqla mübahisənin həlli üçün əhəmiyyət kəsb etmir. Yəni, sahiblik iddiasını həll etmiş məhkəmə aktı mübahisənin obyekti üzərində tərəflərdən hansınınsa hüququnu tanımış və ya təkzib etmiş olmur. Bu qərar yalnız özbaşınalıqla pozulmuş sahiblik vəziyyətini bərpa edir, onu ilkin vəziyyətə qaytarır.

56. Ona görə də, sahibliyin müdafiəsinə dair iddianın həllindən (nəticəsindən) asılı olmayaraq, hər bir tərəfin həmin əşya barəsində ayrıca icraatda hüquq haqqında mübahisə açmaq imkanı var. Məsələn, MM-in 164.2-ci maddəsində nəzərdə tutulan geriqaytarma tələbi rədd edilən şəxs, sonradan mülkiyyətçi kimi əşyanın özgəsinin qanunsuz sahibliyindən geri tələb edilməsi barədə vindikasiya iddiası qaldıra bilər (MM, m.157.2). Yaxud, əksinə - şəxs özbaşınalıqla qəsb etdiyi əşyanı MM-in 164.2-ci maddəsi çərçivəsində qaytardıqdan sonra mülkiyyət hüququna söykənərək eyni əşyanı vindikasiya qaydasında geri istəyə bilər (MM, m.157.2).

57. Kollegiya xüsusilə vurğulayır ki, sahibliyin müdafiəsi haqqında tələbin həllinə dair məhkəmə qərarı eyni əşyaya münasibətdə qaldırılan hüquq haqqında mübahisəyə dair işdə preyudisial əhəmiyyət kəsb etmir.

58. Mülki qanunvericiliyimizə görə sahibin özbaşınalıqdan müdafiə oluna bilməsi üçün aşağıdakı imkanlar nəzərdə tutulmuşdur: sahibin qadağan edilmiş özbaşınalıqdan müdafiə üçün güc işlətmək ixtiyarı (MM, m.164.1, ikinci cümlə, §20); sahibliyin müdafiəsinə dair iddialar qaldırmaq hüququ.

59. “Possessor tələblər” adlandırılan sahiblik iddiaları qanunda aşağıdakı kimi əks olunmuşdur.

60. MM-in 164.2-ci maddəsinə əsasən, sahiblikdən məhrum olan onun üçün qanunsuz sahibdən sahibliyin qaytarılmasını tələb edə bilər (birinci cümlə, §21). Bu norma məhrumetmə halında özbaşınalıqdan müdafiəni təmin edir.

61. Həmin Məcəllənin 165.1-ci maddəsinə görə, sahiblik qadağan edilmiş özbaşınalıq yolu ilə pozulduqda sahib pozucudan pozuntulara son qoymağı tələb edə bilər (birinci cümlə, § 22). Bu norma isə sahibliyin pozulması halında özbaşınalıqdan müdafiəni təmin edir.

62. Göstərilən normalarla hər növ əşya üzərindəki sahibliyə, hər kəs tərəfindən edilən müdaxilə aradan qaldırılır.

63. Yəni, sahibliyin müdafiəsi çərçivəsində özbaşınalıqdan qorunma iddiaları həm daşınar əşyalar, həm rəsmi və ya dövlət reyestrində qeydiyyatdan keçmiş daşınar və daşınmaz əşyalar, həm də reyestrdə qeydə alınmamış daşınmaz əşyalar baxımından keçərlidir. Bu qayda MM-in 166.3-cü maddəsində aşağıdakı məzmunda ifadə edilmişdir: “Yalnız o şəxsin torpaq sahəsinə mülkiyyət hüququnun və sahiblik haqqında iddia hüququnun olduğu ehtimal edilir ki, onun sahiblik hüququ torpaq sahəsinin daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmasından irəli gəlir. Lakin torpaq sahəsinin faktik sahibi sahiblikdən özbaşına məhrumedilmə və ya sahibliyin pozulması barədə iddia verə bilər”, § 24).

64. Özbaşınalıq edən tərəfin əşya üzərində hüququnun olması və ya təqsirin dərəcəsi iddianın həlli üçün əhəmiyyət kəsb etmir. Hətta əşyanın mülkiyyətçisi müdaxiləni ehtiyyatsızlıqdan etsə belə, yuxarıda göstərilən məqsədlər naminə özbaşınalığa məruz qalan tərəf müdafiə olunur.

65. Baxılan işdə iddiaçılar ərizələrində açıq şəkildə bildirmişdilər ki, sahiblik etdikləri torpaq sahəsi cavabdeh tərəfindən onların iradəsinə zidd və özbaşına şəkildə şumlanmış, torpaq üzərindəki sahibliklərinə müdaxilə edilmişdir.

66. Belə olan halda iddiaçıların özbaşınalıqdan müdafiə olunmaq üçün sahiblik iddiasını irəli sürməyə subyektiv hüquqları olmuşdur. Buna baxmayaraq məhkəmələr yuxarıda şərh olunan normaları tətbiq etməyərək iddiaya səhvən hüquq haqqında mübahisə kimi baxmışlar.

67. Kollegiya bildirir ki, işin müəyyən olunmuş faktiki hallarından asılı olaraq iddiaya MM-in 164.2-ci və 165.1-ci maddələri əsasında baxıla bilər. Ona görə də kassasiya məhkəməsi sahiblik iddialarının şərtləri və yoxlanılma ardıcıllığı barədə aşağıdakıları qeyd etməyi zəruri hesab edir.

68. Məhkəmə tərəfindən iddianın bu normalar əsasında təmin edilməsi üçün aşağıdakı şərtlər müəyyən edilməlidir:

1) **İddiaçı əvvəlki və ya mövcud sahib olmalıdır**. Hansı şəxsin sahib hesab olunacağına bu qərarın 42-44-cü bənlərində aydınlıq gətirilmişdir. Əvvəlki sahib dedikdə, əşya üzərindəki faktiki hakimiyyətdən tamamilə məhrum edilmiş, mövcud sahib dedikdə isə sahibliyini itirməsə də, əşyadan istifadəsinə maneçilik törədilən şəxs nəzərdə tutlur.

2) **İddiaçıya qarşı qadağan edilmiş özbaşınalıq törədilməlidir**. Özbaşınalıq əməli, sahibin iradəsi xaricində,qanunvericiliyə zidd şəkildə,insan tərəfindən edilən bir davranışdır (bu barədə daha ətraflı bax: §47-50). Başqa sözlə, sahiblikdən məhrum olmaq və ya sahibliyin pozulması sahibin iradəsi daxilində, qanuna uyğun şəkildə, yaxud bir təbiət hadisəsi və ya heyvanın gücü nəticəsinə baş verdikdə özbaşınalıqdan söhbət gedə bilməz.

3) **Cavabdehin hazırkı sahibliyi və ya təcavüzü qanunsuz olmalıdır**. Əgər cavabdehin əşya üzərindəki sahibliyi qazanması və ya ona müdaxiləsi keçərli bir hüquqi əsasa söykənmirsə, özbaşınalıq onun tərəfindən edilmişdirsə, qanunsuz sayılır. Keçərli hüquqi əsaslara zəruri müdafiə (MM, m.563), son zərurət (MM, m.564), özünəyardım (MM, m.564), qanuni səlahiyyətin həyata keçirilməsi və digər bu kimi halları misal göstərmək olar.

4) **Sahiblik iddiasının təmin edilməsini istisna edən hallar olmamalıdır**. Bu şərt MM-in 164.2-ci və 165.1-ci maddələrinin ikinci cümləsində və 165.2-ci maddəsindəki qaydaları özündə ehtiva edir (§ 21-23). Belə ki, sahibliyinin pozulmasına istinad edən iddiaçının özü cavabdehə münasibətdə qüsurlu sahibdirsə (məsələn, iddiaçı həmin əşyanı daha əvvəl cavabdehdən özbaşına şəkildə qəsb etmişsə və bu hərəkətin törədilməsindən bir il müddət keçməyibsə) və ya iddiaçıya qarşı pozuntunun üzərindən bir ildən artıq müddət ötmüşsə, sahibiyin müdafiəsinə dair iddianın təmin edilməsi istisna olunur.

69. Sahibliyin müdafiəsi barədə iddialar yuxarıda göstərilən şərtlər əsasında və ardıcılıqla yoxlanılmaqla həll edilir. Bu şərtlərin hər biri aşkar edildikdə iddia əsaslı sayılaraq təmin olunur. Onlardan hər hansı birinin müəyyən edilməməsi sahibliyin müdafiəsi çərçivəsində iddianın rədd edilməsinə əsas verir və sonrakı şərt(lər)in yoxlanılmasına gərək qalmır.

70. Beləliklə, məhkəmə tərkibi yuxarıda göstərilənləri ümumiləşdirərək bu qənaətə gəlir ki, məhkəmələr hazırkı iş üzrə iddianın mahiyyətini və ona tətbiq edilməli olan hüququ düzgün müəyyən etməmiş, iddiaya yuxarıda göstərilən maddi hüquq normalarına uyğun hüquqi qiymət verməmiş, qətnaməni müəyyən edilmiş həqiqi hallara, tərəflərin qarşılıqlı münasibətinə və qanunvericiliyə uyğun əsaslandırmamışlar (§ 28-29).

71. Bu qaydalara riayət edilməməsi Azərbaycan Respublikasının Konstitusiyası ilə təminat verilən hüquq və azadlıqların məhkəmə müdafiəsi hüququnun, İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Avropa Konvensiyasında əks olunan ədalətli məhkəmə araşdırması hüququnun pozulmasına dəlalət edir (§ 16-17).

72. Qeyd edilənləri nəzərə alaraq kassasiya kollegiyası hesab edir ki, apellyasiya instansiyası məhkəməsinin qətnaməsi ləğv edilməli, yuxarıda göstərilənlər nəzərə alınmaqla işin hallarının araşdırılması və nəticəsindən asılı olaraq müvafiq qərar qəbul edilməsi üçün iş yeni apellyasiya baxışına qaytarılmalıdır.

73. Göstərilənlərə əsasən, MPM-in 416, 417 və 419-cu maddələrini rəhbər tutaraq, Məhkəmə kollegiyası

Qərara aldı:

Kassasiya şikayəti təmin edilsin.

Şirvan Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(106)-7/2025 nömrəli iş üzrə 10 fevral 2025-ci il tarixli qətnaməsi ləğv edilsin və iş yeni apellyasiya baxışına göndərilsin.

Qərar qətidir və qəbul edildiyi andan qüvvəyə minir.

Mülkiyyət hüququnun məhdudlaşdırılması

5. 2(102)-1116/2025 nömrəli, 2025-ci il 22 aprel tarixli qərar- qonşuluq hüququnun göstərişlərini pozan binalara çıxıntılı binalar haqqında qaydaların tətbiq edilməsi

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: Cavabdeh özünə məxsus materiallarla iddiaçıya məxsus torpaq sahəsinin bir hissəsində inşaat aparmışdır. Hazırda iddiaçı məhrum qaldığı torpağın dəyərinin və düşdüyü zərərin əvəzinin ödənilməsini tələb edir.

Kassasiya instansiya məhkəməsinin mövqeyi:

Məhkəmə tərkibi qeyd etmişdir ki, qonşuluq hüququnun göstərişlərini pozan binalara çıxıntılı binalar haqqında qaydaların tətbiq edilməsi Mülki Məcəllənin 172.4-cü maddəsində açıqca göstərildiyi üçün eyni şərtlər daxilində başqasının ərazisində inşa edilmiş binanın və ya onun yerləşdiyi torpaq sahəsinin hüquqi vəziyyəti ilə bağlı mübahisəli münasibətlərə də qanunun analogiyası qaydasında çıxıntılı binalar haqqında qaydalar tətbiq edilə bilər.

Çıxıntılı bina - bir torpaq sahəsində inşa edilən binanın həmin sahənin sərhədlərini aşaraq ona bitişik olan qonşu sahənin zəminində, torpağın altına və ya üzərindəki hava boşluğuna keçən tikilidir. Bu cür vəziyyət həm çıxıntılı binanı inşa etmiş şəxsin, həm də belə bina ilə torpaq sahəsinə müdaxilə olunmuş mülkiyyətçinin qanundan irəli gələn hüquq və öhdəliklərini doğurur. Əşyaya bağlı olaraq meydana gələn bu hüquq və öhdəliklər kontekstində əvvəlcə çıxıntılı binanın və onun zəbt etdiyi torpaq sahəsinin hüquqi vəziyyəti, sonra isə həmin daşınmaz əşyaların sahiblərinin bir-birinə qarşı irəli sürə biləcəyi tələblər nəzərdən keçirilməlidir.

Çıxıntılı binanın hüquqi vəziyyəti Mülki Məcəllənin 173.1-ci maddəsinin birinci cümləsində aşağıdakı kimi nəzərdə tutulmuşdur: “Başqa daşınmaz əmlaka keçən çıxıntıları olan binalar və digər qurğular yerləşdikləri daşınmaz əmlakın tərkib hissəsi kimi qalırlar, bu şərtlə ki, həmin əmlakın mülkiyyətçisi onlara əşya hüququna malik olsun”. Göründüyü kimi, qanunverici bu tənzimləmə ilə “torpağa bağlı olan torpağa aiddir” qaydasından (Mülki Məcəllənin 135.4-cü maddəsində əks olunan vahid mülkiyyət prinsipindən) istisna hal müəyyən edərək göstərmişdir ki, çıxıntılı bina, ərazisinə keçdiyi torpaq sahəsinin deyil, bina sahibinin daşınmaz əşyasının tərkib hissəsi sayılır. Bu şərtlə ki, çıxıntılı binanı inşa edənin müdaxilə etdiyi torpaq sahəsinə əşya hüququ mövcud olsun. Burada tikintini həmin torpaq sahəsinə keçirmək səlahiyyətini özündə ehtiva edən bir məhdud əşya hüququndan söhbət gedir (məsələn, servitut). Bu hüququ verən mülkiyyətçi çıxıntılı binanın yaratdığı məhdudiyyətə dözmək öhdəliyini üzərinə götürür. Bununla da çıxıntılı bina, səthində (altında və ya üstündə) yerləşdiyi torpaq sahəsinin yox, bağlı olduğu əsas tikilinin tərkib hissəsi sayılır. Bu səbəbdən Mülki Məcəllənin 173.2-ci maddəsində nəzərdə tutulmuşdur ki, üst tikiliyə hüquq daşınmaz əmlakın dövlət reyestrində servitut kimi qeydə alına bilər.

Beləliklə, çıxıntılı binanın onu inşa edənin əşyasının tərkib hissəsi sayılması üçün birinci imkan bina sahibinin həmin tikili üçün əvvəlcədən bir əşya hüququna malik olmasıdır. İkinci imkan isə ondan ibarətdir ki, bina inşa etmiş şəxsin belə bir əşya hüququ mövcud olmasa da, qanunda nəzərdə tutulan şərtlərin gerçəkləşməsinə görə müdaxilə etdiyi torpaq mülkiyyətçisindən məhdud əşya hüququ (servitut, tikintiyə vərəsəlik hüququ) və ya tam əşya hüququ (mülkiyyət hüququ) tələb etmək səlahiyyəti olsun. Bu cür səlahiyyət bir qayda olaraq, müqavilədən deyil, çıxıntılı binanın artıq inşa edilmiş olmasından, məhdudiyyətə məruz qalmış torpaq mülkiyyətçisinin buna vaxtında etiraz etməməsindən və digər qanuni şərtlərin mövcudluğundan irəli gəlir. Bu münasibət çərçivəsində ərazinin mülkiyyətçisi çıxıntılı bina sahibinin xeyrinə bir servitut qurmaq və ya müdaxilə olunan torpaq sahəsinin mülkiyyətini ona keçirmək, bina sahibi isə ağlabatan əvəz ödəmək öhdəliyi altına düşür.

Torpaq sahəsinin bina çıxan hissəsinə və ya tamamına münasibətdə bina sahibinə əşya hüququ verilməklə mülkiyyətçiyə ağlabatan əvəz ödənilməsi tələbləri üzrə iddianın hüquqi əsasını Mülki Məcəllənin 173.3-cü maddəsi təşkil edir. Bu tələbi irəli sürmək həm də ərazi mülkiyyətçisinin hüququdur. Ona görə ki, bina sahibi həmin tələbi irəli sürmədiyi təqdirdə onun yaratdığı mövcud faktiki vəziyyətlə torpaq mülkiyyətçisi iradəsi əleyhinə, özü də qeyri-müəyyən müddətə mülkiyyətinin bir qismindən məhrum edilmiş, yaxud məhdudlaşdırılmış vəziyyətdə qalır. Bu isə yolverilməz bir vəziyyətdir.

Bina sahibinə konkret olaraq hansı (ən uyğun) əşya hüququnun verilməsini məhkəmə hər işin konkret halına (torpaqdan məhrumiyyətin dərəcəsinə, xarakterinə və s.) görə müəyyən etməlidir. Bu səbəbdən qanunverici məsələnin həllini işin halları baxımından hakimin mülahizə sərbəstliyinə buraxaraq, Mülki Məcəllənin 173.3-cü maddəsində tənzimləməni "üst tikiliyə əşya hüququ və ya torpağa mülkiyyət hüququ verilə bilər" şəklində ifadə etmişdir.

Qeyd: Bu qərarın əsaslandırıcı hissəsində daşınmaz əşya üzərində mülkiyyət hüququnun əhatə dairəsi (üfüqi, şaquli və maddi), vahid daşınmaz əşya konsepsiyası, ondan istisnalar, əsassız tikinti, çıxıntılı bina və özbaşına tikilinin fərqləri kimi məsələlərə də izahlar verilmişdir.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-1116/2025

22.04.2025-ci il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi
Mülki kollegiyasının

İddiaçının cavabdeh "XXX" Məhdud
Məsuliyyətli Cəmiyyətinə qarşı iş üzrə

Q Ə R A R I

(Açar sözlər: qonşunun və ya başqasının torpaq sahəsində inşa edilmiş tikili, çıxıntılı bina)

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Əliyev Zaur Əli oğlu (məruzəçi), Babayev Zəki Baba oğlu və Baxışova Vüsalə Ələkbər qızından ibarət tərkibdə,

Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)-6704/2024 nömrəli, 17 dekabr 2024-cü il tarixli qətnaməsindən iddiaçı və cavabdeh tərəfindən verilmiş kassasiya şikayətlərinə Ali Məhkəmənin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları

1. Abşeron rayonu, X qəsəbəsində yerləşən 0,2477 ha torpaq sahəsi xx xx 2016-cı ildən İddiaçının, 1,0 ha torpaq sahəsi isə xx xx 2016-cı ildən "XXX" MMC-nin (bundan sonra – cavabdeh və ya MMC) xüsusi mülkiyyətindədir.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a)Birinci instansiya məhkəməsində icraat

2. İddiaçı məhkəməyə müraciət edərək, ona məxsus torpaq sahəsini zəbt etməsi ilə bağlı real zərər qismində 272.470 manat, əldən çıxmış fayda qismində 144.000 manat olmaqla, cəmi 416.470 manat pulun cavabdehdən tutularaq ona ödənilməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

3. İddiaçı tələbini belə əsaslandırmışdır ki, ona məxsus torpaq sahəsi cavabdeh tərəfindən qeyri-qanuni zəbt edilmiş və həmin torpaq sahəsində yanacaqdoldurma məntəqəsi tikilmişdir. Bununla əlaqədar iddiaçıya real zərərlə yanaşı, əldən çıxmış fayda da ödənilməlidir.

4. İddiaçı tərəfindən təqdim edilmiş "Məhkəmə Ekspertiza Xidmətləri" MMC-nin xx xx 2024-cü il tarixli rəyində qeyd olunmuşdur ki, iddiaçıya məxsus torpaq sahəsinin 0.1467 ha hissəsi yanacaqdoldurma məntəqəsinin naturada faktiki istifadə etdiyi torpaq sahəsinin hüdudları daxilində yerləşir. 0,1467 ha torpaq sahəsinin daxilində sahəsi 79 m^2 və 486^2 m olmaqla iki tikili mövcuddur. İddiaçının xüsusi mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı 0,2477 ha torpaq sahəsinin xx xx 2024-cü il tarixinə dəyəri 0,01 ha=11.000 manat; 0,2477 ha=272.470 manat təşkil edir.

5. İddiaçı tərəfindən təqdim edilmiş DƏDRX-nin 4 saylı Abşeron Ərazi İdarəsinin arayışında qeyd edilmişdir ki, ona məxsus 0,2477 ha torpaq sahəsinin bazar dəyəri 100.000 manat təşkil edir.

6. Məhkəmə tərəfindən təyin edilmiş məhkəmə tikinti-texniki və əmtəəşünaslıq ekspertizaları üzrə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin xx xx 2024-cü il tarixli rəyinə əsasən, cavabdehin faktiki istifadəsində olan 1,52 ha torpaq sahəsi ilə iddiaçının mülkiyyətinə verilmiş 0,2477 ha torpaq sahəsinin koordinatları 1463 kv.m hissədə üst-üstə düşür. 0,2477 ha torpaq sahəsinin (1 sotu 2500 manat) hazırkı dövr üçün bazar qiyməti təqribən 61.900 manat təşkil edir.

7. Məhkəmə iclasında cavabdehin nümayəndəsi və vəkili iddia ərizəsinə etiraz edərək bildirmişdir ki, cavabdeh torpaq sahəsinə hüquqlarını müəyyən edən sənədi iddiaçıdan daha öncə əldə etdiyindən, tərəflərə məxsus torpaq sahələrinin üst-üstə düşməsi mümkün deyildir. Eyni zamanda, ekspert rəyində əmlakın bazar dəyəri də realdan artıq göstərilmişdir. Mübahisəli torpaq sahəsi ümumiyyətlə kənd təsərrüfatına yararlı deyildir. Həmin torpaq sahəsinin altından müxtəlif növ boru xətləri çəkilmişdir.

8. Bakı şəhəri Səbail Rayon Məhkəməsinin 2(009)-878/2024 nömrəli xx xx 2024cü il tarixli qətnaməsi ilə (hakim İ.Rüstəmli) iddia qismən təmin edilərək, 36,575 manat məbləğində

zərərin əvəzinin cavabdehdən iddiaçının xeyrinə tutulması, iddianın qalan hissədə rədd olunması qət edilmişdir.

9. Birinci instansiya məhkəməsi ekspert rəylərinə istinadən qeyd etmişdir ki, iddiaçıya məxsus 0,2477 ha torpaq sahəsinin 1463 kv.m hissəsi həqiqətən də cavabdeh tərəfindən zəbt edilməklə iddiaçının mülkiyyət hüquqları pozulmuşdur. Bu səbəbdən iddiaçının torpaq sahəsindən məhrum olması müqabilində ona dəymiş real zərər cavabdehdən tutulmalıdır. Zərərin məbləğinə münasibətdə vurğulanmışdır ki, mübahisəli torpaq sahəsinin dəyəri iddiaçı tərəfindən təqdim edilmiş rəydə və arayışda müxtəlif cür göstərilmişdir. Belə olan halda, müstəqil qiymətləndirici kimi məhkəmənin təyin etdiyi ekspertizanın rəyində qeyd olunmuş məbləğ real məbləğ kimi götürülməli və cavabdehdən zəbt edilmiş 1463 kv.m torpaq sahəsinin dəyəri kimi (1 sotu 2500 manat hesablanmaqla) 36.575 manat məbləğində pul tutulmalıdır.

10. Məhkəmə əldən çıxmış fayda tələbini rədd edərkən qeyd etmişdir ki, iddiaçı tərəfindən qanunvericiliyin tələbinə uyğun olaraq bu istiqamətdə hər hansı tədbirlər görülməsini təsdiqləyən sübutlar təqdim edilməmişdir.

11. Məhkəmə öz mövqeyini, Mülki Məcəllənin 21.2, 443.4, 1096.1, 1096.2, 1097.1-ci və Mülki Prosessual Məcəllənin 14.2, 77.1, 88-ci maddələri ilə əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

12. İddiaçı apellyasiya şikayəti verərək, qətnamənin iddianın təmin olunmayan hissəsində ləğv olunmasını, iddianın tam təmin olunmasını xahiş etmişdir.

13. Cavabdeh də apellyasiya şikayəti verərək, qətnamənin ləğv edilməsini, iddianın rədd olunmasını xahiş etmişdir.

14. Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)-6704/2024 nömrəli 17 dekabr 2024-cü il tarixli qətnaməsi ilə (hakimlər A.İsgəndərov – sədrlik edən və məruzəçi, S.Səlimova və K.Əkbərov) apellyasiya şikayətləri təmin edilməmiş, birinci instansiya məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmışdır.

15. Apellyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsinin gəldiyi nəticə və əsaslandırma ilə razılaşaraq, hesab etmişdir ki, qətnamə maddi və prosessual hüquq normalarına uyğun çıxarılmış, iş üzrə müəyyən edilmiş həqiqi hallara və tərəflərin qarşılıqlı münasibətlərinə uyğun və yalnız məhkəmə iclasında tədqiq olunmuş sübutlarla əsaslandırılmışdır. Apellyasiya şikayətlərinin dəlilləri qətnamənin ləğvi və dəyişdirilməsi üçün əsas ola bilməz.

Kassasiya şikayətlərinin və ona qarşı etirazın dəlilləri

a) İddiaçının kassasiya şikayətinin dəlilləri

16. İddiaçı kassasiya şikayəti verərək, apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv edilməsini, işin yeni apellyasiya baxışına qaytarılmasını və ya iddianın təmin olunması barədə yeni qərar qəbul olunmasını xahiş etmişdir.

17. Kassasiya şikayəti belə əsaslandırılmışdır ki, məhkəmələr tərəfindən təyin edilən kompensasiya ədalətli hesab edilə bilməz. İddiaçının təqdim etdiyi, bu sahədə səlahiyyətli dövlət orqanın verdiyi kadastr qiyməti Məhkəmə Ekspertizası Mərkəzi tərəfindən təqdim edilən qiymətdən təxminən iki dəfə artıqdır. Torpaq sahəsinin kadastr dəyəri hələ onun bazar dəyəri demək deyil. Əmlakın kadastr dəyəri müəyyən bir tarixə əldə edilmiş əmlakın qiymət faktorları əsasında müəyyən edilən qiymətləndirilməsinin nəticəsidir. Bazar dəyəri isə əmlakın bütün xüsusiyyətləri və bazardakı mövcud vəziyyəti nəzərə alınmaqla satıla biləcəyi qiymətidir. Bazar qiyməti kadastr qiymətindən aşağı ola bilməz. Hazırda kadastr qiyməti və bazar qiymətinin müəyyən edilməsi istiqamətində işgüzar adətlər formalaşmadığından məhkəmələr dövlət orqanı tərəfindən müəyyən edilən kadastr qiyməti və bazar qiymətini geniş araşdıran müstəqil qiymətləndiricinin rəyini nəzərə almamış, bu rəylər arasında kəskin fərqin nədən ibarət

olmasını araşdırmamış, təkrar ekspertiza keçirilməsi barədə tədbir görməmişlər. Yalnız cavabdehin xeyrinə olan rəyi nəzərə almaqla, işə formal yanaşmış və qərəzli mövqe tutmuşlar.

18. Bundan başqa, torpaq sahəsi kənd təsərrüfatı təyinatlı olduğundan iddiaçı onun təyinatına uyğun istifadə ediləcəyi təqdirdə əldə edəcəyi gəlir barədə rəy təqdim etmiş, lakin məhkəmələr ona məxsus torpaq sahəsinin böyük bir qisminin dəyərindən aşağı qiymətə cavabdehə keçməsinə yol verməklə, qalan torpaq sahəsinin iddiaçı üçün iqtisadi maraq kəsb edib-etməməsini araşdırmamışlar. Həmçinin, iddiaçıya məxsus kənd təsərrüfatı təyinatlı torpaq sahəsini cavabdehin mülkiyyətinə verməklə faktiki olaraq iddiaçıya məxsus torpağın da kateqoriyasını da dəyişmişlər. Belə ki, cavabdehə ayrılmış torpaq sahəsi sənaye təyinatlı torpaq sahəsidir. Lakin öz marketinq maraqlarına xidmət etmək məqsədi ilə yolun kənarında yerləşən, iddiaçıya məxsus torpaq sahəsini qeyriqanuni zəbt edərək həmin torpaq sahəsində də yanacaqdoldurma məntəqəsi tikmişdir.

19. Kassasiya şikayətinin əsası kimi, Konstitusiyanın 13, 29-cu, Mülki Məcəllənin 203.3cü, Torpaq Məcəlləsinin 9.3, 12.4 və 13.3-cü və MPM-in 14, 88, 102.2, 217-ci maddələrinə istinad edilmişdir.

b) Cavabdehin kassasiya şikayətinin dəlilləri

20. Cavabdeh kassasiya şikayəti verərək, apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv edilməsini, iddianın rədd olunması barədə yeni qərar çıxarılmasını xahiş etmişdir.

21. Kassasiya şikayəti belə əsaslandırılmışdır ki, iddiaçı ona məxsus torpaq sahəsinin cavabdeh tərəfindən qeyri-qanuni zəbt edildiyini qeyd etsə də, bununla bağlı hər hansı mötəbər sübutu iddia ərizəsinə əlavə etməmişdir. Yalnız "Məhkəmə Ekspertizası Xidmətləri" MMC-nin mütəxəssis rəyinə istinad olunmuşdur. Halbuki həmin MMC-nin müvafiq mütəxəssis rəyi verə bilməsi üçün müvafiq lisenziyanın olması müəyyən edilməmişdir. Həmçinin rəydə onun tərəflərə məxsus torpaq sahələrinin koordinatlarının müəyyən edilməsi, eyni zamanda torpaq sahələrinin üst-üstə düşüb-düşmədiklərini müəyyən etmək üçün hansı texniki imkanının və müvafiq elektron (xəritə) məlumat bazasına giriş izninin olub-olmadığına dair hər hansı bir qeyd-şərt də mövcud deyildir. Bundan başqa, torpaq sahəsinin planı və ölçüsünün torpaq sahəsinin kadastr göstəriciləri hissəsində olan "rəqəmli (elektron) kadastr xəritəsindən çıxarışa diqqətlə baxdıqda iddiaçıya məxsus torpaq sahəsi ilə cavabdehə məxsus torpaq sahəsindən arasında boş zolağın da olduğunu görmək mümkündür.

22. Digər tərəfdən, cavabdehə məxsus "X" yanacaqdoldurma məntəqəsi artıq 2017-ci ildən istismara verilmiş və fəaliyyət göstərir. Lakin iddiaçı 8 ildən çox olan müddətdə kənd təsərrüfatı təyinatlı torpağı ilə maraqlanmamış, ümumiyyətlə məntəqə tikilən müddətdə və ondan sonrakı illərdə hər hansı bir etirazı olmamışdır. Həmçinin nəzərə alınmalıdır ki, cavabdehə məxsus torpaq sahəsinin kateqoriyası yaşayış məntəqəsi torpaqlarına aiddir, iddiaçıya məxsus torpaq sahəsinin kateqoriyası isə kənd təsərrüfatı təyinatlıdır. Apellyasiya məhkəməsi isə qeyd olunanları nəzərə almadan maddi və prosessual hüquq normalarını düzgün tətbiq etməmişdir.

23. Kassasiya şikayətinin əsası kimi, Mülki Məcəllənin 21.1, 21.2-ci və MPM-in 9.3, 14.2, 77.1, -ci maddələrinə istinad edilmişdir.

Kassasiya şikayətlərinə qarşı etirazın dəlilləri

24. Kassasiya şikayətlərinə qarşı etiraz təqdim olunmamışdır.

Tətbiq edilən hüquq:

Azərbaycan Respublikasının Konstitusiyası:

25. Maddə 13, I hissə. Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur.

26. Maddə 29, I hissə. Hər kəsin mülkiyyət hüququ vardır.

27. Maddə 29, V hissə. Xüsusi mülkiyyət sosial öhdəliklərə səbəb olur.

28. Maddə 29, VI. Sosial ədalət və torpaqlardan səmərəli istifadə məqsədi ilə torpaq üzərində mülkiyyət hüququ qanunla məhdudlaşdırıla bilər..

29. Maddə 60, I hissə. Hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir.

"Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu:

30. Maddə 3.1. Azərbaycan Respublikasının Konstitusiyasında və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş insan hüquqları və azadlıqları yalnız qanunla məhdudlaşdırıla bilər.

31. Maddə 3.4. İnsan hüquqlarına və ya azadlıqlarına qoyulan məhdudiyyətlər Azərbaycan Respublikasının Konstitusiyasında və bu Konstitusiya Qanununda nəzərdə tutulan qanuni məqsədə yönəlməli və həmin məqsədə mütənasib olmalıdır.

32. Maddə 3.5. Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin III hissəsində göstərilən əsaslarla yanaşı, insan hüquqları və azadlıqları digər insanların hüquqlarının və azadlıqlarının həyata keçirilməsinə təminat verilməsi və onların müdafiə edilməsi məqsədi ilə məhdudlaşdırıla bilər.

"İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında" Avropa Konvensiyası (1 saylı Protokol):

33. Maddə Hər bir fiziki və hüquqi şəxs öz mülkiyyətindən maneəsiz istifadə hüququna malikdir. Heç kəs, cəmiyyətin maraqları naminə qanunla və beynəlxalq hüququn ümumi prinsipləri ilə nəzərdə tutulmuş şərtlər istisna olmaqla, öz mülkiyyətindən məhrum edilə bilməz.

Yuxarıdakı müddəalar dövlətin ümumi maraqlara müvafiq olaraq, mülkiyyətdən istifadəyə nəzarəti həyata keçirmək üçün yaxud vergilərin və ya digər rüsum və ya cərimələrin ödənilməsini təmin etmək üçün zəruri hesab etdiyi qanunları yerinə yetirmək hüququnu məhdudlaşdırmır.

Azərbaycan Respublikasının Mülki Məcəlləsi:

34. Maddə 11.1. Mülki hüquq münasibətləri mülki qanunvericiliklə və ya tərəflərin razılaşması ilə birbaşa tənzimlənmədikdə və onlara tətbiq edilə bilən işgüzar adət olmadıqda həmin münasibətlərə, əgər bu, onların mahiyyətinə zidd deyildirsə, oxşar münasibətləri tənzimləyən mülki qanunvericilik normaları tətbiq edilir (qanunun analogiyası).

35. Maddə 135.4. Əşyalar daşınmaz və daşınar ola bilər. Torpaq sahələri, yer təki sahələri, ayrıca su obyektləri, meşələr, çoxillik əkmələr, binalar, qurğular və torpaqla möhkəm bağlı olan (ondan ayrıla bilməyən) digər əşyalar, yəni təyinatına tənasübsüz zərər vurulmadan yerinin dəyişdirilməsi mümkün olmayan obyektlər daşınmaz əşyalardır. Torpaq sahəsi və torpaqla möhkəm bağlı olan (ondan ayrıla bilməyən) əşya vahid daşınmaz əşyadır və vahid mülkiyyət obyektidir.

36. Maddə 135.9. Əgər müxtəlif növlü əşyalar ümumi təyinat üzrə istifadə edilməsini nəzərdə tutan vahid tam yaradırlarsa, bir əmlak (mürəkkəb əmlak) sayılırlar. Mürəkkəb əmlak barəsində bağlanmış əqdin qüvvəsi, əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, onun bütün tərkib hissələrinə şamil edilir.

37. Maddə 135.10. Adi anlamda əşyanın tərkibinə daxil olan və dağıdılmadan, zədələnmədən və ya dəyişdirilmədən ondan ayrıla bilməyən hər şey əşyanın tərkib hissəsidir. Özbaşına tikinti ilə bağlı hallar istisna olmaqla, əşyanın mülkiyyətçisi onun bütün tərkib hissələrinin mülkiyyətçisidir.

38. Maddə 152.1. Mülkiyyət hüququ - subyektin ona mənsub əmlaka (əşyaya) öz istədiyi kimi sahib olmaq, ondan istifadə etmək və ona dair sərəncam vermək üzrə dövlət tərəfindən tanınan və qorunan hüquqdur.

39. Maddə 152.5. Mülkiyyətçi qanunda və ya müqavilədə müəyyən edilən məhdudiyyətlər nəzərə alınmaqla müəyyənləşdirilmiş hədlərdə əmlaka (əşyaya) sərbəst surətdə sahib ola bilər, ondan istifadə edə bilər və ona dair sərəncam verə bilər, həmin əmlaka başqa şəxslərin sahibliyinə yol verməyə bilər, ona mənsub əmlak barəsində öz mülahizəsi ilə istənilən hərəkətləri edə bilər, bir şərtlə ki, həmin hərəkətlər qonşuların və ya üçüncü şəxslərin hüquqlarını pozmasın, yaxud hüquqdan sui-istifadə olmasın.

40. Maddə 157.4. Əgər mülkiyyətə qəsd və ya başqa maneələr əşyanı götürmədən və ya ondan məhrum etmədən törədilirsə, mülkiyyətçi qəsd edəndən bu hərəkətlərə son qoymağı tələb edə bilər. Bu cür hərəkətlər davam etdirildikdə mülkiyyətçi həmin hərəkətlərə son qoyulmasını məhkəmə vasitəsilə tələb edə bilər.

41. Maddə 172.3. Əgər torpaq sahəsinin mülkiyyətçisi tikinti zamanı qonşu sahənin sərhədlərini qərəzsiz pozarsa, həmin sahənin mülkiyyətçisi, pozuntu aşkar edilməzdən qabaq və ya aşkar edilən kimi pozucuya etiraz bildirildiyi hallardan başqa, həmin pozuntuya dözməlidir. Sərhədi pozmuş qonşu pul kompensasiyası ödəməli və bundan sonra onu hər il ödəməlidir.

42. Maddə 172.4. Qonşuluq hüququnun göstərişlərini pozan binalara çıxıntılı binalar haqqında qaydalar tətbiq edilir.

43. Maddə 173.1. Başqa daşınmaz əmlaka keçən çıxıntıları olan binalar və digər qurğular yerləşdikləri daşınmaz əmlakın tərkib hissəsi kimi qalırlar, bu şərtlə ki, həmin əmlakın mülkiyyətçisi onlara əşya hüququna malik olsun. Qonşu ya üst tikiliyə qarşı etirazını bildirə bilər, ya da bununla barışaraq ağlabatan əvəz ödənilməsini tələb edə bilər.

44. Maddə 173.2. Üst tikiliyə hüquq daşınmaz əmlakın dövlət reyestrində servitut kimi qeydə alına bilər.

45. Maddə 173.3. Əgər üst tikili əsassızdırsa və hüququna toxunulmuş şəxs, bunu bilsə də, vaxtında etiraz etməzsə, üst tikilini ucaldan şəxsə, şəraitin haqq qazandırdığı hallarda, ağlabatan əvəz ödənilməklə, üst tikiliyə əşya hüququ və ya torpağa mülkiyyət hüququ verilə bilər.

46. Maddə 173.4. Əgər qonşu sahədən binanın uçub torpaq sahəsinə tökülməsi təhlükəsi varsa, mülkiyyətçi qonşudan həmin təhlükənin qarşısının alınması üçün lazımi tədbirlər görməyi tələb edə bilər.

47. Maddə 180.1. Tikinti məqsədləri üçün ayrılmayan torpaq sahəsində və ya buna lazımi icazələr almadan və ya şəhərsalma və tikinti normalarını və qaydalarını ciddi surətdə pozmaqla tikilmiş yaşayış evi, digər tikili, qurğu və ya başqa daşınmaz əmlak özbaşına tikinti sayılır.

48. Maddə 188.1. Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, şəxsin özünə mənsub olmayan materialların emalı yolu ilə hazırladığı yeni daşınar əmlaka mülkiyyət hüququnu materialların mülkiyyətçisi əldə edir. Emalın dəyəri materialların dəyərindən əhəmiyyətli dərəcədə yüksək olduqda, yeni əmlaka mülkiyyət hüququnu vicdanla hərəkət edərək, materialları özü üçün emal etmiş şəxs əldə edir.

49. Maddə 238.1. Daşınmaz əmlak kimi torpaq mülkiyyət hüququnun obyektidir. Torpaq sahəsinin ərazi sərhədləri daşınmaz əmlakın dövlət reyestrinin ixtiyarlı şəxsinin mülkiyyətçiyə verdiyi sənədlər əsasında təyin edilir.

50. Maddə 238.3. Torpaq sahəsinin mülkiyyətçisi, əgər qanunla ayrı qayda nəzərdə tutulmayıbsa və digər şəxslərin hüquqlarını pozmursa, həmin sahənin üstündə və altında olan

hər şeydən istifadə edə bilər. Əgər qanunla ayrı qayda nəzərdə tutulmayıbsa, yerin təki və faydalı qazıntılar Azərbaycan Respublikasının mülkiyyətidir.

51. Maddə 250.1. Torpaq sahəsi elə yüklü ola bilər ki, onun üstündə və ya altındakı binaya malik olmaq hüququ - özgəninkiləşdirilən və vərəsəlik üzrə keçən hüquq xeyrinə yükləmə aparılan şəxsə mənsub olar. Tikintiyə vərəsəlik hüququ daşınmaz əmlakın dövlət reyestrində qeydə alınır.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi:

52. Maddə 217.1. Məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır.

53. Maddə 217.3. Qətnamə iş üzrə müəyyən edilmiş həqiqi hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır.

54. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

Kassasiya baxışının hədləri

55. Kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

56. Kassasiya şikayətlərində qətnamə tam mübahisələndirildiyindən apellyasiya instansiyası məhkəməsinin aktı bütovlükdə yoxlanılır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

57. Baxılan işdə məhkəmələr müəyyən etmişlər ki, Abşeron rayonu, X qəsəbəsində yerləşən 0,2477 ha torpaq sahəsi iddiaçının, 1,0 ha torpaq sahəsi isə cavabdeh “XXX” MMC-nin xüsusi mülkiyyətindədir. Adıçəkilən MMC ərazidə yanacaqdoldurma məntəqəsi kimi istifadə etmək məqsədilə apardığı inşaatla iddiaçının torpaq sahəsinin 1463 kv.m. hissəsinə keçmişdir. Bu fakt məhkəmə ekspertizasının rəyi ilə təsdiq olunur.

58. Bununla əlaqədar iddiaçı torpaq sahəsinin zəbt edilməsinə görə düşdüyü zərərin əvəzi kimi ümumilikdə 416.470 manat pulun cavabdeh “XXX” MMC-dən öz xeyrinə tutulmasını tələb edir. Cavabdeh isə iddiaya etiraz edərək tələblərin rədd olunmasını xahiş edir.

59. Məhkəmələr iddianı təmin edərkən Mülki Məcəllənin öhdəliyin icra edilməməsi ilə vurulan zərərin əvəzinin ödənilməsi barədə 443.4-cü, mülki hüquq pozuntuları (deliktlər) haqqında 1096 və 1097-ci maddələrini qətnamələrində qeyd etmişlər. Bununla belə, işin müəyyən olunmuş halları ilə həmin normaların dispozisiya şərtləri arasında uyğunluğun nədən ibarət olmasına dair hüquqi dəyərləndirmə aparmamışlar.

60. Bu hal qətnamənin iş üzrə müəyyən edilmiş həqiqi hallara, tərəflərin qarşılıqlı münasibətinə və qanunvericiliyə uyğun əsaslandırılmalı olması barədə prosessual hüquq normalarının pozulmasına dəlalət edir (§ 52-53).

61. Kassasiya instansiyası məhkəməsi işin yuxarıda qeyd olunan faktiki hallarını nəzərə alaraq əvvəlcə onu bildirir ki, təcrübədə bir şəxsin mülkiyyətində olan torpaq sahəsində başqasının tikili inşa etməsi kimi vəziyyətlərə rast gəlinir. Belə vəziyyət müxtəlif səbəblərdən irəli gələ bilər: torpaq sahələrinin dövlət reyestrində qeydə alınmış sərhədləri ilə yerində istifadə olunan sərhədlərin üst-üstə düşməməsi (sürüşmələr olması) və ya reyestr məmurunun döngə nöqtələrini yerində səhv nişanlayıb yanlış sahəni mülkiyyətçiyə göstərməsi ilə əlaqədar sərhədin bilmədən pozularaq binanın tamamının və ya bir hissəsinin qonşunun sahəsində inşa edilməsi; alıcının torpaq sahəsinin qeyri-notarial alqısatqısına güvənərək ərazidə tikinti

aparması, yaxud mülkiyyətçinin verdiyi razılıq əsasında başqa şəxsin torpaq sahəsində öz hesabına bina tikməsi və s.

62. Bu kateqoriyadan olan işlərdən görünür ki, tikilinin (və ya onun bir hissəsinin) üzərində inşa edildiyi torpaq sahəsinin mülkiyyətçiləri sonradan həmin tikilinin sökülməsi və ərazinin boşaldılaraq təhvil verilməsi və ya hazırkı işdə olduğu kimi torpaq sahəsinin kompensasiyasının ödənilməsi haqqında iddialar qaldırırlar.

63. Belə iddiaların qanuni və ədalətli həlli üçün torpaq mülkiyyətçisi ilə inşaat aparmış şəxs arasındakı hüquq münasibətlərinin mahiyyətini, onların qarşılıqlı öhdəliklərini, eləcə də mübahisə obyekti olan tikili və torpaq sahəsinin hüquqi vəziyyətini düzgün şəkildə müəyyənləşdirmək zərurəti meydana çıxır.

64. Kollegiya ilk növbədə onu qeyd edir ki, sözügedən münasibətlər daşınmaz əşya üzərində mülkiyyət hüququnun əhatə dairəsi ilə bağlı bir məsələdir. Torpaq sahəsində başqasının tikili inşa etməsindən doğan belə mübahisədə yaranan ilk sual budur ki, torpaq mülkiyyətçisinin hüququ həmin tikiliyə də şamil olunurmu?

65. Daşınmaz əşya üzərində mülkiyyət hüququnun əhatə dairəsi üç istiqamətdə nəzərdən keçirilir: mülkiyyətin üfüqi əhatəsi; mülkiyyətin şaquli əhatəsi; mülkiyyətin maddi əhatəsi.

66. Daşınmaz əşyaya mülkiyyət hüququ üfüqi olaraq ərazinin sərhədləri içində qalan torpaq sahəsinin hər tərəfini əhatə edir. Bu sərhədlər daşınmaz əmlakın dövlət reyestrinin plan və cizgi sənədləri (koordinatları) ilə müəyyən olunur (MM, m.238.1, ikinci cümlə - § 49).

67. Mülkiyyətin şaquli əhatəsi isə sahənin üzərindəki hava boşluğunu və altındakı torpaq təbəqəsini özündə ehtiva edir (MM,m.238.3, birinci cümlə - § 50). Bu əhatə sahəsi qanunda nəzərdə tutulan hədlərlə və mülkiyyətçinin öz hüququndan istifadə etmək mənafeyinin ölçüsü ilə məhdudlaşdır.

68. Mülkiyyətin maddi əhatəsi isə torpaq sahəsində yer alan cismani (fiziki) obyektləri nəzərdə tutur. Başqa sözlə, sahədə yerləşən və torpaqla möhkəm bağlı olan belə obyektlər – tikili, qurğu, çoxillik əkmələr və s. mülkiyyət hüququnun maddi əhatə dairəsinə daxil olur. Mülki Məcəllənin 135.4-cü maddəsində göstərilir ki, torpaq sahələri, yer təki sahələri, ayrıca su obyektləri, meşələr, çoxillik əkmələr, binalar, qurğular və torpaqla möhkəm bağlı olan (ondan ayrıla bilməyən) digər əşyalar, yəni təyinatına tənasübsüz zərər vurulmadan yerinin dəyişdirilməsi mümkün olmayan obyektlər daşınmaz əşyalardır (§ 35).

69. Göründüyü kimi, torpaq sahəsində inşa edilmiş tikili mülkiyyətin maddi əhatəsi daxilində qiymətləndirilən bir məsələdir.

70. Tikili dedikdə, ərazinin altında və ya üstündə davamlı qalması məqsədilə inşa edilən, texniki vasitələrlə torpağa bərkidilən hər cür inşaat – bina, qurğu, körpü, su arxları, anbar, dəmiryolu relsləri və s. nəzərdə tutulur.

71. Qanunvericilikdə və doktrinada qəbul edilən “tərkib hissə” anlayışına və prinsipinə (ümumi qaydaya) görə, torpaq üzərində inşa edilən və dağıdılmadan ondan ayrıla bilməyən tikililər yerləşdikləri əsl daşınmaz əşya olan torpağın tərkib hissəsidir.

72. Əşyanın tərkib hissələri mürəkkəb əşyanı təşkil edən elə bitişik əşyalardır ki, onlar olmadan mürəkkəb əşyanın əmələ gəlməsi və iqtisadi baxımdan ondan gözlənilən faydanı verməsi mümkün olmur. Tərkib hissələr əsas əşya ilə bir bütün – vahid əşya əmələ gətirmək üçün birləşən və bununla da meydana gələn yeni obyektə mürəkkəb əşya olma xüsusiyyətini verən parçalardır. Məsələn, torpaq, daş, qum, armatur, qapı, pəncərə, dam örtüyü birləşərək fərdi yaşayış evini meydana gətirirlər. Sadalanan tərkib hissələrin əsas əşyadan ayrılması əşyanın maddi bütünlüyünü və iqtisadi funksiyasını pozmadan mümkün olmur. Beləliklə, bir iqtisadi məqsəd üçün birləşmiş müxtəlif növlü əşyalar vahid (mürəkkəb) əşya hesab olunurlar.

73. Bu səbəbdən Mülki Məcəllənin 135.9-cu və 135.10-cu maddələrində nəzərdə tutulmuşdur ki, əgər müxtəlif növlü əşyalar ümumi təyinat üzrə istifadə edilməsini nəzərdə tutan vahid tam yaradırlarsa, bir əmlak (mürəkkəb əmlak) sayılırlar. Adi anlamda əşyanın tərkibinə daxil olan və dağıdılmadan, zədələnmədən və ya dəyişdirilmədən ondan ayrıla bilməyən hər şey əşyanın tərkib hissəsidir (hər iki maddənin birinci cümləsi - § 36-37).

74. Məlum olduğu kimi, Mülki Məcəllənin 135.10-cu maddəsinin ikinci cümləsində əşyanın mülkiyyətçisinin onun bütün tərkib hissələrinin mülkiyyətçisi olduğu göstərilərkən özbaşına tikinti ilə bağlı hallar istisna edilmişdir (§ 35).

75. Bununla belə, 28 dekabr 2018-ci il tarixli, 1438-VQD nömrəli Qanunla 135.4-cü maddəyə əlavə edilən "Torpaq sahəsi və torpaqla möhkəm bağlı olan (ondan ayrıla bilməyən) əşya vahid daşınmaz əşyadır və vahid mülkiyyət obyektidir" cümləsində bu cür istisna nəzərdə tutulmamışdır. Eyni məzmunlu dəyişiklik 20 noyabr 2020-ci il tarixli, 198VIQD nömrəli Qanunla Torpaq Məcəlləsinin 4-cü maddənin 4-cü hissəsində edilmişdir.

76. Göründüyü kimi, son illərdə edilən dəyişikliklər qanunvericinin bu hüquq münasibətlərinin tənzimlənməsində vahid daşınmaz əşya və vahid mülkiyyət obyekti prinsipini üstün tutduğunu göstərir.

77. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu da 16 iyun 2023-cü il tarixli qərarında bildirmişdir ki, qanunverici son zamanlar istər Mülki Məcəllənin özündə, istərsə də digər aidiyyəti Məcəllələrdə vahid mülkiyyət yanaşmasına üstünlük vermişdir.

78. Bununla belə, sözügedən ümumi qaydanın (vahid mülkiyyət prinsipinin) qanunda nəzərdə tutulan bəzi istisnaları vardır. Məsələn, tikintiyə vərəsəlik hüququ əldə etmiş şəxs başqasının torpaq sahəsinin üstündə və ya altındakı binaya malik olmaq imkanı əldə edir (MM, m.250.1 - § 51). Bu halda, torpaq mülkiyyətçisi həmin hüququn qüvvədə olduğu müddətdə ərazisində yerləşən tikilinin mülkiyyətçisi hesab edilmir, onun torpaq üzərindəki mülkiyyəti binaya malik olan şəxsin (məhdud əşya) hüququ ilə yüklü hala gəlir. Yaxud, qonşunun tikinti zamanı sərhəddi qərəzsiz pozması halında torpaq mülkiyyətçisi buna dərhal etiraz bildirmədikdə nəinki həmin tikiliyə mülkiyyət hüququ əldə etmir, əksinə mövcud vəziyyətə dözməli olur (MM, maddə 172.3) və ya qanuni şərtlər gerçəkləşdikdə üst tikilinin yerləşdiyi torpaq sahəsinə mülkiyyət hüququ çıxıntılı bina sahibinə verilir (MM, maddə 173.3).

79. Bu baxımdan torpaq sahəsinə mülkiyyətin maddi əhatəsinə daxil olan tikililərə münasibətdə bu hüququn məhdudlaşdırılmasının baxılan işlə əlaqəli olan bəzi əsasları nəzərdən keçirilməlidir.

80. Aydın məsələdir ki, mülkiyyətçi torpaq sahəsində özünün materialları (vəsaiti) hesabına bina inşa etdikdə ixtilaf yaranmır. Mübahisəli vəziyyət(lər) bir qayda olaraq, mülkiyyətçinin torpaq sahəsində başqasına aid materiallarla tikinti aparıldıqda meydana çıxır. Çünki, daşınar əşya sayılan materiallar (qanunla müəyyən edilmiş qaydada aparılan) inşaatda istifadə olunduqda daşınmaz əşyanın tərkib hissəsinə çevrildiyi andan materialların mülkiyyətçisi həmin əşyalar üzərindəki hüququnu itirir. Təbii ki, tərəflər arasında podrat və ya tapşırıq müqaviləsi bağlandıqda mübahisəli münasibətlərə həmin müqavilələrə aid qaydalar tətbiq olunur. Belə müqavilə münasibəti olmadan başqasına aid materiallarla tikinti inşa edildikdə həmin tikilinin hüquqi vəziyyəti ilə bağlı ixtilaflar ortaya çıxır.

81. Elmi ədəbiyyatda "əsassız tikinti" adlandırılan belə vəziyyətlər üç qrupda təsnif edilir: 1)şəxsin özünə məxsus material ilə başqasının mülkiyyətində olan torpaq sahəsində inşaat aparması; 2)şəxsin başqasına məxsus material ilə öz mülkiyyətində olan torpaq sahəsində inşaat aparması; 3)şəxsin başqasına məxsus material ilə başqasının mülkiyyətində olan torpaq sahəsində inşaat aparması.

82. Əsassız tikintini çıxıntılı binadan və özbaşına tikilidən fərqləndirmək lazımdır. Belə ki, çıxıntılı binada torpaq mülkiyyətçisinin öz ərazisində inşa etdiyi binanın və ya qurğunun bir hissəsi qonşunun torpaq sahəsinə keçir. Bu halda tikili eyni anda iki qonşu sahə üzərində yerləşir, başqa əraziyə keçmiş çıxıntı tərkib hissəsi olduğu bina ilə qırılmaz fiziki bağlantıda olur. Əsassız tikintidə isə binanın tamamı qonşunun və ya başqa şəxsin ərazisində inşa edilir.

83. Özbaşına tikiliyə münasibətdə əvvəlcə qeyd edilməlidir ki, onun meyarları Mülki Məcəllənin 180.1-ci maddəsində göstərilmişdir. Belə ki, özbaşına tikili, tikinti məqsədləri üçün ayrılmayan torpaq sahəsində və ya buna lazımi icazələr almadan və ya şəhərsalma və tikinti normalarını və qaydalarını ciddi surətdə pozmaqla tikilmiş yaşayış evi, qurğu və ya başqa tikilidir (§ 47). Göründüyü kimi, sadalanan meyarlar sırasında tikilinin dövlət reyestrində qeydə alınmaması göstərilməmişdir. Odur ki, şəxsin xüsusi mülkiyyətində olan torpaq sahəsində lazımi inzibati prosedurlara uyğun şəkildə inşa etdiyi, lakin hələ reyestrdən qeydiyyatdan keçirmədiyi tikinti özbaşına tikili sayıla bilməz. Mübahisə olduqda bir tikilinin özbaşına sayılması üçün müvafiq icra hakimiyyəti orqanı (və ya maraqlı tərəf) Mülki Məcəllənin məhz 180.1-ci maddəsində əks olunan şərtləri iddia və sübut etməlidir. Həmin şərtlər isə onu göstərir ki, bu institut daha çox inşaatla bağlı torpaq mülkiyyətçisi ilə inzibati orqanlar arasındakı hüquq münasibətləri baxımından aktualdır. Əsassız tikinti isə torpaq sahəsinin mülkiyyətçisi ilə inşaatı öz hesabına aparmış şəxs arasında yaranan mülki hüquq münasibətləri ilə bağlıdır. Məsələn, tikinti üçün ayrılan torpaq sahəsində lazımi icazələr almaqla tikinti norma və qaydalarına uyğun aparılan inşaatda müqavilə münasibəti olmadan başqası öz materialı ilə bina tikə bilər. Bu zaman həmin bina özbaşına tikili sayılmayacağı halda, əsassız tikinti hesab ediləcəkdir.

84. Baxılan işin məhkəmələr tərəfindən müəyyən edilmiş hallarından belə görünür ki, cavabdeh “XXX” MMC özünə məxsus material ilə iddiaçının mülkiyyətində olan torpaq sahəsinin 1463 kv.m. hissəsində inşaat aparmışdır.

85. Bu hal bir şəxsin özünə məxsus materiallarla başqasının mülkiyyətində olan torpaq sahəsində inşaat aparması vəziyyətinə uyğun gəlir. Odur ki, mövcud vəziyyətdə tərəflərin bir-birinə qarşı hansı tələb hüquqlarına malik olması nəzərdən keçirilməlidir.

86. İlk növbədə qeyd olunmalıdır ki, mülki qanunvericiliyimizdə bu halı düzünə tənzimləyən maddi hüquq normaları aşkar edilmir.

87. Doğrudur, daşınar əşyalarla bağlı oxşar vəziyyət Mülki Məcəllənin 188-ci (emal) maddəsində nizama salınsa da (§ 48), daşınmaz əşyalara dair mülkiyyət hüququnun məhdudlaşdırılması əsaslarında (VIII fəsildə) məhz bu hal barəsində xüsusi tənzimləmə mövcud deyil.

88. Yalnız Mülki Məcəllənin 172.3-cü maddəsində qeyd olunmuşdur ki, “Əgər torpaq sahəsinin mülkiyyətçisi tikinti zamanı qonşu sahənin sərhədlərini qərəzsiz pozarsa, həmin sahənin mülkiyyətçisi, pozuntu aşkar edilməzdən qabaq və ya aşkar edilən kimi pozucuya etiraz bildirildiyi hallardan başqa, həmin pozuntuya dözməlidir. Sərhədi pozmuş qonşu pul kompensasiyası ödəməli və bundan sonra onu hər il ödəməlidir” (§ 41).

89. Göründüyü kimi, bu normada qonşu torpaq sahəsinin sərhədlərinin qərəzsiz şəkildə pozulması ilə tikinti aparıldıqda buna dərhal etiraz etməyən torpaq mülkiyyətçinin həmin pozuntuya dözmək, pozuntuya yol vermiş mülkiyyətçinin isə müvafiq pul kompensasiyası ödəmək öhdəlikləri nəzərdə tutulmuşdur.

90. Normanın zidd mənasından isə aydın olur ki, inşaat zamanı qonşu sahənin sərhədləri qərəzli şəkildə pozularsa (yəni tikinti aparan şəxs sərhəddi pozduğunu bilirsə və ya bilməlidirsə), yaxud müdaxiləyə məruz qalmış torpaq mülkiyyətçisi pozuntuya dərhal etiraz edərsə, tikilinin sökülməsini, hətta sözügedən pozuntu delikt təşkil etdiyi üçün zərərin əvəzinin ödənilməsini tələb edə bilər.

91. Bu qayda binanın və ya qurğunun tamamının qonşu mülkiyyətçinin torpaq sahəsində inşa edildiyi hallara aid olduğu kimi, qonşu olmayan başqa bir şəxsin torpaq sahəsində qərəzsiz şəkildə (o cümlədən, torpaq mülkiyyətçisinin şifahi razılığı ilə) öz vəsaiti hesabına aparılmış inşaata da aid edilə bilər.

92. Məhkəmə təcrübəmizdə özünün torpaq sahəsində başqasının tikinti aparmasına razılıq vermiş, bununla da həmin şəxsin tikintiyə münasibətdə vicdanlı sayılmasına öz davranışı ilə səbəb olmuş mülkiyyətçinin sonradan əvvəlki rəftarına zidd şəkildə, müvafiq kompensasiya vermədən həmin tikilinin sökülməsi barədə tələbləri əsassız sayılır. Belə yanaşma, hüquqdan sui-istifadə qadağasına uyğun olduğu kimi (MM, m. 560.1-560.2, 560.3.4), tikili sökülmədən torpağın tərkib hissəsi kimi qaldıqda isə torpaq mülkiyyətçisinin tikili hesabına əsassız varlanmasının da qarşısını alır.

93. Bu halda torpaq sahəsinin mülkiyyətçisinin ödədiyi kompensasiya müqabilində inşaat aparmış şəxsin tikili üzərindəki hüququ aradan qalxır, torpaqla möhkəm bağlı olan həmin tikili bir iqtisadi dəyər olaraq əvəzini ödəmiş mülkiyyətçiyə qalır.

94. Bununla yanaşı, əksinə bir vəziyyətin meydana çıxması da istisna edilmir. Yəni, göstərilən şərtlər daxilində başqasının ərazisində vicdanlı şəkildə tikili inşa edildikdə və torpaq mülkiyyətçisi də buna dözməyə məcbur olduqda, inşaat aparmış şəxsə həmin torpaq sahəsi üzərində hüququn verilməsi, əvəzində isə ərazinin mülkiyyətçisinə kompensasiya ödənilməsini tərəflərdən birinin tələb etməsi də mümkündür.

95. Baxılan işdə mübahisəli hüquq münasibəti məhz bu xarakterli iddia ilə bağlıdır. Belə ki, cavabdeh “XXX" MMC bir neçə il əvvəl özünə məxsus material ilə iddiaçının mülkiyyətində olan torpaq sahəsinin bir hissəsində (1463 kv.m.) inşaat aparmışdır. İddiaçı tikilinin sökülməsi və ya ərazinin boşaldılması tələbini irəli sürməmiş, məhrum qaldığı torpaq sahəsinin dəyərinin və düşdüyü zərərin əvəzinin “XXX” MMC-dən öz xeyrinə tutulmasını tələb edir.

96. Məhkəmə tərkibi nəzərə alır ki, qonşuluq hüququnun göstərişlərini pozan binalara çıxıntılı binalar haqqında qaydaların tətbiq edilməsi Mülki Məcəllənin 172.4-cü maddəsində açıqca göstərildiyi üçün (§ 42), eyni şərtlər daxilində başqasının ərazisində inşa edilmiş binanın və ya onun yerləşdiyi torpaq sahəsinin hüquqi vəziyyəti ilə bağlı mübahisəli münasibətlərə də qanunun analogiyası qaydasında həmin normaya uyğun olaraq, çıxıntılı binalar haqqında qaydalar tətbiq edilə bilər.

97. Belə ki, Mülki Məcəllənin 11.1-ci maddəsinə əsasən, mülki hüquq münasibətləri mülki qanunvericiliklə və ya tərəflərin razılaşması ilə birbaşa tənzimlənmədikdə və onlara tətbiq edilə bilən işgüzar adət olmadıqda həmin münasibətlərə, əgər bu, onların mahiyyətinə zidd deyildirsə, oxşar münasibətləri tənzimləyən mülki qanunvericilik normaları tətbiq edilir (qanunun analogiyası).

98. Bu səbəbdən kassasiya instansiyası məhkəməsi çıxıntılı bina institutunun mahiyyətinə və şərtlərinə aydınlıq gətirməyi zəruri hesab edir.

99. Çıxıntılı bina - bir torpaq sahəsində inşa edilən binanın həmin sahənin sərhədlərini aşaraq ona bitişik olan qonşu sahənin zəminə, torpağın altına və ya üzərindəki hava boşluğuna keçən tikilidir (məsələn, A şəxsinin inşa etdiyi binanın qonşu B-nin torpaq sahəsinə 2 metr enində 10 metr uzunluğunda keçən hissəsi çıxıntılı binadır).

100. Bu cür vəziyyət həm çıxıntılı binanı inşa etmiş şəxsin, həm də belə bina ilə torpaq sahəsinə müdaxilə olunmuş mülkiyyətçinin qanundan irəli gələn hüquq və öhdəliklərini doğurur. Əşyaya bağlı olaraq meydana gələn bu hüquq və öhdəliklər kontekstində əvvəlcə çıxıntılı binanın və onun zəbt etdiyi torpaq sahəsinin hüquqi vəziyyəti, sonra isə həmin daşınmaz əşyaların sahiblərinin bir-birinə qarşı irəli sürə biləcəyi tələblər nəzərdən keçirilməlidir.

101. Çıxıntılı binanın hüquqi vəziyyəti Mülki Məcəllənin 173.1-ci maddəsinin birinci cümləsində aşağıdakı kimi nəzərdə tutulmuşdur: “Başqa daşınmaz əmlaka keçən çıxıntıları olan binalar və digər qurğular yerləşdikləri daşınmaz əmlakın tərkib hissəsi kimi qalırlar, bu şərtlə ki, həmin əmlakın mülkiyyətçisi onlara əşya hüququna malik olsun” (§ 43).

102. Göründüyü kimi, qanunverici bu tənzimləmə ilə “torpağa bağlı olan torpağa aiddir” qaydasından (MM-in 135.4-cü maddəsində əks olunan vahid mülkiyyət prinsipindən) istisna hal müəyyən edərək göstərmişdir ki, çıxıntılı bina, ərazisinə keçdiyi torpaq sahəsinin deyil, bina sahibinin daşınmaz əşyasının tərkib hissəsi sayılır. Bu şərtlə ki, çıxıntılı binanı inşa edənin müdaxilə etdiyi torpaq sahəsinə əşya hüququ mövcud olsun. Burada tikintini həmin torpaq sahəsinə keçirmək səlahiyyətini özündə ehtiva edən bir məhdud əşya hüququndan söhbət gedir (məsələn, servitut). Bu hüququ verən mülkiyyətçi çıxıntılı binanın yaratdığı məhdudiyyətə dözmək öhdəliyini üzərinə götürür. Bununla da çıxıntılı bina, səthində (altında və ya üstündə) yerləşdiyi torpaq sahəsinin yox, bağlı olduğu əsas tikilinin tərkib hissəsi sayılır.

103. Bu səbəbdən Mülki Məcəllənin 173.2-ci maddəsində nəzərdə tutulmuşdur ki, üst tikiliyə hüquq daşınmaz əmlakın dövlət reyestrində servitut kimi qeydə alına bilər (§ 44).

104. Beləliklə, çıxıntılı binanın onu inşa edənin əşyasının tərkib hissəsi sayılması üçün birinci imkan bina sahibinin həmin tikili üçün əvvəlcədən bir əşya hüququna malik olmasıdır.

105. İkinci imkan isə ondan ibarətdir ki, bina inşa etmiş şəxsin belə bir əşya hüququ mövcud olmasa da, qanunda nəzərdə tutulan şərtlərin gerçəkləşməsinə görə müdaxilə etdiyi torpaq mülkiyyətçisindən məhdud əşya hüququ (servitut, tikintiyə vərəsəlik hüququ) və ya tam əşya hüququ (mülkiyyət hüququ) tələb etmək səlahiyyəti olsun. Bu cür səlahiyyət bir qayda olaraq, müqavilədən deyil, çıxıntılı binanın artıq inşa edilmiş olmasından, məhdudiyyətə məruz qalmış torpaq mülkiyyətçisinin buna vaxtında etiraz etməməsindən və digər qanuni şərtlərin mövcudluğundan irəli gəlir. Buna müvafiq olaraq, torpaq sahəsinin mülkiyyətçisinin də məruz qaldığı məhdudiyyətə dözmək kimi qanundan irəli gələn, əşyaya bağlı öhdəliyi yaranır.

106. Göstərilən şərtlər daxilində çıxıntılı binanı inşa edən şəxs yeni hüquqi vəziyyət doğuran bir subyektiv hüquqa malik olur və bu hüququndan istifadə etdikdə torpaq mülkiyyətçisi ilə aralarında öhdəlik münasibəti yaranır. Bu münasibət çərçivəsində ərazinin mülkiyyətçisi çıxıntılı bina sahibinin xeyrinə bir servitut qurmaq və ya müdaxilə olunan torpaq sahəsinin mülkiyyətini ona keçirmək, bina sahibi isə ağlabatan əvəz ödəmək öhdəliyi altına düşür.

107. Təbii ki, bu öhdəliklərin icrasına dair tərəflər arasında qarşılıqlı razılaşma olduqda notarial formada bağlanan müqavilə əsasında bir tərəfə əvəz verilə, digərinin xeyrinə isə dövlət reyestrində müvafiq qeydiyyat aparıla bilər.

108. Mübahisə halında isə bina sahibinə əşya hüququnun verilməsinə, torpaq mülkiyyətçisinə ödəniləcək kompensasiyanın məbləğinə məhkəmə tərəfindən qərar verilməli, həmin öhdəliklərin eyni anda icra edilməli olması qərarda göstərilməlidir. Bu qərar mübahisəni qəti şəkildə həll etməklə, yeni hüquqi vəziyyəti yaradır, onun əsasında dövlət reyestrində aparılan qeydiyyat isə (qurucu deyil) açıqlayıcı mahiyyətdə olur. Qeydiyyatın dəqiq şəkildə aparıla bilməsi üçün çıxıntılı binanın sahibinə əşya hüququ verilən torpaq sahəsinin sərhədləri qərarda göstərilməlidir.

109. Kassasiya məhkəməsi vurğulayır ki, müqavilə olmasa belə, torpaq mülkiyyətçisinin üzərinə bu cür yükün qoyulması mülkiyyət hüququnun pozulması kimi qiymətləndirilə bilməz. Ona görə ki, əvvəla, mülkiyyət hüququ sahibinə təmin etdiyi imkanlarla yanaşı, qanundan irəli gələn öhdəlikləri də özündə ehtiva edir. Bu səbəbdən Mülki Məcəllənin 152.5-ci maddəsi mülkiyyətçinin qanunda müəyyən edilən məhdudiyyətlər nəzərə alınmaqla müəyyənləşdirilmiş hədlərlə, habelə qonşuların və ya üçüncü şəxslərin hüquqlarınının

pozulmaması, yaxud hüquqdan sui-istifadə olmaması nəzərə alınmaqla öz əşyasına sahib olmaq, ondan istifadə etmək və ona dair sərəncam vermək hüququnu tanımışdır (§ 39). İkincisi, mülkiyyət hüququ zəruri olduqda, qanunda nəzərdə tutulan əsaslarla, qanuni məqsədlərlə (o cümlədən başqa şəxslərin hüquq və mənafelərinin qorunması üçün) mütənasib şəkildə məhdudlaşdırıla bilər. Bu imkan Azərbaycan Respublikasının Konstitusiyasının 29-cu maddəsinin V və VI hissələrində, "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun 3.1, 3.4, 3.5-ci maddələrində, habelə İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Avropa Konvensiyasının 1 saylı Protokolunun 1-ci maddəsində göstərilmişdir (§ 27-28, 3033).

110. O da qeyd edilməlidir ki, Mülki Məcəllənin 173.1-ci maddəsində göstərilən "başqa daşınmaz əmlak" dedikdə, başqasına məxsus, lakin xüsusi mülkiyyətə əlverişli olan torpaq sahəsi nəzərdə tutulur. Yəni, ümumi yol, meydan və ictimai ehtiyaclar üçün təxsis edilmiş digər yerlərə çıxmış üst tikililər barəsində bu norma tətbiq edilə bilməz.

111. Çıxıntılı binaya dair hüquq münasibətləri çərçivəsində tərəflərin irəli sürə biləcəkləri iddia növləri və şərtləri isə aşağıdakılardan ibarətdir.

112. Bina sahibi müdaxilə etdiyi torpaq sahəsi üzərində ona əşya hüququnun verilməsini tələb edə bilər. Tələbin qanuni əsası Mülki Məcəllənin 173.3-cü maddəsidir. Bu maddəyə görə, əgər üst tikili əsassızdırsa və hüququna toxunulmuş şəxs, bunu bilsə də, vaxtında etiraz etməzsə, üst tikilini ucaldan şəxsə, şəraitin haqq qazandırdığı hallarda, ağlabatan əvəz ödənilməklə, üst tikiliyə əşya hüququ və ya torpağa mülkiyyət hüququ verilə bilər (§ 45).

113. Normanın dispozisiya şərtlərindən göründüyü kimi tələbin təmin olunması üçün: 1) üst tikili əsassız olmalı; 2) torpaq mülkiyyətçisi bunu bilmiş və vaxtında etiraz etməmiş olmalı; 3) hal və şərait tikilini aparmış şəxsə haqq qazandırmalı; 4) torpağın mülkiyyətiçisinə ağlabatan əvəz ödənilməlidir. Sadalanan şərtlərin hamısı mövcud olmalıdır. Bu tələbə iddia müddəti də şamil olunmur.

114. Üst tikilinin əsassız olması dedikdə, bina sahibinin hər hansı əşya hüququna (məsələn, tərəflərin razılaşması ilə MM-in 173.2-ci maddəsində əks olunan servituta) malik olmaması nəzərdə tutulur.

115. Etiraz isə mülkiyyətçi (və ya məhdud əşya hüququ sahibi) tərəfindən çıxıntlı binanın əsassız inşa edilməsini tikinti aparan şəxsə (və ya onun təmsilçisinə) bildirən və üst tikilinin sökülməsini tələb edən iradə bəyanıdır. Etiraz məcburi bir formaya tabe olmayıb, hər hansı (şifahi, yazılı və s.) şəkildə bina sahibinə çatdırıla bilər.

116. Etirazın hansı müddətdə edilməli olması qanunda dəqiq göstərilməmişdir. Odur ki, həmin şərt təfsir edilərkən Mülki Məcəllənin anoloji münasibəti tənzimləyən 172.3-cü maddəsindəki qaydaya uyğun olaraq, etirazın müdaxilə aşkar edilən kimi (dərhal) bildirilməsi əsas götürülməlidir. Etiraz haqqını itirən mülkiyyətçi qanuna əsasən çıxıntılı binaya dözməyə borclu olur. Bu halda o, ədalətli əvəz tələb edə bilər.

117. Hal və şəraitin tikilini aparmış şəxsə haqq qazandırması dedikdə, bina sahibinin başqasının ərazisinə keçdiyini bilməməsi, bu səbəbdən vicdanlı olması, yaxud torpaq mülkiyyətçisinin buna açıq formada və ya qapalı şəkildə (davranışı ilə) razılıq verməsi, binanın dəyərinin zəbt etdiyi torpağın dəyərindən əhəmiyyətli dərəcədə çox olması, qonşuların bu vəziyyətdə uzun illər etirazsız yaşaması və ona arxayın olmaqla görülmüş digər işlər, söküntünün tənasübsüz surətdə böyük xərclər hesabına başa gələcəyi və mühüm zərərə səbəb olacağı, çıxıntılı binanın altındakı torpaq sahəsinin mülkiyyətçiyə real bir fayda təmin etməməsi və s. hallar nəzərdə tutulur.

118. Binanın tamamı başqasının ərazisində inşa edildikdə Mülki Məcəllənin 172.3-cü maddəsində əks oluna şərtin - bina inşa etmiş şəxsin sərhəddi qərəzsiz pozması (bu halı bilməməklə vicdanlı olması, mülkiyyətçisinin özünün tikintiyə razılıq verməsi və ya vermiş hesab olunması) xüsusilə əhəmiyyət kəsb edir.

119. Ağlabatan əvəz isə torpaq mülkiyyətçisinin məhrum olduğu sahənin ədalətli kompensasiyasını özündə ehtiva edir. Mübahisə halında həmin məbləği məhkəmə işin konkret hallarını nəzərə almaqla müəyyənləşdirməlidir.

120. Torpağın mülkiyyətçisi isə aşağıdakı tələb hüquqlarına malikdir:

a)Torpaq sahəsinə müdaxilə edən tikilinin sökülməsi.

121. Çıxıntılı bina qonşunun mülkiyyət hüququna müdaxilə təşkil etdiyi üçün mülkiyyətçi bu cür qəsdə və ya maneçiliyə son qoyulmasını Mülki Məcəllənin 157.4-cü maddəsinə əsasən tələb edə bilər (neqator iddia). Eyni zamanda həmin Məcəllənin 173.1-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuşdur ki, qonşu üst tikiliyə qarşı etirazını bildirə bilər.

122. Bununla belə, məhkəmə müdaxilənin qanuni bir əsasa söykənib-söykənmədiyini də araşdırmağa borcludur. Belə ki, binanı inşa etmiş şəxsin çıxıntı ilə müdaxilə etdiyi sahəyə əşya hüququ (servitut və s.) vardırsa, yaxud həmin şəxs MM-in 173.3-cü maddəsi çərçivəsində mülkiyyətçidən əşya hüququ tələb etmək səlahiyyətinə malikdirsə (§ 102108, 112), müdaxilə qanunsuz hesab edilmir. Bu şərtlər daxilində mülkiyyətçinin qanuna əsasən çıxıntılı binaya dözmək öhdəliyi yarandığı üçün neqator iddianın təmin olunması istisna olunur.

123. Tikilinin sökülməsini tələb etmək hüququna malik olan mülkiyyətçi, həmçinin əmlakına dəymiş zərərin əvəzinin ödənilməsini mülki hüquq pozuntusu (delikt) çərçivəsində həmin Məcəllənin 1097.1-ci maddəsinə əsasən tələb edə bilər.

b)Torpaq sahəsinin bina çıxan hissəsinə və ya tamamına münasibətdə bina sahibinə əşya hüququ verilməklə ona ağlabatan əvəz ödənilməsi.

124. İlk növbədə qeyd olunmalıdır ki, tərəflərin öz aralarında bu məzmunda razılığa gəlmələri mümkündür. Belə ki, torpağın mülkiyyətçisi söküntü tələb etmədən məhrum qaldığı torpağa görə ona bina sahibi tərəfindən əvəz ödənilməsinə razılaşa və qarşılığında həmin sahəyə dair sonuncuya servitut verə bilər. Mülki Məcəllənin 173.1-ci maddəsinin ikinci cümləsi və 173.2-ci maddəsi bu cür münasibətləri tənzimləyir: “Qonşu ya üst tikiliyə qarşı etirazını bildirə bilər, ya da bununla barışaraq ağlabatan əvəz ödənilməsini tələb edə bilər. Üst tikiliyə hüquq daşınmaz əmlakın dövlət reyestrində servitut kimi qeydə alına bilər”.

125. Belə, razılaşma olmadıqda torpağın mülkiyyətçisi iddia qaldırmaqla həmin təminatları məhkəmə yolu ilə əldə etmək hüququna malikdir. İddianın hüquqi əsasını Mülki Məcəllənin 173.3-cü maddəsi təşkil edir (normanın tətbiq şərtləri üçün bax: §112-119).

126. Kassasiya kollegiyası xüsusi olaraq vurğulayır ki, bu tələbi irəli sürmək həm də ərazi mülkiyyətçisinin hüququdur. Ona görə ki, bina sahibi həmin tələbi irəli sürmədiyi təqdirdə onun yaratdığı mövcud faktiki vəziyyətlə torpaq mülkiyyətçisi iradəsi əleyhinə, özü də qeyri-müəyyən müddətə mülkiyyətinin bir qismindən məhrum edilmiş, yaxud məhdudlaşdırılmış vəziyyətdə qalır. Bu isə yolverilməz bir vəziyyətdir.

127. Məlum olduğu kimi, bəzi hallarda vaxtında etiraz edilməmiş çıxıntılı binanın sökülməsi üçün əsaslar olmur, bina sahibi də buna görə kompensasiya ödəməkdən boyun qaçırır. Belə olan təqdirdə torpaq mülkiyyətçisi çıxıntı olan hissədə əmlakına sahiblik və ya ondan istifadə imkanından ya tamamilə məhrum olur (məsələn, qonşu ərazidə tikilmiş bina 3 metr enində, 10 metr uzunluğunda onun ərazisinə keçdiyi üçün 30 kv.m. həcmində torpaqdan ümumiyyətlə yararlana bilmir), ya istifadə imkanı məhdudlaşır (məsələn, qonşu ərazidə tikilmiş binanın eyvanı ikinci mərtəbədən 10 kv.m.həcmdə mülkiyyətçinin hava sahəsinə çıxdıqda

eyvanın altındakı torpaqdan istifadə mümkün olsa da, həmin ərazidə şaquli istiqamətdə qurğu qura bilmir), ya da çıxıntının həcminə və ya xarakterinə görə torpaq sahəsinin iqtisadi təyinatından umulan fayda itmiş olur (məsələn, 0.06 ha həyətyanı torpaq sahəsinin çıxıntılı binanın altında qalması səbəbindən 0.02 ha.sahədə fərdi yaşayış evi inşa etmək mənasız olur).

128. Göstərilən hallarda torpaq mülkiyyətçisinin ədalətli əvəz almaq imkanından məhrum edilməsinin heç bir ağlabatan səbəbi və qanuni əsası olmur. Onun tələbi əsasında əvəz ödənilməsi qət edildikdə isə torpağa dair əşya hüququnun bina sahibinə verilməsi məntiqi zərurətdən irəli gəlir. Əks təqdirdə torpaq mülkiyyətçisi əsassız varlanmış olardı.

129. O da qeyd edilməlidir ki, bina sahibinə konkret olaraq hansı (ən uyğun) əşya hüququnun verilməsini məhkəmə hər işin konkret halına (torpaqdan məhrumiyyətin dərəcəsinə, xarakterinə və s.) görə müəyyən etməlidir. Məsələn, yuxarıda çəkilən 1-ci misalda torpaq sahəsinin çıxıntı olan hissəsinin mülkiyyəti (tam əşya hüququ), 2-ci misalda eyvanın məhdudiyyət sahəsinə servitut (məhdud əşya hüququ) verilə, 3-cü misalda isə torpaq sahəsinin tamamının mülkiyyəti bina sahibinə keçirilə bilər.

130. Bu səbəbdən qanunverici məsələnin həllini işin halları baxımından hakimin mülahizə sərbəstliyinə buraxaraq, Mülki Məcəllənin 173.3-cü maddəsində tənzimləməni "üst tikiliyə əşya hüququ və ya torpağa mülkiyyət hüququ verilə bilər" şəklində ifadə etmişdir.

c)Binadan irəli gələn təhlükənin qarşısının alınması üçün lazımi tədbirlər görməyi tələb etmək hüququ. Bu tələbin əsası və şərtləri MM-in 173.4-cü maddəsində əks olunmuşdur (§ 46).

131. Kassasiya məhkəməsi çıxıntılı binalar haqqında qaydaları şərh etdikdən sonra təkrarən diqqəti ona cəlb edir ki, baxılan işdə iddiaçı mülkiyyətində olan torpaq sahəsindəki tikililərin sökülməsini deyil, cavabdeh "XXX" MMC tərəfindən və həmin cəmiyyətin vəsaiti hesabına inşa edilmiş tikililərin yerləşdiyi torpaq sahəsinin 1463 kv.m. hissəsinin əvəzinin ödənilməsini tələb edir.

132. Odur ki, iddiaya Mülki Məcəllənin 11.1, 172.3, 172.4 və 173.3-cü maddələri çərçivəsində, yuxarıda göstərilən hüquqi mövqelərə uyğun şəkildə baxılmalı və mübahisənin həllinə dair yekun məhkəmə aktı çıxarılmalıdır.

133. Beləliklə, bütün qeyd edilənlər nəzərə alındıqda məhkəmə tərkibi bu qənaətə gəlir ki, apellyasiya instansiyası məhkəməsi iddianın qanuni əsaslarını düzgün müəyyən etməmiş, iddianın "272.470 manat real zərər", yəni torpağın dəyəri hissəsində gəldiyi nəticə üzrə işdəki ekspertiza rəylərini mötəbərlilik (torpağın həqiqi dəyərini əks etdiribetdirməməsi) baxımından düzgün qiymətləndirməmiş, iddiaçıya kompensasiya ödənildiyi halda cavabdehə müvafiq torpaq sahəsi üzərində əşya hüququnun verilməsi məsələsini ümumiyyətlə həll etməmiş, nəticə etibarilə düzgün olmayan qətnamə çıxarmışdır.

134. Kollegiya onu qeyd edir ki, apellyasiya məhkəməsi "144.000 manat əldən çıxmış fayda" tələbini zərərin sübuta yetirilməməsi əsası ilə rədd etməkdə də haqlı olmamışdır. Ona görə ki, mövcud vəziyyətdə iddiaçı maddi zərərin varlığını sübut edə bilmədikdə, məhrum qaldığı əmlakı hesabına cavabdehin çəkməli olduğu xərclərdən azad olmaqla varlandığını (qənaət varlanması) sübut etməsi yetərlidir.

135. O da nəzərə alınmalıdır ki, yeni apellyasiya baxışında iddiaçının tələbi Mülki Məcəllənin 173.3-cü maddəsi ilə haqlı sayılacağı təqdirdə iddiada göstərilən "272.470 manat real zərər" və "144.000 manat əldən çıxmış fayda" tələbləri maddi zərər və ya əsassız varlanma çərçivəsində deyil, həmin normada əks olunan "ağlabatan əvəz" şərti altında həm cavabdehə məhdud əşya hüququ veriləcək torpaq sahəsinin dəyəri, həm də ötən müddət ərzində

iddiaçının məhrum qaldığı əmlak hesabına cavabdehin qənaət etdiyi vəsait birlikdə qiymətləndirilməklə ədalətli kompensasiyanın ümumi məbləği müəyyənləşdirilməlidir.

136. Bu səbəbdən Kollegiya hesab edir ki, kassasiya şikayətləri qismən təmin olunmalı, apellyasiya instansiyası məhkəməsinin qətnaməsi ləğv edilməli, yuxarıda göstərilən hüquq normaları və hüquqi mövqelər əsasında yenidən araşdırılması və nəticəsindən asılı olaraq müvafiq qərarın qəbul edilməsi üçün iş yeni apellyasiya baxışına göndərilməlidir.

137. Göstərilənlərə əsasən və MPM-in 416, 417 və 419-cu maddələrini rəhbər tutaraq, Məhkəmə kollegiyası

Qərara aldı:

Kassasiya şikayətləri qismən təmin edilsin.

Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(103)-6704/2024 nömrəli iş üzrə 17 dekabr 2024-cü il tarixli qətnaməsi ləğv edilsin və iş yeni apellyasiya baxışına qaytarılsın.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

Daşınar əşyalara mülkiyyət hüququnun əldə edilməsi

6. 2(102)-1067/2025 nömrəli, 2025-ci il 6 may tarixli qərar – reyestrdə qeydə alınan daşınar əşyalar barəsində mübahisələrdə sübutetmə yükü (prezumpsiya)

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: ər-arvadın nikah dövründə əldə etdikləri və məhkəmə qərarı ilə üzərində hər birinin ½ payla mülkiyyət hüquqları tanınmış avtomobil onların iradəsi xaricində, saxta sənədlərlə ərin adından çıxarılmaqla üçüncü şəxslərə satılmışdır.

Arvad qeyd edilən satışlara dair bağlanmış müqavilələrin və onlar əsasında verilmiş qeydiyyat şəhadətnamələrinin etibarsız sayılmasını və avtomobilin ona qaytarılmasını tələb etmişdir.

Birinci instansiya məhkəməsi iddianı təmin etsə də, apellyasiya kollegiyası iddianı o əsasla rədd etmişdir ki, cavabdehlər vicdanlı əldə edən şəxslərdir.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Məhkəmə kollegiyası qeyd etmişdir ki, cavabdehlərin vicdanlı olub-olmamaları Mülki Məcəllənin 182-ci maddəsinin tələblərinə uyğun yoxlanılmalı idi. Bu normada daşınar əşyaya mülkiyyət hüququnun vicdanlı əldə edilməsi ilə bağlı münasibətlər tənzimlənir və maddənin məzmununda əks olunan bu şərtləri subyektiv və obyektiv şərtlər olaraq qruplaşdırmaq mümkündür.

Subyektiv şərt, əşyanı özgəninkiləşdirənin buna səlahiyyətinin olmadığını əldə edənin özünün bilməsi, yaxud hal və şəraitə görə bilməli olmasıdır. Mülki Məcəllənin 182.1-ci maddəsinə görə, əgər əldə edən özgəninkiləşdirənin mülkiyyətçi olmadığını bilirmişsə və ya bilməli idisə, vicdanlı əldə edən sayılmır. Göründüyü kimi, bu halda əşyanı sahibliyinə verənin əslində mülkiyyətçi olmadığı əldə edən üçüncü şəxsə məlum olur, ya da şəraitə görə ondan gözlənilən diqqət və ehtiyatlılığı göstərsəydi məlum ola bilərdi. Bu hallardan biri təsdiq olunduqda vicdanlılıqla bağlı araşdırma tamamlanır, digər şərtlərin yoxlanılmasına gərək qalmır.

Lakin əldə edən(lər)in subyektiv meyarlara görə vicdanlı olmadığı sübuta yetirilmədikdə, növbəti mərhələyə keçilərək obyektiv şərtlər yoxlanılmalıdır. Bu şərtlər Mülki Məcəllənin 182.2-ci maddəsinin birinci cümləsində göstərilmişdir. Bu halları aşağıdakı kimi qruplaşdırmaq olar:

1) əşyanın mülkiyyətçinin sahibliyindən iradəsinə zidd şəkildə çıxması. Belə hallarda əşyanı əldə edən üçüncü şəxs onu bilmədən əvəzli şəkildə alsa belə, vicdanlı sayılmır və mülkiyyəti qazanmış hesab edilmir. Bu qayda əşyanı üçüncü şəxsdən almış sonrakı əldə edənlərə də eynilə tətbiq olunur. 2) Üçüncü şəxsin əşyanı əvəzsiz əldə etməsi. Yəni, əşya mülkiyyətçinin sahibliyindən iradəsinə uyğun çıxsa da, onu bir dəyər qarşılığında deyil, əvəzsiz qazanmış şəxs vicdanlı sayılmır və müdafiə olunmur. Bu halda da mülkiyyətçi üstün tutulur.

Kollegiya onu da vurğulamışdır ki, rəsmi reyestrdə qeydə alınan daşınar əşyalar barəsində həmin reyestrdəki məlumatların həqiqiliyi prezumpsiyası qəbul edilir. Bu o deməkdir ki, belə əşyanın sahibi (mülkiyyətçisi) digər daşınarlardan fərqli olaraq faktiki vəziyyətə görə deyil, reyestrdəki məlumatlara əsasən (reyestrdə adı göstərilən şəxsin mülkiyyətçi olması) ehtimal edilir. Odur ki, aparılan reyestr sübutetmə yükü baxımından əhəmiyyət kəsb edir. Yəni, reyestrə əsasən mülkiyyətçi kimi görünən şəxs (avtomobil faktiki sahibliyində olmasa belə), özünün mülkiyyətçi olduğunu sübut etmək yükündən azad olur, bu yük prezumpsiyanın əksini – reyestrdə adı yazılan şəxsin mülkiyyətçi olmadığını iddia edənin üzərinə qoyulur.

İddia edən şəxs bu yükü yerinə yetirərək prezumpsiyanı aradan qaldırdıqda, yəni qeydin əsassız olduğu sübuta yetirildikdə bu məlumatlara etimad edənin hüquqları qorunub-qorunmadığı məsələsinə dair qeyd edilmişdir ki, daşınmaz əmlakın dövlət reyestrindəki məlumatlara güvənərək əşya hüququ əldə etmiş üçüncü şəxsin hüquqlarının müdafiə olunması

Mülki Məcəllənin 140, 148.2 və 149.2-ci maddələrində nəzərdə tutulmuşdur. Lakin mülki qanunvericilikdə rəsmi reyestrdə qeydə alınan daşınar əşyalara münasibətdə vicdanlı əldə etmə ilə bağlı xüsusi bir tənzimləmə nəzərdə tutulmamış, daşınmazlarla bağlı rejimin onlara da eynilə şamil edildiyi göstərilməmişdir.

Qeyd: Bu qərarın əsaslandırıcı hissəsində daşınar əşyalar üzərində mülkiyyət hüququnun əldə edilməsi üçün zəruri şərtlər, daşınar əşyalar üzərində əşya hüquqlarının qazanılmasında vicdanlılığın qorunuduğu və qorunmadığı hallar, daşınar əşyaların rəsmi reyestrinin mahiyyəti və təyinatı kimi məsələlərə geniş izahlar verilmişdir.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-1067/2025

06.05.2025-ci il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi
Mülki kollegiyasının

İddiaçının cavabdehlər Cavabdeh 1, Cavabdeh 2, Cavabdeh 3, Cavabdeh 4, Cavabdeh 5, Cavabdeh 6, Cavabdeh 7 və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinə qarşı iş üzrə

Q Ə R A R I

Açar sözlər: daşınar əşyaya mülkiyyət hüququnun əldə edilməsi,
daşınar əşyanı vicdanlı əldə etmək

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Əliyev Zaur Əli oğlu (məruzəçi), Babayev Zəki Baba oğlu və Baxışova Vüsalə Ələkbər qızından ibarət tərkibdə,

Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 26 noyabr 2024-cü il tarixli, 2(103)-5902/2024 nömrəli qətnaməsindən iddiaçı tərəfindən verilmiş kassasiya şikayətinə Azərbaycan Respublikası Ali Məhkəməsinin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakıları müəyyən etdi:

İşin halları:

1. Mübahisəyə mahiyyəti üzrə baxan məhkəmələr işin hallarını araşdıraraq aşağıdakıları müəyyən etmişlər:

2. Yasamal Rayon Məhkəməsinin 2(004)-7571/2018 nömrəli, 04.12.2018-ci il tarixli qətnaməsi ilə, "XX" markalı, ***** dövlət qeydiyyat nişanlı avtomobil (bundan sonra – avtomobil) birgə nikah dövründə əldə edilmiş əmlak hesab olunaraq bərabər paylarla, 1/2 hissəsinə iddiaçının, 1/2 hissəsinə isə Cavabdeh 1in mülkiyyət hüququ müəyyən edilməklə bölünmüş, müvafiq qeydin aparılması Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsinə həvalə edilməsi qət edilmişdir;

3. Yasamal Rayon Məhkəməsinin 2(004)-5121/2020 nömrəli 10.11.2020-ci il tarixli qətnaməsi ilə iddia qismən təmin edilərək, İddiaçının və Cavabdeh 1in paylı mülkiyyətində olan avtomobilin açıq hərracda satılması və satışdan əldə olunan pulun ümumi mülkiyyətin mülkiyyətçiləri arasında onların ½ paylarına mütənasib bölünməsi qət edilmişdir;

4. Bakı Apellyasiya Məhkəməsinin 2(103)-7328/2021 nömrəli, 10.08.2021-ci il tarixli qətnaməsi ilə hüquq və vəzifələrinə toxunan şəxs Cavabdeh 3ün apellyasiya şikayəti təmin edilmiş, Yasamal Rayon Məhkəməsinin 2(004)-5121/2020 nömrəli,10.11.2020-ci il tarixli qətnaməsi ləğv edilmiş, İddiaçının Cavabdeh 1ə qarşı birgə nikah dövründə əldə edilmiş əmlakın naturada bölgüsü və ya açıq hərracda satılaraq bölünməsi tələbinə dair iddiası təmin edilməmişdir;

5. Ali Məhkəmənin 2(102)-587/2022 nömrəli qərarı ilə Bakı Apellyasiya Məhkəməsinin 2(103)-7328/2021 nömrəli, 10.08.2021-ci il tarixli qətnaməsi dəyişdirilmədən saxlanılmışdır;

6. Yasamal Rayon Məhkəməsinin 2(004)-130/2023 nömrəli, 08.05.2023-cü il tarixli qətnaməsi ilə İddiaçının Cavabdeh 1ə qarşı 15.000 manat pulun, 50 manat mediasiya xərcinin və 85 manat dövlət rüsumunun cavabdehdən tutularaq iddiaçıya ödənilməsinə dair iddia tələbi təmin edilməmişdir;

7. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsinin məlumatına əsasən, avtomobil xx.xx.2016-cı il tarixdən Cavabdeh 1in mülkiyyətindədir. Avtomobil xx.xx.2020-ci il tarixdə Cavabdeh 1 tərəfindən Cavabdeh 2-ə özgəninkiləşdirilmiş, xx.xx.2021-ci il tarixdə Cavabdeh 2 avtomobili Cavabdeh 3ə, xx.xx.2022-ci tarixdə Cavabdeh 3 avtomobili Cavabdeh 4ə satılmışdır. Daha sonra avtomobil Cavabdeh 4 tərəfindən xx.xx.2022-ci il tarixdə Cavabdeh 5ə, xx.xx.2022-ci il tarixdə Cavabdeh 5 tərəfindən Cavabdeh 6a, sonuncu tərəfindən isə xx.xx.2023-cü tarixdə Cavabdeh 7ə satılmışdır;

8. Binəqədi Rayon Polis İdarəsinin İstintaq şöbəsinin ******** nömrəli "Cinayət işi üzrə sübutların qiymətləndirilməsi və iş üzrə icraata xitam verilməsi" barədə xx.xx.2022-ci il tarixli qərarı ilə, Cavabdeh 1 tərəfindən X1ə 36 saylı notariat ofisində xx.xx.2018-ci il tarixdə reyestrdə 9M-*** nömrəsi ilə qeydə alınmış etibarnamə, xx.xx.2020-ci il tarixdə itirilmiş sənədin əvəzinə verilmiş dublikat etibarnamə və xx.xx.2020-ci il tarixdə 48 saylı notariat ofisində fotosurətin düzgünlüyünün təsdiq edilməsi notariat hərəkətləri əsasında sonuncu

tərəfindən avtomobilin xx.xx.2020-ci il tarixdə Cavabdeh 2ə satılması, qeyd edilənlərə əsasən verilmiş sorğular nəticəsində 36 saylı notariat ofisində Cavabdeh 1 tərəfindən ümumiyyətlə heç bir notariat hərəkətinin aparılmaması, 48 saylı notariat ofisində xx.xx.2020-ci il tarixdə Cavabdeh 1 ilə X1in adına heç bir notariat hərəkətinin aparılmaması müəyyən edilmişdir.

İş üzrə qəbul edilmiş məhkəmə aktları:

a) Birinci instansiya məhkəməsində icraat

9. İddiaçı məhkəməyə müraciət edərək, cavabdehlər Cavabdeh 1 ilə Cavabdeh 2 arasında avtomobilə dair xx.xx.2020-ci il tarixdə bağlanmış alğı-satqı müqaviləsinin və xx.xx.2020-ci il tarixli, ***** saylı nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsinin; cavabdehlər Cavabdeh 2 ilə Cavabdeh 3 arasında həmin avtomobilə dair xx.xx.2021-ci il tarixdə bağlanmış alğı-satqı müqaviləsinin və xx.xx.2021-ci il tarixli, ***** saylı nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsinin; cavabdehlər Cavabdeh 3 ilə Cavabdeh 4 arasında həmin avtomobilə dair xx.xx.2022-ci il tarixdə bağlanmış alğı-satqı müqaviləsinin və xx.xx.2022-ci il tarixli, ***** saylı nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsinin etibarsız hesab edilməsi və avtomobilin ona qaytarılması barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

10. İddiaçı işin yuxarıda qeyd edilən faktiki hallarına istinad etməklə tələbini belə əsaslandırmışdır ki, mübahisəli avtomobil onunla Cavabdeh 1in nikahda olduqları dövrdə əldə edildiyi üçün məhkəmənin qərarı ilə ümumi əmlak hesab edilmiş və avtomobilə iddiaçının ½ payla mülkiyyət hüququ tanınmışdır. Bundan sonra, o, Cavabdeh 1ə, Yasamal Rayon İcra və Probasiya Şöbəsinə və Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsinə qarşı "birgə nikah dövründə əldə edilmiş əmlakın naturada bölgüsü və açıq hərracda satılaraq bölünməsi" tələbinə dair iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, avtomobilin naturada bölünməsi, bu mümkün olmadıqda isə avtomobilin açıq hərrac vasitəsilə satılması və paylarına mütənasib olaraq satışdan əldə edilən pulun aralarında bərabər bölünməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir. Yasamal Rayon Məhkəməsinin 10.11.2020-ci il tarixli, 2(004)-5121/2020 nömrəli qətnaməsi ilə iddia tələbi qismən təmin edilmiş, avtomobilin açıq hərracdan satılması və satışdan əldə olunan pulun aralarında bərabər bölünməsi qət edilmişdir. Bundan sonra avtomobil üzərinə həbs qoyulmuş, buna baxmayaraq sözügedən qətnamə hüquq və vəzifələrinə toxunan şəxs Cavabdeh 3ün apellyasiya şikayəti əsasında ləğv edilərək iddia tələbi təmin edilməmiş, apellyasiya məhkəməsinin həmin qətnaməsi isə kassasiya instansiyasında dəyişdirilmədən saxlanılmışdır. Apellyasiya və kassasiya instansiyası məhkəmələrinin sözügedən məhkəmə aktlarında qeyd olunmuşdur ki, iddiaçı paylı mülkiyyətində olan avtomobilin cinayət yolu ilə mülkiyyətindən çıxarıldığını hesab edirsə, cinayət təqibi üçün hüquq-mühafizə orqanlarına müraciət edə, yaxud mülki icraat qaydasında həmin əqdləri mübahisələndirə və həmin avtomobilin yenidən mülkiyyətinə qaytarılmasını tələb edə bilər. Məhz bu göstərişlərdən sonra, o avtomobilə görə 15.000 manat pulun cavabdeh Cavabdeh 1dən tutulması barədə iddia ərizəsi ilə məhkəməyə müraciət etmiş, lakin Yasamal Rayon Məhkəməsinin 08.05.2023-cü il tarixli, 2(004)130/2023 nömrəli qətnaməsi ilə iddia tələbi təmin edilməmişdir. Eyni zamanda, onun müraciəti əsasında Yasamal RPİ-də Cinayət Məcəlləsinin 320.2-ci maddəsi ilə cinayət işi başlanılmışdır. Həmin cinayət işinin istintaqı zamanı məlum olmuşdur ki, X1 Cavabdeh 1nun adından etibarnamə ilə avtomobili satsa da, sonuncu tərəfindən X1nun adına heç bir notariat hərəkəti aparılmamışdır. Yekunda isə,etibarnamələrin qanunsuz olaraq saxtalaşdırılmasında və bilə-bilə istifadə edilməsində şübhəli bilinən X1in əməlində cinayət tərkibinin olmaması əsası ilə cinayət işinə xitam

verilmişdir. Bundan əlavə, Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 10.08.2021-ci il tarixli, 2(103)-7328/2021 nömrəli qətnaməsində Cavabdeh 1in izahatı qeyd olunmuşdur və o, bildirmişdir ki, "Avtomobilin texniki pasportu və oğlunun sürücülük vəsiqəsi ondadır. Maşının sənədləri ondadırsa, maşın necə satıla bilər. Kiməsə etibarnamə də verilməmişdir. Oğlu Cavabdeh 1 də hazırda cəzaçəkmə müəssisəsində cəza çəkir." Bununla bərabər, paylı mülkiyyətdə olan avtomobilə dair sərəncam verilməsinə İddiaçının da heç bir razlığı da olmamışdır. Bu hallar isə avtomobilə dair bağlanmış müqavilələrin etibarsız hesab edilməsi və həmin nəqliyyat vasitəsinin iddiaçının mülkiyyətinə qaytarılması üçün birbaşa əsasdır.

11. İddiaçı tələbinin dəqiqləşdirilməsi barədə ərizə təqdim edərək cavabdehlər Cavabdeh 1 ilə Cavabdeh 2nin arasında avtomobilə dair xx.xx.2020-ci il tarixdə bağlanmış nəqliyyat vasitəsinin alğı-satqı müqaviləsinin və xx.xx.2020-ci il tarixli, AD № ***** saylı nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsinin etibarsız hesab edilməsi; cavabdehlər Cavabdeh 2 ilə Cavabdeh 3ün arasında avtomobilə dair xx.xx.2021-ci il tarixdə bağlanmış nəqliyyat vasitəsinin alğı-satqı müqaviləsinin və xx.xx.2021-ci il tarixli, AE № *** saylı nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsinin etibarsız hesab edilməsi; cavabdehlər Cavabdeh 3 ilə Cavabdeh 4ün arasında avtomobilə dair xx.xx.2022-ci il tarixdə bağlanmış nəqliyyat vasitəsinin alğı-satqı müqaviləsinin və xx.xx.2022-ci il tarixli, BB **** saylı nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsinin etibarsız hesab edilməsi; cavabdehlər Cavabdeh 4 ilə Cavabdeh 5nin arasında avtomobilə dair xx.xx.2022-ci il tarixdə bağlanmış nəqliyyat vasitəsinin alğı-satqı müqaviləsinin və xx.xx.2022-ci il tarixli, BA **** saylı nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsinin etibarsız hesab edilməsi; cavabdehlər Cavabdeh 5 ilə Cavabdeh 6nın arasında avtomobilə dair xx.xx.2022-ci il tarixdə bağlanmış nəqliyyat vasitəsinin alğı-satqı müqaviləsinin və xx.xx.2022-ci il tarixli, BD **** saylı nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsinin etibarsız hesab edilməsi; cavabdehlər Cavabdeh 6 ilə Cavabdeh 7nin arasında avtomobilə dair xx.xx.2023-cü il tarixdə bağlanmış nəqliyyat vasitəsinin alğı-satqı müqaviləsinin və xx.xx.2023-cü il tarixli, BD **** saylı nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsinin etibarsız hesab edilməsi və avtomobilin ona qaytarılması barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

12. İddia tələbinin dəqiqləşdirilməsi barədə ərizə də ilkin iddia ərizəsinə uyğun formada əsaslandırılmışdır.

13. Cavabdeh 1 izahatında bildirmişdir ki, Samir iddiaçı ilə boşanandan sonra qeyri-qanuni, etibarnamə olmadan maşın avtodayanacaqdan götürülmüş və xəbərləri olmadan satılmışdır. Oğlu hazırda cəzaçəkmə müəssisəsində cəza çəkir. Heç kəsə etibarnamə verilməmişdir.

14. Cavabdeh 2nin nümayəndəsi Məhərrəmov Şahid Cavad oğlu izahatında bildirmişdir ki, maşını Cavabdeh 1in adından etibarnamə verilmiş şəxsdən almış, sonra Cavabdeh 3ə satmışdır.

15. Cavabdeh 3 izahatında bildirmişdir ki, maşını ona Cavabdeh 2 satıb, maşını alıcı olaraq alıb və onun bu məsələlərə aidiyyatı yoxdur.

16. Cavabdeh 1 cəzaçəkmə müəssisəsindən ərizə göndərərək iddia tələblərini qəbul etmədiyini, sözügedən avtomobilin 2018-ci il tarixdə o həbsdə olarkən X2ə verilmiş saxta etibarnamə əsasında özgəninkiləşdirildiyini bildirmişdir.

17. Səbail Rayon Məhkəməsinin 2(009)-1688/2023 nömrəli, 30.11.2023-cü il tarixli qətnaməsi ilə iddia təmin edilmişdir (hakim: Şəhla Süleymanova).

18. Məhkəmə mövqeyini belə əsaslandırmışdır ki, 36 saylı notariat ofisində Cavabdeh 1 tərəfindən ümumiyyətlə heç bir notariat hərəkətinin aparılmaması onun tərəfindən X1in adına 36 saylı notariat ofisində xx.xx.2018-ci il tarixdə reyestrdə ****** nömrəsi ilə qeydə

alınmış etibarnamənin hüquqi qüvvəsinin olmaması kimi qiymətləndirilməlidir. Həm Binəqədi Rayon Polis İdarəsinin istintaq şöbəsinin ******** nömrəli "Cinayət işi üzrə sübutların qiymətləndirilməsi və iş üzrə icraata xitam verilməsi" barədə xx.xx.2022-ci il tarixli qərarında, həm də iş materiallarına əlavə olunmuş Ali Məhkəməqnin Mülki Kollegiyasının xx.xx.2022-ci il tarixli qərarında Cavabdeh 1nun adından X1nun adına 36 saylı notariat ofisi tərəfindən xx.xx.2018-ci ildə verilmiş reyestrdə 9M-**** nömrəsi ilə qeydə alınmış etibarnaməsi hüquqi qüvvəsi olmayan hesab edildiyi üçün bağlanmış müqavilələr etibarsız hesab olunmalıdır.

19. Məhkəmə gəldiyi nəticəni Mülki Məcəllənin 324, 362, 389.1-ci və Mülki Prosessual Məcəllənin 82.3-cü maddələrinə istinadla əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

20. Cavabdeh 7 apellyasiya şikayəti verərək, qətnamənin ləğv edilməsi və iddianın təmin edilməməsini xahiş etmişdir.

21. Cavabdeh 7 apellyasiya şikayətini belə əsaslandırmışdır ki, avtomobil onun tərəfindən alınmamışdan qabaq 5 dəfə rəsmi qaydada alqı-satqı ilə özgəninkiləşdirilmiş və müvafiq qaydada qeydiyyat şəhadətnamələri alınmışdır. Onun isə avtomobili alarkən məlum mübahisədən xəbəri olmamışdır. O, vicdanlı əldə edəndir. Çünki, mülkiyyət hüququna dair dövlət reyestrindəki yazının qanuniliyinin yoxlanılmasından sonra deyil, məhz həmin yazının mövcudluğu faktına əsasən vicdanlı alıcı əmlakın mülkiyyətçisi kimi tanınır. Odur ki, iddiaçı ona dəymiş zərəri bu zərərin dəyməsinə səbəb olmuş təqsirli şəxsdən tələb etməlidir. Lakin işə baxan birinci instansiya məhkəməsi işin bu hallarını nəzərə almayaraq onun mülkiyyət hüququnun pozulmasına səbəb olan qanunsuz qətnamə qəbul etmişdir.

22. Cavabdeh 6 apellyasiya şikayəti verərək, qətnamənin ləğv edilməsini və yeni qərar qəbul edilməsini xahiş etmişdir.

23. Cavabdeh 6 da apellyasiya şikayətini digər cavabdehlə eyni əsaslara söykənərək belə əsaslandırmışdır ki, o, vicdanlı alıcıdır. Belə ki, o, avtomobili əldə etdiyi zaman artıq həmin nəqliyyat vasitəsi X1in adına olan etibarnamə vasitəsi ilə Cavabdeh 2ə satılmışdı. Bundan sonra həmin nəqliyyat vasitəsini xx.xx.2021-ci il tarixdə Cavabdeh 2 Cavabdeh 3ə, xx.xx.2022-ci tarixdə isə Cavabdeh 3 Cavabdeh 4ə satmışdır. Daha sonra nəqliyyat vasitəsi Cavabdeh 4 tərəfindən xx.xx.2022-ci il tarixdə Cavabdeh 5ə satılmış, xx.xx.2022-ci il tarixdə isə Cavabdeh 5 nəqliyyat vasitəsini Cavabdeh 6a, yəni ona satmışdır. Göründüyü kimi, o, sözügüdən nəqliyyat vasitəsini X1ndan yox, Cavabdeh 5dən almışdır. O, X1in adına olan etibarnamənin qanunsuz olduğunu, bununla da avtomobilin mülkiyyətçisinin başqa şəxs olduğunu bilməmiş və bilməyi də mümkün olmamışdır. Lakin qeyd edilənlər işə baxan birinci instansiya məhkəməsi tərəfindən nəzərə alınmayaraq onun vicdanlı alıcı kimi mülkiyyət hüququnun pozulması ilə nəticələnən məhkəmə aktı qəbul olunmuşdur.

24. Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 26.11.2024-cü il tarixli, 2(103)5902/2024 nömrəli qətnaməsi ilə cavabdehlər Cavabdeh 7 və Cavabdeh 6nın apellyasiya şikayətləri təmin edilmiş, birinci instansiya məhkəməsinin qətnaməsi onlara aid hissədə (cavabdehlər Cavabdeh 5 ilə Cavabdeh 6 arasında avtomobilə dair xx.xx.2022-ci il tarixdə bağlanmış nəqliyyat vasitəsinin alğı-satqı müqaviləsi və xx.xx.2022-ci il tarixli, BD ****** saylı nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi, cavabdehlər Cavabdeh 6 ilə Cavabdeh 7 arasında avtomobilə dair xx.xx.2023-cü il tarixdə bağlanmış nəqliyyat vasitəsinin alğı-satqı müqaviləsi və xx.xx.2023-cü il tarixli, BD ***** saylı nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsinin etibarsız hesab edilməsi) ləğv edilmiş, həmin hissədə - cavabdehlər Cavabdeh 7 və Cavabdeh 6na münasibətdə iddia rədd edilmişdir (hakimlər Cəmilə Musayeva sədrlik edən və məruzəçi, Fuad Babayev və Fuad Abdıyev).

25. Məhkəmə kollegiyası hesab etmişdir ki, iddiaçıya paylı mülkiyyət hüququ ilə məxsus olmuş nəqliyyat vasitəsinin ilkin olaraq saxta etibarnamə əsasında özgəninkiləşdirildiyi işin mübahisəsiz halı olsa da, bu əsasla mübahisələndirilən bütün alqı-satqı müqavilələrinin etibarsız hesab edilməsi mülki qanunvericiliyin sadalanan normalarının məzmununa uyğun deyildir. Məhkəmə kollegiyası apellyasiya baxışının predmetini nəzərə alaraq belə nəticəyə gəlmişdir ki, sözügedən avtomobilə dair xx.xx.2022-ci il və xx.xx.2022-ci il tarixdə bağlanmış alqı-satqı müqavilələrinin və bu müqavilələr əsasında verilmiş şəhadətnamələrin etibarsız hesab edilməsi üçün əsas yoxdur. Həmin müqavilələr üzrə alıcılar avtomobilin qiymətini ödəməklə onu satıcılardan əldə etmişlər, bu avtomobili satan cavabdehlərin də avtomobil üzərindəki mülkiyyət hüquqları rəsmi reyestrdə qeydə alınmışdır. Beləliklə əşyanı özgəninkiləşdirənlər onun mülkiyyətçisi olmuşlar, əldə edənlər də xx.xx.2020-ci il tarixli alqı-satqı müqaviləsinin bağlanmasına əsas olmuş xx.xx.2018-ci il tarixli, **** reyestr nömrəli etibarnamənin hüquqi qüvvəsinin olmamasını bilmirdi və bilməli deyildirlər. Bundan başqa apellyatorlar həmin nəqliyyat vasitəsini əvəzli şəkildə pulunu ödəməklə satın almışlar. Göründüyü kimi sözügedən nəqliyyat vasitəsinin alqısatıqısı zamanı cavabdehlər Cavabdeh 6 və Cavabdeh 7nin tərəfindən həm satıcı, həm də alıcı olaraq hər hansı qanun pozuntusuna yol verilməmişdir. Məhkəmə kollegiyası cavabdehlərin apellyasiya şikayətlərinin dəlilləri ilə razılaşmış və Mülki Məcəllənin 182.2-ci maddəsinin tələblərini nəzərə alaraq hesab etmişdir ki, cavabdehlər vicdansız əldə edən sayıla bilməzlər. Mübahisələndirilən müqavilələrin etibarsız hesab edilməsi üçün əsaslar müəyyən edilmədiyindən də "XX minik" markalı, ****** dövlət qeydiyyat nişanlı avtomobilin iddiaçının mülkiyyətinə qaytarılması barədə iddia tələbi Mülki Məcəllənin 157.2-ci maddəsinə əsasən araşdırılmalıdır.

26. Məhkəmə kollegiyası həmçinin cavabdehlər Cavabdeh 7 və Cavabdeh 6nın kəsici müddətin tətbiqi barədə ərizə ilə əlaqədar kəsici müddətin tətbiq edilməsinə zərurət olmadığını qeyd edərək eyni zamanda qeyd etmişdir ki, hazırkı mülki iş üzrə iddiaçının subyektiv hüququnun həmin cavabdehlər tərəfindən pozulması müəyyən edilmədiyindən və iddia əsassız olması səbəbi ilə rədd edilməli olduğundan kəsici müddətin tətbiqindən (ötürülüb ötürülmədiyinin araşdırılmasından) məhkəmə tərəfindən imtina edilməlidir. Beləliklə iddiaçının irəli sürdüyü faktiki halların onun iddia tələblərinin qanuni əsasının dispozisiya şərtləri ilə uzlaşmadığı müəyyən edilir. Bununla belə məhkəmə kollegiyası qeyd etmişdir ki, xx.xx.2020-ci il tarixli alqı-satqı müqaviləsinin (etibarsız sayılmış müqavilənin) bağlanması nəticəsində avtomobilə hüquqları pozulan şəxslər pozulmuş hüquqların bərpası üçün ümumi qaydada zərərin əvəzinin ödənilməsi barədə iddia irəli sürə bilərlər.

27. Məhkəmə kollegiyası mövqeyini Mülki Məcəllənin 135.4, 139.2, 181.1, 181.2, 181.4, 324.1, 324.2, 324.3, 337.5, 354.1, 384.0.4-cü maddələrinə istinadla əsaslandırmışdır.

Kassasiya şikayətinin və ona etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

28. İddiaçı kassasiya şikayəti verərək qətnamənin ləğv edilməsi və işin yenidən baxılması üçün apellyasiya instansiya məhkəməsinə göndərilməsinə dair qərar qəbul edilməsini xahiş etmişdir.

29. Kassasiya şikayəti onunla əsaslandırılmışdır ki, İddiaçının hüquqlarının müdafiəsinə təminat verilməmiş və onun işinə apellyasiya instansiyası məhkəməsi tərəfindən düzgün yanaşılmışdır. Ədalət mühakiməsi qanunla müəyyən edilmiş qaydada işə baxılması əsasında qanuni və əsaslı məhkəmə qətnaməsi çıxarmamış, apellyasiya instansiya məhkəməsi tərəfindən maddi hüquq normaları pozularaq iddiaçının

Konstitusiyadan, qanunlardan və digər normativ hüquqi aktlardan irəli gələn hüquq və mənafelərinin məhkəmədə təsdiqi qanunsuz olaraq təmin edilməmişdir.

30. Kassator qeyd etmişdir ki, avtomobilə dair cavabdehlər arasında bağlanmış əqdlər Mülki Məcəllənin 337.3-cü maddəsinə görə əhəmiyyətsiz əqdlərdir və həmin əqdlər məhkəmə tərəfindən etibarsız sayılıb-sayılmamasından asılı olmayaraq özlüyündə etibarsız olan əqddir. Belə olan halda isə təbii ki, apellyatorların nəqliyyat vasitəsinin üzərində sahibliyi qanunsuz olmuş, iddiaçının bununla bağlı tələbi isə tam qanuni və əsaslı olmuşdur. Bu baxımdan isə məhz vindiksiya iddiası vasitəsilə müdafiə hüququndan sonuncular, yəni apellyatorlar yararlanmalıdır. Həmçinin qeyd edilmişdir ki, iddiaçının mülkiyyət hüququ məhkəmələr tərəfindən daha əvvəldən təminat altına alınmışdır. Apellyasiya instansiyası məhkəməsi qətnamə qəbul edərkən tərəflər arasında yaranmış münasibətlərə yanlış qiymət verərək, tətbiq edilməli hüquq normasını tətbiq etməmişdir.

31. İddiaçı tələbinin əsası kimi istinad etdiyi hallara dair məhkəməyə sübutlarını təqdim etmişdir. Lakin, apellyasiya məhkəməsi sübutların araşdırılmasından irəli gələn həqiqəti müəyyən etməmiş, əksinə iş materiallarında olan və işin həqiqi hallarını üzə çıxaran sübutları düzgün qiymətləndirməmişdir.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

32. Cavabdeh 6nın vəkili kassasiya şikayətinə qarşı yazılı etiraz verərək göstərmişdir ki, kassasiya şikayəti əsassız olduğu üçün təmin edilməməli, apellyasiya instansiyası məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmalıdır.

Tətbiq edilən hüquq:

Azərbaycan Respublikasının Konstitusiyası:

33. Maddə 60, hissə 1. Hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir.

İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Avropa Konvensiyası:

34. Maddə 6, hissə. 1. Hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsi ilə, ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir.

Azərbaycan Respublikasının Mülki Məcəlləsi

35. Maddə 135.1. Bu Məcəlləyə uyğun olaraq yalnız fiziki obyektlər əşya sayılırlar. Pullar və sənədli qiymətli kağızlar da əşyadır.

36. Maddə 135.5. Daşınmaz əşyalara aid edilə bilməyən bütün əşyalar daşınar əşyalar sayılır.

37. Maddə 152.1. Mülkiyyət hüququ - subyektin ona mənsub əmlaka (əşyaya) öz istədiyi kimi sahib olmaq, ondan istifadə etmək və ona dair sərəncam vermək üzrə dövlət tərəfindən tanınan və qorunan hüquqdur.

38. Maddə 152.4. Sərəncam hüququ - əmlakın (əşyanın) hüquqi müqəddəratını təyin etməyin hüquqi cəhətdən təmin edilmiş imkanıdır.

39. Maddə 157.2. Mülkiyyətçi özgəsinin qanunsuz sahibliyindən öz əmlakını geri tələb edə bilər.

40. Maddə 159. Sahiblik əşyaya faktik sahibliyə nail olmaqla əldə edilir.

41. Maddə 163.1. Sahiblik əşyanın özünün verilməsi ilə verilir. Əvvəlki sahibin iradəsi ilə əldə edən əşyaya faktik sahibliyi həyata keçirməyə qadir olduqda verilmə baş tutur.

42. Maddə 163.2. Əgər üçüncü şəxs və ya özgəninkiləşdirən özü xüsusi hüquq münasibətləri əsasında əşyaya sahibliyi davam etdirirsə, əşyaya sahiblik əşya verilmədən də əldə edilə bilər. Sahibliyin bu cür verilməsi üçüncü şəxs üçün yalnız özgəninkiləşdirən

ona bu barədə bildiriş verdikdə etibarlı olur. Üçüncü şəxs əşyanı özgəninkiləşdirənə verməkdən imtina etmək üçün istinad etdiyi əsaslarla əldə edənə verməkdən də imtina edə bilər.

43. Maddə 166.1. Daşınar əşyanın sahibi haqqında ehtimal edilir ki, o əşyaya mülkiyyətçi hüququ ilə sahiblik edir. Hər hansı əvvəlki sahib haqqında ehtimal edilir ki, öz sahibliyi zamanı o, mülkiyyətçi olmuşdur.

44. Maddə 181.1. Daşınar əşyaya mülkiyyət hüququnun əldə edənə verilməsi üçün mülkiyyətçi əşyaya sahibliyi həqiqi hüquq əsasında ona verməlidir.

45. Maddə 181.2. Əşyanın verilməsi bunlardır: əşyanın əldə edənin birbaşa sahibliyinə verilməsi, əşyaya dolayı sahibliyin müqavilə üzrə verilməsi, bu zaman əvvəlki mülkiyyətçi birbaşa sahib kimi qala bilər; mülkiyyətçinin üçüncü şəxsdən sahibliyi tələb etmək hüququnu əldə edənə verməsi.

46. Maddə 181.4. Mülkiyyətçisi olan əmlaka mülkiyyət hüququ başqa şəxs tərəfindən alğı-satqı, dəyişdirmə, bağışlama müqaviləsi və ya bu əmlakın özgəninkiləşdirilməsinə dair digər əqd əsasında əldə edilə bilər. Əgər şəxs beş il fasiləsiz daşınar əşyaya öz mülkiyyəti kimi sahiblik etmişdirsə, o həmin əşyaya mülkiyyət hüququ əldə edir (əldə etmə müddəti). Əgər əldə edən əşyaya vicdansız sahiblik edirdisə və ya sonradan əşyanın ona məxsus olmamasını bilmişdirsə, daşınar əşyanın əldə edilməsi yolverilməzdir.

47. Maddə 182.1. Əşyanı özgəninkiləşdirənin onun mülkiyyətçisi olmadığı, lakin bu fakt barədə vicdanlı əldə edən olduğu hallarda da əldə edən əşyanın mülkiyyətçisi olur. Əgər əldə edən özgəninkiləşdirənin mülkiyyətçi olmadığını bilirmişsə və ya bilməli idisə, vicdanlı əldə edən sayılmır. Vicdanlılıq faktı əşya verilənə qədər mövcud olmalıdır.

48. Maddə 182.2. Daşınar əşyanın mülkiyyətçisi bu əşyanı itirmişsə, əşya ondan oğurlanmışsa və ya iradəsinin ziddinə olaraq başqa şəkildə onun sahibliyindən çıxmışsa, yaxud əldə edən onu əvəzsiz almışsa, həmin əşyanı əldə edən vicdanlı ola bilməz. Bu məhdudiyyətlər auksionda özgəninkiləşdirilmiş pula, sənədli qiymətli kağızlara və əşyalara tətbiq olunmur.

49. Maddə 324.1. Əqd mülki hüquq münasibətinin əmələ gəlməsinə, dəyişdirilməsinə və ya xitamına yönəldilmiş birtərəfli, ikitərəfli və ya çoxtərəfli iradə ifadəsidir.

50. Maddə 324.2. Əqdlər birtərəfli və müqavilə şəklində (ikitərəfli və ya çoxtərəfli) ola bilər.

51. Maddə 337.1. Bu Məcəllədə müəyyənləşdirilmiş şərtləri pozmaqla bağlanmış əqd etibarsızdır. Etibarsız əqdlər mübahisə edilən əqdlər və ya əhəmiyyətsiz əqdlər ola bilər.

52. Maddə 389.1. Mülki hüquq və vəzifələrin müəyyənləşdirilməsi, dəyişdirilməsi və ya xitamı haqqında iki və ya bir neçə şəxsin razılaşması müqavilə sayılır.

53. Maddə 567. Alğı-satqı müqaviləsinə görə satıcı əşyanı alıcının mülkiyyətinə verməyi, alıcı isə əşyanı qəbul edib əvəzində müəyyənləşdirilmiş pul məbləğini (qiyməti) ödəməyi öhdəsinə götürür.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi:

54. Maddə 14.1. Məhkəmə həqiqətə nail olmaq üçün işin hərtərəfli, tam və obyektiv tədqiqinə lazımi şərait yaradır. Bunun üçün məhkəmə: işdə iştirak edən şəxslərə onların prosessual hüquq və vəzifələrini izah edir, görüləcək, yaxud görülməyəcək hərəkətlərin nəticələri barədə onları xəbərdar edir, onların prosessual hüquqlarının həyata keçməsinə kömək göstərir.

55. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

56. Maddə 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

57. Maddə 217.1. Məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır.

58. Maddə 217.3. Qətnamə iş üzrə müəyyən edilmiş hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır.

59. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

Kassasiya baxışının hədləri

60. Qanunun tələbinə görə, kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

61. Kassasiya şikayətində qətnamə tam mübahisələndirildiyindən apellyasiya instansiyası məhkəməsinin aktı bütövlükdə yoxlanılır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

62. Baxılan işdən görünür ki, mübahisəli avtomobil iddiaçı ilə Cavabdeh 1in nikada olduqları dövrdə əldə edildiyi üçün məhkəmənin qərarı ilə ümumi əmlak hesab edilmiş və nəqliyyat vasitəsinə iddiaçının ½ payla mülkiyyət hüququ tanınmışdır.

63. Sonradan əşyanın həmin paya uyğun bölünməsi barədə iddiaçının iddiası o səbəbdən rədd edilmişdir ki, avtomobil artıq başqa şəxslərin mülkiyyətinə keçmişdir. Belə ki, maşın xx.xx.2020-ci ildə Cavabdeh 1in adından Cavabdeh 2, xx.xx.2021-ci il tarixdə Cavabdeh 2 tərəfindən Cavabdeh 3ə, xx.xx.2022-ci ildə Cavabdeh 3 tərəfindən Cavabdeh 4ə, xx.xx.2022-ci ildə Cavabdeh 4 tərəfindən Cavabdeh 5ə, xx.xx.2022-ci ildə Cavabdeh 5 tərəfindən Cavabdeh 6a, xx.xx.2023-cü ildə isə sonuncu tərəfindən Cavabdeh 7ə satılmışdır.

64. İddiaçı hazırkı iş üzrə qaldırdığı iddiada qeyd edilən satışlara dair bağlanmış müqavilələrin və onlar əsasında verilmiş qeydiyyat şəhadətnamələrinin etibarsız sayılmasını və avtomobilin ona qaytarılmasını tələb etmişdir.

65. Birinci instansiya məhkəməsinin 2(009)-1688/2023 nömrəli, 30 noyabr 2023-cü il tarixli qətnaməsi ilə iddia təmin edilmişdir. Qətnamədən Cavabdeh 6 və Cavabdeh 7 apellyasiya şikayəti verdiyi üçün apellyasiya məhkəməsi həmin qətnaməni onlara aid hissədə ləğv edərək iddianı həmin hissədə rədd etmişdir. Bu hal ona dəlalət edir ki, hazırda iddianın qalan hissələrinin təmin edilməsi barədə rayon məhkəməsinin qətnaməsi mübahisələndirilmədiyi üçün qüvvəsindədir. Bu səbəbdən iddiaçının verdiyi kassasiya şikayəti üzrə kassasiya baxışının predmetini də iddianın təmin olunmayan hissəsi təşkil eidr.

66. Həmin hissədə işin düzgün həlli üçün cavablandırılmalı olan əsas sual cavabdehlər Cavabdeh 6 və Cavabdeh 7in mübahisəli avtomobilə mülkiyyət hüququ əldə edib-etməməsidir. Bu sualın cavabına müvafiq olaraq Iddiaçının da avtomobilə mülkiyyət hüququnu itirib-itirməməsinə aydınlıq gətirilməlidir.

67. Bu həm də ona görə vacibdir ki, iddiaçının tələbinin qanuni əsasını Mülki Məcəllənin 157.2-ci maddəsi təşkil edir. Həmin normaya əsasən, mülkiyyətçi özgəsinin qanunsuz sahibliyindən öz əmlakını geri tələb edə bilər (vindikasiya iddiası - § 39).

68. Mülkiyyətin müdafiəsini təmin edən bu normanın mənasından aydın olur ki, iddiaçının həmin tələblə çıxış edə bilməsi üçün üç şərtin aşkar edilməsi zəruridir: iddiaçının əşyanın mülkiyyətçisi olması, əşyanın cavabdehin sahibliyində olması, cavabdehin əşyaya sahibliyinin qanunsuz olması.

69. Göründüyü kimi, bu normanın tələbi baxımından da ilk növbədə iddiaçının mübahisəli əşyanın mülkiyyətçisi olub-olmaması müəyyən edilməlidir.

70. Məlum olduğu kimi avtomobil rəsmi reyestrdə qeydə alınan daşınar əşyadır. Daşınar əşyalar üzərində mülkiyyət (tam əşya) hüququnun əldə edilməsi Mülki Məcəllənin 181-ci və 182-ci maddələri ilə tənzimlənir. Odur ki, həmin normaların dispozisiya şərtləri ilə hazırkı işin faktiki halları arasındakı uyğunluq təhlil edilməlidir.

71. Kassasiya məhkəməsi bildirir ki, daşınar əşyaya mülkiyyətin qazanılması üçün aşağıdakı şərtlər təsbit olunmalıdır: 1) tərəflər arasında razılaşma; 2) əşyanın əldə edənin sahibliyinə verilməsi; 3) əşyanı sahibliyə verən şəxsin buna səlahiyyətinin olması; 4) belə səlahiyyəti olmadıqda, əldə edənin vicdanlı olması.

72. Bir şəxsin daşınar əşya üzərində mülkiyyəti qazanması nəticəsinə gəlmək üçün sadalanan şərtlər ardıcıl şəkildə yoxlanılmalıdır. İlk üç şərtdən biri müəyyən edilmədikdə növbəti şərtin yoxlanılmasına keçilmədən araşdırma başa çatdırılır, mülkiyyət hüququnun əldə edilmədiyi nəticəsinə gəlinir. Əgər ilk üç şərtin hamısı birlikdə aşkar edilirsə (onların hər birinə müsbət cavab verilirsə), əşyanı əldə edən mülkiyyəti qazanmış sayılır. Yalnız üçüncü şərtə (tələbə) müsbət cavab verilmədikdə növbəti – sonuncu şərt yoxlanılmaqla məsələ həll edilir.

73. Qeyd edilən şərtlərin mahiyyəti və qanuni əsasları aşağıdakılardan ibarətdir.

74. Qanunverici daşınar əşyalara mülkiyyət hüququnun iradəvi şəkildə əmələ gəlməsi üçün razılıq şərtini Mülki Məcəllənin 181.4-cü maddəsinə belə göstərmişdir: “Mülkiyyətçisi olan əmlaka mülkiyyət hüququ başqa şəxs tərəfindən alğı-satqı, dəyişdirmə, bağışlama müqaviləsi və ya bu əmlakın özgəninkiləşdirilməsinə dair digər əqd əsasında əldə edilə bilər” (birinci cümlə, § 46).

75. Göründüyü kimi, mülkiyyətin qazanılması üçün tərəflər arasında müxtəlif müqavilələrin bağlanması razılaşdırıla bilər. Müqavilə dedikdə, iki və ya daha artıq şəxsin hüquqi nəticə əmələ gətirmək üçün ifadə etdikləri və bir-birinə uyğun olan iradə bəyanları başa düşülür (§ 49-50, 52).

76. Bu razılaşmalardan biri də alqı-satqı müqaviləsidir. Mülki Məcəllənin 567-ci maddəsinə əsasən, alqı-satqı müqaviləsinə görə satıcı əşyanı alıcının mülkiyyətinə verməyi, alıcı isə əşyanı qəbul edib əvəzində müəyyənləşdirilmiş pul məbləğini (qiyməti) ödəməyi öhdəsinə götürür (§ 53).

77. Hazırkı işdə müəyyən edilmişdir ki, mübahisəli avtomobili əldə etmək məqsədilə cavabdeh (alıcı) Cavabdeh 6 xx.xx.2022-ci il tarixdə (satıcı) Cavabdeh 5la, cavabdeh (alıcı) Cavabdeh 7 isə xx.xx.2023-cü tarixdə (satıcı) Cavabdeh 6 ilə dövlət yol polisində təsdiq edilmiş “Nəqliyyat vasitəsinin alqı-satqı” müqavilələrini bağlamışlar.

78. İkinci şərt - əşyanın əldə edənin sahibliyinə verilməsi Mülki Məcəllənin 181.1-ci maddəsində belə əks olunmuşdur: “Daşınar əşyaya mülkiyyət hüququnun əldə edənə verilməsi üçün mülkiyyətçi əşyaya sahibliyi həqiqi hüquq əsasında ona verməlidir” (§ 44).

79. Qanuna əsasən, sahiblik əşyaya faktik sahibliyə nail olmaqla əldə edilir (§ 40). Başqa sözlə, sahiblik hüquqi vəziyyət olaraq, bir şəxsin əşya üzərində iradəvi şəkildə əməli (faktiki) hakimiyyət qurması, əşyaya fiziki malik olması, yaxud əşyanı özünün təsir dairəsində saxlamasıdır. Şəxs öz iradəsi ilə bu hakimiyyəti tərk edənədək və ya iradəsi xaricində başqa

biri onu ələ keçirənədək və ya hakimiyyəti başqa səbəbdən sona çatanadək əşyanın sahibi sayılır.

80. Sahibliyin verilməsini Mülki Məcəllənin 163.1, 163.2 və 181.2-ci maddələri tənzimləyir. Həmin normalara görə, "sahiblik əşyanın özünün verilməsi ilə verilir. Əvvəlki sahibin iradəsi ilə əldə edən əşyaya faktik sahibliyi həyata keçirməyə qadir olduqda verilmə baş tutur. Əşyanın verilməsi bunlardır: əşyanın əldə edənin birbaşa sahibliyinə verilməsi, əşyaya dolayı sahibliyin müqavilə üzrə verilməsi, bu zaman əvvəlki mülkiyyətçi birbaşa sahib kimi qala bilər; mülkiyyətçinin üçüncü şəxsdən sahibliyi tələb etmək hüququnu əldə edənə verməsi" (§ 41-42, 45).

81. Baxılan işdə mübahisəli avtomobilin satıcı Cavabdeh 5 tərəfindən alıcı Cavabdeh 6ya, sonuncu tərəfindən isə alıcı Cavabdeh 7ə təqdim edildiyi mübahisə olunmur.

82. Üçüncü şərt əşyanı sahibliyə verən şəxsin buna səlahiyyətinin olmasıdır. Bu ünsür ona görə vacibdir ki, əşyanı özgəninkiləşdirmək niyyətilə başqasının sahibliyinə təqdim etmək ona sərəncam verməkdir. Çünki, bu halda əşyanın hüquqi müqəddəratı həll edilir. Sərəncam vermək hüququ isə yalnız mülkiyyətçiyə məxsus olan səlahiyyətdir (§ 38). Başqa sözlə, əşyaya sərəncam vermək üçün həqiqi hüquqa malik olan şəxs mülkiyyətçidir. Bu səbəbdən Mülki Məcəllənin 181.1-ci maddəsində əşyaya sahibliyin "həqiqi hüquq əsasında" verilməsi vurğulanmışdır. Çünki, şəxs daşınar əşyanı başqasına təqdim etmiş olsa da, əgər buna səlahiyyəti yox idisə, o, həmin predmeti sahibliyə həqiqi hüquq əsasında vermiş sayılmır.

83. Daşınar əşyanın mülkiyyətçisinin kim olması ilə bağlı qanuni prezumpsiya (ehtimal) vardır. Belə ki, daşınar əşyanın sahibi haqqında ehtimal edilir ki, o əşyaya mülkiyyətçi hüququ ilə sahiblik edir (MM-in 166.1-ci maddəsinin birinci cümləsi - § 43).

84. O da nəzərə alınmalıdır ki, avtomobil rəsmi reyestrdə qeydə alındığı üçün nəqliyyat vasitəsinin mülkiyyətçisinə dair həmin reyestrdəki məlumat həqiqi hesab olunur (prezumpsiya).

85. Lakin avtomobilin əsl (həqiqi hüquqi vəziyyətə görə) mülkiyyətçisi bu prezumpsiyanın əksini, yəni həmin qeydin əsassız aparıldığını, bu səbəbdən əşyaya sərəncam verənin buna səlahiyyətinin olmadığını iddia və sübut edə bilər.

86. Baxılan işdə məhkəmə qərarı ilə mübahisəli avtomobilə ½ mülkiyyət payı tanınmış Iddiaçı iddia etmişdir ki, avtomobil onun və digər mülkiyyətçi Cavabdeh 1in iradəsi olmadan, sənədlərin saxtalaşdırılması nəticəsində onların sahibliyindən çıxmış və Cavabdeh 2nin adına sənədləşdirilmişdir. Eyni zamanda hazırkı işdə Iddiaçının həm Cavabdeh 2nin müqaviləsi və qeydiyyat şəhadətnaməsinin, həm də ondan sonrakı müqavilə və şəhadətnamələrin etibarsız sayılmasına dair iddiası təmin edilmiş (Cavabdeh 6 və Cavabdeh 7in bağladıqları müqavilələr istisna olmaqla) və həmin hissələr mübahisələndirilməmişdir.

87. Belə olan halda, iddiaçı, avtomobili Cavabdeh 6ya satmış Cavabdeh 5in əşyanın həqiqi mülkiyyətçisi və ona sərəncam vermək səlahiyyətinin olmadığını sübuta yetirmişdirsə, o zaman növbəti şərtin - əşyanı əldə edən Cavabdeh 6 və Cavabdeh 7in vicdanlı olub-olmamaları Mülki Məcəllənin 182-ci maddəsinin tələblərinə uyğun yoxlanılmalı idi.

88. Bu normada daşınar əşyaya mülkiyyət hüququnun vicdanlı əldə edilməsi ilə bağlı münasibətlər tənzimlənir.

89. Vicdanlılıq dedikdə, vəziyyətin tələb etdiyi bütün diqqətin göstərildiyi halda, bir haqqın qazanılmasına və ya başqa bir hüquqi nəticənin gerçəkləşməsinə dair hansısa əngəlin (maneənin) varlığının fərqində olmamaq başa düşülür. Başqa sözlə, əşya hüququ əldə edən üçüncü şəxs həmin hüququ qazanmasına maneə olan halı bilmirsə (və ya

vəziyyətin şərtlərinə görə bilməli deyilsə) vicdanlı sayılır. Vicdanlılığın hüququn qazanıldığı anda mövcud olması kifayətdir. Hüquqi nəticə (mülkiyyət hüququnun yaranması) gerçəkləşdikdən sonra üçüncü şəxsin sözügedən maneəni öyrənməsi onun əldə etdiyi hüquqa təsir etmir (MM, maddə 182.1, üçüncü cümlə - § 47).

90. Ona görə də mülkiyyətçinin daşınar əşyasına başqa biri sahiblik edərək onu özgəninkiləşdirdikdə (bu məqsədlə başqasının sahibliyinə verdikdə), əsas prinsip (ümumi qayda) ondan ibarətdir ki, əldə edən qanuna əsasən mülkiyyətçi sayılır. Bu qayda Mülki Məcəllənin 182.1-ci maddəsində belə əks olunmuşdur: "Əşyanı özgəninkiləşdirənin onun mülkiyyətçisi olmadığı, lakin bu fakt barədə vicdanlı əldə edən olduğu hallarda da əldə edən əşyanın mülkiyyətçisi olur" (birinci cümlə, § 47).

91. Nəzərə alınmalıdır ki, mülki hüquq münasibətlərində "vicdanlılıq prezumpsiyadır (quivis bonus praesumitur)" qaydası tətbiq olunur. Yəni əşyanı əldə edənin vicdanlı olduğu ehtimal edilir. Ona görə də, vicdanlılığın qorunması qaydasından yararlanan şəxs özünün vicdanlı olduğunu sübut etmək vəzifəsi daşımır. Onun vicdanlı olmadığını sübuta yetirmək, bundan fayda əldə edəcək tərəfin, yəni üçüncü şəxsin vicdanlı olmadığını iddia edənin üzərinə düşür.

92. Bu səbəbdən əgər mülkiyyətçi əldə edən üçüncü şəxsin vicdanlı olmadığını iddia edirsə, vicdanlı olmamaqla bağlı qanunda nəzərdə tutulan şərtləri sübuta yetirməlidir. Mülki Məcəllənin 182-ci maddəsində əks olunan bu şərtləri subyektiv və obyektiv şərtlər olaraq qruplaşdırmaq mümkündür.

93. Birincisi, əşyanı özgəninkiləşdirənin buna səlahiyyətinin olmadığını əldə edənin özünün bilməsi, yaxud hal və şəraitə görə bilməli olmasıdır. Mülki Məcəllənin 182.1-ci maddəsinə görə "Əgər əldə edən özgəninkiləşdirənin mülkiyyətçi olmadığını bilirmişsə və ya bilməli idisə, vicdanlı əldə edən sayılmır" (ikinci cümlə, § 47).

94. Göründüyü kimi, bu halda əşyanı sahibliyinə verənin əslində mülkiyyətçi olmladığı əldə edən üçüncü şəxsə məlum olur, ya da şəraitə görə ondan gözlənilən diqqət və ehtiyyatlılığı göstərsəydi məlum ola bilərdi.Yəni bir şəxs əşyanı əldə edərkən onu təqdim edənin mülkiyyətçisi olmadığını bilmişsə, yaxud vəziyyətə görə bundan şübhə edib lazımi araşdırma aparmaq ehtiyacını göstərən işarələr olmasına (məsələn, qol saatına başqa şəxsin adının həkk olunmasına) rəğmən bunu etməmişsə, əldə edən özündən qaynaqlanan subyektiv şərtlərə görə vicdanlı sayılmır. Bu hallardan biri təsdiq olunduqda vicdanlılıqla bağlı araşdırma tamamlanır, digər şərtlərin yoxlanılmasına gərək qalmır.

95. Odur ki, hazırkı işdə cavabdehlər Cavabdeh 6 və Cavabdeh 7in avtomobili alarkən əşyanı onlara verənin əslində buna səlahiyyətinin olmadığını bilmələri, yaxud hal və şəraitə görə bilməli olmaları yoxlanılmalıdır. Həmin hal sübuta yetirilərsə, əşyanı əldə edən(lər) vicdanlı sayıla və avtomobilin mülkiyyətini qazanmış hesab edilə bilməzlər.

96. Lakin əldə edən(lər)in subyektiv meyarlara görə vicdanlı olmadığı sübuta yetirilmədikdə, növbəti mərhələyə keçilərək obyektiv şərtlər yoxlanılmalıdır. Bu şərtlər Mülki Məcəllənin 182.2-ci maddəsinin birinci cümləsində göstərilmişdir: "Daşınar əşyanın mülkiyyətçisi bu əşyanı itirmişsə, əşya ondan oğurlanmışsa və ya iradəsinin ziddinə olaraq başqa şəkildə onun sahibliyindən çıxmışsa, yaxud əldə edən onu əvəzsiz almışsa, həmin əşyanı əldə edən vicdanlı ola bilməz" – § 48).

97. Göründüyü kimi, bu hallar daha çox obyektiv vəziyyətdən irəli gələn hallları ehtiva edir. Bu halları aşağıdakı kimi qruplaşdırmaq olar:

- əşyanın mülkiyyətçinin sahibliyindən iradəsinə zidd şəkildə çıxması. Bu istənilən formada ola bilər – oğurluq, soyğunçuluq, digər talama formaları, itirmə və s. Belə hallarda əşyanı əldə edən üçüncü şəxs onu bilmədən əvəzli şəkildə alsa belə, vicdanlı sayılmır və

mülkiyyəti qazanmış hesab edilmir. Yəni, bu vəziyyətdə qanunverici əldə edəni deyil, mülkiyyətçini qoruyur. Bu qayda əşyanı üçüncü şəxsdən almış sonrakı əldə edənlərə də eynilə tətbiq olunur.

- Üçüncü şəxsin əşyanı əvəzsiz əldə etməsi. Yəni, əşya mülkiyyətçinin sahibliyindən iradəsinə uyğun çıxsa da, onu bir dəyər qarşılığında deyil, əvəzsiz qazanmış şəxs vicdanlı sayılmır və müdafiə olunmur. Bu halda da mülkiyyətçi üstün tutulur.

98. Yuxarıda qeyd edildiyi kimi, baxılan işdə mübahisəli avtomobilin mülkiyyətçiləri Iddiaçının və Cavabdeh 1in iradəsi olmadan, sənədlərin saxtalaşdırılması nəticəsində onların sahibliyindən çıxması haqqında məlumatlar mövcuddur.

99. Yeri gəlmişkən, apellyasiya məhkəməsi də işə Mülki Məcəllənin 182.2-ci maddəsini tətbiq edərək bildirmişdir ki, “cavabdehlər vicdansız əldə edən sayıla bilməzlər”. Lakin bu mövqe, əşyanın mülkiyyətçinin sahibliyindən iradəsinə zidd şəkildə çıxdığı halda üçüncü şəxsin onu əvəzli əldə etsə də, vicdanlı sayılmayacağı barədə istinad olunan normanın göstərişinə uyğun olmamışdır.

100. Kollegiya təkrarən vurğulamaqda yarar görür ki, rəsmi reyestrdə qeydə alınan daşınar əşyalar barəsində həmin reyestrdəki məlumatların həqiqiliyi prezumpsiyası qəbul edilir. Bu o deməkdir ki, belə əşyanın sahibi (mülkiyyətçisi) digər daşınarlardan fərqli olaraq faktiki vəziyyətə görə deyil, reyestrdəki məlumatlara əsasən (reyestrdə adı göstərilən şəxsin mülkiyyətçi olması) ehtimal edilir. Odur ki, aparılan reyestr sübutetmə yükü baxımından əhəmiyyət kəsb edir. Yəni, reyestrə əsasən mülkiyyətçi kimi görünən şəxs, (avtomobil faktiki sahibliyində olmasa belə) özünün mülkiyyətçi olduğunu sübut etmək yükündən azad olur, bu yük prezumpsiyanın əksini – reyestrdə adı yazılan şəxsin mülkiyyətçi olmadığını iddia edənin üzərinə qoyulur.

101. İkinci məsələ odur ki, iddia edən şəxs bu yükü yerinə yetirərək prezumpsiyanı aradan qaldırdıqda, yəni qeydin əsassız olduğu sübuta yetirildikdə bu məlumatlara etimad edənin hüquqları qorunurmu?

102. Bu xüsusatla bağlı ilk növbədə qeyd edilməlidir ki, vicdanlı əldəetmə ilə bağlı qaydalar nəticə etibarilə mülki dövriyyədə ortaya çıxan bəzi risklərin bölüşdürülməsidir. Belə ki, maddi dəyərlərin cismani və başqasına keçə bilən xüsusiyyətdə olması bəzən onlar üzərindəki hüquqların itirilməsi təhlükəsini yaradır. Çünki heç bir maddi dəyər mütləq qoruma altında deyil. Təhlükə bir təbiət hadisəsindən də irəli gələ bilər (məsələn, evin zəlzələ nəticəsində dağılması), mülki dövriyyədəki hüquqi əməliyyatlarla mülkiyyətçinin əşyasının başqa bir vicdanlı şəxsin əlinə keçməsindən də yarana bilər. Sonuncu halda ortada bir əşya, lakin qorunmalı olan iki haqlı mənafe olur – mülkiyyətçi və əldə edənin mənafeyi. Təbii ki, onlardan biri üçün əşyaya olan hüququnu itirmək riski qaçılmazdır. Çünki, əşya hansına verilsə, digəri ondan məhrum qalır. Bu səbəbdən, qanunverici həmin riski vicdanlı əldəetmə qaydaları əsasında iki tərəf arasında bölüşdürmüşdür. Daşınmaz əşyalara münasibətdə vicdanlı əldə edən daha güclü şəkildə qorunmuş, daşınar əşyalar baxımından ortalama bir tənzimləməyə gedilmişdir.

103. Daşınmaz əmlakın dövlət reyestrindəki məlumatlara güvənərək əşya hüququ əldə etmiş üçüncü şəxsin hüquqlarının müdafiə olunması Mülki Məcəllənin 140, 148.2-ci və 149.2-ci maddələrində nəzərdə tutulmuşdur.

104. Bununla belə, daşınar əşyalara münasibətdə hansı hallarda mülkiyyətçinin, hansı hallarda isə əldə edənin qorunacağına Mülki Məcəllənin 182-ci maddəsində aydınlıq gətirilmişdir (bax: § 88-97).

105. Lakin mülki qanunvericilikdə rəsmi reyestrdə qeydə alınan daşınar əşyalara münasibətdə vicdanlı əldəetmə ilə bağlı xüsusi bir tənzimləmə nəzərdə tutulmamış, daşınmazlarla bağlı rejimin onlara da eynilə şamil edildiyi göstərilməmişdir.

106. Bundan əlavə, Mülki Məcəllənin 182.2-ci maddəsindəki qaydanın (əşya mülkiyyətçinin sahibliyindən iradəsi xaricində çıxmışsa, əvəzli də olsa əldə edənin vicdanlı sayılmaması qaydasının) tətbiq edilmədiyi istisna hallar həmin maddənin ikinci cümləsində açıqca sadalanmışdır: "Bu məhdudiyyətlər auksionda özgəninkiləşdirilmiş pula, sənədli qiymətli kağızlara və əşyalara tətbiq olunmur". Həmin siyahıda da rəsmi reyestrə etimad etməklə əldə olunan daşınar əşyalar göstərilmir.

107. Bu normaların təhlili onu deməyə əsas verir ki, rəsmi reyestrdə qeydə alınan daşınar əşyalar, mülkiyyət prezumpsiyası baxımından qeydə alınmayan daşınar əşyalardan fərqləndirilsə də (biricisində mülkiyyətçinin kimliyi reyestrdəki məlumatla, ikincisində isə faktiki sahiblik vəziyyəti ilə ehtimal edilir), bu prezumpsiya aradan qaldırıldığı halda, yəni vicdanlı əldə etmə qaydalarının tətbiqində onlar arasında fərq qoyulmamışdır.

108. Təhlil edilən normaların əks mənasından irəli gələn bu cür (qapalı) tənzimləmə nəzərə alınmadan Mülki Məcəllənin 148.2-ci və 149.2-ci maddələrinin hazırkı işə analogiya qaydasında tətbiqi mümkün deyil. Odur ki, rəsmi reyestrdə qeydə alınan daşınar əşyalara münasibətdə Mülki Məcəllənin 182-ci maddəsi tətbiq edilməlidir.

109. Kollegiya bu qənaətə gələrkən onu da nəzərə alır ki, hətta daşınmaz əmlakın dövlət reyetrinə güvənin qorunması da mütləq deyil, bunun da istisnaları var. Belə ki, həmin reyestrə etimad edən şəxsin də özündən qaynaqlanmayan bəzi obyektiv hallarda hüquqları müdafiə olunmur, vicdanlı əldəetmə qaydaları ona tətbiq edilmir, əşya mülkiyyətçiyə qaytarılır. Məsələn, bir torpaq sahəsinə dair dövlət reyestrində iki ayrı şəxsin adına mülkiyyət qeydi olduqda, onlardan birindən əşya hüququ əldə edən şəxsə, yaxud qanuni rejimə görə ər-arvadın ümumi mülkiyyəti sayılan, lakin reyetrdə ərin adına fərdi mülkiyyət kimi qeydə alınmış mənzili sonuncu ilə bağlanmış müqavilə əsasında əldə edən şəxsin vicdanlılığı qorunmur (Mülki Məcəllənin 225.6-cı maddəsi).

110. Yuxarıda qeyd edilənlər onu deməyə əsas verir ki, əşya hüquqları qazanmaq istəyən şəxslər istər sahiblik vəziyyətinə, istər dövlət reyestrinə etimad etsin, bəzi hallarda əldə olunan hüquqlar müəyyən risklərlə müşayət olunur. Bu risklərin hansı qaydada bölüşdürülməsi, yəni riskin mülkiyyətçinin, yoxsa əldə edən vicdanlı şəxsin üzərində qalacağı ilə bağlı seçim qanunvericiyə aiddir. Məhkəmə bu seçimi (hüquq siyasətini) gözardı edərək, öz mülahizəsi ilə pozitiv (qüvvədə olan) hüquqdan yan keçib, "arzu etdiyi" hüququ tətbiq edə bilməz.

111. Beləliklə, kassasiya məhkəməsi göstərilənləri ümumiləşdirərək vurğulayır ki, apellyasiya instansiyası məhkəməsi əşyanın geri qaytarılması tələbi üzrə hüquqi dəyərləndirməni yuxarıda göstərilən normalar və şərtlər əsasında aparmamış, gəldiyi nəticəni bu tələblərə uyğun əsaslandırmamışdır.

112. Nəzərə alınmalıdır ki, məhkəmə aktlarının əsaslandırılmış olması qəbul edilmiş qərarın iş üzrə tərəflərdə qanuni və ədalətli olduğuna inam yaratmaqla yanaşı, ümumilikdə məhkəmə hakimiyyətinə olan etimadın möhkəmlənməsinə xidmət edir.

113. Məhkəmə kollegiyası vurğulayır ki, iş üzrə əhəmiyyət kəsb edən halları müəyyən etmədən və onlara aidiyyəti maddi hüquq normalarının şərtləri əsasında qiymət vermədən çıxarılmış qətnamə əsaslandırılmış məhkəmə aktı kimi qəbul edilə bilməz.

114. Bu qaydalara riayət edilməməsi Azərbaycan Respublikasının Konstitusiyası ilə təminat verilən hüquq və azadlıqların məhkəmə müdafiəsi hüququnun, İnsan Hüquqlarının

və Əsas Azadlıqların Müdafiəsi Haqqında Avropa Konvensiyasının 6-cı maddəsində əks olunmuş ədalətli məhkəmə araşdırması hüququnun pozulmasına dəlalət edir (§ 33-34).

115. Qeyd olunanları nəzərə alaraq, kassasiya kollegiyası bu qənaətə gəlir ki, kassasiya şikayəti təmin edilməklə apellyasiya məhkəməsinin qətnaməsi ləğv edilməli, iş yeni apellyasiya baxışına göndərilməlidir.

116. Təkrar apelyasiya baxışında tərəflərin izahatları və dəlilləri dinlənilməli, mübahisəli hallar, habelə bu hallar üzrə sübutetmə yükü düzgün müəyyən edilməklə işin hərtərəfli, tam və obyektiv tədqiqinə lazımi şərait yaradılmalı, təqdim olunmuş sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra onlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verilməli, tərəflərin dəlillərinin hansı səbəbdən qəbul edilibedilməməsi əsaslandırılmalı, ədalətli məhkəmə araşdırması hüququ təmin olunmaqla mübahisəyə qanunvericiliyə uyğun qaydada yekun hüquqi qiymət verilməlidir.

Qərara aldı:

Kassasiya şikayəti təmin edilsin.

Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 26 noyabr 2024-cü il tarixli, 2(103)-5902/2024 nömrəli qətnaməsi ləğv edilsin, iş yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə qaytarılsın.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

Satın almaqda üstünlük hüququ

7. 2(102)-781/2024 nömrəli, 2024-cü il 29 fevral tarixli qərar - Pay satın almaqda üstünlük hüququ pozulmuş payçının hüquqlarının məhkəmədə müdafiəsi

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: pay satın almaqda üstünlük hüququ pozulmuş payçının hüquqlarının məhkəmədə müdafiəsi.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Hazırkı iş üzrə satın almaqda üstünlük hüququ pozulmuş payçı həmin paya dair üçüncü şəxslə bağlanmış alqı-satqı müqaviləsinin etibarsız hesab edilməsi və özünün həmin payı satın almaqda üstünlük hüququnun tanınması barədə iddia qaldırmışdır.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 218.3-cü maddəsinə əsasən, pay satın almaqda üstünlük hüququ pozulmaqla satıldıqda paylı mülkiyyətin hər hansı digər iştirakçısının üç ay ərzində hüququ vardır ki, alıcının hüquq və vəzifələrinin ona keçirilməsini məhkəmə qaydasında tələb etsin. Göründüyü kimi, pay satın almaqda üstünlük hüququ pozulmaqla satıldıqda hüququnun pozulduğunu iddia edən şəxsin qaldıracağı iddiasının predmeti Mülki Məcəllənin göstərilən norması ilə müəyyənləşdirilmişdir.

Beləliklə, payı satın almaqda üstünlük hüququ pozulmuş şəxsin bu əsasa dayanaraq, məhkəmə qaydasında “alıcının hüquq və vəzifələrinin ona keçirilməsi” barədə tələb irəli sürmək hüququ vardır.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-781/2024

29.02.2024-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından

Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının

İddiaçının cavabdehlər Cavabdeh 1, Cavabdeh 2-yə (müstəqil tələb irəli sürməyən üçüncü şəxslər Sumqayıt şəhəri 4 saylı Notariat Ofisinə və AR Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 2 saylı Sumqayıt Ərazi İdarəsinə) qarşı iş üzrə

Q Ə R A R I

(Açar sözlər: ümumi paylı mülkiyyətdə olan daşınmaz əmlakda payı almaq üçün üstünlük hüququnun tanınması tələbi)

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Xıdırov Əhliman Mehman oğlu (məruzəçi), Şamayev Elşad Yaquboviç və Vəliyeva Elşanə Rafiq qızından ibarət tərkibdə,

İddiaçının cavabdehlər Cavabdeh 1 və Cavabdeh 2-yə (müstəqil tələb irəli sürməyən üçüncü şəxslər Sumqayıt şəhəri 4 saylı Notariat Ofisinə və AR Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 2 saylı Sumqayıt Ərazi İdarəsinə) qarşı "ümumi paylı mülkiyyətdə olan daşınmaz əmlakda payı almaq üçün üstünlük hüququnun tanınması" tələbinə dair mülki iş üzrə Sumqayıt Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(105)-1572/2023 nömrəli, 9 oktyabr 2023-cü il tarixli qətnaməsindən Cavabdeh 2 tərəfindən verilmiş kassasiya şikayətinə Ali Məhkəmənin inzibati binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları

1. Sumqayıt Apellyasiya Məhkəməsinin 2(105)-115/2016 saylı, 15.01.2016-cı il tarixli qətnaməsindən görünür ki, həmin qətnamə ilə X1-in adından Cavabdeh 1 ilə Cavabdeh 2 arasında bağlanmış 26 yanvar 2006-cı il tarixli, 4Ə/1-34 saylı alqı-satqı müqaviləsi etibarsız hesab edildiyindən Ünvan 1 ünvanda yerləşən mənzilin alqı-satqısı üçün ödənilmiş 14137,20 manat pulun Cavabdeh 1-dən Cavabdeh 2-nin xeyrinə tutulması, həmin mənzilin yaxşılaşdırılmasına çəkilmiş 26000 manat məbləğində vəsaitin Cavabdeh 1-dən və İddiaçıdan bərabər hissədə alınaraq, Cavabdeh 2-yə ödənilməsi, müqavilə üzrə tərəflərin əvvəlki vəziyyətə qaytarılması, göstərilən məbləğdə pulun Cavabdeh 2-nin xeyrinə tutulması ilə qeyri-yaşayış sahəsinin Cavabdeh 1-ə və İddiaçıya qaytarılmasının eyni vaxtda icra olunması qət edilmişdir.

2. Ünvan 1 mənzil xüsusi mülkiyyət hüququ üzrə 1/2 hissədə İddiaçının adına 222 nömrəli reyestr kitabının 6 nömrəli vərəqində ********* qeydiyyat nömrəsi ilə 01.10.2013-cü il tarixdə, 1/2 hissədə Cavabdeh 1-in adına 222 nömrəli reyestr kitabının 6 nömrəli vərəqində ******* qeydiyyat nömrəsi ilə 06.05.2019-cu il tarixdə qeydə alınmışdır.

3. Cavabdeh 2 ilə Cavabdeh 1 (etibarnamə ilə X2) arasında bağlanmış 03 iyul 2019-cu il tarixli AN-I seriyalı ********* saylı alqı-satqı müqaviləsindən görünür ki, Cavabdeh 2 Ünvan 1 mənzilin ½ hissəsini 51500 (əlli bir min beş yüz) manata Cavabdeh 1-dən almışdır.

4. Sumqayıt şəhər Polis İdarəsinin 21.05.2019-cu il tarixli məktubundan görünür ki, Cavabdeh 1 Ünvan 1 ünvanında 09.04.1974-cü ildən 13.06.2006-cı ilədək qeydiyyatda olmuşdur.

5. Sumqayıt şəhəri 4 saylı Notariat Ofisi tərəfindən İddiaçıya ünvanlanmış 17 may 2019-cu il tarixli, **** nömrəli məktubdan görünür ki, Cavabdeh 1 ilə onun paylı mülkiyyətində olan Ünvan 1 ünvanında yerləşən mənzildə Cavabdeh 1-in ona məxsus olan 1/2 hissəni 51500 (əlli bir min beş yüz) manata satmaq istədiyi bildirilmiş, bununla əlaqədar olaraq həmin hissəni almaqda üstünlük hüququ olduğundan ona həmin hissənin alınması təklif olunmuş, daşınmaz əmlaka mülkiyyət hüququndakı satılan payı satın almaqdan imtina etdiyi və ya bildirişin verildiyi gündən 45 gün ərzində hər hansı bir məlumat vermədiyi təqdirdə satıcının öz payını istədiyi şəxsə satacağı bildirilmişdir.

6. SS********AZ saylı xəbərnamədən görünür ki, Sumqayıt şəhəri 4 saylı Notariat Ofisi tərəfindən İddiaçına ünvanlanmış 17 may 2019-cu il tarixli, **** nömrəli məktub "X" adlı şəxs tərəfindən imza etməklə qəbul edilmişdir.

7. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin 21.12.2022-ci il tarixli 4/**** nömrəli rəyindən görünür ki, ekspertizaya təqdim olunmuş mülki işin 7-ci vərəqində olan 10.12.2021-ci il tarixli AR-II ******* saylı etibarnamədə "İmza" qrafasındakı imzanın, "X" yazısının və SS********AZ saylı poçt göndərişinin təqdim edilməsi barədə xəbərnamədə (i.v.138) "Şəxsən verildi" qrafasındakı imzanın və "X" yazısının - tədqiqat prosesinin təsviri hissəsində göstərilən səbəblərə görə eyni şəxs tərəfindən icra olunub olunmaması haqqında rəy vermək mümkün olmamışdır.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a) Birinci instansiya məhkəməsində icraat

8. İddiaçı cavabdehlər Cavabdeh 1-ə, Cavabdeh 2-yə və üçüncü şəxslər Sumqayıt şəhəri 4 saylı Notariat Ofisinə və AR Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 2 saylı Sumqayıt Ərazi İdarəsinə qarşı ümumi paylı mülkiyyətdə olan daşınmaz əmlakda payı almaq üçün üstünlük hüququnun tanınması tələbinə dair iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, cavabdehlər Cavabdeh 1 ilə Cavabdeh 2 arasında Sumqayıt şəhər 4 saylı notariat ofisində bağlanmış 4Ə-**** reyestr nömrəli, 03.07.2019-cu il tarixli alqı-satqı müqaviləsinin etibarsız hesab edilməsi, daşınmaz əmlakın dövlət reyestrində aparılmış 04.07.2019-cu il tarixli, ********** saylı qeydin və çıxarışın ləğv edilməsi, Ünvan 1 ünvanda yerləşən 36,4 kv.m. olan 1 otaqlı mənzildə Cavabdeh 1-ə məxsus ½ hissədə olan paya satın almaqda üstünlük hüququnun tanınması barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

9. İddiaçı tələbini belə əsaslandırmışdır ki, Ünvan 1 ünvanda yerləşən bir otaqlı 17 saylı mənzil 1993-cü ilin oktyabr ayının 7-dən 2006-cı ilin yanvar ayının 15-dək mərhum anası X1-in xüsusi mülkiyyətində olmuşdur. Qardaşı Cavabdeh 1 anasının yaşlı və xəstə olduğundan istifadə edərək 11 mart 2003-cü il tarixdə anası tərəfindən verilmiş ümumi etibarnamə əldə etmişdir. Anası 15 yanvar 2006-cı il tarixdə vəfat etmişdir. Buna baxmayaraq qardaşı Cavabdeh 1 anasının ölümü ilə bağlı qanuni qüvvəsini itirmiş etibarnamədən istifadə edərək 2006-cı ilin yanvar ayının 26-da mərhum anasına məxsus olan yuxarıda göstərilən bir otaqlı mənzili alqı-satqı müqaviləsi əsasında tələm-tələsik Cavabdeh 2-yə 14137,2 manata satmış və satışdan əldə etdiyi pulu mənimsəmişdir. Satılan mənzil miras əmlak hesab olunduğuna görə həmin mənzil 2008-ci ilin may ayından 2016-cı ilin yanvar ayınadək müxtəlif məhkəmə instansiyalarında gedən məhkəmə çəkişmələrinin predmeti olmuşdur. Nəhayət, anasının ölümündən 10 il keçdikdən sonra ədalət bərpa olunmuşdur. Sumqayıt Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 15.01.2016-cı il tarixli, 2(105)115/2016 saylı qətnaməsi ilə müəyyən edilmişdir ki, Ünvan 1 mənzilə dair X1-in adından Cavabdeh 1 ilə Cavabdeh 2 arasında bağlanmış 26 yanvar 2006-cı il tarixli, 4Ə/1-*** saylı alqı-satqı müqaviləsi etibarsız hesab edilmiş və həmin mənzilin alqı-satqısı üçün ödənilmiş 14137,20 manat məbləğində pul cavabdeh Cavabdeh 1-dən Cavabdeh 2-nin xeyrinə ödənilməlidir. Həmin mənzilin yaxşılaşdırılmasına çəkilmiş 26000 manat məbləğində vəsait Cavabdeh 1-dən və ondan bərabər hissədə tutularaq Cavabdeh 2-yə verilməlidir. Müqavilə üzrə tərəflər əvvəlki vəziyyətə qaytarılmalı, göstərilən məbləğdə pulun Cavabdeh 2-nin xeyrinə tutulması ilə daşınmaz əmlak Cavabdeh 1-ə və ona eyni vaxtda icra olunsun. Məhkəmə qətnaməsi qanuni qüvvəyə minmiş və icraya yönəlmişdir. Məhkəmə qətnaməsi icra olunan zaman cavabdehlər qətnamənin icrasına müxtəlif vasitələrə əl atmaqla maneələr yaradırlar. Qardaşı Cavabdeh 1 onun xaricdə olmağından istifadə edərək Cavabdeh 2 ilə sövdələşərək notariat ofisinə onun rəsmi qeydiyyatda olduğunu yaşayış yeri barədə yanlış məlumat verməklə və xəbərnamədə onun imzasını saxtalaşdırmaqla ümumi paylı mülkiyyətdə olan ½ payını həmin payın satın almaqda üstünlük hüququnu pozmaqla qanunsuz olaraq Cavabdeh 2-yə satmışdır. Bu cür qanunazidd hərəkətləri ilə hər iki cavabdeh qanuni qüvvəyə minmiş qətnamənin icrasına aşkar şəkildə əngəllər törətmişlər. Hesab edir ki, cavabdehlər arasında daşınmaz əmlakla bağlı bağlanmış alqı-satqı müqaviləsi etibarsız hesab edilməli və onun bağlanması ilə yaranmış nəticələr ləğv olunmalıdır. Azərbaycan Respublikasının Konstitusiyasının 13-cü maddəsinin 1-ci və 2-ci hissələri müəyyən edir ki, Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur. Konstitusiyasının 29-cu maddəsinin I hissəsinə əsasən hər kəsin mülkiyyət hüququ vardır. Həmin maddənin II hissəsinə əsasən mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ qanunla qorunur. Qeyd olunan maddənin III hissəsinə əsasən hər kəsin mülkiyyətində daşmar və daşmmaz əmlak ola bilər. Mülkiyyət hüququ mülkiyyətçinin təlcbaşma və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun

barəsində sərəncam vermək hüquqlarından ibarətdir. Yuxarıda göstərilən maddənin V hissəsinə əsasən dövlət vərəsəlik hüququna təminat verir. Qeyd edilənlərə əsasən iddia tələbinin təmin edilməsini məhkəmədən xahiş etmişdir.

10. Cavabdeh 1 məhkəməyə etiraz ünvanlayaraq bidirmişdir ki, iddiaçıya qarşı "ümumi paylı mülkiyyətdə olan daşınmaz əmlakda payı olmaq üçün üstünlük hüququnun tanınması" tələbinə dair iddia ərizəsi ilə Sumqayıt Şəhər Məhkəməsinə müraciət etmişdir. Həmin iddia ərizəsinə dair mülki iş məhkəmənin icraatındadır. Məhkəmənin nəzərinə çatdırır ki, iddia tələbi tamamilə əsassız və qanunsuzdur. İddiaçının irəli sürdüyü dəlillər həqiqətə uyğun deyildir. Belə ki, Cavabdeh 1 ilə onun arasında Cavabdeh 2 ilə yanlış məlumat əsasında imza çəkilməsi zamanı hər hansı saxtakarlığa yol verilməmişdir. Əlavə olaraq qeyd edir ki, iddiaçıya qarşı "ümumi paylı mülkiyyətdə olan daşınmaz əmlakda payı olmaq üçün üstünlük hüququnun tanınması" tələbinə dair iddia ərizəsi ilə məhkəməyə müraciət mümkün sayılmamalıdır. Çünki iddiaçı tərəfindən mübahisə olunan məsələ ilə bağlı iddia tələb etmək hüququ ötmüşdür. Qeyd edilən səbəblərdən dolayı iddianı qəbul etmir və hesab edir ki, iddianın rədd olunması barədə qətnamə qəbul edilməlidir. Cavabdeh 1 daha sonra bildirmişdir ki, o mənzilini 2006-cı ildə Cavabdeh 2-yə satmışdır. Artıq 13 ildən çoxdur ki, məhkəmə mübahisələri gedir. O, 2019-cu ildə Cavabdeh 2 ilə belə razılaşmışdır ki, o ona pul verməyəcək, o da ondan ev istəməyəcək. O, alqı-satqı prosesində şəxsən iştirak etməmişdir, yalnız etibarnamə vermişdir. Həmin alğı-satqıdan ona hər hansı pul məbləği çatmamışdır.

11. Sumqayıt Şəhər Məhkəməsinin 27 oktyabr 2022-ci il tarixli qərardadı ilə mülki iş üzrə məhkəmə-xətşünaslıq ekspertizası təyin edilmiş, 4/**** nömrəli, 21 dekabr 2022-ci il tarixli ekspert rəyində bildirilmişdir ki, ekspertizaya təqdim olunmuş mülki işin 7-ci vərəqəsində olan 10.12.2021-ci il tarixli AR-II ******* saylı etibarnamədə "İmza" qrafasındakı imzanın, "X" yazısının və SS********AZ saylı poçt göndərişinin təqdim edilməsi barədə xəbərnamədə (i.v.138) "Şəxsən verildi" qrafasındakı imzanın və "X" yazısının- tədqiqat prosesinin təsviri hissəsində göstərilən səbəblərə görə eyni şəxs tərəfindən icra olunub-olunmaması haqqında rəy vermək mümkün deyildir.

12. Məhkəmə iclasında iddiaçı İddiaçının etibarnamə üzrə səlahiyyətli nümayəndəsi, vəkil iddia ərizəsinə uyğun izahat verərək iddia tələbini müdafiə etdiyini bildirmiş, əlavə olaraq qeyd etmişdir ki, Ünvan 1 ünvanda yerləşən bir otaqlı 17 saylı mənzil 1993-cü ilin oktyabr ayının 7-dən 2006-cı ilin yanvar ayının 15-dək iddiaçının mərhum anası X1-in xüsusi mülkiyyətində olmuşdur. İddiaçının qardaşı Cavabdeh 1 ananın yaşlı və xəstə olmasından istifadə edərək, 11 mart 2003-cü il tarixdə anası tərəfindən verilmiş ümumi etibarnamə əldə etmişdir. İddiaçının qardaşı, yəni cavabdeh anasının ölümü ilə bağlı qanuni qüvvəsini itirmiş etibarnamədən istifadə edərək 2006-cı ilin yanvar ayının 26-da mənzili alqı-satqı müqaviləsi əsasında cavabdeh Cavabdeh 2-yə 14137,2 manata satmış və satışdan əldə etdiyi pulu mənimsəmişdir. Tərəflər arasında həmin mübahisəyə dair iş üzrə qəbul edilmiş Sumqayıt Apellyasiya Məhkəməsinin 2016-cı il tarixli qətnaməsi ilə həmin müqavilə etibarsız hesab edilmişdir. Daha sonra sözügedən mənzil üzərində iddiaçının və onun qardaşının hər birinin ½ hissədə payları müəyyən edilmiş, lakin qətnamə qalan hissədə icra olunmamışdır. Bu iş üzrə 6 dəfə icra məmuru təyin edilsə də, müvafiq icra sənədi icrasız qalmışdır. Müqavilə üzrə tərəflər əvvəlki vəziyyətə qaytarılmamışdır. Hətta onu da məhkəmənin nəzərinə çatdırır ki, indeksasiya və dəymiş zərərlə bağlı tərəflər arasında məhkəmə mübahisələri olmuş, lakin təmin olunmamışdır. Hesab edir ki, iddia tələbi tam əsaslıdır. İddia ərizəsində konkret olaraq işin halları qeyd olunub, iddia tələbi təmin olunmalıdır. Belə ki, mülkiyyətçinin mülkiyyət hüququna dövlət təminat verir. Paylı mülkiyyətdə payçılar üstünlük hüququna malikdirlər. Digər payçı müstəqil hərəkət etməməlidir. Mülki Məcəllənin 16-cı maddəsinin tələbləri nəzərə alınmalıdır. Tərəflər hüquqlarından sui-istifadə etməməlidirlər. Amma burada sui-istifadə olduğu açıq şəkildə görünür. Notariusa yanlış məlumat verildiyinə görə mübahisəli mənzilin satılacağı barədə bildiriş səhv ünvana göndərilib. Belə ki, iddiaçı 36-cı məhəllədə yaşamır, iddiaçı

ölkədən xaricdə yaşayır. Eyni zamanda iddiaçı Ünvan 2 ünvanında qeydiyyatdadır. Notarius isə bildirişi iddiaçının yaşamadığı mübahisəli ünvana göndərmişdir. Bundan başqa, bildiriş İddiaçı tərəfindən imzalanmamışdır. Bildiriş göndəriləndə iddiaçı ümumiyyətlə Azərbaycanda olmamışdır. Qanunun tələblərini pozmaqla bağlandığına görə həmin əqd etibarsızdır. Mənzilin alqı-satqısı barədə 2022-ci ildə İcra İdarəsində olarkən məlumatlı olmuşlar. Belə ki, Sumqayıt Apellyasiya Məhkəməsinin 2016-cı il tarixli qətnaməsinin icrası davam edirdi. Cavabdeh 2 möhlət istəmişdi. Sözügedən qətnamə bu gün də icra olunmayıb. Cavabdeh hər dəfə qətnamənin icrası ilə bağlı möhlət istəyir. İddiaçı burada olmadığına görə hər zaman o, iddiaçının nümayəndəsi kimi İcra İdarəsinə getmişdir.

13. Məhkəmə iclasında Cavabdeh 2 iddia ərizəsinə dair izahat verərək iddia tələbini qəbul etmədiyini bildirmiş və əlavə olaraq qeyd etmişdir ki, 2006-cı ildə 36-cı məhəllədə bir otaqlı mənzili Cavabdeh 1-dən almışdır. Sonradan maddi vəziyyəti yaxşı olmadığına görə yerli strukturun razılığı ilə mənzilin təyinatını dəyişərək qeyri-yaşayış sahəsinə çevirmişdir. Bir müddət sonra Cavabdeh 1-in qardaşı məsələni mübahisələndirməyə başlamışdır. Bununla əlaqədar 2016-cı ildə məhkəmə prosesləri olmuşdur. Bu proseslər 2006-cı ildən 2016-cı ilə kimi davam etmişdir. Mübahisəyə Ali Məhkəmədə, hətta Konstitusiya Məhkəməsində də baxılmışdır. Daha sonra Cavabdeh 1 mənzilin ½ hissəsini öz adına keçirmiş və məhz həmin hissəni ona satmışdır. Həmin vaxt iddiaçı tərəf burada deyildi, o, Amerikada idi. İddiaçıya məsələ ilə bağlı notariusdan məktub göndərilmişdi, iki ay, ya 51 gün müddət gözlənilməli idi. Bu müddətə də əməl edildikdən sonra mübahisəli mənzilin həmin ½ hissəsi ona satılmışdır. Alqı-satqıdan 3 il keçdikdən sonra iddiaçı məhkəməyə müraciət edib. Belə ki, 2019-cu ildə iş artıq İcra İdarəsində olanda İddiaçı Azərbaycanda idi və bu məsələdən məlumatlı idi. Məhz 3 ildən sonra iddiaçının iddia tələbi ilə məhkəməyə müraciət etməsinin səbəbi ona aydın deyil. Məhkəmənin nəzərinə çatdırır ki, o, mübahisəli mənzili 2006-cı ildə almış və həmin hissəni müvafiq qurumların sənədi əsasında qeyri-yaşayış sahəsinə çevirmişdir. Həmin vaxtdan və hal-hazırda da həmin qeyri-yaşayış sahəsi faktiki olaraq onun istifadəsindədir. Onu da məhkəmənin nəzərinə çatdırır ki, iddiaçının ümumiyyətlə belə bir iddia ilə məhkəməyə müraciət etmək hüququ yoxdur. Belə ki, iddiaçı heç bir qanuni əsas olmadan məhkəmə mübahisəsi getdiyi dövrdə, 2013-cü ildə adına çıxarış almışdır. Onlar həmin çıxarışı hələ ki, mübahisələndirməyiblər. 2019-cu ildə ½ hissə ilə bağlı ona da çıxarış təqdim olunmuşdur. Qarşı tərəf isə ona 14000 manat məbləğində pul ödədikdən sonra ½ hissə onlara verilə bilərdi və onlar bu barədə çıxarış ala bilərdi. Hesab edir ki, iddia tələbi tamamilə əsassızdır. Cavabdeh qeyd edilənlərə əsasən iddia tələbinin təmin edilməməsini məhkəmədən xahiş etmişdir.

14. Məhkəmə iclasında Cavabdeh 2-nin vəkili iddia ərizəsinə dair izahat verərək iddia tələbini qəbul etmədiyini bildirmiş və əlavə olaraq qeyd etmişdir ki, iddia tələbi tamamilə əsassızdır. Tərəflər arasında mübahisəli əmlaka dair alqı-satqı prosesi tam qanunauyğun həyata keçirilib. Mülki Məcəlləyə əsasən tərəf özü və ya etibarnamə verdiyi şəxs alqı-satqı prosesində iştirak edə bilər. Bu, onun hüququdur. Hesab edir ki, Cavabdeh 2 da tam qanunauyğun hərəkət etmişdir. Eyni zamanda notarial qaydada alqı-satqı prosesində iddiaçının üstünlük hüququ tanınmış, qanunla tələb edilən müddət gözlənilmişdir. Sənədlər, notaiusun bildirişi iddiaçının ünvanına göndərilmiş və ünvan üzrə bildiriş qəbul edilmişdir. Göründüyü kimi, bütün addımlar qanunvericiliyin tələblərinə əsasən həyata keçirilib. Həmçinin qeyd edir ki, iddiaçı 2013-cü ildə çıxarış almışdır. Hansı əsasla çıxarış verildiyini aydınlaşdırmaq lazımdır. Eyni zamanda qardaşlar-tərəflər Cavabdeh 2-yə 14000 manat verdikdən sonra onların mübahisəli əmlakda ½ hissədə payı müəyyən oluna bilərdi. Nümayəndə qeyd edilənlərə əsasən iddia tələbinin təmin edilməməsini məhkəmədən xahiş etmişdir.

15. Sumqayıt Şəhər Məhkəməsinin 2(060)-68/2023 nömrəli, 25 may 2023-cü il tarixli qətnaməsi ilə (hakim Günel Tanrıverdiyeva) iddia təmin edilmiş, cavabdehlər Cavabdeh 1 ilə Cavabdeh 2 arasında Sumqayıt şəhər 4 saylı notariat ofisində bağlanmış 4Ə-**** reyestr

nömrəli, 03.07.2019-cu il tarixli alqı-satqı müqaviləsi etibarsız hesab edilməsi, həmin mənzillə əlaqədar daşınmaz əmlakın dövlət reyestrində aparılmış 04.07.2019-cu il tarixli, ********** saylı qeyd və çıxarışın ləğv edilməsi, Ünvan 1 ünvanda yerləşən mənzilin Cavabdeh 2-yə məxsus ½ hissəsinin Cavabdeh 1-in mülkiyyətinə qaytarılması, Cavabdeh 1-dən 51500 (əlli bir min beş yüz) manat pul vəsaitinin tutularaq Cavabdeh 2-yə ödənilməsi, İddiaçının Ünvan 1 ünvanda yerləşən mənzildə Cavabdeh 1-ə məxsus ½ hissədə olan payı satın almaqda üstünlük hüququnun tanınması, iş üzrə təyin edilmiş məhkəmə xəttşünaslıq ekspertizasının xərci olaraq cavabdehlər Cavabdeh 1 və Cavabdeh 2-dən 124 (bir yüz iyirmi dörd) manat məbləğində pul vəsaitinin tutularaq Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertiza Mərkəzinin AZ41NABZ********** saylı bank hesabına köçürülməsi, Cavabdeh 1-dən və Cavabdeh 2-dən ödənilmiş 100 (bir yüz) manat dövlət rüsumunun tutularaq iddiaçıya ödənilməsi qət edilmişdir.

16. Birinci instansiya məhkəməsi gəldiyi nəticəni onunla əsaslandırmışdır ki, cavabdehlər Cavabdeh 1 ilə Cavabdeh 2 arasında Sumqayıt şəhər 4 saylı notariat ofisində bağlanmış 4Ə**** reyestr nömrəli, 03.07.2019-cu il tarixli alqı-satqı müqaviləsi qanunvericiliyin qeyd edilən tələbləri pozulmaqla bağlanmışdır. Belə ki, iş materiallarından görünür ki, Ünvan 1 ünvanında yerləşən mənzil Cavabdeh 1 ilə İddiaçının paylı mülkiyyətində olmuşdur. Cavabdeh 1 mənzilin ona məxsus olan 1/2 hissəsini 03.07.2019-cu ildə Cavabdeh 2-yə satmış, bu zaman İddiaçının həmin payı satın almaqda üstünlük hüququ pozulmuşdur.

17. İş materiallarından görünür ki, Sumqayıt şəhəri 4 saylı Notariat Ofisi İddiaçına 17 may 2019-cu il tarixdə **** nömrəli məktub ünvanlamışdır. Həmin məktubda İddiaçıya Cavabdeh 1-in ona məxsus olan ½ hissəni 51500 (əlli bir min beş yüz) manata satmaq istədiyi bildirilmiş, bununla əlaqədar olaraq həmin hissəni almaqda üstünlük hüququ olduğundan ona həmin hissənin alınması təklif olunmuş, daşınmaz əmlaka mülkiyyət hüququndakı satılan payı satın almaqdan imtina etdiyi və ya bildirişin verildiyi gündən 45 gün ərzində hər hansı bir məlumat vermədiyi təqdirdə satıcının öz payını istədiyi şəxsə satacağı bildirilmişdir. İşdə olan SS********AZ saylı xəbərnamədən görünür ki, həmin məktub 17.05.2019-cu il tarixdə "X" adlı şəxs tərəfindən imza etməklə qəbul edilmişdir. Məhkəmə hesab etmişdir ki, iş materiallarında olan SS********AZ saylı poçt göndərişinin təqdim edilməsi barədə xəbərnamə Ünvan 1 ünvanında yerləşən mənzilin satılması barədə paylı mülkiyyətçi İddiaçının mülki qanunvericilikdə nəzərdə tutulan qaydada məlumatlandırılmasını təsdiq edən mötəbər sübut kimi qəbul edilə bilməz. Belə ki, payın satıcısı öz payını üçüncü şəxsə satmaq niyyəti barəsində payın qiymətini və digər satış şərtlərini göstərməklə paylı mülkiyyətin qalan mülkiyyətçilərinə yazılı bildiriş verməlidir.

18. İş materiallarında olan notariat işinin məlumatlarından görünür ki, Sumqayıt şəhəri 4 saylı Notariat Ofisi mübahisəli mənzilin paylı mülkiyyətçisi iddiaçıya müvafiq məktubu 17.05.2019-cu il tarixdə Ünvan 1 ünvanına göndərmişdir.

19. İşdə olan şəxsin sərhədkeçmə məlumatları barədə elektron sistemdən edilmiş 07.10.2022-ci il tarixli çıxarışdan görünür ki, İddiaçının sonuncu dəfə dövlət sərhədindən kənara çıxışı 18.12.2018-ci il tarixdə, dövlət sərhədindən girişi isə 03.09.2021-ci il tarixdə qeydə alınmışdır.

20. Beləliklə, İddiaçı 18.12.2018-ci il tarixdən 03.09.2021-ci il tarixədək Azərbaycan Respublikasında olmamışdır. Bu səbəbdən məhkəmə hesab etmişdir ki, həmin məktubun iddiaçı tərəfindən şəxsən imza etməklə qəbul edilməsi mümkün ola bilməzdi. Məhkəmə onu da qeyd etmişdir ki, iddiaçının şəxsən həmin məktubu qəbul etmək imkanı olmasa da, məktubun iddiaçı ilə birlikdə yaşayan və ya digər yetkinlik yaşına çatmış ailə üzvlərindən birinə (onların razılığı ilə) təqdim edilməsi də mümkün deyildi. Belə ki, iş materiallarından görünür ki, İddiaçı Ünvan 2 ünvanında qeydiyyatdadır. Eyni zamanda tərəflərin məhkəmə iclasında verdiyi izahatlarından və işdə olan məhkəmə aktlarından da görünür ki, mübahisəli mənzil artıq uzun illərdir ki, Cavabdeh 2-nin istifadəsindədir və həmin mənzil qeyri-yaşayış sahəsi kimi istifadə

olunur.Bu səbəbdən İddiaçının və ya onun ailə üzvlərinin yaşamadığı, Cavabdeh 2-nin istifadəsində olan ünvana göndərilən sözügedən məktub paylı mülkiyyətçi olan iddiaçının qanunla müəyyən edilmiş qaydada məlumatlandırılması kimi qəbul edilə bilməz.

21. Məhkəmə öz mövqeyini Azərbaycan Respublikasının Konstitusiyasının 13,29-cu, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 6, 213.1, 213.2, 215.1, 215.3, 215.4, 215.5, 218.1, 218.2, 329.1, 337.1, 337.3, 337.4, 337.5, 354.1, 390.1, 394, 567-ci, Azərbaycan Respublikasının MPM-in 14.2, 77.1, 217.4-cü maddələrinə istinad edərək əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

22. Cavabdeh 2 apellyasiya şikayəti verərək, qətnamənin ləğv edilməsi, iddia tələbinin rədd edilməsi barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

23. Apellyasiya şikayətinin dəlilləri ondan ibarət olmuşdur ki, tərəflər arasında mübahisəli əmlaka dair alqı-satqı prosesi tam qanunauyğun həyata keçirilib. Mülki Məcəlləyə əsasən tərəf özü və ya etibarnamə verdiyi şəxs alqı-satqı prosesində iştirak edə bilər. Bu, onun hüququdur. Cavabdeh 2 də tam qanunauyğun hərəkət etmişdir. Eyni zamanda notarial qaydada alqı-satqı prosesində iddiaçının üstünlük hüququ tanınmış, qanunla tələb edilən müddət gözlənilmişdir. Sənədlər, notariusun bildirişi iddiaçının ünvanına göndərilmiş və ünvan üzrə bildiriş qəbul edilmişdir. Göründüyü kimi, bütün addımlar qanunvericiliyin tələblərinə əsasən həyata keçirilib. Həmçinin, iddiaçı 2013-cü ildə çıxarış almışdır. Hansı əsasla çıxarış verildiyini aydınlaşdırmaq lazımdır. Eyni zamanda qardaşlar - tərəflər cavabdeh 2-yə 14000 manat verdikdən sonra onların mübahisəli əmlakda ½ hissədə payı müəyyən oluna bilərdi.

24. Bildirilir ki, Cavabdeh 2 2006-cı ildə 36-cı məhəllədə bir otaqlı mənzili Cavabdeh 1-dən almışdır. Sonradan maddi vəziyyəti yaxşı olmadığına görə yerli strukturun razılığı ilə mənzilin təyinatını dəyişərək qeyri-yaşayış sahəsinə çevirmişdir. Bir müddət sonra Cavabdeh 1-in qardaşı məsələni mübahisələndirməyə başlamışdır. Bununla əlaqədar 2016-cı ildə məhkəmə prosesləri olmuşdur. Bu proseslər 2006-cı ildən 2016-cı ilə kimi davam etmişdir. Mübahisəyə Ali Məhkəmədə, hətta Konstitusiya Məhkəməsində də baxılmışdır. Daha sonra Cavabdeh 1 mənzilin ½ hissəsini öz adına keçirmiş və məhz həmin hissəni ona satmışdır. Həmin vaxt iddiaçı tərəf burada deyildi, o, Amerikada idi. İddiaçıya məsələ ilə bağlı notariusdan məktub göndərilmişdi, iki ay, ya 51 gün müddət gözlənilməli idi. Bu müddətə də əməl edildikdən sonra mübahisəli mənzilin həmin ½ hissəsi ona satılmışdır. Alqı-satqıdan 3 il keçdikdən sonra iddiaçı məhkəməyə müraciət edib. Belə ki, 2019-cu ildə iş artıq İcra İdarəsində olanda İddiaçı Azərbaycanda idi və bu məsələdən məlumatlı idi. Məhz 3 ildən sonra iddiaçının iddia tələbi ilə məhkəməyə müraciət etməsinin səbəbi ona aydın deyil. Məhkəmənin nəzərinə çatdırır ki, o, mübahisəli mənzili 2006-cı ildə almış və həmin hissəni müvafiq qurumların sənədi əsasında qeyri-yaşayış sahəsinə çevirmişdir. Həmin vaxtdan və hal-hazırda da həmin qeyri-yaşayış sahəsi faktiki olaraq onun istifadəsindədir. Onu da məhkəmənin nəzərinə çatdırır ki, iddiaçının ümumiyyətlə belə bir iddia ilə məhkəməyə müraciət etmək hüququ yoxdur. Belə ki, iddiaçı heç bir qanuni əsas olmadan məhkəmə mübahisəsi getdiyi dövrdə, 2013-cü ildə adına çıxarış almışdır. Onlar həmin çıxarışı hələ ki, mübahisələndirməyiblər. 2019-cu ildə ½ hissə ilə bağlı ona da çıxarış təqdim olunmuşdur. Qarşı tərəf isə ona 14000 manat məbləğində pul ödədikdən sonra ½ hissə onlara verilə bilərdi və onlar bu barədə çıxarış ala bilərdi. Məhkəmə işin faktiki hallarını nəzərə almamış, cavabdeh Cavabdeh 2-nin mülkiyyət hüququnu pozaraq qətnamə çıxarmışdır.

25. Sumqayıt Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının (bundan sonra – apellyasiya instansiyası məhkəməsi) 2(105)-1572/2023 nömrəli mülki iş üzrə 09 oktyabr 2023-cü il tarixli qətnaməsi ilə (hakimlər Zaur Məmmədov (sədrlik edən və məruzəçi), Almaz Süleymanova və Fuad Məmmədov) Cavabdeh 2 tərəfindən verilmiş apellyasiya şikayətinin təmin edilməməsi, birinci instansiya məhkəməsinin qətnaməsinin dəyişdirilmədən saxlanılması qət edilmişdir.

26. Apellyasiya instansiya məhkəməsinin mövqeyi əsaslandırarkən bildirmişdir ki, işdən göründüyü kimi, Cavabdeh 2 ilə Cavabdeh 1 (etibarnamə ilə X2) arasında bağlanmış 03 iyul

2019-cu il tarixli AN-I seriyalı ********* saylı alqı-satqı müqaviləsi ilə Cavabdeh 2 Ünvan 1 mənzili 51500 (əlli bir min beş yüz) manata Cavabdeh 1-dən almışdır.

27. İddiaçı hazırda həmin müqaviləni mübahisələndirərək bildirir ki, onun Mülki Məcəllənin 218.1-ci maddəsinə müvafiq olaraq mənzili almaqda üstünlük hüququ olduğu halda, xaricdə olmağından istifadə edərək Cavabdeh 1 digər Cavabdeh 2 ilə sövdələşərək notariat ofisinə onun rəsmi qeydiyyatda olduğu yaşayış yeri barədə yanlış məlumat vermiş və xəbərnamədə onun imzasını saxtalaşdırmaqla ümumi paylı mülkiyyətdə olan ½ payını qanunsuz olaraq Cavabdeh 2-yə satmışdır. İddiaçı hesab edir ki, cavabdehlər arasında daşınmaz əmlakla bağlı bağlanmış alqı-satqı müqaviləsi etibarsız hesab edilməli və onun bağlanması ilə yaranmış nəticələr ləğv olunmalıdır.

28. Məhkəmə kollegiyası yaranmış mübahisə ilə bağlı aşağıdakıları qeyd etmişdir:

29. İş materiallarında olan sənədlərlə müəyyən olunur ki, iddiaçı və cavabdehlər arasında mübahisəli mənzillə bağlı əvvəllər də məhkəmə mübahisələri olmuş, Sumqayıt Apellyasiya Məhkəməsinin 2(105)-115/2016 saylı, 15.01.2016-cı il tarixli qətnaməsi ilə X1-in adından Cavabdeh 1 ilə Cavabdeh 2 arasında bağlanmış 26 yanvar 2006-cı il tarixli, 4Ə/1-34 saylı alqı-satqı müqaviləsi etibarsız hesab edildiyindən Ünvan 1 ünvanda yerləşən mənzilin alqı-satqısı üçün ödənilmiş 14137,20 manat pulun Cavabdeh 1-dən Cavabdeh 2-nin xeyrinə tutulması, həmin mənzilin yaxşılaşdırılmasına çəkilmiş 26000 manat məbləğində vəsaitin Cavabdeh 1-dən və İddiaçıdan bərabər hissədə alınaraq, Cavabdeh 2-yə ödənilməsi, müqavilə üzrə tərəflərin əvvəlki vəziyyətə qaytarılması, göstərilən məbləğdə pulun Cavabdeh 2-nin xeyrinə tutulması ilə qeyri-yaşayış sahəsinin Cavabdeh 1-ə və İddiaçıya qaytarılmasının eyni vaxtda icra olunması qət edilmişdir.

30. Sumqayıt şəhəri 4 saylı Notariat Ofisi İddiaçına 17 may 2019-cu il tarixdə **** nömrəli məktub ünvanlamışdır. Həmin məktubda İddiaçı Cavabdeh 1-in ona məxsus olan 1/2 hissəni 51500 (əlli bir min beş yüz) manata satmaq istədiyi bildirilmiş, bununla əlaqədar olaraq həmin hissəni almaqda üstünlük hüququ olduğundan ona həmin hissənin alınması təklif olunmuş, daşınmaz əmlaka mülkiyyət hüququndakı satılan payı satın almaqdan imtina etdiyi və ya bildirişin verildiyi gündən 45 gün ərzində hər hansı bir məlumat vermədiyi təqdirdə satıcının öz payını istədiyi şəxsə satacağı bildirilmişdir. İşdə olan SS********AZ saylı xəbərnamədən görünür ki, həmin məktub 17.05.2019-cu il tarixdə "X" adlı şəxs tərəfindən imza etməklə qəbul edilmişdir.

31. Məhkəmə kollegiyası apellyasiya şikayətinin dəlillərinə qiymət verərək hesab etmişdir ki, həmin dəlillər əsassızdır.

32. İş materiallarında olan SS********AZ saylı poçt göndərişinin təqdim edilməsi barədə xəbərnamə Ünvan 1 ünvanında yerləşən mənzilin satılması barədə paylı mülkiyyətçi İddiaçının mülki qanunvericilikdə nəzərdə tutulan qaydada məlumatlandırılmasını təsdiq edən mötəbər sübut kimi qəbul edilə bilməz. Belə ki, payın satıcısı öz payını üçüncü şəxsə satmaq niyyəti barəsində payın qiymətini və digər satış şərtlərini göstərməklə paylı mülkiyyətin qalan mülkiyyətçilərinə yazılı bildiriş verməlidir.

33. İş materiallarında olan notariat işinin məlumatlarından görünür ki, Sumqayıt şəhəri 4 saylı Notariat Ofisi mübahisəli mənzilin paylı mülkiyyətçisi İddiaçıya müvafiq məktubu 17.05.2019-cu il tarixdə Ünvan 1 ünvanına göndərmişdir.

34. İşdə olan şəxsin sərhədkeçmə məlumatları barədə elektron məhkəmə informasiya sistemindən əldə edilmiş 07.10.2022-ci il tarixli çıxarışdan görünür ki, İddiaçının sonuncu dəfə dövlət sərhədindən kənara çıxışı 18.12.2018-ci il tarixdə, dövlət sərhədindən girişi isə 03.09.2021-ci il tarixdə qeydə alınmışdır.

35. Beləliklə, İddiaçı 18.12.2018-ci il tarixdən 03.09.2021-ci il tarixədək Azərbaycan Respublikasında olmamışdır. Kollegiya hesab etmişdir ki, həmin məktubun iddiaçı tərəfindən şəxsən imza etməklə qəbul edilməsi mümkün ola bilməzdi. Kollegiya həmçinin qeyd etmişdir ki, iddiaçının şəxsən həmin məktubu qəbul etmək imkanı olmasa da, məktubun iddiaçı ilə

birlikdə yaşayan və ya digər yetkinlik yaşına çatmış ailə üzvlərindən birinə (onların razılığı ilə) təqdim edilməsi də mümkün deyildi. Belə ki, iş materiallarından görünür ki, İddiaçı Ünvan 2 ünvanında qeydiyyatdadır. Eyni zamanda tərəflərin məhkəmə iclasında verdiyi izahatlarından və işdə olan məhkəmə aktlarından görünür ki, mübahisəli mənzil artıq uzun illərdir ki, cavabdeh Cavabdeh 2-nin istifadəsindədir və həmin mənzil qeyri-yaşayış sahəsi kimi istifadə olunur. Bu səbəbdən İddiaçınun və ya onun ailə üzvlərinin yaşamadığı, Cavabdeh 2-nin istifadəsində olan ünvana göndərilən məktub paylı mülkiyyətçi olan iddiaçının qanunla müəyyən edilmiş qaydada məlumatlandırılması kimi qəbul edilə bilməz.

36. Məhkəmə kollegiyası həmçinin cavabdehin iddiaçının məhkəməyə müraciət üçün müddəti ötürməsi barədə apellyasiya şikayətinin dəlillərini də əsassız hesab etmişdir. Belə ki, cavabdeh iddia müddətinin tətbiqi barədə ərizə verməmiş, birinci instansiya məhkəməsində iddiaya etirazında və apellyasiya şikayətində iddiaçının məhkəməyə müraciət etmək üçün hansı müddəti ötürdüyünü də qeyd etməmişdir.

37. Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 354.1-ci maddəsinə əsasən əhəmiyyətsiz əqdin etibarsızlığı nəticələrinin tətbiqi haqqında iddia onun icrasına başlanıldığı gündən bir il ərzində irəli sürülə bilər.

38. İşdən görünür ki, birinci instansiya məhkəməsi iddiaçının əqdin etibarsızlığı ilə bağlı 1 illik kəsici müddəti ötürüb-ötürmədiyini araşdırmaq məqsədilə Sumqayıt Apellyasiya Məhkəməsinin 2(105)-115/2016 saylı, 15.01.2016-cı il tarixli icra sənədi üzrə icra işinin məhkəməyə təqdim edilməsi üçün Sumqayıt şəhər İcra İdarəsinə sorğu göndərmiş, məhkəməyə təqdim edilən icra işinin materiallarından aydın olmuşdur ki, Cavabdeh 1 29.12.2021-ci il tarixli ərizə ilə Sumqayıt şəhər İcra İdarəsinə müraciət edərək, onunla Cavabdeh 2 arasında 2019cu il tarixdə alqı-satqı müqaviləsi bağlandığını və payının həmin şəxsə satıldığını bildirərək iş üzrə ona aid hissədə işə xitam verilməsini xahiş etmişdir. Cavabdeh 1 tərəfindən sözügedən ərizənin verilməsinədək icra işinin materiallarında mübahisəli alqı-satqı müqaviləsi haqqında hər hansı məlumat yoxdur.

39. İddiaçı 03.07.2019-cu il tarixli alqı-satqı müqaviləsinin mövcudluğundan Sumqayıt Apellyasiya Məhkəməsinin 2(105)-115/2016 saylı, 15.01.2016-cı il tarixli icra sənədinin icrası mərhələsində xəbər tutduqlarını bildirmişdir.

40. Cavabdeh 2 isə iddiaçının 2019-cu ildən sözügedən alqı-satqı müqaviləsindən xəbərdar olduğunu bildirsə də, bu barədə məhkəməyə hər hansı sübut təqdim etməmişdir.

41. Məhkəmə kollegiyası hesab etmişdir ki, iddiaçının 05.07.2022-ci il tarixdə məhkəməyə müraciət etdiyi nəzərə alınsa, alqı-satqı müqaviləsinin etibarsızlığı barədə iddia qaldırılması üçün mülki qanunvericiliklə müəyyən edilmiş 1 illik müddət ötməmişdir.

42. İşin qeyd edilən hallarına və işdə olan sübutlara qiymət verərək kollegiya qeyd etmişdir ki, Ünvan 1 ünvanında yerləşən mənzil Cavabdeh 1 ilə İddiaçının paylı mülkiyyətində olmuş, Cavabdeh 1 mənzilin ona məxsus olan 1/2 hissəsini 03.07.2019-cu ildə Cavabdeh 2-yə satmış, bu zaman İddiaçının həmin payı satın almaqda üstünlük hüququ pozulmuşdur. Cavabdehlər Cavabdeh 1 ilə Cavabdeh 2 arasında Sumqayıt şəhər 4 saylı notariat ofisində bağlanmış 4Ə**** reyestr nömrəli, 03.07.2019-cu il tarixli alqı-satqı müqaviləsi qanunvericiliyin tələbləri pozulmaqla bağlanmışdır.

43. Beləliklə, məhkəmə kollegiyası iş üzrə təqdim olunmuş sübutları məcmu halında qiymətləndirərək hesab etmişdir ki, apelyasiya şikayəti təmin edilməməlidir.

44. Məhkəmə öz mövqeyini Azərbaycan Respublikasının Konstitusiyasının 13-cü maddəsinə, 43-cü maddəsinin 1-ci hissəsinə, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 6.1.5, 213.1, 213.2, 215.1, 215.2, 215.3, 215.4, 215.5, 215.6, 218.1, 218.2, 329.1, 337.1, 337.3, 337.4, 337.5, 354.1, 390.1, 394, 567-ci, Azərbaycan Respublikasının MPM-in 14.2, 77.1-ci maddələrinə istinad edərək əsaslandırmışdır.

Kassasiya şikayətinin və ona qarşı etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

45. Cavabdeh 2 (vəkil) kassasiya şikayəti verərək, apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv edərək, iddianın rədd edilməsi barədə yeni qərar qəbul edilməsini və ya mülki işin yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilməsi barədə qərar qəbul edilməsini xahiş etmişdir.

46. Şikayət onunla əsaslandırılmışdır ki, mənzil alqı-satqı müqaviləsi əsasında cavabdehin mülkiyyətinə keçmişdir. Heç bir qanun pozuntusu olmadan alqı-satqı müqaviləsinin hüquqi nəticəsinə güvənərək həmin müqavilə bağlanılmışdır, lakin məhkəmə bütün bu halları nəzərə almadan qanunsuz qətnamə çıxartmışdır.

47. Bildirilmişdir ki, tərəflər arasında mübahisəli əmlaka dair alqı-satqı prosesi tam qanunauyğun həyata keçirilib. Mülki Məcəlləyə əsasən tərəf özü və ya etibarnamə verdiyi şəxs alqı-satqı prosesində iştirak edə bilər. Bu, onun hüququdur. Hesab edir ki, Cavabdeh 2 də tam qanunauyğun hərəkət etmişdir. Eyni zamanda notarial qaydada alqı-satqı prosesində iddiaçının üstünlük hüququ tanınmış, qanunla tələb edilən müddət gözlənilmişdir. Sənədlər, notaiusun bildirişi iddiaçının ünvanına göndərilmiş və ünvan üzrə bildiriş qəbul edilmişdir. Göründüyü kimi, bütün addımlar qanunvericiliyin tələblərinə əsasən həyata keçirilib. Həmçinin qeyd edirər ki, iddiaçı 2013-cü ildə çıxarış almışdır. Hansı əsasla çıxarış verildiyini aydınlaşdırmaq əvəzinə əqdi etibarsızlığına əsaslandırılmışdır

48. Kassasiya şikayətində qeyd olunur ki, qətnamə iş üzrə müəyyən edilmiş həqiqi hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır. Məhkəmə (hakim) öz qətnaməsini yalnız məhkəmə iclasında tədqiq olunmuş sübutlarla əsaslandırır. Məhkəmə qətnaməsi qanunvericiliyi səhv tətbiq eləməklə və lazımi əsaslandırılmadan qəbul edilmiş, işin faktiki halları, iddiaçı tərəfindən lazımi sübutları tələb etməmiş, prosesual hüquq normasının tələbləri kobud şəkildə pozulmaqla iddiaçı tərəfindən heç bir əsaslı sübut təqdim edilmədiyi halda iddia tələbi təmin edilmişdir.

49. Bildirilir ki, məhkəmə çəkişmə prinsipinə əməl etməmişdir. Heç bir araşdırma aparmamış, düzgün nəticəyə gəlməmişdir. Belə ki, iddiaçının 2013-cü il tarixdə əldə etdiyi çıxarışı hansı yollarla əldə edilməsi məhkəmə tərəfindən mübahisələndirilməmişdir. Qeyd olunur ki, qanunu səhv tətbiq etməklə əsassız qətnamələr qəbul edilmişdir.

50. Alqı-satqıdan 3 il keçdikdən sonra iddiaçı məhkəməyə müraciət edib. Belə ki, 2019-cu ildə iş artıq İcra İdarəsində olanda İddiaçı Azərbaycanda idi və bu məsələdən məlumatlı idi. Məhz 3 ildən sonra iddiaçının iddia tələbi ilə məhkəməyə müraciət etməsinin səbəbi ona aydın deyil. Məhkəmənin nəzərinə çatdırır ki, o, mübahisəli mənzili 2006-cı ildə almış və həmin hissəni müvafiq qurumların sənədi əsasında qeyri-yaşayış sahəsinə çevirmişdir. Həmin vaxtdan və hal-hazırda da həmin qeyri-yaşayış sahəsi faktiki olaraq onun istifadəsindədir. Onu da məhkəmənin nəzərinə çatdırırlar ki, iddiaçının ümumiyyətlə belə bir iddia ilə məhkəməyə müraciət etmək hüququ yoxdur. iddiaçı heç bir qanuni əsas olmadan məhkəmə mübahisəsi getdiyi dövrdə, 2013-cü ildə adına çıxarış almışdır. Onlar həmin çıxarışı hələ ki, mübahisələn-dirməyiblər. 2019-cu ildə ½ hissə ilə bağlı ona da çıxarış təqdim olunmuşdur. Qarşı tərəf isə ona 14000 manat məbləğində pul ödədikdən sonra ½ hissə onlara verilə bilərdi və onlar bu barədə çıxarış ala bilərdi. Hesab edir ki, məhkəmələr işi dərindən araşdırmadan qanunsuz və əsassız qətnamələr çıxatmışlar

51. Kassator şikayətini Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 362.1, 362.2, 389.1, Azərbaycan Respublikasının MPM-in 9.1, 14.1, 217.1, 217.3, 217.4-cü maddələrinə istinadla əsaslandırmışdır.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

52. Kassasiya şikayətinə qarşı etiraz daxil olmamışdır.

Tətbiq edilən hüquq

Azərbaycan Respublikasının Mülki Məcəlləsi

53. Maddə 152.5. Mülkiyyətçi qanunda və ya müqavilədə müəyyən edilən məhdudiyyətlər nəzərə alınmaqla müəyyənləşdirilmiş hədlərdə əmlaka (əşyaya) sərbəst surətdə sahib ola bilər, ondan istifadə edə bilər və ona dair sərəncam verə bilər, həmin əmlaka başqa şəxslərin sahibliyinə yol verməyə bilər, ona mənsub əmlak barəsində öz mülahizəsi ilə istənilən hərəkətləri edə bilər, bir şərtlə ki, həmin hərəkətlər qonşuların və ya üçüncü şəxslərin hüquqlarını pozmasın, yaxud hüquqdan sui-istifadə olmasın

54. Maddə 213.1 İki və ya bir neçə şəxsin mülkiyyətində olan əşya onlara ümumi mülkiyyət hüququ əsasında mənsubdur.

55. Maddə 213.2. Əşya mülkiyyət hüququnda mülkiyyətçilərin hər birinin payı müəyyənləşdirilməklə (paylı mülkiyyət) və ya belə paylar müəyyənləşdirilmədən (birgə mülkiyyət) ümumi mülkiyyətdə ola bilər.

56. Maddə 213.3. Əşyaya ümumi mülkiyyət, qanunvericilikdə həmin əşyaya birgə mülkiyyət yaranmasının nəzərdə tutulduğu hallar istisna olmaqla, paylı mülkiyyətdir.

57. Maddə 215.1. Paylı mülkiyyətdə olan əşyaya sahiblik və ondan istifadə onun bütün mülkiyyətçilərinin razılaşması əsasında, razılaşma əldə edilmədikdə isə məhkəmənin müəyyənləşdirdiyi qaydada həyata keçirilir.

58. Maddə 215.2 Paylı mülkiyyətin mülkiyyətçisi ümumi əşyanın öz payına uyğun hissəsinin onun sahibliyinə və istifadəsinə verilməsi hüququna malikdir, bu mümkün olmadıqda isə onun payına düşən əşyaya sahiblik və ondan istifadə edən digər mülkiyyətçilərdən müvafiq əvəz ödəməyi tələb edə bilər.

59. Maddə 215.3. Paylı ümumi mülkiyyətin mülkiyyətçiləri ümumi mülkiyyətdə olan əşyaya sahiblik və ondan istifadə qaydası haqqında razılığa gələ bilərlər. Lakin onlar mülkiyyətçilərdən hər birinə mənsub olan aşağıdakı səlahiyyətləri ləğv edə və ya məhdudlaşdıra bilməzlər:

60. Maddə 215.3.1. əşyanın dəyərini və işlənməyə yararlığını saxlamaq üçün ondan istifadə üzrə hərəkətlərin yerinə yetirilməsini tələb etmək, belə hərəkətlər yerinə yetirilmədikdə isə onların yerinə yetirilməsi barədə məhkəmənin qərar çıxarmasını tələb etmək səlahiyyəti;

61. Maddə 215.3.2. əşyaya dəymək qorxusu olan və ya dəyə biləcək zərərin qarşısını almaq üçün dərhal görülməli olan tədbirləri bütün şərikli sahiblər hesabına müstəqil həyata keçirmək səlahiyyəti.

62. Maddə 215.4. Hər bir mülkiyyətçi qalan mülkiyyətçilərin hüquqları ilə bir araya sığan dərəcədə əşyaya sahiblik, ondan istifadə və ona dair sərəncam vermək ixtiyarına malikdir. Əşyanı özgəninkiləşdirmək və ya yüklü etmək, habelə onun təyinatını dəyişmək üçün bütün iştirakçıların razılığı tələb olunur, bu şərtlə ki, onlar yekdilliklə ayrı qayda barədə razılaşmasınlar. Əgər ümumi mülkiyyətdəki paylar üzrə ipotekalar və ya torpaq sahələrinə yüklülüklər varsa, daha iştirakçılar əşyanın özünü həmin hüquqlarla yüklü edə bilməzlər.

63. Maddə 215.5. Paylı mülkiyyətdə olan əşyaya dair sərəncam verilməsi əşyanın bütün mülkiyyətçilərinin razılaşması əsasında həyata keçirilir.

64. Maddə 215.6. Paylı mülkiyyətin mülkiyyətçisi öz payını sata, bağışlaya, vəsiyyət edə, girov qoya bilər və ya ona dair başqa sərəncam verə bilər; onu əvəzi ödənilməklə özgəninkiləşdirdikdə bu Məcəllədə nəzərdə tutulmuş qaydalara əməl etməlidir.

65. Maddə 218.1. Ümumi paylı mülkiyyət hüququndakı pay üçüncü şəxsə satılarkən paylı mülkiyyətin qalan mülkiyyətçiləri satılan payı, açıq hərracdan satış halı istisna olmaqla, satıldığı qiymətə və digər bərabər şərtlər əsasında almaqda üstünlük hüququna malikdirlər. Ümumi mülkiyyət hüququndakı payın satışı üçün açıq hərraca paylı mülkiyyətin bütün mülkiyyətçiləri razılıq vermədikdə belə hərrac bu Məcəllənin 224.2-ci maddəsində nəzərdə tutulan hallarda keçirilə bilər.

66. Maddə 218.2. Payın satıcısı öz payını üçüncü şəxsə satmaq niyyəti barəsində payın qiymətini və digər satış şərtlərini göstərməklə paylı mülkiyyətin qalan mülkiyyətçilərinə yazılı bildiriş verməlidir. Əgər paylı mülkiyyətin qalan mülkiyyətçiləri daşınmaz əmlaka mülkiyyət hüququndakı satılan payı satın almaqdan imtina edərlərsə və ya bildirişin verildiyi gündən 45

gün ərzində onu əldə etməzlərsə, daşınar əmlaka mülkiyyət hüququndakı payı isə 15 gün ərzində əldə etməzlərsə, satıcı öz payını istədiyi şəxsə sata bilər.

67. Maddə 218.3. Pay satın almaqda üstünlük hüququ pozulmaqla satıldıqda paylı mülkiyyətin hər hansı digər iştirakçısının üç ay ərzində hüququ vardır ki, alıcının hüquq və vəzifələrinin ona keçirilməsini məhkəmə qaydasında tələb etsin.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi

68. Maddə 14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

69. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

70. Maddə 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

71. Maddə 217.2. Qətnamə mübahisəli hüquq münasibətinin yarandığı zaman qüvvədə olan maddi hüquq normalarına və işin baxılması zamanı qüvvədə olan prosessual hüquq normalarına uyğun çıxarılmalıdır.

72. Maddə 407.2. Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir.

73. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

74. Maddə 418.1. Maddi və prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması, o cümlədən maddi və prosessual hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması apellyasiya instansiyası məhkəməsinin qətnamə və qərardadının ləğv edilməsi üçün əsasdır.

Kassasiya baxışının hədləri

75. Qanunun tələbinə görə, kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

76. Hazırkı kassasiya şikayətində qətnamə tam mübahisələndirildiyindən apellyasiya instansiyası məhkəməsinin aktı bütövlükdə yoxlanılır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

77. İşin mübahisəsiz halıdır ki, Ünvan 1 mənzil xüsusi mülkiyyət hüququ üzrə 1/2 hissədə İddiaçının adına 222 nömrəli reyestr kitabının 6 nömrəli vərəqində ********** qeydiyyat nömrəsi ilə 01.10.2013-cü il tarixdə, 1/2 hissədə Cavabdeh 1-in adına 222 nömrəli reyestr kitabının 6 nömrəli vərəqində ******* qeydiyyat nömrəsi ilə 06.05.2019-cu il tarixdə qeydə alınmış, Cavabdeh 1 öz payını notariat kontorunda təsdiqlənmiş 03 iyul 2019-cu il tarixli alqı-satqı müqaviləsinə əsasən Cavabdeh 2-yə satmışdır.

78. Mübahisəli mənzilin digər ½ hissəsinin mülkiyyətçisi İddiaçı məhkəməyə iddia ərizəsi verərək pay almaqda üstünlük hüququ pozulmaqla mənzilin ½ hissəsinin Cavabdeh 2-yə satıldığını bildirərək cavabdehlər Cavabdeh 1 ilə Cavabdeh 2 arasında Sumqayıt şəhər 4 saylı notariat ofisində bağlanmış 4Ə-**** reyestr nömrəli, 03.07.2019-cu il tarixli alqı-satqı müqaviləsinin etibarsız hesab edilməsi, daşınmaz əmlakın dövlət reyestrində aparılmış 04.07.2019-cu il tarixli, ********** saylı qeydin və çıxarışın ləğv edilməsi, Ünvan 1 ünvanda yerləşən 36,4 kv.m. olan 1 otaqlı mənzildə Cavabdeh 1-ə məxsus ½ hissədə olan paya satın

almaqda üstünlük hüququnun tanınması barədə qətnamə çıxarılmasını xahiş etmiş, məhkəmələr tərəfindən yuxarıda göstərilmiş qətnamələr qəbul edilmişdir.

79. Məhkəmə kollegiyası hesab edir ki, məhkəmələrin iş üzrə gəldiyi nəticə qeyri-müəyyənliyə səbəb olur. Belə ki, mənzilin ½ hissəsinin mülkiyyətçisi olan iddiaçının Cavabdeh 1-in payının dəyəri kimi təklif edəcəyi pul məbləği ilə razılaşacağını və cavabdehə verərək ondan payını alacağını əminliklə demək mümkün deyil.Bu isə Cavabdeh 1-in mülkiyyətinə mütənasib olmayan müdaxilə ehtimalını yaradır.

80. Məhkəmə kollegiyası belə hesab edir ki, apellyasiya instansiyası məhkəməsi tərəfindən iddiaçının yuxarıda göstərilən predmetli iddianı qaldırmağa subyektiv hüququnun olması kifayət qədər araşdırılıb əsaslandırılmamışdır. Məhkəmələr tərəfindən iddiaçının satın almaqda üstünlük hüququnun pozulması müəyyən edilərək iddia təmin edilmişdir.Nəzərə alınmalıdır ki, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 218.3-cü maddəsinə əsasən pay satın almaqda üstünlük hüququ pozulmaqla satıldıqda paylı mülkiyyətin hər hansı digər iştirakçısının üç ay ərzində hüququ vardır ki, alıcının hüquq və vəzifələrinin ona keçirilməsini məhkəmə qaydasında tələb etsin. Göründüyü kimi, pay satın almaqda üstünlük hüququ pozulmaqla satıldıqda hüququnun pozulduğunu iddia edən şəxsin qaldıracağı iddiasının predmeti Mülki Məcəllənin göstərilən norması ilə müəyyənləşdirilmişdir.

81. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun “M.Bağırovun şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki işlər üzrə məhkəmə kollegiyasının 04 may 2007-ci il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair” 30 iyul 2008-ci il tarixli qərarında qeyd edilmişdir ki, mülki mübahisənin qanuni həlli üçün işə baxan məhkəmə, o cümlədən tam hüquqlu məhkəmə kimi apellyasiya instansiyası məhkəməsi ilk növbədə iddia qaldırmış şəxsin müvafiq subyektiv hüquqa malik olub-olmamasını araşdırmalıdır.

82. Subyektiv mənada hüquq normativ-hüquqi aktlarla müəyyən olunmuş zahiri azadlığı ifadə edir. Şəxsiyyətin davranışının bu və ya digər üsulunu seçməklə şüurlu olaraq məqsədləri müəyyən etmək və onların istiqamətində hərəkət etmək imkanı belə azadlığın daxili cəhətidir. Bu cəhət hüquqi tənzimlənmənin əhatəsinə düşmür. Həmin azadlığın ictimai münasibətlərdə öz məqsədini ifadə etmək imkanı kimi qəbul olunan xarici cəhəti isə mühüm əhəmiyyət kəsb edir.

83. İkinci (xarici) cəhət hüquqi ixtiyar kimi təzahürü ehtiva edir. Belə ki, subyektiv hüquq üç elementin məcmusu kimi qiymətləndirilə bilər: öz hərəkətlərinə hüquqi ixtiyar; başqa (borclu) şəxslərdən tələb etmək hüququ; müdafiə hüququ. Subyektiv hüququn ikinci və üçüncü elementləri birinci elementin mövcudluğu ilə bağlıdır. Birinci element isə bəzən yalnız qanunla müəyyən olunmuş qaydaya riayət edilməklə yaranır. Belə qaydalara riayət edilmədən subyektiv hüququn digər elementlərinin, yəni başqa şəxslərdən tələb etmək hüququnun və müdafiə hüququnun yaranmasından, eləcə də həyata keçirilməsindən söhbət gedə bilməz.

84. Yuxarıda şərh edilənlərə əsasən də cavabdeh Cavabdeh 2 tərəfindən verilmiş kassasiya şikayəti təmin edilməli, Sumqayıt Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 9 oktyabr 2023-cü il tarixli, 2(105)-1572/2023 nömrəli qətnaməsi ləğv edilməli, iş yenidən baxılmaq üçün Sumqayıt Apellyasiya Məhkəməsinə göndərilməlidir.

85. Apellyasiya instansiyası məhkəməsi tərəfindən işə yenidən baxılarkən şərh edilən nöqsanlar aradan qaldırılmaqla maddi və prosessual hüquq normalarının tələbinə uyğun qanuni və əsaslı məhkəmə aktı qəbul edilməlidir.

86. Göstərilənlərə əsasən və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 416, 417 və 419-cu maddələrini rəhbər tutub məhkəmə kollegiyası

Qərara aldı:

Cavabdeh 2 tərəfindən verilmiş kassasiya şikayəti təmin edilsin.

Sumqayıt Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 9 oktyabr 2023-cü il tarixli, 2(105)-1572/2023 nömrəli qətnaməsi ləğv edilsin.

İş yenidən baxılmaq üçün Sumqayıt Apellyasiya Məhkəməsinə göndərilsin.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

8. 2(102)-1323/2024 nömrəli, 2024-cü il 20 may tarixli qərar - İpoteka predmeti olan əşyaya mülkiyyət hüququna xitam verildikdə və ipoteka qoyana başqa əşya və (və ya) müvafiq əvəz verildikdə ipoteka saxlayanın üstün təminat almaq hüququ.

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu:

İpoteka predmeti olan əşyaya mülkiyyət hüququna xitam verildikdə və ipoteka qoyana başqa əşya və (və ya) müvafiq əvəz verildikdə ipoteka saxlayanın üstün təminat almaq hüququ.

İşə mahiyyəti üzrə baxan məhkəmələr müəyyən etmişlər ki, iddiaçı bankla borcalan arasında bağlanmış kredit müqaviləsi üzrə iddiaçının tələb hüququnun təminatı kimi borcalana məxsus olan qeyri-yaşayış sahəsi ipoteka ilə yüklü edilmişdir. Bununla belə, ipoteka qoyan, tikinti şirkəti (MMC) ilə bağladığı barışıq sazişi əsasında həmin sahəni MMC-nin mülkiyyətinə verməyi, MMC isə inşa etdiyi binada bir neçə mənzili və qeyri-yaşayış sahəsini, eləcə də pul vəsaitini ipoteka qoyanın mülkiyyətinə verməyi öhdəsinə götürmüşdür.

İddiaçı bank kredit müqaviləsi üzrə borcun girov obyektinin əvəzində ipoteka qoyana verilmiş əmlaka yönəldilməsini xahiş etmişdir.

Bu tələbi rədd edən birinci instansiya məhkəməsi ipoteka predmeti olan qeyri-yaşayış sahəsinin məhv edildiyinə əsaslanaraq bildirmişdir ki, ipoteka predmeti məhv olduqda ipoteka müqaviləsinə xitam verilir.

Birinci instansiya məhkəməsi ilə razılaşan apellyasiya məhkəməsi qeyd etmişdir ki, borcun ipoteka predmetinin əvəzinə verilmiş əmlaka yönəldilməsi tələbi baxımından Mülki Məcəllənin 269.10-cu maddəsi əhəmiyyət kəsb etmir.

Kassasiya instansiya məhkəməsinin mövqeyi:

Hansı əsasla yaranmasından asılı olmayaraq, mülki dövriyyədə girov və ya ipoteka saxlayanın məhdud əşya hüququnun təmin edilməsi və qorunması üçün qanunvericilikdə bir sıra müddəalar nəzərdə tutulmuşdur.

Belə ki, girovla təminat altına alınmış əsas öhdəlik icra edilmədikdə girov saxlayanın girov predmetini məcburi satdırmaq hüququ, eləcə də alacağın girov predmeti hesabına ödənilməsində girov saxlayanın üstünlük hüquqları təsbit edilmişdir.

Üstünlük hüququ dedikdə, girov saxlayanın girov predmetinin mülkiyyətçisinin digər kreditorlarına nisbətən üstün qaydada təminat almaqla (Mülki Məcəllə, maddə 269.7) yanaşı, girov əmlakın çevrildiyi digər maddi dəyərlərdən də üstün təminat almaq imkanı başa düşülür.

Mülki Məcəllənin bu cür hüquq münasibətlərini tənzimləyən 290.1-ci, 269.8-ci, 269.10-cu, 287-ci, habelə “İpoteka haqqında” Azərbaycan Respublikası Qanununun 32.1-ci maddələrinin ortaq cəhəti ondan ibarətdir ki, girov (ipoteka) predmeti sıradan çıxdığı bütün hallarda girov saxlayanın əvəz almaqla predmetin yerinə keçən əmlaka üstün hüquqa malik olan şəxs kimi tutma yönəltmək hüququ vardır.

Baxılan iş üzrə tərəflər arasında bağlanmış ipoteka müqaviləsində şərtləşdirilmişdir ki, ipoteka qoyan, ipoteka predmeti üzərindəki mülkiyyət hüququna xitam verildikdə onu eyni dəyərli digər təminatla əvəz etmək öhdəliyi daşıyır (bənd 6.5). Bu şərt girov əmlaka mülkiyyət hüququnun aradan qalxacağı halda onu başqa əmlakla əvəz edəcəyinə dair ipoteka qoyanın ipoteka saxlayana notarial əqd əsasında razılıq verməsinə dəlalət edir.

Eyni zamanda ipoteka qoyanın bağladığı sazişlə sözügedən ipoteka predmeti üzərindəki mülkiyyət hüququnu MMC-yə verməsi, qeyri-yaşayış sahəsinin sökülməsi və bunun əvəzində ipoteka qoyanın başqa əmlak alması işin mübahisə olunmayan hallarıdır.

Belə olan təqdirdə ipoteka predmeti üzərində mülkiyyət hüququna xitam verilməsinin qarşılığı olaraq ipoteka qoyana verilən əmlakdan ipoteka saxlayanın (iddiaçının) əvəz istəməklə alacağını həmin əmlaka yönəltmək tələbinin yuxarıda sadalanan maddi hüquq normalarına və müqavilə şərtinə uyğun olub-olmamasına mübahisəyə mahiyyəti üzrə baxan məhkəmə tərəfindən hüquqi qiymət verilməlidir.

Kassasiya məhkəməsi onu da qeyd etmişdir ki, ipoteka predmetini əvəzləmək barədə ipoteka qoyanın üzərinə qanun norması və özünün razılıq verdiyi müqavilə şərti ilə qoyulan öhdəlik yerinə yetirilmədikdə onun icrasına məcbur etmə ipoteka saxlayanın qaldırdığı iddia üzrə məhkəmənin qərarı əsasında həyata keçirilməlidir.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-1323/2024

20.05.2024-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının

iddiaçı “XXXX” ASC-nin cavabdehlər Cavabdeh 1 və Cavabdeh 2-yə qarşı iş üzrə

Q Ə R A R I

Açar sözlər: ipoteka predmeti olan əşyaya mülkiyyət hüququna xitam verildikdə və ipoteka qoyana başqa əşya və (və ya) müvafiq əvəz verildikdə ipoteka saxlayanın üstün təminat almaq hüququ

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Əliyev Zaur Əli oğlu (məruzəçi), Abbasov Aqil Əzizağa oğlu və Məmmədov Vidadi Məmməd oğlundan ibarət tərkibdə,

Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)-6087/2023 nömrəli, 12 dekabr 2023-cü il tarixli qətnaməsindən iddiaçı "XXXX" ASC tərəfindən verilmiş kassasiya şikayətinə Ali Məhkəmənin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları

1. Mübahisəyə mahiyyəti üzrə baxan məhkəmələr işin hallarını araşdıraraq aşağıdakıları müəyyən etmişlər:

2. İddiaçı "XXXX" ASC ilə Cavabdeh 1 arasında bağlanmış 25 aprel 2018-ci il tarixli 109840-407052/2 nömrəli kredit müqaviləsinə əsasən, iddiaçı tərəfindən borc alan Cavabdeh 1-ə 42 ay müddətinə, kreditdən istifadəyə görə illik 26 faiz ödənilməsi şərtilə, 20.000 manat kredit verilmişdir;

3. Sözügedən kredit müqaviləsi üzrə borcalan Cavabdeh 1 öhdəliklərinin lazımi qaydada yerinə yetirilməsini təmin etmək məqsədilə iddiaçı ilə həmin cavabdeh arasında sonuncunun Ünvan 1 ünvanında yerləşən, ümumi sahəsi 240.9 kv.m. olan qeyri-yaşayış sahəsinin iddiaçının xeyrinə ipoteka qoyulmasına dair 25 aprel 2018-ci il tarixli ipoteka müqaviləsi bağlanmışdır;

4. Bakı Apellyasiya Məhkəməsinin 2-2(103)-121/2023 saylı qərardadı ilə Cavabdeh 1 ilə "XX" MMC arasında bağlanmış barışıq sazişi təsdiq edilmişdir. Barışıq sazişinə əsasən, Cavabdeh 1 sözügedən qeyri-yaşayış sahəsini "XX" MMC-nin mülkiyyətinə verməyi, sonuncu isə Ünvan 2 binasında, giriş 5, mərtəbə 11, ümumi sahəsi 44 kv.metr, 1 otaqdan ibarət olan 266 saylı mənzil, Ünvan 2 binasında, giriş 3, mərtəbə 11, ümumi sahəsi 114 kv.metr, 3 otaqdan ibarət olan 160 saylı mənzil, həmin 12 mərtəbəli, 6 girişli yaşayış binasında giriş 5, mərtəbə 1, ümumi sahəsi 36.75 kv.metr olan 21/A qeyri-yaşayış sahəsini, həmin 12 mərtəbəli 6 girişli yaşayış binasında giriş 5, mərtəbə 1, ümumi sahəsi 127.55 kv.metr olan 22 saylı qeyri-yaşayış sahəsini, həmin 12 mərtəbəli 6 girişli yaşayış binasında giriş 5, mərtəbə 1, ümumi sahəsi 135.70 kv.metr olan 23 saylı qeyri-yaşayış sahəsini Cavabdeh 1-in mülkiyyətinə və "XX" MMC tərəfindən Cavabdeh 1-in depozitinə qoyulmuş 162194 manat pulu Cavabdeh 1-ə verməyi öhdəsinə götürmüşdür.

İş üzrə qəbul edilmiş məhkəmə aktları:

a) Birinci instansiya məhkəməsində icraat

5. İddiaçı "XXXX" ASC cavabdehlər Cavabdeh 1-ə və Cavabdeh 2-yə qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, Cavabdeh 1-dən 25 aprel 2018-ci il tarixli ****** nömrəli kredit müqaviləsi üzrə 7.938,28 manat əsas borc və 2.495,37 manat faiz borcu olmaqla, cəmi 10433.65 manat məbləğində borcun, ipoteka predmetinə tutma haqqında bildirişin dövlət qeydiyyatına alınması üçün köçürülmüş 15 manat dövlət rüsumu və 120 manat xidmət haqqı olmaqla, cəmi 135 manat xərcin və iddia ərizəsinin verilməsi üçün köçürülmüş 121.70 manat dövlət rüsumunun tutularaq "XXXX" ASC-yə ödənilməsi, tutmanın bank qarşısında ipotekaya qoyulmuş və mülkiyyət hüququ ilə Cavabdeh 1-in tam mülkiyyətində olan Ünvan 1 ünvanında yerləşən ümumi sahəsi 240.9 kv.m olan qeyri-yaşayış sahəsinə (zirzəmi, yarımzirzəmi və 1-ci mərtəbə) yönəldilməsi, ipoteka predmetinin hərracda satılması üçün ilkin satış qiymətinin müəyyən edilməsi, açıq hərracda satılması və satışdan əldə olunacaq vəsait hesabına borcun ödənilməsi, ipoteka predmeti hərracda satıldıqda Cavabdeh 1-in və Cavabdeh 2-nin Ünvan 1 ünvanında yerləşən ümumi sahəsi 240.9 kv.m olan qeyri-yaşayış sahəsindən (zirzəmi,

yarımzirzəmi və 1-ci mərtəbə) çıxarılması və həmin sahənin boşaldılması barədə qətnamə qəbul edilməsini xahiş xahiş etmişdir.

6. İddiaçı tələbini belə əsaslandırmışdır ki, "XXXX" ASC ilə borcalan Cavabdeh 1 ilə bağlanmış 25 aprel 2018-ci il tarixli ****** nömrəli kredit müqaviləsinə əsasən 26 faiz dərəcəsilə, 24 ay müddətinə 20000 manat məbləğində kredit götürülmüşdür. Həmin kredit müqaviləsinin təminatı olaraq Cavabdeh 1-in mülkiyyətində olan Ünvan 1 ünvanında yerləşən ümumi sahəsi 240.9 kv.m olan qeyri-yaşayış sahəsi (zirzəmi, yarımzirzəmi və 1-ci mərtəbə) 25 aprel 2018-ci il tarixli ****** nömrəli sonrakı ipoteka müqaviləsinə əsasən banka ipoteka qoyulmuşdur. Borcalan kredit müqaviləsi üzrə üzərinə götürdüyü öhdəliyi yerinə yetirməmişdir. Bununla əlaqədar, dəfələrlə yazılı formada xəbərdarlıqlar edilməsinə baxmayaraq, cavabdeh bundan heç bir nəticə çıxarmamışdır. Bu halda, bank tərəfindən "İpoteka haqqında" AR-in Qanununun 36.1-ci maddəsinin tələblərinə uyğun olaraq, ipoteka predmetinə tutma yönəldilməsi barədə 06.01.2022-ci il tarixli ****** nömrəli bildiriş ipotekaqoyan Cavabdeh 1-ə 06.01.2022-ci il tarixdə sifarişli poçt göndərişi üsulu ilə göndərilmişdir. Poçt göndərişi vasitəsilə göndərilmiş həmin bildiriş onun poçta təqdim edildiyi gündən 5 təqvim günü keçdikdən sonra, yəni 14.01.2022-ci il tarixdə dövlət qeydiyyatına alınmışdır. Kredit müqaviləsi üzrə borclu Cavabdeh 1 öz üzərinə götürdüyü öhdəliyi yerinə yetirmədiyinə görə, "XXXX" ASC-nin ipoteka predmetinə tutmanın yönəldilməsinə başlamaq hüququ yaranmışdır.

7. İddiaçı Azərbaycan Respublikasının MPM-nin 53-cü maddəsinə əsasən, ərizə ilə məhkəməyə müraciət edərək, cavabdehlər Cavabdeh 1 və Cavabdeh 2-dən 25 aprel 2018-ci il tarixli ****** nömrəli kredit müqaviləsi üzrə 7.938,28 manat əsas borc və 1.173,52 manat faiz borcu olmaqla, cəmi 9.111,80 manat məbləğində borcun, ipoteka predmetinə tutma haqqında bildirişin dövlət qeydiyyatına alınması üçün köçürülmüş 15 manat dövlət rüsumu və 120 manat xidmət haqqı olmaqla, cəmi 135 manat xərcin və iddia ərizəsinin verilməsi üçün köçürülmüş 121.70 manat dövlət rüsumunun tutularaq "XXXX" ASC-yə ödənilməsi, tutmanın bank qarşısında ipotekaya qoyulmuş və mülkiyyət hüququ ilə Cavabdeh 1-in tam mülkiyyətində olan Ünvan 1 ünvanında yerləşən ümumi sahəsi 240.9 kv.m olan qeyri-yaşayış sahəsinə (zirzəmi, yarımzirzəmi və 1-ci mərtəbə) yönəldilməsi, ipoteka predmetinin hərracda satılması üçün ilkin satış qiymətinin müəyyən edilməsi, açıq hərracda satılması və satışdan əldə olunacaq vəsait hesabına borcun ödənilməsi, ipoteka predmeti hərracda satıldıqda Cavabdeh 1-in və Cavabdeh 2-nin Ünvan 1 ünvanında yerləşən ümumi sahəsi 240.9 kv.m olan qeyri-yaşayış sahəsindən (zirzəmi, yarımzirzəmi və 1-ci mərtəbə) çıxarılması və həmin sahənin boşaldılması barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

8. Daha sonra iddiaçı yenidən Azərbaycan Respublikasının MPM-in 53-cü maddəsinə əsasən, ərizə ilə məhkəməyə müraciət edərək, cavabdeh Cavabdeh 1-dən 25 aprel 2018-ci il tarixli ****** nömrəli kredit müqaviləsi üzrə 7.938,28 manat əsas borc və 1.173,52 manat faiz borcu olmaqla, cəmi 9.111,80 manat məbləğində borcun, ipoteka predmetinə tutma haqqında bildirişin dövlət qeydiyyatına alınması üçün köçürülmüş 15 manat dövlət rüsumu və 120 manat xidmət haqqı olmaqla, cəmi 135 manat xərcin və iddia ərizəsinin verilməsi üçün köçürülmüş 121.70 manat dövlət rüsumunun tutularaq "XXXX" ASC-yə ödənilməsi, tutmanın bank qarşısında ipotekaya qoyulmuş və mülkiyyət hüququ ilə Cavabdeh 1-in tam mülkiyyətində olan Ünvan 1 ünvanında yerləşən ümumi sahəsi 240.9 kv.m olan qeyri-yaşayış sahəsinə (zirzəmi, yarımzirzəmi və 1-ci mərtəbə) yönəldilməsi, tutmanın girov obyektinin əvəzinə görə verilmiş Ünvan 2 binasında, giriş 5, mərtəbə 11, ümumi sahəsi 44 kv.metr, 1 otaqdan ibarət olan 266 saylı mənzilə, Ünvan 2 binasında, giriş 3, mərtəbə 11, ümumi sahəsi 114 kv.metr, 3 otaqdan ibarət olan 160 saylı mənzilə, həmin 12 mərtəbəli, 6 girişli yaşayış binasında giriş 5, mərtəbə 1, ümumi sahəsi 36.75 kv.metr olan 21/A qeyri-yaşayış sahəsinə, həmin 12 mərtəbəli 6 girişli

yaşayış binasında, giriş 5, mərtəbə 1, ümumi sahəsi 127.55 kv.metr olan 22 saylı qeyri-yaşayış sahəsinə, həmin 12 mərtəbəli 6 girişli yaşayış binasında, giriş 5, mərtəbə 1, ümumi sahəsi 135.70 kv.mter olan 23 saylı qeyri-yaşayış sahəsinə və "XX" MMC tərəfindən Cavabdeh 1-in depozitinə qoyulmuş 162.194 manat pula yönəldilməsi barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

9. "X" MMC-nin 20.06.2023 tarixli, *** nömrəli hesabatına əsasən Ünvan 2 binasında giriş 5, mərtəbə 1 ünvanında yerləşən 36.75 kv.metr ümumi sahədən ibarət 21/A saylı qeyriyaşayış sahəsinin bazar dəyəri 45000 (qırx beş min) manat, likvid dəyəri 38000 (otuz səkkiz min) manat müəyyən edilmişdir.

10. Bakı şəhəri Xətai Rayon Məhkəməsinin (bundan sonra – birinci instansiya məhkəməsi) e-2(011)-45/2023 saylı, 23 iyun 2023-cü il tarixli qətnaməsi ilə (hakim Aygün Həsənova) iddia qismən təmin edilərək, Cavabdeh 1-dən 7.938,28 (yeddi min doqquz yüz otuz səkkiz manat iyirmi səkkiz qəpik) manat məbləğində əsas borc, 1.173,52 (bir min yüz yetmiş üç manat əlli iki qəpik) manat faiz borcu olmaqla cəmi 9.111.80 (doqquz min yüz on bir manat səksən qəpik) borc və ödənilmiş 121.70 (yüz iyirmi bir manat yetmiş qəpik) manat dövlət rüsumunun alınaraq "XXXX" ASC-yə ödənilməsi, keçirilmiş ekspertizanın dəyəri olan 300 manatın 150 (bir yüz əlli) manatının iddiaçı "XXXX" ASC-dən, qalan 150 (bir yüz əlli) manatın isə cavabdeh Cavabdeh 1-dən alınıb "X" MMC-yə ödənilməsi, iddia tələbinin qalan hissədə rədd edilməsi qət edilmişdir.

11. Birinci instansiya məhkəməsi gəldiyi nəticəni onunla əsaslandırmışdır ki, cavabdeh Cavabdeh 1 kredit müqaviləsi əsasında iddiaçıdan kredit almasına dair hüququndan istifadə etmiş, həmin kreditdən yaranan borclarını ödəməli olmasına dair vəzifəsini, pul öhdəliyini lazımınca yerinə yetirməmişdir. Tələb hər iki cavabdehə yönəlmiş, sonuncu dəqiqləşmə ərizəsi ilə müəyyən edilmişdir ki, iddia tələbi cavabdeh Cavabdeh 1-ə qarşı yönəlmiş, cavabdeh Cavabdeh 2-nin hazırkı iş üzrə hansı öhdəliyi pozması və hansı öhdəliyi lazımi qaydada icra etməməsi müəyyən edilməmişdir. Belə ki, sonuncu ilə bağlanan hər hansı müqavilə iş materiallarına əlavə edilməmişdir. Cavabdehdən tutulmalı olan əsas borcun və faiz borcunun məbləği təmin edilməlidir. Cavabdehin müqavilədən irəli gələn vəzifələrini icra etməməsi nəticəsində iddiaçı məhkəmədə iddia qaldırmış, bununla dövlət rüsumunu və xərcləri ödəməsi ilə əlavə xərc çəkmişdir. Odur ki, öhdəliyini icra etməyən borclu kreditora dəymiş zərərin əvəzini ödəməyə borcludur. Cavabdeh əsas öhdəliyini vaxtında və lazımi qaydada icra etmədiyinə görə iddiaçının ipoteka predmetinə tutmanın yönəldilməsi hüququ yaranmışdır. Tələbin yönəlməsinin istənildiyi Ünvan 1 ünvanında yerləşən ümumi sahəsi 240.9 kv.m olan qeyri-yaşayış sahəsi məhv edilmişdir. Qanunvericiliyin tələblərinə əsasən, ipoteka ilə yüklü edilmiş əmlak sığorta edilməlidir. Hazırkı iş üzrə tərəflər əmlakın sığorta edilməsi ilə bağlı hər hansı sübutu məhkəməyə təqdim etməmişlər. "İpoteka haqqında" Qanuna əsasən ipoteka predmeti məhv olduqda ipoteka müqaviləsinə xitam verilir. İddiaçı faktiki olaraq mövcud olmayan əmlaka tutmanın yönəldilməsini xahiş etmişdir.

12. Birinci instansiya məhkəməsi hüquqi mövqeyini Mülki Məcəllənin 385.1, 442, 448.1, 739.1-ci, Azərbaycan Respublikası "İpoteka haqqında" Qanunun 27.3, 32.1, 34, 48.1.4-cü və digər maddələri ilə əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsində icraat

13. İddiaçı apellyasiya şikayəti verərək, qətnamənin ləğv edilməsini və iddianın tam təmin edilməsini xahiş etmişdir.

14. Apellyasiya şikayəti onunla əsaslandırılmışdır ki, iddia tələbini tutmanın ipoteka predmetinin əvəzində verilmiş əmlaklara yönəldilməsi hissəsində təmin etməyən məhkəmə Azərbaycan Respublikası Mülki Məcəlləsinin 269.10-cu maddəsini nəzərə almamışdır. Həmin maddəyə əsasən, girov qoyulmuş və ya ipoteka ilə yüklü edilmiş əşya məhv olduqda və ya

zədələndikdə, yaxud girov saxlayanın (ipoteka saxlayanın) yanında girov qoyulmuş hüquqa xitam verildikdə və ya bu hüquq pozulduqda əvəz almaq tələbinin irəli sürülməsi hüququ irəli gəlir.

15. Bakı Apellyasiya Məhkəməsi Mülki Kollegiyasının 2(103)-6087/2023 saylı,12 dekabr 2023-cü il tarixli qətnaməsi ilə (hakimlər İkram Şirinov - sədrlik edən və məruzəçi, Kamran Əkbərov və Elşən Kazımov) apellyasiya şikayəti təmin edilmədən, birinci instansiya məhkəməsinin qətnaməsi mübahisələndirilən hissədə dəyişdirilmədən saxlanılmışdır.

16. Məhkəmə qeyd etmişdir ki, hazırkı mülki iş materiallarından məlum olur ki, tələbin yönəlməsinin istənildiyi Ünvan 1 ünvanında yerləşən, ümumi sahəsi 240.9 kv.m olan qeyri-yaşayış sahəsi məhv edildiyindən, iddia tələbi tutmanın ipoteka predmetinə yönəldilməsi hissəsində təmin edilməmişdir. Hazırda iddiaçı barışıq sazişi ilə cavabdehə verilən əmlaklara tutmanın yönəldilməsini tələb edir.

17. Mülki Məcəllənin 269.10-cu maddəsinə görə, girov qoyulmuş və ya ipoteka ilə yüklü edilmiş əşya məhv olduqda və ya zədələndikdə, yaxud girov saxlayanın (ipoteka saxlayanın) yanında girov qoyulmuş hüquqa xitam verildikdə və ya bu hüquq pozulduqda əvəz almaq tələbinin irəli sürülməsi hüququ irəli gəlir. Bu norma ipoteka predmeti olan əmlakın məhv olması və zədələnməsi nəticəsində həmin zərərin ödənilməsi ilə bağlı mülki qanunvericilikdə nəzərdə tutulmuş iddia qaldırmaq hüququnu nəzərdə tutur. Hazırkı tələbin ipoteka predmetinin əvəzinə verilmiş əmlaka yönəldilməsi tələbi baxımından bu norma əhəmiyyət kəsb etmir.

18. Apellyasiya şikayətinin digər dəlilinə görə, rayon məhkəməsi qətnamənin əsaslandırılma hissəsində qeyd etmişdir ki, qanunvericiliyin tələblərinə əsasən, ipoteka predmeti olan əmlakın digər əmlakla əvəz edilməsi yalnız tərəflərin razılaşdırılması əsasında mümkündür və hazırki iş üzrə tərəflər arasında belə bir razılaşmanın olması aşkar edilmir. Halbuki tərəflər arasında imzalanmış 25.04.2018-ci il tarixli sonrakı ipoteka müqaviləsi ilə ipoteka qoyanın vəzifələri müəyyən edilmişdir. Həmin müqavilənin 6.5-ci bəndinə əsasən, ipoteka predmeti tam və ya qismən zədələndikdə və ya onun mülkiyyət hüququna xitam verildikdə ipoteka predmetini ipoteka saxlayanla razılaşdırılmış müddətdə bərpa etmək və ya eyni dəyərli digər təminatla əvəz etmək kimi vəzifəsi nəzərdə tutulur. Odur ki, ipoteka predmeti olan əmlakın digər əmlakla əvəzedilməsi barədə razılaşma ipoteka müqaviləsində nəzərdə tutulduğundan sonradan təkrar razılaşmanın əldə edilməsinə ehtiyac yaranmır.

19. Kollegiya bu dəlillə bağlı qeyd etmişdir ki, ipoteka müqaviləsində ipoteka qoyanın ipoteka predmeti tam və ya qismən zədələndikdə və ya onun mülkiyyət hüququna xitam verildikdə ipoteka predmetini ipoteka saxlayanla razılaşdırılmış müddətdə bərpa etmək və ya eyni dəyərli digər təminatla əvəz etmək kimi vəzifəsi qeyd edilməsi, öz-özlüyündə ipoteka saxlayanın razılığı olmadan ipoteka predmeti olan əmlakın digər əmlakla əvəz edilməsi anlamına gəlmir.

20. İpoteka müqaviləsinin 6.5-ci bəndinə əsasən, ipoteka predmeti tam və ya qismən zədələndikdə və ya onun mülkiyyət hüququna xitam verildikdə ipoteka predmetini ipoteka saxlayanla razılaşdırılmış müddətdə bərpa etmək və ya eyni dəyərli digər təminatla əvəz etmək kimi vəzifəsi nəzərdə tutulmuş olsa da, həmin ipoteka predmeti əvəzləşdirilməmiş, tərəflər arasında belə bir razılaşma olmamışdır, bu baxımdan apellyasiya şikayətinin qeyd edilən dəlili əsassızdır.

21. Mülki Məcəllənin 290.1-ci maddəsinə görə, girov qoyanın girov predmeti olan əşyaya mülkiyyət hüququna qanunla müəyyənləşdirilmiş əsaslar üzrə və qaydada, dövlət ehtiyacları üçün satınalma, rekvizisiya və ya milliləşdirmə nəticəsində xitam verildikdə və girov qoyana başqa əşya və (və ya) müvafiq əvəz verildikdə girov hüququ əvəz kimi verilmiş əşyaya şamil

edilir və ya müvafiq surətdə, girov saxlayan girov qoyana çatası əvəzin məbləğindən öz tələbinin üstün ödənilməsi hüququnu əldə edir.

22. Hazırkı iş materiallarından da görünür ki, əmlak dövlət ehtiyacları üçün özgəninkiləşdirilmə, rekvizisiya və ya milliləşdirilmə məqsədləri ilə məhv edilməmişdir. Belə olan halda məlum olur ki, tutmanın barışıq sazişi əsasında cavabdehə təqdim edilmiş əmlaklara və pul vəsaitinə yönəldilməsi mümkün deyil.

23. Bu baxımdan apellyasiya şikayətinin barışıq müqaviləsi üzrə əvəz kimi verilmiş əmlaklardan birinin, yəni yəni Ünvan 2 binasında, giriş 3, mərtəbə 11, ümumi sahəsi 114 kv.m, 3 otaqdan ibarət olan 160 saylı mənzilin tikintisi başa çatmış və borclu Cavabdeh 1-ə təhvil verilməsi barədə dəlili də əsassızdır.

24. Məhkəmə mövqeyini Mülki Məcəllənin 269.1, 279, 295, 296.1, 385.1, 442, 448.1, 739-cu, "İpoteka haqqında" Qanunun 27.3, 32.1, 34, 48.1.4-cü, Mülki Prosessual Məcəllənin 14.2, 77.1-ci maddələrinə istinadla əsaslandırmışdır.

Kassasiya şikayətinin və ona etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

25. İddiaçı (vəkil) kassasiya şikayəti verərək apelyasiya məhkəməsinin qətnaməsinin ləğv edilməsini və işin yeni apelyasiya baxışına qaytarılmasını xahiş etmişdir.

26. Kassasiya şikayəti onunla əsaslandırılmışdır ki, məhkəmə qərar verərkən AR Mülki Məcəlləsinin 269.10-cu maddəsini nəzərə almamışdır. Kollegiya qeyd etmişdir ki, həmin maddədən görünür ki, bu norma ipoteka predmeti olan əmlakın məhv olması və zədələnməsi nəticəsində həmin zərərin ödənilməsi ilə bağlı mülki qanunvericilikdə nəzərdə tutulmuş iddia qaldırmaq hüququnu nəzərdə tutur. Hazırkı tələbin ipoteka predmetinin əvəzinə verilmiş əmlaka yönəldilməsi tələbi baxımından bu norma əhəmiyyət kəsb etmir.

27. Kassator qeyd etmişdir ki, bank yuxarıda qeyd olunanlara uyğun olaraq iddia tələbini dəqiqləşdirərək əvəz almaq tələbini irəli sürmüşdür. Lakin buna baxmayaraq, Xətai Rayon Məhkəməsi və Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyası iddia tələbinə düzgün qiymət verməyərək əsassız qətnamə qəbul etmişdir. Mülki Prosessual Məcəlləsinin 81 və 88-ci maddələri Xətai Rayon Məhkəməsi öz mövqeyində qeyd edir ki, "məhkəmə tərəfindən qiymətləndirmə ekspertizası təyin edilmiş və bu əsnada barışıq sazişi üzrə cavabdehə təqdim edilmiş əmlakların mövcud olmaması, yəni gələcəkdə tikilməsinin nəzərdə tutulmasımüəyyən edilir. Beləliklə, iddiaçı bu gün faktiki olaraq mövcud olmayan əmlaka tutmanın yönəldilməsini xahiş etmişdir." Məhkəmə icraatı zamanı tərəfimizdən müəyyən edilmişdir ki, əvəz kimi verilən əmlaklardan biri, yəni Ünvan 2 binasında, giriş 3, mərtəbə 11, ümumi sahəsi 114 kv.m, 3 otaqdan ibarət olan 160 saylımənzilin tikintisi başa çatmış və borclu Cavabdeh 1-ə təhvil verilmişdir.

28. Həmçinin, müəyyən edilmişdir ki, kompensasiya kimi depozitə qoyulmuş pul vəsaiti Cavabdeh 1 tərəfindən təhvil alınmış, lakin, buna baxmayaraq banka olan borcunun ödənilməsindən yayınmışdır. Bu barədə məhkəmə iclası zamanı tərəfimizdən bildirilmiş və həmçinin borclu və "XX" MMC-nin əməkdaşı tərəfindən şifahi təsdiq edilmişdir. Ona görə də, qiymətləndirmə təyin olunmazdan əvvəl müvafiq faktın rəsmi təsdiq edilməsi üçün "XX" MMC-nə rəsmi müraciət olunması xahiş edilmişdir. Lakin buna baxmayaraq, məhkəmə ətraflı araşdırma aparmadan və müraciətimiz nəzərə alınmadan digər əmlakın qiymətləndirilməsi qərara almışdır. Halbuki, qiymətləndirmə təyin olunmazdan əvvəl düzgün və əsaslı nəticəyə gəlmək üçün məhkəmə bütün lazımı araşdırmalar aparmalı idi. Odur ki, bütün təqdim olunmuş faktlar barədə məlumatlar olmasına baxmayaraq məhkəmələr onlara qiymət verməmiş və subyektiv yanaşaraq əsassız qətnamə qəbul etmişdir.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

29. Kassasiya şikayətinə qarşı etiraz daxil olmamışdır.

Tətbiq edilən hüquq

Azərbaycan Respublikasının Mülki Məcəlləsi:

30. Maddə 1.2. Mülki hüquq subyektlərinin hüquqlarını və qanuni mənafelərini müdafiə etmək, mülki dövriyyəni təmin etmək Mülki Məcəllənin vəzifələri sırasındadır.

31. Maddə 6.1. Şəxsi və ailə həyatına kimsənin özbaşına qarışmasının yolverilməzliyi, mülki hüquqların maneəsiz həyata keçirilməsinə şərait yaradılması mülki qanunvericiliyin prinsipləri sırasındadır.

32. Maddə 16.1. Fiziki və hüquqi şəxslərin yalnız və yalnız başqa şəxsə ziyan vurmaq niyyəti ilə həyata keçirdikləri hərəkətlərə, habelə hüquqdan digər formalarda sui-istifadə edilməsinə yol verilmir.

33. Maddə 269.1. Girov və ipoteka hüququ girov qoyanın əşyası barəsində girov saxlayanın əşya hüququdur və eyni zamanda borclunun girov saxlayan qarşısında pul və ya başqa öhdəliyinin icrasının təmin edilməsi üsuludur.

34. Maddə 269.2. Girov və ipoteka hüququ əşya hüquqlarının məhdudlaşdırılmasından ibarətdir.

35. Maddə 269.3. Girov daşınar əşyalara (ipoteka obyekti olan daşınar əşyalardan başqa) əşya hüquqlarının məhdudlaşdırılmasıdır. Bu Məcəllə ilə nəzərdə tutulmuş hallarda hüquqların da girov qoyulması mümkündür.

36. Maddə 269.4. İpoteka daşınmaz əşyalara, habelə rəsmi reyestrdə qeydə alınmalı olan daşınar əşyalara əşya hüquqlarının məhdudlaşdırılmasıdır.

37. Maddə 269.5. Girov və ipoteka girov qoyanın (borclunun) girov saxlayan (kreditor) qarşısında əsas öhdəliyinin icrasının təmin edilməsi üçün əlavə (aksessor) əşya hüququdur.

38. Maddə 269.6. Əşyaya girov və ipoteka hüququ əşyaya mülkiyyət hüququna aid olan hər şeyə şamil edilir.

39. Maddə 269.7. Girovla və ipoteka ilə təmin edilmiş öhdəlik üzrə kreditorun (girov saxlayanın və ipoteka saxlayanın) hüququ var ki, borclunun həmin öhdəliyi icra etmədiyi halda girov qoyulmuş və ya ipoteka ilə yüklü edilmiş əşyanın dəyərindən həmin əşyanın mənsub olduğu şəxsin (girov qoyanın və ipoteka qoyanın) digər kreditorlarına nisbətən üstün qaydada təminat alsın.

40. Maddə 269.8. Bu Məcəllənin 266.6-cı maddəsində müəyyənləşdirilmiş prinsipə əsasən, girov saxlayanın (ipoteka saxlayanın) hüququ var ki, girov qoyulmuş və ya ipoteka ilə yüklü edilmiş əşyanın itirilməsi və ya zədələnməsi üçün, onun kimin xeyrinə sığortalanmasından asılı olmayaraq, sığorta ödənişindən təminat alsın, bu şərtlə ki, itki və ya zədələnmə girov saxlayanın (ipoteka saxlayanın) cavabdeh olduğu səbəblərdən baş verməsin.

41. Maddə 269.10. Girov qoyulmuş və ya ipoteka ilə yüklü edilmiş əşya məhv olduqda və ya zədələndikdə, yaxud girov saxlayanın (ipoteka saxlayanın) yanında girov qoyulmuş hüquqa xitam verildikdə və ya bu hüquq pozulduqda əvəz almaq tələbinin irəli sürülməsi hüququ irəli gəlir.

42. Maddə 287. Girov predmeti məhv olduqda və ya zədələndikdə və ya ona mülkiyyət hüququna xitam verildikdə girov qoyan, əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, girov predmetini ağlabatan müddətdə bərpa etməli və ya eyni dəyərli başqa əmlakla əvəz etməlidir.

43. Maddə 290.1. Girov qoyanın girov predmeti olan əşyaya mülkiyyət hüququna qanunla müəyyənləşdirilmiş əsaslar üzrə və qaydada, dövlət ehtiyacları üçün satınalma, rekvizisiya və ya milliləşdirmə nəticəsində xitam verildikdə və girov qoyana başqa əşya və (və ya) müvafiq

əvəz verildikdə girov hüququ əvəz kimi verilmiş əşyaya şamil edilir və ya müvafiq surətdə, girov saxlayan girov qoyana çatası əvəzin məbləğindən öz tələbinin üstün ödənilməsi hüququnu əldə edir.

44. Maddə 295. Girov saxlayanın (kreditorun) tələblərinin ödənilməsi üçün tutma girov qoyulmuş əşyaya borclu girovla təmin edilmiş öhdəliyi onun cavabdeh olduğu səbəblərdən icra etmədikdə və ya lazımınca icra etmədikdə yönəldilə bilər.

45. Maddə 297. Girov qoyulmuş əşya hərracda (açıq auksionda) və ya "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda istənilən üsulla satıla bilər.

46. Maddə 317.1. Borclu təminat vasitəsi ipoteka olan əsas öhdəliyi icra etmədikdə və ya lazımınca icra etmədikdə, ipoteka saxlayan daşınmaz əşyanın satılmasını tələb edə bilər.

47. Maddə 319.1. Əgər borclu icrasını təmin etmək üçün əşyanın ipotekaya verildiyi öhdəliklərin yerinə yetirilməsini gecikdirmişsə, ipoteka saxlayan ipoteka ilə yüklü edilmiş obyekti açıq hərracdan satmaq hüququna malikdir.

48. 442. Öhdəliyin icra edilməməsi dedikdə onun pozulması və ya lazımınca icra edilməməsi (vaxtında icra edilməməsi, mallarda, işlərdə və xidmətlərdə qüsurlarla və ya öhdəliyin məzmunu ilə müəyyənləşdirilmiş digər şərtləri pozmaqla icra edilməsi) başa düşülür.

49. Maddə 425.1. Öz hüquqlarını həyata keçirərkən və vəzifələrini icra edərkən tərəflərdən hər biri vicdanlılığın tələb etdiyi tərzdə, yəni şərtləşdirilmiş vaxtda və yerdə lazımi şəkildə, öhdəliyin şərtlərinə və bu Məcəllənin tələblərinə müvafiq surətdə, belə şərtlər və tələblər olmadıqda isə işgüzar adətlərə və ya adətən irəli sürülən digər tələblərə müvafiq surətdə hərəkət etməlidir.

50. Maddə 425.2. Öhdəlikləri icra edərkən tərəflər müqavilənin yerinə yetirilməsinə zəmin yaratmaq üçün birgə hərəkət etməli və müqavilənin məqsədinə çatmağa maneçilik törədə biləcək və ya öhdəliklərin icrasını təhlükəyə məruz qoya biləcək hər cür hərəkətlərdən çəkinməlidirlər.

51. Maddə 560.1. Mülki hüquqlar hüquqa uyğun həyata keçirilməlidir. Hüquqdan yalnız başqalarına ziyan vurmaq məqsədi ilə istifadə edilməsi yolverilməzdir.

"İpoteka haqqında" Azərbaycan Respublikasının Qanunu:

52. Maddə 27.2. İpoteka qoyan ipoteka qoyulmuş əşyanın məhv olması və ya zədələnməsi təhlükəsi yarandıqda ipoteka saxlayanı dərhal xəbərdar etməlidir.

53. Maddə 27.3. İpoteka qoyulmuş əşyadan istifadə qaydaları, ipoteka qoyulmuş əşyanın saxlanılması vəzifələri ipoteka qoyan tərəfindən kobud şəkildə pozulduqda və belə pozuntu ipoteka qoyulmuş əşyanın məhvi və ya zədələnməsi təhlükəsini yaratdıqda, habelə ipoteka qoyulmuş əşyanın sığortalanması üzrə vəzifələr icra edilmədikdə ipoteka saxlayan əsas öhdəliyin vaxtından əvvəl icrasını tələb edə bilər. Belə tələb yerinə yetirilməzsə, ipoteka saxlayan tutmanı ipoteka predmetinə yönəldə bilər.

54. Maddə 32.1. İpoteka qoyanın ipoteka predmeti olan əşyaya mülkiyyət hüququna qanunla müəyyənləşdirilmiş əsaslar üzrə və qaydada dövlət ehtiyacları üçün özgəninkiləşdirilmə, rekvizisiya və ya milliləşdirilmə nəticəsində xitam verildikdə və ipoteka qoyana başqa əşya və (və ya) müvafiq əvəz verildikdə ipoteka hüququ əvəz kimi verilmiş əşyaya şamil edilir və ya müvafiq surətdə ipoteka saxlayan ipoteka qoyana çatası əvəzin məbləğindən öz tələbinin üstün ödənilməsi hüququnu əldə edir. Bu hüquqları tam müdafiə olunmayan (əvəz kimi verilən əşya və (və ya) müvafiq əvəz ipoteka predmetinin dəyərindən aşağı olduqda) ipoteka saxlayan əsas öhdəliyin vaxtından əvvəl icrasını tələb edə bilər, tələb yerinə yetirilmədikdə ipoteka qoyanın aldığı müvafiq əvəzə tutmanı yönəldə bilər.

55. Maddə 34. Öhdəliyin, yaxud onun bir hissəsinin icrasının 90 təqvim günü və daha çox müddətə gecikdirilməsi, ipoteka müqaviləsində nəzərdə tutulmuş və ipoteka saxlayana ipotekaya tutma yönəltmək hüququ verən şərtinin baş verməsi və bu Qanunda nəzərdə tutulmuş digər hallarda ipoteka saxlayanın ipoteka predmetinə tutmanın yönəldilməsi hüququnu yaradır.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsi:

56. Maddə 14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

57. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

58. 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir.

Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

59. Maddə 217.1. Məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır.

60. Maddə 217.3. Qətnamə iş üzrə müəyyən edilmiş hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır.

61. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

Kassasiya baxışının hədləri

62. Qanunun tələbinə görə, kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

63. Kassasiya şikayətində qətnamə tam mübahisələndirldiyi üçün apellyasiya instansiyası məhkəməsinin aktı bütövlükdə yoxlanılır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

64. Baxılan işdə mübahisəli hal iddiaçının kredit müqaviləsindən irəli gələn alacağının ipoteka predmetinin əvəzində verilmiş əmlaka yönəldilməsi ilə bağlıdır.

65. İşə mahiyyəti üzrə baxan məhkəmələr müəyyən etmişlər ki, iddiaçı ilə cavabdeh Cavabdeh 1 arasında bağlanmış 25 aprel 2018-ci il tarixli kredit müqaviləsi üzrə iddiaçının tələb hüququnun təminatı kimi Ünvan 1 ünvanında yerləşən qeyri-yaşayış sahəsi ipoteka ilə yüklü edilmişdir. Bununla belə, ipoteka qoyan Cavabdeh 1, “XX” MMC ilə bağladığı barışıq sazişi əsasında həmin sahəni MMC-nin mülkiyyətinə verməyi, MMC isə Ünvan 2 binasında bir neçə mənzili və qeyri-yaşayış sahəsini, eləcə də 162.194 manat pulu Cavabdeh 1-in mülkiyyətinə verməyi öhdəsinə götürmüşdür (§ 2-4).

66. İddiaçı bildirir ki, ipoteka predmeti olan qeyri-yaşayış sahəsinin sökülməsinə və cavabdeh Cavabdeh 1 tərəfindən sazişdə göstərilən əmlakın (o cümlədən 162.194 manat pulun) alınmasına baxmayaraq, 9.111,8 manat kredit borcu ödənilməmişdir. Ona görə də məhkəmə qətnaməsi ilə tutulan kredit borcu girov obyektinin əvəzində verilmiş əmlaka yönəldilməlidir.

67. İddiaçı bu tələbinin müqavilə əsası kimi ipoteka müqaviləsinin 6.5-ci bəndinə, qanuni əsası kimi Mülki Məcəllənin 269.10-cu maddəsinə əsaslanır.

68. Tərəflər arasında bağlanmış ipoteka müqaviləsinin 6.5-ci bəndinə görə, ipoteka predmeti tam və ya qismən zədələndikdə və ya onun mülkiyyət hüququna xitam verildikdə

ipoteka predmetini ipoteka saxlayanla razılaşdırılmış müddətdə bərpa etmək və ya eyni dəyərli digər təminatla əvəz etmək ipoteka qoyanın vəzifəsidir.

69. Mülki Məcəllənin 269.10-cu maddəsinə əsasən, girov qoyulmuş və ya ipoteka ilə yüklü edilmiş əşya məhv olduqda və ya zədələndikdə, yaxud girov saxlayanın (ipoteka

saxlayanın) yanında girov qoyulmuş hüquqa xitam verildikdə və ya bu hüquq pozulduqda əvəz almaq tələbinin irəli sürülməsi hüququ irəli gəlir.

70. İddiaçının bu tələbini rədd edən birinci instansiya məhkəməsi mövqeyini onunla əsaslandırmışdır ki, iddiaçı faktiki olaraq mövcud olmayan əmlaka tutmanın yönəldilməsini xahiş etmişdir. Belə ki, tələbin yönəldilməsi istənilən Ünvan 1 ünvanında yerləşən ümumi sahəsi 240.9 kv.m olan qeyriyaşayış sahəsi məhv edilmişdir. İpoteka predmeti məhv olduqda ipoteka müqaviləsinə xitam verilir (§ 11).

71. Birinci instansiya məhkəməsinin gəldiyi nəticə ilə razılaşan apellyasiya məhkəməsi isə qeyd etmişdir ki, Mülki Məcəllənin 269.10-cu maddəsi ipoteka predmeti olan əmlakın məhv olması və zədələnməsi nəticəsində həmin zərərin ödənilməsi ilə bağlı iddia qaldırmaq hüququdur. Hazırkı tələbin ipoteka predmetinin əvəzinə verilmiş əmlaka yönəldilməsi tələbi baxımından bu norma əhəmiyyət kəsb etmir. İpoteka müqaviləsinin 6.5-ci bəndinə münasibətdə məhkəmə qeyd etmişdir ki, ipoteka predmeti əvəzləşdirilməmiş, tərəflər arasında belə bir razılaşma olmamışdır. Bundan əlavə, əmlak dövlət ehtiyacları üçün özgəninkiləşdirilmə, rekvizisiya və ya milliləşdirilmə məqsədləri ilə məhv edilmədiyi üçün tutmanın barışıq sazişi əsasında cavabdehə təqdim edilmiş əmlaklara və pul vəsaitinə yönəldilməsi mümkün deyil (§ 17, 20-22).

72. Kassasiya məhkəməsi aşağıdakılara əsasən hesab edir ki, iş üzrə maddi və prosessual hüquq normaları düzgün tətbiq edilməmişdir.

73. Mülki Məcəlləyə əsasən girov və ipoteka hüququ girov qoyanın əşyası barəsində girov saxlayanın əşya hüququdur və eyni zamanda borclunun girov saxlayan qarşısında pul və ya başqa öhdəliyinin icrasının təmin edilməsi üsuludur. Girov və ya ipoteka qoyan müqavilə əsasında kreditorun şəxsi borcluya qarşı tələb hüququna öz əmlakı ilə təminat verməklə həmin əmlak üzərindəki mülkiyyət hüququnu məhdudlaşdırır. Belə ki, şəxsi borclu öz öhdəliyini yerinə yetirmədiyi halda kreditor girov qoyulmuş və ya ipoteka ilə yüklü edilmiş əmlakın satılmasını və dəyərindən alacağının qarşılanmasını təmin etmək imkanına malik olur (§ 33-34, 37, 44-47, 53, 55).

74. Girov və ya ipoteka hüququ yazılı müqavilənin bağlanması ilə (Mülki Məcəllə, maddə 270.1), yaxud digər əsaslarla meydana gəlir (Mülki Məcəllə, maddə 270.2): məsələn, qanuna əsasən yaranan ipoteka hüququ (Mülki Məcəllə, maddə 252.4, 253.3 və s.).

75. Hansı əsasla yaranmasından asılı olmayaraq, mülki dövriyyədə girov və ya ipoteka saxlayanın məhdud əşya hüququnun təmin edilməsi və qorunması üçün qanunvericilikdə bir sıra müddəalar nəzərdə tutulmuşdur.

76. Belə ki, girovla təminat altına alınmış əsas öhdəlik icra edilmədikdə girov saxlayanın girov predmetini məcburi satdırmaq hüququ, eləcə də alacağın girov predmeti hesabına ödənilməsində girov saxlayanın üstünlük hüquqları təsbit edilmişdir.

77. Üstünlük hüququ dedikdə, girov saxlayanın girov predmetinin mülkiyyətçisinin digər kreditorlarına nisbətən üstün qaydada təminat almaqla (Mülki Məcəllə, maddə 269.7) yanaşı, girov əmlakın çevrildiyi digər maddi dəyərlərdən də üstün təminat almaq imkanı başa düşülür.

78. Bu cür hüquq münasibətlərini tənzimləyən Mülki Məcəllənin 290.1-ci və "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununun 32.1-ci maddələrində göstərilir ki, ipoteka qoyanın ipoteka predmeti olan əşyaya mülkiyyət hüququna qanunla müəyyənləşdirilmiş əsaslar üzrə və qaydada dövlət ehtiyacları üçün özgəninkiləşdirilmə, rekvizisiya və ya

milliləşdirilmə nəticəsində xitam verildikdə və ipoteka qoyana başqa əşya və (və ya) müvafiq əvəz verildikdə ipoteka hüququ əvəz kimi verilmiş əşyaya şamil edilir və ya müvafiq surətdə ipoteka saxlayan ipoteka qoyana çatası əvəzin məbləğindən öz tələbinin üstün ödənilməsi hüququnu əldə edir. Bu hüquqları tam müdafiə olunmayan (əvəz kimi verilən əşya və (və ya) müvafiq əvəz ipoteka predmetinin dəyərindən aşağı olduqda) ipoteka saxlayan əsas öhdəliyin vaxtından əvvəl icrasını tələb edə bilər, tələb yerinə yetirilmədikdə ipoteka qoyanın aldığı müvafiq əvəzə tutmanı yönəldə bilər (§ 43, 54).

79. Eyni qaydada, girovda olan əşyanın kimin xeyrinə sığortalanmasından asılı olmayaraq girov (ipoteka) saxlayanın hüququ var ki, əşyanın itirilməsi və ya zədələnməsinə görə verilən sığorta ödənişindən (əgər hadisə girov saxlayanın cavabdeh olduğu səbəblərdən baş verməyibsə) təminat alsın (Mülki Məcəllə, maddə 269.8 - § 40).

80. Qanunverici girov əmlakın zədələnməsi və ya məhv olması hallarında girov və ya ipoteka saxlayanın hüquqlarının qorunması məqsədilə Mülki Məcəllənin 269.10-cu maddəsində nəzərdə tutmuşdur ki, girov qoyulmuş və ya ipoteka ilə yüklü edilmiş əşya məhv olduqda və ya zədələndikdə, yaxud girov saxlayanın (ipoteka saxlayanın) yanında girov qoyulmuş hüquqa xitam verildikdə və ya bu hüquq pozulduqda əvəz almaq tələbinin irəli sürülməsi hüququ irəli gəlir. Oxşar qayda girovla bağlı Mülki Məcəllənin 287-ci maddəsində nəzərdə tutulmuşdur (§ 41-42).

81. İstinad olunan normaların ortaq cəhəti ondan ibarətdir ki, girov (ipoteka) predmeti sıradan çıxdığı bütün hallarda girov saxlayanın əvəz almaqla predmetin yerinə keçən əmlaka üstün hüquqa malik olan şəxs kimi tutma yönəltmək hüququ vardır.

82. Baxılan iş üzrə tərəflər arasında bağlanmış ipoteka müqaviləsində şərtləşdirilmişdir ki, ipoteka qoyan, ipoteka predmeti üzərindəki mülkiyyət hüququna xitam verildikdə onu eyni dəyərli digər təminatla əvəz etmək öhdəliyi daşıyır (bənd 6.5). Bu şərt girov əmlaka mülkiyyət hüququnun aradan qalxacağı halda onu başqa əmlakla əvəz edəcəyinə dair ipoteka qoyanın ipoteka saxlayana notarial əqd əsasında razılıq verməsinə dəlalət edir.

83. Eyni zamanda ipoteka qoyan Cavabdeh 1-in bağladığı sazişlə sözügedən ipoteka predmeti üzərindəki mülkiyyət hüququnu “XX” MMC-yə verməsi, qeyri-yaşayış sahəsinin sökülməsi və bunun əvəzində ipoteka qoyanın başqa əmlak alması işin mübahisə olunmayan hallarıdır.

84. Belə olan təqdirdə ipoteka predmeti üzərində mülkiyyət hüququna xitam verilməsinin qarşılığı olaraq ipoteka qoyana verilən əmlakdan ipoteka saxlayanın (iddiaçının) əvəz istəməklə alacağını həmin əmlaka yönəltmək tələbinin yuxarıda sadalanan maddi hüquq normalarına və müqavilə şərtinə uyğun olub-olmamasına mübahisəyə mahiyyəti üzrə baxan məhkəmə tərəfindən hüquqi qiymət verilməlidir.

85. O da nəzərə alınmalıdır ki, ipoteka predmetini əvəzləmək barədə ipoteka qoyanın üzərinə qanun norması və özünün razılıq verdiyi müqavilə şərti ilə qoyulan öhdəlik yerinə yetirilmədikdə onun icrasına məcbur etmə ipoteka saxlayanın qaldırdığı iddia üzrə məhkəmənin qərarı əsasında həyata keçirilməlidir.

86. Odur ki, apelyasiya instansiyası məhkəməsinin yuxarıda göstərilən qaydaları nəzərə almadan, işin halları ilə aidiyyəti qanun normalarının (və müqavilənin) dispozisiya şərtləri arasındakı uyğunluğa dair hüquqi dəyərləndirmə aparmadan “tərəflər arasında ipoteka predmetinin əvəzləşdirilməsinə dair razılaşma olmaması, tələbin ipoteka predmetinin əvəzinə verilmiş əmlaka yönəldilməsi iddiası baxımından Mülki Məcəllənin 269.10-cu maddəsinin əhəmiyyət kəsb etməməsi” barədə mövqeyi qanuni və əsaslı sayıla bilməz.

87. Məhkəmə tərkibi onu da qeyd edir ki, hüquqi dəyərləndirmə aparılarkən girov (ipoteka) predmetinin məhv olmasına və ya ona mülkiyyət hüququna xitam verilməsinə görə girov

qoyanın girov predmetini eyni dəyərli başqa əmlakla əvəz etmək vəzifəsinə dair yuxarıda göstərilən normalar tətbiq edilmədiyi halda bunun səbəbləri ümumi mülahizələrlə deyil, konkret arqumentlərlə əsaslandırılmalıdır.

88. O da nəzərə alınmalıdır ki, qanunverici oxşar vəziyyətlərdə (məsələn, ipoteka predmeti dövlət ehtiyacları üçün özgəninkiləşdirildikdə və s.) ipoteka hüququnun ipoteka qoyana verilən başqa əşya və (və ya) müvafiq əvəzə şamil edildiyini açıqca göstərir, ipoteka saxlayanın həmin əvəzin məbləğindən öz tələbinin üstün ödənilməsi hüququnu tanıyır (Mülki Məcəllənin 290.1-ci, "İpoteka haqqında" Qanunun 32.1-ci maddələri).

89. Belə bir hüquq qaydasının tətbiq edildiyi sistemdə ipoteka qoyanın özünün şəxsi mənafeyi üçün ipoteka predmetinə sərəncam verdiyi, bu barədə ipoteka saxlayanı dərhal xəbərdar etmək (§ 52) və əvəz vermək vəzifələrini yerinə yetirmədiyi, üstəlik qarşılığında aldığı əmlakın kredit borcundan dəfələrlə böyük dəyərdə olmasına baxmayaraq borcunu qaytarmadığı halda girov saxlayanın ipoteka predmetinin əvəzində verilən əmlaka girov hüququnun tanınmaması mülki qanunvericiliyin məqsəd və vəzifələrinə, prinsip və şərtlərinə də uyğun olmazdı.

90. Belə ki, mülki dövriyyəni təmin etmək, mülki hüquq subyektlərinin hüquqlarını və qanuni mənafelərini müdafiə etmək Mülki Məcəllənin vəzifələridir (§ 30), mülki hüquqların maneəsiz həyata keçirilməsinə şərait yaradılması, pozulmuş hüquqların bərpasının təmin edilməsi mülki qanunvericiliyin prinsipləridir (§ 31). Həmin Məcəllə öhdəliklərin icrası zamanı vicdanlılıq və dürüst davranış qaydalarını əsas şərtlərdən biri kimi təsbit etməklə (§ 49-50), hüquqdan sui-istifadəni qadağan edir (§ 32,51).

91. Nəzərə alınmalıdır ki, mülki hüquq mübahisələri həll edilərkən aidiyyəti maddi hüquq normaları sadalanan ümumi məqsəd və prinsiplərə zidd şəkildə təfsir və tətbiq edilə bilməz.

92. Kassasiya məhkəməsi onu da qeyd edir ki, ipoteka predmetinə əvəz kimi verilmiş maddi dəyərlər xüsusiyyətinə görə ipotekanın predmeti ola bilərsə (§ 36), kredit borcu üzrə tutmanın yönəldilməsi tələbi Mülki Məcəllənin 317-ci və 319-cu maddələrinə uyğun həll edilməlidir (§ 46-47). Lakin əvəz kimi verilmiş əmlak xüsusiyyətinə görə ipotekanın predmeti olmazsa (məsələn, müqavilədən irəli gələn hüquq, daşınar əşya), Mülki Məcəllənin 269.3-cü maddəsinə uyğun olaraq həmin əmlak üzərində girov hüququnun tanınması (§ 35) və tutmanın ümumi qaydada 295-ci və 297-ci maddələrinə əsasən həmin predmetlərə yönəldilməsi mümkündür (§ 44-45).

93. Bu xüsusatlara işin müəyyən edilmiş faktiki halları və maddi hüquq normaları əsasında mübahisəyə mahiyyəti üzrə baxan məhkəmə qiymət verməlidir.

94. Baxılan işdə apelyasiya məhkəməsi yuxarıda göstərilən halları nəzərə almamış, sadalanan maddi və prosessual hüquq normalarına uyğun bir araşdırma aparmamış, iddiaçının irəli sürdüyü dəlillərə lazımi şəkildə qiymət verməmiş, qətnamə iş üzrə müəyyən edilmiş hallara, tərəflərin qarşılıqlı münasibətinə və qanunvericiliyə uyğun əsaslandırılmamışdır (§ 59-60).

95. Nəzərə alınmalıdır ki, məhkəmə aktlarının əsaslandırılmış olması qəbul edilmiş qərarın iş üzrə tərəflərdə qanuni və ədalətli olduğuna inam yaratmaqla yanaşı, ümumilikdə məhkəmə hakimiyyətinə olan etimadın möhkəmlənməsinə xidmət edir.

96. Məhkəmə kollegiyası vurğulayır ki, mübahisəyə yuxarıda göstərilən şəkildə hüquqi qiymət vermədən çıxarılmış qətnamə əsaslandırılmış məhkəmə aktı kimi qəbul edilə bilməz. Məhkəmə qərarlarının qanunvericiliyin tələblərinə əməl olunmadan, əsaslandırılmamış qaydada çıxarılması həmin qərarları ədalət mühakiməsinin aktı kimi qəbul etməyə imkan vermir.

97. Qeyd olunanları nəzərə alaraq, kassasiya kollegiyası bu qənaətə gəlir ki, apellyasiya məhkəməsinin qətnaməsi ləğv edilməli, iş yeni apellyasiya baxışına göndərilməlidir.

98. Təkrar apelyasiya baxışında tərəflərin izahatları və dəlilləri dinlənilməli, onların hansı səbəbdən qəbul edilib-edilməməsi əsaslandırılmalı, ədalətli məhkəmə araşdırması hüququ təmin olunmaqla mübahisəyə qanunvericiliyə uyğun qaydada yekun hüquqi qiymət verilməlidir.

99. Göstərilənlərə əsasən və MPM-in 416, 417 və 419-cu maddələrini rəhbər tutaraq, Məhkəmə kollegiyası

Qərara aldı:

Kassasiya şikayəti təmin edilsin.

Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)-6087/2023 nömrəli, 12 dekabr 2023-cü il tarixli qətnaməsi ləğv edilsin və iş yeni apellyasiya baxışına göndərilsin.

Qərar qətidir və qəbul edildiyi andan qüvvəyə minir.

Ər-arvadın əmlak bölgüsü

9. 2(102)-87/2024 nömrəli, 2024-cü il 19 fevral tarixli qərar - Ər-arvadın biri əcnəbi olduğu halda birgə nikah dövründə əldə edilmiş torpaq sahəsinə dair payın tanınması

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: ər-arvadın biri əcnəbi olduğu halda birgə nikah dövründə əldə edilmiş torpaq sahəsinə dair payın tanınması.

Nikah müddətində ər-arvadın ümumi vəsaiti hesabına tərəflərdən birinin (Azərbaycan Respublikası vətəndaşının) adına əldə edilmiş torpaq sahəsinə digər tərəfin (əcnəbinin) mülkiyyət hüququnun tanınmasının xüsusiyyətləri.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Qanunvericilik əcnəbiyə imkan verir ki, 3 əsasla - vərəsəlik, bağışlama və ipoteka əqdləri əsasında torpaq sahəsini öz mülkiyyətinə əldə etsin. Torpaq Məcəlləsinin 49-cu maddəsinin 4-cü hissəsinin mənası imkan verir ki, daha bir əsas - ər-arvadın ümumi birgə mülkiyyət hüququnun yaranma əsası da bu sıraya daxil edilsin. Çünki göstərilən 3 əsas üçün ümumi xüsusiyyət odur ki, əcnəbi torpaq sahəsi üzərində mülkiyyət hüququ əldə etmə barədə təklif (oferta) göndərmir, başqası ona torpaq sahəsi vəsiyyət edir, bağışlayır və ya başqası əcnəbinin qarşısında ipoteka ilə təmin edilmiş öhdəliyi icra etmədiyinə görə ipoteka ilə yüklü edilmiş torpaq sahəsi əcnəbinin mülkiyyətinə keçir. Belə hallarda mülkiyyət hüququnun əcnəbiyə keçməsinin qadağan olunması bağışlama, vərəsəlik və ipoteka institutunun mahiyyətinə zidd sayılır. Nikah müddətində ər-arvadın ümumi vəsaiti hesabına tərəflərdən birinin (Azərbaycan Respublikası vətəndaşının) adına əldə edilmiş torpaq sahəsinə digər tərəfin (əcnəbinin) mülkiyyət hüququnun tanınmasının qadağan olunması ailə institutunun mahiyyətinə zidd sayılır. Çünki əcnəbi torpaq sahəsi üzərində mülkiyyət hüququ əldə etmə barədə təklif (oferta) göndərmir, ailə institutu ona imkan verir ki, nikahda olduğu şəxsin adına ər-arvadın ümumi vəsaiti hesabına əvəzli əqd əsasında əldə edilmiş torpaq sahəsi həm də onun mülkiyyəti sayılsın. Əcnəbiyə Azərbaycan Respublikasının vətəndaşı ilə nikaha daxil olmaq və ya əcnəbi ilə nikahda olan Azərbaycan Respublikası vətəndaşına öz adına torpaq sahəsi əldə etmək qanunvericiliklə qadağan olunmayıb. Ailə Məcəlləsinin 32.2.2-ci maddəsinə görə, ər-arvadın ümumi gəlirləri hesabına əldə edilən daşınmaz əşyalar ər-arvaddan kimin adına əldə olunmasından asılı olmayaraq ər-arvadın ümumi birgə mülkiyyətinə daxildir.

Arvadın (ərin) nikah dövründə əldə etdiyi daşınmaz əşya üzərində ərin (arvadın) mülkiyyət hüququ məhkəmə qərarı əsasında deyil, qanuna əsasən meydana gəlir (Mülki Məcəllə, maddə 225.1; Ailə Məcəlləsi 32.1). Başqa sözlə, belə əmlak qanunvericiliyə görə onların mülkiyyətinə düşmüş hesab olunur. Mübahisə olduqda isə məhkəmə bu hüquqi vəziyyəti və əmlak üzərində tərəflərin paylarını təsbit edir.

İddiaçının əcnəbi olması isə daşınmaz əmlak üzərində onun meydana gəlmiş mülkiyyət hüququnun xitam edilməsi ilə bağlı məsələdir.

Mülki Məcəllənin "Mülkiyyət hüququnun itirilməsi" fəslində yer alan 206.1-ci və 206.2-ci maddələrinə əsasən, əgər qanunun yol verdiyi əsaslara görə şəxsin mülkiyyətinə qanunla ona mənsub ola bilməyən əmlak düşmüşsə, həmin əmlakı mülkiyyətçi, qanunla ayrı müddət müəyyənləşdirilməyibsə, əmlaka mülkiyyət hüququnun əmələ gəldiyi andan bir il ərzində özgəninkiləşdirməlidir. Mülkiyyətçi əmlakı bu Məcəllənin 206.1-ci maddəsində göstərilən müddətlərdə özgəninkiləşdirmədikdə, belə əmlak, onun xarakterini və təyinatını nəzərə almaqla, dövlət orqanının ərizəsi üzrə məhkəmənin çıxardığı qərara əsasən məcburi satılaraq satış pulu keçmiş mülkiyyətçiyə verilməli və ya dövlət mülkiyyətinə verilərək dəyəri keçmiş mülkiyyətçiyə ödənilməlidir.

Eyni qayda Torpaq Məcəlləsinin 49-cu maddəsinin 4-cü hissəsində nəzərdə tutulmuşdur.

İddiaçı torpaq sahələrinə olan paylı mülkiyyət hüququnu həmin hüquq dövlət reyestrində qeydə alındığı gündən 1 il müddətində Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun özgəninkiləşdirməlidir. Əgər o, paylı mülkiyyət hüququnu qanunvericiliyə uyğun özgəninkiləşdirmədikdə, müvafiq icra hakimiyyəti orqanı və ya bələdiyyə torpaq sahəsini Torpaq Məcəlləsində nəzərdə tutulmuş qaydada məcburi satın alacaq.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-87/2024

19.02.2024-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından

Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının

İddiaçının Cavabdehə qarşı iş üzrə

Q Ə R A R I

Açar sözlər: ər-arvadın ümumi əmlakı üzərində payın müəyyən edilməsi, şəxsin ona mənsub ola bilməyən əmlaka mülkiyyət hüququna xitam verilməsi

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Əliyev Zaur Əli oğlu (məruzəçi), Abbasov Aqil Əzizağa oğlu və Məmmədov Vidadi Məmməd oğlundan ibarət tərkibdə,

Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(103)-3756/2023 nömrəli mülki iş üzrə 28 iyul 2023-cü il tarixli qətnaməsindən cavabdeh tərəfindən verilmiş kassasiya şikayətinə Ali Məhkəmənin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları

1. Mübahisəyə mahiyyəti üzrə baxan məhkəmələr işin hallarını araşdıraraq aşağıdakıları müəyyən etmişlər:

2. İddiaçı ilə cavabdeh 25.07.2015-ci il tarixdə nikaha daxil olmuş, bu nikahdan **.**.2006-cı il tarixdə X1 adlı uşaqları doğulmuşdur;

3. Hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən RX ******** nömrəli çıxarışına əsasən Ünvan 1-də yerləşən 0.342 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi xüsusi mülkiyyət kimi 24.06.2016-cı il tarixdə Cavabdehin adına qeydiyyatdan keçmişdir;

4. Ünvan 1-də yerləşən 0.318396 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi xüsusi mülkiyyət kimi 24.06.2016-cı il tarixdə Cavabdehin adına qeydiyyatdan keçmişdir;

5. Hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən RX xxxx nömrəli çıxarışına əsasən Ünvan 1-də yerləşən 0.1709 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi xüsusi mülkiyyət kimi 24.06.2016-cı il tarixdə Cavabdehin adına qeydiyyatdan keçmişdir;

6. Hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən RX ******** nömrəli çıxarışına əsasən Ünvan 1-də yerləşən 0.213807 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi xüsusi mülkiyyət kimi 24.06.2016-cı il tarixdə Cavabdehin adına qeydiyyatdan keçmişdir;

7. Hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən elektron çıxarışına əsasən Ünvan 1-də yerləşən 0.152 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi xüsusi mülkiyyət kimi 17.05.2021-ci il tarixdə Cavabdehin adına qeydiyyatdan keçmişdir;

8. Hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən elektron çıxarışına əsasən Ünvan 1-də yerləşən 0.6438 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi xüsusi mülkiyyət kimi 16.05.2021-ci il tarixdə Cavabdehin adına qeydiyyatdan keçmişdir;

9. Hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən elektron çıxarışına əsasən Ünvan 1-də yerləşən 0.1246 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi xüsusi mülkiyyət kimi 23.06.2021-ci il tarixdə Cavabdehin adına qeydiyyatdan keçmişdir;

10. Hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən elektron çıxarışına əsasən Ünvan 1-də yerləşən 0.08572 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi xüsusi mülkiyyət kimi 16.05.2021-ci il tarixdə Cavabdehin adına qeydiyyatdan keçmişdir;

11. Hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən elektron çıxarışına əsasən Ünvan 1-də yerləşən 0.17 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi xüsusi mülkiyyət kimi 17.05.2021-ci il tarixdə Cavabdehin adına qeydiyyatdan keçmişdir;

12. Hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən elektron çıxarışına əsasən Ünvan 1-də yerləşən 0.2567 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi xüsusi mülkiyyət kimi 17.05.2021-ci il tarixdə Cavabdehin adına qeydiyyatdan keçmişdir;

13. Hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən elektron çıxarışına əsasən Ünvan 1-də yerləşən 0.0464 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi xüsusi mülkiyyət kimi 17.05.2021-ci il tarixdə Cavabdehin adına qeydiyyatdan keçmişdir;

14. Hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən elektron çıxarışına əsasən Ünvan 1-də yerləşən 0.3124 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi xüsusi mülkiyyət kimi 15.07.2021-ci il tarixdə Cavabdehin adına qeydiyyatdan keçmişdir;

15. Hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən RX xxxx nömrəli çıxarışına əsasən Ünvan 1-də yerləşən 0.293 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi xüsusi mülkiyyət kimi 24.06.2016-cı il tarixdə Cavabdehin adına qeydiyyatdan keçmişdir;

16. Hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən RX ******** nömrəli çıxarışına əsasən Ünvan 2-də yerləşən 0.08 ha kənd yaşayış məntəqələrinin torpaq sahəsi xüsusi mülkiyyət kimi 31.07.2018-ci il tarixdə Cavabdehin adına qeydiyyatdan keçmişdir;

17. Hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən RX ******** nömrəli çıxarışına əsasən Ünvan 2-də yerləşən 0.06 ha yaşayış məntəqələrinin torpaq sahəsi xüsusi mülkiyyət kimi 31.07.2018-ci il tarixdə Cavabdehin adına qeydiyyatdan keçmişdir;

18. Astara rayonu notariat kontorunda bağlanmış 25.07.2018-ci il tarixli AN-I ********* nömrəli daşınmaz əmlakın alqı-satqı müqaviləsinə əsasən X2 Ünvan 2-də yerləşən 0.08 ha həyətyanı torpaq sahəsini 15.000 manat məbləğinə Cavabdehə satmışdır;

19. Astara rayonu notariat kontorunda bağlanmış 25.07.2018-ci il tarixli AN-I ******** nömrəli daşınmaz əmlakın alqı-satqı müqaviləsinə əsasən X2 Ünvan 2-də yerləşən 0.06 ha həyətyanı torpaq sahəsini 10.000 manat məbləğinə Cavabdehə satmışdır;

20. 09.08.2018-ci il tarixli, AR-I ******** nömrəli etibarnaməyə əsasən İddiaçı Ünvan 2-də yerləşən 0.08 ha həyətyanı torpaq sahəsinə və Ünvan 2-də yerləşən 0.06 ha həyətyanı torpaq sahəsinə dair Cavabdehə sərəncam verməyi, satmağı, bağışlamağı, dəyişdirməyi, ipoteka (girov) qoymağı, icarəyə və ya istifadəyə vermək barədə notariat kontorunda razılıq ərizələrini verməyi, həmin əmlaklar üzərində sərəncam verilməsi ilə bağlı istənilən formalı əqdləri adından imzalamağı və bu tapşırığın yerinə yetirilməsi ilə əlaqədar bütün digər hərəkətləri etməyi etibar etmişdir;

21. 09.08.2018-ci il tarixli, AR-I ********* nömrəli və 09.08.2018-ci il tarixli, AR-I ********* nömrəli etibarnaməyə əsasən Cavabdeh Ünvan 2-də yerləşən 0.08 ha həyətyanı torpaq sahəsinə və Ünvan 2-də yerləşən 0.06 ha həyətyanı torpaq sahəsinə dair sərəncam verməyi, satmağı, bağışlamağı, dəyişdirməyi, ipoteka (girov) qoymağı, icarəyə və ya istifadəyə verməyi, pulunu nəğd və ya depozitdən almağı, müqaviləni imzalamağı, bu hərəkətlərin yerinə yetirilməsi ilə əlaqədar adından ərizə verməyi, Forma- 1 arayışını almağı, qanunla müəyyən edilmiş rüsumları və vergiləri ödəməyi və bu tapşırığın yerinə yetirilməsi ilə əlaqədar bütün digər hərəkətləri etməyi X3-ə etibar etmişdir.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a) Birinci instansiya məhkəməsində icraat

22. İddiaçı məhkəməyə müraciət edərək, cavabdehin adına rəsmiləşdirilmiş birgə nikah dövründə əldə edilmiş aşağıda sadalanan əmlaklar: Ünvan 1-də yerləşən 0.34 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi 24.06.2016-cı il tarixdə, Ünvan 1-də yerləşən 0.17 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi 24.06.2016-cı il tarixdə, Ünvan 1-də yerləşən 0.2138 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi 24.06.2016-cı il tarixdə, Ünvan 1-də yerləşən 0.31 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi 24.06.2016-cı il tarixdə, Ünvan 2-də yerləşən 0.08 ha həyətyanı torpaq sahəsi 31.07.2016-cı il tarixdə, Ünvan 2-də yerləşən 0.06 ha həyətyanı torpaq sahəsi 31.07.2016-cı il tarixdə, Ünvan 1-də yerləşən 0.6438 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi 16.05.2021-ci il tarixdə, Ünvan 1-də yerləşən 0.152 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi 17.05.2021-ci il tarixdə, Ünvan 1-də yerləşən 0.0857 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi 16.05.2021-ci il tarixdə, Ünvan 1-də yerləşən 0.3420 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi 17.05.2021-ci il tarixdə, Ünvan 1-də yerləşən 0.256 ha kənd təsərrüfatı təyinatlı

torpaq sahəsi 17.05.2021-ci il tarixdə, Ünvan 1-də yerləşən 0.0464 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi 17.05.2021-ci il tarixdə, Ünvan 1-də yerləşən 0.1300 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi 17.05.2021-ci il tarixdə, Ünvan 1-də yerləşən 0.17 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi 17.05.2021-ci il tarixdə, Ünvan 1-də yerləşən 0.1246 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi 23.06.2021-ci il tarixdə, Ünvan 1-də yerləşən 0.2994 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi 25.06.2021-ci il tarixdə, Ünvan 1-də yerləşən 0.3124 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi 15.07.2021-ci il tarixdə qeydiyyatdan keçmiş birgə nikah dövründə əldə edilmiş ümumi mülkiyyət olduğundan hər bir torpaq sahəsinin ½ hissəsi üzərində onun, ½ hissəsi üzərində isə cavabdehin pay hüququnun tanınması, mediasiya xərci 60 manat və məhkəmə xərcləri 100 manatın tərəflər arasında bölünməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

23. İddiaçı işin yuxarıda sadalanan faktiki hallarına istinad etməklə tələbini onunla əsaslandırmışdır ki, o, İran İslam Respublikasının vətəndaşıdır. Azərbaycan Respublikası vətəndaşı olan cavabdehlə nikaha daxil olmuşdur. İddiaçı nikah pozulmadan birgə nikah dövründə əldə edilmiş əmlakın bölünməsi barədə 26.08.2022-ci il tarixdə cavabdehə birgə Mediasiya Prosesinin tətbiqi barədə təklif göndərmişdir. Qarşı tərəf mediasiya prosesində iştirak etməkdən imtina etmişdir. 01.10.2022-ci il tarixdə Bakı 15 saylı Mediasiya təşkilatı tərəfindən ilkin mediasiya sessiyasında iştirak edilməməsi barədə Arayış verilmişdir. İddiaçı xarici dövlətin vətəndaşı olduğuna görə və qanunla mülkiyyətində torpaq sahəsinin olması qadağan edildiyinə görə nikah dövründə aldığı torpaq sahələrini arvadı olan cavabdehin adına rəsmiləşdirmişdir.Cavabdehin adına yuxarıda qeyd olunan əmlak birgə nikah dövründə əldə edildiyindən tərəflər arasında bərabər şəkildə bölünməlidir.

24. Cavabdeh yazılı etirazla məhkəməyə müraciət edərək bildirmişdir ki, iddiaçının iddia tələbinin əsası kimi bölgüsü tələb edilən torpaq sahələrinin onunla rəsmi nikahda olduğu müddətdə əldə edildiyinə istinad edilmişdir. Həmçinin qeyd etmişdir ki, güya torpaq sahələrini o, almış, lakin xarici vətəndaş olduğundan adına torpaq sahəsinin qeydiyyata alınmasına yol verilmədiyindən onun adına rəsmiləşdirilmişdir. Qeyd olunan torpaq sahələrinə dair mülkiyyət hüququnun reyestrdə qeydiyyata alındığı zaman iddiaçı ilə rəsmi nikahda olmuşlar. Bu doğru. Lakin həmin torpaq sahələrinin onun tərəfindən və onun vəsaiti hesabına alındığına dair göstərdikləri isə tam yalandır. İlkin olaraq məhkəmənin nəzərinə çatdırır ki, iddiaçı ilə nikahı 2015-ci ildə rəsmiləşdirilmişdir və hazıra kimi də davam edir. Birgə nikahda bir azyaşlı övladı vardır. Lakin bu evlilik faktiki olaraq 2020-ci ilin sonuna kimi davam etmişdir. 2020-ci ildən sonra nikahları kağız üzərində formal qalmışdır. Belə ki, 2020-ci ilin sonunda aralarında baş vermiş münaqişədən sonra münasibətləri pozulmuş və hal-hazıra kimi kəskin olaraq davam edir. 2020-ci ildən sonra ayrı-ayrılıqda yaşamaqla, ər-arvad münasibətlərinə son qoyulmuş, birgə təsərrüfat aparmırlar. Ayda bir-neçə saatlıq görüşməyi də yalnız uşağın xətri üçün məcburiyyətdən irəli gəlir. İddia ərizəsində bölgüsü tələb etdiyi torpaq sahələrinə gəlincə, qeyd etmək istəyir ki, həmin torpaq sahələrinin alınmasına iddiaçı heç bir qəpik beh pul qoymamışdır. 2021-ci ildə alınan torpaq sahələrinin isə ümumiyyətlə ona heç bir aidiyyəti belə yoxdur.

Çünki 2020-ci ildən birgə yaşayış və birgə təsərrüfat aparmaqları olmamışdır. Belə ki, Ünvan 2-də yanaşı yerləşən 0,08 ha və 0.06 ha torpaq sahələri İran vətəndaşı X3-ün pulu ilə onun üçün alınmışdır. Onun tərəfindən də həmin torpaq sahəsi hasara alınmış, orada anbar tikilmişdir və hal-hazırda da onun istifadəsindədir. Tikiliyə quraşdırılmış video kameraları da onun tərəfindən nəzarət olunur. İddiaçı həmin torpaq sahəsinin alınmasında maklerlik etmişdir. Yəni, həmin torpaq sahəsini onun üçün tapmış və onun adına rəsmiləşdirməklə, bir dost kimi ona köməklik etmiş kimi özünü göstərmişdir. Halbuki, həmin torpaq sahəsini cəmi 27.000 manata almış, lakin dost dediyi X3-üni aldadıb, torpağı 94.000 manat aldığını deyib, ondan 67.000 manat artıq pul almışdı. Ünvan 1-də alınmış torpaq sahələri atasının qohum və yaxınlarına məxsus olmuşdur, onlardan satın alınmışdır. Həmin torpaq sahələrindən iki müxtəlif vaxtlarda meyvə bağı salınması üçün alınmışdır. Birinci dəfə atası X4, iddiaçı və X3

bir yerdə 1,54 ha civarında torpaq almışlar və alınma xərcləri də bərabər ödəmişlər. İddiaçının da ortaya qoyduğu pul X3 üçün Astara şəhərində tapdığı torpaq sahəsi üçün artıq aldığı məbləğdən idi. Etibarlı olsun deyə bütün torpaq sahələri adına rəsmiləşdirilmişdir. Daha sonra həmin torpaq sahəsindən üç nəfərə aid olduğundan, 1/3 hissəsi olaraq 0,5 ha hissəsi X3-ün təklif etdiyi özünə aid şirkətin adına alqı-satqısı rəsmiləşdirilmişdir. İddia ərizəsində qeyd olunan 2016-cı ildə alınmış 4 ədəd çıxarışla adına rəsmiləşdirilmiş 1,0338 ha torpaq sahəsi, yuxarıda şərh etdiyi üçünün birgə aldıqları torpaq sahəsinə aiddir. 2021-ci ilin may-iyul aylarında alınmış 11 ədəd çıxarışla adına rəsmiləşdirilmiş 3,3343 ha torpaq sahəsinin isə ümumiyyətlə iddiaçıya heç bir aidiyyəti yoxdur Belə ki, həmin torpaq sahələri adına rəsmiləşdirilsə də atası X4 öz vəsaiti ilə almışdır və hal-hazırda da onun əməli istifadəsindədir. Adı çəkilən torpaq sahələri bir yerdə bitişik sahələrdir, kənd təsərrüfat təyinatlıdır və 0.01 ha sahəsinin qiyməti 40-50 manat arasında razılaşdırılmaqla satın alınmışdır. Bundan başqa əgər 2021-ci ildə iddiaçı həmin torpaq sahələri almış olsaydı belə, ömründə adnaa rəsmiləşdirməzdi. Çünki 2020-ci ilin ortalarında İddiaçı ilə münasibəti pozulmuş və 2020-ci ilin sonlarında isə münasibətləri kəskin şəkildə pisləşmişdi. 2020-ci ilin ortalarından sonra heç bir birgə işləri olmamış, birgə hər hansı əmlak əldə etməmişlər. Əksinə 2020-ci ildən əvvəl əldə etdiyi əşya və əmlakların bölgü tələbi ilə bağlı artıq 3-cü ildir ki, aralarında qırğınlar gedir. Ona görə iddiaçının kənd təsərrüfatı təyinatlı torpaq sahələri ilə bağlı "birgə nikahda öz vəsaiti hesabına əldə etdiyinə" dair göstərdiyi 2016-cı ildə alınmış torpaq sahələrinə nisbətdə qismən, 2021-ci ildə alınmış torpaq sahələrinə və həmçinin həyət yanı torpaq sahəsinə nisbətdə isə tam yalandır. Onun faktiki iştirakı ilə alınmış torpaq sahələri yuxanda qeyd etdiyi 2016-cı ildə alınmış və hazırda onun adına rəsmiləşdirilmiş 1,0338 ha torpaq sahəsinin yarısıdır. Yəni 0,5169 ha hissəsidir. Bölgünü tələb edirsə, yarısı ona aiddir. Həmin torpaq sahələrinin aldığı qiymət də ortadadır. Ona düşən hissəsinin pulunu ödəyə bilər. Qeyd olunanların nəzərə alınmasını və iddianın rədd edilməsini xahiş etmişdir.

25. Məhkəmə iclasında iştirak edən cavabdeh iddianı qismən qəbul edərək bildirmişdir ki, Ünvan 2-də yerləşən 0.08 ha və 0.06 ha həyətyanı torpaq sahələri istisna olmaqla, digər torpaq sahələrinin bölünməsinə etiraz etmir və həmin torpaq sahələri onların deyil, X3-ün vəsaiti hesabına alınmışdır.

26. Məhkəmə iclasında iştirak edən cavabdehin nümayəndəsi (vəkili) iddianı qismən qəbul edərək bildirmişdir ki, Ünvan 2-də yerləşən 0.08 ha və 0.06 ha həyətyanı torpaq sahələri istisna olmaqla, digər torpaq sahələrinin bölünməsinə etiraz etmirlər.

27. Məhkəmə iclasında şahid qismində ifadə vermiş X3 ifadəsində göstərmişdir ki, o, tərəflərin hər ikisini tanıyır, belə ki, onlar ailəvi dost olmuşlar. Ünvan 2-də yerləşən 0.08 ha və 0.06 ha həyətyanı torpaq sahələri onun vəsaiti hesabına cavabdehin Humranın adına alınmışdır. Çünki, o, xarici vətəndaş kimi öz adına torpaq sahəsi alıb, rəsmiləşdirə bilmir.

28. Əmlak Məsələləri Dövlət Xidməti Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri publik hüquqi şəxsin 1 saylı Bakı Ərazi İdarəsinin məhkəməyə ünvanladığı 19.09.2022-ci il tarixli məktubdan görünür ki, Cavabdehin adına Ünvan 1-də yerləşən 0.34 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi 24.06.2016cı il tarixdə, Ünvan 1-də yerləşən 0.17 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi 24.06.2016-cı il tarixdə, Ünvan 1-də yerləşən 0.2138 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi 24.06.2016-cı il tarixdə, Ünvan 1-də yerləşən 0.31 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi 24.06.2016cı il tarixdə, Ünvan 2-də yerləşən 0.08 ha həyətyanı torpaq sahəsi 31.07.2016-cı il tarixdə, Ünvan 2-də yerləşən 0.06 ha həyətyanı torpaq sahəsi 31.07.2016-cı il tarixdə, Ünvan 1-də yerləşən 0.6438 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi 16.05.2021-ci il tarixdə, Ünvan 1-də yerləşən 0.152 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi 17.05.2021-ci il tarixdə, Ünvan 1-də yerləşən 0.0857 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi 16.05.2021-ci il tarixdə, Ünvan 1-də yerləşən 0.3420 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi 17.05.2021-ci il tarixdə, Ünvan 1-də yerləşən 0.2567 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi 17.05.2021-ci il tarixdə, Ünvan 1-də yerləşən 0.0464 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi

17.05.2021-ci il tarixdə, Ünvan 1-də yerləşən 0.1300 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi 17.05.2021-ci il tarixdə, Ünvan 1-də yerləşən 0.17 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi 17.05.2021-ci il tarixdə, Ünvan 1-də yerləşən 0.1246 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi 23.06.2021-ci il tarixdə, Ünvan 1-də yerləşən 0.2994 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi 25.06.2021-ci il tarixdə, Ünvan 1-də yerləşən 0.3124 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi 15.07.2021-ci il tarixdə qeydiyyatdan keçmişdir və hazırda mülkiyyətdədir. Keçmiş Dövlət Torpaq və Xəritəçəkmə komitəsi tərəfindən Ünvan 3-də 0.32 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsinə aid Cavabdehin adına (ümumbirgə pay) JN-**** nömrəli 01.10.1999-cu il tarixli torpağın mülkiyyət hüququna dair dövlət aktı verilmişdir. Cavabdehin adına hazırda Azərbaycan Respublikasının digər ərazilərində qeydiyyatdan keçmiş daşınmaz əmlak aşkar edilməmişdir.

29. Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin (bundan sonra – birinci instansiya məhkəməsi) 2(001)-517/2023 nömrəli, 06 aprel 2023-cü il tarixli qətnaməsi ilə (hakim Rəşad Qoşqarlı) iddia təmin edilmiş, Ünvan 1-də yerləşən 0.34 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi, Ünvan 1-də yerləşən 0.17 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi, Ünvan 1-də yerləşən 0.2138 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi, Ünvan 1-də yerləşən 0.31 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi, Ünvan 2-də yerləşən 0.08 ha həyətyanı torpaq sahəsi, Ünvan 2-də yerləşən 0.06 ha həyətyanı torpaq sahəsi, Ünvan 1-də yerləşən 0.6438 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi, Ünvan 1-də yerləşən 0.152 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi, Ünvan 1-də yerləşən 0.0857 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi, Ünvan 1-də yerləşən 0.3420 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi, Ünvan 1-də yerləşən 0.2567 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi, Ünvan 1-də yerləşən 0.0464 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi, Ünvan 1-də yerləşən 0.1300 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi, Ünvan 1-də yerləşən 0.17 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi, Ünvan 1-də yerləşən 0.1246 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi, Ünvan 1-də yerləşən 0.2994 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi, Ünvan 1-də yerləşən 0.3124 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi bərabər paylara bölünməklə, həmin torpaq sahələrinin ½ (ikidə bir) hissəsinə iddiaçının, ½ (ikidə bir) hissəsinə cavabdeh paylarının müəyyən olunması qət edilmişdir.

30. Birinci instansiya məhkəməsi müəyyən etmişdir ki, tərəflər 25.07.2015-ci il tarixdə rəsmi nikaha daxil olmuş, birgə nikahları dövründə iddia ərizəsində qeyd olunan torpaq sahələrini almışlar. Hazırda tərəflərin nikahı pozulmamış, lakin faktiki olaraq ayrılmışlar. Cavabdeh tərəf əvvəl iddiaya etiraz edib iddianın rədd edilməsini xahiş etsə də, məhkəmə iclasında iddianı qismən qəbul edərək bildirmişdir ki, o, Ünvan 2-də yerləşən 0.08 ha və 0.06 ha həyətyanı torpaq sahələrindən başqa digər torpaq sahələrinin bölünməsinə etiraz etmir. Həmin torpaq sahələrinin bölünməsinə isə ona görə etiraz edir ki, sözügedən torpaq sahələri iddiaçı ilə onun birgə təsərrüfatı hesabına deyil, tanışları X3-ün hesabına alınaraq onun adına rəsmiləşdirilmişdir. Buna səbəb isə sonuncunun xarici vətəndaş kimi torpaq sahəsinin öz adına ala bilməməsi olmuşdur. Cavabdeh etirazının sübutları kimi isə həmin torpaq sahələrinə dair X3 verdiyi etibarnamələr və X3-ün şahid qismində verdiyi ifadəsidir. Məhkəmə qeyd edir ki, cavabdehin etirazının dəlilləri mötəbər sübutlarla təsdiq olunmur. Belə ki, cavabdeh tərəfindən X3 verilmiş etibarnamələr məhz sözügedən torpaq sahələrinin məhz onun vəsaiti hesabına alınmasını təsdiq etmir. X3-ün məhkəmə iclasında verdiyi ifadə də iş materiallarında olan heç bir sübutla dəstəklənmədiyindən məhkəmə şahid ifadəsini də mötəbər sübut kimi qəbul etmir.

31. Birinci instansiya məhkəməsi qanunvericiliyin normalarını rəhbər tutaraq və işin göstərilən hallarını nəzərə alaraq hesab etmişdir ki, iddia təmin edilməli, tərəflərin birgə nikahı dövründə əldə olunmuş torpaq sahələri bərabər paylara bölünməklə, həmin torpaq sahələrinin ½ (ikidə bir) hissəsinə iddiaçının, ½ (ikidə bir) hissəsinə cavabdehin payları müəyyən olunmalıdır.

32. Məhkəmə öz mövqeyini, Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra – Mülki Məcəllə) 225.1-ci, Azərbaycan Respublikası Ailə Məcəlləsinin (bundan sonra – Ailə

Məcəlləsi) 32.1, 32.2.2, 33.1, 36.1, 36.3, 37.1-ci və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra - MPM) 14.2, 77.1, 217.4-cü maddələrinə istinadla əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

33. Cavabdeh apellyasiya şikayəti verərək, birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv edilməsini, iddianın rədd olunması barədə yeni qətnamə çıxarılmasını xahiş etmiş və şikayətini belə əsaslandırmışdır ki, qətnamədə göstərilmiş nəticələr işin hallarına uyğun gəlməmiş, məhkəmə tərəfindən işin halları üzrə tam, hərtərəfli araşdırma aparılmamışdır.

34. Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının (bundan sonra – apellyasiya instansiyası məhkəməsi) 2(103)-3756/2023 nömrəli, 28 iyul 2023-cü il tarixli qətnaməsi ilə (hakimlər N.Cəfərov - sədrlik edən və məruzəçi, İ.Şirinov və E.Kazımov) apellyasiya şikayəti təmin edilməmiş, birinci instansiya məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmışdır.

35. Apellyasiya instansiyası məhkəməsinin mövqeyinə görə apellyasiya şikayətinin birinci dəlili ondan ibarətdir ki, iki torpaq sahəsi - Ünvan 2-də yanaşı yerləşən 0,08 ha və 0,06 ha torpaq sahələri İran İslam Respublikasının vətəndaşı X3-ün pulu ilə onun üçün alınıb, X3 həmin torpaq sahələrini hasara alıb, orada anbar tikib, hazırda torpaq sahələri X3-ün istifadəsindədir, iddiaçı torpaq sahələrinin alınmasında vasitəçilik edib, yəni torpaq sahələrinin X3 üçün tapılmasına köməklik edib. Apellyasiya şikayətinin bu dəlili qətnamənin ləğvinə əsas ola bilməz. Birinci, alqısatqı müqaviləsinə görə, torpaq sahələrinin qiymətini satıcıya alıcı (cavabdeh) ödəyib, müqavilə etibarsız sayılmayıb, ona görə də qiymətin alıcı (cavabdeh) tərəfindən ödənilməsi müqavilə ilə təsdiq olunur. İkinci, həmin pulun alıcıya (cavabdehə) müqavilə bağlanana qədər X3 tərəfindən verildiyini və alıcının məhz həmin pulu satıcıya ödədiyini təsdiq edən sübut yoxdur. Üçüncü, müqavilənin əsasında alıcının (cavabdehin) torpaq sahələri üzərində mülkiyyət hüququ dövlət reyestrində qeydə alınıb. Dövlət reyestrinin məzmununun həqiqiliyi və tamamlığı prezumpsiyasına görə (Mülki Məcəllə, maddə 140), torpaq sahələrinin mülkiyyətçisi X3 deyil, cavabdeh sayılır. Dördüncü, cavabdeh (alıcı) başqa şəxsin - X3-ün mənafeyini müdafiə etmək səlahiyyətinə malik deyil. Əgər X3 torpaq sahəsinə görə kiməsə pul veribsə, ümumi qaydada iddia irəli sürməklə pulunu geri tələb edə bilər. Beşinci, cavabdehin bu dəlili X3-ün mənafeyinin müdafəsinə deyil, öz mənafeyinin müdafiəsinə yönəlib. Belə ki, cavabdeh torpaq sahələrinin ər-arvadın ümümi mülkiyyəti kimi qiymətləndirilməsinə mane olmaq, torpaq sahələrinin yalnız öz mülkiyyətində qalmasına nail olmaq istəyir. Əgər bu dəlil əsas götürülməklə iddia həmin torpaq sahələrinə münasibətdə rədd edilsə, torpaq sahələri yalnız cavabdehin mülkiyyətində qalacaq.

36. Apellyasiya şikayətinin ikinci dəlili ondan ibarətdir ki, iddiaçı İran İslam Respublikasının vətəndaşıdır, qanunvericiliyə görə, əcnəbilər Azərbaycan Respublikasında öz mülkiyyətinə torpaq sahəsi əldə edə bilməz, birinci instansiya məhkəməsi torpaq sahələrinin ½ hissəsinə iddiaçının mülkiyyət hüququnu tanımaqla qanunvericiliyin tələbini pozub.

37. Apellyasiya şikayətinin bu dəlili qətnamənin ləğvinə əsas ola bilməz. İddiaçı həqiqətən İran İslam Respublikasının vətəndaşıdır. Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 48-ci maddəsinin 3-cü hissəsinə və 86-cı maddəsinin 4-cü hissəsinə görə, əcnəbilər Azərbaycan Respublikasında torpaq sahələrini yalnız icarə hüququ əsasında əldə edə bilərlər. Lakin həmin Məcəllənin 49-cu maddəsinin 4-cü hissəsinə görə, xarici hüquqi və fiziki şəxslərə torpaq sahələrinin vərəsəlik, bağışlama və ipoteka əqdləri nəticəsində keçən mülkiyyət hüququ bir il müddətinə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun özgəninkiləşdirilir. Maddədə daha sonra qeyd olunub ki, xarici hüquqi və fiziki şəxslər torpaq sahəsi üzərində olan mülkiyyət hüququnu qanunvericiliyə uyğun özgəninkiləşdirmədikdə, müvafiq icra hakimiyyəti orqanı və ya bələdiyyə torpaq sahəsini bu Məcəllədə nəzərdə tutulmuş qaydada məcburi satın alır.

38. Göründüyü kimi, qanunvericilik əcnəbiyə imkan verir ki, 3 əsasla - vərəsəlik, bağışlama və ipoteka əqdləri əsasında torpaq sahəsini öz mülkiyyətinə əldə etsin. “Normativ hüquqi aktlar

haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 90.4-cü maddəsinə görə, normativ hüquqi aktın mətni və mənası arasında açıq-aşkar fərq olanda genişləndirici şərhə yol verilir. Torpaq Məcəlləsinin 49-cu maddəsinin 4-cü hissəsininin mətni ilə mənası arasında açıq-aşkar fərq olduğuna görə ona genişləndirici şərh verilməlidir. Yəni maddənin mənası imkan verir ki, daha bir əsas - ər-arvadın ümumi birgə mülkiyyət hüququnun yaranma əsası da bu sıraya daxil edilsin. Çünki göstərilən 3 əsas üçün ümumi xüsusiyyət odur ki, əcnəbi torpaq sahəsi üzərində mülkiyyət hüququ əldə etmə barədə təklif (oferta) göndərmir, başqası ona torpaq sahəsi vəsiyyət edir, bağışlayır və ya başqası əcnəbinin qarşısında ipoteka ilə təmin edilmiş öhdəliyi icra etmədiyinə görə ipoteka ilə yüklü edilmiş torpaq sahəsi əcnəbinin mülkiyyətinə keçir. Belə hallarda mülkiyyət hüququnun əcnəbiyə keçməsinin qadağan olunması bağışlama, vərəsəlik və ipoteka institununun mahiyyətinə zidd sayılır. Nikah müddətində ər-arvadın ümumi vəsaiti hesabına tərəflərdən birinin (Azərbaycan Respublikası vətəndaşının) adına əldə edilmiş torpaq sahəsinə digər tərəfin (əcnəbinin) mülkiyyət hüququnun tanınmasının qadağan olunması ailə institunun mahiyyətinə zidd sayılır. Çünki əcnəbi torpaq sahəsi üzərində mülkiyyət hüququ əldə etmə barədə təklif (oferta) göndərmir, ailə institutu ona imkan verir ki, nikahda olduğu şəxsin adına ər-arvadın ümumi vəsaiti hesabına əvəzli əqd əsasında əldə edilmiş torpaq sahəsi həm də onun mülkiyyəti sayılsın. Əcnəbiyə Azərbaycan Respublikasının vətəndaşı ilə nikaha daxil olmaq və ya əcnəbi ilə nikahda olan Azərbaycan Respublikası vətəndaşına öz adına torpaq sahəsi əldə etmək qanunvericiliklə qadağan olunmayıb. Ailə Məcəlləsinin 32.2.2-ci maddəsinə görə, ərarvadın ümumi gəlirləri hesabına əldə edilən daşınmaz əşyalar ər-arvaddan kimin adına əldə olunmasından asılı olmayaraq ər-arvadın ümumi birgə mülkiyyətinə daxildir. Beləliklə, birinci instansiya məhkəməsi iş üzrə düzgün nəticəyə gəlib, qətnamənin ləğv edilməsi üçün əsas yoxdur.

39. Məhkəmə qeyd etmişdir ki, iddiaçı torpaq sahələrinə olan paylı mülkiyyət hüququnu həmin hüquq dövlət reyestrində qeydə alındığı gündən 1 il müddətində Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun özgəninkiləşdirməlidir. Əgər o, paylı mülkiyyət hüququnu qanunvericiliyə uyğun özgəninkiləşdirmədikdə, müvafiq icra hakimiyyəti orqanı və ya bələdiyyə torpaq sahəsini Torpaq Məcəlləsində nəzərdə tutulmuş qaydada məcburi satın alacaq.

40. Məhkəmə kollegiyası öz mövqeyini, Mülki Məcəllənin 225.1-ci və Ailə Məcəlləsinin 32, 32.2.2, 37.1, 37.2-ci maddələrinə, Torpaq Məcəlləsinin 48.3, 49.4, 86.4-cü istinadla əsaslandırmışdır.

Kassasiya şikayətinin və ona qarşı etirazın dəlilləri

Kassasiya şikayətinin dəlilləri

41. Cavabdeh (vəkil) kassasiya şikayəti verərək, apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv edilməsini, işin yenidən baxılması üçün apellyasiya instansiyasına göndərilməsini xahiş etmişdir.

42. Şikayətin dəlilləri ondan ibarətdir ki, iddia tələbi ilə bağlı iş üzrə məhkəmələr müəyyən etdikləri dəlillərə və onlardan irəli gələn halları maddi hüquq normaların tələbləri baxımından düzgün həll etməmişlər. Belə ki, Azərbaycan Respublikası Ailə Məcəlləsinin 32.2.2-ci maddəsinin ər-arvadın ümumi birgə mülkiyyəti ilə bağlı tələbindən göründüyü kimi, əmlakın ər-arvadın birgə əmlak rejiminə daxil olması üçün onların ümumi gəlirləri hesabına əldə edilməsi şərtdir. Yəni əmlakın ər-arvadın ümumi birgə əmlakı sayılması üçün onların birgə nikahda olması yetərli deyildir. Bununla yanaşı əmlakın onların vəsaiti hesabına əldə edilməsi halının mövcudluğu da tələb olunur. Lakin iş üzrə müəyyən edilən dəlillərdən aydın görünür ki, tələbin predmeti olan torpaq sahələri iş üzrə cavabdehin adına rəsmiləşdirilsə də, tərəflərin vəsaiti hesabına deyil, başqasının vəsaiti hesabına əldə edilmiş və əldə edənin də əməli istifadəsindədir.

43. Məhkəmədə müəyyən edilmişdir ki, iddia tələbinin predmetinə aid edilən Ünvan 2-də yanaşı yerləşən 0,08 ha və 0.06 ha torpaq sahələri İran vətəndaşı X3-ün pulu ilə onun üçün alınmışdır. Onun tərəfindən də həmin torpaq sahəsi hasara alınmış, orada anbar tikilmişdir və hal-hazırda da onun istifadəsindədir. İddiaçı həmin torpaq sahəsinin alınmasında maklerlik etmişdir. Yenə həmin torpaq sahəsini onun üçün tapmış və mənim adıma rəsmiləşdirməklə, bir dost kimi ona köməklik etmiş kimi özünü göstərmişdir. Halbuki, həmin torpaq sahəsini cəmi 27.000 manata almış, lakin dost dediyi X3-üni aldadıb, torpağı 94.000 manat aldığını deyib, ondan 67.000 manat artıq pul almışdı. Bundan başqa əmlak bölgüsü elə aparılmalıdır ki, sonradan tərəflər və həmçinin başqaları ziyan görməsin. Təyinatı üzrə istifadəsi mahiyyətini itirməsin.

44. Məhkəmədə müəyyən edilmişdir ki, Ünvan 2-də yanaşı yerləşən 0,08 ha. və 0.06 ha. torpaq sahələri kommersiya obyektinin tikintisi məqsədi üçün əldə edilmişdir. Birləşdirilımiş və bir hasar alınmışdır. Layihələr işlənmiş, təsdiqlənmiş, yer buna uyğun hazırlanmışdır. Bütün bunlara çoxlu məbləğdə pullar xərclənmişdir. Torpaq sahəsinin ½ hissədə bölünməsi layihənin ləğvinə və bunun özü də ziyanlara səbəb olacağı bəllidir.

45. İddiaçının kənd təsərrüfatı təyinatlı torpaq sahələri ilə bağlı“birgə nikahda əldə etdildiyi baxımından” bölünməsi və ½ hissəsini iddiaçının mülkiyyətinə verilməsi barədə gəldiyi nəticə, faktiki əldə etmə ilə yanaşı, iddiaçının xarici İran vətəndaşı olduğu baxımından ümumiyyətlə hüquqa uyğun hesab edilə bilməz. Azərbaycan Respublikasında torpaq sahəsinin xarici vətəndaşların mülkiyyətinə verilməsi yol verilməzdir. Bu bir vərəsəlik halında, o da müvəqqəti qısa müddətə verilməsinə yol verilir. İran vətəndaşı olan iddiaçı torpağa mülkiyyət hüququ əldə edilməsi üçün bölgünü tələb edirsə, yarısı ona aiddir. Həmin torpaq sahələrinin aldıqları qiymət də ortadadır. Ona düşən hissəsinin pulu cavabdehdən tələb edilə bilərdi. Qeyd olunan qanun normasına əsasən, qətnamə mübahisəli hüquq münasibətinin yarandığı zaman qüvvədə olan maddi hüquq normalarına uyğun çıxarılmalı və iş üzrə müəyyən edilmiş hallara və tərəflərin qarşılıqlımünasibətinə uyğun əsaslandırılmalıdır. Lakin məhkəmə torpaq sahələrinin bölünməsi və ½ hissəsinin üzərində iddiaçının hüququnu müəyyən edərkən, iddiaçının xarici vətəndaş olduğunu, həmçinin Ünvan 2-də yerləşən kommersiya obyektinin inşası üçün əldə edilmiş və bir layihə üçün birləşdirildiyi kimi iş üçün əhəmiyyətli olan halları nəzərə almamışdır. Torpaq sahələrinin əldə edilməsi ilə bağlı tərəflərin münasibətini, həmçinin əmlakların əldə edilməsində, əmlakların dəyərinin ödənilməsində tərəflərə aid vəsaitlərin sərf edilmədiyini müəyyən edildiyi halda, iddiaçının mübahisəli əmlakların əldə edilməsində iştirakçılıq vəziyyətini nəzərə almamışdır. Qeyd edilməlidir ki, iddiaçı xarici vətəndaş olduğundan, ona ayrılmaış torpaq payın üzərində mülkiyyət hüququnun müəyyən edilməsi ilə nəticələndiyi baxımından, cavabdehə qarşı torpaq iddiası heç bir halda təmin edilə bilməzdi.

46. Bu halda məhkəmələr cavabdehə qarşı irəli sürülmüş tələbə görə torpaqdan iddiaçıya çatası olan ½ hissəsinin dəyərini müəyyən edib, ödənilməsi öhdəliyini cavabdehin üzərinə qoya bilərdi. Bu da qanunların tətbiqi ilə bağlı prosessual tələblərə uyğun olardı. Lakin məhkəmələr kənd təsərrüfat təyinatlı torpaq sahələrin üzərində xarici olan İran vətəndaşının mülkiyyətinə verməsi ilə bağlı qəbul etdikləri qətnamələr hüquqi əsaslı hesab edilə bilməz.

Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

47. İddiaçı kassasiya şikayətinə qarşı verdiyi etirazda şikayətin təmin edilməməsini, apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin dəyişdirilmədən saxlanılmasını xahiş etmişdir.

Tətbiq edilən hüquq

Azərbaycan Respublikasının Mülki Məcəlləsi

48. Maddə 225.1. Ərlə arvadın nikah dövründə qazandıqları əmlak, əgər nikah kontraktında və ya onlar arasındakı razılaşmada ayrı qayda nəzərdə tutulmayıbsa, onların ümumi mülkiyyətidir.

49. Maddə 206.1. Əgər qanunun yol verdiyi əsaslara görə şəxsin mülkiyyətinə qanunla ona mənsub ola bilməyən əmlak düşmüşsə, həmin əmlakı mülkiyyətçi, qanunla ayrı müddət müəyyənləşdirilməyibsə, əmlaka mülkiyyət hüququnun əmələ gəldiyi andan bir il ərzində özgəninkiləşdirməlidir.

50. Maddə 206.2. Mülkiyyətçi əmlakı bu Məcəllənin 206.1-ci maddəsində göstərilən müddətlərdə özgəninkiləşdirmədikdə, belə əmlak, onun xarakterini və təyinatını nəzərə almaqla, dövlət orqanının ərizəsi üzrə məhkəmənin çıxardığı qərara əsasən məcburi satılaraq satış pulu keçmiş mülkiyyətçiyə verilməli və ya dövlət mülkiyyətinə verilərək dəyəri keçmiş mülkiyyətçiyə ödənilməlidir. Bu zaman əmlakın özgəninkiləşdirilməsinə çəkilən xərclər çıxılır.

Azərbaycan Respublikasının Torpaq Məcəlləsi

51. Maddə 49, hissə 4. Xarici hüquqi və fiziki şəxslərə torpaq sahələrinin vərəsəlik, bağışlama və ipoteka əqdləri nəticəsində keçən mülkiyyət hüququ bir il müddətinə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun özgəninkiləşdirilir. Xarici hüquqi və fiziki şəxslər torpaq sahəsi üzərində olan mülkiyyət hüququnu qanunvericiliyə uyğun özgəninkiləşdirmədikdə, müvafiq icra hakimiyyəti orqanı və ya bələdiyyə torpaq sahəsini bu Məcəllədə nəzərdə tutulmuş qaydada məcburi satın alır.

Azərbaycan Respublikasının Ailə Məcəlləsi

52. Maddə 32.1. Nikah müddətində ər-arvadın əldə etdikləri əmlak onların ümumi birgə mülkiyyəti sayılır.

53. Maddə 34.1. Nikaha daxil olanadək onlara məxsus olan əmlak, habelə nikah dövründə hədiyyə şəklində və ya vərəsəlik qaydasında, digər əvəzsiz əqdlər üzrə əldə etdikləri əmlak ər-arvadın hər birinin ayrıca mülkiyyətindədir (ər-arvadın hər birinin əmlakıdır).

54. Maddə 36.1. Ər-arvadın ümumi əmlakının bölünməsi nikah dövründə, eləcə də onlardan birinin tələbi ilə nikah pozulduqdan sonra, habelə kreditor ödəməni ər-arvadın ümumi əmlakında olan onlardan birinin payına yönəltmək üçün ümumi əmlakın bölünməsi tələbi barədə ərizə verdikdə həyata keçirilir.

55. Maddə 36.3. Mübahisə olduqda, ər-arvadın ümumi əmlakının bölünməsi, eləcə də bu əmlakda ər-arvadın paylarının müəyyən olunması məhkəmə qaydasında həyata keçirilir.

56. Maddə 37.1. Ər-arvad arasındakı müqavilədə başqa hal nəzərdə tutulmayıbsa, onların ümumi əmlakının bölünməsi zamanı bu əmlakdakı payları bərabər hesab edilir.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi

57. Maddə 14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

58. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin əsası kimi istinad etdiyi halları sübut etməlidir.

59. Maddə 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

60. Maddə 407.2. Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir.

61. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

Kassasiya baxışının hədləri

62. Qanunun tələbinə görə, kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə

olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

63. Kassasiya şikayətində qətnamə cavabdeh tərəfindən tam mübahisələndirildiyindən apellyasiya instansiyası məhkəməsinin aktı bütövlükdə yoxlanılır. Aşağıda aparılan hüquqi dəyərləndirmə MPM-nin 416.1-ci maddəsinə uyğun olaraq kassasiya şikayətində göstərilən dəlillər və şikayətin həddi ilə bağlıdır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

64. Məhkəmə kollegiyası hesab edir ki, apellyasiya instansiyası məhkəməsi tərəfindən mübahisəli hüquq münasibətini tənzimləyən maddi hüquq normaları düzgün tətbiq olunmuşdur. İş üzrə düzgün qətnamə qəbul edilməməsi ilə nəticələnən prosessual hüquq normalarının pozulması və ya səhv tətbiq olunması halları müəyyən edilmir. Bu baxımdan, apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv olunması və ya dəyişdirilməsi üçün əsas yoxdur.

65. Mülki Məcəllənin 225.1-ci maddəsinə əsasən, ərlə arvadın nikah dövründə qazandıqları əmlak, əgər nikah kontraktında və ya onlar arasındakı razılaşmada ayrı qayda nəzərdə tutulmayıbsa, onların ümumi mülkiyyətidir.

66. Ailə Məcəlləsinin 32.1-ci maddəsinə əsasən, nikah müddətində ər-arvadın əldə etdikləri əmlak onların ümumi birgə mülkiyyəti sayılır.

67. Nəzərə alınmalıdır ki, ailə birliyi ümumi təsərrüfatı özündə ehtiva etdiyi üçün nikah müddətində əldə edilmiş əmlakın ər-arvadın ümumi vəsaiti hesabına qazanıldığı ehtimal olunur. Bu baxımdan Mülki Məcəllənin 225.1 və Ailə Məcəlləsinin 32.1-ci maddələri, həmçinin nikah dövründə əldə olunmuş (qazanılmış) əmlakın ər-arvadın birgə mülkiyyəti sayılmasına dair qanuni prezumpsiyanı da ehtiva edir.

68. Yuxarıda istinad olunan ümumi qayda ondan ibarətdir ki, əmlak üzərində birgə mülkiyyət hüququnun tanınmasını tələb edən ər (arvad) həmin əmlakın nikah dövründə əldə edildiyini sübut etməlidir. Bu halın sübuta yetirilməsi ərə (arvada) birgə mülkiyyət prezumpsiyasının yaratdığı hüquqi vəziyyətdən istifadə imkanı təmin edir. Yəni, bu halda ər (arvad) əmlakın birgə gəlirlər hesabına, əvəzli olaraq əldə olunmasını və bu səbəbdən özünün də mülkiyyətçi olduğunu sübuta yetirmək vəzifəsi daşımır. Həmin prezumpsiya ilə əmlakın nikah dövründə qazanıldığını sübut edən ərin (arvadın) ümumi birgə mülkiyyətçi olduğu qanuna əsasən ehtimal edilir.

69. Bununla belə, prezumpsiya əksi sübut edilə bilən bir ehtimaldır. Həmin ehtimalın əksini iddia edən şəxs müvafiq sübutlar təqdim etməklə prezumpsiyanı aradan qaldıra bilər.

70. Ər-arvadın birgə mülkiyyəti prezumpsiyasını aradan qaldıran hallar Ailə Məcəlləsinin 34-cü maddəsində göstərilmişdir. Həmin normaya görə, nikaha daxil olanadək ər-arvada məxsus olan əmlak, habelə nikah dövründə hədiyyə şəklində və ya vərəsəlik qaydasında, digər əvəzsiz əqdlər üzrə əldə etdikləri əmlak, eləcə də fərdi istifadə şeyləri (geyim, ayaqqabı və s.) onların hər birinin ayrıca (fərdi) mülkiyyətindədir.

71. Bu ehtimalın əksini iddia edən ər (arvad) sübuta yetirməlidir ki, mübahisəli əmlakı birgə təsərrüfat fəaliyyətlərinin nəticəsi olaraq deyil, şəxsi vəsaiti hesabına və ya bağışlama, vərəsəlik, yaxud digər əvəzsiz əqd əsasında əldə etmişdir.

72. Hazırkı mübahisəyə mahiyyəti üzrə baxan məhkəmələr iş materiallarını araşdıraraq bu qənaətə gəlmişlər ki, üzərində tərəflərin payları müəyyən olunan əmlak birgə nikah dövründə əldə edildiyi üçün onların ümumi mülkiyyətidir. Cavabdeh həmin əmlakın şəxsi mülkiyyəti olması barədə istinad etdiyi halları sübuta yetirə bilməmişdir.

73. Kollegiya bildirir ki, sübutları araşdırmaq və qiymətləndirmək səlahiyyətinə malik olan apellyasiya məhkəməsi tərəfindən işdəki sübutlar araşdırılmış, onlara mülki prosessual qanunvericiliyə əsasən hüquqi qiymət verilməklə yuxarıdakı qənaətə gəlinmiş və məhkəmənin gəldiyi nəticə əsaslandırılmışdır. Kassasiya kollegiyası apellyasiya məhkəməsinin iş üzrə gəldiyi nəticə və əsaslandırma ilə razılaşır.

74. Məhkəmə tərkibi vurğulayır ki, kassasiya instansiyası məhkəməsi sübuta yetirilməyən halların əlavə araşdırılması vəzifəsini öz üzərinə götürmədən mülki prosesdə rəhbər tutulan hüquqi həqiqət prinsipinə uyğun olaraq, yalnız iş üzrə müəyyən edilmiş hallara hüququn düzgün tətbiq edilib-edilmədiyini yoxlayır.

75. Kassasiya şikayətinin digər dəlili ondan ibarətdir ki, iddiaçı əcnəbi olduğu üçün iddia təmin edilə və torpaq sahələri məhkəmə qərarı ilə onun mülkiyyətinə verilə bilməzdi.

76. Bu dəlilə apellyasiya instansiyası məhkəməsi tərəfindən hüquqi qiymət verilmişdir.

77. Kassasiya məhkəməsi həmin mövqe ilə razılaşaraq bildirir ki, arvadın (ərin) nikah dövründə əldə etdiyi daşınmaz əşya üzərində ərin (arvadın) mülkiyyət hüququ məhkəmə qərarı əsasında deyil, qanuna əsasən meydana gəlir (Mülki Məcəllə, maddə 225.1; Ailə Məcəlləsi 32.1). Başqa sözlə, belə əmlak qanunvericiliyə görə onların mülkiyyətinə düşmüş hesab olunur. Mübahisə olduqda isə məhkəmə bu hüquqi vəziyyəti və əmlak üzərində tərəflərin paylarını təsbit edir.

78. Hazırkı işdə də məhkəmələr iddiaçının mülki və ailə qanunvericiliyinə əsasən tanınan mülkiyyət hüququnu və əmlak üzərindəki payını müəyyən etmişlər.

79. İddiaçının əcnəbi olması isə daşınmaz əmlak üzərində onun meydana gəlmiş mülkiyyət hüququnun xitam edilməsi ilə bağlı məsələdir.

80. Belə ki, Mülki Məcəllənin “Mülkiyyət hüququnun itirilməsi” fəslində yer alan 206.1-ci və 206.2-ci maddələrinə əsasən, əgər qanunun yol verdiyi əsaslara görə şəxsin mülkiyyətinə qanunla ona mənsub ola bilməyən əmlak düşmüşsə, həmin əmlakı mülkiyyətçi, qanunla ayrı müddət müəyyənləşdirilməyibsə, əmlaka mülkiyyət hüququnun əmələ gəldiyi andan bir il ərzində özgəninkiləşdirməlidir. Mülkiyyətçi əmlakı bu Məcəllənin 206.1-ci maddəsində göstərilən müddətlərdə özgəninkiləşdirmədikdə, belə əmlak, onun xarakterini və təyinatını nəzərə almaqla, dövlət orqanının ərizəsi üzrə məhkəmənin çıxardığı qərara əsasən məcburi satılaraq satış pulu keçmiş mülkiyyətçiyə verilməli və ya dövlət mülkiyyətinə verilərək dəyəri keçmiş mülkiyyətçiyə ödənilməlidir.

81. Eyni qayda Torpaq Məcəlləsinin 49-cu maddəsinin 4-cü hissəsində nəzərdə tutulmuşdur (§ 51).

82. Apellyasiya instansiyası məhkəməsi qətnaməsində bu qaydaya diqqət çəkərək xüsusilə vurğulamışdır ki, iddiaçı torpaq sahələrinə olan paylı mülkiyyət hüququnu həmin hüquq dövlət reyestrində qeydə alındığı gündən 1 il müddətində Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun özgəninkiləşdirməlidir. Əgər o, paylı mülkiyyət hüququnu qanunvericiliyə uyğun özgəninkiləşdirmədikdə, müvafiq icra hakimiyyəti orqanı və ya bələdiyyə torpaq sahəsini Torpaq Məcəlləsində nəzərdə tutulmuş qaydada məcburi satın alacaq.

83. Kassasiya şikayətinin “əmlak bölgüsü ilə başqalarının ziyan görməsi, torpaq sahəsinin təyinatı üzrə istifadəsi mahiyyətini itirməsi” kimi dəlilləri də əsaslı hesab edilmir. Ona görə ki, hazırkı iş üzrə çıxarılmış məhkəmə aktı ilə torpaq sahələrinin naturada bölünməsi qət edilməmiş, həmin daşınmaz əşyalar üzərindəki ümumi mülkiyyət hüququnda tərəflərin payları müəyyən olunmuşdur.

84. Beləliklə, məhkəmə kollegiyası hesab edir ki, apellyasiya məhkəməsi tərəfindən işin hallarının araşdırılması üçün tərəflərə lazımi şərait yaradıldığından və onların dəlillərinə hüquqi qiymət verildiyindən iş üzrə maddi və prosessual hüquq normaları düzgün tətbiq olunmuşdur, kassasiya şikayətinin dəlilləri qətnamənin ləğv edilməsi üçün əsas təşkil etmir.

85. Ona görə də kassasiya şikayəti təmin olunmamalı, apellyasiya instansiyası məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmalıdır.

86. Göstərilənlərə əsasən və MPM-in 416, 417 və 419-cu maddələrini rəhbər tutaraq, Məhkəmə kollegiyası

Qərara aldı:

Kassasiya şikayəti təmin edilməsin.

Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(103)-3756/2023 nömrəli mülki iş üzrə 28 iyul 2023-cü il tarixli qətnaməsi dəyişdirilmədən saxlanılsın.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

10. 2(102)-1243/2024 nömrəli, 2024-cü il 16 may tarixli qərar - Ər-arvad arasında əmlak bölgüsünə dair barışıq sazişinin müqavilə sərbəstliyi prinsipi çərçivəsində qiymətləndirilməsi

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: ər-arvad arasında əmlak bölgüsünə dair barışıq sazişinin müqavilə sərbəstliyi prinsipi çərçivəsində qiymətləndirilməsi

Ərin birgə nikah dövründən öncə bələdiyyədən alqı-satqı yolu ilə əldə etdiyi torpaq sahəsində tərəflər birgə nikah dövründə fərdi yaşayış evi inşa etmişlər.

Sözügedən torpaq sahəsi və fərdi yaşayış evi birgə nikah dövründə ərin adına xüsusi mülkiyyət hüququ ilə daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmışdır.

Tərəflər həmin çıxarışda qeyd olunan evin və torpaq sahəsinin aralarında bərabər paylarla bölünməsi barədə razılığa gələrək, barışıq sazişi bağlamışlar. Lakin ər həmin sazişi qismən icra edərək, evdən paya dair mülkiyyət hüququnun qeydiyyata alınması barədə ərizə versə də, torpaq sahəsinə dair payın qeydiyyata alınması barədə ərizə verməkdən imtina etmişdir.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

İşə baxmış aşağı instansiya məhkəmələri barışıq sazişini torpaq sahəsinə aid hissədə təsdiq etməkdən o əsasla imtina etmişlər ki, sözügedən əmlak nikahdan əvvəl əldə edilmiş, bu səbəbdən birgə əmlak kimi bölünməsi qanunaziddir. Yəni məhkəmələr ər-arvadın nikahdan əvvəl əldə edilmiş əmlakın bölünməsi barədə razılığa gəlməsini qanunazidd saymışlar.

Yuxarıdakı mövqe ilə razılaşmayan kassasiya kollegiyası ilk növbədə bildirmişdir ki, qanunvericilik mediasiya prosesi nəticəsində bağlanılmış barışıq sazişinin və ya onun bir hissəsinin təsdiq edilməsindən imtinanın qanunaziddlik və başqa şəxslərin mənafeyi kimi 2 halını müəyyən etmişdir. Bunlar barışığın təsdiq olunmasının prosessual şərtlərini özündə ehtiva edir. Belə ki, məhkəmə barışığı təsdiqlədiyi anda onun görünən qanuni tələblərə uyğun olub-olmadığını (subyekt tərkibinə aid şərtləri – fiziki və ya hüquqi şəxsin mövcud olmasını, fəaliyyət qabiliyyətini, sazişi imzalayan təmsilçinin səlahiyyətlərini, razılaşmanın tərəflərin ifadə etdikləri iradələrini əks etdirməsini, sazişin şəxsiyyətin hüquqlarına, məcburi hüquq normalarına, ictimai qaydaya və ya əxlaqa zidd olmamasını, yaxud hansısa şərtin etimad və vicdanlılıq prinsiplərinə zidd olaraq müqavilənin bir tərəfinə zərər vurub-vurmadığını və s.) yoxlamalıdır. Əgər məhkəmə barışığın bu şərtlərə uyğun olmadığı qənaətinə gələrsə onun təsdiqindən imtina etməlidir, əks halda isə onu təsdiqləyir.

Məhkəmə kollegiyası qeyd etmişdir ki, ər-arvadın nikahdan əvvəl əldə edilmiş əmlakın bölünməsi barədə qarşılıqlı razılığa gəlməsi qanunda nəinki qadağan edilməmiş, əksinə bu cür razılığa gəlinməsi imkanı təsbit edilmişdir.

Belə ki, qanunvericiliyə əsasən ər-arvad nikah müqaviləsi ilə ümumi əmlakın rejimi ilə bağlı qanunazidd olmayan istənilən razılığa gələ bilər, o cümlədən mövcud və gələcəkdə əldə edəcəkləri birgə əmlakın qanunla müəyyən olunmuş rejimini dəyişə bilər. Həmçinin ər-arvadın hər birinin əmlakına birgə, paylı və ya ayrıca mülkiyyət rejimi tətbiqi mümkündür. Yəni ər-arvad onların nikahdan əvvəl əldə etdikləri əmlakı da öz iradələrinə uyğun olaraq bölə bilərlər. Bunun səbəbi kimi isə bölgüdə balanslaşdırmanı təmin etmək, güzəştə getmək, digər tərəfi zənginləşdirmək və ya istənilən başqa motivi göstərmək olar.

Mediasiya prosesində tərəflərin arasında bağlanan barışıq sazişi də tərəflərin mübahisəli əmlak münasibətlərinə dair yeni bir hüquqi nəticə - hüquq və öhdəliklər əmələ gətirmək məqsədilə bağladıqları qarşılıqlı ikitərəfli (çoxtərəfli) müqavilədir. Həmin saziş tərəflər arasında əmlakın bölünməsi ilə bağlı mübahisəli vəziyyətin aradan qaldırılması, onları razı salacaq şəkildə mübahisənin həllini təmin etmək məqsədilə könüllülük, tərəflərin hüquq bərabərliyi və əməkdaşlığı sayəsində bağlanılır.

Mediasiyada bağlanmış barışıq sazişinin məhkəmə tərəfindən təsdiqlənməsi ilə bağlı qeyd edilməlidir ki, bu təsdiqlənmə yalnız razılaşmanın məcburi icrasını təmin etmək məqsədi daşıyır. Belə ki, həmin barışıq sazişi əgər sazişdə ayrı şərt nəzərdə tutulmayıbsa, imzalandığı gündən tərəflər üçün məcburi xarakter daşıyır. Başqa sözlə, bu əqdin əmələ gəlməsi, sazişin məhkəmə tərəfindən təsdiq edilməsindən asılı deyildir. Barışıq sazişi ilə tərəflərin hüquq və öhdəlikləri barışıq sazişinin qüvvəyə minməsi ilə əmələ gəlmişdir.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-1243/2024

16.05.2024-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından

Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının

Ərizəçinin maraqlı şəxslər Maraqlı Şəxs 1 və Şəki 1 saylı Mediasiya Təşkilatının Mediatoruna qarşı iş üzrə

Q Ə R A R I

(Açar sözlər: mediasiya prosesi nəticəsində bağlanmış barışıq sazişinin bir hissəsinin təsdiq edilməsi)

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Şəfiyev İspəndiyar Əsəd oğlu (məruzəçi), Əhmədov Əhməd Abbas oğlu və Həsənov Vüqar Təvəkgül oğlundan ibarət tərkibdə,

Ərizəçinin maraqlı şəxslər Maraqlı Şəxs 1 və Şəki 1 saylı Mediasiya Təşkilatının Mediatoruna qarşı "mediasiya prosesi nəticəsində bağlanmış barışıq sazişinin bir hissəsinin təsdiq edilməsi" tələbinə dair iddia üzrə Şəki Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 20 noyabr 2023-cü il tarixli 2(107)-1149/2023 saylı qətnaməsindən Ərizəçi tərəfindən verilmiş kassasiya şikayətinə Ali Məhkəmənin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları

1. Ərizəçi (bundan sonra mətndə ərizəçi) ilə Maraqlı Şəxs 1 14 noyabr 2008-ci il tarixdə nikaha daxil olublar.

2. Onlar nikaha daxil olandan əvvəl - 30.06.2005-ci il tarixdə Maraqlı Şəxs 1 torpaq satın almaq məqsədi ilə Zaqatala şəhər Bələdiyyəsinə müraciət etmiş, Bələdiyyə Şurasının 05 iyul 2005-ci il tarixli 10 nömrəli qərarı ilə bələdiyyə fondundan kənd təsərrüfatına yararsız 0,05 ha torpaq sahəsinin dəyəri normativ qiymətlərdən az olmamaq şərti ilə ödənməklə ona satılması qərara alınmışdır. Torpaq sahəsinin dəyəri olan 720000 manat Maraqlı Şəxs 1 tərəfindən 02 avqust 2005-ci il tarixdə Zaqatala Bələdiyyəsinin X Bank ASC-nin Zaqatala filialında olan bank hesabına ödənilmişdir. Bələdiyyə ilə Maraqlı Şəxs 1-in arasında 03 avqust 2005-ci il tarixdə torpaqların alğı-satqısına dair akt tərtib edilmiş və həmin akt Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Zaqatala rayon şöbəsində 15 avqust 2005-ci il tarixdə *** nömrə ilə qeydiyyata alınmışdır. Ünvan 1-də yerləşən həmin torpaq sahəsi üzərində 2015-ci ildə ümumi sahəsi 81,20 kv.m fərdi yaşayış evi tikilmiş və həmin əmlak Maraqlı Şəxs 1-in adına daşınmaz əmlakın dövlət reyestrində 22.10.2015-ci il tarixdə ****** qeydiyyat nömrəsi ilə qeydiyyata alınmışdır.

3. Tərəflər ailə münasibətlərinə son qoymaq qərarına gəlmiş və nikahın pozulmasından irəli gələn mübahisələrin həlli üçün Şəki 1 saylı Mediasiya Təşkilatının Mediatoruna müraciət etmişlər.

4. Mediasiya prosesi nəticəsində tərəflər əmlakların bölünməsi barədə razılığa gələrək 28 oktyabr 2022-ci il tarixli barışıq sazişi bağlayıblar. Sazişin şərtlərinə görə, Maraqlı Şəxs 1-in mülkiyyəti kimi daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmış Ünvan 1-də yerləşən 0,04 ha torpaq sahəsi və həmin torpaq sahəsi üzərində yerləşən 81.20 kv.metr olan fərdi yaşayış evi birgə nikah dövründə əldə edilmiş əmlak kimi Ərizəçi ilə Maraqlı Şəxs 1-in hər birinə 1/2 pay müəyyən edilməklə bölünür. Həmçinin tərəflər, birgə nikah dövründə əldə edilmiş, ban nömrəsi K********** olan KİA RİO markalı, 2006-cı il istehsalı olan, ** ED *** dövlət nömrə nişanlı minik avtomobilinə Ərizəçinin heç bir iddiasının olmaması barədə razılığa gəliblər.

5. Maraqlı Şəxs 1 barışıq sazişi əsasında Zaqatala rayon 2 saylı notariat ofisinə ərizə yazaraq Ünvan 1-də yerləşən 81.20 kv.metr sahəsi olan fərdi yaşayış evinin ümumi birgə əmlak kimi bölünməsi barədə şəhadətnamə verilməsini xahiş etmişdir. Zaqatala rayon 2 saylı notariat ofisi həmin evə dair tərəflərin ½ hissədə mülkiyyət hüququ haqqında 18.06.2023-cü il tarixli şəhadətnamə vermişdir.

6. Ərizəçi ilə Maraqlı Şəxs 1 arasında olan nikah Zaqatala Rayon Məhkəməsinin 02.03.2023-cü il tarixli, 2(033)-189/2023 nömrəli qətnaməsi ilə pozulmuşdur.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a) Birinci instansiya məhkəməsində icraat

7. Ərizəçi ilə məhkəməyə müraciət edərək, Ərizəçi ilə Maraqlı Şəxs 1 arasında bağlanmış və Şəki 1 saylı Mediasiya Təşkilatının Mediatoru tərəfindən təsdiq edilmiş, 28 oktyabr 2022-ci il tarixli barışıq sazişinin məcburi icrası üçün, həmin sazişin Maraqlı Şəxs 1 tərəfindən icra edilməyən, yəni, "Hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən RX seriyalı ********№-li çıxarişda göstərilən, Maraqlı Şəxs 1-in adına olan, Ünvan

1-də yerləşən 0,04 hektar ölçüdə torpaq sahəsinin tərəflər (Ərizəçi və Maraqlı Şəxs 1) arasında bərabər olaraq hər birinə 1/2 hissədə ayrılması (bölünməsi)" hissəsində təsdiq edilməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

8. Ərizəçi iddia ərizəsini işin yuxarıda qeyd olunan hallarına istinadla belə əsaslandırmışdır ki, Maraqlı Şəxs 1 hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən RX seriyalı ******* №-li çıxarışda göstərilən paylı mülkiyyətində olan, Ünvan 1-də yerləşən 0,04 hektar ölçüdə torpaq sahəsinin 1/2 hissəsinə Ərizəçinin payının müəyyən edilməsi hissəsində 28 oktyabr 2022-ci il tarixli barışıq sazişinin tələblərinə əməl etməkdən imtina etmişdir. Belə ki, Ərizəçi ər və arvadın nikah müddətində əldə etdikləri əmlaka mülkiyyət hüququ haqqında şəhadətnamə almaq üçün müraciət etmiş, lakin Maraqlı Şəxs 1 daşınmaz əmlakın dövlət reyestrindən RX seriyalı ******* №-li çıxarışda göstərilən, mülkiyyətində olan Ünvan 1-də yerləşən fərdi yaşayış evinin 1/2 hissəsinə mülkiyyət hüququ haqqında şəhadətnamə verilməsinə razılıq vermiş, torpaq sahəsini birgə nikah müddətində almadıqlarını bəyan etməklə torpaq sahəsinin 1/2 hissəsinə Ərizəçinin payının müəyyən edilməsinə etiraz etmişdir. Hansı ki, Maraqlı Şəxs 1 alimentin miqdarının az təyin edilməsi və birgə nikah dövründə əldə edilmiş, ban nömrəsi K********** olan KİA RİO markalı, 2006-ci il istehsalı olan, ** ED *** dövlət nömrə nişanlı minik avtomobilinə Ərizəçinin payının müəyyən edilməməsinin müqabilində fərdi yaşayış evinin və 0,04 hektar ölçüdə torpaq sahəsinin aralarında bərabər olaraq bölünməsinə razılıq vermişdir. Əgər, Maraqlı Şəxs 1 barışıq sazişi bağlanan zaman Ünvan 1-də yerləşən 0,04 hektar ölçüdə torpaq sahəsinin 1/2 hissəsinə Ərizəçinin payının müəyyən edilməsindən imtina etsə idi, onda təbii olaraq Ərizəçi alimentin miqdarı ilə razılaşmayacaq, o cümlədən, birgə nikah dövründə əldə edilmiş, ban nömrəsi K********* olan KİA RİO markalı, 2006-ci il istehsalı olan, ** ED *** dövlət nömrə nişanlı minik avtomobilin 1/2 hissəsinə payını tələb edəcəkdi.

9. Maraqlı Şəxs 1 məhkəməyə izahat verərək bildirmişdir ki, ərizədə qeyd edilən və mediasiya prosesi vaxtı birgə nikah dövründə əldə edilmiş əmlakın bölünməsi ilə bağlı razılığa gələrkən, Ünvan 1-də yerləşən 0,04 hektar ölçüdə torpaq sahəsində paylar müəyyən edilmişdir. O, qeyd edir ki həmin torpaq sahəsi nikah bağlanmazdan əvvəl şəxsən onun tərəfindən alınmış əmlakdır və həmin əmlak üzərində Ərizəçinin hər hansı hüququ yoxdur və həmin torpaq birgə nikah dövründə əldə edilmiş əmlak kimi bölünə bilməz. O, ərizə ilə razılaşmır və barışıq sazişinin ərizədə qeyd edilən hissədə təsdiq edilməsindən imtina edilməsini xahiş edir.

10. Maraqlı şəxs Mediator izahat verərək bildirmişdir ki, o Şəki 1 saylı Mediasiya Təşkilatının mediatorudur. Ərizəçi ilə Maraqlı Şəxs 1 arasında tam mediasiya prosesi həyata keçirilmiş və 28 oktyabr 2022-ci il tarixdə barışıq sazişi bağlanmaqla mediasiya prosesi yekunlaşmışdır. Tam mediasiya prosesi zamanı barışıq sazişinin şərtləri müəyyən edilərkən sazişdə yer alan əmlaklara dair sənədlər sazişin tərəfləri olan ərizəçi və maraqlı şəxs tərəfindən təqdim edilmişdir. Ərizədə qeyd edilən torpaq sahəsi daşınmaz əmlakın dövlət reyestrində 2015-ci ildə qeydiyyata alındığından həmin əmlakın da birgə nikah dövründə əldə edilmiş əmlak olduğunu hesab edərək, həmin əmlakla bağlı da payların bölünməsini barışıq sazişinə əlavə etmişlər.

11. Məhkəməyə təqdim edilmiş Zaqatala Rayon İcra Hakimiyyətinin 16 fevral 2015-ci il tarixli 4/196 nömrəli məktubundan görünür ki, Maraqlı Şəxs 1-in müraciətinə əsasən Zaqatala şəhəri şimal-qərb yaşayış massivində mülkiyyətində olan torpaq sahəsində inşası başa çatdırılmış fərdi yaşayış evinə yerində baxış keçirilmiş və binada tikinti-quraşdırma işlərinin yekunlaşdırılmış olması, daxili və xarici suvaq işlərinin tamamlanmış olması, tavanı, döşəməsi qapı və pəncərə bloklarının quraşdırılmış olması, daxili bəzək işlərinin aparılmış olması və yaşayış evinin istismara qəbul edilməsi üçün hazır olması müəyyən edilmiş, fərdi yaşayış evinin inşaat norma və qaydalarına, uyğun inşa edildiyi nəzərə alınmaqla Memarlıq və Tikinti şöbəsi evin qeydiyyata alınmasına etiraz etməmişdir.

12. Zaqatala Rayon Məhkəməsinin 25 iyul 2023-cü il tarixli, 2(033)-759/2023 nömrəli qətnaməsi ilə (hakim Tural Həsənov) Ərizəçinin maraqlı şəxslər Maraqlı Şəxs 1 və Şəki 1 saylı Mediasiya Təşkilatının Mediatoruna qarşı "mediasiya prosesi nəticəsində bağlanmış barışıq sazişinin bir hissəsinin təsdiq edilməsi" tələbinə dair ərizəsinin təmin edilməməsi, Ərizəçi ilə Maraqlı Şəxs 1 arasında bağlanmış və Şəki 1 saylı Mediasiya Təşkilatının Mediatoru tərəfindən təsdiq edilmiş 28 oktyabr 2022-ci il tarixli barışıq sazişinin 1.3-cü bəndində nəzərdə tutulan Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi Yanında Daşınmaz Əmlakın dövlət Reyestri Xidməti, hüquqların dövlət qeydiyyat haqqında daşınmaz əmlakın dövlət reyestrindən RX seriyalı xxxx nömrəli çıxarışda göstərilən, Maraqlı Şəxs 1-in adına olan 0,04 hektar ölçüdə torpaq sahəsinin tərəflər arasında bərabər olaraq hər birinə 1/2 hissəsinin ayrılması (bölünməsi) hissəsində təsdiq edilməsindən imtina edilməsi, Ərizəçi tərəfindən ödənilmiş 100 manat məbləğində dövlət rüsumunun onun özünə aid edilməsi qət edilmişdir.

13. Məhkəmənin mövqeyi ondan ibarət olmuşdur ki, barışıq sazişinin 1.3-cü bəndi qanuna zidd olduğundan barışıq sazişinin həmin hissəsinin təsdiqindən imtina edilməlidir. Belə ki, Maraqlı Şəxs 1-in adına daşınmaz əmlakın dövlət reyestrində 22.10.2015-ci il tarixdə qeydiyyata alınmış Ünvan 1-də yerləşən ümumi sahəsi 81,20 kv.m olan fərdi yaşayış evi Ərizəçi ilə maraqlı şəxsin birgə nikahları dövründə inşa edilməsinə baxmayaraq, həmin fərdi yaşayış evinin yerləşdiyi 0,04 ha torpaq sahəsi Maraqlı Şəxs 1 tərəfindən ərizəçi ilə nikaha daxil olmazdan əvvəl, yəni 2005-ci il tarixdə əldə edildiyindən torpaq sahəsi ərizəçi ilə maraqlı şəxs Maraqlı Şəxs 1-in ümumi birgə mülkiyyəti sayıla bilməz və həmin əmlakın birgə nikah dövründə əldə edilmiş əmlakların siyahısına əlavə edilməklə bölünməsi Maraqlı Şəxs 1-in qanunla qorunan mülkiyyət hüquqlarının pozulması ilə nəticələnə bilər.

14. Ünvan 1-də yerləşən 0,04 ha yaşayış məntəqələrinin torpaqları təyinatlı torpaq sahəsinin dəyəri tərəflər nikaha daxil olmazdan (14 noyabr 2008-ci il) əvvəl, yəni 2 avqust 2005-ci il tarixdə maraqlı şəxs Maraqlı Şəxs 1 tərəfindən Zaqatala Bələdiyyəsinin X Bank ASC-nin Zaqatala filialında olan bank hesabına ödənilmiş, 3 avqust 2005-ci il tarixdə torpaqların alğı-satqısına dair akt tərtib edilmiş və həmin akt Zaqatala rayon torpaq şöbəsində 15 avqust 2005-ci il tarixdə 129 nömrə ilə qeydiyyata alınmışdır. Ərizəçi tərəfindən isə iddia predmeti olan daşınmaz əmlakın maraqlı şəxslə onun ümumi gəlirləri hesabına əldə edilməsinə dair sübut təqdim edilməmişdir.

15. Bundan başqa, məhkəmənin qənaətinə görə Ünvan 1-də yerləşən torpaq sahəsi və üzərində olan fərdi yaşayış evinin Maraqlı Şəxs 1-in adına Daşınmaz Əmlakın Dövlət reyestrində 22.10.2015-ci il tarixdə, yəni tərəflər birgə nikahda olduqları vaxtda xxxx qeydiyyat nömrəsi ilə qeydiyyata alınması əsas vermir ki, həmin torpaq sahəsi ər-arvadın ümumi gəlirləri hesabına əldə edilən əmlak hesab edilsin.

16. Məhkəmə hesab edib ki, mübahisələndirilən torpaq sahəsi tərəflərin ümumi gəlirləri hesabına əldə edilmədiyindən həmin əmlak 14.11.2008 və 19.04.2023-cü illər ərzində ər-arvad olmuş tərəflərin ümumi birgə mülkiyyətlərinə daxil deyil və həmin əmlak nikaha daxil olanadək Maraqlı Şəxs 1-ə məxsus olan əmlak olmaqla onun ayrıca tam mülkiyyətindədir.

17. Məhkəmə iş üzrə gəldiyi nəticənin qanuni əsası kimi Azərbaycan Respublikasının Konstitusiyasının 29-cu maddəsinin 3-cü bəndinə, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 152.1, 152.5, 157.2, 225.1-ci maddələrinə, Azərbaycan Respublikası Ailə Məcəlləsinin 32, 34, 36 və 37-ci maddələrinə və "Mediasiya haqqında" Azərbaycan Respublikası Qanununun 33 və 34-cü maddələrinə istinad etmişdir.

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

18. Ərizəçi qətnamədən apellyasiya şikayəti verərək, birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv edilməsini və ərizənin təmin olunmasına dair qətnamə çıxarılmasını xahiş etmişdir.

19. Apellyasiya şikayəti iddia ərizəsinin dəlillərinə uyğun əsaslandırılmış, əlavə olaraq qeyd olunmuşdur ki, birinci instansiya məhkəməsi tərəfindən maddi və prosessual hüquq normaları pozulmuşdur.

20. Şəki Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(107)-1149/2023 nömrəli, 20 noyabr 2023-cü il tarixli qətnaməsi ilə (hakimlər - Ə. T. Məcidov (sədrlik edən və məruzəçi), M. A. Əsədli, V. İ. Məlikov,) apellyasiya şikayəti təmin edilməmiş, birinci instansiya məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmışdır.

21. Apellasiyası instansiya məhkəməsi birinci instansiya məhkəməsinin gəldiyi nəticə ilə razılaşaraq mövqeyini belə əsaslandırmışdır ki, qanunvericilik tərəflərin öz aralarında razılığa gəlmələrindən asılı olmayaraq, barışıq sazişinin qanuna zidd olmamalı olmasını və qanuna zidd olduğu təqdirdə təsdiq edilməsindən imtina olunmasını imperativ norma olaraq müəyyən etmişdir. Beləliklə, birinci instansiya məhkəməsi qanunun imperativ normasına uyğun hərəkət etməklə hazırki ərizəni rədd etməkdə haqlı olmuşdur.

22. Məhkəmə gəldiyi nəticənin hüquqi əsası kimi Azərbaycan Respublikası Ailə Məcəlləsi 32.1, 32.2.2, 34.1, 34.2, 36.3, 36.9,37.1-ci maddələrinə, “Mediasiya haqqında” Qanunun 33.1, 33.2, 33.3, 34.1, 34.2, 34.4, 34.5-ci maddələrinə, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 9.1, 14.2, 77.1, 88, 217.1-ci maddələrinə istinad etmişdir.

Kassasiya şikayətinin və ona etirazın dəlilləri:

a) Kassasiya şikayətinin dəlilləri

23. Ərizəçi və onun vəkili kassasiya şikayəti verərək, apelyasiya instansiya məhkəməsinin 20 noyabr 2023-cü il tarixli, 2(107)-1149/2023 saylı qətnaməsini ləğv edilməsini, iddianın tam təmin olunması barədə qərar çıxarılmasını xahiş etmişdir.

24. Kassasiya şikayəti apelyasiya şikayətinin dəlilləri ilə eynilik təşkil edərək onunla əsaslandırılmışdır ki, apellyasiya instansiya məhkəməsinin qətnaməsi maddi və prosessual hüquq normaları əhəmiyyətli dərəcədə pozulduğundan və düzgün tətbiq edilmədiyindən qətnamə ləğv olunmalı, kassasiya şikayəti təmin edilməklə, iş üzrə iddia tam təmin edilməklə yeni qərar qəbul edilməlidir. Barışıq sazişinin mübahisələndirilən şərtinin qanuna zidd olması apellyasiya məhkəməsi tərəfindən tam və kifayət qədər dolğun açıqlanmamışdır. Belə ki, qüvvədə olan qanunvericiliyin tələbinə əsasən barışıq sazişi hər-hansı bir mübahisəli məsələ üzrə tərəflərin əldə etdikləri yazılı razılaşmadır. Nə qədər ki, hazırda barışıq sazişinin mübahisələndirilən şərti barədə tərəflər bilavasitə, kənar təsir olmadan razılığı gəlmişlər, ona görə də bu halın qanunsuz olmasını iddia etmək özü qanunsuzluqdur.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

25. Kassasiya şikayətinə qarşı etiraz daxil olmamışdır.

26. Ərizəçinin nümayəndəsi kassasiya şikayəti ilə bağlı ərizə ilə məhkəməyə müraciət edərək, mübahisəni məhkəmədən kənar həll etdiklərini və apelyasiya məhkəməsinin 20 noyabr 2023-cü il tarixli, 2(107)-1149/2023 saylı qətnaməsindən kasasiya şikayətinin geri götürülməsi barədə qərardad çıxarılmasını xahiş etmişdir.

Tətbiq edilən hüquq

Azərbaycan Respublikasının Ailə Məcəlləsi

27. Maddə 32.1. Nikah müddətində ər-arvadın əldə etdikləri əmlak onların ümumi birgə mülkiyyəti sayılır.

28. Maddə 32.2.2. Ər-arvadın ümumi gəlirləri hesabına əldə edilən daşınar və daşınmaz əşyalar, qiymətli kağızlar, kredit təşkilatlarına və s. kommersiya təşkilatlarına qoyulmuş paylar, əmanətlər, kapitaldan olan paylar və əmlakın ər-arvaddan kimin adına əldə olunmasından, yaxud əmanətin kimin adına və ya kim tərəfindən qoyulmasından asılı olmayaraq nikah dövründə ər-arvadın qazandığı hər hansı sair əmlak daxildir.

29. Maddə 34.1. Nikaha daxil olanadək onlara məxsus olan əmlak, habelə nikah dövründə hədiyyə şəklində və ya vərəsəlik qaydasında, digər əvəzsiz əqdlər üzrə əldə etdikləri əmlak ər-arvadın hər birinin ayrıca mülkiyyətindədir (ər-arvadın hər birinin əmlakıdır).

30. Maddə 34.2. Zinət əşyaları istisna olmaqla, fərdi istifadə şeyləri (geyim, ayaqqabı və s.) nikah zamanı ər-arvadın ümumi vəsaiti hesabına əldə edilsə də, ərarvaddan kimin istifadəsində olubsa, ona məxsusdur.

31. Maddə 36.3. Mübahisə olduqda, ər-arvadın ümumi əmlakının bölünməsi, eləcə də bu əmlakda ər-arvadın paylarının müəyyən olunması məhkəmə qaydasında həyata keçirilir.

32. Maddə 36.9. Nikah pozulduqda ər-arvadın ümumi əmlakının bölünməsi haqqında onların tələbinə 3 illik iddia müddəti tətbiq olunur.

33. Maddə 37.1. Ər-arvad arasındakı müqavilədə başqa hal nəzərdə tutulmayıbsa, onların ümumi əmlakının bölünməsi zamanı bu əmlakdakı payları bərabər hesab edilir.

“Mediasiya haqqında” Qanun

34. Maddə 1.0. Bu Qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.0.1. mediasiya – mediatorun (mediatorların) vasitəçiliyi ilə tərəflər arasında yaranmış mübahisənin qarşılıqlı razılıq əsasında həlli ilə bağlı bu Qanunla müəyyən olunan proses;

...

1.0.7. barışıq sazişi – tərəflər arasında mediasiya prosesi nəticəsində əldə edilən yazılı razılaşma;

...

35. Maddə 4.1. Mediasiya tərəflər arasında münaqişə səviyyəsinin azaldılması və onları razı salacaq şəkildə mübahisənin həllini təmin etmək məqsədini daşıyır.

36. Maddə 4.2. Mediasiya aşağıdakı prinsiplər əsasında həyata keçirilir: 4.2.1. könüllülük; 4.2.2. tərəflərin hüquq bərabərliyi və əməkdaşlığı; 4.2.3. mediatorların qərəzsizliyi və müstəqilliyi; 4.2.4. mediasiya prosesinə müdaxilənin yolverilməzliyi; 4.2.5. konfidensiallıq.

37. Maddə 33.1. Barışıq sazişi tərəflər arasında yazılı formada bağlanır. Barışıq sazişində müqavilənin tarixi və tərtib olunduğu yer; tərəflər haqqında məlumat; mübahisənin predmeti; mediator (mediatorlar) və mediasiya prosesi mediasiya təşkilatı vasitəsilə həyata keçirildikdə mediasiya təşkilatı haqqında məlumatlar; mübahisənin həlli istiqamətində tərəflərin qəbul etdiyi şərtlər, həmin şərtlərin yerinə yetirilməsinin üsul və müddətləri; barışıq sazişinin şərtlərinin icra edilməməsinin və ya düzgün icra edilməməsinin nəticələri; Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, bu Qanuna və digər normativ hüquqi aktlara uyğun olaraq başqa şərtlər göstərilir.

38. Maddə 33.2. Barışıq sazişi tərəflər və mediator (mediatorlar) tərəfindən imzalanır. Barışıq sazişinin nüsxələri tərəflərin və təqdim ediləcəyi orqanların (qurumların) sayına uyğun olaraq tərtib olunur.

39. Maddə 32.3. Barışıq sazişi qanuna və bu Qanunun 3.3-cü maddəsinin birinci cümləsinin müddəalarına zidd olmamalıdır.

40. Maddə 34.1. Barışıq sazişi, əgər sazişdə ayrı şərt nəzərdə tutulmayıbsa, imzalandığı gündən tərəflər üçün məcburi xarakter daşıyır. Barışıq sazişində tərəflər arasında ayrı müddət müəyyən edilməyibsə barışıq sazişi imzalandığı gündən 10 gün müddətində könüllü şəkildə icra olunmalıdır.

41. Maddə 34.2. Barışıq sazişinin könüllü icrasından boyun qaçırma Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq barışıq sazişində müəyyən olunan məsuliyyətə səbəb olur.

42. Maddə 34.3. Əgər barışıq sazişinin könüllü icrasından imtina olunsa, tərəf (o cümlədən məhkəmə baxışında olan işlər üzrə tərəf) barışıq sazişinin məcburi icrası üçün məhkəməyə müraciət edə bilər

43. Maddə 34.4. Barışıq sazişi məcburi icra edilməsi üçün məhkəmə tərəfindən müvafiq qaydada təsdiq olunur (bu Qanunun 34.5-ci maddəsinin tələbləri nəzərə alınmaqla).

44. Maddə 34.5. Barışıq sazişi bu Qanunun 33.3-cü maddəsinə zidd olduqda, onun təsdiq edilməsindən imtina olunur.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi

45. Maddə 14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

46. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

47. Maddə 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

48. Maddə 355-23.1. "Mediasiya haqqında" Azərbaycan Respublikası Qanununda müəyyən edilmiş müddət ərzində mediasiya prosesi nəticəsində əldə edilən barışıq sazişi könüllü qaydada icra edilmədikdə və ya barışıq sazişinin könüllü icrasından imtina olunduqda, ərizəçi barışıq sazişinin məcburi icrası üçün barışıq sazişinin təsdiq edilməsi barədə (barışıq sazişinin bu Məcəllənin 191.2-1-ci maddəsinə uyğun olaraq təsdiq edildiyi hal istisna olmaqla) məhkəməyə müraciət edə bilər.

49. Maddə 355-25.3. Məhkəmə ərizəyə baxarkən bu Məcəllənin 355-26-cı maddəsində sadalanmış halların olub-olmadığını müəyyən edir və barışıq sazişinin təsdiq edilməsi və ya təsdiq edilməsindən imtina olunması barədə qətnamə qəbul edir.

50. Maddə 355-26.1. Məhkəmə aşağıdakı hallarda barışıq sazişinin və ya onun bir hissəsinin təsdiq edilməsindən imtina edir:

355-26.1.1. barışıq sazişi və ya onun bir hissəsi qanuna zidd olduqda;

355-26.1.2. barışıq sazişi mediasiyada iştirak etməyən üçüncü şəxslərin və ya məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan, yaxud məhdud fəaliyyət qabiliyyətli hesab edilən şəxslərin hüquqlarına toxunulan mübahisələr üzrə keçirilmiş mediasiya prosesinin nəticəsində bağlanıldıqda.

51. Maddə 407.2. Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir.

52. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

53. Maddə 417.1.4. Kassasiya məhkəməsi işə baxarkən apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadını tamamilə, yaxud qismən ləğv edib apellyasiya instansiyası məhkəməsində müəyyən edilmiş hallar və sübutlar əsasında yeni qərar qəbul edə bilər.

Kassasiya baxışının hədləri

54. Kassasiya instansiyası məhkəməsi şikayətin işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına dair dəlilləri üzrə araşdırma aparmır və onlara qiymət vermir (§ 55).

55. Kassasiya instansiyası məhkəməsi müstəsna olaraq hüquqi məsələlərə baxmaqla apelyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır (§ 54).

56. Qanunun tələbinə görə kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

57. Ərizəçi kassasiya şikayətində apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin tamamilə ləğv edilməsini tələb etdiyinə görə qətnamənin əsaslılığı tam yoxlanılır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

58. Məhkəmə kollegiyası aşağıdakılara əsasən hesab edir ki, apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi hüquq normalarının tələbləri pozulduğuna görə kassasiya şikayəti qismən təmin edilməli, apellyasiya instansiyası məhkəməsinin qətnaməsi ləğv edilməli və iş üzrə yeni qərar çıxarılmaqla iddia tələbi təmin edilməlidir.

59. İlk növbədə qeyd olunmalıdır ki, Ərizəçinin nümayəndəsi – vəkili məhkəməyə ünvanladığı ərizədə mübahisə üzrə razılığa gəldiklərini nəzərə alaraq kassasiya şikayətinin geri görütürülməsi barədə qərardad çıxarılmasını xahiş etmişdir. Lakin məhkəmə kollegiyası mübahisənin qarşılıqlı razılıq əsasında həll edilməsini təsdiq edən hər hansı sübut təqdim edilmədiyinə, işə yazılı icraat qaydasında baxıldığına görə kassasiya şikayətinin geri qaytarılması barədə ərizənin üçüncü şəxlərin hüquq və mənafelərinə toxunmasını müəyyən etmək mümkün olmadığı üçün kassasiya şikayətinin geri qaytarılması barədə vəsatəti təmin etməmişdir.

60. İşin məhkəmələr tətəfindən müəyyən olunmuş hallarından göründüyü kimi, Ünvan 1-də yerləşən torpaq sahəsi üzərində 2015-ci il tarixdə ümumi sahəsi 81,20 kv.m fərdi yaşayış evi tikilmiş və həmin əmlak Maraqlı Şəxs 1-in adına daşınmaz əmlakın dövlət reyestrində 22.10.2015-ci il tarixdə ********* qeydiyyat nömrəsi ilə qeydiyyata alınmışdır. Qeyd olunan torpaq sahəsi Maraqlı Şəxs 1 tərəfindən nikaha daxil olandan əvvəl bələdiyyədən alğı-satqı yolu ilə əldə edilmiş, torpaq sahəsinin üzərində olan ev isə tərəflərin birgə nikah müddətində inşa edilmişdir. Tərəflər sözügedən çıxarışda əksini tapmış evin torpaq sahəsinin aralarında bərabər paylarla bölünməsi barədə razılığa gələrək, barışıq sazişi bağlamışdır. Lakin Maraqlı Şəxs 1 barışıq sazişini qismən icra edərək, evdən ½ hissədə paya dair mülkiyyət hüququnun qeydiyyata alınması barədə ərizə versə də, torpaq sahəsinə ½ hissədə payın qeydiyyata alınması barədə ərizə verməkdən imtina etmişdir.

61. İşə baxmış məhkəmələr barışıq sazişinin torpaq sahəsinə aid hissədə təsdiq edilməsindən imtina etməsini onunla izah ediblər ki, torpaq sahəsi nikahdan əvvəl əldə edildiyinə görə birgə əmlak kimi bölünməsi qanuna ziddir. Başqa sözlə, məhkəmə ər-arvadın nikahdan əvvəl əldə edilmiş əmlakın bölünməsi barədə razılığa gəlməsini qanuna zidd sayıb.

62. Məhkəmə kollegiyası apelyasiya instansiyası məhkəməsinin gəldiyi nəticə ilə razılaşmayaraq qeyd edir ki, bir qayda olaraq nikah müddətində ər-arvadın əldə etdikləri əmlak onların ümumi birgə mülkiyyəti sayılır. Ər-arvadın birgə mülkiyyətinin rejimi onların əmlakının qanuni rejimi hesab olunur. Qeyd olunmalıdır ki, ər-arvadın birgə mülkiyyətin qanuni rejimini dəyişib birgə, paylı və ya ayrıca mülkiyyət rejimi tətbiq etmək hüququ vardır.

63. Belə bir vasitə ər-arvadın arasında bağlanan nikah müqaviləsidir. Ailə Məcəlləsinin 38.1-ci maddəsində nikah müqaviləsinin anlayışı müəyyən edilərək göstərilir ki, nikah müqaviləsi nikaha daxil olan şəxslər arasında bağlanan, nikah dövründə və (və ya) nikah pozulduqda ər-arvadın əmlak hüquqlarını və vəzifələrini müəyyən edən sazişdir.

64. Ailə Məcəlləsinin 38.2-ci maddəsinə görə nikah müqaviləsi ilə ər-arvad birgə mülkiyyətin qanunla müəyyən olunmuş rejimini dəyişərək, ümumi əmlaka, onun ayrı-ayrı növlərinə və ya ər-arvadın hər birinin əmlakına birgə, paylı və ya ayrıca mülkiyyət rejimi tətbiq edə bilərlər.

65. Nikah müqaviləsi ər-arvadın mövcud olan və gələcəkdə əldə edəcəkləri əmlaka dair bağlana bilər (Ailə Məcəlləsinin 38.3-cü maddəsi).

66. Ailə Məcəlləsində bəhs olunan “ər-arvadın hər birinin əmlakı” dedikdə, nikaha daxil olanadək onlara məxsus olan əmlak, habelə nikah dövründə hədiyyə şəklində və ya vərəsəlik qaydasında, digər əvəzsiz əqdlər üzrə əldə etdikləri əmlak başa düşülür (Ailə Məcəlləsinin 34.1-ci maddəsi).

67. Göründüyü kimi ər-arvad nikah müqaviləsi ilə ümumi əmlakın rejimi ilə bağlı qanuna zidd olmayan istənilən razılığa gələ bilər, o cümlədən mövcud və gələcəkdə əldə edəcəkləri birgə əmlakın qanunla müəyyən olunmuş rejimini dəyişə bilər. Həmçinin ər-arvadın hər birinin əmlakına birgə, paylı və ya ayrıca mülkiyyət rejimi tətbiq edə bilərlər. Yəni ər-arvad onların nikahdan əvvəl əldə etdikləri əmlakı da öz iradələrinə uyğun olaraq bölə bilərlər. Bunun səbəbi bölgüdə balanslaşdırmanı təmin etmək, güzəştə getmək, digər tərəfi zənginləşdirmək və ya istənilən başqa mötiv ola bilər.

68. Beləliklə, ər-arvadın nikahdan əvvəl əldə edilmiş əmlakın bölünməsi barədə qarşılıqlı razılığa gəlməsi qanunda nəinki qadağan edilməmiş, əksinə bu cür razılığa gəlməsi imkanı təsbit edilmişdir.

69. Mediasiya prosesində tərəflərin arasında bağlanan barışıq sazişi də, tərəflərin mübahisəli əmlak münasibətlərinə dair yeni bir hüquqi nəticə - hüquq və öhdəliklər əmələ gətirmək məqsədilə bağladıqları qarşılıqlı ikitərəfli (çoxtərəfli) müqavilədir. Həmin saziş tərəflər arasında əmlakın bölünməsi ilə bağlı mübahisəli vəziyyətin aradan qaldırılması, onları razı salacaq şəkildə mübahisənin həllini təmin etmək məqsədilə könüllülük, tərəflərin hüquq bərabərliyi və əməkdaşlığı sayəsində meydana gəlmişdir.

70. Müqavilə dedikdə, iki və ya daha artıq şəxsin hüquqi nəticə əmələ gətirmək üçün ifadə etdikləri və bir-birinə uyğun olan iradə bəyanları başa düşülür. Başqa sözlə, şəxslər ifadə etdikləri iradələri ilə özlərinin mülki hüquq və vəzifələrini əmələ gətirir, dəyişdirir və ya xitam edirlər. İradə bəyanı şifahi, sadə yazılı və ya rəsmi (notarial) formada, birtərəfli və ya müqavilə şəklində (ikitərəfli və ya çoxtərəfli) ola bilər, məsələn, vəsiyyətnamə, etibarnamə, müqavilə və s. (Mülki Məcəllə, maddə 324.1, 324.2, 389.1, 406).

71. Məhkəmə kollegiyası mediasiyada bağlanmış barışıq sazişinin məhkəmə tərəfindən təsdiqlənməsinin xüsusiyyətləri ilə bağlı qeyd edir ki, mediasiya prosesinin nəticəsində bağlanmış barışıq sazişi əgər sazişdə ayrı şərt nəzərdə tutulmayıbsa, imzalandığı gündən tərəflər üçün məcburi xarakter daşıyır ("Mediasiya haqqında" Qanunun 34.1-ci maddəsi). Başqa sözlə, bu əqdin əmələ gəlməsi, sazişin məhkəmə tərəfindən təsdiq edilməsindən asılı deyildir. Barışıq sazişi ilə tərəflərin hüquq və öhdəlikləri barışıq sazişinin qüvvəyə minməsi ilə əmələ gəlmişdir.

72. Mediasiya prosesi nəticəsində əldə edilən barışıq sazişinin məhkəmə tərəfindən xüsusi icraatda təsdiqlənməsi isə yalnız razılaşmanın məcburi icrasını təmin etmək məqsədi daşıyır ("Mediasiya haqqında" Qanunun maddə 34.4-cü maddəsi, MPM-nin 35523.1-ci maddəsi).

73. Belə ki, "Mediasiya haqqında" Qanunun 34.5-ci maddəsinə görə barışıq sazişi bu Qanunun 33.3-cü maddəsinə zidd olduqda, onun təsdiq edilməsindən imtina olunur.

74. Həmin Qanunun 33.3-cü maddəsində barışıq sazişinin qanuna və bu Qanunun 3.3-cü maddəsinin birinci cümləsinin müddəalarına zidd olmamasından bəhs edilir.

75. Həmin Qanunun 3.3-cü maddəsində deyilir ki, bu Qanunun 3.1-ci maddəsində nəzərdə tutulan mübahisələr mediasiyada iştirak etməyən üçüncü şəxslərin və ya məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan, yaxud məhdud fəaliyyət qabiliyyətli hesab edilən şəxslərin hüquqlarına toxunduqda belə mübahisələr üzrə mediasiya keçirilə bilməz. Həmin hallar aşkar edildikdə mediator (mediasiya təşkilatı), tərəflər və ya onlardan biri həmin mübahisələr üzrə mediasiya prosesindən imtina edirlər.

76. Həmçinin MPM-nin 355-26.1-ci maddəsinə görə barışıq sazişi və ya onun bir hissəsi qanuna zidd olduqda barışıq sazişinin təsdiq edilməsindən imtina edilir.

77. Bu normalarda göstərilən qanunazidlik və ya başqa şəxslərin mənafeyi barışığın təsdiq olunmasının prosessual şərtlərini özündə ehtiva edir. Çünki əsas təyinatı tərəflərin və məhkəmənin prosessual hərəkətlərini tənzimləmək olan MPM-in həmin normalarının məqsədi təsdiqetmənin prosedurunu (üsulunu) müəyyən etməkdir. Belə ki, məhkəmə önündə barışıq, prosessual icraat olduğundan onun təsdiqlənməsi də prosessual hüquqa tabedir. Bu səbəbdən

məhkəmə barışığı təsdiqlədiyi anda onun görünən qanuni tələblərə uyğun olub-olmadığını (subyekt tərkibinə aid şərtləri – fiziki və ya hüquqi şəxsin mövcud olmasını, fəaliyyət qabiliyyətini, sazişi imzalayan təmsilçinin səlahiyyətlərini, razılaşmanın tərəflərin ifadə etdikləri iradələrini əks etdirməsini, sazişin şəxsiyyətin hüquqlarına, məcburi hüquq normalarına, ictimai qaydaya və ya əxlaqa zidd olmamasını, yaxud hansısa şərtin etimad və vicdanlılıq prinsiplərinə zidd olaraq müqavilənin bir tərəfinə zərər vurub-vurmadığını və s.) yoxlayır. Əgər məhkəmə barışığın bu şərtlərə uyğun olduğu qənaətinə gələrsə, onu təsdiqləyir, əks halda təsdiqdən imtina edir.

78. Mediasiya prosesi nəticəsində bağlanmış barışıq sazişinə məhkəmənin məhz xüsusi icraatda və on gün müddətində baxması (MPM, fəsil 40-7) proseduru onu göstərir ki, belə təsdiqləmə (yaxud imtina) prosessual mahiyyət daşımaqla, mübahisəli maddi hüquqi məsələlərin araşdırılmasını ehtiva etmir (Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki və Kommersiya kollegiyalarının "Məhkəmə qərarı ilə təsdiq edilmiş barışıq sazişinin etibarsızlığı barədə iddianın mümkünlüyünə dair qanunvericiliyin tətbiqi məsələləri üzrə" 23 fevral 2024-cü il tarixli, 01/2024 saylı qərarının 47-ci bəndi).

79. Göründüyü kimi, apellyasiya instansiyası məhkəməsinin 28.10.2022-ci il tarixli barışıq sazişinin 0,04 hektar ölçüdə torpaq sahəsinin tərəflər arasında bərabər olaraq hər birinə 1/2 hissəsində ayrılması barədə şərtinin qanuna zidd olması və bu səbəbdən sazişin təsdiq edilməsinin yolverilməzliyi barədə gəlinən nəticə əsasszıdır.

80. Məhkəmə kollegiyası yuxarıda göstərilənlərə əsasən və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 416-419-cu madələrini rəhbər tutaraq

Qərara aldı:

Kassasiya şikayəti təmin edilsin.

Şəki Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 2(107)-1149/2023 nömrəli iş üzrə 20 noyabr 2023-cü il tarixli qətnaməsi ləğv edilsin. İş üzrə yeni qərar çıxarılmaqla, Ərizəçi ilə Maraqlı Şəxs 1 arasında bağlanmış və Şəki 1 saylı Mediasiya Təşkilatının Mediatoru tərəfindən təsdiq edilmiş, 28 oktyabr 2022-ci il tarixli barışıq sazişinin məcburi icrası üçün, həmin saziş "Hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən RX seriyalı ******* №-li çıxarişda göstərilən, Maraqlı Şəxs 1-in adına olan, Ünvan 1-də yerləşən 0,04 hektar ölçüdə torpaq sahəsinin tərəflər arasında bərabər olaraq hər birinə 1/2 hissəsində ayrılması (bölünməsi)" hissəsində təsdiq edilsin.

Qərar qətidir və qəbul edildiyi andan qüvvəyə minir.

Yaşayış binasının tərkib hissəsinə mülkiyyət hüququ

11. 2(102)-445/2025 nömrəli, 2025-ci il 2 iyun tarixli qərar - Çoxmənzilli binanın sahə mülkiyyətçilərinin binanın ümumi əmlakına paylı mülkiyyət hüququna müdaxilənin əsasları, binanın ümumi əmlakının idarə edilməsi məsələləri ilə bağlı subyektiv hüquq.

X Ü L A S Ə

Kateqoriyası: Çoxmənzilli binanın sahə mülkiyyətçilərinin binanın ümumi əmlakına paylı mülkiyyət hüququna müdaxilənin əsasları, binanın ümumi əmlakının idarə edilməsi məsələləri ilə bağlı subyektiv hüquq.

Mübahisəli hüquqi məsələnin qısa məzmunu:

Cavabdeh MMC ilə çoxmənzilli yaşayış binasının sakinləri arasında binaya xidmətlərin göstərilməsinə dair müqavilələr bağlanmış və MMC tərəfindən binadakı liftlərdə kartla istifadə sistemi tətbiq edilmişdir.

Hazırda sakinlərdən bir neçəsi ümumən kart sisteminin ləğvi ilə yanaşı, xidmət haqqının ödəməməsi səbəbilə MMC tərəfindən liftdən istifadə kartlarının deaktiv edilməsinin qadağan edilməsi barədə iddia qaldırmışlar.

Birinci instansiya məhkəməsi iddianı tam rədd etmiş, apellyasiya məhkəməsi isə yeni qətnamə qəbul etməklə, liftlərdə kart sisteminin ləğv edilməsi hissəsində təmin etmişdir. Kassasiya instansiyası məhkəməsi aşağıda qeyd olunanlara əsasən bu mövqe ilə razılaşmamışdır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Mülki Məcəllənin 227.1-ci və Mənzil Məcəlləsinin 35.1-ci maddələrinə əsasən çoxmənzilli binanın ümumi əmlakı, o cümlədən liftlər, bina sakinlərinin ümumi paylı mülkiyyətindədir.

Mülkiyyətçinin ona mənsub əmlaka (əşyaya) öz istədiyi kimi sahib olmaq, ondan istifadə etmək və ona dair sərəncam verməsi dövlət tərəfindən tanınır və qorunur, bununla belə bu hüquq da mütləq deyil, qanunda və ya müqavilədə müəyyən edilən məhdudiyyətlərə məruz qala bilər (Mülki Məcəllə, maddə 152.3). Bunlardan hər hansı birinin olmaması istənilən digər əsaslarla mülkiyyət hüququna müdaxiləni istisna edir. Çünki mülkiyyət hüququnun, o cümlədən xüsusi mülkiyyət hüququnun qanunla qorunması konstitusion hüquqdur.

Baxılan işdə belə bir qanuni əsas nə Mülki, nə Mənzil Məcəllələrində, nə də digər qanunlarda nəzərdə tutulmayıb, eyni zamanda tərəflər arasında bağlanmış xidmət müqaviləsində də belə bir məhdudlaşdırıcı əsas mövcud deyil.

O da qeyd olunmalıdır ki, çoxmənzilli binanın idarəetmə orqanı binanın sahə mülkiyyətçilərinin ümumi yığıncağıdır. Binanın sahə mülkiyyətçiləri tərəfindən MMMC yaradıldığı hallarda sahə mülkiyyətçilərinin ümumi yığıncağı öz səlahiyyətlərinin cəmiyyətinin iştirakçılarının ümumi yığıncağına verilməsi barədə qərar qəbul edə bilər (Mənzil Məcəlləsi, maddə 43.1, 44.6). Kooperativ binanın tikintisi tam başa çatdıqdan və həmin binada mövcud olan yaşayış və qeyri-yaşayış sahələrinin ümumi sayının 50%-dən çoxuna mülkiyyət hüququ kooperativin üzvlərinə keçdikdən sonra 1 ay ərzində kooperativ MMMC-yə çevrilməsi barədə qərar qəbul edilməlidir (Mənzil Məcəlləsi, maddə 109.5). Bu halda binanın sahə mülkiyyətçilərinin maraqlarına aid məsələlər üzrə mülki prosessual hüquq qabiliyyəti həmin MMMC-yə aiddir, yəni bununla bağlı iddialar MMMC tərəfindən qaldırıla bilər.

Baxılan işdən görünür ki, binanın tikintisi başa çatmış, lakin sahə mülkiyyətçilərinin müştərək cəmiyyəti (MMMC) yaradılmamışdır. Belə olan halda, hazırda mübahisəli çoxmənzilli binaların idarəetmə orqanı sahə mülkiyyətçilərinin ümumi yığıncağı hesab olunur və iş materiallarında liftdən istifadə və ona məhdudiyyətin tətbiq edilməsi qaydaları ilə bağlı bina sakinlərinin ümumi yığıncağının qərarı da yoxdur.

Belə olan halda, cavabdeh MMC-nin iddiaçıların liftdən istifadələrinə xidmət haqqının ödənilməsinə görə məhdudiyyət (kartın deaktiv edilməsi) tətbiq etməsi onların mülkiyyət hüququna müdaxilədir və Mülki Məcəllənin 157.4-cü maddəsinə əsasən iddiaçıların bu müdaxilədən müdafiə hüquqları vardır. Cavabdehin mənzil mülkiyyətçilərinin liftdən istifadə kartlarının deaktiv edilməsində əsas məqsədin kommunal və xidmət haqlarının ödənilməsini hər dəfə məhkəməyə müraciət etmədən daha effektiv təmin etmək olması barədə dəlilləri isə qanunda və müqavilədə göstərilmədiyi təqdirdə mülkiyyətə müdaxiləyə haqq qazandırmır. Digər tərəfdən, qanunvericilikdə çoxmənzilli binanın sahə mülkiyyətçisinin ümumi əmlakın saxlanması xərclərini vaxtında və tam məbləğdə çəkməkdən boyun qaçırmasına görə inzibati məsuliyyəti nəzərdə tutulub (İXM, maddə 393-1.4). Yəni məhkəməyə müraciət edilmədən də qeyd edilən hüquqi müdafiə vasitəsindən istifadə edilməklə mülkiyyətçinin həmin xərclərə cəlb edilməsini təmin etmək mümkündür.

Bununla belə, iddiaçılar liftlərə qoyulmuş kart sisteminin bütövlükdə ləğvini deyil, mülkiyyətçi olaraq özlərinə münasibətdə liftlərdən istifadəyə tətbiq edilən məhdudiyyətin (kartın deaktiv edilməsi, liftdən istifadəni məhdudlaşdıran digər hallar) aradan qaldırılmasını tələb edə bilərlər.

Qeyd edilməlidir ki, çoxmənzilli yaşayış binalarında liftlərdən xüsusi kart vasitəsilə istifadə edilməsi (kart sisteminin tətbiqi) liftlərin təmiz saxlanması, onların texniki baxımından daha uzun müddətli saz vəziyyətdə istismarı, eləcə də bina sakinlərinə təhlükəsiz şərait yaradılması, kənar şəxslərin liftlərə daxil olmasının qarşısını almaq məqsədi daşıyır ki, bu sistemin qalması həm binanın digər sakinləri, eləcə də iddiaçıların özlərinin təhlükəsizliyi baxımından da məqsədəuyğundur.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-445/2025

02.06.2025-ci il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi
Mülki kollegiyasının

İddiaçı 1-in cavabdeh "XXX" Məhdud
Məsuliyyətli Cəmiyyətinə qarşı ilk, "XXX" Məhdud Məsuliyyətli Cəmiyyətinin
İddiaçı 1-ə qarşı qarşılıqlı iddia tələbinə

İddiaçılar İddiaçı 2, İddiaçı 3,
İddiaçı 4, İddiaçı 5, İddiaçı 6 və İddiaçı 7-nin cavabdeh "XXX" MMC-yə qarşı qarşı iddia tələblərinə iş üzrə

Q Ə R A R I

(Açar sözlər: mülkiyyətə maneənin aradan qaldırılması, müqavilə öhdəliklərini icrası)

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Abbasov Aqil Əzizağa oğlu (məruzəçi hakim), Şəfiyev İspəndiyar Əsəd oğlu və Nurməmmədov Əhməd Güləhməd oğlundan ibarət tərkibdə,

Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)-4121/2024 nömrəli, 29 avqust 2024-cü il tarixli qətnaməsindən iddiaçı (qarşılıqlı cavabdeh) İddiaçı 1in və "XXX" Məhdud Məsluiyyətli Cəmiyyətinin kassasiya şikayətlərinə 02 iyun 2025-ci il tarixdə Ali Məhkəmənin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları

1. İddiaçı 1 (payçı) ilə "XXX" MTK (icraçı) arasında bağlanmış kooperativ binada mənzil tikintisi üçün xx.xx.2012-ci il tarixli müqavilədə qeyd edilmişdir ki, icraçı Ünvan 1 ünvanında tikilən 16 mərtəbəli yaşayış binasının 3-cü blokunda, 4-cü mərtəbəsində 96/103 nömrəli mənzili payçıya verməyi öz öhdəsinə götürür. Mənzilin ümumi sahəsi 122 m^2 təşkil edir. (sahə təhvil verilən zaman).

2. Hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış əsasən Ünvan 1, mənzil 103 (Yeni qaydalarla: Bakı şəhəri, …1) İddiaçı 1in xüsusi mülkiyyətindədir, daşınmaz əmlakın ümumi sahəsi 121.4 m^2-dir.

3. "XXX" MMC ("idarəedici təşkilat") ilə İddiaçı 1 arasında çoxmənzilli binaya xidmətlərin göstərilməsinə dair xx.xx.2016-cı il tarixli ****** saylı müqavilə bağlanmışdır.

- Müqavilənin 2.1-ci bəndinə əsasən hazırkı müqavilənin şərtləri çoxmənzilli binanın bütün mülkiyyətçiləri üçün eynidir;
- Müqavilənin 4.1-ci bəndinə əsasən idarəedici təşkilat çoxmənzilli yaşayış binasında xidmətlər göstərməyi və ümumi əmlakın lazımi qaydada saxlpnıiması və təmiri üzrə işləri yerinə yetirməyi, mülkiyyətçilərə və mülkiyyətçinin mənzillərindən qanuni əsaslarla istifadə edən digər İstifadəçilərə kommunal xidmətlər göstərməyi, habelə çoxmənzilli binanın idarə edilməsi məqsədlərinə nail olunmasına yönələn digər fəaliyyəti həyata keçirməyi öhdəsinə götürür;
- Müqavilənin 4.2-ci bəndinə əsasən mülkiyyətçilər idarəedici təşkilatın xidmətlərini hazırkı müqavilə ilə müəyyən olunmuş qaydada ödəməyi öhdəsinə götürür;
- Müqavilənin 6.1-ci bəndinə əsasən müqavilənin məbləği və yaşayış sahəsinə görə ödənişin həcmi "Yaşayış sahələrindən istifadə haqqı Azərbaycan Respublikasında dövlət və ictimai mənzil fondu evlərində yaşayış sahəsindən istifadə haqqı (mənzil haqqı) və mənzil-kommunai xidmətlərinə görə tariflərin təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin 10 mart 2000-ci il tarixli qərarına əsasən müəyyən edilir, ümumi əmlaka mülkiyyət hüququnda Mülkiyyətçinin tutduğu yaşayış sahəsinə mütənasib paya uyğun müəyyən edilir;
- Müqavilənin 12.1-ci bəndinə əsasən müqavilə 1 (bir) il müddətinə bağlanıb və tərəflər onu imzaladığı andan qüvvəyə minir;
- Müqavilənin 12.2-ci bəndinə əsasən müqavilənin müddəti başa çatdıqdan sonra tərəflərdən hər hansı biri müqavilənin pozulması haqqında digər tərəfə məlumat

vermədikdə, müqavilə eyni şərtlərlə eyni müddətə uzadılmış hesab olunur;

- Müqaviləyə 1 nömrəli əlavənin 2-ci maddəsindən görünür ki, çoxmərtəbəli binadan xidmət haqqı yaşayış sahəsinin payına uyğundur və mülkiyyətçinin yaşayış sahəsinin hər kvadratmetrinə görə müəyyən edilir.

4. "XXX" MMC-nin xx.xx.2017-ci il tarixli qərarında qeyd edilmişdir ki, sakinlərin iştirakı ilə sakinlərə göstərilən kommunal xidmətin səviyyəsi, kommunal xidmətlərin yığımı, 2013-cü ildən tətbiq olunan kommunal xidmət haqlarının 2018-ci ilin yanvar ayından 0.05 qəpik artırılması, binanın həyətinə nəqliyyat vasitələrinin daxil olunmasına məhdudiyyətlərin tətbiqi məsələsinə dair səsvermə nəticəsində kommunal xidmətlər haqqının 0.45 qəpikdən 0.50 qəpiyə artırılması, mərtəbələrdəki qapıların təmiri və açarların yenilənməsi, işıqların

təzələnməsinin həyata keçirilməsi, binanın həyətində maşınların girişinin məhdudlaşdırılması (taksi, FHN, polis, təcili yardım xidməti maşınlardan başqa) məsələsi müzakirə olunmuş, adı çəkilən xidməti maşınlara qısa müddətdə həyətə daxil olunmasına icazə verilməsi qərara alınmışdır.

5. "XXX" MMC-nin ümumi iclasının xx.xx.2017-ci il tarixli 5 saylı protokolunda qeyd edilmişdir ki, gündəlikdə duran məsələlər səs verməyə qoyulmuş və yekdilliklə qərar qəbul edilmişdir.

6. Bakı şəhəri Xətai Rayon Məhkəməsinin 31.03.2023-cü il tarixli, e-2(011)-487/2023 saylı qətnaməsi ilə İddiaçı 1-dən 2306.60 manat məbləğində borcun tutularaq "XXX" MMC-nin xeyrinə ödənilməsi qət edilmişdir

İş üzrə qəbul edilmiş məhkəmə aktları:

a) Birinci instansiya məhkəməsində icraat

7. İddiaçı 1 iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, yaşadığı və Ünvan 2 saylı binada cavabdeh "XXX" Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra "cavabdeh" və ya "MMC") tərəfindən liftlərdə kart sisteminin tətbiqinin ləğv edilməsi, MMC-nin binanın idarəçiliyindən uzaqlaşdırılması, binanın idarəçiliyinin Xətai Rayon bələdiyyəsinə təhvil verilməsi, vurulmuş zərərin əvəzi olaraq 480 ABŞ dolları və iddia ərizəsinin verilməsi üçün ödənilmiş dövlət rüsumunun əvəzi olaraq 30 manat məbləğində pulun MMC-dən alınaraq ona ödənilməsi, MMC tərəfindən mənzilin hər m^2-nə görə təyin edilmiş kommunal haqqının 0,50 manat olmasının MMC tərəfindən əsaslandırılması barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

8. İddia tələbi onunla əsaslandırılmışdır ki, Ünvan 2 ünvanında yerləşən çoxmənzilli bina faktiki olaraq idarəedici təşkilat kimi cavabdeh MMC tərəfindən idarə olunur. Lakin Mənzil Məcəlləsinin tələblərinə zidd olaraq MMC-yə bu səlahiyyəti nə binanın sahə mülkiyyətçilərinin ümumi yığıncağı, nə də bələdiyyə verməyib. Sadəcə MMC bəzi sahə mülkiyyətçiləri ilə xidmət müqaviləsi bağlayaraq, hətta müqavilə bağlamamış sahə mülkiyyətçilərindən də xidmət haqqı tələb etmiş, sonra isə xidmət haqqını bir neçə dəfə artırmışdır (mənzilin ümumi sahəsinin hər m^2-nə görə 0,50 manat). Sahə mülkiyyətçilərinin xeyli hissəsi nəinki bu qanunsuzluqdan, həmçinin də binanın bərbad idarə edilməsindən narazıdır. xx.xx.2012-ci ildə binanı tikib, istismara təhvil verən "XXX" MTK qanunsuz olaraq, idarəçiliyi, mülkiyyətçilərin ümumi yığıncağını keçirmədən, özbaşına həyata keçirmiş, qeyri-qanuni, sakinlərdən kommunal xidmət adı altında vəsait yığaraq, hesabat da verməmişdir. Mənzil Məcəlləsinin 109.5. maddəsinin tələblərinə görə yaşayış və qeyri-yaşayış sahələrinə mülkiyyət hüququ MTK üzvlərinə keçdikdən sonra bir ay ərzində MTK qanunvericiliklə müəyyən olunmuş qaydada ləğv edilməli və ya MMMC-yə çevrilməli idi. Ancaq "XXX" MTK bunu etməyib, sonra isə idarəçiliyi, varisi olan MMC-yə ötürüb. "XXX" MTK xx.xx.1997-ci ildə (VÖEN: ******) qeydiyyata alınıb, cavabdeh olan MMC isə xx.xx.2016-cı il tarixdə (******* saylı çıxarış) qediyyatdan keçmişdir. Ötürmə prosesi heç bir sənədlə təsbit edilməyərək, nə "XXX" MTK, nə də MMC mülkiyyətçilərin ümumi yığıncağını keçirmədən idarəçiliyi özəlləşdirmişlər. İndiyədək binanın sahə mülkiyyətçilərinin ümumi yığıncağı bir dəfə də olsun keçirilməyib. Ümumi yığıncaq keçirilməyibsə, deməli, binanın idarəetmə üsulu da seçilməyib.

9. Cavabdeh MMC də İddiaçı 1-ə (iddiaçıya) qarşı qarşılıqlı iddia ilə müraciət edərək, Ünvan 2 saylı evin 103-cü mənzilinə dair kommunal xərclərə görə yaranmış 1097.35 manat, məhkəmə xərcləri üçün 30.97 manat, ümumilikdə 1128.32 manat pulun İddiaçı 1dən tutulmasına dair qətnamə çıxarılmasını xahiş etmişdir.

10. Qarşılıqlı iddia onunla əsaslandırılmışdır ki, xx xx 2016-cı il tarixdə qarşılıqlı İddiaçı 1 ilə MMC arasında çoxmənzilli binaya xidmətlərin göstərilməsinə dair ****** saylı müqavilə

bağlanmışdır. İddiaçı 1 həmin müqavilə üzrə öhdəlikləri mütəmadi olmasa da, icra edirdi. Lakin İddiaçı 1in 2022-ci ilin sonuna MMC-yə kommunal xidmətlərə görə borcu yaranmışdır. 2022-ci ilin oktyabr ayında Xətai rayon məhkəməsində İddiaçı 1-ə qarşı kommunal xərclərə görə yaranmış 2453.00 manat, məhkəmə xərcləri üçün 44.53 manat, ümumilikdə 2497.53 manat pulun MMC-nin hesabına ödənilməsinə dair iddia qaldırılmış və həmin məhkəmənin 31.03.2023-cü il tarixli, e-2(011)-487/2023 saylı Qətnaməsi ilə iddia təmin edilmişdir. Buna baxmayaraq İddiaçı 1 2022-ci ilin sentyabr ayından bu günə qədər yaranmış borcundan heç bir ödəniş etməmişdir. Kommunal xidmətin ödənişi MMC-nin xx.xx.2017-ci il tarixli Qərarına əsasən hər m^2-ə görə 0.50 manat müəyyən edilmişdir. İddiaçı 1in mənzili 129,1 m^2dir. (0.50 manat x129.1 m^2 = 64.55 manat, 17 ay x 64.55m=1097.35 manat). Bununla da İddiaçı 1 MMC-yə ziyan vurmuşdur. Kommunal ödənişlərdən bütün təminatlara (su, kanalizasiya, işıq təchizatı, lift təmiri, məişət tullantıların daşınması, binada digər təmir işləri, təmizlik, mühafizə) ödənişlər olunur, eyni zamanda həmin yığılan puldan işçilərə əmək haqqı ödənilir. Bununla bağlı hər rübdə müvafiq qaydada sakinlər üçün hesabat lövhəyə vurulur. İddiaçı 1 və digər investorların ödəmələrində gecikmələr olması nəticəsində MMC-nın Vergi borclarının vaxtında ödənilməməsi nəticəsində faiz borcları yaranmışdır. Hazırda yaranmış borclar üzrə müxtəlif məhkəmə instasiyalarında işlərə baxılmaqdadır. Bununla bağlı İddiaçı 1-ə və digər sakinlərə dəfələrlə yazılı və şifahi xəbərdarlıq edilmişdir.

11. İddiaçılar İddiaçı 2, İddiaçı 3, İddiaçı 4, İddiaçı 5, İddiaçı 6, İddiaçı 7 da iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, MMC-nin rəhbərliyi tərəfindən binada yerləşən liftlərə qanunsuz olaraq tətbiq edilmiş kart sisteminin ləğv edilməsi və liftlərdən əvvəlki qaydada sərbəst istifadə edilməsi üçün şərait yaradılması barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

12. Qeyd edilən iddiaçılar tələblərini onunla əsaslandırıblar ki, yaşadıqları Ünvan 1 və ünvan 2 ünvanında yerləşən bina sakinlərinin razılığı və xəbəri olmadan MMC-nin rəhbərliyi binada yerləşən liftlərə qanunsuz olaraq kart sistemi təbiq etmişlər, bu da mülkiyyətçilərin hüquqlarını pozaraq çətinliklər yaradır. Mülkiyyətçilər mənzillərinə sərbəst şəkildə daxil ola bilmirlər. Eyni zamanda bu məhdudiyyət uşaqların, qonaqların da lifdən istifadəsinə manea yaradır.

13. Birinci instansiya məhkəməsi 07.03.2024-cü il tarixli, 2(011)-905/2024 saylı qərardadla iddiaçılar İddiaçı 2, İddiaçı 3, İddiaçı 4, İddiaçı 5, İddiaçı 6 və İddiaçı 7nin iddia tələbi üzrə mülki iş İddiaçı 1in iddia tələbi üzrə mülki işlə bir icraatda birləşdirilmişdir.

14. Bakı şəhəri Xətai Rayon Məhkəməsinin 18 aprel 2024-cü il tarixli, e-2(011)2186/2024 nömrəli qətnaməsi ilə iddiaçılar İddiaçı 1, İddiaçı 2, İddiaçı 3, İddiaçı 4, İddiaçı 5, İddiaçı 6 və İddiaçı 7nin iddiası rədd edilmiş, cavabdeh MMC-nin qarşılıqlı iddiası qismən təmin olunmuş, İddiaçı 1dən kommunal xidmətlərə görə 607 manat, ödənilmiş dövlət rüsumunun əvəzi olaraq isə 30 manat olmaqla, cəmi 637 manat məbləğində pulun tutularaq MMC-yə ödənilməsi qət edilmişdir. **(hakim Sahibə Hacıyeva)**

15. Birinci instansiya məhkəməsi iddiaçıların (bina sakinlərinin) liftlərdə kart sisteminin tətbiqinə dair iddia tələbinə münasibətdə göstərmişdir ki, həmin şəxslər Ünvan 1 və Ünvan 2 ünvanında inşa edilmiş çoxmərtəbəli yaşayış binasının sakinləri olmaqla, həmin ünvanda yaşayırlar. Liftlərdə kart sisteminin tətbiqinin məqsədi kənar şəxslərin həmin liftlərə daxil olaraq yuxarı mərtəbələrə qalxmasının qarşısının alınması, bina sakinlərinin daha təhlükəsiz şəraitdə yaşamaları və kommunal xidmətlərin ödənilməsidir. Həmin binada liftlərdə kartdan istifadə edilməsi bina sakinlərinin həmin liftdən istifadəsini qadağan etmir.

16. “Azərbaycan Respublikasında dövlət və ictimai mənzil fondu evlərində yaşayış sahəsindən istifadə haqqı (mənzil haqqı) və mənzil-kommunal xidmətlərinə görə tariflərin

təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 mart 2000-ci il 40 №-li Qərarına 2 nömrəli əlavəyə əsasən yaşayış binalarında liftdən istifadəyə görə adambaşına 1 ayda manatla (ƏDV nəzərə alınmaqla) tarif 1.000 manat təşkil edir. İddiaçı 1 çoxmənzilli binaya xidmətlərin göstərilməsinə dair ****** saylı müqavilə bağlamaqla bununla razılaşmışdır.

17. Birinci instansiya məhkəməsi "cavabdehin binanın idarəçiliyindən uzaqlaşdırılması, idarəçiliyin Xətai rayon Bələdiyyəsinə təhvil verilməsi" barədə İddiaçı 1in iddiasına münasibətdə bu tələbin qanuni əsasının Mənzil Məcəlləsinin 141-ci maddəsinin təşkil etməsini göstərərək qeyd etmişdir ki, çoxmənzilli binanın sahə mülkiyyətçiləri tərəfindən altı ay ərzində həmin binanın idarə edilməsi üsulu seçilmədiyi və ya həmin binanın idarə edilməsi üsulunun seçilməsi barədə qərarın həyata keçirilmədiyi təqdirdə həmin binanın idarəetmə üsulunun seçilməsi məsələsinin həlli üçün binanın sahə mülkiyyətçilərinin yığıncağı həmin binanın yerləşdiyi ərazinin bələdiyyəsi tərəfindən çağırılmalıdır. Bir il ərzində çoxmənzilli binanın sahə mülkiyyətçiləri tərəfindən həmin binanın idarə edilməsi üsulu seçilmədiyi və ya həmin binanın idarə edilməsi üsulunun seçilməsi barədə qərarın həyata keçirilmədiyi təqdirdə həmin binanın yerləşdiyi ərazinin bələdiyyəsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada idarəedici təşkilatın seçilməsi üzrə açıq müsabiqə keçirməlidir. Hazırkı işdə isə bu proseslərin heç biri binanın mülkiyyətçiləri tərəfindən həyata keçirilməmiş, onlar tərəfindən birbaşa məhkəməyə müraciət olunmuşdur.

18. Birinci instansiya məhkəməsi həmçinin izah etmişdir ki, mülkiyyətçilərin binaya dair Mənzil Məcəlləsinin 141-ci maddəsində nəzərdə tutulmuş vəzifələrin (binanın sahə mülkiyyətçilərinin yığıncağının çağırılması və (və ya) idarəedici təşkilatın seçilməsi üzrə açıq müsabiqənin keçirilməsi öhdəliyinin Xətai rayon bələdiyyəsinin üzərinə qoyulması ilə bağlı inzibati icraat qaydasında aidiyyəti üzrə məhkəməyə müraciət etmək hüququ vardır.

19. Birinci instansiya məhkəməsi İddiaçı 1in "480 ABŞ dolları zərərin əvəzinin ödənilməsi" barədə iddiasına münasibətdə bildirmişdir ki, İddiaçı 1in nümayəndəsi həmin zərəri xx.xx.2012-ci il tarixli kooperativ binadan mənzil tikintisi üçün müqavilə ilə ona verilən sahə ilə çıxarış ilə verilən sahə arasında fərqə görə tələb etdiyini bildirmişdir. Lakin iddiaçıya müqavilə üzrə 122 m^2 sahə verilməli olduğu, hazırda İddiaçı 1in mülkiyyətində olan mənzilin çıxarış əsasında 121.4 m^2 olması, yəni əmsallar tətbiq edildikdən sonrakı fərqin az olması nəzərə alınaraq, iddia həmin hissədə də təmin edilməməlidir.

20. Birinci instansiya məhkəməsi İddiaçı 1in iddia tələbinin "cavabdeh tərəfindən mənzilin hər m^2-nə görə təyin edilmiş kommunal haqqın 0,5 manat olmasının əsaslandırılması" hissəsini də əsassız sayaraq mövqeyini belə əsaslandırmışdır ki, kommunal xidmətlər haqqının 0,45 qəpikdən 0,50 qəpiyə artırılması MMC-nin xx.xx.2017ci il tarixli qərarı əsasında həyata keçirilmiş, gündəlikdə duran məsələ səs verməyə qoyulmuş və yekdilliklə qərar qəbul edilmişdir.

21. Birinci instansiya məhkəməsi MMC-nin qarşılıqlı iddia tələbi ilə bağlı isə göstərmişdir ki, İddiaçı 1 yaşadığı mənzilə mülkiyyət hüququnu xx.xx.2018-ci il tarixdə əldə etmişdir. Mənzilə mülkiyyət hüququ əldə etdiyi andan İddiaçı 1 ilə MMC arasında kommunal xidmətlərin göstərilməsi ilə bağlı hüquq münasibətləri yaranmış olur. Mənzil Məcəlləsinin 135.2.4-cü maddəsi isə belə münasibətlərin yaranması üçün müqavilənin mütləq bağlanmasını tələb etmir, bunun üçün hər bir mülkiyyətçinin çoxmənzilli yaşayış evində yaşaması və mənzilə mülkiyyət hüququ əldə etməsi onu kommunal xidmətlərlə bağlı münasibətlərin subyektinə çevirir. MMC tərəfindən təqdim olunmuş sənədlərdə İddiaçı 1in mülkiyyətçisi olduğu mənzilin ümumi sahəsi 129,1 m^2 qeyd edilsə də, "çıxarışda" mənzilin ümumi sahəsinin 121,4 m^2 olduğu qeyd edilmişdir. Buna görə də kommunal xidmətlərə görə ödəniş mənzilin "çıxarışla" müəyyən

edilmiş ümumi sahəsinə uyğun olaraq hesablanmalıdır. İddiaçı 1in hər ay (0,50 x 121,4 m^2 =) 60,70 manat məbləğində kommunal xidmətlərə görə ödəniş etməli olması və Xətai Rayon Məhkəməsinin 31.03.2023-cü il tarixli, 2(011)-487/2023 saylı qətnaməsi ilə 38 ay müddətinə görə kommunal haqqına görə pul tutulması nəzərə alınmaqla, hazırkı halda xx.xx.2023-cü il tarixdən xx.xx.2024-cü il tarixinə, yəni qarşılıqlı iddia ilə müraciət edilən vaxta qədər olan komunnal xidmət haqqının əvəzi olaraq (10 ay x 60,70 =) 607 manat məbləğində pul tutularaq MMC-yə ödənilməlidir.

22. Birinci instansiya məhkəməsi gəldiyi nəticəni Mülki Məcəllənin 777.1, 777.2, 783.2, 783.3,1087.1,1087.2,1090.1-ci maddələrinə, Mənzil Məcəllənin 43.1, 43.2.1-43.2.5,

44.1-44.4, 44.5.1-44.5.5, 44.6, 44.6.1, 45.1-45.7, 135.1, 135.2.3, 136.2, 136.2.1, 136.3, 136.4, 137.4, 137.7, 137.10, 141.1-141.10-cu, Mülki Prosessual Məcəllənin 14.2 və 77.1ci maddələri ilə əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsində icraat

23. İddiaçılar İddiaçı 2 və İddiaçı 1 apellyasiya şikayəti verərək, Xətai Rayon Məhkəməsinin 18 aprel 2024-cü il tarixli, e2(011)- 186/2024 nömrəli qətnamənin ləğv edilməsini və iddialarının təmin edilməsi barədə yeni qətnamə qəbul edilməsini xahiş etmişdir.

24. Apellyasiya şikayəti iddia tələbi ilə eyni məzmunda əsaslandırılaraq əlavə olaraq qeyd edilmişdir ki, işə baxmış birinci instansiya məhkəməsi iş üzrə sübutları düzgün araşdırmamış, işin hallarına səhv qiymət vermiş, maddi hüquq normalarını düzgün tətbiq etməmiş və nəticədə iş üzrə əsassız qətnamə qəbul etmişdir.

25. Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 29 avqust 2024-cü il tarixli, 2(103)-4121/2024 nömrəli qətnaməsi ilə iddiaçıların apellyasiya şikayəti qismən təmin edilmiş, birinci instansiya məhkəməsinin qətnaməsi qismən, yəni İddiaçı 2-nin və başqalarının cavabdeh MMC-yə qarşı irəli sürdükləri "liftlərdə kart sisteminin tətbiqinin ləğv edilməsi barədə" iddiasının rədd edilməsi hissəsində tam, İddiaçı 1in cavabdeh MMC qarşı irəli sürdüyü iddianın "liftlərdə kart sisteminin tətbiqinin ləğv edilməsi, vurulmuş zərərin əvəzinin ödənilməsi barədə" hissəsinin təmin edilməməsi hissəsində ləğv edilərək, həmin hissədə iş üzrə aşağıdakı məzmunda yeni qətnamə qəbul edilmişdir:

- İddiaçı 1in cavabdeh MMC-yə qarşı irəli sürdüyü iddianın "liftlərdə kart sisteminin tətbiqinin ləğv edilməsi, vurulmuş zərərin əvəzinin ödənilməsi barədə" hissəsi, İddiaçı 2-nin və başqalarının cavabdeh MMC-yə qarşı irəli sürdükləri "liftlərdə kart sisteminin tətbiqinin ləğv edilməsi tələbi barədə" iddiası tam təmin edilərək, "XXX" MTK tərəfindən Ünvan 1 və ünvan 2 saylı binalarda yerləşən liftlərə cavabdeh MMC tərəfindən tətbiq edilmiş kart sistemi ləğv edilmiş və liftlərdən sərbəst istifadə edilməsi üçün şərait yaradılması öhdəliyinin cavabdeh MMC-nin üzərinə qoyulması;
- İddiaçı 1-ə satılmış mənzilin ölçüsündə 0,6 m^2 fərqin yaranması nəticəsində ona dəymiş maddi zərərin əvəzinin ödənilməsi məqsədi ilə 408 (dörd yüz səkkiz) manat məbləğində pulun MMC-dən tutularaq İddiaçı 1-ə ödənilməsi;
- İddiaçı 1in iddiasının qalan hissəsi, yəni "cavabdehin binanın idarəçiliyindən uzaqlaşdırılması, binanın idarəçiliyin Xətai rayon bələdiyyəsinə verilməsi, cavabdeh tərəfindən mənzilin hər kvadrat metrinə görə təyin etdiyi kommunal haqqın 0,5

manat olmasının əsaslandırılması barədə" hissəsinin təmin edilməməsi;

- İddiaçı 2-nin və başqalarının cavabdeh MMC-yə qarşı irəli sürdükləri iddia tam təmin edildiyindən həmin iddianın verilməsi üçün iddiaçı 2nin ödədiyi 30 manat dövlət rüsumunun MMC-dən tutularaq iddiaçı 2ə ödənilməsi;
- İddiaçı 1in iddiası qismən təmin olunduğundan iddianın verilməsi üçün onun ödədiyi 30 manat məbləğində dövlət rüsumunun 1/2 hissəsi onun özünə, qalan 1/2 hissəsinin MMC-

yə aid edilməklə, bu məqsədlə 15 (on beş) manat məbləğində pulun MMC-dən tutularaq İddiaçı 1-ə ödənilməsi;

- hazırki qətnamə əsasında MMC-dən İddiaçı 1in xeyrinə (408 + 15=) 423 manat pul məbləği ilə Bakı Şəhəri Xətai Rayon Məhkəməsinin hazırkı iş üzrə qəbul etdiyi 18 aprel 2024-ci il tarixli qətnamə əsasında İddiaçı 1dən MMC-nin xeyrinə (607 + 30=) 637 manat pul məbləğinin tutulması nəzərə alınaraq və bu məbləğlər ilə bağlı əvəzləmə aparılması;
- bu məqsədlə Bakı Şəhəri Xətai Rayon Məhkəməsinin hazırkı iş üzrə qəbul etdiyi 18 aprel 2024-ci il tarixli qətnamənin İddiaçı 1dən MMC-nin xeyrinə pul məbləğinin tutulması hissəsində dəyişdirilərək, İddiaçı 1dən MMC-nin xeyrinə (637 - 423=) 214 (iki yüz dörd) manat məbləğində pulun tutulması;
- qətnamənin qalan hissədə dəyişdirilmədən saxlanılması qət edilmişdir. (hakimlər **Məmməd Məmmədov (sədrlik edən və məruzəçi)** Xumar Mərdanova, Elnur Həsənov)

26. Apellyasiya instansiya məhkəməsi ilk növbədə qeyd etmişdir ki, iş materiallarına olan adsız siyahıda qeyd edilmişdir ki, mübahisəli ünvanda liftlərin kart sisteminin quraşdırılmasına həmin binanın 1-ci blokunun 27 nəfər sakini, 2-ci blokunun 22 nəfər sakini, 3-cü blokunun 32 nəfər sakini liftlərdə onun razılığı olmadan kart sisteminin tətbiqinə etiraz etmiş və dərhal sisteminin liftlərdən demontajını tələb etmişlər. Əlavə olaraq liftlərin kart sisteminin tətbiqi barədə anketdən görünür ki, 24 nəfər sakin liftlərdə kart sisteminin keçməsinə etiraz etməmişdir.

27. Apellyasiya instansiya məhkəməsi Mənzil Məcəlləsinin 43, 44, 45, 135, 136, 137 və 141-ci maddələrinə normalarına istinadən göstərmişdir ki, liftlərdə kart sisteminin tətbiqi binanın idarə edilməsi qaydası ilə bağlıdır. Cavabdeh MMC tərəfindən binanın idarə edilməsi səlahiyyətinin olması və mənzil mülkiyyətçilərinin buna razılığının olması müəyyən edilmir. Liftlərdə kart sisteminin tətbiqinin hansı məqsədə xidmət etməsi və ya sahə mülkiyyətçilərinin liftdən istifadəsinə maneə yaratmaması bu qaydanın tətbiqinə əsas vermir. “Çoxmənzilli binaya xidmətlərin göstərilməsinə dair” MMC ilə mülkiyyətçilər arasında bağlanmış müqavilədə lift xidmətinin göstərilməsi, yaxud belə xidmətin göstərilməsi şərtləri öz əksini tapmamışdır. Buna görə də iddiaçıların həmin müqavilələri imzalaması MMC-yə istədiyi kimi liftdən istifadə qaydalarını müəyyən etməsi hüququnun yaranması üçün əsas ola bilməz.

28. Apellyasiya instansiya məhkəməsinin mövqeyinə görə hər iki iddia üzrə iddiaçılar binanın sahə mülkiyyətçiləri olmaqla cavabdeh MMC-nin tətbiq etdiyi liftlərdə kart sisteminin ləğvini tələb etməkdə haqlıdırlar. Bu baxımdan, birinci instansiya məhkəməsinin iddianın həmin hissəsinə dair gəldiyi nəticə səhv, apellyasiya şikayətinin dəlilləri isə əsaslıdır.

29. Apellyasiya instansiya məhkəməsi Mənzil Məcəlləsinin 141-ci maddəsinin tələblərini nəzərə alaraq bildirmişdir ki, iddia tələblərinin “cavabdehin binanın idarəçiliyindən uzaqlaşdırılması, idarəçiliyin Xətai rayon bələdiyyəsinə təhvil verilməsi” hissəsi əsassızdır, belə ki, iddiaçılar qeyd edilən maddi hüquq normasında nəzərdə tutulmuş prosedura əməl etməmiş, birbaşa olaraq məhkəməyə müraciət etmişlər. Buna görə də birinci instansiya məhkəməsi düzgün olaraq iddiaçılara izah etmişdir ki, mülkiyyətçilərin binaya dair Mənzil Məcəlləsinin 141-ci maddəsində nəzərdə tutulmuş vəzifələrin (binanın sahə mülkiyyətçilərinin yığıncağının çağırılması və (və ya) idarəedici təşkilatın seçilməsi üzrə açıq müsabiqənin keçirilməsi öhdəliyinin Xətai rayon bələdiyyəsinin üzərinə qoyulması ilə bağlı inzibati icraat qaydasında aidiyyəti üzrə məhkəməyə müraciət etmək hüququ vardır.

30. Apellyasiya instansiya məhkəməsi apellyasiya şikayətinin “İddiaçı 1ə vurulmuş zərərin əvəzinin – 480 ABŞ dolları məbləğində vəsaitin ona qaytarılması” ilə bağlı dəlillərini qismən əsaslı hesab edərək göstərmişdir ki, İddiaçı 1 həmin zərərin əvəzini xx.xx.2012-ci il tarixli

kooperativ binadan mənzil tikintisi üçün müqavilə ilə ona verilən sahə ilə çıxarış ilə ona verilən sahə arasında fərqə görə tələb etdiyini bildirir.

31. Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyasının xx.xx.2012-ci il tarixli, ** nömrəli qərarı ilə təsdiq edilmiş "Tikinti obyektinin sahəsinin və həcminin hesablanması qaydalarına" görə, yaşayış binasında otaqların və digər yerləşgələrin sahələri divar və arakəsmələrin tamamlanmış səthləri arasında döşəmə səviyyəsində (plintuslar hesaba alınmadan) ölçülməklə təyin edilir (maddə 3.2.). Mənzillərin ümumi sahəsi - yaşayış otaqların, köməkçi otaqların (sanitar qovşağı, mətbəx, dəhliz, yığnaq yeri) sahələrinin, eləcə də balkon, lociya, terras, şüşəbənd və eyvanların azaltma əmsallara vurulmuş sahələrinin məcmusundan ibarətdir. Mənzillərin ümumi sahəsi hesablanarkən balkon və terrasların sahələri - 0,3; şüşəbənd və lociyalar - 0,5; eyvanlar (verandalar) - 1,0 azaltma əmsallarına vurulmaqla hesablanır (maddə 3.8.).

32. Apellyasiya instansiya məhkəməsi qeyd etmişdir ki, birinci instansiya məhkəməsinin iddiaçıya müqavilə üzrə 122 m^2 sahə verilməli olduğunu, hazırda onun mülkiyyətində olan mənzilin çıxarış əsasında 121,4 m^2 olduğunu, yəni əmsallar tətbiq edildikdən sonrakı fərqin az olduğunu nəzərə alaraq, iddianı həmin hissədə də təmin edilməməsi düzgün olmamaışdır. Çünki fərqin az olması iddianın əsassız olması anlamına gələ bilməz. Tərəflər arasında mövcud mübahisənin həlli ilə bağlı razılaşma əldə edilməmiş və iddiaçı sahə fərqinə görə zərərin əvəzini tələb etməkdə haqlıdır.

33. İddiaçı 1 ilə cavabdeh MMC arasında bağlanmış müqavilənin şərtlərini əsas götürən apellyasiya instansiya məhkəməsi hesab etmişdir ki, həmin hissədə rayon məhkəməsinin qətnaməsi ləğv edilməli və Azərbaycan Respublikası Konstitusiyasının 19-cu maddəsinə görə Azərbaycan Respublikasının pul vahidinin manat olması nəzərə alınmaqla vurulmuş zərərin əvəzi olaraq 408 manat pul cavabdeh MMC-dən İddiaçı 1in xeyrinə tutulmalıdır.

34. Apellyasiya instansiya məhkəməsi cavabdeh MMC tərəfindən mənzilin hər m^2-nə görə təyin edilmiş kommunal haqqın 0,5 manat olmasının əsaslandırılması" hissəsində birinci instansiya məhkəməsinin gəlmiş olduğu nəticəni əsaslı hesab edərək diqqətə çatdırmışdır ki, kommunal xidmətlər haqqının 0,45 qəpikdən 0,50 qəpiyə artırılması MMC-nin ümumi yığıncağının xx.xx.2017-ci il tarixli qərarı əsasında həyata keçirilmiş, gündəlikdə duran məsələlər səs verməyə qoyulmuş və yekdilliklə qərar qəbul edilmişdir.

35. Apellyasiya instansiya məhkəməsi MMC-nin qarşılıqlı iddia tələbi ilə bağlı isə qeyd etmişdir ki, MMC ilə "İstifadəçi" olaraq mülkiyyətçi İddiaçı 1 arasında çoxmənzilli binaya xidmətlərin göstərilməsi ilə bağlı xx.xx.2016-cı il tarixdə müqavilə bağlanmışdır. Mənzil Məcəlləsinin 135.2.4-cü maddəsi isə belə münasibətlərin yaranması üçün müqavilənin mütləq bağlanmasını tələb etmir, bunun üçün hər bir mülkiyyətçinin çoxmənzilli yaşayış evində yaşaması və mənzilə mülkiyyət hüququ əldə etməsi onu kommunal xidmətlərlə bağlı münasibətlərin subyektinə çevirir. İddiaçı 1 tərəfindən təqdim olunmuş sənədlərdə onun mülkiyyətçisi olduğu mənzilin ümumi sahəsi 129,1 m^2 qeyd edilsə də, çıxarışda mənzilin ümumi sahəsinin 121,4 m^2 olduğu qeyd edilmişdir. Buna görə də, kommunal xidmətlərə görə ödəniş mənzilin reyestr xidməti tərəfindən müəyyən edilmiş ümumi sahəsinə uyğun olaraq hesablanmalı olduğu üçün birinci instansiya Məhkəməsi haqlı olaraq xx.xx.2023-cü il tarixdən 05.02.2024-cü il tarixinə, yəni qarşılıqlı iddia ilə müraciət edilən vaxta qədər olan müddət üçün kommunal xidmət haqqının əvəzi olaraq (10 ay x 60,70 =) 607 manat məbləğində pulun İddiaçı 1-dən MMC-nin xeyrinə tutulması qənaətinə gəlmişdir.

36. Apellyasiya instansiya məhkəməsi gəldiyi nəticəyə uyğun olaraq hesab etmişdir ki, hazırkı qətnamə əsasında MMC-dən İddiaçı 1in xeyrinə tutulan pul məbləği (408 + 15=) 423 manat ilə birinci instansiya məhkəməsinin hazırkı iş üzrə qəbul etdiyi qətnamə əsasında İddiaçı

1dan MMC-nin xeyrinə tutulan (607 + 30=) 637 manat pul məbləği nəzərə alınmalı və bu məbləğlər ilə bağlı əvəzləmə aparılmalı, son olaraq birinci instansiya məhkəməsinin qətnaməsi İddiaçı 1dan MMC-nin xeyrinə pul məbləğinin tutulması hissəsində dəyişdirilməli və İddiaçı 1dan MMC-nin xeyrinə (637 – 423 =) 214 manat məbləğində pul tutulmalıdır.

37. Apellyasiya instansiya məhkəməsi gəldiyi nəticəni Mülki Məcəllənin 777.1, 777.2, 783.2, 783.3, 1087.2, 1090.1-ci və Mənzil Məcəlləsinin 2.1, 4.2, 6.1, 12.1, 12.2, 43.1, 43.2,

43.2.5, 44.1, 44.2, 44.3, 44.4, 44.5, 44.6, 45.1, 45.2, 45.3, 45.4, 45.5, 45.6, 45.7, 135.1, 135.2.3, 136.2, 136.3, 136.4, 137.4, 137.7, 141.1, 141.2, 141.3, 141.5, 141.4, 141.5, 141.6, 141.7, 141.8 və 141.9-cu maddələri ilə əsaslandırmışdır.

Kassasiya şikayətinin və ona etirazın dəlilləri:

38. İddiaçı 1 kassasiya şikayəti verərək, apellyasiya instansiyası məhkəməsinin qətnaməsini ilkin iddia tələbinin təmin edilməyən “cavabdehin binanın idarəçiliyindən uzaqlaşdırılması və cavabdeh tərəfindən mənzilin hər kvadrat metrinə görə təyin edilən kommunal haqqın 0,5 manat olmasının əsaslandırılması tələbi” hissəsində ləğv edərək, həmin hissədə də iddia tələbininin təmin edilməsinə dair yeni qərar qəbul edilməsini xahiş etmişdir.

39. Kassasiya şikayəti onunla əsaslandırılmışdır ki, binanı qanunsuz zəbt edib sakinlərin iradəsi ziddinə idarəetməni həyata keçirən cavabdehin xidmətlərinin istər kəmiyyət, istərsə də keyfiyyət göstəricilərinin aşağı olması barədə kifayət qədər sübutlar təqdim edilsə də, məhkəmə buna əhəmiyyət verməmişdir. Halbuki müqavilə üzrə hər bir tərəfin üzərində müəyyən öhdəliklər vardır ki, onların yerinə yetirilməsi zəruri şərtdir. Bu səbəbdən xidmət haqqının 0.45 manatdan 0.50 manat səviyyəsinə qaldırılması yalnız cavabdehin vicdanlı icrası zamanı qanuni və əsaslı ola bilər. Hazırki mübahisəyə baxan məhkəmələr, ümumiyyətlə, cavabdehin binanın idarəçiliyinin həyata keçirilməsi zamanı çoxmənzilli binalarda idarəçilik qaydasını müəyyən edən mənzil qanunvericiliyinin normalarına riayət edilib-edilməməsini araşdırmamış, həmçinin, iddiaçının cavabdehin çoxmənzilli bina mülkiyyətçiləri ilə müqavilə bağlamadan kommunal xidmətlərə görə haqq tutması, eləcə də kommunal xidmətin növlərinə görə xərclərin bölüşdürülməsinə dair ona məlumat verməməsi barədə dəlillərinə hüquqi qiymət verməmişlər. Müqaviləyə əlavə olaraq təqdim edilən, kommunal xidmət haqqının 0.50 manat olması barədə razılaşma protokolu isə saxta bir sənəd olmaqla, nəinki binanın mülkiyyətçiləri, həmçinin heç iddiaçı tərəfindən də imzalanmamışdır.

40. Cavabdeh MMC də kassasiya şikayəti verərək, apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin qismən – iddiaçıların “liftlərdə kart sisteminin tətbiqinin ləğv edilməsi və liftlərdən sərbəst istifadə edilməsi üçün şərait yaradılması öhdəliyinin MMC-nin üzərində qoyulması barədə iddianın rədd edilməsi barədə qərar çıxarılmasını xahiş etmişdir.

41. Cavabdehin kassasiya şikayəti belə əsaslandırılıb ki, birinci və apellyasiya instansiyası məhkəmələrində dəfələrlə bildirilmişdir ki, keçmiş kart sistemi sakinlərin xahişi ilə (mülki işin materiallarına əlavə 49 nəfərin imzası ilə təsdiq edilmiş bildiriş var) yenidən bərpa edilib. Lakin bəzi sakinlər ödənişləri vaxtında ödəmədiklərinə görə həmin servisin xidmət haqqını ödəmək mümkün olmadığından kart sistemi dayandırılmışdır. Liftdən istifadə etmək üçün heç kimə MMC tərəfindən məhdudiyyət qoyulmayıb. Bundan başqa, məhkəmə proseslərində dəfələrlə bildirilib ki, ünvan 1 ünvanının “XXX” MMC-yə heç bir aiddiyəti yoxdur. Sözügedən bina “X” MTK-ya məxsusdur və idarəçilik “X” MTK tərəfindən həyata keçirilir. Göründüyü kimi, liftlərdə kart sisteminin tətbiqi çoxsaylı mənzil mülkiyyətçilərinin razılığı əsasında təhlükəsizliyi təmin etmək məqsədi ilə tətbiq edilmişdir. Hazırki iddia, yəni liftlərdə kart sisteminin ləğvi mənzil mülkiyyətçilərinin umumi razılığı nəticəsi deyildir. Məhkəmə digər çoxluq təşkil edən sakinlərin liftə kart sistemin tətbiqi barədə ümumi razılıqlarının olmasını nəzərə almamışdır. MMC mülkiyyətçilər arasında bağlanmış eyni məzmunlu müqaviləyə

əsasən öhdəliyi yerinə yetirərək mülkiyyətçilərin ümumi istifadəsində olan yollardan, liftlərdən, dəhlizlərdən təhlükəsiz və rahat istifadə edilməsi, onların ümumi istifadədə olan liftlərdə müasir xidmətin yaradılmasına çalışmışdır. Apellyasiya instansiyası məhkəməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin xx.xx.2010-cu il tarixli, *** nömrəli qərarı ilə təsdiq edilmiş "Çoxmənzilli binanın idarəedici təşkilatının seçilməsi üzrə açıq müsabiqə keçirilməsi Qaydaları"nı, MM 777.1, 777.2 və 783.2-ci maddələrini pozaraq, birgə mülkiyyətçilərin ümumi mənafeyinə uyğun çalışmış MMC-nin hərəkətlərini əsassız olaraq qanunsuz hesab etmişdir. İddiaçıların verdiyi ziddiyyətli izahatlara hüquqi qiymət verilməmişdir. Belə ki, iddiaçı 4 apellyasiya baxışında etiraf etmişdir ki, iddiaçılardan olan atası iddiaçı 7 MMC-nin deyil, "X" MTK mülkiyyətçisidir. Məhkəmə İddiaçı 7-dən niyə "XXX M" MMC-yə qarşı iddia qaldırmasının səbəbini araşdırmamışdır. Məhkəmə İddiaçı 4-ə münasibətdə iddianı onun subyektiv hüququ olmaması əsası ilə rədd etməli idi.

Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

42. Kassasiya şikayətlərinə etiraz verilməmişdir.

Tətbiq edilən hüquq:

Azərbaycan Respublikası Mülki Məcəlləsinin

Maddə 777.1. Tapşırıq müqaviləsinə görə, tapşırığı həyata keçirməyi öhdəsinə götürən şəxs (vəkalət alan) başqa şəxsin (vəkalət verənin) ona tapşırdığı əqdləri, işləri və ya digər xidmətləri konkret nəticə əldə olunmasına təminat vermədən icra etməyi öhdəsinə götürür.

Maddə 777.2 Tapşırıq müqaviləsi həm şifahi, həm də yazılı formada bağlana bilər.

Müqavilə vəkalət alanın tapşırığı qəbul etməsindən sonra qüvvəyə minir.

Maddə 783.2. Vəkalət verən vəkalət alana yalnız o halda muzd ödəməlidir ki, bu, şərtləşdirilmiş olsun və ya belə qəbul edilmiş olsun, xüsusən o hallarda ki, şəraitə görə vəkalət alan müstəqil peşə fəaliyyəti şəklində bu cür əqdlər bağlayır və ya xidmətlər göstərir.

Maddə 783.3. Əgər bu Məcəllənin 783.2-ci maddəsində nəzərdə tutulan hallarda muzdun miqdarı müəyyənləşdirilməyibsə, tarif olduqda bu tarifə uyğun muzd, tarif olmadıqda isə vəkalət alanın olduğu yerdə qəbul edilmiş muzd şərtləşdirilmiş muzd sayılır.

Maddə 1087.2. İşlərin tapşırıqsız aparılmasını sonradan sahibkar bəyəndikdə bu bölmənin müddəaları əvəzinə tapşırıq haqqında müddəalar tətbiq olunur.

Maddə 1090.1. Əgər işlərin aparılması sahibkarın mənafeyinə və ehtimal olunan istəyinə uyğun gəlirsə, icraçı xərclərin əvəzinin ödənilməsini və öhdəliklərdən azad olunmasını tələb edə bilər. İcraçı lazımi vicdanlılıqla fəaliyyət göstərmişsə, bu qayda işlərin aparılmasının gözlənilən nəticə ilə qurtarmadığı halda da tətbiq olunur.

Azərbaycan Respublikasının Mənzil Məcəlləsi

Maddə 2.1 Fiziki və hüquqi şəxslər mənzil hüquqlarını öz mülahizəsinə görə və mənafeləri üçün həyata keçirir, o cümlədən onlar barəsində sərəncam verir. Fiziki və hüquqi şəxslər müqaviləyə və (və ya) mənzil qanunvericiliyi ilə nəzərdə tutulmuş digər əsaslara görə özlərinin mənzil hüquqlarının müəyyənləşdirilməsində və həyata keçirilməsində azaddırlar. Mənzil hüquqlarını həyata keçirərkən və mənzil münasibətlərindən irəli gələn vəzifələrini yerinə yetirərkən fiziki və hüquqi şəxslər digərlərinin hüquqlarını, azadlıqlarını və qanuni mənafelərini pozmamalıdırlar.

Maddə 12.1. Yaşayış sahələri mənzil hüququnun obyektidir.

Maddə 12.2. Yaşayış sahəsi dedikdə - Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq daşınmaz əmlak hesab edilən və vətəndaşların daimi yaşaması üçün yararlı olan (müəyyən edilmiş sanitariya və texniki norma və qaydalara, qanunvericiliyin digər tələblərinə (bundan sonra – tələblərə) cavab verən) ayrıca sahə başa düşülür.

Maddə 43.1. Çoxmənzilli binanın sahə mülkiyyətçilərinin ümumi yığıncağı binanın idarəetmə orqanıdır.

Maddə 43.2. Çoxmənzilli binanın sahə mülkiyyətçilərinin ümumi yığıncağının səlahiyyətlərinə aşağıdakılar aiddir:

Maddə 43.2.5. BuMəcəllə ilə çoxmənzillibinanınmülkiyyətçilərinin ümumi yığıncağının səlahiyyətlərinə aid edilmiş digər məsələlər

Maddə 44.1. Çoxmənzilli binanın sahə mülkiyyətçiləri bu Məcəllənin 43.2-ci maddəsində göstərilən məsələlərlə bağlı qərar qəbul etmək zərurəti yarandıqda ümumi yığıncaqlarını keçirməlidirlər. Çoxmənzilli binanın sahə mülkiyyətçilərinin ümumi yığıncağının keçirilməsi müddətləri və qaydası, habelə qəbul edilmiş qərarlar barədə məlumat verilməsi qaydası binanın sahə mülkiyyətçilərinin ümumi yığıncağı tərəfindən müəyyən edilir.

Maddə 44.2. Çoxmənzilli binanın sahə mülkiyyətçilərinin ümumi yığıncağı həmin mülkiyyətçilərin birinin təşəbbüsü ilə çağırıla bilər.

Maddə 44.3. Çoxmənzilli binanın sahə mülkiyyətçilərinin ümumi yığıncağı ümumi səslərin əllidən çox faizinə malik olan sahə mülkiyyətçiləri və ya onların nümayəndələri iştirak etdikdə səlahiyyətlidir (yetərsay yaranır). Yetərsay olmadıqda çoxmənzilli binanın sahə mülkiyyətçilərinin ümumi yığıncağının keçirilməsi üçün yenidən ümumi yığıncaq keçirilməlidir.

Maddə 44.4. Çoxmənzilli binanın sahə mülkiyyətçilərinin ümumi yığıncağının keçirilməsinin təşəbbüskarı olan mülkiyyətçi həmin binanın sahə mülkiyyətçilərinə yığıncağın keçirilməsi tarixinə ən azı on gün qalanadək onun keçirilməsi barədə məlumat verməlidir. Göstərilən müddət ərzində çoxmənzilli binanın sahə mülkiyyətçilərinin ümumi yığıncağının keçirilməsi barədə məlumat həmin binanın sahə mülkiyyətçilərinin hər birinə sifarişli məktubla (həmin binanın sahə mülkiyyətçilərinin ümumi yığıncağının qərarı ilə bu məlumatın göndərilməsinin digər üsulu müəyyən edilməyibsə) və ya binanın sahə mülkiyyətçilərinin hər birinə imza ilə əlbəəl verilməli və ya binada ümumi yığıncağın qərarı ilə müəyyən edilmiş və bütün sahə mülkiyyətçiləri üçün əl çatan yerdə (yerlərdə) yerləşdirilməlidir.

Maddə 44.5. Çoxmənzilli binanın sahə mülkiyyətçilərinin ümumi yığıncağının keçirilməsi haqqında məlumatda aşağıdakılar göstərilməlidir

Maddə 44.6. Çoxmənzilli binanın sahə mülkiyyətçiləri tərəfindən bu Məcəllənin XIII fəslinə uyğun olaraq mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti yaradıldığı hallarda çoxmənzilli binanın sahə mülkiyyətçilərinin ümumi yığıncağı öz səlahiyyətlərini mənzil mülkiyyətçiləri müştərək cəmiyyətinin iştirakçılarının ümumi yığıncağına verilməsi barədə qərar qəbul edə bilər.

Maddə 45.1. Çoxmənzilli binanın sahə mülkiyyətçilərinin səslərinin ümumi sayının üçdə ikisindən az olmayan səs çoxluğu ilə qəbul edilən bu Məcəllənin 43.2.1-43.2.3-cü maddələrində nəzərdə tutulmuş qərarlar istisna olmaqla, çoxmənzilli binanın sahə mülkiyyətçilərinin ümumi yığıncağının səsə qoyulmuş qərarları yığıncaqda iştirak edən ümumi səslərin səs çoxluğu ilə qəbul edilir. Çoxmənzilli binanın sahə mülkiyyətçilərinin ümumi yığıncağının qərarları həmin binanın sahə mülkiyyətçilərinin ümumi yığıncağı tərəfindən müəyyən edilmiş qaydada protokollarla rəsmiləşdirilir.

Maddə 45.2. Çoxmənzilli binanın sahə mülkiyyətçilərinin ümumi yığıncağının gündəliyinə daxil olmayan məsələlər üzrə qərarlar qəbul etmək, habelə yığıncağın gündəliyində dəyişiklik etmək hüququ yoxdur.

Maddə 45.3. Çoxmənzilli binanın sahə mülkiyyətçilərinin ümumi yığıncağında qəbul edilmiş qərar və səsvermənin nəticələri barədə məlumat binanın sahə mülkiyyətçilərinin nəzərinə ümumi yığıncağın keçirilməsinin təşəbbüskarı olan mülkiyyətçi tərəfindən həmin qərarların qəbul edildiyi gündən on gündən gec olmayan müddətdə bu haqda məlumatın

binanın sahə mülkiyyətçilərinin ümumi yığıncağının qərarı ilə müəyyən edilmiş və binanın bütün sahə mülkiyyətçiləri üçün əl çatan olan sahədə yerləşdirilməklə çatdırılır.

Maddə 45.4. Çoxmənzilli binanın sahə mülkiyyətçilərinin ümumi yığıncağının protokolları və səsə qoyulmuş məsələlər üzrə qəbul edilmiş qərarları həmin yığıncağın qərarı ilə müəyyən edilmiş yerdə və ya ünvanda saxlanılır.

Maddə 45.5. Çoxmənzilli binanın sahə mülkiyyətçilərinin ümumi yığıncağının onun səlahiyyətlərinə aid edilmiş məsələlər üzrə bu Məcəllə ilə müəyyən edilmiş qaydada qəbul etdiyi qərarların icrası həmin binada bütün sahə mülkiyyətçiləri, o cümlədən, səsvermədə iştirak etməyən mülkiyyətçilər üçün məcburidir.

Maddə 45.6. Çoxmənzilli binanın sahə mülkiyyətçisi həmin binanın sahə mülkiyyətçilərinin ümumi yığıncağının bu Məcəllənin tələbləri pozulmaqla qəbul edilmiş qərarından məhkəməyə o halda şikayət verə bilər ki, o, həmin yığıncaqda iştirak etməmiş olsun və ya belə qərarın qəbul edilməsinin əleyhinə səs vermiş olsun və həmin qərarla onun hüquqları və qanuni mənafeləri pozulmuş olsun. Belə şikayət haqqında məhkəməyə ərizə mülkiyyətçi qərarın qəbul edildiyi barədə bildiyi və bilməli olduğu gündən altı ay müddətində verilə bilər.

Maddə 45.7. Əgər çoxmənzilli binada bütün sahələr bir mülkiyyətçiyə məxsusdursa, çoxmənzilli binanın sahə mülkiyyətçilərinin ümumi yığıncağının səlahiyyətlərinə aid edilən məsələlər üzrə qərarlar həmin mülkiyyətçi tərəfindən təkbaşına qəbul edilir və yazılı formada rəsmiləşdirilir. Bu halda bu fəslin çoxmənzilli binanın sahə mülkiyyətçilərinin ümumi yığıncağına hazırlıq, onun çağırılması və keçirilməsi qayda və müddətlərini müəyyənləşdirən müddəaları tətbiq edilmir.

Maddə 135.1. Fiziki və hüquqi şəxslər, həmçinin belə xidmətlərdən istifadə edən dövlət orqanları, bələdiyyələr və digər təşkilatlar yaşayış sahəsinə və kommunal xidmətlərə görə haqqı vaxtında və tam məbləğdə ödəməyə borcludurlar.

Maddə 135.2.3. Mənzil-tikinti kooperativi üzvləri üçün – mənzil-tikinti kooperativi tərəfindən yaşayış sahəsinin verildiyi andan;

Maddə 136.2. Çoxmənzilli binanın yaşayış sahəsinin mülkiyyətçisinin yaşayış sahəsinə və kommunal xidmətlərə görə ödədiyi haqq aşağıdakılardan ibarətdir

Maddə 136.3. Yaşayış binalarının mülkiyyətçiləri müvafiq fəaliyyət növlərini həyata keçirən şəxslərlə bağladıqları müqavilələrə uyğun olaraq, həmin binaların saxlanması və təmiri üzrə xərcləri çəkir, habelə kommunal xidmətlərə görə haqq ödəyir.

Maddə 136.4. Kommunal xidmətlərə görə haqqa soyuq və isti su təminatı, kanalizasiya, elektrik təminatı, qaz təminatı və istilik təchizatına görə ödənilən haqlar daxildir.

Maddə 137.4. Mənzil mülkiyyətçiləri müştərək cəmiyyətinin, mənzil-tikinti kooperativinin və ya vətəndaşların yaşayış sahəsinə olan ehtiyaclarını ödəmək üçün müvafiq qanuna uyğun olaraq yaradılmış digər ixtisaslaşmış istehlak kooperativinin (bundan sonra – ixtisaslaşmış istehlak kooperativi) üzvləri çoxmənzilli binanın ümumi əmlakının saxlanmasına, cari və əsaslı təmirinə xərclərin çəkilməsi, habelə kommunal xidmətlərin ödənilməsi ilə bağlı mütləq ödənişləri və (və ya) haqları mənzil mülkiyyətçiləri müştərək cəmiyyətinin idarəetmə orqanı və ya mənzil-tikinti kooperativinin idarəetmə orqanı və ya digər ixtisaslaşmış istehlak kooperativinin idarəetmə orqanı tərəfindən müəyyənləşdirilmiş qaydada ödəyirlər.

Maddə 137.7. Bilavasitə mülkiyyətçilər tərəfindən idarə olunan çoxmənzilli binanın yaşayış sahələrinin mülkiyyətçiləri yaşayış sahəsinə və kommunal xidmətlərə görə haqları müvafiq fəaliyyət növlərini həyata keçirən şəxslərlə bağlanılan müqavilələrə uyğun olaraq ödəyirlər.

Maddə 141.1. Çoxmənzilli binanın idarə edilməsi sakinlərin əlverişli və təhlükəsiz yaşamaq şəraitini, çoxmənzilli binanın ümumi əmlakının lazımi saxlanmasını, həmin əmlakın istifadə

edilməsi məsələlərinin həll edilməsini, habelə belə bina sakinlərinə kommunal xidmətlərin göstərilməsini təmin etməlidir.

Maddə 141.2. Çoxmənzilli binanın sahə mülkiyyətçiləri binanın aşağıdakı idarə edilməsi üsullarından birini seçməyə borcludur

Maddə 141.3. Çoxmənzilli binanın idarə edilməsi üsulu binanın sahə mülkiyyətçilərinin ümumi yığıncağında seçilir və istənilən vaxt onun qərarı əsasında seçilə və ya dəyişdirilə bilər. İdarəetmə üsulunun seçilməsi barədə ümumi yığıncağın qərarı binanın bütün sahə mülkiyyətçiləri üçün məcburidir.

Maddə 141.4. Çoxmənzilli binanın yerləşdiyi ərazinin bələdiyyəsi çoxmənzilli binanın sahə mülkiyyətçiləri tərəfindən altı ay ərzində həmin binanın idarə edilməsi üsulu seçilmədiyi və ya həmin binanın idarə edilməsi üsulunun seçilməsi barədə qərarın həyata keçirilmədiyi təqdirdə həmin binanın idarəetmə üsulunun seçilməsi məsələsinin həlli üçün binanın sahə mülkiyyətçilərinin yığıncağını çağırmalıdır. Belə yığıncaqda bu Məcəllənin 141.5-ci maddəsinin müddəaları bələdiyyə tərəfindən sahə mülkiyyətçilərinin nəzərinə çatdırılmalıdır.

Maddə 141.5. Bir il ərzində çoxmənzilli binanın sahə mülkiyyətçiləri tərəfindən həmin binanın idarə edilməsi üsulu seçilmədiyi və ya həmin binanın idarə edilməsi üsulunun seçilməsi barədə qərarın həyata keçirilmədiyi təqdirdə həmin binanın yerləşdiyi ərazinin bələdiyyəsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada idarəedici təşkilatın seçilməsi üzrə açıq müsabiqə keçirməlidir, bu şərtlə ki, bu Məcəllənin 141.4-cü maddəsinin tələbləri yerinə yetirilmiş olsun. Belə açıq müsabiqə açıq müsabiqənin nəticələri əsasında bağlanmış çoxmənzilli binanın idarə edilməsi müqaviləsinin qüvvədə olma müddəti başa çatanadək, həmin binanın idarə edilməsi üsulu seçilmədiyi halda da keçirilir.

Maddə 141.6. Çoxmənzilli binanın yerləşdiyi ərazinin bələdiyyəsi bu Məcəllənin 141.5-ci maddəsində nəzərdə tutulmuş açıq müsabiqənin keçirildiyi gündən on gün müddətində çoxmənzilli binanın bütün sahə mülkiyyətçilərini açıq müsabiqənin nəticələri və həmin binanın idarə edilməsi müqaviləsinin şərtləri barədə məlumatlandırır. Çoxmənzilli binanın sahə mülkiyyətçiləri bu Məcəllənin 141.5-ci maddəsində nəzərdə tutulmuş açıq müsabiqənin nəticələri əsasında seçilmiş idarəedici təşkilatla bu Məcəllənin 141-1.2-ci maddəsi və Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən edilmiş qaydada həmin binanın idarə edilməsi barədə müqavilə bağlamağa borcludur.

Maddə 141.7. Çoxmənzilli binanın yerləşdiyi ərazinin bələdiyyəsi bu Məcəllənin 141.6-cı maddəsində nəzərdə tutulmuş çoxmənzilli binanın idarə edilməsi barədə müqavilənin başa çatmasına bir ay qalmışdan gec olmayaraq həmin binanın idarəetmə üsulunun seçilməsi məsələsinin həlli üçün binanın sahə mülkiyyətçilərinin yığıncağını çağırır, bu şərtlə ki, idarəetmə üsulunun seçilməsi barədə qərar bu Məcəllənin 141.3-cü maddəsinə uyğun olaraq əvvəl qəbul edilməsin.

Maddə 141.8. Çoxmənzilli binanın istənilən sahə mülkiyyətçisi bələdiyyə tərəfindən bu Məcəllənin 141.5-ci maddəsinin müddəalarına uyğun olaraq idarəedici təşkilatın seçilməsi tələbi ilə məhkəməyə müraciət edə bilər.

Maddə 141.9. Bu Məcəllənin 141.5-ci maddəsində nəzərdə tutulmuş açıq müsabiqə keçirilmədən çoxmənzilli binanın idarəetmə müqaviləsinin bağlanmasına o şərtlə yol verilir ki, göstərilən müsabiqə qanunvericiliyə uyğun olaraq baş tutmamış hesab edilsin.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi

Maddə 14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

Maddə 77.1. Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

Maddə 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

Maddə 407.2. Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir.

Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

Maddə 416.2. Apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 418.4-cü maddəsində nəzərdə tutulmuş prosessual hüquq pozuntusu hesab edilən hallara yol verilməsi şikayətin hədlərindən və dəlillərindən asılı olmayaraq yoxlanılmalıdır.

Maddə 417.1.1. Kassasiya məhkəməsi işə baxarkən apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadını dəyişiklik edilmədən, şikayəti təmin etmədən saxlaya bilər.

Maddə 417.1.2. Kassasiya məhkəməsi işə baxarkən apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadına dəyişiklik edə bilər.

Maddə 417.1.3. Kassasiya məhkəməsi işə baxarkən apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadını qismən ləğv edə və ya tamamilə, yaxud qismən ləğv edib işi yenidən baxılmaq üçün apellyasiya instansiyası məhkəməsinə göndərə bilər.

Maddə 417.1.4. Kassasiya məhkəməsi işə baxarkən apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadını tamamilə, yaxud qismən ləğv edib apellyasiya instansiyası məhkəməsində müəyyən edilmiş hallar və sübutlar əsasında yeni qərar qəbul edə bilər.

Maddə 418.1. Maddi və prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması, o cümlədən maddi və prosessual hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması apellyasiya instansiyası məhkəməsinin qətnamə və qərardadının ləğv edilməsi üçün əsasdır.

Maddə 418.3. Prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması qətnamənin yaxud qərardadın ləğv edilməsi üçün o vaxt əsas ola bilər ki, bu pozuntu düzgün qətnamə qəbul edilməməsi ilə nəticələnsin və ya nəticələnə bilsin.

Kassasiya baxışının hədləri

43. Kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apelyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir

44. Kassasiya şikayətlərində qətnamə İddiaçı 1 tərəfindən “cavabdehin binanın idarəçiliyindən uzaqlaşdırılması və cavabdeh tərəfindən mənzilin hər kvadrat metrinə görə təyin edilən kommunal haqqın 0,5 manat olmasının əsaslandırılması” barədə iddianın təmin edilməyən, cavabdeh MMC tərəfindən isə iddiaçıların “liftlərdə kart sisteminin tətbiqinin ləğv edilməsi və liftlərdən sərbəst istifadə edilməsi üçün şərait yaradılması öhdəliyinin “XXX” MMC-nin üzərində qoyulması barədə iddianın təmin edilən hissələrində mübahisələndirildiyindən həmin məhkəmə aktı həmin hissələrdə yoxlanılır.

45. Məhkəmə kollegiyası hüququn inkişafının və ya məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi üçün əhəmiyyətli hesab etmədiyindən hazırki şikayətə yazılı icraat qaydasında baxılmasını qərara almışdır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

46. Məhkəmə kollegiyası ilk olaraq İddiaçı 1in kassasiya şikayətini yoxlayaraq hesab edir ki, iddianın təmin edilməyən hissələrində apellyasiya instansiyası məhkəməsinin gəldiyi nəticə əsaslıdır.

47. Həmin hissələrlə bağlı məhkəmə kollegiyası apellyasiya instansiyası məhkəməsini hazırki qərarın 29 və 34-cü bəndlərində əks edilən mövqeyi ilə razılaşır.

48. Belə ki, İddiaçı 1in təmin edilməyən tələbləri üzrə həmçinin müəyyən edilib ki, İddiaçı 1 ilə cavabdeh arasında çoxmənzilli binaya xidmətlərin göstərilməsinə dair xx.xx.2016-cı il tarixli ****** saylı müqavilə bağlanmış, həmin müqavilə ilə cavabdeh iddiaçının yaşadığı mənzilə xidmət göstərməsi tərəflərin razılığı ilə baş tutmuşdur, eyni zamanda cavabdeh MMC-nin xx.12xx2017-ci il tarixli qərarı ilə kommunal xidmət haqqı 2013-cü ildən hər m^2-ə görə tətbiq edilən 0,45 manatdan 2018-ci ilin yanvarından 0,50 manata qaldırılmışdır.

49. Bundan əlavə, məhkəmə kollegiyası qeyd edir ki, işin müəyyən edilən halına görə Bakı şəhəri Xətai Rayon Məhkəməsinin 31.03.2023-cü il tarixli, e-2(011)-487/2023 saylı qətnaməsi ilə İddiaçı 1dən eyni mənzilə görə eyni tarif və əsasla kommunal xidmətə 2306.60 manat məbləğində borc tutularaq MMC-yə ödənilmişdir. Başqa sözlə, İddiaçı 1in eyni mənzilə görə eyni tarif və əsasla kommunal xidmətə görə haqq ödəməli olması artıq qanuni qüvvəyə minmiş qətnamə ilə tanınıb.

50. Həmçinin Mənzil Məcəlləsinin 135.1-ci maddəsinə görə fiziki və hüquqi şəxslər, həmçinin belə xidmətlərdən istifadə edən dövlət orqanları, bələdiyyələr və digər təşkilatlar yaşayış sahəsinə və kommunal xidmətlərə görə haqqı vaxtında və tam məbləğdə ödəməyə borcludurlar. Həmin Məcəllənin 135.2.3 və 135.2.4-cü maddələrinə görə isə yaşayış sahəsinə və kommunal xidmətlərə görə haqqın ödənilməsi vəzifəsi mənzil-tikinti kooperativi üzvləri üçün – mənzil-tikinti kooperativi tərəfindən yaşayış sahəsinin verildiyi, yaşayış sahəsinin mülkiyyətçisi üçün isə – yaşayış sahəsinə mülkiyyət hüququ əmələ gəldiyi andan yaranmış hesab edilir.

51. Bu baxımdan, İddiaçı 1in kassasiya şikayətinin dəlilləri əsassız olduğu üçün apellyasiya instansiyası məhkəməsinin qətnaməsi İddiaçı 1in iddiasının təmin edilməyən hissələrində dəyişdirilmədən saxlanmalıdır.

52. Cavabdeh MMC-nin kassasiya şikayətinə gəldikdə, məhkəmə kollegiyası bununla bağlı aşağıdakıları qeyd etməyi zəruri hesab edir.

53. Cavabdeh iddiaçıların “liftlərdə kart sisteminin tətbiqinin ləğv edilməsi və liftlərdən sərbəst istifadə edilməsi üçün şərait yaradılması öhdəliyinin MMC-nin üzərində qoyulması barədə” iddiaya etirazını və həmin tələbin təmin rədd edilməli olması barədə kassasiya şikayətini onunla əsaslandırmışdır ki, kart sistemi sakinlərin xahişi ilə və onların təhlükəzsiliyini təmin etmək üçün yenidən bərpa edilib. Lakin bəzi sakinlər ödənişləri vaxtında ödəmədiklərinə görə həmin servisin xidmət haqqını ödəmək mümkün olmadığından kart sistemi dayandırılmışdır. Liftdən istifadə etmək üçün heç kimə MMC tərəfindən məhdudiyyət qoyulmayıb.

54. Mülki Məcəllənin 227.1-ci maddəsinə görə yaşayış binasının mənzildən kənarda və ya mənzil daxilində yerləşən, birdən çox mənzilə xidmət edən ümumi otaqları, dayaq konstruksiyaları, mexaniki, elektrik, sanitariya-texniki və digər avadanlığı, habelə yerləşdiyi torpaq sahəsi ümumi paylı mülkiyyət hüququ ilə yaşayış binasının tərkib hissəsi mülkiyyətçilərinə mənsubdur.

55. Mənzil Məcəlləsinin 35.1-ci maddəsinə görə yaşayış binasının tərkib hissəsinin mülkiyyətçilərinə həmin binada mənzillərin hissəsi olmayan və binada birdən artıq sahəyə xidmət etmək üçün nəzərdə tutulan obyektlər (o cümlədən, mənzillərarası pilləkən meydançaları, pilləkənlər, liftlər, lift şaxtası və ya digər şaxtalar, dəhlizlər, texniki mərtəbələr, çardaqlar, mühəndis qurğuları olan zirzəmilər, həmin binada birdən artıq sahəyə xidmət edən avadanlıq (texniki zirzəmi), habelə binanın daşıyıcı və daşıyıcı olmayan konstruksiyalarını ayıran dam örtükləri, binada sahələrin daxilində və onların hüdudlarından kənarda yerləşən və birdən artıq sahəyə xidmət edən mexaniki, elektrik, sanitar-texniki və digər avadanlıq, yaşıllaşdırma və abadlaşdırma elementləri də daxil olmaqla binanın yerləşdiyi torpaq sahəsi, binaya xidmət etmək, onun istismarı və abadlaşdırılması üçün nəzərdə tutulmuş həmin torpaq sahəsində yerləşən obyektlər) (bundan sonra – çoxmənzilli binanın ümumi əmlakı) ümumi paylı mülkiyyət hüququ ilə mülkiyyətçilərə məxsusdur.

56. Hər iki normadan görünür ki, yaşayış binasının mənzildən kənarda yerləşən, birdən çox mənzilə xidmət edən mexaniki, elektrik, sanitariya-texniki və digər avadanlığı, o cümlədən, liftlər, lift şaxtası ümumi paylı mülkiyyət hüququ ilə yaşayış binasının tərkib hissəsinin mülkiyyətçilərinə məxsusdur.

57. Hazırki işin halları da ondan ibarətdir ki, mübahisədə adı keçən yaşayış binaları çoxmənzilli binalardır və iddiaçılar həmin binalarda yerləşən mənzillərin mülkiyyətçiləridir. Belə olan halda, qanunvericiliyin tələbinə görə həmin şəxslər mənzillərindən kənarda yerləşən, birdən çox mənzilə xidmət edən mexaniki, elektrik, sanitariya-texniki və digər avadanlığı, o cümlədən, liftlərə ümumi paylı mülkiyyət hüququna malikdirlər.

58. Mülki Məcəllənin 152.1-ci maddəsinə görə mülkiyyət hüququ - subyektin ona mənsub əmlaka (əşyaya) öz istədiyi kimi sahib olmaq, ondan istifadə etmək və ona dair sərəncam vermək üzrə dövlət tərəfindən tanınan və qorunan hüquqdur.

59. Mülki Məcəllənin 152.5-ci maddəsinə görə isə mülkiyyətçi qanunda və ya müqavilədə müəyyən edilən məhdudiyyətlər nəzərə alınmaqla müəyyənləşdirilmiş hədlərdə əmlaka (əşyaya) sərbəst surətdə sahib ola bilər, ondan istifadə edə bilər və ona dair sərəncam verə bilər, həmin əmlaka başqa şəxslərin sahibliyinə yol verməyə bilər, ona mənsub əmlak barəsində öz mülahizəsi ilə istənilən hərəkətləri edə bilər, bir şərtlə ki, həmin hərəkətlər qonşuların və ya üçüncü şəxslərin hüquqlarını pozmasın, yaxud hüquqdan sui-istifadə olmasın.

60. Göründüyü kimi, mülkiyyətçinin ona mənsub əmlaka (əşyaya) öz istədiyi kimi sahib olmaq, ondan istifadə etmək və ona dair sərəncam verməsi dövlət tərəfindən tanınır və qorunur, bununla belə bu hüquq da mütləq deyil, qanunda və ya müqavilədə müəyyən edilən məhdudiyyətlərə məruz qala bilər.

61. Bunun üçün də mülkiyyət hüququna məhdudiyyət ya qanunda, ya da müqavilədə nəzərdə tutulmalıdır. Bunlardan hər hansı birinin olmaması istənilən digər əsaslarla mülkiyyət hüququna müdaxiləni istisna edir. Çünki mülkiyyət hüququnun, o cümlədən xüsusi mülkiyyət hüququnun qanunla qorunması konstitusion hüquqdur.

61. Baxılan işdə belə bir qanuni əsas nə Mülki, nə Mənzil Məcəllələrində, nə də digər qanunlarda nəzərdə tutulmayıb.

62. Həmçinin müəyyən edilib ki, İddiaçı 1in ümumi paylı mülkiyyətində olan liftdən istifadəsinə hər hansı əsasla, o cümlədən xidmət haqqının ödənilməməsinə görə məhdudiyyət tətbiq edilməsi onunla cavabdeh MMC arasında bağlanmış 08.05.2016cı il tarixli ****** saylı müqavilədə şərtləşdirilməyib. Digər iddiaçılarla cavabdeh MMC-nin xidmət müqaviləsi bağlaması isə, ümumiyyətlə, müəyyən edilməyib. Başqa sözlə, müdaxilənin müqavilə əsası da

istisna edilib. Eləcə də, liftdən istifadə və ona məhdudiyyətin tətbiq edilməsi qaydaları ilə bağlı bina sakinlərinin ümumi yığıncağının qərarı da yoxdur.

63. O da qeyd edilməlidir ki, çoxmənzilli binanın idarəetmə orqanı binanın sahə mülkiyyətçilərinin ümumi yığıncağıdır. Binanın sahə mülkiyyətçiləri tərəfindən MMMC yaradıldığı hallarda sahə mülkiyyətçilərinin ümumi yığıncağı öz səlahiyyətlərinin cəmiyyətinin iştirakçılarının ümumi yığıncağına verilməsi barədə qərar qəbul edə bilər (Mənzil Məcəlləsi, maddə 43.1, 44.6).

64. Kooperativ binanın tikintisi tam başa çatdıqdan və həmin binada mövcud olan yaşayış və qeyri-yaşayış sahələrinin ümumi sayının 50%-dən çoxuna mülkiyyət hüququ kooperativin üzvlərinə keçdikdən sonra 1 ay ərzində kooperativ MMMC-yə çevrilməsi barədə qərar qəbul edilməlidir (Mənzil Məcəlləsi, maddə 109.5). Bu halda binanın sahə mülkiyyətçilərinin maraqlarına aid məsələlər üzrə mülki prosessual hüquq qabiliyyəti həmin MMMC-yə aiddir, yəni bununla bağlı iddialar MMMC tərəfindən qaldırıla bilər.

65. Baxılan işdən görünür ki, binanın tikintisi başa çatmış, lakin sahə mülkiyyətçilərinin müştərək cəmiyyəti (MMMC) yaradılmamışdır. Belə olan halda, hazırda mübahisəli çoxmənzilli binaların idarəetmə orqanı sahə mülkiyyətçilərinin ümumi yığıncağı hesab olunur və iş materiallarında liftdən istifadə və ona məhdudiyyətin tətbiq edilməsi qaydaları ilə bağlı bina sakinlərinin ümumi yığıncağının qərarı da yoxdur.

66. Belə olan halda, cavabdeh MMC-nin iddiaçıların liftdən istifadə qaydalarına, xidmət haqqının ödənilməsinə görə məhdudiyyət (kartın deaktiv edilməsi) tətbiq etməsi onların mülkiyyət hüququna müdaxilədir və iddiaçıların bu müdaxilədən Mülki Məcəllənin 157.4-cü maddəsinə əsasən müdafiə hüquqları vardır. Belə ki, mülkiyyətə qəsd və ya başqa maneələr əşyanı götürmədən və ya ondan məhrum etmədən törədilirsə, mülkiyyətçi qəsd edəndən bu hərəkətlərə son qoymağı tələb edə bilər. Bu cür hərəkətlər davam etdirildikdə mülkiyyətçi həmin hərəkətlərə son qoyulmasını məhkəmə vasitəsilə tələb edə bilər.

67. Qeyd edilənlərə əsasən məhkəmə kollegiyası cavabdeh MMC-nin iddiaçılara münasibətdə liftlərə məhdudiyyət qoyulmasının onlar tərəfindən xidmət haqqının ödəməməsi ilə bağlı izahını əsaslı saymır.

68. Bununla belə, məhkəmə kollegiyası apellyasiya instansiyası məhkəməsinin İddiaçı 1 və digər 6 nəfər iddiaçının "liftlərdə kart sisteminin tətbiqinin ləğv edilməsi tələbinin təmin edilərək, liftlərə cavabdeh MMC tərəfindən tətbiq edilmiş kart sisteminin ləğv edilməsi və liftlərdən sərbəst istifadə edilməsi üçün şərait yaradılması öhdəliyinin cavabdeh MMC-nin üzərinə qoyulması barədə gəldiyi nəticəni düzgün hesab etmir.

69. Belə ki, iddiaçılar liftlərə qoyulmuş kart sisteminin bütövlükdə ləğvini deyil, mülkiyyətçi olaraq özlərinə münasibətdə liftlərdən istifadəyə tətbiq edilən məhdudiyyətin (kartın deaktiv edilməsi, liftdən istifadəni məhdudlaşdıran digər halların) aradan qaldırlmasını tələb edə bilərlər.

70. Qeyd edilməlidir ki, çoxmənzilli yaşayış binalarında liftlərdən xüsusi kart vasitəsilə istifadə edilməsi (kart sisteminin tətbiqi) liftlərin təmiz saxlanması, onların texniki baxımından daha uzun müddətli saz vəziyyətdə istismarı, eləcə də bina sakinlərinə təhlükəsiz şərait yaradılması, kənar şəxslərin liftlərə daxil olmasının qarşısını almaq məqsədi daşıyır ki, bu sistemin qalması həm binanın digər sakinləri, eləcə də iddiaçıların özlərinin təhlükəsizliyi baxımından da məqsədəuyğundur.

71. Bu baxımdan, yuxarıda şərh edilən hallar hüquqi məsələ olduğu üçün məhkəmə kollegiyası işi apellyasiya baxışına göndərmədən apellyasiya instansiyası məhkəməsində müəyyən edilmiş hallar və sübutlar əsasında həmin hissədə yeni qərar qəbul edilməklə belə qənaətə gəlir ki, apellyasiya instansiyası məhkəməsinin qətnaməsi tərəfindən tətbiq edilmiş

kart sisteminin ləğv edilməsi və liftlərdən sərbəst istifadə edilməsi üçün şərait yaradılması öhdəliyinin MMC-nin üzərinə qoyulması hissəsində ləğv edilməli, yalnız iddiaçılara münasibətdə yaşadıqları ünvanda yerləşən liftlərə cavabdeh tərəfindən tətbiq edilmiş məhdudiyyət (hər hansı səbəbdən kartın deaktiv edilməsi, yeni kartların verilməsindən imtina edilməsi və liftdən istifadəni məhdudlaşdıran digər halların) aradan qaldırılmalı və həmin şəxslərin liftlərdən sərbəst istifadə etmələri üçün şərait yaradılması öhdəliyi cavabdeh MMC-nin üzərinə qoyulmaldır.

72. Cavabdehin mənzil mülkiyyətçilərinin liftdən istifadə kartlarının deaktiv edilməsində əsas məqsədin kommunal və xidmət haqlarının ödənilməsini hər dəfə məhkəməyə müraciət etmədən, daha effektiv təmin etmək olması barədə kassasiya şikayətinin dəlilləri ilə bağlı məhkəmə kollegiyası izah edir ki, əvvəla, yuxarıda qeyd edildiyi kimi heç bir hal qanunda və müqavilədə göstərilmədiyi təqdirdə mülkiyyətə müdaxiləyə haqq qazandırmır.

73. Bundan başqa, işdən görünür ki, İddiaçı 1dən xidmət haqqının tutulması barədə Xətai Rayon Məhkəməsinin qanunu qüvvədə olan qətnaməsi var, eləcə də hazırki işdə də MMC-nin bu barədə qarşılıqlı iddiası təmin edilib. Yəni, mənzil mülkiyyətçisindən xidmət haqqını almaq üçün hüquqi müdafiə vasitəsi vardır.

74. Mənzil Məcəlləsinin 29.3-cü maddəsinə görə qanunla və ya müqavilə ilə başqa hal nəzərdə tutulmayıbsa, yaşayış sahəsinin mülkiyyətçisi yaşayış sahəsinin və əgər həmin sahə mənzildirsə, müvafiq yaşayış binasının tərkib hissəsinin mülkiyyətçilərinin ümumi əmlakının saxlanması yükünü daşıyır, kommunal mənzildə otaq mülkiyyətçisi isə əlavə olaraq həmin mənzilin otaq mülkiyyətçilərinin ümumi əmlakının saxlanması yükünü daşıyır.

75. İnzibati Xətalar Məcəlləsinin 393-1.4-cü maddəsinə görə çoxmənzilli binanın sahə mülkiyyətçisi, o cümlədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) satmaq öhdəliyi ilə kirayəyə verdiyi yaşayış sahəsinin kirayəçisi ona məxsus olan sahənin saxlanması xərclərini, habelə mənzil qanunvericiliyinə uyğun olaraq çoxmənzilli binanın ümumi əmlakının saxlanması xərclərini vaxtında və tam məbləğdə çəkməkdən boyun qaçırmasına görə ödənilməli olan ödənişlərin məbləğinin yüz faizindən yüz əlli faizinədək məbləğdə cərimə edilir.

76. “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 15 fevral 2016-cı il tarixli, 795 №-li Fərmanının 5.39-1-ci bəndinə görə həmin Məcəllənin 393-1.1-ci və 393-1.3-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, 393-1.4-cü və 393-1.6-cı maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və ya Azərbaycan Respublikasının yerli icra hakimiyyəti orqanları baxırlar.

77. Göründüyü kimi, çoxmənzilli binanın sahə mülkiyyətçisinin ümumi əmlakının saxlanması xərclərini vaxtında və tam məbləğdə çəkməkdən boyun qaçırmasına görə inzibati məsuliyyət də nəzərdə tutulub və məhkəməyə müraciət edilmədən də qeyd edilən hüquqi müdafiə vasitəsindən istifadə edilməklə mülkiyyətçinin həmin xərclərə cəlb edilməsini təmin etmək mümkündür.

78. Məhkəmə kollegiyası qeyd olunanlara əsasən belə qənaətə gəlir ki, İddiaçı 1in kassasiya şikayəti təmin edilməməli, apellyasiya instansiyası məhkəməsinin qətnaməsi İddiaçı 1in iddia tələbinin təmin edilməyən hissəsində dəyişdirilmədən saxlanmalı, cavabdeh (qarşılıqlı iddiaçı) “XXX” MMC-nin kassasiya şikayəti qismən təmin edilməli, apellyasiya instansiyası məhkəməsinin qətnaməsi “XXX” MTK tərəfindən Ünvan 1 və ünvan 2 saylı binalarda yerləşən liftlərə cavabdeh “XXX” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən tətbiq edilmiş kart sisteminin

ləğv edilməsi və liftlərdən sərbəst istifadə edilməsi üçün şərait yaradılması öhdəliyinin cavabdeh “XXX” MMC-nin üzərinə qoyulması hissəsində ləğv edilməli, iddiaçıların “liftlərdə kart sisteminin tətbiqinin ləğv edilməsi tələbi barədə” iddia tələbləri qismən təmin edilməli, iddiaçılara münasibətdə yaşadıqları ünvanda yerləşən liftlərə cavabdeh MMC tərəfindən tətbiq edilmiş məhdudiyyət ləğv olunmalı və həmin şəxslərin liftlərdən sərbəst istifadə etmələri üçün şərait yaradılması öhdəliyi cavabdeh MMC-nin üzərinə qoyulmalıdır.

79. Yuxarıda göstərilənləri və MPM-in 416, 417, 419-421-ci maddələrini rəhbər tutaraq, məhkəmə kollegiyası

Qərara aldı:

İddiaçı 1in (qarşılıqlı cavabdeh) kassasiya şikayəti təmin edilməsin.

Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(103)-4121/2024 nömrəli, 29.08.2024-cü il tarixli qətnaməsi İddiaçı 1in iddia tələbinin təmin edilməyən hissəsində dəyişdirilmədən saxlansın.

Cavabdeh (qarşılıqlı iddiaçı)“XXX” Məhdud Məsuliyyətli Cəmiyyətinin kassasiya şikayəti qismən təmin edilsin.

Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(103)-4121/2024nömrəli,29.08.2024-cü il tarixli qətnaməsi “XXX” MTK tərəfindən Ünvan 1 və ünvan 2 saylı binalarda yerləşən liftlərə cavabdeh “XXX” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən tətbiq edilmiş kart sisteminin ləğv edilməsi və liftlərdən sərbəst istifadə edilməsi üçün şərait yaradılması öhdəliyinin cavabdeh “XXX” MMC-nin üzərinə qoyulması hissəsində ləğv edilsin. iddiaçılar İddiaçı 1, İddiaçı 2, İddiaçı 3, İddiaçı 4, İddiaçı 5, İddiaçı 6 və İddiaçı 7-nin cavabdeh “XXX” MMC-yə qarşı “liftlərdə kart sisteminin tətbiqinin ləğv edilməsi tələbi barədə” iddia tələbləri qismən təmin edilsin.

İddiaçılar İddiaçı 1, İddiaçı 2, İddiaçı 3, İddiaçı 4, İddiaçı 5, İddiaçı 6 və İddiaçı 7-ə münasibətdə yaşadıqları ünvanda yerləşən liftlərə cavabdeh “XXX” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən tətbiq edilmiş məhdudiyyət ləğv edilsin və həmin şəxslərin liftlərdən sərbəst istifadə etmələri üçün şərait yaradılması öhdəliyi cavabdeh “XXX” MMC-nin üzərinə qoyulsun.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

Yaşayış sahəsinə istifadə hüququnun itirilməsi

12. 2(102)-222/2024 nömrəli, 2024-cü il 16 yanvar tarixli qərar - Yaşayış sahəsinə istifadə hüququna kompensasiya ödənilməklə xitam verilməsi tələbləri üzrə ədalətli kompensasiya məbləğinin məhkəmə tərəfindən müəyyən edilməsinin məcburiliyi

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: yaşayış sahəsinə istifadə hüququna kompensasiya ödənilməklə xitam verilməsi tələbləri üzrə ədalətli kompensasiya məbləğinin məhkəmə tərəfindən müəyyən edilməsinin məcburiliyi.

Mübahisə iddiaçının mülkiyyətində olan fərdi yaşayış evindən cavabdehin 3.000 manat kompensasiya ödənilməklə istifadə hüququna xitam verilməsi ilə bağlıdır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Apellyasiya instansiyası məhkəməsi, mübahisəli fərdi yaşayış evinin tərkib hissəsindən cavabdehin istifadə hüququna xitam verilməsi üçün iddiaçının təklif etdiyi 3.000 manat kompensasiya məbləğinin yetərli olmadığını, həmin məbləğ müəyyən edilərkən birinci instansiya məhkəməsi tərəfindən işin konkret xüsusiyyətlərinin, özünə məxsusluğunu şərtləndirən müxtəlif meyarların və sair halların nəzərə alınmadığını əsas tutub iddianı rədd edərkən, tam hüquqlu məhkəmə kimi özü yetərli kompensasiyanın məbləğini bazar qiymətinə uyğun müəyyən etməməklə maddi və prosessual hüquq normalarının tələblərini pozub və Mülki Məcəllənin 228.2-ci maddəsinin tətbiqi ilə bağlı artıq formalaşmış vahid məhkəmə təcrübəsini nəzərə almayıb.

Mülki Məcəllənin 228.2-ci maddəsində nəzərdə tutulan kompensasiya verilməsi yolu ilə yaşayış binasının tərkib hissəsindən istifadə hüququna xitam verilməsi, bir tərəfdən mülkiyyət hüququnun qorunmasına yönəlsə də, digər tərəfdən mülkiyyətçi ilə birgə yaşayan ailə üzvlərinin mənzildən istifadə hüquqlarının itirilməsini tənzimləyir. Hər bir halda qanunverici Mülki Məcəllənin 228.2-ci maddəsində istifadə hüququna xitam verilməsi zamanı kompensasiyanın məhz bazar qiymətinə uyğun ödənilməsini müəyyən edir və mülkiyyətçi istifadə hüququna xitam verilməsi haqqında iddia qaldırarkən öz iddiasında kompensasiya məbləğini ümumiyyətlə göstərməyə borclu deyildir.

Həmçinin nəzərə alınmalıdır ki, həmin maddədə nəzərdə tutulan yaşayış sahəsindən istifadə hüququna kompensasiya verməklə xitam verilməsi mülkiyyətçinin subyektiv hüququdur. Belə iddia tələblərində kompensasiyanın məbləği tələb kimi yox, yalnız təklif kimi çıxış edir.

Digər tərəfdən, həmin maddədə göstərilən kompensasiya məbləğinin iddianın predmetinə aid edilməməsi həmin işlərə baxılarkən məhkəmə prosesinin əsassız uzadılmasının qarşısının alınmasına xidmət edir. Yəni həm mülkiyyətçi, həm də işə baxan məhkəmələr apellyasiya icraatı mərhələsində də kompensasiyanın məbləğini müəyyən edə, artıra bilərlər. Başqa sözlə, apellyasiya instansiyası məhkəməsi kompensasiyanın məbləği ilə razılaşmadıqda Mülki Məcəllənin 228.2-ci maddəsinin tələblərinə və Mülki Prosessual Məcəlləyə müvafiq olaraq kompensasiyanın məbləğini bazar qiymətinə uyğun müəyyən etməlidir.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-222/2024

16.01.2024-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi
Mülki kollegiyasının

İddiaçının Cavabdehə qarşı iş üzrə

Q Ə R A R I

(Açar sözlər: evdən istifadə hüququna kompensasiya ödənilməklə xitam verilməsi)

Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının hakimləri Əhmədov Əhməd Abbas oğlu (məruzəçi), Həsənov Vüqar Təvəkgül oğlu və Şəfiyev İspəndiyar Əsəd oğlundan ibarət tərkibdə,

Şirvan Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 21 avqust 2023-cü il tarixli, 2(106)-984/2023 nömrəli qətnaməsindən iddiaçı tərəfindən verilmiş kassasiya şikayəti üzrə işə 16 yanvar 2024-cü il tarixdə Ali Məhkəmənin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları:

1. Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsinin surətindən və Astara rayon İHB-nın X kənd İƏD-si üzrə nümayəndəliyi tərəfindən verilmiş arayışa əsasən, iddiaçı 15 yanvar 1933-cü il tarixdə Ünvan 1-də anadan olmaqla, Ünvan 2-də yaşayır.

2. Astara rayon İHB-nın X kənd İƏD-si üzrə nümayəndəliyi tərəfindən verilmiş arayışa əsasən, İddiaçı Ünvan 2-də yaşayır, ona məxsus olan ev 1964-cü ildə tikilmişdir, ev 1-mərtəbəli, 1-otaqlı, ümumi sahəsi 25,3 kv.metr, köməkçi sahəsi 9,3 kv.metr, yaşayış sahəsi 16,0 kv.metrdən ibarətdir. X1 və Cavabdeh həmin evdə daimi pasport qeydiyyatındadırlar.

3. Astara rayon İHB-nın X kənd İƏD-si üzrə nümayəndəliyi tərəfindən verilmiş arayışdan görünür ki, nümayəndəliyin ərazisində 1 otaqlı evin kirayə haqqı 40 manat təşkil edir.

4. Azərbaycan Respublikası ƏMDK yanında DƏDRX-nin Hüquqların Dövlət qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət Reyestrindən 18 noyabr 2022-ci il tarixli Çıxarışa əsasən, Ünvan 2-də, 0,32 ha torpaq sahəsində yerləşən, ümumi sahəsi 25.3 kv.metr olan fərdi yaşayış evi daşınmaz əmlakın dövlət reyestrində mülkiyyət hüququ üzrə iddiaçının adına qeydə alınmışdır.

5. Astara rayon İHB-nın X kənd İƏD-si üzrə nümayəndəliyi tərəfindən verilmiş arayışdan görünür ki, cavabdeh Ünvan 2-də qeydiyyatdadır.

6. Astara rayon İHB-nın X kənd İƏD-si üzrə nümayəndəliyi tərəfindən verilmiş xasiyyətnamədə Cavabdeh müsbət xarakterizа edilmişdir.

7. Astara Rayon Məhkəməsinin 23 dekabr 2021-ci il tarixli qətnaməsi ilə iddiaçının cavabdehə qarşı “kompensasiya ödənilməklə evdən istifadə hüququna xitam verilməsi və pasport qeydiyyatından çıxarılma” barədə iddiası təmin edilmişdir.

8. Şirvan Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 29 sentyabr 2022-ci il tarixli qətnaməsi ilə Astara Rayon Məhkəməsinin 23 dekabr 2021-ci il tarixli qətnaməsi ləğv edilmişdir. Həmin qətnamənin ləğv edilməsinə əsas isə Astara Rayon Məhkəməsinin 25 aprel 2022-ci il tarixli qətnaməsinə əsasən onun mülkiyyətində olan fərdi yaşayış evinə dair 15 yanvar 2020-ci il tarixli Çıxarışın etibarsız hesab edilməsi olmuşdur.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a) Birinci instansiya məhkəməsindəki icraat

9. İddiaçı cavabdehə qarşı “kompensasiya ödənilməklə evdən istifadə hüququna xitam verilməsi” barədə iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, cavabdehə 3.000 manat kompensasiya ödənilməklə mülkiyyətində olan Ünvan 2-də yerləşən fərdi yaşayış evindən istifadə hüququna xitam verilməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

10. İddiaçı tələbini onunla əsaslandırmışdır ki, arvadı X1 ilə birlikdə Ünvan 2-də mülkiyyət hüququ ilə ona məxsus olan 1964-cü ildə tikilmiş 1-mərtəbəli, ümumi sahəsi 25.5 kv.metrdən ibarət olan 1 otaqlı evdə yaşayırlar. Həmin evdə həmçinin 15 sentyabr 1980-ci il tarixdə doğulmuş oğlu, yəni cavabdeh daimi pasport qeydiyyatındadır. Cavabdeh onunla və digər ailə üzvləri ilə yola getmir daimi dava-dalaş salır. Bu əməllərinə görə o, Astara Rayon Məhkəməsinin 14 sentyabr 2006-cı il tarixli hökmünə əsasən Cinayət Məcəlləsinin 133-cü maddəsi ilə məhkum edilmişdir. Həmçinin cavabdeh, Astara Rayon Məhkəməsinin 01 noyabr 2022-ci il tarixli qərarına əsasən, İnzibati Xətalar Məcəlləsinin 510-cu maddəsi ilə inzibati qaydada tənbeh edilmişdir. Bu səbəbdən də onların bir yerdə yaşamaları mümkün deyil. Hazırkı iddia tələbi ilə bundan əvvəl də məhkəməyə müraciət etmişdir. Astara Rayon

Məhkəməsinin 23 dekabr 2021-ci il tarixli qətnaməsi ilə iddiası təmin edilmişdir. Cavabdeh həmin qətnamədən apellyasiya şikayəti vermiş və Şirvan Apelyasiya Məhkəməsi Mülki kollegiyasının 29 sentyabr 2022-ci il tarixli qətnaməsi ilə sözügedən qətnamə ləğv edilmişdir. Həmin qətnamənin ləğv edilməsinə əsas isə Astara Rayon Məhkəməsinin 25 aprel 2022-ci il tarixli qətnaməsi ilə mülkiyyətində olan fərdi yaşayış evinə dair 15 yanvar 2020-ci il tarixli Çıxarışın etibarsız hesab edilməsi olmuşdur. Bundan sonra, qeyd olunan fərdi yaşayış evinin onun mülkiyyətində olmasını təsdiq edən 18 noyabr 2022-ci il tarixli Çıxarış almışdır. Cavabdehin həmin evdə yaşaması onun mülkiyyət hüququnu pozur. Mülkiyyətində olan fərdi yaşayış evinin yerləşdiyi kənddə 1 otaqlı evin aylıq kirayə haqqı təxminən 30-40 manat təşkil edir. Qeyd edilən fərdi yaşayış evi köhnə və yararsız vəziyyətdədir. Cavabdehə 3 illik kirayə haqqı həcmində 3.000 manat kompensasiya ödəməyə razıdır. Odur ki, iddiasının təmin edilməsi barədə qətnamə çıxarılmasını xahiş edir.

11. Məhkəmə iclasında cavabdeh iddianı qəbul etməyərək izahatında göstərmişdir ki, iddiaçı 18 noyabr 2022-ci il olan çıxarışa əsasən sözügedən fərdi yaşayış evinin mülkiyyətçisi olsa da, onun və ailə üzvlərinin başqa yerdə yaşamalarına imkanları yoxdur. İddiaçı olan atasını digər qardaşı X2 aldadaraq həmin evi ələ keçirtmək istəyir. Odur ki, iddianın rədd edilməsi barədə qətnamə çıxarılmasını xahiş edir.

12. Astara Rayon Məhkəməsinin 06 aprel 2023-ci il tarixli, 2(018)-98/2023 saylı qətnaməsi ilə (hakim M.İ.Məmmədov) iddia təmin edilərək, cavabdehə iddiaçı tərəfindən mülkiyyətində olan Ünvan 2-də, 0,32 ha torpaq sahəsində yerləşən, ümumi sahəsi 25,3 kv.metr olan fərdi yaşayış evindən istifadə hüququna görə 3.000 manat kompensasiya ödənilməklə xitam verilməsi qət edilmişdir.

13. Məhkəmə, gəldiyi nəticəni onunla əsaslandırmışdır ki, iddiaçı, arvadı X1 ilə birlikdə Ünvan 2-də mülkiyyət hüququ ilə ona məxsus olan, 1964-cü ildə tikilmiş, 1 mərtəbəli, ümumi sahəsi 25.5 kv.metr olan 1 otaqlı evdə yaşayır. 18 noyabr 2022-ci il tarixli çıxarışa əsasən, həmin ev tam mülkiyyət hüququ üzrə iddiaçının adına qeydə alınmışdır. Həmin evdə həmçinin iddiaçının 15 sentyabr 1980-ci il tarixdə doğulmuş oğlu - cavabdeh daimi pasport qeydiyyatındadır və sonuncunun iddia edilən evdə istifadə hüququ vardır.

14. Məhkəmə, qeyd etmişdir ki, hazırda iddiaçı cavabdehə 3.000 manat kompensasiya ödəməklə onun evdən istifadə hüququna xitam verilməsini iddia edir və cavabdehə kompensasiya verilməklə evdən istifadə hüququna xitam verilməsi barədə hazırkı tələbi evin mülkiyyətçisi olan iddiaçı qaldırıb.

15. Məhkəmə, işə əlavə edilmiş sübutları araşdırıb qeyd etmişdir ki, cavabdeh, iddiaçı və digər ailə üzvləri ilə yola getmir, daim evdə dava-dalaş salır. Bu əməllərinə görə cavabdeh, Astara Rayon Məhkəməsinin 14 sentyabr 2006-cı il tarixli hökmünə əsasən, Cinayət Məcəlləsinin 133-cü maddəsi ilə məhkum edilmişdir. Həmçinin, Astara Rayon Məhkəməsinin 01 noyabr 2022-ci il tarixli qərarına əsasən cavabdeh, İnzibati Xətalar Məcəlləsinin 510-cu maddəsi ilə inzibati qaydada tənbeh edilmişdir. Ona görə də tərəflərin bir yerdə yaşamaları mümkün deyil və cavabdehin həmin evdə istifadə hüququnun olması iddiaçının mülkiyyət hüququnu pozur. Bundan başqa, mübahisəli evin yerləşdiyi kənddə 1 otaqlı evin aylıq kirayə haqqı təxminən 40-50 manat təşkil edir. Qeyd edilən ev köhnə və yararsız vəziyyətdədir.

16. Göstərilənlərə əsasən, məhkəmə qeyd etmişdir ki, iddiaçı tərəfindən cavabdehə təklif edilən 3.000 manat kompensasiya məbləği ədalətli olmaqla, ona 3 il müddət ərzində davamlı surətdə əvvəlki evdə ona xas olan şəraitdə yaşamasına imkan verir.

17. Məhkəmə öz hüquqi mövqeyini Azərbaycan Respublikası Konstitusiyasının 13 və 29-cu maddələrinə, Mülki Məcəllənin 152.1., 158.1.2., 228.1. və 228.2.-ci maddələrinə, "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 228.2.-ci maddəsinə, Mülki Prosessual Məcəllənin 53, 149.2.3 və 218-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 12 iyul 2016-cı il tarixli qərarına, habelə

Mülki Prosessual Məcəllənin 14.2., 77.1., 80 və 119.1.-ci maddələrinə istinad etməklə əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

18. Cavabdeh apellyasiya şikayəti verərək, iş üzrə birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv edilib, iddianın rədd edilməsi barədə yeni qətnamə qəbul edilməsini xahiş etmişdir.

19. Cavabdeh apellyasiya şikayətini onunla əsaslandırmışdır ki, birinci instansiya məhkəməsi tərəfindən gəlinən nəticə üçün mühüm əhəmiyyəti olan bütün faktiki hallar araşdırılmamış, məhkəmə tərəfindən müəyyən olunmuş hesab edilən iş üçün əhəmiyyəti olan hallar sübut olunmamışdır. Belə ki, o, mübahisəli evin yerləşdiyi torpaq sahəsinin mülkiyyətçisi olduğundan, onun da mülkiyyət hüququ qorunmalıdır. Bundan başqa, onun ailə üzvlərinin qeyd olunan evdən başqa yaşamağa digər yaşayış yerləri yoxdur və təklif olunan kompensasiya ona başqa yerdə müəyyən müddətdə yaşamağı imkan vermir. Odur ki, birinci instansiya məhkəməsinin gəldiyi nəticə işin faktiki hallarına uyğun olmamaqla yanaşı, qanunsuz və əsassız olmuşdur.

20. Şirvan Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 21 avqust 2023-cü il tarixli, 2(106)-984/2023 saylı qətnaməsi ilə (hakimlər T.X.Heydərov (sədrlik edən və məruzəçi), İ.Q.Əsədov və C.F.İmanov) apellyasiya şikayəti təmin edilərək, iş üzrə Astara Rayon Məhkəməsinin 06 aprel 2023-cü il tarixli, 2(018)-98/2023 saylı qətnaməsi ləğv edilmiş, yeni qətnamə çıxarılmaqla iddia rədd olunmuşdur.

21. Məhkəmə kollegiyası, apellyasiya şikayətinin dəlillərini araşdırıb, birinci instansiya məhkəməsinin maddi və prosessual hüquq normalarının tələblərinə düzgün əməl etməsini yoxlayıb qeyd etmişdir ki, birinci instansiya məhkəməsinin gəldiyi nəticə faktlar nöqteyi nəzərdən qanuni və əsaslı sayıla bilməz. Belə ki, cavabdehin evdən istifadə hüququna xitam verilərkən, iddiaçı tərəfindən təklif edilən kompensasiya məbləği, ona müəyyən müddətdə davamlı surətdə əvvəlki evdə ona xas olan şəraitdə yaşamasını imkan vermir. Odur ki, gəlinən nəticə ləğv edilərək, iddia tələbinə apellyasiya şikayətinin dəlilləri nəzərə alınmaqla yenidən hüquqi qiymət verilməlidir.

22. Məhkəmə kollegiyası, qeyd etmişdir ki, hazırkı işdə iddiaçı mülkiyyətçi olaraq cavabdehlə birgə yaşamanın mümkün olmaması səbəbindən ona kompensasiya verilməklə evdən istifadə hüququna xitam verilməsini tələb edir. İddiaçının tələbinin hüquqi əsasını Mülki Məcəllənin 228.2-ci maddəsi təşkil edir.

23. Məhkəmə kollegiyası, maddi və prosessual hüquq normalarının tələblərini nəzərə alıb qeyd etmişdir ki, mülkiyyət və istifadə hüququ qanunla qorunan hüquqlardır. Mülkiyyət hüququ qanunla nəzərdə tutulmuş qaydada şəxsin öz əmlakından istədiyi kimi ona sahib olmaq, ondan istifadə etmək və onun üzərində sərəncam vermək hüququnu ehtiva edir. Fərdi yaşayış evindən istifadə hüququ həmin mənzildən istifadə etməyi özündə ehtiva edir və bu hüquq istənilən şəxs, o cümlədən mülkiyyətçi tərəfindən pozulmaqdan qanunla qorunur. Yaşayış binasının tərkib hissəsindən istifadə hüququna xitam verilməsi haqqında tərəflər arasında razılaşma olmadıqda bu hüquqa mülkiyyətçinin məhkəmə qaydasında tələbinə əsasən bazar qiyməti ilə müvafiq kompensasiya verilməsi yolu ilə xitam verilməsinin mümkünlüyünün təsbit edilməsi tərəflərin hüquqlarının və qanunla qorunan mənafelərinin daha yüksək müdafiəsini təmin edir.

24. Məhkəmə kollegiyası, işin hallarını nəzərə alıb qeyd etmişdir ki, mülki iş materiallarından və tərəflərin apellyasiya icraatı zamanı verdikləri izahatlardan müəyyən olunur ki, mübahisəli ev iddiaçının mülkiyyətində olmaqla, 1964-cü ildə tikilib, 1 mərtəbəli, 1 otaqlı olmaqla, ümumi sahəsi 25.5 kv.metrdir və tərəflərin həmin evdə birgə yaşaması mümkün deyil. Cavabdeh, təklif edilən kompensasiya məbləği mübahisələndirərək həmin məbləğin kifayət etmədiyini və təklif olunan 3.000 manat məbləği ilə razılaşmadığını bildirmişdir. Bununla əlaqədar qeyd edilməlidir ki, birinci instansiya məhkəməsi haqlı olaraq evin dəyərinin müəyyən

etməklə yanaşı, həmin ərazidə evlərin kirayə haqlarını da (40-50 manat) müəyyən etmişdir. İddiaçı, 3.000 manat kompensasiya verməyə imkanının çatdığını bildirmiş və nəzərə alınmasını xahiş etmişdir. Birinci instansiya məhkəməsi də iddiaçının təklif etdiyi 3.000 manat məbləğdə kompensasiyanı təmin etmişdir. Cavabdeh həmin məbləğlə razılaşmayaraq, iddianın təmin edilməməsini xahiş etmişdir.

25. Məhkəmə kollegiyası, kompensasiya ödənilməklə yaşayış evinin tərkib hissəsindən istifadə hüququna xitam verilməsi ilə bağlı qeyd etməyi zəruri hesab etmişdir ki, kompensasiya məbləği mülkiyyətçinin malik olduğu evin dəyərinin tərkib hissəsi kimi deyil, müəyyən müddətdə eyni şəraitdə davamlı yaşamaq üçün yetərlilik baxımından müəyyən edilməli və Mülki Məcəllənin 228.2-ci maddəsində istifadə olunan "bazar qiyməti ilə müvafiq kompensasiya" ifadəsi mülkiyyətin dəyərinə münasibətdə deyil, davamlı surətdə başqa mənzildə yaşamağı davam etdirmək üçün zəruri olan vəsait kimi başa düşülməlidir. Kompensasiya ödənilməklə yaşayış evinin tərkib hissəsindən istifadə hüququna xitam verilməsi üçün kompensasiyanın məbləğinin müəyyən edilməsində işin konkret xüsusiyyətləri, özünə məxsusluğunu şərtləndirən müxtəlif meyarlar nəzərə alınmalıdır. Bunun üçün ilk növbədə yaranmış mübahisə üzrə tam, hərtərəfli araşdırma aparılmalı, tərəflər ətraflı dinlənilməli və aşağıdakılar barədə nəticə çıxarmağa çalışmalıdır: evin kimin mülkiyyətində olması və evə mülkiyyət hüququnun tək bir nəfərə və ya paylı mülkiyyətçilərə mənsub olması; evdən istifadə etmək hüququ olan şəxslərin sayı, onların mülkiyyətçi və kompensasiya ödənilən şəxslə münasibətləri; kompensasiya ödənilən şəxsin istifadə hüququna xitam verildikdə onun evdən tək və ya başqaları ilə birlikdə çıxması (məsələn, azyaşlı uşaqları ilə); kompensasiya ödənilən şəxsin mülkiyyətçi ilə qohumluq münasibəti (oğlu, arvadı, gəlini, kənar şəxs); kompensasiya ödənilən şəxsin mübahisəli evdə faktiki yaşadığı müddət; yaşayış evinin sahəsi, orada yaşayanlara düşən yaşayış sahəsinin həcmi, kommunal şəraiti; yaşayış sahəsinin yerləşdiyi ərazi və yaşayış sahəsinin yerləşdiyi ərazidə bir otaqlı mənzildə və ya kompensasiya təklif olunan şəxsin yaşadığı şəraitə uyğun mənzildə kirayə haqqının məbləği; kompensasiya təklif edənin və təklif olunan şəxsin maddi imkanları; kompensasiya müəyyən edilərkən bir mənzildə yaşamağın mümkün olmamasının səbəbləri (məsələn, kompensasiya ödənilən şəxsin ailə münasibətlərinə yaraşmayan hərəkətə yol verməsi);

26. Məhkəmə kollegiyası, ilk öncə qeyd etməyi zəruri hesab etmişdir ki, yuxarıda qeyd olunanlar müəyyənləşdirildikdən sonra həmin meyarların kompensasiyanın məbləğinə təsiri nəzərə alınmaqla kompensasiya təklif edənin təklif etdiyi məbləğin istifadə hüququnun itirilməsi üçün yetərli olub-olmaması müəyyən edilməlidir. Birinci instansiya məhkəməsi tərəfindən iddia tələbi ilə əlaqədar araşdırma aparılmış və müəyyən edilmişdir ki, iddiaçının cavabdehin istifadə hüququna xitam verilməsini arzuladığı fərdi yaşayış evi mülkiyyətindədir. Cavabdeh mübahisəli fərdi yaşayış evində istifadə hüququna malikdir. İddiaçı cavabdehin istifadə hüququna xitam verilməsi üçün 3.000 manat kompensasiya təklif edir və bunun yetərli olmasını Ünvan 2-də mənzil kirayə haqqının 40-50 manat olması ilə əsaslandırır.

27. Məhkəmə kollegiyası, birinci instansiya məhkəməsinin bu mövqeyi ilə razılaşmayaraq qeyd etmişdir ki, yaşayış binasının tərkib hissəsindən istifadə hüququna xitam verilməsi haqqında tərəflər arasında razılaşma olmadıqda bu hüquqa mülkiyyətçinin məhkəmə qaydasında tələbinə əsasən bazar qiyməti ilə müvafiq kompensasiya verilməsi yolu ilə xitam verilməsinin mümkünlüyünün təsbit edilməsi tərəflərin hüquqlarının və qanunla qorunan mənafelərinin daha yüksək müdafiəsini təmin edir. İddiaçı cavabdehin istifadə hüququna xitam verilməsi üçün 3.000 manat kompensasiya təklif etsə də, təklif olunan kompensasiyanın məbləğinin mülkiyyətçinin hesabına davamlı surətdə və müəyyən müddət daxilində başqa yerdə əvvəlki evdə ona xas olmuş şəraitlə müqayisədə oxşar yaşamasının qeyri-mümkün olduğunu nəzərə almamışdır. Belə ki, cavabdehin birinci instansiya məhkəməsində verdiyi izahatdan müəyyən olunur ki, onun ailə üzvləri ilə birlikdə daimi yaşayış yerləri yoxdur və hazırda təklif olunan kompensasiya məbləği real qiyməti əks etdirmir.

28. Məhkəmə kollegiyası həmçinin onu da qeyd etmişdir ki, birinci instansiya məhkəməsi cavabdehin 3.000 manat kompensasiya verilməklə istifadə hüququna xitam verilməsi qənaətinə gələrkən, kompensasiya ödənilən şəxsin mübahisəli evdə faktiki yaşadığı müddəti; yaşayış evinin sahəsini, orada yaşayanlara düşən yaşayış sahəsinin həcmini, kommunal şəraiti; yaşayış sahəsinin yerləşdiyi ərazi və yaşayış sahəsinin yerləşdiyi ərazidə bir otaqlı mənzildə və ya kompensasiya təklif olunan şəxsin yaşadığı şəraitə uyğun mənzildə kirayə haqqının məbləğini; kompensasiya təklif edənin və təklif olunan şəxsin maddi imkanlarını aydınlaşdırmamış, yalnız mülkiyyətçinin mülkiyyət hüququnun müdafiəsi əsası ilə iddia tələbini təmin etmişdir. Halbuki, mülkiyyətçinin istifadə hüququ olan şəxslərin bazar qiyməti ilə müvafiq kompensasiya verməsi yolu ilə xitam verilməsi qənaətinə gəlinməsi təkcə mülkiyyət hüququnun müdafiəsi ilə deyil, yuxarıda göstərilən və istifadə hüququna xitam verilməsi tələbi üçün əsas olan meyarların müqayisəli tədqiq etməklə dəyərləndirmə aparılmalı, yalnız bundan sonra iddia tələbinin əsaslı olub-olmaması müəyyən olunmalı idi. Baxmayaraq ki, birinci instansiya məhkəməsi bütün bu halları müəyyən etməmiş və qəbul etdiyi qətnamənin ləğvi üçün kifayət qədər əsas yaratmışdır.

29. Məhkəmə kollegiyası, iddiaçının iddia tələbi və cavabdehin iddia tələbinə etirazını (apellyasiya şikayətinin dəlilləri nəzərə alınmaqla) nəzərə alaraq qeyd etmişdir ki, birinci instansiya məhkəməsi tərəfindən yuxarıda göstərilən və kompensasiya verilməklə istifadə hüququna xitam verilməsi üçün əsas olan meyarların kompensasiyanın məbləğinə təsirini, kompensasiya təklif edənin təklif etdiyi məbləğin istifadə hüququnun itirilməsi üçün yetərli olub-olmamasını müəyyən etmədən iddia tələbini təmin etməkdə haqlı olmamış və iş üzrə qanuni və əsaslı nəticəyə gəlməmişdir.

30. Məhkəmə kollegiyası öz hüquqi mövqeyini Azərbaycan Respublikası Konstitusiyasının 13 və 26-cı maddəsinin I hissəsinə, 29 və 60-cı maddəsinin I hissəsinə, Mülki Məcəllənin 152.1. və 228.2.-ci maddəsinə, habelə Mülki Prosessual Məcəllənin 372.1. və 372.7.-ci maddələrinə istinad etməklə əsaslandırmışdır.

Kassasiya şikayətinin və ona qarşı etirazın dəlilləri

a) Kassasiya şikayətlərinin dəlilləri

31. İddiaçı (vəkil) kassasiya şikayəti verərək, iş üzrə apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv edilməsi və mülki işin yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə qaytarılması barədə qərar qəbul edilməsini xahiş etmişdir.

32. Kassator şikayətini onunla əsaslandırmışdır ki, yaşayış binasının tərkib hissəsindən istifadə hüququnun əmələ gəlməsi, həyata keçirilməsi şərtləri və xitamı mülkiyyətçi ilə bağlanan, notariat qaydasında təsdiqlənən yazılı razılaşma ilə müəyyənləşdirilir. Yaşayış binasının tərkib hissəsindən istifadə hüququna xitam verilməsi haqqında razılaşma olmadıqda bu hüquqa mülkiyyətçinin məhkəmə qaydasında tələbinə əsasən bazar qiyməti ilə müvafiq kompensasiya verməsi yolu ilə xitam verilə bilər. İddiaçı, bu hüququndan istifadə edərək müxtəlif sübutları məhkəməyə təqdim etmişdir. İşin faktiki hallarından görünür ki, ödəniləcək kompensasiyanın miqdarı kifayət qədərdir. Həmin məbləğlə cavabdeh ona məxsus 0,08 hektar torpaq sahəsinin üzərində mülkiyyətində olan 1964-cü ildə inşa edilmiş, 1 otaqlı fərdi yaşayış evindən qat-qat yaxşı ev tikdirə bilər. Apellyasiya instansiyası məhkəməsi iddianı rədd etməklə onun mülkiyyət hüququnu kobud şəkildə pozmuşdur.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

33. Cavabdeh kassasiya şikayətlərinə qarşı etiraz göndərərək, iş üzrə apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin dəyişdirilmədən, kassasiya şikayətinin təmin edilmədən saxlanılmasını xahiş etmişdir.

Tətbiq edilən hüquq

Azərbaycan Respublikasının Konstitusiyası

34. Maddə 13, I hissə. Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur.

35. Maddə 29, II hissə. Mülkiyyətin heç bir növünə üstünlük verilmir. Mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ qanunla qorunur. Həmin maddənin III hissəsinə əsasən Hər kəsin mülkiyyətində daşınar və daşınmaz əmlak ola bilər. Mülkiyyət hüququ mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir.

Azərbaycan Respublikasının Mülki Məcəlləsi

36. Maddə 152.1. Mülkiyyət hüququ- subyektin ona mənsub əmlaka (əşyaya) öz istədiyi kimi sahib olmaq, ondan istifadə etmək və ona dair sərəncam vermək üzrə dövlət tərəfindən tanınan və qorunan hüquqdur.

37. Maddə 152.3. İstifadə hüququ- əmlakdan (əşyadan) onun faydalı təbii xassələrini hasil etməyin, habelə ondan fayda götürməyin hüquqi cəhətdən təmin edilmiş imkanıdır. İstifadədən fayda gəlir, artım, bəhər, törəmə şəklində və başqa formalarda ola bilər.

38. Maddə 152.5. Mülkiyyətçi qanunda və ya müqavilədə müəyyən edilən məhdudiyyətlər nəzərə alınmaqla müəyyənləşdirilmiş hədlərdə əmlaka (əşyaya) sərbəst surətdə sahib ola bilər, ondan istifadə edə bilər və ona dair sərəncam verə bilər, həmin əmlaka başqa şəxslərin sahibliyinə yol verməyə bilər, ona mənsub əmlak barəsində öz mülahizəsi ilə istənilən hərəkətləri edə bilər, bir şərtlə ki, həmin hərəkətlər qonşuların və ya üçüncü şəxslərin hüquqlarını pozmasın, yaxud hüquqdan sui-istifadə olmasın.

39. Maddə 228.2. Yaşayış binasının tərkib hissəsindən istifadə hüququnun əmələ gəlməsi, həyata keçirilməsi şərtləri və xitamı mülkiyyətçi ilə bağlanan, notariat qaydasında təsdiqlənən yazılı razılaşma ilə müəyyənləşdirilir. Yaşayış binasının tərkib hissəsindən istifadə hüququna xitam verilməsi haqqında razılaşma olmadıqda bu hüquqa mülkiyyətçinin məhkəmə qaydasında tələbinə əsasən bazar qiyməti ilə müvafiq kompensasiya verməsi yolu ilə xitam verilə bilər.

40. Maddə 228.5. Yaşayış binasının tərkib hissəsinin mülkiyyətçisinin onunla birgə yaşayan ailə üzvləri (əri, arvadı, valideynləri, uşaqları) yaşayış sahəsindən onunla bərabər istifadə etmək hüququna malikdirlər. Yaşayış binasının tərkib hissəsinin mülkiyyətçisinin ailə üzvləri öz yetkinlik yaşına çatmayan uşaqlarını həmin yaşayış binasına köçürmək ixtiyarına malikdirlər. Digər ailə üzvlərinin (ərin, arvadın) köçürülməsinə yalnız mülkiyyətçinin razılığı ilə yol verilir. Həmin şəxslərin yaşayış binasının tərkib hissəsindən istifadə hüququ mülkiyyətçi ilə ailə münasibətlərinə xitam verildiyi halda da saxlanılır. Yaşayış binasının tərkib hissəsindən mülkiyyətçinin ailə üzvlərinin istifadə etmək hüququ bu məcəllənin qüvvəyə mindiyi gündən yaranır.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi

41. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

42. Maddə 81. Qanuna və ya digər normativ hüquqi aktlara əsasən müəyyən sübutetmə vasitələri ilə təsdiq edilməli olan işin halları başqa sübutlarla təsdiq oluna bilməz.

43. Maddə 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

44. Maddə 407.2. Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir.

45. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

Kassasiya baxışının hədləri

46. Kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin, apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

47. İddiaçının kassasiya şikayətində iş üzrə apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin bütövlükdə ləğv edilməsi xahiş olunduğundan, qətnamənin əsaslılığı kassasiya şikayətinin dəlilləri hüdudlarında tam yoxlanıldı.

Kassasiya instansiyası məhkəməsinin hüquqi mövqeyi

48. Kassasiya instansiyası məhkəməsi, kassasiya şikayətinin dəlillərini araşdırıb hesab edir ki, aşağıdakılara görə kassasiya şikayəti təmin edilməlidir.

49. Əvvəla, işin mübahisə olunmayan hallarına görə, cavabdeh iddiaçının oğludur və Ünvan 2-də, mülkiyyətdə olan 0.32 ha həyətyanı torpaq sahəsində yerləşən, 1964-cü ildə tikilmiş, 1 mərtəbəli, 1 otaqlı, ümumi sahəsi 25.3 kv.metr, yaşayış sahəsi 16.0 kv.metr, köməkçi sahəsi 9.3 kv.metr olan fərdi yaşayış evi daşınmaz əmlakın dövlət reyestrində tam mülkiyyət hüququ üzrə iddiaçının adına, evin yerləşdiyi 0,32 ha həyətyanı torpaq sahəsi isə hər birinin payı ¼ hissədə olmaqla mülkiyyət hüququ üzrə tərəflərin, o cümlədən X3-ün və X1-in adlarını qeydə alınıb və bu barədə Reyestr Xidməti tərəfindən onların adlarına 18 noyabr 2022-ci il tarixli Çıxarış verilib.

50. İşin mübahisə olunmayan digər halları isə ondan ibarətdir ki, iddiaçının mübahisəli evdə mülkiyyət, cavabdehin isə istifadə hüquqları vardır və tərəflərin 1 otaqlı, ümumi sahəsi 25.3 kv.metr olan həmin evdə bir ailədə yaşamaları artıq qeyri mümkündür və yerli icra hakimiyyəti orqanının arayışına görə, Ünvan 2-də mənzil kirayə haqqı 40-50 manat civarındadır.

51. Tərəflərin mübahisəli evdə birgə yaşamalarının qeyri-mümkünlüyü cavabdehin Astara Rayon Məhkəməsinin 14 sentyabr 2006-cı il tarixli hökmü ilə Cinayət Məcəlləsinin 133-cü maddəsi ilə təqsirli sayılaraq məhkum edilməsi, habelə Astara Rayon Məhkəməsinin 01 noyabr 2022-ci il tarixli qərarı ilə İnzibati Xətalar Məcəlləsinin 510-cu maddəsində nəzərdə tutulan inzibati xətanı törətməkdə təqsirli sayılaraq tənbeh edilməsi ilə də təsdiq olunur.

52. Hazırda iddiaçı, 3.000 manat kompensasiya ödənilməklə cavabdehin mübahisəli evdən istifadə hüququna xitam verilməsini iddia edir.

53. Cavabdeh isə mübahisəli evin yerləşdiyi torpaq sahəsinin iddiaçı ilə yanaşı onunda paylı mülkiyyətində olduğunu, onun və ailə üzvlərinin həmin evdən başqa digər yaşayış sahələrinin olmadığını, iddiaçı tərəfindən ona təklif edilən 3.000 manat kompensasiya məbləğinin yetərli olmamaqla, iddiaçının hesabına ona davamlı surətdə və müəyyən müddət daxilində başqa yerdə mübahisəli evdə ona xas olmuş şəraitlə müqayisədə oxşar yaşamaq imkanı vermədiyini göstərib, iddiaya etiraz edir.

54. Göründüyü kimi, iddiaçının "evdən istifadə hüququna kompensasiya ödənilməklə xitam verilməsi" barədə hazırkı tələbi yalnız cavabdehə qarşı yönəlib və mübahisə həyətyanı torpaq sahəsi ilə bağlı deyil, fərdi yaşayış evi ilə bağlıdır. İddiaçı, fərdi yaşayış evindən istifadə hüququna görə cavabdehə 3.000 manat kompensasiya ödəməyə razıdır və həyətyanı torpaq sahəsində cavabdehin özünə ayrıca fərdi yaşayış evi inşa etməsinə etiraz etmir. Bu hal kassasiya şikayətinin dəlilləri ilə də istisna olunmur.

55. Birinci instansiya məhkəməsi, iddiaçının cavabdehə təklif etdiyi 3.000 manat kompensasiya məbləğini yetərli hesab edərək, iddianı təmin etməklə sonuncunun evdən istifadə hüququna xitam verib.

56. Apellyasiya instansiyası məhkəməsi isə həmin məbləğlə razılaşmayıb, iddiaçının təklif etdiyi 3.000 manat kompensasiya məbləğinin cavabdehə davamlı surətdə və müəyyən müddət daxilində başqa yerdə mübahisəli evdə ona xas olmuş şəraitlə müqayisədə oxşar yaşamaq

imkanı vermədiyini əsas tutub iddianı rədd etsə də, tam hüquqlu məhkəmə kimi özü bazar qiymətinə uyğun olaraq yetərli kompensasiya məbləğini müəyyən etməməklə maddi və prosessual hüquq normalarının tələblərini pozub.

57. Kassasiya instansiyası məhkəməsi, apellyasiya instansiyası məhkəməsinin gəldiyi nəticə ilə razılaşmır və aşağıdakıları qeyd etməyi zəruri hesab edir.

58. Əvvəla, Mülki Məcəllənin 228.2-ci maddəsində göstərilir ki, yaşayış binasının tərkib hissəsindən istifadə hüququna xitam verilməsi haqqında razılaşma olmadıqda, bu hüquqa mülkiyyətçinin məhkəmə qaydasında tələbinə əsasən bazar qiyməti ilə müvafiq kompensasiya verilməsi yolu ilə xitam verilə bilər.

59. Digər tərəfdən, qüvvədə olan qanunvericiliyə görə, eyni evdə ailə üzvləri (və ya onlara bərabər tutulan şəxslər) yaşadığı halda, onlardan birində (və yaxud bir neçəsində) evə mülkiyyət hüququ (o cümlədən, yaşayış sahəsindən istifadə etmək hüququ), digərlərində isə yalnız yaşayış sahəsindən istifadə etmək hüququnun mövcud olması mümkündür. Bu şəxslər arasında yaranan mübahisələrin həlli zamanı mülkiyyət hüququ və yaşayış sahəsindən istifadə etmək hüququnun təbiəti, onların mütənasibliyi və həyata keçirilməsinə dair qüvvədə olan Azərbaycan Respublikası qanunvericiliyinin müddəaları nəzərə alınmalıdır.

60. İlk növbədə xüsusilə qeyd olunmalıdır ki, mülkiyyət hüququ və yaşayış sahəsindən istifadə etmək hüququ müxtəlif hüquqi kateqoriyalardır.

61. Azərbaycan Respublikası Konstitusiyasının 13 və 29-cu maddələrində mülkiyyətin toxunulmazlığına, növündən asılı olmayaraq dövlət tərəfindən bərabər müdafiə olunmasına, mülkiyyət hüququnun qanunla qorunmasına, bu hüququn mülkiyyətçinin əmlaka sahib olmaq, ondan istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarına təminat verilib.

62. Mülkiyyət hüququ Azərbaycan Respublikasında nəinki mülkiyyətçinin hüquqi təsbit olunmuş geniş səlahiyyətləridir (ona məxsus olan əmlaka faktiki sahib olmaq, öz tələbatlarının təmin olunması üçün təyinatından asılı olaraq bu əmlakdan istədiyi kimi istifadə etmək, əmlakın hüquqi müqəddəratını öz iradəsinə görə müəyyən etmək), həm də qüvvədə olan qanunvericilik çərçivəsində digər şəxslərin hüquq və qanunla qorunan maraqlarını pozmadan mülkiyyətçinin dövlət tərəfindən təminat altına alınmış həmin əmlak üzərində üstünlüyünə üçüncü şəxslərin müdaxiləsini aradan götürmək, bu zaman öz mülahizəsinə görə və maraqlarına uyğun hərəkət etmək səlahiyyətidir.

63. Mülkiyyət hüququnun ümumi müddəaları, sahiblik hüququ, mülkiyyət hüququnun əldə edilməsinə, həyata keçirilməsinə, məhdudlaşdırılmasına və itirilməsinə, habelə bu hüququn növlərinə dair müddəalar Mülki Məcəllədə tənzimlənir.

64. Həmçinin nəzərə alınmalıdır ki, mülki qanunvericilikdə mülkiyyət hüququ ilə yanaşı əmlakdan istifadə hüququ da əmlak hüququ sayılır. Mülkiyyətçi olmayan şəxsin əmlak hüquqları istənilən şəxs, o cümlədən mülkiyyətçi tərəfindən pozulmaqdan müdafiə edilir.

65. Adətən, mənzildə, evdə və sair müvafiq yerlərdə yaşamaq hüququ kimi göstərilən yaşayış sahəsindən istifadə etmək hüququ mənzil hüququnun bir elementi qismində çıxış edir. Mənzil hüququ beynəlxalq hüquqda faktiki olaraq tanınmasa da, bu Azərbaycan Respublikasının qanunvericiliyində uzun müddətdir ki, tanınmış hüquqdur.

66. Göründüyü kimi, mülkiyyət hüququ yaşayış sahəsindən istifadə etmək hüququndan fərqlənsə də, hər iki hüquq müəyyən mənada mütənasib şəkildə tarazlaşdırılmaqla təmin olunmalıdır.

67. Bu baxımdan Mülki Məcəllənin 228.2-ci maddəsində nəzərdə tutulmuş yaşayış sahəsindən istifadə etmək hüququnun xitamı üçün kompensasiya institutu mülkiyyətçinin öz əmlakı üzərində hüquqlarının istifadəçi və ya məhkəmənin mülahizəsinə görə deyil, məhz mövcud hüquq norması əsasında həyata keçirməsi üçün birmənalı olaraq yol açır. Kompensasiya institutu istifadəçiyə mənzilin bölünməsi və onun dəyərindən müəyyən payın ödənilməsini tələb etmək hüququnu verməsə də, o, yaşayış sahəsindən istifadə etmək hüququnun adi xitamını deyil, onun elə bir əvəzləndirilməsini nəzərdə tutur ki, mülkiyyətçinin

hesabına istifadəçiyə davamlı surətdə və müəyyən müddət daxilində başqa yerdə əvvəlki mənzildə ona xas olmuş şəraitlə müqayisədə oxşar yaşamaq imkanı versin. Bütün bunlar tərəflərin hüquqlarının həyata keçirilməsi üçün daha imtiyazlı hüquqi rejim yaradır.

68. Yuxarıdakıları nəzərə alaraq, kassasiya instansiyası məhkəməsi hesab edir ki, iddiaçının cavabdehə qarşı kompensasiya ödənilməklə mübahisəli evdən istifadə hüququna xitam verilməsi iddiasına dair mülki iş üzrə apellyasiya instansiyası məhkəməsinin qətnaməsi qanunilik və əsaslılıq baxımından Konstitusiyanın 13, 29-cu, habelə Mülki Məcəllənin 228.2-ci maddələrinin tələblərinə uyğun deyil.

69. Eyni hüquqi mövqe "R.Ağalarovun şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki Kollegiyasının 31 mart 2006-cı il tarixli qərarının Azərbaycan Respublikası Konstitusiyasına və Qanunlarına uyğunluğunun yoxlanılmasına dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 26 sentyabr 2007-ci il tarixli Qərarında da ifadə olunub.

70. Ona görə kassasiya instansiyası məhkəməsi iddiaçının kassasiya şikayətinin dəlillərini əsaslı sayır və hesab edir ki, iddianın düzgün həlli və hüquqi müəyyənlik prinsipinin təmin olunması üçün, ilk növbədə yaşayış binasının tərkib hissəsindən istifadə hüququna xitam verilməsi zamanı kompensasiyanın məbləğinin bazar qiymətinə uyğun müəyyən edilməsi məsələsinə aydınlıq gətirilməlidir.

71. Nəzərə alınmalıdır ki, hüquqi müəyyənlik prinsipi hüququn aliliyinin əsas xüsusiyyətlərindən biri kimi çıxış edir. Hər bir qanunun və ya onun hər hansı bir müddəasının hüquqi müəyyənlik prinsipinə cavab verməsi olduqca vacibdir. Bunun təmin edilməsi üçün hüquq normaları birmənalı və aydın olmalıdır, xüsusilə məhkəmə təcrübəsində vahid qaydada tətbiq edilməlidir. Bu isə öz növbəsində hər kəsə onun hüquq və azadlıqlarının müdafiə olunacağına, hüquq tətbiq edənin hərəkətlərinin isə proqnozlaşdırıla bilən olacağına əminlik verməlidir.

72. Hazırkı işdə, apellyasiya instansiyası məhkəməsi, mübahisəli fərdi yaşayış evinin tərkib hissəsindən cavabdehin istifadə hüququna xitam verilməsi üçün iddiaçının təklif etdiyi 3.000 manat kompensasiya məbləğinin yetərli olmadığını, həmin məbləğ müəyyən edilərkən birinci instansiya məhkəməsi tərəfindən işin konkret xüsusiyyətlərinin, özünə məxsusluğunu şərtləndirən müxtəlif meyarların və sair halların nəzərə alınmadığını əsas tutub iddianı rədd edərkən, tam hüquqlu məhkəmə kimi özü yetərli kompensasiyanın məbləğini bazar qiymətinə uyğun müəyyən etməməklə yuxarıda sadalanan maddi və prosessual hüquq normalarının tələblərini pozub və Mülki Məcəllənin 228.2-ci maddəsinin tətbiqi ilə bağlı artıq formalaşmış vahid məhkəmə təcrübəsini nəzərə almayıb.

73. Yaddan çıxarmaq olmaz ki, Mülki Məcəllənin 228.2-ci maddəsində nəzərdə tutulan kompensasiya verilməsi yolu ilə yaşayış binasının tərkib hissəsindən istifadə hüququna xitam verilməsi, bir tərəfdən mülkiyyət hüququnun qorunmasına yönəlsə də, digər tərəfdən mülkiyyətçi ilə birgə yaşayan ailə üzvlərinin mənzildən istifadə hüquqlarının itirilməsini tənzimləyir. Hər bir halda qanunverici Mülki Məcəllənin 228.2-ci maddəsində istifadə hüququna xitam verilməsi zamanı kompensasiyanın məhz bazar qiymətinə uyğun ödənilməsini müəyyən edir və mülkiyyətçi istifadə hüququna xitam verilməsi haqqında iddia qaldırarkən öz iddiasında kompensasiya məbləğini ümumiyyətlə göstərməyə borclu deyildir.

74. İddia ərizəsində kompensasiya məbləğinin göstərilib-göstərilməməsindən asılı olmayaraq, işə baxan məhkəmələr hər bir halda Mülki Məcəllənin 228.2-ci maddəsinin tələblərinə və Mülki Prosessual Məcəlləyə müvafiq olaraq kompensasiyanın məbləğini bazar qiymətinə uyğun müəyyən etməyə borcludurlar.

75. Eyni hüquqi mövqe "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 228.2-ci maddəsinin Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 53, 149.2.3 və 218-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun 12 iyul 2016-cı il tarixli qərarında da ifadə olunub.

76. Həmçinin nəzərə alınmalıdır ki, Mülki Məcəllənin 228.2-ci maddəsində nəzərdə tutulan yaşayış sahəsindən istifadə hüququna kompensasiya verməklə xitam verilməsi mülkiyyətçinin subyektiv hüququdur. Belə iddia tələblərində kompensasiyanın məbləği tələb kimi yox, yalnız təklif kimi çıxış edir.

77. Digər tərəfdən, Mülki Məcəllənin 228.2-ci maddəsində göstərilən kompensasiya məbləğinin iddianın predmetinə aid edilməməsi həmin işlərə baxılarkən məhkəmə prosesinin əsassız uzadılmasının qarşısının alınmasına xidmət edir. Yəni, həm mülkiyyətçi, həm də işə baxan məhkəmələr apellyasiya icraatı mərhələsində də kompensasiyanın məbləğini müəyyən edə, artıra bilərlər. Başqa sözlə, apellyasiya instansiyası məhkəməsi kompensasiyanın məbləği ilə razılaşmadıqda Mülki Məcəllənin 228.2-ci maddəsinin tələblərinə və Mülki Prosessual Məcəlləyə müvafiq olaraq kompensasiyanın məbləğini bazar qiymətinə uyğun müəyyən etməlidir.

78. Lakin apellyasiya instansiyası məhkəməsi iddiaçının cavabdehə təklif etdiyi 3.000 manat kompensasiya məbləğini yetərli hesab etmədiyi halda, özü bazar qiymətinə uyğun yetərli hesab etdiyi məbləği müəyyən etməməklə, habelə həmin məbləği evin mülkiyyətçisi olan iddiaçı ilə razılaşdırmamaqla, əslində hazırkı mübahisənin uzun müddət məhkəmə baxışının predmetinə çevrilməsinə süni şərait yaradıb və hüquqi müəyyənlik prinsipinin pozulmasına səbəb olan qətnamə qəbul edib.

79. Ümumiyyətlə, mülki qanunvericilikdə mülkiyyətçinin üzərinə evdən istifadə hüququ olan şəxsi daimi olaraq yaşayış sahəsi ilə təmin etmək öhdəliyi qoyulmayıb. Hətta Konstitusiya Məhkəməsi Plenumunun sözügedən Qərarlarında da bu müddətin nə qədər olması müəyyən edilməyib. Eləcə də mövcud qanunvericilikdə yaşayış binasının tərkib hissəsindən istifadə hüququna xitam verilməsi üçün istifadəçiyə ödənilməli olan kompensasiyanın məbləğinin həddi barədə də hər hansı norma yoxdur. Qanunvericilikdə, həmin kompensasiya məbləğinin bazar qiymətləri ilə, yalnız məhkəmə tərəfindən tənzimlənməsi nəzərdə tutulub.

80. Kassasiya instansiyası məhkəməsi onu da qeyd edir ki, sadalanan normaların mənasına görə, tərəflər arasında razılaşma olmadıqda yaşayış binasının tərkib hissəsindən istifadə hüququna bazar qiymətinə uyğun olaraq müvafiq kompensasiya ödənilməsi şərti ilə xitam verilməsini tələb etmək hüququ yalnız mülkiyyətçiyə aid edilsə də, kompensasiyanın məbləğinin yetərli olub-olmamasını müəyyən etmək səlahiyyəti işə baxan məhkəmələrə verilib.

81. Bu baxımdan kassasiya instansiyası məhkəməsi, apellyasiya instansiyası məhkəməsinin gəldiyi nəticə ilə razılaşmır və hesab edir ki, işə yenidən baxılarkən apellyasiya instansiyası məhkəməsi tam hüquqlu məhkəmə kimi iş üzrə toplanmış və məhkəmə iclasında tədqiq olunmuş sübutları araşdırmalı, onlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verməli, iddiaçı tərəfindən cavabdehə təklif edilən 3.000 manat kompensasiya məbləğini yetərli hesab etmədiyi halda, tərəflərin mübahisəli 1 otaqlı, ümumi sahəsi 25.3 kv.metr olan evdə birgə yaşamasının qeyri-mümkünlüyünü, cavabdehin iddiaçıya qarşı cinayət, inzibati xəta törətməklə onların münaqişəli ailə olmalarını və sair halları nəzərə alıb, yetərli kompensasiya məbləğini müəyyən etməli və mülkiyyətçi kimi iddiaçının həmin məbləğlə razılaşıb-razılaşmadığını aydınlaşdırmaqla, iddianın əsaslılığına düzgün hüquqi qiymət verməlidir.

82. Göründüyü kimi, apellyasiya instansiyası məhkəməsi, hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyini pozmaqla qətnamə qəbul edib və qətnamə, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun yuxarıda adıçəkilən qərarlarında ifadə olunan hüquqi mövqeyinə ziddir.

83. Mülki Prosessual Məcəlləsinin 418.1-ci maddəsində göstərilir ki, maddi və prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması, o cümlədən maddi və prosessual hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadının ləğv edilməsi üçün əsasdır.

84. Yuxarıda göstərilənlərə əsasən və Azərbaycan Respublikası MPM-nin 416, 417 və 419-cu maddələrinin tələblərini rəhbər tutaraq, kassasiya instansiyası məhkəməsi

Qərara aldı:

İddiaçının kassasiya şikayəti təmin edilsin.

İş üzrə Şirvan Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 21 avqust 2023-cü il tarixli, 2(106)-984/2023 saylı qətnaməsi ləğv edilsin, mülki iş yenidən baxılması üçün həmin məhkəməyə qaytarılsın.

Qərar qəbul edildiyi andan qanuni qüvvəyə minir.

13. 2(102)-233/2025 nömrəli, 2025-ci il 11 fevral tarixli qərar – Paylı mülkiyyətdə olan torpaq sahəsinin üzərində yerləşən, mülkiyyətçilərin birinin adına qeydə alınmış fərdi yaşayış evindən digər mülkiyyətçinin istifadə hüququna xitam verilməsinin vahid daşınmaz əşya konsepsiyası baxımından yolverilməzliyi

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu:

Tərəflər keçmiş ər-arvaddırlar, nikahları 2018-ci ildə pozulmuşdur.

Mübahisə cavabdehin (arvadın) fərdi yaşayış evindən istifadə hüququna xitam verilməsi ilə bağlıdır. Cavabdeh 2019-cu il tarixli məhkəmə qətnaməsi ilə həmin evə köçürülmüşdür.

Həmin evin yerləşdiyi torpaq sahəsi daşınmaz əmlakın dövlət reyestrində xüsusi mülkiyyət hüququ ilə 1/2 payla iddiaçının (ərin), 1/2 payla cavabdehin (arvadın), fərdi yaşayış evi isə tam payla iddiaçının (ərin) adına qeydə alınmışdır.

Hazırda iddiaçı cavabdehə qarşı yaşayış sahəsindən istifadə hüququna kompensasiya ödəməklə xitam verilməsinə dair iddia qaldırmışdır.

Kassasiya instansiya məhkəməsinin mövqeyi:

İşə baxmış aşağı instansiya məhkəmələri Mülki Məcəllənin 228.2-ci maddəsinə istinad edərək kompensasiya verilməklə cavabdehin mənzildən istifadə hüququna xitam verilməli olması qənaətinə gəlmişlər.

Bu mövqe ilə razılaşmayan kassasiya kollegiyası bildirmişdir ki, vahid mülkiyyət qaydasına uyğun olaraq, mübahisəli ev onun yerləşdiyi torpaq sahəsinin tərkib hissəsidir, dolayısı ilə də onlar vahid daşınmaz əşya hesab edilir.

Tərkib hissənin, o cümlədən vahid əşyanın hüquqi vəziyyəti ilə bağlı qeyd edilmişdir ki, bir əşya başqa bir əşyanın tərkib hissəsinə çevrildiyi andan müstəqil əşya vəsfini itirir, əsas əşyanın hüquqi vəziyyətinə tabe olur. Bu o deməkdir ki, əsas əşyanın mülkiyyətçisi tərkib hissənin də mülkiyyətçisi hesab olunur. Mülki Məcəllənin 135.10-cu maddəsində əşyanın mülkiyyətçisinin onun bütün tərkib hissələrinin mülkiyyətçisi olduğu açıqca göstərilir. Bundan əlavə, həmin Məcəllənin 135.4-cü maddəsində xüsusi olaraq göstərilmişdir ki, torpaq sahəsi və torpaqla möhkəm bağlı olan (ondan ayrıla bilməyən) əşya vahid daşınmaz əşyadır və vahid mülkiyyət obyektidir.

Beləliklə, tərəflər arasında mübahisəli daşınmaz əşyanın hazırkı məqamda mövcud olan hüquqi vəziyyəti nəzərə alınmadan bir mülkiyyətçi olan iddiaçının tələbi ilə digər mülkiyyətçi olan cavabdeh mübahisəli daşınmaz əşyadan çıxarıla bilməz. Çünki, qanunvericiliyimizdə bir mülkiyyətçinin öz təşəbbüsü ilə digər mülkiyyətçini iradəsinə zidd şəkildə kompensasiya ödəməklə daşınmaz əşyadan çıxarması nəzərdə tutulmamışdır. Əks yanaşma cavabdehin mülkiyyət hüquqlarının qanuni əsas olmadan məhdudlaşdırılması ilə nəticələnərdi.

Belə olduğu halda, hazırkı məqamda iddiaçı tərəfindən kompensasiya ödənilməklə cavabdehin istifadə hüququna xitam verilməsi mümkün deyil. Başqa sözlə, Mülki Məcəllənin 228.2-ci maddəsinin şərtləri hazırkı işdə müəyyən olunmamışdır.

Həmçinin qeyd olunmuşdur ki, mövcud hüquqi vəziyyətə görə iddianın təmin edilməsinin mümkün olmaması, iddiaçını gələcəkdə yeni əsaslarla eyni iddianı qaldırmaq imkanından məhrum etmir. Belə ki, ümumi mülkiyyətdə olan əşyadan payın naturada ayrılması və ya bölünməsi mümkündür. Bunu edən ümumi mülkiyyətçi əşyanın öz payına uyğun olaraq naturada ayrılmış (və ya bölünmüş) hissəsinə fərdi mülkiyyət hüququ əldə edir. Fərdi mülkiyyət hüququna malik olan şəxs isə yaşayış sahəsindən istifadə hüququna xitam verilməsi tələbini irəli sürə bilər. Bu halda qaldırılacaq iddia yeni əsasla irəli sürülmüş tələb sayılacaq.

2(102)-233/2025 ID: 2144303

11.02.2025-ci il Bakı şəhəri

Azərbaycan Respublikası adından

Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının

İddiaçının cavabdehə qarşı iş üzrə

Q Ə R A R I

Açar sözlər: ümumi mülkiyyət hüququ, əşyanın tərkib hissəsi, vahid mülkiyyət

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Əliyev Zaur Əli oğlu (məruzəçi), Babayev Zəki Baba oğlu və Baxışova Vüsalə Ələkbər qızından ibarət tərkibdə,

Gəncə Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(104)-48/2024 nömrəli, 15 avqust 2024-cü il tarixli qətnaməsindən cavabdeh tərəfindən verilmiş kassasiya şikayətinə Ali Məhkəmənin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları:

1. İş üzrə tərəflər – iddiaçı və cavabdeh keçmiş ər-arvaddırlar, onların nikahı Tovuz Rayon Məhkəməsinin xx xx 2018-ci il tarixli qətnaməsi ilə pozulmuşdur.

2. Tərəflər arasındakı mübahisə Tovuz rayonu X kəndində 0.26 ha torpaq sahəsində yerləşən fərdi yaşayış evindən istifadə ilə bağlıdır.

3. Tovuz Rayon Məhkəməsinin 14 oktyabr 2019-cu il tarixli, 2(062)-2004/2019 nömrəli qətnaməsi ilə cavabdeh həmin evə köçürülmüşdür.

4. Daşınmaz əmlakın dövlət reyestrində xx xx 2022-ci ildə aparılmış qeydiyyata əsasən, göstərilən torpaq sahəsi xüsusi mülkiyyət hüququ ilə 3/6 payla iddiaçının, 1/6 payla Cavabdehin, 1/6 payla X1in, 1/6 payla X2in adına, fərdi yaşayış evi isə xüsusi mülkiyyət hüququ ilə tam payla Iddiaçıin adınadır.

5. xx xx 2022-cil tarixdə notarial qaydada təsdiq olunmuş müqavilələrlə X1 və X2 hər biri ayrı-ayrılıqda torpaq sahəsi üzərindəki 1/6 payını anaları Cavabdehə bağışlamışlar.

6. İddiaçı cavabdehin yaşayış sahəsindən istifadə hüququna kompensasiya ödəməklə xitam verilməsinə dair aşağıdakı iddianı qaldırmışdır.

İş üzrə qəbul edilmiş məhkəmə aktları:

a) Birinci instansiya məhkəməsində icraat:

7. İddiaçı 31 may 2022-ci ildə Tovuz Rayon Məhkəməsində iddia qaldıraraq tələb etmişdir ki, Tovuz rayonu, X kəndində yerləşən, mülkiyyətində olan fərdi yaşayış evindən cavabdehin istifadə hüququna 6000 manat kompensasiya ödənilməklə xitam verilsin və cavabdeh əşyaları ilə birlikdə evdən çıxarılsın.

8. İddiaçı işin yuxarıda göstərilən faktiki hallarına istinadən tələbini belə əsaslandırılmışdır ki, cavabdeh sözügedən fərdi yaşayış evinə köçürüldüyü vaxtdan aralarında mübahisələr yaranmış, dəfələrlə polisə müraciət edilmişdir. Evdə birgə yaşamaları mümkün olmadığından cavabdehə evdən çıxması müqabilində 6000 manat kompensasiya təklif etmiş, lakin sonuncu bununla razılaşmamışdır.

9. Birinci instansiya məhkəməsində icraat zamanı iddiaçı ərizə verərək kompensasiya məbləğini 8000 manata artırmışdır.

10. Cavabdeh iddiaya etiraz edərək bildirmişdir ki, evdə uzun müddətdir yaşayır, onun həmin evdə böyük zəhməti var, təklif edilən kompensasiya məbləği yetərli deyil. Ona görə də iddianın əsassız sayılmaqla rədd edilməsini xahiş edir.

11. Tovuz Rayon Məhkəməsinin (hakim Z.Hünmətov) 25 avqust 2022-ci il tarixli, 2(062)1606/2022 nömrəli qətnaməsi ilə iddiaçının 8000 (səkkiz min) manat kompensasiya ödəməsi müqabilində cavabdehin Tovuz rayonu X kəndində yerləşən fərdi yaşayış evindən istifadə hüququna xitam verilməsi, göstərilən kompensasiya ödənildikdən sonra cavabdehin əşyaları ilə birlikdə evdən çıxarılması qət edilmişdir.

12. Məhkəmə mövqeyini belə əsaslandırmışdır ki, iddiaçı tərəfindən təklif edilmiş 8000 manat məbləğində kompensasiya yetərlidir, cavabdehin bir neçə il və davamlı şəkildə oxşar şəraitli evdə kirayə haqqı ödəməklə dörd il dörd ay yaşamasına imkan verir.

13. Məhkəmə həmin nəticəyə gələrkən Azərbaycan Respublikası Konstitusiyasının 13 və 29-cu, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 228-ci maddələrinə istinad etmişdir.

***b)* Apellyasiya instansiyası məhkəməsindəki icraat:**

14. Cavabdeh apellyasiya şikayəti verərək birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv olunmasını və iddianın rədd edilməsini xahiş etmişdir. Şikayət onunla əsaslandırılmışdır ki, birinci instansiya məhkəməsinin qətnaməsi maddi və prosessual hüquq normalarının tələblərinin pozulması ilə çıxarılmışdır.

15. İddiaçı apellyasiya baxışında cavabdehə 10000 manat kompensasiya ödəməyə razı olduğunu bildirmişdir.

16. Gəncə Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının (hakimlər Rəhman Muradov – sədrlik edən və məruzəçi, Fikrət Mehtiyev, Mustafa Mustafayev) 2(104)-48/2024 nömrəli, 15 avqust 2024-cü il tarixli qətnaməsi ilə apellyasiya şikayəti qismən təmin edilmiş, birinci instansiya məhkəməsinin qətnaməsi ləğv edilərək yeni qətnamə çıxarılmış, cavabdehin Tovuz rayonu X kəndində yerləşən fərdi yaşayış evinə olan istifadə hüququna iddiaçı tərəfindən 10000 manat kompensasiya verilməklə xitam verilməsi və onun fərdi yaşayış evindən çıxarılması, qətnamənin eyni vaxtda icra edilməsi qət edilmişdir.

17. Apellyasiya instansiyası məhkəməsi mövqeyini belə əsaslandırmışdır ki, iddiaçının təklif etdiyi 10000 manat kompensasiya cavabdehin istifadə hüququna xitam verilməklə mənzildən çıxarılması üçün yetərlidir.

18. Məhkəmə gəldiyi nəticəni Azərbaycan Respublikası Mülki Məcəlləsinin 228.2-ci maddəsi, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun həmin maddənin şərh edilməsinə dair bir sıra qərarları, habelə Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 14.2, 77.1, 217.3, 385, 385.1.2, 385.1.4-ci maddələri ilə əsaslandırmışdır.

Kassasiya şikayətinin və ona etirazın dəlilləri:

a) Kassasiya şikayətinin dəlilləri

19. Cavabdeh kassasiya şikayəti verərək apellyasiya instansiya məhkəməsinin qətnaməsinin tamamilə ləğv edilməsini, ona 25000 manat kompensasiya verilməklə iddiaçının mülkiyyətində olan Tovuz rayonu X kəndində yerləşən yaşayış evindən istifadə hüququna xitam verilməklə evdən çıxarılmağına dair qərar qəbul edilməsini, bu mümkün olmadıqda isə işin hərtərəfli və obyektiv araşdırılması üçün Gəncə Apelyasiya Məhkəməsinə qaytarılmasını xahiş etmişdir.

20. Kassasiya şikayəti belə əsaslandırılmışdır ki, iş materiallarında kifayət qədər sübutlar olsa da məhkəmə həmin sübutları sadalamaqla kifəyətlənmiş, yəni həmin sübutlara hüquqi qiymət verməmişdir. Gəncə Apelyasiya Məhkəməsi iş üzrə düzgün nəticəyə gəlməmiş, qətnaməni maddi və prosessual hüquq normalarının pozulması ilə qəbul etmişdir.

21. Kassasiya şikayətinin əsası kimi, Azərbaycan Respublikası Konstitutsiyasının 29cu, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 152, 228-ci və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinın 8, 9, 14, 77.1, 78, 88, 188-ci maddələrinə istinad edilmişdir.

b) **Kassasiya şikayətinə qarşı etirazın dəlilləri**

22. Kassasiya şikayətinə qarşı etiraz daxil olmamışdır.

Tətbiq edilən hüquq:

Azərbaycan Respublikasının Konstitusiyası:

23. Maddə 13, I hissə. Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur.

24. Maddə 29, I hissə. Hər kəsin mülkiyyət hüququ vardır.

25. Maddə 29, II hissə. Mülkiyyətin heç bir növünə üstünlük verilmir. Mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ qanunla qorunur.

26. Maddə 29, III hissə. Hər kəsin mülkiyyətində daşınar və daşınmaz əmlak ola bilər. Mülkiyyət hüququ mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir.

27. Maddə 60, I hissə. Hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir.

Azərbaycan Respublikasının Mülki Məcəlləsi:

28. Maddə 135.4. Əşyalar daşınmaz və daşınar ola bilər. Torpaq sahələri, yer təki sahələri, ayrıca su obyektləri, meşələr, çoxillik əkmələr, binalar, qurğular və torpaqla möhkəm bağlı olan (ondan ayrıla bilməyən) digər əşyalar, yəni təyinatına tənasübsüz zərər vurulmadan yerinin dəyişdirilməsi mümkün olmayan obyektlər daşınmaz əşyalardır. Torpaq sahəsi və torpaqla möhkəm bağlı olan (ondan ayrıla bilməyən) əşya vahid daşınmaz əşyadır və vahid mülkiyyət obyektidir.

29. Maddə 135.9. Əgər müxtəlif növlü əşyalar ümumi təyinat üzrə istifadə edilməsini nəzərdə tutan vahid tam yaradırlarsa, bir əmlak (mürəkkəb əmlak) sayılırlar. Mürəkkəb əmlak barəsində bağlanmış əqdin qüvvəsi, əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, onun bütün tərkib hissələrinə şamil edilir.

30. Maddə 135.10. Adi anlamda əşyanın tərkibinə daxil olan və dağıdılmadan, zədələnmədən və ya dəyişdirilmədən ondan ayrıla bilməyən hər şey əşyanın tərkib hissəsidir. Özbaşına tikinti ilə bağlı hallar istisna olmaqla, əşyanın mülkiyyətçisi onun bütün tərkib hissələrinin mülkiyyətçisidir.

31. Maddə 152.1. Mülkiyyət hüququ - subyektin ona mənsub əmlaka (əşyaya) öz istədiyi kimi sahib olmaq, ondan istifadə etmək və ona dair sərəncam vermək üzrə dövlət tərəfindən tanınan və qorunan hüququdur.

32. Maddə 213.1. İki və ya bir neçə şəxsin mülkiyyətində olan əşya onlara ümumi mülkiyyət hüququ əsasında mənsubdur.

33. Maddə 213.2. Əşya mülkiyyət hüququnda mülkiyyətçilərin hər birinin payı müəyyənləşdirilməklə (paylı mülkiyyət) və ya belə paylar müəyyənləşdirilmədən (birgə mülkiyyət) ümumi mülkiyyətdə ola bilər.

"Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu:

34. Maddə 13.7. Üzərində mülkiyyət hüququ qeydiyyata alınan torpaq sahəsi onda yerləşən daşınmaz əmlakla birgə vahid daşınmaz əmlak obyekti kimi qeydiyyata alınır.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi:

35. Maddə 217.1. Məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır.

36. Maddə 217.3. Qətnamə iş üzrə müəyyən edilmiş həqiqi hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır.

37. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

Kassasiya baxışının hədləri

38. Kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

39. Kassasiya şikayətində qətnamə tam mübahisələndirildiyindən apellyasiya instansiyası məhkəməsinin aktı bütovlükdə yoxlanılır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

40. Baxılan işdə İddiaçı tələb edir ki, Tovuz rayonu X kəndində yerləşən evindən cavabdehin istifadə hüququna ödəyəcəyi kompensasiya müqabilində xitam verilsin.

41. Mübahisəyə mahiyyəti üzrə baxmış məhkəmələr tələbin qanuni əsası kimi Mülki Məcəllənin 228.2-ci maddəsini tətbiq edərək iddianı təmin etmişlər. Bu maddəyə görə, yaşayış binasının tərkib hissəsindən istifadə hüququna xitam verilməsi haqqında razılaşma olmadıqda bu hüquqa mülkiyyətçinin məhkəmə qaydasında tələbinə əsasən bazar qiyməti ilə müvafiq kompensasiya verməsi yolu ilə xitam verilə bilər.

42. Normanın dispozisiya şərtlərindən görünür ki, bu tələbi yaşayış binasının tərkib hissəsinin mülkiyyətçisi, (mülkiyyət hüququna malik olmayan) istifadə hüququ sahibinə qarşı irəli sürə bilər. Bundan əlavə, iddiaçı tərəfindən cavabdehə ədalətli kompensasiya təklif edilməlidir (mübahisə halında kompensasiyanın məbləğini məhkəmə özü müəyyən edir).

43. İddianın bu norma ilə təmin edilməsi üçün göstərilən şərtlərin hamısı müəyyən edilməlidir. Ardıcıl şəkildə yoxlanılmalı olan bu şərtlərdən biri aşkar edilmədikdə sonrakıların araşdırılmasına gərək qalmır, həmin maddəyə əsaslanan iddia rədd edilir.

44. Kollegiya aşağıdakılara əsasən hesab edir ki, baxılan işdə maddi və prosessual hüquq normaları düzgün tətbiq edilməmişdir.

45. Mülki Məcəllənin 228-ci maddəsi “Yaşayış binasının tərkib hissəsinə mülkiyyət hüququ” adlı fəsildə yer alır. Bu hüquq, özünəməxsus əlamətlərə və rejimə malik olan bir mülkiyyət növüdür. Belə ki, yaşayış binasının tərkib hissəsinə mülkiyyət hüququ ümumi paylı daşınmaz mülkiyyətə olan hüquqdur, yəni binanın müəyyən hissələrindən müstəsna istifadə etmək və onların içərisində bəzək-tamamlama işləri aparmaq üçün mülkiyyətçinin xüsusi hüquq əldə etməsidir. Yaşayış binasının yerləşdiyi torpaq sahəsi ümumi paylı mülkiyyət hüququ ilə yaşayış binasının tərkib hissəsi mülkiyyətçilərinə mənsubdur (Mülki Məcəllə, maddə 226.1 və 227.1).

46. Göründüyü kimi, bu tip mülkiyyətin subyekti binanın müəyyən hissələrindən müstəsna istifadə etmək və qeyd olunan digər işləri aparmaq üçün xüsusi hüquq əldə edir, eyni zamanda binanın yerləşdiyi torpaq sahəsi üzərində ümumi paylı mülkiyyət hüququna malik olur.

47. Yaşayış binasının tərkib hissəsindən istifadə hüququ olan şəxsin isə mənzilə və binanın altındakı torpaq sahəsinə mülkiyyət hüququ olmur. Onun hüququ mülkiyyət hüququ ilə müqayisədə məhdud şəkildə olmaqla, mülkiyyətçinin yaşayış sahəsindən və binanın digər zəruri hissələrindən istifadə etməkdən ibarətdir. Bu hüququn yaranması ilə yaşayış binasının tərkib hissəsi mülkiyyətçisinin mülkiyyət hüququ yüklü vəziyyətə gəlmiş olur (notarial müqavilə və ya qanun əsasında - Mülki Məcəllə, maddə 228.2 və 228.5).

48. Təsadüfi deyil ki, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Mülki Məcəllənin 228-ci maddəsində nəzərdə tutulmuş hüququ məhdud əşya hüququ – şəxsi servitut olaraq şərh etmişdir (Azərbaycan Respublikası Mülki Məcəlləsinin 228.5-ci maddəsinə əsasən əmələ gələn istifadə hüququna xitam verilməsinə dair 29 mart 2016-cı il tarixli qərar).

49. Baxılan işdə isə mübahisənin obyekti çoxmənzilli yaşayış binasının tərkib hissəsi deyil, Tovuz rayonu X kəndində 0.26 ha torpaq sahəsində yerləşən fərdi yaşayış evidir.

50. Daşınmaz əmlakın dövlət reyestrində həmin torpaq sahəsi 3/6 payla, ev isə tam payla iddiaçının adına qeydə alınsa da, məhkəmələr müəyyən etmişlər ki, cavabdeh də sözügedən torpaq sahəsinin ümumi paylı mülkiyyətçisidir.

51. Bu cür əşyalara aid hüquq münasibətləri mülki qanunvericiliyin daşınmaz əşya üzərində mülkiyyət hüququ ilə bağlı ümumi normaları əsasında tənzimlənir.

52. Qanuna əsasən, torpaq sahələri və torpaqla möhkəm bağlı olan (ondan ayrıla bilməyən) digər əşyalar, yəni təyinatına tənasübsüz zərər vurulmadan yerinin dəyişdirilməsi mümkün olmayan obyektlər daşınmaz əşyalardır (Mülki Məcəllə, maddə 135.4, ikinci cümlə - § 28).

53. Məlum olduğu kimi, əsas daşınmaz əşya sayılan torpaq sahəsi və ona bağlı olan digər fiziki obyektlər mülkiyyət hüququnun predmetidir. Yəni, mülki hüququn subyektləri onun üzərində mülkiyyət hüququ qura bilərlər.

54. Mülkiyyət hüququ - subyektin ona mənsub əmlaka (əşyaya) öz istədiyi kimi sahib olmaq, ondan istifadə etmək və ona dair sərəncam vermək üzrə dövlət tərəfindən tanınan və qorunan hüquqdur (Mülki Məcəllə, maddə 152.1 - § 31).

55. İki və ya bir neçə şəxsin mülkiyyətində olan əşya onlara ümumi mülkiyyət hüququ əsasında mənsubdur (Mülki Məcəllə, maddə 213.1 - § 32).

56. Göründüyü kimi, ümumi mülkiyyət halında bir neçə mülkiyyət deyil, bir əşya üzərində bir mülkiyyət hüququ mövcud olur. Həmin hüquq iki və ya daha artıq şəxsdən ibarət ümumiliyə aiddirsə birgə mülkiyyət, müvafiq paylarla birdən çox şəxsə məxsus olduqda isə paylı mülkiyyət sayılır. Bu səbəbdən qanunda nəzərdə tutulmuşdur ki, əşya mülkiyyət hüququnda mülkiyyətçilərin hər birinin payı müəyyənləşdirilməklə (paylı mülkiyyət) və ya belə paylar müəyyənləşdirilmədən (birgə mülkiyyət) ümumi mülkiyyətdə ola bilər (Mülki Məcəllə, maddə 213.2 - § 33).

57. Kollegiya vurğulayır ki, ümumi mülkiyyətin növləri olaraq birgəlik və ya paydaşlıq əşyaya deyil, əşya üzərindəki hüquqa münasibətdə aparılan bölgüdür. Yəni ümumi mülkiyyətdəki əşya üzərində payı olan şəxs həmin pay nisbətində əşyanın hansısa bir hissəsinin mülkiyyətçisi deyil, əşyanın tamamı üzərində olan vahid mülkiyyət hüququna öz payı nisbətində şərikdir. Başqa sözlə, ümumi mülkiyyətçinin hüququ əşyanın naturada bir hissəsinə yox, onun tamamına şamil olunur. Məsələn, torpağın ümumi mülkiyyətçilərdən hər hansı birinin sahənin naturada onun payına uyğun gələn hissəsinə deyil, hər nöqtəsinə münasibətdə öz payı həcmində mülkiyyət hüququna malik olduğu qəbul edilir. Bu hüquqi vəziyyət əşya naturada bölünənədək və ya paylar naturada ayrılanadək (fərdi mülkiyyət vəziyyətinə keçənədək) davam edir.

58. Qeyd edilənlər ona dəlalət edir ki, baxılan iş üzrə cavabdehin torpaq sahəsinə dair dövlət reyestrində qeydə alınmış ümumi paylı mülkiyyət hüququ mübahisəli evin (tikilinin) altında yerləşən torpaq sahəsinə də aiddir. Yəni, cavabdeh bu evin bitişik olduğu torpaq sahəsinin paylı mülkiyyətçisidir.

59. Şübhəsizdir ki, cavabdehin evdən çıxarılması onun mübahisəli evin yerləşdiyi (mülkiyyətçisi olduğu) torpaq sahəsindən də məhrum olması ilə nəticələnəcək.

60. Qanunvericiliyimizdə bir mülkiyyətçinin öz təşəbbüsü ilə digər mülkiyyətçini iradəsinə zidd şəkildə kompensasiya ödəməklə daşınmaz əşyadan çıxarması nəzərdə tutulmamışdır.

61. Bu məqamda kassasiya kollegiyası təkrarən diqqəti ona cəlb edir ki, Mülki Məcəllənin 228.2-ci maddəsi ilə kompensasiya müqabilində istifadə hüququna xitam verilən şəxsin nə yaşayış sahəsinə, nə də binanın yerləşdiyi torpaq sahəsinə mülkiyyət hüququ olur. O, yalnız yaşayış sahəsindən istifadəni ehtiva edən məhdud əşya hüququ (şəxsi servitut) sahibidir. Bu səbəbdən tam əşya hüququna - mülkiyyət hüququna malik olan şəxsin iddiası əsasında ədalətli kompensasiya ödəməklə onun istifadə hüququna iradəsinə uyğun olmasa belə xitam verilir.

62. Hazırkı işin yuxarıda göstərilən hallarından aydın olur ki, tərəflərin mübahisəli əşyaya olan faktiki və hüquqi vəziyyətləri fərqlidir.

63. Həmin vəziyyət onu göstərir ki, mübahisəli ev yerləşdiyi torpaq sahəsinin tərkib hissəsidir. Bu səbəbdən kassasiya məhkəməsi əşyanın tərkib hissəsi və onun hüquqi vəziyyəti barədə aşağıdakıları qeyd etməyi zəruri hesab edir.

64. Əşyanın tərkib hissələri mürəkkəb əşyanı təşkil edən elə bitişik əşyalardır ki, onlar olmadan mürəkkəb əşyanın əmələ gəlməsi və iqtisadi baxımdan ondan gözlənilən faydanı verməsi mümkün olmur. Tərkib hissələr əsas əşya ilə bir bütün – vahid əşya əmələ gətirmək

üçün birləşən və bununla da meydana gələn yeni obyektə mürəkkəb əşya olma xüsusiyyətini verən parçalardır. Məsələn, ekran, düymələr, plastik qapaq, çiplər və s. əşyalar birləşərək kompyuteri; yaxud torpaq, daş, qum, armatur, qapı, pəncərə, dam örtüyü birləşərək fərdi yaşayış evini meydana gətirirlər. Sadalanan tərkib hissələrin əsas əşyadan ayrılması əşyanın maddi bütünlüyünü və iqtisadi funksiyasını pozmadan mümkün olmur. Beləliklə, bir iqtisadi məqsəd üçün birləşmiş müxtəlif növlü əşyalar vahid (mürəkkəb) əşya hesab olunurlar.

65. Bu səbəbdən Mülki Məcəllənin 135.9-cu və 135.10-cu maddələrində nəzərdə tutulmuşdur ki, əgər müxtəlif növlü əşyalar ümumi təyinat üzrə istifadə edilməsini nəzərdə tutan vahid tam yaradırlarsa, bir əmlak (mürəkkəb əmlak) sayılırlar. Adi anlamda əşyanın tərkibinə daxil olan və dağıdılmadan, zədələnmədən və ya dəyişdirilmədən ondan ayrıla bilməyən hər şey əşyanın tərkib hissəsidir (hər iki maddənin birinci cümləsi - § 29-30).

66. Həmin Məcəllənin 135.4-cü maddəsində xüsusi olaraq göstərilmişdir ki, torpaq sahəsi və torpaqla möhkəm bağlı olan (ondan ayrıla bilməyən) əşya vahid daşınmaz əşyadır və vahid mülkiyyət obyektidir (üçüncü cümlə - § 28).

67. "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 13.7-ci maddəsinə görə, üzərində mülkiyyət hüququ qeydiyyata alınan torpaq sahəsi onda yerləşən daşınmaz əmlakla birgə vahid daşınmaz əmlak obyekti kimi qeydiyyata alınır (§ 34).

68. Qeyd edilməlidir ki, vahid daşınmaz əşya qaydası Roma hüququndan gələn "Quicquid plantatur solo, solo cedit" (Torpağa bağlı olan torpağa aiddir) prinsipinə əsaslanır.

69. Kollegiya nəzərə alır ki, mülki qanunvericiliyimizdə torpaq sahəsini və onun üzərindəki tikilini müstəqil daşınmaz əşya (onların hər birini mülkiyyət hüququnun müstəqil obyekti) kimi tanıyan normalar olsa da, son illərdə qanunvericinin bu cür hüquq münasibətlərinin tənzimlənməsində ortaya qoyduğu iradə vahid daşınmaz əşya və vahid mülkiyyət obyekti yönündədir.

70. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu da 16 iyun 2023-cü il tarixli qərarında bildirmişdir ki, qanunverici son zamanlar istər Mülki Məcəllənin özündə, istərsə də digər aidiyyəti Məcəllələrdə vahid mülkiyyət yanaşmasına üstünlük vermişdir.

71. Belə olan halda, məhkəmə tərkibi hazırkı mübahisənin qanuni və ədalətli həlli üçün vahid mülkiyyət qaydasına uyğun olaraq, mübahisəli evi onun yerləşdiyi torpaq sahəsinin tərkib hissəsi, dolayısı ilə onları vahid daşınmaz əşya hesab edir.

72. Tərkib hissənin, o cümlədən vahid əşyanın hüquqi vəziyyəti ilə bağlı qeyd edilməlidir ki, bir əşya başqa bir əşyanın tərkib hissəsinə çevrildiyi andan müstəqil əşya vəsfini itirir, əsas əşyanın hüquqi vəziyyətinə tabe olur. Bu o deməkdir ki, əsas əşyanın mülkiyyətçisi tərkib hissənin də mülkiyyətçisi hesab olunur.

73. Mülki Məcəllənin 135.10-cu maddəsində əşyanın mülkiyyətçisinin onun bütün tərkib hissələrinin mülkiyyətçisi olduğu açıqca göstərilir (ikinci cümlə - § 30).

74. Beləliklə, tərəflər arasında mübahisəli daşınmaz əşyanın hazırkı məqamda mövcud olan hüquqi vəziyyəti nəzərə alınmadan bir mülkiyyətçi olan iddiaçının tələbi ilə digər mülkiyyətçi olan cavabdeh mübahisəli daşınmaz əşyadan çıxarıla bilməz. Əks yanaşma cavabdehin mülkiyyət hüquqlarının qanuni əsas olmadan məhdudlaşdırılması ilə nəticələnərdi.

75. Halbuki, Azərbaycan Respublikasının Konstitusiyası ilə mülkiyyətin toxunulmazlığına və müdafiəsinə verilən təminat iddiaçının mülkiyyət hüququna aid olduğu kimi, cavabdehin də mülkiyyət hüququna şamil olunur. Qanuni əsası, məqsədi və zəruriliyi göstərilmədən heç kəsin mülkiyyət hüququnun məhdudlaşdırılmasına yol verilmir (§ 2327).

76. Yuxarıda göstərilən hüquqi mövqelərə əsasən kassasiya kollegiyası bu qənaətə gəlir ki, hazırkı məqamda iddiaçı tərəfindən kompensasiya ödənilməklə cavabdehin istifadə

hüququna xitam verilməsi mümkün deyil. Başqa sözlə, Mülki Məcəllənin 228.2-ci maddəsinin bütün şərtləri hazırkı işdə müəyyən olunmamışdır.

77. Apellyasiya instansiyası məhkəməsi isə qeyd olunanları nəzərə almamış, göstərilən hüquq normalarını tətbiq etməmiş, nəticədə iş üzrə düzgün olmayan qətnamə çıxarmışdır (§ 35-36).

78. Ona görə də həmin qətnamə ləğv edilməli, apellyasiya instansiyası məhkəməsində müəyyən edilmiş hallar və sübutlar əsasında yeni qərar çıxarılmalı, yuxarıda şərh olunan hüquqi mövqelərə əsasən iddia rədd edilməlidir.

79. Kollegiya onu da xüsusi olaraq vurğulayır ki, mövcud hüquqi vəziyyətə görə iddianın təmin edilməsinin mümkün olmaması, iddiaçını gələcəkdə yeni əsaslarla eyni iddianı qaldırmaq imkanından məhrum etmir.

80. Belə ki, ümumi mülkiyyətdə olan əşyadan payın naturada ayrılması və ya bölünməsi mümkündür. Bunu edən ümumi mülkiyyətçi əşyanın öz payına uyğun olaraq naturada ayrılmış (və ya bölünmüş) hissəsinə fərdi mülkiyyət hüququ əldə edir. Fərdi mülkiyyət hüququna malik olan şəxs isə yaşayış sahəsindən istifadə hüququna xitam verilməsi tələbini irəli sürə bilər. Bu halda qaldırılacaq iddia yeni əsasla irəli sürülmüş tələb sayılacaq.

81. Qeyd olunmalıdır ki, paylı mülkiyyətdə olan əşyanın bölünməsi və ondan payın ayrılması hazırkı işin araşdırma predmetini təşkil etmir. Bu səbəbdən hazırkı iş üzrə çıxarılan qərar gələcəkdə qaldırılması istisna edilməyən belə iddianın həlli üçün (o cümlədən, torpaq sahəsinin necə bölünməsi, üzərindəki tikilinin tərəflərdən hansının hissəsinə daxil edilməsi və s.) preyudisial xarakter daşımır. Bu kimi məsələlər həmin iddiaya mahiyyəti üzrə baxan məhkəmə tərəfindən işin konkret halları nəzərə alınmaqla qanuni və ədalətli şəkildə həll edilməlidir.

82. Göstərilənlərə əsasən və MPM-in 416, 417 və 419-cu maddələrini rəhbər tutaraq, Məhkəmə kollegiyası

Qərara aldı:

Kassasiya şikayəti təmin edilsin.

Gəncə Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 2(104)-48/2024 nömrəli, 15 avqust 2024-cü il tarixli qətnaməsi ləğv edilsin.

İş üzrə yeni qərar çıxarılmaqla iddia rədd edilsin.

Qərar qətidir və qəbul edildiyi andan qüvvəyə minir.

Əqdin etibarsızlığı

14. 2(102)-57/2024 nömrəli, 2024-cü il 29 yanvar tarixli qərar - Təmsilçinin təmsil edilənin adından şəxsən özü barəsində bağladığı əqdin bəyənilməsi

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: təmsilçinin təmsil edilənin adından şəxsən özü barəsində bağladığı əqdin bəyənilməsi.

İddiaçının nənəsi cavabdehə (təmsilçi) bütün əmlakını idarə etməyi, sərəncam verməyi və digər hüquqları özündə ehtiva edən etibarnamə vermiş, 1 ay sonra nənənin adına xüsusi mülkiyyət hüququ əsasında 0,2 ha torpaq sahəsi qeydə alınmış, bundan 1 ay sonra həmin torpaq sahəsinin 0,079 ha hissəsi təmsilçi tərəfindən öz ərinə 5000 manata satılmış və sonuncunun adına mülkiyyət hüququ əsasında qeydiyyata alınmışdır. 1 il 5 ay sonra iddiaçının nənəsi vəsiyyətnamə qoyaraq bütün əmlakını nəvəsinə - iddiaçıya vəsiyyət etmiş, bundan 3 il sonra ölmüşdür.

İddiaçının nənəsi öldükdən sonra övladları (iddiaçının bibiləri və əmisi) hazırkı iş üzrə cavabdehlərə qarşı müqavilənin qismən etibarsız hesab edilməsi, çıxarışın qismən, həmin torpaq sahəsinin yarısına münasibətdə ləğv edilməsi, həmin torpaq sahəsində olan qeyri-yaşayış binasının bərpası, maddi və mənəvi ziyan tələbləri irəli sürmüş, iddiaları rədd edilmiş və qətnamə qanuni qüvvəsini almışdır.

Sonradan nəvənin adından qanuni nümayəndəsi olan bibisi (həmin iş üzrə iddiaçılardan biri) hazırkı iddianı qaldıraraq cavabdehlər arasında bağlanmış alqı-satqı müqaviləsinin əhəmiyyətsiz əqd hesab edilməsi barədə qətnamə çıxarılmasını xahiş etmiş, əsas olaraq təmsilçi ilə alıcının ər-arvad olmasını, bunun isə əqdin etibarsızlığına gətirib çıxarmasını, əhəmiyyətsiz əqd olmasını göstərmişdir.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Mülki Məcəllənin 359.3-cü maddəsində nəzərdə tutulmuşdur ki, təmsilçi təmsil edilən adından şəxsən özü barəsində əqdlər bağlaya bilməz. Bu qaydanın məqsədi təmsil olunanı qorumaqdır. Çünki təmsil edən özü ilə müqavilə bağladıqda bir tərəfdən təmsil olunan adından hərəkət edir, digər tərəfdə isə özü (öz mənafeyi) olur. Bu halda, təmsilçinin özü ilə təmsil edilən qarşı-qarşıya gəldiyi üçün təmsil institutundan gözlənilən (umulan) fayda təhlükə altına düşür. Çünki maraqların toqquşması halında təmsilçi öz mənafeyini üstün tuta bilər. Sözügedən məcburi hüquq qaydasının pozulması ilə bağlanmış əqd həmin Məcəllənin 337.1-ci maddəsinə əsasən etibarsızdır

Bununla belə, hüquq ədəbiyyatında hakim olan mövqeyə əsasən, təmsil olunan təmsilçiyə özü ilə müqavilə bağlamaq üçün səlahiyyət vermişsə və ya bağlanan müqavilə mahiyyəti etibarilə mənafe toqquşmasına imkan yaratmırsa (təmsil olunana zərər verən xüsusiyyətə malik deyilsə), yaxud təmsil olunan əqdi sonradan bəyənirsə Mülki Məcəllənin 359.3-cü maddəsinin tətbiqi istisna olunur.

Hazırkı işdə təmsil olunanın öz mülkiyyətində olan torpaq sahəsindən bir hissəsini təmsilçinin ərinə satmaq istəyinin olması barədə iş materiallarında məlumatlar mövcud olmuşdur: cavabdehlərə qarşı daha əvvəl qaldırılan iddiada alqı-satqı müqaviləsi və reyestr qeydinin tamamı deyil, satılmış torpaq sahəsinin yarısı mübahisələndirilmiş, hazırkı işdə 20 kv.m. sahənin təmsilçinin ərinə satılması fikrinin olduğu qeyd edilmiş, müqavilə bağlandıqdan

sonra təmsil olunan yaşadığı dörd il ərzində qonşuluğunda yerləşən torpaq sahəsinin cavabdehə satılmasına hansısa formada etiraz etməmiş və əqdi mübahisələndirməmişdir. Müqavilə ilə bağlı məhkəmə mübahisə təmsil olunanın ölümündən sonra başlamışdır.

Belə olan halda, əqd üzrə təmsil edilənin etibarnaməni digər tərəfin arvadı olan cavabdehə hansı məqsədlə verməsi, həmin vəkalətlə alqı-satqı predmetinin təmsilçinin ərinə satılması üçün müvafiq rəsmiləşdirmə aparılmasının hədəflənib-hədəflənmədiyi, başqa sözlə, təmsil olunanın təmsilçinin müqaviləni öz əri ilə bağlamasına açıq və ya örtülü formada əvvəlcədən razılığının olub-olmaması, yaxud sonradan bəyənməsi, bu kontekstdə tərəflərin əvvəlki və sonrakı davranışlarının nədən ibarət olması mübahisənin düzgün həlli üçün mühüm əhəmiyyət kəsb edir.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-57/2024

29.01.2024-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki
kollegiyasının

iddiaçılar İddiaçı 1 (qanuni nümayəndəsi İddiaçı 2) və İddiaçı 2-nin cavabdehlər Cavabdeh 1 və Cavabdeh 2 qarşı (Şəmkir rayonu 1 saylı Notariat Ofisi və DƏDRX-nin 11 saylı Şəmkir Ərazi İdarəsinin üçüncü şəxs qismində cəlb edildikləri) iş üzrə

Q Ə R A R I

Açar sözlər: təmsilçinin təmsil edilən adından şəxsən özü barəsində bağladığı əqd

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Əliyev Zaur Əli oğlu (məruzəçi), Abbasov Aqil Əzizağa oğlu və Məmmədov Vidadi Məmməd oğlundan ibarət tərkibdə,

Gəncə Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(104)-1316/2023 nömrəli 22 iyun 2023-cü il tarixli qətnaməsindən Cavabdeh 2 tərəfindən verilmiş kassasiya şikayətinə Ali Məhkəmənin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin faktiki halları

1. X1 İddiaçı 1-in nənəsi, İddiaçı 2-nin anasıdır.

İddiaçı 2 isə İddiaçı 1-in bibisi, eyni zamanda qəyyumu və qanuni nümayəndəsidir.

2. Cavabdeh 1 ilə Cavabdeh 2 ər- arvaddırlar.

3. 17.12.2014–cü il tarixli etibarnamə ilə X1 bütün əmlakını idarə etməyi, sərəncam verməyi, habelə digər hüquqları 17.12.2024-cü il tarixədək Cavabdeh 1ə etibar etmişdir.

4. 30.01.2015–ci il tarixdə Şəmkir rayonu, X kəndində yerləşən 0.2033 ha torpaq sahəsi tam mülkiyyət hüququ üzrə X1in adına daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmışdır.

5. 18.02.2015-ci il tarixli alqı–satqı müqaviləsi ilə (bundan sonra ― mübahisəli alqı-satqı müqaviləsi), X1-in nümayəndəsi Cavabdeh 1 sözügedən torpaq sahəsinin 0.0798 ha hissəsini 5.000 manata əri Cavabdeh 2-yə satmış, sonuncu isə 13.03.2015-ci il tarixdə həmin əmlaka mülkiyyət hüququnu daşınmaz əmlakın dövlət reyestrində rəsmiləşdirmişdir.

6. 26.07.2016-cı il tarixli vəsiyyətnamə ilə, X1 bütün əmlakını nəvəsi İddiaçı 1-ə vəsiyyət etmişdir.

7. X1 10.03.2019-cu ildə ölmüşdür.

8. Şəmkir Rayon Məhkəməsinin 2(076)-2606/2020 nömrəli 04.11.2020–ci il tarixli qətnaməsi ilə, iddiaçılar X2-nin, İddiaçı 2-nin və X3-ün cavabdehlər Cavabdeh 2-yə, Şəmkir Rayon 1 saylı Notariat Ofisinə və DƏDRX–nin 11 saylı Şəmkir Ərazi İdarəsinə qarşı mərhum X1-in mülkiyyətində olmuş 0.2033 ha həyətyanı torpaq sahəsinin 0.0798 ha hissəsinə dair 18.02.2015–ci il tarixli 4Ə–*** reyestr nömrəli alqı–satqı müqaviləsinin qismən etibarsız hesab edilməsi, 0.0798 ha torpaq sahəsi üzərində mülkiyyət hüququna dair 13.03.2015–ci il tarixli Çıxarışın qismən, yəni həmin torpaq sahəsinin yarısına münasibətdə ləğv edilməsi, 4x5 metr sahəsi olan mağaza binasının cavabdehin vəsaiti hesabına bərpa edilməsi və cavabdeh tərəfindən özbaşına kəsilmiş meyvə ağaclarına görə vurulmuş 20.000 manat maddi zərərin ödənilməsi tələbinə dair iddiası təmin edilməmişdir. Həmin qətnamə qanuni qüvvəsini almışdır.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

Birinci instansiya məhkəməsində icraat

9. İddiaçılar İddiaçı 1-in (qanuni nümayəndəsi İddiaçı 2) və İddiaçı 2 iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, cavabdehlər arasında bağlanmış mübahisəli alqı-satqı müqaviləsinin əhəmiyyətsiz əqd hesab edilməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

10. İddia tələbi işin yuxarıda qeyd olunan faktiki hallarına istinad edilməklə belə əsaslandırılmışdır ki, X1-in vəfatından sonra məlum olmuşdur ki, Cavabdeh 1 iddiaçıya məxsus olan torpaq sahəsinin 0.0798 ha hissəsini alqı–satqı müqaviləsi əsasında Cavabdeh 2-yə satmışdır. Həqiqətən iddiaçının və qanuni nümayəndəsinin torpaq sahəsinin sənədləşməsindən sonra onun bir hissəsini, yəni kiçik bir mağazanın inşa edilməsi üçün 5x4, yəni 20 kv.m ölçüdə satmaq fikri olsa da, mübahisəli torpaq sahəsinin 0.0798 ha hissəsini satmaq niyyətləri olmamış və alqı-satqı ilə bağlı ona heç bir məbləği pul verilməmişdir. Satıcı qismində çıxış edən Cavabdeh 1 digər cavabdeh Cavabdeh 2-nin arvadıdır ki, bu hal öz növbəsində əqdin etibarsızlığına gətirib çıxarır, yəni həmin alqı–satqı müqaviləsi əhəmiyyətsiz

əqddir.

11. Şəmkir Rayon Məhkəməsinin 2(076)-2797/2022 nömrəli 18.10.2022-ci il tarixli qərardadı ilə iddiaçılar İddiaçı 1 və İddiaçı 2-nin cavabdehlər Cavabdeh 1 və Cavabdeh 2-yə qarşı alqı-satqı müqaviləsinin əhəmiyyətsiz əqd hesab edilməsinə dair iş üzrə icraata xitam verilmişdir.

12. Gəncə Apellyasiya Məhkəməsinin 2(104)-20967/2022 nömrəli, 24.11.2022-ci il tarixli qərardadı ilə birinci instansiya məhkəməsinin qərardadı İddiaçı 2-yə münasibətdə dəyişdirilmədən saxlanılmış, İddiaçı 1-in (qanuni nümayəndəsi İddiaçı 2) cavabdehlər Cavabdeh 1 və Cavabdeh 2-yə qarşı alqı-satqı müqaviləsinin əhəmiyyətsiz əqd hesab edilməsinə dair iş üzrə icraata xitam verilməsi hissəsində ləğv edilmiş, həmin hissədə mülki iş baxılması üçün Şəmkir Rayon Məhkəməsinə göndərilmişdir.

13. Şəmkir Rayon Məhkəməsinin 2(076)-375/2023 nömrəli 27.02.2023-cü il tarixli qətnaməsi ilə iddia tələbi təmin edilməmişdir (hakim T.Musayev).

14. Məhkəmənin mövqeyi ondan ibarət olmuşdur ki, əvvəllər alqı–satqı müqaviləsinin qismən etibarsız hesab edilməsi tələbinə dair iddia qaldırmasına baxmayaraq, hazırkı işdə İddiaçı 2 əvvəlki iddiasından fərqli olaraq azyaşlı İddiaçı 1-i iddiaçı qismində, Cavabdeh 1-i isə cavabdeh qismində işə cəlb etmişdir. Lakin buna baxmayaraq, yəni iş üzrə müxtəlif iddiaçı və cavabdeh işə cəlb edilsə də, həmçinin iddiaçı əvvəlki tələbində cavabdehlər arasında bağlanmış mübahisəli alqı-satqı müqaviləsinin qismən etibarsızlığını, hazırkı tələbində isə ümumilikdə qeyd olunan müqavilənin əhəmiyyətsiz əqd hesab edilməsinə dair qətnamə çıxarılmasını tələb etsə də, iddiaçının əvvəlki iddiası da eyni predmet və eyni əsasla olmuş, yəni iddiaçının əvvəlki iddia tələbi ilə hazırki iddia tələbinə dair mübahisəli alqı-satqı müqaviləsi eyni müqavilədir və əvvəlki iddia tələbinə baxılarkən tərəflər arasında bağlanmış alqı-satqı müqaviləsinin etibarlılıq məsələsinə hüquqi qiymət verilmişdir. Əvvəlki iddia tələbi ilə hazırkı iddia tələbinə dair mübahisəli alqı–satqı müqaviləsi eyni müqavilədir və əvvəlki iddia tələbinə baxılarkən tərəflər arasında bağlanmış alqı–satqı müqaviləsinin etibarlılıq məsələsinə hüquqi qiymət verilmiş və bu barədə qanuni qüvvəyə minmiş məhkəmə qətnamələri mövcuddur. Odur ki, bir mülki iş üzrə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsi ilə müəyyən edilmiş faktlar həmin işdə iştirak edən şəxslər tərəfindən başqa məhkəmə prosesində mübahisələndirilmir və yenidən sübut edilmir.

15. Məhkəmə mövqeyini Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 82.3-cü maddəsinə istinad edərək əsaslandırmışdır.

Apellyasiya instansiyası məhkəməsindəki icraat

16. İddiaçı apellyasiya şikayəti verərək, birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv edilməsini və iddianın təmin edilməsi barədə yeni qətnamə qəbul edilməsini xahiş etmişdir.

17. Şikayət onunla əsaslandırılmışdır ki, İddiaçı 2 əvvəllər eyni cavabdehlərə qarşı əqdin qismən etibarsız hesab edilməsinə dair iddia ərizəsi ilə məhkəməyə müraciət etmiş, lakin onun iddiası təmin edilməmişdir. Hal-hazırda isə iddiaçılardan biri İddiaçı 1 əvvəlki məhkəmə çəkişməsində tərəf qismində iştirak etməmiş, iddiaçı və ya cavabdeh olmamışdır. Mübahisə edilən müqavilə onun hüquqlarını pozduğundan o, iddiaçı qismində məhkəməyə müraciət etmişdir. Bundan başqa, məhkəmə hesab etmişdir ki, sözügedən müqavilənin etibarlı olmasına dair qanuni qüvvəsini almış qətnamə mövcuddur və bu əsasla hazırkı iddiaçını məhkəməyə müraciət edərək öz maraqlarını qorumaq məqsədilə məhkəmə müdafiəsindən istifadə etmək hüququndan məhrum etmişdir. Digər tərəfdən, məhkəmə əhəmiyyətsiz əqdin məhkəmə qətnaməsi ilə əhəmiyyətli olduğu qənaətinə gəlmişdir, hərçənd ki, heç bir məhkəmə əhəmiyyətsiz əqdi əhəmiyyətli hesab etmək hüququna malik deyildir, bu mövqe Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin Plenumunun 02.04.2021-ci il tarixli qərarında öz

əksini tapmışdır. Belə ki, həmin qərarda qeyd edilir ki, Mülki Məcəllənin 337.3-cü maddəsinə görə əhəmiyyətsiz əqd məhkəmə tərəfindən etibarsız sayılıb-sayılmamasından asılı olmayaraq özlüyündə etibarsız əqddir. Göründüyü kimi, qanunda əqdin əhəmiyyətsizliyi hallarında etibarsızlıqla bağlı nəticələrin tətbiqi üçün məhkəmə qərarına ehtiyac olmadığı ifadə edilmişdir. Hazırki qətnamə ilə məhkəmə iddiaçının hüquqlarını digər iddiaçılarla eyniləşdirərək məhdudlaşdırmış və mübahisə predmeti olan əqdin əvvəlki iddiaçılara münasibətdə etibarlı hesab edilməsini iddiaçıya aid etmişdir. Bununla bağlı qeyd edilir ki, mübahisə edilən əqdin etibarlı olmasına dair hər hansı qətnamə mövcud deyildir. Halbuki iddiaçı müstəqil formada iddia qaldırmaq hüququna malikdir və onun bu hüququ diglərlərinin hüquqları ilə məhdudlaşdırıla bilməz. İşin hallarından da göründüyü kimi, cavabdehlər arasında nikah münasibətləri mövcuddur. Belə olan halda, ərlə arvad arasında bağlanmış alqı-satqı müqaviləsinin və onun əsasında əmlakın ərin mülkiyyətinə keçməsi əslində həmin mülkiyyətin arvad tərəfindən ələ keçirilməsidir. Çünki Ailə Məcəlləsinin 32.1-ci maddəsinin tələbinə əsasən nikah müddətində ər-arvadın əldə etdikləri əmlak onların ümumi birgə mülkiyyəti sayılır. Belə olan halda etibarnamə əsasında çıxış edən təmsilçi Y özü barəsində əqd bağlamış olur ki, bu da qanuna ziddir. KM Plenum qərarından görünən odur ki, istənilən halda fərz etsək ki, tərəflər arasında belə mübahisə olmuşdur və buna dair yekun qərar var, bunlar heç bir halda əhəmiyyətsiz əqdin etibar edilməsi üçün əsas ola bilmir. Lakin hazırki qərarla məhkəmə əhəmiyyətsiz əqdi başqa tərəflər arasında olmuş mübahisəyə dair qanuni qüvvəsini almış qərar ilə etibarlı əqd hesab etmiş olur ki, bu da həm Mülki Məcəlləyə, həm də yuxarıda qeyd edilmiş KM qərarına ziddir. Digər tərəfdən qeyd edilməlidir ki, məhkəmə ilk öncə İddiaçı 2-ni iddiaçı kimi təqdim edir, daha sonra isə etiraf edir ki, tərəflər eyni tərəflər deyil, sadəcə iddia predmeti eyni olduğundan iddia rədd edilməlidir.

18. Gəncə Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(104)-1316/2023 nömrəli, 22.06.2023-cü il tarixli qətnaməsi ilə apellyasiya şikayəti təmin edilmiş, birinci instansiya məhkəməsinin qətnaməsi ləğv edilərək, iddia təmin edilmiş, Şəmkir rayonu, X kəndi ərazisində yerləşən 0.0798 hektar torpaq sahəsinin Cavabdeh 2-yə satılmasına dair mübahisəli alqı-satqı müqaviləsinin əhəmiyyətsiz əqd olmaqla, etibarsız hesab edilməsi qət edilmişdir. (hakimlər L.Süleymanovun sədrliyi və məruzəsi ilə, İ.Həsənov və Ş.Rzaquliyevdən ibarət tərkibdə)

19. Məhkəmə kollegiyası qeyd etmişdir ki, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 23.02.2016-cı il tarixli Qərarında ifadə etdiyi hüquqi mövqeyinə görə, bir mülki iş üzrə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsində əks olunmuş, araşdırılmış, qiymətləndirilmiş, tələbin və (və ya) etirazların predmetinə aid olan faktların həmin işdə iştirak edən şəxslər tərəfindən başqa məhkəmə prosesində mübahisələndirilməsi və yenidən sübut edilməsi yolverilməzdir. Bu iş üzrə İddiaçı 1 birinci instansiya məhkəməsinin iddianın rədd edilməsi üçün istinad etdiyi əvvəlki iş üzrə işdə iştirak edən şəxs olmamışdır.

20. Bundan başqa, mülki qanunvercilik əqdin təmsilçi vasitəsilə bağlanmasını istisna etmir. Lakin qanunverici bunun üçün müvafiq qaydalar müəyyən etmişdir. Cavabdehlər arasında nikah münasibətləri mövcud olmaqla, ər-arvad olmalarına baxmayaraq, müvafiq etibarnamə əsasında aralarında alqı-satqı müqaviləsi bağlamış və bununla da, təmsilçi təmsil edilənin adından şəxsən özü barəsində əqd bağlamışdır. Belə ki, Ailə Məcəlləsinin 32.1-ci maddəsinin tələbinə əsasən, nikah müddətində ər-arvadın əldə etdikləri əmlak onların ümumi birgə mülkiyyəti sayılır. Belə olan halda etibarnamə əsasında çıxış edən təmsilçi Y özü barəsində əqd bağlaması mülki qanunvericiliyin tələblərinə zidd olmuşdur. Hər hansı əqdin (o cümlədən alqı-satqı müqaviləsinin) etibarlılığı üçün onun bağlanmasında lazımi subyektlərin (səlahiyyətli şəxslərin) iştirakı, onların arasında iradə və onun bildirilməsi vahidliyinin mövcudluğu, əqdin forma və məzmununun qanunvericiliyin tələblərinə uyğun olması vacibdir.

21. Məhkəmə öz hüquqi mövqeyini Azərbaycan Respublikası Konstitusiyasının 13-cü, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 152.1, 337, 359, və 362.1-ci maddələrinə istinad

etmişdir.

Kassasiya şikayətinin və ona qarşı etirazın dəlilləri

Kassasiya şikayətinin dəlilləri

22. Cavabdeh 2 (vəkil) kassasiya şikayəti verərək, apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv edilməsini, iddia tələbinin rədd olunması barədə yeni qərar qəbul edilməsini xahiş etmişdir.

23. Kassasiya şikayəti belə əsaslandırılmışdır ki, tərəflər arasında mübahisəli torpaq sahəsinin alqı-satqı müqaviləsi 18.02.2015-ci ildə başlansa da, iddia tələbi 2023-cü ildə, yəni 8 il sonra qaldırılmışdır. Halbuki Azərbaycan Respublikası Mülki Məcəlləsinin 354.1-ci maddəsinin tələbinə görə əhəmiyyətsiz əqdin etibarsızlığı nəticələrinin tətbiqi haqqında iddia onun icrasına başlanıldığı gündən bir il ərzində irəli sürülə bilər. Göründüyü kimi məhkəmə kollegiyası şikayətə baxarkən işin bu halına da hüquqi qiymət verməmişdir. Bundan əlavə, cavabdeh mübahisəli torpaq sahəsinin mülkiyyətçisidir. Bu mülkiyyət hüququ 13.03.2015-ci il tarixli, "**********" qeydiyyat nömrəli reyestrdən çıxarışla qeydə alınmışdır. Odur ki, apellyasiya məhkəməsinin qətnaməsi cavabdehin qanunla qorunan mülkiyyət hüququnu pozmuşdur.

24. Kassasiya şikayətinin digər dəlilinə görə, aydınlaşdırılmasına ehtiyac olan hal təmsil edilən şəxsin belə etibarnamənin verilməsində hansı əqdləri bağlamasına yönələn iradənin ifadə olunmasıdır. Belə ki, həmin şəxs tərəfindən verilən etibarnamədə konkret subyektə münasibətdə konkret şərtlərlə əqdin bağlanmasına dair səlahiyyətlər əks olunmuşdursa, o zaman təmsil olunanın iradə və maraqları müəyyən şəkildə ifadə olunur və təmsilçi təmsil olunanın özünün formalaşdırdığı iradənin vasitəçisi qismində çıxış edir.

25. Kassator hesab etmişdir ki, hazırkı işin halları Plenum qərarında göstərilən işin hallarından tamamilə fərqlidir. Çünkü hazırkı işdə təmsil olunanın təmsilçilikdə ən üstün müdafiəyə malik olmaqla təmsil edən tərəfindən onun qanuni maraqları tam şəkildə təmin edilmişdir. Beləki, işin hallarından da göründüyü kimi iddiaçının nənəsi olmuş mərhum X1 mülkiyyətində olan 0.2033 ha torpaq sahəsinin 0.0798 ha hissəsini faktiki olaraq Cavabdeh 2-yə satmışdır. Müqavilədə alqı-satqının dəyəri 5.000 manat məbləğində göstərilsə də, əslində 20.000 ABŞ dolları məbləğində olmuşdur. Bu hal tərəflərin əvvəlki məhkəmə çəkişmələri zamanı tam təsdiqini tapmışdır. İşin halından göründüyü kimi, həmçinin Plenum qərarında göstərilən işin halından fərqli olaraq mərhum X1 Cavabdeh 1-ə etibarnamə verərkən etibarnaməni məhz mübahisəli torpaq sahəsinin alqı-satqısı üçün vermiş və bunu da arzu etmişdir. Təmsil edən Cavabdeh 1 isə təmsil olunan X1-dən xəbərsiz heç bir artıq hərəkət etməmişdir. Apellyasiya məhkəmə kollegiyası işin bu halına düzgün hüquqi qiymət verməmişdir.

26. Bundan başqa, məhkəmə qətnamə çıxararkən göstərilən bu prosessual normanın da tələbini pozmuşdur. Belə ki, məhkəmə tərəfləri yetərincə dinləməmiş, tərəflərin dəlillərini lazımınca araşdırmamış, sadəcə tərəflərin nümayəndələrinin vermiş olduqları izahatlarla kifayətlənmiş, cavabdehin sübutlarının araşdırılmasında, şahidlərinin dindirilməsində maraqlı olmamış, nəticədə tərəflərin qarşılıqlı münasibətləri üzrə səhv nəticəyə gəlmişdir. Apellyasiya məhkəmə kollegiyası birinci instansiya məhkəməsində olduğu kimi işə baxarkən məhkəmə iclaslarında tərəflərin şəxsən özlərinin iştirakının təmin etməsi üçün heç bir tədbir görmədiyindən tərəflərin qanunvericilikdə nəzərdə tutulmuş çəkişmə prinsipini, dolayısıyla yuxarıda göstərilən maddi hüquq normasının tələblərini pozmuşdur.

27. Digər tərəfdən, məhkəmə işin hallarına Azərbaycan Respublikası Mülki Məcəlləsinin 152.1 və 375.2-ci maddələrini tətbiq etməli olduğu halda bunu etməmiş, nəticədə tərəflər arasında yaranmış hüquq münasibətini düzgün müəyyən edə bilməmişdir.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

28. İddiaçı kassasiya şikayətinə qarşı etiraz təqdim edərək, şikayətin əsassız olduğu üçün təmin edilmədən, qətnamənin dəyişdirilmədən saxlanılması barədə qərar qəbul edilməsini xahiş etmişdir.

Tətbiq edilən hüquq

Azərbaycan Respublikasının Mülki Məcəlləsi

29. Maddə 1.2. Mülki hüquq subyektlərinin hüquqlarını və qanuni mənafelərini müdafiə etmək, mülki dövriyyəni təmin etmək Mülki Məcəllənin vəzifələri sırasındadır.

30. Maddə 6.1. Mülki hüquq subyektlərinin iradə sərbəstliyi, mülki dövriyyə iştirakçılarının əmlak müstəqilliyi, müqavilələr azadlığı, mülki hüquqların maneəsiz həyata keçirilməsinə şərait yaradılması mülki qanunvericiliyin prinsipləri sırasındadır.

31. Maddə 337.1. Bu Məcəllədə müəyyənləşdirilmiş şərtləri pozmaqla bağlanmış əqd etibarsızdır. Etibarsız əqdlər mübahisə edilən əqdlər və ya əhəmiyyətsiz əqdlər ola bilər.

32. Maddə 359.1. Əqd təmsilçi vasitəsilə də bağlana bilər. Bir şəxsin (təmsilçinin) etibarnaməyə, qanunun göstərişinə və ya buna vəkil edilmiş dövlət və ya bələdiyyə orqanının aktına əsaslanan səlahiyyətə görə başqa şəxs (təmsil edilən) adından bağladığı əqd təmsil edilənin mülki hüquq və vəzifələrini bilavasitə yaradır, dəyişdirir və onlara xitam verir. Səlahiyyət həmçinin təmsilçinin fəaliyyət göstərdiyi şəraitdən də (pərakəndə ticarətdə satıcı, kassir və i.a.) bəlli ola bilər.

33. Maddə 359.3. Təmsilçi təmsil edilən adından şəxsən özü barəsində əqdlər bağlaya bilməz. O, həmçinin, kommersiya təmsilçiliyi halı və qiymətli kağızlar bazarında investisiya şirkəti fəaliyyəti istisna olmaqla, eyni zamanda təmsilçisi olduğu şəxs barəsində bu cür əqdlər bağlaya bilməz.

34. Maddə 360.1. Əgər başqa şəxsin (təmsil edilənin) adından əqdi bağlayan şəxsin (təmsilçinin) başqa şəxsin (təmsil edilənin) adından hərəkət etmək səlahiyyəti olmazsa və ya bu səlahiyyət aşılarsa, əqdin digər tərəfinin təmsilçidən həmin əqdin icrasını və ya əqdin bağlanması nəticəsində ona dəymiş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ vardır, bu şərtlə ki, başqa şəxs (təmsil edilən) əqdi sonradan bəyənməsin.

35. Maddə 360.2. Təmsil edilən tərəfindən əqdin sonradan bəyənilməsi onun üçün əqdin bağlandığı andan əqd üzrə mülki hüquq və vəzifələr yaradır, dəyişdirir və onlara xitam verir.

36. Maddə 362.1. Bir şəxsin üçüncü şəxslər qarşısında təmsilçilik üçün başqa şəxsə verdiyi vəkalət etibarnamə sayılır. Təmsil edilən təmsilçinin əqd bağlaması üçün yazılı vəkaləti bilavasitə müvafiq üçüncü şəxsə təqdim edə bilər.

Azərbaycan Respublikasının Mülki Prosesual Məcəlləsi

37. Maddə 14.1. Məhkəmə həqiqətə nail olmaq üçün işin hərtərəfli, tam və obyektiv tədqiqinə lazımi şərait yaradır. Bunun üçün məhkəmə: işdə iştirak edən şəxslərə onların prosessual hüquq və vəzifələrini izah edir, görüləcək, yaxud görülməyəcək hərəkətlərin nəticələri barədə onları xəbərdar edir, onların prosessual hüquqlarının həyata keçməsinə kömək göstərir.

38. Maddə 14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

39. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin əsası kimi istinad etdiyi halları sübut etməlidir.

40. Maddə 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir.

41. Maddə 217.1. Məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır.

42. Maddə 217.3. Qətnamə iş üzrə müəyyən edilmiş hallara və tərəflərin qarşılıqlı

münasibətinə uyğun əsaslandırılmalıdır.

43. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

Kassasiya baxışının hədləri

44. Qanunun tələbinə görə, kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

45. Kassasiya şikayətində qətnamə tam mübahisələndirildiyi üçün apellyasiya instansiyası məhkəməsinin aktı bütövlükdə yoxlanılır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

46. İş üzrə iddiaçının tələbi miras qoyan X1-in öz mülkiyyətində olan torpaq sahəsinin 0.0798 ha hissəsini təmsilçisi Cavabdeh 1 vasitəsilə Cavabdeh 2ə satması barədə 18.02.2015-ci il tarixli müqavilənin etibarsız sayılması barədədir.

47. Apellyasiya məhkəməsi iddianı o əsasla təmin etmişdir ki, təmsilçi Cavabdeh 1 ilə alıcı Cavabdeh 2 nikahda olmuşlar və bu səbəbdən təmsilçinin özü barəsində əqd bağlaması qadağası pozulmuşdur (§ 20).

48. Kollegiya aşağıdakılara əsasən hesab edir ki, apellyasiya məhkəməsi iş üzrə maddi və prosessual hüquq normalarını düzgün tətbiq etməmişdir.

49. Qanuna əsasən, əqd təmsilçi vasitəsilə də bağlana bilər. Bir şəxsin (təmsilçinin) etibarnaməyə əsaslanan səlahiyyətə görə başqa şəxs (təmsil edilən) adından bağladığı əqd təmsil edilənin mülki hüquq və vəzifələrini bilavasitə yaradır, dəyişdirir və onlara xitam verir (§ 32).

50. Göründüyü kimi, təmsilçilik bir şəxsin hansısa hüquqi hərəkəti başqa bir şəxsin adından və hesabına yerinə yetirmək, bunun hüquqi nəticələrinin həmin şəxs üçün meydana gəlməsini təmin etməkdir. Bu səbəbdən təmsilçi vasitəsilə əqd bağlandıqda təmsil olunanın əlavə olaraq bir iradə bəyan etməsinə gərək yoxdur. Təmsilçinin hərəkəti təmsil olunanın iradəsinə uyğun hesab edilir.

51. Bununla yanaşı, Mülki Məcəllənin 359.3-cü maddəsində nəzərdə tutulmuşdur ki, təmsilçi təmsil edilən adından şəxsən özü barəsində əqdlər bağlaya bilməz.

52. Kollegiya vurğulayır ki, bu qaydanın məqsədi təmsil olunanı qorumaqdır. Çünki təmsil edən özü ilə müqavilə bağladıqda bir tərəfdən təmsil olunan adından hərəkət edir, digər tərəfdə isə özü (öz mənafeyi) olur. Bu halda, təmsilçinin özü ilə təmsil edilən qarşı- qarşıya gəldiyi üçün təmsil institutundan gözlənilən (umulan) fayda təhlükə altına düşür. Çünki maraqların toqquşması halında təmsilçi öz mənafeyini üstün tuta bilər.

53. Sözügedən məcburi hüquq qaydasının pozulması ilə bağlanmış əqd həmin Məcəllənin 337.1-ci maddəsinə əsasən etibarsızdır (§ 35).

54. Bununla belə, hüquq ədəbiyyatında hakim olan mövqeyə əsasən, təmsil olunan təmsilçiyə özü ilə müqavilə bağlamaq üçün səlahiyyət vermişsə və ya bağlanan müqavilə mahiyyəti etibarilə mənafe toqquşmasına imkan yaratmırsa (təmsil olunana zərər verən xüsusiyyətə malik deyilsə), yaxud təmsil olunan əqdi sonradan bəyənirsə Mülki Məcəllənin 359.3-cü maddəsinin tətbiqi istisna olunur.

55. Bu hallarda normanın məqsədinə zidd şəkildə tətbiq edilməsi Mülki Məcəllənin mülki dövriyyəni təmin etmək, mülki hüquq subyektlərinin hüquqlarını və qanuni mənafelərini müdafiə etmək vəzifələrinə, mülki hüquq subyektlərinin iradə sərbəstliyi, mülki dövriyyə iştirakçılarının əmlak müstəqilliyi, müqavilələr azadlığı və mülki hüquqların maneəsiz həyata keçirilməsinə şərait yaradılması prinsiplərinə zidd olardı (§ 33-34).

56. Apellyasiya instansiyası məhkəməsi mübahisəni həll edərkən yuxarıda qeyd edilən halları göz önündə tutmamış, işin müəyyən edilmiş halları üzrə bu konteksdə hüquqi dəyərləndirmə aparmamışdır.

57. Halbuki, təmsil olunan X1-in öz mülkiyyətində olan torpaq sahəsindən bir hissəsini Cavabdeh 2ə satmaq istəyinin olması barədə iş materiallarında məlumatlar mövcuddur.

58. Əvvəla, İddiaçı 2 və başqalarının cavabdeh Cavabdeh 2-yə qarşı daha əvvəl qaldırdıqları iddiada alqı-satqı müqaviləsi və reyestr qeydinin tamamı deyil, satılmış torpaq sahəsinin yarısı mübahisələndirilmişdi. İddianın əsası kimi həm də ona istinad olunmuşdu ki, Cavabdeh 1 təmsil olunan X1-in nümayəndəsi kimi müqavilədə satıcını təmsil edərək torpağı öz ərinə satmağa dair müqaviləyə etdiyi imzanın da hüquqi qüvvəsi ola bilməz. Həmin iddia rədd edilmiş və məhkəmə aktı qanuni qüvvəsini almışdır (§ 9-11).

59. Bundan əlavə, eyni şəxsin - İddiaçı 2-nin da iddiaçı olduğu hazırkı işdə (ona münasibətdə icraata xitam verilmişdir) 20 kv.m. sahənin Cavabdeh 2-yə satılması fikrinin olduğu qeyd edilir (§ 13).

60. İşdən o da görünür ki, mübahisə olunan müqavilə 18.02.2015-ci ildə bağlanmış, onun əsasında 0.0798 ha torpaq sahəsi üzərində Cavabdeh 2-nin mülkiyyət hüququ 13.03.2015-ci il tarixdə qeydə alınmış, satıcı X1 isə 10.03.2019-cu ildə ölmüşdür.

61. Müqavilə bağlandıqdan sonra X1 yaşadığı dörd il ərzində qonşuluğunda yerləşən torpaq sahəsinin cavabdehə satılmasına hansısa formada etiraz etməsini və əqdi mübahisələndirməsini işə mahiyyəti üzrə baxan məhkəmələr müəyyən etməmişlər. İş materiallarından müqavilə ilə bağlı məhkəmə mübahisəsinin X1-in ölümündən sonra başladığı görünür (əvvəlki mülki iş üzrə Şəmkir Rayon Məhkəməsinin qətnaməsi 04.11.2020-ci ildə qəbul edilmişdir).

62. Yuxarıdakı məlumatlar işığında təmsil olunan X1-in 17.12.2014–cü il tarixli etibarnaməni Cavabdeh 2-nin arvadı Cavabdeh 1-ə hansı məqsədlə verməsi, həmin vəkalətlə 0.0798 ha torpaq sahəsinin Cavabdeh 2-yə satılması üçün müvafiq rəsmiləşdirmə aparılmasının hədəflənib-hədəflənmədiyi, başqa sözlə, təmsil olunan X1-in təmsilçi Cavabdeh 1-in 18.02.2015-ci il tarixli müqaviləni sonuncunun əri Cavabdeh 2 ilə bağlamasına açıq və ya örtülü formada əvvəlcədən razılığının olub-olmaması, yaxud sonradan bəyənməsi, bu kontekstdə tərəflərin əvvəlki və sonrakı davranışlarının nədən ibarət olması mübahisənin düzgün həlli üçün mühüm əhəmiyyət kəsb etmişdir.

63. Buna baxmayaraq apellyasiya məhkəməsi tərəfindən həmin xüsusatlar üzrə araşdırma aparılmamış, həqiqətə nail olmaq üçün işin hərtərəfli, tam və obyektiv tədqiqinə lazımi şərait yaradılmamış, sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verilməmiş, qətnamə iş üzrə müəyyən edilmiş hallara, tərəflərin qarşılıqlı münasibətinə və qanunun tələbinə uyğun şəkildə əsaslandırılmamışdır (§ 19-20).

64. Mübahisəyə bu qaydada hüquqi qiymət vermədən, sadəcə qanunvericilik normalarının sadalandığı, səthi və formal mülahizələrlə iddianın həlli barədə qənaəti əks etdirən qətnamə əsaslandırılmış məhkəmə aktı kimi qəbul edilə bilməz.

65. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumu qərarlarında vurğulamışdır ki, məhkəmə, özü tərəfindən müəyyən olunmuş işin hallarını və qənaətini formalaşdıran sübutları, bu və ya digər sübutları rədd etmək üçün istinad etdiyi dəlilləri və rəhbər tutduğu qanunları qətnamədə göstərməklə onun hüquqi cəhətdən əsaslandırmalıdır. Məhkəmə sübutları sadalamaqla kifayətlənməməli, hər bir sübutun, o cümlədən şahid

ifadələrinin məzmunu qətnamədə şərh edilməli, sübutlar əlaqələndirilməli, araşdırılan sübutların qəbul edilib-edilməməsinin səbəbləri aydın göstərilməlidir. Məhkəmələr tərəfindən qəbul edilmiş qərarlarda həll olunan işə aid bütün zəruri məsələlərə aydınlıq gətirilməli, ziddiyyətli məqamlar aradan qaldırılmalıdır (S.Əliyevanın şikayəti üzrə 31 may 2006-cı il tarixli, N.Əbilovun şikayəti üzrə 13 iyun 2008-ci il tarixli qərarlar).

66. Qeyd olunanları nəzərə alaraq, kassasiya kollegiyası bu qənaətə gəlir ki, apellyasiya məhkəməsinin qətnaməsi ləğv edilməli, iş yeni apellyasiya baxışına göndərilməlidir.

67. Təkrar apellyasiya baxışı zamanı tərəflərin izahatları və dəlilləri dinlənilməli, mübahisəli hallar, habelə bu hallar üzrə sübutetmə yükü düzgün müəyyən edilməklə işin hərtərəfli, tam və obyektiv tədqiqinə lazımi şərait yaradılmalı, təqdim olunmuş sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra onlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verilməli, tərəflərin dəlillərinin hansı səbəbdən qəbul edilib-edilməməsi əsaslandırılmalı, ədalətli məhkəmə araşdırması hüququ təmin olunmaqla mübahisəyə, o cümlədən hazırkı iş üzrə iddia ərizəsində tələbin əsası kimi istinad olunan hallara qanunvericiliyə uyğun qaydada yekun hüquqi qiymət verilməlidir.

68. Göstərilənlərə əsasən və MPM-in 416, 417 və 419-cu maddələrini rəhbər tutaraq, Məhkəmə kollegiyası

Qərara aldı:

Kassasiya şikayəti qismən təmin edilsin.

Gəncə Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(104)-1316/2023 nömrəli, 22.06. 2023-cü il tarixli qətnaməsi ləğv edilsin və iş yeni apellyasiya baxışına göndərilsin. Qərar qəbul edildiyi andan qüvvəyə minir.

15. 2(102)-841/2024 nömrəli, 2024-cü il 18 aprel tarixli qərar - Eyni daşınmaz əşya üzərində mülkiyyət hüququna dair ikili qeydiyyat halında vicdanlı əldə edənin hüquqlarının qorunması ilə bağlı qaydaların tətbiqinin mümkünlüyü

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: eyni daşınmaz əşya üzərində mülkiyyət hüququna dair ikili qeydiyyat halında vicdanlı əldə edənin hüquqlarının qorunması ilə bağlı qaydaların tətbiqinin mümkünlüyü.

Mübahisəli torpaq sahəsi xx.xx.2016-cı il tarixdə xüsusi mülkiyyət hüququ ilə iddiaçının adına qeydə alınmışdır. Sonradan, eyni torpaq sahəsinə dair birinci cavabdehin adına fərqli reyestr nömrəsi ilə dövlət reyestrində qeydiyyat aparılmış və çıxarış verilmişdir. Birinci cavabdeh bu qeydə istinad edərək, torpaq sahəsini ikinci cavabdehə, ikinci cavabdeh isə üçüncü cavabdehə satmış, ardıcıl olaraq cavabdehlərin adına müvafiq reyestr qeydləri aparılmışdır.

İddiaçı birinci cavabdehin adına aparılmış qeydi inzibati qaydada mübahisələndirmiş, qanuni qüvvəsini almış məhkəmə qərarı ilə torpaq sahəsinə dair birinci cavabdehin adına aparılmış reyestr qeydinin ləğv edilməsi öhdəliyi DƏDRX-nin xx saylı xxx Ərazi İdarəsinin üzərinə qoyulmuşdur.

Torpaq sahəsi müvafiq olaraq ikinci və üçüncü cavabdehə satılmaqla, onların adına dövlət reyestrində qeydiyyat aparıldığından, inzibati məhkəmənin həmin qərarının icrası mümkün olmamışdır. Hazırda iddiaçı həmin torpaq sahəsinə dair cavabdehlər arasında bağlanmış alqı-satqı müqavilələrinin etibarsız hesab edilməsini və həmin müqavilələr əsasında ikinci və üçüncü cavabdehin adına verilmiş reyestrdən çıxarışların ləğv edilməsini tələb edir.

Məhkəmələr işə vicdanlılıq prizmasından yanaşaraq üçüncü cavabdehin vicdanlı əldə edən olub-olmaması ilə bağlı araşdırma aparmış, birinci instansiya məhkəməsi üçüncü cavabdehi vicdanlı əldə edən qismində tanıyaraq iddianı rədd, apellyasiya instansiyası məhkəməsi isə üçüncü cavabdehin birinci cavabdehlə sıx işbirliyi və həmkəndli olmasını vicdanlılığı istisna edən hal kimi göstərərək iddianı təmin etmişdir.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Mülki Məcəllənin 141-ci maddəsinə əsasən, daşınmaz əmlakın dövlət reyestrinin məzmunu həqiqi hüquqi vəziyyətə uyğun olmadıqda hüququ pozulmuş şəxs reyestrdəki qeyddə düzəlişin aparılması barədə tələb irəli sürə bilər. Bu iddianın təmin olunmasını istisna edən hallardan biri dövlət reyestrindəki məlumatların həqiqiliyinə və tamamlığına etimad edərək əşya hüququnu vicdanlı şəkildə əldə edənin hüquqlarının qorunmasıdır. Bu qaydalar Mülki Məcəllənin 140-cı, 148.2-ci və 149.2-ci maddələrində göstərilmişdir.

Məhkəmə kollegiyası hesab etmişdir ki, iddiaçının həmin torpaq sahəsi üzərində daşınmaz əmlakın dövlət reyestrində qüvvədə olan mülkiyyət hüququna dair qeydi mövcud olduğundan həmin əmlaka dair qanunsuz olan ikinci qeydiyyat əsasında bağlanmış sərəncam əqd(lər)i üzrə alıcıların adına aparılmış mülkiyyət hüququ barədə qeydlərin həqiqiliyi Azərbaycan Respublikası Mülki Məcəlləsinin 148.2-ci və 149.2-ci maddələrində müəyyən edilmiş vicdanlılıq qaydaları çərçivəsində qoruna bilməz.

Nəzərə alınmalıdır ki, vicdanlı əldə edənin qorunması qaydasındakı məqsəd, reyestrdəki mülkiyyət qeydi silinmiş əvvəlki mülkiyyətçiyə münasibətdə adına əsassız qeydiyyat aparılmış şəxsdən əşya hüquqlarını məhz dövlətin apardığı reyestr məlumatlarına güvənərək yüksüz əldə edən vicdanlı üçüncü şəxsin üstün tutulmasıdır. Başqa sözlə, qanunverici mübahisəli

əmlak üzərində bu iki şəxs arasındakı mənafe toqquşmasında vicdanlı şəxsə üstünlük vermişdir.

Bununla belə, mülkiyyətçinin reyestrdəki qeydi silinmədən (ləğv edilmədən) eyni əşyaya dair başqa bir şəxsin mülkiyyət hüququnun qeydiyyata alınması halında əvvəlki və sonrakı qeydiyyatdan deyil, ikili qeydiyyatdan söhbət gedir. Bu halda sonrakı qeydiyyat üzrə mülkiyyətçi kimi görünən şəxsdən əşya hüquqları əldə edən şəxslər vicdanlı əldə etmə qaydalarına istinad edə bilməzlər. Ona görə ki, həmin üçüncü şəxslərin mənafelərinin toqquşduğu şəxs, reyestr qeydi silinmiş əvvəlki mülkiyyətçi deyil, bu hüququ reyestrdə ümumiyyətlə ləğv edilməmiş mövcud mülkiyyətçidir. Bu vəziyyətdə vicdanlı əldə edənin hüquqlarının qorunması ilə bağlı qaydanın tətbiqi istisna olunur. Əks yanaşma Azərbaycan Respublikasının Konstitusiyası ilə qorunmasına təminat verilən mülkiyyət hüququnun qanunsuz və qeyri-mütənasib şəkildə məhdudlaşdırılmasına gətirib çıxarardı.

Məhkəmə kollegiyası hesab etmişdir ki, hazırkı mübahisəyə baxılarkən yuxarıda göstərilən hüquqi mövqelər nəzərə alınmalı, mübahisəli torpaq sahəsinə dair iddiaçının mülkiyyət hüququ qüvvədə olduğu halda, əsassız ikinci qeydiyyat əsasında cavabdehlərlə bağlanmış əqdlərin etibarsızlığı əsasları düzgün müəyyən edilməli, mübahisə Mülki Məcəllənin 141-ci və digər aidiyyəti maddələrində nəzərdə tutulan qaydada həll edilməlidir.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-841/2024

18.04.2024-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından

Azərbaycan Respublikası Ali Məhkəməsi

Mülki kollegiyasının

İddiaçının cavabdehlər Cavabdeh 1, Cavabdeh 2, Cavabdeh 3 və Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 11 saylı Şəmkir Ərazi İdarəsinə qarşı iş üzrə

Q Ə R A R I

Açar sözlər: daşınmaz əşyanın alqı-satqısı müqaviləsinin etibarsızlığı, daşınmaz əmlaka dair qeydiyyatın ləğvi

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası hakimlər, Vəliyeva Elşanə Rafiq qızı (məruzəçi), Şamayev Elşad Yaquboviç və Xıdırov Əhliman Mehman oğlundan ibarət tərkibdə,

İddiaçının cavabdehlər Cavabdeh 1-ə, Cavabdeh 2-yə, Cavabdeh 3-ə və Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 11 saylı Şəmkir Ərazi İdarəsinə qarşı daşınmaz əmlak barəsində çıxarışların ləğvi və həmin əmlak barəsində bağlanmış alqı-satqı müqavilələrinin etibarsız hesab edilməsi tələbinə dair Gəncə Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(104)-1752/2022 nömrəli 1 noyabr 2022-ci il tarixli qətnaməsindən cavabdeh Cavabdeh 3 tərəfindən verilmiş kassasiya şikayətinə 18 aprel 2024-cü il tarixdə Ali Məhkəmənin inzibati binasında yazılı icraat qaydasında baxaraq aşağıdakıları müəyyən etdi:

İşin halları

1. Şəmkir rayon Aqrar İslahat Komissiyasının 23 oktyabr 1998-ci il tarixli, ** nömrəli qərarı ilə Ünvan 1i ərazisindən 0,20 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi iddiaçı İddiaçının (bundan sonra – iddiaçı) mülkiyyətinə verilmiş və bu barədə onun adına JN-*** nömrəli (Kod ***) torpağa mülkiyyət hüququna dair dövlət aktı tərtib edilmişdir.

2. Seriya RX *** saylı, 23.09.2016-cı il tarixli, ******* qeydiyyat nömrəli hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarışa əsasən həmin kənddə yerləşən 0,1456 ha kənd təsərrüfat təyinatlı torpaq sahəsi (daşınmaz əmlakın dövlət reyestr nömrəsi ******* olan) iddiaçının mülkiyyətindədir.

3. Seriya RX *** saylı, 15.11.2016-cı il tarixli, *** qeydiyyat nömrəli, hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarışa əsasən eyni kənddə yerləşən 0,1454 ha kənd təsərrüfat təyinatlı torpaq sahəsi (daşınmaz əmlakın dövlət reyestr nömrəsi ******* olan) cavabdeh Cavabdeh 1-in adına qeydiyyata alınmış, 28.11.2016-cı il tarixli notarial qaydada bağlanmış daşınmaz əmlakın alqı-satqı müqaviləsinə əsasən 5000 manata digər cavabdeh Cavabdeh 2-yə satılmış və sonuncunun adına Seriya RX *** saylı, 07.07.2017-ci il tarixli, *** qeydiyyat nömrəli, ******* reyestr nömrəli hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış verilmişdir.

4. Cavabdeh Cavabdeh 2 də həmin torpaq sahəsini 11.05.2018-ci il tarixli notarial qaydada bağlanmış daşınmaz əmlakın alqı-satqı müqaviləsinə əsasən 1400 manata üçüncü cavabdeh Cavabdeh 3-ə satmış və sonuncunun adına Seriya RX *** saylı, 12.09.2018-ci il tarixli, *** qeydiyyat nömrəli, ******* reyestr nömrəli hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış verilmişdir.

5. Şəmkir Rayon Məhkəməsinin 27.09.2017-ci il tarixli, 2(076)-985/2017 nömrəli qətnaməsi ilə cavabdeh Cavabdeh 1-in JN-*** nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı əsasında iddiaçının mülkiyyətində olan 20 ha torpaq sahəsinin 1456,87 kv.m. hissəsindən çıxarılması və həmin torpaq sahəsində cavabdeh tərəfindən qurulmuş istilikxananın onun vəsaiti hesabına sökülməsi qət edilmişdir. Qətnamə qanuni qüvvəsini almışdır.

6. Gəncə İnzibati Məhkəməsinin 24.02.2021-ci il tarixli, 2-1(114)-100/2021 nömrəli qərarı ilə iddiaçının iddiası təmin edilərək, qeyd edilən torpaq sahəsinə dair cavabdeh Cavabdeh 1-in adına verilmiş 15.11.2016-cı il tarixli qeydin ləğv edilməsi öhdəliyi DƏDRX-nin 11 saylı Şəmkir Ərazi İdarəsinin üzərinə qoyulmuşdur. Qərar qanuni qüvvəsini almışdır.

7. DƏDRX-nin 11 saylı Şəmkir Ərazi İdarəsinin 01.09.2021-ci il tarixli məktubunda qeyd olunmuşdur ki, cavabdeh Cavabdeh 1 mülkiyyətində olan 0,1454 ha torpaq sahəsini alqı-satqı müqaviləsi əsasında Cavabdeh 2-yə satmış, sonuncunun adına çıxarış alınmışdır. O isə torpaq sahəsini Cavabdeh 3-ə satmış və onun adına çıxarış alınmışdır. Bu səbəbədən Gəncə İnzibati Məhkəməsinin 24.02.2021-ci il tarixli qərarının icrası mümkün olmamışdır.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a) Birinci instansiya məhkəməsindəki icraat

8. İddiaçı iddia ərizəsi və iddia tələbinin həcminin artırılması barədə ərizə ilə məhkəməyə müraciət edərək, DƏDRX-nin 11 saylı Şəmkir Ərazi İdarəsi tərəfindən cavabdeh Cavabdeh 2-nin adına verilmiş seriya RX *** saylı, 07.07.2017-ci il tarixli, *** qeydiyyat nömrəli, *** reyestr

nömrəli; digər cavabdeh Cavabdeh 3-ün adına verilmiş seriya RX *** saylı, 12.09.2018-ci il tarixli, *** qeydiyyat nömrəli, *** reyestr nömrəli hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarışların ləğv edilməsi və həmin çıxarışların verilməsinə əsas olmuş alqısatqı müqavilələrinin etibarsız hesab edilməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

9. İddiaçı işin yuxarıda qeyd olunan faktiki hallarına istinad etməklə tələbini onunla əsaslandırmışdır ki, onun mülkiyyətində olan 0,1456 ha torpaq sahəsinə dair DƏDRX-nin 11 saylı Şəmkir Ərazi İdarəsi tərəfindən digər cavabdehlərin adına qanunsuz olaraq çıxarışlar verilmiş və cavabdehlər arasında əmlaka dair qanunsuz alqı-satqı müqavilələri bağlanmışdır. Gəncə İnzibati Məhkəməsinin 24.02.2021-ci il tarixli qərarı ilə cavabdeh Cavabdeh 1-in adına verilmiş 15.11.2016-cı il tarixli çıxarış ləğv edilsə də, digər cavabdehlərin adına verilmiş çıxarışlar hazırda qüvvədə olduğundan, mülkiyyətində olan torpaq sahəsindən sərbəst şəkildə istifadə edə bilmir.

10. Cavabdeh 1 izahatında göstərmişdir ki, Ünvan 1-də ona məxsus torpaq sahəsi ilə iddiaçıya məxsus torpaq sahəsi qonşu ərazilərdə yerləşmişdir. Belə ki, o, 2010-cu ildə iddiaçının qardaşı X1 həmin torpaq sahəsini satın almış və təyinatına uyğun istifadə etmişdir. Bundan sonra, 15.11.2016-cı il tarixli çıxarış əsasında mülkiyyətində olan torpaq sahəsini 28.11.2016-cı il tarixdə notarial qaydada bağlanmış müqavilə əsasında digər cavabdeh Cavabdeh 2-yə, sonuncu da notarial qaydada bağlanmış müqavilə əsasında üçüncü cavabdeh Cavabdeh 3-ə satmışdır. Göründüyü kimi, mübahisəli torpaq sahəsini tam qanuni əsaslarla özgəninkiləşdirdiyindən, iddiaçının ona qarşı iddia qaldırmasının hər hansı əsası yoxdur. Eləcə də, digər cavabdehlər arasında qanuni müqavilə bağlanmış və çıxarış alınmışdır. Hazırda mübahisəli torpaq sahəsi onun mülkiyyətində deyil və torpaq sahəsinin ona hər hansı aidiyyatı yoxdur.

11. Digər cavabdeh Cavabdeh 2 izahatında göstərmişdir ki, mübahisəli torpaq sahəsini tam qanuni əsaslarla satın almış, daha sonra notariat qaydasında digər şəxsə satmışdır. Belə olan halda, iddiaçının ona qarşı iddia qaldırmasının hər hansı əsası yoxdur. Bundan əlavə, mübahisəli torpaq sahəsini Cavabdeh 1-dən alarkən sonuncu ilə iddiaçı arasında torpaq barəsində mübahisə olmasından məlumatı olmamışdır.

12. Şəmkir Rayon Məhkəməsinin 2(076)-410/2022 nömrəli, 16 mart 2022-ci il tarixli qətnaməsi ilə (hakim Taleh Musayev) iddia təmin edilməmişdir.

13. Birinci instansiya məhkəməsi gəldiyi nəticə ilə bağlı qeyd etmişdir ki, mübahisəli torpaq sahəsi üzərində ikinci və üçüncü cavabdehin mülkiyyət hüququnun əmələ gəlməsinə notarial qaydada təsdiqlənmiş alqı-satqı müqavilələri əsas olmuş və həmin müqavilələr əsasında onların adına daşınmaz əmlakın dövlət reyestrindən çıxarışlar verilmişdir. İddiaçının çıxarışların ləğvini, müqavilələrin etibarsızlığını, dolayısı ilə torpaq sahəsini geri tələb edə bilməsi üçün hələ də torpağın mülkiyyətçisi olmalıdır. Cavabdeh tərəf isə vicdanlı alıcı olduğu üçün torpaq sahəsi üzərində mülkiyyət hüququ əldə etmişdir. Daşınmaz əşya ilə bağlı ehtiyatsızlıqdan bilməmə faktı vicdanlı olmanı istisna etmək üçün kifayət etmir. Ona görə də, üçüncü cavabdeh Cavabdeh 3 mübahisə olunan torpaq sahəsi üzərində mülkiyyət hüququnu vicdanlı əldə etmişdir. Belə olan halda isə iddiaçı artıq torpaq sahəsinin mülkiyyətçisi deyil və qaytarmanı tələb edə bilməz.

14. İddiaçının tələbinin əsaslı olmasını şərtləndirən hallar ondan ibarətdir ki, ikinci və üçüncü cavabdehin mübahisəli torpaq sahəsinə qeydə alınmış mülkiyyət hüququ əsassız olmalı və həmin qeydə alınmanın əsassız olduğunu cavabdehlər bilməlidirlər. O halda iddiaçı çıxarışların ləğv edilməsi haqqında iddia qaldıra bilər. Halbuki, ikinci cavabdeh Cavabdeh 2 məhkəmə iclası zamanı mübahisəli torpaq sahəsini alarkən Cavabdeh 1-in adına verilmiş çıxarışın əsassız olduğunu bilmədiyini göstərmişdir, ehtimal olunur ki, üçüncü cavabdeh Cavabdeh 3 də həmin haldan məlumatsız olmuşdur. Beləliklə, ikinci və üçüncü cavabdehin mübahisəli torpaq sahəsinə qeydə alınmış mülkiyyət hüququnun və bağlanmış müqavilələrin əsassız olmasına dəlalət edən hallar müəyyən olunmamış, nə də iddiaçı tərəfindən tələbini

təsdiq edəcək mötəbər sübutlar məhkəməyə təqdim edilməmişdir. Bu isə onu deməyə əsas verir ki, iddiaçının tələbinin təmin edilməsi üçün kifayət qədər əsaslar yoxdur.

15. Məhkəmə həmçinin qeyd etmişdir ki, Gəncə İnzibati Məhkəməsinin 24.02.2021-ci il tarixli qərarı ilə Cavabdeh 1-in adına verilmiş 15.11.2016-cı il tarixli qeydin ləğv edilməsi DƏDRX-nin 11 saylı Şəmkir Ərazi İdarəsinin üzərinə öhdəlik kimi qoyulsa da, Cavabdeh 1 mülkiyyətində olan torpaq sahəsini ikinici cavabdeh Cavabdeh 2-yə satmış, sonuncu öz adına çıxarış almış, sonradan həmin torpaq sahəsini üçüncü cavabdeh Cavabdeh 3-ə satmış və onun adına çıxarış verilmişdir. Bu səbəbdən həmin məhkəmə qərarının icrası mümkün olmamışdır. Bu hal isə bir daha ona dəlalət edir ki, iddiaçının mübahisələndirdiyi çıxarışların ləğvinə və müqavilələrin etibarsız hesab edilməsinə əsaslı sübutlar mövcud deyildir.

16. Məhkəmə öz mövqeyini, Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra – Mülki Məcəllə) 14.3, 140, 141, 149.2, 178.1-ci və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra – MPM) 88, 217.4-cü maddələrinə istinadla əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

17. İddiaçı apellyasiya şikayəti verərək, birinci instansiyası məhkəməsinin qətnaməsinin ləğv edilməsini, iddianın təmin edilməsi barədə yeni qətnamə çıxarılmasını xahiş etmişdir.

18. Apellyasiya şikayəti onunla əsaslandırılmışdır ki, iş üzrə cavabdehlər onun həmkəndliləridir. Mülkiyyətində olan torpaq sahəsi ilə bağlı uzun müddətdir ki, məhkəmə çəkişmələri davam edir. Belə ki, mülkiyyət hüququ ilə ona məxsus mübahisəli torpaq sahəsi cavabdeh Cavabdeh 1 tərəfindən zəbt edilmiş və həmin torpaq sahəsində cavabdeh tərəfindən istixana inşa olunmuşdur. Buna görə də mülkiyyətində olan torpaq sahəsinin cavabdehin zəbtindən azad olunması və onun tərəfindən həmin torpaq sahəsində inşa olunmuş istilikxananın sökülməsi tələbi ilə məhkəmədə iddia qaldırmış, Şəmkir Rayon Məhkəməsinin 27.09.2017-ci il tarixli qətnaməsi ilə iddiası təmin olunmuşdur. Buna baxmayaraq, məhkəmə onun hazırkı iddiasını təmin etməmiş, qətnaməni isə onunla əsaslandırmışdır ki, ikinci cavabdeh vicdanlı alıcıdır. Halbuki, onlar hamısı eyni kəndin sakinləridir və o, həmin torpaq sahəsinin mübahisəli olduğunu, aralarında məhkəmə mübahisəsinin olduğunu bilirdi. Bu səbəbdən də vicdanlı hesab edilə bilməz. Cavabdehlər məqsədli şəkildə müqavilə bağlamışlar. Əslində bu müqavilə real deyil, uydurma olmaqla görünüş üçün bağlanmışdır. Birinci instansiya məhkəməsinin qətnaməsində göstərilmiş nəticələr işin hallarına uyğun olmamışdır.

19. Gəncə Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(104)-1752/2022 nömrəli, 01 noyabr 2022-ci il tarixli qətnaməsi ilə (hakimlər – Ədil Məmmədov (sədrlik edən və məruzəçi), Rəhman Muradov və Fikrət Mehtiyev) apellyasiya şikayəti təmin edilmiş, birinci instansiyası məhkəməsinin qətnaməsi ləğv edilmiş, iş üzrə yeni qətnamə qəbul edilməklə iddia təmin edilmiş, Cavabdeh 1 ilə Cavabdeh 2 arasında bağlanmış 28 noyabr 2016-cı il tarixli alqı-satqı müqaviləsi və Cavabdeh 2 ilə Cavabdeh 3 arasında bağlanmış 11 may 2018-ci il tarixli alqı-satqı müqaviləsi etibarsız hesab edilmiş, Azərbaycan Respublikası ƏMDK yanında DƏDRX–nin 11 saylı Şəmkir Ərazi İdarəsi tərəfindən Cavabdeh 2-nin adına verilmiş RX seriyalı *** saylı, 07.07.2017–ci il tarixli, *** qeydiyyat nömrəli və *** reyestr nömrəli Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən Çıxarış və Cavabdeh 3-ün adına verilmiş RX seriyalı*** saylı, 12.09.2018-ci il tarixli, *** qeydiyyat nömrəli və *** reyestr nömrəli Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən Çıxarış ləğv edilmişdir.

20. Apellyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsinin gəldiyi nəticə ilə razılaşmayaraq qeyd etmişdir ki, mübahisəli torpaq sahəsi üzərində iddiaçının mülkiyyət hüququ olduğu və həmin torpaq sahəsi barəsində heç bir sərəncam vermədiyi halda, cavabdeh Cavabdeh 1 qanunsuz yollarla həmin torpaq sahəsi barəsində mülkiyyət hüquqları verən sənədlər əldə etmiş, daha sonra qanunsuz olaraq əldə etdiyi çıxarışdan istifadə etməklə mübahisəli torpaq sahəsini alqı-satqı müqaviləsi əsasında ikinci cavabdeh Cavabdeh 2-yə, sonuncu isə həmin torpaq sahəsini üçüncü cavabdeh Cavabdeh 3-ə satmışdır. Gəncə İnzibati

Məhkəməsinin 24.02.2021-ci il tarixli qərarı ilə cavabdeh Cavabdeh 1-in adına aparılmış qeydin ləğv edilməsi öhdəliyinin DƏDRX-nin 11 saylı Şəmkir Ərazi İdarəsinin üzərinə qoyulması barədə qanuni qüvvəyə minmiş məhkəmə qərarı olmasına baxmayaraq, birinci intansiya məhkəməsi iddianın rədd olunması barədə hazırkı qətnaməni qəbul etmişdir. Nəticə etibarı ilə cavabdeh Cavabdeh 1-in qanunsuz yolla bağladığı əqdlə iddiaçının mülkiyyət hüququ pozulmuşdur.

21. Birinci instansiya məhkəməsi iddianı rədd edərkən ikinci cavabdehin məhkəmə iclası zamanı mübahisəli torpaq sahəsini alarkən Cavabdeh 1-in adına verilmiş çıxarışın əsassız olduğunu bilmədiyi barədə izahatı əsasında üçüncü cavabdehin də həmin haldan məlumatsız olduğunu ehtimal edərək, ümumiyyətlə cavabdeh tərəfin vicdanlı alıcı olduğu üçün torpaq sahəsi üzərində mülkiyyət hüququnu əldə etdiyini qeyd etmişdir. Halbuki iş materiallarında olan alqı-satqı müqavilələrindən görünür ki, Cavabdeh 1 mübahisəli torpaq sahəsini 28.11.2016-cı il tarixdə 5000 manat müqabilində Cavabdeh 2-yə satdığı halda, sonuncu 11.05.2018-ci il tarixdə həmin torpaq sahəsini 1400 manata Cavabdeh 3-ə satmışdır. Göründüyü kimi, eyni torpaq sahəsi iki ildən az müddət sonra əhəmiyyətli məbləğdə daha aşağı qiymətə satılmışdır. Məhkəmə isə bu hala ümumiyyətlə heç bir hüquqi qiymət verməmişdir.

22. Bundan əlavə, iddiaçının və cavabdehlərin eyni kəndin sakinləri olmaları, eləcə də cavabdehlərin bir-biri ilə sıx işgüzar əlaqələrdə olmaları barədə məlumatlarının olmasını nəzərə alan məhkəmə kollegiyası qeyd etmişdir ki, cavabdehlərin həmin torpaq sahəsinin iddiaçının mülkiyyətində olduğunu, ümumiyyətlə torpaq sahəsi ilə bağlı mübahisənin olduğunu bilməmələri barədə birinci instansiya məhkəməsinin qənaəti doğru olmamışdır. Qeyd edilən halların mövcudluğu hazırkı vəziyyətdə cavabdehlərin mübahisəli torpaq sahəsinin vicdanlı alıcılar olması halını təkzib edən hallardır.

23. Beləliklə, iddiaçının öz mülkiyyətində olan və heç kəsə satmadığı mübahisəli torpaq sahəsi barəsində cavabdeh Cavabdeh 1-in əldə etmiş olduğu sənəd qanuni qüvvədə olan məhkəmə qərarına əsasən qanunsuz sayılmış, digər cavabdehlər isə Cavabdeh 1-in həmkəndliləri və onunla sıx işbirliyində olan şəxslər olmaqla onların həmin torpaq sahəsi barəsində bağlamış olduqları əqdlər uydurma əqdlərdir. Bu səbəbdən iddiaçının pozulmuş hüquqları bərpa edilməli, həmin müqavilələr əhəmiyyətsiz hesab edilməli və həmin əqdlər əsasında əldə edilmiş rəsmi sənədlər ləğv edilməlidir. Etibarsız əqdləri bağlamış şəxslərin (cavabdehlərin) özləri arasında hər hansı bir mübahisə olmadığından isə belə vəziyyətdə əqdin etibarsızlığının nəticələri ilə bağlı Mülki Məcəllənin 337.5-ci maddəsinin tətbiqinə zərurət yoxdur.

24. Məhkəmə kollegiyası öz mövqeyini, Azərbaycan Respublikası Konstitusiyasının 13, 29-cu, Mülki Məcəllənin 14.3, 139.1, 139.2, 140, 144.1, 157.4, 178.1, 337.1-337.5, 340.1-ci və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanunun 2.1-ci maddələrinə istinadla əsaslandırmışdır.

Kassasiya şikayətinin və ona etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

25. Üçüncü cavabdeh Cavabdeh 3 (vəkil) kassasiya şikayəti verərək, apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin tam ləğv edilməsini, iddianın rədd olunması barədə yeni qərar qəbul edilməsini və qətnamənin icrasında dönüş edilməsini xahiş etmişdir.

26. Kassasiya şikayəti işin hallarına uyğun əsaslandırılmaqla əlavə olaraq qeyd edilmişdir ki, daşınmaz əmlaka dair daha öncə bağlanan əqdin etibarlı olub-olmamasından asılı olmayaraq Cavabdeh 3 vicdanlı əldə edən olduğundan onun əmlakına dair hüququ saxlanılmalı idi. Mübahisəli torpaq sahəsinin alqı-satqısına dair bağlanmış müqavilələr notarial qaydada təsdiq edilmiş, həmçinin notarius satılan əmlakın dəyəri barədə məlumatlı olmuş və əmlakın dəyəri notariusun depozit hesabı vasitəsilə ödənilmişdir. Lakin apellyasiya instansiya məhkəməsi əqdin etibarsızlığı mübahisəsinə baxan zaman həmin əqdi təsdiq edən notariusu işin baxılmasına cəlb etməmişdir. Torpaq sahəsini aldığı digər cavbdeh Cavabdeh 2 həmin torpaq sahəsini özü aldıqdan kifayət qədər uzun müddət (17 ay 13 gün) sonra ona satmış və

o da aldığı torpağı təyinatı üzrə özü istifadə etmişdir ki, bu hallar aralarında bağlanmış əqdin uydurma olmasını istisna edir. Bundan əlavə, heç bir məhkəmə iclasının vaxtı və yeri barədə ona məlumat verilmədiyindən iddia müddətinin tətbiq edilməsinə dair ərizə vermək imkanından da məhrum olmuşdur.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

27. Kassasiya şikayətinə qarşı etiraz daxil olmamışdır.

Tətbiq edilən hüquq

Azərbaycan Respublikasının Konstitusiyası

28. Maddə 13, I hissə. Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur.

29. Maddə 29, I-IV hissələr. Hər kəsin mülkiyyət hüququ vardır. Mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ qanunla qorunur. Mülkiyyət hüququ mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir. Heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz.

Azərbaycan Respublikasının Mülki Məcəlləsi

30. Maddə 14.3. Dövlət qeydiyyatına alınmalı olan hüquqlar, qanunda digər qayda nəzərdə tutulmadığı halda, qeydiyyata alındığı andan yaranır.

31. Maddə 139.1. Mülkiyyət hüququ və daşınmaz əmlaka digər hüquqlar, bu hüquqların məhdudlaşdırılması, əmələ gəlməsi, başqasına keçməsi və xitamı dövlət qeydiyyatına alınmalıdır.

32. Maddə 139.2. Daşınmaz əmlaka hüquqların dövlət qeydiyyatı müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikası ƏMDK yanında DƏDRX) tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada tərtib edilən və aparılan daşınmaz əmlakın dövlət reyestrində həyata keçirilir.

33. Maddə 140. Reyestrin məzmununun qeyri dəqiqliyi sübuta yetirilməyincə, həmin məzmunun həqiqiliyi və tamamlığı prezumpsiyası qüvvədədir.

34. Maddə 144.1. Daşınmaz əmlakın dövlət reyestri obyektlərinə dair sərəncam verilməsi haqqında müqavilələr notariat qaydasında təsdiqlənməlidir. Təsdiqləmə zamanı notarius və ya qanunla müəyyən edilmiş hallarda bu cür notarial hərəkəti etməyə hüququ çatan digər vəzifəli şəxslər əşyaya dair sərəncam verən tərəfin sərəncam hüququnu və müqavilənin qanunauyğunluğunu yoxlamalıdır. Onlar təsdiqlədikləri müqavilənin yanlışlığı üçün məsuliyyət daşıyır.

35. Maddə 178.1. Daşınmaz əmlaka mülkiyyət hüququ qanunla müəyyənləşdirilmiş əsaslarla onun verilməsinin daşınmaz əmlakın dövlət reyestrində qeydə alındığı andan əldə edənə keçir.

36. Maddə 337.1. Bu Məcəllədə müəyyənləşdirilmiş şərtləri pozmaqla bağlanmış əqd etibarsızdır. Etibarsız əqdlər mübahisə edilən əqdlər və ya əhəmiyyətsiz əqdlər ola bilər.

37. Maddə 337.2. Əqd barəsində mübahisə edildikdə əqd bağlandığı andan etibarsızdır. Müqavilənin mübahisə edilməsi müqavilənin digər tərəfinə iradə ifadəsinin bildirilməsi yolu ilə həyata keçirilir. Digər tərəfə münasibətdə həyata keçirilmiş birtərəfli əqd həmin şəxsə qarşı mübahisə edilir.

38. Maddə 337.3. Əhəmiyyətsiz əqd məhkəmə tərəfindən etibarsız sayılıbsayılmamasından asılı olmayaraq özlüyündə etibarsız olan əqddir.

39. Maddə 337.4. Etibarsız əqd onun etibarsızlığı ilə bağlı nəticələr istisna olmaqla, hüquqi nəticələrə səbəb olmur. Bu cür əqd bağlandığı andan etibarsızdır.

40. Maddə 340.1. Uydurma əqd ona uyğun hüquqi nəticələr yaratmaq niyyəti olmadan yalnız görünüş üçün bağlanmış əqddir. Uydurma əqd əhəmiyyətsizdir.

"Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu

41. Maddə 2.1. Daşınmaz əmlaka mülkiyyət və digər əşya hüquqlarının dövlət qeydiyyatı Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq daşınmaz əmlaka hüquqların

əmələ gəlməsinin, məhdudlaşdınlmasının (yüklülüyünün), başqasına keçməsinin və bu hüquqlara xitam verilməsinin dövlət tərəfindən tanınması və təsdiq edilməsi barədə hüquqi aktdır.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsi

42. Maddə 14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

43. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

44. Maddə 217.1. Məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır.

45. Maddə 217.3. Qətnamə iş üzrə müəyyən edilmiş hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır.

46. Maddə 407.2. Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir.

47. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

48. Maddə 416.2. Apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 418.4-cü maddəsində nəzərdə tutulmuş prosessual hüquq pozuntusu hesab edilən hallara yol verilməsi şikayətin hədlərindən və dəlillərindən asılı olmayaraq yoxlanılmalıdır.

49. Maddə 417.1.3. Kassasiya məhkəməsi işə baxarkən apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadını qismən ləğv edə və ya tamamilə, yaxud qismən ləğv edib işi yenidən baxılmaq üçün apellyasiya instansiyası məhkəməsinə göndərə bilər.

50. Maddə 418.1. Maddi və prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması, o cümlədən maddi və prosessual hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması apellyasiya instansiyası məhkəməsinin qətnamə və qərardadının ləğv edilməsi üçün əsasdır.

Kassasiya baxışının hədləri

51. Qanunun tələbinə görə, kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

52. Qətnamədən yalnız cavabdeh Cavabdeh 3 kassasiya şikayəti vermiş, qətnamə kassasiya şikayətinin maddi hüquq normalarının pozulması barədə dəlilləri üzrə ona münasibətdə iddianın təmin edilmiş hissəsində, kassasiya şikayətinin prosessual hüquq normalarının tələblərinin pozulması barədə dəlilləri üzrə isə tam yoxlanılır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

53. Məhkəmə kollegiyası ilk növbədə qeyd edir ki, apelyasiya instansiyası məhkəməsi hazırkı işə cavabdeh Cavabdeh 3-ü lazımi qaydada məlumatlandırmadan baxmış, ədalət mühakiməsinin çəkişmə və tərəflərin bərabərliyi əsasında həyata keçirilməli olduğuna dair prosessual qanunvericiliyin tələblərini pozmuşdur.

54. Belə ki, iş materiallarından görünür ki, cavabdeh Ünvan 2 ünvanında qeydiyyatda olduğu halda, məhkəmə bildirişləri mübahisəli torpaq sahəsinin yerləşdiyi Ünvan 1-ə göndərilmiş və şəxs həmin ünvanda yaşamadığından zərflər geri qaytarılmışdır. Cavabdeh özü də kassasiya şikayətində məhkəmə baxışı barədə ona heç bir məlumat verilmədiyini bildirir.

55. Göründüyü kimi, apellyasiya instansiyası məhkəməsi işə cavabdeh Cavabdeh 3-ə məhkəmə iclasının vaxtı və yeri barədə lazımi qaydada məlumat vermədən baxmışdır ki, bu da qətnamənin şikayətin dəlillərindən asılı olmayaraq ləğv edilməsi əsaslarından biridir.

56. MPM-in 418.4.5-ci maddəsinə əsasən işə məhkəmə tərəfindən məhkəmə iclasının vaxtı və yeri barədə lazımi qaydada xəbər verilməmiş işdə iştirak etməli şəxslərdən hər hansı birinin iştirakı olmadan baxılmışsa, apellyasiya instansiyası məhkəməsinin qətnaməsi şikayətin dəlillərindən asılı olmayaraq, ləğv edilməlidir.

57. Kollegiya işin yeni apellyasiya baxışında mübahisənin mahiyyəti üzrə düzgün hüquqi həlli üçün kassasiya şikayətinin dəlillərində qeyd olunan digər məsələlərə münasibətdə aşağıdakıları da qeyd etməyi zəruri hesab edir.

58. Baxılan işin məhkəmələr tərəfindən müəyyən edilmiş mübahisə olunmayan hallarından görünür ki, mübahisəli torpaq sahəsi 23.09.2016-cı il tarixdə daşınmaz əmlakın dövlət reyestrində dövlət reyestr nömrəsi *** olmaqla xüsusi mülkiyyət hüququ ilə iddiaçının adına qeydə alınmışdır. Bundan sonra, həmin torpaq sahəsinə dair 15.11.2016-cı il tarixdə cavabdeh Cavabdeh 1-in adına fərqli daşınmaz əmlakın reyestr nömrəsi ilə, yəni ******* nömrəli əmlak kimi daşınmaz əmlakın dövlət reyestrində qeydiyyat aparılmış və adına çıxarış verilmişdir. Cavabdeh bu qeydə istinad edərək, torpaq sahəsini ikinci cavabdehə satmış, reyestrdə onun adına qeydiyyat aparılmış, daha sonra isə sonuncu tərəfindən torpaq sahəsi üçüncü cavabdehə satılaraq onun adına qeydə alınmışdır. Hər iki çıxarışda daşınmaz əmlakın reyestr nömrəsi ******* kimi göstərilmişdir.

59. İddiaçı mübahisəli torpaq sahəsinə dair cavabdeh Cavabdeh 1-in adına aparılmış qeydi inzibati qaydada mübahisələndirmiş, Gəncə İnzibati Məhkəməsinin qanuni qüvvəsini almış 24.02.2021-ci il tarixli qərarı ilə torpaq sahəsinə dair cavabdehin adına *** nömrəli reyestrdə aparılmış *** nömrəli qeydin ləğv edilməsi öhdəliyi DƏDRX-nin 11 saylı Şəmkir Ərazi İdarəsinin üzərinə qoyulmuşdur. Həmin qərarla müəyyən edilmişdir ki, qeydiyyat orqanı torpaq sahəsinin koordinatlarını müəyyənləşdirmədən, həmin sahə üzrə plan və ölçü sənədi tərtib etmədən, torpaq sahəsinin kadastr göstəriciləri, o cümlədən qaiməsi (sertifikatı), torpaq sahəsinin döngə nöqtələrinin koordinatları və onlar arasındakı məsafələr, torpaq sahələri üzrə rəqəmli (elektron) kadastr xəritəsindən çıxarış, şərti işarələr, torpaq sahəsinin qonşu sərhədləri və s. müəyyən edilmədən, JN-*** saylı torpağa mülkiyyət hüququna dair dövlət aktının itməsi barədə polis arayışı və mətbuatda elanı əsas götürməklə qeydiyyat aparmış və bununla da qanunvericiliyin tələblərini pozmuşdur. Həmçinin qanuni qüvvəyə minmiş Şəmkir Rayon Məhkəməsinin 27.09.2017-ci il tarixli, 2(076)-985/2017 saylı qətnaməsi ilə mübahisəli torpaq sahəsinin iddiaçının mülkiyyətində olması, ondan 3-cü şəxs Cavabdeh 1-in qanunsuz istifadə etməsi və iddiaçının JN-*** saylı Dövlət Aktı ilə 3-cü şəxsin JN-*** nömrəli Dövlət Aktının Ləğv edilmiş Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin tərtib etdiyi elektron baza xəritəsinə əsasən üst-üstə işlənməsi müəyyən edilmiş və Cavabdeh 1 torpaq sahəsindən çıxarılmışdır.

60. DƏDRX-nın 11 saylı Şəmkir Ərazi İdarəsinin 01.09.2021-ci il tarixli məktubundan görünür ki, torpaq sahəsi müvafiq olaraq ikinci və üçüncü cavabdehə satılmaqla, onların adına dövlət reyestrində qeydiyyat aparıldığından, inzibati məhkəmənin həmin qərarının icrası mümkün olmamışdır.

61. Hazırda iddiaçı həmin torpaq sahəsinə dair cavabdehlər arasında bağlanmış alqı-satqı müqavilələrinin etibarsız hesab edilməsini və həmin müqavilələr əsasında ikinci və üçüncü cavabdehin adına verilmiş reyestrdən çıxarışların ləğv edilməsini tələb edir.

62. Apellyasiya instansiyası məhkəməsi iddia tələbini təmin edərkən mövqeyini onunla əsaslandırmışdır ki, iddiaçı mülkiyyətində olan torpaq sahəsini heç kimə satmadığına və Cavabdeh 1-in torpağa dair əldə etdiyi sənəd məhkəmə qətnaməsi ilə qanunsuz sayıldığına, digər cavabdehlər Cavabdeh 1-in həmkəndliləri və onunla sıx işbirliyində olan şəxslər olduğuna görə həmin torpaq sahəsi barəsində bağladıqları əqdlər görünüş üçün bağlanmış uydurma əqdlərdir, ikinci və üçüncü cavabdehlər isə vicdanlı alıcı hesab edilə bilməzlər.

63. Məhkəmə kollegiyası bu mövqe ilə razılaşmayaraq qeyd edir ki, mülki prosessual qanunvericilik hakimin üzərinə öz qərarını yalnız tərəflərin çəkişmə prinsipinə əsasən müzakirə etdiyi dəlillərlə, onların verdiyi izahatlarla, sənədlərlə əsaslandırmaq öhdəliyi qoyur və öz qərarını tərəfləri dəvət etmədən özünün qulluq mövqeyinə görə irəli sürdüyü hüquqi dəlillərlə əsaslandırmağı qadağan edir. Qanun tərəflər arasında sübutetmə yükünü müəyyən etməklə yanaşı, işdə olan sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxılması, həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verilməsi qaydasını müəyyən edir (MPM-in 9.3, 77.1, 88-ci maddələri).

64. Həmçinin nəzərə alınmalıdır ki, prosessual qanunvericilik tərəflərin izahatlarını sübut növlərindən biri kimi qəbul etsə də, MPM-in 106.1-cı maddəsinə əsasən işdə iştirak edən şəxslərin izahatları o halda işin hallarını müəyyən etməyə imkan verən mötəbər sübut kimi hesab oluna bilər ki, həmin izahat iş üzrə toplanmış digər sübutlarla təsdiq olunsun.

65. Apellyasiya məhkəməsi cavabdehlərin mübahisəli torpaq sahəsinin iddiaçıya məxsus olması barədə məlumatlı olmaları barədə qənaətini iddiaçının nümayəndəsinin məhkəmə iclasında verdiyi izahata istinadən cavabdehlərin eyni kəndin sakinləri olmaları, eləcə də bir-biriləri ilə sıx işgüzar əlaqələrdə olmaları ilə əsaslandırmışdır. Göründüyü kimi, iddiaçı tərəfindən bu halı dəstəkləyən hər hansı digər mötəbər sübut təqdim olunmadığı, bununla bağlı cavabdeh tərəfin münasibəti öyrənilmədiyi halda, məhkəmə yalnız iddia tərəfinin mövqeyindən (nümayəndəsinin izahatı) çıxış etmiş, bununla da MPM-in 9.3, 106.1 və 88-ci maddələrinin tələbləri pozulmuşdur.

66. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 18.03.2019-cu il tarixli qərarında ifadə edilmiş hüquqi mövqeyə görə, iş üzrə qərarın əsasında yalnız obyektiv, qərəzsiz, hərtərəfli və tam yoxlanılmış sübutlar dayana bilər. Sübutların bu cür qiymətləndirilməsi məhkəmə iclasında sübutetmə predmetinə daxil olan tərəflərin bildirdiyi bütün faktların hərtərəfli, tam və qərəzsiz tədqiqi əsasında və yalnız qanuna əsaslanaraq hakim tərəfindən həyata keçirilir.

67. Qeyd olunanlardan əlavə, Kollegiya kassatorun vicdanlı alıcı olması barədə dəlillərinə münasibətdə xüsusi olaraq vurğulayır ki, daşınmaz əşya üzərində mülkiyyət və s. əşya hüquqları müstəsna hallar xaricində daşınmaz əmlakın dövlət reyestrində qeydiyyatın aparıldığı andan əmələ gəlir (Mülki Məcəllənin 14.3, 139.1 və 146-cı maddələri). Daşınmaz əşya üzərində mülkiyyət hüququnun mövcudluğu və kimə məxsus olması barədə məsələlər buna səlahiyyətli olan dövlət orqanı (DƏDRX) tərəfindən aparılan reyestr sayəsində tənzimlənir.

68. Mülki qanunvericiliyə əsasən, bir fərdi müəyyən əşya üzərində yalnız bir mülkiyyət hüququ mövcud ola bilər və həmin hüquq yalnız bir nəfərə (fərdi mülkiyyət), və yaxud eyni anda birdən çox şəxsə aid ola bilər (ümumi mülkiyyət). Yəni hər hansı əşya üzərində iki və ya bir neçə şəxsin tam mülkiyyət hüququnun eyni vaxtda mövcud olması mümkün deyildir. Əks yanaşma mülkiyyət haqqı sahiblərinin bu haqlarından irəli gələn səlahiyyətlərinin istifadəsini mümkünsüz edər.

69. “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununun 1.0.2-ci maddəsinə əsasən daşınmaz əmlakın dövlət reyestr nömrəsi (reyestr nömrəsi) - Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq zamanca və Azərbaycan Respublikasının ərazisində dəyişməyən, təkrarolunmaz, daşınmaz əmlak obyektinin vahid şəkildə olduğunu göstərən nömrədir.

70. Baxılan işin mübahisəsiz hallarından görünür ki, eyni torpaq sahəsi üzərində iki fərqli şəxsin mülkiyyət hüququna dair daşınmaz əmlakın dövlət reyestrində qüvvədə olan müxtəlif reyestr nömrəli iki qeyd mövcud olmuşdur (iddiaçının və cavabdeh Cavabdeh 1-in adına). Eyni əşyaya dair bu cür ikili qeydiyyat vəziyyəti yuxarıda qeyd olunan normaların tələblərinə zidd olmaqla, əşyaya dair hazırkı mübahisəli hüquqi situasiyanın yaranmasına səbəb olmuşdur.

71. Qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsi ilə eyni əşyaya mülkiyyət hüququna dair mövcud olan qeydlərdən biri qanunsuz hesab edilərək ləğv edilmişdir. (hazırkı işdə Gəncə

İnzibati Məhkəməsinin qanuni qüvvəsini almış 24.02.2021-ci il tarixli qərarı ilə torpaq sahəsinə dair cavabdeh Cavabdeh 1-in adına aparılmış qeydin ləğv edilməsi öhdəliyi DƏDRX-nin 11 saylı Şəmkir Ərazi İdarəsinin üzərinə qoyulmuşdur).

72. Məhkəmə kollegiyası hesab edir ki, iddiaçının həmin torpaq sahəsi üzərində daşınmaz əmlakın dövlət reyestrində qüvvədə olan mülkiyyət hüququna dair qeydi mövcud olduğundan həmin əmlaka dair qanunsuz olan ikinci qeydiyyat əsasında bağlanmış sərəncam əqd(lər)i üzrə alıcıların adına aparılmış mülkiyyət hüququ barədə qeydlərin həqiqiliyi Azərbaycan Respublikası Mülki Məcəlləsinin 148.2-ci və 149.2-ci maddələrində müəyyən edilmiş vicdanlılıq qaydaları çərçivəsində qoruna bilməz.

73. Belə ki, Mülki Məcəllənin 141-ci maddəsinə əsasən, daşınmaz əmlakın dövlət reyestrinin məzmunu həqiqi hüquqi vəziyyətə uyğun olmadıqda hüququ pozulmuş şəxs reyestrdəki qeyddə düzəlişin aparılması barədə tələb irəli sürə bilər. Bu iddianın təmin olunmasını istisna edən hallardan biri dövlət reyestrdəki məlumatların həqiqiliyinə və tamamlığına etimad edərək əşya hüququnu vicdanlı şəkildə əldə edənin hüquqlarının qorunmasıdır. Bu qaydalar Mülki Məcəllənin 140-cı, 148.2-ci və 149.2-ci maddələrində göstərilmişdir.

74. Nəzərə alınmalıdır ki, vicdanlı əldə edənin qorunması qaydasındakı məqsəd, reyestrdəki mülkiyyət qeydi silinmiş əvvəlki mülkiyyətçiyə münasibətdə adına əsassız qeydiyyat aparılmış şəxsdən əşya hüquqlarını məhz dövlətin apardığı reyestr məlumatlarına güvənərək yüksüz əldə edən vicdanlı üçüncü şəxsin üstün tutulmasıdır. Başqa sözlə, qanunverici mübahisəli əmlak üzərində bu iki şəxs arasındakı mənafe toqquşmasında vicdanlı şəxsə üstünlük vermişdir.

75. Bununla belə, mülkiyyətçinin reyestrdəki qeydi silinmədən (ləğv edilmədən) eyni əşyaya dair başqa bir şəxsin mülkiyyət hüququnun qeydiyyata alınması halında əvvəlki və sonrakı qeydiyyatdan deyil, ikili qeydiyyatdan söhbət gedir. Bu halda sonrakı qeydiyyat üzrə mülkiyyətçi kimi görünən şəxsdən əşya hüquqları əldə edən şəxslər vicdanlı əldə etmə qaydalarına istinad edə bilməzlər. Ona görə ki, həmin üçüncü şəxslərin mənafelərinin toqquşduğu şəxs, reyestr qeydi silinmiş əvvəlki mülkiyyətçi deyil, bu hüququ reyestrdə ümumiyyətlə ləğv edilməmiş mövcud mülkiyyətçidir. Bu vəziyyətdə vicdanlı əldə edənin hüquqlarının qorunması ilə bağlı qaydanın tətbiqi istisna olunur. Əks yanaşma Azərbaycan Respublikasının Konstitusiyası ilə qorunmasına təminat verilən mülkiyyət hüququnun qanunsuz və qeyri-mütənasib şəkildə məhdudlaşdırılmasına gətirib çıxarardı.

76. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 337, 339.6, 346.1 və 354-cü maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 02.04.2021-ci il tarixli qərarında hüquqi mövqeyi ondan ibarət olmuşdur ki, "Fərdi-müəyyən əşyalar (daşınmaz əşyalar, hüquqi statusuna görə daşınmaz əşyalara bərabər tutulan daşınar əşyalar – avtomobil, gəmi və s., habelə digər daşınar əşyalar – telefon, kompüter və s.) üzərində hüquqi əsas olmadan hər hansı bir hüquq əldə edilə bilməz. Belə əşyalar yalnız onlara xas əlamətləri ilə digərlərindən fərqləndiyi üçün əldə edənin əmlakına qarışmır və bu səbəbdən də hüquqi əsas olmadan əldə edənin mülkiyyətinə keçmir. Odur ki, əhəmiyyətsiz əqd arzu olunan heç bir hüquqi nəticələrə səbəb olmadığından, belə əqd üzrə fərdi-müəyyən əşya olan daşınmaz əşyaya dair dövlət reyestrində müvafiq şəxsin adına aparılmış qeydiyyat da əsassız sayılacaqdır. Bu halda isə xeyrinə qeydiyyat aparılmış şəxs daşınmaz əşyaya dair hüquq əldə etməyəcək, həmin əşya əqd əsasında özgəninkiləşdirənin mülkiyyətində qalmaqda davam edəcəkdir. Mülki Məcəllənin 141-ci maddəsinə uyğun olaraq, daşınmaz əmlakın dövlət reyestrinin məzmunu həqiqi hüquqi vəziyyətə uyğun deyildirsə, hüququ pozulmuş şəxs tərəfindən müvafiq düzəlişin aparılması tələb edilə bilər.

77. Məhkəmə kollegiyası hesab edir ki, hazırkı mübahisəyə baxılarkən yuxarıda göstərilən hüquqi mövqelər nəzərə alınmalı, mübahisəli torpaq sahəsinə dair iddiaçının mülkiyyət hüququ qüvvədə olduğu halda, əsassız ikinci qeydiyyat əsasında cavabdehlərlə bağlanmış əqdlərin etibarsızlığı əsasları düzgün müəyyən edilməli, mübahisə Mülki Məcəllənin 141-ci və digər aidiyyəti maddələrində nəzərdə tutulan qaydada həll edilməlidir.

78. Beləliklə, məhkəmə kollegiyası qeyd olunanları nəzərə alaraq hesab edir ki, kassasiya şikayəti qismən təmin olunmalı, apelyasiya instansiyası məhkəməsinin qətnaməsi ləğv edilməli, iş yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilməlidir. İşə yenidən baxılarkən bu qərarın əsaslandırıcı hissəsində istinad olunan maddi və prosessual hüquq normalarının tələblərinə cavab verən məhkəmə aktı qəbul edilməlidir.

79. Məhkəmə kollegiyası yuxarıda göstərilənlərə əsasən və MPM-in 416-419-cu maddələrini rəhbər tutaraq

Qərara aldı:

Cavabdeh 3-ün kassasiya şikayəti qismən təmin edilsin.

Gəncə Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 01 noyabr 2022-ci il tarixli, 2(104)-1752/2022 saylı qətnaməsi ləğv edilsin və iş yenidən baxılması üçün həmin məhkəməyə göndərilsin.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

16. 2(102)-1757/2024 nömrəli, 2024-cü il 14 iyun tarixli qərar - İlkin hərracda bir nəfərin iştirak etdiyi halda təkrar hərracın iki nəfərdən az alıcı gəlməsi əsası ilə baş tutmamış hesab edilməsinin mümkünsüzlüyü

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: ilkin hərracda bir nəfərin iştirak etdiyi halda təkrar hərracın iki nəfərdən az alıcı gəlməsi əsası ilə baş tutmamış hesab edilməsinin mümkünsüzlüyü.

İddiaçıya məxsus ipoteka predmeti olan əmlaka qanuni qüvvəsini almış məhkəmə qətnaməsinə əsasən tutma yönəldilmiş, icra mərhələsində hərrac təşkilatçısı olan MMC tərəfindən bağ evinin ilkin satış qiyməti müəyyən edilməklə 09.06.2022-ci il tarixə ilkin hərrac təşkil edilmiş, ilkin hərracda cəmi bir alıcının iştirak etməsi səbəbindən hərrac baş tutmamış elan olunmuşdur.

Bundan sonra, ipoteka predmeti ilkin satış qiymətinə ipoteka saxlayana təklif edilmiş, lakin 10 gün müddətinə ipoteka predmeti sonuncu tərəfindən əldə edilmədiyinə görə, 29.06.2022-ci il tarixə ilkin satış qiymətinə təkrar hərrac təyin edilmişdir. Təkrar hərrac iştirakçısı olmadığına görə baş tutmamış elan edilmiş, hərrac təşkilatçısı ipoteka predmeti olan bağ evini ipoteka saxlayana 25 faiz aşağı olan qiymətə təklif etmiş, ipoteka saxlayan təklifə müsbət cavab verərək 01.08.2022-ci il tarixdə əmlakı satın almışdır.

İddiaçı hərracın nəticələrinin etibarsız hesab edilməsi ilə bağlı tələb irəli sürərək məhz ipoteka predmetinin 25 faiz aşağı qiymətə satılmaqla hərrac təşkilatçısı tərəfindən "İpoteka haqqında" Qanunun tələblərinin pozulmasına istinad etmişdir. Ali Məhkəmə tərəfindən yeni qərar qəbul edilərək, iddia rədd edilmişdir.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

"İpoteka haqqında" Qanunun təkrar hərracın baş tutmaması halında ipoteka saxlayana olunan təklifin qayda və şərtlərini müəyyən edən 43.7-ci maddəsində 43.1.1-ci maddə ona görə istisna hal kimi nəzərdə tutulmuşdur ki, bu halın mümkünlüyü 43.6-cı maddə ilə təkzib edilir, yəni, təkrar hərracda iki nəfərdən az alıcı gəlməsi əsası ilə hərracın baş tutmaması mümkün deyildir, çünki bu halda hərrac baş tutmuş hesab olunur və gəlmiş şəxs hərracın qalibi olur.

İlkin hərracın iki nəfərdən az alıcı gəlməsi əsasına görə baş tutmamasının ipoteka qoyanın mənafeyi baxımından üstünlüyü ondan ibarətdir ki, əmlak təkrar hərraca ilkin satış qiyməti ilə çıxarılır, 43.5-ci maddədə göstərilən əmlakın dəyərinin 15 faiz azalması qaydası bu halda tətbiq edilə bilməz. Təkrar hərracın baş tutmamasından sonra da ipoteka predmetinin eyni əsasa təkrar istinad edilməklə 43.7-ci maddədə nəzərdə tutulan 25 faiz azalma faizi tətbiq edilmədən (ilkin satış qiyməti ilə) ipoteka saxlayana təklif edilməsi halı olarsa, bu hal ipoteka qoyanın maraqlarına xidmət etsə də, ipoteka saxlayanın mənafeyinə ziddir. Yəni, qanunverici eyni əsasla ipoteka qoyana yalnız bir dəfə (təkrar hərrac zamanı satış qiyməti müəyyənləşdirilərkən) güzəşt tətbiq edilməsi qaydasını müəyyənləşdirərkən, bunu həm ipoteka qoyanın, həm də ipoteka saxlayanın maraqlarına uyğun balanslaşdırmaqla hər iki tərəfin mümkün mənafelərinin qorunması məqsədini daşımışdır.

Bunun əksi, hüquqdan sui-istifadə hallarına yol açа, başqa sözlə, birinci hərracda bir alıcının iştirak edib təkrar hərraca gəlməməsi kimi süni görünüş yaratmaqla hərrac təşkilatçısına əmlakı ipoteka qoyana yalnız ilkin satış qiyməti ilə təklif edilməsindən başqa çıxış yolu buraxmamaqla nəticələnə, bununla da kreditorun mənafelərinin pozulmasına gətirib çıxara bilər.

Qanunun 43.7-ci maddəsində nəzərdə tutulan istisna 43.6-cı maddənin məzmununu ehtiva etdiyindən, təkrar hərracın baş tutmaması zamanı əmlakın ipoteka saxlayana təklif

edilməsinin yalnız bir qaydası müəyyən edilmişdir: ipoteka saxlayan ipoteka predmetini təkrar hərracdakı satış qiymətindən 25 faiz az olmayan qiymətlə ala bilər, bu şərtlə ki, ipoteka predmetinin ən aşağı satış qiyməti ən azı hüquqlarının qeydiyyat növbəliliyinə görə ipoteka predmetini satın alan ipoteka saxlayandan üstün olan digər ipoteka saxlayanların tələblərinin ödənilməsi üçün kifayət qədər olsun.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-1757/2024

14.06.2024-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından

Azərbaycan Respublikası Ali Məhkəməsi

Mülki kollegiyasının

İddiaçının cavabdehlər "XXX" Məhdud Məsuliyyətli Cəmiyyətinə, ləğv prosesində olan "X Bank" Açıq Səhmdar Cəmiyyətinə, "Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri" Publik Hüquqi Şəxsin 2 saylı Sumqayıt Ərazi İdarəsinə qarşı (Sumqayıt şəhəri üzrə İcra idarəsi mübahisə predmeti barəsində müstəqil tələblər irəli sürməyən üçüncü şəxs qismində işə cəlb edilməklə) qarşı iş üzrə

Q Ə R A R I

(Açar sözlər: icra icraatından irəli gələn mübahisələr;hərracın nəticələrinin mübahisələndirilməsi)

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Əhmədova Mehparə Tofiq qızı (məruzəçi hakim), Əhmədov Əhməd Abbas oğlu və Həsənov Vüqar Təvəkgül oğlundan ibarət tərkibdə,

İddiaçının cavabdehlər "XXX" MMC-yə, ləğv prosesində olan “X Bank” ASCyə, “Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri" Publik Hüquqi Şəxsin 2 saylı Sumqayıt Ərazi İdarəsinə qarşı (Sumqayıt şəhəri üzrə İcra idarəsi mübahisə predmeti barəsində müstəqil tələblər irəli sürməyən üçüncü şəxs qismində işə cəlb edilməklə) "hərracın nəticələrinin etibarsız hesab edilməsi” tələbinə dair mülki iş üzrə Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)-5609/2023 nömrəli, 2 noyabr 2023cü il tarixli qətnaməsindən cavabdeh “X Bank” ASC-nin ləğvedicisi Əmanətlərin Sığortalanması Fondu tərəfindən verilmiş kassasiya şikayətinə Ali Məhkəmənin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları

1. Bakı Apellyasiya Məhkəməsinin 2(103)-1273/2019 saylı, 04.09.2019-cu il tarixli icra sənədinə əsasən 27.11.2014-cü il tarixli kredit müqaviləsi üzrə cəmi 302.274,11 manat məbləğində pul cavabdehdən alınaraq iddiaçı “XBank” ASC-yə ödənilməli, tələb cavabdeh İddiaçıya məxsus ipoteka ilə yüklü edilmiş ilkin satış qiyməti 300.000 manat müəyyən edilməklə, Ünvan 1-də olan 0,072 ha torpaq sahəsi və üzərində yerləşən, ümumi sahəsi 275,79 kv.m-dən ibarət B-**** saylı bağ evinə və cavabdehlər X1, X2 və X3-ə məxsus ipoteka ilə yüklü edilmiş ilkin satış qiyməti 203.000 manat müəyyən edilməklə Ünvan 2 fərdi yaşayış evinə yönəldilməli, həmin ipoteka predmetləri açıq hərrac yolu ilə satılaraq, əldə olunan vəsaitdən cəmi 302.274,41 manat məbləğində pul iddiaçı “XBank” ASC-yə ödənilməli, qalan məbləğ müvafiq qaydada İddiaçıya, X1, X2 və X3-ə verilməli, ipoteka predmetlərinin satışından əldə olunmuş vəsait borcun ödənilməsinə kifayət etmədiyi halda borcun ödənilməyən digər hissəsi cavabdeh İddiaçıdan alınaraq iddiaçıya ödənilməlidir.

2. İddiaçıya (bundan sonra - iddiaçı) məxsus Ünvan 1-də 0,072 ha torpaq sahəsi və üzərində yerləşən B-**** saylı bağ evinin (bundan sonra – ipoteka predmeti və ya bağ evi) ilkin satış qiyməti 300.000 manat olmaqla 09.06.2022-ci il tarixdə ilkin hərraca çıxarılması ilə bağlı “XXX” MMC-nin (bundan sonra MMC və ya hərrac təşkilatçısı) 17.05.2022-ci il tarixli, 01/1048 nömrəli bildirişi verilmişdir. Bildirişdə hərracda iştirak üçün 5% miqdarda behin məbləğinin 15000 (on beş min) manat olması göstərilmişdir.

3. 03.06.2022-ci il tarixdə bağ evinin satışı ilə bağlı 09.06.2022-ci il tarixdə keçiriləcək açıq hərracda iştirak etmək üçün 1 nəfər şəxs müəyyən olunmuş 15.000,00 manat məbləğində behi ödəmişdir.

4. Hərrac təşkilatçısının 09.06.2022-ci il tarixli, 53/01 saylı protokoluna əsasən bağ evinin qiyməti 300.000 manat olmaqla hərracdan satışına start verilmiş, lakin hərracda 1 alıcı iştirak etdiyinə görə hərrac baş tutmamış elan olunmuşdur.

5. MMC-nin 10.06.2022-ci il tarixli, 01/1274 saylı məktubuna əsasən bağ evinə dair keçirilmiş hərrac “İpoteka Haqqında” Qanunun 43.1.1-ci maddəsinə əsasən baş tutmadığından, həmin Qanunun 43.3-cü maddəsinə əsasən hərracın baş tutmaması barədə elanın dərc edildiyi gündən sonra 10 təqvim günü müddətində ipoteka saxlayan ipoteka qoyanla müqavilə əsasında ipoteka predmetini ilkin satış qiymətinə ala biləcəyi təklif edilmiş, əks halda qanunun 43.5-ci maddəsinin tətbiq ediləcəyi barədə məlumat verilmişdir.

6. İpoteka saxlayan ipoteka predmetini ilkin satış qiyməti ilə alınması barədə təklifi qəbul etmədiyindən açıq hərracdan satılması məqsədi ilə 29.06.2022-ci il tarixə bağ evinin ilkin satış qiyməti 300.000 manat olmaqla təkrar hərrac təyin edilmiş, MMC tərəflərə bu barədə 21.06.2022-ci il tarixli, 01/1372 saylı bildiriş göndərmişdir.

7. Təkrar hərrac da baş tutmamış, hərrac təşkilatçısı "İpoteka Haqqında" Qanunun 43.7-ci maddəsinə əsasən ipoteka predmetini təkrar hərracdakı satış qiymətindən 25% az olmayan qiymətə, yəni 225.000 manata ipoteka saxlayan ləğv prosesində olan "XBank" ASC-yə (bundan sonra Bank və ya ipoteka saxlayan) 05.07.2022-ci il tarixli təklif göndərmişdir.

8. 01.08.2022-ci il tarixli, 46/04 saylı "İpoteka saxlayana İpoteka Predmetinin əldə edilməsi üçün" hərracın yekunları barədə Protokola və MMC ilə Bank arasında bağlanılmış "hərracın yekunları üzrə əmlakın alqı-satqısı barədə" müqaviləsi ilə bağ evi "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun 43.7-ci maddəsinə əsasən 25% aşağı olan qiymətlə, yəni 225.000 manat qiymətlə ipoteka saxlayana satılmışdır, 10.03.2023-cü il tarixdən Bankın mülkiyyətindədir.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a) Birinci instansiya məhkəməsində icraat

9. İddiaçı iddia ərizəsi və iddia tələbinin dəyişdirilməsi barədə ərizə ilə məhkəməyə müraciət edərək, bağ evinə dair Bank ilə MMC arasında imzalanmış 01.08.2022-ci il tarixli, 46/04 saylı hərracın yekunları barədə protokol və eyni tarixli alqı-satqı müqaviləsinin etibarsız hesab edilməsi, bağ evi üzərində Bankın mülkiyyət hüququnu təsdiq edən 1423006063 qeydiyyat və 309013000575-11301 reyestr nömrəli dövlət reyestrindən çıxarışın Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri Xidmətinin 2 saylı Sumqayıt Ərazi İdarəsi tərəfindən ləğv edilərək, əmlak üzərində iddiaçının mülkiyyət hüququnun bərpa edilməsi barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

10. İddia tələbi işin yuxarıda sadalanan faktiki hallarına istinad edilərək onunla əsaslandırılmışdır ki, hərrac təşkilatçısı tərəfindən bağ evinin satış qiyməti 300.000 manat olmaqla ilkin hərrac keçirilmiş, 1 nəfər bağ evi üzrə müəyyən olunmuş 15.000,00 manat beh məbləğini ödəyərək ilkin hərracda iştirak etmiş, lakin hərrac "İpoteka Haqqında" Qanunun 43.1.1-ci maddəsinə əsasən baş tutmamışdır. Bağ evinin ilkin satış qiyməti 300.000 manat olmaqla açıq hərracdan satılması məqsədi ilə hərrac təşkilatçısı tərəfindən 21.06.2022-ci il tarixinə, saat 11:00-a təkrar hərrac təyin edilmişdir. MMC-nin 05.07.2022-ci il tarixli "İpoteka predmetinin əldə olunması barədə" Təklifindən müəyyən edilir ki, bağ evinə dair keçirilmiş hərraclar baş tutmadığından "İpoteka Haqqında" Qanunun 43.7-ci maddəsinə əsasən ipoteka predmetini təkrar hərracdakı satış qiymətindən 25% az olmayan qiymətə, yəni 225.000 manata ala biləcəyi barədə ipoteka saxlayana təklif (məlumat) verilmişdir. Bank və MMC tərəfindən imzalanmış (ehtimal edir ki, imzalanıb, belə ki, vəkil sorğusuna hərrac tərəfindən təqdim edilən protokol imzasız kserosurətdir) 01.08.2022-ci il tarixli Protokoldan müəyyən edilir ki, bağ evi qiyməti 225.000 manat olmaqla Banka satılmışdır.

11. Cavabdeh Bank iddia tələbinin rədd edilməsini xahiş etmişdir.

12. Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin (bundan sonra-birinci instansiya məhkəməsi) 2(006)-1814/2023 nömrəli, 23 iyun 2023-cü il tarixli qətnaməsi ilə iddia rədd edilmişdir. (hakim Ə.Heydərova)

13. Məhkəmənin mövqeyi ondan ibarət olmuşdur ki, ilkin hərracda bir nəfər iştirak etmiş, həmin o şəxs isə ikinci hərracda iştirak etməmişdir. Əgər həmin şəxs yenidən birinci hərracda iştirak etdiyi kimi ikinci hərracda da iştirak etmiş olsaydı, bu onun ipoteka predmetini əldə etmək üçün iradə ifadəsinin möhkəmliyini və əmlakı almaq niyyətində olmasını bildirərdi. Lakin həmin şəxs ikinci hərracda iştirak etməyərək öz ilkin iradəsindən bu və ya digər fikrinə görə imtina etmişdir. Bundan başqa təkrar hərracda artıq heç bir şəxs iştirak etmədiyindən məntiqi ardıcıllıq olaraq 25% aşağı qiymətlə ipoteka saxlayana əmlak təklif olunmuşdur. Yəni iddiaçının bildirmiş olduğu arqumentdən (iddianın əsası) çıxış edilsə, ilkin hərracda bir nəfərin

iştirak etməsi artıq ikinci hərracın heç kimin iştirak etməmiş olmasına baxmayaraq 25% aşağı qiymətlə alınmasının mümkün olmaması ağlabatan olmamaqla ipoteka ilə bağlı qanunvericiliyin məntiqli bir ardıcıllığının pozulması ilə nəticələnəcəkdir (ipoteka saxlayanın süni yolla ipoteka predmetini yuxarı qiymətlə alması və ya bundan imtina etməsi halında ipoteka qoyanın ipoteka predmetinə xitam verilməsi ilə həmin əmlakın özünə geri qaytarılması hüququndan sui-istifadə ilə nəticələnməsi kimi). Bu səbəbdən məhkəmə hesab etmişdir ki, iddiaçının irəli sürmüş olduğu iddia əsassız olduğundan rədd edilməlidir.

14. Məhkəmə gəldiyi nəticəni Mülki Prosessual Məcəllənin 14.2, 77.1, "İpoteka haqqında" Azərbaycan Respublikası Qanunun 41, 42, 43-cü maddələrinə istinadla əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

15. İddiaçı apellyasiya şikayəti verərək birincin instansiya məhkəməsinin qətnaməsinin ləğv edilməsi və iddia tələbinin təmin edilməsi barədə yeni qətnamə çıxarılmasını xahiş etmişdir.

16. Apellyasiya şikayəti onunla əsaslandırılmışdır ki, mövcud hüquq normalarının tətbiqi və təfsir olunması baxımından məhkəmənin mövqeyi ilə razılaşmır. Hesab edir ki, məhkəmə tərəfindən "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununun 43.7-ci maddəsinin məzmunu səhv təfsir edilmiş və düzgün tətbiq olunmamışdır. İşin hallarından göründüyü kimi 1 nəfər alıcı ilkin hərracdan əvvəl açıq hərraca çıxarılmış əmlak üzrə müəyyən olunmuş beh məbləğini ödəyərək, 09.06.2022-ci il tarixinə təyin edilmiş ilkin hərracda iştirak etmiş, ilkin hərrac Qanunun 43.1.1-ci maddəsinə əsasən (hərraca iki nəfərdən az alıcı gəldikdə) baş tutmamış elan edilmiş, hərracın təşkilatçısı Qanunun 43.5ci maddəsinin tələbinə riayət edərək, ilkin hərracın iştirakçısı olduğuna görə əmlakı təkrar hərraca da ilkin satış qiymətinə çıxarsa da, təkrar hərrac baş tutmamış elan edildikdən sonra bu dəfə Qanunun 43.7-ci maddəsinin tələbini pozaraq həmin normada müəyyən edilmiş istisna hal baş verməsinə baxmayaraq (Qanunun 43.1.1-ci maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla) əmlakı təkrar hərracdakı satış qiymətindən 25 faiz aşağı qiymətə ipoteka saxlayana satmışdır. Məhkəmə isə hərrac təşkilatının yol verdiyi qanun pozuntusu ilə əsassız olaraq razılaşmışdır. Məsələ burasındadır ki, Qanunun 43.7-ci maddəsində ipoteka predmetinin təkrar hərrac baş tutmamış elan edildikdən sonra ipoteka saxlayan tərəfindən satış qiymətindən məhz 25% aşağı qiymətə satılması imkanını yalnız Qanunun 43.1.1-ci maddəsində müəyyən edilmiş halın (hərracda iki nəfərdən az alıcının iştirakı) baş verməsi ilə məhdudlaşdırmışdır ki, bu halın baş verməsi özlüyündə heç də məhkəmənin zənn etdiyi kimi təkrar hərracın baş tutmamasını şərtləndirə bilməzdi. Çünki, birinci hərracdan fərqli olaraq ipoteka predmetinin təkrar hərracının baş tutması üçün minimum iki nəfər alıcının iştirakı tələb edilmir və iki nəfərdən az alıcının, yəni 1 nəfər alıcının iştirakı təkrar hərracın baş tutması üçün kifayətdir. Başqa sözlə, əgər məhkəmənin təfsir etdiyi kimi təkrar hərracda iki nəfərdən az, yəni bir nəfər alıcı işitrak etmiş olsa idi, onsuz da hərrac baş tutmuş olacaqdı və bu zaman hərrracın baş tutmamasından və baş tutmamış elan edildiyinə görə ipoteka saxlayanın onu əldə etməsindən söhbət gedə bilməzdi. Bu halda nəzəri cəhətdən yalnız yeganə iştirakçının hərracın yekun protokolunu imzalamaqdan imtina etməsi və ya alış qiymətini tam ödəməkdən yayınması əsası ilə təkrar hərracın baş tutmaması mümkün idi ki, bu əsaslar da (Qanunun 43.1.3, 43.1.4-cü maddələri) Qanunun 43.7-ci maddəsində göstərilməmişdir. Belə olan halda məhkəmənin zənn etdiyindən fərqli olaraq təkrar hərracın baş tutmamış elan edilməsindən sonra ipoteka saxlayanın əmlakı təkrar hərracdakı satış qiymətinə və hər hansı endirim edilmədən satılması üçün "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanunun 43.7ci maddəsində istinad olunmuş həmin Qanunun 43.1.1-ci maddəsindəki halın təkrar hərracda deyil, məhz daha öncə əmlakın birinci

hərracında baş verməsi kifayət idi. Onsuz da Qanunun 43.1.1-ci maddəsində təsvir olunmuş halın baş verməsi (iki nəfərdən az alıcının hərraca gəlməsi) təkrar hərracın baş tutmamış elan olunması üçün əsas ola bilməzdi. Bununla yanaşı, Qanunun 1.0.9, 38.2, 39.3.3, 41.3-cü maddələri ipoteka predmetinin açıq hərracdan satışı üzrə ilkin hərracdakı ilkin satış qiymətini, həmin Qanunun 43.5-ci maddəsi onun ilkin hərrac baş tutmamış elan edildikdən sonrakı təkrar hərracdakı ilkin satış qiymətini müəyyən edirsə, həmin Qanunun 43.7-ci maddəsi məhz ipoteka predmeti olan əmlakın hərraclar baş tutmadıqdan sonra ipoteka saxlayan tərəfindən əldə edilməsi mümkün olan qiymətini müəyyən edir. Tələbin yönəldildiyi əmlakın hərracda satış qiymətinin düzgün müəyyən edilməsinin mühüm hüquqi əhəmiyyəti vardır. Müəyyən edilmiş düzgün satış qiyməti əmlakın satışından əldə edilmiş vəsaitin borcun ödənilməsinə yönəldilməsini təmin etməklə artıq qalmış vəsaitin mülkiyyətçiyə qaytarılmasını təmin edir ki, bu da borclunun mülkiyyət hüquqlarının müdafiəsi baxımından mühüm əhəmiyyət kəsb edir. Əmlakın hərracda qanunvericilikdə tənzimlənmiş prosedur üzrə müəyyən edilməli olan qiymətindən kəskin fərqlənən ucuz qiymətə ipoteka saxlayana satılması borclunun əmlak vəziyyətini daha da pisləşdirməklə yanaşı hərracın nəticələrini, başqa sözlə alqı-satqı müqaviləsini də şübhə altına alır. Alqı-satqı müqaviləsində əşyanın qiyməti müqavilənin zəruri şərti kimi çıxış edir. Hazırki halda ipoteka predmeti olan daşınmaz əmlakın qanunvericilikdə tənzimlənmiş prosedur üzrə müəyyən edilməli olan mümkün dəyərindən aşağı qiymətdə ipoteka saxlayan tərəfindən əldə edilməsinə şərait yaradılması və nəticədə tənasübsüz surətdə aşağı qiymətə satılması hərracın yekunlarına dair mübahisəli protokolun ən azından müqavilənin zəruri şərti kimi əşyanın qiyməti ilə bağlı hissədə formal olmasını göstərir. Azərbaycan Respublikası Mülki Məcəllənin 273-cü maddəsinə əsasən girov saxlayana və ya ipoteka saxlayana girov qoyulmuş və ya ipoteka ilə yüklü edilmiş əşyanı mənimsəmək hüququ verən hər cür razılaşma etibarsızdır.

17. Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)-5609/2023 nömrəli, 2 noyabr 2023-cü il tarixli qətnaməsi ilə (Fuad Abdiyev – sədrlik edən və məruzəçi, Xəyal Sarıyev və Fərrux Osmanov) apellyasiya şikayəti təmin edilmiş, birinci instansiya məhkəməsinin qətnaməsi ləğv edilmiş, iş üzrə yeni qətnamə çıxarılmaqla iddia təmin edilmişdir.

18. Məhkəmə kollegiyasının mövqeyi ondan ibarət olmuşdur ki, təkrar hərracın keçirilməsi əsası kimi məhz birinci hərracın baş tutmaması göstərilərək, buna əsas olan halların qəti siyahısı (4 hal) “İpoteka Haqqında” Qanunun 43.1-ci maddəsində təsbit edilmişdir. Eyni zamanda, həmin hallar ipoteka predmetinin qiymətinə təsiri baxımından fərqləndirilmişdir. Belə ki, hərrac məhz iki nəfərdən az alıcı gəldiyinə görə baş tutmadıqda hərracın təşkilatçısı tərəfindən ipoteka predmetinin təkrar hərraca məhz ilkin satış qiyməti ilə çıxarılmasının mümkünlüyü müəyyən edilmişdir. Həmin əmlakın hərrac təşkilatçısı tərəfindən ilkin satış qiymətindən 15 faiz aşağı qiymətlə hərraca çıxarılması isə yalnız iştirakçı olmadığına görə hərracın baş tutmaması halında mümkün hesab edilmişdir. Bununla belə, ipoteka predmetinin təkrar hərracdakı satış qiyməti bilavasitə ilkin hərracın baş tutmaması halından asılı edilmiş və 1 nəfər alıcının (iki nəfərdən az alıcının gəlməsi) iştirak etməsi halının mövcud olması, əmlakın məhz ilkin satış qiyməti ilə (yəni faiz etibarı ilə qiyməti aşağı salmadan) təkrar hərraca çıxarılmasını şərtləndirmişdir. Bu qayda həmin Qanunun 43.5-ci maddəsində dəqiq şəkildə göstərilmişdir.

19. 09.06.2022-ci il tarixdə keçirilmiş ilkin hərrac bir nəfər (iki nəfərdən az) alıcının gəlməsi halı ilə bağlı baş tutmamış hesab edilmiş və bu halı tənzimləyən “İpoteka haqqında” Qanunun 43.5-ci maddəsinin tələblərinə uyğun olaraq həmin əmlak hərracın təşkilatçısı olan cavabdeh

"XXX" MMC tərəfindən təkrar hərraca ilkin hərracdakı ilkin satış qiyməti, yəni 300.000 manatla çıxarılmışdır. Lakin təkrar hərrac artıq iştirakçının olmaması səbəbindən baş tutmamış elan edilmiş və bundan sonra hərrac təşkilatçısının təklifinə əsasən əmlak təkrar hərracdakı satış qiymətindən 25 faiz aşağı olan qiymətlə, yəni 225.000 manata ipoteka saxlayan "XBank"ASC tərəfindən əldə edilmişdir.

20. Halbuki, hərracın təşkilatçısı "İpoteka Haqqında" Qanunun tələblərinə uyğun olaraq əmlakı ipoteka saxlayana məhz təkrar hərracdakı satış qiyməti, yəni 300.000 manata təklif etməli idi. Belə ki, bu Qanunun 43.7-ci maddəsi hərrac zamanı ipoteka predmetinin qiymətinin dəyişməsinə təsiri baxımından hərraca iki nəfərdən az alıcının gəlməsi halını (43.1.1-ci maddə) hərracın baş tutmamasının digər hallarından ayıraraq, qiymətin dəyişməməsinə təsir edən istisna hal kimi müəyyən etmiş və hərrac yalnız digər səbəblərə görə baş tutmamış elan edildikdə ipoteka predmetinin təkrar hərracdakı satış qiymətindən 25 faiz az olmayan qiymətlə ipoteka saxlayana təklif edilməsinin (onun tərəfindən əldə edilməsinin) mümkünlüyünü təsbit etmişdir.

21. Qanunun 43.7-ci maddəsi ilkin hərracda olduğu kimi, yalnız təkrar hərracda iki nəfərdən az alıcının iştirak etməsinin ipoteka predmetinin təkrar hərracdakı satış qiymətindən 25 faiz az olmayan qiymətə ipoteka saxlayana təklif edilməsinin mümkünlüyünü təsbit etməmiş, yəni bu müddəa məzmun etibarı ilə belə bir anlamda qəbul edilməməlidir və qəbul edilə də bilməz. Belə ki, təkrar hərracda bir iştirakçı olduqda hərrac baş tutmuş hesab olunur və bu halda həmin şəxs hərracın qalibi olur (43.6-cı maddə). Bu şəxsin hərracı udmuş iştirakçı olaraq sonradan hərracın nəticələri barədə protokol imzalamaqdan imtina etməsi (43.1.3-cü maddə) və ya müəyyən olunmuş müddətdə (bu şərtlə ki, ipoteka saxlayanın razılığı ilə həmin müddət uzadılmasın) alış qiymətini tamamilə ödəməməsi (43.1.4-cü maddə) hərracın baş tutmamasının digər hallarına aid edilmiş və bu halların baş verməsi də Qanunun 43.7-ci maddəsinin tələbləri baxımından ipoteka saxlayanın ipoteka predmetini təkrar hərracdakı satış qiymətindən 25 faiz az olmayan qiymətlə ala bilməsini hüquqi baxımdan mümkün etmişdir.

22. Məhkəmə kollegiyası yuxarıda nümayiş etdirilmiş hüquqi mövqeyi əsas götürüb Qanunun 43-cü maddəsinin məzmunu ilə bağlı belə qənaətə gəlmişdir ki, Qanunun 43.1.1-ci maddəsində göstərilən səbəb heç bir halda təkrar hərracın baş tutmamış elan edilməsinin müstəqil əsasını təşkil edə bilməz. Qanunun 43.1.2-ci maddəsində göstərilən hal isə yalnız təkrar hərracın baş tutmamasının müstəqil halı kimi deyil, hər iki hərrac üzrə yaranmış və mövcud olan hal kimi müəyyən edilmişdir. Qanunun 43.7-ci maddəsində isə təkrar hərracın deyil, ümumiyyətlə hərracın baş tutmamasından söhbət gedir.

23. Belə olan halda, Qanunun 43-cü, o cümlədən 43.7-ci maddəsinin tələbləri baxımından ilkin hərracın iki nəfərdən az, yəni bir nəfər alıcının iştirak etməsi əsası ilə baş tutmaması ipoteka predmetini ilkin satış qiymətindən 15 faiz aşağı qiymətlə təkrar hərraca çıxarılmasını, həm ilkin, həm də təkrar hərracın baş tutmamasının Qanunun 43.1.2-ci (hər iki, həm ilkin, həm də təkrar hərracda iştirakçı olmadıqda), təkrar hərracın isə 43.1.3-cü (hərracı udmuş iştirakçı hərracın nəticələri barədə protokol imzalamaqdan imtina etdikdə) və 43.1.4-cü (hərracı udmuş iştirakçı bu Qanunla müəyyən olunmuş müddətdə alış qiymətini tamamilə ödəmədikdə, bu şərtlə ki, ipoteka saxlayanın razılığı ilə həmin müddət uzadılmasın) maddələri ilə müəyyən edilmiş hallarla bağlı olmaması isə ipoteka predmetinin təkrar hərracdakı satış qiymətindən 25 faiz az olmayan qiymətlə ipoteka saxlayana təklif edilməsini (onun tərəfindən əldə edilməsini) istisna edir.

24. Beləliklə, 09.06.2022-ci il tarixdə keçirilmiş ilkin hərrac bir nəfər alıcının iştirak etməsi əsası ilə baş tutmamış və bu səbəbdən ipoteka predmeti təkrar hərraca ilkin satış qiyməti, yəni

300.000 manatla çıxarılmışdır. Lakin 29.06.2022-ci il tarixdə keçirilmiş təkrar hərrac baş tutmadıqdan sonra hərrac təşkilatçısı ilkin hərracın iki nəfərdən az iştirakçının olmaması əsası ilə baş tutmamasını nəzərə almadan, bununla da "İpoteka haqqında" Qanunun tələblərini pozaraq, ipoteka predmetini təkrar hərracdakı satış qiymətindən 25 faiz aşağı qiymətlə ipoteka saxlayana təklif etmiş və əmlak sonuncu tərəfindən həmin qiymətə qəbul edilmişdir. Halbuki, artıq qeyd edildiyi kimi, ilkin hərracda bir nəfərin iştirak etməsi ilkin hərracın baş tutmamasının əsaslarına aid edilməklə, ipoteka predmetinin ilkin satış qiymətinin sonrakı mərhələlərdə aşağı salınmasını istisna etmişdir. Qeyd edilənlər öz növbəsində MMC ilə Bank arasında bağlanmış 01.08.2022-ci il tarixli "Hərracın yekunları barədə" Protokolun və "Hərracın yekunları üzrə əmlakın alqı-satqısı barədə" Müqavilənin etibarsız hesab edilməsini şərtləndirir.

25. Məhkəmə kollegiyası həmçinin qeyd etmişdir ki, MMC ilə Bank arasında "Hərracın yekunları barədə" Protokol və "Hərracın yekunları üzrə əmlakın alqı-satqısı barədə" Müqavilə 01.08.2022-ci il tarixdə bağlansa da, 15.09.2022-ci il tarixə ipoteka predmetinin dəyərini təşkil edən 225.000 manat məbləğində borc iddiaçının tələbkara (ipoteka saxlayana) olan borcundan silinməmiş, yəni nəticə etibarı ilə əmlakın dəyəri ödənilməmişdir. Bu hal MMC tərəfindən Banka ünvanlanmış 15.09.2022-ci il tarixli məktubun məzmunu ilə də öz təsdiqini tapır. Belə ki, məktubda ipoteka predmeti üzrə satış qiyməti ilə tələb ödənildikdən sonra artıq qalan hissənin pul vəsaitinin İcra İdarəsinin depozit hesabına köçürüldükdən sonra əmlak üzrə hərracın yekunlarına dair protokolun təqdim ediləcəyi qeyd edilmişdir. Başqa sözlə, 15.09.2022-ci il tarixə nə ipoteka predmetinin dəyəri ödənilmiş, nədə ki, protokol təqdim edilmişdir. Halbuki, protokol imzalandıqdan sonra onun bir nüsxəsi ipoteka saxlayan "XBank" ASC-yə təqdim edilməli idi. Bu baxımdan həmin protokol nəinki 01.08.2022-ci il tarixdə, hətta 15.09.2022ci il tarixdə belə hələ də imzalanmamışdır. Qeyd edilən öz növbəsində həmin hərracın nəticələrinin bu əsasla da etibarsız hesab edilməsini və ipotekaya xitam verilməsini şərtləndirir.

26. Məhkəmə gəldiyi nəticəni Mülki Məcəllənin 273, 319.5, 337.1, 337.4, 337.5, 415.1, 415.4, 415.5, 416.1, 416.2, "İpoteka haqqında" Azərbaycan Respublikası Qanunun 41.5, 42.1, 42.3, 42.8, 43.1, 43.3, 43.4, 43.5, 43.6, 43.7, 43.7-1, 43.8, 44-cü maddələrinə istinadla əsaslandırmışdır.

Kassasiya şikayətinin və ona etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

27. Cavabdeh "XBank" ASC-nin ləğvedicisi Əmanətlərin Sığortalanması Fondu (vəkil) kassasiya şikayəti verərək qətnamənin ləğv edilməsi və iddia tələbinin təmin edilməməsini xahiş etmişdir.

28. Kassasiya şikayəti onunla əsaslandırılmışdır ki, "İpoteka haqqında" Azərbaycan Respublikası Qanunun 43.7-ci maddəsində qeyd edilən "bu Qanunun 43.1.1-ci maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, hərrac digər səbəblərə görə b a ş tutmamış elan edildikdə ipoteka saxlayan ipoteka predmetini təkrar hərracdakı satış qiymətindən 25 faiz az olmayan qiymətlə ala bilər, bu şərtlə ki, ipoteka predmetinin ən aşağı satış qiyməti ən azı hüquqlarının qeydiyyat növbəliliyinə görə ipoteka predmetini satın alan ipoteka saxlayandan üstün olan digər ipoteka saxlayanların tələblərinin ödənilməsi üçün kifayət qədər olsun" hissəsindəki 43.1.1 –ci hissə - hərraca iki nəfərdən az adamın gəlməsi heç kimin gəlməməsi kimi deyil (bir nəfər iştirak etdikdə 43.6-cı maddə tətbiq olunardı) bir nəfərin (ikinci hərracda heç kim iştirak etməmişdir) gəlməsini ehtiva edir. Bu səbəbdən hesab edirlər ki, iddiaçının irəli sürdüyü tələb əsasızdır və rədd edilməlidir.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

29. İddiaçı kassasiya şikayətinə qarşı etiraz təqdim edərək kassasiya şikayətinin təmin edilməməsi, apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin dəyişdirilmədən saxlanılmasını xahiş etmişdir.

30. Etirazı apellyasiya şikayəti və apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin məzmununa uyğun əsaslandırmış və əlavə olaraq qeyd etmişdir ki, "İpoteka haqqında" Qanunun ipoteka predmetinin açıq hərracdan satışı ilə bağlı keçirilmiş və baş tutmamış təkrar hərracından sonrakı münasibətləri tənzim edən 43.7- ci maddəsindən aydın olur ki, ilkin hərracda həmin Qanunun 43.1.1-ci maddəsində göstərilən hal baş verdiyindən (daha öncə ilkin hərracda iki nəfərdən az alıcı gəlməsi əsası ilə hərrac baş tutmadığından) əmlak ipoteka saxlayan tərəfindən yalnız təkrar hərracdakı qiymətlə alına bilərdi və onun qiymətinin 25% aşağı salınaraq ipoteka saxlayan tərəfindən əldə edilməsinə şərait yaradılması qanunsuz və əsassız olmuşdur.

31. "İpoteka haqqında" Qanunun 43.7-ci maddəsini həmin Qanunun ilkin hərracn baş tutmaması əsaslarını müəyyən edən 43.1-ci maddəsinin kontekstində şərh etdikdə müəyyən olunur ki, ilkin hərraca iki nəfərdən az alıcı gəldiyi hal istisna olmaqla, əmlakın ilkin hərracı digər əsaslar üzrə (iştirakçının olmaması və ya əmlakı əldə etmək barədə qəti niyyətinin olmaması) baş tutmadıqda ipoteka saxlayan ipoteka predmetini təkrar hərracdakı satış qiymətindən 25 faiz az olmayan qiymətlə ala bilər.

32. Analoji müddəa əmlakın təkrar hərracdakı ilkin satış qiymətinin müəyyən edilməsi ilə bağlı şərtlərdə də mövcuddur. "İpoteka haqqında" Qanunun 43.5-ci maddəsinə əsasən təkrar hərrac bu Qanunun 42-ci maddəsində nəzərdə tutulmuş qaydada keçirilir. Hərracın təşkilatçısı ipoteka predmetini ilkin satış qiymət ilə, hərracın iştirakçısı olmadığına görə hərracın baş tutmadığı səbəbə görə isə ilkin satış qiymətindən 15 faiz aşağı qiymətlə hərraca çıxara bilər, bu şərtlə ki, ipoteka predmetinin ən aşağı satış qiyməti ən azı hərracın keçirilməsi xərclərinin və hüquqlarının qeydiyyat növbəliliyinə görə ipoteka predmetini açıq hərracdan satan ipoteka saxlayandan üstün olan digər ipoteka saxlayanların tələblərinin ödənilməsi üçün kifayət qədər olsun. Başqa sözlə, ilkin hərracda ən azı 1 nəfər iştirakçı olmuşsa onun təkrar hərracda 15 faiz aşağı qiymətlə hərraca təkrara hərraca çıxarılmasına, ilkin hərracda əmlaka alıcı marağı mövcud olmuşdursa və hərrac həmin alıcıdan asılı olmayan səbəblərdən baş tutmamışdırsa (ilkin hərracın baş tutması üçün minimum 2 nəfər iddiaçının iştirakı tələb olunur) bu zaman əmlakın ilkin satış qiymətinin təkrar hərracda və təkrar hərrac baş tutmadıqdan sonra ipoteka saxlayan tərəfindən 25% aşağı qiymətlə əldə etməsi üçün heç bir iqtisadi, məntiqi və ya hüquqi əsas və zərurət yoxdur.

33. "İpoteka haqqında" Qanunun təkrar hərracın hüquqi rejimini müəyyən edən 43.543.6-cı maddələrinin məzmunundan göründüyü kimi təkrar hərracın baş tutması üçün heç də həmin Qanunun 43.1-ci maddələrində göstərilmiş halların istisna edilməsinə ehtiyac yoxdur. Belə ki, "İpoteka haqqında" Qanunun 43.6-cı maddəsinə əsasən təkrar hərracda bir iştirakçı olduqda hərrac baş tutmuş hesab olunur və bu halda həmin şəxs hərracın qalibi olur. Beləliklə, "İpoteka haqqında" Qanunun təkrar hərracın təşkilinin hüquqi rejimini müəyyən edən istinad olunmuş normalarından aydın olur ki, həmin Qanunun 43.7-ci maddəsində ipoteka saxlayanın ipoteka predmetini təkrar hərracdakı satış qiymətindən 25 faiz az olmayan qiymətlə almaq imkanını istisna edən hal (bu Qanunun 43.1.1-ci maddəsində nəzərdə tutulmuş hal - hərraca iki nəfərdən az alıcı gəldikdə) məhz onun satış xronikasının birinci hərracdakı yekunları ilə müəyyən edilir. Çünki, təkrar hərrac iki nəfərdən az alıcı gəldikdə də baş tutmuş olur. Bununla da "İpoteka haqqında" Qanunun 43.7-ci maddəsinin normativ, qrammatik, məntiqi və

kontekstual təfsirindən müəyyən olunur ki, tutma yönəldilmiş ipoteka predmetinin açıq hərracdan satışı zamanı onun ilkin hərracı iki nəfərdən az alıcının (1 nəfər alıcının) hərraca gəlməsi əsası ilə baş tutmadıqda ipoteka saxlayan təkrar hərrac baş tutmamış elan edildikdən sonra 30 təqvim günü ərzində həmin əmlakı yalnız təkrar hərracdakı satış qiyməti ilə əldə etmək imkanına malikdir. Lakin işin hallarından göründüyü kimi 1 nəfər alıcı ilkin hərracdan əvvəl açıq hərraca çıxarılmış əmlak üzrə müəyyən olunmuş beh məbləğini ödəyərək 09.06.2022-ci il tarixinə təyin edilmiş ilkin hərracda iştirak etmiş, ilkin hərrac "İpoteka Haqqında" Qanunun 43.1.1.-ci maddəsinə əsasən (hərraca iki nəfərdən az alıcı gəldikdə) baş tutmamış elan edilmiş, hərracın təşkilatçısı "İpoteka haqqında" Qanunun 43.5-ci maddəsinin tələbinə riayət edərək ilkin hərracın iştirakçısı olduğuna görə əmlakı təkrar hərraca da ilkin satış qiymətinə çıxarsa da, təkrar hərrac baş tutmamış elan edildikdən sonra bu dəfə "İpoteka haqqında" Qanunun 43.7-ci maddəsinin tələbini pozaraq həmin normada müəyyən edilmiş istisna hal baş verməsinə baxmayaraq (Bu Qanunun 43.1.1-ci maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla) əmlakı təkrar hərracdakı satış qiymətindən 25 faiz aşağı qiymətə ipoteka saxlayana satmışdır.

Tətbiq edilən hüquq

"İpoteka haqqında" Azərbaycan Respublikası Qanunu

34. Maddə 43.1.Hərracın təşkilatçısı aşağıdakı hallardan biri baş verdikdə hərracın baş tutmadığı barədə hərracın keçirilməsinə dair elanın verildiyi mediada və özünün rəsmi internet saytında məlumat dərc etdirir: 43.1.1. hərraca iki nəfərdən az alıcı gəldikdə; 43.1.2. hərracın iştirakçısı olmadıqda; 43.1.3. hərracı udmuş iştirakçı hərracın nəticələri barədə protokol imzalamaqdan imtina etdikdə; 43.1.4. hərracı udmuş iştirakçı bu Qanunla müəyyən olunmuş müddətdə alış qiymətini tamamilə ödəmədikdə, bu şərtlə ki, ipoteka saxlayanın razılığı ilə həmin müddət uzadılmasın.

35. Maddə 43.6. Təkrar hərracda bir iştirakçı olduqda hərrac baş tutmuş hesab olunur və bu halda həmin şəxs hərracın qalibi olur.

36. Maddə 43.7. Bu Qanunun 43.1.1-ci maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, hərrac digər səbəblərə görə baş tutmamış elan edildikdə ipoteka saxlayan ipoteka predmetini təkrar hərracdakı satış qiymətindən 25 faiz az olmayan qiymətlə ala bilər, bu şərtlə ki, ipoteka predmetinin ən aşağı satış qiyməti ən azı hüquqlarının qeydiyyat növbəliliyinə görə ipoteka predmetini satın alan ipoteka saxlayandan üstün olan digər ipoteka saxlayanların tələblərinin ödənilməsi üçün kifayət qədər olsun

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi

37. Maddə 14.2 Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

38. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

39. Maddə 77.3. İşdə olan sübutlar əsasında işə baxmaq mümkün olmadıqda, məhkəmə zəruri əlavə sübutlar təqdim etməyi tərəflərə təklif edə bilər.

40. Maddə 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir.

41. Maddə 407.2. Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir.

42. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

43. Maddə 417.1.4. apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadını tamamilə, yaxud qismən ləğv edib apellyasiya instansiyası məhkəməsində müəyyən edilmiş hallar və sübutlar əsasında yeni qərar qəbul edə bilər.

44. Maddə 418.3 Prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması qətnamənin yaxud qərardadın ləğv edilməsi üçün o vaxt əsas ola bilər ki, bu pozuntu düzgün qətnamə qəbul edilməməsi ilə nəticələnsin və ya nəticələnə bilsin.

Kassasiya baxışının hədləri

45. Qanunun tələbinə görə, kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

46. Hazırkı kassasiya şikayətində qətnamə cavabdeh Bank tərəfindən tam mübahisələndirildiyindən apellyasiya instansiyası məhkəməsinin aktı bütövlükdə yoxlanılır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

47. Məhkəmə kollegiyası hesab edir ki, apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi hüquq normaları düzgün tətbiq edilməmiş, hüququn tətbiqində səhvə yol verilmişdir və aşağıdakı əsaslara görə qətnamə ləğv edilərək apellyasiya instansiyası məhkəməsində müəyyən edilmiş hallar və sübutlar əsasında iddianın rədd edilməsi barədə yeni qərar qəbul edilməlidir.

48. İşin məhkəmələr tərəfindən müəyyən edilmiş mübahisəsiz hallarına görə əvvəllər iddiaçıya məxsus ipoteka predmeti olan bağ evinə qanuni qüvvəsini almış məhkəmə qətnaməsinə əsasən tutma yönəldilmiş, icra mərhələsində hərrac təşkilatçısı olan MMC tərəfindən bağ evinin ilkin satış qiyməti 300000 manat olmaqla 09.06.2022-ci il tarixə ilkin hərrac təşkil edilmiş, ilkin hərracda cəmi bir alıcının iştirak etməsi səbəbindən hərrac baş tutmamış elan olunmuşdur. Bundan sonra, ipoteka predmeti ilkin satış qiymətinə ipoteka saxlayana təklif edilmiş, lakin 10 gün müddətinə ipoteka predmeti sonuncu tərəfindən əldə edilmədiyinə görə, 29.06.2022-ci il tarixə ilkin satış qiymətinə (300000 manat) təkrar hərrac təyin edilmişdir. Təkrar hərrac iştirakçısı olmadığına görə baş tutmamış elan edilmiş, hərrac təşkilatçısı ipoteka predmeti olan bağ evini ipoteka saxlayana 25 faiz aşağı olan qiymətə (225000 manat) təklif etmiş, ipoteka saxlayan təklifə müsbət cavab verərək 01.08.2022-ci il tarixdə əmlakı satın almışdır.

49. İddiaçı hərracın nəticələrinin etibarsız hesab edilməsi ilə bağlı tələb irəli sürərək məhz ipoteka predmetinin 25 faiz aşağı qiymətə satılmaqla hərrac təşkilatçısı tərəfindən “İpoteka haqqında” Qanunun tələblərinin pozulmasına istinad etmiş, birinci instansiya məhkəməsi iddianı əsassız hesab edərək rədd, apellyasiya instansiyası məhkəməsi isə əksinə, təmin etmişdir.

50. İddianı əsaslı hesab edən apellyasiya instansiyası məhkəməsinin mövqeyinə görə, 29.06.2022-ci il tarixdə keçirilmiş təkrar hərrac baş tutmadıqdan sonra hərrac təşkilatçısı ilkin hərracın iki nəfərdən az iştirakçının olmaması əsası ilə baş tutmamasını nəzərə almadan,

bununla da “İpoteka haqqında” Qanunun tələblərini pozaraq, ipoteka predmetini təkrar hərracdakı satış qiymətindən 25 faiz aşağı qiymətlə ipoteka saxlayana təklif etmiş və əmlak sonuncu tərəfindən həmin qiymətə qəbul edilmişdir.

51. Apellyasiya instansiyası məhkəməsinin yanaşmasına görə, adıçəkilən Qanunun 43.7-ci maddəsi hərrac zamanı ipoteka predmetinin qiymətinin dəyişməsinə təsiri baxımından hərraca iki nəfərdən az alıcının gəlməsi halını (43.1.1-ci maddə) hərracın baş tutmamasının digər hallarından ayıraraq, qiymətin dəyişməməsinə təsir edən istisna hal kimi müəyyən etmiş və hərrac yalnız digər səbəblərə görə baş tutmamış elan edildikdə ipoteka predmetinin təkrar hərracdakı satış qiymətindən 25 faiz az olmayan qiymətlə ipoteka saxlayana təklif edilməsinin (onun tərəfindən əldə edilməsinin) mümkünlüyünü təsbit etmişdir. Qanunun 43.7-ci maddəsi ilkin hərracda olduğu kimi, yalnız təkrar hərracda iki nəfərdən az alıcının iştirak etməsinin ipoteka predmetinin təkrar hərracdakı satış qiymətindən 25 faiz az olmayan qiymətə ipoteka saxlayana təklif edilməsinin mümkünlüyünü təsbit etməmiş, yəni bu müddəa məzmun etibarı ilə belə bir anlamda qəbul edilməməlidir və qəbul edilə də bilməz.

52. Məhkəmə kollegiyası hesab edir ki, apellyasiya instansiyası məhkəməsinin sözügedən mövqeyi düzgün olmamışdır. Belə ki, hərracın baş tutmaması ilə bağlı əsaslar “İpoteka haqqında” Qanunun 43.1-ci maddəsində göstərilmişdir. Həmin maddənin məzmununa görə, yalnız 4 halda hərrac baş tutmamış elan edilməlidir: hərraca iki nəfərdən az alıcı gəldikdə (43.1.1.); hərracın iştirakçısı olmadıqda (43.1.2.); hərracı udmuş iştirakçı hərracın nəticələri barədə protokol imzalamaqdan imtina etdikdə (43.1.3.); hərracı udmuş iştirakçı bu Qanunla müəyyən olunmuş müddətdə alış qiymətini tamamilə ödəmədikdə, bu şərtlə ki, ipoteka saxlayanın razılığı ilə həmin müddət uzadılmasın(43.1.4.).

53. “İpoteka haqqında” Qanunun 43-cü maddəsinin məzmunu hərracın baş tutmamış elan edilməsinin əsaslarının və dərc edilməsinin ümumi qaydalarını müəyyən etsə də, bundan sonrakı mərhələni iki hissəyə ayırmaqla baş tutmamış ilkin və baş tutmamış təkrar hərracın nəticələrinə dair fərqli qaydalar müəyyən etmişdir.

54. Qanunverici ilkin hərracın baş tutmamasının nəticəsi ilə bağlı nəzərdə tutmuşdur ki, hərracın baş tutmaması barədə elanın dərc edildiyi gündən sonra 10 təqvim günü müddətində ipoteka saxlayan ipoteka qoyanla müqavilə əsasında ipoteka predmetini ilkin satış qiymətilə ala bilər. (maddə 43.3) Bu hal baş vermədiyi halda, növbəti mərhələyə təkrar hərraca keçid müəyyən edilmiş və təkrar hərraca aid xüsusi qaydalar Qanunun 43.4-43.8-ci maddələrində əksini tapmışdır.

55. Təkrar hərracın baş tutmamış elan edilməsindən sonrakı qaydanı müəyyən edən “İpoteka haqqında” Qanunun 43.7-ci maddəsinə görə, bu Qanunun 43.1.1-ci maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, hərrac digər səbəblərə görə baş tutmamış elan edildikdə ipoteka saxlayan ipoteka predmetini təkrar hərracdakı ilkin satış qiymətindən 25 faiz az olmayan qiymətlə ala bilər, bu şərtlə ki, ipoteka predmetinin ən aşağı satış qiyməti ən azı hüquqlarının qeydiyyat növbəliliyinə görə ipoteka predmetini satın alan ipoteka saxlayandan üstün olan digər ipoteka saxlayanların tələblərinin ödənilməsi üçün kifayət qədər olsun.

56. Etirazın dəlili ondan ibarətdir ki, hazırkı vəziyyətdə birinci hərracda 1 nəfər şəxs iştirak etdiyindən ipoteka predmeti ipoteka saxlayana 25 faiz aşağı qiymətə satıla bilməzdi, çünki, 43.1.1-ci maddədəki hal (birinci həracda iki nəfərdən az alıcı gəlməsi) 43.7-ci maddə ilə istisna edilmişdir.

57. Məhkəmə kollegiyası kassasiya şikayətinin dəlillərini əsaslı hesab edərək qeyd edir ki, Qanunun 43.1-ci maddəsində hərracın baş tutmamasının əsasları ümumilikdə qeyd edilsə də, qanunverici əsaslardan birincisini - hərraca iki nəfərdən az alıcı gəlməməsi (43.1.1.) halını

fərqləndirərək yalnız ilkin hərracın baş tutmama əsası kimi müəyyən etmişdir. Çünki, həmin Qanunun 43.6-cı maddəsində xüsusi qayda kimi müəyyən edilmişdir ki, təkrar hərracda bir iştirakçı olduqda hərrac baş tutmuş hesab olunur və bu halda həmin şəxs hərracın qalibi olur.

58. Göründüyü kimi, Qanunun 43.1-ci maddəsində hərraca iki nəfərdən az alıcının gəlməsi ümumi əsas kimi göstərildiyi halda, 43.6-cı maddədə xüsusi normanın müəyyən edilməsi təkrar hərracın 43.1.1-ci maddədə nəzərdə tutulan əsasla baş tutmamış elan edilməsini istisna edir.

59. "İpoteka haqqında" Qanunun 43.3-cü maddəsi ilkin, 43.7-ci maddəsi isə təkrar hərracın baş tutmaması halında ipoteka predmetinin ipoteka saxlayan tərəfindən əldə edilməsi müddətini (ilkin hərrac baş tutmadıqda 10 gün, təkrar hərrac baş tutmadıqda 30 təqvim günü) və qaydasını (ilkin hərrac baş tutmadıqda ilkin satış qiyməti ilə, təkrar hərrac baş tutmadıqda isə təkrar hərracdakı satış qiymətindən 25 faiz az olmayan olmayan qiymətlə) müəyyən edir.

60. Məhkəmə kollegiyası qeyd edir ki, "İpoteka haqqında" Qanunun təkrar hərracın baş tutmaması halında ipoteka saxlayana olunan təklifin qayda və şərtlərini müəyyən edən 43.7-ci maddəsində 43.1.1-ci maddə ona görə istisna hal kimi nəzərdə tutulmuşdur ki, bu halın mümkünlüyü 43.6-cı maddə ilə təkzib edilir, yəni, təkrar hərracda iki nəfərdən az alıcı gəlməsi əsası ilə hərracın baş tutmaması mümkün deyildir, çünki bu halda hərrac baş tutmuş hesab olunur və gəlmiş şəxs hərracın qalibi olur.

61. Məhkəmə kollegiyası həmçinin onu da qeyd etməyi zəruri hesab edir ki, ilkin hərracın iki nəfərdən az alıcı gəlməsi əsasına görə baş tutmamasının ipoteka qoyanın mənafeyi baxımından üstünlüyü ondan ibarətdir ki, əmlak təkrar hərraca ilkin satış qiyməti ilə çıxarılır, 43.5-ci maddədə göstərilən əmlakın dəyərinin 15 faiz azalması qaydası bu halda tətbiq edilə bilməz. Təkrar hərracın baş tutmamasından sonra da ipoteka predmetinin eyni əsasa təkrar istinad edilməklə 43.7-ci maddədə nəzərdə tutulan 25 faiz azalma faizi tətbiq edilmədən (ilkin satış qiyməti ilə) ipoteka saxlayana təklif edilməsi halı olarsa, bu hal ipoteka qoyanın maraqlarına xidmət etsə də, ipoteka saxlayanın mənafeyinə ziddir. Yəni, qanunverici eyni əsasla ipoteka qoyana yalnız bir dəfə (təkrar hərrac zamanı satış qiyməti müəyyənləşdirilərkən) güzəşt tətbiq edilməsi qaydasını müəyyənləşdirərkən, bunu həm ipoteka qoyanın, həm də ipoteka saxlayanın maraqlarına uyğun balanslaşdırmaqla hər iki tərəfin mümkün mənafelərinin qorunması məqsədini daşımışdır.

62. Bunun əksi, hüquqdan sui-istifadə hallarına yol açа, başqa sözlə, birinci hərracda bir alıcının iştirak edib təkrar hərraca gəlməməsi kimi süni görünüş yaratmaqla hərrac təşkilatçısına əmlakı ipoteka qoyana yalnız ilkin satış qiyməti ilə təklif edilməsindən başqa çıxış yolu buraxmamaqla nəticələnə, bununla da kreditorun mənafelərinin pozulmasına gətirib çıxara bilər.

63. Məhkəmə kollegiyası bir daha qeyd edir ki, Qanunun 43.7-ci maddəsində nəzərdə tutulan istisna 43.6-cı maddənin məzmununu ehtiva etdiyindən, təkrar hərracın baş tutmaması zamanı əmlakın ipoteka saxlayana təklif edilməsinin yalnız bir qaydası müəyyən edilmişdir: ipoteka saxlayan ipoteka predmetini təkrar hərracdakı satış qiymətindən 25 faiz az olmayan qiymətlə ala bilər, bu şərtlə ki, ipoteka predmetinin ən aşağı satış qiyməti ən azı hüquqlarının qeydiyyat növbəliliyinə görə ipoteka predmetini satın alan ipoteka saxlayandan üstün olan digər ipoteka saxlayanların tələblərinin ödənilməsi üçün kifayət qədər olsun.

64. Beləliklə, məhkəmə kollegiyası hesab edir ki, apelyasiya instansiyası məhkəməsinin qətnaməsi ləğv edilməli, iddia rədd edilməlidir.

65. Yuxarıda göstərilənlərə əsasən və MPM-in 416, 417 və 419-cu maddələrini rəhbər tutaraq, Məhkəmə kollegiyası

Qərara aldı:

Kassasiya şikayəti təmin edilsin.

Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 02 noyabr 2023-cü il tarixli, 2(103)-5609/2023 saylı qətnaməsi ləğv edilsin, iş üzrə yeni qərar qəbul edilsin.

İddiaçının cavabdehlər "XXX" MMC-yə, ləğv prosesində olan “X Bank” ASCyə, “Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri" Publik Hüquqi Şəxsin 2 saylı Sumqayıt Ərazi İdarəsinə qarşı (Sumqayıt şəhəri üzrə İcra idarəsi mübahisə predmeti barəsində müstəqil tələblər irəli sürməyən üçüncü şəxs qismində işə cəlb edilməklə) "hərracın nəticələrinin etibarsız hesab edilməsi” tələbinə dair iddiası rədd edilsin.

Qərar qətidir və qəbul edildiyi andan qüvvəyə minir.

17. 2(102)-1687/2024 nömrəli, 2024-cü il 24 sentyabr tarixli qərar - Əqdin təfsiri, yalan əqd - daşınar əşyalara münasibətdə

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: əqdin təfsiri, yalan əqd – daşınar əşyalara münasibətdə.

Cavabdeh daşınar əşyaları iddiaçıya satdıqdan sonra alıcı onların dəyərini ödəməyi öhdəsinə götürmüş, bununla əlaqədar olaraq tərəflər arasında kredit müqaviləsi rəsmiləşdirilmişdir. İş üzrə iddiaçı kredit müqaviləsinin formal olaraq bağlanmasına istinad edərək əqdin etibarsız sayılmasını xahiş etmişdir.

Apellyasiya instansiyası məhkəməsi iddianı təmin etmiş, müqaviləni yalan əqd kimi qiymətləndirərək iddiaçının nisyə aldığı malların dəyərini gələcəkdə ödəmək barədə üzərinə götürdüyü öhdəliyi təmin etmək üçün əqd bağladığını bildirmişdir.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Müqavilənin yalan əqd olması səbəbindən etibarsız sayılması üçün Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 340.2-ci maddəsinin şərh edilməsinə dair” 18 mart 2022-ci il tarixli Qərarında sadalanan şərtlərin hər biri məhkəmə tərəfindən mötəbər və kifayətedici sübutlarla təsdiq olunmalıdır. Onlardan birinin sübuta yetirilməməsi MM-in 340.2-ci maddəsinə söykənən tələbin rədd edilməsi üçün əsasdır.

Buna baxmayaraq, kredit müqaviləsini yalan əqd sayan apellyasiya məhkəməsi yalnız tərəflər arasında əşyaların nisyə alqı-satqısına dair münasibətlər təsbit olunduğunu bildirməklə kifayətlənmiş, sözügedən borc müqaviləsini əslində hüquq və öhdəliklər əmələ gətirmək niyyəti olmadan, başqa bir əqdi gizlətmək, eləcə də hər hansı bir mənfəət əldə etmək üçün üçüncü şəxslərdə buna dair fikir formalaşdırmaq və görüntü yaratmaq məqsədilə bağladıqlarını iddiaçının sübuta yetirdiyini əsaslandırmamışdır. Halbuki, belə bir əsaslandırma aparılmadan bir əqdin MM-in 340.2-ci maddəsi ilə yalan (əhəmiyyətsiz) hesab edilməsi yolverilməzdir.

Baxılan işin halları tərəflər arasında alqı-satqı müqaviləsindən irəli gələn hüquq münasibətlərinin yarandığına dəlalət edir. Nisyə satış halında əşyanın alıcı tərəfindən ödənilməli olan dəyərinin sonradan yazılı şəkildə borclu tərəfindən etiraf olunmasına hüquqi baxımdan maneə yoxdur.

Belə olan halda, mübahisəli kredit müqaviləsi bağlanarkən tərəflərin həmin alqı-satqı müqaviləsindən irəli gələn borcu sənədləşdirmək düşüncəsi ilə hərəkət edib-etməmələrinin müəyyən edilməsi əhəmiyyət kəsb edir. Odur ki, notariat orqanında kredit müqaviləsinin təsdiqlənməsi ilə əslində mövcud borcun sənədləşdirilməsi sübuta yetirildikdə, bu hal həmin əqdin yalan (əhəmiyyətsiz) hesab edilməsinə deyil, müqavilənin təfsir edilməsinə əsas ola bilər. Başqa sözlə, alıcının mövcud borcu kredit müqaviləsi kimi rəsmiləşdirildikdə tərəflər arasında olan münasibətin həqiqi xarakteri əsas götürülməklə həmin müqavilənin borcun etirafı kimi təfsir edilməsi imkanları nəzərdən keçirilməlidir.

Qanun da bunu tələb edir ki, məhkəmə müqavilə şərtlərini təfsir edərkən təkcə müqavilədəki söz və ifadələrin hərfi mənasını deyil, həm də tərəflərin iradə ifadəsinin həqiqi mənasını, bütövlükdə müqavilənin hərfi mənasının onun digər şərtləri və mənası ilə müqayisəsini, o cümlədən müqaviləyə qədərki danışıqlar və yazışmalar, tərəflərin qarşılıqlı münasibətlərində yaranmış praktika, işgüzar adətlər, tərəflərin sonrakı hərəkətlərini nəzərə alsın.

2(102)-1687/2024

24.09.2024-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi
Mülki kollegiyasının

İddiaçının cavabdehlər Cavabdeh 1 və Bakı şəhəri 21 saylı Dövlət Notariat Kontoruna qarşı iş üzrə
Q Ə R A R I

(Açar sözlər: yalan əqd, alqı-satqı müqaviləsi, daşınar əşya üzərində mülkiyyət hüququnun əldə edilməsi,ədalətli məhkəmə araşdırması hüququ)

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, Əliyev Zaur Əli oğlu (məruzəçi), Babayev Zəki Baba oğlu və Xıdırov Əhliman Mehman oğlundan ibarət tərkibdə,

Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(103)-560/2024 nömrəli, 9 yanvar 2024-cü il tarixli qətnaməsindən cavabdeh tərəfindən verilmiş kassasiya şikayətinə Ali Məhkəmənin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları

1. Bakı şəhəri 21 saylı Dövlət Notariat Ofisində bağlanmış 9.1.2023-cü il tarixli kredit (borc) müqaviləsinə əsasən Cavabdeh 1 (borc verən) İddiaçıya (borc alan) 360000 manat məbləğində pulu notariusun bankda açılmış depozit hesabı vasitəsilə borc vermişdir. "Borc alan" krediti 30.4.2024-cü il tarixədək "Borc verənə" 40000 manat 31.1.2023-cü ilədək, 20000 manat 10.2.2023-cu ilədək, qalan 300000 manat isə 2023-cü ilin fevral ayından başlayaraq hər ayın son iş günü olmaqla 15 ay müddətinə aylıq 20000 manat ödəməklə notariusun depozit hesabı vasitəsilə qaytarmağı öz öhdəsinə götürmüşdür.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

Birinci instansiya məhkəməsində icraat

2. İddiaçı cavabdehlərə qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, Cavabdeh 1 ilə arasında 9.1.2023-cü il tarixdə Bakı şəhəri 21 saylı dövlət notariat ofisində formal olaraq bağlanılmış kredit (borc) müqaviləsinin etibarsız hesab edilməsi və tərəfindən ödənilmiş 101 manat dövlət rüsumunun cavabdeh Cavabdeh 1-dən tutularaq ona ödənilməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

3. İddiaçı tələbini belə əsaslandırmışdır ki, müqavilə tərtib edilərkən özü notariat ofisində olmamışdır. Sadəcə müqavilə hazır olduqdan sonra 18:30 radələrində notariat ofisinə daxil olmuş və müqaviləni imzalamışdır. Müqavilə bağlanan zaman notariat ofisində fəaliyyət göstərən bankın kassası bağlı olmuşdur. Müqavilə şərtlərinə görə borcverən 360000 manat pulu notariusun bankdakı depozit hesabı vasitəsilə borcalana borc verir. Borcalan krediti 30.4.2024-cü il tarixədək, borcverənə 40000 manatı 31.1.2023-cü il tarixədək; 20000 manatı 10.2.2023-cü il tarixədək, qalan 300000 manatı isə 2023-cü ilin fevral ayından başlayaraq hər ayın son iş günü olmaqla 15 ay müddətinə aylıq 20000 manat ödəməklə notariusun depozit hesabı vasitəsilə qaytarmağı öz öhdəsinə götürür. Belə formal əqdin bağlanılması üçün cavabdeh onunla dəfələrlə telefonla danışmış (səs yazıları mövcuddur), notariusun onun dostu olduğunu bildirmişdir. Tərəflər müqavilə bağlamazdan əvvəl Ünvan 2 ərazisində yerləşən avtomobil ehtiyat hissələri mağazası və orada olan mallar barədə razılığa gəlmişlər. Həmin avtomobil hissələrinin satıldığı obyekt başqa fiziki şəxsin adınadır və hazırda əmlak sahibi ilə onun arasında icarə müqaviləsi mövcuddur. Cavabdeh 1 əvvəl özü həmin mağazanı işlətmiş, mağazanın satış üçün əlverişli olmadığını görən cavabdeh mallarla birlikdə həmin biznesi başqa şəxsə ötürmək qərarına gəlmişdir. Mağazada olan satış üçün nəzərdə tutulmuş konstruksiyalar, mebel və kompüter avadanlıqları Cavabdeh 1-ə məxsus olmuş, həmin avandanlıqlar qiymətləndirici dəvət edilmədən şərti olaraq 100000 manat qiymətləndirilmişdir. Müqavilədə öz əksini tapan 360000 manatın həmin hissəsi şərti olaraq dəyərləndirilmiş avandanlıqlardır (həmin avandanlıqların real bazar qiyməti qeyd edilən məbləğdə deyil, aşağı qiymətədir). Bundan başqa, Cavabdeh 1-ə məxsus bahalı ticarət proqramı da həmin müqaviləyə salınmışdır. Dəyəri 20000 manat olan həmin proqram artıq cavabdehə qaytarılmış və özü artıq başqa proqram vasitəsilə işlərini həyata keçirir. Razılaşma barədə söhbət apararkən məlum olmuşdur ki, müəyyən firmalar mağazaya nisyə 100000 manat dəyərində mal vermiş və onun pulu ödənilməmişdir. Cavabdeh tərəfindən bu məsələ ilə bağlı bildirilmişdir ki, bir-iki gün ərzində həmin borclar bağlanacaq və heç bir problem olmayacaqdır. Həmin firmalar hazırda növbəti mərhələ malların verilməsini dayandırmışdır. Belə olan halda, normal şəkildə həmin mağazada fəaliyyət göstərə bilmir. Digər tərəfdən deyilən firmalar tez-tez həmin mağazaya gəlir və pulun ödənilməyəcəyi təqdirdə malların məcburi qaydada götürüləcəyi ilə hədələyirlər. Qarşı tərəfə bu haqda dedikdə polis orqanlarına müraciət etməyi bildirmişdir.

Özünün aldadıldığını və nəzərdə tutduğu deyil, başqa müqaviləni imzaladığını başa düşmüşdür. Tərəfindən mübahisənin həlli ilə bağlı iki təklif irəli sürülmüşdür: 1) müqavilə şərtlərinə dəyişiklik edilməklə malların və avadanlıqların real qiyməti, 20000 manat proqrama aid pulu çıxmaqla yerdə qalan məbləğlə yeni müqavilə bağlamaq; 2) tərəflər əvvəlki vəziyyətə qayıtmaqla və malları təhvil verməklə müqaviləni ləğv etmək. Lakin hər iki ağlabatan təkliflə cavabdeh tərəf razılaşmır və onu dələduz adlandıraraq ona verilməyən borc məbləğini geri istəyir. Belə olan halda, hüquqların bərpa edilməsi üçün məhkəməyə müraciət etmək zərurəti yaranmışdır. Digər tərəfdən, həmin mağazanı götürmək üçün özünə məxsus olan Ünvan 1-də yerləşən eyni tipli kiçik mağazasını bağlamış və beləliklə əsaslı maddi ziyanla üzləşmişdir. Ziyanın məbləği 17000 manat təşkil edir (15000 manat əldən çıxmış fayda, 2000 manat icarə və işçilərə ödənilən əmək haqqı).

4. Birinci instansiya məhkəməsində iddiaçı iddia ərizəsinin məzmununa uyğun izahat verərək bildirmişdir ki, cavabdeh obyektin içərisində olan əşyaları 360000 manat məbləğində qiymətləndirmiş, lakin 5 gün sonra malların sahibləri olan 8 firmanın nümayəndələri malları geri götürmək üçün mağazaya gəlmişlər. Dərhal cavabdeh ilə əlaqə saxladıqdan sonra cavabdehin vəkili gəlmişdir. Cavabdehin vəkilinə bu barədə məlumat versə də, heç bir nəticə verməmişdir. Firmaların nümayəndələri polisə şikayət etdikdən sonra məcburiyyət qarşısında qalaraq malları geri qaytarmışdır.

5. Birinci instansiya məhkəməsində cavabdehin nümayəndəsi və vəkili iddia tələbini qəbul etməyərək bildirmişdir ki, iddiaçı cavabdeh ilə notariusa getmiş, müqavilə notarial qaydada təsdiq edilmişdir. Borc müqaviləsi tam qanunidir və müqavilədə tərəflərin şəkilləri belə mövcuddur. Heç kəs 360000 manata boş yerə imza atmazdı. Pul iddiaçıya borc kimi verilmiş, bunun hər hansı biznesə heç bir aidiyyəti yoxdur.

6. Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin (bundan sonra – birinci instansiya məhkəməsi) 23 avqust 2023-cü il tarixli 2(005)-1625/2023 nömrəli qətnaməsi ilə (hakim Ramin Quliyev) iddia təmin edilməmişdir.

7. Birinci instansiya məhkəməsi qeyd etmişdir ki, tərəflər arasında 21 saylı dövlət notariat kontorunda 09.01.2023-cü il tarixdə bağlanılmış kredit (borc) müqaviləsi bağlanan zamanı notariat hərəkətlərinin aparılması ilə bağlı qanunvericiliyin müddəalarına riayət olunmuş, müqavilə bağlanan zaman İddiaçıya münasibətdə müqavilənin etibarsızlığına səbəb olacaq əsaslar aşkar edilməmişdir. Belə ki, iddiaçının bildirdiyinin əksinə olaraq müqavilənin şərtləri ilə bağlı İddiaçının aldadılması, iradə ifadəsinə zidd müqavilə şərtləri ilə razılaşma faktı, eləcə də müqavilənin formal olaraq bağlanılması, yəni tərəflər arasında fərqli qaydada hesablaşma qaydası iş materialları ilə öz təsdiqini tapmamış, məhkəmə araşdırması zamanı bunu təsdiq edən əsaslar müəyyən olunmamışdır. İddia ərizəsində qeyd olunmuş Ünvan 2 ərazisində yerləşən avtomobil ehtiyat hissələri mağazası və orada yerləşən avadanlıqların şərti olaraq qiymətləndirilərək İddiaçıya verilmiş borcun tərkib hissəsi kimi nəzərdə tutulması tərəflər arasında bağlanmış kredit (borc) müqaviləsində nəzərdə tutulmamış, həmçinin tərəflər arasında bu formada razılığa gəlinməsi məhkəməyə təqdim edilmiş mötəbər sübutlarla təsdiq olunmadığına görə iddiaçının avtomobil ehtiyat hissələri mağazası və orada yerləşən avadanlıqlar ilə bağlı müqavilə şərtləri barəsində aldadılma, iradə ifadəsinə zidd əqdi bağlama haqqında iddiaları müqavilənin etibarsızlığına dair nəticəyə gəlinməsi üçün kifayət deyildir.

8. İddiaçı ilə Cavabdeh 1 arasında bağlanmış müqavilədə nəzərdə tutulan şərtlərdən fərqli olaraq cavabdeh tərəfindən iddiaçıya avtomobil ehtiyat hissələri mağazasının borc məbləğinin tərkib hissəsi kimi verilməsi kimi bir razılaşma, eləcə də qeyd olunan obyektin Cavabdeh 1-ə məxsusluğu və İddiaçıya aralarında mövcud olan hər hansı bir razılaşma iş materiallarında olan sübutlarla öz təsdiqini tapmamış, tərəflər arasında belə bir sövdələşmə barədə niyyət müəyyən edilməmişdir.

9. Məhkəmə onu da qeyd etmişdir ki, iddiaçının cavabdeh Cavabdeh 1 ilə arasında 9.1.2023-cü il tarixdə Bakı şəhəri 21 saylı notariat ofisində formal olaraq bağlanılmış kredit

müqaviləsi ilə bağlı, eləcə də həmin müqavilənin rəsmiləşdirilməsi üçün 3000 manat (həmin pulun bir hissəsini 1700 ABŞ dolları təşkil edir) rüşvət verilməsi faktı üzrə araşdırmanın aparılması məqsədilə xüsusi qərardad qəbul edilməsinə dair ərizəsində qeyd olunmuş və mübahisə predmeti olan müqavilə bağlanan zaman mövcud olduğu iddia edilən qanun pozuntuları, iddiaçı tərəfindən notariusa rüşvət verilməsi faktı iş materialları öz təsdiqini tapmamışdır. Tərəflər arasında bağlanmış kredit (borc) müqaviləsinin etibarsızlığı ilə bağlı bildirilən bu əsas müqavilənin qanunvericiliyin müddəalarına müvafiq olaraq bağlanılması, onun bağlanması prosesində iştirak edən şəxslərin əməllərində cinayət əməli və digər hüquq pozuntusu faktının aşkar edilməməsinə görə öz təsdiqini tapmamışdır. Buna görə də iddiaçı tərəfindən xüsusi qərardad qəbul edilməsi tələbi ilə bağlı verilmiş ərizə bununla bağlı əsaslar aşkar edilmədiyinə görə rədd edilməlidir.

10. Məhkəmə iddiaçı tərəfindən məhkəməyə təqdim edilmiş X1-in və X2-nin izahatları ilə bağlı qeyd etməyi zəruri hesab etmişdir ki, məhkəmə işin gedişində təqdim olunmuş ancaq o sübutları qəbul edir və nəzərə alır ki, onlar işdə tərəflərin tələblərini müəyyən edən faktlarla və hallarla əlaqədardır. Qanuna və ya digər normativ hüquqi aktlara əsasən müəyyən sübutetmə vasitələri ilə təsdiq edilməli olan işin halları başqa sübutlarla təsdiq oluna bilməz. Məhkəmə (hakim) öz qətnaməsini yalnız məhkəmə iclasında tədqiq olunmuş sübutlarla əsaslandırır (MPM-in 80, 81 və 217.4-cü maddələri). Göründüyü kimi, təqdim edilmiş izahatlar iş üzrə sübut kimi qəbul edilə bilmədiyindən, həmin izahatlarda qeyd olunanların hüquqi qüvvəsi mövcud deyildir. Ona görə də məhkəmə həmin izahatlara qiymət verməyi zəruri hesab etməmişdir.

11. Məhkəmə gəldiyi nəticəni Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra – Mülki Məcəllə) 337.1, 339.2-ci, "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 74-cü, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "B.Qasımovun şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 16 aprel 2018-ci il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair" 9.12.2019-cu il tarixli, Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Konstitusiyasının 125-ci maddəsinin VII hissəsinin Azərbaycan Respublikasının mülki prosessual qanunvericiliyi baxımından şərh edilməsinə dair" 18 mart 2019-cu il, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin

340.2-ci maddəsinin şərh edilməsinə dair" 18 mart 2022-ci il tarixli qərarlarına, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin (bundan sonra – MPM) 77, 220.5-ci maddələrinə istinadla əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

12. İddiaçı apellyasiya şikayəti verərək, birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv edilməsi və iddianın təmin edilməsi barədə yeni qətnamə çıxarılmasını xahiş etmişdir.

13. Apellyasiya şikayəti iddia ərizəsinin dəlillərinə uyğun əsaslandırılmış, əlavə olaraq qeyd edilmişdir ki, hadisə haqqında bilavasitə məlumatlı şəxslər şahid kimi ifadə vermək istəsələr də, məhkəmə tərəfindən şahidlər dindirilməmişdir.

14. Məhkəmə iclasında şahid qismində dindirilmiş X2 göstərmişdir ki, "O "XXX" MMC-nin əməkdaşıdır. Avtomobil ehtiyat hissələrinin idxalı və satışı ilə məşğul olur. Cavabdeh Cavabdeh 1 əvvəlki müştəriləri olub, İddiaçı isə ondan sonrakı müştəriləri olmuşdur. Lakin sonuncu ilə iş birlikləri baş tutmamışdır. Daha əvvəl tərəflərin heç birini tanımamışdır. İddiaçını mağazadan malları götürməyə gedəndə tanımışdır. Əvvəllər özü MMC-də anbar işçisi olmuşdur, hazırda isə operator vəzifəsində işləyir. "X" mağazasına təxminən 12000 manat dəyərində nisyə mal vermişlər. Mağazanın VÖEN-ü ilə X3 adlı şəxsə məxsus olduğunu, lakin əslində mağazanın Cavabdeh 1-ə məxsus olduğunu, sadəcə sənədləşmə işlərini X3-ün adından apardığını bilirdilər. Təxminən 2 il müddətinə mağazaya mal vermişlər. Hesablaşmalar həm köçürmə, həm də nağd formada həyata keçirilirdi. Dəqiq kimin adından əməliyyatlar həyata keçirildiyini bilmir, bu işlərlə başqa əməkdaşları məşğul olur. X4 MMC-nin direktorudur.

Anbar Ünvan 3 ünvanında, ofis isə Ünvan 2 biznes mərkəzində yerləşir. Mağazaya mal verilməsində bilavasitə özü iştirak etməmişdir, o, mağazadan malları borca görə götürəndə iştirak etmişdir. Malları götürəndə aydın olmuşdur ki, malları onlara borclu olan adamdan deyil, başqa adamdan götürürlər. İddiaçıin onlara borcu olmamışdır. X3-lə Cavabdeh 1i eyni adam kimi tanımışlar, mağaza tərəfindən onlardan alınan bütün mallar X3-ün adına qeyd edilirdi. Malları təxminən 2023-cü ilin əvvəllərində götürmüşlər. Mağazaya gedəndə iddiaçını görmüşlər, iddiaçıya nə məqsədlə getdiklərini bildirəndə, sonuncu onlara borcunun olmadığını bildirmiş, lakin malların götürülməsinə də heç bir maneəçilik yaratmamışdır. İş materiallarında olan aktın həqiqiliyini təsdiq edir. Özü şəxsən heç vaxt Cavabdeh 1 ilə görüşməmiş və danışmamışdır. MMC-nin əməkdaşları dəfələrlə Cavabdeh 1 ilə və onun adını xatırlamadığı vəkili ilə telefonla danışmışlar. Danışıqlardan bilir ki, mağazanı işlədən Cavabdeh 1 olmuşdur. Borc da mağazanın borcu olmuşdur. Cavabdeh 1 ilə İddiaçı bildiyimə görə X3 vasitəsi ilə tanış olublar.”.

15. Məhkəmə iclasında şahid qismində dindirilmiş X6 ifadəsində göstərmişdir ki, iddiaçı və cavabdehi əvvəlcədən tanımamışdır. Hər üçü Masallı rayonundandır. Cavabdeh 1 onun X3 adlı dostunun bibisioğludur. Cavabdeh 1 ilə o, X3 vasitəsi ilə tanış olmuşdur. Uzun müddətdir avtomobil ehtiyyat hissələrinin satışı sahəsində çalışır. İlk iş yeri “XX” mağazalar şəbəkəsi olmuşdur. X3 Cavabdeh 1i ona investor kimi təqdim etmiş, Cavabdeh 1-in maya buraxmağını, onun isə işi qurmağını razılaşmışlar. Bir neçə dəfə Cavabdeh 1 ilə görüşüb müzakirələr aparandan sonra “X” adlı mağaza açmağa qərara gəlmişlər. Müəyyən müddətdən sonra Cavabdeh 1 ilə ayrılmışlar. Mağaza Cavabdeh 1 tərəfindən hazır biznes şəklində satışa qoyulmuşdur. Bildiyinə görə bu barədə elanı X3 “Whatsapp” tətbiqində yerləşdirmiş, İddiaçılə X3-ün ortaq dostu elanı İddiaçıə göstərmişdir. Bundan sonra İddiaçılə Cavabdeh 1-in görüşdüyünü və alqı-satqının baş tutduğunu bilir. Mağaza rəsmi X3-ün adına olsa da, faktiki bütün işləri o, görmüş, Cavabdeh 1 maya qoymuşdur. Təxminən 2 ay işləmişlər. O, bu sahədə çalışan mütəxəssisləri mağazaya cəlb etmiş, gələn işçilər ona görə gəlmişlər. Lakin X3 ona SMS yazaraq “sabahdan işə gəlmə, müəllim deyir” bildirmiş, sonra Cavabdeh 1 ilə görüşmüşdür. Sonuncu ona “sən bu işi bilmirsən, bazar tipli işlədirsən. Sən bazardan alıb-satırsan, mən isə xaricdən gətirəcəm. Ona da sənin savadın çatmır” demiş, bundan sonra iş birliklərinə son qoyulmuşdur. Lakin sonradan Cavabdeh 1-in özü də işləyə bilməmişdir. Hətta o özü mağazanı hazır biznes şəklində “XX” və “XXXX” mağazalar şəbəkəsinə satmağa köməklik etmişdir. Lakin alqı-satqı müəyyən səbəblərdən baş tutmamışdır. Mağazaya mal tədarükçülərini o, cəlb etmiş, onu tanıdıqlarına görə mağazaya nisyə mal verilmişdir. Sonradan borc yarananda mağazanın İddiaçıin işlətdiyini bilmişdir. İddiaçılə görüşüb danışdıqda sonuncu ona mağazaya mallarla birlikdə 360000 manat verdiyini söyləmiş, lakin vəziyyətini anlayaraq malların qaytarılmasına razılıq vermişdir. Bu zaman İddiaçı Cavabdeh 1-in vəkili ilə əlaqə saxlamış, vəziyyəti izah etmişdir. Vəkil isə öz növbəsində “heç kimə mal vermə, yığ 102-yə şikayət elə, getsinlər X6-dan alsınlar” demişdir. Malların dəqiq məbləğini bilmir. Dəqiq bildiyi 21760, 12000, 2000, 13000, 600-800 manat təşkil etmişdir. Onun anladığına görə Cavabdeh 1 İddiaçıə hissəhissə pul ödəmək şərti ilə hazır biznes satmışdır. Cavabdeh 1 heç vaxt üzdə olmayıb, kollektivlə cəmi 1 dəfə görüşmüşdür. Cavabdeh 1-in öz biznesi var, hazırki işdə investor olmuşdur. 70% mənfəət Cavabdeh 1-in, 30% mənfəət onun qazancı olmalı idi. Tərəfindən də X3-ə 5% verilməsi razılaşdırılmışdır.

16. Məhkəmə iclasında şahid qismində dindirilmiş X5 göstərmişdir ki, o “XXXXX” MMC-də menecer vəzifəsində işləyir. Şirkət olaraq “X” mağazasına nisyə mal vermişlər. Sonra İddiaçı mağazanın bağlandığını bildirmiş, onlar isə öz növbələrində gedib mallarını mağazadan götürmüşlər. Malı Cavabdeh 1 adlı şəxsə vermişdilər. Rəsmiyyətdə onlar Cavabdeh 1 adı qeyd edilsə də, qeyri-rəsmi olaraq “X” qeyd edilirdi. Onların mağazada olan mallarının dəyəri 21720 manat təşkil edirdi. Sənədləşmə işində kimin qeydiyyatda olmasını mühasiblər bilir. Onlar

yalnız “X” kimi tanıyırlar. Cavabdeh 1i şəxsən görməmişdir. Mağazanın onlara 70008000 manat civarında borcu qalmaqdadır.

17. Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının (bundan sonra – apellyasiya instansiyası məhkəməsi) 2(103)-560/2023 nömrəli mülki iş üzrə 9 yanvar 2024-cü il tarixli qətnaməsi ilə (hakimlər V.N.Sadıqov - sədrlik edən və məruzəçi, A.Ə.İsgəndərov və M.Ə.Rüstəmli) apellyasiya şikayəti təmin edilmiş, birinci instansiya məhkəməsinin qətnaməsi ləğv edilmiş, iddia tələbi təmin edilmiş, İddiaçı ilə Cavabdeh 1 arasında Bakı şəhəri 21 saylı dövlət notariat ofisində bağlanmış 09.01.2023-cü il tarixli kredit müqaviləsinin etibarsız hesab edilməsi, iddianın və apelyasiya şikayətinin verilməsi üçün ödənilmiş cəmi 151 manat dövlət rüsumunun cavabdeh Cavabdeh 1-dən tutulub iddiaçı İddiaçıya ödənilməsi qət edilmişdir.

18. Apellyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsinin gəldiyi nəticə və əsaslandırma ilə razılaşmamış və qeyd etmişdir ki iddiaçının dəlilləri əsaslıdır. İş materiallarına əsasən, həmçinin apellyasiya baxışında dindirilmiş şahid ifadələrindən müəyyən edilmişdir ki, tərəflər arasında mal və avadanlıqlarla birlikdə ehtiyyat hissələri mağazasının (qurub-yaradılmış hazır biznesin) nisyə alqı-satqısı baş vermişdir (mağaza binası başqa şəxsə məxsusdur və alqı-satqıya aidiyyəti yoxdur).

19. Kollegiyanın əvvəlki iclasında iştirak edən Cavabdeh 1-in nümayəndəsi vəkili iş üçün əhəmiyyətli olan suallara (Cavabdeh 1 ilə İddiaçı arasında əvvəllər hansı münasibətlər olması və s.) cavab verə bilmədiyi üçün, məhkəmə iclası Cavabdeh 1-in iştirakının təmin edilməsi məqsədilə təxirə salınsa da, hazırkı məhkəmə iclasında Cavabdeh 1 gəlməmiş, nümayəndəsi-vəkili isə qeyd etmişdir ki, X3 Cavabdeh 1-in bibisi oğludur. İddiaçı isə X3-ün tanışıdır, onun xahişi ilə kömək etmişdir. Ehtiyyat hissələri ilə bağlı aralarında hər hansı münasibət olmamış, müqaviləyə əsasən sadəcə borc verilmişdir.

20. Kollegiya hesab etmişdir ki, tərəflərin əvvəllər tanış olmaması, aralarında qeyd edilən nisyə alqı-satqı müqaviləsindən irəli gələn münasibətlər yaranması, tərəflər arasında hər hansı etibarlı münasibətlərin olmadığı şəraitdə, Cavabdeh 1-in hər hansı təminat olmadan əvvəllər tanımadığı İddiaçıə kifayət qədər küllü miqdar hesab olunan 360000 manat verməsi kimi hallar belə nəticəyə gəlməyə əsas verir ki, mübahisələndirilən kredit müqaviləsi məhz tərəflər arasında olan ehtiyyat hissələri mağazasının (mallarla birlikdə) nisyə alqı-satqısı ilə bağlı bağlanmış, həmin müqavilə üzrə iddiaçıya müqavilədə göstərilən məbləğdə pul verilməmişdir.

21. Belə olan halda müəyyən edilmişdir ki, mübahisələndirilən 9.1.2023-cü il tarixli kredit müqaviləsi yalan əqddir, yəni İddiaçı nisyə aldığı malların və avadanlıqların dəyərini gələcəkdə ödəmək barədə üzərinə götürdüyü öhdəliyi təmin etmək üçün bağlanmışdır.

22. Tərəflər arasında 9.1.2023-cü il tarixli kredit müqaviləsi bağlandıqda formal baxımdan bütün tələblərə əməl olunmuşdur (müqavilə yazılı bağlanmış, notariat qaydada təsdiq olunmuş, pul vəsaiti notariusun depozit hesabından dövr etmişdir).

23. Lakin, əqdin etibarlı olması üçün təkcə sadalanan tələblərə əməl edilməsi kifayət deyil. Zahirən əqdlərə dair tələblərə uyğun şəkildə bağlanmış müqavilənin mütləq şəkildə etibarlı olması kimi birmənalı qiymətləndirilmə «əqdlərin etibarsızlığı» institutunun əhəmiyyətsizliyinə gətirib çıxarmış olardı.

24. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun “N.Əsədovanın şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 5 avqust 2020-ci il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair” 12 aprel 2021-ci il tarixli Qərarında göstərmişdir: «Qeyd edilməlidir ki, yalnız etibarlı əqd tərəflərin arzu etdikləri hüquqi nəticələri yarada bilər. Əqdin etibarlı olması üçün qanunvericilikdə nəzərdə tutulmuş şərtlər mülki hüquq doktrinasında dörd kateqoriyada qruplaşdırılmışdır: - əqdin subyekt tərkibinə dair şərtlər; əqdin məzmununa dair şərtlər; - əqddə iradə sərbəstliyi və iradə ifadəsinin bildirilməsi vəhdətinə dair şərtlər; - əqdin formasına dair şərtlər. Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, hər hansı əqdin, o

cümlədən alğı-satqı müqaviləsinin etibarlılığı, yəni arzu olunan hüquqi nəticəyə səbəb olması üçün hər bir kateqoriyadan olan şərtlərə əməl edilməlidir.

25. Göstərilənləri nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu qeyd etməyi zəruri hesab etmişdir ki, məhkəmələr məcburetmə və s. bu kimi əsaslardan dolayı əqdin etibarsızlığı ilə bağlı işlərə baxarkən, yalnız yazılı və formal hallara qiymət verməklə kifayətlənməməli, tərəflərin iradə ifadəsinin həqiqi məzmununu və hüquqi niyyətlərini müəyyən etməlidirlər.

26. Konstitusiya Məhkəməsi Plenumunun formalaşdırdığı hüquqi mövqeyə görə, bu növ iddia tələbləri üzrə müqavilənin etibarsızlığı faktı yalnız iradə ifadəsinin özünün deyil, həm də həmin iradənin formalaşmasına və ifadə edilməsinə əsas olmuş şərait və motiv, məsələn, müqaviləyə qədərki danışıqlar, tərəflər arasındakı münasibətlər və tərəflərin sonrakı hərəkətləri nəzərə alınmaqla müəyyənləşdirilə bilər (B.Qasımovun şikayəti üzrə 2019-cu il 9 dekabr tarixli Qərar).

27. Lakin işə baxan məhkəmələr N.Əsədovanın iddia tələbinin təmin edilməməsini onunla əsaslandırmışlar ki, mübahisələndirilən alğı-satqı müqaviləsi formal tələblərə əməl edilməklə bağlanmış, ərizəçinin mənzilində qeydiyyatda olan ailə üzvləri mənzilin satılmasına razılıq ifadə edən yazılı ərizələri imzalamış və həmin ərizələr notariat orqanı tərəfindən təsdiq edilmişdir. Halbuki, mübahisələndirilən müqaviləni tərəflərin imzalaması və onun notariat qaydasında təsdiqlənməsi mübahisə predmeti olmamış, mülki iş üzrə iddia tələbinin məhz həmin müqavilənin məcburetmə nəticəsində bağlanması səbəbindən etibarsız sayılması ilə bağlı olması nəzərə alınmamış, əqdin məcburetmə nəticəsində bağlanıb-bağlanmaması məsələsinə hüquqi qiymət verilməmişdir.».

28. Göründüyü kimi, istinad olunan işdə olduğu kimi hazırkı işdə də mübahisələndirilən müqaviləni tərəflərin imzalaması və onun notariat qaydasında təsdiqlənməsi mübahisə predmeti deyil, İddiaçıın tələbi həmin müqavilənin başqa əqdi pərdələmək məqsədilə bağlanması səbəbindən etibarsız sayılması ilə bağlıdır.

29. Kollegiya tərəflərin münasibətlərini (münasibətlərinin olmamasını), sonrakı hərəkətlərini və yuxarıda sadalanan digər xüsusatları nəzərə alaraq belə nəticəyə gəlmişdir ki, müqavilənin etibarsız olması faktı təkcə İddiaçıın iradə ifadəsi ilə deyil, həm də həmin iradənin formalaşmasına və ifadə edilməsinə əsas olmuş yuxarıdakı hallar nəzərə alınmaqla müəyyənləşdirilməlidir.

30. Kollegiya hesab etmişdir ki, tərəflər arasında bağlanmış borc müqaviləsi yalan əqddir. Mülki Məcəllənin 340.2-ci maddəsinin tələbinə görə isə əqd yalan əqd hesab olunduqda, həmin əqdə onun mahiyyəti nəzərə alınmaqla, tərəflərin həmin əqdi bağlayarkən əslində nəzərdə tutduqları əqdə aid olan qaydalar tətbiq edilir. Lakin hazırkı işdə cavabdeh Cavabdeh 1 nisyə alqı-satqı müqaviləsi və ondan doğan məsələlərlə bağlı hər hansı tələb (dəlil) irəli sürmədiyindən və hazırkı işin icraatı çərçivəsində bu məsələni araşdırmaq mümkün olmadığından, həmin qaydaları, yəni nisyə alqı-satqı müqaviləsindən irəli gələn öhdəliklərin icrasını təmin edən qaydaları tətbiq etmək mümkün deyildir. Bununla belə, hazırkı iş üzrə kredit müqaviləsinin etibarsız hesab olunması gələcəkdə nisyə alqı-satqı müqaviləsindən irəli gələn öhdəliklərin icrası ilə bağlı iddia qaldıracağı təqdirdə Cavabdeh 1-i tərəflərin kredit müqaviləsi bağlayarkən əslində nəzərdə tutduqları əqdin qaydalarının tətbiq edilməsini tələb etmək hüququndan mərhum etmir.

31. Kollegiya xüsusi qərardad çıxarılaraq prokurorluğa məlumat verilməsi barədə iddiaçının vəsatətinə münasibətdə qeyd etmişdir ki, bu, iddia tələbi sayılmır və prosessual qanunvericiliklə məhkəmələrə verilmiş hüquqdur. Belə ki, Azərbaycan Respublikası MPM-nin 265.4-ci maddəsinə görə, məhkəmə işə baxarkən, tərəflərin və ya digər şəxslərin hərəkətlərində cinayətin əlamətlərini aşkara çıxararsa, o, bu barədə xüsusi qərardad çıxarmaqla prokurora xəbər verir. Hazırkı işdə isə belə hallar müəyyən edilməmişdir.

32. Məhkəmə kollegiyası gəldiyi nəticəni Mülki Məcəllənin 324.1, 324.4, 324.4, 324.5, 337.1, 337.3, 337.4, 340.2 404-cü, . Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "N.Əsədovanın şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin

Mülki Kollegiyasının 5 avqust 2020-ci il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair" 12 aprel 2021-ci il tarixli Qərarına, MPM-in 14.2, 77-ci maddələrinə istinadla əsaslandırmışdır.

Kassasiya şikayətinin və ona etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

33. Cavabdeh 1 (vəkil) kassasiya şikayəti verərək apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv edilməsi və iddianın rədd edilməsi barədə yeni qərar çıxarılmasını xahiş etmişdir.

34. Kassasiya şikayəti onunla əsaslandırılmışdır ki, bu qəbildən olan əqdlərlə bağlı formalaşdırılmış hüquqi mövqe tərəflərin gəldiyi iddia edilən razılıq, onların əsl niyyətlərinin ifadə olunduğu müqavilənin mövcudluğunun müəyyən edilməsi vacib həlledici əhəmiyyət kəsb edir. Lakin İddiaçı ilə Cavabdeh 1 arasında bağlanmış müqavilədə nəzərdə tutulan şərtlərdən fərqli olaraq cavabdeh tərəfindən iddiaçıya avtomobil ehtiyat hissələri mağazasının borc məbləğinin tərkib hissəsi kimi verilməsi kimi bir razılaşma, eləcə də qeyd olunan obyektin Cavabdeh 1-ə məxsusluğu və İddiaçıya aralarında mövcud olan hər hansı bir razılaşma iş materiallarında olan sübutlarla öz təsdiqini tapmamış, tərəflər arasında belə bir sövdələşmə barədə niyyət müəyyən edilməmişdir.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

35. Kassasiya şikayətinə qarşı etiraz daxil olmamışdır.

Tətbiq edilən hüquq

Azərbaycan Respublikasının Konstitusiyası:

36. Maddə 60, hissə 1. Hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir.

İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Avropa Konvensiyası:

37. Maddə 6, hissə. 1. Hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsi ilə, ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir.

Azərbaycan Respublikasının Mülki Məcəlləsi:

38. Maddə 181.1. Daşınar əşyaya mülkiyyət hüququnun əldə edənə verilməsi üçün mülkiyyətçi əşyaya sahibliyi həqiqi hüquq əsasında ona verməlidir.

39. Maddə 181.2. Əşyanın verilməsi bunlardır: əşyanın əldə edənin birbaşa sahibliyinə verilməsi, əşyaya dolayı sahibliyin müqavilə üzrə verilməsi, bu zaman əvvəlki mülkiyyətçi birbaşa sahib kimi qala bilər; mülkiyyətçinin üçüncü şəxsdən sahibliyi tələb etmək hüququnu əldə edənə verməsi.

40. Maddə 181.4. Mülkiyyətçisi olan əmlaka mülkiyyət hüququ başqa şəxs tərəfindən alğı-satqı, dəyişdirmə, bağışlama müqaviləsi və ya bu əmlakın özgəninkiləşdirilməsinə dair digər əqd əsasında əldə edilə bilər.

41. Maddə 324.1. Əqd mülki hüquq münasibətinin əmələ gəlməsinə, dəyişdirilməsinə və ya xitamına yönəldilmiş birtərəfli, ikitərəfli və ya çoxtərəfli iradə ifadəsidir.

42. Maddə 324.2. Əqdlər birtərəfli və müqavilə şəklində (ikitərəfli və ya çoxtərəfli) ola bilər.

43. Maddə 324.4. Müqavilənin bağlanması üçün iki tərəfin razılaşdırılmış iradə ifadəsi (ikitərəfli əqd) və ya üç və ya daha çox tərəfin razılaşdırılmış iradə ifadəsi (çoxtərəfli əqd) zəruridir.

44. Maddə 324.5. İradə ifadəsinin təfsiri zamanı onun həqiqi məzmunu təkcə hərfi mənaya görə deyil, həm də ağlabatan mühakimə əsasında müəyyənləşdirilməlidir.

45. Maddə 337.1. Bu Məcəllədə müəyyənləşdirilmiş şərtləri pozmaqla bağlanmış əqd etibarsızdır. Etibarsız əqdlər mübahisə edilən əqdlər və ya əhəmiyyətsiz əqdlər ola bilər.

46. Maddə 337.3. Əhəmiyyətsiz əqd məhkəmə tərəfindən etibarsız sayılıbsayılmamasından asılı olmayaraq özlüyündə etibarsız olan əqddir.

47. Maddə 340.2. Yalan əqd başqa əqdi pərdələmək məqsədi ilə bağlanan əqddir. Yalan əqd əhəmiyyətsizdir. Yalan əqdə onun mahiyyəti nəzərə alınmaqla, tərəflərin həmin əqdi bağlayarkən əslində nəzərdə tutduqları əqdə aid olan qaydalar tətbiq edilir.

48. Maddə 390.1 Fiziki və hüquqi şəxslər azad surətdə müqavilələr bağlaya və bu müqavilələrin məzmununu müəyyənləşdirə bilərlər. Onlar bu Məcəllədə nəzərdə tutulmayan, lakin ona zidd olmayan müqavilələr də bağlaya bilərlər.

49. Maddə 404.1. Müqavilə şərtlərini təfsir edərkən məhkəmə təkcə müqavilədəki söz və ifadələrin hərfi mənasını deyil, həm də tərəflərin iradə ifadəsinin həqiqi mənasını, bütövlükdə müqavilənin hərfi mənasının onun digər şərtləri və mənası ilə müqayisəsini nəzərə alır.

50. Maddə 404.2. Bu zaman bütün müvafiq hallar, o cümlədən müqaviləyə qədərki danışıqlar və yazışmalar, tərəflərin qarşılıqlı münasibətlərində yaranmış praktika, işgüzar adətlər, tərəflərin sonrakı hərəkətləri nəzərə alınır.

51. Maddə 567. Alğı-satqı müqaviləsinə görə satıcı əşyanı alıcının mülkiyyətinə verməyi, alıcı isə əşyanı qəbul edib əvəzində müəyyənləşdirilmiş pul məbləğini (qiyməti) ödəməyi öhdəsinə götürür.

52. Maddə 598.1. Əgər alğı-satqı müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa və öhdəliyin mahiyyətindən ayrı qayda irəli gəlmirsə, alıcı əşyanı satıcıdan bilavasitə təhvil almazdan əvvəl və ya təhvil aldıqdan sonra ödəməlidir.

53. Maddə 600.1. Alğı-satqı müqaviləsində əşyanın alıcıya verildikdən müəyyən müddət sonra ödənilməsinin (əşyaların nisyə satışının) nəzərdə tutulduğu halda alıcı ödənişi müqavilədə nəzərdə tutulan müddətdə, müqavilədə belə müddət nəzərdə tutulmadıqda isə bu Məcəllənin 427-ci maddəsinə uyğun müəyyənləşdirilmiş müddətdə həyata keçirməlidir.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi:

54. Maddə 14.1. Məhkəmə həqiqətə nail olmaq üçün işin hərtərəfli, tam və obyektiv tədqiqinə lazımi şərait yaradır. Bunun üçün məhkəmə: işdə iştirak edən şəxslərə onların prosessual hüquq və vəzifələrini izah edir, görüləcək, yaxud görülməyəcək hərəkətlərin nəticələri barədə onları xəbərdar edir, onların prosessual hüquqlarının həyata keçməsinə kömək göstərir.

55. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

56. Maddə 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

57. Maddə 217.1. Məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır.

58. Maddə 217.3. Qətnamə iş üzrə müəyyən edilmiş hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır.

59. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

Kassasiya baxışının hədləri

60. Qanunun tələbinə görə, kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

61. Kassasiya şikayətində qətnamə tam mübahisələndirildiyindən apellyasiya instansiyası məhkəməsinin aktı bütövlükdə yoxlanılır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

62. Tərəflər arasında 9.1.2023-cü il tarixdə, Bakı şəhəri 21 saylı Dövlət Notariat Ofisində kredit (borc) müqaviləsinin rəsmiləşdirilməsi işin mübahisəsiz halıdır. Həmin müqavilədə qeyd olunmuşdur ki, Cavabdeh 1 360000 manat məbləğində pulu İddiaçıə borc vermişdir. İddiaçı borcu razılaşdırılmış tarixlərdə və məbləğlərdə qaytarmağı öhdəsinə götürmüşdür (§ 1).

63. İddiaçı həmin müqavilənin etibarsız sayılması barədə tələbini onunla əsaslandırmışdır ki, sözügedən əqd Cavabdeh 1 ilə aralarında bağladıqları alqı-satqı razılaşması ilə əlaqədar rəsmiləşdirilmişdir. Belə ki, onlar mübahisə olunan müqavilə bağlamazdan əvvəl Ünvan 2 ərazisində yerləşən avtomobil ehtiyat hissələri mağazası və orada olan mallar barədə razılığa gəlmişlər. Mağazada olan satış üçün nəzərdə tutulmuş konstruksiyalar, mebel və kompüter avandanlıqları Cavabdeh 1-ə məxsus olmuş, həmin avandanlıqlar qiymətləndirici dəvət edilmədən şərti olaraq 100000 manat qiymətləndirilmiş, müqavilədə öz əksini tapan 360000 manatın həmin hissəsi şərti olaraq dəyərləndirilmiş avandanlıqlardır. Cavabdeh obyektin içərisində olan əşyaları 360000 manat məbləğində qiymətləndirmiş, lakin 5 gün sonra malların sahibləri olan 8 firmanın nümayəndələri malları geri götürmək üçün mağazaya gəlmişlər. Firmaların nümayəndələri polisə şikayət etdikdən sonra məcburiyyət qarşısında qalaraq malları geri qaytarmışdır (§ 3-4).

64. Cavabdeh isə iddiaya etiraz edərək bildirmişdir ki, müqavilə qanunidir, notarial qaydada təsdiq edilmişdir, pul iddiaçıya borc kimi verilmiş, bunun hər hansı biznesə aidiyyəti yoxdur (§ 5).

65. Birinci instansiya məhkəməsi hesab etmişdir ki, kredit (borc) müqaviləsi bağlanan zaman notariat hərəkətlərinin aparılması ilə bağlı qanunvericiliyin müddəalarına riayət olunmuş, onun etibarsızılığına səbəb olacaq əsaslar aşkar edilməmişdir. Avtomobil ehtiyat hissələri mağazası və orada yerləşən avadanlıqların şərti olaraq qiymətləndirilərək İddiaçıya verilmiş borcun tərkib hissəsi kimi nəzərdə tutulması tərəflər arasında bağlanmış kredit (borc) müqaviləsində nəzərdə tutulmamış, həmçinin tərəflər arasında bu formada razılığa gəlinməsi məhkəməyə təqdim edilmiş mötəbər sübutlarla təsdiq olunmamışdır (§ 7-8).

66. Apellyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsi ilə razılaşmamış və iddianı təmin edərkən mövqeyini belə əsaslandırmışdır ki, məhkəmə əqdin etibarsızlığı ilə bağlı işlərə baxarkən yalnız yazılı və formal hallara qiymət verməklə kifayətlənməməli, tərəflərin iradə ifadəsinin həqiqi məzmununu və hüquqi niyyətlərini müəyyən etməlidir. Kredit müqaviləsi bağlandıqda formal baxımdan bütün tələblərə əməl olunsa da, müəyyən edilmişdir ki, tərəflər arasında mal və avadanlıqlarla birlikdə ehtiyat hissələri mağazasının (qurub-yaradılmış hazır biznesin) nisyə alqı-satqısı baş vermişdir. Mübahisələndirilən 9.1.2023-cü il tarixli kredit müqaviləsi yalan əqddir, yəni İddiaçı nisyə aldığı malların və avadanlıqların dəyərini gələcəkdə ödəmək barədə üzərinə götürdüyü öhdəliyi təmin etmək üçün bağlanmışdır (§ 18-21).

67. Kassasiya kollegiyası aşağıdakılara əsasən hesab edir ki, apellyasiya instansiyası məhkəməsi iş üzrə maddi və prosessual hüquq normalarını düzgün tətbiq etməmişdir.

68. Əvvəla qeyd olunmalıdır ki, apelyasiya məhkəməsinin əqdin etibarsızlığına dair mübahisəyə baxarkən yalnız iradə ifadəsini deyil, həm də bu iradənin formalaşmasına və bəyan edilməsinə əsas olmuş şərait və motivi, tərəflər arasındakı həqiqi münasibətləri çəkişmə prinsipi çərçivəsində müəyyən etməsi düzgün olmuşdur.

69. Bununla belə, nəzərə alınmalıdır ki, təqdim olunmuş sübutların tədqiqi nəticəsində məhkəmənin müəyyən etdiyi yekun faktiki hallara aidiyyəti hüquq normalarının dispozisiya şərtlərinə uyğun şəkildə hüquqi qiymət verilməsi mübahisənin düzgün həll edilməsi üçün mühüm əhəmiyyət kəsb edirdi. Hazırkı işdə bu qaydaya əməl edilməmişdir.

70. Apellyasiya məhkəməsi iddianı Mülki Məcəllənin (bundan sonra - MM) 340.2-ci maddəsini tətbiq etməklə təmin etdiyi üçün kassasiya kollegiyası yalan əqdin mahiyyətinə və qanunda nəzərdə tutulan dispozisiya şərtlərinə nəzər salmağı zəruri hesab edir.

71. Yalan əqd başqa əqdi pərdələmək məqsədi ilə bağlanan əqddir. Yalan əqd əhəmiyyətsizdir. Yalan əqdə onun mahiyyəti nəzərə alınmaqla, tərəflərin həmin əqdi bağlayarkən əslində nəzərdə tutduqları əqdə aid olan qaydalar tətbiq edilir (§ 47).

72. Normanın məzmunundan göründüyü kimi yalan əqddə tərəflər əslində görünən müqavilədən başqa bir müqavilə barədə razılığa gəlmiş olurlar, lakin görünən əqdlə həmin müqaviləni pərdələləyirlər. Beləcə, tərəflər xarici aləmə (üçüncü şəxslərə) qarşı əslində istəmədikləri bəyanları ilə meydana gələn müqavilə ilə görünməyi, amma gerçəklikdə başqa bir müqavilənin bağlanmasını arzu edir və bu xüsusda anlaşırlar. Başqa sözlə, tərəflərin bağladıqları müqavilədə göstərilən hüquqi nəticəni əmələ gətirmək niyyətləri olmur və bu cür pərdələmə müqavilə tərəflərinin hər ikisinin qəsdi ilə əhatə olunur.

73. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 340.2-ci maddəsinin şərh edilməsinə dair" 18 mart 2022ci il tarixli Qərarında da göstərilmişdir ki, yalan əqd tərəflərin həqiqi iradələri ilə bu iradənin ifadəsi arasında bilərəkdən yaratdıqları uyğunsuzluqdur. Tərəflər əslində bir hüquqi prosedur həyata keçirmək iradəsinə sahib olduqları halda, üçüncü şəxslərdə yanlış təsəvvür yaratmaq niyyəti ilə qəsdən sanki başqa bir hüquqi prosedur həyata keçirmək iradəsində olduqlarını göstərirlər. Xüsusilə qeyd olunmalıdır ki, tərəflərdən yalnız birində yalan əqdi bağlamaq niyyətinin mövcudluğu Mülki Məcəllənin 340.2-ci maddəsinin tətbiqi üçün kifayət deyil. Yalan əqd aşağıda sadalanan əsas tərkib əlamətlərinə malikdir: görüntüdə bağlanan əqd və ya pərdələyən əqd - tərəflərin üçüncü şəxslərdə hüquqa uyğun və etibarlı bir müqavilə bağladıqları təəssüratını yaradır. Bu müqavilədə tərəflərin əks etdirdikləri iradə ifadələri arzuladıqları hüquqi nəticəyə uyğun olmur. Tərəflərin görünüş üçün bağladıqları bu müqavilə üzrə hüquqi nəticə, hüquq və öhdəliklər əmələ gətirmək niyyətləri olmur; gizli bağlanan əqd və ya pərdələnən əqd - tərəflərin görüntüdə bağladıqları əqdin arxasında gizlətdikləri və həqiqi iradələrini ifadə edən bir müqavilədir. Bu, yalan əqdi uydurma əqddən fərqləndirən əsas əlamətdir; yanlış təsəvvür yaratmaq niyyəti - tərəflərin həqiqi iradələrini gizli tutaraq hər hansı bir mənfəət əldə etmək üçün üçüncü şəxslərdə buna dair fikir formalaşdırmaqda və görüntü yaratmaqda ifadə olunur.

74. Kollegiya vurğulayır ki, müqavilənin yalan əqd olması səbəbindən etibarsız sayılması üçün sadalan şərtlərin hər biri məhkəmə tərəfindən mötəbər və kifayətedici sübutlarla təsdiq olunmalıdır. Onlardan birinin sübuta yetirilməməsi MM-in 340.2-ci maddəsinə söykənən tələbin rədd edilməsi üçün əsasdır.

75. Xüsusilə qeyd olunmalıdır ki, mülki hüquq münasibətlərinə girən subyektlərin müqavilə azadlığı çərçivəsində, qanunvericiliyə və işgüzar adətlərə uyğun qaydada bağladıqları müqavilələrin etibarlılığı prezumpsiyası qəbul olunur. Bu o deməkdir ki, belə bir əqdlə əmlak hüququ əldə etmiş tərəf bağladığı müqavilənin etibarlı olduğunu sübuta yetirməyə borclu deyil. Əksinə həmin müqavilənin etibarsızlığını iddia edən tərəf öz iddiasını sübuta yetirməlidir.

76. Bu baxımdan hazırkı işdə tərəflər arasında bağlanmış borc müqaviləsinin etibarsız olduğunu (yalan əqdin yuxarıda qeyd olunan şərtlərini) sübuta yetirmək vəzifəsi onu iddia edən tərəfə aiddir. Belə ki, hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir (§ 55).

77. Buna baxmayaraq, kredit müqaviləsini yalan əqd sayan apelyasiya məhkəməsi yalnız tərəflər arasında əşyaların nisyə alqı-satqısına dair münasibətlər təsbit olunduğunu bildirməklə kifayətlənmiş, sözügedən borc müqaviləsini əslində hüquq və öhdəliklər əmələ gətirmək niyyəti olmadan, başqa bir əqdi gizlətmək, eləcə də hər hansı bir mənfəət əldə etmək üçün üçüncü şəxslərdə buna dair fikir formalaşdırmaq və görüntü yaratmaq məqsədilə bağladıqlarını (o cümlədən, qarşısında yalnış təssəvür yaratmağa çalışdıqları üçüncü şəxsin kim olmasını,

həmin şəxsin hansı məqsədlə aldadılmasını, bundan əldə ediləcək mənfəətin nədən ibarət olmasını) iddiaçının sübuta yetirdiyini əsaslandırmamışdır. Halbuki, belə bir əsaslandırma aparılmadan bir əqdin MM-in 340.2-ci maddəsi ilə yalan (əhəmiyyətsiz) hesab edilməsi yolverilməzdir.

78. Nəzərə alınmalıdır ki, mülki hüquq subyektlərinin öz aralarında şifahi formada bağladıqları alqı-satqı müqaviləsi ilə əlaqədar, yəni ondan irəli gələn öhdəliklərin tamamını (və ya bir hissəsini) sonradan yazılı şəkildə rəsmiləşdirilmələri həmin yazılı müqavilənin avtomatik olaraq yalan əqd olması anlamına gəlmir. Əksər hallarda belə sənədləşmələr əmələ gətirilmiş hüquq və öhdəliklərin daha etibarlı sübutlarla təsdiqlənməsinə xidmət edir.

79. Təcrübədən bəlli olduğu kimi, mülki dövriyyənin iştirakçıları bəzən daxil olduqları hüquq münasibətlərini onların həqiqi məzmununa uyğun olaraq yazılı şəkildə rəsmiləşdirmirlər (və ya rəsmiləşdirə bilmirlər), yaxud bunu bir neçə hüquqi əməliyyatla edirlər. Bu müxtəlif səbəblərdən irəli gələ bilər: tərəflərin şifahi razılaşmanı kifayət hesab etməsi, qarşı tərəfin razılaşma şərtlərinə və formalaşmış işgüzar adətlərə zidd hərəkət etməyəcəyinə olan güvən, hüquqi sənədləşmə ilə bağlı tərəflərə göstərilən xidmətin keyfiyyətsiz olması, borcun etirafı kimi əqdlərin rəsmi qaydada bağlanması ilə bağlı çətinliklər və s. Bəzi hallarda tərəflərin başqa hüquq münasibətlərindən əmələ gəlmiş pul öhdəliyinin varlığını və icra vaxtını notarial qaydada təsdiqlənən “kredit müqaviləsi” ilə rəsmiləşdirmək təcrübəsinə rast gəlinir.

80. Bu səbəbdən məhkəmə əqdə əsaslanan və ya əqdin etibarsızlığının təsbit olunmasına dair tələblərə baxarkən yalnız formal tələbləri (müqavilənin adını, onun hərfi mənasını, müqavilədə tərəfin iradəsinin ifadə olunmasını, əqdin yazılı və ya notarial formasına əməl olunmasını və s.) yoxlamaqla kifayətlənməməli, bəyan edilmiş iradənin formalaşmasına əsas olmuş şəraiti, niyyəti, tərəflər arasında müqaviləyə qədərki və sonrakı danışıqları və hərəkətləri nəzərə almalı, mübahisəli hüquq münasibətinə qiymət vermək tələb olunduqda, iradə ifadəsinin həqiqi məzmununu təkcə hərfi mənaya görə deyil, həm də ağlabatan mühakimə əsasında müəyyənləşdirilməlidir (§ 44).

81. Baxılan işdə apelyasiya məhkəməsi sübutlar əsasında bu cür yekun nəticəyə gəlmişdir ki, 9.1.2023-cü il tarixli kredit müqaviləsi İddiaçıin nisyə aldığı malların və avadanlıqların dəyərini gələcəkdə ödəmək barədə üzərinə götürdüyü öhdəliyi təmin etmək üçün bağlanmışdır.

82. Digər tərəfdən, iddiaçı da tələbinin faktiki əsaslarından biri kimi ona əsaslanmışdır ki, şifahi razılaşma əsasında malları (maşın ehtiyat hissələrini) cavabdehdən aldıqdan sonra özlərini cavabdehin kreditorları kimi təqdim edən şəxslərə vermişdir.

83. Bu hallar tərəflər arasında alqı-satqı müqaviləsindən irəli gələn hüquq münasibətlərinin yarandığına dəlalət edir.

84. MM-in 567-ci maddəsinə əsasən, alğı-satqı müqaviləsinə görə satıcı əşyanı alıcının mülkiyyətinə verməyi, alıcı isə əşyanı qəbul edib əvəzində müəyyənləşdirilmiş pul məbləğini (qiyməti) ödəməyi öhdəsinə götürür.

85. Bu müqavilə üzrə satıcının öhdəliyi əşyanı alıcının mülkiyyətinə vermək, alıcının öhdəliyi isə əşyanın dəyərini satıcıya ödəməkdir.

86. Daşınar əşyaların mülkiyyətinin verilməsi, həmin əşyaların alıcının sahibliyinə verilməsi ilə həyata keçirilir. Başqa sözlə, daşınar əşyaların alqı-satqısına dair razılaşma əsasında satıcı əşyaları alıcının sahibliyinə verdikdə alıcı onlar üzərində mülkiyyət hüququ qazanır.

87. MM-in 181-ci madddəsinə görə, mülkiyyətçisi olan əmlaka mülkiyyət hüququ başqa şəxs tərəfindən alğı-satqı müqaviləsi əsasında əldə edilə bilər. Daşınar əşyaya mülkiyyət hüququnun əldə edənə verilməsi üçün mülkiyyətçi əşyaya sahibliyi həqiqi hüquq əsasında ona verməlidir. Əşyanın əldə edənin birbaşa sahibliyinə verilməsi əşyanın verilməsi sayılır (§ 38-40).

88. Alıcının əşyanın dəyərini satıcıya ödəmək öhdəliyi isə müəyyənləşdirilmiş pul məbləğini (qiyməti) ödəməklə həyata keçirilir.

89. Belə ki, əgər alğı-satqı müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa və öhdəliyin mahiyyətindən ayrı qayda irəli gəlmirsə, alıcı əşyanı satıcıdan bilavasitə təhvil almazdan əvvəl və ya təhvil aldıqdan sonra ödəməlidir. Alğı-satqı müqaviləsində əşyanın alıcıya verildikdən müəyyən müddət sonra ödənilməsinin (əşyaların nisyə satışının) nəzərdə tutulduğu halda alıcı ödənişi müqavilədə nəzərdə tutulan müddətdə, müqavilədə belə müddət nəzərdə tutulmadıqda isə bu Məcəllənin 427-ci maddəsinə uyğun müəyyənləşdirilmiş müddətdə həyata keçirməlidir (§ 52-53).

90. Nisyə satış halında əşyanın alıcı tərəfindən ödənilməli olan dəyərinin sonradan yazılı şəkildə borclu tərəfindən etiraf olunmasına hüquqi baxımdan maneə yoxdur.

91. Belə olan halda, mübahisəli kredit müqaviləsi bağlanarkən tərəflərin həmin alqısatqı müqaviləsindən irəli gələn borcu sənədləşdirmək düşüncəsi ilə hərəkət edibetməmələrinin müəyyən edilməsi əhəmiyyət kəsb edir. Odur ki, notariat orqanında kredit müqaviləsinin təsdiqlənməsi ilə əslində mövcud borcun sənədləşdirilməsi sübuta yetirildikdə, bu hal həmin əqdin yalan (əhəmiyyətsiz) hesab edilməsinə deyil, müqavilənin təfsir edilməsinə əsas ola bilər. Başqa sözlə, alıcının mövcud borcu kredit müqaviləsi kimi rəsmiləşdirildikdə tərəflər arasında olan münasibətin həqiqi xarakteri əsas götürülməklə həmin müqavilənin borcun etirafı kimi qiymətləndirilməsi imkanları nəzərdən keçirilməlidir. Mübahisə olduqda müqavilənin növünün və daxili məzmununun müəyyənləşdirilməsində tərəflərin yalnışlıqla və ya bilərəkdən istifadə etdikləri sözlərə baxılmadan, həqiqi və ortaq iradələri təsbit olunmalı və nəzərə alınmalıdır. Elmi ədəbiyyatda da hakim olan mövqe ondan ibarətdir ki, iradə bəyanları təfsir edilərkən müqavilənin mümkün qədər etibarlı qalmasını təmin edən mənaya üstünlük verilməli, bununla da əqdin keçərliliyi qorunmalıdır. Bu qaydanın təməlində iradə sərbəstliyi və müqavilə azadlığı prinsipləri çərçivəsində tərəflərin iradələrinə hörmət göstərilməsi dayanır.

92. Qanun da bunu tələb edir ki, məhkəmə müqavilə şərtlərini təfsir edərkən təkcə müqavilədəki söz və ifadələrin hərfi mənasını deyil, həm də tərəflərin iradə ifadəsinin həqiqi mənasını, bütövlükdə müqavilənin hərfi mənasının onun digər şərtləri və mənası ilə müqayisəsini, o cümlədən müqaviləyə qədərki danışıqlar və yazışmalar, tərəflərin qarşılıqlı münasibətlərində yaranmış praktika, işgüzar adətlər, tərəflərin sonrakı hərəkətlərini nəzərə alsın (§ 49-50).

93. Kollegiya onu da qeyd edir ki, iddiaçının (tələbinin əsası kimi istinad etdiyi) mağazadakı malları cavabdehdən alacağı olduğunu bildirən şəxslərə verməsi barədə dəlilinə qiymət verilərkən əvvəlcə bu faktın tərəflər arasında bağlanmış alqı-satqı müqaviləsinin qüvvəsinə təsiri aydınlaşdırılmalıdır.

94. Əgər iddiaçı bununla cavabdeh tərəfindən ona üçüncü şəxslərin hüquqlarından azad əşya verilmədiyinə istinad edirsə, nəzərə alınmalıdır ki, satıcının bu vəzifəni icra etməməsi alıcıya əşyanın qiymətinin azaldılmasını və ya alğı-satqı müqaviləsinin ləğvini tələb etmək hüququ verir, bu şərtlə ki, alıcının həmin əşyaya üçüncü şəxslərin hüquqları olduğunu bildiyi sübuta yetirilməsin (MM, m. 572.1). Müqavilənin ləğvinə aid olan bu hallar hazırkı işin predmetini təşkil etmir.

95. Alqı-satqı müqaviləsindən sonra üzərində alıcının mülkiyyət hüququ yaranmış malları satıcının kreditorlarına (belə bir öhdəliyi olmadığı halda) verməsi faktının hansı əsasla borc müqaviləsinin etibarsızlığına səbəb olması isə mübahisəyə mahiyyəti üzrə baxan məhkəmə tərəfindən qanuna müvafiq qaydada əsaslandırılmalıdır.

96. Bu əsasla irəli sürülən etibarsızlıq tələbi ümumi mülahizələrlə deyil, müəyyən edilmiş faktiki halların qanunun konkret normasının dispozisiya şərtlərinə uyğunluğunun (uyğunsuzluğunun) yoxlanılması ilə həll edilməlidir. Çünki, MM-in 337.1-ci maddəsinə görə, bu Məcəllədə müəyyənləşdirilmiş şərtləri pozmaqla bağlanmış əqd etibarsızdır.

97. Baxılan işdə isə yalan əqdə dair aparılmış əsaslandırma onun şərtlərinə uyğun olmamış, məhkəmənin müəyyən etdiyi faktiki hallar üzrə mübahisəli müqavilənin mahiyyəti və hüquqi təbiəti lazımi şəkildə təhlil edilməmiş, iddiaçının istinad etdiyi dəlillərin digər bir etibarsızlıq şərtinə cavab verib-vermədiyi müzakirə olunmamışdır.

98. Qeyd edilənlər qətnamənin iş üzrə müəyyən edilmiş hallara, tərəflərin qarşılıqlı münasibətinə və yuxarıda sadalanan qanunvericiliyə uyğun əsaslandırılmadığına dəlalət edir (§ 57-58).

99. Nəzərə alınmalıdır ki, məhkəmə aktlarının əsaslandırılmış olması qəbul edilmiş qərarın iş üzrə tərəflərdə qanuni və ədalətli olduğuna inam yaratmaqla yanaşı, ümumilikdə məhkəmə hakimiyyətinə olan etimadın möhkəmlənməsinə xidmət edir. Məhkəmə qərarlarının qanunvericiliyin tələblərinə əməl olunmadan, əsaslandırılmamış qaydada çıxarılması həmin qərarları ədalət mühakiməsinin aktı kimi qəbul etməyə imkan vermir.

100. Bu qaydalara riayət edilməməsi Azərbaycan Respublikasının Konstitusiyasının 60-cı maddəsi ilə təminat verilən hüquq və azadlıqların məhkəmə müdafiəsi hüququnun, İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Avropa Konvensiyasının 6cı maddəsində əks olunmuş ədalətli məhkəmə araşdırması hüququnun pozulmasına dəlalət edir (§ 36-37).

101. Qeyd olunanlara əsasən kassasiya kollegiyası bu qənaətə gəlir ki, apellyasiya instansiyası məhkəməsinin qətnaməsi ləğv edilməli və iş yeni apellyasiya baxışına göndərilməlidir.

102. Təkrar apellyasiya baxışında tərəflərin izahatları və dəlilləri dinlənilməli, mübahisəli hallar, habelə bu hallar üzrə sübutetmə yükü düzgün müəyyən edilməklə işin hərtərəfli, tam və obyektiv tədqiqinə lazımi şərait yaradılmalı, təqdim olunmuş sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra onlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verilməli, tərəflərin dəlillərinin hansı səbəbdən qəbul edilibedilməməsi əsaslandırılmalı, ədalətli məhkəmə araşdırması hüququ təmin olunmaqla mübahisəyə qanunvericiliyə uyğun qaydada yekun hüquqi qiymət verilməlidir.

103. Göstərilənlərə əsasən və Azərbaycan Respublikası MPM-in 416, 417, 419 və 421-ci maddələrini rəhbər tutaraq, məhkəmə kollegiyası

Qərara aldı:

Kassasiya şikayəti qismən təmin edilsin.

Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(103)-560/2024 nömrəli, 9 yanvar 2024-cü il tarixli qətnaməsi ləğv edilsin, iş yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə qaytarılsın.

Qərar qətidir və qəbul edildiyi andan qüvvəyə minir.

18. 2(102)-3757/2024 nömrəli, 2024-cü il 13 dekabr tarixli qərar - Əqdin təfsiri, yalan əqd - daşınmaz əşyalara münasibətdə

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: əqdin təfsiri, yalan əqd – daşınmaz əşyalara münasibətdə.

Cavabdeh tərəfindən iddiaçıya borc vəsaiti verilmiş, bununla əlaqədar sonuncunun mülkiyyətində olan qeyri-yaşayış sahəsinin ½ hissəsinin cavabdehə satılmasına dair alqı-satqı müqaviləsi rəsmiləşdirilmişdir. Bir müddət sonra sövdələşmə pozulmuş, cavabdehin iddiası əsasında verilmiş pul vəsaiti məhkəmə qaydasında iddiaçıdan tutulmuşdur. Hazırda iddiaçı həmin borcun təminatı kimi cavabdehlə aralarında bağlanmış alqı-satqı müqaviləsinin etibarsız hesab edilməsi, çıxarışın ləğvi, mülkiyyət hüququnun bərpa edilməsi tələbini irəli sürmüşdür.

Məhkəmələr iddianı təmin edərək, müqaviləni başqa əqdi gizlətmək məqsədilə və görünüşdəki mənasına uyğun hüquqi nəticələri meydana gətirmək niyyəti olmadan edilən iradə ifadəsindən əmələ gəldiyindən yalan əqd hesab etmişlər.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 340.2-ci maddəsinin şərh edilməsinə dair” 18 mart 2022-ci il tarixli Qərarında şərh edilən hüquqi mövqe baxımından müqavilənin yalan əqd olması səbəbindən etibarsız sayılması üçün sadalan şərtlərin hər biri məhkəmə tərəfindən mötəbər və kifayətedici sübutlarla təsdiq olunmalıdır.

Hazırkı işdə tərəflərin hər hansı bir mənfəət əldə etmək üçün üçüncü şəxslərdə buna dair fikir formalaşdırmaq və görüntü yaratmaq niyyəti müəyyən edilməmişdir. Belə olan halda, həmin müqavilənin yalan əqd olması barədə gəlinən nəticə səhv olmuşdur.

İşin müəyyən edilən halları tərəflər arasında satılmış əşyanın yenidən alınmasına (satın alınmasına) yönələn hüquq münasibətlərinin yaranmasını göstərir.

Mülki hüquq münasibətlərinin iştirakçıları arasında belə bir məzmunda müqavilənin bağlanması qadağan edilməmişdir. Yəni tərəflər kreditorun verdiyi borc məbləğinin razılaşdırılmış müddətdə geri qaytarılana qədər borcluya məxsus əşyanın kreditorun mülkiyyətinə keçirilməsi, borc müddətində ödənildiyi təqdirdə əşyanın mülkiyyətinin borcluya geri qaytarılması, göstərilən şərtlər daxilində borclunun həmin əşyanı üstün satın almaq hüququna malik olması barədə razılaşmanı müqavilə azadlığı çərçivəsində bağlaya bilərlər. Mülki Məcəllənin 661-ci maddəsi əşyanın yenidən alınması (satın alınması) imkanını tanıyır, həmçinin Məcəllənin 390.1-ci maddəsinin tələbləri baxımından da tərəflərin belə bir imkanı özündə əks etdirən müqavilə bağlamaq hüquqları olmuşdur.

Odur ki, daşınmaz əmlakın adi alqı-saqtı müqaviləsinin əslində satılmış əşyanın yenidən alınması (satın alınması) halı sübuta yetirildikdə, bu hal həmin əqdin yalan (əhəmiyyətsiz) hesab edilməsinə deyil, müqavilənin təfsir edilməsinə əsas ola bilər. Başqa sözlə, bu barədə müqavilə daşınmaz əmlakın adi alqı-saqtı müqaviləsi kimi rəsmiləşdirildikdə tərəflər arasında olan münasibətin həqiqi xarakteri əsas götürülməklə həmin müqavilənin satılmış əşyanın yenidən alınması (satın alınması) imkanı kimi qiymətləndirilməsi nəzərdən keçirilməlidir.

Bununla belə, sözügedən razılaşmanın (satılmış əşyanın yenidən alınması barədə) etibarlı bir əqd kimi hüquqi nəticə yaratması üçün qanunla müəyyən edilmiş formada bağlanması zəruridir.

Mübahisələndirilən müqavilə tərəflər arasında satılmış əşyanın yenidən alınmasına (satın alınmasına) yönələn müqavilə olsa da, onlar həmin şərti müqaviləyə daxil etmədiklərinə görə

Mülki Məcəllənin 329.1 və 659.2-ci maddələrində nəzərdə tutulan forma şərtləri pozulduğu üçün həmin müqavilə bu əsasla etibarsız sayılmalı idi. Ona görə də, məhkəmə kollegiyası tərəfindən apellyasiya məhkəməsinin müqavilənin yalan əqd olması səbəbindən etibarsız sayılması barədə qətnaməsi maddi hüquq normaları düzgün tətbiq edilmədiyindən ləğv edilmiş və müqavilənin yuxarıda qeyd olunan əsaslarla etibarsız olması barədə yeni qərar qəbul edilmişdir.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-3757/2024

13.12.2024-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının

iddiaçı İddiaçının cavabdehlər Cavabdeh 1, Bakı şəhəri 44 saylı Notariat Ofisinə (Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında DƏDKR publik hüquqi şəxsi 1 saylı Bakı Ərazi İdarəsi mübahisə predmeti barəsində müstəqil tələb irəli sürməyən üçüncü şəxs qismində cəlb edilməklə) qarşı iş üzrə

Q Ə R A R I

(Açar sözlər: əqdin etibarsızlığı, şəxsin ona mənsub ola bilməyən əmlaka mülkiyyət hüququna xitam verilməsi)

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Abbasov Aqil Əzizağa oğlu (məruzəçi hakim), Əhmədova Mehparə Tofiq qızı və Nurməmmədov Əhməd Güləhməd oğlundan ibarət tərkibdə,

iddiaçının cavabdehlər Cavabdeh 1, Bakı şəhəri 44 saylı Notariat Ofisinə qarşı "alqı-satqı müqaviləsinin etibarsız hesab edilməsi, çıxarışın ləğvi, mülkiyyət hüququnun bərpa edilməsi" tələbinə dair mülki iş üzrə Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 17 iyul 2024-cü il tarixli 2(103)-3397/2024 nömrəli qətnaməsindən Cavabdeh 1-in kassasiya şikayətinə 13 dekabr 2024-cü il tarixdə Azərbaycan Respublikası Ali Məhkəməsinin inzibati binasında yazılı icraat qaydasında iclasında baxaraq, aşağıdakıları müəyyən etdi:

İşin halları:

1. İddiaçı ilə Cavabdeh 1 arasında 24 sentyabr 2021-ci il tarixdə müqavilə bağlanıb. Müqavilənin 1.1. bəndinə əsasən İddiaçı, Cavabdeh 1-i Ünvan 1 ünvanında tikilən 2022-ci ilin aprel ayında hazır olacağı bildirilən 55 mərtəbəli yaşayış binasının 33 mərtəbəsində yerləşən, ümumi sahəsi 116,57 km., 2 otaqdan ibarət 183/0 nömrəli mənzilin sərmayələşdirilməsinə cəlb edərək, qeyd olunan mənzilin 1.000.000 (bir milyon) ABŞ dolları olan ümumi məbləğinin 500.000 (beş yüz min) ABŞ dolları hissəsini ödəmək imkanı olmadığı üçün həmin məbləğin Cavabdeh 1 tərəfindən ödənilməsini və bunun müqabilində 2022-ci ilin aprel ayı tarixində mənzil hazır olduqdan sonra satılaraq, satışından əldə olunan pul məbləğinin yarısını götürəcəyi şərti ilə Cavabdeh 1-ə təklif edir.

2. Həmin müqavilə ilə tərəflər razılığa gəliblər ki, İddiaçı ödəmək imkanı olmadığı üçün Cavabdeh 1 Ünvan 1 ünvanında tikilən 2022-ci ilin aprel ayında hazır olacağı bildirilən 55 mərtəbəli yaşayış binasının 33 mərtəbəsində yerləşən, ümumi sahəsi 116,57 kv.m., 2 otaqdan ibarət 183/0 nömrəli mənzili sərmayələşdirir. Cavabdeh 1 qeyd olunan mənzilin 1.000.000 (bir milyon) ABŞ dolları olan ümumi məbləğinin 500.000 (beş yüz) ABŞ dollarını hissə-hissə: ilk 100.000 (bir yüz min ABŞ dollarını (ödədiyi gün ABŞ dollarının Azərbaycan manatına uyğun məzənnəsi ilə) 24 sentyabr 2021-ci il tarixdə, növbəti 200.000 (iki yüz min) ABŞ dolları hissəsini tikinti şirkəti ilə bağlanan mənzilin alqı-satıqsı müqaviləsinin İddiaçının və Cavabdeh 1-in hər birinə ½ hissədə məxsus olacağı qeyd olunmaqla dəyişdirildikdən sonra ödəyir. Məbləğin digər hissəsini isə Cavabdeh 1 2022-ci ilin aprel ayında mənzil hazır olub, mənzilə müqavilə tərəflərinin hər birinin adına ½ hissədə mülkiyyət hüququnu təsdiq edən hüquqmüəyyənedici sənədlərin qeydə alınıb mənzil satıldıqdan sonra və satışından əldə olunan pul məbləğinin yarı hissəsini Cavabdeh 1 götürdükdən sonra Ünvan 2 ünvanında yerləşən ümumi sahəsi 256,2 kv.m. olan qeyri-yaşayış sahəsinin (hazırda restoran kimi fəaliyyət göstərir) Cavabdeh 1-ə məxsus ½ (ikidə bir) hissəsini İddiaçının adına keçirmək yolu ilə ödəməyi öhdəsinə götürmüşdür.

3. Daşınmaz əmlakın 8 iyul 2021-ci il tarixli AN-I №***** saylı alqı-satqı müqaviləsinə görə satıcı İddiaçı Ünvan 2 ünvanında yerləşən, ümumi sahəsi 256,2 kv.m. olan qeyri-yaşayış sahəsinin tam mülkiyyət üzrə ona məxsus hissəsindən ½ hissəsini (128.1 kv.m) alıcı Cavabdeh 1-in mülkiyyətinə verir. Alıcı Cavabdeh 1 satıcı İddiaçıdan satdığı ½ hissəni (128.1 kv.m) ondan 340000 (üç yüz qırx min) manat qiymətinə almışdır. Satıcı İddiaçı daşınmaz əmlakı yardımçı vasitələri ilə birlikdə alıcı Cavabdeh 1-in bəyənib, qiyməti ilə razılaşdığı vəziyyətdə 10.07.2021-ci il tarixədək alıcının faktiki sahibliyinə verməyi öhdəsinə götürmüşdür.

4. "Hüquqların dövlət qeydiyyatı haqqında" 12 iyul 2021-ci il tarixli, ********* reyestr nömrəli daşınmaz əmlakın dövlət reyestrindən Çıxarışa əsasən Ünvan 2 ünvanında yerləşən ümumi sahəsi 256.2 kv.m. olan qeyri-yaşayış sahəsinə dair İddiaçının və Cavabdeh 1-in hər birinin 1/2 hissədə mülkiyyət hüquqları qeydə alınmışdır.

5. 26 avqust 2021-ci il tarixli icarə müqaviləsinə görə “İcarəyə verənlər” Cavabdeh 1 və İddiaçı Ünvan 2 ünvanında yerləşən, ümumi sahəsi 256.2 kv/m olan qeyri-yaşayış sahəsinin paylı mülkiyyət üzrə onlara məxsus hissəsindən tam hissə, 256.20 kv/m hissəni “İcarəçi” X1-ə icarəyə verirlər.

6. Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 3 noyabr 2022-ci il tarixli e-2(006)3777/2022 saylı qətnaməsi ilə Cavabdeh 1-in İddiaçıya qarşı müqavilənin ləğv edilməsi və pul tələbinə dair iddiası təmin edilməmişdir.

7. Bakı Apellyasiya Məhkəməsinin 17 fevral 2023-cü il tarixli 2(103)-1155/2023 saylı qətnaməsi ilə Cavabdeh 1-in şikayəti qismən təmin olunmuş, Nəsimi Rayon Məhkəməsinin 3 noyabr 2022-ci il tarixli qətnaməsi ləğv olunaraq, iddia qismən 300.000 (üç yüz min) ABŞ dolları İddiaçıdan alınaraq Cavabdeh 1-ə verilməsi hissəsində təmin edilmişdir. Qətnamə ilə müəyyən edilmişdir ki, 24 sentyabr 2021-ci il tarixdə müqavilə əhəmiyyətsizdir. Həmin müqavilə üçün notariat forma məcburi olsa da, müqavilə sadə yazılı fornada bağlanıb. Çünki tərəflər müqavilənin notariat qaydasında tədbiq edildiyi andan qüvvəyə minməsini müqavilənin 3-cü bəndində razılaşdırıblar.

8. Azərbaycan Respublikası Ali Məhkəməsinin 13.06.2023-cü il tarixli 2(102)2322/2023 saylı qərarı ilə Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)1155/2023 nömrəli, 17 fevral 2023-cü il tarixli qətnaməsi mübahisələndirilən hissədə – iddianın təmin olunmuş hissəsindəyişdirilmədən saxlanılmışdır.

İş üzrə qəbul edilmiş məhkəmə aktları:

a) Birinci instansiya məhkəməsində icraat

9. İddiaçı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, Cavabdeh 1 ilə arasında bağlanmış 08 iyul 2021-ci il tarixli Daşınmaz əmlakın alqı-satqısı müqaviləsinin etibarsız hesab edilməsi, 12.07.2021-ci tarixli “Hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı”ın ləğv edilməsini və Ünvan 2 ünvanında yerləşən qeyri-yaşayış sahəsinə tam mülkiyyət hüququnun bərpa edilməsinə dair qətnamə çıxarılmasını xahiş etmişdir.

10. İddia tələbi belə əsaslandırılmışdır ki, iddiaçı ilə cavabdeh arasında bağlanmış alqı-satqı müqaviləsi yalan əqd olmuş, digər əqdi yəni, aralarında olan 24 sentyabr 2021ci il tarixli müqaviləni pərdələmək üçün tərtib edilmişdir. İddiaçının mülkiyyətində olan Ünvan 2 ünvanında yerləşən ümumi sahəsi 256.2 kv.m. olan qeyri-yaşayış sahəsinin 1/2 hissəsini cavabdehə satmaq niyyəti olmamış, bununla bağlı onun hər hansı bir iradə ifadəsi olmamışdır. İddiaçı ilə cavabdeh arasında bağlanmış AN-I № ******* saylı, 08.07.2021-ci il tarixli daşınmaz əmlakın alqısatqısı barədə müqavilənin bağlanmasına, iddiaçının onun mülkiyyətində olan daşınmaz əmlakın 1/2 hissəsinin cavabdeh qarşısında yüklü ediləcəyini anlamasına səbəb etibarsız əqd olan aralarında bağlanmış 24 sentyabr 2021-ci il tarixli müqavilə olmuşdur.

11. 24 sentyabr 2021-ci il tarixdə bağlanmış müqavilənin nəticəsi olaraq, cavabdeh iddiaçını yalan əqd olan alqı-satqı müqaviləsini bağlamağa məcbur etmişdir. Belə ki, cavabdeh iddiaçı ilə öz aralarında olan razılaşmaya, yəni öz aralarında bağladıqları 24 sentyabr 2021-ci il tarixli müqaviləyə istinad edərək, iddiaçıya 200.000 (iki yüz min) ABŞ dolları məbləğində pulu (yəni dolların həmin vaxta olan məzənnəyə uyğun olaraq 340.000 manat) ödədiyinə görə, zamin, girov olaraq, iddiaçının mülkiyyətində olan qeyri-yaşayış sahəsinin 1/2 hissəsini digər əqdi pərdələmək məqsədi ilə yalan əqd olan alqı-satqı müqaviləsini bağlayaraq iddiaçının mülkiyyətində olan qeyri-yaşayış sahəsinin 1/2 hissəsini qanunsuz olaraq mülkiyyətinə keçirmişdir. İddiaçının mülkiyyətində olan qeyriyaşayış sahəsinin 1/2 hissəsini (128.1 kv.m)

cavabdehə satmaq niyyəti olmamışdır. İddiaçının alqı-satqı müqaviləsi bağlanarkən iradə ifadəsi cavabdeh tərəfindən ona ödənilmiş 340.000 manat müqabilində mülkiyyətindən olan qeyri-yaşayış sahəsinin 1/2 hissəsinin cavabdehin zaminliyinə, girovuna keçməsi olmuşdur.

12. İddiaçı hesab etmişdir ki, cavabdeh tərəfindən ona ödənilmiş 340.000 manat müqabilində girov olaraq mülkiyyətində olan qeyri-yaşayış sahəsininin 1/2 hissəsini cavabdeh qarşısında yüklü etmişdir. Müqavilənin tərəfləri olaraq, iddiaçı bildirmişdir ki, onun cavabdehlə arasında olan müqaviləyə (24.09.2021-ci il tarixli) əsasən iddiaçıya 340.000 manat ödəyəcəyi halda, zamin və girov qismində mülkiyyətində olan qeyriyaşayış sahəsini cavabdehin qarşısında yüklü edəcək, razılaşma üzrə öhdəliklər yerinə yetirildikdən sonra, daşınmaz əmlakın 1/2 hissəsinə dair olan yüklülük aradan qaldırılacaqdır. Buna görə də iddiaçı ilə cavabdeh arasında Ünvan 2 ünvanında yerləşən ümumi sahəsi 256.2 kv.m. olan qeyri-yaşayış sahəsinin (hazırda restoran kimi fəaliyyət göstərir) hissəsinə (128.1 kv.m. olan hissəsi) dair bağlanmış AN-I № ******* nömrəli, 08 iyul 2021-ci il tarixli alqısatqı müqaviləsi yalan əqddir, digər əqdi, iddiaçı ilə cavabdeh arasında bağlanmış 24 sentyabr 2021-ci il tarixli müqaviləni pərdələmək üçün bağlanmışdır.

13. İddiaçı tələbinin hüquqi əsası kimi Mülki Məcllənin 340.2-ci maddəsinə istinad etmişdir.

14. Cavabdehin nümayəndəsi və vəkili iddiaya yazılı etiraz vermişdir. Etirazın dəlilləri belə olmuşdur ki, iddia ərizəsində iddiaçı ilə cavabdeh arasında 08 iyul 2021-ci il tarixli alqı-satqı müqaviləsinin, yalan əqd olduğu, digər əqdi, iddiaçı ilə cavabdeh arasında bağlanmış 24 sentyabr 2021-ci il tarixli müqaviləni yəni əqdi pərdələmək üçün bağlanıldığı göstərilmişdir. Göstərilənlərin heç bir hüquqi və məntiqi əsası yoxdur, tamamilə yalandır. Belə ki, iddiadan da göründüyü kimi, Ünvan 2 ünvanında yerləşən qeyri-yaşayış sahəsinin alqı-satqı müqaviləsi, 24 sentyabr 2021-ci il tarixli müqavilədən 2 ay əvvəl, 08 iyul 2021-ci il tarixdə bağlanıb. 2 ay əvvəl bağlanan əqd, olmayan əqdi necə pərdələyə bilər? Əksinə, 08 iyul 2021-ci il tarixli alqısatqı müqaviləsindən sonra, tərəflər biri-birilərini yaxından tanımış, aralarında güvən yaranmış, bundan sonra birgə biznes qurmaq məqsədilə, 24 sentyabr 2021-cı il tarixli müqavilə bağlanılmışdır. Həmin müqavilə üzrə Ünvan 1 ünvanında tikilən 55 mərtəbəli binanın 33-cü mərtəbəsində yerləşən 116,57 kv 2 otaqdan ibarət mənzilin sərmayələşdirilməsi nəzərdə tutulmuşdur. Göründüyü kimi, cavbadeh qanunamüvafiq qaydada obyekti alqısatqı edib, onun ləğvi üçün heç bir əsas yoxdur.

15. Azərbaycan Reapublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin 12 yanvar 2024-cü il tarixli 4/1768 nömrəli ekspert rəyinə əsasən İddiaçının adına olan 08 iyul 2021-ci il tarixli ***** saylı 334811,95 manat məbləğə dair çekin arxa tərəfində “imza” qrafasındakı imza İddiaçı tərəfindən icra olunmuşdur.

16. Məhkəmə baxışında şahid X1 bildirmişdir ki, icarəyə obyekt axtaran zaman iddiaçı ilə tanış olmuş, Azərbaycan Tibb Universitetinin yanında yerləşən obyektə baxmış, bəyənmiş, razılığa gəldikdən sonra notariat ofisində icarə müqaviləsini bağlayarkən məbləğin müəyyən hissəsini iddiaçıya ödəmişdir. Cavabdeh də həmin zaman orada olmuş, lakin pulun hamısını iddiaçı götürmüş, cavabdeh isə orda heç nəyə qarışmadığını, bütün vergi və ödənişlərin iddiaçıya aid olduğunu bildirmişdir. Həmçinin icarə haqqının məbləğini də iddiaçı öz aralarında razılaşdırmışlar. İcarə haqqını iki dəfəyə ödəmiş, birinci ödəniş notariusda olmuş, ikinci ödənişi dostu aparıb iddiaçıya çatdırmışdır.

17. Məhkəmə baxışında şahid X2 bildirmişdir ki, o, iddiaçını 1994-cü ildən, cavabdehi isə 5 ildir tanıyır. Cavabdeh onu Tibb Universitetin yanında yerləşən obyektə aparmış və onu işlətmək istədiyini bildirmiş, o isə icarəyə verməyini təklif etmişdir. Onun oğlu sözügedən obyekti icarəyə götürmək istəmiş, lakin aylıq 30004000 manat ödəniş edə biləcəyini bildirmişdir. Sonradan iddiaçı özü başqa bir icarəçi tapmış və aylıq 5000 manata icarəyə

verdiyini bildirmişdir. Cavabdeh 5000 manata razılaşmaq istəməmiş, sonradan o şərtlə razılaşmışdır ki, iddiaçı icarə müqaviləsinin ümumi məbləğinin yarısını ona versin. Notariusda iddiaçı pulu götürüb cavabdehə vermiş və sonuncu müqaviləni imzalamışdır. Məbləğin az olduğu ilə razılaşmadığı üçün cavabdeh bütün vergi ödənişlərinin iddiaçıya aid olduğunu bildirmişdir. Sözügedən obyektin alqı-satqısında iştirak etməmiş və şərtlərindən məlumatı olmamışdır.

18. Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin 29 fevral 2024-cü il tarixli 2(001)198/2024 nömrəli qətnaməsi ilə iddia təmin edilmiş, iddiaçı ilə cavabdeh arasında Bakı şəhəri 44 saylı Notariat ofisində bağlanmış, reyestrdə 4Ə*** nömrə ilə qeydə alınmış, 08 iyul 2021-ci il tarixli, AN-I***** nömrəli «Daşınmaz əmlakın alqı-satqısı müqaviləsi"nin etibarsız hesab edilməsi, Ünvan 2 ünvanında yerləşən ümumi sahəsi 256.2 kv.m. olan qeyri-yaşayış sahəsinə dair İddiaçının 1/2 hissədə, Cavabdeh 1-in 1/2 hissədə mülkiyyət hüquqlarının qeydə alınması barədə 12.07.2021-ci il tarixli, ********** reyestr nömrəli "Hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən Çıxarış"ın (qeyd) ləğv olunması, Ünvan 2 ünvanında yerləşən ümumi sahəsi 256.2 kv.m. olan qeyri-yaşayış sahəsi üzərində İddiaçının tam mülkiyyət hüququnun bərpa edilməsi, iş üzrə ödənilmiş 100 manat məbləğində dövlət rüsumunun Cavabdeh 1-dən tutularaq İddiaçıya ödənilməsi qət edilmişdir. (hakim Etibar Mustafayev)

19. Birinci instansiya məhkəməsi müəyyən etmişdir ki, işin mübahisəsiz halına görə tərəflər arasında 08.07.2021-ci il tarixli AN-I №******* saylı daşınmaz əmlakın alqısatqısı barədə müqavilə bağlanmış, müqavilə üzrə Ünvan 2 ünvanında yerləşən, ümumi sahəsi 256,2 kv.m. olan qeyri-yaşayış sahəsinin tam mülkiyyət üzrə iddiaçıya məxsus hissəsindən ½ hissəsini (128.1 kv.m) iddiaçı (satıcı) cavabdehin (alıcının) mülkiyyətinə verməyi, alıcı isə aldığı hissəyə görə satıcıya 340000 (üç yüz qırx min) manat pul ödəməlidir. Müqavilə notarial qaydada təsdiq olunmuşdur. 12.07.2021-ci il tarixdə cavabdeh və iddiaçının sözügedən əmlaka dair hüquqları daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmışdır.

20. Birinci instansiya məhkəməsi qeyd etmişdir ki, hazırkı halda müqavilənin etibarsızlıq şərtləri tərəflərin həqiqi iradələri ilə bu iradənin ifadəsi arasında bilərəkdən yaratdıqları uyğunsuzluqdan irəli gəlir və bilavasitə bununla bağlıdır. Yəni zahiri baxımdan daşınmaz əmlakın alqı-satqısı barədə 08.07.2021-ci il tarixli AN-I ********* saylı müqavilə qanunla müəyyən olunmuş formada bağlanmış olsa da, tərəflərin bağlanmış müqavilə üzrə hüquqi nəticə əldə etmək niyyətlərinin olması iş üzrə müəyyən edilmir.

21. Birinci instansiya məhkəməsi cavabdehin qeyri-yaşayış sahəsinin alqı-satqı müqaviləsinin 24 sentyabr 2021-ci il tarixli müqavilədən 2 ay əvvəl, 08 iyul 2021-ci il tarixdə bağlanmış olduğundan sonuncu müqavilə ilə əqdin pərdələnməsinin mümkün olmaması, əksinə, 08 iyul 2021-ci il tarixli alqı-satqı müqaviləsindən sonra tərəflər arasında yaranan güvən nəticəsində birgə biznes qurmaq məqsədilə, 24 sentyabr 2021-cı il tarixli müqavilə bağlanması barədə dəlilini əsassız sayaraq göstərmişdir ki, əvvəla, tərəflər arasında münasibətlərin yaranma səbəbi 08 iyul 2021-ci il tarixli alqı-satqı müqaviləsi olmamış, münasibətlərin bu müqavilədən əvvəl yarandığı tam sübuta yetir. Belə ki, hazırkı iş üzrə iş materiallarına cavabdehin səs yazısı olan kompakt-disk (CD) əlavə olunmuş və həmin CD məhkəmə tərəfindən dinlənilmişdir.

22. Birinci instansiya məhkəməsi bildirmişdir ki, müqavilə 24.09.2021-ci il tarixdə bağlanıb, bununla bağlı münasibətlər hələ 08.07.2021-ci il tarixli daşınmaz əmlakın alqısatqı müqaviləsindən öncə də mövcud olmuşdur. Yəni tərəflərin bütün qarşılıqlı hərəkətləri Bakı Apellyasiya Məhkəməsinin 17.02.2023-cü il tarixli 2(103)-1155/2023 saylı qətnaməsi ilə

əhəmiyyətsiz əqd kimi etibarsız hesab olunmuş 24.09.2021-ci il tarixli müqavilənin predmetini təşkil edən Ünvan 1-də mənzilin sərmayələşdirilməsi ilə ilə əlaqədar olmuşdur.

23. Birinci instansiya məhkəməsi vurğulamışdır ki, tərəflər iki ayrı əqd (08.07.2021-ci il tarixli və 24.09.2021- ci il tarixli) bağlamış, bu əqdlərdən biri (08.07.2021-ci il tarixli) onu bağlayanların həqiqi iradəsini əks etdirmir. 08.07.2021-ci il tarixli əqdlə Ünvan 1-dəki mənzillə bağlı yaranan öhdəliklərinin təmin edilməsi pərdələnmişdir. Göründüyü kimi, daşınmaz əmlakın alqı-satqısı barədə 08.07.2021-ci il tarixli AN-I ****** saylı müqavilə sırf başqa əqdi gizlətmək məqsədilə edilən və görünüşdəki mənasına uyğun hüquqi nəticələri meydana gətirmək niyyəti olmadan edilən iradə ifadəsindən əmələ gəldiyindən yalan əqd hesab olunmalıdır.

24. Birinci instansiya məhkəməsinin mövqeyinə görə tərəflər arasında baş verən bütün bu hallar onu deməyə əsas verir ki, 08 iyul 2021-ci il tarixli alqı-satqı müqaviləsinin bağlanmasının əsil səbəbi heç də iddiaçının özünə məxsus qeyri-yaşayış sahəsindən ½ hissəni cavabdehin mülkiyyətinə verməsi olmamışdır. Buna payın tam deyil, ½ hissəsinin özgəninkiləşdirilməsi dəlalət edir. Çünki tərəflərin biri birinə qarşı məhz Ünvan 1dakı mənzillə bağlı pul tələbləri olmuşdur.

25. Birinci instansiya məhkəməsi belə qənaətə gəlmişdir ki, hazırkı halda 08.07.2021-ci il tarixli AN-I ********* saylı daşınmaz əmlakın alqı-satqısı barədə müqavilə bağlanan zaman iddiaçının iradəsi əslində qeyri-yaşayış sahəsinin yarı hissəsinin özgənikiləşdirilməsinə yönəlməmiş, müqavilə sırf onun şifahi qaydada cavabdehlə razılaşdırdığı Ünvan 1-dəki mənzillə bağlı yaranan öhdəliklərinin təmin edilməsi üçün bağlanmışdır. Buradan belə hal hasil olur ki, 08 iyul 2021-ci il tarixli müqaviləni bağlamaqla tərəflərin iradə ifadələri arzu etdikləri hüquqi nəticənin, yəni qeyri-yaşayış sahəsi üzrə payların bölünməsinə deyil, əslində Ünvan 1-də inşa olunan mənzillə bağlı yaranmış olan öhdəliklərin icrasına qarşılıqlı təminat verməyə yönəlmişdir. 08.07.2021-ci il tarixli AN-I №****** saylı daşınmaz əmlakın alqı-satqısı barədə müqavilə sırf başqa əqdi gizlətmək məqsədilə edilən və görünüşdəki mənasına uyğun hüquqi nəticələri meydana gətirmək niyyəti olmadan edilən iradə ifadəsindən əmələ gəldiyindən yalan əqd hesab olunmalıdır.

26. Birinci instansiya məhkəməsi gəldiyi nəticəni Mülki Məcəllənin 5.3, 6.2, 152.1, 144.2, 324.1, 324.5, 337.1, 337.2, 337.3, 337.4, 337.5, 340.1, 340.2, 460.1-ci, Mülki Prosessual Məcəllənin 14.2, 77.1, 80, 81, 88, 106.1-ci maddələri ilə əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

27. Cavabdeh apellyasiya şikayəti verərək, qətnamənin ləğv, iddianın rədd edilməsi barədə yeni qətnamə qəbul edilməsini xahiş etmişdir.

28. Apellyasiya şikayəti onunla əsslandırılmışdır ki, sözügedən sahəni əvvəlcə cavabdeh və iddiaçı birlikdə işlətmək barədə razılaşmış və hətta 20-25 gün X3 adlı bir şəxs həmin yeri iaşə obyekti kimi işlətmişdir. Lakin sonradan iddiaçı həmin şəxsin işindən müxtəlif bəhanələrlə (guya oğurluq etməsi, yaxşı işləməməsi və s) narazılıq edərək, obyekti onun işlətməsinə razı olmadığını və icarəyə verilməsinin tərəfdarı olduğunu bildirmiş və 26 avqust 2021-ci il tarixli icarə müqaviləsinə əsasən qeyri-yaşayış sahəsinin 24 (iyirmi dörd) ay müddətinə X1-ə icarəyə verilməsi barədə müqavilə bağlamışlar. Bundan sonra tərəflərin arasında paylı mülkiyyətçi olaraq etibarlı münasibətlər yaranmışdır. İddianın əsassızlığı iddiaçının özünün ziddiyyətli izahatları və bu izahatları təkzib edən işin faktiki halları ilə təsdiq olunduğu halda, birinci instansiya məhkəməsi bunlara əhəmiyyət verməmişdir. Məhkəmə iddiaçı tərəfindən təqdim olunmuş kompakt diskdə (CD) olan səs yazılarına əsasən belə nəticəyə gəlmişdir ki, guya, cavabdehlə iddiaçı arasında Ünvan 1-də olan mənzilin sərmayələşdirilməsi ilə bağlı hələ lap

əvvəldən, yəni alqı-satqı müqaviləsi bağlanmazdan əvvəl razılaşma olmuşdur. Məhkəmənin bu qənaətinin əsassız olması ilə bağlı qeyd edilməlidir ki, əvvəla, məhkəməyə lazım gəlirdi ki, həmin səs yazıları hansı vaxtda olmuş və danışıqların səbəbi nə olmuşdur, lakin məhkəmə bunu aydınlaşdırmadan, düzgün olmayan nəticəyə gəlmişdir. Belə ki, həmin səs yazılarının alqı-satqı müqaviləsinə heç bir aidiyyəti yoxdur, tərəflər arasında bu yazışmalar 2022-ci ilin aprel-may aylarında olmuşdur. Həmçinin, iddiaçı Ünvan 1-də olan mənzilin sərmayələşdirilməsi ilə bağlı tərəflərin arasında olan 24 sentyabr 2021-ci il tarixli razılaşma üzrə üzərinə götürdüyü və vaxtı çatmış öhdəliyini yerinə yetirmədiyinə görə cavabdeh iddiaçıdan 300.000 ABŞ dolları tələb etmiş, sonuncu pulu qaytarmaqdan imtina etdiyinə görə cavabdeh təklif etmişdir ki, qeyri-yaşayış sahəsinin iddiaçıya aid olan 1/2 hissəsini satıb pulunu ödəsin. Məhkəmə həmin səs yazılarını cavabdehin iştirakı ilə tədqiq etmədən, onları əsassız olaraq iddianı təsdiq edən sübut kimi qəbul etmişdir

29. Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 17 iyul 2024-cü il tarixli 2(103)-3397/2024 nömrəli qətnaməsi ilə apellyasiya şikayəti təmin edilməmiş, Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin 2(001)-198/2024 nömrəli, 29 fevral 2024-cü il tarixli qətnaməsi dəyişdirilmədən saxlanılmışdır. (hakimlər Vahid Sadıqov (sədrlik edən və məruzəçi), Akif İsgəndərov, Məhəmməd Rüstəmli)

30. Apellyasiya instansiyası məhkəməsi qeyd etmişdir ki, iddiaçı ilə cavabdeh arasında iddiaçının mülkiyyətində olan Ünvan 2 ünvanında yerləşən ümumi sahəsi 256.2 kv.m. olan qeyri-yaşayış sahəsinin ½ hissəsinin – 128.1 kv.m. hissənin cavabdehə satılması barədə AN-I ******* nömrəli, 08 iyul 2021-ci il tarixli alqı-satqı müqaviləsi bağlanmışdır. İddiaçının qənaətinə görə Ünvan 2 ünvanında yerləşən ümumi sahəsi 256.2 kv.m. olan qeyri-yaşayış sahəsinin ½ hissəsini cavabdehə satmaq niyyəti olmamış, bununla bağlı onun hər hansı bir iradə ifadəsi olmamış, buna səbəb cavabdehlə arasında olan Ünvan 2-də tikilən mənzillə bağlı ödəmələrin təminatı kimi çıxış etməsi olmuşdur.

31. Cavabdeh isə qeyri-yaşayış sahəsinin alqı-satqı müqaviləsinin 24 sentyabr 2021-ci il tarixli müqavilədən 2 ay əvvəl, 08 iyul 2021-ci il tarixdə bağlanmış olduğundan sonuncu müqavilə ilə əqdin pərdələnməsinin mümkün olmadığını, əksinə, 08 iyul 2021-ci il tarixli alqı-satqı müqaviləsindən sonra tərəflər arasında yaranan güvən nəticəsində birgə biznes qurmaq məqsədilə 24 sentyabr 2021-ci il tarixli müqaviləni bağladıqlarını göstərmişdir.

32. Apellyasiya instansiyası məhkəməsi göstərmişdir ki, 08.07.2021-ci il tarixli daşınmaz əmlakın alqı-satqısı barədə müqavilə qanunla müəyyən olunmuş formada bağlanmış olsa da, tərəflərin bağlanmış müqavilə üzrə hüquqi nəticə əldə etmək niyyətlərinin olması iş üzrə müəyyən edilmir. Mübahisələndirilən alqı-satqı müqaviləsinin bağlanmasının əsl səbəbi heç də iddiaçıya məxsus qeyri-yaşayış sahəsindən hissəsindən 1/2 hissəsini iddiaçının mülkiyyətinə verməsi olmamışdır. Əslində tərəflərin iradə ifadələri Ünvan 1-də inşa olunan mənzillə bağlı yaranmış olan öhdəliklərin icrasına qarşılıqlı təminat verməyə yönəlmişdir.

33. Apellyasiya instansiyası məhkəməsi apelyasiya baxışı zamanı müəyyən etmişdir ki, 8 iyul 2021-ci il tarixli müqavilə bağlandıqdan cəmi 3 gün sonra, yəni 11 iyul 2021-ci il tarixdə iddiaçı və cavabdeh birlikdə Ünvan 1a getmiş, 15 iyul 2021-ci il tarixdə isə qayıtmışlar. Buradan da aydın olur ki, 8 iyul 2021-ci il tarixli müqavilə məhz Ünvan 1-də inşa olunan mənzillə bağlı yaranmış olan öhdəliklərlə əlaqədar olaraq bağlanmış, bu məsələ ilə bağlı da müqavilə bağlanandan bilavasitə sonra hər ikisi birlikdə Ünvan 1-ə getmiş və eyni tarixdə qayıtmışlar.

34. Apellyasiya instansiyası məhkəməsi iş materiallarında olan “CD”-də əks olunan səs yazılarına istinadən göstərib ki, onların məzmunu aşağıdakı kimidir: 1 nömrəli səs yazısında (02:00) cavabdeh bildirir: "Mən qanuni yolnan sənin restoranını sənin əlindən alacam, deyəcəm ki, Ünvan 1-də olan mülkü 2.000.000 dollara satıb, məni aldadıb... Mən bu mülkü

sənin əlindən alacam. Sənə deyirəm... Bil... Məni incitsən, mən səndən pulumu və onun üzərindəki qazandığın pulu onu da lazımi qədər alacam...” 2 nömrəli səs yazısında (00:30) cavabdeh bildirir: “Sənin mənə restoranın lazım deyil...Buranın uyğun qiymətin de, bura 800.000 dollar verən var, razısan? Gətirim sənin 400.000 dollarını verim bu işi qurtaraq... Amma orada arendatorla razılaşmaq lazımdır, ona nə verəcəksən, neynəyəcəksən özün bilərsən... Gör buna razısansa mənə de.” 3 nömrəli səs yazısında (02:36) cavabdeh bildirir: “Sən də gətir, camaata mənim verəcəyim var, verim... Olmayacaq, mən sənlə ayrı variantda danışacam, qanuni yolnan danışacam, məhkəmə ilə, sənə deyirəm... Niyə pulumu vermirsən, gətir ver də, restoranını sat ver, orada obyektini sat ver... Bankdan adam pul gedib götürür, müddəti qurtaranda nəyi zaloq qoyub əlin qoyur onun üstünə deyir bax bura zaloq qoyulub, bura bunundur, bu bankındır... Deyirsən sənin adına obyekt vurmuşam, o obyektin mənə hansı xeyri olub? Obyektin pullarını almısan qoymusan cibinə getmisən... Gəl obyekti qiymətləndir sat, mənim camaata borcum var.” 4 nömrəli səs yazısında (01:06) cavabdeh bildirir: “Mən səni tanıyırdım? Sən mənə lazım idin? Ya obyektini sat, ya evi sat, üzərində nə varsa sat pulumu ver mənim...” 5 nömrəli səs yazısında (00:11) cavabdeh bildirir: “Getmisən Ünvan 1-ə, orda uyğun qiymətə satardın, o satılmır, obyektini satardın... Mənim pulumu ver...”.

35. Apellyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsinin mövqeyi ilə razılaşaraq göstərib ki, müqavilə 24.09.2021-ci il tarixdə bağlanıb, bununla bağlı münasibətlər hələ 08.07.2021-ci il tarixli daşınmaz əmlakın alqı-satqı müqaviləsindən öncədən mövcud olmuşdur. Yəni tərəflərin bütün qarşılıqlı hərəkətləri Bakı Apellyasiya Məhkəməsinin 17.02.2023-cü il tarixli 2(103)-1155/2023 saylı qətnaməsi ilə əhəmiyyətsiz əqd kimi etibarsız hesab olunmuş 24.09.2021-ci il tarixli müqavilənin predmetini təşkil edən Ünvan 1 Ünvan 2-də mənzilin sərmayələşdirilməsi ilə əlaqədar olmuşdur. Həmin qətnamədən görünür ki, apellyasiya icraatı zamanı İddiaçının səs yazısı məhkəmə iclasında dinlənilmişdir. Onun məzmunu aşağıdakı kimidir: “1-ci diskdə, yəni birinci instansiya məhkəməsinə təqdim olunmuş diskdəki səs yazısında cavabdeh bildirir: "O ev mənə məxsusdur...Siz məni aldatmısınız, iki yüz min pulumu saxlamısınız. Sənədi atmışam Sizə, evin sənədini. Gedin yoxlatdırın görün evin qiyməti nədir...Mən Sizin adınıza obyekt vurmuşam, Siz də mənə iki yüz min dollar borclusuz. Siz o, obyekti həyatı boyu məndən ala bilməzsiniz. Mən Sizə üç yüz mininizi qaytaracam geri, obyektimi qaytaracaqsız mənə...Pul qoymusan işə, gözlə. Gözləmirsənsə, gəl üç yüz minini al, imzanı at, obyektimi qaytar”. Göründüyü kimi, səs yazısının məzmunu iddiaçının istinad etdiyi hallara uyğundur. Yəni iddiaçı cavabdehə 500.000 dollar verməli idi, 300.000 dollar verib, 200.000 dollar qalıb. Hazırda iddiaçı verdiyi pulu - 300.000 dolları geri tələb edir. 2ci diskdə, yəni apellyasiya məhkəməsinə təqdim olunmuş diskdəki səs yazısında cavabdeh bildirir: "Birincisi, Siz kimsiniz mənim əlimdən mülkü alasınız. İkincisi, Sizin mənə iki yüz min dollar borcunuz var. Elə bilirsiniz mən o obyekti Sizə verənəm. Həyatı boyu vermərəm. Siz oyun oynadınız. Üç yüz min verdiniz mənə, sonra da iki yüz min verəcəkdiniz mənə. Ordan iki yüz min saxladınız ki, obyekti ələ keçirəsiniz. O günü görməyəcəksiniz...Siz məni aldatdınız. Üç yüz min verdiniz, iki yüz min vermədiniz ...Gəldiz kağızı yazdınız ki, üç yüz min vermişəm, iki yüz min də borcluyam. İndi Siz mənə borclusunuz, məni də qoymusuz pis vəziyyətdə”. Göründüyü kimi, bu səs yazısının məzmunu da iddiaçının istinad etdiyi hallara uyğundur. Yəni iddiaçı cavabdehə 500.000 dollar verməli idi, 300.000 dollar verib, 200.000 dollar qalıb. Hazırda iddiaçı verdiyi pulu – 300.000 dolları geri tələb edir.”

36. Yuxarıda qeyd edilmiş səs yazısında cavabdeh demişdir: “Sənin mənə restoranın lazım deyil...Buranın uyğun qiymətin de, bura 800.000 dollar verən var, razısan? Gətirim sənin 400.000 dollarını verim bu işi qurtaraq.”

37. Apellyasiya instansiya məhkəməsi vurğulamışdır ki, cavabdehin dediyi kimi mübahisəli əmlakın 1/2 hissəsini o, həqiqətən dəyərini ödəməklə almışdırsa, digər tərəfdən isə iddiaçıya 300.000 ABŞ dolları vermişdirsə, belə olan halda mübahisəli obyekti 800.000 dollara satıb 400.000 dollarını iddiaçıya təklif etməsi ağlabatan deyildir, çünki o zaman cavabdeh özü ziyana düşmüş olur. Yəni, cavabdeh 300.000 ABŞ dollarını Ünvan 1dakı mənzilə görə verdiyi, 200.000 ABŞ dolları (340.000 manat) da obyektin 1/2 hissəsinə görə ödədiyi, ümumilikdə 500.000 ABŞ dolları iddiaçıya verdiyi (ödədiyi) halda obyektin satışından cəmi 400.000 ABŞ dolları götürməklə 100.000 ABŞ dolları ziyan etmiş olur. Buradan aydın olmuşdur ki, əslində, müqavilə formal olaraq bağlanmış, niyyətləri həmin əmlakın alqı-satqısını həyata keçirmək yox, Ünvan 1-də inşa olunan mənzilnən bağlı yaranmış olan öhdəliklərin icrasına qarşılıqlı təminat verməyə yönəlmişdir.

38. Apellyasiya instansiya məhkəməsinin mövqeyinə görə birinci instansiya məhkəməsi haqlı olaraq belə qənaətə gəlmişdir ki, 8 iyul 2021-ci il tarixli AN-I ******* saylı daşınmaz əmlakın alqı-satqısı barədə müqavilənin bağlanması ilə bağlı iradə ifadəsi sırf görünüş üçün olduğu, əslində əsl niyyətin alqı-satqı deyil, öhdəliklərin təmin edilməsi olduğu işin halları ilə aşkar olunur. 8 iyul 2021-ci il tarixli daşınmaz əmlakın alqı-satqısı barədə müqavilə sırf başqa əqdi gizlətmək məqsədilə edilən və görünüşdəki mənasına uyğun hüquqi nəticələri meydana gətirmək niyyəti olmadan edilən iradə ifadəsindən əmələ gəldiyindən yalan əqd hesab olunmalıdır.

39. Apellyasiya instansiyası məhkəməsi mövqeyini Mülki Məcəllənin 324.1, 337, 340.2-ci, Mülki Prosessual Məcəllənin 14.2 və 77.1-ci maddələri ilə əsaslandırmışdır.

Kassasiya şikayətinin və ona qarşı etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

40. Cavabdeh (vəkil) kassasiya şikayəti verərək, apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv, iddianın rədd olunması haqqında yeni qərar çıxarmağınızı xahiş etmişdir.

41. Şikayət onunla əsaslandırılmışdır ki, mübahisələndirilən müqavilə bağlandıqdan sonra tərəflər birgə fəaliyyət göstərmişlər, obyekti birlikdə icarəyə vermişlər Tərəflərin müqavilə bağlanandan sonrakı bu davranışı, onların iradə və iradə ifadəsinin təfsiri baxımından onu sübut edir ki, tərəflərin niyyəti həqiqətən də əmlakın alqı-satqısına yönəlmişdir. İkincisi, yalan əqd bağlanarkən əslində iki əqd bağlanmış olur, biri görünən, digəri isə görünməyən. İşin faktiki hallarından göründüyü kimi tərəflər arasında müxtəlif vaxtlarda müxtəlif predmetli iki görünən əqd bağlanmışdır, başqa sözlə, ortada görünməyən əqdi təsdiq edən heç bir sübut yoxdur. Bundan əlavə, yalan əqd üçüncü şəxslər qarşısında görüntü yaratmaq, üçüncü şəxslərdə yanlış təsəvvür yaratmaq məqsədi ilə bağlanan əqddir. Tərəflərin üçüncü şəxs qarşısında hər-hansı bir öhdəliyi olmamışdır ki, onlara nümayiş eləmək üçün alqı-satqı müqaviləsi bağlasınlar. Həmçinin, Cavabdeh 1-in bundan əvvəlki pul tələbinə dair iddası üzrə məhkəmə baxışları zamanı verilmiş izahatlarında tələbinin və etirazının əsası kimi gətirdiyi ziddiyyətli dəlillərə nəzər salınması iddiaçının yalan danışdığının və iddasının əsassız olduğunun təsdiq edilməsinə kifayət edir. Belə ki, birincisi, iddia ərizəsində, göstərilir ki, 44 saylı notariat ofisində alqısatqı müqaviləsi bağlanarkən, bu alqı-satqı müqaviləsinin hansı səbəbdən bağlanması, müqavilənin bağlanmasına əsas və zəruri olan halların nədən ibarət olması və sair barədə suallarla notariat ofisinin əməkdaşı hər iki tərəfə müraciət etmişdir. Müqavilənin tərəfləri olaraq, iddiaçı bildirmişdir ki, cavabdehlə arasında olan müqaviləyə (24.09.2021ci il tarixli) əsasən ona 340.000 manat ödəcəyi halda, zamin və girov qismində onun mülkiyyətində olan qeyri- yaşayış sahəsini onun qarşısında yüklü edəcək, aralarına olan razılaşma üzrə öhdəliklər yerinə

yetirildikdən sonra, daşınmaz əmlakın ½ hissəsinə dair olan yüklülük aradan qaldırılacaqdır. İddiaçının həmin dəlilindən belə çıxır ki, notariat ofisində sözügedən alqı-satqı müqaviləsi bağlanarkən, o, göstərilən niyyətini bəyan etmişdir. İddiaçının göstərilən dəlilinin əsassız olması ilə bağlı ilk növbədə qeyd edilməlidir ki, alqı-satqı müqaviləsi 8 fevral 2021-ci il tarixdə bağlanmış və həmin vaxt Ünvan 1-də mənzil alınmasının cavabdeh tərəfindən sərmayələşdirilməsi barədə tərəflərin arasında heç bir danışıq, razılaşma olmamışdır. Habelə, iş Nərimanov Rayon Məhkəməsinin icraatında olarkən, notariat ofisinin əməkdaşının məhkəmədə şahid kimi dindirilməsi barədə iddiaçı tərəfindən vəsatət verilsə də, sonradan ifşa olunacağını anlayan iddiaçı həmin vəsatətdən imtina etmişdir. Göründüyü kimi, iddiaçının həmin dəlili təsdiq olunmur. İkincisi, iddiaçı izahatında alqı-satqı müqaviləsinin rəsmiləşdirilməsi zamanı müqavilə üzrə ödənilməli olan 340.000 AZN məbləğində pulun faktiki olaraq ona ödənilmədiyini, alqı-satqı müqaviləsi üzrə pul almaq üçün banka getmədiyini, pul ödənişinə dair sənəddəki imzanın ona məxsus olmadığını iddia edərək, cavabdehin Ünvan 1dakı mənzilin alınması üçün ona bankdan kənar iki dəfəyə cəmi 300,000 ABŞ dolları (birinci dəfə 200.000, ikinci dəfə 100.000) ödədiyini bildirmişdir. Başqa sözlə, iddiaçı pulun ona alqısatqı müqaviləsinə görə deyil, Ünvan 1dakı mənzilin sərmayələşdirilməsinə görə ödənildiyini bildirmişdir.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

42. İddiaçı yazılı etiraz verərək kassasiya şikayətinin təmin edilməməsini, apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin dəyişdirilmədən saxlanılmasını xahiş etmiş, etirazını iddia ərizəsinin dəlillərinə uyğun əsaslandırmışdır.

Tətbiq edilən hüquq

Azərbaycan Respublikası Mülki Məcəlləsi

Maddə 324.1. Əqd mülki hüquq münasibətinin əmələ gəlməsinə, dəyişdirilməsinə və ya xitamına yönəldilmiş birtərəfli, ikitərəfli və ya çoxtərəfli iradə ifadəsidir (324.1). Əqdlər birtərəfli və müqavilə şəklində (ikitərəfli və ya çoxtərəfli) ola bilər (324.2). Müqavilənin bağlanması üçün iki tərəfin razılaşdırılmış iradə ifadəsi (ikitərəfli əqd) və ya üç və ya daha çox tərəfin razılaşdırılmış iradə ifadəsi (çoxtərəfli əqd) zəruridir (324.4). İradə ifadəsinin təfsiri zamanı onun həqiqi məzmunu təkcə hərfi mənaya görə deyil, həm də ağlabatan mühakimə əsasında müəyyənləşdirilməlidir (324.5).

Maddə 337. Bu Məcəllədə müəyyənləşdirilmiş şərtləri pozmaqla bağlanmış əqd etibarsızdır. Etibarsız əqdlər mübahisə edilən əqdlər və ya əhəmiyyətsiz əqdlər ola bilər. Əqd barəsində mübahisə edildikdə əqd bağlandığı andan etibarsızdır. Müqavilənin mübahisə edilməsi müqavilənin digər tərəfinə iradə ifadəsinin bildirilməsi yolu ilə həyata keçirilir. Digər tərəfə münasibətdə həyata keçirilmiş birtərəfli əqd həmin şəxsə qarşı mübahisə edilir. Əhəmiyyətsiz əqd məhkəmə tərəfindən etibarsız sayılıbsayılmamasından asılı olmayaraq özlüyündə etibarsız olan əqddir. Etibarsız əqd onun etibarsızlığı ilə bağlı nəticələr istisna olmaqla, hüquqi nəticələrə səbəb olmur. Bu cür əqd bağlandığı andan etibarsızdır. Əqd etibarsız olduqda, əgər bu Məcəllədə onun etibarsızlığının ayrı nəticələri nəzərdə tutulmayıbsa, tərəflərdən hər biri əqd üzrə aldıqlarının hamısını digər tərəfə qaytarmağa, alınanları eyni ilə qaytarmaq mümkün olmadıqda isə (o cümlədən alınanlar əmlakdan istifadədə, görülmüş işdə və ya göstərilmiş xidmətdə ifadə olunduqda) onun dəyərini pulla ödəməlidir.

Maddə 340.2. Yalan əqd başqa əqdi pərdələmək məqsədi ilə bağlanan əqddir. Yalan əqd əhəmiyyətsizdir. Yalan əqdə onun mahiyyəti nəzərə alınmaqla, tərəflərin həmin əqdi bağlayarkən əslində nəzərdə tutduqları əqdə aid olan qaydalar tətbiq edilir.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi

Maddə 14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

Maddə 77.1. Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

Maddə 407.2. Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir.

Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

Maddə 416.2. Apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 418.4cü maddəsində nəzərdə tutulmuş prosessual hüquq pozuntusu hesab edilən hallara yol verilməsi şikayətin hədlərindən və dəlillərindən asılı olmayaraq yoxlanılmalıdır.

Maddə 417.1.1. Kassasiya məhkəməsi işə baxarkən apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadını dəyişiklik edilmədən, şikayəti təmin etmədən saxlaya bilər.

Maddə 417.1.2. Kassasiya məhkəməsi işə baxarkən apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadına dəyişiklik edə bilər.

Maddə 417.1.3. Kassasiya məhkəməsi işə baxarkən apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadını qismən ləğv edə və ya tamamilə, yaxud qismən ləğv edib işi yenidən baxılmaq üçün apellyasiya instansiyası məhkəməsinə göndərə bilər.

Maddə 417.1.4. Kassasiya məhkəməsi işə baxarkən apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadını tamamilə, yaxud qismən ləğv edib apellyasiya instansiyası məhkəməsində müəyyən edilmiş hallar və sübutlar əsasında yeni qərar qəbul edə bilər.

Maddə 418.1. Maddi və prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması, o cümlədən maddi və prosessual hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması apellyasiya instansiyası məhkəməsinin qətnamə və qərardadının ləğv edilməsi üçün əsasdır.

Maddə 418.3. Prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması qətnamənin yaxud qərardadın ləğv edilməsi üçün o vaxt əsas ola bilər ki, bu pozuntu düzgün qətnamə qəbul edilməməsi ilə nəticələnsin və ya nəticələnə bilsin.

Kassasiya baxışının hədləri

43. Kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

44. Kassasiya şikayətində cavabdeh qətnaməni tam mübahisələndirib. Bu səbəbdən kollegiya qətnaməni tam yoxlayır.

45. Məhkəmə kollegiyası hüququn inkişafının və ya məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi üçün əhəmiyyətli hesab etmədiyindən hazırki şikayətə yazılı icraat qaydasında baxılmasını qərara almışdır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

46. Məhkəmə kollegiyası apellyasiya məhkəməsinin gəldiyi nəticəni və tətbiq etdiyi maddi hüquq normasını işin müəyyən edilmiş hallarına uyğun hesab etmir.

47. İşdən görünür ki, iddiaçı ilə cavabdeh arasında daşınmaz əmlakın alqı-satqısı barədə 08.07.2021-ci il tarixli, AN-I №********* saylı alqı-satqı müqaviləsi bağlanmışdır. Müqaviləyə əsasən, iddiaçı (satıcı) Ünvan 2 ünvanında yerləşən, ümumi sahəsi 256,2 kv.m. olan qeyri-yaşayış sahəsinin tam mülkiyyət üzrə ona məxsus hissəsindən ½ hissəsini (128.1 kv.m) 340000 (üç yüz qırx min) manata cavabdehə (alıcıya) satmışdır.

48. Hazırda iddiaçı qeyd edilən müqavilənin etibarsız olmasını və tələbinin əsası kimi həmin müqavilənin 24 sentyabr 2021-ci il tarixli müqavilə üzrə ona ödənilən pulun təminatı kimi bağlandığını bildirir. Başqa sözlə, iddiaçı onunla cavabdeh arasında bağlanmış 08 iyul 2021-ci il tarixli alqı-satqı müqaviləsinin yalan əqd olduğuna, digər əqdi, onunla cavabdeh arasında bağlanmış 24 sentyabr 2021-ci il tarixli müqaviləni pərdələmək üçün bağlanıldığına istinad etmişdir.

49. Cavabdehin dəlilləri ondan ibarət omuşdur ki, qeyri-yaşayış sahəsinin alqı-satqı müqaviləsi 24 sentyabr 2021-ci il tarixli müqavilədən 2 ay əvvəl, 08 iyul 2021-ci il tarixdə bağlanıb. 2 ay əvvəl bağlanan əqd, olmayan əqdi pərdələyə bilməz. 08 iyul 2021-ci il tarixli alqı-satqı müqaviləsindən sonra, tərəflər biri-birilərini yaxından tanımış, aralarında güvən yaranmış, bundan sonra birgə biznes qurmaq məqsədilə 24 sentyabr 2021-cı il tarixli müqavilə bağlanılmışdır. Yəni bu müqavilələr hər biri müstəqil olmaqla ayrı-ayrı hüququ nəticələrə yönəlmişdir.

50. Birinci instansiya məhkəməsinin mövqeyinə görə hazırkı halda müqavilənin etibarsızlıq şərtləri tərəflərin həqiqi iradələri ilə bu iradənin ifadəsi arasında bilərəkdən yaratdıqları uyğunsuzluqdan irəli gəlir və bilavasitə bununla bağlıdır. Yəni zahiri baxımdan daşınmaz əmlakın alqı-satqısı barədə 08.07.2021-ci il tarixli AN-I ******** saylı müqavilə qanunla müəyyən olunmuş formada bağlanmış olsa da, tərəflərin bağlanmış müqavilə üzrə hüquqi nəticə əldə etmək niyyətlərinin olması iş üzrə müəyyən edilmir. (bənd 21)

51. Birinci instansiya məhkəməsi daha sonra qeyd etmişdir ki, tərəflər iki ayrı əqd (08.07.2021-ci il tarixli və 24.09.2021- ci il tarixli) bağlamış, bu əqdlərdən biri (08.07.2021ci il tarixli) onu bağlayanların həqiqi iradəsini əks etdirmir. 08.07.2021-ci il tarixli əqdlə Ünvan 1-dəki mənzillə bağlı yaranan öhdəliklərinin təmin edilməsi pərdələnmişdir.

Göründüyü kimi, daşınmaz əmlakın alqı-satqısı barədə 08.07.2021-ci il tarixli AN-I ********* saylı müqavilə sırf başqa əqdi gizlətmək məqsədilə edilən və görünüşdəki mənasına uyğun hüquqi nəticələri meydana gətirmək niyyəti olmadan edilən iradə ifadəsindən əmələ gəldiyindən yalan əqd hesab olunmalıdır.

52. Apellyasiya instansiyası məhkəməsi də birinci instansiya məhkəməsinin mövqeyini əsaslı sayaraq belə nəticəyə gəlmişdir ki, daşınmaz əmlakın alqı-satqısı barədə 8 iyul 2021-ci il tarixli müqavilə sırf başqa əqdi gizlətmək məqsədilə edilən və görünüşdəki mənasına uyğun hüquqi nəticələri meydana gətirmək niyyəti olmadan edilən iradə ifadəsindən əmələ gəldiyindən yalan əqd hesab olunmalıdır.

53. Məhkəmə kollegiyası qeyd edir ki, apellyasiya instansiyası məhkəməsi 8 iyul 2021-ci il tarixli müqavilənin etibarsız olması nəticəsinə düzgün gəlsə də, işin müəyyən edilmiş halları baxımından maddi hüquq normalarını düzgün tətbiq etməmişdir.

54. Nəzərə alınmalıdır ki, hüquqi nəticələr yaratmaq niyyəti olmadan bağlanan müqavilə uydurma əqd olaraq ona uyğun hüquqi nəticələr yaratmaq niyyəti olmayan yalnız görünüş üçün bağlanmış əqddir. (MM, 340.1)

55. Yalan əqd isə başqa əqdi pərdələmək məqsədi ilə bağlanan əqddir. Yalan əqd əhəmiyyətsizdir. Yalan əqdə onun mahiyyəti nəzərə alınmaqla, tərəflərin həmin əqdi bağlayarkən əslində nəzərdə tutduqları əqdə aid olan qaydalar tətbiq edilir. (MM, 340.2)

56. Göründüyü kimi, uydurma və yalan əqdlər ayrı-ayrı institutlar olaraq əqdin etibarsızlığının müstəqil əsaslarıdır. Uydurma əqddə tərəflərin, ümumiyyətlə, hər hansı hüquqi nəticələr yaratmaq niyyəti olmur. Yalan əqdlər əhəmiyyətsiz olsa da, tərəflərin həmin əqddən kənar başqa bir hüquqi nəticə yaratmaq niyyətləri olur və bu zaman onun mahiyyəti nəzərə alınmaqla, tərəflərin həmin əqdi bağlayarkən əslində nəzərdə tutduqları əqdə aid olan qaydalar tətbiq edilir.

57. Apellyasiya instansiyası məhkəməsi də 8 iyul 2021-ci il tarixli müqaviləni sırf başqa əqdi gizlətmək məqsədilə bağlanan əqd kimi qiymətləndirmişdir ki, məhkəmə kollegiyası bu nəticəni də işin müəyyən edilmiş hallarına uyğun hesab etmir.

58. Yuxarıda istinad edilən Mülki Məcəllənin 340.2-ci maddəsinin mahiyyətinə görə yalan digər əqdi ört-basdır etməyə yönələn elə hərəkətdir ki, bu vaxt yalan əqd başqa münasibətləri və hüquqi nəticələri gizlətmək üçün bağlanır, yalan əqdi bağlayan tərəflər onun əsl məqsədini və yalan xarakter daşımasını bilir və belə gizli nəticənin əldə edilməsini arzu edirlər. Yalan əqdin əsas əlaməti kontragentlərin (subyektlərin) iradə bəyanın başqa nəticə əldə edilməsinə yönəlməsidir.

59. Yalan əqddə tərəflər xarici aləmə (üçüncü şəxslərə) qarşı əslində istəmədikləri bəyanları ilə meydana gələn müqavilə ilə görünməyi, amma gerçəklikdə başqa bir müqavilənin bağlanmasını arzu edir və bu xüsusda anlaşırlar. Başqa sözlə, tərəflərin bağladıqları müqavilədə göstərilən hüquqi nəticəni əmələ gətirmək niyyətləri olmur və bu cür pərdələmə müqavilə tərəflərinin hər ikisinin qəsdi ilə əhatə olunur. Əqd tərəflərindən yalnız birinin belə bir niyyətinin olması əqdin yalan hesab edilməsi üçün yetərli deyil.

60. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 340.2-ci maddəsinin şərh edilməsinə dair" 18 mart 2022ci il tarixli Qərarında da göstərilmişdir ki, yalan əqd tərəflərin həqiqi iradələri ilə bu iradənin ifadəsi arasında bilərəkdən yaratdıqları uyğunsuzluqdur. Tərəflər əslində bir hüquqi prosedur həyata keçirmək iradəsinə sahib olduqları halda, üçüncü şəxslərdə yanlış təsəvvür yaratmaq niyyəti ilə qəsdən sanki başqa bir hüquqi prosedur həyata keçirmək iradəsində olduqlarını göstərirlər. Xüsusilə qeyd olunmalıdır ki, tərəflərdən yalnız birində yalan əqdi bağlamaq niyyətinin mövcudluğu Mülki Məcəllənin 340.2-ci maddəsinin tətbiqi üçün kifayət deyil. Yalan əqd aşağıda sadalanan əsas tərkib əlamətlərinə malikdir: görüntüdə bağlanan əqd və ya pərdələyən əqd - tərəflərin üçüncü şəxslərdə hüquqa uyğun və etibarlı bir müqavilə bağladıqları təəssüratını yaradır. Bu müqavilədə tərəflərin əks etdirdikləri iradə ifadələri arzuladıqları hüquqi nəticəyə uyğun olmur. Tərəflərin görünüş üçün bağladıqları bu müqavilə üzrə hüquqi nəticə, hüquq və öhdəliklər əmələ gətirmək niyyətləri olmur; gizli bağlanan əqd və ya pərdələnən əqd - tərəflərin görüntüdə bağladıqları əqdin arxasında gizlətdikləri və həqiqi iradələrini ifadə edən bir müqavilədir. Bu, yalan əqdi uydurma əqddən fərqləndirən əsas əlamətdir; yanlış təsəvvür yaratmaq niyyəti - tərəflərin həqiqi iradələrini gizli tutaraq hər hansı bir mənfəət əldə etmək üçün üçüncü şəxslərdə buna dair fikir formalaşdırmaqda və görüntü yaratmaqda ifadə olunur.

61. Konstitusiya Məhkəməsinin adıçəkilən Qərarında şərh edilən hüquqi mövqe baxımından müqavilənin yalan əqd olması səbəbindən etibarsız sayılması üçün sadalan

şərtlərin hər biri məhkəmə tərəfindən mötəbər və kifayətedici sübutlarla təsdiq olunmalıdır. Onlardan birinin sübuta yetirilməməsi MM-in 340.2-ci maddəsinə söykənən tələbin rədd edilməsi üçün əsasdır.

62. Hazırki işdə tərəflərin hər hansı bir mənfəət əldə etmək üçün üçüncü şəxslərdə buna dair fikir formalaşdırmaq və görüntü yaratmaq niyyəti müəyyən edilməyib. Belə olan halda, həmin müqavilənin yalan əqd olması barədə gəlinən nəticə səhv olmuşdur.

63. Qeyd edilməlidir ki, mülki dövriyyənin iştirakçıları təcrübədə bəzən daxil olduqları hüquq münasibətlərini onların həqiqi məzmununa uyğun olaraq lazımi qaydada yazılı şəkildə rəsmiləşdirmirlər (və ya rəsmiləşdirə bilmirlər), yaxud bunu bir neçə hüquqi əməliyyatla edirlər. Bu, tərəflərin razılaşma şərtlərinə və formalaşmış işgüzar adətlərə zidd hərəkət etməyəcəyinə olan qarşılıqlı güvən, hüquqi sənədləşmə ilə bağlı tərəflərə göstərilən xidmətin keyfiyyətsiz olması, bağlamaq istədikləri əqdlərin rəsmi qaydada bağlanması ilə bağlı çətinliklər və s. ola bilər.

64. Bu səbəbdən məhkəmə əqdə əsaslanan və ya əqdin etibarsızlığının təsbit olunmasına dair tələblərə baxarkən yalnız formal tələbləri (müqavilənin adını, onun hərfi mənasını, müqavilədə tərəfin iradəsinin ifadə olunmasını, əqdin yazılı və ya notarial formasına əməl olunmasını və s.) yoxlamaqla kifayətlənməməli, bəyan edilmiş iradənin formalaşmasına əsas olmuş şəraiti, niyyəti, tərəflər arasında müqaviləyə qədərki və sonrakı danışıqları və hərəkətləri nəzərə almalı, mübahisəli hüquq münasibətinə qiymət vermək tələb olunduqda, iradə ifadəsinin həqiqi məzmununu təkcə hərfi mənaya görə deyil, həm də ağlabatan mühakimə əsasında müəyyənləşdirilməlidir.

65. İşin məhkəmələr tərəfindən müəyyən edilən hallarından görünür ki, tərəflər 8 iyul 2021-ci il tarixli müqaviləni Ünvan 1-də mənzilin sərmayələşdirilməsi üçün cavabdehin iddiaçıya verdiyi 300 min ABŞ dollarının geri qaytarılmasının təminatı kimi bağlayıblar. Razılaşma belə olmuşdur ki, iddiaçının ödəmək imkanı olmadığı üçün cavabdeh Ünvan 1-də aprel ayında hazır olacağı bildirilən mənzili sərmayələşdirir. İddiaçı qeyd olunan mənzilin bir milyon ABŞ dolları olan ümumi məbləğinin beş yüz min ABŞ dollarını hissə-hissə: ilk yüz min ABŞ dollarını (ödədiyi gün ABŞ dollarının Azərbaycan manatına uyğun məzənnəsi ilə) 24 sentyabr 2021-ci il tarixdə, növbəti iki yüz min ABŞ dolları hissəsini tikinti şirkəti ilə bağlanan mənzilin alqı-satıq müqaviləsinin iddiaçının və cavabdehin hər birinə ½ hissədə məxsus olacağı qeyd olunmaqla dəyişdirildikdən sonra ödəyir. Məbləğin digər hissəsini isə iddiaçı 2022-ci ilin aprel ayında mənzil hazır olub, mənzilə müqavilə tərəflərinin hər birinin adına ½ hissədə mülkiyyət hüququnu təsdiq edən hüquqmüəyyənedici sənədlərin qeydə alınıb mənzil satıldıqdan sonra və satışından əldə olunan pul məbləğinin yarı hissəsini cavabdeh götürdükdən sonra Ünvan 2 ünvanında yerləşən ümumi sahəsi 356 kv.m. olan qeyri-yaşayış sahəsinin (hazırda restoran kimi fəaliyyət göstərir) cavabdehə məxsus ½ (ikidə bir) hissəsini iddiaçın adına keçirmək yolu ilə ödəməyi öhdəsinə götürmüşdür.

66. Həmçinin müəyyən edilib ki, cavabdehin 24 sentyabr 2021-ci il tarixli müqavilə üzrə iddiaçıya verdiyi 300 min ABŞ dollarının iddiaçıdan tutulub cavabdehə verilməsi barədə qanuni qüvvədə olan məhkəmə aktları var. Başqa sözlə, 8 iyul 2021-ci il tarixli müqavilə ilə təmin edilmiş 24 sentyabr 2021-ci il tarixli müqavilə üzrə cavabdehin verdiyi 300 min ABŞ dollarının iddiaçıdan alınıb cavabdehə qaytarılması artıq məhkəmə aktı ilə qət edilib. Üstəlik, həmin qətnamə icra edilib və buna aşağıdakı bəndlərdə aydınlıq gətiriləcəkdir.

67. İşin müəyyən edilən halları tərəflər arasında satılmış əşyanın yenidən alınmasına (satın alınmasına) yönələn hüquq münasibətlərinin yaranmasını göstərir.

68. Mülki hüquq münasibətlərinin iştirakçıları arasında belə bir məzmunda müqavilənin bağlanması qadağan edilməmişdir. Yəni tərəflər kreditorun verdiyi borc məbləğinin

razılaşdırılmış müddətdə geri qaytarılana qədər borcluya məxsus əşyanın kreditorun mülkiyyətinə keçirilməsi, borc müddətində ödənildiyi təqdirdə əşyanın mülkiyyətinin borcluya geri qaytarılması, göstərilən şərtlər daxilində borclunun həmin əşyanı üstün satınalmaq hüququna malik olması barədə razılaşmanı müqavilə azadlığı çərçivəsində bağlaya bilərlər.

69. Təsadüfi deyil ki, Mülki Məcəllənin 661-ci maddəsində tətbiq edilə bildiyi halda bu Məcəllənin 659 və 660-cı maddələrinin müddəalarının müvafiq olaraq digər üstünlük hüquqları, o cümlədən satılmış əşyanın yenidən alınması (satın alınması) hüququ və kirayəyə və ya icarəyə götürməkdə üstünlük hüquqları üçün etibarlı olduğu göstərilmişdir.

70. Mülki Məcəllənin 390.1-ci maddəsinə görə fiziki və hüquqi şəxslər azad surətdə müqavilələr bağlaya və bu müqavilələrin məzmununu müəyyənləşdirə bilərlər. Onlar bu Məcəllədə nəzərdə tutulmayan, lakin ona zidd olmayan müqavilələr də bağlaya bilərlər.

71. Göründüyü kimi, Mülki Məcəllənin 661-ci maddəsi əşyanın yenidən alınması (satın alınması) imkanını tanıyır və Mülki Məcəllənin 390.1-ci maddəsinin tələbləri baxımından tərəflərin belə bir imkanı özündə əks etdirən müqavilə bağlamaq hüquqları olmuşdur.

72. Məhkəmə kollegiyasının mövqeyinə görə tərəflər daşınmaz əmlakın alqı-satqısı barədə 08.07.2021-ci tarixli müqaviləyə bağlayarkən onların satılmış əşyanın yenidən satıcı (iddiaçı) tərəfindən alınması (satın alınması) düşüncəsi ilə hərəkət edib-etməmələri mühüm əhəmiyyət kəsb edir.

73. Odur ki, daşınmaz əmlakın adi alqı-saqtı müqaviləsinin əslində satılmış əşyanın yenidən alınması (satın alınması) halı sübuta yetirildikdə, bu hal həmin əqdin yalan (əhəmiyyətsiz) hesab edilməsinə deyil, müqavilənin təfsir edilməsinə əsas ola bilər. Başqa sözlə, satılmış əşyanın yenidən alınması (satın alınması) barədə müqavilə daşınmaz əmlakın adi alqı-saqtı müqaviləsi kimi rəsmiləşdirildikdə tərəflər arasında olan münasibətin həqiqi xarakteri əsas götürülməklə həmin müqavilənin satılmış əşyanın yenidən alınması (satın alınması) imkanı kimi qiymətləndirilməsi nəzərdən keçirilməlidir. Mübahisə olduqda müqavilənin növünün və daxili məzmununun müəyyənləşdirilməsində tərəflərin yalnışlıqla və ya bilərəkdən istifadə etdikləri sözlərə baxılmadan, həqiqi və ortaq iradələri təsbit olunmalı və nəzərə alınmalıdır. Elmi ədəbiyyatda da hakim olan mövqe ondan ibarətdir ki, iradə bəyanları təfsir edilərkən müqavilənin mümkün qədər etibarlı qalmasını təmin edən mənaya üstünlük verilməli, bununla da əqdin keçərliliyi qorunmalıdır. Bu qaydanın təməlində iradə sərbəstliyi və müqavilə azadlığı prinsipləri çərçivəsində tərəflərin iradələrinə hörmət göstərilməsi dayanır.

74. Mülki Məcəlləyə görə müqavilə şərtlərini təfsir edərkən məhkəmə təkcə müqavilədəki söz və ifadələrin hərfi mənasını deyil, həm də tərəflərin iradə ifadəsinin həqiqi mənasını, bütövlükdə müqavilənin hərfi mənasının onun digər şərtləri və mənası ilə müqayisəsini nəzərə alır. Bu zaman bütün müvafiq hallar, o cümlədən müqaviləyə qədərki danışıqlar və yazışmalar, tərəflərin qarşılıqlı münasibətlərində yaranmış praktika, işgüzar adətlər, tərəflərin sonrakı hərəkətləri nəzərə alınır. (MM, 404.1 və 404.2-ci maddələr) 75. İşin müəyyən edilən halları tərəflər arasında satılmış əşyanın yenidən alınması (satın alınması) ilə bağlı faktiki və şifahi razılaşmanın olduğunu göstərir.

76. Bununla belə sözügedən razılaşmanın etibarlı bir əqd kimi hüquqi nəticə yaratması üçün qanunla müəyyən edilmiş formada bağlanması zəruridir.

77. Məlum olduğu kimi, daşınmaz əmlakın dövlət reyestri obyektlərinə dair sərəncam verilməsi haqqında müqavilələr notariat qaydasında təsdiqlənməlidir. Tərəflər müqavilənin bütün mühüm şərtləri barəsində tələb olunan formada razılığa gəldikdə müqavilə bağlanmış sayılır. Müqavilə əqdlərin bağlanması üçün nəzərdə tutulan hər hansı formada bağlana bilər, bu şərtlə ki, bu Məcəllədə həmin növ müqavilə üçün müəyyən forma təyin edilməsin. (MM, 144.1. 405.1 və 406.1-ci maddələr).

78. Mülki Məcəllədə müəyyənləşdirilmiş şərtləri pozmaqla bağlanmış əqd etibarsızdır. (MM, 337. 1-ci maddə)

79. Göründüyü kimi qanunvericilik daşınmaz əmlakın dövlət reyestri obyektlərinə dair sərəncam verilməsi haqqında müqavilələrin forma şərti kimi həmin müqavilələrin yalnız notariat qaydasında təsdiq edilməli olmasını müəyyən etmiş, eləcə də müəyyənləşdirilmiş şərtləri pozmaqla bağlanmış əqdlərin etibarsız olmasını nəzərdə tutmuşdur.

80. 08 iyul 2021-ci il tarixli müqavilədə tərəflər arasında satılmış əşyanın yenidən alınması (satın alınması) ilə bağlı şərt qeyd edilməmişdir.

81. Mülki Məcəllənin 659.2-ci maddəsinə görə satın almaqda üstünlük hüququ və müqaviləyə əsaslanan digər üstünlük hüquqları yalnız nəzərdə tutduqları əqdin etibarlığı üçün tələb edilən formada qeydə alınmış olduqda etibarlıdır.

82. Həmçinin Mülki Məcəllənin 329.1-ci maddəsinə görə əgər qanunla başqa hal müəyyən edilməmişdirsə, qanunla və ya tərəflərin qarşılıqlı razılığı ilə müəyyən edilmiş forma tələblərinə riayət etməməklə bağlanılmış əqd etibarsızdır.

83. Qeyd edilənlərə əsasən məhkəmə kollegiyası işin məhkəmələr tərəfindən müəyyən edilən hallarına uyğun olaraq hesab edir ki, 08 iyul 2021-ci il tarixli müqavilə tərəflər arasında satılmış əşyanın yenidən alınmasına (satın alınmasına) yönələn müqavilə olsa da, onlar həmin şərti müqaviləyə daxil etmədiklərindən və bununla da Mülki Məcəllənin 329.1 və 659.2-ci maddələrində nəzərdə tutulan forma şərtləri pozulduğu üçün həmin müqavilə bu əsasla etibarsız sayılmalı idi.

84. Lakin qeyd edildiyi kimi, apelyasiya instansiyası məhkəməsi 08 iyul 2021-ci il tarixli müqaviləni yalan əqd kimi qiymətləndirmiş, eyni zamanda tərəflərin bu müqaviləni bağlayan zaman hər hansı bir mənfəət əldə etmək üçün üçüncü şəxslərdə buna dair fikir formalaşdırmaq və görüntü yaratmaq niyyətinin olmasını da müəyyən etməmişdir.

85. Bu baxımdan, yuxarıda şərh edilən hallar hüquqi məsələ olduğu üçün məhkəmə kollegiyası işi apellyasiya baxışına göndərmədən apellyasiya instansiyası məhkəməsində müəyyən edilmiş hallar və sübutlar əsasında yeni qərar qəbul edilməklə müqavilənin etibarsız hesab edilməsi barədə iddianın təmin edilməli olması qənaətinə gəlir.

86. Cavabdehin adına verilmiş hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən 12.07.2021-ci tarixli çıxarışın ləğv edilməsi və Ünvan 2 ünvanında yerləşən qeyri-yaşayış sahəsinə iddiaçının tam mülkiyyət hüququnun bərpa edilməsi barədə iddia tələbinə gəldikdə, məhkəmə kollegiyası qeyd edir ki, apellyasiya instansiyası məhkəməsi həmin tələbi təmin edib, iddiaçının qeyd edilən daşınmaz əmlak üzərində tam pay hüququnu tanısa da, işdəki materiallara əsasən düzgün nəticəyə gəlməmişdir.

87. Belə ki, işin apellyasiya baxışında təqdim edilmiş (imzalanmayan) barışıq sazişində Ünvan 2 ünvanında yerləşən qeyri-yaşayış sahəsinin qalan ½ hissəsinin Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)-1155/2023 nömrəli, 17 fevral 2023-cü il tarixli qətnaməsinin (iddia 300000 ABŞ dollarının iddiaçıdan alınaraq cavabdehə verilməsi barədə) icrası qaydasında hərrac vasitəsilə cavabdeh tərəfindən 480000 manata əldə edilməsi, həmin əmlakın tam olaraq cavabdehin mülkiyyətində olması barədə qeyd vardır. (bax: 66-cı bənd)

88. Apellyasiya instansiya məhkəməsi həmin qeydlə bağlı tərəflərin fikrilərini öyrənməmişdir. Halbuki belə bir qeydin barışıq sazişinə yazılması təsadüfi omamışdır və bu da həmin məsələ ilə bağlı apellyasiya instansiyası məhkəməsinin araşdırma aparmasını zəruri edirdi. Həmçinin Elektron Məhkəmə İnformasiya Sistemindən də əmlak üzərində hüquq sahibinin müəyyən edilməsi mümkün idi.

89. Elektron Məhkəmə İnformasiya Sistemindən görünür ki, Ünvan 2 ünvanında yerləşən qeyri-yaşayış sahəsi həqiqətən də cavabehin tam mülkiyyətindədir: - əmlakın ½ hissəsi

hazırda etibarsız sayılmış 08 iyul 2021-ci il tarixli müqavilə əsasında; - digər ½ hissəsi isə iddiaçıdan 300000 ABŞ dollarının alınaraq cavabdehə verilməsi barədə Bakı Apellyasiya Məhkəməsinin 17 fevral 2023-cü il tarixli qətnaməsinin icrası qaydasında cavabdehin hərracda bağladığı müqavilə əsasında.

90. Buna görə də, Ünvan 2 ünvanında yerləşən qeyri-yaşayış sahəsinin qalan ½ hissəsi üzərində cavabdehin mülkiyyət hüquqları hərracda bağladığı müqavilə əsasında qeydə alındığı üçün həmin əmlak üzərində iddiaçının tam mülkiyyət hüquqları bərpa edilə bilməz. Eləcə də, cavabdehin daşınmaz əmlak üzərində tam mülkiyyət hüququ qeydə alındığı üçün onun adına ½ hissəyə verilmiş 12.07.2021-ci tarixli çıxarış da artıq mövcud olmadığı üçün həmin çıxarışın ləğvi barədə iddia tələbi təmin edilə bilməz.

91. İddiaçının daşınmaz əmlakın ½ hissəsinə mülkiyyət hüququnun bərpa olunmasına gəldikdə isə, qeyd edilməlidir ki, Mülki Məcllənin 141.1-ci maddəsinə görə əgər daşınmaz əmlakın dövlət reyestrinin məzmunu torpaq sahəsi üzərində hüquqa və ya həmin hüququn məhdudlaşdırılmasına dair həqiqi hüquqi vəziyyətə uyğun deyildirsə, hüququ qeydə alınmamış və ya hüququ düzgün qeydə alınmamış şəxs, yaxud mövcud olmayan yüklənmə haqqında qeydin daxil edilməsi ilə hüququ pozulmuş şəxs daşınmaz əmlakın dövlət reyestrində qeyddə düzəlişin aparılması üçün belə düzəlişlə hüququna toxunulan şəxsdən razılıq verməsini tələb edə bilər.

92. Bu baxımdan, həmin hissənin cavabdehin adına qeydə alınmasına əsas olan 08 iyul 2021-ci il tarixli müqavilə etibarsız sayıldığı üçün Mülki Məcllənin 141.1-ci maddəsinə uyğun olaraq daşınmaz əmlakın dövlət reyestrinin qeydində düzəliş aparılmalı, daşınmaz əmlakın dövlət reyestrində Ünvan 2 ünvanında yerləşən qeyri-yaşayış sahəsinin ½ hissəsinə mülkiyyət hüququna dair iddiaçının xeyrinə düzəliş edilməlidir.

93. Məhkəmə kollegiyası qeyd olunanlara əsasən belə qənaətə gəlir ki, kassasiya şikayəti qismən təmin edilməli, apellyasiya instansiyası məhkəməsinin qətnaməsi ləğv edilməli, iddia tələbi yuxarıda göstərilənlərə əsasən qismən təmin edilməli, 08 iyul 2021- ci il tarixli, AN-I №******** nömrəli müqavilə etibarsız sayılmalı, daşınmaz əmlakın dövlət reyestrində Ünvan 2 ünvanında yerləşən qeyri-yaşayış sahəsinin ½ hissəsinə mülkiyyət hüququna dair iddiaçının xeyrinə düzəliş edilməli, iddia qalan hissədə təmin edilməməlidir.

94. Yuxarıda göstərilənləri və MPM-in 416, 417, 418 və 419-cu maddələrini rəhbər tutaraq, məhkəmə kollegiyası

Qərara aldı:

Cavabdeh 1-in kassasiya şikayəti qismən təmin edilsin.

Bakı Apellyasiya Məhkəməsinin 2(103)-3397/2024 nömrəli, 17 iyul 2024-cü il tarixli qətnaməsi ləğv edilsin.

İddiaçının iddiası qismən təmin edilsin.

İddiaçı ilə Cavabdeh 1 arasında Bakı şəhəri 44 saylı Notariat ofisində bağlanmış, reyestrdə 4Ə-*** nömrə ilə qeydə alınmış, 08 iyul 2021ci il tarixli, AN-I №****** nömrəli «Daşınmaz əmlakın alqı-satqısı müqaviləsi" etibarsız hesab edilsin. Daşınmaz əmlakın dövlət reyestrində Ünvan 2 ünvanında yerləşən qeyri-yaşayış sahəsinin ½ hissəsinə mülkiyyət hüququna dair İddiaçının xeyrinə düzəliş edilsin.

İddia qalan hissədə təmin edilməsin.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

19. 2(103)-2697/2025 nömrəli, 2025-ci il 10 sentyabr tarixli qərar – torpaq sahəsinin alqı-satqısına dair müqavilənin bağlanmış hesab olunmasının əsas xüsusiyyətləri

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: XDS İcraiyyə Komitəsinin 1989-cu il 27 aprel tarixli qərarı ilə cavabdehə ev tikmək üçün torpaq sahəsi verilmiş, lakin həmin torpaq sahəsi üzərində mülkiyyət hüququ daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmamışdır.

Cavabdeh ölkə xaricində olduğundan onun atası və bacısı torpaq sahəsini iddiaçının atasına satmış və bu barədə notarial qaydada təsdiqlənmiş akt tərtib olunmuşdur. Cavabdeh də öz növbəsində torpaq sahəsinin iddiaçının atasına satılmasına etiraz etmədiyi barədə yazılı razılıq vermişdir. Həmin vaxtdan etibarən torpaq sahəsi iddiaçının atasının, sonuncu vəfat edəndən sonra isə iddiaçının istifadəsində olmuşdur. Sonradan cavabdeh əqdin notariat qaydasında təsdiqlənməsindən boyun qaçırdığından iddiaçı torpaq sahəsinin alqı-satqısına dair müqavilənin bağlanmış hesab olunması barədə iddia qaldırmışdır.

Məhkəmələr iddia tələbini rədd edərkən, gəldikləri nəticəni onunla əsaslandırmışdır ki, cavabdeh tərəfindən verilmiş iltizamdakı iradə ifadəsi mübahisəli torpaq sahəsinə dair alqı-satqı müqaviləsinin zəruri şərtlərinə riayət edilməsi kimi qiymətləndirilə bilməz. Torpaq sahəsi səlahiyyətli dövlət orqanı tərəfindən cavabdehin istifadəsinə verilməsinə baxmayaraq, nə torpaq islahatı zamanı, nə də ondan sonra cavabdehin mülkiyyətinə verilməmiş və sonuncunun torpaq sahəsi üzərində mülkiyyət hüquqları dövlət qeydiyyatına alınmamışdır. Mülkiyyət hüququnu iddiaçı tərəfə vermək üçün cavabdeh tərəfin həmin torpaq sahəsinə mülkiyyət hüququ olmamış və hal-hazırda da yoxdur.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi: Ali Məhkəmə hesab etmişdir ki, iş üzrə təqdim olunmuş akt mahiyyətcə torpaq sahəsinin alqı-satqısı barədə bağlanmış müqavilə kimi qiymətləndirilə bilər. Aktda alqı-satqı münasibətlərinə xas olan əsas elementlər – əvəzli hüquq ötürülməsi, tərəflərin razılığı və öhdəliklərin müəyyən edilməsi aydın şəkildə ifadə olunmuşdur. Müqavilənin “akt” adlandırılması onun hüquqi mahiyyətini dəyişmir, çünki tərəflərin niyyəti və iradəsi torpağın alqı-satqısına yönəlmişdir. Həmçinin cavabdehin torpağın satılmasına dair yazılı razılığı və sonrakı 17 il ərzində etiraz etməməsi onun əqdi faktiki olaraq bəyəndiyini göstərir. Bu hal Mülki Məcəllənin 357-360-cı maddələrinə əsasən “bəyənmə” (sonradan verilmiş razılıq) kimi qiymətləndirilir və əqdi etibarlı saymaq üçün əsas yaradır.

Mülki Məcəllənin aktın imzalandığı vaxt qüvvədə olan 335.2-ci maddəsi üzrə əqdin etibarlı hesab edilməsi üçün formanın pozulması əks tərəfin təqsiri ucbatından baş verməli, əqd qanunazidd olmamalı və yazılı formada tərtib edilməlidir. İş materiallarından görünür ki, iddiaçı öhdəlikləri yerinə yetirmiş, cavabdeh isə notarial təsdiqdən yayınmışdır. Məhkəmə həmçinin müəyyən etmişdir ki, cavabdehin torpaq sahəsinə mülkiyyət hüququ tam qeydiyyata alınmasa da, XDS-nin 1989-cu il qərarı ona sahiblik və istifadə hüquqları vermişdir. Bu hüquqlar “dövriyyə qabiliyyətli əmlak hüquqları” hesab olunur və mülki dövriyyədə iştirak edə bilər.

Belə olan halda, tərəflər arasında bağlanmış əqd tamamilə etibarsız deyil, torpaq üzərində sahiblik və istifadə hüququnun ötürülməsi barədə hüquqi nəticə doğuran razılaşma kimi qiymətləndirilə bilər.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-2697/2025

10.09.2025-ci il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi
Mülki Kollegiyasının

iddiaçının cavabdehlər Cavabdeh 1 və Cavabdeh 2-ə qarşı mülki iş üzrə

Q Ə R A R I

(Açar sözlər: reyestrdə qeydiyyata alınmamış torpaq sahəsinə dair alğı-satqı müqaviləsinin etibarlı sayılması tələbi)

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyası, hakimlər İspəndiyar Əsəd oğlu Şəfiyev (məruzəçi), Əhməd Abbas oğlu Əhmədov və Vüqar Təvəkgül oğlu Həsənovdan ibarət tərkibdə,

iddiaçının cavabdehlər Cavabdeh 1 və Cavabdeh 2-ə qarşı "alğı-satqı müqaviləsinin bağlanmış hesab edilməsi" tələbinə dair mülki iş üzrə Şəki Apellyasiya Məhkəməsi Mülki Kollegiyasının 2(107)-83/2025 nömrəli, 20 may 2025-ci il tarixli qətnaməsindən iddiaçı tərəfindən verilmiş kassasiya şikayətinə Ali Məhkəmənin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları

1. Şəki şəhər XDS İcraiyyə Komitəsinin xx xx 1989-cu il tarixli ** nömrəli qərarına əsasən, Cavabdeh 1-ə Şəki şəhərin 4-cü kvartalında üç otaqlı ev tikmək üçün 600 kv.m torpaq sahəsi verilmişdir.

2. X1 (Cavabdeh 1in atası), Cavabdeh 2 (Cavabdeh 1in bacısı) və X2-nin (iddiaçının atası) iştirakları ilə xx xx 2002-ci il tarixdə tərtib edilmiş və həmin tarixdə notariat qaydada təsdiqlənmiş aktda qeyd olunur ki, Şəki şəhər XDS İcraiyyə Komitəsinin xx xx 1989-cu il tarixli ** nömrəli qərarına əsasən Cavabdeh 1-ə şəhərin 4-cü kvartalında ev tikmək üçün 600 kv.m torpaq sahəsi verilmiş, həmin torpaq sahəsi üzərində kürsüyə qədər bünövrə qoyulmuşdur. Cavabdeh 1 hazırda Rusiyada olduğundan onun adına olan həmin sahənin satılması üçün atası X1ə razılıq vermişdir. X1 də həmin 600 kv.m torpaq sahəsini qonşusu X2ə satmaq istəyir. Odur ki, hər iki tərəfin razılığı ilə X2 həmin torpaq sahəsi üçün X1ə 1200 ABŞ dollarını verərək, həmin torpaq sahəsini özünün torpaq sahəsinə birləşdirmişdir. Əgər X1 və yaxud oğlu gələcəkdə həmin torpaq sahəsi üzrə hər hansı bir tələb və yaxud imtina edərsə, onda verilmiş 1200 ABŞ dollarının iki mislini qaytarmağa borcludur, X2 həmin torpaq sahəsini gələcəkdə rəsmiləşdirdikdən sonra isə bu tələb öz qüvvəsini itirir. Aktda göstərilən 1200 ABŞ dollarını oğlu Cavabdeh 1in əvəzinə onun razılığı ilə X1 qızı Cavabdeh 2nin iştirakı ilə almış və gələcəkdə baş verə biləcək bütün mübahisələrə cavabdehlik daşıyır. Aktın doğruluğunu X1, Cavabdeh 2 və X2 öz imzaları ilə təsdiq etmişlər.

3. Cavabdeh 1 tərəfindən əl yazısı ilə yazılmış iltizamda, ona məxsus olan 600 kv.m torpaq sahəsinin X2ə satılmasına etiraz etmədiyi qeyd olunur.

4. İddiaçının atası X2 xx xx 2021-ci il tarixdə vəfat etmişdir.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a) Birinci instansiya məhkəməsində icraat

5. İddiaçı cavabdehlər Cavabdeh 1-ə və Cavabdeh 2-ə qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, Cavabdeh 1 ilə onun mərhum atası X2 arasında Şəki şəhərinin 4-cü kvartalında yerləşən 600 kv.m torpaq sahəsinin xx xx 2002-ci ildə alğı-satqısına dair müqavilənin bağlanmış hesab edilməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

6. İddiaçı tələbini işin yuxarıda qeyd olunan hallarına istinad etməklə onunla əsaslandırmışdır ki, təxminən 2002-ci ildə hazırkı iş üzrə cavabdehlərdən Cavabdeh 1 mərhum atası X2ə müraciət edərək ona ayrılmış torpaq sahəsini satmaq istədiyini bildirmiş, əgər imkanı varsa həmin torpaq sahəsini almasını təklif etmişdir. Atası da, onun təklifini qəbul etmiş və həmin torpaq sahəsinin 1200 ABŞ dollarına alğı-satqı edilməsinə razılaşmışlar. Həmin vaxt torpağın sənədləri olmadığından alğı-satqının rəsmiləşdirilməsi mümkün olmamışdır. Daha sonra hazırkı iş üzrə cavabdehlərdən Cavabdeh 1 şəxsi işləri ilə əlaqədar Rusiya Federasiyasına getmiş və gedərkən torpaq sahəsinin mərhum atası X2ə satılmasına razı olması barədə iltizam vermişdir. Bundan sonra xx xx 2002-ci ildə hazırkı iş üzrə cavabdehlərin mərhum atası X1, hazırkı iş üzrə Cavabdeh 2 və mərhum atası X2 arasında torpaq sahəsinin alğı-satqısına dair akt bağlanmış və həmin akt notarial qaydada təsdiq edilmişdir. Həmin tarixdən torpaq sahəsi onların istifadəsinə verilmiş və bu günə kimi də

mübahisəsiz qaydada tərəflərindən istifadə edilmişdir. Keçən müddət ərzində dəfələrlə Cavabdeh 1-ə müqavilənin rəsmiləşdirilməsi barədə müraciət edilsə də, hər dəfə "onsuz da biz həmin torpağı sizə satmışıq deyərək" rəsmiləşdirməkdən yayınmışdır. Onun atası X2 xx xx 2021-ci ildə kəskin respirator çatışmazlığı səbəbindən ölmüşdür. Bundan sonra mərhum atasının vərəsəsi qismində o tanınmış və ona qanun üzrə vərəsəlik hüququ haqqında şəhadətnamə verilmişdir. Daha sonra tərəfindən Cavabdeh 1-ə alğısatqı müqaviləsinin bağlanması təklif edilsə də, müqavilə bağlamaqdan yayınmışdır. 2002ci ildən etibarən həmin torpaq sahəsi onların istifadəsində olmuş və heç bir şəxsin buna hər-hansı bir etirazı olmamışdır.

7. İddiaçı tərəf izahatında əlavə olaraq bildirmişdir ki, evin alğı-satqısını rəsmiləşdirməməsinin səbəbi, o zaman evin sənədlərinin hazırlanmasının çətin olması idi. Lakin hazırda həmin sənədləşmələri etmək rahatdır. İş materiallarından da göründüyü kimi onlar arasında alğı-satqı əqdi imzalanmışdır. Onlar arasında alğı-satqıya razı olmaq barədə qəbz yazılaraq imzalanıb. Sonradan cavabdeh imzanın ona aid olmadığını deyib. Lakin cavabdeh torpağın satıldığı barədə məlumatlı idi. Cavabdeh özü də etiraf edib ki, o 2005-ci ildə Rusiyadan gəlib və bu zaman əmlakın satıldığından məlumatlı olub. Cavabdehin özünün də bunu etiraf etməsindən və alğı-satqı aktından görünür ki, cavabdehlər həqiqətən də alğı-satqı barədə razılaşıblar. Keçən müddət ərzində cavabdeh buna etiraz etməyib.

8. Cavabdeh 1 iddia tələbinə etiraz edərək izahatında bildirmişdir ki, atası xəstə olduğundan və özünün imkanı zəif olması səbəbindən Rusiyaya işləmək üçün gedib. 2005-ci ildə atası vəfat edəndə Rusiyadan Azərbaycana qayıdıb. Gələndən sonra eşidib ki, evi satıblar. O bunu eşidib məhkəməyə müraciət etmək istəsə də ailə üzvləri qoymayıblar. O, məhkəməyə müraciət etməməsinin səbəbini belə izah etmişdir ki, bu müddət ərzində qarşı tərəfi gözləmiş, aralarında razılığa gələ biləcəklərini fikirləşmişdir. Daha sonra Asan Xidmətdən çıxarış almaq üçün getmiş lakin sonradan ona deyiblər ki, torpağın üstündə pul var, həmçinin torpaqda sürüşmə var. Həmin torpaq sahəsi üzərində ev yoxdur. O, Iddiaçıin oğlunu tanımır. 1993-cü ildə Rusiyaya getmiş 1996-cı ildə anasının 2005-ci ildə isə atasının vəfat etməsi səbəbi ilə Azərbaycana gəlib. 1200 dolları atası ilə bacısı alıb. Torpaqdan hal-hazırda qarşı tərəf istifadə edir. Evin qapısının yerini da onlar dəyişiblər. Odur ki, iddianın rədd edilməsini məhkəmədən xahiş etmişdir.

9. Birinci instansiya məhkəməsinin iclasında şahid qismində dəvət olunmuş X3 izahat verərək bildirmişdir ki, iddiaçı onun qardaşı oğludur. Cavabdehin torpaq sahəsi onların torpaq sahəsinə bitişikdir. Bir müddət sonra makler həmin torpağın satıldığını bildirdi. Onlar razılaşdıqdan sonra müəyyən olundu ki, torpaq sahəsi Cavabdeh 1in adınadır. Atası Cavabdeh 1in razılığının rəsmi qaydada alınmasını təmin edəcəyini bildirərək notariusun iştirakı ilə alğı-satqı etmişlər.

10. Birinci instansiya məhkəməsinin iclasında şahid qismində dindirilmiş X4 izahat verərək bildirmişdir ki, iddiaçı və cavabdeh onun qonşusudur. Cavabdeh 1in atası X1 ona torpaq sahəsinin satmaq istədiyini demişdir. Səbəbini soruşduqda isə X1 ona onsuz da evin dağıldığını və uşaqların da Rusiyada olduğunu bildirmişdir. O, da əmlakın satıldığını İlqara bildirib. Sonradan evin satıldığını eşitmişdir.

11. Şəki Rayon Məhkəməsinin 14 may 2024-cü il tarixli, e-2(075)-209/2024 saylı qətnaməsi ilə iddia rədd edilərək iş üzrə ödənilmiş dövlət rüsumu iddiaçıya aid edilmişdir (hakim: Elşən Vəliyev).

12. Məhkəmə qeyd etmişdir ki, iddiaçı iddia ərizəsində Cavabdeh 1 ilə X2 arasında alğı-satqı müqaviləsinin bağlanmasını, məhz bu səbəbdən Cavabdeh 1 tərəfindən iltizamın imzalanmasını bildirsə də, bu hallara dəlalət edə biləcək sübutları məhkəməyə təqdim edə bilməmişdir.

13. Məhkəmə həmçinin qeyd etmişdir ki, iddiaçının istinad etdiyi Cavabdeh 1 tərəfindən imzalanması göstərilən iltizam torpaq sahəsinin alğı-satqısı şərtlərini özündə əks etdirən müqavilə deyildir. Həmin ərizədə torpaq sahəsinin alğısatqısının tərəfləri, torpağın satış qiyməti, müqavilənin müddəti, bu alğı-satqının hansı vaxtda notarial qaydada təsdiqlənməli olması və sair şərtlər göstərilməmişdir. Ona görə də həmin ərizə 0,06 ha torpaq sahəsinin alğı-satqısı ilə bağlı Cavabdeh 1 ilə X2 arasında bağlanmış sadə yazılı əqd kimi qəbul edilə bilməz.

14. Məhkəmə mövqeyini Mülki Məcəllənin 144.1, 152.1, 152.2, 152.5, 157.4, 324.1, 337.1, 337.2, 354.2, 359.1, 362.1, 362.2, 560.1, 567, 646.1, 648.1, 648.2-ci, Mülki Prosessual Məcəllənin 14.2, 76.1, 76.2, 119.1, 217.3, 217.4 və 233.3-cü maddələrinə istinad etməklə əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsində icraat

15. İddiaçı apellyasiya şikayəti verərək birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv olunaraq iddia tələbinin təmin edilməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

16. Apellyasiya şikayətinin dəlilləri iddia ərizəsinin dəlilləri ilə oxşar məzmunda olmuş, əlavə olaraq göstərilmişdir ki, məhkəmə yalnız cavabdehin mövqeyini üstün tutmaqla kifayətlənmişdir. Məhkəmə hazırkı iş üzrə iddiaçının (onun mərhum atasının) vicdanlı alıcı olmasını nəzərə almamış, onun qanunla qorunan mülkiyyət hüquqlarına qiymət verməmişdir. Eləcə də, məhkəmə cavabdehin niyə 2002-ci ildən bu günə kimi mülkiyyətində olan (əgər həqiqətən də, satmamışdırsa) torpaq sahəsinə hər-hansı bir iddia irəli sürmədiyini əsaslandırmamış, həmin xüsusatlara hüquqi qiymət verməmişdir.

17. Məhkəmə kollegiyası işə əlavə olunmuş, Cavabdeh 1in torpaq sahəsinin satılmasına razılığı bildirən qəbzdə olan imzanın Cavabdeh 1 tərəfindən icra edildiyini müəyyən etmək üçün ekspertiza təyin etmiş və Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin xx.xx.2025-ci il tarixli, 4/*** nömrəli ekspert rəyi ilə müəyyən edilmişdir ki, ekspertizaya təqdim edilmiş, Cavabdeh 1-ə məxsus torpaq sahəsinin satılmasına etiraz etməməsi barədə razılıq ərizəsində “İmza: / Cavabdeh 1 /” - əlyazmaları qarşısındakı imza – Cavabdeh 1 tərəfindən icra olunmuşdur.

18. Şəki Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 07.08.2025-ci il tarixli, 2(102)-2697/2025 qətnaməsi ilə apellyasiya şikayəti təmin edilməmiş, birinci instansiya məhkəməsinin qətnaməsi apellyasiya şikayətinə münasibətdə mübahisələndirilən hissədə dəyişdirilmədən saxlanılmışdır (hakimlər - Elçin Hüseynov, Zülfüqar Sadiqov və Əyyub Kərimov).

19. Məhkəmə kollegiyası mövqeyini belə əsaslandırmışdır ki, iddia tələbinin mahiyyətindən göründüyü kimi tələb əqdin (alğı-satqı müqaviləsinin) bağlanmış hesab edilməsi barədədir. İddiaçı tələbinin faktik əsası kimi ona istinad edib ki, mərhum atası mübahisəli torpaq sahəsini alan zaman torpağın sənədləri hazır olmamış, torpağın pulunu tam olaraq ödəmişdir. Həmin torpaq sahəsini naturada təhvil almış, öz həyətyanı torpaq sahəsinə bitişdirmiş, 20 ildən artıq fasiləsiz olaraq torpaq sahəsinə sahiblik etmişlər. Bu illər ərzində cavabdeh həmin torpaq sahəsi barədə ona heç bir irad bildirməmişdir. İşə baxan birinci instansiya məhkəməsi bunları nəzərə almamışdır.

20. İddiaçı mübahisəli torpaq sahəsinin mərhum atasına məxsusluğunu bildirməklə, Şəki şəhərinin 4-cü kvartalında yerləşən 600 kv.m torpaq sahəsinin xx xx 2002-ci ildə alğı-satqısına dair müqavilənin bağlanmış sayılmasını xahiş etmişdir.

21. İş materiallarından da göründüyü kimi, iddiaçının mübahisələndirdiyi torpaq sahəsi səlahiyyətli dövlət orqanı tərəfindən iş üzrə Cavabdeh 1in istifadəsinə verilməsinə baxmayaraq, nə torpaq islahatı zamanı, nə də ondan sonra cavabdehin mülkiyyətinə

verilməmiş və sonuncunun torpaq sahəsi üzərində mülkiyyət hüquqları dövlət qeydiyyatına alınmamışdır.

22. Məhkəmə kollegiyasında araşdırma zamanı müəyyən edilmişdir ki, cavabdehin mərhum atası X1 cavabdehin razılığı ilə Şəki şəhərinin 4-cü kvartalında yerləşən 600 kv.m torpaq sahəsini iddiaçının atası X2ə 1200 ABŞ dolları qarşılığında satmış, X1 və oğlu həmin torpaq sahəsinin mülkiyyət sənədlərini aldıqdan sonra X2nin adına rəsmiləşdirəcəyi barədə öhdəlik götürmüşdür

23. Məhkəmə kollegiyası nəzərə alır ki, iddiaçı tələbinin hüquqi əsası kimi Mülki Məcəllənin 335.2-ci maddəsinə (bu maddə 24.06.2005-ci il tarixli qanunla çıxarılmışdır) istinad etmiş və məhz həmin maddənin müddəalarına əsaslanmaqla cavabdehin atası tərəfindən iddiaçının atasına verilmiş mübahisəli torpaq sahəsinə dair alğı-satqı müqaviləsinin bağlanmış hesab olunmasını tələb etmişdir.

24. Kollegya qeyd etmişdir ki, mübahisəli torpaq sahəsi ilə bağlı iddiaçının atası və cavabehin atası arasında imzalanmış AKT daşınmaz əmlaka dair bağlanmış ikitərəfli əqd kimi qəbul edilə və müvafiq olaraq da onlarla bağlı Mülki Məcəllənin yuxarıda qeyd olunan maddələrinin müddəaları tətbiq edilə bilməz.

25. Məhkəmə kollegiyası birinci instansiya məhkəməsinin əsaslandırması ilə razılaşır və özünün bu mövqeyini mülki qanunvericiliyin əqdlər institutu ilə bağlı yanaşmasına uyğun hesab edir.

26. Belə ki, Mülki Məcəllənin 324.1 və 324.2-ci maddələrinə görə əqd mülki hüquq münasibətinin əmələ gəlməsinə, dəyişdirilməsinə və ya xitamına yönəldilmiş birtərəfli, ikitərəfli və ya çoxtərəfli iradə ifadəsidir. Əqdlər birtərəfli və müqavilə şəklində (ikitərəfli və ya çoxtərəfli) ola bilər. Beləliklə, Mülki Məcəllənin ümumi yanaşmasına görə hər hansı razılaşmanın və ya iradə ifadəsinin əqd sayılması, həmin əqdin etibarlı hesab olunması və qanunla müdafiə olunan nəticələr doğurması üçün o, aşağıdakı ünsürləri ehtiva etməli və həmin ünsürlər qüsurlu olmamalıdır: subyekt tərkibinə görə; məzmununa görə; formasına görə; iradə və iradə ifadəsinə görə. Yazılı əqddə isə ilk növbədə onun məzmununa dair tərəflərin iradə ifadələri öz əksini tapmalıdır. Bu, Mülki Məcəllənin 331.1-ci maddəsinin müddəalarından irəli gəlir. Həmin maddəyə görə yazılı əqd onun məzmununu ifadə edən və əqdi bağlayan şəxs və ya şəxslər və ya onların lazımınca vəkil etdikləri şəxslər tərəfindən imzalanmış sənədin tərtibi yolu ilə bağlanmalıdır. Şərh olunan qanunvericilik müddəalarını rəhbər tutmaqla məhkəmə kollegiyası qeyd etmişdir ki, cavabdeh tərəfindən verilmiş iltizamdakı iradə ifadəsi mübahisəli torpaq sahəsinə dair alğı-satqı müqaviləsinin zəruri şərtlərinə riayət edilməsi kimi qiymətləndirilə bilməz.

27. Mülki Məcəllənin 567 və 650-ci maddələri ümumən alğı-satqı müqaviləsinin, o cümlədən də rəsmi reyestrdə qeydə alınan daşınmaz əmlakın alğı-satqısına dair əqdin məzmunu nələri ehtiva etməli olduğunu müəyyən edərək təsbit edir ki, alğı-satqı müqaviləsinə görə satıcı əşyanı alıcının mülkiyyətinə verməyi, alıcı isə əşyanı qəbul edib əvəzində müəyyənləşdirilmiş pul məbləğini ödəməyi öhdəsinə götürür.

28. Bu zaman məhkəmə kollegiyası nəzərə almışdır ki, Konstitusiya Məhkəməsi S.Əliyevanın şikayəti ilə əlaqədar qəbul etdiyi 31 may 2006-cı il tarixli qərarında həmin məsələ ilə bağlı aşağıdakı hüquqi mövqeyini ifadə etmişdir: “Ümumiyyətlə qeyd olunmalıdır ki, qanuna zidd yolla təkcə əşyanın verilməsi mülkiyyət hüququnun subyektini dəyişmir. Mülkiyyət hüququ yalnız qanunla müəyyən edilmiş qaydaların həyata keçirilməsi nəticəsində yaranır. Mülkiyyətçisi olan əmlakın qanunun tələblərinə əməl olunmadan əldə edilməsi xüsusi hüquqa əsaslanmayan faktiki sahibliyi yaradır. Bu isə onu deməyə əsas verir ki, əgər alıcı əmlakın əldə edilməsi ilə bağlı qanunvericiliyə lazımi qaydada riayət edilməsi məqsədi ilə

ondan tələb olunan hərəkətləri etməyibsə, bu hal gələcəkdə əmlakın faktiki sahibliyindən məhrum olunmasının onun laqeyd münasibəti ucbatından baş verməsinə dəlalət edir".

29. "K.Rəcəbovun şikayəti ilə əlaqədar Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki işlər üzrə məhkəmə kollegiyasının 3 iyun 2005-ci il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair" Konstitusiya Məhkəməsinin Plenumunun 22 mart 2006-cı il tarixli qərarındakı formalaşdırdığı hüquqi mövqeyə görə... əqdi icra etmiş tərəfin tələbi ilə məhkəmənin əqdi etibarlı hesab edə bilməsi üçün aşağıdakı halların mövcudluğu tələb olunur: əqdin notarial təsdiqlənməsi qaydasına riayət edilməməsi əks tərəfin təqsiri ucbatından baş verməli; məhz əks tərəf əqdin notariat qaydasında təsdiqlənməsindən yayınmalı; əqdin özü qanuna zidd olmamalı və onun yazılı formada tərtib edilməsinə dair tələbə əməl edilmiş olmalıdır. Axırıncı məqam qanunvericiliklə etibarlılığı birbaşa yazılı formada tərtib edilməsindən asılı hala gətirilmiş əqdlər üçün xüsusi əhəmiyyət daşıyır.... Daşınmaz əşyaların alğı-satqısı haqqında müqavilə də belə əqdlərdən biridir.

30. Göründüyü kimi, yuxarıda adı çəkilən norma daşınmaz əşyaların alğı-satqısı haqqında müqavilənin etibarlı sayılmasını mütləq iki şərtin mövcudluğu ilə əlaqələndirir: yazılı formada bağlanması; notariat qaydasında təsdiqlənməsi. Həmin şərtlərə əməl edilməməsi daşınmaz əşyaların alğı-satqısı müqaviləsinin etibarlılığını şübhə altına alır. Beləliklə, daşınmaz əşyaların alğı-satqısı haqqında müqaviləyə münasibətdə qanun birmənalı olaraq müəyyənləşdirir ki, belə əqdlərin bağlanmasının yazılı formasına riayət edilməməsi birbaşa onların etibarsızlığına səbəb olur.

31. Eyni zamanda kollegiya qeyd etmişdir ki, nə iddiaçının istinad etdiyi akt tərtib olunarkən mübahisə predmeti olan torpaq sahəsinin hüquqmüəyyənedici sənədləri mövcud olmuş, nə də hal-hazırda vardır. Yəni daşınmaz əşya olan torpaq sahəsinə mülkiyyət hüququnu iddiaçı tərəfə vermək üçün cavabdeh tərəfin həmin torpaq sahəsinə mülkiyyət hüququ olmamışdır və hal-hazırda da yoxdur. Bu fakt işin mübahisəsiz halı olmaqla qeyd olunan aktın (alğı-satqı müqaviləsinin) bağlanmış hesab edilməsini qəti olaraq istisna edir.

32. Birinci instansiya məhkəməsi qeyd etmişdir ki, qanunvericiliyin tələbinə əsasən daşınmaz əmlak, o cümlədən torpaq üzərində sərəncam verməklə bağlı əqdlər (alğı-satqı, bağışlama və sair) yazılı formada bağlanmalı, notariat qaydada təsdiqlənməli və daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmalıdır. Qanunla müəyyən olunmuş forma tələblərinə riayət edilməməklə bağlanmış əqd etibarsızdır, yəni heç bir hüquqi nəticələrə səbəb olmur.

Kassasiya şikayətinin və ona qarşı etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

33. İddiaçı (vəkil Əliyev Fərid Mehdi oğlu) kassasiya şikayəti verərək, apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv edilərək işin yenidən baxılması üçün həmin məhkəməyə göndərilməsini xahiş etmişdir.

34. Kassatorun ilkin dəlilinə görə, işə baxan məhkəmə kollegiyası iddiaçının (onun mərhum atasının) vicdanlı alıcı olmasını nəzərə almamış, onun mülkiyyət hüququna Konstitusiyanın 13 və 29-cu maddələri baxımından düzgün hüquqi qiymət verməmişdir.

35. Kassasiya şikayətində qeyd edilmişdir ki, işə baxan məhkəmə kollegiyası keçirilmiş ekspertizanın rəyini nəzərə almamış, rəyə ümumiyyətlə qiymət verməmişdir.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

36. Kassasiya şikayətinə qarşı etiraz ərizəsi daxil olmamışdır.

Tətbiq edilən hüquq

Azərbaycan Respublikasının Mülki Məcəlləsi

37. Maddə 5.3. Mülki hüquq münasibətlərinin subyektləri öz hüquq və vəzifələrini vicdanla həyata keçirməyə borcludurlar.

38. Maddə 14.3. Əgər qanunla əmlak hüquqlarının yaranması üçün ayrı qayda nəzərdə tutulmayıbsa, dövlət qeydiyyatına alınmalı əmlak hüquqları onların qeydə alındığı andan əmələ gəlir.

39. Maddə 139.1. Mülkiyyət hüququ və daşınmaz əmlaka digər hüquqlar, bu hüquqların məhdudlaşdırılması, əmələ gəlməsi, başqasına keçməsi və xitamı dövlət qeydiyyatına alınmalıdır. Mülkiyyət hüququ, istifadə hüququ, ipoteka, servitutlar, habelə daşınmaz əmlaka digər hüquqlar bu Məcəllədə və qanunvericilikdə nəzərdə tutulan hallarda qeydə alınmalıdır.

40. Maddə 144.1. Daşınmaz əmlakın dövlət reyestri obyektlərinə dair sərəncam verilməsi haqqında müqavilələr notariat qaydasında təsdiqlənməlidir.

41. Maddə 324.1. Əqd mülki hüquq münasibətinin əmələ gəlməsinə, dəyişdirilməsinə və ya xitamına yönəldilmiş birtərəfli, ikitərəfli və ya çoxtərəfli iradə ifadəsidir.

42. Maddə 335. Əqdin notarial formasına riayət edilməməsinin nəticələri (24 iyun 2005-ci il tarixdə qüvvədən düşüb).

335.1 Əqdin notarial formasına riayət edilməməsi onun etibarsızlığına səbəb olur. Bu cür əqd əhəmiyyətsiz sayılır.

335.2. Əgər tərəflərdən biri notariat qaydasında təsdiqlənməsi tələb olunan əqdi tamamilə və ya qismən icra etmişsə, digər tərəf isə əqdin notariat qaydasında təsdiqlənməsindən boyun qaçırırsa, əqdi icra etmiş tərəfin tələbi ilə məhkəmənin əqdi etibarlı saymaq ixtiyarı vardır. Bu halda əqdin sonradan notariat qaydasında təsdiqlənməsi tələb edilmir.

43. Maddə 394. Bir tərəfin daşınmaz əşyaya mülkiyyəti və ya digər əşya hüquqlarını digər tərəfə vermək və ya əldə etmək barədə öhdəlik götürdüyü müqavilə notariat qaydasında təsdiqlənməlidir.

44. Maddə 646.1. Daşınmaz əşyaların alğı-satqısı müqaviləsinə görə satıcı torpaq sahəsini, evi, binanı, qurğunu, mənzili və ya digər daşınmaz əşyanı alıcının mülkiyyətinə verməyi öhdəsinə götürür.

45. Maddə 648.1. Daşınmaz əşyaların alğı-satqısı halında tərəflərdən hər biri mülkiyyət hüququnun keçirilməsi faktının daşınmaz əmlakın dövlət reyestrində qeydə alınması üçün öz tərəfindən zəruri olanları həyata keçirərək özünün vermə və ya qəbul etmə vəzifəsini icra edir.

46. Maddə 648.2. Satılmış əşya ilə bağlı risklər, xərclər və faydalar şübhə halında alıcıya yalnız daşınmaz əmlakın dövlət reyestrinə daxil edildiyi andan keçir. Əgər tərəflərdən biri qeydiyyatın gecikdirilməsində təqsirlidirsə, o, bununla əlaqədar əmələ gəlmiş zərərin əvəzini digər tərəfə ödəməlidir.

Torpaq bazarı haqqında Qanun

47. Maddə 1. Əsas anlayışlar

Bu Qanunda istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir: torpaq bazarı - torpaq dövriyyəsi proseslərində torpaq sahələrinin alqı-satqısı, girov qoyulması, bağışlanması, habelə mülkiyyət, istifadə və icarə hüquqlarının digər formalarda dəyişməsi ilə bağlı dövlət orqanları, bələdiyyələr, fiziki və hüquqi şəxslər arasında yaranan iqtisadi və hüquqi münasibətlər; torpaq sahələrinin dövriyyəsi - Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada torpaq sahələri üzərində mülkiyyət, istifadə və icarə hüquqlarının dəyişməsi, torpaqların bir kateqoriyadan digərinə keçməsi və kateqoriyalar daxilində transformasiyası.

48. Maddə 4. Torpaq bazarının obyektləri və subyektləri

Azərbaycan Respublikasının torpaq qanunvericiliyi ilə müəyyən olunmuş qaydada qeydiyyata alınmış aşağıdakı torpaq sahələri və torpaqla bağlı hüquqlar torpaq bazarının obyekti ola bilər:

xüsusi mülkiyyətdə olan torpaqlar;

bələdiyyələrin ehtiyat fondunun özəlləşdirilə bilən torpaqları;

ipoteka haqqında Azərbaycan Respublikasının qanunvericiliyi ilə ipoteka predmeti sayılan torpaq sahələri; özəlləşdirilən dövlət obyektlərinin yerləşdiyi torpaq sahələri;

dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqlar üzərində istifadə və icarə hüquqları.

...

Azərbaycan Respublikasının hüquqi şəxsləri və vətəndaşları torpaq bazarında mülkiyyətçi, istifadəçi, icarəçi, girovqoyan, girovsaxlayan, alıcı, satıcı və digər əqdlərin iştirakçısı ola bilərlər.

49. Maddə 5. Torpaq bazarı əqdlərinin formaları Torpaq bazarında aşağıdakı əqdlər həyata keçirilir:

... torpaq sahəsi üzərində istifadə və icarə hüquqlarının başqasına keçməsi;

...

50. Maddə 10. Maddə 10. Xüsusi mülkiyyətdə olan torpaqların alqı-satqısı

Vətəndaşların və hüquqi şəxslərin mülkiyyətində olan torpaqlar, habelə onlar üzərində istifadə və icarə hüquqları bilavasitə satıldıqda, alqı-satqı tərəflər arasında bağlanmış və notarial qaydada təsdiq edilmiş alğı-satqı müqavilələri əsasında həyata keçirilir.

51. Maddə 14. Torpaq sahəsi üzərində istifadə və icarə hüquqlarının başqasına keçməsi

Torpaq sahəsi üzərində istifadə və icarə hüquqları başqasına alqı-satqı, nizamnamə (pay) fonduna verilmə, girov qoyulma (ipoteka), dəyişmə, bağışlanma və vərəsəlik qaydalarında keçə bilər.

Torpaq sahəsi üzərində istifadə və icarə hüquqları başqasına torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin razılığı ilə könüllü və ya məhkəmənin qərarı ilə keçə bilər.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi

52. Maddə 14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

53. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

54. Maddə 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

55. Maddə 217.2. Qətnamə mübahisəli hüquq münasibətinin yarandığı zaman qüvvədə olan maddi hüquq normalarına və işin baxılması zamanı qüvvədə olan prosessual hüquq normalarına uyğun çıxarılmalıdır.

56. Maddə 407.2. Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir.

57. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

58. Maddə 417.1.1. Kassasiya məhkəməsi işə baxarkən apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadını dəyişiklik edilmədən, şikayəti təmin etmədən saxlaya bilər.

Kassasiya baxışının hədləri

59. Qanunun tələbinə görə, kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

60. Hazırkı kassasiya şikayəti əsasında apellyasiya instansiyası məhkəməsinin aktı bütövlükdə yoxlanılır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

61. Məhkəmə kollegiyası aşağıdakılara əsasən hesab edir ki, kassasiya şikayəti təmin edilməli, apelyasiya instansiyası məhkəməsinin qətnaməsi ləğv edilməli və iş yenidən baxılması üçün göndərilməlidir.

62. Belə ki, işin məhkəmələr tərəfindən müəyyən olunmuş hallarından göründüyü kimi iddiaçı onun tərəfindən təqdim olunmuş əqd (akt) əsasında cavabdehlərlə yaranmış münasibətlərin torpaq sahəsinin alğı-satqı münasibətləri kimi tanınmasını və bunun əsasında torpağa dair alğı-satqı müqaviləsinin etibarlı sayılmasını tələb edir.

63. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun "F.Nəcəfovanın şikayəti üzrə" 3 mart 2023-cü il tarixli qərarında ifadə olunmuş hüquqi mövqelər baxımından nəzərə alınmalıdır ki, mülki hüquqi öhdəliklərin ən mühüm yaranma əsası olaraq müqavilələr tərəflərin iradə sərbəstliyi ilə şərtləndirilir və tərəflərin iradə sərbəstliyi, müqavilə azadlığı müqavilə münasibətlərinin tənzimlənməsinin əsas prinsipləri olaraq qəbul edilir.

64. Göstərilən prinsiplər mülki hüquq subyektlərinin müqavilələrin forması ilə bağlı iradə azadlığını da ehtiva edir. Mülki hüquq subyektləri bir qayda olaraq müqavilələri arzu etdikləri istənilən formada (şifahi, davranışlarla, sadə yazılı, notarial qaydada təsdiqlənməklə) bağlaya bilərlər. Müqavilənin forması ilə bağlı tərəflərin iradə azadlığı mülki dövriyyənin inkişafı, mülki münasibətlərin dinamikliyinin təmin olunması baxımından çox əhəmiyyətlidir.

65. Lakin şəxsi və (və ya) ictimai mənafeyin təmin olunması baxımından zərurət olduqda bəzi müqavilələrin bağlanılması qanunvericilikdə məcburi forma şərtinə tabe tutulur (Mülki Məcəllənin 406.1-ci maddəsi).

66. Qanunla və ya tərəflərin qarşılıqlı razılığı ilə müəyyən edilmiş forma tələblərinə riayət edilmədən bağlanmış əqd etibarsızdır. Əqdlər şifahi və ya yazılı (sadə və ya notarial) formada bağlanır (Mülki Məcəllənin 329-cu maddəsi).

67. Əqdin notariat qaydasında təsdiqlənməsi onun məzmununu ifadə edən və əqdi bağlayan şəxs və ya şəxslər və ya onların lazımınca vəkil etdikləri şəxslər tərəfindən imzalanmış yazılı sənəddə notariusun və ya bu cür notarial hərəkəti yerinə yetirməyə hüququ çatan digər vəzifəli şəxsin təsdiqləyici qeyd etməsi yolu ilə həyata keçirilir (Mülki Məcəllənin 331 və 334-cü maddələri).

68. Qanunvericilikdə bir sıra əqdlər üçün sadə yazılı və ya notariat qaydasında təsdiqlənmə tələbinin etibarlılıq şərti kimi müəyyən edilməsi həmin əqdlərin mahiyyətindən irəli gəlir. Belə ki, bir qayda olaraq iqtisadi dəyəri daha yüksək olan, fərdin şəxsi və iqtisadi həyatı baxımından mühüm rol oynayan (bir tərəf üçün öhdəlik və vəzifələr yaradan zaminlik, bağışlama vədi kimi) əqdlərin, dövlətin xüsusi qeydiyyatını apardığı əşyalara dair sərəncam öhdəliyi yaradan əqdlərin (daşınmaz əşyaların, avtomobil və s. əşyaların alğısatqısı, ipoteka

və s.) etibarlı olması üçün onların müvafiq məcburi formada bağlanması və ya notarial qaydasında təsdiqlənməsi tələb olunur. Bununla mülki dövriyyə iştirakçılarına daha yaxşı düşünmək, bağlayacaqları əqd səbəbindən yaranacaq nəticələri əvvəlcədən müəyyən etmək və yekun qəti qərara gəlmək imkanı yaratmaq məqsədi güdülür. Məhz bu məqsədə nail olmaq, nəticədə mülki hüquq subyektlərinin mənafelərini qorumaq üçün qanunverici bir sıra əqdlər baxımından forma tələbini etibarlılıq şərti kimi müəyyən etmişdir.

69. Bu cür əqdlərdən biri daşınmaz əmlakın alğı-satqısına dair əqdlərdir. Daşınmaz əmlakın dövlət reyestri obyektlərinə dair sərəncam verilməsi haqqında müqavilələr notariat qaydasında təsdiqlənməlidir (Mülki Məcəllənin 144.1-ci maddəsi).

70. Hazırkı iş üzrə iddiaçının əsaslandığı, 24 iyun 2005-ci il tarixli Azərbaycan Respublikasının Qanunu ilə qüvvədən salınmış Mülki Məcəllənin 335-ci maddəsi ilə, əqdin notariat formasına riayət edilməməsinin nəticələri müəyyən edilirdi. Həmin maddəyə əsasən, əgər tərəflərdən biri notariat qaydasında təsdiqlənməsi tələb olunan əqdi tamamilə və ya qismən icra etmişsə, digər tərəf isə əqdin notariat qaydasında təsdiqlənməsindən boyun qaçırırsa, əqdi icra etmiş tərəfin tələbi ilə məhkəmənin əqdi etibarlı saymaq ixtiyarı vardır. Bu halda əqdin sonradan notariat qaydasında təsdiqlənməsi tələb edilmir.

71. Qeyd edilən maddə, forma şərtinə riayət edilməməsi səbəbindən etibarsız əqdlərin etibarlı hala gətirilməsini (konvalidasiyasını) nəzərdə tuturdu.

72. Konstitusiya Məhkəməsi Plenumunun S.Əliyevanın şikayəti üzrə 2006-cı il 31 may tarixli Qərarında Mülki Məcəllənin 335-ci maddəsi ilə əlaqədar formalaşdırdığı hüquqi mövqeyinə əsasən əqdi icra etmiş tərəfin tələbi ilə məhkəmənin əqdi etibarlı hesab etməsi üçün mütləq aşağıdakı hallar mövcud olmalıdır: əqdin notarial təsdiqlənməsi qaydasına riayət edilməməsi əks tərəfin təqsiri ucbatından baş verməli; məhz əks tərəf əqdin notariat qaydasında təsdiqlənməsindən yayınmalı; əqdin özü qanuna zidd olmamalı və onun yazılı formada tərtib edilməsinə dair tələbə əməl edilmiş olmalıdır.

73. Tərəflərin torpaq sahəsinin alğı-satqısı barədə razılaşmalarını sübut etmək üçün iddiaçı tərəfindən təqdim olunan aktda torpaq sahəsinin iddiaçıya satıldığı qeyd olunmuşdur. Aktı cavabdehin atası və bacısı imzalamış, cavabdeh torpağın satılmasına razlılğını yazılı şəkildə ifadə etmişdir.

74. İşə baxmış apelyasiya instansiysı məhkəməsi də müəyyən etmişdir ki, cavabdehin mərhum atası X1 cavabdehin razılığı ilə Şəki şəhərinin 4-cü kvartalında yerləşən 600 kv.m torpaq sahəsini iddiaçının atası X2ə 1200 ABŞ dolları qarşılığında satmış, X1 və oğlu həmin torpaq sahəsinin mülkiyyət sənədlərini aldıqdan sonra X2in adına rəsmiləşdirəcəyi barədə öhdəlik götürmüşdür (qərarın 22-ci paraqrafı).

75. Lakin məhkəmə bununla yanaşı hesab edib ki, mübahisəli torpaq sahəsi ilə bağlı iddiaçının atası və cavabehin atası arasında imzalanmış AKT daşınmaz əmlaka dair bağlanmış ikitərəfli əqd kimi qəbul edilə və müvafiq olaraq da onlarla bağlı Mülki Məcəllənin yuxarıda qeyd olunan maddələrinin müddəaları tətbiq edilə bilməz.

76. Məhkəmə kollegiyası bu mövqe ilə razılaşmayaraq qeyd edir ki, həmin akt torpağın alğı-satqısı məzmununda tərtib olunmuşdur, alğı-satqı müqaviləsinin elementlərini (satıcının əşyanı alıcının mülkiyyətinə vermək, alıcının əşyanı qəbul edib əvəzində müəyyənləşdirilmiş pul məbləğini (qiyməti) ödəməyi öhdəsinə götürməsi) kifayət qədər tam əks etdirir və başqa müqavilə öhdəliklərinin məzmununa uyğun müddəaları və şərtləri müəyyən etmir. Bu cür yazılı sənədin başlıqda "Akt" adlandırılması, tərəflərin bəyan etdikləri həqiqi niyyətlərini qüvvədən salmır, bu razılaşmanın legitimliyini şübhə altına almağa əsas vermir.

77. Belə ki, müqavilənin anlayışını müəyyən edən Mülki Məcəllənin 389.1-ci maddəsinə əsasən, mülki hüquq və vəzifələrin müəyyənləşdirilməsi, dəyişdirilməsi və ya xitamı haqqında iki və ya bir neçə şəxsin razılaşması müqavilə sayılır.

78. Müqavilənin əsas qurucu ünsürü iradə ifadəsidir. Bu iradə, müqavilə tərəfləri arasında münasibətlərin məzmununu müəyyən edir. İradənin sadəcə mövcud olması, özlüyündə müqavilənin yaranması üçün kifayət etmir. Bu baxımdan iradə, şəxsin müəyyən nəticənin əldə edilməsinə yönələn fikirlər kimi təşəkkül tapır, daha sonra həmin düşüncə niyyətə çevrilir və əks tərəfə çatdırılır. Bəyan olunan niyyət əsasında qarşılıqlı razılıq əldə olunduqda, müqavilədən bəhs oluna bilər. Bu baxımdan sözügedən aktın mahiyyəti üzrə alğı-satqı müqaviləsi kimi qəbul edilməsi üçün hüquqi maneə yoxdur.

79. Qeyd olunmalıdır ki, mübahisə predmeti olan torpaq sahəsi cavabdehə məxsus olmuşdur, lakin həmin torpağın alğı-satqısı barədə təqdim edilən aktda cavabdehin imzası yoxdur. Bu baxımdan həmin razılaşmanın cavabdehin torpağın satılmasına yönəlmiş iradəsini ifadə edib etməməsi təhlil olunmalıdır. Bu cür təhlil zamanı ilk növbədə Cavabdeh 1 tərəfindən imzalanmış, ona məxsus olan 600 kv.m torpaq sahəsinin X2ə satılmasına etiraz etmədiyi barədə iltizam nəzərə alınmalıdır. Bu iltizam, Cavabdeh 1in torpağın satılmasına razılığını, torpaq sahəsinə hüquqlarından əvəzli imtinaya yönələn iradəsini aydın şəkildə ifadə edir.

80. Bu nəticəyə gəlməyə əsas verən digər əhəmiyyətli hal isə ondan ibarətdir ki, Cavabdeh 1 2005-ci ildə xaricdən gəlmiş, həmin vaxtdan torpaq sahəsinin satılmasından və iddiaçının torpaq sahəsinə faktiki olaraq sahiblik və istifadə etməsindən məlumatlı olmuş, lakin ötən (iddia ərizəsi ilə məhkəməyə müraciət edilən 13.10.2023-cü il tarixədək olan 17 il) müddətdə buna etiraz etməmiş, torpaq sahəsinin geri alınması üçün hər hansı təşəbbüs göstərməmişdir. İşin bu halı torpağın qanuni əsaslarla sahibi olmuş Cavabdeh 1in iradə ifadəsinin müəyyən olunması üçün əhəmiyyətlidir.

81. Çünki bu növ mübahisələrdə torpaq sahəsinin satılmasına yönələn iradənin mövcudluğu həm də mülkiyyətçinin bu əqdi bəyənməyə dəlalət edən hərəkətləri ilə də müəyyən edilə bilər. Belə ki, Mülki Məcəllənin 358-ci maddəsinə əsasən, səlahiyyətsiz şəxsin əşyaya və ya hüquqa dair sərəncam verməsi, əgər səlahiyyətli şəxsin icazəsi (qabaqcadan verilmiş razılığı) ilə həyata keçirilirsə, etibarlıdır. Əşyaya və ya hüquqa dair sərəncam verilməsi, əgər səlahiyyətli şəxs bunu bəyənirsə, etibarlı olur.

82. Mülki Məcəllənin 360.2-ci maddəsində deylilir ki, təmsil edilən tərəfindən əqdin sonradan bəyənilməsi onun üçün əqdin bağlandığı andan əqd üzrə mülki hüquq və vəzifələr yaradır, dəyişdirir və onlara xitam verir.

83. Mülki hüququn bəyənmə - sonradan verilən razılıq institutunu nəzərdə tutan Mülki Məcəllənin 357-ci maddəsinə əsasən, əqd bağlanmasının bəyənilməsi, əgər bu Məcəllə ilə və ya tərəflərin razılaşması ilə ayrı qayda müəyyənləşdirilməyibsə, əqdin bağlandığı andan geriyə təsir qüvvəsinə (ex tunc) malikdir.

84. Konstitusiya Məhkəməsinin Plenumunun "F.Nəcəfovanın şikayəti üzrə" 3 mart 2023-cü il tarixli qərarında göstərmişdir ki, "Səlahiyyət verilməyən şəxsin bağladığı əqdin təmsil edilən tərəfindən bəyənilməsi, əqd bağlanan zaman əqdi bağlayan şəxsin səlahiyyətə malik olması kimi qiymətləndirilir və təmsil edilən şəxs üçün bütün müvafiq hüquqi nəticələrə (mülki hüquq münasibətinin əmələ gəlməsi, dəyişdirilməsi və ya xitamı) səbəb olur. Sonradan verilən razılığın nə zaman verilməsindən asılı olmayaraq, o əqdin bağlandığı andan əqdin tərəfi hesab edilir. Hüquqi təbiətinə görə əqdin bəyənilməsi birtərəfli əqd olaraq qəbul edilir, belə ki, onun bağlanması üçün yalnız təmsil edilən şəxsin iradə ifadəsi zəruri və yetərlidir. Mülki Məcəllənin 355.2-ci maddəsinin "razılıq üçün müəyyənləşdirilmiş əqd formasına riayət edilməsi tələb olunmur" müddəası mahiyyət və məzmun etibarı ilə məhz bəyənmə hallarına aiddir. Bu nöqteyi-nəzərdən də hüquqi baxımdan məcburi forma şərtinə tabe tutulan müəyyən bir əqdə dair təmsil olunanın konkludent hərəkətləri və rəftarı (məsələn, əqd üzrə icra olunanların qəbul edilməsi, əşyaya dair sənədlərin verilməsi, uzun müddət ərzində əşyadan

əqd üzrə qarşı tərəfin öz əşyası kimi fasiləsiz və bariz istifadəsinə etiraz etməməsi və s.) onun tərəfindən əqdin bəyənilməsinə dəlalət edir.

85. Bu baxımdan işin halları cavabdeh Cavabdeh 1un atası tərəfindən torpaq sahəsinin satılmasını bəyəndiyi barədə nəticəyə gəlməyə əsas verir.

86. Yuxarıda qeyd olunduğu kimi Mülki Məcəllənin 335.2-ci maddəsinə istinadla məhkəmənin əqdi etibarlı hesab edə bilməsi üçün aşağıdakı halların mövcudluğu tələb olunur: 1. Əqdin notarial təsdiqlənməsi qaydasına riayət edilməməsi əks tərəfin təqsiri ucbatından baş verməli; 2. Məhz əks tərəf əqdin notariat qaydasında təsdiqlənməsindən yayınmalı; 3. Əqdin özü qanuna zidd olmamalı və onun yazılı formada tərtib edilməsinə dair tələbə əməl edilmiş olmalıdır.

87. Birinci və ikinci şərtlərlə bağlı qeyd olunmalıdır ki, xx xx 2002-ci il tarixdə tərtib edilmiş və notariat qaydada təsdiqlənmiş aktda iddiaçının torpaq sahəsinin alğı-satqısı üzrə öhdəliyini yerinə yetirməsi (torpaq sahəsinə olan hüquqları əvəzli şəkildə əldə etdiyi) mübahisələndirilmir. Aktla müəyyən edilən öhdəliklərin gələcəkdə həmin torpaq sahəsi rəsmiləşdirilənədək qüvvədə olması açıq şəkildə əksini tapıb. Cavabdehin hazırkı mövqeyindən də onun əqdin notariat qaydasında təsdiq edilməsindən yayınması aşkardır.

88. Üçüncü şərtlə (əqdin özünün qanuna zidd olmaması) bağlı qeyd olunmalıdır ki, apelyasiya instansiyası məhkəməsi iddianı rədd edərkən mövqeyini həm də belə əsaslandırıb ki «nə iddiaçının istinad etdiyi akt tərtib olunarkən mübahisə predmeti olan torpaq sahəsinin hüquqmüəyyənedici sənədləri mövcud olmuş, nə də hal-hazırda vardır, yəni daşınmaz əşya olan torpaq sahəsinə mülkiyyət hüququnu iddiaçı tərəfə vermək üçün cavabdeh tərəfin həmin torpaq sahəsinə mülkiyyət hüququ olmamışdır və hal-hazırda da yoxdur».

89. Məhkəmə kollegiyası bununla bağlı qeyd edir ki, mülkiyyət hüququ müəyyən hüquqi faktın və ya belə faktların məcmusunun mövcudluğu zamanı yaranır. Yalnız qanunvericilikdə nəzərdə tutulmuş hüquqi faktların baş verməsi mülkiyyət hüququnun yaranmasına səbəb ola bilər.

90. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 14.2.2-ci maddəsinə görə, dövlət orqanlarının və yerli özünüidarə orqanlarının qanunvericilikdə mülki hüquqların və vəzifələrin əmələ gəlməsi əsası kimi nəzərdə tutulmuş aktları, mülki hüquqların və vəzifələrin əmələ gəlməsi əsaslarından biridir.

91. Bu baxımdan Şəki şəhər XDS İcraiyyə Komitəsinin xx xx 1989-cu il tarixli qərarı, Cavabdeh 1un mübahisəli 600 kv.m torpaq sahəsinə mülkiyyət hüququnun müvafiq qaydada qeydə alınmasına əsas verən hüquqi fakt kimi çıxış edir.

92. Məlum olduğu kimi əşyaya mülkiyyət hüququnun tam həcmdə əldə edilməsi üçün onun verilməsi barədə tərəflərin razılığından başqa, qanunvericilikdə nəzərdə tutulduğu halda belə əşyanın dövlət reyestrində qeydə alınması zəruri şərtdir.

93. Daşınmaz əmlaka mülkiyyət və digər əşya hüquqlarının dövlət qeydiyyatı Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq daşınmaz əmlaka hüquqların əmələ gəlməsinin, məhdudlaşdırılmasının (yüklülüyünün) başqasına keçməsinin və bu hüquqlara xitam verilməsinin dövlət tərəfindən tanınması və təsdiq edilməsi barədə hüquqi aktdır (“Daşınmaz əmlakın dövlət reyestri haqqında” Qanunun 2.1-ci maddəsi).

94. Başqa sözlə, qeydiyyatın funksiyası və hüquqi təyinatı ondan ibarətdir ki, mülkiyyət hüququnun təminat mexanizmi məhz daşınmaz əmlakın dövlət reyestrində qeydiyyatı ilə şərtləndirilir. Mülkiyyətçinin mənafelərinin qorunması baxımından daşınmaz əmlaka dair məlumatların vahid dövlət reyestrində qeydiyyatı zəruridir. Şəxsin daşınmaz əmlaka mülkiyyət hüququnun dövlət qeydiyyatı nəticə etibarı ilə bu hüququn pozulmasının qarşısının

alınmasına xidmət edir. Daşınmaz əmlakın dövlət qeydiyyatı, həmçinin əmlaka dair mülkiyyət hüququnu təsdiqləyən sənədlərin həqiqiliyinə və əsaslılığına təminat kimi çıxış edir.

95. Baxılan iş üzrə mübahisəli torpaq sahəsi üzərində cavabdeh Cavabdeh 1un mülkiyyət hüququ qeydiyyata alınmayıb. Bu baxımdan iddia tələbi üzrə iki mühüm prinsip toqquşur: 1. daşınmaz əşyaya sərəncam vermək üçün mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması zərurəti; 2. faktiki olaraq icra olunmuş və qanuna zidd olmayan əqdi məhkəmənin etibarlı saymaq ixtiyarı.

96. Mülki Məcəllənin 335.2-ci maddəsinin dispozisiya şərtləri, yalnız formanın pozulduğu, lakin əqdin predmeti üzrə hüququn mövcud olduğu hallarda müqavilənin etibarlı sayılmasını ehtiva edir. Bu mənada baxılan iş üzrə hüquqi problem əqdin formasında deyil, torpağa dair hüququn reyestrdə qeydiyyata alınmamasındadır.

97. Lakin nəzərə alınmalıdır ki, daşınmaz əmlaka hüquqların qeydiyyata alınmasınadək qanuni sahiblik və istifadə hüququ inkar olunmur. XDS-nin qərarı əsasında cavabdeh Cavabdeh 1un torpağa sahiblik və istifadə hüquqları rəsmən mövcuddur. Cavabdeh 1un mübahisəli torpaq sahəsi ilə bağlı vəziyyəti - mülkiyyət hüququnun yaranması üçün hüquqi əsaslar mövcud olan, lakin qeydiyyatla tamamlanmamış vəziyyətdir.

98. Buna görə də, tərəflər arasında olan əqd, tamamilə qüvvəsi olmayan, predmetsiz razılaşma deyil. Bu hal, "gözlənən mülkiyyət hüququ"nun və inzibati aktdan doğan subyektiv hüquqların (əmlak hüquqlarının) mülki dövriyyədə iştirakı imkanlarının təhlilini tələb edir.

99. Qeyd olunmalıdır ki, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunun 8.0.1-ci maddəsində göstərilir ki, qanunla müəyyən edilmiş qaydada icra hakimiyyəti və bələdiyyə orqanları tərəfindən müvafiq olaraq dövlətə və ya bələdiyyələrə məxsus olan daşınmaz əmlakın özgəninkiləşdirilməsinə, icarəsinə, istifadəsinə, ipoteka qoyulmasına dair qəbul olunmuş aktlar, daşınmaz əmlak üzərində hüquqların əmələ gəlməsinin, başqasına keçməsinin, məhdudlaşdırılmasının (yüklülüyünün) və xitam verilməsinin dövlət qeydiyyatı üçün əsas hesab olunur.

100. Odur ki, tərəflər arasında müqavilə bağlanarkən Cavabdeh 1in mübahisəli torpaq sahəsinə real olaraq gözlənilən mülkiyyət hüququ olmuşdur.

101. Həmçinin nəzərə alınmalıdır ki, torpaq sahəsinin sahiblik və istifadə hüquqlarının dövriyyəsi qanunla nəzərdə tutulmuşdur. Mülki Məcəllənin 651-654-cü maddələri hüquqların alqı satqısı ilə bağlı münasibətləri tənzimlənir. "Torpaq bazarı haqqında" Qanunun 1 və 14-cü maddələrinə görə torpaq sahələrinin dövriyyəsi dedikdə təkcə mülkiyyət hüququnun deyil, həm də istifadə və icarə hüquqlarının dəyişməsi başa düşülür. Bu hüquqlar (o cümlədən istifadə və sahiblik hüquqları) alqı-satqı, bağışlama, dəyişmə, ipoteka və s. yollarla başqa şəxslərə keçə bilər. Yəni qanun bu hüquqların dövriyyəsini bir hüquqi institut kimi tanıyır.

102. Torpaq sahəsinin cavabdehə verilməsi barədə inzibati akt (XDS-nin qərarı) birbaşa torpağa mülkiyyət hüququ yaratmasa da, sahiblik və istifadə hüququndan ibarət subyektiv hüququ doğurur. Bu hüquqların konkret şəxsə verilməsi, artıq fərdi-hüquqi status yaradır. Bu statusun özünün başqa şəxsə keçməsi isə qanunda qadağan edilməyib, əksinə, yuxarıdakı kimi qanunla tanınıb. Buna görə də cavabdeh Cavabdeh 1in torpağa sahiblik və istifadə hüququ "dövriyyə qabiliyyətli əmlak hüququ" hesab edilə bilər. Azərbaycan Respublikasi Ali Məhkəməsi Plenumu "Ərarvadın ümumi əmlakının bölünməsi ilə bağlı mübahisələrdə qanunvericiliyin tətbiqi təcrübəsi haqqında" Qərarının 1.3-cü maddəsində də izah etmişdir ki, əmlak şəxs(lər)ə məxsus, iqtisadi dəyəri olan bütün hüquq və öhdəliklərin məcmusudur.

103. Bu mənada tərəflər arasında bağlanmış əqd, torpağa hüququn faktiki ötürülməsini əks etdirən sadə yazılı razılaşmadır və bu razılaşma faktiki olaraq icra edilməklə, dövriyyə qabiliyyətli əmlak hüququnun ötürülməsi sayıla bilər. Yəni, tərəflər arasında sadə yazılı

müqavilə mülkiyyət hüququnun deyil, istifadə hüququnun və ya sahiblik statusunun ötürülməsi kimi qəbul oluna bilər. Bu əqdin hüquqi təbiəti hüququn ötürülməsidir.

104. Belə razılaşma, torpağı vermiş inzibati orqanın qanuni mənafelərinə də təsir etmir. Cavabdehin istifadə və sahiblik hüququndan başqasının xeyrinə imtina etməsi, ictimai maraqlara zidd deyilsə (məsələn, torpaq kənd təsərrüfatı məqsədilə istifadə olunur, mülkiyyət formasında dəyişiklik baş vermir və s.), o zaman bu proses inzibati orqanın icazəsinə ehtiyac olmadan baş verə bilər. Deməli, cavabdehin XDS qərarı üzrə əldə etdiyi hüququn iqtisadi (mülki) dövriyyəyə daxil olub iddiaçıya ötürülməsi, mümkün və qanuni bir aktdır.

105. İşə baxmış məhkəmə işin hallarını bu hüquqi mövqedən təhlil etməmiş, iddia tələbinin qismən təmin olunmaqla sahiblik və istifadə hüquqlarının ötürürlməsi kimi müəyyən edilməsinin mümkünlüyünü, mübahisənin bu cür həllinin iddiaçının maraqlarına nə dərəcədə uyğunluğunu, iddiaçının bununla razılaşmasını, qeyd olunan torpaq sahəsinə hüquqların rəsmiləşdirilməsi ilə bağlı iddiaçının torpaq sahəsini vermiş inzibati orqanla, habelə qeydiyyat orqanı ilə gələcəkdə mümkün münasibətlərini iddiaçı ilə müzakirə etməmişdir. Belə mübahisələrin həllində məhkəmələr formal mülahizələrdən çıxış etməməli, məsələləri qanunvericiliyin onlara verdiyi bütün mümkün hüquqi vasitələrdən istifadə edərək tam və hərtərəfli araşdırmalıdırlar.

106. Məhkəmə icraatında hakim olan hüquqi müəyyənlik prinsipi, digər tələblərlə yanaşı, ən ümumi mənada mövcud hüquqi vəziyyətə aid aydınlığı və müəyyənliyi nəzərdə tutur. Bu baxımdan, məhkəmələr tərəfindən qəbul olunmuş qərarlarda həll olunan işə aid bütün zəruri məsələlərə aydınlıq gətirilməli, ziddiyyətli məqamlar aradan qaldırılmalıdır.

107. Azərbaycan Respublikası MPM-nin 217-ci maddəsinə əsasən, məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır.

108. Məhkəmə qətnaməsi maddi və prosessual hüquq normalarına dəqiq əməl edilməklə qəbul edildikdə qanuni hesab edilir. Qətnamə o vaxt əsaslı hesab edilir ki, onda baxılan iş üçün əhəmiyyətli olan, qanunun tələblərinə uyğun olaraq işə aid edilən və mötəbər sübutlarla təsdiq olunan faktlar əks etdirilmiş olsun, məhkəmənin iş üzrə müəyyən edilən faktlardan irəli gələn qəti nəticəsi onda şərh edilsin, habelə qətnamədə göstərilən hallar işin materiallarına uyğun olsun.

109. Nəzərə alınmalıdır ki, insan hüquq və azadlıqlarının qorunması və müdafiəsi prosessual hüquq normalarına dəqiq riayət etməklə müvafiq maddi hüquq normalarının elə tərzdə tətbiqini şərtləndirir ki, nəticədə konstitusiya əhəmiyyətli digər dəyərlərə xələl gətirilməsin, ictimai və xüsusi maraqlar arasındakı tarazlığa riayət olunsun.

110. Baxılan iş üzrə məhkəmə araşdırması MPM-nin 14-cü maddəsində müəyyən olunmuş məhkəmə baxışı prinsiplərinə, çıxarılmış qətnamə isə 217-ci maddəsində nəzərdə tutulmuş qanunilik tələbinə cavab vermir. Buna görə də kassasiya şikayəti təmin edilməli, apelyasiya instansiyası məhkəməsinin qətnaməsi ləğv edilməlidir.

111. İşə yenidən baxan məhkəmə yuxarıda qeyd olunan nöqsanları aradan qaldırmaqla yanaşı mübahisəli hüquq münasibətinə maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunmasını təmin etməli, işin müəyyən edilmiş hallarına uyğun olaraq iş üzrə əhəmiyyət kəsb edən halların araşdırılmasının zəruriliyini müzakirə etməli və müəyyən edilən, eləcə də araşdırılan sübutlara Azərbaycan Respublikası MPM-nin 88-ci maddəsinin tələbləri baxımından düzgün qiymət verməlidir.

112. Məhkəmə kollegiyası yuxarıda göstərilənlərə əsasən və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 416- 419-cu madələrini rəhbər tutaraq

Qərara aldı:

Kassasiya şikayəti təmin edilsin.

Şəki Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2025-ci il 20 may tarixli 2(107)-83/2025 nömrəli qətnaməsi ləğv edilsin və iş yenidən baxılması üçün həmin məhkəməyə göndərilsin.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

20.2(102)-3011/2025 nömrəli, 2025-ci il 9 dekabr tarixli qərar – MTK işçisinin fəaliyyət göstərdiyi şəraitdən irəli gələn təmsilçilik səlahiyyəti əsasında bağlanmış müqavilələrin etibarlılığı

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu:

İddiaçı MTK-nın işçisi olan şəxs tərəfindən MTK-nın adından cavabdehlərlə kooperativ binada mənzil tikintisi haqqında müqavilələr bağlanmışdır. Sonradan məlum olmuşdur ki, həmin şəxsin mənzillərə görə cavabdehlərə verdiyi sənədlər (müqavilələr, MTK-nın ümumi iclas protokollarından çıxarışlar, maliyyə arayışları) saxta olmuş (həmin sənədlər kompüter texnikası və rəngli printer aparatından istifadə edilməklə hazırlanmışdır), cavabdehlərdən mənzillərə görə aldığı pulları isə MTK-ya təhvil verməyərək mənimsəmişdir.

MTK qeyd olunan hallara istinad edərək, cavabdehlərlə bağlanmış müqavilələrin etibarsız hesab edilməsi barədə iddia qaldırmışdır.

Cavabdehlər isə iddiaya etiraz edərək, mənzillərin MTK-nın səlahiyyətli nümayəndəsi tərəfindən satılmasını, mənzilləri qanuni əsaslarla, razılaşdırılmış məbləğdə dəyərini ödəməklə əldə etmələrini, mənzillərin satışına dair yerləşdirilmiş elandakı mobil nömrənin həmin şəxsin istifadəsində olmasını, sonuncu tərəfindən aldadılmalarının onlara sonradan məlum olduğunu bildirmişlər.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Məhkəmə kollegiyası apellyasiya instansiyası məhkəməsinin iddianın rədd olunması barədə qətnaməsini qüvvədə saxlayarkən aşağıdakılara istinad etmişdir.

Mülki Məcəllənin 359.1-ci maddəsinə əsasən əqd təmsilçi vasitəsilə də bağlana bilər. Bir şəxsin (təmsilçinin) etibarnaməyə, qanunun göstərişinə və ya buna vəkil edilmiş dövlət və ya bələdiyyə orqanının aktına əsaslanan səlahiyyətə görə başqa şəxs (təmsil edilən) adından bağladığı əqd təmsil edilənin mülki hüquq və vəzifələrini bilavasitə yaradır, dəyişdirir və onlara xitam verir. Səlahiyyət həmçinin təmsilçinin fəaliyyət göstərdiyi şəraitdən də (pərakəndə ticarətdə satıcı, kassir və i.a.) bəlli ola bilər.

Baxılan işdə cavabdehlər MTK-nın səlahiyyətli nümayəndəsi kimi onlarla müqavilə bağlayan şəxsin cinayətkar niyyətini, onun mənzil satmaq səlahiyyətinin olmamasını, mənzillərin satışı ilə bağlı onlara verdiyi sənədlərin saxta olduğunu və onlardan aldığı pulları da özünə götürərək mənimsədiyini bilməmişlər. Mövcud şəraitə görə cavabdehlərin bunları bilməsi də qeyri-mümkün olmuşdur. Belə ki, həmin şəxs MTK-nın rəsmi işçisi olmuş, inşa edilən binanın 1-ci mərtəbəsində yerləşən MTK-nın ofisində onun iş otağı olmuş, binadakı mənzillərlə maraqlanan şəxsləri bu şəxs həmin ofisdə qəbul etmiş, mənzillərin giriş qapılarının açarları onda olmuş və müştərilərə mənzilləri əyani olaraq göstərmiş, onlara mənzillər və satış şərtləri barədə məlumat vermiş, həmçinin müştərilərə alınan mənzillərin açarlarını təqdim etmişdir. Mənzillər satılan binanın üzərində yerləşdirilmiş reklam lövhəsində alıcıların müraciət etməsi üçün göstərilmiş telefon nömrəsi də məhz həmin şəxsin istifadəsində olmuşdur (MTK tərəfindən onun istifadəsinə verilmişdir). Qeyd olunan vəziyyətdə cavabdehlərin onu MTK-nın vəzifəli şəxsi və səlahiyyətli nümayəndəsi (təmsilçisi) kimi qəbul etmələri təbii olmuşdur.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-3011/2025

09.12.2025-ci il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki Kollegiyasının

iddiaçı “X” Mənzil Tikinti Kooperativin cavabdehlər Cavabdeh 1, Cavabdeh 2, Cavabdeh 3, Cavabdeh 4, Cavabdeh 5, Cavabdeh 6, Cavabdeh 7, Cavabdeh 8, Cavabdeh 9, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti Daşınmaz Əmlakın Kadastrı və Reyestri Publik Hüquqi Şəxsin 4 nömrəli Ərazi İdarəsinə qarşı (Bakı şəhəri 3 nömrəli Asan Xidmət Mərkəzi Notariat ofisi, 2 nömrəli Gəncə Regional Mərkəzi Asan Xidmətində notariat ofisi, həmçinin X1, X2, X3 və X4 mübahisə predmeti barədə müstəqil tələb irəli sürməyən üçüncü şəxslər qismində cəlb edilməklə) iddiası ilə bağlı mülki iş üzrə

Q Ə R A R I

(Açar sözlər: *müqavilənin etibarsız hesab edilməsi, əqdin bağlanmasının bəyənilməsinə yönəlmiş hərəkətlər)*

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyası, hakimlər Babayev Zəki Baba oğlu (məruzəçi), Əliyev Zaur Əli oğlu və Baxışova Vüsalə Ələkbər qızından ibarət tərkibdə,

İddiaçı "X" Mənzil Tikinti Kooperativinin cavabdehlər Cavabdeh 1, Cavabdeh 2, Cavabdeh 3, Cavabdeh 4, Cavabdeh 5, Cavabdeh 6, Cavabdeh 7, Cavabdeh 8, Cavabdeh 9, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti Daşınmaz Əmlakın Kadastrı və Reyestri Publik Hüquqi Şəxsin 4 nömrəli Ərazi İdarəsinə qarşı (Bakı şəhəri 3 nömrəli Asan Xidmət Mərkəzi Notariat ofisi, 2 nömrəli Gəncə Regional Mərkəzi Asan Xidmətində notariat ofisi, həmçinin X1, X2, X3 və X4 mübahisə predmeti barədə müstəqil tələb irəli sürməyən üçüncü şəxslər qismində cəlb edilməklə) "müqavilələrin, maliyyə arayışlarının etibarsız hesab edilməsi və çıxarışların ləğv olunması" tələbinə dair iddiası ilə bağlı mülki iş üzrə Sumqayıt Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(105)-625/2025 nömrəli, 26 may 2025-ci il tarixli qətnaməsindən iddiaçı "X" MTK (vəkil Abasov Əliövsəd Məzahir oğlu) tərəfindən verilmiş kassasiya şikayətinə 9 dekabr 2025-ci il tarixdə Ali Məhkəmənin inzibati binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları:

1. "X" MTK-nın üzvlərinin ümumi iclasının 22.07.2018-ci il tarixli protokolundan çıxarışa əsasən, Cavabdeh 2ə Ünvan 1 ünvanındakı 1-ci giriş, ümumi sahəsi 89 kv. metr, yaşayış sahəsi 40,9 kv. metr olaq 2 otaqlı, 12 nömrəli mənzilin payçısı olması təsdiq edilmişdir.
2. "X" MTK-nın direktoru X5 və mühasib tərəfindən imzalanmış maliyyə arayışına əsasən Ünvan 1dəki kooperativ yaşayış binası "X" MTK-ya məxsusdur. Bu binanın 1 girişi, 3-cü mərtəbəsində, ümumi sahəsi 89 kv. metr, yaşayış sahəsi 40,9 kv. metr olaq 2 otaqlı, 12 nömrəli mənzilin 56.070 manat pay dəyəri payçı Cavabdeh 2 tərəfindən tam ödənilmişdir. MTK-ya borcu yoxdur. Mənzil Cavabdeh 2nin adına 03.03.2021-ci ildə xüsusi mülkiyyət kimi qeydiyyatdan keçmişdir.
3. "X" MTK-nın üzvlərinin ümumi iclasının 22.07.2018-ci il tarixli protokolundan çıxarışa əsasən, Cavabdeh 4ə Ünvan 1 ünvanındakı I giriş, 8-ci mərtəbəsində, ümumi sahəsi 105,6 kv. metr, yaşayış sahəsi 65,51 kv. metr olaq 3 otaqlı, 91 nömrəli mənzilin payçısı olması təsdiq edilmiş. Mənzilin pay dəyəri payçı Cavabdeh 4 tərəfindən tam ödənilmişdir. MTK-ya borcu yoxdur. Mənzil onun adına 25.09.2020-ci il tarixdə onun adına xüsusi mülkiyyət kimi qeydiyyatdan keçmişdir. Sonradan 30.12.2022-ci il tarixli daşınmaz əmlakın alğı-satqı müqaviləsinə əsasən Cavabdeh 4 Ünvan 1 ünvanındakı, ümumi sahəsi 91 nömrəli mənzil Cavabdeh 8ə 63.800 manata satmışdır. Mənzil 14.01.2021-ci il tarixdə onun adına xüsusi mülkiyyət kimi qeydiyyatdan keçmişdir.
4. "X" MTK-nın üzvlərinin ümumi iclasının 22.07.2018-ci il tarixli protokolundan çıxarışa əsasən, Cavabdeh 6ya Ünvan 1 ünvanındakı giriş 1, ümumi sahəsi 86,0 kv. metr, yaşayış sahəsi 35,81 kv. metr olan 12-ci mərtəbədə yerləşən 2 otaqlı 108 nömrəli mənzilin payçısı olması təsdiq edilmiş. Mənzilin pay dəyəri Cavabdeh 6 tərəfindən tam ödənilmişdir. MTK-ya borcu yoxdur. Mənzil 24.09.2020-ci il tarixdə onun adına xüsusi mülkiyyət kimi qeydiyyatdan keçmişdir.
5. "X" MTK-nın üzvlərinin ümumi iclasının 22.07.2018-ci il tarixli protokolundan çıxarışa əsasən, Cavabdeh 1ə Ünvan 1 ünvanındakı giriş 1, ümumi sahəsi 94,74 kv. metr, yaşayış sahəsi 44,3 kv. metr olan, 11-ci mərtəbədə yerləşən 3 otaqlı 56 nömrəli mənzilin payçısı olması təsdiq edilmiş. Mənzilin 60.000 manat pay dəyəri Cavabdeh 1 tərəfindən tam ödənilmişdir. Mənzil 02.02.2021-ci il tarixdə onun adına xüsusi mülkiyyət kimi qeydiyyatdan keçmişdir.

6. “X” MTK-nın 28.01.2021-ci il tarixli Maliyyə arayışına əsasən, Ünvan 1 nömrəli ünvanındakı giriş B, ümumi sahəsi 131 kv. Metr olan, 3-cü mərtəbə yerləşən 3 otaqlı 10 nömrəli mənzilin hissə-hissə ödəmək şərti ilə 85.150 manat pay dəyərindən 70.000 manatı, payçı Cavabdeh 1 tərəfindən ödənilmişdir.
7. “X” MTK-nın Kooperativ binada mənzil tikintisi haqqında 02.02.2021-ci il tarixli müqaviləyə və həmin tarixli Maliyyə arayışına əsasən, Ünvan 1 nömrəli ünvanındakı giriş 1, ümumi sahəsi 64 kv. metr, yaşayış sahəsi 20,43 kv. metr olan, 8-ci mərtəbə yerləşən 1 otaqlı 39 nömrəli mənzilin hissə-hissə ödəmək şərti ilə 41.600 manat pay dəyərindən 21.600 manatı, payçı Cavabdeh 1 tərəfindən ödənilmişdir.
8. “X” MTK-nın üzvlərinin ümumi iclasının 22.07.2018-ci il tarixli protokolundan çıxarışa əsasən, Cavabdeh 7ə Ünvan 1 ünvanındakı giriş 1, ümumi sahəsi 105,6 kv. metr, yaşayış sahəsi 61,51 kv. metr olan 5-ci mərtəbədə yerləşən 3 otaqlı 79 nömrəli mənzilin payçısı olması təsdiq edilmiş. Mənzilin pay dəyəri Cavabdeh 7 tərəfindən tam ödənilmişdir. Mənzil 29.02.2020-ci ildə onun adına xüsusi mülkiyyət kimi hüquqi qeydiyyatdan keçmişdir. 17.06.2022-ci il tarixli daşınmaz əmlakın alğı-satqı müqaviləsinə əsasən Cavabdeh 7 Ünvan 1 ünvanındakı 79 nömrəli mənzili Cavabdeh 9a 60.000 manata satmışdır. Mənzili 01.07.2022-ci il tarixdə onun adına xüsusi mülkiyyət kimi qeydiyyatdan keçmişdir.
9. “X” MTK-nın 29.04.2019-cu il tarixli Kooperativ binada mənzil tikintisi haqqında müqaviləsinə əsasən, “X” MTK-nın Nizamnaməsinə əsasən hərəkət edən, onun sədri X5in şəxsində bir tərəfdən Ünvan 3 ünvanında yaşayan və sonralar “Payçı” adlanacaq vətəndaş Cavabdeh 5 tərəfdən aşağıdakılar haqqında müqavilə bağladılar: Ünvan 1 ünvanda yerləşən “X” MTK-nın tikilməkdə olan (B)596 nömrəli binanın 1 girişi yerdən 7 mərtəbəsində, 34 №-li mənzili “Payçı”ya verməyi, “Payçı” isə həmin mənzili qəbul etməyi və qabaqcadan müəyyənləşdirilmiş mənzil haqqını vaxtında ödənilməsini öhdəsinə götürür. Göstərilən mənzil 3 otaqdan ibarətdir. Mənzilin ümumi sahəsi 131 kv. metr, Mənzil daxili sanitariya avadanlığı və daxili tamamlama işləri görülmədən “Payçı”ya təhvil veriləcəkdir. Göstərilən mənzilin dəyəri 85.150 manat təşkil edir.
10. “X” MTK-nın direktoru X5 və mühasib tərəfindən imzalanmış 29.03.2020-ci il tarixli Maliyyə arayışına əsasən, ümumi sahəsi 131 kv. metr olan 3 otaqlı 34 nömrəli mənzilin pay dəyəri payçı Cavabdeh 5 tərəfindən 42.000 manat ödənilmişdir. Qalıq borc 33.150 manat 29.4.2021-ci il tarixində ödəniləcək. Arayışda həmçinin qeyd edilişdir ki, 28.04.2020, 29.05.2020, 27.08.2020, 24.07.2020, 30.08.2020, 30.09.2020, 18.10.2020, 27.11.2020, 27.12.2020, 27.01.2021, 28.02.2021 və 27.03.2021ci il tarixlərdə hər ay 2.000 manat ödənilməsi qeyd edilmişdir.
11. “X” MTK-nın 06.2.2021-ci il tarixli Kooperativ binada mənzil tikintisi haqqında müqaviləsinə əsasən, “X” MTK-nın Nizamnaməsinə əsasən hərəkət edən, onun sədri X5in şəxsində bir tərəfdən Ünvan 2 ünvanında yaşayan və sonralar “Payçı” adlanacaq vətəndaş Cavabdeh 3 tərəfdən aşağıdakılar haqqında müqavilə bağladılar: ünvan 1də yerləşən “X” MTK-nın tikilməkdə olan (B)596 nömrəli binanın 1 girişi yerdən 5 mərtəbəsində, 79№-li mənzili “Payçı”ya verməyi, “Payçı” isə həmin mənzili qəbul etməyi və qabaqcadan müəyyənləşdirilmiş mənzil haqqını vaxtında ödənilməsini öhdəsinə götürür. Qeyd olunan mənzil 3 otaqdan ibarətdir. Mənzilin ümumi sahəsi 105,6 kv. metrdir. Mənzil daxili sanitariya avadanlığı və daxili tamamlama işləri görülmədən “Payçı”ya təhvil veriləcəkdir. Göstərilən mənzilin dəyəri 68.640 manat təşkil edir.
12. “X” MTK-nın direktoru X5 və mühasib tərəfindən imzalanmış 06.02.2021-ci il tarixli Maliyyə arayışına əsasən, (B)596 nömrəli binanın 1 girişi 5 mərtəbəsində, ümumi sahəsi 105,6 kv. metr olan 3 otaqlı 79 nömrəli mənzilin pay dəyəri payçı Cavabdeh 3 tərəfindən 55.000

manat ödənilmişdir. Qalıq borc 13.640 manat. Son ödəniş 06.07.2021-ci il. Arayışda həmçinin göstərilmişdir ki, 2.900 manat ödəniş edilmiş, daha sonra 04.03.2021-ci ildə 3.000, 05.04.2021-ci ildə 5.000 manat ödənilməsi qeyd edilmişdir.

13. "X" MTK-nın direktoru X5 və mühasib tərəfindən imzalanmış 03.11.2017-ci il tarixli Maliyyə arayışına əsasən, Ünvan 4 ünvanda inşa edilən kooperativ yaşayış binası "X" MTKya məxsusdur. 596 (B) binasının 1 girişi, yerdən 11-ci mərtəbəsində, ümumi sahəsi 94,74 kv. metr olan 3 otaqlı, 56 nömrəli mənzilin pay dəyəri payçı X2 tərəfindən 100 faiz tam ödənilmişdir. MTK-ya borcu yoxdur.

14. "X" MTK-nın üzvlərinin ümumi iclasının 26.09.2019-cu il tarixli protokolundan çıxarışa əsasən, X6 Ünvan1də 1 girişi, 8-ci mərtəbə ümumi sahəsi 105,6 kv. metr, yaşayış sahəsi 61,51 kv. metr olan 3 otaqlı 25 nömrəli mənzilin payçısı olması təsdiq edilmişdir. Mənzilin pay dəyəri payçı X6 tərəfindən 100 faiz ödənilmişdir. MTK-ya borcu yoxdur.

15. "X" MTK-nın üzvlərinin ümumi iclasının 22.08.2018-ci il tarixli protokolundan çıxarışa əsasən, X7ə Ünvan 1, binanın 1 girişi, 5-ci mərtəbə ümumi sahəsi 105,6 kv. metr, yaşayış sahəsi 61,51 kv. metr olan 3 otaqlı 13 nömrəli mənzilin payçısı olması təsdiq edilmişdir. Mənzilin pay dəyəri payçı X7 tərəfindən 100 faiz ödənilmişdir. MTK-ya borcu yoxdur. Mənzil 02.02.2021-ci il tarixdə onun adına xüsusi mülkiyyət kimi qeydiyyatdan keçmişdir.

16. "X" MTK-nın üzvlərinin ümumi iclasının 22.02.2019-cu il tarixli protokolundan çıxarışa əsasən, X1ə Ünvan 1, giriş I, 3-cü mərtəbə ümumi sahəsi 89 kv. metr 2, yaşayış sahəsi 40,90 kv. metr 2 otaqlı 12 nömrəli mənzilin payçısı olması təsdiq edilmişdir. Mənzilin pay dəyəri payçı X1 tərəfindən 100 faiz, tam ödənilmişdir. MTK-ya borcu yoxdur.

17. "X" MTK-nın direktoru X5 və mühasib tərəfindən imzalanmış 26.09.2019-ci il tarixli Maliyyə arayışından görünür ki, Ünvan 4 ünvanda inşa edilən kooperativ yaşayış binası "X" MTK-ya məxsusdur. B Binasının 1 girişi, 7-ci mərtəbəsində, ümumi sahəsi 131,0 kv. metr, olan 3 otaqlı, 34 nömrəli mənzilin pay dəyəri payçı X8 tərəfindən 85.150 manat, 100 faiz tam ödənilmişdir. MTK-ya borcu yoxdur.

18. "X" MTK-nın üzvlərinin ümumi iclasının 17.05.2019-cu il tarixli protokolundan çıxarışa əsasən, X4na Ünvan 1 i, 12-ci mərtəbə ümumi sahəsi 86 kv. metr, yaşayış sahəsi 35,81 kv. metr olan 2 otaqlı 42 nömrəli mənzilin payçısı olması təsdiq edilmişdir. Mənzilin pay dəyəri payçı X4 tərəfindən 85.150 manat, 100 faiz, tam ödənilmişdir. MTK-ya borcu yoxdur.

19. "X" MTK-nın direktoru X5 və mühasib tərəfindən imzalanmış 17.05.2019-ci il tarixli Maliyyə arayışına əsasən, Ünvan 4 ünvanda inşa edilən kooperativ yaşayış binası "X" MTKya məxsusdur. 596 (B) Binasının 1 girişi, 12-ci mərtəbəsində, ümumi sahəsi 86 kv. metr, olan 2 otaqlı, 42 nömrəli mənzilin pay dəyəri payçı X4 tərəfindən 100 faiz, tam ödənilmişdir. MTK-ya borcu yoxdur.

20. "X" MTK üzvlərinin ümumi iclasının 22.07.2018-ci il tarixli protokolundan çıxarışa əsasən, X3na Ünvan 1 giriş I, 8-ci mərtəbə ümumi sahəsi 64 kv. metr, yaşayış sahəsi 20,43 kv. metr olan 1 otaqlı 39 nömrəli mənzilin payçısı olması təsdiq edilmişdir. Mənzilin pay dəyəri payçı X3 tərəfindən 100 faiz, tam ödənilmişdir. MTK-ya borcu yoxdur.

21. "X" MTK üzvlərinin ümumi iclasının 19.09.2018-ci il tarixli protokolundan çıxarışa əsasən, X9a Ünvan 1, giriş I, 3-cü mərtəbə ümumi sahəsi 131 kv. metr, yaşayış sahəsi 68,2 kv. metr olan 3 otaqlı 10 nömrəli mənzilin payçısı olması təsdiq edilmişdir. Mənzilin pay dəyəri payçı X9 tərəfindən 100 faiz, tam ödənilmişdir. MTK-ya borcu yoxdur.

22. Bakı Ağır Cinayətlər Məhkəməsinin 1(101)-330/2022 nömrəli, 13 aprel 2022-ci il tarixli hökmünə əsasən X10 Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 178.3.2 və 320.1-ci maddələri ilə nəzərdə tutulan cinayət əməllərini törətməkdə təqsirli bilinərək, Cinayət Məcəlləsinin 178.3.2-ci maddəsi ilə Cinayət Məcəlləsinin 46.2-ci maddəsi tətbiq edilməklə 2 il

müddətə tikinti sahəsində təşkilatisərəncamverici və inzibati-təsərrüfat funksiyalarını həyata keçirmək və vəzifə tutmaq, həmin fəaliyyətlə məşğul olmaq hüququndan məhrum edilməklə 8 il müddətə azadlıqdan məhrum etmə, Cinayət Məcəlləsinin 320.1-ci maddəsi ilə 6 ay müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş, Cinayət Məcəlləsinin 66.3-cü və 66.4-cü maddələrinə əsasən təyin olunmuş cəzaları tam toplamaq yolu ilə X10 qəti olaraq Cinayət Məcəlləsinin 46.2-ci maddəsi tətbiq edilməklə 2 (iki) il müddətə tikinti sahəsində təşkilati-sərəncamverici və inzibati-təsərrüfat funksiyalarını həyata keçirmək və vəzifə tutmaq, həmin fəaliyyətlə məşğul olmaq hüququndan məhrum edilməklə 8 (səkkiz) il 6 (altı) ay müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş, onun cəzasını ümumi rejimli cəzaçəkmə müəssisəsində çəkməklə cəzaçəkmə müddətinin əvvəlinin 12 aprel 2021-ci il tarixdən hesablanması, barəsində seçilmiş həbs qətimkan tədbirinin hökm qanuni qüvvəyə minənədək dəyişdirilmədən saxlanılması, iş üzrə maddi sübut kimi tanınmış Cavabdeh 1in adına Ünvan 1 ünvanındakı , 11-ci mərtəbə, 94,74 kv. metr sahəsi olan 56 nömrəli mənzilə dair tarixsiz maliyyə arayışının, 22 iyul 2018-ci il tarixli 1 №-li protokolundan çıxarışın, 21 sentyabr 2020-ci il tarixli maliyyə arayışının kserosurətinin, Cavabdeh 7in adına Ünvan 1 ünvanındakı , 5-ci mərtəbə 105,6 kv. metr sahəsi olan 79 nömrəli mənzilə dair tarixsiz maliyyə arayışının, mənzilin sxeminin, 22.07.2018-ci il tarixli 1 №-li protokolundan çıxarışın, Cavabdeh 3nın adına Ünvan 1 ünvanındakı , 5-ci mərtəbə, 105,6 kv. metr sahəsi olan 79 nömrəli mənzilə dair 6 fevral 2021-ci il tarixli maliyyə arayışının, 6 fevral 2021-ci il tarixli kooperativ binada mənzil tikintisi haqqında müqavilənin, Cavabdeh 4 adına Unvan 1 ünvanındakı , 11-ci mərtəbə, 71,7 kv. metr sahəsi olan 39 nömrəli mənzilə dair 28 yanvar 2020-ci il tarixli maliyyə arayışının, 29.07.2019-cu il tarixli kooperativ binada mənzil tikintisi haqqında müqavilənin, 22 iyul 2018-ci il tarixli 1 №-li protokolundan çıxarışın, mənzilin sxeminin, Cavabdeh 4 adına Ünvan 1 ünvanındakı , 8-ci mərtəbə, 105,6 kv. metr sahəsi olan 91 nömrəli mənzilə dair tarixsiz maliyyə arayışının, Cavabdeh 6nın adına Ünvan 1 ünvanındakı , 12ci mərtəbə, 86 kv. metr sahəsi olan 108 nömrəli mənzilə dair tarixsiz maliyyə arayışının, 29 avqust 2020-ci il tarixli kooperativ binada mənzil tikintisi haqqında müqavilənin, mənzilin sxeminin, 22 iyul 2018-ci il tarixli 1 №-li protokolundan çıxarışın, Cavabdeh 5in adına Ünvan 1 ünvanındakı , 7-ci mərtəbə, 131 kv. metr sahəsi olan 34 nömrəli mənzilə dair 29 mart 2020-ci il tarixli maliyyə arayışının, 29.04.2019-cu il tarixli kooperativ binada mənzil tikintisi haqqında müqavilənin, Cavabdeh 1in adına Ünvan 1 ünvanındakı , 8-ci mərtəbə, 64 kv. metr sahəsi olan 39 nömrəli mənzilə dair 2 fevral 2021-ci il tarixli maliyyə arayışının, 2 fevral 2021-ci il tarixli kooperativ binada mənzil tikintisi haqqında müqavilənin, X11in adına Ünvan 1 ünvanındakı , 3-cü mərtəbə, 131 kv. metr sahəsi olan 10 nömrəli mənzilə dair tarixsiz maliyyə maliyyə arayışının, 28 yanvar 2021-ci il tarixli maliyyə arayışının kserosurətinin, 22 iyul 2018-ci il tarixli 1 №-li protokolundan çıxarış, 1 №-li protokoldan çıxarışın, mənzilin sxeminin, Cavabdeh 2nin adına Ünvan 1 ünvanındakı , 3-cü mərtəbə, 89 kv. metr sahəsi olan 12 nömrəli mənzilə dair tarixsiz maliyyə arayışının, 22 iyul 2018-ci il tarixli 1 №-li protokolundan çıxarışın, mənzilin sxeminin cinayət işinin materiallarına əlavə edilib saxlanılmasının nəzərə alınması, iş üzrə Nəsimi Rayon Məhkəməsinin 5(006)-275/2021 nömrəli, 3 may 2021-ci il tarixli əmlak üzərinə həbs qoyulması haqqında qərarının qüvvədə qalmaqla, X12nin adına rəsmiləşdirilmiş, lakin faktiki X10un sahibliyində olan Baş Dövlət Yol Polisi İdarəsinin “Siqnal” İxtisaslaşdırılmış Layihə İstehsalat İdarəsinin 5 nömrəli cərimə meydançasında saxlanılan avtomobilin, açarları Nərimanov Rayon Polis İdarəsinin İstintaq Şöbəsində saxlanılan mühərrik nömrəsi ********, ban nömrəsi ******** olan, 2010-cu il buraxılışlı, **-LE-*** dövlət qeydiyyat nişanlı “XXX” minik markalı nəqliyyat vasitəsinin müsadirə olunaraq zərərçəkmiş şəxslərə vurulmuş ziyanın ödənilməsinə yönəldilməsi hökm edilmişdir.

23. Bakı Ağır Cinayətlər Məhkəməsinin 1(101)-330/2022 nömrəli, 13 aprel 2022-ci il tarixli hökmü ilə müəyyən edilmişdir ki, X10 Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 178.3.2 və 320.1-ci maddələri ilə təqsirli bilinərək məhkum edilmişdir ona görə ki, o, etibardan sui-istifadə etmə və aldatma yolu ilə öz qulluq mövqeyindən istifadə etməklə qanunsuz hazırladığı saxta sənədlərdən istifadə edərək özgənin əmlakını ələ keçirərək zərərçəkmiş şəxslərə xeyli və külli miqdarda ziyan vurmaqla təkrar dələduzluq etmişdir. Belə ki, o, 30.08.2018-ci il tarixdən 08.04.2020-ci il tarixədək "X" MTK-da satış meneceri, 08.04.2020-ci il tarixdən 12.04.2021-ci il tarixədək "X" MTK-da gözətçi vəzifəsində işlədiyi müddətdə təkrarən öz qulluq mövqeyindən istifadə etməklə özgənin əmlakını tamah məqsədi ilə ələ keçirmək üçün "X" MTK-ya məxsus Ünvan 1 saylı ünvanındakı B girişi, 11-ci mərtəbədə yerləşən 1 kvadratı 650 manat olmaqla ümumi dəyəri 61.581 manat təşkil edən 94,74 kv. metr sahəsi olan 56 saylı mənzili Cavabdeh 1a hissə-hissə ödəmək şərti ilə 60.000 manata satacağına dair yalan vəd verib aldatmaqla, Cavabdeh 1dan oğlu X13 vasitəsi ilə 21.09.2020-ci il tarixdə Ünvan 1 saylı ünvanındakı ofisdə 40.000 manat alaraq əvəzində bilə-bilə saxta sənədlərdən istifadə etmək üçün həmin mənzilə dair qanunsuz hazırladığı Cavabdeh 1in adına saxta 21.09.2020-ci il tarixli maliyyə arayışını və 1№-li protokoldan çıxarışı verib, sonuncudan oğlu X13 vasitəsi ilə 13.11.2020ci il tarixdən 25.01.2021-ci il tarixədək eyni ünvanda hissə-hissə 20.000 manat pulunu ələ keçirməklə, zərərçəkmiş şəxs Cavabdeh 1ə vahid niyyətlə əhatə olunan qəsdlə ümumilikdə 60.000 manat və sonuncunun həmin mənzilə Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətindən ****-**-**** reyestr nömrəli çıxarış alması nəticəsində isə zərərçəkmiş hüquqi şəxs "X" MTK-ya isə 61.581 manat külli miqdarda ziyan vurmaqla dələduzluq etmişdir.

24. Bundan başqa, o, təkrarən, 08.04.2020-ci il tarixdən 12.04.2021-ci il tarixədək "X" MTK-da gözətçi vəzifəsində işlədiyi müddətdə öz qulluq mövqeyindən istifadə etməklə özgənin əmlakını tamah məqsədi ilə ələ keçirmək üçün "X" MTK-ya məxsus Ünvan 1 saylı ünvanındakı B girişi, 8-ci mərtəbədə yerləşən 1 kvadratı 650 manat olmaqla ümumi dəyəri 41.600 manat təşkil edən 64 kv. metr sahəsi olan 39 saylı mənzili Cavabdeh 1a hissə-hissə ödəmək şərti ilə 41.600 manata satacağına dair yalan vəd verib aldatmaqla, Cavabdeh 1dan oğlu X13 vasitəsi ilə 02.02.2021-ci il tarixdə Ünvan 1 saylı ünvanındakı ofisdə 21.600 manat alaraq əvəzində bilə-bilə saxta sənədlərdən istifadə etmək üçün həmin mənzilə dair qanunsuz hazırladığı Cavabdeh 1in adına saxta 02.02.2021-ci il tarixli maliyyə arayışını və kooperativ binada mənzil tikintisi haqqında müqaviləni verib zərərçəkmiş şəxs Cavabdeh 1ə ümumilikdə 21.600 manat və zərərçəkmiş hüquqi şəxs "X" MTK-ya 41.600 manat xeyli miqdarda ziyan vurmaqla dələduzluq etmişdir.

25. Bundan başqa, o, təkrarən, 08.04.2020-ci il tarixdən 12.04.2021-ci il tarixədək "X" MTK-da gözətçi vəzifəsində işlədiyi müddətdə öz qulluq mövqeyindən istifadə etməklə özgənin əmlakını tamah məqsədi ilə ələ keçirmək üçün "X" MTK-ya məxsus Ünvan 1 saylı ünvanındakı B girişi, 3-cü mərtəbədə yerləşən 1 kvadratı 650 manat olmaqla ümumi dəyəri 85.150 manat təşkil edən 131 kv. metr sahəsi olan 10 saylı mənzili Cavabdeh 1a hissə-hissə ödəmək şərti ilə 77.290 manata satacağına dair yalan vəd verib aldatmaqla, Cavabdeh 1dan oğlu X13 vasitəsi ilə 28.01.2021-ci il tarixdə Ünvan 1 saylı ünvanındakı ofisdə 60.000 manat alaraq əvəzində bilə-bilə saxta sənədlərdən istifadə etmək üçün həmin mənzilə dair qanunsuz hazırladığı Cavabdeh 1in adına saxta 28.01.2021-ci il tarixli maliyyə arayışını verib, sonuncudan oğlu X13 vasitəsi ilə 23.03.2021-ci il tarixdən 05.04.2021-ci il tarixədək eyni ünvanda hissə-hissə 10.000 manat pulunu ələ keçirməklə, bilə-bilə saxta sənədlərdən istifadə etmək üçün həmin mənzilə dair qanunsuz hazırladığı X11in adına saxta maliyyə arayışını və 1 №-li protokoldan çıxarışı verərək zərərçəkmiş şəxs Cavabdeh 1a vahid niyyətlə əhatə olunan

qəsdlə ümumilikdə 70.000 manat və zərərçəkmiş hüquqi şəxs “X” MTK-ya 77.290 manat külli miqdarda ziyan vurmaqla dələduzluq etmişdir.

26. Bundan başqa, o, təkrarən, 08.04.2020-ci il tarixdən 12.04.2021-ci il tarixədək “X” MTK-da gözətçi vəzifəsində işlədiyi müddətdə öz qulluq mövqeyindən istifadə etməklə özgənin əmlakını tamah məqsədi ilə ələ keçirmək üçün “X” MTK-ya məxsus Ünvan 1 saylı ünvanındakı B girişi, 3-cü mərtəbədə yerləşən 1 kvadratı 650 manat olmaqla ümumi dəyəri 57.850 manat təşkil edən 89 kv. metr sahəsi olan 12 saylı mənzili Cavabdeh 2ya 56.070 manata satacağına dair yalan vəd verib aldadaraq bilə-bilə saxta sənədlərdən istifadə etmək üçün həmin mənzilə dair qanunsuz hazırladığı Cavabdeh 2nin adına saxta maliyyə arayışını və 1 №-li protokolundan çıxarışı verib etibarını qazanmaqla, Cavabdeh 2dan 2021-ci ilin fevral ayının ortalarında Ünvan 1 saylı ünvanındakı ofisdə 56.070 manatını ələ keçirməklə zərərçəkmiş şəxs Cavabdeh 2ya 56.070 manat və sonuncunun həmin mənzilə Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətindən ***-****-*** reyestr nömrəli çıxarış alması nəticəsində isə zərərçəkmiş hüquqi şəxs “X” MTK-ya 57.850 manat külli miqdarda ziyan vurmaqla dələduzluq etmişdir.

27. Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının 1(103)-37/2023 nömrəli, 19 may 2023-cü il tarixli qərarına əsasən, məhkum edilmiş şəxs X10 tərəfindən verilmiş apellyasiya şikayəti və şikayətə əlavə, zərərçəkmiş şəxslər Cavabdeh 2 və Cavabdeh 1 tərəfindən verilmiş apellyasiya şikayətlərinin təmin edilməməsi, Bakı Ağır Cinayətlər Məhkəməsinin 1(101)-330/2022 nömrəli, 13 aprel 2022ci il tarixli hökmünün verilmiş apellyasiya şikayətlərinə münasibətdə dəyişdirilməsi, X10in Cinayət Məcəlləsinin 320.1-ci maddəsi ilə təqsirli bilinməsi, cinayət məsuliyyətinə cəlb etmə müddəti keçdiyindən ona cəza təyin edilməməsi, hökmdən Cinayət Məcəlləsinin 66.3 və 66.4-cü maddələrinə dair müddəaların xaric edilməsi, X10in üzərində Cinayət Məcəlləsinin 178.3.2-ci maddəsi ilə təqsirli bilinərək Cinayət Məcəlləsinin 46.2-ci maddəsi tətbiq edilməklə 2 (iki) il müddətə tikinti sahəsində təşkilati-sərəncamverici və inzibati-təsərrüfat funksiyalarını həyata keçirmək və vəzifə tutmaq, həmin fəaliyyətlə məşğul olmaq hüququndan məhrum edilməklə 8 (səkkiz) il müddətə azadlıqdan məhrum etmə cəzasının saxlanılması, xüsusi müsadirə ilə bağlı hissədə şikayət vermiş şəxs X12nun nümayəndəsi və vəkili apellyasiya şikayətinin geri qaytarılması, Bakı Ağır Cinayətlər Məhkəməsinin 1(101)-330/2022 nömrəli, 13 aprel 2022-ci il tarixli hökmünün qalan hissələrdə dəyişdirilmədən saxlanılması qərara alınmışdır.

28. Bakı şəhəri 3 nömrəli Notariat Kontorunun məhkəməyə ünvanladığı 25.06.2023cü il tarixli 70 nömrəli məktubuna əsasən Cavabdeh 4 ilə Cavabdeh 6 arasında 20.12.2022-ci il tarixli daşınmaz əmlakın alğı-satqısına dair müqavilə mövcud deyildir.

İş üzrə qəbul edilmiş məhkəmə aktları.

Birinci instansiya məhkəməsində icraat:

29. İddiaçı “X” Mənzil Tikinti Kooperativi (bundan sonra iddiaçı, yaxud MTK) cavabdehlər Cavabdeh 1, Cavabdeh 2, Cavabdeh 3, Cavabdeh 4, Cavabdeh 5, Cavabdeh 6, Cavabdeh 7, Cavabdeh 8, Cavabdeh 9, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti Daşınmaz Əmlakın Kadastrı və Reyestri Publik Hüquqi Şəxsin 4 nömrəli Ərazi İdarəsinə (bundan sonra cavabdehlər, yaxud ad, soyadı, Ərazi İdarəsi) qarşı (Bakı şəhəri 3 nömrəli Asan Xidmət Mərkəzi Notariat ofisi və 2 nömrəli Gəncə Regional Mərkəzi “Asan Xidməti”ndə notariat ofisi mübahisə predmeti barədə müstəqil tələb irəli sürməyən üçüncü şəxslər qismində cəlb edilməklə) iddia ərizəsi ilə Abşeron Rayon Məhkəməsinə müraciət edərək, cavabdehlər Cavabdeh 1, Cavabdeh 3, Cavabdeh 2, Cavabdeh 4, Cavabdeh 7, Cavabdeh 6 və Cavabdeh 5 ilə bağlanmış “kooperativ binada mənzil tikintisi haqqında müqavilə”lər və onlar əsasında verilmiş maliyyə arayışlarının etibarsız hesab edilməsi, həmin

sənədlər əsasında Daşınmaz Əmlakın Dövlət Reyestr Xidməti tərəfindən Cavabdeh 4ə verilmiş ******-*** reyestr nömrəli, Cavabdeh 6ya verilmiş *****-*****-*** reyestr nömrəli, Cavabdeh 7ə verilmiş *****-*****-*** reyestr nömrəli, Cavabdeh 1 verilmiş *****--***reyestr nömrəli, Cavabdeh 2ə verilmiş ***-**reyestr nömrəli çıxarışların ləğv edilməsi; Bakı şəhəri 3 nömrəli Notariat Kontoru tərəfindən Cavabdeh 4 və Cavabdeh 8 arasında bağlanmış ***-*****-**nömrəli, 30.12.2022-ci il tarixli daşınmaz əmlakın alğı-satqı müqaviləsinin etibarsız hesab edilməsi və onun əsasında Cavabdeh 8ə verilmiş *****-**reyestr nömrəli çıxarışın ləğv edilməsi haqqında qətnamə qəbul olunmasını xahiş etmişdir.

30. İddia tələbi işin yuxarıda qeyd olunan hallarına istinad edilməklə onunla əsaslandırılmışdır ki, Bakı Ağır Cinayətlər Məhkəməsinin 13 aprel 2022-ci il tarixli hökmü ilə X10 Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 178.3.2 və 320.1-ci maddələri ilə təqsirli bilinərək o, qəti olaraq, Cinayət Məcəlləsinin 46.2-ci maddəsi tətbiq edilməklə 2 (iki) il müddətə tikinti sahəsində təşkilati-sərəncamverici və inzibati-təsərrüfat funksiyalarını həyata keçirmək və vəzifə tutmaq, həmin fəaliyyətlə məşğul olmaq hüququndan məhrum edilməklə 8 (səkkiz) il 6 (altı) ay müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmişdir. Bakı Apellyasiya Məhkəməsinin 19.05.2023-cü il tarixli Qərarı ilə X10 Cinayət Məcəlləsinin 320.1-ci maddəsi ilə təqsirli bilinmiş və cinayət məsuliyyətinə cəlb etmə müddəti keçdiyindən ona cəza təyin edilməməsi, onun üzərində Cinayət Məcəlləsinin 178.3.2-ci maddəsi ilə təqsirli bilinərək Cinayət Məcəlləsinin 46.2-ci maddəsi tətbiq edilməklə 2 (iki) il müddətə tikinti sahəsində təşkilati sərəncamverici və inzibati-təsərrüfat funksiyalarını həyata keçirmək və vəzifə tutmaq, həmin fəaliyyətlə məşğul olmaq hüququndan məhrum edilməklə 8 (səkkiz) il müddətə azadlıqdan məhrum etmə cəzasının saxlanılması; Bakı Ağır Cinayətlər Məhkəməsinin 13 aprel 2022-ci il tarixli hökmünün qalan hissələrdə dəyişdirilmədən saxlanılması qərara alınmışdır. Təqsirləndirilən şəxs X10 cavabdeh Cavabdeh 4a MTK-ya məxsus Ünvan 1 nömrəli ünvanındakı A girişi, 11ci mərtəbədə yerləşən 91 nömrəli mənzili satacağını vəd etmiş və həmin mənzilə dair qanunsuz şəkildə Cavabdeh 4un adına saxta 28.01.2020-ci il tarixli maliyyə arayışı və 29.07.2019-cu il tarixli kooperativ binada mənzil tikintisi haqqında müqavilə və 22.07.2018-ci il tarixli 1 №-li protokolundan çıxarış vermişdir. Eyni zamanda Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətindən *******-**** reyestr nömrəli çıxarış almışdır. Həmçinin, təqsirləndirilən şəxs X10 cavabdeh Cavabdeh 6ya MTK-ya məxsus Ünvan 1 nömrəli ünvanındakı A girişi, 12-ci mərtəbədə yerləşən 108 nömrəli mənzili satacağını vəd etmiş və həmin mənzilə dair qanunsuz Cavabdeh 6nın adına saxta maliyyə arayışı və 29.08.2020-ci il tarixli kooperativ binada mənzil tikintisi haqqında müqavilə və 22.07.2018ci il tarixli 1 №-li protokolundan çıxarış vermişdir. Həmin saxta sənədlər əsasında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətindən ******** reyestr nömrəli çıxarış alınmışdır. Həmçinin, təqsirləndirilən şəxs X10 cavabdeh Cavabdeh 7ya MTK-ya məxsus Ünvan 1 ünvanındakı A girişi, 5-ci mərtəbədə 79 nömrəli mənzili satacağını vəd etmiş və həmin mənzilə dair qanunsuz Cavabdeh 7in adına saxta maliyyə arayışı və 22.07.2018-ci il tarixli 1 №-li protokolundan çıxarış vermişdir. Həmin saxta sənədlər əsasında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətindən ********** reyestr nömrəli çıxarış alınmışdır. Yenə təqsirləndirilən şəxs X10 cavabdeh Cavabdeh 1a MTK-ya məxsus Ünvan 1 nömrəli ünvanındakı B girişi, 11-ci mərtəbədə 56 nömrəli mənzili satacağını vəd etmiş və həmin mənzilə dair qanunsuz Cavabdeh 1in adına saxta
21.09.2020-ci il tarixli maliyyə arayışı və 1 №-li protokolundan çıxarış vermişdir. Həmin saxta sənədlər əsasında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətindən ********* reyestr nömrəli çıxarış alınmışdır. Həmçinin, təqsirləndirilən şəxs X10 cavabdeh Cavabdeh 1a MTK-ya məxsus Ünvan 1 nömrəli ünvanındakı B girişi, 3-cü mərtəbədə yerləşən 10 nömrəli mənzili satacağını vəd etmiş və həmin mənzilə dair qanunsuz Cavabdeh 1in adına saxta maliyyə

arayışı və 1 №-li protokolundan çıxarış vermişdir. Həmçinin, təqsirləndirilən şəxs X10 cavabdeh Cavabdeh 1a MTKya məxsus Ünvan 1 nömrəli ünvanındakı B girişi, 8-ci mərtəbədə 39 nömrəli mənzili satacağını vəd etmiş və həmin mənzilə dair qanunsuz Cavabdeh 1in adına saxta 02.02.2021-ci il tarixli maliyyə arayışı və kooperativ binada mənzil tikintisi haqqında müqavilə vermişdir. Həmçinin, təqsirləndirilən şəxs X10 cavabdeh Cavabdeh 2ya MTK-ya məxsus Ünvan 1 nömrəli ünvanındakı B girişi, 3-cü mərtəbədə yerləşən 12 nömrəli mənzili satacağını vəd etmiş və həmin mənzilə dair qanunsuz Cavabdeh 2nin adına saxta maliyyə arayışı və 1 №-li protokolundan çıxarış vermişdir. Həmin saxta sənədlər əsasında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətindən ********** reyestr nömrəli çıxarış alınmışdır. Həmçinin, təqsirləndirilən şəxs X10 cavabdeh Cavabdeh 5ya MTK-ya məxsus Ünvan 1 nömrəli ünvanındakı B girişi, 7-ci mərtəbədə yerləşən 34 nömrəli mənzili satacağını vəd etmiş və həmin mənzilə dair qanunsuz Cavabdeh 5in adına 29.03.2020-ci il tarixli saxta maliyyə arayışı və 29.04.2019cu il kooperativ binada mənzil tikintisi haqqında müqavilə vermişdir. Həmçinin, təqsirləndirilən şəxs X10 cavabdeh Cavabdeh 3ya MTK-ya məxsus Ünvan 1 nömrəli ünvanındakı A girişi, 5-ci mərtəbədə yerləşən 79 nömrəli mənzili satacağını vəd etmiş və həmin mənzilə dair qanunsuz Cavabdeh 3nın adına 06.02.2021-ci il tarixli saxta maliyyə arayışı və kooperativ binada mənzil tikintisi haqqında müqavilə vermişdir. O da əlavə edilir ki, cavabdeh Cavabdeh 4 ilə Cavabdeh 8 arasında 0503987 nömrəli, 30.12.2022-ci il tarixli daşınmaz əmlakın alğı-satqı müqaviləsi bağlanmış və MTK-ya məxsus Ünvan 1 nömrəli ünvanındakı A girişi, 11-ci mərtəbədə yerləşən 91 nömrəli mənzil Cavabdeh 8ya satılmışdır. Həmin müqavilə əsasında Cavabdeh 8 ********* reyestr nömrəli çıxarış almışdır. Sözügedən cavabdehlərə verilmiş kooperativ binada mənzil tikintisi haqqında müqavilələr, maliyyə arayışları saxta olmuş, sənədlərin yoxlanılması üçün Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertiza Mərkəzində kompleks məhkəmə kompütertexniki, sənədlərin məhkəmə-texniki və məhkəmə xətşünaslıq ekspertizası keçirilmiş və 22 oktyabr 2021-ci il tarixli, 5/******** nömrəli ekspert rəyi tərtib olunmuşdur. Ekspertlərin rəyləri ilə MTK-nın adından tərtib olunmuş yuxarıda qeyd olunan sənədlərin saxta olması təsdiq edilmişdir.

31. “X” MTK-nın məhkəməyə ünvanladığı 06.09.2023-cü il tarixli cavab məktubunda qeyd olunmuşdur ki, Cavabdeh 1, Cavabdeh 3, Cavabdeh 2, Cavabdeh 4, Cavabdeh 5, Cavabdeh 6, Cavabdeh 7 MTK-ya ev almaq məqsədi ilə müraciət etməmiş, onlarla müqavilə bağlanmamış, onlar MTK-ya pul ödəməmiş və onlara maliyyə arayışı verilməmişdir. Bu səbəbdən onların adına MTK-nın mühasibatlığında heç bir sənəd yoxdur. Həmin şəxslərə MTK-nın sabiq əməkdaşı X10 saxta sənədlər yəni müqavilələr, maliyyə arayışları tətbiq etməklə aldadıb pullarını almışdır. Saxta sənədlərdə qeyd olunan mənzillər isə MTK tərəfindən aşağıdakı vətəndaşlara satılmışdır. X2na Ünvan 4, B binası, yerdən 11-ci mərtəbə ümumi sahəsi 94,74 kv. metr 3 otaqlı 56 nömrəli (yeni ünvan Ünvan 1, mənzil 56), X9na Ünvan 4, B binası, yerdən 3-cü mərtəbə ümumi sahəsi 131 kv. metr 3 otaqlı 10 nömrəli (yeni ünvan Ünvan 1, mənzil 10), X3na Ünvan 4, B binası, yerdən 8-ci mərtəbə ümumi sahəsi 64 kv. metr 1 otaqlı 39 nömrəli (yeni ünvan Ünvan 1, mənzil 39), X4na Ünvan 4, binanın 1ci girişi, yerdən 12-ci mərtəbə ümumi sahəsi 86 kv. metr 2 otaqlı 42 nömrəli (yeni ünvan Ünvan 1, mənzil 108), X7na Ünvan 4, binanın 1 girişi, yerdən 5-ci mərtəbə ümumi sahəsi 105,6 kv. metr 3 otaqlı 13 nömrəli (yeni ünvan Ünvan 1, mənzil 79), X6 Ünvan 4, binanın 1 girişi, yerdən 8-ci mərtəbə ümumi sahəsi 105,6 kv. metr 3 otaqlı, 25 nömrəli (yeni ünvan Ünvan 1, mənzil 91), X1na Ünvan 4, B binası, yerdən 3-cü mərtəbə ümumi sahəsi 89 kv. metr 2 otaqlı 12 nömrəli (yeni ünvan Ünvan 1, mənzil 12), X8na Ünvan 4, B binası, yerdən 7-ci mərtəbə ümumi sahəsi 131 kv. metr 3 otaqlı 34 nömrəli (yeni ünvan Ünvan 1, mənzil 34).

32. Cavabdeh 3 tərəfindən iddia tələbinə qarşı etiraz ünvanlanmış və etirazda göstərmişdir ki, iddia ərizəsindəki tələblər tamamilə qanunsuz və əsassızdur. Ərizə tamamilə formal şəkildə tərtib olunmuşdur. Heç bir hüquqi əsası yoxdur və mövcud reallıqdan tamamilə uzaqdır. İlk növbədə onu qeyd edir ki, MTK onun kimi bir neçə şəxslə alğı-satqı müqaviləsi bağlayaraq dələduzluq yolu ilə onların külli miqdarda pulunu mənimsəmişdir. Qeyd olunmalıdır ki, bir müddət əvvəl MTK-dan ona şirkətin əməkdaşı X10in həm ona, həm də bir neçə şəxsə qarşı dələduzluq etməsi və halhazırda onun barəsində cinayət işinin istintaqının aparıldığını, həmin iş üzrə yekun məhkəmə aktı qəbul edildikdən sonra onun ya mənzilinin, ya da pulunun qaytarılacağı bildirilmişdir. Lakin həmin iş üzrə yekun məhkəmə aktı qəbul edilən gündən bu günə kimi nə ona mənzili, nə də onun 63.000 manat məbləğindəki pulu geri qaytarılmışdır. Çox əminliklə deyə bilər ki, vətəndaşları aldatmaq yolu ilə külli miqdarda pullarını mənimsəmək üçün həyata keçirilən dələduzluq əməli MTK-nın rəhbərliyi tərəfindən planlaşdırılmış və həyata keçirilmişdir. Şirkətin əməkdaşı kimi təqdim edilmiş X10 isə bu dələduzluq əməlində MTK-nın rəhbərliyinə köməklik edən şəxslərdən biri olmuşdur. Həmçinin qeyd olunmalıdır ki, mənzil alan şəxslərin telefon əlaqəsi saxlaması üçün elan lövhələrinin üzərində məhz X10in istifadəsində olan mobil telefon nömrəsinin yerləşdirilməsi sırf MTK-nın həyata keçirdiyi məqsədyönlü hərəkətlərdən biridir. Buradan belə bir sual ortaya çıxır necə olur ki, MTK-nın rəhbərliyi heç vaxt həmin elan lövhələrini və həmin lövhələrin üzərində qeyd olunmuş yazıları və əlaqə nömrəsini görmür?! Əslində sualın çox sadə bir cavabı var. Bəli MTK-nın rəhbərliyi həmin elanları görmüşdür. Çünki əslində həmin elanların üzərində qeyd olunmuş yazıları və nömrəni vətəndaşlara qarşı dələduzluq niyyətlərini həyata keçirmək üçün məqsədyönlü şəkildə özləri yerləşdirmişlər. Həmçinin qeyd olunur ki, tikinti işləri ilə heç bir əlaqəsi olmayan mühafizəçinin binadakı mənzillərin ümumi sahəsinin neçə kv.m. və neçə otaqdan ibarət olmasını dəqiqliklə bilməsi mümkünsüzdür. X10 MTK-nın rəhbərliyinə bu dələduzluq əməlində kömək edən şəxslərdən biri olduğuna görə belə məlumatlar ona həmin şəxslər tərəfindən əvvəlcədən verilmişdir. MTK ilə aralarında bağlanılmış 06.02.2021-ci il tarixli alğı-satqı müqaviləsi və maliyyə arayışı MTK-nın sədri tərəfindən imzalanmış və MTK-nın möhürü ilə möhürlənmişdir. Lakin buna baxmayaraq MTK 13.06.2023-cü il tarixli iddia ərizəsində həmin imzanın və möhürün saxta olduğunu bildirmişdir. Nəzərə çatdırılır ki, həmin sənədlər şəxsən MTK-nın sədri X5 tərəfindən imzalanmış və möhürlənmişdir. Həmçinin 06.02.2021-ci il tarixli maliyyə arayışının doğruluğunu MTK-nın mühasibi da öz imzası ilə təsdiq etmişdir. Həmçinin, nəzərə çatdırılır ki, MTK onun kimi bir neçə şəxsə qarşı etdiyi dələduzluq əməlini ört-basdır etmək üçün yalandan həmin imza və möhürlərin saxta olmasını bildirmişdir. Bir daha qeyd edilir ki, həm alğı-satqı müqaviləsinin, həm də maliyyə arayışının doğruluğunu təsdiq edən imza MTK-nın sədri X5ə məxsusdur. Nəzərə çatdırılır ki, 06.02.2021-ci il tarixli alğı-satqı müqaviləsi əsasında ona satılmış mənzilin pulu tərəfindən MTK-ya ödənmişdir. Əgər MTK həmin mənzili ona verməyəcəkdisə niyə onun pulunu alırdı? Belə ki o, müqavilə üzrə üzərinə düşən öhdəliyi tam şəkildə yerinə yetirmişdir. Buna görə də hesab edir ki, qanunvericiliyin tələblərinə uyğun olaraq MTK müqavilə üzrə üzərinə düşən öhdəliyi tam şəkildə yerinə yetirməlidir. Həmçinin qeyd olunmalıdır ki, MTK dələduzluq etdiyi vətəndaşların mənzillərini verməmək və ya pullarını geri qaytarmamaq üçün onları yubatmaq, daha doğrusu öz dələduzluqlarını davam etdirmək məqsədi ilə yalandan həmin müqavilələrin, müqavilə əsasında verilmiş maliyyə arayışlarının etibarsız hesab edilməsi və Əmlak Məsələləri Dövlət Komitəsinin Yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən verilmiş çıxarışların ləğv edilməsi barədə 13.06.2023-cü il tarixli iddia ərizəsi ilə məhkəməyə müraciət etmişdir. Göstərilənlərə əsasən hesab edir ki, iddiaçı MTK tərəfindən verilmiş iddianın rədd edilməsi barədə qərar qəbul edilməlidir.

33. Cavabdeh 4un nümayəndəsi və vəkili tərəfindən verilmiş etirazda göstərilmişdir ki, iddiaçının tələbi qanunsuz və əsassızdır. Belə ki, Bakı Ağır Cinayətlər Məhkəməsində baxılmış işin hallarından aydın olur ki, X10 30.08.2018-ci il tarixdən 08.04.2020-ci il tarixədək "X" MTK-da satış meneceri, 08.04.2020-ci il tarixdən 12.04.2021-ci il tarixədək MTK-da gözətçi vəzifəsində işlədiyi müddətdə öz qulluq mövqeyindən istifadə etməklə özgənin əmlakını tamah məqsədi ilə ələ keçirmək üçün MTK-ya məxsus Ünvan 1 saylı ünvanındakı A girişi, 1, 1-ci mərtəbədə yerləşən 1 kvadratı 650 manat olmaqla ümumi dəyəri 46.605 manat təşkil edən 71,7 kv.m. sahəsi olan 39 saylı mənzili Cavabdeh 4a hissə-hissə ödəmək şərti ilə 46.605 manata satacağına dair yalan vəd verib aldadaraq, Cavabdeh 4dan 28.01.2020-ci il tarixdə Ünvan 1 saylı ünvanındakı ofisdə 38.605 manat alaraq əvəzində bilə-bilə saxta sənədlərdən istifadə etmək üçün həmin mənzilə dair qanunsuz hazırladığı Cavabdeh 4un adına saxta 28.01.2020-ci il tarixli maliyyə arayışını və 29.07.2019-cu il tarixli kooperativ binada mənzil tikintisi haqqında müqaviləni verib sonuncudan eyni ünvanda 30.05.2020-ci il tarixdə 2.000 manat, 10.07.2020-ci il tarixdə 3.000 manat, 19.08.2020-ci il tarixdə 3.000 manat, ümumilikdə 46.605 manat pulunu ələ keçirdikdən sonra qeyd edilən mənzilin şirkət sahibi tərəfindən başqa şəxsə söz verildiyini bəhanə edib həmin pulun müqabilində Cavabdeh 4a Ünvan 1 saylı ünvanındakı A girişi, 8-ci mərtəbədə yerləşən 1 kvadratı 650 manat olmaqla ümumi dəyəri 68.640 manat təşkil edən 105,6 kv. metr sahəsi olan 91 saylı mənzili, bilə-bilə saxta sənədlərdən istifadə etmək üçün həmin mənzilə dair qanunsuz hazırladığı Cavabdeh 4un adına saxta maliyyə arayışını və 22.07.2018-ci il tarixli I №-li protokolundan çıxarışı verib, zərərçəkmiş şəxs Cavabdeh 4a vahid niyyətlə əhatə olunan qəsdlə ümumilikdə 46.605 manat xeyli miqdarda və sonuncunun həmin mənzilə Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətindən **********reyestr nömrəli çıxarış alması nəticəsində isə zərərçəkmiş hüquqi şəxs "X" MTK-ya isə 68.640 manat külli miqdarda ziyan vurmaqla dələduzluq etmişdir. O cümlədən, Cavabdeh 4un ifadəsindən görünür ki, o, özünə Abşeron rayonu ərazisində ev almaq istəmişdir. Buna görə o, əvvəlcə "XX" MTK-dan mənzil alsa da, sonradan həmin mənzili 58.000 manata satmışdır. Buna görə də 2020-ci ilin yanvar ayında Ünvan 1 ünvanında yerləşən MTK-ya məxsus binadan özü üçün mənzil almaq qərarına gəlmişdir. Bu vaxt binanın həyətində 1-ci mərtəbədə yerləşən ofisə müraciət etmişdir. Həmin ofisdə işləyən X10 ilə tanış olmuşdur. X10 həmin binanın qohumuna məxsus olduğunu və satış işlərinə özü baxdığını bildirmişdir. X10 həmin binadan mənzillərin 1 kv.m. üçün 650 manatdan olmaqla mənzil sata biləcəyini demişdir. Həmin vaxt də 11-ci mərtəbədə 39 nömrəli mənzili X10 ona təklif etmişdir. Evin 71,7 kv. metr sahəsi olmuş və təmirsiz olmuşdur. Evə baxdıqdan sonra X10la aralarında razılaşma olmuşdur. Razılaşmaya əsasən evin ümumi qiyməti 46.605 manat təşkil etmiş, lakin o, X10a ilkin olaraq 38.605 manat ödəniş edəcəkmiş, qalan pulu isə hissə-hissə verəcəkmiş. Buna görə görüşlərindən 1-2 gün sonra, yəni, 28.01.2020-ci il tarixdə o, 38.605 manat pulu X10a Ünvan 1 ünvanında yerləşən ofisdə vermişdir. Bu görüşdən 2-3 gün sonra həmin ofisdə X10 ona 28.01.2020-ci il tarixli maliyyə arayışını və kooperativ binada mənzil tikintisi haqqında müqaviləni vermişdir. Maliyyə arayışında onun 39 saylı mənzilə görə ödədiyi 38.605 manat pul və borcu qalan 8.000 manat əks edilmişdir. Maliyyə arayışını və müqaviləni X10 özü ona vermişdir. O, həmin maliyyə arayışında və müqavilədə adları qeyd olunan X5 və mühasibi tanımır, həmin şəxslərin maliyyə arayışına birbaşa imza etmələrini görməmişdir. Həmçinin, maliyyə arayışının üzərində MTK-ya məxsus möhür olsa da, həmin möhürün kim tərəfindən vurulmasını bilmir. O, sənədləri X10dan hazır almışdır. Aldığı mənzildə təmir işlərini həyata keçirməyə başlamışdır. Ümumilikdə evin təmirinə 25.000 manata yaxın pul xərcləmişdir. Həmçinin X10a 30.05.2020-ci il tarixdə 2.000 manat, 10.07.2020-ci il tarixdə 3.000 manat və 19.08.2020-ci il tarixdə 3.000 manat olmaqla ümumilikdə 8.000 manat borclu qaldığı pulu

vermişdir. Bununla bağlı X10 da maliyyə arayışında qeydlər aparıb özü imzalamışdır. Yəni, o, X10a mənzil almaq üçün ümumilikdə 46.605 manat pul vermiş və həmin pulun hamısını Ünvan 1 ünvanında yerləşən ofisdə X10a vermişdir. 2020-ci ilin avqust ayında ev hazır olduqdan sonra X10a bildirmişdir ki, müvafiq sənədləri versin ki, o, evinə çıxarış alsın. Bu vaxt X10 bildirmişdir ki, ona məxsus evi şirkətin sahibi öz dostuna söz vermişdir və həmin evi dostuna verməlidir. Buna görə ona daha böyük ölçülü ev təklif etmişdir. X10ın təklif etdiyi mənzil həmin binanın , 8-ci mərtəbədə olan 3 otaqlı, ümumi sahəsi 105,6 kv. metr 91 nömrəli mənzil olmuşdur. X10 91 nömrəli mənzili ona satdığı 39 saylı mənzilə görə təklif etmişdir. Belə ki, 91 nömrəli mənzilin hər 1 kv.m. üçün 650 manatdan hesablayanda 68.640 manat etsə də, X10 onun X10a 39 saylı mənzilə görə ödədiyi 46.605 manat pulun əvəzində, yəni başabaş təklif etmişdir. O ,da X10a 39 saylı mənzili 25.000 manat pulun müqabilində təmir etdirdiyini deyib 91 nömrəli mənzilin təmirsiz olmasına görə narazılıq etsə də, X10 narahat olmamasını bildirib ona təmir xərclərinin qarşılığında 18.000 manat pul ödəməyi barədə razılaşmışlar və ona 18.000 manat vermiş, yəni X10 ona ilkin 39 saylı mənzilə görə xərclədiyi təmir pulunu bağlamışdır. Ödədiyi 46.605 manat pulun müqabilində isə X10 ona 2020-ci ilin avqust ayının sonlarında həmin 91 nömrəli mənzili vermişdir. X10dan 91 nömrəli mənzili aldıqdan sonra mənzil üçün çıxarış almaq istədiyini, buna görə lazımı sənədləri verməsini tələb etmişdir. Bundan sonra X10 ona 1 №-li protokoldan çıxarış vermişdir. O, həmin çıxarışı X10dan götürməsə də şəklini çəkib özündə saxlamışdır. Həmin 1 №-li protokoldan çıxarışda adları qeyd edilən şəxsləri və MTK-nın direktoru X5 adlı şəxsləri görməmiş, həmin sənədi ona hazır vəziyyətdə X10 vermişdir. 29 avqust 2020-ci il tarixdə X10 ilə birgə ƏMDK-nə yaxınlaşmışlar. Bu vaxt o, həmin çıxarışı və şəxsiyyət vəsiqəsinin surətini tanımadığı xanım işçiyə təqdim etmişdir. Ona 1 ay sonra yaxınlaşmağı bildirmişlər. 146 manat dövlət rüsumu vermişdir. 29 sentyabr 2020-ci il tarixdə ona “Sms” gəlmişdir ki, çıxarış hazırdır və o, gedib həmin sənədi götürmüşdür. Evi aldıqdan sonra maddi çətinliyi ilə əlaqədar təmir etdirmədən satmaq qərarına gəlmiş və evi “xxxx” saytına satış üçün qoymuşdur. Təxminən 3 aydan sonra, yəni 30.12.2020-ci ildə X14 adlı şəxs ilə aralarında olan razılaşmaya əsasən 64.000 manat pula alğı-satqı olmuşdur. Həmin puldan təxminən 2.000 manatı rüsum kimi tutulmuşdur. Qalan pulu borcları olduğu üçün borclarına sərf etmişdir. Aldığı evlərə dair müəyyən sənədləri istintaqa təqdim etmişdir. O, X10a pul verərkən və ya pul alarkən yanlarında əlavə şahid olmamışdır. O, həmin mənzili X10dan 2020-ci ilin avqust ayında alsa da, ona X10 tərəfindən təqdim olunmuş 1 №-li protokoldan çıxarışda tarixin 22 iyul 2018 olmasına fikir verməmişdir. Sənədləri qadına təqdim etmiş, daha sonra 146 manat rüsum üçün ödəniş etmişdir. O, həmin qadını tanımır. X10ın həmin qadınla münasibətlərinin olmasını bilmir və həmin vaxtı da X10ın həmin qadınla heç bir danışığı olmamış, o, və X10 sadəcə növbə götürərək təsadüfən həmin qadın əməkdaşa yaxınlaşmışlar. Onun sənədləşmədən anlayışı çox olmadığı üçün X10 həmin gün onun köməkçi kimi yanında gəlmişdir. Ona X10 təmirə görə 28.000 manat deyil, 18.000 manat vermişdir. X10a 91 saylı mənzilə görə isə heç bir borcu yoxdur. İlkin 39 saylı mənzilə görə 46.605 manat verdiyindən. X10ın sözünə əsasən həmin mənzil müdiriyyət tərəfindən başqa şəxsə söz verildiyinə görə X10 başabaş, yəni 46.605 manat pulun müqabilində ona 91 saylı mənzili vermişdir. 28.01.2020-ci il tarixdə alıb təmir etdirdiyi 39 saylı mənzilin kimə satılması və ya X10in deməsi ilə kimə hədiyyə olunması ilə maraqlanmamış, həmin mənzilin kimə verilməsini bilmir. 91 saylı mənzili X14ə 64.000 manata satan zaman həmin mənzili X10ın ona qanunsuz satması barədə və mənzilin ilkin sənədlərinin saxta olmasından məlumatlı olmamış, o, X10dan 91 saylı mənzili alan zaman qanuni yolla aldığını hesab etmiş və hətta ona həmin mənzilə Daşınmaz Əmlakın Dövlət Reystr Xidmətindən çıxarış verildiyi üçün bu barədə heç bir şübhəsi olmamışdır. Əlində çıxarış olduğu üçün də X14 alğı-satqı etmişdir. Həmçinin “xxx”

internet səhifəsində MTK tərəfindən mənzilləri satışa çıxarılan yaşayış binasının üzərində əlaqə nömrəsi olaraq X10in əlaqə nömrəsi göstərilmişdir. Həmçinin həmin əlaqə nömrəsini "xxxxxx" tətbiqində yazdıqda, X10in mənzil alıcılarının kontaktında binanın sahibi və mənzillərin satışında səlahiyyətli şəxs kimi qeyd edildiyi nəzərə çarpır. Bu halları təsdiq edən müvafiq foto şəkillər tərəflərindən məhkəməyə təqdim edilmişdir. Bütün bu halları nəzərə alaraq vurğulamaq lazımdır ki, MTK X10in yol verdiyi bu hərəkətlərdən xəbərdar olmuş və bu bas verənlərə özü yol vermişdir. Həmçinin unutmamaq lazımdır ki, hüquqi şəxs fiziki şəxsə nisbətdə daha da məsuliyyətli olmalı və baş verən hadisələri daha peşəkar şəkildə nəzarət etməlidir. Çünki hüquqi şəxsin bütün proseslərə nəzarət funksiyasını yerinə yetirən ümumi yığıncağı olur. Əgər MTK-da bu cür qanunsuz hallar bas verirsə, bu göstərir ki, bu hüquqi şəxsin ümumi yığıncağı öz vəzifəsini layiqincə yerinə yetirmir və X10 vasitəsilə belə qanunsuz əməllərə əl atır. Bu səbəblə də, hər hansı bir müqavilənin etibarsızlığından və çıxarışın ləğv edilməsindən söz belə gedə bilməz. Digər tərəfdən Cavabdeh 4 pul vəsaitlərini MTK-nın fəaliyyət göstərdiyi yerdə satış meneceri olan X10 ödəyərək mənzil almışdır. MTK-nın satış meneceri olan X10 də öz növbəsində mənzili (MTK-nın möhürü ilə təsdiqlənmiş borcun olmaması ilə bağlı maliyyə arayışını) ona təhvil vermişdir. Göründüyü kimi, hazırkı iddia üzrə cavabdeh Cavabdeh 4 faktiki olaraq MTK-nın satış meneceri olan X10in əməlindən zərər çəkməmişdir. Belə olan halda MTK ona hər hansı maddi ziyan dəymiş olduğunu hesab edirsə X10ə qarşı deyil, Cavabdeh 4a qarsı məhkəmədə iddia qaldırması absurddur. Nəzərə alınsa ki, MTK-nın gələcəkdə X10ə qarşı maddi ziyanın ödənilməsi ilə bağlı iddia qaldırmasına dair gözlənilən hüququ var, hazırda iddia təmin ediləcəyi təqdirdə əsassız varlanma halının olması istisna edilmir. Göstərilənlərə əsasən iddianın təmin edilməməsinə dair qətnamə qəbul olunmasını xahiş etmişdir.

34. Abşeron Rayon Məhkəməsinin (bundan sonra birinci instansiya məhkəməsi) 2(012)-3510/2023 nömrəli, 6 noyabr 2023-cü il tarixli qətnaməsi ilə (hakim Habil Əhmədov) iddia tələbi qismən təmin edilərək cavabdehlər Cavabdeh 1, Cavabdeh 3, Cavabdeh 2, Cavabdeh 7, Cavabdeh 6 və Cavabdeh 5 ilə iddiaçı MTK arasında bağlanmış kooperativ binada mənzil tikintisi haqqında müqavilələrin və onlar əsasında verilmiş maliyyə arayışlarının etibarsız hesab edilməsi, 4 nömrəli Ərazi İdarəsi tərəfindən Cavabdeh 6ya verilmiş ******** reyestr nömrəli çıxarışın, Cavabdeh 7ya verilmiş ****** reyestr nömrəli çıxarışın, Cavabdeh 1a verilmiş ********** reyestr nömrəli çıxarışın, Cavabdeh 2ya verilmiş ********** reyestr nömrəli çıxarışın ləğv edilməsi, 2 nömrəli Gəncə Regional Mərkəzində Asan Xidmətində notariat ofisi tərəfindən Cavabdeh 7 ilə Cavabdeh 9 arasında bağlanmış 17.06.2022-ci il tarixli daşınmaz əmlakın alğı-satqı müqaviləsinin etibarsız hesab edilməsi, 4 nömrəli Ərazi İdarəsi tərəfindən Cavabdeh 9a verilmiş ********** reyestr nömrəli çıxarışın ləğv edilməsi, iddia tələbi qalan hissədə təmin edilməməsi qət olunmuşdur.

35. Birinci instansiya məhkəməsi hesab etmişdir ki, mübahisələndirilən müqavilə fərdi müəyyən əşya olan mənzillərin alğı-satqısına dair bağlanmış olduğundan hazırkı mübahisəyə tərəfin bildirib-bildirilməsindən asılı olmayaraq kəsici müddət tətbiq edilə bilməz.

36. Məhkəmə bu qənaətə gələrkən iş üzrə mübahisələndirilən sənədləri saxtalaşdırılması ilə bağlı cinayət işi üzrə istintaq və məhkəmə instansiyalarının araşdırma dövrünü də nəzərə almışdır.

37. Məhkəmə həmçinin hesab etmişdir ki, iddiaçı MTK-nın cavabdehlər Cavabdeh 1, Cavabdeh 3, Cavabdeh 2, Cavabdeh 5, Cavabdeh 6, Cavabdeh 7 ilə bağlanmış kooperativ binada mənzil tikintisi haqqında müqavilələrin və onun əsasında verilmiş maliyyə arayışlarının etibarsız hesab edilməsi; həmin sənədlər əsasında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti

tərəfindən Cavabdeh 1, Cavabdeh 2, Cavabdeh 6, Cavabdeh 7in adlarına verilmiş müvafiq çıxarışın ləğv edilməsinə dair iddia tələbləri əsaslı olduğu üçün təmin edilməlidir.

38. Eyni zamanda məhkəmə hesab etmişdir ki, iddiaçı MTK-nın cavabdehlər Cavabdeh 1, Cavabdeh 3, Cavabdeh 2, Cavabdeh 5, Cavabdeh 6, Cavabdeh 7 ilə bağlanmış "kooperativ binada mənzil tikintisi haqqında müqavilə"lərin və onun əsasında verilmiş maliyyə arayışları etibarsız hesab edildiyi üçün həmin şəxslərə mənzillərin əldə edilməsinə görə ödədikləri vəsaitlərin qaytarılması üçün X10ə qarşı ümumi qaydada məhkəmədə iddia qaldırmaq hüququ izah edilməlidir.

39. Birinci instansiya məhkəməsi həmçinin xüsusi olaraq bu qənaətə də gəlmişdir ki, X10in dələduzluq və sənədlərin saxtalaşdırılması kimi cinayət əməlləri cavabdehləri aldatması ilə müşayiət olunan, qanuna uyğun olmayan müqavilələr və arayışlar verməsini (məhkəmə hökmünə əsasən saxta olan) bilə-bilə, onların mənzilə köçməsinə, təmir edib yaşamalarına şərait yaratmaları ilə bağlı ona qarşı həmçinin maddi və mənəvi ziyanın vurulması tələbi ilə də (sübutlar təqdim etməklə) iddia qaldırmaq hüququndan yararlana bilərlər.

40. Göstərilənlərlə yanaşı məhkəmə iddia tələbinin digər hissəsi olan - Bakı şəhəri 3 saylı Notariat Kontoru tərəfindən Cavabdeh 4 və Cavabdeh 8 arasında bağlanmış ***** nömrəli, 30 dekabr 2022-ci il tarixli daşınmaz əmlakın alğı-satqı müqaviləsinin etibarsız hesab edilməsi və onun əsasında Cavabdeh 8ya verilmiş ********** reyestr nömrəli çıxarışın ləğv edilməsi hissəsinin rədd olunması nəticəsinə gəlmişdir. Belə ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinə əsasən əşyanı özgəninkiləşdirənin onun mülkiyyətçisi olmadığı, lakin bu fakt barədə vicdanlı əldə edən olduğu hallarda da əldə edən əşyanın mülkiyyətçisi olur.

41. Həmçinin, reyestrin məzmununun qeyri-dəqiqliyi sübuta yetirilməyincə, həmin məzmunun həqiqiliyi və tamamlığı prezumpsiyası qüvvədədir. Əqd əsasında özgəninkiləşdirənin adına qeydiyyata alınmış hər hansı bir hüququ əldə edən şəxsin xeyrinə reyestrdəki qeyd, bu qeydə dair etirazın reyestrə daxil edildiyi və ya əldə edən şəxsin qeydin qeyri-dəqiq olmasını bildiyi hallar istisna olmaqla, həqiqi hesab etmişdir.

42. Cavabdeh 4 və Cavabdeh 8 arasında bağlanmış ******** nömrəli, 30 dekabr 2022-ci il tarixli daşınmaz əmlakın alğı-satqı müqaviləsinin bağlanması zamanı MTK-nın iddiası üzrə həmin əqdin etibarsızlığına əsas ola biləcək hal müəyyən olunmamış, eyni zamanda alıcı Cavabdeh 8 mülkiyyət hüququna dair reyestrdəki yazının mövcudluğu faktına əsasən əmlakı əldə etmişdir.

43. Bundan əlavə, məhkəmə hesab etmişdir ki, Cavabdeh 4 ilə bağlanmış "kooperativ binada mənzil tikintisi haqqında müqavilə" və onun əsasında verilmiş maliyyə arayışı etibarsız hesab edilsə də, qanunsuz olaraq verilmiş sənədlər əsasında əldə etdiyi "Çıxarış"a əsasən mülkiyyətinə keçmiş mənzillə bağlı Cavabdeh 8 ilə arasında bağladıqları alğı-satqı müqaviləsi, eləcə də bu əqd əsasında sonuncunun adına verilmiş "Çıxarış"ın etibarsızlığı və ləğvi üçün əsaslar müəyyən edilməmişdir. Belə ki, Cavabdeh 8 bu mənzili əldə edərkən onun mübahisəli olmasını, mənzilin özəlləşdirilməsinə əsas olmuş sənədlərin saxta yollarla verilməsini bilməmiş və iddiaçı tərəf bu halların əksinə dair məhkəməyə hər hansı mötəbər sübutlar təqdim etməmiş və məhkəmə onun vicdanlı əldə edən olmamasına dair iddiaçı tərəfin izahatlarını subyektiv mülahizə kimi qiymətləndirir.

44. Məhkəmə həmçinin hesab etmişdir ki, Cavabdeh 8 vicdanlı əldə edən statusuna malik olduğu üçün həmin mənzilə dair Cavabdeh 4 ilə bağlanmış "kooperativ binada mənzil tikintisi haqqında müqavilə"si və onun əsasında verilmiş maliyyə arayışı işin yuxarıda sadalanan hallarına əsasən etibarsız hesab olunmasına və həmin sənədlər əsasında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən adına verilmiş müvafiq çıxarışın ləğv edilməsinə əsaslar olsa da, iddia satıcı olan Cavabdeh 4a münasibətdə rədd edilməlidir. Belə

ki, Cavabdeh 8 mənzili Cavabdeh 4 ilə bağlanmış “kooperativ binada mənzil tikintisi haqqında müqavilə”si və Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən sonuncunun adına verilmiş müvafiq çıxarış əsasında vicdanlı olaraq əldə etdiyindən Cavabdeh 4un adına verilmiş mübahisələndirilən müqavilə, maliyyə arayışı etibarsız olsa da, həmin sənədlər əsasında adına verilmiş çıxarış ləğv edilə bilməz.

45. Bununla yanaşı məhkəmə Cavabdeh 9un vicdanlı əldə edən olmamasına dair iddiaçı tərəfin izahatlarına qiymət verərək inandırıcı saymış və bu qənaətini işin aşağıdakı halları ilə əsaslandırmışdır ki, işin materiallarına əsasən Cavabdeh 7 qanuni əsaslar olmadan əldə etdiyi mənzillə bağlı cinayət mühakiməsi qaydasında işin araşdırıldığını bildiyi halda mənzili digər şəxsin adına özgəninkiləşdirməsinin məqsədlərini açıqlaya bilməmişdir.

46. Həmçinin də məhkəmə hesab etmişdir ki, onunla Cavabdeh 9 arasında əmlakın X şəhərində yerləşdiyi halda, alğı-satqı müqaviləsinin ərazi üzrə deyil, 2 saylı Gəncə Regional Mərkəzində Asan Xidmətində notariat ofisində 17 iyun 2022-ci il tarixdə bağlanması da sonuncunun vicdanlı əldə edən kimi qiymətəndirilməməsi üçün əsaslı şübhə yaradan amildir. Həmçinin işin materiallarına əsasən sözügedən alğı-satqı müqaviləsi Bakı Ağır Cinayətlər Məhkəməsinin 13 aprel 2022-ci il tarixli hökmünün qəbul edilməsindən sonra bağlanmışdır. Halbuki, iş materiallarında olan sözügedən hökmdən görünür ki, birinci instansiya məhkəməsində zərərçəkmiş şəxs qismində dindirilmiş Cavabdeh 7 ifadəsində göstərmişdir ki, ona ümumilikdə 76.000 manat maddi ziyan dəymişdir. Dəymiş maddi ziyanı təqsirləndirilən şəxsdən və MTK-dan tələb edir.

47. Beləliklə, Cavabdeh 7 ona vurulmuş 76.000 manat maddi ziyanı təqsirləndirilən şəxsdən və MTK-dan tələb etdiyi halda mübahisəli mənzili məhkəmə hökmündən 2 ay sonra əldə etmiş Cavabdeh 9un mənzilin mübahisəli olmasını bilmədən əldə etməsini təsdiq edən mötəbər və tutarlı sübutlar iş materiallarında yoxdur və Cavabdeh 7 da belə sübutlar təqdim etməmişdir.

48. Məhkəmə daha sonra qeyd etmişdir ki, qanunvericiliyə əsasən vicdanlılıq faktı əşya əldə edənə verilənə qədər olmalıdır. Beləliklə də, məhkəmə araşdırması zamanı Cavabdeh 9un vicdanlı əldə edən olmasını təsdiq edən hallar müəyyən edilməmişdir. Ona görə də məhkəmə iddianın 2 saylı Gəncə Regional Mərkəzində Asan Xidmətində notariat ofisi tərəfindən Cavabdeh 7 ilə Cavabdeh 9 arasında bağlanmış daşınmaz əmlakın alğı-satqı müqaviləsinin etibarsız hesab edilməsi və onun əsasında Cavabdeh 9a verilmiş ********** reyestr nömrəli çıxarışın ləğv edilməsinə dair hissəsinin təmin edilməsi nəticəsinə gəlmişdir.

49. Birinci instansiya məhkəməsi öz hüquqi mövqeyini Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 140, 182, 324.1, 324.2, 324.4, 324.5. 337.1, 337.2, 339, 347.1, 347.2, 354.2, 390, 452.1, 452.2, 567 və 646-cı maddələri, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun “N.Manafovun şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki işlər üzrə məhkəmə kollegiyasının 6 avqust 2008-ci il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair” 13 iyul 2009-cu il tarixli Qərarına, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Ə.Ə.İbrahimovun şikayəti üzrə 12 aprel 2004-cü il tarixli Qərarına, “T.Mənsurovun şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyasının 4 oktyabr 2010-cu il tarixli Qərarına, “S.N.Məmmədovanın şikayəti uzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki işlər uzrə məhkəmə kollegiyasının aktlarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair” Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 27 oktyabr 2004-cü il tarixli Qərarına və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 14.2, 77.1, 119.1, 216, 217.3 və 217.4-cü maddələrinə istinadla əsaslandırmışdır.

Apellyasiya instansiyası məhkəməsindəki birinci icraat:

50. Qətnamədən cavabdeh Cavabdeh 1 və cavabdeh Cavabdeh 2nin nümayəndəsi və vəkili apellyasiya şikayətləri vermişlər.

51. Cavabdeh Cavabdeh 1 apellyasiya şikayətində birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv olunmasını xahiş etmişdir.

52. Cavabdeh Cavabdeh 1in apellyasiya şikayəti onunla əsaslandırılmışdır ki, işə baxan məhkəmənin qəbul etdiyi qətnamədən, həmçinin məhkəmə icraatının təşkilindən qəti şəkildə narazıdır. İşin əsil faktiki halları ondan ibarətdir ki, eyni sənədlərlə, eyni möhürlərlə, eyni imzalarla və eyni qaydada 8 mənzil satılmış və müvafiq çıxarışlar alınmışdır. Məhkəmə qətnaməsinə əsasən 2 mənzilin sənədləri qanuni, digərləri saxta hesab edilmiş, yəni 2 mənzil alıcılarda qalmış, digərləri isə iddiaçı MTK-ya qaytarılmalıdır. Qətnamədə göstərilir ki, "cavabdeh Cavabdeh 1 vahid niyyətlə əhatə olunan qəsdlə ümumilikdə, 60.000 manat verməklə və mənzilə dair çıxarış almaqla MTK-ya 61.581 manat külli miqdarda ziyan vurub dələduzluq etmişdir." Bu absurd yanaşmadır. Necə ola bilər ki, cavabdehin pulu gedir, lakin MTK zərər çəkmiş hesab olunur.

Qətnamədə anlaşılmaz məqamlar çoxdur. Məhkəmə qətnaməsi MTK-nın işçisi, satış meneceri, hazırda isə məhkum olunmuş X10in cinayət işinin motivləri əsasında tərtib edilmişdir. X10 MTK-nın işçisi olduğu halda qətnamədə MTKnın məsuliyyət daşıması barədə heç nə müəyyənləşdirilməmişdir. Ekspertizanın rəyinə görə, sənədlərə vurulmuş möhür MTK-nın möhürü ilə eynilik təşkil edir. Belə olan halda ona qarşı iddia tələbinin heç bir əsası yoxdur. Məhkəmə faktiki olaraq əsassız iddia tələbini təmin etməklə qanunsuz qətnamə qəbul etmişdir. Göründüyü kimi məhkəmə qətnaməsi birtərəfli iddiaçı MTK-nın maraqlarının təmin edilməsinə istiqamətlənmişdir. Odur ki, işin reallıqları ilə üst-üstə düşməyən qətnamə apellyasiya qaydasında ləğv edilməlidir.

53. Cavabdeh Cavabdeh 2nin apellyasiya şikayətində birinci instansiya məhkəməsinin qətnaməsinin Cavabdeh 2 ilə MTK arasında bağlanmış kooperativ binada mənzil tikintisi haqqında müqavilənin və onun əsasında verilmiş maliyyə arayışının etibarsız hesab edilməsi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti Daşınmaz Əmlakın Kadastrı və Reyestri Publik Hüquqi Şəxsin 4 saylı Ərazi İdarəsi tərəfindən Cavabdeh 2ya verilmiş ******** reyestr nömrəli çıxarışın ləğv edilməsinə dair" hissədə ləğv edilməsi, iddiaçı MTK-nın "müqavilələrin, maliyyə arayışlarının etibarsız hesab edilməsi və çıxarışların ləğv edilməsi tələbinə dair" iddiasının cavabdeh Cavabdeh 2ya münasibətdə rədd olunması barədə yeni qətnamə qəbul edilməsi xahiş olunmuşdur.

54. Cavabdeh 2nin apellyasiya şikayəti onunla əsaslandırılmışdır ki, məhkəmə Cavabdeh 2ya münasibətdə iddia tələbini təmin edərkən hesab etmişdir ki, MTK ilə Cavabdeh 2 arasında bağlanmış müqavilə və onun adına verilmiş maliyyə arayışı saxtadır. İşə baxan məhkəmə əslində işin faktiki hallarını düzgün qiymətləndirməmiş, nəticə etibarilə Cavabdeh 2nin mülkiyyət hüququnun pozulmasına səbəb olan qanunsuz və əsassız qətnamə qəbul etmişdir. MTK-nın üzvlərinin ümumi yığıncağının 22 iyul 2018-ci il tarixli protokolu ilə rəsmiləşdirlmiş qərarına əsasən, Cavabdeh 2nin Ünvan 1 ünvanındakı I giriş, ümumi sahəsi 89 kv. metr, yaşayış sahəsi 40,90 kv. metr olan 2 otaqlı, 12 saylı mənzilin payçısı olması təsdiq edilmişdir. MTK-nın Cavabdeh 2nin adına verdiyi maliyyə arayışından görünür ki, o, mənzilin dəyərini tam şəkildə ödəmiş, MTK-ya hər hansı borcu qalmamışdır. Beləliklə, cavabdeh Cavabdeh 2 mənzili qanuni əsaslarla əldə etmiş və onun hüquqları mülkiyyət hüququ üzrə daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmışdır. Lakin birinci instansiya məhkəməsi mülkiyyət hüququ ilə bağlı qanunvericiliyin ehtiva etdiyi maddi hüquq normasını kobud şəkildə pozaraq, Cavabdeh 2nin mülkiyyət hüququnun pozuntusu ilə nəticələnən

məhkəmə aktı qəbul etmişdir. Mənzilə dair bağlanmış müqavilə və maliyyə arayışı, habelə verilmiş daşınmaz əmlakın dövlət reyestrindən çıxarış mübahisələndirilsə də, MTK üzvlərinin ümumi yığıncağının 22 iyul 2018-ci il tarixli protokolu, o cümlədən Cavabdeh 2nin adına daşınmaz əmlakın dövlət reyestrində aparılmış qeyd mübahisələndirilməmişdir. Halbuki, çıxarış reyestrdə aparılmış qeydiyyata əsasən verilən daşınmaz əmlaka dair hüquqları təsvir edən sənəddir. Reyestrdə aparılmış qeyd mübahisələndirimədiyi halda, onun məzmununun həqiqiliyi və tamamlığı prezumpsiyası qüvvədədir. Digər tərəfdən, MTK üzvlərinin ümumi yığıncağının 22 iyul 2018-ci il tarixli protokolunun iddiaçı tərəfindən mübahisələndirilməməsi onu ifadə edir ki, Cavabdeh 2 hal-hazırda da Kooperativin üzvüdür. Bu mənada onu adına mənzilə dair sənədlərin (müqavilənin və maliyyə arayışının) etibarsız hesab edilməsi yolverilməzdir. Göründüyü kimi, məhkəmə bir daha maddi hüquq normasının pozuntusuna yol verməklə, qanunsuz qətnamə qəbul etmişdir. Bununla yanaşı məhkəmə iddiaçının tələbi (əqdin etibarsız hesab edilməsi və nəticələrinin tətbiqi haqqında) üzrə kəsici müddəti tətbiq etməli olduğu halda tətbiq etməmış və bunu öz qətnaməsində əsaslandırmamışdır.

Nəzərə alınsa ki, mübahisəli mənzil Kooperativin 22 iyul 2018-ci il tarixli protokoluna əsasən cavabdeh Cavabdeh 2nin adına rəsmiləşdirilmişdir və həmin müddətdən artıq 5 il keçmişdir. Belə olan halda işə baxan məhkəmə cavabdehə münasibətdə iddia tələbini kəsici müddətinin tətbiq edilməsi əsası ilə rədd etməli idi. İşə baxan məhkəmənin iddianın təmin olunması ilə bağlı gəldiyi nəticə heç bir mötəbər sübuta söykənmir və məhkəmənin subyektiv mülahizəsindən ibarətdir. Ona görə də şikayət təmin edilməlidir.

55. Sumqayıt Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının (bundan sonra apellyasiya instansiyası məhkəməsi) 2(105)-587/2024 nömrəli, 1 aprel 2024-cü il tarixli qətnaməsi ilə (hakimlər Ayaz Mahmudov (sədrlik edən və məruzəçi), Səyyad Qafari və Lətifə Məmmədova) cavabdehlər Cavabdeh 1 və Cavabdeh 2 tərəfindən verilmiş apellyasiya şikayətləri təmin edilməmiş, birinci instansiya məhkəməsinin qətnaməsi apellyasiya şikayətləri verən cavabdehlərə münasibətdə, mübahisələndirilən hissədə dəyişdirilmədən saxlanılmışdır.

56. Apellyasiya məhkəməsi qeyd etmişdir ki, bağlanmış müqavilələr üzrə təqsirləndirilən şəxsin mübahisəli mənzillərlə bağlı işdə olan qanuni qüvvəsini almış məhkəmə hökmündə əksini tapmış istintaq və məhkəmə iclasında verdikləri ifadələrə də diqqət yetirilməlidir. Belə ki, X10 birinci instansiya məhkəməsinin hökmündən sonra verdiyi apellyasiya şikayətində və apellyasiya instansiyası məhkəməsinin iclasında fərqli ifadələr versə də, apellyasiya məhkəməsinin qərarına əsasən, məhkəmədəki ifadələri və buna əsaslanan apellyasiya şikayətinin dəlilləri isə müdafiə xarakterli olmaqla məsuliyyətdən yayınmaq məqsədi daşımış, təqsirləndirilən şəxsin verilən sənədlərin heç birinin saxta olmaması, sənədləri ona MTK-nın mühasibinin verməsi, onun da sənədləri müştərilərə təqdim etməsi, eyni tip sənədlərdən başqa mənzil alan şəxslərə də verilməsi və onlar bu sənədlər əsasında mənzilə çıxarış almaları, satılan hər bir mənzildən şirkət rəhbərliyinin xəbəri olması barədə gətirdiyi dəlillər məhkəmə istintaqı zamanı təsdiq edilmiş sübutlarla, dindirilmiş zərərçəkmiş şəxslərin və şahidlərin ifadələri, eləcə də iş materiallarında olan digər mötəbər sübutlarla təkzib edilmişdir. Onun tərəfindən törədilmiş əməl işdəki sübutların məcmusu, ekspertiza rəyləri, dindirilmə və üzləşdirilmə protokolları, çoxsaylı sənədlərlə öz təsdiqini tapmış, əməli Cinayət Məcəlləsinin 178.3.2 və 320.1-ci maddələri ilə nəzərdə tutulmuş cinayətin tərkibini yaratdığına, həmin tərkiblə əhatə olunduğuna görə bu maddələr ilə düzgün tövsif edilməklə barəsində çıxarılmış ittiham hökmü üzrə gəlinmiş nəticə əsaslandırılmışdır.

57. Apellyasiya şikayətlərinin dəlilləri üzrə araşdırma aparan məhkəmə kollegiyası Mülki Məcəllənin 452.1 və 452.2-ci maddələrinə istinadən qeyd etmişdir ki, mübahisə predmeti olan mənzillər fərdi müəyyən əşya kimi qəbul edilsə də, ona dair həm iddiaçı, həm də cavabdehlərlə

bağlanmış müqavilələrin etibarlılığına hüquqi qiymət verilərkən yalnız tarix ardıcıllığı əsas götürülməklə daha əvvəl bağlanmış müqavilənin qanuni olması, sonrakı müqavilənin isə etibarsız hesab edilməsi qanuni yanaşma deyildir. Belə ki, mülki işin materiallarında olan hökmə əsasən "MTK-nın vəzifəli şəxslərinin müraciəti əsasında başlanılmış cinayət üzrə sənədləşməni aparmış X10 təqsirləndirilən şəxs, cavabdehlər Cavabdeh 1 və Cavabdeh 2 isə zərərçəkmiş şəxs qismində tanınmışlar. MTK-nın müqavilə rəsmiləşdirməyə səlahiyyəti olmayan əməkdaşı X10in cavabdehlər Cavabdeh 1 və Cavabdeh 2 qarşı cinayət törətməsi, yəni mübahisəli mənzilləri aldatma yolu ilə onlara satması təsdiq olunmuşdur.

58. Beləliklə, mübahisəli mənzilləri cavabdehlər Cavabdeh 1 və Cavabdeh 2 birbaşa MTK-dan almamış, həmin mənzillər müqaviləni imzalamağa səlahiyyəti olmayan şəxs tərəfindən onlara yuxarıda göstərilmiş sənədlər əsasında "satılmış"dır. Halbuki həmin sənədlər Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertiza Mərkəzinin rəylərinə əsasən MTK-nın adından tərtib olunaraq, saxta olması təsdiq edilmiş, məhz bu hərəkətlərin nəticəsi olaraq cinayət işi başlanılmışdır.

59. Apellyasiya məhkəməsi qeyd etmişdir ki, cinayət işi üzrə icraatın mülki iş üzrə preyudisiallıq şərtləri və hədləri (qanuni qüvvəyə minmiş hökmün olması, yalnız hadisənin olub-olmaması və şəxsin həmin hadisəyə aidiyyəti hissəsində), həmçinin cinayət işi üzrə təqsirsizlik prezumpsiyası (təqsirliliyin qanuni qüvvəyə minmiş məhkəmə hökmü ilə isbat olunması) var.

60. Məhz bu kontekstdən yanaşdıqda məhkəmə kollegiyası mübahisənin həllində hüquqi müəyyənliyin təmin olunması üçün cinayət işi materiallarında olan mümkün saydığı sübutları əldə etməklə tədqiq edib qiymətləndirmiş və sonda hazırkı nəticəyə gəlmişdir. Apellyasiya məhkəməsi qeyd etmişdir ki, əhəmiyyətsiz əqd mübahisələndirilmədən, məhkəmə qərarından, müddətlərdən və s. şərtlərdən asılı olmadan bağlandığı andan etibarən özlüyündə etibarsız olan, yəni arzu olunan hüquqi nəticəni yaratmaq qabiliyyətinə malik olmayan əqddir. Bununla belə, əqdin əhəmiyyətsizliyi faktının mövcud olubolmaması ilə bağlı mübahisə yaranarsa əhəmiyyətsizliyin təsbiti üçün məhkəmədə iddia qaldırıla bilər. Məhkəmə araşdırması zamanı əqdin əhəmiyyətsiz olması müəyyən edilərsə, məhkəmə tərəfindən verilən qərar əhəmiyyətsizlik halının mövcud olub-olmaması ilə bağlı hüquqi mübahisənin aradan qaldırılması məqsədini daşıyır.

61. Birinci instansiya məhkəməsinin hazırkı iş üzrə qəbul etdiyi qətnaməsi apellyasiya şikayəti verən cavabdehlərə münasibətdə maddi və prossesual hüquq normalarının tələblərinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun qərarlarında müəyyən etdiyi hüquqi mövqelərə cavab verir.

62. Apellyasiya instansiyası məhkəməsi gəldiyi nəticəni Mülki Məcəllənin 324, 328.1, 328.3, 337.1, 337.3, 337.4, 340.1, 354.1, 405.1, 567 və 650-ci və Mülki Prosessual Məcəllənin 372, 384.0.1, 385.2-ci maddələrinə istinadla əsaslandırmışdır.

Kassasiya instansiyası məhkəməsindəki birinci icraat:

63. Qətnamədən Cavabdeh 1 və Cavabdeh 2 kassasiya şikayətləri vermişlər.

64. Cavabdeh 1in kassasiya şikayətində apellyasiya instansiyası məhkəməsinin 1 aprel 2024-cü il tarixli qətnaməsinin Cavabdeh 1ə münasibətdə ləğv edilməsi və iddiaçı MTK-nın "müqavilələrin, maliyyə arayışlarının etibarsız hesab edilməsi və çıxarışların ləğv edilməsi tələbinə dair" iddiasının Cavabdeh 1ə aid hissədə rədd olunması barədə yeni qərar qəbul olunması xahiş edilmişdir.

65. Kassasiya şikayətinin dəlilləri apellyasiya şikayətinin dəlilləri ilə eynilik təşkil etmiş, əlavə olaraq qeyd edilmişdir ki, apellyasiya instansiyası məhkəməsi mülkiyyət hüququ ilə bağlı qanunvericiliyin ehtiva etdiyi maddi hüquq normasını kobud şəkildə pozaraq, Cavabdeh 1in

mülkiyyət hüququnun pozuntusu ilə nəticələnən məhkəmə aktı qəbul etmişdir. Mənzilə dair bağlanmış müqavilə və maliyyə arayışları, habelə bir mənzil barəsində daşınmaz əmlakın dövlət reyestrindən çıxarış mübahisələndirilsə də, hər üç mənzillə bağlı MTK üzvlərinin ümumi yığıncağının protokolu, o cümlədən bir mənzilə münasibətdə Cavabdeh 1in adına daşınmaz əmlakın dövlət reyestrində aparılmış qeyd ümumiyyətlə, mübahisələndirməmişdir. Halbuki, çıxarış reyestrdə aparılmış qeydiyyata əsasən verilən daşınmaz əmlaka dair hüquqları təsvir edən sənəddir. Reyestrdə aparılmış qeyd mübahisələndirimədiyi halda, onun məzmununun həqiqiliyi və tamamlığı prezumpsiyası qüvvədədir. Digər tərəfdən, MTK üzvlərinin ümumi yığıncağının protokollarının/qərarlarının mübahisələndirilməməsi onu göstərir ki, Cavabdeh 1 hal-hazırda da Kooperativin üzvüdür. Beləliklə, ilkin sənədlər mübahisələndirilmədiyi halda, mənzilə dair sonrakı sənədlərin (müqavilənin və maliyyə arayışının) etibarsız hesab edilməsi yolverilməzdir. Odur ki, məhkəmə bir daha maddi hüquq normasının pozuntusuna yol vermiş, nəticədə qanunsuz qətnamə qəbul etmişdir.

66. Cavabdeh Cavabdeh 2nin kassasiya şikayətində apellyasiya instansiyası məhkəməsinin 1 aprel 2024-cü il tarixli qətnaməsinin cavabdeh Cavabdeh 2ya münasibətdə ləğv edilməsi və iddiaçı MTK-nın “müqavilələrin, maliyyə arayışlarının etibarsız hesab edilməsi və çıxarışların ləğv edilməsi tələbinə dair” iddiasının cavabdeh Cavabdeh 2ya aid hissədə rədd olunması barədə yeni qərar qəbul olunması xahiş edilmişdir.

67. Kassasiya şikayətinin dəlilləri apellyasiya şikayətinin dəlilləri ilə eynilik təşkil etmiş, əlavə olaraq qeyd edilmişdir ki, apellyasiya instansiyası məhkəməsi iddiaçının tələbi (əqdin etibarsız hesab edilməsi və nəticələrinin tətbiqi haqqında) üzrə kəsici müddəti tətbiq etməli olduğu halda tətbiq etməmiş və bunu öz qətnaməsində əsaslandırmamışdır. Belə ki, mübahisəli mənzil Kooperativin ümumi yığıncağının 22 iyul 2018-ci il tarixli protokoluna əsasən cavabdeh Cavabdeh 2nin adına rəsmiləşdirilmişdir və həmin müddətdən artıq 5 il keçmişdir.

68. Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 2(102)-10/2025 nömrəli, 28 yanvar 2025-ci il tarixli qərarı ilə (hakimlər Əhməd Nurməmmədov (sədrlik edən və məruzəçi), İspəndiyar Şəfiyev və Aqil Abbasov) cavabdehlər Cavabdeh 1 və Cavabdeh 2 tərəfindən ayrı-ayrılıqda verilmiş kassasiya şikayətlərinin qismən təmin edilməsi, apellyasiya instansiyası məhkəməsinin 1 aprel 2024-cü il tarixli qətnaməsinin ləğv edilməsi, işin yeni apellyasiya baxışına qaytarılması qərara alınmışdır.

69. Kassasiya instansiyası məhkəməsinin hüquqi mövqeyi bundan ibarət olmuşdur ki, cavabdehlər Cavabdeh 2ya və Cavabdeh 1a münasibətdə iddianın təmin olunması barədə birinci instansiya məhkəməsinin qənaəti ilə razılaşan apellyasiya məhkəməsi hesab etmişdir ki, cavabdehlər Cavabdeh 2ya və Cavabdeh 1a mübahisənin predmeti olan mənzillərin satılmasına dair “X” MTK üzvlərinin ümumi iclasının 22.07.2018-ci il tarixli protokolundan çıxarışların, mənzillərin dəyərinin MTK-ya ödənilməsi barədə maliyyə arayışlarının saxta olması, bu sənədlərin səlahiyyətsiz şəxs tərəfindən verilməsi, həmin mənzillər cavabdehlərə satılarkən başqa şəxslərin mülkiyyətində olması iddiaçı MTK-da satış üzrə menecer və gözətçi işləmiş X10un məhkum olunmasına dair Bakı Ağır Cinayətlər Məhkəməsinin 13 aprel 2022-ci il tarixli hökmü, habelə məhkəmə iclasında tədqiq edilmiş sübutlarla öz təsdiqini tapmışdır, bu səbəbdən cavabdehlərin adına verilmiş həmin sənədlər əhəmiyyətsizdir, hər hansı hüquqi nəticəyə səbəb olmamışdır. Müvafiq olaraq həmin mənzillərə dair cavabdehlərin adına verilmiş daşınmaz əmlakın dövlət reyestrindən çıxarışlar da etibarsızdır.

70. Məhkəmə kollegiyası qeyd etmişdir ki, işə baxan aşağı instansiya məhkəmələri cavabdehlərin adına verilmiş sənədlərin əhəmiyyətsiz və hər hansı hüquqi nəticəyə səbəb olmaması qənaətinə gələrkən işin müəyyən edilmiş hallarına, həmçinin tərəflərin təqdim etdikləri və iş materiallarında olan sübutlara tam və hərtərəfli baxmamışdır.

71. Məhkəmə kollegiyası həmçinin qeyd etmişdir ki, işdən görünür ki, mübahisəli mənzillərə dair cavabdehlərin adına sənədləri tərtib və təqdim edən, habelə onlardan mənzillərin satışına görə pul alan X10 iddiaçı MTK-da 30.08.2018-ci ildən 08.04.2020-ci il tarixə kimi satış üzrə menecer, sonra isə 12 aprel 2021-ci il tarixə kimi rəsmi gözətçi işləmiş, habelə faktiki olaraq binanın komendantı vəzifəsini yerinə yetirmişdir. X10 binanın 1-ci mərtəbəsində yerləşən MTK-nın ofisində fəaliyyət göstərmiş, binadakı boş mənzillərin açarları onda olmuş, faktiki olaraq binanın idarəçiliyini həyata keçirmiş, mənzillərin satışını təşkil etmişdir. Eyni fəaliyyəti ilə X10 cavabdehlərə də mənzillər satmış, həmin mənzillər cavabdehlərə təhvil verilmiş, mənzillərdə təmir işlərinin aparılmış, qaz, su, elektrik xətləri çəkilmiş, bu xidmətlər üçün sayğaclar quraşdırılmış, kommunal haqları yığılmışdır. Qaz, su, elektrik sayğaclarının quraşdırılmasına, kommunal xidmətlərə görə ödəmələr MTK-nın hesabına köçürülmüş, mənzillərdə təmir işlərinin aparılmasına MTK tərəfindən etiraz edilməmişdir. Belə olan halda işə baxan aşağı instansiya məhkəmələri iddiaçı MTK-nın işçisi X10 tərəfindən cavabdehlər Cavabdeh 2ya və Cavabdeh 1a mənzillərin satılması və onlara həmin mənzillərin təhvil verilməsi, həm də cavabdehlərin mənzillərə sahiblənməsi ilə bağlı hərəkətlərinə (mənzillərin təmiri, onlardan kommunal və digər haqların qəbul edilməsi və sair) MTK-nın səlahiyyətli şəxslərin etiraz etməməsi, bu məsələdə hərəkətsizlik göstərməsi iddiaçı MTK tərəfindən həmin əqdlərin bəyənilməsi kimi qəbul olunub-olunmaması istiqamətində qiymətləndirmə aparmamışdır. Mənzillər cavabdehlərə satılanadək olan vəziyyət, yəni MTK-nın gözətçisi X10in MTKnın ofisində fəaliyyət göstərməsi, boş mənzillərin açarlarının onda olması, mənzillərin satışı üçün müştərilərin cəlb edilməsi, mənzillərin satışından sonrakı vəziyyət, yəni mənzillərin alıcılara təhvil verilməsi, onların mənzillərdə təmir işlərinin aparmalarına yol verilməsi, qaz, su və elektrik sayğaclarının quraşdırılması, kommunal xidmətlərinin göstərilməsi və buna görə haqq alınması kimi hallar əsas verir ki, iddiaçı MTK-nın qanuni təmsilçiləri öz işçisi X10in fəaliyyətindən məlumatlı olmuşlar.

72. Məhkəmə kollegiyası hesab etmişdir ki, iddiaçı MTK-nın işçisi X10 tərəfindən cavabdehlərə mənzillər satılanadək və satılmasından sonra MTK-nın qanuni təmsilçilərinin bu məsələyə ilə bağlı hərəkət və hərəkətsizliyinə qiymət verilməklə cavabdehlərlə bağlanmış müqavilələrin MTK-nın qanuni təmsilçiləri tərəfindən bəyənib bəyənməmələri müəyyən olunmadan apellyasiya məhkəməsinin iş üzrə gəldiyi nəticəsi qanuni və əsaslı sayıla bilməz. Ona görə də qətnamə ləğv edilməli və iş yeni apellyasiya baxışına göndərilməlidir. İşə yenidən baxan məhkəmə qeyd olunan nöqsanları aradan qaldırmaqla yanaşı işin hərtərəfli, tam və obyektiv tədqiqinə nail olmaq üçün lazım olan bütün tədbirləri görməli, araşdırılan sübutlara Mülki Prosessual Məcəllənin 88-ci maddəsinin tələbləri baxımından düzgün hüquqi qiymət verməlidir.

Apellyasiya instansiyası məhkəməsindəki ikinci icraat:

73. İşə təkrarən apellyasiya qaydasında baxılarkən məhkəmə kollegiyasının iclaslarında iştirak edən cavabdeh Cavabdeh 2 apellyasiya şikayətinin dəlillərini müdafiə edərək izahatında bildirmişdir ki, ona qarşı irəli sürülmüş əsassız iddia tələbini təmin edən məhkəmə qanunsuz qətnamə qəbul etməklə onun hüquqlarını pozmuşdur. Belə ki, o, mənzil əldə etmək üçün iddiaçı MTK-ya yaxınlaşmış və həmin zaman mənzillərin satışını həyata keçirən X10ə mənzil üçün lazımi ödəniş etməklə mübahisəli mənzili əldə etmiş və bütün sənədləşmə qanuni şəkildə icra edilmişdir. Lakin mənzilə köçdükdən qısa müddət sonra MTK-nın rəhbərliyi tərəfindən ona təzyiq edilərək, mənzildə yaşamaq hüququnun olmaması və mənzili tərk etməsi bildirilmişdir. O da mübahisəli mənzili tərk etmişdir. O, mənzilə görə verdiyi pulu çox çətinliklə, əzab-əziyyət və qıtlıq çəkərək uzun illər toplamış, özünü və ağır xəstə olan uşağını normal yaşayış şəraiti

ilə təmin etmək istəmişdir. Onun başqa mənzil almaq şansı yoxdur. Belə haqsızlıq dözülməzdir. Ali Məhkəmənin qərarı da MTK-nın iddiasının əsassızlığını təsdiqləyir. Ona görə də, apellyasiya şikayətinin təmin olunmasını xahiş etmişdir.

74. Məhkəmə kollegiyasının iclaslarında Cavabdeh 2nin nümayəndəsi və vəkili apellyasiya şikayətinin dəlillərini müdafiə edərək izahatında bildirmişdir ki, hazırkı iddia tələbi özlüyündə düzgün tərtib edilməmişdir. Belə ki, iddiaçı cavabdeh Cavabdeh 2ya qarşı iddia tələbində tərəflər arasında mübahisəli mənzilə dair bağlanmış müqaviləni, maliyyə arayışı və həmin mənzil üzərində cavabdehin adına daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmış Çıxarışı mübahisələndirsə də, cavabdehin MTK-nın üzvlüyünə qəbulu ilə bağlı ümumi yığıncağın protokolundan çıxarışı mübahisələndirməmişdir. Lakin mövcud qanunvericiliyə əsasən mənzil-tikinti kooperativi binasında yaşayış (qeyri-yaşayış) sahəsinin verilməsi barədə mənzil-tikinti kooperativi üzvlərinin ümumi yığıncağının qərarı daşınmaz əmlak üzərində dövlət qeydiyyatı üçün əsasdır. Belə olan halda, yəni MTK-nın üzvlərinin ümumi yığıncağına dair qərar qüvvədə olduğundan cavabdeh Cavabdeh 2 hələ də MTK nın üzvü sayılır. İşə baxan məhkəmə işin bu halına diqqət yetirməmiş və reyestrin tamlığı və həqiqiliyi prezumpsiyasına zidd mövqe sərgiləmişdir. Digər tərəfdən hesab edir ki, iddiaçının hazırkı iddia tələbi ilə məhkəməyə müraciət etməyə subyektiv hüququ yoxdur. Belə ki, MTK-nın işçisi X10 tərəfindən MTK-ya ziyan vurulması (mənzilə görə ödənilmiş məbləğin MTK-nın hesabına keçirilməməsi) MTK tərəfindən mənzili qanuni əsasla vicdanlı alıcı qismində əldə etmiş cavabdehə qarşı belə iddia qaldırılmasını istisna edir. İddiaçı ona dəymiş ziyanın əvəzini mülki qaydada X10dən tələb edə bilərdi. İşin başqa bir halı işə baxan məhkəmənin hazırkı iddia tələbinə kəsici müddəti tətbiq etməməsi ilə bağlıdır. Belə ki, cavabdeh mübahisəli mənzili 2018-ci ildə əldə etmişdir. Ötən müddət ərzində mənzilə faktiki sahiblik etmiş və bütün bunlardan MTK-nın rəhbərliyi məlumatlı olmuşdur. Belə olan halda iddiaçının 6 il sonra məhkəməyə müraciət etməsi anlaşılan və ən əsası müddət baxımından qanuni və əsaslı hesab edilə bilməz. Məhkəmə isə formalaşmış məhkəmə təcrübəsinin ziddinə qərar qəbul etmişdir. Nəhayət, iş üzrə Ali Məhkəmənin qərarı baxımından MTK-nın müdiriyyəti öz işçisi tərəfindən mübahisəli mənzilin cavabdehə satılması halını faktiki bəyənmişdir ki, bunu təsdiqləyən hallara həmin qərarda istinad edilmişdir. Göstərilənlər nəzərə alınaraq apellyasiya şikayətinin təmin edilməsini və iddia tələbinin Cavabdeh 2yə münasibətdə rədd olunmasını xahiş etmişdir.

75. Məhkəmə kollegiyasının iclaslarında cavabdeh Cavabdeh 1 apellyasiya şikayətinin dəlillərini müdafiə edərək izahatında bildirmişdir ki, mübahisəli mənzilləri o, qanuni əsaslarla, mənzillərin razılaşdırılmış məbləğdə dəyərini ödəməklə əldə etmişdir. Belə ki, iddiaçı MTK-ya aid binaların yerləşdiyi ərazidə mənzillərin satışına dair yerləşdirilmiş elandakı mobil nömrəylə əlaqə saxlamış (satış meneceri X10in istifadəsində olan), daha sonra isə mənzillərin pulunu həmin şəxsə ödəməklə mənzillərə sahiblənmişdir. Sonradan qeyd olunan hadisələr zamanı ona məlum oldu ki, mübahisəli mənzillər guya başqa şəxslərə satılmışdır. X10 tərəfindən onlar aldadılmışlar. Hesab edir ki, ona qarşı hazırkı iddia tələbi tamamilə əsassızdır. Belə ki, qeyd olunan cinayət işi üzrə təqsirləndirilən şəxs X10 tərəfindən mənzillər üçün ödənilmiş pulun MTK-ya verilib-verilməməsinin ona aidiyyəti yoxdur. O, qanuni əsaslarla mənzilləri əldə etmişdir. Həmin cinayət işi üzrə araşdırma gedən zaman MTK X10ə mənzillərin satışı üçün heç bir səlahiyyət vermədiyini bildirsə də, araşdırma zamanı məlum oldu ki, MTK tərəfindən sonuncuya mənzillərin satışı məqsədi ilə etibarnamə, möhür kimi rəsmi səlahiyyətlər verilmişdir. Bundan başqa, mənzillərdən birinin, 11-ci mərtəbədə yerləşən 56 saylı mənzilin sahibi kimi qeyd olunan X2 adlı şəxs məhz həmin MTK-nın işçisidir və həmin mənzil onun istifadəsində və sahibliyində olan müddət ərzində (hansı ki, bu müddət ərzində cavabdeh mənzili əsaslı təmir etmişdir) ona mənzilə dair heç bir iradını bildirməmiş, özünü mənzil sahibi

kimi təqdim etməmişdir. Hətta cinayət işi üzrə MTK-nın direktoru ifadəsində bildirdi ki, 56 saylı mənzil X2ə X10in həbs edilməsindən 3 gün öncə satılmışdır. X10 isə ifadəsində mənzillərin pulunu baş mühasibə verdiyini bildirdi. Bütün bu faktlar MTK-nın hazırkı iddiasının əsassız və qanunsuz olduğunu sübut edir. İş materiallarında olan bütün sübutlar ona dəlalət edir ki, o, vicdanlı alıcı olaraq mənzilləri qanuni əsaslarla əldə etmişdir. Məhkəmə ekspertizası zamanı X10 tərəfindən icra edilən möhürün MTK-nın möhürü ilə eynilik təşkil etməsi sübut olunub. Bundan başqa, əgər ona aid mənzillərin alğısatqısı qanunsuz hesab edilirsə, onda həmin MTK-ya aid mənzillərin hamısının satışı qanunsuz hesab edilməlidir. Çünki mənzillərin hər biri eyni prosedur qaydalarla satılmışdır. İşə baxan məhkəmə bu halları nəzərə almadığından iş üzrə qanunsuz qətnamə qəbul etmişdir. Ona görə də apellyasiya şikayətinin təmin olunmamasını xahiş etmişdir.

76. Məhkəmə kollegiyasının iclaslarında iddiaçının nümayəndəsi və vəkili apellyasiya şikayətlərinə etiraz edərək izahatında bildirmişdir ki, şikayətlər əsassızdır. İddia tələbi üzrə cavabdehlər cinayət işində zərərçəkmiş şəxs qismində tanınmışlar. Lakin heç biri zərərin əvəzinin ödənilməsi ilə bağlı mülki iddia irəli sürməmişlər. Apellyasiya şikayətində qeyd olunanlar əsassızdır. Ali Məhkəmənin qərarında isə yalnız MTK-nın mübahisəli mənzillərin cavabdehlərə satılmasını bəyənibbəyənməməsinə qiymət verilməsi tapşırılmışdır. O, da MTK-nın adından bəyan edir ki, MTK mübahisəli mənzillərin cavabdehlərə satılmasını bəyənməmiş və bəyənmir. Əks təqdirdə MTK X10in cinayət məsuliyyətinə cəlb olunmasını istəməzdi. Halbuki, X10 MTK-nın təşəbbüsü ilə və şikayəti əsasında cinayət məsuliyyətinə cəlb edilmişdir. Ona görə də apellyasiya şikayətlərinin rədd edilməsini və iş üzrə birinci instansiya məhkəməsinin qətnaməsinin dəyişdirilmədən saxlanılmasını xahiş etmişdir.

77. Apellyasiya icraatı zamanı mübahisəli mənzilləri bilavasitə MTK-dan almış X1, X2, X3 və X4 mübahisə predmeti barədə müstəqil tələb irəli sürməyən üçüncü şəxslər qismində işə cəlb edilmişlər.

78. Məhkəmə kollegiyasının iclaslarında üçüncü şəxs X2 izahatında bildirmişdir ki, o, 2011-ci ildən “X” MTK-da müxtəlif vəzifələrdə işləmişdir. 2019-cu ilin dekabrında MTK-nın Ünvan 1 ünvanında yerləşən binasından “B” blokunda, 11-ci mərtəbədə 94,74 kv.m. sahəsi olan 56 saylı mənzili almışdır. Mənzilin hər kv.m. sahəsi üçün 650 manat pul hesablanmış və ümumilikdə dəyəri 61.581 manat təşkil etmişdir. Həmin vaxt MTK-nın mühasibi ona MTK ilə bağlanan mənzil tikintisi haqqında müqavilə, mənzilin dəyərinin ödənilməsi barədə maliyyə arayışı və mənzilin sxemini təqdim etmişdir. Bundan sonra mühasiblə həmin binaya getmişdir. Orada mühasib mənzili və mənzilin giriş qapısının açarlarını ona təqdim etmişdir. Mənzili alandan sonra atası ağır xəstə olduğundan mənzili təmir edə bilməmişdir. 2021-ci ilin fevral ayında mənzilinə baxmaq üçün gələn zaman mənzilin giriş qapısının dəyişdirildiyini görmüş, bu barədə mühasibə məlumat vermişdir. Həmin binada nəzarətçi işləyən X10 adlı şəxs bildirmişdir ki, mənzilin MTK tərəfindən satıldığını bilməmiş, mənzili təmir edib satmaq istəmişdir. Ona satılan mənzil X10 tərəfindən X13 adlı şəxsə satılmışdır. Həmçinin mənzildə müəyyən təmir işləri də aparılmışdır. X10 ona bildirmişdir ki, qapını o dəyişib mənzili təmir etmişdir. Buna görə X10 ondan təmirə çəkilmiş xərci istəmişdir. O, isə X10a demişdir ki, ona təmir lazım deyil, təmiri söksün. X10 da təmiri söküb materialları aparmışdır. Bundan sonra o özü mənzildə təmir işləri həyata keçirmişdir. Mənzilə çıxarış almaq istəsə də, mənzilin başqasının adına çıxarışı olduğunu bildirmişlər. O, Cavabdeh 1i tanımamışdır. Hazırda mənzildə özü və ailə üzvləri yaşayırlar.

79. Məhkəmə kollegiyasının iclaslarında üçüncü şəxs X3 izahatında bildirmişdir ki, o, 2018-ci ilin yay aylarında Ünvan 1 ünvanında MTK-ya məxsus binadan özünə mənzil almışdır. Həmin mənzil binanın inin 8-ci mərtəbəsində yerləşməklə ümumi sahəsi 55 kv.m., 1 otaqlı 39

saylı mənzildir. Mənzili MTK-nın satış ofisindən almışdır. Orada 1 kv.m. sahəyə görə 650 manat olmaqla, cəmi 40.000 manat pul ödəmiş və ona maliyyə arayışı verilmişdir. Sənədlər onun adınadır. O, mənzili alanda təmirsiz olmuşdur. 2019-cu ildə isə mənzilin çıxarışını almışdır. 2021-ci ilin mart ayında mənzilinin təmirinə başlamaq istədikdə mənzilin içərisində müəyyən təmir işlərinin həyata keçirildiyini görüb binanın həyətində olan X10 adlı komendanta müraciət etmişdir. Həmin vaxt X10 mənzili səhv saldıqlarını və mənzildə səhvən təmir işlərinin getdiyini bildirmişdir. Həmçinin, mənzilin içərisində müəyyən tikinti materialları da olmuşdur. X10la aralarında olan razılaşmaya əsasən həmin təmir işlərinə görə ona 5.000 manat pul verməli idi. 2021-ci ilin aprel ayının əvvəllərində o, X10ın telefon vasitəsilə ona göndərdiyi "XXXXX" ASC-yə aid bank kartına 1.600 manat pul köçürmüşdür. Daha sonra öyrənmişdir ki, X10 onun mənzilini X14 adlı şəxsə satmışdır. Mənzildə təmir işləri həyata keçirən də X14 olmuşdur. Həmçinin eşitmişdir ki, X10 ondan başqa da bir neçə şəxsin mənzillərini digər şəxslərə satmışdır. Hazırda mənzilində özü yaşayır.

80. Sumqayıt Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(105)-625/2025 nömrəli, 26 may 2025-ci il tarixli qətnaməsi ilə (hakimlər Mirbahəddin Hüseynov (sədrlik edən və məruzəçi), Zahir Məmmədov və İlqar Dəmirov) cavabdehlər Cavabdeh 2 və Cavabdeh 1 tərəfindən verilmiş apellyasiya şikayətlərinin təmin edilməsi, iş üzrə birinci instansiya məhkəməsinin qətnaməsinin apellyasiya şikayətləri ilə mübahisələndirilən hissələrdə ləğv edilməsi, həmin hissələr üzrə yeni qətnamə qəbul edilməsi, iddianın – iddiaçı MTK ilə cavabdehlər Cavabdeh 2 və Cavabdeh 1 arasında bağlanmış "kooperativ binada mənzil tikintisi haqqında müqavilə"lərin, bu müqavilələr üzrə mənzillərin dəyərinin ödənilməsi barədə verilmiş maliyyə arayışlarının etibarsız hesab edilməsi və həmin sənədlər əsasında onların adına verilmiş Hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarışların ləğv edilməsi tələblərinə dair hissələrdə rədd edilməsi qət olunmuşdur.

81. Apellyasiya instansiyası məhkəməsi qeyd etmişdir ki, birinci instansiya məhkəməsinin qətnaməsinin apellyasiya şikayəti ilə mübahisələndirilən hissəsi sözügedən binadakı 12, 39, 42 (108) və 56 nömrəli mənzillərlə bağlıdır. MTK tərəfindən X1ya satılmış 12 nömrəli (2 otaqlı, ümumi sahəsi 89 kv.m.) mənzil X10 tərəfindən cavabdeh Cavabdeh 2ya, MTK tərəfindən X2na satılmış 56 nömrəli (3 otaqlı, ümumi sahəsi 94,74 kv.m.), X3na satılmış 39 nömrəli (1 otaqlı, ümumi sahəsi 64 kv.m.) və X4na satılmış 42 (108) nömrəli (2 otaqlı, ümumi sahəsi 86 kv.m.) mənzillər isə X10 tərəfindən cavabdeh Cavabdeh 1a satılmışdır. Məhkəmə kollegiyasının iclaslarında iddiaçı MTK-nın nümayəndəsinin verdiyi məlumata görə, mübahisəli 42 (108) nömrəli (2 otaqlı, ümumi sahəsi 86 kv.m.) mənzildə də hazırda MTK tərəfindən satıldığı X4 və ailə üzvləri yaşayırlar. MTK tərəfindən X1ə satılmış 12 nömrəli (2 otaqlı, ümumi sahəsi 89 kv.m.) mənzildə isə hazırda yaşayış yoxdur, X1 ölkə xaricindədir.

82. Məhkəmə kollegiyası qeyd etmişdir ki, beləliklə, işin müəyyən olunmuş hallarından göründüyü kimi, MTK-nın işçisi olmuş X10 tərəfindən cavabdehlər Cavabdeh 2 və Cavabdeh 1a satılmış mübahisəli mənzillər MTK-nın özü tərəfindən başqa şəxslərə satılmışdır. Həm də sonralar məlum olmuşdur ki, X10in mənzillərə görə cavabdehlərə verdiyi sənədlər (kooperativ binada mənzil tikintisi haqqında müqavilələr, MTK üzvlərinin ümumi iclas protokollarından çıxarışlar, mənzillərin dəyərinin ödənilməsi barədə maliyyə arayışları) saxta olmuş (o həmin sənədləri kompüter texnikası və rəngli printer aparatından istifadə etməklə özü hazırlamış), cavabdehlərdən mənzillərə görə aldığı pulları isə MTK-ya təhvil verməyərək mənimsəmişdir. Bu hallar məhkəmə hökmündə də təsdiqini tapmışdır. Lakin cavabdehlər, X10in cinayətkar niyyətini, onun mənzil satmaq səlahiyyətinin olmamasını, mənzillərin satışı ilə bağlı onlara verdiyi sənədlərin saxta olduğunu və onlardan aldığı pulları da özünə götürərək mənimsədiyini bilməmişlər. Həm də mövcud şəraitə görə cavabdehlərin bunları bilməsi qeyri-mümkün

olmuşdur. Belə ki, X10 “X” MTK-da 30.08.2018-ci il tarixdən 08.04.2020-ci il tarixədək satış meneceri, 08.04.2020ci il tarixdən 12.04.2021-ci il tarixədək isə gözətçi (komendant) vəzifəsində işləmiş, inşa edilən binanın 1-ci mərtəbəsində yerləşən MTK-nın ofisində onun iş otağı (kabineti) olmuş, X10 binadakı mənzillərlə maraqlanan şəxsləri həmin ofisdə (kabinetində) qəbul etmiş, mənzillərin giriş qapılarının açarları onda olmuş və müştərilərə mənzilləri əyani olaraq göstərmiş, onlara mənzillər və satış şərtləri barədə məlumat vermiş, həmçinin müştərilərə alınan mənzillərin açarlarını təqdim etmişdir. Mənzillər satılan binanın üzərində yerləşdirilmiş reklam lövhəsində MTK-dan mənzil almaq istəyən vətəndaşların müraciət etməsi üçün telefon nömrəsi göstərilmiş və həmin nömrə məhz X10in istifadəsində olmuşdur (MTK tərəfindən onun istifadəsinə verilmişdir). Qeyd olunan vəziyyətdə cavabdehlərin X10i MTK-nın vəzifəli şəxsi və səlahiyyətli nümayəndəsi (təmsilçisi) kimi qəbul etmələri təbii olmuşdur. İddiaçı MTK-nın nümayəndəsi məhkəmədə MTK tərəfindən işçisi olmuş X10ə mənzil satmaq səlahiyyətinin verilmədiyini, sonuncunun bu sahədə fəaliyyətinin qəbul edilmədiyini və bəyənilmədiyini bildirmişdir. İddiaçı hesab edir ki, o, X10ə mənzil satmaq və mənzilin pulunu qəbul etmək səlahiyyəti verməmiş, onun cavabdehlərə mənzil satmasını sonradan da bəyənməmişdir. X10in dələduzluq edərək özbaşına mənzillər satması məlum olanda, MTK özü bu barədə hüquq-mühafizə orqanlarına müraciət edərək tədbir görülməsini istəmişdir.

83. Məhkəmə kollegiyası hesab etmişdir ki, X10in MTK-nın vəzifəli şəxsi və səlahiyyətli nümayəndəsi (təmsilçisi) kimi davranmasına məhz MTK özü şərait yaratmış və rəvac vermişdir. X10 cavabdehlərdən başqa digər şəxslərə də eyni qaydada mənzillər satmış, fərqli hal təkcə ondan ibarət olmuşdur ki, cavabdehlərə satılan mənzillərin pulları X10 tərəfindən MTK-ya verilməmiş, özü tərəfindən mənimsənilmişdir. X10 digər müştərilərə verilmiş sənədləri (müqavilə, ümumi iclasın protokolundan çıxarış, maliyyə arayışı və s.) cavabdehlərə də vermiş, həmin sənədlərin saxtalığına hər hansı şübhə və şübhələnməyə əsas olmamış (onlar əsl sənədlərdən fərqlənməmiş), hətta qeyd edilən sənədlər əsasında 2 mənzil üçün DƏDRXdən çıxarışlar da alınmış, cavabdehlərə də mübahisəli mənzillər və onların açarları təqdim olunmuş, mənzillərdə təmir işlərinin aparılmasına icazə verilmiş, qaz, su, elektrik xətləri çəkilmiş, bu xidmətlər üçün sayğaclar quraşdırılmış, kommunal haqları yığılmışdır. Odur ki, yuxarıda qeyd edildiyi kimi, cavabdehlər təbii olaraq X10i MTK-nın səlahiyyətli nümayəndəsi (təmsilçisi) kimi qəbul etmişlər. X10 də müştərilərlə, o cümlədən cavabdehlərlə münasibətdə özünü MTK-nın səlahiyyətli şəxsi və təmsilçisi kimi aparmış, MTK-nın adından çıxış etmişdir.

84. Məhkəmə kollegiyası həmçinin hesab etmişdir ki, hazırkı iş üzrə iddiaçı MTK öz işçisi X10in fəaliyyətinin nəticələrinə, o cümlədən onun MTK adından bağladığı qanunsuz (saxta) müqavilələrə və cinayət əməlləri ilə cavabdehlərə (zərər çəkənlərə) vurduğu ziyana görə maddi məsuliyyət daşıyır. Həmçinin MTK əmək müqaviləsi əsasında xidmətindən istifadə etdiyi X10in hərəkətləri üçün öz müştəriləri, o cümlədən cavabdehlər qarşısında özünün təqsirli hərəkətləri üçün olan həcmdə məsuliyyət daşıyır.

85. Məhkəmə kollegiyası eyni zamanda hesab etmişdir ki, MTK öz işçisi X10in cinayət əməllərinə görə üzərinə əmlak məsuliyyəti qoyula bilən hüquqi şəxsdir. İddiaçının inkar etməsinə baxmayaraq, MTK-nın adından cavabdehlərlə bağlanmış müqavilələr (sonralar bu müqavilələrin saxtalığı müəyyən olunsa da belə) onun üçün müvafiq öhdəliklər yaratmışdır. Həmin müqavilələrə əsasən cavabdehlər MTK-nın digər müştəriləri ilə eyni hüquqi vəziyyətdədirlər. Bu baxımdan MTK cavabdehlərə də mənzil vermək öhdəliyi daşıyır. Lakin mübahisəli mənzillərdə qanuni əsaslarla başqa şəxslər yaşadığından MTK həmin mənzilləri cavabdehlərə vermək imkanında olmayacaq. X10 tərəfindən cavabdehlər Cavabdeh 2 və Cavabdeh 1a vurulmuş zərərin hər hansı formada aradan qaldırılması (əvəzinin ödənilməsi)

vəzifəsi iddiaçı MTK-nın öhdəsinə düşür. Eyni zamanda, iddiaçı işçisinin vurduğu zərərin əvəzini ödədikdən sonra həmin işçiyə qarşı məhkəmədə reqres tələb irəli sürə bilər.

86. Məhkəmə kollegiyası yekun olaraq bu nəticəyə gəmişdir ki, cavabdehlər Cavabdeh 2 və Cavabdeh 1in apellyasiya şikayətləri əsaslıdır. İddiaçı MTK onun adından çıxış etmiş (əmək vəzifələrinin icrası zəminində onu təmsil etmiş, yaxud təmsil etdiyini nümayiş etdirmiş) X10 tərəfindən həmin cavabdehlərlə bağlanmış "kooperativ binada mənzil tikintisi haqqında müqavilə"lərin, bu müqavilələr üzrə mənzillərin dəyərinin ödənilməsi barədə verilmiş maliyyə arayışlarının etibarsız hesab edilməsini və qeyd edilən sənədlər əsasında həmin cavabdehlərin adına verilmiş Hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarışların ləğv edilməsini tələb etməkdə haqlı deyildir; iddiaçının belə tələbi qanunsuz və əsassızdır. Birinci instansiya məhkəməsi iddianı təmin etdiyi, apellyasiya şikayətləri ilə mübahisələndirilən hissələrdə işin faktiki halları və tərəflərin qarşılıqlı münasibətləri üzrə düzgün nəticəyə gəlməmişdir.

87. Apellyasiya instansiyası məhkəməsi öz mövqeyini Mülki Məcəlləsinin 49.2, 49.4, 49.5, 443.9, 452.1, 452.2, 1099.1, 1114.1, 1115-ci, Azərbaycan Respublikası CinayətProsessual Məcəlləsinin 180.2, 183.2-ci və Mülki Prosessual Məcəllənin 82.4, 88, 384.0.2, 385.1.4, 390 və 420-ci maddələrinə istinad etməklə əsaslandırmışdır.

Kassasiya şikayətinin və ona etirazın dəlilləri. ***Kassasiya şikayətinin dəlilləri:***

88. Qətnamədən iddiaçı kassasiya şikayəti verərək apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv edilməsi və iş üzrə yeni qərar qəbul olunmasını xahiş etmişdir.

89. Kassasiya şikayəti onunla əsaslandırılmışdır ki, apellyasiya instansiyası məhkəməsinin mübahisələndirilən qətnaməsi qanunsuz, əsassız və saxtakarlıqla tərtib olduğuna görə ləğv olunmalıdır. Belə ki, apellyasiya məhkəməsi qətnamədə Mülki Prosessual Məcəllənin 82.4-cü maddəsinə istinad etdiyinə baxmayaraq, X10in barəsində Bakı Ağır Cinayətlər Məhkəməsinin qanuni qüvvəyə minmiş Cinayət Məcəlləsinin 178.3.2-ci maddəsi ilə məhkum olunmasına baxmayaraq, onun səlahiyyətlərini süni qaydada artıraraq faktiki gözətçi işlədiyi halda və mənzillərin satışı ilə məşğul olmadığı halda qətnamədə o MTK-nın səlahiyyətli işçisi kimi təqdim edilmiş və bunun nəticəsi kimi qətnamədə heç bir sübutla təsdiq olunmayan hal qeyd edilmişdir ki, MTK öz işçisi X10in cinayət əməllərinə görə üzərinə əmlak məsuliyyəti qoyula bilən hüquqi şəxsdir". Məhkəmənin bu fikri ilə heç cür razılaşmaq olmaz, çünki X10 Cinayət Məcəlləsinin 178.3.2-ci maddəsi ilə yəni vətəndaşların etibardan sui-istifadə etmə və aldatma yolu ilə dələduzluq edib, onların əmlakını ələ keçirtməkdə məhkum olunmuşdur. Cinayət işinin materiallarından görünür ki, X10 30.08.2018-ci il tarixdə 08.04.2020-ci il tarixədək satış meneceri vəzifəsində işləmiş, onun səlahiyyətlərinə mənzillərin satışını təşkil etməsi, mənzillərin alıcıya göstərilməsi tapşırılmışdır. Alıcılarla müqavilələr yalnız MTK-nın ofisində direktor və baş mühasib tərəfindən bağlanmışdır. Qeyd etmək lazımdır ki, məhkəmə qətnamənin 20/23 vərəqəsində nə cinayət, nə mülki icraat zamanı heç bir sübutla təsdiq olunmayan nəticəyə gəlir ki, X10 cavabdehlərdən başqa digər şəxslərə də eyni qaydada mənzilləri satmış, onlara da həmin sənədlərdən vermiş və cavabdehlər X10i MTK-nın səlahiyyətli nümayəndəsi kimi qəbul etmişlər. Qətnamədə yuxarıda qeyd olunanları məhkəmə iclasında dindirilmiş MTK-nın direktoru X5 təkzib etmişdir. Belə ki X5 göstərmişdir ki, mənzilləri almaq istəyən şəxslər MTK-nın binasına müraciət etmiş və orada MTK-nın rəhbərliyi ilə müqavilə bağlamış, pulları ödəmiş və maliyyə arayışlarını almışlar. Lakin X10 tərəfindən saxta sənədlərlə satılan mənzilləri alan şəxslərin heç biri MTK-nın ofisində olmamış, rəhbərlik ilə

görüşməmiş, xəzinəyə pul ödəməmiş bu səbəbdən də MTK tərəfindən onlara heç bir rəsmi sənəd verilməmişdir. 2021-ci ilin aprel ayında daşınmaz əmlakın reyestr xidmətinin 4 saylı Ərazi idarəsinə həqiqi alıcı X2un müraciət etdikdə həmin mənzilə artıq başqa şəxsə çıxarış verilməsini bildikdən sonra bunu araşdırmaq məqsədi ilə polis idarəsinə müraciət etmişlər. İstintaq zamanı müəyyən edilmişdir ki, X10 rəhbərliyin xəbəri olmadan, kompüter üsulu ilə hazırladığı saxta müqavilələr və maliyyə arayışları ilə MTK-ya məxsus 8 mənzili qanunsuz satmış, bununla da vətəndaşlara qarşı dələduzluq etmişdir. X10 gözətçi kimi işlədiyi dövrdə təhlükəsizlik təmin etmək məqsədi ilə 110 mənzildən ibarət binanın yaşayış olmayan mənzillərin açarları onun qaldığı otaqda olmuşdur ki, yanğın və ya su axıntısı olduğu halda mənzillərə daxil ola bilsinlər. MTK-nın rəhbərliyi X10ə mənzillərin satışını həyata keçirməsini heç vaxt tapşırmamışdır. Yuxarıda qeyd olunan ifadə iş üzrə dindirilən zərərçəkmiş şəxslərin ifadələri ilə təsdiq olunmuşdur. Belə olan halda iddiaçı MTK X10in cinayət əməllərinə görə üzərinə əmlak məsuliyyəti qoyula bilən hüquqi şəxs olduğu barədə, məhkəmənin fikriyə razılaşmır. Cinayət işi üzrə hökmdə qeyd olunduğu kimi X10 zərərçəkmişlərə vurduğu ziyana görə mülki məsuliyyətə cəlb oluna bilər. Belə olan halda isə həmin zərərçəkmişlərin qarşısında MTK-nın heç bir öhdəlikləri mövcud ola bilməz. Həmçinin qeyd etmək lazımdır ki, ibtidai istintaq zamanı iş üzrə kriminalistik ekspertiza keçirilmiş və ekspertizanın rəyinə əsasən, X10 tərəfindən zərərçəkmişlərə təqdim olunan sənədlər kompüter vasitəsilə hazırlanmış, möhürlər isə skaner vasitəsilə sənədlərin üzərinə vurulmuşdur. Beləliklə həmin sənədlərin saxta olmaları təsdiq olunmuş və Abşeron Rayon Məhkəməsi haqlı olaraq həmin sənədləri və həmin sənədlər əsasında verilmiş çıxarışları etibarsız saymışdır. Belə olan halda saxta sənədlərin etibarsızlığını ləğv edilməsi məntiqsiz və qanunsuzdur. Apellyasiya məhkəməsinin mübahisə predmeti olan 4 mənzildən 2 mənzili MTK-dan alan həqiqi alıcılar öz mənzillərinə dair çıxarışlar almışlar. X10 tərəfindən satılan 4 mənzilin saxta sənədlərin etibarsızlığı ləğv olunduğu halda 2 mənzili alan həqiqi alıcının qanuni sənədlərlə əldə etdiyi mənzillərin daşınmaz əmlakda qeydiyyata alınıb çıxarış verilməsi məhkəmə tərəfindən qiymətləndirilməmiş və məhkəmənin yekun qətnaməsi həmin şəxslərin hüquqlarının pozulmasına gətirib çıxarmışdır. Məhkəmə yuxarıda qeyd olunan sübutları qiymətləndirmək əvəzinə cavabdehlərin uydurma ifadələrini əsas götürərək, X10i əsassız olaraq MTK-nın vəzifəli şəxs dərəcəsinə qaldıraraq saxta sənədlərlə 4 mənzillərə görə mülki məsuliyyəti MTK-nın üzərinə qoymuşdur. X10 Cinayət Məcəlləsinin 179.3.2 və 308-ci maddələri ilə məhkum olsaydı bunu başa düşmək olardı. Lakin X10 Cinayət Məcəlləsinin 178.3.2-ci maddəsi ilə məhkum olunduğuna görə qətnamədə qeyd olunanlar cinayət və mülki işlər üzrə mövcud olan təcrübəyə ziddir. Həmçinin qeyd etmək lazımdır ki, X5in ifadələri qətnamədə ümumiyyətlə öz əksini tapmamış, onu X10un fəaliyyəti barədə dedikləri məhkəmə tərəfindən sübut kimi nəzərə alınmamış və qiymətləndirilməmişdir. Bundan məhkəmə qətnamədə saxtakarlığa yol vermişdir. Belə ki, qətnamədə üçüncü şəxs qismində X2un təkrar məhkəmə baxışında iştirakı qeyd olunmuşdur. Halbuki həmin dövrdə X2 Almaniyada olmuş və məhkəmə baxışında iştirak etməmiş və bu barədə məhkəməyə sərhəd xidmətinə göndərilmiş vəkil sorğusu təqdim edilmişdir. Bundan başqa qətnamədə ciddi səhvə yol verilmişdir. Belə ki, məhkəmə MTK-nın 06.09.2023 tarixli məktubuna istinad edərək cavabdeh Cavabdeh 1a mübahisə etdiyi 3 mənzilin “ 10, 56 və 39 nömrəli” mənzillər X9, X2 və X3a MTK tərəfindən satılmışdır. Lakin qətnamədə 10 nömrəli mənzilin əvəzinə səhvən 42 (yeni nömrəsi 108) kimi qeyd edilmişdir. Həmin mənzilin sahibi X4 məhkəmədə iştirak etmiş, lakin məhkəmə haqlı olaraq onun aldığı mənzil mübahisə predmeti olmadığına görə onu dinləməmişlər. X9in adına aldığı 10 nömrəli mənzilə dair Daşınmaz Əmlakın çıxarışı məhkəməyə təqdim edilmiş, lakin məhkəmə mübahisə predmeti olmayan 42 nömrəli mənzili qətnamədə əsassız qeyd etmişdir. Həmçinin məhkəmə iddiaçının nümayəndəsinin

məlumatına istinad edərək saxtakarlığa yol verərək 48 nömrəli mənzildə X4nın ailə üzvlərinin yaşadığı qeyd edilmişdir. Nümayəndə tərəfindən məhkəməyə belə məlumat verilməmişdir. Bununla yanaşı MTK dəfələrlə məhkəməyə bildirmişdir ki, Cavabdeh 1in mübahisələndirdiyi iki 3 otaqlı 10 və 56 nömrəli mənzillər X9 və X2a məxsusdur, bir otaqlı 39 nömrəli mənzil isə X3a məxsusdur. MTK tərəfindən X4ya satılan 42 nömrəli mənzil isə iki otaqlıdır.

Tətbiq edilən hüquq:

Azərbaycan Respublikasının Mülki Məcəlləsi.

90. Maddə 5.3 Mülki hüquq münasibətlərinin subyektləri öz hüquq və vəzifələrini vicdanla həyata keçirməyə borcludurlar.

91. Maddə 14.2.1. Qanunvericilikdə nəzərdə tutulmuş müqavilələr və başqa əqdlər, habelə qanunvericilikdə nəzərdə tutulmasa da, ona zidd olmayan müqavilələr və başqa əqdlər mülki hüquqların və vəzifələrin əmələ gəlməsi əsaslarındandır.

92. Maddə 337.1. Bu Məcəllədə müəyyənləşdirilmiş şərtləri pozmaqla bağlanmış əqd etibarsızdır. Etibarsız əqdlər mübahisə edilən əqdlər və ya əhəmiyyətsiz əqdlər ola bilər.

93. Maddə 337.3. Əhəmiyyətsiz əqd məhkəmə tərəfindən etibarsız sayılıb sayılmamasından asılı olmayaraq özlüyündə etibarsız olan əqddir.

94. Maddə 337.4. Etibarsız əqd onun etibarsızlığı ilə bağlı nəticələr istisna olmaqla, hüquqi nəticələrə səbəb olmur. Bu cür əqd bağlandığı andan etibarsızdır.

95. Maddə 357. Əqd bağlanmasının bəyənilməsi (sonradan verilən razılıq), əgər bu Məcəllə ilə və ya tərəflərin razılaşması ilə ayrı qayda müəyyənləşdirilməyibsə, əqdin bağlandığı andan geriyə təsir qüvvəsinə malikdir.

96. Maddə 358.1. Səlahiyyətsiz şəxsin əşyaya və ya hüquqa dair sərəncam verməsi, əgər səlahiyyətli şəxsin icazəsi (qabaqcadan verilmiş razılığı) ilə həyata keçirilirsə, etibarlıdır.

97. Maddə 358.2. Əşyaya və ya hüquqa dair sərəncam verilməsi, əgər səlahiyyətli şəxs bunu bəyənirsə, etibarlı olur.

98. Maddə 359.1. Əqd təmsilçi vasitəsilə də bağlana bilər. Bir şəxsin (təmsilçinin) etibarnaməyə, qanunun göstərişinə və ya buna vəkil edilmiş dövlət və ya bələdiyyə orqanının aktına əsaslanan səlahiyyətə görə başqa şəxs (təmsil edilən) adından bağladığı əqd təmsil edilənin mülki hüquq və vəzifələrini bilavasitə yaradır, dəyişdirir və onlara xitam verir. Səlahiyyət həmçinin təmsilçinin fəaliyyət göstərdiyi şəraitdən də (pərakəndə ticarətdə satıcı, kassir və i.a.) bəlli ola bilər.

99. Maddə 360.1. Əgər başqa şəxsin (təmsil edilənin) adından əqdi bağlayan şəxsin (təmsilçinin) başqa şəxsin (təmsil edilənin) adından hərəkət etmək səlahiyyəti olmazsa və ya bu səlahiyyət aşılarsa, əqdin digər tərəfinin təmsilçidən həmin əqdin icrasını və ya əqdin bağlanması nəticəsində ona dəymiş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ vardır, bu şərtlə ki, başqa şəxs (təmsil edilən) əqdi sonradan bəyənməsin.

100. Maddə 360.2. Təmsil edilən tərəfindən əqdin sonradan bəyənilməsi onun üçün əqdin bağlandığı andan əqd üzrə mülki hüquq və vəzifələr yaradır, dəyişdirir və onlara xitam verir.

101. Maddə 567. Alğı-satqı müqaviləsinə görə satıcı əşyanı alıcının mülkiyyətinə verməyi, alıcı isə əşyanı qəbul edib əvəzində müəyyənləşdirilmiş pul məbləğini (qiyməti) ödəməyi öhdəsinə götürür 567 və 650-ci maddələri ümumən alğı-satqı müqaviləsinin, o cümlədən də rəsmi reyestrdə qeydə alınan daşınmaz əmlakın alğı-satqısına dair əqdin məzmunun nələri ehtiva etməli olduğunu müəyyən edərək təsbit edir ki, alğı-satqı müqaviləsinə görə satıcı əşyanı alıcının mülkiyyətinə verməyi, alıcı isə əşyanı qəbul edib əvəzində müəyyənləşdirilmiş pul məbləğini ödəməyi öhdəsinə götürür.

102. Maddə 1099.1. Hüquqi və ya fiziki şəxs öz işçisinin törətdiyi mülki hüquq pozuntusu (delikt) üçün məsuliyyət daşıyır və əmək (qulluq, mənsəb) vəzifələrinin icrası zamanı işçisinin vurduğu zərərin əvəzini ödəməlidir.
103. Maddə 1114.1. Başqa şəxsin (qulluq, mənsəb və ya əmək vəzifələrinin icrası zamanı işçinin, nəqliyyat vasitəsini idarə edən şəxsin və i.a.) vurduğu zərərin əvəzini ödəmiş şəxsin həmin şəxsə, əgər qanunla ayrı miqdar müəyyənləşdirilməyibsə, ödənilmiş əvəz miqdarında geriyə tələb (reqres) hüququ vardır.
104. Maddə 1115. Zərərin əvəzinin ödənilməsi tələbini təmin edərkən məhkəmə zərərin vurulması üçün məsuliyyət daşıyan şəxsin üzərinə işin hallarına uyğun olaraq zərərin əvəzini naturada ödəmək (eyni növlü və keyfiyyətli əmlak vermək, zədələnmiş əmlakı düzəltmək və i.a.) və ya vurulmuş zərərin əvəzini ödəmək öhdəliyi qoyur.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi.

105. Maddə 14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.
106. Maddə 76.1. Tərəflərin tələb və etirazlarını əsaslandıran halların və işi düzgün həll etmək üçün əhəmiyyəti olan başqa halların mövcud olduğunu və ya olmadığını məhkəmə müəyyən edərkən bu Məcəllədə və başqa qanunlarda müəyyən olunmuş qaydada əldə etdiyi məlumatlar sübutlar hesab olunur.
107. Maddə 76.2. Bu məlumatlar yazılı və maddi sübutlara, ekspertlərin rəyləri ilə, yerində müayinə keçirməklə, səs və video yazıları ilə, şahidlərin ifadələri ilə, işdə iştirak edən şəxslərin izahatları ilə müəyyən edilir.
108. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin əsası kimi istinad etdiyi halları sübut etməlidir.
109. Maddə 82.4. Məhkəmənin qanuni qüvvəyə minmiş hökmü, habelə cinayət təqibi üzrə qüvvəyə minmiş digər qərarı mülki işə və kommersiya mübahisəsinə baxılarkən məhkəmə üçün hadisənin olub-olmaması və şəxsin həmin hadisəyə aidiyyəti hissəsində məcburidir.
110. Maddə 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.
111. Maddə 217.3. Qətnamə iş üzrə müəyyən edilmiş həqiqi hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır.
112. Maddə 217.4. Məhkəmə öz qətnaməsini yalnız məhkəmə iclasında tədqiq olunmuş sübutlarla əsaslandırır.
113. Maddə 407.2. Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir.
114. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.
115. Maddə 416.2. Apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 418.4-cü maddəsində nəzərdə tutulmuş prosessual hüquq pozuntusu hesab edilən hallara yol verilməsi şikayətin hədlərindən və dəlillərindən asılı olmayaraq yoxlanılmalıdır.
116. Maddə 417.1.1 Kassasiya məhkəməsi işə baxarkən apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadını dəyişiklik edilmədən, şikayəti təmin etmədən saxlaya bilər.

117. Maddə 418.3. Prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması qətnamənin yaxud qərardadın ləğv edilməsi üçün o vaxt əsas ola bilər ki, bu pozuntu düzgün qətnamə qəbul edilməməsi ilə nəticələnsin və ya nəticələnə bilsin.
118. Maddə 420. Kassasiya instansiyasında işə baxan məhkəmənin qərarında şərh edilən göstərişlər həmin işə yenidən baxan məhkəmə üçün məcburidir.

Kassasiya baxışının hədləri:

119. Kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.
120. Hazırkı kassasiya şikayətində qətnamə iddiaçı tərəfindən iddianın cavabdehlər Cavabdeh 1 və Cavabdeh 2 münasibətdə təmin edilməməsi hissəsində tam mübahisələndirildiyindən apellyasiya instansiyası məhkəməsinin aktı qeyd olunan hissədə yoxlanılır.

Kasasiya instansiyası məhkəməsinin mövqeyi:

121. Məhkəmə kollegiyası hesab edir ki, apellyasiya instansiyası məhkəməsi tərəfindən mübahisəli hüquq münasibətini tənzimləyən maddi hüquq normaları düzgün tətbiq olunmuşdur. İşə əvvəl baxmış kassasiya instansiya məhkəməsinin göstərişlərinə apellyasiya instansiyası məhkəməsi tərəfindən əməl olunmuşdur. İş üzrə düzgün olmayan qətnamənin qəbul edilməsi ilə nəticələnən prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması halları müəyyən edilmir. Bu baxımdan apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv olunması və ya dəyişdirilməsi üçün əsas yoxdur.
122. Belə ki, iddiaçı cavabdehlərə qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, MTK-nın işçisi olmuş X10 tərəfindən mənzillərin cavabdehlərə qanunsuz olaraq, saxta sənədlərə əsasən satılmasının qanuni qüvvəsini almış məhkəmə hökmü ilə təsdiq edildiyini və buna görə X10in məhkum olunmasını əsas gətirərək, cavabdehlərlə bağlanmış “kooperativ binada mənzil tikintisi haqqında müqavilə”lər və onlar əsasında verilmiş maliyyə arayışlarının etibarsız hesab edilməsi, həmin sənədlər əsasında verilmiş çıxarışların ləğv edilməsi, bağlanmış daşınmaz əmlakın alğı-satqı müqaviləsinin etibarsız hesab edilməsi və onun əsasında verilmiş çıxarışın ləğv edilməsi haqqında qətnamə qəbul olunmasını xahiş etmişdir.
123. Cavabdehlər Cavabdeh 1 və Cavabdeh 2 onlara aid hissədə iddiaya qarşı etiraz edərək, mənzillərin onlara MTK-nın işçisi, səlahiyyətli nümayəndəsi olmuş vəzifəli şəxsi X10 tərəfindən satılmasını, mübahisəli mənzilləri qanuni əsaslarla, mənzillərin razılaşdırılmış məbləğdə dəyərini ödəməklə əldə etmələrini, MTK-ya aid binaların yerləşdiyi ərazidə mənzillərin satışına dair yerləşdirilmiş elandakı satış meneceri X10in istifadəsində olan mobil nömrəylə əlaqə saxlayaraq, mənzillərin pulunu həmin şəxsə ödədiklərini, sonradan qeyd olunan mənzillərin guya başqa şəxslərə satılmasının, X10 tərəfindən aldadılmalarının onlara məlum olduğunu, hazırkı iddia tələbinin əsassız olmasını, X10 tərəfindən mənzillər üçün ödənilmiş pulun MTK-ya verilib-verilməməsinin onlara aidiyyətinin olmadığını, cinayət işi üzrə araşdırma gedən zaman MTK-nın nümayəndəsi X10ə mənzillərin satışı üçün heç bir səlahiyyət vermədiyini bildirsə də, araşdırma zamanı MTK tərəfindən sonuncuya mənzillərin satışı məqsədi ilə etibarnamə, möhür kimi rəsmi səlahiyyətlərin verilməsinin təsdiq olunduğunu qeyd edərək, iddianın onlara münasibətdə rədd olunmasını xahiş etmişlər.

124. İşin məhkəmələr tərəfindən müəyyən edilmiş hallarından görünür ki, “X” MTK-nın işçisi olmuş X10 tərəfindən cavabdehlər Cavabdeh 2 və Cavabdeh 1a satılmış mübahisəli mənzillər MTK-nın özü tərəfindən başqa şəxslərə satılmışdır. Həm də sonralar məlum olmuşdur ki, X10in mənzillərə görə cavabdehlərə verdiyi sənədlər (kooperativ binada mənzil tikintisi haqqında müqavilələr, MTK üzvlərinin ümumi iclas protokollarından çıxarışlar, mənzillərin dəyərinin ödənilməsi barədə maliyyə arayışları) saxta olmuş (o həmin sənədləri kompüter texnikası və rəngli printer aparatından istifadə etməklə özü hazırlamış), cavabdehlərdən mənzillərə görə aldığı pulları isə MTK-ya təhvil verməyərək mənimsəmişdir. Bu hallar məhkəmə hökmündə də təsdiqini tapmışdır. Lakin cavabdehlər, X10in cinayətkar niyyətini, onun mənzil satmaq səlahiyyətinin olmamasını, mənzillərin satışı ilə bağlı onlara verdiyi sənədlərin saxta olduğunu və onlardan aldığı pulları da özünə götürərək mənimsədiyini bilməmişlər. Həm də mövcud şəraitə görə cavabdehlərin bunları bilməsi qeyri-mümkün olmuşdur. Belə ki, X10 “X” MTK-da 30.08.2018-ci il tarixdən 08.04.2020-ci il tarixədək satış meneceri, 08.04.2020-ci il tarixdən 12.04.2021-ci il tarixədək isə gözətçi (komendant) vəzifəsində işləmiş, inşa edilən binanın 1-ci mərtəbəsində yerləşən MTK-nın ofisində onun iş otağı (kabineti) olmuş, X10 binadakı mənzillərlə maraqlanan şəxsləri həmin ofisdə (kabinetində) qəbul etmiş, mənzillərin giriş qapılarının açarları onda olmuş və müştərilərə mənzilləri əyani olaraq göstərmiş, onlara mənzillər və satış şərtləri barədə məlumat vermiş, həmçinin müştərilərə alınan mənzillərin açarlarını təqdim etmişdir. Mənzillər satılan binanın üzərində yerləşdirilmiş reklam lövhəsində MTK-dan mənzil almaq istəyən vətəndaşların müraciət etməsi üçün telefon nömrəsi göstərilmiş və həmin nömrə məhz X10in istifadəsində olmuşdur (MTK tərəfindən onun istifadəsinə verilmişdir). Qeyd olunan vəziyyətdə cavabdehlərin X10i MTK-nın vəzifəli şəxsi və səlahiyyətli nümayəndəsi (təmsilçisi) kimi qəbul etmələri təbii olmuşdur.

125. Kassasiya instansiya məhkəməsinin qənaətinə görə işə mahiyyəti üzrə baxan apellyasiya instansiyası məhkəməsi cavabdehlər Cavabdeh 2 və Cavabdeh 1aya münasibətdə iddia tələbini rədd edərkən işə əvvəl baxmış kassasiya instansiya məhkəməsinin göstərişlərinə uyğun olaraq işlə bağlı sübutetmə yükünü düzgün bölüşdürmüş və səlahiyyətləri çərçivəsində təqdim olunmuş sübutlara hüquqi qiymət vermişdir.

126. Qeyd olunmalıdır ki, Mülki Məcəllənin 358-ci maddəsinə əsasən, səlahiyyətsiz şəxsin əşyaya və ya hüquqa dair sərəncam verməsi, əgər səlahiyyətli şəxsin icazəsi (qabaqcadan verilmiş razılığı) ilə həyata keçirilirsə, etibarlıdır. Əşyaya və ya hüquqa dair sərəncam verilməsi, əgər səlahiyyətli şəxs bunu bəyənirsə, etibarlı olur.

127. Mülki Məcəllənin səlahiyyət verilməyən şəxsin əqd bağlaması adlanan 360.2ci maddəsinə görə, təmsil edilən tərəfindən əqdin sonradan bəyənilməsi onun üçün əqdin bağlandığı andan əqd üzrə mülki hüquq və vəzifələr yaradır, dəyişdirir və onlara xitam verir.

128. Mülki hüququn bəyənmə - sonradan verilən razılıq institutunu nəzərdə tutan Mülki Məcəllənin 357-ci maddəsinə əsasən, əqd bağlanmasının bəyənilməsi, əgər bu Məcəllə ilə və ya tərəflərin razılaşması ilə ayrı qayda müəyyənləşdirilməyibsə, əqdin bağlandığı andan geriyə təsir qüvvəsinə (ex tunc) malikdir.

129. Məhkəmə kollegiyası həmçinin qeyd edir ki, səlahiyyət verilməyən şəxsin bağladığı əqdin təmsil edilən tərəfindən bəyənilməsi, əqd bağlanan zaman əqdi bağlayan şəxsin səlahiyyətə malik olması kimi qiymətləndirilir və təmsil edilən şəxs üçün bütün müvafiq hüquqi nəticələrə (mülki hüquq münasibətinin əmələ gəlməsi, dəyişdirilməsi və ya xitamı) səbəb olur. Sonradan verilən razılığın nə zaman verilməsindən asılı olmayaraq, o əqdin bağlandığı andan əqdin tərəfi hesab edilir. Hüquqi təbiətinə görə əqdin bəyənilməsi birtərəfli əqd olaraq qəbul edilir. Belə ki, onun bağlanması üçün yalnız təmsil edilən şəxsin iradə ifadəsi zəruri və

yetərlidir. Mülki Məcəllənin 355.2-ci maddəsinin "razılıq üçün müəyyənləşdirilmiş əqd formasına riayət edilməsi tələb olunmur" müddəası mahiyyət və məzmun etibarı ilə məhz bəyənmə hallarına aiddir. Bu nöqteyi-nəzərdən də hüquqi baxımdan məcburi forma şərtinə tabe tutulan müəyyən bir əqdə dair təmsil olunanın konkludent hərəkətləri və rəftarı (məsələn, əqd üzrə icra olunanların qəbul edilməsi, əşyaya dair sənədlərin verilməsi, uzun müddət ərzində əşyadan əqd üzrə qarşı tərəfin öz əşyası kimi fasiləsiz və bariz istifadəsinə etiraz etməməsi və s.) onun tərəfindən əqdin bəyənilməsinə dəlalət edir. (Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun "F.Nəcəfovanın şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin
Mülki Kollegiyasının 18 noyabr 2021-ci il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair" 3 mart 2023-cü il tarixli Qərarı)

130. Apellyasiya instansiyası məhkəməsi də işin hallarını bu əsaslar üzrə yoxlamış və qeyd etmişdir ki, X10in MTK-nın vəzifəli şəxsi və səlahiyyətli nümayəndəsi (təmsilçisi) kimi davranmasına məhz MTK özü şərait yaratmış və rəvac vermişdir. X10 cavabdehlərdən başqa digər şəxslərə də eyni qaydada mənzillər satmış, fərqli hal təkcə ondan ibarət olmuşdur ki, cavabdehlərə satılan mənzillərin pulları X10 tərəfindən MTK-ya verilməmiş, özü tərəfindən mənimsənilmişdir. X10 digər müştərilərə verilmiş sənədləri (müqavilə, ümumi iclasın protokolundan çıxarış, maliyyə arayışı və s.) cavabdehlərə də vermiş, həmin sənədlərin saxtalığına hər hansı şübhə və şübhələnməyə əsas olmamış (onlar əsl sənədlərdən fərqlənməmiş), hətta qeyd edilən sənədlər əsasında 2 mənzil üçün DƏDRXdən çıxarışlar da alınmış, cavabdehlərə də mübahisəli mənzillər və onların açarları təqdim olunmuş, mənzillərdə təmir işlərinin aparılmasına icazə verilmiş, qaz, su, elektrik xətləri çəkilmiş, bu xidmətlər üçün sayğaclar quraşdırılmış, kommunal haqları yığılmışdır. Odur ki, yuxarıda qeyd edildiyi kimi, cavabdehlər təbii olaraq X10i MTK-nın səlahiyyətli nümayəndəsi (təmsilçisi) kimi qəbul etmişlər. X10 də müştərilərlə, o cümlədən cavabdehlərlə münasibətdə özünü MTK-nın səlahiyyətli şəxsi və təmsilçisi kimi aparmış, MTK-nın adından çıxış etmişdir.

131. İddiaçının inkar etməsinə baxmayaraq, MTK-nın adından cavabdehlərlə bağlanmış müqavilələr (sonralar bu müqavilələrin saxtalığı müəyyən olunsa da belə) onun üçün müvafiq öhdəliklər yaratmışdır. Həmin müqavilələrə əsasən cavabdehlər MTK-nın digər müştəriləri ilə eyni hüquqi vəziyyətdədirlər. Bu baxımdan MTK cavabdehlərə də mənzil vermək öhdəliyi daşıyır. Lakin mübahisəli mənzillərdə qanuni əsaslarla başqa şəxslər yaşadığından MTK həmin mənzilləri cavabdehlərə vermək imkanında olmayacaq. X10 tərəfindən cavabdehlər Cavabdeh 2 və Cavabdeh 1a vurulmuş zərərin hər hansı formada aradan qaldırılması (əvəzinin ödənilməsi) vəzifəsi iddiaçı MTK-nın öhdəsinə düşür. Eyni zamanda, iddiaçı işçisinin vurduğu zərərin əvəzini ödədikdən sonra həmin işçiyə qarşı məhkəmədə reqres tələb irəli sürə bilər.

132. Məhkəmə kollegiyası apellyasiya instansiyası məhkəməsinin mövqeyi ilə razılaşır və kassasiya şikayətinin dəlillərini nəzərdən keçirərək, apellyasiya məhkəməsinin həmin mövqeyinə əlavə olaraq onu da qeyd edir ki, mülkiyyətçi olan iddiaçı MTK-nın vəzifəli şəxsi və səlahiyyətli nümayəndəsi (təmsilçisi) kimi davranan, X10in cavabdehlərdən başqa digər şəxslərə də eyni qaydada mənzillər satması, digər müştərilərə verilmiş sənədləri (müqavilə, ümumi iclasın protokolundan çıxarış, maliyyə arayışı və s.) cavabdehlərə də verməsi, həmin sənədlərin saxtalığına hər hansı şübhə və şübhələnməyə əsasın olmaması, onların əsl sənədlərdən fərqlənməməsi, qeyd edilən sənədlər əsasında 2 mənzil üçün DƏDRX-dən çıxarışların da alınması, cavabdehlərə də mübahisəli mənzillərin və onların açarlarının təqdim olunması, mənzillərdə təmir işlərinin aparılmasına icazə verilməsi, qaz, su, elektrik xətlərinin çəkilməsi, bu xidmətlər üçün sayğacların quraşdırılması, kommunal haqların yığılması,

cavabdehlərin də mövcud şəraitdə X10i MTK-nın səlahiyyətli nümayəndəsi (təmsilçisi) kimi qəbul etmələri, X10in də müştərilərlə, o cümlədən cavabdehlərlə münasibətdə özünü MTK-nın səlahiyyətli şəxsi və təmsilçisi kimi aparması, MTK-nın adından çıxış etməsi, X10in qanunsuz əməllərinin iddiaçı tərəfindən qısa müddət ərzində aşkar edilərək sonuncunun vaxtında ifşa edilməməsi onu deməyə əsas verir ki, bu halların baş verməsinə MTK özü şərait yaratmış, həmin əqdləri bəyəndiyini göstərən hərəkət və rəftar nümayiş etdirmişdir.

133. Odur ki, sonradan X10in cinayət məsuliyyətinə cəlb edilməsinə, MTK-nın həmin cinayət işi üzrə zərərçəkmiş şəxs kimi tanınmasına baxmayaraq, hüquqi şəxs kimi əmək müqaviləsi əsasında işçisi olmuş X10in törətdiyi mülki hüquq pozuntusu (delikt) üçün öz müştəriləri, o cümlədən cavabdehlər qarşısında məsuliyyət daşıyır. (MM 1099.1 maddəsi)

134. Bu baxımdan kassasiya instansiyası məhkəməsi, apellyasiya instansiyası məhkəməsinin gəldiyi nəticə və hüquqi əsaslandırma ilə razılaşır və yuxarıda qeyd olunanları nəzərə alıb hesab edir ki, əqdin bağlanmasına zahirən razılığı olmayan mülkiyyət sahibinin bu əqdin bağlanmasından sonra həmin əqdi bəyəndiyini göstərən hərəkət və rəftar nümayiş etdirməsi işin hallarından aydın şəkildə məlum olduğuna görə, apellyasiya məhkəməsi tərəfindən işin həmin halları tam və hərtərəfli araşdırılaraq bu hallara hüquqi qiymət verilmişdir. Ona görə də iddiaçının kassasiya şikayətində qeyd olunan dəlillərə təkrar hüquqi qiymət verməyə lüzum yoxdur.

135. Məhkəmə kollegiyası kassasiya şikayətinin apellyasiya məhkəməsi tərəfindən qətnamədə cavabdeh Cavabdeh 1in mübahisə etdiyi 10 nömrəli mənzilin əvəzinə səhvən 42 (yeni nömrəsi 108) kimi qeyd edilməsi barədə dəlilinə münasibət bildirərək qeyd edir ki, qeyd olunan dəlil apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv edilməsi, yaxud dəyişdirilməsi üçün əsas ola bilməz. Belə ki, apellyasiya məhkəməsi tərəfindən həmin hal yanlışlığın aradan qaldırılması qaydasında aradan qaldırıla bilər.

136. Kassasiya şikayətinin dəlilləri ilə bağlı məhkəmə kollegiyası həmçinin qeyd edir ki, Konstitusiya Məhkəməsi Plenumunun müxtəlif qərarlarında formalaşmış hüquqi mövqeyinə görə, kassasiya məhkəməsi apellyasiya məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır (Konstitusiya Məhkəməsi Plenumunun Ə.Ə.İbrahimovun şikayəti üzrə 12 aprel 2004-cü il tarixli Qərarı). Kassasiya məhkəməsinin vəzifəsinin məhz bundan ibarət olması MPM-in 407.1.4, 408.1.5 və 416-cı maddələrindən aydın görünür. Həmin Məcəllənin 407.2-ci maddəsinə görə kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir. Bu səbəbdən kassasiya şikayətinin dəlilləri əsassız olduğuna görə, həmin dəlillər apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv edilməsi üçün əsas ola bilməz.

137. “Məhkəmə qətnaməsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 24 noyabr 2005-ci il tarixli Qərarının 2.2-ci bəndinə əsasən, məhkəmə qətnaməsi maddi və prosessual hüquq normalarına dəqiq əməl edilməklə qəbul edildikdə qanuni hesab edilir. Həmin Qərarın 2.4-cü bəndinə əsasən, qətnamə o vaxt əsaslı hesab edilir ki, onda baxılan iş üçün əhəmiyyətli olan, qanunun tələblərinə uyğun olaraq işə aid edilən və mötəbər sübutlarla təsdiq olunan faktlar əks etdirilmiş olsun, məhkəmənin iş üzrə müəyyən edilən faktlardan irəli gələn qəti nəticəsi onda şərh edilsin, habelə qətnamədə göstərilən hallar işin materiallarına uyğun olsun.

138. Məhkəmə kollegiyası eyni zamanda iddiaçının nümayəndəsi və vəkili Abbasov Əliövsəd Məzahir oğlunun işə məhkəmə iclasında baxılması barədə vəsatətinə münasibət bildirərək qeyd edir ki, Ali Məhkəmənin Mülki Kollegiyasının 3 sentyabr 2025-ci il tarixli

qərardadı ilə hazırkı mülki işə yazılı icraat qaydasında baxılması qərara alınmışdır. Mülki işə şifahi icraat qaydasında baxılması üçün Mülki Prosessual Məcəllənin 414.1-ci maddəsində nəzərdə tutulmuş hallar olmadığından vəsatət əsassızdır və təmin edilə bilməz.

139. Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 414.1-ci maddəsinə əsasən Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyasına, yaxud Kommersiya kollegiyasına işlə birlikdə daxil olmuş qətnamələrdən verilmiş kassasiya şikayətinə onun daxil olduğu gündən 3 ay müddətində, bu Məcəllə ilə nəzərdə tutulmuş hallarda qərardaddan verilmiş kassasiya şikayətinə isə 1 ay müddətində yazılı icraat qaydasında baxılır. Məhkəmə hüququn inkişafının və ya məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi üçün əhəmiyyətli hesab etdikdə, işə məhkəmə iclasında baxılması barədə qərardad qəbul edir. Bu barədə işdə iştirak edən şəxslərə məlumat verilir.

140. Beləliklə, məhkəmə kollegiyası hesab edir ki, apellyasiya instansiyası məhkəməsi hazırkı işin faktiki hallarını tam, hərtərəfli və obyektiv araşdırmış və tərəflər arasındakı mübahisənin həlli üçün tətbiq edilməli olan maddi və prosessual hüquq normalarını düzgün tətbiq etmiş, iş üzrə qanuni və əsaslı qətnamə qəbul etmişdir.

141. Bu səbəbdən, kassasiya şikayəti təmin edilməməli, apellyasiya instansiyası məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmalıdır.

142. Respublikası MPM-nin 416, 417 və 419-cu maddələrini rəhbər tutaraq, Məhkəmə kollegiyası

Qərara aldı:

İddiaçı tərəfindən verilmiş kassasiya şikayəti təmin edilməsin.

Sumqayıt Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(105)-625/2025 nömrəli, 26 may 2025-ci il tarixli qətnaməsi dəyişdirilmədən saxlanılsın.

Qərar qətidir və qəbul edildiyi andan qüvvəyə minir.

İddia müddəti

21. 2(102)-2894/2023 nömrəli, 2023-cü il 2 oktyabr tarixli qərar - Gecikdirilmiş vaxt üçün illik beş faizin ödənilməsi barədə kreditorun tələbinə baxılarkən iddia müddətinin tətbiqi

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu:

Gecikdirilmiş vaxt üçün illik beş faizin ödənilməsi barədə kreditorun tələbinə baxılarkən iddia müddətinin tətbiqi.

Kredit müqaviləsi üzrə öhdəliyin icrası vaxtı başa çatdığı halda borclu öhdəliyini tam şəkildə yerinə yetirmədikdə müqavilə üzrə gecikdirilmiş vaxt üçün 5% hesablanmış zərərə iddia müddətinin tətbiqi.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Kredit müqaviləsi üzrə öhdəliklər tam yaxud qismən yerinə yetirilməsə də, iddia müddətinin keçməsi ilə əlaqədar həmin əsas öhdəlik üzrə tələb rədd edildiyi halda, əlavə tələblərin də iddia müddəti keçməsi əsası ilə rədd edilib-edilməməli olması məsələsinə münasibətdə kollegiya bildirmişdir ki, iddia müddəti institutu tələb haqlarına şamil olunmaqla mülki münasibət iştirakçılarına pozulmuş hüquqlarının məhkəmə vasitəsi ilə müdafiəsi (borclunun öhdəliyini icra etməyə məcbur edilməsi) imkanının müəyyən müddət (zaman kəsiyi) ilə məhdudlaşdırılmasını nəzərdə tutur. İddia müddəti öhdəliyin aradan qalxması üçün hüquqi əsas deyil, iddia müddətinin keçməsi öz-özlüyündə kreditorun tələb hüququnu aradan qaldırmır.

Hüquqi nəticənin gerçəkləşməsi borclunun pul məbləğinin (kredit müqaviləsi üzrə borcunun) ödənilməsini gecikdirməsindən, yəni, əsas müqavilə tələbi üzrə öhdəliyin icrasından asılıdır. Başqa sözlə, borclunun kredit müqaviləsi üzrə əsas borc öhdəliyinin icrası hər hansı (iş üzrə iddia müddətinin keçməsi) səbəbdən tələb edilə bilmirsə, o halda iddiaçı eyni (iş üzrə iddia müddətinin keçməsi) əsası ilə həmin tələbə əlavə və ondan bilavasitə asılı olan zərərin əvəzinin ödənilməsini də tələb edə bilməz. Belə ki, Mülki Məcəllənin 445.7-ci maddəsi borclunu intizamlandırmaq, pul məbləğinin ödənilməsini gecikdirdikdə, kreditorun hər bir halda ondan gecikdirilmiş vaxt üçün minimum illik beş faiz həddində zərər tələb edə biləcəyini əvvəlcədən nəzərinə çatdıraraq, onu daha ağır sanksiyalardan çəkindirmək funksiyası daşıyır.

Müqavilənin qüvvədə olma müddəti ilə həmin müqavilədən irəli gələn öhdəliklərin tam icrası müddəti eyni anlayışlar deyil. Kredit münasibətləri müddətlidir və həyata keçirilmə müddəti vaxt çərçivəsi ilə təyin olunmuş müqavilə münasibətləridir. Kredit müqaviləsində müəyyənləşdirilmiş öhdəliklər, yəni əsas borcun ödənişləri ilə bağlı öhdəliklərin və kredit müqaviləsi üzrə faizlərin ödənilməsi ilə bağlı öhdəliklərin yerinə yetirilmə müddəti müqavilədə əvvəlcədən nəzərdə tutulmuş qaydaya uyğun olaraq müəyyən olunur ki, iddia müddətinin axımı da məhz müqavilə ilə bütün öhdəliklərin yerinə yetirilmə müddətinin nəzərdə tutulduğu son tarixdən hesablanır.

Kassasiya instansiyası məhkəməsinin qərarı Mülki Məcəllənin 269.5, 373.2, 376, 385.1, 386.1, 389.1, 399.3, 405.1, 427.3, 442, 445.7, 448.1, 448.2, 554.3, 739.1, 739.2-ci maddələrinə, “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 373.2 və 384.0.4-cü maddələrinin şərh edilməsinə dair” 03.06.2013-cü il tarixli, “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 375.2-ci və “İpoteka haqqında” Azərbaycan Respublikası Qanununun 48.1.2-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair” 11.02.2022-ci il tarixli və “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 372.1, 373.1, 373.3, 551.1, 551.2.1 və 553.1.1-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsi baxımından şərh olunmasına dair” 15.02.2023-cü il tarixli Qərarlarına istinadla əsaslandırılmışdır.

2(102)-2894/2023

02.10.2023-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki Kollegiyasının

iddiaçı "XXX" ASC-nin cavabdehlər Cavabdeh 1 və Cavabdeh 2-yə qarşı iş üzrə

Q Ə R A R I

Açar sözlər: kredit borcunun ödənilməsi,
iddia müddətinin əlavə tələblərə tətbiqi

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyası hakimlər Məmmədov Vidadi Məmməd oğlu (məruzəçi), Əliyev Zaur Əli oğlu və Abbasov Aqil Əzizağa oğlundan ibarət tərkibdə iddiaçı "XXX" ASC-nin cavabdehlər Cavabdeh 1 və Cavabdeh 2-yə qarşı kredit borcunun tutulması tələbinə dair iddia ərizəsi ilə bağlı Gəncə Apellyasiya Məhkəməsi Mülki Kollegiyasının 2(104)-1001/2023 nömrəli iş üzrə 14 aprel 2023-cü il tarixli qətnaməsindən iddiaçının kassasiya şikayətinə Ali Məhkəmənin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İŞİN HALLARI

1. 18.01.2013-cü il tarixli **-M-*-*-**-** nömrəli kredit müqaviləsinə əsasən, kreditor "XXX" İKB ASC tərəfindən Cavabdeh 1-ə 24 ay müddətə illik 28 faiz ödəmək şərti ilə 10.100 ABŞ dolları məbləğdə kredit verilmişdir.

2. Həmin borcun təminatı olaraq Cavabdeh 2 ilə 18.01.2013-cü il tarixli zaminlik müqaviləsi bağlanmış və zamin kredit borcunun qaytarılması üzrə məsuliyyəti öz üzərinə götürmüşdür.

İŞ ÜZRƏ QƏBUL EDİLMİŞ MƏHKƏMƏ AKTLARI

a) Birinci instansiya məhkəməsində icraat

3. İddiaçı cavabdehlərə qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, cavabdehlərdən müştərək qaydada onun xeyrinə 18.01.2013-cü il tarixli kredit müqaviləsi üzrə 2.977,62 ABŞ dolları əsas, 3.810,32 ABŞ dolları faiz, 4.805,36 ABŞ dolları cərimə borcu və kredit müqaviləsi üzrə 18.01.2015-ci il tarixdən 30.09.2022-ci il tarixədək gecikdirilmiş vaxt üçün illik 5 faizlə hesablanmış 1.466,1 ABŞ dolları məbləğdə əldən çıxmış fayda olmaqla, cəmi 13.059,4 ABŞ dolları borcun və 156,60 manat dövlət rüsumunun tutulması barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

4. İddianın əsaslarına görə, Cavabdeh 1 kredit müqaviləsinin şərtlərini pozaraq, borc öhdəliyini icra etməkdən boyun qaçırır.

5. Cavabdeh 1 məhkəməyə ərizə ünvanlayaraq, iddia müddətini tətbiq etməklə, iddianın rədd edilməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

6. Gəncə Şəhər Məhkəməsinin 2(125)-498/2023 nömrəli iş üzrə 18.01.2023-cü il tarixli qətnaməsi ilə (hakim X.Səfərli) iddia rədd edilmişdir.

7. Birinci instansiya məhkəməsinin qətnaməsinin əsaslarına görə, "... iddiaçı ilə cavabdehlərdən Cavabdeh 1 arasında qanunvericiliyə uyğun olaraq kredit müqaviləsi bağlanmışdır. İddiaçı Bank müqavilə üzrə üzərinə düşən öhdəliyi yerinə yetirmiş, kredit müqaviləsində göstərilən pul məbləğini borcalana vermişdir. Cavabdeh 1 kredit müqaviləsi əsasında iddiaçıdan kredit almaq hüququna malik olduğu kimi eyni zamanda göstərilən müqavilə əsasında kredit məbləğini və həmin müqavilə ilə müəyyən edilmiş faizləri iddiaçıya qaytarmalı olmasına dair vəzifələrin daşıyıcısı olmuşdur. Lakin, həmin cavabdeh kredit müqaviləsi əsasında iddiaçıdan kredit vəsaitini almasına dair hüququndan istifadə etmiş, kredit vəsaitini ödəməli olmasına dair vəzifəsini isə tam icra etməyərək, pul öhdəliyini lazımınca yerinə yetirməmişdir. Bu səbəbdən iddiaçı müqavilə şərtlərinə istinad edərək cavabdehlərdən müqavilə üzrə yaranmış borcun ödənilməsini tələb etmişdir.

...

Məhkəmə hesab edir ki, tərəflər arasında 24 ay müddətinə bağlanmış 18.01.2013-cü il tarixli kredit müqaviləsinin müddəti 18.01.2015-ci il tarixində bitmiş, iddiaçı həmin tarixdən 8 ildən artıq müddət keçdikdən sonra 25.10.2022-ci il tarixdə iddia müddətini ötürərək hazırkı ərizə ilə məhkəməyə müraciət etmişdir. Məhkəmə baxışı zamanı iddia müddətinin dayanması və ya kəsilməsinə əsas olacaq hallar aşkar edilməmişdir.

Məhkəmə qeyd edir ki, iddiaçının təqdim etdiyi maliyyə arayışına əsasən, kredit müqaviləsi üzrə son ödəniş 12.06.2019-cu ildə edilmiş olsa da, 18.01.2013-ci il tarixində başlayan 3 illik

iddia müddəti 18.01.2016-ci il tarixində başa çatdığı üçün bu hal iddia müddətinin axımının kəsilməsi və yenidən başlanması üçün əsas hesab edilə bilməz. Əksi hesab edilməli olsa belə, 12.06.2019-cu ildən başlamalı olan 3 illik iddia müddətini ötürməklə iddia qaldırılmış olacaqdı."

8. Birinci instansiya məhkəməsi gəldiyi nəticəni Azərbaycan Respublikası Mülki Məcəlləsinin 372.1, 372.2, 373.2, 375.2, 380.1, 380.2-ci maddələrinə, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 373.2 və 384.0.4-cü maddələrinin şərh edilməsinə dair" 03.06.2013-cü il tarixli qərarına istinadla əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsində icraat

9. Birinci instansiya məhkəməsinin qətnaməsi ilə razılaşmayan iddiaçı ondan apellyasiya şikayəti verərək, qətnamənin ləğv edilib, iddianın təmin olunmasını xahiş etmişdir.

10. Apellyasiya şikayətinin dəlillərinə görə: 1. kredit müqaviləsi üzrə öhdəliyin icrası vaxtı 18.01.2015-ci il tarixdə başa çatmalı idi, lakin borclu öhdəliyini tam şəkildə yerinə yetirməmiş, belə olan halda kredit müqaviləsi qüvvədə sayılır. Belə ki, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 399.3, 399.4, 445 və 449-cu maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair" 24.12.2014-cü il tarixli qərarında qeyd edilir ki, müqavilənin qüvvədə olma müddətinin bitməsinə baxmayaraq, müqavilə tərəflərin qarşılıqlı hüquq bağlılığı davam edir və MM-in 399.4-cü maddəsinə əsasən müqavilənin qüvvədə olma müddətinin qurtarması tərəfləri müqavilənin həmin müddət qurtarana qədər yol verilmiş pozulmasına görə məsuliyyətdən azad etmir;

2. İddia tələbinin bir hissəsini kredit müqaviləsi üzrə 18 yanvar 2015-ci il tarixdən 30 sentyabr 2022-ci il tarixədək gecikdirilmiş vaxt üçün illik 5 faizlə hesablanmış 1.466,1 ABŞ dolları məbləğdə zərər təşkil etmiş, birinci instansiya məhkəməsi iddia tələbinin bu hissəsinə də 3 illik müddəti tədbiq edərək, iddianı rədd etmişdir. Halbuki, birinci instansiya məhkəməsi də qətnaməsində göstərdiyi kimi, "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 373.2 və 384.0.4-cü maddələrinin şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 03.06.2013-cü il tarixli qərarına əsasən kredit münasibətlərindən yaranan mübahisələrə Azərbaycan Respublikası Mülki Məcəlləsinin 373.2-ci maddəsində nəzərdə tutulan üç illik iddia müddəti tətbiq edilməlidir. Mülki Məcəllənin 373.2 və 377.2-ci maddələrinin mənasına görə, kredit müqaviləsində başqa hal nəzərdə tutulmayıbsa, iddia müddətinin axımı bu müqavilədə müəyyənləşdirilmiş bütün öhdəliklər üzrə icra müddəti bitdikdə başlanır.

Hesab edir ki, iddiaçı olaraq tələb etdiyi illik 5 faiz pul tələbi kredit müqaviləsindən irəli gələn tələb olmamışdır. Belə ki, Mülki Məcəllənin 445.7-ci maddasinə əsasən, borclu pul məbləğinin ödənilməsini gecikdirdikdə, əgər kreditor digər əsaslardan çıxış edərək daha böyük məbləğ tələb edə bilmirsə, gecikdirilmiş vaxt üçün illik beş faiz ödəməyə borcludur. Faizdən faiz ödənilməsi yolverilməzdir.

İşin faktiki halından göründüyü kimi, cavabdeh öz üzərinə götürmüş öhdəliyi tam şəkildə yerinə yetirməyərək, gecikməyə yol vermiş və bundan sonra bankın gecikdirilmiş vaxt üçün faiz tələb etmək hüququ yaranmışdır. Nəzərə alınmalıdır ki, kredit müqaviləsinin şərtlərinə əsasən verilmiş pulun faiz qarşılığı ilə "gecikdirilmiş vaxt üçün faizi" eyniləşdirmək olmaz. Belə ki, birinci hal bankın gəlir götürməsinə, bankın fəaliyyətinin əsas istiqamətinə yönəlmiş, ikinci hal isə birbaşa borclunu intizamlandırmaq, onun gecikməyə yol verdiyi üçün bankın zərərinin qarşılığını almaq xarakteri daşıyır.

11. Gəncə Apellyasiya Məhkəməsi Mülki Kollegiyasının 2(104)-1001/2023 nömrəli iş üzrə 14.04.2023-cü il tarixli qətnaməsi ilə (hakim Afiq Hüseynzadənin sədrliyi və məruzəsi ilə, hakimlər Aygül İsgəndərova və Fikrət Mehdiyevdən ibarət tərkibdə) iddiaçının apellyasiya

şikayəti təmin edilməmiş, Gəncə Şəhər Məhkəməsinin 18.01.2023-cü il tarixli qətnaməsi dəyişdirilmədən saxlanılmışdır.

12. Apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin əsaslarına görə, "Məhkəmə kollegiyası iddiaçının apellysiya şikayətinin dəlilləri ilə razılaşmayaraq qeyd edir ki, Mülki Məcəllənin 399.3-cü maddəsi müqavilədə nəzərdə tutulduğu halda müqavilənin qüvvədə olma müddətinin qurtarması ilə tərəflərin müqavilə üzrə öhdəliklərinin xitamını, belə şərt olmadığı halda isə müqavilənin öhdəliyin icrasının qurtarmasının həmin müqavilədə müəyyənləşdirilmiş anına qədər qüvvədə olmasını müəyyən etməkdədir. Hazırkı iş üzrə tərəflər arasında bağlanmış kredit müqaviləsi üzrə öhədliyin icrası müddəti 18 yanvar 2015-ci il tarixinədək şərtləndirilmişdir ki, hazırkı iş üzrə mübahsiə müqavilənin qüvvədə olma müddəti və ya müqavilənin qüvvədə olan müddətinin bitməsi ilə əlaqədar öhdəliyə xitam verilib-verilməməsi ilə bağlı deyil, müqavilə üzrə öhdəliyə müddətin keçməsi ilə bağlı iddia müddətinin tətbiq edilməsi olmuşdur.

Bundan başqa məhkəmə kollegiyası iddiaçının gecikdirilmiş vaxt üçün faiz tələbi ilə bağlı iddianın təmin edilməli olması ilə bağlı şikayətinin dəlilini də əsassız hesab etmişdir. Belə ki, Mülki Məcəllənin 554.3-cü maddəsinə əsasən əsas tələblə birlikdə ondan asılı olan əlavə öhdəliklərin icrasına dair tələb də müddətin keçməsinə görə qüvvəsini itirir ki, iddiaçının gecikdirilmiş vaxt üçün faiz tələbi də məhz əsas tələbdən irəli gəlmişdir. Həmin Məcəllənin 377.6-cı maddəsinə əsasən əsas tələb üzrə iddia müddəti keçdikdə əlavə tələblər (girov, dəbbə pulu, saxlama, zaminlik, beh) üzrə də iddia müddəti keçir."

13. Apellyasiya instansiyası məhkəməsi gəldiyi nəticəni Azərbaycan Respublikası Mülki Məcəlləsinin 372.1, 372.2, 373.2, 375.2, 376, 377.1, 399, 739.1-ci maddələrinə, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 373.2 və 384.0.4-cü maddələrinin şərh edilməsinə dair" 03.06.2013-cü il tarixli qərarına istinadla əsaslandırmışdır.

KASSASİYA ŞİKAYƏTİNİN VƏ ONA ETİRAZIN DƏLİLLƏRİ

a) Kassasiya şikayətinin dəlilləri

14. Apellyasiya instansiyası məhkəməsinin qətnaməsi ilə razılaşmayan iddiaçı ondan kassasiya şikayəti verərək, qətnamənin ləğv edilib, işin yeni apellyasiya baxışına göndərilməsini xahiş etmişdir.

15. Kassasiya şikayətinin dəlilləri apellyasiya şikayətinin dəlilləri ilə eyni olmuşdur.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

16. Kassasiya şikayətinə qarşı etiraz təqdim olunmamışdır.

TƏTBİQ EDİLƏN HÜQUQ

17. Azərbaycan Respublikasının Mülki Məcəlləsi:

Maddə 269.5. Girov və ipoteka girov qoyanın (borclunun) girov saxlayan (kreditor) qarşısında əsas öhdəliyinin icrasının təmin edilməsi üçün əlavə (aksessor) əşya hüququdur;

Maddə 373.2. Müqavilə tələbləri üzrə iddia müddəti üç il, daşınmaz əşyalarla bağlı müqavilə tələbləri üzrə iddia müddəti isə altı ildir;

Maddə 376. İddia müddətinin əlavə tələblərə tətbiqi

Əsas tələb üzrə iddia müddəti keçdikdə əlavə tələblər (girov, dəbbə pulu, saxlama, zaminlik, beh) üzrə də iddia müddəti keçir;

Maddə 427.3. Əgər öhdəlik onun icrası gününü və ya icra edilməli olduğu vaxt dövrünü nəzərdə tutursa və ya müəyyənləşdirməyə imkan verirsə, öhdəlik həmin gün və ya bu cür dövr ərzində istənilən an icra edilməlidir;

Maddə 442. Öhdəliyin icra edilməməsi dedikdə onun pozulması və ya lazımınca icra edilməməsi (vaxtında icra edilməməsi, mallarda, işlərdə və xidmətlərdə qüsurlarla və ya öhdəliyin məzmunu ilə müəyyənləşdirilmiş digər şərtləri pozmaqla icra edilməsi) başa düşülür;

Maddə 448.1. Əgər bu Məcəllə ilə və müqavilə ilə ayrı qayda müəyyənləşdirilməyibsə, borclu onun risk dairəsinə daxil olan öhdəliklərin icra edilmədiyi bütün hallar üçün cavabdehdir;

Maddə 448.2. Borclu öz öhdəliklərinin hər bir təqsirli pozuntusu (hərəkət və ya hərəkətsizlik) üçün məsuliyyət daşıyır;

Maddə 554.3. Əsas tələblə birlikdə ondan asılı olan əlavə öhdəliklərin icrasına dair tələb də müddətin keçməsinə görə qüvvəsini itirir;

Maddə 739.1. Borc müqaviləsinə görə, iştirakçılardan biri (borc verən) pula və ya digər əvəz edilən əşyalara mülkiyyət hüququnu digər iştirakçıya (borc alana) keçirməyi öhdəsinə götürür, digər iştirakçı (borc alan) isə aldıqlarını müvafiq olaraq pul və ya eyni keyfiyyətdə və miqdarda olan eyni növlü əşyalar şəklində borc verənə qaytarmağı öhdəsinə götürür;

Maddə 739.2. Borc müqaviləsinin predmeti hər hansı pul məbləği olduqda, o, kredit müqaviləsi adlandırılır. Müstəqil peşə fəaliyyəti şəklində pul borc verməklə məşğul olan şəxslər əlavə olaraq peşəkarlıq qaydasında kreditlər verilməsi haqqında müddəaları gözləməlidirlər.

18. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi (MPM):

Maddə 14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir;

Maddə 77.1. Hər bir tərəf öz tələblərinin əsası kimi istinad etdiyi halları sübut etməlidir;

Maddə 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur;

Maddə 106.1. İşdə iştirak edən şəxslərin iş üçün əhəmiyyətli olan və onlara məlum olan faktlar barədə izahatları iş üzrə toplanmış digər sübutlarla yanaşı yoxlanılmalı və qiymətləndirilməlidir;

Maddə 217.1. Məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır;

Maddə 217.3. Qətnamə iş üzrə müəyyən edilmiş hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır;

Maddə 407.2. Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir;

Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır;

Maddə 416.2. Apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 418.4-cü maddəsində nəzərdə tutulmuş prosessual hüquq pozuntusu hesab edilən hallara yol verilməsi şikayətin hədlərindən və dəlillərindən asılı olmayaraq yoxlanılmalıdır;

Maddə 417.1. Kassasiya məhkəməsi işə baxarkən:

417.1.1. apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadını dəyişiklik edilmədən, şikayəti təmin etmədən saxlaya bilər;

Maddə 418.1. Maddi və prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması, o cümlədən maddi və prosessual hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması apellyasiya instansiyası məhkəməsinin qətnamə və qərardadının ləğv edilməsi üçün əsasdır;

Maddə 418.3. Prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması qətnamənin yaxud qərardadın ləğv edilməsi üçün o vaxt əsas ola bilər ki, bu pozuntu düzgün qətnamə qəbul edilməməsi ilə nəticələnsin və ya nəticələnə bilsin.

19. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun qərarları

"Azərbaycan Respublikası Mülki Məcəlləsinin 373.2 və 384.0.4-cü maddələrinin şərh edilməsinə dair" 03.06.2013-cü il tarixli Qərarı:

“İddia müddəti institutu mülki dövriyyənin, hüquq münasibətlərinin müəyyənliyini və sabitliyini yaratmaq, onların iştirakçılarını intizamlandırmaq, hüquq münasibətlərinin subyektlərinin hüquq və qanuni maraqlarının müddət baxımından vaxtında müdafiəsini və bərpasınıtəmin etmək məqsədi daşıyır. Belə ki, pozulmuş hüquqların məcburi müdafiəsi üçün ağlabatan müddət məhdudiyyətlərinin olmaması işin baxılması üçün əhəmiyyət kəsb edən sübutların toplanmasının və saxlanmasının lazım olduğunu nəzərə almayan cavabdehlərin və üçüncü şəxslərin qanunla qorunan hüquq və maraqlarının pozulmasına gətirib çıxarardı.Mübahisə tərəfinin ərizəsi əsasında məhkəmə tərəfindən iddia müddətinin tətbiqi mülki mübahisə tərəflərini əsaslandırılmamış çəkişmələrdən qoruyur və eyni zamanda, onları öz hüquqlarını vaxtında həyata keçirmələrinə və müdafiəsinə məcbur edir.

...

Bununla belə, Konstitusiya Məhkəməsinin Plenumu əvvəlki qərarlarında formalaşdırdığı hüquqi mövqeyinə uyğun olaraq qeyd etməyi zəruri hesab edir ki, iddia müddətinin keçməsinə görə iddianı rədd edərkən, məhkəmə əvvəlcə iddiaçının müvafiq subyektiv hüquqa malik olub-olmamasını və cavabdeh tərəfindən həmin hüququn pozulubpozulmadığını araşdırmalıdır. İddia müddətinin keçməsinə görə iddianı rədd etmiş, lakin subyektiv mülki hüququn pozulması məsələsini həll etməyən məhkəmə aktı daxilən ziddiyyətli və əsassız, məhkəmənin gəldiyi nəticə isə lazımi əsasa söykənməyən hesab edilməlidir (Konstitusiya Məhkəməsi Plenumunun L.İ.Binnətovanın şikayəti üzrə 08 may 2008-ci il tarixli Qərarı).”

“Azərbaycan Respublikası Mülki Məcəlləsinin 375.2-ci və “İpoteka haqqında” Azərbaycan Respublikası Qanununun 48.1.2-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair” 11.02.2022-ci il tarixli Qərar:

“... Mülki Məcəllənin 376-cı maddəsində əsas tələb üzrə iddia müddəti keçdikdə əlavə tələblər (girov, dəbbə pulu, saxlama, zaminlik, beh) üzrə də iddia müddətinin keçdiyi təsbit edilmişdir. Əsas tələb üzrə iddia müddətinin keçməsi səbəbindən onun məcburi icrası mümkün olmadığından, bu tələblə bağlı olan girov və ipotekaya da məcburi tutmanın yönəldilməsi istisna edilmişdir.

Beləliklə, əlavə öhdəlik kimi ipoteka müstəqil deyil, əsas öhdəlikdən asılıdır və əsas öhdəlik üzrə pozulmuş hüquqların məhkəmə qaydasında bərpası imkanı məhkəmə tərəfindən Mülki Məcəllənin 375.2-ci maddəsi tətbiq edilərək aradan qalxırsa, bu halda əsas öhdəliyin təminatı olan ipoteka üzrə də pozulmuş hüquqların məhkəmə qaydasında müdafiə imkanı itirilmiş olur.”

“Azərbaycan Respublikası Mülki Məcəlləsinin 372.1, 373.1, 373.3, 551.1, 551.2.1 və 553.1.1-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsi baxımından şərh olunmasına dair” 15.02.2023-cü il tarixli Qərar: “... iddia müddətinin ötürülməsi öhdəliyə xitam vermir, onu mahiyyətcə fərqli hüquq təbiətli öhdəliyə çevirir. Belə ki, hüquq nəzəriyyəsində öhdəliklərin bir növü kimi Roma hüququndan qaynaqlanan, məhkəmə müdafiəsi ilə təmin olunmayan, yəni icrası məcburi qaydada tələb edilə bilməyən natural öhdəliklər növü fərqləndirilir. Natural öhdəliklər pozitiv hüquqa deyil, təbii hüquqa (lex naturalis) əsaslanır. Bu cür öhdəliklərin icra edilməsi vicdanlılıq, ədalət və əxlaq tələblərindən irəli gəlir. Hüquq ədəbiyyatında belə öhdəliklər üzrə borc bəzən “şərəf borcu” da adlandırılır. Natural öhdəliklər üzrə icranı qəbul etmiş kreditor əsassız varlanmış hesab olunmur və müvafiq icranı özündə saxlamağa haqlıdır. Belə icra borclu tərəfindən hətta icranın təqdim edildiyi zaman kreditorun iddia hüququna malik olmadığını bilməsə belə geri tələb edilə bilməz. Mülki hüquq nəzəriyyəsində məhz iddia müddəti ötürülmüş və mərc oyunları ilə bağlı yaranan öhdəliklər natural öhdəliklərin nümunələri kimi göstərilir.

Göründüyü kimi, natural öhdəliklərin iki əsas əlaməti mövcuddur:

- borclu tərəfindən öhdəliklərin icra edilməməsi halında kreditorun tələbinin məhkəmə müdafiəsi (iddia qaldırmaq hüququ) ilə təmin edilməməsi;
- borclu tərəfindən icra edilmişlərin geri tələb edilməsinin yolverilməzliyi.

...

Göstərilənləri nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Mülki Məcəllənin 551-ci maddəsi ilə nəzərdə tutulan "bütün tələblər on il (adi müddət) keçdikdən sonra qüvvəsini itirir" və "aşağıdakı tələblər beş il keçdikdən sonra qüvvəsini itirir" ifadələrində tələb dedikdə, məhz cavabdeh üçün tanınan prosessual müdafiə vasitəsi olaraq öhdəliklərin məhkəmə qaydasında məcburi icrası ilə bağlı tələblər nəzərdə tutulur. Odur ki, bu müddətlər (551.2.4-cü maddə ilə nəzərdə tutulmuş müddət istisna olmaqla) iddia müddətləri olaraq qəbul edilməlidir. Ümumiyyətlə isə Mülki Məcəllənin 551.2.4-cü maddəsi xaricində, Məcəllənin 27-ci fəslinin 5-ci paraqrafı ilə nəzərdə tutulan müddətlər iddia müddətləridir."

20. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarları

"Stanyo Belçikaya qarşı" iş üzrə 07.07.2009-cu il tarixli Qərar:

"Qanunvericilikdə müəyyən olunan iddia müddətinin məqsədi hüquqi müəyyənlikdir. Belə ki, potensial cavabdehləri vaxtı ötmüş tələblərdən qoruyur və məhkəmələri müəyyən zaman keçdikdən sonra qeyri-müəyyən və natamam sübutlara əsaslanmaqla qərar çıxarmaq zərurətindən azad edir."

"Stubbings və başqaları Birləşmiş Krallığa qarşı" iş üzrə 22.10.1996-cı il tarixli Qərar:

"İddia müddəti ilə bağlı məhdudiyyətlər bir neçə vacib məqsədə xidmət edir. Yəni, hüquqi müəyyənliyi və qətiliyi təmin edir, cavabdehi "köhnəlmiş" tələblərdən müdafiə edir və məhkəmənin uzaq keçmişdə baş verən hadisələr ilə bağlı, zaman keçdiyindən natamam və etibar doğurmayan sübutlar əsasında qərar qəbul edəcəyi təqdirdə yarana bilən ədalətsizliyin qarşısını alır".

KASSASİYA BAXIŞININ HƏDLƏRİ

21. Kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilib, işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

22. Kassasiya şikayətində qətnamənin ləğvi xahiş edildiyi üçün, apellyasiya instansiyasının yekun məhkəmə aktı şikayətdə irəli sürülən dəlillər üzrə tam yoxlanılır.

23. Məhkəmə kollegiyası hüququn inkişafının və ya məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi üçün əhəmiyyətli hesab etmədiyindən, kassasiya şikayətinə yazılı icraat qaydasında baxmışdır.

KASSASİYA İNSTANSİYASI MƏHKƏMƏSİNİN MÖVQEYİ

24. Məhkəmə kollegiyası hesab edir ki, apellyasiya instansiyası məhkəməsi tərəfindən mübahisəli hüquq münasibətini tənzimləyən maddi hüquq normaları düzgün tətbiq olunmuşdur. Həmçinin, iş üzrə düzgün qətnamə qəbul edilməməsi ilə nəticələnən prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması halları müəyyən edilmir. Bu baxımdan, apellylasiya instansiyası məhkəməsinin qətnaməsinin tam yaxud qismən ləğv olunması və ya dəyişdirilməsi üçün əsas yoxdur.

25. Apellyasiya instansiyası məhkəməsi tərəfindən işin faktiki halları və apellyasiya şikayətinin dəlilləri üzrə lazımi araşdırma aparılmış, sübutetmə yükü düzgün bölüşdürülmüş, sübutlara hüquqi qiymət verilmişdir.

26. Məhkəmə kollegiyası, ilk olaraq, qeyd edir ki, mülki hüquq münasibətlərinin əhatəli və aparıcı sahələrindən biri öhdəlik hüququdur. Öhdəlik isə iqtisadi dövriyyə iştirakçılarının öhdəlik hüququ normaları ilə tənzimlənən qarşılıqlı əlaqələridir.

27. Mülki Məcəllənin 385.1-ci maddəsinə görə, öhdəliyə əsasən bir şəxs (borclu) başqa şəxsin (kreditorun) xeyrinə müəyyən hərəkəti etməlidir, məsələn, pul ödəməli, əmlak verməli,

iş görməli, xidmətlər göstərməli və ya müəyyən hərəkətdən çəkinməlidir, kreditorun isə borcludan vəzifəsinin icrasını tələb etmək hüququ vardır.

28. Maddənin mətnindən göründüyü kimi, öhdəliyin predmetini pulun ödənilməsi, əmlakın verilməsi, işin görülməsi, xidmətlərin göstərilməsi və ya müəyyən hərəkətdən çəkinmək kimi konkret hərəkət və ya hərəkətsizlik təşkil edir.

29. Mülki Məcəllənin 386.1-ci maddəsi bəzi istisnalarla, öhdəliyin əmələ gəlməsi üçün onun iştirakçıları arasında müqavilənin bağlanmalı olduğunu müəyyən edir. Həmin maddədə nəzərdə tutulmuşdur ki, öhdəliyin zərər vurulması, əsassız varlanma və ya bu Məcəllədə nəzərdə tutulmuş digər əsaslar nəticəsində əmələ gəlməsi halları istisna olmaqla, öhdəliyin əmələ gəlməsi üçün onun iştirakçıları arasında müqavilə olmalıdır, yəni borclunun kreditor qarşısında olan öhdəliyi müqavilə ilə müəyyən edilməlidir.

30. Müqavilənin anlayışı Mülki Məcəllənin 389.1-ci maddəsində verilmişdir. Həmin maddəyə uyğun olaraq, mülki hüquq və vəzifələrin müəyyənləşdirilməsi, dəyişdirilməsi və ya xitamı haqqında iki və ya bir neçə şəxsin razılaşması müqavilə sayılır.

31. Mülki Məcəllənin 405.1-ci maddəsinə görə, tərəflər müqavilənin bütün şərtləri barəsində tələb olunan formada razılığa gəldikdə müqavilə bağlanmış sayılır.

32. Borc müqaviləsinin anlayışına aydınlıq gətirən Mülki Məcəllənin 739.1-ci maddəsinə əsasən, iştirakçılardan biri (borc verən) pula və ya digər əvəz edilən əşyalara mülkiyyət hüququnu digər iştirakçıya (borc alana) keçirməyi öhdəsinə götürür, digər iştirakçı (borc alan) isə aldıqlarını müvafiq olaraq pul və ya eyni keyfiyyətdə və miqdarda olan eyni növlü əşyalar şəklində borc verənə qaytarmağı öhdəsinə götürür.

33. Həmin Məcəllənin 739.2-ci maddəsinə görə isə borc müqaviləsinin predmeti hər hansı pul məbləği olduqda, o, kredit müqaviləsi adlandırılır. Müstəqil peşə fəaliyyəti şəklində pul borc verməklə məşğul olan şəxslər əlavə olaraq peşəkarlıq qaydasında kreditlər verilməsi haqqında müddəaları gözləməlidirlər.

34. Kredit müqaviləsi ikitərəfli müqavilələrdən olub, bağlanması ilə hər iki tərəf, yəni həm kredit alan, həm də kredit verən üçün müəyyən vəzifələr yaratmış olur. Kredit müqaviləsinə əsasən, kreditor müqavilə ilə nəzərdə tutulmuş həcmdə və şərtlərdə pulun (kreditin) borcluya verilməsi öhdəliyini, borclu isə bu məbləğin qaytarılması və faizlərin ödənilməsi öhdəliyini öz üzərinə götürür.

35. Müqavilələrdən irəli gələn öhdəliklərin vicdanla yerinə yetirilməsi, ilk növbədə, tərəflərin qanuni maraqlarına və mülki dövriyyənin sabitliyinə xidmət edir. Kredit müqaviləsi üzrə öhdəliklərin vaxtında icra edilməsi də qeyd edilən məqsədlərlə yanaşı, banklara göstərilən etimadın artmasına müsbət təsir göstərməklə, dövlətin iqtisadi-maliyyə vəziyyətinin stabilliyini və inkişafını təmin edir.

36. Bu kontekstdə, məhkəmə kollegiyası kredit müqaviləsi üzrə öhdəliklər tam yaxud qismən yerinə yetirilməsə də, iddia müddətinin keçməsi ilə əlaqədar həmin əsas öhdəlik üzrə tələb rədd edildiyi halda, əlavə tələblərin də iddia müddəti keçməsi əsası ilə rədd edilib-edilməməli olması məsələsinə münasibətdə bildirir ki, iddia müddəti institutu tələb haqlarına şamil olunmaqla mülki münasibət iştirakçılarına pozulmuş hüquqlarının məhkəmə vasitəsi ilə müdafiəsi (borclunun öhdəliyini icra etməyə məcbur edilməsi) imkanının müəyyən müddət (zaman kəsiyi) ilə məhdudlaşdırılmasını nəzərdə tutur.

37. Vurğulanmalıdır ki, iddia müddəti öhdəliyin aradan qalxması üçün hüquqi əsas deyil, iddia müddətinin keçməsi öz-özlüyündə kreditorun tələb hüququnu aradan qaldırmır.

38. Məlum olduğu kimi, öhdəlik, mülki hüquq münasibətlərinin iştirakçıları olan kreditor və borclu arasında subyektiv mülki hüquq və vəzifələr yaradır.

39. Qüvvədə olan qanunvericiliyə əsasən öhdəliklərin mövcud olması hər hansı bir müddətlə məhdudlaşmır. Yəni, müəyyən bir müddət üçün nəzərdə tutulmayan öhdəliklər hər hansı bir müddətin keçməsi səbəbilə aradan qalxmır. Bu səbəbdəndir ki, iddia müddəti keçmiş

olsa da, tələb məhkəmədə baxılmağa qəbul edilir və məhkəmənin öz təşəbüsü ilə deyil, yalnız mübahisə tərəfinin məhkəmə qərarı çıxarılanadək verdiyi ərizə əsasında tətbiq edilir.

40. İddia müddətinin keçməsi özlüyündə öhdəliyin xitamına səbəb olmur ki, Mülki Məcəllənin 383-cü maddəsinə əsasən, borclu və ya digər mükəlləfiyyətli şəxs vəzifəsini iddia müddəti bitdikdən sonra icra etmişsə, icra zamanı icra müddətinin bitdiyini bilməmiş olsa da, icra etdiyini geri tələb edə bilməz.

41. İddia müddətinin keçməsi tələb hüququnun özünün deyil, bu hüququn səlahiyyətli orqan vasitəsi ilə məcburi qaydada həyata keçirilməsi imkanının xitamına səbəb olur (Konstitusiya Məhkəməsi Plenumunun B.Mürsəlovun şikayəti üzrə 2020-ci il 12 mart tarixli Qərarı).

42. İddia müddəti hüquqi təyinat və mahiyyəti etibarı ilə haqların və öhdəliklərin mövcud olması və onların aradan qalxması ilə bağlı olmayıb, borclunun özünü müdafiəsi üçün nəzərdə tutulmuş mülki hüquqi vasitədir. Qanunvericilik mülki münasibət iştirakçılarının pozulmuş hüquqlarının məhkəmə vasitəsi ilə müdafiəsinə müvafiq müddətlər daxilində təminat verir.

43. Əsas öhdəlik üzrə iddia müddətinin keçməsi səbəbindən onun məcburi qaydada yerinə yetirilməsi ilə bağlı məhkəmədə irəli sürülmüş tələbin təmin edilməsinin qeyrimümkünlüyü halında, əlavə tələbin hüquqi müqəddəratı ilə bağlı məsələyə aydınlıq gətirilməsi üçün bu institutun mahiyyətinə nəzər yetirilməlidir.

44. Bu baxımdan, mülki hüquq subyektlərinin başqa bir hüquqa malik olması əsası ilə sahib olduqları hüquqlar asılı (əlavə) hüquqlardır. Mülki Məcəllənin 269.5-ci və 376-cı maddələrində başqa hüquqlara bağlı olaraq əmələ gələn və əldə edilə bilən hüquqlar əlavə hüquqlar şəklində ifadə olunub (§17).

45. Bir şəxsin başqa hüquqa sahib olması səbəbilə deyil, birbaşa malik olduğu hüquqlar isə əsas və ya müstəqil hüquqlar adlanır. Adi halda hüquqlar əsas (müstəqil) hüquq mahiyyətində olur və buna görə də Mülki Məcəllədə bu hüquqlar üçün xüsusi addan istifadə olunmamışdır.

46. Qeyd olunanlardan anlaşıldığı kimi, əlavə (asılı) hüquqların sübyekti ola bilmək üçün hansısa əsas (müstəqil) hüquqa malik olmaq lazımdır. Misal üçün, girovla, zaminliklə, faizlə bağlı olan hüquqların yaranması üçün şəxs əvvəlcə əsas (müstəqil) bir alacaq (tələb) hüququna malik olmalıdır.

47. Əlavə (asılı) hüquqlar həm qanundan, həm də müqavilədən irəli gələ bilər. Məsələn, müqavilə üzrə faizlər, zaminlik, girov və sair hüquqlar müqavilələrdən əmələ gəlir.

48. Bundan fərli olaraq, iddiaçının kassasiya şikayətində istinad etdiyi Mülki Məcəllənin 445.7-ci maddəsində təsbit olunan faizi tələb etmə hüququ qanundan irəli gəlir.

49. Məhkəmə kollegiyası qeyd edir ki, Mülki Məcəllənin 445.7-ci maddəsi ilə müəyyən edilən faiz əslində pul məbləğinin ödənilməsini gecikdirən borclunun gecikdirmə nəticəsində vurduğu zərərin əvəzinin ödənilməsi məqsədilə kreditorun tələb etdiyi pul kompensasiyasıdır.

50. Həmin maddənin dispozisiyasından da görünür ki, norma ilə nəzərdə tutulan hüquqi nəticənin gerçəkləşməsi borclunun (hazırkı işdə Cavabdeh 1-in) pul məbləğinin (kredit müqaviləsi üzrə borcunun) ödənilməsini gecikdirməsindən, yəni, əsas müqavilə tələbi üzrə öhdəliyin icrasından asılıdır. Başqa sözlə, borclu Cavabdeh 1-in kredit müqaviləsi üzrə əsas borc öhdəliyinin icrası hər hansı (iş üzrə iddia müddətinin keçməsi) səbəbdən tələb edilə bilmirsə, o halda iddiaçı eyni (iş üzrə iddia müddətinin keçməsi) əsası ilə həmin tələbə əlavə və ondan bilavasitə asılı olan zərərin əvəzinin ödənilməsini də tələb edə bilməz. Belə ki, Mülki Məcəllənin 445.7-ci maddəsi borclunu intizamlandırmaq, pul məbləğinin ödənilməsini gecikdirdikdə, kreditorun hər bir halda ondan gecikdirilmiş vaxt üçün minimum illik beş faiz həddində zərər tələb edə biləcəyini əvvəlcədən nəzərinə çatdıraraq, onu daha ağır sanksiyalardan çəkindirmək funksiyası daşıyır.

51. Məhkəmə kollegiyası bu qaydada nəticəyə gələrkən Mülki Məcəllənin 554.3-cü maddəsinin (§17) də Konstitusiya Məhkəməsi Plenumunun 15.02.2023-cü il tarixli Qərarında (§19) verilən şərh rəhbər tutulmaqla təfsir edilməli olduğunu xüsusi qeyd edir.

52. Həmçinin, sözügedən nəticə Konstitusiya Məhkəməsi Plenumunun 11.02.2022-ci il tarixli Qərarında (§19) əlavə (müstəqil olmayan) öhdəliklərin əsas öhdəliklərdən asılılığı və əsas öhdəlik üzrə pozulmuş hüquqların məhkəmə qaydasında bərpası imkanı məhkəmə tərəfindən Mülki Məcəllənin 375.2-ci maddəsi tətbiq edilərək aradan qalxarsa, bu halda əsas öhdəliyin təminatı olan əlavə hüquqlar üzrə də pozulmuş hüquqların məhkəmə qaydasında müdafiə imkanının itirilmiş olması barədə hüquqi mövqeyinə uyğundur.

53. Bu anlamda, məhkəmə kollegiyası kassasiya şikayətinin ikinci dəlilini əsassız sayır.

54. Şikayətin birinci dəlili də əsaslı deyil. Belə ki, müqavilənin qüvvədə olma müddəti ilə həmin müqavilədən irəli gələn öhdəliklərin tam icrası müddəti eyni anlayışlar deyil.

Mülki Məcəllənin 399-cu maddəsində göstərilmişdir ki, müqavilədə nəzərdə tutula bilər ki, müqavilənin qüvvədə olma müddətinin qurtarması tərəflərin müqavilə üzrə öhdəliklərinin xitamına səbəb olur. Belə şərtin olmadığı müqavilə öhdəliyin icrasının qurtarmasının həmin müqavilədə müəyyənləşdirilmiş anına qədər qüvvədə sayılır (399.3). Müqavilənin qüvvədə olma müddətinin qurtarması tərəfləri müqavilənin həmin müddət qurtarana qədər yol verilmiş pozulmasına görə məsuliyyətdən azad etmir (399.4). Bu baxımdan, kredit münasibətləri müddətlidir və həyata keçirilmə müddəti vaxt çərçivəsi ilə təyin olunmuş müqavilə münasibətləridir. Kredit müqaviləsində müəyyənləşdirilmiş öhdəliklər, yəni əsas borcun ödənişləri ilə bağlı öhdəliklərin və kredit müqaviləsi üzrə faizlərin ödənilməsi ilə bağlı öhdəliklərin yerinə yetirilmə müddəti müqavilədə əvvəlcədən nəzərdə tutulmuş qaydaya uyğun olaraq müəyyən olunur ki, iddia müddətinin axımı da məhz müqavilə ilə bütün öhdəliklərin yerinə yetirilmə müddətinin nəzərdə tutulduğu son tarixdən hesablanır.

55. Bununla əlaqədar Konstitusiya Məhkəməsinin Plenumu da “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 399.3, 399.4, 445 və 449-cu maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair” 24.12.2014-cü il tarixli Qərarında qeyd etmişdir ki, “müqavilənin qüvvədə olma müddətinin bitməsinə baxmayaraq, müqavilə tərəflərinin qarşılıqlı hüquq bağlılığı davam edir və MM-in 399.4-cü maddəsinə əsasən müqavilənin qüvvədə olma müddətinin qurtarması tərəfləri müqavilənin həmin müddət qurtarana qədər yol verilmiş pozulmasına görə məsuliyyətdən azad etmir. Bu isə MM-in “Öhdəliklərin icra edilməməsi” adlanan 22-ci Fəslində və “Öhdəliklərin icra edilməməsi üçün məsuliyyət” adlanan 23-cü Fəslində müəyyən edilmiş müddəaların tətbiq edilməsini tələb edir.

Kredit müddəti ilə bağlı isə nəzərə alınmalıdır ki, bu müddət müvafiq öhdəliyin əmələ gəlməsi, zərurət olduqda ona xitam verilməsi və öhdəliyin icrasının gecikdirilməsi baxımından əhəmiyyət kəsb edir. Kredit müqaviləsi üzrə tərəflər arasında hüquq və vəzifələrin müəyyən bir anda əmələ gəlməsinə dair əldə olunan razılaşma borc alanın və borc verənin hansı andan etibarən, yaxud hansı ana qədər müəyyən hərəkətləri etməli olmaları, yaxud edə bilmələri ilə bağlıdır (borc alanın borcun ödənilməsini tələb edə bilməsi; borc verənin borcun götürülməsini tələb edə bilməsi; borc alanın kredit məbləğini müvafiq qrafik üzrə hissələrlə, yaxud birdəfəlik ödəmə şəklində həyata keçirməsi).

MM-in 399.3-cü maddəsinə əsasən müqavilədə nəzərdə tutula bilər ki, müqavilənin qüvvədə olma müddətinin qurtarması tərəflərin müqavilə üzrə öhdəliklərinin xitamına səbəb olur. Belə şərtin olmadığı müqavilə öhdəliyin icrasının qurtarmasının həmin müqavilədə müəyyənləşdirilmiş anına qədər qüvvədə sayılır.

Göründüyü kimi, bu normanın birinci cümləsi müqavilənin qüvvədə olma müddətinin bitməsini, ikinci cümləsi isə müqavilədən yaranan öhdəliklərin qüvvədə olma müddətini tənzimləyir. Həmin norma müqavilədən yaranan öhdəliklərin icra olunma anına qədər müqavilənin qüvvədə olması prezumpsiyasına əsaslanır. Bu prezumpsiya isə “öhdəliklər vicdanla yerinə yetirilməlidir” (pacta sunt servanda) hüquqi prinsipindən yaranır. Belə ki,

müqavilənin qüvvədə olma müddətinin qurtarması və bununla əlaqədar müqavilə üzrə öhdəliklərin də xitamı şərtləri müqavilədə dəqiq göstərilməlidir. Əks təqdirdə, MM-in 399.3-cü maddəsində qeyd olunduğu kimi, belə şərtin olmadığı müqavilə öhdəliyin icrasının qurtarmasının həmin müqavilədə müəyyənləşdirilmiş anına qədər qüvvədə sayılır."

56. Beləliklə, mülki işə kassasiya qaydasında baxan məhkəmə kollegiyası yuxarıda qeyd olunanlara məcmu halda hüquqi qiymət verərək hesab edir ki, kassasiya şikayəti təmin edilməməli, apellyasiya instansiyası məhkəməsinin qətnaməsi dəyişiklik edilmədən saxlanılmalıdır.

57. Göstərilənlərə əsasən və MPM-in 416, 417 və 419-cu maddələrini rəhbər tutaraq, məhkəmə kollegiyası

QƏRARA ALDI:

Gəncə Apellyasiya Məhkəməsi Mülki Kollegiyasının 2(104)-1001/2023 nömrəli iş üzrə 14 aprel 2023-cü il tarixli qətnaməsi dəyişiklik edilmədən saxlanılsın.

Kassasiya şikayəti təmin edilməsin.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

22. 2(102)-2911/2023 nömrəli, 2023-cü il 2 oktyabr tarixli qərar - İddia müddəti fərdi müdafiə vasitəsi kimi

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: iddia müddəti fərdi müdafiə vasitəsi kimi.

Kredit müqaviləsi üzrə öhdəlik icra edilməsi barədə birgə borclulara (borcalan və zamin) qarşı irəli sürülmüş müştərək tələb üzrə birgə borclulardan biri tərəfindən verilmiş iddia müddətinin tətbiqi barədə ərizənin bütün borclular üçün ortaq müdafiə vasitəsi olub-olmaması;

Zamin tərəfindən verilmiş iddia müddətinin tətbiqi barədə ərizənin hüquqi əhəmiyyəti, zaminliyə xitam verilməsi ilə bağlı kəsici müddətlərin tətbiqi.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

İddia müddəti birgə borclular üçün ortaq müdafiə vasitəsi deyil. Bu imkandan sadəcə müddətin tətbiqi haqqında ərizə vermiş cavabdeh yararlana bilər. Odur ki, cavabdehlərdən birinin iddia müddətinin tətbiq edilməsi barədə ərizə verməsi, bu barədə ərizə verməmiş cavabdehə qarşı iddianın rədd edilməsinə əsas ola bilməz.

Mülki qanunvericiliyə əsasən kredit müqavilələri üzrə bir qayda olaraq, zaminin iddia müddətini tətbiq etmək ehtiyacı yaranmır. Ona görə ki, müqavilədən irəli gələn üç illik iddia müddətinin axımı başlandığı vaxtdan həm də zaminliyə xitam verilməsi üçün qanunla müəyyən edilmiş bir və ya iki illik müddətin axımı hesablanır. Dolayısı ilə, əgər tərəflər başqa qaydada razılaşmamışlarsa, iddia müddəti keçənədək zaminliyə kəsici müddətin bitməsinə görə xitam verilir və ona münasibətdə kreditorun tələb hüququ aradan qalxır. Zaminin bu halı iddiaya qarşı etiraz kimi irəli sürmək imkanına malik olduğu halda, onun müdafiə vasitəsi kimi iddia müddətindən istifadə etməsinin hüquqi baxımdan əhəmiyyəti qalmır.

Kassasiya instansiyası məhkəməsinin qərarı Mülki Məcəllənin 373.2, 387.1, 474.1, 477.0.4, 512-ci maddələrinə istinadla əsaslandırılmışdır.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-2911/2023

02.10.2023-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi
Mülki kollegiyasının

İddiaçı «XXXX» Açıq Səhmdar Cəmiyyətinin cavabdehlər Cavabdeh 1 və Cavabdeh 2-yə qarşı iş üzrə

Q Ə R A R I

(Açar sözlər: müddətin keçməsinə görə zaminliyə xitam verilməsi,
iddia müddəti fərdi müdafiə vasitəsidir)

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Əliyev Zaur Əli oğlu (məruzəçi), Abbasov Aqil Əzizağa oğlu və Məmmədov Vidadi Məmməd oğlundan ibarət tərkibdə,

Gəncə Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(104)-975/2023 nömrəli, 13 aprel 2023-cü il tarixli qətnaməsindən iddiaçı «XXXX» ASC tərəfindən verilmiş kassasiya şikayətinə Ali Məhkəmənin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları

1. Mübahisəyə mahiyyəti üzrə baxan məhkəmələr işin hallarını araşdıraraq aşağıdakıları müəyyən etmişlər:

2. «XXXX» İKB Açıq Səhmdar Cəmiyyəti ilə Cavabdeh 1 arasında bağlanmış 20 iyun 2013-cü il tarixli, **-M-*-*-***-** nömrəli kredit müqaviləsinə görə illik 28% borc faizləri ödəməsi şərtilə, 24 ay müddətinə 5.000 ABŞ dolları məbləğində kredit vermişdir;

3. 20 iyun 2013-cü il tarixli kassa məxaric orderinin surətinə görə Cavabdeh 1 «XXXX» İKB Açıq Səhmdar Cəmiyyətindən 20 iyun 2013-cü il tarixdə 5.000 ABŞ dolları məbləğində pul vəsaitini almışdır;

4. 20 iyun 2013-cü tarixli, **-M-*-*-***-** saylı zaminlik müqaviləsinə əsasən Cavabdeh 2 Cavabdeh 1-in eyni tarixli kredit müqaviləsi üzrə öhdəliklərinin icrasına zaminliyi öz öhdəsinə götürmüşdür;

5. «XXXX» Açıq Səhmdar Cəmiyyəti tərəfindən verilmiş 20 iyun 2013-cü il tarixli kredit müqaviləsi üzrə maliyyə arayışına əsasən, Cavabdeh 1-in «XXXX» Açıq Səhmdar Cəmiyyətinə borcu ödənilməmiş əsas borcun əvəzi qismində 1.993 ABŞ dolları 34 sent, 30 sentyabr 2022-ci il tarixə hesablanmış və ödənilməmiş faiz borcu qismində 3.085 ABŞ dolları 15 sent, cərimə qismində 2.875 ABŞ dolları 88 sent, müqavilənin bitdiyi tarixdən – 20 iyun 2015-ci il tarixdən 30 sentyabr 2022-ci tarixədək əsas borca illik 5 faizi dərəcəsi ilə hesablanmış faiz borcunun əvəzi qismində 974 ABŞ dolları 35 sent, cəmi 8.928 ABŞ dolları 72 sent təşkil edir.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a) Birinci instansiya məhkəməsində icraat

6. İddiaçı cavabdehlərə qarşı iddia ərizəsi ilə Gəncə Şəhər Məhkəməsinə müraciət edərək, Cavabdeh 1-dən və Cavabdeh 2-dən müştərək qaydada «XXXX» ASC-nin xeyrinə 20 iyun 2013-cü il tarixli kredit müqaviləsi üzrə banka 1.993.34 ABŞ dolları əsas borc, 3.085.15 ABŞ dolları faiz borcu, 2.875.88 ABŞ dolları cərimə, kredit müqaviləsi üzrə 20 iyun 2015-ci il tarixdən, 30 sentyabr 2022-ci il tarixədək gecikdirilmiş vaxt üçün illik 5 faizlə hesablanmış 974.35 ABŞ dolları əldən çıxmış fayda olmaqla, ümumilikdə cəmi 8.928.72 ABŞ dolları borcun və 135.54 manat ödənilmiş dövlət rüsumunun tutulması barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

7. İddiaçı işin yuxarıda qeyd edilən faktiki hallarına istinad etməklə tələbini belə əsaslandırmışdır ki, borclu müqavilənin şərtlərini pozaraq, borc öhdəliyini icra etməkdən boyun qaçırmışdır. 30 sentyabr 2022-ci il tarixədək Cavabdeh 1-in iddiaçı Banka 20 iyun 2013-cü il tarixli kredit müqaviləsi üzrə əsas borcun əvəzi qismində 1.993 ABŞ dolları 34 sent, faiz borcu qismində 3.085 ABŞ dolları 15 sent, cərimə qismində 2.875 ABŞ dolları 88 sent, müqavilənin bitdiyi tarixdən – 20 iyun 2015-ci il tarixdən 30 sentyabr 2022-ci tarixədək əsas borca illik 5 faizi dərəcəsi ilə hesablanmış faiz borcunun əvəzi qismində 974 ABŞ dolları 35 sent, cəmi 8.928 ABŞ dolları 72 sent olmaqla borcu yaranmışdır.

8. Cavabdeh 2 məhkəmə iclasında iddianı qəbul etməyərək, bildirmişdir ki, iddiaçı «XXXX» Açıq Səhmdar Cəmiyyətinin onlara qarşı qaldırdığı pul tələbinə dair iddia onlarla bank arasında 20 iyun 2013-cü il tarixdə bağlanmış kredit müqaviləsi ilə bağlıdır. Həmin müqavilə 24 ay müddətinə bağlanmışdır. Qeyd olunan müqavilənin icra müddətinin bitməsindən artıq 7 il keçmişdir. Buna görə də iddiaçı «XXXX» Açıq Səhmdar Cəmiyyətinin hazırki iddiası üzrə iddia müddəti ötürülmüşdür. Sonda Cavabdeh 2 iddia müddəti

ötürüldüyünə görə iddianın təmin olunmamasını məhkəmədən xahiş etmiş və bu barədə ərizə vermişdir.

9. Gəncə Şəhər Məhkəməsinin (bundan sonra – birinci instansiya məhkəməsi) 12.01.2023-cü il tarixli, 2(125)-477/2023 nömrəli qətnaməsi ilə (sədrlik edən C.Y.Quliyev) iddia rədd edilmişdir.

10. Birinci instansiya məhkəməsi gəldiyi nəticə ilə bağlı qeyd etmişdir ki, İddiaçı «XXXX» Açıq Səhmdar Cəmiyyəti 20 iyun 2013-cü il tarixli, 10-M-1-0-929-13 saylı kredit müqaviləsi üzrə Cavabdeh 1 və Cavabdeh 2-yə qarşı öhdəliklərin icrası üçün nəzərdə tutulmuş müddətdən 7 il 4 ay 5 gün sonra məhkəmədə iddia qaldırmaqla iddia müddətini ötürmüş, iddia müddətini buraxmasının üzrlü səbəbdən olmasına dair heç bir mötəbər dəlili məhkəməyə təqdim etməmişdir.

11. Məhkəmə gəldiyi nəticəni Mülki Məcəllənin 385.1, 389.1, 373.2, 377.1 maddələrinə, «Azərbaycan Respublikası Mülki Məcəlləsinin 399.3, 399.4, 445 və 449-cu maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair» Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 24 dekabr 2014-cü il tarixli, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra – MPM) 14.2, 77.1 və 217.4cü maddələrinə istinadla əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsindəki birinci icraat

12. İddiaçı apellyasiya şikayəti verərək qətnamənin ləğv edilməsi və iddianın təmin edilməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

13. Apellyasiya şikayəti onunla əsaslandırılmışdır ki, kredit müqaviləsi üzrə öhdəliyin icrası vaxtı 20.06.2015-ci il tarixdə başa çatsa da, lakin borclu öhdəliyini tam şəkildə yerinə yetirməmiş və belə olan halda kredit müqaviləsi qüvvədə sayılır. Belə ki, “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 399.3, 399.4, 445 və 449-cu maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair” Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 24.12.2014-cü il tarixli qərarında ifadə edilmiş hüquqi mövqeyə görə, müqavilənin qüvvədə olma müddətinin bitməsinə baxmayaraq, müqavilə tərəflərinin qarşılıqlı hüquq bağlılığı davam edir və MM-in 399.4-cü maddəsinə əsasən müqavilənin qüvvədə olma müddətinin qurtarması tərəfləri müqavilənin həmin müddət qurtarana qədər yol verilmiş pozulmasına görə məsuliyyətdən azad etmir. Kredit müddəti ilə bağlı isə nəzərə alınmalıdır ki, bu müddət müvafiq öhdəliyin əmələ gəlməsi, zərurət olduqda ona xitam verilməsi və öhdəliyin icrasının gecikdirilməsi baxımından əhəmiyyət kəsb edir. Kredit müqaviləsi üzrə tərəflər arasında hüquq və vəzifələrin müəyyən bir anda əmələ gəlməsinə dair əldə olunan razılaşma borc alanın və borc verənin hansı andan etibarən, yaxud hansı ana qədər müəyyən hərəkətləri etməli olmaları, yaxud edə bilmələri ilə bağlıdır (borc alanın borcun ödənilməsini tələb edə bilməsi; borc verənin borcun götürülməsini tələb edə bilməsi; borc alanın kredit məbləğini müvafiq qrafik üzrə hissələrlə, yaxud birdəfəlik ödəmə şəklində həyata keçirməsi). Bundan əlavə, iddia tələbinin bir hissəsini kredit müqaviləsi üzrə 20.06.2015-ci il tarixdən, 30.09.2022-ci il tarixədək gecikdirilmiş vaxt üçün illik 5 % faizlə hesablanmış 974.35 ABŞ dolları məbləğində əldən çıxmış fayda olmaqla zərər təşkil etmiş, birinci instansiya məhkəməsi isə iddia tələbinin bu hissəsinə də 3 illik iddia müddəti tətbiq etmişdir. Halbuki, iddiaçı olaraq tələb etdikləri illik 5 % pul tələbi kredit müqaviləsindən irəli gələn tələb olmamışdır. İşin faktiki hallarından göründüyü kimi, cavabdeh öz üzərinə götürmüş öhdəliyi tam şəkildə yerinə yetirməyərək gecikməyə yol vermiş və bundan sonra Bankın gecikdirilmiş vaxt üçün faiz tələb etmək hüququ yaranmışdır.

14. Gəncə Apellyasiya Məhkəməsi Mülki kollegiyasının (bundan sonra – apellyasiya instansiya məhkəməsi) 2(104)-975/23 nömrəli iş üzrə 13 aprel 2023-cü il tarixli qətnaməsi ilə (hakimlər L.S.Süleymanov - sədrlik edən və məruzəçi, İ.T.Həsənov və Ş.Q.Rzaquliyev) iddiaçının apellyasiya şikayəti təmin edilməmiş, birinci instansiya məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmışdır.

15. Məhkəmə qeyd etmişdir ki, hazırkı iddia tələbi üzrə iddia müddəti ötürüldüyündən, birinci instansiya məhkəməsi düzgün olaraq, hazırkı mübahisəyə iddia müddəti tətbiq edilməklə, iddia tələbini rədd etmişdir. Apellyasiya kollegiyası iddiaçının tələb etdiyi illik 5% pul tələbinin kredit müqaviləsindən irəli gələn tələb olmaması, kreditorun bu tələbi irəli sürməsinin müqavilədən yox, qanundan irəli gəlməsinə dair dəlillərini də əsassız saymış və qeyd edmişdir ki, iddiaçının sözügedən tələbinin əsası Mülki Məcəllənin 445.7-ci maddəsinə söykənmişdir ki, həmin maddə borclunun müqavilə üzrə öhdəliklərinin icrasını gecikdirməsi zamanı faiz qismində tətbiq edilən sanksiyanı nəzərdə tutur. Bu isə o deməkdir ki, həmin tələb də kredit müqaviləsi üzrə öhdəliyin yerinə yetirilməməsi səbəbindən, müqavilə tələblərinin pozulması əsası ilə əlavə tələb kimi irəli sürülmüşdür. Əlavə tələb də əsas tələbdən törəyir və onu təmin edir. Əsas tələb üzrə iddia müddəti keçmişsə, onda əlavə tələb üzrə iddia müddəti də ötmüş hesab edilir.

16. Məhkəmə kollegiyası mövqeyini hüquqi cəhətdən əsaslandırarkən MM-nin 372.2, 373.2, 377.1, 375.2-ci maddələrinə istinad etmişdir.

Kassasiya şikayətinin və ona etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

17. İddiaçı kassasiya şikayəti verərək qətnamənin ləğv edilməsini və işin yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə qaytarılması barədə yeni qərar çıxarılmasını xahiş etmişdir.

18. Kassasiya şikayəti onunla əsaslandırılmışdır ki, Konstitusiya Məhkəməsinin Plenumunun mövqeyinə görə MM-in 399.3-cu maddəsinə əsasən müqavilədə nəzərdə tutula bilər ki, müqavilənin qüvvədə olma müddətinin qurtarması tərəflərin müqavilə üzrə öhdəliklərinin xitamına səbəb olur. Belə şərtin olmadığı müqavilə öhdəliyin icrasının qurtarmasının həmin müqavilədə müəyyənləşdirilmiş anına qədər qüvvədə sayılır. Göründüyü kimi, bu normanın birinci cümləsi müqavilənin qüvvədə olma müddətinin bitməsini, ikinci cümləsi isə müqavilədən yaranan öhdəliklərin qüvvədə olma müddətini tənzimləyir. Həmin norma müqavilədən yaranan öhdəliklərin icra olunma anına qədər müqavilənin qüvvədə olması prezumpsiyasına əsaslanır. Bu prezumpsiya isə "öhdəliklər vicdanla yerinə yetirilməlidir" (pacta sunt servanda) hüquqi prinsipindən yaranır. Belə ki, müqavilənin qüvvədə olma müddətinin qurtarması və bununla əlaqədar müqavilə üzrə öhdəliklərin də xitamı şərtləri müqavilədə dəqiq göstərilməlidir. Əks təqdirdə, MM-in 399.3-cü maddəsində qeyd olunduğu kimi, belə şərtin olmadığı müqavilə öhdəliyin icrasının qurtarmasının həmin müqavilədə müəyyənləşdirilmiş anına qədər qüvvədə sayılır. Bundan əlavə öhdəliyin icrası vaxtı 20 iyun 2015-ci il ildə başa çatmışdır, ona görə də, birinci instansiya məhkəməsində "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 373.2 və 384.0.4-cü maddələrinin şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun 03.06.2013-cü il tarixli qərarına istinad edərək iddianın tam rədd edilməsi ilə bağlı qənaət formalaşmışdır, onda məhkəmə yenə də maddi hüquq normasının pozuntuna yol vermişdir. Həmçinin iddiaçı olaraq tələb etdikləri illik 5 faiz pul tələbi kredit müqaviləsindən irəli gələn tələb olmamışdır. Kredit müqaviləsinin şərtlərinə əsasən verilmiş pulun faiz qarşılığı ilə "gecikdirilmiş vaxt üçün faizi" eyniləşdirmək olmaz. Belə ki, birinci hal bankın gəlir götürməsinə, bankın fəaliyyətinin əsas istiqamətinə yönəlmiş, ikinci hal isə birbaşa borclunu intizamlandırmaq, onun gecikməyə yol verdiyi üçün bankın zərərinin qarşını almaq xarakteri daşıyır.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

19. Kassasiya şikayətinə qarşı etiraz daxil olmamışdır.

Tətbiq edilən hüquq

Azərbaycan Respublikasının Mülki Məcəlləsi

20. Maddə 372.1. Başqa şəxsdən hər hansı hərəkəti yerinə yetirməyi və ya yerinə yetirməkdən çəkinməyi tələb etmək hüququna müddət şamil edilir.

21. Maddə 372.2. Hüququ pozulmuş şəxsin iddiası ilə hüququn müdafiəsi üçün müddət iddia müddəti sayılır.

22. Maddə 373.2. Müqavilə tələbləri üzrə iddia müddəti üç il, daşınmaz əşyalarla bağlı müqavilə tələbləri üzrə iddia müddəti isə altı ildir.

23. Maddə 375.2. Məhkəmə tərəfindən iddia müddəti yalnız mübahisə tərəfinin məhkəmə qərarı çıxarılanadək verdiyi ərizə əsasında tətbiq edilir. Mübahisə tərəfinin tətbiq edilməsi barədə ərizə verdiyi iddia müddətinin keçməsi məhkəmənin iddiadan imtina barəsində qərar çıxarması üçün əsasdır.

24. Maddə 387.1. Öhdəlikdə onun tərəflərindən hər biri kreditor və ya borclu kimi bir şəxs və ya eyni zamanda bir neçə şəxs iştirak edə bilər. Öhdəlikdə borclunun tərəfində iştirak edən şəxslərdən birinə qarşı kreditorun tələblərinin etibarsızlığı, eləcə də bu cür şəxsə qarşı tələb üzrə iddia müddətinin keçməsi özlüyündə kreditorun belə şəxslərin qalanlarına qarşı tələblərinə toxunmur.

25. Maddə 445.4. İcra üçün təqvim günü təyin edildikdə, əgər borclu təyin edilmiş vaxtadək öhdəliyi icra etməzsə, icranı xatırlatmasız gecikdirmiş sayılır.

26. Maddə 470.1. Zaminlik müqaviləsi üzrə zamin başqa şəxsin kreditoru qarşısında həmin şəxsin öz öhdəliyini tamamilə və ya hissə-hissə icra etməsi üçün məsuliyyəti öz üzərinə götürür.

27. Maddə 472.1. Borclu zaminliklə təmin edilmiş öhdəliyi icra etmədikdə və ya lazımınca icra etmədikdə, əgər bu Məcəllədə və ya zaminlik müqaviləsində zaminin subsidiar məsuliyyəti nəzərdə tutulmayıbsa, zamin və borclu kreditor qarşısında birgə məsuliyyət daşıyırlar.

28. Maddə 474.1. Əgər zaminlik müqaviləsindən ayrı qayda irəli gəlmirsə, zamin kreditorun tələbinə qarşı borclunun irəli sürə biləcəyi etirazları irəli sürə bilər. Zamin bu cür etirazlar irəli sürmək hüququnu hətta borclunun onlardan imtina etdiyi və ya öz borcunu etiraf etdiyi halda da itirmir.

29. Maddə 477.0.4. Zaminlik müqaviləsində göstərilmiş onun verilmə müddəti qurtardıqda zaminliyə xitam verilir. Belə müddət təyin edilmədikdə zaminliyə onun təmin etdiyi öhdəliyin icrası vaxtının çatdığı gündən bir il ərzində kreditorun zaminə qarşı iddia irəli sürmədiyi halda xitam verilir. Əsas öhdəliyin icrası müddəti göstərilmədikdə və müəyyənləşdirilə bilmədikdə və ya tələbetmə məqamı ilə müəyyənləşdirilə bildikdə zaminliyə zaminlik müqaviləsinin bağlandığı gündən iki il ərzində kreditorun zaminə qarşı iddia irəli sürmədiyi halda xitam verilir.

30. Maddə.512. Birgə borclulardan biri barəsində müddətin axımının dayandırılmasının və ya xitamının digər borclular barəsində qüvvəsi yoxdur.

31. Maddə 739.1. Borc müqaviləsinə görə, iştirakçılardan biri (borc verən) pula və ya digər əvəz edilən əşyalara mülkiyyət hüququnu digər iştirakçıya (borc alana) keçirməyi öhdəsinə götürür, digər iştirakçı (borc alan) isə aldıqlarını müvafiq olaraq pul və ya eyni keyfiyyətdə və miqdarda olan eyni növlü əşyalar şəklində borc verənə qaytarmağı öhdəsinə götürür.

32. Maddə 741. Əgər müqavilənin iştirakçıları borcun faizlər ilə verilməsini şərtləşdirirlərsə, faizlər müvafiq surətdə bir ilin sonunda ödənilməli, borc bir il başa çatanadək qaytarılmalıdırsa, borcun qaytarılması ilə bir vaxtda ödənilməlidir.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi

33. Maddə 14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

34. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin əsası kimi istinad etdiyi halları sübut etməlidir.

35. Maddə 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

36. Maddə 217.3. Qətnamə iş üzrə müəyyən edilmiş hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır.

37. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

Kassasiya baxışının hədləri

38. Qanunun tələbinə görə, kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

39. Kassasiya şikayətində qətnamə iddiaçı tərəfindən tam mübahisələndirildiyindən apellyasiya instansiyası məhkəməsinin aktı bütovlükdə yoxlanılır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

40. Məhkəmə kollegiyası aşağıdakılara əsasən hesab edir ki, apellyasiya instansiyası məhkəməsinin iş üzrə çıxardığı qətnamə qanunvericiliyin tələblərinə uyğun olmamışdır.

41. Belə ki, iddiaçının tələbləri irəli sürdüyü dəlillər əsasında, hər bir cavabdehə münasibətdə, mülki qanunvericiliyə uyğun qaydada yoxlanılmalı, mübahisə aidiyyəti maddi və prosessual hüquq normaları əsasında həll edilməlidir.

42. Baxılan işdə məhkəmələr hər iki cavabdehə qarşı yönəlmiş iddia tələblərini zamin Cavabdeh 2-nin verdiyi ərizə əsasında iddia müddətinin keçməsi ilə əlaqədar rədd etmişlər.

43. Qeyd olunmalıdır ki, əsas tələb üzrə üç illik iddia müddəti keçmişdirsə zaminə münasibətdə bundan qabaq bir illik kəsici müddətin (zaminliyə xitam verilməsi müddətinin) keçib-keçmədiyinə hüquqi qiymət verilməlidir.

44. Belə ki, Mülki Məcəllənin 477.0.4-cü maddəsinə əsasən, zaminlik müqaviləsində göstərilmiş onun verilmə müddəti qurtardıqda zaminliyə xitam verilir. Belə müddət təyin edilmədikdə zaminliyə onun təmin etdiyi öhdəliyin icrası vaxtının çatdığı gündən bir il ərzində kreditorun zaminə qarşı iddia irəli sürmədiyi halda xitam verilir. Əsas öhdəliyin icrası müddəti göstərilmədikdə və müəyyənləşdirilə bilmədikdə və ya tələbetmə məqamı ilə müəyyənləşdirilə bildikdə zaminliyə zaminlik müqaviləsinin bağlandığı gündən iki il ərzində kreditorun zaminə qarşı iddia irəli sürmədiyi halda xitam verilir (§ 29).

45. Normanın məzmunundan göründüyü kimi, zaminliyin verildiyi müddət qayda olaraq müqavilədə göstərilməlidir. Qanun, bunun göstərilməməsi imkanını nəzərdə tutsa da, müddətin göstərilmədiyi təqdirdə zaminliyin xitamı üçün konkret müddətlər müəyyən etmişdir. Bu müddətlər, zaminliyin bağlı olduğu əsas öhdəliyin icrası vaxtının çatdığı gündən bir il və ya əsas öhdəliyin icrası müddəti göstərilmədiyi, müəyyənləşdirilə bilmədiyi, yaxud tələbetmə məqamı ilə müəyyənləşdirildiyi halda zaminlik müqaviləsinin bağlandığı gündən iki il ərzində kreditorun zaminə qarşı iddia irəli sürmədiyi dövrdür. Həmin müddətlər keçdikdə zaminliyə qanuna əsasən xitam verilir. Bunun üçün ayrıca iddia qaldırılması və məhkəmə qərarının çıxarılması tələb olunmur.

46. Zaminliyə qanuna əsasən xitam verilməsi zaminə qarşı tələb hüququnun aradan qalxmasına, buna müvafiq olaraq zaminin kreditor qarşısında öhdəliyi olan borclu vəziyyətindən çıxmasına dəlalət edir. Cavabdehin olmayan öhdəlikdən iddia müddətinin keçməsi ilə müdafiə olunmasına isə hüquqi baxımdan gərək qalmır.

47. Baxılan işdə isə məhkəmlər hər bir cavabdehə yönəlmiş tələb üzrə sözügedən müddətlərin keçib-keçmədiyinə lazımi şəkildə hüquqi qiymət verməmiş, iddianı zamin Cavabdeh 2-nin ərizəsi əsasında iddia müddətinin keçməsinə görə rədd edərkən həmin ərizənin nəinki digər cavabdehə, hətta Cavabdeh 2-nin özünə münasibətdə hüquqi əhəmiyyətini müzakirə etməmişlər.

48. O da nəzərə alınmalıdır ki, iddianın cavabdehlərdən birinin ərizəsi əsasında digər(lər)inə qarşı da rədd edilməsi iddia müddətinin mahiyyəti və təyinatı ilə uzlaşmır.

49. Belə ki, başqa şəxsdən hər hansı hərəkəti yerinə yetirməyi və ya yerinə yetirməkdən çəkinməyi tələb etmək hüququna müddət şamil edilir. Hüququ pozulmuş şəxsin iddiası ilə hüququn müdafiəsi üçün müddət iddia müddəti sayılır. Məhkəmə tərəfindən iddia müddəti yalnız mübahisə tərəfinin məhkəmə qərarı çıxarılanadək verdiyi ərizə əsasında tətbiq edilir (§ 20-21, 23).

50. Göründüyü kimi, tələb hüquqlarına bir qayda olaraq iddia müddəti şamil edilir. Bu müddətin tətbiqi tələb hüququnun özünü aradan qaldırmasa da, həmin tələbin məhkəmə qərarı ilə təmin edilməsinin (və məcburi icrasının) qarşısını alır. Başqa sözlə, iddia müddəti özünümüdafiə mahiyyətində olmaqla, tələbin məhkəmə qaydasında realizəsi imkanını aradan qaldırır.

51. Nəzərə alınmalıdır ki, iddia müddətinin keçməsi iddiaçı (və onun tələb hüququnun varlığı) baxımından bir dəyişiklik yaratmır. İddia müddəti (onun tətbiqi) cavabdehə aid hüquq olmaqla, ona yönəlmiş iddiadan müdafiə olunmaq imkanı təmin edir. Bu səbəbdən iddia müddəti məhz cavabdehin verdiyi ərizə əsasında tətbiq edilir. Bununla da cavabdehə imkan yaradılır ki, mövcud öhdəliyə görə məhkəmə qərarı ilə təqib olunmaqdan (əmlakı ilə məsuliyyət daşımaqdan) azad olsun. Hər hansı borclu (cavabdehlərdən biri) bu hüququndan istifadə (özünü müdafiə) etmədikdə tələbin bu səbəbdən rəddi üçün əsas yaranmır, dolayısı ilə o, üzərinə götürdüyü öhdəliyə görə ümumi qaydada məsuliyyət daşıyır.

52. Qeyd edilənlər ona dəlalət edir ki, iddia müddətinin keçməsindən istifadə etmək hər borclunun (cavabdehin) ona qarşı irəli sürülmüş tələbdən fərdi müdafiə vasitəsidir.

53. Belə olan halda, bir neçə cavabdehə qarşı yönəlmiş iddia üzrə iddia müddətinin tətbiqi və ya hesablanması məsələsi hər cavabdehə münasibətdə fərdi olaraq yoxlanılmalı və həll edilməlidir.

54. Bu səbəbdən Mülki Məcəllədə nəzərdə tutulmuşdur ki, öhdəlikdə borclunun tərəfində iştirak edən şəxslərdən birinə qarşı tələb üzrə iddia müddətinin keçməsi özlüyündə kreditorun belə şəxslərin qalanlarına qarşı tələblərinə toxunmur. Yaxud, birgə borclulardan biri barəsində müddətin axımının dayandırılmasının və ya xitamının digər borclular barəsində qüvvəsi yoxdur (§ 24,30).

55. Kollegiya onu da vurğulayır ki, zaminin kreditorun tələbinə qarşı borclunun irəli sürə biləcəyi etirazları irəli sürmək imkanına dair Mülki Məcəllənin 474.1-ci maddəsi (§ 28) bu mövqeyi istisna edən müddəa kimi qiymətləndirilə bilməz.

56. Ona görə ki, əvvəla, MM-in 474.1-ci maddəsində zaminin irəli sürə biləcəyi "etiraz"lardan söhbət gedir. İddia müddəti isə dar (maddi) anlamda iddiaya qarşı etiraz olmayıb, bir müdafiə vasitəsidir.

57. Kollegiya vurğulayır ki, cavabdehin iddiaya qarşı etirazı prosessual mənada müdafiə vasitələrindən istifadə imkanlarını ehtiva etsə də, maddi hüquqi mənada

"etiraz"la "müdafiə vasitəsi" bir-birindən fərqli institutlardır.

58. Belə ki, etiraz bir hüququn yaranmasını və ya davam etməsini inkar edən hadisəyə istinad olunmasıdır. Başqa sözlə, etiraz qarşı tərəfin hüququnun mövcud olmadığını təsdiqləyən bir hadisənin irəli sürülməsidir - məsələn, əqdə əsaslanan iddia üzrə həmin əqdin etibarsızlığı, öhdəliyin icra səbəbilə xətm olması və s. Etiraz hadisə ilə bağlı olduğu üçün əgər həmin fakt iş materialları ilə təsdiqlənirsə hakim öz xidməti vəzifəsinə görə onu nəzərə almağa haqlıdır. Bu baxımdan cavabdehin baş vermiş hadisəni irəli sürməməsi və ya bundan imtina etməsinin hüquqi əhəmiyyəti olmur.

59. Müdafiə vasitəsi isə kreditorun mövcud olan tələbinin təmin olunmasının qarşısını alan hüquqdur. Borclu bu hüquqdan istifadə etməklə öz öhdəliyini yerinə yetirməkdən daimi və ya müvəqqəti olaraq boyun qaçırmaq imkanı əldə edir - məsələn, iddia müddəti, ləngitmə hüququ və s. Qeyd olunduğu kimi, tələb iddia müddətinin keçməsinə görə rədd edildikdə öhdəlik aradan qalxmır, sadəcə məhkəmə yolu ilə təqib edilməsi mümkün olmayan natamam öhdəlik vəziyyətinə keçir (bu səbəbdən müddət keçəndən sonra icra edilmişlər geri qaytarılmır). Müdafiə vasitəsindən istifadə etmək səlahiyyəti hüquq sahibinə - cavabdehə

məxsusdur və o, hətta öz hüququndan təktərəfli iradə bəyanı ilə imtina da edə bilər. Bu halda məhkəmə həmin vasitəni özü nəzərə almağa və tətbiq etməyə haqlı deyil.

60. Mülki Məcəllənin 474-cü maddəsindəki “etiraz” ifadəsi geniş mənada iddia müddətinin tətbiqini də ehtiva edən anlayış kimi qəbul edildikdə nəzərə alınmalıdır ki, normanın birinci cümləsindəki müddəanın məqsədi əsas borclunun irəli sürə biləcəyi etirazlardan zaminin də yararlana biləcəyini göstərməkdir. Odur ki, həmin qayda məqsədi xaricində, yəni zaminin əsas borclunun əvəzinə də iddia müddəti tətbiq etmək səlahiyyəti kimi təfsir və tətbiq oluna bilməz.

61. Bundan əlavə, yuxarıda qeyd edildiyi kimi, hüquq sahibi olan cavabdeh (məsələn zamin) iddia müddətini tətbiq etmək hüququndan borcludan asılı olmadan imtina edə bilər. Yaxud əksinə borclu iddia müddətindən istifadə etməsə belə, zamin bu hüquqdan yararlanmaqda sərbəsdir. Mülki Məcəllənin 474.1-ci maddəsinin ikinci cümləsində də qeyd olunur ki, “zamin bu cür etirazlar irəli sürmək hüququnu hətta borclunun onlardan imtina etdiyi və ya öz borcunu etiraf etdiyi halda da itirmir” (§ 28).

62. Kollegiya təkrarən qeyd etməkdə yarar görür ki, mülki qanunvericiliyimiz baxımından kredit müqavilələri üzrə bir qayda olaraq, zaminin iddia müddətini tətbiq etmək ehtiyacı yaranmır. Ona görə ki, müqavilədən irəli gələn üç illik (MM, maddə 373.2) iddia müddətinin axımı başlandığı vaxtdan həm də zaminliyə xitam verilməsi üçün qanunla müəyyən edilmiş (MM, maddə 477.0.4) bir və ya iki illik müddətin axımı hesablanır. Dolayısı ilə, (əgər tərəflər başqa qayda razılaşdırmamışlarsa) iddia müddəti keçənədək zaminliyə kəsici müddətin bitməsinə görə xitam verilir və ona münasibətdə kreditorun tələb hüququ aradan qalxır. Cavabdeh (zamin) bu halı iddiaya qarşı etiraz kimi irəli sürmək imkanına malik olduğu halda, onun müdafiə vasitəsi kimi iddia müddətindən istifadə etməsinin hüquqi baxımdan əhəmiyyəti qalmır (§ 46).

63. Beləliklə, yuxarıda göstərilənləri birlikdə qiymətləndirdikdə bu qənaət hasil olur ki, iddia müddəti birgə borclular üçün ortaq müdafiə vasitəsi deyil. Bu imkandan sadəcə müddətin tətbiqi haqqında ərizə vermiş cavabdeh yararlana bilər. Odur ki, cavabdehlərdən birinin iddia müddətini tətbiq etməsi, bu barədə ərizə verməmiş cavabdehə qarşı iddianın rədd edilməsinə əsas ola bilməz.

64. Hazırkı işdə isə əsas borcalan Cavabdeh 1, ona qarşı yönəlmiş tələbdən özünümüdafiə vasitəsi olan iddia müddətinin tətbiqinə dair ərizə verməmişdir. Buna baxmayaraq, ona qarşı iddia da digər Cavabdeh 1-in (zamin) həmin müddətin keçməsi haqqında ərizəsi əsasında rədd edilmişdir.

65. Bu mövqe iddia müddətinin tətbiqinə dair yuxarıda göstərilən maddi hüquq normalarına uyğun olmadığı üçün qanuni və əsaslı sayıla bilməz.

66. Qeyd edilənlər qətnamənin iş üzrə müəyyən edilmiş hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmadığına dəlalət edir (§ 36).

67. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu N.Əbilovun şikayəti üzrə 13 iyun 2008-ci il tarixli qərarında vurğulamışdır ki, məhkəmələr tərəfindən qəbul edilmiş qərarlarda həll olunan işə aid bütün zəruri məsələlərə aydınlıq gətirilməli, ziddiyyətli məqamlar aradan qaldırılmalıdır. Azərbaycan Respublikasının adından çıxarılan məhkəmə aktlarında işin ədalətli həllini şübhə altına alan, ziddiyyətlər yaradan və mübahisə üzrə iştirakçıların konstitusiya məhkəmə müdafiəsi hüququna təsir göstərən müddəalar olmamalıdır.

68. Kassasiya kollegiyası iddia tələblərinin hər iki cavabdehə münasibətdə maddi və prosessual hüquq normalarının səhv tətbiq olunması ilə həll edildiyini nəzərə alaraq bu qənaətə gəlir ki, qətnamə bütövlükdə ləğv edilməli, mübahisənin yenidən araşdırılması və nəticəsindən asılı olaraq müvafiq qərarın qəbul edilməsi üçün iş apellyasiya instansiyası məhkəməsinə göndərilməlidir.

69. Göstərilənlərə əsasən, Mülki Prosessual Məcəllənin 416, 417, 419-421-ci maddələrini rəhbər tutaraq, məhkəmə kollegiyası

Qərara aldı:

Kassasiya şikayəti təmin edilsin.

Gəncə Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(104)-975/2023 nömrəli, 13 aprel 2023-cü il tarixli qətnaməsi ləğv edilsin, iş yeni apellyasiya baxışına qaytarılsın.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

23. 2-2(102)-556/2023 nömrəli, 2023-cü il 30 oktyabr tarixli qərar - Aksessor tələblər üzrə iddia müddətinin tətbiqi

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: aksessor tələblər üzrə iddia müddətinin tətbiqi.

İpoteka qoyan tərəfindən verilmiş iddia müddətinin tətbiqi barədə ərizəyə baxılması qaydası.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 375.2-ci və "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun 48.1.2-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair" 2022-ci il 11 fevral tarixli qərarındakı hüquqi mövqelərə əsasən, əsas tələblər üzrə məhkəmə cavabdehin müvafiq ərizəsi əsasında iddia müddətini tətbiq edərək bu iddia tələblərini rədd etməmişdirsə, sözügedən tələblərin təminatına dair tələblər, yəni aksessor tələblər (ipoteka və s.) üzrə də iddia müddəti ötürülmüş hesab oluna bilməz.

Bu işdə birinci instansiya məhkəməsinin qətnaməsinin apellyasiya qaydasında yalnız tutmanın ipoteka predmetinə yönəldilməsi hissəsində mübahisələndirilməsinə baxmayaraq, apellyasiya məhkəməsi işə baxılmanın hədlərini pozaraq, qətnaməni həm də kredit borcunun tutulması hissəsində yoxlamış və həmin hissədə iddia müddətinin ötürülməsi qənaətinə gələrək, aksessor tələb olan ipoteka predmetinə tutma yönədilməsi hissəsində iddia müddətini tətbiq etmişdir. Birinci instansiya məhkəməsinin qətnaməsi iddianın əsas və faiz borcunun təmin edilməsi hissəsində qanuni qüvvəyə mindiyindən, apellyasiya məhkəməsinin həmin tələblər üzrə iddia müddətinin ötürülməsi qənaətinə gəlməsi qətnamənin qanuni qüvvəyə minən hissəsi ilə uyğunluq təşkil etməmiş, nəticədə MPM-in 233-cü maddəsinin tələbləri, həmçinin Konstitusiya Məhkəməsinin yuxarıda qeyd olunan qərarındakı hüquqi mövqelər pozulmuşdur.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2-2(102)-556/2023

30.10.2023-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsinin
Kommersiya Kollegiyasının

İddiaçının Cavabdeh1, Cavabdeh2, Cavabdeh3 və
Cavabdeh4-ə qarşı iş üzrə

Q Ə R A R I

Açar sözlər: tutmanın ipoteka predmetinə yönəldilməsi tələbinə iddia müddətinin tətbiqi, apellyasiya baxışının hədləri

Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının hakimi Məmmədli Bəhram Məmməd oğlunun məruzəsi ilə, hakimlər Qəribov Bəhman Fərhad oğlu və Şamayev Elşad Yaquboviçdən ibarət tərkibdə,

İddiaçının Cavabdeh1, Cavabdeh2, Cavabdeh3 və Cavabdeh4-ə qarşı "borcun tutulması və tutmanın ipoteka predmetinə yönəldilməsi" tələbinə dair iş üzrə Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2023-cü il 8 iyun tarixli 2-2(103)-545/2023 saylı qətnaməsindən iddiaçı tərəfindən verilmiş kassasiya şikayətinə yazılı icraat qaydasında baxılmışdır.

İşin halları

1. İddiaçı ilə Cavabdeh1 arasında bağlanmış 2010-cu il 18 oktyabr tarixli 145 nömrəli kredit müqaviləsinin məzmunundan görünür ki, borcalan bankdan 36 ay müddətinə, illik faiz dərəcəsi 20% olmaqla, 85.000 manat məbləğində kredit götürmüşdür.

2. İddiaçı ilə Cavabdeh3 arasında bağlanmış 2010-cu il 18 oktyabr tarixli 110 nömrəli zaminlik müqaviləsinin məzmunundan görünür ki, iddiaçı ilə Cavabdeh1 arasında bağlanmış 2010-cu il 18 oktyabr tarixli 145 nömrəli kredit müqaviləsi üzrə Cavabdeh1-in öhdəliklərinin icrasını təmin etmək məqsədilə Cavabdeh3 bank qarşısında öz üzərinə məsuliyyət götürmüşdür.

3. İddiaçı ilə Cavabdeh4 və Cavabdeh1 arasında bağlanmış 2009-cu il 15 iyul tarixli 17 nömrəli ipoteka müqaviləsinin məzmunundan görünür ki, İddiaçı ilə Cavabdeh1 arasında bağlanmış 2009-cu il 15 iyul tarixli 55 nömrəli kredit müqaviləsi üzrə və həmin müqaviləyə gələcəkdə ediləcək əlavə və dəyişikliklər nəzərə alınmaqla Cavabdeh1-in öhdəliklərinin icrasını təmin etmək məqsədi ilə Cavabdeh4 tərəfindən onun mülkiyyətində olan Ünvan1-də yerləşən bağ evi İddiaçının xeyrinə ipoteka ilə yüklü edilmişdir.

4. İddiaçı ilə Cavabdeh4 və Cavabdeh1 arasında bağlanmış 2009-cu il 15 iyul tarixli 17 nömrəli ipoteka müqaviləsinə 2010-cu il 18 oktyabr tarixli dəyişiklik edilməsinə dair Razılaşmada qeyd edilmişdir ki, 1) İddiaçı ilə Cavabdeh1 arasında 2009-cu il 15 iyul tarixində 80.000 manat məbləğində kredit verilməsi barədə 24 ay müddətinə 55 saylı kredit müqaviləsi bağlanmışdır. Qeyd edilən kreditin təminatı olaraq, Cavabdeh4-ün mülkiyyətində olan Ünvan1-də yerləşən bağ evi və 1.000 kv.m torpaq sahəsi daşınmaz əmlakın dövlət reyestrindən çıxarış, (seriya N *******) (2009-cu il 27 fevral tarixli qeydiyyat nömrəsi **********, Reyestr nömrəsi **********-*****). Həmin ipoteka müqaviləsi 2009-cu il 15 iyul tarixində Bakı şəhəri 5 saylı Dövlət Notariat Kontorunda rəsmiləşdirilmiş və Azərbaycan Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Bakı Ərazi İdarəsi tərəfindən ipotekanın qeydiyyatına dair 2009-cu il 28 iyul tarixdə MH seriyalı ******* saylı çıxarış verilmişdir. 2) Cavabdeh1 tərəfindən 2009-cu il 15 iyul tarixli kredit müqaviləsi üzrə öhdəliklər tam yerinə yetirilmiş və İddiaçı ilə Cavabdeh1 arasında 2010-cu il 18 oktyabr tarixində 85.000 manat məbləğinə 36 ay müddətinə yeni kredit verilməsinə dair müqavilə imzalanmışdır. 3) Hazırkı razılaşma ilə ipoteka saxlayan və ipoteka qoyan razılığa gəlirlər ki, tərəflər arasında bağlanmış 2009-cu il 15 iyul tarixli 17 saylı ipoteka müqaviləsinin müddəti İddiaçı ilə Cavabdeh1 arasında bağlanmış 2010-cu il 18 oktyabr tarixli 145 saylı kredit müqaviləsi üzrə öhdəliklərin tam icra olunması tarixinə qədər uzadılır. 4) Bu razılaşma dövlət qeydiyyatına alındığı andan qüvvəyə minir. 5) Bu razılaşma 5 nüsxə tərtib olunur. Onlardan biri ipoteka qoyanda, biri ipoteka saxlayanda, biri borcalanda, biri müqaviləni təsdiq edən müvafiq notariat orqanında və biri isə ipotekanı qeydiyyata alan dövlət orqanında qalır. 6) İpoteka qoyan öhdəlik götürür ki, ipoteka qoyulmuş əmlakın sığorta müqaviləsinin müddəti bitdikdən sonra həmin əmlakın 36 ay müddətinə yenidən sığortalanmasını təmin edəcəkdir.

5. Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən Hüquqların Dövlət Qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət Reyestri tərəfindən verilən MH seriyalı ******* nömrəli çıxarışdan müəyyən edilir ki, Ünvan1-də bağ evi tam mülkiyyət hüququ üzrə Cavabdeh4-ün adına 2009-cu il 27

fevral tarixdə daşınmaz əmlakın dövlət reyestrində 27 nömrəli reyestr kitabının 3231 nömrəli vərəqində qeydiyyata alınmışdır (qeydiyyat nömrəsi: **********).

6. Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən 2 nömrəli reyestr kitabının 33 nömrəli vərəqində qeydiyyata alınmış və MA seriyalı ******* nömrəli çıxarışın məzmunundan görünür ki, Ünvan1-də yerləşən bağ evi Cavabdeh1-in kredit öhdəliklərinin icrasını təmin etmək üçün İddiaçının xeyrinə ipoteka ilə yüklü edilməsi qeydiyyata alınmışdır.

7. 2022-ci il 5 yanvar tarixli 247 nömrəli ipoteka predmetinə tutmanın yönəldilməsi haqqında bildirişin məzmunundan görünür ki, ipoteka saxlayan İddiaçı tərəfindən ipoteka qoyan Cavabdeh4-ə müvafiq bildiriş göndərilmişdir. İpoteka predmetinə tutmanın yönəldilməsi haqqında bildirişin qeydə alınması haqqında ərizə Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 1 saylı Bakı Ərazi İdarəsinə təqdim olunmuş və 2022-ci il 7 yanvar tarixində həmin idarədə qeydə alınmışdır.

8. Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 1 saylı Bakı Ərazi İdarəsi tərəfindən İddiaçıya ünvanlanmış 2022-ci il 18 yanvar tarixli ********** nömrəli məktubda qeyd olunmuşdur ki, Ünvan1-də bağ evinə dair tutmanın yönəldilməsi haqqında bildiriş qeydə alınmışdır.

9. 2021-ci il 30 dekabr tarixli 246 nömrəli bildirişdən görünür ki, cavabdehlərə yuxarıda qeyd olunan müqavilə üzrə borcun ödənilməsi tələb olunmuş, əks təqdirdə məhkəməyə müraciət ediləcəyi barədə xəbərdarlıq edilmişdir.

10. 2022-ci il 5 yanvar tarixli maliyyə arayışından görünür ki, cavabdeh Cavabdeh1-in 2022-ci il 23 may tarixə 2010-cu il 18 oktyabr tarixli 145 nömrəli kredit müqaviləsi üzrə banka ödənilməmiş əsas kredit borcu 43.594,88 manat, faiz borcu 43.022,73 manat olmaqla, cəmi 86.617,61 manat məbləğində borcu vardır.

11. 2021-ci il 22 aprel tarixli xəzinə mədaxil orderindən görünür ki, Cavabdeh1 tərəfindən İddiaçıya 3.000 manat məbləğində kredit ödənişi həyata keçirilmişdir.

12. 2021-ci il 25 iyun tarixli xəzinə mədaxil orderindən görünür ki, Cavabdeh1 tərəfindən İddiaçıya 1.000 manat məbləğində kredit ödənişi həyata keçirilmişdir.

13. "Əmlak Ekspert Mərkəzi" MMC tərəfindən verilən əmlakın qiymətləndirilməsi barədə 2022-ci il 4 avqust tarixli, ƏEM/A ******* saylı qiymətləndirmə rəyindən görünür ki, Cavabdeh4-ə məxsus Ünvan1-də bağ evinin 2022-ci il 4 avqust tarixinə likvid dəyəri 118.000 manat, bazar dəyəri 131.000 manat müəyyən edilmişdir.

14. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertiza Mərkəzinin 2022-ci il 18 noyabr tarixli, 9/4989 nömrəli ekspert rəyinin məzmunundan görünür ki, rəyin tədqiqat hissəsində göstərilənlərə əsasən, Cavabdeh1-in krediti üzrə banka ödənilmiş pul vəsaitlərinə dair hesabdan çıxarış məlumatları və 2010-cu il 18 oktyabr tarixli, 145 saylı kredit müqaviləsinin şərtləri nəzərə alınmaqla Cavabdeh1-in 2013-cü il 18 oktyabr tarixinə (müqavilə müddəti qüvvədə olduğu tarixədək) banka olan əsas və faiz borcu ümumilikdə 62.697,09 manat məbləğində müəyyən edilir, o cümlədən əsas borc üzrə 43.559,15 manat, fazi borcu üzrə 19.137,95 manat. Rəydə qeyd edilir ki, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 399.3, 399.4, 445 və 449-cu maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair" 2014-cü il 24 dekabr tarixli qərarında göstərilir ki, kredit müqaviləsində nəzərdə tutulmuş müddət ərzində öhdəlik icra edilmədikdə və ya icra müddəti çatanadək kreditorun etdiyi xəbərdarlıqdan sonra da borclu pul məbləğinin ödənilməsini gecikdirdikdə, habelə kreditor digər əsaslardan çıxış edərək daha böyük məbləğ tələb edə bilmədikdə, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 445.7-ci maddəsinə görə kreditor gecikdirilmiş vaxt üçün illik 5 faiz ödənilməsini tələb etmək hüququna malikdir. Tədqiqat zamanı müəyyən edilmişdir ki, Cavabdeh1 tərəfindən 2013-cü il 18 oktyabr tarixindən sonrakı dövrdə ümumilikdə 4.000 manat məbləğində ödəniş aparılmışdır ki, həmin ödəniş faiz borcundan silinir. Belə olan halda Cavabdeh1lə İddiaçı arasında bağlanmış 2010-cu il 18

oktyabr tarixli, *** saylı kredit müqaviləsi üzrə 2013-cü il 13 oktyabr tarixdən 2022-ci il 4 may tarixinədək kredit borcu üzrə illik 5 % dərəcəsi ilə hesablanmış faiz borcu nəzərə alınmaqla, Cavabdeh1-in İddiaçıya olan borcu aşağıdakı kimi müəyyən olunur: 2022-ci il 5 yanvar tarixinə əsas kredit borcu 43.559,15 manat, faiz borcu 33.027,44 manat; 2022-ci il 4 may tarixinə əsas kredit borcu 43.559,15 manat, faiz borcu 33.747,38 manat.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a) Birinci instansiya məhkəməsindəki icraat

15. İddiaçı cavabdehlərə qarşı 2022-ci il 4 may tarixində iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, cavabdehlərdən müştərək qaydada iddiaçının xeyrinə 43.594,88 manat əsas borc, 43.022,73 manat faiz borcu olmaqla, cəmi 86.617,61 manat məbləğində borcun, ödənilmiş 400 manat mediasiyaya dair xərcin, ipoteka predmeti olan daşınmaz əmlaka tutmanın yönəldilməsi haqqında bildirişin qeydə alınması üçün ödənilmiş 45 manat dövlət rüsumunun tutulması, tutmanın ipoteka predmeti olan Cavabdeh4-ün xüsusi mülkiyyətində olan (çıxarış: Seriya MH, №******* 2009-cu il 27 fevral tarixli, qeydiyyat nömrəsi **********, reyestr nömrəsi ********** qeydiyyata alınmışdır) Ünvan1-də bağ evinə (bundan sonra – "İpoteka Predmeti") yönəldilməsi, həmin ipoteka predmetinin açıq hərracdan satılması, borcun göstərilən ipoteka predmetinin hərracdan satışdan əldə olunan vəsait hesabına iddiaçıya ödənilməsi, hərracda satışdan əldə olunmuş vəsait borcun tam ödənilməsinə kifayət etmədikdə, qalan məbləğin cavabdehlərdən müştərək qaydada tutulması və tutma ipoteka predmetinə yönəldikdən və həmin əmlak satıldıqdan 1 ay sonra Cavabdeh4-ün və digər şəxslərin həmin bağ evinə olan istifadə hüquqlarının itirilmiş hesab edilməsi, onların həmin bağ evindən çıxarılmaları, həmin bağ evinin boşaldılması və iddiaçıya təhvil verilməsi barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

16. İddia tələbi (işin hallarına (bax bu qərarın 1-12 bəndlərinə) istinad edilərək) onunla əsaslandırılmışdır ki, İddiaçı və Cavabdeh1 arasında bağlanmış 2010-cu il 18 oktyabr tarixli 145 saylı kredit müqaviləsi çərçivəsində Cavabdeh1-ə 85.000 manat, illik 20% dərəcəsi ilə 36 aylıq müddətə kredit verilmişdir. Həmin müqavilə üzrə borcalanın bank qarşısında olan öhdəliklərinin təminatı kimi İpoteka Predmeti Banka ipotekaya qoyulmuş, bu barədə Cavabdeh4 ilə iddiaçı arasında 2009-cu il 15 iyul tarixli 17 saylı ipoteka müqaviləsinə dəyişiklik edilməsinə dair 2010-cu il 18 oktyabr tarixli razılaşma imzalanmış və müqavilə Bakı şəhəri 5 saylı Dövlət Notariat Kontorunda müvafiq qaydada rəsmiləşdirilmişdir. Bununla əlaqədar ipoteka hüququ Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən verilmiş Seriya MA №*******, qeydiyyat tarixi 2010-cu il 20 oktyabr, qeydiyyat nömrəsi ********** olan "Hüquqların Dövlət qeydiyyatı" haqqında Daşınmaz Əmlakın Dövlət Reyestrindən Çıxarışa əsasən daşınmaz əmlakın dövlət reyestrində 27 nömrəli reyestr kitabının **** nömrəli vərəqində qeydiyyat aparılmışdır. İddiaçı ilə Cavabdeh3 arasında imzalanmış 2010-cu il 18 oktyabr tarixli 110 saylı zaminlik müqaviləsinə əsasən borcalan bank qarşısında öz öhdəliklərini tam yerinə yetirənədək Zamin borcalan ilə birlikdə Bank qarşısında birgə məsuliyyət daşımağı öz öhdəsinə götürmüşdür. Həmçinin Cavabdeh2 Cavabdeh1ə zamin duraraq banka 2010-cu il 12 avqust tarixli qaranti məktubu vermişdir ki, Cavabdeh2 borcalan ilə birlikdə məsuliyyət daşıyacaqdır. Kredit müqaviləsi və zaminlik müqaviləsi üzrə tələblər borcalan və zaminlər tərəfindən pozulmuş, borc öhdəliyini icra etməkdən boyun qaçırmışlar. 2022-ci il 10 yanvar tarixinə borcalan Cavabdeh1-in kredit müqaviləsi üzrə iddiaçıya 43.594,88 manat əsas, 43.022,73 manat faiz olmaqla, cəmi 86.617,61 manat borcu yaranmışdır. Dəfələrlə xəbərdarlıqlar edilməsinə baxmayaraq, cavabdehlər borcu ödəməkdən boyun qaçırırlar. Bu səbəbdən qanunla müəyyən edilmiş qaydada və müddətdə ipoteka predmetinə tutmanın yönəldilməsinə dair cavabdehlərə bildiriş verilmişdir. Eyni zamanda, reyestr orqanına bildirişin qeydiyyatı üçün ərizə verilmiş və ərizə bu orqanda qeydə alınmışdır. İddiaçı tərəfindən Mediasiya Şurasına müraciət olunmuş, mediator təyin edilmişdir. 2021-ci il 22 dekabr tarixdə keçirilməsi nəzərdə tutulmuş ilkin mediasiya sessiyasında cavabdehlərin 10 gün əvvəlcədən

sms və məktub vasitəsilə məlumatlandırılmasına baxmayaraq, iştirak etməmişlər. İddiaçının nümayəndəsi tərəfindən 400 manat mediasiya xərci ödənilmiş, mediator tərəfindən 2021-ci il 22 dekabr tarixli A-******** saylı "İlkin mediasiya sessiyasında iştirak edilməməsi barədə" Arayış təqdim edilmişdir.

17. Daha sonra iddiaçının nümayəndəsi və vəkili Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra – "MPM") 53-cü maddəsinə əsasən məhkəməyə "iddia tələbinin dəqiqləşdirilməsi" barədə ərizə ilə müraciət edərək, cavabdehlərdən müştərək qaydada iddiaçının xeyrinə 43.594,88 manat əsas borc, 43.022,73 manat faiz borcu olmaqla, cəmi 86.617,61 manat məbləğində borcun, 2013-cü il 13 oktyabr tarixindən 2022-ci il 4 may tarixinədək kredit borcu üzrə illik 5% dərəcəsi ilə hesablanmış 18.662,19 manat faiz borcunun, 2022-ci il 4 may tarixindən qətnamənin faktiki icra olunan gününə 43.594,88 manata illik 5% hesablanmaqla zərər məbləğinin, ödənilmiş 400 manat mediasiya xərcinin, ipoteka predmeti olan daşınmaz əmlaka tutmanın yönəldilməsi haqqında bildirişin qeydə alınması üçün ödənilmiş 45 manat dövlət rüsumunun tutulması, tutmanın İpoteka Predmetinə yönəldilməsi, həmin ipoteka predmetinin açıq hərracdan satılması, borcun göstərilən ipoteka predmetinin hərracdan satışdan əldə olunan vəsait hesabına iddiaçıya ödənilməsi, hərracda satışdan əldə olunmuş vəsait borcun tam ödənilməsinə kifayət etmədikdə, qalan məbləğin cavabdehlərdən müştərək qaydada tutulması, tutma İpoteka Predmetinə yönəldikdən və həmin əmlak satıldıqdan 1 ay sonra Cavabdeh4-ün və digər şəxslərin həmin bağ evinə olan istifadə hüquqlarının itirilmiş hesab edilməsi, onların həmin bağ evindən çıxarılmaları, həmin bağ evinin boşaldılması və iddiaçıya təhvil verilməsi barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

18. İddiaçı tələbinin hüquqi əsası kimi Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra – "MM") 21, 317.1, 442, 445.1, 445.2.1, 448, 449.1, 449.4, 470.1, 472.1, 501-ci, "İpoteka haqqında" Azərbaycan Respublikası Qanunun 4, 34.1.1, 34.1.2, 34.1.3, 39.1-ci maddələrinə, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 449-cu maddəsinin bəzi müddəalarının şərh olunmasına dair" 2009-cu il 9 iyul tarixli Qərarına istinad etmişdir.

19. Cavabdeh4 iddia ərizəsinə etiraz edərək bildirmişdir ki, müqavilə üzrə borcalanın bank qarşısında olan öhdəliklərinin təminatı kimi İpoteka Predmeti ipotekaya qoyulmuş, kredit götürən tərəfindən kredit öhdəliyi lazımi qaydada və vaxtında ödənilməmişdir. İddiaçı tərəfindən kredit müqaviləsi lazımınca icra edilməməsinə əsasən 90 gün ərzində faiz və digər hesablamaları hesablayaraq məhkəməyə müraciət etməli idi. Bu qanunun tələbidir. İddiaçı faiz hesablamalarını 90 gün ərzində 13 il müddətində hesablayaraq qanunun tələblərini pozmuşdur. Qanunsuz müqavilədən kənar 43.000,73 manat faiz borcu yaratmışdır. Bundan əlavə, MM-in 373-cü maddəsinin tələbinə əsasən müqavilə öhdəlikləri üzrə 3 il müddət müəyyən edilir. Lakin buna baxmayaraq, iddiaçı tərəfindən 13 il sonra məhkəməyə müraciət edilərək, 3 illik iddia müddəti də buraxılmışdır. Məhkəmə tərəfindən hazırkı kommersiya işi üzrə iddia müddətinin tətbiq edilməsi əsası ilə iddia ərizəsi rədd edilməlidir.

20. Bakı Kommersiya Məhkəməsinin 2022-ci il 23 iyun tarixli e-2-2(113)-2627/2022 nömrəli qərardadı ilə məhkəmə-mühasibatlıq və əmlakın qiymətləndirilməsi üzrə ekspertiza təyin olunmuşdur.

21. "Əmlak Ekspert Mərkəzi" MMC tərəfindən verilən əmlakın qiymətləndirilməsi barədə 2022-ci il 4 avqust tarixli ƏEM/A 17-537/22 saylı qiymətləndirmə rəyindən müəyyən olunmuşdur ki, İpoteka Predmetinin 2022-ci il 4 avqust tarixinə likvid dəyəri 118.000 manat, bazar dəyəri 131.000 manat müəyyən edilmişdir.

22. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertiza Mərkəzinin 2022-ci il 18 noyabr tarixli 9/4989 nömrəli ekspert rəyinin məzmunundan görünür ki, Cavabdeh1-in krediti üzrə banka ödənilmiş pul vəsaitlərinə dair hesabdan çıxarış məlumatları və 2010-cu il 18 oktyabr tarixli 145 saylı kredit müqaviləsinin şərtləri nəzərə alınmaqla Cavabdeh1-in 2013-

cü il 18 oktyabr tarixinə (müqavilə müddəti qüvvədə olduğu tarixədək) banka olan əsas və faiz borcu, ümumilikdə 62.697,09 manat məbləğində müəyyən edilir, o cümlədən əsas borc üzrə 43.559,15 manat, faiz borcu üzrə 19.137,95 manat. Tədqiqat zamanı müəyyən edilmişdir ki, Cavabdeh1 tərəfindən 2013-cü il 18 oktyabr tarixdən sonrakı dövrdə, ümumilikdə 4.000 manat məbləğində ödəniş aparılmışdır ki, həmin ödəniş faiz borcundan silinir. Belə olan halda Cavabdeh1 ilə iddiaçı arasında bağlanmış 2010-cu il 18 oktyabr tarixli 145 saylı kredit müqaviləsi üzrə 2013-cü il 13 oktyabr tarixdən 2022-ci il 4 may tarixədək kredit borcu üzrə illik 5 % dərəcəsi ilə hesablanmış faiz borcu nəzərə alınmaqla, MMC-nin iddiaçıya olan borcu aşağıdakı kimi müəyyən olunur: 2022-ci il 5 yanvar tarixinə əsas kredit borcu 43.559,15 manat, faiz borcu 33.027,44 manat; 2022-ci il 4 may tarixinə əsas kredit borcu 43.559,15 manat, faiz borcu 33.747,38 manat.

23. Bakı Kommersiya Məhkəməsinin 2023-cü il 13 yanvar tarixli e-2-2(113)-78/2023 saylı qətnaməsi ilə iddia tələbi qismən təmin edilmiş, cavabdehlər Cavabdeh1 və Cavabdeh3 müştərək qaydada 43.559,15 manat əsas borc, 19.137,95 manat faiz borcu, 14.609,43 manat gecikdirilmiş vaxt üçün illik 5 faiz dərəcəsi ilə hesablanan faiz borcu, 400 manat mediasiya xərci və ipoteka predmetinə tutmanın yönəldilməsinə dair bildirişin daşınmaz əmlakın dövlət reyestrində qeydə alınması üçün ödənilmiş 45 manat dövlət rüsumu olmaqla, cəmi 77.751,53 manat məbləğində pul tutularaq ləğv prosesində olan iddiaçıya ödənilməsi, tutmanın İpoteka Predmetinə yönəldilməsi, həmin əmlakın açıq hərracda satılması, əmlakın satışından əldə olunmuş vəsait hesabına iddiaçıya olan borcun ödənilməsi, satışdan əldə edilən məbləğ tutulan məbləğdən artıq olduqda, həmin məbləğ müvafiq olaraq Cavabdeh4ə qaytarılması, İpoteka Predmetinin ilkin satış qiyməti 118.000 manat məbləğində müəyyən edilməsi, İpoteka Predmetinə tutma yönəldildikdən və satıldıqdan 1 ay sonra Cavabdeh4 həmin bağ evindən çıxarılması və əmlakın boşaldılaraq təhvil verilməsi, iş üzrə keçirilmiş ekspertiza tədqiqatının dəyəri olan 145 manat pulun cavabdehlər Cavabdeh1 və Cavabdeh3-dən müştərək qaydada tutularaq Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertiza Mərkəzinin hesabına köçürülməsi, iş üzrə keçirilmiş ekspertiza tədqiqatının dəyəri olan 300 manat pulun cavabdehlər Cavabdeh1 və Cavabdeh3-dən müştərək qaydada tutularaq "Əmlak Ekspert Mərkəzi" MMC-nin hesabına köçürülməsi, iddia tələbinin qalan hissədə təmin edilməməsi qət edilmişdir (hakim – Z.Axundova).

24. Birinci instansiya məhkəməsinin araşdırması zamanı müəyyən edilmişdir ki, iddiaçı ilə Cavabdeh1 arasında 2010-cu il 18 oktyabr tarixli 145 nömrəli kredit müqaviləsi bağlanmış və həmin müqaviləyə əsasən borcalana bank tərəfindən 36 ay müddətinə, illik faiz dərəcəsi 20% olmaqla, 85.000 manat məbləğində kredit verilmişdir. İddiaçı ilə Cavabdeh4 və Cavabdeh1 arasında 2009-cu il 15 iyul tarixli 17 nömrəli ipoteka müqaviləsi bağlanmış və sözügedən ipoteka müqaviləsinə əsasən iddiaçı ilə Cavabdeh1 arasında bağlanmış 2009-cu il 15 iyul tarixli 55 nömrəli kredit müqaviləsi üzrə və həmin müqaviləyə gələcəkdə ediləcək əlavə və dəyişikliklər nəzərə alınmaqla Cavabdeh1-in öhdəliklərinin icrasını təmin etmək məqsədi ilə Cavabdeh4 tərəfindən onun mülkiyyətində olan İpoteka Predmeti iddiaçının xeyrinə ipoteka ilə yüklü edilmişdir. Daha sonra iddiaçı ilə Cavabdeh4 və Cavabdeh1 arasında bağlanmış 2009-cu il 15 iyul tarixli 17 nömrəli ipoteka müqaviləsinə 2010-cu il 18 oktyabr tarixli dəyişiklik edilməsinə dair Razılaşma imzalanmışdır. İddiaçı ilə Cavabdeh3 arasında 2010-cu il 18 oktyabr tarixli 110 nömrəli zaminlik müqaviləsi bağlanılmış və həmin zaminlik müqaviləsinə əsasən iddiaçı ilə Cavabdeh1 arasında bağlanmış 2010-cu il 18 oktyabr tarixli 145 nömrəli kredit müqaviləsi üzrə Cavabdeh1-in öhdəliklərinin icrasını təmin etmək məqsədilə zamin – Cavabdeh3 bank qarşısında öz üzərinə məsuliyyət götürmüşdür. Kreditor kredit müqaviləsi üzrə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirsə də, borcalan kredit müqaviləsi üzrə öhdəlikləri tam icra etməmiş, bununla da müqavilənin şərtlərini və mülki qanunvericiliyin normalarını pozmuşdur.

25. İddia tələbinin bir hissəsini cavabdehlərdən müştərək qaydada iddiaçının xeyrinə 43.594,88 manat əsas borc, 43.022,73 manat faiz borcunun tutulması təşkil edir.

26. Məhkəmə qanunvericilik normalarını, müqavilələrin şərtlərini, cavabdehlərin müqavilə öhdəliklərini lazımınca icra etmədiklərini (borcalan və zamin), belə olan halda isə iddiaçının göstərilən öhdəliyin icrasını tələb etmək hüququna malik olmasını, Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertiza Mərkəzinin 2022-ci il 18 noyabr tarixli 9/4989 nömrəli ekspert rəyini nəzərə alaraq hesab etmişdir ki, iddia tələbi əsas kredit borcu və hesablanmış faizlərin tutulması hissəsində qismən təmin edilməli, cavabdehlər Cavabdeh1 və Cavabdeh3-dən müştərək qaydada 43.559,15 manat əsas borc, 19.137,95 manat faiz borcu iddiaçının xeyrinə tutulmalı, qalan hissədə isə təmin olunmamalıdır.

27. İddia tələbinin digər hissəsini cavabdehlərdən müştərək qaydada iddiaçının xeyrinə 2013-cü il 13 oktyabr tarixindən 2022-ci il 4 may tarixinədək kredit borcu üzrə illik 5% dərəcəsi ilə hesablanmış 18.662,19 manat faiz borcunun, 2022-ci il 4 may tarixdən qətnamənin faktiki icra olunan gününə 43.594,88 manata illik 5% hesablanmaqla zərər məbləğinin tutulması təşkil edir.

28. Qanunvericilik normaları və Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertiza Mərkəzinin 2022-ci il 18 noyabr tarixli 9/4989 nömrəli ekspert rəyini nəzərə alaraq məhkəmə belə qənaətə gəlmişdir ki, iddiaçı icranı gecikdirmiş cavabdehlərdən gecikdirilmiş vaxt üçün illik beş faizin ödənilməsini tələb etməkdə haqlıdır və iddia həmin hissədə qismən təmin edilərək, 2010-cu il 18 oktyabr tarixli 145 nömrəli kredit müqaviləsi üzrə gecikdirilmiş vaxt üçün 5 %-lə hesablanmış 14.609,43 manat məbləğ cavabdehlər Cavabdeh1 və Cavabdeh3-dən müştərək qaydada iddiaçının xeyrinə tutulmalı, qalan hissədə isə qeyri-müəyyən olduğundan təmin olunmamalıdır. Belə ki, ekspert rəyi ilə müəyyən olunmuşdur ki, müqavilə müddəti bitdikdən sonra 2022-ci il 4 may tarixinədək 5% ilə hesablanmış faiz borcu 14.609,43 manat (33.747,38 manat – 19.137,95 manat = 14.609,43 manat) təşkil edir.

29. Məhkəmə həmçinin iddia tələbinin cavabdehlər Cavabdeh2 və Cavabdeh4-dən müştərək qaydada tutulmasına münasibətdə qeyd etmişdir ki, sözügedən şəxslər iddia tələbinin borcun tutulması hissəsində iddiaçı tərəfindən cavabdeh qismində qoyulsa da, iş materiallarından Cavabdeh2 və Cavabdeh4 tərəfindən kredit müqaviləsi üzrə Cavabdeh1 öhdəliklərinin icrasını təmin etmək məqsədilə bank qarşısında zamin və ya hər hansı qisimdə birgə məsuliyyət daşımaq barədə öz üzərlərinə hər hansı məsuliyyətin götürülməsi müəyyən edilməmişdir. Cavabdeh4 yalnız 2010-cu il 18 oktyabr tarixli 145 nömrəli kredit müqaviləsi üzrə öhdəliklərin icrasının təminatı olaraq ona məxsus olan əmlakı bankın xeyrinə ipoteka ilə yüklü etmişdir. İddiaçının istinad etdiyi, yuxarıda qeyd olunan məktub isə Cavabdeh2 hazırkı pul məbləğinin tutulmasının qət edilməsi üçün əsas ola bilməz.

30. İddiaçı borc üzrə tutmanın ipoteka predmetinə yönəldilməsi tələbini irəli sürmüşdür. Həmin tələblə bağlı məhkəmə araşdırması zamanı müəyyən edilmişdir ki, kredit müqaviləsi üzrə öhdəliklərin icrasının təminatı olaraq ipoteka müqaviləsinə əsasən Cavabdeh4-ə məxsus yuxarıda qeyd edilən ünvanda yerləşən daşınmaz əmlak iddiaçının xeyrinə ipoteka ilə yüklü edilmişdir. Müqavilə qanunla müəyyən edilmiş qaydada daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmışdır. İpotekaya tutma yönəldilməsi ilə bağlı "İpoteka haqqında" Qanunda nəzərdə tutulmuş prosedura əməl edilmiş, ipoteka qoyana ipotekaya tutma yönəldilməsi barədə bildiriş göndərilmiş, həmin bildirişin daşınmaz əmlakın dövlət reyestrində qeydə alınması ilə bağlı müraciət edilmiş və bildiriş reyestrdə qeydiyyata alınmışdır.

31. Qeyd olunanlara əsasən məhkəmə hesab etmişdir ki, iddia tələbi tutmanın ipoteka predmetinə yönəldilməsi hissəsində əsaslı olduğundan təmin edilməli, tutma 2009-cu il 15 iyul tarixli 17 nömrəli ipoteka müqaviləsi və həmin ipoteka müqaviləsinə 2010-cu il 18 oktyabr tarixli dəyişiklik edilməsinə dair Razılaşmaya əsasən İpoteka Predmetinə yönəldilməli, həmin əmlak açıq hərracda satılmalı, əmlakın satışından əldə olunmuş vəsait hesabına banka olan borc

ödənilməli, satışdan artıq məbləğ qalarsa, qalan məbləğ müvafiq olaraq Cavabdeh4-ə qaytarılmalıdır.

32. İpoteka predmetinin likvid dəyərlərinin müəyyən edilməsi ilə bağlı qiymətləndirici rəydən müəyyən olunmuşdur ki, İpoteka Predmetinin likvid dəyəri 118.000 manat təşkil edir. Belə olan halda, İpoteka Predmetinin ilkin satış qiyməti 118.000 manat məbləğində müəyyən edilməlidir.

33. İddia tələbinin bir hissəsini də tutma İpoteka Predmetinə yönəldikdən və həmin əmlak satıldıqdan 1 ay sonra Cavabdeh4 və digər şəxslərin həmin bağ evinə olan istifadə hüquqlarının itirilmiş hesab edilməsi, Cavabdeh4 və digər şəxslərin həmin bağ evindən çıxarılmaları, həmin bağ evinin boşaldılması təşkil edir. İddia həmin hissədə qismən təmin edilməli, İpoteka Predmetinə tutma yönəldildikdən və satıldıqdan 1 ay sonra Cavabdeh4 həmin bağ evindən çıxarılmalı, əmlak boşaldılaraq təhvil verilməli, qalan hissədə isə təmin olunmamalıdır.

34. İddianın ipoteka predmetinə tutma yönəldikdən və satıldıqdan 1 ay sonra ipoteka qoyanın ipoteka predmeti olan daşınmaz əmlaka olan istifadə hüquqlarının itirilmiş hesab edilməsi hissəsinə münasibətdə məhkəmə qeyd etmişdir ki, ipoteka qoyanın ipoteka qoyulmuş əmlak açıq hərracda satılanadək borcu ödəmək, eyni zamanda açıq hərracda ipoteka predmetini əldə etmək hüququ olduğundan, digər tərəfdən, ipoteka predmeti olan əmlak açıq hərracdan satılaraq alqı-satqı rəsmiləşdirilənədək həmin əmlak üzrə mülkiyyət hüququ ipoteka qoyana məxsus olduğundan hazırkı mərhələdə məhkəmə qətnaməsi ilə ipoteka qoyanın istifadə hüquqlarının itirilmiş hesab edilməsi onun qanunla qorunan hüquqlarını pozur. Ona görə də iddia tələbi ipoteka predmetinə tutma yönəldikdən və satıldıqdan 1 ay sonra ipoteka qoyanın, eləcə də kimliyi məlum olmayan digər şəxslərin ipoteka predmeti olan daşınmaz əmlaka olan istifadə hüquqlarının itirilmiş hesab edilməsi hissəsində iddia rədd edilməlidir.

35. Tərəflər arasında müqavilə 2010-cu il 18 oktyabr tarixində bağlansa da, Cavabdeh1 tərəfindən 2021-ci il 24 aprel tarixində 3.000 manat, 2021-ci il 25 iyun tarixində isə 1.000 manat məbləğində pul vəsaiti iddiaçının hesabına ödənilmişdir. Hazırkı tələblə bağlı isə iddiaçı 2022-ci il 4 may tarixində məhkəməyə müraciət etmişdir. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun qərarının məzmunundan müəyyən olunmuşdur ki, borclu şəxs borcu etiraf etməsini göstərən hərəkətlər etdikdə iddia müddətinin axımı kəsilir, fasilədən sonra iddia müddəti yenidən başlanır və fasiləyə qədər keçmiş vaxt isə yeni müddətə daxil edilmir. Borclu şəxsin borcu etiraf etməsini göstərən və təsdiqləyən hərəkətləri müxtəlif formada ifadə oluna bilər. Bunlardan biri kimi borcun qismən ödənilməsi təşkil edir. Cavabdeh tərəfindən isə qeyd edildiyi kimi, 2021-ci il 25 iyun tarixində iddiaçının hesabına ödənişin edilməsi, cavabdehin borcu etiraf etməsini göstərən və təsdiqləyən hərəkət kimi qəbul edilir. Ona görə də hazırkı iş üzrə iddia müddəti ötürülməmişdir.

36. Birinci instansiya məhkəməsi bu qənaətini MM-in 269, 270.1, 372.1, 373.1, 373.2, 374.1, 374.2, 375.2, 385.1, 386.1, 442, 445.1, 445.2.1, 445.7, 448.1, 470, 472, 739-cu, "İpoteka haqqında" Qanunun 1.0.6, 3.1, 10.4, 11.1, 11.2, 39.3, 41.1, 59.3.1-ci maddələrinə, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 399.3, 399.4, 445 və 449-cu maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair" 2014-cü il 24 dekabr tarixli, 2018-ci il 28 noyabr tarixli qərarlarına istinad etməklə əsaslandırmışdır.

37. Qətnamə Cavabdeh4-ə 2023-cü il 10 fevral tarixində rəsmi olaraq çatdırılmışdır.

38. Cavabdeh4 2023-cü il 21 mart tarixində apellyasiya şikayəti verərək, həmin qətnaməni ipoteka qoyan Cavabdeh4-ə aid olan hissədə ləğv edilməsi barədə yeni qətnamənin qəbul edilməsini xahiş etmişdir.

b) Apellyasiya instansiya məhkəməsindəki icraat

39. Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2023-ci il 8 iyun tarixli 2-2(103)-545/2023 saylı qətnaməsi ilə apellyasiya şikayəti təmin edilmiş, birinci instansiya məhkəməsinin qətnaməsi mübahisələndirilən, yəni tutmanın İpoteka Predmetinə yönəldilməsi, həmin əmlakın açıq hərracda satılması, əmlakın satışından əldə olunmuş vəsait hesabına iddiaçıya olan borcun ödənilməsi, satışdan əldə edilən məbləğ tutulan məbləğdən artıq olduqda, həmin məbləğin müvafiq olaraq Cavabdeh4-ə qaytarılması, ona İpoteka Predmetinin ilkin satış qiymətinin 118.000 manat məbləğində müəyyən edilməsi, İpoteka Predmetinə tutma yönəldildikdən və satıldıqdan 1 ay sonra Cavabdeh4-ün həmin bağ evindən çıxarılması və əmlakın boşaldılaraq təhvil verilməsi hissəsində ləğv edilmiş və həmin hissədə iddia rədd edilmişdir (sədrlik edən – R.Qurbanov, hakimlər – V.Baxışova və A.Hüseyn).

40. Apellyasiya instansiyası məhkəməsinin mövqeyinə görə, tərəflər arasında bağlanmış kredit müqaviləsinin şərtlərinə görə kredit 36 ay müddətinə verilib və kreditdən istifadə müddəti 2013-cü il 18 oktyabr tarixində başa çatır.

41. Hazırkı iddia ərizəsi isə 2022-ci il 4 may tarixində, yəni 2013-cü il 18 oktyabr tarixindən hesablanmaqla təxminən 8 il 7 ay keçdikdən sonra verilmişdir. Halbuki MM-in 373.2-ci maddəsinə görə müqavilə tələbləri üzrə iddia müddəti üç il, daşınmaz əşyalarla bağlı müqavilə tələbləri üzrə iddia müddəti isə altı ildir.

42. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2013-cü il 3 iyun tarixli qərarında isə müəyyən edilmişdir ki, kredit münasibətlərindən yaranan mübahisələrə MM-in 373.2-ci maddəsində nəzərdə tutulan üç illik iddia müddəti tətbiq edilməlidir. MM-in 373.2 və 377.2-ci maddələrinin mənasına görə kredit müqaviləsində başqa hal nəzərdə tutulmayıbsa, iddia müddətinin axımı bu müqavilədə müəyyənləşdirilmiş bütün öhdəliklər üzrə icra müddəti bitdikdə başlanır.

43. Göründüyü kimi iddiaçı MM-in 373.2-ci maddəsində müəyyən edilmiş iddia müddəti keçdikdən sonra məhkəməyə müraciət etmiş, eyni zamanda cavabdehin 2013-cü il 18 oktyabr tarixindən sonra 3 il müddətində ödənişlər etdiyini və ya digər etirafedici hərəkətlər etməsini təsdiq edən sübutları təqdim etməmişdir.

44. Cavabdeh1 tərəfindən 2021-ci il 22 aprel tarixində 3.000 manat və 2021-ci il 25 iyun tarixində 1.000 manat məbləğində pul vəsaitinin iddiaçının hesabına ödənilməsi isə birinci instansiya məhkəməsinin istinad etdiyi kimi MM-in 380.1-ci maddəsində göstərilən iddia müddətinin axımının kəsilməsi hallarına aid edilə bilməz. Belə ki, MM-in 380-ci maddəsinin mənasına görə, iddia müddətinin axımının kəsilməsinə səbəb olan hərəkətlər (iddia irəli sürülməsi və borcu etiraf etməsini göstərən hərəkətlər edilməsi) yalnız iddia müddəti çərçivəsində edildikdə müddətin axımının kəsilməsinə səbəb olur. İddia müddəti keçdikdən sonra edilmiş belə hərəkətlər isə iddia müddətinin axımının kəsilməsinə səbəb olmur və bu baxımdan hər hansı hüquqi əhəmiyyət daşımır. MM-in 383-cü maddəsi də qanunun bu şəkildə təfsirini təsdiq edir.

45. Həmçinin iddiaçı tərəfindən iddia müddətinin üzrlü səbəblərdən ötürülməsi barədə sübutlar təqdim edilməmiş və Cavabdeh4 tərəfindən iddia müddətinin tətbiqi barədə ərizə verilmişdir.

46. Sonuncu ilə bağlı məhkəmə qeyd etmişdir ki, Cavabdeh4 borcalan deyil, ipoteka qoyan olsa da, iddia müddətinin tətbiq edilməsi barədə ərizə vermək hüququna malikdir.

47. Belə ki, MM-in 323-1-ci maddəsinə əsasən, daşınmaz əmlakın mülkiyyətçisi eyni zamanda ipoteka ilə təmin edilmiş tələbin şəxsi borclusu olmasa da, o, ipoteka saxlayana yalnız şəxsi borcluya məxsus olan qarşılıqlı tələb irəli sürə bilər; xüsusi olaraq bu pul öhdəliklərinin əvəzləşdirilməsi və tələbdən şikayətin verilməsi ilə bağlı qarşılıqlı tələblərdir. Bu, həmçinin mülkiyyətçinin ipoteka saxlayanın şəxsi borclusu olduğu hala da aiddir.

48. Eyni zamanda, birinci instansiya məhkəməsində borcalan tərəfindən iddia müddətinin tətbiq edilməsi barədə ərizə, habelə qətnamədən apellyasiya şikayəti verilməmişdir.

Cavabdeh4 tərəfindən verilmiş apellyasiya şikayətində isə qətnamə yalnız ona aid hissədə, yəni tutmanın ipoteka predmetinə yönəldilməsi hissəsində mübahisələndirilmişdir.

49. Ona görə də hazırda kredit müqaviləsi üzrə iddia müddətinin ötürülməsinə qiymət verilməklə hazırkı apellyasiya baxışının predmetinə aid məsələnin həll edilməsi kredit müqaviləsi üzrə borcun tutulması tələbinə qiymət verilməsi kimi qiymətləndirilməməlidir. Çünki yuxarıda qeyd edildiyi kimi, hazırki apellyasiya baxışının həddi tutmanın ipoteka predmetinə yönəldilməsi hissəsindən ibarətdir.

50. Qeyd olunan halları və MM-in 376 və 375.2-ci maddələrinin tələblərini nəzərə alaraq məhkəmə hesab etmişdir ki, tutmanın ipoteka predmetinə yönəldilməsi tələbinə aid hissədə iddia rədd edilməlidir.

51. Belə ki, MM-in 376-cı maddəsinin tələblərinə görə, əsas tələb üzrə iddia müddəti keçdikdə əlavə tələblər (girov, dəbbə pulu, saxlama, zaminlik, beh) üzrə də iddia müddəti keçir.

52. MM-in 375.2-ci maddəsinə görə isə, məhkəmə tərəfindən iddia müddəti yalnız mübahisə tərəfinin məhkəmə qərarı çıxarılanadək verdiyi ərizə əsasında tətbiq edilir. Mübahisə tərəfinin tətbiq edilməsi barədə ərizə verdiyi iddia müddətinin keçməsi məhkəmənin iddiadan imtina barəsində qərar çıxarması üçün əsasdır.

53. Apellyasiya instansiyası məhkəməsi bu qənaətini MM-in 323-1, 373.2, 375.2, 376, 379.1, 380.1, 383-cü maddələrinə, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2013-cü il 3 iyun tarixli Qərarına istinad etməklə əsaslandırmışdır.

54. Apellyasiya instansiyası məhkəməsinin qətnaməsi 2023-cü il 19 iyun tarixində tərəflərin elektron kabinetlərində yerləşdirilmişdir.

55. İddiaçı 2023-cü il 13 avqust tarixində kassasiya şikayəti verərək, apellyasiya məhkəməsinin qətnaməsini iddianın təmin edilməyən hissəsində ləğv edilərək, iddia tələbinin həmin hissədə də təmin edilməsinə dair yeni qərar qəbul edilməsini xahiş etmişdir.

Kassaisya şikayətinin və ona qarşı etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

56. MM-in 375.2-ci maddəsi üzrə - Borcalan tərəfindən birinci instansiya məhkəməsində iddia müddətinin tətbiq edilməsi barədə ərizə verilməmiş, həmçinin qətnamədən apellyasiya şikayəti verilməmişdir. Kredit müqaviləsi “borc verən” (hazırkı halda İddiaçı bank) və “borc alan” (Cavabdeh1) arasında bağlanmışdır və ipoteka qoyan Cavabdeh4 kredit müqaviləsinin tərəfi deyil. İddia müddəti kreditin qaytarılmasının tələb edilməsi hüququ ilə bağlıdır və istənilən halda, bu müqavilədən irəli gələn münasibətlərin subyekti Cavabdeh4 ola bilməz. Belə olan halda, kredit müqaviləsinin tərəfi olmayan şəxsin həmin müqavilədən irəli gələn mübahisə - kreditin qaytarılmasının tələb edilməsi üzrə MM-in 375.2-ci maddəsində nəzərdə tutulan “mübahisə tərəfi” hesab edilmədiyi aşkardır. Cavabdeh4 isə yalnız ipoteka müqaviləsinin tərəfidir və yalnız özünün tərəf olduğu ipoteka müqaviləsindən irəli gələn hüquq və öhdəliklərlə bağlı qanunvericiliklə nəzərdə tutulmuş hüquqlardan istifadə edə bilər. Digər tərəfdən, öhdəlik hüququna aid olan kredit müqaviləsindən fərqli olaraq, ipoteka hüququ məhdud əşya hüququ olmaqla hər hansı müddətlə məhdudlaşdırılmamışdır. Qeyd edilən müddəa Konstitusiya Məhkəməsinin yuxarıda istinad edilən 2022-ci il 11 fevral tarixli Qərarında da təsbit edilmişdir: “girov (ipoteka) hüququ ipoteka saxlayanın əşya üzərində məhdud əşya hüququ olduğundan, əmlak hüququ olaraq müddətsiz xarakter daşıyır.” Göründüyü kimi, ipoteka qoyan məhdud əşya hüququ ilə yüklü etdiyi əmlak hüquqları barədə hər hansı iddia müddətinin ötürülməsi barədə tələb irəli sürə bilməz və bu barədə MM-in 375.2-ci maddəsində nəzərdə tutulmuş ərizə verə bilməzdi. Bundan əlavə, yalnız borc verənlə borc alanın kredit müqaviləsi üzrə münasibətlərindən yaranan faktlarla iradəvi münasibət bildirilməsi də həmin iki subyektə aid olmaqla, əlavə öhdəlik üzrə tərəfin səlahiyyətinə aid deyil. Həmçinin nəzərə alınmalıdır ki, hazırkı işdə iddia bilavasitə ipoteka predmetinə tutmanın yönəldilməsi ilə deyil, borcun tutulması və tələbin ipoteka predmetinə yönəldilməsi ilə bağlı olmuşdur. Yəni, ilk növbədə məhkəmə borcun tutulmalı olması məsələsini həll etdikdən sonra tələbin ipoteka predmetinə

yönəldilməsi məsələsini həll edir. Birinci məsələ - borcun ödənilməsi ilə bağlı öhdəliklərin icrası vəziyyəti və s. məsələlər borc verənlə borc alanan dəlillərinə və təqdim etdikləri sübutlara əsasən həll edildiyindən, ipoteka qoyanın tərəf olmadığı müqavilə üzrə iddia müddətinin tətbiqinə dair ərizə verməsi və həmin ərizə əsasında iddia müddətinin tətbiq edilərək, iddia tələbinin ipoteka predmetinə yönəldilməsi hissəsində rədd edilməsi tamamilə əsassız və qanunsuz olmuşdur. Apellyasiya məhkəməsinin qətnaməsindən belə çıxır ki, borclunun hüquqlarına aid olan məsələ onun iradəsi olmadan (iddia müddətinin tətbiqinə dair ərizə verilmədən, həmçinin borcun tutulmasını qət etmiş birinci instansiya məhkəməsinin qətnaməsindən apellyasiya şikayəti verilmədən) həll edilmişdir. Göründüyü kimi, apellyasiya məhkəməsinin qətnaməsi əsassız və qanunsuz olmaqla yanaşı həm də daxilən ziddiyyətlidir və hüquqi müəyyənlik prinsipinin pozulmasıdır. Belə ki, cavabdeh borcludan kredit borcunun, faizlərin və s. tutulması hissəsində qətnamə qüvvədədir ki, bu da həmin tələb üzrə iddia müddətinin tətbiq edilmədiyinə dəlalət edir. Əks təqdirdə, iddia müddəti tətbiq olunmuş tələb təmin edilə bilməzdi. İpoteka qoyanın apellyasiya şikayətinin təmin olunaraq, iddianın ipoteka predmetinə tələb yönəldilməsi hissəsinin rədd edilməsi isə məhz iddia müddətinin tətbiqi ilə əsaslandırılır. Bundan əlavə, MM-nin 323-1-ci maddəsinə istinad etməklə həmin Məcəllənin 375.2-ci maddəsinin tətbiqinin əsaslandırılması da düzgün hesab edilə bilməz. Belə ki, 323-1-ci maddə əmlakın mülkiyyətçisinin ipoteka saxlayana qarşı "qarşılıqlı tələbini", xüsusi olaraq isə "pul öhdəliklərinin əvəzləşdirilməsi" və "tələbdən şikayətin verilməsi" ilə bağlı qarşılıqlı tələbi ehtiva edir. İddia müddətinin tətbiqinə dair ərizə isə qarşılıqlı tələb hesab edilə bilməz.

57. MM-in 380-ci maddəsi üzrə - MD tərəfindən 2021-ci il 22 aprel tarixində 3.000 manat və 2021-ci il 25 iyun tarixində 1.000 manat məbləğində pul vəsaiti iddiaçının hesabına ödənilmişdir. Göründüyü kimi, hazırkı halda MM-in 380-ci maddəsində nəzərdə tutulmuş hal baş vermişdir. Apellyasiya məhkəməsi isə həmin normaya genişləndirici şərh verməklə, hesab etmişdir ki, MM-in 380-ci maddəsinin mənasına görə iddia müddətinin axımının kəsilməsinə səbəb olan hərəkətlər (iddia irəli sürülməsi və borcu etiraf etməsini göstərən hərəkətlər edilməsi) yalnız iddia müddəti çərçivəsində edildikdə müddətin axımının kəsilməsinə səbəb olur. İddia müddəti keçdikdən sonra edilmiş belə hərəkətlər isə iddia müddətinin axımının kəsilməsinə səbəb olmur və bu baxımdan hər hansı hüquqi əhəmiyyət daşımır. MM-in 383-cü maddəsi də qanunun bu şəkildə təfsirini təsdiq edir. Məhkəmənin istinad etdiyi MM-in 383-cü maddəsinə əsasən, borclu və ya digər mükəlləfiyyətli şəxs vəzifəsini iddia müddəti bitdikdən sonra icra etmişsə, icra zamanı icra müddətinin bitdiyini bilməmiş olsa da, icra etdiyini geri tələb edə bilməz. Lakin məhkəmə, MM-in 383-cü maddəsinin həmin Məcəllənin 380-ci maddəsinin tətbiqi üçün hansı əsası yaratdığına və ümumiyyətlə, həmin maddə ilə əlaqələndirilməsinə aydınlıq gətirməmişdir. "C.Əzimovun şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 2018-ci il 2 aprel tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 2018-ci il 28 noyabr tarixli qərarındakı hüquqi mövqeyə görə: "Müddətin kəsilməsi tərəflərin iradəvi xarakterli hərəkəti ilə bağlı olur. Göründüyü kimi, mülki qanunvericilik iddia müddətinin axımının kəsilməsinin iki əsasını nəzərdə tutur: müəyyənləşdirilmiş qaydada iddia irəli sürülməsi; - borclunun borcu etiraf etməsini göstərən hərəkətlər etməsi. Borclu şəxsin borcu etiraf etməsini göstərən və təsdiqləyən hərəkətləri müxtəlif formada ifadə oluna bilər. Borcun etiraf olunması hallarına: - borcun qismən ödənilməsi; -əsas borc üzrə faizin köçürülməsi; - kreditora borcun etirafını nəzərdə tutan məktub, teleqram göndərilməsi; - öhdəliyin icrası üçün möhlət istənməsi və digər mühüm hallar aid edilə bilər." Məhkəmə nəzərə almamışdır ki, öhdəliyin icrası üçün müəyyən edilmiş müddətin keçməsi özü-özlüyündə həmin öhdəliyin xitamına səbəb olmur. Hazırkı işdə cavabdeh üç illik iddia müddətindən sonra da, yəni, xitam verilməmiş öhdəliyini qismən də olsa yerinə yetirməkdə davam etmiş, başqa sözlə desək, iradəvi xarakterli hərəkət edərək borcun qismən ödənilməsini həyata keçirmişdir. Əgər nəzərə alınsa ki, iddia müddətinin tətbiqi yalnız

tərəfin verdiyi ərizə əsasında məhkəmə tərəfindən tətbiq edilə bilər və həmin müddət kəsiyində iddia müddətinin ötürülüb-ötürülməməsi barədə ümumiyyətlə mübahisə yaranmamışdı, əksinə, borclu bu müddətdən sonra da öhdəliyin icrasına yönəlmiş hərəkətlər etmişdi, onda məhkəmənin maddi hüquq normasını düzgün tətbiq etmədiyi aşkardır.

58. MPM-in 217.3-cü maddəsi üzrə - Kassasiya şikayətində verilən əsaslandırmadan da göründüyü kimi, apellyasiya məhkəməsinin qətnaməsi iddiaçı bankla aksessor öhdəlikdən irəli gələn tələb üzrə cavabdehin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmamışdır. Məlumdur ki, ipoteka müqaviləsi müstəqil xarakter daşımır və əsas öhdəliklərin icrasını təmin etmək məqsədilə bağlanır. İpotekanın aksessor xarakteri ondan ibarətdir ki, öhdəliyin icrasının təmini üsulu olaraq ipoteka müqaviləsinin bağlanması əsas öhdəliyin mövcudluğu ilə şərtlənir. Gələcəkdə əsas öhdəliyin pozulması riskinə qarşı kreditorun mənafeyinin təminat altına alınması üçün bağlandığından, ipoteka müqaviləsi daim etibarlı və qüvvədə olan bir əsas öhdəliyin mövcudluğunu tələb edir. Bu səbəbdəndir ki, girov (ipoteka) müqaviləsi aksessor müqavilə olaraq aqibəti əsas müqavilədən asılıdır. Hazırkı halda, əsas öhdəliyə xitam verilməmişdir, əsas öhdəlik üzrə iddiaçı banka münasibətdə müqavilənin qarşı tərəfi yalnız borcalan Cavabdeh1-dir, onun tərəfindən iddia müddətinin tətbiqinə dair ərizə verilməmişdir və borcun tutulmasına (əsas öhdəliyin icrasına məcbur edilməyə) dair birinci instansiya məhkəməsinin qətnaməsindən də şikayət verilməmişdir. Belə olan halda, mübahisənin hazırda şikayət verilən qətnamədə göstərilən qaydada həll edilməsi, həmçinin MPM-in 217.3-cü maddəsinin də tələblərinə uyğun deyildir.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

59. Kassasiya şikayətinə qarşı etiraz daxil olmamışdır.

Kassasiya baxışının hədləri

60. Apellyasiya məhkəməsinin qətnaməsi bütövlükdə mübahisələndirildiyi üçün hazırkı icraat çərçivəsində məhkəmə aktının qanuniliyi və əsaslılığı tam olaraq yoxlanılacaqdır (MPM-in 403 və 416-cı maddələri).

61. Kassasiya instansiyası məhkəməsi tərəfindən işin faktiki halları yoxlanılmasa da apellyasiya instansiyası məhkəməsinin maddi və prosessual hüquq normalarını düzgün tətbiq edib etməməsini yoxlayarkən hüquqi məsələlərin düzgün qiymətləndirilməsi üçün işin faktiki hallarının nəzərə alınması və onlara istinad olunması zəruridir. Kassasiya instansiyası məhkəməsinin işin müəyyən edilmiş faktiki hallarına istinad etməsi faktiki halların yoxlanılması və araşdırılması kimi qiymətləndirilməməlidir.

Tətbiq edilən hüquq

62. Azərbaycan Respublikası Mülki Məcəlləsinin müvafiq müddəalarında aşağıdakılar nəzərdə tutulur:

“Maddə 375. İddia müddətinin tətbiqi

...

375.2. Məhkəmə tərəfindən iddia müddəti yalnız mübahisə tərəfinin məhkəmə qərarı çıxarılanadək verdiyi ərizə əsasında tətbiq edilir. Mübahisə tərəfinin tətbiq edilməsi barədə ərizə verdiyi iddia müddətinin keçməsi məhkəmənin iddiadan imtina barəsində qərar çıxarması üçün əsasdır.

Maddə 376. İddia müddətinin əlavə tələblərə tətbiqi

Əsas tələb üzrə iddia müddəti keçdikdə əlavə tələblər (girov, dəbbə pulu, saxlama, zaminlik, beh) üzrə də iddia müddəti keçir.”

63. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Azərbaycan Respublikası Mülki Məcəlləsinin 375.2-ci və “İpoteka haqqında” Azərbaycan Respublikası Qanununun 48.1.2-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair” 2022-ci il 11 fevral tarixli qərarında müəyyən edilmişdir ki:

"... əlavə öhdəlik kimi ipoteka müstəqil deyil, əsas öhdəlikdən asılıdır və əsas öhdəlik üzrə pozulmuş hüquqların məhkəmə qaydasında bərpası imkanı məhkəmə tərəfindən Mülki Məcəllənin 375.2-ci maddəsi tətbiq edilərək aradan qalxırsa, bu halda əsas öhdəliyin təminatı olan ipoteka üzrə də pozulmuş hüquqların məhkəmə qaydasında müdafiə imkanı itirilmiş olur.
..."

64. Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin müvafiq müddəalarında aşağıdakılar nəzərdə tutulur:

"Maddə 14. İş üzrə məhkəmə baxışının prinsipləri
...

14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.
..."

"Maddə 76. Sübutlar

76.1. Tərəflərin tələb və etirazlarını əsaslandıran halların və işi düzgün həll etmək üçün əhəmiyyəti olan başqa halların mövcud olduğunu və ya olmadığını məhkəmə müəyyən edərkən bu Məcəllədə və başqa qanunlarda müəyyən olunmuş qaydada əldə etdiyi məlumatlar sübutlar hesab olunur.

76.2. Bu məlumatlar yazılı və maddi sübutlarla, ekspertlərin rəyləri ilə, yerində müayinə keçirməklə, səs və video yazıları ilə, şahidlərin ifadələri ilə, işdə iştirak edən şəxslərin izahatları ilə müəyyən edilir.

76.3. Qanunu pozmaqla əldə edilmiş sübutlardan istifadə olunmasına yol verilmir.

Maddə 77. Sübut etmə vəzifəsi

77.1. Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.
..."

"Maddə 88. Sübutların qiymətləndirilməsi

Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur."
..."

"Maddə 217. Qətnamənin qanuniliyi və əsaslılığı

217.1. Məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır.
..."

"Maddə 233. Məhkəmə qətnaməsinin qanuni qüvvəyə minməsi

233.1. Bu Məcəllənin 355-7.4-cü, 355-13.4-cü, 355-17.3-cü, 355-18.4-cü, 355-19.3cü və 355-22.4-cü maddələrində qeyd olunan hallar istisna olmaqla, məhkəmə qətnaməsindən şikayət verilməmişdirsə, işdə iştirak edən şəxslərə rəsmi qaydada verildiyi gündən 1 ay keçdikdən sonra qanuni qüvvəyə minir.

233.3. Qətnamə qanuni qüvvəyə mindikdən sonra tərəflər və işdə iştirak edən digər şəxslər, habelə onların hüquq varisləri məhkəmədə eyni iddia tələblərini, eyni əsas üzrə yenidən irəli sürə bilməzlər, habelə məhkəmə tərəfindən müəyyən edilmiş faktlara və hüquq münasibətlərinə qarşı başqa prosesdə mübahisə edə bilməzlər.
..."

"Maddə 372. Apellyasiya instansiyası məhkəməsində işə baxılmanın hədləri
.....

372.6. Apellyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsinin qətnaməsinin əsaslılığını onun barəsində açıq və ya dolayısı ilə mübahisə edilən hissəsi üzrə, şikayət qərarın ləğv edilməsinə yönəldikdə və ya apellyasiya şikayətində və ona etirazlarda ifadə olunmuş dəlillərə əsasən mübahisənin predmeti bölünməz olduqda isə tam yoxlayır.

.....”

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

65. Məhkəmə kollegiyası iddiaçının kassasiya şikayətlərinin dəlillərinə qiymət verərkən nəzərə alır ki, kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır (MPM-in 416.1ci maddəsi).

66. Baxılan işdə, iddiaçı cavabdehlərə qarşı borcun tutulması və tutmanın ipoteka predmetinə yönəldilməsinə dair iddia tələblərini irəli sürmüş, ipoteka qoyan Cavabdeh4 iddia müddəti tətbiq edilərək iddianın rədd edilməsi barədə ərizə vermiş, lakin birinci instansiya məhkəməsi iddia müddətinin tətbiqinə əsas olmadığı qənaətinə gələrək iddianı qismən təmin etmişdir. Həmin qətnamədən, Cavabdeh4 tərəfindən verilmiş apellyasiya şikayətində birinci instansiya məhkəməsinin qətnaməsi yalnız tutmanın ipoteka predmetinə yönəldilməsi hissəsində mübahisələndirilmişdir. Apellyasiya instansiyası məhkəməsi apellyasiya şikayətini təmin edərək mübahisələndirilən hissədə sözügedən qətnaməni ləğv etmiş və iddianı rədd etmişdir.

67. Apellyasiya instansiyası məhkəməsi nəticəyə gələrkən ona istinad etmişdir ki, iddiaçı hazırkı iddianı qaldırmaq üçün iddia müddətini ötürmüşdür. Lakin hazırkı apellyasiya baxışının həddi apellyasiya şikayətinin dəlillərinə görə, yalnız tutmanın ipoteka predmetinə yönəldilməsi hissəsindən ibarət olduğundan, iddia tutmanın ipoteka predmetinə yönəldilməsi tələbinə aid hissədə rədd edilməlidir.

68. Məhkəmə kollegiyası apellyasiya instansiyası məhkəməsinin gəldiyi nəticə ilə razılaşmır və idddiaçının kassasiya şikayətinin dəlilləri üzrə aşağıdakı qaydada qiymətləndirmənin aparılmasını zəruri hesab edir.

69. Belə ki, iş üzrə yekun nəticəyə gələrkən apellyasiya instansiyası məhkəməsi MMin 375.2 və 376-cı maddələrinə istinad etmişdir.

70. MM-in 375.2-ci maddəsinin (bax bu qərarın 62-ci bəndinə) məzmununa görə, məhkəmə tərəfindən iddia müddəti yalnız mübahisə tərəfinin məhkəmə qərarı çıxarılanadək verdiyi ərizə əsasında tətbiq edilir. Həmin ərizə məhkəmənin iddiadan imtina barəsində qərar çıxarması üçün əsasdır.

71. MM-in 376-cı maddəsinin (bax bu qərarın 62-ci bəndinə) tələblərinə görə, əsas tələb üzrə iddia müddəti keçdikdə əlavə tələblər (girov və s.) üzrə də iddia müddəti keçir.

72. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun MM-in 375.2-ci və “İpoteka haqqında” Azərbaycan Respublikası Qanununun 48.1.2-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair 2022-ci il 11 fevral tarixli qərarında formalaşdırdığı hüquqi mövqelərə (bax yuxarıda bu qərarın 63-cü bəndi) görə, əlavə öhdəlik kimi ipoteka müstəqil deyil, əsas öhdəlikdən asılıdır və əsas öhdəlik üzrə pozulmuş hüquqların məhkəmə qaydasında bərpası imkanı məhkəmə tərəfindən MM-in 375.2-ci maddəsi tətbiq edilərək aradan qalxırsa, bu halda əsas öhdəliyin təminatı olan ipoteka üzrə də pozulmuş hüquqların məhkəmə qaydasında müdafiə imkanı itirilmiş olur.

73. Məhkəmə kollegiyası istinad olunan hüquq normalarını və Konstitusiya Məhkəməsi Plenumunun hüquqi mövqelərini əlaqəli şəkildə təhlil edərək belə qənaətə gəlir ki, əgər əsas tələblər üzrə iddia müddəti ötürülmüşdürsə və məhkəmə MM-in 375.2-ci maddəsinə uyğun olaraq, cavabdehin müvafiq ərizəsinə əsasən həmin əsas tələblər üzrə iddia müddətini tətbiq edərək bu iddia tələblərini rədd etmişdirsə, MM-in 376-cı maddəsinə uyğun olaraq, sözügedən tələblərin təminatına dair tələblər, yəni aksessor tələblər üzrə də iddia müddəti ötürülmüş hesab olunur.

74. Əks halda, yəni əgər əsas tələblər üzrə məhkəmə cavabdehin müvafiq ərizəsi əsasında iddia müddətini tətbiq edərək bu iddia tələblərini rədd etməmişdirsə, sözügedən

tələblərin təminatına dair tələblər, yəni aksessor tələblər (girov və s.) üzrə də iddia müddəti ötürülmüş hesab oluna bilməz.

75. Baxılan işdə birinci instansiya məhkəməsinin qətnaməsi apellyasiya qaydasında yalnız tutmanın ipoteka predmetinə yönəldilməsi hissəsində mübahisələndirilməsinə baxmayaraq, məhkəmə həmin instansiyada işə baxılmanın hədlərinə dair MPM-nin 372.6-cı maddəsinin tələblərini (bax bu qərarın 64-cü bəndinə) pozaraq, qətnaməni həm də kredit borcunun tutulması hissəsində də yoxlamış, həmin hissədə iddia müddətinin ötürülməsi qənaətinə gələrək, aksessor tələb olan ipoteka predmetinə tutma yönədilməsi hissəsində iddia müddətini tətbiq etmişdir.

76. Nəzərə alınmalıdır ki, birinci instansiya məhkəməsinin qətnaməsi iddianın əsas borc və faiz borcunun təmin edilməsi hissəsindən apellyasiya şikayəti verilmədiyindən, qətnamə həmin hissədə qanuni qüvvəyə minmişdir. Buna baxmayaraq, apellyasiya instansiyası məhkəməsinin iddianın əsas borc və faiz borcunun tutulması hissəsində iddia müddətinin ötürülməsi qənaətinə gəlməsi, qətnamənin qanuni qüvvəyə minən hissəsi ilə uyğunluq təşkil etməmiş, MPM-nin 233-cü maddəsinin tələbləri pozulmuşdur (bax bu qərarın 64-cü bəndinə).

77. Məhkəmə kollegiyası MM-in 375.2, 376-cı maddələrinin tələblərini və Konstitusiya Məhkəməsi Plenumunun yuxarıda istinad olunan mövqeyini nəzərə alaraq belə qənaətə gəlir ki, apellyasiya instansiyası məhkəməsinin kredit öhdəliyi üzrə iddia müddətinin ötməsini əsas gətirərək birinci instansiya məhkəməsinin qətnaməsini tutmanın ipoteka predmetinə yönəldilməsi hissəsində ləğv etməklə, qeyd olunan maddi hüquq normalarının tətbiqində səhvə yol vermiş, MPM-in 217.1 və 372.6-cı maddələrinin tələblərinə zidd (bax bu qərarın 64-cü bəndinə) nəticəyə gəlmişdir.

78. Bundan əlavə, qeyd edilməlidir ki, cavabdeh apellyasiya şikayətində tutmanın ipoteka predmetinə yönəldilməsi ilə bağlı iddia müddətinin ötürülməsindən əlavə, digər maddi və prosessual hüquq pozuntularına dair dəlillər də gətirmiş, lakin apellyasiya instansiyası məhkəməsi öz qətnaməsində həmin dəlillər üzrə də heç bir hüquqi qiymətləndirmə aparmamışdır.

79. Məhkəmə kollegiyası hesab edir ki, yeni apellyasiya baxışı zamanı məhkəmə qeyd olunan nöqsanları aradan qaldırmalı, iş üzrə qanuni və əsaslı qətnamə qəbul etməlidir.

80. Göstərilənlərə əsasən kassasiya şikayəti qismən təmin edilməli, Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2023-cü il 8 iyun tarixli 2-2(103)-545/2023 saylı qətnaməsi maddi və prossual hüquq normalarının pozulmasına görə ləğv edilməli və iş yenidən baxılmaq üçün həmin məhkəməyə qaytarılmalıdır.

81. Məhkəmə kollegiyası MPM-in 417-419-cu maddələrini rəhbər tutaraq

QƏRARA ALIR:

İddiaçının kassasiya şikayəti qismən təmin edilsin.

Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2023-cü il 8 iyun tarixli 2-2(103)-545/2023 saylı qətnaməsi ləğv edilsin.

İş yenidən baxılmaq üçün Bakı Apellyasiya Məhkəməsinə qaytarılsın.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

24. 2(102)-3884/2023 nömrəli, 2023-cü il 15 noyabr tarixli qərar - Podrat müqaviləsindən irəli gələn mübahisələrə baxılarkən iddia müddətinin axımının başlanması

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: podrat müqaviləsindən irəli gələn mübahisələrə baxılarkən iddia müddətinin axımının başlanması

İddiaçı yeni tikilən binada alınan mənzilin çatışmayan sahəsinə görə pul tələbi barədə iddia ərizəsi ilə məhkəməyə müraciət etmiş, cavabdeh iddia müddətinin tətbiqi barədə ərizə verərək iddia tələbinin rədd edilməsini xahiş etmişdir.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Mülki Məcəllənin 776.1-ci maddəsində podrat müqaviləsi üzrə icranın qüsurları barədə tələblər üzrə xüsusi iddia müddətləri nəzərdə tutulmuşdur. Həmin maddənin dispozisiyası podrat müqaviləsi üzrə sifarişçinin icranın qüsuru barəsində tələblərinin iddia müddətinin axımını işin qəbul edildiyi günlə əlaqələndirmişdir.

Tərəflər arasında bağlanmış 29 dekabr 2007-ci il tarixli müqavilələrin şərtlərinə əsasən satıcı öhdəlik götürmüşdür ki, inşa etdiyi binanı 24 ay müddətində təhvil verəcək. Həmçinin apellyasiya məhkəməsi müəyyən etmişdir ki, mübahisəli mənzillər iddiaçıya təhvil verilərək, o, 2010-2011-ci illərdə orada təmir işləri görmüşdür. Hazırkı işdə iddiaçı mənzili təmir etdiyi halda, onu qəbul etməsi məhkəmənin müəyyən etdiyi haldır. İddiaçı özü də, mənzili daha gec tarixdə ona təhvil verməsini iddia etməmişdir.

İddiaçının dəlili iddia müddətinin onun mülkiyyət hüquqlarının daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınaraq, müvafiq çıxarışın verildiyi tarixdən hesablanmalı olmasıdır ki, bu, yuxarıda qeyd olunduğu kimi, Mülki Məcəllənin 776.1-ci maddəsinin tələblərinə ziddir.

Mənzili təmir edən iddiaçının mənzilin real sahəsi barədə məlumatı olmuş, ən azı o, mənzilin qəbul etdikdən sonra, ağlabatan sayıqlıq və ehtiyat nümayiş etdirməklə mənzilin müqaviləyə uyğun ölçülərdə olmasını yoxlamaq imkanında olmuşdur.

Kassasiya instansiyası məhkəməsinin qərarı Mülki Məcəllənin 5.3, 385.1, 386.1, 404.1, 404.2, 752.1, 762.1, 762.2, 776.1-ci maddələrinə, “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 373-cü maddəsinin şərh edilməsinə dair” 2001-ci il 27 dekabr tarixli və “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 373.2 və 384.0.4-cü maddələrinin şərh edilməsinə dair” 2013-cü il 3 iyun tarixli Qərarlarına istinadla əsaslandırılmışdır.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-3884/2023

15.11.2023-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının

İddiaçının cavabdeh "XXXX" Açıq Səhmdar Cəmiyyətinə qarşı "artıq ödənilmiş pul vəsaitinin tutulması" tələbinə dair iddia ərizəsi üzrə

Q Ə R A R I

(Açar sözlər: yeni tikilən binada alınan mənzilin çatışmayan sahəsinə görə pul tələbi, podrat müqaviləsi üzrə iddia müddəti)

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Şamayev Elşad Yaquboviçdən (sədrlik edən və məruzəçi), Vəliyeva Elşanə Rafiq qızından və Xıdırov Əhliman Mehman oğlundan ibarət tərkibdə,

Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 19 aprel 2023-cü il tarixli, 2(103)-2142/2023 nömrəli qətnaməsindən iddiaçı tərəfindən verilən kassasiya şikayəti üzrə mülki işə Azərbaycan Respublikası Ali Məhkəməsinin inzibati binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları:

1. 29 dekabr 2007-ci il tarixli *** və **** saylı müqavilələr ilə "XXXX" Açıq Səhmdar Cəmiyyəti Ünvan 1-də yerləşən binada birinci blok, hər biri 2 otaqdan, ümumi yaşayış sahələri 82,11 kv.metr olan müvafiq olaraq 155 və 156 saylı mənzilləri İddiaçıya satmış, tərəflərin qarşılıqlı razılaşmasına əsasən müvafiq olaraq 43600,65 manat (bir kv.metr üçün 531 manat) və 41876,10 manat (bir kv.metr üçün 510 manat) məbləğində vəsait alıcı tərəfindən ASC-yə tam ödənilmişdir.

2. Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti Hüquqların Dövlət Qeydiyyatı Haqqında Daşınmaz Əmlakın Dövlət Reyestri tərəfindən verilmiş çıxarışlara əsasən İddiaçının mülkiyyəti kimi 9 oktyabr 2020-ci il tarixdə qeydə alınmış Ünvan 1, 186 saylı mənzilin (yeni qaydalarla: AZ****, Ünvan 2 m6) ümumi sahəsi 70,90 kv.metr, həmin ünvanda yerləşən 187 saylı mənzilin (yeni qaydalarla: Ünvan 2 m7) 70,90 kv.metr təşkil edir.

İş üzrə qəbul edilmiş məhkəmə aktları:

a) Birinci instansiya məhkəməsində icraat

3. İddiaçının cavabdeh "XXXX" Açıq Səhmdar Cəmiyyətinə qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, cavabdehdən *** saylı müqaviləyə əsasən əlavə ödənilmiş 5952,51 manat, **** saylı müqaviləyə əsasən isə əlavə ödənilmiş 5717,10 manat olmaqla, ümumilikdə hər iki müqaviləyə əsasən iddiaçı tərəfindən artıq ödənilən cəmi 11669,61 manat pulun və ödənilmiş 30 manat dövlət rüsumunun tutularaq iddiaçıya ödənilməsi barədə qətnamə çıxarılmasını məhkəmədən xahiş etmişdir.

4. İddia onunla əsaslandırılmışdır ki, iddiaçıya cavabdehdən alınan mənzillərə dair Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestri xidmətindən verilmiş olan çıxarışa əsasən 155 və 156 saylı mənzillərin dair hər birinin ayrılıqda ümumi sahəsinin 70,90 kv.metr olaraq göstərilmişdir. Hər iki mənzilə dair müqavilədə qeyd edilən kv.metrlə çıxarışla təsdiq olunan ümumi sahə arasında kifayət qədər fərqlər mövcuddur. Sadə riyazi hesablama qaydası ilə hər mənzilə görə 11,21 kv.metr üçün əlavə pulun iddiaçı tərəfindən ASC-yə ödənilməsi müəyyən olunur. Bundan əlavə, həmin evlər bir-biri ilə divar qonşusudur. Buna baxmayaraq, hər iki evdə 1 arakəsmə, divara görə əlavə kv.metr hesablanaraq pul ödətdirilmişdir. Beləliklə, *** saylı müqavilədə əlavə olaraq 5952,51 manat, **** saylı müqavilədə isə əlavə olaraq 5717,10 manat pul ödənilmişdir. Həmin artıq ödənilmiş məbləğ geri qaytarılmalıdır.

5. Birinci instansiya məhkəməsində cavabdeh "XXXX" ASC-nin nümayəndəsi X1 ərizə verərək, iddia müddətinin tətbiq edilməklə, iddiadan imtina barədə qərar qəbul edilməsini xahiş etmişdir.

6. Ərizə belə əsaslandırılmışdır ki, iddiaçı cavabdehdən 29 dekabr 2007-ci il tarixli *** və **** saylı alqı-satqı müqavilələri əsasında 2 mənzil almışdır. Cavabdeh tərəfindən mənzillər iddiaçıya təhvil verilərkən, iddiaçı təhvil-təslim aktında binanın və mənzilin inşa olunmasına dair heç bir pretenziyasının olmadığını təsdiq etmişdir. İddiaçı mənzilləri təmir etmiş, ötən bu

müddət ərzində orada yaşamış və mənzillərin sahəsi ilə bağlı cavabdehə qarşı heç vaxt hər hansı pretenziyası olmamışdır. 14 ildən sonra onun əsassız iddialarla məhkəməyə müraciət etməsi qanunsuzdur.

7. Birinci instansiya məhkəməsi tərəfindən təyin edilmiş məhkəmə tikinti-texniki ekspertizasının 10 noyabr 2022-ci il tarixli rəyinə əsasən Ünvan 1, 156 saylı və 155 saylı mənzilin hər birinin ümumi sahəsi ayrı-ayrılıqda Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyasının 04 dekabr 2012-ci il tarixli 07 nömrəli qərarı ilə təsdiq edilmiş "Tikinti obyektinin sahəsinin və həcminin hesablanması qaydaları"na əsasən 70,9 kv.m təşkil edir. Ünvan 1, 156 saylı 2 otaqdan ibarət və 155 saylı 2 otaqdan ibarət mənzillərin divarlarının və arakəsmələrinin, dəhliz və eyvanların sahəsi, habelə yardımçı sahə daxil edilməklə ümumi sahəsi 82,11 kv.metr təşkil edir.

8. Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin 09 dekabr 2022-ci il tarixli, 2(005)-102/2022 nömrəli qətnaməsi ilə (hakim S.İ.Ədilova) iddia rədd edilmişdir.

9. Birinci instansiya məhkəməsi mövqeyini belə əsaslandırmışdır ki, "XXXX" ASC ilə iddiaçı arasında bağlanmış *** nömrəli 29 dekabr 2007-ci il tarixli və **** nömrəli 29 dekabr 2007-ci il tarixli müqavilələr üzrə cavabdeh təşkilat tərəfindən iddiaçının mübahisələndirdiyi öhdəlik pozulmayıb, bu səbəbdən də iddia tələbinin heç bir hüquqi əsası yoxdur. Belə ki, müqavilələrin 1.1-ci bəndlərinə əsasən cavabdehin iddiaçıya satmağı öhdəsinə götürdüyü mənzillərin ümumi sahəsi 82,11 kv.metr göstərilmişdir.

10. Göründüyü kimi, qeyd edilən müqavilələr üzrə müvafiq mənzillərin sahəsi məhkəmə araşdırması zamanı təyin edilmiş tikinti-texniki ekspertizasının nəticəsi kimi verilmiş müvafiq ekspert rəyi ilə mənzillərin divarlarının və arakəsmələrinin, dəhliz və eyvanların sahəsi, habelə yardımçı sahə daxil edilməklə ümumi sahəsinin 82,11 kv.metr təşkil etdiyi müəyyən edilmişdir.

11. Məhkəmə həmçinin qeyd etmişdir ki, mübahisənin kökündə duran mənzillərin sahələri məsələsi tərəflərin bağladıqları müqavilədə aydın və dəqiq şəkildə qeyd olunmuşdur. Yəni, cavabdehin iddiaçıya satmağı öhdəsinə götürdüyü mənzillərin ümumi sahəsi 82,11 kv.metr göstərildiyi halda, ekspert rəyinə əsasən "Tikinti obyektinin sahəsinin və həcminin hesablanması qaydaları"nın tələblərinə əsasən 70,90 kv.m təşkil edir. Lakin həmin ekspert rəyi ilə müəyyən edilir ki, mənzillərin divarlarının və arakəsmələrinin, dəhliz və eyvanların sahəsi, habelə yardımçı sahə daxil edilməklə ümumi sahəsi 82,11 kv.metr təşkil edir.

12. Yaşayış binalarında mənzillərin ümumi sahəsinin bayır və ara divarlarının, habelə məhəccərlərin yerləşdiyi sahələrin nəzərə alınmadan hesablanması barədə Şəhərsalma və Tikinti Məcəlləsinin 59.3-cü maddəsi, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi şəkildə tikinti obyektinin sahəsinin və həcminin hesablanması qaydalarını tənzimləyən normadır. Həmin müddəa, alqı-satqı münasibətinə girən subyektlərin müqavilə azadlığı çərçivəsində satılan əşyanın sahəsini öz razılaşmalarına uyğun şərtləşdirmək sərbəstliyini aradan qaldırmır.

13. Məhkəmə, iddia müddətinin tətbiq edilməsinə dair ərizəyə hüquqi qiymət verərək qeyd etmişdir ki, hazırki iddia tələbi mülkiyyət hüquqlarının müdafiəsi ilə bağlı olduğundan həmin tələbə iddia müddəti şamil edilməməlidir.

14. Birinci instansiya məhkəməsi mövqeyini Azərbaycan Respublikası Mülki Məcəlləsinin 6, 385.1, 384.0.4, 390, 421.1, 421.2, 437.1, 568.1, 577.1, 578.1-ci, Mülki Prosessual Məcəllənin 14.2, 77.1, 217.4, 218.1-ci maddələri ilə əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsində icraat

15. İddiaçı apellyasiya şikayəti verərək, Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin 09 dekabr 2022-ci il tarixli, 2(005)-102/2022 nömrəli qətnaməsinin ləğv edilməsi və iddia tələbinin təmin edilməsi barədə yeni qətnamə qəbul edilməsini xahiş etmişdir.

16. Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 19 aprel 2023-cü il tarixli, 2(103)-

2142/2023 nömrəli qətnaməsi ilə (hakim C.C.Musayevanın sədrliyi və məruzəsi ilə, hakimlər M.A.Məmmədovun və E.C.Kazımovun iştirakı ilə) apellyasiya şikayəti təmin edilməmiş, Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin 09 dekabr 2022-ci il tarixli, 2(005)-102/2022 nömrəli qətnaməsi ləğv edilmiş, iş üzrə yeni qətnamə qəbul edilərək, iddia rədd edilmişdir.

17. Apellyasiya instansiyası məhkəməsi qeyd etmişdir ki, birinci instansiya məhkəməsi mənzilin ümumi sahəsinin müqavilədə nəzərdə tutulan ölçüdə olması qənaətinə gəlməklə, işin həqiqi hallarını düzgün müəyyən etməmişdir. Belə ki, Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin 10 noyabr 2022-ci il tarixli ekspert rəyinə əsasən müəyyən edilmişdir ki, Ünvan 1, 155 və 156 saylı mənzillərinin hər birinin müvafiq azaltma əmsallara vurulmamış ümumi sahəsinin ölçüsü 82,1 kv.m deyil, 73,2 kv.m təşkil edir.

18. Göstərilənlərə əsasən apellyasiya instansiyası məhkəməsi hesab etmişdir ki, iddiaçı 2007-2010-ci illərdə ona təhvil verilmiş mənzilin ölçülərinin müqavilədə göstəriləndən az olması əsası ilə dəymiş zərəri tələb etmək üzrə subyektiv hüquqa malik olmuşdur. Çünki iddiaçının mülkiyyətinə verilmiş mənzilin sahəsi hesablanarkən azaltma əmsalları tətbiq olunmadıqda həmin mənzilin faktiki sahəsinin 73,2 kv.metr təşkil etdiyi müəyyən olunur və bu ölçü mənzillərin faktiki sahəsinin müqavilədə göstərilən sahəsindən 8,9 kv.m (82,1-73,2) azdır. Lakin əsaslı olan hazırki iddia iddia müddəti keçdiyindən və cavabdeh tərəf iddia müddətinin tətbiqi barədə ərizə verdiyindən rədd olunmalıdır.

19. Apellyasiya məhkəməsi qeyd etmişdir ki, hazırki iddianın hüquqi əsasını Mülki Məcəllənin 752.1, 762, 766-cı maddələri təşkil edir və işin halları ilə həmin normalar arasındakı əlaqəyə dair müvafiq təhlil aparılmalıdır. Belə ki, mübahisəli müqavilələrin alğı-satqı müqaviləsi kimi adlandırılmasına baxmayaraq, bu müqavilənin şərtləri və tərəflərin müqavilə üzrə üzərinə götürdükləri öhdəliklərin xarakteri belə deməyə əsas verir ki, onların arasında podrat müqaviləsinin bağlanmasından irəli gələn öhdəlik hüquq münasibətləri yaranmışdır. Həmin müqaviləyə əsasən podratçı (cavabdeh) müqavilədə nəzərdə tutulan işi icra etməyi, sifarişçi (iddiaçı) isə podratçıya razılaşdırılmış muzd ödəməyi öhdəsinə götürmüşdür. İş materiallarından göründüyü kimi, iddiaçı müqaviləyə uyğun məbləğdə ödəniş etmək vəzifəsini tam şəkildə icra etsə də, cavabdeh müqavilədə nəzərdə tutulan ölçüdə mənzil təhvil vermək üzrə vəzifəsini icra etməməklə iddiaçını, müqavilə bağlanarkən ümid etməyə haqqı çatanlardan xeyli dərəcədə məhrum etmişdir.

20. Beləliklə, iddiaçıya cavabdeh tərəfindən müqavilədə nəzərdə tutulduğundan daha az yaşayış sahəsinin verildiyini, yəni müqavilə şərtlərinin lazımi qaydada icra edilmədiyi, bununla da iddiaçının hüququnun pozulduğu halları işdə olan sübutlara əsasən öz təsdiqini tapmışdır.

21. Bununla yanaşı, apellyasiya instansiyası məhkəməsi qeyd etmişdir ki, iddiaçı hazırkı iddianı mənzilin ona təhvil verilməsindən 14 ilə yaxın müddət keçdikdən sonra qaldırmışdır. Halbuki, mülki qanunvericiliyin tələblərinə əsasən iddiaçı bu tələbi mənzilləri təhvil aldıqdan sonra 5 il ərzində irəli sürməli idi. Həmin müddətin keçməsi isə iddiaçının pozulmuş hüquqlarının məhkəmə qaydasında müdafiə imkanının itirilməsinə səbəb olmuşdur. Belə ki, Mülki Məcəllənin 776.1-ci maddəsinin dispozisiyası podrat müqaviləsi üzrə sifarişçinin icranın qüsuru barəsində tələblərinin iddia müddətinin axımını işin qəbul edildiyi günlə əlaqələndirmişdir.

22. Tərəflər arasında bağlanmış 29 dekabr 2007-ci il tarixli müqavilələrin şərtlərinə əsasən cavabdeh öhdəlik götürmüşdür ki, inşa etdiyi binanı 24 ay müddətində təhvil verəcək. Məhkəmə baxışı zamanı ixtisasca inşaatçı olan iddiaçı verdiyi izahatında göstərmişdir ki, o, mübahisəli mənzilləri çıxarış alınmamışdan əvvəl 2010-2011-ci ildə təmir etməyə başlamışdır.

23. Apellyasiya məhkəməsi iddiaçının mənzillərin sahəsinin müqavilə ilə nəzərdə tutulduğundan az verilməsindən yalnız mənzilə dair çıxarış aldıqdan sonra xəbər tutmasına dair dəlil ilə əlaqədar qeyd etmişdir ki, iddiaçının özünün də bildirdiyi kimi, o, həmin mənzilləri

2010-2011-ci ildə təmir etməyə başlamışdır. Bəllidir ki, mənzilin təmir edilməsi həmin mənzilin ölçülərinə uyğun materialların alınması və istifadə edilməsi ilə həyata keçirilir. Deməli, iddiaçı mənzilin təmiri zamanı onun real sahəsinin nə qədər olması barədə məlumatlı olmalı idi. Bundan başqa, mənzilin təhvil verilməsi zamanı və ondan sonra keçən müddət ərzində iddiaçı ağlabatan sayıqlıq və ehtiyat nümayiş etdirməklə mənzilin müqavilədə göstərilən ölçülərə uyğun olub-olmadığını yoxlaya bilərdi. Lakin o, qeyd edilən tədbirlərdən heç birini görməmiş, bununla da, heç bir üzrlü səbəb olmadan qanunvericiliklə müəyyən edilmiş müddəti ötürmüşdür.

24. Beləliklə, birinci instansiya məhkəməsi iddianın rədd edilməsi ilə bağlı düzgün nəticəyə gəlmiş olsa da, işin həqiqi hallarını düzgün müəyyən etməmiş, maddi və prosessual hüquq normalarını işin hallarına uyğun şəkildə tətbiq etməmiş, hazırkı mübahisəni həll edərkən aidiyyəti olmayan maddi hüquq normalarına istinad etmişdir.

25. Apellyasiya instansiyası məhkəməsi gəldiyi nəticəni Mülki Məcəllənin 5.3, 385.1, 386.1, 752.1, 762.1, 762.2, 776.1-ci, Şəhərsalma və Tikinti Məcəlləsinin 59.1, 59.2, 59.3-cü maddələri, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyasının 04 dekabr 2012-ci il tarixli qərarı ilə təsdiq olunmuş "Tikinti obyektlərinin sahəsinin və həcminin hesablanması" Qaydalarının 3.8-ci bəndinə istinadla əsaslandırmışdır.

Kassasiya şikayətinin və ona etirazın dəlilləri

26. İddiaçı kassasiya şikayəti verərək, Bakı Apellyasiya Məhkəməsinin 19 aprel 2023-cü il tarixli, 2(103)-2142/2023 nömrəli qətnaməsinin ləğv edilməsi və iddianın təmin edilməsi barədə yeni qərar qəbul edilməsini xahiş etmişdir.

27. Kassasiya şikayəti onunla əsaslandırılmışdır ki, apellyasiya instansiyası məhkəməsi tərəfindən Mülki Məcəllənin 5.3, 385.1, 386.1, 372, 752.1, 762.1, 762.2, 776.1-ci, Şəhərsalma və Tikinti Məcəlləsinin 59.1, 59.2, 59.3-cü maddələrini düzgün tətbiq etməmiş, Mülki Prosessual Məcəllənin 14.1, 217.1-ci maddələrinin tələbləri pozulmuşdur.

28. Belə ki, məhkəmə müqaviləni podrat müqaviləsi olaraq qəbul etmişdir. Bu isə özlüyündə məhkəmənin tərəflərin iradə ifadəsinin ziddinə gedərək müqavilə formasının dəyişdirərək, buna uyğun ona hüquqi qiymət verməsidir ki, bu da maddi hüquq normasının kobud pozuntusudur. Faktiki olaraq münasibət alğı-satqı müqaviləsindən, onun əsasında yaranan mülkiyyət hüquqları ilə bağlı tələblərdən irəli gəlir ki, həmin tələblərə Mülki Məcəllənin 384.0.6-cı maddəsinə əsasən iddia müddəti şamil edilməməlidir. Məhkəmə mənzilin sahəsini yoxlamaq vəzifəsini iddiaçının üzərinə qoymuşdur ki, bu nə işgüzar, nə də hüquqi münasibətlərə uyğun deyildir. Halbuki, işdə müvafiq ekspertiza rəyi mövcuddur və həmin rəydə də məhkəmənin yekunda gəldiyi əsasa, yəni iddianın əsaslı olması qənaətinə gəlməsinə əsas olan faktlar qeyd edilmişdir. Məhkəmə, alğı-satqı müqaviləsində ümumi sahə deyil, məhz yaşayış sahəsi ilə bağlı müddəalar öz əksini tapmasını nəzərə almamış, bu isə bir daha iddianın əsaslı olması qənaətinə gəlmək üçün əsas olmuşdur. Məhkəmə nəzərə almalı idi ki, iddiaçının sahənin az olması ilə bağlı məlumatı yalnız çıxarış əldə edildikdən sonra yaranmışdır. İddiaçının nə işlə məşğul olmasından asılı olmayaraq mənzili ölçmək kimi bir öhdəliyi mövcud olmamışdır. Əksinə isə cavabdehin həmin mənzili 82,11 kv.m yaşayış sahəsi olaraq təhvil vermə öhdəliyi olmuşdur.

29. Kassasiya şikayətinə Azərbaycan Respublikası MPM-in 10.8-1 və 414.1-ci maddələrinə uyğun olaraq yazılı icraat qaydasında baxılmışdır.

30. Kassasiya şikayətlərinə qarşı etiraz verilməmişdir.

Kassasiya baxışının hədləri:

31. Azərbaycan Respublikası mülki prosessual qanunvericiliyinin tələbinə görə kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır, yəni işə baxan apellyasiya instansiyası məhkəməsi tərəfindən sübut kimi qəbul olunan faktlara hüquqi qiymət vermir.

Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan sübutlara və hüquqi faktlara istinad etməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir. Belə ki, işin faktiki hallarının prosessual qanunvericiliyin tələblərinə riayət edilmədən müəyyən olunması ədalətli məhkəmə araşdırması hüququnun pozulmasına dəlalət etməklə mübahisənin hüquqi aktlarına təsir göstərə bilər.

32. İddiaçı apellyasiya məhkəməsinin qətnaməsini tam mübahisələndirdiyindən, hazırki kassasiya baxışının hədlərini qətnamənin qanuniliyinin tam yoxlanılması təşkil edir.

Tətbiq edilən hüquq:

33. Azərbaycan Respublikasının Mülki Məcəlləsinin

5.3-cü maddəsinə əsasən mülki hüquq münasibətlərinin subyektləri öz hüquq və vəzifələrini vicdanla həyata keçirməyə borcludurlar.

385.1-ci maddəsinə əsasən öhdəliyə əsasən bir şəxs (borclu) başqa şəxsin (kreditorun) xeyrinə müəyyən hərəkəti etməlidir, məsələn, pul ödəməli, əmlak verməli, iş görməli, xidmətlər göstərməli və i.a. və ya müəyyən hərəkətdən çəkinməlidir, kreditorun isə borcludan vəzifəsinin icrasını tələb etmək hüququ vardır.

386.1-ci maddəsinə əsasən öhdəliyin zərər vurulması, əsassız varlanma və ya bu Məcəllədə nəzərdə tutulmuş digər əsaslar nəticəsində əmələ gəlməsi halları istisna olmaqla, öhdəliyin əmələ gəlməsi üçün onun iştirakçıları arasında müqavilə olmalıdır.

404.1-ci maddəsinə əsasən müqavilə şərtlərini təfsir edərkən məhkəmə təkcə müqavilədəki söz və ifadələrin hərfi mənasını deyil, həm də tərəflərin iradə ifadəsinin həqiqi mənasını, bütövlükdə müqavilənin hərfi mənasının onun digər şərtləri və mənası ilə müqayisəsini nəzərə alır.

404.2-ci maddəsinə əsasən bu zaman bütün müvafiq hallar, o cümlədən müqaviləyə qədərki danışıqlar və yazışmalar, tərəflərin qarşılıqlı münasibətlərində yaranmış praktika, işgüzar adətlər, tərəflərin sonrakı hərəkətləri nəzərə alınır.

752.1-ci maddəsinə əsasən podrat müqaviləsinə görə podratçı müqavilədə nəzərdə tutulan işi icra etməyi, sifarişçi isə podratçıya razılaşdırılmış muzd ödəməyi öhdəsinə götürür.

762.1-ci maddəsinə əsasən podratçı sifarişçi üçün podratı elə icra etməlidir ki, podratın nəticəsi qüsurlardan, üçüncü şəxslərin hüquqlarından və ya iddialarından azad olsun.

762.2-ci maddəsinə əsasən podratın nəticəsi şərtləşdirilmiş keyfiyyətə uyğun gəlirsə, qüsurlardan azad sayılır. Keyfiyyət şərtləşdirilmədikdə podratın nəticəsi müqaviləyə uyğun istifadə və ya adi istifadə üçün yararlı olduğu halda qüsurlardan azad sayılır.

776.1-ci maddəsinə əsasən sifarişçi icranın qüsuru barəsində tələbi işin qəbul edildiyi gündən bir il ərzində, binaya aid tələbi isə beş il ərzində irəli sürə bilər.

34. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin:

9.1-ci maddəsinə əsasən ədalət mühakiməsi çəkişmə, tərəflərin bərabərliyi və faktlar əsasında həyata keçirilir.

9.3-cü maddəsinə əsasən hakim bütün hallarda prosesin çəkişmə prinsipini təmin etməli, öz qərarını yalnız tərəflərin çəkişmə prinsipinə əsasən müzakirə etdiyi dəlillərlə, onların verdiyi izahatlarla, sənədlərlə əsaslandırmalıdır.

14.2-ci maddəsinin tələbinə görə məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

76.1-ci maddəsinə əsasən tərəflərin tələb və etirazlarını əsaslandıran halların və işi düzgün həll etmək üçün əhəmiyyəti olan başqa halların mövcud olduğunu və ya olmadığını məhkəmə müəyyən edərkən bu Məcəllədə və başqa qanunlarda müəyyən olunmuş qaydada əldə etdiyi məlumatlar sübutlar hesab olunur.

76.2-ci maddəsinə əsasən bu məlumatlar yazılı və maddi sübutlara, ekspertlərin rəyləri

ilə, yerində müayinə keçirməklə, səs və video yazıları ilə, şahidlərin ifadələri ilə, işdə iştirak edən şəxslərin izahatları ilə müəyyən edilir.

77.1-ci maddəsinə əsasən hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

416.1-ci maddəsinə əsasən kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

416.2-ci maddəsinə əsasən apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 418.4-cü maddəsində nəzərdə tutulmuş prosessual hüquq pozuntusu hesab edilən hallara yol verilməsi şikayətin hədlərindən və dəlillərindən asılı olmayaraq yoxlanılmalıdır.

417.1.1-ci maddəsinə əsasən kassasiya məhkəməsi işə baxarkən apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadını dəyişiklik edilmədən, şikayəti təmin etmədən saxlaya bilər.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

35. Məhkəmə kollegiyası hesab edir ki, apellyasiya instansiyası məhkəməsi tərəfindən mübahisəli hüquq münasibətini tənzimləyən maddi hüquq normaları düzgün tətbiq olunmuşdur. İş üzrə düzgün qətnamə qəbul edilməməsi ilə nəticələnən prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması halları müəyyən edilmir. Bu baxımdan apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv olunması və ya dəyişdirilməsi üçün əsas yoxdur.

36. Belə ki, apellyasiya instansiyası məhkəməsi tərəfindən iddiaçının apellyasiya şikayətinin dəlillərinə uyğun araşdırmalar aparılmış və toplanmış sübutlara hüquqi qiymət verilərək yekun nəticəyə gəlinmişdir. Məhkəmə kollegiyası həmin əsaslandırma ilə tam razılaşır.

37. Kassasiya şikayətinin dəlilləri üzrə məhkəmə kollegiyası qeyd edir ki, apellyasiya məhkəməsi cavabdeh tərəfindən iddiaçıya tərəflər arasında bağlanmış müqavilə üzrə nəzərdə tutulmuş sahədən daha az sahənin təhvil verilməsini və bununla da, iddiaçının subyektiv hüququnun pozulmasını müəyyən etmişdir. Odur ki, məhkəmə kollegiyası cavabdeh tərəfindən müqavilə üzrə öhdəliyini lazımi qaydada icra edilməməsi ilə bağlı kassasiya şikayətinin dəlillərinə əlavə hüquqi qiymət verilməsinə lüzum görmür.

38. Hazırda qiymətləndirilməli olan məsələ mübahisəyə iddia müddətinin tətbiqinin qanuniliyidir.

39. Bununla bağlı məhkəmə kollegiyası hesab edir ki, apellyasiya məhkəməsi Mülki Məcəllənin 404.1-ci maddəsinə uyğun olaraq tərəflər arasında yaranmış hüquq münasibətlərinin podrat müqaviləsindən irəli gəldiyi nəticəsinə gəlmiş və bu zaman maddi hüquq normalarının tələblərini düzgün tətbiq etmişdir.

40. Belə ki, müqavilələr “Mənzilin alqı-satqı müqaviləsi” adlandırılsa da, ifadə olunan şərtlər və tərəflərin üzərinə götürdükləri öhdəliklərin xarakteri podrat müqaviləsinə uyğundur.

41. İddia müddətinin tətbiqinə dair gəlinən nəticə həmçinin qanuni olmuşdur. Belə ki, Mülki Məcəllənin 776.1-ci maddəsində podrat müqaviləsi üzrə icranın qüsurları barədə tələblər üzrə xüsusi iddia müddətləri nəzərdə tutulmuşdur. Həmin maddənin dispozisiyası podrat müqaviləsi üzrə sifarişçinin icranın qüsuru barəsində tələblərinin iddia müddətinin axımını işin qəbul edildiyi günlə əlaqələndirmişdir.

42. Tərəflər arasında bağlanmış 29 dekabr 2007-ci il tarixli müqavilələrin şərtlərinə əsasən satıcı öhdəlik götürmüşdür ki, inşa etdiyi binanı 24 ay müddətində təhvil verəcək. Həmçinin, apellyasiya məhkəməsi müəyyən etmişdir ki, mübahisəli mənzillər iddiaçıya təhvil verilərək, o, 2010-2011-ci illərdə orada təmir işləri görmüşdür.

43. Hazırki işdə iddiaçı mənzili təmir etdiyi halda, onu qəbul etməsi məhkəmənin müəyyən etdiyi halıdır. İddiaçı özü də, mənzili daha gec tarixdə ona təhvil verməsini iddia

etməmişdir.

44. İddiaçının dəlili iddia müddətinin onun mülkiyyət hüquqlarının daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınaraq, müvafiq çıxarışın verildiyi tarixindən hesablanmalı olmasıdır ki, bu, yuxarıda qeyd olunduğu kimi, Mülki Məcəllənin 776.1-ci maddəsinin tələblərinə ziddir.

45. Digər tərəfdən, məhkəmə kollegiyası apellyasiya instansiyası məhkəməsinin mövqeyi ilə razılaşır ki, mənzili təmir edən iddiaçının mənzilin real sahəsi barədə məlumatı olmuş, ən azı o, mənzilin qəbul etdikdən sonra, ağlabatan sayıqlıq və ehtiyat nümayiş etdirməklə mənzilin müqaviləyə uyğun ölçülərdə olmasını yoxlamaq imkanında olmuşdur.

46. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu bir sıra qərarlarında iddia müddəti institutunun mahiyyətinə, qanunvericilikdə təsbit edilmə məqsədinə və yerinə yetirdiyi hüquqi funksiyaya aydınlıq gətirməklə göstərmişdir ki, iddia müddəti institutu tələb haqlarına şamil olunmaqla mülki münasibət iştirakçılarına pozulmuş hüquqlarının məhkəmə vasitəsi ilə müdafiəsi (borclunun öhdəliyini icra etməyə məcbur edilməsi) imkanının müəyyən müddətlə (zaman kəsiyi) məhdudlaşdırılmasını nəzərdə tutur. İddia müddəti institutu mülki dövriyyənin, hüquq münasibətlərinin müəyyənliyini və sabitliyini yaratmaq, onların iştirakçılarını intizamlandırmaq, hüquq münasibətlərinin subyektlərinin hüquq və qanuni maraqlarının müddət baxımından vaxtında müdafiəsini və bərpasını təmin etmək məqsədi daşıyır. Belə ki, pozulmuş hüquqların məcburi müdafiəsi üçün ağlabatan müddət məhdudiyyətlərinin olmaması işin baxılması üçün əhəmiyyət kəsb edən sübutların toplanmasının və saxlanmasının lazım olduğunu nəzərə almayan cavabdehlərin və üçüncü şəxslərin qanunla qorunan hüquq və maraqlarının pozulmasına gətirib çıxarardı. Mübahisə tərəfinin ərizəsi əsasında məhkəmə tərəfindən iddia müddətinin tətbiqi mülki mübahisə tərəflərini əsaslandırılmamış çəkişmələrdən qoruyur və eyni zamanda, onları öz hüquqlarını vaxtında həyata keçirmələrinə və müdafiəsinə məcbur edir (“Azərbaycan Respublikası Mülki Məcəlləsinin 373-cü maddəsinin şərh edilməsinə dair” 2001-ci il 27 dekabr tarixli və “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 373.2 və 384.0.4-cü maddələrinin şərh edilməsinə dair” 2013-cü il 3 iyun tarixli Qərarlar).

47. İnsan Hüquqları üzrə Avropa Məhkəməsi “Stanyo Belçikaya qarşı” iş üzrə 07 iyul 2009-cu il tarixli Qərarında iddia müddətinin məqsədi ilə bağlı göstərmişdir ki, qanunvericilikdə müəyyən olunan iddia müddətinin məqsədi hüquqi müəyyənlikdir. Belə ki, potensial cavabdehləri vaxtı ötmüş tələblərdən qoruyur və məhkəmələri müəyyən zaman keçdikdən sonra qeyri-müəyyən və natamam sübutlara əsaslanmaqla qərar çıxarmaq zərurətindən azad edir.

48. Göstərilənlərə əsasən məhkəmə kollegiyası hesab edir ki, apellyasiya instansiyası məhkəməsi hazırkı işin faktiki hallarını tam, hərtərəfli və obyektiv araşdırmış və tərəflər arasındakı mübahisənin həlli üçün tətbiq edilməli olan maddi və prosessual hüquq normalarını düzgün tətbiq etmiş, iş üzrə qanuni və əsaslı qətnamə qəbul etmişdir. Bu səbəbdən, kassasiya şikayəti təmin edilməməli, apellyasiya instansiyası məhkəməsinin qətnaməsi dəyişiklik edilmədən saxlanılmalıdır.

49. Göstərilənlərə əsasən və Azərbaycan Respublikası MPM-in 416, 417, 419 və 421-ci maddələrini rəhbər tutaraq, məhkəmə kollegiyası

Qərara aldı:

İddiaçı tərəfindən verilmiş kassasiya şikayəti təmin edilməsin.

Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 19 aprel 2023-cü il tarixli, 2(103)-2142/2023 nömrəli qətnaməsi dəyişdirilmədən saxlanılsın.

25. 2(102)-4727/2023 nömrəli, 2023-cü il 19 dekabr tarixli qərar - Podrat müqaviləsindən irəli gələn mübahisələrə baxılarkən çoxmənzilli binadakı mənzilə münasibətdə iddia müddətinin hesablanması

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: podrat müqaviləsindən irəli gələn mübahisələrə baxılarkən çoxmənzilli binadakı mənzilə münasibətdə iddia müddətinin hesablanması

İddiaçı yeni tikilən binada alınan mənzillə bağlı artıq ödədiyi məbləği cavabdehdən tələb edir. İddiaçının mövqeyinə görə mənzilin əskik olan 12,3 kv.metr üçün cavabdehə artıq məbləğ ödəmiş, bununla da cavabdeh iddiaçının məhrum olması hesabına varlanmışdır. Bu səbəbdən iddia tələbinin qanuni əsasını iddiaçının məhrum olması hesabına cavabdehin əsassız varlanması təşkil edir.

Cavabdeh iddia müddətinin tətbiqi barədə ərizə verərək iddia tələbinin rədd edilməsini xahiş etmişdir.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Mülki Məcəllənin 776.1-ci maddəsində podrat müqaviləsi üzrə icranın qüsurları barədə tələblər üzrə xüsusi iddia müddətləri nəzərdə tutulmuşdur. Həmin maddənin dispozisiyası podrat müqaviləsi üzrə sifarişçinin icranın qüsuru barəsində tələblərinin iddia müddətinin axımını işin qəbul edildiyi günlə əlaqələndirmişdir.

Müəyyən edilir ki, iddiaçı hazırkı iddianı mənzilin ona təhvil verilməsindən 5 il 4 aydan sonra qaldırmışdır. Halbuki, mülki qanunvericiliyin tələblərinə əsasən iddiaçı bu tələbi mənzili təhvil aldıqdan sonra 5 il ərzində irəli sürməli idi. Həmin müddətin keçməsi isə iddiaçının pozulmuş hüquqlarının məhkəmə qaydasında müdafiə imkanının itirilməsinə səbəb olur. Mülki Məcəllənin 776.1-ci maddəsinin dispozisiyası podrat müqaviləsi üzrə sifarişçinin icranın qüsuru barəsində tələblərinin iddia müddətinin axımını işin qəbul edildiyi günlə əlaqələndirmişdir. Tərəflər arasında bağlanmış 25 iyun 2013-cü il tarixli müqavilənin şərtlərinə əsasən cavabdeh öhdəlik götürmüşdür ki, inşa etdiyi binanı şərtləşdirdikləri ölçüdə və qaydada tikərək təhvil verməlidir. İşin müəyyən edilmiş hallarından görünür ki, sifariş 2016-cı ildə təhvil verilmişdir.

Bu baxımdan bu növ iddialar üzrə Mülki Məcəllənin 776.1-ci maddəsinə əsasən binaya görə müəyyən olunmuş 5 illik iddia müddəti tətbiq olunmalıdır.

Kassasiya instansiyası məhkəməsinin qərarı “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 373-cü maddəsinin şərh edilməsinə dair” 2001-ci il 27 dekabr tarixli və “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 373.2 və 384.0.4-cü maddələrinin şərh edilməsinə dair” 2013-cü il 3 iyun tarixli Qərarlarına, Mülki Məcəllənin 776.1-ci maddəsinə istinadla əsaslandırılmışdır.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-4727/2023

19.12.2023-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının

iddiaçının cavabdehə qarşı (üçüncü şəxs - Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri publik hüquqi şəxsi 2 saylı Sumqayıt Ərazi İdarəsi) iş üzrə

Q Ə R A R I

(Açar sözlər: maddi zərərin ödənilməsi, iddia müddəti)

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Həsənov Vüqar Təvəkgül oğlu (məruzəçi), Əhmədov Əhməd Abbas oğlu və Şəfiyev İspəndiyar Əsəd oğlundan ibarət tərkibdə,

iddiaçının cavabdehə qarşı (üçüncü şəxs - Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri publik hüquqi şəxsi 2 saylı Sumqayıt Ərazi İdarəsi) maddi zərərin ödənilməsi tələbinə dair mülki iş üzrə Sumqayıt Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(105)-488/2023 nömrəli, 7 avqust 2023-cü il tarixli qətnaməsindən iddiaçı və cavabdeh tərəfindən verilmiş kassasiya şikayətlərinə 19 dekabr 2023-cü il tarixdə Ali Məhkəmənin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları

1. İddiaçı (bundan sonra – iddiaçı) ilə cavabdeh (bundan sonra – cavabdeh) arasında bağlanmış 25.06.2013-cü il tarixli müqaviləyə əsasən cavabdeh ünvanda yerləşən, ümumi sahəsi 139 kv.metr olan mənzili (bundan sonra-mübahisə predmeti olan mənzil) inşa edərək iddiaçıya təhvil vermək, iddiaçı isə mənzilin hər kv.metri üçün 470 manat olmaqla, mənzilin ümumi dəyərini təşkil edən 65330 manatı cavabdehə ödəmək öhdəliklərini götürmüşlər.

2. Cavabdehin üzvlərinin ümumi iclasının 01 saylı, 18.11.2016-cı il tarixli protokoluna əsasən iddiaçı kooperativin üzvü qəbul edilmiş, ünvanda yerləşən kooperativ binadan ümumi sahəsi 139 kvadrat metr olan 86 saylı mənzil iddiaçıya ayrılmışdır. Cavabdeh həmin mənzili tikib iddiaçıya təhvil vermiş, iddiaçı da müqavilədə göstərilən məbləği ona tam ödəməklə bu barədə maliyyə arayışı almışdır.

3. Daşınmaz əmlakın dövlət reyestrindən çıxarışa əsasən mübahisə predmeti olan mənzil üzərində 11.01.2018-ci il tarixində iddiaçının tam mülkiyyət hüququ dövlət qeydiyyatına alınmışdır.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a) Birinci instansiya məhkəməsində icraat

4. İddiaçı cavabdehə qarşı iddia ərizəsi və iddia tələbinin həcminin artırılması barədə ərizə ilə Sumqayıt Şəhər Məhkəməsinə müraciət edərək, cavabdehdən 12445 manat pulun və ödənilmiş dövlət rüsumunun cavabdehdən alınıb ona verilməsi barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

5. İddiaçı işin yuxarıda sadalanan hallarına istinad etməklə tələbini onunla əsaslandırmışdır ki, cavabdeh ilə bağlanmış müqaviləyə əsasən cavabdeh iddiaçıya ünvanda yerləşən 3 otaqlı, yaşayış sahəsi 139.8 kv metr olan mənzili tikib təhvil verməyi, iddiaçı da mənzilin hər kv.metri üçün 260 manat olmaqla, ona ümumilikdə 36.500 manat ödəməyi öhdələrinə götürmüşdür. Cavabdeh həmin mənzili tikib iddiaçıya təhvil vermiş, iddiaçı da müqavilədə göstərilən məbləği tam ona ödəməklə bu barədə maliyyə arayışı almışdır. Həmin sənədlərə əsasən iddiaçı həmin mənzilə olan mülkiyyət hüququnu dövlət qeydiyyatından keçirmiş və iddiaçıya bu barədə çıxarış verilmişdir. İddiaçı hazırda maliyyə çətinliyi ilə əlaqədar həmin mənzili satmaq qərarına gələndə məlum olmuşdur ki, müqavilədə yaşayış sahəsi 139,8 kv metr olmasına baxmayaraq, cavabdehin tikib ona təhvil verdiyi mənzilin sahəsi 126,7 kv. metrdir. Daşınmaz əşya bazarında köhnə bina evlərində mənzillərin qiyməti otaqla müəyyən edildiyi halda, MTK-lar tərəfindən inşa edilmiş yeni binalardakı mənzillərin dəyəri kv.metrlə hesablanır. Hazırda daşınmaz əşya bazarında yeni binalarda tikilmiş təmirsiz mənzillərin hər kv.metrinin qiyməti 600 manat təşkil edir. İddiaçı da mənzilinin sahəsinin 139.8 kv. metr olmasını nəzərə alaraq satış qiymətini də həmin kv.metrə uyğun olaraq müəyyən edib ev bazarına çıxarmışdır. Real alıcı mənzili bəyənib almaq istəyərkən məlum olmuşdur ki, iddiaçının mənzilinin sahəsi 139.8 kv metr deyil, 126.7 kv metrdir. Bu halda alıcı ilə aralarında qiymətlə əlaqədar razılıq alınmamış və mənzili iddiaçı istədiyi qiymətə sata bilməmişdir.

6. Sumqayıt Şəhər Məhkəməsinin 01.07.2022-ci il tarixli qərardadı ilə iş üzrə məhkəmə-əmtəəşünaslıq ekspertizası təyin edilmişdir. "X" Qiymətləndirmə Ekspert Mərkəzinin 22.08.2022-ci il tarixli qiymətləndirmə hesabatında ünvan ümumi sahəsi 126,7 kvadrat metr, 2016-cı il üçün 1 kv.metrinin dəyəri 900 manat olmaqla, ümumi dəyəri 114030 manat, 2022-ci il üçün 1 kvadrat metrinin dəyəri 950 manat olmaqla, ümumi dəyəri 120360 manat müəyyən edilmişdir.

7. Cavabdehin nümayəndəsi tərəfindən məhkəməyə ərizə təqdim edilərək mənzilin ölçüsünün az olmasının iddiaçıya mənzilə dair çıxarış verildiyi 2018-ci il tarixdən məlum olduğunu, iddia müddətinin ötürüldüyünü göstərmiş və iddianın rədd edilməsini xahiş etmişdir.

8. Sumqayıt Şəhər Məhkəməsinin (bundan sonra – birinci instansiya məhkəməsi) 29 sentyabr 2022-ci il tarixli 2(060)- 2582/2022 nömrəli qətnaməsi ilə (hakim Emin Abdullayev) iddia rədd edilmişdir.

9. Birinci instansiya məhkəməsi qeyd etmişdir ki, iddiaçı cavabdehlə bağlanmış müqaviləyə əsasən cavabdehin ümumi sahəsi 139 kv.metr olan mənzili inşa edərək ona təhvil vermək öhdəliyi götürdüyünü, lakin cavabdehin ona təhvil verdiyi mənzilin sahəsinin 126,7 kv.metr olduğunu bildirir və əskik gələn 12,3 kv.metr üçün artıq ödədiyi məbləği cavabdehdən tələb edir. Göründüyü kimi tərəflər arasında olan münasibətlər mahiyyət etibarilə podrat münasibətləridir.

10. İddia tələbinin mahiyyətindən göründüyü kimi, iddiaçı mənzillə bağlı artıq ödədiyi məbləği cavabdehdən tələb edir. Göründüyü kimi, iddiaçı mənzilin əskik olan 12,3 kv.metr üçün cavabdehə artıq məbləğ ödəmiş, bununla da cavabdeh iddiaçının məhrum olması hesabına varlanmışdır. Bu səbəbdən iddia tələbinin qanuni əsasını iddiaçının məhrum olması hesabına cavabdehin əsassız varlanması təşkil edir.

11. Cavabdehin nümayəndəsi tələbə iddia müddətinin tətbiq edilməsi barədə ərizə təqdim etmişdir. Hazırkı mübahisəyə daşınmaz əşyalarla bağlı müqavilə tələbləri üzrə iddia müddəti tətbiq edilə bilməz. Belə ki, iddiaçı cavabdeh tərəfindən ona verilmiş mənzilin müqavilədə nəzərdə tutulmuş sahəyə malik olan mənzillə əvəz edilməsi barədə iddia qaldırmış olsaydı, tələbə qeyd edilən iddia müddətinə uyğun qiymət verilə bilərdi. Hal-hazırkı tələbin qanuni əsasını isə əsassız varlanma təşkil etdiyindən tələbə mülki qanunvericiliyi əsassız varlanma ilə bağlı müəyyən etdiyi iddia müddəti tətbiq edilməlidir. Göründüyü kimi iddiaçı 11.01.2018-ci ildə daşınmaz əmlakın dövlət reyestrindən çıxarış alarkən mənzilin sahəsinin müqaviləyə uyğun gəlmədiyini bilmiş və ya bilməli olmuşdur. Lakin, iddiaçı məhkəməyə 30.03.2022-ci il tarixində müraciət etmiş və qanunla müəyyən edilmiş 2 illik iddia müddətini ötürmüşdür.

12. Birinci instansiya məhkəməsi gəldiyi nəticəni Azərbaycan Respublikası Mülki Məcəlləsinin 385.1, 386.1, 752.1, 752.2, 753.1, 1091.1, 1091.2, 1092.1, 372.1, 373.1, 373.2, 377.1 və 1095-ci maddələri, Mülki Prosessual Məcəllənin 119, 216-220 və 360-cı maddələri ilə əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

13. İddiaçı apellyasiya şikayəti verərək, birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv edilməsini, iddianın təmin olunması barədə yeni qətnamə çıxarılmasını xahiş etmişdir.

14. Şikayət belə əsaslandırılmışdır ki, məhkəmə iddia müddətini səhv tətbiq edərək belə nəticəyə gəlmişdir ki, o, podrat müqaviləsindən irəli gələn öhdəliklər üzrə 6 illik, əsassız varlanma üzrə isə 2 illik iddia müddətini ötürmüşdür. Məhkəmə onun hüquqlarının pozulmasını bildiyi günü düzgün müəyyən etsəydi, bu nəticəyə gəlməzdi. Belə ki, məhkəmə podrat müqaviləsinə görə iddia müddətinin axımını 2016-cı ildə mənzilin ona təhvil verildiyi tarixlə, əsassız varlanmaya görə isə mənzilə dair çıxarış aldığı tarixlə hesablamaqda səhvə yol vermişdir. Çünki o, hüquqlarının pozulmasını məhkəmə göstərən tarixlərdə deyil, 2022-ci ildə mənzili satmaq qərarına gəlib alıcı ilə qiymətdə hesablaşarkən bilmişdir. Yəni, müqavilədə mənzilin sahəsi 139,8 kv. metr olduğu halda, çıxarışda 126,7 kv.metr olmasını o, yalnız alıcı

sənədlərə baxıb ona deyəndən sonra bilmişdir. O, çıxarışı alıb evə qoymuş və oradakı rəqəmlərə baxıb hansısa fərqin olmasına diqqət də yetirməmişdir. Ona görə də məhkəmə iddia müddətinin axımını düzgün müəyyən etməmişdir. Hətta məhkəmə deyən kimi olsaydı da belə, o, podrat müqaviləsindən irəli gələn mübahisələr üzrə iddia müddətini bitirməmişdir. Çünki mənzil ona təhvil verilərkən onun mənzilin sahəsini ölçmək kimi imkan və biliyi olmamışdır. Hətta çıxarış alarkən mənzilin sahəsinin az olmasını bildiyini qəbul etsə də belə, çıxarışı 2018-ci il tarixdə almış, bu mübahisələr üzrə iddia müddəti isə 6 ildir. Belə olduğu təqdirdə o, iddia müddətini ötürməmiş və məhkəmə iddia müddətini tətbiq edib iddianı rədd etməkdə haqlı olmamışdır. Onun iddiasına ümumiyyətlə, hər hansı bir iddia müddəti tətbiq edilməməlidir. Çünki ona pul ziyanı dəymişdir, bu ziyan hansısa hərəkəti etmək və ya etməmək barədə deyildir. Cavabdeh üzərinə götürdüyü öhdəliyi müqavilədə göstərilmiş həcmdə yerinə yetirmədiyi üçün ondan aldığı artıq pulu qaytarmalıdır və bu zaman həmin pul tələbinə iddia müddəti tətbiq edilə bilməz. Məhkəmə işi tam, obyektiv, hərtərəfli araşdırmadan, iddia müddətinin ötürülməsi qənaətinə gələrkən şəxsin öz hüquqlarının pozulduğunu bildiyi günü düzgün müəyyən etməmiş, pozulduğu gün və bilməli olduğu gün məfhumlarını səhv salmış, qanunsuz olaraq müəyyən etmişdir ki, guya o, öz hüquqlarının pozulmasını ya mənzilin təhvil verildiyi gün-2016-da, ya da çıxarışın alındığı-2018-ci il tarixdə bilməli idi. Qətnamənin qiymətləndirmə hissəsindən görünür ki, məhkəmə bu prosessual normaya düzgün riayət etməmişdir. Belə ki, məhkəmə səhvən belə nəticəyə gəlmişdir ki, onların arasında podrat münasibətlərindən və daşınmaz əmlakla əlaqədar müqavilələrdən irəli gələn müddəaları tətbiq etmək olmaz. Məhkəmənin gəldiyi bu nəticə səhvdir. Çünki işdən də görünür ki, bu mübahisə daşınmaz əmlaka-həmin əmlakın tikilib ona təhvil verilməsinə dair müqavilədən yaranıb. Məhkəmə iddia müddətini tətbiq edərkən bu hala təsir edə bilən əsas halı-şəxsin öz hüquqlarının pozulduğunu bildiyi günü müəyyən etmək üçün zəruri olan bütün araşdırmaları aparmamış və bu da iş üçün çox əhəmiyyətli olan bütün halların tam aydınlaşdırılmaması ilə nəticələnmişdir. Məhkəmə belə hesab etmişdir ki, o, 2018-ci il tarixdə çıxarış alarkən hüquqlarının pozulduğunu bilmişdir. Lakin iş üzrə müəyyən edilmiş hesab edilən bu hal heç bir sübutla öz təsdiqini tapmamışdır. Məhkəmə belə bir nəticəyə gəlmişdir ki, o, hüquqlarının pozulmasını 2018-ci il tarixdə bildiyi üçün əsassız varlanma ilə əlaqədar iddialar üçün nəzərdə tutulmuş 2 il müddəti ötürmüşdür. Bu nəticə işin müəyyən edilmiş hallarına uyğun olmamışdır. Belə ki, onun mənzilinin ölçüsünün müqavilədə göstərilənə uyğun gəlməməsini 2018-ci ildən bildiyini təsdiq edən hər hansı bir dəlil olmadığı halda məhkəmənin bunu müəyyən edilmiş hal kimi qeyd etməsi qanunsuz olmuşdur.

15. Sumqayıt Apellyasiya Məhkəməsinin 28.02.2023-cü il tarixli qərardadı ilə məhkəmə tikinti texniki ekspertizası təyin edilmişdir. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin 25.06.2023-cü il tarixli rəyinə əsasən, ünvan mənzilin (təmirsiz vəziyyət əsas götürülməklə) ümumi sahəsinin 126,7 m2 , mənzilin faktiki sahəsinin isə (müvafiq azaltma əmsalları tətbiq olunmadıqda) 139,0 m2 təşkil etdiyi, mənzilin ümumi sahəsi ilə faktiki sahəsi arasında 12,3 m2 fərq olduğu və həmin fərqin alqı-satqı müqaviləsində qeyd olunan sahə hesablanarkən balkonların sahəsinin əmsala (0,3) vurulmaması səbəbindən yarandığı müəyyən edilmişdir.

16. Sumqayıt Apellyasiya Məhkəməsi Mülki kollegiyasının (bundan sonra – apellyasiya instansiyası məhkəməsi) 2(105)-488/2023 nömrəli, 7 avqust 2023-cü il tarixli qətnaməsi ilə (hakimlər – A.Süleymanova (sədrlik edən və məruzəçi), S.Qafari və A.Mahmudov) apellyasiya şikayəti qismən təmin edilmiş, birinci instansiya məhkəməsinin qətnaməsi ləğv edilmiş, iş üzrə yeni qətnamə qəbul edilərək iddia tələbi qismən təmin edilmiş, cavabdehdən 5781 manat və ödənilmiş dövlət rüsumunun əvəzi olaraq 70 manat alınaraq iddiaçıya ödənilməsi qət edilmiş, iddia qalan hissədə təmin edilməmişdir.

17. Apellyasiya instansiyası məhkəməsi qeyd etmişdir ki, cavabdeh sahəsi 139 kv metr olan mənzili tikib təhvil verməyi öhdəsinə götürmüş, lakin iddiaçıya təhvil verilən mənzilin

sahəsi çıxarışa əsasən 126,7 kv.metr təşkil edir. Tərəflər arasında müqavilə bağlanması və öhdəlik hüquq münasibətlərinin yaranması işin mübahisəsiz halıdır. Hazırkı iddia tələbinin qanuni əsasını podrat hüquq münasibətlərini tənzimləyən mülki qanunvericilik normaları təşkil edir, tərəflər arasında podrat müqaviləsindən irəli gələn münasibətlər yaranmışdır.

18. Tərəflər arasında bağlanılmış müqavilənin şərtlərinə əsasən, podratçı sifarişçiyə 139,0 kv.m həcmdə mənzil təhvil verməyi öhdəsinə götürmüş, müqavilə şərtində mənzil sahəsinin həcminin hesablanması ilə bağlı konkret qaydalar nəzərdə tutulmamaqla Satıcı tikinti-quraşdırma işlərini layihə sənədlərinə uyğun qüsursuz və Dövlət Tikinti Komitəsi tərəfindən təsdiq olunmuş tikinti norma və qaydalarına və qəbul olunmuş standartlara uyğun yüksək keyfiyyətlə yerinə yetirməsi öhdəliyi daşıdığı öz əksini tapmşdır (1.1, 1.2 bənd). Tərəflərin iradə ifadəsinə əsaslanan müqavilənin bu şərti mənzil sahəsinin həcminin hesablanması zamanı tikinti norma və qaydalarına istinad edilməsinə əsas verir.

19. Məhkəmə kollegiyası Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyasının “04” dekabr 2012-ci il tarixli 07 nömrəli qərarı ilə təsdiq edilmiş “Tikinti obyektinin sahəsinin və həcminin hesablanması qaydaları”-nın 1.1-ci, 1.2-ci və 3.8-ci bəndlərinə və 25.06.2023-cü il tarixli ekspert rəyinə istinad edərək qeyd etmişdir ki, məhkəmə araşdırması zamanı sifarişçi tərəfindən mənzil qəbul edildikdən sonra onun tərəfindən mənzildə yenidən qurma, əlavə təmir-tikinti işlərinin aparılması hallarına aydınlıq gətirilmiş, mübahisə predmeti olan mənzildə yenidən qurma, əlavə təmirtikinti işlərinin aparılmadığı müəyyən edilmişdir. Belə ki, yenidən qurma, əlavə təmir-tikinti işlərinin aparılması nəticəsində mənzil həcminin azalması mümkündür ki, bu hal da podratçının ziyanına qiymətləndirilə bilməz. Belə ki, mənzildə sifarişçi tərəfindən mənzil sahəsinin həcminin azalmasına dəlalət edən heç bir yenidən qurma işləri aparılmamış, mənzilin sahəsi hesablanarkən podratçı tərəfindən balkonların sahəsinin əmsala (0,3) vurulmaması və bu səbəbdən mənzilin həcmində 12,3 kv.m fərq yarandığı müəyyən edilmişdir.

20. İşin müəyyən edilmiş mübahisəsiz halları bu nəticəyə gəlməyə əsas verir ki, cavabdeh iddiaçı ilə bağlamış olduğu podrat müqaviləsindən irəli gələn öhdəliklərini lazımınca icra etməmiş, sifarişçiyə qüsurlu (mənzil sahəsinin həcminin az olması baxımından) məhsul vermiş, razılaşdırılmış məbləğdə pul vəsaitini alaraq əvəzində verməli olduğu həcmdə mənzili təhvil vermədiyindən, iddiaçı cavabdehdən həmin 12,3 kv.m sahəyə görə ödənilmiş pulun geri qaytarılması tələbini irəli sürməkdə haqlı olmuşdur.

21. Məhkəmə hesab etmişdir ki, mənzilin sahəsi 12.3 kv.m az olduğundan, həmin sahəyə görə ödənilmiş pul məbləği (12,3 kv.m x 470 manat) cavabdehdən alınaraq iddiaçıya qaytarılmalıdır. Mənzilin ölçüsünə görə verilmiş pul məbləğinin miqdarının müqavilə şərtlərinə görə hesablanaraq geri qaytarılması işin faktiki hallarına uyğun olmaqla əsaslıdır.

22. Məhkəmə, iddia tələbini iddiaçının mənzilin hər kv.m görə bugünkü bazar qiymətinə uyğun olaraq hesablama apararaq iddia edilən həcmdə pul məbləğinin cavabdehdən tutulmasını qanuni hesab etməmiş, cavabdehin iddia müddətinin ötürülməsi ilə bağlı ərizsəsinə münasibətdə isə qeyd etmişdir ki, birinci instansiya məhkəməsi iddia müddətinin tətbiqində səhvə yol vermiş, ziddiyyətli nəticələrə gələrək həm podrat müqaviləsindən irəli gələn öhdəliklər üzrə 6 illik, həm də əsassız varlanma üzrə isə 2 illik iddia müddəti ötürülməsini göstərmiş, podrat müqaviləsinə görə iddia müddətinin axımını 2016-cı ildə mənzilin iddiaçıya təhvil verildiyi tarixlə, əsassız varlanmaya görə isə mənzilə dair çıxarış aldığı tarixlə hesablamaqla maddi hüquq normalarını düzgün tətbiq etməmişdir.

23. Məhkəmə qeyd etmişdir ki, iddiaçı hüquqlarının pozulduğunu, yəni mənzilin ölçüsünün az olmasının 2022-ci ildə, mənzili satmaq istəyərkən ona məlum olduğunu göstərir. Cavabdeh tərəf iddia müddətinin tətbiqi barədə ərizə verərkən iddiaçının hüquqlarının pozulduğu anı, mənzilə Çıxarışın verildiyi 2018-ci illə əlaqələndirmiş, iddia müddətin keçdiyini göstərmiş, iddia müddətinin tətbiqi ilə bağlı digər halları mübahisələndirməmişdir. Podratçı tərəfindən mənzil təhvil verilərkən sifarişçinin mənzilin sahəsinin müqavilə şərtlərinə uyğun

olmaması barədə bilməməsi mümkündür. Çünki sifarişçi həmin an mənzilin sahəsini hesablama əmsalları nəzərə alınmaqla ölçmək kimi imkanına sahib ola bilməzdi. Qeyd olunan xüsusat xüsusi bilik tələb edən hal olmaqla vətəndaşın bu halı bilməməsi mümkündür və mütəxəssis tərəfindən həyata keçirilməli olan bir haldır.

24. Bununla yanaşı, mənzilə çıxarış verilərkən mənzilin sahəsinin ölçüsünə dair məlumatlara fikir verməməsi, bu barədə bilməməsinə dair iddiaçının göstərdikləri inandırıcı hesab oluna bilməz. Mülki iş materiallarından görünür ki, iddiaçı araşdırılan mübahisəyə dair iddia ərizəsi ilə məhkəməyə 17 mart 2022-ci il tarixdə müraciət etmişdir. Göründüyü kimi mübahisə predmeti olan mənzil çoxmənzilli binada yerləşən yaşayış sahəsidir. Mülki Məcəllənin 776.1-ci maddəsinin tələbinə görə binaya aid qüsur barəsində tələbi sifarişçi beş il ərzində irəli sürə bilər. İddiaçının hüquqlarının pozulduğu an, mənzilə dair çıxarışın verildiyi 11.01.2018-ci il tarix qəbul edilməsi qanuni və əsaslıdır. İddiaçı Mülki Məcəllənin 776.1-ci maddəsində nəzərdə tutulan iddia müddətini ötürməməklə məhkəməyə araşdırılan iddia ilə (17.03.2022-ci il) müraciət etmişdir. Odur ki, iddia müddətinin tətbiqi barədə ərizə əsassızdır, araşdırılan mübahisə üzrə iddia müddəti tətbiq oluna bilməz.

Kassasiya şikayətlərinin və ona etirazın dəlilləri

a) Kassasiya şikayətlərinin dəlilləri

25. İddiaçı (vəkil 1) kassasiya şikayəti verərək, apellyasiya instansiya məhkəməsinin qətnaməsinin dəyişdirilərək, iddianın tam təmin edilməsi barədə yeni qərar qəbul edilməsini xahiş etmişdir.

26. Kassasiya şikayəti onunla əsaslandırılmışdır ki, məhkəmə müqavilə bağlanarkən mövcud olan qiymətləri nəzərə almışdır. Hansı ki, iş üzrə olan ekspertiza rəyindən görünür ki, hazırkı dövrdə mənzilin bir kv.metrinin dəyəri 950 manatdır. Bu halda isə vurulmuş ziyan bu günkü qiymətlərlə hesablanaraq 12.445 manat hesab edilməli idi. Lakin məhkəmə kollegiyası AR MM-nin 443.3. maddəsinə tam əməl etməyərək, ziyanın məbləğini düzgün müəyyən etməmişdir və bu zaman maddi hüquq normasının tələbini pozmuşdur. Ona görə də, həmin qətnamə qismən, qiymət hissəsində dəyişdirilərək, cavabdehdən 12.445 manat alınaraq ona verilməsinə dair yeni qərar qəbul edilməlidir.

27. Cavabdeh (vəkil 2) kassasiya şikayəti verərək apellyasiya instansiya məhkəməsinin qətnaməsinin ləğv edilərək iddia tələblərinin rədd edilməsi barədə yeni qərar qəbul edilməsini xahiş etmişdir.

28. Kassasiya şikayəti onunla əsaslandırılmışdır ki, apellyasiya instansiyası məhkəməsi mənzilin sahəsini müəyyənləşdirərkən Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyasının 07 saylı 04 dekabr 2012-ci il tarixli qərarı ilə təsdiq edilmiş “Tikinti obyektinin sahəsinin və həcminin hesablanması Qaydalarının ”nın 3.8 bəndində nəzərdə tutulmuş mənzilin ümumi sahəsi hesablanarkən balkon və terrasların sahələri 0,3, şüşəbənd və lociyalar-0,5, eyvanlar (verandalar)-1,0 azalma əmsalına vurulmaqla hesablanmalı olması barədə müddəasına əsaslanmışdır. Azalma əmsalları tətbiq edilməklə mənzilin sahəsinin hesablanması hüquq müəyyənedici sənədlərin verilməsi zamanı nəzərə alınır, lakin həmin sahələr tərəflər arasında bağlanmış müqavilə üzrə tikilməli olan mənzilin tərkib hissəsi olduğundan müqavilə üzrə mənzil təhvil verilərkən onların sahəsi tam nəzərə alınmalıdır. Məhkəmə Mülki Məcəllənin 752.1, 752.2, 753.1, 762.1-ci maddələrinin tələblərini pozmuşdur. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin 25 iyun 2023-cü il tarixli ekspert rəyindən görünür ki, ünvan mənzilin (təmirsiz vəziyyət əsas götürülməklə) ümumi sahəsinin 126,7 m2, mənzilin faktiki sahəsinin isə (müvafiq azaltma əmsalları tətbiq olunmadıqda) 139,0 m2 təşkil etdiyi müəyyən edilmişdir. Yəni, cavabdeh müqavilə üzrə götürdüyü öhdəlikləri tam olaraq yerinə yetirmiş, faktiki sahəsi 139,0 kv.m. olan mənzili inşa edərək iddiaçıya təhvil vermişdir. İddiaçı öz növbəsində mənzili təhvil almaqla müqavilə üzrə əşyanın qüsursuz formada ona təqdim etməsi ilə razılaşmışdır.

29. Məhkəmə, iddia müddətini mənzilə dair çıxarış əldə edildiyi vaxtdan - 2018ci ildən hesablayaraq iddia müddətinin ötürülmədiyi qənaətinə gəlmişdir. İddia tələbi cavabdeh tərəfindən inşa edilmiş bina ilə bağlı deyil, konkret mənzillə bağlıdır. Belə olan halda, göstərilən qanunvericilik aktı normasına əsasən sifarişçi icranın qüsuru barəsində tələbi ilə əlaqədar iddia müddəti işin qəbul edildiyi gündən başlandığından, iddiaçı 1 il müddətində məhkəməyə müraciət etməli olmuşdur. Hesab edirik ki, bu müddət iddiaçının mənzili faktiki qəbul etdiyi tarixdən başlanılmalıdır. Lakin, həmin müddət iddiaçının mənzilə dair dövlət orqanına müraciət edib çıxarış aldığı vaxtdan hesablasa belə, iddia müddəti yenə də ötürülmüş olur. Cavabdeh tərəfindən müqavilə tələbləri mənzilin ümumi sahəsi ilə bağlı hissədə tam icra edilmişdir.

b) Kassasiya şikayətlərinə qarşı etirazın dəlilləri

30. Kassasiya şikayətlərinə qarşı etiraz daxil olmamışdır.

Tətbiq edilən hüquq

Azərbaycan Respublikasının Mülki Məcəlləsi

31. Maddə 385.1. Öhdəliyə əsasən bir şəxs (borclu) başqa şəxsin (kreditorun) xeyrinə müəyyən hərəkəti etməlidir, məsələn, pul ödəməli, əmlak verməli, iş görməli, xidmətlər göstərməli və i.a. və ya müəyyən hərəkətdən çəkinməlidir, kreditorun isə borcludan vəzifəsinin icrasını tələb etmək hüququ vardır.

32. Maddə 386.1. Öhdəliyin zərər vurulması, əsassız varlanma və ya bu Məcəllədə nəzərdə tutulmuş digər əsaslar nəticəsində əmələ gəlməsi halları istisna olmaqla, öhdəliyin əmələ gəlməsi üçün onun iştirakçıları arasında müqavilə olmalıdır.

33. Maddə 752.1. Podrat müqaviləsinə görə podratçı müqavilədə nəzərdə tutulan işi icra etməyi, sifarişçi isə podratçıya razılaşdırılmış muzd ödəməyi öhdəsinə götürür.

34. Maddə 752.2. Əgər podratda hər hansı məmulatın hazırlanması nəzərdə tutularsa və podratçı onu özünün əldə etdiyi materiallardan hazırlayarsa, hazırlanmış məmulata mülkiyyəti sifarişçiyə verir. Əgər əvəz edilən əşya hazırlanmışdırsa, alğı-satqı qaydaları tətbiq edilir.

35. Maddə 753.1. Sifarişçi podratçıya şərtləşdirilmiş muzd ödəməyə borcludur. Əgər həmin şəraitdə podratın yalnız muzd müqabilində yerinə yetirilməsi ehtimal edilirsə, belə hesab edilir ki, muzd dinməz razılıq əsasında şərtləşdirilmişdir. Əgər muzdun miqdarı müəyyənləşdirilməyibsə, adi muzdun şərtləşdirildiyi hesab olunur. Şərtləşdirilmiş muzd ödənildikdə, podratçının müqavilə üzrə razılaşdırılmış iş həcminə daxil olan bütün işləri ödənilmiş sayılır.

36. Maddə 762.1. Podratçı sifarişçi üçün podratı elə icra etməlidir ki, podratın nəticəsi qüsurlardan, üçüncü şəxslərin hüquqlarından və ya iddialarından azad olsun.

37. Maddə 766. Sifarişçi müqavilənin əlavə icrası üçün müəyyənləşdirilmiş müddət qurtardıqdan sonra əlavə icranı qəbul etmədikdə və müqavilədən imtina etdiyini bildirmədikdə muzdun miqdarını qüsur məmulatın dəyərini nə qədər azaldırsa, o qədər azalda bilər.

38. Maddə 776.1. Sifarişçi icranın qüsuru barəsində tələbi işin qəbul edildiyi gündən bir il ərzində, binaya aid tələbi isə beş il ərzində irəli sürə bilər.

Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyasının "04" dekabr 2012-ci il tarixli 07 nömrəli qərarı ilə təsdiq edilmiş "Tikinti obyektinin sahəsinin və həcminin hesablanması qaydaları"

39. Bənd 1.1. Bu Qaydalar "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanının 3.1-ci bəndinin və Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 59.1-ci maddəsinin icrasını təmin etmək məqsədi ilə hazırlanmışdır və tikinti

obyektlərinin, o cümlədən yaşayış, ictimai, istehsalat binalarının sahəsinin və həcmlərinin hesablanması qaydalarını müəyyən edir.

40. Bənd 1.2. Bu Qaydaların tələbləri mülkiyyət formasından asılı olmayaraq dövlət orqanları, sifarişçilər, layihəçilər, podratçılar və şəhərsalma və tikinti fəaliyyətinin digər subyektləri üçün məcburidir.

41. Bənd 3.8. Mənzillərin ümumi sahəsi - yaşayış otaqların, köməkçi otaqların (sanitar qovşağı, mətbəx, dəhliz, yığnaq yeri) sahələrinin, eləcə də balkon, lociya, terras, şüşəbənd və eyvanların azaltma əmsallara vurulmuş sahələrinin məcmusundan ibarətdir. Mənzillərin ümumi sahəsi hesablanarkən balkon və terrasların sahələri - 0,3 azaltma əmsallarına vurulmaqla hesablanır.

Azərbaycan Respublikasının Mülki Prossesual Məcəlləsi

42. Maddə 14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

43. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin əsası kimi istinad etdiyi halları sübut etməlidir.

44. Maddə 407.2. Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir.

45. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

46. Maddə 416.2. Apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 418.4-cü maddəsində nəzərdə tutulmuş prosessual hüquq pozuntusu hesab edilən hallara yol verilməsi şikayətin hədlərindən və dəlillərindən asılı olmayaraq yoxlanılmalıdır.

Kassasiya baxışının hədləri

47. Qanunun tələbinə görə, kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

48. Hazırkı kassasiya şikayətlərində qətnamə iddiaçı tərəfindən qismən, iddia tələbinin təmin edilməyən hissəsində, cavabdeh tərəfindən tam mübahisələndirildiyindən apellyasiya instansiyası məhkəməsinin aktı bütövlükdə yoxlanılır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

49. Məhkəmə kollegiyası hesab edir ki, apellyasiya instansiyası məhkəməsi tərəfindən mübahisəli hüquq münasibətini tənzimləyən maddi hüquq normaları düzgün tətbiq olunmamışdır.

50. Apellyasiya instansiyası məhkəməsinin mövqeyinə görə cavabdeh sahəsi 139 kv metr olan mənzili tikib təhvil verməyi öhdəsinə götürmüş, lakin iddiaçıya təhvil verilən mənzilin sahəsi çıxarışa əsasən 126,7 kv.metr təşkil edir. Tərəflər arasında müqavilə bağlanması və öhdəlik hüquq münasibətlərinin yaranması işin mübahisəsiz halıdır. Hazırkı iddia tələbinin qanuni əsasını podrat hüquq münasibətlərini tənzimləyən mülki qanunvericilik normaları təşkil edir, tərəflər arasında podrat müqaviləsindən irəli gələn münasibətlər yaranmışdır.

51. Məhkəmə kollegiyası apellyasiya instansiya məhkəməsinin gəldiyi həmin nəticəsi ilə razılaşır. Lakin apellyasiya məhkəməsi daha sonra qeyd edir ki, mənzilə çıxarış verilərkən mənzilin sahəsinin ölçüsünə dair məlumatlara fikir verməməsi, bu barədə bilməməsinə dair iddiaçının göstərdikləri inandırıcı hesab oluna bilməz. Mülki iş materiallarından görünür ki,

iddiaçı araşdırılan mübahisəyə dair iddia ərizəsi ilə məhkəməyə 17 mart 2022-ci il tarixdə müraciət etmişdir. Göründüyü kimi mübahisə predmeti olan mənzil çoxmənzilli binada yerləşən yaşayış sahəsidir. Mülki Məcəllənin 776.1-ci maddəsinin tələbinə görə binaya aid qüsur barəsində tələbi sifarişçi beş il ərzində irəli sürə bilər. İddiaçının hüquqlarının pozulduğu an, mənzilə dair çıxarışın verildiyi 11.01.2018-ci il tarix qəbul edilməsi qanuni və əsaslıdır. İddiaçı Mülki Məcəllənin 776.1-ci maddəsində nəzərdə tutulan iddia müddətini ötürməməklə məhkəməyə araşdırılan iddia ilə (17.03.2022-ci il) müraciət etmişdir. Odur ki, iddia müddətinin tətbiqi barədə ərizə əsassızdır, araşdırılan mübahisə üzrə iddia müddəti tətbiq oluna bilməz.

52. Məhkəmə tərkibi apellyasiya instansiya məhkəməsin həmin mövqeyi ilə razılaşmır və qeyd edir ki, tərəflər mübahisələndirmirlər ki, mübahisəli mənzil iddiaçıya 2016-cı ildə təhvil verilmiş və təmir işlərinə başlanmışdır.

53. Belə olan halda apellyasiya instansiyası məhkəməsi hesab etmişdir ki, iddiaçı 2016-cı ildə ona təhvil verilmiş mənzilin ölçülərinin müqavilədə göstəriləndən az olması əsası ilə dəymiş zərəri tələb etmək üzrə subyektiv hüquqa malik olmuşdur. Çünki iddiaçının mülkiyyətinə verilmiş mənzilin sahəsi hesablanarkən azaltma əmsalları tətbiq olunmadıqda həmin mənzilin faktiki sahəsinin 126,7 kv.metr təşkil etdiyi müəyyən olunur və bu ölçü mənzillərin faktiki sahəsinin müqavilədə göstərilən sahəsindən 12,3 kv.m azdır.

54. Beləliklə, iddiaçıya cavabdeh tərəfindən müqavilədə nəzərdə tutulduğundan daha az yaşayış sahəsinin verildiyini, yəni müqavilə şərtlərinin lazımi qaydada icra edilmədiyi, bununla da iddiaçının hüququnun pozulduğu halları işdə olan sübutlara əsasən öz təsdiqini tapmışdır.

55. Bununla yanaşı müəyyən edilir ki, iddiaçı hazırkı iddianı mənzilin ona təhvil verilməsindən 5 il 4 aydan sonra qaldırmışdır. Halbuki, mülki qanunvericiliyin tələblərinə əsasən iddiaçı bu tələbi mənzili təhvil aldıqdan sonra 5 il ərzində irəli sürməli idi. Həmin müddətin keçməsi isə iddiaçının pozulmuş hüquqlarının məhkəmə qaydasında müdafiə imkanının itirilməsinə səbəb olur. Mülki Məcəllənin 776.1-ci maddəsinin dispozisiyası podrat müqaviləsi üzrə sifarişçinin icranın qüsuru barəsində tələblərinin iddia müddətinin axımını işin qəbul edildiyi günlə əlaqələndirmişdir. Tərəflər arasında bağlanmış 25 iyun 2013-cü il tarixli müqavilənin şərtlərinə əsasən cavabdeh öhdəlik götürmüşdür ki, inşa etdiyi binanı şərtləşdirdikəri ölçüdə və qaydada tikərək təhvil verməlidir.

56. İddiaçının mənzilin sahəsinin müqavilə ilə nəzərdə tutulduğundan az verilməsindən mənzilin özgəninkiləşdirmək istəyərkən alıcının reyestrdən çıxarışa baxan zaman ona məlum olmasına dair dəlil ilə əlaqədar qeyd edilməlidir ki, bu inandırıcı olmamaqla faktiki olaraq artıq ötürülmüş müddətinin müəyyən formal əsaslarla aradan qaldırılmasına yönəlmiş dəlildir. Apellyasiya instansiya məhkəməsi də faktiki olaraq bu dəlili düzgün olaraq əsaslı hesab etməmişdir. Lakin eyni zamanda apellyasiya məhkəməsi mənzilin iddiaçıya təhvil verilməsi tarixinin 2016-cı il olmasını mübahisəsiz olmasına baxmayaraq, mənzilin daşınmaz əmlakın dövlət reyestrilnə qeydə alınma tarixini müddətin başlanma anı kimi qəbul edilməli olması ilə bağlı mövqeyi düzgün olmamışdır. İş materialları ilə müəyyən olunur ki, mənzilin təmiri tam başa çatmasada təmir işlərinin başlanması aşkardır. Deməli, iddiaçıya bu zaman real sahənin nə qədər olması barədə məlumatlı olmalı idi. Hətta bu hal olmasa belə mənzilin təhvil verilməsi zamanı və ondan sonra keçən müddət ərzində iddiaçı ağlabatan sayıqlıq və ehtiyat nümayiş etdirməklə mənzilin müqavilədə göstərilən ölçülərə uyğun olub-olmadığını yoxlaya bilərdi. Lakin o, qeyd edilən tədbirlərdən heç birini görməmiş, bununla da, heç bir üzrlü səbəb olmadan qanunvericiliklə müəyyən edilmiş müddəti ötürmüşdür.

57. İddia müddətinin tətbiqinə dair gəlinən hansı müddətin tətbiq edilməli olmasına dair isə qeyd edilməlidir ki, Mülki Məcəllənin 776.1-ci maddəsində podrat müqaviləsi üzrə icranın qüsurları barədə tələblər üzrə xüsusi iddia müddətləri nəzərdə tutulmuşdur.

58. Həmin maddənin dispozisiyası podrat müqaviləsi üzrə sifarişçinin icranın qüsuru barəsində tələblərinin iddia müddətinin axımını işin qəbul edildiyi günlə əlaqələndirmişdir.

59. Bu baxımdan mübahisəli sahə binanın tərkib hissəsi olan mənzillə bağlıdır və belə olan halda bu qəbildən olan iddialar həll edilərkən və cavabdeh tərəfindən iddia müddətinin tətbiqi barədə ərizə verilərkən istinad olunan normada nəzərdə tutulmuş binaya münasibətdə icranın qüsuru barədə müəyyən olunmuş 5 illik müddət tətbiq edilir.

60. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu bir sıra qərarlarında iddia müddəti institutunun mahiyyətinə, qanunvericilikdə təsbit edilmə məqsədinə və yerinə yetirdiyi hüquqi funksiyaya aydınlıq gətirməklə göstərmişdir ki, iddia müddəti institutu tələb haqlarına şamil olunmaqla mülki münasibət iştirakçılarına pozulmuş hüquqlarının məhkəmə vasitəsi ilə müdafiəsi (borclunun öhdəliyini icra etməyə məcbur edilməsi) imkanının müəyyən müddətlə (zaman kəsiyi) məhdudlaşdırılmasını nəzərdə tutur. İddia müddəti institutu mülki dövriyyənin, hüquq münasibətlərinin müəyyənliyini və sabitliyini yaratmaq, onların iştirakçılarını intizamlandırmaq, hüquq münasibətlərinin subyektlərinin hüquq və qanuni maraqlarının müddət baxımından vaxtında müdafiəsini və bərpasını təmin etmək məqsədi daşıyır. Belə ki, pozulmuş hüquqların məcburi müdafiəsi üçün ağlabatan müddət məhdudiyyətlərinin olmaması işin baxılması üçün əhəmiyyət kəsb edən sübutların toplanmasının və saxlanmasının lazım olduğunu nəzərə almayan cavabdehlərin və üçüncü şəxslərin qanunla qorunan hüquq və maraqlarının pozulmasına gətirib çıxarardı. Mübahisə tərəfinin ərizəsi əsasında məhkəmə tərəfindən iddia müddətinin tətbiqi mülki mübahisə tərəflərini əsaslandırılmamış çəkişmələrdən qoruyur və eyni zamanda, onları öz hüquqlarını vaxtında həyata keçirmələrinə və müdafiəsinə məcbur edir (“Azərbaycan Respublikası Mülki Məcəlləsinin 373-cü maddəsinin şərh edilməsinə dair” 2001-ci il 27 dekabr tarixli və “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 373.2 və 384.0.4-cü maddələrinin şərh edilməsinə dair” 2013-cü il 3 iyun tarixli Qərarlar).

61. Göstərilənlərə əsasən məhkəmə kollegiyası hesab edir ki, apellyasiya instansiyası məhkəməsinin qətnaməsi ləğv olunmalı iş üzrə yeni qərar çıxarılmaqla iddia rədd olunmalıdır.

62. Göstərilənlərə əsasən və Azərbaycan Respublikası MPM-in 416, 417, 419 və 421-ci maddələrini rəhbər tutaraq, məhkəmə kollegiyası

Qərara aldı:

İddiaçı tərəfindən verilmiş kassasiya şikayəti təmin olunmasın.

Cavabdeh tərəfindən verilmiş kassasiya şikayəti təmin olunsun.

Sumqayıt Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(105)-488/2023 nömrəli, 7 avqust 2023-cü il tarixli qətnaməsi ləğv olunsun, yeni qərar çıxarılmaqla iddia rədd olunsun.

Ekspertiza tədqiqatının dəyəri olan 50 (əlli) manat iddiaçıdan alınaraq Dövlət Xəzinədarlığı Agentliyi (kod ****** VÖEN ********** müxbir hesabı AZ1NABZ***) hesabına ödənilsin.

Qərar qətidir və qəbul edildiyi andan qüvvəyə minir.

26. 2(102)-324/2024 nömrəli, 2024-cü il 16 yanvar tarixli qərar - - İstehsalatda bədbəxt hadisəyə görə ödənc tələblərinə iddia müddətinin tətbiqi

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: istehsalatda bədbəxt hadisəyə görə ödənc tələblərinə iddia müddətinin tətbiqi.

İddiaçı 12.12.1980-ci ildə dördüncü dərəcəli çilingər kimi çalışdığı "Quraşdırma" İdarəsində istehsalatda bədbəxt hadisəyə məruz qalaraq əmək qabiliyyətinin 80%-ni itirdiyini və bununla əlaqədar olaraq 01.01.1988-ci ilədək ona həmin müəssisə tərəfindən aylıq zərərin ödənildiyini, bu tarixdən etibarən isə nə təqsirkar təşkilat, nə onun özəlləşdirilməsi nəticəsində hüquqi varisi olaraq yaranmış ASC, nə də ki, DSMF tərəfindən ona ödəncin verilmədiyini iddia edir.

Cavabdeh isə öz növbəsində iddiaçının əlilliyini mübahisələndirmiş və onun iş zamanı xəsarət almasının təsdiqini tapdığı təqdirdə belə aylıq zərər verilməsi öhdəliyinin Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin üzərinə qoyulmalı olduğunu bildirir. Eyni zamanda iddia müddətinin tətbiq edilməsini xahiş edir.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Müəyyən edilir ki, apellyasiya instansiyası məhkəməsi tərəfindən işə 25.09.2023-cü ildə baxılaraq iddianın qismən təmin olunması zamanı iddiaçıya təyin edilmiş əlillik artıq 08.08.2023-cü il tarixdə ləğv olunmuşdur. Apellyasiya instansiyası məhkəməsi zərərin əvəzinin ödənilməsinin başlanğıcını özəlləşdirmənin başa çatması anından müəyyən etmişdir.

Bu halda həqiqətən iddiaçının əlilliyinin ləğv olunub-olunmaması, ləğv olunmuşdursa keçən müddət üçün birdəfəlik (əlilliyin ləğv olunması təsdiq olunduğu halda hansı müddət üçün), sonrakı müddət üçün aylıq olaraq zərərin ödənilməsinin mümkünlüyünü araşdırılmalı idi.

Hazırkı iddia tələbinə iddia müddətinin tətbiq edilməli olmamasına (zərərin ödənilməli olmasının sübutetmə ilə bağlı olması, zərərin və ya hər hansı hissəsinin ödənilməli olması nəzərə almaqla) dair düzgün nəticəyə gəlinsə də, zərərin ödənilmə müddəti ilə bağlı mübahisəyə aid olmayan norma tətbiq edilmiş, tətbiq olunmalı olan norma tətbiq edilməmişdir.

Azərbaycan Respublikası Əmək Məcəlləsinin 239-cu maddəsinə əsasən, istehsalatda baş vermiş bədbəxt hadisədə və ya peşə xəstəliyində təqsirli (tam və ya qismən) olan işəgötürən həm işçiyə xəsarət yetirilməsi və ya sağlamlığının başqa şəkildə korlanması nəticəsində dəymiş zərərin, həm müalicə olunması üçün çəkdiyi, həm də ona müavinətlər verilməsi ilə əlaqədar çəkilən xərclərin, eləcə də Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən edilmiş digər əlavə xərclərin əvəzini bütövlükdə ödəməlidir. İşəgötürənin təqsiri üzündən baş vermiş istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçilərə, habelə bu səbəbdən həlak olmuş işçilərin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə qanunvericiliklə müəyyən edilmiş qaydada dəymiş zərərə görə müvafiq ödənclər ödənilməlidir.

Qeyd edilməlidir ki, Mülki Məcəllənin 384.0.3-cü maddəsinin tələbinə görə bu növ iddialar zərərin ödənilməsi hüququnun əmələ gəldiyi andan üç il bitdikdən sonra irəli sürülmüşdürsə, tələb ən çox iddia irəli sürməzdən əvvəlki üç il müddət üçün ödənilir.

Bu baxımdan nəzərə alınmalıdır ki, istehsalatda baş vermiş bədbəxt hadisə ilə əlaqədar zərərin əvəzinin ödənilməsi hüququnun əmələ gəlməsi anından üç il keçmişdirsə iddia irəli sürülməzdən əvvəlki üç il üçün zərərin ödənilməsi müəyyən edilməlidir.

Kassasiya instansiyası məhkəməsinin qərarı Mülki Məcəllənin 1096.1, 1097.1, 1114.1, 1118.1, 1118.2, 1119.1, 1123.1, 1123.2, 1123.3, 1126-cı, Əmək Məcəlləsinin bir sıra maddələrinə, "İstehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçiyə və ya bu səbəbdən həlak olmuş işçinin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə ödənclərin verilməsi qaydalarının, şərtlərinin və məbləğinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 09.01.2003-cü il tarixli, 3 saylı Qərarına istinadla əsaslandırılmışdır.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-324/2024

Azərbaycan Respublikası adından

Azərbaycan Respublikası Ali Məhkəməsi

Mülki kollegiyasının

16.01.2024-cü il Bakı şəhəri

İddiaçının cavabdeh “XXX Quraşdırma” Açıq Səhmdar Cəmiyyətinə qarşı (Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dövlət Sosial Müdafiə Fondu publik hüquqi şəxsi və “Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi” publik hüquqi şəxsi müstəqil tələb irəli sürməyən üçüncü şəxslər qismində cəlb edilməklə) mülki iş üzrə

Q Ə R A R I

(Açar sözlər: istehsalatda xəsarət-sağlamlığın pozulmasına görə ödənc tələbi)

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyası hakimlər Həsənov Vüqar Təvəkgül oğlu (məruzəçi hakim), Əhmədov Əhməd Abbas oğlu və Şəfiyev İspəndiyar Əsəd oğlundan ibarət tərkibdə,

İddiaçının cavabdeh “XXX Quraşdırma” ASC-yə qarşı (Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dövlət Sosial Müdafiə Fondu publik hüquqi şəxsi və “Dövlət Tibbi Sosial Ekspertiza və Reabilitasiya Agentliyi” publik hüquqi şəxsi müstəqil tələb irəli sürməyən üçüncü şəxslər qismində cəlb edilməklə) “aylıq zərərin ödənilməsi” tələbinə dair mülki iş üzrə Sumqayıt Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 25 sentyabr 2023-cü il tarixli, 2(105)1624/2023 nömrəli qətnaməsindən cavabdeh “XXX Quraşdırma” ASC tərəfindən verilmiş kassasiya şikayətinə 16 yanvar 2024-cü il tarixdə Azərbaycan Respublikası Ali Məhkəməsinin inzibati binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları:

1. İddiaçı 12.12.1980-ci ildə dördüncü dərəcəli çilingər kimi çalışdığı “XXX” Quraşdırma İdarəsində istehsalatda bədbəxt hadisəyə məruz qalaraq əmək qabiliyyətinin 80%-ni itirmiş və bununla əlaqədar olaraq 01.01.1988-ci ilədək ona həmin müəssisə tərəfindən aylıq zərər ödənilmiş, bu tarixdən etibarən isə nə təqsirkar təşkilat, nə onun özəlliş dirilməsi nəticəsində hüquqi varisi olaraq yaranmış ASC, nə də ki, DSMF tərəfindən ona ödənc verilməmişdir.

2. İddiaçı 07.04.1998-ci ilədək əmək qabiliyyətinin 80%-ni, həmin tarixdən etibarən isə 60%-ni itirdiyinə görə pensiya almış, habelə onun əlilliyi 17.06.2022-ci ildən sonra həmin faizlə müddətsiz hesab edilmişdir.

3. 06.04.1998-ci ildə müvafiq sərəncamla “XXX” Quraşdırma İdarəsinin bazasında “XX-XX” Açıq Tipli Səhmdar cəmiyyəti təsis edilmiş və onun emissiya planı təsdiq olunmuş, səhmlərin özəlləşdirilməsi 03.09.2001-ci ildə başa çatdırılmış, sözügedən müəssisəsinin hüquqi varisi “XXX Quraşdırma” ASC yaranmış və 03.09.2002-ci il tarixdə nizamnaməsi təsdiqlənərək dövlət qeydiyyatına alınmışdır. Özəlləşdirmə planında müəssisənin işçilərinin siyahısında iddiaçının adı qeyd olunmamışdır.

İş üzrə qəbul edilmiş məhkəmə aktları:

a) Birinci instansiya məhkəməsində icraat

4. İddiaçı XXX Quraşdırma ASC-yə qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək ASC tərəfindən ona 01.01.1988-ci ildən 17.06.2002-ci ilədək 147 manat, 17.06.2002-ci il tarixdən Dövlət Statistika Komitəsinin müvafiq iqtisadiyyat sahəsinə uyğun orta aylıq nominal əmək haqqının altmış faizi məbləğində aylıq zərərin ödənilməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

5. İddia tələbi onunla əsaslandırılmışdır ki, iddiaçı XXX İdarəsində 12.12.1980-ci ildə xəsarət almış, əmək qabiliyyətinin 80%-ni itirmiş və bununla əlaqədar ona 01.01.1988-ci ilədək həmin müəssisə tərəfindən aylıq zərər verilmiş, sonuncu tarixdən bu günədək isə cavabdeh müvafiq ödənişi ödəməkdən imtina etmişdir.

6. Cavabdeh iddiaya qarşı etirazla məhkəməyə müraciət edərək etirazında İddiaçının əlilliyini mübahisələndirmiş və onun iş zamanı xəsarət almasının təsdiqini tapdığı təqdirdə belə aylıq zərər verilməsi öhdəliyinin Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin üzərinə qoyulmalı olduğunu bildirmişdir.

7. Məhkəmə iclasında müstəqil tələb irəli sürməyən üçüncü şəxs AR ƏSSMN tabeliyində olan Dövlət Sosial Müdafiə Fondu publik hüquqi şəxsinin nümayəndəsi izahatında göstərmişdir ki, özəlləşdirilən və idarəetməyə verilən dövlət müəssisələrinin istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçisinə və ya bu səbəbdən həlak olmuş işçisinin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə aylıq ödənc üzrə borclarının tənzimlənməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 804 saylı və 903 saylı Fərmanlarına əsasən müəssisələr özəlləşənə qədər istehsalat zədəsinə görə müavinəti nazirlik, özəlləşdikdən sonra isə müəssisə özü ödəyir. Bu barədə müəssisə nazirliyə siyahı göndərir və müəssisənin hesabına pul vəsaiti köçürülür. Həmin siyahı müəssisə tərəfindən nazirliyə göndərilməmişdir.

8. Sumqayıt Şəhər Məhkəməsinin 06 iyun 2023-cü il tarixli, 2(060)-620/2023 nömrəli qətnaməsi ilə (hakim Ə.Ələkbərov) iddia tələbi qismən təmin edilmiş, İddiaçıya cavabdeh "XXX Quraşdırma" ASC tərəfindən 01.01.1988-ci ildən 07.04.1998-ci ilədək hər ay üzrə onun orta aylıq əmək haqqının 80%-i, 07.04.1998-ci ildən etibarən isə hər ay onun orta aylıq əmək haqqının 60%-i məbləğində aylıq ödəncin ödənilməsi, iddianın qalan hissədə təmin edilməməsi qət edilmişdir.

9. Məhkəmə gəldiyi nəticəni onunla əsaslandırmışdır ki, hazırkı iddia tələbi cavabdeh tərəfindən 01.01.1988-ci ildən 07.04.1998-ci ilədək orta aylıq əmək haqqının 80%-i, bu tarixdən sonra isə 60%-i miqdarında aylıq ödənc verilməsi həcmində əsaslıdır. Belə ki, cavabdeh iddiaçının istehsalatda bədbəxt hadisə nəticəsində əlil olduğu təqsirkar müəssisənin hüquqi varisidir və sonuncunun özəlləşdirilməsi artıq 03.09.2001-ci ildə başa çatmışdır. Özəlləşmənin göstərilən tarixdə, 2003-cü ilin oktyabr ayınadək yekunlaşması mübahisənin Azərbaycan Respublikası Prezidentinin 04.08.2008-ci il tarixli, 804 №-li Fərmanı ilə təsdiq edilmiş "Özəlləşdirilən və idarəetməyə verilən dövlət müəssisələrinin istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçisinə və ya bu səbəbdən həlak olmuş işçisinin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə aylıq ödənc üzrə borclarının tənzimlənməsi" Qaydalarının təsirinə düşməsini, eləcə də iddiaçıya müvafiq dövlət orqanı tərəfindən aylıq müavinətin verilməsini istisna edir. Qanunvericilik 2003-cü ilin oktyabr ayınadək özəlləşdirilməsi başa çatmayan dövlət müəssisələrinin aylıq ödənc borclarının müavinət şəklində ödənilməsini müvafiq dövlət orqanının üzərinə qoymuşdur. Beləliklə, məhkəmə hesab etmişdir ki, iddia qismən təmin olunmalı, İddiaçıya cavabdeh "XX-XX" ASC tərəfindən 01.01.1988-ci ildən 07.04.1998-ci ilədək hər ay üzrə orta aylıq əmək haqqının 80%-i, 07.04.1998-ci ildən etibarən isə hər ay orta aylıq əmək haqqının 60%-i məbləğində aylıq ödənc ödənilməlidir.

10. Birinci instansiya məhkəməsi öz mövqeyini Azərbaycan Respublikası Mülki Məcəlləsinin 45.1, 46, 47.1, 56.5, 1096.1, 1096.2, 1119.1 və 1126-cı maddələrinə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.09.1996-cı il tarixli, 129 saylı Qərarına, "İstehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçiyə və ya bu səbəbdən həlak olmuş işçinin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə ödənclərin verilməsi qaydalarının, şərtlərinin və məbləğinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 09.01.2003-cü il tarixli, 3 saylı Qərarına, Azərbaycan Respublikası Prezidentinin 04.08.2008-ci il tarixli, 804 №-li Fərmanı ilə təsdiq edilmiş "Özəlləşdirilən və idarəetməyə verilən dövlət müəssisələrinin istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçisinə və ya bu səbəbdən həlak olmuş işçisinin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə aylıq ödənc üzrə borclarının tənzimlənməsi" Qaydalara və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 14.2, 77.1, və 216-cı maddələrinə istinadla əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsində icraat

11. Cavabdeh apellyasiya şikayəti verərək, qətnamənin ləğv edilməsini və iddianın rədd olunması barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

12. Apellyasiya şikayəti onunla əsaslandırılmışdır ki, birinci instansiya məhkəməsinin iş üzrə qəbul etdiyi qətnamə tamamilə qanunsuz və əsassızdır. Məhkəmə iş üzrə düzgün hüquqi nəticəyə gəlməmişdir. İddiaçı 1980-ci il tarixdə XXX İdarəsinə işə qəbul olmuş, 1983-cü il tarixdə öz ərizəsi ilə işdən azad olmasına baxmayaraq hər il VTEK-in təqdim etdiyi əlillik arayışını idarəyə təqdim edərək 1988-ci il tarixədək əmək zədəsinə görə müavinat əldə etmişdir. İddiaçı özü etiraf edir ki, 01.01.1988-ci il tarixdən sonra XXX İdarəsinə müraciət etməmişdir. Lakin məhkəmə iddiaçının etirafını qəbul etməmiş, iddiaçıya zərərin ödənilməməsini idarənin ödənişdən imtina etməsi kimi qiymətləndirmişdir. Halbuki iddiaçı hər il VTEK-in həkim komissiyasından keçdikdən sonra sənədin bir nüsxəsini idarəyə təqdim etməli

və yalnız bundan sonra idarə ona ödənişi təmin etməli idi. Əgər İdarə ödənişdən imtina etmək istəsəydi, bunu 1983-cü il tarixdən iddiaçının öz xahişi ilə işdən azad olmasından sonra da edə bilərdi. Lakin idarə öz üzərinə düşən məsuliyyətini tam şəkildə icra edərək iddiaçının 1983-cü il tarixdən işdən çıxmasına baxmayaraq 1988-ci il tarixədək müavinatını tam olaraq vaxtı-vaxtında təmin etmişdir. İdarə əmək zədəsinə görə ödənişi VTEK-in təyin etdiyi əlilliyə görə icra edir. İddiaçının 1989-cu il tarixdə 3–cü qrup əlilliyi dayandırılmışdır. Bu səbəbdən də iddiaçı idarəyə əlilliyini təstiq edən sənədini təqdim edə bilmədiyindən, idarə tərəfindən ona ödənilən ödəniş dayandırılmışdır. İddiaçının əlilliyi 1993-cü il tarixdə bərpa olsa da, iddiaçı həmin idarədə işləmədiyi üçün ona müavinat ödənişi düşmədiyini nəzərə alaraq idarəyə müraciət etmədiyini etiraf etmişdir. Bundan başqa məhkəmə qərarında 01.01.1988-ci ildən 07.04.1998-ci ilədək hər ay üzrə onun orta aylıq əmək haqqının 80%-i, 07.04.1998-ci ildən etibarən isə hər ay onun orta aylıq əmək haqqının 60%-i məbləğində aylıq ödəncin ödənilməsi təmin edilmişdir ki, bu hal qəbuledilməzdir. Çünki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi 16.08.1988-ci il tarixdən iddiaçıya 3-cü qrup əlillik təyin etmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 yanvar tarixli 11 nömrəli Qərarına əsasən orqanizmin funksiyalarının 30 faizədək pozulması hallarında əlillik müəyyən edilmir, 30 faizdən artıq pozulması hallarında isə 31-60 faizədək, 61-80 faizədək və 81-100 faizədək qiymətləndirilməklə əlillik müəyyən edilir. Buna baxmayaraq məhkəmə tərəfindən qanunun tələblərini pozaraq 80 faiz hesablanmışdır. Bundan başqa Dövlət Sosial Müdafiə Fondu Publik Hüquqi Şəxsinin nümayəndəsi izahatında qeyd etdi ki, özəlləşdirilən və idarəetməyə verilən dövlət müəssisələrinin istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçisinə və ya bu səbəbdən həlak olmuş işçisinin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə aylıq ödənc üzrə borclarının tənzimlənməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 804 saylı və 903 saylı Fərmanlarına əsasən müəssisələr özəlləşənə qədər istehsalat zədəsinə görə müavinəti nazirlik, özəlləşdikdən sonra isə müəssisə özü ödəyir. Belə ki, idarə 06.04.1998-ci ildə idarə özəlləşdirməyə verilmiş, 03.09.2001-ci il tarixdə özəlləşdirilməsi başa çatmasına baxmayaraq, məhkəmə bu ödənişi də Dövlət Sosial Müdafiə Fondunun üzərinə deyil, “XXX” ASC-nin üzərinə qoymuşdur. Həmçinin iddiaçının yenidən “Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinə” müayinəyə cəlb olunaraq xəstəliyin dərəcəsi təyin edilməsi barədə vəsatət təqdim edilsə də məhkəmə tərəfindən qəbul edilməmişdir. Baxmayaraq ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 yanvar tarixli 11 nömrəli Qərarına əsasən Əlilliyin qiymətləndirilməsi barədə TSEK-in qərarının düzgünlüyünü şübhə altına alan əsaslı sübutlar təqdim edildiyi hallarda, Agentlik əlilliyi müəyyən edilmiş şəxsi əyani müayinəyə cəlb edə bilər. Müayinənin nəticələrinə əsasən TSEK-in qəbul etdiyi qərarın qüvvədə saxlanılması, dəyişdirilməsi və ya ləğvi barədə qərar qəbul edir və həmin gün ərzində altsistemə daxil edir. Bundan başqa 06.04.1998-ci ildə idarə özəlləşdirməyə verilmiş və “XXX Quraşdırma” ASC-kimi özəlləşdirilərək təsis edilmiş, həmin dövr ərzində XXX İdarəsində olan xəsarət almış işçi siyahısını və digər öhdəlikləri də qəbul edərək yerinə yetirməkdədir. Bunun sübutu kimi Emisiya Prospekti kitabında da əmək zədəsi almış şəxslərin adları mövcuddur, həmin işçilər bugünə kimi də öz müavinatını almaqdadır. Lakin iddiaçının adı həmin Emisiya Prospekti kitabında mövcud deyildir, bu səbəbdən də ASC bu barədə məlumatsız olmuşdur. İddiaçı 1988-ci il tarixdən İdarəyə müraciət etmədiyindən müavinətini almamasının səbəbkarı özüdür. Azərbaycan Respublikası Prezidentinin 804 saylı və 903 saylı Fərmanlarına əsasən müəssisələr özəlləşənə qədər istehsalat zədəsinə görə müavinəti nazirlik, özəlləşdikdən sonra isə müəssisə özü ödəyir. Bu barədə müəssisə nazirliyə siyahı göndərir və müəssisənin hesabına pul vəsaiti köçürülür. Hazırda iddiaçı öz səhvi ucbatından ala bilmədiyi müavinəti heç bir əsas olmadan müəsisənin üzərinə qoymaqdadır. Həmçinin məhkəmə işə baxarkən iddiaçının iddia müddətini ötürməsini nəzərə almamışdır. Belə ki, mülki qanunvericiliyə əsasən vaxtaşırı icra edilməli öhdəliklərdən irəli gələn tələblər üzrə iddia müddəti üç ildir. Mülki Məcəllənin 1125.1-ci maddəsinə əssən zərərçəkənin əmək

qabiliyyətinin azalması və ya ölümü nəticəsində dəyən zərərin əvəzi aylıq ödənişlər yolu ilə ödənilir. Göründüyü kimi məhkəmə qeyd olunan hallara düzgün hüquqi qiymət verməmiş və əsassız iddianı təmin etməklə, cavabdehin hüquqlarının pozulması ilə nəticələnən qətnamə qəbul etmişdir.

13. Sumqayıt Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 2(105)-1624/2023 saylı, 25 sentyabr 2023-cü il tarixli qətnaməsi ilə (hakimlər: A.A.Mahmudov (sədrlik edən və məruzəçi), L.E.Rəhimli və L.M.Məmmədova) apellyasiya şikayəti qismən təmin edilmiş, Sumqayıt Şəhər Məhkəməsinin 06 iyun 2023-cü il tarixli, 2(060)-620/2023 nömrəli qətnaməsi qismən - iddianın təmin olunmuş hissəsində ləğv edilmiş, həmin hissə üzrə yeni qətnamə qəbul edilərək İddiaçıya cavabdeh "XXX Quraşdırma" ASC tərəfindən 03.09.2001-ci ildən etibarən hər ay orta aylıq əmək haqqının 60%-i məbləğində aylıq ödənc (müavinət) ödənilməsi, iddia tələbinin qalan hissədə təmin edilməməsi qət edilmişdir.

14. Apellyasiya instansiya məhkəməsi gəldiyi nəticə ilə bağlı qeyd etmişdir ki, mövcud mübahisə üzrə iddiaçı pozulmuş hüquqlarının müdafiəsi kimi mülki hüquqi məsuliyyətin "kompensasiya" funksiyasından yəni "bərpaedici" funksiyasından istifadə edir. Çünki məhz bu funksiyanın əsas məqsədi törədilmiş hüquq pozuntusu nəticəsində zərərçəkənin düşdüyü zərərin əvəzinin ödənilməsindən ibarətdir.

15. Hazırkı iş üzrə mübahisənin düzgün hüquqi həlli üçün iddiaçının cavabdehə qarşı tələbinin hansı hüquqi əsasa söykəndiyi, başqa sözlə cavabdehin iddiaçı qarşısında hansı əsasla məsuliyyət daşıması müəyyən edilməlidir.

16. İşin apellyasiya instansiyası məhkəməsi tərəfindən müəyyən edilmiş və mübahisələndirilməyən hallarından görünür ki, İddiaçı 12.12.1980-ci ildə dördüncü dərəcəli çilingər kimi çalışdığı "XXX" Quraşdırma İdarəsində istehsalatda bədbəxt hadisəyə məruz qalaraq əmək qabiliyyətinin 80%-ni itirmiş və bununla əlaqədar olaraq 01.01.1988-ci ilədək ona həmin müəssisə tərəfindən aylıq zərər ödənilmiş, bu tarixdən etibarən isə nə təqsirkar təşkilat, nə onun özəlliş dirilməsi nəticəsində hüquqi varisi olaraq yaranmış ASC, nə də ki, DSMF tərəfindən ona ödənc verilməmişdir.

17. İddiaçı 07.04.1998-ci ilədək əmək qabiliyyətinin 80%-ni, həmin tarixdən etibarən isə 60%-ni itirdiyinə görə pensiya almış, habelə onun əlilliyi 17.06.2022-ci ildən sonra həmin faizlə müddətsiz hesab edilmişdir. Cavabdeh isə iddiaçının istehsalatda bədbəxt hadisə nəticəsində əlil olduğu təqsirkar müəssisənin hüquqi varisidir və sonuncunun özəlləşdirilməsi artıq 03.09.2001-ci ildə başa çatmışdır.

18. Apellyasiya kollegiyası işin tədqiq olunmuş faktiki hallarını, tərəflərin qarşılıqlı izahatlarını, ən başlıcası mübahisəyə tətbiq edilməli olan maddi hüququ normalarının tələblərini nəzərə alaraq, yaranmış mübahisə üzrə qeyd etmişdir ki, İddiaçı 12.12.1980-ci ildə dördüncü dərəcəli çilingər kimi çalışdığı "XXX" Quraşdırma İdarəsində istehsalatda bədbəxt hadisəyə məruz qalaraq əmək qabiliyyətinin 80%-ni itirmişdir ki, hadisə ilə bağlı tərtib olunmuş xüsusi təhqiqat aktında "XXX" Quraşdırma İdarəsi təqsirli bilinmişdir.

19. İşdən göründüyü kimi cavabdeh müəssisə 01.01.1988-ci ilədək iddiaçıya baş vermiş hadisə nəticəsində onun sağlamlığına vurulmuş xəsarətə görə aylıq zərər ödəmişdir. Lakin həmin tarixdən iddiaçıya aylıq ödəniş ödənilməsi dayandırılmışdır.

20. İddiaçı tərəf hazırkı iddia ərizəsində qeyd edir ki, 1983-cü ildə cavabdeh müəssisədə tutduğu vəzifədən öz xahişi ilə daha yüngül işə keçirilmiş, 01.01.1988-ci ildə isə artıq yenə öz xahişi ilə cavabdeh müəssisədə işdən azad edilmişdir. Qeyd olunan tarixdən hal-hazırkı tarixədək ona hər hansı ödəniş edilməmişdir. İddiaçı cavabdeh müəssisə tərəfindən ona aylıq ödənclərin bundan sonrada ödənilməsindən məlumatsız olduğundan bu məzmunda cavabdehə müraciət etməmişdir. Daha sonra bu cür hüququnun olduğunu bilmiş və hazırkı tələblə məhkəməyə müraciət etmişdir.

21. Cavabdeh tərəf isə iddia tələbinə etirazının əsası kimi bildirir ki, iddiaçının xəsarət aldığı məlum hadisədən sonra sonuncu hər il VTEK-dən aldığı əlillik arayışını idarəyə təqdim

edərək, 1988-ci il tarixədək əmək zədəsinə görə müavinat əldə etmişdir. Lakin 01.01.1988-ci il tarixdən, yəni işdən azad olunduqdan sonra iddiaçı XXX İdarəsinə müraciət etməmiş, başqa sözlə hər il təqdim etdiyi əlillik arayışını təqdim etməmiş və bu səbəbdən həmin vaxtdan etibarən aylıq ödəncini ala bilməmişdir. Həmçinin XXX İdarəsi 06.04.1998-ci ildə özəlləşdirməyə verilmiş və özəlləşdirilmə 2001-ci ildə başa çataraq "XXX Quraşdırma" ASC-kimi özəlləşdirilərək təsis edilmişdir. Cavabdeh ASC bu dövr ərzində XXX İdarəsində xəsarət almış işçi siyahısını və digər öhdəlikləri də qəbul edərək yerinə yetirməkdədir. Bunun sübutu kimi Emisiya Prospekti kitabında əmək zədəsi almış şəxslərin adları mövcuddur, həmin işçilər bugünə kimi də öz müavinatını almaqdadır. Lakin iddiaçının adı həmin Emisiya Prospekti kitabında mövcud deyildir, bu səbəbdən də ASC iddiaçı barədə məlumatsız olmuşdur. Başqa sözlə iddiaçı 1988-ci il tarixdən İdarəyə müraciət etmədiyindən müavinətini almamasının səbəbkarı da özüdür.

22. Məhkəmə kollegiyası bu hissədə qeyd edir ki, cavabdehin nümayəndəsinin izahatından da məlum olduğu kimi cavabdeh tərəf hazırkı iş üzrə iddiaçının baş vermiş hadisə ilə əlaqədar onda yaranan əlillik dərəcəsinə uyğun cavabdeh müəssisədən aylıq zərər ödənci əldə etmək hüququnun yaranmasını qəbul edir. Lakin hazırkı iş üzrə İddiaçının hüquqi varis olan ASC XXX İdarəsindən özəlləşmə zamanı Emissiya Prospekti kitabında adı keçmədiyindən, dolayısıyla cavabdeh ASC iddiaçı barəsində hər hansı öhdəlik götürmədiyindən, sonuncuya aylıq ödəncin ödənilməsinin ondan tələb edilməsinin qanunsuz olmasını bildirir.

23. Kollegiya bu hissədə cavabdehin dəlilini əsassız hesab edir və qeyd edir ki, XXX İdarəsi tərəfindən tərtib edilmiş Emissiya kitabında xəsarət alan işçilər siyahısında iddiaçının adının olmaması, habelə bunun davamı kimi özəlləşmə proseduru zamanı DSMF-dən iddiaçı üçün nəzərdə tutulan ödəncin hüquqi varis kimi "XXX Quraşdırma" ASC-nin hesabına ödənilməməsi kimi arqumentlər hazırkı halda iddiaçının qanuni təminatı olan cavabdeh müəssisə tərəfindən aylıq ödənc kimi hüququnun məhdudlaşdırılmasına dəlalət edə bilməz.

24. Hazırkı iş üzrə cavabdeh "XXX Quraşdırma" ASC-nin özəlləşməsi 03.09.2001-ci il tarixdə başa çatdığından əvvəlki müəssisənin hüquq və vəzifələri (aktiv və passivi) məhz bu tarixdən yeni yaradılmış ASC-yə keçdiyindən, həmin tarixdən İddiaçıya cavabdeh "XXX Quraşdırma" ASC tərəfindən hər ay onun orta aylıq əmək haqqının 60%-i məbləğində aylıq ödəncin ödənilməsi hissəsində iddia tələbi əsaslı olduğundan bu hissədə iddia təmin edilməlidir. Başqa sözlə kollegiyanın qənaətincə hazırki iş üzrə cavabdeh olan ASC iddiaçı qarşısında yalnız özəlləşmə başa çatdıqdan sonra hüquq və vəzifələrə malik olduğundan, iddiaçının cavabdehə olan tələbi də məhz həmin tarixdən sonra hesablanmalıdır.

25. Apellyasiya şikayətinin iddia müddətinin ötməsi barədə dəlilini qəbul etməyən kollegiya bildirir ki, hazırkı tələb fiziki şəxsin həyatına və ya sağlamlığına vurulmuş zərərin əvəzinin ödənilməsi ilə bağlı olduğundan, bu mübahisəyə iddia müddətinin tətbiqi yolverilməzdir.

26. Məhkəmə gəldiyi nəticənin əsası kimi Mülki Məcəllənin 45, 46, 47, 56, 1096, 1097, 1114, 1118, 119, 1123 və 1126-cı maddələrinə, Əmək Məcəlləsinin 191 və 239-cu maddələrinə, "İstehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçiyə və ya bu səbəbdən həlak olmuş işçinin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə ödənclərin verilməsi qaydalarının, şərtlərinin və məbləğinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 09.01.2003-cü il tarixli, 3 saylı Qərarına, Mülki Prosessual Məcəllənin 14, 77, 88, 372, 384 və 402-ci maddələrinə istinad etmişdir.

Kassasiya şikayətinin və ona qarşı etirazın dəlilləri

a)Kassasiya şikayətinin dəlilləri

27. Cavabdeh (vəkil) kassasiya şikayəti verərək, qətnamənin ləğv edilib işin yeni məhkəmə baxışına qaytarılması barədə qərar qəbul edilməsini xahiş etmişdir.

28. Kassasiya şikayətində qeyd edilmişdir ki, işəgötürənin təqsiri üzündən baş vermiş istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçilərə, habelə bu

səbəbdən həlak olmuş işçilərin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə qanunvericiliklə müəyyən edilmiş qaydada dəymiş zərərə görə müvafiq ödənclər ödənilməlidir. İddianın əsas mahiyyətini bu maddi norma təşkil edir. Yəni, iddiaçı bu maddi normaya əsasən cavabdehdən istehsalat zədəsi nəticəsində qazanılmış olan əlilliyə görə ödənc tələb edir. İş materiallarından da görünür ki, iddiaçı belə bir ödənci 1983-1988-ci illərdə almış, bundan sonra cavabdehə əlillik barədə sənəd təqdim etməmiş və ödənc almamışdır. Bu halda ilk olaraq məhkəmə iddiaçının bu illərdə məhz istehsalat zədəsi nəticəsində aldığı xəsarət üzrə əlilliyinin davam edib etməməsini müəyyən etməli, onun əlillyinin səbəbi və diaqnozu müəyyən etməli idi. Çünki əlilliyin səbəbi yalnız istehsalat zədəsi ilə əlaqədar olmayıb,ümumi xəstəliklər üzrə də ola bilər.Amma məhkəmə kollegiyası cavabdehin bu barədə olan dəlillərinə hüquqi qiymət vermədən, bu barədə araşdırma aparmadan yalnız iddiaçının əlil olmasını əsas gətirərək bütün bu illər üzrə cavabdehdən ödəncin tutularaq iddiaçıya verilməsi nəticəsinə gəlmişdir ki, bu halda AR Əmək Məcəlləsinin 239-cu maddəsinin 2-ci bəndinin əsl mahiyyətinə ziddir. Belə ki, 25 il ərzində ödəncə görə iddiaçı tərəfindən müəssisəyə müraciət edilməməsinin əsl səbəbi də düzgün müəyyən edilməmişdir. Belə ki, iddiaçı məhkəməni aldadaraq bildirmişdir ki, bu illər ərzində heç bir yerdə işləməmişdir. Lakin əldə edilmiş sənədlərdən də görünür ki, bu illər ərzində iddiaçı X liseyində işləmiş, eləcə də, ona əlilliyə görə əlavə ödənişlər edilmişdir. Eləcə də, AR ƏƏSMN-nin tabeliyində olan Agentliyin 27.10.2023-cü il tarixli məktubunda da göstərilmişdir ki, 08.08.2023-cü il tarixdən Agentliyə dəvət olunmuş iddiaçı Agentliyə getməmiş, mövcud sənədlərə əsasən aparılmış araşdırma və qiymətləndirmə nəticəsində əlillik təyinatı qərarı “diaqnoz əlillik əlaməti təyin etmir” qərarı qəbul edilmişdir. Bu sənədlərdən məlum olur ki, məhkəmə əlillik təyinatı təsdiq edilməyən şəxsə ödənc ödənilməsi vəzifəsini ASC-nin üzərinə qanunsuz olaraq qoymuş və maddi normanın tələblərinə zidd olaraq istehsalat zədəsi üzrə əlilliyi olmayan şəxsə ödənc ödənilməli olması barədə qanunsuz və əsassız qətnamə qəbul etmişdir. ASC məhz bu əsaslarla məhkəməyə bildirmişdir ki, 1988-ci ildən sonra iddiaçı müəssisəyə sənəd təqdim etmədiyi üçün onun adı əmək zədəsi nəticəsində ödənc alanların siyahısında olmamış, bunun nəticəsində də müəssisənin özəlləşmə zamanı bu şəxsin qarşısında öhdəlik göstərilməmiş, müəssisə özəlləşdirilərkən bütün aktiv və passivlər üzrə həmin şəxs qarşısında müəssisənin öhdəliyi öz əksini tapmamışdır. Digər adları olan şəxslər barəsində isə bütün öhdəliklər bu gün də icra edilir. Lakin məhkəmə bu hüquqi fakta da düzgün qiymət verməmişdir. Bu hal isə qətnamənin ləğv edilməsi üçün əsasdır. İddiaçın üzərinə bu illər ərzində məhz istehsalat zədəsi üzrə əlil olmasını sübut etmək vəzifəsi düşmüşdür. Lakin iddiaçı bunu sübut edə bilməmiş, 2001-ci ildən sonra mövcud olan əlilliyinin məhz istehsalat zədəsi nəticəsində olmasını sübut etməli olduğu halda nə bu barədə sənəd təqdim etmiş, nə də məhkəmə həmin əlilliyin məhz istehsalat zədəsi nəticəsində aldığı xəsarətlə əlaqəli olması barədə AR ƏƏSM Nazirliyindən bu barədə sənədləri tələb etmişdir. ASC tərəfindən sübut olunmuşdur ki, iddiaçının 1988-ci ildən sonra məhz istehsalat zədəsi ilə əlaqədar əlilliyi olmamış, o, müxtəlif müssilərdə işləmiş və əlilliyi də alt sistemdə qeydiyyatdan keçməmiş və hazırda onun əllliyi ləğv edilmişdir. Məhkəmə həqiqətə nail olmaq üçün işin hərtərəfli, tam və obyektiv tədqiqinə lazımi şərait yaratmalıdır. Lakin məhkəmə prosessual hüquq normalarının tələblərini pozaraq nəinki tam araşdırma aparmamış, hətta bunun üçün cavabdehə şərait də yaratmamışdır. Həmçinin məhkəmə nümayəndənin iştirakı olmadan işin baxılmasını yekunlaşdırmış və qətnamə qəbul etməklə, prosesual hüquq normasının tələblərini kobud surətdə pozmuşdur.

b)Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

29. Kassasiya şikayətinə qarşı etiraz daxil olmamışdır.

Tətbiq edilən hüquq:
Mülki Məcəllə

30. Maddə 1096.1. Mülki hüquq pozuntusu (delikt) hüquqla və ya qanunla müdafiə edilən başqa şəxsə (zərərçəkənə) birbaşa ziyan və ya zərər vurulmasına gətirib çıxaran təqsirli, hüquqa zidd (mülki qanunvericiliyin normalarını pozan) əməldir (hərəkət və ya hərəkətsizlikdir).

31. Maddə 1097.1. Mülki hüquq pozuntusu (delikt) nəticəsində fiziki şəxsin şəxsiyyətinə və ya əmlakına vurulmuş zərərin, habelə hüquqi şəxsin əmlakına və işgüzar nüfuzuna vurulmuş zərərin əvəzi zərərvuran tərəfindən tam həcmdə ödənilməlidir. Qanunla zərərin əvəzini ödəmək vəzifəsi zərəri vurmayan şəxsin öhdəsinə qoyula bilər.

32. Maddə 1114.1. Başqa şəxsin (qulluq, mənsəb və ya əmək vəzifələrinin icrası zamanı işçisinin, nəqliyyat vasitəsini idarə edən şəxsin və i.a.) vurduğu zərərin əvəzini ödəmiş şəxsin həmin şəxsə, əgər qanunla ayrı miqdar müəyyənləşdirilməyibsə, ödənilmiş əvəz miqdarında geriyə tələb (reqress) hüququ vardır.

33. Maddə 1118.1. Fiziki şəxsə xəsarət yetirilərkən və ya onun sağlamlığı başqa şəkildə pozularkən zərərçəkənin malik olduğu, yaxud yəqin ki, malik ola biləcəyi və itirdiyi qazancın (gəlirin), habelə sağlamlığının pozulması ilə bağlı əlavə çəkdiyi xərclərin, o cümlədən müalicəyə, əlavə qidalanmaya, dava-dərman alınmasına, protezləşdirməyə, başqasının qulluğuna, sanatoriya-kurort müalicəsinə, xüsusi nəqliyyat vasitələri əldə edilməsinə, başqa peşəyə hazırlanmaya çəkdiyi xərclərinin əvəzi ödənilir, bu şərtlə ki, zərərçəkənin həmin yardım və qulluq növlərinə möhtac olduğu və bunları pulsuz almaq hüququnun olmadığı müəyyənləşdirilsin.

34. Maddə 1118.2. İtirilmiş qazanc (gəlir) müəyyənləşdirilərkən zərərçəkənə xəsarət yetirilməsi və ya sağlamlığının başqa şəkildə pozulması ilə əlaqədar təyin edilmiş əlilliyə görə pensiya, eləcə də həm sağlamlığına zərər vurulanadək, həm də zərər vurulduqdan sonra təyin edilmiş digər pensiyalar, müavinətlər və digər bu cür ödənişlər nəzərə alınmır və zərərin əvəzinin ödənilməsi miqdarının azaldılmasına səbəb olmur (zərərin əvəzinin ödənilməsi hesabına daxil edilmir). Zərərçəkənin sağlamlığı pozulduqdan sonra əldə etdiyi qazanc (gəlir) da zərərin əvəzinin ödənilməsi hesabına daxil edilmir.

35. Maddə 1119.1. Zərərçəkənin itirdiyi və əvəzi ödənilməli qazancın (gəlirin) miqdarı onun xəsarətdən və ya sağlamlığının başqa şəkildə pozulmasından və ya əmək qabiliyyətini itirməsindən əvvəlki orta aylıq qazancından (gəlirindən) faizlər şəklində müəyyənləşdirilir.

36. Maddə 1123.1. Əmək qabiliyyətini qismən itirmiş zərərçəkənin sağlamlığının pozulması ilə əlaqədar əmək qabiliyyəti sonralar zərərin əvəzinin təyin edildiyi məqamdakına nisbətən azaldıqda o, zərərin əvəzinin ödənilməsi vəzifəsinin həvalə olunduğu şəxsdən əvəz miqdarının müvafiq surətdə artırılmasını istənilən vaxt tələb edə bilər.

37. Maddə 1123.2. Əgər zərərçəkənin əmək qabiliyyəti zərərin əvəzinin təyin edildiyi məqamdakına nisbətən artarsa, zərərçəkənin sağlamlığına vurulmuş zərərin əvəzini ödəmək vəzifəsinin həvalə olunduğu şəxs əvəz miqdarının müvafiq surətdə azaldılmasını tələb edə bilər.

38. Maddə 1123.3. Əgər zərərin əvəzini ödəmək vəzifəsinin həvalə olunduğu fiziki şəxsin əmlak vəziyyəti yaxşılaşmışsa, əvəz miqdarı isə bu Məcəllənin 1116.3-cü maddəsinə uyğun azaldılmışsa, zərərçəkən zərərin əvəzinin ödənilməsi miqdarının artırılmasını tələb edə bilər.

39. Maddə 1126. Həyata və ya sağlamlığa zərər vurulması üçün məsuliyyəti müəyyənləşdirilmiş qaydada təsdiq edilən hüquqi şəxsin yenidən təşkil edildiyi halda müvafiq ödənişləri icra etmək vəzifəsini onun hüquq varisi daşıyır. Zərərin əvəzinin ödənilməsi tələbləri də ona qarşı irəli sürülür.

Əmək Məcəlləsi

40. Maddə 191. Tərəflərin birinin digərinə qəsdən və ya ehtiyatsızlıqla vurduqları ziyana görə maddi məsuliyyəti yalnız 3 şərtin (ziyanın həqiqətən vurulduğu aşkar olduqda; təqsirkarın əməli, yəni hərəkəti və ya hərəkətsizliyi qanuna zidd olduqda; təqsirkarın qanunazidd əməli ilə bu əməlin nəticəsi arasında səbəbli əlaqə olduqda) eyni zamanda hər üçü olduqda yaranır

41. Maddə 239

1-ci bəndinə əsasən, istehsalatda baş vermiş bədbəxt hadisədə və ya peşə xəstəliyində təqsirli (tam və ya qismən) olan işəgötürən həm işçiyə xəsarət yetirilməsi və ya sağlamlığının başqa şəkildə korlanması nəticəsində dəymiş zərərin, həm müalicə olunması üçün çəkdiyi, həm də ona müavinətlər verilməsi ilə əlaqədar çəkilən xərclərin eləcə də Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən edilmiş digər əlavə xərclərin əvəzini bütövlükdə ödəməlidir.

2-ci bəndinə əsasən, işəgötürənin təqsiri üzündən baş vermiş istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçilərə, habelə bu səbəbdən həlak olmuş işçilərin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə qanunvericiliklə müəyyən edilmiş qaydada dəymiş zərərə görə müvafiq ödənclər ödənilməlidir.

3-cü bəndinə əsasən, istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçiyə və ya bu səbəbdən həlak olmuş işçinin ailə üzvlərinə ödənclərin verilməsi qaydaları, şərtləri və məbləği müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunmuş qaydalarla müəyyən edilir.

4-cü bəndinə əsasən, istehsalat qəzaları və yaxud peşə xəstəliyi nəticəsində zərərçəkən şəxslərin zərərə görə verilən ödənclərinin məbləğləri qanunvericiliklə müəyyən edilmiş qaydada əmsallaşdırılmalıdır.

5-ci bəndinə əsasən, bu maddə ilə nəzərdə tutulmuş ödənclərin verilməsi qanunvericiliklə müəyyən edilmiş qaydada işəgötürən tərəfindən istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta olunan işçilərə şamil olunmur.

“İstehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçiyə və ya bu səbəbdən həlak olmuş işçinin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə ödənclərin verilməsi qaydalarının, şərtlərinin və məbləğinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 09.01.2003-cü il tarixli, 3 saylı Qərarı

42. I bölmə 1.1-ci bənd, 2-ci hissə , işçinin istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulduqda və ya bu səbəbdən həlak olduqda (bundan sonra - istehsalda əmək xəsarəti), bədbəxt hadisənin araşdırılması barədə müvafiq akta əsasən təqsirkar müəssisə, idarə və təşkilatlar (bundan sonra – təqsirkar işəgötürən (təqsirkar müəssisə) işçiyə dəyən zərərə görə qanunvericiliyə uyğun olaraq maddi məsuliyyət daşıyır. Bu zərər təqsirkar müəssisələrdə gəlir hesabına, büdcədən maliyyələşdirilən müəssisələrdə isə büdcə vəsaiti, yaxud büdcədənkənar vəsaitlər hesabına “Nağdsız hesablaşmalar haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ödənilir.

43. 1.2-ci bənd, özəlləşdirilən və idarəetməyə verilən dövlət müəssisələrinin istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçisinə və ya bu səbəbdən həlak olmuş işçisinin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 4 avqust tarixli 804 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Özəlləşdirilən və idarəetməyə verilən dövlət müəssisələrinin istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçisinə və ya bu səbəbdən həlak olmuş işçisinin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə aylıq ödənc üzrə borclarının tənzimlənməsi Qaydaları”na uyğun olaraq aylıq ödəncin əvəzinə dövlət büdcəsinin vəsaiti hesabına aylıq müavinət verilir.

44. II bölmə 2.1-ci bənd, 2-ci hissə həmin aylıq ödənc zərərçəkənin xəsarət almazdan və yaxud peşə əmək qabiliyyətini itirdiyi gündən əvvəl malik olduğu orta aylıq əmək haqqının həmin xəsarət nəticəsində itirdiyi peşə əmək qabiliyyətinin faizi miqdarında müəyyən edilib ödənilir.

Mülki Prosessual Məcəllə

45. Maddə 14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

46. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

47. Maddə 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

48. Maddə 407.2. Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir.

49. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

50. Maddə 416.2. Apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 418.4-cü maddəsində nəzərdə tutulmuş prosessual hüquq pozuntusu hesab edilən hallara yol verilməsi şikayətin hədlərindən və dəlillərindən asılı olmayaraq yoxlanılmalıdır.

51. Maddə 418.3. Prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması qətnamənin yaxud qərardadın ləğv edilməsi üçün o vaxt əsas ola bilər ki, bu pozuntu düzgün qətnamə qəbul edilməməsi ilə nəticələnsin və ya nəticələnə bilsin.

Kassasiya baxışının hədləri

52. Qanunun tələbinə görə kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

53. Cavabdeh kasasiya şikayətində apellyasiya instansiyası məhkəməsinin qətnaməsini bütövlüklə mübahisələndirdiyindən, hazırki kasassiya baxışının predmetini həmin məhkəmənin qətnaməsinin qanuniliyinin tam yoxlanılması təşkil edir.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

54. Məhkəmə kollegiyası hesab edir ki, apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi hüquq normaları pozulmuş, ədalət mühakiməsinin çəkişmə, tərəflərin bərabərliyi və faktlar əsasında həyata keçirilməli olması ilə bağlı prosessual hüquq normalarının pozulmasına yol verilmişdir.

55. İşin faktiki halların araşdırmaq səlahiyyətinə malik olan apellyasiya instansiya məhkəməsi müəyyən etmişdir ki, İddiaçı 12.12.1980-ci ildə dördüncü dərəcəli çilingər kimi çalışdığı “XXX” Quraşdırma İdarəsində istehsalatda bədbəxt hadisəyə məruz qalaraq əmək qabiliyyətinin 80%-ni itirmiş və bununla əlaqədar olaraq 01.01.1988-ci ilədək ona həmin müəssisə tərəfindən aylıq zərər ödənilmiş, bu tarixdən etibarən isə nə təqsirkar təşkilat, nə onun özəlləşdirilməsi nəticəsində hüquqi varisi olaraq yaranmış ASC, nə də ki, DSMF tərəfindən ona ödənc verilməmişdir. İddiaçı 07.04.1998-ci ilədək əmək qabiliyyətinin 80%-ni, həmin tarixdən etibarən isə 60%-ni itirdiyinə görə pensiya almış, habelə onun əlilliyi 17.06.2022ci ildən sonra həmin faizlə müddətsiz hesab edilmişdir. Cavabdeh isə iddiaçının istehsalatda bədbəxt hadisə nəticəsində əlil olduğu təqsirkar müəssisənin hüquqi varisidir və sonuncunun özəlləşdirilməsi 03.09.2001-ci ildə başa çatmışdır.

56. Göründüyü kimi iddiaçının işləmiş olduğu istehsalat müəssisəsində xəsarət alması, onun ilkin olaraq 80%, sonradan isə 60 % əmək qabliyyətini itirməsi ona aldığı xəsarət görə 01.01.1988-ci il tarixədək aylıq zərər ödənilməsi, bundan sonra onun işdən azad olması səbəbindən zərərin ödənilməsinin dayandırılması müəyyən olunur.

57. Cavavbdeh tərəfin apellyasiya və kassasiya şikayətində istinad etdiyi dəlillərində biri ondan ibarət olmuşdur ki, “iddiaçı belə bir ödənci 1983-1988-ci illərdə almış, bundan sonra cavabdehə əlillik barədə sənəd təqdim etməmiş və ödənc almamışdır. Bu halda ilk olaraq məhkəmə iddiaçının bu illərdə məhz istehsalat zədəsi nəticəsində aldığı xəsarət üzrə əlilliyinin davam edib etməməsini müəyyən etməli, onun əlillyinin səbəbi və diaqnozu müəyyən etməli idi. Çünki əlilliyin səbəbi yalnız istehsalat zədəsi ilə əlaqədar olmayıb,ümumi xəstəliklər üzrə də ola bilər”.

58. Cavabdehin iddia tələbi ilə bağlı birinci instansiya məhkəməsinə təqdim etdiyi etirazından aydın olur ki, İddiaçının əlilliyi mübahisələndirilmiş, təkrar müayinə zamanı əlilliyin qanuna uyğun təyin edilmədiyini göstərilmişdir.

59. Məhkəmə tərkibi cavabdeh tərəfin həmin dəlili də razılaşır və qeyd edir ki, cavabdehin kassasiya şikayətində göstərdiklərindən aydın olur ki, apellyasiya instansiya məhkəməsi tərəfindən işə 25.09.2023-cü ildə baxılaraq iddianın qismən təmin olunması zamanı iddiaçıya təyin edilmiş əlillik artıq 08.08.2023-cü il tarixdə ləğv olunmuşdur.

60. Bu halda apellyasiya instansiya məhkəməsi həmin dəlillərin əsaslılığını, yəni həqiqətən iddiaçının əlilliyinin ləğv olunub-olunmaması, ləğv olunmuşdursa keçən müddət üçün birdəfəlik (əlilliyin ləğv olunması təsdiq olunduğu halda hansı müddət üçün), sonrakı müddət üçün aylıq olaraq zərərin ödənilməsinin mümkünlüyünü araşdırmalı olduğu halda heç bir araşdırma aparmamışdır.

61. Bununla yanaşı qeyd edilməlidir ki, apellyasiya instansiya məhkəməsi hazırkı iddia tələbinə iddia müddətinin tətbiq edilməli olmamasına (zərərin ödənilməli olmasının sübutetmə ilə bağlı olması, zərərin və ya hər hansı hissəsinin ödənilməli olması nəzərə almaqla) dair düzgün nəticəyə gəlsə də, zərərin ödənilmə müddəti ilə bağlı mübahisəyə aid olmayan normanın tətbiq etmiş, tətbiq olunmalı olan normanı tətbiq etməmişdir.

62. Azərbaycan Respublikası Əmək Məcəlləsinin 239-cu maddəsinə əsasən, istehsalatda baş vermiş bədbəxt hadisədə və ya peşə xəstəliyində təqsirli (tam və ya qismən) olan işəgötürən həm işçiyə xəsarət yetirilməsi və ya sağlamlığının başqa şəkildə korlanması nəticəsində dəymiş zərərin, həm müalicə olunması üçün çəkdiyi, həm də ona müavinətlər verilməsi ilə əlaqədar çəkilən xərclərin, eləcə də Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən edilmiş digər əlavə xərclərin əvəzini bütövlükdə ödəməlidir. İşəgötürənin təqsiri üzündən baş vermiş istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçilərə, habelə bu səbəbdən həlak olmuş işçilərin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə qanunvericiliklə müəyyən edilmiş qaydada dəymiş zərərə görə müvafiq ödənclər ödənilməlidir.

63. Fiziki şəxsin həyatına və ya sağlamlığına vurulmuş zərərin əvəzinin ödənilməsi haqqında tələblər iddia müddəti şamil edilmir. Lakin bu cür zərərin əvəzinin ödənilməsi hüququnun əmələ gəldiyi andan üç il bitdikdən sonra irəli sürülmüş tələblər ən çoxu iddia irəli sürülməzdən əvvəlki üç il üçün ödənilir. (Mülki Məcəllə 384.0.3)

64. Apellyasiya instansiya məhkəməsi zərərin ödənilməsi müddəti ilə bağlı əsaslandırmasını belə ifadə etmişdir ki, nə qədər ki, cavabdeh təşkilatının özəlləşdirilməsi 03.09.2001-ci ildə başa çatmış, bu vəziyyətdə zərərinin əvəzinin ödənilməsinin başlancığı məhz həmin tarixdən hesablanmalıdır.

65. Lakin məhkəmə tərkibi həmin mövqe ilə razılaşmır. Bu qərarın 59-cu bəndində göstərilən maddi hüquq norması isə bu növ iddialar üzrə zərərin ödənilməsi hüququnun əmələ gəldiyi andan üç il bitdikdən sonra irəli sürülmüşdürsə, tələb ən çox iddia irəli sürməzdən əvvəlki üç müddət üçün ödənildir.

66. Məhkəmə tərkibi qeyd edir ki, apellyasiya instansiya məhkəməsi zərərin əvəzinin ödənilməsi hüququnun əmələ gəlməsi anından üç il keçməsini, yalnız iddia irəli sürülməzdən əvvəlki üç il üçün zərərin tutula biləcəyini nəzərə almamışdır.

67. Eyni zamanda məhkəmə tərkibi nəzərə alır ki, apelyasiya instansiyası məhkəməsi iddianı qismən təmin edərək 03.09.2001-ci ildən etibarən hər ay orta aylıq əmək haqqının 60%-i aylıq ödəncin ödənilməsi ilə bağlı nəticəyə gəlsədə qətnamənin nəticə hissəsində cavabdehdən tutulmalı olan ziyanın məbləğini göstərməmişdir.

68. Halbuki Mülki Prossesual Məcəllənin 222.2-ci maddəsinə əsasən pul vəsaitlərinin tutulması haqqında iddianı təmin edərkən hakim əsas borcu, faiz borcunu, zərər və dəbbə pulunu (cərimə, penya) ayrı-ayrılıqda müəyyən etməklə, alınmalı olan ümumi məbləği qətnamədə göstərir.

69. Göründüyü kimi apelyasiya instansiyası məhkəməsi həmin qətnamənin (iddianın və ya onun hər hansı hissəsinin təmin olunmasının mümkünlüyü halında) icrası zamanı tərəflər arasında gələcəkdə əmələ gələ bilən mübahisəyə zəmin yaratmışdı

70. Beləliklə, yuxarıda qeyd olunanlar sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verilməsinə, qətnamənin iş üzrə müəyyən edilmiş hallara, tərəflərin qarşılıqlı münasibətinə və qanunvericiliyə uyğun əsaslandırılmasına dair prosessual hüquq normalarına əməl olunmadığına dəlalət edir

71. Nəzərə alınmalıdır ki, məhkəmə aktlarının əsaslandırılmış olması qəbul edilmiş qərarın iş üzrə tərəflərdə qanuni və ədalətli olduğuna inam yaratmaqla yanaşı, ümumilikdə məhkəmə hakimiyyətinə olan etimadın möhkəmlənməsinə xidmət edir. Eyni zamanda məhkəmə aktı elə şəkildə tərtib olunmalıdır ki, onun qanuniliyini yoxlayan yuxarı instansiya məhkəməsi ifadə olunmuş qənaətin əsaslı olub-olmadığını, habelə maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilib-edilmədiyini müəyyənləşdirə bilsin.

72. Eyni zamanda Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumu qərarlarında vurğulamışdır ki, məhkəmə, özü tərəfindən müəyyən olunmuş işin hallarını və qənaətini formalaşdıran sübutları, bu və ya digər sübutları rədd etmək üçün istinad etdiyi dəlilləri və rəhbər tutduğu qanunları qətnamədə göstərməklə onun hüquqi cəhətdən əsaslandırmalıdır. Məhkəmə sübutları sadalamaqla kifayətlənməməli, hər bir sübutun, o cümlədən şahid ifadələrinin məzmunu qətnamədə şərh edilməli, sübutlar əlaqələndirilməli, araşdırılan sübutların qəbul edilibedilməməsinin səbəbləri aydın göstərilməlidir. Məhkəmələr tərəfindən qəbul edilmiş qərarlarda həll olunan işə aid bütün zəruri məsələlərə aydınlıq gətirilməli, ziddiyyətli məqamlar aradan qaldırılmalıdır (S.Əliyevanın şikayəti üzrə 31 may 2006-cı il tarixli, N.Əbilovun şikayəti üzrə 13 iyun 2008-ci il tarixli qərarlar).

73. Məhkəmə kollegiyası qeyd edilənləri nəzərə alaraq hesab edir ki, apellyasiya instansiyası məhkəməsinin qətnaməsi qanunvericiliyin tələblərinə əməl olunmadan qəbul edildiyi üçün ləğv edilməli, iş yeni apellyasiya baxışına göndərilməlidir.

74. Təkrar apelyasiya baxışı zamanı tərəflərin və işdə iştirak edən şəxslərin izahatları və dəlilləri dinlənilməli, mübahisəli hallar, habelə bu hallar üzrə sübutetmə yükü düzgün müəyyən edilməklə işin hərtərəfli, tam və obyektiv tədqiqinə lazımi şərait yaradılmalı, təqdim olunmuş sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra onlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verilməli, tərəflərin və işdə iştirak edən şəxslərin dəlillərinin hansı səbəbdən qəbul edilib-edilməməsi əsaslandırılmalı, ədalətli məhkəmə araşdırması hüququ təmin olunmaqla mübahisəyə qanunvericiliyə uyğun qaydada yekun hüquqi qiymət verilməlidir.

75. Göstərilənlərə əsasən və MPM-in 416, 417 və 419-cu maddələrini rəhbər tutaraq, Məhkəmə kollegiyası

Qərara aldı:

Kassasiya şikayəti təmin edilsin.

Sumqayıt Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(105)-1624/2023 nömrəli iş üzrə 25 sentyabr 2023-cü il tarixli qətnaməsi ləğv edilsin və iş yeni apellyasiya baxışına göndərilsin.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

27. 2(102)-46/2024 nömrəli, 2024-cü il 22 yanvar tarixli qərar - Sığorta ödənişi ilə bağlı reqress tələblər üzrə iddia müddətinin hesablanması

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: sığorta ödənişi ilə bağlı reqres tələblər üzrə iddia müddətinin hesablanması.

Kassasiya instansiya məhkəməsinin mövqeyi:

Reqres öhdəliklər üzrə iddia müddətinin axımı əsas öhdəliyin icrası anından başlanır. (Mülki Məcəllə, maddə 377.4.) Subroqasiya tələbi üzrə iddia müddətinin axımı sığorta ödənişinin verildiyi andan hesablansa da, bu müddət mülki hüquq pozuntusunun (deliktin) törədildiyi tarixdən keçən on illik ümumi iddia müddətindən artıq ola bilməz. Ümumi iddia müddəti (on il) mülki hüquqi tələblərin məhkəmə qaydasında təqib edilməsinin mümkün olduğu son müddətidir (mütləq müddət). Mülki hüquq pozuntusu (delikt) üzrə qanunda xüsusi müddət nəzərdə tutulmadığından bu əsasa söykənən tələblər üzrə də on illik iddia müddəti tətbiq olunur. Belə ki, deliktin törədildiyi tarixdən etibarən on il keçmişdirsə həmin qanunazidd əmələ görə iddia müddəti ötmüş hesab edilir. Bu müddətin aşılması mümkün sayılmır, axımı sonradan başlamış iddia müddətləri də on ilin tamamında başa çatır.

Bu baxımdan reqres tələb üzrə iddia müddətinin axımının əsas öhdəliyin icrası anından başlanması delikt üzrə ümumi iddia müddətinin aşılmasına əsas verə bilməz. Odur ki, ilkin kreditorun tələb hüququndan istifadə edən sığortaçının birtərəfli hərəkəti (sığorta ödənişini sonradan ödəməsi, yaxud hansısa səbəbdən gecikdirməsi) borclunun müdafiə vasitəsi olan on illik ümumi iddia müddətini onun zərərinə artıra bilməz (məsələn, sığortaçı ödənişi hadisənin və zərərin baş verməsindən 9 il sonra ödəməklə borclunun yararlana biləcəyi ümumi iddia müddətini 19 ilə uzada bilməz).

Əks yanaşma, yəni deliktin törədildiyi vaxtdan on il keçəndən sonra (iddia müddətini tətbiq edən) borclunun təqib edilməsi, başqa sözlə, borclunun qeyri-müəyyən müddətə məhkəmə çəkişməsi təhdidi altında qalması ümumi iddia müddətini mənasız edərdi. Belə vəziyyət bu institutun mahiyyəti və məqsədi ilə uzlaşmır.

Subroqasiya hüququ sığorta ödənişini almış şəxsin ona dəymiş zərərə görə məsuliyyət daşıyan şəxsə qarşı malik olduğu tələb hüququnun qanuna əsasən sığortaçıya keçməsindən irəli gəlir. İlkin kreditorun zərər vuran şəxsə qarşı tələb hüququ on illik iddia müddəti ilə məhdudlaşırsa, yəni borclu ilkin kreditor qarşısında delikt törətdiyi tarixdən on il ərzində təqib olunmaq öhdəliyi daşıyırsa, yeni kreditora keçən həmin tələb üzrə müddət bundan artıq ola bilməz. Əks yanaşma "heç kəs özündə olandan artığını başqasına verə bilməz" prinsipinə, borclunun ilkin kreditora qarşı malik olduğu etirazları yeni kreditora qarşı da irəli sürmək hüququna dair Mülki Məcəllənin 199.1-ci və 202-ci maddələrinə zidd olardı.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

Azərbaycan Respublikası adından

QƏRAR

Bakı şəhəri İş № 2(102)-46/2024 22.01.2024

Azərbaycan Respublikası Ali Məhkəməsi
Mülki kollegiyasının

İddiaçı "xxxx" ASC-nin Cavabdehə qarşı iş üzrə

Q Ə R A R I

Açar sözlər: ümumi iddia müddəti

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Əliyev Zaur Əli oğlu (məruzəçi), Məmmədov Vidadi Məmməd oğlu və Abbasov Aqil Əzizağa oğlundan ibarət tərkibdə

Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)-4158/2023 nömrəli iş üzrə 10 iyul 2023-cü il tarixli qətnaməsindən Cavabdeh tərəfindən verilmiş kassasiya şikayəti üzrə işə Ali Məhkəmənin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları

1. Mübahisəyə mahiyyəti üzrə baxan məhkəmələr işin hallarını araşdıraraq aşağıdakıları müəyyən etmişlər:

2. xx.xx.2012-ci il tarixli sığorta şəhadətnaməsi ilə "xxxx" ASC ilə X1 arasında bağlanmış xx.xx.2012-ci il tarixli sığorta müqaviləsinə əsasən "xxxx" ASC tərəfindən " Mazda CX9" markalı, **-CH-*** dövlət qeydiyyat nişanlı avtonəqliyyat vasitəsi xx.xx.2012-ci il tarixdən xx.xx.2014-cü il tarixə qədər avtokasko riskləri üzrə tam sığortalanmışdır;

3. AYP ***** nömrəli, 23 avqust 2012-ci il tarixli inzibati xəta haqqında protokola əsasən, Cavabdeh özünə məxsus “HYUNDAİ İX-35” markalı, **-HO-*** dövlət qeydiyyat nişanlı avtomobillə 22 avqust 2012-ci il tarixdə, saat 15:30-da “Yol hərəkəti haqqında” Qanununun 42-ci maddəsinin 8-ci bəndinin tələbini pozaraq, Bakı-Sumqayıt yolu, 16-cı km.də geriyə hərəkət edərkən təhlükəli manevr etmiş və “Mazda CX9” markalı, **-CH-*** dövlət qeydiyyat nişanlı avtomobillə toqquşmuşdur. Cavabdeh barəsində İnzibati Xətalar Məcəlləsinin 151.5-ci maddəsi ilə inzibati protokol tərtib edilərək baxılması üçün aidiyyəti üzrə Abşeron Rayon Məhkəməsinə göndərilmişdir;

4. Abşeron Rayon Məhkəməsinin 3(012)-886/2012 saylı, 04 noyabr 2012-ci il tarixli qərarı ilə Cavabdeh Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 151.5-ci maddəsi ilə təqsirli bilinsə də inzibati məsuliyyətə cəlb etmə müddəti keçdiyinə görə başlanmış inzibati xəta haqqında iş üzrə icraata xitam verilmişdir;

5. 24 avqust 2012-ci il tarixli, CM-***** saylı Zərər aktı ilə "xxxx" ASC-nin İdarə Heyətinin sədri X2 və sığortalı X1 tərəfindən aparılan baxış nəticəsində sığortalı X1-ə məxsus "xxxx" markalı, **-CH-*** dövlət qeydiyyat nişanlı avtomobilə dəymiş zərərin aradan qaldırılması üçün görüləcək tədbirlərin nədən ibarət olması müəyyənləşdirilmişdir;

6. "xxxx" ASC-nin 06 noyabr 2012-ci il tarixli, 313/20**-CM-***/2012 saylı Sığorta aktından müəyyən olunur ki, xx.xx.2012-ci il tarixli yol nəqliyyat hadisəsi zamanı "xxxx" markalı, **-CH-*** dövlət qeydiyyat nişanlı avtomobilə 6157,66 manat məbləğində zərər dəymişdir, sığorta ödənişi dəymiş zərərdən MİB-HO-***** saylı sığorta şəhadətnaməsində razılaşdırılmış 500 manat azadolma məbləği çıxılmaqla 5.657,66 manat təşkil edir;

7. 06 noyabr 2012-ci il tarixli kassa məxaric orderindən görünür ki, "xxxx" ASC tərəfindən X1-ə ödənilən məbləğ 5.657,66 təşkil edir;

8. 22 sentyabr 2022-ci il tarixli məktubla Cavabdeh "xxxx" markalı, **-CH-*** dövlət qeydiyyat nişanlı avtomobilə dəymiş zərərə görə 5.657,66 manat sığorta ödənişi məbləğini 5 gün müddətində "xxxx" ASC-yə ödəməyəcəyi təqdirdə məhkəməyə müraciət olunacağı bildirilmişdir.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a) Birinci instansiya məhkəməsində icraat

9. İddiaçı "xxxx" ASC xx.xx.2022-ci il tarixdə iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, Cavabdehdən ödənilmiş sığorta ödənişinin əvəzi olaraq 5657,66 manat və dövlət rüsumunun əvəzi olan 76,57 manat məbləğində pulun iddiaçının xeyrinə tutulması barədə qətnamə qəbul olunmasını xahiş etmişdir.

10. İddiaçı işin yuxarıda qeyd edilən faktiki hallarına istinad etməklə tələbini belə əsaslandırmışdır ki, xx.xx.2012-ci il tarixli, MİB-HO-0254/12 saylı “avtomobillərin tam sığortası

üzrə sığorta şəhadətnaməsi”dən müəyyən olunur ki, "xxxx" markalı, **-CH-*** dövlət nömrə nişanlı avtomobil ASC tərəfindən xx.xx.2012-ci il tarixdən xx.xx.2014-cü il tarixədək 500 manat azadolma məbləği müəyyən edilməklə “əmlak sığortası” qaydasında sığortalanmışdır. İddia ərizəsinə əlavə edilmiş, xx.xx.2012-ci il tarixli zərərin hesablanması aktına əsasən, sözügedən yol-nəqliyyat hadisəsi nəticəsində "xxxx" markalı, 99-CH394 dövlət nömrə nişanlı avtomobilə dəymiş zərər 6157,66 manat məbləğində müəyyən edilmişdir. İddia ərizəsinə əlavə edilmiş xx.xx.2012-ci il tarixli sığorta aktı və xx.xx.2012-ci il tarixli, 779 saylı kassa məxaric orderinə əsasən, 500 manat məbləğində şərtsiz azadolma məbləği çıxıldıqdan sonra qalan 5657,66 manat məbləğində sığorta ödənişi dəymiş ziyanın ödənilməsi üçün ASC tərəfindən həyata keçirilmişdir. Azərbaycan Respublikası DİN BDYPİ-nin xx.xx.2012-ci il tarixli, AYP ***** saylı protokolunun surətindən müəyyən olunur ki, baş vermiş yol-nəqliyyat hadisəsinin törədilməsində Cavabdeh təqsirli bilinmişdir və onun barəsində o vaxt qüvvədə olan Azərbaycan Respublikası İXM-nin 151.5-ci maddəsi ilə inzibati protokol tərtib edilmişdir. xx.xx.2022-ci il tarixli, BS-S-22/4470 saylı geriyə tələb məktubunun surətindən müəyyən olunur ki, iddiaçı tərəfindən 5657,66 manat məbləğində pulun 5 gün müddətində ödənilməsi barədə cavabdehə rəsmi məktub göndərilmişdir.

11. Birinci instansiya məhkəməsindəki icraatda Cavabdehin nümayəndəsi və vəkili iddia müddətinin tətbiqinə dair xx.xx.2023-cü il tarixli ərizə ilə məhkəməyə müaciət edərək bildirmişdir ki, yol-nəqliyyat hadisəsi xx.xx.2012-ci il tarixdə baş vermiş, xx.xx.2012-ci il tarixdə DİN BDYPİ tərəfindən protokol tərtib olunmuş, xx.xx.2012-ci il tarixdə "xxxx" ASC tərəfindən zərər aktı tərtib olunmuş, xx.xx.2012-ci il tarixində "xxxx" ASC-nin Sumqayıt filialı tərəfindən zərərçəkmiş X1-ə pulun ödənilməsinə dair "xxxx" ASC-yə məktub göndərilmiş, xx.xx.2012-ci il tarixində "xxxx" ASC tərəfindən zərərçəkmiş X1-ə sığorta ödənişi olunmuş, xx.xx.2013-cü il tarixində "xxxx" ASC tərəfindən Cavabdeh subroqasiya qaydasında pulun tələbinə dair məktub göndərilmiş, eyni zamanda xx.xx.2022-ci il tarixində eyni məzmunlu məktub yenidən göndərilmiş və xx.xx.2022-ci il tarixdə iddiaçı tərəfindən aidiyyəti üzrə məhkəməyə müraciət olunmuşdur. Göründüyü kimi, sığorta hadisəsi xx.xx.2012-ci il tarixdə baş versə də, iddiaçı tərəfindən 10 il 2 ay sonra məhkəməyə müraciət olunmuşdur. Həmçinin xx.xx.2012-ci il tarixində "xxxx" ASC tərəfindən tərtib olunmuş zərər aktına və sonuncuya xx.xx.2012-ci il tarixində "xxxx" ASC-nin Sumqayıt filialı tərəfindən zərərçəkmiş X1-ə pulun ödənilməsinə dair göndərilmiş məktuba əsasən, iddiaçı subroqasiya hüququnun yarandığını bilmişdir.

12. Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin (hakim Ayşən Sultanova-Məmmədova) 2(004)-278/2023 saylı, 05 may 2023-cü il tarixli qətnaməsi ilə iddia rədd edilmişdir.

13. Məhkəmə qeyd etmişdir ki, sığorta şirkəti kasko sığortası üzrə sığortalanan nəqliyyat vasitəsinə yol-nəqliyyat hadisəsi nəticəsində dəymiş zərərin əvəzini ödəyirsə, deliktdən əmələ gəlmiş mülki hüquq münasibətində sinqulyar hüquq varisliyi baş verir, bu zaman sığortalanan nəqliyyat vasitəsinə dəymiş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ sığorta ödənişi həddində sığorta şirkətinə keçir. İddia müddətinin axımında dəyişiklik baş vermir. Müddətin axımı zərərin vurulması ilə başlayır və ümumi qaydada davam edir, çünki deliktdən əmələ gələn münasibətdə yalnız əvəzetmə baş vermişdir. Mülki Məcəllənin 378-ci maddəsinə görə öhdəlikdə şəxslərin dəyişilməsi iddia müddətinin və onun hesablanması qaydasının dəyişilməsinə səbəb olmur. Göründüyü kimi subroqasiya zamanı iddia müddətinin axımı zərərin vurulması anından başlayır.

14. Məhkəmə həmçinin qeyd etmişdir ki, iddiaçı "xxxx" ASC xx.xx.2012-ci il tarixdə baş vermiş sığorta hadisəsindən məlumatlı olduğu və xx.xx.2012-ci il tarixdə zərər aktı ilə sığortalanan nəqliyyat vasitəsinə dəymiş zərəri müəyyən etdiyi halda, iddia müddətini ötürərək xx.xx.2022-ci il tarixdə iddia iddia ərizəsi ilə məhkəməyə müraciət etmişdir.

15. Məhkəmə belə qənaətə gəlmişdir ki, iddia müddəti ötürüldüyündən və cavabdeh tərəfindən iddia müddətinin tətbiqinə dair ərizə verildiyinə görə iddia tələbi rədd edilməlidir.

16. Məhkəmə gəldiyi nəticəni Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 372.2, 375.2, 936.1-ci, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 14.2, 77.1, 124.2 və 217.4-cü maddələrinə istinadla əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

17. İddiaçı "xxxx" ASC apellyasiya şikayəti verərək, qətnamənin ləğv edilməsinə və iddia tələbinin təmin edilməsinə dair yeni qətnamə çıxarılmasını xahiş etmişdir.

18. Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının (hakimlər E.C.Kazımov - sədrlik edən və məruzəçi, A.Ə.Hüseyn və S.X.Bəhrəmzadə) 2(103)-4158/2023 nömrəli iş üzrə 10 iyul 2023-cü il tarixli qətnaməsi ilə iddiaçı "xxxx" ASC-nin apellyasiya şikayəti qismən təmin edilərək, Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin 2(004)-278/2023 saylı, 05 may 2023-cü il tarixli qətnaməsinin ləğv edilməsi, iddianın qismən təmin edilməsi, Cavabdeh dəymiş 5.264 (beş min iki yüz altmış dörd) manatın alınaraq iddiaçı "xxxx" ASC-yə ödənilməsi, ekspertiza xərci olan 100 (yüz) manatın Cavabdeh alınaraq Məhkəmə Ekspertizası Mərkəzinin hesabına köçürülməsi qət edilmişdir.

19. Apellyasiya instansiyası məhkəməsi qeyd etmişdir ki, iddia tələbi üzrə iddia müddətinin 10 il təşkil etməsi işin mübahisəsiz halıdır və ən azından tərəflər bu faktı mübahisələndirmir. Mübahisələndirilən hal iddia müddətinin axımının hansı vaxtdan başlanılması ilə bağlıdır. Birinci instansiya məhkəməsi bu məsələ ilə bağlı cavabdehin mövqeyi ilə razılaşaraq hesab edib ki, iddiaçı xx.xx.2012-ci il tarixdə baş vermiş sığorta hadisəsindən məlumatlı olduğu və xx.xx.2012-ci il tarixdə zərər aktı ilə sığortalanan nəqliyyat vasitəsinə dəymiş zərəri müəyyən etdiyi halda, iddia müddətini ötürərək xx.xx.2022-ci il tarixdə iddia ərizəsi ilə məhkəməyə müraciət etmişdir. İddiaçı isə nə cavabdehin, nə də məhkəmənin bu mövqeyi ilə razılaşmır və səbəblərini apellyasiya şikayətində göstərir.

20. Mülki Məcəllənin 377.4-cü maddəsinə əsasən reqres öhdəliklər üzrə iddia müddətinin axımı əsas öhdəliyin icrası anından başlanır. Həmin Məcəllənin 936.1-ci maddəsində də subroqasiya hüququ bu Məcəllənin 936.6-cı maddəsi nəzərə alınmaqla, sığorta ödənişi almış şəxsin ona dəymiş zərərə görə məsuliyyət daşıyan şəxsə qarşı malik olduğu hüquqlardan və vasitələrdən həmin ödənişi vermiş sığortaçının istifadə etmək hüququdur. İddiaçı sığortaçı olaraq könüllü sığorta müqaviləsi üzrə(sığorta şəhadətnaməsi üzrə) baş vermiş sığorta hadisəsinə görə sığortalıya 06 noyabr 2012-ci il tarixdə sığorta ödənişini vermişdir. Demək ki, iddiaçının hazırki iş üzrə cavabdehə qarşı subroqasiya hüququ sığorta ödənişini etdiyi vaxtdan yarandığından, iddia müddətinin axımı da 06 noyabr 2012-ci ildən başlanır və müddətin sonuncu günü 06 noyabr 2022-ci il tarixdə bitməli idi. İddiaçı da 10 il müddət bitməmiş, yəni 10 oktyabr 2022-ci il tarixdə hazırkı iddia ilə məhkəməyə müraciət edib, deməli iddia müddətini ötürməmişdir.

21. Abşeron Rayon Məhkəməsinin 3(012)-886/2012 saylı, 04 noyabr 2012-ci il tarixli qərarı ilə X1 Xətalar Məcəlləsinin 151.5-ci maddəsi ilə təqsirli bilinsə də inzibati məsuliyyətə cəlb etmə müddəti keçdiyinə görə başlanmış inzibati xəta haqqında iş üzrə icraata xitam verilmişdir. Göründüyü kimi, bu faktın özü də iddiaçının sığortaçı olaraq həm sığortalıya sığorta ödənişinin ödənilməsində, həm də subroqasiya hüququ yaranacaq təqsirli şəxsin müəyyən edilməsində əhəmiyyət kəsb edirdi. Çünki, sığorta hadisəsinin baş verməsinə səbəb olmuş yol nəqliyyat hadisəsinin törədilməsində təqsiri müəyyən edilməyən hansısa şəxsə, o cümlədən hazırkı iş üzrə cavabdehə qarşı subroqasiya hüququ yarana bilməzdi.

22. Apellyasiya instansiyası məhkəməsi hesab etmişdir ki, iddia müddətinin axımının başlanılmasının zərərin vurulması yaxud müəyyən edilməsi tarixi ilə başlanılmasına dair birinci instansiya məhkəməsinin gəldiyi nəticə maddi hüquq normalarının dispozisiya şərtlərinə uyğun olmamışdır.

23. Apellyasiya instansiyası məhkəməsi qeyd etmişdir ki, iddiaçı sığortalı avtomobilə 6157,66 manat məbləğində zərər dəydiyini müəyyən etdiyindən, sığorta ödənişi dəymiş zərərdən sığorta şəhadətnaməsində razılaşdırılmış 500 manat azadolma məbləği çıxılmaqla 5657,66 manat ödənilmişdir. Ancaq birinci instansiya məhkəməsi tərəfindən keçirilmiş ekspertiza rəyi ilə zərərin məbləği 5264 manat müəyyən edilmişdir. Düzdü, sual oluna bilər ki, iddiaçı sığorta ödənişi olaraq sığortalıya 5657,66 manat ödəmişdir və həmin məbləği də zərər vuran şəxsdən tələb edə bilər. Lakin zərər vuran, yəni hazırki iş üzrə cavabdeh də törətdiyi mülki hüquq pozuntusu həcmində mülki hüquqi məsuliyyət daşımalı və həddindən artıq maliyyə itkisinə məruz qalmamalıdır. Ona görə də 5.264 manat cavabdehdən alınaraq

iddiaçıya ödənilməlidir.

24. Məhkəmə gəldiyi nəticəni Mülki Məcəllənin 21.1, 21.2, 377.1, 377.4, 936.1, 936.2, 936.3, 936.4, 936.5, 1096.1,1096.2, 1097.1-ci maddələrinə istinadla əsaslandırmışdır.

Kassasiya şikayətinin və ona etirazın dəlilləri

Kassasiya şikayətinin dəlilləri

25. Cavabdeh (Vəkil) kassasiya şikayəti verərək, apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv edilməsi və iddianın təmin edilməməsi barədə qərar qəbul edilməsini xahiş etmişdir.

26. Kassasiya şikayəti onunla əsaslandırılmışdır ki, iddiaçının qeyd etdiyi kimi iddia müddətinin sığorta ödənişinin ödənildiyi tarixdən hesablanması fikri ilə razılaşmaq mümkün deyil. İddiaçı xx.xx.2012-ci il tarixində (zərər aktı tərtib olunan tarix) və xx.xx.2012-ci il tarixində ("xxxx" ASC-nin Sumqayıt filialı tərəfindən "xxxx" ASC-yə məktub göndərildiyi tarix) dolayısı ilə öz hüquqlarının pozulduğunu bilirdi. Nəzərə alsaq ki, subroqasiya hüququ üzrə iddia müddəti 10 ildir və iddiaçı tərəfindən məhkəməyə xx.xx.2022-ci il tarixində müraciət olunmaqla əslində iddia müddəti keçmişdir. İddia müddətinin tətbiqinə dair cavabdeh tərəfindən Yasamal Rayon Məhkəməsinə təqdim olunmuş ərizə əsas götürülməli və həmin ərizədə qeyd olunan xüsusatlar üzrə iddia tələbi rədd edilməlidir.

Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

27. Kassasiya şikayətinə qarşı etiraz daxil olmamışdır.

Tətbiq edilən hüquq

Azərbaycan Respublikasının Mülki Məcəlləsi:

28. Maddə 1.1. Bu Məcəllənin məqsədi üçüncü şəxslərin hüquqlarına xələl gətirmədən mülki dövriyyənin azadlığını onun iştirakçılarının bərabərliyi əsasında təmin etməkdir.

29. Maddə 1.2. Mülki hüquq subyektlərinin hüquqlarını və qanuni mənafelərini müdafiə etmək bu Məcəllənin vəzifələrindən biridir.

30. Maddə 199.1. Borclu öhdəlik üzrə tələblərin yeni kreditora güzəşt edildiyi barədə bildirişi aldığı məqamda ilkin kreditora qarşı malik olduğu etirazları yeni kreditorun tələbinə qarşı irəli sürə bilər.

31. Maddə 202. Hüquqlara və tələblərə mülkiyyət hüququnun əldə edilməsi qaydaları qanuna, məhkəmənin və ya digər səlahiyyətli dövlət orqanının qərarına əsasən həyata keçirilən tələbin güzəştinə də müvafiq surətdə tətbiq olunur.

32. Maddə 372.1. Başqa şəxsdən hər hansı hərəkəti yerinə yetirməyi və ya yerinə yetirməkdən çəkinməyi tələb etmək hüququna müddət şamil edilir.

33. Maddə 372.2. Hüququ pozulmuş şəxsin iddiası ilə hüququn müdafiəsi üçün müddət iddia müddəti sayılır.

34. Maddə 373.1. Ümumi iddia müddəti on il təşkil edir.

35. Maddə 375.2. Məhkəmə tərəfindən iddia müddəti yalnız mübahisə tərəfinin məhkəmə qərarı çıxarılanadək verdiyi ərizə əsasında tətbiq edilir. Mübahisə tərəfinin tətbiq edilməsi barədə ərizə verdiyi iddia müddətinin keçməsi məhkəmənin iddiadan imtina barəsində qərar çıxarması üçün əsasdır.

36. Maddə 377.1. İddia müddətinin axımı şəxsin öz hüququnun pozulduğunu bildiyi və ya bilməli olduğu gündən başlanır. Bu qaydadan istisnalar bu Məcəllə ilə müəyyənləşdirilir.

37. Maddə 377.4. Reqres öhdəliklər üzrə iddia müddətinin axımı əsas öhdəliyin icrası anından başlanır.

38. Maddə 936.1. Subroqasiya hüququ bu Məcəllənin 936.6-cı maddəsi nəzərə alınmaqla, sığorta ödənişi almış şəxsin ona dəymiş zərərə görə məsuliyyət daşıyan şəxsə qarşı malik olduğu hüquqlardan və vasitələrdən həmin ödənişi vermiş sığortaçının istifadə etmək hüququdur.

39. Maddə 936.2. Faydalanan şəxsin zərərvuran şəxsə qarşı zərərin əvəzini ödəmək tələbi (iddiası) ilə bağlı hüquq əmlak sığortası üzrə sığorta ödənişini vermiş sığortaçıya

subroqasiya qaydasında onun verdiyi sığorta ödənişi məbləğində keçir.

40. Maddə 936.5. Sığortaçı subroqasiya hüququndan zərərvuran şəxsin özünə və (və ya) müvafiq sığorta hadisəsi ilə bağlı risklər üzrə həmin şəxsin məsuliyyətini sığortalamış sığortaçıya, həmçinin dəyən zərərə görə sığortalı və ya faydalanan şəxs qarşısında maddi məsuliyyət daşıya bilən digər şəxsə qarşı istifadə edə bilər.

41. Maddə 1096.1. Mülki hüquq pozuntusu (delikt) hüquqla və ya qanunla müdafiə edilən başqa şəxsə (zərərçəkənə) birbaşa ziyan və ya zərər vurulmasına gətirib çıxaran təqsirli, hüquqa zidd (mülki qanunvericiliyin normalarını pozan) əməldir (hərəkət və ya hərəkətsizlikdir).

42. Maddə 1096.2.Delikt törətmiş şəxs mülki hüquq məsuliyyəti daşıyır.

43. Maddə 1097.1. Mülki hüquq pozuntusu (delikt) nəticəsində fiziki şəxsin şəxsiyyətinə və ya əmlakına vurulmuş zərərin, habelə hüquqi şəxsin əmlakına və işgüzar nüfuzuna vurulmuş zərərin əvəzi zərərvuran tərəfindən tam həcmdə ödənilməlidir. Qanunla zərərin əvəzini ödəmək vəzifəsi zərəri vurmayan şəxsin öhdəsinə qoyula bilər.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi

44. Maddə 4.1. Bütün fiziki və hüquqi şəxslər özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədi ilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququna malikdirlər.

45. Maddə 14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

46. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

47. Maddə 217.1. Məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır.

48. Maddə 217.3. Qətnamə iş üzrə müəyyən edilmiş hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır.

49. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

50. Maddə 417.1.4. Kassasiya məhkəməsi işə baxarkən apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadını tamamilə, yaxud qismən ləğv edib apellyasiya instansiyası məhkəməsində müəyyən edilmiş hallar və sübutlar əsasında yeni qərar qəbul edə bilər.

51. Maddə 418.1. Maddi və prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması, o cümlədən maddi və prosessual hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması apellyasiya instansiyası məhkəməsinin qətnamə və qərardadının ləğv edilməsi üçün əsasdır.

Kassasiya baxışının hədləri

52. Kassasiya şikayətində qətnamə tam mübahisələndirildiyindən apellyasiya instansiyası məhkəməsinin aktı bütövlükdə yoxlanılır.

53. Kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunubolunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

54. İddiaçı bildirir ki, cavabdehin 22 avqust 2012-ci il tarixdə törətdiyi mülki hüquq pozuntusu nəticəsində "xxxx" markalı, **-CH-*** dövlət qeydiyyat nişanlı avtomobilə dəymiş zərər üzrə xx.xx.2012-ci ildə zərər çəkmiş şəxsə 5.657,66 manat sığorta ödənişi vermişdir. Ona görə də həmin məbləğdə pulu subroqasiya qaydasında cavabdehdən tələb edir (§ 9-10).

55. Cavabdeh isə müdafiə vasitəsi kimi iddia müddətinin tətbiq edilməsi barədə ərizə verərək bildirmişdir ki, zərərə səbəb olan hadisə 22 avqust 2012-ci il tarixdə baş vermiş, lakin

iddiaçı xx.xx.2022-ci ildə tələb irəli sürməklə on illik iddia müddətini ötürmüşdür. Ona görə də iddianın rədd olunmasını xahiş edir (§ 11).

56. Göründüyü kimi iddiaçının tələb hüququ mübahisəli olmasa da, cavabdeh iddia müddətinin ötməsinə istinad etmişdir.

57. Birinci instansiya məhkəməsi cavabdehin mövqeyi ilə razılaşaraq iddia müddətinin keçməsinə görə tələbi rədd etmiş, lakin apellyasiya məhkəməsi qətnaməni ləğv edərək iddianı qismən təmin etmişdir. Yuxarı məhkəmə bu qənaətə gələrkən, Mülki Məcəllənin 377.4-cü və 936.1-ci maddələrinə əsaslanmışdır.

58. Həmin normalarda göstərilir ki, reqres öhdəliklər üzrə iddia müddətinin axımı əsas öhdəliyin icrası anından başlanır. Subroqasiya hüququ bu Məcəllənin 936.6-cı maddəsi nəzərə alınmaqla, sığorta ödənişi almış şəxsin ona dəymiş zərərə görə məsuliyyət daşıyan şəxsə qarşı malik olduğu hüquqlardan və vasitələrdən həmin ödənişi vermiş sığortaçının istifadə etmək hüququdur (§ 37-38).

59. Kassasiya məhkəməsi aşağıdakılara əsasən hesab edir ki, iş üzrə maddi və prosessual hüquq normaları düzgün tətbiq edilməmişdir.

60. Məlum olduğu kimi, başqa şəxsdən hər hansı hərəkəti yerinə yetirməyi və ya yerinə yetirməkdən çəkinməyi tələb etmək hüququna müddət şamil edilir. Hüququ pozulmuş şəxsin iddiası ilə hüququn müdafiəsi üçün müddət iddia müddəti sayılır. Məhkəmə tərəfindən iddia müddəti yalnız mübahisə tərəfinin məhkəmə qərarı çıxarılanadək verdiyi ərizə əsasında tətbiq edilir. Mübahisə tərəfinin tətbiq edilməsi barədə ərizə verdiyi iddia müddətinin keçməsi məhkəmənin iddiadan imtina barəsində qərar çıxarması üçün əsasdır (§ 32-33, 35).

61. Kollegiya qeyd edir ki, iddia müddəti (onun tətbiqi) cavabdehə aid hüquq olmaqla, ona yönəlmiş iddiadan müdafiə olunmaq imkanı təmin edir. Bu səbəbdən iddia müddəti məhz cavabdehin verdiyi ərizə əsasında tətbiq olunur. Bununla da cavabdehə imkan yaradılır ki, mövcud öhdəliyə görə məhkəmə qərarı ilə təqib olunmaqdan (əmlakı ilə məsuliyyət daşımaqdan) azad olsun. Başqa sözlə, iddia müddətinin keçməsi tələb hüququnun özünü deyil, onun məhkəmə qaydasında realizəsi imkanını aradan qaldırır. Bu baxımdan iddia müddəti qanunla cavabdehə verilən özünümüdafiə vasitəsidir.

62. Qanunda ayrı-ayrı tələblər üçün xüsusi iddia müddətləri nəzərdə tutulsa da, ümumi iddia müddəti on il təşkil edir (§ 34).

63. İddia müddətinin axımının başlanması və başa çatması anının düzgün müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir.

64. İddia müddətinin axımı şəxsin öz hüququnun pozulduğunu bildiyi və ya bilməli olduğu gündən başlanır. Reqres öhdəliklər üzrə iddia müddətinin axımı əsas öhdəliyin icrası anından başlanır (§ 36-37).

65. Kollegiya aşağıdakılara əsasən hesab edir ki, subroqasiya tələbi üzrə iddia müddətinin axımı sığorta ödənişinin verildiyi andan hesablansa da, bu müddət mülki hüquq pozuntusunun (deliktin) törədildiyi tarixdən keçən on illik ümumi iddia müddətindən artıq ola bilməz.

66. Ümumi iddia müddəti (on il) mülki hüquqi tələblərin məhkəmə qaydasında təqib edilməsinin mümkün olduğu son müddətidir (mütləq müddət). Mülki hüquq pozuntusu (delikt) üzrə qanunda xüsusi müddət nəzərdə tutulmadığından bu əsasa söykənən tələblər üzrə də on illik iddia müddəti tətbiq olunur. Belə ki, deliktin törədildiyi tarixdən etibarən on il keçmişdirsə həmin qanunazidd əmələ görə iddia müddəti ötmüş hesab edilir. Bu müddətin aşılması mümkün sayılmır, axımı sonradan başlamış iddia müddətləri də on ilin tamamında başa çatır.

67. Bu baxımdan reqres tələb üzrə iddia müddətinin axımının əsas öhdəliyin icrası anından başlanması delikt üzrə ümumi iddia müddətinin aşılmasına əsas verə bilməz.

68. Odur ki, ilkin kreditorun tələb hüququndan istifadə edən sığortaçının birtərəfli hərəkəti (sığorta ödənişini sonradan ödəməsi, yaxud hansısa səbəbdən gecikdirməsi) borclunun müdafiə vasitəsi olan on illik ümumi iddia müddətini onun zərərinə artıra bilməz (məsələn, sığortaçı ödənişi hadisənin və zərərin baş verməsindən 9 il sonra ödəməklə borclunun yararlana biləcəyi ümumi iddia müddətini 19 ilə uzada bilməz).

69. Əks yanaşma, yəni deliktin törədildiyi vaxtdan on il keçəndən sonra (iddia müddətini

tətbiq edən) borclunun təqib edilməsi, başqa sözlə, borclunun qeyri-müəyyən müddətə məhkəmə çəkişməsi təhdidi altında qalması ümumi iddia müddətini mənasız edərdi. Belə vəziyyət bu institutun mahiyyəti və məqsədi ilə uzlaşmır.

70. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin Plenumu 3 iyun 2013-cü il tarixli qərarında göstərmişdir ki, iddia müddəti institutu mülki dövriyyənin, hüquq münasibətlərinin müəyyənliyini və sabitliyini yaratmaq, onların iştirakçılarını intizamlandırmaq, hüquq münasibətlərinin subyektlərinin hüquq və qanuni maraqlarının müddət baxımından vaxtında müdafiəsini və bərpasınıtəmin etmək məqsədi daşıyır. Belə ki, pozulmuş hüquqların məcburi müdafiəsi üçün ağlabatan müddət məhdudiyyətlərinin olmaması işin baxılması üçün əhəmiyyət kəsb edən sübutların toplanmasının və saxlanmasının lazım olduğunu nəzərə almayan cavabdehlərin və üçüncü şəxslərin qanunla qorunan hüquq və maraqlarının pozulmasına gətirib çıxarardı. Mübahisə tərəfinin ərizəsi əsasında məhkəmə tərəfindən iddia müddətinin tətbiqi mülki mübahisə tərəflərini əsaslandırılmamış çəkişmələrdən qoruyur və eyni zamanda, onları öz hüquqlarını vaxtında həyata keçirmələrinə və müdafiəsinə məcbur edir.

71. Kassasiya kollegiyası qeyd edir ki, subroqasiya hüququ sığorta ödənişini almış şəxsin ona dəymiş zərərə görə məsuliyyət daşıyan şəxsə qarşı malik olduğu tələb hüququnun qanuna əsasən sığortaçıya keçməsindən irəli gəlir. İlkin kreditorun zərər vuran şəxsə qarşı tələb hüququ on illik iddia müddəti ilə məhdudlaşırsa, yəni borclu ilkin kreditor qarşısında delikt törətdiyi tarixdən on il ərzində təqib olunmaq öhdəliyi daşıyırsa, yeni kreditora keçən həmin tələb üzrə müddət bundan artıq ola bilməz.

72. Əks yanaşma “heç kəs özündə olandan artığını başqasına verə bilməz” prinsipinə, borclunun ilkin kreditora qarşı malik olduğu etirazları yeni kreditora qarşı da irəli sürmək hüququna dair Mülki Məcəllənin 199.1-ci və 202-ci maddələrinə zidd olardı (§ 30-31).

73. O da nəzərə alınmalıdır ki, mülki hüquq münasibətlərinin iştirakçıları özlərinin birtərəfli hərəkətləri ilə başqa şəxslərin vəziyyətini ağırlaşdıra bilməzlər. Bu səbəbdən mülki dövriyyənin azadlığında üçüncü şəxslərin hüquqlarına xələl gətirilməməsi, eləcə də mülki hüquq subyektlərinin hüquqlarının və qanuni mənafelərinin müdafiə olunması Mülki Məcəllənin məqsəd və vəzifələri kimi nəzərdə tutulmuşdur (§ 28-29).

74. Məhkəmə tərkibi vurğulayır ki, mülki hüquq normaları yuxarıda göstərilən ümumi prinsiplərə, məqsəd və vəzifələrə zidd şəkildə tətbiq edilə bilməz.

75. Hazırkı işdə məhkəmələr müəyyən etmişlər ki, istinad olunan mülki hüquq pozuntusu cavabdeh tərəfindən 22 avqust 2012-ci il tarixdə törədilmişdir, iddia isə 10 oktyabr 2022-ci ildə qaldırılmışdır. Belə olan halda qanunla müəyyən olunmuş on illik ümumi iddia müddəti ötmüş, cavabdeh bu barədə yazılı ərizə vermişdir. Bu hal iddianın rədd edilməsi üçün əsasdır.

76. Apellyasiya instansiyası məhkəməsi isə qeyd olunanları nəzərə almamış, göstərilən maddi hüquq normalarını düzgün tətbiq etməmiş, iş üzrə düzgün olmayan qətnamə çıxarmışdır. Halbuki, məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır (§ 47).

77. Maddi və prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv edilməsi üçün əsasdır. Kassasiya məhkəməsi işə baxarkən apellyasiya instansiyası məhkəməsinin qətnaməsini tamamilə ləğv edib apellyasiya instansiyası məhkəməsində müəyyən edilmiş hallar və sübutlar əsasında yeni qərar qəbul edə bilər (§ 50-51).

78. Ona görə də qətnamə ləğv edilməli, apellyasiya instansiyası məhkəməsində müəyyən edilmiş hallar və sübutlar əsasında yeni qərar çıxarılmalı, yuxarıda şərh olunan hüquqi mövqelərə əsasən iddia rədd edilməlidir.

79. Göstərilənlərə əsasən və MPM-in 416, 417 və 419-cu maddələrini rəhbər tutaraq, Məhkəmə kollegiyası

Qərara aldı:

Kassasiya şikayəti təmin edilsin.

Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)-4158/2023 nömrəli iş üzrə 10 iyul 2023-cü il tarixli qətnaməsi ləğv edilsin.

İş üzrə yeni qərar çıxarılmaqla iddia rədd edilsin.

Qərar qətidir və qəbul edildiyi andan qüvvəyə minir.

28. 2(102)-1049/2024 nömrəli, 2024-cü il 1 aprel tarixli qərar - Əmək haqqının ödənilməsi ilə bağlı tələblərə iddia müddətinin tətbiqi

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: əmək haqqının ödənilməsi ilə bağlı tələblərə iddia müddətinin tətbiqi.

Əmək haqqının, habelə digər ödəmələrin ödənilməsi tələblərində iddia müddəti (işçi əmək haqqını almaqla hüququnun pozulduğunu bildiyi halda).

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Əmək Məcəlləsinin 296-cı maddəsinin 4-cü hissəsində nəzərdə tutulmuş bir illik iddia müddətinin ötürülməsinə dair cavabdeh tərəfindən ərizə təqdim edilərsə, iddia ərizəsinin təqdim edildiyi vaxtdan əvvəlki bir illik dövr üzrə iddianın mahiyyəti ilə bağlı araşdırma aparılmalı, iddia müddəti həmin bir ildən əvvəlki dövrə tətbiq edilməlidir.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-1049/2024

01.04.2024-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi
Mülki Kollegiyasının

İddiaçının cavabdeh "XXX" Məhdud Məsuliyyətli Cəmiyyətinə qarşı iddiası ilə bağlı mülki iş üzrə

Q Ə R A R I

(Açar sözlər: əmək haqqının və istifadə edilməmiş məzuniyyətə görə pul əvəzinin, həmin ödənişlərin gecikdirilməsinə görə ödəncin və mənəvi zərərin əvəzinin ödənilməsi, iddia müddətinin tətbiqi**)**

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyası, hakimlər Babayev Zəki Baba oğlu (məruzəçi), Nurməmmədov Əhməd Güləhməd oğlu və Hüseynov Abiddin Qabil oğlundan ibarət tərkibdə,

İddiaçının cavabdeh "XXX" Məhdud Məsuliyyətli Cəmiyyətinə qarşı "əmək haqqının və istifadə edilməmiş məzuniyyətə görə pul əvəzinin, həmin ödənişlərin gecikdirilməsinə görə ödəncin və mənəvi zərərin əvəzinin ödənilməsi" tələbinə dair iddiası ilə bağlı mülki iş üzrə Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)-5660/2023 nömrəli, 6 oktyabr 2023-cü il tarixli qətnaməsindən cavabdeh "XXX" MMC (Vəkil) tərəfindən verilmiş kassasiya şikayətinə 1 aprel 2024-cü il tarixdə Ali Məhkəmənin inzibati binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları:

1. "XXX" MMC və İddiaçı arasında bağlanmış 01.10.2019-cu il tarixli əmək müqaviləsinə əsasən, işçi İddiaçı 01.10.2019-cu il tarixdə dəzgahçı vəzifəsinə işə qəbul edilmişdir. Müqavilənin 4.1-ci bəndinə görə işçiyə hər ay 300 manat məbləğdə əmək haqqı ödənilmişdir. 01.10.2019-cu il tarixli əmək müqaviləsinə dəyişiklik edilməsi barədə 05 yanvar 2021-ci il tarixli müqaviləyə əsasən tərəflər 05.01.2021-ci il tarixdən dəzgahçı vəzifəsində işləyən işçi İddiaçı vəzifə maaşının 500 manat məbləğində müəyyən edilməsi barədə razılaşmışlar.
2. İddiaçı 06.06.2022-ci il tarixli ərizəsinə əsasən, ona 02.10.201902.10.2020-ci il tarixi dövrü üçün istifadə edilməmiş əmək məzuniyyətinə görə pul əvəzinin ödənilməsini xahiş etmişdir.
3. "XXX" MMC-nin 06 iyun 2022-ci il tarixli 12-m №-li əmrinə əsasən İddiaçıya 02.10.2019-02.10.2020-ci il tarixi dövrünü əhatə edən iş ili üçün istifadə etmədiyi 21 təqvim günü əmək məzuniyyətinə görə pul əvəzi ödənilməsi əmr edilmiş və "XXX" MMC-nin məzuniyyətin hesablanması barədə çıxarışın surətinə əsasən İddiaçıya ödənilən məbləğ 528,15 manat olmuşdur.
4. "Xbank" ASC-nin hesabdan çıxarış məlumatlarına əsasən İddiaçıya 2022-ci ilin may ayı üzrə 791,13 manat əmək haqqı ödənilmişdir.
5. "XXX" MMC və İddiaçı arasında bağlanmış əmək müqaviləsi cavabdeh "XXX" MMC-nin 13.09.2022-ci il tarixli əmri ilə Əmək Məcəlləsinin 68-ci maddəsinin "a" bəndinə əsasən ləğv edilmişdir.

İş üzrə qəbul edilmiş məhkəmə aktları.

Birinci instansiya məhkəməsində icraat:

6. İddiaçı cavabdeh "XXX" Məhdud Məsuliyyətli Cəmiyyətinə qarşı (bundan sonra cavabdeh və ya MMC) iddia ərizəsi ilə Bakı şəhəri Xətai Rayon Məhkəməsinə müraciət edərək, cavabdehdən 20 sentyabr 2016-cı il tarixdən 13 sentyabr 2022-ci il tarixinə kimi olan dövr üzrə istifadə edilməmiş əmək məzuniyyətinin əvəzi olaraq kompensasiya məbləğinin, həmin kompensasiya məbləğinin onun sonuncu iş günü ödənilmədiyinə görə 14 sentyabr 2022-ci il tarixdən başlayaraq qətnamə icra olunan tarixədək ödənilməli olan kompensasiya məbləğinin hər gecikdirilmiş gün üçün bir faiz məbləğində ödəncin, dəymiş 1.000 manat məbləğində mənəvi zərərin, hüquqi yardıma çəkilmiş 200 manat xərcin və Bakı 9 saylı Mediasiya Təşkilatının hesabına ödənilmiş 50 manat mediasiya xərcinin onun xeyrinə tutulması barədə qətnamə qəbul olunmasını məhkəmədən xahiş etmişdir.
7. İddiaçı sonradan iddia tələbinin həcminin artırılması barədə ərizə təqdim edərək, onun "X1" MMC-də işlədiyi 20 oktyabr 2016-cı il - 21 sentyabr 2019-cu il iş dövrü ərzində ödənilməmiş əmək haqqının və əmək haqqının gecikdirilməsinə görə 21 sentyabr 2019-cu il tarixdən başlayaraq həmin pulun ödənildiyi tarixədək gecikdirilmiş hər gün üçün bir faiz məbləğində ödəncin, onun "X1" MMC-də işlədiyi 20 oktyabr 2016-cı il – 21 sentyabr 2019-cu

il tarixədək olan iş dövrü üçün istifadə etmədiyi məzuniyyətə görə pul əvəzinin və 21 sentyabr 2019-cu il tarixdən başlayaraq həmin pulun ödənildiyi tarixədək gecikdirilmiş hər gün üçün bir faiz məbləğində ödəncin, onun cavabdeh MMC-də işlədiyi 01 oktyabr 2019-cu il -13 sentyabr 2022-ci il iş dövrü ərzində ödənilməmiş əmək haqqının və əmək haqqının gecikdirilməsinə görə 13 sentyabr 2022-ci il tarixdən başlayaraq həmin pulun ödənildiyi tarixədək gecikdirilmiş hər gün üçün bir faiz məbləğində ödəncin, onun cavabdeh MMC-də işlədiyi 01 oktyabr 2019-cu il-13 sentyabr 2022-ci il iş dövrü üçün istifadə etmədiyi məzuniyyətə görə pul əvəzinin və 13 sentyabr 2022-ci il tarixdən başlayaraq həmin pulun ödənildiyi tarixədək gecikdirilmiş hər gün üçün bir faiz məbləğində ödəncin, habelə ona vurulmuş mənəvi zərərin əvəzi kimi 1.000 manat məbləğində pulun, hüquqi yardıma çəkilmiş 200 manat xərcin və Bakı şəhəri 9 saylı Mediasiya Təşkilatının hesabına ödənilmiş 50 manat mediasiya xərcinin cavabdehdən onun xeyrinə tutulması barədə qətnamə qəbul olunmasını xahiş etmişdir.

8. İddia tələbi işin yuxarıda qeyd olunan hallarına istinad edilməklə onunla əsaslandırılmışdır ki, onunla cavabdeh arasında olan əmək müqaviləsinə cavabdeh MMC-nin 13.09.2022-ci il tarixli əmrinə əsasən Azərbaycan Respublikası Əmək Məcəlləsinin 68ci maddəsinin ikinci hissəsinin "a" bəndi ilə xitam verilsə də, onun sonuncu iş günü yəni 13.09.2022-ci il tarixdə onun istifadə edilməmiş məzuniyyət haqqı ödənilməmiş, onun son haqq-hesabı düzgün aparılmamışdır. O, mübahisə ilə bağlı cavabdehə mediasiya təklifi göndərmiş, lakin cavabdeh tərəfindən təklifə müsbət cavab verilməmişdir. Bununla bağlı mediasiya arayışı da verilmiş, onun tərəfindən mediasiyaya görə 50 manat, habelə hüquqi yardıma görə 200 manat ödəniş edilmişdir. Qeyd olunmuşdur ki, tərəflər arasında barışıq əldə olunmamışdır. İş üzrə verilmiş ekspert rəyi ilə razıdırlar. Həmin rəydə hər şey qeyd olunmuş, cavabdeh tərəfindən ona ödənilməmiş ümumi məbləğ hesablanmışdır. Ödənilməmiş gecikdirilmiş məbləğə görə faizlə bağlı olan hissə isə icrada həll olunacaqdır. Həmin məbləğin hesablanmasına tərəflər arasındakı əmək müqaviləsinə xitam verildiyi 13.09.2022-ci il tarixdən başlanmalıdır.

9. Cavabdehin nümayəndəsi iddiaya qarşı yazılı etiraz edərək bildirmişdir ki, "X1" MMC iddiaçı ilə əmək müqaviləsi bağladığı dövrlərdə ümumiyyətlə cavabdeh MMC adında qurum dövlət qeydiyyatından keçməmiş və belə bir qurum yaradılmamışdır. Cavabdeh MMC 05.07.2019-cu il tarixində qanunla müəyyənləşdirilən qaydada dövlət qeydiyyatından keçməklə, xüsusi yaradılmış ayrıca bir qurumdur və "X1" MMC ilə heç bir əlaqəsi olmamışdır. Yəni 2019-cu ildə "X1" MMC öz öhdəliklərini cavabdeh MMC-yə keçirməmişdir. Cavabdeh MMC həmin dövrdə yeni yaradılmış ayrıca bir qurum olaraq fəaliyyət göstərmişdir. Qeyd olunmalıdır ki, iddiaçı iddia ərizəsində qeyd edir ki, cavabdeh MMC-nin 18/k saylı, 01.10.2019-cu il tarixli əmrinə əsasən iddiaçı ilə cəmiyyət arasında 01.10.2019-cu il tarixində əmək müqaviləsi bağlanmış, həmin əmək müqaviləsinə əsasən iddiaçının əmək haqqı 300 manat olmaqla cəmiyyətin dəzgahçı vəzifəsinə işə qəbul olunmuş, bundan 01.10.2019-cu il tarixli əmək müqaviləsinə edilmiş 30.01.2021-ci il tarixli dəyişikliklərə əsasən iddiaçının əmək haqqısı 500 manat və 01.10.2019-cu il tarixli əmək müqaviləsinə edilmiş 31.05.2021-ci il tarixli dəyişikliklərə əsasən iddiaçının əmək haqqı 800 manat artırılmışdır. Cavabdeh MMC-nin xxx/6 saylı 13.09.2022-ci il tarixli əmrinə əsasən Əmək Məcəlləsinin 68-ci maddəsinin "a" bəndinə əsasən 13.09.2022-ci il tarixdən iddiaçı tutduğu vəzifədən azad edilməklə, onunla bağlanmış əmək müqaviləsinə xitam verilmiş, cavabdeh MMC iddiaçının sonunçu iş günü, yəni 13.09.2022-ci il tarixdə 20.10.2016-cı il tarixdən başlayaraq 13.09.2022-ci il tarixədək olan dövr üzrə iddiaçının istifadə edilməmiş məzuniyyət haqqısını hesablamamış və həmin məbləği iddiaçıya ödəməmişdir. Bununla bağlı qeyd olunmuşdur ki, iddiaçı cavabdeh MMC ilə 01.10.2019-cu il tarixində əmək müqaviləsi bağlamış və həmin əmək müqaviləsinə əsasən

onun ilkin olaraq əmək haqqısı 300 manat məbləğində müəyyən edilmiş və MMC-də 02.10.2019-cu il tarixindən dəzgahçı vəzifəsinə işə qəbul edilmişdir. Onun məzuniyyət üzrə iş ilini 02.10.2019 – 02.10.2020-ci ildən ibarət dövr əhatə etmiş və əsas məzuniyyətinin müddəti 21 təqvim günü müəyyən edilmişdir. Belə ki, iddiaçı cavabdeh MMC-də dəzgahçı vəzifəsində işlədiyi dövrdə onun tərəfindən 06.06.2022-ci il tarixində cavabdeh MMC-yə ərizə ilə müraciət edərək bildirmişdir ki, onun tərəfindən 02.10.2019 02.10.2020-ci il tarixləri üzrə dövrü əhatə edən iş ili üçün istifadə etmədiyi 21 təqvim günü üçün ona əmək məzuniyyətinə görə pul əvəzinin ödənilməsini xahiş etmiş və MMC-nin 1xxxm nömrəli 06.06.2022-ci il tarixli əmrinə əsasən iddiaçıya 528,15 manat məbləğində məzuniyyət haqqı ödənilmişdir. Göründüyü kimi cavabdeh MMC tərəfindən Əmək Məcəlləsinin 135-ci maddəsinin 2-ci bəndinə əsasən yuxarıda qeyd olunan iş ili üçün istifadə edilməmiş əmək məzuniyyətinə görə iddiaçıya 528,15 manat məbləğində kompensasiya ödənilmişdir. Belə ki, Əmək Məcəlləsinin 135-ci maddəsinin 2-ci bəndinin məzmununda qeyd edilmişdir ki, işçi müvafiq iş ilində əmək məzuniyyətindən istənilən səbəbdən istifadə etmədikdə ona həmin iş ili (iş illəri) üçün istifadə edilməmiş əmək məzuniyyətinə görə müəyyən olunmuş qaydada və məbləğdə kompensasiya ödənilir.

10. Bundan sonra iddiaçı cavabdeh MMC-də dəzgahçı olaraq işlədiyi dövrdə, yəni 20.06.2022-ci il tarixində MMC-yə ərizə ilə müraciət edərək, 01.07.2022-ci il tarixindən ona ödənişsiz məzuniyyət verilməsini xahiş etmiş və MMC-nin 102/1 21.06.2022-ci il tarixli əmrinə əsasən iddiaçıya 02.10.2021-02.10.2022-ci il tarixləri dövrünü əhatə edən iş ili üçün 01.07.2022-ci il tarixindən 31.08.2022-ci il tarixinədək 2 təqvim ayı müddətində ödənişsiz məzuniyyət verilmiş və onun işə başlayacağı tarix 01.09.2022-ci il müəyyən edilmişdir. Beləliklə göründüyü kimi iddiaçı 01.07.2022-ci il tarixindən öz ərizəsinə əsasən 2 təqvim ayı müddətində ödənişsiz məzuniyyətə çıxmış və 01.09.2022-ci il tarixində işə başlayacağı təqdirdə iddiaçı heç bir üzürlü səbəb göstərmədən, dəfələrlə çağırılmağına baxmayaraq 2022-ci ilin sentyabr ayının 12-nə qədər işə gəlməmiş və nəticədə cavabdeh MMC tərəfindən iddiaçıya 443/M nömrəli 12.09.2022-ci il tarixli xəbərdarlıq məktubu yazılmaqla bildirilmişlər ki, “işə gəlməməyinizin səbəbini 2 iş günü ərzində bildirməyinizi xahiş edirik. Əks halda iddiaçı ilə bağlanılmış əmək müqaviləsinə Əmək Məcəlləsinin 70-ci maddəsinin “ç” bəndinə əsasən xitam veriləcəkdir.” Bundan sonra iddiaçı 13.09.2022-ci il tarixində cavabdeh MMC-yə gələrək, öz ərizəsi əsasında MMC-dən 13.09.2022-ci il tarixində işdən azad edilmiş və MMC-nin xx nömrəli 13.09.2022-ci il tarixli əmrinə əsasən MMC ilə aralarında bağlanılmış müqaviləyə xitam verilmiş və iddiaçıya 02.10.2020-ci il tarixindən 13.09.2022-ci il tarixinə qədər istifadə edilməmiş məzuniyyət haqqı olaraq, son haqq-hesab olan 673,17 manat məbləğində pul iddaçıya ödənilmişdir. Belə ki, Əmək Məcəlləsinin 83-cü maddəsinin 2-ci bəndindən görünür ki, əmək müqaviləsinə xitam verilməsi barədə işə götürənin əmri onun tərəfindən imzalanmalı və müəssisənin möhürü ilə təsdiqlənməlidir. Bu əmrin surəti, işçinin əmək kitabçası və işəgötürənin son haqqhesabı (istifadə edilməmiş əmək məzuniyyətinə görə pul əvəzi, işçiyə ödənilməli əmək haqqı və digər ödəmələr) ilə birlikdə sonuncu iş günü işçiyə verilməlidir. Qeyd etmişlər ki, göründüyü kimi cavabdeh MMC tərəfindən iddiaçıya istifadə etmədiyi məzuniyyət günləri üçün məzuniyyət haqqı ödənilmiş və iddiaçı işdən azad edilən zaman onunla qanunvericiliyin tələblərinə uyğun olaraq son haqq-hesab aparılmış və qalan məbləğ MMC tərəfindən iddiaçıya son haqq-hesab zamanı ödənilmişdir. Eyni zamanda qeyd edilməlidir ki, istifadə edilməmiş əmək məzuniyyətinin əvəzi olaraq kompensasiya məbləğinin, həmin kompensasiya məbləğinin iddiaçının sonuncu iş günü ödənilmədiyinə görə 14.09.2022-ci il tarixdən başlayaraq qətnamə icra olunan tarixədək ödənilməli olan kompensasiya məbləğinin hər gecikdirilmiş gün üçün bir faiz məbləğində ödəncin iddiaçıya ödənilməsi hissəsində iddia ərizəsi əsassızdır və qanunvericiliyin tələblərinə ziddir. Hazırki mübahisədən görünür ki,

cavabdeh MMC tərəfindən iddiaçıya istifadə etmədiyi məzuniyyət günləri üçün məzuniyyət haqqı ödənilmiş, iddiaçı MMC-dən işdən azad edilən zaman onunla son haqq-hesab aparılmış və MMC-nin iddiaçıya istifadə etmədiyi məzuniyyət günlərinin əvəzi olaraq ödənilməmiş kompensasiya məbləği qalmamışdır. Belə olan halda da görünür ki, işəgötürən tərəfindən əmək haqqının ödənilməsində gecikdirilmə halları olmamış və nəticədə MMC tərəfindən iddiaçıya hər gecikdirilmiş gün üçün bir faiz məbləğində ödəncin ödənilməsindən söhbət gedə bilməz. Bundan əlavə iddiaçının iddia tələbinin "cavabdeh tərəfindən ona dəymiş 1.000 (bir min) manat məbləğində mənəvi zərərin tutulması" hissəsi ilə əlaqədar isə qeyd edilməlidir ki, bu hissədə də iddia tələbi əsassızdır. Belə ki, yuxarıda qeyd olunan hallardan görünür ki, MMC tərəfindən iddiaçıya hər hansı mənəvi ziyan dəyməmişdir, ona görə ki, işçi işdən öz ərizəsinə əsasən azad edilən zaman onunla bütün son haqq-hesab aparılmış, istifadə etmədiyi məzuniyyət günləri üçün məzuniyyət haqqı iddiaçıya ödənilmişdir.

11. Birinci instansiya məhkəməsi tərəfindən iş üzrə məhkəmə-mühasibatlıq ekspertizası təyin edilərək müvafiq rəy alınmışdır. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin 27 mart 2023-cü il tarixli 9/713 saylı rəyinə əsasən, İddiaçı 01 oktyabr 2019-cu il tarixdən 13 sentyabr 2022-ci il tarixədək "XXX" Məhdud Məsuliyyətli Cəmiyyətində işlədiyi müddətdə Azərbaycan Respublikasının qanun və qaydalarına əsasən, əlavə olaraq hesablanmalı ümumi 2.610,66 manat hesablanmış məbləğ olmaqla 1.751,88 manat əmək haqqı, 214,62 manat məzuniyyət haqqları və 644,16 manat son haqq-hesab təşkil etdiyi müəyyən edilmişdir.

12. Cavabdehin nümayəndəsi 27 mart 2023-cü il tarixdə birinci instansiya məhkəməsinin "AZEMİS" elektron Məhkəmə İnformasiya sisteminə iddia müddətinin tətbiqi barədə ərizə yerləşdirirək, ərizədə iddiaçının cavabdeh MMC-yə qarşı "əmək haqqının və istifadə edilməmiş məzuniyyətə görə pul əvəzinin, həmin ödənişlərin gecikdirilməsinə görə ödəncin və mənəvi zərərin əvəzinin ödənilməsi" tələbinə dair iddiası üzrə iddia müddətinin tətbiq edilməsini və iddia tələbinin 28 noyabr 2021-ci il tarixdən əvvəlki dövr üzrə işlədiyi müddətlərdə təmin edilməməsi barədə qətnamə qəbul olunmasını xahiş etmişdir.

13. Bakı şəhəri Xətai Rayon Məhkəməsinin (bundan sonra birinci instansiya məhkəməsi) 2(011)-746/2023 nömrəli, 16 iyun 2023-cü il tarixli qətnaməsi ilə (hakim Şəhriyar Əliyev) iddianın qismən təmin edilməsi, cavabdehdən 1.751,88 manat əmək haqqı, 214,60 manat məzuniyyət haqqı, 644,16 manat son haqq-hesab məbləği olmaqla, cəmi 2.610 (iki min altı yüz on) manat 66 (altmış altı) qəpik və ödənilməmiş əmək haqqına görə 13.09.2022-ci il tarixdən gecikdirilmiş hər gün üçün 1% məbləğində ödəncin ödənilməsi, vurulmuş mənəvi zərərə görə isə 200 (iki yüz) manat, hüquqi yardıma görə ödənilmiş 200 (iki yüz) manat və mediasiya xərci kimi ödənilmiş 50 (əlli) manatın cavabdehdən alınaraq iddiaçıya ödənilməsi qət edilmişdir. İddia tələbi qalan hissədə rədd olunmuşdur.

14. Birinci instansiya məhkəməsinin mövqeyi ondan ibarət olmuşdur ki, iddiaçıya 01.10.2019-cu il tarixdən 13.09.2022-ci il tarixədək əmək haqqı üzrə 17.990,91 manat hesablanmalı olduğu halda 16.239,03 manat, istifadə edilməmiş məzuniyyətə görə 742,77 manat pul əvəzi hesablanmalı olduğu halda 528,15 manat, son haqq-hesab və qalıq məzuniyyət günləri üzrə 1.397,50 manat hesablanmalı olduğu halda 753,34 manat hesablanmışdır, nəticədə əmək haqqı üzrə yaranmış fərq 1.751,88 manat, istifadə edilməmiş məzuniyyətə görə yaranmış fərq 214,62 manat, son haqq-hesab üzrə yaranmış fərq 644,16 manat təşkil edir. Bununla belə, cavabdeh tərəfindən əmək müqaviləsinin qüvvədə olduğu müddət ərzində iddiaçıya ödənilməli olan əmək haqqının ödənilməsinə və iddiaçının son haqq-hesabının aparılmasını istisna edən hallar məhkəmə tərəfindən müəyyən olunmamışdır.

15. Məhkəmə iddia tələbinin “gecikdirilmiş hər gün üçün bir faiz məbləğində ödəncin” ödənilməsi hissəsinə münasibətdə qeyd etmişdir ki, qanunvericiliklə əlavə ödəncin verilməsi müəyyən edilməklə işçinin əmək haqqı hüququnun müdafiəsinə əlavə təminat verilmişdir ki, bu göstərilən qayda da işəgötürənin əmək haqqının vaxtında verilməsi məsələsində intizamlı olmağa məcbur etdiyi kimi, həm də işçinin pozulmuş hüququnun əvəzində kompensasiya mahiyyəti daşıyır. İşçiyə əmək haqqının azı bir faizi məbləğində ödənc verilməsi isə iki şərtdən asılı edilmişdir: belə ki, ilk növbədə əmək haqqının verilməsi gecikdirilməli və bu gecikdirilmə işəgötürənin təqsiri üzündən baş verməlidir ki, hazırki iş üzrə də məhkəmə tərəfindən hər iki halın mövcud olduğu müəyyən edilmişdir. Belə olan halda məhkəmə hesab edir ki, cavabdehdən ödənilməmiş əmək haqqına görə onun işdən çıxdığı 13.09.2022-ci il tarixdən hesablanmaqla gecikdirilmiş hər gün üçün 1 % hesablanmaqla ödənc ödənilməlidir.

16. Məhkəmə, iddia tələbinin “mənəvi zərər məbləği” hissəsinə münasibətdə qeyd etmişdir ki, cavabdehin hüquqa zidd əməli nəticəsində iddiaçı İddiaçıya vurulmuş ziyanın aradan qaldırılması və iddiaçının öz hüquqlarının bərpası məqsədilə çəkmiş olduğu xərclərin yaranmasına, o cümlədən, mənəvi sarsıntıya və şüura təsir göstərən mənfi reaksiyaya səbəb olan hallara gətirib çıxarmışdır. Belə olan halda məhkəmə hesab etmişdir ki, iddiaçıya dəymiş mənəvi zərərin əvəzi qismində pozuntunun adekvat və effektiv şəkildə aradan qaldırılması məqsədi ilə kompensasiya müəyyən edilməli və həmin məbləğ iddiaçıya dəymiş mənəvi zərərin əvəzi 200 manat həddində qiymətləndirilməlidir.

17. Məhkəmə, iddia tələbinin “hüquqi yardıma görə ödənilmiş 200 manat pulun cavabdehdən alınaraq iddiaçıya ödənilməsi” hissəsinə münasibətdə qeyd etmişdir ki, hüquqi xidmətlərin göstərilməsinə görə ödənilmiş pulun əvəzi ağlabatan həddə müəyyən olunmalı, bu zaman iddia tələbinin qiyməti nəzərə alınmalıdır. Belə olan halda məhkəmə, hüquqi xidmətlərin göstərilməsinə görə ödənilmiş 200 manat pul məbləğini, hazırki iddia tələbinə mütənasib hesab etməklə ağlabatan hədd kimi qiymətləndirir və həmin hissədə iddia tələbinin təmin olunmasını mümkün saymışdır.

18. Birinci instansiya məhkəməsi öz mövqeyini Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 2-ci maddəsinin 3-cü hissəsi, 3-cü maddəsinin 4-1 hissəsinə, 68, 69-cu maddəsinin 2-ci hissəsinə, 70, 73, 74, 75, 83-cü maddələrinə, 131-ci maddəsinin 1-ci hissəsinə, 135-ci maddəsinin 2-ci hissəsinə, 139-cu maddəsinin 2-ci hissəsinə, 143-cü maddəsinin 2-ci hisəsinə,144, 172-ci maddəsinin 4 və 5-ci hissələrinə,196-cı maddəsinin 5-ci, 288-ci maddəsinə, 290-cı maddəsinin 3-cü, 292-ci maddəsinin 2-ci hissəsinə, Azərbaycan Respublikasının “Mediasiya haqqında” Azərbaycan Respublikası Qanunun 36.5-ci maddəsinə və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 14.2, 77.1, 115, 119.1, 121.1, 124.3, 217.4-cü maddələrinə istinad edərək əsaslandırmışdır.

Apellyasiya instansiyası məhkəməsindəki icraat:

19. Qətnamədən cavabdeh MMC-nin nümayəndəsi və vəkili apellyasiya şikayəti verərək, birinci instansiya məhkəməsinin qətnaməsinin iddianın təmin edilməsinə aid hissədə ləğv edilməsini və həmin hissədə iddia tələbinin təmin edilməməsinə dair yeni qətnamə qəbul olunmasını xahiş etmişdir.

20. Apellyasiya şikayəti belə əsaslandırılmışdır ki, məhkəmə iddiaçının məhkəmə iclası zamanı verdiyi iddia tələbinin həcminin artırılması barədə ərizəsini qəbul edərək işə mahiyyəti üzrə baxmış, halbuki iddiaçının ərizəsi üzrə artırılan tələb məhkəmədən əvvəl mediasiya prosesindən keçməmişdir və bununla da birinci instansiya məhkəməsi Mülki Prossesual Məcəllənin normalarını pozmuşdur. Qeyd olunmuşdur ki, məhkəmə zamanı iddiaçı iddia tələbini artıraraq əlavə olaraq əmək haqqlarının tutulmasını da məhkəmədən xahiş etmişdir.

Lakin “əmək haqqı” üzrə mübahisə ümumiyyətlə mediasiya prosesindən keçməmiş və həmin tələb müzakirə edilməmişdir. Halbuki, məhkəmə qətnaməsinin nəticə hissəsindən görünür ki, elə cavabdeh MMC-dən tutulması qət edilən 2.610,00 manat məbləğdən əksər hissəsini, yəni 1.751,88 manat hissəsini əmək haqqı təşkil etmişdir. Məhkəmə isə kobud qanun pozuntusuna yol verərək mediasiya prosesindən keçməyən “əmək haqqı” tələbi üzrə işə baxaraq iddianın həmin hissədə də təmin edilməsi barədə qətnamə qəbul etmişdir. Şikayətdə qeyd edilmişdir ki, məhkəmə qətnaməni qəbul edərkən yalnız əsas kimi ekspertiza rəyini götürmüş və həmin rəyi digər iş üzrə mövcud olan sübutlar kimi tədqiq etməmişdir. Ekspert rəyinə əsasən hesablanmış yekun məbləğdən Dövlət Sosial Müdafiə Fondunun hesabına tutulan ödənişlər (işsizlik, icbari tibbi sığorta, məcburi sosial sığorta haqqları) nəzərə alınmamış və hesablanmamışdır. Halbuki, qeyd edilən məsələ ilə bağlı cavabdeh əlavə ekspertizanın keçirilməsi barədə vəsatət versə də, məhkəmə heç bir əsas olmadan vəsatəti təmin etməmiş və ekspertin yol verdiyi nöqsanı aradan qaldırmadan qətnamə qəbul etmişdir. Bundan başqa, qeyd edilməlidir ki, Əmək Məcəlləsinin 296-cı maddəsinin 2-ci hissəsinə əsasən, işçi hüququnun pozulduğunu aşkar etdiyi gündən etibarən 1 təqvim ayı ərzində məhkəməyə müraciət edə bilər. Həmin Məcəllənin 296-cı maddəsinin 3-cü hissəsinə əsasən, hüququnun pozulmasının aşkar edildiyi gün, işçiyə müvafiq əmrin, (sərəncamın, qərarın), əmək kitabçasının, haqq-hesab sənədlərinin (kitabçasının, vərəqəsinin, çekinin) verildiyi, həmçinin əmək müqaviləsinin bu Məcəllədə nəzərdə tutulmuş şərtlərinin işəgötürən tərəfindən müvafiq qaydada sənədləşdirilmədən bilə-bilə qəsdən pozulduğu gündür. Həmin Məcəllənin 296-cı maddəsinin 4-cü hissəsinə əsasən, pul və digər əmlak tələbləri ilə əlaqədar, həmçinin ziyan vurulmaqla bağlı yaranmış əmək mübahisələrinin həlli üçün işçi, hüququnun pozulduğunu aşkar etdiyi gündən etibarən 1 il ərzində məhkəməyə müraciət edə bilər. Göründüyü kimi qanunvericilik əmək mübahisəsi üzrə pul və digər əmlak tələbləri ilə əlaqədar, həmçinin ziyan vurulmaqla bağlı yaranmış əmək mübahisələri ilə bağlı 1 illik iddia müddəti müəyyən edib və belə tələblərlə bağlı işçi hüququnun pozulduğunu aşkar etdiyi gündən 1 il ərzində iddia qaldırmalı olduğu göstərilmişdir. Belə ki, əmək qanunvericiliyinin tələblərindən irəli gələrək bildirilir ki, iddiaçı hüququnun 20 oktyabr 2016-cı il tarixindən pozulduğunu iddia edir, lakin 13 sentyabr 2022-ci il tarixində işdən çıxdıqdan sonra 29 noyabr 2022-ci il tarixində iddia ərizəsi ilə məhkəməyə müraciət etməsi onu göstərir ki, iddiaçının hüququnun pozulmasını iddia etdiyi gündən 1 ildən artıq müddət keçmişdir və belə olan halda görünür ki, hazırki iş üzrə iddia müddəti tətbiq edilməlidir. Eyni zamanda qeyd olunmalıdır ki, iddiaçının məhkəməyə müraciət etdiyi tarix 29 noyabr 2022-ci il tarixidir. Belə olan halda iddia müddətinin axımı 28 noyabr 2021-ci il tarixindən başlayaraq tətbiq edilməlidir. Həmçinin qeyd olunmalıdır ki, hazırki iş üzrə mahiyyət etibarı ilə eyni olan və vahid məhkəmə təcrübəsinin formalaşmasını əks etdirən Ali Məhkəmənin 2(102)-1903/2021 nömrəli, 30 iyun 2021-ci il tarixli qərarını məhkəmənin diqqətinə çatdırırmışdır. Belə ki, həmin Qərarla Bakı Apelyasiya Məhkəməsi Mülki Kollegiyasının qətnaməsi dəyişdirilmədən saxlanılmışdır. Bakı Apelyasiya Məhkəməsi iddia tələbi üzrə iddia müddətinin ötürülmədiyi tarixlərə münasibətdə cavabdeh tərəfindən ödənilməmiş pul vəsaitinin cavabdehdən tutularaq iddiaçıya ödənilməsi barədə qətnamə qəbul etmişdir. Beləliklə, cavabdeh iddia müddətinin tətbiqi barədə ərizə versə də, məhkəmə həmin ərizəyə ümumiyyətlə məhəl qoymamış, əmək haqqının və istifadə edilməmiş məzuniyyət haqqların hesablanması ilə bağlı təyin edilmiş mühasibatlıq ekspertizası öz rəyində hətta 1 illik iddia müddəti keçmiş 2021-ci ilin oktyabr ayı üzrə əmək haqqını nəzərə almış, məhkəmə isə qeyd edilən hallara belə hüquqi qiymət verməmiş, ekspertiza rəyini ümumiyyətlə düzgün tədqiq etməmiş və 1 illik iddia müddəti keçmiş əmək haqqlarına dair iddia tələbini təmin etmişdir. Ekspertiza rəyin cədvəl hissəsinə baxdıqda görünür ki, ekspertiza 1 illik iddia müddəti keçmiş

2021-ci ilin oktyabr ayı üzrə ödənməmiş 80,00 manat əmək haqqını belə nəzərə almış, məhkəmə isə buna diqqət yetirməmiş və həmin rəyi digər sübutlarla birlikdə tədqiq etmədən öz qətnaməsində əsas kimi götürmüşdür. Bundan başqa, cavabdeh iddiaçının iş saatların uçotunu aparmış və bunu təsdiq edən müvafiq sənədləri məhkəməyə təqdim etmişdir. Həmin cədvəllərdən də görünür ki, iddiaçı hansı saatlarda və günlərdə işə gəlməmiş, lakin bunu təkzib edən əks sübutları isə iddiaçı məhkəməyə təqdim etməmişdir. Odur ki, iddiaçının əsas iddia tələbi üzrə dəlilləri əsassız və qanunsuz olduğundan, həmin tələbdən irəli gələn gecikdirilmiş günlərə görə 1 faiz ödənc və vurulmuş mənəvi ziyan tələbi də əsassız kimi qəbul edilməlidir.

21. Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının (bundan sonra apellyasiya instansiyası məhkəməsi) 2(103)-5660/2023 nömrəli, 06 oktyabr 2023-cü il tarixli qətnaməsi ilə (hakimlər Namiq Cəfərov (sədrlik edən), İkram Şirinov və Elşən Kazımov) cavabdeh tərəfindən verilmiş apellyasiya şikayətinin təmin edilməməsi, birinci instansiya məhkəməsinin qətnaməsinin dəyişdirilmədən saxlanılması qət edilmişdir.

22. Apellyasiya instansiyası məhkəməsi qeyd etmişdir ki, tərəflərin arasında əmək münasibəti olub, iddiaçı 01.10.2019-cu ildən 13.09.2022-ci ilədək cavabdeh təşkilatda dəzgahçı vəzifəsində işləyib, əmək müqaviləsi cavabdehin 13.09.2022-ci il tarixli əmri ilə Əmək Məcəlləsinin 68-ci maddəsinin “a” bəndinə əsasən ləğv edilib. Məhkəmə Ekspertizası Mərkəzinin 27.03.2023-cü il tarixli 9/713 nömrəli rəyinə görə, cavabdehin iddiaçının qarşısında 01.10.2019-cu ildən 13.09.2022-ci ilədək 1.751 manat əmək haqqı, 214,60 manat məzuniyyət haqqı, 644,16 manat son haqq-hesab olmaqla cəmi 2.610 manat icra edilməmiş pul öhdəliyi var. Ona görə də məhkəmə Əmək Məcəlləsinin 83-cü maddəsinin 2-ci hissəsi, 135-ci maddəsinin 2-ci hissəsi, 156-cı maddəsinin 1-ci hissəsi və 172-ci maddəsinin 5-ci hissəsinin göstərişlərinə əsaslanaraq hesab etmişdir ki, birinci instansiya məhkəməsi iddianın təmin edilən hissəsində düzgün nəticəyə gəlib, həmin hissədə qətnamənin ləğv edilməsi üçün əsas yoxdur.

23. Məhkəmə kollegiyası hesab etmişdir ki, iddiaçı iddia müddətini ötürməyib. Belə ki, əmək müqaviləsinə 13.09.2022-ci il tarixdə xitam verilib, hazırkı iddia isə 2 ay 16 gün sonra - 29.11.2022-ci ildə verilib. Əmək Məcəlləsinin 296-cı maddəsinin 4-cü hissəsinə görə, pul və digər əmlak tələbləri ilə əlaqədar, həmçinin ziyan vurulmaqla bağlı yaranmış əmək mübahisələrinin həlli üçün işçi, hüququnun pozulduğunu aşkar etdiyi gündən etibarən 1 il ərzində məhkəməyə müraciət edə bilər.

24. Apellyasiya instansiyası məhkəməsi öz mövqeyini Azərbaycan Respublikası Əmək Məcəlləsinin 83-cü maddəsinin 2-ci, 135-ci maddəsinin 2-ci, 156-cı maddəsinin 1-ci, 172-ci maddəsinin 5-ci və 296-cı maddəsinin 4-cü hissələrinə istinad edərək əsaslandırmışdır.

Kassasiya şikayətinin və ona etirazın dəlilləri.

Kassasiya şikayətinin dəlilləri:

25. Qətnamədən cavabdeh MMC (vəkil) kassasiya şikayəti verərək, apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv edilməsi və mülki işin yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilməsi barədə qərar qəbul olunmasını xahiş etmişdir.

26. Kassasiya şikayəti apellyasiya şikayəti ilə eyni məzmunda əsaslandırılmış və əlavə olaraq qeyd edilmişdir ki, apellyasiya instansiyası məhkəməsi tam hüquqlu məhkəmə kimi qəbul etdiyi qətnamədə apellayasiya şikayətinin dəlillərinə tam şəkildə münasibət bildirib hüququ qiymət verməmiş, iddia müddətini tətbiq etməli olduğu halda bunu etməmiş, bununla da maddi və prosessual hüquq normalarının tələblərini pozmuş, bu pozuntu iş üzrə düzgün qətnamə qəbul edilməməsi ilə nəticələnmişdir. Maddi və prosessual hüquq normasının

pozulması ilə qəbul edilən qətnamə isə, “təbii olaraq”, iş üzrə cavabdeh tərəfin mənafeyinin, qanuni maraqlarının, ədalətli məhkəmə müdafiəsi hüququnun pozulması ilə nəticələnmişdir.

27. Kassasiya şikayətində həmçinin qeyd edilmişdir ki, işdə olan 10.10.2022-ci il tarixli ödəniş tapşırığından görünür ki, iddiaçıya 673 manat ödəniş edilmişdir. Həmin məbləğ iddiaçının işdən azad olunması ilə əlaqədar istifadə etmədiyi məzuniyyət və son haqq-hesab üzrə ödənişdir. Buna baxmayaraq 27.03.2023-cü il tarixli ekspert rəyində iddiaçıya 214,62 manat məzuniyyət haqqı və 644,16 manat son haqq-hesab üzrə ödəniş edilməli olması göstərilmişdir. İşə baxan məhkəmələr isə (eləcədə ekspert) iddiaçıya 10.10.2022-ci il tarixli ödəniş tapşırığı üzrə 673 manat məzuniyyət və son haqq-hesab üzrə ödəniş edilməsini təsdiq edən sübutu nəzərə almamış və məhkəmə tərəfindən ekspert rəyi 10.10.2022-ci il tarixli ödəniş tapşırığı ilə yanaşı MPM-nin 88-ci maddəsinə uyğun olaraq qiymətləndirilməmişdir. Məhkəmə kollegiyası tərəfindən ekspert rəyinin digər sübutlarla, yəni 10.10.2022-ci il tarixli ödəniş tapşırığı və 01.09.2022-ci il tarixli məktubla yanaşı qiymətləndirilmiş olsaydı, o zaman iddianın təmin edilməmiş hissəsi cavabdeh üçün daha əlverişli olacaqdı.

Tətbiq edilən hüquq:

Azərbaycan Respublikasının Əmək Məcəlləsi.

28. Maddə 2 (1-ci hissə). Azərbaycan Respublikasının Əmək Məcəlləsi işçilərlə işəgötürənlər arasında yaranan əmək münasibətlərini, habelə onlarla müvafiq dövlət hakimiyyəti orqanları, hüquqi şəxslər arasında həmin münasibətlərdən törəyən digər hüquq münasibətlərini tənzim edir.

29. Maddə 2 (2-ci hissə). Azərbaycan Respublikasının Əmək Məcəlləsi fiziki şəxslərin əmək hüquqlarının və bu hüquqların həyata keçirilməsini təmin edən qaydaların minimum normalarını müəyyən edir.

30. Maddə 2 (3-cü hissə). Azərbaycan Respublikasının Əmək Məcəlləsinin tələblərinə görə, bu Məcəllə əmək münasibətlərində tərəflərin hüquq bərabərliyinin təmin edilməsi, mənafelərinin haqq ədalətlə və qanunun aliliyinin təmin olunması ilə qorunması, maddi, mənəvi, sosial, iqtisadi və digər həyati tələbatlarını ödəmək məqsədi ilə əqli, fiziki və maliyyə imkanlarından sərbəst istifadə etməsinin təmin edilməsi, əmək münasibətlərinin mülki hüquqi müqavilələrlə rəsmiləşdirilməsinin yolverilməzliyi, əsasən əmək müqaviləsi (kontrakt) üzrə öhdəliklərinin icrasına hüquqi təminat yaradılması prinsiplərinə əsaslanır.

31. Maddə 3 (3-cü hissə). İşəgötürən - tam fəaliyyət qabiliyyətli olub işçilərlə əmək müqaviləsi (kontrakt) bağlamaq, ona xitam vermək, yaxud onun şərtlərini dəyişdirmək hüququna malik mülkiyyətçi və ya onun təyin (müvəkkil) etdiyi müəssisənin rəhbəri, səlahiyyətli orqanı, habelə fiziki şəxsdir.

32. Maddə 3 (4-1-ci hissə). Əmək münasibətləri– əmək qanunvericiliyində, kollektiv müqavilə və sazişlərdə nəzərdə tutulmuş öhdəliklərə uyğun olaraq işəgötürənlə qarşılıqlı razılıq əsasında müəyyən edilən iş yerində işçi tərəfindən onun işə qəbul (təyin) edildiyi, seçildiyi, bərpa olunduğu peşə və ya vəzifə üzrə əmək funksiyasının əməkhaqqı ödənilməklə şəxsən yerinə yetirilməsinə, daxili intizam qaydalarına riayət edilməsinə, işəgötürən tərəfindən işçinin əmək şəraitinin, təminatlarının və əməyinin mühafizəsinin təmin edilməsinə, habelə bu Məcəllənin prinsiplərinə əsaslanan münasibətlərdir.

33. Maddə 83 (2-ci hissə). Əmək müqaviləsinə xitam verilməsi barədə işəgötürənin əmri (sərəncamı, qərarı) onun tərəfindən imzalanmalı və müəssisənin möhürü ilə təsdiqlənməlidir. Bu əmrin surəti, işçinin əmək kitabçası və işəgötürənin son haqq-hesabı (istifadə edilməmiş əmək məzuniyyətinə görə pul əvəzi, işçiyə ödənilməli əmək haqqı və digər ödəmələr) ilə birlikdə sonuncu iş günü işçiyə verilməlidir.

34. Maddə 135 (2-ci hissə). İşçi müvafiq iş ilində əmək məzuniyyətindən istənilən səbəbdən istifadə etmədikdə ona həmin iş ili (iş illəri) üçün istifadə edilməmiş əmək məzuniyyətinə görə müəyyən olunmuş qaydada və məbləğdə kompensasiya ödənilir.

35. Maddə 154 (1-ci hissə). Əmək haqqı - müvafiq iş vaxtı ərzində əmək funksiyasını yerinə yetirmək üçün əmək müqaviləsi ilə müəyyən edilmiş, işçinin gördüyü işə (göstərdiyi xidmətlərə) görə işəgötürən tərəfindən pul və ya natura formasında ödənilən gündəlik və ya aylıq məbləğ, habelə ona edilən əlavələrin, mükafatların və digər ödənclərin məcmusudur.

36. Maddə 156 (1-ci hissə). Əmək haqqı, əmək müqaviləsi ilə müəyyən edilmiş məbləğdən, habelə bağlanmış kollektiv müqavilədə nəzərdə tutulan tarif (vəzifə) maaşları əsasında müəyyən edilən məbləğdən az olmayaraq ödənilir.

37. Maddə 172 (5-ci hissə). Əmək haqqının verilməsi işəgötürənin təqsiri üzündən gecikdirildikdə və bu hal fərdi əmək mübahisəsi yaratmayıbsa, hər gecikdirilmiş gün üçün işçiyə əmək haqqının azı bir faizi məbləğində ödənc verilməlidir. Bu hal əmək mübahisəsi yaratdıqda həmin mübahisə bu Məcəllənin “Əmək mübahisələri” bölməsində nəzərdə tutulan qaydada həll edilir.

38. Maddə 296 (4-cü hissə). Pul və digər əmlak tələbləri ilə əlaqədar, həmçinin ziyan vurulmaqla bağlı yaranmış əmək mübahisələrinin həlli üçün işçi, hüququnun pozulduğunu aşkar etdiyi gündən etibarən 1 il ərzində məhkəməyə müraciət edə bilər. İşçilərin həyatına və sağlamlığına vurulmuş zərərin ödənilməsi haqqında tələblərə iddia müddəti şamil edilmir.

39. Maddə 296 (5-ci hissə). İşəgötürən bu Məcəllə ilə müəyyən edilmiş hallarda işçiyə qarşı iddia ərizəsi ilə məhkəməyə hüquqlarının və qanuni mənafelərinin pozulduğu gündən 1 təqvim ayı müddətində, ona maddi ziyan vurulması məsələləri ilə əlaqədar isə ziyanın vurulmasını aşkar etdiyi gündən 1 il müddətində müraciət edə bilər.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi.

40. Maddə 8.1. Mülki işlər və kommersiya mübahisələri üzrə ədalət mühakiməsi hamının qanun və məhkəmə qarşısında bərabərliyi prinsipi əsasında həyata keçirilir.

41. Maddə 8.2. Məhkəmə irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən, hüquqi şəxsin olduğu yerdən, tabeliyindən, mülkiyyət formasından və qanunda nəzərdə tutulmayan başqa fərqlərdən asılı olmayaraq işdə iştirak edən bütün şəxslərə eyni cür yanaşır.

42. Maddə 9.1. Ədalət mühakiməsi çəkişmə, tərəflərin bərabərliyi və faktlar əsasında həyata keçirilir.

43. Maddə 9.3. Hakim bütün hallarda prosesin çəkişmə prinsipini təmin etməlidir. O, öz qərarını yalnız tərəflərin çəkişmə prinsipinə əsasən müzakirə etdiyi dəlillərlə, onların verdiyi izahatlarla, sənədlərlə əsaslandırmalıdır. Məhkəmə, qərarını özünün qulluq mövqeyinə görə irəli sürdüyü hüquqi dəlillərlə əsaslandıra bilməz.

44. Maddə 14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

45. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin əsası kimi istinad etdiyi halları sübut etməlidir.

46. Maddə 76.1. tərəflərin tələb və etirazlarını əsaslandıran halların və işi düzgün həll etmək üçün əhəmiyyəti olan başqa halların mövcud olduğunu və ya olmadığını məhkəmə müəyyən edərkən bu Məcəllədə və başqa qanunlarda müəyyən olunmuş qaydada əldə etdiyi məlumatlar sübutlar hesab olunur.

47. Maddə 76.2. Bu məlumatlar yazılı və maddi sübutlara, ekspertlərin rəyləri ilə, yerində müayinə keçirməklə, səs və video yazıları ilə, şahidlərin ifadələri ilə, işdə iştirak edən şəxslərin izahatları ilə müəyyən edilir.

48. Maddə 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

49. Maddə 217.4. Məhkəmə öz qətnaməsini yalnız məhkəmə iclasında tədqiq olunmuş sübutlarla əsaslandırır.

50. Maddə 407.2. Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir.

51. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

52. Maddə 416.2. Apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 418.4-cü maddəsində nəzərdə tutulmuş prosessual hüquq pozuntusu hesab edilən hallara yol verilməsi şikayətin hədlərindən və dəlillərindən asılı olmayaraq yoxlanılmalıdır.

53. Maddə 417.1.3. Kassasiya məhkəməsi işə baxarkən apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadınıqismən ləğv edə və yatamamilə, yaxud qismən ləğv edib işi yenidən baxılmaq üçün apellyasiya instansiyası məhkəməsinə göndərə bilər.

54. Maddə 418.1. Maddi və prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması, o cümlədən maddi və prosessual hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması apellyasiya instansiyası məhkəməsinin qətnamə və qərardadının ləğv edilməsi üçün əsasdır.

Kassasiya baxışının hədləri:

55. Kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

56. Hazırkı kassasiya şikayətində cavabdeh qətnaməni iddianın təmin olunduğu hissədə qismən mübahisələndirildiyindən apellyasiya instansiyası məhkəməsinin aktı bütövlükdə yoxlanılır.

Kasasiya instansiyası məhkəməsinin mövqeyi:

57. Məhkəmə kollegiyası hesab edir ki, apellyasiya məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilib-edilməməsi məsələsi kassasiya qaydasında yoxlanılarkən, iddia tələbinin həlli ilə bağlı məsələyə düzgün hüquqi qiymətin verilmədiyi, apellyasiya instansiyası məhkəməsi tərəfindən mübahisəli hüquq münasibətini tənzimləyən maddi hüquq normalarının düzgün tətbiq olunmaması və işin hallarının hərtərəfli, tam və obyektiv araşdırılması ilə bağlı prosessual hüquq normalarının pozulmasına yol verilməsi müəyyən edilmişdir.

58. Qeyd olunmalıdır ki, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 2-ci maddəsinin 3-cü hissəsinə əsasən Azərbaycan Respublikasının Əmək Məcəlləsi əmək münasibətlərində tərəflərin: hüquq bərabərliyinin təmin edilməsi; mənafelərinin haqqədalətlə və qanunun aliliyinin təmin olunması ilə qorunması; maddi, mənəvi, sosial, iqtisadi və digər həyati

tələbatlarını ödəmək məqsədi ilə əqli, fiziki və maliyyə imkanlarından sərbəst istifadə etməsinin təmin edilməsi; əmək münasibətlərinin mülki hüquqi müqavilələrlə rəsmiləşdirilməsinin yolverilməzliyi; əsasən əmək müqaviləsi (kontrakt) üzrə öhdəliklərinin icrasına hüquqi təminat yaradılması prinsiplərinə əsaslanır.

59. Bu isə onu ehtiva edir ki, Əmək Məcəlləsi işəgötürən və işçi arasında olan əmək münasibətlərində tərəflərin hüquq bərabərliyinin təmin edilməsi prinsiplərinə əsaslanır və hər hansı fərqli yanaşmaya yol vermir.

60. İddiaçı cavabdehə qarşı verdiyi iddia tələbində, "X1" MMC-də işlədiyi 20 oktyabr 2016-cı il - 21 sentyabr 2019-cu il iş dövrü ərzində ödənilməmiş əmək haqqının və əmək haqqının gecikdirilməsinə görə 21 sentyabr 2019-cu il tarixdən başlayaraq həmin pulun ödənildiyi tarixədək gecikdirilmiş hər gün üçün bir faiz məbləğində ödəncin, onun "X1" MMC-də işlədiyi 20 oktyabr 2016-cı il - 21 sentyabr 2019-cu il tarixədək olan iş dövrü üçün istifadə etmədiyi məzuniyyətə görə pul əvəzinin və 21 sentyabr 2019-cu il tarixdən başlayaraq həmin pulun ödənildiyi tarixədək gecikdirilmiş hər gün üçün bir faiz məbləğində ödəncin, onun cavabdeh MMC-də işlədiyi 01 oktyabr 2019-cu il - 13 sentyabr 2022-ci il iş dövrü ərzində ödənilməmiş əmək haqqının və əmək haqqının gecikdirilməsinə görə 13 sentyabr 2022-ci il tarixdən başlayaraq həmin pulun ödənildiyi tarixədək gecikdirilmiş hər gün üçün bir faiz məbləğində ödəncin, onun cavabdeh MMC-də işlədiyi 01 oktyabr 2019-cu il - 13 sentyabr 2022-ci il iş dövrü üçün istifadə etmədiyi məzuniyyətə görə pul əvəzinin və 13 sentyabr 2022-ci il tarixdən başlayaraq həmin pulun ödənildiyi tarixədək gecikdirilmiş hər gün üçün bir faiz məbləğində ödəncin, habelə ona vurulmuş mənəvi zərərin əvəzi kimi 1.000 manat məbləğində pulun, hüquqi yardıma çəkilmiş 200 manat xərcin və Bakı şəhəri 9 saylı Mediasiya Təşkilatının hesabına ödənilmiş 50 manat mediasiya xərcinin cavabdehdən onun xeyrinə tutulması barədə qətnamə qəbul olunmasını xahiş etmişdir.

61. Apellyasiya instansiya məhkəməsi iddianın qismən təmin edilməsi barədə birinci instansiya məhkəməsinin gəldiyi nəticə ilə razılaşaraq məhkəmənin qətnaməsini dəyişdirmədən saxlayarkən, tərəflərin arasında əmək münasibəti olmasına, iddiaçının 01.10.2019-cu ildən 13.09.2022-ci ilədək cavabdeh təşkilatda dəzgahçı vəzifəsində işləməsinə, əmək müqaviləsinin cavabdehin 13.09.2022-ci il tarixli əmri ilə Əmək Məcəlləsinin 68-ci maddəsinin "a" bəndinə əsasən ləğv edilməsinə, Məhkəmə Ekspertizası Mərkəzinin 27.03.2023-cü il tarixli 9/713 nömrəli rəyinə görə, cavabdehin iddiaçının qarşısında 01.10.2019-cu ildən 13.09.2022-ci ilədək 1.751 manat əmək haqqı, 214,60 manat məzuniyyət haqqı, 644,16 manat son haqq-hesab olmaqla cəmi 2.610 manat icra edilməmiş pul öhdəliyinin olmasına əsaslanmışdır.

62. Apellyasiya instansiya məhkəməsi həmçinin, əmək müqaviləsinə 13.09.2022-ci il tarixdə xitam verilməsini, hazırkı iddianın isə 2 ay 16 gün sonra - 29.11.2022-ci ildə verilməsini, Əmək Məcəlləsinin 296-cı maddəsinin 4-cü hissəsinə görə, pul və digər əmlak tələbləri ilə əlaqədar, həmçinin ziyan vurulmaqla bağlı yaranmış əmək mübahisələrinin həlli üçün işçinin, hüququnun pozulduğunu aşkar etdiyi gündən etibarən 1 il ərzində məhkəməyə müraciət edə bilməsini qeyd edərək, iddiaçının iddia müddətini ötürmədiyini göstərmişdir.

63. Kassasiya instansiya məhkəməsi apellyasiya məhkəməsinin gəldiyi həmin nəticə ilə qismən razılaşmır. Belə ki, iş materiallarından müəyyən edilir ki, cavabdehin nümayəndəsi 27 mart 2023-cü il tarixdə birinci instansiya məhkəməsinin "AZEMİS" elektron Məhkəmə İnformasiya sisteminə iddia müddətinin tətbiqi barədə ərizə yerləşdirirək, ərizədə iddiaçının iddiası üzrə iddia müddətinin tətbiq edilməsini və iddia tələbinin 28 noyabr 2021-ci il tarixdən əvvəlki dövr üzrə işlədiyi müddətlərdə təmin edilməməsi barədə qətnamə qəbul olunmasını xahiş etmiş, lakin işə baxmış birinci instansiya məhkəməsi iddia müddətinin tətbiqi barədə

həmin ərizəyə hər hansı münasibət bildirməmiş, ümumiyyətlə həmin ərizəni diqqətdən kənarda saxlamışdır.

64. Qeyd olunan ərizədə iddia müddətinin 28 noyabr 2021-ci il tarixdən əvvəlki dövr üzrə tətbiqi xahiş olunsa da, apellyasiya instansiya məhkəməsi iddia müddətinin tətbiqi barədə həmin ərizəyə düzgün hüquqi qiymət verməmiş, formal olaraq iddiaçının əmək müqaviləsinə 13.09.2022-ci il tarixdə xitam verilməsini, hazırkı iddianın isə 2 ay 16 gün sonra - 29.11.2022-ci ildə verilməsini qeyd edərək, Əmək Məcəlləsinin 296-cı maddəsinin 4-cü hissəsinə istinad etsə də, iddiaçının iddia müddətini ötürmədiyini göstərmişdir.

65. Lakin məhkəmə kollegiyasının qənaətinə görə iddia müddəti tətbiq olunmayan son bir illik müddət, yəni iddiaçının məhkəməyə müraciət etdiyi 29 noyabr 2022-ci il tarixdən əvvəlki bir illik müddət istisna olmaqla, 28 noyabr 2021-ci il tarixdən əvvəlki dövrə görə cavabdehin iddiaçının qarşısında 01.10.2019-cu ildən 13.09.2022-ci ilədək 1.751 manat əmək haqqı, 214,60 manat məzuniyyət haqqı, 644,16 manat son haqq-hesab olmaqla cəmi 2.610 manat icra edilməmiş pul öhdəliyinin olması ilə bağlı nəticə maddi və prosessual hüquq normalarının tələbinə uyğun olmamışdır.

66. Məhkəmə kollegiyası hesab edir ki, iddiaçı real olaraq əmək haqqını almaqla hüququnun pozulduğunu bildiyi halda, məhkəməyə müraciət etdiyi 29 noyabr 2022-ci il tarixə qədər hazırki tələblə bağlı halları mübahisələndirməməklə, həmin tarixdən bir ildən əvvəlki dövrə görə Əmək Məcəlləsinin 296-cı maddəsinin 4-cü hissəsində nəzərdə tutulmuş bir illik iddia müddətini ötürdüyünə görə, apellyasiya instansiya məhkəməsi cavabdehin iddia müddətinin tətbiqi barədə ərizəsində qeyd etdiyi halları müzakirə etməməkdə haqlı olmamış, iddia müddətinə düzgün hüquqi qiymət verməmişdir.

67. Məhkəmə kollegiyası qeyd edir ki, hazırki tələb əmək haqqı ilə bağlı pulun tutulması ilə əlaqədar olduğundan iddia müddəti tətbiq olunduğu halda, Əmək Məcəlləsinin 296-cı maddəsinin 4-cü hissəsinə istinad olunmalıdır.

68. Digər tərəfdən Azərbaycan Respublikası Əmək Məcəlləsinin 296-cı maddəsi fərdi əmək mübahisələrinin həllində iddia müddətlərini tənzimləyir. İddia müddəti isə Mülki Məcəllənin 375.2-ci maddəsinə əsasən yalnız mübahisə tərəfinin ərizəsinə əsasən tətbiq olunur ki, hazırki işdə cavabdeh tərəfindən iddia müddətinin tətbiqi barədə ərizə verilmişdir.

69. Mülki Məcəlləsinin 372.1-ci maddəsinə əsasən başqa şəxsdən hər hansı hərəkəti yerinə yetirməyi və ya yerinə yetirməkdən çəkinməyi tələb etmək hüququna müddət şamil edilir.

70. Həmin Məcəllənin 375.2-ci maddəsinə əsasən məhkəmə tərəfindən iddia müddəti yalnız mübahisə tərəfinin məhkəmə qərarı çıxarılanadək verdiyi ərizə əsasında tətbiq edilir. Mübahisə tərəfinin tətbiq edilməsi barədə ərizə verdiyi iddia müddətinin keçməsi məhkəmənin iddiadan imtina barəsində qərar çıxarması üçün əsasdır.

71. Qanunun məzmunundan göründüyü kimi mübahisə tərəfinin məhkəmə qərarı çıxarılana kimi iddia müddətinin tətbiqi barədə ərizə verməsi iddia müddətinin tətbiqi üçün yetərlidir.

72. Konstitusiya Məhkəməsinin Plenumu bir çox qərarlarında iddia müddəti institutunun məqsədinə və əhəmiyyətinə toxunaraq qeyd etmişdir ki, mülki işin qanuna uyğun həlli baxımından qanunvericiliyin iddia müddətlərinə dair müddəalarının düzgün tətbiqi mühüm əhəmiyyətə malikdir. İddia müddətinin əhəmiyyəti aşağıdakılardan ibarətdir: birinci, o, hüquq münasibətləri iştirakçılarını intizamlandırır, onları öz hüquqlarını vaxtında müdafiə etməyə məcbur edir, müqavilə ilə maliyyə intizamının nizamlanmasına kömək edir, ikinci, iddia müddəti institutu mülki hüquq münasibətlərində qeyri-müəyyənliyin, qeyrisabitliyin aradan qaldırılmasına xidmət göstərir, üçüncü, iddia müddəti tərəflərə üzərindən çox vaxt ötmüş

mötəbərliyinin yoxlanılması çətin və ya qeyri-mümkün olan sübutlara istinad etməsini aradan qaldıraraq ədalət mühakiməsi orqanlarına mübahisələri obyektiv əsaslarla həll etmək imkanı yaradır (Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 373-cü maddəsinin şərh edilməsinə dair" 27 dekabr 2001-ci il tarixli Qərarı, H.Həşimov və qeyrilərinin şikayəti üzrə 30 iyun 2005-ci il, R.Salamovun şikayəti üzrə 30 oktyabr 2007-ci il, X.Xəlilovun şikayəti üzrə 16 yanvar 2009-cu il tarixli Qərarları və s.).

73. Qeyd olunmalıdır ki, qanunda başqa qayda nəzərdə tutulmayıbsa bütün tələblər üzrə iddia müddəti şamil edilir. İddia müddətlərinin müəyyən edilməməsi yaranmış münasibətlərin daim mübahisələndirilməsinə zəmin yaradardı. İddia müddətləri iki növə bölünür – ümumi və xüsusi. Ümumi iddia müddəti nə hüquq münasibəti subyektlərinin hüquqi statusundan, nə də mülkiyyətin formasından və növündən asılı deyil. Xüsusi iddia müddətləri bəzi iddialar üçün müəyyən edilir. Ümumi müddətlə müqayisədə onlar qısaldılmış və ya uzadılmış ola bilər (Konstitusiya Məhkəməsi Plenumunun 27 dekabr 2001-ci il tarixli qərarı).

74. İddia müddətinin məqsədi ilə bağlı İnsan Hüquqları üzrə Avropa Məhkəməsi Stanyo Belçikaya qarşı iş üzrə 07 iyul 2009-cu il tarixli qərarında göstərmişdir ki, qanunvericilikdə müəyyən olunan iddia müddətinin məqsədi hüquqi müəyyənlikdir. Belə ki, potensial cavabdehləri vaxtı ötmüş tələblərdən qoruyur və məhkəmələri müəyyən zaman keçdikdən sonra qeyri-müəyyən və natamam sübutlara əsaslanmaqla qərar çıxarmaq zərurətindən azad edir.

75. Avropa İnsan Hüquqları Məhkəməsi Miraqall Eskolano və digərlərinin İspaniyaya qarşı iş üzrə 25 yanvar 2000-ci il tarixli qərarında belə nəticəyə gəlmişdir ki, atılmalı olan formal addımları və şikayətlərin verilməsi üçün riayət edilməli olan müddət məhdudiyyətlərini tənzimləyən qaydalar ədalət mühakiməsinin lazımi qaydada həyata keçirilməsinin və xüsusilə hüquqi müəyyənlik prinsipi ilə uyğunluğunun təmin edilməsi məqsədini daşıyır. Məhkəmə mübahisəsi üzrə tərəflər bu qaydaların tətbiq edilməsini nəzərə almalıdırlar.

76. Bundan başqa məhkəmə kollegiyası qeyd edir ki, iddia tələbində göstərilən məbləğlərin hesablanması və ödənilməsi ilə bağlı nəticəyə gələrkən apellyasiya instansiyası məhkəməsi keçirilmiş ekspertiza ilə bağlı verilmiş rəyə əsaslanmış, lakin həmin rəyin əsaslı olub-olmamasına hər hansı münasibət bildirməmişdir.

77. Belə ki, işdə olan 10.10.2022-ci il tarixli ödəniş tapşırığından görünür ki, iddiaçının işdən azad olunması ilə əlaqədar istifadə etmədiyi məzuniyyət və son haqqhesab üzrə ödəniş kimi iddiaçıya 673 manat ödəniş edilmişdir. Buna baxmayaraq 27.03.2023-cü il tarixli ekspert rəyində iddiaçıya 214,62 manat məzuniyyət haqqı və 644,16 manat son haqq-hesab üzrə ödəniş edilməli olması göstərilmişdir.

78. Apellyasiya instansiyası məhkəməsi isə ekspert rəyinə əsaslanmaqla cavabdehin iddiaçının qarşısında 01.10.2019-cu ildən 13.09.2022-ci ilədək 1.751 manat əmək haqqı, 214,60 manat məzuniyyət haqqı, 644,16 manat son haqq-hesab olmaqla cəmi 2.610 manat icra edilməmiş pul öhdəliyinin olmasını qeyd etsə də, 10.10.2022-ci il tarixli ödəniş tapşırığı üzrə 673 manat məzuniyyət və son haqq-hesab üzrə ödəniş edilməsinin nəzərə alınıb-alınmamasını, ümumiyyətlə həmin məbləğlərin iddiaçıya ödənlib-ödənilməməsini aydınlaşdırmamışdır.

79. Məhkəmə kollegiyası izah edir ki, hüquqi müəyyənlik prinsipi digər tələblərlə yanaşı, ən ümumi mənada mövcud hüquqi vəziyyətə aid aydınlığı və müəyyənliyi nəzərdə tutur. Bu baxımdan, məhkəmələr tərəfindən qəbul olunmuş qərarlarda həll olunan işə aid bütün zəruri məsələlərə aydınlıq gətirilməli, ziddiyyətli məqamlar aradan qaldırılmalıdır.

80. Azərbaycan Respublikasının adından çıxarılan məhkəmə aktlarında işin ədalətli həllini şübhə altına alan, ziddiyyətlər yaradan və mübahisə üzrə iştirakçıların konstitusiya məhkəmə

müdafiəsi hüququna təsir göstərən müddəalar olmamalıdır (Konstitusiya Məhkəməsi Plenumunun N.Babayevin şikayəti üzrə 28 dekabr 2011-ci il tarixli Qərarı).

81. İnsan Hüquqları üzrə Avropa Məhkəməsi "Hiro Balani İspaniyaya qarşı" iş üzrə 09 dekabr 1994-cü il tarixli qərarında göstərmişdir ki, milli məhkəmələr hər təqdim olunan arqumenti və onunla əlaqəli sübutu cavablandırmaq vəzifəsini daşımasalar da, məhkəmə tərəfindən mühüm arqumentlər cavabsız qaldıqda məhkəmə baxışı ədalətli hesab edilə bilməz... Ərizəçinin arqumentinin apellyasiya məhkəməsi tərəfindən rədd edildiyi və ya sadəcə nəzərə alınmadığı aydın deyil. Hər halda, həmin məhkəmə bu arqumenti rədd etsəydi, bunu öz qərarında əsaslandırmalı idi.

82. İşin yuxarıda qeyd olunan faktiki hallarını və sadalanan qanunvericilik aktları normalarının tələblərini nəzərə alan məhkəmə kollegiyası hesab edir ki, apellyasiya instansiyası məhkəməsinin hazırki iş üzrə qəbul etdiyi qətnaməsi yuxarıda göstərilən prosessual hüquq normalarının tələblərinə cavab vermir.

83. Beləliklə, məhkəmə kollegiyası hesab edir ki, apellyasiya instansiyası məhkəməsi təqdim olunmuş sübutları tam və hərtərəfli araşdırmadığından, işin nəticəsi üçün mühüm əhəmiyyət kəsb edən sübutlara lazımi hüquqi qiymət vermədən iş üzrə iddianın qismən təmin olunması barədə gəldiyi nəticə qanuni və əsaslı sayıla bilməz.

84. Ona görə də kassasiya şikayəti təmin olunmalı, apelyasiya instansiyası məhkəməsinin qətnaməsi mübahisələndirilən hissədə ləğv edilərək, həmin hissədə yenidən baxılması üçün apellyasiya məhkəməsinə göndərilməlidir.

85. İşə yenidən baxılarkən məhkəmə yuxarıda qeyd olunan nöqsanları aradan qaldırmaqla yanaşı, işin müəyyən edilmiş hallarına uyğun olaraq hərtərəfli, tam və obyektiv tədqiqinə nail olmaq və iş üzrə əhəmiyyət kəsb edən halların araşdırılması üçün lazım olan bütün tədbirləri görməli, mübahisəli hüquq münasibətinə maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunmasını təmin etməli, müəyyən edilən, eləcə də araşdırılan sübutlara Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 88 və 217.4-cü maddələrinin tələbləri baxımından düzgün hüquqi qiymət verməli, qanuni və əsaslı yekun məhkəmə aktı qəbul etməlidir.

86. Göstərilənlərə əsasən və Azərbaycan Respublikası MPM-nin 416-419-cu maddələrini rəhbər tutaraq, Məhkəmə kollegiyası

Qərara aldı:

Cavabdeh tərəfindən verilmiş kassasiya şikayəti təmin edilsin.

Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)-5660/2023 nömrəli, 06 oktyabr 2023-cü il tarixli qətnaməsi mübahisələndirilən hissədə ləğv edilsin və iş həmin hissədə yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilsın.

Qərar qətidir və qəbul edildiyi andan qüvvəyə minir.

29. 2(102)-3503/2024 nömrəli, 2024-cü il 29 oktyabr tarixli qərar - Təsbit xarakterli iddialarda iddia müddətinin tətbiqinin yolverilməzliyi

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: Təsbit xarakterli iddialara baxılarkən iddia müddətinin tətbiq edilməsinin yolverilməzliyi

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

1. Tələb hüququ ilə bağlı olmayan, borcun olmadığını (borcun silinməsini) təsbit etmək barədə iddiaya iddia müddəti tətbiq oluna bilməz.

2. Belə ki, Mülki Məcəllənin 372.1-ci maddəsinə əsasən başqa şəxsdən hər hansı hərəkəti yerinə yetirməyi və ya yerinə yetirməkdən çəkinməyi tələb etmək hüququna müddət şamil edilir. Həmin Məcəllənin 385.1-ci maddəsinə görə, öhdəliyə əsasən bir şəxs (borclu) başqa şəxsin (kreditorun) xeyrinə müəyyən hərəkəti etməlidir, məsələn, pul ödəməli, əmlak verməli, iş görməli, xidmətlər göstərməli və i.a. və ya müəyyən hərəkətdən çəkinməlidir, kreditorun isə borcludan vəzifəsinin icrasını tələb etmək hüququ vardır.

3. Kommunal xidmətlərlə bağlı borcun olmadığı (borcun silinməsi) barədə iddia tələbləri də Mülki Məcəllənin 372.1-ci maddəsində nəzərdə tutulmuş, başqa şəxsdən hər hansı hərəkəti yerinə yetirməyi və ya yerinə yetirməkdən çəkinməyi tələb etmək hüququ ilə bağlı deyildir, bu tələblərin müqavilə münasibətlərindən irəli gələn tələb kimi qiymətləndirilərək, iddia müddətinin tətbiq edilməsi qeyd edilən maddi hüquq normasının tələblərinin pozulması ilə nəticələnir.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-3503/2024

29.10.2024-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki Kollegiyasının

İddiaçının cavabdeh "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinə qarşı iddiası ilə bağlı mülki iş üzrə

Q Ə R A R I

İş № 2(102)-3503/2024

(Açar sözlər: elektrik enerjisindən istifadəyə görə əsassız hesablanmış borcun silinməsi, iddia müddətinin tətbiqinin xüsusiyyətləri)

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyası, hakimlər Babayev Zəki Baba oğlu (məruzəçi), Əhmədov Əhməd Abbas oğlu və Əliyev Zaur Əli oğlundan ibarət tərkibdə,

İddiaçının cavabdeh "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinə qarşı "aktların etibarsız sayılması və borcun silinməsi" tələbinə dair iddiası ilə bağlı mülki iş üzrə Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)-1533/2024 nömrəli, 05 aprel 2024-cü il tarixli qətnaməsindən iddiaçı İddiaçı tərəfindən verilmiş kassasiya şikayətinə 29 oktyabr 2024cü il tarixdə Ali Məhkəmənin inzibati binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları:

1. "Azərişıq" ASC-nin əməkdaşları tərəfindən Ünvan 1-ə quraşdırılmış elektrik sayğacı üzrə ******** nömrəli abunə kodu iddiaçının adınadır.

2. "Azəriqaz" İB-nin əməkdaşları tərəfindən Ünvan 1-ə baxış keçirilən zaman sayğacın sxemi pozularaq dövriyyədən kənarlaşdırılması faktının aşkar edilməsi ilə əlaqədar 21 dekabr 2022-ci il tarixli R seriyalı **** saylı, 07 mart 2023-cü il tarixli R seriyalı **** saylı, 06 aprel 2023-cü il tarixli R seriyalı **** saylı, 05 iyun 2023-cü il tarixli R seriyalı **** saylı aktlar tərtib edilmişdir. Aktların heç biri İddiaçı tərəfindən imzalanmamış, İddiaçının adının qarşısında yerləşən "imza" qrafasında "mənzildən çıxan olmadı" sözü qeyd edilmişdir.

3. İddiaçının adına tərtib edilmiş abonent hərəkət cədvəlində Ünvan 1 ünvana verilən elektrik enerjisi üzrə ******** nömrə ilə qeydiyyata alınmış abonent koduna, 2017-ci il üzrə 5.809,25 manat, 2018-ci il üzrə 5.751,1 manat, 2019-cu il üzrə 5.617,75 manat, 2020-ci il üzrə 5.500,01 manat, 2021-ci il üzrə 5.447,16 manat, 2022-ci il üzrə 5.557,16 manat, 2023-cü il üzrə 5.808,51 manat borc hesablandığı qeyd olunmuşdur.

İş üzrə qəbul edilmiş məhkəmə aktları.

Birinci instansiya məhkəməsində icraat:

4. İddiaçı (bundan sonra iddiaçı) cavabdeh "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinə (bundan sonra cavabdeh, yaxud "Azərişıq" ASC) qarşı iddia ərizəsi ilə Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinə müraciət edərək, cavabdehin əməkdaşları tərəfindən tərtib olunmuş 23.09.2022-ci il tarixli RI**** saylı, 10.02.2023-cü il tarixli RI**** saylı, 06.04.2023-cü il tarixli RI**** saylı, 28.04.2023cü il tarixli RI**** saylı, 25.07.2023-cü il tarixli RI**** saylı aktların etibarsız sayılması və həmin aktlar əsasında hesablanmış 526,50 manat məbləğində borcun silinməsi, eyni zamanda 5.224,10 manat məbləğində öncəki illər ərzində hesablanmış borcun silinməsi barədə qətnamə qəbul olunmasını xahiş etmişdir.

5. İddia tələbi onunla əsaslandırılmışdır ki, cavabdehin əməkdaşları onun evini elektrik enerjisi ilə təchiz edən elektrik xəttini kəsmiş, iştirakı olmadan R seriyalı **** nömrəli 07 mart 2023-cü il tarixli akt tərtib etmişlər. Həmin aktda göstərilir ki, guya o, sayğacın qapaq möhürünü açaraq sayğacı sxemdən kənarlaşdırmışdır. O, cavabdehin tərtib etdiyi həmin aktla razı deyil. Belə ki, sayğac küçədədir, ona heç bir müdaxilə etməmişdir. O, bir müddətdir ki, Ünvan 2-dəki ata evində ailəsi ilə birlikdə yaşayır. Buna səbəb uşaqlarının ali məktəbdə təhsil almaları ilə bağlıdır ki, yol yaxın olsun. Evinin işığı sönəndə video kamera göstərmir, ondan bilir ki, işıq sönüb. O, X1 adlı nəzarətçiyə zəng edərək, işığın nə səbəbdən söndüyünü soruşduqda sonuncu demişdir ki, sayğacları açıb kodlaşdırırlar, ona görə də işıq sönür. Ona zəng edəndən sonra kamera işləmişdir. Bilmişdir ki, işıqları qoşub. İki gündən sonra işıqlar yenə də sönmüşdür, kamera göstərməmişdir. O, Ünvan 3-də olan işıq idarəsinə getmişdir. Ona bildirmişlər ki, 5.600 manat borcu var. O, buna etiraz edərək, heç bir borcunun olmadığını,

sayğacdan smart kart vasitəsi ilə istifadə etdiyini bildirib, elektrik xəttini qoşmağı təklif etmişdir. Bundan sonra, kompüterlə kodu açmışlar, evinin işığı yanmışdır. Ona demişlər ki, mart ayının axırı borcundan 100 manat ödəyər, əks halda elektrik cərəyanı verilişi dayandırılacaq. Cavabdeh Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 fevral 2005-ci il tarixli 18 saylı qərarı ilə təsdiq edilmiş "Elektrik enerjisindən istifadə Qaydaları"nı pozmuşdur. Cavabdeh heç bir əsas olmadan ondan 5.600 manat borc tələb etdiyindən və evinə elektrik enerjisi verilməsini dayandırdığından onun hərəkəti qanunsuz hesab edilməlidir.

6. Cavabdehin nümayəndəsi X2 məhkəmə iclasında iddia tələbini qəbul etməmiş, iddia müddətinin tətbiq edilməsi barədə ərizə təqdim edərək izahatında bildirmişdir ki, iddiaçı tərəfindən 2007-ci ildən 2023-cü ilə qədər istifadə olunmuş elektrik enerjisinə və tərtib olunmuş aktlara görə 5.600 manat borc hesablanmışdır. İddiaçı bununla bağlı ******** abunə kodu üzrə hər ay istifadə olunmuş elektrik enerjisinin hesabatı ilə bağlı qəbzlərlə tanış olmuşdur. Həmin qəbzlərdə 2007-ci ildən 2023-cü ilə qədər hər ay ərzində istifadə olunmuş elektrik enerjisi hesablanaraq ümumi borc qeyd olunmuşdur. Lakin iddiaçı göstərilən illər ərzində borcdan xəbərdar olsa da, təkcə 2023-cü ildə həmin borcla bağlı məhkəməyə müraciət etmişdir. İddiaçı tərəfindən iddia ərizəsi qanunvericilikdə nəzərdə tutulmuş iddia müddəti ötürüldükdən sonra məhkəməyə verilmişdir. Müqavilə tələbləri üzrə iddia müddəti 3 ildir. Bu səbəbdən, iddia müddəti tətbiq edilməklə iddianın rədd edilməsi barədə qətnamə qəbul olunmasını xahiş etmişdir.

7. Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin (bundan sonra birinci instansiya məhkəməsi) 2(006)-3266/2023 nömrəli, 07 noyabr 2023-cü il tarixli qətnaməsi ilə (hakim Anar İbadzadə) iddia tələbi qismən təmin edilərək cavabdeh tərəfindən tərtib edilmiş 23.09.2022-ci il, 10.02.2023-cü il, 06.04.2023-cü il, 28.04.2023-cü il və 25.07.2023-cü il tarixli aktların etibarsız hesab edilməsi, həmin aktlara əsasən iddiaçının adına olan ******** saylı abunə koduna hesablanmış ümumilikdə 526,50 manat elektrik enerjisi borcunun əsassız sayılaraq silinməsi, iddia tələbinin qalan hissədə rədd edilməsi qət olunmuşdur.

8. Birinci instansiya məhkəməsinin mövqeyi ondan ibarət olmuşdur ki, sayğaca iddiaçının müdaxilə etməsinə dair sübutlar məhkəməyə təqdim edilməmişdir. Sayğac ümumiyyətlə iddiaçının cavabdehliyinə aid sahədə quraşdırılmamışdır. Sayğac iddiaçının yaşadığı ünvandan kənarda yerləşir. Bu səbəbdən 23.09.2022-ci il, 10.02.2023-cü il, 06.04.2023-cü il, 28.04.2023-cü il və 25.07.2023-cü il tarixli aktlar etibarlı hesab edilə bilməz. Həmin aktlar üzrə iddiaçıya hər hansı borc məbləğinin hesablanması istehlakçı hüquqlarının pozulması kimi qiymətləndirilir. Qeyd olunan aktlar üzrə iddiaçının abunə koduna ümumilikdə 526,50 manat əlavə sərfiyyat hesablanmışdır və iddia tələbi həmin 5 akta münasibətdə təmin edilməli, aktlar etibarsız hesab edilməli və iddiaçının abunə koduna yazılmış ümumilikdə 526,50 manat əlavə sərfiyyat (borc) silinməlidir. İddiaçının mübahisələndirdiyi digər aktların mübahisələndirilməsi üçün isə Azərbaycan Respublikası Mülki Məcəlləsinin 373-cü maddəsində nəzərdə tutulmuş 3 illik iddia müddəti ötürülmüşdür. Belə olan halda iddia qalan hissədə müddəti tətbiq edilməklə rədd edilməlidir.

9. Birinci instansiya məhkəməsi öz mövqeyini hüquqi cəhətdən əsaslandırarkən Azərbaycan Respublikası Mülki Məcəlləsinin 372.1, 373.2, 376, 375.2, 377.2-ci maddələrinə, "Elektroenergetika haqqında" 03 aprel 1998-ci il tarixli Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinə, "İstehlakçıların müdafiəsi haqqında" 19 sentyabr 1995-ci il tarixli Azərbaycan Respublikası Qanununun 13-cü maddəsinin 8-ci bəndinə və 17-ci maddəsinə, həmçinin

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 14.2, 77.1, 217.4-cü maddələrinə istinad etmişdir.

Apellyasiya instansiyası məhkəməsindəki icraat:

10. Qətnamədən narazı qalan iddiaçının nümayəndəsi və vəkili apellyasiya şikayəti verərək birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv edilməsini, iddia tələbinin tam təmin olunması barədə yeni qətnamə qəbul olunmasını xahiş etmişdir.

11. Apellyasiya şikayəti onunla əsaslandırılmışdır ki, birinci instansiya məhkəməsinin qətnaməsi çıxarıldıqdan sonra cavabdeh 2007-ci ildən iddiaçının borcu olduğunu bildirərək evinə elektrik cərəyanı verilişini dayandırmışdır. Cavabdeh iddiaçının evinə elektrik cərəyanı verilişini dayandırmaqla keçmiş dövrə görə qanunsuz hesabladığı pulları ondan zorla almağa çalışmışdır. Əgər borcu varsa, cavabdeh ona qarşı pul tələbinə dair iddia ərizəsi ilə məhkəməyə müraciət etməlidir, cərəyan verliməsini dayandırmamalıdır. Cavabdeh iddiaçının evinə elektrik cərəyanı verilişini dayandırmaqla Azərbaycan Respublikası Nazirlər Kabinetinin 02.02.2005-ci il tarixli, 18 nömrəli qərarı ilə təsdiq edilmiş "Elektrik enerjisindən istifadə Qaydaları"nı pozmuşdur. Bununla yanaşı, əgər iddiaçı 2007ci ildən ödəniş etməsəydi, elektrik enerjisindən istifadə edə bilməzdi, buna imkan verməzdilər. Cavabdeh heç bir əsas olmadan iddiaçıdan 5.600 manat borc tələb etdiyindən və evinə elektrik enerjisi verilməsini dayandırdığından onun hərəkəti qanunsuz hesab edilməlidir. Həmçinin birinci instansiya məhkəməsi qətnaməsində qeyd etmişdir ki, iddiaçının mübahisələndirdiyi aktların yalnız dördü ilə əlaqədar iddia müddəti ötürülməmişdir. Bununla əlaqədar qeyd olunmalıdır ki, dörd aktdan başqa digər aktların mövcudluğu, onların tarixləri, nömrələri barədə iddia ərizəsində heç bir məlumat yazılmadığı, digər aktlar iş materiallarında olmadığı və araşdırılmadığı halda məhkəmənin belə bir nəticəyə gəlməsi əsassız olmuşdur. Qətnamə Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 217-ci maddəsinin tələbinə uyğun olmamışdır.

12. Məhkəmə kollegiyasının iclasında iddiaçı apellyasiya şikayətini müdafiə etdiyini bildirərək izahatında göstərmişdir ki, Nəsimi Rayon Məhkəməsində işinə düzgün baxılmayıb. Belə ki, aktlar üzrə yazılmış borclar silinmiş, lakin köhnə tarixə hesablanmış borclar silinməmişdir. Onun köhnədən heç bir borcu olmayıb və həmişə vaxtı-vaxtında işıq pullarını ödəmişdir. Hal-hazırda sayğacın üzərində də borc yoxdur. Amma onun adına necə olubsa borc yazılıb. Sayğacı da onun xəbəri olmadan dəyişiblər. Həmişə işıq pulunu ödəməyinə baxmayaraq hələ üstəlik ona cərimədə yazıblar. Bu nə dərəcədə düzdür? O evdə yalnız yay aylarında yaşayış olur. Necə olur ki, il ərzində iki-üç ay sözügedən evdə yaşamaqla bu qədər borc yaranır? Hal-hazırda da ailəsi ilə birlikdə Ünvan 2-də yerləşən evdə yaşayır. Nəsimi Rayon Məhkəməsində cavabdehin nümayəndəsindən sayğacın üç-dörd dəfə dəyişdirilməsinin səbəbləri barədə hesabat tələb olundu. Lakin, cavabdeh tərəf sayğacın dəyişdirilməsinin səbəbləri barədə heç bir hesabat təqdim etmədi. İddiaçı həmçinin suallara cavab olaraq qeyd etmişdir ki, təxmini 2016-cı ildən borc yarandığını bilirdi, amma borcun nədən yarandığı barədə məlumatı yoxdur. İl ərzində cəmi 2-3 ay yaşayış olub. Borcun yaranması barədə xəbəri olmayıb, sonradan yaranma səbəbi barədə özü maraqlanmışdır. Sabunçu Rayon Məhkəməsində mübahisələndirmişdir. Lakin, həmin vaxt azadlıqda olmadığı üçün məhkəmə iclasına gedə bilməmişdir. Bəlkə də o vaxt iştirak edə bilsəydi borclar artıq silinmişdi. (i.v. 124)

13. Məhkəmə kollegiyasının iclasında cavabdehin nümayəndəsi apellyasiya şikayətinə qarşı etiraz etdiyini bildirərək izahatında göstərmişdir ki, birinci instansiya məhkəməsində tərəflərindən təqdim edilmiş sənədlərdə də göstərilir ki, yaranmış borclar yazılan məbləğ, abonentin özünün yandırdığı sərfiyyat və kənar müdaxilə nəticəsində yaranmışdır. Yəni ki, bir-

iki günün borcu deyildir. İllər üzrə elektrik enerjisinin dəyəri tam ödənilmədiyindən və kənar xətlərlə təmin olunmuş elektrik enerjisinə görə tərtib olunmuş aktlardan yaranan borcdur. Birinci instansiya məhkəməsi də tərtib olunmuş aktlardakı borcu silmiş, qalan hissəsinin isə sərfiyyat olduğu üçün toxunmamışdır. İddiaçı hər ay ödəniş etsədə, amma natamam etmişdir. Müdaxilə isə analoji olaraq sayğacın altından qoşulan kənar xəttdir. Bu daxili qüsur deyil. Daxili qüsur olan zaman cərimə tətbiq olunmur və əlavə sərfiyyat hesablanır. Cavabdehin nümayəndəsi həmçinin suallara cavab olaraq qeyd etmişdir ki, möhür yerində görünə bilər. Lakin, möhürün alt hissəsi qopardılaraq sayğaca dəfələrlə müdaxilə olunmuşdur. Həmin illər üzrə "Azərişıq" ASC-nin hüquq idarəsi borcların yığılması ilə məşğul deyildi. Başqa bir firma ilə müqavilə bağlamışdı və borcların yığılması ilə onlar məşğul idi. (i.v. 124)

14. Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının (bundan sonra apellyasiya instansiyası məhkəməsi) 2(103)-1533/2024 nömrəli, 05 aprel 2024-cü il tarixli qətnaməsi ilə (hakimlər İlham Cəfərov (sədrlik edən və məruzəçi), Fuad Abdıyev və Xəyal Sarıyev) apellyasiya şikayəti təmin edilmədən, birinci instansiya məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmışdır.

15. Apellyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsinin gəldiyi nəticə ilə razılaşaraq, apellyasiya şikayətinin dəlillərinə münasibətdə qeyd etmişdir ki, iş materiallarında olan 28.02.2024-cü il tarixli maliyyə arayışından, habelə abunə haqqında çıxarışlardan cavabdeh tərəfindən 2007-ci ildən başlayaraq müxtəlif tarixlərdə, müxəlif səbəblər (limitdən artıq sərfiyyata, elektrik enerjisindən istifadə qaydalarının pozulmasına görə və s.) əsasında aktlar tərtib edilərək iddiaçıya məxsus ******** nömrəli abunə hesabına fərqli məbləğlərdə borclar hesablandığı müəyyən olunmuşdur. İddiaçının silinməsini tələb etdiyi qalıq borc məbləğləri isə 2017-ci il və ondan əvvəlki dövr üçün hesblanmış məbləğlərdir (2018-2021-ci il tarixləri üzrə qalıq borc qalmamışdır).

16. İddiaçının 23.02.2024-cü il tarixli məhkəmə iclasında verdiyi izahatdan da müəyyən edilmişdir ki, o, 2016-cı ildən borcunun yaranması barədə məlumatlı olmuş, habelə qeyd edilən borcları vaxtilə Bakı şəhəri Sabunçu Rayon Məhkəməsində mübahisələndirmiş, lakin həmin vaxt azadlıqda olmadığı üçün məhkəmə iclaslarına gedə bilməmişdir. Göründüyü kimi, iddiaçı mübahisələndirdiyi borclar barədə 2016-cı ildən məlumatlı olsa da (müddət axımı həmin tarixdən başlamışdır), o, məhkəməyə pozulmuş hüquqlarının müdafiəsi ilə əlaqədar iddia ərizəsi ilə 05.07.2023-cü il tarixdə müraciət etmişdir.

17. Apellyasiya instansiyası məhkəməsi öz mövqeyini hüquqi cəhətdən əsaslandırarkən Mülki Məcəllənin 372.1, 372.2 və 373.2-ci və Mülki Prosessual Məcəllənin 14.2, 77.1, 217.1, 217.4-cü maddələrinə istinad etmişdir.

Kassasiya şikayətinin və ona etirazın dəlilləri.

Kassasiya şikayətinin dəlilləri:

18. Qətnamədən iddiaçı kassasiya şikayəti verərək, apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv edilməsini və iddia tələbinin tam təmin olunması barədə yeni qərar qəbul olunmasını xahiş etmişdir.

19. Kassasiya şikayəti apellyasiya şikayətinin dəlillərinə uyğun olaraq əsaslandırılmış, əlavə olaraq qeyd edilmişdir ki, məhkəmə kollegiyasının gəldiyi nəticə sübutlara deyil cavabdehin mülahizələrinə əsaslanmışdır. İş materiallarında cavabdehlə iddiaçının arasında xidmət göstərilməsi barədə müqaqvilə, 2007-ci il tarixdən başlayaraq müxtəlif tarixlərdə, müxtəlif səbəblər (limitdən artıq sərfiyyata, elektrik enerjisindən istifadə qaydalarının pozulmasına görə və s.) əsasında tərtib edilmiş aktlar yoxdur. Məhkəmə kollegiyası isə

müqaviləyə, aktlara istinad edir. Bundan başqa məhkəmə kollegiyası iddiaçının borcları Sabunçu Rayon Məhkəməsində mübahisələndirdiyini qeyd edir. Lakin iddiaçı məhkəmə iclasında belə bir izahat verməmişdir. İş materiallarında da iddiaçının Sabunçu Rayon Məhkəməsinə müraciət etdiyinə dair sübut yoxdur. Cavabdeh 2007-ci ildən 2023-cü ilə kimi istifadə etdiyi elektrik enerjisinin pulunu ödəmədiyini bildirir. Əgər iddiaçı 2007-ci ildən ödəniş etməsəydi elektrik enerjisindən istifadə edə bilməzdi, buna imkan verməzdilər. Əvvəlki illərə görə 5.600 manat borc əsassız hesablanıb. 07.03.2023cü il tarixli akt tərtib olunarkən iddiaçıya əvvəlki illərə görə borcu olduğu bildirilmişdir. Cavabdeh iddiaçının evinə elektrik enerjisi verilməsini dayandırdığından onun hərəkəti qanunsuz hesab edilməlidir. Məhkəmələr cavabdehin iddiaçının evinə elektrik cərəyanı verlilişini dayandırmaqla Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 fevral 2005-ci il tarixli 18 saylı qərarı ilə təsdiq edilmiş "Elektrik enerjisindən istifadə Qaydaları"nı pozduğuna, bunun nəticəsində hüquqlarının pozulduğuna hüquqi qiymət verməmişlər. İddiaçının iddiasına müddət şamil olunmur. Apellyasiya məhkəməsi iddia müddətinin keçməsi səbəbindən iddianı tam təmin etməmiş, tətbiq olunmalı Mülki Məcəllənin 373, 377.1, 384.0.4-cü maddələrini və Azərbaycan Respublikası Mülki Məcəlləsinin 373.2 və 384.0.4-cü maddələrinin şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 3 iyun 2013-cü il tarixli qərarını düzgün tətbiq etməmiş, iddianı rədd edərkən, əvvəlcə iddiaçının müvafiq subyektiv hüquqa malik olub-olmadığını və cavabdeh tərəfindən həmin hüququn pozulub-pozulmadığını araşdırmamış və düzgün olmayan nəticəyə gəlmişdir. Dörd aktdan başqa digər aktların mövcudluğu, onların tarixləri, nömrələri barədə iddia ərizəsində heç bir məlumat yazmadığı və digər aktlar iş materiallarında olmadığı və araşdırılmadığı halda məhkəmənin belə bir nəticəyə gəlməsi əsassız olmuşdur. Hüquq normalarını düzgün tətbiq etmədiyindən məhkəmə kollegiyası iş üzrə düzgün nəticəyə gəlməmişdir.

Tətbiq edilən hüquq:

Azərbaycan Respublikasının Mülki Məcəlləsi.

20. Maddə 372.1. Başqa şəxsdən hər hansı hərəkəti yerinə yetirməyi və ya yerinə yetirməkdən çəkinməyi tələb etmək hüququna müddət şamil edilir.

21. Maddə 385.1. Öhdəliyə əsasən bir şəxs (borclu) başqa şəxsin (kreditorun) xeyrinə müəyyən hərəkəti etməlidir, məsələn, pul ödəməli, əmlak verməli, iş görməli, xidmətlər göstərməli və i.a. və ya müəyyən hərəkətdən çəkinməlidir, kreditorun isə borcludan vəzifəsinin icrasını tələb etmək hüququ vardır.

22. Maddə 442. Öhdəliyin icra edilməməsi dedikdə onun pozulması və ya lazımınca icra edilməməsi (vaxtında icra edilməməsi, mallarda, işlərdə və xidmətlərdə qüsurlarla və ya öhdəliyin məzmunu ilə müəyyənləşdirilmiş digər şərtləri pozmaqla icra edilməsi) başa düşülür.

23. Maddə 443.1. Öhdəliyini icra etməyən borclu kreditora dəymiş zərərin əvəzini ödəməyə borcludur. Borclunun üzərinə öhdəliyi pozmağa görə məsuliyyət qoyulmadıqda bu qayda qüvvədə olmur.

24. Maddə 550. Tələbə, yəni digər şəxsdən hərəkətin edilməsini və ya edilməməsini tələb etmək hüququna müddətin keçməsinə görə xitam verilə bilər.

25. Maddə 551.2.1. Kirayə haqqı, icarə haqqı, kapital üçün faizlər və digər vaxtaşırı ödənişlər haqqında tələblər beş il keçdikdən sonra qüvvəsini itirir.

26. Maddə 554.1. Müddət keçdikdən sonra mükəlləfiyyətli şəxsin öhdəliyin icrasından imtina etmək hüququ vardır.

"**Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanunu**. (11 aprel 2023-cü il tarixədək qüvvədə olmuş redaksiyada)

27. Maddə 11. Enerji təchizatı müəssisəsi istehlakçıya verdiyi elektrik enerjisinin dəyərini yalnız sayğacın göstəricilərinə əsasən tam hesablamalıdır və hər ay istehlakçıya məlumat (hesab) təqdim etməlidir (göndərməlidir). İstehlakçı tərəfindən elektrik enerjisinin hesabı tam ödənildikdən sonra, enerji təchizatı müəssisəsi tərəfindən yol verilmiş səhvə görə düzgün hesablanmamış elektrik enerjisinin dəyərini enerji təchizatı müəssisəsi istehlakçı tərəfindən ödənilməsini tələb edə bilməz.

"İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Qanun.

28. Maddə 3. İstehlakçıların öz hüquqlarının və qanuni mənafelərinin müdafiəsi üçün səlahiyyətli dövlət orqanlarına və məhkəməyə müraciət etmək hüquqları vardır.

29. Maddə 13 (8-ci bənd). Dövlət istehlakçılara öz hüquqları və onların müdafiəsi haqqında zəruri məlumat almaq üçün şərait yaradır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 fevral 2005-ci il tarixli 18 nömrəli qərarı ilə təsdiq edilmiş "Elektrik Enerjisindən İstifadə Qaydaları.

30. Bənd 8.33. Məişət abonenti tərəfindən elektrik enerjisindən istifadədə pozuntuya yol verildiyi aşkar edildikdə, enerjitəchizatı müəssisəsinin nümayəndəsi onun və iki nəfər hal şahidinin iştirakı ilə akt tərtib edir və aktın bir nüsxəsini məişət abonentinə verir. Akt enerjitəchizatı müəssisəsinin nümayəndəsi, məişət abonenti və iki nəfər hal şahidi tərəfindən imzalanmalıdır. Məişət abonenti aktı imzalamaqdan imtina etdikdə bu barədə aktda müvafiq qeyd aparılır. Məişət abonenti izahatlar və aktın məzmunu barəsində öz mülahizələrini təqdim etmək, habelə aktı imzalamaqdan imtina etməsinin səbəblərini göstərmək hüququna malikdir, bu izahatlar və mülahizələr akta əlavə olunur. (28 sentyabr 2021-ci il tarixədək olan redaksiyada)

31. Bənd 9.13.2. Enerji təchizatı müəssisəsinin istehlakçıya verdiyi elektrik enerjisinin sayğacla müəyyənləşən hesabı istehlakçıya enerji təchizatı müəssisəsi tərəfindən təqdim edildikdən (göndərildikdən) sonra bir ay müddətində tam məbləğdə ödənilmədikdə enerji təchizatı müəssisəsi istehlakçıya elektrik enerjisinin verilməsini dayandırır.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi.

32. Maddə 14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

33. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin əsası kimi istinad etdiyi halları sübut etməlidir.

34. Maddə 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

35. Maddə 217.1. Məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır.

36. Maddə 217.2. Qətnamə mübahisəli hüquq münasibətinin yarandığı zaman qüvvədə olan maddi hüquq normalarına və işin baxılması zamanı qüvvədə olan prosessual hüquq normalarına uyğun çıxarılmalıdır.

37. Maddə 217.3. Qətnamə iş üzrə müəyyən edilmiş hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır.

38. Maddə 217.4. Məhkəmə öz qətnaməsini yalnız məhkəmə iclasında tədqiq olunmuş sübutlarla əsaslandırır.

39. Maddə 407.2. Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud

qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir.

40. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

41. Maddə 416.2. Apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 418.4-cü maddəsində nəzərdə tutulmuş prosessual hüquq pozuntusu hesab edilən hallara yol verilməsi şikayətin hədlərindən və dəlillərindən asılı olmayaraq yoxlanılmalıdır.

42. Maddə 417.1.3. Kassasiya məhkəməsi işə baxarkən apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadını qismən ləğv edə və ya tamamilə, yaxud qismən ləğv edib işi yenidən baxılmaq üçün apellyasiya instansiyası məhkəməsinə göndərə bilər.

43. Maddə 418.1. Maddi və prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması, o cümlədən maddi və prosessual hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması apellyasiya instansiyası məhkəməsinin qətnamə və qərardadının ləğv edilməsi üçün əsasdır.

Kassasiya baxışının hədləri:

44. Kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

45. Hazırkı kassasiya şikayətində iddiaçı apellyasiya instansiyası məhkəməsinin qətnaməsini iddianın təmin edilmədiyi hissəsində qismən mübahisələndirdiyindən, məhkəmə aktı həmin hissədə qismən yoxlanılır.

Kasasiya instansiyası məhkəməsinin mövqeyi:

46. Məhkəmə kollegiyası hesab edir ki, apellyasiya məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilib-edilməməsi məsələsi kassasiya qaydasında yoxlanılarkən, iddia tələbinin həlli ilə bağlı məsələyə düzgün hüquqi qiymətin verilmədiyi, həmçinin mübahisəli hüquq münasibətini tənzimləyən maddi hüquq normalarının düzgün tətbiq olunmaması və işin hallarının hərtərəfli, tam və obyektiv araşdırılması ilə bağlı prosessual hüquq normalarının pozulmasına yol verilməsi müəyyən edilmişdir.

47. Belə ki, işin məhkəmələr tərəfindən müəyyən edilmiş hallarından görünür ki, abonent kodu iddiaçının adına olan ünvana cavabdehin əməkdaşları tərəfindən baxış keçirilən zaman sayğacın sxemi pozularaq dövriyyədən kənarlaşdırılması aşkar edilərək 21 dekabr 2022-ci, 07 mart 2023-cü, 06 aprel 2023-cü və 05 iyun 2023-cü il tarixlərdə beş akt tərtib edilmiş, lakin həmin aktlar iddiaçı tərəfindən imzalanmamış, cavabdeh təşkilatın əməkdaşları tərəfindən birtərəfli qaydada tərtib edilmişdir. Həmçinin cavabdeh tərəfindən tərtib edilmiş abonent hərəkət cədvəlində, iddiaçının yaşadığı ünvana verilən elektrik enerjisi üzrə abonentin koduna, 2017-ci il üzrə 5.809,25 manat, 2018-ci il üzrə 5.751,1 manat, 2019-cu il üzrə 5.617,75 manat, 2020-ci il üzrə 5.500,01 manat, 2021-ci il üzrə 5.447,16 manat, 2022-ci il üzrə 5.557,16 manat, 2023-cü il üzrə 5.808,51 manat borc hesablandığı qeyd olunmuşdur.

48. İddiaçı 05.07.2023-cü il tarixdə iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, cavabdehin heç bir əsas olmadan ondan 5.600 manat borc tələb etməsini, həmin borca görə evinə elektrik enerjisi verilməsini, dayandırdığını qeyd edərək məhkəmədən, cavabdehin

əməkdaşları tərəfindən tərtib olunmuş 21 dekabr 2022, 07 mart 2023, 06 aprel 2023 və 05 iyun 2023-cü il tarixli aktların etibarsız sayılması və həmin aktlar əsasında hesablanmış 526,50 manat məbləğində borcun silinməsi, eyni zamanda 5.224,10 manat məbləğində öncəki illər ərzində hesablanmış borcun silinməsi barədə qətnamə qəbul olunmasını xahiş etmişdir.

49. Birinci instansiya məhkəməsi, sayğacın iddiaçının cavabdehliyinə aid sahədə quraşdırılmadığını, sayğaca iddiaçının müdaxilə etməsinə dair sübutların məhkəməyə təqdim edilməməsini nəzərə alaraq, həmin 5 aktı etibarsız hesab etməklə, iddiaçının abunə koduna yazılmış 526,50 manat əlavə sərfiyyatın (borc) silinməsi barədə nəticəyə gəlmiş, 5.224,10 manat məbləğində öncəki illər ərzində hesablanmış borcun silinməsi hissəsində iddianı rədd edərkən isə iddiaçının mübahisələndirdiyi digər aktların mübahisələndirilməsi üçün Azərbaycan Respublikası Mülki Məcəlləsinin 373-cü maddəsində nəzərdə tutulmuş 3 illik iddia müddətinin ötürülməsini qeyd edərək, iddia müddəti tətbiq edilməklə iddianı digər aktlarla bağlı hissədə rədd etmişdir.

50. Apellyasiya instansiya məhkəməsi birinci instansiya məhkəməsinin gəldiyi nəticə ilə razılaşaraq qətnaməni mübahisələndirən hissədə dəyişdirmədən saxlayarkən mövqeyini onunla əsaslandırmışdır ki, iddiaçının 23.02.2024-cü il tarixli məhkəmə iclasında verdiyi izahatından da müəyyən edilmişdir ki, o, 2016-cı ildən borcunun yaranması barədə məlumatlı olmuş, habelə qeyd edilən borcları vaxtilə Bakı şəhəri Sabunçu Rayon Məhkəməsində mübahisələndirmiş, lakin həmin vaxt azadlıqda olmadığı üçün məhkəmə iclaslarına gedə bilməmiş, mübahisələndirdiyi borclar barədə 2016-cı ildən məlumatlı olsa da pozulmuş hüquqlarının müdafiəsi ilə əlaqədar məhkəməyə iddia ərizəsi ilə 05.07.2023-cü il tarixdə müraciət etmiş, bununla da iddia müddətini ötürmüşdür.

51. Məhkəmə kollegiyası hesab edir ki, 5.224,10 manat məbləğində öncəki illər ərzində hesablanmış borcun silinməsi barədə iddia tələbinə münasibətdə iddia müddəti tətbiq edilməklə, digər aktlarla bağlı hissədə iddianın rədd edilməsi barədə birinci instansiya məhkəməsinin qətnaməsini dəyişdirmədən saxlayarkən apellyasiya instansiya məhkəməsi, işdə olan sübutların kifayət qədər ziddiyyətli olmasına Mülki Prosessual Məcəllənin 14.2, 77.1, 88-ci maddələrinin tələbləri baxımından, habelə hazırkı iddiaya iddia müddətinin tətbiqi ilə bağlı işin hallarına Mülki Məcəllənin 372.1, 372.2, 373.2-ci maddələrinin tələbləri baxımından düzgün hüquqi qiymət verməmişdir.

52. Məhkəmə kollegiyası ilk öncə qeyd edir ki, birinci instansiya məhkəməsində iştirak edən cavabdehin nümayəndəsi 2007-ci ildən 2023-cü ilə qədər istifadə olunmuş elektrik enerjisinə və tərtib olunmuş aktlara görə iddiaçıya 5.600 manat borc hesablanmasını bildirmiş, bu halda etirazının əsası olan həmin halı sübut etmək vəzifəsi cavabdehin üzərinə düşdüyü halda, cavabdeh işdə olan “abonent hərəkət cədvəli”ndə qeyd olunan borcun hansı əsasla yaranması, o cümlədən aktlara görə yaranması barədə məhkəməyə hər hansı sübut təqdim etməmişdir. Birinci instansiya məhkəməsi isə iddia tələbini mübahisələndirilən hissədə rədd edərkən, cavabdehin nümayəndəsinin həmin hissədə iddia müddətinin tətbiqi barədə ərizəsini nəzərə alaraq, digər aktların mübahisələndirilməsi üçün Azərbaycan Respublikası Mülki Məcəlləsinin 373-cü maddəsində nəzərdə tutulmuş 3 illik iddia müddətinin ötürülməsini qeyd edərək, adı çəkilən aktlar iş materiallarında olmadığı halda, iddia tələbini “digər aktlarla” bağlı hissədə rədd etməsi barədə ziddiyyətli nəticəyə gəlmişdir.

53. Cavabdehin apellyasiya instansiya məhkəməsində iştirak edən digər nümayəndəsi də izahatında, qeyd olunan borcun illər üzrə elektrik enerjisinin dəyəri tam ödənilmədiyindən və kənar xətlərlə təmin olunmuş elektrik enerjisinə görə tərtib olunmuş aktlardan yaranan borc

olmasını, birinci instansiya məhkəməsinin də tərtib olunmuş aktlardakı borcu silməsini, qalan hissəsinin isə sərfiyyat olduğu üçün toxunmadığını, müdaxilənin isə analoji olaraq sayğacın altından qoşulan kənar xətt olmasını, bunun daxili qüsur olmadığını, daxili qüsur olan zaman cərimə tətbiq olunmadığını və əlavə sərfiyyat hesablanmasını bildirsə də, iddia tələbinə qarşı yönələn həmin etirazını təsdiq edən hər hansı sübutu məhkəməyə təqdim etməmişdir.

54. Apellyasiya instansiya məhkəməsi isə mübahisələndirilən məbləğin 2017-ci il və ondan əvvəlki dövr üçün hesblanmış məbləğ olmasını, 2018-2021-ci illər üzrə qalıq borc qalmadığını qeyd etsə də, borcun aktlara görə yaranmasını təsdiq edən cavabdehin nümayəndələrinin bununla bağlı məhkəmələrə hər hansı sübut təqdim edə bilməməsinə əhəmiyyət verməmiş, gəldiyi nəticə ilə bağlı hər hansı mötəbər sübuta istinad etməmiş, qeyd olunan işin ziddiyətli hallarını araşdıraraq həmin hallara düzgün hüquqi qiymət verməmişdir.

55. Məhkəmə kollegiyası qeyd etməyi zəruri hesab edir ki, Konstitusiya Məhkəməsinin Plenumu bir çox qərarlarında iddia müddəti institutunun məqsədinə və əhəmiyyətinə toxunaraq qeyd etmişdir ki, mülki işin qanuna uyğun həlli baxımından qanunvericiliyin iddia müddətlərinə dair müddəalarının düzgün tətbiqi mühüm əhəmiyyətə malikdir (Konstitusiya Məhkəməsi Plenumunun H.Həşimov və qeyrilərinin şikayəti üzrə 30 iyun 2005-ci il, R.Salamovun şikayəti üzrə 30 oktyabr 2007-ci il, X.Xəlilovun şikayəti üzrə 16 yanvar 2009-cu il tarixli Qərarları və s.).

56. “B.Mürsəlovun şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 31 may 2019-cu il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair” Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 12 mart 2020-ci il tarixli qərarında həmçinin göstərilmişdir ki, iddia müddətləri və kəsici müddətlərin mahiyyəti və fərqləndirici xüsusiyyətləri ilə bağlı nəzərə alınmalıdır ki, - iddia müddəti tələb hüququ üçün xarakterikdir, lakin burada bəzi istisnalar mövcuddur. Kəsici müddət isə əqdi mübahisələndirmək hüququna və iddialara aiddir; - iddia müddətinin keçməsi tələb hüququnun özünün deyil, bu hüququn səlahiyyətli orqan vasitəsi ilə məcburi qaydada həyata keçirilməsi imkanının xitamına səbəb olur. Bu hal Mülki Məcəllənin 375.2 və 383cü maddələrində öz əksini tapmışdır. Kəsici müddətlər isə hüququn özünün xitamı ilə nəticələnir; - iddia müddəti cavabdehin verdiyi ərizə əsasında tətbiq edilir (Mülki Məcəllənin 375.2-ci maddəsi). Kəsici müddət isə cavabdehin ərizə verib-verməməsindən asılı olmayaraq, məhkəmənin öz təşəbbüsü ilə nəzərə alınır; - iddia müddəti dayandırıla (Mülki Məcəllənin 379-cu maddəsi), kəsilə (Mülki Məcəllənin 380-ci maddəsi) və müəyyən hallarda bərpa edilə (Mülki Məcəllənin 382-ci maddəsi) bilər. Kəsici müddətlər isə qanunda birbaşa nəzərdə tutulan hallar istisna olmaqla, dayandırıla və kəsilə bilməz. Göstərilənlərlə yanaşı iddia müddətləri kəsici müddətlərdən digər xüsusiyyətlərinə görə də fərqlənir. Belə ki, iddia müddəti pozulmuş hüququn müdafiə edilməsi üçün xarakterikdir. Kəsici müddət isə hüququn pozulub-pozulmamasından asılı olmayaraq ona xitam verir. Digər tərəfdən, iddia müddəti konkret borclunun konkret tələb üzrə müdafiə vasitələrindən biridir (bu səbəbdən də cavabdehin ərizəsi ilə tətbiq edilir), kəsici müddət isə üçüncü şəxslərin və ümumiyyətlə mülki dövriyyənin maraqları naminə müəyyən edilir (bu səbəbdən də məhkəmənin öz təşəbbüsü ilə (ex officio) tətbiq edilir). Müddətin keçməsinin hüquqi nəticəsi olaraq mükəlləfiyyətli, yəni öhdəlik yükü daşıyan borclu öhdəliyin icrasından imtina etmək hüququ əldə edir. Bu ondan irəli gəlir ki, iddia müddətinin ötürülməsi öhdəliyə xitam vermir, onu mahiyyətcə fərqli hüquq təbiətli öhdəliyə çevirir.

57. İddia müddətinin məqsədi ilə bağlı İnsan Hüquqları üzrə Avropa Məhkəməsi Stanyo Belçikaya qarşı iş üzrə 07 iyul 2009-cu il tarixli qərarında göstərmişdir ki, qanunvericilikdə müəyyən olunan iddia müddətinin məqsədi hüquqi müəyyənlikdir. Belə ki, potensial

cavabdehləri vaxtı ötmüş tələblərdən qoruyur və məhkəmələri müəyyən zaman keçdikdən sonra qeyri-müəyyən və natamam sübutlara əsaslanmaqla qərar çıxarmaq zərurətindən azad edir.

58. Avropa İnsan Hüquqları Məhkəməsi Miraqall Eskolano və digərlərinin İspaniyaya qarşı iş üzrə 25 yanvar 2000-ci il tarixli qərarında belə nəticəyə gəlmişdir ki, atılmalı olan formal addımları və şikayətlərin verilməsi üçün riayət edilməli olan müddət məhdudiyyətlərini tənzimləyən qaydalar ədalət mühakiməsinin lazımi qaydada həyata keçirilməsinin və xüsusilə hüquqi müəyyənlik prinsipi ilə uyğunluğunun təmin edilməsi məqsədini daşıyır. Məhkəmə mübahisəsi üzrə tərəflər bu qaydaların tətbiq edilməsini nəzərə almalıdırlar.

59. Yuxarıda göstərilənlərə əsasən məhkəmə kollegiyası qeyd edir ki, hazırkı işin faktiki hallarından da göründüyü kimi, həm birinci, həm də apellyasiya instansiya məhkəmələrində iştirak edən cavabdehin nümayəndələri 2007-ci ildən 2023-cü ilə qədər istifadə olunmuş elektrik enerjisinə və tərtib olunmuş aktlara görə iddiaçıya 5.600 manat borc hesablanmasını bildirərək, iddiaçının həmin hərəkəti ilə "Azərişıq" ASC-nin zərərə məruz qaldığını qəbul etsələr də, cavabdeh təşkilatın hazırkı vaxta qədər həmin borc məbləğini iddiaçıdan məhkəmə qaydasında tələb etməməsinə ağlabatan cavab verməmişlər.

60. Məhkəmə kollegiyası hesab edir ki, bu xarakterli işlər üzrə yaranmış borcun və ya zərərin istehlakçıdan tələb edilməsi ilə bağlı iddia ərizəsi ilə məhkəməyə müraciət etmək hüququ "Azərişıq" ASC-yə aid olduğundan, belə tələblər üzrə iddia müddəti ötürüldüyü halda həmin işdə potensial cavabdeh olan şəxsin ərizəsinə əsasən iddia müddətinin tətbiq edilməsi və iddianın həmin əsasla rədd edilməsi mümkündür. Lakin "Azərişıq" ASC belə iddia tələbi ilə məhkəməyə müraciət etmədən, həmin borcu iddiaçıdan məhkəmədən kənar qaydada tələb etdiyinə görə, iddiaçı qeyd olunan borcun silinməsi, yəni borcunun olmadığını təsbit etmək barədə iddia ilə məhkəməyə müraciət etmişdir.

61. Qeyd olunmalıdır ki, tələb hüququ ilə bağlı olmayan, borcun olmadığını (borcun silinməsini) təsbit etmək barədə iddiaya iddia müddəti tətbiq oluna bilməz.

62. Belə ki, Mülki Məcəllənin 372.1-ci maddəsinə əsasən başqa şəxsdən hər hansı hərəkəti yerinə yetirməyi və ya yerinə yetirməkdən çəkinməyi tələb etmək hüququna müddət şamil edilir. Həmin Məcəllənin 385.1-ci maddəsinə görə, öhdəliyə əsasən bir şəxs (borclu) başqa şəxsin (kreditorun) xeyrinə müəyyən hərəkəti etməlidir, məsələn, pul ödəməli, əmlak verməli, iş görməli, xidmətlər göstərməli və i.a. və ya müəyyən hərəkətdən çəkinməlidir, kreditorun isə borcludan vəzifəsinin icrasını tələb etmək hüququ vardır.

63. İddiaçının məhkəməyə təqdim etdiyi iddiasından da göründüyü kimi, həmin iddia Mülki Məcəllənin 372.1-ci maddəsinə nəzərdə tutulmuş, başqa şəxsdən hər hansı hərəkəti yerinə yetirməyi və ya yerinə yetirməkdən çəkinməyi tələb etmək hüququ ilə bağlı deyildir. İşə baxmış birinci və apellyasiya instansiya məhkəmələri isə iddiaçının iddiasını müqavilə münasibətlərindən irəli gələn tələb kimi qiymətləndirərək, həmin iddia üzrə iddia müddətini tətbiq etməklə maddi hüquq normasını səhv tətbiq etmişlər.

64. Məhkəmə kollegiyası onu da qeyd edir ki, subyektiv mülki hüquqlar mənafe və maraqların mühafizəsinə yönəlmişdir. Bu baxımdan, fiziki və hüquqi şəxslərin subyektiv hüquqları normativ hüquqi aktlarda (obyektiv hüquqda) ifadə olunmaqla, hüquq münasibətlərində səlahiyyətə çevrilir. Subyektiv hüquqa malik olan şəxslər bu hüquqa qarşı vəzifə daşıyan şəxslərdən, müəyyən halın mövcud olub-olmadığını təsbit etməyi tələb etmək səlahiyyətinə malik şəxslərə çevrilirlər.

65. Göründüyü kimi apellyasiya instansiya məhkəməsi sadalanan maddi hüquq normalarını mübahisəyə düzgün tətbiq etməmiş, işdə olan ziddiyyətli halları araşdırıb hüquqi qiymət verməməklə yanaşı, iddia müddətinin tətbiqi ilə bağlı işin hallarına da düzgün hüquqi qiymət verilməmişdir.

66. Bu baxımdan kassasiya instansiyası məhkəməsi hesab edir ki, apellyasiya instansiyası məhkəməsi tərəfindən işin faktiki halları tam araşdırılmamış, mübahisəli hüquq münasibətlərini tənzimləyərkən hüququn tətbiqində səhvə yol verilmiş və iş üzrə düzgün olmayan qətnamə çıxarılmışdır.

67. Belə ki, "Məhkəmə qətnaməsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 24 noyabr 2005-ci il tarixli qərarının 2.4-cü bəndinə görə qətnamə o vaxt əsaslı hesab edilir ki, onda baxılan iş üçün əhəmiyyətli olan, qanunun tələblərinə uyğun olaraq işə aid edilən və mötəbər sübutlarla təsdiq olunan faktlar əks etdirilmiş olsun, məhkəmənin iş üzrə müəyyən edilən faktlardan irəli gələn qəti nəticəsi onda şərh edilsin, habelə qətnamədə göstərilən hallar işin materiallarına uyğun olsun.

68. Məhkəmə qətnaməsinin əsaslandırıcı hissəsində məhkəmə işin müəyyən olunmuş hallarını və qənaətini formalaşdıran sübutları, bu və ya digər sübutları rədd və ya qəbul etmək üçün istinad etdiyi dəlilləri və rəhbər tutduğu qanunvericilik aktlarını qətnamədə göstərməklə, onu hüquqi cəhətdən əsaslandırmalıdır. Məhkəmə sübutları sadalamaqla kifayətlənməməli, hər bir sübutun məzmunu qətnamədə şərh edilməli, sübutlar əlaqələndirilməli, araşdırılan sübutların qəbul edilib-edilməməsinin səbəbləri aydın göstərilməlidir.

69. Məhkəmə kollegiya belə qənaətə gəlir ki, apellyasiya instansiya məhkəməsi işin hallarını ziddiyyətli olaraq müəyyən etmiş, nəticədə mübahisə həmin hissədə düzgün həllni tapmamışdır.

70. Konstitusiya Məhkəməsi Plenumunun A.Şoşanovun şikayəti üzrə 11 fevral 2015ci il və F.Şirinovun şikayəti üzrə 16 noyabr 2016-cı il tarixli Qərarlarında qeyd olunmuşdur ki, məhkəmə tərəfindən həqiqətə nail olunması üçün işin hərtərəfli, tam və obyektiv tədqiqinə lazımi şəraitin yaradılmaması, sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra hüquq normalarına müvafiq olaraq qiymətləndirilməməsi və bununla da qəbul edilən məhkəmə aktlarının qanunilik və əsaslılıq meyarlarına cavab verməməsi bu aktların əsaslı olmasını şübhə altına alır.

71. Göründüyü kimi hazırkı iş üzrə mübahisənin düzgün həll edilməsi üçün apellyasiya instansiyası məhkəməsi MPM-in 88-ci maddəsinin tələblərinə riayət etməklə qeyd edilən sübutlara məcmu halında hüquqi qiymət verməmişdir.

72. Məhkəmə kollegiyası göstərilənləri nəzərə alaraq hesab edir ki, iddiaçı tərəfindən verilmiş kassasiya şikayəti qismən təmin edilməli, apellyasiya instansiya məhkəməsinin qətnaməsi qismən, iddia tələbinin rədd edilməsinə dair hissədə ləğv edilərək mülki iş mübahisələndirilən hissədə yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilməlidir.

73. İşə yenidən baxılarkən məhkəmə yuxarıda qeyd olunan nöqsanları aradan qaldırmaqla yanaşı, işin müəyyən edilmiş hallarına uyğun olaraq hərtərəfli, tam və obyektiv tədqiqinə nail olmaq və iş üzrə əhəmiyyət kəsb edən halların araşdırılması üçün lazım olan bütün tədbirləri görməli, mübahisəli hüquq münasibətinə maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunmasını təmin etməli, müəyyən edilən, eləcə də araşdırılan sübutlara Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 14.2, 77.1, 88 və 217.4-cü maddələrinin tələbləri

baxımından düzgün hüquqi qiymət verməli, qanuni və əsaslı yekun məhkəmə aktı qəbul etməlidir.

74. Göstərilənlərə əsasən və Azərbaycan Respublikası MPM-nin 416-419-cu maddələrini rəhbər tutaraq, Məhkəmə kollegiyası

Qərara aldı:

İddiaçı tərəfindən verilmiş kassasiya şikayəti qismən təmin edilsin.

Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)-1533/2024 nömrəli, 05 aprel 2024-cü il tarixli qətnaməsi iddia tələbinin rədd edilməsinə dair hissədə ləğv edilsin və mülki iş mübahisələndirilən hissədə yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilsin.

Qətnamə qalan hissədə dəyişdirilmədən saxlanılsın.

Qərar qətidir və qəbul edildiyi andan qüvvəyə minir.

Kəsici müddət

30. 2(102)-1921/2024 nömrəli, 2024-cü il 01 avqust tarixli qərar – Lizinq müqaviləsindən irəli gələn mübahisələr üzrə zərərin ödənilməsi tələblərinə baxılarkən kəsici müddətin tətbiqi

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: lizinq müqaviləsindən irəli gələn mübahisələr üzrə zərərin ödənilməsi tələblərinə baxılarkən kəsici müddətin tətbiqi.

Açıq Səhmdar Cəmiyyətinə məxsus kənd təsərrüfatı texnikasının operativ lizinqə (istifadəyə) verilməsi barədə müqaviləyə əsasən kombayn cavabdehin istifadəsinə verilmiş, bundan iki aya yaxın müddət sonra texnika ASC-yə geri qaytarılmışdır.

Hazırkı iş üzrə iddiaçı olan lizinq verən ASC nasaz vəziyyətdə ona təhvil verildiyini iddia etdiyi kombaynın işlək vəziyyətə gətirilməsinə sərf olunmuş xərci cavabdehdən tələb etmişdir.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Məhkəmə kollegiyası hesab etmişdir ki, iddiaçının cavabdehin istifadəsinə verilmiş lizinq obyektinin pisləşməsi nəticəsində dəymiş zərərin əvəzinin ödənilməsinə dair iddiası üçün kəsici müddətin başlanğıc anı iddiaçının lizinq obyektini geri aldığı andan başlamışdır. Lakin iddiaçı lizinq obyektini geri aldığı andan təxminən 9 ay keçdikdən sonra məhkəməyə müraciət etmişdir. Bu səbəbdən kəsici müddəti ötürmüş iddiaçının hüququ artıq mövcud deyil.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 751-ci maddəsi lizinq münasibətlərinə əmlak kirayəsi müqaviləsinin Mülki Məcəllənin 747-750-ci maddələrinə zidd olmayan qaydalarının tətbiqinə imkan verdiyindən, hazırkı mübahisə Mülki Məcəllənin əmlak kirayəsi müqaviləsi ilə bağlı 697.4-cü maddəsinin tələbləri nəzərə alınmaqla həll edilməlidir. Mülki Məcəllənin 697.4-cü maddəsində müəyyən edilmiş 6 aylıq müddət kəsici müddətdir, bu baxımdan həmin müddətin tətbiqi üçün tərəflərin ərizə verməsi tələb olunmur, bu müddət qanunda birbaşa nəzərdə tutulan hallar istisna olmaqla, dayandırılmır və kəsilmir. Məhkəmə kəsici müddətin keçməsi səbəbi ilə aradan qalxmış olan bir haqqın (hüququn) təmin olunmasına dair qərar çıxara bilməz. Belə ki, kəsici müddətin ötürülməsi nəticəsində haqqın (hüququn) mövcudiyyəti də aradan qalxdığına görə, artıq məhkəmə tərəfindən təmin edilməli olan bir haqq da qalmamışdır.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-1921/2024

01.08.2024-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi
Mülki kollegiyasının

İddiaçı "XXX" Açıq Səhmdar Cəmiyyətinin Cavabdehə qarşı iş üzrə

Q Ə R A R I

(Açar sözlər: lizinq müqaviləsi, müqavilə tələbləri
üzrə iddia müddəti, kəsici müddət)

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Əhmədova Mehparə Tofiq qızı (məruzəçi), Həsənov Vüqar Təvəkgül oğlu və Əhmədov Əhməd Abbas oğlundan ibarət tərkibdə,

iddiaçı "XXX" ASC-nin cavabdeh Cavabdehə qarşı "dəymiş maddi ziyanın ödənilməsi" tələbinə dair mülki iş üzrə Şirvan Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(106)-167/2024 nömrəli, 24 yanvar 2024-cü il tarixli qətnaməsindən verilmiş iddiaçının kassasiya şikayətinə 1 avqust 2024-cü il tarixdə Ali Məhkəmənin inzibati binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları

1. "XXX" Açıq Səhmdar Cəmiyyətinə məxsus kənd təsərrüfatı texnikasının operativ lizinqə (istifadəyə) verilməsi barədə 25.5.2021-ci il tarixli, ****** nömrəli müqaviləyə əsasən, istifadəyə verən "XXX" ASC kənd təsərrüfatı texnikasını mülkiyyət hüququnun istifadəçi Cavabdehə keçməməsi şərti ilə istifadəyə vermişdir. Texnikanın adı – Taxılyığan kombayn "SR-***"; buraxılış ili – 2013; dövlət qeydiyyat nömrəsi – ** T ***; istifadə müddəti 01.06.2021-31.07.2021; məbləğ – 4000 manat.

2. Cavabdeh tərəfindən verilmiş 26 may 2021-ci il tarixli iltizama əsasən, o, ****** nömrəli, 25.5.2021-ci il tarixli müqavilə əsasında müvəqqəti istifadəyə götürdüyü texnikanı təyinatı üzrə istifadə etməyi, istismar zamanı zəruri texniki qulluq işlərini vaxtında həyata keçirməyi, istismar zamanı yaranmış nasazlığı müqavilə (istifadə) müddəti ərzində öz hesabına aradan qaldırmağı, istismar zamanı GPS avadanlığı dəstinin qorunub saxlanmasını və müqavilə (istifadə) müddəti bitdikdən sonra texnikanı saz və dəst halda təhvil verməyi öz öhdəsinə götürmüşdür.

3. 26.5.2021-ci il tarixli Akt 1-ə əsasən, "XXX" ASC-nin Ağcabədi RN-nin Beyləqan-Xocavənd rayon bölməsinin istifadəsində olan "SR-***" markalı taxılyığan kombayn texniki saz vəziyyətdə Cavabdehə təhvil verilmişdir.

4. 9.9.2021-ci il tarixli Akt 2-ə əsasən, "XXX" ASC-nin Ağcabədi RN-nin Beyləqan-Xocavənd rayon bölməsinin istifadəsində olan "SR-***" markalı taxılyığan kombayn lizinqə götürmüş Cavabdeh tərəfindən aşağıda göstərilən texniki vəziyyətdə bölmənin rəhbərinə təhvil verilmişdir: texniki vəziyyəti: nasaz, 1) mühərrik: nasaz, a) yanacaq sistemi: nasaz, b) yağlama sistemi: saz, c) soyutma sistemi: saz; 2) Transmissiya: nasaz; 3) Hidravlik sistem: saz; 4) Elektrik avadanlığı: saz; 5) Şinlər: 40 %; 6) Digər mexanizmlər və qovşaqlar: nasaz; 7) Akkumlyator: ------. Həmin akt təhvil verən Cavabdeh tərəfindən imzalanmamış, imzalamaqdan imtina ilə bağlı 1.12.2021-ci il tarixdə imtina aktı tərtib edilmişdir.

5. "SR-*** Sampo" markalı taxılyığan kombaynın işlək vəziyyətə gətirilməsinə sərf olunacaq ehtimal xərclər barədə arayışa əsasən, Cəmiyyətin Ağcabədi RN-nin BeyləqanXocavənd rayon bölməsi ilə mexanizator Cavabdeh arasında bağlanmış ****** saylı, 25 may 2021-ci il tarixli müqavilə əsasında bölmənin istifadəsində olan və mexanizator tərəfindən operativ lizinqə götürülmüş ***** şassi nömrəli "SR-*** Sampo" markalı taxılyığan kombayn bölməyə təhvil verilərkən 9 sentyabr 2021-ci il tarixində texnikaya baxış keçirilməsi haqqında tərtib edilmiş akta əsasən texnikanın işlək vəziyyətə gətirilməsinə sərf olunacaq ehtimal xərclər aşağıdakı kimidir: 1) Yanacaq nasosu 1 ədəd 1800 manat; 2) Forsunka 4 ədəd (1 ədədi 150 manat) 600 manat; 3) Turbokompressor 1 ədəd 1500 manat; 4) Şin 18.4-34 1 ədəd 1450 manat; 5) Arxa körpü 1 ədəd 3500 manat; 6) Ventilyator 1 ədəd 750 manat; 7) Ələk 1 ədəd 300 manat; 8) Uzandırıcı ələk 1 ədəd 150 manat; 9) Qayışlar 6 ədəd (1 ədədi

150 manat) 900 manat; 10) Kombaynın çərçivəsi sınıb (bərpa) 1 ədəd 500 manat – cəmi 10450 manat.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a)Birinci instansiya məhkəməsində icraat

6. İddiaçı "XXX" ASC (bundan sonra – iddiaçı) iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, 1 ədəd "Sampo Rosenlew SR-***" markalı taxılyığan kombaynın tam bərpası üçün hesablanmış 10450 manat dəymiş maddi ziyanın və 121,35 manat dövlət rüsumunun, cəmi 10571,35 manatın cavabdeh Cavabdehdən (bundan sonra – cavabdeh) tutularaq iddiaçıya ödənilməsi barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

7. İddiaçı tələbini onunla əsaslandırmışdır ki, həmin kombaynın işlək vəziyyətə gətirilməsinə sərf olunacaq ehtimal xərclər haqqında arayış tərtib olunmuşdur. Tərtib olunmuş arayışa əsasən texnikanın tam bərpa edilməsi üçün onlara tələb olunan ehtiyat hissələrinin ehtimal olunan dəyəri mövcud bazar qiymətlərinə uyğun olaraq müəyyən edilmişdir. Belə ki, "Sampo Rosenlew SR-***" markalı taxılyığan kombaynın tam bərpası üçün 10450 manat dəymiş maddi ziyan hesablanmışdır. Tərəflər arasında bağlanmış müqavilənin 2.2.5-ci və 2.2.6-cı maddələrinə əsasən, lizinq alan texnikanın təyinatı üzrə səmərəli istifadəsini, saz vəziyyətdə saxlanılmasını, vaxtında texniki xidmətlərin aparılmasını, təmirini və icazəsiz konstruktiv dəyişiklik edilməməsini, texnikaya qəza və təbii fəlakət nəticəsində dəymiş zərərin ödənilməsini öhdəsinə götürmüşdür. Həmin müqavilənin 2.2.8-ci maddəsinə əsasən lizinq alan bu müqavilənin müddəti başa çatdıqdan sonra texnikanı saz və dəst halda lizinq verənə geri qaytarmağı qeyd-şərtsiz öz üzərinə götürür.

8. Birinci instansiya məhkəməsində cavabdeh iddianı qəbul etməyərək bildirmişdir ki, 25 may lizinq müqaviləsinə ASC-dən 1 ədəd Sampo Rosenlevv SP-A*** markalı taxılyığan kombaynı 1.6.2021-ci il tarixdən 31 iyul 2021-ci il tarixədək olan müddətdə lizinqə götürmüş və müddəti bitəndən sonra tamamilə saz vəziyyətdə qaytarmışdır.

9. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin eksperti 12 may 2023-cü il tarixli, 9/1094 saylı ekspert rəyinə əsasən, nəzəri hesablama yolu ilə "XXX" ASC tərəfindən tərtib edilmiş qüsur aktındakı məlumatlara əsasən avto hissələrin qiymətləri nəzərə alınmaqla 2013-cü il buraxılışlı "Sambo Rosenlew SP-***" markalı taxılyığan kombaynın təmir-bərpa xərci avto ehtiyat hissələrinə köhnəlmə faizi tətbiq edilməklə təxminən 9324 manat müəyyən edilir. Aparılmış tədqiqatın dəyəri 50 manat təşkil edir.

10. İmişli Rayon Məhkəməsinin (bundan sonra - birinci instansiya məhkəməsi) 16 avqust 2023-cü il tarixli, 2(036)-63/2023 saylı qətnaməsi ilə (sədrlik edən hakim Ülvi Qənbərov) iddia tələbi qismən təmin olunmuş, cavabdeh Cavabdehdən cəmi 9324 manatın və 110 manat dövlət rüsumunun tutularaq iddiaçı "XXX" ASC-nin xeyrinə ödənilməsi qət edilmişdir.

11. Birinci instansiya məhkəməsi qeyd etmişdir ki, cavabdeh 25.5.2021-ci il tarixli, ****** nömrəli lizinq müqaviləsinə əsasən cavabdehdən lizinqə götürdüyü 1 ədəd Sampo Rosenlevv SP-*** markalı taxılyığan kombaynı nasaz vəziyyətə saldığına görə cəmiyyətə dəymiş 9324,0 manat məbləğində maddi zərər ödəməlidir.

12. Məhkəmə gəldiyi nəticəni Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra – Mülki Məcəllə) 21.1, 21.2, 1097-ci maddələrinə və Azərbaycan Respublikası Mülki Prosessual Məcəllənin (bundan sonra – MPM) 216, 220, 227, 233, 357 və 360-cı maddələrinə istinadla əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

13. Cavabdeh apellyasiya şikayəti verərək, birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv edilməsi və iddianın rədd edilməsi barədə yeni qətnamə çıxarılmasını xahiş etmişdir.

14. Apellyasiya şikayəti onunla əsaslandırılmışdır ki, taxılyığan kombayn 25 may 2021-ci il tarixində iki ay müddətinə onun istifadəsinə verilmişdir. 26 iyun 2021-ci il tarixində o xəstələnmişdir. Bundan sonra iddiaçı ona heç bir söz demədən 30 iyun 2021-ci il tarixində kombaynı gəlib aparmışdır. İddiaçı tərəf kombaynı aparan zaman kombayn tam saz vəziyyətdə idi. İddiaçı heç bir təhvil-təslim etmədən kombaynı aparmışdır. Hazırda iddiaçı "XXX" ASC qanunsuz olaraq onunla heç bir təhvil-təslim edib almadığı kombayna görə ondan pul tələb edir. Məhkəmə maddi hüquq normalarını tətbiq etməmiş, əsassız qətnamə qəbul etmişdir. Belə ki, birinci instansiya məhkəməsi sözügedən müqavilə üzrə cavabdehin həqiqətən borcunun olub-olmaması barədə araşdırma aparmamışdır. Həmin lizinq müqaviləsi üzrə cavabdeh kombaynı təxminən 1 ay idarə etmiş və həmin müddətdə kombayn tam saz vəziyyətə olmuşdur. İddaçı onunla heç bir təhvil-təslim etmədən qanunsuz olaraq kombaynı aparmış və sonradan guya müəyyən etmişdir ki, cavabdeh kombaynı yararsız vəziyyətə salmışdır. Əslində isə iddiaçı kombaynı cavabdehdən alanda təhvil-təslim etməli idi. Məhkəmə heç bir araşdırma aparmadan yalnız iddiaçının təqdim etdiyi sənədlər əsasında qeyri-qanuni qətnamə qəbul etmişdir. İddaçı ondan kombaynı təhvil almamış, cavabdeh heç bir sənədə imza atmamışdır. Yəqin ki, iddiaçı ondan kombaynı təhvil-təslim alması barədə saxta təhvil-təslim aktı hazırlamışdır.

15. Şirvan Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının (bundan sonra – apellyasiya instansiyası məhkəməsi) 2(106)-167/2024 nömrəli mülki iş üzrə 24 yanvar 2024-cü il tarixli qətnaməsi ilə (hakimlər S.İ.Mayılov (sədrlik edən və məruzəçi), İ.Q.Əsədov və T.X.Heydərov) apellyasiya şikayəti qismən təmin edilmiş, birinci instansiyası məhkəməsinin qətnaməsi ləğv olunmuş, iş üzrə yeni qətnamə qəbul edilmiş, iddia təmin edilməmiş, iddia ərizəsinin verilməsi üçün ödənilən dövlət rüsumunun iddiaçının özünə aid edilməsi, iş üzrə aparılmış ekspertiza tədqiqatının dəyəri olan 50 manat məbləğində ekspertiza xərci iddiaçı "XXX" Açıq Səhmdar Cəmiyyətindən tutularaq, Dövlət Xəzinədarlığı Agentliyi, Kod ****, VÖEN ****, müxbir hesab AZ**********, SFİFT *****, Məhkəmə Ekspertizası Mərkəzi, VÖEN ****, AZ34***** nömrəli hesaba köçürülməsi qət edilmişdir.

16. Apellyasiya instansiyası məhkəməsi qeyd etmişdir ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 751-ci maddəsi lizinq münasibətlərinə əmlak kirayəsi müqaviləsinin MM-in 747-750-ci maddələrinə zidd olmayan qaydalarının tətbiqinə imkan verdiyindən, hazırkı mübahisə Mülki Məcəllənin əmlak kirayəsi müqaviləsi ilə bağlı 697.4-cü maddəsinin tələbləri nəzərə alınmaqla həll edilməlidir. Mülki Məcəllənin 697.4-cü maddəsində müəyyən edilmiş 6 aylıq müddət kəsici müddətdir, bu baxımdan həmin müddətin tətbiqi üçün tərəflərin ərizə verməsi tələb olunmur, bu müddət qanunda birbaşa nəzərdə tutulan hallar istisna olmaqla, dayandırılmır və kəsilmir. Məhkəmə kəsici müddətin keçməsi səbəbilə aradan qalxmış olan bir haqqın (hüququn) təmin olunmasına dair qərar çıxara bilməz. Belə ki, kəsici müddətin ötürülməsi nəticəsində haqqın (hüququn) mövcudiyyəti də aradan qalxdığına görə, artıq məhkəmə tərəfindən təmin edilməli olan bir haqq da olmur.

17. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu "B.Mürsəlovun şikayəti üzrə" qəbul etdiyi 12 mart 2020-ci il tarixli Qərarında qeyd etmişdir ki, kəsici müddət – şəxsin müəyyən zaman ərzində öz hüququndan istifadə etməməsi nəticəsində həmin hüquq xitam verilməsini nəzərdə tutan müddətdir. Belə hallarda hüquqa xitam verilməsi yalnız

zamanın keçməsindən deyil, müəyyənləşdirilmiş müddət ərzində hüquq sahibinin hərəkətsiz qalmasından irəli gəlir. Kəsici müddət subyektiv hüququn həyata keçirilməməsi və ya lazımi qaydada həyata keçirilməməsi halında bu hüququn vaxtından əvvəl xitamına səbəb olur... Kəsici müddətlər hüququn özünün xitamı ilə nəticələnir... Kəsici müddət məhkəmənin öz təşəbbüsü ilə nəzərə alınır... Kəsici müddətlər isə qanunda birbaşa nəzərdə tutulan hallar istisna olmaqla, dayandırıla və kəsilə bilməz.

18. Apellyasiya instansiyası məhkəməsi qeyd etmişdir ki, hazırkı iş üzrə iddiaçının cavabdehin istifadəsinə verilmiş lizinq obyektinin pisləşməsi nəticəsində dəymiş zərərin əvəzinin ödənilməsinə dair iddiası üçün kəsici müddətin başlanğıc anı iddiaçının lizinq obyektini geri aldığı andan, yəni 9.9.2021-ci ildə təhvil aldığı andan başlamışdır. Lakin iddiaçı lizinq obyektini geri aldığı andan təxminən 9 ay keçdikdən sonra məhkəməyə müraciət etmişdir. Bu səbəbdən kəsici müddəti ötürmüş iddiaçının hüququ artıq mövcud deyil.

19. Qeyd edilənlərdən də göründüyü kimi, hazırkı iş üzrə iddiaçı tərəfindən kəsici müddət ötürülməklə cavabdehə qarşı tələb irəli sürülmüş, bununla da iddiaçının hüququ xitam olunmuşdur. Ona görə də dəymiş maddi ziyanın ödənilməsinə dair iddia tələbi təmin edilməməlidir.

Kassasiya şikayətinin və ona etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

20. İddiaçı (vəkil) kassasiya şikayəti verərək apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv edilməsi və iddianın təmin edilməsi barədə yeni qərar çıxarılmasını xahiş etmişdir.

21. Kassasiya şikayəti onunla əsaslandırılmışdır ki, zərərin vurulduğu həm birinci instansiya məhkəməsinin, həm də apellyasiya instansiyası məhkəməsinin qətnaməsi ilə təsdiqini tapsa da, məhkəmə hazırkı münasibətləri tənzimləməli olan Mülki Məcəllənin 21-ci maddəsini deyil, fərqli hüquq münasibətlərini tənzimləyən maddi hüquq normasını tətbiq etmiş, düzgün olmayan nəticəyə gəlmişdir. Həm Mülki Məcəllənin 748-7.1-ci maddəsindən, həm də tərəflər arasında bağlanmış müqavilədən açıq görünür ki, lizinq alanın məsuliyyəti hər hansı bəlli bir müddətlə məhdudlaşdırılmamışdır. Məhkəmənin istinad etdiyi Mülki Məcəllənin 697.4-cü maddəsi isə fərqli hüquq münasibətlərini tənzimləyən kirayə hüquq münasibətlərinə xitam verilməsinin nəticələri başlıqlı maddi hüquq normasıdır. Apellyasiya instnasiyası məhkəməsi isə bu hallara lazımi diqqət yetirməmiş, maddi hüquq normalarını düzgün tətbiq etməmiş, sübutlar formal olaraq sadalanmışdır ki, faktiki olaraq prosessual hüquq norması pozuntusuna yol verilmiş, texnika tam saz və işlək vəziyyətdə təhvil verilməsinə baxmayaraq cavabdeh əsaslı sübut gətirmədən lizinq obyektinə vurulmuş zərəri şifahi mülahizəsi ilə ümumi sözlərlə əsaslandırmış, etirazının əsası kimi istinad etdiyi halı sübut edə bilməmişdir.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

22. Kassasiya şikayətinə qarşı etiraz daxil olmamışdır.

Tətbiq edilən hüquq

Azərbaycan Respublikasının Mülki Məcəlləsi

23. Maddə 697.4. Kirayəyə verənin kirayəyə verilmiş əşyanın dəyişməsi və ya pisləşməsi nəticəsində zərərin əvəzinin ödənilməsi barədə iddiaları, habelə kirayəçinin xərclərin əvəzinin ödənilməsi və ya hər hansı qurğunun götürülməsinə icazə verilməsi barədə iddiaları altı aydan sonra müddətin keçməsinə görə qüvvədən düşür. Kirayəyə verənin zərərin əvəzinin ödənilməsi barədə iddialarının müddəti onun əşyanı geri aldığı andan başlanır. Kirayəçinin iddialarının müddəti kirayə hüquq münasibətlərinə xitam verildiyi andan başlanır. Kirayəyə verən əşyanın qaytarılması hüququnu müddətin keçməsinə görə itirdikdə onun zərərin əvəzinin ödənilməsi barədə iddiaları da qüvvədən düşür.

24. Maddə 747.1. Lizinq müqaviləsinə görə lizinq verən müəyyən əşyanı müqavilə ilə şərtləşdirilmiş müəyyən haqla, müəyyən müddətə və digər şərtlərlə (lizinq alana əmlakı satın almaq hüququnun verilməsi də daxil olmaqla) lizinq alanın istifadəsinə verməyə borcludur. Lizinq alan müəyyənləşdirilmiş dövriliklə muzd ödəməyə borcludur.

25. Maddə 751. Lizinq barəsində əmlak kirayəsi müqaviləsinin bu Məcəllənin 747-750-ci maddələrinə zidd olmayan qaydaları tətbiq edilir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu “B.Mürsəlovun şikayəti üzrə” qəbul etdiyi 12 mart 2020-ci il tarixli Qərarı.

26. Kəsici müddət – şəxsin müəyyən zaman ərzində öz hüququndan istifadə etməməsi nəticəsində həmin hüquqa xitam verilməsini nəzərdə tutan müddətdir. Belə hallarda hüquqa xitam verilməsi yalnız zamanın keçməsindən deyil, müəyyənləşdirilmiş müddət ərzində hüquq sahibinin hərəkətsiz qalmasından irəli gəlir. Kəsici müddət subyektiv hüququn həyata keçirilməməsi və ya lazımi qaydada həyata keçirilməməsi halında bu hüququn vaxtından əvvəl xitamına səbəb olur... Kəsici müddətlər hüququn özünün xitamı ilə nəticələnir... Kəsici müddət məhkəmənin öz təşəbbüsü ilə nəzərə alınır... Kəsici müddətlər isə qanunda birbaşa nəzərdə tutulan hallar istisna olmaqla, dayandırıla və kəsilə bilməz.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsi

27. Maddə 14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

28. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

29. Maddə 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

30. Maddə 217.1. Məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır.

31. Maddə 217.3. Qətnamə iş üzrə müəyyən edilmiş hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır.

32. Maddə 217.4. Məhkəmə (hakim) öz qətnaməsini yalnız məhkəmə iclasında tədqiq olunmuş sübutlarla əsaslandırır.

33. Maddə 407.2. Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir.

34. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

35. Maddə 416.2. Apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 418.4-cü maddəsində nəzərdə tutulmuş prosessual hüquq pozuntusu hesab edilən hallara yol verilməsi şikayətin hədlərindən və dəlillərindən asılı olmayaraq yoxlanılmalıdır.

Kassasiya baxışının hədləri

36. Qanunun tələbinə görə, kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

37. Hazırkı kassasiya şikayətində qətnamə iddiaçı tərəfindən tam mübahisələndirildiyindən apellyasiya instansiyası məhkəməsinin aktı bütövlükdə yoxlanılır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

38. Məhkəmə kollegiyası hesab edir ki, apellyasiya instansiyası məhkəməsi tərəfindən mübahisəli hüquq münasibətini tənzimləyən maddi hüquq normaları düzgün tətbiq olunmuşdur. İş üzrə düzgün qətnamə qəbul edilməməsi ilə nəticələnən prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması halları müəyyən edilmir. Bu baxımdan apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv olunması və ya dəyişdirilməsi üçün əsas yoxdur.

39. Məhkəmə kollegiyası kassasiya şikayətinin apellyasiya instansiyası məhkəməsi tərəfindən Mülki Məcəllənin 697.4-cü maddəsini tətbiq etməklə düzgün olmayan nəticəyə gəlməsi barədə dəlilinə münasibətdə qeyd edir ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 751-ci maddəsi lizinq münasibətlərinə əmlak kirayəsi müqaviləsinin MM-in 747-750-ci maddələrinə zidd olmayan qaydalarının tətbiqinə imkan verdiyindən, hazırkı mübahisə Mülki Məcəllənin əmlak kirayəsi müqaviləsi ilə bağlı 697.4-cü maddəsinin tələbləri nəzərə alınmaqla həll edilməlidir. Mülki Məcəllənin 697.4-cü maddəsində müəyyən edilmiş 6 aylıq müddət kəsici müddətdir, bu baxımdan həmin müddətin tətbiqi üçün tərəflərin ərizə verməsi tələb olunmur, bu müddət qanunda birbaşa nəzərdə tutulan hallar istisna olmaqla, dayandırılmır və kəsilmir. Məhkəmə kəsici müddətin keçməsi səbəbilə aradan qalxmış olan bir haqqın (hüququn) təmin olunmasına dair qərar çıxara bilməz. Belə ki, kəsici müddətin ötürülməsi nəticəsində haqqın (hüququn) mövcudiyyəti də aradan qalxdığına görə, artıq məhkəmə tərəfindən təmin edilməli olan bir haqq da olmur.

40. Məhkəmə kollegiyası həmçinin qeyd edir ki, kəsici müddət əqdi mübahisələndirmək hüququna və iddialara aiddir. Kəsici müddət məhkəmənin öz təşəbbüsü ilə nəzərə alınır.

41. Məhkəmə kollegiyası kassasiya şikayətinin dəlillərinə ümumilikdə hüquqi qiymət verərək qeyd edir ki, sübutları araşdırmaq və qiymətləndirmək səlahiyyətinə malik olan apellyasiya instansiyası məhkəməsi tərəflərin təqdim etdikləri sübutlar ətraflı araşdırılmış və hansı sübutun mötəbər, hansının isə qeyri-mötəbər olduğu müvafiq prosessual normalara əsasən müəyyən edilmiş, bu barədə məhkəmənin gəldiyi nəticələr əsaslandırılmış, düzgün hüquqi nəticəyə gəlinmiş, nəticələr işin həqiqi hallarına uyğun olmaqla, mübahisənin maddi-prosessual hüquqi əsasları düzgün müəyyən edilmişdir.

42. Məhkəmə kollegiyası qeyd olunanları nəzərə alaraq belə qənaətə gəlir ki, kassasiya şikayəti təmin olunmamalı, apellyasiya instansiyası məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmalıdır.

43. Yuxarıda göstərilənlərə əsasən və MPM-in 416, 417 və 419-cu maddələrini rəhbər tutaraq, Məhkəmə kollegiyası

Qərara aldı:

İddiaçı “XXX” ASC tərəfindən verilmiş kassasiya şikayəti təmin edilməsin.

Şirvan Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(106)-167/2024 nömrəli, 24 yanvar 2024-cü il tarixli qətnaməsi dəyişdirilmədən saxlanılsın.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

Pul öhdəliyinin icra edilməməsinə görə məsuliyyət

31. 2(102)-603/2024 nömrəli, 2024-cü il 14 may tarixli qərar - Öhdəliyin icra edilməməsinə görə faizdən faiz tutulmasının yolverilməzliyi (Mülki Məcəllə, 449-cu maddə)

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: öhdəliyin icra edilməməsinə görə faizdən faiz tutulmasının yolverilməzliyi (Mülki Məcəllə, 449-cu maddə)

Daha əvvəl məhkəmə qətnaməsi ilə tutulmuş faiz borcunun əsas borca birləşdirilməklə ümumi məbləğə gecikdirmə faizinin tutulması.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Kollegiya vurğulayır ki, faiz borcunun məhkəmə qərarı ilə tutulmasına görə onun əsas borca birləşdirilərək ümumi məbləğdən yenidən gecikdirmə faizi hesablanması, belə faizin tutulması barədə qaydanın məqsədinə xidmət etmir. Faizin əsas borcla birlikdə deyil, ayrıca iddia qaldırılmaqla tələb edilməsi mümkün olsa belə, mahiyyətcə faiz alacağına yenidən faiz istənilməsi borclu üçün ədalətsiz nəticələrin yaranmasına gətirib çıxara bilər. Odur ki, faizdən faiz tutulması qadağası bu hala da şamil edilməlidir.

Təsadüfi deyil ki, Mülki Məcəllənin 449.4-cü maddəsində özgə vəsaitindən istifadə üçün faizlərin (əgər bu Məcəllədə və ya müqavilədə faizlərin hesablanması üçün daha qısa müddət müəyyənləşdirilməyibsə) həmin vəsait məbləğinin kreditora ödənildiyi günə qədər tutulduğu göstərilmişdir.

Gecikdirmə faizinin əsas borcun qaytarıldığı günədək tutulmasına dair qayda ilə mürəkkəb faiz tətbiqi imkanı istisna edilir və belə faiz yalnız əsas borcun qalığına hesablanmış olur. Pul vəsaitini vaxtında qaytarmayan borcluya bu qaydada tətbiq edilən maliyyə sanksiyası mütənasib və ədalətlidir.

Lakin kreditorun gecikdirilmə faizini bu qaydada tələb etməyib, hər dəfə müəyyən bir dövr üçün ayrıca iddia ilə faiz tələb edərək (məsələn, hər il iddia qaldırmaqla), məhkəmə qərarı əsasında tutulan faiz məbləğlərini əsas borca əlavə etməklə, ümumi məbləğə yenidən faiz hesablaması faktiki olaraq əsas borcun məbləğinin şişirdilməsi, dolaylı da olsa, gecikdirmə faizinə yenidən gecikdirmə faizinin hesablanması ilə nəticələnir. Bu isə borclunun vəziyyətini qeyri-mütənasib şəkildə pisləşdirir. Halbuki, heç kəsin tək tərəfli hərəkəti ilə başqa şəxsin vəziyyətini ağırlaşdırmasına yol verilmir.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-603/2024

14.05.2024-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından

Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının

İddiaçının Cavabdehə qarşı iş üzrə

Q Ə R A R I

Açar sözlər: borca görə gecikdirmə faizinin tutulması

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyası hakimlər Əliyev Zaur Əli oğlu, Məmmədov Vidadi Məmməd oğlu və Abbasov Aqil Əzizağa oğlundan ibarət tərkibdə,

Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 26 sentyabr 2023-cü il tarixli, 2(103)-289/2023 nömrəli qətnaməsindən iddiaçı və cavabdeh tərəfindən ayrı-ayrılıqda verilmiş kassasiya şikayətləri üzrə mülki işə Azərbaycan Respublikası Ali Məhkəməsinin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları

1. Bakı şəhəri Xəzər Rayon Məhkəmənin 17 noyabr 2016-cı il tarixli 2(003) 5743/2016 saylı qətnaməsinə əsasən, Cavabdehdən 82620 manat məbləğində pulun İddiaçının xeyrinə tutulması qət edilmiş, Bakı Apellyasiya Məhkəməsinin 10 noyabr 2017-ci il tarixli 2(103)-9989/2017 saylı qətnaməsi ilə, Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin 17 noyabr 2016-cı il tarixli 2(003)-5743/2016 saylı qətnaməsi ləğv edilmiş, iş üzrə yeni qətnamə qəbul edilmiş, Cavabdehdən İddiaçının xeyrinə 183777.82 ABŞ dolları pulun və 30 manat dövlət rüsumunun tutulması qət edilmişdir.

2. Xəzər Rayon Məhkəməsinin 20 dekabr 2018-ci il tarixli 2(003)-3599/2018 №-li qətnaməsi ilə Cavabdehdən borcun vaxtında qaytarılmamasına görə hesablanmış faiz borcu kimi 102181,79 ABŞ dollarının icra vaxtı manata olan məzənnə ilə manatla İddiaçının xeyrinə tutulması qət edilmişdir.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a) Birinci instansiya məhkəməsində icraat

3. İddiaçı Cavabdehə qarşı iddia ərizəsi və iddia tələbinin həcminin artırılması barədə ərizə ilə məhkəməyə müraciət edərək, cavabdehdən faiz borcu olaraq xeyrinə 1 yanvar 2019-cu ildən 31 iyul 2021-ci il tarixə borclu olduğu vəsaiti qaytarmadığına görə 64070.37 ABŞ dolları məbləğində pulun tutulması barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

4. İddia onunla əsaslandırılmışdır ki, cavabdeh əmisi oğludur. 2013-cü ilin 4 aprelində ondan borc almış, sonra qaytarmaqdan əsassız olaraq imtina etmişdir. Bu barədə məhkəmə qətnamələri mövcuddur. Daha sonra Xəzər Rayon Məhkəməsinə borca görə faizlərin ödənilməsi tələbinə dair iddia ərizəsi ilə müraciət edərək, cavabdehdən borcun tam ödəniləcəyi günədək yüksələn xətlə davam etməsi şərti ilə faiz borcu olaraq xeyrinə Mərkəzi Bankın son illik uçot faiz dərəcəsinə uyğun 102181,79 ABŞ dolları məbləğində pul tutulmasını xahiş etmişdir. Xəzər Rayon Məhkəməsinin 20 dekabr 2018-ci il tarixli 2(003)3599/2018 №-li qətnaməsi ilə onun xeyrinə 102181,79 ABŞ dollarının icra vaxtı manata olan məzənnə ilə manatla tutulması qət edilmişdir. Həmin qətnamənin əsaslandırma hissəsində qeyd edilir: "Məhkəmə iclasında müəyyən edildi ki, cavabdeh icra zamanı borcun bir hissəsini ödəsə də, 154777,82 ABŞ dollarını hal-hazıradək ödəməmişdir. Məhkəmə, cavabdehin borcu iddiaçıya ödəyənədək ona faiz ödəməyə borclu olduğunu nəzərə alaraq iddianın həmin hissəsinin təmin edilməli olduğu nəticəsinə gəlir. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 439.3-cü maddəsinə əsasən, qanuna və ya müqaviləyə əsasən borcun üstünə faizlər hesablanmalı olduqda, əgər bu Məcəllə ilə və ya müqavilə ilə ayrı qayda müəyyənləşdirilməyibsə, onlar iki faiz bəndi əlavə edilməklə Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən müəyyən edilən uçot dərəcəsi miqdarında, lakin ildə azı beş faiz miqdarında hesablanır. Beləliklə, məhkəmə hesab edir ki, cavabdeh borcun qaytarılmalı olduğu 4 aprel 2013-cü il tarixdən başlayaraq borclu olduğu vəsaiti iddiaçıya qaytaranadək gecikdirilmiş vaxt üçün faiz ödəməyə borclu

olduğundan, eləcə də Azərbaycan Respublikasının ərazisində manatdan başqa pul vahidlərinin ödəniş vasitəsi kimi işlədilməsi qadağan olduğundan, ondan iddiaçının xeyrinə faiz borcu üzrə 102181,79 ABŞ dolları icra vaxtı manata olan məzənnə ilə manatla tutulmalı, iddia tələbi həmin hissədə təmin edilməlidir." Qeyd olunan qayda ilə, lakin +2% əlavə edilməməklə faizləri təcrübəli mütəxəssisə özü hesablatdırmışdır. Lakin qətnamənin əsaslandırma hissəsində göstərilsə də, məbləğə 2 faiz əlavə edilməmişdir. Bununla belə, qətnamə ilə o, razılaşmış, cavabdehin apelyasiya şikayəti də təmin olunmamış, Bakı Apellyasiya Məhkəməsinin 12.04.2019-cu il tarixli 2(103)-4438/19 № -li qətnaməsi ilə dəyişdirilmədən saxlanılmışdır. Bakı Apellyasiya Məhkəməsindən çıxarkən cavabdeh ona yaxınlaşaraq, qucaqlayıb öpmüş, ona qarşı səhv mövqedə olduğunu etiraf edərək demişdir ki, kasasiya şikayəti də verməyəcəyək, şəhərdə tikdirdiyi çoxmərtəbəli yaşayış binasındakı 4 otaqlı, super təmir olunmuş, ümumi sahəsi 191 kvadrat metr olan mənzilini hələ çıxarışı olmasa da 2 ayadək satıb borcunu ödəyəcəyək. Həmin mənzili Rusiyada yaşayan bir iş adamı 2 aya kimi gəlib alacaqdır. Ya da Ünvan 1-dəki evini təcili satıb borcu ödəyəcək, həmin vaxta kimi də borcundan hər ay 2000 dollar ödəyəcək. Beləliklə, o, cavabdehlə razılığa gəlmiş, cavabdeh kasasiya şikayəti də verməmişdir. Xəzər Rayon Məhkəməsinin 20.12.2018-ci il tarixli 2(003)-3599/18 qətnaməsi 12.06.2019-cu il tarixdə qanuni qüvvəyə minmiş, icraata yönləndirilmişdir. Bundan sonra cavabdehin xahişi ilə Ünvan 2-dəki satmaq istədiyi mənzilində olmuş, fotoşəkillərini çəkib içərisindəki bahalı soyuducu, televizor və başqa əşyalarla birlikdə 400000 manata, Ünvan 1-dəki evini isə 500000 manata satılması barədə elan saytlarında elan yerləşdirmişdir. Lakin 2 ildən artıqdır ki, nə Rusiyadakı iş adamından, nə elan izləyənlərdən, nə də Cavabdehdən məlumat yoxdur. Evləri mövcud durumuna görə bazar qiymətindən xeyli baha satmaq istəyir, onu almaq üçün axtardığı müştəri isə tapılmır. Bəlkə də satmaq istəmir və borcunu ödəyəcəyinə görüntü yaratmaq istəyir. 12.06.2019-cu il tarixə cavabdehin ona borcu (145 068,82 + 102 181,79) 247 250,61 ABŞ dolları, manat ekvivalenti ilə 420 326 AZN olub. Cavabdehin borcunu ödəmək üçün ona söz verdiyi 12 aprel 2019-cu ildən iki ildən çox vaxt ötür. Bu müddət ərzində onun hesabına cəmi 8800 AZN (5170 dollar) ödəyib, bir ildən çoxdur ki, ümumiyyətlə ödəniş etmir. Xəzər Rayon İcra Şöbəsində isə icraçı X1 öz vəzifə borcunu yerinə yetirməyə, bu məsələnin qanuni həllinə yönəlik tədbirlər görməyə, hansı müəmmalı səbəbdənsə, görünmür. O, 1-ci Qarabağ savaşının iştirakçısı, II qrup əlil, ömrünün ahıl dövründədir, 73-cü yaşdadır. Yəni, fiziki durumu ürəkaçan deyildir. Cavabdeh isə onu mütəmadi aldadır, borcunu ödəməkdən yayınır, əmlakı qəsdən baha qiymətə təklif edir ki, alan olmasın və borcunu yubatsın, verməsin. Onun də öz problemləri var, borcunu vaxtında ala bilsəydi, ən azından banka depozit kimi yatıraraq ilə 12 faiz fayda yararlanardı. İllik faizi sonda götürüb yenidən banka yatırsaydı, fayda daha böyük olardı. Lakin bundan 8 ildir ki, mərhum olmuş, hesabla təkcə son iki ildə (420 326 x 12% x 2 il) 100 878 AZN və ya (10878:1,7) 59 340 ABŞ dolları edir. Lakin bu məbləğ cavabdehin qanunazidd hərəkətləri nəticəsində əlindən çıxmışdır. Azərbaycan Respublikasının Mərkəzi Bankının rəsmi intemet səhifəsində yerləşdirilmiş məlumata əsasən uçot faiz dərəcəsi 30.10.21-ci il tarixdən etibarən 9,75% təşkil edir. Cavabdeh, onun pul vəsaitini qanunsuz olaraq özündə saxlayır, ona qaytarmaqdan boyun qaçırır, həmin vəsaitdən istifadə edir, faydalanır. Odur ki, cavabdeh borcu qaytarılmalı olduğu tarixdən borclu olduğu vəsaiti qaytaranadək gecikdirilmiş vəsaitə gecikdirilmiş vaxt üçün faiz ödəməyə borcludur.

5. Məhkəmə iclasında cavabdehin iddia tələbini qəbul etməyərək bildirmişdir ki, ondan iddiaçının xeyrinə borc məbləğinin tutulması məhkəmə qətnaməsi ilə qərara alınmışdır. Həmin

qərar qanuni qüvvəsini almış və icraya yönəldilmişdir. İcra prosesində ondan pul tutulması davam edir. O, iddiaçıya olan borcundan fayda götürmür. Pulu olsaydı borcunu qaytarardı. Onun əmlakına həmin borca görə həbs qoyulmuşdur, borcdan ödəniş də edilmişdir. Qeyd olunanlara əsasən, iddia tələbinin rədd edilməsi barədə qətnamə çıxarılmasını məhkəmədən xahiş etmişdir.

6. Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin (bundan sonra – birinci instansiya məhkəməsi) 30 iyul 2021-ci il tarixli, e-2(003)-2796/2021 saylı qətnaməsi ilə (hakim R.Xəzri) iddia rədd edilmişdir.

7. Birinci instansiya məhkəməsi qənaətini onunla əsaslandırmışdır ki, pul öhdəliyinin icra edilməməsinə görə məsuliyyət müəyyən edən Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 449-cu maddəsinin məzmununa görə, özgəsinin pul vəsaitini qanunsuz saxlamaqla, onu qaytarmaqdan boyun qaçırmaqla, onun ödənilməsini digər şəkildə gecikdirməklə və ya başqa şəxsin hesabına pul vəsaitini əsassız əldə etməklə və ya toplamaqla ondan faydalanmağa görə həmin vəsaitin məbləğindən faizlər ödənilməlidir. Bu maddənin məzmunundan görünür ki, faizlərin hesablanaraq tutulması üçün tək özgənin pul vəsaitini qanunsuz saxlamaq yox, həm də ondan faydalanmaq halı mövcud olmalıdır.

8. Hazırkı mülki işlə bağlı cavabdehin iddiaçıdan almış olduğu pul vəsaitindən Azərbaycan Respublikası MM-nin 152.3-cü maddəsi ilə nəzərdə tutulmuş hər hansı formada faydalanması halı müəyyən edilməmişdir. Ona görə də məhkəmə hesab edir ki, iddia tələbi kifayət qədər əsaslı deyildir və təmin edilə bilməz.

9. Birinci instansiya məhkəməsi gəldiyi nəticəni Mülki Məcəllənin 21.1, 21.2, 152.3, 449-cu, Mülki Prosessual Məcəllənin 14.2, 77.1, 119.1, 217.4-cü maddələri və "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 449-cu maddəsinin bəzi müddəalarının şərh olunmasına dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 09 iyul 2009-cu il tarixli Qərarı ilə əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsində birinci icraat

10. İddiaçı apellyasiya şikayəti verərək birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv edilərək iddianın tam təmin edilməsi barədə yeni qətnamə çıxarılmasını xahiş etmişdir.

11. Apellyasiya şikayəti onunla əsaslandırılmışdır ki, birinci instansiya məhkəməsinin qətnaməsi əsassızdır. Maddi və prosessual hüquq normalarının pozulması, qanuni qüvvədə olan məhkəmə qərarlarının nəzərə alınmaması, sübutlara düzgün hüquqi qiymət verilməməsi, iş üzrə tam və hərtərəfli araşdırmanın aparılmaması ilə qəbul edilmişdir.

12. Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının (hakimlər-A. Tanrıverdiyev - sədrlik edən və məruzəçi, T.Səmədov, İ.Kərimli) 17 dekabr 2021-ci il tarixli, 2(103)-10601/2021 saylı qətnaməsi ilə apelyasiya şikayəti təmin edilməyərək, Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin 30 iyul 2021-ci il tarixli, e-2(003)-2796/2021 saylı qətnaməsinin dəyişdirilmədən saxlanması qət edilmişdir.

13. Apelyasiya instansiyası məhkəməsi qənaətini onunla əsaslandırmışdır ki, iddia tələbinin rədd edilməsindən ibarət birinci instansiya məhkəməsinin qətnaməsi işin hallarına və qanunvericiliyin tələblərinə uyğun olduğundan apelyasiya şikayətinin dəlilləri qətnamənin ləğvi üçün əsas deyildir. Odur ki, iddiaçının apelyasiya şikayəti təmin edilməməli, qətnamə dəyişdirilmədən saxlanılmalıdır.

14. Apellyasiya instansiya məhkəməsi gəldiyi nəticəni Mülki Məcəllənin 152.3, 449-cu, Mülki Prosessual Məcəllənin 14.2, 77.1,217.4-cü maddələrinə istinad etməklə əsaslandırmışdır.

c) Kassasiya instansiyası məhkəməsində birinci icraat

15. İddiaçı kassasiya şikayəti verərək apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv edilərək iddianın təmin olunması barədə qərar qəbul edilməsini xahiş etmişdir.

16. Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının (bundan sonra – kassasiya instansiya məhkəməsi) 2(102)-2522/2022 nömrəli, 24 may 2022-ci il tarixli qərarı ilə (hakimlər M.Əhmədova (sədrlik edən və məruzəçi), Ə.Əliyev və İ.Xəlilov) kassasiya şikayəti qismən təmin edilmiş, birinci instansiya məhkəməsinin qətnaməsi ləğv edilərək işin yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə qaytarılması qərara alınmışdır.

17. Məhkəmə kollegiyası mövqeyini belə əsaslandırmışdır ki, kassasiya yoxlaması nəticəsində işdən görünən hal ondan ibarətdir ki, işə mahiyyəti üzrə baxmış apelyasiya kollegiyası birinci instansiya məhkəməsinin mövqeyini təkrarlamaqla kifayətlənmişdir. Halbuki, iş materiallarında olan apelyasiya şikayətindən də görünür ki, iddiaçı Azərbaycan Respublikasının MPM-nin 82.3-cü maddəsinə istinadən daha əvvəl qəbul edilmiş Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin qanuni qüvvəyə minmiş 20 dekabr 2018-ci il tarixli 2(003)-3599/2018 №-li qətnaməsi ilə cavabdehin ona borclu olduğu pul vəsaiti qanunsuz saxlamaqla ondan faydalandığının müəyyən edildiyini, həmin məhkəmə aktının preyudisial xarakterini bildirmiş, lakin işə mahiyyəti üzrə baxmış apelyasiya kollegiyası bu hala ümumiyyətlə münasibət bildirməmiş, birinci instansiya məhkəməsinin Azərbaycan Respublikasının MPM-in 82.3-cü maddəsinin tələblərinin pozuntusuna yol verməsinə əhəmiyyət verməyərək özü də həmin normanın pozuntusuna yol vermişdir. İş materiallarında olan cavabdehin istintaq orqanına verdiyi izahatdan (səh 96-98) da görünür ki, hələ izahat verildiyi dövrdə, yəni 20.04.2016-cı ildə cavabdeh xəz alveri ilə məşğul olduğunu, qısa müddətdə ya xəz ilə borcunu əvəzləşdirəcəyini, ya da pulu tam ödəyəcəyini bildirmiş, lakin həmin zamandan iddiaçı qarşısında öhdəliyinin cüzi hissəsini həyata keçirmişdir. Cavabdehin hazırkı dövrdə də həmin fəaliyyətini davam etdirməsi iddiaçı tərəfindən məhkəməyə təqdim edilmiş fotoşəkillərlə də təsdiqini tapmışdır. Ticarət sahəsində fəaliyyətlə məşğul olmaq üçün müəyyən məbləğdə vəsaitə malik olmaq lazımdır ki, həmin vəsaiti dövr etdirməklə fəaliyyətin davamlı olmasına nail olunsun. Əgər cavabdeh həmin vəsaitə malik olmasa idi, izahatı verdiyi dövrdən hazırki dövrə kimi, yəni 6 ildən artıq müddətdə fəaliyyətinə son verməli idi ki, bu halın da baş verməsi müəyyən olunmur.

c) Apellyasiya instansiyası məhkəməsində ikinci icraat

18. Məhkəmə Ekspertizası Mərkəzinin 22 avqust 2023-cü il tarixli, 3-16/16/29/4968/2023 saylı rəyiinə əsasən - iş materiallarında olan İddiaçı na məxsus “XXX” ASC-də olan bank hesabından çıxarış məlumatlarından göründüyü kimi (cild 1 i.v 103-105) 12.06.2019-cu il tarixdən 31.07.2021ci il tarixədək olan dövrdə 8176,47 ABŞ dolları məbləğində ödəniş aparılmışdır. 145068,82 ABŞ dolları pul vəsaiti (icra zamanı sonrakı ödənişlər nəzərə alınmaqla) 12 iyun 2019-cu il tarixdən 31 iyul 2021-ci il tarixədək Mərkəzi Bankın uçot faiz dərəcəsi nəzərə alınmaqla və üzərinə iki bənd əlavə olunmaqla, yəni 11.75 faiz hesablandıqda faiz borcu 34.758,93 ABŞ dolları təşkil edir.

19. Bakı Apellyasiya instansiya məhkəməsinin 2(103)-289/2023 nömrəli, 26 sentyabr 2023-cü il tarixli qətnaməsi ilə (hakimlər R.Eyvazov (sədrlik edən və məruzəçi), C.Musayeva

və G.Axundova) iddiaçının apellyasiya şikayəti qismən təmin edilmiş, Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin 30 iyul 2021-ci il tarixli, e-2(003)-2796/2021 saylı qətnaməsi ləğv olunmuş, iddianın qismən təmin olunması, cavabdehdən İsmayılov Cavabdeh iddiaçının xeyrinə 34758,93 (otuz dörd min yeddi yüz əlli səkkiz ABŞ dolları, 93 sert) ABŞ dolları (qətnamə icra olunan vaxii ABŞ dollarının Azərbaycan manatına məzənnəsi üzrə manatla) pul vəsaitinin tutulması qət edilmiş, iddia qalan hissədə təmin olunmamışdır.

20. Apellyasiya instansiya məhkəməsi qeyd etmişdir ki, iddiaçı hazırkı iddiasında – 12 iyun 2019-cu il tarixdə cavabdehin ona 145068,82 ABŞ dolları borcunun qalmasını göstərərək, həmin pul vəsaitinin üzərinə Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin 20 dekabr 2018-ci il tarixli qətnaməsi ilə müəyyən olunmuş 102181.79 ABŞ dolları pul vəsaitini də gəlmiş, ümumilikdə cavabdehin ona 247250,61 ABŞ dolları pul ödəməli olmasını qeyd etmişdir. İddiaçı hesab edir ki, həmin pul vəsaitini banka illik 12 faizlə depozitə qoya və təkcə son iki ildə 59340 ABŞ dolları gəlir əldə edə bilərdi. Həmçinin, Mərkəzi Bankın rəsmi internet səhifəsinə yerləşdirilmiş məlumata əsasən uçot faiz dərəcəsi 30 oktyabr 2018-ci il tarixdən etibarən 9,75 faiz təşkil etmişdir. Hesab edir ki, 01 yanvar 2019-cu il tarixdən 31 iyul 2021-ci il tarixədək Mərkəzi Bankın uçot faiz dərəcəsi nəzərə alınmaqla cavabdehdən onun xeyrinə 64070,37 ABŞ dolları pul vəsaiti tutulmalıdır.

21. Apellyasiya məhkəməsinin mövqeyinə görə kreditor kredit müqaviləsindən irəli gələn öhdəliyin icrası üçün nəzərdə tutulmuş müddət bitənədək pul vəsaitindən istifadə haqqının (faizlərin), həmin müddətdən sonrakı dövr üçün isə öhdəliyin icra edilməməsinə görə mülki qanunvericilikdə nəzərdə tutulmuş və hesablanmış faiz formasında zərərin (real zərər və əldən çıxmış faydanın) ödənilməsini tələb edə bilər.

22. Borclunun icranı gecikdirməsi hər bir hüquq pozuntusu kimi onun məsuliyyətinə səbəb olur. İcranın borclu tərəfindən gecikdirilməsi ona görə yolverilməzdir ki, bunun nəticəsində kreditora zərər dəyir. Pul öhdəliklərinin spesifik xüsusiyyətləri nəzərə alınmaqla, pul məbləğinin ödənilməsinin gecikdirilməsinin hüquqi nəticələri mülki qanunvericilikdə müəyyən edilmişdir.

23. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu “Mülki Məcəllənin 449-cu maddəsinin bəzi müddəalarının şərh olunmasına dair” 09 iyul 2009-cu il tarixli qərarında göstərmişdir ki, MM-in 449.1-ci maddəsinə əsasən faydalanmağa görə faizlərin tutulması pul öhdəliyinin icra edilməməsi üçün tətbiq olunan sanksiya olmaqla mülkihüquqi məsuliyyət tədbiridir. Məsuliyyət isə tərəflərin münasibətləri çərçivəsində bir tərəfin öz öhdəliklərinə əməl etməməsi və müəyyən olunmuş razılaşmanı pozması, yəni təqsirli hərəkətə (hərəkətsizliyə) yol verməsi nəticəsində əmələ gələ bilər. Şərh olunan maddənin mənasına görə, bu maliyyə sanksiyası pul öhdəliyi üzrə yalnız borc məbləğinə hesablanır və bu halda, həmin məbləğin üstünə gəlmiş faiz məbləği nəzərə alınmır.

24. Göründüyü kimi, birinci instansiya məhkəməsinin mövqeyi əsaslandırılmamaqla, işin halları və qanunvericiliyin tələbləri ilə uzlaşmır.

25. Birinci instansiya məhkəməsini sübutetmə yükünü iddiaçının üzərinə qoysa da, nəzərə almamışdır ki, eyni tərəflər arasında analoji mübahisəli məsələ ilə bağlı qanuni qüvvəsini almış məhkəmə aktları mövcuddur.

26. Yuxarıda da qeyd edildiyi kimi, Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin qanuni qüvvəyə minmiş 20 dekabr 2018-ci il tarixli, 2(003)-3599/2018 saylı qətnaməsi ilə cavabdehin iddiaçıya borclu olduğu pul vəsaitini qanunsuz saxlamaqla ondan faydalandığı müəyyən

edilmiş, bu səbəbdən də cavabdehdən məhz MM-in 449.1-ci maddəsinin tələbləri çərçivəsində pul vəsaitinin tutulması qət olunmuşdur.

27. MPM-in 82.3-cü maddəsinə əsasən bir mülki iş üzrə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsi ilə müəyyən edilmiş faktlar həmin işdə iştirak edən şəxslər tərəfindən başqa məhkəmə prosesində mübahisələndirilmir və yenidən sübut edilmir.

28. Cavabdehin istintaq orqanına verdiyi izahatdan da görünür ki, hələ izahat verildiyi dövrdə, yəni 20.04.2016-cı ildə cavabdeh xəz alveri ilə məşğul olduğunu, qısa müddətdə ya xəz ilə borcunu əvəzləşdirəcəyini, ya da pulu tam ödəyəcəyini bildirmiş, lakin həmin zamandan iddiaçı qarşısında öhdəliyinin cüzi hissəsini həyata keçirmişdir. Cavabdehin hazırkı dövrdə də həmin fəaliyyətini davam etdirməsi iddiaçı tərəfindən məhkəməyə təqdim edilmiş fotoşəkillərlə də təsdiqini tapmışdır. Ticarət sahəsində fəaliyyətlə məşğul olmaq üçün müəyyən məbləğdə vəsaitə malik olmaq lazımdır ki, həmin vəsaiti dövr etdirməklə fəaliyyətin davamlı olmasına nail olunsun. Əgər cavabdeh həmin vəsaitə malik olmasa idi, izahatı verdiyi dövrdən hazırki dövrə kimi, yəni 6 ildən artıq müddətdə fəaliyyətinə son verməli idi ki, bu halın da baş verməsi müəyyən olunmur. Cavbadeh tərəf isə etirazının əsası kimi istinad etdiyi halları əsaslandıra və sübut edə bilməmişdir.

29. İşin faktiki halları və qanunvericiliyin qeyd edilən tələblərindən göründüyü kimi, cavabdeh öhdəliyini lazımi qaydada icra etmədiyindən və iddiaçıya məxsus müvafiq pul vəsaitlərini qanunsuz saxlamaqla, ondan faydalandığından həmin vəsaitin məbləğindən faizlər ödənilməlidir.İddiaçının qeyd edilən tələb hüququ isə bilavasitə qanundan irəli gəlir.

30. Məhkəmə kollegiyası hesab etmişdir ki, iddia qismən təmin edilməlidir. Çünki, iddiaçı müvafiq faizləri əsas borcdan deyil, ona hesablanmış faizləri də üzərinə gəlməklə hesablamışdır. MM-in 449.1-ci maddəsinin mənasına görə, normada nəzərdə tutulmuş maliyyə sanksiyası pul öhdəliyi üzrə yalnız borc məbləğinə hesablanır və bu halda, həmin məbləğin üstünə gəlmiş faiz məbləği nəzərə alınmır (Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu “Mülki Məcəllənin 449-cu maddəsinin bəzi müddəalarının şərh olunmasına dair” 09 iyul 2009-cu il tarixli qərarı).

31. İşdə olan ekspertiza rəyinə (Məhkəmə Ekspertizası Mərkəzinin 22 avqust 2023-cü il tarixli, 3- 16/16/2-9/4968/2023 saylı rəyi) əsasən - iş materiallarında olan İddiaçı na məxsus “Azərbaycan Beynəlxalq Bankı” ASC-də olan bank hesabından çıxarış məlumatlarından göründüyü kimi (cild 1 i.v 103-105) 12.06.2019-cu il tarixdən 31.07.2021- ci il tarixədək olan dövrdə 8176,47 ABŞ dolları məbləğində ödəniş aparılmışdır. 145068,82 ABŞ dolları pul vəsaiti (icra zamanı sonrakı ödənişlər nəzərə alınmaqla) 12 iyun 2019-cu il tarixdən 31 iyul 2021-ci il tarixədək Mərkəzi Bankın uçot faiz dərəcəsi nəzərə alınmaqla və üzərinə iki bənd əlavə olunmaqla, yəni 11.75 faiz hesablandıqda faiz borcu 34.758,93 ABŞ dolları təşkil edir.

32. Belə olan halda iddiaçının apellyasiya şikayəti qismən təmin edilməli, birinci instansiya məhkəməsinin qətnaməsi ləğv olunmalı, iddia qismən təmin edilməli, cavabdehdən iddiaçının xeyrinə 34758,93 ABŞ dolları (qətnamə icra olunan vaxtı ABŞ dollarının Azərbaycan manatına məzənnəsi üzrə manatla) tutulmalı, iddia qalan hissədə təmin olunmamalıdır.

33. Apellyasiya instansiya məhkəməsi gəldiyi nəticəni Mülki Məcəllənin 389.1, 390, 399, 442, 439.3, 449.1-ci, Mülki Prosessual Məcəllənin 14.2, 77.1, 82.3-cü maddələrinə istinad etməklə əsaslandırmışdır.

Kassasiya şikayətinin və ona qarşı etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

34. İddiaçı (vəkili) kassasiya şikayəti verərək, apelyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv edilərək iddia tələbinin təmin edilməsi barədə yeni qərar qəbul edilməsini xahiş etmişdir.

35. Kassasiya şikayəti onunla əsaslandırılmışdır ki, məhkəmə qətnaməsində qeyd etmişdir: "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu "Mülki Məcəllənin 449-cu maddəsinin bəzi müddəalarının şərh olunmasına dair" 09 iyul 2009-cu il tarixli qərarında göstərmişdir ki, MM-in 449.1-ci maddəsinə əsasən faydalanmağa görə faizlərin tutulması pul öhdəliyinin icra edilməməsi üçün tətbiq olunan sanksiya olmaqla müki-hüquqi məsuliyyət tədbiridir. Məsuliyyət isə tərəflərin münasibətləri çərçivəsində bir tərəfin öz öhdəliklərinə əməl etməməsi və müəyyən olunmuş razılaşmanı pozması, yəni təqsirli hərəkətə (hərəkətsizliyə) yol verməsi nəticəsində əmələ gələ bilər. Şərh olunan maddənin mənasına görə, bu maliyyə sanksiyası pul öhdəliyi üzrə yalnız borc məbləğinə hesablanır və bu halda, həmin məbləğin üstünə gəlmiş faiz məbləği nəzərə alınmır." Məhkəmə bu normaya istinad edərək faizlərin yalnız əsas borc məbləğinə hesablanmalı olduğu qənaətinə gələrək yanlış qətnamə qəbul etmişdir.

36. Məhkəmə müddət və müddətin axımı ilə bağlı normaları da pozmuşdur. Belə ki, Xəzər Rayon Məhkəməsi 20 dekabr 2018-ci il tarixli 2(003)-3599/2018 №-li qətnaməsi ilə Cavabdehdən xeyrinə 102181,79 (yüz iki min yüz səksən bir, yetmiş doqquz) ABŞ dolları icra vaxtı manata olan məzənnə ilə manatla tutulması barədə qətnamədə 4 aprel 2013-cü ildən başlayaraq qətnamənin çıxarıldığı vaxtadək – 2018-ci ilin sonunadək olan dövr üçün faizlərin tutulması barədədir. Hazırkı iddia tələbi isə qətnamənin vaxtında icra olunmadığına görə 01 yanvar 2019-cu ildən 31 iyul 2021- ci ilədək olan dövrə aiddir. Yəni, iddia tələbi ilə əlaqədar müddət uzadıldığından MM-nin 369.8-ci maddəsinə əsasən iddia tələbi üzrə müddət bitmiş müddətin sonundan – 01.01.2019-cu ildən hesablanmalıdır, tələbində də məhz bu tarix göstərilib. Lakin işə baxan tərkib bu normanın əksinə, müddətin axımını iddiaçının ziyanına pozaraq tamamilə yanlış bir tarixdən – bundan 6 aya yaxın sonradan müəyyən etmişdir ki, bu da tamamilə məntiqsiz və qeyri obyektivdir.

37. Təmin olunan iddia üzrə çıxarılan və qanuni qüvvəyə minən qətnamədə qət edilən faiz məbləğinə görə ayrıca icra vərəqəsi tərtib edilmiş, icra şöbəsində isə bu, əvvəlki əsas məbləğ üzrə icra vərəqinə birləşdirilərək ümumi borc məbləği kimi icra olunmasına qərar verilmişdir. 01.01.2019-cu ildən 31.07.2021-ci ilə, yəni ərizəni məhkəməyə təqdim etdiyi vaxtadək qalıq borcuna hesablanan faizlərin üzərinə isə faiz əlavə etməmiş, məhkəmə qətnamələri ilə yaranmış və ödənilməmiş borc qalığına faiz hesablamışdır. Bu qətnamə də hazırkı işdəki eyni iddiaçı, eyni cavabdeh və eyni məsələ barədədir. Qətnamədə cavabdehin apellyasiya şikayətinin rədd edilməsi, Xəzər Rayon Məhkəməsinin qanuni qüvvəyə minmiş 20 dekabr 2018-ci il tarixli 2 (003)-3599/2018 №-li qətnaməsin dəyişdirilmədən saxlanması qət edilmişdir. Eyni məhkəmənin eyni iddiaçı, eyni cavabdeh və eyni məsələ barədə mövqeyi bu iki qətnamədə - yəni, Bakı Apellyasiya Məhkəməsinin 12 aprel 2019-cu il tarixli 2 (103)-4438/2019 №-li qətnaməsi ilə Bakı Apellyasiya Məhkəməsinin 17.12.2021 tarixli 2(103)-10601/2021 №-li qətnaməsi bir-birinə tamamilə ziddir. Bu da məhkəmə təcrübəsinin vahidliyinin pozulmasına kəsərli dəlildir.

38. Cavabdeh (vəkili) kasasiya şikayəti verərək, apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv edilərək işin yeni apellyasiya baxışına qaytarılmasını xahiş etmişdir.

39. Kassasiya şikayəti onunla əsaslandırılmışdır ki, iddiaçı əsassız iddialarla məhkəmələrə müraciət edərək vaxt uzadaraq faizlər tələb etməklə həmin faizlərin məbləğini

süni surətdə artırmaq, həmin faizləri əsas borca əlavə etməklə tələbin yönəldiyi əmlakın qiymətinə bərabərləşdirmək istəyir. Məhkəmə kollegiyası iddiaçıya ödənişlər etməyi, bankdan təqdim edilmiş arayışla iddiaçının hesablna pullar yatırmağı nəzərə almamış, 2020-ci il tarixədək etdiyi ödənişlərin qəbzlərini təqdim etməyə şərait yaratmamış, tələb edilən faizlərin ödənişlər etdiyi halda hansı borc məbləğindən hesablandığını araşdırmamış nəticədə ədalətsiz qərar qəbul etmişdir. Məhkəmə qətnaməsinin icrası ilə bağlı üzərinə düşən bütün öhdəlikləri yerinə yetirmiş, iddiaçıya pul məbləğləri ödəməklə yanaşı əmlakını təhvil vermiş, əmlak qiymətləndirilmiş, satılması üçün hərraca çıxarılmış, hərracda həmin əmlak iddiaçıya təklif olunmuşdur. Lakin iddiaçı həmin əmlakı əldə etməkdən imtina etmişdir. Bütün bu hallar məhkəmə tərəfindən 2 ildən artıq davam edən məhkəmə işi zamanı nəzərə alınmamış, bu hallara hüquqi qiymət veriməmişdir.

40. Məhkəmə qeyd etmişdir ki, MM-in 449.1-ci maddəsində əksini tapmış «ondan faydalanmağa görə» müddəası özgəsinin pul vəsaitinin qanunsuz saxlanılması, onu qaytarmaqdan boyun qaçırılması, onun ödənilməsinin digər şəkildə gecikdirilməsi və ya başqa şəxsin hesabına pul vəsaitinin əsassız əldə edilməsi və ya toplanılması nəticəsində MM-in 152.3-cü maddəsində göstərilmiş gəlirin, artımın, bəhərin və ya sair maddi xeyirin əmələ gəlməsini nəzərdə tutur. Lakin işin faktiki hallarından göründüyü kimi cavabdeh həmin pul vəsaitindən hər hansı formada gəlir əldə etməmişdir. Belə ki, borc hesab edilən həmin pul vəsaiti birgə ticarətlə məşğul olunması və iddiaçı ilə cavabdehin hər ikisinin gəlir əldə etməsi məqsədi ilə alınsa da, sonradan cavabdehin AR CM-nin 263-cü maddəsi ilə məsuliyyətə cəlb olunması, daha sonra isə dünyada və ölkəmizdə baş vermiş pandemiya səbəbindən iş yerlərinin bağlanması səbəbindən yaranmışdır ki, burada cavabdeh özü ən cox ziyan çəkmişdi. Ümumilikdə işə yalnız iddiaçı tərəfin təqdim etdiyi sübutlara istinad etməklə baxılmışdır.

b) Kasasiya şikayətinə qarşı etirazın dəlilləri

41. İddiaçı cavabdehin kassasiya şikayətinə qarşı öz şikayətinin məzmununa uyğun məzmunda yazılı etiraz təqdim edərək, şikayətinin təmin olunması barədə qərar qəbul edilməsini xahiş etmişdir.

Tətbiq edilən hüquq

Azərbaycan Respublikasının Mülki Məcəlləsi:

42. Maddə 442. Öhdəliyin vaxtında icra edilməməsi hüquqi nəticələrə səbəb olan öhdəliyin pozulması hallarından biridir. Öhdəliyin icra edilməməsi dedikdə, onun pozulması və ya lazımınca icra edilməməsi (vaxtında icra edilməməsi, mallarda, işlərdə və xidmətlərdə qüsurlarla və ya öhdəliyin məzmunu ilə müəyyənləşdirilmiş digər şərtləri pozmaqla icra edilməsi) başa düşülür.

43. Maddə 445.7. Borclu pul məbləğinin ödənilməsini gecikdirdikdə, əgər kreditor digər əsaslardan çıxış edərək daha böyük məbləğ tələb edə bilmirsə, gecikdirilmiş vaxt üçün illik beş faiz ödəməyə borcludur. Faizdən faiz ödənilməsi yolverilməzdir.

44. Maddə 449.1. Özgəsinin pul vəsaitini qanunsuz saxlamaqla, onu qaytarmaqdan boyun qaçırmaqla, onun ödənilməsini digər şəkildə gecikdirməklə və ya başqa şəxsin hesabına pul vəsaitini əsassız əldə etməklə və ya toplamaqla ondan faydalanmağa görə həmin vəsaitin məbləğindən faizlər ödənilməlidir. Faizlərin miqdarı pul öhdəliyinin və ya onun müvafiq hissəsinin icra edildiyi gün üçün bank uçot dərəcəsi ilə müəyyənləşdirilir. Borc məhkəmə qaydasında tutulduqda məhkəmə kreditorun tələbini qərarın çıxarıldığı gün üçün bank uçot dərəcəsini əsas götürməklə ödəyə bilər.

45. Maddə 449.4. Özgə vəsaitindən istifadə üçün faizlər, əgər bu Məcəllədə və ya müqavilədə faizlərin hesablanması üçün daha qısa müddət müəyyənləşdirilməyibsə, həmin vəsait məbləğinin kreditora ödənildiyi günə qədər tutulur.

46. Maddə 439.3. Qanuna və ya müqaviləyə əsasən borcun üstünə faizlər hesablanmalı olduqda, əgər bu Məcəllə ilə və ya müqavilə ilə ayrı qayda müəyyənləşdirilməyibsə, onlar iki faiz bəndi əlavə edilməklə Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən müəyyən edilən uçot dərəcəsi miqdarında, lakin ildə azı beş faiz miqdarında hesablanır.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi:

47. Maddə 14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

48. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

49. Maddə 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

50. Maddə 217.2. Qətnamə mübahisəli hüquq münasibətinin yarandığı zaman qüvvədə olan maddi hüquq normalarına və işin baxılması zamanı qüvvədə olan prosessual hüquq normalarına uyğun çıxarılmalıdır.

51. Maddə 407.2. Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların Cavabdehlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmədiyi üçün kassasiya instansiyası məhkəməsi şikayətin belə dəlilləri üzrə araşdırma aparmır və onlara qiymət vermir.

52. Maddə 416.1. Kasasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kasasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apelyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

Kassasiya baxışının hədləri

53. Qanunun tələbinə görə kasasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kasasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

54. Kassasiya şikayətlərində qətnamə tam mübahisələndirldiyi üçün apellyasiya instansiyası məhkəməsinin aktı bütövlükdə yoxlanılır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

55. Məhkəmə kollegiyası hesab edir ki, apellyasiya instansiyası məhkəməsi tərəfindən mübahisəli hüquq münasibətini tənzimləyən maddi hüquq normaları düzgün tətbiq olunmuşdur. İş üzrə düzgün qətnamə qəbul edilməməsi ilə nəticələnən prosessual hüquq normalarının pozulması və ya səhv tətbiq olunması halları müəyyən edilmir. Bu baxımdan, apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv olunması və ya dəyişdirilməsi üçün əsas yoxdur.

56. Belə ki, iddiaçının tələbi pul borcunun qaytarılmamasına görə ona hesablanan gecikdirmə faizlərinin cavabdehdən tutulması barədədir. Cavabdeh isə sözügedən pul vəsaitindən faydalanmadığını bildirərək iddiaya etiraz edir.

57. Mülki Məcəlləyə əsasən, özgəsinin pul vəsaitini qanunsuz saxlamaqla, onu qaytarmaqdan boyun qaçırmaqla, onun ödənilməsini digər şəkildə gecikdirməklə və ya başqa şəxsin hesabına pul vəsaitini əsassız əldə etməklə və ya toplamaqla ondan faydalanmağa görə həmin vəsaitin məbləğindən faizlər ödənilməlidir. Faizlərin miqdarı pul öhdəliyinin və ya onun müvafiq hissəsinin icra edildiyi gün üçün bank uçot dərəcəsi ilə müəyyənləşdirilir. Borc məhkəmə qaydasında tutulduqda məhkəmə kreditorun tələbini qərarın çıxarıldığı gün üçün bank uçot dərəcəsini əsas götürməklə ödəyə bilər. Qanuna və ya müqaviləyə əsasən borcun üstünə faizlər hesablanmalı olduqda, əgər bu Məcəllə ilə və ya müqavilə ilə ayrı qayda müəyyənləşdirilməyibsə, onlar iki faiz bəndi əlavə edilməklə Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən müəyyən edilən uçot dərəcəsi miqdarında, lakin ildə azı beş faiz miqdarında hesablanır (§ 44, 46).

58. Apellyasiya məhkəməsi hesab etmişdir ki, cavabdeh iddiaçıya qaytarmalı olduğu əsas borcu vaxtında ödəmədiyindən 12 iyun 2019-cu il tarixdən 31 iyul 2021-ci il tarixədək əsas borca hesablanan və ekspertiza rəyi ilə müəyyən edilmiş 34.758,93 ABŞ dolları gecikdirmə faizi ödəniş gününə manat məzənnəsi ilə tutulmalıdır.

59. İş üzrə gecikdirmə faizinin əvvəlinin hansı tarixdən götürülməsi ilə bağlı iddia tərəfinin mövqeyinə apelyasiya məhkəməsinin qətnaməsində Cavabdehlıq gətirilərək qeyd olunmuşdur ki, “iddiaçı hazırkı iddiasında – 12 iyun 2019-cu il tarixdə cavabdehin ona 145068,82 ABŞ dolları borcunun qalmasını göstərərək, həmin pul vəsaitinin üzərinə Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin 20 dekabr 2018-ci il tarixli qətnaməsi ilə müəyyən olunmuş 102181.79 ABŞ dolları pul vəsaitini də gəlmiş, ümumilikdə cavabdehin ona 247250,61 ABŞ dolları pul ödəməli olmasını qeyd etmişdir” (§ 20).

60. Məhkəmə cavabdehin də etirazına qiymət verərək bildirmişdir ki, onun ticarət fəaliyyəti ilə məşğul olması işdəki sübutlarla təsdiqlənir, bu fəaliyyətin davam etdirilməsi üçün pul vəsaitinə malik olmaq lazımdır. Əgər cavabdeh belə vəsaitə malik olmasaydı ticarət fəaliyyətini sonlandırardı, lakin bu hal müəyyən edilmir (§ 28).

61. Kollegiya bildirir ki, sübutları araşdırmaq və qiymətləndirmək səlahiyyətinə malik olan apellyasiya məhkəməsi tərəfindən işdəki sübutlar araşdırılmış, onlara və tərəflərin dəlillərinə hüquqi qiymət verilməklə yuxarıdakı qənaətə gəlinmiş və məhkəmənin gəldiyi nəticə əsaslandırılmışdır. Kassasiya kollegiyası apellyasiya məhkəməsinin iş üzrə gəldiyi nəticə və əsaslandırma ilə razılaşır.

62. Belə ki, kassasiya instansiyası məhkəməsi sübuta yetirilməyən halların əlavə araşdırılması vəzifəsini öz üzərinə götürmədən mülki prosesdə rəhbər tutulan hüquqi həqiqət prinsipinə uyğun olaraq, yalnız iş üzrə müəyyən edilmiş hallara hüququn düzgün tətbiq edilib-edilmədiyini yoxlayır.

63. Kollegiya hesab edir ki, daha əvvəl məhkəmə qətnaməsi ilə tutulmuş faiz borcunun əsas borca birləşdirilməklə ümumi məbləğə gecikdirmə faizi tutulması tələbinin təmin edilməməsi hissəsində də apelyasiya məhkəməsi düzgün nəticəyə gəlmişdir.

64. Belə ki, 102.181,79 ABŞ dolları məbləğində pul Xəzər Rayon Məhkəməsinin 20 dekabr 2018-ci il tarixli 2(003)-3599/2018 №-li qətnaməsi ilə tutulsa da, həmin vəsait mahiyyəti etibarilə əsas borcun ödənilməsinin gecikdirilməsinə görə hesablanmış faiz borcudur. Bu borcun ödənilməsinin gecikdirilməsinə görə ona yenidən faiz hesablanması faizdən faiz ödənilməsi ilə nəticələnir.

65. Məlum olduğu kimi, borclu pul öhdəliyinin icrasını gecikdirdiyi halda faizdən faiz ödənilməsinin yolverilməzliyi qaydası tətbiq olunur (bu qayda Mülki Məcəllənin 445.7-ci

maddəsinin mübahisəli hüquq münasibətinin yarandığı zaman qüvvədə olan redaksiyasında nəzərdə tutulmuşdu - § 43).

66. Müqayisə üçün qeyd edilməlidir ki, 24 fevral 2023-cü il tarixli 822VIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə yeni redaksiyada verilən Mülki Məcəllənin 740.4-cü maddəsinə görə, "Faizlər, o cümlədən gecikdirilmiş vaxt üçün hesablanan faizlər və digər haqlar yalnız borcun qaytarıldığı günədək ödənilməmiş əsas borc qalığı məbləğinə hesablanır".

67. Göründüyü kimi, qanunverici hər iki normada mürəkkəb faiz tətbiqini qadağan edərək, gecikdirmə faizlərinin məhz əsas borc qalığına, özü də əsas borcun qaytarıldığı günədək hesablandığını nəzərdə tutmuşdur.

68. Kollegiya vurğulayır ki, faiz borcunun məhkəmə qərarı ilə tutulmasına görə onun əsas borca birləşdirilərək ümumi məbləğdən yenidən gecikdirmə faizi hesablanması, belə faizinin tutulması barədə qaydanın məqsədinə xidmət etmir. Faizin əsas borcla birlikdə deyil, ayrıca iddia qaldırılmaqla tələb edilməsi mümkün olsa belə, mahiyyətcə faiz alacağına yenidən faiz istənilməsi borclu üçün ədalətsiz nəticələrin yaranmasına gətirib çıxara bilər. Odur ki, faizdən faiz tutulması qadağası bu hala da şamil edilməlidir.

69. Təsadüfi deyil ki, Mülki Məcəllənin 449.4-cü maddəsində özgə vəsaitindən istifadə üçün faizlərin (əgər bu Məcəllədə və ya müqavilədə faizlərin hesablanması üçün daha qısa müddət müəyyənləşdirilməyibsə) həmin vəsait məbləğinin kreditora ödənildiyi günə qədər tutulduğu göstərilmişdir.

70. Gecikdirmə faizinin əsas borcun qaytarıldığı günədək tutulmasına dair qayda ilə mürəkkəb faiz tətbiqi imkanı istisna edilir və belə faiz yalnız əsas borcun qalığına hesablanmış olur. Pul vəsaitini vaxtında qaytarmayan borcluya bu qaydada tətbiq edilən maliyyə sanksiyası mütənasib və ədalətlidir.

71. Lakin kreditorun gecikdirilmə fazini bu qaydada tələb etməyib, hər dəfə müəyyən bir dövr üçün ayrıca iddia ilə faiz tələb edərək (məsələn, hər il iddia qaldırmaqla), məhkəmə qərarı əsasında tutulan faiz məblələrini əsas borca əlavə etməklə, ümumi məbləğə yenidən faiz hesablaması faktiki olaraq əsas borcun məbləğinin şişirdilməsi, dolaylı da olsa, gecikdirmə faizinə yenidən gecikdirmə faizinin hesablanması ilə nəticələnir. Bu isə borclunun vəziyyətini qeyri-mütənasib şəkildə pisləşdirir. Halbuki, heç kəsin təktərəfli hərəkəti ilə başqa şəxsin vəziyyətini ağırlaşdırmasına yol verilmir.

72. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu da "Mülki Məcəllənin 449-cu maddəsinin bəzi müddəalarının şərh olunmasına dair" 09 iyul 2009-cu il tarixli qərarında göstərmişdir ki, "MM-in 449.1-ci maddəsinə əsasən faydalanmağa görə faizlərin tutulması pul öhdəliyinin icra edilməməsi üçün tətbiq olunan sanksiya olmaqla mülki-hüquqi məsuliyyət tədbiridir. Məsuliyyət isə tərəflərin münasibətləri çərçivəsində bir tərəfin öz öhdəliklərinə əməl etməməsi və müəyyən olunmuş razılaşmanı pozması, yəni təqsirli hərəkətə (hərəkətsizliyə) yol verməsi nəticəsində əmələ gələ bilər. Şərh olunan maddənin mənasına görə, bu maliyyə sanksiyası pul öhdəliyi üzrə yalnız borc məbləğinə hesablanır və bu halda, həmin məbləğin üstünə gəlmiş faiz məbləği nəzərə alınmır".

73. Beləliklə, məhkəmə kollegiyası hesab edir ki, apellyasiya məhkəməsi tərəfindən işin hallarının araşdırılması üçün tərəflərə lazımi şərait yaradıldığından və onların dəlillərinə hüquqi qiymət verildiyindən iş üzrə maddi və prosessual hüquq normaları düzgün tətbiq olunmuşdur, kassasiya şikayətinin dəlilləri qətnamənin ləğv edilməsi üçün əsas təşkil etmir.

74. Ona görə də kassasiya şikayətləri təmin olunmamalı, apellyasiya instansiyası məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmalıdır.

75. Göstərilənlərə əsasən və MPM-in 416, 417 və 419-cu maddələrini rəhbər tutaraq, Məhkəmə kollegiyası

Qərara aldı:

Kassasiya şikayətləri təmin edilməsin.

Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 26 sentyabr 2023-cü il tarixli, 2(103)-289/2023 nömrəli qətnaməsi dəyişdirilmədən saxlanılsın.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

Öhdəliklərə xitam verilməsi

32. 2(102)-3953/2025 nömrəli, 2026-cı il 25 fevral tarixli qərar – İcrası mümkün olmadığına görə öhdəliyə xitam verilməsinin hüquqi əsasları

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: Tərəflərin bağladıqları müqaviləyə əsasən iddiaçı 1/12 payla mülkiyyətində olan fərdi yaşayış evini sökülmək üçün cavabdehə təhvil verməyi, cavabdeh isə tikilinin yerləşdiyi ərazidə inşa ediləcək hündürmərtəbəli yaşayış binasında sahəsi 19,6 kv.m. təşkil edən təmirli mənzili iddiaçıya verməyi, habelə mənzili təhvil verənədək iddiaçının kirayədə yaşaması üçün kirayə xərcini ödəməyi öhdəsinə götürmüşdür.

İddiaçı müqavilə öhdəliklərinin cavabdeh tərəfindən pozulmasına istinad edərək, yeni tikilmiş binada tam təmirli və çıxarışlı mənzillə təmin olunması, ödənilməmiş kirayə pullarının, habelə ona dəymiş maddi və mənəvi zərərin cavabdehdən tutulmasını tələb etmişdir.

Birinci instansiya məhkəməsi iddianı qismən təmin etsə də, apellyasiya instansiyası məhkəməsi qətnaməni ləğv edərək, iddianı o əsasla rədd etmişdir ki, binada 19,6 kv.m-lik mənzil olmadığından öhdəliyin cavabdeh tərəfindən icrası mümkün deyil. Bu səbəbdən həmin öhdəliyə xitam verilib. Məhkəmə Mülki Məcəllənin 556.1-ci maddəsinə istinad etmişdir.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi: Öhdəliyin yerinə yetirilməsinin mümkün olmaması icranın imkansızlığı (mümkünsüzlüyü) ilə bağlı bir məsələdir. İcra imkansızlığı, öhdəliyin yerinə yetirilməsinin daimi və qəti şəkildə mümkün olmamasıdır. Başqa sözlə, öhdəliyi icra etmək obyektiv səbəblərdən və hər kəs üçün imkan xaricində olur.

İcra mümkünsüzlüyü iki növdə olur: 1) başlanğıcdakı icra mümkünsüzlüyü; 2) sonrakı icra mümkünsüzlüyü. Bu növ imkansızlıqlar meydana gəlmə vaxtı və hüquqi nəticələri baxımından bir-birindən əhəmiyyətli şəkildə fərqlənirlər.

Başlanğıcdakı icra mümkünsüzlüyü əqdin bağlanmasından əvvəl meydana gələn səbəblərlə bağlıdır. Yəni öhdəliyin yerinə yetirilməsini mümkünsüz edən hallar əqd (müqavilə) bağlananadək mövcud olur. Bu halda öhdəlik ümumiyyətlə yaranmır. Çünki, başlanğıcdakı icra imkansızlığı, bağlandığı andan əqdin etibarsız (əhəmiyyətsiz) olmasına dəlalət edir.

Sonrakı icra mümkünsüzlüyü isə əqd etibarlı şəkildə bağlanandan sonra öhdəliyin icrası əsnasında ortaya çıxan imkansızlıqdır. Bu cür mümkünsüzlüyün özü də iki növdə olur: 1) sonrakı təqsirli icra mümkünsüzlüyü; 2) sonrakı təqsirsiz icra mümkünsüzlüyü.

Əgər öhdəliyin yerinə yetirilməsi müqavilə qurulduqdan sonra borclunun cavabdehlik daşıdığı hallara görə daimi və qəti şəkildə imkansız olmuşsa, burada sonrakı təqsirli icra mümkünsüzlüyündən söhbət gedir. O cümlədən, əgər borclu müqavilənin bağlandığı məqamda öhdəliyin icrasının sonradan mümkünsüz olacağını bilirsə və ya təxmin edirsə, yenə də təqsirli sayılır və kreditor qarşısında məsuliyyətdən azad olmur.

Öhdəliyin icrasının borcludan qaynaqlanan səbəblərə görə mümkün olmadığı belə hallarda onun öhdəliyinə nəinki xitam verilmir, əksinə o, bundan irəli gələn mənfi hüquqi nəticələr üçün kreditor qarşısında tam şəkildə məsul tutulur.

Müqavilə bağlandıqdan sonra öhdəliyin icrasını özünün təqsirli hərəkətləri ilə imkansız vəziyyətə gətirən borclunu mülki hüquqi məsuliyyətdən azad etmək olmaz. Başqa sözlə, borclunun müqavilə öhdəliyi xətm olmur, kreditorun da müqavilədən irəli gələn tələb hüquqları aradan qalxmır. Kreditorun borclunun ona təklif edə biləcəyi (müqavilədə nəzərdə tutulandan) ayrı icranı qəbul etmək hüququ (Mülki Məcəllə, maddə 435) ilə yanaşı, öhdəliyin icrası əvəzinə düşdüyü bütün zərərlərin ödənilməsini tələb etmək ixtiyarı var.

Bununla belə, borclunun iradəsi və fəaliyyət sferası xaricində meydana gələn, öhdəliyin icrasını mütləq və qaçılmaz şəkildə mümkünsüz edən qarşısıalınmaz (fövqəladə) hadisələr də baş verə bilər. Kreditor da özünün təqsirli hərəkəti ilə icranı imkansız edə bilər. Öhdəliyin icrası borclunun cavabdeh

olmadığı bu kimi hallardan irəli gəldiyi üçün ona təqsirsiz icra mümkünsüzlüyü deyilir. Bu halda öhdəliyin yerinə yetirilməsini imkansız edən səbəblərə görə borclunu məsul tutmaq olmur. Ona görə də, borclunun öhdəliyinə xitam verilir, o, kreditor qarşısında məsuliyyətdən azad edilir.

Odur ki, borclunun iradəsi xaricində, onun cavabdeh ola bilməyəcəyi hallarda öhdəliyə icra mümkün olmadığına görə xitam verilir. Bu şərt Mülki Məcəllənin 556.1-ci maddəsində "icra edilməmə tərəflərin heç birinin cavabdeh olmadığı haldan irəli gəldikdə" sözləri ilə açıqca ifadə edilmişdir. Həmin hallar elə səbəbləri özündə ehtiva edir ki, öhdəliyin pozuntusuna görə borclunu günahlandırmaq, ondan icranı tələb etmək əxlaqi və hüquqi baxımdan mümkün olmur. Ona görə də borclunun öhdəliyi aradan qalxır.

Qeyd edilənləri nəzərə alan kassasiya məhkəməsi, apellyasiya instansiyası məhkəməsinin qətnaməsini ləğv edərək, işi yeni apellyasiya baxışına qaytarmışdır.

Qeyd: Bu qərarın əsaslandırıcı hissəsində təbii (məntiqi), faktiki və hüquqi səbəblərdən icranın mümkünsüzlüyü, təqsirli icra mümkünsüzlüyü halında borclunun tələb edə biləcəyi zərərlərin həcmi, Mülki Məcəllənin 556-cı maddəsi ilə öhdəliyə xitam verilməsinin mümkün olmadığı hallar, təqsirsiz icra mümkünsüzlüyünün nəticələri, bu zaman borclunun vəzifələri və öhdəlikləri kimi məsələlərə geniş izahlar verilmişdir.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-3953/2025

25.02.2026-cı il

Azərbaycan Respublikası adından

Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının

İddiaçının cavabdeh "XXX" Mənzil Tikinti Kooperativinə qarşı iş üzrə

Q Ə R A R I

Açar sözlər: icra mümkünsüzlüyü, öhdəliyin pozulması, icra mümkün olmadığına görə öhdəliyin xitamı

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyasının hakimləri Əliyev Zaur Əli oğlu (məruzəçi), Babayev Zəki Baba oğlu və Baxışova Vüsalə Ələkbər qızından ibarət tərkibdə,

Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(103)-4861/2025 nömrəli, 26 sentyabr 2025-ci il tarixli qətnaməsindən iddiaçı tərəfindən verilmiş kassasiya şikayətinə Ali Məhkəmənin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları

1. Ünvan 1 ünvanında yerləşən, ümumi sahəsi 144,9 kv.m təşkil edən 8 nömrəli fərdi yaşayış evi 1/12 payla iddiaçının mülkiyyətində olmuşdur;

2. Tərəflərin bağladığı xx.xx.2018-ci il tarixli müqaviləyə əsasən, iddiaçı faktiki sahəsi 16,3 kv.m təşkil edən həmin tikilini sökülmək üçün cavabdehə təhvil verməyi, cavabdeh isə tikilinin yerləşdiyi ərazidə inşa ediləcək hündürmərtəbəli yaşayış binasında sahəsi 19,6 kv.m təşkil edən təmirli mənzili iddiaçıya verməyi, habelə mənzili iddiaçıya təhvil verənədək iddiaçının kirayədə yaşaması üçün kirayə xərci kimi hər ay 300 manat ödəməyi öhdəsinə götürmüşdür. Müqaviləyə görə, hündürmərtəbəli yaşayış binasının bünövrəsi qoyulduqdan sonra tikinti işləri 24 ay ərzində başa çatdırılmalı və mənzil iddiaçıya təhvil verilməlidir.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a) Birinci instansiya məhkəməsində icraat

3. İddiaçı cavabdeh «XXX» MTK-ya qarşı iddia qaldıraraq, cavabdeh «XXX» MTK ilə xx.xx.2018-ci il tarixdə bağlanmış müqaviləyə uyğun olaraq cavabdeh tərəfindən onun yeni tikili binada tam təmirli və çıxarışlı mənzillə təmin olunması, cavabdeh «XXX» MTK tərəfindən 2023-cü ilin noyabr ayından ödənilməyən və yeni mənzillə təmin olunacağı günədək lazım olan kirayə pulunun ödənilməsi, ona dəymiş maddi ziyan olan – kirayələrdə ev dəyişən zaman zədələnib yararsız hala düşmüş ev əşyalarının dəyəri 7.000 manat və ona dəymiş mənəvi ziyana görə 20.000 manat pul vəsaiti və çəkdiyi bütün məhkəmə xərclərinin cavabdehdən onun xeyrinə tutulması barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

4. İddiaçı tələblərini onunla əsaslandırmışdır ki, xx.xx.2018-ci il tarixli müqavilənin bağlanmasından 7 il keçməsinə baxmayaraq cavabdeh «XXX» MTK mənzili ona verməmişdir. 2023-cü ilin noyabr ayından kirayə pulunun da ödənilməsi dayandırılmışdır. Kirayə mənzillərə daşınmaqdan ev əşyaları yararsız hala düşmüş, maddi və mənəvi zərər çəkmişdir.

5. Cavabdeh «XXX» MTK iddiaya etiraz edərək bildirmişdir ki, binanın təsdiq edilmiş layihəsində 19.6 kv.m. ümumi sahəsi olan mənzil mövcud deyil. Bu səbəbdən müqavilədən irəli gələn həmin öhdəliyini icra edə bilmir. İcra qeyri-mümkün olduğu üçün müqaviləyə xitam verilməsini, onlar tərəfindən iddiaçıya kompensasiya ödənilməsi barədə qətnamə çıxarılmasını xahiş edir.

6. Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 2(006)-1211/25 nömrəli, 27.05.2025-cil tarixli qətnaməsi ilə (hakim Ceyhun Tağıyev) iddia qismən təmin edilərək tərəflərin bağladığı müqaviləyə əsasən 19,6 kv.m sahəsi olan təmirli mənzilin cavabdeh tərəfindən iddiaçıya təhvil verilməsi, 2023-cü ilin noyabr ayından başlayaraq iddiaçının yeni mənzillə təmin olunan günədək ödənilməyən kirayə pulunun, mənəvi zərərin əvəzi kimi 500 manat və dövlət rüsumunun əvəzi kimi 100 manatın cavabdeh tərəfindən iddiaçıya ödənilməsi qət edilmiş, iddia qalan hissədə təmin edilməmişdir.

7. Məhkəmə ilk öncə qeyd etmişdir ki, iş materiallarında olan sənədlərdən göründüyü kimi, İddiaçı ilə «XXX» MTK arasında müqavilə bağlanmış, tərəflər bir-birinin qarşısında

öhdəlik və vəzifələr götürmüşlər. Lakin cavabdeh «XXX» MTK üzərinə götürdüyü öhdəlikləri tam və vaxtında icra etməmiş, müqavilə şərtlərini pozmuş, iddiaçıya təhvil verməli olduğu mənzili ona təhvil verməmişdir. Qanunvericiliyin tələblərinə görə müqavilə şərtlərini icra etməməsinə görə məsuliyyəti müqavilə tərəfi kimi «XXX» MTK daşıyır və o, iddiaçı qarşısında götürdüyü öhdəliyi icra etməlidir.

8. Bundan başqa, məhkəmə hesab etmişdir ki, cavabdehdən vurulmuş mənəvi ziyana görə də 500 manat pul vəsaiti tutularaq iddiaçıya ödənilməlidir. Belə ki, iddiaçı cavabdehlə müqavilə bağlayarkən ümid etmişdir ki, cavabdeh işləri 24 ay ərzində vaxtında və keyfiyyətlə icra edəcək, mənzili ona təhvil verəcək və o, vaxtında mənzilə köçüb təyinatı üzrə istifadə edəcəkdir. Lakin cavabdeh müqavilə öhdəliklərini icra etməmiş, bina tikilib hazır olsa da, mənzil uzun illər ərzində iddiaçıya təhvil verilməmiş, bu da istənilən insanda olduğu kimi iddiaçının şüurunda mənfi psixi reaksiyaya səbəb olmuş, diskomfort hisslər, stress və iztirab keçirmiş, mahiyyət etibarı ilə ona mənəvi ziyan vurulmuşdur.

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

9. Cavabdeh apellyasiya şikayəti verərək, qətnamənin ləğv, iddianın rədd edilməsini xahiş etmişdir. Şikayət onunla əsaslandırılmışdır ki, cavabdeh tərəfindən inşa edilmiş binada iddiaçının tələb etdiyi ölçüdə mənzil mövcud deyil. Qətnamə qanuni qüvvəsini aldıqdan sonra, onun icrası mümkün olmayacaq.

10. Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)-4861/2025 nömrəli, 26 sentyabr 2025-ci il tarixli qətnaməsi ilə cavabdehin apellyasiya şikayəti təmin edilmiş, qətnamə ləğv edilmiş, iddiaçının cavabdeh “XXX” MTK-ya qarşı “müqaviləyə uyğun mənzillə təmin edilmə, kirayə xərcinin və zərərin ödənilməsi barədə” iddiası təmin edilməmişdir (hakimlər Namiq Cəfərov-sədrlik edən və məruzəçi, İkram Şirinov və Elşən Kazımov).

11. Apellyasiya instansiya məhkəməsi Mülki Məcəllənin 556.1-ci maddəsinə istinad edərək mövqeyini belə əsaslandırmışdır ki, mənzillə təmin edilmə barədə tələb təmin oluna bilməz. Belə ki, cavabdehin inşa etdiyi binada sahəsi 19,6 kv.m təşkil edən mənzil mövcud deyildi. Həmin binaya münasibətdə başqa mülki iş üzrə Məhkəmə Ekspertizası Mərkəzinin verdiyi ekspert rəyinə görə, binada ən kiçik ölçülü mənzilin sahəsi 54,1 kv.m təşkil edir. Eyni məlumat binaya münasibətdə başqa mülki iş üzrə “XX” MMC-nin verdiyi qiymətləndirmə hesabatında da qeyd olunub.

12. Bundan başqa, Mənzil Məcəlləsinin 13.3-cü maddəsində müəyyən edilmiş “mənzil” anlayışından çıxış edilməklə məhkəmə qeyd etmişdir ki, sahəsi 19,6 kv.m olan mənzil inşa edilməsi mümkün deyil. Beləliklə, cavabdehin inşa etdiyi binada sahəsi 19,6 kv.m təşkil edən mənzil mövcud olmadığına görə, xx.xx.2018-ci il tarixli müqavilədə müəyyən edilmiş “sahəsi 19,6 kv.m təşkil edən təmirli mənzili vermək” öhdəliyinin icrası mümkün deyil. Bu səbəbdən həmin öhdəliyə xitam verilib.

13. Məhkəmənin mövqeyinə görə kirayə xərcinin ödənilməsi barədə tələb də təmin oluna bilməz. Belə ki, həmin öhdəlik də eyni səbəbdən xitam olunub. Kirayə xərcinin ödənilməsi öhdəliyi müstəqil öhdəlik deyil, mənzil verilməsi barədə öhdəliyin icrasından asılı olan öhdəlikdir, yəni iddiaçı cavabdehə sahəsi 19,6 kv.m olan mənzil verənə qədər ona hər ay 300 manat ödəməyi öhdəsinə götürüb, həmin mənzilin verilməsi isə mümkün deyil.

14. Məhkəmə, zərərin əvəzinin ödənilməsi barədə tələbin də təmin edilməli olmadığını bildirərək qeyd etmişdir ki, zərərin əvəzinin ödənilməsi barədə tələb öhdəliyin vaxtında icra edilməməsi faktına əsaslanıb. Öhdəlik icrası mümkün olmadığından xitam olunduğuna görə,

iddiaçı öhdəliyin vaxtında icra edilməməsi faktına əsaslanmaqla zərərin əvəzinin ödənilməsini tələb edə bilməz.

15. Məhkəmə kollegiyası həmçinin qeyd etmişdir ki, öhdəliyə xitam verildiyindən, iddiaçı mülkiyyətindən məhrum edilməsi nəticəsində vurulmuş zərərin əvəzinin ödənilməsi barədə iddia qaldırmaq hüququna malikdir.

Kassasiya şikayətinin və ona qarşı etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

16. İddiaçı (vəkil Zülfüqarlı Nərmin Həsən qızı) kassasiya şikayəti verərək, qətnamənin ləğv edilməsi və iddia tələbinin tam şəkildə təmin edilməsi barədə yeni qərar qəbul edilməsini xahiş etmişdir.

17. Kassasiya şikayəti onunla əsaslandırılmışdır ki, tərəflər arasında bağlanmış müqavilənin etibarsız olması və ya ləğv edilməsi halı müəyyən edilməmişdir. Həmin müqaviləyə əsasən iddiaçının əmlakının sökülməsinə yalnız əvəzli şəkildə (mənzillə təmin edilmək şərti ilə) razılıq verdiyi halda, bu cür mənzilin və ya yaxın xüsusiyyətlərə malik digər mənzilin və ya hazırkı həyat şərtlərində yeni mənzil ala biləcək kompensasiyanın iddiaçıya verildiyi cavabdeh tərəfindən sübut edilməmişdir. Qeyd edilənlərdən müqavilənin icrasından imtina edilməsi nəticəsində iddiaçıya zərər vurulduğu müəyyən edilir. Mülki qanunvericilikdə zərərin əvəzinin ödənilməsinin müxtəlif üsulları nəzərdə tutulmuşdur: naturada bərpa (zədələnmiş və ya məhv edilmiş əmlakın bərpası, eyni növlü və eyni keyfiyyətli digər əmlak verilməsi, pul kompensasiyası və s.) Hazırkı halda, iddiaçının zərərin naturada bərpa yolu aradan qaldırılmasını mümkün hesab etməmişdir. Görünür, məhkəmə iddianı rədd edərkən hesab etmişdir ki, iddiaçı müqavilənin icra edilməməsinə görə pul kompensasiyası ilə bağlı yeni iddia irəli sürmək hüququna malikdir. Lakin məhkəmənin bu mövqeyi ilə razılaşmayaraq qeyd edir ki, MPM-in 153-cü maddəsinin tələbinə əsasən eyni tərəflər arasında, eyni predmet barəsində və eyni əsaslar üzrə mübahisəyə dair məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsinin mövcud olduğu halda, həmin iddiaya yenidən məhkəmə tərəfindən baxılmasını yolverilməz edir.

18. Hazırkı halda məhkəmə iddiaçıya vurulmuş zərərin naturada əmlakın bərpası yolu ilə ödənilməsini mümkün hesab etmədiyi halda, zərərin əvəzinin ödənilməsinin digər üsulunucavabdeh tərəfindən pul əvəzinin (kompensasiyanın) verilməsi üsulunu, o cümlədən, kompensasiyanın məbləğini tərəflərlə müzakirə edilməli, məbləğlə bağlı mübahisə olduğu təqdirdə qanunvericilikdə nəzərdə tutulmuş prosessual vasitələrdən istifadə edilməklə mübahisə həll edilməlidir.

19. Tərəflər arasında bağlanmış xx xx 2018-ci il tarixli müqavilə şərtlərindən aydın olur ki, tərəflər arasında konkret razılaşma olmuş, cavabdeh iddiaçını müvafiq ölçüdə olan mənzillə təmin edəcəyinə dair öhdəlik götürmüşdür. Məlum məsələdir ki, cavabdehin inşa edəcəyi binanın və həmin binada yerləşəcək mənzillərin plan-sxemi əvvəlcədən mövcud olmalı və mövcud olan mənzillərə və iddiaçının əvvəlki yaşayış sahəsinə uyğun mənzil ona təklif edilməlidir. Bu cür plan-sxemin əvvəlcədən mövcud olmadığı şəraitdə cavabdeh inşa ediləcək bina və həmin binanın mənzillərə bölünməsini götürdüyü öhdəliklərə uyğun şəkildə təşkil etməlidir. Cavabdeh öz təqsirli hərəkəti ilə iddiaçının hüquqlarını pozmuş, müqavilə öhdəliklərinin icrasından imtina etməklə, onu çətin vəziyyətə salmışdır. Belə ki, cavabdeh mənzili iki il ərzində təhvil verməyi öhdəsinə götürsə də, uzun müddət bu öhdəliyindən yayınmış, təxminən beş il sonra öhdəliyin icrasından imtina etmişdir.

20. İddiaçının müvafiq ünvanda yaşayış yeri mövcud olmuşdur, lakin ona həmin ünvanda yaşayış yerinin yenidən verilməməsi onun eyni ərazi üzrə həmin qiymətə yeni mənzil əldə etməsini çətinləşdirə və ya ümumiyyətlə mümkünsüz edə bilər. Halbuki o, həmin ünvan üzrə yaşayış yerini itirmək istəmir, həmin ərazi artıq uzun illərdir ki ona doğmadır. Bundan əlavə, müqavilə şərtlərinə uyğun olaraq cavabdeh öz öhdəliyini tam icra etdiyi günədək iddiaçının kirayə mənzildə yaşaması üçün hər ay 300 manat ödənilməlidir. Cavabdeh əsas öhdəliyini tam icra etmədiyi üçün, aylıq məbləğin ödənilməsindən imtina edə bilməz.

21. Kassator şikayətini Azərbaycan Respublikası Konstitusiyasının 13, 29, 71-ci, Mülki Məcəllənin 385, 386, 425, 430-cu maddələrinə istinad edərək əsaslandırmışlar.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

22. Kassasiya şikayətinə qarşı etiraz daxil olmamışdır.

Tətbiq edilən hüquq

Azərbaycan Respublikasının Konstitusiyası:

23. Maddə 60, hissə 1. Hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir.

«İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında» Avropa Konvensiyası:

24. Maddə 6, hissə. 1. Hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsi ilə, ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir.

Azərbaycan Respublikasının Mülki Məcəlləsi:

25. Maddə 21.2. Zərər dedikdə, hüququ pozulmuş şəxsin pozulmuş hüququnu bərpa etmək üçün çəkdiyi və ya çəkməli olduğu xərclər, əmlakından məhrum olması və ya əmlakının zədələnməsi (real zərər), habelə hüququ pozulmasaydı, həmin şəxsin adi mülki dövriyyə şəraitində əldə edəcəyi gəlirlər (əldən çıxmış fayda) başa düşülür.

26. Maddə 324.1. Əqd mülki hüquq münasibətinin əmələ gəlməsinə, dəyişdirilməsinə və ya xitamına yönəldilmiş birtərəfli, ikitərəfli və ya çoxtərəfli iradə ifadəsidir.

27. 385.1. Öhdəliyə əsasən bir şəxs (borclu) başqa şəxsin (kreditorun) xeyrinə müəyyən hərəkəti etməlidir, məsələn, pul ödəməli, əmlak verməli, iş görməli, xidmətlər göstərməli və i.a. və ya müəyyən hərəkətdən çəkinməlidir, kreditorun isə borcludan vəzifəsinin icrasını tələb etmək hüququ vardır.

28. Maddə 386.1. Öhdəliyin zərər vurulması, əsassız varlanma və ya bu Məcəllədə nəzərdə tutulmuş digər əsaslar nəticəsində əmələ gəlməsi halları istisna olmaqla, öhdəliyin əmələ gəlməsi üçün onun iştirakçıları arasında müqavilə olmalıdır.

29. Maddə 389.1. Mülki hüquq və vəzifələrin müəyyənləşdirilməsi, dəyişdirilməsi və ya xitamı haqqında iki və ya bir neçə şəxsin razılaşması müqavilə sayılır.

30. Maddə 390.1. Fiziki və hüquqi şəxslər azad surətdə müqavilələr bağlaya və bu müqavilələrin məzmununu müəyyənləşdirə bilərlər. Onlar bu Məcəllədə nəzərdə tutulmayan, lakin ona zidd olmayan müqavilələr də bağlaya bilərlər.

31. Maddə 390.4. Tərəflər bu Məcəllədə nəzərdə tutulmuş müxtəlif müqavilələrin ünsürlərini əhatə edən müqavilə (qarışıq müqavilə) bağlaya bilərlər. Tərəflərin razılaşmasından və ya qarışıq müqavilənin mahiyyətindən ayrı hal irəli gəlmirsə, qarışıq müqavilə üzrə tərəflərin münasibətlərinə qarışıq müqavilədə ünsürləri olan müqavilələrə dair qaydalar müvafiq hissələrdə tətbiq edilir.

32. Maddə 425.1. Öz hüquqlarını həyata keçirərkən və vəzifələrini icra edərkən tərəflərdən hər biri vicdanlılığın tələb etdiyi tərzdə, yəni şərtləşdirilmiş vaxtda və yerdə lazımi şəkildə, öhdəliyin şərtlərinə və bu Məcəllənin tələblərinə müvafiq surətdə, belə şərtlər və tələblər olmadıqda isə işgüzar adətlərə və ya adətən irəli sürülən digər tələblərə müvafiq surətdə hərəkət etməlidir.

33. Maddə 425.2. Öhdəlikləri icra edərkən tərəflər müqavilənin yerinə yetirilməsinə zəmin yaratmaq üçün birgə hərəkət etməli və müqavilənin məqsədinə çatmağa maneçilik törədə biləcək və ya öhdəliklərin icrasını təhlükəyə məruz qoya biləcək hər cür hərəkətlərdən çəkinməlidirlər.

34. Maddə 442. Öhdəliyin icra edilməməsi dedikdə onun pozulması və ya lazımınca icra edilməməsi (vaxtında icra edilməməsi, mallarda, işlərdə və xidmətlərdə qüsurlarla və ya öhdəliyin məzmunu ilə müəyyənləşdirilmiş digər şərtləri pozmaqla icra edilməsi) başa düşülür.

35. Maddə 443.1. Öhdəliyini icra etməyən borclu kreditora dəymiş zərərin əvəzini ödəməyə borcludur. Borclunun üzərinə öhdəliyi pozmağa görə məsuliyyət qoyulmadıqda bu qayda qüvvədə olmur.

36. Maddə 443.2. Zərər bu Məcəllənin 21-ci maddəsində nəzərdə tutulan qaydalara uyğun müəyyənləşdirilir.

37. Maddə 445.1. İcranı gecikdirmiş borclu gecikdirmə nəticəsində vurduğu zərər üçün və gecikdirmə zamanı təsadüfən baş vermiş icra mümkünsüzlüyünün nəticələri üçün kreditor qarşısında məsuliyyət daşıyır.

38. Maddə 447.1. Əgər ikitərəfli müqavilənin bir tərəfi müqavilədən irəli gələn öhdəlikləri icra etmirsə, müqavilənin digər tərəfi öhdəliklərin icrası üçün təyin etdiyi əlavə müddət nəticəsiz qurtardıqdan sonra müqavilədən imtina edə bilər. Əgər öhdəliyin pozulması xarakteri əsas götürülməklə əlavə müddət tətbiq edilmirsə, xəbərdarlıq edilməsi əlavə müddət təyin olunmasına bərabər tutulur. Əgər öhdəliyin yalnız bir hissəsi icra edilməmişsə, kreditor müqavilədən yalnız öhdəliyin qalan hissəsinin icrasına marağını itirdiyi halda imtina edə bilər.

39. 447.7. Müqavilədən çıxarkən kreditor müqavilənin icra edilməməsi nəticəsində ona dəymiş zərərin əvəzini ödəməyi tələb edə bilər. Əgər müqavilədən çıxmaq üçün əsas borclunun təqsiri üzündən yaranmamışsa, bu qayda tətbiq edilmir.

40. Maddə 448.1. Əgər bu Məcəllə ilə və müqavilə ilə ayrı qayda müəyyənləşdirilməyibsə, borclu onun risk dairəsinə daxil olan öhdəliklərin icra edilmədiyi bütün hallar üçün cavabdehdir.

41. Maddə 448.2. Borclu öz öhdəliklərinin hər bir təqsirli pozuntusu (hərəkət və ya hərəkətsizlik) üçün məsuliyyət daşıyır. Borclunu təqsirə görə, yəni qərəzə və ya kobud ehtiyatsızlığa görə məsuliyyətdən qabaqcadan azad etmək olmaz.

42. Maddə 448.3. Borclu öz qanuni təmsilçilərinin və öhdəliyinin tamamilə və ya hissəhissə icrası üçün xidmətlərindən istifadə etdiyi şəxslərin hərəkəti və ya hərəkətsizliyi üçün öz hərəkəti və ya hərəkətsizliyi üçün olan dərəcədə məsuliyyət daşımalıdır.

43. Maddə 448.4. Borclu öhdəliyin pozulmasına görə bu şərtlə məsuliyyət daşımır ki, pozuntunun onun cavabdeh olmadığı haldan irəli gəldiyini və müqavilə bağlanarkən onun həmin halı nəzərə ala biləcəyini, yaxud bu halı və ya onun nəticələrini istisna edə və ya aradan qaldıra biləcəyini gözləməyin mümkün olmadığını sübuta yetirsin. Borclu maneədən xəbərdardırsa və ya xəbərdar olmalıdırsa, həmin maneə və icra qabiliyyətinə onun təsiri barədə kreditora dərhal məlumat verməlidir. Əgər kreditor məlumatı dərhal almazsa, borclu məlumatın vaxtında alınmaması ilə əlaqədar kreditorun düşdüyü zərər üçün məsuliyyət daşıyır.

44. Maddə 556.1. İcra mümkün olmadıqda, yəni icra edilməmə tərəflərin heç birinin cavabdeh olmadığı haldan irəli gəldikdə, öhdəliyə xitam verilir. Bu halda kreditor borcludan öhdəliyin icrasını tələb edə bilməz.

45. Maddə 556.2. Borclunun öhdəliyi yerinə yetirməsi kreditorun təqsirli hərəkətləri nəticəsində mümkün olmadıqda, kreditor öhdəlik üzrə özünün icra etdiklərini qaytarmağı tələb edə bilməz.

46. Maddə 567. Alğı-satqı müqaviləsinə görə satıcı əşyanı alıcının mülkiyyətinə verməyi, alıcı isə əşyanı qəbul edib əvəzində müəyyənləşdirilmiş pul məbləğini (qiyməti) ödəməyi öhdəsinə götürür.

47. Maddə 599.4. Satıcı qabaqcadan ödənilmiş əşyanı vermək vəzifəsini icra etmədikdə və alğı-satqı müqaviləsində ayrı qayda nəzərdə tutulmadıqda əşyanın müqaviləyə görə verilməli olduğu gündən alıcıya verildiyi və ya qabaqcadan ödədiyi məbləğin ona qaytarıldığı günədək qabaqcadan ödəniş məbləğindən bu Məcəllənin 449-cu maddəsinə uyğun faizlər ödənilməlidir. Müqavilədə satıcının alıcıdan qabaqcadan ödəniş məbləğini aldığı gündən həmin məbləğdən faizlər ödəmək vəzifəsi nəzərdə tutula bilər.

48. Maddə 752.1. Podrat müqaviləsinə görə podratçı müqavilədə nəzərdə tutulan işi icra etməyi, sifarişçi isə podratçıya razılaşdırılmış muzd ödəməyi öhdəsinə götürür.

49. Maddə 1091.2. Əsassız varlanma yalnız o zaman baş verir ki, bu cür varlanmaya haqq qazandıran qanuni əsas və ya müqavilə əsası olmur. Hüquqi əsas olmadan varlanma həmçinin o hallarda baş vermiş sayılır ki, bu cür varlanma həyata keçirilməmiş əsasa və ya sonralar aradan qalxmış əsasa söykənir.

50. Maddə 1092.1. Varlanmış şəxs əldə etdiklərini məhrum olanın tələbi ilə ona qaytarmalıdır.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi:

51. 14.1. Məhkəmə həqiqətə nail olmaq üçün işin hərtərəfli, tam və obyektiv tədqiqinə lazımi şərait yaradır. Bunun üçün məhkəmə: işdə iştirak edən şəxslərə onların prosessual hüquq və vəzifələrini izah edir, görüləcək, yaxud görülməyəcək hərəkətlərin nəticələri barədə onları xəbərdar edir, onların prosessual hüquqlarının həyata keçməsinə kömək göstərir.

52. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

53. Maddə 217.1. Məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır.

54. Maddə 217.3. Qətnamə iş üzrə müəyyən edilmiş hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır.

55. Maddə 222.1. Məhkəmə əmlakın natura şəklində alınmasını qət etdikdə onun adını, alınmalı əmlak qətnamə icra olunan vaxt mövcud olmasa, cavabdehdən alınmalı əmlakın dəyərini, habelə alınmalı əmlakın yerləşdiyi yeri və ya əmlaka görə iddiaçıya verilməsi qət olunmuş məbləğin cavabdehin bankdakı hansı hesabından silinməli olmasını qətnamənin nəticə hissəsində göstərir.

56. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

Kassasiya baxışının hədləri

57. Kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

58. Kassasiya şikayətində qətnamə tam mübahisələndirildiyindən apellyasiya instansiyası məhkəməsinin aktı bütövlükdə yoxlanılır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

59. Kollegiya aşağıdakılara əsasən hesab edir ki, iş üzrə maddi və prosessual hüquq normaları düzgün tətbiq edilməmişdir.

60. Məlum olduğu kimi, müqavilə - iki və ya daha artıq şəxsin hüquqi nəticə əmələ gətirmək üçün ifadə etdikləri və bir-birinə uyğun olan iradə bəyanlarıdır. Şəxslər müqavilə növündə əqd bağlamaqla özləri üçün icrası məcburi olan öhdəliklər - hüquq və vəzifələr meydana gətirirlər (MM,m.324.1,385.1,386.1,389.1; § 26-29).

61. Mülki hüquq münasibətlərinin iştirakçıları alqı-satqı (§ 46) və ya podrat (§ 47), yaxud onların hər ikisinin xüsusiyyətlərini özündə birləşdirən qarışıq müqavilə bağlaya bilərlər (§ 30-31).

62. Hazırkı işdə tərəflər arasında xx.xx.2018-ci il tarixdə etibarlı bir müqavilə bağlanması mübahisə olunmur. Həmin müqavilə üzrə cavabdeh öhdəsinə götürmüşdür ki, iddiaçının da ümumi mülkiyyətçi olduğu evin sökülərək yerində inşa ediləcək binada 19,6 kv.m. təmirli mənzili iddiaçıya təqdim edəcək.

63. Buna baxmayaraq cavabdeh öz öhdəliyini yerinə yetirməmiş, bunu binada həmin ölçüdə mənzil olmaması ilə əsaslandırmışdır.

64. Apellyasiya məhkəməsi cavabdehin etirazında göstərdiyi halı Mülki Məcəllənin 556.1ci maddəsindəki mümkünsüzlük kimi qiymətləndirmiş, həmin normanı işə tətbiq edərək MTKnın müqavilə öhdəliyinin, o cümlədən kirayə haqlarını və zərəri ödəmək vəzifəsinin xətm olduğunu bildirmişdir (§ 11-14).

65. Ona görə də Kollegiya, icra mümkünsüzlüyü, öhdəliyin pozulması və icra mümkün olmadığına görə öhdəliyə xitam verilməsinə dair aşağıdakı hüquqi mövqelərin diqqətə çatdırılmasını zəruri hesab edir.

66. Əvvəlcə onu qeyd etmək lazımdır ki, öhdəliyin yerinə yetirilməsinin mümkün olmaması icranın imkansızlığı (mümkünsüzlüyü) ilə bağlı bir məsələdir.

67. İcra imkansızlığı, öhdəliyin yerinə yetirilməsinin daimi və qəti şəkildə mümkün olmamasıdır. Başqa sözlə, öhdəliyi icra etmək obyektiv səbəblərdən və hər kəs üçün imkan xaricində olur. Bu səbəblər bir neçə növdə ola bilər: təbii (məntiqi) mümkünsüzlük; faktiki mümkünsüzlük; hüquqi mümkünsüzlük.

68. Təbii mümkünsüzlük öhdəliyin yerinə yetirilməsi imkanının məntiq və təbiət qanunlarına görə qəti olaraq ortadan qalxmasıdır. Məsələn, heyvanın ölməsi, avtomobilin tamamən yanıb məhv olması. Bu hallarda öhdəliyin obyekti olan həmin əşyalar sıradan çıxdıqlarından onlara dair icra da imkansızlaşır.

69. Faktiki mümkünsüzlükdə öhdəliyin obyekti yoxa çıxmasa da, onun icrası faktiki və praktiki olaraq imkansız hala gəlir və ya həddindən artıq çətinləşir. Məsələn, bir daşınar əşyanın dənizin dərin yerinə düşməsi, yaxud qızıl əşyasının basdırıldığı torpağın üzərində

çoxmənzilli yaşayış binasının tikilməsi. Göründüyü kimi, bu hallarda öhdəliyin obyekti olan əşyalar fiziki baxımdan mövcud olsalar da, praktiki olaraq onlara çatımlılıq imkanı aradan qalxmış olur.

70. Hüquqi mümkünsüzlükdə də öhdəliyin predmeti cismən mövcud olur, lakin onun yerinə yetirilməsi məcburi bir hüquq norması ilə qadağan edilir. Məsələn, borclunun kreditora verməyi öhdəsinə götürdüyü daşınar əşyanın dövriyyəsi qanunla qadağan edilmiş, yaxud torpaq sahəsi müsadirə olunmuşdur.

71. İcra mümkünsüzlüyü iki növdə olur: 1)başlanğıcdakı icra mümkünsüzlüyü; 2)sonrakı icra mümkünsüzlüyü. Bu növ imkansızlıqlar meydana gəlmə vaxtı və hüquqi nəticələri baxımından bir-birindən əhəmiyyətli şəkildə fərqlənirlər.

72. Başlanğıcdakı icra mümkünsüzlüyü əqdin bağlanmasından əvvəl meydana gələn səbəblərlə bağlıdır. Yəni, öhdəliyin yerinə yetirilməsini mümkünsüz edən hallar əqd (müqavilə) bağlananadək mövcud olur. Bu halda öhdəlik ümumiyyətlə yaranmır. Çünki, başlanğıcdakı icra imkansızlığı, bağlandığı andan əqdin etibarsız (əhəmiyyətsiz) olmasına dəlalət edir. Mülki Məcəllənin "Əqdlərin etibarsızlığı" adlı 14-cü fəslində bu əsas ayrıca qeyd edilməsə də, məsələnin mahiyyəti və əlaqəli normaların təhlili göstərir ki, bağlandığı anda icrası obyektiv səbəbdən mümkünsüz olan öhdəliyə dair əqd etibarlı sayıla bilməz. Məsələn, bir şəxsin başqasına satmağı öhdəsinə götürdüyü tablo müqavilə bağlananadək artıq yanaraq məhv olmuşsa, həmin əqd etibarsızdır. Çünki, alqı-satqı müqaviləsinin mühüm şərtlərindən biri əşyanın mülkiyyətinin alıcı tərəfindən satıcıya verilməsidir. Həmin əşya artıq mövcud deyilsə, onun verilməsinə dair öhdəlik yarana bilməz. Mülki Məcəllənin oxşar vəziyyəti tənzimləyən 328.2-ci maddəsində göstərilir ki, icrası mümkün olmayan şərt etibarsızdır. Belə şərtdən asılı olan əqdin tamamilə etibarsız olduğu normada xüsusi olaraq vurğulanır.

73. Sonrakı icra mümkünsüzlüyü isə əqd etibarlı şəkildə bağlanandan sonra öhdəliyin icrası əsnasında ortaya çıxan imkansızlıqdır. Bu cür mümkünsüzlüyün özü də iki növdə olur: 1)sonrakı təqsirli icra mümkünsüzlüyü; 2)sonrakı təqsirsiz icra mümkünsüzlüyü.

74. Əgər öhdəliyin yerinə yetirilməsi müqavilə qurulduqdan sonra borclunun cavabdehlik daşıdığı hallara görə daimi və qəti şəkildə imkansız olmuşsa, burada sonrakı təqsirli icra mümkünsüzlüyündən söhbət gedir. Bu hal öhdəliyin borclu tərəfindən pozulmasına dəlalət edir (MM, m.442; §34). Məsələn, satıcı S, komputerini alıcı A-ya satması haqqında müqavilə bağladıqdan sonra, özünün təqsirli hərəkəti nəticəsində həmin əşya sınaraq məhv olur, yaxud satıcı S, əşyanın mülkiyyətini ilkin alıcı A-ya vermək öhdəliyini sonradan eyni əşyanı üçüncü şəxs Ü-nün mülkiyyətinə keçirdiyi üçün icra edə bilmir.

75. O cümlədən, əgər borclu, müqavilənin bağlandığı məqamda öhdəliyin icrasının sonradan mümkünsüz olacağını bilirsə və ya təxmin edirsə, yenə də təqsirli sayılır və kreditor qarşısında məsuliyyətdən azad olmur. Bu qayda Mülki Məcəllənin 448.4-cü maddəsindəki *"...bu şərtlə məsuliyyət daşımır ki,...müqavilə bağlanarkən onun həmin halı nəzərə ala biləcəyini, yaxud bu halı və ya onun nəticələrini istisna edə və ya aradan qaldıra biləcəyini gözləməyin mümkün olmadığını sübuta yetirsin"* müddəasının əks mənasından aydın şəkildə görünür.

76. Öhdəliyin icrasının borcludan qaynaqlanan səbəblərə görə mümkün olmadığı belə hallarda onun öhdəliyinə nəinki xitam verilmir, əksinə o, bundan irəli gələn mənfi hüquqi nəticələr üçün kreditor qarşısında tam şəkildə məsul tutulur.

77. Mülki qanunvericiliyimizə görə borclu, bir qayda olaraq onun risk dairəsinə daxil olan öhdəliklərin icra edilmədiyi bütün hallar üçün cavabdehdir və öz öhdəliklərinin hər bir təqsirli

pozuntusu (hərəkət və ya hərəkətsizlik) üçün məsuliyyət daşıyır (§ MM, m.448.1-448.2; §4041).

78. Mülki Məcəllənin 443.1-ci maddəsində göstərilir ki, öhdəliyini icra etməyən borclu kreditora dəymiş zərərin əvəzini ödəməyə borcludur (§ 35).

79. Eyni qaydada, həmin Məcəllənin 447.7-ci maddəsinə əsasən, ikitərəfli müqavilələrdə borclu öhdəliyini icra etmədiyinə görə kreditor müqavilədən çıxdıqda ona dəymiş zərərin əvəzini ödəməyi tələb edə bilər (birinci cümlə, § 39).

80. Qeyd edilən normalar onu göstərir ki, müqavilə bağlandıqdan sonra öhdəliyin icrasını özünün təqsirli hərəkətləri ilə imkansız vəziyyətə gətirən borclunu mülki hüquqi məsuliyyətdən azad etmək olmaz. Başqa sözlə, borclunun müqavilə öhdəliyi xətm olmur, kreditorun da müqavilədən irəli gələn tələb hüquqları aradan qalxmır. Kreditorun borclunun ona təklif edə biləcəyi (müqavilədə nəzərdə tutulandan) ayrı icranı qəbul etmək hüququ (MM, m.435) ilə yanaşı, öhdəliyin icrası əvəzinə düşdüyü bütün zərərlərin ödənilməsini tələb etmək ixtiyarı var (§ 35-36). Bütün zərərlər dedikdə, aşağıdakılar nəzərə alınır:

a) kreditorun binadan mənzil almaq üçün verdiyi əmlak (və ya onun pul ekvivalenti). Lakin həmin əmlakın müqavilə bağlandığı anda dəyəri (məbləği) deyil, kreditorun icraya olan mənfəətinin təmin edildiyi andakı dəyəri əsas götürülür. Daha sadə desək, əgər zərərin ödənilməsi qət edildiyi anda kreditor eyni əmlakı almaq üçün bahalaşma səbəbindən daha artıq vəsait xərcləməlidirsə, borclu, kreditordan müqavilə bağlayarkən aldığı əmlak dəyəri ilə yanaşı bahalaşmadan irəli gələn fərqi də ödəməyə borcludur. Çünki, həmin fərq də kreditorun maddi zərəridir;

b) alqı-satqı müqaviləsinin pozulması nəticəsində vaxtında icra edilməyən öhdəliyə hesablanan qanuni faiz. Mülki Məcəllənin 599.4-cü maddəsinə görə, satıcı qabaqcadan ödənilmiş əşyanı vermək vəzifəsini icra etmədikdə və alğı-satqı müqaviləsində ayrı qayda nəzərdə tutulmadıqda əşyanın müqaviləyə görə verilməli olduğu gündən alıcıya verildiyi və ya qabaqcadan ödədiyi məbləğin ona qaytarıldığı günədək qabaqcadan ödəniş məbləğindən bu Məcəllənin 449-cu maddəsinə uyğun faizlər ödənilməlidir;

c) müqavilədə razılaşdırılmış, lakin ödənilməmiş kirayə haqları və onun gecikdirmə faizləri. Bu zərərin həcmi müqavilə şərtlərinə uyğun şəkildə müəyyən edilməlidir. Borclunun pul məbləğinin ödənilməsini gecikdirməsinə görə isə Mülki Məcəllənin 445.7-ci maddəsində nəzərdə tutulan faiz hesablanır;

d) müqavilə öhdəliyinin pozulması kreditorun şəxsiyyət haqlarına müdaxilə ilə nəticələndiyi halda mənəvi zərərin əvəzi.

81. Bununla belə, borclunun iradəsi və fəaliyyət sferası xaricində meydana gələn, öhdəliyin icrasını mütləq və qaçılmaz şəkildə mümkünsüz edən qarşısıalınmaz (fövqəladə) hadisələr də baş verə bilər. Kreditor da özünün təqsirli hərəkəti ilə icranı imkansız edə bilər. Öhdəliyin icrası borclunun cavabdeh olmadığı bu kimi hallardan irəli gəldiyi üçün ona təqsirsiz icra mümkünsüzlüyü deyilir. Bu halda öhdəliyin yerinə yetirilməsini imkansız edən səbəblərə görə borclunu məsul tutmaq olmur. Ona görə də, borclunun öhdəliyinə xitam verilir, o, kreditor qarşısında məsuliyyətdən azad edilir. Məsələn, kreditor K, özünün portretinin məşhur rəssam R tərəfindən çəkilməsi barədə müqavilə bağladıqdan sonra borclu R, iflic olması səbəbindən öhdəliyini icra edə bilmir. Bu zaman borclunun öhdəliyi aradan qalxır.

82. Məhz bu kimi hallar üçün Mülki Məcəllənin 556.1-ci maddəsində nəzərdə tutulur ki, icra mümkün olmadıqda, yəni icra edilməmə tərəflərin heç birinin cavabdeh olmadığı haldan irəli gəldikdə, öhdəliyə xitam verilir (§ 44).

83. Oxşar məzmunda tənzimləmə həm də Mülki Məcəllənin öhdəliklərin icra edilməməsinə görə borclunun məsuliyyətini əks etdirən 448.4-cü maddəsində aparılmışdır. Normada göstərilir ki, borclu öhdəliyin pozulmasına görə bu şərtlə məsuliyyət daşımır ki, pozuntunun onun cavabdeh olmadığı haldan irəli gəldiyini və müqavilə bağlanarkən onun həmin halı nəzərə ala biləcəyini, yaxud bu halı və ya onun nəticələrini istisna edə və ya aradan qaldıra biləcəyini gözləməyin mümkün olmadığını sübuta yetirsin (§ 43).

84. Odur ki, borclunun iradəsi xaricində, onun cavabdeh ola bilməyəcəyi hallarda öhdəliyə icra mümkün olmadığına görə xitam verilir. Bu şərt Mülki Məcəllənin 556.1-ci maddəsində *"icra edilməmə tərəflərin heç birinin cavabdeh olmadığı haldan irəli gəldikdə"* sözləri ilə açıqca ifadə edilmişdir. Həmin hallar elə səbəbləri özündə ehtiva edir ki, öhdəliyin pozuntusuna görə borclunu günahlandırmaq, ondan icranı tələb etmək əxlaqi və hüquqi baxımdan mümkün olmur. Ona görə də borclunun öhdəliyi aradan qalxır.

85. Öhdəliyin yerinə yetirilməsinin özünün cavabdeh olmadığı hallardan irəli gəldiyini sübut etmək vəzifəsi borclunun üzərinə düşür. Məhz borclu sübut etməlidir ki, öhdəliyin icrası obyektiv səbəbdən mümkün deyil (§ 52).

86. Beləliklə, tərəflər arasındakı mübahisəli hüquq münasibətləri təqsirsiz icra imkansızlığının izah olunan xüsusiyyətlərinə uyğun gəldikdə öhdəliyin xitamı tanına bilər. Əks təqdirdə, o cümlədən borclunun məsuliyyətdən azad edilməsini haqlı göstərməyən aşağıdakı hallarda onun öhdəliyinə Mülki Məcəllənin 556-cı maddəsi ilə xitam verilə bilməz:

a) öhdəliyin pozulmasında borclunun özü təqsirli olduqda və ya onun cavabdeh olduğu hallardan irəli gələn imkansızlıq yarandıqda (bu barədə daha ətraflı bax: § 74-80);

b) borclu özü təqsirsiz olsa belə, təmsilçisinin və ya xidmətlərindən istifadə etdiyi şəxslərin hərəkəti nəticəsində icra mümkünsüz olduqda. Çünki borclu, öz qanuni təmsilçisinin və öhdəliklərinin icrası üçün xidmətlərindən istifadə etdiyi digər şəxslərin hərəkətləri üçün özünün təqsirli hərəkətləri üçün olan həcmdə məsuliyyət daşıyır. Bu qayda Mülki Məcəllənin 443.9-cu və 448.3-cü maddələrində açıqca göstərilir;

c) icranın mümkünsüzlüyü daimi deyil, müvəqqəti olduqda. Məsələn, alqı-satqı müqaviləsinin obyekti olan qol saatı gölə düşüb itsə də, müvafiq texnikanın yardımı ilə əşyanın oradan çıxarılması mümkündürsə, bu hal daimi imkansızlıq vəziyyəti sayıla və öhdəliyə xitam verilə bilməz. Müvəqqəti imkansızlıq vəziyyətində icranın gecikdirilməsi ilə bağlı qaydalar tətbiq olunur (MM, m.445);

d) müqavilə bağlandıqdan sonra şəraitin əhəmiyyətli dərəcədə dəyişməsinə görə öhdəlik icra edilə bilmədikdə. Bu hal icra mümkünsüzlüyü sayılmır, ona görə ki, belə vəziyyətdə borclu, Mülki Məcəllənin 422-ci maddəsinə uyğun qaydada müqavilənin dəyişdirilməsi və ya ləğv edilməsini tələb edə bilər;

e) növlü öhdəliklərin icrasında. Məlum olduğu kimi, növlü öhdəliyin obyekti olan əşyanın ümumiyyətlə yoxa çıxması mümkün olmadığından, belə öhdəliklərə münasibətdə icra mümkünsüzlüyündən söhbət gedə bilməz. Məsələn, borclu B-nin, kreditor K-yə təqdim etməli olduğu 100 ton unu sel aparmışsa, borclu, həmin miqdarda unu başqa şəxsdən əldə etməklə kreditor qarşısındakı öhdəliyini yerinə yetirə bilər. Bu səbəbdən Mülki Məcəllənin 438-ci maddəsində düzünə olaraq göstərilir ki, əgər müqavilənin predmeti əvəz edilə bilən əşyadırsa (növlü əşya), borclu öhdəliyi həmişə icra etməyə borcludur. Bununla belə, növlü öhdəliklərdə hüquqi imkansızlıq mümkün ola bilər (məsələn, əşyanın dövriyyəsinin qanunla qadağan edilməsi).

87. Təqsirsiz icra mümkünsüzlüyünün nəticəsinə dair ümumi qayda ondan ibarətdir ki, borclunun öhdəliyinə son verilir. Mülki Məcəllənin 556.1-ci maddəsində açıq şəkildə qeyd

olunur ki, bu halda *"öhdəliyə xitam verilir, kreditor borcludan öhdəliyin icrasını tələb edə bilməz"* (§ 44). Nəzərə almaq lazımdır ki, borclunun əsas öhdəliyi ilə yanaşı əlavə öhdəlikləri (zaminlik, faiz və s.) də aradan qalxır.

88. Lakin ümumi qaydanın qanundan və müqavilədən irəli gələn istisnaları ola bilər. Məsələn, Mülki Məcəllənin 445.1-ci maddəsi nəzərdə tutur ki, icranı gecikdirmiş borclu hətta gecikdirmə zamanı *təsadüfən baş vermiş* icra mümkünsüzlüyünün nəticələri üçün kreditor qarşısında məsuliyyət daşıyır (§ 37). Yaxud tərəflər bağladıqları müqavilədə gözlənilməyən bir haldan qaynaqlanan mümkünsüzlük nəticələri üçün borclunun məsuliyyət daşıyacağını razılaşdıra bilərlər. Çünki, Mülki Məcəllənin 556-cı maddəsi mahiyyət etibarilə tərəflərin əksini qərarlaşdıra biləcəkləri tənzimləyici bir normadır.

89. Bununla yanaşı, qanunverici, borclunun təqsiri olmadan öhdəliyin icra edilə bilmədiyi bəzi hallarda onun üzərinə əlavə bir vəzifə qoymuşdur. Belə ki, borclu öhdəliyini göstərilən səbəblərdən yerinə yetirə bilmədikdə bildiyi və ya bilməli olduğu imkansızlıq səbəbləri ilə bağlı kreditoru vaxtında məlumatlandırmalıdır ki, kreditor əlavə zərərə düşməsin. Bu vəzifə Mülki Məcəllənin 425-ci maddəsində əks olunan dürüstlük və vicdanlılıq prinsiplərindən irəli gəlir (§ 32-33). Əks halda, borclu həmin zərərin əvəzini ödəməli olacaqdır.

90. Mülki Məcəllənin 448.4-cü maddəsinin ikinci və üçüncü cümlələri bu münasibətləri tənzimləyərək göstərir ki, borclu maneədən xəbərdardırsa və ya xəbərdar olmalıdırsa, həmin maneə və icra qabiliyyətinə onun təsiri barədə kreditora dərhal məlumat verməlidir. Əgər kreditor məlumatı dərhal almazsa, borclu məlumatın vaxtında alınmaması ilə əlaqədar kreditorun düşdüyü zərər üçün məsuliyyət daşıyır (§ 43).

91. Əgər kreditor imkansızlıq halını bilir və ya bilməlidirsə, borclunun məlumat verməsinə gərək qalmır.

92. İkitərəfli müqavilələrdə də icra imkansızlaşanda borclu eyni qaydada özünün qarşılıqlı öhdəliyinin icrasından azad olur. Belə ki, Mülki Məcəllənin 447.7-ci maddəsinə əsasən, əgər müqavilədən çıxmaq üçün əsas borclunun təqsiri üzündən yaranmamışsa, zərərin əvəzinin ödənilməsinə dair qayda tətbiq edilmir (ikinci cümlə, § 39).

93. İkitərəfli öhdəlik yaradan müqavilələrdə borclu qarşı tərəfdən icranı daha əvvəl aldıqda isə, əldə etdiklərini əsassız varlanma qaydaları çərçivəsində geri qaytarmalıdır. Çünki bu halda borclunun əmlak əldə etməsinin hüquqi əsası sonradan aradan qalxmış olur (MM, m.1091.2-1092.1; § 49-50).

94. Bununla belə, icranın mümkünsüzlüyünə kreditor özü səbəb olduqda həmin qayda tətbiq edilmir. Ona görə də Mülki Məcəllənin 556.2-ci maddəsində nəzərdə tutulur ki, borclunun öhdəliyi yerinə yetirməsi kreditorun təqsirli hərəkətləri nəticəsində mümkün olmadıqda, kreditor öhdəlik üzrə özünün icra etdiklərini qaytarmağı tələb edə bilməz (§ 45).

95. Beləliklə, yuxarıdakı izahlardan aydın olur ki, sonrakı icra mümkünsüzlüyü, borclunun təqsirindən irəli gəldikdə Mülki Məcəllənin 442, 443, 445, 447, 448.1-448.3-cü maddələri, borclunun cavabdeh olmadığı hallardan qaynaqlandıqda isə həmin Məcəllənin 448.4-cü və 556-cı maddələri tətbiq olunmalıdır.

96. Odur ki, öhdəliyin xitamı ilə nəticələnməyən təqsirli icra mümkünsüzlüyü, öhdəliyə xitam verən təqsirsiz icra mümkünsüzlüyü ilə qarışdırılmamalı və bu hallar şərh olunan xüsusiyyətlər baxımından bir-birindən fərqləndirilməlidir.

97. Baxılan işdə isə apellyasiya məhkəməsi bu fərqləndirməni apara bilməmiş, "XXX" MTK-nın inşa etdiyi binada sahəsi 19,6 kv.m təşkil edən təmirli mənzili iddiaçıya vermək öhdəliyinin tikinti şirkətinin cavabdeh olmadığı haldan irəli gəldiyinin sübuta yetirildiyini əsaslandırmamışdır.

98. Əvvəla, məhkəmənin Mənzil Məcəlləsinin 13.3-cü maddəsində müəyyən edilmiş "mənzil" anlayışına görə sahəsi 19,6 kv.m olan mənzilin inşasının mümkün olmaması dəlilinə münasibətdə qeyd edilməlidir ki, həmin Məcəllə və onun göndəriş etdiyi qanunvericiliyə (Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Sosial kirayə müqaviləsi əsasında dövlət mənzil fondunun yaşayış sahəsinin ayrılma normasının müəyyən edilməsi haqqında" 27 noyabr 2019-cu il, 459 №-li Qərarı) əsasən, yaşayış sahəsinin ümumi sahəsinin (ölçülərinin) müəyyənləşdirilməsi üçün əsas götürülən yaşayış sahəsinin minimal ölçüsü 16 kvadratmetr müəyyən edilmişdir.

99. İkincisi, apellyasiya məhkəməsi nəzərə almamışdır ki, inşa etdiyi binada müqavilə ilə üzərinə götürdüyü həcmdə mənzili inşa edərək İddiaçıya təhvil vermək "XXX" MTK-nın risk dairəsinə daxil olan öhdəlik idi. Təcrübədən bəlli olduğu kimi, hər bir tikinti şirkəti inşa edəcəyi binada layihələndirdiyi mənzillərin sahəsini bilir və bilməlidir. Şirkət məhz bu layihələri nəzərə almaqla müştərilərlə müqavilələr bağlayır, üzərinə öhdəliklər götürür. Ona görə də tikinti şirkəti istər qanuni nümayəndəsinin, istərsə də xidmətindən yararlandığı digər şəxslərin mənzilin həcmi ilə bağlı verdikləri məlumatların dürüstlüyünə və icra edilə bilən olmasına görə məsuliyyət daşıyır. Həmin şəxslərin ucbatından mənzil sahəsinin müqavilədə doğru yazılmaması və ya binada tikiləcək ən kiçik mənzildən az sahədə kvadratmetrin qeyd olunması, yaxud plan-layihə sənədlərinin sonradan dəyişməsi bu məsuliyyəti aradan qaldırmır.

100. Odur ki, MTK sözügedən öhdəliyin icrasının özündən asılı olmayan, obyektiv imkansızlıq səbəbindən mümkün olmadığını, müqavilə bağlanarkən həmin halı nəzərə ala, yaxud bu halı və ya onun nəticələrini istisna edə və ya aradan qaldıra bilməyəcəyini sübuta yetirmədikdə onun müqavilə öhdəliyinə Mülki Məcəllənin 556-cı maddəsi ilə xitam verilə bilməz.

101. Sadalanan hallarda borclu olan tikinti şirkəti müqavilə öhdəliyinin pozulmasına görə kreditor qarşısında mülki hüquqi məsuliyyət daşıyır. Əgər müqavilədə razılaşdırılan həcmdə mənzilin kreditora təqdim edilməsi faktiki olaraq mümkünsüzləşib və ya həddindən artıq çətinləşibsə, bu zaman borclu, başqa icranı kreditora təklif edə bilər. Kreditor bununla razılaşmadıqda müqavilə öhdəliyinin pozulması nəticəsində düşdüyü bütün zərərlərin əvəzinin ödənilməsini Mülki Məcəllənin 443.1, 447.7-ci maddələrinə (və ya konkret müqavilə münasibətlərini tənzimləyən xüsusi normalara) əsasən borcludan tələb etməkdə haqlıdır.

102. Nəhayət, apellyasiya məhkəməsi, mülkiyyətindən məhrum edilməsi nəticəsində vurulmuş zərərin əvəzinin ödənilməsi barədə iddia qaldırmaq hüququnu iddiaçıya izah etsə də, həmin zərərin hansı hüquqi əsasla tələb edilə biləcəyini göstərməmişdir. Müqavilə öhdəliyinə xitam verildiyini bildirən məhkəmə, ehtimal ki, qanundan irəli gələn öhdəlik kimi mülki hüquq pozuntusunu (delikti) nəzərdə tutmuşdur. Lakin diqqətə almamışdır ki, tərəflər arasında bağlanmış etibarlı müqavilə ilə iddiaçı, evinin sökülməsinə öz razılığını bəyan etmişdir. Bu hal delikt məsuliyyəti üçün Mülki Məcəllənin 1096.1-ci maddəsində göstərilən "əmələn hüquqazidd olması" şərtini istisna edir.

103. Odur ki, əgər cavabdehin öhdəliyinin icrası praktiki cəhətdən imkansız hala gəlibsə, yəni müqavilədə göstərilən əşyanın cavabdehdən alınaraq iddiaçıya verilməsi obyektiv səbəbdən mümkün deyilsə, iddiaçının pozulmuş hüquqlarının sürətli və ədalətli şəkildə bərpası üçün prosessual qənaət prinsipi də nəzərə alınaraq, tələbdə xüsusi olaraq göstərilməsə də, müqavilə öhdəliklərinin pozulmasına görə zərərin əvəzinin ödənilməsini nəzərdə tutulan normalar əsasında mübahisə həll edilməlidir.

104. Bu məqsədlə işin hüquqi vəziyyəti tərəflərlə müzakirə edilərək, iddianın göstərilən şəkildə həllinə iddiaçının münasibəti öyrənilməlidir. Əgər o, müqavilə öhdəliyinin icrası

əvəzində zərərlərin pul və ya başqa əmlakla kompensasiya edilməsini tələb edirsə, məhkəmə araşdırmanı həmin istiqamətdə davam etdirməklə mübahisəni yekun olaraq həll etməlidir.

105. Oxşar qayda, ilkin vəziyyətin bərpası yolu ilə zərərin əvəzinin ödənilməsi mümkün olmadıqda və ya bunun üçün tənasübsüz surətdə böyük xərclər zəruri olduqda kreditora pul əvəzinin verilməsi barədə Mülki Məcəllənin 459.5-ci maddəsində nəzərdə tutulmuşdur. Eyni zamanda, Mülki Prosessual Məcəllənin 222.1-ci maddəsinə əsasən, alınmalı əmlak qətnamə icra olunan vaxt mövcud olmasa, məhkəmə cavabdehdən alınmalı əmlakın dəyərini...qətnamənin nəticə hissəsində göstərir (§ 55).

106. Baxılan iş üzrə iddiaçı kassasiya şikayətində açıqca qeyd etmişdir ki, *"hazırkı halda iddianın predmetini iddiaçının cavabdeh tərəfindən müqavilənin icrasından imtinası nəticəsində iddiaçıya vurulmuş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ təşkil edir. ...məhkəmə iddiaçıya vurulmuş zərərin naturada əmlakın bərpası yolu ilə ödənilməsini mümkün hesab etmədiyi halda zərərin əvəzinin ödənilməsinin digər üsulunu-cavabdeh tərəfindən pul əvəzinin (kompensasiyanın) verilməsi üsulunu, o cümlədən, kompensasiyanın məbləğini tərəflərlə müzakirə edilməli, məbləğlə bağlı mübahisə olduğu təqdirdə qanunvericilikdə nəzərdə tutulmuş prosessual vasitələrdən istifadə edilməklə mübahisə həll edilməlidir"*.

107. Apellyasiya məhkəməsi göstərilən halları nəzərə almamış, həqiqətə nail olmaq üçün işin hərtərəfli, tam və obyektiv tədqiqinə lazımi şərait yaratmamış, maddi hüquq normalarını səhv tətbiq etmiş, qətnaməni iş üzrə müəyyən edilmiş hallara, tərəflərin qarşılıqlı münasibətinə və qanunvericiliyə uyğun əsaslandırmamışdır (§ 51, 53-54).

108. Bu qaydalara riayət edilməməsi Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsi ilə təminat verilən hüquq və azadlıqların məhkəmə müdafiəsi hüququnun, İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Avropa Konvensiyasının 6-cı maddəsində əks olunmuş ədalətli məhkəmə araşdırması hüququnun pozulmasına dəlalət edir (§ 23-24).

109. Məhkəmə kollegiyası qeyd edilənləri nəzərə alaraq hesab edir ki, apellyasiya instansiyası məhkəməsinin qətnaməsi ləğv edilməli, iş yeni apellyasiya baxışına göndərilməlidir.

110. Göstərilənlərə əsasən və Azərbaycan Respublikası MPM-in 416, 417, 419 və 421-ci maddələrini rəhbər tutaraq, məhkəmə kollegiyası

Qərara aldı:

Kassasiya şikayəti qismən təmin edilsin.

Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(103)-4861/2025 nömrəli, 26 sentyabr 2025-ci il tarixli qətnaməsi ləğv edilsin, iş yenidən baxılması üçün həmin məhkəməyə göndərilsin.

Qərar qətidir və qəbul edildiyi andan qüvvəyə minir.

İcarə münasibətlərindən irəli gələn mübahisə

33. 2(102)-3394/2022 nömrəli, 2022-ci il 12 sentyabr tarixli qərar – icarə müqaviləsi əsasında təhvil verilməmiş əmlaka dair mübahisələrdə əşya və tələb hüquqlarının fərqləndirilməsi

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu:

İddiaçı ilə bələdiyyə arasında icarə müqaviləsi bağlanmış, lakin müqavilə icra edilməmiş, torpaq sahəsi iddiaçıya verilməmişdir. Torpaq sahəsi faktiki cavabdehlərin sahibliyindədir. Hazırda iddiaçı bələdiyyə ilə bağladığı icarə müqaviləsinə istinad edərək, torpağa faktiki sahiblik edən cavabdehlərin ərazidən çıxarılmasını tələb etmişdir.

İşə baxan məhkəmələr iddianın qanuni əsası kimi Mülki Məcəllənin 157.2, 157.4, 157.8 və 164.1-ci maddələrinə istinadla iddianı təmin etmişlər.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Mülki Məcəllənin 157.2 və 157.4-cü maddələri öz əşyasından məhrum olan və ya məhrumetmə olmadan qəsdə məruz qalan mülkiyyətçinin hüquqlarının qorunması ilə bağlı vindikasiya və neqator iddiaları nəzərdə tutur. Bu tələblərin təmin olunması üçün iddiaçı əşyanın mülkiyyətçisi, cavabdeh isə əşyanın sahibi olmalı, yaxud onun tərəfindən əşyaya qəsd və ya başqa maneələr törədilməli, habelə cavabdehin sahibliyi və ya müdaxiləsi qanunsuz olmalıdır.

Sözügedən normaların tətbiqinin Mülki Məcəllənin 157.8-ci maddəsi ilə əlaqəli şəkildə nəzərdən keçirilməsi mümkündür. Bu maddəyə əsasən, mülkiyyət hüququnun müdafiəsinə dair hüquqlar mülkiyyətçi olmasa belə, əşyaya bu Məcəllədə və ya müqavilədə nəzərdə tutulan əsasla sahiblik edən şəxsə də mənsubdur.

Bu normada müqavilədən irəli gələn tələb hüquqları (şəxsi hüquqlar) deyil, məhdud əşya hüquqlarından (məsələn servitut, uzufrukt, girov və s.) irəli gələn sahiblik və istifadə nəzərdə tutulmuşdur. Qanunverici, məhz məhdud əşya hüquqlarını (servitut, tikintiyə vərəsəlik hüququ və s.) tam əşya hüququ olan mülkiyyət hüququ ilə eyni səviyyədə qoruma altına almışdır. Bununla da, məhdud əşya hüququna sahib olan şəxs, Mülki Məcəllənin 157-ci maddəsinə istinad etməklə öz hüququnu hər kəsə qarşı qoruya bilər.

Normanın bu cür təfsirinə və tətbiqinə dair qənaət ondan irəli gəlir ki, əvvəla, sözügedən müddəa Mülki Məcəllənin "Əmlak və Əşya hüququ" bölməsində yer alan "Mülkiyyət hüququnun ümumi müddəaları" adlı 6-cı fəslindəki mülkiyyətin müdafiəsinə dair 157-ci maddənin tərkibində nəzərdə tutulmuşdur. Yəni, məsələyə normaların sistematik təfsiri baxımından yanaşdıqda Məcəllənin Xüsusi Hissəsində tənzimlənən tələb hüquqlarına (7-ci bölmədəki müqavilədən əmələ gələn öhdəliklərə) aid bir qaydanın tam əşya hüququ sayılan mülkiyyət hüququna aid fəsildə və normada yer alması ağlabatan deyil. Bundan əlavə, mülkiyyət hüququnun müdafiəsinə dair qaydaların müqavilədən irəli gələn tələb hüquqlarına da şamil edilməsi, bu hüquqları eyniləşdirmək anlamına gəlir. Halbuki, yuxarıda göstərilən əlamətləri baxımından mahiyyətcə fərqli olan həmin hüquqlara (əşya və tələb hüquqlarına) eyni yanaşma sərgilənə bilməz. Əks halda, bu hüquqlar arasındakı fərqləndirmənin bir mənası qalmazdı.

Hazırkı işdə iddiaçının hər hansı məhdud əşya hüququna malik olması məhkəmələr tərəfindən müəyyən edilməmişdir. Belə ki, iddiaçının tələbi bələdiyyə ilə bağladığı icarə müqaviləsinə əsaslanır. Torpaq sahəsinə dair icarə hüququ isə həmin müqavilədən irəli gələn tələb hüququdur və bu hüquq üçüncü şəxslərə qarşı deyil, müqavilə tərəfinə qarşı irəli sürülə bilər. Belə olan halda, iddianın müqavilə tərəfinə qarşı irəli sürülə bilər. Belə olan halda, iddianın Mülki Məcəllənin 157.8-ci maddəsi ilə təmin edilməsi qanuni və əsaslı yanaşma sayıla bilməz.

Qeyd: Bu qərarın əsaslandırıcı hissəsində sahiblik, sahibliyin müdafiəsi, mülkiyyətin müdafiəsinə dair tələblər (vindikasiya və ya neqator), əşya hüquqları və tələb hüquqlarının fərqi, Mülki Məcəllənin MM-in 157.8-ci maddəsinin mahiyyəti və təyinatı kimi məsələlərə izahlar verilmişdir.

2(102)-3394/2022

12.09.2022-ci il Bakı şəhəri

Azərbaycan Respublikası adından

Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının

İddiaçının cavabdehlər Cavabdeh 1, Cavabdeh 2, Cavabdeh 3, Cavabdeh 4 və Cavabdeh 5-ə qarşı iş üzrə

Q Ə R A R I

İş № 2(102)-3394/22

(Açar sözlər: sahiblik, sahibliyin müdafiəsi, əşya hüquqları, tələb hüquqları)

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Əliyev Zaur Əli oğlu (məruzəçi), Hüseynov Abiddin Qabil oğlu və Xələfov İlqar Rəhim oğlundan ibarət tərkibdə,

Şirvan Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(106)-242/2022 nömrəli iş üzrə 26 yanvar 2022-ci il tarixli qətnaməsindən Cavabdeh 1 tərəfindən verilmiş kassasiya şikayətinə Ali Məhkəmənin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları

1. İmişli rayonu Bəhrəmtəpə Bələdiyyəsinin xx.xx.2007-ci il tarixli, ** saylı iclas protokolundan çıxarışın surətinə əsasən, İmişli rayonu Bəhrəmtəpə Bələdiyyəsi tərəfindən X avtomobil yolunun sol tərəfində yerləşən, Bəhrəmtəpə Bələdiyyəsinə məxsus ərazidən 18,0 ha torpaq sahəsinin 99 il müddətinə kənd təsərrüfatı məhsullarının istehsalı üçün İddiaçınun icarəsinə verilməsini qərara alınmışdır.

2. Həmin qərar əsasında bağlanmış xx.xx.2007-ci il tarixli torpaq icarəsi müqaviləsinin surətinə əsasən, qeyd olunan torpaq sahəsi illik 126 manat icarə haqqı ödənilməsi şərti ilə 99 il müddətinə kənd təsərrüfatı məhsullarının istehsalı məqsədi ilə İddiaçına icarəyə verilmişdir.

3. Bununla belə bələdiyyə tərəfindən həmin müqavilənin icrası təmin edilməmiş, torpaq sahəsi iddiaçının sahibliyinə və istifadəsinə verilməmişdir.

4. Tərəflərin bildirdiklərinə görə səhə uzun illərdir ki, Cavabdeh 1-in sahibliyindədir.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a) Birinci instansiya məhkəməsində icraat

5. İddiaçı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, cavabdehlər Cavabdeh 1, Cavabdeh 2, Cavabdeh 3, Cavabdeh 4 və Cavabdeh 5-in ona icarə hüququ ilə məxsus olan X avtomobil yolunun sol tərəfində yerləşən 18,0 ha torpaq sahəsindən çıxarılmaları barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

6. İddiaçı tələbini onunla əsaslandırmışdır ki, İmişli rayon Bəhrəmtəpə bələdiyyəsinin 24.11.2007-ci il tarixli 14 saylı iclas protokolunun qərarı ilə ona Bəhrəmtəpə bələdiyyəsinin mülkiyyətində olan, X avtomobil yolunun sol tərəfində yerləşən ərazidən kənd təsərrüfatı məhsullarının istehsalı məqsədilə 18,0 ha torpaq sahəsi icarəyə verilmiş və Bu barədə 25.11.2007-ci il tarixdə icarə müqaviləsi bağlanmışdır. Lakin cavabdehlər onun icarəsində olan torpaq sahəsindən istifadə etməyinə mane olurlar, onu torpaq sahəsinə buraxmırlar. O, həmin torpaq sahəsinə icarə hüququnun qeydə alınması üçün DƏDRX-nin 6 saylı Beyləqan Ərazi İdarəsinə müraciət etmiş, müraciəti əsasında DƏDRX-nin 6 saylı Beyləqan Ərazi İdarəsinin əməkdaşları yerquruluşu koordinatlarının müəyyən edilməsi və dəqiqləşdirilməsi üçün əraziyə baxış keçirilməsi məqsədilə iddiaçının icarəsində olan torpaq sahəsinə gələrkən Cavabdeh 1 idarənin əməkdaşlarını əraziyə buraxmamış və onların öz vəzifələrini icra etməsinə mane olmuşdur. Nəticədə yerquruluşu işləri aparılmamışdır. İddiaçı dəfələrlə cavabdeh Cavabdeh 1-ə müraciət edərək ailə üzvləri ilə birlikdə icarə hüququ ilə ona məxsus olan 18 ha torpaq sahəsindən çıxmalarını tələb etsə də, heç bir nəticəsi olmamışdır. Nəticə etibarı ilə iddiaçı 2007-ci ildən icarəsində olan 18 ha torpaq sahəsindən istifadə edə bilmir. Bəhrəmtəpə Bələdiyyəsi onun icarəsinə verilmiş torpaq sahəsinin cavabdehlərdən azad edilərək ona verilməsini təmin etməmişdir. Cavabdeh Bəhrəmtəpə Bələdiyyəsi onun həmin norpaqdan istifadə etməsinə imkan yaratmalıdır.

7. İmişli Rayon Məhkəməsinin 18 avqust 2021-ci il tarixli 2(036)-1705/2021 nömrəli qətnaməsi ilə (hakim Q.Hacıyev) iddia təmin edilərək cavabdehlər Cavabdeh 1, Cavabdeh 2, Cavabdeh 3, Cavabdeh 4 və Cavabdeh 5-in X avtomobil yolunun sol tərəfində yerləşən, Bəhrəmtəpə bələdiyyəsinin mülkiyyətində olan və icarə hüququ əsasında İddiaçıya məxsus 18 ha torpaq sahəsindən çəkilən xərclərin əvəzi ödənilmədən çıxarılmaları qət edilmişdir.

8. Məhkəmə hesab etmişdir ki, Cavabdeh 1 mübahisələndirilən torpaq sahəsinə iddiaçı İddiaçından daha əvvəl qanuni gözləntiyə sahib olmasını bildirsə də, həmin xüsusatı təsdiq edən sübutları məhkəməyə təqdim etməmiş və yalnız qeyd olunan torpaq sahəsi üzərində təsərrüfat işləri aparmasını bildirmişdir. Halbuki, qanunvericiliyə əsasən gözlənti qanuni əsasa malik olmalıdır. Belə qanuniliyin başlıca şərti isə onun hüquqi əsasa bağlı olmasıdır.

9. Məhkəmə gəldiyi nəticəni Azərbaycan Respublikası Mülki Məcəlləsinin 152.1. 152.5, 157.2, 157.4, 157.8, 164.1, Torpaq Məcəlləsinin 51.1, 51.2, 84.1, 84.3, 111, Mülki Prosessual Məcəlləsinin (bundan sonra – MPM) 14.2, 77.1, 217.4-cü maddələrinə istinad edərək əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

10. Həmin qətnamədən Cavabdeh 1 apellyasiya şikayəti verərərk qətnamənin ləğv olunmasını və iddianın rədd edilməsini xahiş etmişdir.

11. Şikayət onunla əsaslandırılmışdır ki, iddiaçı xx.xx.2007-ci il tarixdə icarəyə götürdüyü torpaq sahəsini dövlət qeydiyyatına aldırmalı idi. Yalnız bundan sonra onun qeyd olunan iddianı qaldırmaq üçün subyektiv hüququ yaranardı. Mübahisəli torpaq sahəsi 27 il ərzində və hazırda onun sahiblik və istifadəsində olduğundan iddiaçının ümumiyyətlə bu iddianı qaldırmağa subyektiv hüququ yoxdur. İşdə icarəyə verilmiş torpaq sahəsinin İmişli rayon Bəhrəmtəpə bələdiyyəsinə məxsus olması barədə sübut yoxdur. İcarəyə verilmiş torpaq sahəsi ilə onun istifadəsində olan torpaq sahəsinin eyni torpaq sahəsi olması yalnız ekspertiza ilə müəyyən edilə bilər ki, icarəyə verilmiş torpaq sahəsinin koordinatları olmadığından və qeydiyyata alınmadığından ekspertizanın keçirilməsi də mümkün deyil. Birinci instansiya məhkəməsi həmin hallara qiymət verməmiş, yalnız icarə müqaviləsinin mövcudluğunu nəzərə alaraq iddianı təmin etmişdir. Torpaq sahəsi yararsız vəziyyətdə olmuşdur. O, 27 il ərzində həmin torpaq sahəsindən istifadə edərək, torpaq sahəsini yararlı vəziyyətə gətirmiş, torpaq sahəsində 200-ə yaxın ağac əkmiş, 11000 ABŞ dolları xərcləyərək artezian quyusu qazdırmışdır. Həmin torpaq sahəsi iddiaçıya qanunsuz verilmişdir. O, həmin torpaq sahəsində məskunlaşdığı halda bələdiyyə tərəfindən torpaq sahəsi ona təklif edilməmiş, həmin ərazidən təxminən 30 km kənarda yaşayan başqa kənd sakini olan iddiaçıya heç bir hərrac keçirilmədən qanunsuz verilmişdir. Torpaq sahəsində onun çox böyük əməyi olmuşdur. Əgər iddiaçı onun çəkdiyi xərcləri ödəyərsə, torpaq sahəsindən çıxmağa hazırdır.

12. Şirvan Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(106)-242/22 nömrəli iş üzrə 26 yanvar 2022-ci il tarixli qətnaməsi ilə (hakimlər – S.Mayılov (sədrlik edən və məruzəçi), İ.Əsədov, N.Mirzəyev) apellyasiya şikayəti qismən təmin edilmiş, birinci instansiya məhkəməsinin qətnaməsi qismən – "çəkilən xərclərin əvəzinin ödənilmədən" hissəsində ləğv edilmiş, qətnamə qalan hissədə dəyişdirilmədən saxlanılmışdır.

13. Məhkəmə qeyd etmişdir ki, iddiaçının 25.11.2007-ci il tarixli icarə müqaviləsi üzrə hüquqlarının qeydə alınmaması cavabdehlərin törətdikləri maneələr səbəbindən olmuşdur. Eyni zamanda bu hüququn qeydə alınmaması icarəsinə verilmiş torpaq sahəsinə sahiblikdən özbaşına məhrum edilmiş iddiaçının hazırki iddia ilə müraciət etmək hüququnu istisna etmir. Məhkəmə qanunvericiliyin tələbinə müvafiq olaraq cavabdehlərin mübahisəli torpaq sahəsində məskunlaşdırılmaları və ya sonradan köçürülmələri hallarının təsdiq edilmədiyini nəzərə alaraq, mübahisəli torpaq sahəsinin cavabdehlərin qanunsuz sahibliyində olması nəticəsinə gəlmişdir.

14. Məhkəmə apellyasiya şikayətinin dəlilləri üzrə onu da qeyd etmişdir ki, keçmiş Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin İmişli rayon şöbəsinin rəyi ilə mübahisəli torpaq sahəsinin

Bəhrəmtəpə bələdiyyəsinin mülkiyyətinə aid olması və iddiaçının icarəsinə verilməsi nəzərdə tutulan sahə olduğu təsdiq edilmişdir. Torpaq sahəsinin ayrıldığı vaxt, onun həmin torpaq sahəsində məskunlaşması və mübahisəli torpaq sahəsinin qanuni istifadəçisi olması təsdiq edilmir, torpaq sahəsindən qanunsuz istifadə isə torpaq sahəsinin cavabdehlərin icarəsinə verilməsi üçün əsas deyil, əksinə, onlar mübahisəli torpaq sahəsini aidiyyəti üzrə geri qaytarmalıdırlar. Eyni zamanda bələdiyyə mübahisəli torpaq sahəsini hərrac keçirmədən iddiaçıya icarəyə verməkdə haqlı olmuşdur. Özbaşına tutulmuş (zəbt edilmiş) torpaq sahələrinin aidiyyəti üzrə geri qaytarılması zamanı qanunsuz istifadə zamanı çəkilən xərclərin əvəzinin ödənilməsi isə nəzərdə tutulmamışdır.

15. Məhkəmə gəldiyi nəticəni Azərbaycan Respublikası Mülki Məcəllənin 152.1, 157.2, 157.8, 166.3, "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 6.3, 6.6, 6.7, Torpaq Məcəlləsinin 84, 111, MPM-nin 14.2, 77.1, 88, 218.3, 384.0.2, 385.1.1-ci maddələrinə istinad edərək əsaslandırmışdır.

Kassasiya şikayətinin və ona etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

16. Cavabdeh 1 kassasiya şikayəti verərək qətnamənin ləğv və iddianın rədd edilməsi barədə yeni qərar çıxarılmasını xahiş etmişdir.

17. Kassasiya şikayəti onunla əsaslandırılmışdır ki, iddiaçı 25.11.2007-ci il tarixdə icarəyə götürdüyü torpaq sahəsini dövlət qeydiyyatına almalı idi. Yalnız bundan sonra onun qeyd olunan iddianı qaldırmaq subyektiv hüququ yaranırdır. Nəzərə alınsa ki, mübahisəli torpaq sahəsi 27 il ərzində və hazırda da Cavabdeh 1-in sahiblik və istifadəsindədir, bu halda iddiaçı İddiaçının ümumiyyətlə bu iddianı qaldırmaq subyektiv hüququ yoxdur. Mübahisələndirilən torpaq sahəsinin İmişli rayonu Bəhrəmtəpə bələdiyyəsinə məxsus olması barədə hər hansı hüquq-müəyyənedici sənəd iş materiallarında mövcud deyil.

18. Mübahisələndirilən torpaq sahəsi artıq 27 ildir ki, cavabdehlərin istifadəsindədir. Bu səbəbdən də cavabdehlər həmin torpaq sahəsinə sahiblik edirlər. Yəni faktiki olaraq iddiaçı həmin torpaq sahəsinin nə mülkiyyətçisi, nə istifadəçisi, nə də ki sahibidir. Belə olan təqdirdə iddiaçının guya icarəyə götürdüyü torpaq sahəsi yalnız sənəd üzrə icarədir. Bu səbəbdən Mülki Məcəllənin 166.3-cü maddəsinin sahiblik ilə müddəasını bu işə tətbiq etmək olmaz. Torpaq sahəsi cavabdehlərin istifadəsindədir və bələdiyyə onları həmin torpaqdan çıxarmaq üçün heç bir cəht göstərməmişdir. Sadəcə öz işini asanlaşdırmaq üçün istifadə də olunan torpaq sahəsini digər şəxsə vermişdir. Halbuki, əgər icarəyə verilən torpaq sahələri qanunsuz istifadə edilirsə, bələdiyyə öz növbəsində iddia qaldıraraq həmin torpaqdan qanunsuz istifadə edən şəxsləri torpaqlardan çıxarmalı və yalnız bundan sonra boş torpaq sahəsini icarəyə verməlidir. Nə birinci instansiya məhkəməsi, nə də apellyasiya instansiya məhkəməsi iş üzrə ekspertiza təyin etməmişdir.

19. Kassator şikayətini Azərbaycan Respublikası Mülki Məcəlləsinin 139.1, 148.1, 166.3, 178.1, "Bələdiyyə Torpaqların idarə edilməsi haqqında qanunun" 16, Torpaq Məcəlləsinin 66.2, 66.4, 68, MPM-nin 77.1, 97.1-ci maddələrinə istinad edərək əsaslandırmışdır.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

20. Kassasiya şikayətinə qarşı etiraz daxil olmamışdır.

Tətbiq edilən hüquq

Azərbaycan Respublikasının Mülki Məcəlləsi:

21. Maddə 157.2. Mülkiyyətçi özgəsinin qanunsuz sahibliyindən öz əmlakını geri tələb edə bilər.

22. Maddə 157.4. Əgər mülkiyyətə qəsd və ya başqa maneələr əşyanı götürmədən və ya ondan məhrum etmədən törədilirsə, mülkiyyətçi qəsd edəndən bu hərəkətlərə son qoymağı tələb edə bilər. Bu cür hərəkətlər davam etdirildikdə mülkiyyətçi həmin hərəkətlərə son qoyulmasını məhkəmə vasitəsilə tələb edə bilər.

23. Maddə 157.8. Mülkiyyətçi hüquqları mülkiyyətçi olmasa da, bu Məcəllədə və ya müqavilədə nəzərdə tutulan əsasla əmlaka sahiblik edən şəxsə də mənsubdur.

24. Maddə 158.1. Mülkiyyət hüququ ilə yanaşı girov hüququ, əmlakdan istifadə hüququ servitutlar da əmlak hüquqları sayılır.

25. Maddə 158.2. Əmlak hüquqları həmin əmlakın mülkiyyətçisi olmayan şəxslərə də mənsub ola bilər.

26. Maddə 159. Sahiblik əşyaya faktik sahibliyə nail olmaqla əldə edilir.

27. Maddə 163.1. Sahiblik əşyanın özünün verilməsi ilə verilir. Əvvəlki sahibin iradəsi ilə əldə edən əşyaya faktik sahibliyi həyata keçirməyə qadir olduqda verilmə baş tutur.

28. Maddə 164.1. Sahibin iradəsi olmadan sahiblikdən məhrumetmə və onu pozma qadağan edilmiş özbaşınalıq sayılır.

29. Maddə 164.2. Sahiblikdən məhrum olan onun üçün qanunsuz sahibdən sahibliyin qaytarılmasını tələb edə bilər. Sahiblikdən məhrumetmə faktik sahib və ya onun hüquq sələfi barəsində səhv addım olduqda və sahiblik məhrumetmədən əvvəlki ildə əldə edildikdə iddia istisna edilir.

30. Maddə 165.1. Sahiblik qadağan edilmiş özbaşınalıq yolu ilə pozulduqda sahib pozucudan pozuntulara son qoymağı tələb edə bilər. Pozuntuların davam edəcəyindən ehtiyat olunduqda sahib onlara son qoyulması üçün iddia verə bilər. Pozucu və ya onun hüquq sələfi üçün sahib qanunsuz olduqda və sahiblik məhrumetmədən əvvəlki ildə əldə edildikdə bu cür iddia istisna edilir.

31. Maddə 165.2. Qadağan edilmiş özbaşınalıq üzrə iddiaya yalnız o halda yol verilir ki, sahib qəsdin və təqsirkarın ona məlum olmasından dərhal sonra əşyanın qaytarılmasını və ya pozuntunun aradan qaldırılmasını tələb etsin. İddia müddəti, hətta qəsd və təqsirkar sahibə sonralar da məlum olarsa, məhrumetmə və ya pozuntu anından başlayaraq bir il təşkil edir.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi

32. Maddə 217.1. Məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır.

33. Maddə 217.3. Qətnamə iş üzrə müəyyən edilmiş hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır.

34. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

Kassasiya baxışının hədləri

35. Hazırkı kassasiya şikayətində qətnamə tam mübahisələndirildiyindən apellyasiya instansiyası məhkəməsinin aktı bütovlükdə yoxlanılır.

36. Qanunun tələbinə görə, kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

37. Hər hansı iddia tələbi üzrə hüquqi dəyərləndirmə prosesi ilk addım kimi iddiaçının tələbinə uyğun gələn qanuni əsasın tapılmasından və məhkəməyə bildirdiyi faktiki halların həmin əsasın dispozisiya şərtlərinə uyğun olmasının yoxlanılmasından ibarətdir. Əgər irəli sürülmüş iddia tələb(lər)inin qanuni əsası tapılırsa və faktiki hallar müvafiq maddi hüquq normasının dispozisiya şərtləri ilə uzlaşırsa (habelə cavabdehin etiraz və müdafiə vasitələrinə görə aradan qalxmırsa) iddia təmin olunur, uzlaşmırsa rədd edilir.

38. Hazırkı işdə hər iki instansiya məhkəməsi iddianın qanuni əsası kimi Mülki Məcəllənin 157.2, 157.4, 157.8 və 164.1-ci maddələrinə istinad etmişlər.

39. Kollegiya əvvəlcə MM-in 164.1-ci maddəsi ilə bağlı qeyd edir ki, bu norma sahibin iradəsi olmadan sahiblikdən məhrumetmə və onu pozmanın qadağan edilmiş özbaşınalıq sayıldığını nəzərdə tutur və bundan sonrakı maddələr sahibliyin müdafiəsinə dair qaydaları tənzimləyir (§ 28-30).

40. Sahiblik əşyaya faktik sahibliyə nail olmaqla əldə edilir (§ 26). Başqa sözlə, sahiblik bir əşya üzərində əməli (faktiki) hakimiyyəti iradəvi olaraq ələ keçirmiş və bunu itirməmiş olmaqdır. Şəxs öz iradəsi ilə bu hakimiyyəti tərk edənədək və ya iradəsi xaricində başqa biri onu ələ keçirənədək və ya hakimiyyəti başqa səbəbdən sona çatanadək əşyanın sahibi sayılır.

41. Sahibliyin verilməsi isə digər şəxsin əşya üzərində faktiki hakimiyyətinin təmin edilməsi, yəni əşyanın onun birbaşa - vasitəsiz sahibliyinə verilməsi və ya əşyaya vasitəli sahibliyinin təmin edilməsi ilə mümkün olur (§ 27).

42. Beləliklə, sahibliyin müdafiəsinə dair normaların tətbiq edilməsi üçün iddiaçının əşyanın (ilkin qazanma və ya sahibliyin verilməsi nəticəsində) sahibi olması və bu vəziyyətin cavabdeh tərəfindən özbaşınalıqla pozulması müəyyən edilməlidir.

43. Hazırkı işə mahiyyəti üzrə baxmış məhkəmələr iddiaçının mübahisəli torpaq sahəsinin sahibi olmasını, başqa sözlə həmin əşyanın onun sahibliyinə verilməsini müəyyən etməmişlər. Hətta iddiaçının özü ərizəsində göstərmişdir ki, Bəhrəmtəpə Bələdiyyəsi torpaq sahəsinin ona verilməsini təmin etməmişdir.

44. Məhkəmələr onu da nəzərə almamışlar ki, qadağan edilmiş özbaşınalıq üzrə iddiaya yalnız o halda yol verilir ki, sahib qəsdin və təqsirkarın ona məlum olmasından dərhal sonra əşyanın qaytarılmasını və ya pozuntunun aradan qaldırılmasını tələb etsin. İddia müddəti, hətta qəsd və təqsirkar sahibə sonralar da məlum olarsa, məhrumetmə və ya pozuntu anından başlayaraq bir il təşkil edir (§ 31).

45. Göstərilənlərə əsasən Kollegiya hesab edir ki, mövcud vəziyyətdə iddianın sahibliyin müdafiəsinə dair normalar çərçivəsində təmin edilməsi məhkəmələr tərəfindən lazımi şəkildə əsaslandırılmamışdır.

46. Məhkəmələrin tətbiq etdikləri MM-in 157.2 və 157.4-cü maddələri isə öz əşyasından məhrum olan və ya məhrumetmə olmadan qəsdə məruz qalan mülkiyyətçinin hüquqlarının qorunması ilə bağlı vindikasiya və neqator iddiaları nəzərdə tutur (§ 21-22).

47. Vindikasiya və ya neqator tələbin təmin olunması üçün iddiaçı əşyanın mülkiyyətçisi, cavabdeh isə əşyanın sahibi olmalı, yaxud onun tərəfindən əşyaya qəsd və ya başqa maneələr törədilməli, habelə cavabdehin sahibliyi və ya müdaxiləsi qanunsuz olmalıdır.

48. Bu normalara söykənən tələbin haqlı sayılması üçün həmin ünsürlərin hər biri müəyyən edilməlidir. Başqa sözlə, iddiaçının bildirdiyi hallar (və işin müəyyən edilən halları) göstərilən dispozisiya şərtləri ilə uzlaşdıqda iddia əsaslı sayıla və təmin edilə bilər. Onlardan biri aşkar olunmadıqda sonrakı ünsürlərin araşdırılmasına gərək qalmadan həmin normaya söykənən iddia rədd olunmalıdır.

49. Hazırkı işə mahiyyəti üzrə baxmış məhkəmələr bu qaydada hüquqi dəyərləndirmə aparmamış, normanın birinci dispozisiya şərtini - iddiaçının mübahisəli torpaq sahəsinin mülkiyyətçisi olduğunu müəyyən etməmişlər. Belə olan halda, həmin normaların müstəqil əsas kimi işə tətbiq edilməsi qanuni olmamışdır.

50. Bununla belə sözügedən normaların tətbiqinin MM-in 157.8-ci maddəsi ilə əlaqəli şəkildə nəzərdən keçirilməsi mümkündür. Bu maddəyə əsasən, mülkiyyət hüququnun müdafiəsinə dair hüquqlar mülkiyyətçi olmasa belə, əşyaya bu Məcəllədə və ya müqavilədə nəzərdə tutulan əsasla sahiblik edən şəxsə də mənsubdur (§ 23).

51. Mülkiyyət hüququ ilə yanaşı girov hüququ, əmlakdan istifadə hüququ, servitutlar da əmlak hüquqları sayılır. Əmlak hüquqları həmin əmlakın mülkiyyətçisi olmayan şəxslərə də mənsub ola bilər (§ 24-25).

52. Kollegiya vurğulayır ki, bu normalarda müqavilədən irəli gələn tələb hüquqları (şəxsi hüquqlar) deyil, məhdud əşya hüquqlarından (məsələn servitut, uzufrukt, girov və s.) irəli gələn sahiblik və istifadə nəzərdə tutulmuşdur.

53. Əmlak hüquqlarının iki ayrı növü olan əşya və tələb hüquqları isə bir-birindən əhəmiyyətli dərəcədə fərlənirlər.

54. Əşya hüquqları, başqa bir şəxsin vasitəçiliyinə gərək duyulmadan, müəyyən bir əşya üzərində birbaşa hakimiyyət təmin edən və hər kəsə qarşı irəli sürülə bilən hüquqlardır (məsələn, mülkiyyət hüququ, servitut, ipoteka və s.). Bu səbəbdən əşya hüquqları mütləq hüquqlar sayılır.

55. Tələb hüquqları isə sahibinə borcludan hər hansı bir hərəkəti yerinə yetirməyi tələb etmək imkanı verir. Hətta kreditorun tələb hüququnun predmeti bir əşya olduqda belə vəziyyət dəyişmir (məsələn, alqı-satqı müqaviləsi üzrə alıcının əşyanın onun mülkiyyətinə verilməsini satıcıdan tələb etmək hüququ – MM, m.567; kirayə müqaviləsi üzrə kirayəçinin əşyanın onun istifadəsinə verilməsini kirayəyə verəndən tələb etmək hüququ – MM, m. 675). Bu tələblər üzrə hərəkəti yerinə yetirmək öhdəliyi yalnız borcluya aiddir, digər şəxslərə aidiyyəti yoxdur. Ona görə də kreditor müqavilədən irəli gələn tələb hüququnu müqavilənin tərəfi olmayan üçüncü şəxslərə qarşı irəli sürə bilməz. Bu xüsusiyyətlərinə görə tələb hüquqları nisbi hüquqlar sayılır.

56. Beləliklə, tələb hüququ öhdəlik münasibətlərində kreditorun borcludan bir hərəkəti yerinə yetirməsini tələb etmək səlahiyyətini özündə ehtiva edirsə, əşya hüququnun özü əşya üzərində birbaşa hakimiyyət təmin edir və hər kəs bu hüququ pozmamaq öhdəliyi daşıyır. Əşya hüququ mövcud və müəyyən bir əşya üzərində qurula biləcəyi halda, mövcud olmayan və gələcəkdə oratəya çıxa biləcək bir əşya (məsələn, podratda hər hansı məmulatın hazırlanması) tələb hüququnun predmeti ola bilər.

57. Qanunverici, MM-in 157.8-ci maddəsində məhz məhdud əşya hüquqlarını (servitut, tikintiyə vərəsəlik hüququ və s.) tam əşya hüququ olan mülkiyyət hüququ ilə eyni səviyyədə qoruma altına almışdır. Bununla da, məhdud əşya hüququna sahib olan şəxs, MM-in 157-ci maddəsinə istinad etməklə öz hüququnu hər kəsə qarşı qoruya bilər.

58. Normanın bu cür təfsirinə və tətbiqinə dair qənaət ondan irəli gəlir ki, əvvəla, sözügedən müddəa Mülki Məcəllənin “Əmlak və Əşya hüququ” bölməsində yer alan “Mülkiyyət hüququnun ümumi müddəaları” adlı 6-cı fəslindəki “Mülkiyyətin müdafiəsi”nə dair 157-ci maddənin tərkibində nəzərdə tutulmuşdur. Yəni, məsələyə normaların sistematik təfsiri baxımından yanaşdıqda Məcəllənin Xüsusi Hissəsində tənzimlənən tələb hüquqlarına (7-ci bölmədəki müqavilədən əmələ gələn öhdəliklərə) aid bir qaydanın tam əşya hüququ sayılan mülkiyyət hüququna aid fəsildə və normada yer alması ağlabatan deyil. Bundan əlavə, mülkiyyət hüququnun müdafiəsinə dair qaydaların müqavilədən irəli gələn tələb hüquqlarına da şamil edilməsi, bu hüquqları eyniləşdirmək anlamına gəlir. Halbuki, yuxarıda göstərilən

əlamətləri baxımından mahiyyətcə fərqli olan həmin hüquqlara (əşya və tələb hüquqlarına) eyni yanaşma sərgilənə bilməz. Əks halda, bu hüquqlar arasındakı fərqləndirmənin bir mənası qalmazdı.

59. Hazırkı işdə cavabdehlərin torpaq sahəsindən çıxarılmasını tələb edən iddiaçının hər hansı məhdud əşya hüququna malik olması məhkəmələr tərəfindən müəyyən edilməmişdir. Belə olan halda, iddianın MM-in 157.8-ci maddəsi ilə təmin edilməsi qanuni və əsaslı yanaşma sayıla bilməz.

60. İşin müəyyən edilmiş hallarından aydın olur ki, iddiaçının tələbi Bəhrəmtəpə Bələdiyyəsi ilə bağladığı icarə müqaviləsinə əsaslanır. Eyni zamanda icarəyə verən tərəfindən müqavilə öhdəliyi icra edilməklə torpaq sahəsi iddiaçıya təhvil verilməmişdir.

61. Beləliklə, iddiaçının torpaq sahəsinə dair icarə hüququ həmin müqavilədən irəli gələn tələb hüququdur. Bu hüquq üçüncü şəxslərə qarşı deyil, müqavilə tərəfinə qarşı irəli sürülə bilər.

62. Hazırkı işdə iddia müqavilənin tərəfi (icarəyə verən) Bəhrəmtəpə Bələdiyyəsinə qarşı deyil, üçüncü şəxslər olan cavabdehlərə qarşı qaldırılmışdır. Belə olan halda iddiaçının tələbinin təmin edilməsi üçün əsas olan maddi hüquq norması məhkəmələr tərəfindən göstərilməmişdir.

63. Yuxarıda qeyd edilənlər ona dəlalət edir ki, məhkəmələr maddi və prosessual hüquq normalarını düzgün tətbiq etməmiş, qətnaməni iş üzrə müəyyən edilmiş hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırmamışlar (§ 32-33).

64. Ona görə də apellyasiya məhkəməsinin qətnaməsi ləğv edilməli və iş yeni apellyasiya baxışına göndərilməlidir.

65. Göstərilənlərə əsasən və MPM-in 416, 417 və 419-cu maddələrini rəhbər tutaraq, Məhkəmə kollegiyası

Qərara aldı:

Kassasiya şikayəti qismən təmin edilsin.

Şirvan Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(106)-242/2022 nömrəli iş üzrə 26 yanvar 2022-ci il tarixli qətnaməsi ləğv edilsin və iş yeni apellyasiya baxışına göndərilsin.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

Podrat münasibətlərindən irəli gələn mübahisə

34. 2-2(102)-573/2023 nömrəli, 2023-cü il 22 noyabr tarixli qərar - Podrat müqaviləsi üzrə öhdəliklərin icrası ilə əlaqədar sifarişçinin podratçıya verdiyi avansın geri qaytarılması

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: podrat müqaviləsi üzrə öhdəliklərin icrası ilə əlaqədar sifarişçinin podratçıya verdiyi avansın geri qaytarılması

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Avansın ödənildiyi öhdəliyin mahiyyətindən və tərəflərin razılaşmasından başqa hal irəli gəlmirsə, mal verilməmişsə və ya iş, xidmət göstərilməmişsə, müvafiq öhdəliyin yerinə yetirilməsi üçün əvvəlcədən ödənilmiş dəyər (avans) geri qaytarılmalıdır. Əks yanaşma, müvafiq öhdəlik üzrə hər hansı işi yerinə yetirməmiş, xidməti göstərməmiş tərəfin əsassız olaraq vəsait əldə etməsinə (varlanmasına), həmçinin Mülki Məcəllənin 491-ci maddəsinin tələblərinə zidd olaraq avansla behin eyniləşdirilməsinə gətirib çıxaracaqdır.

Mülki Məcəllənin podrat müqaviləsinə aid maddələrində podrat müqaviləsinin ləğv olunduğu halda avansın geri qaytarılmasını müəyyən edən normanın nəzərdə tutulmaması səbəbindən avansın qaytarılmaması barədə qənaət isə avansın yuxarıda qeyd edilən mahiyyətinə və Mülki Məcəllənin 759, 760-cı maddələrinə ziddir.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2-2(102)-573/2023

22.11.2023-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından

Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının

İlk iddiaçının ilk iddia üzrə cavabdehə,
qarşılıqlı iddiaçı cavabdehin qarşılıqlı iddia üzrə cavabdeh ilk iddiaçıya qarşı iş üzrə

Q Ə R A R I

Açar sözlər: xidmət müqaviləsi, müqavilənin ləğvi, pul tələbi

Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının hakimi Məmmədli Bəhram Məmməd oğlunun məruzəsi ilə, hakimlər Əhmədova Mehparə Tofiq qızı və Qəribov Bəhman Fərhad oğlundan ibarət tərkibdə,

İlk iddiaçının cavabdehə qarşı müqavilənin ləğvi və pul tələbinə dair ilk, cavabdehin ilk iddiaçıya qarşı zərərin əvəzinin ödənilməsi qarşılıqlı iddia tələbinə dair iş üzrə Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2023-cü il 13 iyun tarixli 2-2(103)-531/2023 saylı qətnaməsindən ilk iddiaçı və Cavabdeh tərəfindən verilmiş kassasiya şikayətlərinə yazılı icraat qaydasında baxılmışdır.

İşin halları

1. Prodüser İlk iddiaçı ilə aktyor Cavabdeh arasında bağlanmış 2019-cu il 18 yanvar tarixli xidmət müqaviləsinin şərtlərinə görə:

- Prodüser X1 (baş rolun ifaçısı kimi), X2 (ikinci planlı rolun ifaçısı kimi) adlı filmlərin çəkiliş qrupun tərkibinə aktyor vəzifəsinə Cavabdehi qəbul edir (1.1-ci bənd).
- Aktyor filmlərin yaradılması prosesində tam həcmdə icrası üçün yaradılan yaradıcılıq hüququnun və habelə digər əlaqəli hüquqların obyektləri prodüserə onlara müstəsna hüquq verir. Bu zaman prodüserə verilən hüquq istifadə hüququ icrası və onun yazıları kimi, həm də ondan ayrı filmlərdə, həmçinin səsli və vizual bir sıra icrasının ayrılıqda istifadə etmək hüququ daxildir (1.2-ci bənd).
- Aktyora yuxarıda adıçəkilən 2 filmlərdə çəkiliş üçün 48.600 manat məbləğində qonorar ödəniləcəkdir. Ödəniş tərəflərin razılaşdırdığı kimi müəyyən müddətdə həyata keçiriləcəkdir (4.1-ci bənd).
- Müqavilənin 4.1-ci bəndində göstərilən məbləğdən aktyora avans şəklində 50%, yəni 24.300 manat məbləğində ödəniləcəkdir, yerdə qalan 50%, yəni 24.300 manat məbləğində honorar filmlərin çəkilişi qurtardıqdan sonra ödəniləcəkdir (4.3-cü bənd).

2. 2019-cu il 20 fevral tarixində 24.300 manat məbləğində pul vəsaiti iddiaçı tərəfindən cavabdehə ödənilmişdir.

İş üzrə məhkəmə icraatı

a) Birinci instansiya məhkəməsindəki icraat

3. İlk iddiaçı (bundan sonra-“iddiaçı”) 2022-ci il 15 dekabr tarixində cavabdehə qarşı (bundan sonra-“cavabdeh”) “müqavilənin ləğvi və pul” tələbinə dair iddia ərizəsi ilə Bakı Kommersiya Məhkəməsinə müraciət edərək, tərəflər arasında bağlanmış 2019-cu il 18 yanvar tarixli xidmət müqaviləsinin ləğv edilməsi, 24.300 manat məbləğində pulun, 200 manat məbləğində mediasiya xərcinin və 800 manat məbləğində hüquqi yardım xərcinin cavabdehdən iddiaçının xeyrinə tutulması barədə qətnamə qəbul olunmasını xahiş etmişdir.

4. İlk iddia tələbi onunla əsaslandırılmışdır ki, X2 adlı filmin çəkilişinə hazırlıq başlayarkən cavabdeh başqa bir filmin çəkilişi ilə bağlı X2 filminə çəkilə bilməyəcəyini bildirmiş və buna görə də iddiaçı məcbur qalaraq cavabdehin əvəzinə həmin filmdə onun ifa edəcəyi rola başqa bir aktyoru dəvət etmişdir. Beləliklə də, cavabdeh aralarında bağlanmış 2019-cu il 18 yanvar tarixli xidmət müqaviləsi üzrə öhdəliyini pozaraq X2 adlı filmə çəkilməmişdir. Lakin cavabdehin 2019-cu il 18 yanvar tarixli xidmət müqaviləsi üzrə öhdəliyini icra etməməsinə baxmayaraq, onlar yenə də cavabdehlə əməkdaşlığı davam etdirmişlər. Belə ki, iddiaçı ilə cavabdeh arasında bağlanmış 2019-cu il 23 oktyabr tarixli xidmət müqaviləsinə əsasən cavabdeh X3 adlı serialda baş rola çəkilməyi öhdəsinə götürmüşdür. Lakin X3 adlı serialın çəkilişi dövründə də cavabdeh yenə aralarında bağlanmış 2019-cu il 23 oktyabr tarixli xidmət müqavilənin şərtlərini kobud və əhəmiyyətli şəkildə pozaraq öz öhdəliklərini lazımi şəkildə icra etməməklə serialın çəkilişində böyük problemlər yaratmışdır. Belə ki, cavabdeh çəkilişlərə vaxtında gəlməmiş və ya gəlməkdən imtina edirdi ki, bu da bütün çəkiliş prosesinin ləngiməsinə, digər aktyorların boş

dayanmasına və əlavə xərclərin yaranmasına səbəb olmuşdur. Həmçinin cavabdeh müqavilə şərtlərini pozaraq müqavilədə nəzərdə tutulandan artıq ödəniş tələb edir və əgər onun istədiyi məbləğ ödənilməsə, çəkilişə gəlməyəcəyini bildirmişdir. Bundan sonra iddiaçı X1 filmində də cavabdehin eyni qaydada hərəkət edəcəyindən əmin olduqları üçün 2019-cu il 18 yanvar tarixli xidmət müqaviləsinin ləğv edilməsi və ödənilmiş avansın geri qaytarılması ilə bağlı cavabdehə müraciət olunmuş, lakin cavabdeh avans kimi ona ödənilmiş 24.300 manat məbləğində pulun geri qaytarılmasından imtina etmişdir. Bununla da cavabdeh iddiaçının hüquqlarını kobud surətdə pozmuş və iddiaçı hüquqlarının müdafiəsi üçün məhkəməyə müraciət etmək məcburiyyətində qalmışdır. Cavabdeh ilk iddia ərizəsinə qarşı etiraz təqdim edərək bildirmişdir ki, ilk iddia əsassız olduğundan təmin edilməməlidir. Lakin əsaslı olduğu halda belə, müqavilədə müddət göstərilmədiyi üçün iddia müddətinin axımı 2019-cu il 18 yanvar tarixindən (müqavilə bağlandığı tarixdən) hesablanmaqla müqavilə tələbləri üzrə qanunla müəyyənləşdirilmiş 3 illik iddia müddətinin iddiaçı tərəfindən ötürülməsi səbəbindən iddia rədd edilməlidir. Həmçinin cavabdeh ilk iddia ilə birgə baxılması üçün iddiaçıya qarşı "zərərin əvəzinin ödənilməsi" tələbinə dair qarşılıqlı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, iddiaçıdan onun xeyrinə 24.300 manat məbləğində zərərin əvəzinin tutularaq ödənilməsi barədə qətnamə qəbul olunmasını xahiş etmişdir.

5. Qarşılıqlı iddia tələbi onunla əsaslandırılmışdır ki, müqavilənin 3.9-cu bəndinə əsasən Prodüser Aktyora aşağıda göstərilən iş vaxtı rejimi təmin edir: Filmlərin hazırlıq dövründə - 8 saatlıq iş 1 saatlıq fasilə ilə, hər 5 günlük işi üzrə - 2 istirahət günü; Çəkiliş dövründə - 12 saat iş 1 saatlıq fasilə ilə (tam çəkiliş növbəsi), hər 6 günlük işi üzrə - 1 istirahət günü. Göründüyü kimi, həmin müqavilə üzrə cavabdeh tərəf iddiaçını tam məşğul etmiş, bununla da iddiaçı ona təklif olunan digər layihələr üzrə çəkilişlərdən imtina etmişdir. Belə ki, müqavilənin müddətinin çəkilişlərin tam qurtardığı müddətə qədər qüvvədə olması şərti o demək deyil ki, cavabdeh uzun müddət filmin çəkiləcəyi tarixi gözləməli, bununla da ona təklif olunan layihələrdə çəkilməkdən məhrum olmalıdır. Göründüyü kimi, cavabdeh tərəf icranı özü gecikdirmişdir. İddiaçı ona təklif edilən digər layihələrdən imtina etmək məcburiyyətində qalmış, əldə edəcəyi gəlirlərdən məhrum olmuşdur.

6. İddiaçı qarşılıqlı iddiaya etiraz etmiş və bildirmişdir ki, cavabdehin ilk iddiaya münasibətdə iddia müddətinin tətbiqi ilə bağlı ərizəsi iddianı etirafı anlamına gəlir. Lakin iddia müddətinin tətbiqi ilə bağlı ərizə əsassızdır. Belə ki, MM-in 377.3-cü maddəsi həmin Məcəllənin 427-ci maddəsinin tələbləri baxımından şərh edilməlidir. Həmçinin öhdəliklərin icrası ilə bağlı müddətin hesablanması zamanı COVID-19 pandemiyası zamanı iddiaçı və cavabdehin fəaliyyətinin dövlət tərəfindən icazə verilən fəaliyyət növü olmaması da nəzərə alınmalıdır. Tərəflər arasında bağlanmış 2019-cu il 18 yanvar tarixli xidmət müqaviləsi MM-in 328.1-ci maddəsinin tələbləri baxımından şərtlə bağlanmış əqddir, eyni zamanda, MM-in 328.6-cı maddəsinin tələbləri baxımından təxirəsalıcı şərtlə bağlanmış əqddir. 2019-cu il 18 yanvar tarixli xidmət müqaviləsinə əsasən tərəflərin hüquq və vəzifələrinin yaranması gələcəkdə gözlənilən naməlum hadisədən asılı edilmişdir. Belə ki, müqavilə bağlanarkən cavabdeh bilirdi ki, X1 filminin heç ssenarisi də yoxdur. Beləliklə də cavabdeh müqaviləni imzalayarkən təxirəsalıcı şərt, yəni X1 filminin çəkilişinin qeyri-müəyyən gələcəkdə tərəflər üçün naməlum olan bir tarixdə baş verəcəyi və iddiaçının tələbinə əsasən icra etməli olacağı bir öhdəlik olması artıq ona məlum idi. Cavabdeh müqaviləni imzalamaqla yuxarıda sadalananları qəbul etmiş və bununla bağlı öhdəlik götürmüşüdür. Sübutların tədqiqatı zamanı cavabdehin X2 filminin çəkilişindən məlumatlı olduğu, filmin çəkiliş meydançasına gəldiyi və filmə çəkilmək istədiyini bildirməsini hər iki tərəf təsdiq etmişdir. Cavabdeh məhkəmə prosesi zamanı X2 filminin çəkilişi zamanı başqa heç bir şəxs qarşısında öhdəliyinin olmamasını, X2 filmində çəkilərsə, böyük

məbləğdə cərimə edilməyəcəyini və həmin vaxt başqa şəxslə bağladığı müqavilənin müddətinin bitməsini əsas gətirmiş, həmin müqaviləni məhkəməyə təqdim edəcəyini bildirmiş və məhkəmə də cavabdehin digər şəxslə olan müqaviləni təqdim etməsini tələb etmişdir. Lakin cavabdeh həmin müqaviləni məhkəməyə təqdim etməmiş və bununla da heç bir şəxs qarşısında öhdəliyinin olmamasını, X2 filmində çəkilərsə, böyük məbləğdə cərimə edilməyəcəyini və həmin vaxt başqa şəxslə bağladığı müqavilənin müddətinin bitməsini sübut edə bilməmişdir. Cavabdeh məhkəmə prosesi zamanı iki fərqli izahat verərək əvvəlcə COVID-19 pandemiyası zamanı böyük çətinliklərlə üzləşdiyini və maddi çətinliklər ucbatından hətta bir mənzilini satdığı haqqında izahat versə də, sonrakı izahatında COVID-19 pandemiyası zamanı işlərinin aktiv şəkildə davam etdirməsi və çəkilişlər aparmasına istinad etmişdir. Lakin həmin dövrdə film və serialların çəkilişi icazə verilən fəaliyyət növlərinin siyahısında olmamışdır. Həmçinin cavabdeh X1 və X2 filmlərində və X3 serialında müqavilə ilə götürdüyü öhdəliklərini icra etməmişdir. Cavabdeh qarşılıqlı iddia verərək X2 filmində çəkilmək üçün digər təkliflərdən imtina etməsini bildirsə də, bununla bağlı məhkəməyə hər hansı sübut təqdim etməmişdir. Əksinə, iddiaçının təqdim etdiyi sübutlardan cavabdehin aktiv şəkildə film və serialların çəkilişində iştirak etməsi aydın olmuşdur.

7. Bakı Kommersiya Məhkəməsinin 2023-cü il 10 mart tarixli e-2-2(113)-552/2023 saylı qətnaməsi ilə ilk iddianın təmin edilməsi, iddiaçı ilə cavabdeh arasında bağlanmış 2019-cu il 18 yanvar tarixli xidmət müqaviləsinin ləğv edilməsi, cavabdehdən 24.300 manat məbləğində pul, ödənilmiş 200 manat dövlət rüsumu və 500 manat hüquqi yardıma görə xərc, ümumilikdə 25.000 manat məbləğində pulun tutularaq iddiaçıya ödənilməsi, qarşılıqlı iddianın təmin edilməməsi və məhkəmə xərclərinin qalan hissədə tərəflərin özlərinə aid olunması qət edilmişdir (hakim – Ü.Həsənova).

8. Məhkəmənin mövqeyi belə olmuşdur ki, tərəflər arasında bağlanmış 2019-cu il 18 yanvar tarixli xidmət müqaviləsinin 9-cu bəndində müqavilənin müqavilədə göstərilən filmin çəkilişləri tam qurtardığı müddətə qədər etibarlı olması nəzərdə tutulmuşdur. İddiaçı 2022ci il 28 noyabr tarixində cavabdehə məktub ünvanlayaraq 2019-cu il 18 yanvar tarixli xidmət müqaviləsinin ləğvini və ödənilmiş 24.300 manat məbləğində pulun geri qaytarılmasını təklif etmişdir. Məhkəmə iclaslarında (2023-cü il 3 mart və 2023-cü il 10 mart tarixli) cavabdeh iddianı həmin hissədə qəbul etdiyini, tərəflər arasında bağlanmış 2019-cu il 18 yanvar tarixli xidmət müqaviləsinin ləğvi barədə iddia tələbini qəbul etdiyini bildirmişdir. Məhkəmə cavabdehin də etiraf etməsinə istinadla ilk iddia tələbinin 2019-cu il 18 yanvar tarixli xidmət müqaviləsinin ləğv edilməsi hissəsində əsaslı olması nəticəsinə gəlmişdir.

9. Həmçinin 2019-cu il 18 yanvar tarixli xidmət müqaviləsi üzrə cavabdeh tərəfindən iddiaçıya hər hansı xidmət göstərilmədiyindən müqavilə üzrə iddiaçı tərəfindən cavabdehə aktyor qismində iddiaçıya xidmət göstərilməsi məqsədi ilə 2019-cu il 20 fevral tarixində avans şəklində ödənilmiş 24.300 manat pul cavabdehdən alınaraq iddiaçıya ödənilməlidir. Belə ki, iddiaçı tərəfindən cavabdehə ödənilmiş 24.300 manat məbləğində pul öhdəliyin icrasının təmin edilməsi məqsədilə ödənilmiş beh deyil, qabaqcadan ödənilmiş avans məbləği olmuşdur.

10. Cavabdeh iddiaya dair etirazında iddiaçı tərəfindən ona müqavilənin vaxtından əvvəl ləğv edilməsi ilə əlaqədar olaraq zərər dəydiyini, bu səbəbdən avansın geri qaytarılmalı olmadığını bildirsə də, MPM-nin 77.1-ci maddəsinə əsasən öz etirazlarının əsası kimi istinad etdiyi halları sübut edə bilməmişdir. Avans digər tərəfin qarşılıqlı öhdəliyin icra edilməsi üçün aparılan ödənişdir. Öhdəlik icra edilmədikdə bütün hallarda avans geri qaytarılmalıdır. Avansın öhdəliyi icra etməyən tərəfdə qalması əsassız varlanma kimi qiymətləndirilir.

11. Məhkəmə cavabdeh tərəfindən verilmiş iddia müddətinin tətbiq edilməsi barədə ərizəyə münasibətdə bildirmişdir ki, tərəflər arasında bağlanmış müqavilədə öhdəliklərin icrası

müddəti müəyyənləşdirilməmiş, məhkəmə araşdırması zamanı tərəflərin (iddiaçının qanuni təmsilçisi və cavabdeh) izahatları və iddiaçının qanuni təmsilçisi ilə cavabdeh arasında olan "vatsap" yazışmalarından kreditor (iddiaçı) tərəfindən borcluya (cavabdeh) qarşı öhdəliyin icrası ilə bağlı hər hansı tələb irəli sürülmədiyi müəyyən edilmişdir. Cavabdeh müqavilədə müddət göstərilmədiyi üçün iddia müddətinin axımının 2019-cu il 18 yanvar tarixdən (müqavilə bağlandığı tarixdən) hesablanmaqla müqavilə tələbləri üzrə qanunla müəyyənləşdirilmiş 3 illik iddia müddətinin iddiaçı tərəfindən ötürülməsi səbəbindən iddianın rədd edilməli olduğunu bildirmişdir. Məhkəmə cavabdehin bu arqumenti ilə razılaşmayaraq bildirmişdir ki, cavabdeh məhkəmə iclasında verdiyi izahatlarında, habelə qarşılıqlı iddia ərizəsində iddiaçı tərəfindən ona öhdəliyin icrası ilə bağlı hər hansı tələb irəli sürülmədiyini, uzun müddət iddiaçıdan müqavilədə göstərilmiş X1 filminin çəkilişi ilə bağlı dəvət gözlədiyini göstərmişdir. Beləliklə, MM-in 377.3-cü maddəsinə əsasən icra müddəti müəyyənləşdirilməmiş və ya tələbetmə məqamı ilə müəyyənləşdirilmiş öhdəliklər üzrə iddia müddətinin axımının kreditorun öhdəliyi icra etmək tələbini irəli sürmək hüququnun əmələ gəldiyi andan başlandığını nəzərə aldıqda məhkəmə hesab etmişdir ki, hazırkı iddia tələbi üzrə iddiaçı tərəfindən iddia müddəti ötürülməmişdir.

12. Qanunvericiliyə müvafiq olaraq iddiaçının vurulmuş maddi ziyana görə məsuliyyət daşıması üçün iddiaçının cavabdehə birbaşa və ya zərər vurulması ilə nəticələnən hüquqa zidd əmələ təqsirli şəkildə yol vermiş olması tələb olunur. Hazırkı halda cavabdeh iddiaçının təqsiri nəticəsində ona maddi zərər vurulduğunu iddia etsə də, MM-in 21-ci maddəsində göstərilən halların mövcudluğunu əsaslandıra bilməmiş, ona ziyan vurulması faktı və dəymiş zərər barədə məhkəməyə müvafiq sübutları təqdim edə bilməmişdir.

13. Gəldiyi nəticəni birinci instansiya məhkəməsi MM-in 21.1, 21.2, 372.1, 372.2, 373.2, 377.1, 377.2, 386.1, 421.1, 423.2, 424.2, 424.3, 427.2, 427.4, 1096.2, 1097, 1099.1-ci maddələrinə, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 21 və 23-cü maddələrinin şərh edilməsinə dair" 2002-ci il 31 may tarixli, "Azimport" Məhdud Məsuliyyətli Cəmiyyətinin şikayəti üzrə 2021-ci il 14 aprel tarixli qərarlarına, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra – "MPM") 77.1, 78.1, 106.3-cü maddələrinə istinad etməklə əsaslandırmışdır.

14. Qətnamə 2023-cü il 16 mart tarixdə iş üzrə tərəflərin şəxsi elektron kabinetlərinə yerləşdirilmiş, cavabdeh 2023-cü il 17 aprel tarixdə apellyasiya şikayəti verərək qətnamənin qismən – "ilk iddianın pul tələbi" və "qarşılıqlı iddianın təmin olunmaması" hissələrində ləğv edilməsi, ilk iddianın "pul tələbi" hissəsində rədd, qarşılıqlı iddia tələbinin isə təmin edilməsi barədə yeni qətnamə qəbul olunmasını xahiş etmişdir.

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

15. Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2023-cü il 13 iyun tarixli 2-2(103)-531/2023 saylı qətnaməsi ilə cavabdehin apellyasiya şikayəti qismən təmin edilmiş, birinci instansiya məhkəməsinin qətnaməsi qismən – cavabdehdən 24.300 manat məbləğində pulun tutularaq iddiaçıya ödənilməsi hissəsində ləğv edilmiş, həmin hissədə ilk iddia rədd olunmuş, qətnamə qarşılıqlı iddia tələbinə aid hissədə dəyişdirilmədən saxlanılmışdır (sədrlik edən – R.Qurbanov, hakimlər – V.Baxışova və A.Hüseyn).

16. Apellyasiya instansiyası məhkəməsi bildirmişdir ki, mülki qanunvericilikdə xidmət müqaviləsi münasibətlərini tənzimləyən hər hansı müddəa mövcud deyil. Tərəflər arasında bağlanmış müqavilənin predmeti və şərtləri nəzərə alındıqda müqavilənin predmetinin iki filmin çəkilişinə aktyorun cəlb edilməsi ilə bağlı olduğu, eyni zamanda aktyorun bilavasitə gördüyü iş filmin çəkilişində ona ayrılmış rolun canlandırmasından ibarət olduğu müəyyən edilmişdir. Bu

işlərin nəticəsində hazırlanan məhsul isə kinofilmdir. Göründüyü kimi, müqavilədə MM-in 752.1-ci maddəsində nəzərdə tutulmuş podrat müqaviləsinin ünsürləri yer alıb.

17. Bundan əlavə, müqavilənin 1.2, 5, 6.1-cı bəndlərində göstərilən müstəsna hüquqlarla bağlı müddəalarından aydın olur ki, müqavilədə "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanunun 30-cu maddəsində nəzərdə tutulmuş müəllif müqavilələri üzrə müəlliflik hüquqlarının verilməsi ilə bağlı şərtlər də nəzərdə tutulmuşdur. Qeyd olunanları nəzərə alınaraq, tərəflər arasında bağlanmış müqavilə MM-in 390.4-cü maddəsində nəzərdə tutulmuş qarışıq müqavilədir.

18. MM-in podrat müqaviləsinə aid 752-776-ci maddələrindən görünür ki, iddiaçının istinad etdiyi hal, yəni podrat işlərinə görə muzdun bir hissəsinin əvvəlcədən avans olaraq ödənilməsinə baxmayaraq, podratçının öz öhdəliyini pozaraq işlərin yerinə yetirilməsindən əsassız imtina etməsi halını tənzimləyən normalar mövcud deyil. Bununla yanaşı, ilk iddia tələbləri cavabdehin öz öhdəliklərinin pozulması halı ilə əsaslandırıldığına görə, hazırkı mübahisə MM-in öhdəliklərin pozulması ilə bağlı halları tənzimləyən normalarına uyğun həll edilməlidir. Bu baxımdan, öhdəliyin anlayışı MM-in 385.1-ci maddəsində, öhdəliyin icra edilməməsi anlayışı MM-in 442-ci maddəsində, öhdəliyin icra edilməməsinə görə məsuliyyət isə MM-in 448.1 və 448.2-ci maddələrində göstərilmişdir. Qeyd olunanlara əsasən, iddianın əsaslı hesab edilməsi üçün iddiaçı cavabdehin müqavilə üzrə üzərinə götürdüyü öhdəlikləri onun risk dairəsinə daxil olan hallara görə pozmuş olmasını sübut etməlidir. Lakin iddiaçı bu halları təsdiq edən sübutları, yəni cavabdehi filmin çəkilişinə dəvət etməsi, sonuncunun isə filmin çəkilişindən imtina etməsi və ya yayılmasını təsdiq edən hər hansı sübutu təqdim etməmiş və üzərinə düşən sübutetmə vəzifəsini yerinə yetirə bilməmişdir. Cavabdeh göstərilən halı mübahisələndirmiş və filmin çəkilişinə dəvət edilmədiyini bildirmişdir.

19. Bundan əlavə, tərəflər arasında bağlanmış müqavilənin 2.2-ci bəndində cavabdehin (aktyorun) göstərilən öhdəlikləri müəyyən edilmişdir: filmlərin ssenarisi, təqvim-əsas planı əsasında, quruluşçu rejissorun göstəriş və tələblərinə uyğun rolun ifası etmək (2.2.1); məşqlərin və ya çəkilişin aparıldığı yerlərə aktyorun/ifaçının məşğulluq qrafikində göstərilən vaxtda gəlmək (2.2.3). Müqavilənin 3-cü bəndində isə prodüserin öhdəlikləri müəyyən edilmişdir: müqavilə üzrə 1.1-ci bəndində adları çəkilən filmlərə çəkilmək, o cümlədən həmin müqavilədə adıçəkilən aktyorun iştirak edilməsini təmin etmək (3.1); aktyorun əmək şəraitini təmin etmək (3.2); aktyorun iş vaxtı rejimi müəyyən edən qaydada təmin etmək (3.5); Aktyora iş vaxtı rejimini təmin edir (3.9). Göründüyü kimi, tərəflər arasında bağlanmış müqavilənin şərtlərinə görə aktyor təqvim planı və məşğulluq qrafiki əsasında çəkilişdə iştirak etməli idi, aktyorun iştirakını, əmək şəraitini və iş vaxtı rejimini təmin etmək isə prodüserin öhdəliklərinə aiddir. Lakin iddiaçı tərəfindən öz üzərinə düşən öhdəliklərin icra olunması, ən azı, təqvim planı və iş qrafikini tərtib edərək cavabdehə göndərilməsini təsdiq edən sübutlar təqdim edilməmişdir.

20. Bundan əlavə, iş materiallarından müəyyən olunur ki, iddiaçı ilə cavabdeh arasında 2019-cu il 23 oktyabr tarixli xidmət müqaviləsi də bağlanmışdır. Həmin müqavilənin 1.1-ci bəndinə əsasən iddiaçı X3 adlı serialın (10 seriyası) çəkiliş qrupunun tərkibinə cavabdehi 2019-cu il 23 oktyabr tarixindən 1 il müddət ərzində "Aktyor" vəzifəsinə (baş rolun ifaçısı kimi) qəbul edir. Tərəflərin izahatlarından isə həmin serialın çəkilişinin başa çatdırılmış olması müəyyən edilmişdir.

21. Həmçinin iş materiallarında olan iddiaçının direktoru ilə cavabdeh arasında aparılmış 2020-ci ilin fevral-aprel aylarına aid "WhatsApp" yazışmaları və səsli mesajlarının məzmunundan müəyyən edilir ki, tərəflər arasında X3 serialının çəkilişi ilə bağlı danışıqlar olmuşdur. Həmin danışıqlarda cavabdeh əmək haqqının (gündəlik 750 manat) ödənilməsini

tələb etmiş və iş qrafikinin düzgün müəyyən edilmədiyini bildirmiş, iddiaçının direktoru isə maddi sıxıntılara görə əmək haqqının ödənilməsinə möhlət istəmiş, eyni zamanda cavabdehin çəkilişlərə vaxtında gəlməməsi ilə bağlı iradlarını bildirmişdir. Tərəflər arasında aparılmış danışıqlarda X2 filminin çəkilişindən və cavabdehin çəkilişdən imtina etməsi və ya yayınması məsələsinə toxunulmamışdır.

22. Göründüyü kimi, iddiaçı cavabdehin 2019-cu il 18 yanvar tarixli müqavilə üzrə öhdəliklərini pozduğunu bildirsə də, tərəflər arasında yeni bir müqavilə (2019-cu il 23 oktyabr tarixli) bağlanmış və çəkilən serialda cavabdehə baş rolun ifaçısı təklif edilmişdir.

23. Bundan əlavə, cavabdeh 2019-cu il 23 oktyabr tarixli müqavilənin icrası ilə bağlı ödənişləri tələb etdikdə, iddiaçının direktoru ödənişlərə möhlət istəmiş və bu zaman ödənilməli olan əmək haqqının 2019-cu il 18 yanvar tarixli müqavilə üzrə ödənilmiş 24.300 manat pul vəsaiti il əvəzləşdirilməsinin təklif etməmişdir.

24. Bu hallar isə iddiaçının cavabdehə qarşı 2019-cu il 18 yanvar tarixli müqavilə üzrə etirazının olmamasını təsdiq edir. Əks halda, əməkdaşlığın davam etdirilməsi ağlabatan və anlaşılan deyil.

25. Qeyd olunan halları qiymətləndirərək məhkəmə hesab etmişdir ki, tərəflər arasında bağlanmış 2019-cu il 18 yanvar tarixli müqavilə üzrə cavabdehin öz öhdəliklərinin icra etməməsində (X2 adlı filmin çəkilişində iştirak etməməsində) onun təqsirinin olması sübut olunmur. MM-in 448.2-ci maddəsinin tələblərinə görə isə borclu yalnız təqsirli hərəkət və ya hərəkətsizliyə görə məsuliyyət daşıyır. Bu baxımdan, öhdəliyin pozulması əsasına görə ilk iddia pulun tutulması hissəsində təmin edilə bilməz. İlk iddia həmin hissədə həmçinin müqavilə ləğv edildiyinə görə də avansın geri qaytarılması əsasına görə də təmin edilə bilməz. Belə ki, Belə ki, MM-in podrat müqaviləsinə aid 752-776-ci maddələrindən görünür ki, podrat müqaviləsi ləğv olunduğu halda avansın geri qaytarılmasını müəyyən edən norma nəzərdə tutulmamışdır.

26. Bundan əlavə, MM-də behlə təmin edilmiş öhdəliyə xitam verilməsinin və onun icra edilməməsinin nəticələrini tənzimləyən maddə (492-ci maddə) olsa da, belə hallarda ödənilmiş avansla bağlı məsələləri tənzimləyən norma mövcud deyil. Bununla yanaşı, MM-in 424.4-cü maddəsində təsbit olunmuşdur ki, əgər bu Məcəllə ilə və ya tərəflərin razılaşması ilə ayrı qayda müəyyənləşdirilməyibsə, tərəflər müqavilənin dəyişdirildiyi və ya ləğv edildiyi anadək öhdəlik üzrə icra etdiklərinin qaytarılmasını tələb edə bilməzlər. MM-in podrat müqaviləsinə aid müddəalarında, habelə tərəflər arasında bağlanmış 2019-cu il 18 yanvar tarixli müqavilədə bu məsələ ilə bağlı tənzimlənmə, yəni ayrı qayda nəzərdə tutulmamışdır. Belə olan halda isə MM-in 424.4-cü maddəsinə əsasən iddiaçının öhdəlik üzrə icra etdiklərinin, yəni avansın qaytarılmasını tələb etməsi əsassız olmuşdur.

27. Eyni zamanda, ilk iddia pulun tutulması hissəsində əsassız olduğuna görə iddia müddətinin tətbiq edilməsi barədə cavabdeh tərəfin ərizəsinə qiymət verilməsinə lüzum qalmamışdır. Belə ki, MM-in 372.2 və 377.1-ci maddələrindən müəyyən edilir ki, iddia müddəti hüququ pozulmuş şəxsin iddiası ilə hüququn müdafiəsi üçün müəyyən edilən müddətdir və həmin müddət hüququnun pozulduğu gündən başlanır. Hazırki işdə isə iddiaçının hüququnun pozulması müəyyən edilməmişdir. Cavabdeh tərəfin iddia müddətinin tətbiq edilməsi barədə ərizə verməklə iddianın etiraf etməsi ilə bağlı iddiaçının dəlilləri də əsassızdır. Belə ki, mülki prosesdə iddiaya etirazın prosessual hüquqi və maddi hüquqi formaları mövcuddur və cavabdeh onların seçimində tam sərbəstdir. Hazırki işdə də cavabdeh hər iki formada etiraz vermiş və iddia müddətinin tətbiqini alternativ şəkildə irəli sürmüşdür. Ona görə də iddia müddətinin tətbiq edilməsi barədə ərizənin verilməsi iddianın etiraf edilməsi kimi qiymətləndirilə bilməz.

28. Birinci instansiya məhkəməsi isə qeyd olunanları nəzərə almamış, tərəflər arasında bağlanmış müqavilənin mahiyyətini və növünü müəyyən etməmiş, cavabdehin hərəkətlərində təqsirin olub-olmamasına qiymət verməmiş və iddianın əsasına aid olmayan MM-in behlə bağlı müddəalarına istinad edərək ilk iddiada irəli sürülmüş pulun tutulması barədə iddianı təmin etmişdir.

29. Bununla yanaşı, qarşılıqlı iddiaya aid hissədə məhkəmənin gəldiyi nəticə mahiyyəti üzrə düzgün olmuşdur. Belə ki, zərərin ödənilməsi məsələlərini tənzimləyən və ümumi norma kimi çıxış edən MM-in 21.2-ci maddəsinin, həmçinin hazırkı mübahisə üzrə xüsusi norma kimi çıxış edən MM-in 443-cü maddəsinin mənasına görə zərərin ödənilməsi üçün aşağıdakı hüquqi əsaslar müəyyən edilməlidir: zərərin mövcud olması, zərərin öhdəliyi pozulması nəticəsində vurulması, zərərlə öhdəliyin pozulması arasında səbəbli əlaqənin olması, zərər vuran şəxsin təqsirli olması. Yalnız yuxarıda qeyd olunan əsaslar müəyyən olunduqda cavabdehin üzərinə zərərin ödənilməsi öhdəliyi qoyula bilər. Lakin hazırkı işdə bu əsaslar mövcud deyildir. Belə ki, cavabdeh ona maddi zərər vurulduğunu bildirsə də, öz iddiasının əsası kimi istinad etdiyi halları (ona təklif edilən digər layihələrdən imtina etdiyinə görə əldə edəcəyi gəlirlərdən məhrum olmuşdur) və bunun nəticəsi olaraq zərərin mövcudluğunu təsdiq edən sübutları təqdim etməmişdir.

30. Gəldiyi nəticəni apellyasiya məhkəməsi MM-in 11.1, 21.1, 21.2, 372.2, 377.1, 385.1, 390.4, 424.4, 442, 443.1, 448.1, 448.2, 752.1-ci, "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun 30.1-ci, MPM-in 13.4, 77.1-ci maddələrinə istinad etməklə əsaslandırmışdır.

31. Qətnamə 2023-cü il 23 iyun tarixdə iş üzrə tərəflərin şəxsi elektron kabinetlərinə yerləşdirilmiş, ondan cavabdeh 2023-cü il 21 avqust tarixində kassasiya şikayəti verərək qətnamənin qarşılıqlı iddia tələbinin rədd edildiyi hissədə ləğv olunmaqla qarşılıqlı iddia tələbinin təmin edilməsi, iddiaçı isə 2023-cü il 22 avqust tarixdə kassasiya şikayəti verərək qətnamənin qismən – ilk iddianın təmin olunmadığı hissədə ləğv edilməsi və işin yenidən baxılması üçün apellyasiya məhkəməsinə qaytarılması barədə qərar qəbul olunmasını xahiş etmişdir.

Kassasiya şikayətinin və ona qarşı etirazın dəlilləri

a) İddiaçının kassasiya şikayətinin dəlilləri

32. MM-in 424.4-cü maddəsi pozulmuşdur- məhkəmə qətnamədə MM-in 752-776-cı maddələrində podrat müqaviləsinin ləğv edilməsi zamanı ödənilmiş avansla bağlı məsələni tənzimləyən normanın olmamasına istinad edərək MM-in 424.4-cü maddəsini tətbiq etməklə iddianı səhvən rədd etmişdir. Belə ki, MM-in 460-cı maddəsinin tələbləri baxımından avans öhdəliyin icrasının təmin edilməsi üsullarından biri deyil. Əgər məhkəmənin məntiqi ilə avansa öhdəlik üzrə icra edilmiş ödəniş kimi yanaşsaq, bu zaman məhkəmə MM-in 759 və 760-cı maddələrinin tələblərini pozmuşdur. Belə ki, MM-in 424.4cü maddəsi də avansla bağlı hər hansı bir məsələni tənzimləmir. Məhkəmə isə məhz MM-in 752-776-cı maddələrində podrat müqaviləsinin ləğv edilməsi zamanı ödənilmiş avansla bağlı məsələni tənzimləyən normanın olmamasına istinad edərək MM-in 424.4-cü maddəsini tətbiq etmişdir. Əgər avans öhdəlik üzrə icranı ehtiva edirsə, belə olan halda MM-in 424.4-cü maddəsinin tələbləri baxımından da hazırkı halda tərəflər arasında yaranmış mübahisəyə MM-in 759 və 760-cı maddələri tətbiq edilməli idi. MM-də cəmi altı yerdə avans sözünə rast gəlinsə də, onun anlayışı verilməmişdir. Normativ hüquqi aktlarda avansın anlayışı verilməsə də, Azərbaycan dilinin izahlı lüğətində avansa 1-ci mənada ispan (avance) və fransız (avancé) dillərindən götürülmüş söz kimi "əvvəlcədən ödəmə, beh, avans almaq, avans vermək, 2-ci mənada isə müəyyən xərclər üçün qabaqcadan verilən pul kimi izah verilmişdir. Göründüyü kimi, avans öhdəliyin icra edilməsi

üçün nəzərdə tutulmuş ödəniş deyil, əvvəlcədən ödəmə və qabaqcadan verilən puldur. Tərəflər isə aralarında bağlanmış 2019-cu il 18 yanvar tarixli xidmət müqaviləsi üzrə götürdükləri heç bir öhdəliklərini icra etməmişlər. Belə olan halda, ödənilmiş avans məbləği geri qaytarılmalıdır. Bundan başqa tərəflər arasında bağlanmış 2019-cu il 18 yanvar tarixli xidmət müqaviləsinin 6.1-ci bəndində tərəflərin öhdəliklərini icra etmədikləri halda məsuliyyətlə bağlı münasibətlərin necə tənzimləndiyi müəyyən edilmişdir ki, bu da bir daha məhkəmənin MM-nin 424.4-cü maddəsini tətbiq etməklə səhvə yol verdiyini təsdiq edir.

33. MPM-in 88-ci maddəsi pozulmuşdur- məhkəmə işdə olan və tərəfimizdən təqdim edilmiş sübutlara düzgün qiymət vermədiyi üçün maddi hüquq normasını səhv tətbiq etmişdir. Bunun da nəticəsində qeyri-qanuni və əsassız qətnamə çıxarmışdır.

b) Cavabdehin kassasiya şikayətinin dəlilləri

34. MM-in 446.2-ci maddəsi pozulmuşdur-tərəflər arasında olmuş səs yazıları və yazışmalardan görünür ki, qarşılıqlı iddiaçı müqavilə üzrə öhdəliklərini yerinə yetirmək yəni filmdə çəkilmək istəyini dəfələrlə bildirmiş, lakin iddiaçı heç bir ağlabatan səbəb göstərmədən təklif olunmuş icranı qəbul etməmiş, bununla da cavabdehə zərər vurmuşdur. Belə ki, iddiaçı ilə bağladığı müqaviləyə bağlı olan cavabdeh digər təkliflərdən imtina etmək məcburiyyətində qalmış, əldə edəcəyi gəlirlərdən məhrum olmuşdur.

35. MM-in 441-ci maddəsi pozulmuşdur-işin materiallarından da aydın göründüyü kimi, tərəflər arasında bağlanmış müqavilə qarşılıqlı icranı ehtiva edən müqavilə olmuşdur. Belə ki, cavabdehin həmin müqavilə üzrə öhdəliklərini yerinə yetirməsi üçün ilk növbədə iddiaçı faktiki olaraq filmin çəkilişlərinə başlamalı və yalnız bundan sonra cavabdehdən öz öhdəliklərini icra etməsini tələb etməli idi. Birinci instansiya məhkəməsində işə baxılan zaman iddiaçının qanuni təmsilçisi birmənalı olaraq etiraf etmişdir ki, X2 filminin çəkilişi elə müqavilə bağlanan dövrdə çəkilməli idi, digər X1 filminin isə ümumiyyətlə ssenarisi hazır deyildi. Belə olan halda, istinad edilən normanın tələbləri nəzərə alınmaqla, iddiaçı şərtləşdirilmiş öhdəliyi, yəni cavabdehə öz öhdəliklərini yerinə yetirməyə imkan verən şəraiti yaratmaq öhdəliyini (filmin çəkilişinə başlamaq, aktyoru ssenari ilə təmin etmək və s.) yerinə yetirmədiyi, çəkilişlərin konkret vaxtı və yeri barədə cavabdehə heç bir məlumat vermədiyi halda, sonuncunun üzərinə düşən öhdəliyi icra etmədiyi barədə dəlillərin tamamilə əsassız olduğu aşkardır və bu səbəbdən məhkəmə qarşılıqlı iddianı təmin etmək əvəzinə, işin hallarına uyğun olmayan tamamilə səhv nəticəyə gələrək, tətbiq edilməli olan maddi hüquq normasını tətbiq etməmişdir.

36. MM-in 446.1, 446.8-ci maddələri pozulmuşdur- tərəflər arasında bağlanmış 2019-cu il 18 yanvar tarixli Xidmət müqaviləsinin şərtlərindən də göründüyü kimi, cavabdehin filmdə iştirakını təmin etmək məhz iddiaçının öhdəliyi olmuşdur, lakin bununla bağlı cavabdehə hər hansı bildiriş-təklif verilməmişdir. İddiaçı cavabdehi həmin müqavilə öhdəliklərinin yerinə yetirilmə vaxtını gözlətməklə tam məşğul etmiş, bununla da cavabdeh ona təklif olunan digər layihələr üzrə çəkilişlərdən imtina etmişdir. Belə ki, müqavilənin müddətinin çəkilişlərin tam qurtardığı müddətə qədər qüvvədə olması şərti o demək deyil ki, cavabdeh uzun müddət filmin çəkiləcəyi tarixi gözləməli, bununla da ona təklif olunan layihələrdə çəkilməkdən məhrum olmalıdır. Bir halda ki, müqavilədə filmin çəkilişinin başlanılması hər hansı hadisə və ya halın baş verməsi ilə şərtləndirilməmişdir, bu halda müqavilənin müddətinin çəkilişlərin tam qurtardığı müddətə qədər qüvvədə olması elə müqavilə bağlanan tarixdən film çəkilişinə başlanılmalı olmasını ehtiva edir. Birinci instansiya məhkəməsində 2023-cü il 10 fevral tarixində keçirilmiş məhkəmənin hazırlıq iclası zamanı iddiaçının nümayəndəsi və vəkilinə:- “Müqavilə 2019-cu il 18 yanvar tarixdə bağlanıb, bəs filmin ilkin çəkilişi nə vaxt başlanıb?”- sualı verilmişdir. O isə buna cavab olaraq: - “Elə həmin ərəfədə, 2018-ci ilin axırı 2019-cu ilin əvvəli”- bildirdi. Cavabdehin nümayəndəsinin -“Yaxşı, bəs necə olur, 2018-ci ilin may ayında

internetdə filmin çəkilişi davam etdirilir, deyə video yerləşdirilib?" - sual verilmişdir.... Filmin çəkilişlərinin başlandığı vaxtı müəyyən etməliyik ki, biz öhdəliyin kim tərəfindən icra edilmədiyini və icra anını müəyyən edə bilək. Bəs cavabdehə nə vaxt siz bildirdiniz ki, gəlib iştirak etməlidir? İddiaçının nümayəndəsi isə buna cavab olaraq: - "Həmin dövrdə"- bildirmişdir. İddiaçının istinad etdiyi müqavilə 2019cu il 18 yanvar tarixində bağlanmış və müqavilədə icra müddəti nəzərdə tutulmamışdır. Həmçinin birinci instansiya məhkəməsində 2023-cü il 10 fevral tarixində keçirilmiş məhkəmə iclasında iddiaçı tərəfin vəkili X2 filminin çəkilişlərinin 2018-ci ilin axırı 2019-cu ilin əvvəlində başlanmasını bildirmişdir. İş materiallarında olan video görüntülərdən isə görünür ki, X2 filminin çəkilişləri 2018-ci il 10 may tarixdə davam etdirilib və cavabdeh həmin filmdə çəkilməmişdir. Belə ki, müqavilədə icra müddəti müəyyən edilməsə belə, iddiaçı tərəfin özünün də qeyd etdiyi kimi filmin çəkilişləri müqavilə bağlanan ərəfədə olmalı idi, yəni iddiaçının öhdəliyi icra etmək tələbini irəli sürmək hüququ ən geci müqavilə bağlanan andan yaranmış, yəni cavabdeh həmin ərəfədə filmə çəkilmək üçün iddiaçıdan təklif almalı idi. Lakin iddiaçı tərəfindən cavabdehə müqavilə bağlanan dövrdə filmə çəkilmək üçün hər hansı bildiriş belə göndərilməmişdir. Qeyd edilənlərdən göründüyü kimi, iddiaçı tərəf icranı özü gecikdirmişdir. Göründüyü kimi, həmin müqavilə üzrə ilk iddiaçı aktyoru tam məşğul etmiş, bununla da aktyor ona təklif olunan digər layihələr üzrə çəkilişlərdən imtina etmişdir. Belə ki, müqavilənin müddətinin çəkilişlərin tam qurtardığı müddətə qədər qüvvədə olması şərti o demək deyil ki, aktyor uzun müddət filmin çəkiləcəyi tarixi gözləməli, bununla da ona təklif olunan layihələrdə çəkilməkdən məhrum olmalıdır.

37. MPM-in 217.1, 217.2, 217.3-cü maddələri pozulmuşdur-məhkəmənin qətnaməsi qarşılıqlı iddianın təmin edilməməsi hissəsində qanuni və əsaslı hesab edilə bilməz. Belə ki, mübahisəli hüquq münasibətinin yarandığı zaman qüvvədə olan maddi hüquq normaları və apellyasiya şikayətinin 5 və 6-cı bölməsində sadalanan maddi və prosessual hüquq normaları düzgün tətbiq edilməmiş, pozulmuşdur.

c) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

38. Kassasiya şikayətinə qarşı etiraz daxil olmamışdır.

Kassasiya baxışının hədləri

39. Apellyasiya instansiyası məhkəməsinin qətnaməsi iddiaçı tərəfindən ilk iddianın təmin olunmadığı, cavabdeh tərəfindən isə qarşılıqlı iddianın təmin olunmadığı hissələrdə mübahisələndirildiyi üçün MPM-in 403 və 416-cı maddələrinin tələbləri baxımından hazırkı icraat çərçivəsində məhkəmə aktının qanuniliyi və əsaslılığı ilk iddianın təmin edildiyi hissə istisna olmaqla, digər hissələrdə yoxlanılacaqdır.

40. Kassasiya instansiyası məhkəməsi tərəfindən işin faktiki halları yoxlanılmasa da, apellyasiya instansiyası məhkəməsinin maddi və prosessual hüquq normalarını düzgün tətbiq edib-etməməsini yoxlayarkən hüquqi məsələlərin düzgün qiymətləndirilməsi üçün işin faktiki hallarının nəzərə alınması və onlara istinad olunması zəruridir. Kassasiya instansiyası məhkəməsinin işin müəyyən edilmiş faktiki hallarına istinad etməsi faktiki halların yoxlanılması və araşdırılması kimi qiymətləndirilməməlidir.

Tətbiq edilən hüquq

41. Azərbaycan Respublikasının Mülki Məcəlləsinin müvafiq müddəalarında nəzərdə tutulur:

"Maddə 21. Zərərin əvəzinin ödənilməsi

21.1. Zərərin əvəzinin ödənilməsini tələb etmək hüququna malik olan şəxs ona vurulmuş zərərin əvəzinin tam ödənilməsini tələb edə bilər, bu şərtlə ki, qanunda və ya müqavilədə zərərin əvəzinin daha az miqdarda ödənilməsi nəzərdə tutulmasın.

21.2. Zərər dedikdə, hüququ pozulmuş şəxsin pozulmuş hüququnu bərpa etmək üçün çəkdiyi və ya çəkməli olduğu xərclər, əmlakından məhrum olması və ya əmlakının zədələnməsi (real zərər), habelə hüququ pozulmasaydı, həmin şəxsin adi mülki dövriyyə şəraitində əldə edəcəyi gəlirlər (əldən çıxmış fayda) başa düşülür.

..."

"Maddə 372. İddia müddəti anlayışı

372.1. Başqa şəxsdən hər hansı hərəkəti yerinə yetirməyi və ya yerinə yetirməkdən çəkinməyi tələb etmək hüququna müddət şamil edilir.

372.2. hüququ pozulmuş şəxsin iddiası ilə hüququn müdafiəsi üçün müddət iddia müddəti sayılır.

Maddə 373. İddia müddətləri

...

373.2. Müqavilə tələbləri üzrə iddia müddəti üç il, daşınmaz əşyalarla bağlı müqavilə tələbləri üzrə iddia müddəti isə altı ildir.

..."

"Maddə 377. İddia müddətinin başlanması

377.1. İddia müddətinin axımı şəxsin öz hüququnun pozulduğunu bildiyi və ya bilməli olduğu gündən başlanır. Bu qaydadan istisnalar bu Məcəllə ilə müəyyənləşdirilir.

377.2. İcra müddəti müəyyənləşdirilmiş öhdəliklər üzrə iddia müddətinin axımı icra müddəti bitdikdə başlanır.

377.3. İcra müddəti müəyyənləşdirilməmiş və ya tələbetmə məqamı ilə müəyyənləşdirilmiş öhdəliklər üzrə iddia müddətinin axımı kreditorun öhdəliyi icra etmək tələbini irəli sürmək hüququnun əmələ gəldiyi andan başlanır, borcluya həmin tələbin icrası üçün güzəştli müddət verildikdə isə iddia müddəti göstərilən müddət bitdikdən sonra hesablanmağa başlanır.

..."

"Maddə 443. Öhdəliyin icra edilməməsi ilə vurulan zərərin əvəzinin ödənilməsi

443.1. Öhdəliyini icra etməyən borclu kreditora dəymiş zərərin əvəzini ödəməyə borcludur. Borclunun üzərinə öhdəliyi pozmağa görə məsuliyyət qoyulmadıqda bu qayda qüvvədə olmur.

443.2. Zərər bu Məcəllənin 21-ci maddəsində nəzərdə tutulan qaydalara uyğun müəyyənləşdirilir.

..."

"Maddə 491. Beh anlayışı

491.1. Beh müqavilənin bağlanmasını təsdiq etmək və icrasını təmin etmək məqsədilə razılığa gələn tərəflərdən birinin müqavilə üzrə digər tərəfə verəcəyi ödənişlər hesabına verdiyi pul məbləğidir.

...

491.3. Müqavilə üzrə tərəfin verəcəyi ödənişlər hesabına ödənilmiş məbləğin beh olub-olmadığına şübhə yarandıqda, o cümlədən bu Məcəllənin 491.2-ci maddəsində müəyyənləşdirilmiş qaydaya riayət edilməməsi nəticəsində şübhə yarandıqda həmin məbləğ, əgər əksi sübuta yetirilməsə, avans kimi ödənilmiş sayılır.

Maddə 492. Behlə təmin edilmiş öhdəliyə xitam verilməsinin və onun icra edilməməsinin nəticələri

492.1. Öhdəliyin icrasına başlanana qədər ona tərəflərin razılaşması üzrə və ya icranın mümkün olmaması nəticəsində xitam verildikdə beh qaytarılmalıdır.

492.2. Əgər müqavilənin icra edilməməsi üçün beh vermiş tərəf məsuliyyət daşıyırsa, beh digər tərəfdə qalır. Əgər müqavilənin icra edilməməsi üçün beh almış tərəf məsuliyyət daşıyırsa, o, digər tərəfə behin iki mislini ödəməlidir. Bundan əlavə, müqavilənin icra edilməməsi üçün məsuliyyət daşıyan tərəf, əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, beh məbləği hesaba alınmaqla, zərərin əvəzini digər tərəfə ödəməyə borcludur."

"Maddə 759. Podrat müqaviləsinin ləğvi

759.1. Sifarişçi işlər qurtaranadək istənilən vaxt müqavilədən imtina edə bilər, lakin podratçıya yerinə yetirilmiş işin haqqını verməli və müqavilənin ləğvi ilə vurulan zərərin əvəzini ödəməlidir.

759.2. Əgər sifarişçi tərəfindən müqaviləyə bilavasitə podratçının hərəkətləri (hərəkətsizliyi) nəticəsində baş verən və ya həmin hərəkətlərlə bağlı olan səbəbə görə xitam verilərsə, podratçı yalnız yerinə yetirilmiş işin haqqını tələb edə bilər, bu şərtlə ki, sifarişçinin həmin işlərə hansısa marağı olsun.

Maddə 760. Müqaviləyə podratçının təşəbbüsü ilə xitam verilməsi

760.1. Əgər podratçı tərəfindən müqaviləyə bilavasitə sifarişçinin hərəkətləri nəticəsində baş verməyən və ya həmin hərəkətlərlə bağlı olmayan səbəbə görə xitam verilirsə, podratçı işlər qurtaranadək müqaviləyə elə tərzdə xitam verməlidir ki, sifarişçi işləri başqa şəkildə və bərabər və ya daha əlverişli şərtlərlə ala bilsin. Bu zaman podratçı yerinə yetirilmiş işin haqqının ödənilməsini tələb edə bilər, bu şərtlə ki, sifarişçinin əvvəl görülmüş işlərə hansısa marağı olsun.

760.2. Əgər podratçı tərəfindən müqaviləyə bilavasitə sifarişçinin hərəkətləri (hərəkətsizliyi) nəticəsində baş verən və ya həmin hərəkətlərlə bağlı olan səbəbə görə xitam verilirsə, podratçı yerinə yetirilmiş işin haqqını və müqavilənin ləğvi ilə vurulan zərərin əvəzinin ödənilməsini tələb edə bilər."

42. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 21 və 23-cü maddələrinin şərh edilməsinə dair" 2002-ci il 31 may tarixli Qərarında müəyyən edilmişdir ki:

"...

Hər bir hüquq pozuntusu sosial mənada ictimai münasibətlərə mənfi təsir göstərdiyindən zərər (ziyan) törədir. Bu baxımdan zərər sosial və hüquqi aspektlərə malikdir. Zərər yetirmə şəxsin və yaxud təşkilatın subyektiv hüququnu pozur. Bununla yanaşı mülki hüquqda zərər ona görə sosial məna kəsb edir ki, subyektiv hüququn pozulması müəyyən edilmiş və qanunla qorunan obyektiv hüquqların pozulması ilə müşayiət olunur.

..."

43. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Plenumunun "Azimport" Məhdud Məsuliyyətli Cəmiyyətinin şikayəti üzrə" 2021-ci il 14 aprel tarixli Qərarında müəyyən edilmişdir ki:

"...

Məhkəmələr mülki qanunvericiliyin normalarını pozan əməl (delikt) nəticəsində zərərin əvəzinin ödənilməsi ilə bağlı tələbi, yalnız işin hallarına uyğun olaraq müvafiq məhkəmə qiymətləndirilməsi nəticəsində bu şərtlərin mövcud olduğu qənaətinə gəldiyi təqdirdə təmin edə bilərlər.

..."

44. Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin müvafiq müddəalarında aşağıdakılar nəzərdə tutulur:

"Maddə 14. İş üzrə məhkəmə baxışının prinsipləri

...

14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

..."

"Maddə 77. Sübut etmə vəzifəsi

77.1. Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

..."

"Maddə 88. Sübutların qiymətləndirilməsi

Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur."

"Maddə 217. Qətnamənin qanuniliyi və əsaslılığı

217.1. Məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır.

..."

"Maddə 416. Kassasiya instansiyasında işə baxmanın hədləri

416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

416.2. Apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 418.4-cü maddəsində nəzərdə tutulmuş prosessual hüquq pozuntusu hesab edilən hallara yol verilməsi şikayətin hədlərindən və dəlillərindən asılı olmayaraq yoxlanılmalıdır."

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

45. İddiaçı ilk iddia üzrə tərəflər arasında bağlanmış xidmət müqaviləsinin ləğv edilməsini, cavabdehdən həmin müqavilə üzrə ona ödədiyi 24.300 manat məbləğində pulun tutulmasını, cavabdeh isə qarşılıqlı iddia üzrə iddiaçıdan onun xeyrinə 24.300 manat məbləğində zərərin əvəzinin tutulmasını xahiş etmişdir.

46. İlk iddia təmin, qarşılıqlı iddia rədd edilmiş, apellyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsinin qətnaməsini qismən ləğv edərək, ilk iddianı 24.300 manat məbləğində pulun tutulması hissəsində rədd etmiş, qətnaməni qalan hissələrdə dəyişdirmədən saxlamışdır.

47. Apellyasiya instansiyası məhkəməsinin qətnaməsi cavabdeh tərəfindən qarşılıqlı iddianın, iddiaçı tərəfindən isə ilk iddianın təmin olunmadığı hissələrdə kassasiya qaydasında mübahisələndirilmişdir.

<u>Cavabdehin kassasiya şikayətinin dəlilləri üzrə:</u>

48. Cavabdehin kassasiya şikayətinin dəlilləri mahiyyət etibarilə ondan ibarətdir ki, cavabdeh müqavilə üzrə öhdəliklərini yerinə yetirmək, yəni filmdə çəkilmək istəyini dəfələrlə bildirmiş, lakin iddiaçı heç bir ağlabatan səbəb göstərmədən təklif olunmuş icranı qəbul etməmiş, iddiaçı öz üzərinə düşən müqavilə öhdəliklərini yerinə yetirməmiş, icranı gecikdirmiş, bununla da cavabdehə zərər vurmuşdur. Belə ki, iddiaçı ilə bağladığı müqaviləyə bağlı olan cavabdeh digər təkliflərdən imtina etmək məcburiyyətində qalmış, əldə edəcəyi gəlirlərdən məhrum olmuşdur.

49. Cavabdeh eyni dəlilləri birinci və apellyasiya instansiyası məhkəmələrində icraat zamanı da bildirmiş, bununla əlaqədar mübahisələndirilən qətnamədə qeyd olunmuşdur ki, cavabdeh ona maddi zərər vurulduğunu bildirsə də, öz iddiasının əsası kimi istinad etdiyi halları (ona təklif edilən digər layihələrdən imtina etdiyinə görə əldə edəcəyi gəlirlərdən məhrum

olmuşdur) və bunun nəticəsi olaraq zərərin mövcudluğunu təsdiq edən sübutları təqdim etməmişdir.

50. Cavabdeh məhkəmənin nəticəsini tutarlı dəlillərlə təkzib edə bilməmişdir.

51. Belə ki, mübahisəli dövrdə cavabdehə konkret layihələr üzrə təkliflərin daxil olması (hər bir layihənin məzmunu, müəllifləri, dəyəri, layihəni cavabdehə təklif edən şəxslər və s. eyniləşdirici məlumatlar ayrı-ayrılıqda göstərilməklə), habelə həmin layihələrin hər birinə cavabdeh tərəfindən imtina cavablarının verilməsi, bununla da cavabdehin hər bir layihə üzrə itirdiyi gəlirin həcmi və onun hesablanması qaydası iş materiallarından öz təsdiqini tapmır.

52. Göstərilənlərə əsasən məhkəmə kollegiyası zərərin ödənilməsi məsələlərini tənzimləyən və ümumi norma kimi çıxış edən MM-in 21.2-ci maddəsinə (bax bu qərarın 41-ci bəndinə), həmçinin hazırkı mübahisə üzrə xüsusi norma kimi çıxış edən MM-in 443.1 və 443.2-ci maddələrinə (bax bu qərarın 41-ci bəndinə) istinad edərək apellyasiya instansiyası məhkəməsinin qarşılıqlı iddia üzrə gəldiyi nəticə ilə razılaşır və hesab edir ki, məhkəmənin həmin qənaəti mübahisəli hüquq münasibətinə tətbiq edilən həmin maddi hüquq normaları ilə yanaşı, MPM-in 14.2, 77.1, 88 və 217.1-ci maddələrinin tələblərinə (bax bu qərarın 44-cü bəndinə) uyğun olmuşdur.

İddiaçının kassasiya şikayətinin dəlilləri üzrə:

53. Məhkəmə kollegiyası apellyasiya instansiyası məhkəməsinin ilk iddianın cavabdehdən 24.300 manat məbləğində pulun tutulması tələbi üzrə gəldiyi nəticə ilə aşağıdakı səbəblərdən razılaşmır.

54. Belə ki, apellyasiya instansiyası məhkəməsi belə qənaətə gəlmişdir ki, həmin iddia tələbi müqavilə ləğv edildiyinə görə avansın geri qaytarılması əsasına görə təmin edilə bilməz. Belə ki, MM-in podrat müqaviləsinə aid 752-776-ci maddələrindən görünür ki, podrat müqaviləsi ləğv olunduğu halda avansın geri qaytarılmasını müəyyən edən norma nəzərdə tutulmamışdır.

55. Məhkəmə kollegiyası bununla əlaqədar qeyd etməyi vacib hesab edir ki, "Hüquq ədəbiyyatına görə avans gələcəkdə alınacaq mal və ya göstəriləcək xidmətlərin dəyərinin əvvəlcədən qismən pul şəklində ödənilmiş məbləğidir. MM-in "Öhdəliklərin icrasının təmin edilməsi" adlanan XXIV fəslində yer alan 491-ci maddəsinə görə müqavilə üzrə tərəfin verəcəyi ödənişlər hesabına ödənilmiş məbləğin beh olub-olmadığına şübhə yarandıqda, o cümlədən bu Məcəllənin 491.2-ci maddəsində müəyyənləşdirilmiş qaydaya riayət edilməməsi nəticəsində şübhə yarandıqda həmin məbləğ, əgər əksi sübuta yetirilməsə, avans kimi ödənilmiş sayılır. MM avansla bağlı konkret nizamlama müəyyən etmədiyindən, bu barədə razılaşmanın formasına da məhdudiyyət qoymamışdır. Bununla belə, nəzərə alınmalıdır ki, Məcəllənin 491.3-cü maddəsi ümumi normadır və onun tətbiqi zamanı konkret müqavilənin xüsusiyyəti nəzərə alınmalıdır" (Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya və Mülki Kollegiyalarının 2021-ci il 04 iyun tarixli 1/2021 nömrəli Qərardadının 49-51-ci bəndləri)
.

56. Müqavilə tərəfləri öz aralarında razılaşa bilərlər ki, öhdəliyin icrasına görə qarşı tərəfin ödəməli olduğu haqq ya tam şəkildə öhdəlik icra olunduqdan sonra ödənilsin, yaxud da ödənişin bir hissəsi avans olaraq öhdəliyin icrasına başlananadək, qalan hissəsi isə icra prosesində və/və ya bilavasitə icranın sonunda ödənilsin.

57. Hüquq nəzəriyyəsində avans və beh bir-birindən fərqləndirilir. Həmin institutların hüquqi təbiətinə xas olan bu xüsusiyyətlər onların törətdiyi hüquqi nəticələri də bir-birindən fərqləndirir.

58. Belə ki, MM-in 491.1-ci maddəsindən (bax bu qərarın 41-ci bəndinə) də göründüyü kimi, beh müqavilənin bağlanmasını təsdiq etmək və icrasını təmin etmək məqsədilə razılığa

gələn tərəflərdən birinin müqavilə üzrə digər tərəfə verəcəyi ödənişlər hesabına verdiyi pul məbləğidir. MM-in 492-ci maddəsinə (bax bu qərarın 41-ci bəndinə) görə: 1) Öhdəliyin icrasına başlanana qədər ona tərəflərin razılaşması üzrə və ya icranın mümkün olmaması nəticəsində xitam verildikdə beh qaytarılmalıdır. 2) Əgər müqavilənin icra edilməməsi üçün beh vermiş tərəf məsuliyyət daşıyırsa, beh digər tərəfdə qalır. Əgər müqavilənin icra edilməməsi üçün beh almış tərəf məsuliyyət daşıyırsa, o, digər tərəfə behin iki mislini ödəməlidir. Bundan əlavə, müqavilənin icra edilməməsi üçün məsuliyyət daşıyan tərəf, əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, beh məbləği hesaba alınmaqla, zərərin əvəzini digər tərəfə ödəməyə borcludur.

59. Göründüyü kimi, MM behin hansı hallarda geri qaytarıldığını, hansı hallarda geri qaytarılmadığını konkret müəyyən etmişdir. Bundan fərqli olaraq mülki qanunvericilikdə avansın hüquqi rejimi ilə bağlı hər hansı tənzimləmə müəyyən edilməmişdir. Dispozitivlik prinsipinin tələbləri nəzərə alınaraq qeyd olunmalıdır ki, avansın ödənildiyi öhdəliyin mahiyyətindən və tərəflərin razılaşmasından başqa hal irəli gəlmirsə, mal verilməmişsə və ya iş, xidmət göstərilməmişsə, müvafiq öhdəliyin yerinə yetirilməsi üçün əvvəlcədən ödənilmiş dəyər (avans) geri qaytarılmalıdır. Əks yanaşma, müvafiq öhdəlik üzrə hər hansı işi yerinə yetirməmiş, xidməti göstərməmiş tərəfin əsassız olaraq vəsait əldə etməsinə (varlanmasına) gətirib çıxaracaqdır.

60. Avans və behlə bağlı institutların fərqli səciyyə daşımasını MM-in 491.3-cü maddəsinin məzmunundan (bax bu qərarın 41-ci bəndinə) da görmək mümkündür. Həmin normaya görə, müqavilə üzrə tərəfin verəcəyi ödənişlər hesabına ödənilmiş məbləğin beh olub-olmadığına şübhə yarandıqda, o cümlədən bu Məcəllənin 491.2-ci maddəsində müəyyənləşdirilmiş qaydaya riayət edilməməsi nəticəsində şübhə yarandıqda həmin məbləğ, əgər əksi sübuta yetirilməsə, avans kimi ödənilmiş sayılır.

61. Podrat müqaviləsi üzrə öhdəliklərin icrası ilə əlaqədar sifarişçinin podratçıya vermiş avansın, podratçının öhdəliyi yerinə yetirilmədikdə belə, sifarişçiyə qaytarılmasının mümkün olmaması barədə gəlinən qənaət isə faktiki olaraq avansın behlə eyniləşdirilməsi ilə nəticələnir. Ona görə də bu qənaət MM-in istinad olunan normalarına ziddir.

62. Məhkəmə kollegiyası hesab edir ki, MM-in podrat müqaviləsinə aid maddələrində podrat müqaviləsinin ləğv olunduğu halda avansın geri qaytarılmasını müəyyən edən normanın nəzərdə tutulmaması səbəbindən, iddianın təmin edilməməsi avansın yuxarıda qeyd edilən mahiyyətinə və MM-in 759 və 760-cı maddələrinə ziddir.

63. Belə ki, baxılan işdə tərəflər arasında bağlanmış xidmət müqaviləsinin 4.1 və 4.3-cü bəndlərində aktyora filmlərdə çəkiliş üçün 48.600 manat qonorarın ödəniləcəyi və həmin məbləğdən aktyora avans şəklində 50%, yəni 24.300 manat məbləğində ödəniləcəyi nəzərdə tutulmuşdur. Həmin avans məbləğinin müqavilə üzrə öhdəliyin aktyor (cavabdeh) tərəfindən icrası üçün avans olaraq əvvəlcədən ödənilməsi mübahisələndirilmir.

64. İşin məhkəmələr tərəfindən müəyyən edilmiş hallarından isə məlum olur ki, nəticə etibarilə aktyorun nəzərdə tutulan filmlərdə çəkilişi baş tutmamış, yəni aktyor tərəfindən öhdəliklərin icrası mümkün olmamışdır.

65. MM-in 424.4-cü maddəsində təsbit olunmuşdur ki, əgər bu Məcəllə ilə və ya tərəflərin razılaşması ilə ayrı qayda müəyyənləşdirilməyibsə, tərəflər müqavilənin dəyişdirildiyi və ya ləğv edildiyi anadək öhdəlik üzrə icra etdiklərinin qaytarılmasını tələb edə bilməzlər.

66. Apellyasiya instansiyası məhkəməsi qeyd etmişdir ki, MM-in podrat müqaviləsinə aid müddəalarında, habelə tərəflər arasında bağlanmış 2019-cu il 18 yanvar tarixli müqavilədə bu məsələ ilə bağlı tənzimlənmə, yəni ayrı qayda nəzərdə tutulmamışdır. Belə olan halda isə MM-

in 424.4-cü maddəsinə əsasən iddiaçının öhdəlik üzrə icra etdiklərinin, yəni avansın qaytarılmasını tələb etməsi əsassızdır.

67. Halbuki MM-in 424.4-cü maddəsi ümumi normadır, xüsusi norma olaraq isə MMin 759 və 760-cı maddələri (bax bu qərarın 41-ci bəndinə) podrat müqaviləsi üzrə bu məsələdə fərqli qayda müəyyən etmişdir. Həmin maddələrin məzmunundan aydın olur ki, podrat müqaviləsi sifarişçinin və ya podratçının təşəbbüsü ilə ləğv (xitam) edildikdə, sifarişçi podratçıya yalnız yerinə yetirilmiş işin haqqını və müqavilənin ləğvi ilə vurulan zərərin əvəzini ödəməlidir.

68. Həmin maddələrin məzmunundan göründüyü kimi, sifarişçi (hazırkı halda iddiaçı) yerinə yetirilməyən işə görə podratçıya (hazırkı halda cavabdehə) ödədiyi haqqı (hazırkı halda 24.300 manat məbləğində avansı) tələb etməyə haqlıdır. Çünki podratçı (cavabdeh) müqavilə üzrə hər hansı bir iş görməmiş və ona hər hansı zərər dəyməsi də işə baxan məhkəmələr tərəfindən müəyyən edilməmişdir (cavabdehdə zərərə dəyməsinin müəyyən edilməməsi ilə bağlı məhkəmə kollegiyasının mövqeyi yuxarıda cavabdehin kassasiya şikayətinin dəlilləri üzrə olan hissədə ifadə edilmişdir).

69. Yuxarıda göstərilənləri ümumiləşdirərək məhkəmə kollegiyası belə qənaətə gəlir ki, apellyasiya instansiyası məhkəməsi ilk iddianı cavabdehdən 24.300 manat məbləğində pulun tutularaq iddiaçıya ödənilməsi hissəsində təmin etməməklə, MM-in 759 və 760-cı maddələrinin tələblərinə zidd nəticəyə gəlmişdir. Kollegiya iş üzrə hər hansı əlavə araşdırma və ya qiymətləndirmə aparılmısına ehtiyac olmamasını nəzərə alaraq hesab edir ki, işə baxan məhkəmələrin müəyyən etdiyi hallar və sübutlar əsasında həmin hissədə iş üzrə yeni qərar qəbul edilməli, ilk iddia cavabdehdən 24.300 manat məbləğində pulun tutularaq iddiaçıya ödənilməsi hissəsində təmin edilməlidir.

70. Bundan əlavə qeyd edilməlidir ki, işin materiallarından görünür ki, cavabdeh tərəf iddia müddətinin tətbiqi ilə bağlı məhkəməyə ərizə verərək ilkin iddianın rədd edilməsini xahiş etmiş, birinci instansiya məhkəməsi həmin ərizəni təmin etməmiş (bax bu qərarın 11-ci bəndinə), apellyasiya instansiyası məhkəməsi isə ilkin iddianın müvafiq tələbini əsassız hesab etdiyindən iddia müddətinin tətbiq edilməsi barədə cavabdeh tərəfin ərizəsinə qiymət verməmişdir (bax bu qərarın 27-ci bəndinə).

71. Məhkəmə kollegiyası iddia müddətinin tətbiq edilməsi barədə cavabdeh tərəfin ərizəsinə birinci instansiya məhkəməsinin verdiyi qiyməti qanuni və əsaslı hesab etdiyindən, prosessual qənaət prinsipi baxımından eyni məsələ ilə əlaqədar təkrar hüquqi dəyərləndirmə aparılmasına lüzum görmür.

72. Odur ki, cavabdehin kassasiya şikayəti təmin edilməməli, iddiaçının kassasiya şikayəti təmin edilməli, Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2023cü il 13 iyun tarixli 2-2(103)-531/2023 saylı qətnaməsi qismən – Bakı Kommersiya Məhkəməsinin 2023-cü il 10 mart tarixli e-2-2(113)-552/2023 saylı qətnaməsinin ilk iddia üzrə cavabdehdən 24.300 manat məbləğində pulun tutularaq iddiaçıya ödənilməsi hissəsində ləğv edilməsi və həmin hissədə ilk iddianın rədd edilməsi hissəsində ləğv edilməli, həmin hissədə iş üzrə yeni qərar qəbul edilməli, ilk iddia həmin hissədə təmin edilməli, qətnamə mübahisələndirilən qalan hissələrdə dəyişdirilmədən saxlanılmalıdır.

73. Göstərilənlərə əsasən və MPM-in 417-419-cu maddələrini rəhbər tutaraq məhkəmə kollegiyası

QƏRARA ALIR:

İlk iddia üzrə cavabdeh, qarşılıqlı iddia üzrə iddiaçı olan cavabdehin kassasiya şikayəti təmin edilməsin.

İlk iddia üzrə iddiaçı, qarşılıqlı iddia üzrə cavabdeh olan İlk iddiaçının kassasiya şikayəti təmin edilsin.

Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2023-cü il 13 iyun tarixli 2-2(103)-531/2023 saylı qətnaməsi qismən – Bakı Kommersiya Məhkəməsinin 2023-cü il 10 mart tarixli e-2-2(113)-552/2023 saylı qətnaməsinin ilk iddia üzrə cavabdehdən 24.300 manat məbləğində pulun tutularaq ilk iddia üzrə iddiaçı iddiaçıya ödənilməsi hissəsində ləğv edilməsi və həmin hissədə ilk iddianın rədd edilməsi hissəsində ləğv edilsin.

Həmin hissədə iş üzrə yeni qərar qəbul edilsin.

İlk iddia həmin hissədə (cavabdehdən 24.300 manat məbləğində pulun tutularaq ilk iddiaçıya ödənilməsi hissəsində) təmin edilsin.

Qətnamə mübahisələndirilən qalan hissələrdə dəyişdirilmədən saxlanılsın.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

Bank hesabı müqaviləsi üzrə köçürmə əməliyyatlarının icrası zamanı risklərin bölüşdürülməsi

35.2-2(102)-534/2024 nömrəli, 2024-cü il 9 oktyabr tarixli qərar - "İnternet banking" vasitəsi ilə göndərilmiş xarici valyutada köçürmə orderində məlumatların yanlış qeyd olunması nəticəsində pul vəsaitinin müqavilə və invoys məlumatlarına uyğun olmayan hesaba köçürülməsinə görə məsuliyyət

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: "İnternet banking" vasitəsi ilə göndərilmiş xarici valyutada köçürmə orderində məlumatlarının yanlış qeyd olunması nəticəsində pul vəsaitinin müqavilə və invoys məlumatlarına uyğun olmayan hesaba köçürülməsinə görə məsuliyyət.

İddiaçı öz mövqeyini onunla əsaslandırmışdır ki, banka təqdim olunmuş müqavilə məlumatları (o cümlədən müqavilədə göstərilmiş rekvizitlər) ilə ödəniş tapşırığı məlumatları arasında ciddi uyğunsuzluq olmasına baxmayaraq bank tərəfindən pulun naməlum hesaba köçürülməsi həyata keçirilmişdir. Bununla da bank tərəfindən Azərbaycan Respublikası Mərkəzi Bankının iddia ərizəsində qeyd olunan Təlimat və Qaydalarının tələbləri pozulmuşdur.

Cavabdehin mövqeyinə görə vəsaitin köçürülməsinə dair iddiaçının birbaşa özü tərəfindən "internet banking" üzərindən tərtib olunmuş ödəniş tapşırığı göndərilmişdir. Bank isə müştərinin pul vəsaitinə dair öz istədiyi kimi sərəncam vermək hüququ üzərində qanunla və bank hesabı müqaviləsi ilə nəzərdə tutulmamış məhdudiyyətlər qoya bilməzdi.

Birinci instansiya və apellyasiya instansiyası məhkəmələri zərərin əvəzinin ödənilməsinə dair iddianın əsassız olmasına dair nəticəyə gələrkən ona əsaslanmışlar ki, iddianın əsaslı hesab olunması üçün yalnız "cavabdehin iddiaçının tapşırığını, yəni köçürmə orderini icra edərkən öz öhdəliyini təqsirli şəkildə pozması" halları müəyyən olunduğu təqdirdə cavabdehin üzərinə zərərin əvəzinin ödənilməsi öhdəliyi qoyula bilər. Hazırkı işdə isə cavabdehin öz öhdəliklərini pozması nəticəsinə gəlmək üçün əsaslar mövcud olmamışdır.

Belə ki, iddiaçı tərəfindən tərtib edilərək elektron banking vasitəsi ilə cavabdehə göndərilmiş xarici valyutada köçürmə orderində göstərilən bank rekvizitləri ilə iddiaçı və xarici şirkət arasında bağlanmış müqavilədə və ona aid sənədlərdə göstərilən bank rekvizitlərinin fərqli olması köçürmənin icrasından imtina üçün və ya əlavə dəqiqləşdirmə aparmaq üçün əsas ola bilməzdi.

Bank müştərinin pul vəsaitindən istifadə edilməsi istiqamətlərini müəyyənləşdirə və buna nəzarət edə, habelə müştərinin pul vəsaitinə dair öz istədiyi kimi sərəncam vermək hüququ üzərində qanunla və bank hesabı müqaviləsi ilə nəzərdə tutulmamış digər məhdudiyyətlər qoya bilməz. Eyni zamanda, həmin köçürmə orderində göstərilən bütün digər rekvizitlər iddiaçı ilə xarici şirkət arasında bağlanmış müqavilə və ona aid sənədlərdə göstərilən rekvizitlərlə eynilik təşkil edir. Beləliklə, köçürmə orderinin icrası zamanı bank tərəfindən hesab müqaviləsi üzrə üzərinə götürdüyü öhdəliklər pozulmamışdır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Sifarişçilərin ödəmə tapşırıqları əsasında xarici valyutada olan pul vəsaitlərini həmin sifarişçilərin biznes tərəfdaşlarının xarici ölkə banklarındakı hesablara köçürülməsi ilə əlaqədar yerli bankların vəzifələri Azərbaycan Respublikası Mərkəzi Bankının müvafiq Təlimat və Qaydalarında nəzərdə tutulmuşdur.

Həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 966-cı maddəsində hesab əməliyyatlarının lazımınca aparılmamasına görə, 976-cı maddəsində isə ödəniş tapşırıqlarının icra edilməməsinə və ya lazımınca icra edilməməsinə görə bankın məsuliyyətinin əsasları dəqiq müəyyən edilmişdir.

Hazırkı halda kiberhücuma məruz qalan iddiaçı özünün tərtib edərək təqdim etdiyi ödəmə tapşırığı əsasında xarici valyutadakı müvafiq vəsaiti xarici hesaba köçürmüş yerli banka qarşı iddia qaldıraraq, həmin hesabın yanlış olduğunu bildirmiş, bankın bu köçürmədən yaranan zərərə görə məsuliyyət daşıdığını hesab etmişdir.

Məhkəmə kollegiyası hər hansı hüquqi və ya fiziki şəxsin müxtəlif banklarda hesablarının mövcudluğunun mümkün və bank qanunvericiliyi ilə yolverilən hal olmasını nəzərə alaraq, apellyasiya instansiyası məhkəməsinin mövqeyi ilə razılaşmışdır.

Bundan başqa, iddiaçı və xarici şirkət arasında əldə olunmuş razılaşmalarda iddiaçı tərəfindən pul ödəmələrinin məhz onların bağladıqları müqavilədə göstərilən bank hesabına köçürülməsinə dair imperativ tələbin mövcudluğu da işə baxan məhkəmələr tərəfindən müəyyən edilməmişdir.

Nəzərə alınmalıdır ki, biznes tərəfdaşları arasında pul hesablaşmalarının üçüncü ölkələrdə yerləşən və qanunla qadağan olunmayan fərqli bank hesabları üzərindən aparılması beynəlxalq işgüzar dövriyyədə tez-tez rast gəlinən təcrübədir.

Beləliklə, tələb olunan zərərin dəyməsində yerli bankın təqsirinin olmadığı müəyyən edildiyindən iddia məhkəmələr tərəfindən haqlı olaraq təmin edilməmişdir.

Bununla belə, kibercinayətkarlığın geniş yayıldığı hazırkı zamanda bu qəbildən olan mübahisələrin gələcəkdə də baş verməsi istisna olunmadığından baxılan iş üzrə qəbul edilmiş məhkəmə aktlarında əks olunmuş hüquqi mövqelər istər iş adamları və onlara xidmət göstərən banklar, istərsə də məhkəmələr üçün təcrübi əhəmiyyətə malikdir.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2-2(102)-534/2024

09.10.2024-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının
İddiaçının Cavabdehə qarşı iş üzrə

Q Ə R A R I

Açar sözlər: öhdəliyin icra edilməməsi ilə vurulan zərərin əvəzinin ödənilməsi, real zərər

Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının hakimi Məmmədli Bəhram Məmməd oğlunun məruzəsi ilə, hakimlər Nurməmmədov Əhməd Güləhməd oğlu və Abbasov Aqil Əzizağa oğlundan ibarət tərkibdə,

iddiaçının cavabdehə qarşı "maddi ziyanın ödənilməsi" tələbinə dair iş üzrə Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2024-cü il 14 may tarixli 2-2(103)373/2024 nömrəli qətnaməsindən iddiaçı tərəfindən verilmiş kassasiya şikayətinə yazılı icraat qaydasında baxılmışdır.

İşin halları

1. İddiaçı ilə Cavabdehin Binəqədi filialı arasında bağlanmış 2017-ci il 17 noyabr tarixli cari hesab müqaviləsinin:

- 1.1-ci bəndinə əsasən, bank müştəriyə hesab açmağı, hesabına daxil olan pul vəsaitini qəbul etməyi və hesaba salmağı, hesabdan müvafiq məbləğlərin köçürülməsinə və verilməsinə, hesab üzrə digər əməliyyatların aparılmasına dair müştərinin sərəncamlarını yerinə yetirməyi öhdəsinə götürür.
- 2.2-ci bəndinə əsasən, hesab üzrə əməliyyatlar aparıldıqca müştəriyə hesabdan çıxarışlar verilir. Müştəri hesabdan çıxarışı aldıqdan sonra 15 təqvim günü ərzində öz iradını banka yazılı şəkildə şəxsən müraciət etməklə və ya sifariş məktubla bildirmirsə, hesabdan çıxarış təsdiq olunmuş hesab edilir.
- 2.3-cü bəndinə əsasən, nağd pulun çıxarılması, hesab üzrə vəsaitin köçürülməsi yalnız müştəri tərəfindən verilmiş yazılı sərəncamlar və ya elektron ödəmə sərəncamları əsasında aparılır.
- 3.1.1-ci bəndinə əsasən, bank təklif etdiyi bank əməliyyatlarını müvafiq qanunlara, təlimatlara və bank praktikasına uyğun olaraq hesab üzrə aparmağı öhdəsinə götürür.
- 3.1.2-ci bəndinə əsasən, bank müştərinin hesabına daxil olan bütün vəsaitlərinin saxlanmasına və təhlükəsizliyinə təminat verir.
- 3.1.3-cü bəndinə əsasən, bank pul vəsaitini müştəridən qəbul etməyi, ona və ya onun sərəncamı ilə üçüncü şəxslərə verməyi, qanunla müəyyən olunmuş hallar istisna olmaqla, öz öhdəsinə götürür.
- 3.1.10-cü bəndinə əsasən, bankın səlahiyyətli nümayəndələrinin hesablarla əlaqədar bütün sənədləri yoxlamaq, yoxlamalar zamanı meydana çıxan məsələlər üzrə zəruri izahatlar və məlumatlar almaq, eləcə də lazımi məlumatların təqdim edilmədiyi halda hesablar üzrə əməliyyatları dayandırmaq hüququ vardır.
- 3.2.1-ci bəndinə əsasən, müştəri qanunvericiliklə müəyyən olunmuş hallar istisna olmaqla hesab üzrə qeyri-məhdud sərəncam vermək hüququna malikdir.
- 3.2.2-ci bəndinə əsasən, müştəri banka əvvəllər təqdim etdiyi məlumatlarla bağlı olan bütün dəyişikliklər haqqında dəyişikliyin edildiyi gün dərhal banka məlumat verməlidir.

2. İddiaçı ilə Belçika Krallığının qanunvericiliyinə əsasən qeydiyyata alınmış X1 şirkəti arasında duzlu su membranları və suyun təmizlənməsi üçün avadanlıqların alışı üzrə müqavilə bağlanmışdır. Həmin müqaviləyə əsasən, İddiaçı 44.600 ABŞ dolları vəsaiti X1 şirkətinə qabaqcadan 100% həcmində ödəniş etməli idi.

3. 2023-cü il 10 fevral tarixində İddiaçı tərəfindən tərtib edilərək elektron banking vasitəsi ilə Cavabdehin Binəqədi filialına xxxx nömrəli "xarici valyutada köçürmə orderi" göndərilmiş, həmin orderlə İddiaçı tərəfindən ********** nömrəli hesabdan 35.680 ABŞ dolları pulun X1-nin N nömrəli hesaba köçürülməsi tapşırılmış və Cavabdeh tərəfindən həmin köçürmə orderi icra olunmuşdur.

4. Bank rekvizitləri (Bank details) adlı sənəddən X1-nin hesabı olaraq N nömrəli göstərildiyi və həmin hesab nömrəsinin də xarici valyutada köçürmə orderində öz əksini tapdığı görünür.

5. İddiaçının Mərkəzi Banka ünvanladığı 2023-cü il 15 fevral tarixli 69/23 nömrəli məktubda X1 şirkəti ilə arasında malların alışı üzrə bağlanmış müqavilə əsasında tərəflərindən 2023-cü il 23 yanvar tarixində 8.920 ABŞ dolları vəsait avans olaraq Cavabdeh-nin Binəqədi

filialı vasitəsi ilə X1 şirkətinin hesabına ödənildiyi, bank tərəfindən 2-ci avans ödəniş həyata keçirilən zaman MMC-nin kibercinayətin qurbanına çevrildiyi və 2023-cü il 10 fevral tarixində cəmiyyətin hesabından təqdim edilmiş saxta bank hesabına 35.680 ABŞ dolları köçürüldüyü, vəsait köçürüldükdən sonra aparılan araşdırma zamanı təqdim olunan bank hesabının ilkin ödəniş həyata keçirilən şirkətə aid olmadığının müəyyən edildiyi, şübhəli əməliyyatın həyata keçirilməsində cəmiyyətin səhvi olduğu kimi, əməliyyatı həyata keçirən bank tərəfindən müvafiq araşdırmanın aparılmadığını ehtimal etdiklərini və cəmiyyətin ciddi maddi itkiyə məruz qaldığını, işin nəzarətə götürülərək bu əməliyyat üzrə kibercinayətkarlığın beynəlxalq hüquq çərçivəsində həll olunmasına köməklik göstərilməsi xahiş edilmişdir.

İş üzrə məhkəmə icraatı

a) Birinci instansiya məhkəməsindəki icraat

6. İddiaçı (bundan sonra – "iddiaçı") 2023-cü il 2 noyabr tarixində Cavabdehə (bundan sonra – "cavabdeh") qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, cavabdeh tərəfindən bank xidmətlərinin göstərilməsi haqqında müqavilə və qanunvericilik üzrə öhdəliklərinin kobud pozuntusu nəticəsində iddiaçıya vurulmuş 35.680 ABŞ dolları məbləğində zərərin cavabdehdən tutularaq iddiaçıya ödənilməsi barədə qətnamə qəbul olunmasını xahiş etmişdir.

7. İddia tələbi onunla əsaslandırılmışdır ki, iddiaçı Belçika Krallığının qanunvericiliyinə əsasən qeydiyyata alınmış (No.BE*********) və fəaliyyət göstərən X1 (ünvan: X) şirkəti ilə duzlu su membranları və suyun təmizlənməsi üçün avadanlıqların alışı üzrə müqavilə bağlamışdır. Müqaviləyə və digər müşayiətedici sənədlər olan 2022-ci il 4 oktyabr tarixli 99509814 nömrəli proforma-invoys və 2022-ci il 6 oktyabr tarixində ****** nömrə ilə təsdiqlənmiş sifarişin öhdəliklərinə əsasən, iddiaçı 44.600 ABŞ dolları vəsaiti X1 şirkətinə qabaqcadan 100 % həcmində ödəniş etməli idi. X1 şirkəti ilə malların çatdırılma müddəti və ödənişlərlə bağlı email vasitəsilə müzakirələr aparılmışdır. Bu danışıqlara naməlum şəxslər tərəfindən kiberhücum həyata keçirilmiş və nəticədə iddiaçıya X1 şirkətinin email adresinə oxşar adresdən tələbnamə - bank məlumatları göndərilmiş, ödənişin bu bank məlumatlarına əsasən aparılmalı olması bildirilmiş, nəticədə iddiaçı tərəfindən 2023-cü il 10 fevral tarixində cavabdehin Binəqədi filialına internet banking xidməti vasitəsilə ödəniş tapşırığı təqdim olunmuşdur. Bank əməkdaşlarının ödənişi məlumatlarını yoxlamaması səbəbindən həmin ödəniş tapşırığı ilə birgə banka təqdim olunmuş müqavilə və qaimə (invoys) məlumatlarında uyğun olmayan Meksika Respublikasında yaşayan fiziki şəxsə 35.680 ABŞ dolları vəsait köçürülmüşdür.

8. İddiaçı bildirmişdir ki, qanunvericiliyin tələblərinə əsasən, xüsusilə xarici valyuta ilə ödənişlər icra olunan zaman ödənişlə bağlı banka ilk növbədə müqavilə, həmçinin invoys (qaimə/hesab faktura) və digər əlaqəli sənədlər təqdim olunmalıdır. Bu sənədlər ödəniş tapşırığı yaradılan zaman cavabdehə təqdim olunmuşdur. Təqdim olunan 2022-ci il 4 oktyabr tarixli pro-forma invoys, müqavilə (ümumi şərtləri) və 2022-ci il 6 oktyabr tarixli sifariş vərəqəsində müqavilə tərəfinin Belçika Krallığının rezidenti olan X1 şirkəti olduğu görünür. Lakin ödəniş tapşırığının icra olunması üçün təqdim olunmuş saxtalaşdırılmış X1 şirkətinə aid bank detalları sənədində alıcı bank qismində "Y", həmçinin həmin bankla bağlı digər bank məlumatları, alıcı şəxsin məlumatları qrafasında isə "XXXXX" göstərilmişdir. Beləliklə, cavabdehə təqdim olunmuş müqavilə məlumatları (o cümlədən müqavilədə göstərilmiş rekvizitlərlə) ilə ödəniş tapşırığı məlumatları arasında ciddi uyğunsuzluq olmasına baxmayaraq, cavabdeh tərəfindən pulun naməlum hesaba köçürülməsi həyata keçirilmişdir. Fakt aşkarlandıqdan sonra cavabdehə dərhal müraciət olunmuş, ödənişin qanunsuz olaraq icra olunması bildirilmiş, lakin indiyədək zərərin aradan qaldırılması mümkün olmamışdır. Qeyd edilmiş əməliyyatların icrası zamanı cavabdeh tərəfindən müqavilə və qanunvericiliklə üzərinə götürdüyü öhdəliklər icra olunmamaqla, o cümlədən ödənişin əsası və təyinatı üzrə araşdırma aparılmadan icra olunmaqla şirkətə ciddi zərər vurulmuşdur. Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 2022-ci il 28 noyabr tarixli 45/1 nömrəli qərarı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının rezidentlərinin xarici valyutada, habelə qeyri-rezidentlərin milli

və xarici valyutada əməliyyatlarının aparılması qaydaları”na əsasən valyuta əməliyyatları üzrə təsdiqedici sənədlərin siyahısı göstərilmiş, cavabdeh tərəfindən əməliyyatın sənədlərə uyğun aparılıb-aparılmaması yoxlanılmamışdır.

9. Cavabdeh iddiaya etiraz edərək bildirmişdir ki, 2023-cü il 10 fevral tarixində iddiaçı tərəfindən 35.680 ABŞ dolları vəsaitin köçürülməsinə dair müştərinin birbaşa özü tərəfindən internet banking üzərindən tərtib olunmuş ödəniş tapşırığı cavabdehə təqdim edilmişdir. Cavabdeh tərəfindən müvafiq ödəniş tapşırığı və sənədlər qəbul olunaraq müştərinin sərəncamı qanunvericiliyə və müqaviləyə uyğun olaraq icra edilmişdir. iddiaçı tərəfindən təqdim olunmuş iddia ərizəsində də etiraf edilmişdir ki, şirkət naməlum şəxslər tərəfindən kiberhücuma məruz qalmışdır. Hazırkı izahata əlavə olaraq təqdim etdikləri MMC tərəfindən Mərkəzi Banka ünvanlanmış 2023-cü il 15 fevral tarixli 69/23 nömrəli məktubda bu əməliyyatın həyata keçirilməsinin cəmiyyətin səhvi olduğu etiraf olunmuşdur. Habelə bank müştərinin pul vəsaitindən istifadə olunma istiqamətlərini müəyyənləşdirə və buna nəzarət edə bilməz. Müştərinin pul vəsaitinə dair öz istədiyi kimi sərəncam vermək hüququ üzərində qanunla və bank hesabı müqaviləsi ilə nəzərdə tutulmamış digər məhdudiyyətlər qoya bilməz.

10. Bakı Kommersiya Məhkəməsinin 2024-cü il 11 yanvar tarixli e-2-2(113)-425/2024 nömrəli qətnaməsi ilə iddia rədd edilmişdir (hakim – G.Namazova).

11. Məhkəmə qeyd etmişdir ki, cavabdeh tərəflər arasına bağlanmış 2017-ci il 17 noyabr tarixli cari hesab müqaviləsinin tələblərinə zidd hərəkət etməmiş və iddiaçı şirkətin təqdim etdiyi köçürmə orderi, müqavilə və həmin müqaviləyə əlavə edilmiş bank rekviziti əsasında ödənişi həyata keçirmişdir. Bank müştərinin pul vəsaitindən istifadə olunma istiqamətlərini müəyyənləşdirə və buna nəzarət edə bilməz, habelə müştərinin pul vəsaitinə dair öz istədiyi kimi sərəncam vermək hüququ üzərində qanunla və bank hesabı müqaviləsi ilə nəzərdə tutulmamış digər məhdudiyyətlər qoya bilməz. Əgər belə məhdudiyyət qoyulmuş olsa, cavabdeh tərəfindən 2017-ci il 17 noyabr tarixli müqavilənin şərtləri pozulmuş hesab olunardı.

12. Eyni zamanda mübahisə predmeti olan pul vəsaiti əşya hüququ əsasında iddiaçıya məxsus olmaqla onun üzərində sərəncam vermək hüququ da ona aid olduğundan, məhkəmə həmin pul vəsaiti üzərində də istədiyi formada sərəncam vermək hüququ qanunvericiliyin və müqavilənin şərtlərinə uyğun olaraq ona məxsus olması qənaətinə gəlmişdir. Qeyd olunanlardan göründüyü kimi, cavabdeh tərəfindən iddiaçının təqdim etdiyi müqavilə və həmin müqaviləyə əlavə edilmiş ödəniş tapşırığına, tapşırıqda qeyd olunmuş rekvizitlərə uyğun olaraq əməliyyatlar həyata keçirilmişdir.

13. İddiaçının Mərkəzi Banka ünvanladığı 2023-cü il 15 fevral tarixli 69/23 nömrəli məktubunda da X1 şirkəti arasında malların alışı üzrə bağlanmış müqavilə əsasında tərəflərindən 2023-cü il 23 yanvar tarixində 8.920 ABŞ dolları vəsait avans olaraq cavabdehin Binəqədi filialı vasitəsi ilə X1 şirkətinin hesabına ödənildiyi, bank tərəfindən 2-ci avans ödəniş həyata keçirilən zaman MMC-nin kibercinayətin qurbanına çevrildiyi və 2023-cü il 10 fevral tarixində cəmiyyətin hesabından təqdim edilmiş saxta bank hesabına 35.680 ABŞ dolları köçürüldüyü, vəsait köçürüldükdən sonra aparılan araşdırma zamanı təqdim olunan bank hesabının ilkin ödəniş həyata keçirilən şirkətə aid olmadığının müəyyən edildiyi, şübhəli əməliyyatın həyata keçirilməsində cəmiyyətin səhvi olduğu etiraf olunmuşdur.

14. Tərəflər arasında bağlanmış müqavilənin şərtlərində də cavabdeh tərəfindən iddiaçı tərəfindən təqdim edilmiş rekvizitlərin saxtalığının müəyyən edilməsi cavabdehin öhdəliyi kimi nəzərdə tutulmamışdır. Cavabdeh tərəfindən iddiaçının ödəniş tapşırığının lazımınca icra olunmaması və müqavilə şərtlərinə zidd hərəkət edilməsi halına yol verilmədiyindən, məhkəmə iddiaçının tələbinin təmin olunması üçün qanuni əsasların mövcud olmadığı qənaətinə gəlmişdir.

15. Birinci instansiya məhkəməsi gəldiyi nəticəni Azərbaycan Respublikasının Mülki Məcəlləsinin (bundan sonra – “MM”) 135.1, 385.1, 399.1, 442, 448.1, 954.1, 954.2, 954.3, 957.1, 957.2, 973.3 və 975.1-ci, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin

(bundan sonra – “MPM”) 14.1, 14.2, 77.1 və 218.3-cü maddələrinə istinad etməklə əsaslandırmışdır.

16. İddiaçı apellyasiya şikayəti verərək həmin qətnamənin ləğv, iddia tələbinin təmin edilməsi barədə qətnamə qəbul olunmasını xahiş etmişdir.

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

17. Apellyasiya baxışı zamanı Azərbaycan Respublikası Mərkəzi Bankına məktub ünvanlanaraq, yaranmış zərurətlə əlaqədar olaraq mütəxəssisin cəlb olunması və aşağıdakı suallara cavab verilməsi xahiş olunmuşdur:

- 2023-cü il 10 fevral tarixli 7280054 nömrəli xarici valyutada köçürmə orderi Mərkəzi Bankın mövcud normativ aktlarına uyğun tərtib olunmuşdurmu?
- Həmin köçürmə orderində hər hansı qüsur mövcuddurmu?
- Cavabdehin həmin köçürmə orderinin icrasından imtina etmək üçün əsaslar mövcud olmuşdurmu?

18. Həmin məktuba cavab olaraq daxil olmuş Mərkəzi Bankın Kredit təşkilatlarının fəaliyyətinə nəzarət departamentinin böyük inspektoru X2-nin rəyində qeyd edilmişdir ki, 2023-cü il 10 fevral tarixli ******* nömrəli xarici valyutada köçürmə orderi AMB-nin həmin dövrdə qüvvədə olmuş 2013-cü il 17 sentyabr tarixli 19/1 nömrəli “Azərbaycan Respublikasında nağdsız hesablaşmalar və pul köçürmələri haqqında təlimat”ın 4-cü hissəsi – “Ödəniş sənədlərinə və onların icrasına dair ümumi tələblər”ə uyğun tərtib olunmuşdur. Belə ki, köçürmədə benefisiarın qeyd olunan bank rekvizitləri üzrə hesabına vəsait köçürülməsinə dair müştərinin birbaşa özü tərəfindən “internet bankçılıq” üzərindən cavabdehə ödəniş tapşırığı təqdim olunmuş və həmin ödəniş tapşırığı müştərinin gücləndirilmiş elektron imzası ilə təsdiqlənmişdir. Bu ödəniş tapşırığının tərtibində təlimatın 4.11-ci bəndində nəzərdə tutulmuş qüsurlar aşkar edilmədiyindən, cavabdehin həmin sənədin icrasından imtina etməsinə əsas mövcud olmamışdır. Həmçinin 2023-cü il 14 iyul tarixində qəbul olunmuş “Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında” Qanunun 31.7-ci maddəsinə görə, ödəniş xidməti təchizatçısı ödəniş xidməti istifadəçisi tərəfindən ödəniş sərəncamında səhv göstərilmiş məlumatlara görə ödəniş sərəncamının icra edilməməsi və ya səhv icra olunması üçün məsuliyyət daşımır. Mərkəzi Bankın 2016-cı il 28 noyabr tarixli 45/1 nömrəli qərarı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasının rezidentlərinin xarici valyutada, habelə qeyri-rezidentlərin milli və xarici valyutada əməliyyatlarının aparılması qaydaları”nda idxal müqaviləsi üzrə malın (xidmətin) dəyərinin yalnız mal (xidmət) alan şəxs tərəfindən ödənilməsi ilə bağlı öhdəlik nəzərdə tutulur. Malın (xidmətin) müqabilində vəsaitin köçürüldüyü ödəniş hesabı barədə xüsusi tələb nəzərdə tutulmadığından, bu hissədə də qanunvericiliyin pozulması halın rast gəlinmir.

19. Məhkəmə iclasında mütəxəssis X2 həmin rəyi təsdiq etmiş və əlavə olaraq bildirmişdir ki, bankın əməliyyat sistemində olan həmin ödəmə tapşırığında bankın rekvizitlərinin hamısı var və müştəri həmin rekvizitləri özü doldurur. Ödəmə tapşırığı müştərinin banka verdiyi rekvizitlərdə natamamlıq olduqda, hesab nömrələri uyğun gəlmədikdə qüsurlu hesab olunur. Belə olan halda sistem həmin ödəmə tapşırığını geri qaytarır. Həmçinin ödəmə tapşırığında müştərinin hesab nömrəsi ilə müqavilədəki hesab nömrəsi eyni deyilsə, bu rekvizitdə qüsur olması hesab edilmir.

20. İddiaçı mütəxəssis rəyinə etiraz edərək bildirmişdir ki, iddiaçı ilə satıcı X1 (Belçika Krallığı) şirkəti arasında imzalanmış müqavilə və hesab faktura (invoys) üzrə bank rekvizitləri qismində satıcının Belçika Krallığında yerləşən X bank hesab məlumatları razılaşdırılmışdır. Həmçinin sənədlərdə satıcının ünvanı Belçika Krallığı, G küçəsi göstərilmiş, lakin bank tərəfindən icra olunan ödəniş tapşırığında isə vəsait alanın bankı qismində Meksika Respublikasında yerləşən Banamex bankının rekvizitləri və ünvan olaraq Mexiko şəhərində yerləşən ünvan göstərilmişdir. Göründüyü kimi, ödəniş tapşırığının rekvizitlərində bank tərəfindən sadə yoxlama nəticəsində aşkar olunacaq dərəcədə uyğunsuzluq mövcud olmuşdur. Bu uyğunsuzluq qanunvericiliyin birbaşa göstərişinə uyğun olaraq ödəniş tapşırığının qüsurlu olmasını göstərmişdir. Digər tərəfdən, bank tərəfindən sənəd qismində

yalnız alıcı və satıcı tərəfindən razılaşdırılmış imza və möhürlə təsdiq olunmuş sənədlər qəbul edilə bilər. Qeyd olunan sənədlər bank tərəfindən tələb olunsa da, onlar yoxlanılmamış və ödəniş icra olunmuşdur. Təlimatın tələblərindən birbaşa aydın olur ki, rekvizitlərdə uyğunsuzluq ödəniş tapşırığının qüsurlu hesab olunması üçün əsasdır. Mərkəzi bankın mütəxəssisi tərəfindən özünün də əməkdaşı olduğu Mərkəzi Bankın normativ sənədi təhrif olunaraq qanunvericiliyin birbaşa göstərişinə zidd rəy verilmişdir.

21. İddiaçı həmçinin bildirmişdir ki, mütəxəssis 2023-cü il 21 iyul tarixində qüvvəyə minmiş "ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Qanuna istinad etmişdir. Ödənişin icra olunduğu 2023-cü il 10 fevral tarixində qeyd olunan Qanun ümumiyyətlə qəbul olunmamışdır. Mütəxəssis rəyində bu Qanuna istinad edilməsi yolverilməzdir. Qüvvədə olmayan qanuna istinad etməklə mütəxəssis qanunsuz rəyini əsaslı olması ilə bağlı təəssürat yaradılmasına cəhd etmişdir. Mütəxəssis Mərkəzi Bankın 2016-cı il 28 noyabr tarixli 45/1 nömrəli qərarı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının rezidentlərinin xarici valyutada, habelə qeyri-rezidentlərin milli və xarici valyutada əməliyyatlarının aparılması qaydaların"da ödəniş hesabı barədə tələb nəzərdə tutulmadığını və qanunvericiliyin tələblərinin pozulmadığını bildirmişdir. Belə ki, qaydaların 4-cü bəndində bank hesabları üzrə aparılan valyuta əməliyyatları ilə bağlı tələb olunan sənədlərin dəqiq siyahısı göstərilmişdir. Qaydaların 4.3.1.1-cü bəndinə əsasən, ödəniş malların idxalı ilə əlaqədar olduqda banka idxal müqaviləsi və ya ödənişin təyinatını, məbləğini və idxal olunan mallar barədə məlumatı özündə əks etdirən bildiriş, hesabfaktura və ya digər sənədlər təqdim edilir. İddiaçı tərəfindən də hazırda məhkəmə mübahisəsinin predmeti olan ödəniş tapşırığı ilə bağlı qanunvericilikdə göstərilən sənədlər banka təqdim olunmuş, lakin bank tərəfindən sənədlərin yoxlanılması icra olunmamışdır. Göründüyü kimi, qanunvericilik ödəniş tapşırığının qüsursuz olmasının və qanunvericiliyin digər tələblərinə uyğunluğun yoxlanılması məqsədilə banklara qeyd olunan sənədlərin tələb olunması və yoxlanılması öhdəliyini təsbit etmişdir. Bank tərəfindən bu öhdəliklər qüsurlu icra olunmuşdur.

22. Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2024-cü il 14 may tarixli 2-2(103)-373/2024 nömrəli qətnaməsi ilə apellyasiya şikayəti təmin edilməmiş, birinci instansiya məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmışdır (sədrlik edən – R.Qurbanov, hakimlər – Z.Şirinov və V.Baxışova).

23. Apellyasiya məhkəməsi qeyd etmişdir ki, qanunvericiliyin tələbinə görə iddianın əsaslı hesab olunması üçün yalnız "cavabdehin iddiaçının tapşırığını, yəni 2023-cü il 10 fevral tarixli köçürmə orderini icra edərkən öz öhdəliyini təqsirli şəkildə pozması" halları müəyyən olunduğu təqdirdə cavabdehin üzərinə zərərin əvəzinin ödənilməsi öhdəliyi qoyula bilər. Hazırkı işdə isə bunun üçün əsaslar, yəni iddiaçının dəlillərinin əsaslı hesab edilməsi və cavabdehin öz öhdəliklərinin pozması nəticəsinə gəlmək üçün əsaslar mövcud olmamışdır. Belə ki, 2023-cü il 10 fevral tarixli "xarici valyutada köçürmə orderi" iddiaçı tərəfindən tərtib edilərək elektron banking vasitəsi ilə cavabdehə göndərilmişdir. Ona görə də məhkəmə həmin köçürmə orderində göstərilən bank rekvizitləri ilə iddiaçı və xarici şirkət arasında bağlanmış müqavilədə və ona aid sənədlərdə göstərilən bank rekvizitlərinin fərqli olması köçürmənin icrasından imtina üçün və ya əlavə dəqiqləşdirmə aparma üçün əsas olmadığı qənaətinə gəlmişdir.

24. Qanunvericilikdə də təsbit olunmuşdur ki, bank müştərinin pul vəsaitindən istifadə edilməsi istiqamətlərini müəyyənləşdirə və buna nəzarət edə bilməz, habelə müştərinin pul vəsaitinə dair öz istədiyi kimi sərəncam vermək hüququ üzərində qanunla və bank hesabı müqaviləsi ilə nəzərdə tutulmamış digər məhdudiyyətlər qoya bilməz.

25. Eyni zamanda, həmin köçürmə orderində göstərilən bütün digər rekvizitlər iddiaçı ilə xarici şirkət arasında bağlanmış müqavilə və ona aid sənədlərdə göstərilən rekvizitlərlə eynilik təşkil edir. Hər hansı şəxsin (hüquqi və ya fiziki) müxtəlif banklarda hesablarının olması isə adi haldır.

26. Bundan başqa, 2023-cü il 10 fevral tarixli köçürmə orderində alıcı şəxsin fiziki şəxs olması qeyd edilməmişdir. İddiaçının istinad etdiyi "XXXXX" qeydləri isə köçürmə orderində

deyil, “Bank rekvizitləri (Bank Details)” adlı sənəddə qeyd olunmuş və həmin qeydlər alıcı şəxsin adını deyil, bankın ünvanını (Bank Adress) göstərmişdir.

27. İddiaçının istinad etdiyi Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 2013-cü il 17 sentyabr tarixli qərarı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasında nağdsız hesablaşmalar və pul köçürmələri haqqında təlimat”ın 5.3.2 və

4.11-ci bəndlərinin, habelə Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 2022-ci il 4 fevral tarixli qərarı ilə təsdiq edilmiş “Bank hesablarının açılması, aparılması və bağlanması qaydası”nın 3.1 və 3.2-ci bəndlərinin tələblərinin pozulması halları da müəyyən olunmamışdır.

28. İddiaçı tərəfindən cavabdehin hərəkətlərində Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 2013-cü il 17 sentyabr tarixli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında nağdsız hesablaşmalar və pul köçürmələri haqqında təlimat”ın 5.3.2 və 4.11-ci bəndlərinin, habelə Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 2022-ci il 4 fevral tarixli qərarı ilə təsdiq olunmuş “Bank hesablarının açılması, aparılması və bağlanması qaydası”nın 3.1 və 3.2-ci bəndlərinin tələblərinin pozulmasına istinad edilsə də, Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən verilmiş rəydə həmin təlimat və qaydaların tələblərinin pozulmaması qeyd olunmuşdur.

29. Kollegiya iddiaçı tərəfindən mütəxəssis rəyinə verilmiş etirazla qismən razılaşaraq hesab etmişdir ki, mütəxəssis rəyində 2023-cü il 21 iyul tarixində qüvvəyə minmiş “Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında” Qanuna istinad edilməsi düzgün olmamışdır. Çünki mübahisələndirilən köçürmə orderi verilən vaxt həmin qanun qüvvəyə minməmişdir.

30. Bununla yanaşı, mütəxəssisdən aydınlaşdırılması tələb edilən məsələlərə, yəni qeyd olunan təlimat və qaydalarla bağlı məsələlərə aid hissədə hər hansı ziddiyyət və anlaşılmazlıq olmadığına görə, kollegiya Mərkəzi Bankının mövqeyinin nəzərə alınmalı olduğu qənaətinə gəlmişdir. Çünki qeyd olunan təlimat və qaydalar Mərkəzi Bank tərəfindən qəbul olunduğuna görə konkret halda həmin normativ aktların tələblərinə riayət edilib-edilməməsi məsələsində onun rəyi əsas götürülməlidir.

31. 2023-cü il 10 fevral tarixli köçürmə orderinin icrası zamanı cavabdeh tərəfindən 2017-ci il 17 noyabr tarixli cari hesab müqaviləsi üzrə üzərinə götürdüyü öhdəliklər pozulmamışdır. Ona görə də kollegiya qanunvericiliyin tələbləri baxımından iddiaçı tərəfindən zərərin əvəzinin ödənilməsi tələbinin əsassız olması qənaətinə gəlmişdir.

32. Apellyasiya məhkəməsi gəldiyi nəticəni MM-in 448.1, 448.2, 459.1, 954.1, 954.3 və 976.1-ci maddələrinə istinad etməklə əsaslandırmışdır.

33. İddiaçı kassasiya şikayəti verərək həmin qətnamənin ləğv, iddia tələbinin təmin edilməsi barədə qərar qəbul olunmasını xahiş etmişdir.

Kassasiya şikayətinin və ona qarşı etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

34. MM-in 973, 974.1 və 974.2-ci maddələri üzrə - Apellyasiya məhkəməsi tərəfindən işə baxılarkən bir sıra maddi və prosessual hüquq normaları pozulmuşdur. Məhkəmə iddianı təmin etməməsini əsaslandırarkən yalnız mütəxəssis rəyinə istinad etmiş, subyektiv olaraq məsələyə heç bir münasibət bildirməmişdir.

35. Apellyasiya məhkəməsinin bu qərarın 30-cu bəndində göstərilən mövqeyi ilə bağlı kassator qeyd edir ki, mülki qanunvericiliyin (MM-in 973.3, 974.1 və 974.2-ci maddələri) ödəniş tapşırıqları ilə hesablaşmaları tənzimləyən normaları konkret olaraq bankların ödəniş tapşırıqlarını icra etməzdən əvvəl yoxlamalı olduğunu ifadə etmişdir. Banklar tərəfindən ödəniş tapşırıqlarının icrası zamanı ödəniş tapşırıqlarının məzmunu, sənədlərin uyğunluğu yoxlanılmalı və dəqiqləşdirilməlidir.

36. Ödəniş icra olunan tarixdə qüvvədə olmuş Mərkəzi Bankın 2013-cü il 17 sentyabr tarixli 19/1 nömrəli qərarı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasında nağdsız hesablaşmalar və pul köçürmələri haqqında təlimat”ın 5.3.2-ci maddəsinə əsasən, emitent bankın məsul şəxsi təqdim edilən ödəniş tapşırığının qüsurlu olub-olmamasını və ödəniş əməliyyatı üçün tələb

olunan məbləğin ödəyicinin bank hesabında olmasını yoxlayır. Mütəxəssis hazırkı məhkəmə baxışının predmeti olan ödəniş tapşırığını qüsurlu hesab etməsə də, qeyd olunan təlimatın 4.11-ci bəndində birbaşa göstərilmişdir ki, ödəniş sənədinin rekvizitlərində uyğunsuzluq olduqda ödəniş sənədi qüsurlu hesab olunur.

37. Alıcı - iddiaçı ilə satıcı - X1 (Belçika Krallığı) şirkəti arasında imzalanmış müqavilə və hesab faktura (invoys) üzrə bank rekvizitləri qismində satıcının Belçika Krallığında yerləşən Bankdakı (F) bank hesab məlumatları razılaşdırılmışdır. Həmçinin sənədlərdə satıcının ünvanı Belçika Krallığı, Genk şəhəri (X küçəsi) göstərilmişdir. Lakin bank tərəfindən icra olunan ödəniş tapşırığında isə vəsait alanın bankı qismində Meksika Respublikasında yerləşən X bankının rekvizitləri və ünvan olaraq Mexiko şəhərində yerləşən (X) ünvan göstərilmişdir. Göründüyü kimi, ödəniş tapşırığının rekvizitlərində bank tərəfindən sadə yoxlama nəticəsində aşkar olunacaq dərəcədə uyğunsuzluq mövcuddur. Bu uyğunsuzluq qanunvericiliyin birbaşa göstərişinə uyğun olaraq ödəniş tapşırığının qüsurlu olmasını göstərir.

38. Ödəniş sənədinin rekvizitləri ilə tərəflər arasında razılaşdırılmış rekvizitlər arasında uyğunsuzluq mövcuddur. Qeyd olunan sənədlər bank tərəfindən tələb olunsa da, onlar yoxlanılmamış və ödəniş icra olunmuşdur. Təlimatın tələblərindən aydın olur ki, rekvizitlərdə uyğunsuzluq ödəniş tapşırığının qüsurlu hesab olunması üçün əsasdır. Mərkəzi bankın mütəxəssisi tərəfindən özünün də əməkdaşı olduğu Mərkəzi Bankın normativ sənədi təhrif olunaraq, qanunvericiliyin birbaşa göstərişinə zidd rəy verilmişdir.

39. Apellyasiya məhkəməsinin bu qərarın 24-cü bəndində göstərilən mövqeyi ilə bağlı kassator qeyd edir ki, qanunvericilik (MM-in 954.3-cü maddəsi) banklar tərəfindən müştərilərin əməliyyatlarına məhdudiyyətlər qoyulmasını qadağan etsə də, bankların qüsurlu ödəniş tapşırıqlarını icra etməmək və dəqiqləşdirmələr aparmaq öhdəlikləri mövcuddur. Məhkəmə tərəfindən qanunvericiliyin tələbləri aydınlaşdırılmamış, yalnız mütəxəssis rəyi əsasında qərar verilərək iddiaçının hüquqları pozulmuşdur.

40. MPM-in 80, 81 və 88-ci maddələri üzrə - Məhkəmə işə baxarkən yalnız mütəxəssis rəyinə istinad etmiş, həmin rəydə bir sıra qüsurların olmasına baxmayaraq onu mötəbər sübut hesab etmişdir. Mütəxəssis rəyində qüvvədən düşmüş qanuna istinad olunmuş, həmçinin təlimat və qaydalar mütəxəssisin öz fərziyyəsi əsasında şərh olunmuşdur. Bu səbəbdən, məhkəmə həmin qanunvericilik normalarını nəzərdən keçirməli və işin halları ilə əlaqələndirməli idi.

41. MPM-in 217-ci maddəsi üzrə - Məhkəmə tərəfindən ədalətli, qanuni və hərtərəfli araşdırma aparılmamış, nəticədə düzgün olmayan qərar qəbul edilməsinə səbəb olmuşdur. Məhkəmə hərtərəfli araşdırma aparmamaqla prosessual qanunvericiliyin tələblərini pozmuşdur.

42. İnsan Hüquqları üzrə Avropa Məhkəməsi məhkəmə aktlarına irəli sürülən əsaslılıq tələbinə məhkəmələr tərəfindən əməl olunmamasını ədalətli məhkəmə araşdırılması hüququnun pozulması kimi qəbul edərək, bir sıra qərarlarında bununla bağlı hüquqi mövqelərini ifadə etmişdir. Avropa Məhkəməsinin “Kuznetsov və digərləri Rusiya Federasiyasına qarşı” iş üzrə 2007-ci il 21 yanvar tarixli qərarında qeyd edilmişdir ki, milli məhkəmələr tərəfindən öz qərarlarını əsaslandırmaq tələbinə əməl olunmaması ədalətli məhkəmə araşdırılması zamanı tərəflərin mövqelərinin bərabərlik prinsipi gözlənilməklə dinlənilməsinin sübuta yetirilməməsi ilə nəticələnir.

43. MPM-in 218.1-ci maddəsi üzrə - Məhkəmə tərəfindən işin halları tam, hərtərəfli qiymətləndirilməmiş və iş üçün əhəmiyyətli olan sübutlar düzgün müəyyən edilməmişdir.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

44. Cavabdeh kassasiya şikayətinə etiraz edərək, kassasiya şikayətinin təmin olunmaması və apellyasiya məhkəməsinin qətnaməsinin dəyişdirilmədən saxlanılmasını xahiş etmişdir.

45. Etiraz onunla əsaslandırılmışdır ki, 2023-cü il 10 fevral tarixində iddiaçı tərəfindən 35.680 ABŞ dolları vəsaitin köçürülməsinə dair müştərinin özü tərəfindən "internet bankçılıq"

üzərindən tərtib edilmiş ödəniş tapşırığı cavabdehə təqdim edilmiş, cavabdeh tərəfindən müvafiq ödəniş tapşırığı və sənədlər qəbul edilərək müştərinin sərəncamı qanunvericiliyə və müqaviləyə uyğun olaraq icra edilmişdir.

46. İddiaçı tərəfindən təqdim edilmiş iddia ərizəsi, həmçinin iş materiallarında olan iddiaçının 2023-cü il 15 fevral tarixli 69/23 nömrəli məktubunda bu əməliyyatın həyata keçirilməsinin cəmiyyətin səhvi olduğu etiraf edilmişdir. MM-in 954.3-cü maddəsinə əsasən bank müştərinin pul vəsaitindən istifadə edilməsi istiqamətlərini müəyyənləşdirə və buna nəzarət edə bilməz, habelə müştərinin pul vəsaitinə dair öz istədiyi kimi sərəncam vermək hüququ üzərində bank hesabı müqaviləsi ilə nəzərdə tutulmamış digər məhdudiyyətlər qoya bilməz. Belə ki, iddiaçı tərəfindən cavabdehin müqavilə üzrə öhdəliklərini pozduğu iddia edilsə də, həmin hissədə hər hansı sübut və ya əsaslandırma məhkəməyə təqdim edilməmişdir.

47. Kassasiya şikayətində qeyd edilir ki, "ödəniş tapşırığı rekvizitlərin düzgün olmaması səbəbilə qüsurlu olduğu üçün icra edilməməlidir." Lakin cavabdeh bildirir ki, həmin rekvizitlər iddiaçının özü tərəfindən cavabdehə təqdim edilmiş və köçürmənin iddiaçının təqdim etdiyi rekvizitlər əsasında icra edilməsi barədə müştərinin birbaşa sərəncamı olmuşdur. İş materiallarına əlavə edilmiş mütəxəssis rəyindən də aydın olur ki, ödəniş tapşırığı qanunvericiliyin tələblərinə uyğun tərtib edilmiş və müştərinin özünəməxsus gücləndirilmiş elektron imzası ilə təsdiq edilmişdir. Həmçinin ödəniş tapşırığından imtina edilməsinə dair əsas olmadığı üçün əməliyyat qanunvericiliyə və tərəflər arasında bağlanan müqaviləyə uyğun olaraq icra edilmişdir.

48. Digər hissədə kassasiya şikayətində qeyd edilir ki, "mütəxəssis rəyi fərziyyə əsasında şərh olunmuşdur." İş materiallarına əlavə edilmiş rəydən müəyyən olur ki, mütəxəssis tərəfindən Azərbaycan Respublikasının Mərkəzi Bankının Təlimat və Qaydalarına istinad edilərək rəy təqdim olunmuşdur. Qeyd edilənlərə əsasən cavabdeh hesab edir ki, kassasiya şikayəti əsaslandırma aparılmadan formal xarakterli olmuşdur.

Kassasiya baxışının hədləri

49. Apellyasiya instansiyası məhkəmə aktını tam yoxlamış, hazırkı icraat çərçivəsində apellyasiya məhkəməsinin qətnaməsi bütövlükdə mübahisələndirildiyi üçün onun qanuniliyi və əsaslılığı MPM-in 403 və 416-cı maddələrinə uyğun olaraq tam yoxlanılacaqdır.

50. Kassasiya instansiyası məhkəməsi tərəfindən işin faktiki halları yoxlanılmasa da apellyasiya instansiyası məhkəməsinin maddi və prosessual hüquq normalarını düzgün tətbiq edib-etməməsini yoxlayarkən hüquqi məsələlərin düzgün qiymətləndirilməsi üçün işin faktiki hallarının nəzərə alınması və onlara istinad olunması zəruridir. Kassasiya instansiyası məhkəməsinin işin müəyyən edilmiş faktiki hallarına istinad etməsi faktiki halların yoxlanılması və araşdırılması kimi qiymətləndirilməməlidir.

Tətbiq edilən hüquq

51. Azərbaycan Respublikasının Mülki Məcəlləsinin müvafiq müddəalarında aşağıdakılar nəzərdə tutulur:

"Maddə 448. Öhdəliklərin icra edilməməsi üçün borclunun məsuliyyəti

448.1. Əgər bu Məcəllə ilə və müqavilə ilə ayrı qayda müəyyənləşdirilməyibsə, borclu onun risk dairəsinə daxil olan öhdəliklərin icra edilmədiyi bütün hallar üçün cavabdehdir.

448.2. Borclu öz öhdəliklərinin hər bir təqsirli pozuntusu (hərəkət və ya hərəkətsizlik) üçün məsuliyyət daşıyır. Borclunu təqsirə görə, yəni qərəzə və ya kobud ehtiyatsızlığa görə məsuliyyətdən qabaqcadan azad etmək olmaz.

..."

"Maddə 459. İlkin vəziyyəti bərpa etmək vəzifəsi

459.1. Zərərin əvəzini ödəməyə borclu olan şəxs əvəz ödəməyə borclu edən hal baş verməsəydi, mövcud olacaq vəziyyəti bərpa etməlidir.

..."

"Maddə 954. Bank hesabı müqaviləsi

954.1. Bank hesabı müqaviləsinə görə bank müştəriyə (hesabın sahibinə) açılmış hesaba daxil olan pul vəsaitini qəbul etməyi və hesaba salmağı, hesabdan müvafiq məbləğlərin köçürülməsinə və verilməsinə, hesab üzrə digər əməliyyatların aparılmasına dair müştərinin sərəncamlarını yerinə yetirməyi öhdəsinə götürür.

954.2. Bank hesabda olan pul vəsaitinə dair müştərinin maneəsiz sərəncam vermək hüququna qarantiya verməklə, bu vəsaitdən istifadə edə bilər.

954.3. Bank müştərinin pul vəsaitindən istifadə edilməsi istiqamətlərini müəyyənləşdirə və buna nəzarət edə bilməz, habelə müştərinin pul vəsaitinə dair öz istədiyi kimi sərəncam vermək hüququ üzərində qanunla və bank hesabı müqaviləsi ilə nəzərdə tutulmamış digər məhdudiyyətlər qoya bilməz (2023-cü il 5 dekabr tarixli 1048-VIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə 954.3-cü maddəyə “üzərində” sözündən sonra “qanunla və” sözləri əlavə edilmişdir).

...”

“Maddə 957. Hesabda olan pul vəsaitinə dair sərəncam vermək hüququnun təsdiqi

957.1. Hesabdan vəsaitin köçürülməsi və verilməsi haqqında müştərinin adından sərəncamlar verən şəxslərin hüquqları qanunda nəzərdə tutulmuş, qanuna əsasən bank qaydaları və bank hesabı müqaviləsi ilə müəyyənləşdirilmiş sənədlərin müştəri tərəfindən banka təqdim olunması yolu ilə təsdiq edilir.

...

957.4. Əgər bank hesab sahibinin həqiqi iradəsini ifadə etməyən sərəncam əsasında pul vəsaitini həmin hesabdan silərsə, bunun üçün məsuliyyət daşıyır, bir şərtlə ki, belə sərəncamın hesab sahibinin öz təqsiri üzündən verildiyini sübut edə bilməsin.”

“Maddə 964. Pul vəsaitinin hesabdan silinməsinin əsasları

964.1. Hesabdan pul vəsaitinin silinməsini bank müştərinin sərəncamına əsasən həyata keçirir.

”

“Maddə 966. Hesab əməliyyatlarının lazımınca aparılmaması üçün bankın məsuliyyəti

Müştəriyə gələn pul vəsaitinin vaxtında hesaba salınmadığı və ya bank tərəfindən əsassız olaraq hesabdan silindiyi, habelə pul vəsaitinin hesabdan köçürülməsi və ya hesabdan verilməsi haqqında müştərinin göstərişlərinin lazımınca yerinə yetirilmədiyi hallarda bank həmin məbləğ üçün bu Məcəllənin 449-cu maddəsində nəzərdə tutulmuş qaydada və miqdarda faizlər ödəməlidir.”

“Maddə 973. Ödəniş tapşırıqları ilə hesablaşmalar haqqında ümumi müddəalar

973.1. Ödəniş tapşırığı ilə hesablaşma zamanı bank ödəyicinin tapşırığı ilə onun hesabında olan vəsait hesabına müəyyən pul vəsaitini bu və ya başqa bankda ödəyicinin göstərdiyi şəxsin hesabına qanunla nəzərdə tutulmuş və ya qanuna uyğun təyin edilmiş müddətdə köçürməyi öhdəsinə götürür, bu şərtlə ki, bank hesabı müqaviləsində daha qısa müddət nəzərdə tutulmasın və ya bank praktikasında tətbiq olunan işgüzar dövriyyə adətləri ilə daha qısa müddət müəyyənləşdirilməsin.

973.2. Bu Məcəllənin bu paraqrafının qaydaları bankda hesabı olmayan şəxsin öz pul vəsaitini həmin bank vasitəsilə köçürməsi ilə bağlı münasibətlərə tətbiq edilir, bu şərtlə ki, qanunla, ona uyğun müəyyənləşdirilmiş bank qaydaları ilə ayrı hal nəzərdə tutulmasın və ya bu münasibətlərin mahiyyətindən ayrı hal irəli gəlməsin.

973.3. Ödəniş tapşırıqları ilə hesablaşmaların həyata keçirilməsi qaydası qanunla, habelə ona uyğun müəyyənləşdirilmiş bank qaydaları və bank praktikasında tətbiq olunan işgüzar dövriyyə adətləri ilə tənzimlənir.

Maddə 974. Bank tərəfindən ödəniş tapşırığının yerinə yetirilməsi şərtləri

974.1. Ödəniş tapşırığının və onunla birlikdə təqdim edilən hesablaşma sənədlərinin məzmunu və forması qanunla və ona uyğun müəyyənləşdirilmiş bank qaydaları ilə nəzərdə tutulmuş tələblərə uyğun gəlməlidir.

974.2. Ödəniş tapşırığı bu Məcəllənin 974.1-ci maddəsində göstərilmiş tələblərə uyğun gəlmədikdə bank tapşırığın məzmununu dəqiqləşdirə bilər. Ödəyiciyə bu cür sorğu tapşırıq alındıqdan dərhal sonra verilməlidir. Qanunla və ya ona uyğun müəyyənləşdirilmiş bank qaydaları ilə nəzərdə tutulmuş müddətdə, bunlar olmadıqda isə ağlabatan müddətdə cavab almadıqda bank tapşırığı icra etmədən ödəyiciyə qaytara bilər, bu şərtlə ki, qanunla, ona uyğun müəyyənləşdirilmiş bank qaydaları və ya bankla ödəyici arasında müqavilə ilə ayrı hal nəzərdə tutulmasın.

974.3. Əgər ödəyici ilə bank arasında müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, ödəyicinin tapşırığını bank ödəyicinin hesabında vəsait olduqda yerinə yetirir. Bank tapşırıqları hesabdan pul vəsaitinin silinməsi növbəliyini gözləməklə icra edir. Ödəyicinin hesabında vəsait olmadıqda bank bu barədə ona məlumat verir.

Maddə 975. Tapşırığın icrası

975.1. Ödəyicinin ödəniş tapşırığını qəbul etmiş bank müvafiq pul məbləğini tapşırıqda göstərilmiş şəxsin hesabına salınmaq üçün vəsait alanın bankına bu Məcəllənin 973.1-ci maddəsi ilə müəyyənləşdirilmiş müddətdə köçürməlidir.

975.2. Bank müştərinin tapşırığında göstərilmiş hesaba pul vəsaitinin köçürülməsi əməliyyatlarının yerinə yetirilməsi üçün digər bankları cəlb edə bilər.

975.3. Bank ödəyiciyə tapşırığın icrası haqqında dərhal bildiriş verməlidir. Ödəniş tapşırığının icrasından sonra məlumatlandırma ilə bağlı digər tələblər "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

Maddə 976. Tapşırığın icra edilməməsinə və ya lazımınca icra edilməməsinə görə məsuliyyət

976.1. Müştərinin tapşırığı icra edilmədikdə və ya lazımınca icra edilmədikdə bank bu Məcəllənin 23-cü fəslində nəzərdə tutulmuş əsaslar üzrə və miqdarda məsuliyyət daşıyır.

..."

52. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin müvafiq müddəalarında aşağıdakılar nəzərdə tutulur:

"Maddə 14. İş üzrə məhkəmə baxışının prinsipləri

...

14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

..."

"Maddə 77. Sübut etmə vəzifəsi

77.1. Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

..."

"Maddə 88. Sübutların qiymətləndirilməsi

Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur."

"Maddə 217. Qətnamənin qanuniliyi və əsaslılığı

217.1. Məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır.

..."

"Maddə 416. Kassasiya instansiyasında işə baxmanın hədləri

416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

416.2. Apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 418.4-cü maddəsində nəzərdə tutulmuş prosessual hüquq pozuntusu hesab edilən hallara yol verilməsi şikayətin hədlərindən və dəlillərindən asılı olmayaraq yoxlanılmalıdır."

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

53. Məhkəmə kollegiyası aşağıdakı səbəblərdən iddiaçının kassasiya şikayətinin dəlillərini (bax §§ 34-43) əsassız hesab edir.

54. İddiaçı öz mövqeyini mahiyyət etibarilə onunla əsaslandırmışdır ki, banka təqdim olunmuş müqavilə məlumatları (o cümlədən müqavilədə göstərilmiş rekvizitlər) ilə ödəniş tapşırığı məlumatları arasında ciddi uyğunsuzluq olmasına baxmayaraq bank tərəfindən pulun naməlum hesaba köçürülməsi həyata keçirilmişdir. Bununla da bank tərəfindən Azərbaycan Respublikası Mərkəzi Bankının iddia ərizəsində qeyd olunan Təlimat və Qaydalarının tələbləri pozulmuşdur.

55. Mübahisələndirilən qətnamədən məlum olur ki, apellyasiya baxışı zamanı məhkəməyə Mərkəzi Bank tərəfindən mütəxəssis rəyi təqdim olunmuşdur. Həmin rəydə Mərkəzi Bankın bir sıra qayda və təlimatlarına istinad olunaraq, konkret halda bank tərəfindən qanunvericiliyin pozulması halına rast gəlinmədiyi bildirilmişdir.

56. Eyni zamanda, həmin rəyi vermiş mütəxəssis məhkəmə iclasında əlavə olaraq bildirmişdir ki, bankın əməliyyat sistemində olan həmin ödəmə tapşırığında bankın rekvizitlərinin hamısı var və müştəri rekvizitləri özü doldurur. Ödəmə tapşırığı müştərinin banka verdiyi rekvizitlərdə natamamlıq olduqda, hesab nömrələri uyğun gəlmədikdə qüsurlu hesab olunur. Belə olan halda sistem həmin ödəmə tapşırığını geri qaytarır. Həmçinin ödəmə tapşırığında müştərinin hesab nömrəsi ilə müqavilədəki hesab nömrəsi eyni deyilsə, bu, rekvizitdə qüsur olması hesab edilmir.

57. İddiaçı tərəf həmin mütəxəssis rəyi ilə razılaşmasa da, apellyasiya instansiyası məhkəməsi mütəxəssis rəyində mübahisəli hallarla bağlı tələb edilən məsələlərə, hər hansı ziddiyyət və anlaşılmazlığa yol verilmədən aydınlıq gətirilməsini nəzərə alaraq, sözügedən rəyi mötəbər sübut kimi qiymətləndirmişdir. Məhkəmə kollegiyası hesab edir ki, həmin rəy apellyasiya instansiyası məhkəməsi tərəfindən qiymətləndirilərkən MPM-nin 81 və 88-ci maddələrinin tələblərinə əməl olunmuşdur.

58. Nəzərə alınmalıdır ki, MM-in 966-cı maddəsində (bax § 51) hesab əməliyyatlarının lazımınca aparılmamasına görə, MM-in 976-cı maddəsində (bax § 51) isə ödəniş tapşırıqlarının icra edilməməsinə və ya lazımınca icra edilməməsinə görə bankın məsuliyyətinin əsasları dəqiq müəyyən edilmişdir.

59. Məhkəmə kollegiyası həmçinin qeyd etməyi zəruri hesab edir ki, cavabdehin iddiaçı ilə bağladığı bank hesabı müqaviləsi üzrə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməməsi, ödəmə tapşırıqlarını lazımınca icra etməməsi və MM-in 954.1-954.3, 957.1, 957.4, 964.1 və 973-975-ci maddələrinin (bax § 51) tələblərini pozaraq, iddiaçının pul vəsaitini onun ödəmə tapşırığında göstərdiyi müvafiq xarici bankdakı hesaba köçürməməsi və ya səhvən ödəmə tapşırığında göstərmədiyi başqa hesaba köçürməsi, yaxud da iddiaçının pul vəsaitini onun həqiqi iradəsini ifadə etməyən sərəncam əsasında köçürməsi hallarına yol verməsi, cavabdehin müvafiq köçürməyə görə mülki məsuliyyətinin yaranması üçün əsas ola bilərdi.

60. Lakin işin məhkəmələr tərəfindən müəyyən edilmiş hallarından məlum olur ki, cavabdeh tərəfindən sözügedən hüquq pozuntularına yol verilməmişdir. Belə ki, 2023-cü il 10 fevral tarixli “Xarici valyutada köçürmə orderi” iddiaçı tərəfindən tərtib edilərək elektron banking vasitəsi ilə cavabdehə göndərilmişdir. Eyni zamanda, həmin köçürmə orderində göstərilən bütün digər rekvizitlər iddiaçı ilə xarici şirkət arasında bağlanmış müqavilə və ona aid sənədlərdə göstərilən rekvizitlərlə eynilik təşkil etmişdir. Bundan başqa, sözügedən köçürmə orderində alıcı şəxsin fiziki şəxs olması qeyd edilməmişdir. İddiaçının istinad etdiyi “xxx” qeydləri isə köçürmə orderində deyil, Bank Rekvizitləri (Bank Details) adlı sənəddə qeyd edilmiş və həmin qeydlər alıcı şəxsin adını deyil, bankın ünvanını (Bank Adress) göstərir.

61. Məhkəmə kollegiyası hər hansı hüquqi və ya fiziki şəxsin müxtəlif banklarda hesablarının mövcudluğunun mümkün və bank qanunvericiliyi ilə yolverilən hal olmasını nəzərə alaraq, apellyasiya instansiyası məhkəməsinin mövqeyi ilə razılaşır.

62. Bundan başqa, iddiaçı və xarici şirkət arasında əldə olunmuş razılaşmalarda iddiaçı tərəfindən pul ödəmələrinin məhz onların bağladıqları müqavilədə göstərilən bank hesabına köçürülməsinə dair imperativ tələbin mövcudluğu da işə baxan məhkəmələr tərəfindən müəyyən edilməmişdir.

63. O da qeyd olunmalıdır ki, biznes tərəfdaşları arasında pul hesablaşmalarının üçüncü ölkələrdə yerləşən və qanunla qadağan olunmayan fərqli bank hesabları üzərindən aparılması beynəlxalq işgüzar dövriyyədə tez-tez rast gəlinən təcrübədir.

64. Digər tərəfdən, işin məhkəmələr tərəfindən müəyyən edilmiş hallarından o da məlum olur ki, iddiaçının Mərkəzi Banka ünvanladığı 2023-cü il 15 fevral tarixli 69/23 saylı məktubunda da X1 şirkəti arasında malların alışı üzrə bağlanmış müqavilə əsasında tərəflərindən 2023-cü il 23 yanvar tarixində 8.920 ABŞ dolları məbləğində vəsaitin avans olaraq Cavabdeh Binəqədi filialı vasitəsi ilə X1 şirkətinin hesabına ödənildiyi, bank tərəfindən 2-ci avans ödəniş həyata keçirilən zaman MMC-nin kiber cinayətin qurbanına çevrildiyi və 2023-cü il 10 fevral tarixində cəmiyyətin hesabından təqdim edilmiş saxta bank hesabına 35.680 ABŞ dolları məbləğində vəsait köçürüldüyü, vəsait köçürüldükdən sonra aparılan araşdırma zamanı təqdim edilən bank hesabının ilkin ödəniş həyata keçirilən şirkətə aid olmadığının müəyyən edildiyi, şübhəli əməliyyatın həyata keçirilməsində cəmiyyətin səhvi olduğu etiraf edilmişdir.

65. Məhkəmə kollegiyası hesab edir ki, kibercinayətkarlığın geniş yayıldığı hazırkı zamanda sahibkarlıq subyektləri xarici tərəfdaşlarla iş birliyi qurarkən, o cümlədən həmin tərəfdaşların müxtəlif xarici ölkələrdəki bank hesablarına xarici valyutada pul vəsaitləri köçürərkən mümkün riskləri əvvəlcədən göz önünə alaraq ayıq-sayıqlığı daha da artırmalı, xüsusilə də xarici tərəfdaşlarla əlaqə saxlayaraq bank hesablarının rekvizitlərini təkrarən dəqiqləşdirməli, şübhəli hesab etdikləri pul transferi əməliyyatlarından çəkinməli, onlara xidmət göstərən yerli banklara ödəmə tapşırıqlarını verməmişdən qabaq bütün mümkün ehtiyat təbirlərini görməlidirlər.

66. Yuxarıda göstərilənləri ümumiləşdirərək məhkəmə kollegiyası belə qənaətə gəlir ki, apellyasiya instansiyası məhkəməsi iş üzrə nəticəyə gələrkən kassasiya şikayətindəki dəlillərdə göstərilmiş hüquq pozuntularına yol verməmiş, tam hüquqlu məhkəmə kimi işdə olan sübutları qiymətləndirərkən MPM-in 14.2, 77.1 və 88-ci maddələrinin (bax § 52) tələblərinə əməl etmiş, öz mövqeyini lazımi qaydada əsaslandırmaqla qanunu düzgün tətbiq etmiş, MPM-in 217.1-ci maddəsinə (bax § 52) uyğun olaraq qanuni və əsaslı qətnamə qəbul etmişdir.

67. Odur ki, kassasiya şikayəti təmin edilməməli, Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2024-cü il 14 may tarixli 2-2(103)-373/2024 nömrəli qətnaməsi dəyişdirilmədən saxlanılmalıdır.

68. Göstərilənlərə əsasən və MPM-in 417-419-cu maddələrini rəhbər tutaraq məhkəmə kollegiyası

QƏRARA ALIR:

İddiaçının kassasiya şikayəti təmin edilməsin.

Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2024-cü il 14 may tarixli 2-2(103)-373/2024 nömrəli qətnaməsi mübahisələndirilən hissədə dəyişdirilmədən saxlanılsın.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

Əsassız varlanma

36. 2(102)-761/2022 nömrəli, 2022-ci il 31 yanvar tarixli qərar - Vicdanlı sahib tərəfindən torpaq sahəsinin yaxşılaşdırılmasına çəkilmiş xərclərin hesablanma qaydası

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu:

1. Torpaq sahəsində aparılmış yaxşılaşdırmaların əvəzinin ödənilməsi.

Kassasiya instansiya məhkəməsinin mövqeyi:

2. Əşyadan ayrıla bilməyən əlavələr sıx fiziki bağlılıq və ya qarışma nəticəsində əsas əşyanın tərkib hissəsi kimi onun mülkiyyətçisinə məxsus olur. Əşyanın mülkiyyətçisi onun bütün tərkib hissələrinin mülkiyyətçisidir. Əşyaya əlavə edilmiş yaxşılaşdırmalar onun ümumi dəyərini artırdığı üçün mülkiyyətçi dəyərin artdığı həcmdə varlanmış olur. Başqa sözlə, artmış dəyər müvafiq yaxşılaşdırmaları ona çəkilmiş xərclərlə birlikdə özündə ehtiva edir. Ona görə də yaxşılaşdırmaları götürə bilməyən sahib həm yaxşılaşdırmanın dəyərini, həm də bu dəyərin əmələ gəlməsi üçün çəkilmiş xərci mülkiyyətçidən tələb edə bilməz.

3. Bu baxımdan torpaq sahəsində çoxillik bitkilərin əkilməsi nəticəsində həmin bitkilərin dağıdılmadan, zədələnmədən və ya dəyişdirilmədən torpaqdan ayrılması mümkün deyilsə belə bitkilər artıq əşyanın (torpaq sahəsinin) tərkib hissəsinə çevrilir. Torpağa bağlı olan çoxillik bitkilər (ağaclar) bazarda satılmadığından onların ayrıca dəyərini müəyyən etmək mümkün olmadığı halda həmin bitkilərin uzun illər ərzində ərsəyə gəlməsi üçün çəkilmiş xərclərin yaxşılaşdırmanın dəyəri kimi qiymətləndirilməsi Mülki Məcəllənin 157.7-ci maddəsinin məqsədlərinə cavab vermir.

4. Oxşar vəziyyətlərdə vicdanlı sahib mülkiyyətçidən yaxşılaşdırmalarını tələb etdikdə həmin yaxşılaşdırmaların dəyəri torpaq sahəsinin bu cür yaxşılaşdırmalarla birlikdə dəyəri ilə belə yaxşılaşdırılmalardan əvvəlki (onlar olmadan) dəyəri arasındakı fərq əsasında müəyyən edilməlidir.

5. Kassasiya instansiya məhkəməsinin qərarı Mülki Məcəllənin 135.10, 157.7, 1094, MPM-in 9.3, 10.8-1, 14.2, 77.1, 77.3, 78.2, 81, 88, 217.4, 407.2, 416.1, 418.3-cü maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 18.03.2019-cu il tarixli qərarına istinadla əsaslandırılmışdır.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-761/2022

31.01.2022-ci il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının

iddiaçı cavabdeh 1, cavabdeh 2, cavabdeh 3 və cavabdeh 4 qarşı iddia tələbinə dair iş üzrə
Q Ə R A R I

Açar sözlər: əşyanın tərkib hissəsi, vicdanlı sahib, əşyanı yaxşılaşdırmaq üçün çəkilmiş məsrəflər, işin mübahisəsiz halları, sübutların mümkünlüyü, çəkişmə prinsipi

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Hüseynov Abiddin Qabil oğlu (məruzəçi), Nurməmmədov Əhməd Güləhməd oğlu və Əliyev Zaur Əli oğlundan ibarət tərkibdə,

iddiaçının cavabdeh 1, cavabdeh 2, cavabdeh 3 və cavabdeh 4 qarşı pul tələbinə dair Şəki Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(107)1441/2021 nömrəli iş üzrə 16 sentyabr 2021-ci il tarixli qətnaməsindən cavabdeh 1 tərəfindən verilmiş kassasiya şikayətinə dair işə 31 yanvar 2022-ci il tarixdə Ali Məhkəmənin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları

Cavabdeh 2, cavabdeh 3, cavabdeh 4, X1 və X2 tərəfindən 23 aprel 2006-cı il tarixdə tərtib olunaraq imzalanmış aktda qeyd olunmuşdur ki, onlar özlərinə məxsus pay torpaq sahəsini Əliabad qəsəbə sakini X3 satılmasına etiraz etmirlər.

İddiaçı (bundan sonra – iddiaçı) ilə cavabdeh 1 tərəfindən imzalanmış 08 dekabr 2014-cü il tarixli aktda qeyd olunmuşdur ki, sonuncu, ünvan 7 saylı bölgənin "X" adlanan sahəsində özünə və ailə üzvlərinə məxsus 1,70 ha torpaq sahəsini iddiaçıya 1500 ABŞ dollarına satmışdır.

Şəki Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(107)-2887/2019 nömrəli iş üzrə qanuni qüvvəyə minmiş 28 noyabr 2009-cu il tarixli qətnaməsi ilə hazırkı iş üzrə iddiaçının cavabdeh 1 qarşı torpaq sahəsinə dair alqı-satqı müqaviləsinin bağlanmış hesab edilməsi və torpaq sahəsinin onu mülkiyyətinə verilməsi barədə iddiası rədd edilmişdir. Qətnamə onunla əsaslandırılmışdır ki, mübahisəli - 08 dekabr 2014-cü il tarixli aktda göstərilən 1,70 ha torpaq sahəsinin cavabdeh 1 istifadəsinə verilməsi barədə dövlət aktı, torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə və mülkiyyət hüququna dair çıxarış olmadığı üçün iddia təmin oluna bilməz.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a) Birinci instansiya məhkəməsində icraat

İddiaçı cavabdeh 1, cavabdeh 2, cavabdeh 3 və cavabdeh 4 (bundan sonra - cavabdehlər) qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, cavabdehlərdən bağ salınması üçün çəkilmiş 68.130 manat xərcin, torpağın alınması üçün verilmiş 1500 ABŞ dolları pulun, ödənilmiş 30 manat dövlət rüsumunun tutularaq ona verilməsinə dair qətnamə çıxarılmasını xahiş etmişdir.

İddiaçı tələbini onunla əsaslandırmışdır ki, alqı-satqı cavabdehlərlə aralarında 2005-ci ilin yay aylarında baş tutmuş və 23 aprel 2006-cı il tarixdə bu barədə akt yazmışlar. Həmin vaxt sənədləri qaydasında olmadığına görə torpaq sahəsini qohumu X3 adına sənədləşdirməklə, sonuncunun həmin torpağı almasına dair akt tərtib etmişlər. Faktiki olaraq isə həmin torpağı özü almışdır. Sonradan, 08 dekabr 2014-cü il tarixdə torpaq sahəsini adına sənədləşdirmək üçün yenidən torpağın mülkiyyətçisi cavabdeh 1 iştirakı ilə başqa akt tərtib edilmişdir. Torpaq sahəsi 2006-cı ildən onun istifadəsindədir. Torpağın vergisini özü ödəyir. Alqı-satqını torpağın mülkiyyət hüququnu müəyyən edən sənədlər verilmədiyinə görə notariatda sənədləşdirə bilməmişlər. Torpağın alqı-satqısını rəsmiləşdirmək üçün məhkəməyə müraciət etmiş və məhkəmənin qətnaməsi ilə onun iddiası təmin edilmişdir. Cavabdeh apellyasiya şikayəti vermiş, apellyasiya instansiyası məhkəməsi tərəfindən qətnamə ləğv edilmişdir. Belə olduğu halda, həmin torpaq sahəsində çəkdiyi xərclər və torpaq sahəsinin alqı-satqısı zamanı verdiyi pul ona geri qaytarılmalıdır. Belə ki, həmin torpaq sahəsində 2000-ci ildən bəri 500 ədəd iri-xırda fındıq ağacı əkmişdir. Hazırda iri fındıq ağacının qiyməti 100 manat, xırdasının qiyməti isə 50 manatdır. Həmin bağda 200 ədəd iri, 300 ədəd xırda fındıq ağacları vardır. Fındıq

ağaclarının dəyəri cəmi 35.000 manat təşkil edir. Bundan başqa, ağacların əkilməsinə görə X4 2000 manat, 500 manat kanal qazmaq üçün, 2000-ci ildən hal-hazıradək bağın qorunması üçün 1500 manat pul vermişdir. 19 ildə isə bu məbləğ 28.500 manat təşkil edir. Bundan başqa, həmin torpağın alqı-satqısı zamanı cavabdehlərə 1500 ABŞ dolları pul vermişdir.

Məhkəmənin qərardadına əsasən əldə olunmuş Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Zaqatala Dövlət Aqrar İnkişaf Mərkəzinin 11 mart 2020-ci il tarixli arayışında qeyd olunmuşdur ki, ünvan ərazisində yerləşən fındıq bağının ölçüləri 62 m x 274 m = 17000 kv.m və ya 1,70 ha olmaqla 10x1 əkin sxemində 420 topadan ibarətdir. Onlardan 250 topa fındıq ağacı təqribən 10 il əvvəl əkilmiş, bir neçə ildir ki məhsul verməyə başlamışdır. 50 ədəd fındıq topası sonradan əkilmiş, məhsul verməyə başlamışdır. 120 ədəd fındıq topası isə yararsız fındıq topa olduğu üçün çıxarılaraq yenidən əkilmişdir. 250 fındıq topası (1 topaya 160 manat olmaqla) 40.000 manat qiymətləndirilmişdir. 50 topa fındıq (orta qiymət olaraq 1 topaya 50 manat olmaqla) təqribi 2500 manat olmuşdur. Yeni salınan 120 topa fındıq (hər topa 30 manat qiymətləndirilərək) təqribi 3600 manat olmuşdur. Əkilmiş 17 ədəd qoz ağacları məhsul verməyə başlamış və hər bir qoz ağacı üçün 70 manat hesablanaraq təqribi 1190 manat qiymətləndirilmişdir. Bundan başqa, sözügedən sahənin hazırlanması, aqrotexniki tədbirlərin görülməsi və sərhədlərin bağlanmasına 2500 manat sərf edilmişdir. Ümumi məbləğ təqribi 49.790 manat müəyyən edilə bilər.

Zaqatala Rayon Məhkəməsinin (bundan sonra – birinci instansiya məhkəməsi) 2(033)-261/2020 nömrəli iş üzrə 08 may 2020-ci il tarixli qətnaməsi ilə (hakim E.Məmmədov) iddia qismən təmin edilmiş, cavabdehlərdən 49.790 manat pul və ödənilmiş 30 manat dövlət rüsumunun alınaraq iddiaçıya verilməsi qət edilmişdir.

Məhkəmə müəyyən etmişdir ki, cavabdehlər əvvəllər razılaşma əsasında sözügedən torpaq sahəsini iddiaçıya satmışlar və hal-hazıradək sözügedən torpaq sahəsi iddiaçının istifadəsindədir. İddiaçının torpaq sahəsinə dair alqı-satqı müqaviləsinin bağlanmış hesab edilməsinə dair iddiası məhkəmə qətnaməsi ilə təmin olunmamışdır.

Birinci instansiya məhkəməsi hesab etmişdir ki, iddiaçının sözügedən torpaq sahəsində çəkilmiş xərclərin (verdiyi pul məbləği də daxil olmaqla) cavabdehlərdən alınmasına dair iddia tələbi qismən əsaslıdır və çəkilmiş xərclərlə bağlı mütəxəssis rəyi ilə razılaşaraq belə nəticəyə gəlmişdir ki, rəydə qeyd olunan məbləğin cavabdehlərdən tutulması məqsədəuyğundur.

Məhkəmə, həmçinin qeyd etmişdir ki, iddiaçı tərəfindən alqı-satqı zamanı verilmiş 1500 ABŞ dollarının hazırkı məzənnəsi cüzi olduğundan, iddiaçı çəkdiyi xərc məbləğinin mütəxəssis rəyində göstərilən məbləğlə əhatə olunduğu bildirərək həmin hissəni mübahisələndirməmişdir.

Məhkəmə öz mövqeyini Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra – MPM) 14.2, 77.1, 217.3-cü maddələrinə istinadla əsaslandırmışdır.

Sonradan birinci instansiya məhkəməsi qətnamədəki yanlışlığın düzəldilməsi barədə qərardad qəbul edərək, qətnamənin əsaslandırıcı hissəsinə Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra – Mülki Məcəllə) 21.2, 1091.1, 1091.2-ci maddələrinin əlavə olunmasını qərara almışdır. Qətnamədən cavabdeh 1 apellyasiya şikayəti vermişdir.

b) Apellyasiya instansiyası məhkəməsindəki birinci icraat

Cavabdeh apellyasiya şikayətini onunla əsaslandırmışdır ki, birinci instansiya məhkəməsinin qətnaməsi qanunsuz, əsassız və ədalətsizdir. Məhkəmə maddi və prosessual hüquq normalarını pozmuş və düzgün tətbiq etməmiş, gəldiyi nəticə üçün mühüm əhəmiyyəti olan bütün faktiki halları aydınlaşdırmamışdır, qətnamədə göstərilən nəticələr işin hallarına uyğun gəlmir. Belə ki, iddiaçı mülkiyyətlərində olan 1,70 ha torpaq sahəsi ilə əlaqədar ilk dəfə 2006-cı ildə söhbətləri olmuş və həmin torpaq sahəsinə baxmaq ona çətin olduğu üçün onun qohumu X3 1500 ABŞ dollarına icarəyə vermişdir ki, onlar bu torpaqdan istifadə etsinlər.

Həmin vaxt uşaqları Rusiya Federasiyasında olmuş, qızı isə Bakı şəhərində yaşamışdır. Digər tərəfdən həmin torpaq sahəsi ondan başqa bir neçə şəxsin mülkiyyətində olmuş, onun həmin torpaq sahəsinə sərəncam vermək hüququ olmamışdır. İddiaçı mülkiyyətlərində olan torpaq sahəsində onların razılığı olmadan özbaşına ağaclar əkmiş və hazırda həmin ağaclara görə onlardan külli miqdarda vəsait tələb edir, halbuki onun iddiasında məbləğ çox şişirdilmişdir. İlkin komissiya tərəfindən həmin torpağa baxış keçirilərkən iddiaçının xərcləri 4800 manat məbləğində qiymətləndirilmiş, lakin iddiaçı bununla razılaşmayaraq yenidən şikayət edib iddiasında göstərdiyi məbləği tələb etmişdir.

Apellyasiya icraatı zamanı "X5" MMC tərəfindən verilmiş 16 sentyabr 2020-ci il tarixli 337 nömrəli rəydə qeyd olunmuşdur ki, ünvan yerləşən 1,70 ha torpaq sahəsindəki 226 ədəd fındıq topalarının inkişaf səviyyəsinə əsasən fındıq topalarının yaşının 12 il olması və həmin ağaclara 12 ilədək, sualın tədqiqat hissəsində sadalanan aqrotexniki qulluq göstərilməsi müəyyən edilir. Yerdə qalan, 238 ədəd məhsuldarlığa düşməyən 2-4 illik sonradan əkilmiş fındıq topalarına (yarısı 2 illik, yarısı təxminən 4 illik), 17 ədəd məhsuldar, təxminən 14 illik qoz ağaclarına aid olması müəyyən edilir. Ekspert baxışına təqdim edilmiş, ünvan yerləşən 1,7 ha torpaq sahəsində salınmış 12 yaşı olan, 226 ədəd məhsuldar fındıq topasından, 119 ədəd 4 illik, 119 ədəd 2 illik fındıq topasından və 17 ədəd məhsuldar qoz ağacı olan bağın, aparılmış abadlaşdırma işləri nəzərə alınmaqla, hazırkı bazar dəyəri təxminən 42.653,00 manat müəyyən edilir. O cümlədən: - 12 yaşlı 226 ədəd məhsuldar fındıq topasının dəyəri (226 ədəd x 120 manat) – 27.120,00 manat; 119 ədəd 4 illik fındıq ağacının dəyəri (119 ədəd x 40 manat) - 4760,00 manat; -119 ədəd 2 illik fındıq ağacının dəyəri (119 ədəd x 20 manat) - 2380,00 manat; -4-5 şitildən ibarət fındıq topasının əkilmə xərci (464 topa x 2 manat) - 928,00 manat; - 17 ədəd məhsuldar qoz ağacının dəyəri (17 ədəd x 80 manat) -1360,00 manat; -14 ildə bağa qulluq edilmə və bağın mühafizəsi (30 manat x 14 il x 12 ay) - 5040,00 manat; -355 metr kanalın qazılması xərci (355 metr x 3 manat) - 1065,00 manat. Rəydə qeyd olunmuşdur ki, 12 illik fındıq ağacları bazarlarda satılmadığına (belə ağacı bir yerdən başqa yerə köçürmək mümkün deyil) görə, 1 illik 1 ağaca tələb edilən aqrotexniki qulluq təxminən 10 manat qiymətləndirilməklə, 12 yaşı olan fındıq topasının orta bazar qiyməti təxminən 120,00 manat qiymətləndirilmişdir. Respublikada daşınmaz əmlak (o cümlədən torpaq sahəsi) bazarında mövcud olan qiymətlərdən və tələbatdan, eləcə də əmlakın yerləşdiyi məkandan, nəqliyyat xəttinə yaxınlığından, qulluq səviyyəsindən, torpağın münbitliyindən, suvarma sisteminə yaxınlığından və sairdən asılı olaraq, torpağın və torpaq üstündə olan fındıq kollarının qiymətində qismən dəyişiklik olması istisna edilmir.

Məhkəmə iclasında iştirak edən cavabdeh 2 apellyasiya şikayətini müdafiə edərək bildirmişdir ki, nə Zaqatala Aqrar İnkişaf Mərkəzi, nə də ki, ekspertiza rəyi ilə razı deyil. İddiaçı həmin torpaqdan yetərincə istifadə etmiş və gəlir götürmüşdür. Bundan əlavə iddiaçı mübahisəli torpaq sahəsinə qanunsuz yiyələnmişdir.

Onun vəkili vəkil 1 apellyasiya şikayətini müdafiə edərək bildirmişdir ki, birinci instansiya məhkəməsi hazırkı iş üzrə qərar qəbul edərkən maddi və prosessual hüquq normalarını düzgün tətbiq etməmiş, tərəflər arasındakı qarşılıqlı münasibəti düzgün qiymətləndirməmişdir. Çünki bu illər ərzində mübahisəli torpaq sahəsi cavabdehlərə məxsus olmuş, bütün subsidiyaları cavabdehlər almışlar.

Məhkəmə iclasında iddiaçının nümayəndəsi və vəkili vəkil 2 apellyasiya şikayətinə etiraz edərək bildirmişdir ki, cavabdeh tərəf bu illər ərzində həmin torpaq sahəsində heç bir əkin-biçin işləri aparmamışdır. Verilmiş arayışlar da yalnız yanacaqla bağlı subsidiyalardır.

Şəki Apellyasiya Məhkəməsi Mülki kollegiyasının (bundan sonra – apellyasiya instansiyası məhkəməsi) 2(107)-1459/2020 nömrəli iş üzrə 17 noyabr 2020-ci il tarixli qətnaməsi ilə

(hakimlər A.Mahmudov – (sədrlik edən və məruzəçi), Ə.Məcidov və M.Əsədli) apellyasiya şikayəti qismən təmin olunmuş, birinci instansiya məhkəməsinin qətnaməsi tam ləğv edilmiş, iş üzrə yeni qətnamə qəbul olunaraq, iddia tələbi qismən təmin edilmiş, cavabdehlərdən 42.653 manat və ödənilmiş 30 manat dövlət rüsumunun alınaraq iddiaçıya verilməsi, ekspertiza tədqiqatının dəyəri olan 300 manatın cavabdehlərdən alınaraq "X5" MMC-nin hesabına ödənilməsi qət olunmuş, iddia tələbi qalan hissədə təmin edilməmişdir.

İşə apellyasiya qaydasında baxan məhkəmə hesab etmişdir ki, birinci instansiya məhkəməsi iş üçün əhəmiyyətli olan halları kifayət qədər araşdırsa, mübahisə predmeti ilə bağlı tərəflərin qarşılıqlı münasibətləri üzrə düzgün hüquqi nəticəyə gəlsə də, tətbiq edilməli olan maddi hüquq normasının tətbiqində səhvə yol vermiş, bununla bağlı qətnamədə yanlışlığın düzəldilməsi barədə qərardad qəbul etmişdir. Halbuki, MPM-in 228.2-ci maddəsində, qətnamədə maddi hüquq normasının göstərilməməsi ilə bağlı sonradan yanlışlığın düzəldilməsi nəzərdə tutulmamışdır.

Apellyasiya məhkəməsi qeyd etmişdir ki, apellyasiya şikayətinin dəlilləri qətnamənin ləğvi üçün əsas olsa da, iddianın rədd edilməsi üçün əsas deyildir.

Belə ki, işin faktiki halları ilə müəyyən olunmuşdur ki, təxminən 14-15 il bundan əvvəl tərəflər mübahisəli torpaq sahəsinin alqı-satqısı barədə qarşılıqlı razılığa gəlmişlər və həmin vaxtdan da iddiaçı cavabdeh tərəfin torpağından istifadə etməklə faktiki sahibliyi həyata keçirmişdir. Lakin həmin torpaq sahəsinin alqı-satqısı baş tutmamışdır. Sonradan tərəflər arasında mübahisə yarandığından cavabdehlərin tələbi ilə iddiaçı həmin torpaq sahəsindən istifadə etməmiş və cavabdehlərə geri qaytarmışdır. Mübahisəli ərazidə olan bəhər verən ağaclar (qoz, fındıq və sair) da məhz iddiaçı tərəfindən əkilmiş, becərilmiş, zəhmət və xərc tələb edən aqrotexniki qulluq göstərilməklə həmin ağaclar bu illər ərzində məhsul (bar) verən bir vəziyyətə gətirib çıxarılmışdır. Həmin fındıq, qoz ağacları bəhər, qazanc verən bir ərəfədə cavabdeh tərəf torpağı iddiaçının adına rəsmiləşdirməkdən imtina etməklə yanaşı, geri tələb etmişdir. Beləliklə, iddiaçının həmin torpaq sahəsinə sahiblik etməsi heç də özbaşına baş verməmiş, cavabdeh tərəfin iradəsinə uyğun olmuşdur. İddiaçı da öz aralarındakı danışığı, etimadlı münasibəti alqı-satqı kimi qiymətləndirərək, torpağı artıq özününkü zənn etmiş və orada zəhmət və xərc tələb edən işlər görmüş, həmin ərazini mövcud vəziyyətə gətirib çıxara bilmişdir.

Məhkəmə qeyd etmişdir ki, eyni coğrafi zonadan olan hər iki tərəfin fındıq və qoz ağaclarının (topalarının) əkilib-becərilməsi, məhsuldar bir vəziyyətə gəlib çıxması üçün nə qədər zəhmət, xərc tələb edildiyini, illər lazım olduğunu, fındıq ağacının tam məhsuldar bir vəziyyətə çatması üçün 10-12 il lazım olduğunu bildiyi bir halda, cavabdehin apellyasiya şikayətinin dəlilləri inandırıcı görünmür. İşdən görünür ki, həmin ərazi iddiaçının istifadəsinə heç də qısa müddətə deyil, uzun müddət üçün verilmişdir.

Cavabdeh tərəf torpaq sahəsinin əvvəlki vəziyyəti ilə bağlı mülkiyyət hüququna malik olsa da, onun üzərində iddiaçı tərəfindən öz xərci, gəliri və zəhməti hesabına əkilibbecərilmiş fındıq və sair ağaclara dair heç bir subyektiv hüquqa malik deyildir. Ona görə də, iddiaçı tərəf öz xərci hesabına əkib-becərdiyi ağaclardan bəhər, gəlir götürməyəcəksə, həmin ağacların onun iradəsindən asılı olmayan bir səbəbdən cavabdeh tərəfin ixtiyarına verilməsi qarşı tərəfin əsassız varlanması kimi qiymətləndirilə bilər.

Məhkəmə göstərilənlərə əsasən belə nəticəyə gəlmişdir ki, ekspertiza rəyində qeyd olunmuş məbləğ əsas götürülməklə, iddia qismən təmin olunmalıdır.

Məhkəmə öz mövqeyini Mülki Məcəllənin 18, 21.1, 21.2, 152.1-152.4, 157.2, 157.4, 560.1, 1091.1, 1091.2, 1092, 1096.1,1097.1-ci, Azərbaycan Respublikası Torpaq Məcəlləsinin

(Torpaq Məcəlləsi) 84-cü, MPM-in 228.2-ci maddələrinə istinadla əsaslandırmışdır. Qətnamədən cavabdeh 1 kassasiya şikayəti vermişdir.

c) Kassasiya instansiyası məhkəməsindəki birinci icraat

Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının (bundan sonra – kassasiya instansiyası məhkəməsi) 2(102)-2252/2021 nömrəli iş üzrə 06 may 2021-ci il tarixli qərarı ilə (hakimlər – V.Həsənov (sədrlik edən və məruzəçi), İ.Dəmirov və Ə.Əhmədov) kassasiya şikayəti təmin edilmiş, apellyasiya instansiyası məhkəməsinin 17 noyabr 2020-ci il tarixli qətnaməsi ləğv olunmuş və iş yeni apellyasiya baxışına göndərilmişdir.

Kassasiya instansiyası məhkəməsi mövqeyini onunla əsaslandırmışdır ki, işə baxan məhkəmələr dəymiş zərərin məbləğini müəyyən etməzdən və bunlarla bağlı sübutların toplanmasını həyata keçirməzdən əvvəl tərəflər arasında hansı münasibətlərin olması, bu münasibətlərin nə vaxtdan yaranması (iddiaçının göstərdiyi kimi 2000-ci ildən və ya cavabdehin göstərdiyi kimi 2006-cı ildən, yaxud işdə olan yazılı sənədə əsasən 2014-cü ildən), torpaq sahəsində ağacların əkilməsinin kimin tərəfindən həyata keçirilməsini müəyyən etməmişlər.

İş materialları ilə müəyyən olunur ki, 23 aprel 2006-cı il tarixdə akt tərtib olunmuş və həmin aktın məzmunundan aydın olur ki, cavabdeh 2, cavabdeh 3, X1, cavabdeh 4, X2 onlara məxsus pay torpaq sahəsini Əliabad qəsəbə sakini X3 satılmasına etiraz etməmişlər. İşdə olan digər 08 dekabr 2014-cü il tarixli yazılı sənəddən görünür ki, cavabdeh 1 ünvan 7 saylı bölgənin "X" adlanan sahəsində ona və ailə üzvlərinə məxsus 1,70 ha torpaq sahəsini Əliabad qəsəbə sakini iddiaçıya 1500 ABŞ dollarına satmışdır.

İddiaçının iddia ərizəsində göstərdiklərindən, istinad etdiyi yuxarıda göstərilən sənədlərdən və cavabdeh tərəfin mövqeyindən aydın olmur ki, mübahisəli torpaq sahəsi nə vaxtdan iddiaçının istifadəsinə verilmiş, istinad olunan sənədlərin tərtib olunmasının səbəbləri nədir.

Eyni zamanda, məhkəmələr faktiki olaraq rəsmi sənədlər əsasında torpaq sahəsinin kimin mülkiyyətində olmasını və həmin torpaq sahəsinin iddiaçıya keçməsi və ondan geri alınması zamanı bütün mülkiyyətçilərin razılıqlarının olub-olmamasını, hazırda torpaq sahəsindən kimlərin istifadə etdiyini müəyyən etməmişlər. Göstərilən halların aydınlaşdırılması iş üzrə irəli sürülmüş iddia tələbinə cavab verməli olan şəxslərin dairəsinin müəyyən edilməsi üçün də əhəmiyyətlidir.

Cavabdeh tərəf etirazında faktiki olaraq torpaq sahəsini 2000-ci ildə X3 icarəyə verməsini, hazırkı iş üzrə iddiaçı ilə heç bir münasibətinin olmamasını qeyd etmişdir. Apellyasiya instansiya məhkəməsi ağacların 14-15 il əvvəl əkilməsi nəticəsinə gələrkən iş üzrə iddiaçı ilə 2014-cü ildə rəsmiləşdirilmiş sənədin əslini tələb edərək işdə olan digər sübutlarla birlikdə qiymətləndirilməsini təmin etməmişdir. Eyni zamanda, iddia ərizəsindən və iddiaçının verdiyi izahatlardan aydın olmur ki, o, torpaq sahəsini nə vaxt əldə etmişdir, 2006-cı ildə torpaq sahəsinin işə cəlb olunmayan X3 satılmasına digər cavabdehlər razılıq vermişlərsə, hansı səbəbdən 2014-cü ildə torpaq sahəsi iş üzrə iddiaçıya verilmişdir. Torpaq sahəsinin iddiaçıya 08 dekabr 2014cü il tarixdə verilməsi yazılı sənədlə müəyyən olunduğu təqdirdə iddiaçının 14-15 il əvvəl həmin torpaq sahəsində ağaclar əkməsi və onlardan bəhər götürməsi işdə olan sübutlar baxımından anlaşılmazdır.

Apellyasiya instansiyası məhkəməsi işin düzgün həll edilməsi və mövcud sübutların qarşılıqlı qiymətləndirilməsi üçün işdə olan yazılı sübutların əsillərinin təqdim olunması və X3 işə cəlb olunması istiqamətində tədbir görməmiş, yalnız zərərin məbləğini müəyyən edərək işi yekunlaşmış hesab etmişdir.

d) Apellyasiya instansiyası məhkəməsindəki ikinci icraat

İşə apellyasiya qaydasında təkrar baxan məhkəmə 23 aprel 2006-cı il tarixli aktın əslini tədqiq etmiş və iş materiallarına əlavə etmişdir.

Bundan əlavə, iş materiallarına 08 dekabr 2014-cü il tarixli aktın əsli əlavə olunmuşdur.

Məhkəmə X3 öz təşəbbüsü ilə iş üzrə şahid qismində dindirmişdir. Sonuncu verilən suallara cavab olaraq bildirmişdir ki, iddiaçı onun eltisidir. 2006-cı ildə tərtib edilmiş aktda torpağın ona satılması göstərilsə də, əslində həmin torpağı iddiaçı satın almışdır. Sadəcə olaraq iddiaçının sənədləri qaydasında olmadığına görə aktda bir qohum kimi formal olaraq onun adı yazılmışdır. Amma həqiqi alıcı eltisi iddiaçı olmuş, torpağın alınmasına görə pulu o ödəmişdir. İddiaçı həmin torpaq sahəsindən 2006-cı ildən etibarən istifadə edir. 2006-cı ildə orada fındıq və qoz ağaclarını qaynı, yəni iddiaçının əri X6 iddiaçı ilə birlikdə əkmişdir. Ağaclar əkilərkən o da bir qohum kimi onlara kömək etmişdir. Cavabdehlər isə torpaq sahəsində heç nə əkməmişlər. 2006-cı ildə tərtib edilmiş akta cavabdeh 2 və bütün ailə üzvləri imza etmişlər. Həmin akt o vaxtkı kənd sovetinin binasında imzalanmışdır. Sözügedən torpaq sahəsindən hazırda da iddiaçı istifadə edir. Torpağın alqı-satqısına dair 2014-cü ildə akt tərtib olunarkən o da iştirak etmiş, həmin vaxt sözügedən torpaq sahəsini cavabdeh 1 iddiaçıya 1500 ABŞ dollarına satmışdır.

Apellyasiya instansiyası məhkəməsinin 2(107)-1441/2021 nömrəli iş üzrə 16 sentyabr 2021-ci il tarixli qətnaməsi ilə (hakimlər – G.Abbasov (sədrlik edən və məruzəçi), A.Eyvazov və İ.Şükürov) apellyasiya şikayəti qismən təmin edilmiş, birinci instansiya məhkəməsinin qətnaməsi ləğv edilmiş və iş üzrə yeni qətnamə çıxarılaraq, iddia qismən təmin olunmuş, cavabdehlərdən 42.653 manat pul və ödənilmiş 30 manat dövlət rüsumunun alınaraq iddiaçıya verilməsi, iddia tələbinin qalan hissədə təmin edilməməsi, ekspertizasının dəyəri olan 300 manat məbləğində məhkəmə xərcinin cavabdehlərdən müştərək qaydada alınaraq "X5" MMC-nin hesabına ödənilməsi qət olunmuşdur.

Məhkəmə müəyyən etmişdir ki, iddiaçı cavabdeh tərəflə 2006-cı ildə sözügedən torpaq sahəsinin alqı-satqısı barədə qarşılıqlı razılığa gəlmiş, 23 aprel 2006-cı il tarixdə cavabdeh tərəfin ailə üzvləri torpaq paylarının iddiaçıya satılmasına etiraz etmədiklərini tərtib edilən akta imza etməklə təsdiq etmişlər, lakin iddiaçının sənədləri qaydasında olmadığına görə aktda formal olaraq iddiaçının qohumu X3 adı qeyd edilmişdir. Həmin vaxtdan etibarən torpaq sahəsi iddiaçının faktiki istifadəsinə verilmiş, iddiaçı sözügedən torpaq sahəsindən istifadə etməklə faktiki sahibliyi həyata keçirmişdir. Lakin həmin torpaq sahəsi daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmadığından torpaq sahəsinin rəsmi qaydada alqı-satqısı baş tutmamışdır. Tərəflər torpaq sahəsinin alqı-satqısı ilə bağlı 2006-cı ildə gəldikləri razılaşmalarına sadiq olmaları haqqında iradə ifadələrini 08 dekabr 2014-cü il tarixli aktla bir daha təsdiq etmişlər. Həmin aktda iddiaçının cavabdeh 1 torpağın alış qiyməti olan 1500 ABŞ dollarını ödəməsi və sonuncunun torpaq sahəsini iddiaçıya satması müqabilində ondan həmin pulu nağd olaraq alması qeyd edilmiş, sözügedən sənəd tərəflərin imzaları və Zaqatala Rayon İcra hakimiyyəti başçısının Əliabad qəsəbəsi üzrə nümayəndəsinin möhürü ilə təsdiq edilmişdir. Torpaq sahəsi hazırkı dövrə kimi iddiaçının istifadəsində olmuşdur.

Məhkəmə qeyd etmişdir ki, torpaq sahəsi daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmasa da, həmin torpağın Respublikada aparılan aqrar islahatın nəticəsində cavabdehlərin ailəsinə verilməsi və onlara məxsus olması işin mübahisələndirilməyən halıdır.

Beləliklə, iddiaçının 2006-cı ildə cavabdehlərin ailə üzvləri ilə qarşılıqlı razılığa gələrək 1,70 ha torpaq sahəsini onlardan satın alması və həmin vaxtdan etibarən orada qoz ağacları və fındıq topalarını əkib becərərək bağ salması müəyyən olunmuşdur.

Cavabdehlər iddiaçının onların torpağını zəbt edərək istifadə etməsini bildirsələr də, bu işin halları ilə təkzib olunur. Çünki, uzun illər, onların bildirdikləri kimi 15 ilə yaxın müddət

ərzində torpaq sahəsi qanunsuz olaraq zəbt edilmişdirsə, onlar bununla bağlı hər hansı inzibati orqana müraciət edə və ya məhkəmədə müvafiq iddia qaldıra bilərdilər. Lakin onların belə bir müraciəti olmamış, əksinə iddiaçı cavabdehlər tərəfindən hüquqlarının pozulduğunu bildirərək məhkəmədə onlara qarşı iddialar qaldırmışdır. Bundan başqa, cavabdeh 1 şikayətində komissiya tərəfindən həmin torpağa baxış keçirilərkən iddiaçının xərclərinin 4800 manat məbləğində qiymətləndirildiyini, lakin iddiaçının bununla razılaşmayaraq yenidən şikayət edib iddiasında göstərdiyi məbləği tələb etdiyini göstərmişdir. Göründüyü kimi, cavabdeh bununla iddiaçının onlara məxsus torpaq sahəsinə xərc qoyduğunu etiraf etmişdir, sadəcə olaraq tələb olunan məbləğlə razı deyildir.

Məhkəmə apellyasiya instansiyası məhkəməsinin əvvəlki hüquqi mövqeyinə uyğun olaraq "X5" MMC tərəfindən verilmiş 16 sentyabr 2020-ci il tarixli 337 nömrəli rəyi mötəbər sübut kimi qəbul etmiş və birinci instansiya məhkəməsinin mübahisə üzrə hüquqi mövqeyi ilə qismən razılaşaraq hesab etmişdir ki, əgər iddiaçı tərəf öz xərci hesabına əkib-becərdiyi ağaclardan bəhər, gəlir götürməyəkdirsə, həmin ağacların onun iradəsindən asılı olmayan səbəbdən cavabdeh tərəfin ixtiyarına verilməsi qarşı tərəfin əsassız varlanması kimi qiymətləndirilməlidir. Cavabdeh tərəf isə mübahisəli torpaq sahəsində əkilib-becərilmiş ağaclara münasibətdə hər hansı bir hüququnun olmasını təsdiq edəcək sübutu nə birinci instansiya məhkəməsinə, nə də apellyasiya məhkəməsinə təqdim etməmişdir.

Qətnamədən cavabdeh 1 kassasiya şikayəti vermişdir.

Kassasiya şikayətinin və ona etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

Cavabdeh (vəkil 1) kassasiya şikayətində apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv edilməsini və iddianın rədd olunması barədə yeni qərar çıxarılmasını xahiş etmişdir.

Kassasiya şikayətində qeyd olunmuşdur ki, apellyasiya instansiyası məhkəməsinin gəldiyi nəticə Mülki Məcəllənin 21.1-ci maddəsinin tələbinə ziddir.

İddiaçı ilə cavabdeh 1 arasında akt 2014-cü ildə tərtib olunsa da, iddiaçı 2016-cı ildən həmin bağdan istifadə etmişdir. Həmin tarixə qədər torpaq sahəsindən istifadə etməsinə dair iddiaçı məhkəmələrə hər hansı sübut təqdim etməmişdir. Cavabdehlərin bağı iddiaçıya satması iş materiallarında olan sübutlarla təsdiq olunmur.

İşdə olan qəbzlər sübut edir ki, torpaq sahəsinə dair vergilər cavabdehlər tərəfindən ödənilmişdir. İddiaçı torpaq sahəsində 2000-ci ildən fındıq ağaclarının əkildiyini iddia etsə də, fındıq bağına faktiki sahibliyi 2016-cı ildən həyata keçirmişdir. Bu hal iş materialları ilə təsdiq olunur. Eyni zamanda, iddiaçının bağa sahiblənməsi cavabdehlərin mülkiyyət hüquqlarının pozulmasına gətirib çıxarır.

İddiaçının cavabdehlərin mülkiyyətində olan torpaq sahəsindən istifadə etməsi və ona sahiblik etməsi qanunsuzdur. Belə ki, iddiaçı həmin torpaq sahəsinin ona məxsus olmamasını, cavabdehlərin mülkiyyətində olmasını bilmiş, torpaq sahəsinə vicdansız sahiblik etmiş, vicdansız istifadə həyata keçirmişdir.

Həm də qanuna görə, istər vicdanlı, istərsə də vicdansız sahib əmlakdan gəlirin mülkiyyətçiyə düşdüyü vaxtdan sonra əmlaka sərf etdiyi zəruri məsrəflərin əvəzinin ödənilməsini mülkiyyətçidən tələb edə bilər. Torpaq sahəsi hal-hazırda da iddiaçının istifadəsindədir.

Bundan başqa, iddiaçı tərəfindən həmin torpaq sahəsinə hər hansı xərc çəkilmişdirsə belə, iddiaçı ilə cavabdeh arasında çəkilmiş xərclərin əvəzinin gələcəkdə ödənilməsi ilə bağlı hər hansı bir razılaşma yoxdur.

Fındıq ağaclarının əkilməsi ilə bağlı xərclərin, habelə bağa çəkilmiş digər xərclərin iddiaçı tərəfindən həyata keçirilməsi mülki iş materialları ilə sübut olunmadığı halda, apellyasiya instansiyası məhkəməsinin Mülki Məcəllənin 1091.1, 1091.2, 1092, 1096.1 və 1097.1-ci maddələrinə istinad etməsi maddi hüquq normalarının pozulmasına işarə edir.

Həmçinin, apellyasiya məhkəməsi kassasiya məhkəməsinin göstərdiyi ziddiyyətləri aradan qaldırmamış, şahidin ifadəsini həqiqət kimi qəbul etmiş, halbuki şahid 2014-cü ildə akt tərtib olunarkən orada iştirak etdiyini bildirmiş, lakin aktda bu hal öz əksini tapmamışdır.

İddiaçı iddia ərizəsində torpaq sahəsindən 2000-ci ildən istifadə etdiyini qeyd etmiş, şahid ifadəsində iddiaçının torpaqdan 2006-cı ildən istifadə etdiyini göstərmiş, cavabdeh 2 isə iddiaçının 2016-cı ildən torpaqdan istifadə etdiyini bildirmişdir. Göründüyü kimi, izahatlar arasında yenə ziddiyyətlər vardır və onlar aradan qaldırılmamışdır.

Bundan başqa, mütəxəssis rəyində qeyd olunmuşdur ki, torpaq sahəsində əkilmiş ağacların yaşı 12-14 ildir. İddiaçı isə 2000-ci ildən torpaqda ağac əkdiyini qeyd etmişdir. Əgər iddiaçının dedikləri həqiqətdirsə, o zaman ağacların yaşı 20 il olmalıdır.

Şahid ifadəsində, həmçinin qeyd etmişdir ki, ağacları 2006-cı ildə qayını – iddiaçının əri iddiaçı ilə birlikdə əkmişlər. Lakin iddiaçı iddia ərizəsində bununla bağlı hər hansı məlumat qeyd etməmişdir. Bu ona dəlalət edir ki, şahidin ifadəsi həqiqətə uyğun deyildir, o, iddiaçı tərəfindən öyrədilmişdir.

Bundan başqa, məhkəmə torpaq vergisinin ödənilməsi barədə arayışları araşdırmamış, işdəki sübutları düzgün qiymətləndirməmiş, bununla da MPM-in 88-ci maddəsinin tələbini pozmuşdur.

İddiaçı tələbində qeyd etmişdir ki, sənədləri qaydasında olmadığına görə alqı-satqı müqaviləsi bağlanmamışdır, lakin məhkəmə MPM-in 218.1-ci maddəsinə zidd olaraq öz mülahizəsinə əsasən qətnaməsində qeyd etmişdir ki, torpaq sahəsinin sənədləri qaydasında olmadığı üçün alqı-satqı həyata keçirilməmişdir.

Məhkəmə, həmçinin MPM-in 9-cu maddəsinə zidd olaraq işə cavabdeh 1 iştirakı olmadan baxmış, məhkəmə iclasının təxirə salınması barədə onun vəsatətini əsassız olaraq təmin etməmişdir.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

Kassasiya şikayətinə qarşı yazılı etiraz verilməmişdir.

Kassasiya baxışının hədləri

Qanunun tələbinə görə kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

Hazırkı iş üzrə apellyasiya instansiyası məhkəməsinin aktı cavabdehin kassasiya şikayəti əsasında, habelə şikayətin dəlilərinə əsasən iddianın təmin edilmiş hissəsində tələbin bölünməz olduğu nəzərə alınmaqla iddianın təmin olunmuş hissəsində yoxlanılır.

Tətbiq edilən hüquq

Mülki Məcəllə

Maddə 135.10. Adi anlamda əşyanın tərkibinə daxil olan və dağıdılmadan, zədələnmədən və ya dəyişdirilmədən ondan ayrıla bilməyən hər şey əşyanın tərkib hissəsidir. Özbaşına tikinti ilə bağlı hallar istisna olmaqla, əşyanın mülkiyyətçisi onun bütün tərkib hissələrinin mülkiyyətçisidir.

Maddə 157.7. Vicdanlı sahib əmlaka zərər yetirmədən ondan ayrıla bilən öz yaxşılaşdırmalarını özündə saxlaya bilər. Yaxşılaşdırmaları bu cür ayırmaq mümkün olmadıqda vicdanlı sahib əmlakın dəyərindən artıq olmamaq şərti ilə, onu yaxşılaşdırmaq üçün çəkdiyi məsrəflərin əvəzinin ödənilməsini tələb edə bilər.

Maddə 1094. Əsassız varlanmış şəxsin heç bir hüquqi əsas olmadan əldə etdiyi əşyaya çəkilən xərclərin qaytarılması bu Məcəllənin 157.6-cı və 157.7-ci maddələri ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

Torpaq Məcəlləsi

Maddə 84. Torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin hüquqları qanunla qorunur. Onların pozulmuş hüquqları qanunvericilikdə nəzərdə tutulmuş qaydada bərpa edilir və hüquqların pozulması nəticəsində onlara dəyən zərər tam həcmdə ödənilir.

MPM

Hakim bütün hallarda prosesin çəkişmə prinsipini təmin etməlidir. O, öz qərarını yalnız tərəflərin çəkişmə prinsipinə əsasən müzakirə etdiyi dəlillərlə, onların verdiyi izahatlarla, sənədlərlə əsaslandırmalıdır. Məhkəmə, qərarını tərəfləri dəvət etmədən özünün qulluq mövqeyinə görə irəli sürdüyü hüquqi dəlillərlə əsaslandıra bilməz (maddə 9.3).

Bu Məcəllənin 159, 269, 280, 284-5, 394-1, 397.2, 403-1.6, 414.1, 422, 431-3 və 437-ci maddələrində nəzərdə tutulmuş hallarda işlərə yazılı icraat qaydasında, yəni məhkəmə iclası keçirilmədən və tərəflər izahatları dinlənilmək üçün çağırılmadan baxılır. Bu Məcəllənin 394-1, 397.2 və 414.1-ci maddələrində nəzərdə tutulmuş hallarda məhkəmənin qərardadına əsasən işə məhkəmə iclasında baxıla bilər (maddə 10.8-1).

Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir (maddə 14.2).

Hər bir tərəf öz tələblərinin əsası kimi istinad etdiyi halları sübut etməlidir (maddə 77.1).

İşdə olan sübutlar əsasında işə baxmaq mümkün olmadıqda, məhkəmə zəruri əlavə sübutlar təqdim etməyi tərəflərə təklif edə bilər (maddə 77.3).

İşdə iştirak edən şəxsin işdə iştirak edən və iştirak etməyən şəxslərdən və ya orqanlardan onlarda olan zəruri sübutları müstəqil əldə etmək imkanı olmadıqda o, həmin sübutları tələb etmək barədə vəsatətlə məhkəməyə müraciət edə bilər. Vəsatətdə bu sübutlarla iş üçün əhəmiyyətli olan hansı halların müəyyən edilməsi, sübutların əlamətləri və olduğu yer göstərilməlidir (maddə 78.2).

Qanuna və ya digər normativ hüquqi aktlara əsasən müəyyən sübutetmə vasitələri ilə təsdiq edilməli olan işin halları başqa sübutlarla təsdiq oluna bilməz (maddə 81).

Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur (maddə 88).

Məhkəmə (hakim) öz qətnaməsini yalnız məhkəmə iclasında tədqiq olunmuş sübutlarla əsaslandırır (maddə 217.4).

Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir (maddə 407.2).

Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır (maddə 416.1).

Prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması qətnamənin, yaxud qərardadın ləğv edilməsi üçün o vaxt əsas ola bilər ki, bu pozuntu düzgün qətnamə qəbul edilməməsi ilə nəticələnsin və ya nəticələnə bilsin (maddə 418.3).

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 18.03.2019-cu il tarixli qərarı

...çəkişmə və dispozitivlik prinsiplərinin üstünlüyündən irəli gələrək mülki prosessual qanunvericilik məhkəmənin heç bir halda öz təşəbbüsü ilə sübut toplamaq vəzifəsini nəzərdə tutmur, əskinə bunu məhkəməyə qadağan edir. Belə ki, işdə olan sübutlar əsasında işə baxmaq mümkün olmadıqda, məhkəmə zəruri əlavə sübutlar təqdim etməyi tərəflərə təklif edə bilər (MPM-in 77.3-cü maddəsi). Lakin işdə iştirak edən şəxsin işdə iştirak edən və iştirak etməyən şəxslərdən və ya orqanlardan onlarda olan zəruri sübutları müstəqil əldə etmək imkanı olmadıqda o, həmin sübutları tələb etmək barədə vəsatətlə məhkəməyə müraciət edə bilər (MPM-in 78.2-ci maddəsi). Göründüyü kimi, məhkəmə iş üzrə sübutları yalnız tərəflərin vəsatəti əsasında və onlar həmin sübutları müstəqil qaydada əldə edə bilmədikdə tələb edə bilər. Bu zaman zəruri sübutu müstəqil qaydada əldə edə bilmədiyini sübut etmək yükü də müvafiq tərəfin üzərinə düşür. Əks yanaşma məhkəmənin tərəflərin prosessual səlahiyyətlərini öz üzərinə götürərək, onlardan hər hansı birinin tərəfində dayanması, yaxud onları əvəz etməsi görüntüsü yarada bilər. Halbuki məhkəmə (hakim) bütün proses boyu obyektiv və qərəzsiz arbitr olaraq qalmalıdır. ...hüquqi həqiqət prinsipinə görə sübutların toplanması və təqdim edilməsi yükü bütünlüklə tərəflərin üzərinə düşür. Təqdim olunmuş sübutlar əsasında həqiqətin müəyyən edilməsi isə məhkəmə tərəfindən sübutların düzgün qiymətləndirilməsindən asılıdır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

Baxılan iş üzrə iddia tələbinin qanuni əsasını Mülki Məcəllənin 157.7-ci maddəsi təşkil edir. Həmin maddənin dispozisiya şərtlərinə əsasən başqasının mülkiyyətində olan əmlaka vicdanlı sahiblik etmiş şəxsdən həmin əmlak geri alınarkən sahibin əmlaka zərər yetirmədən ondan ayrıla bilən yaxşılaşdırmalarını özündə saxlamaq hüququ vardır. Yaxşılaşdırmaları ayırmaq mümkün olmadıqda vicdanlı sahib əmlakı yaxşılaşdırmaq üçün çəkdiyi məsrəflərin əvəzinin ödənilməsini tələb edə bilər, lakin bu məsrəflər əmlakın dəyərindən artıq olmamalıdır.

Beləliklə iddia tələbinin qanuni əsaslarından göründüyü kimi əmlaka vicdanlı sahiblik etdiyini iddia edən şəxs öz yaxşılaşdırmalarını məhz əmlakın mülkiyyətçisindən tələb edə bilər və bu tələb hüququ əmlakın sahibdən alındığı andan yaranır.

İşə kassasiya icraatı qaydasında baxmış əvvəlki məhkəmə tərkibinin də əsas mövqeyi ondan ibarət olmuşdur ki, məhkəmələr faktiki olaraq rəsmi sənədlər əsasında torpaq sahəsinin kimin mülkiyyətində olmasını və hazırda torpaq sahəsindən kimlərin istifadə etdiyini müəyyən etməmişlər. Göstərilən halların aydınlaşdırılması iş üzrə irəli sürülmüş iddia tələbinə cavab verməli olan şəxslərin dairəsinin müəyyən edilməsi üçün də əhəmiyyətlidir.

Yeni apellyasiya baxışı zamanı məhkəmə qeyd etmişdir ki, torpaq sahəsi daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmasa da, həmin torpağın Respublikada aparılan aqrar islahatın nəticəsində cavabdehlərin ailəsinə verilməsi və onlara məxsus olması işin mübahisələndirilməyən halıdır.

Qeyd olunmalıdır ki, mülki iş üzrə mübahisəni həll edən məhkəmənin ilkin vəzifələrindən biri prosessual qənaət prinsipini təmin etmək və araşdırmanın predmetini müəyyən etmək üçün tərəflərin mübahisələndirmədikləri faktları, yəni işin mübahisəsiz hallarını müəyyən etməkdən ibarətdir. Lakin bu zaman sübutların mümkünlüyü ilə bağlı MPM-in 81-ci maddəsinin tələbləri də nəzərə alınmalıdır. Həmin maddəyə əsasən qanuna və ya digər normativ hüquqi aktlara əsasən müəyyən sübutetmə vasitələri ilə təsdiq edilməli olan işin halları başqa sübutlarla təsdiq oluna bilməz. Bu baxımdan qanunvericiliyə əsasən müəyyən sübutetmə vasitələri ilə

təsdiq edilməli olan halların tərəflərin izahatları əsasında işin mübahisəsiz halı kimi müəyyən edilməsi MPM-in 81-ci maddəsinin tələblərinə ziddir.

Baxılan iş üzrə mübahisəli torpaq sahəsi daşınmaz əmlak olduğu üçün həmin əmlakın mülkiyyətçisi məhz bunu təsdiq edən hüquq müəyyənedici sübutlarla təsdiq oluna bilər. Torpaq sahələrinin aqrar islahatlar nəticəsində fiziki şəxslərin mülkiyyətinə verilməsi də buna dair hüquq müəyyənedici sənədlərlə təsdiq olunduğu üçün torpaq sahəsinin aqrar islahatlar nəticəsində hər hansı fiziki şəxsə (şəxslərə) verilməsi tərəflərin izahatları əsasında işin mübahisəsiz halı kimi müəyyən oluna bilməz.

Eyni zamanda nəzərə alınmalıdır ki, hazırkı iş üzrə iddiaçının cavabdeh 1 qarşı iddia tələbinə dair başqa iş üzrə müqavilənin bağlanmış hesab edilməsi barədə iddiası məhz 08 dekabr 2014-cü il tarixli aktda göstərilən 1,70 ha torpaq sahəsinin cavabdeh 1 istifadəsinə verilməsi barədə dövlət aktı, torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə və mülkiyyət hüququna dair çıxarış olmadığı üçün təmin edilməmişdir.

Bununla yanaşı, apellyasiya instansiyası məhkəməsi müəyyən etmişdir ki, mübahisəli torpaq sahəsi hal-hazırda da iddiaçının istifadəsindədir. Torpaq sahəsinin iddiaçının istifadəsində olduğu iddiaçı tərəfindən iddia ərizəsində, habelə cavabdeh 1 tərəfindən verilmiş kassasiya şikayətində də mübahisələndirilməmişdir.

Beləliklə apellyasiya instansiyası məhkəməsi qanunvericiliyə əsasən müəyyən sübutetmə vasitələri ilə təsdiq edilməli olan işin hallarını tərəflərin izahatları əsasında mübahisəsiz hal kimi müəyyən etmiş, mübahisəli torpaq sahəsinin hal-hazırda iddiaçının istifadəsində olduğunu müəyyən etsə də sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verməklə bağlı MPM-in 88-ci maddəsinin tələbini pozmuşdur.

İşə kassasiya icraatı qaydasında baxmış əvvəlki məhkəmə tərkibinin göstərişlərindən biri də apellyasiya instansiyası məhkəməsinin X3 işə cəlb olunması mümkünlüyünün tərəflərlə müzakirə edilmədiyi və bunun üçün təşəbbüs göstərilmədiyi ilə bağlı olmuşdur.

Yeni apellyasiya baxışı zamanı apellyasiya instansiyası məhkəməsi həmin göstərişin icrası qaydasında X3 cavabdehlərin tərəfində müstəqil tələb irəli sürməyən üçüncü şəxs kimi işə cəlb olunması barədə məsələni tərəflərlə müzakirə etməli olduğu halda öz təşəbbüsü ilə qeyd olunan şəxsi şahid qismində dindirmişdir.

Halbuki MPM-in 9.3-cü maddəsinə müvafiq olaraq hakim çəkişmə prinsipini təmin etmək üçün öz qərarını yalnız tərəflərin çəkişmə prinsipinə əsasən müzakirə etdiyi dəlillərlə, onların verdiyi izahatlarla, sənədlərlə əsaslandırmalıdır. Çəkişmə və dispozitivlik prinsiplərinin üstünlüyündən irəli gələrək mülki prosessual qanunvericilik məhkəmənin heç bir halda öz təşəbbüsü ilə sübut toplamaq vəzifəsini nəzərdə tutmur, əskinə bunu məhkəməyə qadağan edir. MPM-in 77.3 və 78.2-ci maddələrinə əsasən məhkəmə iş üzrə sübutları yalnız tərəflərin vəsatəti əsasında və onlar həmin sübutları müstəqil qaydada əldə edə bilmədikdə tələb edə bilər. Bu zaman zəruri sübutu müstəqil qaydada əldə edə bilmədiyini sübut etmək yükü də müvafiq tərəfin üzərinə düşür. Əks yanaşma məhkəmənin tərəflərin prosessual səlahiyyətlərini öz üzərinə götürərək, onlardan hər hansı birinin tərəfində dayanması, yaxud onları əvəz etməsi görüntüsü yarada bilər. Halbuki məhkəmə (hakim) bütün proses boyu obyektiv və qərəzsiz arbitr olaraq qalmalıdır. Hüquqi həqiqət prinsipinə görə sübutların toplanması və təqdim edilməsi yükü bütünlüklə tərəflərin üzərinə düşür. Təqdim olunmuş sübutlar əsasında həqiqətin müəyyən edilməsi isə məhkəmə tərəfindən sübutların düzgün qiymətləndirilməsindən asılıdır.

Mülki prosesdə əsas sübut növlərindən biri də şahid ifadələridir. Bu baxımdan şahidin dindirilməsi yalnız tərəflərin vəsatəti əsasında mümkündür. Məhkəmənin öz təşəbbüsü ilə

şahid dindirməsi isə sübut etmə yükünü öz üzərinə götürməsi deməkdir və bu, çəkişmə və dispozitivlik prinsipləri ilə bir araya sığmır.

Lakin baxılan iş üzrə birinci instansiya məhkəməsi öz təşəbbüsü ilə şahid dindirməklə mülki prosessual qanunvericilin yuxarıda sadalanan prinsip və müddəalarını pozmuşdur.

Hazırkı işin düzgün həlli ilə bağlı Məhkəmə kollegiyası, həmçinin qeyd etməyi zəruri hesab edir ki, Mülki Məcəllənin 135.10 və 157.7-ci maddələrinin birgə təhlilindən göründüyü kimi əşyanın yaxşılaşdırılması üçün edilmiş əlavələri ondan ayırmaq mümkün deyilsə, vicdanlı sahib əşyanın dəyərindən artıq olmamaq şərti ilə onu yaxşılaşdırmaq üçün çəkdiyi xərcin ödənilməsini tələb edə bilər. Çünki, əşyadan ayrıla bilməyən əlavələr sıx fiziki bağlılıq və ya qarışma nəticəsində əsas əşyanın tərkib hissəsi kimi onun mülkiyyətçisinə məxsus olur. Mülki qanunvericiliyə əsasən əşyanın tərkibinə daxil olan və dağıdılmadan, zədələnmədən və ya dəyişdirilmədən ondan ayrıla bilməyən hər şey əşyanın tərkib hissəsidir. Əşyanın mülkiyyətçisi onun bütün tərkib hissələrinin mülkiyyətçisidir.

Əşyaya əlavə edilmiş yaxşılaşdırmalar onun ümumi dəyərini artırdığı üçün mülkiyyətçi dəyərin artdığı həcmdə varlanmış olur. Başqa sözlə, artmış dəyər müvafiq yaxşılaşdırmaları ona çəkilmiş xərclərlə birlikdə özündə ehtiva edir. Ona görə də yaxşılaşdırmaları götürə bilməyən sahib həm yaxşılaşdırmanın dəyərini, həm də bu dəyərin əmələ gəlməsi üçün çəkilmiş xərci mülkiyyətçidən tələb edə bilməz.

Bu baxımdan torpaq sahəsində çoxillik bitkilərin əkilməsi nəticəsində həmin bitkilərin dağıdılmadan, zədələnmədən və ya dəyişdirilmədən torpaqdan ayrılması mümkün deyilsə belə bitkilər artıq əşyanın (torpaq sahəsinin) tərkib hissəsinə çevrilir.

Torpağa bağlı olan çoxillik bitkilər (ağaclar) bazarda satılmadığından onların ayrıca dəyərini müəyyən etmək mümkün olmadığı halda həmin bitkilərin uzun illər ərzində ərsəyə gəlməsi üçün çəkilmiş xərclərin yaxşılaşdırmanın dəyəri kimi qiymətləndirilməsi Mülki Məcəllənin 157.7-ci maddəsinin məqsədlərinə cavab vermir. Oxşar vəziyyətlərdə vicdanlı sahib mülkiyyətçidən yaxşılaşdırmalarını tələb etdikdə həmin yaxşılaşdırmaların dəyəri torpaq sahəsinin bu cür yaxşılaşdırmalarla birlikdə dəyəri ilə belə yaxşılaşdırılmalardan əvvəlki (onlar olmadan) dəyəri arasındakı fərq əsasında müəyyən edilməlidir.

Qeyd edilənləri nəzərə almaqla Məhkəmə kollegiyası hesab edir ki, apellyasiya instansiyası məhkəməsinin qətnaməsi mübahisələndirilən hissədə maddi və prosessual qanunvericiliyin tələblərinə əməl olunmadan qəbul edildiyi üçün ləğv edilməli, iş həmin hissədə yeni apellyasiya baxışına göndərilməli, təkrar apellyasiya baxışı zamanı mübahisə ilə bağlı həm işin faktiki vəziyyəti əlaqəli və mötəbər sübutlar əsasında müəyyənləşdirilməklə, həm də müəyyən olunmuş işin hallarına tətbiq edilməli olan hüquq normaları əsasında qiymət verilməklə əsaslandırılmış məhkəmə aktı qəbul olunmalıdır.

Yuxarıda göstərilənlərə əsasən və MPM-in 416, 417 və 419-cu maddələrini rəhbər tutaraq, Məhkəmə kollegiyası

Qərara aldı:

Cavabdeh 1 tərəfindən verilmiş kassasiya şikayəti qismən təmin olunsun.

Şəki Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(107)-1441/2021 nömrəli iş üzrə 16 sentyabr 2021-ci il tarixli qətnaməsi mübahisələndirilən hissədə - iddianın təmin olunmuş hissəsində ləğv edilsin və iş həmin hissədə yeni apellyasiya baxışına qaytarılsın.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

37. 2(102)-235/2024 nömrəli, 2024-cü il 17 yanvar tarixli qərar - Nikah məqsədilə verilmiş hədiyyənin nikahın baş tutmaması əsası ilə geri tələb edilməsi

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: nikah məqsədilə verilmiş hədiyyənin nikahın baş tutmaması əsası ilə geri tələb edilməsi

01.06.2022-ci il tarixdə cavabdeh ilə iddiaçının oğlu arasında nişan mərasimi keçirilmiş, toy mərasimi və nikahın bağlanması 25 iyun 2022-ci il tarixə planlaşdırılmışdır. İddiaçı tərəfindən cavabdehə toy hədiyyəsi kimi qızıl-zinət əşyaları verilmiş, lakin nikah baş tutmamış, münasibətlər pozulmuşdur. Mübahisə iddiaçı tərəfindən cavabdehə nişanlanma mərasimində verilmiş qızıl-zinət əşyalarının geri tələb edilməsi ilə bağlıdır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Məhkəmə kollegiyası hesab etmişdir ki, hazırkı iddianın hüquqi əsasını Mülki Məcəllənin 673-cü maddəsi təşkil etmir. Belə ki, nişan mərasimində nişanlanan oğlan və ya onun valideynləri tərəfindən nişanlanan qıza verilən hədiyyələr, o cümlədən qızıl-zinət əşyaları gələcəkdə rəsmi nikahın baş tutacağı ümidi ilə verilir. Gələcəkdə rəsmi nikah baş tutmazsa əldə etmə sonradan aradan qalxmış əsasa söykənmiş olur. Hazırkı iş üzrə iddia tələbi rəsmi nikahın baş tutmaması, yəni nişanlanmanın rəsmi nikahın bağlanması ilə nəticələnməməsi ilə əlaqədar nişanlanma mərasimində verilmiş qızıl-zinət əşyalarının tələbi ilə əlaqədardır.

Apellyasiya instansiyası məhkəməsi qızıl-zinət əşyalarının iddiaçı tərəfindən cavabdehə toy hədiyyəsi kimi bağışlandığını qətnaməsində qeyd etsə də, toyun baş tutmaması halını nəzərə almamışdır. Məhkəmə kollegiyası hesab etmişdir ki, belə olan təqdirdə apellyasiya məhkəməsi iddianın hüquqi əsası kimi qızıl-zinət əşyaları əldə etmə ilə əlaqədar varlanmanın sonralar aradan qalxmış əsasa söykənməsi, əsassız varlanma nəticəsində əldə edilənləri qaytarma vəzifəsi ilə əlaqədar Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 1091 və 1092-ci maddələri nəzərdən keçirilə bilər.

Nəzərə almaq lazımdır ki, bağışlamadan imtina üçün əsasların olmaması bağışlanmış əşya hesabına varlanmanın sonradan aradan qalxmış əsasa söykənməsi əsası ilə hədiyyənin geri tələb edilməsini istisna etmir.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-235/2024

17.01.2024-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının

iddiaçının cavabdehə qarşı ilk,
cavabdehin iddiaçıya qarşı qarşılıqlı tələblərinə dair iş üzrə

Q Ə R A R I

(Açar sözlər: qızıl-zinət, əsassız varlanma)

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Xıdırov Əhliman Mehman oğlu (məruzəçi), Vəliyeva Elşanə Rafiq qızı və Şamayev Elşad Yaquboviçdən ibarət tərkibdə,

iddiaçının cavabdehə qarşı "qızıl-zinət əşyalarının qaytarılması" barədə ilk, cavabdehin iddiaçıya qarşı pul barədə qarşılıqlı tələblərinə dair mülki iş üzrə Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(103)-4649/2023 nömrəli, 11 sentyabr 2023-cü il tarixli qətnaməsindən iddiaçı tərəfindən verilmiş kassasiya şikayətinə Ali Məhkəmənin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları

1. 01.06.2022-ci il tarixdə Cavabdeh ilə X1 arasında Nişan mərasimi keçirilmiş, toy mərasimi və nikahın bağlanması 25 iyun 2022-ci il tarixə planlaşdırılmışdır. İddiaçı tərəfindən Cavabdehə toy hədiyyəsi kimi qızıl-zinət əşyaları verilmişdir. Lakin nikah baş tutmamış, münasibətlər pozulmuşdur.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a) Birinci instansiya məhkəməsində icraat

2. İddiaçı Cavabdehə qarşı iddia ərizəsi ilə müraciət edərək, mülkiyyətində olan Ünvan 1 ünvanında yerləşən mənzildən cavabdehə məxsus əşyaların çıxarılmasına dair qətnamə qəbul edilməsini xahiş etmişdir.

3. İlk iddia onunla əsaslandırmışdır ki, Ünvan 1 ünvanında yerləşən mənzil iddiaçının mülkiyyətindədir. Cavabdeh iddiaçının oğlu ilə nişanlı olduğu ərəfədə öz əmlakını iddiaçıya məxsus həmin mənzilə yerləşdirmişdir. İddiaçının oğlu ilə cavabdeh arasında nikah baş tutmamış, ailə qurmamışlar. Buna baxmayaraq, cavabdeh əşyalarını götürmür, iddiaçının ona verdiyi qızılları da qaytarmır. Hazırda cavabdehin əşyalarının iddiaçının mülkiyyətində olan mənzildə yerləşməsi iddiaçının mülkiyyət hüquqlarını pozur.

4. Həmçinin, İddiaçı Cavabdehə qarşı iddia ərizəsi ilə Cəlilabad Rayon Məhkəməsinə müraciət edərək, cavabdehdən qızıl-zinət əşyalarının – qiyməti 1200 manat olan 750 əyarlı, ağ qızıldan, çəkisi 2,6 qram, brilyant daşların çəkisi 0,46 karat olan üzüyün; qiyməti 400 manat olan 750 əyarlı, kiçik səpmə brilyantlarla bəzədilmiş üzüyün; qiyməti 7000 manat olan 750 əyarlı, ağ qızıldan, brilyant daşlarla bəzədilmiş komplekti (kolye 13,42 qram, brilyant daşların çəkisi 1,65 karat, qolbaq 6,63 qram, brilyantların çəkisi 0,89 karat, sırğa 5,08 qram, brilyantların çəkisi 0,91 karat, üzük 3 qram, brilyantların çəkisi 0,66 karat) natura şəklində ona qaytarılması, əşyaların naturada verilməsi mümkün olmadıqda, onların dəyəri kimi 8600 manatın cavabdehdən onun xeyrinə ödənilməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

5. İddia tələbi onunla əsaslandırılmışdır ki, cavabdeh iddiaçının oğlu ilə nişanlı olmuşlar. Nişan mərasimi 01 iyun 2022-ci il tarixdə keçirilmişdir. Toy mərasimini və nikahın bağlanmasını 25 iyun 2022-ci il tarixə planlaşdırmışlar. Lakin, nikah baş tutmamış, toy olmamış, münasibət pozulmuşdur. Lakin, cavabdeh iddiaçı tərəfindən ona verilmiş qızılları qaytarmır.

6. Cavabdeh də, öz növbəsində qarşılıqlı iddia ərizəsi ilə müraciət edərək, planlaşdırılmış nikah ərəfəsində X1-ə xərclədiyi 27700 manat pulun İddiaçıdan onun xeyrinə tutulması barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

7. Qarşılıqlı iddia belə əsaslandırılmışdır ki, Cavabdeh və X1 arasında nikah olmuşdur. Toy mərasiminin keçirilməsini və rəsmi nikahın bağlanmasını 25 iyun 2022-ci il tarixdə həyata keçirməyi planlaşdırmışlar, Cavabdeh toy mərasiminin və rəsmi nikaha daxil olacağına mütləq şəkildə inansa da, toya az müddət cavabdehin oğlu X1 rəsmi nikaha daxil olmaqdan imtina etmişdir. X1 Cavabdeh tam şəkildə özünə inandırmış, evlilik vədi ilə onu aldadaraq, ondan müxtəlif vaxtlarda pul istəmiş və ya dəyəri yüksək olan müxtəlif əşyaların alınmasını istəmişdir.

X1 müxtəlif vaxtlarda Cavabdehdən maşın almaq üçün 17000 manat (10000 ABŞ dolları) məbləğində pul almış, 2400 manat dəyərində "iPhone 12 pro" modelli mobil telefonu, 900 manat dəyərində "Apple watch" saatını aldırmışdır. Bundan başqa, Cavabdeh restoranın dekoru üçün "X" şirkətinə 3000 manat, restoran üçün 3600 manat, restoranın bağlatdırılması üçün 500 manat, fotoqraf üçün 300 manat pul xərcləmişdir. Lakin toy ərəfəsində X1-in yoxa çıxması onu göstərir ki, o, iddiaçını özünə inanıdırıb aldadaraq əmlakını ələ keçirmək niyyətində olmuşdur.

8. Cəlilabad Rayon Məhkəməsinin (bundan sonra – birinci instansiya məhkəməsi) 29 sentyabr 2022-ci il tarixli, 2(073)-1907/2022 saylı qərardadına əsasən, İddiaçının Cavabdehə qarşı "qızıl-zinət əşyalarının qaytarılması" tələbinə dair ilk, Cavabdehnın İddiaçına qarşı "pul" tələbinə dair qarşılıqlı iddia ərizələri üzrə mülki iş Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin icraatında olan 2(001)-5284/2022 saylı mülki işlə birgə baxılması üçün bu məhkəməyə göndərilmişdir.

9. Sonradan İddiaçı tərəfindən "iddia tələbinin həcminin azaldılması" barədə ərizə təqdim edilmiş, cavabdeh tərəfindən əşyaların iddiaçının mənzilindən çıxadılması əsası ilə ilk iddia tələbi əşyaların çıxarılması hissəsində azaldılmışdır.

10. İlk iddia üzrə İddiaçının nümayəndəsi qarşılıqlı iddia ərizəsinə yazılı etiraz ünvanlayaraq, göstərmişdir ki, X1-in kiminsə, o cümlədən Cavabdehin puluna ehtiyacı olmamışdır. Cavabdeh heç vaxt X1-ə pul verməmiş, xərcləməmiş, əksinə X1 Cavabdehə pul xərcləmiş, hədiyyələr almışdır. Cavabdehin tələbdə göstərilən qədər pulu da yoxdur, anası ilə kirayədə yaşayır, anası da işləmir. Cavabdehin məqsədi iddiaçının və X1-in hesabına əsassız varlanmaqdır.

11. Məhkəmə iclasında İddiaçının nümayəndəsi izahatında bildirmişdir ki, iddia tələbində göstərilən qızıllar toy üçün cavabdehə hədiyyə edilmişdi. Lakin, toy baş tutmadığından həmin qızıllar iddiaçıya qaytarılmalıdır. Qızılların cavabdehdə olması onun əvvəlki məhkəmə iclasında verdiyi izahatı ilə də öz təsdiqini tapır. Həminin, cavabdehin anası ilə iddiaçı arasında telefon yazışmalarında cavabdehin anası "qızın qızılları taxıb, güzgüdə özünə baxıb ağlayır" ifadəsini işlətmişdir. Digər tərəfdən, qızılların qaytarılması ilə bağlı Nərimanov rayon Polis İdarəsinin 18-ci Polis Şöbəsində araşdırma aparılmış, Cavabdehdən qızılların qaytarılması tələb edilmiş, Cavabdehin polisə gətirdiyi qızıl-zinət əşyaları iddiaçının toy hədiyyəsi kimi ona verdiyi əşyalarla tamlıq təşkil etmədiyindən, qızılların hamısının qaytarılması tələb olunmuşdur. Cavabdeh isə gətirdiyi qızılları özü ilə aparmışdır. Qızıllar üzərilərində yarlıqları ilə birlikdə hədiyyə edilmiş, iddiaçı qızılları aldığı mağazadakı qiymətlərə uyğun hazırki iddia tələbinin həcmini müəyyənləşdirmişdir. Qarşılıqlı iddiada göstərilənlərlə bağlı heç bir sübut mövcud deyil.

12. Məhkəmə iclasında Cavabdehin nümayəndəsi izahat verərək bildirmişdir ki, onda olan məlumatlara görə qızıllar iddiaçıya qaytarılmışdır.

13. Məhkəmə iclasında Cavabdeh izahatında göstərmişdir ki, o, İddiaçının iddiasını qəbul edir, əşyalarını iddiaçının mənzilindən çıxarmağa razıdır. Həqiqətdə iddiaçı əşyaların götürülməsinə maneə yaradır və bunun yalnız ona hədiyyə edilmiş qızıl-zinət əşyalarının qaytarılması müqabilində mümkün olduğunu bildirir. Halbuki, qızıl-zinət əşyaları ona hədiyyə verilmişdir və o, həmin əşyaları qaytarmaq niyyətində deyil.

14. Məhkəmə iclasında şahid qismində dindirilmiş X2 ifadəsində göstərdi ki, o, iddiaçının baldızıdır. İddiaçı ilə münasibətləri çox yaxındır. X1-lə Cavabdehin həm "həri" mərasimində, həm də nişanında iştirak etmişdir. Toy mərasimi baş tutmadığından, tərəflərin münasibətləri pozulmuş, bundan sonra iddiaçı Cavabdehə verdiyi qızılları geri tələb etmişdir. Polisdəki icraat zamanı Cavabdeh qızılların az hissəsini polisə göstərmək üçün gətirmiş, lakin Iddiaçı qızılları

götürməyərək, bütün qızılların qaytarılmasını tələb etmişdir. Cavabdeh isə gətirdiyi qızılları özü ilə aparmışdır. İddiaçı tərəfindən Cavabdehə verilmiş qızıllar bir ədəd təkqaş brilyant qaşlı qızıl üzük, bir ədəd nişan üzüyü, bir dəst komplektdən ibarət olmuşdur.

15. Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin (hakim E.M.Mustafayev) 20 aprel 2023-cü il tarixli, e-2(001)-281/2023 saylı qətnaməsi ilə İddiaçının Cavabdehə qarşı "qızıl-zinət əşyalarının qaytarılması" tələbinə dair ilk iddiası təmin edilməsi, qiyməti 1200 manat olan 750 əyarlı, ağ qızıldan, çəkisi 2,6 qram, brilyant daşların çəkisi 0,46 karat olan üzük; qiyməti 400 manat olan 750 əyarlı, kiçik səpmə brilyantlarla bəzədilmiş üzük; qiyməti 7000 manat olan 750 əyarlı, ağ qızıldan, brilyant daşlarla bəzədilmiş komplekt (kolye 13,42 qram, brilyant daşların çəkisi 1,65 karat, qolbaq 6,63 qram, brilyantların çəkisi 0,89 karat, sırğa 5,08 qram, brilyantların çəkisi 0,91 karat, üzük 3 qram, brilyantların çəkisi 0,66 karat) natura şəklində, əşyaların naturada verilməsi mümkün olmadıqda, onların dəyəri kimi 8600 manat məbləğində pul vəsaitinin Cavabdehdən alınaraq İddiaçıya verilməsi, bu iddia ərizəsinin verilməsi üçün ödənilmiş dövlət rüsumunun əvəzi kimi 106 manat məbləğində pul vəsaitinin Cavabdehdən tutularaq İddiaçıya ödənilməsi, Cavabdehin İddiaçıya qarşı "pul" tələbinə dair qarşılıqlı iddiasının təmin edilməməsi, bu iddia ərizəsinin verilməsi üçün ödənilmiş dövlət rüsumunun Cavabdehə aid edilməsi qət edilmişdir.

16. Birinci instansiya məhkəməsi mövqeyini əsaslandırarkə qeyd etmişdir ki, Iddiaçının oğlu ilə Cavabdeh arasında nişan mərasiminin olduğu, sonradan toyun baş tutmadığı, tərəflər arasındakı münasibətin pozulması işin aşkar halıdır. İddiaçının Cavabdehə toy hədiyyəsi kimi qızıl-zinət əşyaları verdiyi də işin mübahisələndirilməyən halıdır.

17. Belə olan halda qızılların Cavabdeh tərəfindən İddiaçıya qaytarılmasını sübut etmə yükü məhz Cavabdehin üzərinə düşür. Cavabdeh tərəfindən qızılların qaytarılmasına dair heç bir sübut məhkəməyə təqdim edilməmiş, bundan əlavə, məhkəmənin 12 sentyabr 2022-ci il tarixdə keçirilmiş hazırlıq iclasında iştirak edən Cavabdeh izahatında göstərmişdir ki, iddia ərizəsində göstərilən qızıl-zinət əşyaları ona hədiyyə verilmişdir və o, həmin əşyaları qaytarmaq niyyətində deyil.

18. Məhkəmə qeyd etmişdir ki, ilk iddia tələbində qızıl-zinət əşyalarının növü, çəkisi, əyarı, qiyməti və s. göstəriciləri qeyd edilmiş, Cavabdeh həmin iddia ərizəsi ilə tanış olduqdan sonra məhkəmə iclasında qızılların ona hədiyyə verildiyini, qaytarmaq niyyətinin olmadığını bildirmiş, qızılların iddia ərizəsində göstərilənlərdən fərqli olmalarını, dəyərinin artıq göstərilməsini və s. mübahisələndirməmişdir.

19. Belə olan halda məhkəmə hesab etmişdir ki, qızıl-zinət əşyalarının əsassız olaraq Cavabdeh tərəfindən İddiaçıya qaytarılmaması sübuta yetirildiyindən həmin əşyalar, onların naturada mövcud olmadığı təqdirsə isə ümumi dəyəri kimi 8600 manat məbləğində pul vəsaiti Cavabdehdən İddiaçının xeyrinə tutulmalıdır.

20. Qarşılıqlı iddiaya münasibətdə məhkəmə qeyd etmişdir ki, istənilən iddia tələbi ilə əlaqədar məhkəmə icraatının ən əsas vəzifəsi həmin tələbin hüquqi əsasının olubolmadığının müəyyən olunmasıdır.Məhkəmələr bunu tərəflərin həmin tələblə bağlı hansı hüquqi əsaslandırmanı irəli sürmələrindən asılı olmayaraq müstəqil surətdə müəyyən etməlidir. Bunun üçün isə məhkəmələr tərəfindən ilk növbədə işin faktiki halları və hüquqi əsası araşdırılmalıdır.

21. Cavabdeh X1-ə xərclədiyi 27700 manatın İddiaçından tutularaq ona ödənilməsini tələb etsə də, tələb olunan məbləğlə bağlı heç bir sübut məhkəməyə təqdim etməmişdir. Həmçinin, hazırki halda Cavabdeh 27700 manat pulu İddiaçının oğlu X1-ə xərclədiyini iddia etdiyi halda, bu pulu hansı əsasla Iddiaçıdan tələb etməsi də məlum deyil. Buna görə də, məhkəmə hesab edir ki, qarşılıqlı iddia rədd edilməlidir.

22. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 119-cu maddəsinin tələbləri nəzərə alınmaqla, ilk iddianın təmin edilmiş hissəsinə münasibətdə ödənilməli (ödənilmiş) 106 manat məbləğində pul vəsaiti Cavabdehdən İddiaçının xeyrinə tutulmalı, qarşılıqlı iddia tələbi rədd edildiyindən, onun verilməsi üçün ödənilmiş dövlət rüsumu Cavabdehə aid edilməlidir.

23. Məhkəmə öz mövqeyini Azərbaycan Respublikası Mülki Məcəlləsinin 14.1, 14.2, 14.2.7, 386.1, 1091.1, 1091.2, 1092.1, 1092.2-ci maddələrinə, Mülki Prosessual Məcəlləsinin 14.2, 77.1, 80, 81-ci maddələrinə, "Mahmudov Rusiyaya qarşı iş üzrə" Avropa İnsan Hüquqları Məhkəməsinin 26.07.2007-ci il tarixli Qərarına istinadla əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

24. Cavabdeh apellyasiya şikayəti verərək, birinci instansiya məhkəməsinin qətnamənin ilkin iddianın təmin olunması hissəsində mübahisələndirərək ləğv edilməsini və iddia tələbinin təmin edilməməsini xahiş etmişdir.

25. Şikayət belə əsaslandırılmışdır ki, nikaha girənədək gələcək gəlinə hədiyyə olunmuş qızıl-zinət əşyaları onun öz mülkiyyətidir. Bundan əlavə, iddia predmeti olan qızılların cəmi məbləği 8.600 manat olması iddiaçının mülahizəsinə əsasən müəyyən edilmiş qiymətlərdir. Bu səbəbdən də işin tam və obyektiv araşdırılması məqsədi ilə məhkəmə-əmtəəşünaslıq ekspertizasının keçirilməli və ekspertin rəyi əsasında qətnamə qəbul edilməli idi.

26. Cavabdehin nümayəndəsi və vəkili məhkəmə icıasında bildirmişdir ki, qızıl-zinyət əşyaları cavabdehdə deyil. Ona verilmiş suallara cavab olaraq bildirmişdir ki, cavabdehin bildirdiklərinə əsasən, nikah iddiaçının oğlunun təqsiri üzündən baş tutmamışdır.

27. İddiaçının nümayəndəsi və vəkili apellyasiya şikayəinə etiraz edərək bildirmişdir ki, iddiaçı mübahisəni sülh yolu ilə nizama salmağa çalışmışdır. Sonradan polis orqanına müraciət etmiş, cavabdeh qızıl-zinət əşyalarını ora gətirmiş, lakin hamısı olmadığına görə iddiaçı onları qəbul etməmiş və əşyalar nəticədə cavabdehdə qalmışdır. Həmin əşyaların cavabdehdə olması ilə bağlı sübutlar məhkəməyə təqdim edilmiş, cavabdeh özü də bunu məhkəmənin hazırlıq iclasında etiraf etmişdir. Ona verilmiş suallara cavab olaraq bildirmişdir ki, nikah cavabdehin hərəkətlərinə görə baş tutmamışdır. Qızıl-zinyət əşyaları iddiaçı tərəfindən cavabdehə bağışlanmamışdır. Həmin əşyalar nikahın bağlanılması üçün verilmişdir, lakin nikah baş tutmamışdır.

28. Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının (bundan sonra – apellyasiya instansiyası məhkəməsi) 2(103)-4649/2023 nömrəli, 11 sentyabr 2023-cü il tarixli qətnaməsi ilə (hakimlər – M.Rüstəmli (sədrlik edən və məruzəçi), A.İsgəndərov və V.Sadıqov) apellyasiya şikayəti təmin edilmiş, Bakı Şəhəri Binəqədi Rayon Məhkəməsinin 20.04.2023-cü il tarixli, e-2(001)-281/2023 nömrəli qətnaməsinin "ilkin iddianın təmin edilməsi" hissəsində ləğv edilməsi, həmin hissədə yeni qətnamə qəbul edilərək ilkin iddia üzrə iddiaçı İddiaçının cavabdehə qarşı "qızıl-zinət əşyalarının qaytarılması" tələbinə dair iddiasının təmin edilməməsi, həmin iddianın verilməsi üçün ödənilmiş dövlət rüsumunun məbləğinin iddiaçı İddiaçına aid edilməsi qət edilmişdir.

29. Apellyasiya instansiyası məhkəməsi hesab etmişdir ki, birinci instansiya məhkəməsi tərəflər arasında olan münasibətlərə düzgun hüquqi qiymət verməməklə maddi hüquq normalarının tətbiqində səhvə yol vermiş, nəticədə qızıl-zinət əşyalarının cavabdehdən alınaraq iddiaçıya verilməsi barədə düzgün olmayan nəticəyə gəlmişdir.

30. Belə ki, hazırkı mübahisə mülki qanunvericiliyin əsassız varlanma ilə bağlı münasibətləri tənzimləyən normaları ilə deyil, bağışlama ilə bağlı münasibətləri tənzimləyən normalarının tələbləri əsasında həll edilməlidir.

31. Əsassız varlanmanın baş verməsi üçün əsassız varlanan şəxsin başqa şəxsin hesabına əmlak əldə etməsi ilə yanaşı, bu əmlakı heç bir qanuni əsas və ya müqavilə əsası olmadan əldə etməsi də müəyyən edilməlidir.

32. Hazırki halda isə işin faktiki halları ilə müəyyən edilir ki, qızıl-zinət əşyaları iddiaçı tərəfindən cavabdehə toy hədiyyəsi kimi bağışlanmışdır. Bununla da, cavabdeh həmin qızıl-zinət əşyaları üzərində mülkiyyət hüququ əldə etmişdir. Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 668.1.3-cü maddəsinə əsasən daşınar əşyaların bağışlanması zamanı hədiyyə verən əşyanı hədiyyə alana verdikdə bağışlama etibarlıdır.

33. Kollegiya həmçinin qeyd edir ki, nişan mərasiminin keçirilməsi ailənin mütləq qurulmasını ehtiva etmir. Nikah kişi ilə qadının ailə qurmaq məqsədilə müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınan könüllü ittifaqıdır. Yəni nikaha daxil olma ilə bağlı iddianın qaldırılması və ya onun məcburi icra olunması mümkün deyil. Odur ki, qızıl-zinət əşyalarının bağışlanması zamanı hədiyyə alan qarşısında belə bir öhdəlik müəyyən edilə bilməz.

34. Bundan başqa, Mülki Məcəllənin 673.1-ci maddəsində hədiyyə verənin bağışlamaqdan imtina edilməsi əsasları nəzərdə tutulmuşdur. Hazırki iş üzrə belə əsasların mövcudluğu müəyyən edilmir.

Kassasiya şikayətinin və ona qarşı etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

35. İddiaçı (vəkil) kassasiya şikayəti verərək, Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasısının 11.09.2023-cü il tarixli 2(103)-4649/2023 saylı qətnaməsinin ləğv edilməsi, İddiaçının cavabdehə qarşı qızıl-zinət əşyalarının naturada qaytarılması, bu mümkün olmadıqda onların dəyəri 8600 manat pul vəsaitinin Cavabdehdən alınaraq İddiaçıya verilməsi barədə iddiasının təmin edilməsi barədə yeni qərar qəbul edilməsini xahiş etmişdir.

36. Şikayət belə əsaslandırılmışdır ki, qızıl-zinət əşyalarının tələbindən əlavə, məhkəməyə həmçinin mənzilinin boşaldılması ilə bağlı tələblə müraciət etdikdən sonra müvəqqəti təminat tədbirinin icrası zamanı cavabdeh mənzilə yerləşdirilən əşyalarını cıxarıb aparmışdır. Həmin vaxt da cavabdeh bildirmişdir ki, qızıllar ondadır, məhkəmədə qaytaracaqdır. Cavabdehə qızıl-zinət əşyalarını məhz oğlu ilə nikaha daxil olacağı ilə bağlı vermişdir. Nikah baş tutmadığı üçün o qızıl-zinət əşyalarını qaytarmalıdır. O, tələbinə məhəl qoymadığı üçün məhkəməyə müraciət etmişdir. Hesab edir ki, cavabdeh onun hesabına əsassız olaraq varlanmaq istəyir. Cavabdehin hərəkətləri Mülki Məcəllənin 1091.-ci maddəsində nəzərdə tutulan əsassız varlanmanın təzahürüdür.

37. Binəqədi Rayon Məhkəməsində məhkəmə iclasında cavabdehin nümayəndəsi və vəkili izahat verərək bildirmişdir ki, göstərilən qızıl-zinət əşyaları cavabdehdədir və bu məhkəmənin iclas protokolunda öz əksini tapmışdır. Bundan əlavə birinci instansiya məhkəməsində təqdim etdiyi flaş kartdan da görünür ki, cavabdehə verdiyi qızılların onda olması faktını cavabdeh Cavabdehnın anasının ona göndərdiyi səs yazısında əksini tapır. Qızıl-zinət əşyalarının növü, çəkisi, əyarı və qiyməti ilə bağlı cavabdehin etirazı olmamışdır. İddia ərizəsini aldıqdan sonra o bununla bağlı etirazını bildirməmişdir.

38. Apellyasiya instansiya məhkəməsinin qətnaməsi əsassız və qanunsuz olduğundan ləğv edilməlidir və nəzərə alaraq ki, iş üzrə araşdırılmayan hal qalmamışdır müəyyən edilmiş hallar üzrə yeni qərar çıxarılmalıdır.

39. Apellyasiyainstansiya məhkəməsi iş üzrə düzgün maddi normaları tətbiq etməmişdir, məhv hüquqi nəticəyə gəlmişdir. Məhkəmə cavabdehə verdiyi qızılları toy hədiyyəsi olaraq bağışlama kimi qiymətləndirmişdir. Elə məhkəmənin gəldiyi nəticədə ziddiyyət mövcuddur. Yəni apellyasiya insytansiyası məhkəməsi qəbul etimişdir ki, qızıllar cavabdehə gözlənilən toy

və nikah mərasimi üçün verilmişdir. Beləliklə məhkəmə cavabdehə verilən qızılların məqsədli şəkildə, yəni şərtlə, oğlumun gələcək arvadı olacağı üçün verdiyini qəbul etmişdir. Lakin məhkəmə onun cavabdehə verdiyi qızıl əşyalarına subyektiv münasibətini düzgün qiymətləndirməmişdir. Məhkəmə nəzərə almamışdır ki, Cavabdeh İbişobva ilə onun heç bir qohumluq və ya dostluq münasibəti olmayıb ki, ona qiymətli əşyaları hədiyyə kimi versin. İbişovaya qızıl-zinət əşyalarını verməyində pozitiv şərt mövcud olmuşdur- bu şərt nikahın bağlanması ilə bağlı olmuşdur. Nikah bağlanılmadığı üçün qızıllar qaytarılmalıdır. Qonşu Türkiyə və Rusiyada bu praktika mövcuddur.

40. Məhkəmənin gəldiyi nəticəyə görə cavabdehin onun mənzilinə yerləşdirdiyi əşyalar onda onun mülkiyyətinə keçməli idi.

41. Bu məntiqsiz, əsassız və qanunsuz nəticə ilə sonlanan məhkəmə aktı mütləq ləğv edilməlidir ki, bu işlərdə düzgün məhkəmə praktikası yaradılsın. Mülki qanunvericilik məhz belə hallar üçün şərtlə, o cümlədən pozitiv şərtlə bağlanmış əqdləri nəzərdə tutmuşdur.

42. Kassator MPM-in 217.1-ci maddəsinə istinad edərək qeyd etmişdir ki, mübahisələndirdiyi qətnamə prosessual qanunvericiliyin göstərilən tələbinə cavab vermir.

43. Kassator şikayətini əsaslandırarkən Azərbaycan Respublikasının Konstitusiyasının 60-cı maddəsinin I hissəsinə, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 328.1, 328.4, 1091.1 və 1091.2-ci maddələrinə də istinad etmişdir.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

44. Cavabdeh kassasiya şikayətinə qarşı etirazda göstərmişdir ki, işə baxarkən apellyasiya instansiyası məhkəməsi maddi və prosessual hüquq normalarını düzgün tətbiq etmiş, prosessual qanun pozuntularına yol verməmişdir. Ona görə də, Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 11 sentyabr 2023-cü il tarixli qətnaməsinin dəyişdirilmədən saxlanılmasını xahiş edir.

Tətbiq edilən hüquq

Azərbaycan Respublikasının Mülki Məcəlləsi

45. Maddə 1091.1. Əsassız varlanan o şəxs (varlanmış şəxs) sayılır ki, hüquqi əsas olmadan başqa şəxsin (məhrum olanın) hesabına əmlak əldə etsin.

46. Maddə 1091.2. Əsassız varlanma yalnız o zaman baş verir ki, bu cür varlanmaya haqq qazandıran qanuni əsas və ya müqavilə əsası olmur. Hüquqi əsas olmadan varlanma həmçinin o hallarda baş vermiş sayılır ki, bu cür varlanma həyata keçirilməmiş əsasa və ya sonralar aradan qalxmış əsasa söykənir.

47. Maddə 1092.1. Varlanmış şəxs əldə etdiklərini məhrum olanın tələbi ilə ona qaytarmalıdır. Qaytarma vəzifəsi aşağıdakılara da şamil edilir:

1092.1.1. bu Məcəllənin 157.5-ci maddəsinin tələbləri nəzərə alınmaqla, əldə edilənlərdən götürülən faydaya;

1092.1.2. əldə edən şəxsin əldə etdiklərinə əsasən və ya onlar üçün kompensasiya kimi əldə etdiyinə və ya qəsdən əldə etmədiyinə.

48. Maddə 1092.2. Əldə edilənləri vermək mümkün olmadıqda, onların dəyəri ödənilir.

49. Maddə 1092.3. Varlanmış şəxs qaytarmanın tələb olunduğu anda daha özünün varlı olmadığını sübut edərsə, bu Məcəllənin 1092.1 və 1092.2-ci maddələrinə uyğun iddiaların irəli sürülməsi istisna edilir. Varlanmadan əvvəl və ya bilavasitə varlanma zamanı bunun üçün hüquqi əsasın olmadığını bilən varlanmış şəxsə bu qayda şamil edilmir.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi

50. Maddə 14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

51. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin əsası kimi istinad etdiyi halları sübut etməlidir.

52. Maddə 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

53. Maddə 217.1. Məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır.

54. Maddə 407.2. Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir.

55. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

56. Maddə 416.2. Apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 418.4-cü maddəsində nəzərdə tutulmuş prosessual hüquq pozuntusu hesab edilən hallara yol verilməsi şikayətin hədlərindən və dəlillərindən asılı olmayaraq yoxlanılmalıdır.

57. Maddə 418.1. Maddi və prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması, o cümlədən maddi və prosessual hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması apellyasiya instansiyası məhkəməsinin qətnamə və qərardadının ləğv edilməsi üçün əsasdır.

Kassasiya baxışının hədləri

58. Qanunun tələbinə görə, kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

59. Hazırkı kassasiya şikayətində qətnamə tam mübahisələndirildiyindən apellyasiya instansiyası məhkəməsinin aktı bütövlükdə yoxlanılır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

60. Məhkəmə kollegiyası hesab edir ki, apellyasiya instansiyası məhkəməsinin ilk iddianın rədd edilməsi üzrə gəldiyi nəticə maddi və prosessual qanunvericiliyin tələblərinə zidd olduğundan əsaslı və qanuni sayıla bilməz.

61. Apellyasiya instansiya məhkəməsi qeyd etmişdir ki, nişan mərasiminin keçirilməsi ailənin mütləq qurulmasını ehtiva etmir. Nikah kişi ilə qadının ailə qurmaq məqsədilə müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınan könüllü ittifaqıdır. Yəni nikaha daxil olma ilə bağlı iddianın qaldırılması və ya onun məcburi icra olunması mümkün deyil. Odur ki, qızıl-zinət əşyalarının bağışlanması zamanı hədiyyə alan qarşısında belə bir öhdəlik müəyyən edilə bilməz.

62. Bundan başqa, Mülki Məcəllənin 673.1-ci maddəsində hədiyyə verənin bağışlamaqdan imtina edilməsi əsasları nəzərdə tutulmuşdur. Hazırki iş üzrə belə əsasların mövcudluğu müəyyən edilmir.

63. Məhkəmə kollegiyası apellyasiya instansiya məhkəməsinin bu mövqeyi ilə razılaşmayaraq qeyd edir ki, hazırki iddianın hüquqi əsasını Mülki Məcəllənin 673-cü maddəsi

təşkil etmir. Belə ki, nişan mərasimində nişanlanan oğlan və ya onun valideynləri tərəfindən nişanlanan qıza verilən hədiyyələr, o cümlədən qızıl-zinət əşyaları gələcəkdə rəsmi nikahın baş tutacağı ümidi ilə verilir. Gələcəkdə rəsmi nikah baş tutmazsa əldə etmə sonradan aradan qalxmış əsasa söykənmiş olur. Hazırki iş üzrə iddia tələbi rəsmi nikah baş tutmaması, yəni nişanlanmanın rəsmi nikahın bağlanması ilə nəticələnməməsi ilə əlaqədar nişanlanma mərasimində verilmiş qızıl-zinət əşyalarının tələbi ilə əlaqədardır. İşin faktiki hallarını araşdıran apellyasiya instansiyası məhkəməsi qızıl-zinət əşyalarının iddiaçı tərəfindən cavabdehə toy hədiyyəsi kimi bağışlandığını qətnaməsində qeyd etsə də, yuxarıda göstərilən qənaətə gələrkən toyun baş tutmaması halını nəzərə almamışdır. Məhkəmə kollegiyası hesab edir ki, belə olan təqdirdə iddianın hüquqi əsası kimi qızıl-zinət əşyaları əldə etmə ilə əlaqədar varlanmanın sonralar aradan qalxmış əsasa söykənməsi, əsassız varlanma nəticəsində əldə edilənləri qaytarma vəzifəsi ilə əlaqədar Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 1091 və 1092-ci maddələri nəzərdən keçirilə bilər.

64. Nəzərə almaq lazımdır ki, bağışlamadan imtina üçün əsasların olmaması bağışlanmış əşya hesabına varlanmanın sonradan aradan qalxmış əsasa söykənməsi əsası ilə hədiyyənin geri tələb edilməsini istisna etmir.

65. Yuxarıda qeyd edilənlərdən göründüyü kimi apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi hüquq norması səhv tətbiq edilmişdir. Beləliklə də apellyasiya instansiyası məhkəməsinin qətnaməsi Azərbaycan Respublikasının MPM-in 217.1-ci maddəsində müəyyənləşdirilmiş məhkəmə qətnaməsinin qanuni və əsaslı olmalı olması barədə tələbə də cavab vermir.

66. Apellyasiya instansiyası məhkəməsi iddianı rədd etdiyindən Cavabdehin apellyasiya şikayətinin iddia predmeti olan qızılların cəmi məbləğinin 8.600 manat olmasının iddiaçının mülahizəsinə əsasən müəyyən edilmiş qiymətlər olduğu, bu səbəbdən də işin tam və obyektiv araşdırılması məqsədi ilə məhkəmə-əmtəəşünaslıq ekspertizasının keçirilməli və ekspertin rəyi əsasında qətnamə qəbul edilməli olduğu barədə dəlillərini də araşdırıb hüquqi qiymət verməmişdir.

67. Kraska İsveçrəyə qarşı iş üzrə qərarında İnsan Hüquqları üzrə Avropa Məhkəməsi qeyd etmişdir ki, Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinin təsir dairəsi digər məsələlərlə yanaşı, «məhkəmə» üçün öz qərarına aid olub-olmamasına qabaqcadan qiymət vermədən tərəflərin təqdim etdiyi bütün müraciətləri, dəlilləri və sübutları hərtərəfli araşdırmaq öhdəliyi yaradır (19.04.1993, §30).

68. Göstərilənlərə əsasən məhkəmə kollegiyası belə nəticəyə gəlir ki, kassasiya məhkəməsi tərəfindən yeni qərar qəbul edilməsi üçün əsaslar yoxdur. Ona görə də kassasiya şikayəti qismən təmin edilməli, Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 11 sentyabr 2023-cü il tarixli 2(103)-4649/2023 nömrəli qətnaməsi ləğv edilməli, iş yenidən baxılmaq üçün Bakı Apellyasiya Məhkəməsinə göndərilməlidir.

69. Apellyasiya instansiyası məhkəməsi tərəfindən işə yenidən baxılarkən şərh edilən nöqsanlar aradan qaldırılmaqla maddi və prosessual hüquq normalarının tələblərinə cavab verən qanuni və əsaslı yekun məhkəmə aktı qəbul edilməlidir.

70. Nəzərə alınmalıdır ki, məhkəmə aktlarının əsaslandırılmış olması iş üzrə tərəflərdə qəbul edilmiş qərarın qanuni və ədalətli olduğuna inam yaratmaqla yanaşı, ümumilikdə məhkəmə hakimiyyətinə olan etimadın möhkəmlənməsinə xidmət edir.

71. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun «Məhkəmə qətnaməsi haqqında» 24 noyabr 2005-ci il tarixli 4 saylı qərarının birinci bəndində qeyd edilir ki, məhkəmə qətnaməsi mülki və kommersiya mübahisələrindən irəli gələn işlər üzrə ədalət mühakiməsinin yekun aktı olduğu üçün onun qəbul edilməsi ilə mübahisəli hüquq münasibətlərində

müəyyənlik yaranmalı, pozulmuş və mübahisə edilən hüquqların və qanunla qorunan mənafelərin real bərpası təmin olunmalıdır.

72. Məhkəmələr tərəfindən qəbul edilmiş qərarlarda həll olunan işə aid bütün zəruri məsələlərə aydınlıq gətirilməli, ziddiyyətli məqamlar aradan qaldırılmalıdır. Azərbaycan Respublikasının adından çıxarılan məhkəmə aktlarında işin ədalətli həllini şübhə altına alan, ziddiyyətlər yaradan və mübahisə üzrə iştirakçıların konstitusiya məhkəmə müdafiəsi hüququna təsir göstərən müddəalar olmamalıdır (N.Əbilovun şikayəti üzrə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 13 iyun 2008-ci il tarixli qərarı).

73. Məhkəmə, özü tərəfindən müəyyən olunmuş işin hallarını və qənaətini formalaşdıran sübutları, bu və ya digər sübutları rədd etmək üçün istinad etdiyi dəlilləri və rəhbər tutduğu qanunları qətnamədə göstərməklə onun hüquqi cəhətdən əsaslandırmalıdır. Məhkəmə sübutları sadalamaqla kifayətlənməməli, hər bir sübutun, o cümlədən şahid ifadələrinin məzmunu qətnamədə şərh edilməli, sübutlar əlaqələndirilməli, araşdırılan sübutların qəbul edilib-edilməməsinin səbəbləri aydın göstərilməlidir (S.Əliyevanın şikayəti üzrə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 31 may 2006-cı il tarixli qərarı).

74. Göstərilənlərə əsasən və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 416, 417 və 419-cu maddələrini rəhbər tutub məhkəmə kollegiyası

Qərara aldı:

İddiaçı tərəfindən verilmiş kassasiya şikayəti qismən təmin edilsin.

Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 11 sentyabr 2023-cü il tarixli 2(103)-4649/2023 nömrəli qətnaməsi ləğv edilsin.

İş yenidən baxılmaq üçün Bakı Apellyasiya Məhkəməsinə göndərilsin.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

38. 2(102)-789/2025 nömrəli, 2025-ci il 8 aprel tarixli qərar - Əsassız varlanmaya dayanan tələblər üzrə iddianın əsaslılığının yoxlanılma qaydası

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: Faktiki ailə münasibətində yaşayan şəxslərdən biri digərinin verdiyi pul vəsaiti hesabına əmlak almışdır. Bu münasibətlər pozulduqdan sonra pul vəsaiti verən şəxs əmlakın dəyərinin geri qaytarılmasını tələb edir.

Məhkəmələr əmlakın alınması üçün pul vəsaitini iddiaçının ödədiyini müəyyən etməklə bu qənaətə gəlmişlər ki, cavabdeh əsassız varlanmışdır, ona görə əmlakın dəyərini iddiaçıya qaytarmalıdır.

Kassasiya instansiya məhkəməsinin mövqeyi:

Bir şəxsin başqasının verdiyi pul vəsaiti hesabına əmlak alması əsassız varlanma nəticəsinə gəlmək üçün kifayət deyil.

Tələbin hüquqi əsasının yoxlanılması və tapılması tərəflərin bildirdikləri faktiki hallarla əlaqəli olsa da, iddianın haqlı bir hüquqi səbəbə söykənib-söykənmədiyini müəyyən etmək hakimin vəzifəsidir. İddia tələbinin (buna müvafiq olaraq öhdəliyin) qanuni əsasları yoxlanılarkən əvvəlcə müqavilədən irəli gələn, sonra müqavilə münasibətlərinə oxşar (məsələn, özgə işlərini tapşırıqsız aparma), daha sonra isə qanundan irəli gələn əsaslar yoxlanılmalıdır.

Baxılan işdə cavabdehin əldə etdiyi əmlakı sonradan iddiaçının mülkiyyətinə keçirəcəyi barədə tərəflər arasında tapşırıq müqaviləsindən irəli gələn hüquq münasibətini və bu çərçivədə cavabdehin iddiaçı qarşısında öhdəlik daşımasını məhkəmələr müəyyən etməmişlər.

Pul vəsaitinin cavabdehin mənafeyi naminə (məsələn, əmlak alınması üçün) başqa şəxs(lər)ə verilməsi də mümkündür. Bu kimi hallar baxımından "öhdəliyin üçüncü şəxs tərəfindən icrası" və ya "üçüncü şəxsin xeyrinə müqavilə" institutları nəzərdən keçirilə bilər.

Qanundan irəli gələn öhdəlik kimi əsassız varlanma çərçivəsində tələbin haqlı sayılması üçün isə aşağıdakı şərtlər müəyyən edilməlidir: cavabdehin əmlak əldə etməsi; həmin əmlakı iddiaçının əmlakı hesabına əldə etməsi; əldəetmə üçün qanundan və ya müqavilədən irəli gələn heç bir əsasın olmaması, yaxud bu cür varlanmanın həyata keçirilməmiş əsasa və ya sonralar aradan qalxmış əsasa söykənməsi.

Baxılan işdə cavabdehin əldə etdiyi əmlakın iddiaçının hesabına qazandığı sübuta yetirilmiş olsa belə, bu hallar iddianın əsassız varlanma çərçivəsində təmin edilməsi üçün kifayət deyil. Bunun üçün növbəti dispozisya şərti - əldəetmə üçün qanundan və ya müqavilədən irəli gələn heç bir əsasın olmaması, yaxud belə əsasın sonradan aradan qalxması və ya əmlak verilərkən nəzərdə tutulan məqsədin hasil olmaması (həyata keçməməsi) müəyyən edilməlidir.

Əgər iddiaçı pul vəsaitini cavabdehin özünə vermişsə, cavabdehin əldə etdiyi əmlakın tərəflərin müəyyən olunmuş faktiki münasibətləri fonunda bağışlama mahiyyətində olub-olmadığının araşdırılması işin düzgün həlli üçün əhəmiyyətli olmuşdur.

Bağışlamadan başqa bir hüquq münasibəti aşkar edilmədiyi, yəni cavabdehin mübahisəli əmlakı hədiyyə olaraq əldə etdiyi bəlli olduqda onun həmin əmlakı iddiaçıya qaytarmaq öhdəliyi, yalnız (iddia və sübut edildiyi təqdirdə) bağışlama müqaviləsinin ləğv edilməsindən irəli gələ bilər.

İddia tərəfinin Mülki Məcəllənin 673.1-ci maddəsində sadalanan əsaslardan hər hansı birinə istinadı və sübuta yetirməsi müəyyən edilməmişdir.

Məhkəmə tərkibi onu da qeyd etmişdir ki, bağışlamadan imtina olunduğu sübuta yetirilməmişsə, varlanmış şəxs həmin əmlakı əsassız deyil, bağışlama müqaviləsi əsasında

qazanmış sayılır. Bu hal isə əsassız varlanmanın zəruri əlamətinin - əldəetmə üçün qanundan və ya müqavilədən irəli gələn bir əsasın olmaması şərtinin təsbit olunmadığını göstərir.

Məhkəmələrin bu şərti müəyyən etmədən iddianı Mülki Məcəllənin 1092.1-ci maddəsinə əsasən təmin etmələri əsaslı olmamışdır.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-789/2025

08.04.2025-ci il Bakı şəhəri

Azərbaycan Respublikası adından

Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının

iddiaçının cavabdehə qarşı iş üzrə

Q Ə R A R I

Açar sözlər: tələbin qanuni əsası; əsassız varlanma; bağışlama müqaviləsi; bağışlamadan imtina.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Əliyev Zaur Əli oğlu (məruzəçi), Baxışova Vüsalə Ələkbər qızı və Babayev Zəki Baba oğlundan ibarət tərkibdə,

Şəki Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(107)-1297/2024 nömrəli, 21 noyabr 2024-cü il tarixli qətnaməsindən cavabdeh tərəfindən kassasiya şikayətinə Ali Məhkəmənin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları

1. Mübahisəyə mahiyyəti üzrə baxan məhkəmələr işin hallarını araşdıraraq aşağıdakıları müəyyən etmişlər:

2. AN-I No ******* nömrəli, xx.xx.2020-ci il tarixli daşınmaz əmlakın alqı-satqı müqaviləsinə əsasən X1 Ünvan 1 ünvanında yerləşən 33 nömrəli mənzili Cavabdehə satmışdır;

3. İddiaçı həmin mənzilin və içindəki bəzi daşınar əşyaların dəyərini özünün ödədiyini bildirərək aşağıdakı tələbi irəli sürmüş, cavabdeh isə iddiaya etiraz etmişdir.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a) Birinci instansiya məhkəməsində icraat

4. İddiaçı məhkəməyə müraciət edərək, cavabdehndan 52000 manat pulun tutularaq ona verilməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

5. İddiaçı tələbini belə əsaslandırmışdır ki, cavabdehlə uzun müddət qeyri-rəsmi ailə kimi yaşamışlar. Cavabdehə həddindən çox etibar etmişdir. Özü üçün mənzil almaq qərarına gəlmiş, lakin, məcburi köçkün olduğu üçün evi öz adına deyil, cavabdehin adına rəsmiləşdirmişdir. Belə ki, Ünvan 1 ünvanında yerləşən 33 nömrəli mənzili cavabdehin adına almışdır. Həmin mənzilin alınması üçün 40000 manat, rəsmiləşdirilməsi üçün isə 2000 manat, həmçinin, evin mebel və digər avadanlıqlarını almaq üçün 10000 manat pul xərcləmişdir. Hazırda pula ehtiyacı olduğu üçün həmin mənzili satmaq istəyir. Lakin cavabdeh evi satmaqdan imtina edir, yaşayış sahəsini özününkü hesab edir. O, pulunun geri qaytarılmasını tələb etsə də, cavabdeh bundan imtina edir.

6. İddiaçı, iddia ərizəsinin məzmununa uyğun izahat vermiş və əlavə olaraq bildirmişdir ki, evi heç vaxt hədiyyə etmək fikri olmamışdır. Sadəcə cavabdehlə birgə kirayədə qalmasınlar deyə evi almışdır. Polis şöbəsində aparılan araşdırma zamanı cavabdeh evin iddiaçı tərəfindən alındığını etiraf etmişdir. Bu barədə məhkəməyə səs yazısı təqdim olunmuşdur.

7. Cavabdeh izahatında bildirmişdir ki, iddiaçı ilə faktiki ailə münasibətləri olmuşdur. Evi o tapmış və qohumlarının vəsaiti hesabına almışdır. Evin iddiaçıya aidiyyəti yoxdur. İddiaçı evə mebel və kondisioner almışdır. Əşyalar da onun haqqıdır və iddiaçıya qaytarmayacaq. Polis şöbəsində verdiyi izahat onun sözləri ilə yazılmamışdır. İzahatı imzalasa da, polis işçilərinə inanıb imza etmişdir. Səs yazmalarda olan səs ona məxsusdur. Lakin həmin səsyazmada Mingəçevir şəhərində olan mənzildən yox, Yevlax şəhərində olan evdən söhbət gedir. Belə ki, iddiaçı qohumunun adına Yevlax şəhərində ev almışdır. Aralarında mübahisə elə həmin evə görə düşmüşdür. Belə ki, Iddiaçıa evi övladlarının adına keçirməsini bildirmişdir. Gələcəkdə başına bir iş gəlsə, həmin evdən heç kimin xəbəri olmadığından başqasına qalacaqdır. İddiaçının istinad etdiyi Mingəçevir Şəhər Polis şöbəsinin qərarından şikayət verilmiş, həmin qərar məhkəmə qaydasında ləğv edilmişdir.

8. Yevlax Rayon Məhkəməsinin (hakim R.Əlizadə) 12.08.2024-cü il tarixli, 2(039)-1191/2024 nömrəli qətnaməsi ilə iddia qismən təmin edilərək, cavabdehdən 43826 manat pulun tutularaq iddiaçıya ödənilməsi qət edilmiş, məhkəmə xərcləri həll olunmuşdur.

9. Məhkəmə qeyd etmişdir ki, iddiaçı ilə cavabdeh qeyri-rəsmi olaraq ailə kimi yaşamışlar. İddiaçı Kəlbəcər rayonundan məcburi köçkündür. 2020-ci ildə iddiaçı özünə mənzil alan zaman məcburi köçkün olduğu üçün mənzili cavabdehin adına rəsmiləşdirmişdir. Həmin

mənzilin alınmasına 40.000 manat pul verilmişdir. Həmçinin ev üçün 3826 manat dəyərində mebel alınmışdır.

10. Məhkəmə mövqeyini belə əsaslandırmışdır ki, iş materiallarında olan polis şöbəsinin araşdırma materiallarındakı izahatda və səsyazmalarda cavabdeh evin iddiaçı tərəfindən 40000 manata alındığını, lakin cavabdehin adına rəsmiləşdirildiyini etiraf etmişdir. Hazırda cavabdeh evin onun və qohumlarının vəsaiti hesabına alındığını bildirsə də, buna dair məhkəməyə sübut təqdim etməmişdir.

11. Məhkəmə gəldiyi nəticəni Mülki Məcəllənin 1091.1, 1092.1, 1093.1-ci, eləcə də Mülki Prosessual Məcəllənin 14.2, 77.1, 88-ci maddələrinə istinad etməklə əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

12. Cavabdeh apellyasiya şikayəti verərək birinci instansiya məhkəməsinin qətnaməsinin iddianın təmin edilən hissəsində ləğv olunması, iddia tələbinin rədd edilməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

13. Apellyasiya şikayəti onunla əsaslandırılmışdır ki, cavabdeh özü sığorta şirkətində işləmiş, hər zaman atası tərəfindən maddi dəstək almış, maddi imkanı yaxşı olmuşdur. Mübahisəli evi isə özü tapmış, qohumlarının vəsaiti hesabına almışdır. Telefon danışıqları iddiaçının qohumun adına aldığı evlə bağlı söhbəti olmuşdur. İddiaçının pulu var idisə, digər ev kimi bunu da hansısa qohumunun adına ala bilərdi. Apellyasiya şikayətinin digər dəlilinə görə, birinci instansiya məhkəməsinin sübut kimi cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərara istinad etməsi qanuni olmamışdır. Belə ki, həmin qərar məhkəmə qaydasında ləğv edilmişdir. Cavabdeh şikayətinə onu da əlavə etmişdir ki, polis şöbəsində izahata oxumadan qol çəkmişdir. İzahatın məzmununda qeyd olunanlar onun iradə ifadəsi deyildir.

14. Şəki Apellyasiya Məhkəməsi Mülki Kollegiyasının 2(107)-1297/2024 nömrəli, 21.11.2024-cü il tarixli qətnaməsi ilə (hakimlər Eyyub Kərimov – sədrlik edən və məruzəçi, Elçin Hüseynov, Zülfüqarov Sadıqov) apellyasiya şikayəti təmin edilmədən, birinci instansiya məhkəməsinin qətnaməsi mübahisələndirilən hissədə dəyişdirilmədən saxlanılmışdır.

15. Məhkəmə kollegiyası birinci instansiya məhkəməsinin gəldiyi nəticə və hüquqi əsaslandırma ilə razılaşaraq bildirmişdir ki, iddia tələbinin mahiyyətindən tərəflər arasındakı mübahisənin əsassız varlanma ilə bağlı olduğu müəyyən edilir.

16. Belə ki, iş üzrə tərəflər arasında yazılı müqavilə mövcud olmamış, iddiaçı mübahisəli mənzilin pulunu ödəyərək satın almış və mənzili cavabdehin adına rəsmiləşdirmişdir. Lakin, cavabdeh tərəf kifayət qədər vicdanlı davranmayaraq əmlakı iddiaçıya qaytarmaqdan imtina etmişdir. Bununla da, iddiaçı mübahisəli mənzilə hüquqlarını itirdiyindən, cavabdeh həmin əmlakın dəyəri məbləğində iddiaçının hesabına əsassız varlanan şəxsə çevrilmişdir.

17. Məhkəmə kollegiyası əlavə etmişdir ki, işə əlavə edilmiş səs yazısında olan tərəflərin hazırkı iş üzrə iddiaçı və cavabdeh olduqları müəyyən edilmişdir. Tədqiq edilmiş həmin səs yazılarında cavabdeh tərəfindən “ev iddiaçınındır; evi kişi alarda; kişi aldığını deməz” kimi ifadələr işlədilmişdir. Səs yazılarından o da müəyyən edilmişdir ki, iddiaçı dəfələrlə evi özünün aldığını bildirmiş, cavabdeh isə buna etiraz etməmişdir. Cavabdeh tərəf formal olaraq söhbətin Yevlax rayonunda yerləşən hansısa evdən getdiyini bildirsə də bununla bağlı məhkəməyə sübut təqdim etməmişdir. Həmin səs yazılarında tərəflər Yevlax rayonundakı hansısa evdən ümumimyyətlə danışmamışlar. İşdən və elektron məhkəmə sistemindən iddiaçının adına hansısa mənzilin olması müəyyən edilməmişdir.

18. Məhkəmə həmçinin qeyd etmişdir ki, cavabdeh polis şöbəsində verdiyi izahatında mübahisəli mənzilin iddiaçı tərəfindən pul verilərək alındığını və məcburi köçkün olduğu üçün evi onun adına rəsmiləşdirdiyini bildirmişdir. Bundan başqa, izahatın sonunda cavabdeh öz xətti ilə “izahatıma başqa əlavəm yoxdur, mənim sözlərimlə yazıldı doğru olmasını öz imzamla

təsdiq edirəm” kimi ifadə qeyd etmiş və imzalamışdır. Göründüyü kimi, tərəflər arasında mübahisə məhz Mingəçevir şəhərində alınmış mənzilə görə yaranmışdır. Belə olan halda, cavabdehin səs yazılarının Yevlax rayonunda olan mənzillə bağlı olması barədə dəlilləri öz təsdiqini tapmamışdır.

19. Məhkəmə kollegiyası apellyasiya şikayətinin “Cinayət işinin başlanmasının rədd edilməsi haqqında” qərarın ləğv edilməsi ilə bağlı dəlilinə münasibətdə qeyd etmişdir ki, həmin qərar ümumiyyətlə hazırkı iş üzrə preyudisial əhəmiyyətə malik olmamışdır və qərarın ləğv edilməsi və ya dəyişdirilməsi iş üzrə mühüm əhəmiyyət daşımamışdır.

20. Məhkəmə kollegiyası apellyasiya şikayətinin cavabdehin polis şöbəsində verdiyi izahatını oxumaması barədə dəlilinə münasibətdə qeyd etmişdir ki, cavabdeh polis şöbəsində verdiyi izahatı özü şəxsən imzaladığını bildirmişdir. Bundan başqa, izahatın sonunda cavabdeh öz xətti ilə “izahatıma başqa əlavəm yoxdur, mənim sözlərimlə yazıldı doğru olmasını öz imzamla təsdiq edirəm” qeyd etmişdir.

21. Məhkəmə kollegiyası apellyasiya şikayətinin mübahisəli mənzilin qohumlarının köməyi ilə cavabdehin özü tərəfindən alınması ilə bağlı dəlilinə münasibətdə qeyd etmişdir ki, cavabdeh bu barədə məhkəməyə hər hansı sübut təqdim etməmişdir.

22. Məhkəmə kollegiyası mövqeyini Mülki Məcəllənin 385.1, 386.1, 425.1, 442, 1091.1, 1091.2, 1092.1, 1092.2, 1093.1-ci, Mülki Prosessual Məcəllənin 14.2, 77.1, 88-ci maddələrinə istinad edərək əsaslandırmışdır.

Kassasiya şikayətinin və ona qarşı etirazın dəlilləri

a)Kassasiya şikayətinin dəlilləri

23. Cavabdeh (vəkil Hacıyev Fəzail Hacı oğlu) kassasiya şikayəti verərək, apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv edilərək, iddianın rədd edilməsini xahiş etmişdir.

24. Kassasiya şikayəti Mülki Məcəllənin 666-cı maddəsinə istinad edilməklə belə əsaslandırılmışdır ki, apellyasiya instansiyası məhkəməsi iş materiallarındakı səs yazısına sübut kimi düzgün qiymət verməmişdir. Belə ki, həmin səs yazısında “ev iddiaçınındır; evi kişi alar da; kişi aldığını deməz” məzmunlu ifadələr işlədilmişdir ki, bunlar da özlüyündə iddiaçının faktiki nikahda olduğu cavabdehə mübahisəli mənzili hədiyyə etdiyini göstərir.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

25. Kassasiya şikayətinə qarşı etiraz daxil olmamışdır.

Tətbiq edilən hüquq

Azərbaycan Respublikasının Konstitusiyası:

26. Maddə 60, hissə 1. Hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir.

İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Avropa Konvensiyası:

27. Maddə 6, hissə. 1. Hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsi ilə, ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir.

Azərbaycan Respublikasının Mülki Məcəlləsi:

28. Maddə 385.1. Öhdəliyə əsasən bir şəxs (borclu) başqa şəxsin (kreditorun) xeyrinə müəyyən hərəkəti etməlidir, məsələn, pul ödəməli, əmlak verməli, iş görməli, xidmətlər göstərməli və i.a. və ya müəyyən hərəkətdən çəkinməlidir, kreditorun isə borcludan vəzifəsinin icrasını tələb etmək hüququ vardır.

29. Maddə 386.1. Öhdəliyin zərər vurulması, əsassız varlanma və ya bu Məcəllədə nəzərdə tutulmuş digər əsaslar nəticəsində əmələ gəlməsi halları istisna olmaqla, öhdəliyin əmələ gəlməsi üçün onun iştirakçıları arasında müqavilə olmalıdır.

30. Maddə 403.1. Üçüncü şəxsin xeyrinə müqavilə elə müqavilədir ki, onun tərəfləri borclunun icranı müqavilədə göstərilmiş və ya göstərilməmiş, öhdəliyin öz xeyrinə icrasını borcludan tələb etmək hüququ olan üçüncü şəxsə həyata keçirməli olduğunu müəyyənləşdirirlər.

31. Maddə 431.1. Borclu öhdəliyin icrasının onun özündən asılı olduğu hallarda, habelə bunun bu Məcəllədən, müqavilədən və ya öhdəliyin təbiətindən irəli gəldiyi hallarda öhdəliyi şəxsən icra etməlidir. Bütün digər hallarda öhdəliyi borclunun əvəzinə üçüncü şəxs də icra edə bilər və buna borclunun razılığı tələb edilmir.

32. Maddə 666.1. Bağışlama müqaviləsi sağ ikən bağlanan elə müqavilədir ki, onun əsasında hədiyyə verən öz əmlakının bir hissəsini bağışlamaqla hədiyyə alanı zənginləşdirir, həm də bu cür bağışlama hədiyyə alan tərəfindən heç bir cavab xidməti ilə şərtləndirilmir. Bağışlama müqaviləsi hədiyyə alanın hədiyyəni qəbul etməsi ilə bağlanmış sayılır. Əgər bağışlama öhdəliklə şərtləndirilməyibsə, hədiyyənin qəbul edildiyi ehtimal olunur.

33. Maddə 666.2. Bağışlama predmeti əşyalar, hədiyyə verənə və ya üçüncü şəxsə qarşı əmlak hüquqları (tələblər), habelə hədiyyə alanın hədiyyə verən və ya üçüncü şəxs qarşısında əmlak vəzifəsindən azad edilməsi ola bilər.

34. Maddə 673.1. Hədiyyə verən aşağıdakı hallarda bağışlamaqdan imtina edə bilər:

673.1.1. hədiyyə alan hədiyyə verənin və ya onun yaxın qohumunun barəsində ağır cinayət törətdikdə;

673.1.2. hədiyyə alan ailə hüquq münasibətlərinə uyğun olaraq onun üzərinə qoyulmuş vəzifələri hədiyyə verənin və ya onun yaxın qohumlarının biri barəsində kobudcasına pozduqda;

673.1.3. o, bağışlama ilə bağlı öhdəlikləri əsassız olaraq icra etmədikdə.

35. Maddə 673.3. İmtina yalnız onun əsasının hədiyyə verənə məlum olduğu gündən bir il ərzində imtina haqqında bildirişin hədiyyə alana çatdığı halda qüvvədədir.

36. Maddə 673.4. Bağışlamaqdan imtina edildikdə hədiyyə alan, əgər bağışlanmış predmet onun mülkiyyətindədirsə, hədiyyəni qaytarmağa borcludur.

37. Maddə 777.1. Tapşırıq müqaviləsinə görə, tapşırığı həyata keçirməyi öhdəsinə götürən şəxs (vəkalət alan) başqa şəxsin (vəkalət verənin) ona tapşırdığı əqdləri, işləri və ya digər xidmətləri konkret nəticə əldə olunmasına təminat vermədən icra etməyi öhdəsinə götürür.

38. Maddə 782.1. Vəkalət alan tapşırığın icrası nəticəsində əldə olunanların hamısını vəkalət verənə verməyə borcludur.

39. Maddə 1087.1. Özgəsinin (sahibkarın) işlərini tapşırıq və ya digər əsas olmadan aparan şəxs (icraçı) onu vicdanla aparmağa borcludur.

40. Maddə 1087.2. İşlərin tapşırıqsız aparılmasını sonradan sahibkar bəyəndikdə bu bölmənin müddəaları əvəzinə tapşırıq haqqında müddəalar tətbiq olunur.

41. Maddə 1090.1. Əgər işlərin aparılması sahibkarın mənafeyinə və ehtimal olunan istəyinə uyğun gəlirsə, icraçı xərclərin əvəzinin ödənilməsini və öhdəliklərdən azad olunmasını tələb edə bilər. İcraçı lazımi vicdanlılıqla fəaliyyət göstərmişsə, bu qayda işlərin aparılmasının gözlənilən nəticə ilə qurtarmadığı halda da tətbiq olunur.

42. Maddə 1091.1. Əsassız varlanan o şəxs (varlanmış şəxs) sayılır ki, hüquqi əsas olmadan başqa şəxsin (məhrum olanın) hesabına əmlak əldə etsin.

43. Maddə 1091.2. Əsassız varlanma yalnız o zaman baş verir ki, bu cür varlanmaya haqq qazandıran qanuni əsas və ya müqavilə əsası olmur. Hüquqi əsas olmadan varlanma həmçinin o hallarda baş vermiş sayılır ki, bu cür varlanma həyata keçirilməmiş əsasa və ya sonralar aradan qalxmış əsasa söykənir.

44. Maddə 1092.1. Varlanmış şəxs əldə etdiklərini məhrum olanın tələbi ilə ona qaytarmalıdır.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi:

45. Maddə 14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

46. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

47. Maddə 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

48. Maddə 217.1. Məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır.

49. Maddə 217.3. Qətnamə iş üzrə müəyyən edilmiş hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır.

50. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

Kassasiya baxışının hədləri

51. Qanunun tələbinə görə, kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

52. Kassasiya şikayətində qətnamə tam mübahisələndirildiyindən apellyasiya instansiyası məhkəməsinin aktı bütövlükdə yoxlanılır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

53. Baxılan işdə iddiaçı irəli sürdüyü tələbi onunla əsaslandırır ki, cavabdehlə faktiki ailə münasibətlərində yaşadıqları dövrdə cavabdehin adına olan mənzilin və orada olan bəzi daşınar əşyaların alınması üçün pulunu özü ödəmişdir. Sonradan münasibətləri pozulduğundan həmin pulun cavabdehdən alınaraq ona verilməsini istəyir.

54. Cavabdeh isə əmlakın öz vəsaiti hesabına əldə edildiyini bildirərək iddiaya etiraz edir.

55. Sözügedən əşyaların tərəflərdən hansının vəsaiti ilə alınması işdə mübahisəli olduğu üçün məhkəmələr bu xüsusata dair sübutları qiymətləndirərək belə nəticəyə gəlmişlər ki, əmlak iddiaçının vəsaiti hesabına alınmışdır.

56. Bu halı nəzərə alan məhkəmələr hesab etmişlər ki, cavabdeh tərəf kifayət qədər vicdanlı davranmayaraq əmlakı iddiaçıya qaytarmamış, bununla da həmin əmlakın dəyəri məbləğində iddiaçının hesabına əsassız varlanmışdır. İddianın təmin edilməsinin əsası kimi Mülki Məcəllənin 1091-ci və 1092.1-ci maddələrinə istinad olunmuşdur.

57. Kollegiya aşağıdakılara əsasən hesab edir ki, iş üzrə maddi və prosessual hüquq normaları düzgün tətbiq edilməmişdir.

58. Məlum olduğu kimi, hər hansı iddia tələbi üzrə hüquqi dəyərləndirmə prosesi ilk addım kimi iddiaçının tələbinə uyğun gələn qanuni əsasın tapılmasından və məhkəməyə bildirilən faktiki halların həmin əsasın dispozisiya şərtlərinə uyğun olmasının yoxlanılmasından ibarətdir. Əgər irəli sürülmüş iddianın qanuni əsası tapılırsa və faktiki hallar müvafiq maddi hüquq normasının dispozisiya şərtləri ilə uzlaşırsa iddia təmin edilir uzlaşmırsa (yaxud cavabdehin etiraz və müdafiə vasitələrinə təmin olunmalı deyilsə) rədd edilir.

59. Kollegiya onu da qeyd edir ki, tələbin hüquqi əsasının yoxlanılması və tapılması tərəflərin bildirdikləri faktiki hallarla əlaqəli olsa da, iddianın haqlı bir hüquqi səbəbə söykənib-söykənmədiyini müəyyən etmək hakimin vəzifəsidir. Çünki hüququn tətbiqinə bilavasitə hakim cavabdehlik daşıyır və tərəflərin faktlar barəsində hüquqi mövqeyi hakim üçün məcburi deyil. Bu qayda Roma hüququndan gələn "da mihi factum, dabo tibi ius" (mənə faktları ver, sənə uyğun hüququ verim) prinsipinə əsaslanır.

60. Hazırkı işdə məhkəmələr cavabdehin iddiaçının hesabına konkret olaraq hansı əmlak dəyərini (daşınmaz əşya, daşınar əşya, yoxsa onları almaq üçün pul) əldə etdiyini, əldəetmənin hüquqi əsasının, yəni tərəflər arasındakı hüquq münasibətinin həqiqi xarakterinin nədən ibarət olmasını (bağışlama, tapşırıq, üçüncü şəxsin əvəzinə icra, üçüncü şəxsin xeyrinə müqavilə və s.), hətta bağışlama olmuşsa, hədiyyənin geri tələb edilməsi üçün qanunda nəzərdə tutulmuş əsasları müəyyən etməmişlər (təbii ki, sonuncu əsası iddiaçı bildirmiş və sübuta yetirmiş olmalıdır).

61. İşin müəyyən edilmiş hallarından belə məlum olur ki, iddiaçı özü bilavasitə cavabdehə mənzil və ya mebel əşyası verməmişdir. İddia ondan ibarətdir ki, iddiaçı həmin əşyaların alınması üçün pul vəsaiti vermişdir.

62. Belə olan halda irəli sürülmüş tələb, yəni cavabdehin iddiaçı qarşısında iddia olunan öhdəliyi bir neçə qanuni əsasla yoxlanıla bilər.

63. Məlum olduğu kimi, öhdəliyə əsasən bir şəxs (borclu) başqa şəxsin (kreditorun) xeyrinə müəyyən hərəkəti etməli (pul ödəməli, əmlak verməli, iş görməli, xidmətlər göstərməli və s.), yaxud müəyyən hərəkətdən çəkinməlidir. Öhdəlik qanunda nəzərdə tutulmuş əsaslar (əsassız varlanma, özgə işlərini tapşırıqsız aparma və s.) və ya müqavilə nəticəsində əmələ gələ bilər (§ 28-29).

64. Odur ki, iddia tələbinin (buna müvafiq olaraq öhdəliyin) qanuni əsasları yoxlanılarkən əvvəlcə müqavilədən irəli gələn, sonra müqavilə münasibətlərinə oxşar (məsələn, özgə işlərini tapşırıqsız aparma), daha sonra isə qanundan irəli gələn əsaslar yoxlanılmalıdır.

65. Baxılan işdə həm iddiaçının bildirdiklərinə, həm də apellyasiya məhkəməsinin iddiaçının dedikləri ilə eyni istiqamətdə olan "cavabdehin vicdanlı davranmayaraq əmlakı iddiaçıya qaytarmaqdan imtina etməsi" mövqeyinə münasibətdə qeyd olunmalıdır ki, bu nəticəyə gəlmək üçün əvvəlcə cavabdehin iddiaçı qarşısında belə bir öhdəliyinin olması sübuta yetirilməlidir.

66. Bu baxımından ilk növbədə nəzərdən keçirilə biləcək hüquqi əsaslardan biri tapşırıq müqaviləsidir.

67. Tapşırıq müqaviləsinə görə, tapşırığı həyata keçirməyi öhdəsinə götürən şəxs (vəkalət alan) başqa şəxsin (vəkalət verənin) ona tapşırdığı əqdləri, işləri və ya digər xidmətləri konkret nəticə əldə olunmasına təminat vermədən icra etməyi öhdəsinə götürür. Vəkalət alan tapşırığın icrası nəticəsində əldə olunanların hamısını vəkalət verənə verməyə borcludur (§ 37-38).

68. O da nəzərə alınmalıdır ki, aralarında tapşırıq müqaviləsindən doğan münasibətin olduğunu iddia edən tərəf bu halı sübuta yetirməyə borcludur.

69. Baxılan işdə isə məhkəmələr cavabdehin əldə etdiyi əmlakı sonradan iddiaçının mülkiyyətinə keçirəcəyi barədə tərəflər arasında tapşırıq müqaviləsindən irəli gələn hüquq münasibətini və bu çərçivədə cavabdehin iddiaçı qarşısında öhdəlik daşımasını müəyyən etməmişlər.

70. Məhkəmə tərkibi onu da nəzərə alır ki, pul vəsaitinin cavabdehin mənafeyi naminə (məsələn, əmlak alınması üçün) başqa şəxs(lər)ə verilməsi də mümkündür. Bu kimi hallar baxımından "öhdəliyin üçüncü şəxs tərəfindən icrası" və ya "üçüncü şəxsin xeyrinə müqavilə"

institutları nəzərdən keçirilə bilər. Bu institutlar mahiyyəti və nəticələri etibarilə bir-birindən əhəmiyyətli şəkildə fərqlənir.

71. Belə ki, Mülki Məcəllənin 431.1-ci maddəsinə əsasən, öhdəliyi borclunun şəxsən icra etməli olduğu hallar istisna olmaqla, onun əvəzinə üçüncü şəxs də icra edə bilər və buna borclunun razılığı tələb edilmir (§ 31).

72. Bu halda borclunun kreditor qarşısında bir qayda olaraq, özünün yerinə yetirməli olduğu öhdəlik üçüncü bir şəxs tərəfindən icra edilmiş olur: məsələn, alıcının əşyanın dəyərini satıcıya ödəmək borcunu başqa bir şəxsin yerinə yetirməsi.

73. Öhdəliyi üçüncü şəxsin icra etməsi borclu ilə üçüncü şəxs arasındakı müxtəlif məzmunlu hüquq münasibətlərindən - xidmət, tapşırıq, bağışlama müqaviləsi və ya üçüncü şəxsin xeyrinə müqavilədən irəli gələ bilər. Belə müqavilə münasibətləri olmadan və hətta borclunun məlumatı xaricində, lakin onun mənafeyi naminə icra isə özgə işlərini tapşırıqsız aparma hesab edilir. Bu halda kreditoru təmin edən üçüncü şəxs qanun əsasında kreditorun yerinə keçməklə onun xələfi olur, borclu isə üçüncü şəxsin qarşısında öhdəlik daşıyır.

74. Öhdəliyi icra edilmiş borclunun, kreditoru təmin edən üçüncü şəxsin icrasını bəyəndiyi təqdirdə tapşırıq müqaviləsi, əks halda özgə işlərini tapşırıqsız aparma qaydaları çərçivəsində öhdəlik daşıması, icraçının da mənafeyinə uyğun iş görülmüş şəxsdən xərclərin əvəzinin ödənilməsini tələb etmək hüququ MM-in 1087.2-ci və 1090.1-ci maddələrində nəzərdə tutulmuşdur (§ 40-41).

75. Bununla belə, qeyd olunan normaların şərtləri ona istinad edən şəxs tərəfindən sübuta yetirilmədiyi təqdirdə məhkəmə, göstərilən maddələr çərçivəsində cavabdehin iddiaçı qarşısında öhdəliyinin mövcud olması nəticəsinə gələ bilməz.

76. Üçüncü şəxsin xeyrinə müqavilə isə elə müqavilədir ki, onun tərəfləri borclunun icranı müqavilədə göstərilmiş və ya göstərilməmiş, öhdəliyin öz xeyrinə icrasını borcludan tələb etmək hüququ olan üçüncü şəxsə həyata keçirməli olduğunu müəyyənləşdirirlər (§ 30).

77. Bu halda müqavilə tərəfləri belə bir məzmunda razılaşırlar ki, borclu öz öhdəliyini müqavilənin tərəfi olan kreditorun deyil, üçüncü bir şəxsin xeyrinə icra etməli olur. Məsələn, əşyanın dəyərini ödəyən alıcı (kreditor), satıcı ilə bağladığı müqavilədə razılaşırlar ki, satıcı (borclu) əşyanın mülkiyyətini üçüncü bir şəxsə keçirəcəkdir. Belə müqavilə bir qayda olaraq, üçüncü şəxsə bağışlama və ya kreditorun onun qarşısında olan öhdəliyindən qurtulması (üçüncü şəxsə bir əmlak dəyəri qazandırmaq) məqsədilə bağlanır. Bu səbəbdən üçüncü şəxsin əldə etdiyi əmlakı və ya onun dəyərini kreditora qaytarmaq öhdəliyi olmur. Üçüncü şəxs özünün iradəsi olmadıqda həmin münasibətlər çərçivəsində ümumiyyətlə hər hansı öhdəlik altına düşmür.

78. Odur ki, baxılan işin hallarında bu xarakterli faktiki münasibətlər təsbit edilərsə, göstərilənlər nəzərə alınmalıdır.

79. Nəhayət (bu iş üzrə iddianın təmin olunmasının əsası kimi istinad edilən), qanundan irəli gələn öhdəlik kimi əsassız varlanmaya gəldikdə, ilk növbədə qeyd edilməlidir ki, məhkəmələr işin müəyyən olunmuş hallarının Mülki Məcəllənin 1091-ci maddəsinin şərtlərinə uyğun olmasını lazımi şəkildə yoxlamamış, bu istiqamətdə əsaslandırılmış bir qiymətləndirmə aparmamışlar.

80. Belə ki, məhkəmələr işin araşdırılması zamanı əsas diqqəti alınmış əşyaların pulunun kim tərəfindən ödənilməsini müəyyən etməyə ayırmışlar. Nəticədə pul vəsaitini iddiaçının ödədiyini müəyyən etməklə bu qənaətə gəlmişlər ki, mövcud vəziyyətdə cavabdeh əmlakı iddiaçıya qaytarmadığı üçün əsassız varlanmış sayılır.

81. Halbuki, qeyd edilənlər bir şəxsin başqasının hesabına əsassız varlanması nəticəsinə gəlmək üçün kifayət deyil. Bunun üçün hüquqi dəyərləndirmə yuxarıda qeyd olunduğu kimi, normanın şərtlərinə uyğun şəkildə aparılmalıdır.

82. Mülki Məcəllənin 1091-ci və 1092.1-ci maddələrinə görə, əsassız varlanan o şəxs (varlanmış şəxs) sayılır ki, hüquqi əsas olmadan başqa şəxsin (məhrum olanın) hesabına əmlak əldə etsin. Əsassız varlanma yalnız o zaman baş verir ki, bu cür varlanmaya haqq qazandıran qanuni əsas və ya müqavilə əsası olmur. Hüquqi əsas olmadan varlanma həmçinin o hallarda baş vermiş sayılır ki, bu cür varlanma həyata keçirilməmiş əsasa və ya sonralar aradan qalxmış əsasa söykənir. Varlanmış şəxs əldə etdiklərini (və ya onların dəyərini) məhrum olanın tələbi ilə ona qaytarmalıdır (§ 42-44).

83. Göründüyü kimi, əsassız varlanma çərçivəsində tələbin haqlı sayılması üçün məhkəmə tərəfindən iş üzrə aşağıdakı şərtlər müəyyən edilməlidir: cavabdehin əmlak əldə etməsi; həmin əmlakı iddiaçının əmlakı hesabına əldə etməsi; əldəetmə üçün qanundan və ya müqavilədən irəli gələn heç bir əsasın olmaması, yaxud bu cür varlanmanın həyata keçirilməmiş əsasa və ya sonralar aradan qalxmış əsasa söykənməsi. Qeyd olunan şərtlərin hər üçü eyni zamanda mövcud olmalıdır. Onlardan hər hansı birinin aşkar edilməməsi tələbin rədd edilməsi üçün əsasdır.

84. Baxılan işdə cavabdehin əldə etdiyi əmlakın iddiaçının hesabına qazandığı sübuta yetirilmiş olsa belə, bu hallar iddianın əsassız varlanma çərçivəsində təmin edilməsi üçün kifayət deyil. Bunun üçün növbəti dispozisya şərti - əldəetmə üçün qanundan və ya müqavilədən irəli gələn heç bir əsasın olmaması, yaxud belə əsasın sonradan aradan qalxması və ya əmlak verilərkən nəzərdə tutulan məqsədin hasil olmaması (həyata keçməməsi) müəyyən edilməlidir.

85. Həmin şərt özündə onu ehtiva edir ki, əmlak qanunda nəzərdə tutulan hər hansı bir əsasla (məsələn, vərəsəliklə, vurulmuş zərərin təzminatı olaraq və s.), yaxud tərəflər arasında bağlanmış müqavilə (bağışlama, üçüncü şəxsin xeyrinə müqavilə və s.) ilə əldə edilirsə, bu cür qazanılma (varlanma) əsassız sayılmır, əsaslı hesab edilir. Əsası olan bir varlanma isə mülki hüquq sisteminin yol verdiyi - qanuni əmlak artımıdır və bu qaydada varlanmış şəxs əmlakı ona verən qarşısında əldə etdiyi predmetləri və ya onun dəyərini geri qaytarmaq öhdəliyi daşımır.

86. Baxılan işdə əgər iddiaçı pul vəsaitini cavabdehin özünə vermişsə, cavabdehin əldə etdiyi əmlakın tərəflərin müəyyən olunmuş faktiki münasibətləri fonunda bağışlama mahiyyətində olub-olmadığının araşdırılması işin düzgün həlli üçün əhəmiyyətli olmuşdur.

87. Bağışlama müqaviləsi sağ ikən bağlanan elə müqavilədir ki, onun əsasında hədiyyə verən öz əmlakının bir hissəsini bağışlamaqla hədiyyə alanı zənginləşdirir, həm də bu cür bağışlama hədiyyə alan tərəfindən heç bir cavab xidməti ilə şərtləndirilmir. Bağışlama predmeti əşyalar, hədiyyə verənə və ya üçüncü şəxsə qarşı əmlak hüquqları (tələblər), habelə hədiyyə alanın hədiyyə verən və ya üçüncü şəxs qarşısında əmlak vəzifəsindən azad edilməsi ola bilər (§ 32-33).

88. Ümumi prinsip ondan ibarətdir ki, borclu olmadığını bilərək pul və ya digər əmlak verən bir kəsin bağışlama düşüncəsi ilə hərəkət etdiyi qəbul edilir (qui sciens solvit indebitum, donandi consilio id videtur fecisse).

89. Bu prezumpsiya nəzərə alındıqda, onun əksini (verilənlərin bağışlama olmadığını) iddia edən tərəf öz iddiasını sübuta yetirməyə borcludur.

90. Baxılan işdə iddiaçı, sözügedən pul vəsaitini cavabdehə bağışlama düşüncəsi ilə vermədiyinə istinad edirsə, həmin halı sübut etmək yükü iddiaçının üzərinə düşür.

91. Bu xüsusat yoxlanılarkən tərəflərin təqdim etdikləri sübutlar pul vəsaitinin verildiyi zaman, həmin ərəfədə tərəflərin həqiqi münasibətinin xarakteri, vəsaitin hansı niyyətlə verilməsi, sonrakı davranışları və işin digər diqqətəlayiq halları nəzərə alınmaqla qiymətləndirilməlidir.

92. Bağışlamadan başqa bir hüquq münasibəti aşkar edilmədiyi, yəni cavabdehin mübahisəli əmlakı hədiyyə olaraq əldə etdiyi bəlli olduqda onun həmin əmlakı iddiaçıya qaytarmaq öhdəliyi, yalnız (iddia və sübut edildiyi təqdirdə) bağışlama müqaviləsinin ləğv edilməsindən irəli gələ bilər.

93. Mülki Məcəllənin bu münasibətləri tənzimləyən 673.1-ci maddəsinə əsasən, hədiyyə alan hədiyyə verənin və ya onun yaxın qohumunun barəsində ağır cinayət törətdikdə, hədiyyə alan ailə hüquq münasibətlərinə uyğun olaraq onun üzərinə qoyulmuş vəzifələri hədiyyə verənin və ya onun yaxın qohumlarının biri barəsində kobudcasına pozduqda və ya o, bağışlama ilə bağlı öhdəlikləri əsassız olaraq icra etmədikdə hədiyyə verən bağışlamaqdan imtina edə bilər (§ 34).

94. Nəzərə alınmalıdır ki, bağışlama hədiyyə verənin hədiyyə alanla olan münasibətlərinin hər hansı pozuntusuna görə ləğv edilə bilməz. Məhz yuxarıda sadalanan konkret əsas(lar)ın mövcudluğu, özü də qanunla müəyyən edilmiş bir illik kəsici müddət daxilində (§ 35) hədiyyə verənin müqaviləni ləğv etdiyi sübuta yetirildikdə bağışlamaqdan imtinaya yol verilir. Məhz bu halda hədiyyə alan, əgər bağışlanmış predmet onun mülkiyyətindədirsə, hədiyyəni qaytarmağa borclu olur (§ 36). Əks təqdirdə bağışlanmış əmlakın geri tələb edilməsinə yol verilmir.

95. Baxılan işdə iddia tərəfinin Mülki Məcəllənin 673.1-ci maddəsində sadalanan əsaslardan hər hansı birinə istinadı və sübuta yetirməsi müəyyən edilməmişdir.

96. Beləliklə, əgər şəxs mübahisəli əmlakı bağışlama müqaviləsi əsasında əldə etmişsə, eləcə də qanunda nəzərdə tutulan əsasla bağışlamadan imtina olunduğu sübuta yetirilməmişsə, varlanmış şəxs həmin əmlakı əsassız deyil, bağışlama müqaviləsi əsasında qazanmış sayılır. Bu hal isə əsassız varlanmanın zəruri əlamətinin - əldəetmə üçün qanundan və ya müqavilədən irəli gələn bir əsasın olmaması şərtinin təsbit olunmadığını göstərir.

97. Baxılan işdə məhkəmələrin bu şərti müəyyən etmədən iddianı Mülki Məcəllənin 1092.1-ci maddəsinə əsasən təmin etmələri əsaslı olmamışdır. Başqa sözlə, həmin maddi hüquq norması işə səhv tətbiq edilmişdir.

98. Beləliklə, yuxarıda qeyd edilənlər qətnamənin işin hallarına, tərəflərin qarşılıqlı münasibətinə və qanunvericiliyə uyğun əsaslandırılmadığına dəlalət edir (§ 48-49).

99. Nəzərə alınmalıdır ki, məhkəmə aktlarının əsaslandırılmış olması qəbul edilmiş qərarın iş üzrə tərəflərdə qanuni və ədalətli olduğuna inam yaratmaqla yanaşı, ümumilikdə məhkəmə hakimiyyətinə olan etimadın möhkəmlənməsinə xidmət edir.

100. Məhkəmə kollegiyası vurğulayır ki, iş üzrə əhəmiyyət kəsb edən halları müəyyən etmədən və onlara aidiyyəti hüquq normalarının dispozisiya şərtləri əsasında qiymət vermədən, səthi və formal mülahizələrlə iddianın həlli barədə çıxarılmış qətnamə əsaslandırılmış məhkəmə aktı kimi qəbul edilə bilməz. Məhkəmə qərarlarının qanunvericiliyin tələblərinə əməl olunmadan, əsaslandırılmamış qaydada çıxarılması həmin qərarları ədalət mühakiməsinin aktı kimi qəbul etməyə imkan vermir.

101. Bu qaydalara riayət edilməməsi Azərbaycan Respublikasının Konstitusiyasının 60cı maddəsi ilə təminat verilən hüquq və azadlıqların məhkəmə müdafiəsi hüququnun, İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Avropa Konvensiyasının 6cı maddəsində əks olunmuş ədalətli məhkəmə araşdırması hüququnun pozulmasına dəlalət edir (§ 26-27).

102. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumu qərarlarında vurğulamışdır ki, məhkəmə, özü tərəfindən müəyyən olunmuş işin hallarını və qənaətini formalaşdıran sübutları, bu və ya digər sübutları rədd etmək üçün istinad etdiyi dəlilləri və rəhbər tutduğu qanunları qətnamədə göstərməklə onun hüquqi cəhətdən əsaslandırmalıdır. Məhkəmə sübutları sadalamaqla kifayətlənməməli, hər bir sübutun, o cümlədən şahid ifadələrinin məzmunu qətnamədə şərh edilməli, sübutlar əlaqələndirilməli, araşdırılan sübutların qəbul edilib-edilməməsinin səbəbləri aydın göstərilməlidir. Məhkəmələr tərəfindən qəbul edilmiş qərarlarda həll olunan işə aid bütün zəruri məsələlərə aydınlıq gətirilməli, ziddiyyətli məqamlar aradan qaldırılmalıdır (S.Əliyevanın şikayəti üzrə 31 may 2006-cı il tarixli, N.Əbilovun şikayəti üzrə 13 iyun 2008-ci il tarixli qərarlar).

103. Bu səbəbdən Kollegiya hesab edir ki, cavabdehin kassasiya şikayəti qismən təmin olunmalı, apellyasiya instansiyası məhkəməsinin qətnaməsi ləğv edilməli, apellyasiyanın baxış predmeti olan tələblərin yuxarıda göstərilən hüquq normaları əsasında yenidən araşdırılması və nəticəsindən asılı olaraq müvafiq qərarın qəbul edilməsi üçün iş yeni apellyasiya baxışına göndərilməlidir.

104. Göstərilənlərə əsasən və MPM-in 416, 417 və 419-cu maddələrini rəhbər tutaraq, Məhkəmə kollegiyası

Qərara aldı:

Kassasiya şikayəti qismən təmin edilsin.

Şəki Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(107)-1297/2024 nömrəli, 21 noyabr 2024-cü il tarixli qətnaməsi ləğv edilsin və iş yeni apellyasiya baxışına qaytarılsın.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

Mülki hüquq pozuntuları (deliktlər)

39. 2(102)-1109/2025 nömrəli, 2025-ci il 13 may tarixli qərar – zərərin ödənilməsi tələblərinə baxılarkən zərərin əvəzinin hansı üsulla ödənilməsinin (naturada və ya vurulmuş zərərin əvəzinin pul kompensasiyası ilə ödənilməsi yolu ilə) məhkəmə tərəfindən müəyyənləşdirilməsinin mümkünlüyü.

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu:

İddiaçı mülkiyyətində olan qeyri-yaşayış sahəsinin cavabdeh tərəfindən qanunsuz sökülməsinə istinad edərək, həmin əmlakın cavabdeh tərəfindən bərpa edilərək ona təhvil verilməsi barədə iddia qaldırmışdır.

Apellyasiya instansiyası məhkəməsi cavabdeh tərəfindən iddiaçının mülkiyyət hüququna müdaxilə faktını müəyyən etsə də, zərərin naturada bərpa yolu ilə aradan qaldırılması mümkün olmadığını əsas gətirməklə iddianı rədd etmiş və iddiaçıya dəymiş zərərə görə pul kompensasiyası ilə bağlı yeni iddia irəli sürmək hüququnu izah etmişdir.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Məhkəmə kollegiyası bu mövqe ilə razılaşmayaraq qeyd etmişdir ki, iddianın predmeti dedikdə, iddiaçının barəsində qərar qəbul olunmasını xahiş etdiyi subyektiv hüquq, iddianın obyekti dedikdə isə əldə etməyə çalışdığı maddi nemət (pul məbləği, qeyri-yaşayış sahəsi və sair konkret əmlak) başa düşülür (Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun 27.08.2012-ci il tarixli qərarı).

Hazırkı halda iddianın predmetini iddiaçının mülkiyyət hüququndan məhrum edilməsi nəticəsində vurulmuş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ təşkil edir. Zərərin əvəzinin naturada əmlakın bərpa edilməsi yolu ilə ödənilməsinə dair tələb iddianın obyekti olmaqla zərərin ödənilməsinin qanunla müəyyən edilmiş üsullarından biridir.

Mülki qanunvericilikdə zərərin əvəzinin ödənilməsinin müxtəlif üsulları nəzərdə tutulmuşdur: naturada bərpa (zədələnmiş və ya məhv edilmiş əmlakın bərpası, eyni növlü və eyni keyfiyyətli digər əmlakın verilməsi), pul kompensasiyası və s.

Mülki Məcəllənin 1115-ci maddəsində zərər vurulmuş şəxsə zərərin əvəzinin hansı üsulla ödənilməsini (naturada və ya vurulmuş zərərin əvəzinin pul kompensasiyası ilə ödənilməsi yolu ilə) işin hallarına uyğun olaraq müəyyənləşdirmək səlahiyyəti məhkəməyə aid edilmiş, eyni zamanda Məcəllənin 459.5-ci maddəsində nəzərdə tutulmuşdur ki, ilkin vəziyyətin bərpası yolu ilə zərərin əvəzinin ödənilməsi mümkün deyildirsə və ya bunun üçün tənasübsüz surətdə böyük xərclər zəruridirsə, kreditora pul əvəzi verilməlidir. Mülki Prosessual Məcəllənin 220.6-cı maddəsində isə məhkəmənin qəbul etdiyi qətnamənin icra qaydasını müəyyən etmək səlahiyyəti göstərilmişdir.

Göstərilənlərə əsasən kollegiya hesab etmişdir ki, məhkəmə iddiaçıya vurulmuş zərərin naturada əmlakın bərpası yolu ilə ödənilməsini mümkün hesab etmədiyi halda, zərərin əvəzinin ödənilməsinin digər üsulunu - cavabdeh tərəfindən pul əvəzinin (kompensasiyanın) verilməsi üsulunu, o cümlədən, kompensasiyanın məbləğini tərəflərlə müzakirə edilməli, məbləğlə bağlı mübahisə olduğu təqdirdə qanunvericilikdə nəzərdə tutulmuş prosessual vasitələrdən istifadə edilməklə mübahisə həll edilməlidir.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-1109/2025

13.05.2025-ci il Bakı şəhəri

Azərbaycan Respublikası adından

Azərbaycan Respublikası Ali Məhkəməsi
Mülki kollegiyasının

Iddiaçının cavabdeh "XXX" MMC və Cavabdeh 1-ə qarşı iş üzrə

Q Ə R A R I

Açar sözlər: Mülkiyyət hüququnun müdafiəsi (vindikasiya), delikt nəticəsindən vurulmuş maddi və mənəvi ziyanın ödənilməsi, naturada bərpa

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Baxışova Vüsalə Ələkbər qızı (məruzəçi), Babayev Zəki Baba oğlu və Əliyev Zaur Əli oğlundan ibarət tərkibdə,

Iddiaçının cavabdeh "XXX" MMC-yə qarşı "əmlakın qeyri-qanuni sahiblikdən geri alınması, əmlak üzərində mülkiyyət hüquqlarının bərpa edilməsi, maddi və mənəvi ziyanın ödənilməsi" tələbinə dair mülki iş üzrə Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(103)-3852/2024 nömrəli, 18 dekabr 2024-cü il tarixli qətnaməsindən iddiaçı tərəfindən verilmiş kassasiya şikayətinə 13 may 2025-ci il tarixdə Ali Məhkəmənin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları

1. Ünvan 1-də yerləşən avtoyuyucu kimi fəaliyyət göstərmiş, dövlət mülkiyyətində olan torpaq sahəsində yerləşmiş sahəsi 67,2 kv.m olan qeyri-yaşayış sahəsi üzərində iddiaçının xüsusi mülkiyyət hüququ xx.xx.2014-cü il tarixdə daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmışdır.
2. Ünvan 2 əmlak kompleksi kimi müəssisə üzərində "XXX" MMC-nin xüsusi mülkiyyət hüququ xx.xx.2015-ci il tarixdə qeydiyyata alınmışdır.
3. "XXX" MMC-nin xüsusi mülkiyyətində olan qeyri-yaşayış sahəsi (şadlıq sarayı) inşa edilərkən iddiaçının mülkiyyətində olan avtoyuyucu onun öz razılığı ilə əvəzinin ödənilməsi şərti ilə sökülmüş, lakin bunun müqabilində iddiaçıya kompensasiya ödənilməmişdir.
4. Hazırda sökülmüş avtoyuyucunun yerləşdiyi torpaq sahəsi «XXX» şadlıq sarayının ön hissəsindəki əraziyə düşür.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a) Birinci instansiya məhkəməsində icraat

5. İddiaçı cavabdehlər "XXX" MMC və Cavabdeh 1-ə qarşı iddia qaldıraraq mülkiyyətində olan qeyri-yaşayış sahəsinin (avtoyuyucu) istifadədə olan torpaq sahəsi ilə birlikdə boşaldılaraq cavabdehin qanunsuz sahibliyindən alınmasını, həmin qeyri-yaşayış sahəsini çıxarışda və texniki pasportda göstərilən qaydada bərpa etmək vəzifəsinin və bununla bağlı bütün xərclərin cavabdehin üzərinə qoyulması, vurulmuş maddi ziyana və əldən çıxmış faydaya görə 180000 manat məbləğində pulun, vurulmuş mənəvi ziyana görə 100000 manat məbləğində pulun cavabdehdən onun xeyrinə tutulmasını xahiş etmişdir.
6. X1 mübahisə predmeti barəsində müstəqil tələb irəli sürməyən üçüncü şəxs qismində cəlb edilmişdir.
7. İddiaçı iddia tələbini onunla əsaslandırmışdır ki, 2014-cü il tarixdə ona məxsus olan Ünvan 1 ünvanında yerləşən (ü/s-67,2 kv.m tik.alt 0,00816 ha) mübahisə predmeti olan qeyri-yaşayış sahəsinin arxa hissəsində boş olan torpaq sahəsində tikinti işləri aparaq indiki "XXX" şadlıq evini tikməyə başlamışlar. 2015-ci ildə tikili sonlanan zaman üçüncü şəxs X1 və cavabdeh 1 şifahi qaydada ona məxsus olan əmlakı boşaltması və bunun müqabilində ona başqa ərazidən dəyəri 350.000 manat olan DƏDRX-dən qeydiyyatdan keçmiş torpaq alacağı təklif etmiş, o da aralarında uzun müddət iş birliyi və dostluq münasibəti olduğundan razılaşmışdır. Lakin ona heç bir vəsait ödənilməmişdir. Cavabdehlər sökdükləri qeyri-yaşayış sahəsini bu günədək "XXX Hall" şadlıq evinin ödənişli dayanacağı kimi istifadə edərək gəlir əldə edirlər. "XXX" MMC-nin qanuni təmsilçisi kimi Cavabdeh 1i cavabdeh olaraq iddia ərizəsində göstərməklə Bakı şəhəri Nizami Rayon Məhkəməsinə iddia ərizəsi ilə müraciət etmişdir və Nizami Rayon Məhkəməsinin 2(007)2498/2021 saylı 15.11.2021-ci il tarixli qətnaməsi ilə iddia tələbi rədd edilmiş və o, həmin qətnamədən apellyasiya şikayəti verərək, qətnamənin ləğv edilməsini və iddia ərizəsinin təmin edilməsini xahiş etmişdir. Bakı

Apellyasiya Məhkəməsinin 2(103)-2742/2022 saylı 13.04.2022-ci il tarixli qətnaməsi ilə qətnamə ləğv edilərək, iddia tələbi rədd edilmişdir. Belə ki, apellyasiya instansiya məhkəməsi tərəfindən qətnamənin və iddia tələbinin rədd edilməsi ilə bağlı gəldiyi əsas nəticə ondan ibarət olmuşdur ki, iddiaçı tərəfindən cavabdehin və müstəqil tələb irəli sürən üçüncü şəxsin düzgün seçilməməsi və işə baxan birinci instansiya məhkəməsi tərəfindən düzgün hüquqi qiymət verilmədən prosessual pozuntu etməsi səbəb olmuşdur. Həmçinin apellyasiya instansiyası məhkəməsi öz qətnaməsində ona izah etmişdir ki, o, hazırki iddiasına cavab verməli olan əsl cavabdehə qarşı hazırki iddia tələbi ilə məhkəməyə müraciət edə bilər. Keçən 7 il ərzində obyektindən əvəzsiz istifadə etmə nəticəsində ona əldən çıxmış fayda qismində 180.000 manat məbləğində maddi ziyan dəymişdir. Eyni zamanda keçən müddət ərzində mülkiyyətini geri almaq üçün cavabdehlə apardığı danışıqlar prosesində, cavabdehin ona təzyiqləri nəticəsində, mənəvi cəhətdən ailəvi olaraq olduqca böyük sarsıntılar keçirib və maddi baxımdan da ailəvi olaraq çox pis vəziyyətə düşmüşlər. Cavabdeh isə avtoyuyucunu sökərək öz ərazisinə qatmış və oradan pullu dayanacaq kimi istifadə edərək qazanc əldə etməkdədir. Göründüyü kimi, cavabdeh onun mülkiyyətini kobud şəkildə mənimsəmişdir. Buna görə də, cavabdeh mülkiyyətindən məcburi qaydada çıxarılmalı və ona məxsus olan obyekti texniki pasportda göstərilən qaydada bərpa etmək vəzifəsi üzərinə qoyulmalıdır. Cavabdeh ona məxsus olan mülkiyyətini qaytarmaq əvəzinə, onu sökərək pullu dayanacaq kimi istifadə edərək pul qazanır ki, bu da onun qanunla qorunan mülkiyyət hüququnu birbaşa pozaraq əsassız varlanma hesabına onun əmlakının hesabına pul əldə edir.

8. Cavabdeh "XXX" MMC iddia tələbinə qarşı etiraz verərək qeyd etmişdir ki, hər iki iddia ilə bağlı iş üzrə “XXX” MMC və Iddiaçı tərəfdirlər. Mübahisəli qeyri-yaşayış tikilisi ilə bağlı tələblərin əsasları da eyni olmuşdur. İddianın predmetinin aid olduğu X2 məxsus adı çəkilən 67,2 kv.m tikilinin olduğu yerin “XXX” MMCyə məxsus və istifadəsində olan torpaq sahəsindən kənarda yerləşməsi halının müəyyən edildiyinə dair artıq qanuni qüvvəsində olan Bakı Apellyasiya Məhkəməsinin 13.04.2022-ci il tarixli qətnaməsi mövcuddur. Bu baxımdan da qeyd olunan halın yenidən araşdırılması yol verilməzdir və qanuni qüvvəsində olan qətnamədə müəyyən edildiyi kimi qəbul edilməsi hazırkı işə baxan məhkəmə üçün məcburi prosessual tələbdir. Ona görə də, məhkəmədən iddia ərizəsinə baxılarkən, qeyd olunanların nəzərə alınmasını və iddianın əsassız olduğundan rədd edilməsini xahiş etmişdir.

9. Bakı şəhəri Nizami rayon Məhkəməsinin 21.09.2022-ci il tarixli, 2(007)-2144/2022 nömrəli qətnaməsi ilə (hakim Qumru Əliyeva) iddia tələbi təmin edilməmişdir.

10. Məhkəmə gəldiyi nəticəni onunla əsaslandırmışdır ki, Ünvan 2 ünvanında yerləşən 1,97082 ha torpaq sahəsi və üzərində olan 7255 kv.m tikili, əmlak kompleksi bu günədək cavabdeh “XXX” Məhdud Məsuliyyətli Cəmiyyətinin xüsusi mülkiyyətindədir və cəmiyyət mülkiyyətində olan əmlak üzərində müstəqil şəkildə mülkiyyət hüquqlarını həyata keçirir. İddiaçı məhkəməyə təqdim etdiyi iddiasında və iddia tələbinin artırılması barədə ərizədə göstərmişdir ki, cəmiyyət mübahisə predmeti olan əmlakı cəmiyyətə məxsus əmlak kimi göstərərək xx.xx.2015-ci il tarixdə qanunsuz olaraq çıxarış almışdır. Lakin göstərilən hallar məhkəmə araşdırması zamanı öz təsdiqini tapmamış, həmçinin bundan əvvəlki məhkəmə araşdırması zamanı da müəyyən edilmişdir ki, iddiaçıya məxsus və hazırda mübahisələndirilən əmlak “XXX” Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus əmlakdan kənarda yerləşir və cəmiyyət iddiaçının mülkiyyətində olan əmlakı öz əmlakına əlavə etməmişdir.

11. Məhkəmə öz mövqeyini Azərbaycan Respublikası Mülki Məcəlləsinin 148.2, 152.1, 157.2, 157.5-ci maddələrinə, Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsinin

1-ci, 29-cu maddənin 2-ci hissələrinə, Mülki Prosessual Məcəllənin 14.2, 77.1-ci maddələrinə istinad etməklə əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsindəki birinci icraat

12. İddiaçı apellyasiya şikayəti verərək qətnamənin ləğv edilib, iddianın təmin edilməsini xahiş etmişdir.

13. Apellyasiya şikayəti iddia ərizəsi ilə eyni dəlillərlə əsaslandırılmış, əlavə olaraq qeyd edilmişdir ki, torpaq sahəsinin hansı əraziləri əhatə etməsi və onun koordinatlarının müəyyən olunması ilə bağlı ekspertizanın keçirilməsi üçün məhkəməyə təqdim etdiyi vəsatət məhkəmə tərəfindən təmin edilmədiyi üçün özü DƏDRX-nə müraciət etmiş və buna müvafiq olaraq ona verilmiş arayışda G tikintisinin (avtoyuyucunun) ona aid olması, sonradan notarial bölgüyə əsasən avtoyuyucunun yeni ünvan alaraq ayrılması, bölgü sxeminə əsasən avtoyuyucunun binasının faktiki "XXX" MMC-nin istifadəsində olan 4.105 ha torpaq sahəsinin hüdudları daxilində yerləşdiyini, lakin hal-hazırda qeyd olunan sökülən avtoyuyucunun binasının arxivdə olan döngə nöqtələrinin koordinatlarının digər qonşuluqda olan "Şərq" şadlıq sarayının ərazisinə düşdüyü, arxiv koordinatların düzgün göstərilmədiyi, ortofotonun 2008-ci il görüntüsünə əsasən arxiv koordinatlarının səhv olduğunun müəyyən edilmədiyini göstərərək koordinatların tərtib olunaraq akta əlavə olunub ona təqdim ediləcəyi qeyd olunmuşdur.

14. Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)-688/2023 nömrəli, 20.02.2023-cü il tarixli qərardadı ilə məhkəmə-tikinti ekspertizası təyin edilmişdir, rəydə qeyd edilmişdir ki, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri publik hüquqi şəxsi 1 saylı Bakı Ərazi İdarəsinin mütəxəssis rəyinə əsasən, Ünvan 3 ünvanında yerləşən (81.6 kv.m) torpaq sahəsinin koordinatları ilə Ünvan 2 ünvanında yerləşən "XXX" MMCnin mülkiyyətində olan 1.97082 ha torpaq sahəsinin koordinatlarının üst-üstə düşmədiyi müəyyən edilir. Baxış zamanı əldə olunmuş məlumatlar əsasında hesablama aparılaraq "XXX" MMC-nin faktiki istifadəsi kimi təqdim olunan sahənin 19.712,07 kv.m təşkil etməsi müəyyən edilmişdir. Mütəxəssis rəyinə əsasən, xx.xx.2007-ci il tarixli ******** saylı daşınmaz əmlakın alqı-satqı müqaviləsi ilə X3ün istifadəsində olmuş 2 mərtəbəli ümumi sahəsi 4320.9 kv.m, tikintialtı sahəsi 1323.8 kv.m olan A1 tikilisinin "XXXX" firmasının istifadəsində olmuş 4.1052 ha torpaq sahəsinin daxilində olduğu və

********** qeydiyyat nömrəli, xx.xx.2009-cu il tarixli çıxarışla və Azərbaycan Respublikasının Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsinin **** nömrəli xx.xx.2009-cu il tarixli alqı-satqı müqaviləsi ilə ünvan 2 (4.1052 ha torpaq sahəsinin bir hissəsində yerləşmiş) "XXXX" firmasının mülkiyyətinə verilmiş 1.97082 ha torpaq sahəsinin daxilində yerləşdiyi müəyyən edilmişdir. Mütəxəssis rəyinə əsasən, arxiv qovluqda mövcud olan xx.xx.2007-ci il tarixli **********-*** reyestr nömrəli texniki pasporta əsasən ümumi sahəsi 7553.6 kv.m, əsas sahəsi 4069.0 kv.m və köməkçi sahəsi 3484.6 kv.m olan özəl tikilinin biri də "G" literli tikili (avtoyuyucu) olmuş və tikintialtı sahəsi 81.6 kv.m, ümumi sahəsi 67.2 kv.m kimi X4 adına paylı mülkiyyət üzrə qeydiyyata alınmışdır. xx.xx.2008ci il tarixli bölgü sxeminə əsasən "G" literli tikili və istifadədə olan 288.6 kv.m torpaq sahəsi ilə birlikdə xx.xx.2008-ci il tarixli texniki pasport verilmişdir. Mütəxəssis rəyinə əsasən, ünvan 3 ünvanında iddiaçının istifadəsində olan 288,65 kv.m torpaq sahəsində yerləşən və mülkiyyətində olan 67.2 kv.m qeyri-yaşayış sahəsi, G tikilisi (avtoyuyucu) "XXX" MMC-nin mülkiyyətində olan 1.97082 ha torpaq sahəsinin qonşuluğunda yerləşən "XXXX" firmasının yerdə qalan və istifadəsində olan 2.13438 ha torpaq sahəsinin daxilində yerləşmişdir (sözügedən "G" literli tikili (avtoyuyucu) faktiki olaraq sökülmüşdür).

15. Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(103)-688/2023 nömrəli, 12 sentyabr 2023-cü il tarixli qərardadı ilə (hakimlər: İkram Şirinov-sədrlik edən və məruzəçi, Elşən Kazımov və Namiq Cəfərov) iddiaçının apellyasiya şikayəti qismən təmin edilərək, Nizami rayon Məhkəməsinin 21 sentyabr 2022-ci il tarixli qətnaməsi qismən ləğv edilərək cavabdeh 1-ə qarşı iddia tələbi üzrə icraata xitam verilmişdir.

16. Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(103)-688/2023 nömrəli, 12 sentyabr 2023-cü il tarixli qətnaməsi ilə iddiaçının apellyasiya şikayəti təmin edilməyərək, Nizami Rayon Məhkəməsinin 21 sentyabr 2022-ci il tarixli qətnaməsi dəyişdirilmədən saxlanılmışdır.

17. Apellyasiya instansiyası məhkəməsi qeyd etmişdir ki, apellyasiya şikayətinin dəlillərinin yoxlanması üçün apellyasiya baxışı zamanı, məhkəmə-tikinti ekspertizası keçirilmiş, Məhkəmə Ekspertizası Mərkəzinin **/*** nömrəli, xx.xx.2023-cü il tarixli ekspert rəyi ilə Ünvan 3 ünvanında yerləşən (81.6 kv.m) torpaq sahəsinin koordinatları ilə Ünvan 2 ünvanında yerləşən "XXX" MMC-nin mülkiyyətində olan 1.97082 ha torpaq sahəsinin koordinatlarının üst-üstə düşmədiyi, eyni zamanda da həmin sahənin "XXX" MMC-nin mülkiyyətində olan 1.97082 ha torpaq sahəsinin qonşuluğunda yerləşən "XXXX" firmasının yerdə qalan və istifadəsində olan 2.13438 ha torpaq sahəsinin daxilində yerləşməsi (sözügedən "G" literli tikili (avtoyuyucu) faktiki olaraq sökülmüşdür) müəyyən olunmuşdur.

18. Məhkəmə kollegiyası onu qeyd etmişdir ki, iddiaçı özü də iddia ərizəsində açıqaydın şəkildə hazırda ona qaytarılmasını tələb etdiyi 67.2 kv.m. tikilinin (avtoyuma yerinin) satılmasına dair razılığa gəldiyini, bu razılaşmadan sonra isə həmin tikilinin söküldüyünü təsdiq etmişdir. Başqa sözlə, iddiaçı hazırda tələb etdiyi sahəni öz razılığı ilə satdığını və bundan sonra isə həmin tikilinin söküldüyünü yazılı ərizəsində bəyan etmişdir. Belə olan halda isə müəyyən olunmuşdur ki, iddiaçının faktiki mövcud olmayan "əmlakın qeyri-qanuni sahiblikdən geri alınması və s." ilə bağlı tələbi aşkar şəkildə əsassızdır və təmin oluna bilməzdi.

19. Məhkəmə öz mövqeyini Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsinin 1-ci hissəsinə, Mülki Məcəllənin 148.2, 152.1, 157.2, 157.5-ci maddələrinə istinad etməklə əsaslandırmışdır.

c) Kassasiya instansiyası məhkəməsində birinci icraat

20. İddiaçı kassasiya şikayəti verərək, apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv edilməsi və iddia tələbinin təmin edilməsi barədə yeni qərar qəbul edilməsini xahiş etmişdir.

21. Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının 2(102)-337/2024 nömrəli, 23 yanvar 2024-cü il tarixli qərarı ilə (hakimlər Vüqar Həsənov (məruzəçi), İspəndiyar Şəfiyev, Əhməd Əhmədov) iddiaçı tərəfindən verilmiş kassasiya şikayəti təmin edilmiş, qətnamə ləğv edilmiş və iş yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə qaytarılmışdır.

22. Məhkəmə kollegiyası belə hesab etmişdir ki, ünvan 3 ünvanında yerləşən qeyri-yaşayış binası Iddiaçınun xüsusi mülkiyyətindədir. İddiaçının mülkiyyət hüququ xx.xx.2014-cü ildə qeydə alınmışdır. Qeyri-yaşayış sahəsi sökülmüş olsa da, daşınmaz əmlakın dövlət qeydiyyatı ləğv edilməmiş və qüvvədədir. Qeyri-yaşayış sahəsinin yerləşdiyi 0,00816 ha torpaq sahəsi dövlət mülkiyyətində olsa da reyestr qeydinə görə iddiaçının istifadəsində olması müəyyən olunur.

23. Məhkəmə kollegiyası ilkin olaraq qeyd etmişdir ki, iddiaçı qeyri-yaşayış sahəsi üzərində mülkiyyət hüququnun və torpaq sahəsi üzərində istifadə hüququnun mövcudluğuna

istinad edərək əsas tələb olaraq əmlakının qeyri-qanuni sahiblikdən geri qaytarılması və daşınmaz əmlakın əvvəlki vəziyyətdə bərpasını tələb edir. İddiaçının tələbi məhz Mülki Məcəllənin 152 və 157.2-ci maddəsinin təsiri altına düşür. Çünki hazırkı halda iddiaçının tələbi onun mülkiyyət hüququnun müdafiəsinə yönəlmişdir.

24. Apellyasiya instansiya məhkəməsi birinci instansiya məhkəməsindən fərqli olaraq baxılan iş üzrə ekspertiza tədqiqatının aparılması, rəy alınmalı olmasını müəyyən etsə də, faktiki olaraq mübahisənin düzgün həll olunmasına yönələn sualların ekspert qarşısında qoyulmasını təmin etməmiş və ya qoyulmuş sualların ekspert tərəfindən tam cavablandırılmadığına əhəmiyyət verməmişdir.

25. İşin faktiki hallarını müəyyən etmək səlahiyyətinə malik olan məhkəmələr müəyyən etmişlər ki, mübahisəli qeyri-yaşayış sahəsinə aid olan daşınmaz əmlak vahid əmlak kimi mövcud olmuş, sonra mülkiyyətçi olan iddiaçı tərəfindən 4 hissəyə bölünərək özgəninkiləşdirilmiş, bundan sonra bağışlama qaydasında özgəninkiləşdirdiyi hissəni alqısatqı müqaviləsi əsasında geri, öz mülkiyyətinə qaytarmışdır.

26. Məhkəmə kollegiyası qeyd etmişdir ki, işin hallarına əsasən, müvafiq əqdlər bağlanarkən ayrılma cizgiləri tərtib olunmuş və məhz həmin cizgilər əsasında reyestrdə sonrakı dəyişikliklər aparılmışdır.

27. İddiaçının əsas dəlili ondan ibarət olmuşdur ki, o aldadılmış, ilkin razılıq əldə olunmasına baxmayaraq, əmlak əvəzi ödənilmədən ondan alınmış, sökülmüş, sonradan əvəzinin ödənilməsindən imtina edilmişdir.

28. İşə baxan məhkəmələr qəbul edirlər ki, əmlakın özgəninkiləşdirilməsinə şifahi razılıq olmuş, əmlak sökülmüşdür. Lakin işin araşdırılmış hər hansı halı ilə əmlakın əvəzinin ödənilməsi müəyyən edilmir, məhkəmələr isə bununla bağlı heç bir araşdırma aparmamışlar. Məhkəmələr əmlakın digər tərəfə verilməsində iddiaçının razılığının olmasına istinad etməklə kifayətlənmişlər.

29. Məhkəmə kollegiyası həmçinin qeyd etmişdir ki, apellyasiya instansiyası məhkəməsi iddiaçının daşınmaz əmlakın sahiblik, istifadə və sərəncam hüquqlarını təsdiq edən sübutların mövcudluğuna, əmlak özgəninkiləşdirilərkən hər hansı notariat qaydasında təsdiqlənmiş əqdin mövcud olmamasına, əmlakın əvəzinin ödənilməməsinə, cavabdeh tərəfin göstərdiyi qaydada və əsaslarla əmlakın əldə edilməsinin mümkünlüyünə, daşınmaz əmlak mövcud olmasa da onun qeydinin qalmaqda davam etməsinə, məhv olunmuş əmlak kimi reyestr qeydinin ləğv olunmamasına, iddiaçının hazırkı tələbi irəli sürməsi üçün subyektiv hüququ müəyyən edən qanuni qüvvədə olan qətnamənin olmasına, tələblər içərisində əmlakın əvvəlki vəziyyətə gətirilməklə ona geri təhvil verilməsinə dair tələbinin mövud olmasına əhəmiyyət verməmiş və göstərilən dəlillərin aydınlaşdırılması ilə bağlı hər hansı araşdırma aparmamaqla iddianın təmin olunmaması nəticəsinə gələn birinci instansiya məhkəməsinin mövqeyi ilə razılaşmışdır.

30. Digər tərəfdən göstərildiyi kimi birinci instansiya məhkəməsində baxılan iş üzrə xüsusi bilik tələb edən sualların aydınlaşdırılması zəruri olsa da (hətta verilmiş vəsatət rədd edilmiş) əvvəlki icraatda keçirilmiş ekspertizanın nəticəsinə görə verilən rəyi kifayətedici rəy hesab etmiş, tələbin yönəldiyi digər cavabdehin olmasına əhəmiyyət vermədən məhkəmənin gəlmiş olduğu nəticəsini preyudisial əhəmiyyətə malik olan hal kimi qəbul (halbuki həmin işdə işin mahiyyəti üzrə məhkəmənin müəyyən etdiyi hər hansı hal olmamışdır) edərək iddiaçının dəlillərinin yenidən araşdırılmasına ehtiyac olmadığını göstərmişdir.

31. Məhkəmə kollegiyası qeyd etmişdir ki, apellyasiya instansiyası məhkəməsi isə faktiki olaraq iddiaçının iddiasında göstərdiyi və apellyasiya şikayətində təkrarladığı dəlili, yəni onun istifadəsində olan torpaq sahəsindən və mülkiyyət hüququnun qeydə alındığı qeyri-yaşayış

sahəsinin sökülərək ərazisindən avtomaşınların dayanacağı kimi istifadə edilməsi üzrə heç bir araşdırma aparmamışdır. Faktiki olaraq məhkəmə tərəfindən həmin sahədən avtomaşınların dayanacağı kimi istifadə edilməsi, həmin dayanacağı idarə edən şəxsin kim olması, hansı səbəbdən iddiaçının istifadəsində və mülkiyyətində olan torpaq sahəsinin və qeyri yaşayış sahəsinin yerləşdiyi ərazinin hasara alınması, məhz hasara alınmanın kimin tərəfindən həyata keçirilməsi, oradan kimin istifadə etməsi müəyyən edilməmiş qalmışdır.

32. Halbuki iddiaçının torpaq sahəsi ilə cavabdeh "XXX" MMC-nin torpaq sahələrinin koordinatarının üst-üstə düşməsi ilə bağlı mübahisə olmamış, daşınmaz əmlakın həmin əmlaklarla bağlı qeydiyyatı ilə bağlı mübahisə də mövcud deyildir. İddiaçı iddia etmişdir ki, onun istifadəsində olan torpaq sahəsi və mülkiyyətində olan qeyri-yaşayış sahəsi məhz cavabdehlərin faktiki istifadəsindədir. Tələbi isə əmlaklarının qanunsuz sahiblikdən geri qaytarılması və əvvəlki vəziyyətinin bərpa edilərək ona təhvil verilməsi ilə bağlıdır.

33. Bu halda isə bu qərarının 80-ci bəndində göstərilənlərin aydınlaşdırılması ilə yanaşı nəzərə alınmalı idi ki, artıq qanuni qüvvədə olan qətnamə ilə cavabdeh MMC-nin təsisçisi F.Məlikova qarşı iddia rədd olunmuşdur. İddianın rədd olunmasının əsası tələbin ona cavab verməli olmayan şəxsə qarşı yönəldilməsi ilə bağlı olmuşdur. Belə ki, tələb ayrıca mülkiyyətçi olan şəxsə və ya hüquqi şəxsə qarşı deyil, hüquqi şəxsin təsisçisinə qarşı yönəldilmişdir. Halbuki Mülki Məcəlləninin 52.2-ci maddəsinin tələbi baxımından təsisçi hüquqi şəxsin öhdəlikləri üçün cavabdehlik daşımır. Həmin iş üzrə işin mahiyyəti ilə bağlı hər hansı hal müəyyən edilməmişdir. Lakin məhkəmələr həmin iş üzrə müəyyən etmişlər ki, iddiaçı mülkiyyətində olan əmlakın qanunsuz sahiblikdən geri qaytarılması və əmlakın bərpa edilməsinin tələb edilməsi üçün subyektiv hüquqa malik olan şəxsdir.

34. Məhkəmə kollegiyası onu da qeyd etmişdir ki, "XXX" MMC xx xx 2015-ci il tarixdə ********* dövlət qeydiyyat nömrəsi ilə Dövlət Reyestrində qeydə alınmışdır. "XXXXX" MMC-yə məxsus əmlaklar xx.xx.2015-ci il tarixdə "XXX" MMC-nin adına Daşınmaz Əmlakın Dövlət Reyestrində qeydə alınmış və bu barədə verilmiş RX seriyalı, ******* nömrəli Çıxarışa əsasən Ünvan 2 ünvanında yerləşən 1,97082 ha torpaq sahəsi və üzərində olan 7255 kv.m tikili, əmlak kompleksi bugünədək onun xüsusi mülkiyyətindədir.

35. Göründüyü kimi ekspert qarşısında qoyulmuş 5-ci sual işin faktiki halları və düzgün həlli üçün əhəmiyyətli olmaması ilə yanaşı bütün mülkiyyətçilərə aid torpaq sahələrinin yerquruluşunun müəyyən edilməli, onun tam cavabdandırılmaması və rəyin aydın olmaması nəzərə alınmalı idi. Apellyasiya instansiya məhkəməsi isə suala verilən rəyin aydın və tam olmamasına əhəmiyyət verməmiş və həmin rəyi möhtəbər sübut olaraq qəbul etmişdir.

36. Məhkəmə kollegiyası qeyd etməyi zəruri hesab etmişdir ki, mülkiyyətin müdafiəsini təmin edən bu normalar əsasında iddianın düzgün həlli üçün cavabdehlərin hərəkətləri nəticəsində iddiaçının mülkiyyətinə qəsdin, mərhumetmənin olub-olmaması, əgər vardırsa belə müdaxilənin qanuni, yoxsa qanunsuz olması müəyyən edilməlidir.

d) Apellyasiya instansiyası məhkəməsindəki ikinci icraat

37. Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(103)-3852/2024 nömrəli, 18 dekabr 2024-cü il tarixli qətnaməsi ilə (hakimlər Azad İmanov, Məmməd Məmmədov, Fuad Talışinski) iddiaçının apellyasiya şikayəti qismən təmin edilmiş, Bakı şəhəri Nizami Rayon Məhkəməsinin 21 sentyabr 2022-ci il tarixli qətnaməsi yoxlanılan hissədə ləğv edilmiş, iddiaçının iddiası cavabdeh "XXX" Məhdud Məsuliyyətli Cəmiyyətinə aid hissədə təmin edilməmişdir.

38. İşə yenidən baxan apellyasiya instansiyası məhkəməsi kassasiya instansiyası məhkəməsinin göstərişləri əsasında məhkəmə tikinti-texniki ekspertizası təyin etmişdir.

39. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertiza Mərkəzinin 21 oktyabr 2024-cü il tarixli, ********** nömrəli ekspert rəyi ilə aşağıdakılar müəyyən edilmişdir: Qərardadın birinci sualı üzrə-xx.xx.2007-ci il tarixli, AN-I ******* saylı daşınmaz əmlakın alqı-satqı müqaviləsinə əsasən Cavabdeh 1in ünvan 2-də «XXXX» firmasının istifadəsində olmuş 4.1052 ha torpaq sahəsində yerləşən 2 mərtəbəli qeyri-yaşayış sahəsi, ümumi sahə 0.1782 ha, tikinti altı sahə 0.9788 ha olan A tikilisi (Şadlıq evi) əvvəllər «XXXX» firmasına aid olan Daşınmaz Əmlakın Texniki Pasportlarında (xx.xx.2007-ci il tarixli və xx.xx.2008-ci il tarixli) göstərilən ərazinin hansı şimal-qərb istiqamətində künc hissədə yerləşir. (rəyin tədqiqat hissəsinə əlavə edilmikş peyk görüntüsündə göstərilmişdir) Qərardadın ikinci sualı üzrə-xx.xx.2007-ci il tarixli AN-I ******* saylı daşınmaz əmlakın alqı-satqı müqaviləsinə əsasən X3ün ünvan 2-də «XXXX» firmasının faktiki istifadəsində olan 4.1052 ha torpaq sahəsində yerləşən 2 mərtəbəli qeyri-yaşayış sahəsi, ümumi sahə 4320.9 kv.m, tikinti altı sahə 0.13238 ha olan A1 tikilisi (Şadlıq evi) əvvəllər «XXXX» firmasına aid olan Daşınmaz Əmlakın Texniki Pasportlarında (xx.10xx2007-ci il tarixli və xx.xx.2008-ci il tarixli) göstərilən ərazinin hansı cənub hissəsində yerləşir. (rəyin tədqiqat hissəsinə əlavə edilmikş peyk görüntüsündə göstərilmişdir) Qərardadın üçüncü sualı üzrə- xx.xx.2007-ci il tarixli 4Ə-5-**** saylı reyestr nömrəli daşınmaz əmlakın alqısatqı müqaviləsinə əsasən X4ün ünvan 3 ünvanında, «XXXX» firmasının faktiki istifadəsində olan 4.1052 ha torpaq sahəsində yerləşən qeyriyaşayış sahəsi, ümumi sahə 67.2 kv.m, tikinti altı sahə 81.6 kv.m olan G tikilisi (avtoyuyucu) əvvəllər «XXXX» firmasına aid olan Daşınmaz Əmlakın Texniki Pasportlarında (xx.xx.2007ci il tarixli və xx.xx.2008-ci il tarixli) göstərilən ərazinin hansı şimal istiqamətində künc hissədə yerləşir. (rəyin tədqiqat hissəsinə əlavə edilmikş peyk görüntüsündə göstərilmişdir) Qərardadın dördüncü sualı üzrə-xx.xx.2024-cü il tarixli daşınmaz əmlakın bağışlanması müqaviləsinə əsasən Iddiaçına bağışlanmış və hazırda mülkiyyətində olan ünvan 3 ünvanında yerləşən, ümumi sahə 67.2 kv.m qeyri-yaşayış sahəsi olan G tikilisi (avtoyuyucu) əvvəllər «XXXX» firmasının istifadəsində olan 4.1052 ha torpaq sahəsinə aid Daşınmaz Əmlakın Texniki Pasportlarında (xx.xx.2007-ci il tarixli və xx.xx.2008-ci il tarixli) göstərilən ərazinin şimal istiqamətində künc hissədə yerləşir. (rəyin tədqiqat hissəsinə əlavə edilmikş peyk görüntüsündə göstərilmişdir) Qərardadın beşinci sualı üzrə- Texniki Pasportlarında (xx.xx.2007-ci il tarixli və xx.xx.2008ci il tarixli) göstərilən parametrlərə əsasən, ünvan 3 ünvanında yerləşən iddiaçının istifadəsində olan 288.65 kv.m torpaq sahəsində yerləşən və mülkiyyətində olan 67.2 kv.m qeyri-yaşayış sahəsi, G tikilisinin (avtoyuyucu) yerləşdiyi ərazinin faktiki vəziyyətdə «XXX» şadlıq sarayı kimi istifadə olunan qeyri-yaşayış binasının önündə yerləşən sahə ilə üst-üstə düşdüyü müəyyən edilmişdir. (sxemdə göstərilib) Həmin sahəninin kimin faktiki istifadəsində və ya mülkiyyətində olmasının müəyyən edilməsi hüquqi xarakterli məsələ olmaqla tikinti texniki obyektlərinin tədqiqi ekspertizasının predmetinə aid deyildir.

40. Məhkəmə kollegiyası ekspert rəyinə əsaslanaraq müəyyən etmişdir ki, iddiaçının mülkiyyətində olan 67.2 kv.m qeyri-yaşayış sahəsinin (G tikilisi (avtoyuyucu)) yerləşdiyi ərazi faktiki vəziyyətdə «XXX» şadlıq sarayı kimi istifadə olunan qeyri-yaşayış binasının önündə yerləşir.

41. İddia tələbinin əmlakın qeyri-qanuni sahiblikdən geri alınması və əmlak üzərində mülkiyyət hüquqlarının bərpa edilməsi hissəsi ilə bağlı məhkəmə kollegiyası qeyd etmişdir ki, iddianın düzgün həlli üçün cavabdehin hərəkətləri nəticəsində iddiaçının mülkiyyətinə qəsdin, mərhumetmənin olub-olmaması, əgər vardırsa belə müdaxilənin qanuni, yoxsa qanunsuz olması müəyyən edilməlidir. İşin mübahisəsiz hallarına əsasən, Ünvan 3 ünvanında yerləşən qeyri-yaşayış binası Iddiaçının xüsusi mülkiyyətindədir. İddiaçının mülkiyyət hüququ

xx.xx.2014-cü ildə qeydə alınmışdır. Qeyri-yaşayış sahəsi iddiaçının razılığı ilə sökülmüş, lakin daşınmaz əmlakın dövlət qeydiyyatı ləğv edilməmiş və qüvvədədir. Qeyri-yaşayış sahəsinin yerləşdiyi 0,00816 ha torpaq sahəsi dövlət mülkiyyətində olsa da, reyestr qeydinə görə iddiaçının istifadəsində olması müəyyən olunur. İddiaçı özü də iddia ərizəsində açıq-aydın şəkildə hazırda ona qaytarılmasını tələb etdiyi 67.2 kv.m. tikilinin (avtoyuma yerinin) satılmasına dair razılığa gəldiyini, bu razılaşmadan sonra isə həmin tikilinin söküldüyünü təsdiq etmişdir. Başqa sözlə, iddiaçı hazırda tələb etdiyi sahəni öz razılığı ilə satdığını və bundan sonra isə həmin tikilinin söküldüyünü yazılı ərizəsində bəyan etdiyindən, məhkəmə hesab etmişdir ki, iddiaçının mülkiyyətinə qəsdən söhbət gedə bilməz.

42. Həmçinin məhkəmə qeyd etmişdir ki, iddiaçının bərpasını tələb etdiyi qeyri-yaşayış sahəsi cavabdehin istifadəsində olan və şadlıq sarayı kimi fəaliyyət göstərən qeyri-yaşayış binasının önündə yerləşdiyindən, avtoyuyucu yerinin əvvəlki vəziyyətə gətirilməsi cavabdehin özünə məxsus əmlakdan təyinatı üzrə istifadə etməsini mümkünsüz edəcəyindən hazırkı işin halları baxımından iddiaçının mülkiyyətinin naturada bərpa edilməsi mümkün deyil. İddiaçı apellyasiya icraatında əmlakın dəyərini deyil, məhz əvvəlki vəziyyətin bərpasını tələb etdiyindən hazırkı halda əmlakın dəyərinin müəyyən edilməsinə zərurət yoxdur.

43. Məhkəmə hazırkı işin halları ilə iddiaçının əmlakından məhrum olduğu sübut olunduğundan və əvvəlki vəziyyətin bərpası mümkün olmadığından iddiaçıya özünə məxsus əmlakın dəyərini tələb etmək hüququ olduğunu izah etmişdir.

44. Məhkəmə kollegiyası iddia tələbinin maddi və mənəvi ziyanla bağlı hissəsinə münasibətdə isə qeyd etmişdir ki, iddiaçının mülkiyyətində olan qeyri-yaşayış sahəsinin cavabdeh tərəfindən sökülməsi araşdırılarkən, cavabdehin həmin əmlaka vicdanlı və ya vicdansız sahiblik etməsi də araşdırılmalı, iddia tələbinin həmin hissəsinə Mülki Məcəllənin 157.5-ci maddəsinin tələblərinə uyğun hüquqi qiymət verməlidir. İşin halları ilə müəyyən edilir ki, hazırkı mülki iş üzrə cavabdeh vicdanlı əldə edən olmuşdur. Belə ki, iddiaçı özü də iddia ərizəsində, apellyasiya və kassasiya şikayətində açıq-aydın şəkildə tikilinin (avtoyuma yerinin) satılmasına dair razılığa gəldiyini, bu razılaşmadan sonra isə həmin tikilinin məhz özünün razılığı ilə söküldüyünü təsdiq etmişdir. Həmçinin hazırkı iş üzrə iddiaçı, xüsusi mülkiyyətindən məhrum olması nəticəsində əldən çıxmış fayda tələb etsə də, iddiasını qeyd edilən hissələrdə kifayət qədər əsaslandırılmış və bu halı təsdiq edəcək hər hansı sübut (əvvəlki dövrə aid hər hansı icarə müqaviləsi, əldə edilmiş qazancdan vergi ödənişləri və.s) təqdim etməmişdir.

45. Belə olan halda məhkəmə kollegiyası hesab etmişdir ki, iddia tələbi “vurulmuş maddi ziyana və əldən çıxmış faydaya görə 180000 manat məbləğində pulun cavabdehdən tulularaq ona ödənilməsi” hissələrində də təmin edilməməlidir.

46. Eyni zamanda, məhkəmə kollegiyası iddia tələbinin vurulmuş mənəvi ziyanın əvəzi olaraq 100000 manat məbləğində pulun tələb edilməsi hissəsi ilə bağlı qeyd etmişdir ki, hazırkı işin halları ilə iddiaçının fiziki və mənəvi sarsıntılar keçirməsi, bunların cavabdehin qanunsuz hərəkəti və ya hərəkətsizliyi nəticəsində baş verməsi, qanunsuz hərəkət və hərəkətsizliklə mənəvi zərər arasında səbəbli əlaqənin olması və zərərvuran şəxsin təqsiri müəyyən edilmir. Həmçinin, nəzərə alınmalıdır ki, mənəvi ziyan tələbi digər tələblərdən irəli gələn tələb olduğundan və məhkəmə kollegiyasının yuxarıda qeyd edilən mövqeyinə görə iddia tələbi digər hissələrdə təmin edilmədiyindən mənəvi ziyanın tutulması hissəsində də təmin edilməməlidir.

Kassasiya şikayətinin və ona qarşı etirazın dəlilləri
a) Kassasiya şikayətinin dəlilləri

47. İddiaçı kassasiya şikayəti verərək, apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv edilib və iddia tələbinin təmin edilməsi barədə yeni qərar qəbul edilməsini xahiş etmişdir.

48. Kassasiya şikayəti onunla əsaslandırılmışdır ki, Ünvan 3 ünvanında yerləşən qeyri-yaşayış binası Iddiaçının xüsusi mülkiyyətində olmasına baxmayaraq, məhkəmə kollegiyası hesab etmişdir ki, qeyriyaşayış sahəsi guya iddiaçının razılığı ilə sökülmüşdür. Məhkəmənin bu əsassız mövqeyi ilə razılaşmaq olmaz. Belə ki, hazırda qaytarılmasını tələb etdiyi 67.2 kv.m. tikilinin (avtoyuma yerinin) 350.000 manata satılmasına dair razılığa gəlmək həmin tikilinin sökülməsinə razılıq vermək anlamına gələ bilməz. Razılığa gəlmək deməkdir ki, tərəflər razılaşdıqları əqdi rəsmiləşdirməlidir. Lakin cavabdeh guya şifahi razılıqlarına baxmayaraq, əmlakın dəyərini, yəni 350.000 manatı bu günə kimi ona ödəməmişdir. Cavabdehlə aralarındakı razılıq doğrudan da mövcud olsa idi, onda cavabdeh bu razılaşmanın reallaşması üçün üzərinə götürmüş öhdəliyi icra edərdi, yəni razılaşdığı məbləği ona verərdi. Öhdəliyin bu günə kimi cavabdeh tərəfindən icra olunmaması onu göstərir ki, onlar arasında olan razılıq baş tutmamışdır. Cavabdehin onun obyektini sökməkdə məqsədi onun yerləşdiyi hasarla cavabdehin sahəsindən ayrılmış 0,03 ha torpaq sahəsindən avtodayanacaq kimi istifadə etmək olmuşdur. Onun obyekti ilə şadlıq sarayı arasında təxminən 100-120 metr məsafə vardır ki, bu da bərpasını tələb etdiyi qeyri-yaşayış sahəsi şadlıq sarayı kimi fəaliyyət göstərən qeyri-yaşayış binasının təyinatı üzrə istifadə edilməsini mümkünsüz etmir. Yəni onun mülkiyyətində olan tikilinin bərpası praktiki cəhətdən mümkündür. Ötən müddət ərzində əmlakından məhrum olduğu üçün gəlirdən də məhrum olmuşdur. Əldən çıxmış gəlir (əldən çıxmış fayda) də 180000 manat təşkil edir. Avtoyuyucu 24 saat fəaliyyət göstərən 3 tikilidən ibarət olmuşdur. Əldən çıxmış gəliri müvafiq ekspertiza ilə müəyyən etmək mümkündür, hətta bu barədə birinci instansiya məhkəməsinə vəsatət də verilmişdir. Məhkəmə kollegiyası iddia tələbinin maddi və mənəvi ziyanla bağlı hissəsinə münasibətdə qeyd etmişdir ki, iddiaçının mülkiyyətində olan yaşayış sahəsinin cavabdeh tərəfindən sökülməsi araşdırılarkən, cavabdehin həmin əmlaka vicdanlı və ya vicdansız sahiblik etməsi də araşdırılmalıdır. İşin hallarından və hazırkı mübahisədən də görünür ki, cavabdeh onun əmlakına vicdansız sahiblik etməklə, onun mülkiyyətindən və gəlirindən məhrum etmişdir. Bu səbəbdən də mülkiyyətçi kimi özgəsinin qanunsuz sahibliyindən əmlakını geri tələb edərkən, əmlakının cavabdehdə olduğu bütün vaxt ərzində götürməli olduğu bütün gəlirlərin qaytarılmasını və ya əvəzinin ödənilməsini də tələb etmişdir. Lakin məhkəmə kollegiyası hesab etmişdir ki, hazırkı mülki iş üzrə cavabdeh vicdanlı əldə edən olmuşdur. Buna görə də məhkəmə kollegiyası cavabdehdən maddi və mənəvi ziyanın tutulmasından söhbət gedə bilmədiyi qənaətinə gəlmişdir. Tikili onun razılığı ilə sökülmədiyi halda, cavabdeh əmlakın dəyərini ödəmədən, onun konstitusiya ilə qorunan mülkiyyəti üzərində sərəncam hüququ əldə etmədən əmlakına sahiblik etməsində hansı vicdanlı sahiblikdən söhbət gedə bilər. Mənəvi ziyanla bağlı isə qeyd etmişdir ki, fəaliyyət göstərən obyektinin sökülməsi, onun əmlakından məhrum olmağı ona tək maddi ziyanla deyil, həm də mənəvi zərərin dəyməsi ilə nəticələnmişdir. Belə ki, qanun əsasında ona mənsub olan hüquqlarının pozulması nəticəsində mənəvi sarsıntı və iztirab keçirmiş, faktiki iş yerini itirmiş, fəal ictimai həyat tərzindən məhrum olmuş, hüquqlarının bərpası ilə müvafiq dövlət orqanlarına və məhkəmələrə çox saylı müraciətlər etmişdir. Bir sözlə cavabdeh tərəfindən ona məxsus daşınmaz əmlakını sökməsi və ya istifadəsində olan torpağı zəbt etməklə, onun mülkiyyət hüquqlarını pozmaqla yanaşı, onda əsəb, narahatlıq, məyusluq hissi yaratmış, habelə sadalanan hadisələr onda mənəvi sarsıntı yaratmışdır. Bu da cavabdehin qanunsuz hərəkətləri nəticəsində baş vermişdir ki, mənəvi zərərin əvəzini 100000 manat məbləğində

dəyərləndirmişdir. Kollegiya hazırkı iş üzrə iddia tələblərini təmin etmədiyindən iş üzrə aparılmış ekspertiza tədqiqatlarının dəyərini təşkil edən 200 manat pulu iddiaçıdan tutularaq Məhkəmə Ekspertiza Mərkəzinin hesabına ödənilməsi qənaətinə gəlməkdə də səhvə yol vermişdir ki, apellyasiya instansiya məhkəməsi onun "Müharibə Veteranı" kimi dövlət rüsumlarından azad olmağı barədə imtiyazlarının olmasını nəzərə almamışdır. İddiaçı hesab etmişdir ki, qətnamə bu hissədə də əsassızdır.

49. Kassator şikayətində Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsinin 1-ci hissəsinə, Mülki Məcəllənin 148.2, 152.1, 157.2, 337.3, 337.5, 394-cü maddələrinin pozumasına istinad edilmişdir.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

50. Kassasiya şikayətinə qarşı etiraz daxil olmamışdır.

Tətbiq edilən hüquq

Azərbaycan Respublikasının Konstitusiyası

51. Maddə 13 (hissə 1). Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur.

Azərbaycan Respublikasının Mülki Məcəlləsi

52. Maddə 148.2. Daşınmaz əmlakın dövlət reyestrindəki qeydə əsaslanaraq mülkiyyət hüququ və ya daşınmaz əmlaka başqa hüquqlar əldə etmiş hər bir şəxsin bu hüquqları müdafiə edilməlidir.

53. Maddə 152.1. Mülkiyyət hüququ - subyektin ona mənsub əmlaka (əşyaya) öz istədiyi kimi sahib olmaq, ondan istifadə etmək və ona dair sərəncam vermək üzrə dövlət tərəfindən tanınan və qorunan hüququdur.

54. Maddə 144.1. Daşınmaz əmlakın dövlət reyestri obyektlərinə dair sərəncam verilməsi haqqında müqavilələr notariat qaydasında təsdiqlənməlidir.

55. Maddə 329.1. Əgər qanunla başqa hal müəyyən edilməmişdirsə, qanunla və ya tərəflərin qarşılıqlı razılığı ilə müəyyən edilmiş forma tələblərinə riayət etməməklə bağlanılmış əqd etibarsızdır.

56. Maddə 459.1. Zərərin əvəzini ödəməyə borclu olan şəxs əvəz ödəməyə borclu edən hal baş verməsəydi, mövcud olacaq vəziyyəti bərpa etməlidir.

57. Maddə 459.5. Əgər ilkin vəziyyətin bərpası yolu ilə zərərin əvəzinin ödənilməsi mümkün deyildirsə və ya bunun üçün tənasübsüz surətdə böyük xərclər zəruridirsə, kreditora pul əvəzi verilə bilər.

58. Maddə 1096.1. Mülki hüquq pozuntusu (delikt) hüquqla və ya qanunla müdafiə edilən başqa şəxsə (zərərçəkənə) birbaşa ziyan və ya zərər vurulmasına gətirib çıxaran təqsirli, hüquqa zidd (mülki qanunvericiliyin normalarını pozan) əməldir (hərəkət və ya hərəkətsizlikdir).

59. Maddə 1096.2. Delikt törətmiş şəxs mülki hüquq məsuliyyəti daşıyır.

60. Maddə 1097.1. Mülki hüquq pozuntusu (delikt) nəticəsində fiziki şəxsin şəxsiyyətinə və ya əmlakına vurulmuş zərərin, habelə hüquqi şəxsin əmlakına və işgüzar nüfuzuna vurulmuş zərərin əvəzi zərərvuran tərəfindən tam həcmdə ödənilməlidir.

61. Maddə 1115. Zərərin əvəzinin ödənilməsi tələbini təmin edərkən məhkəmə zərərin vurulması üçün məsuliyyət daşıyan şəxsin üzərinə işin hallarına uyğun olaraq zərərin əvəzini naturada ödəmək (eyni növlü və keyfiyyətli əmlak vermək, zədələnmiş əmlakı düzəltmək və i.a.) və ya vurulmuş zərərin əvəzini ödəmək öhdəliyi qoyur.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi

62. Maddə 217.1. Məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır.

63. Maddə 407.2. Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir.

64. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

Kassasiya baxışının hədləri

65. Qanunun tələbinə görə, kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

66. Hazırkı kassasiya şikayətində qətnamə tam mübahisələndirildiyindən apellyasiya instansiyası məhkəməsinin aktı bütövlükdə yoxlanılır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

67. Kollegiya kassasiya şikayətinin dəlilləri ilə qismən razılaşaraq hesab edir ki, işə təkrar apellyasiya qaydasında baxmış məhkəmə iddiaçıya məxsus daşınmaz əmlakın naturada bərpa edilməsi barədə tələbini rədd edərkən maddi hüquq normalarının tələblərini nəzərə almamış və məhkəmə xərcinin tutulması ilə bağlı hissədə pozuntuya yol vermişdir.

68. İş materiallarına əlavə edilmiş xx.xx.1998-ci il tarixli vəsiqədən görünür ki, iddiaçı Iddiaçı müharibə veteranıdır. “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununun 9.1.20-ci maddəsinə əsasən məhkəmədə verilən iddialar üzrə müharibə veteranları dövlət rüsumu ödəməkdən azaddırlar. MPM-nin 117.1-ci maddəsinə əsasən şahidlərə, ekspertlərə və mütəxəssislərə verilməli məbləği və iş üzrə digər zəruri xərcləri xahiş etmiş tərəf əvvəlcədən məhkəmənin depozit hesabına keçirir. Həmin xahişi tərəflərin hər ikisi etdikdə, yaxud şahidlərin çağırılması, ekspertlərin təyin edilməsi, mütəxəssislərin cəlb edilməsi və ödənilməli olan digər hərəkətlər məhkəmənin təşəbbüsü ilə edildikdə, tələb olunan məbləği tərəflərin hər ikisi bərabər qaydada məhkəmənin depozitinə keçirirlər. 117.2.-ci maddəyə əsasən bu Məcəllənin 117.1-ci maddəsində göstərilən məbləği məhkəmə xərclərindən azad edilmiş tərəf ödəmir və həmin məbləğ dövlət hesabına aid edilir.

69. Kollegiya iddiaçının bu dəlili ilə razılaşır ki, iddiaçı müharibə veteranı olduğu üçün istinad edilən normalara əsasən məhkəmədə qaldırdığı iddia üzrə məhkəmə xərclərini (dövlət rüsumu və işə baxılması ilə əlaqədar məsrəfləri) ödəmək vəzifəsindən azad olduğu halda apellyasiya instansiyası məhkəməsi tərəfindən 200 manat ekspertiza xərcinin iddiaçıdan

tutulması MPM-nin 117.2-ci maddəsinin pozuntusu olduğundan qətnamə bu hissədə ləğv edilməlidir.

70. İşdən görünür ki, apellyasiya instansiyası məhkəməsi Azərbaycan Respublikası Ali Məhkəməsinin bu iş üzrə qəbul etdiyi qərardakı göstərişlərə əsasən apellyasiya şikayətinin dəlilləri üzrə təkrar araşdırma apararaq müəyyən etmişdir ki, iddiaçının mülkiyyət hüququna cavabdeh tərəfindən müdaxilə baş vermişdir. Məhkəmə müəyyən etmişdir ki, iddiaçının xüsusi mülkiyyətində olan Ünvan 3 ünvanında yerləşən qeyriyaşayış binası sökülmüş və iddiaçı faktiki olaraq həmin əmlakından məhrum olmuşdur. Ekspert rəyinə əsasən müəyyən olunmuşdur ki, həmin qeyri-yaşayış sahəsinin yerləşdiyi torpaq sahəsi «XXX» şadlıq sarayı kimi istifadə olunan qeyri-yaşayış binasının önündə yerləşən sahə ilə üst-üstə düşür.

71. Məhkəmə bu müdaxilənin qanunsuz olub-olmadığına hüquqi qiymət verərək belə qənaətə gəlmişdir ki, müdaxilə qanunsuz olmamışdır. Belə ki, qeyri-yaşayış sahəsi iddiaçının öz razılığı ilə sökülmüş, başqa sözlə, iddiaçı hazırda tələb etdiyi sahəni öz razılığı ilə satdığını və bundan sonra isə həmin tikilinin söküldüyünü yazılı ərizəsində bəyan etdiyi üçün cavabdeh vicdanlı əldə edən olduğundan iddiaçının mülkiyyətinə qəsddən söhbət gedə bilməz.

72. Kollegiya hesab edir ki, apellyasiya instansiyası məhkəməsinin bu tələblə bağlı hissədə gəldiyi nəticə maddi və prosessual hüquq normalarının tələblərinə uyğun deyil.

73. Belə ki, Mülki Məcəllənin 144.1-ci və 329.1-ci maddələrinin tələblərinə əsasən daşınmaz əmlaka sərəncam verilməsi ilə bağlı yazılı formada tərtib edilməmiş və notarial qaydada təsdiq edilməmiş müqavilələr etibarsız müqavilələr olduğundan hazırkı halda iddiaçının mülkiyyətində olan daşınmaz əmlakla bağlı tərəflər arasında etibarlı müqavilə bağlandığı, yəni iddiaçının mülkiyyətində olmuş daşınmaz əmlakın cavabdehi təmsil etmiş şəxslər (təsisçi və direktor) tərəfindən sökülməsinin qanuni əsası olduğu müəyyən edilmir. Bundan əlavə iddiaçı əmlakının sökülməsinə yalnız əvəzi ödənilməklə razılıq verdiyi halda bu məbləğin iddiaçıya ödənildiyi cavabdeh tərəfindən sübut edilməmişdir. Qeyd edilənlərə əsasən iddiaçının mülkiyyət hüququna müdaxilənin qanunsuz olduğu və mülkiyyətindən məhrum edilməsi nəticəsində iddiaçıya zərər vurulduğu müəyyən edilir.

74. Belə olan halda iddiaçının cavabdehdən mülki hüquq pozuntusu (delikt) nəticəsində vurulmuş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ yaranır.

75. Mülki qanunvericilikdə zərərin əvəzinin ödənilməsinin müxtəlif üsulları nəzərdə tutulmuşdur: naturada bərpa (zədələnmiş və ya məhv edilmiş əmlakın bərpası, eyni növlü və eyni keyfiyyətli digər əmlak verilməsi), pul kompensasiyası və s.

76. Hazırkı halda iddiaçının Mülki Məcəllənin 459.1-ci maddəsinə əsasən sökülmüş əmlakının əvvəlki vəziyyətdə bərpa edilməsini tələb etməyə subyektiv hüququ olsa da məhkəmə işin hallarını nəzərə alaraq (hazırda həmin əmlakın yerləşdiyi ərazinin şadlıq evinin qarşısına düşdüyünü nəzərə alaraq) zərərin naturada bərpa yolu aradan qaldırılmasını mümkün hesab etməmişdir. Məhkəmə qeyd etmişdir ki, iddiaçının dəymiş zərərə görə pul kompensasiyası ilə bağlı iddia tələbi olmadığından bununla bağlı yeni iddia irəli sürmək hüququna malikdir.

77. Kollegiya məhkəmənin bu mövqeyi ilə razılaşmayaraq qeyd edir ki, MPM-nin 153-cü maddəsinin tələbinə əsasən eyni tərəflər arasında, eyni predmet barəsində və eyni əsaslar üzrə mübahisəyə dair məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsinin mövcud olduğu halda həmin iddiaya yenidən məhkəmə tərəfindən baxılmasını yolverilməz edir.

78. Prosesdə iddianın predmeti dedikdə, iddiaçının, barəsində qərar qəbul olunmasını xahiş etdiyi subyektiv hüquq başa düşülür. İddianın obyekti - iddiaçının əldə etməyə çalışdığı maddi nemətdir: pul məbləği, qeyri-yaşayış sahəsi, sair konkret əmlak. (Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun 27.08.2012-ci il tarixli qərarı)

79. Hazırkı halda iddianın predmetini iddiaçının mülkiyyət hüququndan məhrum edilməsi nəticəsində vurulmuş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ təşkil edir. Zərərin əvəzinin naturada əmlakın bərpa edilməsi yolu ilə ödənilməsinə dair tələb iddianın obyekti olmaqla zərərin ödənilməsinin qanunla müəyyən edilmiş üsullarından biridir.

80. Mülki Məcəllənin 1115-ci maddəsində də mülki qanunvericilik zərər vurulmuş şəxsə zərərin əvəzinin hansı üsulla ödənilməsini (naturada və ya vurulmuş zərərin əvəzinin pul kompensasiyası ilə ödənilməsi yolu ilə) işin hallarına uyğun olaraq müəyyənləşdirmək səlahiyyətini məhkəməyə aid etmiş, eyni zamanda MM-nin 459.5-ci maddəsində nəzərdə tutulmuşdur ki, ilkin vəziyyətin bərpası yolu ilə zərərin əvəzinin ödənilməsi mümkün deyildirsə və ya bunun üçün tənasübsüz surətdə böyük xərclər zəruridirsə, kreditora pul əvəzi verilməlidir. MPM-nin 220.6-cı maddəsində isə məhkəmənin qəbul etdiyi qətnamənin icra qaydasını müəyyən etmək səlahiyyəti nəzərdə tutulmuşdur.

81. Göstərilənlərə əsasən kollegiya hesab edir ki, hazırkı halda məhkəmə iddiaçıya vurulmuş zərərin naturada əmlakın bərpası yolu ilə ödənilməsini mümkün hesab etmədiyi halda zərərin əvəzinin ödənilməsinin digər üsulunu-cavabdeh tərəfindən pul əvəzinin (kompensasiyanın) verilməsi üsulunu, o cümlədən, kompensasiyanın məbləğini tərəflərlə müzakirə edilməli, məbləğlə bağlı mübahisə olduğu təqdirdə qanunvericilikdə nəzərdə tutulmulş prosessual vasitələrdən istifadə edilməklə mübahisə həll edilməlidir.

82. Mənəvi ziyan tələbi ilə bağlı kollegiya hazırkı işin hallarını nəzərə alaraq hesab edir ki, iddiaçının mülkiyyətində olan avtoyuyucunun sökülməsi ilə bağlı tərəflər arasında etibarsız razılaşma olsa da əmlak onun öz razılığı ilə söküldüyündən cavabdehin hərəkətlərini iddiaçıya mənəvi ziyan hərəkətlər kimi qiymətləndirilə bilməz. Buna görə də mənəvi zərərin tutulması barədə iddia tələbinin təmin edilməməsinə dair məhkəmənin mövqeyi qanuni və əsaslıdır. Belə ki, "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 21 və 23-cü maddələrinin şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 31.05.2002-ci il tarixli qərarında qeyd edilmişdir ki, "Mənəvi zərər adətən vətəndaşların şəxsi qeyri-əmlak hüquqlarının pozulması nəticəsində əmələ gəlir. Mənəvi zərər qeyri-əmlak zərəri olmaqla, iqtisadi məzmun və dəyər kəsb etməyən hüquq pozuntusudur. Belə zərər vətəndaşa anadangəlmə və ya qanun əsasında ona məxsus olan qeyri-maddi nemətlərə aid (şərəf, ləyaqət, işgüzar nüfuz, şəxsi, ailə sirri, hərəkət etmək azadlığı, yaşayış yeri seçmə, ad hüququ, müəlliflik hüququ, sair şəxsi qeyri-əmlak hüquqlar və digər maddi nemətlər) hüquqlarını pozmaqla fiziki şəxsə mənəvi sarsıntı, iztirab verir. Mənəvi zərər bilavasitə zərər vuran şəxsin hərəkətlərindən sonra zərərçəkmişin şüuruna təsir göstərməklə mənfi psixoloji reaksiyaya səbəb olur."

83. Əldən çıxmış faydaya görə pul tələbi ilə bağlı kollegiya qeyd edir ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 443.4-cü maddəsinə əsasən əldən çıxmış fayda müəyyənləşdirilərkən kreditorun onu əldə etmək üçün gördüyü tədbirlər və bu məqsədlə apardığı hazırlıq işləri nəzərə alınmalıdır. Qeyd edilən normaya əsasən məhkəmə əldən çıxmış faydaya görə cavabdehdən tutulmalı olan zərər məbləğini müəyyənləşdirərkən iddiaçının zərər vurulma anınadək faktiki əldə etdiyi və ya bağladığı əqdlər əsasında əldə edəcəyi gəlirlərə dair sübutlar mövcud olmalıdır. MPM-nin 77.1-ci maddəsinə əsasən iddiaçı öz iddia tələbinin əsası kimi istinad etdiyi halları sübut etməyə borclu olduğu halda hazırkı halda əldən çıxmış fayda ilə bağlı məhkəməyə sübutlar təqdim edilmədiyindən həmin hissədə də iddianın rədd edilməsi qanuni və əsaslı hesab edilir.

84. Məhkəmə kollegiyası qeyd edilənlərə əsasən hesab edir ki, kassasiya şikayəti qismən təmin edilməli, Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 18 dekabr 2024cü il tarixli, 2(103)-3852/2024 nömrəli qətnaməsi qismən - iddiaçının mülkiyyətində olan qeyri-

yaşayış binasının (avtoyuyucunun) çıxarışda və texniki pasportda göstərilən qaydada bərpa etmək vəzifəsinin cavabdehin üzərinə qoyulması barədə iddia tələbinin rədd edildiyi və iddiaçıdan 200 manat ekspertiza xərcinin tutulması hissəsində- ləğv edilməli, iş həmin hissədə yeni apellyasiya baxışına qaytarılmalıdır.

85. Yuxarıda qeyd olunanlara əsasən və Azərbaycan Respublikası MPM-nin 407, 416, 417 və 419-cu maddələrinin tələblərini rəhbər tutaraq kassasiya instansiyası məhkəməsi

Qərara aldı:

Kassasiya şikayəti qismən təmin edilsin.

Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 18 dekabr 2024-cü il tarixli, 2(103)-3852/2024 nömrəli qətnaməsi qismən - iddiaçının mülkiyyətində olan qeyri-yaşayış binasının (avtoyuyucunun) çıxarışda və texniki pasportda göstərilən qaydada bərpa etmək vəzifəsinin cavabdehin üzərinə qoyulması barədə iddia tələbinin rədd edildiyi və iddiaçıdan 200 manat ekspertiza xərcinin tutulması hissəsində - ləğv edilsin.

İş həmin hissələrdə yeni apellyasiya baxışına qaytarılsın.

Qətnamə mübahisələndirilən qalan hissələrdə dəyişdirilmədən saxlanılsın.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

Mənəvi zərərin kompensasiyası

40. 2(102)-388/2023 nömrəli, 2023-cü il 6 mart tarixli qərar - Mənəvi zərər vurulmasına səbəb olan hadisədən ötən müddətin və təqsirin növünün təzminatın həcminə təsiri

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: mənəvi zərər vurulmasına səbəb olan hadisənin ötən müddətin və təqsirinin növünün təzminatın həcminə təsiri.

Mübahisə cinayət hadisəsi nəticəsində dəymiş mənəvi zərərin məbləğinin müəyyən edilməsi ilə bağlıdır. Belə ki, A adlı şəxs MMC-də sürücü vəzifəsində işləmişdir. 30.04.2010-cu il tarixdə idarə etdiyi MMC-yə məxsus olan avtomobillə qəza törətmiş, iddiaçının anası həmin qəzada ölmüşdür. İddiaçı məhkəməyə müraciət edərək, MMC-dən 500.000 manat məbləğində mənəvi zərər tələb etmişdir.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Mənəvi zərərin məbləğinin müəyyən edilməsi üçün konkret meyarlar qanunvericiliklə müəyyən edilməmişdir. Mənəvi zərərin məbləği təqsirli şəxsin təqsiri və ya zərərçəkənin subyektiv vəziyyəti nəzərə alınmadan obyektiv əsaslara görə müəyyən edilir. Mənəvi təzminatın əsas məqsədi zərərin kompensasiyası olduğundan, gələcəkdə baş verəcək zərərin qarşısının alınması üçün yüksək məbləğdə zərər tələb edilə bilməz. İztirab və sarsıntının nəticəsi olan zərər, zərərçəkənin hiss etdiyi fiziki və ya psixoloji ağrı şəklində ortaya çıxdığına görə təzminat bu ağrının dərəcəsinə mütənasib olmalıdır. Ağrının şiddəti obyektiv faktorlara görə dəyərləndirilir. Belə obyektiv faktorlara, törədilən hüquqazidd əməlin növü, ölçüsü, şiddəti, davam etdiyi müddət, zərərçəkən şəxsdə mənfi fiziki və psixoloji təsirləri aiddir. Zərərin ağırlığının çox olması təzminat miqdarının yüksək, az olması isə aşağı olmasını şərtləndirir. Belə ki, bir şəxsin avtomobil qəzasında vəfat etməsi ilə şəxsin qəsdən həyatdan məhrum edilməsinin məruz qoyduğu mənəvi zərərin məbləği fərqləndirilməlidir. Təzminatın miqdarı ilə bağlı nəzərə alınmalıdır ki, zərərçəkənə şişirdilmiş bir məbləğin verilməsi əsassız varlanmaya gətirib çıxara bilər.

İztirab və sarsıntının ağırlıq dərəcəsinə təsir göstərən faktorlardan biri də ölən və ya cismani zərərə məruz qalanın yaxınlarının mənəvi təzminat tələb etmələri halında onların zərərçəkmiş şəxslə qohumluq dərəcəsi və şəxsi münasibətlərinin xarakteridir. Yaxınlara ödəniləcək mənəvi təzminatın miqdarında qohumluq dərəcəsindən asılı olmayaraq mövcud olan şəxsi münasibətlərin xarakteri də əhəmiyyət kəsb edir. Bu zaman sağ ikən şəxslərarası münasibətlərin məzmununa xüsusi diqqət edilməlidir. Odur ki, ölən şəxslə yaxşı münasibəti olan və daim onun yanında qalan bir kəsə ödəniləcək təzminat məbləği, münasibətləri pis olan və uzun zaman ərzində onunla görüşməyən şəxsə ödəniləcək məbləğdən çox olmalıdır.

Mənəvi təzminatın məbləğinə təsir edən elementlərdən biri də zərərçəkənin iqtisadi vəziyyətidir. Çünki qane olma səviyyəsi hamıda eyni deyil. Təqsirli tərəfin maddi vəziyyəti də mənəvi zərərin müəyyən edilməsində əhəmiyyətli faktorlardan biridir. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin təcrübəsində də mənəvi zərərin məbləği məsələsi həll edilərkən ölkələrin sosial-iqtisadi durumu, insanların yaşayış səviyyəsi nəzərə alınır.

Zərərvuranın təqsirinin dərəcəsi də təzminatın miqdarının müəyyən edilməsində əhəmiyyət kəsb edir. Bu anlamda, ehtiyatsızlıqla cinayət törətmiş şəxsdən tutulan zərərin məbləği, qəsdən cinayət törətmiş şəxsdən tutulan zərərin məbləği ilə eyni olmamalıdır.

Həmçinin, mənəvi zərər bilavasitə zərərvuran şəxsin hərəkətlərindən sonra zərərçəkmişin şüuruna təsir göstərməklə, mənfi psixoloji reaksiyaya səbəb olduğu üçün, hadisədən uzun müddət keçdikdən sonra mənəvi zərərin təsirinin azalması da labüddür.

2(102)-388/2023

06.03.2023-cü il Bakı şəhəı

Azərbaycan Respublikası adından

Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki Kollegiyasının

iddiaçının cavabdehə qarşı iş üzrə

Q Ə R A R I

Açar sözlər: mənəvi zərərin əvəzinin ödənilməsi

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyası hakimlər Məmmədov Vidadi Məmməd oğlu (məruzəçi), Əliyev Zaur Əli oğlu və Abbasov Aqil Əzizağa oğlundan ibarət tərkibdə

iddiaçının cavabdehə qarşı mənəvi zərərin əvəzinin ödənilməsi tələbinə dair iddia ərizəsi ilə bağlı Bakı Apellyasiya Məhkəməsi Mülki Kollegiyasının 2(103)-1345/2022 nömrəli iş üzrə 31 mart 2022-ci il tarixli qətnaməsindən cavabdehin kassasiya şikayətinə Ali Məhkəmənin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İŞİN HALLARI

1. Bakı Ağır Cinayətlər Məhkəməsinin 1(101)-156/2011 nömrəli iş üzrə 09.03.2011-ci il tarixli hökmünə əsasən, X1 30.04.2010-cu il tarixdə saat 12 radələrində idarə etdiyi "Hyundai HD-120" markalı **-AD-*** dövlət qeydiyyat nişanlı avtomobillə Bakı şəhəri istiqamətində hərəkətdə olarkən Ələt-Astara-İran sərhədi avtomobil yolunun Biləsuvar rayonu ərazisindən keçən 94-cü kilometrliyində "Yol hərəkəti haqqında" AR Qanununun 50-ci maddəsinin 1-ci hissəsinin və 2-ci hissəsinin 4-cü bəndinin tələblərini pozaraq, yəni sürücü hərəkət üçün təhlükə yarandığını gördükdə nəqliyyat vasitəsinin sürətini tam dayanma həddinə qədər azaltmaq üçün mümkün olan tədbirləri görməli olduğu halda, bu tələblərə riayət etməyərək, hadisənin qarşısını almağa texniki imkanı olduğu halda almamış, yaşayış məntəqəsindən kənarda avtomobili 90 km/saat sürətdən yüksək sürətlə idarə edən zaman 100 metr irəlidə sağ yol çiynindən naməlum "Qazel" markalı avtomobil çıxaraq Bakı istiqamətində hərəkət etdiyini görüb tormoz etmiş, avtomobil tormozda düzünə, daha sonra sola hərəkət edib yolun əks hərəkət zolağına çıxaraq qabaq sol hissəsi qarşıdan əks istiqamətdə Astara rayonu istiqamətində hərəkətdə olan X2-nun idarə etdiyi "Ford D EDL" markalı ** BF *** dövlət qeydiyyat nişanlı avtomobildə olmuş sərnişinlər X3 qarın boşluğundan qapalı küt travması nəticəsində qara ciyərin yumşaq toxumasını əzib-dağılmasından baş verən kəskin daxili qanitirmə, sol tərəfli bazu və körpücük sümüyünün qapalı sınığı, sol aş nahiyyəsindən və çiyin qurşağında cərrahi tikişə ehtiyacı olan yaralar, üzün sol yarısının və sol əlin arxasında olan sıyrıqlarından ibarət, 2002-ci il təvəllüdlü X4 açıq kəllə beyin travması, sol tərəfli kəllə qapağı kəllə əsası sümüyünün açıq qəlpəli sınığından ibarət, 2001-ci il təvəllüdlü X5 açıq kəllə beyin travması, sol tərəfli kəllə qapağı və əsası sümüklərinin açıq mürəkkəb sınığı, sol beyin yarımkürəsinin əzilib dağılması, sol tərəfli çənə və əng sümüyünün açıq qəlpəli sınığından ibarət həyat üçün təhlükəli olan dərəcəsinə görə sağlamlığa ağır zərərvurmaya aid bədən xəsarətləri yetirildiyindən hadisə yerində ölmüşlər.

2. Hökmdən görünür ki, X3 ölümü ilə əlaqədar zərərçəkmiş şəxsin hüquqi varisi qismində X6 tanınmış və o, məhkəmə iclasında təqsirləndirilən şəxs X1 qarşı heç bir şikayət və tələbinin olmadığını bildirmişdir.

3. Hadisə zamanı X1 cavabdehə məxsus "Hyundai HD-120" markalı **-AD-*** dövlət qeydiyyat nişanlı avtomobili idarə etmiş və orada sürücü işləmişdir.

4. Qəza nəticəsində həlak olan X3 iddiaçının anasıdır.

İŞ ÜZRƏ QƏBUL EDİLMİŞ MƏHKƏMƏ AKTLARI

a) Birinci instansiya məhkəməsində icraat

5. İddiaçı cavabdehə qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, cavabdehdən mənəvi zərərə görə 500.000 manat məbləğdə pul vəsaitinin tutularaq ona ödənilməsini xahiş etmişdir.

6. İddianın əsaslarına görə, cavabdehin əməkdaşının qanunsuz və hüquqazidd cinayət xarakterli hərəkəti ilə baş vermiş hadisə nəticəsində ona övlad kimi mənəvi zərər dəymişdir. Baş vermiş cinayət hadisəsi nəticəsində anasının faciəli şəkildə ölməsindən sonra mərhum anasının xəsarətli cəsədi gözünün önündə canlanır. Bu isə ona mənəvi iztirab və sarsıntı keçirməsinə səbəb olur. Məhkəmə mənəvi zərərin miqdarını müəyyən edərkən onun keçirdiyi mənəvi iztirabların ağırlığını, zərərin baş verməsinə səbəb olan hadisənin ağırlığını, yəni ölümlə nəticələnməsini, cavabdehin hüquqi şəxs olmasını, hüquqi şəxsin maddi durumunun kifayət qədər olmasını və bu mənəvi iztirabı ömür boyu çəkəcəyini nəzərə almalıdır.

7. Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin 2(008)-648/2021 nömrəli iş üzrə 23.04.2021-ci il tarixli qətnaməsi ilə iddia qismən təmin edilmiş, cavabdehdən 3.000 manat məbləğdə pulun tutularaq iddiaçıya ödənilməsi qət edilmişdir.

8. Birinci instansiya məhkəməsinin qətnaməsinin əsaslarına görə, "... cavabdeh təşkilatın işçisinin ehtiyatsızlıqdan törətdiyi cinayət əməli nəticəsində iddiaçı anasını itirməklə məlum hadisədən mənəvi sarsıntı keçirmişdir. Cavabdeh cavabdeh şəxs kimi öz işçisinin əmək vəzifələrinin icrası zamanı vurduğu zərərin əvəzini ödəməlidir. Belə ki, mülki qanunvericiliyə əsasən cavabdeh öz işçisinin törətdiyi mülki hüquq pozuntusu (delikt) üçün məsuliyyət daşıyır və əmək (qulluq, mənsəb) vəzifələrinin icrası zamanı işçisinin vurduğu zərərin əvəzini ödəməlidir.

...

... iddiaçının mənəvi zərərin əvəzi kimi tələb etdiyi 500000 (beş yüz min) manat pul ağlabatan və ədalətli olmadığına görə həmin məbləğ 3000 (üç min) manat miqdarında müəyyən edilməlidir."

9. Birinci instansiya məhkəməsi gəldiyi nəticəni Azərbaycan Respublikası Mülki Məcəlləsinin 23, 1099.1-ci maddələrinə istinadla əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsində icraat

10. Birinci instansiya məhkəməsinin qətnaməsi ilə razılaşmayan iddiaçı ondan apellyasiya şikayəti verərək, qətnamənin iddia rədd olunan hissədə ləğv edilib, iddianın tam təmin olunmasını xahiş etmişdir.

11. Bakı Apellyasiya Məhkəməsi Mülki Kollegiyasının 2(103)-1345/2022 nömrəli iş üzrə 31.03.2022-ci il tarixli qətnaməsi ilə (hakimlər İ.Şirinov (sədrlik edən və məruzəçi), İ.Kərimli və A.Tanrıverdiyev) apellyasiya şikayəti qismən təmin edilmiş, Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin 23.04.2021-ci il tarixli qətnaməsi mənəvi zərərin əvəzinin tutulması hissədə dəyişdirilmiş, cavabdehdən mənəvi zərərin əvəzi olaraq 15.000 manat məbləğdə pul vəsaitinin tutularaq iddiaçıya ödənilməsi qət edilmiş, qətnamə iddiaçının apellyasiya şikayətinə əsasən mübahisələndirilən qalan hissədə dəyişdirilmədən saxlanılmışdır.

12. Apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin əsaslarına görə, "Kollegiya qeyd edir ki, iddiaçı Bakı Apellyasiya Məhkəməsinə ünvaladığı 08.02.2022-ci il tarixli müraciətinə qeyd etdiyi yuxarıda göstərilmiş məhkəmə aktalarından da göründüyü kimi ailədə bir nəfərin vəfat etməsinə görə kompensasiya məbləği 10.000-20.000 manat olmaqla dəyişir.

Məhkəmə kollegiyası belə qənaətə gəlir ki, rayon məhkəməsi tərəfindən mənəvi zərərə görə müəyyən olunmuş məbləğ mütənasib olmamaqla, həm də oxşar işlər üzrə məhkəmə təcrübəsinə də uyğun olmamışdır.

Bu səbəbdən, işin xüsusi halları baxımından mənəvi zərərin əvəzi olaraq - 15000 (on beş min) manat pulun tutulması ədalətli və ağlabatandır."

13. Apellyasiya instansiyası məhkəməsi gəldiyi nəticəni Mülki Məcəllənin 23, 1099.1ci, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 82.4-cü, Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 12.2-ci maddələrinə, "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 21 və 23-cü maddələrinin şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 31.05.2002-ci il tarixli qərarı və "Mənəvi zərərin ödənilməsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsinin 03.11.2008-ci il tarixli Qərarındakı hüquqi mövqelərə istinadla əsaslandırmışdır.

KASSASİYA ŞİKAYƏTİNİN VƏ ONA ETİRAZIN DƏLİLLƏRİ

a) Kassasiya şikayətinin dəlilləri

14. Apellyasiya instansiyası məhkəməsinin qətnaməsi ilə razılaşmayan cavabdeh ondan kassasiya şikayəti verərək, qətnamənin ləğv edilib, işin yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilməsini xahiş etmişdir.

15. Kassasiya şikayətinin dəlillərinə görə, işə baxan məhkəmə kollegiyası maddi və prosessual hüquq normalarının pozulması ilə çıxardığı qətnaməsində göstərdiyi hüquqi

mövqeyini əsaslandırmamış, ağlabatan məbləği necə müəyyən etdiyini göstərməmişdir. Sözügedən yol nəqliyyat hadisəsi zamanı bütün zərərçəkmiş şəxslərə maddi yardımlar göstərilmiş, ilkin tibbi yardım xərcləri də daxil olmaqla bütün xəstəxana xərcləri, dəfn, yas mərasimlərinin keçirilməsi ilə əlaqədar xərclər və eyni zamanda digər bütün növ təzminatlar ödənilmişdir. O cümlədən iş üzrə iddiaçı anasının həlak olması ilə əlaqədar zərərçəkmiş şəxsin hüquqi varisi kimi tanınmış, onun qardaşı X6-a bütün növ təzminatlar ödənilmişdir.

Bundan başqa, cavabdehin rəhbərliyi başda olmaqla kollektiv yas mərasimində iştirak etmiş və bu səpkidə olan bütün xərclər də cəmiyyət tərəfindən ödənilmişdir.

Daha sonra, həmin hadisə ilə əlaqədar cinayət işinin istintaqı və məhkəmə baxışı zamanı X6 zərərçəkmiş şəxsin hüquqi varisi kimi həmin iş üzrə təqsirləndirilən şəxs X1-a qarşı heç bir iddia və tələbinin olmadığını yazılı olaraq bildirmişdir.

İddiaçı yol nəqliyyat hadisəsinin baş verməsindən 10 ildən çox müddət keçdikdən sonra cavabdehə qarşı mənəvi ziyanın ödənilməsi tələbinə dair iddia ərizəsi ilə məhkəməyə müraciət etmişdir.

İddiaçının sözügedən iddia ərizəsində qeyd olunan məbləği mənəvi ziyan adı altında tələb etməsi üçün heç bir əsası yoxdur. Belə ki, mərhum X3-nın ölümü ilə əlaqədar bütün növ təzminatlar X6-a ödənilmişdir.

Göründüyü kimi, iddiaçının mənəvi zərər adı altında tələb etdiyi böyük məbləğdə vəsait iddiaçının güya pozulmuş hüquqlarının bərpasına yox, onun maddi cəhətdən zənginləşməsinə xidmət edən tələbdir. Yəni, iddiaçının məqsədi cavabdehin adından və mövqeyindən istifadə edərək əsassız varlanmaqdır.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1099 və 1108-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair" 18.04.2022-ci il tarixli Qərarında göstərilir ki, Mülki Məcəllənin 1099-cu maddəsinin tətbiqi üçün işçi tərəfindən vurulmuş zərərin bilavasitə işəgötürənin fəaliyyət dairəsinə aid olub-olmaması məsələsinin aydınlaşdırılması da mühüm əhəmiyyət kəsb edir. Əgər işçinin zərər vuran hərəkətləri işəgötürənin fəaliyyət dairəsinə aid deyildirsə, hüquq pozuntusu işçinin əmək və ya xidməti vəzifələrinin icrası ilə əlaqədar baş verməmişdirsə, o zaman zərərin əvəzinin ödənilməsi vəzifəsi bilavasitə zərərvuranın (işçinin) üzərinə düşür.

Lakin nə birinci instansiya, nə də apellyasiya instansiya məhkəməsi Konstitusiya Məhkəməsi Plenumunun bu mövqeyi baxımından məsələyə düzgün qiymət verməmişlər. Çünki, hadisə zamanı işçinin əmək funskiyalarından irəli gələn öhdəliyini icra etməsi zamanı hadisənin baş verməsi halı müəyyən edilməmişdir.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

16. Kassasiya şikayətinə qarşı etiraz təqdim olunmamışdır.

TƏTBİQ EDİLƏN HÜQUQ

17. Azərbaycan Respublikasının Konstitusiyası:

II. Cinayət, habelə hakimiyyətdən sui-istifadə nəticəsində zərər çəkmiş şəxsin hüquqları qanunla qorunur. Zərər çəkmiş şəxsin ədalət mühakiməsinin həyata keçirilməsində iştirak etmək və ona vurulmuş zərərin ödənilməsini tələb etmək hüququ vardır.

18. Azərbaycan Respublikasının Mülki Məcəlləsi:

Maddə 1096.1. Mülki hüquq pozuntusu (delikt) hüquqla və ya qanunla müdafiə edilən başqa şəxsə (zərərçəkənə) birbaşa ziyan və ya zərər vurulmasına gətirib çıxaran təqsirli, hüquqa zidd (mülki qanunvericiliyin normalarını pozan) əməldir (hərəkət və ya hərəkətsizlikdir);

Maddə 1096.2. Delikt törətmiş şəxs mülki hüquq məsuliyyəti daşıyır;

Maddə 1097.1. Mülki hüquq pozuntusu (delikt) nəticəsində fiziki şəxsin şəxsiyyətinə və ya əmlakına vurulmuş zərərin, habelə hüquqi şəxsin əmlakına və işgüzar nüfuzuna vurulmuş zərərin əvəzi zərərvuran tərəfindən tam həcmdə ödənilməlidir. Qanunla zərərin əvəzini ödəmək vəzifəsi zərəri vurmayan şəxsin öhdəsinə qoyula bilər;

Maddə 1099.1. Hüquqi və ya fiziki şəxs öz işçisinin törətdiyi mülki hüquq pozuntusu (delikt) üçün məsuliyyət daşıyır və əmək (qulluq, mənsəb) vəzifələrinin icrası zamanı işçisinin vurduğu zərərin əvəzini ödəməlidir;

Maddə 1115. Zərərin əvəzinin ödənilməsi üsulları

Zərərin əvəzinin ödənilməsi tələbini təmin edərkən məhkəmə zərərin vurulması üçün məsuliyyət daşıyan şəxsin üzərinə işin hallarına uyğun olaraq zərərin əvəzini naturada ödəmək (eyni növlü və keyfiyyətli əmlak vermək, zədələnmiş əmlakı düzəltmək və i.a.) və ya vurulmuş zərərin əvəzini ödəmək öhdəliyi qoyur.

19. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi (MPM):

Maddə 14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir;

Maddə 77.1. Hər bir tərəf öz tələblərinin əsası kimi istinad etdiyi halları sübut etməlidir;

Maddə 82.4. Məhkəmənin qanuni qüvvəyə minmiş hökmü, habelə cinayət təqibi üzrə qüvvəyə minmiş digər qərarı mülki işə və kommersiya mübahisəsinə baxılarkən məhkəmə üçün hadisənin olub-olmaması və şəxsin həmin hadisəyə aidiyyəti hissəsində məcburidir; Maddə 88. Sübutların qiymətləndirilməsi

Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur;

Maddə 106.1. İşdə iştirak edən şəxslərin iş üçün əhəmiyyətli olan və onlara məlum olan faktlar barədə izahatları iş üzrə toplanmış digər sübutlarla yanaşı yoxlanılmalı və qiymətləndirilməlidir;

Maddə 217.1. Məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır;

Maddə 217.3. Qətnamə iş üzrə müəyyən edilmiş hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır;

Maddə 392.1. Apellyasiya instansiyası məhkəməsinin qətnaməsində aşağıdakılar göstərilməlidir:

392.1.6. apellyasiya şikayətinə baxılması üzrə məhkəmənin nəticələri;

Maddə 392.2. Apellyasiya şikayəti təmin edilmədikdə və ya məhkəmənin qətnaməsi dəyişdirildikdə, apellyasiya instansiyası məhkəməsi hansı dəlillərə əsasən şikayətin təmin edilmədiyini və yaxud qətnamənin dəyişdirildiyini göstərməyə borcludur;

Maddə 407.2. Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir;

Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır;

Maddə 416.2. Apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 418.4-cü maddəsində nəzərdə tutulmuş prosessual hüquq pozuntusu hesab edilən hallara yol verilməsi şikayətin hədlərindən və dəlillərindən asılı olmayaraq yoxlanılmalıdır; Maddə 417.1. Kassasiya məhkəməsi işə baxarkən:

417.1.3. apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadını qismən ləğv edə və ya tamamilə, yaxud qismən ləğv edib işi yenidən baxılmaq üçün apellyasiya instansiyası məhkəməsinə göndərə bilər;

Maddə 418.1. Maddi və prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması, o cümlədən maddi və prosessual hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması apellyasiya instansiyası məhkəməsinin qətnamə və qərardadının ləğv edilməsi üçün əsasdır;

Maddə 418.2. Bu Məcəllənin 386-cı maddəsində göstərilən hallarda maddi hüquq normaları pozulmuş və ya düzgün tətbiq olunmamış hesab edilir;

Maddə 418.3. Prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması qətnamənin yaxud qərardadın ləğv edilməsi üçün o vaxt əsas ola bilər ki, bu pozuntu düzgün qətnamə qəbul edilməməsi ilə nəticələnsin və ya nəticələnə bilsin;

Maddə 418.6. Hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması qətnamənin və ya qərardadın ləğv edilməsinə yalnız o halda əsas olur ki, qətnamə və ya qərardad Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun maddi və ya prosessual hüquq normalarının tətbiqi ilə bağlı məhkəmə təcrübəsinə dair məsələlər üzrə izahlarına, habelə bu Məcəllənin 418-1.3-cü maddəsində nəzərdə tutulan Ali Məhkəmənin mülki və kommersiya kollegiyalarının mübahisəli hüquqi məsələyə dair hüquqi mövqeyinə zidd olsun və həmin izahlarda təsbit olunmuş hüquqi mövqedən fərqli yanaşmanın tətbiqi zərurəti kifayət qədər əsaslandırılmasın.

20. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi:

Maddə 12.2. Cinayətin əlamətləri olan əməldən zərər çəkmiş şəxsin bu Məcəllədə nəzərdə tutulmuş qaydada cinayət təqibinin başlanılmasını tələb etməyə, onun həyata keçirilməsində zərər çəkmiş şəxs və ya xüsusi ittihamçı qismində iştirak etməyə, habelə vurulmuş mənəvi, fiziki və maddi ziyana görə kompensasiya almağa hüququ vardır.

21. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun qərarları

"Azərbaycan Respublikası Mülki Məcəlləsinin 21 və 23-cü maddələrinin şərh edilməsinə dair" 31.05.2002-ci il tarixli Qərar:

"Mənəvi zərər adətən vətəndaşların şəxsi qeyri-əmlak hüquqlarının pozulması nəticəsində əmələ gəlir. Mənəvi zərər qeyri əmlak zərəri olmaqla iqtisadi məzmun və dəyər kəsb etməyən hüquq pozuntusudur. Belə zərər vətəndaşa anadangəlmə və ya qanun əsasında ona məxsus olan qeyri-maddi nemətlərə aid (şərəf, ləyaqət, işgüzar nüfuz, şəxsi ailə sirri, hərəkət etmək azadlığı, yaşayış yeri seçmə, ad hüququ, müəlliflik hüququ, sair şəxsi qeyri-əmlak hüquqlar və digər maddi nemətlər) hüquqlarını pozmaqla fiziki şəxsə mənəvi sarsıntı, iztirab verir.

Mənəvi zərər bilavasitə zərər vuran şəxsin hərəkətlərindən sonra zərər çəkmişin şüuruna təsir göstərməklə mənfi psixoloji reaksiyaya səbəb olur. Mənəvi zərər vətəndaşların hüquqlarının pozulmasının müstəqil nəticəsidir. O həm vurulmuş əmlak zərəri ilə birlikdə yaxud əmlak zərəri vurulmadığı hallarda kompensasiya edilir.

Mənəvi zərər ödənilərkən mənəvi və fiziki iztirabların xarakteri və dərəcəsi, eləcə də cavabdehin təqsiri, əmlak vəziyyəti və s. vacib halların nəzərə alınması zəruridir və hər bir konkret halda belə zərərin ödənilməsi ilə bağlı xüsusatlar məhkəmənin mülahizəsinə görə müəyyən olunmalıdır."

"A.Səlimzadənin şikayəti ilə əlaqədar Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki işlər üzrə məhkəmə kollegiyasının 2 mart 2005-ci il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair" 08.06.2006-cı il tarixli Qərar:

"... məhkəmə qətnaməsinin qanunvericiliyin tələblərinə əməl olunmadan çıxarılması həmin qətnaməni ədalət mühakiməsinin qanuna uyğun aktı kimi qəbul etməyə imkan vermir."

"K.Bunyatovun şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki işlər üzrə məhkəmə kollegiyasının 12 yanvar 2007-ci il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair" 27.12.2007-ci il tarixli Qərar:

"... kassasiya qaydasında işə baxılması yalnız formal xarakter daşımamalı və məhz şikayətçi tərəfindən qanunvericiliyin tələblərinə müvafiq olaraq irəli sürülən dəlillərin yoxlanılmasına xidmət etməlidir."

"N.Əbilovun şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki işlər üzrə məhkəmə kollegiyasının 09 fevral 2006-cı il tarixli qərarının və Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 22 dekabr 2006-cı il tarixli qərarının Azərbaycan Respublikasının

Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair" 13.06.2008-ci il tarixli Qərar:

"... konstitusiya hüququnun doktrinası hüquqi müəyyənlik prinsipini Azərbaycan Respublikası Konstitusiyasının Preambulasında öz əksini tapan qanunun alilliyinin əsas elementlərindən biri kimi tanıyır. Hüquqi müəyyənlik prinsipi isə digər tələblərlə yanaşı ən ümumi mənasında mövcud hüquqi vəziyyətə aid aydınlığı və müəyyənliyi nəzərdə tutur.

Bu baxımdan məhkəmələr tərəfindən qəbul olunmuş qərarlarda həll olunan işə aid bütün zəruri məsələlərə aydınlıq gətirilməli, ziddiyyətli məqamlar aradan qaldırılmalıdır. Azərbaycan Respublikasının adından çıxarılan məhkəmə aktlarında işin ədalətli həllini şübhə altına alan, ziddiyyətlər yaradan və mübahisə üzrə iştirakçıların konstitusiya məhkəmə müdafiəsi hüququna təsir göstərən müddəalar olmamalıdır."

"R.Zülfüqarovun şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki işlər üzrə məhkəmə kollegiyasının 02 avqust 2007-ci il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair" 20.11.2008-ci il tarixli Qərar:

"Azərbaycan Respublikası Konstitusiyasının və beynəlxalq hüquq normalarının tələblərinə görə ədalət mühakiməsi mahiyyət etibarı ilə ədalət anlayışına cavab verməli və hüquqların təsirli şəkildə bərpa olunmasını təmin etməlidir. Qanunvericiliyin tələblərinin pozulması ilə baxılmış iş üzrə çıxarılan məhkəmə aktı ədalət mühakiməsinin qanuna uyğun aktı kimi qəbul edilə bilməz."

"Azərbaycan Respublikası Mülki Məcəlləsinin 23-cü maddəsinin şərh edilməsinə dair" 24.04.2020-ci il tarixli Qərar:

"Konstitusiyanın 68-ci maddəsinin II hissəsi cinayət, habelə hakimiyyətdən suiistifadə nəticəsində zərər çəkmiş şəxsin hüquqlarının qanunla qorunmasını bəyan edir və zərər çəkmiş şəxsin ədalət mühakiməsinin həyata keçirilməsində iştirak etmək və ona vurulmuş zərərin ödənilməsini tələb etmək hüququnu müəyyən edir.

Konstitusiyanın bu norması insan hüquq və azadlıqlarının pozulduğu təqdirdə zərərçəkmiş şəxsə dəymiş ziyana görə kompensasiyanın ödənilməsini ədalətli sayaraq bu öhdəliyin yerinə yetirilməsində dövlətin də məsuliyyətini müəyyən edir.

Mənəvi zərər insanın anadangəlmə və ya qanun əsasında ona mənsub olan şəxsi qeyri-əmlak xarakterli hüquq və azadlıqlarının, habelə əmlak hüquqlarının pozulması nəticəsində mənəvi sarsıntı və iztirab keçirməsini ifadə edir və yaxın şəxsin itirilməsi, fəal ictimai həyatın davam etdirilməsinin qeyri-mümkünlüyü, əmək qabiliyyətinin itirilməsi, ailə və şəxsi həyat sirrinin ictimailəşməsi, şərəf və ləyaqəti alçaldan məlumatların yayılması, müəyyən hüquq və azadlıqların qanunsuz məhdudlaşdırılması, fiziki əzab, sağlamlığa zərər vurulması və s. nəticəsində yarana bilər.

Mənəvi təzminat isə hüquqa zidd əməl ilə zərərçəkənin mənəvi və ya fiziki bütövlüyünə edilən təcavüz nəticəsində meydana gələn ağrı və iztirabın, mənəvi sarsıntının unudulması, yaşama sevinci və arzusunun təkrar qazanılması, pozulan mənəvi tarazlığın yenidən bərpa edilməsi üçün bərabərləşdirmə vasitəsidir.

Mənəvi zərərin əvəzinin ödənilməsi tələbi maddi zərərin ödənilməsi tələbindən fərqləndirilməlidir. Maddi zərərin həcmi vurulmuş ziyanın həcmi ilə şərtlənsə də, mənəvi zərərin həcmi zərərçəkmiş şəxsin mülahizəsinə əsasən iddiada müəyyən edilir və məhkəmələr tərəfindən mənəvi zərərin həcmi (miqdarı) ədalətlilik və mütənasiblik meyarları baxımından qiymətləndirilməlidir.

...

Şəxsin yaxınlarının, o cümlədən ailə üzvlərinin ölməsi və ya sağlamlığına zərər vurulması halında mənəvi zərərə görə ödənilən təzminat şəxsin keçirdiyi sarsıntı və iztirabın müəyyən dərəcədə yumşaldılmasına, pozulan mənəvi tarazlığın bərpa edilməsinə yönəlmiş olur. Belə halda zərərçəkmiş şəxsi müəyyən miqdarda təzminat ilə təmin etməklə yaxınının itirilməsi nəticəsində keçirdiyi sarsıntı və iztirabın unutdurulması, yaşama sevincindəki azalma və

mənəvi hüzursuzluğun aradan qaldırılması məqsədi ilə ona mənəvi cəhətdən dəstək olunmasına xidmət edilmiş olur.

Nəzərə alınmalıdır ki, mənəvi təzminat tələbi vərəsəliklə əlaqəli deyil. Belə ki, mənəvi təzminat tələbi ilə çıxış edən iddiaçı ölən şəxsin vərəsəsi olsa da, onların ölümdən əvvəl emosional yaxınlığı olmadığı, iddiaçı şəxsin ölməsi ilə əlaqədar ağrı və kədər hissi və ya mənəvi sarsıntı keçirmədiyi təqdirdə onun mənəvi təzminat almaq tələbi də istisna edilir.

Mənəvi təzminatı tələb etmək hüququ olan şəxslərin dairəsinə gəlincə isə qeyd edilməlidir ki, bu hüquqa ölən və ya sağlamlığına zərər vurulan şəxsin yaxınları malik ola bilər. Şəxsin "yaxını" dedikdə onun məhz ailə hüququ çərçivəsində qohumu deyil, ölmüş və ya sağlamlığına zərər vurulmuş şəxslə xüsusi bağlılığı ilə səciyyələnən, səmimi münasibətinin və mənəvi yaxınlığının olduğu, həyatında mühüm yer tutan, uzun müddət birgə yaşadığı və birgə təsərüfat apardığı, ölümündən və ya sağlamlığına vurulan zərər nəticəsində həyat şəraiti dəyişmiş, həqiqətən mənəvi sarsıntı, əzab və iztirab keçirmiş insan nəzərdə tutulur.

Məhkəmələr mənəvi zərərə görə təzminat müəyyən edərkən hər baxılan iş üzrə sosial, psixoloji və iqtisadi qiymətləndirməni mütənasiblik və ədalətlilik prinsipləri əsasında aparmalıdırlar.

Mənəvi təzminatın həcmi (miqdarı, məbləği) müəyyən edilərkən iddia irəli sürən insanla ölən və ya sağlamlığına zərər vurulmuş şəxs arasındakı şəfqət və mənəvi bağlılığının möhkəmliyi, keçirilmiş iztirabın və sarsıntının dərəcəsi, onların birlikdə və ya ayrı yaşamaları, ər-arvad olduqları təqdirdə, həmçinin evlilik həyatının müddəti və s. amillər nəzərə alınmalıdır.

...

Beləliklə, mənəvi zərərin vurulmasının sübut edilməsinin kifayət qədər mürəkkəb olması mübahisəsizdir. Bu növ iddialarda şəxs maddi deyil, mənəvi aləmində, şüurunda baş vermiş mənfi halları, sarsıntını, yaşamaq eşqinin azalmasını və s. məhkəmə qarşısında sübut etməlidir.

Bu baxımdan Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, məhkəmədə mənəvi zərərlə bağlı işə baxılarkən zərərçəkmiş şəxsin mənəvi və fiziki iztirablar keçirməsi ilə əlaqədar zərərin hansı şəraitdə və hansı hərəkət (hərəkətsizlik) nəticəsində vurulması, zərər vuranın təqsirinin dərəcəsi və mübahisənin həlli üçün əhəmiyyət kəsb edən digər hallar ətraflı araşdırılaraq müəyyən edilməlidir. Vurulmuş mənəvi zərərə görə təzminatın məbləğinin hesablanması zamanı məhkəmələr cavabdehin maddi durumunu nəzərə almalıdır. Həmçinin məhkəmələr tərəfindən nəzərə alınmalıdır ki, şəxsin ölümü və ya sağlamlığına vurulmuş zərər təkcə qohumlarının deyil, həm də onun dostlarının, tanışlarının da mənəvi sarsıntı, məyusluq hisləri keçirməsinə səbəb ola bilər. Lakin məhkəmələr hüquq pozuntusu nəticəsində yaranan mənəvi zərərə görə şəxsin məsuliyyətini müəyyən edərkən güclü emosional hislərlə ağır mənəvi sarsıntı və iztirab hislərini fərqləndirməlidirlər."

"Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1099 və 1108-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair" 18.04.2022-ci il tarixli Qərarı:

"Zərərçəkən Mülki Məcəllənin 1099-cu maddəsi üzrə iddia irəli sürərkən məruz qalmış olduğu zərərə, onun məbləğinə, şəxsin hüquqa zidd davranışına, sonuncunun işəgötürənin (cavabdehin) işçisi olduğuna, hüquqa zidd davranışla zərər arasında səbəblinəticə əlaqəsinin olmasına dair sübutları təqdim etməlidir.

Mülki Məcəllənin 1099-cu maddəsinin tətbiqi üçün işçi tərəfindən vurulmuş zərərin bilavasitə işəgötürənin fəaliyyət dairəsinə aid olub-olmaması məsələsinin aydınlaşdırılması da mühüm əhəmiyyət kəsb edir. Əgər işçinin zərər vuran hərəkətləri işəgötürənin fəaliyyət dairəsinə aid deyildirsə, hüquq pozuntusu işçinin əmək və ya xidməti vəzifələrinin icrası ilə əlaqədar baş verməmişdirsə, o zaman zərərin əvəzinin ödənilməsi vəzifəsi bilavasitə zərərvuranın (işçinin) üzərinə düşür."

22. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarları

"Məhkəmə qətnaməsi haqqında" 24.11.2005-ci il tarixli 4 nömrəli Qərar:

- 2.2. Məhkəmə qətnaməsi maddi və prosessual hüquq normalarına dəqiq əməl edilməklə qəbul edildikdə qanuni hesab edilir;
- 2.4. Qətnamə o vaxt əsaslı hesab edilir ki, onda baxılan iş üçün əhəmiyyətli olan, qanunun tələblərinə uyğun olaraq işə aid edilən və mötəbər sübutlarla təsdiq olunan faktlar əks etdirilmiş olsun, məhkəmənin həmin faktlara tətbiq edilən hüquqdan irəli gələn qəti nəticəsi şərh edilsin, habelə qətnamədə göstərilən hallar işin materiallarına uyğun olsun;
- 7. Apellyasiya instansiyası məhkəməsi şikayəti təmin etmədikdə və ya birinci instansiya məhkəməsinin qətnaməsini dəyişdirdikdə hansı dəlillərə əsasən şikayətin təmin edilmədiyini və yaxud qətnamənin dəyişdirildiyini göstərməyə borcludur;
- 17. Kassasiya və apellyasiya instansiya məhkəmələri aşağı instansiya məhkəmələrinin qətnamələrindən şikayətlərə baxdıqda qəbul etdikləri aktlarda verilən şikayətlərin dəlillərinə müfəssəl hüquqi qiymət verməlidirlər.

"Mənəvi zərərin ödənilməsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" 03.11.2008-ci il tarixli 7 nömrəli Qərar:

- 2. Plenum izah edir ki, Azərbaycan Respublikası qanunvericiliyinin, "İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Konvensiya"nın müddəaları və Avropa İnsan Hüquqları Məhkəməsinin presedentləri baxımından "mənəvi zərər" anlayışı insanın anadangəlmə və ya qanun əsasında ona mənsub olan şəxsi qeyri-əmlak xarakterli hüquq və azadlıqlarının, habelə əmlak hüquqlarının pozulması nəticəsində mənəvi sarsıntı və iztirab keçirməsini ifadə edir.

Zərərçəkən fiziki şəxsin mənəvi sarsıntı keçirməsi dedikdə ona qarşı törədilən qanunsuz hərəkətin və ya hərəkətsizliyin şüurunda müəyyən mənfi psixi reaksiyaya səbəb olması, iztirab keçirməsi dedikdə isə onun sağlamlığının pozulması nəticəsində fiziki əzab çəkməsi anlaşılır.

Mənəvi zərərin ödənilməsi ilə əlaqədar qanunvericiliyin müddəaları nəzərə alınmaqla şəxsə mənəvi zərər vurulması onun yaxın qohumlarını və ya iş yerini itirməsi, fəal ictimai həyat tərzindən məhrum olması , şəxsi, ailə və tibbi sirlərinin açıqlanması, şərəf , ləyaqət və işgüzar nüfuzunun ləkələnməsi, hər hansı başqa hüquqlarının müvəqqəti olaraq məhdudlaşdırılması və ya həmin hüquqlardan məhrum olması, sağlamlığına xəsarət yetirilməsi və s. hallarda özünü büruzə verə bilər.

Mənəvi sarsıntı və iztirabın ağırlıq dərəcəsi mənəvi zərərin ödənilməsi tələbinin rədd edilməsi üçün əsas deyildir;

- 4. Şəxsə mənəvi zərərin vurulması mənəvi sarsıntı və iztirablara səbəb olan istənilən xarakterli qeyri-hüquqi hərəkət və ya hərəkətsizlikdə (mülki, cinayət, inzibati və s. hüquq pozmalarda) ifadə oluna bilər.

Zərərvuran şəxsin eyni əmələ görə mülki, inzibati və yaxud cinayət məsuliyyətinə cəlb edilməsi zərərçəkənin ondan həm də mənəvi zərərin ödənilməsini tələb etmək hüququnu istisna etmir;

- 8. Məhkəmə mənəvi zərərin ödənilməsi barədə tələblərə baxdıqda mülki məsuliyyətin yaranması əsaslarını müəyyən etməklə bərabər zərərçəkənin mənəvi sarsıntı və iztirablara məruz qalmasının nədə ifadə olunmasını, bunların hansı şəraitdə və hansı hərəkət (hərəkətsizlik) nəticəsində baş verməsini, zərərvuran şəxsin təqsirini, zərərçəkən şəxsin hansı mənəvi sarsıntı və iztirablar keçirməsini, zərərçəkənin bunları hansı məbləğdə və sair maddi formada qiymətləndirməsini aydınlaşdırmağa borcludur;
- 10. Plenum izah edir ki, mənəvi zərərin miqdarı işin konkret hallarından asılı olaraq məhkəmə tərəfindən müəyyən edilir. Bu zaman mənəvi zərərin baş verməsinə səbəb olmuş hərəkətin və ya hərəkətsizliyin təhlükəlilik dərəcəsi, bunun nəticəsində zərərçəkənin keçirdiyi mənəvi iztirab və sarsıntıların xarakteri və ağırlığı, zərərvuran şəxsin təqsiri (qəsd və yaxud ehtiyatsızlıq) və əmlak vəziyyəti, zərərçəkən şəxsin fərdi xüsusiyyətləri (azyaşlı və yaxud qadın olması, səhhəti ilə əlaqədar mənəvi sarsıntı və iztirablara dözümü, peşə və sənəti, cəmiyyətdə nüfuzu və s.),habelə işin sair diqqətəlayiq halları nəzərə alınmalıdır.

Zərərin məbləği ağlabatan və ədalətli olmalıdır.

23. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarları

Hadjianastasiu Yunanıstana qarşı iş üzrə 16.12.1992-ci il tarixli və Garsiya Ruiz İspaniyaya qarşı iş üzrə 21.01.1999-cu il tarixli qərarlar:

"Avropa Məhkəməsinin mövqeyinə görə, yuxarı məhkəmə instansiyası tərəfindən aşağı məhkəmə instansiyasının qərarı ləğv edilərkən məhkəmələr öz qərarlarında istinad etdiyi dəlilləri çox aydın şəkildə əsaslandırmalı və bu qərarın qəbul olunmasına əsas olmuş halları dəqiq göstərməlidirlər. Əks halda, bu, Konvensiyanın 6-cı maddəsində nəzərdə tutulmuş ədalətli məhkəmə araşdırılması hüququnun pozuntusu kimi qiymətləndirilir.

Hirvisaari Finlandiyaya qarşı iş üzrə 27.09.2001-ci il tarixli Qərarı:

"Məhkəmələr tərəfindən istinad olunan halların aydın şəkildə əsaslandırılması işdə iştirak edən şəxslərin izahatlarının dinlənilib hüquqi qiymət verilməsinin göstəricisidir."

Kuznetsov və digərlərinin işi üzrə 21.01.2007-ci il tarixli və Hiro Bilani işi üzrə 09.12.1994-cü il tarixli qərarlar:

"Milli məhkəmələr tərəfindən öz qərarlarını əsaslandırmaq tələbinə əməl olunmaması ədalətli məhkəmə araşdırılması zamanı tərəflərin mövqelərinin bərabərlik prinsipi gözlənilməklə dinlənilməsi sübuta yetirilməməsi ilə nəticələnir; ərizəçinin dəlilləri apellyasiya instansiyası məhkəməsi tərəfindən rədd edildiyi və ya sadəcə nəzərə alınmadığı aydın olmadığından, məhkəmə belə dəlillərin rədd edilməsinə dair nəticəsinin əsaslandırmamasına dəlalət edir."

24. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 41-ci maddəsinə və digər normalarına əsaslanaraq mənəvi zərərin müəyyən edilməsi təcrübəsinə dair qərarları

Luluyev və digərləri Rusiyaya qarşı iş üzrə 09.11.2006-cı il tarixli, Pelipenko Rusiyaya qarşı iş üzrə 16.01.2014-cü il tarixli, Şiborş və Kuzmina Rusiyaya qarşı iş üzrə 16.01.2014-cü il tarixli qərarlarnda Avropa Məhkəməsi mənəvi zərəri "nigarançılıq, ruhi sarsıntı və iztirab", "həyəcan, acizlik və sarsıntı", "məyusluq, ədalətsizlik hissi və uzunmüddətli qeyri-müəyyənlik" kimi səciyyələndirmişdir.

Varnava və digərləri Türkiyəyə qarşı iş üzrə 18.09.2009-cu il tarixli Qərarında Avropa Məhkəməsi mənəvi zərəri şəxsin fiziki və ya psixoloji ağrı və əzabı, sıxıntı, narahatlıq, məyusluq, ədalətsizlik və ya alçalma hissi, uzun müddət davam edən qeyri-müəyyənlik, həyatın pozulması və ya real imkansızlıqdan əziyyət çəkən vəziyyəti kimi müəyyən etmiş və qeyd etmişdir ki, maddi zərərin müəyyən edilməsi zamanı məhkəmənin əsaslandığı obyektiv hallardan fərqli olaraq, mənəvi zərərin müəyyən edilməsində subyektiv və hissi ünsürlərə əsaslanaraq qərar qəbul edildiyindən məhkəmə təcrübəsi baxımından nəzərə alınmalı olan ümumi qiymətləndirmə meyarlarının müəyyən edilməsi vacibdir. Mənəvi zərər müəyyən edildikdə məhkəmələr tərəfindən hüquqazidd əməlin növü, dərəcəsi, şiddəti, davam etdiyi müddət nəzərə alınmalıdır. Bu zaman hüquqazidd hərəkətin hansı şəraitdə, mühitdə baş verməsinin müəyyən edilməsi də zəruridir.

Luluyev və digərləri Rusiyaya qarşı iş üzrə Qərarında, həmçinin, göstərilmişdir ki, şəxslərin mənəvi iztirablarının dərəcəsinin müəyyən edilməsi üçün qohumluq əlaqələrinin yaxınlıq dərəcəsi, qohumluq münasibətlərinin spesifikası, qohumun hadisənin şahidi olubolmaması və s. faktorların müəyyən edilməsi əhəmiyyət kəsb edir.

Maksimov Rusiyaya qarşı iş üzrə 18.03.2010-cu il tarixli Qərarında Avropa Məhkəməsi qeyd etmişdir ki, kompensasiyanın hesablanması qaydası mürəkkəbdir. Fiziki və ya mənəvi iztirablara dair işlərə baxılarkən bu proses daha da çətinləşir. Ağrı və əzab, fiziki narahatlıq və əqli sıxıntı və iztirabın pul ilə ölçülə biləcəyi standart mövcud deyildir. Məhkəmələr dəymiş mənəvi zərərə görə ərizəçiyə təyin etdiyi kompensasiyanın həcmini qərarlarında kifayət qədər əsaslandırmalıdırlar. Əsaslandırmanın olmaması ərizəçiyə qeyri-mütənasib, az kompensasiyanın təyin edilməsi, pozuntunun adekvat və effektiv şəkildə aradan qaldırılması prinsipinə uyğun olmayaraq həll edilməsi ilə nəticələnə bilər.

"Apicella Italiyaya qarşı" iş üzrə 29.03.2006-cı il tarixli qərar:

"Ərizəçinin daha zəngin və ya kasıb bir ölkədə yaşamasından asılı olmayaraq eyni pozuntu üçün oxşar məbləğlər verməsi mənasızdır. Çünki pulun dəyəri fərqlidir və həqiqətən yerli iqtisadi inkişafdan və alıcılıq qabiliyyətindən asılıdır".

KASSASİYA BAXIŞININ HƏDLƏRİ

25. Kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilib, işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

26. Kassasiya şikayətində qətnamənin ləğvi xahiş edildiyi üçün, apellyasiya instansiyasının yekun məhkəmə aktı şikayətdə irəli sürülən dəlillər üzrə tam yoxlanılır.

27. Məhkəmə kollegiyası hüququn inkişafının və ya məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi üçün əhəmiyyətli hesab etmədiyindən, kassasiya şikayətinə yazılı icraat qaydasında baxmışdır.

KASSASİYA İNSTANSİYASI MƏHKƏMƏSİNİN MÖVQEYİ

28. Məhkəmə kollegiyası hesab edir ki, apellyasiya instansiyası məhkəməsi tərəfindən prosessual hüquq normaları pozulmuş, bu da iş üzrə düzgün olmayan qətnamənin qəbul edilməsi ilə nəticələnmişdir.

29. Birinci və apellyasiya instansiyası məhkəmələrinin qətnamələrindən məlum olur ki, iddiaçının anasının baş vermiş yol nəqliyyat hadisəsi nəticəsində vəfat etməsini, habelə ölümün cavabdehin işçisinin qanunsuz hərəkətləri nəticəsində baş verməsini və həmin hərəkətlərlə mənəvi zərər arasında səbəbli əlaqənin olmasını məhkəmələr işin mübahisəsiz halı kimi qəbul etmişlər. Belə olan halda, işə mahiyyəti üzrə baxan məhkəmələrin qənaətinə görə, anasının hadisə nəticəsində vəfat etməsi iddiaçı üçün mənəvi məhrumiyyətlərlə nəticələnmişdir, işdə belə zərərin vurulmasını istisna edən hallar məhkəmələr tərəfindən müəyyən edilməmişdir.

30. Bu baxımdan, məhkəmə kollegiyası hesab edir ki, vurulmuş mənəvi zərərin məbləği ilə bağlı apellyasiya instansiyası məhkəməsinin gəldiyi nəticə kassasiya şikayətinin dəlilləri müstəvisində dəyərləndirilməlidir.

31. İlk olaraq, şəxsin yaxınlarının, o cümlədən ailə üzvlərinin ölməsi və ya sağlamlığına zərər vurulması halında mənəvi zərərə görə ödənilən təzminat şəxsin keçirdiyi sarsıntı və iztirabın müəyyən dərəcədə yumşaldılmasına, pozulan mənəvi tarazlığın bərpa edilməsinə yönəlmiş olur. Belə halda zərərçəkmiş şəxsi müəyyən miqdarda təzminat ilə təmin etməklə yaxınının itirilməsi nəticəsində keçirdiyi sarsıntı və iztirabın unutdurulması, yaşama sevincindəki azalma və mənəvi hüzursuzluğun aradan qaldırılması məqsədi ilə ona mənəvi cəhətdən dəstək olunmasına xidmət edilmiş olur.

32. Mənəvi zərərin məbləğinin müəyən edilməsi üçün konkret meyarlar qanunvericiliklə müəyyən edilməmişdir. Mənəvi zərərin məbləği təqsirli şəxsin təqsiri və ya zərərçəkənin subyektiv vəziyyəti nəzərə alınmadan obyektiv əsaslara görə müəyyən edilir. Mənəvi təzminatın əsas məqsədi zərərin kompensasiyası olduğundan, gələcəkdə baş verəcək zərərin qarşısının alınması üçün yüksək məbləğdə zərər tələb edilə bilməz. İztirab və sarsıntının nəticəsi olan zərər, zərərçəkənin hiss etdiyi fiziki və ya psixoloji ağrı şəklində ortaya çıxdığına görə təzminat bu ağrının dərəcəsinə mütənasib olmalıdır. Ağrının şiddəti obyektiv faktorlara görə dəyərləndirilir. Belə obyektiv faktorlara, törədilən hüquqazidd əməlin növü, ölçüsü, şiddəti, davam etdiyi müddət, zərərçəkən şəxsdə mənfi fiziki və psixoloji təsirləri aiddir. Zərərin ağırlığının çox olması təzminat miqdarının yüksək, az olması isə aşağı olmasını şərtləndirir. Belə ki, bir şəxsin avtomobil qəzasında vəfat etməsi ilə şəxsin qəsdən həyatdan məhrum edilməsinin məruz qoyduğu mənəvi zərərin məbləği fərqləndirilməlidir. Təzminatın miqdarı ilə bağlı nəzərə alınmalıdır ki, zərərçəkənə şişirdilmiş bir məbləğin verilməsi əsassız varlanmaya gətirib çıxara bilər.

33. İztirab və sarsıntının ağırlıq dərəcəsinə təsir göstərən faktorlardan biri də ölən və ya cismani zərərə məruz qalanın yaxınlarının mənəvi təzminat tələb etmələri halında onların zərərçəkmiş şəxslə qohumluq dərəcəsi və şəxsi münasibətlərinin xarakteridir. Yaxınlara ödəniləcək mənəvi təzminatın miqdarında qohumluq dərəcəsindən asılı olmayaraq mövcud olan şəxsi münasibətlərin xarakteri də əhəmiyyət kəsb edir. Bu zaman sağ ikən şəxslərarası münasibətlərin məzmununa xüsusi diqqət edilməlidir. Odur ki, ölən şəxslə yaxşı münasibəti olan və daim onun yanında qalan bir kəsə ödəniləcək təzminat məbləği, münasibətləri pis olan və uzun zaman ərzində onunla görüşməyən şəxsə ödəniləcək məbləğdən çox olmalıdır.

34. Mənəvi təzminatın məbləğinə təsir edən elementlərdən biri də zərərçəkənin iqtisadi vəziyyətidir. Çünki qane olma səviyyəsi hamıda eyni deyil. Təqsirli tərəfin maddi vəziyyəti də mənəvi zərərin müəyyən edilməsində əhəmiyyətli faktorlardan biridir. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin təcrübəsində də mənəvi zərərin məbləği məsələsi həll edilərkən ölkələrin sosial-iqtisadi durumu, insanların yaşayış səviyyəsi nəzərə alınır (bu Qərarın 21-ci bəndi).

35. Zərərvuranın təqsirinin dərəcəsi də təzminatın miqdarının müəyyən edilməsində əhəmiyyət kəsb edir. Bu anlamda, ehtiyatsızlıqla cinayət törətmiş şəxsdən tutulan zərərin məbləği, qəsdən cinayət törətmiş şəxsdən tutulan zərənin məbləği ilə eyni olmamalıdır.

36. Həmçinin, mənəvi zərər bilavasitə zərərvuran şəxsin hərəkətlərindən sonra zərərçəkmişin şüuruna təsir göstərməklə, mənfi psixoloji reaksiyaya səbəb olduğu üçün, hadisədən uzun müddət keçdikdən sonra mənəvi zərərin təsirinin azalması da labüddür.

37. Apellyasiya instansiyası məhkəməsinin qətnaməsindən görünür ki, zərərin həcminin müəyyənləşdirilməsinə təsir edən, bu Qərarın 26-33-cü bəndlərində şərh edilən hallar həmin məhkəmə tərəfindən işin faktiki halları ilə birlikdə dəyərləndirilməmişdir.

38. Bundan əlavə, iddiaçı mənəvi zərərə görə 500.000 manat pul tələb etsə də, həmin məbləği şərtləndirən halları ərizəsində əsaslandırmamışdır.

39. Digər tərəfdən, məhkəmələr müəyən etmişlər ki, zərərçəkənin ölümünə ehtiyatsızlıqla törədilmiş cinayət səbəb olmuşdur. Analoji cinayət hadisələrinə tez-tez rast gəlinməsi isə həmin işlər üzrə zərərçəkənlərə ortalama 15.000 manat mənəvi zərərin ödənilməsi təcrübəsinin ağlabatanlığını sual altında qoyur. Çünki, belə bir nəticə mənəvi zərərin məbləğini şərtləndirən hallara, eyni zamanda ölkə üzrə ümumi statistik yaşam səviyyəsinə uyğun gəlməlidir.

40. Apellyasiya instansiyası məhkəməsi tərəfindən iş üzrə düzgün olmayan qətnamənin qəbul edilməsinə səbəb olan prosessual hüquq normalarının bir sıra digər pozuntularına da yol verilmişdir.

41. Qətnamədən görünür ki, apellyasiya instansiyası məhkəməsi iş üzrə səthi araşdırma aparmışdır. Məhkəmənin qətnamədə istinad etdiyi kimi, “iddiaçının Bakı Apellyasiya Məhkəməsinə ünvaladığı 08.02.2022-ci il tarixli müraciətində qeyd etdiyi məhkəmə aktları” isə çap variantında işə əlavə olunmamış, EMİS-ə də yüklənməmişdir. Məhkəmənin öz aktının faktiki əsası kimi qeyd etdiyi, işin 95-96-cı vərəqlərində olan həmin müraciət iki vərəqdən ibarət olmaqla, sadəcə məhkəmə aktlarına dair məlumatların sadalanmasından ibarətdir. Bu kontekstdə, apellyasiya instansiyası məhkəməsinin həmin məhkəmə aktlarının hər birini ayrılıqda mənəvi zərərin məbləğini şərtləndirən hallar baxımından təhlil və hazırkı işlə müqayisə etməsi baş vermədiyi kimi, iş materialları və qətnamənin mətni məhkəmə kollegiyasında apellyasiya instansiyası məhkəməsinin sözügedən məhkəmə aktları ilə tanış olması barədə əminlik tələqin etmir.

42. Apellyasiya instansiyası məhkəməsinin hər bir cəhətdən fərdilik ifadə edən iddia tələbini ortalama məbləğ çıxarma yolu ilə ümumiləşdirici formada həll etməyə çalışması da doğru olmamışdır.

43. Apellyasiya instansiyası məhkəməsi iddiaçının apellyasiya şikayətində irəli sürdüyü dəlillərə də konkret münasibət bildirməmiş, hansı dəlillərlə razılaşdığına, hansılarla razılaşmadığına dair öz aktında hüquqi qiymət verməmiş və əsaslandırmamışdır.

44. Lakin bu Qərarın yuxarıda müvafiq bəndlərində mətnləri verilən MPM-in normaları, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin, Konstitusiya Məhkəməsi Plenumunun və Ali Məhkəmə Plenumunun qərarları ilə tələb (şərh, izah) olunmuşdur ki, yuxarı instansiya məhkəmələri aşağı instansiya məhkəmələrinin qətnamələrindən şikayətlərə baxdıqda qəbul etdikləri aktlarda verilən şikayətlərin dəlillərinə mütləq qaydada hüquqi qiymət verməlidirlər.

45. Məhkəmə aktlarının əsaslandırılmış olması iş üzrə tərəflərdə qəbul edilmiş qərarın qanuni və ədalətli olduğuna inam yaratmaqla yanaşı, ümumilikdə məhkəmə hakimiyyətinə olan etimadın möhkəmlənməsinə xidmət edir. Eyni zamanda, məhkəmə aktı elə şəkildə tərtib olunmalıdır ki, onun qanuniliyini yoxlayan yuxarı instansiya məhkəməsi ifadə olunmuş qənaətin əsaslı olub-olmadığını, habelə maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilib-edilmədiyini müəyyənləşdirə bilsin.

46. MPM-in 417.1.3 və 418.1-ci maddələrinin tələbinə görə, maddi və prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması, o cümlədən maddi və prosessual hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması apellyasiya instansiyası məhkəməsinin qətnamə və qərardadının ləğv edilməsi və işin yenidən baxılmaq üçün apellyasiya instansiyası məhkəməsinə göndərilməsi üçün əsasdır.

47. Bu mənada, işə apellyasiya instansiyası məhkəməsində yenidən baxılarkən hazırkı Qərarın 34-40-cı bəndlərində şərh edilən hallar işin faktiki halları ilə birlikdə dəyərləndirilməklə, qeyd edilən hallara aydınlıq gətirilməli, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 23-cü maddəsinin şərh edilməsinə dair" 24.04.2020-ci il tarixli və "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1099 və 1108-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair" 18.04.2022-ci il tarixli qərarlarında ortaya qoyulan hüquqi mövqelər nəzərə alınmaqla, ziddiyyətli məqamlar aradan qaldırılmalıdır.

48. Beləliklə, mülki işə kassasiya qaydasında baxan məhkəmə kollegiyası yuxarıda qeyd olunanlara məcmu halda hüquqi qiymət verərək hesab edir ki, kassasiya şikayəti təmin olunmalı, apellyasiya instansiyası məhkəməsinin qətnaməsi ləğv edilməli, iş yenidən baxılmaq üçün həmin məhkəməyə göndərilməlidir.

49. Göstərilənlərə əsasən və MPM-in 416-419-cu maddələrini rəhbər tutaraq, məhkəmə kollegiyası

QƏRARA ALDI:

Bakı Apellyasiya Məhkəməsi Mülki Kollegiyasının 2(103)-1345/2022 nömrəli iş üzrə 31 mart 2022-ci il tarixli qətnaməsi ləğv edilsin, iş yenidən baxılmaq üçün həmin məhkəməyə göndərilsin.

Cavabdehin kassasiya şikayəti təmin edilsin.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

41. 2(102)-3351/2023 nömrəli, 2023-cü il 27 sentyabr tarixli qərar - Cinayət mühakimə icraatında zərərlə bağlı barışıq əldə edilməsinin mülki-hüquqi nəticələri

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: cinayət mühakimə icraatında zərərlə bağlı barışıq əldə edilməsinin mülki-hüquqi nəticələri.

Cinayət mühakimə icraatında zərərçəkən şəxsin təqsirləndirilən şəxsdən heç bir şikayət və tələbinin olmamasına dair ərizə verməsinin həmin vaxtadək yaranmış zərərlə bağlı daha sonra mülki qaydada tələb irəli sürmək hüququna təsiri.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Cinayət prosesində zərərçəkən şəxsin təqsirləndirilən şəxslə barışması və ona qarşı hər hansı şikayət və tələbinin olmaması barədə məhkəməyə təqdim etdiyi və qanuni qüvvəyə minmiş hökmdə cəza təyin edilərkən nəzərə alınan ərizəsi bu şəxslər arasında həmin vaxta qədər mövcud olmuş tələblərin qarşılıqlı güzəştlər əsasında həll olunması kimi qiymətləndirilməlidir. Lakin bu hal zərərçəkmiş həmin vaxtdan sonra yaranmış zərərlə bağlı tələb irəli sürmək hüququnu istisna etmir.

Kassasiya instansiyası məhkəməsinin qərarı Mülki Məcəllənin 21.1, 21.2, 1118.1-ci və Mülki Prosessual Məcəlləsinin 82.4-ci maddələrinə, “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 21 və 23-cü maddələrinin şərh edilməsinə dair” Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 31 may 2002-ci il tarixli Qərarına və “Mənəvi zərərin ödənilməsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiq edilməsi təcrübəsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 3 noyabr 2008-ci il tarixli, 7 saylı Qərarına istinadla əsaslandırılmışdır.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-3351/2023

27.09.2023-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi
Mülki kollegiyasının
İddiaçı cavabdehə qarşı iş üzrə

Q Ə R A R I

İş № 2(102)-3351/2023

(Açar sözlər: fiziki şəxsin həyatına və ya sağlamlığına vurulmuş zərərin əvəzinin ödənilməsi)

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Vəliyeva Elşanə Rafiq qızı (məruzəçi), Şamayev Elşad Yaquboviç və Xıdırov Əhliman Mehman oğlundan ibarət tərkibdə,

iddiaçı cavabdehə qarşı maddi və mənəvi zərərin ödənilməsi tələbinə dair mülki iş üzrə Gəncə Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(104)-916/2023 nömrəli, 27.04.2023-cü il tarixli qətnaməsindən cavabdeh tərəfindən verilmiş kassasiya şikayətinə 27 sentyabr 2023-cü il tarixdə Ali Məhkəmənin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları

1. Cavabdeh 10.12.2020-ci il tarixdə təxminən saat 15 radələrində Bakı-Qazax-Gürcüstan sərhədi yolunun Ağstafa rayonu Qırılı kəndi ərazisindən keçən 455-ci kilometrliyində "Yol Hərəkəti Haqqında" Azərbaycan Respublikası Qanununun 37-ci maddəsinin 1-ci hissəsinin 1-ci bəndinin tələblərini pozaraq nəqliyyat vasitələrini idarə etmək hüququ, yəni sürücülük vəsiqəsi və müvafiq etibarnamə olmadan idarə etdiyi "Ford" Transit markalı **-TE-*** dövlət qeydiyyat nişanlı yük avtomobilini Qazax istiqamətində hərəkət etdirərkən öz hərəkət zolağından çıxaraq əks hərəkət zolağına keçib hərəkətdə olarkən avtomobilin ön sağ hissəsi ilə qarşıdan öz yolu ilə gələn sürücü iddiaçının idarə etdiyi Mercedes-Benz E220 CDl markalı **-FZ-*** dövlət qeydiyyat nişanlı avtomobil ilə toqquşmuşdur. Baş vermiş avto-qəza nəticəsində iddiaçıya baş beyin silkələnməsi, hər iki bud sümüyü boynunun və orta 1/3-nin qapalı yerdəyişmiş sınıqları, sol diz qapağının sol qapalı yerdəyişmiş qəlpəli sınığı, sağ baldır sümüklərinin orta 1/3-nin açıq, yerdəyişmiş qəlpəli sınığı, hər iki əlin və sol mil-bilək oynağı nahiyəsinin əzilmiş-cırılmış yaraları diaqnozu qoyulmuşdur. Həmin cinayət işi üzrə ibtidai istintaq zamanı alınmış 11.05.2021-ci il tarixli akta əsasən iddiaçının idarə etdiyi "Mercedes-Benz E220 CDl" markalı **-FZ-*** dövlət qeydiyyat nişanlı avtomobilə 14.983 manat maddi ziyan dəyməsi müəyyən edilmişdir.

2. Gəncə Ağır Cinayətlər Məhkəməsinin 1(100)-58/2022 nömrəli, 22.04.2022-ci il tarixli hökmündən görünür ki, cavabdeh Azərbaycan Respublikasının CM-nin 263-1.3-cü maddəsi ilə təqsirli bilinmiş və ona 4 il müddətinə nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum edilməklə 5 il müddətinə azadlıqdan məhrumetmə cəzası təyin edilmişdir.

3. İddiaçı cinayət işinə baxılarkən həmin məhkəməyə 07.01.2022-ci il tarixli notarial qaydada təsdiq olunmuş ərizə ilə müraciət edərək, cavabdehə qarşı, heç bir şikayəti və tələbi olmadığını, onunla barışdığını göstərmişdir.

4. "X" Klinikası tərəfindən verilmiş tarixsiz arayışa əsasən iddiaçı klinikada 11.12.2020-ci ildən 23.12.2020-ci il tarixədək müalicə almış və xəstə klinikanın xəzinəsinə 25000 manat ödəniş etmişdir.

5. "X" Klinikası tərəfindən verilmiş 11.12.2020-ci il tarixli ödəniş sənədinə əsasən iddiaçı tibbi təxliyə xidməti ambulansa görə 1500 manat pul ödəniş etmişdir.

6. "X" Klinikası tərəfindən 25.01.2021-ci ildən 05.07.2022-ci il tarixədək müxtəlif vaxtlarda verilmiş qəbzlərə əsasən iddiaçı Xəstəxanaya ümumi müayinələr üçün 2018 manat məbləğində pul ödənişi etmişdir.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a) Birinci instansiya məhkəməsində icraat

7. İddiaçı məhkəmədə iddia qaldıraraq, cinayət yolu ilə ona dəymiş 42361 manat maddi ziyanın, 10000 manat dəyərində mənəvi zərərin və ödənilmiş 248 manat dövlət rüsumunun cavabdehdən alınaraq ona verilməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

8. İddia işin yuxarıda göstərilən faktiki hallarına istinad edilməklə onunla əsaslandırılmışdır ki, təqsirləndirilən şəxsin cinayət əməli nəticəsində onun sağlamlığına zərər yetirilmiş və sağlamlığını itirdiyinə görə işə çıxa bilmədiyindən cavabdehə qarşı əldən çıxmış fayda və mənəvi zərər tələbinə dair iddia qaldırmaq məcburiyyətində qalmışdır. Ona cavabdehin təqsiri ucbatından 62361 manat maddi ziyan, 10000 manat dəyərində mənəvi

zərər dəymişdir. Onun müalicələri üçün tələb olunan dərman preparatlarına çəkilən xərclər 795 manat, xəstəxana xərcləri 28183 manat, avtomobilinin bərpası üçün 14983 manat, aylıq gəlir olaraq əldən çıxmış faydaya görə 10.12.2020-ci il tarixdən aylıq 1000 manat, hökm çıxarılan günə 10 ay hesablanmaqla 10000 manat, həyat yoldaşının ona qulluq etməsi səbəbi ilə, işə çıxa bilmədiyi 10.12.2020-ci il tarixdən hər gün üçün 21 manat, hökm çıxarılan günə 10 ay hesablanmaqla 6300 manat, xəstəliyi ilə bağlı tez-tez Bakı şəhərində müalicələr və müayinələr olmağına zərurət olduğundan kirayə haqqı aylıq 300 manat, 10.12.2020-ci il tarixdən hesablanmaqla 10.07.2021-ci il tarixə kimi 7 ay hesabı ilə 2100 manat maddi ziyan dəymişdir. Cavabdeh ona dəymiş ziyandan 20.000 manat ödəniş etmiş, qalan məbləği ödəyəcəyinə söz versə də, hadisədən kifayət qədər müddət keçməsinə baxmayaraq cavabdeh onun xərclərini ödəmir. Həmin maddi ziyandan 20000 manatı ödənildiyindən, cavabdehdən 42361 manat maddi ziyan, 10000 manat dəyərində mənəvi zərər tələb edir.

9. Ağstafa Rayon Məhkəməsinin 26.12.2022-ci il tarixli 2(015)-972/2022 nömrəli qətnaməsi ilə (hakim Zamiq Rəsulov) iddia qismən təmin edilmiş, cavabdehdən 28183 manat maddi, 2000 manat mənəvi zərər və ödənilmiş 248 manat məbləğində dövlət rüsumu olmaqla, cəmi 30431 (otuz min dörd yüz otuz bir) manat pul tutularaq iddiaçıya ödənilməsi, iddianın qalan hissədə təmin edilməməsi qət edilmişdir.

10. Məhkəmə öz mövqeyini əsaslandıraraq qeyd etmişdir ki, cavabdehin törətdiyi cinayət hadisəsi nəticəsində iddiaçıya maddi və mənəvi zərər dəymişdir. İş üzrə iddiaçı cinayət mühakimə icraatı zamanı mülki iddia verməsə də, hazırkı vəziyyətdə ona dəymiş maddi və mənəvi zərərə görə mülki mühakimə icraatı qaydasında mülki iddia ilə məhkəməyə müraciət etmişdir. İş üzrə iddiaçı ona 62361 manat maddi ziyan dəyməsini və həmin ziyandan 20000 manatı cavabdeh tərəfindən ödənildiyindən, 42361 manat maddi ziyan tələb etsə də, həmin tələbi əsaslandıran hallara dair mötəbər sübutları məhkəməyə təqdim etməmişdir. İş üzrə iddiaçı məhkəməyə yalnız avtomobilinə və müalicə xərclərinə dəymiş ziyana dair sübutları təqdim etmiş, cavabdeh tərəfindən iddiaçıya 20000 manat ziyan ödənilməsi, həmin ödənişin iddiaçının avtomobilinə dəymiş ziyana, müayinə, dərman və yol xərclərinə çıxılması nəzərə alınmaqla, iddiaçının cavabdehdən tələb etdiyi müalicə xərclərinə görə 28183 manat məbləğində pul cavabdehdən tutularaq iddiaçıya verilməsi müəyyənləşdirilmişdir.

11. Məhkəmə öz mövqeyini əsaslandırarkən Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 21.1-21.2, 1096.1-1096.2, 1097.1, 1115, 1118-ci maddələrinə istinad etmişdir

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

12. Cavabdeh qətnamədən apellyasiya şikayəti verərək, Ağstafa Rayon Məhkəməsinin 26 dekabr 2022-ci il tarixli 2(015)-972/2022 nömrəli qətnaməsinin tamamilə ləğv edilməsini xahiş etmişdir.

13. Apellyasiya şikayəti onunla əsaslandırılmışdır ki, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 1(100)-58/2022 saylı, 22 aprel 2022-ci il tarixli hökmündən göründüyü kimi, o hökm çıxarılanadək həmin zərərçəkmiş şəxs, hazırda iddiaçı ilə barışıq əldə etmiş və maddi ziyanı qarşılamışdır. Dəymiş zərərlə bağlı notariat qaydada rəsmi ərizə mövcuddur ki, hansı ki, zərəri tam olaraq qarşıladıqdan sonra barışdıqları barədə ərizə yazmışdır. Qəzadan sonra avtomobil iddiaçının özündə qalmış, o, isə avtomobili müəyyən qiymətə satmışdır. Özü isə zərəri artıqlaması ilə yəni 13700 manat bir dəfə, 6600 manat isə şəxsən özünə təqdim etməklə ödəmişdir, 6500 manat da sığortadan yararlanmışdır. Bunlar zərəçəkmişin şikayəti olmaması üçün edilmişdir. Lakin bu hallara məhkəmə tərəfindən hüquqi qiymət verilməmişdir.

14. Gəncə Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(104)-916/2023 nömrəli, 27.04.2023-cü il tarixli qətnaməsi ilə (hakimlər Loğman Süleymanov (sədrlik edən və məruzəçi), İslam Həsənov və Şamil Rzaquliyev) apellyasiya şikayəti təmin edilməmiş, Ağstafa Rayon Məhkəməsinin 26 dekabr 2022-ci il tarixli, 2(015)-972/2022 nömrəli qətnaməsi mübahisələndirilən hissədə dəyişdirilmədən saxlanılmışdır.

15. Məhkəmə kollegiyası mövqeyini onunla əsaslandırmışdır ki, mülki hüquq pozuntusu (delikt) nəticəsində fiziki şəxsin şəxsiyyətinə vurulmuş zərərin əvəzi zərərvuran tərəfindən tam həcmdə ödənilməlidir. Qanuni qüvvəsini almış məhkəmə hökmü üzrə cavabdeh Azərbaycan Respublikasının CM-nin 263-1.3-cü maddəsi ilə təqsirli bilinmiş və ona 4 il müddətinə nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum edilməklə 5 il müddətinə azadlıqdan məhrumetmə cəzası təyin edilmişdir. Həmin hökm üzrə müəyyən edilmişdir ki, cavabdeh sürücülük vəsiqəsi və müvafiq etibarnamə olmadan idarə etdiyi "Ford" Transit markalı **-TE-*** dövlət qeydiyyat nişanlı yük avtomobilini Qazax istiqamətində hərəkət etdirərkən öz hərəkət zolağından çıxaraq əks hərəkət zolağına keçib hərəkətdə olarkən avtomobilin ön sağ hissəsi ilə qarşıdan öz yolu ilə gələn sürücü iddiaçının idarə etdiyi "Mercedes-Benz E220 CDl" markalı **-FZ-*** dövlət qeydiyyat nişanlı avtomobil ilə toqquşmuşdur. Cavabdehin təqsirli hərəkəti nəticəsində zərərçəkmiş şəxs iddiaçının avtomobilinə 14983 manat məbləğdə maddi ziyan dəymiş, habelə zərərçəkmiş şəxsin sağlamlığına həyat üçün təhlükəli olan ağır zərər dəymişdir. İş materiallarından görünür ki, iddiaçı almış olduğu xəsarətlərlə bağlı "X" Klinikasında müayinə və müalicə olunmuş, o, bununla bağlı "X" Klinikasına tibbi təxliyə xidməti üçün ambulansa görə 1500 manat pul ödəniş etmiş, "X" Klinikasının hesabına ilkin olaraq 25000 manat ödəniş etmiş, əməliyyatdan sonrakı müayinələr üçün müxtəlif vaxtlarda 2018 manat ödəniş etmişdir ki, bu ödənişlər işə əlavə edilən ödəniş qəbzləri ilə təsdiq edilir. "X" Klinikasında müalicə xərclərinə görə 28518 manat xərclənsə də, iddiaçı 28183 manat məbləğində pul xərcləməsini bildirdiyindən və birinci instansiya məhkəməsi iddianı yalnız həmin hissədə təmin etdiyindən, məhkəmə kollegiyası həmin məbləğlə razılaşmışdır.

16. Azərbaycan Respublikası CPM-nin 180.2-ci maddəsinə əsasən şəxs cinayət mühakimə icraatı zamanı mülki iddia verməmişsə, o, mülki mühakimə icraatı qaydasında mülki iddia verməyə haqlıdır.

17. Məhkəmə kollegiyası gəldiyi nəticəni əsaslandırarkən Mülki-Prosessual Məcəllənin 82.4, Cinayət-Prosessual Məcəllənin 180.2-ci maddələrinə istinad etmişdir.

Kassasiya şikayətinin və ona etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

18. Cavabdeh kassasiya şikayəti verərək (vəkil) qətnamənin ləğv edilməsi və işin yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilməsini xahiş etmişdir.

19. Kassasiya şikayəti onunla əsaslandırılmışdır ki, hakim cavabdeh tərəfindən iş üçün mötəbər əhəmiyyət kəsb edən sübutlar təqdim edilsə də, bu sübutları ümumiyyətlə əsaslandırmamış və həmin sübutlara hüquqi qiymət verməmişdir. Cavabdeh tərəfindən məhkəməyə verilmiş olan iddiaçının rəsmi qaydada vermiş olduğu Ağır cinayətlər məhkəməsinin cavabdeh barəsində çıxarmış olduğu hökmdə də öz əksini tapan notarial ərizəsinə məhkəmə tərəfindən hüquqi qiymət verilməmişdir. İddiaçının sübut növü kimi məhkəmə işinə əlavə etdivi "X" müalicə mərkəzinin ödənişinə dair arayış sənədi sübut növü kimi qəbul edilə bilməz. İşə baxan hakim sübutların dəyərləndirilməsi zamanı iddiaçı tərəfindən həmin klinikaya ödənilmiş vəsaitin ciddi uçot blankı, kassa ödəniş qəbzləri, post-terminal vasitəsi ilə ödənilmiş ödəniş qəbzləri və digər qanunvericiliyin tələblərinə uyğun ödənişlərin həyata keçirilməsini təsdiq edən sənədləri təqdim etməmişdir. Apellyasiya instansiya məhkəməsində həmin hallara qiymət verilməmiş həmçinin, iddiaçının dövlət hesabına müalicə alma imkanın olduğu bir halda bundan istifadə etməməsi məsələsinə də hüquqi qiymət verilməmiş, bunula da MPM-nin 77.1, 88ci maddələrinin tələbləri pozulmuşdur.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

20. Kassasiya şikayətinə qarşı etiraz daxil olmamışdır.

Tətbiq edilən hüquq

Azərbaycan Respublikasının Mülki Məcəlləsi

21. Maddə 21.1. Zərərin əvəzinin ödənilməsini tələb etmək hüququna malik olan şəxs ona vurulmuş zərərin əvəzinin tam ödənilməsini tələb edə bilər, bu şərtlə ki, qanunda və ya müqavilədə zərərin əvəzinin daha az miqdarda ödənilməsi nəzərdə tutulmasın.

22. Maddə 21.2. Zərər dedikdə, hüququ pozulmuş şəxsin pozulmuş hüququnu bərpa etmək üçün çəkdiyi və ya çəkməli olduğu xərclər, əmlakından məhrum olması və ya əmlakının zədələnməsi (real zərər), habelə hüququ pozulmasaydı, həmin şəxsin adi mülki dövriyyə şəraitində əldə edəcəyi gəlirlər (əldən çıxmış fayda) başa düşülür.

23. Maddə 1118.1. Fiziki şəxsə xəsarət yetirilərkən və ya onun sağlamlığı başqa şəkildə pozularkən zərərçəkənin malik olduğu, yaxud yəqin ki, malik ola biləcəyi və itirdiyi qazancın (gəlirin), habelə sağlamlığının pozulması ilə bağlı əlavə çəkdiyi xərclərin, o cümlədən müalicəyə, əlavə qidalanmaya, dava-dərman alınmasına, protezləşdirməyə, başqasının qulluğuna, sanatoriya-kurort müalicəsinə, xüsusi nəqliyyat vasitələri əldə edilməsinə, başqa peşəyə hazırlanmaya çəkdiyi xərclərinin əvəzi ödənilir, bu şərtlə ki, zərərçəkənin həmin yardım və qulluq növlərinə möhtac olduğu və bunları pulsuz almaq hüququnun olmadığı müəyyənləşdirilsin.

"Azərbaycan Respublikası Mülki Məcəlləsinin 21 və 23-cü maddələrinin şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Qərarı

24. Mənəvi zərər adətən vətəndaşların şəxsi qeyri-əmlak hüquqlarının pozulması nəticəsində əmələ gəlir. Mənəvi zərər qeyri-əmlak zərəri olmaqla, iqtisadi məzmun və dəyər kəsb etməyən hüquq pozuntusudur. Belə zərər vətəndaşa anadangəlmə və ya qanun əsasında ona məxsus olan qeyri-maddi nemətlərə aid (şərəf, ləyaqət, işgüzar nüfuz, şəxsi ailə sirri, hərəkət etmək azadlığı, yaşayış yeri seçmə, ad hüququ, müəlliflik hüququ, sair şəxsi qeyri-əmlak hüquqlar və digər maddi nemətlər) hüquqlarını pozmaqla fiziki şəxsə mənəvi sarsıntı, iztirab verir. Mənəvi zərər bilavasitə zərər vuran şəxsin hərəkətlərindən sonra zərərçəkmişin şüuruna təsir göstərməklə mənfi psixoloji reaksiyaya səbəb olur. Mənəvi zərər vətəndaşların hüquqlarının pozulmasının müstəqil nəticəsidir. O həm vurulmuş əmlak zərəri ilə birlikdə, yaxud əmlak zərəri vurulmadığı hallarda kompensasiya edilir. Mənəvi zərər ödənilərkən mənəvi və fiziki iztirabların xarakteri və dərəcəsi, eləcə də cavabdehlərin təqsiri, əmlak vəziyyəti və s. vacib halların nəzərə alınması zəruridir və hər bir konkret halda belə zərərin ödənilməsi ilə bağlı xüsusatlar məhkəmənin mülahizəsinə görə müəyyən olunmalıdır.

"Mənəvi zərərin ödənilməsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiq edilməsi təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 03 noyabr 2008-ci il tarixli, 7 saylı Qərarı

25. Mənəvi zərərin miqdarı işin konkret hallarından asılı olaraq məhkəmə tərəfindən müəyyən edilir. Bu zaman mənəvi zərərin baş verməsinə səbəb olmuş hərəkətin və ya hərəkətsizliyin təhlükəlilik dərəcəsi, bunun nəticəsində zərərçəkənin keçirdiyi mənəvi iztirab və sarsıntıların xarakteri və ağırlığı, zərərvuran şəxsin təqsiri (qəsd və yaxud ehtiyatsızlıq) və əmlak vəziyyəti, zərərçəkən şəxsin fərdi xüsusiyyətləri (azyaşlı və yaxud qadın olması, səhhəti ilə əlaqədar mənəvi sarsıntı və iztirablara dözümü, peşə və sənəti, cəmiyyətdə nüfuzu və s.), habelə işin sair diqqətəlayiq halları nəzərə alınmalıdır.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsi

26. Maddə 59.1.12. zərərçəkmiş şəxslə və ya onun yaxın qohumu olan hüquqi varisi ilə barışıq əldə edilməsi, 59.1.13. cinayət nəticəsində dəymiş ziyanın könüllü olaraq tamamilə ödənilməsi və ya aradan qaldırılması; 59.1.14. cinayət nəticəsində dəymiş ziyanın qismən ödənilməsi və ya ziyanın azaldılması ilə nəticələnmiş digər hərəkətlərin edilməsi cəzanı yüngülləşdirən haldır.

27. Maddə 60.1. Bu Məcəllənin 59.1.8, 59.1.10—59.1.13-cü maddələrinin hər hansı birində nəzərdə tutulmuş bütün hallar mövcud olduqda və əgər cəzanı ağırlaşdıran hallar yoxdursa, təyin olunan cəzanın müddəti və ya həcmi bu Məcəllənin Xüsusi hissəsinin müvafiq

maddəsində nəzərdə tutulmuş daha ciddi cəza növünün son həddinin dörddə üçündən artıq ola bilməz.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsi

28. Maddə 7.0.36. zərər — cinayət nəticəsində zərər çəkmiş şəxsə vurulmuş mənəvi, fiziki və ya maddi ziyandır;

29. Maddə 180.2. Şəxs cinayət mühakimə icraatı zamanı mülki iddia verməmişsə, o, mülki mühakimə icraatı qaydasında mülki iddia verməyə haqlıdır.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəllə

30. Maddə 14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

31. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin əsası kimi istinad etdiyi halları sübut etməlidir.

32. Maddə 82.4. Məhkəmənin qanuni qüvvəyə minmiş hökmü, habelə cinayət təqibi üzrə qüvvəyə minmiş digər qərarı mülki işə və iqtisadi mübahisəyə baxılarkən məhkəmə üçün hadisənin olub-olmaması və şəxsin həmin hadisəyə aidiyyəti hissəsində məcburidir.

33. Maddə 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

34. Maddə 217.1. Məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır.

35. Maddə 217.3. Qətnamə iş üzrə müəyyən edilmiş hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır.

36. Maddə 407.2. Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir.

37. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

38. Maddə 416.2. Apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 418.4-cü maddəsində nəzərdə tutulmuş prosessual hüquq pozuntusu hesab edilən hallara yol verilməsi şikayətin hədlərindən və dəlillərindən asılı olmayaraq yoxlanılmalıdır.

39. Maddə 418.3. Prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması qətnamənin yaxud qərardadın ləğv edilməsi üçün o vaxt əsas ola bilər ki, bu pozuntu düzgün qətnamə qəbul edilməməsi ilə nəticələnsin və ya nəticələnə bilsin.

Kassasiya baxışının hədləri

40. Qanunun tələbinə görə, kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

41. Apellyasiya məhkəməsi qətnaməni qismən, iddianın təmin eilən hissəsində yoxladığından hazırkı kassasiya şikayətinə əsasə apellyasiya instansiyası məhkəməsinin aktı bütövlükdə yoxlanılır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

42. Məhkəmə kollegiyası hesab edir ki, apellyasiya instansiyası məhkəməsi tərəfindən cavabdehin apellyasiya şikayətində göstərdiyi dəlillərlə bağlı hər hansı araşdırma aparılmamış və işdə olan sübutlara Azərbaycan Respublikası Mülki Prossesual Məcəlləsinin 88-ci maddəsi baxımından düzgün hüquqi qiymət verilməmişdir.

43. Belə ki, işin araşdırılan hallarından görünür ki, apelyasiya məhkəməsi iddiaçının sağlamlığına dəyən ziyana görə “X” Klinikasına ambulans xidmətinə görə 1500 manat, “X”

Klinikasının arayışına əsasən 25000 manat və əməliyyatdan sonrakı müayinələr üçün müxtəlif vaxtlarda edilmiş 2018 manat ödənişin müvafiq sənədlərlə təsdiq edildiyinə istinad edərək, 28183 manat hissəsində iddianın təmin edilməsini əsaslı hesab etmişdir.

44. Lakin apellyasiya məhkəməsi ziyanın məbləğinin müəyyən edilməsi zamanı cavabdehin apellyasiya şikayətinin dəlillərini araşdırmamış və onlara qiymət verməmiş, həmin dəlilləri hansı səbəbdən qəbul etmədiyini qətnamədə göstərməmiş, iddiaçıya dəymiş real zərərin həcmini tam, hərtərəfli və obyektiv müəyyənləşdirmədən şikayətin təmin edilməməsi nəticəsinə gəlmişdir.

45. Məhkəmə kollegiyası qeyd etməyi zəruri hesab edir ki, mülki prosessual qanunvericiliyinə əsasən iddia üzrə iddiaçının tələbləri bilavasitə sübutetmə yükü ilə bağlıdır, işin faktiki hallarının müəyyən edilməsinin məhkəmə qərarının qanuniliyinin və əsaslığının əsas göstəricisi olduğu nəzərə alınsa, bu institut xüsusi əhəmiyyət kəsb edir. İddia tələblərinin təsdiqlənməsi üçün tərəfin sübut etmədiyi halları məhkəmə mövcud olmayan kimi rədd edə bilər.

46. Hər bir kəs pozulmuş və ya pozulmasını iddia etdiyi hüququnun məhkəmədə müdafiəsini tələb edərkən həmin tələbi əsaslandıran faktları və sübutları da təqdim etməli, məhkəmə də həmin tələbə onu əsaslandıran faktlar və sübutlar əsasında hüquqi qiymət verməlidir.

47. Sübutları qiymətləndirən zaman məhkəmə “əsaslı şübhələr yaratmayan” sübut standartını qəbul edir. Belə sübut kifayət qədər inandırıcı, aydın və bir-birinə uyğun gələn məntiqi nəticələrin və ya faktlarla bağlı oxşar, təkzib edilməyən ehtimalların mövcudluğundan irəli gələ bilər (“Avşar Türkiyəyə qarşı” AİHM-nin qərarı №25657/94, §282).

48. İşdən görünür ki, iddiaçının “X” Klinikasına 25.000 manat ödənilməsini təsdiq etmək üçün təqdim etdiyi arayışa tarix qoyulmamışdır və arayışın məzmunundan müəyyən edilmir ki, həmin məbləğ hansı dövr üzrə ödənilmişdir. İddiaçı klinikada 11.12.2020-ci ildən 23.12.2020-ci il tarixədək müalicə almış, sonra isə müxtəlif vaxtlarda həmin klinikada müayinələrdən keçmişdir. Belə olan halda, 11.12.2020-ci il tarixdə ambulansa görə 1500 manat edilmiş ödənişin və müayinələrə görə 2021-2022-ci illərdə edilmiş ödəniş qəbzləri üzrə 2018 manat məbləğin Klinikanın xəzinəsinə ödənilmiş 25000 manatın tərkibinə daxil olub-olmadığını müəyyən etmək üçün həmin arayışın hansı tarixdə yazıldığı və göstərilən ödənişin hansı dövr üzrə ödənilmiş olması mühüm əhəmiyyət kəsb edir. Buna görə də, məhkəmə kollegiyası hesab edir ki, apelyasiya instansiya məhkəməsi həmin arayış sübut qismində qiymətləndirərkən Azərbaycan Respublikası MPM–nin 88-ci maddəsinin tələblərini pozmuşdur.

49. Eyni zamanda, iddiaçının özünün etiraf etdiyinə görə cinayət işinə baxılan dövrdə cavabdeh tərəfindən ona 20.000 manat ödəniş edilmiş və hökmdən görünür ki, iddiaçı cinayət işinə baxlarkən həmin məhkəməyə 07.01.2022-ci il tarixli notarial qaydada təsdiq olunmuş ərizə ilə müraciət edərək, cavabdehə qarşı heç bir şikayəti və tələbi olmadığını, onunla barışdığını göstərmişdir və cinayət işinə baxan məhkəmə bu halı cəzanı yüngülləşdirən hallardan biri kimi nəzərə almaqla cavabdehə cəza təyin etmişdir. Həmçinin apellyasiya məhkəməsinə təqdim edilmiş sığorta aktından görünür ki, cavabdehin idarə etdiyi avtomobilin icbari sığortası üzrə iddiaçının əmlakına dəymiş ziyana görə 5000 manat sığorta ödənişi həyata keçirilmişdir.

50. Apellyasiya məhkəməsi isə iddiaçıya dəymiş real ziyan məbləğini müəyyən edərkən, həmin ziyana görə iddiaçıya ödənilmiş məbləğlərin hansı səbəbdən nəzərə alınmamasını qətnamədə göstərməmiş, bu barədə apellyasiya şikayətinin dəlillərinə ümumiyyətlə qiymət verməmişdir.

51. Həmçinin məhkəmə kollegiyası hesab edir ki, iddiaçının cinayət mühakimə icraatı çərçivəsində təqsirləndirilən şəxslə barışması, ona qarşı heç bir şikayəti və tələbinin olmaması ilə bağlı ərizəsi də mülki qaydada ziyan tələbinə baxılarkən tərəflərin qarşılıqlı münasibətlərinin müəyyən edilməsi baxımından hüquqi qiymət verilməli məsələdir.

52. Məlumdur ki, cinayət mühakimə icraatı çərçivəsində zərəçəkmiş şəxsin təqsirləndirlən şəxslə barışması və ona dəymiş ziyanı ödəməsi cəzanı yüngülləşdirən hallardan biridir. Cinayət işləri üzrə ədalət mühakiməsini həyata keçirən məhkəməyə zərərçəkən şəxsin belə bir bəyanı ədalət mühakiməsini düzgün həyata keçirilməsinə təsir edən amildir. Buna görə də,

məhkəmə kollegiyası hesab edir ki, cinayət mühakimə icraatının hər bir iştirakçısı öz hüquqlarını və vəzifələrini vicdanla yerinə yetirməli, öz hərəkətlərinin məsuliyyətini dərk etməli, yaratdığı nəticələri qəbul etməlidir.

53. Konstitusiya Məhkəməsinin Plenumu bir sıra qərarlarında qeyd etmişdir ki, konstitusiya hüququnun doktrinası hüquqi müəyyənlik prinsipini Konstitusiyanın Preambulasında öz əksini tapan qanunun alilliyinin əsas elementlərindən biri kimi tanıyır. Hüquqi müəyyənlik prinsipi isə digər tələblərlə yanaşı mövcud hüquqi vəziyyətə aid aydınlığı və müəyyənliyi nəzərdə tutur. Bu baxımdan məhkəmələr tərəfindən qəbul olunmuş qərarlarda həll olunan işə aid bütün zəruri məsələlərə aydınlıq gətirilməli, ziddiyyətli məqamlar aradan qaldırılmalıdır. Azərbaycan Respublikasının adından çıxarılan məhkəmə aktlarında işin ədalətli həllini şübhə altına alan, ziddiyyətlər yaradan və mübahisə üzrə iştirakçıların konstitusiya məhkəmə müdafiəsi hüququna təsir göstərən müddəalar olmamalıdır. (Konstitusiya Məhkəməsi Plenumunun N.Babayevin şikayəti üzrə 28 dekabr 2011-ci il tarixli Qərarı).

54. Oxşar hüquqi mövqe İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarında da əks olunmuşdur. Avropa Məhkəməsinin Ryabıx Rusiyaya qarşı iş üzrə 2003-cü il 24 iyul tarixli Qərarında qeyd olunmuşdur ki, hüquqi müəyyənlik qanunun aliliyi prinsipinin əsasını təşkil etməklə daha əvvəl hüquqi qüvvəyə minmiş məhkəmə aktları ilə müəyyən edilmiş faktların təkrarən mübahisələndirilməsini istisna edir.

55. Bu baxımdan məhkəmə kollegiyası hesab edir ki, cinayət prosesində zərərçəkən şəxsin təqsirləndirilən şəxslə barışması və ona qarşı hər hansı şikayət və tələbinin olmaması barədə məhkəməyə təqdim etdiyi və qanuni qüvvəyə minmiş hökmdə cəza təyin edilərkən nəzərə alınan ərizəsi bu şəxslər arasında həmin vaxta qədər mövcud olmuş tələblərin qarşılıqlı güzəştlər əsasında həll olunması kimi qiymətləndirilməlidir. Bu halda, zərərçəkmiş həmin vaxtdan sonra yaranmış zərərlə bağlı tələb irəli sürmək hüququna malikdir.

56. Məhkəmə kollegiyası qeyd edir ki, iddiaçı iddia ərizəsində cavabdeh tərəfindən 20.000 manat ödənildikdən sonra digər ziyanı ödəyəcəyini vəd etdiyini göstərsə də, bu barədə hər hansı sazişin olması barədə sübut təqdim etməmiş, həmçinin təqdim edilən ərizədə dəymiş ziyanın tam ödənilməsini tələb etmək hüququnu özündə saxlaması barədə qeyd-şərt göstərməmişdir.

57. Məhkəmə kollegiyası birinci instansiya məhkəməsində təqdim edilmiş iddiaçı tərəfindən cinayət işinə baxan hakimə ünvanlanmış 10.03.2022-ci il tarixli ərizə ilə bağlı qeyd etməyi zəruri hesab edir ki, bu ərizənin cinayət işinə baxan məhkəməyə təqdim edilməsi barədə iş materiallarına hər hansı sübut əlavə edilməmişdir.

58. Göstərilənlərə əsasən məhkəmə kollegiyası hesab edir ki, Avropa Məhkəməsinin istifadə etdiyi standart və prinsiplər, habelə mülki prosessual qanunvericiliyin sübutetmə ilə bağlı müddəalarının hazırkı işə tətbiqi baxımından apellyasiya instansiyası məhkəməsinin iş üzrə gəldiyi nəticəsi düzgün deyildir.

59. Kassasiya şikayətinin dəlillərini müzakirə edərək məhkəmə kollegiyası onları əsaslı hesab edir, çünki apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının tələblərinə tam əməl olunmamış, əsaslandırılmış qətnamə qəbul edilməmişdir. Bu da qəbul olunmuş qətnamənin ləğvi üçün əsasdır. Buna görə də, qətnamə ləğv edilməli və iş yeni apellyasiya baxışına göndərilməli, kassasiya şikayəti təmin edilməlidir.

60. İşə yenidən baxan məhkəmə hazırki qətnamənin ləğv olunma əsası kimi yuxarıda şərh edilən pozuntuları aradan qaldırmalı, apellyasiya şikayətinin dəlillərinə müfəssəl qiymət verilməli, gəlinən nəticələr qətnamədə əsaslandırılmalı, mübahisəli hüquq münasibətinə maddi və prosessual hüquq normalarının düzgün tətbiq etməklə qanuni və əsaslı qərar qəbul etməlidir.

61. Yuxarıda göstərilənləri və Mülki Prosessual Məcəllənin 416, 417, 419-421-ci maddələrini rəhbər tutaraq, məhkəmə kollegiyası

Qərara aldı:

Cavabdeh tərəfindən verilmiş kassasiya şikayəti təmin edilsin.

Gəncə Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 27 aprel 2023-cü il tarixli 2(104)-916/2023 saylı qətnaməsi ləğv edilsin, iş yeni apellyasiya baxışına göndərilsin.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

42.2(1-8)-1115/2026 nömrəli, 2026-cı il 4 iyun tarixli qərar – Çoxmənzilli yaşayış binasında müşahidə kamerasının quraşdırılması və qonşuların şəxsi həyatına müdaxilənin yolverilən hədləri haqqında

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: tərəflər çoxmənzilli yaşayış binasının eyni girişində eyni mərtəbəsində qonşudurlar. Cavabdeh öz mənzilinin giriş hissəsində və dəhlizdə təhlükəsizlik məqsədilə müşahidə kameraları quraşdırmışdır.

İddiaçı həmin kameraların onun şəxsi həyatının toxunulmazlığını pozduğunu bildirərək, bunun cavabdehə qadağan edilməsi, konstitusion hüquqlarının pozulması nəticəsində dəymiş maddi və mənəvi ziyanın ödənilməsi barədə iddia qaldırmışdır.

Məhkəmələrin mövqeyi: Ali Məhkəmənin Plenumunun "Şəxsiyyət hüquqlarının müdafiəsi haqqında" 2025-ci il 24 dekabr tarixli qərarının şəxsi toxunulmazlıq və təsvirin müdafiəsi hüququ ilə bağlı bəndlərinin məzmunundan göründüyü kimi, şəxsi həyat anlayışı yalnız şəxsin mənzilinin daxilində baş verən hadisələrlə məhdudlaşmır. Şəxsin yaşayış yerinə giriş və çıxışı, onunla əlaqə saxlayan şəxslər və barəsində müəyyən təsəvvür formalaşdırmağa imkan verən digər məlumatlar da şəxsi həyatın müdafiə olunan elementləri hesab olunur. Buna görə də konkret şəxs barədə belə məlumatların davamlı şəkildə toplanmasına, təsvirinin sistemli şəkildə qeydə alınmasına imkan verən müşahidə şəxsi həyata, o cümlədən təsvirin müdafiəsi hüququna müdaxilə kimi qiymətləndirilə bilər.

Baxılan iş üzrə cavabdeh tərəfindən yaşayış binasının ümumi istifadədə olan dəhlizində və ya mənzillərin giriş hissəsində quraşdırılmış kameraların görüntü bucağı yalnız cavabdehin mənzilinin girişini deyil, həm ümumi istifadədə olan dəhlizi, həm də iddiaçının mənzilinin giriş qapısını və həmin mənzilə giriş-çıxışı əhatə edir. Belə müşahidə nəticəsində iddiaçının mənzilə nə vaxt daxil olması və ya çıxması, mənzilə kimlərin gəlib-getməsi, gündəlik həyat ritmi və onun şəxsi həyatına dair digər məlumatların, habelə təsvirinin müntəzəm şəkildə qeydə alınması imkanı yaranmışdır ki, bu da həmin şəxsin Konstitusiyanın 32-ci maddəsi ilə qorunan şəxsi həyat sferasına yönəlmiş müdaxilə xarakteri daşıyır.

Bu baxımdan, çoxmənzilli yaşayış binasının ümumi istifadədə olan dəhlizində və ya mənzilin giriş hissəsində digər qonşuların mənzillərini də əhatə edən müşahidə kamerasının quraşdırılması yalnız həmin şəxslərin razılığı olduqda yolverilən hesab edilə bilər. Belə razılıq olmadıqda isə təhlükəsizlik məqsədi ilə quraşdırılan kamera yalnız onu quraşdıran şəxsin mənzilinin giriş hissəsinin müşahidəsi üçün zəruri olan görüntü bucağı ilə məhdudlaşdırılmalıdır. Kameranın görüntü dairəsi ümumi istifadədə olan sahəni və (və ya) digər qonşuların mənzillərinin girişini və həmin mənzillərə giriş-çıxışı da əhatə edərsə, bu artıq həmin şəxslərin şəxsiyyət hüquqlarına müdaxilə hesab olunur.

Cavabdehin öz mülkiyyətinin və əmlakının təhlükəsizliyini təmin etmək hüququ qanunla qorunan hüquqdur. Lakin hər bir subyektiv hüququn həyata keçirilməsi digər şəxslərin hüquq və azadlıqlarına hörmət prinsipi çərçivəsində baş verməlidir. Buna görə də təhlükəsizlik məqsədilə müşahidə kamerasının quraşdırılması mümkün olsa da, onun görüntü bucağı zərurət həddini aşaraq digər şəxslərin razılığı olmadan onların mənzillərinin girişini, giriş-çıxışını və təsvirini davamlı şəkildə qeydə almağa imkan verirsə, belə istifadə artıq digər şəxslərin şəxsiyyət hüquqlarına müdaxilə hesab olunur.

Məhkəmələr məhz bu tarazlığı nəzərə alaraq cavabdehin təhlükəsizlik məqsədilə müşahidə kamerasından istifadə etmək hüququnu tam məhdudlaşdırmamış, yalnız qapısının üstündə quraşdırılmış kameranın görüntü bucağının öz mənzilinin giriş hissəsi ilə məhdudlaşdırılmasını və ümumi istifadədə olan dəhlizdə quraşdırılmış digər kameranın isə sökülməsini qət etmişdir. Belə müdaxilə tərəflərin hüquqları arasında ədalətli balansın təmin edilməsinə yönəlmiş, zəruri və proporsional tədbir hesab olunmuşdur.

Məhkəmələr həmçinin qeyd edib ki, şəxsin iradəsi xaricində uzun müddət müşahidə olunması və təsvirinin müntəzəm qeydə alınması onda daimi izlənildiyi hissini yarada, psixoloji narahatlıq və mənəvi iztirablara səbəb ola bilər. Belə hallarda şəxsi həyata qanunsuz müdaxilə sübuta yetirilərsə, mənəvi zərərin ayrıca sübut edilməsinə ehtiyac yoxdur. Hüquqazidd müdaxilənin özü mənəvi zərərin mövcudluğu barədə prezumpsiya yaradır və əksini iddia edən şəxs bunu sübut etməlidir.

Bu hüquqi mövqeyə əsaslanaraq məhkəmələr qonşunun şəxsi həyat hüququnun pozulduğunu qəbul etməklə yanaşı, onun xeyrinə mənəvi zərər əvəzinin tutulmasını qanuni hesab edib.

**Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.*

2(1-8)-1115/2026

04.06.2026-cı il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının

iddiaçının cavabdehlər Cavabdeh 1ə və Cavabdeh 2ə qarşı iş üzrə

Q Ə R A R I

(Açar sözlər: şəxsi toxunulmazlıq hüququnun müdafiəsi, mənəvi zərərin kompensasiyası)

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Xıdırov Əhliman Mehman oğlu (məruzəçi), Həsənov Vüqar Təvəkgül oğlu və Şamayev Elşad Yaquboviçdən ibarət tərkibdə,

iddiaçının cavabdehlər Cavabdeh 1ə və Cavabdeh 2ə qarşı “maddi və mənəvi ziyanın ödənilməsi” tələbinə dair mülki iş üzrə Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(103)-6264/2025 nömrəli 2026-cı il 26 yanvar tarixli qətnaməsindən Cavabdeh 2 tərəfindən verilmiş kassasiya şikayətinə Ali Məhkəmənin inzibati binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları

1. Tərəflər çoxmənzilli yaşayış binasının eyni girişində eyni mərtəbəsində qonşu olmaqla, Ünvan 1 ünvanında yerləşən 342 saylı mənzil iddiaçının, 341 saylı mənzil isə Cavabdeh 2nın mülkiyyətindədir.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a) Birinci instansiya məhkəməsində icraat

2. İddiaçı Iddiaçı cavabdehlər Cavabdeh 1ə və Cavabdeh 2ə qarşı "maddi və mənəvi ziyanın ödənilməsi" tələbinə dair iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, konstitusion hüquqlarının cavabdehlər tərəfindən pozulmasının qadağan edilməsi, bu hüquqlarının pozulması nəticəsində ona dəymiş 3000 manat maddi və 5000 manat mənəvi ziyanın cavabdehlərdən tutularaq ona ödənilməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

3. İddiaçı tələbini belə əsaslandırmışdır ki, cavabdeh iki aya yaxındır ki, onun mənzilinə olan giriş-çıxışların, onun mənzilə daxil olmağının və çıxmağının, eləcə də mənzilinə gələn qonaqların və ailə üzvlərinin hərəkətlərinin izlənilməsi məqsədilə dəhlizə iki video-müşahidə kamerası quraşdırmışdır. Bunlardan biri təhlükəsizlik məqsədi ilə bütün dəhlizin müşahidəsini həyata keçirir, digəri isə məhz onun mənzilə giriş-çıxışın izlənilməsi üçün qoyulmuşdur. Cavabdeh onun razılığı və ya hər hansı hüquqi əsas olmadan, şəxsi həyatının toxunulmazlığı hüququnu pozaraq, onun yaşayışını və gündəlik fəaliyyətlərini gizli şəkildə izləyir, əldə etdiyi məlumatları müxtəlif orqanlara ötürərək onun şəxsi məlumatlarını qanunsuz şəkildə üçüncü şəxslərlə paylaşır. Cavabdeh tərəfindən mənzilinin giriş-çıxışına qanunsuz olaraq video-müşahidə kamerası quraşdırılması onun və ailə üzvlərinin şəxsi həyatına müdaxilə edərək, daimi stress və mənəvi sarsıntıya səbəb olmuşdur. Şəxsi həyatın toxunulmazlığı hüququnun pozulması halında mənəvi ziyanın mövcudluğu açıq-aşkardır və belə hallarda əlavə sübutetmə öhdəliyi daşımır. Çünki hər hansı şəxsin yaşadığı mənzilin izlənilməsi, təbii olaraq, psixoloji gərginlik və mənəvi narahatlıq doğurur. Həmçinin hazırda hüquqlarının müdafiəsi məqsədilə hüquqi yardım almağa məcburdur. Eyni zamanda, hüquqlarının qorunması ilə bağlı məhkəməyə və digər müvafiq qurumlara müraciət etmək onun vaxtını alır, əmək fəaliyyətinə mane olur və nəticədə ona maddi ziyan dəyir.

4. Cavabdeh 1 iddia ərizəsinə qarşı etiraz təqdim edərək, iddianın rədd olunmasını xahiş etmiş, etirazını onunla əsaslandırmışdır ki, onlara məxsus mənzilin giriş hissəsində müşahidə kameraları təhlükəsizlik məqsədi ilə quraşdırılmışdır. Eyni zamanda iddiaçı tərəfindən də özünə məxsus mənzilin giriş hissəsinə video-müşahidə kamerası

quraşdırılmışdır (bununla bağlı fotoşəkillər məhkəməyə təqdim edilmişdir). İddiaçı tərəfindən iddia ərizəsinə əlavə edilən fotoşəkillərdən də görünür ki, video-müşahidə kamerası iddiaçının mənzilinin girişinin yuxarı hissəsində quraşdırılmış, mənzilin təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə mənzilin yerləşdiyi mərtəbənin girişinə, dəhlizə yönəlmişdir. Bununla belə, iddiaçı qeyd edir ki, mənzilinə gələn qonaqların və ailə üzvlərinin hərəkətlərinin izlənilməsi məqsədilə mənzilinin giriş hissəsinə cavabdehlər tərəfindən video-müşahidə kamerası quraşdırılmışdır. İddiaçı işin faktiki hallarını təhrif edərək kameraların onun mənzilini izləmək məqsədli quraşdırıldığını iddia edir. Buna baxmayaraq iddiaçı tərəfindən təqdim edilmiş materiallarda kameranın əhatə dairəsinin birbaşa iddiaçının mənzilinə yönəlmədiyi açıq-aşkar görsənir. Əgər iddiaçının qeyd etdiyi kimi mənzilin girişinə videomüşahidə kamerasının quraşdırılması qanunazidd olsaydı, iddaçı da mənzilinə videomüşahidə kamerası quraşdırmamalı idi. Qanunvericilikdə mənzillərin girişinə təhlükəsizlik kameralarının quraşdırılması ilə bağlı hər hansı məhdudiyyət müəyyən edilməmişdir. Maddi hüquq normalarında qonşunun mülkiyyətinə təsirlərin mümkün dərəcəsi müəyyənləşdirilir. Birincisi, həmin təsirlər qonşuya öz sahəsindən istifadə etməyə maneçilik törətməməlidir, ikincisi, həmin təsirlər nəticəsində qonşunun hüququ əhəmiyyətsiz dərəcədə pozulmalıdır. Cavabdehlər tərəfindən onlara məxsus mənzillə bağlı təhlükəsizlik tədbirlərinin təmin edilməsi məqsədi ilə kameraların quraşdırılması qonşuya öz sahəsindən istifadə etməyə maneçilik törətmir, qonşunun hüququ əhəmiyyətli dərəcədə pozulmur. Binanın dəhlizi ümumi paylı mülkiyyət hüququ ilə mülkiyyətçilərə məxsusdur. Cavabdehlərin mənzilin yerləşdiyi mərtəbəni izləməsi iddiaçının şəxsi və ailə həyatına, həmçinin mənzil toxunulmazlığına müdaxilə kimi qiymətləndirilə bilməz. Belə ki, iddiaçıya məxsus mənzil kommersiya məqsədli, qeyri-yaşayış sahəsi olaraq istifadə edilir. İddiaçı qeyd edilən faktı gizlədərək özünün və ailə üzvlərinin həyatına müdaxilə edildiyini qeyd edir. Sözügedən mənzilin qeyri-yaşayış sahəsi olaraq istifadəsi faktı Bakı Apellyasiya Məhkəməsinin qərardadı, Nəsimi Rayon İcra Hakimiyyətinin aktı ilə təsdiq edilmişdir. Belə ki, Nəsimi Rayon İcra Hakimiyyəti mənzilə baxış keçirərək mənzildə kommersiya fəaliyyətinin keçirilməsinə dair xx.xx.2024-ci il tarixli akt tərtib ediblər. Həmçinin bununla bağlı bina sakinlərinin yazılı kollektiv etiraz ərizələri mövcuddur. Əlavə olaraq hazırda Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin icraatında birgə iddiaçılar (hazırki iş üzrə cavabdehlər) “Ünvan 1 ünvanında yerləşən 432 nömrəli mənzildən qeyri yaşayış sahəsi kimi istifadə edilməsinin dayandırılması vəzifəsinin cavabdehin (hazırki iş üzrə iddiaçının) üzərinə qoyulması, maddi və mənəvi zərər tələbinə dair 2(006)1380/2025 saylı mülki iş hazırda davam edir. İddia ərizəsi ilə yanaşı tərəflərindən müvəqqəti təminat tədbiri barədə ərizə ilə məhkəməyə müraciət edilmişdir. Bakı Apellyasiya Məhkəməsinin 16(103)-92/2025 saylı 14.02.2025-ci il tarixli qərardadı ilə ərizənin təmin olunması, iddiaçıya məxsus mənzildən qeyri-yaşayış məqsədilə istifadə edilməsi (mənzildə kommersiya və digər bu kimi fəaliyyətin həyata keçirilməsi) cavabdeh Iddiaçı və digər şəxslərə qadağan olunması qərara alınmışdır. Həmin qərardadın 11-ci bəndində qeyd edilir ki, “Cavabdehə aid mənzil binanın 13-cü mərtəbəsində yerləşir, onun altında yerləşən sahələrin yaşayış sahələri olmadığını təsdiq edən sübut məhkəməyə təqdim edilməyib. Ona görə də ilkin sübutlar belə qənaətə gəlməyə əsas yerir ki, cavabdehə aid mənzilin qeyri-yaşayış sahəsi kimi istifadəsi qanunsuzdur. Cavabdehə aid mənzilin qanuni əsas olmadan qeyri-yaşayış sahəsi (ofis) kimi istifadə edilməsi qonşu mənzildə yaşayan iddiaçıların hüquqlarının pozulmasına səbəb olur. Belə ki, cavabdehə aid mənzilə hər gün gəlib-gedən və orada çalışan şəxslərin yaratdığı səs-küy və digər bu kimi hallar iddiaçı tərəfə öz mülkiyyətindən (mənzildən) dinc istifadə etməyə manea yaradır”. Bu qərardadın icrası Nəsimi rayon İcra şöbəsinə həvalə edilmişdir. İcra məmurları mənzilə baxış keçirmiş, mənzilin kommersiya məqsədli ofis olaraq istifadəsini video-kamera ilə qeydə

almışdır. Mənzildən ofis avadanlıqları, stolları və sair götürülmüş, otaqlardan biri möhürlənmişdir (sözügedən video-görüntülər məhkəməyə təqdim ediləcəkdir). İddiaçı 5000 manat mənəvi və 3000 manat maddi ziyanın necə yarandığını əsaslandırmamış, bununla bağlı məhkəməyə sübutlar təqdim edilməmişdir.

5. Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin e2(006)-2343/2025 nömrəli 2025-ci il 1 sentyabr tarixli qətnaməsi ilə iddia tələbi rədd edilmişdir.

6. Birinci instansiya məhkəməsi qeyd etmişdir ki, iddiaçı cavabdehlərin tərəfindən mənzillərinə video-müşahidə kameraları quraşdırılması nəticəsində ona 3000 manat maddi ziyan dəydiyini bildirsə də, təqdim edilmiş sübutlar və faktiki hallar bu iddianı təsdiqləmir.

7. Belə ki, məhkəməyə təqdim edilmiş fotoşəkillər və izahatlardan görünür ki, cavabdehlər tərəfindən quraşdırılmış kameralar əsasən ümumi dəhliz və mənzillərin giriş hissələrinə yönəldilmişdir. Kameraların əhatə dairəsi birbaşa iddiaçının mənzilinə yönəlməyib və onun mülkiyyətindən istifadə imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırmır. Bununla yanaşı, cavabdehlərin mənzilində aparılan müşahidələr və müvafiq tədbirlər, əsas məqsəd olaraq, şəxsi və ya kommersiya təhlükəsizliyinin təmin edilməsinə yönəldilmişdir.

8. İddiaçı tərəfindən maddi ziyanın yaranması ilə bağlı heç bir konkret fakt və ya sübut təqdim edilməyib. O, yalnız hüquqlarının pozulduğunu və bu pozuntunun nəticəsində maddi ziyan dəyəcəyini iddia etmişdir. Lakin təqdim olunmuş sübutlar əsasında belə qənaətə gəlmək olar ki, cavabdehlərin fəaliyyəti iddiaçının mənzilində və mülkiyyətində real maddi ziyan yaratmayıb. İddiaçının maddi ziyanla bağlı iddiaları yalnız subyektiv qiymətləndirməyə əsaslanır və konkret maliyyə itkiləri ilə təsdiqlənmir.

9. Həmçinin, iş materiallarından aydın olur ki, cavabdehlər tərəfindən mənzilə yönəldilmiş tədbirlər qonşuların mülkiyyətinə hədsiz təsir yaratmır. Kameraların quraşdırılması nəticəsində iddiaçının maliyyə vəziyyətinə, mülkiyyət hüquqlarına və ya biznes fəaliyyətinə konkret, ölçülə bilən və sübuta əsaslanan zərər dəymədiyi açıqdır. Bu baxımdan, iddiaçının maddi ziyanla bağlı tələbini təsdiqləyəcək heç bir obyektiv sübut iş üzrə mövcud deyil.

10.Məhkəmə gəldiyi nəticəni Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra – Mülki Məcəllə) 21.1, 21.2, 1096.1, 1096.2, 1097.1, 1115-ci maddələrinə, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin “Azərbaycan Respublikası Mülki

Məcəlləsinin 21 və 23-cü maddələrinin şərh edilməsinə dair” 2002-ci il 31 may tarixli, Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun “Mənəvi zərərin ödənilməsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında” 2008-ci il 3 noyabr tarixli qərarlarına və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra – MPM) 14.2, 76.1, 76.2, 119.1, 217.3 və 217.4-cü maddələrinə istinadla əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

11.İddiaçı apellyasiya şikayəti verərək, qətnamənin ləğv edilməsini, iddianın təmin olunmasını xahiş etmişdir.

12.Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)-6264/2025 nömrəli 26 yanvar 2026-cı il tarixli qətnaməsi ilə (hakimlər X.Mərdanova (sədrlik edən və məruzəçi), V.Sadıqov və R.Səmədov) apellyasiya şikayəti qismən təmin edilmiş, birinci instansiya məhkəməsinin qətnaməsi ləğv edilmiş, iddia qismən təmin edilərək, cavabdehlər tərəfindən quraşdırılmış kamera (dəhlizin tinində quraşdırılmış kamera) 341 saylı mənzilinin əhatəsinə (yalnız giriş qapısına) fokuslanmaq görüntü bucağının dəyişdirilməsi, həmin kamera ilə üzbəüz quraşdırılmış kameranın isə sökülməsi, cavabdehlərdən müştərək qaydada 500

manat mənəvi ziyanın iddiaçının xeyrinə tutulması, iddianın qalan hissədə rədd olunması qət edilmişdir.

13.Apellyasiya instansiyası məhkəməsi ilk olaraq qeyd etmişdir ki, birinci instansiya məhkəməsi tərəfindən iş üzrə məhkəmə hazırlıq iclası keçirildikdən sonra məhkəmə baxışı təyin edilmişdir. Lakin həmin ərəfədə, yəni məhkəmə baxışından öncə iddiaçı tərəf iddia tələbinin həcminin artırılması barədə ərizə təqdim etməklə, cavabdeh tərəfindən quraşdırılmış kameraların cavabdehin hesabına sökülməsini, konstitusion hüquqlarının cavabdeh tərəfindən pozulmasının cavabdehlərə qadağan edilməsi və bu hüquqlarının pozulması nəticəsində ona dəymiş 3000 manat maddi və 5000 manat mənəvi ziyanın cavabdehlərdən tutularaq ona ödənilməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir. Həmin ərizə məhkəmə tərəfindən geri qaytarılmadığından qəbul edilmiş sayılmalı və həmin tələb həcmində işə baxılmalıdır. Lakin birinci instansiya məhkəməsi həmin ərizəyə qiymət verməyərək prosessual hüquq normalarının tələblərini pozmuşdur. Göstərilən prosesual pozuntulara görə qətnamə ləğv edilməli, qeyd edilən ərizə icraata götürülərək iddia tələbinin qismən təmin edilməsi barədə iş üzrə yeni qətnamə qəbul edilməlidir.

14.Belə ki, işin faktiki halları ilə müəyyən edilmişdir ki, cavabdeh tərəfindən tərəflərin mənzillərinin qapıları yerləşdiyi ümumi dəhlizə iki kamera qoyulmuşdur. Şərti olaraq 1-ci kamera dəhlizin tinində cavabdehə məxsus mənzilin qapısının yuxarısında, 2ci kamera isə 1-ci kamera ilə üzbəüz divarda quraşdırılmışdır. Kollegiyanın mövqeyinə görə, kameralar cavabdehlər tərəfindən öz mənzilinin təhlükəsizliyi nöqteyi-nəzərdən quraşdırılsa da, bu kameraların görüntü bucaqları bütün dəhlizə və tərəflərin mənzillərinin giriş hissələrinə yönəlmişdir. İddiaçının razılığı və ya hər hansı hüquqi əsası olmadan cavabdehlər tərəfindən kameralar quraşdırılmaqla faktiki olaraq kameraların iş prinsipinə əsasən, bu kameralar həm də iddiaçının mənzilinin qapısını da çəkir ki, bu da iddiaçı tərəfin mövqeyinə əsasən onun şəxsi həyatının toxunulmazlığı hüququnun pozulmasına, onun yaşayışını və gündəlik fəaliyyətin izlənilməsi ilə nəticələnmişdir.

15.Məhkəmə kollegiyası qeyd etmişdir ki, çoxmənzilli binaların dəhlizləri ümumi istifadədə olan sahələr hesab olunsa da, hazırda kameralar tərəfindən iddiaçının mənzilinin qapısı açılıb-bağlanarkən mənzilin içərisinin görünməsi və ya onun girişçıxışının birbaşa çəkilməsi işin mübahisəsiz halıdır ki, bu da şəxsi həyata müdaxilə sayılır. Göründüyü kimi, cavabdehlər tərəfindən quraşdırılmış kameralar birbaşa iddiaçının mənzilinə yönəlməklə onun mülkiyyətindən istifadə imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırmaqla şəxsi həyatın gizliliyinə müdaxilə edilmişdir. Belə olan halda, iddiaçı həmin kameraların cavabdehlərin hesabına sökülməsini tələb etməkdə haqlı olsa da, iddia tələbi qismən həmin hissədə təmin edilməlidir. Belə ki, yuxarıda qeyd edildiyi kimi, cavabdehlər tərəfindən quraşdırılmış kameralar ilk növbədə öz mənzilinin təhlükəsizliyi ilə bağlı olsa da, onun quraşdırılması zamanı iddiaçının şəxsi həyat toxunmazılığı hüququnun pozulmasına yol verilmişdir. Lakin cavabdehlərin də qeyd edilən hüququnun olması baxımından yalnız öz mənzilinin giriş qapısının görüntüsünü əks etdirə bilən (çəkən) kamerası saxlanılmalıdır. Başqa sözlə, dəhlizin tinində quraşdırılmış kamera yalnız cavabdehlərin mənzilinin əhatəsinə fokuslanmalı, onunla üzbəüz quraşdırılmış kamera isə sökülməlidir.

16.Kollegiya hesab etmişdir ki, cavabdehlərin iddiaçıya məxsus evin girişini izləyəcək həddə kamera yerləşdirməsi nəticəsində iddiaçıya mənəvi zərər vurulmuşdur və bu faktın əlavə sübutlarla təsdiqinə ehtiyac yoxdur. Bununla bağlı iddiaçıya ödəniləcək mənəvi təzminatın həcminin cavabdehlərin uzun müddətdir ki, iddiaçıya məxsus mənzilin giriş-çıxışının görüləcəyi məsafədə kamera yerləşdirməklə iddiaçının keçirdiyi mənəvi iztirab və

sarsıntıları, habelə işin sair diqqətəlayiq hallarını nəzərə alınmaqla 500 manat müəyyən edilməsi məqsədəmüvafiqdir.

17.Məhkəmə gəldiyi nəticəni Konstitusiyanın 32-ci maddəsinin I-III hissələrinə, Mülki Məcəllənin 21.1, 21.2, 1096.1, 1096.2, 1097.1-ci, "Fərdi məlumatlar haqqında"

Qanunun 1, 2.1, 7.1, 7.2, 7.4-cü maddələrinə, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 21 və 23-cü maddələrinin şərh edilməsinə dair" 2002-ci il 31 may tarixli, Azərbaycan Respublikasi Ali Məhkəməsi Plenumunun "Şəxsiyyət hüquqlarının müdafiəsi haqqında" 2025-ci il 24 dekabr tarixli qərarlarına və MPM-in 4.1, 14.2, 53, 77.1, 80, 88, 107,119.1, 190, 217.3, 218.1-ci maddələrinə istinadla əsaslandırmışdır.

Kassasiya şikayətinin və ona etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

18.Cavabdeh 2 kassasiya şikayəti verərək, apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv edilməsini, iddianın rədd edilməsi barədə qərar çıxarılmasını xahiş etmişdir.

19.Kassasiya şikayəti Mülki Məcəllənin 21, 152.1, 152.5, 170.2, 171.1-ci, Mənzil Məcəlləsinin 35.1, 35.2-ci və MPM-in 9.1, 88, 217.1, 217.3, 418.1-ci maddələrinə istinadla əsasən iddia ərizəsinə qarşı etirazla eyni məzmunda əsaslandırılmaqla, əlavə olaraq qeyd olunmuşdur ki, apellyasiya məhkəməsi iş üzrə təqdim edilmiş sübutlara və işin faktiki hallarına düzgün hüquqi qiymət verməyərək iddiaçının şəxsi toxunulmazlıq hüququnun pozulması, cavabdeh tərəfindən öz mənzilinin üzərinə quraşdırılmış video-müşahidə kameralarının iddiaçının şəxsi həyatına müdaxilə təşkil etməsi qənaətinə gəlmişdir. "Şəxsi həyat" terminina qanunvericilikdə anlayış verilməsə də, Avropa İnsan Hüquqları Məhkəməsinin presedent qərarlarında "şəxsi həyat" terminin əhatə dairəsi belə izah edilir: "Şəxsi həyatın olduqca geniş çeşidli məsələləri əhatə etdiyi nəzərə alınaraq, bu anlayışın əhatə dairəsinə aid olan məsələləri müəyyən təsnifatın olması məqsədi ilə qruplaşdıraraq üç geniş kateqoriyaya bölmək olar (bəzən onlar üst-üstə düşə bilər): i) şəxsin fiziki, psixoloji və ya mənəvi toxunulmazlığı; ii) şəxsi həyatın gizli qalmalı olan aspektləri (privatlıq) və iii) şəxsin identikliyi.

20.İş materiallarından və preyudisial qüvvəyə malik məhkəmə qərarlarından (Bakı Apellyasiya Məhkəməsinin 16(103)-92/2025 nömrəli 14.02.2025-ci il tarixli qərardadı, Ali Məhkəmənin Mülki kollegiyasının 2(102)-3159/2025 nömrəli 06.11.2025-ci il tarixli qərarı) iddiaçıya məxsus mənzildən qeyri-yaşayış təyinatlı istifadə olunması, kommersiya hüquqi şəxsin ofisi olaraq fəaliyyət göstərməsi təsdiq edilir ki, belə olan halda həmin mənzildə şəxsi və ailə həyatının mövcudluğundan söhbət gedə bilməz.

21.Bununla belə, cavabdehlər tərəfindən onlara məxsus mənzilin giriş hissəsində müşahidə kameraları təhlükəsizlik məqsədi ilə quraşdırılmışdır. İddiaçı işin faktiki hallarını təhrif edərək kameraların onun mənzilini izləmək məqsədli quraşdırıldığını iddia edir, məhkəmə isə iddiaçının aspektindən yanaşaraq iş üzrə təqdim edilmiş sübutları nəzərə almadan kameralarının iddiaçının şəxsi həyatına müdaxilə təşkil etdiyi qənaətinə gəlmişdir. Buna baxmayaraq iddiaçı tərəfindən təqdim edilmiş sübutlarda kameranın əhatə dairəsinin birbaşa iddiaçının mənzilinə yönəlmədiyi açıq-aşkar görünür. Əgər iddiaçının qeyd etdiyi kimi mənzilin girişinə video-müşahidə kamerasının quraşdırılması qanunazidd olsaydı, iddiaçı da bu halda mənzilinə video-müşahidə kamerası quraşdırmamalı idi. Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyində mənzillərin girişinə təhlükəsizlik

kameralarının quraşdırılması ilə bağlı hər hansı məhdudiyyət yoxdur. Eyni zamanda cavabdehlər tərəfindən onlara məxsus mənzillə bağlı təhlükəsizlik tədbirlərinin təmin edilməsi məqsədi ilə kameraların quraşdırılması qonşuya öz sahəsindən istifadə etməyə maneçilik törətmir, qonşunun hüququ əhəmiyyətli dərəcədə pozulmur. Binanın dəhlizi ümumi paylı mülkiyyət hüququ ilə mülkiyyətçilərə məxsusdur. Cavabdehlərin mənzilin yerləşdiyi mərtəbəni izləməsi iddiaçının şəxsi və ailə həyatına, həmçinin mənzil toxunulmazlığına müdaxilə kimi qiymətləndirilə bilməz.

22.Bundan başqa, apellyasiya məhkəməsi qeyd edir ki, mənzilin qapısı açılıb bağlanarkən mənzilin içərisinin görünməsi işin mübahisəsiz halıdır. Lakin məhkəməyə təqdim edilmiş fotoşəkillərdən də göründüyü kimi 342 nömrəli mənzilin giriş soldan sağa istiqamətdə açılır. Belə ki, mənzillərin qarşılıqlı yerləşməsini, qapıların açılmağı bucağını və kameranın yerləşmə mövqeyini nəzərə aldıqda, məlum olur ki, texniki baxımdan 341 nömrəli mənzilin üzərində quraşdırılmış video-müşahidə kamerasının 342 nömrəli mənzilin içərisini izləməsi mümkün deyil. Belə ki, 341 nömrəli mənzilin üzərində quraşdırılmış kameranın baxış bucağı yalnız ümumi istifadə sahəsini - dəhlizi və öz mənzilinin giriş hissəsini əhatə edə bilər, bu baxımdan məhkəmənin mövqeyi heç bir sübuta əsaslanmır. Video-müşahidə kameralarından məhkəməyə təqdim edilmiş çıxarışlarda belə məlumatların toplanması kimi hallar da görünmür. Ümumiyyətlə, həmin görüntülərdə şəxsi həyatla bağlı hər hansı məlumat əks olunmur.

23.Apellyasiya məhkəməsi qətnaməsində “əhəmiyyətli məhdudlaşdırma”nın faktik olaraq hansı formada təzahür etdiyini də əsaslandırmamışdır. Cavabdehlər tərəfindən mənzillərində kameraların yerləşdirilməsində əsas məqsəd mənzillərinin qarşısında saxladıqları əşyaların təhlükəsizliyinin təmin edilməsi olmuşdur. Belə ki, öncədən mənzilin önündə cavabdehlərə məxsus velosiped və ayaqqabıların oğurlanması halı baş verdiyindən və həmin mərtəbədə gün ərzində onlarla insan gəlib getdiyindən cavabdehlər şəxsi əşyalarının mühafizəsi baxımında müşahidə kameraları quraşdırmaq məcburiyyətində qalıblar. Müşahidə kameralarının baxış bucağı mərtəbəyə daxil olan şəxslərin müəyyənləşdirilməsi üçün mərtəbənin giriş hissəsini və mənzilin önünü göstərəcək şəkildə tənzimlənmişdir. Qeyd edilənlərdən və fotoşəkillərdən məlum olur ki, quraşdırılmış kameralar iddiaçıların şəxsi və ailə həyatını izləmək məqsədi daşımır, cavabdehin öz mənzilinin üzərinə mənzilinin girişini izləmək üçün kamera quraşdırılması şəxsi və ailə həyatının toxunulmazlığının pozulması kimi qiymətləndirilə bilməz.

24.Digər bir pozuntu ondan ibarətdir ki, iddia tələbinin həcminin artırılması barədə ərizə 21.07.2025-ci il tarixində təqdim edilmiş, həmin müddət işin məhkəmədə baxılması yekunlaşmış, birinci instansiya məhkəməsinin 07.07.2025-ci il tarixli qərardadı ilə 29.08.2025-ci il tarixə məhkəmə baxışı təyin edilmişdir. İddiaçı iddia tələbinin artırılması üçün əsasların məhkəmə baxışında əmələ gəldiyini və ya işin hazırlıq mərhələsində ondan asılı olmayan səbəblərə görə mümkün olmadığını əsaslandırmamışdır. Bu səbəbdən iddiaçı tərəfindən həmin tarixdə iddia tələbinin həcminin artırılmasına yol verilə bilməz, bu baxımdan birinci instansiya məhkəməsinin mövqeyi düzgün olmuşdur. Həmçinin iddia tələbləri mahiyyət etibarilə eynidir, belə ki, iddiaçının konstitusion hüquqlarının cavabdeh tərəfindən pozulmasının cavabdehlərə qadağan edilməsi tələbi özlüyündə kameraların sökülməsini də ehtiva edir.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri 25.

Kassasiya şikayətinə qarşı etiraz daxil olmamışdır.

Tətbiq edilən hüquq

Azərbaycan Respublikasının Konstitusiyası

26. Maddə 32.

I. Hər kəsin şəxsi toxunulmazlıq hüququ vardır.

II. Hər kəsin şəxsi və ailə həyatının sirrini saxlamaq hüququ vardır. Qanunla nəzərdə tutulan hallardan başqa, şəxsi və ailə həyatına müdaxilə etmək qadağandır. Hər kəsin şəxsi və ailə həyatına qanunsuz müdaxilədən müdafiə hüququ vardır.

III. Öz razılığı olmadan kimsənin şəxsi həyatı haqqında məlumatın toplanılmasına, saxlanılmasına, istifadəsinə və yayılmasına yol verilmir. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, heç kəs onun xəbəri olmadan və ya etirazına baxmadan izlənilə bilməz, video və foto çəkilişinə, səs yazısına və digər bu cür hərəkətlərə məruz qoyula bilməz.

Azərbaycan Respublikasının Mülki Məcəlləsi

27. Maddə 21.1. Zərərin əvəzinin ödənilməsini tələb etmək hüququna malik olan şəxs ona vurulmuş zərərin əvəzinin tam ödənilməsini tələb edə bilər, bu şərtlə ki, qanunda və ya müqavilədə zərərin əvəzinin daha az miqdarda ödənilməsi nəzərdə tutulmasın.

28. Maddə 21.2. Zərər dedikdə, hüququ pozulmuş şəxsin pozulmuş hüququnu bərpa etmək üçün çəkdiyi və ya çəkməli olduğu xərclər, əmlakından məhrum olması və ya əmlakının zədələnməsi (real zərər), habelə hüququ pozulmasaydı, həmin şəxsin adi mülki dövriyyə şəraitində əldə edəcəyi gəlirlər (əldən çıxmış fayda) başa düşülür.

29. Maddə 1096.1 Mülki hüquq pozuntusu (delikt) hüquqla və ya qanunla müdafiə edilən başqa şəxsə (zərərçəkənə) birbaşa ziyan və ya zərər vurulmasına gətirib çıxaran təqsirli, hüquqa zidd (mülki qanunvericiliyin normalarını pozan) əməldir (hərəkət və ya hərəkətsizlikdir).

30. Maddə 1096.2. Delikt törətmiş şəxs mülki hüquq məsuliyyəti daşıyır.

31. Maddə 1097.1. Mülki hüquq pozuntusu (delikt) nəticəsində fiziki şəxsin şəxsiyyətinə və ya əmlakına vurulmuş zərərin, habelə hüquqi şəxsin əmlakına və işgüzar nüfuzuna vurulmuş zərərin əvəzi zərərvuran tərəfindən tam həcmdə ödənilməlidir. Qanunla zərərin əvəzini ödəmək vəzifəsi zərəri vurmayan şəxsin öhdəsinə qoyula bilər.

"Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanunu

32. Maddə 1. Bu Qanunun əsas məqsədi fərdi məlumatların toplanılmasının, işlənilməsinin və mühafizəsinin qanunvericilik əsaslarını və ümumi prinsiplərini, həmin sahədə dövlət tənzimləməsinin qayda və tələblərini, fərdi məlumatların informasiya ehtiyatlarında formalaşdırılması, informasiya sistemlərinin yaradılması, informasiyanın verilməsi və ötürülməsi qaydalarını, bu prosesdə iştirak edən şəxslərin hüquqlarını, vəzifələrini və məsuliyyətinin əsaslarını müəyyən etməkdən, əsas insan və vətəndaş hüquqlarını və azadlıqlarını, o cümlədən şəxsi və ailə həyatının sirrini saxlamaq hüququnu müdafiə etməkdən ibarətdir.

33. Maddə 2.1. Bu Qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir: 2.1.1. fərdi məlumatlar-şəxsin kimliyini birbaşa və ya dolayısı ilə müəyyənləşdirməyə imkan verən istənilən məlumat;

2.1.12. fərdi məlumatların yayılması-fərdi məlumatların media, habelə informasiya sistemləri ilə açıqlanması və ya fərdi məlumatlarla şəxslərin hər hansı digər üsulla tanış olmasına imkan yaradılması.

34. Maddə 7.1. Subyekt aşağıdakı hüquqlara malikdir:

7.1.6. özü barəsində fərdi məlumatların toplanılmasına və işlənilməsinə qadağan qoyulmasını tələb etmək.

35.Maddə 7.2. Fərdi məlumatların toplanılmasının və işlənilməsinin qanunvericiliklə müəyyən olunmuş qaydada məcburi xarakter daşıdığı hallar istisna olmaqla, subyekt onun barəsində olan məlumatların toplanılmasına və işlənilməsinə etiraz etmək hüququna malikdir. Subyektin etirazı mülkiyyətçiyə və ya operatora yazılı surətdə təqdim olunmalıdır. Subyektin etirazının əsaslandırılması tələb olunmur. Mülkiyyətçi və ya operator həmin etirazı aldıqda göstərilən fərdi məlumatların toplanılmasını və işlənilməsini dərhal dayandırmalıdır.

36.Maddə 7.4. Subyekt onun barəsində fərdi məlumatların qanunsuz toplanılması və işlənilməsi, mühafizəsinin təmin edilməməsi, habelə bu Qanunun tələblərinə əməl olunmaması nəticəsində onun hüquqlarının pozulduğu hallarda müvafiq icra hakimiyyəti orqanına və ya məhkəməyə şikayət etmək, habelə ona vurulmuş mənəvi və maddi ziyanın ödənilməsini məhkəmə qaydasında tələb etmək hüququna malikdir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 21 və 23-cü maddələrinin şərh edilməsinə dair” 2002-ci il 31 may tarixli qərarı

37.Azərbaycan Respublikası Mülki Məcəlləsinin 21-ci maddəsinin müddəaları yalnız real zərərin, habelə əldən çıxmış faydanın ödənilməsini nəzərdə tutur. 68-ci maddəsinin III hissəsinə əsasən, hər kəsin dövlət orqanlarının, yaxud onların vəzifəli şəxslərinin qanuna zidd hərəkətləri və ya hərəkətsizliyi nəticəsində vurulmuş zərərin dövlət tərəfindən ödənilməsi hüququ vardır. Mənəvi zərər adətən vətəndaşların şəxsi qeyri əmlak hüquqlarının pozulması nəticəsində əmələ gəlir. Mənəvi zərər qeyri-əmlak zərəri olmaqla, iqtisadi məzmun və dəyər kəsb etməyən hüquq pozuntusudur. Belə zərər vətəndaşa anadangəlmə və ya qanun əsasında ona məxsus olan qeyri-maddi nemətlərə aid hüquqlarını pozmaqla fiziki şəxsə mənəvi sarsıntı, iztirab verir. Mənəvi zərər ödənilərkən mənəvi və fiziki iztirabların xarakteri və dərəcəsi, eləcə də cavabdehin təqsiri, əmlak vəziyyəti və s. vacib halların nəzərə alınması zəruridir və hər bir konkret halda belə zərərin ödənilməsi ilə bağlı xüsusatlar məhkəmənin mülahizəsinə görə müəyyən olunmalıdır. Mənəvi zərər bilavasitə zərər vuran şəxsin hərəkətlərindən sonra zərərçəkmişin şüuruna təsir göstərməklə mənfi psixoloji reaksiyaya səbəb olur. Mənəvi zərər vətəndaşların hüquqlarının pozulmasının müstəqil nəticəsidir. O həm vurulmuş əmlak zərəri ilə birlikdə yaxud əmlak zərəri vurulmadığı hallarda kompensasiya edilir.

Azərbaycan Respublikasi Ali Məhkəməsi Plenumunun “Şəxsiyyət hüquqlarının müdafiəsi haqqında” 2025-ci il 24 dekabr tarixli qərarı

38.Bənd 2.4.1. Şəxsi toxunulmazlıq hüququ təməl şəxsiyyət hüquqlardan biri kimi Konstitusiyanın 32-ci və “İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında” Avropa Konvensiyasının 8-ci maddələrində geniş şəkildə açıqlanmaqla, hər bir şəxsin şəxsi və ailə həyatının toxunulmazlığını qoruma altına alır.

39.Bənd 2.4.2. Konstitusion mənada şəxsi toxunulmazlıq şəxsi və ailə həyatının məxfiliyinin qorunmasını (ad, səs, təsvir, şəxsi, ailə və yazışma sirrinin qorunması, unudulmaq hüququ və s.) nəzərdə tutmaqla, hər bir şəxsin şəxsi və ailə həyatına hörmət edilməsinə, onun cəmiyyətdə özünü rahat və təhlükəsiz hiss etməsinə xidmət edir.

40.Bənd 2.4.3. Şəxsi və ailə həyatına hörmət hüququ - şəxsi və ailə həyatının sirrini saxlamaq, şəxsi və ailə həyatına hüquqazidd müdaxilədən, yəni öz razılığı olmadan şəxsi həyatı haqqında məlumatın toplanılmasından, saxlanılmasından, istifadəsindən və yayılmasından, habelə qanunla müəyyən edilmiş hallar istisna olmaqla, xəbəri olmadan və ya etirazına baxmadan izlənilməkdən, video və ya foto çəkilişinə, səs yazısına və digər bu

cür hərəkətlərə məruz qalmaqdan müdafiə olunmaq, o cümlədən yazışma, telefon danışıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatın sirrini qorumaq hüquqlarını əhatə edir.

41. Bənd 2.4.4. Şəxsi və ailə həyatına hüquqazidd müdaxilədən müdafiə olunmaq hüququ yuxarıda qeyd edilənlərlə yanaşı, şəxsin avtomobilinə, xidməti otağına və ləvazimatlarına, ona məxsus ev heyvanlarına və bitkilərinə, habelə şəxsi xüsusiyyətə malik digər əşyalarına da şamil edilir. Məsələn, işçiyə ayrılmış xidməti otağa, rəflərinə, iş masasına, kompüterinə, şəxsin çantasına, cibinə onun razılığı, habelə müvafiq qanuni əsas olmadan daxil olma şəxsi toxunulmazlıq hüququna hüquqazidd müdaxilə hesab olunur.

42. Bənd 2.4.5. Şəxsi həyata dair məlumatlara hər bir şəxsin fərdi məlumatları, o cümlədən tibbi məlumatları, maliyyə və əmlak vəziyyəti ilə bağlı məlumatlar, şəxsi yazışmaları, keçmişi ilə bağlı və digər şəxsi sirr təşkil edən məlumatları aiddir.

43. Bənd 2.4.6. Fərdi məlumat dedikdə, şəxsin kimliyini birbaşa və ya dolayısı ilə müəyyənləşdirməyə imkan verən istənilən məlumat başa düşülür. Bu məlumatlara ad, səs, təsvir, ünvan, ailə vəziyyəti, boy, yaş, cins və bu kimi digər əlamətləri əks etdirən eyniləşdirmə məlumatları aiddir. Fərdi məlumatların dairəsi, habelə onların emalı, toplanılması, ötürülməsi, istifadəsi və mühafizəsi şərtləri "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.

44. Bənd 2.4.24. İnsanın ad, səs və təsvir kimi şəxsiyyəti ilə bağlı olan dəyərlərinin onun iradəsi xaricində istifadə olunmasının yolverilməzliyi prinsipi insan şəxsiyyətinin toxunulmazlığını və ona olan hörməti təmin etmək məqsədi daşıyır.

45. Bənd 2.4.27. Fiziki şəxsin təsviri şəxsin kimliyini birbaşa müəyyənləşdirməyə imkan verən istənilən görüntüsü, habelə görüntüsünün əks olunduğu istənilən daşıyıcını əhatə edir (məsələn, fotoşəkil, videoyazı, incəsənət əsəri, video oyun fiquru, karikatura, kukla və s.). Təsvirin yayılması onun hər hansı informasiya ehtiyatında, o cümlədən media və internet şəbəkəsində açıqlanması (yerləşdirilməsi) və ya hər hansı digər üsulla müvafiq təsvirlə şəxslərin tanış olmasına imkanın yaradılması, habelə hər hansı şəxs tərəfindən yayılmış təsvirin üzərində məqsədindən və formasından asılı olmayaraq, aparılan bütün növ əməliyyatları ehtiva edir.

46. Bənd 2.4.28. Müasir dövrdə texnologiyanın sürətli inkişafı fonunda insan təsvirinin və səsinin ələ keçirilməsi, ötürülməsi və ya istifadəsi olduqca asanlaşdığından, bununla bağlı şəxslərin hüquqlarının mühafizəsi xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan qanunla müəyyən edilmiş hallar istisna olmaqla, heç kəs onun xəbəri olmadan və ya etirazına baxmadan izlənilə bilməz, video və ya foto çəkilişinə, səs yazısına və digər bu cür hərəkətlərə məruz qoyula bilməz, habelə təsvir və səsindən istifadə oluna bilməz. Məsələn, şəxsin, o cümlədən tanınmış və ya publik şəxsin küçədə və ya restoranda razılığı alınmadan və ya digər qanuni əsaslar olmadan şəxsi danışıqlarının yazılması, evinə, xidməti və ya mehmanxana otağına, restoranların fərdi otaqlarına, avtomobilinə xəbəri olmadan quraşdırılmış cihaz vasitəsi ilə səs və görüntüsünün yazılması, yaxud görüntülərinin icazəsiz əldə edilməsi və (və ya) yayılması qanunla nəzərdə tutulmuş hallar istisna olunmaqla qadağandır.

47. Bənd 2.4.29. Şəxsin təsvirinin qorunması "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasının 8-ci maddəsi ilə də qorunma altına alınmışdır. Belə ki, bu hüquq əsasən şəxsin təsvirindən istifadəyə nəzarət hüququnu, o cümlədən təsvirin yayılmasını qadağan etmək imkanını nəzərdə tutur. Şəxsin təsvirindən istifadəyə nəzarət hüququnun müdafiəsi dövlətin Konvensiya ilə müəyyən edilmiş pozitiv öhdəliyini təşkil edir.

48.Bənd 2.4.30. İctimaiyyət üçün açıq yerlərdə (küçələrdə, restoranların, şadlıq saraylarının, klinikaların, otellərin, konfrans zallarının və digər iaşə obyektlərinin giriş, foye, dəhliz, ümumi zal və digər açıq zonaları, ictimai nəqliyyat vasitələri və s.) təhlükəsizliyin təmin olunması məqsədi ilə xüsusi texniki vasitələrlə audio-video çəkilişlərinin aparılması müəyyən şərtlər daxilində yolverilən dir. Belə ki, bu məqsədlə kameraların quraşdırıldığı açıq məkanlardan (küçə və s.) fərqli olaraq, qapalı məkanlarda çəkilişin aparılmasına dair xəbərdaredici məlumatların yerləşdirilməsi tələb olunur. Bu halda hər kəsin görə biləcəyi yerdə və anlaşılan məzmunda çəkilişin aparılmasına dair məlumatın vurulması həmin yerlərə daxil olan şəxslərin çəkilişə razılığının əldə edilməsini ehtiva etmiş olur. Bu görüntülərin və səs yazılarının həmin şəxslərin razılığı olmadan yayılmasına isə yalnız dövlət və ictimai maraqların təmin olunması məqsədilə yol verilir.

49.Bənd 2.4.31. Açıq və qapalı məkanlarda keçirilən kütləvi tədbirlərdə (yığıncaqlar, qurultaylar, konfranslar, konsertlər, tamaşalar, idman yarışları, toy və yas mərasimləri və s.) digər qanunla qadağan olunmayan məqsədlərlə çəkilişlərin aparılmasına, habelə yayılmasına şəxslərin razılığı tələb olunmur. Lakin kütləvi tədbirlərdə konkret şəxsin onun üçün açıq-aydın arzuolunmaz vəziyyətdə çəkilmiş təsvirinin əsas obyekt kimi yayılması, habelə şərəf və ləyaqətini alçaldan tərzdə, yəni istehzalı, zarafat və ya lağ konteksində sosial şəbəkələr və ya digər vasitələrlə tirajlanması şəxsiyyət hüquqlarına hüquqazidd müdaxilə hesab ediləcəkdir.

50.Bənd 2.4.32. Şəxsin küçədə və ya restoranda razılığı alınmadan və ya digər qanuni əsaslar olmadan yaxın təsvirinin müxtəlif vasitələrlə (mobil telefonla və s.) çəkilməsi qadağandır. Bundan fərqli olaraq, tanınmış şəxslər (müğənni, musiqiçi, şair, yazıçı, aktyor, idmançı və s.) və publik şəxslərə münasibətdə onların yaxın təsvirinin çəkilməsinə ictimaiyyət üçün açıq olmayan yerlər (evində, xidməti və ya mehmanxana otağında, restoranların fərdi otaqlarında və s.) istisna olmaqla, razılığın alınması tələb olunmur.

51.4.24. Şəxsiyyət hüquqlarına müdaxilənin hüquqazidliyi yoxlanılarkən onun hüquqaziddliyini aradan qaldıran halların mövcudluğu da aydınlaşdırılmalıdır. Belə hallara zərərçəkən şəxsin razılığının olması, üstün xüsusi və ya ictimai mənafeyə və ya qanuna əsaslanması aiddir. Belə ki, bir sıra hallarda şəxsiyyət hüquqlarına müdaxilə şəxsin özünün razılığı ilə baş verir (məsələn, üzərində tibbi müayinə keçirilməklə onun bədən toxunulmazlığına müdaxilənin edilməsi). Bununla yanaşı, nəzərə alınmalıdır ki, şəxsiyyət hüquqlarına müdaxilə edəcək bəzi növ davranışlara razılığın verilməsi hüquqi cəhətdən mümkün deyildir (məsələn, şəxsin həyatına son qoyulması). Bu baxımdan razılığın keçərli olması üçün şəxsin iradəsi açıq şəkildə ifadə edilməli, zədələnməmiş olmalı, qanuna və ya əxlaqa zidd olmamalıdır. Üstün xüsusi mənafeyə əsaslanma onu ehtiva edir ki, müdaxilə onun yönəldiyi şəxsiyyət hüququ ilə müqayisədə daha üstün və əhəmiyyətli xüsusi hüququn qorunması zərurəti ilə törədilmişdir. Müdaxilənin əsaslandığı xüsusi mənafe həm hüquqlarına müdaxilə edilən şəxsə, həm müdaxilə edən şəxsə, həm də üçüncü şəxsə aid ola bilər (məsələn, şəxsin razılığı olmadan onun bədən toxunulmazlığı hüququna müdaxilə həmin şəxsin və ya üçüncü şəxsin həyatının xilas edilməsi zərurəti ilə edildikdə). Üstün ictimai mənafeyə əsaslanma halında isə müdaxilə konkret şəxslərin mənafeyinin qorunması üçün deyil, dövlətin və ya cəmiyyətin üstün maraqlarının qorunması zərurəti ilə edilir (məsələn, yoluxucu xəstəliyin insanlar arasında yayılmasının qarşısının alınması məqsədi ilə yoluxmuş şəxsə münasibətdə karantin tədbirini tətbiq etməklə onun sərbəst hərəkət etmək azadlığının məhdudlaşdırılması). Qanuna əsaslanma isə onun nəzərdə tutur ki, müəyyən hallarda şəxsiyyət hüquqlarının müdaxiləsinə qanunla yol verilir (məsələn, Mülki

Məcəllənin 563- 565-ci maddələrində təsbit edilən zəruri müdafiə, son zərurət və özünəyardım).

52. Bənd 5.1. Mənəvi zərər – fiziki şəxsin şəxsiyyət hüquqlarının pozulması nəticəsində keçirdiyi sarsıntı və (və ya) iztirabdır.

53. Bənd 5.2 Mənəvi sarsıntı – şəxsiyyət hüquqlarına müdaxilə nəticəsində fiziki şəxsin daxili sabitliyini pozan iztirab həddinə çatmayan neqativ emosional vəziyyətidir (stress, qorxu, qəzəb, kədər, alçalma, utanma, məyus olma, qıcıqlanma, uzun müddət davam edən qeyrimüəyyənlik və s.).

54. Bənd 5.3. Mənəvi iztirab – şəxsiyyət hüquqlarına müdaxilə nəticəsində fiziki şəxsin daxili sabitliyini pozan, davamlı fiziki (xəstəlik, orqanların zədələnməsi və ya onlardan məhrum olma, fiziki narahatlıq, ağrı və s.) və (və ya) psixi əzab (depressiya, psixi xəstəlik və s.) çəkməsinə səbəb olan güclü neqativ emosional vəziyyətidir.

55. Bənd 5.4. Mənəvi zərərə görə kompensasiya - hüquqazidd əmələ (hərəkət və hərəkətsizlik) məruz qalmış şəxsin keçirdiyi mənəvi sarsıntı və (və ya) iztirabın unudulması, yaşama sevinci və arzusunun təkrar qazanılması, pozulan mənəvi tarazlığın bərpa edilməsi üçün bərabərləşdirmə vasitəsidir.

56. Bənd 5.5. Fiziki şəxsin şəxsiyyət hüquqlarının pozulması ona maddi və (və ya) mənəvi zərərin vurulmasına səbəb ola bilər. Şəxsin əmlak hüquqlarının pozulması isə o halda mənəvi zərərə səbəb ola bilər ki, bu pozuntu həmin şəxsin şəxsiyyət hüquqlarına hüquqazidd müdaxilə ilə nəticələnmiş olsun.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi

57. Maddə 14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

58. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

59. Maddə 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

60. Maddə 217.1. Məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır.

61. Maddə 217.3. Qətnamə iş üzrə müəyyən edilmiş hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır.

62. Maddə 217.4. Məhkəmə (hakim) öz qətnaməsini yalnız məhkəmə iclasında tədqiq olunmuş sübutlarla əsaslandırır.

63. Maddə 407.2. Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir.

64. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

65. Maddə 416.2. Apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 418.4-cü maddəsində nəzərdə tutulmuş prosessual hüquq pozuntusu hesab edilən hallara yol verilməsi şikayətin hədlərindən və dəlillərindən asılı olmayaraq yoxlanılmalıdır.

66. Maddə 418.1. Maddi və prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması, o cümlədən maddi və prosessual hüququn tətbiqi üzrə məhkəmə

təcrübəsinin vahidliyinin pozulması apellyasiya instansiyası məhkəməsinin qətnamə və qərardadının ləğv edilməsi üçün əsasdır.

67.Maddə 418.3. Prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması qətnamənin yaxud qərardadın ləğv edilməsi üçün o vaxt əsas ola bilər ki, bu pozuntu düzgün qətnamə qəbul edilməməsi ilə nəticələnsin və ya nəticələnə bilsin.

Kassasiya baxışının hədləri

68.Qanunun tələbinə görə, kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

69.Hazırkı kassasiya şikayətinə əsasən apellyasiya instansiyası məhkəməsinin qətnaməsi iddianın təmin edilən hissəsində yoxlanılır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

70.Məhkəmə kollegiyası ilk növbədə qeyd edir ki, hazırkı mübahisənin predmeti cavabdehin öz mənzilinin təhlükəsizliyini təmin etmək məqsədilə müşahidə kamerası quraşdırmaq hüququnun həyata keçirilməsi zamanı digər şəxslərin konstitusion hüquqlarına müdaxilənin yolverilən hədlərinin müəyyən edilməsi ilə bağlıdır.

71.Konstitusiyanın 32-ci maddəsinə əsasən, hər kəsin şəxsi toxunulmazlıq hüququ vardır, şəxsi və ailə həyatına qanunsuz müdaxilə qadağandır, habelə qanunla müəyyən edilmiş hallar istisna olmaqla, heç kəs onun xəbəri olmadan və ya etirazına baxmadan izlənilə, video və foto çəkilişinə məruz qoyula bilməz. Bu konstitusion təminat şəxsin yalnız mənzilinin daxilinə deyil, onun şəxsi həyatının tərkib hissəsi olan yaşayış məkanına giriş-çıxışına və həmin məkanla bağlı məlumatların toplanılmasına da şamil olunur.

72.Ali Məhkəmənin Plenumunun “Şəxsiyyət hüquqlarının müdafiəsi haqqında” 2025-ci il 24 dekabr tarixli qərarında izah edilmişdir ki, şəxsi toxunulmazlıq hüququ təməl şəxsiyyət hüquqlarından biri olmaqla Konstitusiyanın 32-ci və Avropa Konvensiyasının 8ci maddələri ilə qorunur və hər bir şəxsin şəxsi və ailə həyatına hörmət edilməsinə, o cümlədən təsvirinin qorunmasına, onun özünü cəmiyyətdə rahat və təhlükəsiz hiss etməsinə xidmət edir.

73.Həmin Qərarın şəxsi toxunulmazlıq və təsvirin müdafiəsi hüququ ilə bağlı bəndlərinin məzmunundan göründüyü kimi, şəxsi həyat anlayışı yalnız şəxsin mənzilinin daxilində baş verən hadisələrlə məhdudlaşmır. Şəxsin yaşayış yerinə giriş və çıxışı, onunla əlaqə saxlayan şəxslər və barəsində müəyyən təsəvvür formalaşdırmağa imkan verən digər məlumatlar da şəxsi həyatın müdafiə olunan elementləri hesab olunur. Buna görə də konkret şəxs barədə belə məlumatların davamlı şəkildə toplanmasına, təsvirinin sistemli şəkildə qeydə alınmasına imkan verən müşahidə şəxsi həyata, o cümlədən təsvirin müdafiəsi hüququna müdaxilə kimi qiymətləndirilə bilər (bax §38-50).

74.Çoxmənzilli yaşayış binasının ümumi istifadədə olan dəhlizində və ya mənzillərin giriş hissəsində bütün qonşuların razılığı ilə müşahidə kamerası quraşdırıla bilər. Lakin belə razılıq olmadıqda təhlükəsizlik məqsədilə quraşdırılan kamera yalnız onu quraşdıran şəxsin mənzilinin giriş hissəsinin müşahidəsi üçün zəruri olan görüntü bucağı ilə məhdudlaşmalıdır. Kameranın görüntü dairəsi ümumi istifadədə olan sahəni və (və ya) digər qonşuların

mənzillərinin girişini və həmin mənzillərə giriş-çıxışı da əhatə edərsə, bu artıq həmin şəxslərin Konstitusiya ilə qorunan şəxsiyyət hüquqlarına müdaxilə hesab olunur.

75.İş üzrə müəyyən edilmiş hallardan görünür ki, cavabdeh tərəfindən quraşdırılmış kameraların görüntü bucağı yalnız cavabdehin mənzilinin girişini deyil, həm ümumi istifadədə olan dəhlizi, həm də iddiaçının mənzilinin giriş qapısını və həmin mənzilə girişçıxışı əhatə edir. Belə müşahidə nəticəsində iddiaçının mənzilə nə vaxt daxil olması və ya çıxması, mənzilə kimlərin gəlib-getməsi, gündəlik həyat ritmi və onun şəxsi həyatına dair digər məlumatların, habelə təsvirinin müntəzəm şəkildə qeydə alınması imkanı yaranmışdır ki, bu da həmin şəxsin Konstitusiyanın 32-ci maddəsi ilə qorunan şəxsi həyat sferasına yönəlmiş müdaxilə xarakteri daşıyır.

76.Bu baxımdan, çoxmənzilli yaşayış binasının ümumi istifadədə olan dəhlizində və ya mənzilin giriş hissəsində digər qonşuların mənzillərini də əhatə edən müşahidə kamerasının quraşdırılması yalnız həmin şəxslərin razılığı olduqda yolverilən hesab edilə bilər. Belə razılıq olmadıqda isə təhlükəsizlik məqsədi ilə quraşdırılan kamera yalnız onu quraşdıran şəxsin mənzilinin giriş hissəsinin müşahidəsi üçün zəruri olan görüntü bucağı ilə məhdudlaşdırılmalıdır.

77.Kassasiya şikayətində iddiaçının mənzilindən yaşayış məqsədi ilə deyil, digər məqsədlərlə istifadə edildiyinə istinad edilərək şəxsi həyata müdaxilənin mövcud olmadığı göstərilmişdir. Kollegiya həmin dəlili əsaslı hesab etmir. Belə ki, mülkiyyətçinin mənzildən hansı məqsədlə istifadə etməsi onun Konstitusiyanın 32-ci maddəsi ilə təmin edilmiş hüquqlarını aradan qaldırmır. Şəxsi həyat hüququ yalnız ailə və məişət münasibətlərini deyil, şəxsin özünün müəyyən etdiyi şəxsi məkan və həmin məkana aid məlumatlar üzərində nəzarət imkanını da ehtiva edir.

78.Kollegiya həmçinin nəzərə alır ki, cavabdehin öz mülkiyyətinin və əmlakının təhlükəsizliyini təmin etmək hüququ qanunla qorunan hüquqdur. Lakin hər bir subyektiv hüququn həyata keçirilməsi digər şəxslərin hüquq və azadlıqlarına hörmət prinsipi çərçivəsində baş verməlidir. Buna görə də təhlükəsizlik məqsədilə müşahidə kamerasının quraşdırılması mümkün olsa da, onun görüntü bucağı zərurət həddini aşaraq digər şəxslərin razılığı olmadan onların mənzillərinin girişini, giriş-çıxışını və təsvirini davamlı şəkildə qeydə almağa imkan verirsə, belə istifadə artıq digər şəxslərin şəxsiyyət hüquqlarına müdaxilə hesab olunur.

79.Apellyasiya instansiyası məhkəməsi məhz bu tarazlığı nəzərə alaraq cavabdehin təhlükəsizlik məqsədilə müşahidə kamerasından istifadə etmək hüququnu tam məhdudlaşdırmamış, yalnız qapısının üstündə quraşdırılmış kameranın görüntü bucağının öz mənzilinin giriş hissəsi ilə məhdudlaşdırılmasını və ümumi istifadədə olan dəhlizdə quraşdırılmış digər kameranın isə sökülməsini qət etmişdir. Belə müdaxilə tərəflərin hüquqları arasında ədalətli balansın təmin edilməsinə yönəlmiş, zəruri və proporsional tədbir hesab olunur.

80.Şəxsi həyata qanunsuz müdaxilənin müəyyən edilməsi ilə əlaqədar olaraq iddiaçının mənəvi zərərə məruz qalması barədə apellyasiya instansiyası məhkəməsinin gəldiyi nəticə də əsaslıdır. Şəxsin öz yaşayış yerinə giriş-çıxışının uzun müddət digər şəxs tərəfindən müşahidə olunması və təsvirinin müntəzəm qeydə alınması onda daimi izlənildiyi hissini yaratmaqla psixoloji narahatlıq və mənəvi sarsıntılara səbəb olur. Belə hallarda mənəvi zərərin mövcudluğu müdaxilənin xarakterindən irəli gəlir və ayrıca sübut olunması tələb olunmur. Belə ki, Plenum qərarının 9.1.2. və 9.1.3-cü bəndlərində qeyd olunmuşdur ki, mənəvi zərərin kompensasiyası tələbləri üzrə şəxsiyyət hüquqlarına hüquqazidd müdaxilə əksi sübuta yetirilməyincə mənəvi zərərin mövcudluğu prezumpsiyasını yaradır. Yəni

mənəvi zərərin kompensasiyası tələbləri üzrə şəxsiyyət hüquqlarına birbaşa hüquqazidd müdaxilə halında bu əməlin mövcudluğunun sübuta yetirilməsi həmin şəxsi mənəvi zərərə məruz qalması üzrə sübutetmə yükündən azad edir. Əksini iddia edən bunu sübut etməlidir, lakin cavabdeh tərəfindən belə sübutlar təqdim edilməmişdir.

81.Apellyasiya instansiyası məhkəməsi tərəfindən müəyyən edilmiş mənəvi təzminatın məbləği də işin konkret halları, müdaxilənin xarakteri və davametmə müddəti nəzərə alınmaqla ədalətli hesab olunur.

82.Beləliklə, məhkəmə kollegiyası hesab edir ki, apellyasiya instansiyası məhkəməsi maddi və prosessual hüquq normalarını düzgün tətbiq etmiş, iş üzrə müəyyən edilmiş faktiki hallar əsasında düzgün hüquqi nəticəyə gəlmişdir. Kassasiya şikayətinin dəlilləri qətnamənin yoxlanılan hissədə ləğv olunması və ya dəyişdirilməsi üçün əsas vermədiyindən qətnamə həmin hissədə dəyişdirilmədən saxlanılmalıdır.

83.Göstərilənlərə əsasən və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 416, 417 və 419-cu maddələrini rəhbər tutub məhkəmə kollegiyası

q ə r a r a aldı:

Cavabdeh 2 tərəfindən verilmiş kassasiya şikayəti təmin edilməsin.

Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 26.01.2026-cı il tarixli, 2(103)-6264/2025 nömrəli qətnaməsi iddianın təmin edilən hissəsində dəyişdirilmədən saxlanılsın.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

Fiziki şəxsin həyatına və ya sağlamlığına vurulmuş zərərin ödənilməsi

43. 2(102)-510/2025 nömrəli, 2025-ci il 11 mart tarixli qərar - Ailə başçısının itirilməsi ilə əlaqədar zərərin əvəzinin ödənilməsi tələbləri üzrə iddianın əsaslılığının yoxlanılma qaydası

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu:

İddiaçının əri 31.08.2012-ci il tarixdə baş vermiş yol-nəqliyyat hadisəsi nəticəsində ölmüş, cavabdeh hüquqi şəxsin əməkdaşı hadisədə təqsirli bilinərək məhkum edilmişdir. Mərhumun himayəsində iddiaçı ilə nikahından doğulmuş yetkinlik yaşına çatmamış övladları olmuşdur. 10.04.2017-ci il tarixdə iddiaçıya 10.04.2022-ci il tarixədək ikinci dərəcə ilkin əlillik təyinatı aparılmışdır.

İddiaçı cavabdehdən ailə başçısının itirilməsi nəticəsində vurulmuş zərərə görə pulun tutulmasını xahiş etmişdir. Məhkəmələr iddianın əsaslılığını Mülki Məcəllənin (bundan sonra – MM) 1121.1.1 və 1121.1.4-cü maddələrinin dispozisiya şərtləri əsasında yoxlamış və həmin şərtlərin mövcudluğu təsdiq edilmədiyi üçün iddia rədd edilmişdir.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

MM-in 1121-ci maddəsində ailə başçısının itirilməsiilə əlaqədar zərərin əvəzini almaq hüququ olan şəxslərin dairəsi, o cümlədən bu hüququn yaranma və xitam olunma əsasları nəzərdə tutulmuşdur. Bu əsasla iddia irəli sürüldükdə ilk növbədə məhkəmə tərəfindən ölmüş şəxsin ailə başçısı, yəni ailənin dolanacaq xərclərini təmin etmiş yeganə şəxs olub-olmadığı müəyyən edilməli, bu müəyyən edildikdən sonra tələbin təmin edilməsi üçün digər əsasların mövcud olub-olmadığı yoxlanılmalıdır.

Arvadın ölmüş ərin himayəsində olan şəxs hesab edilməsi ilə bağlı hüquqi qiymətləndirmə Ailə Məcəlləsinin 84-cü maddəsindəki əsaslarnəzərə alınmaqla həyata keçirilməlidir. Həmin normada ərin (arvadın) bir-birinə maddi cəhətdən kömək etməli olduqları müəyyən edilsə də, yalnız 84.2-ci maddədə qeyd edilmiş əsaslar olduqda (əmək qabiliyyəti olmayan və maddi yardıma ehtiyacı olan ər və ya arvad; hamiləliyi dövründə və ümumi uşaqlarının doğulduğu gündən üç il ərzində arvad; 18 yaşınadək əlilliyi müəyyən edilmiş və ya orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş 18 yaşından yuxarı ümumi uşağa qulluq edən və ehtiyacı olan ər və ya arvad) birinin digərindən aliment tələb etmək hüququ nəzərdə tutulmuşdur.

Nəzərə alınmalıdır ki, sadəcə nikahda olma faktı və əmək qabiliyyətli arvadın (ərin)Ailə Məcəlləsinin 84-cü maddəsindəki əsaslar və digər üzrlü səbəblər olmadığı halda işləməyərək ərinin (arvadının) gəliri hesabına yaşaması MM-in 1121-ci maddəsinin tələbləri baxımından həmin şəxsin ölən ailə başçısının himayəsində olmuş şəxs kimi qiymətləndirilməsi üçün əsas ola bilməz.

Mübahisələndirilən məhkəmə qətnaməsindən görünür ki, məhkəmə iddianın əsaslı olub-olmadığını MM-in 1121.1.3-cü maddənin tələbləri baxımından yoxlamamış, həmin normadakı əsasların mövcud olub-olmadığı araşdırılmamışdır. Həmin normaya əsasən ölənin himayəsində olmuş və onun on dörd yaşına çatmamış, yaxud bu yaşa çatsa da, tibb orqanlarının rəyinə əsasən sağlamlıq vəziyyətinə görə başqasının qulluğuna möhtac olan uşaqlarına qulluq etməklə məşğul olan və işləməyən arvad (ər) əmək qabiliyyətindən asılı olmayaraq bu normaya əsasən ailə başçısının ölümünə görə zərər tələb edə bilər. 1121.3.5-ci maddəyə əsasən bu halda zərər ölənin himayəsində olmuş uşaqları on dörd yaşına çatanadək

hesablanmalı və tutulmalıdır. 1121.2-ci maddə isə bu normaya əsasən zərərin əvəzinin ödənilməsini həmin şəxslərə qulluq qurtardıqdan sonra da tələb etmək hüququ verir.

Ailə başçısının itirilməsi ilə əlaqədar zərərin əvəzinin ödənilməsi barədə iddia irəli sürülərkən iddia ərizəsində 1121-ci maddənin konkret bəndinə istinad edilib-edilməməsindən asılı olmayaraqməhkəmə tərəfindən "iura novit curia" – "məhkəmə hüququ bilir" prinsipinə əsasən həmin maddənin dispozisiyasında nəzərdə tutulmuş əsaslardan hər hansı birinin mövcud olub-olmadığı tərəflərlə müzakirə edilməlidir.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

11.03.2025-ci il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının

iddiaçının cavabdehlər “Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi” Publik Hüquqi Şəxsinə və “XXX” Qapalı Səhmdar Cəmiyyətinə qarşı mülki iş üzrə

Q Ə R A R I

Açar sözlər: Mülki hüquq pozuntularından (deliktdən) irəli gələn mübahisələr

Ailə başçısının itirilməsi ilə əlaqədar zərərin əvəzinin ödənilməsi

.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyası, hakimlər Baxışova Vüsalə Ələkbər qızı (məruzəçi), Babayev Zəki Baba oğlu və Əliyev Zaur Əli oğlundan ibarət tərkibdə,

Iddiaçının cavabdehlər "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi" Publik Hüquqi Şəxsi və "XXX" Qapalı Səhmdar Cəmıyyətınə qarşı "ailə başçısının itirilməsi ilə əlaqədar zərərin əvəzinin ödənilməsi" tələbinə dair mülki iş üzrə Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 2(103)5513/2024 nömrəli iş üzrə 14.10.2024-cü il tarixli qətnaməsindən iddiaçı Iddiaçı tərəfindən verilmiş kassasiya şikayətinə Ali Məhkəmənin inzibati binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları:

1. İddiaçının mərhum əri X1 Azərbaycan Dövlət Neft Şirkətinin nəzdində olan "X" trestinin 3 saylı tikinti quraşdırma idarəsində quraşdırıcı işləmişdir. xx.xx.2012-ci il tarixdə X qəsəbəsindən Bakı şəhəri istiqamətində *** saylı marşrutla hərəkət edən sərnişin avtobusu açıq şlaqbaumdan keçərək, sərnişin qatarı ilə toqquşmuş, hadisədə avtobusda olan sərnişinlərdən iddiaçının əri X1 vəfat etmişdir. Həmin hadisə ilə əlaqədar təqsirli bilinmiş X2 Bakı Ağır Cinayətlər Məhkəməsinin xx.xx.2013-cü il tarixli hökmü ilə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 262.3-cü maddəsi ilə təqsirli bilinərək, 8 il müddətinə azadlıqdan məhrum edilmiş, Bakı Apellyasiya Məhkəməsinin xx.xx.2014-cü il tarixli qərarı ilə cəzası 9 il müddətinə qaldırılmışdır.

2. İddiaçı ailə başçısının itirməsi səbəbi ilə ona dəymiş mənəvi zərərin əvəzinin tutulması barədə "XXX" QSC-yə qarşı iddia qaldırmış, Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)5230/2021 nömrəli, 11.06.2021-ci il tarixli qətnaməsi ilə Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 03.06.2020-ci il tarixli, 2(006)-2359/2020 saylı qətnaməsinin mənəvi zərər hissəsində dəyişdirilməsi, vurulmuş zərərin əvəzi olaraq məbləği 10.000 manat tutulması qət edilmişdir.

3. Azərbaycan Dövlət Neft Şirkətinin "X" trestinin xx.xx.2023-cü il tarixli əmək haqqı və digər gəlirlər haqqında arayışına əsasən, "X" trestinin 3 saylı Tikinti Quraşdırma İdarəsinin işçisi X1ə 2012-ci il tarixinə 1099,50 manat məbləğində əmək haqqı hesablanmışdır.

4. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "X" Trestindən verilmiş xx xx 2020-ci il tarixli orta aylıq əmək haqqı haqqında arayışa əsasən, "X" trestinin dəniz şəraitində işləyən 5-ci dərəcəli polad və dəmir beton konstruksiyaların quraşdırıcı peşəsi üzrə 2012-ci il üçün orta aylıq əmək haqqı 1021,73 manat təşkil etmişdir.

5. İddiaçıya Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin xx.xx.2017ci il tarixli, ****** saylı qərarı ilə ümumi xəstəlik səbəbindən (beyin infarktının nəticələri, sağ orta beyin arteriyası sistemində keçirilmiş geniş sahəli və təkrar işemik insultlardan sonra vəziyyət heiplogiya, sol tərəfli dərin hemiplegiya, durğunluq ürək çatışmazlığı, ürək çatışmazlığı III F/s diaqnozu) (yüngül işlərdə işləyə bilər) 5 il müddətinə (xx.xx.2022-ci ilədək) ikinci dərəcə ilkin əlillik təyinatı aparılmışdır. Əlillik müddətinin bitdiyi xx.xx.2022-ci il tarixindən sonra Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əlillik" altsisteminə vətəndaşa dair yeni göndəriş daxil olmamışdır.

6. xx.xx.2021-ci il tarixdə "X" MMC ləğv edilmişdir. Hüquqi varisi "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi" Publik Hüquqi Şəxsidir.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a) Birinci instansiya məhkəməsində icraat

7. İddiaçı cavabdehlər "Azərbaycan Yerüstü Nəqliyyat Agentlıyı" Publik Hüquqi Şəxsi və "XXX" Qapalı Səhmdar Cəmiyyətınə qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, ailə

başçısının itirilməsi nəticəsində vurulmuş 141.000 manat məbləğində pulun tutulmasını xahiş etmişdir.

8. İddia ərizəsində qeyd etdilmişdir ki, mərhum əri X1 xx.xx.2012-ci il tarixində səhər saatlarında X qəsəbəsində *** saylı marşrut avtobusu ilə sərnişin qatarının toqquşması nəticəsində həyatını itirmişdir. Hadisə ilə əlaqədar cinayət işi başlanmış və araşdırmalar nəticəsində X2in və X3ün yol hərəkəti qaydalarını pozduqları müəyyən edilmişdir. X2, "Dəmir yolu keçidlərinin istismarına dair Təlimat"ın 4.5, 4.6 və 4.7-ci bəndlərini pozaraq, qorunan keçiddə qatarın yaxınlaşması barədə xəbərdarlıq etməsinə baxmayaraq, şlaqbaumları vaxtında bağlamamış və nəqliyyat vasitələrinin keçidə girməsinə mane olmamışdır. X3 isə, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 44-cü maddəsinin 3-cü hissəsinin 2-ci və 5-ci bəndlərini pozaraq, şlaqbaumun vəziyyətinə və qatarın yaxınlaşmasına baxmayaraq, keçidi keçib və qatarla toqquşmuşdur. Bu qanun pozuntuları nəticəsində, mərhum Tahir Nəcəfquliyev ciddi xəsarətlər alaraq həyatını itirmişdir. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "X" Trestindən verilmiş məlumatlara əsasən, mərhumun 2012-ci ildə aldığı əmək haqqı 1099,5 manat olmuşdur. Həmçinin, həmin ilin əmək haqqı ilə bağlı əlavə hesablamalar əsasında mərhumun həyat yoldaşına vurulmuş zərər 140.998,74 manat müəyyən edilmişdir. Qanunla, həyat yoldaşının vəfat etmiş şəxsin sağlığında aldığı son əmək haqqı nəzərə alındığından, bu məbləğ kompensasiya olaraq tələb edilir. Lakin, əgər indiki əmək haqqı hesablanmış olsaydı, zərər daha yüksək olardı. Buna baxmayaraq, qanunla təyin edilmiş əmək haqqı ilə hesablanmış məbləğdən zərər vurulmuş sayılaraq, həyat yoldaşı tərəfindən 140.998,74 manat zərərin ödənilməsi tələb olunur.

9. Cavabdeh "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi" Publik Hüquqi Şəxsinin nümayəndəsi məhkəməyə iddia ərizəsinə etiraz yanaşı, iddia müddətinin tətbiqinə dair ərizə təqdim edərək qeyd etmişdir ki, iddiaçı Iddiaçının əri xx.xx.2012-ci il tarixdə vəfat etmiş və iddiaçının da bundan xəbəri olmuşdur. Beləliklə, iddiaçı ümumi iddia müddətini buraxmışdır.

10. Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 04 iyul 2024-cü il tarixli, 2(006)2048/2024 nömrəli qətnaməsi ilə (hakim R. Xəlilov) iddia təmin edilməmişdir.

11. Birinci instansiya məhkəməsi mövqeyini onunla əsaslandırmışdır ki, iş üzrə iddiaçı ərinin ölümünü ailəni dolandıranın ölümü (ailə başçısını itirmək) kimi qiymətləndirərək, ona vurulan zərərin ödənilməsini tələb etsə də, işin faktiki halları Mülki Məcəllənin "ailə başçısının ölümü nəticəsində zərər çəkmiş şəxslərə zərərin əvəzinin ödənilməsi" adlanan 1121-ci maddəsində nəzərdə tutulan şərtlərə uyğun gəlmir. Belə ki, yuxarıda qeyd edildiyi kimi Mülki Məcəllənin "ailə başçısının ölümü nəticəsində zərər çəkmiş şəxslərə zərərin əvəzinin ödənilməsi" adlanan 1121-ci maddəsində ailə başçısının itirilməsinə görə zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ olan şəxslərin dairəsi konkret olaraq müəyyən edilmişdir. Bundan başqa, qeyd edilən maddənin 3-cü bəndində zərərin əvəzinin kimlərə ödənilməsinin də dairəsi konkret olaraq müəyyən edilmişdir. Belə ki, Mülki Məcəllənin 1121.3-cü maddəsinə əsasən zərərin əvəzi aşağıdakılara ödənilir: yetkinlik yaşına çatmayanlara - on səkkiz yaşına çatanadək; on səkkiz yaşından yuxarı tələbələrə- əyani təhsil forması üzrə təhsil müəssisələrində təhsili bitirənədək, lakin ən çoxu iyirmi üç yaşınadək; əlli beş yaşından yuxarı qadınlara və altmış beş yaşından yuxarı kişilərə-ömürlük; əlilliyi olan şəxslərə - əlillik müddəti üçün; ölənin himayəsində olmuş uşaqlarına, nəvələrinə, qardaşlarına və bacılarına qulluq etməklə məşğul olan valideynlərdən birinə, arvada (ərə) və ya digər ailə üzvünə- qulluq etdikləri on dörd yaşına çatanadək. Göründüyü kimi, iddia tələbi Mülki Məcəllənin 1121-ci maddəsinin əhatə dairəsinə düşmür.

12. İddiaçı əri vəfat edənə kimi onun himayəsində olmasını və həmçinin, onun öldüyü günədək ondan dolanacaq təminatı almasını bildirsə də, qanunvericiliyin tələbinə əsasən məhz

bu amillə bağlı zərərin əvəzini tələb hüququna malik olan şəxslər əmək qabiliyyəti olmayan şəxslərdir. İddiaçı ərinin vəfat etdiyi tarixədək onun himayəsində olmasını və əmək qabiliyyətinin olmamasını təsdiq edə biləcək sübutları məhkəməyə təqdim etməmişdir. Sübut olaraq məhkəməyə təqdim edilən əlilliyi qiymətləndirilən şəxs barədə xx.xx.2017-ci il tarixli məlumatdan isə göründüyü kimi iddiaçı ilkin müayinə zamanı xx.xx.2017-ci il tarixdə ümumi xəstəlik səbəbilə 5 il müddətinə ikinci dərəcəli əlil hesab edilmiş, yüngül işlərdə işləyə bilməsi qeyd edilmişdir. Göründüyü kimi iddiaçının əri vəfat etdikdən 5 il sonra o, əlil hesab edilmiş və həmçinin buna baxmayaraq iddiaçı yenə də əmək qabiliyyəti olmayan şəxs hesab edilməmişdir.

13. Bundan başqa, Mülki Məcəllənin 33.6-cı maddəsinə əsasən on dörd yaşından on səkkiz yaşınadək olan yetkinlik yaşına çatmayanlar üzərində, habelə spirtli içkilərdən, narkotik vasitələrdən və ya psixotrop maddələrdən sui-istifadə etməsi və ya qumara qurşanması nəticəsində fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən məhdudlaşdırılmış fiziki şəxslər üzərində himayəçilik təyin edilir. Həmçinin, Ailə Məcəlləsinin 84-cü maddəsinə əsasən ər və arvad bir-birinə maddi cəhətdən kömək etməlidirlər. Bu köməyin göstərilməsindən imtina edildikdə və ər arvad arasında alimentin ödənilməsi barədə saziş olmadıqda aşağıdakılar buna zəruri vəsaitə malik olan digər tərəfin aliment ödəməsini məhkəmə qaydasında tələb etmək hüququna malikdirlər: əmək qabiliyyəti olmayan və maddi yardıma ehtiyacı olan ər və ya arvad; hamiləliyi dövründə və ümumi uşaqlarının doğulduğu gündən üç il ərzində arvad; 18 yaşınadək əlilliyi müəyyən edilmiş və ya orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş 18 yaşından yuxarı ümumi uşağa qulluq edən və ehtiyacı olan ər və ya arvad.

Qanunvericiliyin yuxarıda qeyd edilən tələblərindən göründüyü kimi himayəçi yetkinlik yaşına çatmayanlar üzərində, habelə spirtli içkilərdən, narkotik vasitələrdən və ya psixotrop maddələrdən sui-istifadə etməsi və ya qumara qurşanması nəticəsində fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən məhdudlaşdırılmış fiziki şəxslər üzərində təyin edilir. İş üzrə bu hallar müəyyən edilmir. Həmçinin, ərin və arvadın bir-birini saxlamaq vəzifəsinin olması bir-birinin himayəsində olması kimi qiymətləndirilməməlidir (ər-arvad bir birinə münasibətdə birinin digəri üzərində himayəçisi anlamını daşımır).

14. Eyni zamanda, məhkəmə qeyd etmişdir ki, iddiaçı daha əvvəl ərinin vəfat etməsi ilə əlaqədar cavabdeh “XXX” QSC-yə qarşı ona dəymiş mənəvi ziyanın ödənilməsi tələbi ilə bağlı məhkəməyə müraciət etmiş və iddiası qismən təmin edilərək, ona ərinin vəfat etməsi ilə bağlı 10.000 manat məbləğində mənəvi ziyanın əvəzi ödənilmişdir. Odur ki, məhkəmə qeyd edilənləri nəzərə alaraq hesab etmişdir ki, iş üzrə iş üzrə irəli sürülmüş iddia tələbinin qanuni əsası tapılmadığına və faktiki hallar müvafiq maddi hüquq normasının dispozisiya şərtləri ilə uzlaşmadığına görə iddiaçı Iddiaçının cavabdehlər “Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi” Publik Hüquqi Şəxsi və “XXX” QSC-yə qarşı “maddi ziyanın ödənilməsi”nə dair iddia tələbi əsassız hesab edilməklə rədd edilməlidir.

15. Məhkəmə cavabdeh “XXX” QSC-nin nümayəndəsi tərəfindən iddia müddətinin tətbiqi barədə verilmiş ərizəyə münasibətdə qeyd etmişdir ki, iddianın özü əsassız hesab edildiyindən iddia müddətinin tətbiqinə də zərurət qalmamışdır. Belə ki, iddia müddəti yalnız iddia tələbi əsaslı olduğu təqdirdə ona tətbiq edilməli olan hüquq olduğundan bu halda tətbiq edilməsi mümkün deyildir.

16. Birinci instansiya məhkəməsi öz mövqeyini Azərbaycan Respublikası Mülki Məcəlləsinin 21, 33.6, 1096, 1097, 1121.3-cü, Mülki Prosessual Məcəlləsinin 14.2, 77.1, 81, 217.3, 217.4-cü maddələrinə istinad edərək əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

17. İddiaçı apellyasiya şikayəti verərək, birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv edilməsini, iddia tələbinin təmin edilməsi barədə yeni qətnamə qəbul olunmasını xahiş etmişdir.

18. Apellyasiya şikayəti onunla əsaslandırılmışdır ki, məhkəməyə müraciəti iddiaçının ərinin ölməsindən sonra əlil olması əsası ilə deyil. Cavabdehin dəlilləri ilə bağlı fikir bildirərkən iddiaçının hadisədən sonra əlil olmasını qeyd etmişdir. İddia ərizəsində də bu hala toxunulmamışdır. Əksinə ərizədə və məhkəmə iclasında verilmiş izahatda Mülki Məcəllənin 1121.1.1-ci maddəsində nəzərdə tutulan ölənin himayəsində olmuş şəxs olaraq iddia irəli sürüldüyü bildirmişdir. Məhkəmə isə iddianı əsassız olaraq təmin etməmişdir. Digər tərəfdən iddiaçı mərhumun həyat yoldaşı olduğundan ailə başçısı olan ərinin himayəsində sayılır. İrəli sürülmüş iddia tələbinin qanuni əsası Mülki Məcəllənin 1121.1.1. maddəsinin 1-ci hissəsində nəzərdə tutulub və faktiki hallar müvafiq maddi hüquq normasının dispozisiya şərtləri ilə uzlaşır. İrəli sürülmüş iddia tələbinin qanuni əsasının mövcud olmasına və faktiki hallar müvafiq maddi hüquq normasının dispozisiya şərtləri ilə uzlaşdığı halda məhkəmə qətnamədə bunun əksini qeyd edərək, iddianı əsassız olaraq təmin etməmiş, işi pozuntunun adekvat və effektiv şəkildə aradan qaldırılması prinsipinə uyğun olmayaraq həll edilməsi ilə nəticələndirmişdir.

19. Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)- 5513/2024 saylı, 14.10.2024-cü il tarixli qətnaməsi ilə (hakimlər X.Mərdanova (sədrlik edən və məruzəçi), E.Həsənov və V.Sadıqov) apellyasiya şikayəti təmin edilməmiş, birinci instansiya məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmışdır.

20. Apellyasiya instansiyası məhkəməsi mövqeyini onunla əsaslandırmışdır ki, iş üzrə iddiaçının ərinin ölümünə görə zərərin ödənilməsini tələb etməsi, ailə başçısının ölümündən sonra zərər çəkən şəxslərə zərərin əvəzinin ödənməsi ilə əlaqədar Mülki Məcəllənin 1121-ci maddəsinin şərtlərinə uyğun gəlmir. Məhkəmə, birinci instansiya məhkəməsinin bu nəticəyə gəlməsini doğru sayaraq qeyd etmişdir ki, iddiaçının ərinin vəfat etdiyi dövrə qədər onun himayəsində olduğunu bəyan etməsi, qanunvericiliyə görə yalnız əmək qabiliyyəti olmayan şəxslərə aid olan tələbləri əhatə edir. Lakin iddiaçı məhkəməyə əmək qabiliyyəti olmayan şəxs olduğuna dair sübut təqdim etməmişdir.

21. Məhkəməyə təqdim edilən 2017-ci il tarixli əlillik məlumatında göstərilmişdir ki, iddiaçı yalnız həmin tarixdə ikinci dərəcəli əlil hesab olunmuş və yüngül işlərdə işləyə bilməsi qeyd edilmişdir. Bu da onu göstərir ki, iddiaçı əmək qabiliyyətini itirmiş şəxs sayılmır. Əlavə olaraq, ərinin vəfatından beş il sonra əlil hesab edilməsi, onun əvvəlki dövrə aid olan əmək qabiliyyəti ilə bağlı sübutların olmamasına səbəb olur. Bu səbəbdən, iddiaçının irəli sürdüyü tələbin hüquqi əsasları və faktiki halları bir-birini tutmur və apellyasiya şikayəti əsassız hesab edilmişdir.

22. Apellyasiya instansiya məhkəməsi öz mövqeyini Azərbaycan Respublikası Mülki Məcəlləsinin 21, 1096.1, 1096.2, 1097.1, 1097.3, 1097.5, 1121.1, 1121.3-cü və Mülki Prosessual Məcəllənin 14.2, 77.1, 80, 88, 106.1, 217.1, 217.3, 218.1, 384.0.1, 405-ci maddələrinə istinad edərək əsaslandırmışdır.

Kassasiya şikayətinin və ona qarşı etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

23. İddiaçı kassasiya şikayəti verərək, Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)- 5513/2024 saylı, 14 oktyabr 2024cü il tarixli qətnaməsi ləğv edilməsi, iddianın təmin edilməsi barədə yeni qərar qəbul olunmasını xahiş etmişdir.

24. İddiaçı kassasiya şikayətini onunla əsaslandırmışdır ki, məhkəmə Mülki Məcəllənin 1121-ci maddəsini düzgün tətbiq etməmişdir. Həmin normaya əsasən, zərərin ödənilməsi

tələbi yalnız əmək qabiliyyəti olmayan şəxslərə aid deyil. İddiaçı, ölənin himayəsində olmuş şəxs olaraq, qanunvericiliyə uyğun olaraq ərinin vəfatı nəticəsində zərərin əvəzinin ödənilməsini tələb edib. Mülki Məcəllənin 1121.1.3 maddəsinə görə, ölənin himayəsində olan və əmək qabiliyyəti olmayan şəxslər, o cümlədən arvad (ər), qardaş, bacı, uşaqlar və digər ailə üzvləri də zərərin ödənilməsi hüququna malikdir. Göründüyü kimi Mülki Məcəllənin 1121-ci maddəsi apellyasiya məhkəməsinin qeyd etdiyi kimi yalnız ölənin himayəsində olmuş, zərərin əvəzini tələb hüququna malik olan əmək qabiliyyəti olmayan şəxslər deyil, bu hüquq əmək qabiliyyətindən asılı olmayaraq bütün ailə üzvlərinə şamil edilir. İddiaçının irəli sürdüyü tələbin hüquqi əsası Mülki Məcəllənin 1121.1.1 maddəsinin 1-ci hissəsinə uyğun gəlir və faktiki hallar həmin maddə ilə uzlaşır. İddiaçı ona dəymiş maddi zərərin ödənilməsini cavabdehdən tələb etməkdə haqlıdır. Bu səbəbdən irəli sürülmüş iddia tələbinin qanuni əsası Mülki Məcəllənin 1121.1.1. maddəsinin 1-ci hissəsində nəzərdə tutulub və faktiki hallar müvafiq maddi hüquq normasının dispozisiya şərtləri ilə uzlaşır. Beləliklə apellyasiya məhkəməsi qanunu səhv təfsir edərək maddi və prosessual hüquq normalarını pozmuşdur.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

25. Cavabdeh “Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi” publik hüquqi şəxsi kassasiya şikayətinə qarşı etiraz təqdim edərək, etirazını onunla əsaslandırmışdır ki, iddiaçı Mülki Məcəllənin 1121-ci maddəsinə istinad edərək, zərərin əvəzinin ödənilməsini tələb etmiş, lakin bu maddənin tətbiqi üçün iddiaçının əmək qabiliyyəti olmayan şəxs olduğunu və ya ölənin himayəsində olduğunu sübut etməli olduğu halda, heç bir sübut təqdim etməmişdir. Həmçinin, iddiaçı özünün əlillik statusu ilə bağlı yalnız 2017-ci il tarixli arayış təqdim etmiş, lakin bu arayışda göstərilən məlumatlar iddiaçının əmək qabiliyyətinin olmadığını təsdiq etməmişdir.

Tətbiq edilən hüquq

Azərbaycan Respublikasının Mülki Məcəlləsi

26. Maddə 21.1. Zərərin əvəzinin ödənilməsini tələb etmək hüququna malik olan şəxs ona vurulmuş zərərin əvəzinin tam ödənilməsini tələb edə bilər, bu şərtlə ki, qanunda və ya müqavilədə zərərin əvəzinin daha az miqdarda ödənilməsi nəzərdə tutulmasın.

27. Maddə 1096.1. Mülki hüquq pozuntusu (delikt) hüquqla və ya qanunla müdafiə edilən başqa şəxsə (zərərçəkənə) birbaşa ziyan və ya zərər vurulmasına gətirib çıxaran təqsirli, hüquqa zidd (mülki qanunvericiliyin normalarını pozan) əməldir (hərəkət və ya hərəkətsizlikdir).

28. Maddə 1096.2. Delikt törətmiş şəxs mülki hüquq məsuliyyəti daşıyır.

29. Maddə 1097.1. Mülki hüquq pozuntusu (delikt) nəticəsində fiziki şəxsin şəxsiyyətinə və ya əmlakına vurulmuş zərərin, habelə hüquqi şəxsin əmlakına və işgüzar nüfuzuna vurulmuş zərərin əvəzi zərərvuran tərəfindən tam həcmdə ödənilməlidir. Qanunla zərərin əvəzini ödəmək vəzifəsi zərəri vurmayan şəxsin öhdəsinə qoyula bilər.

30. Maddə 1097.3. Qanunla zərərvuranın təqsiri olmadıqda da (obyektiv surətdə hüquqa zidd əməl üçün) zərərin əvəzinin ödənilməsi nəzərdə tutula bilər.

31. Maddə 1099.1. Hüquqi və ya fiziki şəxs öz işçisinin törətdiyi mülki hüquq pozuntusu (delikt) üçün məsuliyyət daşıyır və əmək (qulluq, mənsəb) vəzifələrinin icrası zamanı işçisinin vurduğu zərərin əvəzini ödəməlidir.

32. Maddə 1121.1. Zərərçəkənin (ailə başçısının) öldüyü halda aşağıdakıların zərərin əvəzinin ödənilməsi hüququ vardır:

1121.1.1. ölənin himayəsində olmuş və ya onun öldüyü günədək ondan dolanacaq təminatı almaq hüququna malik olmuş əmək qabiliyyəti olmayan şəxslər;

1121.1.2. şəxsin ölümündən sonra doğulmuş uşağı;

1121.1.3. ölənin himayəsində olmuş və onun on dörd yaşına çatmamış, yaxud bu yaşa çatsa da, tibb orqanlarının rəyinə əsasən sağlamlıq vəziyyətinə görə başqasının qulluğuna möhtac olan uşaqlarına, nəvələrinə, qardaşlarına və bacılarına qulluq etməklə məşğul olan və işləməyən valideynlərdən biri, arvad (ər) və ya digər ailə üzvü - əmək qabiliyyətindən asılı olmayaraq;

1121.1.4. ölənin himayəsində olmuş və onun ölümündən sonra beş il ərzində əmək qabiliyyətini itirmiş şəxslər.

33. Maddə 1121.2. İşləməyən və ölənin uşaqlarına, nəvələrinə, qardaşlarına və bacılarına qulluq etməklə məşğul olan və qulluq etdiyi dövrdə əmək qabiliyyətini itirən valideynlərdən biri, arvad (ər) və ya digər ailə üzvü zərərin əvəzinin ödənilməsi hüququnu həmin şəxslərə qulluq qurtardıqdan sonra da saxlayır.

34. Maddə 1121.3. Zərərin əvəzi aşağıdakılara ödənilir:

1121.3.1. yetkinlik yaşına çatmayanlara - on səkkiz yaşına çatanadək;

1121.3.2. on səkkiz yaşından yuxarı tələbələrə - əyani təhsil forması üzrə təhsil müəssisələrində təhsili bitirənədək, lakin ən çoxu iyirmi üç yaşınadək;

1121.3.3. əlli beş yaşından yuxarı qadınlara və altmış beş yaşından yuxarı kişilərə ömürlük;

1121.3.4. əlilliyi olan şəxslərə - əlillik müddəti üçün;

1121.3.5. ölənin himayəsində olmuş uşaqlarına, nəvələrinə, qardaşlarına və bacılarına qulluq etməklə məşğul olan valideynlərdən birinə, arvada (ərə) və ya digər ailə üzvünə - qulluq etdikləri on dörd yaşına çatanadək.

35. Maddə 1122.1. Ailə başçısının itirilməsi ilə əlaqədar zərərin əvəzinin ödənilməsinə hüququ çatan şəxslərə zərərin əvəzi ölənin bu Məcəllənin 1119-cu maddəsinin qaydalarına əsasən müəyyənləşdirilmiş qazancının (gəlirinin) o hissəsi miqdarında ödənilir ki, həmin hissəni onlar ölənin sağlığında öz dolanacaqları üçün alırdılar və ya almaq hüququna malik idilər. Həmin şəxslərə ödənilən zərərin əvəzi müəyyənləşdirilərkən ölənin gəlirinin tərkibinə qazanc (gəlir) ilə yanaşı onun sağlığında aldığı pensiya və digər bu cür ödənclər də daxil edilir.

36. Maddə 1125.1. Zərərçəkənin əmək qabiliyyətinin azalması və ya ölümü nəticəsində dəyən zərərin əvəzi aylıq ödənişlər yolu ilə ödənilir. Üzrlü səbəblər varsa, məhkəmə zərərin əvəzinin ödənilməsinə hüququ olan fiziki şəxsin tələbi ilə ona çatası ödənişləri zərərvuranın imkanlarını nəzərə almaqla, bir dəfəliyə, lakin ən çoxu üç illiyə təyin edə bilər.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi

37. Maddə 14.1. Məhkəmə həqiqətə nail olmaq üçün işin hərtərəfli, tam və obyektiv tədqiqinə lazımi şərait yaradır. bunun üçün məhkəmə işdə iştirak edən şəxslərə onların prosessual hüquq və vəzifələrini izah edir, görüləcək yaxud görülməyəcək hərəkətlərin nəticələri barədə onları xəbərdar edir, onların prosessual hüquqlarının həyata keçməsinə kömək göstərir.

38. Maddə 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

39. Maddə 217.1. Məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır.

40. Maddə 217.3. Qətnamə iş üzrə müəyyən edilmiş hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır.

41. Maddə 418.3. Prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması qətnamənin yaxud qərardadın ləğv edilməsi üçün o vaxt əsas ola bilər ki, bu pozuntu düzgün qətnamə qəbul edilməməsi ilə nəticələnsin və ya nəticələnə bilsin.

Kassasiya baxışının hədləri:

42. Kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

43. Kassasiya şikayətində iddiaçı apellyasiya instansiyası məhkəməsinin aktını tam mübahisələndirdiyindən qətnamə tam yoxlanılır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

44. Məhkəmə kollegiyası kassasiya şikayətinin dəlilləri ilə bağlı araşdırma apararaq hesab edir ki, aşağıdakılara əsasən kassasiya şikayəti qismən təmin edilməli, mübahisələndirilən qətnamə ləğv edilərək iş yeni baxışa qaytarılmalıdır.

45. Hazırkı halda iddiaçı cavabdehlərdən ailə başçısının (ərinin) ölümü ilə əlaqədar zərərin əvəzinin ödənilməsini tələb etmişdir. Kassasiya şikayətində maddi hüquq norması kimi MM-nin 1121-ci maddənin məhkəmə tərəfindən düzgün tətbiq edilmədiyi qeyd edilir.

46. MM-nin 1121-ci maddəsində ailə başçısının itirilməsi ilə əlaqədar zərərin əvəzini almaq hüququ olan şəxslərin dairəsi, o cümlədən bu hüququn yaranma və xitam olunma əsasları nəzərdə tutulmuşdur.

47. Kollegiya qeyd edir ki, bu əsasla iddia irəli sürüldükdə ilk növbədə məhkəmə tərəfindən ölmüş şəxsin ailə başçısı, yəni ailənin dolanacaq xərclərini təmin etmiş yeganə şəxs olub-olmadığı müəyyən edilməli, bu müəyyən edildikdən sonra tələbin təmin edilməsi üçün digər əsasların mövcud olub-olmadığı yoxlanılmalıdır.

48. İşin mübahisəsiz halıdır ki, hazırkı halda X1 öldüyü günədək "X" trestinin 3 saylı Tikinti Quraşdırma İdarəsində işləmiş və avqust 2012-ci il tarixinə ona hesablanmış əmək haqqı 1099,50 manat olmuşdur. Ailənin maddi təminatının eyni zamanda digər ailə üzvləri tərəfindən təmin edilməsi barədə işdə sübutlar olmadığından məhkəmə tərəfindən iddiaçının ərinin ailə başçısı olduğu düzgün müəyyən edilmişdir.

49. İşdən görünür ki, həm birinci instansiya, həm də apellyasiya instansiyası məhkəməsi tərəfindən iddiaçının tələbinin əsaslı olub-olmadığı yalnız MM-nin 1121.1.1 və 1121.1.4-cü maddələrinin dispozisiya şərtləri əsasında yoxlanılmış və həmin şərtlərin mövcudluğu təsdiq edilmədiyi üçün iddia rədd edilmişdir.

50. Məhkəmə apellyasiya instansiyası məhkəməsinin mövqeyi ilə razılaşır ki, əri vəfat etdiyi günədək (31.08.2012-ci il) iddiaçı əmək qabiliyyətli şəxs olduğundan tələbin təmin edilməsi üçün MM-nin 1121.1.1-ci maddəsində nəzərdə tutulmuş əsas mövcud olmamışdır.

51. İddia tələbinin MM-nin 1121.1.4-cü maddəsi əsasında təmin edilməsi üçün isə iddiaçı tərəfindən iki şərtin mövcudluğu təsdiq edilməli idi-iddiaçının ailə başçısı öldüyü günədək onun himayəsində olması və onun ölümündən sonra beş il ərzində əmək qabiliyyətini itirməsi.

52. Hazırkı halda iddiaçıya 10.04.2017-ci il tarixdə (ailə başçısının ölümündən 5 il keçmədən) ikinci dərəcə əlillik təyin edildiyi halda apellyasiya instansiyası məhkəməsi qətnamədə əlilliyin iddiaçının ərinin vəfatından 5 il sonra əldə edildiyini qeyd etməklə qətnamənin iş üzrə müəyyən edilmiş hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalı olmasına dair MPM-nin 217.3-cü maddəsində nəzərdə tutulmuş tələbi pozmuşdur.

53. Bundan əlavə məhkəmə kollegiyası qeyd edir ki, “Sosial müavinətlər haqqında” Azərbaycan Respublikası Qanununun 1.0.2-ci maddəsinə əsasən əlilliyi olan bütün şəxslər əmək qabiliyyəti olmayan şəxslər hesab olunduğundan məhkəmənin ikinci dərəcə əlil olsa da yüngül işlərdə işləməsinin mümkün olduğuna dair sənədə istinad etməklə iddiaçının əmək qabiliyyətini itirmiş şəxs sayılmadığına dair iş üzrə gəldiyi nəticə qanunun tələbinə uyğun olmamışdır.

54. Lakin kollegiya apellyasiya instansiyası məhkəməsi ilə bu hissədə razılaşır ki, iddianın MM-nin 1121.1.4-cü maddəsinə əsasən təmin edilməsi üçün iddiaçı tərəfindən məhkəməyə eyni zamanda ərinin öldüyü günədək onun himayəsində (maddi cəhətdən tam və ya qismən asılılığında) olduğunu təsdiq edən sübutlar təqdim edilməli idi. Belə ki, şəxsin ölmüş şəxsin öhdəsində olması faktı sübutlarla təsdiq edilməlidir. Əgər bu sübutları əldə etmək mümkün deyilsə maraqlı şəxs şəxsin öhdədə olma faktının müəyyən edilməsinə dair məhkəməyə xüsusi icraat qaydasında ərizə ilə müraciət edə bilər.

55. “Hüquqi əhəmiyyəti olan faktların müəyyən edilməsinə dair işlər üzrə məhkəmə təcrübəsinin bəzi məsələləri haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsinin 12.04.2019-cu il tarixli qərarının 3.1-ci bəndində qeyd edilmişdir ki, “şəxsin öhdədə olma faktının müəyyən edilməsi o zaman hüquqi əhəmiyyətə malik olur ki, bu fakt hüquqi nəticə yaratsın. Bu fakt əsas etibarilə ailə başçısını itirməyə görə pensiya və ya sosial müavinətin təyin edilməsi, mirasdan dolanacaq təminatının (alimentlər) tələb edilməsi, ailə başçısının ölümü nəticəsində zərər çəkmiş şəxslərə zərərin əvəzinin ödənilməsi məqsədilə müəyyən edilə bilər. Bu zaman məhkəmə müvafiq faktın müəyyən edilməsi üçün müraciət edən ərizəçinin məhz qanunla müəyyən edilmiş kateqoriyadan olan şəxs olub-olmamasına, həmçinin onun vəfat edənin tam təminatında olan və ya ondan özünün yaşayışı üçün daimi və əsas vəsait mənbəyi kimi kömək alan şəxs olmasına diqqət etməlidir.”

56. Kollegiya qeyd edilən qərardakı hüquqi mövqeyə əsaslanaraq hesab edir ki, arvadın ölmüş ərin himayəsində olan şəxs hesab edilməsi ilə bağlı hüquqi qiymətləndirmə Azərbaycan Respublikası Ailə Məcəlləsinin 84-cü maddəsindəki əsaslar nəzərə alınmaqla həyata keçirilməlidir. Həmin normada ərin (arvadın) bir-birinə maddi cəhətdən kömək etməli olduqları müəyyən edilsə də, yalnız 84.2-ci maddədə qeyd edilmiş əsaslar olduqda (əmək qabiliyyəti olmayan və maddi yardıma ehtiyacı olan ər və ya arvad; hamiləliyi dövründə və ümumi uşaqlarının doğulduğu gündən üç il ərzində arvad; 18 yaşınadək əlilliyi müəyyən edilmiş və ya orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş 18 yaşından yuxarı ümumi uşağa qulluq edən və ehtiyacı olan ər və ya arvad) birinin digərindən aliment tələb etmək hüququ nəzərdə tutulmuşdur.

57. Nəzərə alınmalıdır ki, sadəcə nikahda olma faktı və əmək qabiliyyətli arvadın (ərin) Azərbaycan Respublikası Ailə Məcəlləsinin 84-cü maddəsindəki əsaslar və digər üzürlü səbəblər olmadığı halda işləməyərək ərinin (arvadının) gəliri hesabına yaşaması MM-nin 1121-ci maddəsinin tələbləri baxımından həmin şəxsin ölən ailə başçısının himayəsində olmuş şəxs kimi qiymətləndirilməsi üçün əsas ola bilməz.

58. Mübahisələndirilən məhkəmə qətnaməsindən görünür ki, məhkəmə iddianın əsaslı olub-olmadığını MM-nin 1121.1.3-cü maddənin tələbləri baxımından yoxlamamış, həmin normadakı əsasların mövcud olub-olmadığı araşdırılmamışdır. Qeyd edilən normaya əsasən ölənin himayəsində olmuş və onun on dörd yaşına çatmamış, yaxud bu yaşa çatsa da, tibb orqanlarının rəyinə əsasən sağlamlıq vəziyyətinə görə başqasının qulluğuna möhtac olan uşaqlarına qulluq etməklə məşğul olan və işləməyən arvad (ər) əmək qabiliyyətindən asılı olmayaraq bu normaya əsasən ailə başçısının ölümünə görə zərər tələb edə bilər. 1121.3.5-ci maddəyə əsasən bu halda zərər ölənin himayəsində olmuş uşaqları on dörd yaşına çatanadək

hesablanmalı və tutulmalıdır. MM-nin 1121.2ci maddəsi isə bu normaya əsasən zərərin əvəzinin ödənilməsini həmin şəxslərə qulluq qurtardıqdan sonra da tələb etmək hüququ verir.

59. İş materiallarına əlavə edilmiş Bakı Apellyasiya Məhkəməsinin 11.06.2021-ci il tarixli 2 (103)-5230/2021 saylı qətnaməsindən görünür ki, iddiaçının "XXX" QSC-yə qarşı ərinin ölümünə görə mənəvi zərər tələbi ilə bağlı iddia tələbinə baxılarkən məhkəmə tərəfindən iddiaçının himayəsində yetkinlik yaşına çatmamış uşaqların olduğu müəyyən edilmiş və bu hal mənəvi zərərin məbləğinin müəyyənləşdirilməsi zamanı nəzərə alınmışdır.

60. Belə olan halda işə baxmış məhkəmə tərəfindən iddianın 1121.1.3.-cü maddə əsasında təmin edilməsinin mümkünlüyünün yoxlanılması üçün ailə başçısı vəfat edərkən uşaqlarının hansı yaşda olması (14 yaşına çatıb-çatmadıqları) ilə bağlı müvafiq araşdırma aparılmalı idi.

61. Nəzərə alınmalıdır ki, ailə başçısının itirilməsi ilə əlaqədar zərərin əvəzinin ödənilməsi barədə iddia irəli sürülərkən iddia ərizəsində 1121-ci maddənin konkret bəndinə istinad edilib-edilməməsindən asılı olmayaraq məhkəmə tərəfindən "iura novit curia" – "məhkəmə hüququ bilir" prinsipinə əsasən həmin maddənin dispozisiyasında nəzərdə tutulmuş əsaslardan hər hansı birinin mövcud olub-olmadığı tərəflərlə müzakirə edilməlidir.

62. Kollegiya eyni zamanda qeyd etməyi zəruri hesab edir ki, iddiaçının ərinin ölümünə görə mənəvi ziyan tələbi irəli sürməsi hazırkı iddia tələbinin tam və ya qismən rədd edilməsi üçün əsas ola bilməz.

63. "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 23-cü maddəsinin şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun 24.04.2020-ci il tarixli qərarında qeyd edilənlərə əsasən, "ölənin yaxınının mənəvi təzminat tələbi ailə başçısını itirməyə görə zərərin əvəzi tələbi ilə eyniləşdirilməməlidir. Belə ki, Mülki Məcəllənin 1121-ci maddəsi ilə tənzimlənən ailə başçısının ölümü nəticəsində zərər çəkmiş şəxslərə zərərin əvəzinin ödənilməsi məhz maddi zərərin qarşılanması məqsədli olub müvəqqəti əvəzləşdirici xarakter daşıyır. Həmin Məcəllənin 1122.1-ci maddəsinə əsasən, ailə başçısının itirilməsi ilə əlaqədar zərərin əvəzinin ödənilməsinə hüququ çatan şəxslərə zərərin əvəzi ölənin bu Məcəllənin 1119-cu maddəsinin qaydalarına əsasən müəyyənləşdirilmiş qazancının (gəlirinin) o hissəsi miqdarında ödənilir ki, həmin hissəni onlar ölənin sağlığında öz dolanacaqları üçün alırdılar və ya almaq hüququna malik idilər. Həmin şəxslərə ödənilən zərərin əvəzi müəyyənləşdirilərkən ölənin gəlirinin tərkibinə qazanc (gəlir) ilə yanaşı onun sağlığında aldığı pensiya və digər bu cür ödənclər də daxil edilir."

64. Apellyasiya instansiyası məhkəməsi tərəfindən qüvvədə saxlanılmış birinci instansiya məhkəməsinin qətnaməsində (35-ci bənd) Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun 24.04.2020-ci il tarixli qərarındakı hüquqi mövqe nəzərə alınmadan iddiaçıya ərinin ölümünə görə 10.000 manat məbləğində mənəvi ziyana görə əvəz ödənilməsi iddianın rədd edilməsinin əsaslarından biri kimi göstərilmişdir.

65. Məhkəmə kollegiyası qeyd edilənlərə əsasən belə nəticəyə gəlir ki, kassasiya şikayəti qismən təmin edilməli, mübahisələndirilən qətnamə ləğv edilərək iş kassasiya instansiya məhkəməsinin göstərişləri nəzərə alınmaqla yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə qaytarılmalıdır.

66. Yuxarıda qeyd olunanlara əsasən və Azərbaycan Respublikası MPM-nin 407, 416, 417 və 419-cu maddələrinin tələblərini rəhbər tutaraq kassasiya instansiyası məhkəməsi

Qərara aldı:

Kassasiya şikayəti qismən təmin edilsin.

Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 14 oktyabr 2024-cü il tarixli 2(103)-5513/2024 nömrəli qətnaməsi ləğv edilsin.

İş yeni apelyasiya baxışına qaytarılsın.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

Vərəsəlik mübahisələri

44. 2(102)-1192/2022 nömrəli, 2022-ci il 01 iyun tarixli qərar – Mirasda məcburi payın tamamlanması qaydası

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: mirasda məcburi payın tamamlanması qaydası

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Vərəsəlik hüququnda mövcud olan institut kimi məcburi pay, miras qoyanın sağlığında öz əmlakına verdiyi sərəncamların (ölümə bağlı sərəncam kimi vəsiyyətin, ölümündən qabaq iki il ərzində edilmiş bağışlamanın) qanunla məhdudlaşdırılmasıdır.

Qanun, miras qoyanın sərəncam hüququnu məcburi payı pozduğu həddə məhdudlaşdırır. Odur ki, miras qoyan bu həddin xaricində qalan əmlakı barəsində istədiyi kimi sərəncam verməkdə sərbəstdir. Belə ki, o, öz vərəsələrindən birini, bir neçəsini və ya hamısını mirasdan məhrum edə biləcəyi kimi, əmlakını da istədiyi şəxsə verə bilər. İstisna (məhdudiyyət), yalnız məcburi pay hüququ olan vərəsələr və onlara qanunla çatası minimum payla bağlıdır.

Bu hədləri (məhdudiyyətləri) nəzərə almadan miras qoyanın hər sərəncamını məcburi payı pozan akt kimi qiymətləndirmək, yəni vəsiyyət edilən (son iki ildə bağışlanan) hər əmlakdan vərəsələrə məcburi pay vermək bu institutun mahiyyətinə və məqsədinə uyğun gəlmir.

Ona görə də, məcburi payla bağlı qanundakı qaydalar yalnız həmin minimum payın pozulduğu təqdirdə tətbiq edilə və məcburi pay qarşılanmayan həcmdə tamamlana bilər.

Mülki Məcəllənin 1195-ci maddəsinə əsasən məcburi payın tam həcmi vəsiyyət tapşırığını və ya ümumi faydalı məqsədlər üçün hər hansı hərəkəti yerinə yetirməkdən ötrü nəzərdə tutulan əmlak da daxil olmaqla, bütün mirasdan müəyyənləşdirilir.

Məcburi paya dair mübahisəyə baxan məhkəmə əvvəlcə miras kütləsinə daxil olan əmlaka və ya onun bir hissəsinə vəsiyyətnamə (yaxud son iki ildə bağışlama) ilə sərəncam verilib-verilmədiyini aydınlaşdırmalıdır. Əgər verilmişsə, həmin sərəncamların predmeti olan və olmayan bütün miras kütləsi (vəsiyyət tapşırığını və ya ümumi faydalı məqsədlər üçün hər hansı hərəkəti yerinə yetirməkdən ötrü nəzərdə tutulan əmlak) hesaba alınmaqla uşaqların, valideynlərin və arvadın-ərin bu mirasdan qanun üzrə vərəsəliklə almalı olduqları payı müəyyən etməlidir. Həmin payın yarısı isə məcburi paydır ki, məhkəmə qeyd olunan sərəncamlarla onun pozulub-pozulmadığını aydınlaşdırmalıdır. Bunun üçün həmin vərəsələrin bütün mirasdan almalı olduqları dəyər tapılmalı və qanun üzrə vərəsəlik qaydasında bu dəyəri əldə edib-etmədikləri (yaxud mirasın bölüşdürülməsi ilə onu əldə edib-etməyəcəkləri) yoxlanılmalıdır. Bu yoxlama nəticəsində vəsiyyət edilən (bağışlanan) əmlakın miras kütləsinin hansı məbləğdə olan hissəsini əhatə etdiyi, dolayısı ilə miras qoyanın verdiyi sərəncamların qanunla müəyyən edilən həddi aşıb-aşmadığı (məcburi pay sahiblərinin almalı olduqları minimum paya müdaxilə edib-etmədiyi) məlum olur.

Əgər məcburi paya müdaxilə aşkar edilirsə hüququ pozulan vərəsənin vəsiyyət (hədiyyə) edilən əmlak hesabına məcburi payının pozulan məbləğdə (tam və ya qismən) tamamlanmasını tələb etmək hüququ yaranır. Bu qayda Mülki Məcəllənin 1200 və 1201-ci maddələrində açıqca göstərilmişdir. Həmin normalara görə, məcburi pay almaq hüququ olan şəxs bu paydan az əmlak aldıqda çatışmayan hissənin tamamlanmasını tələb edə bilər.

Əgər vərəsə mirasdan qanun üzrə vərəsəliklə almalı olduğunun yarısından artıq dəyərdə əmlak qazanmışsa, bu o deməkdir ki, onun məcburi payı pozulmamışdır. Vərəsə mirasda məcburi pay hüququ əsasında almalı olduğu minimum aktivi əldə etmişsə, miras qoyanın bu aktivin xaricində qalan əmlakına verdiyi sərəncam vərəsənin mənafeyinə xələl gətirmiş sayılmır. Belə olan halda miras qoyanın sərbəst şəkildə vəsiyyət etmək və ya bağışlamaq imkanı olan əmlakdan həmin vərəsəyə pay verilməsinin əxlaqi səbəbi və qanuni əsası olmur. Buna məhəl qoyulmadan vəsiyyət edilən (bağışlanan) əmlaka "məcburi pay" adı altında vərəsənin hüququnun tanınması bu münasibətləri tənzimləyən normaların məqsədlərinə zidd olmaqla yanaşı, ədalətsiz vəziyyətin yaranmasına da səbəb olur.

Əks yanaşma miras qoyanın öz əmlakı barəsində sərbəst sərəncam vermək hüququnun əsasız məhdudlaşdırılmasına, vərəsənin miras qoyanın iradəsinə və qanunazidd şəkildə varlanmasına, bununla məcburi pay institutunun məqsədinin aşılmasına, nəticə etibarilə Azərbaycan Respublikasının Konstitusiyası ilə təminat altına alınmış mülkiyyət və vərəsəlik (vəsiyyət etmə və vərəsə olma) hüquqlarının kobud şəkildə pozulmasına səbəb olur.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-1192/2022

01.06.2022-ci il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi
Mülki kollegiyasının
İddiaçının Cavabdehə qarşı iş üzrə

Q Ə R A R I

(Açar sözlər: mirasda məcburi payın anlayışı və məqsədi, məcburi payın həcminin müəyyənləşdirilməsi)

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyası, hakimlər Əliyev Zaur Əli oğlu (məruzəçi), Xələfov İlqar Rəhim oğlundan və Hüseynov Abiddin Qabil oğlundan ibarət tərkibdə,

Şəki Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(107)-1605/2021 nömrəli iş üzrə 15 oktyabr 2021-ci il tarixli qətnaməsindən iddiaçı və Cavabdehin verdiyi kassasiya şikayətləri üzrə mülki işə Ali Məhkəmənin inzibati binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları

1. Mübahisə iddiaçı və Cavabdehin atası X1-dən miras qalmış əmlaka vərəsəlik paylarının müəyyən edilməsi ilə bağlıdır.

2. İşə mahiyyəti üzrə baxan məhkəmələr müəyyən etmişlər ki, miras qoyan X1 09.11.2018-ci ildə ölmüşdür. Miras kütləsinə daxil olan əmlak aşağıdakılardan ibarətdir:

- Ünvan 1-də 0.1240 ha torpaq sahəsi (X1, CAVABDEH və X3-ün iştirak etdiyi ümumi birgə mülkiyyət);
- Ünvan 1-də 0.1240 ha torpaq sahəsində yerləşən fərdi yaşayış evi (tam payla mülkiyyət);
- Ünvan 1-də 0.9782 ha torpaq sahəsi (X1, CAVABDEH, X3 və X4-ün iştirak etdiyi ümumi birgə mülkiyyət);
- Ünvan 1-də 0.20 ha torpaq sahəsi sahəsi (X1, CAVABDEH və X3-ün iştirak etdiyi ümumi birgə mülkiyyət);
- Ünvan 1-də 0.15 ha torpaq sahəsi sahəsi (X1, CAVABDEH və X3-ün iştirak etdiyi ümumi birgə mülkiyyət);

3. Miras açılan vaxt X1-in sağ olan vərəsələri - oğlu CAVABDEH, qızı X3, oğlu X5, qızı İddiaçı və arvadı X6 (15.04.2019-da ölüb) olmuşdur.

4. Eyni zamanda, miras qoyan X1, 30.06.2013-cü il tarixli vəsiyyətnamə ilə Ünvan 1-dəki 0.1240 ha torpaq sahəsi və onun üzərində yerləşən evini oğlu Cavabdehə vəsiyyət etmişdir.

İş üzrə qəbul edilmiş məhkəmə aktları:

a) Birinci instansiya məhkəməsində icraat

5. İddiaçı Cavabdehə qarşı məhkəmədə iddia qaldıraraq, mərhum atası X1-dən miras qalmış Ünvan 1-də yerləşən DƏDRX-in 18 saylı Zaqatala Ərazi İdarəsi tərəfindən verilmiş **** nömrəli çıxarışa əsasən onun qanuni mülkiyyəti olmuş 0,1240 ha torpaq sahəsinin 1/6 hissəsinə və həmin torpaq sahəsində yerləşən 107,10 kv.m. fərdi yaşayış evinə, DƏDRXnin 18 saylı Zaqatala Ərazi İdarəsi tərəfindən verilmiş ******* nömrəli çıxarışa əsasən onun qanuni mülkiyyəti olmuş 0,9782 ha torpaq sahəsinin ¼ hissəsinə, torpağın mülkiyyətə verilməsinə dair JN-***B nömrəli şəhadətnaməyə əsasən onun qanuni mülkiyyəti olmuş 0,20 ha torpaq sahəsinin 1/6 hissəsinə və torpağın mülkiyyətə verilməsinə dair JN-***C nömrəli şəhadətnaməyə əsasən onun qanuni mülkiyyəti olmuş 0,15 ha torpaq sahəsinin 1/6 hissəsinə vərəsəliyin açılması, həmin daşınmaz əmlakların onun mülkiyyətinə verilməsi, mərhum atası X1 və mərhum anası X6ya məxsus əmlakdan mərhumlara aid hissələrdə vərəsəlik hüququnun ona verilməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

6. İddiaçı tələblərini onunla əsaslandırmışdır ki, atası X1 09 noyabr 2018ci ildə vəfat etmişdir. Atasının vəfatından sonra Ünvan 1-də yerləşən DƏDRX-nin 18 saylı Zaqatala Ərazi İdarəsi tərəfindən verilmiş **** nömrəli çıxarışa əsasən onun qanuni mülkiyyəti olmuş 0,1240 ha torpaq sahəsinin 1/6 hissəsi və həmin torpaq sahəsində yerləşən 107,10 kv.m. fərdi yaşayış evi, DƏDRX-nin 18 saylı Zaqatala Ərazi İdarəsi tərəfindən verilmiş **** nömrəli çıxarışa əsasən onun qanuni mülkiyyəti olmuş 0,9782 ha torpaq sahəsinin ¼ hissəsi, torpağın mülkiyyətə verilməsinə dair JN-***B nömrəli Şəhadətnaməyə əsasən onun qanuni mülkiyyəti olmuş 0,20

ha torpaq sahəsinin 1/6 hissəsi və torpağın mülkiyyətə verilməsinə dair JN-****C nömrəli Şəhadətnaməyə əsasən onun qanuni mülkiyyəti olmuş 0,15 ha torpaq sahəsinin 1/6 hissəsi miras əmlak olaraq qalmışdır. Anası X6 15 aprel 2019-cu il tarixdə vəfat etmişdir. Atasının vəfatından sonra ondan miras qalmış əmlaka o və anası, anasının vəfatından sonra isə tək o sahiblik etmiş və mirası faktiki olaraq qəbul etmişdir. Təsərrüfatı özü idarə edir. Miras əmlakının bölgüsü ilə əlaqədar tərəfindən Zaqatala rayon notariat kontorunun şəxsi notariusuna müraciət olunmuş, lakin Cavabdehlə aralarında mübahisənin olması səbəbindən notariat əməliyyatından imtina edilmişdir. Bundan başqa, miras qalmış əmlakda həm də onun anasının payı vardır və anası 15 aprel 2019-cu il tarixdə vəfat etdiyindən onun əmlakı da miras qalmışdır. O, anasından miras qalmış əmlakın qəbulu ilə əlaqədar vərəsəlik hüququ haqqında şəhadətnamə almışdır. Mülki Məcəllənin tələbinə görə miras qalmış əmlakın bir hissəsinin qəbul edilməsi yerdə qalan bütün mirası qəbul etmək kimi qəbul olunur. Vərəsəlik hüququnu tələb etdiyi miras əmlak atası və anasının ümumi birgə mülkiyyətində olaraq mülkiyyət sənədlərində həm də anasının adı olduğundan anaya aid hissələrə də vərəsəlik hüququ verilməlidir. Belə ki, 0,1240 ha torpaq sahəsinin mərhum atasına hissənin ½-i və anasına düşən hissənin tam hissəsi üzərində, evin isə 1/2 hissəsinə - belə ki, ev tam olaraq atasına məxsusdur, anası sonra ölüb, atasından anasına düşən pay və atasından düşən pay toplanaraq ona verilməlidir. Atasının cəmi 4 nəfər vərəsəsi olduğundan anasına düşən pay ilə özünün payı evin 1/2-i təşkil edir. 0,1240 ha torpaq 6 nəfərə məxsus olduqda və paylar bərabərdirsə adam başına 0.021 ha düşür. Atasının payı - 0,021 ha - 4 nəfər vərəsəyə bölünür. Anası öldüyü üçün ona düşən pay ona verilir, yəni 0,021:4=0,005 ha, ona- 0,005, Cavabdeh - 0,005, mərhum digər vərəsəsi X3 - 0,005, onun payı ilə (0,005) anasının payı toplandıqda 0,005Cavabdeh=0,01 ha. Deməli, həyətyanı sahədən atasının payından 0,001 ha üzərində vərəsəlik hüququ ona verilməlidir, (yəni, ½ hissəsi), eyni qaydada evin 1/2 hissəsi üzərində vərəsəlik hüququ ona verilməlidir. 0,9782 ha torpaq sahəsinə dair vərəsəlik hüququ aşağıdakı qaydada verilməlidir. 0,9782:4=0,24 ha atasının payıdır. Həmin payın yarısı ona və məhrum anasına yəni 0,12 ha hissəsi üzərində vərəsəlik hüququ iddiaçıya verilməlidir. JN *** saylı torpaq şəhadətnaməsində qeyd olunan- 0,20 ha torpaq, 0,20 ha : 6=0,03 ha - atasının payı. Atasının payının 1/4 hissəsi anasına, 1/4 hissəsi ona, anası öldüyü üçün anasının payı ona verilir, deməli 1/4 + 1/4 = 1/2 hissə, yəni 0.20 ha torpağın atasına düşən payı olan 0,03 hektarın 1/2 hissəsinə iddiaçıya vərəsəlik hüququ verilməlidir. Həmin torpaqda 0,03 ha onun anasının payı hamısı iddiaçıya düşür. Çünki qardaşı X7 payını ona verir. Anasının payından 0.03 ha üzərində ona vərəsəlik verilməlidir. JN ****C - 0,15 ha torpaq da eyni qaydada 0,15 ha:6 nəfər=0,025 hər adama düşən pay. Atasından iddiaçıya və anasına düşən, yəni, 0,025 ha yarısı, yəni, 1/2 hissəsi və həmin yerdə anasına düşən 0,025 ha hissəsinin hamısı, yəni 0,0375 +0,025+0,025=0,0875 ha.

7. Birinci instansiya məhkəməsindəki icraatda iştirak edən Cavabdeh iddiaya etiraz edərək, onun rədd edilməsini xahiş etmişdir.

8. Zaqatala Rayon Məhkəməsinin 20 may 2021-ci il tarixli, 2(033)-21/2021 nömrəli qətnaməsi ilə (hakim E.Məmmədov) iddia qismən təmin edilərək, Ünvan 1-də yerləşən Seriya RX N **** saylı çıxarış əsasında tam olaraq mərhum X1-in mülkiyyətində olan 107 kv.m. sahədən ibarət fərdi yaşayış evinə münasibətdə 2/4 hissəsinə, Seriya RX N **** saylı çıxarış əsasında verilmiş 0,9782 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsinə münasibətdə isə mərhuma düşən payın 2/4 hissəsinə, həmçinin JN-***B KOD *** saylı torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə üzrə mərhumun payının ¼ hissəsi və JN-***C KOD *** saylı torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə üzrə mərhuma düşən payın 2/4 hissəsinə iddiaçıya vərəsəlik hüququnun verilməsi qət edilmişdir.

9. Birinci instansiya məhkəməsi mövqeyini belə əsaslandırmışdır ki, qanuni qüvvəyə minmiş Şəki İnzibati Məhkəməsinin qətnaməsi ilə iddiaçının hazırkı iş üzrə təqdim etdiyi hüquq müəyyənedici sənədlər - JN****. JN****B və JN***** nömrəli torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamələrin, həmçinin RX seriyalı **** nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarışın mərhum X6 (iddiaçının anası) X7 və iddiaçının mülkiyyət hüququnun qeydə alınması hissəsində ləğv edilməsi öhdəliyi Cavabdeh 18 saylı Ərazi İdarəsinin üzərinə qoyulmuşdur. Belə olduğu təqdirdə isə təqdim edilmiş dörd sayda mülkiyyət hüququnu təsdiq edən sənədlər üzrə iddiaçının mülkiyyət hüququ qətnamə ilə ləğv edildiyindən həmin sənədlər üzrə payların ayrılmasından söhbət gedə bilməz. Yəni tələbin həmin hissəsinə münasibətdə məhkəmə tələblə razılaşmır.

10. Məhkəmə, tələbin mərhumlara münasibətdə iddiaçıya vərəsəlik hüququnun verilməsi hissəsini isə əsaslı hesab etmişdir. Belə ki, Seriya RX N **** saylı çıxarış üzrə ümumi birgə mülkiyyətçilərdən X6, X7 və iddiaçının hüququ artıq qətnamə ilə ləğv edildiyindən həmin sənəd üzrə mülkiyyətçilər mərhum X1 və X3 qalır. X6 iddiaçının anası olduğundan və mərhum sonra öldüyündən onun vərəsəlik üzrə payı iddiaçıya keçir. Mülkiyyət sənədi üzrə fərdi yaşayış evi tam olaraq mərhum X1-in mülkiyyətində olduğundan və növbəli vərəsələr arvadı (mərhum X6) qızı iddiaçı, oğlu Cavabdeh və qızı X3 olduğundan iddiaçının evə münasibətdə 2/4 hissəyə vərəsəlik hüququ yaranmış olur.

11. Seriya RX N ******* saylı çıxarış əsasında verilmiş 0,9782 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsinə münasibətdə isə iddiaçının mərhum atasına düşən hissənin 2/4 hissəsinə, həmçinin JN-** KOD ***** saylı torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə üzrə mərhum X1-in payının 2/4 hissəsi və JN-**** KOD **** saylı torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə üzrə mərhum X1-ə düşən payın 2/4 hissəsinə iddiaçıya vərəsəlik hüququ verilməlidir.

b) Apellyasiya instansiyası məhkəməsində icraat

12. Cavabdeh apellyasiya şikayəti verərək, birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv edilməsini, iddianın rədd olunmasını xahiş etmişdir.

13. Şəki Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 2(107)-1605/2021 nömrəli, 15 oktyabr 2021-ci il tarixli Qərardadı ilə (hakim A.A.Mahmudovun sədrliyi və məruzəsi ilə, hakimlər Ə.T.Məcidovdan və M.A.Əsədlidən ibarət tərkibdə) birinci instansiya məhkəməsinin qətnaməsi iddianın "vərəsəliyin açılması" hissəsində ləğv edilərək, iş üzrə icraata bu hissədə xitam verilmiş, həmin tarixli Qətnamə ilə apellyasiya şikayəti qismən təmin olunmuş, birinci instansiya məhkəməsinin qətnaməsi tamamilə ləğv edilərək, iddia qismən təmin edilmiş, iddiaçının miras qoyan (atası) X1-dən (irsi transmissiya üzrə X6dan) miras qalmış - (vəsiyyət olunan) RX **** seriya nömrəli çıxarış əsasında Ünvan 1-də yerləşən, ümumi sahəsi 107.10 kv.m olan fərdi yaşayış evində miras payı -2/6 hissə; həmin fərdi yaşayış evinin yerləşdiyi 0,1240 ha həyətyanı torpaq sahəsində miras payı-2/18 hissə; JN *** Dövlət Aktı əsasında Ünvan 1-də yerləşən, 0,20 ha kənd təsərrüfatlı torpaq sahəsində qanun üzrə vərəsəlik payı -2/9 hissə; JN *** Dövlət Aktı əsasında Ünvan 1-də yerləşən 0,15 ha kənd təsərrüfatlı torpaq sahəsində qanun üzrə vərəsəlik payı -2/9 hissə və RX *** seriya nömrəli çıxarış əsasında Ünvan 1-də yerləşən 0,9782 ha kənd təsərrüfatlı torpaq sahəsində qanun üzrə vərəsəlik payı -2/12 hissə müəyyən edilmiş, iddia qalan hissədə təmin edilməmişdir.

14. Apellyasiya instansiya məhkəməsi mövqeyini belə əsaslandırmışdır ki, mərhum X1 ilə X6 ar-arvad olmuş, iddiaçı da onların qızıdır. X1 09.11.2018-ci ildə, arvadı X6 isə 15.04.2019-cu ildə vəfat etmişdir. İş üzrə Cavabdeh də mərhum X1-in oğlu olmaqla birinci dərəcəli vərəsəsidir. Miras qoyan X1 öləndən sonra ondan miras qalmış əmlak arvadı X6, qızı iddiaçı və oğlu Cavabdeh tərəfindən idarə olunaraq, miras faktiki qəbul olunmuşdur. X1-in vəfatından

sonra, onun, X3-ün və Cavabdehin ümumi birgə mülkiyyətlərində olan, Ünvan 1-də ayrıayrı şəhadətnamələrlə qeydə alınmış 0,1240 ha (seriya RX ****) həyətyanı torpaq sahəsi (torpaq sahəsinin üzərindəki fərdi yaşayış evi tam hüquqla X1-ə məxsusdur), 0,20 ha (JN **), 0,15 ha (JN **) kənd təsərrüfatlı və mərhumun, X4, X3 və Cavabdehin ümumi birgə mülkiyyətlərində olan 0,9782 ha kənd təsərrüfatlı torpaq sahəsi (RX ******) qalmışdır.

15. Kollegiya araşdırmanı davam etdirərək qeyd etmişdir ki, iddiaçının mübahisələndirdiyi torpaq sahələri - Şəki İnzibati Məhkəməsinin 2-1(116)-1086/2020 nömrəli qərarı ilə JN****. JN*** və JN*** nömrəli torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamələrin, həmçinin RX seriyalı **** nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarışın mərhum X6, X7 və iddiaçının mülkiyyət hüququnun qeydə alınması hissəsində ləğv edilməsi öhdəliyi Cavabdeh 18 saylı Ərazi İdarəsinin üzərinə qoyulmuşdur. Qətnamə qanuni qüvvəsini almışdır.

16. Göründüyü kimi, RX **** seriya nömrəli çıxarış üzrə 0,1240 ha həyətyanı torpaq sahəsi, 0,20 ha (JN **) və 0,15 ha (JN **) kənd təsərrüfatlı torpaq sahələrinin hər biri 3 nəfər şəxsin ümumi birgə, RX *** seriya nömrəli- 0,9782 ha kənd təsərrüfatlı torpaq sahəsi isə 4 nəfər şəxsin ümumi birgə mülkiyyətindədir.

17. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 223.3-cü maddəsinin tələbinə görə ümumi əşya bölünərkən və ondan pay ayrılarkən mülkiyyətçilərin payları, əgər onların razılaşmasında ayrı qayda nəzərdə tutulmayıbsa, bərabər sayılır.

18. Kollegiyanın araşdırması zamanı həmçinin müəyyən edilmişdir ki, miras qoyan X1 30 iyun 2013-cü il tarixdə Ünvan 1-də yerləşən evə və həmin evin torpağını oğlu Cavabdehə vəsiyyət etmiş, vəsiyyətnamə halhazıradək qüvvədədir.

19. Beləliklə, işin müəyyən edilmiş hallarına görə, miras qoyanlardan üç ayrı torpaq sahəsi miras qalmış və miras qoyanlar ancaq həmin sahələrdən birində yerləşən evdə yaşamışlar. Həmçinin, miras qoyanların ölümündən sonra mirasın iddiaçı və Cavabdeh tərəfindən faktiki qəbul edildiyi də işin mübahisəsiz halıdır. İddiaçı həmçinin anası X6dan miras qalmış əmlakı-pul vəsaitini (758.97 manatı) 10.06.2019-cu il tarixli vərəsəlik hüququ haqqında şəhadətnamə əsasında rəsmi qaydada qəbul etmişdir.

20. Apellyasiya kollegiyası Mülki Məcəllənin vərəsəliklə bağlı normalarına istinad edərək miras qalmış əmlaklara dair iddiaçının vərəsəlik payının bölgüsünü aşağıdakı qaydada aparmışdır.

21. Kollegiya ilk olaraq bildirmişdir iddiaçının anası X6 miras qoyan X1-dən sonra öldüyündən və sağlığında ərindən miras qalmış əmlakı faktiki qaydada qəbul etdiyindən, sonuncunun da payı irsi transmissiya qaydasında iddiaçıya keçəcəkdir (Mülki Məcəllənin 1252-ci maddəsi). Çünki məcburi payı tələb etmək hüququ mirasın açıldığı an əmələ gəlir. Bu cür tələb hüququ vərəsəlik üzrə keçir. (Mülki Məcəllə 1194-cü maddə). Fərdi yaşayış evi və onun yerləşdiyi torpaq sahəsinə münasibətdə vəsiyyət üzrə vərəsəliyin normaları, qalan torpaq sahələrinə münasibətdə isə qanun üzrə vərəsəlik hüquq normaları tətbiq ediləcəkdir.

22. 1-ci əmlak üzrə (vəsiyyət olunan) i/m səh-9; RX **** seriya nömrəli çıxarış əsasında fərdi yaşayış evi tam mülkiyyət hüququ ilə miras qoyan X1-ə məxsus olduğundan vəsiyyətnamə nəzərə alınmaqla bölgü aparılmalı və iddiaçının payı evlə bağlı yalnız məcburi paya münasibətdə müəyyən edilməlidir. Beləliklə, fərdi yaşayış evində iddiaçının və anası X6nın məcburi vərəsəlik payı-1/6-dir (riyazi açıqlaması- İddiaçı, X6 və Cavabdeh. 1/3:2 (vəsiyyətnamə üzrə yarısı)=1/6) X6nın payı irsi transmissiya qaydasında qızı iddiaçıya verilməlidir.

23. Həmin fərdi yaşayış evinin yerləşdiyi 0,1240 ha həyətyanı torpaq sahəsi 3 nəfərin ümumi birgə mülkiyyətdə olduğundan miras qoyan X1-in payı 1/3-dir. Deməli, 1/3 hissə yenə 3 vərəsə (İddiaçı, X6 və Cavabdeh) arsında bölünməlidir (1/3:3=1/9, vəsiyyətnamə olduğuna

görə iddiaçının və X6-nın yalnız məcburi payı (çatacaq payın yarısı) yaranır, 1/9:2=1/18. (1/18 pay İddiaçı, 1/18 pay X6, qalan pay Cavabdeh).

24. 2-ci əmlak üzrə (i/m səh-16-18); JN **** Dövlət Aktı əsasında 0,20 ha kənd təsərrüfatlı torpaq sahəsi 3 nəfərin ümumi birgə mülkiyyətdə olduğundan miras qoyan X1-in payı 1/3-dir. Deməli, 1/3 hissə 3 vərəsə (İddiaçı, X6 və Cavabdeh) arsında bərabər qaydada bölünməli (hər birinə 1/9 pay), X6nın payı irsi transmissiya qaydasında qızı iddiaçıya verilməlidir. Beləliklə bu torpaq sahəsində iddiaçının qanun üzrə vərəsəlik payı 2/9 hissə (1/9 iddiaçının + 1/9 anası X6-nın) olacaqdır.

25. 3-ci əmlak üzrə (i/m səh-18-21); JN **** Dövlət Aktı əsasında 0,15 ha kənd təsərrüfatlı torpaq sahəsi də 3 nəfərin ümumi birgə mülkiyyətdə olduğundan miras qoyan X1-in payı 1/3-dir. Deməli, 1/3 hissə 3 vərəsə (İddiaçı, X6 və Cavabdeh) arasında bərabər qaydada bölünməli (hər birinə 1/9 pay), X6nın payı irsi transmissiya qaydasında qızı iddiaçıya verilməlidir. Beləliklə, bu torpaq sahəsində də iddiaçının vərəsəlik payı 2/9 hissə (1/9 iddiaçının + 1/9 anası X6-nın) olacaqdır.

26. 4-cü əmlak üzrə; RX **** seriya nömrəli çıxarış əsasında (i/m səh-14-15); 0,9782 ha kənd təsərrüfatlı torpaq sahəsi 4 nəfərin ümumi birgə mülkiyyətdə olduğundan miras qoyan X1-in payı 1/4-dir. Deməli, 1/4 hissə 3 vərəsə (İddiaçı, X6 və Cavabdeh) arsında bərabər qaydada bölünməli (hər birinə 1/12 pay), X6nın payı irsi transmissiya qaydasında qızı iddiaçıya verilməlidir. Beləliklə bu torpaq sahəsində iddiaçının qanun üzrə vərəsəlik payı 2/12 hissə (1/12 iddiaçının + 1/12 anası X6-nın) olacaqdır.

Kassasiya şikayətinin və ona etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

27. İddiaçı kassasiya şikayəti verərək, apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv edilməsini, işin yeni apellyasiya baxışına qaytarılmasını xahiş etmişdir.

28. Həmin şikayət belə əsaslandırılmışdır ki, birinci instansiya məhkəməsi mərhum tərəfindən mübahisəli evə dair vəsiyyətnamə olmasını nəzərə almamış, buna görə də apelyasiya instansiya məhkəməsi mərhum X1 tərəfindən yazılmış vəsiyyətnaməni əsas götürərək yaşayış evində olan payları müəyyən etmişdir. Lakin apelyasiya məhkəməsi vəsiyyətnaməyə və evin mülkiyyət hüququnu müəyyən edən sənədlərə düzgün qiymət verməmişdir. Belə ki, mərhumun yazdığı vəsiyyətnaməni 30 iyun 2013-cü ildə tərtib etmişdir. Vəsiyyətnamədə qeyd olunmuşdur ki, Ünvan 1-də yerləşən təzə tikilmiş fərdi yaşayış evini və həmin torpaq sahəsini oğlu Cavabdehə vəsiyyət etmişdir. Mübahisəli evə verilmiş çıxarışdan görünür ki, evin texniki pasportunun axırıncı səhifəsində evin qeydiyyata alınmasına əsas olmuş sənədlərin siyahısı göstərilmişdir. Buradan görünür ki, həmin evin qeydiyyata alınmasına əsas Zaqatala RİHB-nın 4/-*** saylı 04 fevral 2014-cü il tarixli məktubu olmuşdur. Həmçinin, həmin ev dövlət tərəfindən zəlzələdə zərər çəkmiş evlərin əvəzində tikilmiş ev olmuş və onun qeydiyyata alınması üçün sənəd 2014-cü ildə verilmişdir. Mərhum atasının 2013-cü ildə yazdığı vəsiyyətnamədə təzə tikilmiş ev isə onun reyestrdə qeydiyyata alınmamış ikinci evi olmuşdur. Həmin ev başqa torpaq sahəsində yerləşdiyindən, hesab edir ki, sözügedən vəsiyyətnamə mübahisəli evə şamil olunmamalıdır. Mübahisəli ev dövlət tərəfindən tikilmiş və bütün ailə üzvlərinə bərabər hüquqa malik bir evdir. Ona görə də, həmin evə dair vəsiyyətnamə yazılarkən, digər ailə üzvlərinin razılığı tələb olunurdu. Dövlət tərəfindən tikilmiş evin təkcə atasına məxsus olması kimi qeydiyyata alınması səhv olmuşdur. Tərəfindən qeydiyyata alma orqanına qeydiyyata düzəliş edilməsi, onun həmin evdə mülkiyyətçi olduğu nəzərə alınaraq qeydiyyat aparılması barədə müraciət olunmuşdur.

29. Cavabdeh də kassasiya şikayəti verərək, apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv olunmasını, iddianın rədd olunmasını xahiş etmişdir.

30. Bu şikayət belə əsaslandırılmışdır ki, məhkəmənin qətnaməsində istinad etdiyi ***, JN-*** və JN-*** nömrəli torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamələr və RX seriyalı **** nömrəli çıxarış qüvvədə deyil. Belə olduğu halda həmin sənədlərə istinadən vərəsəlik hüququnun müəyyənləşdirilməsi qanunsuz və əsassızdır. Şəki İnzibati Məhkəməsinin qərarı ilə işin müəyyən edilmiş hallarından da məlum olur ki, məhkəmənin qətnaməsində istinad etdiyi həmin sənədlərdə X6, X7 və iddiaçının adı səhv qeyd edilmiş, həmçinin qeyd olunan torpaq sahələri Zaqatala Rayon Aqrar İslahat Komissiyasının qərarına əsasən X1 ilə yanaşı, Cavabdehin, X3 və X4-ün ümumi birgə mülkiyyətinə verilmişdir. Belə olan halda X1-ə çatacaq pay apellyasiya məhkəməsinin müəyyən etdiyi kimi 1/3 yox, 1/4 olacaqdı. Lakin məhkəmənin qeyd olunan xüsusatı nəzərə almaması səbəbindən, vərəsələrə çatacaq pay da düzgün bölünməmişdir.

31. Mərhumun vərəsələrindən biri də X3-dür. Lakin, işə baxan məhkəmə vərəsələr arasında payı müəyyən edərkən miras əmlakın (torpaq sahələrinin) payçılarından biri olan və mirası faktiki olaraq qəbul edən X3-ün payını nəzərə almamış, bununla da iddiaçıya çatacaq pay hədsiz artmışdır.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

32. Kassasiya şikayətlərinə qarşı yazılı etiraz daxil olmamışdır.

Tətbiq edilən hüquq:

Azərbaycan Respublikasının Konstitusiyası:

33. Maddə 13, hissə 1. Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur.

34. Maddə 29, hissə 1, 2 və 5. Hər kəsin mülkiyyət hüququ vardır. Mülkiyyətin heç bir növünə üstünlük verilmir. Mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ qanunla qorunur. Dövlət vərəsəlik hüququna təminat verir.

Azərbaycan Respublikasının Mülki Məcəlləsi:

35. Maddə 152.1. Mülkiyyət hüququ - subyektin ona mənsub əmlaka (əşyaya) öz istədiyi kimi sahib olmaq, ondan istifadə etmək və ona dair sərəncam vermək üzrə dövlət tərəfindən tanınan və qorunan hüququdur.

36. Maddə 152.4. Sərəncam hüququ - əmlakın (əşyanın) hüquqi müqəddəratını təyin etməyin hüquqi cəhətdən təmin edilmiş imkanıdır.

37. Maddə 152.5. Mülkiyyətçi qanunda və ya müqavilədə müəyyən edilən məhdudiyyətlər nəzərə alınmaqla müəyyənləşdirilmiş hədlərdə əmlaka (əşyaya) sərbəst surətdə sahib ola bilər, ondan istifadə edə bilər və ona dair sərəncam verə bilər, həmin əmlaka başqa şəxslərin sahibliyinə yol verməyə bilər, ona mənsub əmlak barəsində öz mülahizəsi ilə istənilən hərəkətləri edə bilər, bir şərtlə ki, həmin hərəkətlər qonşuların və ya üçüncü şəxslərin hüquqlarını pozmasın, yaxud hüquqdan sui-istifadə olmasın.

38. Maddə 1133.1. Ölmüş şəxsin (miras qoyanın) əmlakı başqa şəxslərə (vərəsələrə) qanun üzrə və ya vəsiyyət üzrə və ya hər iki əsasla keçir.

39. Maddə 1133.2. Qanun üzrə vərəsəlik (ölmüş şəxsin əmlakının qanunda göstərilmiş şəxslərə keçməsi) o zaman qüvvədə olur ki, miras qoyan vəsiyyətnamə qoymur, yaxud vəsiyyətnamə tamamilə və ya qismən etibarsız sayılır.

40. Maddə 1145. Miras fiziki şəxsin ölümü və ya məhkəmə tərəfindən ölmüş elan edilməsi ilə açılır.

41. Maddə 1151.1. Mirasa (miras əmlaka) miras qoyanın öldüyü məqamadək malik olduğu əmlak hüquqlarının (miras aktivi) və vəzifələrin (miras passivi) toplusu daxildir.

42. Maddə 1159.1.1. Ölənin uşaqları, miras qoyanın ölümündən sonra doğulmuş uşaq, arvad (ər), valideynlər (övladlığa götürənlər) qanun üzrə vərəsəlik zamanı bərabər pay hüquqlu birinci növbədə vərəsədirlər.

43. Maddə 1166. Fiziki şəxs ölməsi halı üçün öz əmlakını və ya onun bir hissəsini həm vərəsələr sırasından, həm də kənar adamlar sırasından bir və ya bir neçə şəxsə qoya bilər.

44. Maddə 1170.1 Vəsiyyət edən vəsiyyətnamə ilə təyin edilmiş vərəsələrin miras paylarını müəyyənləşdirə bilər və ya hansı vərəsəyə hansı əmlakın verildiyini konkret göstərə bilər. Əgər vəsiyyətnamədə bu cür göstəriş yoxdursa, miras vərəsələr arasında bərabər bölüşdürülür.

45. Maddə 1176.1. Vəsiyyət edən qanun üzrə vərəsələrdən birini, bir neçəsini və ya hamısını vəsiyyətnamə ilə mirasdan məhrum edə bilər və bunu əsaslandırmağa borclu deyildir.

46. Maddə 1193. Vəsiyyət edənin uşaqlarının, valideynlərinin və arvadının (ərinin) vəsiyyətnamənin məzmunundan asılı olmayaraq mirasda məcburi payı vardır. Bu pay qanun üzrə vərəsəlik zamanı onlara çatası payın yarısını (məcburi pay) təşkil etməlidir.

47. Maddə 1195. Məcburi payın tam həcmi vəsiyyət tapşırığını və ya ümumi faydalı məqsədlər üçün hər hansı hərəkəti yerinə yetirməkdən ötrü nəzərdə tutulan əmlak da daxil olmaqla, bütün mirasdan müəyyənləşdirilir.

48. Maddə 1196. Vərəsələrdən hər birinin məcburi payı müəyyənləşdirilərkən əgər vəsiyyətnamə olmasaydı, miras almağa çağırıla biləcək qanun üzrə vərəsələrin hamısı nəzərə alınmalıdır. Vəsiyyət üzrə vərəsələr nəzərə alınmır.

49. Maddə 1200. Miras qoyan əşyanı üçüncü şəxsə bağışladıqda, məcburi paya hüququ olan şəxs, əgər bağışlanmış əşya mirasa daxil olsaydı, onun məcburi payının arta biləcəyi məbləğdə məcburi payın tamamlanmasını tələb edə bilər. Əgər mirasın açıldığı vaxtadək hədiyyənin verilməsindən iki il keçirsə, hədiyyə hesaba alınmır.

50. Maddə 1201. Əgər məcburi pay almaq hüququ olan şəxsə onun qanun üzrə vərəsəlik zamanı ala biləcəyi payın yarısından az əmlak vəsiyyət edilmişdirsə, o, vəsiyyət üzrə aldığı payın qanun üzrə vərəsəlik zamanı ala biləcəyi payın yarısından az olduğu hissəni tələb edə bilər.

51. Maddə 1203.1. Məcburi pay almaq hüququndan məhrumetmə, ümumiyyətlə, vərəsəlik hüququndan məhrumetməyə səbəb olan hallar olduqda mümkündür.

52. Maddə 1203.2. Məcburi pay almaq hüququndan məhrumetməni miras qoyan hələ öz sağlığında məhkəməyə müraciət etmək yolu ilə həyata keçirə bilər.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi:

53. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

54. Maddə 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

55. Maddə 217.3. Qətnamə iş üzrə müəyyən edilmiş hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır.

56. 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

Kassasiya baxışının hədləri:

57. Kassasiya şikayətlərində apellyasiya instansiyası məhkəməsi aktının tam ləğvi xahiş edildiyinə görə məhkəmə bütövlükdə tam yoxlanılır.

58. Kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apelyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq

olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

59. Apellyasiya məhkəməsi vərəsələr X3 və X5un mirası qəbul etmədiklərini, İddiaçı və Cavabdehin isə mirası qəbul etdiklərini, X6nın payının 15.04.2019-da ölməsi ilə bağlı vərəsəsi İddiaçıya keçdiyini, bu hesabla 3 vərəsə payının mövcudluğunu nəzərə alaraq, hər bir əşyaya münasibətdə iddiaçının payını müəyyənləşdirmişdir. Bu zaman məhkəmə miras qoyan tərəfindən vərəsə Cavabdehə çatması vəsiyyət edilən torpaq sahəsinə və evə iddiaçının və onun mərhum anasının tam həcmdə məcburi paylarını tanımışdır. Məcburi payın həcmi isə bütün mirasdan deyil, vəziyyətnamə qoyulmuş iki daşınmaz əşyaya münasibətdə müəyyənləşdirilmişdir. Belə ki, məhkəmə vəsiyyətin predmeti olan hər bir əşyadan onlara qanun üzrə vərəsəlik qaydasında çatası payın yarısını məcburi pay kimi müəyyən etmiş, X6nın ölümü ilə qızına keçən payı da nəzərə almaqla, İddiaçının evə 2/6, 0,1240 ha torpaq sahəsinə isə 2/18 vərəsəlik payını tanımışdır (§ 13-26).

60. Kollegiya aşağıdakılara əsasən hesab edir ki, məcburi payın həcminin yuxarıda göstərilən qaydada müəyyənləşdirilməsi maddi hüquq normalarına uyğun olmamışdır.

61. Məlum olduğu kimi, Mülki Məcəllənin 1193-cü maddəsinə görə, vəsiyyət edənin uşaqlarının, valideynlərinin və arvadının (ərinin) vəsiyyətnamənin məzmunundan asılı olmayaraq mirasda məcburi payı vardır. Bu pay qanun üzrə vərəsəlik zamanı onlara çatası payın yarısını (məcburi pay) təşkil etməlidir.

62. Məhkəmə kollegiyası əvvəlcə bu normada nəzərdə tutulan məcburi payın mahiyyətinə və məqsədinə, daha sonra isə onun həcminin müəyyənləşdirilməsi qaydasına nəzər salmağı vacib hesab edir.

63. Vərəsəlik hüququnda mövcud olan institut kimi məcburi pay, miras qoyanın sağlığında öz əmlakına verdiyi sərəncamların (ölümə bağlı sərəncam kimi vəsiyyətin, ölümündən qabaq iki il ərzində edilmiş bağışlamanın) qanunla məhdudlaşdırılmasıdır.

64. Məlum olduğu kimi, sərəncam hüququ, mülkiyyət haqqının ən mühüm komponentlərindən biri kimi mülkiyyətçiyə öz əmlakının hüquqi müqəddəratını həll etmək imkanı verir. Bu baxımdan hər kəs öz mülkiyyətində olan əmlaka sərəncam verməkdə sərbəstdir (§ 35-37).

65. Bununla belə, mülkiyyət hüququ əhatə etdiyi səlahiyyətləri həyata keçirmək baxımından mütləq deyil. Bu imkan başqa şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə qanunla müəyyən edilmiş qaydada məhdudlaşdırıla bilər (§ 37).

66. Bu məhdudiyyətlərdən biri də mülkiyyətçinin uşaqlarının, valideynlərinin və arvadının (ərinin) miras əmlakdan almalı olduqları minimum aktivdir – məcburi paydır. Başqa sözlə, miras qoyan öz əmlakını istədiyi şəxsə özgəninkiləşdirmək və ya vəsiyyət etmək hüququ, sadalanan şəxslərin almalı olduqları və qanunla müəyyən edilmiş həddə məhdudlaşdırılır. Beləliklə, şəxs arzu etsə də ölümündən sonra qanunun müəyyənləşdirdiyi yaxınlarına çatmalı olan miras dəyərlərini başqa şəxslərə verə və ya qanunun nəzərdə tutduğundan fəqli nisbətlərdə paylaşdıra bilməz.

67. Məcburi pay institutu miras qoyanın yaxın ailə üzvləri qarşısında olan maddi və mənəvi öhdəliklərindən irəli gəlir. Bu öhdəliklər çərçivəsində miras qoyanın ən yaxınlarını əmlakdan tamamilə məhrum etməsinin qarşısı alınır, onların minimum həcmdə əmlak almaları təmin edilir. Həmin şəxslərin məcburi pay gözləntiləri ailə bağlarının sıxlaşmasına, cəmiyyətin özəyi olan ailənin daha da möhkəmlənməsinə səbəb olmaqla ictimai bir fayda da təmin edir.

68. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi də “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1193 və 1200-cü maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair” 08.01.2021-ci il tarixli qərarında məcburi pay institutunun mahiyyəti ilə bağlı vurğulamışdır ki, “Vətəndaş cəmiyyətinin özəyini təşkil edən ailə üzvlərinin mənafeyinin digər şəxslərin mənafeyindən üstün olması ailə-təminat prinsipindən irəli gəlir. Bu prinsipə əsasən, mülkiyyətçiyə yaşadığı dövrdə məxsus olan əmlakın (əmlakın müəyyən hissəsinin) iqtisadi təminatı vəfatından sonra əsasən onun yaxın ailə üzvlərinə məxsus olmalıdır. Mülkiyyətçi yaşadığı dövrdə ona məxsus olan əmlak üzərində sərəncam vermək hüququna malik olmaqla yanaşı, öz övladları, habelə digər yaxın ailə üzvləri qarşısında müəyyən qədər Cavabdehlik daşıyır. Mülkiyyətçinin bu Cavabdehliyi onun ölümündən sonra vərəsəlik hüququnda öz təsbitini tapmış mirasda məcburi pay institutu ilə təmin edilmiş olur. Bu zaman yaxın qohumluqla (uşaq, ər, arvad, valideynlər) miras qoyana bağlı olan şəxslərə miras qoyanın iradəsindən asılı olmayaraq mirasda məcburi pay ayrılır. Beləliklə, qanunverici mirasda məcburi pay institutunu təsbit etməklə, ailə münasibətlərini bir ailə üzvünün düşünülməmiş, digər ailə üzvlərinin mənafelərini nəzərə almadan, bununla da etibarlı və sağlam ailə münasibətlərinə və təminatına zərər verə bilən qərarından qorumaq məqsədi daşıyır”.

69. Bununla belə diqqətdən qaçırılmamalıdır ki, miras qoyanın vərəsələri üçün qanunda nəzərdə tutulan qoruma (məcburi pay hüququ) əhatə baxımından məhduddur. Belə ki, qanun üzrə vərəsələrin hamısı deyil, yalnız çox yaxın sayılan bəzi şəxslər (uşaqlar, valideynlər və arvad-ər) bu hüququa malikdirlər. Onların da bütün vərəsəlik payı deyil, qanunla müəyyən edilmiş bir hissəsi qorunmuşdur. Bu hissə qanun üzrə vərəsəlik zamanı onlara çatası payın yarısıdır (§ 46).

70. Başqa sözlə, qanun, miras qoyanın sərəncam hüququnu məcburi payı pozduğu həddə məhdudlaşdırır. Odur ki, miras qoyan bu həddin xaricində qalan əmlakı barəsində istədiyi kimi sərəncam verməkdə sərbəsdir. Belə ki, o, öz vərəsələrdən birini, bir neçəsini və ya hamısını mirasdan məhrum edə biləcəyi kimi (§ 45), əmlakını da istədiyi şəxsə verə bilər (§ 36,43). İstisna (məhdudiyyət), yalnız məcburi pay hüququ olan vərəsələr və onlara qanunla çatası minimum payla bağlıdır (məcburi pay almaq hüququndan məhrumetmə isə ləyaqətsiz vərəsə ilə bağlı ümumiyyətlə vərəsəlik hüququndan məhrumetməyə səbəb olan hallarda, özü də miras qoyanın sağlığında məhkəməyə müraciət edilməklə mümkündür (§ 51-52).

71. Bu hədləri (məhdudiyyətləri) nəzərə almadan miras qoyanın hər sərəncamını məcburi payı pozan akt kimi qiymətləndirmək, yəni vəsiyyət edilən (son iki ildə bağışlanan) hər əmlakdan vərəsələrə məcburi pay vermək bu institutun mahiyyətinə və məqsədinə uyğun gəlmir.

72. Ona görə də, məcburi payla bağlı qanundakı qaydalar yalnız həmin minimum payın pozulduğu təqdirdə tətbiq edilə və məcburi pay qarşılanmayan həcmdə tamamlana bilər.

73. Məhkəmə təcrübəsində əksər hallarda məcburi payın pozulub-pozulmadığı aydınlaşdırılmadan vəsiyyət edilən (bağışlanan) hər predmetdən vərəsələrə pay tanınır. Halbuki, qanunda bu məzmunda bir norma mövcud deyil.

74. Bu məsələ ilə bağlı Kollegiya vurğulayır ki, məcburi payın həcmi ilə, bu həcmin müəyyənləşdirilməsi qaydası bir-birindən fərqləndirilməlidir. Məcburi payın həcmi Mülki Məcəllənin 1193-cü maddəsində göstərilmişdir: vərəsələrin qanun üzrə vərəsəlik qaydasında alacaqları payın yarısı.

75. Bu həcmin hansı qaydada müəyyənləşdiriləcəyi isə Məcəllənin 1195-ci maddəsində tənzimlənmişdir. Həmin normaya əsasən, məcburi payın tam həcmi vəsiyyət tapşırığını və ya ümumi faydalı məqsədlər üçün hər hansı hərəkəti yerinə yetirməkdən ötrü nəzərdə tutulan əmlak da daxil olmaqla, bütün mirasdan müəyyənləşdirilir.

76. Göründüyü kimi, Mülki Məcəllənin 1193-cü maddəsi ilə müəyyən edilən məcburi payın pozulmasının və tamamlanmalı olan həcminin necə təsbit olunacağı məhz 1195-ci maddədə açıqlanmışdır. Bunun üçün meyar vəsiyyət (hədiyyə) edilən hər bir (ayrıca) əmlak deyil, bütün mirasdır. Başqa sözlə, məcburi payın pozulub-pozulmadığının müəyyən edilməsi üçün mirasa daxil olan hər bir predmet ayrı-ayrılıqda deyil, ölümdən əvvəlki 2 il ərzində edilən bağışlamalarla birlikdə bütöv miras əmlakın ümumi dəyəri əsas alınmalıdır.

77. Bu baxımdan Mülki Məcəllənin 1193-cü maddəsində göstərilən pay nisbəti mirasla (məcburi payla) bağlı ixtilafların həlli üçün kifayət deyil. Həmin norma ilə yanaşı Məcəllənin 1151.1, 1195, 1196 və 1200-cü maddələri birlikdə nəzərə alınmalıdır (§ 41, 47-49).

78. Ona görə də, məcburi paya dair mübahisəyə baxan məhkəmə əvvəlcə miras kütləsinə daxil olan əmlaka və ya onun bir hissəsinə vəsiyyətnamə (yaxud son iki ildə bağışlama) ilə sərəncam verilib-verilmədiyini aydınlaşdırılmalıdır. Əgər verilmişsə, həmin sərəncamların predmeti olan və olmayan bütün miras kütləsi (vəsiyyət tapşırığını və ya ümumi faydalı məqsədlər üçün hər hansı hərəkəti yerinə yetirməkdən ötrü nəzərdə tutulan əmlak) hesaba alınmaqla uşaqların, valideynlərin və arvadın-ərin bu mirasdan qanun üzrə vərəsəliklə almalı olduqları payı müəyyən etməlidir. Həmin payın yarısı isə məcburi paydır ki, məhkəmə qeyd olunan sərəncamlarla onun pozulub-pozulmadığını aydınlaşdırmalıdır. Bunun üçün həmin vərəsələrin bütün mirasdan almalı olduqları dəyər tapılmalı və qanun üzrə vərəsəlik qaydasında bu dəyəri əldə edib-etmədikləri (yaxud mirasın bölüşdürülməsi ilə onu əldə edib-etməyəcəkləri) yoxlanılmalıdır. Bu yoxlama nəticəsində vəsiyyət edilən (bağışlanan) əmlakın miras kütləsinin hansı məbləğdə olan hissəsini əhatə etdiyi, dolayısı ilə miras qoyanın verdiyi sərəncamların qanunla müəyyən edilən həddi aşıb-aşmadığı (məcburi pay sahiblərinin almalı olduqları minimum paya müdaxilə edib-etmədiyi) məlum olur.

79. Əgər məcburi paya müdaxilə aşkar edilirsə hüququ pozulan vərəsənin vəsiyyət (hədiyyə) edilən əmlak hesabına məcburi payının pozulan məbləğdə (tam və ya qismən) tamamlanmasını tələb etmək hüququ yaranır. Bu qayda Mülki Məcəllənin 1200 və 1201-ci maddələrində açıqca göstərilmişdir. Həmin normalara görə, məcburi pay almaq hüququ olan şəxs bu paydan az əmlak aldıqda çatışmayan hissənin tamamlanmasını tələb edə bilər. (§ 49-50).

80. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi qeyd edilən qərarında məcburi payın həcminin müəyyənləşdirilməsi və çatışmayan payın tamamlanması ilə bağlı aşağıdakı hüquqi mövqeləri ifadə etmişdir: “Məcburi payın həcminin müəyyənləşdirilməsi qaydası Mülki Məcəllənin 1195-ci maddəsində nəzərdə tutulmuşdur... Tamamlanma tələbini Mülki Məcəllənin 1193-cü maddəsində sadalanmış şəxslər irəli sürə bilərlər. Bu cür tələb irəli sürüldükdə bağışlanmış əşya xəyali olaraq miras əmlaka əlavə olunur, həmin hissə ilə birgə miras dəyəri hesablanır, məcburi payın həcmi müəyyənləşdirilir və bu həcmin qarşılanmadığı təqdirdə məcburi paya hüququ olan vərəsələrə çatmalı olan tamamlanmamış hissə ödənilir.”

81. Əgər vərəsə mirasdan qanun üzrə vərəsəliklə almalı olduğunun yarısından artıq dəyərdə əmlak qazanmışsa, bu o deməkdir ki, onun məcburi payı pozulmamışdır. Vərəsə mirasda məcburi pay hüququ əsasında almalı olduğu minimum aktivi əldə etmişsə, miras qoyanın bu aktivin xaricində qalan əmlakına verdiyi sərəncam vərəsənin mənafeyinə xələl gətirmiş sayılmır. Belə olan halda miras qoyanın sərbəst şəkildə vəsiyyət etmək və ya bağışlamaq imkanı olan əmlakdan həmin vərəsəyə pay verilməsinin əxlaqi səbəbi və qanuni əsası olmur. Buna məhəl qoyulmadan vəsiyyət edilən (bağışlanan) əmlaka “məcburi pay” adı altında vərəsənin hüququnun tanınması bu münasibətləri tənzimləyən normaların məqsədlərinə zidd olmaqla yanaşı, ədalətsiz vəziyyətin yaranmasına da səbəb olur. Məsələn,

qanun üzrə iki vərəsə olan və 1.000.000 manat dəyərindəki mirasda 20.000 manatlıq avtomobil kənar bir şəxsə vəsiyyət edilmişsə, vərəsələr məcburi payları olan 250.000 manatdan artıq (490.000 manat) dəyərdə əmlak aldıqları halda, onların həmin avtomobilə də şərik olmaları ədalətli olmadığı kimi, miras qoyanın son iradəsinə də ziddir.

82. Beləliklə, vərəsəyə məcburi pay verilməsi, bütün mirasdan qanun üzrə vərəsəliklə onlara çatası dəyərin yarısından az əmlak qaldıqda mümkündür.

83. Əks yanaşma miras qoyanın öz əmlakı barəsində sərbəst sərəncam vermək hüququnun əsasız məhdudlaşdırılmasına, vərəsənin miras qoyanın iradəsinə və qanuna zidd şəkildə varlanmasına, bununla məcburi pay institutunun məqsədinin aşılmasına, nəticə etibarilə Azərbaycan Respublikasının Konstitusiyası ilə təminat altına alınmış mülkiyyət və vərəsəlik (vəsiyyət etmə və vərəsə olma) hüquqlarının kobud şəkildə pozulmasına səbəb olur (§ 33-34).

84. O da nəzərə alınmalıdır ki, məcburi pay, vərəsəlik hüququndan irəli gəlsə də, bir əşya hüququ (mülkiyyət haqqı) deyil, qanuna əsaslanan tələb hüququdur. Çünki, vəsiyyət edilən (bağışlanan) əmlak üzərində miras açıldığı andan vərəsənin ona mülkiyyət hüququ əmələ gəlmir. Məcburi payı pozulan vərəsə vəsiyyətlə (bağışlama ilə) əmlak əldə etmiş şəxsə qarşı həmin payın tamamlanmasını tələb etmək imkanı qazanır. Bu səlahiyyət qanundan irəli gələn şəxsi hüquqdur. Konstitusiya Məhkəməsi də istinad olunan qərarında mirasda məcburi pay hüququnu birinci növbə vərəsələrin hüquqlarının pozulması nəticəsində yaranan, birtərəfli qaydada dəyişdirilməsi mümkün olmayan, icrası məcburi xarakter daşıyan subyektiv hüquq kimi qiymətləndirmişdir.

85. Ona görə də vərəsəlik mübahisəsinə baxan məhkəmə, vəsiyyətnamə qoyulmuş (hədiyyə edilmiş) əmlaka öz hüququnu irəli sürən vərəsənin dəlillərini yoxlamaqla, onun məcburi payının pozulub-pozulmadığını aydınlaşdırmalı və nəticəsindən asılı olaraq iddia tələblərini həll etməlidir.

86. Hazırkı işdə isə miras qoyan X1-in vəsiyyət etdiyi - Ünvan 1-dəki 0.1240 ha torpaq sahəsinə və onun üzərindəki yerləşən fərdi yaşayış evinə iddiaçının payı müəyyən edilərkən yuxarıda şərh olunan qaydalara riayət edilməmişdir. Belə olan halda, payların apellyasiya məhkəməsinin qətnaməsində əks olunan şəkildə müəyyən edilməsi (iddiaçıya vəsiyyət olunan hər bir əşyadan tam həcmdə məcburi pay verilməsi) mülki qanunvericiliyə uyğun hesab edilə bilməz.

87. Cavabdehin kassasiya şikayətinin dəlillərindən biri də odur ki, qanun üzrə vərəsələrindən X3 mirası faktiki qəbul etsə də, onun mirasda iştirakı və payı nəzərə alınmadan bölgü aparılmışdır.

88. Yuxarıda göstərilənləri nəzərə alaraq Kollegiya hesab edir ki, hazırkı iş üzrə mübahisənin düzgün həlli üçün X1-dən qalan miras kütləsi (vəsiyyət edilmiş əşyalar da daxil olmaqla bütün aktiv və passiv), habelə qanun və vəsiyyət üzrə bütün vərəsələrin dairəsi müəyyən edilməli, onlar işdə iştirak etməyə cəlb olunmalı, mirasın qəbulu və ondan imtina ilə bağlı qaydalar da nəzərə alınmaqla, pay bölgüsündə iştirak edən vərəsələrin dairəsi, bunlara müvafiq olaraq iddiaçının məcburi payının həcmi və vəsiyyətnamənin xaricində qalan əmlakdan İddiaçının qanun üzrə vərəsəlik qaydasında əldə etdiyi dəyər işdə iştirak edən şəxslərlə müzakirə edilməklə və işdə olan sübutlarla birlikdə qiymətləndirilməklə aydınlaşdırılmalı, bundan asılı olaraq iddiaçının məcburi payının pozulub-pozulmadığı, əgər pozulmuşsa hansı həcmdə (tam yoxsa qismən) pozulduğu təsbit olunmalı, buna müvafiq olaraq həmin payın tamamlanması və digər iddia tələbləri həll edilməlidir.

89. Ona görə də, apellyasiya instansiyası məhkəməsinin qətnaməsi ləğv edilməli və iş yeni apellyasiya baxışına göndərilməlidir.

90. Göstərilənlərə əsasən və MPM-in 416, 417 və 419-cu maddələrini rəhbər tutaraq, Məhkəmə kollegiyası

Qərara aldı:

Kassasiya şikayətləri qismən təmin edilsin.

Şəki Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(107)-1605/2021 nömrəli iş üzrə 15 oktyabr 2021-ci il tarixli qətnaməsi ləğv edilsin və iş yeni apellyasiya baxışına göndərilsin.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

45. 2(102)-900/2024 nömrəli, 2024-cü il 22 aprel tarixli qərar - Miras qoyanın borclarına dair kreditorların tələbləri üzrə miras aktivinin həcminin müəyyən edilməsi ilə bağlı sübutetmə yükü

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: miras qoyanın borclarına dair kreditorların tələbləri üzrə miras aktivinin həcminin müəyyən edilməsi ilə bağlı sübutetmə yükü.

Kredit müqaviləsi üzrə borclu öldükdən sonra vərəsələrin kreditorların qarşısında məsuliyyəti, kreditor və vərəsələr arasında sübutetmə yükünün müəyyən edilməsi

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Apellyasiya instansiyası məhkəməsi öz qətnaməsini cavabdehə münasibətdə onunla əsaslandırmışdır ki, “Hazırkı işdə isə əsas borclunun vəfatından sonra onun vərəsəlik qaydasında keçə biləcək miras əmlakın olması, həmin əmlakın vərəsələri tərəfindən qanunla müəyyən olunmuş müddətdə qəbul edilməsi, vərəsəlik işinin açılması və s. bu kimi halların mövcudluğunun iddiaçı tərəfindən təqdim olunmuş sübutlara əsasən müəyyən edilməsi mümkün olmamışdır. Belə olan halda da cavabdeh qismində cəlb olunmuş mərhumun arvadının ölənin öhdəlikləri üzrə məsuliyyət daşıması istisna olunur.”

Başqa sözlə, apellyasiya instansiyası məhkəməsi hesab etmişdir ki, əsas borclunun vəfatından sonra onun vərəsəlik qaydasında keçə biləcək miras əmlakının olması, həmin əmlakın vərəsələri tərəfindən qanunla müəyyən olunmuş müddətdə qəbul edilməsi, vərəsəlik işinin açılması və sair kimi halların mövcudluğu vərəsələr tərəfindən deyil, vəfat etmiş əsas borclunun kreditoru tərəfindən sübuta yetirilməlidir.

Bununla da, apellyasiya instansiyası məhkəməsi iş üzrə sübutetmə yükünü tərəflər arasında düzgün bölüşdürməyərək həm prosessual hüquq normalarını, həm də konkret vəziyyətdə sübutetmə yükünün kimə aid olmasını tənzimləyən maddi hüquq normasını pozmuş olmuşdur. Belə ki, Mülki Məcəllənin “Vərəsələr tərəfindən kreditorların təmin edilməsi zamanı sübutetmə yükü” adlanan 1307-ci maddəsində təsbit edilmişdir ki, mirasın notarius tərəfindən siyahıya alındığı haldan başqa, vərəsə miras qoyanın borclarının mirasdan çox olduğunu sübut etməlidir.

Apellyasiya instansiyası məhkəməsi sözügedən mövqeyi ilə Konstitusiya Məhkəməsi Plenumunun 14 oktyabr 2022-ci il tarixli Qərarı ilə verilən şərhi də nəzərə almamışdır.

Konstitusiya Məhkəməsi Plenumunun daha sonra, yəni 26 dekabr 2023-cü il tarixdə qəbul etdiyi Qərarda isə məsələyə dair birmənalı hüquqi qiymət verilərək, göstərilmişdir ki, qanunla müəyyən edilmiş müddət ərzində mirasdan imtina etməyən vərəsə mirası qəbul etmiş sayılır.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-900/2024

22.04.2024-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki Kollegiyasının

iddiaçı “Xxxx” ASC-nin cavabdehlər Cavabdeh 1, Cavabdeh 2 və Cavabdeh 3 qarşı iş üzrə

Q Ə R A R I

Açar sözlər: kredit borcunun ödənilməsi; zaminliyə xitam verilməsi; vərəsələrin sübutetmə yükü

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyası hakimlər Məmmədov Vidadi Məmməd oğlu (məruzəçi), Əliyev Zaur Əli oğlu və Abbasov Aqil Əzizağa oğlundan ibarət tərkibdə

iddiaçı "Xxxx" ASC-nin cavabdehlər Cavabdeh 1, Cavabdeh 2 və Cavabdeh 3 qarşı kredit borcunun ödənilməsi tələbinə dair iddia ərizəsi ilə bağlı Bakı Apellyasiya Məhkəməsi Mülki Kollegiyasının 2(103)-3712/2023 nömrəli iş üzrə 20 iyun 2023-cü il tarixli qətnaməsindən iddiaçının kassasiya şikayətinə Ali Məhkəmənin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İŞİN HALLARI

1. "Xxxx" ASC ilə X1 arasında bağlanmış 14 aprel 2015-ci il tarixli kredit müqaviləsinə və bu müqaviləyə 04 fevral 2016-cı il tarixli Əlavə Razılaşmaya əsasən "Xxxx" ASC borcalana 45 ay müddətinə illik 25% dərəcəsi ilə 12.000 manat məbləğdə kredit verməyi, borcalan isə həmin kreditdən məqsədli təyinatına uyğun istifadə etməyi və müəyyən olunmuş müddətdə onu faizi ilə birlikdə borc verənə qaytarmağı öhdələrinə götürmüşlər.

2. 14 aprel 2015-ci il tarixli kredit müqaviləsindən irəli gələn öhdəliyin icrası eyni tarixli (Cavabdeh 1 ilə, sonradan 04 fevral 2016-cı il tarixli Əlavə Razılaşma ilə edilmiş müvafiq dəyişikliklər nəzərə alınmaqla) və 03 fevral 2016-cı il tarixli (Cavabdeh 2 ilə) zaminlik müqavilələri ilə təmin olunmuş, həmin müqavilələrə əsasən cavabdehlər Cavabdeh 1 və Cavabdeh 2 borcalan tərəfindən müqavilə öhdəlikləri yerinə yetirilmədiyi təqdirdə kredit müqaviləsindən irəli gələn öhdəliyin tam həcmdə icrası üçün zamin durmuşlar.

3. X1 01 oktyabr 2017-ci il tarixdə vəfat etmişdir.

4. 30 iyul 2022-ci il tarixli maliyyə arayışına görə müqavilə üzrə 6.064,29 manat əsas borc, 1.823 manat faiz borcu, cəmi 7.887,59 manat borc yaranmışdır.

İŞ ÜZRƏ QƏBUL EDİLMİŞ MƏHKƏMƏ AKTLARI

a) Birinci instansiya məhkəməsində icraat

5. İddiaçı cavabdehlərə qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, cavabdehlərdən 6.064,29 manat məbləğdə əsas borc və 1.823,30 manat faiz borcu olmaqla, ümumilikdə 7.887,59 manat borcun və 30,4 manat məbləğdə dövlət rüsumunun tutularaq iddiaçıya ödənilməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

6. İddianın əsaslarına görə, Azərbaycan Respublikası Prezidentinin 28 fevral 2019-cu il tarixli Fərmanının icrası ilə bağlı iddiaçı tərəfindən 08.07.2019-cu il tarixli məktubla X1-in varislərinə və zaminlərinə kredit müqaviləsi üzrə yaranmış borcun restrukturizasiya olunması təklif edilmiş və bununla bağlı banka müraciət olunması təklif edilmişdir. Buna baxmayaraq, borclu X1in varisləri və zaminləri təklifi qəbul etməmiş və fərmandan irəli gələn güzəştlərdən istifadə etməmişlər.

7. Bakı şəhəri Qaradağ Rayon Məhkəməsinin 2(002)-2632/2021 nömrəli iş üzrə 13 sentyabr 2021-ci il tarixli qətnaməsi ilə (hakim G.Əhmədova) iddia rədd edilmişdir.

8. Birinci instansiya məhkəməsinin qətnaməsinin əsaslarına görə, "... məhkəmə araşdırması zamanı müəyyən edilmişdir ki, iddiaçı bank əsas borclunun vərəsəsi qismində Cavabdeh 3-ə qarşı borcun ödənilməsi tələbini irəli sürsə də, Cavabdeh 3-ün əsas borclu X1-in vərəsəsi qimsində onun miras əmlakını qəbul etməsi halına dair heç bir sübutu məhkəməyə təqdim edə bilməmişdir. Məhkəmə hesab edir ki, qeyd edilən halla bağlı sübut təqdim etmək öhdəliyi məhz iddiaçı tərəfin üzərinə düşsə də, iddiaçı tərəfindən həmin hala dair heç bir sübut məhkəməyə təqdim edilməmişdir. Halbuki, mülki qanunvericiliyin tələbinə əsasən vərəsə mirasqoyanın borcları üzrə qəbul etdiyi miras əmlak həddində məsuliyyət

daşıyır. Belə olan halda, məhkəmə hesab edir ki, Cavabdeh 3 vərəsə kimi hər hansı miras əmlakı qəbul etməsi halı sübut edilmədiyindən, onun vərəsə qismində miras əmlakı həddində borcun ödənilməsi öhdəliyi yaranmadığından, iddia tələbi qeyd edilən cavabdehə aid olan hissədə əsassız olamaqla, təmin edilməməlidir.

Həmçinin, məhkəmə iddia tələbinin zamin qismində çıxış edən cavabdehlər Cavabdeh 2 və Cavabdeh 1 aid olan hissəsi ilə bağlı hesab edir ki, iddia tələbi bu hissədə də əsassız olmaqla, təmin edilməməlidir. Belə ki, iş materiallarından görünür ki, 15 aprel 2015-ci il tarixli kredit müqaviləsinin təminatı qismində bağlanılmış zaminlik müqavilələrində (03.02.2016-ci il və 04.02.2016-cı il) onun qüvvədə olma müddəti qeyd edilməmiş, kredit müqaviləsinə əsasən isə kredit borcunun qaytarılması müddəti 45 ay kimi nəzərdə tutulmuşdur.

Məhkəmə hesab edir ki, iş materiallarından göründüyü kimi, zaminlik müqaviləsində onun qüvvədə olma müddəti müəyyən edilməmiş, həmin müqavilənin təmin etdiyi öhdəliklərin icrası vaxtının çatmasından (15 yanvar 2019-cu il) 1 ildən çox müddət keçmişdir. Bu səbəbdən cavabdehlər Cavabdeh 1 və Cavabdeh 2-nin zaminliyinə xitam verilməlidir.

Həmçinin, məhkəmə iddiaçı tərəfin iddia ərizəsi ilə vaxtında müraciət edilməsi, müvafiq Fərmanın tətbiqi ilə iddia ərizəsinin baxılmamış saxlanılması, sonradan məhkəməyə müraciət edilməsini əsas götürərək, zaminlik müqaviləsinə həmin əsasla xitam verilməli olunmaması əsası ilə bağlı onu qeyd etməyi zəruri hesab edir ki, zaminlik müqaviləsinə qeyd edilən əsasla xitam verilməsi üçün müəyyən edilmiş müddət iddia müddəti olmamaqla, qanunla müəyyən edilmiş həmin müddətin bitməsi halı (həmin müddətdə zaminə qarşı tələbin irəli sürülməməsi) artıq özlüyündə qeyd edilən əsasla zaminlik müqaviləsinin xitamının əsası kimi çıxış edir. Həmçinin, məhkəmə onu qeyd etməyi zəruri hesab edir ki, hazırki mülki iş üzrə 1 illik müddət 2020-ci ilin yanvar ayının 15-də bitdiyi halda (həmin tarixdə isə müvafiq Fərmanın tətbiqi ilə bağlı tədbirlər artıq həyata keçirilmişdir), iddiaçı tərəfindən zaminlərə qarşı iddia tələbi ilə məhkəməyə 19.08.2021-ci il tarixdə (uzun bir vaxt - iki ilə yaxın müddəti ötürərək) müraciət edilmişdir. Göründüyü kimi, iddiaçı tərəfindən müvafiq Fərmanın tətbiqi ilə bağlı tədbirlərin həyata keçirilməsi müddətindən xeyli müddət sonra (19.08.2021-ci il tarixdə) zaminlərə qarşı tələb irəli sürülmüşdür. Ona görə də məhkəmə hesab edir ki, hazırki mülki iş üzrə qeyd edilən müddətin məhz müvafiq Fərmanın tətbiqi ilə bağlı tədbbirlərin həyata keçirilməsi prosedurasına sərf edilmiş müddətin daxilində qəbul edilməsi məqəsədəmüvafiq deyildir. Ona görə də, məhkəmə qeyd edilən halları əsas götürərək, hesab edirik, iddia tələbi qeyd edilən cavabdehlərə aid olan hissədə də əsassız olmaqla, təmin edilməməlidir."

9. Birinci instansiya məhkəməsi gəldiyi nəticəni Azərbaycan Respublikası Mülki Məcəlləsinin 386.1, 739.1, 739.2, 427.3, 428.4, 442, 448.1, 472.1, 472.2, 477.0.4, 1306.1

və 1306.2-ci maddələrinə istinadla əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsində icraat

10. Birinci instansiya məhkəməsinin qətnaməsindən iddiaçı apellyasiya şikayəti verərək, qətnamənin ləğv edilib, iddianın təmin olunmasını xahiş etmişdir.

11. Apellyasiya şikayətinin dəlillərinə görə, əgər təqdim edilmiş sübutlar araşdırılarkən Cavabdeh 3 borclunun hüquqi varisi (cavabdeh) kimi məhkəmə tərəfindən qəbul olunmayacaqdısa, onda məhkəmə Cavabdeh 3-ü tərəf kimi qəbul etməyərək, işi baxılması üçün aiddiyatı üzrə digər məhkəməyə göndərilməli idi.

12. Bakı Apellyasiya Məhkəməsi Mülki Kollegiyasının 2(103)-3712/2023 nömrəli iş üzrə 20 iyun 2023-cü il tarixli qətnaməsi ilə (hakimlər C.Musayeva (sədrlik edən və məruzəçi), F.Babayev və G.Axundova) apellyasiya şikayəti təmin edilməmiş, birinci instansiya

məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmışdır.

13. Apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin əsaslarına görə, "Cavabdeh 3-ə münasibətdə qeyd edilməlidir ki, miras qoyanın borcuna görə vərəsələrin məsuliyyəti mirasın həcmi ilə məhdudlaşır. Belə ki, Mülki Məcəllənin 1306-cı maddəsinə uyğun olaraq, borclunun ölümündən sonra mirası qəbul etmiş vərəsələr miras açıldığı gündən onlara çatan miras payı həcmində miras qoyanın kreditorları qarşısında birgə məsuliyyət daşıyırlar. Yəni mirası qəbul etmiş vərəsələr universal hüquq varisliyi qaydasında miras əmlakdakı paylarına mütənasib surətdə miras qoyanın öhdəliklərini də qəbul etmiş olurlar.

Hazırki işdə isə əsas borclunun vəfatından sonra onun vərəsəlik qaydasında keçə biləcək miras əmlakın olması, həmin əmlakın vərəsələri tərəfindən qanunla müəyyən olunmuş müddətdə qəbul edilməsi, vərəsəlik işinin açılması və s. bu kimi halların mövcudluğunun iddiaçı tərəfindən təqdim olunmuş sübutlara əsasən müəyyən edilməsi mümkün olmamışdır. Belə olan halda da cavabdeh qismində cəlb olunmuş məhrumun arvadı Cavabdeh 3 ölənin öhdəlikləri üzrə məsuliyyət daşıması istisna olunur.

Belə ki, Şəki Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 2(107)-82/2019 saylı 01.05.2019-cu il tarixli qərardadında qeyd edilmiş Bakı şəhəri Notariat Kontorunun xüsusi notariusu X2-nin 08.11.2018-ci il tarixli, **** nömrəli məktubunda göstərilmişdir ki, 01.10.2017-ci il tarixdə ölmüş X1-in adına onların kontorunda vərəsəlik işi açılmamışdır.

Məhkəmə kollegiyası cavabdehlər Cavabdeh 1 və Cavabdeh 2-yə münasibətdə qeyd edir ki, cavabdehlərin tərəf olduqları zaminlik müqavilələrində onun verilmə müddəti təyin edilmədiyindən, zaminliyin müddəti əsas öhdəliyin icrası vaxtının çatdığı gündən hesablanmalıdır. Əsas öhdəliyin icrası vaxtı isə 14.01.2019-ci ildir. Beləliklə, iddiaçının məhkəmə müraciət etdiyi tarixə əsas öhdəliyin icrası vaxtından 2 ildən artıq vaxt keçmiş və zaminliyə xitam verilmişdir.

İddiaçının apellyasiya şikayətindəki məhkəməyə ilk dəfə 10.11.2017-ci il tarixdə, yəni vaxtında müraciət etdiyinə dair dəlili ilə əlaqədar məhkəmə kollegiyası qeyd etməyi zəruri sayır ki, Mülki Məcəllənin 477.0.4-cü maddəsində göstərilən müddətlər qanunverici tərəfindən kəsici müddət kimi müəyyən edilir. Kəsici müddətlər isə qanunda birbaşa nəzərdə tutulan hallar istisna olmaqla, dayandırıla və kəsilə bilməz. Kəsici müddət - şəxsin müəyyən zaman ərzində öz hüququndan istifadə etməməsi nəticəsində həmin hüquqa xitam verilməsini nəzərdə tutan müddətdir. Kəsici müddət hüququn xitamına yalnız zamanın keçməsi və hüquq sahibinin hərəkətsiz qalması deyil, tərəfindən subyektiv hüququn lazımi qaydada həyata keçirilməməsi də səbəb olur."

14. Apellyasiya instansiyası məhkəməsi gəldiyi nəticəni Azərbaycan Respublikası Mülki Məcəlləsinin 460, 470.1, 472, 739, 1151, 1152 və 1306-cı maddələrinə istinadən əsaslandırmışdır.

KASSASİYA ŞİKAYƏTİNİN VƏ ONA ETİRAZIN DƏLİLLƏRİ

a) Kassasiya şikayətinin dəlilləri

15. Apellyasiya instansiyası məhkəməsinin qətnaməsi ilə razılaşmayan iddiaçı ondan kassasiya şikayəti verərək, qətnamənin ləğv edilib, işin yeni apellyasiya baxışına göndərilməsini xahiş etmişdir.

16. Kassasiya şikayətinin dəlillərinə görə, Konstitusiya Məhkəməsi Plenumunun 16.10.2020-ci il tarixli qərarına əsasən, Konstitusiyanın 60-cı maddəsinə, Mülki Məcəllənin 1243 və 1306.1-ci maddələrinə, habelə Mülki Prosessual Məcəllənin 306.4 və 307.2.9-cu maddələrinə əsasən, vərəsələrin vərəsəlik şəhadətnaməsi almaması miras qoyanın

kreditorlarının öhdəliklərin icrasının miras qalmış əmlak hesabına təmin edilməsi ilə bağlı məhkəmədə iddia qaldırmaq hüququnu məhdudlaşdırmır və kreditorların bu cür tələblərinə iddia icraatı qaydasında baxılmalıdır.

Zaminlik müqavilələrinə münasibətdə, Azərbaycan Respublikası Prezidentinin 28.02.2019-cu il tarixli fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında Fərmanına əsaslanaraq hazırkı kredit müqaviləsi fərmanın təsiri altına düşdüyündən və müqavilə üzrə mübahisənin məhkəmədənkənar həlli qaydası fərmanla müəyyən edildiyindən, həmin işlər üzrə zəruri prosedurlara sərf edilmiş ağlabatan müddət iddia müddətinə daxil olmamalıdır. Çünki həmin fərman məhz fiziki şəxslərin xarici valyutada olan kreditləri üzrə onların üzləşdiyi maliyyə itkisini qarşılamaq, o cümlədən problemli kreditlər məsələsinin həllinə dövlət dəstəyi göstərilməsi məqsədi ilə verilmişdir. Yəni fərman vətəndaşların mənafeyi üçün verildiyindən həmin prosedurlara sərf edilmiş müddət bankların ziyanına istifadə oluna bilməz.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

17. Kassasiya şikayətinə qarşı etiraz təqdim olunmamışdır.

TƏTBİQ EDİLƏN HÜQUQ

18. Azərbaycan Respublikasının Konstitusiyası:

Maddə 29. Mülkiyyət hüququ

VII. Dövlət vərəsəlik hüququna təminat verir;

Maddə 60. Hüquq və azadlıqların inzibati və məhkəmə təminatı

I. Hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir; Maddə 125. Məhkəmə hakimiyyətinin həyata keçirilməsi

VII. Məhkəmə icraatı həqiqətin müəyyən edilməsini təmin etməlidir; Maddə 129. Məhkəmə qərarları və onların icrası

III. Məhkəmə qərarı qanuna və sübutlara əsaslanmalıdır.

19. Azərbaycan Respublikasının Mülki Məcəlləsi:

Maddə 5.3. Mülki hüquq münasibətlərinin subyektləri öz hüquq və vəzifələrini vicdanla həyata keçirməyə borcludurlar;

Maddə 14.2. Mülki hüquqların və vəzifələrin əmələ gəlməsi əsasları aşağıdakılardır:

14.2.1. Qanunvericilikdə nəzərdə tutulmuş müqavilələr (əmək müqavilələri istisna olmaqla) və başqa əqdlər, habelə qanunvericilikdə nəzərdə tutulmasa da, ona zidd olmayan müqavilələr və başqa əqdlər;

Maddə 386.1. Öhdəliyin zərər vurulması, əsassız varlanma və ya bu Məcəllədə nəzərdə tutulmuş digər əsaslar nəticəsində əmələ gəlməsi halları istisna olmaqla, öhdəliyin əmələ gəlməsi üçün onun iştirakçıları arasında müqavilə olmalıdır;

Maddə 390.1. Fiziki və hüquqi şəxslər azad surətdə müqavilələr bağlaya və bu müqavilələrin məzmununu müəyyənləşdirə bilərlər. Onlar bu Məcəllədə nəzərdə tutulmayan, lakin ona zidd olmayan müqavilələr də bağlaya bilərlər;

Maddə 399.1. Müqavilə bağlandığı andan qüvvəyə minir və tərəflər üçün məcburi olur;

Maddə 425.1. Öz hüquqlarını həyata keçirərkən və vəzifələrini icra edərkən tərəflərdən hər biri vicdanlılığın tələb etdiyi tərzdə, yəni şərtləşdirilmiş vaxtda və yerdə lazımi şəkildə, öhdəliyin şərtlərinə və bu Məcəllənin tələblərinə müvafiq surətdə, belə şərtlər və tələblər olmadıqda isə işgüzar adətlərə və ya adətən irəli sürülən digər tələblərə müvafiq surətdə hərəkət etməlidir;

Maddə 427.3. Əgər öhdəlik onun icrası gününü və ya icra edilməli olduğu vaxt dövrünü nəzərdə tutursa və ya müəyyənləşdirməyə imkan verirsə, öhdəlik həmin gün və ya bu cür dövr ərzində istənilən an icra edilməlidir;

Maddə 430.1. Əgər bu Məcəllədə ayrı qayda nəzərdə tutulmayıbsa, öhdəliyin icrasından birtərəfli imtinaya və onun şərtlərini birtərəfli dəyişdirməyə yol verilmir;

Maddə 442. Öhdəliyin icra edilməməsi anlayışı

Öhdəliyin icra edilməməsi dedikdə onun pozulması və ya lazımınca icra edilməməsi (vaxtında icra edilməməsi, mallarda, işlərdə və xidmətlərdə qüsurlarla və ya öhdəliyin məzmunu ilə müəyyənləşdirilmiş digər şərtləri pozmaqla icra edilməsi) başa düşülür;

Maddə 443.1. Öhdəliyini icra etməyən borclu kreditora dəymiş zərərin əvəzini ödəməyə borcludur. Borclunun üzərinə öhdəliyi pozmağa görə məsuliyyət qoyulmadıqda bu qayda qüvvədə olmur;

Maddə 448.1. Əgər bu Məcəllə ilə və müqavilə ilə ayrı qayda müəyyənləşdirilməyibsə, borclu onun risk dairəsinə daxil olan öhdəliklərin icra edilmədiyi bütün hallar üçün cavabdehdir;

Maddə 448.2. Borclu öz öhdəliklərinin hər bir təqsirli pozuntusu (hərəkət və ya hərəkətsizlik) üçün məsuliyyət daşıyır;

Maddə 470.1. Zaminlik müqaviləsi üzrə zamin başqa şəxsin kreditoru qarşısında həmin şəxsin öz öhdəliyini tamamilə və ya hissə-hissə icra etməsi üçün məsuliyyəti öz üzərinə götürür;

Maddə 477.0. Zaminliyə aşağıdakı hallarda xitam verilir:

477.0.4. zaminlik müqaviləsində göstərilmiş onun verilmə müddəti qurtardıqda. Belə müddət təyin edilmədikdə zaminliyə onun təmin etdiyi öhdəliyin icrası vaxtının çatdığı gündən bir il ərzində kreditorun zaminə qarşı iddia irəli sürmədiyi halda xitam verilir. Əsas öhdəliyin icrası müddəti göstərilmədikdə və müəyyənləşdirilə bilmədikdə və ya tələbetmə məqamı ilə müəyyənləşdirilə bildikdə zaminliyə zaminlik müqaviləsinin bağlandığı gündən iki il ərzində kreditorun zaminə qarşı iddia irəli sürmədiyi halda xitam verilir;

Maddə 739.1. Borc müqaviləsinə görə, iştirakçılardan biri (borc verən) pula və ya digər əvəz edilən əşyalara mülkiyyət hüququnu digər iştirakçıya (borc alana) keçirməyi öhdəsinə götürür, digər iştirakçı (borc alan) isə aldıqlarını müvafiq olaraq pul və ya eyni keyfiyyətdə və miqdarda olan eyni növlü əşyalar şəklində borc verənə qaytarmağı öhdəsinə götürür;

Maddə 739.2. Borc müqaviləsinin predmeti hər hansı pul məbləği olduqda, o, kredit müqaviləsi adlandırılır. Müstəqil peşə fəaliyyəti şəklində pul borc verməklə məşğul olan şəxslər əlavə olaraq peşəkarlıq qaydasında kreditlər verilməsi haqqında müddəaları gözləməlidirlər;

Maddə 1151.1. Mirasa (miras əmlaka) miras qoyanın öldüyü məqamadək malik olduğu əmlak hüquqlarının (miras aktivi) və vəzifələrin (miras passivi) toplusu daxildir;

Maddə 1159.1. Qanun üzrə vərəsəlik zamanı ölənin uşaqları, miras qoyanın ölümündən sonra doğulmuş uşaq, arvad (ər), valideynlər (övladlığa götürənlər), bərabər pay hüquqlu birinci növbədə vərəsələr sayılırlar;

Maddə 1255. Qəbul edilmiş miras onun açıldığı gündən vərəsənin mülkiyyəti sayılır;

Maddə 1306.1. Vərəsələr miras qoyanın kreditorlarının mənafelərini alınmış aktivdə özlərindən hər birinin payına mütənasib surətdə birgə borclu kimi tam ödəməyə borcludurlar;

Maddə 1306.2. Əgər miras qoyan vərəsələrə keçmiş borclar üzrə birgə borclu olmuşdursa, vərəsələr birgə məsuliyyət daşıyırlar;

Maddə 1307. Vərəsələr tərəfindən kreditorların təmin edilməsi zamanı sübutetmə yükü Mirasın notarius tərəfindən siyahıya alındığı haldan başqa, vərəsə miras qoyanın

borclarının mirasdan çox olduğunu sübut etməlidir.

20. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi (MPM):

Maddə 13.7. Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının şərhi məhkəmə üçün o halda məcburidir ki, bu şərh Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarında verilmiş olsun;

Maddə 14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir;

Maddə 77.1. Hər bir tərəf öz tələblərinin əsası kimi istinad etdiyi halları sübut etməlidir;

Maddə 88. Sübutların qiymətləndirilməsi

Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur;

Maddə 106.1. İşdə iştirak edən şəxslərin iş üçün əhəmiyyətli olan və onlara məlum olan faktlar barədə izahatları iş üzrə toplanmış digər sübutlarla yanaşı yoxlanılmalı və qiymətləndirilməlidir;

Maddə 217.1. Məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır;

Maddə 217.3. Qətnamə iş üzrə müəyyən edilmiş hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır;

Maddə 386. Maddi hüquq normalarının pozulması və ya düzgün tətbiq edilməməsi Maddi hüquq normaları o halda pozulmuş və ya düzgün tətbiq olunmamış hesab

edilir ki, birinci instansiya məhkəməsi hüququn tətbiq edilməsində səhv buraxsın, tətbiq edilməli olan qanunu və ya digər normativ hüquqi aktı tətbiq etməsin, yaxud qanunu səhv təfsir etsin;

Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır;

Maddə 417.1. Kassasiya məhkəməsi işə baxarkən:

417.1.3. apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadını qismən ləğv edə və ya tamamilə, yaxud qismən ləğv edib işi yenidən baxılmaq üçün apellyasiya instansiyası məhkəməsinə göndərə bilər;

Maddə 418.1. Maddi və prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması, o cümlədən maddi və prosessual hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması apellyasiya instansiyası məhkəməsinin qətnamə və qərardadının ləğv edilməsi üçün əsasdır;

Maddə 418.2. Bu Məcəllənin 386-cı maddəsində göstərilən hallarda maddi hüquq normaları pozulmuş və ya düzgün tətbiq olunmamış hesab edilir;

Maddə 418.3. Prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması qətnamənin yaxud qərardadın ləğv edilməsi üçün o vaxt əsas ola bilər ki, bu pozuntu düzgün qətnamə qəbul edilməməsi ilə nəticələnsin və ya nəticələnə bilsin.

21. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun qərarları

"K.Bunyatovun şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki işlər üzrə məhkəmə kollegiyasının 12 yanvar 2007-ci il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair" 27 dekabr 2007-ci il tarixli Qərar:

"... kassasiya qaydasında işə baxılması yalnız formal xarakter daşımamalı və məhz şikayətçi tərəfindən qanunvericiliyin tələblərinə müvafiq olaraq irəli sürülən dəlillərin yoxlanılmasına xidmət etməlidir."

“R.Zülfüqarovun şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki işlər üzrə məhkəmə kollegiyasının 02 avqust 2007-ci il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair” 20 noyabr 2008-ci il tarixli Qərar:

“Azərbaycan Respublikası Konstitusiyasının və beynəlxalq hüquq normalarının tələblərinə görə ədalət mühakiməsi mahiyyət etibarı ilə ədalət anlayışına cavab verməli və hüquqların təsirli şəkildə bərpa olunmasını təmin etməlidir. Qanunvericiliyin tələblərinin pozulması ilə baxılmış iş üzrə çıxarılan məhkəmə aktı ədalət mühakiməsinin qanuna uyğun aktı kimi qəbul edilə bilməz.”

“B.Mürsəlovun şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 31 may 2019-cu il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair” 12 mart 2020-ci il tarixli Qərarı:

“İddia müddəti və kəsici müddət arasındakı əsas fərqlər aşağıdakılardan ibarətdir:

- iddia müddəti tələb hüququ üçün xarakterikdir, lakin ondan bəzi istisnaları mövcuddur. Məsələn, Mülki Məcəllənin 477.0.4-cü maddəsinə görə, əsas öhdəliyin icrası müddəti göstərilmədikdə və müəyyənləşdirilə bilmədikdə və ya tələbetmə məqamı ilə müəyyənləşdirilə bildikdə zaminliyə zaminlik müqaviləsinin bağlandığı gündən iki il ərzində kreditorun zaminə qarşı iddia irəli sürmədiyi halda xitam verilir. Kəsici müddət isə əqdi mübahisələndirmək hüququna və iddialara aiddir;
- iddia müddətinin keçməsi tələb hüququnun özünün deyil, bu hüququn səlahiyyətli orqan vasitəsi ilə məcburi qaydada həyata keçirilməsi imkanının xitamına səbəb olur. Bu hal Mülki Məcəllənin 375.2 və 383-cü maddələrində öz əksini tapmışdır. Kəsici müddətlər isə hüququn özünün xitamı ilə nəticələnir;
- iddia müddəti cavabdehin verdiyi ərizə əsasında tətbiq edilir (Mülki Məcəllənin 375.2-ci maddəsi). Kəsici müddət isə məhkəmənin öz təşəbbüsü ilə nəzərə alınır;
- iddia müddəti dayandırıla (Mülki Məcəllənin 379-cu maddəsi), kəsilə (Mülki Məcəllənin 380-ci maddəsi) və müəyyən hallarda bərpa edilə (Mülki Məcəllənin 382-ci maddəsi) bilər. Kəsici müddətlər isə qanunda birbaşa nəzərdə tutulan hallar istisna olmaqla, dayandırıla və kəsilə bilməz.”

“Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsi baxımından Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1243-cü maddəsinin və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 307.2.9-cu maddəsinin əlaqəli şəkildə şərh edilməsinə dair” 16 oktyabr 2020-ci il tarixli Qərar:

“Beləliklə, mirasın formal və qeyri-formal üsulla qəbul edilməsindən asılı olmayaraq, mirası qəbul etmiş vərəsələr universal hüquq varisliyi qaydasında miras qoyanın öhdəliklərini də qəbul etmiş olurlar. Bu isə onu göstərir ki, miras qoyanın kreditoru

mənafelərinin təmin edilməsi məqsədi ilə tələb hüququnu mirası faktiki qəbul etmiş vərəsələrə qarşı da irəli sürə bilər.

...

Göstərilənlər əsasında belə nəticəyə gəlmək olar ki, vərəsəlik şəhadətnaməsi olmadığı halda, miras qoyanın öhdəliklərinin icrasının təmin edilməsi məqsədi ilə vərəsələrin mirası qəbul etmələri faktının təsdiq edilməsi barədə kreditorun ərizəsi hüquq sahibi tərəfindən verilmədiyindən və müvafiq məsələ hüquq haqqında mübahisə doğurduğundan işə mövcud qanunvericilik normalarına uyğun olaraq xüsusi icraat qaydasında deyil, iddia icraatı qaydasında baxılmalı və həll edilməlidir.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd etməyi zəruri hesab edir ki, vərəsəlik

şəhadətnaməsi mirasın qəbulu faktını rəsmiləşdirən sənəd olmaqla, sadəcə hüquqtəsdiqedici xarakter daşıyır və şəhadətnamənin olmaması vərəsənin mirası qəbul etməməsini ifadə etmir. Miras əmlaka sahiblik etməklə və ya əmlakı idarə etməklə mirası qəbul etdiyini şəksiz nümayiş etdirən vərəsənin vərəsəlik şəhadətnaməsinin olmaması onu mirasın qəbulu ilə bağlı yaranan öhdəliklərdən azad etmir. Bu baxımdan kreditorların mirası faktiki qəbul etmiş vərəsələrə qarşı məhkəmədə öhdəliyin miras qalmış əmlak hesabına icrası barədə iddia icraatı qaydasında tələb irəli sürməsi yolverilməndir.

Kreditorun bu cür tələb irəli sürmək hüququnun formal mülahizələrlə inkar edilməsi əsas məqsədi və hüquqi funksiyası mülki dövriyyədə hüquqi müəyyənliyin və hüquqi etimadın davamlılığını təmin etmək olan vərəsəlik hüququnun mahiyyətinə zidd olmaqla, kreditorun məhkəmə müdafiəsi, ədalətli məhkəmə araşdırması hüquqlarının, bu isə öz növbəsində mülkiyyət hüququnun və qanunla qorunan maraqlarının əhəmiyyətli dərəcədə pozulmasına səbəb olar."

"Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1246, 1248.1 və 1268.2-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair" 14 oktyabr 2022-ci il tarixli Qərar:

"Konstitusiya Məhkəməsinin Plenumu Mülki Məcəllənin 1246-cı maddəsi ilə müəyyən olunmuş müddətin xarakteri və mahiyyəti ilə bağlı müraciətdə qaldırılan məsələyə münasibətdə qeyd etməyi zəruri hesab edir ki, qanunvericinin müəyyən etdiyi bu müddətin vərəsəlik hüququnun yaranmasını şərtləndirən və ötürülməsi ilə bu hüququn xitamına səbəb olan müddət (kəsici müddət) kimi qiymətləndirilməsi yolverilməzdir. Belə ki, əvvəldə də qeyd olunduğu kimi, vərəsəlik hüququ miras qoyanın ölümü və ya ölmüş elan edilməsi nəticəsində mirasın açılması ilə yaranır, həmin gündən miras əmlakı təşkil edən hüquq və öhdəliklər vərəsələrin əmlakının müvafiq olaraq aktiv və passivinə daxil olmuş olur. Odur ki, mirasın açılması ilə artıq yaranmış olan vərəsəlik hüququnun, vərəsə statusunun prosedur xarakterli tələblərin (notariat qaydasında rəsmiləşdirilmənin) müəyyən müddət çərçivəsində həyata keçirilməməsi əsası ilə xitam olunması Konstitusiya ilə təminat verilən mülkiyyət və vərəsəlik hüquqlarının pozulmasına səbəb olar.

O da nəzərə alınmalıdır ki, Mülki Məcəllənin 1248-ci maddəsinə uyğun olaraq, mirasın qəbul edilməsi üçün müəyyənləşdirilmiş müddəti məhkəmə, gecikdirmənin səbəbini üzrlü sayarsa, uzada bilər. Müddət qurtardıqdan sonra, əgər mirası qəbul edən bütün digər vərəsələr razıdırlarsa, miras məhkəməyə müraciət edilmədən də qəbul oluna bilər. Qeyd olunan qanunvericilik norması mirasın qəbulu müddətinin ötürülməsinin həmin vərəsənin vərəsəlik hüququnun xitamına səbəb olmadığını ehtiva etməklə, Mülki Məcəllənin 1246-cı maddəsi ilə müəyyən edilmiş müddətin kəsici müddət olmasını da istisna edir.

Həmçinin müraciətdə qeyd olunduğu kimi, bu müddət iddia müddətlərinə də aid edilə bilməz. Mülki Məcəllənin 372-ci maddəsinə əsasən, başqa şəxsdən hər hansı hərəkəti yerinə yetirməyi və ya yerinə yetirməkdən çəkinməyi tələb etmək hüququna müddət şamil edilir. Hüququ pozulmuş şəxsin iddiası ilə hüququn müdafiəsi üçün müddət

iddia müddəti sayılır. Yəni iddia müddəti özünümüdafiə mahiyyətində olmaqla tələb hüquqlarına xarakterikdir və hüququn məhkəmə qaydasında realizəsi imkanı üçün nəzərdə tutulmuş müddətlərdir.

...

Konstitusiya Məhkəməsinin Plenumu Mülki Məcəllənin 1246-cı maddəsi ilə müəyyən olunmuş müddətin xarakteri və mahiyyəti ilə bağlı müraciətdə qaldırılan məsələyə münasibətdə qeyd etməyi zəruri hesab edir ki, qanunvericinin müəyyən etdiyi bu müddətin vərəsəlik hüququnun yaranmasını şərtləndirən və ötürülməsi ilə bu hüququn xitamına səbəb olan müddət (kəsici müddət) kimi qiymətləndirilməsi yolverilməzdir. Belə ki, əvvəldə də qeyd

olunduğu kimi, vərəsəlik hüququ miras qoyanın ölümü və ya ölmüş elan edilməsi nəticəsində mirasın açılması ilə yaranır, həmin gündən miras əmlakı təşkil edən hüquq və öhdəliklər vərəsələrin əmlakının müvafiq olaraq aktiv və passivinə daxil olmuş olur. Odur ki, mirasın açılması ilə artıq yaranmış olan vərəsəlik hüququnun, vərəsə statusunun prosedur xarakterli tələblərin (notariat qaydasında rəsmiləşdirilmənin) müəyyən müddət çərçivəsində həyata keçirilməməsi əsası ilə xitam olunması Konstitusiya ilə təminat verilən mülkiyyət və vərəsəlik hüquqlarının pozulmasına səbəb olar.

O da nəzərə alınmalıdır ki, Mülki Məcəllənin 1248-ci maddəsinə uyğun olaraq, mirasın qəbul edilməsi üçün müəyyənləşdirilmiş müddəti məhkəmə, gecikdirmənin səbəbini üzrlü sayarsa, uzada bilər. Müddət qurtardıqdan sonra, əgər mirası qəbul edən bütün digər vərəsələr razıdırlarsa, miras məhkəməyə müraciət edilmədən də qəbul oluna bilər. Qeyd olunan qanunvericilik norması mirasın qəbulu müddətinin ötürülməsinin həmin vərəsənin vərəsəlik hüququnun xitamına səbəb olmadığını ehtiva etməklə, Mülki Məcəllənin 1246-cı maddəsi ilə müəyyən edilmiş müddətin kəsici müddət olmasını da istisna edir.

Həmçinin müraciətdə qeyd olunduğu kimi, bu müddət iddia müddətlərinə də aid edilə bilməz. Mülki Məcəllənin 372-ci maddəsinə əsasən, başqa şəxsdən hər hansı hərəkəti yerinə yetirməyi və ya yerinə yetirməkdən çəkinməyi tələb etmək hüququna müddət şamil edilir. Hüququ pozulmuş şəxsin iddiası ilə hüququn müdafiəsi üçün müddət iddia müddəti sayılır. Yəni iddia müddəti özünümüdafiə mahiyyətində olmaqla tələb hüquqlarına xarakterikdir və hüququn məhkəmə qaydasında realizəsi imkanı üçün nəzərdə tutulmuş müddətlərdir."

"Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1246 və 1273-1-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinin VII hissəsinə uyğunluğunun yoxlanılmasına dair" 26 dekabr 2023-cü il tarixli Qərar:

"... vərəsəlik hüququnun mülki qanunvericilikdə müəyyən edilmiş qaydada qəbul şərtinə və müddətinə tabe tutulması, susmanın mirasdan imtina ilə eyni hüquqi nəticələrə gətirib çıxarması vərəsəlik hüququnun konstitusiya-hüquqi mahiyyəti ilə uyğunsuzluq təşkil etdiyindən, Mülki Məcəllənin 1273-1-ci maddəsi Konstitusiyanın 29-cu maddəsinin VII hissəsinə uyğun olmayan hesab edilməlidir.

Bu baxımdan qanunla müəyyən edilmiş müddət ərzində mirasdan imtina etməyən vərəsə mirası qəbul etmiş vərəsə hesab edilməli və vərəsələr arasında miras əmlakın bölüşdürülməsi Mülki Məcəllənin 1301-ci maddəsinə uyğun olaraq həyata keçirilməldir."

22. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Məhkəmə qətnaməsi haqqında" 24 noyabr 2005-ci il tarixli 4 nömrəli Qərarı:

Bənd 2.2. Məhkəmə qətnaməsi maddi və prosessual hüquq normalarına dəqiq əməl edilməklə qəbul edildikdə qanuni hesab edilir;

Bənd 2.4. Qətnamə o vaxt əsaslı hesab edilir ki, onda baxılan iş üçün əhəmiyyətli olan, qanunun tələblərinə uyğun olaraq işə aid edilən və mötəbər sübutlarla təsdiq olunan

faktlar əks etdirilmiş olsun, məhkəmənin həmin faktlara tətbiq edilən hüquqdan irəli gələn qəti nəticəsi şərh edilsin, habelə qətnamədə göstərilən hallar işin materiallarına uyğun olsun.

KASSASİYA BAXIŞININ HƏDLƏRİ

23. Kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilib, işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

24. Kassasiya şikayətində qətnamənin ləğvi xahiş edildiyi üçün, apellyasiya instansiyasının yekun məhkəmə aktı şikayətdə irəli sürülən dəlillər üzrə tam yoxlanılır.

25. Məhkəmə kollegiyası hüququn inkişafının və ya məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi üçün əhəmiyyətli hesab etmədiyindən, kassasiya şikayətinə yazılı icraat qaydasında baxmışdır.

KASSASİYA İNSTANSİYASI MƏHKƏMƏSİNİN MÖVQEYİ

26. Məhkəmə kollegiyası hesab edir ki, apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normaları pozulmuş, bu da iş üzrə qanunsuz və düzgün olmayan qətnamənin qəbul edilməsi ilə nəticələnmişdir.

27. İlk olaraq, mülki hüquq münasibətlərinin əhatəli və aparıcı sahələrindən biri öhdəlik hüququdur. Öhdəlik iqtisadi dövriyyə iştirakçılarının öhdəlik hüququ normaları ilə tənzimlənən qarşılıqlı əlaqələridir.

Mülki Məcəllənin 385.1-ci maddəsinin mətninə görə, öhdəliyin predmetini pulun ödənilməsi, əmlakın verilməsi, işin görülməsi, xidmətlərin göstərilməsi və ya müəyyən hərəkətdən çəkinmək kimi konkret hərəkət və ya hərəkətsizlik təşkil edir.

Mülki Məcəllənin 386.1-ci maddəsi bəzi istisnalarla, öhdəliyin əmələ gəlməsi üçün onun iştirakçıları arasında müqavilənin bağlanmalı olduğunu müəyyən edir. Həmin maddədə nəzərdə tutulmuşdur ki, öhdəliyin zərər vurulması, əsassız varlanma və ya bu Məcəllədə nəzərdə tutulmuş digər əsaslar nəticəsində əmələ gəlməsi halları istisna olmaqla, öhdəliyin əmələ gəlməsi üçün onun iştirakçıları arasında müqavilə olmalıdır, yəni borclunun kreditor qarşısında olan öhdəliyi müqavilə ilə müəyyən edilməlidir.

Müqavilənin anlayışı Mülki Məcəllənin 389.1-ci maddəsində verilmişdir. Həmin maddəyə uyğun olaraq, mülki hüquq və vəzifələrin müəyyənləşdirilməsi, dəyişdirilməsi və ya xitamı haqqında iki və ya bir neçə şəxsin razılaşması müqavilə sayılır.

Mülki Məcəllənin 405.1-ci maddəsinə görə, tərəflər müqavilənin bütün şərtləri barəsində tələb olunan formada razılığa gəldikdə müqavilə bağlanmış sayılır.

Borc müqaviləsinin anlayışına aydınlıq gətirən Mülki Məcəllənin 739.1-ci maddəsinə əsasən, iştirakçılardan biri (borc verən) pula və ya digər əvəz edilən əşyalara mülkiyyət hüququnu digər iştirakçıya (borc alana) keçirməyi öhdəsinə götürür, digər iştirakçı (borc alan) isə aldıqlarını müvafiq olaraq pul və ya eyni keyfiyyətdə və miqdarda olan eyni növlü əşyalar şəklində borc verənə qaytarmağı öhdəsinə götürür.

Həmin Məcəllənin 739.2-ci maddəsinə görə isə borc müqaviləsinin predmeti hər hansı pul məbləği olduqda, o, kredit müqaviləsi adlandırılır. Müstəqil peşə fəaliyyəti şəklində pul borc verməklə məşğul olan şəxslər əlavə olaraq peşəkarlıq qaydasında kreditlər verilməsi haqqında müddəaları gözləməlidirlər.

Kredit müqaviləsi ikitərəfli müqavilələrdən olub, bağlanması ilə hər iki tərəf, yəni həm kredit alan, həm də kredit verən üçün müəyyən vəzifələr yaratmış olur. Kredit müqaviləsinə əsasən, kreditor müqavilə ilə nəzərdə tutulmuş həcmdə və şərtlərdə pulun (kreditin) borcluya verilməsi öhdəliyini, borclu isə bu məbləğin qaytarılması və faizlərin ödənilməsi öhdəliyini öz üzərinə götürür.

Müqavilələrdən irəli gələn öhdəliklərin vicdanla yerinə yetirilməsi, ilk növbədə, tərəflərin qanuni maraqlarına və mülki dövriyyənin sabitliyinə xidmət edir. Kredit müqaviləsi üzrə öhdəliklərin vaxtında icra edilməsi də qeyd edilən məqsədlərlə yanaşı, banklara göstərilən etimadın artmasına müsbət təsir göstərməklə, dövlətin iqtisadi-maliyyə vəziyyətinin stabilliyini və inkişafını təmin edir.

28. Vərəsəliyə gəldikdə, bu hüquq obyektiv hüquq kimi ölmüş şəxsin əmlakının və

bununla bağlı hüquq və vəzifələrinin qanun üzrə və ya vəsiyyət üzrə digər şəxslərə keçməsi qaydalarını müəyyənləşdirən hüquq normalarının məcmusudur.

Vərəsəlik institutu hər bir şəxsə zəmanət verir ki, sağlığında əldə etdiyi əmlak və digər maddi nemətlər (onların yüklülükləri ilə birlikdə) ölümündən sonra onun iradəsinə uyğun olaraq ifadə etdiyi vərəsələrinə, iradəsini ifadə etmədiyi təqdirdə isə qanunla müəyyən edilən vərəsələrinə keçsin.

Vərəsəlik hüququ mülkiyyətçinin sağlığında əldə etdiyi əmlak və digər maddi nemətlərin ölümündən sonra onun iradəsinə uyğun olaraq müəyyən etdiyi vərəsələrinə, iradəsini ifadə etmədiyi təqdirdə isə qanunla müəyyən edilən vərəsələrinə keçməsini ehtiva edir. Mülki hüququn bu institutu vasitəsi ilə miras qoyanın, onun kreditorlarının, eləcə də vərəsələrinin mənafeyi qorunur, miras qoyanın əmlakın aqibəti ilə bağlı niyyətinin həyata keçirilməsinə şərait yaradılır, bununla da etibarlı və sağlam ailə münasibətlərinin qorunub inkişaf etdirilməsi təmin olunur. Qeyd olunan hallar həm şəxsiyyətin qorunması, həm də ictimai mənafelərin təmin olunması məqsədinə xidmət etməklə, vərəsəlik hüquq qaydalarının məcburiliyini, yəni qanunverici tərəfindən müəyyən tənzimetmənin imperativliyini şərtləndirir.

Ailə üzvlərinin mənafeyinin üstünlüyü vərəsəlik hüququnun əsasında duran ailə təminatı prinsipindən irəli gəlir. Bu prinsip vətəndaş cəmiyyətinin özəyini təşkil edən ailənin təminatı məqsədilə yaxın qohumluqla (uşaq, ər, arvad, valideynlər) miras qoyana bağlı olan şəxslərin mənafeyinin digər şəxslərin mənafeyindən üstün olmasını nəzərdə tutur. Ailə-təminat prinsipinin məntiqinə əsasən mülkiyyətçiyə yaşadığı dövrdə məxsus olan əmlak (əmlakın müəyyən hissəsi) üzərində sərəncam vermək hüququ onun vəfatından sonra yaxın ailə üzvlərinə məxsus olmalıdır. Bu prinsip qanun üzrə vərəsəlik zamanı növbəlik, irsi transmissiya qaydalarında özünü göstərir və mirasın daha yaxın şəxslər dairəsinə çatmasına xidmət edir.

Vərəsəlik hüququ vasitəsilə mülki dövriyyə iştirakçıları olan fiziki şəxslərin ölməsi halında onların sağlığında qurduqları hüquqi münasibətlərdən irəli gələn hüquq və öhdəliklərinin aradan qalxmaması, vərəsələri tərəfindən həyata keçirilməsi üçün hüquqi şərait yaradılır ki, nəticədə mülki dövriyyənin davamlılığı və fasiləsizliyi təmin edilməklə hüquqi müəyyənlik və hüquqi etimad prinsipləri qorunmuş olur.

Mülki Məcəllənin 1256-cı maddəsinə əsasən, vərəsə vərəsəliyə çağırıldığını bildiyi və ya bilməli olduğu gündən üç ay ərzində mirasın qəbulundan imtina edə bilər. Üzrlü səbəb olduqda məhkəmə bu müddəti iki aydan çox olmayaraq uzada bilər. Mirasın qəbulundan imtina notariat orqanında rəsmiləşdirilməlidir.

İmtina müddəti kreditorların mirasdan imtina edilib-edilməməsini, imtina edilmişdirsə borclu olan vərəsələrin dəqiq dairəsini bilmələri və iddia qaldırmaq hüquqlarından istifadə edə bilmələri üçün əlverişli olduğu kimi, borclu vərəsələr baxımından da payların dəqiq müəyyən edilməsi, kreditorlar qarşısında məsuliyyətin qətiləşməsi və uzun müddət məhkəmə çəkişməsi təhdidi altında qalmalarının qarşısını almaq baxımından olduqca mühümdür. Bu baxımdan mirasdan imtina institutu mülki dövriyyə iştirakçılarının hüquqlarının müdafiəsi yönümündən başda Konstitusiya olmaqla, mülki qanunvericiliyin tələblərinə daha uyğundur.

“Mirasdan imtina” anlayışı hüquqi məntiqə uyğun olaraq artıq yaranmış olan, mövcud bir hüququn rədd edilməsini ifadə edir.

Miras açıldıqdan sonra vərəsə susmuşsa, yəni mirası qəbul və ya ondan imtina etməmişsə, qanunverici vərəsənin mirasdan imtina etmədiyini ehtimal etmiş və müvafiq olaraq mirasdan imtinanın nəticələrinin ona tətbiq edilməməsini nəzərdə tutmuşdur.

Miras qoyanın ölümü ilə yaranan vərəsəlik hüquq münasibətləri vərəsənin mirasdan imtina etməsi anınadək davam edir. Vərəsə statusunda olan şəxs bu statusdan imtina etmək qərarına gələrsə, bununla bağlı iradə ifadəsini Mülki Məcəllənin 1256-cı maddəsinə müvafiq

olaraq, vərəsəliyə çağırıldığını bildiyi və ya bilməli olduğu gündən üç ay ərzində ifadə etməlidir. Xüsusilə vurğulanmalıdır ki, mirasdan imtina şəxsin olduqca mühüm konstitusiya hüququndan imtina etməsilə əlaqədar iradə ifadəsi olduğundan, qanunverici bu iradə ifadəsinin məhz xüsusi formada, notariat ofisində rəsmiləşdirilməli olmasını imperativ qaydada müəyyən etmişdir.

Bu mənada, mülkiyyəti təsdiq edən sənəddə adı qeyd olunmuş əşyanın mülkiyyətçisi vəfat edərsə, bu əmlakın sahibi onun vərəsələridir. Vərəsələr bu əşya üzərində mülkiyyət hüququnu miras qoyanın ölümündən sonra qanunla müəyyən edilmiş qaydada qeydiyyata alınmadan əldə edirlər. Hüququn əsas prinsiplərindən biri də mülkiyyət hüququnun zamansız olması, başqa sözlə, mülkiyyət hüququnun müddətə bağlı olmamasıdır. Vərəsələrin davam edən mülkiyyət hüququ əşyadan faktiki istifadə etmək hüququnu nəzərdə tutduğu kimi, ondan istifadə etməmək hüququnu da ehtiva edir. Mülkiyyət hüququnun mütləqliyi və reyestr qeydiyyatının aşkarlığı (həqiqiliyi) şəraitində vərəsələrin mülkiyyət hüquqlarını tanımamaqla birtərəfli qaydada aradan qaldırılmasına icazə verilməsi mülkiyyət hüququnu ləğv etməklə yanaşı, həm də əldə edilmiş hüquq və hüquqi təminat prinsiplərini pozur.

Mirasın formal və qeyri-formal üsulla qəbul edilməsindən asılı olmayaraq, mirası qəbul etmiş vərəsələr universal hüquq varisliyi qaydasında miras qoyanın öhdəliklərini də qəbul etmiş olurlar. Bu isə onu göstərir ki, miras qoyanın kreditoru mənafelərinin təmin edilməsi məqsədi ilə tələb hüququnu mirası faktiki qəbul etmiş vərəsələrə qarşı da irəli sürə bilər.

Vərəsəlik şəhadətnaməsi mirasın qəbulu faktını rəsmiləşdirən sənəd olmaqla, sadəcə hüquq təsdiqedici xarakter daşıyır və şəhadətnamənin olmaması vərəsənin mirası qəbul etməməsini ifadə etmir. Miras əmlaka sahiblik etməklə və ya əmlakı idarə etməklə mirası qəbul etdiyini şəksiz nümayiş etdirən vərəsənin vərəsəlik şəhadətnaməsinin olmaması onu mirasın qəbulu ilə bağlı yaranan öhdəliklərdən azad etmir. Bu baxımdan kreditorların mirası faktiki qəbul etmiş vərəsələrə qarşı məhkəmədə öhdəliyin miras qalmış əmlak hesabına icrası barədə iddia icraatı qaydasında tələb irəli sürməsi yolverilən dir.

Kreditorun bu cür tələb irəli sürmək hüququnun formal mülahizələrlə inkar edilməsi əsas məqsədi və hüquqi funksiyası mülki dövriyyədə hüquqi müəyyənliyin və hüquqi etimadın davamlılığını təmin etmək olan vərəsəlik hüququnun mahiyyətinə zidd olmaqla, kreditorun məhkəmə müdafiəsi, ədalətli məhkəmə araşdırması hüquqlarının, bu isə öz növbəsində mülkiyyət hüququnun və qanunla qorunan maraqlarının əhəmiyyətli dərəcədə pozulmasına səbəb olar.

29. Mülki məhkəmə icraatında sübutetmə institutu və sübutetmə yükünə dair qeyd olunmalıdır ki, hüquqi həqiqət prinsipi mülki prosesdə tərəflər və məhkəmə arasında müəyyən iş bölgüsünə gətirib çıxarır: tərəflər işin faktiki hallarını təqdim edir, məhkəmə isə sübutları qiymətləndirir və sonda hüququ tətbiq edir. Belə iş bölgüsü Roma hüququnun “da mihi factum, dabo tibi ius” (“mənə faktları ver, mən sənə uyğun hüququ verəcəm”) prinsipinə əsaslanır. Hüquqi həqiqət prinsipinə görə sübutların toplanması və təqdim edilməsi yükü bütünlüklə tərəflərin üzərinə düşür. Təqdim olunmuş sübutlar əsasında həqiqətin müəyyən edilməsi isə məhkəmə tərəfindən sübutların düzgün qiymətləndirilməsindən asılıdır.

Mülki işlər üzrə icraatda çəkişmə prinsipi isə tərəflərin öz hüquqi mövqeyini müdafiə etməsi üçün irəli sürdüyü tələb və etirazların əsaslarının sübut edilməsi imkanlarını və vasitələrini müəyyən edən sübutetmə qaydasıdır.

Sübutetmə vəzifəsinin tərəflər arasında bölüşdürülməsinin ümumi qaydalarını MPM- in 77.1-ci maddəsi müəyyən edir. Bu qaydalar onu ifadə edir ki, işdə iştirak edən hər bir şəxs istinad etdiyi halların mövcudluğunu və doğruluğunu yalnız özü sübut etməlidir və heç kəs, o cümlədən məhkəmə onu bu vəzifədən azad edə bilməz. İstisnanı yalnız MPM- in 82 və

106.3-cü maddələrində göstərilən hallar təşkil edir.

MPM-in 14.1-ci maddəsində nəzərdə tutulmuş vəzifələr çərçivəsində işə baxan məhkəmə hansı halların iş üçün əhəmiyyət kəsb etdiyini, hansı tərəfin onları sübut etməli olduğunu və ya verilən tələbin təmin olunması üçün hansı halların sübut edilməli olduğunu tərəflərin istinad edib-etməməsindən asılı olmayaraq onlarla müzakirə etməlidir.

Sübutların qiymətləndirilməsi faktların müəyyənləşdirilməsi imkanına dair məntiqi fəaliyyətdir və işdə olan sübutlar əsasında işin həll olunması deməkdir.

Sübutların qiymətləndirilməsi məhkəmə tərəfindən ilkin (məhkəmə araşdırmasının sonunda) və yekun (müşavirə otağında məhkəmə qətnaməsi qəbul edilərkən) qiymətləndirməni nəzərdə tutur. İlkin qiymətləndirmə ayrı-ayrı faktların müəyyən edilməsi üçün hər bir sübutun aid edilməsi, mümkünlüyü, mötəbərliyi və yetərliliyi nöqteyi- nəzərindən onun predmetinin keyfiyyətinə dair keçirilir.

Sübutetmənin son mərhələsi məhkəmə tərəfindən bütün sübutların yoxlanılması əsasında verilən yekun hüquqi qiymətdir. İş üzrə qərarın əsasında yalnız obyektiv, qərəzsiz, hərtərəfli və tam yoxlanılmış sübutlar dayana bilər. Sübutların bu cür qiymətləndirilməsi məhkəmə iclasında sübutetmə predmetinə daxil olan tərəflərin bildirdiyi bütün faktların hərtərəfli, tam və qərəzsiz tədqiqi əsasında və yalnız qanuna əsaslanaraq hakim tərəfindən həyata keçirilir. Hər bir sübut aidiyyət, mümkünlük, mötəbərlik nöqteyi- nəzərindən, bütün sübutların məcmusu isə iş üzrə sübut edilməli olan faktların yetərliliyi baxımından qiymətləndirilir. Heç bir sübut məhkəmə üçün əvvəlcədən müəyyən edilmiş qüvvəyə malik deyil.

Sübutetmə predmetinin düzgün müəyyən edilməməsi, hüquqi faktların sübut olunmaması, hakimin gəldiyi nəticənin işin halları ilə düz gəlməməsi və qanunvericiliklə müəyyən edilmiş digər hallar apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv edilib, işin yenidən baxılmaq üçün həmin məhkəməyə göndərilməsinə əsasdır.

30. Konstitusiya Məhkəməsinin Plenumu qərarlarında qeyd etmişdir ki, hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir. Məhkəmə işin gedişində təqdim olunmuş ancaq o sübutları qəbul edir və nəzərə alır ki, onlar işdə tərəflərin tələblərini müəyyən edən faktlarla və hallarla əlaqədardır. Qətnamə iş üzrə müəyyən edilmiş həqiqi hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır. Qətnamə çıxarıldıqda hakim sübutları qiymətləndirir, iş üçün əhəmiyyətli olan nə kimi halların müəyyən edildiyini, nə kimi halların müəyyən edilmədiyini, tərəflərin hansı hüquqi münasibətdə olmalarını, həmin iş üzrə hansı qanunun tətbiq edilməli olduğunu və iddianın təmin olunub-olunmadığını müəyyən edir (“Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 82.3-cü maddəsinin şərh edilməsinə dair” 2016-cı il 23 fevral tarixli Qərar).

31. Yuxarıda qeyd olunanların kontekstində, apellyasiya instansiyası məhkəməsi öz qətnaməsini Cavabdeh 3-ə münasibətdə onunla əsaslandırmışdır ki, “Hazırki işdə isə əsas borclunun vəfatından sonra onun vərəsəlik qaydasında keçə biləcək miras əmlakın olması, həmin əmlakın vərəsələri tərəfindən qanunla müəyyən olunmuş müddətdə qəbul edilməsi, vərəsəlik işinin açılması və s. bu kimi halların mövcudluğunun iddiaçı tərəfindən təqdim olunmuş sübutlara əsasən müəyyən edilməsi mümkün olmamışdır. Belə olan halda da cavabdeh qismində cəlb olunmuş məhrumun arvadı Cavabdeh 3-ün ölənin öhdəlikləri üzrə məsuliyyət daşıması istisna olunur.”

32. Başqa sözlə, apellyasiya instansiyası məhkəməsi hesab etmişdir ki, əsas borclunun vəfatından sonra onun vərəsəlik qaydasında keçə biləcək miras əmlakının olması, həmin əmlakın vərəsələri tərəfindən qanunla müəyyən olunmuş müddətdə qəbul edilməsi, vərəsəlik işinin açılması və sair kimi halların mövcudluğu vərəsələr tərəfindən deyil, vəfat etmiş əsas

borclunun kreditoru tərəfindən sübuta yetirilməlidir.

33. Bununla da, apellyasiya instansiyası məhkəməsi iş üzrə sübutetmə yükünü tərəflər arasında düzgün bölüşdürməyərək həm prosessual hüquq normalarını, həm də konkret vəziyyətdə sübutetmə yükünün kimə aid olmasını tənzimləyən maddi hüquq normasını pozmuş olmuşdur. Belə ki, Mülki Məcəllənin "Vərəsələr tərəfindən kreditorların təmin edilməsi zamanı sübutetmə yükü" adlanan 1307-ci maddəsində təsbit edilmişdir ki, mirasın notarius tərəfindən siyahıya alındığı haldan başqa, vərəsə miras qoyanın borclarının mirasdan çox olduğunu sübut etməlidir.

34. Apellyasiya instansiyası məhkəməsi sözügedən mövqeyi ilə Konstitusiya Məhkəməsi Plenumunun 14 oktyabr 2022-ci il tarixli Qərarı (§21) ilə verilən şərhi də nəzərə almamışdır.

35. Konstitusiya Məhkəməsi Plenumunun daha sonra, yəni 26 dekabr 2023-cü il tarixdə qəbul etdiyi Qərarda (§21) isə məsələyə dair birmənalı hüquqi qiymət verilərək, göstərilmişdir ki, qanunla müəyyən edilmiş müddət ərzində mirasdan imtina etməyən vərəsə mirası qəbul etmiş sayılır.

36. Bu anlamda məhkəmə kollegiyası iddiaçının kassasiya şikayətinin ilk dəlili ilə razılaşır.

37. Şikayətin növbəti dəlili isə əsaslı deyil. Belə ki, birincisi, Mülki Məcəllənin 477.0.4-cü maddəsində nəzərdə tutulan müddətlər iddia müddəti deyil, kəsici müddətlərdir. İkincisi, Konstitusiya Məhkəməsi Plenumunun 12 mart 2020-ci il tarixli Qərarında (§21) şərh olunmuşdur ki, iddia müddəti dayandırıla, kəsilə və müəyyən hallarda bərpa edilə bilsə də, kəsici müddətlər qanunda birbaşa nəzərdə tutulan hallar istisna olmaqla, dayandırıla və kəsilə bilməz. Bu mənada, Azərbaycan Respublikası Prezidentinin 28.02.2019-cu il tarixli "Fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanı üzrə iddiaçı tərəfindən görüldüyü irəli sürülən zəruri prosedurlara sərf edilmiş müddət də sözügedən kəsici müddətə hesablanmalıdır.

38. Beləliklə, mülki işə kassasiya qaydasında baxan məhkəmə kollegiyası yuxarıda qeyd olunanlara məcmu halda hüquqi qiymət verərək hesab edir ki, kassasiya şikayəti qismən təmin edilməli, apellyasiya instansiyası məhkəməsinin qətnaməsi Cavabdeh 3-ə qarşı iddia rədd olunan hissədə ləğv edilməli, iş eyni hissədə yenidən baxılmaq üçün həmin məhkəməyə göndərilməli, qətnamə qalan hissədə dəyişiklik edilmədən saxlanılmalıdır.

39. Göstərilənlərə əsasən və MPM-in 417-419-cu maddələrini rəhbər tutaraq, məhkəmə kollegiyası

QƏRARA ALDI:

Bakı Apellyasiya Məhkəməsi Mülki Kollegiyasının 2(103)-3712/2023 nömrəli iş üzrə 20 iyun 2023-cü il tarixli qətnaməsi qismən - iddia Cavabdeh 3-ə qarşı rədd olunan hissədə - ləğv edilsin, iş eyni hissədə yenidən baxılmaq üçün həmin apellyasiya instansiyası məhkəməsinə göndərilsin.

Qətnamə qalan hissədə dəyişiklik edilmədən saxlanılsın.

İddiaçı "Xxxx" ASC-nin kassasiya şikayəti qismən təmin edilsin. Qərar qəbul edildiyi andan qüvvəyə minir.

46. 2(102)-1792/2024 nömrəli, 2024-cü il 10 iyun tarixli qərar - Mirasın qəbulu və ya ondan imtina barəsində mübahisə açılması müddətinin tətbiqi (Mülki Məcəllə maddə 1272)

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: mirasın qəbulu və ya ondan imtina barəsində mübahisə açılması müddətinin tətbiqi (Mülki Məcəllə, maddə 1272).

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Mülki Məcəllənin 1272-ci maddəsinə əsasən mirasın qəbul edilməsi və ya qəbulundan imtina edilməsi barəsində mübahisə maraqlı şəxsin bundan ötrü müvafiq əsas olduğunu bildiyi gündən iki ay ərzində açıla bilər.

Bu müddəa mirasdan imtina etmədiyinə görə vərəsəliyi artıq qətiləşmiş vərəsənin iki ay müddətində mirası qəbul etməməsinə (yaxud mirasa dair iddia qaldırmamasına) görə vərəsəlik hüququndan məhrum olmasını ehtiva etmir. Mirasın qəbulu və ya qəbulundan imtina edilməsi ilə bağlı mübahisə açılması dedikdə, həmin hüquqi hərəkətlər barədə ifadə edilmiş bəyanların iradə zədələnməsinə görə etibarsızlığının iki aylıq kəsici müddət ərzində mübahisələndirilməsi başa düşülür (məsələn, zorakılıq və ya hədələmə nəticəsində mirasın qəbulu və ya mirasdan imtina barədə verilmiş ərizənin təhlükə aradan qalxdığı andan iki ay müddətində mübahisə edilməsi).

Qəbul edilmiş miras onun açıldığı gündən vərəsənin mülkiyyəti sayılır. Bu baxımdan mirası qəbul etməsi və dolayısı ilə miras əmlak üzərində mülkiyyət hüququnu qazanması tanınan vərəsənin iki ay ərzində mirasın qəbul edilməsi və ya qəbulundan imtina edilməsi barəsində mübahisə açmamasına görə vərəsəlik hüquqlarını itirməsi barədə mövqe hüquqi məntiqə və qanunvericiliyə uyğun gəlmir. Belə yanaşma tam əşya hüququ sayılan mülkiyyət haqqına müddətin şamil olunmazlığı prinsipinin də pozulmasına səbəb olardı.

İddianı qəbul etdiyi tanınan vərəsənin tələbinin Mülki Məcəllənin 1272-ci maddəsindəki iki aylıq müddətdə mirasın qəbulu və ondan imtina ilə bağlı mübahisə açmamağa görə rədd edilməsi, nəticə etibarilə vərəsənin həmin Məcəllənin qüvvədən düşürülmüş 1246-cı maddəsindəki üç aydan da az müddətin keçməsinə görə vərəsəlik hüququndan məhrum edilməsidir. Halbuki, mirasdan imtina etməmiş vərəsənin onu qəbul etmiş sayılması, mirasın açıldığı andan öz payı nisbətində miras əmlakın mülkiyyətçisi olması və mülkiyyət haqqının müddətlə məhdudlaşdırılmasının bu hüququn konstitusion mahiyyətinə xələl gətirməsi nəzərə alınaraq, Konstitusiya Məhkəməsi Plenumunun 14 oktyabr 2022-ci il tarixli və 26 dekabr 2023-cü il tarixli qərarlarında vərəsəlik hüquq münasibətlərində imtina sistemi əsas götürülmüşdür.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-1792/2024

10.06.2024-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından

Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının

İddiaçının cavabdehlər Bakı şəhəri 8 saylı Notariat Ofisinə, Cavabdeh 1, Cavabdeh 2 və Cavabdeh 3-ə(X1, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri Xidmətinin 1 saylı Bakı Ərazi İdarəsi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi və X2 mübahisə predmeti barəsində müstəqil tələb irəli sürməyən üçüncü şəxs qismində cəlb edilməklə) qarşı iş üzrə

Q Ə R A R I

Açar sözlər: vərəsəlik hüququ, mirasın qəbulu

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Əliyev Zaur Əli oğlu (məruzəçi), Babayev Zəki Baba oğlu və Məmmədov Vidadi Məmməd oğlundan ibarət tərkibdə,

Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(103)-570/2024 nömrəli, 13 fevral 2024-cü il tarixli qətnaməsindən iddiaçı tərəfindən verilmiş kassasiya şikayətinə Ali Məhkəmənin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları

1. Mübahisəyə mahiyyəti üzrə baxan məhkəmələr işin hallarını araşdıraraq aşağıdakıları müəyyən etmişlər:

2. Ünvan 1-də yerləşən mənzili X3-ün adına xüsusi mülkiyyət kimi hüquqi qeydiyyatdan keçirilmiş və bu barədə reyestr kitabında 30/114435 nömrəsi ilə 05.02.1997-ci il tarixdə qeydiyyat aparılmışdır;

3. X3-ün əri X4 21 aprel 2000-ci ildə, özü 20 iyul 2001-ci ildə vəfat etmişdir;

4. X5-in Bakı şəhəri 8 saylı notariat kontoruna ünvanladığı 16.10.2001-ci il tarixli ərizəyə əsasən, 20.07.2001-ci il tarixdə vəfat etmiş anasından miras qalmış Ünvan 1 mənzildən ona düşən vərəsəlik payından bacısı X6-nın xeyrinə imtina etmişdir və gələcəkdə bu barədə iddia qaldırmayacaqdır;

5. Bakı şəhəri 8 saylı notariat ofisi tərəfindən verilmiş 27.10.2001-ci il tarixli qanun üzrə vərəsəlik hüququ haqqında şəhadətnaməyə əsasən, 20.07.2001-ci il tarixdə vəfat etmiş X3-ün vərəsəsi Ünvan 1 mənzildə yaşayan qızı X6-dır. Şəhadətnamə verilən miras əmlak: Ünvan 1-də yerləşən 3 (üç) otaqlı, yaşayış sahəsi 43,60 kv.m, ümumi sahəsi 69,5 kv.m olan ** saylı mənzildir;

6. Ünvan 1 mənzil X6-nın adına xüsusi mülkiyyət kimi hüquqi qeydiyyatdan keçirilmiş və bu barədə reyestr kitabında 30/26054 nömrəsi ilə 29.11.2001-ci il tarixdə qeydiyyat aparılmışdır;

7. X6 ilə X1 arasında 19.01.2002-ci il tarixdə notarial qaydada bağlanmış ******* saylı müqaviləyə əsasən, X6 Ünvan 1 mənzili X1-ə satmışdır;

8. Bakı şəhəri 8 saylı notariat ofisi tərəfindən verilmiş 12.10.2012-ci il tarixli qanun üzrə vərəsəlik hüququ haqqında şəhadətnaməyə əsasən, 20.07.2001-ci il tarixdə vəfat etmiş X3-ün vərəsəsi Ünvan 2 ünvanında mənzildə yaşayan qızı X6-dır. Şəhadətnamə verilən miras əmlak: Əmanət Bankının 3548 nömrəli əmanət kassasının ******* nömrəli hesabındakı məbləğdən ibarətdir;

9. Bakı şəhəri 8 saylı notariat ofisi tərəfindən verilmiş 12.10.2012-ci il tarixli qanun üzrə vərəsəlik hüququ haqqında şəhadətnaməyə əsasən, 21.4.2000-ci il tarixdə vəfat etmiş X4-ün vərəsələri Ünvan 2 mənzildə yaşayan qızları X6 (1/2 hissə) və X5-dir (1/2 hissə). Şəhadətnamə verilən miras əmlak: Əmanət Bankının **** nömrəli əmanət kassasının **** və **** nömrəli hesablarındakı məbləğdən ibarətdir;

10. Ünvan 3-dəki evin 28,45 kv.m yaşayış sahəsində ibarət 2 (iki) otaqlı 2 saylı mənzili X6-nın adına xüsusi mülkiyyət kimi hüquqi qeydiyyatdan keçirilmiş və bu barədə reyestr kitabında 30/**** nömrəsi ilə 07.03.2002-ci il tarixdə qeydiyyat aparılmışdır;

11. 07.01.2021-ci il tarixli daşınmaz əmlakın bağışlanması müqaviləsinə əsasən, X6 Ünvan 3-dəki mənzilini bacısı qızı Cavabdeh 3-ə bağışlamışdır. Həmin müqavilə Cavabdeh 1 (X6-nın əvəzinə) tərəfindən imzalanmışdır;

12. X6 14 yanvar 2021-ci il tarixdə Bakı şəhərində vəfat etmişdir;

13. Daşınmaz əmlakın alqı-satqı müqaviləsinə əsasən, X1 özünə məxsus Ünvan 1-dəki mənzili X8-ə satmışdır;

14. “MERCEDES BENZ C180” minik markalı, **-BK-*** dövlət qeydiyyat nişanlı nəqliyyat vasitəsi 117.2015-ci il tarixdə X6-nın mülkiyyətində olmuş, 12.01.2021-ci ildə özgəninkiləşdirilmişdir;

15. Etibar edən X9 4.8.2014-cü il tarixdə “MERCEDES BENZ C180” minik markalı, **-BK-*** dövlət qeydiyyat nişanlı nəqliyyat vasitəsi ilə bağlı 19.07.2015-ci il tarixədək Cavabdeh 2-ə etibarnamə vermişdir.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

Birinci instansiya məhkəməsində icraat

16. İddiaçı cavabdehlər Bakı şəhəri 8 saylı Notariat Ofisinə, Cavabdeh 1, Cavabdeh 2 və Cavabdeh 3-ə qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, cavabdeh 8 saylı Notariat Ofisində açılmış 2V-1-** reyestr nömrəli, 27.10.2001-ci il tarixli, 40/*** nömrəli və 512/**** nömrəli vərəsəlik işi üzrə verilmiş 10.10.2012-ci il tarixli 2V2-*** və 2V-2-*** reyestr nömrəli qanun üzrə vərəsəlik hüququ haqqında şəhadətnamələrin, habelə bacısı X6 ruhi xəstəlikdən əziyyət çəkdiyindən onun adından Cavabdeh 1-ə verilmiş ƏN-İ № ****** seriya nömrəli, 31.12.2020-ci il tarixli (qeyri-iş günü tarixli) etibarnamənin, həmin etibarnamə əsasında X6-nın adından (Cavabdeh 1 tərəfindən) Ünvan 4-dəki saylı mənzilinin cavabdeh 8 saylı Notariat Ofisində bağlanmış 4-Ə reyestr nömrəli, 07.01.2021-ci il tarixli bağışlama müqaviləsinin, habelə bacısı X6-nın adında olmuş "Mercedes Benz C180" minik markalı, **-BK-*** qeydiyyat nişanlı nəqliyyat vasitəsinin 12.01.2021-ci il tarixli alqı-satqı müqaviləsinin etibarsız hesab edilməsi, həmin vərəsəlik hüququ haqqında şəhadətnamələrin, etibarnamənin, bağışlama, alqı-satqı müqavilələrinin hüquqi nəticələrinin ləğv edilməsi və miras əmlakların hüquqi vəziyyətinin əvvəlki vəziyyətinə qaytarılması, həmin miras qalmış daşınar və daşınmaz əmlaklar, pul vəsaitlərinin mülki qanunvericiliyə müvafiq olaraq vərəsələr arasında bölünməsi barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

17. İddiaçı işin yuxarıda qeyd edilən faktiki hallarına istinad etməklə tələbini belə əsaslandırmışdır ki, 18.12.1966-cı il tarixdə Bakı şəhərində anadan olmuşdur, xeyli müddətdir ki, Rusiya Federasiyasında yaşayır və həmin ölkənin vətəndaşıdır. Anası X3 vəfat etdikdən sonra onun Rusiya Federasiyasında daimi yaşamağından sui-istifadə olunaraq, ondan xəbərsiz cavabdeh 8 saylı Notariat Ofisində vərəsəlik işi açılmış və 2V-1-** reyestr nömrəli, 27.10.2001-ci il tarixli qanun üzrə vərəsəlik hüququ haqqında şəhadətnaməyə əsasən anası X3-ün mülkiyyətində olmuş Ünvan 1dəki mənzili təkcə bacısı X6-nın mülkiyyətinə keçmiş, cavabdehlər Cavabdeh 1 və Cavabdeh 2 ruhi xəstəlikdən əziyyət çəkən bacısı X6-nın xəstəliyindən sui-istifadə edərək həmin mənzili cavabdeh 8 saylı Notariat Ofisində bağlanmış 4-Ə1/** reyestr nömrəli 19.1.2002-ci il tarixli alqı-satqı müqaviləsinə əsasən digər şəxsin xeyrinə özgəninkiləşdirmişlər. Həmçinin cavabdeh 8 saylı Notariat Ofisində açılmış 40/** nömrəli və 512/** nömrəli vərəsəlik işi üzrə verilmiş 10.10.2012-ci il tarixli 2V-2-** və 2V-2-*** reyestr nömrəli qanun üzrə vərəsəlik hüququ haqqında şəhadətnamələrə əsasən mərhum anası X3-ün adına olan Əmanət Bankının *** nömrəli əmanət kassasının ******* nömrəli hesabdakı pul vəsaiti və mərhum atası X4-ün adına olan Əmanət Bankının *** nömrəli əmanət kassasının *** və *** nömrəli hesablardakı pul vəsaiti bacıları X6 və X5 tərəfindən miras olaraq qəbul edilmişdir. Hazırkı iddia ərizəsinə qoşma edilmiş notariat işlərindən görünür ki, cavabdeh 8 saylı Notariat Ofisi vərəsəlik işinin açılması barədə onu qəsdən xəbərdar etməmiş və nəticə etibarı ilə o, mərhum anası X3-dən və atası X4-dən miras qalmış daşınmaz əmlakdakı və pul vəsaitlərindəki miras payından məhrum olmuşdur. Həmçinin, cavabdehlər Cavabdeh 1 və Cavabdeh 2 cavabdeh 8 saylı Notariat Ofisi ilə qeyri prosessual münasibətlər quraraq notariusu ələ almış, həmin Notariat Ofisində ruhi xəstəlikdən əziyyət çəkən mərhum bacısı X6-nın adından Cavabdeh 1-in adına 31.12.2020-ci il tarixli (qeyri iş günü) ümumi etibarnamənin alınmasına nail olmuşlar və həmin etibarnamə əsasında Cavabdeh 1 mərhum bacısı X6-nın adında olan Ünvan 4-dəki evin 2 saylı mənzilini həmin Notariat Ofisində bağlanmış 7.1.2021-ci il tarixli bağışlama müqaviləsi əsasında qardaşı qızı olan, digər Cavabdeh 2-nin qızı Cavabdeh 3-ə bağışlamışdır. Bununla yanaşı, cavabdehlər Cavabdeh 1 və Cavabdeh 2 ruhi xəstəlikdən əziyyət çəkən bacısı X6-nın adında olmuş "Mercedes Benz C180" minik markalı **-BK-*** qeydiyyat nişanlı nəqliyyat vasitəsini 12.1.2021-ci il tarixdə, yəni bacısının ölümündən

iki gün əvvəl alqı-satqı müqaviləsi əsasında digər şəxsin xeyrinə özgəninkiləşdirmişlər. Bacısı X6-nın adından Cavabdeh 1-ə 31.12.2020-ci il tarixli (qeyri-iş günü) etibarnamənin onun ölümündən 14 gün əvvəl cavabdeh 8 saylı Notariat Ofisində verildiyi, mərhum bacısı X6-nın adında olan Ünvan 4-dəki evin 2 saylı mənzilinin onun ölümündən 7 gün əvvəl cavabdeh 8 saylı Notariat Ofisində 7.1.2021ci il tarixdə Cavabdeh 2-nin qızı Cavabdeh 3-ə bağışlandığı, habelə bacısı X6-nın adında olmuş "Mercedes Benz C180" minik markalı **-BK-*** qeydiyyat nişanlı nəqliyyat vasitəsinin onun ölümündən 2 gün əvvəl, yəni 12.01.2021-ci il tarixdə X2-nin xeyrinə özgəninkiləşdirildiyi görünür. Həmçinin, mərhum bacısı X6-nın adında olmuş Ünvan 4-dəki evin 2 saylı mənzili onun ölümündən 7 gün əvvəl cavabdeh 8 saylı Notariat Ofisində 7.1.2021-ci il tarixində Cavabdeh 2-nin qızı Cavabdeh 3-ə bağışlanıldığı dövrdə Azərbaycan Respublikasında "Covid-19" pandemiyası ilə əlaqədar qapanmalara görə hər bir dövlət orqanının, xüsusilə də notariusların fəaliyyəti dayandırılmışdır. Məhz cavabdehlərin qabaqcadan düşünülmüş planı üzrə cavabdeh 8 saylı Notariat Ofisində açılmış 2V-1-** reyestr nömrəli, 27.10.2001-ci il tarixli qanun üzrə vərəsəlik hüququ haqqında şəhadətnaməyə əsasən, Ünvan 1-dəki mənzili təkcə bacısı X6-nın mülkiyyətinə keçmiş, sonuncunun ruhi xəstə olmasından istifadə olunaraq həmin mənzil cavabdehlərin düşünülmüş planları üzrə cavabdeh 8 saylı Notariat Ofisində bağlanmış alqı-satqı müqaviləsinə əsasən digər şəxsin adına özgəninkiləşdirilmiş, habelə cavabdeh 8 saylı Notariat Ofisində açılmış 40/**** nömrəli və 512/**** nömrəli vərəsəlik işi üzrə verilmiş 10.10.2012-ci il tarixli 2V-2-*** və 2V-2-**** reyestr nömrəli qanun üzrə vərəsəlik hüququ haqqında şəhadətnamələrə əsasən mərhum anası X3-ün adında olmuş Əmanət Bankının ***** nömrəli əmanət kassasının ******* nömrəli hesabdakı və mərhum atası X4-ün adında olmuş Əmanət Bankının ***** nömrəli əmanət kassasının ****** və ***** nömrəli hesablarındakı pul vəsaitləri bacıları X6 və X5 tərəfindən miras olaraq qəbul edilməklə o, mərhum anası X3-dən, atası X4-dən və ruhi xətəlikdən əziyyət çəkən mərhum bacısı X6-dan qanun üzrə vərəsəlik qaydasında 1-ci və 2-ci növbə üzrə miras payından məhrum olmuşdur.

18. Cavabdeh 2 iddia tələbinə etiraz edərək bildirmişdir ki, iddiaçı uzun müddət əvvəl daimi olaraq Rusiyaya köçüb getmişdir, Rusiya vətəndaşıdır, atası, anası və bacıları ilə heç vaxt maraqlanmamış, qayğılarına qalmamışdır. İddiaçı dəfələrlə Bakıya gəlib-getmişdir, atası, anası və bacılarının ölümündən xəbəri olmuşdur, valideynlərinin mirasının bacısı X6-ya qaldığından da xəbəri olmuşdur. Belə ki, 2004-cü ildə hətta bacıları iddiaçıya toy etmişlər. Birinci mənzillə bağlı qeyd edir ki, həmin mənzil 2002-ci ildə satılmışdır, həmin vaxt onun bu ailə ilə heç bir əlaqəsi olmamış, mərhum X5 ilə 2004-cü ildə ailə qurmuşdur. 2012-ci ildə əmanət kitabçaları ilə bağlı vərəsəlik işində də iştirak etməmiş, həmin vərəsəlik işi barədə məlumatı olmamışdır. İddiaçı isə bütün bunları bilmiş, lakin nə mirasın qəbulu, nə də qəbul müddətinin bərpası barədə müraciət etməmiş, müddətləri ötürmüşdür. X6-nın isə heç bir ruhi xəstəliyi olmamışdır, savadlı və təhsilli insan olmaqla vəfatına qədər DSMF-nin Qaradağ rayon şöbəsində işləmişdir, sadəcə son dövrdə qan azlığı xəstəliyindən əziyyət çəkmişdir. X6 öz sağlığında əmlaklarına dair notarial qaydada sərəncam vermişdir. Belə ki, X6 öz mənzilini öz arzusu ilə bacısı qızı Cavabdeh 3-ə bağışlamışdır, onlar birlikdə yaşamışlar. X6 bütün hərəkətləri notarial qaydada etmişdir. Onun şüurlu olduğunu notarius da yoxlamışdır. 31 dekabr 2020-ci il həftənin dördüncü günü olmuş, həmin vaxt notariat kontoru işləmiş və X6 notariusun iştirakı ilə etibarnamə vermişdir. Bundan əlavə, sözügedən avtomobili 2014-cü ildə öz gəliri ilə əldə etmiş, lakin Bakı qeydiyyatı olmadığına görə həmin vaxt dostunun adına almış, 2015-ci ildə isə Bakı qeydiyyatına görə X6-nın adına keçirmiş, etibarnamə ilə özü idarə etmiş və həmin etibarnamə əsasında 12.1.2021-ci il tarixdə digər şəxsin adına özgəninkiləşdirmişdir.

19. Cavabdeh 1 izahat verərək bildirmişdir ki, iddia tələbinə etiraz edir. O, digər Cavabdeh 2-nin bacısıdır. X6 ilə birlikdə yaşamış, X6-nın bacısı qızı Cavabdeh 3-ə və Cavabdeh 3-ün lal-kar olan kiçik qardaşına baxmışdır. X6 ruhi xəstə olmamış, savadlı insan olmuş, vəfat edənə kimi pensiya fondunda işləmişdir. X6-nın öz ailəsi olmamış, daim özü də

birgə yaşadıqları mənzili bacısı uşaqlarına bağışlamaq istədiyini bildirmişdir. 2020-ci ilin sonlarına yaxın X6 da qan azlığı xəstəliyi olmuş, səhhəti ilə bağlı ona etibarnamə vermiş və mənzili Cavabdeh 3-ə bağışlamağı tapşırmışdır. X6 özü notariat kontoruna getmiş və ona notarial qaydada etibarnamə vermiş, o da X6-nın sağlığında bağışlamanı həyata keçirmişdir. Heç bir qanunsuz hərəkət etməmişdir, vərəsəlik işləri ilə bağlı isə onun məlumatı olmamışdır. İddiaçı isə bütün bunları bilmiş, nə mirasın qəbulu, nə də qəbul müddətinin bərpası barədə müraciət etməmiş, müddətləri ötürmüşdür. Bir daha qeyd edir ki, mənzili X6-nın öz arzusu ilə verdiyi etibarnaməyə əsasən X6-nın bacısı qızı Cavabdeh 3-ə bağışlamışdır.

20. Cavabdeh 3 izahat verərək bildirmişdir ki, iddia tələbinə etiraz edir. Belə ki, anası X5 və xalası X6 iddiaçının onlarla, habelə valideynləri ilə heç vaxt maraqlanmadığını, valideynləri vəfat edəndə də hər hansı köməklik göstərmədiyini demişlər. O, iddiaçını bir dayı kimi heç vaxt görməmişdir. Anası, xalası vəfat edəndə də iddiaçı onlara heç bir köməklik etməmişdir. Vərəsəlik işləri ilə bağlı onun məlumatı olmamışdır, iddiaçı isə bütün bunları bilmiş, nə mirasın qəbulu, nə də qəbul müddətinin bərpası barədə müraciət etməmiş, müddətləri ötürmüşdür. Anası X5 2015ci ildə vəfat edəndən sonra onlar xalası X6lə birlikdə yaşamışlar. Xalası X6 özü birgə yaşadıqları mənzili ona və ağır xəstə olan kiçik qardaşına verəcəyini daimi olaraq sağlığında demişdir. Xalası X6 anası ilə birlikdə pensiya fondunda işləmiş, onun hər hansı əqli və ruhi xəstəliyi olmamışdır. Xalası X6-nın digər Cavabdeh 1-ə verdiyi 31.12.2020-ci il tarixli etibarnaməyə münasibətdə bildirmək istəyir ki, həmin tarixdə Notariat Ofisi işləyirdi və notariusun özü şəxsən xalasının əqli cəhətdən sağlam olub-olmadığını yoxlamışdır. Bundan əlavə, xalası X6 qan azlığı xəstəliyindən əziyyət çəkdiyindən və tez-tez ayaqları tutulduğundan sənəd işlərinin davam etdirilməsi üçün Cavabdeh 1-ə etibarnamə vermiş, mənzili öz istəyi ilə ona bağışlamışdır.

21. Mübahisə predmeti barədə müstəqil tələb irəli sürməyən üçüncü şəxs X1 15.9.2023-cü il tarixli məhkəmə iclası zamanı izahatında bildirmişdir ki, Ünvan 1-dəki mənzili 2002-ci ildə təqribən 6500 ABŞ dolları verərək X6-dan almışdır. Həmin ailəni tanımır, mənzili ev alqı-satqısı ilə məşğul olan şəxsin vasitəsilə tapmışdır. 2006-cı ildə isə mənzili başqa bir şəxsə satmışdır. Tərəflər arasında hər hansı mübahisədən və vərəsəlik işlərindən xəbəri olmamışdır.

22. Bakı Şəhəri Qaradağ Rayon Məhkəməsinin (bundan sonra - birinci instansiya məhkəməsi) 18 sentyabr 2023-cü il tarixli 2(002)- 1795/2023 nömrəli qətnaməsi ilə (hakim F.Ə.Hüseynov) iddia təmin edilməmişdir.

23. Birinci instansiya məhkəməsi 2001-ci ildə və 2012-ci ildə notariat kontoru tərəfindən verilmiş qanun üzrə vərəsəlik hüququ haqqında şəhadətnamələrin və onların hüquqi nəticələrinin etibarsızlığı tələbi ilə bağlı qeyd etmişdir ki, iddiaçı 2000-ci ildə vəfat etmiş atasından və 2001-ci ildə vəfat etmiş anasından qalan mirası qəbul etmək üçün heç bir hərəkət etməmiş, mirası nə faktiki olaraq, nə də qanun üzrə qəbul etməmişdir. Həmçinin iddiaçı mirası vaxtında qəbul edə bilməməsinin üzrlü səbəbdən baş verməsini göstərməmiş, Mülki Məcəllənin 1248-ci maddəsinə əsasən mirasın qəbul edilməsi müddətinin uzadılması ilə bağlı müraciət etməmişdir. Halbuki, Dövlət Sərhəd Xidmətinin arayışından iddiaçının həmin illərdən sonra dəfələrlə ölkəyə gəlib getdiyi aydın olur. Ona görə də iddiaçı tərəfindən mirasın qəbul edilməsi müəyyən olunmadığına, habelə onun tərəfindən mirasın qəbul edilməsi müddəti uzadılmadığına görə, göstərilən hissədə iddia tələbi əsassız hesab olunmalıdır. Bundan əlavə, məhkəmə iclasında müəyyən edilmişdir ki, 2020-ci ildə notarial qaydada verilmiş etibarnamənin, 2021-ci ildə notarial qaydada bağlanmış bağışlama və alqı-satqı müqavilələrinin, onların hüquqi nəticələrinin etibarsızlığı barədə iddia tələbi də əsassız hesab olunaraq təmin edilməməlidir. Belə ki, həmin əqdlər X6-nın sağlığında onun tərəfindən notarial qaydada verilmiş etibarnamələr əsasında həyata keçirilmiş, bu zaman onun fəaliyyət qabiliyyətinin mövcudluğu notarius tərəfindən yoxlanılmışdır. Digər tərəfdən, X6-nın ruhi xəstəliyi ilə bağlı iddiaçı tərəfin dəlili barədə hər hansı mötəbər sübut təqdim edilməmiş, əksinə

həmin dəlil 19 saylı BŞX-nın poliklinika şöbəsi tərəfindən verilmiş 165 saylı 12.10.2020-ci il tarixli çıxarış və şahidlər X10, X11, X12-nin ifadələri ilə təkzib edilmişdir. Eyni zamanda, qanunvericilikdə notariat ofisinin qeyri-iş günləri işləməsini və müvafiq xidməti göstərməsini qadağanedici hüquq norması mövcud deyildir. Ona görə də qeyd olunan əqdlərin etibarsızlığı üçün hər hansı hüquqi əsasın mövcudluğu müəyyən edilmədiyindən, iddia tələbi bu hissədə də əsassız hesab olunaraq təmin edilməməlidir.

24. Məhkəmə gəldiyi nəticəni Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 5.3, 324.1, 325.3, 334.2, 337.1, 390.1, 407.2, 1133., 1133.2, 1243.1, 1243.2, 1246, 1248.1, 1273.1-ci, "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununun 9, 35-ci, Mülki Prosessual Məcəlləsinin 14.2, 77.1, 78.1, 88 və 217.4-cü maddələrinə istinadla əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

25. İddiaçı apellyasiya şikayəti verərək, birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv edilməsi və iddianın təmin edilməsi barədə yeni qətnamə çıxarılmasını xahiş etmişdir.

26. Apellyasiya şikayəti onunla əsaslandırılmışdır ki, dəfələrlə məhkəmədən iş üçün mühüm əhəmiyyət kəsb edən və vəkil sorğusu əsasında əldə edə bilmədiyi X6-nın psixi xəstəlikdən əziyyət çəkməsinə dair müvafiq tibbi sənədlərin sonuncunun müalicə aldığı 19 saylı Birləşmiş Şəhər Xəstəxanasının Poliklinika şöbəsindən və 3 saylı şəhər Klinik Xəstəxanasından götürülməsi haqqında vəsatət qaldırsa da məhkəmə hər dəfə müəyyən bəhanələr gətirərək həmin vəsatətlərinə münasibət bildirməmiş, bununla bağlı qətnamədə də heç bir qeyd aparılmamışdır. Buna səbəb hər dəfə həmin vəsatət ilə məhkəməyə müraciət edəndə məhkəmə iclasına sədrlik edənin müəyyən jestlərlə məhkəmə iclas katibinə işarə edib məhkəmə iclasının audio və video yazısını dayandırıb vəsatətinə münasibət bildirirdi. Buna görə də, həmin vəsatətləri və onlar məhkəmənin münasibət bildirilməsi dəfələrlə tələb etməsinə baxmayaraq məhkəmə iclas protokolundan kənarda qalırdı. Həmçinin, məhkəmə iclasında dəfələrlə cavabdeh 8 saylı notariat ofisinin nümayəndəsinin iştirakı ilə mülki işə baxılmasını tələb etsə də, məhkəmə həmişəki qaydada həmin vəsatətlərini heç bir əsas gətirmədən yalnız, cavabdehin onun iştirakı olmadan mülki işə baxılması haqqında məktubuna istinad edərək vəsatətlərini təmin etməmişdir. Baxmayaraq ki, bütün saxtakarlıqlar, yəni iddia tələbinin əsas özəyini təşkil edən bütün qanunsuzluqlar cavabdeh 8 saylı notariat ofisində baş tutmuş, lakin həmin yol verilmiş qanunsuzluqlarla bağlı cavabdeh 8 saylı notariat ofisinin nümayəndəsi məhkəmədə qəsdən dindirilməmişdir. Belə ki, iddia ərizəsində sadalanan və etibarsız hesab edilməsi tələb olunan vərəsəlik şəhadətnamələri və etibarnamənin verilməsi ilə bağlı yol verilən bütün qanunsuz notariat hərəkətləri adı çəkilən cavabdeh 8 saylı notariat ofisində rəsmiləşdirilmiş, məhkəmə isə heç bir əsas gətirmədən həmin qanunsuz hərəkətlərin guya notariat ofisi tərəfindən yoxlanıldığına istinad etmişdir. Hazırkı mülki iş üzrə iddiaçı tərəf olaraq ədalətli məhkəmə araşdırmasını tələb etmək hüququ birinci instansiya məhkəməsi tərəfindən kobud şəkildə pozularaq iddiaçı tərəf olaraq tələb etdiyi X6-nın qeyd olunan notariat hərəkətlərinin aparıldığı dövrdə həqiqətən də heç bir xəstəlikdən əziyyət çəkmədiyi, psixi pozuntusunun olmadığı sübuta yetirilməmişdir. Baxmayaraq ki, həmin faktın yəni X6-nın göstərilən notariat hərəkətlərinin aparıldığı vaxtda psixi xəstəlikdən əziyyət çəkdiyini, yəni anlaqsız vəziyyətdə olması faktını təsdiq edəcək tibbi sənədlərin 19 saylı Birləşmiş Şəhər Xəstəxanasının Poliklinika şöbəsindən və 3 saylı şəhər Klinik Xəstəxanasından götürülməsi haqqında dəfələrlə məhkəmə qarşısında vəsatət verilmişdir.

27. Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının (bundan sonra – apellyasiya instansiyası məhkəməsi) 2(103)-570/2024 nömrəli mülki iş üzrə 13 fevral 2024-cü il tarixli qətnaməsi ilə (hakimlər X.A.Məmmədova - sədrlik edən və məruzəçi, E.M.Həsənov və S.X.Bəhrəmzadə) apellyasiya şikayəti qismən təmin edilmiş, birinci instansiya məhkəməsinin qətnaməsi qismən ləğv edilmiş, İddiaçının cavabdehlər Bakı şəhəri 8 saylı Notariat Ofisinə, Cavabdeh 1-ə, Cavabdeh 2-ə və Cavabdeh 3-ə qarşı "qanun üzrə vərəsəlik hüququ haqqında

şəhadətnamələrin, etibarnamə, bağışlama, alqı-satqı müqavilələrinin etibarsız hesab edilməsi və miras əmlaklarda qanun üzrə vərəsəlik qaydasında payın müəyyən edilməsi" barədə iddia tələbi qətnamənin əsaslandırıcı hissəsində göstərilən əsaslara görə təmin edilməmiş, qətnamə qalan, yəni avtomaşına dair hissədə dəyişdirilmədən saxlanılmış, apellyasiya şikayətinin verilməsi üçün ödənilmiş dövlət rüsumunun iddiaçının özünə aid edilməsi qət edilmişdir.

28. Apellyasiya instansiyası məhkəməsi qeyd etmişdir ki, birinci instansiya məhkəməsi iddia tələbinin rədd edilməsi barədə düzgün nəticəyə gəlsə də, qətnamə düzgün əsaslandırmamışdır.

29. Məhkəmə kollegiyası belə olan halda hesab etmişdir ki, birinci instansiya məhkəməsinin qətnaməsi qismən bu hissədə ləğv edilməlidir.

30. Belə ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1246 və 1273-1-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinin VII hissəsinə uyğunluğunun yoxlanılmasına dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 26 dekabr 2023-cü il tarixli qərarında qeyd edilir ki, "Mülki Məcəllədə vərəsəlik hüququnun xüsusi qəbul müddətinə bağlı tutulması mülkiyyət hüququna müdaxilənin qanuni əsasını təşkil etsə də, bu müdaxilə fərdi azadlığın və bazar iqtisadiyyatının ən əsas elementlərindən olan mülkiyyət hüququnun konstitusiya təminatına, mülki dövriyyə iştirakçılarının maraqlarına zidd olmaqla, hər hansı ictimai maraqlara cavab verməməklə yanaşı, mirasın açılması ilə mülkiyyət hüququna malik olan vərəsənin bu hüququnu qeyri-mütənasib şəkildə, hər hansı qanuni məqsədə xidmət etmədən məhdudlaşdırır. Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, vərəsəlik hüququnun xüsusi qəbul müddətinə tabe tutulması hüquqi müəyyənlik və mütənasibliklə bağlı Konstitusiya prinsiplərinin tələblərinə cavab vermədiyindən, mülkiyyət və vərəsəlik hüquqlarının pozulmasına gətirib çıxardığından, Mülki Məcəllənin 1246-cı maddəsi Konstitusiyanın 29-cu maddəsinin 70-ci hissəsinə və 71-ci maddəsinin 2-ci hissəsinə uyğun hesab edilə bilməz.

31. Konstitusiya Məhkəməsinin Plenumu həmçinin, qeyd etmişdir ki, mirasın qəbulu universal hüquq varisliyi prinsipi əsasında həyata keçirilir. Bu prinsipə müvafiq olaraq miras qoyanın ölümü ilə mirası qəbul etmiş vərəsələr onlara çatan miras payı həcmində miras qoyanın kreditorları qarşısında birgə məsuliyyət daşıyırlar. Bu məsuliyyətin vərəsələr üçün yaradacağı çətinlikləri aradan qaldırmaq, habelə şəxslərin iradələrindən kənar vərəsə olmasının qarşısını almaq məqsədilə qanunverici mirasdan imtina hüququnu nəzərdə tutmuşdur.

32. Bununla belə, hüquqi müəyyənliyi və sabitliyi təmin etmək, vərəsələrin, habelə miras qoyanın və vərəsələrin kreditorlarının mənafeləri baxımından bu hüquqdan istifadə imkanı qanunverici tərəfindən müəyyən müddətlə məhdudlaşdırılmışdır.

33. Belə ki, Mülki Məcəllənin 1256-cı maddəsinə əsasən, vərəsə vərəsəliyə çağırıldığını bildiyi və ya bilməli olduğu gündən üç ay ərzində mirasın qəbulundan imtina edə bilər. Üzrlü səbəb olduqda məhkəmə bu müddəti iki aydan çox olmayaraq uzada bilər. Mirasın qəbulundan imtina notariat orqanında rəsmiləşdirilməlidir. İmtina müddəti kreditorların mirasdan imtina edilib-edilməməsini, imtina edilmişdirsə borclu olan vərəsələrin dəqiq dairəsini bilmələri və iddia qaldırmaq hüquqlarından istifadə edə bilmələri üçün əlverişli olduğu kimi, borclu vərəsələr baxımından da payların dəqiq müəyyən edilməsi, kreditorlar qarşısında məsuliyyətin qətiləşməsi və uzun müddət məhkəmə çəkişməsi təhdidi altında qalmalarının qarşısını almaq baxımından olduqca mühümdür. Bu baxımdan mirasdan imtina institutu mülki dövriyyə iştirakçılarının hüquqlarının müdafiəsi yönümündən başda Konstitusiya olmaqla, mülki qanunvericiliyin tələblərinə daha uyğundur.

34. Vurğulanmışdır ki, "mirasdan imtina" anlayışı hüquqi məntiqə uyğun olaraq artıq yaranmış olan, mövcud bir hüququn rədd edilməsini ifadə edir ki, bu da vərəsəlik hüququnun məhz mirasın açılması ilə yaranması, qəbulla şərtləndirilməməsi ilə bağlı Konstitusiya Məhkəməsi Plenumunun 2022-ci il 14 oktyabr tarixli Qərarında ifadə olunmuş hüquqi mövqeyi

bir daha təsdiqləyir. Lakin mövcud qanunvericilikdə həm mirasın qəbulu, həm də mirasdan imtina etmək müddətləri nəzərdə tutulmuş, eyni zamanda mirasın qəbulu müddətinin imtina müddətindən artıq olması təsbit edilmişdir. Belə olan təqdirdə Mülki Məcəllənin 1256-cı maddəsində nəzərdə tutulmuş imtina müddətinin ötürülməsinin hüquqi nəticələri qeyri-müəyyən olduğundan, bu qeyri-müəyyənliyin aradan qaldırılması məqsədilə Mülki Məcəlləyə 1273-1-ci maddə əlavə edilmişdir. Həmin maddəyə görə, vərəsə bu Məcəllə ilə müəyyən edilmiş müddətlər daxilində mirası qəbul etmədikdə və ya ondan imtina etmədikdə, müvafiq olaraq bu Məcəllənin 1262-ci və 1263-cü maddələri tətbiq edilir. Həmin maddədə qeyd olunan normalar isə mirasdan imtinanın nəticələri ilə bağlıdır.

35. Beləliklə, miras açıldıqdan sonra vərəsə susmuşsa, yəni mirası qəbul və ya ondan imtina etməmişsə, qanunverici sanki vərəsənin mirasdan imtina etdiyini ehtimal etmiş və müvafiq olaraq mirasdan imtinanın nəticələrinin tətbiq edilməsini nəzərdə tutmuşdur.

36. Halbuki Mülki Məcəllənin 1301-ci maddəsinə əsasən, əgər vərəsəliyə çağırılmış, yerində olmayan, lakin olduğu yer müəyyənləşdirilmiş vərəsə mirasdan üç ay ərzində imtina etməzsə, digər vərəsələr mirası bölüşdürmək niyyətləri barəsində ona bildiriş göndərməlidirlər. Əgər bu cür vərəsə bildirişdən sonra üç ay ərzində özünün əmlak bölgüsü haqqında razılaşmada iştirak etmək arzusu barəsində digər vərəsələrə məlumat verməzsə, digər vərəsələr qarşılıqlı razılaşma üzrə əmlakı bölüşdürə bilər və yerində olmayan vərəsənin payını ayıra bilərlər. Əgər miras açıldıqdan sonra altı ay ərzində qaib vərəsənin olduğu yer müəyyənləşdirilməzsə və mirasın qəbulundan imtina barəsində ondan bir xəbər alınmazsa, digər vərəsələr bu Məcəllənin 1301.2-ci maddəsində müəyyənləşdirilmiş qaydada əmlakı bölüşdürə bilərlər.

37. Həmçinin Konstitusiya Məhkəməsinin Plenumu 2022-ci il 14 oktyabr tarixli Qərarında qeyd etmişdir ki, vərəsəlik hüquq münasibətləri miras qoyanın ölümü və ya ölmüş elan edilməsi anından başlamış olur. Qanunvericilik vərəsəlik hüququnun yaranmasını miras qoyanın ölümü və ya ölmüş elan edilməsi ilə şərtləndirmiş və bu hüquqa vəsiyyətnamə olduğu təqdirdə vəsiyyətnamədə göstərilən şəxslərin, əks halda (vəsiyyətnamənin olmadığı və ya etibarsız hesab edildiyi halda) isə qanunla müəyyən edilmiş vərəsələrin malik olduğunu təsbit etmişdir.

38. Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, miras qoyanın ölümü ilə yaranan vərəsəlik hüquq münasibətləri vərəsənin mirasdan imtina etməsi anınadək davam edir. Vərəsə statusunda olan şəxs bu statusdan imtina etmək qərarına gələrsə, bununla bağlı iradə ifadəsini Mülki Məcəllənin 1256-cı maddəsinə müvafiq olaraq, vərəsəliyə çağırıldığını bildiyi və ya bilməli olduğu gündən üç ay ərzində ifadə etməlidir.

39. Xüsusilə vurğulanmışdır ki, mirasdan imtina şəxsin olduqca mühüm konstitusiya hüququndan imtina etməsilə əlaqədar iradə ifadəsi olduğundan, qanunverici bu iradə ifadəsinin məhz xüsusi formada, notariat ofisində rəsmiləşdirilməli olmasını imperativ qaydada müəyyən etmişdir. Bu yanaşmanın nəticəsi olaraq Mülki Məcəllənin 1271-ci maddəsində mirasdan nümayəndə vasitəsi ilə imtina üçün bunun etibarnamədə ayrıca göstərilməsi, Məcəllənin 1268.2-ci maddəsində isə fəaliyyət qabiliyyəti tam olmayan vərəsələr baxımından imtinanın həyata keçirilə bilinməsi üçün xüsusi olaraq məhkəmənin təsdiqi tələb olunmuşdur.

40. Konstitusiya Məhkəməsinin Plenumu 2022-ci il 14 oktyabr tarixli Qərarında əks olunmuş hüquqi mövqeyinin davamı olaraq qeyd etmişdir ki, mirasdan imtinanın ehtimal oluna bilmə imkanı mülkiyyət hüququnu və onun davamlılığını təmin edən vərəsəlik hüququnun konstitusion təminatını pozur.

41. Konstitusiya icraatı qaydasında işə baxılarkən daxil olmuş mütəxəssis mülahizələrində və ekspert rəylərində də istisnasız olaraq eyni yanaşma ifadə edilərək Mülki Məcəllənin 1246 və 1273-1-ci maddələrinin Konstitusiyanın 29-cu maddəsinə zidd olduğu bildirilmişdir.

42. Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, vərəsəlik hüququnun mülki qanunvericilikdə müəyyən edilmiş qaydada qəbul şərtinə və müddətinə tabe

tutulması, susmanın mirasdan imtina ilə eyni hüquqi nəticələrə gətirib çıxarması vərəsəlik hüququnun konstitusiya-hüquqi mahiyyəti ilə uyğunsuzluq təşkil etdiyindən, Mülki Məcəllənin 1273-1-ci maddəsi Konstitusiyanın 29-cu maddəsinin 7-ci hissəsinə uyğun olmayan hesab edilməlidir. Bu baxımdan qanunla müəyyən edilmiş müddət ərzində mirasdan imtina etməyən vərəsə mirası qəbul etmiş vərəsə hesab edilməli və vərəsələr arasında miras əmlakın bölüşdürülməsi Mülki Məcəllənin 1301-ci maddəsinə uyğun olaraq həyata keçirilməldir. Eyni zamanda Mülki Məcəllənin mirasın qəbulu institutunun tələblərindən irəli gələn hüquqi tənzimləmələrin Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarının təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelər nəzərə alınmaqla qanunverici orqan tərəfindən mümkün qədər qısa müddət ərzində təkmilləşdirilməsi zəruri hesab edilir.

43. Konstitusiya Məhkəməsinin Plenumu onu da qeyd etmişdir ki, Ali Məhkəmənin sorğusu əsasında qəbul edilən bu Qərarın təcrübədə vərəsəlik münasibətlərinin tənzimlənməsində əhəmiyyətli dəyişikliklərə səbəb olacağını nəzərə alaraq, mülki dövriyyənin sabitliyinin təmin olunması məqsədi ilə bu Qərar qüvvəyə mindikdən sonra yaranacaq vərəsəlik münasibətlərinə şamil olunmalıdır.

44. Digər tərəfdən Konstitusiya Məhkəməsinin Plenumu Ali Məhkəmənin sorğusuna səbəb olmuş mülki işlər üzrə mübahisələrin yekunlaşmadığını, eləcə də sorğuya baxılan zaman digər məhkəmələrin icraatında olan oxşar mübahisələr üzrə işlərin də dayandırıldığını nəzərə alaraq hesab etmişdir ki, Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarı qüvvəyə minməsinədək məhkəmələrin icraatında olan mübahisələrə də tətbiq olunmalıdır.

45. Konstitusiya Məhkəməsinin Plenumu göstərilənlərlə yanaşı "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinin 1-ci bəndindən irəli gələrək vurğulamışdır ki, notariuslar tərəfindən vərəsəliklə bağlı notarial hərəkətlər həyata keçirilərkən şəxslərə müvafiq hərəkətlərlə bağlı onların hüquq və vəzifələri izah edilməli, bu hüquqların həyata keçirilməsi və qanuni mənafelərinin qorunması üçün köməklik göstərilməli, o cümlədən yerində olmayan vərəsələrin məlumatlandırılması üçün bütün mümkün vasitələrdən istifadə olunmalıdır. Göründüyü kimi, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun qeyd olunan qərarında hüquqi mövqeyi ondan ibarət olmuşdur ki, Mülki Məcəllədə vərəsəlik hüququnun xüsusi qəbul müddətinə bağlı tutulması mülkiyyət hüququna müdaxilənin qanuni əsasını təşkil etsə də, bu müdaxilə fərdi azadlığın və bazar iqtisadiyyatının ən əsas elementlərindən olan mülkiyyət hüququnun konstitusiya təminatına, mülki dövriyyə iştirakçılarının maraqlarına zidd olmaqla, hər hansı ictimai maraqlara cavab verməməklə yanaşı, mirasın açılması ilə mülkiyyət hüququna malik olan vərəsənin bu hüququnu qeyri-mütənasib şəkildə, hər hansı qanuni məqsədə xidmət etmədən məhdudlaşdırır.

46. Konstitusiya Məhkəməsinin Plenumu göstərilənlərə əsasən hesab etmişdir ki, vərəsəlik hüququnun xüsusi qəbul müddətinə tabe tutulması hüquqi müəyyənlik və mütənasibliklə bağlı Konstitusiya prinsiplərinin tələblərinə cavab vermədiyindən, mülkiyyət və vərəsəlik hüquqlarının pozulmasına gətirib çıxardığından, Mülki Məcəllənin 1246-cı maddəsi Konstitusiyanın 29-cu maddəsinin 7-ci hissəsinə və 71-ci maddəsinin 2-ci hissəsinə uyğun hesab edilə bilməz.

47. İş materiallarından göründüyü kimi hazırkı iş üzrə iddiaçı 2000-ci ildə vəfat etmiş atasından və 2001-ci ildə vəfat etmiş anasından qalan mirası, yəni, ev və əmanət kitabçalarında olan vəsaiti qəbul etmək üçün heç bir hərəkət etməmiş, bu mirasları nə faktiki olaraq, nə də qanun üzrə qəbul etməmişdir.

48. Məhkəmə kollegiyası Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun qeyd olunan qərarında hüquqi mövqeyindən çıxış edərək qeyd etmişdir ki, hazırda mirasın qəbul etmək üçün müddət müəyyən edilmədiyindən, iddiaçının bu miras əmlakları qəbul etməsi faktı tanınmalıdır.

49. Məhkəmə kollegiyası eyni zamanda hesab etmişdir ki, həmin halın mövcudluğu iddia tələbinin qeyd edilən miras əmlaklar, yəni ev və əmanət kitabçasında olan vəsaitlər hissəsində əsaslı olması və təmin edilməsi anlamına gəlmir.

50. Məhkəmə kollegiyası hesab etmişdir ki, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun qeyd olunan qərarında hüquqi mövqeyindən yanaşıldıqda iddiaçının miras əmlakı qəbul etməsi faktı tanınmalı olmasına baxmayaraq iddiaçı tərəfindən Mülki Məcəllənin 1272-ci maddəsinin tələbləri baxımından 2001-ci ildə və 2012ci ildə notariat kontoru tərəfindən verilmiş qanun üzrə vərəsəlik hüququ haqqında şəhadətnamələrin mübahisələndirmək üçün 2 aylıq müddəti ötürmüşdür.

51. Belə ki, işin faktiki hallarından isə göründüyü kimi iddiaçı uzun müddət əvvəl daimi olaraq Rusiyaya köçüb getmiş, Rusiya vətəndaşıdır, bununla belə, iddiaçı dəfələrlə 2004cü ildən etibarən Bakı şəhərinə gəlib-getmişdir, atası, anası və bacılarının ölümündən xəbəri olmuşdur. Evin satılmasından və hazırda miras əmlak olması iddia olunan 2 otaqlı evin alınmasından xəbərdar olmuşdur.

52. Belə olan halda iddiaçı mirasın qəbul edilməsi və ya qəbulundan imtina edilməsi barəsində mübahisəni qaldırmaq imkanından yararlanmamış, başqa sözlə, iddiaçının tələbi haqlı olsa da, hazırkı iddianı qaldırmaq üçün qanunvericilikdə yəni, Mülki Məcəllənin 1272-ci maddəsində göstərilən müddəti, yəni iki ay müddəti ötürmüşdür.

53. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun A.Nadirova və qeyrilərinin şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 25 fevral 2021-ci il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair 16 mart 2022-ci il tarixli qərarında göstərilmişdir ki, göstərilənlərlə yanaşı, Konstitusiya Məhkəməsinin Plenumu vərəsəlik hüququ haqqında şəhadətnamənin etibarsız hesab edilməsinə dair mübahisənin açılması müddəti ilə bağlı aşağıdakıların qeyd edilməsini zəruri hesab edir. Mülki Məcəllənin 1272-ci maddəsinə görə mirasın qəbul edilməsi və ya qəbulundan imtina edilməsi barəsində mübahisə maraqlı şəxsin bundan ötrü müvafiq əsas olduğunu bildiyi gündən iki ay ərzində açıla bilər. Mirasın qəbul edilməsi və ya qəbulundan imtina edilməsi barədə mübahisənin açılması ilə bağlı olan müddət iddia müddəti deyil, kəsici müddətdir. Qanunvericiliyin bu normasının məqsədi miras qoyanın ölümündən sonra onun əmlakına dair hüquqi münasibətlərin müqəddəratının mümkün qədər qeyri-müəyyənlikdə qalmamasını, bununla da mülki dövriyyədə hüquqi etimad və davamlılığı etibarlı bir şəkildə təmin etməkdir. Buna görə də maraqlı şəxs mirasın qəbul və imtina edilməsi ilə bağlı hüquqi mübahisəyə əsas verən halları bildiyi gündən iki ay ərzində bununla bağlı mübahisə açmaq hüququna malikdir. Həmin müddət keçdikdən sonra isə maraqlı şəxs bu hüququnu itirir. Qanuna əsasən qeyd olunan müddət hüququn itirilməsi ilə bağlı olmaqla iddia müddətinə deyil, kəsici müddətlərə aiddir.

54. Göründüyü kimi, tərəflərə qanun üzrə vərəsəlik hüququ haqqında şəhadətnamə 2001 və 2012-ci illərdə verilmiş, iddiaçı isə hazırkı iddia tələbi ilə 19.5.2023-cü il tarixdə məhkəməyə müraciət etmişdir.

55. Məhkəmə kollegiyası eyni zamanda qeyd etmişdir ki, Mülki Məcəllənin 1272-ci maddəsində göstərilən müddət kəsici müddət olmaqla həmin müddətin tətbiq edilməsi üçün ərizə verilməsinə zərurət olmamışdır.

56. Məhkəmə kollegiyası qeyd olunan əsaslara istinad edərək hesab etmişdir ki, qanun üzrə vərəsəlik hüququ haqqında şəhadətnamələrinin etibarsız hesab edilməsi hissəsində iddia tələbi əsassızdır və təmin edilə bilməz.

57. Məhkəmə kollegiyası eyni zamanda hesab etmişdir ki, miras əmlaklarda qanun üzrə vərəsəlik qaydasında payın müəyyən edilməsi, 2020-ci ildə notarial qaydada verilmiş etibarnamənin, 2021-ci ildə notarial qaydada bağlanmış bağışlama və alqı-satqı müqavilələrinin, onların hüquqi nəticələrinin etibarsızlığı barədə iddia tələbi də əsassız hesab olunaraq təmin edilməməlidir. Belə ki, bu tələblər qanun üzrə vərəsəlik hüququ haqqında şəhadətnamələrinin etibarsız hesab edilməsi tələbindən törəmə tələblərdir. Məhkəmə bu qənaətini prosessual qənaət prinsipi ilə əsaslandırmışdır.

58. Məhkəmə kollegiyası həmçinin, hesab etmişdir ki, iddiaçının iddia etdiyi maşın valideynlərindən qalmış miras kütləsinə daxil olmamışdır. İş materiallarından görünür ki, avtomaşın iddiaçının bacısının mülkiyyətində olmuş və sonuncunun sağlığında ikən özgəninkiləşdirilmişdir. İddiaçının qeyd edilən avtomaşının özgəninkiləşdirilməsinin qanunsuzluğuna dair irəli sürdüyü dəlillərlə bağlı məhkəmə kollegiyası qeyd etmişdir ki, bu hissə üzrə birinci instansiya məhkəməsinin mövqeyi düzgün və əsaslı olmuşdur. Buna görə qeyd edilən hissədə birinci instansiya məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmalıdır.

Kassasiya şikayətinin və ona etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

59. İddiaçı (vəkil) kassasiya şikayəti verərək apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv edilməsi və işin yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilməsi barədə qərar çıxarılmasını xahiş etmişdir.

60. Kassasiya şikayəti onunla əsaslandırılmışdır ki, apellyasiya instansiyası məhkəməsi qətnaməsini düzgün əsaslandırmamış, qanunvericiliyi düzgün təfsir etməyərək, tətbiq edilməli olan maddi hüquq normalarını tətbiq etməmiş, habelə qanunvericiliyin tətbiqində yaranmış kolliziyanın aradan qaldırılması və həlli üzrə zəruri tədbir görməmişdir. Belə ki, məhkəmə kollegiyası qətnamədə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 26 dekabr 2023-cü il tarixli Plenum Qərarına əsaslanaraq onu şərh etməyə çalışsa da, bu, baş tutmamış, habelə belə bir qənaətə gəlmişdir ki, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun qeyd olunan qərarında hüquqi mövqeyindən yanaşıldıqda iddiaçının miras əmlakı qəbul etməsi faktı tanınmalı olmasına baxmayaraq, iddiaçı tərəfindən Mülki Məcəllənin 1272-ci maddəsinin tələbləri baxımından 2001-ci ildə və 2012ci ildə notariat kontoru tərəfindən verilmiş qanun üzrə vərəsəlik hüququ haqqında şəhadətnamələrin mübahisələndirmək üçün 2 aylıq müddəti ötürmüşdür. Bakı Apellyasiya Məhkəməsinin 13.02.2024-cü il tarixli qətnaməsindən belə bəlli olur ki, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi 26 dekabr 2023-cü il tarixli Plenum Qərarını qəbul edərkən Mülki Məcəllənin 1272-ci maddəsinin də hüquqi qüvvədən düşməsi barədə qərar qəbul etməsini unutmuşdur. Belə ki, qeyd olunan normalar arasında olan kolliziya həll edilməli və bundan sonra hazırkı mülki işə baxıla bilərdi. Konstitusiya Məhkəməsinin qeyd olunan Plenum qərarı ilə Mülki Məcəllənin vərəsəlik hüququ üçün xüsusi qəbul şərtini və müddətini müəyyən edən 1246 və 1273-1-ci maddələri mütənasiblik konstitusiya prinsipinə və Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinin 7-ci hissəsində təsbit olunmuş vərəsəlik hüququnun təminatına və bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə uyğun olmadığından qüvvədən düşmüş hesab edilmişdir. Qeyd olunan qətnamədən belə bir nəticəyə gəlmək olur ki məhkəmə kollegiyası Konstitusiya Məhkəməsinin Qərarının Mülki Məcəllənin 1272-ci maddəsi ilə ziddiyyət təşkil etdiyinə əsas gətirərək vərəsəlik hüququnun olmadığı düşüncəsində israrlı olmuşdur. Məhkəmə kollegiyası bu baxımdan da iddia tələbinin digər hissəsinin də təmin edilməsindən imtina etmişdir.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

61. Kassasiya şikayətinə qarşı etiraz daxil olmamışdır.

Tətbiq edilən hüquq

Azərbaycan Respublikasının Konstitusiyası:

62. Maddə 13, I hissə. Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur.

63. Maddə 29, I və VII hissə. Hər kəsin mülkiyyət hüququ vardır. Dövlət vərəsəlik hüququna təminat verir.

64. Maddə 60, I hissə. Hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir.

Azərbaycan Respublikasının 01.09.2000-ci ilədək qüvvədə olan Mülki Məcəlləsi:

65. Maddə 527. Vərəsəlik qanun üzrə və vəsiyyət üzrə həyata keçirilir. Vərəsəlik o vaxt qanun üzrə ola bilər ki, o, vəsiyyətlə dəyişdirilməsin.

66. Maddə 528. Vərəsəlik miras qoyan şəxsin ölməsi və yaxud onun ölmüş elan edilməsi ilə açılır.

67. Maddə 530. Qanun üzrə vərəsəlikdə miras qoyan şəxs ölən zaman sağ olan vətəndaşlar, habelə miras qoyan şəxsin ölümündən sonra doğulan uşaqlar vərəsə ola bilərlər.

68. Maddə 532. Qanun üzrə vərəsəlikdə payları bərabər olmaqla, uşaqlar (o cümlədən övladlığa götürülənlər), ər (arvad) və ölənin valideynləri (övladlığa götürənləri) birinci növbə vərəsələr hesab olunurlar. Şəxsin ölümündən sonra doğulan uşaq da birinci növbə üzrə vərəsələr sırasına daxildir.

69. Maddə 552. Mirası əldə etmək üçün vərəsə onu qəbul etməlidir. Mirasın şərtlə və ya müəyyən qeydlərlə qəbul edilməsinə yol verilmir.

Vərəsə, miras əmlakını faktiki surətdə idarə etməyə başladıqda və ya mirasa yiyələndikdə, o, eləcə də vərəsəliyin açıldığı yerdə notariat orqanına mirası qəbul etmək barədə ərizə verdikdə, mirası qəbul etmiş hesab olunur.

Bu maddədə göstərilən hərəkətlər, vərəsəlik açılan gündən altı ay müddətində edilməlidir.

Yalnız başqa vərəsələr olmadığı və ya onlar mirası qəbul etmədiyi hallarda, vərəsəlik hüququ əmələ gəlmiş vətəndaşlar mirası qəbul etmək üçün qalan müddət ərzində, onu qəbul etmək barədə öz razılıqlarını bildirə bilərlər, bu müddət üç aydan az olduqda isə həmin müddət üç aya qədər uzadılır.

Qəbul edilmiş miras vərəsəlik açıldığı vaxtdan vərəsəyə məxsus hesab olunur.

Azərbaycan Respublikasının Mülki Məcəlləsi

70. Maddə 337.1. Bu Məcəllədə müəyyənləşdirilmiş şərtləri pozmaqla bağlanmış əqd etibarsızdır.

71. Maddə 1133.1. Ölmüş şəxsin (miras qoyanın) əmlakı başqa şəxslərə (vərəsələrə) qanun üzrə və ya vəsiyyət üzrə və ya hər iki əsasla keçir. Qanun üzrə vərəsəlik (ölmüş şəxsin əmlakının qanunda göstərilmiş şəxslərə keçməsi) o zaman qüvvədə olur ki, miras qoyan vəsiyyətnamə qoymur, yaxud vəsiyyətnamə tamamilə və ya qismən etibarsız sayılır.

72. Maddə 1159.1.1.Qanun üzrə vərəsəlik zamanı birinci növbədə - ölənin uşaqları, miras qoyanın ölümündən sonra doğulmuş uşaq, arvad (ər), valideynlər (övladlığa götürənlər) bərabər pay hüquqlu vərəsələr sayılırlar.

73. Maddə 1243.1. Mirası istər qanun üzrə, istərsə də vəsiyyət üzrə vərəsə qəbul edir.

74. Maddə 1243.2. Vərəsə mirasın açıldığı yer üzrə notariat ofisinə mirası qəbul etdiyi barədə ərizə verdikdə və ya əmlaka sahiblik etməyə və ya əmlakı idarə etməyə faktik başladıqda və bununla da mirası qəbul etdiyini şəksiz nümayiş etdirdikdə miras vərəsə tərəfindən qəbul edilmiş sayılır.

75. Maddə 1243.3. Vərəsə mirasın bir hissəsinə sahiblik etməyə faktik başladıqda hesab edilir ki, mirasın nədə ifadə edilməsindən və harada olmasından asılı olmayaraq, o, mirası tamamilə qəbul etmişdir.

76. Maddə 1255. Qəbul edilmiş miras onun açıldığı gündən vərəsənin mülkiyyəti sayılır.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi

77. Maddə 14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

78. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

79. Maddə 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

80. Maddə 217.1. Məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır.

81. Maddə 217.2. Qətnamə mübahisəli hüquq münasibətinin yarandığı zaman qüvvədə olan maddi hüquq normalarına və işin baxılması zamanı qüvvədə olan prosessual hüquq normalarına uyğun çıxarılmalıdır.

82. Maddə 217.3. Qətnamə iş üzrə müəyyən edilmiş hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır.

83. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

Kassasiya baxışının hədləri

84. Qanunun tələbinə görə, kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

85. Kassasiya şikayətində qətnamə iddiaçı tərəfindən tam mübahisələndirildiyindən apellyasiya instansiyası məhkəməsinin aktı bütövlükdə yoxlanılır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

86. Məhkəmə kollegiyası aşağıdakılara əsasən hesab edir ki, apellyasiya instansiyası məhkəməsi iş üzrə maddi və prosessual hüquq normalarını düzgün tətbiq etməmişdir.

87. Baxılan işdə iddiaçı 21 aprel 2000-ci ildə vəfat etmiş atası X4-dən, 20 iyul 2001-ci ildə vəfat etmiş anası X3-dən miras qalmış əmlak barəsində tərtib edilmiş vərəsəlik şəhadətnamələrinin, habelə 14.01.2021-ci il tarixdə vəfat etmiş bacısı X6-nın avtomobilinə dair bağlanmış müqavilənin və onlar əsasında aparılmış digər hüquqi əməliyyatların etibarsız hesab edilməklə, əmlakın əvvəlki hüquqi vəziyyətə qaytarılması, miras əmlakın və pul vəsaitlərinin vərəsələr arasında bölünməsini tələb etmişdir (§ 16).

88. Apellyasiya instansiyası məhkəməsi iş üzrə gəldiyi nəticəni belə əsaslandırmışdır ki, iddiaçı 2000-ci ildə vəfat etmiş atasından və 2001-ci ildə vəfat etmiş anasından qalan mirası, yəni, ev və əmanət kitabçalarında olan vəsaiti qəbul etmək üçün heç bir hərəkət etməmiş, bu mirasları nə faktiki olaraq, nə də qanun üzrə qəbul etməmişdir. Bununla belə, məhkəmə kollegiyası Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 26.12.2023-cü il tarixli qərarındakı hüquqi mövqedən çıxış etdiyini bildirərək qeyd etmişdir ki, hazırda mirasın qəbul etmək üçün müddət müəyyən edilmədiyindən, iddiaçının bu miras əmlakları qəbul etməsi faktı tanınmalıdır (§ 47-48).

89. Bununla yanaşı, apellyasiya məhkəməsi hesab etmişdir ki, iddiaçı Mülki Məcəllənin 1272-ci maddəsinin tələbləri baxımından 2001-ci ildə və 2012-ci ildə notariat kontoru tərəfindən verilmiş qanun üzrə vərəsəlik hüququ haqqında şəhadətnamələri mübahisələndirmək üçün 2 aylıq müddəti ötürmüşdür. Belə ki, iddiaçı uzun müddət əvvəl daimi olaraq Rusiyaya köçüb getmiş, Rusiya vətəndaşıdır, bununla belə, iddiaçı dəfələrlə 2004-cü ildən etibarən Bakı şəhərinə gəlib-getmişdir, atası, anası və bacılarının ölümündən xəbəri olmuşdur. Belə olan halda, iddiaçı mirasın qəbul edilməsi və ya qəbulundan imtina edilməsi barəsində mübahisəni qaldırmaq imkanından yararlanmamışdır. Başqa sözlə, iddiaçının tələbi haqlı olsa da, hazırki iddianı qaldırmaq üçün qanunvericilikdə yəni, Mülki Məcəllənin 1272-ci maddəsində göstərilən müddəti, yəni iki ay müddəti ötürmüşdür (§ 50-52).

90. Kassasiya instansiyası məhkəməsi bu mövqe ilə razılaşmır, ona görə ki, əvvəla, qətnamə mübahisəli hüquq münasibətinin yarandığı zaman qüvvədə olan maddi hüquq normalarına uyğun çıxarılmalıdır (§ 81).

91. İddiaçının vərəsəlik hüququnu həyata keçirmək istədiyi əmlakın bir hissəsi 21 aprel 2000-ci ildə vəfat etmiş atası X4-ün mirası ilə bağlı olduğu üçün həmin hüquq münasibətlərinə Azərbaycan Respublikasının 01.09.2000-ci ilədək qüvvədə olan Mülki Məcəlləsinin normaları tətbiq edilməlidir.

92. Həmin Məcəlləyə əsasən, vərəsəlik qanun üzrə və vəsiyyət üzrə həyata keçirilir. Vərəsəlik miras qoyan şəxsin ölməsi və yaxud onun ölmüş elan edilməsi ilə açılır. Qanun üzrə vərəsəlikdə miras qoyan şəxs ölən zaman sağ olan vətəndaşlar, habelə miras qoyan şəxsin ölümündən sonra doğulan uşaqlar vərəsə ola bilərlər. Mirası əldə etmək üçün vərəsə onu qəbul etməlidir. Mirasın şərtlə və ya müəyyən qeydlərlə qəbul edilməsinə yol verilmir. Vərəsə, miras əmlakını faktiki surətdə idarə etməyə başladıqda və ya mirasa yiyələndikdə, o, eləcə də vərəsəliyin açıldığı yerdə notariat orqanına mirası qəbul etmək barədə ərizə verdikdə, mirası qəbul etmiş hesab olunur. Bu maddədə göstərilən hərəkətlər, vərəsəlik açılan gündən altı ay müddətində edilməlidir (§ 65-69).

93. Mübahisəyə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1246 və 1273-1-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinin VII hissəsinə uyğunluğunun yoxlanılmasına dair” 26 dekabr 2023-cü il tarixli qərarındakı hüquqi mövqeləri tətbiq edən apelyasiya məhkəməsi nəzərə almamışdır ki, həmin qərarda 01.09.2000-ci ilədək qüvvədə olan Mülki Məcəlləsinin deyil, qüvvədə olan Mülki Məcəllənin vərəsəlik hüququ üçün xüsusi qəbul şərtini və müddətini müəyyən edən 1246 və 1273-1-ci maddələri qüvvədən düşmüş hesab edilmişdir. Belə olan halda, Konstitusiya Məhkəməsinin sözügedən qərarındakı mövqelərinin 01.09.2000-ci ilədək yaranan mübahisəli hüquq münasibətlərinə tətbiqi doğru olmamışdır.

94. Bundan əlavə, məhkəmə tərkibi işə Mülki Məcəllənin 1272-ci maddəsinin tətbiq edilməklə iddianın yuxarıda göstərilən qaydada həll edilməsini qanuni və əsaslı yanaşma hesab etmir.

95. Həmin normaya əsasən, mirasın qəbul edilməsi və ya qəbulundan imtina edilməsi barəsində mübahisə maraqlı şəxsin bundan ötrü müvafiq əsas olduğunu bildiyi gündən iki ay ərzində açıla bilər.

96. Nəzərə alınmalıdır ki, bu müddəa mirasdan imtina etmədiyinə görə vərəsəliyi artıq qətiləşmiş vərəsənin iki ay müddətində mirası qəbul etməməsinə (yaxud mirasa dair iddia qaldırmamasına) görə vərəsəlik hüququndan məhrum olmasını ehtiva etmir. Mirasın qəbulu və ya qəbulundan imtina edilməsi ilə bağlı mübahisə açılması dedikdə, həmin hüquqi hərəkətlər barədə ifadə edilmiş bəyanların iradə zədələnməsinə görə etibarsızlığının iki aylıq kəsici müddət ərzində mübahisələndirilməsi başa düşülür (məsələn, zorakılıq və ya hədələmə nəticəsində mirasın qəbulu və ya mirasdan imtina barədə verilmiş ərizənin təhlükə aradan qalxdığı andan iki ay müddətində mübahisə edilməsi). Hazırkı işdə isə belə hallar irəli sürülməmiş və ya məhkəmə tərəfindən aşkar edilməmişdir.

97. Bu baxımdan iddiaçının mirası qəbul etdiyi nəticəsinə gəlindikdən sonra, iddianın mirasın açıldığı vaxtdan iki ay ərzində qəbul edilməsi və ya qəbulundan imtina edilməsi barəsində mübahisə açılmamasına görə rədd edilməsi barədə mövqe özü-özlüyündə ziddiyyətli olduğu kimi, Konstitusiya Məhkəməsi Plenumunun istinad olunan qərarlarındakı hüquqi mövqelərə də uyğun olmamışdır.

98. Belə ki, qəbul edilmiş miras onun açıldığı gündən vərəsənin mülkiyyəti sayılır (§ 76). Bu baxımdan mirası qəbul etməsi və dolayısı ilə miras əmlak üzərində mülkiyyət hüququnu qazanması tanınan vərəsənin iki ay ərzində mirasın qəbul edilməsi və ya qəbulundan imtina edilməsi barəsində mübahisə açmamasına görə vərəsəlik hüquqlarını itirməsi barədə mövqe

hüquqi məntiqə və qanunvericiliyə uyğun gəlmir. Belə yanaşma tam əşya hüququ sayılan mülkiyyət haqqına müddətin şamil olunmazlığı prinsipinin də pozulmasına səbəb olardı.

99. Kollegiya vurğulayır ki, iddianı qəbul etdiyi tanınan vərəsənin tələbinin Mülki Məcəllənin 1272-ci maddəsindəki iki aylıq müddətdə mirasın qəbulu və ondan imtina ilə bağlı mübahisə açmamağa görə rədd edilməsi, nəticə etibarilə vərəsənin həmin Məcəllənin qüvvədən düşürülmüş 1246-cı maddəsindəki üç aydan da az müddətin keçməsinə görə vərəsəlik hüququndan məhrum edilməsidir.

100. Halbuki, mirasdan imtina etməmiş vərəsənin onu qəbul etmiş sayılması, mirasın açıldığı andan öz payı nisbətində miras əmlakın mülkiyyətçisi olması və mülkiyyət haqqının müddətlə məhdudlaşdırılmasının bu hüququn konstitusion mahiyyətinə xələl gətirməsi nəzərə alınaraq, Konstitusiya Məhkəməsi Plenumunun istinad olunan qərarlarında vərəsəlik hüquq münasibətlərində imtina sistemi əsas götürülmüşdür.

101. Bu xüsusatlarla bağlı Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu 14 oktyabr 2022-ci il tarixli və 26 dekabr 2023-cü il tarixli qərarlarında vurğulamışdır ki, "...vərəsəlik hüququ miras qoyanın ölümü və ya ölmüş elan edilməsi nəticəsində mirasın açılması ilə yaranır, həmin gündən miras əmlakı təşkil edən hüquq və öhdəliklər vərəsələrin əmlakının müvafiq olaraq aktiv və passivinə daxil olmuş olur. ...Mülki Məcəllə ilə vərəsə statusunun yaranmasının xüsusi qəbul müddətinə bağlı tutulması... vərəsəlik hüququna dair Konstitusiya təminatına da xələl yetirmiş olur"; "Mülki Məcəllədə vərəsəlik hüququnun xüsusi qəbul müddətinə bağlı tutulması mülkiyyət hüququna müdaxilənin qanuni əsasını təşkil etsə də, bu müdaxilə fərdi azadlığın və bazar iqtisadiyyatının ən əsas elementlərindən olan mülkiyyət hüququnun konstitusiya təminatına, mülki dövriyyə iştirakçılarının maraqlarına zidd olmaqla, hər hansı ictimai maraqlara cavab verməməklə yanaşı, mirasın açılması ilə mülkiyyət hüququna malik olan vərəsənin bu hüququnu qeyri-mütənasib şəkildə, hər hansı qanuni məqsədə xidmət etmədən məhdudlaşdırır. ...vərəsəlik hüququnun xüsusi qəbul müddətinə tabe tutulması hüquqi müəyyənlik və mütənasibliklə bağlı Konstitusiya prinsiplərinin tələblərinə cavab vermədiyindən, mülkiyyət və vərəsəlik hüquqlarının pozulmasına gətirib çıxardığından, Mülki Məcəllənin 1246-cı maddəsi Konstitusiyanın 29-cu maddəsinin VII hissəsinə və 71-ci maddəsinin II hissəsinə uyğun hesab edilə bilməz".

102. Qeyd olunanlara əsasən kassasiya məhkəməsi bu qənaətə gəlir ki, baxılan işdə mirası qəbul etməsi tanınan iddiaçının Mülki Məcəllənin 1272-ci maddəsi çərçivəsində iki ay ərzində mübahisə açmamasına görə vərəsəlik hüququndan məhrum olması barədə mövqe yuxarıda əks olunan qanunvericiliyə və hüquqi mövqelərə uyğun olmamışdır.

103. Ona görə də apellyasiya instansiyası məhkəməsinin qətnaməsi ləğv edilməli, iş yenidən baxılması üçün həmin məhkəməyə göndərilməlidir.

104. Təkrar apellyasiya baxışında hər bir iddia tələbi üzrə tərəflərin izahatları və dəlilləri dinlənilməli, onlara tətbiq edilən hüquq tapılmalı, aidiyyəti maddi hüquq normaları ilə tərəflərin bildirdikləri hallar arasında uyğunluğa və ya uyğunsuzluğa dair hüquqi dəyərləndirmə aparılmalı, mübahisəli hallar üzrə sübutetmə yükü düzgün müəyyən edilməklə təqdim olunan sübutlar araşdırılmalı və qiymətləndirilməli, tərəflərin dəlillərinin hansı səbəbdən qəbul edilib-edilməməsi əsaslandırılmalı, ədalətli məhkəmə araşdırması hüququ təmin olunmaqla mübahisəyə qanunvericiliyə uyğun qaydada yekun hüquqi qiymət verilməlidir.

105. Göstərilənlərə əsasən və MPM-in 416, 417 və 419-cu maddələrini rəhbər tutaraq, Məhkəmə kollegiyası

Qərara aldı:

Kassasiya şikayəti təmin edilsin.

Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(103)-570/2024 nömrəli, 13 fevral 2024-cü il tarixli qətnaməsi ləğv edilsin və iş yeni apellyasiya baxışına göndərilsin.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

47. 2(102)-3560/2024 nömrəli, 2024-cü il 26 noyabr tarixli qərar - Vərəsələr arasında ixtilafların həll edilməsi zamanı vərəsəlik şəhadətnamələrinin hüquqi əhəmiyyəti

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: vərəsələr arasında ixtilafların həll edilməsi zamanı vərəsəlik şəhadətnamələrinin hüquqi əhəmiyyəti.

İddiaçı miras əmlaka dair qanun üzrə vərəsəlik hüququ haqqında şəhadətnamənin və eyni tarixli mülkiyyət hüququ haqqında şəhadətnamənin ləğv edilməsi, mirasın 1/4 hissəsinə dair ona qanun üzrə vərəsəlik hüququ haqqında şəhadətnamə verilməsi öhdəliyinin notariat ofisinə həvalə edilməsi barədə iddia ərizəsi ilə məhkəməyə müraciət etmişdir.

Birinci instansiya məhkəməsi iddianı tam təmin etmiş, apellyasiya instansiyası məhkəməsi qətnaməni "mülkiyyət hüququ haqqında şəhadətnamənin ləğv edilməsi, mirasın 1/4 hissəsinə dair iddiaçıya qanun üzrə vərəsəlik hüququ haqqında şəhadətnamənin verilməsi öhdəliyinin notariat ofisinin üzərinə qoyulması" hissəsində ləğv edib, həmin hissədə iddianı rədd edərkən qeyd etmişdir ki, hazırda iddiaçının ləğvini tələb etdiyi qanun üzrə vərəsəlik haqqında şəhadətnamə özündən əvvəl tərtib edilmiş digər şəhadətnamələrdən (mülkiyyət hüququ və qanun üzrə vərəsəlik hüququ haqqında) qaynaqlanmış, lakin iddiaçı həmin şəhadətnamələri mübahisələndirməmişdir. Vərəsələrin, o cümlədən iddiaçının miras əmlakın ¼ hissəsinə payı yalnız bu şəhadətnamələr ləğv edildikdən sonra tanına bilər.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Notariusun verdiyi vərəsəlik şəhadətnaməsi vərəsələrin miras hüquqlarını yaratmır. Belə ki, qurucu mahiyyətdə olmayan və əqd sayılmayan vərəsəlik şəhadətnaməsi, vərəsələrin miras əmlaka artıq qanun əsasında yaranmış hüquqlarını təsdiqləyən (açıqlayan), eləcə də müvafiq qeydiyyatın aparılmasına əsas təşkil edən sənəddir.

Bununla belə, vərəsələrin dairəsi, payların nisbəti və digər münasibətlərlə bağlı vərəsələr arasında fikir ayrılığı olduqda mübahisə məhkəmə tərəfindən həll edilir. Miras şərikləri arasında mirasın bölüşdürülməsi haqqında ixtilaflar olduqda, mübahisəyə məhkəmə baxır.

Vərəsəlik mübahisəsi üzrə çıxarılan məhkəmə qərarı bir qayda olaraq, miras əmlaka payların müəyyən olunması və ya mirasın bölüşdürülməsi, yaxud digər ixtilaflar üzrə vərəsələr arasındakı mübahisəni birdəfəlik həll edir və yekun hüquqi nəticə yaradır. Bununla da, vərəsələrin miras əmlaka paylarını təsbit edən (və ya mirasın bölüşdürülməsi nəticəsində konkret əşyalar üzərində vərəsələrin mülkiyyət hüquqlarını tanıyan) məhkəmə qərarı ilə miras şərikliyinə, dolayısı ilə vərəsəlik hüquq münasibətlərinə son verilir.

Odur ki, məhkəmə, göstərilən münasibətlərlə bağlı mübahisəni həll etdikdə (və ya bundan sonra) eyni miras əmlaka dair eyni vərəsələrə vərəsəlik şəhadətnaməsi verilməsinə ehtiyac olmadığı kimi, həmin məsələlərlə bağlı notariat orqanının daha əvvəl verdiyi şəhadətnamələrin də hüquqi əhəmiyyəti qalmır.

Bu səbəbdən notariusun verdiyi vərəsəlik şəhadətnaməsi (orada əks olunan pay nisbəti, vərəsələrin dairəsi və s.) ilə razılaşmayan vərəsə məhkəmədə iddia qaldıraraq özünün vərəsəlik payının müəyyən edilməsini və mülkiyyət hüququnun tanınmasını tələb etdikdə, məhkəmə, mübahisəli münasibətlərlə bağlı notariusun verdiyi şəhadətnamələrin əsaslılığını öz xidməti vəzifəsinə görə yoxlayır. Çünki mülkiyyət, o cümlədən vərəsəlik hüququnun müdafiəsinə dair tələblərə baxılarkən (bu cür tələblər müxtəlif məzmunda və variantlarda irəli sürülə bilər: məsələn, vərəsəlik payının müəyyən edilməsi və (və ya) əşyanın qaytarılması, əşyaya dair cavabdehin adına dövlət reyestrində aparılmış qeydiyyatın ləğv edilməsi və s.) mübahisəli hüquq münasibətinin və ya qeydiyyatın əsasında dayanan sənədlərin (şəhadətnamələr və s.) qanuniliyi, yaxud əqdlərin (müqavilə və s.) etibarlılığı tələbdən asılı olmayaraq yoxlanılır. Bu yoxlama nəticəsində məhkəmə təsbit etdiyi hüquqi vəziyyəti nəzərə alaraq irəli sürülmüş tələbləri yekun olaraq həll edir. Əks yanaşma eyni mübahisəli münasibətlərlə bağlı lüzum olmadan çoxsaylı mülki işlərin açılmasına və prosessual hüquqlardan sui-istifadə edilməsinə rəvac verməklə, mübahisəyə məhkəmədə ağlabatan müddətdə baxılması və hüquqi müəyyənlik prinsiplərinin pozulmasına səbəb olar.

Qeyd olunanlara əsasən Kollegiya hesab etmişdir ki, apellyasiya məhkəməsinin iddiaçının ləğvini tələb etdiyi qanun üzrə vərəsəlik haqqında şəhadətnamənin qaynaqlandığı özündən əvvəl tərtib edilmiş digər şəhadətnamələri (mülkiyyət hüququ və qanun üzrə vərəsəlik hüququ haqqında) mübahisələndirməməsinə görə iddianın rədd olunması barədə mövqeyi əsaslı olmamışdır.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-3560/2024

26.11.2024-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından

Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki

kollegiyasının

iddiaçının cavabdeh Bakı şəhəri 13 saylı notariat ofisinə (üçüncü şəxs mübahisə predmeti barəsində müstəqil tələb irəli sürməyən üçüncü şəxs qismində işə cəlb edilməklə) qarşı iş üzrə

Q Ə R A R I

Açar sözlər: vərəsəlik şəhadətnaməsi, vərəsəlik mübahisəsinin məhkəmə tərəfindən həll edilməsi

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Əliyev Zaur Əli oğlu (məruzəçi), Babayev Zəki Baba oğlu və Əhmədov Əhməd Abbas oğlundan ibarət tərkibdə,

Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)-512/2024 nömrəli, 25 aprel 2024-cü il tarixli qətnaməsindən iddiaçı tərəfindən verilmiş kassasiya şikayətinə Ali Məhkəmənin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları

1. Mübahisəyə mahiyyəti üzrə baxan məhkəmələr işin hallarını araşdıraraq aşağıdakıları müəyyən etmişlər:
2. Bakı Şəhər İcra Hakimiyyətinin başçısının 28.02.2005-ci il tarixli sərəncamına əsasən ünvan ****** saylı, 28.02.2005-ci il tarixli order əsasında X1-na verilmişdir. Həmin sərəncama əsasən orderə həm onun, həm də arvadı üçüncü şəxsin adı daxil edilmişdir;
3. Bakı şəhər İcra Hakimiyyətinin həmin sərəncamına, orderə və *** saylı 06.04.2005-ci il tarixli Forma 2 arayışına və üçüncü şəxsin razılıq ərizəsinə əsasən 15.04.2005-ci il tarixdə bu mənzil X1-nun adına qeydiyyata alınmışdır;
4. X1 07.12.2020-ci il tarixdə vəfat etmişdir;
5. Miras qoyanın vəfatından sonra onun vərəslərinin – üçüncü şəxsin (arvadı), X2-nın (qızı), X3-nun (oğlu) və iddiaçının (qızı) müvafiq müraciətlərinə əsasən Bakı şəhəri 13 saylı notariat ofisinin xüsusi notariusu tərəfindən təsdiq edilmiş 28.08.2021-ci il tarixli Qanun üzrə vərəsəlik hüququ haqqında şəhadətnamə ilə onlar X1-nun vərəsələri kimi tanınmış və miras əmlakdan hər birinin bərabər pay hüquqları müəyyən edilmişdir. Eyni tarixli Mülkiyyət hüququ haqqında şəhadətnaməyə əsasən sözügedən mənzil üzrə üçüncü şəxsin ½ pay hüququ müəyyən edilmiş, digər ½ miras payı isə yenidən dörd vərəsə arasında bölünərək, hər birinin 1/8 pay hüququ tanınmışdır.
6. Bakı şəhəri 13 saylı notariat ofisinin xüsusi notariusunun təsdiqlədiyi 27.01.2022-ci il tarixli Qanun üzrə vərəsəlik hüququ haqqında şəhadətnaməyə əsasən, X1-dan miras qalmış ünvan vərəsə iddiaçı 1/8 pay almalıdır.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a) Birinci instansiya məhkəməsində icraat

7. İddiaçı Bakı şəhəri 13 saylı notariat ofisinə qarşı iddia ərizəsi ilə Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinə müraciət edərək, X1-dan miras qalmış əmlaka dair Bakı şəhəri 13 saylı notariat ofisi tərəfindən 27.01.2022-ci il tarixdə təsdiq edilmiş qanun üzrə vərəsəlik hüququ haqqında şəhadətnamənin və həmin tarixli mülkiyyət hüququ haqqında şəhadətnamənin ləğv edilməsi, ünvanda yerləşən 12 saylı mənzilin 1/4 hissəsinə dair ona qanun üzrə vərəsəlik hüququ haqqında şəhadətnamənin verilməsi öhdəliyinin 13 saylı notariat ofisinə həvalə edilməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir.
8. İddiaçı tələbini onunla əsaslandırmışdır ki, o, Bakı şəhəri, Nəsimi rayonu, 13 saylı notariat ofisinin notariusunun təsdiq etdiyi qanun üzrə vərəsəlik haqqında şəhadətnaməyə əsasən mərhum atası X1-dan miras qalmış ünvanda yerləşən 12 saylı mənzilin ½ hissəsi onun, ögey anası və iki qardaşı arasında bölünmüş, ona 1/8 hissə ayrılmışdır. Həmin mənzilin digər 1/2 hissəsinə isə ögey anasının adına mülkiyyət hüququ haqqında şəhadətnamə verilmişdir. Həm mülkiyyət hüququ haqqında, həm də vərəsəlik hüququ haqqında şəhadətnamə ləğv edilməlidir. Belə ki, miras mənzil Bakı Şəhəri İcra Hakimiyyətinin 45 saylı, 28.02.2005-ci il tarixli sərəncamı əsasında mərhum atası əmək fəaliyyətinə görə (atası millət vəkili olub) dövlət tərəfindən hədiyyə olaraq verilmişdir. Belə olduğu halda, həmin mənzil birgə nikah dövründə əldə edilmiş əmlak kimi deyil, tam miras kütləsi kimi vərəsələr arasında bölünməlidir.

9. Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin (hakim Əfsanə Heydərova) 24.06.2023-cü il tarixli, 2(006)1239/2023 saylı qətnaməsi ilə iddia təmin edilmiş, Bakı şəhəri 13 saylı notariat ofisi tərəfindən 27.01.2022-ci il tarixdə təsdiq edilmiş qanun üzrə vərəsəlik hüququ haqqında şəhadətnamə və həmin tarixli mülkiyyət hüququ haqqında şəhadətnamə ləğv edilmiş, ünvanda yerləşən 12 saylı mənzilin 1/4 hissəsinə dair iddiaçıya qanun üzrə vərəsəlik hüququ haqqında şəhadətnamənin verilməsi öhdəliyi Bakı şəhəri 13 saylı notariat ofisinin üzərinə qoyulmuşdur.

10. Məhkəmə qeyd etmişdir ki, sözügedən mübahisəli əmlak X1-nun üçüncü şəxs ilə ailə münasibətlərində olduğu müddətdə dövlət tərəfindən X1-nun xidməti fəaliyyətinə görə (həmin dövr üçün Azərbaycan Respublikası Milli Məclisinin deputatı) hədiyyə edilmişdir. Bu hal isə iş materiallarında olan Azərbaycan Respublikası Bakı şəhəri İcra Hakimiyyətinin başçısının 28.02.2005-ci il tarixli sərəncamı ilə öz təsdiqini tapmışdır. Üçüncü şəxs isə mübahisəli əmlakın birgə nikah dövründə əldə edilmiş vəsait hesabına alındığını bildirsə də, bu halı təsdiq edən sübutu məhkəməyə təqdim edə bilməmişdir. Mübahisəli əmlak tərəflərin nikah dövründə X1-na hədiyyə olaraq verildiyindən, ünvan ər-arvadın birgə mülkiyyəti deyil də, sonuncunun ayrıca mülkiyyətində olmuş və həmin mənzil miras əmlakı olaraq vərəsələr arasında bərabər paylarda bölünməlidir.

11. Məhkəmə mövqeyini Azərbaycan Respublikası Mülki Məcəlləsinin 666.1, 1133, 1145, 1146, 1159, 1162-ci; Ailə Məcəlləsinin 32.1, 34.1-ci; Mülki Prosessual Məcəlləsinin 14.2, 76, 77.1, 119.1, 217.3, 217.4-cü maddələrinə və Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 666.1, 670.1, 670.3 və 673.1-ci maddələrinin şərh edilməsinə dair" 19.12.2012-ci il tarixli, "G.Həsənzadənin şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 2 aprel 2014-cü il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair" 20 aprel 2015-ci il tarixli, "N.Məmmədovanın şikayəti üzrə məhkəmə aktlarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair" 31 yanvar 2006-cı il tarixli qərarlarına istinadla əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

12. Mübahisə predmeti barəsində müstəqil tələblər irəli sürməyən üçüncü şəxs apellyasiya şikayəti verərək, qətnamənin ləğv edilməsini və iddianın rədd edilməsi barədə yeni qətnamə çıxarılmasını xahiş etmişdir.

13. Mübahisə predmeti barəsində müstəqil tələblər irəli sürməyən üçüncü şəxs apellyasiya şikayətini belə əsaslandırmışdır ki, qanunun tələbinə görə mənzil hüquq və vəzifələrinin əmələ gəlməsi üçün müqavilələr, digər əqdlər, yaxud dövlət orqanlarının aktı olmalıdır. Hədiyyə iki tərəfli əqd olmaqla dövlət orqanının aktı hədiyyə hesab oluna bilməz. Qeyd olunan mənzil mərhuma hədiyyə kimi deyil, onun müraciəti əsasında Azərbaycan Respublikası Bakı şəhəri İcra Hakimiyyətinin başçısının 28.02.2005-ci il tarixli sərəncamı ilə məhz ailəli olduğuna görə mənzil şəraitinin yaxşılaşdırılması üçün verilmişdir. Bakı şəhəri İcra Hakimiyyəti Başçısı Aparatının ****** saylı Orderindən də göründüyü kimi qeyd olunan mənzil X1-yə həyat yoldaşı üçüncü şəxs ilə yaşamaq üçün verilmişdir. Lakin, birinci instansiya məhkəməsi mübahisəli mənzilin hədiyyə olmasını əsassız olaraq qeyd etmiş və üçüncü şəxsin həmin mənzildə payının olmaması nəticəsinə gəlməklə maddi hüquq normalarını pozmuşdur. Birinci instansiyası məhkəməsi tərəfindən işin faktiki halları hərtərəfli araşdırılmalıdır.

14. Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının (hakimlər Fuad Abdıyev sədrlik edən və məruzəçi, Xəyal Sarıyev, Fərrux Qasımov) 2(103)-512/2024 nömrəli, 25 aprel 2024-cü il tarixli qətnaməsi ilə mübahisə predmeti barəsində müstəqil tələblər irəli sürməyən üçüncü şəxsin apellyasiya şikayəti qismən təmin edilmiş, Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 24.06.2023-cü il tarixli, 2(006)1239/2023 saylı qətnaməsi "27.01.2022-ci il tarixli mülkiyyət hüququ haqqında şəhadətnamənin ləğv edilməsi, ünvanda yerləşən 12 saylı mənzilin 1/4

hissəsinə dair iddiaçıya qanun üzrə vərəsəlik hüququ haqqında şəhadətnamənin verilməsi öhdəliyinin Bakı şəhəri 13 saylı notariat ofisinin üzərinə qoyulması" hissəsində ləğv edilmiş, həmin hissədə iş üzrə yeni qətnamə çıxarılaraq iddia həmin hissədə rədd edilmişdir.

15. Apellyasiya instansiya məhkəməsi bildirmişdir ki, mübahisəli mənzil X1-na iki nəfər ailə tərkibi ilə (özü və həyat yoldaşı üçüncü şəxs) verilmiş və orderdə hər ikisinin adı qeyd edilmişdir. Bu baxımdan həmin mənzil birgə nikah dövründə və birgə gəlirlər hesabına əldə edilmiş əmlak kimi qiymətləndirilməlidir. Lakin sonradan mənzilin ona verilməsini təsdiq edən sənədlərə, o cümlədən orderə, habelə üçüncü şəxsin razılıq ərizəsinə əsasən mənzil X1-nun adına qeydiyyata alınmışdır. Bu hal, o cümlədən üçüncü şəxsin özəlləşməyə razılıq verməsi iş materiallarında olan Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri publik hüquqi şəxsinin 29.08.2022-ci il tarixli məktubu ilə təsdiq olunur. Həmin razılıq ərizəsinin verilməsi öz-özlüyündə mübahisələndirilən əmlakın ər-arvadın ümumi birgə əmlakı olması faktını aradan qaldırır. Bu səbəbdən məhkəmə kollegiyası üçüncü şəxsin apellyasiya şikayətinin bu barədə dəlillərini əsassız hesab edir. Hüquqi nəticə etibarı ilə üçüncü şəxs mənzilin həyat yoldaşı X1-nun mülkiyyətinə keçirilməsinə könüllü razılıq verdiyindən, həmin mənzil ər-arvadın birgə (ümumi) mülkiyyəti sayıla bilməz. Bu baxımdan X1-nun ölümündən sonra ondan miras qalmış əmlakdan onun vərəsələrinin, o cümlədən iddiaçının bərabər həcmdə, yəni hər birinin ¼ hissədə pay almaq hüququ tanınmalıdır. Bu da öz növbəsində iddiaçının həmin əmlakdan 1/8 hissədə pay almaq hüququ barədə 27.01.2022-ci il tarixli "Qanun üzrə vərəsəlik hüququ haqqında şəhadətnamə"nin ləğv edilməsini şərtləndirir.

16. Məhkəmə kollegiyası həmçinin qeyd etmişdir ki, 27.01.2022-ci il tarixdə mülkiyyət hüququ haqqında şəhadətnamənin verildiyi müəyyən edilmir, bu halı təsdiq edən hər hansı sənəd məhkəməyə təqdim edilmir. Bu da öz növbəsində bu tələbin əsassız olduğuna dəlalət edir və onun təmin edilməsini qeyri-mümkün edir.

17. Məhkəmə kollegiyası iddia tələbinin "miras əmlakdan 1/4 hissədə pay almaq hüququnun tanınması barədə qanun üzrə vərəsəlik hüququ haqqında şəhadətnamənin verilməsi öhdəliyinin notariusun üzərinə qoyulması" hissəsinə münasibətdə qeyd etmişdir ki, iddiaçı ona münasibətdə tərtib edilmiş 27.01.2022-ci il tarixli şəhadətnamənin ləğvini mübahisələndirsə də, 28.08.2021-ci il tarixli "Ər-arvadın ümumi əmlakından paya sağ qalmış ərə (arvada) verilən Mülkiyyət hüququ haqqında" Şəhadətnaməni və eyni tarixli "Qanun üzrə vərəsəlik hüququ haqqında" Şəhadətnaməni mübahisələndirməmişdir. Bu da öz növbəsində onun miras əmlakdan ¼ hissədə pay almaq hüququnun olmasına baxmayaraq, mövcud vəziyyətdə onun bu payının tanınmasını hüquqi baxımdan qeyri-mümkün edir. Belə ki, hazırda iddiaçının ləğvini tələb etdiyi 27.01.2022-ci il tarixli qanun üzrə vərəsəlik haqqında şəhadətnamə 21.08.2021-ci il tarixli şəhadətnamələrdən qaynaqlanmışdır. Vərəsələrin, o cümlədən iddiaçının miras əmlakın ¼ hissəsinə payı yalnız bu şəhadətnamələr ləğv edildikdən sonra tanına bilər. Lakin onlar hazırda da qüvvədədir, iddiaçı tərəfindən mübahisələndirilməmiş və hazırkı iddia üzrə mübahisə predmetini təşkil etmir. Bu da öz növbəsində həmin şəhadətnamələrə də hüquqi qiymət verilməsini qeyri-mümkün edir. Bu səbəbdən məhkəmə kollegiyası hesab edir ki, bu tələb təmin edilə bilməz və qətnamə həmin hissədə ləğv edilməlidir. Miras əmlakdan ¼ hissədə pay hüququ əldə etmək üçün məhkəmə qaydasında ayrıca icraat çərçivəsində 21.08.2021-ci il tarixli şəhadətnamələrin ləğvinin mübahisələndirməsi zərurətini yaradır. Başqa sözlə, iddiaçı belə bir hüquqa malikdir.

18. Məhkəmə kollegiyası mövqeyini Ailə Məcəlləsinin 31.2, 32.1, 32.2.2, 34.1-ci; Mülki Məcəllənin 220.2, 225.1, 225.2, 666.1, 1133.1, 1133.2, 1145, 1146, 1159, 1162, 1243-cü maddələrinə; "Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında" Qanununa; Mülki Prosessual Məcəllənin 14.2, 77.1, 119.1, 217.1, 217.3, 217.4, 372, 382, 384, 385, 392, 393, 403, 405-ci; Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası

Qanununun 1-ci, 5-ci və 12-ci maddələrinin şərh edilməsinə dair" 21 dekabr 2012-ci il tarixli qərarına istinadla əsaslandırmışdır.

Kassasiya şikayətinin və ona etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

19. İddiaçı kassasiya şikayəti verərək (vəkil) Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(103)-512/2024 saylı, 25.04.2024-cü il tarixli qətnaməsi "Bakı şəhər Nəsimi rayon Məhkəməsinin 24.06.2023-cü il tarixli, 2(006)-1239/2023 saylı qətnaməsinin "27.01.2022-ci il tarixli mülkiyyət hüququ haqqında şəhadətnamənin ləğv edilməsi, ünvanda yerləşən 12 saylı mənzilin 1/4 hissəsinə dair iddiaçıya qanun üzrə vərəsəlik hüququ haqqında şəhadətnamənin verilməsi öhdəliyinin Bakı şəhəri 13 saylı notariat ofisinin üzərinə qoyulması" hissəsində ləğv edilməsi" hissəsində dəyişdirilməsini, həmin hissədə də iddianın təmin edilməsini xahiş etmişdir.

20. Kassasiya şikayətini onunla əsaslandırmışdır ki, hakim hazırkı işdə konkret olaraq texniki səhvə yol verildiyinə görə, mahiyyətcə tam araşdırılmış işin halını bir kənara qoyaraq iddianı qismən rədd edib. Belə ki, apellyasiya instansiya məhkəməsi iddianı əsaslı hesab etsə də, ləğv edilməsi tələb olunan "mülkiyyət hüququ haqqında şəhadətnamənin" tarixinin iddia ərizəsində düzgün qeyd edilməməsini iddianı rədd etmək üçün əsas saymışdır. Halbuki, vərəsəlik işinin içində mülkiyyət hüququna dair yalnız bir şəhadətnamə olmuş, iddia ərizəsinin mahiyyətindən və məzmunundan da göründüyü mülkiyyət hüququna dair şəhadətnamə dedikdə məhz o nəzərdə tutulmuşdur. Sadəcə, cavabdeh təşkilat aidiyyəti olmadığı üçün iddiaçıya həmin şəhadətnamənin verməkdən imtina etmiş, vərəsəlik işinin eyni gündə açıldığını bildirmiş, beləliklə iddiaçıda bütün şəhadətnamələrin eyni gündə verildiyinə dair təəsürat yaratmışdır. Məhz buna görə iddia tələbində "eyni tarixli" ifadəsindən istifadə edilmişdir. Lakin, buna baxmayaraq, həm birinci instansiya məhkəməsində, həm apellyasiya instansiyası məhkəməsində dəqiqləşmə aparılmış, iş materiallarında və ümumiyyətlə reallıqda yalnız bir mülkiyyət hüququna dair şəhadətnamənin olması və iddiaçının məhz həmin şəhadətnaməni nəzərdə tutması müəyyən olunmuşdur. Odur ki, hazırkı işdə belə formal əsasla iddianın rədd edilməsi və yeni məhkəmə icraatının başlanmasına rəvac verilməsi prosessual qənaət prinsipinin də pozuntusu hesab olunmalıdır.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

21. Kassasiya şikayətinə qarşı etiraz daxil olmamışdır.

Tətbiq edilən hüquq

Azərbaycan Respublikasının Mülki Məcəlləsi:

22. Maddə 1133.1. Ölmüş şəxsin (miras qoyanın) əmlakı başqa şəxslərə (vərəsələrə) qanun üzrə və ya vəsiyyət üzrə və ya hər iki əsasla keçir.

23. Maddə 1133.2. Qanun üzrə vərəsəlik (ölmüş şəxsin əmlakının qanunda göstərilmiş şəxslərə keçməsi) o zaman qüvvədə olur ki, miras qoyan vəsiyyətnamə qoymur, yaxud vəsiyyətnamə tamamilə və ya qismən etibarsız sayılır.

24. Maddə 1134.1. Qanun üzrə vərəsəlik zamanı vərəsələr miras qoyanın öldüyü məqamda sağ olmuş şəxslər, habelə miras qoyanın ölümündən sonra doğulmuş uşaqları ola bilərlər.

25. Maddə 1151. Mirasa (miras əmlaka) miras qoyanın öldüyü məqamadək malik olduğu əmlak hüquqlarının (miras aktivi) və vəzifələrin (miras passivi) toplusu daxildir.

26. Maddə 1159.1.1. Birinci növbədə - ölənin uşaqları, miras qoyanın ölümündən sonra doğulmuş uşaq, arvad (ər), valideynlər (övladlığa götürənlər) qanun üzrə vərəsəlik zamanı bərabər pay hüquqlu vərəsələr sayılırlar.

27. Maddə 1255. Qəbul edilmiş miras onun açıldığı gündən vərəsənin mülkiyyəti sayılır.

28. Maddə 1291. Miras şərikləri arasında mirasın bölüşdürülməsi haqqında ixtilaflar olduqda, mübahisəyə məhkəmə baxır.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi:

29. Maddə 217.1. Məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır.

30. Maddə 217.3. Qətnamə iş üzrə müəyyən edilmiş hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır.

31. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

32. Maddə 417.1.3. Kassasiya məhkəməsi işə baxarkən apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadını qismən ləğv edə və ya tamamilə, yaxud qismən ləğv edib işi yenidən baxılmaq üçün apellyasiya instansiyası məhkəməsinə göndərə bilər.

33. Maddə 418.1. Maddi və prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması, o cümlədən maddi və prosessual hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması apellyasiya instansiyası məhkəməsinin qətnamə və qərardadının ləğv edilməsi üçün əsasdır.

Kassasiya baxışının hədləri

34. Qanunun tələbinə görə, kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

35. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

36. Baxılan işdə iddiaçının tələbi pozulmuş vərəsəlik hüquqlarının bərpası ilə bağlıdır. İddiaçı bildirir ki, notariat orqanının atasından miras qalmış ünvan mənzilinə onun vərəsəlik hüquqlarının 1/8 pay nisbətində tanınması qanunvericiliyə uyğun deyil, həmin mənzilə 1/4 həcmdə payı vardır.

37. Mübahisəyə mahiyyəti üzrə baxmış birinci və apellyasiya instansiyası məhkəmələri bu mövqedə olmuşlar ki, qeyd edilən mənzil miras qoyan X1-nin fərdi mülkiyyətində idi, onun 07.12.2020-ci il tarixdə vəfat etməsi ilə həmin əşyanın tamamı üzərində miras açılmışdır. Miras qoyanın qanun üzrə birinci növbə vərəsələri dörd nəfər (arvadı üçüncü şəxs, oğlu X3, qızı X2, qızı iddiaçı) olduğundan iddiaçının vərəsəlik payı 1/4-dir.

38. Bununla belə, apellyasiya məhkəməsi iddiaçının tələbini rədd etmiş və mövqeyini belə əsaslandırmışdır ki, “iddiaçı ona münasibətdə tərtib edilmiş 27.01.2022-ci il tarixli şəhadətnamənin ləğvini mübahisələndirsə də, 28.08.2021-ci il tarixli “Ər-arvadın ümumi əmlakından paya sağ qalmış ərə (arvada) verilən Mülkiyyət hüququ haqqında" Şəhadətnaməni

və eyni tarixli “Qanun üzrə vərəsəlik hüququ haqqında” Şəhadətnaməni mübahisələndirməmişdir. Bu da öz növbəsində onun miras əmlakdan ¼ hissədə pay almaq hüququnun olmasına baxmayaraq, mövcud vəziyyətdə onun bu payının tanınmasını hüquqi baxımdan qeyri-mümkün edir. Belə ki, hazırda iddiaçının ləğvini tələb etdiyi 27.01.2022-ci il tarixli qanun üzrə vərəsəlik haqqında şəhadətnamə 21.08.2021-ci il tarixli şəhadətnamələrdən qaynaqlanmışdır. Vərəsələrin, o cümlədən iddiaçının miras əmlakın ¼ hissəsinə payı yalnız bu şəhadətnamələr ləğv edildikdən sonra tanına bilər. Lakin onlar hazırda da qüvvədədir, iddiaçı tərəfindən mübahisələndirilməmiş və hazırki iddia üzrə mübahisə predmetini təşkil etmir. Bu da öz növbəsində həmin şəhadətnamələrə də hüquqi qiymət verilməsini qeyri-mümkün edir”.

39. Məhkəmə kollegiyası bu mövqe ilə razılaşmır, ona görə ki, vərəsənin miras payı notariusun verdiyi mülkiyyət və ya vərəsəlik şəhadətnaməsindən qaynaqlanmır. Vərəsələr, mirası mirasqoyanın ölümü ilə qanun əsasında əldə edirlər. Başqa sözlə, vərəsələr miras açıldığı andan onlara çatası miras payına uyğun olaraq, əmlak üzərində mülkiyyət hüququ qazanırlar və bu hüquq qanunla tanınır.

40. Belə ki, birinci növbədə - ölənin uşaqları, miras qoyanın ölümündən sonra doğulmuş uşaq, arvad (ər), valideynlər (övladlığa götürənlər) qanun üzrə vərəsəlik zamanı bərabər pay hüquqlu vərəsələr sayılırlar. Qəbul edilmiş miras onun açıldığı gündən vərəsənin mülkiyyəti sayılır (§ 26-27).

41. Odur ki, notariusun verdiyi vərəsəlik şəhadətnaməsi vərəsələrin miras hüquqlarını yaratmır. Bu baxımdan qurucu mahiyyətdə olmayan və əqd sayılmayan vərəsəlik şəhadətnaməsi, vərəsələrin miras əmlaka artıq qanun əsasında yaranmış hüquqlarını təsdiqləyən (açıqlayan), eləcə də müvafiq qeydiyyatın aparılmasına əsas təşkil edən sənəddir. Xüsusilə də miras kütləsinə daxil olan daşınmaz əşyalar barəsində vərəsələrin hüquqlarının daşınmaz əmlakın dövlət reyestrində qeydə alınması üçün vərəsəlik şəhadətnaməsinin alınması zəruridir. Bu səbəbdən “Daşınmaz əmlakın dövlət reyestri” haqqında Azərbaycan Respublikasının Qanununun 8.0.3-cü maddəsində vərəsəlik hüququ haqqında şəhadətnamələr daşınmaz əmlak üzərində hüquqların əmələ gəlməsinin, başqasına keçməsinin, məhdudlaşdırılmasının (yüklülüyünün) və xitam verilməsinin dövlət qeydiyyatı üçün əsaslardan biri kimi nəzərdə tutulmuşdur.

42. Bununla belə, vərəsələrin dairəsi, payların nisbəti və digər münasibətlərlə bağlı vərəsələr arasında fikir ayrılığı olduqda mübahisə məhkəmə tərəfindən həll edilir. Miras şərikləri arasında mirasın bölüşdürülməsi haqqında ixtilaflar olduqda, mübahisəyə məhkəmə baxır (§ 28).

43. Nəzərə alınmalıdır ki, vərəsəlik mübahisəsi üzrə çıxarılan məhkəmə qərarı bir qayda olaraq, miras əmlaka payların müəyyən olunması və ya mirasın bölüşdürülməsi, yaxud digər ixtilaflar üzrə vərəsələr arasındakı mübahisəni birdəfəlik həll edir və yekun hüquqi nəticə yaradır. Vərəsələrin miras əmlaka paylarını təsbit edən (və ya mirasın bölüşdürülməsi nəticəsində konkret əşyalar üzərində vərəsələrin mülkiyyət hüquqlarını tanıyan) məhkəmə qərarı ilə miras şərikliyinə, dolayısı ilə vərəsəlik hüquq münasibətlərinə son verilir.

44. Odur ki, məhkəmə, göstərilən münasibətlərlə bağlı mübahisəni həll etdikdə (və ya bundan sonra) eyni miras əmlaka dair eyni vərəsələrə vərəsəlik şəhadətnaməsi verilməsinə ehtiyac olmadığı kimi, həmin məsələlərlə bağlı notariat orqanının daha əvvəl verdiyi şəhadətnamələrin də hüquqi əhəmiyyəti qalmır. Vərəsəlik mübahisəsini həll edən məhkəmə aktı qanuni qüvvəsini aldıqdan sonra tərəflər üçün məcburi, müvafiq orqanda qeydiyyatın aparılması üçün əsas olur. Belə ki, qanuni qüvvəyə minmiş məhkəmə qərarları (o cümlədən mübahisəli daşınmaz əmlaka münasibətdə vərəsələrin hüquqlarını həll etmiş məhkəmə aktı) daşınmaz əmlak üzərində hüquqların əmələ gəlməsinin, başqasına keçməsinin, məhdudlaşdırılmasının (yüklülüyünün) və xitam verilməsinin dövlət qeydiyyatı üçün müstəqil əsaslardan biridir (adı çəkilən Qanun, maddə 8.0.4).

45. Bu səbəbdən notariusun verdiyi vərəsəlik şəhadətnaməsi (orada əks olunan pay nisbəti, vərəsələrin dairəsi və s.) ilə razılaşmayan vərəsə məhkəmədə iddia qaldıraraq özünün vərəsəlik payının müəyyən edilməsini və mülkiyyət hüququnun tanınmasını tələb etdikdə, məhkəmə, mübahisəli münasibətlərlə bağlı notariusun verdiyi şəhadətnamələrin əsaslılığını öz xidməti vəzifəsinə görə yoxlayır. Çünki, mülkiyyət, o cümlədən vərəsəlik hüququnun müdafiəsinə dair tələblərə baxılarkən (bu cür tələblər müxtəlif məzmunda və variantlarda irəli sürülə bilər: məsələn, vərəsəlik payının müəyyən edilməsi və (və ya) əşyanın qaytarılması, əşyaya dair cavabdehin adına dövlət reyestrində aparılmış qeydiyyatın ləğv edilməsi və s.) mübahisəli hüquq münasibətinin və ya qeydiyyatın əsasında dayanan sənədlərin (şəhadətnamələr və s.) qanuniliyi, yaxud əqdlərin (müqavilə və s.) etibarlılığı tələbdən asılı olmayaraq yoxlanılır. Bu yoxlama nəticəsində məhkəmə təsbit etdiyi hüquqi vəziyyəti nəzərə alaraq irəli sürülmüş tələbləri yekun olaraq həll edir.

46. Əks yanaşma, eyni mübahisəli münasibətlərlə bağlı lüzum olmadan çoxsaylı mülki işlərin açılmasına və prosessual hüquqlardan sui-istifadə edilməsinə rəvac verər, mübahisəyə məhkəmədə ağlabatan müddətdə baxılması və hüquqi müəyyənlik prinsiplərinin pozulmasına səbəb olardı.

47. Baxılan işdən o da görünür ki, iddiaçı (tarixini düzgün qeyd etməsə də) mülkiyyət hüququ haqqında şəhadətnamənin ləğv edilməsi barədə tələbini iddia ərizəsinin nəticə hissəsində əks etdirmişdir.

48. Göstərilənləri nəzərə alaraq, məhkəmə tərkibi hesab edir ki, apellyasiya məhkəməsinin “28.08.2021-ci il tarixli “Ər-arvadın ümumi əmlakından paya sağ qalmış ərə (arvada) verilən Mülkiyyət hüququ haqqında" Şəhadətnamənin və eyni tarixli “Qanun üzrə vərəsəlik hüququ haqqında” Şəhadətnamənin iddiaçı tərəfindən mübahisələndirilməməsinə görə” iddianın rədd edilməsi haqqında mövqeyi əsaslı olmamışdır.

49. Kollegiya onu da nəzərə alır ki, apellyasiya məhkəməsi qətnamənin əsaslandırıcı hissəsində iddiaçıya verilmiş 27.01.2022-ci il tarixli vərəsəlik şəhadətnaməsinin ləğv edilməsi qənaətinə gəlsə də, nəticə hissəsində iddianın bu hissədə həlli ilə bağlı mövqe öz əksini tapmamışdır.

50. Beləliklə, məhkəmə tərkibi yuxarıda qeyd edilənləri birlikdə qiymətləndirərək bu nəticəyə gəlir ki, iş üzrə mübahisəli olan bütün münasibətlərə yekun hüquqi qiymət verilməsi üçün apellyasiya məhkəməsinin qətnaməsi bütövlükdə ləğv edilməli və iş yeni apellyasiya baxışına qaytarılmalıdır.

51. Göstərilənlərə əsasən və MPM-in 416, 417 və 419-cu maddələrini rəhbər tutaraq, Məhkəmə kollegiyası

Qərara aldı:

Kassasiya şikayəti qismən təmin edilsin.

Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)-512/2024 nömrəli, 25 aprel 2024-cü il tarixli qətnaməsi ləğv edilsin və iş yeni apellyasiya baxışına göndərilsin.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

48. 2(102)-766/2025 nömrəli, 2025-ci il 25 aprel tarixli qərar - vərəsənin əvəzlənməsi baxımından ər-arvaddan biri öldükdə onların birinin uşağının (digərinə münasibətdə ögey uşaq) valideyni olmayan digərinin mirasına hüququ

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: vərəsənin əvəzlənməsi baxımından ər-arvaddan biri öldükdə onların birinin uşağının (digərinə münasibətdə ögey uşaq) valideyni olmayan digərinin mirasına hüququ.

İddiaçının anası mirasqoyanla rəsmi nikah münasibətlərinə daxil olmuş, müəyyən müddətdən sonra iddiaçının anası, 4 ay sonra isə mirasqoyan vəfat etmişdir. Hazırda iddiaçı heç bir qohumluğu, o cümlədən övladlığa götürmə münasibəti olmayan mirasqoyandan (ögey atası) qalmış miras əmlaka dair anası baxımından vərəsəlik hüququnun mövcudluğuna iddia etmişdir. Notariat ofisinin müraciətdən imtina əsaslarından birini Mülki Məcəllənin 1252-ci maddəsi (irsi transmissiya) təşkil etmişdir.

Kassasiya instansiya məhkəməsinin mövqeyi:

Mülki qanunvericilik mirasın açıldığı vaxt baxımından vərəsənin ölümünə münasibətdə iki qayda nəzərdə tutmuşdur: vərəsə miras açıldıqdan sonra, lakin miras qəbul edilənədək ölərsə (irsi transmissiya – Mülki Məcəllə, 1252-ci maddə); qanun üzrə vərəsə miras açılmamışdan əvvəl ölərsə (vərəsənin əvəzlənməsi - Mülki Məcəllə, 1159-cu maddə). Bu institutlar müəyyən əlamətlərinə görə fərqlənir. Belə ki, irsi transmissiya həm vəsiyyət, həm də qanun üzrə vərəsəlik zamanı tətbiq edilə bildiyi halda, vərəsənin əvəzlənməsi yalnız qanun üzrə vərəsəlik zamanı mümkün ola bilər; irsi transmissiyada vərəsənin ölməsi halında ona çatacaq pay bütün vərəsələri arasında bölüşdürüldüyü halda, vərəsənin əvəzlənməsi yalnız düzünə xətt üzrə qan bağı əsasında müəyyən edilə bilər.

O da qeyd ediməlidir ki, Mülki Məcəllənin 1252-ci maddəsi “irsi transmissiya” anlayışı altında vərəsənin miras açıldıqdan sonra, lakin miras qəbul edilənədək öldüyü halda, mirasdan pay almaq hüququnun onun vərəsələrinə keçməsini nəzərdə tutur. Sözügedən norma açılmış mirasın qəbul müddətinə tabe olması institutunun qüvvədə olduğu müddətdə yaranan vərəsəlik münasibətlərində vərəsənin öz iradəsindən kənar şəkildə (ölməsi halında) mirası qəbul edə bilməməsi ilə bağlı qaydanı tənzimləsə də, əslində vərəsəliyin ümumi qaydalarını müəyyən edir. Belə ki, həmin normaya görə ölümü səbəbindən mirası qəbul edə bilməyən şəxsin mirası qəbul etməsi ehtimal edilir, məhz bu səbəbdən də mirasdan pay almaq hüququnun onun vərəsələrinə keçməsi müəyyən edilir. Hazırda qüvvədə olan mülki qanunvericilik mirasın qəbul müddətinə tabe olması institutunu dəstəkləmədiyindən və miras açıldığı andan avtomatik vərəsənin mülkiyyəti sayıldığından, qanun üzrə vərəsənin onu öz iradəsinə zidd, o cümlədən miras açılandan sonra ölməsi səbəbindən qəbul edə bilməməsi mümkün deyildir, bu zaman vərəsə əmlaka yiyələndikdən sonra ölmüş sayılır və onun mirası öz vərəsələri arasında ümumi qaydalar çərçivəsində bölünür.

Vərəsənin əvəz edilməsi qaydası isə Mülki Məcəllənin 1159-cu maddəsində nəzərdə tutulmuşdur: bu qayda yalnız bir halda – qanun üzrə vərəsənin ölümünün mirasqoyandan əvvəl gerçəkləşdiyi zaman tətbiq edilə bilər. Vərəsənin əvəzlənməsi irsi xarakter daşıyır, təsadüfi deyil ki, sözügedən norma bu qaydanı müəyyən edərkən birinci növbə vərəsələrdə yalnız nəvə, nəticə və uşaqlara, ikinci növbə vərəsələrin uşaqlarına (və onların uşaqlarına), üçüncü növbə vərəsələrin ana və atalarına münasibətdə müəyyən etmişdir.

Qanunvericiliyin təhlilindən və Konstitusiya Məhkəməsinin qərarlarındakı hüquqi mövqelərdən belə bir nəticə hasil olur ki, həm irsi transmissiya, həm də vərəsələrin əvəzlənməsi zamanı qohumluq faktoru önəmlidir, 1159-cu maddədəki yanaşmadan da aşkar şəkildə bəlli olur ki, vərəsənin əvəzlənməsi mirasqoyanın düzünə xətt üzrə olan qan bağına əsaslanmışdır. Birinci dərəcəli vərəsələr mirasqoyanla ən yaxın qohumluq münasibətində olan şəxslər olduğundan, onların hər hansı birinin mirasqoyandan əvvəl ölməsi halında, həmin

vərəsənin yerinə keçəcək şəxsin tək ölmüş vərəsənin övladı (nəvəsi, nəticəsi) olması yetərli olmayaraq, həm də mirasqoyanla düzünə xətt üzrə qan bağının olması əsas şərt hesab olunur. Bu qaydada yalnız 1159.1-ci maddədə nəzərdə tutulmuş hallarda övladlığa götürülən və övladlığa götürən şəxslərə münasibətdə istisnalıq təşkil edə bilər.

Bundan başqa, düzünə xətt üzrə qohumluq bağı olan nəvə, nəticə və uşaqların mirasqoyandan əvvəl ölmüş vərəsə - valideynin yerinə keçməsi qaydası birinci dərəcə vərəsələrə münasibətdə bütün hallara şamil edilə bilməz, çünki, qanunverici 1159.1.3-cü maddədə "sonuncular", habelə, "mirasın açıldığı vaxt miras qoyanın vərəsələri olacaq valideynləri" ifadəsi işlədərkən "sonuncular" və "valideyn" qismində yalnız miras qoyanla aşağı xətt üzrə qan bağı olan qohumlarını (övladlarını, nəvələrini, nəticələrini, o cümlədən, övladlığa götürülən şəxsləri) nəzərdə tutmuşdur. Digər birinci dərəcəli vərəsələrin (arvad, ata, ana) mirasqoyandan əvvəl öldüyü hallar bu qaydada istisnalıq təşkil etmişdir. Belə ki, mirasqoyanın arvadının (ərinin) başqa nikahdan olan övladının mirasqoyanla qohumluğu olmadığı halda, həmin övlad 1159.1-ci maddədə nəzərdə tutulan "valideynin" yerinə keçə bilməz. O cümlədən, mirasqoyanın yüksələn xətt üzrə qohumlarına - valideynlərinə münasibətdə də bu qayda tətbiq edilə bilməz, bu zaman qanun üzrə vərəsəliyin qohumluq dərəcələri ilə müəyyən edilmiş ardıcıllığı pozula bilər, çünki qanun, miras qoyanın bacı-qardaşlarını ikinci dərəcə vərəsəlik qrupunda müəyyənləşdirmişdir. Göstərilənlərin əksi qanun üzrə vərəsəlik hüququnun təməl prinsiplərinə zidd olmaqla, qanun üzrə vərəsələrin dairəsinin qeyri-məhdud olması ilə nəticələnə, vərəsələrin və vərəsəlik paylarının müəyyən edilməsi, miras qoyanın öhdəliklərinə görə məsuliyyət, sonrakı növbəyə aid olan qohumların ardıcıllığının müəyyən edilməsi və s. hallar baxımından ciddi qarışıqlıq yaratmaqla qeyri-müəyyənliyə səbəb ola bilər.

Beləliklə, Mülki Məcəllənin 1159.1.3-cü maddəsinin məzmununa görə, mirasın açıldığı vaxt miras qoyanla aşağı xətt üzrə qan bağı olan qohumları sağ olmadığı halda, onların uşaqları, nəvələri və nəticələri qanun üzrə vərəsə sayılırlar və öz valideynlərinin yerinə keçirlər. Baxılan işdə iddiaçının mirasqoyanla qohumluğu müəyyən edilmədiyindən, ondan qalmış mirasa dair anası baxımından birinci dərəcə vərəsə hesab oluna bilməz.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-766/2025

25.04.2025-ci il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi
Mülki Kollegiyasının

İddiaçının cavabdeh Bakı şəhəri 25 saylı notariat ofisinə qarşı (X1 mübahisə predmeti barəsində müstəqil tələblər irəli sürməyən üçüncü şəxs qismində işə cəlb edilməklə) iş üzrə

Q Ə R A R I

Açar sözlər: vərəsəlik mübahisələri, irsi transmissiya, vərəsənin əvəzlənməsi, ərarvaddan biri öldükdə onların birinin uşağının (digərinə münasibətdə ögey uşaq) valideyni olmayan digərinin mirasına hüququ

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyası, hakimlər Hacıyev Sənan Firudin oğlu (məruzəçi), Vəliyeva Elşanə Rafiq qızı və Şamayev Elşad Yaquboviçdən ibarət tərkibdə,

İddiaçının cavabdeh Bakı şəhəri 25 saylı notariat ofisinə qarşı (X1 mübahisə predmeti barəsində müstəqil tələblər irəli sürməyən üçüncü şəxs qismində işə cəlb edilməklə) "ər-arvadın ümumi paylı mülkiyyət hüququna dair şəhadətnamənin verilməsi" tələbinə dair mülki iş üzrə Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 2(103)-3807/2024 nömrəli, 05.09.2024-cü il tarixli qətnaməsindən iddiaçı tərəfindən verilən kassasiya şikayətinə Ali Məhkəmənin inzibati binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları

1. X2 X3 ilə xx.xx.1981-ci il rəsmi nikah münasibətlərinə daxil olmuş, birgə nikahdan xx.xx.1987-ci il tarixdə X4 doğulmuşdur. Onların arasında bağlanmış nikah xx.xx.1998-ci il tarixdə pozulmuşdur.

2. Bağlar təsərrüfatının inkişafı və istismarı birliyi tərəfindən Bakı şəhəri, Xəzər rayonu, X qəsəbəsində yerləşən 0,14 ha torpaq sahəsi və onun üzərində yerləşən 11 kv.metr sahəsi olan 1 otaqlı tikili (bundan sonra – bağ evi) 2001-ci ildə X2ə icarəyə verilmişdir.

3. X5 ilə X2 arasında 2010-cu ildə nikah bağlanmışdır. Onların birgə nikahından uşaqları olmamışdır. İddiaçı İddiaçı X5nın əvvəlki nikahdan doğulmuş qızıdır.

4. X2 bağ evinə dair mülkiyyət hüququnu 2016-cı ildə rəsmiləşdirmişdir.

5. 2019-cu ildə X2 həmin torpaq sahəsinin 0,06 ha hissəsini X6ya satmış, elə həmin ildə də torpaq sahəsinin qalan 0,08 ha hissəsi və həmin torpaq sahəsində yerləşən ümumi sahəsi 15,7 kv.metr olan bağ evi vahid əmlak kimi onun adına dövlət qeydiyyatına alınmışdır.

6. X5 xx.xx.2022-ci il tarixdə ölmüşdür.

7. X2 xx.xx.2022-ci il tarixdə bağ evini və torpaq sahəsinin 0,036 ha hissəsini Ağayev Zəki İsrafil oğluna satmışdır. Bunun nəticəsində X2in mülkiyyətində yuxarıda göstərilən ünvanda yerləşən 0,044 ha torpaq sahəsi (bundan sonra – torpaq sahəsi) qalmışdır.

8. X2 xx.xx.2022-ci ildə ölmüşdür.

9. X5in ölümündən sonra onun qızı İddiaçının müraciəti əsasında vərəsəlik işi açılmışdır. X2-dən miras qalmış əmlakla bağlı vərəsəlik hüququ haqqında şəhadətnamənin verilməsi barədə İddiaçının müraciətinə imtina cavabı verilmişdir. İmtina Mülki Məcəllənin 1252-ci (irsi transmissiya) maddəsinə istinad edilməklə onunla əsaslandırılmışdır ki, X5 X2dən əvvəl vəfat etmişdir. Həmçinin, "Notariat haqqında" Qanunun 62-ci maddəsinə istinad edilərək göstərilmişdir ki, müraciət edilən əmlakla bağlı ər-arvadın hər ikisi vəfat etdiyindən müraciətdən imtina olunur.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a) Birinci instansiya məhkəməsində icraat

10. İddiaçı məhkəməyə müraciət edərək, torpaq sahəsinə ər-arvadın ümumi əmlakdan paya dair mülkiyyət hüququ haqqında şəhadətnamənin verilməsinin Bakı şəhəri 25 saylı notariat ofisinə həvalə olunması barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

11. İddiaçı tələbini onunla əsaslandırmışdır ki, onun anası X5 1980-cı ildən X2lə faktiki nikaha daxil olmuşdur. Həmin vaxt onun 6 yaşı olmuşdur və o, mərhum X2ni öz atası kimi bilmişdir. Anası ilə X2 2010-cu ildə nikahlarını rəsmiləşdirmişlər. Anası rəhmətə getdikdən sonra atalığı X2 anası ilə birgə nikah dövründə aldıqları bağ evinin yarısını satmışdır. X2 xx.xx.2022-ci il tarixdə dünyasını dəyişmişdir. Anası sağ olan zaman o, anası ilə birlikdə orada öz hesabına ev tikmiş və hazırda həmin evdə yaşayır. Bu torpaq sahəsin onun anası ilə atalığının birgə nikah dövründə alındığına görə torpağın yarısı onun anasına məxsusdur.

İddiaçı hazırda həmin torpaq sahəsinin qalan hissəsində anası ilə birlikdə tikdirdiyi fərdi yaşayış evində oğlu ilə yaşayır. Sözügedən əmlakla bağlı notariat ofisinə müraciət etsə də, imtina cavabı almışdır.

12. X1 müstəqil tələb irəli sürməyən üçüncü şəxs qismində işə cəlb edilmişdir.

13. İddiaçının nümayəndəsi məhkəmə iclasında iddia ərizəsinin məzmununa uyğun izahat vermiş, əlavə olaraq bildirmişdir ki, üçüncü şəxs X1 mərhum X2nin qardaşı oğludur, torpaq sahəsi ona məxsus olmamışdır, əmisinin ölümünü bildikdən sonra torpaq sahəsinə yiyələnmək istəmişdir.

14. Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin 06.03.2024-cü il tarixli, 2(003)-475/2024 nömrəli qətnaməsi ilə iddia rədd edilmişdir (hakim: Əkrəm Qəhrəmanov).

15. Məhkəmə mövqeyini belə əsaslandırmışdır ki, iddiaçının bağ evinə anası X5in pay hüququ haqqında şəhadətnamə verilməsi üçün qanunvericilik həmin şəxsin əri olmuş X2in yazılı ərizəsinin olmasını tələb edir. X2 isə artıq vəfat etdiyinə görə yazılı ərizənin verilməsi mümkün deyil. Beləliklə, X5ə mübahisəli torpaq sahəsinə pay hüququ haqqında şəhadətnamənin verilməsi qanunvericiliklə nəzərdə tutulmadığı üçün, iddia tələbi təmin edilə bilməz.

16. Məhkəmə mövqeyini Mülki Məcəllənin 139.1, 139.3-cü, "Notariat haqqında" Qanunun 62-ci, eləcə də Mülki Prosessual Məcəllənin 14.2, 77.1, 217.4-cü maddələrinə istinadla əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsində icraat

17. İddiaçı apellyasiya şikayəti vermiş, birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv edilərək iddianın təmin edilməsi barədə yeni qətnamənin çıxarılmasını xahiş etmişdir.

18. Apellyasiya şikayəti onunla əsaslandırılmışdır ki, birinci instansiya məhkəməsi Mülki Məcəlləsinin 225.1-ci və Ailə Məcəlləsinin 32.1-ci maddəsini nəzərə almamış və qanunsuz qərar qəbul etmişdir. Torpaq sahəsinin X2lə X5nın ümumi mülkiyyəti olmasına dair qanuni prezumpsiya ilə müdafiə olunmasına baxmayaraq, birinci instansiya məhkəməsi bunu nəzərə almamışdır. Qanunvericilikdə ər-arvadın ölməsi nəticəsində pay hüququ haqqında şəhadətnamənin verilməsinə dair xüsusi qaydaların müəyyən edilməməsi həmin şəhadətnamənin verilməməsinə əsas ola bilməz. Torpaq sahəsi üzərində ümumi mülkiyyətin mübahisə predmeti olmamasına baxmayaraq, vərəsələrin mülkiyyət hüquqlarının "Notariat haqqında" Qanunun 62-ci maddəsinə istinad edilməklə vəfat etmiş şəxsin razılığından asılı edilməsi qanuni deyil.

19. Apellyasiya şikayətinin digər dəlilinə görə ki, birinci instansiya məhkəməsi ümumiyyətlə cavabdeh Bakı şəhəri 25 saylı notariat ofisinin imtina məktubuna münasibət bildirməmiş, həmin imtina məktubunun imtina əsaslarını tam araşdırmamış, bununla da Mülki Prosessual Məcəllənin 14.1 və 88-ci maddələrinin tələblərini pozmuşdur. Belə ki, imtina məktubunda imtina əsaslarından biri kimi AR Mülki Məcəlləsinin 1252-ci maddəsi göstərilmişdir. Halbuki hazırkı iş üzrə irsi transmissiya əsasları ilə əlaqədar hər hansı mübahisə yaranmamışdır və ümumiyyətlə irsi transmissiya halı mövcud deyildir.

20. Mübahisə predmeti barəsində müstəqil tələb irəli sürməyən üçüncü şəxs X1 apellyasiya şikayətinə qarşı etiraz təqdim edərək bildirmişdir ki, X5 mərhum X2in vərəsəsi deyildir. İddiaçı mərhum X5in birinci nikahından olan qızıdır, yəni X2 onun atası deyil. İddia olunan bağ nikah bağlandığından əvvəl əldə edildiyindən və özəlləşdirmə əsasında mülkiyyət hüququ qeydiyyatdan keçdiyindən, X2ə məxsus əmlakdır və onunla 07.11.2010-cu il tarixdə nikaha daxil olduğu X5in ümumi birgə mülkiyyəti sayılmır. X5nın xx.xx.2022-ci il tarixdə vəfatından sonra X2 xx.xx.2022-ci il tarixdə vəfat etdiyinə görə yuxarıda göstərilən yazılı

ərizənin verilməsi mümkün deyil. Beləliklə, X5ə yuxarıda göstərilən torpaq sahəsinə pay hüququ haqqında şəhadətnamənin verilməsi qanunvericiliklə nəzərdə tutulmamışdır.

21. İddiaçının nümayəndəsi - vəkili məhkəmə iclasında verdiyi izahatında əlavə olaraq qeyd etmişdir ki, birgə nikah dövründə bağ evində yaxşılaşdırma işləri aparılmış, torpaq sahəsi üzərində fərdi yaşayış evi inşa edilmişdir. Bu səbəbdən, iddiaçının həmin torpaq sahəsindən və üzərində olan fərdi yaşayış evindən pay almaq hüququ yaranmışdır.

22. Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 05.09.2024-cü il tarixli 2(103)-3807/2024 nömrəli qətnaməsi ilə apellyasiya şikayəti təmin edilməmiş, birinci instansiya məhkəməsinin qətnaməsi iddiaçının şikayətinə münasibətdə dəyişdirilmədən saxlanılmışdır (hakimlər: Fuad Abdıyev – sədrlik edən və məruzəçi, Fərrux Qasımov, Xəyal Sarıyev)

23. Birinci instansiya məhkəməsinin mövqeyi ilə razılaşan məhkəmə kollegiyası bildirmişdir ki, X2in bağ evinə dair mülkiyyət hüququ əvəzsiz yaranmışdır. Belə ki, bağ evi iddiaçının anasının nikahının qeydə alındığı tarixdən 9 il əvvəl X2in icarəsinə verilmişdir. Bu səbəbdən həmin daşınmaz əmlakın ər-arvadın ümumi paylı mülkiyyəti hesab edilməsindən söhbət gedə bilməz.

24. Məhkəmə kollegiyası iddiaçı tərəfin birgə nikah dövründə bağ evində yaxşılaşdırılma işlərinin aparılması, o cümlədən tikilinin inşa olunması barədə arqumentlərinə münasibətdə qeyd etmişdir ki, həmin torpaq sahəsinin üzərində 15,7 kv.m. ölçüdə bağ evi olmuş, o da xx.xx.2022-ci il tarixdə torpaq sahəsinin 0,036 ha hissəsi ilə birlikdə satılmışdır. Bu tikilidən başqa həmin sahədə, o cümlədən hazırda mübahisələndirilən 0,044 ha torpaq sahəsi üzərində hər hansı tikintinin olduğunu təsiq edən sübut (adi fotoşəkil) nə birinci, nə də ki, apellyasiya instansiya icraatında təqdim edilməmişdir.

25. Apellyasiya instansiyası məhkəməsi mövqeyini Mülki Məcəllənin 157.1, 225.1, 1133.1, 1134.1, 1145-ci, Ailə Məcəlləsinin 32.1, 32.2, 34.1, 35, 36.3-cü, "Torpaq islahatı haqqında" Qanunun 9 və 10-cu maddələrinə istinad edərək əsaslandırmışdır.

Kassasiya şikayətinin və ona qarşı etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

26. İddiaçı kassasiya şikayəti verərək, apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv edilməsini xahiş etmişdir.

27. Kassasiya şikayətinin dəlilləri apellyasiya şikayətinin dəlilləri ilə eynilik təşkil etmiş, əlavə olaraq göstərilmişdir ki, iddiaçının anası torpaq sahəsində ev tikib təmir etdirmiş, hətta o özü də təmirə pul qoymuş, torpaq sahəsi əhəmiyyətli dərəcədə yaxşılaşdırılmışdır, bununla da Ailə Məcəlləsinin 35-ci maddəsinə əsasən anasının birgə mülkiyyətçiliyi yaranmışdır.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

28. Müstəqil tələb irəli sürməyən üçüncü şəxs kassasiya şikayətinə qarşı yazılı etiraz vermiş, şikayətin təmin olunmaması, apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin dəyişdirilmədən saxlanılması barədə qərar qəbul edilməsini xahiş etmişdir.

29. Apellyasiya şikayətinə dair verilmiş etirazla eyni məzmunda əsaslandırılmış etirazda qeyd edilmişdir ki, iddiaçının X2lə hər hansı qohumluq əlaqəsi olmadığı üçün, onun vəfatından sonra qalmış miras kütləsinə münasibətdə tələb irəli sürməyə subyektiv hüququ olmamışdır.

30. Üçüncü şəxs etirazında onu da qeyd etmişdir ki, mübahisəli əmlak nikahdan qabaq əldə edildiyindən və mülkiyyət hüququ əvəzsiz qaydada qeydiyyata alındığından, X2ə məxsus əmlakdır və sonuncunun X5 ilə ümumi birgə mülkiyyəti sayıla bilməz.

Tətbiq edilən hüquq

Azərbaycan Respublikasının Mülki Məcəlləsi

31. Maddə 225.1. Ərlə arvadın nikah dövründə qazandıqları əmlak, əgər nikah kontraktında və ya onlar arasındakı razılaşmada ayrı qayda nəzərdə tutulmayıbsa, onların ümumi mülkiyyətidir.

32. Maddə 1159.1. Qanun üzrə vərəsəlik zamanı aşağıdakılar bərabər pay hüquqlu vərəsələr sayılırlar:

1159.1.1. Birinci növbədə - ölənin uşaqları, miras qoyanın ölümündən sonra doğulmuş uşaq, arvad (ər), valideynlər (övladlığa götürənlər).

1159.1.2. Övladlığa götürülən və onun övladları övladlığa götürənin vərəsələri və ya qohumları kimi övladlığa götürənin uşaqlarına və onların övladlarına bərabər tutulurlar.

1159.1.3. Bu sonuncuların nəvələri, nəticələri və uşaqları o halda qanun üzrə vərəsə sayılırlar ki, mirasın açıldığı vaxt miras qoyanın vərəsələri olacaq valideynləri sağ olmasın. Onlar qanun üzrə vərəsəlik zamanı onların ölmüş valideyninə çatası paydan bərabər miras alırlar.

1159.1.5. Övladlığa götürən və onun qohumları övladlığa götürülənin və onun övladlarının vərəsələri kimi övladlığa götürülənin valideynlərinə və digər qan qohumlarına bərabər tutulurlar. Övladlığa götürülən və ya onun övladları öldükdən sonra övladlığa götürülənin valideynlərinə, onun yüksələn xətt üzrə digər qan qohumlarına, bacı və qardaşlarına qanun üzrə vərəsəlik hüququ daha mənsub olmur.

Azərbaycan Respublikasının Ailə Məcəlləsi

33. Maddə 32.1. Nikah müddətində ər-arvadın əldə etdikləri əmlak onların ümumi birgə mülkiyyəti sayılır.

34. Maddə 32.2. Ər-arvadın ümumi birgə mülkiyyətinə:

32.2.1. onların hər birinin əmək, sahibkarlıq və intellektual fəaliyyəti nəticəsində əldə etdikləri gəlirlər, aldıqları pensiya və müavinətlər, eləcə də xüsusi təyinatı olmayan digər pul ödəmələri (xəsarət, sağlamlığın bu və ya digər formada pozulması nəticəsində əmək qabiliyyətinin itirilməsinə görə ödənilən məbləğ, maddi yardımın məbləği və s.);

32.2.2. ər-arvadın ümumi gəlirləri hesabına əldə edilən daşınar və daşınmaz əşyalar, qiymətli kağızlar, kredit təşkilatlarına və s. kommersiya təşkilatlarına qoyulmuş paylar, əmanətlər, kapitaldan olan paylar və əmlakın ər-arvaddan kimin adına əldə olunmasından, yaxud əmanətin kimin adına və ya kim tərəfindən qoyulmasından asılı olmayaraq nikah dövründə ər-arvadın qazandığı hər hansı sair əmlak daxildir.

35. Maddə 35. Nikahda olduqları dövrdə ər-arvadın ümumi əmlakı və ya hər birinin əmlakı, yaxud da ər-arvadın hansınınsa əməyi hesabına ər-arvadın hər birinin əmlakının dəyərini xeyli artıran vəsaitin qoyulması (əsaslı təmir, yenidən quraşdırma, avadanlığı dəyişdirmə və s.) müəyyən edilərsə, həmin əmlak onların birgə mülkiyyəti sayıla bilər.

“Torpaq islahatı haqqında” Azərbaycan Respublikasının Qanunu

36. Maddə 9. Vətəndaşların qanuni istifadəsindəki fərdi yaşayış evlərinin, həyətyanı sahələrin, fərdi, kollektiv və kooperativ bağların, dövlət bağçılıq təsərrüfatının idarəçiliyindəki bağların altında olan torpaqlar qanunvericiliklə müəyyən olunmuş qaydada əvəzsiz olaraq onların mülkiyyətinə verilir.

37. Maddə 10. Həyətyanı sahələr və bağlar altında olan torpaqlar vətəndaşların mülkiyyətinə onların qanuni istifadəyə və ya icarəyə götürdükləri ölçüdə verilir.Kollektiv bağlar özəlləşdirilərkən torpaq sahəsi bağçılığın hər üzvünün mülkiyyətinə verilir. Dövlət bağçılıq təsərrüfatının idarəçiliyindəki bağların torpaqları hər bir icarəçinin, kooperativ bağların torpaqları hər bir kooperativ üzvünün mülkiyyətinə verilir. Bağ sahələrinin torpaqları özəlləşdirilərkən onların üzərindəki tikililər, ağaclar və digər obyektlər əvəzsiz olaraq bağ sahiblərinin xüsusi mülkiyyətinə keçir. Fərdi yaşayış evlərinin, həyətyanı sahələrin və bağların

altında olan torpaqlar üzərində vətəndaşların mülkiyyət hüququ yerquruluşu işlərinin tərtibi ilə torpaq ayırma qaydasında hazırlanan sənədlər əsasında daşınmaz əmlakın dövlət reyestrindən çıxarışla rəsmiləşdirilir.Torpaq üzərində mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması haqqında çıxarış vətəndaşların ərizələri və həmin torpaqlardan istifadənin qanuniliyini təsdiq edən sənədlər əsasında daşınmaz əmlakın dövlət reyestrini aparan dövlət orqanı tərəfindən verilir.

Azərbaycan Respublikasi Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci, 5-ci və 12-ci maddələrinin şərh edilməsinə dair" 21 dekabr 2012-ci il tarixli Qərarı:

"…Ailə Məcəlləsinin 32-ci maddəsinin tələblərinə əsasən əmlakın ər-arvadın birgə mülkiyyəti sayılması üçün iki şərtin eyni zamanda mövcud olması vacibdir: əmlakın ərarvadın nikah müddətində əldə olunması; əmlakın ər-arvadın ümumi gəlirləri hesabına əldə olunması. İkinci şərt müvafiq əmlakın ər-arvadın birgə mülkiyyəti kimi tanınması üçün onun əvəzli, yəni nikah müddətində ər-arvadın əvəzli əqdlər əsasında əldə etmələrini tələb

edir."

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi

38. Maddə 14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

39. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

40. Maddə 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

41. Maddə 217.2. Qətnamə mübahisəli hüquq münasibətinin yarandığı zaman qüvvədə olan maddi hüquq normalarına və işin baxılması zamanı qüvvədə olan prosessual hüquq normalarına uyğun çıxarılmalıdır.

42. Maddə 407.2. Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir.

43. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

Kassasiya baxışının hədləri

44. Qanunun tələbinə görə, kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

45. Apellyasiya instansiyası məhkəməsinin qətnaməsi kassasiya şikayəti əsasında tam yoxlanılır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

46. Məhkəmə kollegiyası qeyd edir ki, iddiaçının kassasiya şikayətinin əsas dəlillərini 0.044 ha torpaq sahəsi üzərində ümumi mülkiyyətin mübahisəsiz olması, miras əmlakın anası ilə mirasqoyanın birgə nikah dövründə alınması, anasının miras əmlakı əhəmiyyətli dərəcədə

yaxşılaşdırması səbəbindən birgə mülkiyyətçi sayılması; məhkəmələrin vərəsələrin mülkiyyət hüquqlarını vəfat etmiş şəxsin razılığından asılı etməsi ilə bağlı mövqeyinin ədalətsiz olması; Mülki Məcəllənin 1133.1, 1134.1, 1151.1 və 1159.1-ci maddəsinin tələblərinin pozulması təşkil etmişdir.

47. Məhkəmə kollegiyası ilk öncə onu qeyd edir ki, ər-arvaddan biri öldükdə onların ümumi əmlakındakı paya mülkiyyət hüququ haqqında şəhadətnaməni sağ qalmış ərin (arvadın) ərizəsinə əsasən yalnız mirasın açıldığı yerin notariusunun verməli olduğu, şəhadətnamədə mirası qəbul etmiş vərəsələrin yazılı ərizəsinə əsasən sağ qalmış ərin (arvadın) razılığı ilə, ölmüş ərin (arvadın) ümumi əmlakdan payının müəyyən edilə bilməsi "Notariat haqqında" Qanunun 62-ci maddəsinin tələbi olmaqla, notariusların fəaliyyətini tənzimləyən məcburi qaydalardır. Belə bir şəhadətnamənin verilməməsi, ər-arvadın hər ikisi öldüyü halda, faktın məhkəmə qaydasında təsdiq edilə bilməsini istisna etmir. İddiaçının vərəsəlik qaydasında irəli sürdüyü hazırkı tələbdə istinad etdiyi faktı da məhz anası ilə mirasqoyanın birgə mülkiyyəti təşkil etdiyindən, hazırkı icraat çərçivəsində ilkin mərhələ kimi mirasda iddiaçının anasının payının olub-olmamasını yoxlamaq məhkəmələrin xidməti vəzifəsi olmuş, məhkəmələr bu baxımdan pozuntuya yol verməyərək əmlakın statusu ilə bağı araşdırma aparmış, məhkəmələr tərəfindən iddianın təmin edilməməsi əsasını da vəfat etmiş şəxsin razılığının olmaması deyil, məhz iddiaçının irəli sürdüyü faktı – birgə mülkiyyətin mövcudluğunu sübut edə bilməməsi təşkil etmişdir.

48. Hazırkı vəziyyətdə məhkəmələr tərəfindən müəyyən olunmuş işin faktiki hallarına görə, miras əmlakın birgə mülkiyyətdə olması təməl şərtə (birgə nikah dövründə alınması) cavab verməmişdir, habelə, iddiaçının anasının miras əmlakı əhəmiyyətli dərəcədə yaxşılaşdırması səbəbindən birgə mülkiyyətçi sayılması ilə bağlı dəlili üzrə sübutetmə yükünün öz üzərində olmasına baxmayaraq, bu dəlilləri təsdiq edən mötəbər sübutları məhkəməyə təqdim etməmişdir. Halbuki, MPM-in 77.1-ci maddəsinə görə hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir. Əksinə, işin məhkəmələr tərəfindən müəyyən edilmiş faktiki hallarından məlum olmuşdur ki, bağ sahəsi 2001-ci ildə mirasqoyanın icarəsinə verilərkən orada cəmi 1 otaqlı tikili mövcud olmuş, X2 bağ sahəsinə dair mülkiyyət hüququnu ilk dəfə 2016cı ildə rəsmiləşdirmiş, bağ sahəsini müxtəlif vaxtlarda hissə-hissə satmış, sonuncu dəfə xx.xx.2022-ci il tarixdə, 0,044 ha torpaq sahəsinə (hazırkı mübahisələndirilən miras əmlaka) dair mülkiyyət hüququ əsasında qeydiyyat aparılmışdır. Lakin qeydiyyata alınmış bütün sənədlərdə (plan-cizgi, çıxarış və s.) torpaq sahəsinin üzərində digər tikilinin olması müəyyən edilməmişdir.

49. Konstitusiya Məhkəməsinin qərarlarında sərgilədiyi mövqeyə görə də, hüquqi həqiqət prinsipinin realizəsi mexanizmi bu cürdür: iş üzrə sübutetmə predmetinə daxil olan halların təqdim edilməsi yükü tərəflərin üzərinə düşür; məhz tərəflər bu halların mövcud olub-olmamasını sübut etməyə borcludurlar; prosesdə həqiqəti isə ədalət mühakiməsi orqanı olaraq məhkəmə müəyyən edir. Nəticədə hüquqi həqiqət prinsipi mülki prosesdə tərəflər və məhkəmə arasında müəyyən iş bölgüsünə gətirib çıxarır: tərəflər işin faktiki hallarını təqdim edir, məhkəmə isə sübutları qiymətləndirir və sonda hüququ tətbiq edir. Belə iş bölgüsü Roma hüququnun "da mihi factum, dabo tibi ius" ("mənə faktları ver, mən sənə uyğun hüququ verəcəm") prinsipinə əsaslanır. (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Konstitusiyasının 125-ci maddəsinin VII hissəsinin Azərbaycan Respublikasının mülki prosessual qanunvericiliyi baxımından şərh edilməsinə dair" 18 mart 2019-cu il tarixli Qərarı)

50. Kassasiya şikayətinin mülki qanunvericiliyin vərəsəliklə bağlı normalarının pozulmasına dair dəlillərinə münasibətdə isə qeyd edilməlidir ki, hazırkı vəziyyətdə miras

əmlakın iddiaçının anası ilə mirasqoyanın birgə mülkiyyəti statusunda olacağı təqdirdə, artıq notariusun ümumi əmlakdakı paya mülkiyyət hüququ haqqında şəhadətnamənin verilməsinə zərurət olmadan, iddiaçının anasından qalan miras paya dair vərəsəlik hüququ barədə qiymətləndirmə aparıla bilərdi.

51. X2dən qalan miras kütləsinə dair onunla qohumluq münasibətində olmayan iddiaçının (ögey) qanun üzrə vərəsəlik əsasında hər hansı hüququnun mövcudluğu ilə bağlı ilk növbədə qeyd edilməlidir ki, qanunverici qanun üzrə vərəsəliyi mirasın açıldığı zaman vərəsənin sağ olması ilə şərtləndirmişdir. Bununla yanaşı, Mülki Məcəllənin 1159.1.3-cü maddəsinin məzmununa görə, birinci dərəcə vərəsə mirasqoyandan əvvəl ölərsə, ona çatası paya münasibətdə nəvələri, nəticələri və uşaqları qanun üzrə vərəsə sayılırlar. Hazırkı iş üzrə müəyyən edilir ki, iddiaçının anası mirasqoyan - X2in arvadı olmaqla, birinci dərəcə vərəsəsi olmuş və ondan əvvəl vəfat etmişdir. Belə olan halda, iddiaçının birinci dərəcə vərəsə olan anasına çatmalı miras paya münasibətdə qanun üzrə vərəsəlik hüququnun olub-olmamasına aydınlıq gətirilməlidir.

52. Konstitusiya Məhkəməsi Plenumunun qanun üzrə vərəsəliklə bağlı formalaşdırdığı hüquqi mövqeyə əsasən, ailə üzvlərinin mənafeyinin üstünlüyü vərəsəlik hüququnun əsasında duran ailə təminatı prinsipindən irəli gəlir. Bu prinsip vətəndaş cəmiyyətinin özəyini təşkil edən ailənin təminatı məqsədilə yaxın qohumluqla (uşaq, ər, arvad, valideynlər) miras qoyana bağlı olan şəxslərin mənafeyinin digər şəxslərin mənafeyindən üstün olmasını nəzərdə tutur. Ailə-təminat prinsipinin məntiqinə əsasən mülkiyyətçiyə yaşadığı dövrdə məxsus olan əmlak (əmlakın müəyyən hissəsi) üzərində sərəncam vermək hüququ onun vəfatından sonra yaxın ailə üzvlərinə məxsus olmalıdır. Bu prinsip qanun üzrə vərəsəlik zamanı növbəlik, irsi transmissiya qaydalarında özünü göstərir və mirasın daha yaxın şəxslər dairəsinə çatmasına xidmət edir (Azərbaycan Respublikasi Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1193cü maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsinin I və II hissələrinə, 29-cu maddəsinin I, II və III hissələrinə uyğunluğunun yoxlanılmasına dair" 2011-ci il 20 oktyabr tarixli Qərarı).

53. Qanun üzrə vərəsələr vərəsəliyə müəyyən olunmuş növbə qaydasında ardıcıllıqla çağırılırlar. Bu zaman vərəsənin miras qoyanla yaxın qohumluq faktı əsas meyar kimi nəzərdə tutulmuş və vərəsələrin ayrı-ayrı qruplarının miras qoyana yaxınlıq dərəcəsi ilə uyğunlaşdırılmışdır. Belə ki, bu dairə müəyyən edilərkən, ilk növbədə, ailə üzvlüyü, sonra yaxın qohumluq, daha sonra isə qohumluq amilləri ardıcıllıqla nəzərə alınmışdır. Beləliklə, qanunda miras qoyana yaxınlığı baxımından qohumlar arasında beş növbə üzrə vərəsəliyin təsbiti yalnız əvvəlki növbənin vərəsələrinin olmaması halında sonrakı növbənin vərəsələrinin mirası qəbul etmək imkanını, başqa sözlə qohumlar arasında mirasa yiyələnməkdə miras qoyana yaxınlığı baxımından ardıcıllığı tənzimləyir. Mülki qanunvericiliyin vərəsəliklə bağlı normaları nəzərdən keçirildikdə, qanun üzrə vərəsəlik halında vərəsəyə münasibətdə deyil, məhz miras qoyana münasibətdə dairəsi konkret müəyyən edilmiş şəxslərin (qohumların) qanun üzrə vərəsə olmasının mümkünlüyünün təsbit edildiyi müşahidə olunur. Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlmişdir ki, MPM-in 1159-cu maddəsinin mənasına görə, yalnız qanunla müəyyən edilmiş vərəsəliyin növbəliyinə daxil olan və miras qoyana münasibətdə müvafiq qohumluq dərəcəsi üzrə şəxslər vərəsə qismində çıxış edə bilər (Azərbaycan Respublikasi Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1159-cu maddəsinin bəzi müddəalarının həmin Məcəllənin 1165-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair" 28 iyul 2022-ci il tarixli Qərarı).

54. Məhkəmə kollegiyası qeyd edir ki, hazırda mülki qanunvericilik mirasın açıldığı vaxt baxımından vərəsənin ölümünə münasibətdə iki qayda nəzərdə tutmuşdur: vərəsə miras açıldıqdan sonra, lakin miras qəbul edilənədək ölərsə (irsi transmissiya – MM, 1252ci maddə); qanun üzrə vərəsə miras açılmamışdan əvvəl ölərsə (vərəsənin əvəzlənməsi 1159-cu maddə). Hər iki institut "vərəsəlik hüququnun özünün" miras kimi vərəsəlik qaydasında keçməsini tənzimləklə irsi xarakter daşısa da, müəyyən əlamətlərinə görə fərqlənir. Belə ki, irsi transmissiya həm vəsiyyət, həm də qanun üzrə vərəsəlik zamanı tətbiq edilə bildiyi halda, vərəsənin əvəzlənməsi yalnız qanun üzrə vərəsəlik zamanı mümkün ola bilər; irsi transmissiyada vərəsənin ölməsi halında ona çatacaq pay bütün vərəsələri arasında bölüşdürüldüyü halda, vərəsənin əvəzlənməsi yalnız düzünə xətt üzrə qan bağı əsasında müəyyən edilə bilər.

55. O da qeyd edilməlidir ki, MM-nin 1252-ci maddəsi "irsi transmissiya" anlayışı altında vərəsənin miras açıldıqdan sonra, lakin miras qəbul edilənədək öldüyü halda, mirasdan pay almaq hüququnun onun vərəsələrinə keçməsini nəzərdə tutur. Konstitusiya Məhkəməsinin həmin norma ilə bağlı mövqeyinə görə, vərəsəlik hüququnda irsi transmissiya dedikdə, miras açıldıqdan sonra öldüyünə görə mirası qəbul edə bilməyən vərəsənin (transmittent) mirası qəbul etmək hüququnun onun öz vərəsələrinə (transmissar) keçməsi başa düşülür. Yəni, qanun və ya vəsiyyət üzrə vərəsə miras açıldıqdan sonra miras əmlakın qəbulu üçün qanunvericilikdə nəzərdə tutulmuş müddətdə mirası qəbul etmədən və vərəsəlik hüququnu həyata keçirə bilmədən ölərsə, mirası qəbul etmək hüququ ləğv edilmir və bu hüquq ölmüş vərəsənin vərəsələrinə keçir. Bu halda əksi sübuta yetirilməyincə mirası qəbul etmədən ölmüş vərəsənin miras qoyanın əmlakını, mirası qəbul etmək niyyətinin mövcudluğu prezumpsiyası tətbiq edilir (Konstitusiya Məhkəməsinin "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1134, 1146 və 1252-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair" 24 fevral 2020-ci il tarixli qərarı).

56. Məhkəmə kollegiyası sözügedən norma və mövqe ilə bağlı qeyd etməyi zəruri hesab edir ki, sözügedən norma həm qanun, həm də vəsiyyət üzrə vərəsəlik münasibətlərini əhatə edir. Lakin irsi transmissiyanın tətbiqinə dair qeyd edilməlidir ki, MMin 1252-ci maddəsi açılmış mirasın qəbul müddətinə tabe olması institutunun qüvvədə olduğu müddətdə yaranan vərəsəlik münasibətlərində vərəsənin öz iradəsindən kənar şəkildə (ölməsi halında) mirası qəbul edə bilməməsi ilə bağlı qaydanı tənzimləsə də, əslində vərəsəliyin ümumi qaydalarını müəyyən edir. Belə ki, həmin normaya görə ölümü səbəbindən mirası qəbul edə bilməyən şəxsin mirası qəbul etməsi ehtimal edilmiş və məhz bu səbəbdən də mirasdan pay almaq hüququnun onun vərəsələrinə keçməsi müəyyən edilmişdir. Hazırda da qüvvədə olan mülki qanunvericilik mirasın qəbul müddətinə tabe olması institutunu dəstəkləmədiyindən və miras açıldığı andan avtomatik vərəsənin mülkiyyəti sayıldığından, qanun üzrə vərəsənin onu öz iradəsinə zidd, o cümlədən miras açılandan sonra ölməsi səbəbindən qəbul edə bilməməsi mümkün deyildir, bu zaman vərəsə əmlaka yiyələndikdən sonra ölmüş sayılır və onun mirası öz vərəsələri arasında ümumi qaydalar çərçivəsində bölünür.

57. Vərəsənin əvəz edilməsi qaydası isə MM-nin 1159-cu maddəsində nəzərdə tutulmuşdur: bu qayda yalnız bir halda – qanun üzrə vərəsənin ölümünün mirasqoyandan əvvəl gerçəkləşdiyi zaman tətbiq edilə bilər. Vərəsənin əvəzlənməsi irsi xarakter daşıyır, təsadüfi deyil ki, sözügedən norma bu qaydanı müəyyən edərkən birinci növbə vərəsələrdə yalnız nəvə, nəticə və uşaqlara, ikinci növbə vərəsələrin uşaqlarına (və onların uşaqlarına), üçüncü növbə vərəsələrin ana və atalarına münasibətdə müəyyən etmişdir.

58. Beləliklə, qanunvericiliyin təhlilindən və Konstitusiya Məhkəməsinin yuxarıdakı mövqelərindən belə bir nəticə hasil olur ki, həm irsi transmissiya, həm də vərəsələrin

əvəzlənməsi zamanı qohumluq faktoru önəmlidir, MM-in 1159-cu maddəsindəki yanaşmadan da aşkar şəkildə bəlli olur ki, vərəsənin əvəzlənməsi mirasqoyanın düzünə xətt üzrə olan qan bağına əsaslanmışdır. Beləliklə, birinci dərəcəli vərəsələr mirasqoyanla ən yaxın qohumluq münasibətində olan şəxslər olduğundan, onların hər hansı birinin mirasqoyandan əvvəl ölməsi halında, həmin vərəsənin yerinə keçəcək şəxsin tək ölmüş vərəsənin övladı (nəvəsi, nəticəsi) olması yetərli olmayaraq, həm də mirasqoyanla düzünə xətt üzrə qan bağının olması əsas şərt hesab olunur. Bu qaydada yalnız 1159.1-ci maddədə nəzərdə tutulmuş hallarda övladlığa götürülən və övladlığa götürən şəxslərə münasibətdə istisnalıq təşkil edə bilər.

59. Bundan başqa, düzünə xətt üzrə qohumluq bağı olan nəvə, nəticə və uşaqların mirasqoyandan əvvəl ölmüş vərəsə - valideynin yerinə keçməsi qaydası birinci dərəcə vərəsələrə münasibətdə bütün hallara şamil edilə bilməz, çünki, qanunverici MM-nin 1159.1.3-cü maddəsində “sonuncular”, habelə, “mirasın açıldığı vaxt miras qoyanın vərəsələri olacaq valideynləri” ifadəsi işlədərkən “sonuncular” və “valideyn” qismində yalnız miras qoyanla aşağı xətt üzrə qan bağı olan qohumlarını (övladlarını, nəvələrini, nəticələrini, o cümlədən, övladlığa götürülən şəxsləri) nəzərdə tutmuşdur. Digər birinci dərəcəli vərəsələrin (arvad, ata, ana) mirasqoyandan əvvəl öldüyü hallar bu qaydada istisnalıq təşkil etmişdir. Belə ki, mirasqoyanın arvadının başqa nikahdan olan övladının mirasqoyanla qohumluğu olmadığı halda, həmin övlad 1159.1-ci maddədə nəzərdə tutulan “valideynin” yerinə keçə bilməz. O cümlədən, mirasqoyanın yüksələn xətt üzrə qohumlarına - valideynlərinə münasibətdə də bu qayda tətbiq edilə bilməz, bu zaman qanun üzrə vərəsəliyin qohumluq dərəcələri ilə müəyyən edilmiş ardıcıllığı pozula bilər, çünki qanun, miras qoyanın bacı-qardaşlarını ikinci dərəcə vərəsəlik qrupunda müəyyənləşdirmişdir. Göstərilənlərin əksi qanun üzrə vərəsəlik hüququnun təməl prinsiplərinə zidd olmaqla, qanun üzrə vərəsələrin dairəsinin qeyri-məhdud olması ilə nəticələnə, vərəsələrin və vərəsəlik paylarının müəyyən edilməsi, miras qoyanın öhdəliklərinə görə məsuliyyət, sonrakı növbəyə aid olan qohumların ardıcıllığının müəyyən edilməsi və s. hallar baxımından ciddi qarışıqlıq yaratmaqla qeyri-müəyyənliyə səbəb ola bilər.

60. Beləliklə, Mülki Məcəllənin 1159.1.3-cü maddəsinin məzmununa görə, mirasın açıldığı vaxt miras qoyanla aşağı xətt üzrə qan bağı olan qohumları sağ olmadığı halda, onların uşaqları, nəvələri və nəticələri qanun üzrə vərəsə sayılırlar və öz valideynlərinin yerinə keçirlər.

61. Göstərilənlərə əsasən məhkəmə kollegiyası hesab edir ki, iddiaçının mirasqoyan X2lə qohumluğu müəyyən edilmədiyindən ondan qalmış mirasa dair anası baxımından birinci dərəcə vərəsə hesab oluna bilməz.

62. Bundan başqa, qeyd edilməlidir ki, məhkəmələr prosessual pozuntuya yol vermiş, mirasqoyanın xx.xx.1987-ci il təvəllüdlü X4 adlı övladını müəyyən etsələr də, onun prosesə cəlb edilməsi barədə heç bir addım atmamış, əvəzində birinci dərəcəli vərəsələrin olmaması qənaətini əsaslandırmadan mirasqoyanın qardaşı oğlu olan X1i ikinci dərəcəli vərəsə qismində işə cəlb etmişdir (halbuki, sözügedən şəxsin atasının valideynləri ilə mirasqoyanın valideynlərinə dair məlumatlar üst-üstə düşmür). Məhkəmə kollegiyası onu da nəzərə alır ki, sözügedən prosessual pozuntu düzgün olmayan qətnamənin qəbul edilməsi ilə nəticələnmədiyindən, mübahisələndirilən qətnamənin ləğvi əsası hesab edilə bilməz. Belə ki, MPM-in 387.1-ci maddəsinə görə, prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq edilməməsi qətnamənin və ya qərardadın ləğv edilməsinə yalnız o halda əsas olur ki, bu, düzgün olmayan qətnamənin və ya qərardadın qəbul edilməsinə səbəb olsun.

63. Odur ki, məhkəmə kollegiyası apellyasiya instansiyası məhkəməsinin gəldiyi nəticə ilə razılaşaraq hesab edir ki, mübahisələndirilən qətnamə qəbul edilərkən işin faktiki halları tam, hərtərəfli və obyektiv araşdırılmış və tərəflər arasındakı mübahisənin həlli üçün tətbiq

edilməli olan maddi və prosessual hüquq normaları düzgün tətbiq edilmiş, iş üzrə qanuni və əsaslı qətnamə qəbul olunmuşdur. Kassasiya şikayətinin dəlilləri əsassızdır, həmin dəlillər apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğvi üçün qanuni əsas deyildir.

64. Göstərilənlərə əsasən və Azərbaycan Respublikası MPM-in 416-417, 419, 421-ci maddələrini rəhbər tutaraq, məhkəmə kollegiyası

Qərara aldı:

Kassasiya şikayəti təmin edilməsin.

Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 2(103)-3807/2024 nömrəli, 5 sentyabr 2024-cü il tarixli qətnaməsi dəyişdirilmədən saxlanılsın.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

49. 2(102)-2739/2025 nömrəli, 2023-cü il 31 oktyabr tarixli qərar - Nikah münasibətlərinin faktiki xitamı zamanı vərəsəlik hüququndan məhrum edilmənin əsasları (Mülki Məcəllənin 1164-cü maddəsi)

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: Miras qoyanın qardaşı onun cavabdehlə nikahının formal olmasını, faktiki ər-arvad münasibətlərinin olmadığını bildirərək, cavabdehin vərəsəlik hüququndan məhrum edilməsi və miras əmlaka dair ona verilmiş vərəsəlik şəhadətnaməsinin etibarsız hesab olunması barədə iddia qaldırmışdır.

İşə mahiyyəti baxmış məhkəmələr iddia tələbini rədd edərkən ona əsaslanmışlar ki, nikah institutu ciddi hüquqi nəticə yaratmaqla, həmin nəticələrin tətbiq edilməsi və nəticələrə hörmət edilməsi subyektlərin və məhkəmənin vəzifəsidir. Hüquqi müəyyənlik prinsipinin tələbləri nöqteyi-nəzərdən ər-arvad rəsmi nikaha daxil olduqdan nikah pozulana qədər qarşılıqlı hüquq və vəzifələri yaranmaqla bir-birinin 1-ci dərəcə vərəsəsi qismində çıxış etməlidirlər. Sözügedən imperativ şərti əsassız dəyişkənliyə məruz qoymaq hüquq normasının təsir gücünün zəifləməsinə səbəb ola bilər. Nikahın pozulmasını arzu edən tərəf bununla bağlı məhkəməyə müraciət etməkdə sərbəstdir. Miras qoyanın iradəsi məlum olmadan onun ərinin hüquqi-faktiki baxımdan ər kimi dəyərləndirilməməsi və mirasdan məhrum edilməsi ədalətsiz nəticələrə səbəb ola bilər.

Mülki Məcəllənin 1164-cü maddəsində nəzərdə tutulmuş dispozitiv şərtlər hazırkı mübahisə üzrə sübuta yetirilmir. Bundan əlavə, həmin norma imperativ deyil, dispozitiv normadır. Müəyyən edilən hallar isə cavabdehin ər kimi vərəsəlik hüququndan məhrum edilməsi üçün yetərli deyildir. Qanunun imperativ tələbi və subyektlərin qanuna uyğun davranışı, həmin davranışların nəticələrinin proqnozlaşdırılması riski subyektlərin öz üzərinə düşür. Qanunun konkret tələbini situasiyaya uyğun dəyişmək qanunçuluq prinsipinin tələblərinə ziddir.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi: Məhkəmə tərkibi bu mövqe ilə razılaşmayaraq hesab etmişdir ki, məhkəmələr hazırkı mübahisəyə Mülki Məcəllənin 1164-cü maddəsini tətbiq etməkdə haqlı olsalar da, normanı düzgün təfsir etməmişlər.

Həmin maddənin məzmununa görə sağ qalmış ərin (arvadın) vərəsəlik hüququ olmayan şəxs hesab edilməsi üçün məhkəmə tərəfindən aşağıdakı halların məcmusu təsdiq edilməlidir: tərəflərin ailə münasibətlərinə faktiki xitam verilməsi; ər-arvadın ayrı yaşamaları; qeyd edilən halların mirasın açılmasından azı üç il əvvəl baş verməsi.

Konstitusiya Məhkəməsinin Plenumunun həmin maddənin şərh edilməsinə dair 2019-cu il 1 may tarixli qərarında formalaşdırdığı mövqeyinə görə məhz göstərilən hallar hüquqi tərkib əmələ gətirərək rəsmi nikahda olmalarına baxmayaraq, ərin (arvadın) vərəsəlik hüququndan məhrum edilməsi üçün əsas ola bilər. Bu baxımdan məhkəmələr tərəfindən ərin (arvadın) nikaha faktiki xitam verilməsi səbəbindən qanun üzrə vərəsəlik hüququndan məhrum edilməsinə dair işlərə baxılarkən Mülki Məcəllənin 1164-cü maddəsində nəzərdə tutulmuş halların mövcud olub-olmamasına formal yanaşılmamalı, işin bütün halları, tərəflərin münasibətlərindəki əhəmiyyətli məqamlar diqqətə alınaraq məsələyə hüquqi qiymət verilməlidir. Belə ki, bu maddəyə formal əsaslanmaqla arvadın (ərin) vərəsəlik hüququndan məhrum edilməsi vərəsəlik və ailə hüquqlarının ümumi prinsiplərinə uyğun olmazdı. Maddənin məzmununda istifadə olunan “nikaha faktiki xitam verildiyi” ifadəsi isə mirasın açılmasından əvvəlki üç il ərzində tərəflərin məhz ailə-nikah münasibətlərində olmaq istəməmələri səbəbi ilə ayrı yaşamalarını, birgə təsərrüfat aparmamalarını nəzərdə tutur. Bu zaman nikah hüquqi

cəhətdən pozulmasa da, nikahın pozulması müvafiq orqanda qeydə alınmasa da nikah real olaraq sonlanmış olur.

Qanunvericilikdə nəzərdə tutulmuş üç il müddət isə tərəflərin nikah münasibətlərinə faktiki xitam verilməsi qərarında israrlı olduqlarını, ailə münasibətlərini bərpa etmək istəklərinin olmamasını dəqiqləşdirmək üçün müəyyən edilmiş müddətdir.

Nikahda olan ərin mirasdan məhrum edilməsinə dair işə baxan məhkəmə miras qoyanla nikahda olan ərin hansı müddətdə birgə yaşamadıqları, bu ayrılığın səbəblərini, onların davam etdirdikləri münasibətlərin ər-arvad münasibətlərindən və ya digər hər hansı bir münasibətdən irəli gəlməsini aydınlaşdırmalı olduğu halda, bununla bağlı hər hansı bir araşdırma aparmamış, cavabdehin etirazında göstərdiklərinə əsaslanmaqla iddia rədd edilərkən nikahda olan ər-arvadın bilərəkdən və şüurlu surətdə girdikləri münasibətin doğurduğu hüquqi nəticələri və bu növ qarşılıqlı münasibətləri digər birgə yaşayış növlərindən fərqləndirilməli olması nəzərə alınmamışdır. Bu halda nəzərə alınmalıdır ki, ər-arvadın qarşılıqlı münasibətlərində vacib məsələ qarşılıqlı öhdəliklərin mövcudluğudur.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-2739/2025

21.10.2025-ci il Bakı şəhəri

Azərbaycan Respublikası adından

Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının

İddiaçının cavabdehlər Cavabdeh 1,
Daşınmaz əmlakın dövlət kadastrı və reyestri publik hüquqi şəxsin 1 saylı Bakı Ərazi İdarəsi və Bakı şəhəri 25 saylı Notariat Ofisinə qarşı iş üzrə

Q Ə R A R I

(Açar sözlər: Vərəsəliklə bağlı mübahisələr; vərəsəliyin mübahisələndirilməsi, vərəsəlik şəhadətnaməsinin və mənzilə dair çıxarışın etibarsızlığı)

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Həsənov Vüqar Təvəkgül oğlu (məruzəçi), Şəfiyev İspəndiyar Əsəd oğlu və Əhmədov Əhməd Abbas oğlundan ibarət tərkibdə,

İddiaçının cavabdehlər Cavabdeh 1, Daşınmaz əmlakın dövlət kadastrı və reyestri publik hüquqi şəxsin 1 saylı Bakı Ərazi İdarəsi və Bakı şəhəri 25 saylı Notariat Ofisinə qarşı "cavabdeh Cavabdeh 1in vərəsəlik hüququndan məhrum edilməsi, Bakı şəhəri 25 saylı Notariat ofisi tərəfindən verilmiş 2V-*** nömrəli vərəsəlik şəhadətnaməsinin və həmin şəhadətnamə əsasında verilmiş ********** nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarışın etibarsız hesab edilməsi" tələbinə dair mülki iş üzrə Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2025-ci il 21 may tarixli 2(103)-1975/2025 nömrəli qətnaməsindən iddiaçı tərəfindən verilmiş kassasiya şikayətinə 21 oktyabr 2025-ci il tarixdə Ali Məhkəmənin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları

1. İddiaçı miras qoyan X1in qardaşıdır.
2. Mübahisə predmeti olan Ünvan 1 ünvanında yerləşən mənzil miras qoyan X1in mülkiyyətində olmuş, mülkiyyət hüququ xx.xx.2009-cu il tarixdə qeydiyyata alınmışdır.
3. Miras qoyan X1 xx.xx.2024-cü il tarixdə vəfat etmişdir.
4. Bakı şəhəri 25 saylı Notariat Ofisi tərəfindən təsdiq edilmiş 16.08.2024-cü il tarixli Qanun üzrə vərəsəlik haqqında şəhadətnaməyə əsasən vərəsə Cavabdeh 1 miras əmlak qismində Ünvan 1 ünvanında yerləşən mənzildən tam hissədə miras payı almış və qeyd olunan mənzil hazırda vərəsə (mərhumun əri) Cavabdeh 1in mülkiyyətindədir.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a) Birinci instansiya məhkəməsində icraat

5. İddiaçı cavabdehlər Cavabdeh 1 və 3 saylı Bakı "ASAN xidmət" mərkəzinin Notariat Ofisinə qarşı "cavabdeh Cavabdeh 1in mərhum X1in adına olan, Ünvan 1 ünvanına yerləşən mənzilə olan vərəsəlik hüququnun ləğv edilməsi və yeganə həqiqi vərəsə kimi qardaşı Iddiaçınun hesab edilməsi, ona vərəsəlik şəhadətnaməsinin verilməsi (digər cavabdeh 3 saylı "ASAN" Xidmət Mərkəzində Notariat Ofisi tərəfindən)" tələbinə dair həmçinin iddia tələbinin dəqiqləşdirilməsi barədə ərizə ilə məhkəməyə müraciət etmişdir.
6. İddiaçı daha sonra məhkəməyə iddia tələbinin dəqiqləşdirilməsi barədə ərizə ilə müraciət etmiş və cavabdehi əsl cavabdehlə (notariat ofisi) əvəz edərək, tələbi dəqiqləşdirmişdir.
7. İddia tələbi onunla əsaslandırılmışdır ki, mərhum X1 cavabdeh Cavabdeh 1 ilə xx.xx.1996-cı ildə formal olaraq nikaha daxil olmuşlar və nikahları qeydiyyat kitabında VII-JT №****** nömrəsi ilə qeydiyyata alınmışdır. Nikahları formal xarakter daşıdığından tərəflər birgə nikah münasibətlərində olmamış, birgə ailə təsərrüfatı aparmamışlar. 1999-cu ildə İddiaçının maddi imkanları vasitəsilə mənzil satın alınmış, lakin həmin mənzilin orderini bacısı X1in adına rəsmiləşdirilmişdir və həmin evi müvəqqəti yaşayış üçün ona və digər iki bacısına vermişdir. Bakı şəhər İcra Hakimiyyətinin xx.xx.2000-ci il qərarı ilə verilmiş order əsasında Ünvan 1 ünvanına yerləşən həmin mənzil xx.xx.2009-cu ildə Daşınmaz Əmlakın Dövlət Reyestrində qeydiyyata alınaraq çıxarış verilmişdir. Mənzil alındıqdan X1in vəfatına qədər həmin mənzildə X1 və iki bacısı birlikdə yaşamışlar. Formal nikahda olduğu Cavabdeh 1 isə o mənzildə yaşamamışdır. Onun yaşayış yeri birinci ailəsinin yaşadığı Ünvan 2 küçəsində yerləşən ev olmuşdur. X1 sağlığında həmin evi qardaşı qızı, yəni iddiaçı İddiaçının qızının adına rəsmiləşdirməyi qərarlaşdırmış, vəsiyyətnamə yazacağını dəfələrlə söyləmiş, lakin qəfil vəfat etdiyinə görə bu, mümkün olmamışdır. X1 xx.xx.2024-cü il tarixində "kardiogen şok" diaqnozu

ilə vəfat etmişdir. Onun ölümü ilə bağlı Bakı şəhəri, 3 saylı "ASAN Xidmət" Mərkəzində AZ-II № **** saylı ölüm haqqında şəhadətnamə verilmişdir. X1in vəfatından sonra yeganə həqiqi vərəsəsi Iddiaçı miras əmlaka vərəsəlik şəhadətnaməsinin verilməsi üçün 3 saylı "ASAN Xidmət" Mərkəzinə müraciət etmişdir. Lakin, Mərkəzdən bildirilmişdir ki, birinci növbə vərəsə kimi mərhumun əri Cavabdeh 1 olduğundan, ikinci növbə vərəsəlik dairəsinə daxil olan qardaşı vərəsə kimi qeydə alına bilməz. Beləliklə, onun müraciətinə imtina verilmişdir. Cavabdeh Cavabdeh 1 nikaha daxil olduğu gündən X1in vəfatına qədər heç vaxt onunla birlikdə yaşamamışdır. Ölüm günündə belə onun yanında olmamış, yalnız dəfndən bir neçə gün sonra yas mərasiminə gəlmişdir. İşin hallarından və çoxsaylı şahid ifadələrindən görünür ki, həqiqətən də onların nikahı formal xarakter daşımış, aralarında heç bir birgə ailə təsərrüfatı olmamışdır. Qeyd olunan mənzil faktiki olaraq iddiaçı tərəfindən alınmış, bacılarının yaşaması üçün müvəqqəti onlara verilmişdir. Cavabdeh 1 və X1 aralarında olan formal nikahı pozmaq üçün 2009-cu ildə məhkəməyə müraciət etmişlər, daha sonra laqeydlikdən iş davam etdirilməmiş, nikahın rəsmi pozulması baş tutmamışdır. X1in övladı yoxdur. İşin hallarını və mülki qanunvericiliyin tələblərini əsas götürərək cavabdeh Cavabdeh 1in vərəsəlik hüququ ləğv edilməli, ikinci növbə vərəsələr dairəsindən yeganə vərəsə olan Iddiaçına vərəsəlik şəhadətnaməsi verilməlidir.

8. İddiaçı məhkəmə baxış iclasında bildirmişdir ki, cavabdeh (ər) miras qoyan (arvad) üçün bazarlıq etmiş, müvafiq qidalar almaqla həftədə, 10 gündə bir dəfə olmaqla evinə gətirib ona vermiş, lakin, cavabdeh həmin hərəkətləri özünün maddi maraqları naminə etmişdir. Belə ki, cavabdeh həmin bazarlıqlar üzrə çəkdiyi xərci artıqlaması ilə miras qoyandan almışdır. Həmçinin, miras qoyanın pensiya kartı da cavabdehin sərəncamında olmuş, cavabdeh hər ay kartdan pensiya vəsaitlərini çıxararaq miras qoyana vermişdir. Burada da cavabdehin məqsədi maddi xarakterli olmuşdur.

9. Cavabdehin nümayəndəsi və vəkili məhkəmə iclasında iştirak edərək iddia tələbinin təmin edilməməsini xahiş etmişdir. Cavabdeh tərəf yazılı etirazını məhkəməyə təqdim etmişdir.

10. Şahid qismində dindirilmiş miras qoyan X1in yaşamış olduğu binanın komendantı X2 izahat verərək cavabdeh Cavabdeh 1i və miras qoyan X1i tanıdığını, cavabdehin miras qoyanın yaşadığı evə gəlib-getməsini, lakin həmin ünvanda daimi yaşamamasını, cavabdehin miras qoyan vəfat edən günü də həmin ünvana gəldiyini, dəfn mərasimində iştirak etdiyini bildirmişdir. Digər şahidlər isə miras qoyanın ailəli olduğunu bilmədiklərini, onun cavabdehlə nikah münasibətlərində olmasından məlumatlı olmadıqlarını bildirsələr də, məhkəmə müəyyən edir ki, ər-arvad arasında daimi ünsiyyət olmuşdur.

11. XXX MMC-dən daxil olmuş CD diskdəki məlumatlara əsasən cavabdeh Cavabdeh 1in istifadəsində olan **-**-**-** mobil nömrəsi ilə miras qoyan mərhum X1in istifadəsində olmuş **-**-**-** mobil nömrəsi arasında

17.02.2023-cü ildən 17.02.2024-cü il il tarixədək olan daxil olan və çıxan zənglər, **-**-**-** və **-**-**-**mobil nömrələrinin sahibi barədə məlumatlar təqdim edilmişdir. Müəyyən edilir ki, sözügedən mobil nömrələr oxşar nömrələr (cüt nömrə kimi 1 rəqəm fərqi ilə) olmaqla miras qoyanın xahişi ilə onun qohumu X3 tərəfindən alınmaqla miras qoyana verilmiş, miras qoyan da həmin nömrələrin birini özünün, digərini isə əri hazırki mülki iş üzrə cavabdeh Cavabdeh 1in istifadəsinə vermişdir. Təqdim edilmiş məlumatlar üzrə telefon danışıqlarına əsasən tərəflər arasında mütəmadi uzun müddətli (8-1015 dəqiqəlik) telefon danışıqları aparılmış və miras qoyanla əri daimi ünsiyyətdə olmuşlar. Yəni, miras qoyan əvvəlcədən həmin qoşa nömrələri özü və ərinin istifadəsi üçün almışdır.

12. Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin 16 yanvar 2025-ci il tarixli, e-2(004)191/2025 nömrəli qətnaməsi ilə iddia tələbinin təmin edilməməsi qət edilmişdir *(Hakim-Fariz Əlizadə).*

13. Məhkəmə iddia tələbi ilə bağlı öz hüquqi mövqeyinin əsaslandırılması baxımından ilk növbədə işin faktiki hallarına, eləcə də iddiaçının məhkəmə prosesində verdiyi izahata həmçinin şahid ifadələrinə istinad edərək qeyd etmişdir ki, ər-arvad münasibətləri şəxsi münasibət olmaqla şahid ifadələrindən asılı edilə bilməz. Nikah institutu ciddi hüquqi nəticə yaratmaqla həmin nəticələrin tətbiq edilməsi və nəticələrə hörmət edilməsi subyektlərin və məhkəmənin vəzifəsidir. "Hüquqi müəyyənlik" prinsipinin tələbləri nöqteyi-nəzərdən ər-arvad rəsmi nikaha daxil olduqdan nikah pozulana qədər qarşılıqlı hüquq və vəzifələri yaranmaqla bir-birinin 1-ci dərəcə vərəsəsi qismində çıxış etməlidirlər. Sözügedən imperativ şərti əsassız dəyişkənliyə məruz qoymaq hüquq normasının təsir gücünün zəifləməsinə səbəb ola bilər. Nikahın pozulmasını arzu edən tərəf bununla bağlı məhkəməyə müraciət etməkdə sərbəstdir. Miras qoyanın iradəsi məlum olmadan onun ərinin hüquqi-faktiki baxımdan ər kimi dəyərləndirilməməsi və mirasdan məhrum edilməsi ədalətsiz nəticələrə səbəb ola bilər. Miras predmeti olan mənzilin faktiki olaraq miras qoyanın qardaşı (iddiaçı) tərəfindən alınması sübuta yetirilmir. Bundan əlavə, MM-in 140-cı maddəsinin tələblərinə əsasən, daşınmaz əmlakın dövlət reyestrinin məzmununun həqiqiliyi və tamamlığı prezumpsiyası qüvvədədir. Daşınmaz əmlak hüququ qeydə alınmış şəxsə (miras qoyan) məxsusdur.

14. Məhkəmə daha sonra qeyd etmişdir ki, MM-in 1164-cü maddəsində nəzərdə tutulmuş dispozitiv şərtlər hazırki mübahisə üzrə sübuta yetirilmir. Bundan əlavə, həmin norma imperativ deyil, dispozitiv normadır. Müəyyən edilən hallar isə cavabdehin ər kimi vərəsəlik hüququndan məhrum edilməsi üçün yetərli deyildir. Qanunun imperativ tələbi və subyektlərin qanuna uyğun davranışı, həmin davranışların nəticələrinin proqnozlaşdırılması riski subyektlərin öz üzərinə düşür. Qanunun konkret tələbini situasiyaya uyğun dəyişmək qanunçuluq prinsipinin tələblərinə ziddir.

15. Məhkəmə Azərbaycan Respublikası MPM-in 77.1-ci maddəsinə istinad edərək, həmçinin bildirmişdir ki, hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir. Məhkəmənin mülki prosesdə arbitr rolunda çıxış etməsi nəzərə alınmaqla, öz təşəbbüsü ilə proses iştirakçılarının lehinə və ya əlehinə sübutlar toplaması və ya bu istiqamətdə müəyyən prosessual fəaliyyət göstərməsi yolverilməzdir. İddia tələbində göstərilən xüsusatlar, ər-arvadın azı 3 il birgə təsərrüfat aparmaması xüsusatı sübuta yetirilmir.

16. Məhkəmə gəldiyi nəticəni Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1133, 1151, 1159, 1160 və 1164-cü, Mülki Prosessual Məcəllənin 77.1 və 119.1-ci maddələrinə, həmçinin Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1164-cü maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair" 1 may 2019cu il tarixli qərarına istinadla əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

17. Qətnamədən İddiaçının nümayəndəsi və vəkili apellyasiya şikayəti verərək qətnamənin ləğv edilməsi və iddia tələbinin təmin edilməsi barədə yeni qətnamənin qəbul edilməsini xahiş etmişdir.

18. Apellyasiya şikayəti onunla əsaslandırılmışdır ki, birinci instansiya məhkəməsi tərəfindən işə baxılan zaman mübahisəli hüquq münasibətinə maddi hüquq normaları düzgün tətbiq olunmamış, tərəflərin münasibətlərindəki əhəmiyyətli məqamlar diqqətə alınmamış, iddia tələbində qeyd olunanlar lazımi qaydada araşdırılmamış, işin bütün hallarına formal yanaşılmışdır. İddia tələbində göstərilən hallar hüquqi tərkib əmələ gətirərək rəsmi nikahda olmalarına baxmayaraq, ərin vərəsəlik hüququndan məhrum edilməsi üçün əsaslar

olduğundan cavabdeh Cavabdeh 1 vərəsəlik hüququ olmayan şəxs hesab edilməlidir. Birinci instansiya məhkəməsi mübahisənin müəyyən olunmuş faktiki hallarına hüquq normalarını düzgün tətbiq etmədiyindən, qətnamə ilə razı deyil, məhkəmənin həmin qətnaməsi qeyri-obyektivdir, buna görə də həmin qətnamə ləğv edilməli, iddia tələbinin təmin edilməsi barədə yeni qətnamə qəbul edilməlidir. XXX MMC-dən daxil olmuş CD diskdəki məlumatlara əsasən cavabdeh Cavabdeh 1in istifadəsində olan **-**-**-** mobil nömrəsi ilə miras qoyan mərhum X1in istifadəsində olmuş **-**-**-** mobil nömrələri ilə bağlı oxşar nömrələr kimi 1 rəqəm fərqi ilə bağlı bildirir ki, həm miras qoyanın həm də cavabdehin istifadəsində başqa fərqli nömrələr də mövcud olmuşdur. Bundan əlavə xüsusi olaraq qeyd edir ki, həmin nömrələr X1in və Cavabdehin adında deyil, X3 adlı şəxsin qanuni istifadəsində olmuşdur. Məhkəmə işin bu halına düzgün hüquqi qiymət verməmişdir. Rəsmi qeydə alınan mobil nömrələrin adına qeyd aparılan şəxsdən qeyrisi tərəfindən istifadə edildiyini yalnız şəxsin özü etiraf və təsdiq edə bilər. Bunu başqa heç bir üsulla dəqiq sübut etmək mümkün deyil. Həmin şəxs isə vəfat etmişdir. Bu mənada həmin nömrənin məhz X1 istifadə etməsi barədə məhkəmənin gəldiyi nəticənin heç bir hüquqi əsası yoxdur. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir. Bununla bağlı olaraq bildirir ki, məhkəmə iddiaçının təqdim etdiyi sübutları araşdırmamışdır.

19. Apellyasiya instansiyası məhkəməsində daha sonra göstərilir ki, birinci instansiya məhkəməsi gəldiyi nəticə üçün mühüm əhəmiyyəti olan bütün faktiki halları aydınlaşdırmamışdır. Belə ki, işin düzgün həlli üçün əhəmiyyət kəsb edən lakin məhkəmə tərəfindən araşdırılmayan əsas hallarından biri odur ki, mərhum X1 2024-cü ilin yanvar ayının sonunda iddiaçı olan qardaşına və qardaşının həyat yoldaşına məlumat verərək səhhətinin pisləşdiyini, bu səbəbdən artıq yaşaya bilmədiyini, digər xəstə bacısına da baxa bilmədiyini, köməksiz vəziyyətdə qaldığını bildirmiş və onlardan yardım istəmişdir. Bu məqamda sual yaranır. X1 Cavabdeh 1lə gerçək ər-arvad münasibətində olmuşdusa, münasibətlərinə faktiki xitam verilməmişdisə onda nə üçün kömək üçün ərinə yox, qardaşına və qardaşının arvadına müraciət etmişdir. İşin digər bir təkzibolunmaz halı odur ki, iddiaçı və onun həyat yoldaşı X1nin yardım müraciətindən sonra fevral ayının ilk günündən X1nin yaşadığı evə getmişlər və həm X1yə, həm də onun digər xəstə bacısına baxmışlar. Bu vəziyyət X1nin vəfat etdiyi 17 fevral 2024-cü ilədək davam etmişdir. Həmin gün X1 vəfat edərkən onun yanında xəstə bacısı, qardaşı və qardaşının həyat yoldaşından başqa heç kim olmamışdır. Cavabdeh 1 də olmamışdır. X1in qardaşından (iddiaçıdan) yardım istədiyi gündən vəfat etdiyi günə qədər cavabdeh Cavabdeh 1 bir dəfə də olsun X1i ziyarət etməmiş, vəziyyəti ilə maraqlanmamış, heç bir yardım göstərməmiş, ümumiyyətlə vəziyyətdən xəbərsiz olmuşdur.

20. İddiaçı tərəfindən apellyasiya şikayətinə əlavə təqdim edilmiş və onunla əsaslandırılmışdır ki, cavabdeh Cavabdeh 1 mərhum X1 ilə formal nikah bağladığı 1996-cı ildən X1 vəfat etdiyi vaxta qədər (və elə halhazırda da) faktiki olaraq Ünvan 3 ünvanda ailə üzvləri – faktiki olaraq ər-arvad münasibətində olduğu X4, oğlu X5, nəvəsi X6, nəvəsi X7, ailə üzvü X8 və nəvəsi X9 ilə birlikdə yaşayır. Həmin ünvan cavabdehin daimi yaşadığı ünvandır. Cavabdeh qeyd olunan ailə üzvləri ilə birlikdə həmin ünvanda yaşayır, ailə təsərrüfatını idarə edir və konkret adı çəkilən şəxslə faktiki nikah münasibətindədir. Hesab edir ki, bu məlumatlar cavabdehin mərhum X1 ilə nikahının formal xarakter daşıdığını təsdiq edən vacib əhəmiyyətli məlumatlardır. X1 bacıları X10 və X11 ilə birlikdə 2008-ci ilə kimi Ünvan 4 ünvanda yaşamışdır. Həmin mənzildən onlar yeni mənzil alınması ilə əlaqədar olaraq köçmüşlər və qeyd olunan mənzildə 2008-ci ildən 2021-ci ilə kimi yaşayış olmamışdır. İşin bu hallarını qonşu X12 da təsdiq edir. Həmin şəxsin şahid kimi dindirilməsi üçün şərait yaradılmasını məhkəmədən xahiş edir. İşin bu halı Səbail rayon MKTB 8 saylı MKİS-in xx.xx.2025-ci il tarixli məktubu da təsdiq

edir. Cavabdeh Cavabdeh 1 hüquqdan sui-istifadə edərək və yalan məlumat verməklə həmin mənzili ələ keçirmişdir. Belə ki, mərhum X1 evə dair sənədləri iddiaçıya vermiş və cavabdehə verilməməsini tapşırmışdır. Həmin sənədlər bu gün də iddiaçıdadır (sənəd əlavə olunur). Cavabdeh həmin sənədlərin itməsi barədə dövlət orqanlarına yalan məlumat verərək onların dublikatını almaq yolu ilə mənzili ələ keçirmişdir. İşin bu halı, yəni mənzilə dair və digər sənədlərin (nikah və ölüm şəhadətnamələri) X1 tərəfindən iddiaçıya verilməsi, cavabdehə etibar edilməməsi bir daha sübut edir ki, onunla cavabdeh arasında ər-arvad münasibəti və bundan doğan qarşılıqlı inam və etimad hissi olmamışdır. İşin bu faktiki halları da məhkəmə tərəfindən nəzərə alınmalıdır. Mübahisəli mənzildə mərhum X1in bacıları X10 və X11 ilə birlikdə yaşaması, digər şəxsin və ya şəxslərin həmin mənzildə yaşamaması mənzil yerləşən binanın istismarını həyata keçirən «XXX» MTK tərəfindən verilən xx.xx.2025-ci il tarixli arayışla da təsdiq edilir. Arayışda qeyd olunur ki, vətəndaş X1 2008-ci ildən vəfat etdiyi günə qədər Ünvan 1 ünvanda bacıları ilə yaşamışdır. Yəni həmin sənədlə də müəyyən olunur ki, cavabdeh Cavabdeh 1 mərhum X1 ilə birlikdə yaşamamışdır.

21. Cavabdeh Cavabdeh 1in nümayəndəsi və vəkili tərəfindən apellyasiya şikayətinə etiraz daxil olmuş, etirazda apellyasiya şikayətinin təmin edilməməsini və birinci instansiya məhkəməsinin qətnaməsinin dəyişdirilmədən saxlanılmasını xahiş etmişdir.

22. Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2025-ci il 21 may tarixli 2(103)1975/2025 nömrəli qətnaməsi ilə apellyasiya şikayətinin təmin edilməməsi, Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin 16.01.2025-ci il tarixli, e-2(004)-191/2025 nömrəli qətnaməsinin dəyişdirilmədən saxlanılması qət edilmişdir (Hakimlər Azad Nizam oğlu İmanov (sədrlik edən və məruzəçi), Məmməd Allahverdi oğlu Məmmədov və Fuad Şəmsəddin oğlu Talışinskidən ibarət tərkibdə).

23. Apellyasiya şikayətinin dəlilləri üzrə dəyərləndirmə apararaq, məhkəmə kollegiyası birinci instansiya məhkəməsinin mövqeyi və əsaslandırması ilə razılaşmış, bu baxmdan əlavə araşdırmanın aparılmasına zərurət görməyərək hesab etmişdir ki, birinci instansiya məhkəməsinin gəldiyi nəticə işin həqiqi hallarına uyğun olmaqla, mübahisənin maddi və prosessual hüquqi əsasları düzgün müəyyən edilmiş, məhkəmə müəyyən edilmiş faktlardan tərəflərin qarşılıqlı münasibətləri üzrə düzgün nəticəyə gəlmişdir.

24. Məhkəmə kollegiyası gəldiyi nəticəni Azərbaycan Respublikası Mülki Məcəlləsinin 16.1, 19, 1133, 1151.1, 1159, 1160 və 1164-cü; Mülki Prossesual Məcəlləsinin 14.2, 77.1, 217.4, 372.6, 384.0.1 və 385.2-ci maddələrinə həmçinin Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1164-cü maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair” 1 may 2019-cu il tarixli qərarına istinadla əsaslandırmışdır.

Kassasiya şikayətinin və ona etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

25. İddiaçı kassasiya şikayəti verərək Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)-1975/2025 saylı 21 may 2025-ci il tarixli qətnaməsinin ləğv edilməsi və iddia tələbinin təmin edilməsi haqqında yeni qərar qəbul edilməsini xahiş etmişdir.

26. Kassasiya şikayəti iddia ərizəsinin və apellyasiya şikayətinin dəlillərinə oxşar məzmunda əsaslandırılmış və şikayətdə ümumən qeyd olunmuşdur ki, apellyasiya instansiyası məhkəməsi qətnamədə bütün maddi və prosessual hüquq normalarını sadalamış, lakin gəldiyi nəticə ilə qanunu səhv təfsir etmişdir. Məhkəmə faktiki hallara düzgün qiymət vermədən, faktlara deyil, formal mülahizələrə əsaslanmışdır. Məhkəmə yalnız məhkəmə iclasında tədqiq olunmuş sübutlara əsaslanmalı olduğu halda,ehtimallara

əsaslanmışdır. Belə ki, iddiaçı miras qoyanın qardaşı olaraq varisidir və o, mirasdan imtina etməmişdir. Məhkəmə varisin hüquqlarını məhdudlaşdırmamalıdır.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

27. Cavabdeh 1 kassasiya şikayətinə qarşı etiraz təqdim edərək, etirazını onunla əsaslandırmışdır ki, iddiaçının iddia tələbi əsassızdır və məhkəmə qətnamələri ilə iddia tələbinin əsassız olduğu təsdiqlənmişdir. İş üzrə qəbul olunmuş müvafiq qətnamələrin qüvvədə saxlanılmasını və kassasiya şikayətinin təmin olunmamasını məhkəmədən xahiş etmişdir.

Tətbiq edilən hüquq

Azərbaycan Respublikasının Mülki Məcəlləsi

28. Maddə 337.1. Bu Məcəllədə müəyyənləşdirilmiş şərtləri pozmaqla bağlanmış əqd etibarsızdır. Etibarsız əqdlər mübahisə edilən əqdlər və ya əhəmiyyətsiz əqdlər ola bilər.

29. Maddə 1133.1. Ölmüş şəxsin (miras qoyanın) əmlakı başqa şəxslərə (vərəsələrə) qanun üzrə və ya vəsiyyət üzrə və ya hər iki əsasla keçir.

30. Maddə 1151.1. Mirasa (miras əmlaka) miras qoyanın öldüyü məqamadək malik olduğu əmlak hüquqlarının (miras aktivi) və vəzifələrin (miras passivi) toplusu daxildir.

31. Maddə 1159.1, 1159.1.1. Qanun üzrə vərəsəlik zamanı bərabər pay hüquqlu birinci növbədə vərəsələr - ölənin uşaqları, miras qoyanın ölümündən sonra doğulmuş uşaq, arvad (ər), valideynlər (övladlığa götürənlər) sayılırlar.

32. Maddə 1164. Əgər arvadın (ərin) miras qoyanla nikahına mirasın açılmasından azı üç il əvvəl faktik xitam verildiyi və ərlə arvadın ayrı yaşadıqları təsdiq edilərsə, məhkəmənin qərarı ilə arvad (ər) qanun üzrə vərəsəlik hüququndan məhrum edilə bilər.

33. Maddə 1243.1. Mirası istər qanun üzrə, istərsə də vəsiyyət üzrə vərəsə qəbul edir.

34. Maddə 1243.2. Vərəsə mirasın açıldığı yer üzrə notariat ofisinə mirası qəbul etdiyi barədə ərizə verdikdə və ya əmlaka sahiblik etməyə və ya əmlakı idarə etməyə faktik başladıqda və bununla da mirası qəbul etdiyini şəksiz nümayiş etdirdikdə miras vərəsə tərəfindən qəbul edilmiş sayılır.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi

35. Maddə 14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

36. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

37. Maddə 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

38. Maddə 217.1. Məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır.

39. Maddə 217.3. Qətnamə iş üzrə müəyyən edilmiş hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır.

40. Maddə 407.2. Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir.

41. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

42. Maddə 416.2. Apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 418.4cü maddəsində nəzərdə tutulmuş prosessual hüquq pozuntusu hesab edilən hallara yol verilməsi şikayətin hədlərindən və dəlillərindən asılı olmayaraq yoxlanılmalıdır.

43. Maddə 418.3. Prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması qətnamənin yaxud qərardadın ləğv edilməsi üçün o vaxt əsas ola bilər ki, bu pozuntu düzgün qətnamə qəbul edilməməsi ilə nəticələnsin və ya nəticələnə bilsin.

Kassasiya baxışının hədləri

44. Qanunun tələbinə görə, kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

45. Hazırkı kassasiya şikayətində qətnamə iddiaçı tərəfindən tam mübahisələndirildiyindən apellyasiya instansiyası məhkəməsinin aktı bütövlükdə yoxlanılır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

46. Məhkəmə kollegiyası hesab edir ki, apellyasiya instansiyası məhkəməsi tərəfindən qətnamə qəbul edilərkən ədalət mühakiməsinin çəkişmə, tərəflərin bərabərliyi və faktlar əsasında həyata keçirilməli olması, işin hallarının hərtərəfli, tam və obyektiv araşdırılması ilə bağlı prosessual hüquq normalarının pozulmasına yol verilmişdir.

47. Baxılan işdə mübahisə cavabdeh Cavabdeh 1in mərhum X1in mülkiyyətində olan və miras qalmış Ünvan 1 ünvanda yerləşən mənzilə vərəsəlik hüququndan məhrum edilməsi, xx.xx.2024-cü ildə vəfat etmiş X1dən miras qalmış əmlakına notariat orqanı tərəfindən verilmiş xx xx 2024-cü il tarixli vərəsəlik şəhadətnamənin, onun əsasında aparılmış sonrakı hüquqi əməliyyatların etibarsız sayılması ilə bağlıdır.

48. İddiaçı göstərir ki, mərhum X1 cavabdeh Cavabdeh 1 ilə xx.xx.1996-cı ildə nikaha daxil olmuşlar və nikahları qeydiyyat kitabında VII-JT №***** nömrəsi ilə qeydiyyata alınmışdır. Nikahları formal xarakter daşıdığından tərəflər birgə nikah münasibətlərində olmamış, birgə ailə təsərrüfatı aparmamışlar. 1999-cu ildə İddiaçının maddi imkanları vasitəsilə mənzil satın alınmış, lakin həmin mənzilin orderini bacısı X1in adına rəsmiləşdirilmişdir və həmin evi müvəqqəti yaşayış üçün ona və digər iki bacısına vermişdir. Bakı şəhər İcra Hakimiyyətinin xx.xx.2000-ci il qərarı ilə verilmiş order əsasında Ünvan 1 ünvanına yerləşən həmin mənzil xx.xx.2009-cu ildə Daşınmaz Əmlakın Dövlət Reyestrində qeydiyyata alınaraq çıxarış verilmişdir. Mənzil alındıqdan X1in vəfatına qədər həmin mənzildə X1 və iki bacısı birlikdə yaşamışlar. Formal nikahda olduğu Cavabdeh 1 isə o mənzildə yaşamamışdır. Onun yaşayış yeri birinci ailəsinin yaşadığı Ünvan 2 küçəsində yerləşən ev olmuşdur. X1 xx.xx.2024-cü il tarixində “kardiogen şok” diaqnozu ilə vəfat etmişdir. Onun ölümü ilə bağlı Bakı şəhəri, 3 saylı “ASAN Xidmət” Mərkəzində AZ-II № ****** saylı ölüm haqqında şəhadətnamə verilmişdir. X1in vəfatından sonra yeganə həqiqi vərəsəsi qardaşı Iddiaçı miras əmlaka vərəsəlik şəhadətnaməsinin verilməsi üçün 3 saylı “ASAN Xidmət” Mərkəzinə müraciət etmişdir. Lakin, Mərkəzdən bildirilmişdir ki, birinci növbə vərəsə kimi mərhumun əri Cavabdeh 1 olduğundan, ikinci növbə vərəsəlik dairəsinə daxil olan qardaşı vərəsə kimi qeydə alına bilməz. Cavabdeh 1 nikaha daxil olduğu gündən X1in vəfatına qədər heç vaxt onunla birlikdə yaşamamışdır. Ölüm günündə belə onun yanında olmamış, yalnız dəfndən bir neçə gün sonra yas mərasiminə gəlmiş, onların nikahı formal xarakter daşımış, aralarında heç bir birgə ailə təsərrüfatı olmamışdır. Cavabdeh 1 və X1 aralarında olan formal nikahı pozmaq üçün 2009-cu ildə məhkəməyə müraciət etmişlər, daha sonra laqeydlikdən iş davam etdirilməmiş, nikahın rəsmi pozulması baş tutmamışdır. X1in övladı yoxdur.

49. Cavabdeh 1 iddia tələbinə etirazlarında göstərir ki, mərhum həyat yoldaşı X1 ilə xx.xx.1996-cı ildə nikaha daxil olmuş, o, rəhmətə gedənədək birgə yaşamışlar. Son günədək

qazanclarını və xərclərini birgə aparmaları X1in kartının onun tərəfindən istifadə olunması təsdiq edir. Onlar birgə yaşamaqla, təsərrüfat apararaq gəlirini və xərclərini birgə müəyyən etmişlər. Bunun əyani sübutu cavabdehin 2009cu ildə birgə nikah dövründə əldə etdikləri Ünvan 1 ünvanda yerləşən evin açarları, mənzilin giriş blokunu açmaq üçün istifadə olunan açar, həyətə maşınla girmək üçün istifadə etdiyi idarəetmə cihazının onun istifadəsində olması təsdiq edir. Mərhumun günlük qayğıları cavabdeh tərəfindən təmin olunmuşdur. O, mərhumun evinin bazarlığını etmişdir. Onların mübahisəli evdə birlikdə yaşaya bilməmələrinin səbəbi mərhum X1in xəstə bacılarının da sonradan həmin evə köçüb X1in himayəsində yaşamaları olması olmuş, bunlar X1in rəhmətə gedən günədək davam etmişdir. Ər-arvad müntəzəm olaraq telefon əlaqəsində olmuş və bir-birindən xəbərdar olmuşlar. İddiaçı mərhumun qardaşı olmuşdur, milli mentalitetə uyğun olaraq bacı qardaşa əri ilə olan münasibət barədə məlumat verə bilməz.

50. İddiaçı birinci instansiya məhkəməsində şahidlər dəvət etmiş, şahidlər X2, X13, X14 və X3 aşağıda göstərilən məzmunda ifadələr vermişlər.

51. Belə ki, şahid qismində dindirilmiş miras qoyan X1in yaşamış olduğu binanın komendantı X2 ifadə verərək Cavabdeh 1i və miras qoyan X1nı tanıdığını, cavabdehin miras qoyanın yaşadığı evə gəlib-getməsini, lakin həmin ünvanda daimi yaşamamasını, cavabdehin miras qoyan vəfat edən günü də həmin ünvana gəldiyini, dəfn mərasimində iştirak etdiyini bildirmişdir.

52. Digər şahidlər X13 göstərmişdir ki, X1 xanımla qonşu olmuş, heç vaxt onu kişi ilə görməmişdir. Yalnız bacıları ilə birlikdə görmüşdür. Evli olmasını bilməmişdir. Şahid X14 ifadəsində göstərmişdir ki, o, X1 xanımın yaşadığı binada təmizlik işləri ilə məşğul olur. Onlar evdə üç qadın yaşayıblar, onların bacı olduqlarını bilirdi. 2007-ci ildən binada işləyir. Hər gün iş yeri kimi həmin binaya getmişdir. X1 xanım vəfat edəndən sonra evli olduğunu bilmişdir. Cavabdeh 1i adlı şəxsi tanımamış və görməmişdir. Şahid X15 ifadəsində göstərmişdir ki, X1 xanım anasının dayısı qızıdır. O, evli olmamışdır. Onların gediş-gəlişləri olub. X1 xanımın evli olmasını bilməmişdir. Həyat yoldaşı kimi bilinən şəxsi görməmişdir. Telefon nömrələri 5-6 il olar ki, onun şəxsiyyət vəsiqəsi ilə alınmışdır. Nömrələri şəxsən özü üçün almamışdır.

53. Məhkəmələr müəyyən etmişlər ki, miras qoyan X1 xx.xx.2024-cü il tarixdə vəfat etmişdir. İddiaçı miras qoyan X1in qardaşıdır. Mübahisə predmeti olan Ünvan 1 ünvanında yerləşən mənzil miras qoyan X1in mülkiyyətində olmuşdur. Mülkiyyət hüququ xx.xx.2009-cu il tarixdə qeydiyyata alınmışdır. Ünvan 1 ünvanında yerləşən mənzil hazırda vərəsə (mərhumun əri) Cavabdeh 1in mülkiyyətindədir. Sonuncunun mülkiyyət hüququ Bakı şəhəri 25 saylı Notariat Ofisi tərəfindən təsdiq edilmiş xx.xx.2024-cü il tarixli qanun üzrə vərəsəlik haqqında şəhadətnaməyə əsasən yaranmışdır.

54. Məhkəmələr daha sonra qeyd etmişlər ki, ər-arvad münasibətləri şəxsi münasibət olmaqla şahid ifadələrindən asılı edilə bilməz. Nikah institutu ciddi hüquqi nəticə yaratmaqla həmin nəticələrin tətbiq edilməsi və nəticələrə hörmət edilməsi subyektlərin və məhkəmənin vəzifəsidir. “Hüquqi müəyyənlik” prinsipinin tələbləri nöqteyi-nəzərdən ər-arvad rəsmi nikaha daxil olduqdan nikah pozulana qədər qarşılıqlı hüquq və vəzifələri yaranmaqla bir-birinin 1-ci dərəcə vərəsəsi qismində çıxış etməlidirlər. Sözügedən imperativ şərti əsassız dəyişkənliyə məruz qoymaq hüquq normasının təsir gücünün zəifləməsinə səbəb ola bilər. Nikahın pozulmasını arzu edən tərəf bununla bağlı məhkəməyə müraciət etməkdə sərbəstdir. Miras qoyanın iradəsi məlum olmadan onun ərinin hüquqi-faktiki baxımdan ər kimi dəyərləndirilməməsi və mirasdan məhrum edilməsi ədalətsiz nəticələrə səbəb ola bilər.

55. Daha sonra birinci instansiya məhkəməsi qeyd edir ki, MM-in 1164-cü maddəsində nəzərdə tutulmuş dispozitiv şərtlər hazırkı mübahisə üzrə sübuta yetirilmir. Bundan əlavə,

həmin norma imperativ deyil, dispozitiv normadır. Müəyyən edilən hallar isə cavabdehin ər kimi vərəsəlik hüququndan məhrum edilməsi üçün yetərli deyildir. Qanunun imperativ tələbi və subyektlərin qanuna uyğun davranışı, həmin davranışların nəticələrinin proqnozlaşdırılması riski subyektlərin öz üzərinə düşür. Qanunun konkret tələbini situasiyaya uyğun dəyişmək qanunçuluq prinsipinin tələblərinə ziddir.

56. Apellyasiya məhkəməsi birinci instansiya məhkəməsinin bu qərarın 13-16-cı bəndlərində olan mövqeyi ilə razılaşmışdır. Məhkəmə tərkibi isə apellyasiya məkəməsinin gəldiyi nəticəsi ilə razılaşmır.

57. Belə ki, ailə qanunvericiliyinin əsas məqsədi ailənin sağlam və etibarlılığını təmin etməkdir. Qanunverici ailə birliyinin mənafeyini, ilk növbədə, onun üzvlərinin mənafeyini qorumaqla təmin etmiş olur. Bunun üçün zəruri olan hüquqi mühitin yaradılması isə dövlətin üzərinə düşən vəzifədir. Bu səbəbdən Konstitusiyada ailə münasibətlərinin tənzimlənməsi ilə bağlı təməl prinsip və birbaşa göstərişlər nəzərdə tutulmuşdur.

58. Konstitusiya Məhkəməsi Konstitusiyanın 17 və 34-cü maddələrində, eləcə də Ailə Məcəlləsində öz əksini tapmış prinsiplərdən çıxış edərək qeyd etmişdir ki, Konstitusiyanın 17-ci maddəsinin I hissəsinə müvafiq olaraq, cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir. Konstitusiyanın 34-cü maddəsinin I və II hissələrinə əsasən, hər kəsin qanunla nəzərdə tutulmuş yaşa çatdıqda ailə qurmaq hüququ vardır. Nikah könüllü razılıq əsasında bağlanılır. Ailə Məcəlləsinin 2.3-cü maddəsinə əsasən, nikah kişi ilə qadının ailə qurmaq məqsədilə müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınan könüllü ittifaqıdır. Həmin Məcəllənin 1.4-cü maddəsində təsbit olunmuş digər mühüm prinsipə əsasən, Azərbaycan Respublikasında nikah və ailə münasibətlərinin hüquqi baxımdan tənzimlənməsi dövlət tərəfindən həyata keçirilir və yalnız müvafiq icra hakimiyyəti orqanında bağlanmış nikah tanınır. Beləliklə, qanunvericiliyin imperativ göstərişinə görə, ailə münasibətlərinə könüllü və iradə sərbəstliyi əsasında daxil olan qadın və kişinin nikahı yalnız dövlətin müəyyən etdiyi qaydada rəsmiləşdirildikdən sonra tanınır (Konstitusiya Məhkəməsi Plenumunun “Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 307.2.4-cü maddəsinin şərh edilməsinə dair” 2010-cu il 2 noyabr tarixli Qərarı).

59. Kassasiya şikayəti verən iddiaçı hesab edir ki, cavabdeh miras qoyanın mirasını qəbul edə bilməzdi, çünki, mərhumla onun nikahı formal olmuş, onlar birlikdə ailə olaraq təsərrüfat idarə etməmiş, 2009-cu ildə onlar arasında nikahın pozulmasına dair iddia olmuş, lakin laqeyidlik göstərilməsi səbəbindən nikahın pozulmasına dair iddiaya mahiyyəti üzrə baxılmamış, cavabdeh bütün nikah müddətində faktiki nikahda olan qadın və həmin nikahdan olan uşaqları ilə başqa ünvanda yaşamışdır. Göstərilən və digər əsaslarla cavabdehin vərəsəlikdən məhkəmə qaydasında mərhum edilməli olması tələb olunur.

60. Cavabdeh tərəf isə etirazlarının hər hansı birində miras qoyanla nikah rəsmləşdirildiyi vaxtdan daimi olaraq birgə yaşamaları, ümumi təsərrüfat idarə etmələri, faktiki ər-arvad münasibətlərində olmalarını aydın və inandırıcı qaydada əsaslandıran sübutlara malik olmamış və belə mötəbər sübutlar təqdim etməmişdir.

61. Cavabdeh yalnız ayrı-ayrı vaxtlarda mərhumun yaşadığı ünvana gəlməsi, onun və digər ailə üzvləri üçün bazarlıq etməsi, digər məişət problemlərini həll etməsi, mərhum tərəfindən ona mobil telefon nömrəsi alınması, həmin nömrə ilə müntəzəm onunla əlaqə saxlaması, daim onun qayğıları ilə maraqlanması, evin, həyətin açarlarının onda olması, evdən istifadəsi üçün heç bir maneənin olmaması, mərhumun yas mərasimində iştirak etməsi, onun dəfn olunmasında iştirak etməsinə istinad edərək onların daimi olaraq bir yerdə olmamasının isə mərhumun yanında bacılarının yaşaması səbəbindən mümkün olmamasını, onlarla birlikdə yaşamanın milli mentalitetə uyğun olmaması ilə əsaslandırmışdır. Cavabdeh miras qoyanla

göstərilənlər baxımından ailə münasibətlərinin davam etməsində, birgə təsərrüfatı idarə etdiklərində israrlıdır.

62. İşi mahiyyəti üzrə həll edən apellyasiya məhkəməsi mübahisəyə Mülki Məcəllənin 1164-cü maddəsinin tətbiqi ilə bağlı düzgün nəticəyə gəlmişdir. Həmin maddənin məzmunundan görünür ki, əgər arvadın (ərin) miras qoyanla nikahına mirasın açılmasından azı üç il əvvəl faktik xitam verildiyi və ərlə arvadın ayrı yaşadıqları təsdiq edilərsə, məhkəmənin qərarı ilə arvad (ər) qanun üzrə vərəsəlik hüququndan məhrum edilə bilər.

63. Qeyd edilməlidir ki, birinci növbə vərəsələrə aid edilən ailə üzvlərinin mənafeyinin üstünlüyü vərəsəlik hüququnun əsasında duran ailə təminatı prinsipindən irəli gəlir. Bu prinsip vətəndaş cəmiyyətinin özəyini təşkil edən ailənin təminatı məqsədilə yaxın qohumluqla (uşaq, ər, arvad, valideynlər) miras qoyana bağlı olan şəxslərin mənafeyinin digər şəxslərin mənafeyindən üstün olmasını nəzərdə tutur. Ailə-təminat prinsipinin məntiqinə əsasən mülkiyyətçiyə yaşadığı dövrdə məxsus olan əmlak (əmlakın müəyyən hissəsi) üzərində sərəncam vermək hüququ onun vəfatından sonra yaxın ailə üzvlərinə məxsus olmalıdır. Bu prinsip qanun üzrə vərəsəlik zamanı növbəlilik, irsi transmissiya qaydalarında özünü göstərir və mirasın daha yaxın şəxslər dairəsinə çatmasına xidmət edir (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1193-cü maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsinin I və II hissələrinə, 29-cu maddəsinin I, II və III hissələrinə uyğunluğunun yoxlanılmasına dair" 2011-ci il 20 oktyabr tarixli Qərarı).

64. Mülki Məcəllənin 1159-cu maddəsindən göründüyü kimi, ər (arvad) birinci növbə üzrə vərəsələr sırasına daxildir. Bununla bağlı qeyd olunmalıdır ki, yalnız miras qoyanla qanuni nikahda olan şəxs, yəni ər-arvad vərəsə ola bilər. Ər-arvad dedikdə, dövlətin tələb etdiyi qayda üzrə nikaha daxil olmuş şəxslər başa düşülür. Belə ki, ancaq qanuni nikah tərəflər üçün hüquq və vəzifələr, o cümlədən vərəsəlik hüququ yaradır.

65. Nikahın bağlanması, nikaha xitam verilməsi, onun etibarsız sayılması qaydaları və şərtləri, eləcə də ailə münasibətinin iştirakçılarının hüquq və vəzifələri Azərbaycan Respublikasının Ailə Məcəlləsi ilə tənzimlənir.

66. Həmin Məcəllənin 1.4-cü maddəsinə əsasən, Azərbaycan Respublikasında nikah və ailə münasibətlərinin hüquqi baxımdan tənzimlənməsi dövlət tərəfindən həyata keçirilir və yalnız müvafiq icra hakimiyyəti orqanında bağlanmış nikah tanınır.

67. Ailə hüquq münasibətlərini yaradan önəmli hüquqi fakt olan nikah kişi ilə qadının qanunla nəzərdə tutulan qaydada ailə qurmaq üçün bağladığı azad və könüllü ittifaqıdır. Nikahın bağlanması faktı ilə ər və arvadın şəxsi və əmlak xarakterli subyektiv hüquqları və vəzifələri yaranır.

68. Ər-arvadın qanunla nəzərdə tutulmuş qaydada bağlanmış nikahdan əmələ gələn münasibətlərinə müəyyən hüquqi faktlar əsasında son qoyulması nikahın xitamına səbəb olur. Nikaha xitam verilməklə ər-arvadın hüquqi statusu ləğv edilərək onun dövlət qeydiyyatına alındığı andan tərəflər arasında yaranan əmlak və şəxsi qeyri-əmlak hüquq və vəzifələrinə son qoyulur.

69. Nikaha xitam verilməsi əsasları Ailə Məcəlləsinin 14-cü maddəsində təsbit edilmişdir. Qanunverici Ailə Məcəlləsində nikaha xitam verilməsinin qaydalarını müəyyən edərkən nikahın könüllülüyü, ər-arvadın hüquq bərabərliyi, həmçinin nikahın pozulmasının azadlığı, ər-arvadın hüquqlarının maneəsiz həyata keçirilməsinin təmin olunması prinsipləri, habelə uşaqların hüquqlarının müdafiəsi baxımından çıxış etmişdir.

70. Bu qərarın 62-ci bəndində göstərilən hallarda ər-arvad arasında qeydiyyata alınmış nikahın mövcud olmasına baxmayaraq, onların məhkəmə qaydasında vərəsəlik hüququndan məhrum edilməsinə yol verilir. Mülki qanunvericilik ər-arvadın rəsmi nikah münasibətlərində

olmasına baxmayaraq, onların üç il ərzində nikaha faktiki xitam verilməsi və ayrı yaşamaları barədə iradə ifadəsini əsas götürərək, qanun üzrə vərəsəlik hüququndan məhrum edilməsinin mümkünlüyünü təsbit etmişdir.

71. Mülki Məcəllənin 1164-cü maddəsinin məzmununa görə sağ qalmış ərin (arvadın) vərəsəlik hüququ olmayan şəxs hesab edilməsi üçün məhkəmə tərəfindən aşağıdakı halların məcmusu təsdiq edilməlidir: tərəflərin ailə münasibətlərinə faktiki xitam verilməsi; ər-arvadın ayrı yaşamaları; qeyd edilən halların mirasın açılmasından azı üç il əvvəl baş verməsi.

72. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1164-cü maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair" 1 may 2019-cu il tarixli qərarında formalaşdırdığı mövqeyinə görə məhz göstərilən hallar hüquqi tərkib əmələ gətirərək rəsmi nikahda olmalarına baxmayaraq, ərin (arvadın) vərəsəlik hüququndan məhrum edilməsi üçün əsas ola bilər. Bu baxımdan məhkəmələr tərəfindən ərin (arvadın) nikaha faktiki xitam verilməsi səbəbindən qanun üzrə vərəsəlik hüququndan məhrum edilməsinə dair işlərə baxılarkən Mülki Məcəllənin 1164-cü maddəsində nəzərdə tutulmuş halların mövcud olub-olmamasına formal yanaşılmamalı, işin bütün halları, tərəflərin münasibətlərindəki əhəmiyyətli məqamlar diqqətə alınaraq məsələyə hüquqi qiymət verilməlidir. Belə ki, Mülki Məcəllənin qeyd edilən maddəsinə formal əsaslanmaqla arvadın (ərin) vərəsəlik hüququndan məhrum edilməsi vərəsəlik və ailə hüquqlarının ümumi prinsiplərinə uyğun olmazdı.

73. Konstitusiya Məhkəməsi daha sonra qeyd etmişdir ki, Mülki Məcəllənin 1164-cü maddəsində istifadə olunan "nikaha faktiki xitam verildiyi" ifadəsi isə mirasın açılmasından əvvəlki üç il ərzində tərəflərin məhz ailə-nikah münasibətlərində olmaq istəməmələri səbəbi ilə ayrı yaşamalarını, birgə təsərrüfat aparmamalarını nəzərdə tutur. Bu zaman nikah hüquqi cəhətdən pozulmasa da, nikahın pozulması müvafiq orqanda qeydə alınmasa da nikah real olaraq sonlanmış olur.

74. İnsan Hüquqları üzrə Avropa Məhkəməsi bununla bağlı qeyd etmişdir ki, nikah münasibətləri nikaha girən şəxslər üçün xüsusi status yaradır. Nikahda olan ər-arvadın bilərəkdən və şüurlu surətdə girdikləri münasibətin doğurduğu hüquqi nəticələr bu növ qarşılıqlı münasibətləri digər birgə yaşayış növlərindən fərqləndirir. Ər-arvadın qarşılıqlı münasibətlərində vacib məsələ qarşılıqlı öhdəliklərin mövcudluğudur. Tərəflərin münasibətlərinin uzunmüddətli olmasına baxmayaraq, onlar arasında məcburi hüquqi qüvvəyə malik olan qarşılıqlı öhdəliklərin olmaması onların birgə yaşayışını ərlə arvadın birgə yaşayışından tamamilə fərqləndirir (Börden Birləşmiş Krallığa qarşı iş üzrə 2008-ci il 29 aprel tarixli Qərar).

75. Qanunvericilikdə nəzərdə tutulmuş üç il müddət isə tərəflərin nikah münasibətlərinə faktiki xitam verilməsi qərarında israrlı olduqlarını, ailə münasibətlərini bərpa etmək istəklərinin olmamasını dəqiqləşdirmək üçün müəyyən edilmiş müddətdir.

76. Məhkəmə tərkibi aşağıdakılara əsasən hesab edir ki, hazırkı iş üzrə maddi hüquq normaları düzgün təfsir edilməmiş və prosessual hüquq normaları düzgün tətbiq edilməmiş, işi mahiyyəti üzrə həll edən məhkəmələr Konstitusiya Məhkəməsinin bu qərarın 72-ci bəndində istinad olunan qərarında formalaşdırdığı mövqeyi nəzərə almamışlar, formal əsaslara istinad edərək və təqdim olunmuş sübutları qiymətləndirmədən əsassız nəticəyə gəlmişlər.

77. İlkin olaraq qeyd edilməlidir ki, irəli sürülmüş iddia tələbləri üzrə iddiaçı göstərmişdir ki, mərhum bacısı ilə cavabdeh uzun müddədir (faktiki olaraq nikah bağlanan andan) formal nikah münasibətlərində olmuş, onların yaşayışları ərlə-arvadın birgə yaşayışı ilə əsaslı olaraq fərqlənmişdir. Belə ki, onlar birgə təsərrüfat idarə etməmiş, ailə dəyərlərinə malik olan münasibətləri olmamış, cavabdeh faktiki nikahda olduğu şəxslə və başqa ünvanda yaşamış,

cavabdehin bu qərarın 60-61 bəndində sadalanan etirazının dəlilləri isə onların ər arvadın qarşılıqlı öhdəliklərinin mövcudluğu kimi qiymətləndirilə bilməz.

78. İddiaçı öz dəlilləri ilə bağlı şahid ifadələrini təqdim etmiş, həmin ifadələr ilə isə mərhumla cavabdehin ər-arvad münasibətlərində olmaları, birgə təsərrüfat aparmaları təsdiq olunmur.

79. İddiaçının göstərilən dəlilləri (faktiki nikah münasibətinin mövcud olmaması, ailənikah münasibətlərində olmaq istəməmələri səbəbi ilə ayrı yaşamalarını, birgə təsərrüfat aparmamalarını və.s) faktiki olaraq cavabehin etirazında göstərdiyi bəzi dəlillərlə (onun başqa ünvanda yaşaması, mübahisəli evdə daimi yaşamaması, ara bir mərhuma baş çəkməsi, ona ayrı-ayrı vaxtlarda bazarlıq etməsi, müntəzəm olaraq telefon əlaqəsi saxlaması, onun pensiya karından pul çəkərək mərhuma verməsi və.s) təsdiq olunur.

80. Digər tərəfdən işə baxan birinci instansiya məhkəməsi cavabdehin son altı ay ərzində yerləşmə yerinə dair məlumatları əldə etmiş, cavabehin həmin müddət ərzində mübahisəli mənzilin yerləşdiyi ərazidə deyil, iddiaçının istinad etdiyi Bakı şəhəri Xəzər rayon Binə qəsəbəsi Musabəyov küçəsi 32 ünvanda və həmin ünvanın əhatə dairəsində olması müəyyən olunmuşdur. Eyni zamanda iddiaçı cavabdehin və onunla birlikdə yaşayan şəxslərin qeydiyyatları barədə arayış təqdim etmişdir.

81. Cavabdeh tərəf iddiaçının göstərdiyi ünvanda yaşamaması barədə hər hansı sübut təqdim etməmiş və bu dəlillərə etiraz etməmişdir.

82. Apellyasiya məhkəməsi göstərilən xüsusatlara diqqət yetirməmiş, bunlarla bağlı çoxsaylı sübutların mövcudluğunu nəzərə almamışdır.

83. Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 77.1-ci maddəsinə əsasən həmin halları sübut etmək yükü bunu iddia edən və ya iddiaya etiraz edən tərəfin üzərinə düşür.

84. Belə olan halda, nikahda olan ərin mirasdan məhrum edilməsinə dair işə baxan məhkəmə miras qoyanla nikahda olan ərin hansı müddətdə birgə yaşamadıqları, bu ayrılığın səbəbləri, onların davam etdirdikləri münasibətlərin ər-arvad münasibətlərindən və ya digər hər hansı bir münasibətdən irəli gəlməsi aydınlaşdırılmalı olduğu halda bununla bağlı hər hansı bir araşdırma aparılmamışdır. Cavabbdehin etirazında göstərdiklərinə əsaslanmaqla iddia rədd edilərkən nikahda olan ər-arvadın bilərəkdən və şüurlu surətdə girdikləri münasibətin doğurduğu hüquqi nəticələri və bu növ qarşılıqlı münasibətləri digər birgə yaşayış növlərindən fərqləndirilməli olması nəzərə alınmamışdır. Bu halda nəzərə alınmalıdır ki, ərarvadın qarşılıqlı münasibətlərində vacib məsələ qarşılıqlı öhdəliklərin mövcudluğudur.

85. MPM-in 417.1.3 və 418.1-ci maddələrinin tələbinə görə, maddi və prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması, o cümlədən maddi və prosessual hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması apellyasiya instansiyası məhkəməsinin qətnamə və qərardadının ləğv edilməsi və işin yenidən baxılmaq üçün apellyasiya instansiyası məhkəməsinə göndərilməsi üçün əsasdır.

86. Konstitusiya Məhkəməsinin Plenumu da öz qərarlarında qeyd etmişdir ki, hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir. Məhkəmə işin gedişində təqdim olunmuş ancaq o sübutları qəbul edir və nəzərə alır ki, onlar işdə tərəflərin tələblərini müəyyən edən faktlarla və hallarla əlaqədardır. Qətnamə iş üzrə müəyyən edilmiş həqiqi hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır. Qətnamə çıxarıldıqda hakim sübutları qiymətləndirir, iş üçün əhəmiyyətli olan nə kimi halların müəyyən edildiyini, nə kimi halların müəyyən edilmədiyini, tərəflərin hansı hüquqi münasibətdə olmalarını, həmin iş üzrə hansı qanunun tətbiq edilməli olduğunu və iddianın təmin olunubolunmadığını müəyyən edir (“Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 82.3-cü maddəsinin şərh edilməsinə dair” 2016-cı il 23 fevral tarixli Qərar).

87. Məhkəmə kollegiyası, həmçinin, bildirir ki, Konstitusiyanın 60-cı maddəsinin I hissəsinə görə, hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir. Məhkəmə müdafiəsi hüququ əsas insan və vətəndaş hüquqları və azadlıqları sırasında olmaqla yanaşı, Konstitusiyada təsbit edilmiş digər hüquq və azadlıqların təminatı qismində də çıxış edir. Sözügedən hüquq yalnız məhkəməyə müraciətlə məhdudlaşmır, habelə pozulmuş hüquqları və azadlıqları səmərəli bərpa etmək iqtidarında olan ədalət mühakiməsini də nəzərdə tutur. Məhkəmə müdafiəsi hüququ özündə ədalətli məhkəmə qərarının qəbul edilməsini ehtiva edir. Avropa Məhkəməsinin presedent hüququna müvafiq olaraq, "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndində təsbit edilən təminatlara məhkəmələrin öz qərarlarını yetərli dərəcədə əsaslandırmaq öhdəliyi daxildir. Əsaslandırılmış qərar, tərəflərə işlərinə həqiqətən baxıldığını göstərir. Milli məhkəmə tərəflərin təqdim etdiyi arqumentləri seçərkən və sübutları qəbul edərkən müəyyən mülahizə sərbəstliyinə malik olmasına baxmayaraq, qərarlarını əsaslandırmaqla öz hərəkətlərinə haqq qazandırmalıdır (H. Belçikaya qarşı iş üzrə 30 noyabr 1987-ci il tarixli Qərar, §53; Suominen Finlandiyaya qarşı iş üzrə 01 iyul 2003-cü il tarixli Qərar, §36-37). Tərəflərdən birinin təqdim etdiyi sübut prosesin nəticəsi üçün həlledici olduqda, məhkəmə ona xüsusi və aydın şəkildə ifadə edilmiş cavab verməlidir. Buna müvafiq olaraq, məhkəmələr tərəflərin əsas arqumentlərini diqqətlə araşdırmalıdırlar (Ruiz Torija İspaniyaya qarşı iş üzrə 09 dekabr 1994-cü il tarixli Qərar, §30; Buzescu Rumıniyaya qarşı iş üzrə 24 may 2005-ci il tarixli Qərar, §67).

88. Konstitusiya Məhkəməsi Plenumunun formalaşdırdığı digər hüquqi mövqeyə əsasən, məhkəmə, özü tərəfindən müəyyən olunmuş işin hallarını və qənaətini formalaşdıran sübutları, bu və ya digər sübutları rədd etmək üçün istinad etdiyi dəlilləri və rəhbər tutduğu qanunları qətnamədə göstərməklə onu hüquqi cəhətdən əsaslandırmalıdır. Məhkəmə sübutları sadalamaqla kifayətlənməməli, hər bir sübutun, o cümlədən şahid ifadələrinin məzmununu qətnamədə şərh etməli, sübutlar əlaqələndirilməli, araşdırılan sübutların qəbul edilibedilməməsinin səbəbləri aydın göstərilməlidir (S.Əliyevanın şikayəti üzrə 31 may 2006-cı il tarixli Qərar).

89. Məhkəmə aktlarının əsaslandırılmış olması iş üzrə tərəflərdə qəbul edilmiş qərarın qanuni və ədalətli olduğuna inam yaratmaqla yanaşı, ümumilikdə məhkəmə hakimiyyətinə olan etimadın möhkəmlənməsinə xidmət edir. Eyni zamanda, məhkəmə aktı elə şəkildə tərtib olunmalıdır ki, onun qanuniliyini yoxlayan yuxarı instansiya məhkəməsi ifadə olunmuş qənaətin əsaslı olub-olmadığını, habelə maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilib-edilmədiyini müəyyənləşdirə bilsin.

90. Qeyd edilənləri nəzərə alan məhkəmə kollegiyası kassasiya şikayətinin dəlilləri ilə razılaşır.

91. İşə apellyasiya instansiyası məhkəməsində yenidən baxılarkən hazırkı Qərarda (§50-84) şərh edilən hallara və Konstitusiya Məhkəməsinin Qərarında (§72) formalaşdırdığı mövqeyinə uyğun qaydada işin faktiki halları ilə birlikdə dəyərləndirilməklə, aydınlıq gətirilməli, ziddiyyətli məqamlar aradan qaldırılmalıdır.

92. Beləliklə, mülki işə kassasiya qaydasında baxan məhkəmə kollegiyası yuxarıda qeyd olunanlara məcmu halda hüquqi qiymət verərək hesab edir ki, kassasiya şikayəti qismən təmin olunmalı, apellyasiya instansiyası məhkəməsinin qətnaməsi ləğv edilməli, iş yenidən baxılmaq üçün həmin məhkəməyə göndərilməlidir.

93. Göstərilənlərə əsasən və MPM-in 416, 417 və 419-cu maddələrini rəhbər tutaraq, Məhkəmə kollegiyası

Qərara aldı:

Kassasiya şikayəti qismən təmin edilsin.

Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(103)-1975/2025 nömrəli, 21 may 2025-ci il tarixli qətnaməsi ləğv edilsin və iş yeni apellyasiya baxışına göndərilsin.

Qərar qətidir və qəbul edildiyi andan qüvvəyə minir.

Ailə-nikah münasibətlərindən irəli gələn mübahisələr

50.2(1-8)-220/2026 nömrəli, 2026-cı il 23 fevral tarixli qərar - Nikahın bağlanmasına qanunla mane olan halın aradan qalxması səbəbindən nikahın etibarlı hala gəlməsi

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: İddiaçı, atası ilə cavabdeh arasında 1976-cı il 3 aprel tarixində bağlanmış nikahın etibarsız hesab edilməsi barədə iddia irəli sürmüş və tələbinin əsası kimi atasının onun anası ilə daha əvvəl - 1974-cü il 15 sentyabr tarixində bağladığı nikahın qüvvədə olduğu halda, 1976-cı il 3 aprel tarixində cavabdehlə nikah bağlanmasının mümkünsüzlüyünə istinad etmişdir.

İddiaçının anası ilə atasının nikahı 2004-cü il 19 iyun tarixində pozulmuşdur.

Məhkəmələrin mövqeyi: Birinci instansiya məhkəməsi iddianı təmin etsə də, apellyasiya instansiyası məhkəməsi qətnaməni ləğv edərək, iddianı o əsasla rədd etmişdir ki, hüquq münasibətlərinin yarandığı zaman qüvvədə olan Nikah və Ailə Məcəlləsinin 51-ci maddəsinin 2-ci hissəsinə əsasən işə baxılan vaxtadək nikahın bağlanmasına mane olan hallar aradan qalxdıqda, məhkəmə həmin halların aradan qalxdığı vaxtdan nikahı etibarlı hesab edə bilər. Bu səbəbdən iddiaçının valideynləri arasında bağlanmış nikahın 2004-cü il 19 iyun tarixində pozulması ilə mübahisələndirilən nikahın bağlanmasına mane olan hal aradan qalxmış, bununla da iddiaçının atası ilə cavabdeh arasında 1976-cı ildə 3 aprel tarixində rəsmiləşdirilmiş nikahı etibarlı hala gəlmişdir.

Bundan əlavə, apellyasiya instansiyası məhkəməsi qeyd etmişdir ki, iddiaçının atası ilə cavabdeh arasında bağlanmış nikahın etibarsızlığı istər cavabdehlə nikahından olan uşaqların, istərsə də iddiaçının anası ilə nikahından olan uşaqların hüquqlarına təsir etmir. Bu isə onu göstərir ki, iddiaçının etibarsızlığını tələb etdiyi nikah etibarsız sayılsa belə, digər övladların vərəsə olmaq hüququnu poza bilməz.

Kassasiya instansiyası məhkəməsi bu qiymətləndirmə ilə razılaşaraq, iddiaçının kassasiya şikayətini təmin etməmiş, apellyasiya instansiyası məhkəməsinin qətnaməsini dəyişdirmədən saxlamışdır.

**Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.*

2(1-8)-220/2026

23.02.2026-cı il Bakı şəhəri

Azərbaycan Respublikası adından

Azərbaycan Respublikası Ali Məhkəməsi
Mülki kollegiyasının

İddiaçının Cavabdehə (müstəqil tələb irəli sürməyən üçüncü şəxslər X1, X2, X3, X4, X5, X6 və X7) qarşı iş üzrə

Q Ə R A R I

(Açar sözlər: nikahın etibarsız hesab edilməsi, işə baxılan vaxtda etibarsızlıq halının aradan qalxması)

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyasının hakimləri Abbasov Aqil Əzizağa oğlu (məruzəçi hakim), Nurməmmədov Əhməd Güləhməd oğlu və Həsənov Rəşad Məhəmməd oğlundan ibarət tərkibdə,

İddiaçının Cavabdehə qarşı "nikahın etibarsız hesab edilməsi" tələbinə dair mülki iş üzrə Şirvan Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 17 noyabr 2025-ci il tarixli 2(106)-1740/2025 nömrəli qətnaməsindən İddiaçının kassasiya şikayətinə 23 fevral 2026-cı il tarixdə yazılı icraat qaydasında baxaraq, müəyyən etdi:

İş üzrə qəbul edilmiş məhkəmə aktları:

1. X8 ilə X9 arasında xx xx 1974-cü il tarixdə nikah bağlanmışdır. Nikah bağlandıqdan sonra ərə (arvada) XXX (a) soyadı verilmişdir. Bu nikah xx xx 2004-cü il tarixdə pozulub.
2. xx xx 1976-cı il təvəllüdlü İddiaçının, xx xx 1980-cı il təvəllüdlü X6nun və xx xx 1986-cı il təvəllüdlü X1nın atası X8, anası X9dur.
3. X8 ilə Cavabdeh arasında xx.xx.1976-cı ildə nikah bağlanmışdır. Nikah bağlanarkən XXX soyadını qəbul etmişdir.
4. X8 ilə X10 arasında olan xx xx 1992ci il tariuxli nikah bağlanmışdır. xx xx 2006-ci ildə *** saylı akt qeydi ilə pozulmuşdur.
5. X8 ilə X5 arasında olan xx xx 2007-ci il tarixli nikah bağlanmışdır. xx xx 2014-cü ildə, *** saylı akt qeydi ilə pozulmuşdur.
6. 29.09.2023-cü il tarixdə X8 vəfat etmişdir.

İş üzrə qəbul edilmiş məhkəmə aktları:

a)Birinci instansiya məhkəməsində icraat

7. İddiaçı (bundan sonra "iddiaçı") iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, atası X8 ilə Cavabdeh (bundan sonra "cavabdeh") arasında Masallı rayonu X kənd İcra Nümayəndəliyində rəsmiləşdirilmiş xx xx 1976-cı il tarixli nikahın etibarsız hesab edilməsi barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

8. İddia tələbi onunla əsaslandırılmışdır ki, xx xx 2023-cü il tarixdə vəfat etmiş X8 iddiaçının atasıdır. Belə ki, X8 xx xx 1974-cü il tarixdə X9 ilə nikaha daxil olmuş və onların birgə nikahından xx xx 1976-cı il tarixdə iddiaçı doğulmuşdur. İddiaçının anası X9 xx xx 2021-ci il tarixdə vəfat etmişdir. Hazırda cavabdeh məhkəmədə iddiaçıya qarşı iddia qaldırmaqla, mərhum atasından miras qalmış əmlaklara payların müəyyən edilməsinə dair qətnamə qəbul edilməsini xahiş etmişdir. Cavabdeh həmin iddiasını onunla əsaslandırmışdır ki, guya o, xx xx 1976-cı il tarixdə iddiaçının atası X8 ilə nikaha daxil olmuşdur və bu baxımdan o, atasının vərəsəsi hesab olunmalıdır. Cavabdehin irəli sürdüyü dəlillər tamamilə əsassız və qanunsuzdur. Belə ki, iddiaçının atası xx xx 1974-cü il tarixdən iddiaçının anası X9 ilə nikahda olduğu halda, həmin nikah pozulmadan xx xx 1976-cı il tarixdə iddiaçının atasının cavabdeh ilə nikaha girməsi tam mümkünsüz idi. Digər tərəfdən, cavabdeh ilə nikahının rəsmiləşdirilməsi zamanı X8in hər hansı bir ərizəsi, imzası və iradə ifadəsi mövcud olmamışdır. Həmin nikah cavabdehin istəyi əsasında birtərəfli qaydada qeydə alınmışdır. X8 xx xx 1974-cü il tarixdən iddiaçının anası X9 ilə nikahda olduğu halda, həmin nikahı pozulmadan xx xx 1976-cı il tarixdə X8la cavabdeh arasında rəsmiləşdirilmiş nikah (saxta nikah) etibarsız hesab edilməlidir. Belə ki, həmin nikah hazırki vəziyyətdə atası X8in birinci dərəcəli vərəsəsi olaraq iddiaçının hüquqlarını pozur.

9. Cavabdehin vəkili və nümayəndəsi ərizə ilə məhkəməyə müraciət edərək, mübahisəyə iddia müddətini tətbiq edilməsi, müddətin ötməsinə görə iddianın təmin

edilməməsi barədə qətnamə çıxarılmasını xahiş etmiş və bildirmişdir ki, hüquq münasibətləri yaranan zaman qüvvədə olan maddi hüquq normalar tətbiq edilməlidir. Həmin dövrdə iddia tələbi 3 il olmuşdur. Hazırda mübahisələndirilən əqd 1976-cı ildə bağlanmışdır. İddia müddəti ötürülmüşdür. Həmçinin nikahın bağlanması şəxsin öz iradə ifadəsi olmuşdur və X8 ölən günə kimi nikahda olmuşdur.

10. Masallı Rayon Məhkəməsinin 2(050)-1618/2025 saylı, 15 sentyabr 2025-ci il tarixli qətnaməsi ilə iddia təmin edilmiş, X8 ilə Cavabdeh arasında xx xx 1976-cı ildə Masallı rayon X icra nümayəndəliyində bağlanmış, ** nömrəli nikah akt qeydi bağlandığı gündən etibarsız hesab edilmişdir. **(hakim Zeynal Zeynalov)**

11. Birinci instansiya məhkəməsi hesab etmişdir ki, X8 cavabdeh ilə nikaha daxil olarkən X9 ilə nikahda olduğuna görə, X8 ilə cavabdeh arasında xx xx 1976-cı ildə Masallı rayon X icra nümayəndəliyində bağlanmış, ** nömrəli nikah akt qeydi bağlandığı gündən etibarsız hesab edilməlidir.

12. Cavabdehin iddia müddətinin tətbiq edilməsinə dair ərizəsinə münasibtədə birinci instansiya məhkəməsi qeyd etmişdir ki, iddiaçı mərhum atası X8 ilə cavabdeh arasında nikahın olmasını, ona qarşı Masallı Rayon Məhkəməsində vərəsəliyə dair iddia verildikdən sonra bilməsini bildirir. Həmin iddia Masallı Rayon Məhkəməsinə 29 noyabr 2024-cü il tarixdə daxil olmuşdur. Cavabdeh iddiaçıya onun mərhum atası X8 ilə cavabdeh arasında olan nikahın olmasını uzun illərdir məlum olmasını bildirsə də, bununla bağlı məhkəməyə heç bir sübut təqdim edilməmişdir. Beləliklə, hazırki iddia tələbi ilə bağlı iddia müddəti ötürülməmişdir.

13. Birinci instansiya məhkəməsi gəldiyi nəticəni Ailə Məcəlləsinin 12, 25.1, 25.2-ci, Mülki Məcəlləsinin 372.1, 372.2, 373.2, 375.2, 377.1-ci maddələri, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "R.Salamovun şikayəti ilə əlaqədar Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki işlər üzrə məhkəmə kollegiyasının 03 aprel 2007-ci il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair" 30 oktyabr 2007-ci il tarixli və "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 373-cü maddəsinin şərh edilməsinə dair" 27 dekabr 2001-ci il tarixli qərarlaına istinadla əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsində icraat

14. Cavabdeh apellyasiya şikayəti verərək, qətnaməsinin ləğv, iddia tələbinin rədd edilməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

15. Apellyasiya şikayətinin dəlillərinə görə, birinci instansiya məhkəməsi tərəfindən gəlinən nəticə üçün mühüm əhəmiyyəti olan bütün hallar araşdırılmamış, məhkəmə tərəfindən müəyyən olunmuş iş üçün əhəmiyyəti olan hallar sübut olunmamışdır.

16. Şirvan Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 17 noyabr 2025-ci il tarixli 2(106)-1740/2025 nömrəli qətnaməsi ilə apellyasiya şikayəti qismən təmin edilmiş, Masallı

Rayon Məhkəməsinin 2(050)-1618/2025 nömrəli, 15 sentyabr 2025-ci il tarixli qətnaməsi ləğv olunmuş, iş üzrə yeni qətnamə qəbul edilməklə, iddia təmin edilməmişdir. (hakimlər **Tofiq Heydərov (sədrlik edən və məruzəçi)**, İlham Əsədov, Pərviz Əhmədov)

17. Apellyasiya instansiyası məhkəməsi müəyyən etmişdir ki, X8 ilə X9 xx xx 1974-cü ildə Bakı şəhəri Binəqədi rayon qeydiyyat şöbəsində nikaha daxil olmuş və bu nikahın pozulması xx xx 2004-cü ildə qeydə alınmışdır. X8 və X9 ilə bağlanmış nikahı pozulmadan xx xx 1976-cı ildə Masallı rayonunun X icra nümayəndəliyində Cavabdeh ilə nikaha daxil olmuşdur. Beləliklə, araşdırma nəticəsində 1976-cı ildə Masallı rayonunun X icra nümayəndəliyi tərəfindən qanunvericiliyin tələblərinin pozulduğu, X8in nikahda olmasına

baxmayaraq onun digər şəxslə yeni nikaha daxil olduğu məlum olmuşdur. Nikahın qeydə alındığı vaxt qüvvədə olmuş Azərbaycan SSR Nikah və Ailə Məcəlləsinin tələblərinə əsasən ikisindən biri başqası ilə nikahda olan şəxslər arasında nikah bağlandıqda həmin nikah etibarsız sayıla bilər. Nikah məhkəmə qaydası ilə etibarsız hesab edilir (bu müddəalar hazırda qüvvədə olan Azərbaycan Respublikasının Ailə Məcəlləsində də nəzərdə tutulmuşdur).

18. Apellyasiya instansiyası məhkəməsi mübahisənin spesifikasını nəzərə alaraq hesab etmişdir ki, etibarsız hesab edilməsi tələb edilən nikah xx xx 1976-cı ildə bağlandığından mübahisəli hüquq münasibətinə həmin vaxt qüvvədə olan Azərbaycan SSRin Nikah və Ailə Məcəlləsinin və Azərbaycan SSR-in Mülki Məcəlləsinin müddəalarına uyğun hüquqi qiymət verilməlidir. Belə ki, MPM-in 217.2-ci maddəsinə əsasən qətnamə mübahisəli hüquq münasibətinin yarandığı zaman qüvvədə olan maddi hüquq normalarına və işin baxılması zamanı qüvvədə olan prosessual hüquq normalarına uyğun çıxarılmalıdır.

19. Apellyasiya instansiyası məhkəməsi işdə olan sübutlarla onu da müəyyən etmişdir ki, X8nun X9 ilə nikahlarından İddiaçı, X6 və X1 doğulmuşdur. Həmçinin X8in cavabdeh ilə 1972-ci ildən faktiki və xx xx 1976-cı ildə qeydə alınan rəsmi nikahlarından xx xx 1976- cı il təvəllüdlü X11, xx xx 1984-cü il təvəllüdlü X12, xx xx 1986-cı il təvəllüdlü X2, xx xx 1980-ci il təvəllüdlü X6, xx xx 1990-cı il təvəllüdlü X13, xx xx 1988-ci il təvəllüdlü X3, xx xx 2007-ci il təvəllüdlü X4 doğulmuşdur.

20. Göründüyü kimi X8lə cavabdehin nikahları xx xx 1976-cı ildə qeydə alınsa da, onların faktiki nikahlarından xx xx 1976-cı il təvəllüdlü X11 adlı uşağı doğulmuş, daha sonra isə rəsmi nikahlarından xx xx 1984-cü il təvəllüdlü X12, xx xx 1986-cı il təvəllüdlü X2, xx xx 1980-ci il təvəllüdlü X6, xx xx 1990-cı il təvəllüdlü X13, xx xx 1988-ci il təvəllüdlü X3, xx xx 2007-ci il təvəllüdlü X4 doğulmuşdur. Bu isə onu göstərir ki, iddiaçının iddia etdiyi kimi X8 ilə X9 arasında rəsmi nikah münasibəti yaranmamışdan öncə əslində etibarsızlığı mübahisələndirdiyi cavabdeh ilə X8in ilk öncə faktiki, daha sonra isə rəsmi nikahı mövcud olmuş və həmin nikah kişi və qadının nikah ittifaqının könüllülüyü və iradə sərbəstliyi prinsipinə əsasən hər bir kişinin və qadının öz rəyi ilə könüllü surətdə, kənar şəxslərin təsiri olmadan özünə ər-arvad seçmək hüququnu təmin etməklə nikahın bağlanmasının əsas şərtinə əməl etmişlər.

21. Apellyasiya instansiyası məhkəməsi qeyd etmişdir ki, cavabdeh ilə nikah rəsmiləşdirilərkən əvvəlki nikahın mövcudluğundan cavabdehin məlumatı olmamışdır. Həmçinin sonradan bu nikahların mövcudluğunu bilən nə X9, nə cavabdeh, nə də ki, X8 mübahisəndirməmişlər. X8la X9nın birgə nikahlarından doğulan uşaqlardan yalnız iddiaçı nikahın etibarsızlığını mübahisələndirmiş, digər uşaqlar nikahın etibarsızlığı ilə bağlı hər hansı mübahisə açmamışlar.

22. Apellyasiya instansiyası məhkəməsi onu da vurğulamışdır ki, Konstitusiyada və beynəlxalq hüquqi aktlarda əks olunmuş nikah və ailə münasibətləri Ailə Məcəlləsi ilə tənzimlənir. Ailə Məcəlləsi Konstitusiyada nəzərdə tutulan əsas insan və vətəndaş hüquqlarına və azadlıqlarına uyğun olaraq ailə münasibətlərinin yaranmasının və möhkəmlənməsinin, onlara xitam verilməsinin prinsiplərini, ailə münasibətləri iştirakçılarının hüquq və vəzifələrini, dövlət orqanlarının bu sahədə vəzifələrini, həmçinin vətəndaşlıq vəziyyəti aktlarının qeydə alınması qaydalarını tənzimləyən normaları müəyyən edir. Analıq, atalıq, uşaqlıq qanunla mühafizə edilir. Ailə qanunvericiliyi ailənin möhkəmləndirilməsi zərurətindən, ailə münasibətlərinin qarşılıqlı məhəbbət və hörmət hissləri əsasında qurulmasından, ailənin işinə hər kəsin qarışmasının yolverilməzliyindən, ailə üzvlərinin ailə qarşısında qarşılıqlı yardım və məsuliyyətindən, onların hüquqlarının maneəsiz həyata

keçirilməsinin təmin olunmasından və bu hüquqların məhkəmədə müdafiəsi imkanlarından irəli gəlir. Kişi və qadının nikah ittifaqının konüllülük və iradə sərbəstliyi prinsipləri ilə yanaşı nikah və ailə münasibətlərinin hüquqi tənziminin yalnız dövlət tərəfindən həyata keçirilməsi, yalnız dövlət orqanlarında bağlanmış nikahın tanınması prinsipi də mühüm əhəmiyyət kəsb edir. Bu prinsipə görə yalnız müvafiq icra hakimiyyəti orqanında qeydə alınan nikah dövlət tərəfindən tanınır. Bu prinsip onu ifadə edir ki, nikah rəsmi qeydə alındıqdan sonra belə münasibətlərdən törənən hüquqi və sosial nəticələr dövlət üçün hüquqi fakt kimi qəbul olunur.

23. Hüquq münasibəti baş verən (hüquq münasibəti 1976-cı ildə baş vermişdir) vaxtı qüvvədə olan Azərbaycan SSR Ailə Məcəlləsində nikahın bağlanmasına maneə olan hallardan biri "ikisindən birinin başqası ilə nikahda olması" (Azərbaycan SSR Ailə Məcəlləsində Maddə 17). göstərilmişdir. Həmçinin həmin Məcəllənin 51-ci maddəsində nikaha daxil olmaq üçün maneçilik olduqda bağlanmış nikahın etibarsız hesab edilməsi üçün əsaslar müəyyən olunmuş, həmin əsaslardan biri isə "bu məcəllənin 17-ci maddəsində göstərilən hallar olduqda bağlanmış nikah etibarsız hesab edilə bilər" müddəası olmuşdur. Həmin maddədə həmçinin qeyd olunur ki, "işə baxılan vaxtadək nikahın bağlanmasına mane olan hallar aradan qalxdıqda, məhkəmə həmin halların aradan qalxdığı vaxtdan nikahı etibarlı hesab edə bilər." Bundan əlavə həmin maddənin tələbinə görə "bu əsaslara görə nikahın etibarsız hesab edilməsini ər-arvadın və həmin nikahın bağlanması ilə hüquqları pozulmuş şəxslərin, habelə qəyyumluq və himayə orqanlarının və ya prokurorun tələb etməyə ixtiyarı vardır".

24. Apellyasiya instansiyası məhkəməsinin mövqyinə görə hazırki mübahisə məhz iddiaçının Azərbaycan SSR Ailə Məcəlləsinin 51-ci maddəsinin tələbinə görə hüquqları pozulmuş şəxs kimi nikahın etibarsızlığını tələb etmək hüququnun həyata keçirilməsi ilə bağlıdır. Odur ki, ilk öncə iddiaçının bu hüququn sahibi kimi qəbul edilib-edilə bilməməsi halı üzrə hüquqi dəyərləndirmə aparılmalı daha sonra isə cavabdehin iddia tələbinə etirazı nəzərə alınmaqla iddiaçının iddia tələbində haqlı olub-olması müəyyən edilməlidir.

25. Azərbaycan SSR-in Nikah və Ailə Məcəlləsinin 17-ci maddəsində nikahın bağlanmasına yol verilməyən hallardan biri də, ikisindən biri başqası ilə nikahda olan şəxslər arasında bağlanması göstərilmişdir. İddiaçı da iddia tələbində atası X8in xx xx 1974-cü il tarixdə onun anası X9 ilə nikaha daxil olduğunu, atasının anası X9 ilə nikahda olduğu halda, xx xx 1976-cı il tarixdə cavabdeh ilə də nikaha daxil olduğunu, bu əsasla da həmin nikahın etibarsız sayılmasını tələb etmişdir.

26. Apellyasiya instansiyası məhkəməsinin fikrincə əvvəla, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 30 iyul 2008-ci il tarixli qərarında ifadə olunmuş hüquqi mövqelərə görə mülki mübahisənin qanuni həlli üçün işə baxan məhkəmə ilk növbədə iddia qaldırmış şəxsin müvafiq subyektiv hüquqa malik olub-olmamasını araşdırmalıdır.

27. Azərbaycan SSR-in Nikah və Ailə Məcəlləsinin 51-ci maddəsində qeyd edilmişdir ki, bu Məcəllənin 17-ci maddəsinə göstərilən hallar olduqda, bağlanmış nikah etibarsız hesab edilə bilər. İşə baxılan vaxtadək nikahın bağlanmasına mane olan hallar aradan qalxdıqda, məhkəmə həmin halların aradan qalxdığı vaxtdan nikahı etibarlı hesab edə bilər. Bu əsaslara görə nikahı etibarsız hesab edilməsini ər-arvadın və həmin nikahın bağlanması ilə hüquqları pozulmuş şəxslərin, habelə qəyyumluq və himayə orqanlarının və ya prokurorun tələb etməyə ixtiyarı vardır. Hazırkı işdə iddiaçı nikahın bağlanması ilə onun hüquqlarının pozulmasını bildirir və hesab edir ki, həmin nikah hazırki vəziyyətdə atası X8in birinci dərəcəli vərəsəsi olaraq onun hüquqlarını pozur.

28. İşin araşdırılmış hallarından müəyyən edilir ki, X8 ilə cavabdeh 1972-ci ildən faktik ər-arvad münasibətlərində olsalar da, onlar arasında nikah xx xx 1976-cı ildə rəsmiləşdirilmişdir. İddiaçının özünün də cavabdehin uşaqları ilə əlaqələri olmuşdur. İddiaçı mərhum atası X8in cavabdeh ilə nikahını onun sağlığında mübahisələndirməmiş, vərəsə kimi hüquqlarının pozulması ilə nikahın etibarsızlığını tələb etmiş, hesab etmişdir ki, nikah etibarsız hesab edilməsə, bu halda hər iki nikahdan olan uşaqlar vərəsə olaraq miras payı əldə edəcək. Bu isə onun vərəsə olaraq hüquqlarının pozulmasına səbəb olacaq.

29. Apellyasiya instansiyası məhkəməsi iddiaçının iddia tələbini əsaslandıran hallarla bağlı göstərmişdir ki, iddiaçı yuxarıda qeyd edilən maddənin tələbi baxımından hüququ pozulmuş şəxs kimi nikahın etibarsızlığını tələb etməyə subyektiv hüququ olan şəxs kimi qəbul edə bilməz. Çünki hüquq münasibəti baş verən vaxt qüvvədə olan Azərbaycan SSRin Nikah və Ailə Məcəlləsinin 53-cü maddəsinin tələblərinə görə nikahın etibarsız hesab edilməsi bu nikahdan doğulmuş uşaqların hüquqlarına təsir etmir. Qanunvericiliyin ər-arvad arasında nikahın etibarsız hesab edilməsi halında bu nikahdan doğulmuş uşaqların hüquqlarına təsir etməməsinin müəyyən edilməsində məqsədi ilk növbədə ailə dəyərlərinin qorunması, mülki dövriyyənin davamlılığını və fasiləsizliyini təmin etməklə hüquqi müəyyənliyi və hüquqi etimadı qorumaqdır. Bu isə mülki dövriyyəni formalaşdıran mülki hüquq münasibətlərindən irəli gələn hüquq və öhdəliklərin icrasına hüquqi etimadın təmin edilməsi sahəsində mümkün olur. İddiaçının hazırki iddianı irəli sürməkdə məqsədi (“əgər nikah etibarsız hesab edilməsə bu halda hər iki nikahdan olan uşaqlar vərəsə olaraq miras payı əldə edəcək”) ikinci nikahdan olan uşaqlara miras payı düşməməsidir. Halbuki qanunvericilik vərəsə olaraq miras payı almanı mülki dövriyyə iştirakçıları olan fiziki şəxslərin ölməsi halında sağ ikən qurmuş olduqları hüquqi münasibətlərdən əmələ gəlmiş hüquq və öhdəliklərin təyinatı üzrə həyata keçirilməsinə hüquqi şəraitin yaradılmasının təmin edilməsi üçündür. Başqa sözlə miras qoyanın sağlığında əldə etdiyi əmlak və digər maddi nemətlər ölümündən sonra onun iradəsinə uyğun olaraq ifadə etdiyi vərəsələrinə, iradə ifadə etmədiyi təqdirdə isə qanunla müəyyən edilən vərəsələrinə keçməsi kimi müəyyən etmişdir.

30. Hazırki mübahisədə iddiaçının çatmaq istədiyi məqsədin əksi olaraq miras qoyan olaraq X8 əldə etdiyi əmlakların hər hansı vərəsənin olması barədə iradə ifadəsi göstərməyərək həmin əmlakları qanunla müəyyən edilən vərəsələrə keçməsinə şərait yaratmaqla dəyər verdiyi övladlarının əmlak vəziyyətinin daha yaxşı olmasını arzulamışdır. Məhz bu səbəbdən də qanunvericilik “ikisindən biri başqası ilə nikahda olan şəxslər” arasında bağlanmış nikah etibarsız olduğu halda hər iki nikahdan olan uşaqlarının hüquqlarının pozulmasına o, cümlədən hazırkı iddianın verilməsinə səbəb olan miras paya vərəsə olmaq hüququnu qorumaqla müdafiə təminatına almışdır.

31. Göründüyü kimi X8 ilə cavabdeh arasında bağlanmış nikahın etibarsızlığı X8in istər cavabdeh ilə nikahından olan uşaqların hüquqlarına, istərsə də X9 ilə nikahından olan uşaqların hüquqlarına təsir etmir. Bu isə onu göstərir ki, iddiaçının etibarsız hesab edilməsini tələb etdiyi nikah etibarsız hesab edilsə belə, digər övladların vərəsə olmaq hüququnu poza bilməz. Belə olan halda qanunun yuxarıda qeyd edilən mövqeyi baxımından iddiaçının hüquqları pozulmuş şəxs kimi qəbul edilə bilməsi yuxarıda qeyd olunan maddi hüquq normalarının pozulmasına gətirib çıxara bilər. Halbuki prosessual qanunvericiliyin tələbinə görə bütün fiziki və hüquqi şəxslər özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədi ilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququna malikdirlər.

32. Apellyasiya instansiyası məhkəməsi onu da qeyd etmişdir ki, nikahın etibarsız hesab edilməsi həmin nikahdan doğulan uşaqların hüquqlarına təsir etməməsi Ailə Məcəlləsində qanundan irəli gələn şərt kimi göstərilmişdir. Bundan başqa, şəxsə hər hansı hüquq tanınırsa, bu hüququn həyata keçirilməsi qaydası da qanunla tənzimlənir. Şəxsin bu qaydaya riayət etmədən həmin qanundan kənara çıxıb hərəkət etməsi artıq şikayət vermək hüquqdan sui-istifadəyə yol açır. Başqa sözlə, hüquqdan məqsədi xaricində istifadə etmə ədalətsiz nəticənin yaranmasına gətirib çıxara bilər.

33. Apellyasiya instansiyası məhkəməsi vurğulamışdır ki, mülki mübahisənin qanuni həlli üçün işə baxan birinci instansiya məhkəməsi ilk növbədə iddia qaldırmış şəxsin müvafiq subyektiv hüquqa malik olub-olmamasını, iddiaçının öz hərəkətlərinə hüquqi ixtiyar; başqa (borclu) şəxslərdən tələb etmək hüququ; müdafiə hüququ, yəni başqa şəxslərdən tələb etmək hüququnun olub-olmaması əvəzinə yuxarıda qeyd olunan prosessual normaların tələblərini pozaraq, iddiaçının hazırki iddianı irəli sürməyə subyektiv hüququn sahibi kimi qəbul etmiş, nəticədə hüquq münasibətinin baş verdiyi maddi hüquq normalarının tələblərini pozaraq 28 dekabr 1999-cu ildən qüvvədə olan normalarını tətbiq etməklə qanunsuz və əsassız qətnamə qəbul etmişdir.

34. Apellyasiya instansiyası məhkəməsi hüquq münasibəti baş verən vaxt qüvvədə olan Azərbaycan SSR-nin Nikah və Ailə Məcəlləsinin “ikisindən biri başqası ilə nikahda olan şəxslər” arasında bağlanması nikah etibasız hesab olunması ilə bağlı iddia tələbi üzrə hüquqi dəyərləndirmə apararaq qeyd etmişdir ki, Azərbaycan SSR-nin Nikah və Ailə Məcəlləsinin 17-ci maddəsində nikahın bağlanmasına yol verilməyən hallardan biri də, ikisindən biri başqası ilə nikahda olan şəxslər arasında bağlanması göstərilmişdir. İddiaçı da iddia tələbində iddia edir ki, atası X8in xx xx 1974-cü il tarixdə onun anası X9 ilə nikaha daxil olduğunundan, xx xx 1976-cı il tarixdə cavabdeh ilə də nikaha daxil ola bilməzdi. Buna görədə bu nikah etibarsız nikahdır.

35. Azərbaycan SSR-nin Nikah və Ailə Məcəlləsinin 51-ci maddəsinin 2-ci hissəsinə əsasən işə baxılan vaxtadək nikahın bağlanmasına mane olan hallar aradan qalxdıqda, məhkəmə həmin halların aradan qalxdığı vaxtdan nikahı etibarlı hesab edə bilər. Hazırkı işdə də müəyyən edilir ki, X8 ilə X9 xx xx 1974-cü ildə Bakı şəhəri Binəqədi rayon qeydiyyat şöbəsində nikaha daxil olmuş və bu nikahın pozulması xx xx 2004-cü ildə qeydə alınmışdır. Göründüyü kimi Azərbaycan SSR-nin Nikah və Ailə Məcəlləsinin tələbi baxımından başqası ilə nikahda olan şəxslə bağlanan nikah etibarsız sayılsa da, həmin nikahın etibarsız sayılmasına səbəb olan X8 ilə X9 arasında bağlanmış nikah xx xx 2004-cü ildə pozulması ilə, nikahın bağlanmasına mane olan hallar aradan qalxmış və X8 ilə cavabdeh arasında olan və xx xx 1976-cı ildə rəsmiləşdirilmiş nikah etibarlı hala gətirilmişdir. Başqa sözlə, xx xx 2004-cü ildən X8 ilə cavabdeh arasında nikahın etibarsızlığı üçün maneə hesab edilən şərtlər aradan qalxmış və nikahın etibarlı hesab edilməsi üçün qanuni əsaslar yaranmışdır. Belə ki, X8 ilə cavabdeh arasında nikah etibarlı hala gətirildikdən sonra da, ailə münasibətləri mərhum X8in vəfat etdiyi xx xx 2023-cü il tarixə kimi davam etmiş, onun vəfatı və dəfni də, məhz birgə ər-arvad kimi yaşadığı, birgə təsərrüfat apardığı Masallı rayonu X kəndində ailə üzvlərinin iştirakı ilə həyata keçirilmişdir.

36. Apellyasiya instansiyası məhkəməsi cavabdehin vəkili və nümayəndəsinin tərəflər arasında bağlanmış nikahın tarixindən 39 il keçməsi, bu səbəbdən iddia müddətinin ötürülməsi barədə dəlillərini əsassız diqqətə çatdırmışdır ki, dövlət təknikahlılıq prinsipindən çıxış edərək tərəflərdən birinin başqa şəxslə dövlət qeydiyyatına alınmış nikahda olduğu halda başqa bir

nikahın bağlanmasını qadağan edir, hətta belə nikah bağlanmış olsa belə, onun məhkəmə qaydasında etibarsız sayılmasını nəzərdə tutur. Belə ki, təknikahlılıq prinsipinə görə şəxs eyni zamanda dövlət qeydiyyatına alınmış bir nikahda ola bilər. Qüvvədə olan Ailə Məcəlləsinin 8.1-ci maddəsinə əsasən pozulmuş hüquqların müdafiəsi üçün bu Məcəllədə müəyyən olunmuş müddətlər istisna olmaqla, ailə münasibətlərindən irəli gələn tələblərə iddia müddəti şamil olunmur. Nikahın etibarsızlığı ilə mübahisə ailə münasibətlərindən irəli gəldiyindən hazırkı mübahisəyə iddia müddəti tətbiq edilə bilməz.

37. Apellyasiya instansiyası məhkəməsi gəldiyi nəticəni Azərbaycan SSR-in Nikah və Ailə Məcəlləsinin 17, 48, 49, 51, 53-cü, 1964-cü il Mülki Məcəlləsinin 111-125, 532-ci və Mülki Prosessual Məcəllənin 217.2-ci maddələrinə istinadla əsaslandırmışdır.

Kassasiya şikayətinin və ona etirazın dəlilləri a)Kassasiya şikayətinin dəlilləri

38. İddiaçı kassasiya şikayəti verərək, apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv, iddia tələbinin təmin edilməsi haqqında qərar qəbul edilməsini xahiş etmişdir.

39. Kassasiya şikayəti onunla əsaslandırılmışdır ki, apellyasiya instansiyası məhkəməsi iş üçün əhəmiyyətli olan halları kifayət qədər araşdırmamış, işin faktiki hallarını tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırmamış, iş üzrə faktları həqiqətə uyğun olmayan istiqamətdə təhrif etmiş, tətbiq etdiyi maddi və prosessual hüquq normalarını düzgün tətbiq və təfsir etməmiş, maddi və prosessual hüquq normaların pozulması ilə müşayiət olunan qətnamə qəbul etmişdir. Belə ki, X8nun xx xx 1992-ci ildən xx xx 2006-cı il tarixədək X10 ilə, xx xx 2007-ci ildən xx xx 2014-cü il tarixədək isə X5 ilə rəsmi nikahda olmaları apellyasiya instansiyası məhkəməsi tərəfindən qətnamə qəbul edilərkən nəzərə alınmamışdır. Bundan əlavə, iddiaçı atasının vəfat etməsinə qədər onun cavabdeh ilə rəsmi və ya qeyri-rəsmi nikahının olmasını bilməmişdir. Bütün bu illər ərzində cavabdeh özünü rəsmi arvad kimi aparmamış və heç bir yerdə bu haqda danışmamışdır, belə ki, atası anası X9 ilə boşandıqdan sonra 2 dəfə rəsmi evlənmişdir. Həqiqətən onların arasında göstərilən 1976-cı il tarixli nikah olsa idi, cavabdehin nə üçün buna etiraz etməməsi bu nikaha dair haqlı şübhələr yaradır. İddiaçı əmindir ki, bu nikahın olmasından heç atası X8in özünün də xəbəri olmamış, atası X8in cavabdeh ilə nikahının rəsmiləşdirilməsi zamanı hər hansı bir ərizəsi, imzası və iradə ifadəsi mövcud olmamışdır. Həmin nikah cavabdehin istəyi əsasında birtərəfli qaydada qeydə alınmışdır. Eyni zamanda X8in 1974-cü ildən rəsmi nikahda olması və onun pasportunda evli olduğuna dair müvafiq orqanın möhürünün olmasına görə bu nikahı qeydə alan orqanın belə səhv etməsi ağlabatan deyil.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

40. Kassasiya şikayətinə qarşı etiraz təqdim olunmamışdır.

Tətbiq edilən hüquq

Azərbaycan SSR-in Nikah və Ailə Məcəlləsi

Maddə 17. Nikahın bağlanmasına aşağıdakı hallarda yol verilmir:

İkisindən biri başqası ilə nikahda olan şəxslər arasında.

Maddə 48. Nikah, bu məcəllənin 15-17-ci maddələrinin müəyyən edilmiş şərtləri pozulduqda, habelə ailə qurmaq niyyəti olmadan nikah bağlandığı hallarda (saxta nikah), etibarsız sayıla bilər.

Maddə 49. Nikah məhkəmə qaydası ilə etibarsız hesab edilir.

Maddə 51. Bu məcəllənin 17-ci maddəsinə göstərilən hallar olduqda, bağlanmış nikah etibarsız hesab edilə bilər.

İşə baxılan vaxtadək nikahın bağlanmasına mane olan hallar aradan qalxdıqda, məhkəmə həmin halların aradan qalxdığı vaxtdan nikahı etibarlı hesab edə bilər.

Bu əsaslara görə nikahı etibarsız hesab edilməsini ər-arvadın və həmin nikahın bağlanması ilə hüquqları pozulmuş şəxslərin, habelə qəyyumluq və himayə orqanlarının və ya prokurorun tələb etməyə ixtiyarı vardır.

Maddə 53. Etibarsız hesab edilən nikah bağlandığı vaxtdan etibarsız sayılır. Bu maddənin dördüncü və beşinci hissələrində nəzərdə tutulmuş hallar istisna edilməklə, belə nikahda olan şəxslərin heç bir ər-arvad hüququ və vəzifəsi yaranmır.Etibarsız hesab edilən nikahda olmuş şəxslərin birlikdə əldə etdikləri əmlaka Azərbaycan SSR Mülki Məcəlləsinin 111-125-ci maddələrinin qaydaları tətbiq olunur.Nikahın etibarsız hesab edilməsi bu nikahdan doğulmuş uşaqların hüquqlarına təsir etmir.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi

Maddə 14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

Maddə 77.1. Hər bir tərəf öz tələblərinin əsası kimi istinad etdiyi halları sübut etməlidir.

Maddə 407.2. Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir.

Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

Maddə 416.2. Apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 418.4-cü maddəsində nəzərdə tutulmuş prosessual hüquq pozuntusu hesab edilən hallara yol verilməsi şikayətin hədlərindən və dəlillərindən asılı olmayaraq yoxlanılmalıdır.

Maddə 417.1.1. Kassasiya məhkəməsi işə baxarkən apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadını dəyişiklik edilmədən, şikayəti təmin etmədən saxlaya bilər.

Maddə 417.1.2. Kassasiya məhkəməsi işə baxarkən apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadına dəyişiklik edə bilər.

Maddə 417.1.3. Kassasiya məhkəməsi işə baxarkən apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadını qismən ləğv edə və ya tamamilə, yaxud qismən ləğv edib işi yenidən baxılmaq üçün apellyasiya instansiyası məhkəməsinə göndərə bilər.

Maddə 417.1.4. Kassasiya məhkəməsi işə baxarkən apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadını tamamilə, yaxud qismən ləğv edib apellyasiya instansiyası məhkəməsində müəyyən edilmiş hallar və sübutlar əsasında yeni qərar qəbul edə bilər.

Maddə 418.1. Maddi və prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması, o cümlədən maddi və prosessual hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması apellyasiya instansiyası məhkəməsinin qətnamə və qərardadının ləğv edilməsi üçün əsasdır.

Maddə 418.3. Prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması qətnamənin yaxud qərardadın ləğv edilməsi üçün o vaxt əsas ola bilər ki, bu pozuntu düzgün qətnamə qəbul edilməməsi ilə nəticələnsin və ya nəticələnə bilsin.

Maddə 420. Kassasiya instansiyasında işə baxan məhkəmənin qərarında şərh edilən göstərişlər həmin işə yenidən baxan məhkəmə üçün məcburidir.

Kassasiya baxışının hədləri

41. Kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

42. Kassasiya şikayətində qətnamə tam mübahisələndirildiyi üçün məhkəmə kollegiyası qətnaməni tam yoxlayır.

43. Məhkəmə kollegiyası hüququn inkişafının və ya məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi üçün əhəmiyyətli hesab etmədiyindən hazırki şikayətə yazılı icraat qaydasında baxılmasını qərara almışdır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

44. Məhkəmə kollegiyası hesab edir ki, apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi hüquq normaları düzgün tətbiq olunmuşdur. İş üzrə düzgün qətnamə qəbul edilməməsi ilə nəticələnən prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması halları müəyyən edilmir. Bu baxımdan, apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv olunması və ya dəyişdirilməsi üçün əsas yoxdur.

45. Apellyasiya instansiyası məhkəməsi iddia tələbi və apellyasiya şikayəti üzrə qanuni nəticəyə gəlmişdir.

46. İddia tələbi iddiaçının atası ilə cavabdehin xx xx 1976-cı ildə bağlanmış nikahının etibarsız hesab edilməsi barədədir. İddiaçı tələbinin əsası kimi atası X8 ilə X9 (iddiaçının anası) arasında 15 sentyabr 1974-cü il tarixdə nikah bağlanmasına, həmin nikah qüvvədə ola-ola, cavabdehlə nikah bağlanmasının mümkünsüzlüyünə istinad etmişdir.

47. İşin apellyasiya instansiyası məhkəməsi tərəfindən müəyyən edilən halına görə isə iddiaçının valideynləri olmuş X8 ilə X9 xx xx 1974-cü ildə Bakı şəhəri Binəqədi rayon qeydiyyat şöbəsində nikaha daxil olsalar da, bu nikahın pozulması xx xx 2004-cü ildə Bakı şəhəri Xətai rayon qeydiyyat şöbəsində qeydə alınmışdır.

48. Başqa sözlə, müəyyən edilmişdir ki, xx xx 2004-cü ildən X8 ilə cavabdeh arasında nikahın etibarsızlığı üçün maneə hesab edilən şərtlər aradan qalxmış və nikahın etibarlı hesab edilməsi üçün qanuni əsaslar yaranmışdır. Üstəlik, o da müəyyən edilib ki, X8 ilə cavabdeh arasında nikah etibarlı hala gətirildikdən sonra da, ailə münasibətləri mərhum X8in vəfat etdiyi xx xx 2023-cü il tarixə kimi davam etmiş, onun vəfatı və dəfni də, məhz birgə ər-arvad kimi yaşadığı, birgə təsərrüfat apardığı Masallı rayonu X kəndində ailə üzvlərinin iştirakı ilə həyata keçirilmişdir.

49. Nəzərə alansa ki, hüquq münasibətlərinin yarandığ zaman tətbiq edilən Azərbaycan SSR-nin Nikah və Ailə Məcəlləsinin 51-ci maddəsinin 2-ci hissəsinə əsasən işə baxılan vaxtadək nikahın bağlanmasına mane olan hallar aradan qalxdıqda, məhkəmə həmin halların aradan qalxdığı vaxtdan nikahı etibarlı hesab edə bilər, belə olan halda hazırkı iş üzrə də

apellyasiya instansiyası məhkəməsinin həmin normaya əsasən X8 ilə X9 arasında bağlanmış nikahın xx xx 2004-cü ildə pozulması ilə hazırda mübahisələndirilən nikahın bağlanmasına mane olan halların aradan qalxması və X8 ilə cavabdeh arasında olan xx xx 1976-cı ildə rəsmiləşdirilmiş nikahın etibarlı hala gətirilməsi ilə bağlı gəldiyi nəticə düzgün olmuşdur.

50. Bu baxımdan, məhkəmə kollegiyası apellyasiya instansiyası məhkəməsinin gəldiyi nəticə ilə razılaşır.

51. Məhkəmə kollegiyası qeyd edir ki, apellyasiya məhkəməsi iddia tələbi üzrə ətraflı hüquqi dəyərləndirmə aparmış, tələb üzrə işin faktiki hallarını işdəki sübutlarla müəyyənləşdirərək düzgün hüquqi nəticəyə gəlmiş, maddi və prosessual hüquq normasının tətbiqində səhvə yol verməmiş, sübutları MPM-in 88-ci maddəsinin tələblərinə uyğun olaraq düzgün qiymətləndirmiş, nəhayət, qanuni və əsaslı qətnamə qəbul etmişdir.

52. Buna görə də hazırda qiymət verilməli olan məsələ kassasiya şikayətinin dəlilləridir.

53. Kassasiya şikayətinin dəlillərinə gəldikdə, əsasən bu dəlillər iddia ərizəsinin dəlilləri ilə eynilik təşkil edir. Məhz həmin dəlillərə də apellyasiya instansiyası məhkəməsi qiymət verməklə, onları qəbul etməyib.

54. Məhkəmə kollegiyası apellyasiya instansiyası məhkəməsinin həmin qiymətlənirməsi ilə razılaşdığı üçün kassasiya şikayətinin dəlilləri ilə bağlı əlavə şərhə zərurət görmür.

55. Məhkəmə kollegiyası qeyd olunanlara əsasən belə qənaətə gəlir ki, kassasiya şikayəti təmin olunmamalı, apellyasiya instansiyası məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmalıdır.

56. Yuxarıda göstərilənləri və Mülki Prosessual Məcəllənin 416, 417 və 419-cu maddələrini rəhbər tutaraq, məhkəmə kollegiyası

Qərara aldı:

İddiaçının kassasiya şikayəti təmin edilməsin.

Şirvan Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 2(106)-1740/2025 nömrəli, 17 noyabr 2025-ci il tarixli qətnaməsi dəyişdirilmədən saxlanılsın.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

Əmək mübahisələri

51. 2(102)-3249/2023 nömrəli, 2023-cü il 31 oktyabr tarixli qərar - Müəssisənin mülkiyyətçisinin dəyişməsi ilə əlaqədar əmək müqaviləsinə xitam verilməsi qaydası

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: müəssisənin mülkiyyətçisinin dəyişməsi ilə əlaqədar əmək müqaviləsinə xitam verilməsi qaydası.
Əmrin ləğvi, icra sənədinin icrasına maneənin aradan qaldırılması.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Konstitusiya Məhkəməsinin 9 mart 2000-ci il tarixli qərarındakı hüquqi mövqelər baxımından analoji qaydada belə nəticəyə gəlmək olar ki, müəssisənin bir neçə mülkiyyətçisi olduqda onun əmlakı üzərində 51 faiz paya malik olan mülkiyyətçi dəyişdikdə, bu əsasla əmək müqaviləsinə xitam vermək hüququ yaranır.

Hər hansı müəssisədə mülkiyyət paylarının bölgüsündə 51 faizə sahib mülkiyyətçi olmadıqda isə (məsələn: paylar 20, 30, 40 faiz şəklində bölünübsə), mülkiyyətçilərdən birinin dəyişməsi halında bu hüquq yaranmır. Əks yanaşma əmək qanunvericiliyinin vəzifə və prinsiplərinə zidd olmaqla, işçi hüquqlarının müdafiəsi, daimi əməyə olan etimadın qorunması baxımından ədalətli olmazdı (məsələn: minlərlə səhmdarı olan səhmdar cəmiyyətində bir səhmdarın dəyişməsinin müəssisənin mülkiyyətçisinin dəyişməsi anlamına gəlməsi həm praktiki, həm də hüquqi baxımından doğru olmazdı). Lakin qeyd olunan bölgü halında (20, 30, 40 faiz) mülkiyyət paylarının 51 faizindən çoxuna sahib olan bir neçə mülkiyyətçi və ya bütün mülkiyyətçilər dəyişdikdə, bu hal Əmək Məcəlləsinin 68-ci maddəsinin “ç” bəndi baxımından müəssisənin mülkiyyətçisinin dəyişməsi anlamına gəlməklə, həmin şəxslərə yeni mülkiyyətçilər kimi birlikdə qərar qəbul etməklə bu hüquqdan istifadə etmək, yəni Əmək Məcəlləsinin 63-cü maddəsini tətbiq etmək imkanı verir.

Məhkəmə kollegiyası hesab etmişdir ki, “XBank” ASC-nin təsisçilərindən mühüm paya malik olan səhmdar A-nın payının 51 faizdən artıq hissədə dəyişməsi, həmçinin yeni səhmdar B-nin təsisçilər sırasına daxil olması bankın mülkiyyətçilərinin də dəyişməsini ehtiva edir. Mülkiyyətçilərin dəyişməsi ilə əlaqədar yeni mülkiyyətçilərin 25.07.2022-ci il tarixli qərarı və işəgötürənin müvafiq əmrinə əsasən iddiaçı ilə olan əmək münasibətlərinə xitam verilmişdir. Göründüyü kimi iddiaçı bağlanmış əmək müqaviləsinə mülkiyyətçinin dəyişməsi əsası ilə xitam verilmişdir. Odur ki, 26.07.2022-ci il tarixli 113/A saylı əmr əsaslı olmaqla, həmin əmrin ləğv edilməsi üçün hüquqi əsaslar yoxdur.

Kassasiya instansiyası məhkəməsinin qərarı Mülki Məcəllənin 43.1, 53.1, 53.2, 53.3, 99.1, 106-1.1, Əmək Məcəlləsinin 2, 3, 3, 35.2, 63, 68, (1-ci hissə), (2-ci hissə “ç” bəndi) və 83-cü (1-ci hissə) maddələrinə istinadla əsaslandırılmışdır.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-3249/2023

31.10.2023-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi
Mülki Kollegiyasının

İddiaçının cavabdehə qarşı iddiası ilə bağlı mülki iş üzrə

Q Ə R A R I

İş № 2(102)-3249/2023

(Açar sözlər: müəssisənin mülkiyyətçisinin dəyişməsi ilə əlaqədar əmək müqaviləsinə xitam verilmə; əmrin ləğvi, icra sənədinin icrasına maneənin aradan qaldırılması)

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyası, hakimlər Babayev Zəki Baba oğlu (məruzəçi), Nurməmmədov Əhməd Güləhməd oğlu və Hüseynov Abiddin Qabil oğlundan ibarət tərkibdə,

iddiaçının cavabdehə qarşı "icra sənədinin icrasına maneə yaradan qanunsuz əmrin ləğvi" tələbinə dair iddiası ilə bağlı mülki iş üzrə Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 2(103)-2588/2023 nömrəli, 05 may 2023-cü il tarixli qətnaməsindən cavabdeh (vəkil) tərəfindən verilmiş kassasiya şikayətinə 31 oktyabr 2023-cü il tarixdə Ali Məhkəmənin inzibati binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları:

1. Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 2(006)-4149/2020 nömrəli, 15 sentyabr 2020-ci il tarixli qətnaməsinə əsasən, iddiaçının cavabdehə qarşı "müddətli əmək müqavilələrinin etibarsızlığı, əmək müqaviləsinin müddətsiz hesab edilməsi, işə bərpa, xəstəlik vərəqəsi üzrə ödənişin, məcburi iş buraxma müddəti günləri üçün əmək haqqının, maddi və mənəvi ziyanın ödənilməsi" tələbinə dair iddia ərizəsi qismən təmin edilmiş, iddiaçı ilə cavabdeh arasında bağlanmış əmək müqaviləsinə Azərbaycan Respublikası Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin "b" bəndinə əsasən xitam verilməsi haqqında 01.07.2020-ci il tarixli ***/* saylı əmri və əmrə əsasən ******* saylı əmək kitabçasının 27-ci səhifəsindəki 29-cu qeyd nömrəsi ilə yazılmış "Azərbaycan Respublikası Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin "b" bəndinə əsasən (əmək müqaviləsinin müddətinin qurtarması) əmək müqaviləsinə xitam verilsin" qeydinin etibarsız sayılması, iddiaçının əvvəlki işinə bərpa edilməsi, ona 01.07.2020-ci il tarixdən işə bərpa olunduğu günədək məcburi iş buraxma müddəti üçün əmək haqqı və əmək qabiliyyətinin olmaması vərəqəsi üzrə xəstə olduğu müddətdə xəstəlik vərəqəsi üzrə ödənilməli olan məbləğin ödənilməsi iddianın qalan hissədə rədd edilməsi qət olunmuşdur.

2. Bakı Apellyasiya Məhkəməsinin 2(103)-9642/2021 nömrəli, 08 oktyabr 2021-ci il tarixli qətnaməsinə əsasən iddiaçı tərəfindən verilmiş apelyasiya şikayəti qismən təmin edilmiş, iş üzrə Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 2(006)-4149/2020 nömrəli, 15 sentyabr 2020-ci il tarixli qətnaməsinin iddianın təmin edilməyən-əmək müqaviləsinin müddətsiz bağlanmış hesab edilməsi hissəsində ləğv edilməsi və həmin hissədə iddia tələbinin təmin edilməsi, tərəflər arasında bağlanılmış əmək müqaviləsinin müddətsiz bağlanılmış hesab edilməsi qət olunmuşdur.

3. 19.04.2022-ci il tarixli icraata başlamaq haqqında qərara əsasən Bakı şəhəri Yasamal rayon İcra Şöbəsinin icra məmuru X1 tərəfindən Bakı Apellyasiya Məhkəməsinin 2(103)-9642/2021 nömrəli, 08 oktyabr 2021-ci il tarixli icra sənədi üzrə icraata başlanılması qərara alınmışdır.

4. 29.04.2022-ci il tarixdə bankın səhmdarları səhmlərinin alqı-satqısı nəticəsində dəyişmiş, bu barədə Qiymətli kağız mülkiyyətçilərinin reyestrində qeydiyyat aparılmış, 16.05.2022-ci il tarixdə kommersiya qurumlarının dövlət reyestr məlumatlarında dəyişikliklər edilmiş, cavabdehin səhmlərinin satılması ilə əlaqədar olaraq təsisçilərin nizamnamə kapitalındakı paylarının miqdarında dəyişikliklər edilərək əvvəlki təsisçilər "X2" QSC-95,6759 %, "X3" MMC-0,0991 % və X4-4,225 % dəyişilmiş, yeni təsisçilər və onların nizamnamə kapitalındakı payları "X3" MMC-0,0991 %, X5 – 0,9568 % və X4 98,9441 % müəyyən edilmiş və bununla bağlı cavabdehə çıxarış verilmişdir.

5. Cavabdehin 26.07.2022-ci il tarixli ***/* nömrəli əmək müqaviləsinə xitam verilməsi haqqında əmrinə əsasən cavabdehin "28 May" Filialının (keçmiş "8 saylı" Filial) Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin "ç" bəndinə əsasən (müəssisənin mülkiyyətçisinin dəyişməsi ilə əlaqədar) iddiaçı tutduğu vəzifədən azad edilmiş və onunla bağlanılmış əmək müqaviləsinə 26 iyul 2022-ci il tarixindən xitam verilmişdir.

İş üzrə qəbul edilmiş məhkəmə aktları.

Birinci instansiya məhkəməsində icraat:

6. İddiaçı cavabdehə qarşı “icra sənədinin icrasına maneə yaradan qanunsuz əmrin və qərarların ləğvi, icra sənədini icra etmək öhdəliyinin cavabdehin üzərinə qoyulması” tələbinə dair iddia ərizəsi ilə Bakı şəhəri Yasamal Rayon Məhkəməsinə müraciət edərək, Əmək Məcəlləsinin 68-ci maddəsinin “ç” bəndinə əsasən, “müəssisənin mülkiyyətçisinin dəyişməsi” ilə əlaqədar 08.06.2018-ci il tarixli əmək müqaviləsinə xitam verilməsi barədə 26.07.2022-ci il tarixli ***/* saylı əmrin ləğv edilməsi və icra sənədinin icrasına cavabdeh tərəfindən yaradılan maneələrin aradan qaldırılması və icra sənədinin icra edilməsinə dair cavabdehin üzərinə öhdəliyin qoyulması barədə qətnamə qəbul olunmasını xahiş etmişdir.

7. İddiaçı iddia tələbini onunla əsaslandırmışdır ki, cavabdeh ilə aralarında bağlanmış 31.05.2013-cü il tarixli *** saylı əmək müqaviləsinə və eyni tarixli *** “*” saylı əmrə əsasən, iddiaçı cavabdehdə “8 saylı" filialın müdir müavini vəzifəsinə işə qəbul edilmişdir. 22.05.2017-ci il tarixli **/* “*” saylı əmr ilə, o “8 saylı” filialın müdiri vəzifəsinə təyin edilmişdir. Cavabdeh tərəfindən 04.06.2018-ci il tarixli **/* saylı əmr ilə əmək müqaviləsinə qanunsuz olaraq xitam verilmişdir. 03.06.2018-ci il tarixində Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 45.5ci maddəsinə əsasən 03.06.2013-cü il tarixli *** saylı əmək müqaviləsi müddətsiz hesab olunmuşdur. Daha sonra 08.06.2018-ci il tarixli **/* saylı əmrlə müddətli əmək müqaviləsi olmaqla o, yenidən filial müdiri vəzifəsinə təyin edilmişdir. Həmin hadisələrdən sonra isə cavabdehin rəhbərliyi tərəfindən qərəzli münasibətlə qarşılaşmış və 01.07.2020-ci il tarixli, tamamilə əsassız ***/* saylı əmrlə onun əmək müqaviləsinə xitam verilmişdir. Həmin əmrin ləğv edilməsi və əmək müqaviləsinin müddətsiz hesab edilməsi tələbinə dair Bakı Apellyasiya Məhkəməsinin 2(103)-9642/2021 nömrəli, 08.10.2021-ci il tarixli qətnaməsi ilə iddia üzrə apellyasiya şikayətinin qismən təmin edilməsi, Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 15.09.2020-ci il tarixli 2(006)-4149/2020 saylı iş üzrə qətnaməsinin iddianın təmin edilməyən-əmək müqaviləsinin müddətsiz bağlanmış hesab edilməsi hissəsində ləğv edilməsi və həmin hissədə iddia tələbinin təmin edilməsi, cavabdeh ilə bağlanmış əmək müqaviləsinin müddətsiz bağlanılmış hesab olunması qət edilmişdir. Qətnamə qanuni qüvvəsini aldıqdan sonra 16.04.2022-ci il tarixində icraya yönəlmişdir. Sözügedən icra sənədi “İcra haqqında” Azərbaycan Respublikasının Qanununun 70.2-ci maddəsinə əsasən, dərhal icra edilməli olduğu halda Yasamal rayon İcra Şöbəsinin icra məmuru X1 tərəfindən qətnamənin könüllü icrası üçün borcluya qanunsuz olaraq 10 gün vaxt verilmişdir. Lakin cavabdehin rəhbərliyi Azərbaycan Respublikası adından çıxarılmış qətnamənin tələblərini hazırkı tarixədək heç bir əsas olmadan icra etməmiş və süründürməçiliyə yol vermişdir. Həmçinin, həmin icra sənədi üzrə cavabdeh icra sənədini icra etməməkdən ötrü süni maneələr yaradır və əsas insan və əmək hüquqlarını kobud surətdə pozur. Bu əsas insan və əmək hüquqlarını kobud surətdə pozmuşdur. Bakı Apellyasiya Məhkəməsinin 2(103)-9642/2021 nömrəli qətnaməsi 08.10.2021-ci il tarixində qət olunmuşdur. Məhkəmə aktı 15.03.2022-ci il tarixində öz qanuni qüvvəsini almış və 16.04.2022-ci il tarixində icraya yönəlmişdir. “İcra haqqında" Azərbaycan Respublikasının Qanununun 8.2-ci maddəsinə əsasən, onun tərəfindən verilmiş 10 gün müddətdə borclu cavabdeh icra sənədində olan tələbləri könüllü surətdə qismən təmin etmişdir. Ona ödənilməli olan məcburi işburaxma müddəti üçün ödənilməmiş əmək haqqı hesabına qismən köçürülmüşdür. Lakin o, öz işinə, əvvəlki vəzifələrinin icrasına buraxılmamışdır. Borclu cavabdeh tərəfindən 04.05.2022-ci il və digər tarixli məktublarla “8 saylı” Filialın mövcud olmaması səbəbi əsas gətirilərək onun həmin filiala yox, “3 saylı” Filiala işə bərpa olunmağı təklif olunmuşdur. Borclu cavabdeh tərəfindən ona ünvanlanan məktublarda təklif olunan iş “8 saylı” Filialın işçi tərkibi, müştəri bazası, əmanət və kredit portfelləri ilə uyğun olmadığı və aralarında ciddi fərqlər olduğu, eyni zamanda qətnamənin tələblərinə uyğun olmadığı üçün onun tərəfindən imtina edilmişdir. Sonradan ona məlum olmuşdur ki, cavabdeh tərəfindən icra sənədinin icrasını uzatmaq və qətnamənin tələblərindən yayınmaq məqsədilə məhkəmə prosesi dövründə, 14.06.2021-ci il tarixində ünvan 1 yerləşən “8 saylı” Filialın hüquqi ünvanının ünvan 2 ünvanına və adının “28 May” Filialına dəyişdirilməsi ilə əlaqədar Filiala verilmiş icazə yenilənmiş və mərkəzi reyestrdə

müvafiq dəyişiklik aparılmışdır. Göstərilənlərə əsasən, o, ünvan 1-də yerləşən “8 saylı” Filialın yenilənmiş hüquqi ünvanına yəni, ünvan 2 ünvanında yerləşən “28 May” Filialına bərpa edilməli idi. Bununla belə, ona cavabdehin “3 saylı” Filialına işə bərpa olmaq təklif olunmuşdur. Eyni zamanda cavabdeh tərəfindən 06.05.2022-ci il tarixində, ona “3 saylı” Filiala təyin olunmağına dair təklif edildikdən sonra, icra sənədinin icrası mərhələsində Müşahidə Şurasının növbədənkənar Ümumi iclasında ünvan 2 ünvanında yerləşən “28 May” Filialının (keçmiş “8 saylı” Filial) ünvan 3 ünvanına, yəni “3 saylı” Filialın yerləşdiyi ünvana köçürülməsi qərara alınmış, bununla bağlı 16.05.2022-ci il tarixində Azərbaycan Respublikası Mərkəzi Bankından icazə verilmiş və reyestrdə müvafiq qeydiyyat aparılmışdır. Faktiki olaraq isə “3 saylı” Filialın və “28 May” Filialının işçi tərkibi, müştəri bazası, əmanət və kredit portfelləri yeni ünvana köçürülməmiş, olduğu kimi saxlanılmışdır. Bütün bunlar cavabdeh tərəfindən onun ünvan 2 ünvanında yerləşən “28 May” Filialına (keçmiş “8 saylı” Filial) yox, “3 saylı” Filiala işə bərpa olmağı məqsədilə edilən qanunsuz hərəkətlər və icraya yaradılan süni maneələrdir. Onun 26.07.2022-ci il tarixli *-**/****-** nömrəli məktubu ilə 08.06.2018-ci il tarixli, **** saylı əmək müqavilənə xitam veriləcəyi ilə əlaqədar bildiriş və ***/* saylı əmrlə yuxanda qeyd olunan Qətnaməyə əsasən, qüvvədən düşmüş 08.06.2018-ci il tarixli, **** saylı əmək müqaviləsinə xitam verilməsi barədə ***/****-** nömrəli məktub göndərilmişdir. Məktubların qeydiyyat nömrələrindən də aydın olur ki, bildiriş formal olaraq hazırlanmış, faktiki olaraq ona əmək müqaviləsinə xitam veriləcəyi barədə bildiriş əmr verildikdən sonra göndərilmişdir. 26.07.2022-ci il tarixli ***/* saylı əmrdə göstərilir ki, onun əmək müqaviləsinə Səhmdarların Ümumi Yığıncağının 25.07.2022-ci il tarixli qərarına əsasən xitam verilmişdir. Lakin cavabdehin Səhmdarlarının Ümumi Yığıncağının 13.05.2019-cu il tarixli, 02 saylı qərarı ilə təsdiq olunmuş Nizamnaməsinin 8.1.4-cü maddəsinə əsasən, bu Nizamnamədə və qanunvericilikdə nəzərdə tutulmuş istisnalar nəzərə alınmaqla, Bankın filial, şöbə və nümayəndəliklərin rəhbər vəzifələrinə namizədlərin təyin edilməsi, yerdəyişməsi və vəzifədən azad edilməsi barədə qərarlar qəbul etmək İdarə Heyətinin səlahiyyətinə aid edilmişdir. Göründüyü kimi bu qərar cavabdehin Nizamnaməsinə uyğun deyil və tamamilə qanunsuz olaraq qəbul edilmişdir. Həmçinin, Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən 14.06.2021-ci il tarixində ünvan 1 ünvanında yerləşən “8 saylı” Filialın hüquqi ünvanının ünvan 2 ünvanına və adının “28 May” Filialına dəyişdirilməsi ilə əlaqədar və ünvan 2 ünvanında yerləşən “28 May” Filialının (keçmiş “8 saylı” Filial) ünvan 3 ünvanına, yəni “3 saylı” Filialın yerləşdiyi ünvana köçürülməsi ilə əlaqədar 16.05.2022-ci il tarixli icazələr verilsə də, Azərbaycan Respublikası Mərkəzi Bankı bu dəyişikliklərin hansı zərurətdən irəli gəlməsini əsaslandırmamışdır. Bütün icra sənədinin icrası müddətində o, dəfələrlə həm cavabdeh banka, həm icra şöbəsinə məktublar ünvanlamışdır ki, o işə bərpa olunmamış, işə bərpa olunmağı barədə icra sənədi icra olunsun. Məktublarının cavablandırılmaması və müvafiq tədbirlərin görülməməsi səbəbindən, o eyni məzmunlu məktubları 13.09.2022ci il tarixində Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevə, 22.09.2022-ci il tarixində Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Şəbinə Əliyevaya, 03.08.2022-ci il tarixində Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti Bakı şəhər İdarəsinin rəisinə, 20.09.2022-ci il və 27.09.2022-ci il tarixində Azərbaycan Respublikası Ədliyyə Naziri Fikrət Məmmədova, 12.09.2022-ci il tarixində Azərbaycan Respublikası Ədliyyə Nazirinin müavini Eldar Nuriyevə, İcra Baş İdarəsinin rəisi İlqar Cəfərova və digər səlahiyyətli şəxslərə ünvanlamışdır. Hətta o, 10.06.2022-ci il saat 09:00-da iş yerinə getsə də, cavabdeh tərəfindən onun işinə bərpa olunmaması üçün süni maneələr yaradılmış və o, vəzifələrinin icrasına buraxılmamışdır. O, dəfələrlə Yasamal rayon İcra şöbəsinin icra məmuru X1 ilə əlaqə yaratmağa çalışsa da, ona və Yasamal rayon İcra şöbəsinin rəisi X6 çoxsaylı məktublar ünvanlasa da, nəticə etibarilə bu gün icra məmuru icra sənədinin guya iddiaçının hərəkətsizliyi nəticəsində “İcra haqqında” Azərbaycan Respublikasının Qanununun 23.1.5-ci maddəsinə əsasən, icra sənədinin icrasına mane olmağı səbəbi ilə geri qaytarmışdır. Cavabdeh tərəfindən icra sənədi qismən

icra olunmuşdur. 01.07.2020-ci il tarixində 08.06.2018-ci il tarixli, 1288 saylı əmək müqavilənə xitam verilməsi barədə bildiriş etibarsız hesab edilsə və onun mövcud olmayan "8 saylı" Filiala bərpa olunmağı görüntüsü yaradılsa da, faktiki olaraq o, "28 May" Filialına (köhnə "8 saylı" Filial) vəzifə öhdəliklərinin icrasına buraxılmadığı və icra sənədi bu hissədə icra olunmamış saxlanılmışdır. Hətta cavabdeh bir müddət sonra iddiaçının guya işə bərpa olunmağı ilə əlaqədar əmək müqaviləsinə 26.07.2022-ci il tarixli ***/* saylı əmr ilə Əmək Məcəlləsinin 68-ci maddəsinin "ç" bəndinə əsasən (müəssisənin mülkiyyətçisinin dəyişməsi ilə əlaqədar) xitam vermişdir. Açıq-aşkar görünür ki, cavabdehin niyyəti onun işə bərpa olunmağına yönəlməmişdir. Bunu məhz ona 04.05.2022-ci il və 12.05.2022-ci il tarixli məktublarla "3 saylı" Filialda işə bərpa olunmaq təklif olunduqdan və onun bu təklifə etiraz etməyindən sonra "3 saylı" Filialın hüquqi ünvanının və adının "28 May" Filialı (köhnə "8 saylı" Filial) ilə dəyişdirilməsi, heç bir zərurət olmadan Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən müvafiq icazələrin verilməsi və eyni zamanda heç bir əsas olmadan onun işə bərpa olunmağı ilə bağlı verilmiş formal əmrin ləğv edilməsi, elektron sistemdə bununla bağlı bildirişin də yerləşdirilməsi göstərir. Cavabdeh onuı işə bərpa etmədən guya icra sənədini icra etmiş kimi suni görüntü yaratmağa çalışmış və onun bütün hərəkətləri icra sənədinin icrasına maneçilik törətməyə yönəlmişdir. Bütün bu hərəkətlərlə cavabdeh icra sənədinin icrası prosesində də bir anlaşılmazlıq yaratmışlar. Hətta o, belə cavabdehin yaratdığı bu süni maneələrlə necə rəftar edəcəklərini bilmədən, sanki icra sənədinin icra olunmasına onun tərəfindən hərəkətsizlik göstərilməsi qiymətini vermişlər. Hazırda onun həmin qərarını da məhkəmədə mübahisələndirmişdir. Nəticə etibarilə cavabdeh tərəfindən aşağıdakı hərəkətlərlə icra sənədinin icrasına süni maneələr yaradılır və onun əsas insan hüquq və azadlıqları kobud surətdə pozulmuşdur.

8. Cavabdeh birinci instansiya məhkəməsinə iddiaya qarşı yazılı etiraz təqdim etmiş və etirazını onunla əsaslandırmışdır ki, Bakı Apellyasiya Məhkəməsinin 2(103)-9642/2021 nömrəli, 08 oktyabr 2021-ci il tarixli icra vərəqəsinə əsasən iddiaçı ilə cavabdeh arasında bağlanmış əmək müqaviləsinə Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin "b" bəndinə əsasən xitam verilməsi haqqında 01.07.2020-ci il tarixli ***/* saylı əmrinin və əmrə əsasən ******* saylı əmək kitabçasının 27-ci səhifəsindəki 29-cu qeyd nömrəsi ilə yazılmış "Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin "b" bəndinə əsasən (əmək müqaviləsinin müddətinin qurtarması) əmək müqaviləsinə xitam verilsin" qeydi etibarsız sayılmalı, iddiaçı əvvəlki işinə bərpa edilməli, iddiaçıya 01.07.2020-ci il tarixdən işə bərpa olunduğu günədək məcburi iş buraxma müddəti üçün əmək haqqı və əmək qabiliyyətinin olmaması vərəqəsi üzrə xəstə olduğu müddətdə xəstəlik vərəqəsi üzrə ödənilməli olan məbləğ ödənilməli, tərəflər arasında bağlanmış əmək müqaviləsi müddətsiz bağlanılmış hesab edilməli, cavabdehdən ödənilmiş dövlət rüsumu olan 30 manat məbləğində pul tutularaq iddiaçıya ödənilməlidir. Sözügedən icra vərəqəsi 04.05.2022-ci il tarixdə Banka daxil olmuşdur. Daxil olmuş icra vərəqəsi Bank tərəfindən təxirə salınmadan 05.05.2022-ci il tarixdən etibarən icra olunmağa başlanılmışdır. 05.05.2022-ci il tarixində işəgötürən tərəfindən icra vərəqəsinin icrasının təmin edilməsi barədə əmri verilərək iddiaçıya 43.133,98 (qırx üç min yüz otuz üç manat doxsan səkkiz qəpik) manat məbləğində (məhkəmə qərarına əsasən işə bərpa olunma müddətindən başlayaraq, yəni 01.07.2020-ci il -10.07.2020-ci il tarixləri üzrə xəstəlik vərəqəsinə əsasən 8 (səkkiz) gün hesablanmış məbləğlə birlikdə 11.07.2020-ci il tarixdən 04.05.2022-ci il tarixinədək 438 (dörd yüz otuz səkkiz) gün üçün ödənilmiş əmək haqqı məbləği, cəmi 446 (dörd yüz qırx altı) gün üçün ödənilmiş məbləğ (vəsait) ödənilmişdir. Bundan əlavə 05.05.2022-ci il tarixdən sonrakı hər gün üçün hesablanmalı olan əmək haqqı məbləği işdən çıxma dövrünədək hər ayın sonu müvafiq əmək haqqı onun hesabına köçürülmüşdür. Eyni zamanda 01.07.2020-ci il tarixli 14QF7DB0002XO nömrəli bildirişin etibarsız hesab edilməsi barəsində Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinə dəfələrlə həm yazılı, həm də şifahi olaraq tərəflərindən

müraciət edilmişdir. Sözügedən bildiriş Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən 07.06.2022-ci il tarixində etibarsız hesab edilmiş və dərhal sonra Bank tərəfindən 07.06.2022-ci il tarixində iddiaçının əvvəlki işinə (əvvəlki adı "8 saylı" filialın müdiri) bərpa edilməsi barəsində əmr verilmiş, ona işə çıxmasına dair bildiriş göndərilmiş, 07.06.2022-ci il tarixli məktubla ilkin olaraq icra vərəqəsi və işə bərpa ilə əlaqədar müvafiq prosedurların yerinə yetirilməsi məqsədilə (icra sənədinə əsasən əmək kitabçasına müvafiq düzəlişin edilməsi, təhlükəsizlik qaydalarına uyğun olaraq müəyyən şifrələrin və kartların verilməsi və s.) 08.06.2022-ci il tarixində Bankın ünvan 4 ünvanında yerləşən baş ofisinə dəvət edilmiş və gələrkən özü ilə şəxsiyyətini təsdiq edən sənədlə birlikdə əmək kitabçasının gətirilməsi bildirilmişdir. Cavabdehin əməkdaşları tərəfindən görüş zamanı iddiaçının Bankın "8 saylı" filialının (hazırkı adı "28 May" filialı) müdiri vəzifəsinə işə bərpa olunduğu və icra sənədinin digər hissələrinin də Bank tərəfindən tam icra edildiyi onun və vəkilinin diqqətinə çatdırılmış və bu barədə yazılı məktub təqdim edilmişdir. Lakin iddiaçı işə bərpa məsələsinə aid olmayan, icra sənədinin icrası ilə əlaqədar olmayan sənədləri (özündə bank sirrini əks etdirən sənədləri: balans hesabatı, müştərilərin miqrasiyası və s.) tələb edilməsi kimi müxtəlif bəhanələrlə əmək kitabçasını təqdim etməkdən və icra vərəqəsi üzrə əmək müqaviləsinə müvafiq düzəlişlərin edilməsini nəzərdə tutan əlavə sazişi imzalamaqdan və bununla da əvvəlki iş yeri olan "28 May" filialına (əvvəlki adı "8 saylı" filial) filial müdiri vəzifəsinə işə çıxmaqdan birmənalı olaraq imtina etmişdir. İddiaçı tərəfindən istər cavabdehə, istərsə də Yasamal Rayon İcra Şöbəsinə ünvanladığı müraciətlərində əvvəlki iş yeri olan "28 May" filialına (əvvəlki adı "8 saylı" filial) filial müdiri vəzifəsinə işə çıxmaqdan imtina etdiyini göstərmişdir. İddiaçı, əvvəlki iş yeri olan "28 May" filialına (əvvəlki adı "8 saylı" filial) filial müdiri vəzifəsinə işə bərpa olunduqdan sonra, heç bir üzrlü səbəb olmadan işə çıxmaması ilə bağlı cavabdehin səlahiyyətli şəxsləri tərəfindən hər gün müvafiq aktlar tərtib edilmişdir. Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi tərəfindən verilmiş Qiymətli kağız mülkiyyətçilərinin reyestrindən göründüyü kimi, 29.04.2022-ci il tarixdə cavabdehin səhmdarları və mülkiyyətçiləri səhmlərin alqı-satqısı nəticəsində dəyişilmiş və "X3" MMC-nin 0,0991 %, X5-0,9568 % və X4-98,9441 % pay ilə qeydiyyatdan keçmişlər. Qeyd olunan dəyişikliklərin qeydiyyata alınması məqsədi ilə cavabdeh tərəfindən İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinə müraciət olunmuşdur. Kommersiya qurumlarının dövlət reyestrindən Çıxarışdan görünür ki, 16.05.2022-ci il tarixdə reyestr məlumatlarında dəyişikliklər edilmiş, cavabdehin səhmlərinin satılması ilə əlaqədar olaraq təsisçilərin nizamnamə kapitalındakı paylarının miqdarında dəyişikliklər edilərək əvvəlki təsisçilər "X2" QSC-95,6759 %, "X3" MMC-0,0991 % və X4-4,225 % dəyişilmiş, yeni mülkiyyətçilər və onların Nizamnamə kapitalındakı payları göstərilmişdir. Belə ki, cavabdehin yeni mülkiyyətçiləri (səhmdarları) və onların payları "X3" MMC-nin 0,0991 %, X5- 0,9568 % və X4-98,9441 % müəyyən edilmiş və bununla bağlı cavabdehə Çıxarış verilmişdir. Cavabdehin səhmdarlarının 25.07.2022-ci il tarixli qərarı ilə iddiaçının işə çıxmaması ilə bağlı Filialın fəaliyyətində yaranmış çətinliklər, habelə Filialın müştərilərinin və əməkdaşlarının narazılıqları, eyni zamanda 16.05.2022-ci il tarixdən etibarən Bankın mülkiyyətçisinin dəyişməsi və yeni mülkiyyətçilərin qeyd edilənlərini əsas tutaraq "28 May" Filialının müdiri iddiaçı ilə əmək münasibətlərinə davam etdirmək istəməmələri qeyd olunaraq, onunla bağlanmış əmək müqaviləsinə xitam verilməsi qərara alınmışdır. Cavabdehin İH-nin sədrinin 26.07.2022-ci il tarixli əmri ilə iddiaçı işdən çıxarılmışdır. İddiaçının heç bir üzrlü səbəb olmadan işə çıxmaması ilə bağlı tərtib edilmiş aktlardan da göründüyü kimi, iddiaçı işinə bərpa olunduğu "28 May" Filial müdiri vəzifəsinə işə çıxmamaqla, həmin Filialın ciddi sədri kimi, eyni zamanda səhmdarları tərəfindən müsbət qarşılanmamışdır. 08.06.2022-ci il tarixdən işə bərpa olunsa da, işə bərpa olunduğu gündən 25.07.2022-ci il tarixədək, yəni 1 ay 17 gün heç bir üzrlü səbəb göstərmədən işə çıxmamış, bununla da, rəhbəri olduğu Filialda əmək və icra intizamının normal ahəngini pozmuş, müəssisənin və mülkiyyətçilərin qanuni mənafelərinə ciddi xələl gətirmişdir. Bundan başqa, iddiaçı 07.06.2022-ci il tarixdən heç bir üzrlü səbəb göstərmədən işə çıxmaması Filialın

fəaliyyətində çətinliklər, habelə Filialın əməkdaşları və müştəriləri arasında narazılıqlar yaratmışdır. İddiaçının davamlı olaraq işəgötürənin müraciətlərinə əhəmiyyət verməməsi, onun tərəfindən qanunvericiliyin tələblərinə əməl edilməməsi, Bankın yeni mülkiyyətçiləri (cavabdehin səhmdarları olan "X2" QSC-yə məxsus səhmlər X4 və X5 tərəfindən özgəninkiləşdirilərək onların mülkiyyətinə verilmiş və 16.05.2022-ci il tarixində dövlət qeydiyyatına alınmışdır) tərəfindən nəzərə alınmış və mülkiyyətçi dəyişikliyindən sonrakı ilk Səhmdarların 25.07.2022-ci il tarixli Ümumi Yığıncağında iddiaçı ilə əmək münasibətlərinin davam etdirilməsindən imtina edilməsi barədə qərar qəbul olunmuşdur. Həmin qərar əsasında işəgötürən tərəfindən əmək qanunvericiliyinə əsasən müvafiq əmr verilərək Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin "ç" bəndinə əsasən (müəssisənin mülkiyyətçisinin dəyişməsi ilə əlaqədar) iddiaçı tutduğu vəzifədən azad edilmiş və onunla bağlanılmış əmək müqaviləsinə xitam verilmişdir. Eyni zamanda iddiaçıya istifadə edilməmiş əmək məzuniyyətinə görə pul əvəzi və qanunvericiliklə nəzərdə tutulmuş müavinət ödənilmişdir. Bakı Apellyasiya Məhkəməsinin 2(103)-9642/2021 nömrəli, 08 oktyabr 2021-ci il tarixli icra vərəqəsi cavabdeh tərəfindən tam icra olunmuş (istisna: əmək kitabçasındakı qeydin etibarsız hesab edilməsinə dair əlavə qeyd əmək kitabçasına qeyd edilməmişdir, çünki tələbkar əmək kitabçasını Banka təqdim etməkdən imtina edir), müvafiq ödəmələr tələbkar iddiaçıya köçürülmüş, tələbkar əvvəlki işinə bərpa olunmuş, lakin o, işə çıxmaqdan və vəzifəsinin icrasına başlamaqdan imtina etmiş, bu səbəbdən 2022-ci ilin aprel ayında cavabdehin əvvəlki səhmdarı (mülkiyyətçisi) "X2" QSC özünə məxsus 95,6759 % səhmlərini yeni səhmdarlara satmış, cavabdehin mülkiyyətçiləri dəyişmiş, mülkiyyətçilərin dəyişməsi ilə əlaqədar yeni mülkiyyətçilərin 25.07.2022-ci il tarixli Qərarı və işəgötürənin müvafiq əmri ilə tələbkarla olan əmək münasibətlərinə xitam verilmişdir. Qeyd olunanlara əsasən iddiaçı ilə bağlanmış 08.06.2018-ci il tarixli əmək müqaviləsinə xitam verilərkən əmək qanunvericiliyin bütün tələblərinə əməl olunmuşdur. 26.07.2022-ci il tarixli ***/* saylı əmr əsaslıdır və onun ləğv edilməsi üçün hüquqi əsaslar yoxdur. İddiaçının iddiası əsassızdır və təmin edilməməlidir. Həmçinin iddiaçının irəli sürdüyü Bakı Apellyasiya Məhkəməsinin verdiyi 2(103)-9642/2021 nömrəli, 08 oktyabr 2021-ci il tarixli icra sənədinin icrasına tərəfindən yaradılan maneələrin aradan qaldırılması barədə və icra sənədinin icra edilməsinə dair cavabdehin üzərinə öhdəliyin qoyulması barədə tələb də əsassızdır və rədd edilməlidir. İddiaçının işə bərpa olunması və sair barədə Bakı Apelyasiya Məhkəməsinin 2(103)-9642/2021 nömrəli, 08 oktyabr 2021-ci il tarixli icra vərəqəsi cavabdeh tərəfindən tam icra olunmuş (istisna: əmək kitabçasındakı qeydin etibarsız hesab edilməsinə dair əlavə qeyd əmək kitabçasına qeyd edilməmişdir, çünki tələbkar əmək kitabçasını Banka təqdim etməkdən imtina etmişdir), müvafiq ödəmələr iddiaçıya köçürülmüş, tələbkar əvvəlki işinə bərpa olunmuş, lakin o, işə çıxmaqdan və vəzifəsinin icrasına başlamaqdan imtina etmiş, bu səbəbdən Bakın müvafiq əmri ilə tələbkarla olan əmək münasibətlərinə xitam verilmişdir. Yasamal Rayon İcra Şöbəsinin 13.09.2022-ci il tarixli qərarı ilə Bakı Apelyasiya Məhkəməsinin 2(103)-9642/2021 nömrəli, 08 oktyabr 2021-ci il tarixli icra sənədinin Bakı Apelyasiya Məhkəməsinə qaytarılması qərara alınmışdır. İddiaçı həmin qərardan şikayət verərək, Yasamal Rayon İcra Şöbəsinin 13.09.2022-ci il tarixli qərarının ləğv edilməsini xahiş etmişdir. Bakı Apelyasiya Məhkəməsinin 13.12.2022-ci il tarixli qərardadı ilə şikayət təmin edilməmişdir. İddiaçı özü heç bir üzrlü səbəb olmadan işə çıxmaqdan imtina etmiş, onu görə də icra sənədi icra olunmadan geri qaytarılmışdır. Göstərilənlərə əsasən müəyyən edilir ki, Bakı Apelyasiya Məhkəməsinin 2(103)-9642/2021 nömrəli, 08 oktyabr 2021-ci il tarixli icra sənədinin icrasına cavabdeh tərəfindən heç bir maneçilik törədilməmiş, iddiaçının işə çıxmasına hər hansı maneə yaradılmamışdır. Odur ki, həmin hissədə də iddia tələbləri əsassızdır. İcra sənədinin icrasına cavabdeh tərəfindən maneələrin aradan qaldırılması və icra sənədinin icra edilməsinə dair cavabdehin üzərinə öhdəliyin qoyulması hissəsində iş üzrə icraata, iddia icraatı qaydasında məhkəmədə baxılmalı deyilsə əsası ilə xitam verilməlidir. Qeyd olunan tələb icra işinin davamı ilə bağlı məsələ olduğuna görə, həmin məsələ ilə bağlı

“8” indeksi altında icra sənədini vermiş məhkəməyə müraciət olunmalıdır. Yuxarıda qeyd etdikləri kimi iddiaçı qeyd edilən məsələ ilə bağlı şikayətlə Bakı Apellyasiya Məhkəməsinə müraciət etmiş, lakin onun bu şikayəti təmin edilməmişdir. Etirazda iddiaçının cavabdehə qarşı əmrin ləğv edilməsi hissədə iddiasının rədd olunması barədə qətnamə qəbul edilməsi, icra sənədinin icrasına cavabdeh tərəfindən maneələrin aradan qaldırılması və icra sənədinin icra edilməsinə dair cavabdehin üzərinə öhdəliyin qoyulması hissədə isə iş üzrə icraata xitam verilməsi haqqında qərardad qəbul edilməsi xahiş olunmuşdur.

9. Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin 2(004)-262/2023 nömrəli, 25 yanvar 2023-cü il tarixli qərardadı ilə (hakim Gülnar Babazadə) iddiaçının cavabdehə qarşı Əmək Məcəlləsinin 68-ci maddəsinin “ç” bəndinə əsasən, “müəssisənin mülkiyyətçisinin dəyişməsi” ilə əlaqədar 08.06.2018-ci il tarixli əmək müqaviləsinə xitam verilməsi barədə 26.07.2022-ci il tarixli ***/* saylı əmrin ləğv edilməsi və icra sənədinin icrasına cavabdehlər tərəfindən yaradılan maneələrin aradan qaldırılması və icra sənədinin icra edilməsinə dair cavabdehin üzərinə öhdəliyin qoyulması barədə iddia tələbi üzrə mülki işin icraatına “icra sənədinin icrasına cavabdehlər tərəfindən yaradılan maneələrin aradan qaldırılması və icra sənədinin icra edilməsinə dair cavabdehin üzərinə öhdəliyin qoyulması” hissəsində hissəvi xitam verilmişdir.

10. Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin 2(004)-262/2023 nömrəli, 25 yanvar 2023-cü il tarixli qətnaməsi ilə (hakim Gülnar Babazadə) iddia tələbi rədd edilmişdir.

11. Birinci instansiya məhkəməsi müəyyən etmişdir ki, iddiaçı ilə bağlanmış 31.05.2013-cü il tarixli *** “*” saylı əmrə əsasən, cavabdehdə “8 saylı” filialın müdir müavini vəzifəsinə işə qəbul edilmiş, 29.11.2016-cı il tarixli **** K nömrəli əmrlə 8 saylı filialın müdiri vəzifələrinin müvəqqəti icra edicisi, 22.05.2017-ci il tarixli **/** saylı əmrlə “8 saylı” filialın müdiri vəzifəsinə təyin edilmişdir. 04.06.2018-ci il tarixli **/* saylı əmrlə cavabdeh tərəfindən əmək müqaviləsinə xitam verilmişdir. 08.06.2018-ci il tarixli **/* saylı əmrlə müddətli əmək müqaviləsi olmaqla yenidən filial müdiri vəzifəsinə təyin edilmişdir. 01.07.2020-ci il tarixli, ***/* saylı əmrlə əmək müqaviləsinə xitam verilmişdir. Həmin əmrin ləğv edilməsi və əmək müqaviləsinin müddətsiz hesab edilməsi tələbinə dair Bakı Apellyasiya Məhkəməsinin 2(103)-9642/2021 nömrəli, 08 oktyabr 2021-ci il tarixli qətnaməsi ilə iddia üzrə apellyasiya şikayəti qismən təmin edilmiş, Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 2(006)-4149/2020 nömrəli, 15 sentyabr 2020-ci il tarixli qətnaməsinin iddianın təmin edilməyən - əmək müqaviləsinin müddətsiz bağlanmış hesab edilməsi hissəsində ləğv edilməsi və həmin hissədə iddia tələbinin təmin edilməsi, cavabdeh ilə bağlanmış əmək müqaviləsinin müddətsiz bağlanılmış hesab olunması qət edilmişdir. Qətnamə qanuni qüvvəsini aldıqdan sonra 16.04.2022-ci il tarixində icraya yönəlmişdir. 14.06.2021-ci il tarixində ünvan 1 ünvanında yerləşən “8 saylı” Filialın hüquqi ünvanı ünvan 2 ünvanına və adı “28 May” Filialına dəyişdirilmiş və mərkəzi reyestrdə müvafiq dəyişiklik aparılmışdır. Cavabdeh tərəfindən 06.05.2022-ci il tarixində Müşahidə Şurasının növbədənkənar Ümumi iclasında ünvan 2 ünvanında yerləşən “28 May” Filialının (keçmiş “8 saylı” Filial) ünvan 3 ünvanına köçürülməsi qərara alınmışdır. Hazırda iddiaçıya təklif olunan vəzifə “8 saylı filiala müdir”, yəni hazırkı “28 May” Filialına müdir vəzifəsidir. İddiaçı sözügedən filialı əslində 3 saylı filial hesab etdiyindən və yekun məhkəmə qərarı ilə 8 saylı filiala müdir vəzifəsinə bərpa olunduğundan, hazırkı “28 May” Filialına işə çıxmamışdır. Bununla əlaqədar müvafiq aktlar tərtib edilmişdir. Bakı şəhəri Yasamal rayon İcra şöbəsinin 13.09.2022-ci il tarixli “icra edilməyən və ya qismən icra edilmiş icra sənədinin məhkəməyə və ya digər orqana qaytarılması” qərarı ilə Bakı Apellyasiya Məhkəməsinin 2(103)-9642/2021 nömrəli, 08 oktyabr 2021-ci il tarixli icra vərəqəsinin “İcra haqqında” Azərbaycan Respublikası Qanununun 23.1.5-ci maddəsinə əsasən geri qaytarılması qərara alınmışdır. Daha sonra 29.04.2022-ci il tarixdə bankın səhmdarları səhmlərinin alqı-satqısı nəticəsində dəyişmiş, bu barədə Qiymətli kağız mülkiyyətçilərinin reyestrində qeydiyyat aparılmış, 16.05.2022-ci il tarixdə kommersiya qurumlarının dövlət reyestr məlumatlarında dəyişikliklər edilmiş, cavabdehin səhmlərinin satılması ilə əlaqədar

olaraq təsisçilərin nizamnamə kapitalındakı paylarının miqdarında dəyişikliklər edilərək əvvəlki təsisçilər “X2” QSC-95,6759 %, “X3” MMC-0,0991 % və X4-4,225 % dəyişilmiş, yeni təsisçilər və onların nizamnamə kapitalındakı payları “X3” MMC-0,0991 %, X5 – 0,9568 % və X4 98,9441 % müəyyən edilmiş və bununla bağlı cavabdehə çıxarış verilmişdir. Cavabdehin İdarə Heyəti sədrinin 26.07.2022-ci il tarixli ***/* nömrəli əmri ilə iddiaçı ilə bağlanmış əmək müqaviləsinə Azərbaycan Respublikası Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin “ç” bəndinə əsasən xitam verilmişdir.

12. Məhkəmə, iddiaçının Əmək Məcəlləsinin 68-ci maddəsinin “ç” bəndinə əsasən, “müəssisənin mülkiyyətçisinin dəyişməsi” ilə əlaqədar cavabdehin 26.07.2022-ci il tarixli ***/* saylı əmrinin ləğv edilməsi barədə iddia tələbi ilə əlaqədar qeyd etmişdir ki, əmək münasibətləri sərbəst iradə ifadəsini özündə ehtiva edən əmək müqaviləsi bağlandıqdan sonra yaranır. Əmək müqaviləsinin şərtləri tərəflərin iradə ifadəsi ilə bağlansa da, əmək münasibətlərinin ləğv edilməsi üçün əmək qanunvericiliyində konkret əsaslar göstərilmişdir ki, yalnız həmin hallardan biri olduğu təqdirdə əmək münasibətlərinə xitam verilə bilər. Qanunvericilikdə nəzərdə tutulmayan əsasla, habelə Əmək Məcəlləsi ilə müəyyən edilmiş əmək müqaviləsinin ləğv edilməsi qaydalarına əməl olunmadan əmək münasibətlərinə xitam verilə bilməz. Cavabdehin səhmlərinin satılması ilə əlaqədar olaraq təsisçilərin nizamnamə kapitalındakı paylarının miqdarında dəyişikliklər edilərək əvvəlki təsisçilər “X2” QSC-95,6759 %, “X3” MMC-0,0991 % və X4 - 4,225% dəyişilmiş, Açıq Səhmdar Cəmiyyətinin səhmdarları 0,0091 %-lə "X3" MMC, 0,9568 %-lə X5 və 98,9441%-lə X4 olmuşdur. Göründüyü kimi bankın səhmlərində mühüm paya malik olan səhmdar əvvəl “X2” QSC olmuş, hal-hazırda isə 98,9441%-lə X4. Eyni zamanda, səhmdarlar sırasından “X2” QSC çıxmış, X5 isə 0,9568%-lə yeni səhmdar qismində daxil olmuşdur.

13. Məhkəmə hesab etmişdir ki, cavabdehin təsisçilərindən mühüm paya malik olan səhmdarının dəyişməsi, eləcə də yeni səhmdarın təsisçilər sırasına daxil olması ilə bankın mülkiyyətçiləri də dəyişmişdir. Mülkiyyətçilərin dəyişməsi ilə əlaqədar yeni mülkiyyətçilərin 25.07.2022-ci il tarixli qərarı və işəgötürənin müvafiq əmri ilə tələbkarla olan əmək münasibətlərinə xitam verilmişdir. Göründüyü kimi iddiaçı ilə bağlanmış əmək müqaviləsinə mülkiyyətçinin dəyişməsi əsası ilə xitam verilmişdir. Məhkəmə araşdırması zamanı əmək müqaviləsinə xitam verilməsində cavabdeh-təşkilat tərəfindən hər hansı qanun pozuntusuna yol verilməsi aşkar edilməmişdir. Belə ki, işçi-iddiaçı ilə əmək münasibətlərinə xitam verilərkən qanunvericiliyin tələblərinə riayət olunmuşdur. Odur ki, 26.07.2022-ci il tarixli ***/* saylı əmr əsaslıdır və onun ləğv edilməsi üçün hüquqi əsaslar yoxdur.

14. Birinci instansiya məhkəməsi gəldiyi nəticənin hüquqi əsası kimi Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 68-ci maddəsinin 1-ci hissəsi, 63-cü maddəsinin 1-ci, 2-ci və 3-cü hissələrinə, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 45.1, 45.2, 98.1, 98.4, 98.5, 98.6, 98.9, 99.1, 102.1-ci maddələrinə, “Banklar haqqında” Azərbaycan Respublikasının Qanununun 1.0.11, 22.1-ci maddələrinə, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 14.2, 77.1, 217.4-cü maddələrinə istinad etmişdir.

Apellyasiya instansiyası məhkəməsindəki icraat:

15. Qətnamədən iddiaçı (vəkil) apellyasiya şikayəti verərək birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv edilməsini və iddianın tam təmin edilməsi barədə yeni qətnamə qəbul olunmasını xahiş etmişdir.

16. Apellyasiya şikayətinin məzmunu iddia ərizəsinin məzmunu ilə eynilik təşkil etmiş, əlavə olaraq göstərilmişdir ki, birinci instansiya məhkəməsi maddi və prosessual hüquq normalarını düzgün tətbiq etməmiş və nəticədə əsassız qətnamə qəbul edilmişdir.

17. Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 2(103)-2588/2023 nömrəli, 05 may 2023-cü il tarixli qətnaməsi ilə (hakimlər – Namiq Cəfərov (sədrlik edən və məruzəçi), İkram Şirinov və Elşən Kazımov) apellyasiya şikayəti təmin edilmiş, hazırkı iş üzrə Yasamal Rayon Məhkəməsinin 25.01.2023-cü il tarixli qətnaməsi ləğv olunaraq iddia təmin edilmiş, iddiaçı ilə olan əmək müqaviləsinə Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin “ç”

bəndinə əsasən (müəssisənin mülkiyyətçisinin dəyişməsi ilə əlaqədar) xitam verilməsi barədə cavabdehin İdarə Heyəti sədrinin 26.07.2022-ci il tarixli ***/* nömrəli əmrinin ləğv edilməsi, iddiaçının əvvəlki vəzifəsinə bərpa olunması və ona məcburi işburaxma müddəti üçün əmək haqqı ödənilməsi qət edilmişdir.

18. Apellyasiya instansiya məhkəməsi mövqeyini onunla əsaslandırmışdır ki, tərəflərin arasında əmək münasibəti olub və həmin münasibətə xitam verilib. Belə ki, cavabdehin İdarə Heyəti sədrinin 26.07.2022-ci il tarixli, ***/* nömrəli əmri ilə əmr olunub ki, cavabdehin "28 May" filialının (əvvəlki "8 saylı" filial) müdiri olan iddiaçı Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin "ç" bəndinə əsasən (müəssisənin mülkiyyətçisinin dəyişməsi ilə əlaqədar) tutduğu vəzifədən azad edilsin və onunla bağlanmış əmək müqaviləsinə 26.07.2022-ci il tarixdən xitam verilsin. Göründüyü kimi, xitamın əsası "müəssisənin mülkiyyətçisinin dəyişməsi" kimi göstərilib. Mübahisə məhz bu halla bağlıdır. Cavabdeh hesab edir ki, mülkiyyətçi dəyişib, iddiaçı isə hesab edir ki, mülkiyyətçi dəyişməyib. Müəyyən olunur ki, əmək müqaviləsinə xitam verilməmişdən əvvəl cavabdehin təsisçilərinin tərkibində və nizamnamə kapitalındakı mayaların miqdarında dəyişiklik baş verib. Belə ki, 16.05.2022-ci il tarixdə dövlət reyestrindən verilmiş çıxarışdan (cild 1, iş v. 159) görünür ki, təsisçilərin tərkibi və nizamnamə kapitalında mayaların miqdarı əvvəl aşağıdakı kimi olub: 1) X4 – 4,225 %; 2) "X3" MMC – 0,0991 %; 3) "X2" QSC – 95,6759 %.

19. Daha sonra təsisçilərin tərkibi və nizamnamə kapitalındakı mayaların miqdarı dəyişərək aşağıdakı kimi olub: 1) X4 – 98,9441 %; 2) "X3" MMC – 0,0991 %; 3) X5 – 0,9568 %. Bu dəyişiklikdən sonra əmək müqaviləsinə "müəssisənin mülkiyyətçisinin dəyişməsi" əsası ilə xitam verilib. Cavabdeh bildirir ki, göstərilən hal "müəssisənin mülkiyyətçisinin dəyişməsi" kimi qiymətləndirilməlidir. Dəyişikliyə səbəb səhmlərin alqı-satqısı olub. Belə ki, 29.04.2022-ci il tarixdə səhmlər alqı-satqı edilib, nəticədə səhmdarların tərkibi dəyişib, qiymətli kağız mülkiyyətçilərinin reyestrində bu barədə qeydiyyat aparılıb, o cümlədən təsisçilərin nizamnamə kapitalındakı mayalarının miqdarında baş vermiş dəyişiklik 16.05.2022-ci il tarixdə hüquqi şəxslərin dövlət reyestrində qeydə alınıb. İddiaçı bildirir ki, göstərilən hal "müəssisənin mülkiyyətçisinin dəyişməsi" kimi qiymətləndirilə bilməz. Bundan başqa, hazırda səhmlərin əsas mülkiyyətçisi kimi çıxış edən X4 (mayası 98,9441 %) əvvəlki səhmdar "X2" QSC-nin (mayası 95,6759 %) qanuni təmsilçisi və birbaşa sahibidir. Yəni X4 əvvəlcə (dəyişiklikdən əvvəl) dolayı yolla cavabdehin əsas səhmdarı olmuş, sonradan (dəyişiklikdən sonra) həmin səhmləri hüquqi şəxsin ("X2" QSC-nin) adından öz adına rəsmiləşdirmişdir. Cavabdehin səhmdarlarından hazırda mühüm paya malik olan şəxs X4-dır, onun sadəcə sahib olduğu səhmlərin sayı artmış, faktiki olaraq səhmdar dəyişməmiş, X5 0,9568 % maya ilə yeni səhmdar olmuşdur.

20. Məhkəmə kollegiyası qeyd etmişdir ki, əmək müqaviləsi ləğv edilərkən Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin "ç" bəndindəki norma tətbiq olunub. Həmin normaya görə, müəssisənin mülkiyyətçisinin dəyişməsi bu Məcəllənin 63-cü maddəsinin ikinci hissəsində göstərilən işçilər ilə əmək müqaviləsinə xitam verilməsi üçün əsasdır. Mübahisənin düzgün həlli üçün "müəssisənin mülkiyyətçisinin dəyişməsi" deyləndə hansı halın nəzərdə tutduğu aydınlaşdırılmalıdır. Müəssisənin mülkiyyətçisinin dəyişməsi mümkün deyil. Belə ki, "müəssisə" anlayışı Əmək Məcəlləsinin 3-cü maddəsinin 1-ci hissəsində müəyyən olunub. Əmək qanunvericiliyində "müəssisə" deyildikdə mülkiyyətçinin təşkilati-hüquqi formasından, adından və fəaliyyət növündən asılı olmayaraq Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq yaratdığı hüquqi şəxs, onun və xarici hüquqi şəxsin filialı, nümayəndəliyi başa düşülür. Hüquqi şəxs, filial və nümayəndəliyin anlayışları isə Mülki Məcəllənin 43 və 53-cü maddələrində müəyyən edilib. Həmin anlayışlara görə, hüquqi şəxs, onun filial və nümayəndəliyi başqasının mülkiyyətində ola bilməz, çünki hüquqi şəxs özü mülkiyyətçidir. Bu səbəbdən müəssisənin mülkiyyətçisi dəyişə bilməz. Əmək Məcəlləsində "müəssisənin mülkiyyətçisinin dəyişməsi" deyiləndə "müəssisənin əmlakının mülkiyyətçisinin dəyişməsi" nəzərdə tutulub, çünki mülkiyyətin obyekti müəssisə deyil,

əmlakdır. Müqayisə üçün qeyd olunmalıdır ki, digər dövlətlərin Əmək Məcəlləsində məhz "müəssisənin əmlakının mülkiyyətçisinin dəyişməsi" əmək müqaviləsinə xitam verilməsinin əsası kimi nəzərdə tutulub. Azəraycan Respublikasının Əmək Məcəlləsində qüsurlu ifadə nəticəsində "müəssisənin mülkiyyətçisinin dəyişməsi" yazılıb. "Müəssisənin əmlakının mülkiyyətçisinin dəyişməsi" deyiləndə isə müəssisənin əmlakına mülkiyyət hüququnun bir şəxsdən başqasına keçməsi başa düşülür. Məsələn, dövlət əmlakının özəlləşdirilməsi, yaxud, hüquqi şəxsin əmlakının dövlət mülkiyyətinə çevirilməsi və s. Göstərilən hallarda müəssisənin əmlakına mülkiyyət hüququ dövlətdən həmin əmlakın alıcısına - fiziki və ya hüquqi şəxsə və ya əksinə keçir. Bəzi işəgötürənlər yanlış olaraq hesab edirlər ki, kommersiya hüquqi şəxsinin təsisçilərinin tərkibinin dəyişməsi əmək müqaviləsinin ləğv edilməsi üçün əsaslıdır. Lakin bu, belə deyil. Hüquqi şəxsin təsisçilərinin (iştirakçılarının) qoyduğu maya hesabına əmələ gəlmiş əmlakın mülkiyyətçisi hüquqi şəxs sayılır, iştirakçıların (səhmdarların) tərkibinin dəyişməsi əmək müqaviləsinə xitam verilməsinə əsas ola bilməz. Çünki bu halda müəssisənin (hüquqi şəxsin) əmlakının mülkiyyətçisi dəyişmir, müəssisənin əmlakının mülkiyyətçisi kimi yenə də müəssisənin özü qalmaqda davam edir. Cavabdehin iştirakçılarının (səhmdarlarının) tərkibinin dəyişməsi baş verib: üç iştirakçıdan (səhmdardan) birini – "X2" QSC yeni iştirakçı (səhmdar) X5 əvəz edib. Səhm – qiymətli kağızdır, səhmin sahibi hüquqi şəxsin əmlakının mülkiyyətçisi sayılmır. Odur ki, bu hal həmin hüquqi şəxsin (müəssisənin) əmlakının mülkiyyətçisinin dəyişməsi ilə nəticələnməyib. Müəssisənin əmlakının mülkiyyətçisi yenə də müəssisənin özü - cavabdeh qalmaqda davam edib. Beləliklə, əmək müqaviləsinin ləğv edilməsi üçün Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin "ç" bəndində müəyyən edilmiş əsas mövcud deyil.

21. Apellyasiya instansiya məhkəməsi gəldiyi nəticənin hüquqi əsası kimi Əmək Məcəlləsinin 3-cü maddəsinin 1-ci hissəsinə, 68-ci maddəsinin 1-ci və 2-ci hissələrinə, Mülki Məcəlləsinin 43 və 53-cü maddələrinə istinad etmişdir.

Kassasiya şikayətinin və ona etirazın dəlilləri.

Kassasiya şikayətinin dəlilləri:

22. Qətnamədən cavabdeh (vəkil) kassasiya şikayəti verərək apellyasiya instansiya məhkəməsinin qətnaməsinin ləğv edilməsini və iddia tələbinin rədd edilməsi barədə yeni qərar qəbul olunmasını xahiş etmişdir.

23. Kassasiya şikayəti onunla əsaslandırılmışdır ki, işdə olan sənədlərdən görünür ki, cavabdehin səhmlərinin satılması ilə əlaqədar olaraq təsisçilərin nizamnamə kapitalındakı paylarının miqdarında dəyişikliklər edilərək əvvəlki təsisçilər "X2" QSC-95,6759 %, "X3" MMC-0,0991 % və X4 -4,225% dəyişilmiş, Açıq Səhmdar Cəmiyyətinin səhmdarları 0,0091 %-lə "X3" MMC, 0,9568%-lə X5 və 98,9441%-lə X4 olmuşdur. Göründüyü kimi bankın səhmlərində mühüm paya malik olan səhmdar əvvəl "X2" QSC olmuş, hal-hazırda isə 98,9441%-lə X4-dır. Eyni zamanda, səhmdarlar sırasından "X2" QSC çıxmış, X5 isə 0,9568%-lə yeni səhmdar qismində daxil olmuşdur. Cavabdehin təsisçilərindən mühüm paya malik olan səhmdarının dəyişməsi, eləcə də yeni səhmdarın təsisçilər sırasına daxil olması ilə bankın mülkiyyətçiləri də dəyişmişdir. Mülkiyyətçilərin dəyişməsi ilə əlaqədar yeni mülkiyyətçilərin 25.07.2022-ci il tarixli qərarı və işəgötürənin müvafiq əmri ilə tələbkarla olan əmək münasibətlərinə xitam verilmişdir. Göründüyü kimi iddiaçı ilə bağlanmış əmək müqaviləsinə mülkiyyətçinin dəyişməsi əsası ilə xitam verilmişdir. Hazırkı iş üzrə iddianı təmin etmiş Bakı Apelyasiya Məhkəməsinin Mülki Kollegiyası mövqeyini onunla əsaslandırmışdır ki, cavabdeh özü mülkiyyətçi hesab olunur. Bu baxımdan da cavabdehin təsisçilərinin və ya onların təsis paylarının həcminin dəyişməsi, müəsissənin mülkiyyətçisinin dəyişməsi demək deyil.

24. Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi Qanunvericilik Şöbəsinin 24.05.2023-cü il tarixli cavab məktubunda göstərilir ki, "...Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 106.1.1-ci maddəsinə əsasən səhmdar cəmiyyətinin səhmdarı bir və ya daha çox sayda səhmlərinin bu Məcəllə ilə müəyyən edilmiş qaydada mülkiyyətçisi olan fiziki və

(və ya) hüquqi şəxsdir. Səhmdar Cəmiyyətinin ali idarəetmə orqanı onun səhmdarlarının ümumi yığıncağıdır. Səhmdarlar isə yuxarıda qeyd olunduğu kimi səhmlərin mülkiyyətçisi olan fiziki və (və ya) hüquqi şəxslərdir. Eyni zamanda məcəllədə sadə (adi) və imtiyazlı səhm mülkiyyətçiləri və bundan irəli gələrək onların hüquqları da müəyyən edilmişdir. Səhmdar Cəmiyyətinin ümumi yığıncağı cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) və təftiş komissiyasının üzvlərini (müfəttişi) seçmək və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək, cəmiyyətin icra orqanlarını yaratmaq və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək hüququna malikdir. Ümumi yığıncağın seçdiyi cəmiyyətin direktorlar şurası (Müşahidə Şurası) isə cəmiyyətin icra orqanlarını (İdarə Heyəti, müdiriyyət, direktor) təyin etmək hüququna malik olur. Bütün bu və ya digər məsələlər Mülki Məcəllə, banklara münasibətdə eyni zamanda "Banklar haqqında" Azərbaycan Respublikasının Qanunu və müvafiq səhmdar cəmiyyətinin nizamnaməsi ilə müəyyən olunur. Göründüyü kimi, səhmdarların səhmlərinin həcminin dəyişməsi, yaxud yeni mülkiyyətçilərin (səhmdarların) qəbulu son nəticədə ümumi yığıncağın tərkibinə, səsverməyə, onların qərarlarına və bundan irəli gələrək idarəedici orqanların formalaşmasına təsir edə bilir. Azərbaycan Respublikası Əmək Məcəlləsinin 63cü maddəsinin 2-ci hissəsinə uyğun olaraq yeni mülkiyyətçi tərəfindən müəssisənin işəgötürəninin (rəhbərinin), onun müavinlərinin, baş mühasibin və bilavasitə idarəetmə funksiyalarını yerinə yetirən digər struktur bölmələrin rəhbərlərinin əmək müqavilələrinə mülkiyyətçinin dəyişməsi ilə əlaqədar bu Məcəllənin 56-cı maddəsində nəzərdə tutulan qaydada onların əmək müqavilələrinin şərtləri dəyişdirilə bilər..." Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin 05.05.2023-cü il və 18.05.2023-cü il tarixli məktublarında qeyd edilir ki, "...Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 99-cu maddəsinə əsasən səhmdar cəmiyyətinin iştirakçıları onlara mənsub səhmləri digər səhmdarların razılığı olmadan özgəninkiləşdirə bildikdə, o, açıq səhmdar cəmiyyəti sayılır. Bu cür səhmdar cəmiyyəti buraxdığı səhmlərə açıq abunə yazılışını və onların sərbəst satışını həyata keçirə bilər. Məcəllənin 106.1-ci maddəsinə əsasən səhmdar cəmiyyətinin səhmdarı cəmiyyətin bir və ya daha çox sayda səhmlərinin bu Məcəllə ilə müəyyən edilmiş qaydada mülkiyyətçisi olan fiziki və (və ya) hüquqi şəxsdir. Məcəllənin 106-2-ci maddəsinə əsasən səhmdar cəmiyyətinin səhmdarlarının reyestri mərkəzi depozitar tərəfindən aparılmalıdır. Əlavə olaraq bildiririk ki, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikası Qanununun 16.1 və 16.2-ci maddələrinə müvafiq olaraq, mərkəzi depozitar depozitar sistemini idarə edən Milli Depozit Mərkəzidir və "mərkəzi depozitar" sözlərindən öz adında yalnız Milli Depozit Mərkəzi istifadə edə bilər". Yuxarıda qeyd olunan açıqlamalardan da göründüyü kimi, açıq səhmdar cəmiyyətinin mülkiyyətçisi dedikdə cəmiyyətin səhmlərinin mülkiyyətçisi olan fiziki və (və ya) hüquqi şəxsləri başa düşülür. Eyni zamanda həm Azərbaycan Respublikasının Mülki Məcəlləsi, həm Azərbaycan Respublikasının Əmək Məcəlləsi, həm də "Səhmdar Cəmiyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa görə, səhmdarlar səhmdar cəmiyyətin mülkiyyətçiləri hesab edilirlər. Qeyd olunan qanunlara görə, cəmiyyətin səhminə və ya müvəqqəti səhm şəhadətnaməsinə malik olan hər bir fiziki və ya hüquqi şəxs onun səhmdarı hesab edilir. Göstərilənlər əsasən hesab edilməlidir ki, səhmdar Cəmiyyətdə səhmdarın(ların) dəyişməsi - mülkiyyətçilərin dəyişməsi deməkdir. İşə baxmış hakim qətnaməsində Azərbaycan Respublikası Əmək Məcəlləsinin 3-cü və Mülki Məcəllənin 43-cü, 53-cü maddələrinə istinad edərək, bu normalara öz mülahizəsinə uyğun qaydada şərh vermişdir". Hesab edilir ki, hakimin qüvvədə olan normanın mənasını iş üzrə özünün gəldiyi nəticəyə uyğunlaşdırması düzgün deyil və qanuna ziddir. Belə ki, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 3-cü maddəsinin 1-ci bəndinə görə, müəssisə - mülkiyyətçinin təşkilati-hüquqi formasından, adından və fəaliyyət növündən asılı olmayaraq Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq yaratdığı hüquqi şəxs, onun və xarici hüquqi şəxsin filialı, nümayəndəliyidir. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 43.1-ci maddəsinə görə, Hüquqi şəxs qanunla müəyyənləşdirilən qaydada dövlət qeydiyyatından keçmiş, xüsusi yaradılmış elə bir qurumdur

ki, mülkiyyətində ayrıca əmlakı vardır, öz öhdəlikləri üçün bu əmlakla cavabdehdir, öz adından əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və ya cavabdeh olmaq hüququna malikdir. Hüquqi şəxsin müstəqil balansı olmalıdır. Göründüyü kimi, qeyd olunan hər iki normada hakimin bildirdiyi kimi, hüquqi şəxsin özünün mülkiyyətçi olması, bu səbəbdən müəssisənin mülkiyyətçisinin dəyişilə bilməməsi, habelə müəssisənin mülkiyyətçisinin dəyişilməsi, əslində müəssisənin əmlakının mülkiyyətçisinin dəyişməsidir" hər hansı ifadə yoxdur və bu normalar belə bir mənaya gəlməyə əsas vermir. Eyni zamanda həmin Məcəllənin 3-cü maddəsinin İşəgötürən - tam fəaliyyət qabiliyyətli olub işçilərlə əmək müqaviləsi (kontrakt) bağlamaq, ona xitam vermək, yaxud onun şərtlərini dəyişdirmək hüququna malik mülkiyyətçi və ya onun təyin (müvəkkil) etdiyi müəssisənin rəhbəri, səlahiyyətli orqanı, habelə fiziki şəxsdir. Qanunvericiliyin Əmək Məcəlləsinin 3-cü maddəsinin 3-cü hissəsində işəgötürənə verdiyi anlayışa görə, işəgötürən tam fəaliyyət qabiliyyətli olub işçilərlə əmək müqaviləsi (kontrakt) bağlamaq, ona xitam vermək, yaxud onun şərtlərini dəyişdirmək hüququna malik mülkiyyətçi və ya onun təyin (müvəkkil) etdiyi müəssisənin rəhbəri, səlahiyyətli orqanı, habelə fiziki şəxsdir. Bununla da qanunverici həm hüquqi şəxs olan mülkiyyətçini, həm də onun struktur bölmələrinin rəhbərlərini işəgötürən olaraq qəbul edir. Cavabdehin Nizamnaməsinə əsasən İdarə Heyətinin sədri işəgötürən qismində çıxış etdiyi üçün, habelə həmin Nizamnamə də səhmdarlar tərəfindən ümumi yığıncaqda qəbul edildiyi üçün, həmçinin İdarə Heyətinin sədri səhmdarlar tərəfindən ümumi yığıncağın qərarı ilə seçildiyi üçün səhmdar müəssisənin mülkiyyətçisi hesab olunur. Digər tərəfdən, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 1-ci maddəsinə görə, Azərbaycan Respublikasının əmək qanunvericiliyi sistemi aşağıdakılardan ibarətdir: Əmək Məcəlləsi; Azərbaycan Respublikasının müvafiq qanunları; müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyəti çərçivəsində qəbul etdiyi normativ hüquqi aktlardan; əmək, sosial-iqtisadi məsələlərlə əlaqədar Azərbaycan Respublikasının bağladığı və ya tərəfdar çıxdığı beynəlxalq müqavilələrdir. Göründüyü kimi, tərəflər arasında mövcud əmək mübahisəsinin həllində hakimin istifadə etdiyi xarici dövlətlərin (qətnamədə hansı ölkənin qanunvericiliyi olması barədə qeyd yoxdur) qanunvericiliyi Azərbaycan Respublikasının ərazisində tətbiq edilən qanunvericilik sisteminə daxil edilməmişdir. Əmək Məcəlləsinin 3-cü və 68-ci maddəsi qüvvədədir, həmin normalarda hər bir söz aydın ifadə olunmuşdur, həmin normalara izah verilməsi tələb olunmur. İşə baxmış hakimin, Konstitusiya Məhkəməsinin səlahiyyətlərini mənimsəyərək, qüvvədə olan normalara şərh verməsi, bunu edərkən də normaların mənasını öz mövqeyinə uyğunlaşdırması qanunsuzdur, qanunvericiliyin tələblərinə ziddir. Həmçinin, hakimin Əmək və Mülki Məcəllənin qüvvədə olan, Konstitusiya Məhkəməsi tərəfindən şərh olunmayan normalarını qüsurlu hesab etməsi də anlaşılan deyil. Yuxarıda qeyd olunduğu kimi, cavabdehin səhmlərinin satılması ilə əlaqədar olaraq təsisçilərin nizamnamə kapitalındakı paylarının miqdarında dəyişikliklər edilərək əvvəlki təsisçilər "X2" QSC-95,6759 %, "X3" MMC-0,0991 % və X4-4,225% dəyişilmiş, Açıq Səhmdar Cəmiyyətinin səhmdarları 0,0091%-lə "X3" MMC, 0,9568%-lə X5 və 98,9441%-lə X4 olmuşdur. Göründüyü kimi bankın səhmlərində mühüm paya malik olan səhmdar əvvəl "X2" QSC olmuş, hal-hazırda isə 98,9441%-lə X4-dır. Eyni zamanda, səhmdarlar sırasından "X2" QSC çıxmış, X5 isə 0,9568%-lə yeni səhmdar qismində daxil olmuşdur. Başqa sözlə açıq səhmdar cəmiyyətinin mülkiyyətçiləri dəyişmişdir. Bu baxımdan hesab edilir ki, iddiaçı ilə əmək müqaviləsinə xitam verilməsində cavabdeh Bank tərəfindən hər hansı qanun pozuntusuna yol verilməmişdir. Belə ki, iddiaçı ilə əmək münasibətlərinə xitam verilərkən qanunvericiliyin tələblərinə riayət olunmuşdur.

25. Məhkəmə digər dövlətlərin əmək məcəlləsinə istinad etdiyini göstərsə də, hansı dövlətin, hansı qanunvercilik aktının olması barəsində dəqiq qeyd etməmişdir, etsəydi belə bu, əsassız idi.

26. Eyni zamanda məhkəmə prosesi zamanı hakim şifahi qaydada Qasımov Alış Məmiş oğlunun müəllifi olduğu Azərbaycan Respublikası Əmək Məcəlləsinin Elmi-praktiki

komentariyasına istinad etmiş, praktiki vəsaiti qanunvericiliyin tələbi kimi əks etdirmişdir. Halbuki, Mülki Prosessual qanunvericliyinin əsasını Azərbaycan Respublikasının Konstitusiyası, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının Mülki Prossesual Məcəlləsi, digər qanunlar, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilir. İşə baxan məhkəmə Azərbaycan Respublikası qanunvericiliyinə əsasən istinad etməli olmadığı xarici ölkə qanunvericiliyini adını misal kimi gətirməklə səhv hüquqi nəticəyə gəlmişdir.

27. Bakı Apellyasiya Məhkəməsi tərəfindən işin düzgün həlli üçün əhəmiyyət kəsb edən hallara dair sübutlar tam, hərtərəfli araşdırılmamış, onlara düzgün hüquqi qiymət verilməmişdir.

28. Məhkəmə iclas zamanı tərəflərin çəkişmə prinsipini pozmuşdur. Belə ki, iddiaçı iddia tələbinə aid olmayan çıxış edərkən dəfələrlə etiraz edilməsinə baxmayaraq buna şərait yaratmış, iddiaçının çıxışı bitdikdən dərhal sonra müşavirəyə gedəcəyini bildirmişdir. Cavabdeh olaraq bir daha etiraz edərək müşavirəyə onları dinləmədən getməsinin qanunsuz olduğunu bildirilmişdir. Lakin hakim cavabdehin vəkili işi Avropa məhkməsinədək aparmaq hədəsi nəticəsində (video çıxışa nəzər salınsa özü də etiraf edir) cavabdehi dinləmədən, lazımı qaydada araşdırma aparmaq ehtiyacını hiss etməmişdir.

29. İşə baxan apellyasiya instansiyası məhkəməsi Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun 30.07.2021-ci il tarixli qərarına (Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumun Azərbaycan Respublikası Əmək Məcəlləsinin 3-cü maddəsinin 1-ci hissəsinin, 294 və 296-cı maddələrinin şərh edilməsinə dair 30.07.2021-ci il tarixli qərarı) və Azərbaycan Respublikası Əmək Məcəlləsinin 3.1-ci maddəsində müəssisənin mülkiyyətçisi ifadəsinə istinad etməli olduğu halda özü qanunvericiliyi şərh etməyə çalışmışdır, tətbiq etməli olduğu maddi hüquq normasını tətbiq etməmişdir.

Kassasiya şikayətinə qarşı verilmiş etirazın dəlilləri:

30. Cavabdeh (vəkil) tərəfindən verilmiş kassasiya şikayətinə qarşı iddiaçı (vəkil) yazılı etiraz verərək etirazını iddia ərizəsində və apellyasiya şikayətində qeyd etdiyi dəlillərlə əsaslandırmış, kassasiya şikayətinin əsassız olduğunu qeyd etməklə, şikayətin təmin olunmamasını, apellyasiya instansiya məhkəməsinin qətnaməsinin dəyişdirilmədən saxlanılmasını xahiş etmişdir.

Tətbiq edilən hüquq.

Azərbaycan Respublikasının Əmək Məcəlləsi.

31. Maddə 2 (1-ci hissə). Azərbaycan Respublikasının Əmək Məcəlləsi işçilərlə işəgötürənlər arasında yaranan əmək münasibətlərini, habelə onlarla müvafiq dövlət hakimiyyəti orqanları, hüquqi şəxslər arasında həmin münasibətlərdən törəyən digər hüquq münasibətlərini tənzim edir.

32. Maddə 2 (3-cü hissə). Azərbaycan Respublikasının Əmək Məcəlləsi əmək münasibətlərində tərəflərin: hüquq bərabərliyinin təmin edilməsi; mənafelərinin haqqədalətlə və qanunun aliliyinin təmin olunması ilə qorunması; maddi, mənəvi, sosial, iqtisadi və digər həyati tələbatlarını ödəmək məqsədi ilə əqli, fiziki və maliyyə imkanlarından sərbəst istifadə etməsinin təmin edilməsi; əmək münasibətlərinin mülki hüquqi müqavilələrlə rəsmiləşdirilməsinin yolverilməzliyi; əsasən əmək müqaviləsi (kontrakt) üzrə öhdəliklərinin icrasına hüquqi təminat yaradılması prinsiplərinə əsaslanır.

33. Maddə 3 (1-ci hissə). Müəssisə - mülkiyyətçinin təşkilati-hüquqi formasından, adından və fəaliyyət növündən asılı olmayaraq Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq yaratdığı hüquqi şəxs, onun və xarici hüquqi şəxsin filialı, nümayəndəliyi.

34. Maddə 35.2. (3-cü hissə). Həmin Məcəllə əmək münasibətlərində olan tərəflərin hüquq bərabərliyinin təmin edilməsi, mənafelərinin haqq-ədalətlə və qanunun əliliyinin təmin olunması ilə qorunması prinsiplərinə əsaslanır.

35. Maddə 63 (2-ci hissə). Yeni mülkiyyətçi tərəfindən müəssisənin işəgötürəninin (rəhbərinin), onun müavinlərinin, baş mühasibin və bilavasitə idarəetmə funksiyasını yerinə yetirən digər struktur bölmələrin rəhbərlərinin əmək müqavilələrinə mülkiyyətçinin dəyişməsi ilə əlaqədar bu Məcəllənin 68-ci maddəsinin "ç" bəndi ilə xitam verilə və ya bu Məcəllənin 56-cı maddəsində nəzərdə tutulan qaydada onların əmək müqavilələrinin şərtləri dəyişdirilə bilər.

36. Maddə 68 (1-ci hissə). Əmək müqaviləsinə yalnız bu Məcəllə ilə müəyyən edilmiş əsaslarla və qaydada xitam verilə bilər.

37. Maddə 68 (2-ci hissə), "ç" bəndi. Müəssisənin mülkiyyətçisinin dəyişməsi ilə əlaqədar (bu Məcəllənin 63-cü maddəsinin ikinci hissəsində göstərilən işçilər) hal əmək müqaviləsinə xitam verilməsi üçün əsasdır.

38. Maddə 83 (1-ci hissə). Əgər işçi ilə bağlanmış əmək müqaviləsində onun ləğv edilməsinin sənədləşdirilməsi barədə bu fəsildə müəyyən edilmiş qaydalardan fərqli olan başqa qaydalar nəzərdə tutulmayıbsa, onda istər işçi, istərsə işəgötürən tərəfindən və istərsə də tərəflərin iradəsindən asılı olmayan hallarda bu Məcəllənin 68, 69, 70, 73, 74 və 75-ci maddələrində nəzərdə tutulan əsaslara və qaydalara müvafiq olaraq əmək müqaviləsinin ləğv edilməsi işəgötürənin əsaslandırılmış əmri (sərəncamı, qərarı) ilə rəsmiləşdirilməlidir.

Azərbaycan Respublikası Mülki Məcəlləsi.

39. Maddə 43.1. Hüquqi şəxs qanunla müəyyənləşdirilən qaydada dövlət qeydiyyatından keçmiş, xüsusi yaradılmış elə bir qurumdur ki, mülkiyyətində ayrıca əmlakı vardır, öz öhdəlikləri üçün bu əmlakla cavabdehdir, öz adından əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və ya cavabdeh olmaq hüququna malikdir. Hüquqi şəxsin müstəqil balansı olmalıdır.

40. Maddə 53.1. Hüquqi şəxsin olduğu yerdən kənarda yerləşən və hüquqi şəxsin mənafelərini təmsil və müdafiə edən ayrıca bölməsi nümayəndəlik sayılır.

41. Maddə 53.2. Hüquqi şəxsin olduğu yerdən kənarda yerləşən və onun funksiyalarının hamısını və ya bir hissəsini, o cümlədən nümayəndəlik funksiyalarını həyata keçirən ayrıca bölməsi filial sayılır.

42. Maddə 53.3. Nümayəndəliklər və filiallar hüquqi şəxs deyildirlər və hüquqi şəxsin təsdiq etdiyi əsasnamələr üzrə fəaliyyət göstərirlər. Nümayəndəliklərin və filialların rəhbərləri hüquqi şəxs tərəfindən təyin edilir və onun etibarnaməsi əsasında fəaliyyət göstərirlər. Təsisçilərinin əcnəbilər və ya xarici hüquqi səxslər olduğu qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin rəhbərlərinin müavinləri Azərbaycan Respublikasının vətəndaşları olmalıdır.

43. Maddə 99.1. Səhmdar cəmiyyətinin iştirakçıları onlara mənsub səhmləri digər səhmdarların razılığı olmadan özgəninkiləşdirə bildikdə, o, açıq səhmdar cəmiyyəti sayılır. Bu cür səhmdar cəmiyyəti buraxdığı səhmlərə açıq abunə yazılışını və onların sərbəst satışını həyata keçirə bilər.

44. Maddə 106-1.1. Səhmdar cəmiyyətinin səhmdarı cəmiyyətin bir və ya daha çox sayda səhmlərinin bu Məcəllə ilə müəyyən edilmiş qaydada mülkiyyətçisi olan fiziki və (və ya) hüquqi şəxsdir.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi.

45. Maddə 2.1. Mülki işlər və kommersiya mübahisələri üzrə məhkəmə icraatının vəzifələri hər bir fiziki və yaxud hüquqi şəxsin Azərbaycan Respublikasının Konstitusiyasından, qanunlarından və digər normativ hüquqi aktlarından irəli gələn hüquq və mənafelərinin məhkəmədə təsdiq olunmasıdır.

46. Maddə 4.1. Bütün fiziki və hüquqi şəxslər özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədi ilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququna malikdirlər.

47. Maddə 14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

48. Maddə 76.1. Tərəflərin tələb və etirazlarını əsaslandıran halların və işi düzgün həll etmək üçün əhəmiyyəti olan başqa halların mövcud olduğunu və ya olmadığını məhkəmə müəyyən edərkən bu Məcəllədə və başqa qanunlarda müəyyən olunmuş qaydada əldə etdiyi məlumatlar sübutlar hesab olunur.

49. Maddə 76.2. Məlumatlar yazılı və maddi sübutlara, ekspertlərin rəyləri ilə, yerində müayinə keçirməklə, səs və video yazıları ilə, şahidlərin ifadələri ilə, işdə iştirak edən şəxslərin izahatları ilə müəyyən edilir.

50. Maddə 77.1 Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

51. Maddə 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

52. Maddə 217.4. Məhkəmə öz qətnaməsini yalnız məhkəmə iclasında tədqiq olunmuş sübutlarla əsaslandırır.

53. Maddə 218.1. Qətnamə çıxarıldıqda hakim sübutları qiymətləndirir, iş üçün əhəmiyyətli olan nə kimi halların müəyyən edildiyini, nə kimi halların müəyyən edilmədiyini, tərəflərin hansı hüquqi münasibətdə olmalarını, həmin iş üzrə hansı qanunun tətbiq edilməli olduğunu və iddianın təmin olunub-olunmadığını müəyyən edir.

54. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

55. Maddə 416.2. Apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 418.4-cü maddəsində nəzərdə tutulmuş prosessual hüquq pozuntusu hesab edilən hallara yol verilməsi şikayətin hədlərindən və dəlillərindən asılı olmayaraq yoxlanılmalıdır.

56. Maddə 417.1.4. Kassasiya məhkəməsi işə baxarkən apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadını tamamilə, yaxud qismən ləğv edib apellyasiya instansiyası məhkəməsində müəyyən edilmiş hallar və sübutlar əsasında yeni qərar qəbul edə bilər.

Kassasiya baxışının hədləri:

57. Kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

58. Hazırkı kassasiya şikayətində qətnamə cavabdeh tərəfindən tam mübahisələndirildiyindən apellyasiya instansiyası məhkəməsinin aktı bütövlükdə yoxlanılır.

Kasasiya instansiyası məhkəməsinin mövqeyi:

59. Məhkəmə kollegiyası hesab edir ki, apellyasiya məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilib-edilməməsi məsələsi kassasiya qaydasında yoxlanılarkən, iddia tələbinin həlli ilə bağlı məsələyə düzgün hüquqi qiymətin verilmədiyi, məhkəmə tərəfindən mübahisəli hüquq münasibətini tənzimləyən maddi hüquq normalarının düzgün tətbiq olunmaması və işin hallarının hərtərəfli, tam və obyektiv araşdırılması ilə bağlı prosessual hüquq normalarının pozulmasına yol verilməsi müəyyən edilmişdir.

60. Bu səbəbdən də məhkəmə kollegiyası mübahisələndirilən qətnamənin ləğv edilməsi və apellyasiya instansiyası məhkəməsi tərəfindən müəyyən edilmiş hallar və sübutlar əsasında yeni qərar qəbul edilməsini məqsədəuyğun hesab edir.

61. Belə ki, işin birinci və apellyasiya instansiyası məhkəməsi tərəfindən müəyyən edilmiş halları ondan ibarətdir ki, iddiaçı ilə cavabdeh arasında bağlanmış 31.05.2013-cü il tarixli *** “*” saylı əmrə əsasən, iddiaçı cavabdehdə “8 saylı” filialın müdir müavini vəzifəsinə

işə qəbul edilmiş, 29.11.2016-cı il tarixli **** K nömrəli əmrlə 8 saylı filialın müdiri vəzifələrinin müvəqqəti icra edicisi, 22.05.2017-ci il tarixli **/** saylı əmrlə "8 saylı" filialın müdiri vəzifəsinə təyin edilmişdir. 04.06.2018-ci il tarixli **/* saylı əmrlə cavabdeh tərəfindən əmək müqaviləsinə xitam verilmişdir. 08.06.2018-ci il tarixli **/* saylı əmrlə müddətli əmək müqaviləsi olmaqla yenidən filial müdiri vəzifəsinə təyin edilmişdir. 01.07.2020-ci il tarixli, ***/* saylı əmrlə əmək müqaviləsinə xitam verilmişdir. Həmin əmrin ləğv edilməsi, işə bərpa və əmək müqaviləsinin müddətsiz hesab edilməsi və s. tələbinə dair iddiaçının cavabdehə qarşı Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 2(006)-4149/2020 nömrəli, 15 sentyabr 2020-ci il tarixli qətnaməsinə əsasən qismən təmin edilmiş, iddiaçı ilə cavabdeh arasında bağlanmış əmək müqaviləsinə Azərbaycan Respublikası Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin "b" bəndinə əsasən xitam verilməsi haqqında 01.07.2020-ci il tarixli ***/* saylı əmri və əmrə əsasən ******* saylı əmək kitabçasının 27-ci səhifəsindəki 29-cu qeyd nömrəsi ilə yazılmış "Azərbaycan Respublikası Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin "b" bəndinə əsasən (əmək müqaviləsinin müddətinin qurtarması) əmək müqaviləsinə xitam verilsin" qeydinin etibarsız sayılması, iddiaçının əvvəlki işinə bərpa edilməsi, ona 01.07.2020-ci il tarixdən işə bərpa olunduğu günədək məcburi iş buraxma müddəti üçün əmək haqqı və əmək qabiliyyətinin olmaması vərəqəsi üzrə xəstə olduğu müddətdə xəstəlik vərəqəsi üzrə ödənilməli olan məbləğ ödənilməsi iddianın qalan hissədə rədd edilməsi qət olunmuşdur. Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 2(103)-9642/2021 nömrəli, 08 oktyabr 2021-ci il tarixli qətnaməsinə əsasən iddiaçı tərəfindən verilmiş apelyasiya şikayəti qismən təmin edilmiş, iş üzrə Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 2(006)-4149/2020 nömrəli, 15 sentyabr 2020-ci il tarixli qətnaməsinin iddianın təmin edilməyən-əmək müqaviləsinin müddətsiz bağlanmış hesab edilməsi hissəsində ləğv edilməsi və həmin hissədə iddia tələbinin təmin edilməsi, tərəflər arasında bağlanılmış əmək müqaviləsinin müddətsiz bağlanılmış hesab edilməsi qət olunmuşdur. Qətnamə qanuni qüvvəsini aldıqdan sonra 16.04.2022-ci il tarixində icraya yönəlmişdir. 14.06.2021ci il tarixində ünvan 1 ünvanında yerləşən "8 saylı" Filialın hüquqi ünvanı ünvan 2 ünvanına və adı "28 May" Filialına dəyişdirilmiş və mərkəzi reyestrdə müvafiq dəyişiklik aparılmışdır. Cavabdeh tərəfindən 06.05.2022-ci il tarixində Müşahidə Şurasının növbədənkənar Ümumi iclasında ünvan 2 ünvanında yerləşən "28 May" Filialının (keçmiş "8 saylı" Filial) ünvan 3 ünvanına köçürülməsi qərara alınmışdır. Hazırda iddiaçıya təklif olunan vəzifə "8 saylı filiala müdir", yəni hazırkı "28 May" Filialına müdir vəzifəsidir. İddiaçı sözügedən filialı əslində 3 saylı filial hesab etdiyindən və yekun məhkəmə qərarı ilə 8 saylı filiala müdir vəzifəsinə bərpa olunduğundan, hazırkı "28 May" Filialına işə çıxmamışdır. Bununla əlaqədar müvafiq aktlar tərtib edilmişdir. Bakı şəhəri Yasamal rayon İcra şöbəsinin 13.09.2022-ci il tarixli "icra edilməyən və ya qismən icra edilmiş icra sənədinin məhkəməyə və ya digər orqana qaytarılması" qərarı ilə Bakı Apellyasiya Məhkəməsinin 2(103)9642/2021 nömrəli, 08 oktyabr 2021-ci il tarixli icra vərəqəsinin "İcra haqqında" Azərbaycan Respublikası Qanununun 23.1.5-ci maddəsinə əsasən geri qaytarılması qərara alınmışdır.

62. Həmçinin müəyyən olunmuşdur ki, 29.04.2022-ci il tarixdə bankın səhmdarları səhmlərinin alqı-satqısı nəticəsində dəyişmiş, bu barədə Qiymətli kağız mülkiyyətçilərinin reyestrində qeydiyyat aparılmış, 16.05.2022-ci il tarixdə kommersiya qurumlarının dövlət reyestr məlumatlarında dəyişikliklər edilmiş, cavabdehin səhmlərinin satılması ilə əlaqədar olaraq təsisçilərin nizamnamə kapitalındakı paylarının miqdarında dəyişikliklər edilərək əvvəlki təsisçilər "X2" QSC-95,6759 %, "X3" MMC-0,0991 % və X4-4,225 % dəyişilmiş, yeni təsisçilər və onların nizamnamə kapitalındakı payları "X3" MMC-0,0991 %, X5 – 0,9568 % və X4 98,9441 % müəyyən edilmiş və bununla bağlı cavabdehə çıxarış verilmişdir. Cavabdehin İdarə Heyəti sədrinin 26.07.2022-ci il tarixli ***/* nömrəli əmri ilə iddiaçı ilə bağlanmış əmək müqaviləsinə Azərbaycan Respublikası Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin "ç" bəndinə əsasən xitam verilmişdir.

63. Məhkəmə kollegiyası qeyd edir ki, göründüyü kimi cavabdehin İdarə Heyəti sədrinin 26.07.2022-ci il tarixli, ***/* nömrəli əmri ilə həmin bankın “28 May” filialının (əvvəlki “8 saylı” filial) müdiri olan iddiaçının Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin “ç” bəndinə əsasən (müəssisənin mülkiyyətçisinin dəyişməsi ilə əlaqədar) tutduğu vəzifədən azad edilməsi və onunla bağlanmış əmək müqaviləsinə

26.07.2022-ci il tarixdən xitam verilməsi əmr edilmişdir. Apellyasiya instansiya məhkəməsi gəldiyi nəticə ilə bağlı qeyd etmişdir ki, hüquqi şəxsin təsisçilərinin (iştirakçılarının) qoyduğu maya hesabına əmələ gəlmiş əmlakın mülkiyyətçisi hüquqi şəxs sayılır, iştirakçıların (səhmdarların) tərkibinin dəyişməsi əmək müqaviləsinə xitam verilməsinə əsas ola bilməz. Çünki bu halda müəssisənin (hüquqi şəxsin) əmlakının mülkiyyətçisi dəyişmir, müəssisənin əmlakının mülkiyyətçisi kimi yenə də müəssisənin özü qalmaqda davam edir. Cavabdehin iştirakçılarının (səhmdarlarının) tərkibinin dəyişməsi baş verib: üç iştirakçıdan (səhmdardan) birini – “X2” QSC yeni iştirakçı (səhmdar) X5 əvəz edib. Səhm - qiymətli kağızdır, səhmin sahibi hüquqi şəxsin əmlakının mülkiyyətçisi sayılmır.

64. Məhkəmə kollegiyası apellyasiya instansiya məhkəməsinin həmin əsaslandırması ilə razılaşmır və bununla bağlı aşağıdakıları qeyd edir:

65. Belə ki, Əmək Məcəlləsinin 68-ci maddəsinin “ç” bəndinin məzmunundan görünür ki, müəssisənin mülkiyyətçisi dəyişdikdə, yeni mülkiyyətçi siyahısı qanunda konkret göstərilmiş vəzifələrdə çalışan işçilərin əmək müqaviləsinə əlavə heç bir əsaslandırma aparmadan yalnız bu maddəyə istinad etməklə xitam verə bilər.

66. Qeyd olunmalıdır ki, əmək müqaviləsinə yalnız müəssisəsinin yeni mülkiyyətçisinin iradəsinə əsasən xitam verilməsi və buna dair heç bir əsaslandırma aparmağa borclu olmaması qanunda nəzərdə tutulmuş müstəsna hüquqdur. Qeyd edilən müstəsnalığın tanınmasının isə legitim səbəbləri vardır. Belə ki, qanunla mülkiyyətçinin bu hüquqdan istifadə etmək imkanı verilmiş vəzifələr bilavasitə müəssisənin işinin və maliyyə resurslarının idarə edilməsi ilə bağlıdır. Göstərilən vəzifələrin müəssisənin işinin təşkili, fəaliyyətinin effektivliyi, davamlılığı, mənfəətlilik səviyyəsi, işgüzar nüfuzu və s. hallar baxımından müəssisənin fəaliyyəti üçün əhəmiyyəti nəzərə alındıqda müəssisənin mülkiyyətçisinin belə müstəsna səlahiyyətə malik olması hüquqi baxımdan qəbul ediləndir. Həmçinin, mülkiyyətçinin həmin müəssisəyə sahib olmaqla çatmaq istədiyi məqsədlər (ictimai, iqtisadi, sosial və s.) baxımından müəssisənin fəaliyyəti üçün strateji hesab edilən, qeyd olunan vəzifələrə özünün etimad göstərdiyi, sərištəsinə, peşəkar bacarıqlarına inandığı şəxsləri təyin etməsi haqlı və məntiqli yanaşmadır.

67. Məhkəmə kollegiyası qeyd edir ki, müəssisənin mülkiyyətçisinin dəyişməsi dedikdə, dövlət yaxud bələdiyyə əmlakı özəlləşdirilərək fiziki və ya hüquqi şəxslərin mülkiyyətinə verildikdə, dövlət müəssisələri bələdiyyə mülkiyyətinə verildikdə müəssisənin əmlakına olan mülkiyyət hüququnun bir şəxsdən digər şəxsə, yaxud şəxslərə keçməsi (verilməsi) başa düşülür.

68. Eyni zamanda, müəssisənin mülkiyyətçinin dəyişməsi dedikdə, əsasən təsisçi, payçı, səhmdar dəyişikliyi başa düşülür. Təşkilatın üç təsisçisi olduğu halda və təsisçilərdən biri yeniləndikdə artıq yeni mülkiyyətçi ortaya çıxır. Hər şey təsisçilərin iclas protokolunda qəbul olunan qərardan asılı olur. Başqa təsisçilərin olması yeni təsisçinin təkbaşına qərar qəbul etməsinə maneəçilik törədir, amma qərar qəbul olunsa, təşkilatda yeni mülkiyyətçi olduğuna görə Əmək Məcəlləsinin 63-cü maddəsi tətbiq oluna bilər.

69. Bundan başqa məhkəmə kollegiyası qeyd edir ki, əmək qanunvericiliyinə əsasən müəssisə dedikdə - mülkiyyətçinin təşkilati-hüquqi formasından, adından və fəaliyyət növündən asılı olmayaraq Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq yaratdığı hüquqi şəxs, onun və xarici hüquqi şəxsin filialı, nümayəndəliyi nəzərdə tutulur (Əmək Məcəlləsi maddə 3.1).

70. “Müəssisələr haqqında” Azərbaycan Respublikası Qanunun (23.04.2002-ci il tarixli Qanuna əsasən qüvvədən düşmüşdür) 1-ci maddəsinə əsasən, müəssisə dedikdə mülkiyyət

formasından asılı olmayaraq, bu Qanuna müvafiq yaradılan və ictimai tələbatın ödənilməsi və mənfəət alması məqsədilə məhsul istehsal edən və satan, işlər görən və xidmətlər göstərən hüquqi şəxs olan müstəqil təsərrüfat subyektidir. Müəssisələr dövlət, bələdiyyə, özəl və qarışıq müəssisə formasında ola bilər.

71. Təsisçisi (mülkiyyətçisi) dövlət olan müəssisə dövlət müəssisəsi, bələdiyyə olan müəssisə bələdiyyə müəssisəsi, fiziki və ya hüquqi şəxslər olan müəssisə özəl müəssisə hesab edilir. Mülkiyyətçiləri qismində bu subyektlərin (ən azı ikisinin) eyni zamanda çıxış etdiyi müəssisə isə qarışıq tipli müəssisədir. Müəssisənin mülkiyyətçisi (və ya mülkiyyətçiləri) qismində dövlət, bələdiyyələr, fiziki və ya hüquqi şəxslər çıxış edə bilərlər. Müəssisənin bir neçə mülkiyyətçisi ola bilər və bir müəssisənin mülkiyyətçiləri eyni zamanda həm dövlət, həm bələdiyyə, həm də fiziki və ya hüquqi şəxslər ola bilər. Bu halda, onlardan hər biri öz paylarına uyğun olaraq müəssisənin əmlakı üzərində mülkiyyətçi səlahiyyətlərini həyata keçirirlər.

72. Müəssisənin mülkiyyətçisi anlayışı ilə müəssisənin əmlakının mülkiyyətçisi anlayışı fərqləndirilməlidir. Müəssisənin mülkiyyətçisi dedikdə onun təsisçiləri (sonradan dəyişdiyi halda onların yerinə keçən şəxslər), müəssisənin əmlakının mülkiyyətçisi dedikdə isə müəssisənin özü başa düşülür. Dövlət və bələdiyyə müəssisələri baxımından müəssisənin mülkiyyətçisi anlayışı, həm də onun əmlakının mülkiyyətçisi anlayışını ehtiva etsə də, özəl və qarışıq tipli müəssisələr baxımından vəziyyət fərqli ola bilər. Məsələn: Bir hüquqi şəxsin təsisçiləri (iştirakçıları) həmin müəssisənin mülkiyyətçiləri olduğu halda, müəssisənin əmlakının mülkiyyətçiləri hesab edilmirlər. Müəssisənin əmlakının (nizamnamə kapitalı, ofis, istehsal sahələri və digər əmlak, fəaliyyət istiqamətlərinə uyğun olaraq görülən işlərdən, göstərilən xidmətlərdən əldə edilən daxilolmalar və nizamnamədə müəyyən edilmiş digər mənbələrdən daxil olan vəsaitlər) mülkiyyətçisi həmin hüquqi şəxsin özüdür.

73. Məhkəmə kollegiyası həmçinin qeyd edir ki, Əmək Məcəlləsinin 68-ci maddəsinin “ç” bəndinin mənası baxımından “müəssisənin mülkiyyətçisinin dəyişməsi” ifadəsi maddənin yazılışından da göründüyü kimi müəssisənin mülkiyyət formasının (dövlət, bələdiyyə və ya özəl) deyil, mülkiyyətçisinin dəyişməsi halını ifadə edir.

74. O da qeyd olunmalıdır ki, müəssisənin mülkiyyət formasının dəyişməsi hər bir halda onun mülkiyyətçisinin də dəyişməsi anlamına gəlməklə, müəssisənin mülkiyyətçisinin dəyişməsi əsaslarından biri kimi çıxış edir. Belə ki, müəssisənin mülkiyyət forması dəyişmədən də mülkiyyətçinin dəyişməsi halı baş verə bilər. Məsələn: hüquqi şəxslər baxımından tək təsisçisinin dəyişməsi həmin müəssisənin mülkiyyətçisinin dəyişməsi anlamına gəlir və bu halda yeni təsisçinin avtomatik bu əsasla əmək müqaviləsinə xitam vermək hüququ yaranmış olur.

75. Yuxarıda istinad olunan “Müəssisələr haqqında” qüvvədən düşmüş Qanunun 6-cı maddəsinə və onun şərhinə dair Konstitusiya Məhkəməsinin 09 mart 2000-ci il tarixli qərarındakı hüquqi mövqelərə əsasən, əgər müəssisənin səhmlərinin nəzarət paketi (azı 51 faizi) dövlət orqanlarına məxsus olduqda, o dövlət mülkiyyətinə əsaslanan dövlət müəssisəsidir və həmin müəssisənin daxilində başqa mülkiyyət növünün olması istisna edilmir. Səhmlərinin nəzarət paketi dövlət orqanlarına məxsus olan müəssisənin nizamnamə fondunda dövlətin payına uyğun olan əmlak dövlət mülkiyyəti hesab edilməlidir. Səhmlərinin nəzarət paketi dövlət orqanlarına məxsus olan müəssisənin digər payçıları öz paylarına uyğun olaraq əmlak üzərində mülkiyyətçi səlahiyyətlərini həyata keçirmək hüququna malikdirlər.

76. Məhkəmə kollegiyası hesab edir ki, yuxarıda adı çəkilən Qanun qüvvədən düşsə də, onun şərhinə dair Konstitusiya Məhkəməsinin qərarındakı hüquqi mövqelərdən rəsmi mənbə kimi istifadə edilə bilər.

77. Belə ki, “Konstitusiya Məhkəməsi haqqında” Qanunun 66.5-ci maddəsinə əsasən, Konstitusiya Məhkəməsinin qərarının qəbul edilməsi üçün əsas təşkil etmiş Azərbaycan Respublikası Konstitusiyasının norması referendum nəticəsində dəyişdirildikdə, həmin qərar

Konstitusiya Məhkəməsi tərəfindən qismən və ya bütövlükdə qüvvədən düşmüş hesab olunur.

78. Göründüyü kimi, qanunda Konstitusiya Məhkəməsinin qərarlarının qüvvədən düşməsinin yeganə əsası kimi onun qəbul edilməsi üçün əsas təşkil etmiş Konstitusiya normasının dəyişdirilməsi göstərilmişdir. Buradan belə qənaətə gəlmək olar ki, Konstitusiya Məhkəməsi tərəfindən qanunların şərhinə dair qəbul edilmiş qərar həmin qanun qüvvədən düşmüş hesab edilsə belə, qüvvəsində qalır və işə baxan məhkəmələr öz qərarlarında oradakı hüquqi mövqelərə istinad edə bilərlər.

79. Odur ki, Konstitusiya Məhkəməsinin yuxarıda istinad olunan 09 mart 2000-ci il tarixli qərarındakı hüquqi mövqelər baxımından analoji qaydada belə nəticəyə gəlmək olar ki, müəssisənin bir neçə mülkiyyətçisi olduqda onun əmlakı üzərində 51 faiz paya malik olan mülkiyyətçi dəyişdikdə, bu əsasla əmək müqaviləsinə xitam vermək hüququ yaranır.

80. Hər hansı müəssisədə mülkiyyət paylarının bölgüsündə 51 faizə sahib mülkiyyətçi olmadıqda isə (məsələn: paylar 20, 30, 40 faiz şəklində bölünübsə), mülkiyyətçilərdən birinin dəyişməsi halında bu hüquq yaranmır. Əks yanaşma əmək qanunvericiliyinin vəzifə və prinsiplərinə zidd olmaqla, işçi hüquqlarının müdafiəsi, daimi əməyə olan etimadın qorunması baxımından ədalətli olmazdı (məsələn: minlərlə səhmdarı olan səhmdar cəmiyyətində bir səhmdarın dəyişməsinin müəssisənin mülkiyyətçisinin dəyişməsi anlamına gəlməsi həm praktiki, həm də hüquqi baxımından doğru olmazdı). Lakin qeyd olunan bölgü halında (20, 30, 40 faiz) mülkiyyət paylarının 51 faizindən çoxuna sahib olan bir neçə mülkiyyətçi və ya bütün mülkiyyətçilər dəyişdikdə, bu hal Əmək Məcəlləsinin 68-ci maddəsinin “ç” bəndi baxımından müəssisənin mülkiyyətçisinin dəyişməsi anlamına gəlməklə, həmin şəxslərə yeni mülkiyyətçilər kimi birlikdə qərar qəbul etməklə bu hüquqdan istifadə etmək, yəni Əmək Məcəlləsinin 63-cü maddəsini tətbiq etmək imkanı verir.

81. Məhkəmə kollegiyası hesab edir ki, cavabdehin təsisçilərindən mühüm paya malik olan səhmdar X4-nın payının 51 faizdən artıq hissədə dəyişməsi, həmçinin yeni səhmdar X5-nun təsisçilər sırasına daxil olması bankın mülkiyyətçilərinin də dəyişməsini ehtiva edir. Mülkiyyətçilərin dəyişməsi ilə əlaqədar yeni mülkiyyətçilərin 25.07.2022-ci il tarixli qərarı və işəgötürənin müvafiq əmrinə əsasən iddiaçı ilə olan əmək münasibətlərinə xitam verilmişdir. Göründüyü kimi iddiaçı ilə bağlanmış əmək müqaviləsinə mülkiyyətçinin dəyişməsi əsası ilə xitam verilmişdir. Odur ki, 26.07.2022-ci il tarixli ***/* saylı əmr əsaslı olmaqla, həmin əmrin ləğv edilməsi üçün hüquqi əsaslar yoxdur.

82. Beləliklə, məhkəmə kollegiyası hesab edir ki, cavabdehin kassasiya şikayəti təmin edilməli, apellyasiya instansiya məhkəməsi tərəfindən iddia təmin edilərkən maddi hüquq normaları pozulduğu üçün həmin qətnamə ləğv edilməli və iddianın rədd edilməsi barədə yeni qərar qəbul olunmalıdır.

83. Şərh olunanlara əsasən və Azərbaycan Respublikası MPM-nin 416, 417 və 419cu maddələrini rəhbər tutaraq, məhkəmə kollegiyası

Qərara aldı:

Cavabdeh tərəfindən verilmiş kassasiya şikayəti təmin edilsin.

Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 2(103)-2588/2023 nömrəli, 05 may 2023-cü il tarixli qətnaməsi ləğv edilsin və apellyasiya instansiyası məhkəməsində müəyyən edilmiş hallar və sübutlar əsasında yeni qərar qəbul edilsin.

İddiaçının cavabdehə qarşı “icra sənədinin icrasına maneə yaradan qanunsuz əmrin ləğvi” tələbinə dair iddiası rədd edilsin.

Qərar qətidir və qəbul edildiyi andan qüvvəyə minir.

52. 2(102)-4262/2023 nömrəli, 2023-cü il 21 noyabr tarixli qərar- Müddətsiz əmək müqaviləsi əsasında 5 ildən artıq müddət ərzində çalışmış işçi ilə işəgötürən arasında bağlanmış müddətli əmək müqaviləsinin nəticələri

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: müddətsiz əmək müqaviləsi əsasında 5 ildən artıq müddət ərzində çalışmış işçi ilə işəgötürən arasında bağlanmış müddətli əmək müqaviləsinin nəticələri.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Məhkəmələrin mövqeyi ondan ibarət olmuşdur ki, əmək funksiyasının yerinə yetirilməsi şərtlərinə görə iddiaçının gördüyü işin daimi xarakterə malik olması mülki iş materialları ilə istisna edilmədiyindən və bu hal əvvəldən işəgötürənə bəlli olduğundan, onun əmək funksiyasının yerinə yetirilməsi şərtlərinə görə gördüyü işin müvəqqəti deyil, daimi xarakterə malik olmaqla qabaqcadan işəgötürənə bəlli olduğundan, eləcə də iddiaçı ilə müddətli əmək müqaviləsinin bağlanması üçün Əmək Məcəlləsinin 47-ci maddəsində sadalanan hər hansı hallar müəyyən edilmədiyindən iddia tələbləri təmin edilməlidir.

Bu kateqoriya mübahisələrə baxılarkən iddiaçı ilə bağlanmış əmək müqaviləsində işə başlama tarixinin göstərilməsindən asılı olmayaraq, iddiaçının müəssisədə nə vaxtdan işləməsi araşdırılmalıdır.

İşçinin uzun illər ərzində müddətsiz müqavilə əsasında işlədiyi, bir qayda olaraq özünün və ailə üzvlərinin yaşaması üçün əsas gəlir mənbəyi olan işdən ağlabatan səbəb olmadan çıxması və dərhal qısa müddətli əmək müqaviləsi bağlamasının (başqa sözlə həmin müddətin bitməsi ilə özünün işdən azad olunmasına imkan yaratmasının) şəxsin öz iradəsi əsasında atılmış addım kimi qiymətləndirilməsi ağlabatan hesab edilmir. İşçinin bu cür (bir qayda olaraq öz xeyrinə olmayan) dəyişikliyə getməsi, ağlabatan bir səbəblə izah olunmadıqda, belə müqavilələrin (razılaşmaların) işəgötürənin təzyiqi altında bağlandığı qənaətinə gəlinir.

Kassasiya instansiyası məhkəməsinin qərarı Əmək Məcəlləsinin 45, 47, 73-ci maddələrinə istinadla əsaslandırılmışdır.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-4262/2023

21.11.2023-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi
Mülki kollegiyasının

İddiaçının cavabdeh Azərbaycan Respublikası Əmək və
Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində
Dövlət Sosial Müdafiə Fonduna qarşı iş üzrə

Q Ə R A R I

(Açar sözlər: müddətli əmək müqaviləsi bağlandığı hallar, müddətli əmək müqaviləsinə xitam verilməsi barədə əmrin ləğv olunması, işə bərpa edilməsi və məcburi iş buraxma dövrü üçün əmək haqqının ödənilməsi)

Azərbaycan Respublikasının Ali Məhkəməsi Mülki Kollegiyası, hakimlər Şəfiyev İspəndiyar Əsəd oğlu (məruzəçi hakim), Əhmədov Əhməd Abbas oğlu və Həsənov Vüqar Təvəkgül oğlundan ibarət tərkibdə,

İddiaçının cavabdeh Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Sosial Müdafiə Fonduna qarşı "əmək müqaviləsinə xitam verilməsi barədə əmrin ləğv olunması, işə bərpa edilməsi və məcburi iş buraxma dövrü üçün əmək haqqının ödənilməsi" tələbinə dair mülki iş üzrə Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(103)-4615/2023 nömrəli, 18 iyul 2023cü il tarixli qətnaməsindən cavabdeh Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Sosial Müdafiə Fondu tərəfindən verilmiş kassasiya şikayətinə Ali Məhkəmənin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları

1. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Sosial Müdafiə Fondu publik hüquqi şəxsi ilə iddiaçı arasında bağlanmış 15AXNUK000300 saylı, 06.08.2020-ci il tarixli 264 nömrəli əmək müqaviləsinə əsasən, iddiaçı Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Sosial Müdafiə Fondu publik hüquqi şəxsin Sosial Sığorta və Fərdi Uçot üzrə Mərkəzi Filialının Sosial Sığorta ödəmələri departamentinin Birdəfəlik və tənzimlənən müavinət sənədlərinin emalı şöbəsinin baş mütəxəssisi vəzifəsinə işə qəbul edilmişdir. Əmək müqaviləsinin 2.1-ci bəndinə görə bu müqavilə Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 47-ci maddəsinin f) bəndinə əsasən 3 ay müddətinə bağlanmışdır.

2. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Sosial Müdafiə Fondunun 22640007313 saylı, 12.05.2022-ci il tarixli əmri ilə iddiaçı 12.05.2022-ci il tarixdən müddətli əmək müqaviləsində göstərilən müddətin bitməsinə görə tutduğu vəzifədən azad edilmiş və onunla bağlanmış 06.08.2020-ci il tarixli əmək müqaviləsinə xitam verilmişdir.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a) Birinci instansiya məhkəməsində icraat

3. İddiaçı (bundan sonra iddiaçı) cavabdeh Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Sosial Müdafiə Fonduna (bundan sonra cavabdeh və ya ixtisarla DSMF) qarşı iddia ərizəsi və daha sonra iddia tələbinin dəqiqləşdirilməsi barədə ərizə ilə məhkəməyə müraciət edərək, cavabdehin 22640007313 saylı, 12 may 2022-ci il tarixli əmrinin ləğv edilməsi, işə bərpa edilməsi, qətnamə icra olunan (işə bərpa olunan) günədək məcburi iş buraxma müddəti üçün əmək haqqının hesablanaraq ödənilməsi və mediasiya təşkilatında ödənilmiş 50 manat pulun cavabdehdən tutularaq iddiaçıya ödənilməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

4. İddia tələbi onunla əsaslandırılmışdır ki, iddiaçı 2002-ci ildən 2022-ci ilə qədər DSMF-nin müxtəlif strukturlarında fərqli vəzifələrdə işləmiş, 18 il dövlət qulluqçusu olmuşdur. Son olaraq 08.06.2020-ci il tarixli müvafiq əmrlə həmin tarixdən etibarən DSMF-nin Sosial Sığorta və Fərdi Uçot üzrə Mərkəzi Filialında baş mütəxəssis vəzifəsində çalışmışdır. İşlədiyi dövrdə vəzifə öhdəliklərini lazımi şəkildə yerinə yetirmişdir. 12.05.2022-ci il tarixli əmrlə onunla 3 ay müddətinə bağlanılmış əmək müqaviləsinə müddətin qurtarması əsası ilə xitam vermişlər. Həmin əmr qanuni deyildir və işçinin hüquqlarının kobud şəkildə pozulması ilə nəticələnmişdir. 20 ildən çoxdur mövcud sistemdə işləyir, bu sahədə kifayət qədər təcrübəsi vardır. Həmçinin iddiaçı 2022-ci ildə keçirilmiş imtahandan da kifayət qədər bal toplayaraq vəzifəyə uyğun hesab edilmişdir. Azərbaycan Respublikası Əmək Məcəlləsinin 45.4-cü maddəsində göstərilmişdir ki, əmək funksiyasının yerinə yetirilməsi şərtlərinə görə işin və ya göstərilən xidmətlərin daimi xarakterə malik olduğu qabaqcadan bəlli olduğu hallarda, bu Məcəllənin 47-ci maddəsi ilə müəyyən edilən hallar istisna olmaqla, əmək müqaviləsi müddəti müəyyən edilmədən bağlanmalıdır. Hazırkı vəziyyətdə işçi ilə 3 aylıq ardıcıl müqavilələr bağlanılması işəgötürənin öz üstün mövqeyindən və dövlətin vermiş olduğu səlahiyyətlərdən sui-istifadə

etdiyini sübut edir. Cavabdeh bunu Əmək Məcəlləsinin 47-ci maddəsinin f) bəndi ilə əsaslandırsa da, bu özlüyündə cəfəngiyyatdır. Çünki həmin idarədə mindən çox işçi vardır və hər kəslə ardıcıl olaraq 3 aylıq müqavilələr imzalanır. İşçilər buna məcbur edilir və işçi ilə işəgötürən arasında olan müqavilə bərabərliyi prinsipi pozulur. İddiaçının əmək müqaviləsinə xitam verilməsi barədə əmr 12 may 2022-ci il tarixdə verilsə də, ona son haqq hesab 30 may 2022-ci il tarixdə, yəni 18 gün sonra ödənilmişdir. Bu da ona əsas verir ki, son haqq hesabın gecikdirilmiş 18 faizi qədərində məbləğ cavabdehdən tutularaq ona ödənilməlidir.

5. Cavabdehin nümayəndəsi iddia tələbini qəbul etməyib göstərmişdir ki, iddia tamamilə əsassızdır. İddiaçı 2 il ərzinə 3 aylıq müddətə bağlanmış əmək müqaviləsi ilə fəaliyyət göstərib, öz imzası ilə müqaviləni təsdiq edib. Lakin heç bir zaman bu hala qarşı etiraz etməyib. Sadəcə hazırda işə bərpa olunmaq üçün bundan istifadə edir. Müqavilə bağlamağa iradə ifadəsi olmadığını bildirsə də, onun iradə ifadəsi olmuş, müqaviləyə etiraz etməmişdir. Müqavilələrin 3 aylıq müddətə bağlanmasının səbəbi odur ki, qanun və ya etik davranış qaydaları pozuntusu edən işçilərin əmək müqaviləsinə tez xitam verilsin. Müddətli müqavilə ilə bağlı Əmək Məcəlləsinin 47-ci maddəsinin f) bəndi mövcuddur və sözügedən müqavilənin bağlanmasında qanunsuz heç bir hala rast gəlinmir. Əmək Məcəlləsinin 47-ci maddəsinin f) bəndi ilə əlaqədar Ali Məhkəmənin bir sıra qərarları mövcuddur. Odur ki, iddia tələbinin təmin edilməməsi barədə qətnamə çıxarılmasını məhkəmədən xahiş etmişdir.

6. Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin 2(004)-4040/2022 saylı, 13 oktyabr 2022-ci il tarixli qətnaməsi ilə (hakim F.Əyyubov) iddia tələbi rədd edilmişdir.

7. Birinci instansiya məhkəməsinin mövqeyi ondan ibarət olmuşdur ki, DSMF 12.05.2022-ci il tarixli, ******* nömrəli əmrlə iddiaçını müddətli əmək müqaviləsində göstərilən müddətin bitməsinə görə tutduğu vəzifədən azad etmiş və əmək müqaviləsinə xitam verilmişdir. Müddətin uzadılması üçün müddət qurtardıqdan sonra işçi və işəgötürən arasında əmək münasibətləri davam etdirilməli, müddət bitdikdən sonrakı 1 həftə ərzində tərəflərdən heç biri əmək müqaviləsinə xitam verilməsini tələb etməməlidir. Lakin hazırki halda işəgötürən müddət bitdikdə müqaviləyə xitam verilməsini tələb etmişdir

8. Məhkəmə gəldiyi nəticəni Əmək Məcəlləsinin 11, 45, 47, 68, 73-cü maddələrinə, Mülki Prosessual Məcəllənın 14.2, 77.1 və 217.4-cü maddələrinə istinadla əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsindəki birinci icraat

9. İddiaçı apellyasiya şikayəti verərək qətnamənin ləğv edilməsini və iddia tələbinin təmin olunması barədə yeni qətnamə çıxarılmasını xahiş etmişdir.

10. Apellyasiya şikayətində qeyd olunmuşdur ki, məhkəmə qətnamənin əsaslandırma hissəsində sadəcə bir cümlə ilə işəgötürənin müddət bitdikdə müqaviləyə xitam verilməsini tələb etdiyini bildirməklə, iş üzrə məhkəmə iclaslarında və iddia ərizəsində göstərilmiş hallara toxunmadan və fikir bildirmədən qətnamə qəbul etmişdir. Əmək müqaviləsi daimi xarakter daşıdığı halda 06.08.2020-ci il tarixdən etibarən 3 ay müddətinə bağlanılmış və sonradan hər 3 aydan bir eyni müddətə uzadılmışdır. Həmin əmr qanuni deyildir. Birinci instansiya məhkəməsi işçi ilə niyə daimi deyil, 3 aylıq müqavilə imzalanması məsələsi ilə maraqlanmamış, iş üzrə formal qətnamə qəbul etmişdir. İşin halları ilə də sübut olunur ki, 18 il dövlət qulluqçusu olmuş və cavabdeh qurumda 20 ildən çox stajı olan bir şəxs öz sərbəst iradəsi əsasında 3 aylıq əmək müqaviləsi imzalamazdı. Buradan da görünür ki, Əmək Məcəlləsinin 47-ci maddəsinin f) bəndində göstərilmiş tərəflərin hüquq bərabərliyi prinsipi pozulmuşdur. Cavabdeh tərəfindən müqavilənin məhz bu şərtlərdə imzalanması işçilərə diktə olunmuş və imzalamayan şəxslərin işdən azad olunacağı barədə hədə-qorxu gəlinmişdir. Onunla müddətli əmək müqaviləsinin bağlanması üçün Əmək Məcəlləsinin 47-ci maddəsində göstərilən hallar olmayıb. DSMF-nin nizamnaməsinə əsasən, işçi ilə əmək müqaviləsinə xitam verilərkən bu barədə nazirin razılığı alınmalıdır. Cavabdeh orqan belə bir razılığa dair sənəd təqdim edə bilməmişdir. Onların təqdim etdiyi sənəddə nazir tərəfindən sadəcə “baxılsın” vizası qoyulmuş və sənəd elektron imza ilə təsdiq edilməmişdir. Bu isə həmin sənədin qanuni olmadığına dəlalət edir.

11. Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 10 yanvar 2023-cü il tarixli, 2(103)-762/2023 nömrəli qətnaməsi ilə (hakimlər - Q.Əsgərov (sədrlik edən və məruzəçi), A.İmanov və F.Talışinski) apellyasiya şikayəti təmin edilməmiş, birinci instansiya məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmışdır.

12. Apellyasiya instansiyası məhkəməsi şikayətin dəlillərini qiymətləndirərək qeyd etmişdir ki, iddiaçının əmək müqaviləsinin daimi xarakter daşıdığı halda 06.08.2020-ci il tarixdən etibarən 3 ay müddətinə bağlanılması və sonradan hər 3 aydan bir eyni müddətə uzadılmasının qanunsuz olması ilə əsaslandırmaq üçün irəli sürdüyü dəlil əsassızdır. Çünki, birinci instansiya məhkəməsinin qeyd etdiyi kimi 06.08.2020-ci il tarixli əmək müqaviləsinin 2.1-ci bəndinə görə bu müqavilə Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 47-ci maddəsinin f) bəndinə əsasən 3 ay müddətinə bağlanmışdır. Bu müqavilənin 2.2-ci bəndinə görə müddətli əmək müqaviləsində göstərilən müddət qurtardıqda əmək münasibətləri davam etdirilərsə və müddət bitdikdən sonrakı bir həftə ərzində tərəflərdən heç biri müqaviləyə xitam verilməsini tələb etmirsə, həmin əmək müqaviləsi əvvəl müəyyən olunmuş müddətə uzadılmış hesab olunur. Lakin hazırki halda işəgötürən müddət bitdikdə müqaviləyə xitam verilməsini tələb etmişdir.

13. Məhkəmə kollegiyası hesab edib ki, 06.08.2020-ci il tarixli Əmək müqaviləsi Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 47-ci maddəsinin f) bəndinə əsasən 3 ay müddətinə bağlanmış işəgötürən müddət bitdikdə müqaviləyə xitam verilməsini tələb etmiş və ona görə də, cavabdeh haqlı olaraq onunla bağlanmış əmək müqaviləsini əmək qanunvericiliyinin tələblərinə uyğun olaraq xitam verilməklə ləğv etmişdir. Bu səbəbdən də iddiaçının qeyd edilən apellyasiya şikayətinin dəlilləri qətnamənin ləğvi üçün əsaslı hesab edilmir.

14. Məhkəmə kollegiyası apelyatorun cavabdeh tərəfindən müqavilənin məhz bu şərtlərdə imzalanmasının işçilərə diqtə olunması və imzalamayan şəxslərin işdən azad olunacağı barədə hədə-qorxu gəlinməsi barədə dəlilini də əsassız hesab edib. Məhkəmə kollegiyası qeyd edib ki, iddiaçı apellyasiya şikayətində əmək müqaviləsinin məhz bu şərtlərlə imzalanmasının ona diqtə olunmasını və imzalamasa onun işdən azad olunacağı barədə hədə-qorxu gəlinməsini bildirsə də, bunu təsdiq edən mötəbər sübutları məhkəmə kollegiyasına təqdim edə bilməmişdir.

15. Apellyasiya instansiyası məhkəməsi iş üzrə gəldiyi nəticəni Əmək Məcəlləsinin 11, 45, 47, 68, 73 və 83-cü maddələrinə, Mülki Prosessual Məcəllənin 14, 77, 88, 217 və 218-ci maddələrinə istinadla əsaslandırmışdır.

Kassasiya instansiyası məhkəməsindəki birinci icraat

16. İddiaçı kassasiya şikayəti verərək qətnamənin ləğv edilib, iddia tələbinin təmin olunması barədə yeni qərar çıxarılmasını xahiş etmişdir.

17. Kassasiya şikayəti apelyasiya şikayətinin dəlillərinə uyğun əsaslandırılmış və əlavə olaraq qeyd olunmuşdur ki, məhkəmə işə baxarkən Əmək Məcəlləsinin 45 və 47-ci maddələrinin təfsirində səhvə yol vermişdir. Hazırkı vəziyyətdə işin daimi xarakterə malik olduğu heç bir şübhə doğurmadığı halda, Əmək Məcəlləsinin 47-ci maddəsi düzgün tətbiq edilməmişdir. İşin halları ilə də sübut olunur ki, 18 il dövlət qulluqçusu olmuş və cavabdeh qurumda 20 ildən çox stajı olan bir şəxs öz sərbəst iradəsi əsasında 3 aylıq əmək müqaviləsi imzalamazdı. Bunu demək olar ki, heç bir tam fəaliyyət qabiliyyətli şəxs könüllü olaraq etməz. Buradan da görünür ki, Əmək Məcəlləsinin 47-ci maddəsinin f) bəndində göstərilmiş tərəflərin hüquq bərabərliyi prinsipi pozulmuşdur. İddiaçının gördüyü işin daimi xarakterə malik olması mülki iş materialları ilə istisna edilmir və bu hal əvvəldən işəgötürənə bəlli olub. İddiaçı ilə müddətli əmək müqaviləsinin bağlanması üçün Əmək Məcəlləsinin 47-cimaddəsində göstərilən hallar olmayıb. Bütün bunlara baxmayaraq işəgötürən, son 20 il müddət ərzində onunla əmək münasibətində olan iddiaçı ilə 3 ay müddətinə müddətli əmək müqaviləsi bağlayıb və sonradan isə müddətin qurtarmasını əsas tutub onunla bağlanmış əmək müqaviləsinə xitam verib. Apellyasiya instansiya məhkəməsi iddiaçı ilə müddətli əmək

müqaviləsinin Əmək Məcəlləsinin 47-ci maddəsinin f) bəndinin tələbləri çərçivəsində tərəflərin qarşılıqlı razılığı ilə bağlandığını və həmin müqavilənin bilavasitə iddiaçının iradəsini ifadə etdiyini göstərsə də, bununla da razılaşmaq olmaz. Belə ki, sözügedən norma əmək müqaviləsinin tərəfləri arasında bağlanmış istənilən müqaviləni deyil, tərəflərin həqiqi hüquq bərabərliyi prinsipinə əməl etməklə qarşılıqlı razılıq əsasında bağladıqları müqavilələri nəzərdə tutur. Həmçinin, nəzərə alınmalıdır ki, əmək qanunvericiliyi tərəflərin qarşılıqlı razılığını əmək müqaviləsinin xitamının müstəqil əsası kimi fərqləndirmir. O, yalnız əmək müqaviləsi bağlanarkən əmək müqaviləsinə xitam verilməsinin əlavə halı kimi nəzərdə tutula bilər. Bu hal üzrə əmək müqaviləsinə xitam verilməsi həm işçinin, həm də işəgötürənin əmək müqaviləsinin xitamına yönəlmiş razılaşdırılmış şəkildə iradə ifadəsi mövcud olduqda mümkün ola bilər. Məhkəmə qətnamə qəbul edərkən öz mövqeyini sübut edə bilməmişdir. Belə ki, iddia ərizəsində işçinin 20 ildən çox mövcud sistemdə işləməsini, 18 ildən artıqdır ki, dövlət qulluqçusu olduğunu, bu sahədə kifayət qədər təcrübəsi olduğunu, həmçinin onun 2022-ci ildə keçirilmiş attestasiya imtahanından da kifayət qədər bal toplayaraq vəzifəyə uyğun hesab edildiyini bildirsə də, məhkəmə buna əhəmiyyət verməmiş və cavabdehdən öz mövqeyini əsaslandırmağını tələb etməmişdir. İddiaçı Azərbaycan Respublikasında fərdi uçot sisteminin yaradılmasında öncüllərdən və ilk nəticə göstərən şəxslərdən biri olmuşdur. O, fərdi uçot sahəsində DSMF tərəfindən fərdi mükafatlara layiq görülmüşdür. Hal hazırda respublikada təyin edilən və ödənilən pensiyaların məbləği məhz həmin sistemə əsasən müəyyən olunur. O, attestasiya imtahanında da iştirak etmiş və kifayət qədər yuxarı olan 112 bal toplamışdır.

18. Azərbaycan Respublikası Ali Məhkəməsininn Mülki Kollegiyasının 12 may 2023-cü il tarixli, 2(102)-1857/2023 nömrəli qərarı ilə (hakimlər: Ə.M.Xıdırov (məruzəçi), E.R.Vəliyeva və E.Y.Şamayevdən ibarət tərkibdə) iddiaçının kassasiya şikayəti qismən təmin edilmiş, Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 10 yanvar 2023-cü il tarixli 2(103)-762/2023 nömrəli qətnaməsi tamamilə ləğv edilmiş, iş yenidən baxılması üçün Bakı Apellyasiya Məhkəməsinə qaytarılmışdır.

19. Kassasiya instansiyası məhkəməsi gəldiyi nəticəni belə əsaslandırıb ki, işdən göründüyü kimi iddiaçı 18 il dövlət qulluqçusu olduğunu və cavabdeh qurumda 20 ildən çox stajı olduğunu bildirmişdir. Eləcə də məhkəmələr tərəfindən işin müəyyən edilmiş hallarından görünür ki, cavabdehlə iddiaçı arasında 06 avqust 2020-ci il tarixində Əmək Məcəlləsinin 47-ci maddəsinin f) bəndinə əsasən 3 ay müddətinə əmək müqaviləsi bağlanaraq, iddiaçı Sosial Sığorta və Fərdi Uçot üzrə Mərkəzi Filialının Sosial Sığorta ödəmələri departamenti, Birdəfəlik və tənzimlənən müavinət sənədlərinin emalı şöbəsinə baş mütəxəssis vəzifəsinə işə qəbul edilmişdir.

20. Əmək Məcəlləsinin 45-ci maddəsinin 4-cü hissəsinə görə əmək funksiyasının yerinə yetirilməsi şərtlərinə görə işin və ya göstərilən xidmətlərin daimi xarakterə malik olduğu qabaqcadan bəlli olduğu hallarda, bu Məcəllənin 47-ci maddəsi ilə müəyyən edilən hallar istisna olmaqla, əmək müqaviləsi müddəti müəyyən edilmədən bağlanmalıdır.

21. Göründüyü kimi, əmək qanunvericiliyi işçi ilə əmək müqaviləsinin müddətli və ya müddətsiz bağlanmalı olması hallarını müəyyən etmişdir.

22. İddiaçı bildirir ki, əvvəllər cavabdeh orqanda 18 il dövlət qulluqçusu olub, hazırki əmək müqaviləsinin məzmunu baxımından da iddiaçının əmək funksiyasının və gördüyü işin daimi xarakter daşıması cavabdeh tərəfindən mübahisə olunmur. Belə olan halda, cavabdeh təşkilatın iddiaçı ilə bağlanmış müddətsiz əmək müqaviləsinin hansı zərurətdən (əmək funksiyasının, görüləcək işin mövsümi xarakter daşıması və s.) çıxış edərək müddətli əmək müqaviləsi bağlaması işdən görünmür, apellyasiya məhkəməsi də buna hər hansı aydınlıq gətirməmişdir.

23. Məlum olduğu kimi, işçinin uzun illər ərzində müddətsiz müqavilə əsasında işlədiyi, bir qayda olaraq özünün və ailə üzvlərinin yaşaması üçün əsas gəlir mənbəyi olan işdən ağlabatan səbəb olmadan çıxması və dərhal qısa müddətli əmək müqaviləsi bağlamasının

(başqa sözlə həmin müddətin bitməsi ilə özünün işdən azad olunmasına imkan yaratmasının) şəxsin öz iradəsi əsasında atılmış addım kimi qiymətləndirilməsi çətindir. İşçinin bu cür (bir qayda olaraq öz xeyrinə olmayan) dəyişikliyə getməsi, ağlabatan bir səbəblə izah olunmadıqda, belə razılaşmaların işəgötürənin təzyiqi altında bağlanması daha inandırıcı görünür.

24. Ona görə də ƏM-nin 47-ci maddəsinin f) bəndinə istinad olunmaqla bağlanmış müddətli müqavilə ilə bağlı mübahisələrə baxılarkən məhkəmə, işin konkret hallarına (o cümlədən, müddətsiz müqavilə əsasında çalışan işçinin öz xahişi ilə işdən azad olunması və müddətli müqavilə bağlaması barədə ərizələrinin etibarlılığına) ƏM-nin 2-ci maddəsində əks olunan əmək münasibətləri tərəflərinin hüquq bərabərliyinin təmin edilməsi, mənafelərinin haqq-ədalətlə və qanunun aliliyinin təmin olunması ilə qorunması prinsipləri əsasında obyektiv hüquqi qiymət verməlidir. Bu zaman müqavilə tərəflərinin əmək münasibətlərində olduğu müddət, işin və ya göstərilən xidmətlərin xarakteri, tərəflərin dəlilləri və mübahisənin diqqətəlayiq bütün halları nəzərə alınmalıdır.

25. İşin müəyyən edilmiş hallarından görünür ki, iddiaçı ilə bağlanmış əmək müqaviləsi bağlanarkən Əmək Məcəlləsinin 45-ci maddəsinin 4-cü hissəsinin tələbləri nəzərə alınmamışdır.

26. İşçi ilə əmək müqaviləsinin müddətli və ya müddətsiz bağlanması, bu növ müqavilələrin hər hansı birinin bağlanması halının əmək funksiyasının və görüləcək işlərin daimi və ya müvəqqəti xarakter daşımasından asılı edilməsi mübahisələrin düzgün həlli və Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsi ilə müəyyən edilən əmək hüquqlarının qorunması baxımından mühüm əhəmiyyət daşıyır.

27. Hazırkı işdə isə apellyasiya məhkəməsi qeyd edilən hallar üzrə araşdırma aparmamış, istinad olunan maddi hüquq normalarının dispozisiya şərtləri ilə işin müəyyən edilmiş faktiki halları arasındakı uyğunluğu (uyğunsuzluğu) əsaslandırmamışdır.

28. Apellyasiya instansiyası məhkəməsi iddiaçının apellyasiya şikayətinin DSMF-nin nizamnaməsinə əsasən, işçi ilə əmək müqaviləsinə xitam verilərkən bu barədə nazirin razılığının alınmalı olduğu, cavabdeh orqanın belə bir razılığa dair sənəd təqdim edə bilmədiyi barədə dəlilinə hüquqi qiymət verməmişdir.

29. Məhkəmə gəldiyi nəticənin əsası kimi Əmək Məcəlləsinin 40, 45, 47, 68, 73 və 83-cü maddələrinə, Mülki Prosessual Məcəllənin 14, 77, 80, 88, 217, 308, 407 və 416-cı maddələrinə istinad etmişdir.

ç) Apellyasiya instansiyası məhkəməsindəki ikinci icraat

30. Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(103)-4615/2023 nömrəli, 18 iyul 2023-cü il tarixli qətnaməsi ilə (hakimlər – X.A.Mərdanova (sədrlik edən və məruzəçi), E.M.Həsənov və S.X.Bəhrəmzadə) iddiaçının apellyasiya şikayəti təmin edilərək Yasamal Rayon Məhkəməsinin iş üzrə 13 oktyabr 2022-ci il tarixli qətnaməsi ləğv edilmiş, iş üzrə yeni qətnamə çıxarılaraq, iddia tələbinin təmin edilməsi, DSMF-nin 22640007313 saylı, 12.05.2022-ci il tarixli əmrinin ləğv edilməsi, iddiaçının DSMF publik hüquqi şəxsi ilə bağlanan əmək müqaviləsinin müddətsiz hesab edilməklə işə bərpa edilməsi və məcburi iş buraxma müddəti üçün ona əmək haqqı ödənilməsi, mediasiya təşkilatında iştirakla əlaqədar ödənilmiş 50 manat rüsumun cavabdeh təşkilatdan tutularaq iddiaçıya ödənilməsi qət edilmişdir.

31. Apellyasiya instansiyası məhkəməsi apellyasiya şikayətinin dəlillərinə qiymət verərək qeyd etmişdir ki, əmək qanunvericiliyi işçi ilə əmək müqaviləsinin müddətli və ya müddətsiz bağlanmalı olması hallarını müəyyən etmişdir.

32. Məhkəmə kollegiyası qeyd etmişdir ki, işçi ilə əmək müqaviləsinin müddətli və ya müddətsiz bağlanması, bu növ müqavilələrin hər hansı birinin bağlanması halının əmək funksiyasının və görüləcək işlərin daimi və ya müvəqqəti xarakter daşımasından asılı edilməsi mübahisələrin düzgün həlli və Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsi ilə müəyyən edilən əmək hüquqlarının qorunması baxımından mühüm əhəmiyyət daşıyır.

33. Əmək Məcəlləsinin 45-ci maddəsinin 4-cü hissəsinə görə əmək funksiyasının yerinə yetirilməsi şərtlərinə görə işin və ya göstərilən xidmətlərin daimi xarakterə malik olduğu qabaqcadan bəlli olduğu hallarda, bu Məcəllənin 47-ci maddəsi ilə müəyyən edilən hallar istisna olmaqla, əmək müqaviləsi müddəti müəyyən edilmədən bağlanmalıdır.

34. Əmək qanunvericiliyi işçi ilə əmək müqaviləsinin müddətli və ya müddətsiz bağlanmalı olması hallarını müəyyən etmişdir.

35. Bundan başqa, kollegiya iddiaçı ilə müddətli əmək müqaviləsinin Əmək

Məcəlləsinin 47-ci maddəsinin f) bəndinin tələbləri çərçivəsində tərəflərin qarşılıqlı razılığı ilə bağlandığını və həmin müqavilənin bilavasitə iddiaçının iradəsini ifadə etməsi ilə bağlı işin hallarına münasibətdə qeyd edir ki, sözügedən norma əmək müqaviləsinin tərəfləri arasında bağlanmış istənilən müqaviləni deyil, tərəflərin həqiqi hüquq bərabərliyi prinsipinə əməl etməklə qarşılıqlı razılıq əsasında bağladıqları müqavilələri nəzərdə tutur.

36. Həmçinin, nəzərə alınmalıdır ki, əmək qanunvericiliyi tərəflərin qarşılıqlı razılığını əmək müqaviləsinin xitamının müstəqil əsası kimi fərqləndirmir. O, yalnız əmək müqaviləsi bağlanarkən əmək müqaviləsinə xitam verilməsinin əlavə halı kimi nəzərdə tutula bilər. Bu hal üzrə əmək müqaviləsinə xitam verilməsi həm işçinin, həm də işəgötürənin əmək müqaviləsinin xitamına yönəlmiş razılaşdırılmış şəkildə iradə ifadəsi mövcud olduqda mümkün ola bilər.

37. İş materiallarından görünür ki, iddiaçı ilə əmək müqaviləsi əvvəl müddətsiz olub, eləcə də hazırki əmək müqaviləsinin məzmunu baxımından da iddiaçının əmək funksiyasının və gördüyü işin daimi xarakter daşıması cavabdeh tərəfindən müddətsiz olması mübahisə olunmur. Belə olan halda, məhkəmə kollegiyası hesab edir ki, cavabdeh təşkilatın iddiaçı ilə bağlanmış əmək müqaviləsinin hansı zərurətdən (əmək funksiyasının, görüləcək işin mövsümi xarakter daşıması və s.) çıxış edərək müddətli əmək müqaviləsinə keçirməsi işdən görünmür.

38. Kollegiya həmçinin qeyd etmişdir ki, iddiaçının təyin olunduğu vəzifə üzrə yerinə yetirdiyi işin daimi xarakter daşıması mübahisəsizdir və belə olan halda onunla əmək müqaviləsi müddəti müəyyən edilmədən bağlanmalı idi.

39. «Qarşılıqlı razılığa» gəldikdə isə, qanunun tələbinə görə, bu, tərəflərin hüquq bərabərliyi prinsipinə əsaslanmalı, bir tərəfin (işəgötürənin) digərinə (işçiyə) münasibətdə üstün mövqeyinə görə subyektiv yanaşmaya şərait yaratmamalıdır. İşin hallarından isə açıq-aydın görünür ki, cavabdeh qanunun ona verdiyi hüquqdan sui-istifadə edərək iddiaçı ilə müddətli, 3 ay müddətinə əmək müqaviləsi bağlamışdır.

40. Məlum olduğu kimi, işçinin uzun illər ərzində müddətsiz müqavilə əsasında işlədiyi, bir qayda olaraq özünün və ailə üzvlərinin yaşaması üçün əsas gəlir mənbəyi olan işdən ağlabatan səbəb olmadan çıxması və dərhal qısa müddətli əmək müqaviləsi bağlamasının (başqa sözlə həmin müddətin bitməsi ilə özünün işdən azad olunmasına imkan yaratmasının) şəxsin öz iradəsi əsasında atılmış addım kimi qiymətləndirilməsi çətindir. İşçinin bu cür (bir qayda olaraq öz xeyrinə olmayan) dəyişikliyə getməsi, ağlabatan bir səbəblə izah olunmadıqda, belə razılaşmaların işəgötürənin təzyiqi altında bağlanması daha inandırıcı görünür.

41. Kollegiyanın qənaətinə görə, eyni strukturda iş stajına (20 ildən çox) malik kifayət qədər ixtisaslı işçi ilə 3 ay müddətinə əmək müqaviləsinin bağlanması real və işçinin mənafeyinə uyğun hesab edilə bilməz. Əmək müqaviləsində müddət təyin edilməsi isə iddiaçının istənilən vaxt rahatlıqla işdən çıxarılmasına nail olmaq məqsədinə xidmət etmişdir.

42. Kollegiya qeyd edir ki, işçi ilə əmək müqaviləsinin müddətli və ya müddətsiz bağlanması, bu növ müqavilələrin hər hansı birinin bağlanması halının əmək funksiyasının və görüləcək işlərin daimi və ya müvəqqəti xarakter daşımasından asılı edilməsi mübahisələrin düzgün həlli və Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsi ilə müəyyən edilən əmək hüquqlarının qorunması baxımından mühüm əhəmiyyət daşıyır.

43. Bu baxımdan, məhkəmə kollegiyası cavabdeh tərəfin mövqeyini Əmək Məcəlləsinin 47-ci maddəsinin f) bəndi ilə əsaslandırmasını əsaslı saymır.

44. Kollegiya hesab etmişdir ki, birinci instansiya məhkəməsinin işə götürənin Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin "b" bəndinə uyğun olaraq iddiaçı ilə aralarında bağlanmış əmək müqaviləsinə xitam verməsi qanuni və əsaslı olmasına dair nəticəsi düzgün olmamışdır.

45. Belə ki, tərəflər arasında bağlanmış 06.08.2020-ci il tarixli əmək müqaviləsi işəgötürənin mənafeyinə xidmət etmiş, yuxarıda istinad olunan əmək qanunvericiliyinin prinsiplərinə əsaslanmadığı, eləcə də hazırki halda əmək funksiyasının yerinə yetirilməsi şərtlərinə görə iddiaçının gördüyü işin daimi xarakterə malik olması mülki iş materialları ilə istisna edilmədiyindən və bu hal əvvəldən işəgötürənə bəlli olduğundan, onun əmək funksiyasının yerinə yetirilməsi şərtlərinə görə gördüyü işin müvəqqəti, mövsümi deyil, daimi xarakterə malik olmaqla qabaqcadan işəgötürənə bəlli olduğundan, iddiaçı ilə müddətli əmək müqaviləsinin bağlanması üçün Əmək Məcəlləsinin 47-ci maddəsində sadalanan hər hansı hallar müəyyən edilmədiyindən iddia tələbləri təmin edilməlidir.

46. Məhkəmə kollegiyası apellyasiya şikayətinin Fondun nizamnaməsinə əsasən, işçi ilə əmək müqaviləsinə xitam verilərkən bu barədə nazirin razılığı alınmalı olması, cavabdeh orqan belə bir razılığa dair sənəd təqdim edə bilməməsi və onların təqdim etdiyi sənəddə nazir tərəfindən sadəcə "baxılsın" vizası qoyulmaqla sənədin elektron imza ilə təsdiq edilməməsinə dair dəlilinə qiymət verərək qeyd edib ki, apellyatorun istinad etdiyi sənəddə nazirin elektron imza ilə təsdiqi müəyyən edilmişdir (səh.58-arxa hissəsi). Lakin buna baxmayaraq məhkəmə kollegiyası kassasiya instansiya məhkəməsinin mövcud işlər üzrə məhkəmə təcrübəsinə əsaslanaraq və yuxarıda qeyd edilən qanunvericilik normalarının tələblərini rəhbər tutaraq hesab edib ki, hazırki işin faktiki halları baxımından hər bir halda iddiaçı ilə müddətli əmək müqaviləsi bağlana bilməzdi.

47. Məhkəmə gəldiyi nəticənin əsası kimi Əmək Məcəlləsinin 3.5, 45.1, 45.4, 45.5, 47, 73.1, 83.1, 300.1-ci maddələrinə istinad etmişdir.

Kassasiya şikayətinin və ona etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

48. Cavabdeh (vəkil) kassasiya şikayəti verərək qətnamənin ləğv edilməsini və iddia tələbinin rədd olunması barədə yeni qərar çıxarılmasını xahiş etmişdir.

49. Kassasiya şikayətində qeyd olunmuşdur ki, məhkəmə tərəfindən Əmək Məcəlləsinin 45-ci maddəsi yanlış təfsir edilmiş, həmin norma işin hallarına düzgün tətbiq edilməmişdir. Belə ki, Əmək Məcəlləsinin 45-ci maddəsindən də məlum olur ki, həmin Məcəllənin 47-ci maddəsində göstərilən hallar istisna olmaqla, əmək münasibətlərinin daimi xarakterə malik olduğu qabaqcadan bəlli olduğu hallarda əmək müqaviləsi müddət müəyyən edilmədən bağlanır. Hazırki iddia tələbi üzrə iş üzrə icraat materiallarına əlavə edilmiş əmək müqaviləsindən və əmək müqaviləsinə əlavə və dəyişikliklərdən məlum olur ki, işçi tərəfindən həm əmək müqaviləsi, həm də əmək müqaviləsinə əlavə və dəyişikliklər imzalanmış və o, müddətli əmək müqaviləsinin bağlanılmasına əvvəlcədən razılığını ifadə etmiş, bu halın mübahisələndirilməsi üçün kifayət qədər müddəti olmasına baxmayaraq, əmək müqaviləsinə xitam verildikdən sonra, yəni təxminən 2 ildən sonra həmin halı mübahisələndirmək qərarına gəlmişdir. Müddətli müqavilə bağlanarkən cavabdehin həmin müqaviləni ümumiyyətlə bağlamamaq imkanı olduğu halda, tərəflərin qarşılıqlı razılığı əsasında əmək müqaviləsinin müəyyən müddətə bağlamaq hüququ da olmalıdır. Mübahisə predmeti olan müqavilə də məhz tərəflərin qarşılıqlı razılığı əsasında müddətli bağlanılmışdır. Eyni zamanda, Məcəllənin 47-ci maddəsinin f) bəndini nəzərə almadan əmək münasibətlərinin daimi xarakterə malik olduğunu iddia edərək müqavilənin müddətsiz bağlanılmasını tələb etmək Məcəllənin 47-ci maddəsinin f) bəndinin deklarativ xarakter daşımasına səbəb olur. Hazırki işin faktiki hallarından və iş üzrə icraat materiallarından məlum olur ki, işəgötürən qanunvericiliklə ona verilmiş hüquqdan istifadə etmiş və əmək müqaviləsinin digər tərəfi olan işçi ilə əmək

münasibətlərini davam etdirmək istəməmiş, işçinin tutduğu vəzifədən azad edilməsinə dair 12.05.2022-ci il tarixli əmr vermişdir. Nəzərə almaq lazımdır ki, əmək müqavilələri sərbəst bağlanır, həmçinin, hüquq bərabərliyinin təmin olunması Əmək Məcəlləsinin əsas prinsiplərindən biri hesab olunur. Hazırki halda məhkəmənin işəgötürən tərəfindən əmək müqaviləsinə xitam verilməsinin qanunsuz sayılması, işəgötürənin üzərinə əmək müqaviləsinin müddətsiz bağlanmış hesab edilməli olduğu kimi öhdəliyin qoyulması tərəflərin hüquq bərabərliyi prinsipi ilə ziddiyyət təşkil edir, işəgötürənin hüquqlarının məhdudlaşdırılmasına, əmək müqaviləsinin sərbəst bağlanılmalı olmasına baxmayaraq, bu münasibətlərin zəruri tərəflərindən biri olan işəgötürənə münasibətdə məcburi olaraq müqavilənin müddətsiz bağlanılmasına səbəb olur. Məhkəmə icraatı zamanı cavabdeh orqan tərəfindən təqdim edilmiş sübutlar tam, hərtərəfli və obyektiv araşdırılmamış, məhkəmə tərəfindən qəbul edilmiş qətnamədə işin faktiki halları ilə yanaşı, cavabdeh tərəfindən təqdim edilmiş sübutlara düzgün hüquqi qiymət verilməmişdir. Apellyasiya instansiyası məhkəməsi qətnamənin əsaslandırıcı hissəsində apellyasiya şikayətinin formal mülahizələrə əsaslandığını və birinci instansiya məhkəməsinin qətnaməsinin qanuni olduğunu qeyd etsə də, nəticə hissəsində apellyasiya şikayətinin təmin edilməsini və birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv edilərək, iddia tələbinin təmin edilməsi barədə yeni qətnamə qəbul edilməsini qət etmişdir. Göründüyü kimi, qətnamənin nəticə hissəsi onun təsviri və əsaslandırıcı hissələri ilə uyğunluq təşkil etmir.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

50. Kassasiya şikayətinə qarşı etiraz verilməmişdir.

Tətbiq edilən hüquq

Azərbaycan Respublikasının Konstitusiyası

51. Maddə 35. Əmək hüququ

I. Əmək fərdi və ictimai rifahın əsasıdır.

...

IV. Əmək müqavilələri sərbəst bağlanılır. Heç kəs əmək müqaviləsi bağlamağa məcbur edilə bilməz.

Azərbaycan Respublikasının Əmək Məcəlləsi

52. Maddə 3. Bu Məcəllədə istifadə edilən əsas anlayışlar

5. Əmək müqaviləsi (kontraktı) (bundan sonra ismin müvafiq halında “əmək müqaviləsi”) – işəgötürənlə işçi arasında fərdi qaydada bağlanan əmək münasibətlərinin əsas şərtlərini, tərəflərin hüquq və vəzifələrini əks etdirən yazılı müqavilə.

53. Maddə 40. Maddə İşəgötürənin əsas hüquqları

1. Əmək münasibətləri sahəsində işəgötürənin aşağıdakı əsas hüquqları vardır:

a) bu Məcəllə ilə müəyyən edilmiş qaydada işçilərlə əmək müqavilələri bağlamaq, onların şərtlərini dəyişdirmək;

b) bu Məcəllə ilə müəyyən edilmiş qaydada və əsaslarla əmək müqavilələrini ləğv etmək;

54. Maddə 45. Əmək müqaviləsinin müddəti

1. Əmək müqaviləsi müddətsiz və ya müddətli bağlanılır. Müddətli əmək müqaviləsi tərəflərin razılaşdığı müddətə bağlanılır.

4. Əmək funksiyasının yerinə yetirilməsi şərtlərinə görə işin və ya göstərilən xidmətlərin daimi xarakterə malik olduğu qabaqcadan bəlli olduğu hallarda, bu Məcəllənin 47-ci maddəsi ilə müəyyən edilən hallar istisna olmaqla, əmək müqaviləsi müddəti müəyyən edilmədən bağlanmalıdır.

5. Müddətli əmək müqaviləsi fasiləsiz olaraq 5 ildən artıq müddətə davam edərsə, müddətsiz əmək müqaviləsi hesab edilir.

55. Maddə 47. Müddətli əmək müqaviləsi bağlanan hallar

Aşağıdakı hallarda əmək müqaviləsi müəyyən müddətə bağlanıla bilər:

a) işçinin əmək qabiliyyətini müvəqqəti itirməsi, ezamiyyətdə, məzuniyyətdə olması, habelə iş yeri və vəzifəsi saxlanılmaqla qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda müəyyən səbəbdən müvəqqəti olaraq işə çıxmaması ilə əlaqədar onun əmək funksiyasının başqa işçi tərəfindən icrasının zəruriyyəti olduqda;

b) təbii və iqlim şəraitinə və ya işin xüsusiyyətinə görə il boyu görülə bilməyən mövsümü işlərin yerinə yetirilməsi zamanı;

c) işin həcminin və davamiyyətinin qısamüddətli olduğu təmir-tikinti, quraşdırma, yeni texnologiyanın tətbiqi və mənimsənilməsi, təcrübə-sınaq işlərinin aparılması və bu qəbildən olan digər işlərin görüldüyü hallarda;

ç) müvafiq vəzifə (peşə) üzrə əmək funksiyasının mürəkkəbliyi, məsuliyyətliliyi baxımından işçinin əmək və peşə vərdişlərinin mənimsənilməsi, yüksək peşəkarlıq səviyyəsinin əldə edilməsi tələb olunan (stajkeçmə, rezidentura dövrləri) hallarda;[67]

d) işçinin şəxsi, ailə-məişət vəziyyəti ilə bağlı olan, o cümlədən işləməklə yanaşı təhsil aldığı, müəyyən səbəbdən müvafiq yaşayış məntəqəsində müvəqqəti yaşadığı, pensiya yaşına çatdıqda işləmək istəyi olduğu hallarda;

e) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) göndərişi ilə haqqı ödənilən ictimai işlər görülərkən;

ə) bu Məcəllənin 6-cı maddəsinin «c» bəndində göstərilən orqanlar istisna olmaqla seçkili orqanlarda (təşkilatlarda, birliklərdə) seçkili vəzifələrə seçilərkən;

f) tərəflərin hüquq bərabərliyi prinsipinə əməl edilməklə onların qarşılıqlı razılığı ilə;

g) bu Məcəllənin 46-cı maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş qaydada işçilərlə briqada, işçi qrupu halında kollektiv əmək müqaviləsi bağlandıqda;

ğ) qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda.

56. Maddə 73.1. Müddətli əmək müqaviləsinin müddəti qurtardıqda xitam verilir. Bu Məcəllənin 45-ci maddəsinin beşinci hissəsi nəzərə alınmaqla, müddətli əmək müqaviləsində göstərilən müddət qurtardıqda əmək münasibətləri davam etdirilərsə və müddət bitdikdən sonrakı bir həftə ərzində tərəflərdən heç biri müqaviləyə xitam verilməsini tələb etmirsə, həmin əmək müqaviləsi əvvəl müəyyən olunmuş müddətə uzadılmış hesab olunur.

57. Maddə 83.1. Əgər işçi ilə bağlanmış əmək müqaviləsində onun ləğv edilməsinin sənədləşdirilməsi barədə bu fəsildə müəyyən edilmiş qaydalardan fərqli olan başqa qaydalar nəzərdə tutulmayıbsa, onda istər işçi, istərsə işəgötürən tərəfindən və istərsə də tərəflərin iradəsindən asılı olmayan hallarda bu Məcəllənin 68, 69, 70, 73, 74 və 75-ci maddələrində nəzərdə tutulan əsaslara və qaydalara müvafiq olaraq əmək müqaviləsinin ləğv edilməsi işəgötürənin əsaslandırılmış əmri (sərəncamı, qərarı) ilə rəsmiləşdirilməlidir.

58. Maddə 300.1. Əgər, işəgötürən əmək müqaviləsinin bu Məcəllənin 68, 69, 70, 73, 74 və 75- ci maddələrində nəzərdə tutulmuş ləğv edilməsi əsaslarını pozaraq və ya 71, 76-cı maddələri ilə müəyyən edilmiş qaydaların tələblərinə əməl etmədən, habelə 79-cu maddəsində nəzərdə tutulmuş hallara əhəmiyyət vermədən işçi ilə əmək münasibətlərinə xitam vermişdirsə, əmək mübahisəsini həll edən məhkəmə iddia ərizəsini və işin faktik hallarını araşdıraraq məcburi iş buraxma müddəti üçün əmək haqqı ödənilməklə işçinin vəzifəsinə bərpa edilməsi barədə qətnamə və ya bu maddənin ikinci hissəsinə müvafiq olaraq tərəflərin barışıq sazişinin təsdiq edilməsi barədə qərardad çıxarır. Məhkəmə qətnamədə işçiyə iddiası üzrə dəymiş zərərin məbləğinin işəgötürən tərəfindən ödənilməsini də nəzərdə tuta bilər.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi

59. Maddə 14.2 Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

60. Maddə 77.1 Hər bir tərəf öz tələblərinin əsası kimi istinad etdiyi halları sübut etməlidir.

61. Maddə 82.3. Bir mülki iş üzrə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsi ilə müəyyən edilmiş faktlar həmin işdə iştirak edən şəxslər tərəfindən başqa məhkəmə prosesində mübahisələndirilmir və yenidən sübut edilmir;

62. Maddə 88 Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

63. Maddə 217.4. Məhkəmə öz qətnaməsini yalnız məhkəmə iclasında tədqiq olunmuş sübutlarla əsaslandırır;

64. Maddə 407.2 Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir.

65. Maddə 416.1 Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

Kassasiya baxışının hədləri

66. Qanunun tələbinə görə kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

67. Hazırki kassasiya şikayətinə əsasən apellyasiya instansiyası məhkəməsinin aktı tam yoxlanılır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

68. Məhkəmə kollegiyası hesab edir ki, apellyasiya instansiyası məhkəməsi tərəfindən mübahisəli hüquq münasibətini tənzimləyən maddi hüquq normaları düzgün tətbiq olunmuşdur. İş üzrə düzgün qətnamə qəbul edilməməsi ilə nəticələnən prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması halları müəyyən edilmir. Bu baxımdan apelyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv olunması və ya dəyişdirilməsi üçün əsas yoxdur.

69. Belə ki, işin məhkəmələr tərəfindən müəyyən edilmiş hallarına görə iddiaçı ilə cavabdehin arasında əvvəllər müddətsiz əmək müqaviləsi bağlandığı halda, 06.08.2020-ci il tarixdə işəgötürənin təşəbbüsü ilə onunla müddətli əmək müqaviləsi bağlanmış, yenidən əvvəllər işlədiyi eyni, daimi xarakterə malik olması əvvəlcədən bəlli olan işə qəbul olunmuş, müqavilə müddəti 3 ay müəyyən edilmişdir. Tərəflər 3 aylıq müddət qurtardıqda əmək münasibətlərini davam etdirmiş, buna görə də Əmək Məcəlləsinin 73-cü maddəsinin 1-ci hissəsinə uyğun olaraq müqavilə müddəti eyni müddətlərə uzadılmış, işəgötürən 12.05.2022-ci il tarixdə əmək müqaviləsində göstərilən müddətin bitməsinə görə onunla bağlanmış əmək müqaviləsinə Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin b) bəndinə əsasən xitam vermişdir.

70. İddiaçı onunla əmək müqaviləsinə xitam verilməsi barədə əmrin ləğvini tələb edir və digər dəlillərlə yanaşı, onunla əvvəlcədən müddətsiz müqavilə olduğu halda müddətli müqavilənin bağlanmasını qanunsuz sayır.

71. İlk növbədə qeyd olunmalıdır ki, müddətli əmək müqaviləsi üzrə müddətin qurtarması əsası ilə əmək müqaviləsinə xitam verilməsi barədə mübahisələrin həlli zamanı, araşdırmanın başlanğıc nöqtəsi, müddətin qurtarmasının müəyyən edilməsidir.

72. Bu baxımdan, iddiaçı ilə bağlanmış əmək müqaviləsində işə başlama tarixinin göstərilməsindən asılı olmayaraq, iddiaçının müəssisədə nə vaxtdan işləməsi araşdırılmalıdır. Çünki Əmək Məcəlləsinin 45-ci maddəsinin 5-ci hissəsinə görə müddətli əmək müqaviləsi fasiləsiz olaraq 5 ildən artıq müddətə davam edirsə, müddətsiz əmək müqaviləsi hesab edilir.

73. Baxılan işdə də apellyasiya instansiyası məhkəməsi müəyyən etmişdir ki, iddiaçı sonuncu müqavilə bağlanandan əvvəl müəssisədə 5 ildən artıq müddətdə müddətsiz əmək

müqaviləsi əsasında işləmiş, onun işi daimi xarakterli olmuş, lakin sonradan onunla müddətli əmək müqaviləsi bağlanmışdır.

74. Qeyd olunmalıdır ki, Əmək Məcəlləsinin 45-ci maddəsinin tələbinə görə əmək funksiyasının yerinə yetirilməsi şərtlərinə görə işin və ya göstərilən xidmətlərin daimi xarakterə malik olduğu qabaqcadan bəlli olduğu hallarda əmək müqaviləsi müddəti müəyyən edilmədən bağlanmalıdır. Bu qaydadan istisnanı Əmək Məcəlləsinin 47-ci maddəsi ilə müəyyən edilən hallar təşkil edir.

75. Baxılan işdə iddiaçı ilə bağlanmış müqavilə müddətsiz olmuş, gördüyü işin daimi xarakterə malik olduğu qabaqcadan bəlli olmuşdur və onunla müddətli əmək müqaviləsi bağlanması üçün 47-ci maddənin a)-ə) bəndlərində göstərilən əsaslar olmamışdır.

76. Apellyasiya instansiyası məhkəməsi də işin hallarını bu əsaslar üzrə yoxlamış və qeyd etmişdir ki, iddiaçı ilə əmək müqaviləsi əvvəl müddətsiz olub, eləcə də hazırki əmək müqaviləsinin məzmunu baxımından da iddiaçının əmək funksiyasının və gördüyü işin daimi xarakter daşıması mübahisə edilmir. Cavabdeh təşkilatın iddiaçı ilə bağlanmış əmək müqaviləsinin hansı zərurətdən (əmək funksiyasının, görüləcək işin mövsümi xarakter daşıması və s.) çıxış edərək müddətli əmək müqaviləsinə keçirməsi işdən görünmür. İddiaçının təyin olunduğu vəzifə üzrə yerinə yetirdiyi işin daimi xarakter daşıması mübahisəsizdir və belə olan halda onunla əmək müqaviləsi müddəti müəyyən edilmədən bağlanmalı idi.

77. Həmçinin əmək müqaviləsinin başqa əsaslar üzrə dəyişdirilməsini zəruri edən sübutlar da təqdim olunmamışdır.

78. Cavabdeh müddətli müqavilənin bağlanmasına əsas kimi həmin normanın f) bəndində müəyyən olunmuş “qarşılıqlı razılığın” olduğunu bildirir.

79. Lakin iddiaçı müddətli müqavilə bağlanarkən təsirə məruz qaldığını bildirmişdir və apellyasiya instansiyası məhkəməsi iddiaçının dəlili əsasında işin hallarını təhlil edərək bildirmişdir ki, «qarşılıqlı razılıq» qanunun tələbinə görə, tərəflərin hüquq bərabərliyi prinsipinə əsaslanmalı, bir tərəfin (işəgötürənin) digərinə (işçiyə) münasibətdə üstün mövqeyinə görə subyektiv yanaşmaya şərait yaratmamalıdır. İşin hallarından isə açıq-aydın görünür ki, cavabdeh qanunun ona verdiyi hüquqdan sui-istifadə edərək iddiaçı ilə müddətli, 3 ay müddətinə əmək müqaviləsi bağlamışdır. Məlum olduğu kimi, işçinin uzun illər ərzində müddətsiz müqavilə əsasında işlədiyi, bir qayda olaraq özünün və ailə üzvlərinin yaşaması üçün əsas gəlir mənbəyi olan işdən ağlabatan səbəb olmadan çıxması və dərhal qısa müddətli əmək müqaviləsi bağlamasının (başqa sözlə həmin müddətin bitməsi ilə özünün işdən azad olunmasına imkan yaratmasının) şəxsin öz iradəsi əsasında atılmış addım kimi qiymətləndirilməsi çətindir. İşçinin bu cür (bir qayda olaraq öz xeyrinə olmayan) dəyişikliyə getməsi, ağlabatan bir səbəblə izah olunmadıqda, belə razılaşmaların işəgötürənin təzyiqi altında bağlanması daha inandırıcı görünür.

80. Məhkəmə kollegiyası apellyasiya instansiyası məhkəməsinin mövqeyi ilə razılaşır və bildirir ki, əmək hüququ insanların digər konstitusiya hüquqlarının həyata keçirilməsinə təsir göstərə biləcək amillərdən biri olmaqla, insanın ləyaqəti və özünü cəmiyyətdə fərd kimi dərk etməsi üçün önəmlidir. Əmək münasibətləri mənafelərinin haqq-ədalətlə və qanunun aliliyinin təmin olunması ilə qorunması Əmək Məcəlləsinin əsas prinsiplərindən biridir.

81. Məhkəmə kollegiyası iddiaçı ilə işəgötürən arasında müddət göstərilmədən əmək müqaviləsi mövcud olduğu halda, onunla yeni müddət göstərilməklə bağlanmış əmək müqaviləsini iddiaçının razılığı ilə bağlanmış müqavilə kimi qəbul olunmasını ağlabatan saymır.

82. İddiaçının cavabdeh təşkilatda əmək funksiyasının yerinə yetirilməsi şərtlərinə görə işin və ya göstərilən xidmətlərin daimi xarakterə malik olduğu qabaqcadan bəlli olduğu halda iddiaçı ilə sonradan müddətli əmək müqaviləsi bağlanmasının qanunvericiliyin tələblərinə zidd olması barədə apelyasiya instansiyası məhkəməsinin gəldiyi nəticə əsaslıdır. Qeyd olunan

pozuntuya yol verilməsi iddianın təmin olunması üçün yetərli olduğundan digər məsələlərlə bağlı əlavə dəyərləndirmə aparılmasına zərurət yoxdur.

83. Kassatorun «Apellyasiya instansiyası məhkəməsi qətnamənin əsaslandırıcı hissəsində apellyasiya şikayətinin formal mülahizələrə əsaslandığını və birinci instansiya məhkəməsinin qətnaməsinin qanuni olduğunu qeyd etsə də, nəticə hissəsində apellyasiya şikayətinin təmin edilməsini və birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv edilərək, iddia tələbinin təmin edilməsi barədə yeni qətnamə qəbul edilməsini qət etmişdir» dəlili ilə bağlı məhkəmə kollegiyası qeyd edir ki, bu halın texniki xarakterli qüsur olduğu açıq-aydındır, qanuni və əsaslandırılmış qətnamənin ləğvinə əsas vermir.

84. Kollegiya bildirir ki, sübutları araşdırmaq və qiymətləndirmək səlahiyyətinə malik olan apellyasiya məhkəməsi tərəfindən işdəki sübutlar araşdırılmış, onlara mülki prosessual normalara əsasən hüquqi qiymət verilməklə yuxarıdakı qənaətə gəlinmiş və məhkəmənin gəldiyi nəticə əsaslandırılmışdır.

85. Kassasiya şikayətinin dəlilləri əsasən işin faktiki halları ilə əlaqədardır ki, həmin hallar kassasiya instansiyası məhkəməsinin araşdırma predmetini təşkil etmir. Məhkəmə kollegiyası hesab edir ki, apellyasiya məhkəməsi tərəfindən işin hallarının araşdırılması üçün tərəflərə lazımi şərait yaradıldığından və onların dəlillərinə hüquqi qiymət verildiyindən iş üzrə maddi və prosessual hüquq normaları düzgün tətbiq olunmuşdur, kassasiya şikayətinin dəlilləri qətnamənin ləğv edilməsi üçün əsas təşkil etmir.

86. Məhkəmə kollegiyası yuxarıda göstərilənlərə əsasən və MPM-in 416, 417 və 419-cu maddələrini rəhbər tutaraq,

Qərara aldı:

Kassasiya şikayəti təmin edilməsin.

Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(103)-4615/2023 nömrəli, 18 iyul 2023-cü il tarixli qətnaməsi dəyişdirilmədən saxlanılsın.

Qərar qətidir və qəbul edildiyi andan qüvvəyə minir.

53. 2(102)-929/2024 nömrəli, 2024-cü il 23 aprel tarixli qərar - Əmək müqaviləsinin ləğv olunması qadağan edilən işçilərə münasibətdə Əmək Məcəlləsinin 70-ci maddəsinin "ç" bəndinin tətbiqi

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: əmək müqaviləsinin ləğv olunması qadağan edilən işçilərə münasibətdə Əmək Məcəlləsinin 70-ci maddəsinin ç) bəndinin tətbiqi

İddiaçı iş yerində vəzifələrinin icrası ilə bağlı qanunla qadağan olunan hallara yol vermiş (26 halda ona müraciət edən şəxslərin etibarında sui-istifadə etməklə aldatma yolu ilə cəmi 1300 manat məbləğində pulu ələ keçirmiş), İXM-nin 227-ci maddəsinə əsasən törətdiyi əməldə təqsirli bilinərək inzibati məsuliyyətə cəlb edilərək 2 ay müddətinə həbs edilmiş, bu barədə məhkəmə qərarı qanuni qüvvəsini almışdır. İşəgötürən müvafiq əmrlə iddiaçını Əmək Məcəlləsinin 72-ci maddəsinin f) bəndində (iş vaxtı ərzində bilavasitə iş yerində inzibati xətalara yol verməsi) göstərilən hallar nəzərə alınmaqla, Əmək Məcəlləsinin 70-ci maddəsinin ç) bəndinə (işçi özünün əmək funksiyasını və ya əmək funksiyası üzrə öhdəliklərini yerinə yetirmədikdə, yaxud bu Məcəllənin 72-ci maddəsində sadalanan hallarda əmək vəzifələrini kobud şəkildə pozduqda) əsasən işdən azad edilmişdir.

İddiaçının öhdəsində orqanizminin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş ailə üzvü (anası) vardır. Əmək Məcəlləsinin 79-cu maddəsinin birinci bəndi sözügedən kateqoriyadan olan işçilərlə bağlanmış əmək müqaviləsinin ləğv edilməsini qadağan edir.

İddiaçı məhz göstərilən normaya əsaslanaraq, işdən çıxarılmasına əsas olan əmrin ləğv edilməsi, işə bərpa və məcburi iş buraxmaya görə əmək haqqının ödənilməsini xahiş etmiş, məhkəmələr Əmək Məcəlləsinin 79-cu maddəsində göstərilən qadağalara istinad edərək, iddianı qismən təmin etmişlər.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Əmək Məcəlləsinin 79-cu maddəsi həmin normada istinad olunan imtiyazlara malik olan şəxsləri qoruyur. Lakin bu zaman nəzərə alınmalı hal ondan ibarətdir ki, işəgötürənin müəyyən etdiyi pozuntu mütləq işçiyə imtiyaz verən hallarla və şəxslərlə bağlı olsun, yəni baş vermiş pozuntu həmin şəxsə münasibətdə öhdəliklərin və vəzifələrin icrası zamanı yaransın. Bu işçini imtiyazlı edən sağlamlıq imkanı məhdud olan anaya qulluq, onun sosial, tibbi və digər təminat altına alınan hüquqlarının təmin edilməsi ilə bağlı olmalıdır.

İşçinin Əmək Məcəlləsinin 72-ci maddəsində nəzərdə tutulan əmək vəzifələrinin kobud formada pozulması halları ona imtiyaz verən hallarla bağlı olmadıqda və baş vermiş hadisə ilə səbəbli əlaqədə olmadığı halda həmin normanın genişləndirici formada təfsiri işçinin maraqları daxilində olsa da, işəgötürənin hüquqlarının əhəmiyyətli dərəcə pozulmasına və işçinin hüquqdan sui-istifadəsinə şərait yaratmış olur.

İşçinin iş yerində inzibati xətanın əlamətləri olan hərəkətlər etməsi nəticəsində onun təqsirliliyi müəyyən edildiyi halda işəgötürənin onunla əmək müqaviləsinin davam etdirilməsinə məcbur edilməsi əmək münasibətlərində tərəflərin hüquq bərabərliyinin təmin edilməsinə dair təməl prinsipinin pozulmasına səbəb olur.

İşçinin əmək funksiyasının və vəzifələrinin icrası zamanı Əmək Məcəlləsinin 72-ci maddəsində göstərilən kobud pozuntulara yol verməsi vəziyyətində işəgötürən əmək münasibətlərinə son qoymaq hüququna malikdir. Lakin bu zaman baş vermiş hadisə ilə qoruma altına alınmış hallar arasında səbəbli əlaqənin mövcudluğu mütləq müəyyən olunmalıdır.

Bir normanın tətbiqi digər normanın tətbiqini ümumiyyətlə mümkünsüz və əhəmiyyətsiz edə bilməz. Yəni, Əmək Məcəlləsinin 79-cu maddəsi işçinin qəsdən və ya səhlənkarlıqla, etinasızlıqla əmək funksiyasını, vəzifə borcunu (öhdəliklərini) yerinə yetirmədiyinə görə

müvafiq iş yerində işin, istehsalın, əmək və icra intizamının normal ahənginin pozulması və ya mülkiyyətçinin, işəgötürənin, habelə əmək kollektivinin (onun ayrı-ayrı üzvlərinin) hüquqlarına və qanunla qorunan mənafelərinə hər hansı formada ziyan dəyməsi ilə nəticələnən hərəkətlərə yol verilməsi zamanı 70-ci maddənin ç) bəndinin tətbiqi məhdudlaşdırıla bilməz.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-929/2024

23.04.2024-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından

Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının

İddiaçının cavabdeh Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikasına qarşı mülki iş üzrə

Q Ə R A R I

Kateqoriya (açar sözlər): əmək münasibətlərindən irəli gələn mübahisələr; əmək müqaviləsinə xitam verilməsinə dair əmrin ləğvi (işə bərpa tələbi), işçi əmək vəzifələrini kobud şəkildə pozduğuna görə, mülki hüquqların həyata keçirilməsi; hüquqdan sui-istifadə

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası hakimlər Həsənov Vüqar Təvəkgül oğlu (məruzəçi), Əhmədov Əhməd Abbas oğlu və Şəfiyev İspəndiyar Əsəd oğlundan ibarət tərkibdə,

İddiaçının cavabdeh Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikasına qarşı əmrin ləğvi, işə bərpa, məcburi işburaxma dövrü üçün əmək haqqının ödənilməsi, əmək kitabçasının bərpa olunması tələbinə dair mülki iş üzrə Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 20 noyabr 2023-cü il tarixli 2(103)4853/2023 nömrəli qətnaməsindən cavabdeh Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikası tərəfindən verilmiş kassasiya şikayəti üzrə işə Azərbaycan Respublikası Ali Məhkəməsinin inzibati binasında 23 aprel 2023-cü il tarixdə yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları:

1. İddiaçının anası X1-in birinci dərəcə əlilliyi vardır. X1 övladı İddiaçının öhdəsindədir.
2. Nəsimi Rayon Məhkəməsinin 2(006)-7435/2015 nömrəli, 11.12.2015-ci il tarixli qətnaməsinə əsasən İddiaçı Müdafiə Nazirinin 15.09.2015-ci il tarixli əmri ilə Əmək Məcəlləsinin 70-ci maddəsinin “b” bəndinə əsasən (işçilərin sayı və ştatların ixtisarı) Laboratoriya bölməsinin həkim mütəxəssisi vəzifəsindən azad edilsə də onun öhdəsində birinci qrup əlil anasının olmasına görə işdən azad edilmə barədə əmr ləğv edilmiş və İddiaçı işə bərpa edilmişdir.
3. İddiaçı Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 28.04.2022-ci il tarixli, 3(006)1624/2022 saylı qərarı ilə Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 227-ci maddəsində nəzərdə tutulmuş əməli törətməkdə təqsirli bilindiyi üçün 3 ay müddətinə inzibati həbs edilmiş və Bakı Apellyasiya Məhkəməsinin 13.05.2022-ci il tarixli, 3(006)-1624/2022 nömrəli qərarı ilə bu müddət 2 ay müddətinə endirilmişdir.
4. Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikasının rəisinin 17.05.2022-ci il tarixli, 94 nömrəli əmri ilə İddiaçının Laboratoriya bölməsində həkimmütəxəssis (biokimyəvi üzrə), Əmək Məcəlləsinin 72-ci maddəsinin «f» bəndində (iş vaxtı ərzində bilavasitə iş yerində inzibati xətalara yol verməsi) göstərilən hallar nəzərə alınmaqla, Əmək Məcəlləsinin 70-ci maddəsinin «ç» bəndinə (işçi özünün əmək funksiyasını və ya əmək funksiyası üzrə öhdəliklərini yerinə yetirmədikdə, yaxud bu Məcəllənin 72-ci maddəsində sadalanan hallarda əmək vəzifələrini kobud şəkildə pozduqda) əsasən 17.05.2022-ci il tarixdən onunla bağlanmış əmək müqaviləsinə xitam verilərək işdən azad edilmişdir.
5. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikasının rəisi X2 tərəfindən İddiaçıya ünvanlanmış 27.07.2022-ci il tarixli məktubun surətinə əsasən Iddiaçıya məxsus olan əmək kitabçası və işdən azad olması barədə əmrindən çıxarışı 19.05.2022-ci il tarixdə poçt vasitəsilə onun ünvanına göndərilmişdir
6. 21.05.2022-ci il tarixli D******** nömrəli çatdırma vərəqəsinin surətinə əsasən “X”-ə ünvanlanmış SS********AZ göndəriş nömrəsi məktubu

21.05.2022-ci il tarixdə “X3” soyadlı şəxs almışdır.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a) Birinci instansiya məhkəməsində icraat:

7. İddiaçı cavabdeh Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikasına qarşı «əmrin ləğvi, işə bərpa və məcburi işburaxma dövrü üçün əmək haqqı tələbi, əmək kitabçasının bərpa olunması» tələbinə dair iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, 17.05.2022-ci il tarixindən işdən azad edilməsi barədə işəgötürənin əmri ləğv edilərək öz əvvəlki işinə inzibati həbsdən sonra məcburi işburaxma dövrü üçün əmək haqqı ödənilməklə bərpa olunması və əmək kitabçasının bərpa olunması barədə qətnamə qəbul edilməsi xahiş etmişdir.

8. İddiaçı işin yuxarıda qeyd edilən faktiki hallarına istinad etməklə tələbini belə əsaslandırmışdır ki, işə bərpa olunduqdan sonra iddiaçını bir müddət öz vəzifəsinə aid işləri görməyə buraxmamışdırlar. Lakin uzun çəkən mübarizədən sonra öz vəzifəsi ilə bağlı işləri yerinə yetirməyə başlamışdır. Bununla da Hərbi Həkim Komissiyasının sədri X4-ün iddiaçıya qarşı təzyiq və nifrəti artmışdır. İşdə daima şər və böhtanlara məruz qalırdı. Hər dəfə sübut etməyə çalışırdılar ki, iddiaçı kimdənsə rüşvət almışdır. Lakin hər dəfə bu onlar üçün uğursuzluqla nəticələnirdi. Nəhayət rəhbərliyin əlaltısı X5 iddiaçıya bildirmişdir ki, «biz bilirik ki, siz qanunsuz işlərə qarışmırsınız, amma biz qazanmaq istəyirik. Ona görə də siz poliklinika rəhbərliyinin icazəsi ilə komissiyadan keçən hərbiçilərin qida ilə əlaqədar şəkər səviyyəsini normadan yüksək göstərin və onlardan 50-60 manat imkan olduqda daha yüksək məbləğdə pul almaqla nəticələri normada verin. Pul götürənlərin siyahısını və toplanmış pulu isə bizə təhvil verin. Belə etməsəniz biz sizinlə işləyə bilməyəcəyik və bu işi həmişəki kimi Hərbi Hospitalda X6, poliklinikada X7, X8 edəcəklər». İddiaçını bu formada işləməyə məcbur etmişlər. Lakin iddiaçı başa düşməmişdir ki, bu da ona qarşı qurulan bir tələ imiş. Daha sonra Hərbi Həkim Komissiyasının sədri X4 Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Xidmətinin əməkdaşlarını xəlvəti dəvət edərək iddiaçının kabinetinə gizli videokamera yerləşdirmiş və 26 nəfər komissiyadan keçən müddətdən artıq həqiqi hərbi xidmət keçən hərbiçidən pul alınmasını gizli formada çəkdirmişdir. Təhqiqat materialları Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Xidmətindən Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə ötürülmüşdür. Hərbi Həkim Komissiyasının sədri X4 və onun tərəfdaşları iddiaçıya Milli Təhlükəsizlik Xidmətinin əməkdaşlarına verdiyi izahatlarda siyahı üzrə pulun yığılaraq rəhbərliyə təhvil verilmədiyini və bütün işləri öz təşəbbüsü ilə etdiyini bildirməsini demişlər. Belə etməyəcəyi təqdirdə iddiaçıya kömək etməyəcəklərini bildirmişlər. Məsələnin həll ediləcəyini iddiaçıya vəd etmişlər və bunun müqabilində ondan külli miqdarda pul almışlar. Hazırda yuxarıda qeyd edilənlərlə əlaqədar aidiyyəti dövlət orqanlarına müraciətlər etmişdir və müəyyən rəhbər işçilərin qəbulunda olmuşdur. Yuxarıda qeyd edilənlər, məsələnin nə yerdə olduğunu, yəni iddiaçıya qarşı cavabdehin qərəzli mövqeyini məhkəməyə çatdırmaq üçün idi. Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 28.04.2022-ci il tarixli, 3(006)-1624/2022 saylı qərarından sonra iddiaçını Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 70-ci maddəsinin “ç” bəndinə (işçi özünün əmək funksiyasını və ya əmək müqaviləsi üzrə öhdəlikləri yerinə yetirmədikdə, yaxud bu Məcəllənin 72-ci maddəsində sadalanan hallarda əmək vəzifələrini kobud şəkildə pozduqda) əsasən 17.05.2022-ci il tarixdən işdən azad etmişlər. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 26 dekabr tarixli 186 nömrəli qərarı ilə təsdiq edilmiş «İşçilərin əmək kitabçasının forması və onun tərtibi qaydaları» nın 6.2-ci bəndinə əsasən «işdən çıxan gün işçinin işdə olmadığı hallarda işəgötürən həmin gün, poçt vasitəsilə ona bildiriş göndərir. Əmək kitabçasının poçt vasitəsilə göndərilməsinə yalnız isdən çıxan işçinin razılığı ilə yol verilir». Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikasının rəisi X2 qanunvericiliyin bu tələbini kobud surətdə pozaraq iddiaçının razılığı olmadan poçt vasitəsilə əmək kitabçası və işdən azad olması barədə əmrdən çıxarışı inzibatı həbsdə olduğu dövrdə ünvanına göndərmişdir, halbuki inzibatı həbsdən sonra iddiaçı ərizəsində xahiş etmişdir ki, bu sənədləri ona şəxsən versinlər, poçtla göndərilməsini xahiş etməmişdir. Nəticədə hazırkı dövrədək iddiaçı əmək kitabçanı və xitam əmrinin surətini əldə edə bilməmişdir. Telefonla əlaqə saxlayıb əmək kitabçası əldə etmək istəyir, lakin Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikası əmək kitabçasını tapa bilmir. Belə vəziyyət bir daha Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikasının rəisi X2-nin və onun komandasının iddiaçıya qarşı olan qərəzli mövqeyini sübut edir və bütün bunlar Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikasının 27.07.2022-ci il tarixli 7803 məktubundan görünür. Mübahisənin qısa məzmunu və məhkəmədən gözlənilən nəticələr ondan ibarətdir ki, iddiaçı «Əmək müqaviləsi bildirişi» altsistemindən əldə etdiyi

məlumata əsasən əmin olmuşdur ki, onunla bağlanmış əmək müqaviləsinə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikasının işəgötürəni tərəfindən qanunvericiliyin tələbləri pozularaq Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 70-ci maddəsinin «ç» bəndinə əsasən qərəzli formada 17.05.2022-ci il tarixində inzibati həbsdə olduğu vaxtda xitam verilmişdir. İddiaçının öhdəsində orqanizmin funksiyalarının 81-100 faiz pozulmuş (I dərəcə əlil) olan anası vardır və öhdəsində I dərəcə əlilliyi olan anasının olmasını işəgötürən və onun kadrlar şöbəsinin işçiləri əvvəlki məhkəmə işindən bilirdilər. Əvvəlki məhkəmə məhz bu halı rəhbər tutaraq onu ixtisarla bağlı qərəzli olaraq işdən azad edildiyi halda işinə bərpa etmişdi. Bu səbəbdən Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 28.04.2022-ci il tarixli, 3(006)-1624/2022 saylı qərarı işəgötürənə əsas vermir ki, onun əmək müqaviləsinə işəgötürən tərəfindən Əmək Məcəlləsinin 70-ci maddəsinin «ç» bəndinə əsasən xitam versin. Məhkəmənin yuxarıda qeyd edilən qərarında işdən azad ediləcəyi, eləcə də müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə bağlı heç nə göstərilməmişdir. Hesab edib ki, işəgötürən öhdəsində I dərəcə əlil anası olduğunu nəzərə alaraq məhkəmənin qərarı ilə 2 ay müddətində inzibati həbs növündə əmək funksiyalarını yerinə yetirə bilmədiyinə görə iddiaçını Əmək Məcəlləsinin 62-ci «İşçinin işdən kənar edilməsi» maddəsinin c) bəndinə əsasən (iş vaxtı ərzində işçi bilavasitə iş yerində müvafiq səlahiyyətli orqanın qərarı ilə təsdiqlənən inzibatı xətaları və ya cinayət tərkibi olan ictimai-təhlükəli əməllər törətdikdə) əmək haqqı verilmədən işdən kənar edə bilərdi, lakin işdən azad edə bilməzdi. İşəgötürən isə qərəzli mövqe tutaraq Əmək Məcəlləsinin tələblərini pozaraq iddiaçını işdən azad etmişdir. Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi 21.04.2022-ci il tarixli qərarı ilə cinyət işi başlanmasının rədd edilməsi haqqında qərar qəbul etmişdir ki, bu qərarın 4-cü bəndində göstərilmişdir ki, «İddiaçının əməllərində inzibati xətanın tərkib əlamətləri olduğundan material hüquqi qiymət verilməisndən ötrü aidiyyəti üzrə Baş Prokurorluğunun Cinayət təqibindən kənar icraat idarəsinə göndərilsin». Bu qərar, eləcə də inzibati həbs barədə yuxarıda qeyd etdiyi məhkəmə qərarları Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 12.01.2022-ci il tarixli qərarının «b» bəndində göstərilən haldır.

9. Bakı 11 saylı Mediasiya təşkilatı tərəfindən verilmiş ilkin mediasiya sessiyasında iştirak edilməməsi barədə 22.09.2022-ci il tarixli arayışından görünür ki, İddiaçı tərəfindən mediasiya prosesinin tətbiqi barədə təklifdə təsvir edildiyi kimi, yəni əmrin ləğvi, məcburi işburaxma üçün pul tələbi, işə bərpa və əmək kitabçasının bərpası tələbinə dair mübahisə üzrə 22.09.2022-ci ildə 17.40 saatında keçirilməsi nəzərə tutulan ilkin mediasiya sessiyasında Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikasının nümayəndəsi iştirak etməmişdir.

10. Fəxri Fərmanların surətlərinə əsasən, Laboratoriya bölməsinin həkim-mütəxəssisi İddiaçı 30.12.2014-cü il tarixdə, 25.06.2015-ci il tarixdə, 25.06.2021-ci il tarixdə müalicə diaqnostika işindəki nailiyətlərinə, yaralı və xəstələrə qayğıkeş, nöqsansız əməllərinə görə, həmçinin vəzifə borclarının öhdəsindən layiqincə gəldiyinə görə Fəxri Fərmanlarla tərtif olunmuşdur.

11. Cavabdehin nümayəndəsi (poliklinikanın rəisi) X2-nin iddia tələbini qəbul etməyərək öz izahatında göstərmişdir ki, DTX-nın əməkdaşları tərəfindən əməliyyat keçirilmiş və nəticədə İddiaçı tutularaq barəsində istintaq işi aparılmış, bundan sonra iş aidiyyatı üzrə Korrupsiya ilə mübarizə Baş İdarəsinə göndərilmişdir. Nəsimi Rayon Məhkəməsi və Bakı Apellyasiya Məhkəməsinin müvafiq qərarları ilə o, təqsirli bilinərək barəsində inzibati həbs seçilmişdir. Buna səbəb isə iddiaçının 4 gün ərzində Müdafiə Nazirliyinin Mərkəzi Poliklinikasında həkim səviyyələrindən istifadə edərək 26 nəfərdən ümumilikdə 1.300 manata qədər qanunsuz pul alması olmuşdur. Adı çəkilən məhkəmə qərarları barəsində təşkilat tərəfindən məlumat əldə olunduqdan sonra həmin qərarların qanuni qüvvəsini alması gözlənilmiş və bundan sonra iddiaçı ilə bağlanmış əmək müqaviləsinə işdə yol verdiyi kobud pozuntularla bağlı xitam

verilmiş və bu barədə qanunvericiliyə uyğun olaraq ona məlumat verilmişdir. Əlavə olaraq qeyd edir ki, iddiaçının himayəsində 1-ci qrup əlil valideynin olması barədə məlumatları olmuş və buna uyğun olaraq iddiaçının natamam iş rejimində çalışmasına şərait yaradılmışdır. Qeyd etdiyi hallara əsasən tərəflərdən bütün hüquqi prosedurlar tam olaraq həyata keçirilmişdir

12. Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin (hakim Xəlilov Ramin Adilxan oğlu) 18 noyabr 2022-ci il tarixli, 2(006)-4744/2022 nömrəli qətnaməsi ilə iddia təmin edilərək, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikası tərəfindən İddiaçı barəsində qəbul edilmiş 17.05.2022-ci il tarixli, 94 nömrəli əmr ləğv edilməklə sonuncu işinə - Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikasının Laboratoriya bölməsinin həkim-mütəxəssisi (biokimyəvi üzrə) 28.04.2022-ci il tarixdən məcburi işburaxmaya görə əmək haqqı hesablanmaqla bərpa edilməsi, cavabdeh Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikası tərəfindən iddiaçıya məxsus əmək kitabçası bərpa edilərək (işə götürən tərəfindən geri qaytarılması mümkün olmadıqda) iddiaçıya qaytarılması qət edilmişdir.

13. Birinci instansiya məhkəməsi mövqeyini belə əsaslandırmışdır ki, iddiaçının himayəsində 1-ci dərəcə əlil olan anası olduğundan əmr ləğv edilməli və iddiaçı əvvəlki vəzifəsinə bərpa edilməlidir. Məhkəmə iddiaçının inzibati həbsdən sonra məcburi işburaxmaya dövrü üçün əmək haqqını hesablanıb ödənilməsi tələbinə hüquqi qiymət verərək qeyd etmişdir ki, iddiaçının işə bərpa edilməsi barədə tələbi əsaslı hesab olunaraq təmin olunduğu üçün, iddia tələbi məcburi işburaxmaya görə əmək haqqının tutulması hissəsində də əsaslı hesab edilməli və təmin edilməlidir.

14. Məhkəmə qeyd etmişdir ki, hazırki mülki işin materiallardan görünür ki, cavabdeh tərəf işçinin əmək kitabçasını onun razılığı olmadan (həbsdə olduğunu bilə-bilə özü ilə həbsdən çıxdıqdan sonra əlaqə yaratmadan) ünvana göndərmiş, bu səbəbdən əmək kitabçasının kim tərəfindən alınması (verilməsi) müəyyən edilməmişdir.Bu səbəbdən məhkəmə hesab etmişdir ki, iddia tələbi əmək kitabçasının bərpa olunması hissəsində əsaslıdır və təmin edilməlidir.

15. Məhkəmə gəldiyi nəticəni Azərbaycan Respublikası Əmək Məcəlləsinin 10, 68-ci maddəsinin 2-ci bəndinə, 70-ci maddəsinini «ç» bəndinə, 79-cu maddəsinin 1, 2-ci bəndlərinə, 296, 300-cü maddələrinə, Azərbaycan Respublikası Ailə Məcəlləsinin 2.1-ci maddəsinə, "İnsan hüquqları haqqında" Ümumi Bəyannamənin 7, 8 və 10-cu maddələrinə, "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 6-cı maddələrinə Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 14.2, 76.1, 76.2, 217.3-cü maddələrinə istinadla əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsində icraat:

16. Cavabdeh Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikası qətnamədən apellyasiya şikayəti verərək, qətnamənin ləğv edilməsini və iddianın təmin edilməməsi barədə yeni qətnamə qəbul edilməsini xahiş etmişdir.

17. Apellyasiya şikayəti işin hallarına istinad edilməklə, cavabdeh tərəfin birinci instansiya məhkəməsində verdiyi izahatının məzmunu ilə eynilik təşkil etmişdir

18. Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının (hakimlər: G.T.Axundova (sədrlik edən və məruzəçi), C.C.Musayeva, F.F.Babayev) 2(103)-4853/2023 saylı, 20 noyabr 2023-cü il tarixli qətnaməsi ilə cavabdeh Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikası tərəfindən verilmiş apellyasiya şikayəti qismən təmin edilmiş və Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 18 noyabr 2022-ci il tarixli, 2(006)4744/2022 saylı qətnaməsi "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikası tərəfindən İddiaçı barəsində qəbul edilmiş 17.05.2022-ci il tarixli, ** nömrəli əmr ləğv edilməklə sonuncu işinə - Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikasının Laboratoriya bölməsinin həkim-mütəxəssisi (biokimyəvi üzrə) 28.04.2022-ci il tarixdən məcburi işburaxmaya

görə əmək haqqı hesablanmaqla bərpa edilsin" hissəsində dəyişdirilməsi, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikası tərəfindən İddiaçı barəsində qəbul edilmiş 17.05.2022-ci il tarixli, ** nömrəli əmr ləğv edilməklə sonuncu işinə - Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikasının Laboratoriya bölməsinin həkim-mütəxəssisi (biokimyəvi üzrə) - 17.05.2022-ci il tarixdən məcburi işburaxmaya görə əmək haqqı hesablanmaqla bərpa edilməsi qət edilmiş və qətnamə digər hissədə dəyişdirilmədən saxlanılmışdır.

19. Məhkəmə kollegiyası işə baxan məhkəmənin mövqeyi ilə razılaşaraq qeyd etmişdir ki, iddiaçının işdən azad edilməsi qanunsuz olmuşdur. Belə ki, iddiaçının anası X1-in birinci dərəcə əlilliyi vardır. X1 övladı İddiaçının öhdəsindədir. Belə ki, İddiaçı X1-ə qulluğa görə 100 manat məbləğində Prezident təqaüdü alır.

20. Məhkəmə kollegiyası qeyd etmişdir ki, iddiaçının öhdəsində orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş" ailə üzvünün olması halı işəgötürənə məlum idi. Çünki, qanuni qüvvəsini almış Nəsimi rayon Məhkəməsinin 2(006)-7435/2015 saylı, 11.12.2015-ci il tarixli qətnaməsindən müəyyən olunur ki, İddiaçı Müdafiə Nazirinin 15.09.2015-ci il tarixli əmri ilə Əmək Məcəlləsinin 70-ci maddəsinin "b" bəndinə əsasən (işçilərin sayı və ştatların ixtisarı) Laboratoriya bölməsinin həkim-mütəxəssisi vəzifəsindən azad edilsə də onun öhdəsində birinci qrup əlil anasının olmasına görə işdən azad edilmə barədə əmr ləğv edilmiş və İddiaçı işə bərpa edilmişdir.

21. Məhkəmə kollegiyası hazırki mülki iş üzrə birinci instansiya məhkəməsinin 18.11.2022-ci il tarixli qətnaməsindən cavabdeh tərəfindən verilmiş apellyasiya şikayətinə baxılması ilə bağlı Azərbaycan Respublikası Əmək Məcəlləsinin 70-ci maddəsinin "ç" bəndi ilə həmin Məcəllənin 79-cu maddəsini müqayisəli şəkildə şərh verilməsi üçün Konstitusiya Məhkəməsinə müraciət etmişdir.

22. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 30 oktyabr 2023-cü il tarixli qərardadı ilə həmin qərardadın təsviri-əsaslandırıcı hissəsində göstərilən əsaslara görə Bakı Apellyasiya Məhkəməsinin müraciəti ilə bağlı Plenum tərəfindən ayrıca qərar qəbul edilməsinə zərurət olmadığından onun Konstitusiya məhkəməsi Plenumunun icraatına qəbul olunmasından imtina edilmişdir.

23. Məhkəmə kollegiyası hesab etmişdir ki, işə baxan məhkəmənin məcburi işburaxmaya görə müddətin 28.04.2022-ci il tarixdə hesablanmalı olması barədə gəldiyi nəticə yanlışdır. Çünki, iddiaçının işdən azad edilməsi barədə əmr 17 may 2022-ci il tarixdə verilmişdir. Əmrdə də qeyd olunur ki, 17.05.2022-ci il tarixdən işçi ilə əmək müqaviləsinə xitam verilsin. Habelə, iddiaçıya işdən azad olunduğu vaxtadək ödənişlər olunmuşdur.

24. Məhkəmə kollegiyası cavabdeh Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikası tərəfindən İddiaçıya məxsus əmək kitabçası bərpa edilərək (işə götürən tərəfindən geri qaytarılması mümkün olmadıqda) İddiaçıya qaytarılması hissəsində işə baxan məhkəmənin gəldiyi nəticə ilə razılaşmışdır. Cavabdehin nümayəndəsi də məhkəmə iclasında verdiyi izahatında bir daha təsdiq edir ki, iddiaçının həbsdə olduğundan məlumatlı olsa da əmək kitabçasını iddiaçının ünvanına göndərmişdir. Lakin göndərilən əmək kitabçasının iddiaçının həbsdə olması səbəbindən özü tərəfindən əldə edilməsi qeyri-mümkün olmuş, hətta onun ailə üzvünə də qeyd edilən əmək kitabçası təqdim edilməmişdir.

25. Məhkəmə gəldiyi nəticənin əsası kimi Azərbaycan Respublikasının Əmək Məcəlləsi 70-ci maddəsinin a, b, c, ç, d, e bəndlərinə, 72-ci maddənin a, b, c, ç, d, e bəndlərinə, 79, 87ci maddəsinin 3-cü bəndinə, 300-cü maddəsinə Azərbaycan Respublikası Nazirlər Kabinetinin «İşçilərin əmək kitabçasının forması və onun tərtibi qaydaları»nın 26.12.1996-cı il tarixli, 186 nömrəli Qərarının 6.2-ci bəndinə, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsi 14.2., 77.1-ci maddələrinə istinad etmişdir.

Kassasiya şikayətinin və ona qarşı etirazın dəlilləri:

a)Kassasiya şikayətinin dəlilləri

26. Cavabdeh (vəkil) kassasiya şikayəti verərək, Bakı Apellyasiya Məhkəməsinin 2(103)-4853/2023 nömrəli, 20.11.2023-cü il tarixli qətnaməsinin ləğv edilməsi və iddiaçının iddia tələblərinin rədd edilməsi barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

27. Kassasiya şikayəti onunla əsaslandırılmışdır ki, iddiaçının əməli Əmək Məcəlləsinin 72-ci maddəsinin f bəndinə əsasən əmək vəzifələrinin kobud surətdə pozulması hesab edilir və bu səbəbdən cavabdeh tamamilə qanuni olaraq, onu işdən azad etmişdir. İddiaçının inzibati həbsdən sonra məcburi işburaxma dövrü üçün əmək haqqının hesablanıb ödənilməsi tələbi tamamilə qanunsuz və əsassızdır, çünki iddiaçının məcburi işburaxması cavabdehin iradəsindən asılı olmamışdır. O, məhkəmənin qərarı əsasında müəyyən müddətədə həbs inzibati tənbeh tədbiri tətbiq edilmişdir və o, həbsdə olduğu üçün bu məsələdə cavabdehin üzərinə heç bir öhdəlik düşmür. Həmçinin işdən azad olduğu vaxtadək ona ödənişlər edilmişdir. Hazırki iş üzrə cavabdehin sübutları nəzərə alınmamış, apellyasiya instansiya məhkəməsi tərəfindən maddi hüquq normalarının tələbi tam şəkildə pozulmaqla apellyasiya şikayəti əsassız olaraq qismən təmin edilmişdir. Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Polikilinikasının rəisinin 26 nömrəli, 17 aprel 2017-ci il tarixli əmri ilə Mərkəzi Hərbi Polikilinikasının Laboratoriya bölməsinin həkim mütəxəsisi (biokimyəvi üzrə) İddiaçıya işdə yol verdiyi kobud noqsanlara görə Töhmət" elan edilmiş, Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Polikilinikasının rəisinin 41 nömrəli, 22 iyun 2017ci il tarixli əmri ilə Mərkəzi Hərbi Polikilinikasının Laboratoriya bölməsinin həkim mütəxəssisi (biokimyəvi üzrə) İddiaçıya Əmək Müqaviləsinin 7.1-ci maddəsinin və Azərbaycan Respublikası Əmək Məcəlləsinin 10-cu maddəsinin "a" bəndinin tələblərini pozduğuna, əmək funksiyasını kefiyyətsiz yerinə yetirdiyinə və dövlət əmlakına ziyan vurduğuna görə sonuncu xəbərdarlıqla "Şiddətli töhmət" elan edilmiş, bundan əlavə dəfələrlə şifahi, yazılı xəbərdarlıqlara baxmayaraq dəfələrlə əmək funksiyasını kefiyyətsiz yerinə yetirmişdir. Bütün bunlar mülki işin materiallarında olsa da hər iki məhkəmə bunları nəzərə almamış və maddi hüquq normalarının tələblərini pozmuşdur. Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini, general-polkovnik X9-a, Azərbaycan Respublikası Baş Prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin ünvanladığı 27 aprel 2022-ci il tarixli məktubunda Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikasının həkim mütəxəssisi İddiaçının qanunsuz hərəkətləri barədə toplanmış material əsasında araşdırma aparılması barədə məlumat verilmiş və İddiaçının Mərkəzi Hərbi Poliklinikada müayinələrdən keçmiş hərbi qulluqçu və mülki şəxslərə, guya, qanda şəkər xəstəliyi göstəricilərin normadan yüksək olduğunu bildirib, cavabların müsbət yazılması müqabilində müxtəlif məbləğlərdə pul vəsaitlərini tələb edərək alması müəyyən edilmişdir. Əlavə olaraq, İddiaçının əməlində Azərbaycan Respublikası İXM-nin 227-ci maddəsində nəzərdə tutulmuş, dələduzluq yolu ilə özgənin əmlakını talama inzibati xətasının tərkib əlamətləri aşkar edilmiş və bu səbəblə, toplanmış material Baş Prokurorluğun cinayət təqibindən kənar icraatlar idarəsinə təqdim edilməsi göstərilmişdir. Həmçinin "Prokurorluq haqqında" Qanunun 23-cü maddəsini rəhbər tutaraq oxşar qanun pozuntularının, onları doğuran səbəb və şəraitin aradan qaldırılması üçün İddiaçı barəsində müvafiq tədbirlərin görülməsi və bu barədə Azərbaycan Respublikası Baş Prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə məlumat verilməsinə dair müvafiq göstəriş verilməsi xahiş olunmuşdur. Bununla əlaqədar olaraq, Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikasının rəisi əmək və icra intizamının pozulmasına görə İddiaçı Əmək Məcəlləsinin 186.2-ci maddəsinin "ç" bəndinə əsasən əmək müqaviləsinin bu məcəllənin 70-ci maddəsinin "ç" bəndi ilə ləğv edilməsi barədə 17 may 2022-ci il tarixli, 94 nömrəli əmri ilə onunla bağlanmış əmək müqaviləsinə xitam verilmişdir. Əmək müqaviləsi ləğv edildikdən sonra iddiaçının son əmək haqqı kart hesabına köçürülmüşdür. Apellyasiya instansiya məhkəməsi apelyasiya şikayətinin qismən təmin edilməsi barədə qətnamə çıxarsa da, demək olar ki, apellasiya şikayəti faktiki olaraq təmin edilməmiş, birinci instansiya məhkəməsinin

qətnaməsi qüvvədə saxlanılmış və qanunsuz və əsassız olaraq qətnamənin əsas mübahisə doğuran hissəsi dəyişdirilməmişdir. Məhkəmələr tərəfindən iş üzrə sübutlar düzgün qiymətləndirilməmiş, işə baxılarkən MPM-nin 88-ci maddəsinin tələbi kobud şəkildə pozulmaqla iş üzrə sübutlar birtərəfli qaydada, cavabdehin zərərinə qiymətləndirilmiş, maddi və prosessual hüquq normalarının tələbləri pozulmuş və reallığı əks etdirməyən qətnamə qəbul olunmuşdur.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

28. İddiaçı kassasiya şikayətinə qarşı etiraz ilə məhkəməyə müraciət edərək, etirazını onunla əsaslandırmışdır ki, birinci və apellyasiya instansiyası məhkəmələrinin qəbul etdikləri qətnamələr tam qanuni və əsaslıdır. Cavabdeh tərəf şikayətlərində birinci və apellyasiya instansiyası məhkəmələrində irəli sürmədiklərə yeni əsaslara toxunmuşlar. Halbuki, birinci və apellyasiya instansiyası məhkəmələrində istinad olunmayan hallara kassasiya instansiyası məhkəməsində istinad oluna bilməz. Kassator iddiaçıya 2017-ci ildə töhmət elan olunduğunu bildirmiş, lakin bu fakta indiyənə kimi heç bir məhkəmədə istinad olunmamışdır. Habelə, kassator unutmuşdur ki, iddiaçı 2015-2017-ci illərdə bir dəfə də qanunsuz olaraq işdən çıxarılmış, hər üç instansiya məhkəməsinin qərarı ilə işinə bərpa olunmuşdur. Hazırkı məhkəmə prosesi artıq ikinci belə haldır ki, iddiaçı qanunsuz işdən çıxma əmrindən məhkəməyə müraciət edir. Həmçinin cavabdeh iddiaçının işdən çıxarılmasını və məcburi iş buraxmasını öz iradələrindən asılı olmayan inzibati həbsin tətbiq olunması ilə əsaslandırmışdır. Lakin bu tamamilə absurddur. Çünki, inzibati həbs müddəti bitdikdən sonra da cavabdeh iddiaçını işinə bərpa etməmişdir. Bundan başqa cavabdeh qeyd etmişdir ki, guya işəgötürən işçinin işdən azad olunma səbəblərini qanunun tələbləri əsasında əsaslandırmışdır. Bu da tamamilə səhv məlumatdır.

Tətbiq edilən hüquq:

Azərbaycan Respublikası Mülki Məcəlləsi

29. Maddə 560.1 və 560.2. Mülki hüquqlar hüquqa uyğun həyata keçirilməlidir. Hüquqdan yalnız başqalarına ziyan vurmaq məqsədi ilə istifadə edilməsi yolverilməzdir. Hüquqdan sui-istifadəyə yol verilmir, bu əsas üzərində həyata keçirilən razılaşmalar və hərəkətlər isə etibarsızdır.

30. Maddə 560.3.4. Digər tərəfin güvəndiyi və güvənmiş olduğu əvvəlki rəftara zidd hüququn həyata keçirilməsi hüquqdan sui-istifadə halını yaradır.

Azərbaycan Respublikasının Əmək Məcəlləsi

31. Maddə 70. Əmək müqaviləsi işəgötürən tərəfindən aşağıdakı əsaslarla ləğv edilə bilər:

a) müəssisə ləğv edildikdə;

b) işçilərin sayı və ya ştatları ixtisar edildikdə;

c) peşəkarlıq səviyyəsinin, ixtisasının (peşəsinin) kifayət dərəcədə olmadığına görə işçinin tutduğu vəzifəyə uyğun gəlmədiyi barədə səlahiyyətli orqan tərəfindən müvafiq qərar qəbul edildikdə;

ç) işçi özünün əmək funksiyasını və ya əmək müqaviləsi üzrə öhdəliklərini yerinə yetirmədikdə, yaxud bu Məcəllənin 72-ci maddəsində sadalanan hallarda əmək vəzifələrini kobud şəkildə pozduqda;

d) sınaq müddəti ərzində işçi özünü doğrultmadıqda;

e) dövlət büdcəsindən maliyyələşən müəssisənin işçisi çalışmanın yaş həddinə

çatdıqda.

32. Maddə 72. Aşağıdakı hallar işçi tərəfindən əmək vəzifələrinin kobud şəkildə pozulması hesab edilir:

a) özünün xəstəliyi, yaxın qohumunun xəstələnməsi və ya vəfat etməsi istisna olunmaqla heç bir üzürlü səbəb olmadan bütün iş günü işə gəlməməsi;

b) alkoqollu içkilər,narkotik vasitələr və psixotrop, toksik və digər zəhərli maddələr qəbul edərək sərxoş vəziyyətdə işə gəlməsi, habelə işə gəldikdən sonra iş yerində həmin içkiləri və ya maddələri qəbul edərək sərxoş vəziyyətdə olması;

c) təqsirli hərəkətləri (hərəkətsizliyi) nəticəsində mülkiyyətçiyə maddi ziyan vurması;

ç) təqsirli hərəkətləri (hərəkətsizliyi) nəticəsində əməyin mühafizəsi qaydalarını pozaraq

iş yoldaşlarının səhhətinə xəsarət yetirməsi və ya onların bu səbəbdən həlak olması;

d) qəsdən istehsal, kommersiya və ya dövlət sirrinin yayılması və ya bu sirrin gizli saxlanılması üzrə öhdəliklərini yerinə yetirməməsi;

e) əmək fəaliyyəti zamanı yol verdiyi kobud səhvləri, hüquq pozuntuları nəticəsində işəgötürənin, müəssisənin və ya mülkiyyətçinin qanuni mənafeyinə ciddi xələl gətirməsi;

ə) əmək funksiyasını pozduğuna görə əvvəllər işəgötürən tərəfindən verilmiş intizam

tənbehindən nəticə çıxarmayaraq altı ay ərzində təkrarən əmək funksiyasını pozması;

f) iş vaxtı ərzində bilavasitə iş yerində inzibati xətalara və ya cinayət tərkibi olan ictimai-təhlükəli əməllərə yol verməsi.

33. Maddə 79. 1. İşəgötürən tərəfindən: hamilə, habelə üç yaşınadək uşağı olan qadınların, üç yaşınadək uşağını təkbaşına böyüdən kişilərin; yeganə qazanc yeri işlədiyi müəssisə olub məktəb yaşınadək uşağını təkbaşına böyüdən işçilərin; əmək qabiliyyətini müvəqqəti itirən işçilərin; işçinin şəkərli diabetlə və ya dağınıq sklerozla xəstə olması səbəbinə görə; həmkarlar ittifaqları təşkilatının və ya hər hansı siyasi partiyanın üzvü olması motivinə görə; öhdəsində 18 yaşınadək əlilliyi müəyyən edilmiş və ya orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş" ailə üzvü olan işçilərin; məzuniyyətdə, ezamiyyətdə olduğu vaxtda, habelə kollektiv danışıqlarda iştirak etdiyi müddət ərzində işçilərin bu Məcəllənin 70-ci maddəsi ilə müəyyən edilmiş əsaslarla əmək müqaviləsinin ləğv edilməsi qadağandır.

2. Bu maddənin birinci hissəsində nəzərdə tutulmuş müddəalar bu Məcəllənin 70-ci maddəsinin «a» bəndi və 73-cü maddəsi ilə xitam verilən hallara şamil edilmir.

3. Müəssisənin ləğv edilməsi halları istisna olmaqla, müddətindən asılı olmayaraq, reabilitasiya müəssisəsində və digər reabilitasiya subyektlərində müalicə keçən əlilliyi olan şəxslərlə, həmçinin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 24.1-ci maddəsində göstərilən işçi ilə bağlanılmış əmək müqaviləsinin işəgötürən tərəfindən ləğv edilməsinə yol verilmir.

34. Maddə 87, 3-cü bənd. İşdən çıxan işçilərə əmək kitabçası əmək müqaviləsinə xitam verildiyi gün (sonuncu iş günü) verilir.

35. Maddə 186. 1. İşəgötürən, işçi bu Məcəllə ilə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş vəzifələrini yerinə yetirmədikdə və ya hüquqlarından sui-istifadə etdikdə və yaxud əmək müqaviləsi üzrə öhdəliklərini icra etmədikdə intizam məsuliyyətinə, qanunvericilikdə nəzərdə tutulmuş hallarda isə digər məsuliyyətə cəlb edilirlər.

36. Maddə 300. Əmək müqaviləsinin ləğv edilməsi qaydalarına işəgötürən tərəfindən əməl olunmamasının hüquqi nəticələri əgər, işəgötürən əmək müqaviləsinin bu Məcəllənin 68, 69, 70, 73, 74 və 75-ci maddələrində nəzərdə tutulmuş ləğv edilməsi əsaslarını pozaraq və ya 71, 76-cı maddələri ilə müəyyən edilmiş qaydaların tələblərinə əməl etmədən, habelə 79-cu maddəsində nəzərdə tutulmuş hallara əhəmiyyət vermədən işçi ilə əmək münasibətlərinə xitam vermişdirsə, əmək mübahisəsini həll edən məhkəmə iddia ərizəsini və işin faktik hallarını araşdıraraq məcburi iş buraxma müddəti üçün əmək haqqı ödənilməklə işçinin vəzifəsinə bərpa edilməsi barədə qətnamə və ya bu maddənin ikinci hissəsinə müvafiq olaraq tərəflərin barışıq sazişinin təsdiq edilməsi barədə qərardad çıxarır. Məhkəmə qətnamədə işçiyə iddiası üzrə dəymiş zərərin məbləğinin işəgötürən tərəfindən ödənilməsini də nəzərdə tuta bilər.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin «İşçilərin əmək kitabçasının forması və onun tərtibi qaydaları»nın 26.12.1996-cı il tarixli, 186 nömrəli Qərarı

37. Bənd 6.2.İşdən çıxan gün işçinin işdə olmadığı hallarda işəgötürən həmin gün, poçt vasitəsilə ona bildiriş göndərir. Əmək kitabçasının poçt vasitəsilə göndərilməsinə yalnız işdən çıxan işçinin razılığı ilə yol verilir.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəllə

38. Maddə 14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

39. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

40. Maddə 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

41. Maddə 407.2. Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına_və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir.

42. Maddə 386 Maddi hüquq normaları o halda pozulmuş və ya düzgün tətbiq olunmamış hesab edilir ki, birinci instansiya məhkəməsi hüququn tətbiq edilməsində səhv buraxsın, tətbiq edilməli olan qanunu və ya digər normativ hüquqi aktı tətbiq etməsin, yaxud qanunu səhv təfsir etsin.

43. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

44. Maddə 416.2. Apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 418.4cü maddəsində nəzərdə tutulmuş prosessual hüquq pozuntusu hesab edilən hallara yol verilməsi şikayətin hədlərindən və dəlillərindən asılı olmayaraq yoxlanılmalıdır.

45. Maddə 418.3. Prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması qətnamənin yaxud qərardadın ləğv edilməsi üçün o vaxt əsas ola bilər ki, bu pozuntu düzgün qətnamə qəbul edilməməsi ilə nəticələnsin və ya nəticələnə bilsin

Kassasiya baxışının hədləri

46. Qanunun tələbinə görə kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş

materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

47. Hazırki kassasiya şikayətinə əsasən apellyasiya instansiyası məhkəməsinin qətnaməsi bütövlükdə yoxlanılır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

48. Məhkəmə kollegiyası hesab edir ki, apellyasiya instansiyası məhkəməsi tərəfindən mübahisəli hüquq münasibətini tənzimləyən maddi və prosessual hüquq normaları düzgün tətbiq olunmamış və işin hallarının hərtərəfli, tam və obyektiv araşdırılması ilə bağlı prosessual hüquq normalarının pozulmasına yol verilmişdir

49. İddiaçı məhkəməyə müraciət edərək işdən çıxarılmasına əsas olan əmrin ləğv edilməsi, işə bərpa və məcburi iş buraxmaya görə əmək haqqının ödənilməsini xahiş etmişdir.

50. İşin halları ilə müəyyən olunur ki, Dövlət Təhlükəsizlik Xidmətinin əməkdaşları tərəfindən əməliyyat keçirilmiş və nəticədə İddiaçının barəsində cinayət təqibi başlanmış, sonra isə iş aidiyyatı üzrə Korrupsiya ilə mübarizə Baş İdarəsinə göndərilmişdir. Onun əməlində cinayət tərkibinin əlamətləri olmadığı müəyyən edilərək barəsində İnzibati Xətalar Məcəlləsinin 227-ci maddəsi ilə inzibati protokol tərtib olunmuşdur.

51. Protokola mahiyyəti üzrə baxan birinci instansiya məhkəməsi onun barəsində üç ay müddətinə inzibati həbs tətbiq etmiş, lakin apellyasiya instansiyası məhkəməsi həmin müddəti 2 aya endirmişdir. O, həbs olunduğu tarixdən etibarən işə çıxmamış, əmək funksiyalarını yerinə yetirməmiş, onun həbs olunması müəyyən olunduğu andan isə əmək müqaviləsinə Əmək məcəlləsinin 70-ci maddəsinin ç bəndi ilə xitam verilərək, tutduğu vəzifədən azad edilmişdir.

52. İddiaçı həbsdən azad olunduqdan sonra öhdəsində orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş anasının olması, onun üzərində qəyyum təyin olmasına əsaslanmaqla əmri mübahisələndirmişdir.

53. Birinci instansiya məhkəməsi bundan əvvəl eyni tərəflər arasında fərqli əsasla yaranmış fərdi əmək mübahisəsi üzrə qəbul olunmuş məhkəmə aktına və Əmək Məcəlləsinin 79-cu maddəsinə (orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş ailə üzvü olan işçilərin əmək müqaviləsinin pozulması qadağandır) istinad edərək iddianı qismən əsaslı hesab etmişdir.

54. Qeyd edilməlidir ki, işçinin iş vaxtı ərzində bilavasitə iş yerində inzibati xətalara və ya cinayət tərkibi olan ictimai təhlükəli əməllərə yol verməsi əmək vəzifələrinin kobud şəkildə pozulması hesab olunur (Əmək Məcəlləsinin 72-ci maddəsi). İşçi özünün əmək funksiyasını və ya əmək müqaviləsi üzrə öhdəliklərini yerinə yetirmədikdə, yaxud bu Məcəllənin 72-ci maddəsində sadalanan hallarda əmək vəzifələrini kobud şəkildə pozduqda işəgötürən tərəfindən əmək müqaviləsi ləğv edilir (Məcəllənin 70-ci maddəsinin ç bəndi). Öhdəsində 18 yaşınadək əlilliyi müəyyən edilmiş və ya orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş ailə üzvü olan işçilərin bu Məcəllənin 70-ci maddəsi ilə müəyyən edilmiş əsaslarla əmək müqaviləsinin ləğv edilməsi qadağandır. (Məcəllənin 79-cu maddəsinin 1-ci bəndinin 7-ci hissəsi)

55. Əmək müqaviləsi üzrə işçinin əsas vəzifələri aşağıdakılardır: a) əmək müqaviləsi ilə müəyyən edilmiş əmək funksiyasını vicdanla yerinə yetirmək; b) əmək intizamına və müəssisədaxili intizam qaydalarına əməl etmək; c) əməyin təhlükəsizliyi normalarına əməl etmək; ç) işəgötürənə vurduğu maddi ziyana görə məsuliyyət daşımaq; d) dövlət sirrini, habelə işəgötürənin kommersiya sirrini müəyyən olunmuş qaydada və şərtlərlə gizli saxlamaq; e) iş yoldaşlarının əmək hüquqlarını və qanuni mənafelərini pozmamaq; ə) fərdi, kollektiv əmək mübahisələri üzrə məhkəmə qərarlarını (qətnamələrini) yerinə yetirmək; f)əmək qanunvericiliyinin tələblərinə əməl etmək.

56. İlkin olaraq qeyd edilməlidir ki, Əmək Məcəlləsinin 79-cu maddəsi həmin normada istinad olunan imtiyazlara malik olan şəxsləri qoruyur. Lakin bu zaman nəzərə alınmalı hal ondan ibarətdir ki, işəgötürənin müəyyən etdiyi pozuntu mütləq işçiyə imtiyaz verən hallarla və şəxslərlə bağlı olsun, yəni baş vermiş pozuntu həmin şəxsə münasibətdə öhdəliklərin və vəzifələrin icrası zamanı yaransın. Bu işçini imtiyazlı edən sağlamlıq imkanı məhdud olan anaya qulluq, onun sosial, tibbi və digər təminat altına alınan hüquqlarının təmin edilməsi ilə bağlı olmalıdır.

57. İşçinin Əmək Məcəlləsinin 72-ci maddəsində nəzərdə tutulan əmək vəzifələrinin kobud formada pozulması halları ona imtiyaz verən hallarla bağlı olmadıqda və baş vermiş hadisə ilə səbəbli əlaqədə olmadığı halda həmin normanın genişləndirici formada təfsiri işçinin maraqları daxilində olsa da, işəgötürənin hüquqlarının əhəmiyyətli dərəcə pozulmasına və işçinin hüquqdan sui-istifadəsinə şərait yaratmış olur.

58. Azərbaycan Respublikasının Əmək Məcəlləsi işçilərlə işəgötürənlər arasında yaranan əmək münasibətlərini, habelə onlarla müvafiq dövlət hakimiyyəti orqanları, hüquqi şəxslər arasında həmin münasibətlərdən törəyən digər hüquq münasibətlərini tənzim edir. Əmək münasibətlərində tərəflərin hüquq bərabərliyinin təmin edilməsi, mənafelərinin haqqədalətlə və qanunun aliliyinin təmin olunması ilə qorunması, maddi, mənəvi, sosial, iqtisadi və digər həyati tələbatlarını ödəmək məqsədi ilə əqli, fiziki və maliyyə imkanlarından sərbəst istifadə etməsinin təmin edilməsi, əmək münasibətlərinin mülki hüquqi müqavilələrlə rəsmiləşdirilməsinin yolverilməzliyi əsasən əmək müqaviləsi (kontrakt) üzrə öhdəliklərinin icrasına hüquqi təminat yaradılması prinsiplərinə əsaslanır.

59. Məhkəmə kollegiyası qəbul edir ki, işçi və işəgötürən faktiki bərabər vəziyyətdə deyillər. Lakin bu o demək deyildir ki, işçinin əmək münasibətlərinin icrası zamanı vəzifələrini kobud şəkildə pozması halı yaranmışdırsa işəgötürən onunla əmək münasibətlərinə son verə bilməz. İşçinin zəif tərəf olması onun hüquqdan sui-istifadə etməsinə şərait yaratmamalıdır.

60. İşçinin iş yerində inzibati xətanın əlamətləri olan hərəkətlər etməsi nəticəsində onun təqsirliliyi müəyyən edildiyi halda işəgötürənin onunla əmək müqaviləsinin davam etdirilməsinə məcbur edilməsi əmək münasibətlərində tərəflərin hüquq bərabərliyinin təmin edilməsinə dair təməl prinsipinin pozulmasına səbəb olur.

61. Misal olaraq fərz edək ki, işçi 5 ay və ondan artıq olan müddətdə işə gələrək vəzifələrini yerinə yetirmir və ya əmək funksiyalarını yerinə yetirdiyi müəssisəyə əhəmiyyətli dərəcədə zərər vurur (hətta onu yandırır), digər cinayət, inzibati xətanın əlamətləri olan hərəkətə yol verir, təqsirli olduğu sübuta yetirilir və nəticədə o, məhkum edilir və ya inzibati tənbeh tətbiq edilir (baxılan iş üzrə olduğu kimi). Bu halların baş verməsi və sübut olması vəziyyətində işçinin Əmək Məcəlləsinin 79-cu maddəsinə istinadla qoruma altında olmasına əsaslanaraq işəgötürənə onunla əmək münasibətlərinə son verilməsini qadağan etmək, işçinin hüquqlarından sui-istifadəsinə əhəmiyyətli şərait yaradaraq belə halların təkrar baş verməsi hallarına rəvac verir, nəticədə işəgötürənin mənafeyinə əhəmiyyətli dərəcədə zərər vurur, ümumiyyətlə əmək və iş şəraitinin pozulmasına şərait yaratmış olur ki, bu da mövcud hüquq münasibətlərində bərabər olmayan bir mühit yaranması ilə nəticələnir.

62. Hüquqi müəyyənlik prinsipi hüququn aliliyinin əsas aspektlərindən biri kimi çıxış edir. Hər bir qanunun və ya onun hər hansı bir müddəasının hüquqi müəyyənlik prinsipinə cavab verməsi olduqca vacibdir. Bunun təmin edilməsi üçün hüquq normaları birmənalı və aydın olmalıdır. Bu, öz növbəsində hər kəsə onun hüquq və azadlıqlarının müdafiə ediləcəyinə, hüquq tətbiq edənin hərəkətlərinin isə proqnozlaşdırıla bilən olacağına əminlik verməlidir. Bunun əksi, yəni hüquq normasının məzmununun qeyri-müəyyənliyi hüquq tətbiq etmədə məhdudiyyətsiz mülahizə üçün imkan yaratmaqla, hər bir normativ hüquqi aktın əsasında dayanmalı olan qanunun aliliyi, qanun və məhkəmə qarşısında bərabərlik və ədalət prinsiplərinin pozulmasına gətirib çıxara bilər (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsasları haqqında" Azərbaycan

Respublikası Qanununun 21-ci maddəsinin və Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 180.3-cü maddəsinin müddəalarının şərh edilməsinə dair" 2008-ci il 22 sentyabr və "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 59.1.9 və 60-cı maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair" 2012-ci il 2 aprel tarixli Qərarları)

63. Konstitusiya Məhkəməsi Plenumunun X.Mirzəliyevin şikayəti üzrə 2021-ci il 17 sentyabr tarixli Qərarında qeyd edilmişdir ki, vicdanlılıq institutu mülki hüququn təməl prinsiplərindən olmaqla dürüstlük kimi əxlaqi və mənəvi keyfiyyətləri özündə ehtiva edən mühüm tərkib elementinə malikdir. Mülki hüquqda şəxslərin vicdanlı olduğu, yəni mülki hüquq münasibətlərində hüquq və vəzifələrini həyata keçirərkən subyektlərin hər birinin vicdanlı olması ehtimal olunur. Vicdanlılığın qorunması mülki dövriyyəni təmin etmək məqsədi daşımaqla yanaşı, həm də subyektlərin mənafelərinin qorunmasına xidmət edir

64. Mülki Məcəllənin 16.1-ci maddəsində isə müəyyən edilmişdir ki, fiziki və hüquqi şəxslərin yalnız və yalnız başqa şəxsə ziyan vurmaq niyyəti ilə həyata keçirdikləri hərəkətlərə, habelə hüquqdan digər formalarda sui-istifadə edilməsinə yol verilmir.

65. Bu müddəa digər şəxsə zərər vura biləcək ziddiyyətli davranışı qadağan edir və şəxsin üzərinə ardıcıl hüquqa uyğun rəftar etmək öhdəliyi qoyur.

66. Konstitusiya Məhkəməsinin istinad olunan mövqeyinə əsaslanaraq belə nəticəyə gəlmək olar ki, bir normanın tətbiqi digər normanı tətbiqini ümumiyyətlə mümkünsüz və əhəmiyyətsiz edə bilməz. Yəni Əmək Məcəlləsinin 79-cu maddəsi işçinin qəsdən və ya səhlənkarlıqla, etinasızlıqla əmək funksiyasını, vəzifə borcunu (öhdəliklərini) yerinə yetirmədiyinə görə müvafiq iş yerində işin, istehsalın, əmək və icra intizamının normal ahənginin pozulması və ya mülkiyyətçinin, işəgötürənin, habelə əmək kollektivinin (onun ayrıayrı üzvlərinin) hüquqlarına və qanunla qorunan mənafelərinə hər hansı formada ziyan dəyməsi ilə nəticələnən hərəkətlərə yol verilməsi zamanı 70-ci maddənin ç bəndinin tətbiqi məhdudlaşdırıla bilməz.

67. Hüquq kolliziyalarının mövcudluğu istənilən qanunvericilik sisteminin mürəkkəbliyi və çoxşaxəliliyi ilə izah edilir. Məhz buna görə uzun illər ərzində müxtəlif ölkələrin hüquq təcrübəsində hüquq kolliziyalarını həll edən bir sıra prinsiplər formalaşmışdır. Bu prinsiplərə ilk növbədə iyerarxiya (Lex superior derogat legi inferiori), zaman (Lex posterior derogat legi priori) və məzmun (Lex specialis derogat legi generali) prinsiplərini aid etmək olar. Fərqli hüquqi qüvvəyə malik olan hüquqi aktlar arasında kolliziyalar iyerarxiya prinsipi ilə, eyni hüquqi qüvvəyə malik olan normativ hüquqi aktların normaları arasında kolliziyalar isə digər iki prinsipin tətbiqi ilə aradan qaldırılır (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 228.5-ci və Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 30.4-cü maddələrinin şərh edilməsinə dair" 2013-cü il 8 oktyabr tarixli Qərarı).

68. Həmin prinsiplərin təyinatı hüquq tətbiqetmə orqanları, xüsusən məhkəmələr tərəfindən hüququn şərh edilməsi zamanı yaranan kolliziyaların aradan qaldırılmasından ibarətdir.

69. Qeyd edilməlidir ki, konkret iş üzrə faktiki halların araşdırılması və qanunvericiliyin təfsiri əsasında tətbiq olunmalı olan normaların seçiminin, ilk növbədə, Konstitusiyanın 147-ci maddəsinin II hissəsinin və 149-cu maddəsinin müvafiq müddəalarına uyğun həyata keçirilməsi və iyerarxiya prinsipinin tətbiq edilməsi ümumi yurisdiksiyalı məhkəmələrin hüquq tətbiq edici fəaliyyətinin təzahürü kimi qəbul edilməlidir.

70. Yaranmış vəziyyətə görə eyni hüquqi qüvvəyə malik olan normativ hüquqi aktların normaları arasında ziddiyyət yarandıqda məhkəmə bu məsələni məzmun və zaman prinsipinə uyğun olaraq müstəqil həll etməlidir.

71. Bu baxımdan məhkəmə kollegiyası belə qənaətə gəlir ki, işçinin əmək funksiyasının və vəzifələrinin icrası zamanı Əmək Məcəlləsinin 72-ci maddəsində göstərilən kobud pozuntulara yol verməsi vəziyyətində işəgötürən əmək münasibətlərinə son qoymaq hüququna

malikdir. Lakin bu zaman baş vermiş hadisə ilə qoruma altına alınmış hallar arasında səbəbli əlaqənin mövcudluğu mütləq müəyyən olunmalıdır. Belə səbəbli əlaqənin mövcudluğunun sübut edilməməsi halında Əmək Məcəlləsinin 79-cu maddəsinə istinad edilməklə işəgötürənin hüquqlarının məhdudlaşdırılması əmək münasibətlərində bərabər olmayan mühit yaratmış olur. Baxılan iş üzrə isə iddiaçının iş yerində qanunla qadağan olunan hallara yol verməsinin (26 halda ona müraciət edən şəxslərin etibarından sui-istifadə etməklə aldatma yolu ilə cəmi 1300 manat məbləğində pulun ələ keçirilməsi), əlilliyi müəyyən edilmiş ailə üzvünə qulluq etməsi ilə hər hansı bağlılığı yoxdur. Belə olan halda isə apellyasiya instansiya məhkəməsinin iddiaçını qoruma altında olan şəxs kimi qiymətləndirərək onun iddiasını qismən təmin edərək əvvəlki vəzifəsinə bərpa edilməsinə dair mövqeyi bu qərarın əsaslandırıcı hissəsində istinad olunanlar baxımından ədalətli və qanuni hesab edilə bilməz. Apellyasiya instansiyası məhkəməsi isə qeyd olunanları nəzərə almamış, göstərilən maddi hüquq normalarını düzgün təfsir etməmiş, iş üzrə düzgün olmayan qətnamə çıxarmışdır. Halbuki, məhkəmənin qətnaməsi qanuni, ədalətli və əsaslı olmalıdır.

72. Maddi və prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq və təfsir olunmaması apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv edilməsi üçün əsasdır. Kassasiya məhkəməsi işə baxarkən apellyasiya instansiyası məhkəməsinin qətnaməsini tamamilə ləğv edib apellyasiya instansiyası məhkəməsində müəyyən edilmiş hallar və sübutlar əsasında yeni qərar qəbul edə bilər.

73. Ona görə də qətnamə ləğv edilməli, apellyasiya instansiyası məhkəməsində müəyyən edilmiş hallar və sübutlar əsasında yeni qərar çıxarılmalı, yuxarıda şərh olunan hüquqi mövqelərə əsasən iddia rədd edilməlidir.

74. Göstərilənlərə əsasən və MPM-in 416, 417 və 419-cu maddələrini rəhbər tutaraq, Məhkəmə kollegiyası

Qərara aldı:

Kassasiya şikayəti təmin edilsin.

Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)-4853/2023 nömrəli iş üzrə 20 noyabr 2023-cü il tarixli qətnaməsi ləğv edilsin, iş üzrə yeni qərar çıxarılsın.

İddia təmin edilməsin.

Qərar qətidir və qəbul edildiyi andan qüvvəyə minir

54. 2(102)-1335/2024 nömrəli, 2024-cü il 21 may tarixli qərar - 65 yaşına çatmış işçilərin həmin müəssisədə çalışma müddətinin uzadılması ilə bağlı tərəflərin hüquq və vəzifələri

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: 65 yaşına çatmış işçilərin həmin müəssisədə çalışma müddətinin uzadılması ilə bağlı tərəflərin hüquq və vəzifələri.

İddiaçı, 1 sentyabr 2003-cü il tarixdən uşaq bağçasının müdiri vəzifəsində işləyib, 9 iyun 2020-ci il tarixdə 65 yaşı tamam olduğu üçün onunla çalışma müddəti işəgötürənin əmrləri ilə hər dəfə 1 il olmaqla 31.12.2022-ci il tarixədək uzadılıb. İşəgötürənin 11 yanvar 2023-cü il tarixli əmri ilə iddiaçı ilə bağlanmış əmək müqaviləsinə xitam verilib. İddiaçı həmin əmrin ləğv edilməsini; əvvəlki vəzifəsinə bərpa olunmasını və məcburi işburaxma günləri üçün əmək haqqının ödənilməsini xahiş etmişdir.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

İlk növbədə əmək müqaviləsi üzrə tərəflərin hüquq bərabərliyi prinsipinə əməl etməklə onların qarşılıqlı razılıq əsasında dövlət büdcəsindən maliyyələşən müəssisələrdə 65 yaşına çatmış işçilərin həmin müəssisədə çalışma müddətinin işəgötürən tərəfindən hər dəfə 1 ildən çox olmayaraq uzadılmasının mümkünlüyünü və bu müddət qurtardıqdan sonra ona xitam verilməsini tənzimləyən Əmək Məcəlləsinin 10-1.1, 10-1.2-ci maddələri; habelə 70-ci maddəsinin e) bəndi ilə, həmin Məcəllənin 68-ci maddəsinin 2-ci hissəsinin b) bəndi və 73-cü maddəsinin 1-ci hissəsi əlaqəli şəkildə təhlil edilməlidir.

Kassasiya instansiyası məhkəməsi hesab edir ki, apellyasiya instansiyası məhkəməsi, Əmək Məcəlləsinin 10-1-ci maddəsinin təfsirində, habelə dövlət büdcəsindən maliyyələşən sözügedən uşaq bağçasında çalışmanın son yaş həddinə çatmış iddiaçının həmin bağçada çalışma müddətinin işəgötürən tərəfindən hər dəfə 1 ildən çox olmayaraq uzadılmasını müddətli əmək müqaviləsi kimi qiymətləndirməklə və Əmək Məcəlləsinin "müddətli əmək müqaviləsinin müddətinin qurtarmasını" tənzimləyən 68-ci maddəsinin 2-ci hissəsinin b) bəndini, habelə "müddətli əmək müqaviləsinə xitam verilməsi qaydası"-nı tənzimləyən 73-cü maddəsinin 1-ci hissəsini hazırkı əmək mübahisəsinə tətbiq etməkdə səhvə yol verib.

Əmək Məcəlləsinin 10-1.2-ci maddəsində dövlət büdcəsindən maliyyələşən müəssisənin 65 yaşına çatmış işçisinin həmin müəssisədə çalışma müddətinin hər dəfə 1 ilədək, 5 ildən artıq olmamaqla uzadılması üçün konkret meyarlar müəyyən edilməsə də, belə meyarlara işçinin tam əmək qabiliyyətinə, dərin nəzəri biliyə, böyük iş və həyat təcrübəsinə malik olması, əmək funksiyasını yüksək peşəkarlıq səviyyəsində yerinə yetirməsi, həmin müəssisədə və tutduğu vəzifədə uzun illər qüsursuz işləməsi, mədəni, əxlaqi keyfiyyətləri və sair aid edilə bilər.

Kassasiya instansiyası məhkəməsi qeyd edir ki, işəgötürən 68 yaşına çatmış iddiaçının bağçada çalışma müddətini daha 1 ilədək uzatmaqdan imtina edərkən, əmrdə formal olaraq Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin b) bəndinə istinad etsə də, əslində tərəflər arasındakı əmək münasibətlərinə iddiaçı müəssisədə çalışmanın son yaş həddinə çatdığı üçün xitam verilib. Yəni, işəgötürənin sözügedən əmrinin hüquqi əsasını Əmək Məcəlləsinin 70-ci maddəsinin e) bəndi təşkil edir.

Kassasiya instansiyası məhkəməsi həmçinin hesab edir ki, apellyasiya instansiyası məhkəməsinin gəldiyi nəticə Əmək Məcəlləsinin 10-1-ci maddəsinin tələblərinə də ziddir. Çünki məhkəmənin hüquqi mövqeyi ilə razılaşsaq belə nəticəyə gəlmək olar ki, işəgötürən tərəfindən işçinin çalışma müddəti hər dəfə 1 ildən çox olmayaraq 70 yaşınadək uzadıldıqdan sonra da işəgötürən bir həftə ərzində müqaviləyə xitam verilməsini tələb etməmişsə, həmin

müqavilə əvvəl müəyyən olunmuş müddətə, yəni işçinin 71 yaşınadək də uzadıla bilər. Halbuki, işçinin çalışma müddətinin 71 yaşınadək uzadılması qanunla qadağandır, yəni dövlət büdcəsindən maliyyələşən müəssisələrdə çalışmanın son yaş həddi 65-dir və yuxarıda göstərilən meyarlar olduqda isə işəgötürən işçinin çalışma müddətini hər dəfə 1 ildən çox olmayaraq, maksimum 5 ilədək - 70 yaşınadək uzada bilər.

Ona görə də tərəflər arasında bağlanmış əmək müqaviləsinin müddətinin bitdiyi 31 dekabr 2022-ci il tarixdən sonrakı bir həftə ərzində işəgötürənin həmin müqaviləyə xitam verməsini tələb etməməsi ilə (əmək müqaviləsinə 11 yanvar 2023-cü il tarixdə xitam verilib) əmək müqaviləsinin eyni müddətə uzadılmış hesab edilməsinə dair apellyasiya instansiyası məhkəməsinin gəldiyi nəticə ilə razılaşmaq olmaz.

İşin yuxarıda müəyyən olunmuş hallarına, habelə apellyasiya və kassasiya şikayətlərinin dəlillərinə görə işəgötürənin 11 yanvar 2023-cü il tarixli əmri ilə iddiaçı ilə bağlanmış əmək müqaviləsinə 11 yanvar 2023-cü il tarixdən xitam verilərkən, iddiaçı faktiki olaraq əmək funksiyasını və əmək müqaviləsi üzrə öhdəliklərini yerinə yetirməmiş, iş yerində olmamış, yəni işəgötürənin 20 sentyabr 2022-ci il tarixli əmrindən sonra tərəflər arasında ümumiyyətlə əmək münasibətləri əmələ gəlməmişdir. Belə olan halda apellyasiya instansiyası məhkəməsinin gəldiyi nəticə "müddətli əmək müqaviləsinə xitam verilməsini tənzimləyən" Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin b) bəndinin tələblərinə də uyğun hesab edilə bilməz.

Hazırkı halda tərəflər arasındakı əmək münasibətlərinə əslində işəgötürənin 20 sentyabr 2022-ci il tarixli əmri ilə xitam verilib. Bu tarixdən sonra iddiaçı, ümumiyyətlə, iş yerində olmayıb və əmək müqaviləsi üzrə öhdəliklərini yerinə yetirməyib və sonradan işəgötürənin digər 30 dekabr 2022-ci il tarixli əmri ilə sözügedən əmr ləğv olunaraq iddiaçı əvvəlki vəzifəsinə bərpa olunsa da, tərəflər arasında faktiki əmək münasibətləri əmələ gəlməyib. Belə olan halda Əmək Məcəlləsinin 73-cü maddəsinin 1-ci hissəsi hazırkı əmək mübahisəsinə tətbiq olunsa belə əmək müqaviləsində göstərilən müddət qurtardıqdan sonra tərəflər arasında əmək münasibətləri faktiki davam etmədiyi üçün işəgötürənin müddət bitdikdən sonrakı bir həftə ərzində deyil, 11 yanvar 2023-cü il tarixdə müqaviləyə xitam verilməsini tələb etməsi, həmin müqavilənin əvvəl müəyyən olunmuş müddətə uzadılmış hesab olunması nəticəsinə gəlməyə əsas vermir.

Bu baxımdan kassasiya instansiyası məhkəməsi cavabdehin kassasiya şikayətinin dəlilləri ilə qismən razılaşır və hesab edir ki, işəgötürən iddiaçı ilə əmək münasibətini davam etdirməmək barədə iradəsini açıq-aşkar ifadə etdiyindən, bu iradə ifadəsi əlavə heç bir şərtdən asılı olmadan əmək müqaviləsinə xitam verilməsi üçün əsasdır. Ona görə də artıq 68 yaşına çatmış iddiaçının sözügedən bağçada çalışma müddəti 31 dekabr 2022-ci il tarixədək uzadıldığından və bundan sonra tərəflər arasında faktiki əmək münasibətləri əmələ gəlmədiyindən, işəgötürənin iradəsinə zidd olaraq iddiaçının əvvəlki işinə bərpa olunması, onunla yeni əmək müqaviləsinin bağlanması və işə bərpa olunduğu bütün müddət üçün ona məcburi iş buraxma günləri üçün əmək haqqının ödənilməsi də düzgün yanaşma olmaz və bu yanaşma açıq-aşkar qeyri-mütənasib olmaqla, iddiaçının haqqı çatmayanları əldə etməsinə və nəticədə işəgötürənin ağır iqtisadi sanksiyaya məruz qalmasına səbəb olar.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-1335/2024

21.05.2024-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi
Mülki kollegiyasının

İddiaçının cavabdeh Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə qarşı iş üzrə

Q Ə R A R I

(Açar sözlər: işə bərpa və məcburi iş buraxma günləri üçün əmək haqqının ödənilməsi)

Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının hakimləri Əhmədov Əhməd Abbas oğlu (məruzəçi), Həsənov Vüqar Təvəkgül oğlu və Şəfiyev İspəndiyar Əsəd oğlundan ibarət tərkibdə,

Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 11 dekabr 2023-cü il tarixli, 2(103)6047/2023 saylı qətnaməsindən cavabdeh Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən verilmiş kassasiya şikayəti üzrə işə 21 may 2024-cü il tarixdə Ali Məhkəmənin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları:

1. 01 sentyabr 2003-cü il tarixdə Bakı şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsinin rəisinin əmrinə əsasən İddiaçı Ünvan 1-də yerləşən Uşaq Bağçasının müdiri vəzifəsinə qəbul edilmişdir.
2. 05 iyun 2020-ci il tarixdə Bakı şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsinin rəisinin *** saylı əmrinə əsasən, Ünvan 1-də yerləşən Körpələr Evi-Uşaq Bağçasının müdiri İddiaçının ** **** 2020-ci il tarixdə 65 yaşı tamam olduğu üçün onunla Əmək Məcəlləsinin 10-1.2-ci maddəsinə əsasən 1 il müddətinə əmək müqaviləsi bağlanmışdır.
3. 07 iyun 2021-ci il tarixdə Bakı şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsinin rəisinin *** saylı əmrinə əsasən Ünvan 1-də yerləşən Körpələr Evi-Uşaq Bağçasının müdiri İddiaçının ** **** 2021-ci il tarixdə 66 yaşı tamam olduğu üçün onunla Əmək Məcəlləsinin 10-1.2-ci maddəsinə əsasən 1 il müddətinə əmək müqaviləsi bağlanmışdır.
4. 07 iyul 2022-ci il tarixdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin k-660 saylı əmrinə əsasən Ünvan 1-də yerləşən Körpələr Evi-Uşaq Bağçasının müdiri İddiaçı ilə bağlanmış 07 iyul 2022-ci il tarixli əmək müqaviləsinin müddəti 31 dekabr 2022-ci il tarixədək uzadılmışdır.
5. 15 sentyabr 2022-ci il tarixdə İddiaçı Bakı şəhər Baş Təhsil İdarəsinin müdirinin adına ərizə yazaraq öz arzusu ilə işdən azad olunmasını xahiş etmişdir.
6. 19 sentyabr 2022-ci il tarixdə İddiaçı təkrar ərizə ilə Bakı şəhər Baş Təhsil İdarəsinin müdirinə və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirinə müraciət edərək, ilkin ərizəsinin etibarsız sayılmasını və işinə davam etmək istəməsini xahiş etmişdir.
7. 20 sentyabr 2022-ci il tarixdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirinin k**** saylı əmrinə əsasən İddiaçı ilə bağlanmış əmək müqaviləsinə Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin "a" bəndi üzrə öz ərizəsinə əsasən xitam verilmişdir.
8. 30 dekabr 2022-ci il tarixdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirinin k**** saylı əmrinə əsasən İddiaçı ilə bağlanmış əmək müqaviləsinə xitam verilməsinə dair işəgötürənin 20 sentyabr 2022-ci il tarixli, k-**** saylı əmri ləğv edilmiş və İddiaçı Ünvan 1-də yerləşən Körpələr EviUşaq Bağçasının müdiri vəzifəsinə bərpa edilmişdir.
9. 11 yanvar 2023-cü il tarixdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirinin ****/*-*-**k/****/1 saylı əmrinə əsasən Ünvan 1-də yerləşən Körpələr Evi-Uşaq Bağçasının müdiri İddiaçı 11 yanvar 2023-cü il tarixdən tutduğu vəzifəsindən azad edilmiş və onunla bağlanmış əmək müqaviləsinə xitam verilmişdir.

İş üzrə qəbul edilmiş məhkəmə aktları:

a)Birinci instansiya məhkəməsində icraat

10. İddiaçı cavabdeh Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə (bundan sonra cavabdehə) qarşı "əmrin ləğv edilməsi, işə bərpa, məcburi iş buraxmaya görə əmək haqqı və mənəvi ziyana görə kompensasiya tutulması" barədə iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, onunla bağlanmış əmək müqaviləsinin müddətinin başa çatması əsasına görə işdən azad edilməsinə dair işəgötürənin 11 yanvar 2023-cü il tarixli, ****/*-*-**k/****/1 saylı əmrinin ləğv edilərək əvvəlki vəzifəsinə bərpa edilməsi, məcburi iş buraxma müddəti üçün əmək haqqının ödənilməsi, qanunsuz işdən azad edilmə ilə əlaqədar çəkdiyi xərclərin ödənilməsi, cavabdehin əməkdaşları X1 və X2 tərəfindən şantaj, hədə qorxu və təhdidə məruz qalması ilə əlaqədar olaraq öz iradəsi əleyhinə işdən azad edilməsi barədə ərizə yazmağa məcbur edilməsi, işə bərpa edilməsi haqqında işəgötürən tərəfindən əmr verilsə də, işə faktiki

bərpa edilmədən əsassız bəhanələr gətirilərək təkrar şəkildə ayrı-seçkiliyə məruz qalmaqla əmək müqaviləsinə xitam verilməsi nəticəsində işgüzar nüfuzuna ciddi xələl gətirməsi ilə vurulmuş mənəvi ziyana görə 50.000 manat kompensasiya ödənilməsi barədə qətnamə, habelə Bakı şəhər Baş Təhsil İdarəsinin müdiri X3 və Təhsil Nazirliyinin əməkdaşları X2 və X1 tərəfindən şantaj və təhdidə məruz qoymaqla onu öz iradəsi əleyhinə işdən azad edilmə barədə ərizə yazmağa məcbur etmiş şəxslərin qanunsuz hərəkətləri barəsində xüsusi qərardad çıxarılmasını xahiş etmişdir.

11. İddia ərizəsini onunla əsaslandırmışdır ki, iddiaçı 15 sentyabr 2022-ci il tarixdə Bakı şəhər Baş Təhsil İdarəsinə çağırılmış, özlərini daxili nəzarət sektorunun əməkdaşları kimi təqdim etmiş X1 və X2 adlı şəxslər tərəfindən barəsində rüşvət görüntüləri olması, görüntülərin sosial media vasitəsilə yaydırılacağı, üzünə adam qoyulacağı, xidməti fəaliyyətinin yoxlatdırılacağı, ləkələyici məlumatlarla işdən azad olunacağı ilə hədələnmiş, şantajla təhdid edilməklə öz iradəsi əleyhinə 20 sentyabr 2022ci il tarixdə işdən azad edilməsi barədə cavabdehə ərizə yazmağa məcbur edilmişdir. Məlum olmuşdur ki, bu hədə-qorxu və şantajla cavabdehin adına işdən azad edilməyə razılıq vermə tələbinin sifarişçisi X3-dür. X1 və X2 adlı əməkdaşlar bu məlumatı şəxsən iddiaçıya bildirmişlər. 19 sentyabr 2022-ci il tarixdə iddiaçı təkrar ərizə ilə Bakı şəhər Baş Təhsil İdarəsinin müdirinə və cavabdehə müraciət edərək ilkin ərizəsinin etibarsız sayılması və işinə davam etmək istəməsini xahiş etmişdir.

İlkin ərizəsinin etibarsız sayılması haqqında iddiaçının həmin ərizələri Bakı şəhər Baş Təhsil İdarəsində və cavabdehdə qeydiyyata alınsa da, onun Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin "a" bəndinə görə öz ərizəsinə əsasən 20 sentyabr 2022-ci il tarixdən əmək müqaviləsinə xitam verilməsi barədə cavabdeh tərəfindən 20 sentyabr 2022-ci il tarixli, K-**** saylı əmr imzalanmışdır. İddiaçı ilə bağlanmış əmək müqaviləsinə xitam verilməsi barədə 20 sentyabr 2022-ci il tarixli, K-**** saylı əmrin ləğv edilməsi, işə bərpa və məcburi işburaxma müddəti üçün əmək haqqının və mənəvi ziyana görə kompensasiyanın ödənilməsi və hədə qorxu ilə işdən çıxmağa məcbur etməni həyata keçirmiş təhsil işçiləri barəsində xüsusi qərar çıxarılmasını xahiş etmişdir. 30 dekabr 2022ci il tarixdə məhkəmə hazırlıq iclasında cavabdehin nümayəndəsi tərəfindən iddiaçının əmək müqaviləsinə xitam verilməsi haqqında əmrin ləğv edilməsi barədə işəgötürənin əmr imzaladığı bildirilmiş və 30 dekabr 2022-ci il tarixli, K-**** saylı əmr məhkəməyə təqdim edilmişdir. İşəgötürənin 30 dekabr 2022-ci il tarixli, K-**** saylı əmrinə əsasən iddiaçının əmək müqaviləsinə xitam verilməsi haqqında 20 sentyabr 2022-ci il tarixli, K-**** saylı əmr ləğv edilmiş, o, Ünvan 1-dəki Körpələr Evi-Uşaq Bağçasının müdiri vəzifəsinə bərpa edilmiş, bu əmrdən irəli gələn zəruri tədbirlərin görülməsi insan resursları şöbəsinə və Bakı şəhər Baş Təhsil İdarəsinə tapşırılmışdır. Cavabdehin həmin əmri nəzərə alınaraq iddiaçı tərəfindən iddia ərizəsi və ona əlavə edilmiş sənədlərin müvafiq düzəlişlər edilməsi üçün geri qaytarılması haqqında məhkəməyə ərizə təqdim olunmuş və məhkəmənin 30 dekabr 2022-ci il tarixli qərardadı ilə iddia ərizəsi və ona əlavə edilmiş sənədlərin geri qaytarılması qərara alınmışdır. Belə ki işəgötürənin 30 dekabr 2022-ci il tarixli əmrində iddiaçının işə bərpa edilməsi nəzərdə tutulsa da, o, Bakı şəhər Baş Təhsil İdarəsinə dəvət edilməmiş, əmrlə tanış edilməmiş, təhvil-təslim aparılmamış, vəzifəsinə bərpa edilməmişdir. Əksinə, məlum olmuşdur ki, Bakı şəhər Baş Təhsil İdarəsinin müdiri X3 Ünvan 1-dəki bağçaya müdir vəzifəsinə öz yaxın adamını təyin etmək istədiyi üçün işə bərpa haqqında cavabdehin əmrini icra etmədən iddiaçının əmək müqaviləsinin müddətinin başa çatması ilə əlaqədar əmək müqaviləsinə xitam verilməsi haqqındada cavabdehə təqdimat vermiş və cavabdeh tərəfindən 11 yanvar 2023-cü il tarixdə iddiaçı ilə əmək müqaviləsinin müddətinin başa çatması ilə əlaqədar əmək müqaviləsinə xitam verilməsi haqqında Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin "b" bəndinə əsasən 11 yanvar 2023-cü il tarixli, ** saylı əmr verilmişdir. Hətta verilmiş həmin əmr barədə 28 yanvar tarixədək iddiaçıya məlumat verilməmiş, cavabdehin çağrı mərkəzinə və Bakı şəhər Baş Təhsil İdarəsinə edilmiş müraciətləri cavabsız qalmışdır. Beləliklə də iddiaçı işə bərpa edilməsi barədə cavabdehin 30 dekabr 2022-ci il tarixli, K-**** saylı əmri formal xarakter daşımış və icra edilməmişdir. İşəgötürənin sözügedən əmri Bakı

şəhər Baş Təhsil İdarəsindən şikayət etdiyi üçün iddiaçını cəzalandırmaq, iztirab vermək və ona zərbə vurmaq məqsədi daşımışdır. İşəgötürən tərəfindən imzalanmış 11 yanvar 2023-cü il tarixli, ** saylı əmr qanunsuz və əsassızdır. İddiaçının işə bərpa edilməsi barədə cavabdehin 30 dekabr 2022-ci il tarixli, K-**** saylı əmri icra edilməmiş, o, işə bərpa barədə əmrlə tanış edilməmiş, faktiki olaraq işinə bərpa edilməmiş, təhvil-təslim aparılmamış, hətta iş yerinə çağırılmamışdır. Halbuki Əmək Məcəlləsinin tələbinə əsasən iddiaçı ilə bağlanmış əmək müqaviləsinin müddətinin başa çatması ilə əlaqədar olaraq əmək müqaviləsinə xitam veriləcəyi barədə xəbərdar edilməli olduğu halda qanunun bu tələbinə də əməl edilməmişdir. İddiaçı ilə bağlanmış əmək müqaviləsinə xitam verilməsi qanunsuz olduğundan cavabdehin 30 dekabr 2022-ci il tarixli, K-**** saylı əmri ilə o, əvvəlki vəzifəsinə bərpa edilmişdir. Bu baxımdan işə bərpa barədə sözügedən əmr icra edilmədən 10 gündən sonra iddiaçı işəgötürənin əmri ilə işdən azad edilə bilməzdi. Belə ki iddiaçı 38 illik pedaqoji staja malik, son 20 il ərzində isə Ünvan 1-dəki bağçanın müdiri vəzifəsində peşəkarcasına qüsursuz işləmiş, heç vaxt intizam məsuliyyətinə cəlb edilməmiş, əksinə dəfələrlə mükafatlandırılmış və qanunsuz olaraq işdən azad edilməsi cavabdehin 30 dekabr 2022-ci il tarixli əmri ilə etiraf olunmuş, iddiaçı cavabdehin sistemində müqavilə müddəti bitmiş yüzlərlə işçidən fərq qoyularaq əmək müqaviləsinə işəgötürən tərəfindən xitam verilməsi əmək münasibətlərində ayrı seçkilik sayıldığından qanuni və əsaslı sayıla bilməz. İddiaçının əvvəlki işinə bərpa edilməsi barədə cavabdehin 30 dekabr 2022-ci il tarixli, K-**** saylı əmri cavabdehin əməkdaşları X1 və X2 tərəfindən iddiaçıya hədə-qorxu gəlinməsinin və şantajla təhdid edilməklə işdən azad edilməsi barədə cavabdehin adına ərizə yazmağa məcbur edilməsinin etiraf edilməsi deməkdir. İddiaçı cavabdehin işçiləri tərəfindən şantaj və təhdidə məruz qalaraq işdən azad edilməyə məruz qaldığından, işə bərpa edilməsi haqda cavabdeh tərəfindən əmr verilməsinə baxmayaraq faktiki olaraq əmr icra edilməmiş və 11 gündən sonra qanunsuz şəkildə ayrı seçkiliyə məruz qalaraq təkrarən işdən azad edildiyindən, işgüzar nüfuzuna xələl gəlmiş və mənəvi ziyana məruz qalmışdır.

12. Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin 03 iyul 2023-cü il tarixli, 2(005)1532/2023 saylı qətnaməsi ilə (hakim M.Əfəndizadə) iddia qismən təmin edilərək, iddiaçının əmək müqaviləsinə müddətin başa çatması əsasına görə xitam verilməsinə dair işəgötürənin 11 yanvar 2023-cü il tarixli, K-** saylı əmrinin ləğv edilməsi, iddiaçının Ünvan 1-dəki uşaq bağçasının müdiri vəzifəsinə bərpa edilməsi, habelə 11 yanvar 2023-cü il tarixdən işə bərpa olunduğu günədək məcburi iş buraxma müddəti üçün əmək haqqının hesablanaraq iddiaçıya ödənilməsi və qalan hissədə iddianın rədd olunması qət edilmişdir.

13. Məhkəmə gəldiyi nəticəni onunla əsaslandırmışdır ki, cavabdeh tərəfindən iddiaçının əmək müqaviləsinin müddətinin bitməsi əsası ilə xitam verilməsinə baxmayaraq məhkəməyə ümumiyyətlə iddiaçı ilə bağlanmış hər hansı müqavilə təqdim edilməmişdir. Cavabdehin nümayəndəsi öz izahatında iddiaçının əmək müqaviləsinin onun şəxsi işində olmaması, bunun səbəbini isə körpələr evi-uşaq bağçasının əvvəllər Bakı şəhər İcra Hakimiyyətinin tabeliyində olması, onlar tərəfindən iddiaçıya məxsus əmək müqavilərinin cavabdehə təhvil verilməməsi ilə əlaqələndirmişdir. Həmçinin məhkəməyə bu məsələ ilə əlaqədar müvafiq struktur qurumlar arasında aparılmış müraciətlər təqdim edilmişdir.

14. Məhkəmə qeyd etmişdir ki, cavabdeh inzibati orqan olmaqla iqtisadi cəhətdən daha güclüdür, əmək münasibətlərində isə işəgötürən işçiyə münasibətdə daha çox imkanlara, o cümlədən inzibati imkana malikdir. Bu baxımdan işəgötürənin inzibati idarəçiliyi ilə bağlı halları sübut etmə yükünün işçinin üzərinə qoyulması düz deyil.

15. Məhkəmənin sorğusu əsasında təqdim edilmiş iddiaçının "Əmək və məşğulluq" alt sisteminə daxil edilmiş əmək müqaviləsi barədə bildirişlərdən görünür ki, əmək müqaviləsinə xitam verilməsi barədə işəgötürənin 20 sentyabr 2022-ci il tarixli əmri ilə bağlı bildiriş daxil edilsə də, həmin əmrin sonradan ləğv edilməsi, iddiaçının işə bərpa edilməsi barədə bildiriş, o cümlədən, iddiaçının müddətli əmək müqaviləsinin vaxtının bitməsi əsası ilə əmək müqaviləsinə xitam verilməsi barədə bildiriş elektron sistemə daxil edilməmişdir. Halbuki əmək qanunvericiliyinin tələbinə əsasən əmək müqaviləsinə xitam verilməsi ilə bağlı elektron

informasiya sisteminə gücləndirilmiş elektron imza vasitəsi ilə daxil edilmiş əmək müqaviləsi bildirişinin həmin elektron informasiya sistemində qeydiyyata alınmasından və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilməsindən sonra hüquqi qüvvəyə minir. Göründüyü kimi müqavilə müddəti bitdikdən sonrakı bir həftə ərzində cavabdeh tərəfindən müqaviləyə xitam verilməsi ilə işəgötürən tərəfindən iradə ifadəsi bildirilmədiyindən, eyni zamanda, əmək müqaviləsi bildirişi elektron informasiya sisteminə yerləşdirilmədiyindən, əmək müqaviləsinə xitam verilməsi barədə əmr hüquqi qüvvəyə minməmiş, əmək münasibətləri davam etdirilmişdir. Bununla da tərəflər arasında bağlanmış əmək müqaviləsi əvvəl müəyyən olunmuş müddətə uzadılmış hesab olunmuşdur ki, həmin müqavilənin qüvvədə olduğu müddətdə cavabdeh tərəfindən əmək müqaviləsinə müqavilənin müddətinin bitməsi əsası ilə xitam verilməsi qanunsuz olmuşdur.

16. Məhkəmə həmçinin qeyd etmişdir ki, cavabdehin nümayəndəsinin məhkəmə iclasında izahatları və mülki iş materialları ilə təsdiq olunmuşdur ki, iddiaçının işə bərpa edilməsinə dair işəgötürənin 30 dekabr 2022-ci il tarixli, K-**** saylı əmrinin mövcud olmasına baxmayaraq, həmin əmr icra olunmamış, iddiaçı faktiki olaraq öz vəzifələrinin icrasına buraxılmamış, məcburi işburaxma dövrü üçün ödənilməli olan əmək haqqı məbləği ona ödənilməmişdir. Halbuki əmrin özündə bu məsələlər öz əksini tapmış, məhz adıçəkilən əmrin qəbul edilməsi, iddiaçının işdən çıxarılma barədə ilkin əmrin ləğv edilməsi onun iddia ərizəsini geri götürməsinə səbəb olmuşdur. Bu kateqoriya mübahisələrdə iddiaçının irəli sürdüyü tələblərin əksini sübutetmə yükü iqtisadi baxımdan işçidən daha güclü mövqedə olan işəgötürənin üzərinə düşür, digər tərəfdən əmək və icra intizamı ilə əlaqədar bütün sənədləşdirmələr işəgötürən tərəfindən aparıldığı üçün müvafiq sənədlər də onda olur. Hazırkı əmək mübahisəsindən və iş materiallarından göründüyü kimi iddiaçının tələblərini təkzib edəcək hər hansı mötəbər sübutlar mövcud deyil.

17. Məhkəmə qeyd etmişdir ki, iddia tələbləri digər hissələrdə- mənəvi ziyana görə kompensasiyanın ödənilməsi və Bakı şəhər Baş Təhsil İdarəsinin müdiri və əməkdaşları barədə xüsusi qərardad çıxarılması barədə tələbləri hissəsində də əsassızdır. Belə ki, hazırkı mülki iş üzrə iddia tələbinin əsasını təşkil edən əmr işəgötürənin 20 sentyabr 2022-ci il tarixli, K-**** saylı əmri deyil, 11 yanvar 2023-cü il tarixli əmridir. İddiaçı tərəfindən 20 sentyabr 2022-ci il tarixli əmr mübahisələndirilmiş, cavabdeh tərəfindən həmin əmr ləğv edilərərək iddiaçının işə bərpa edilməsi barədə 30 dekabr 2022-ci il tarixli əmr imzalanmışdır. Belə olan təqdirdə mübahisələndirilən əmr artıq mövcud olmadığı üçün, məhkəmə bu hissədə tələbi əsassız hesab edir və təmin edilməməsi, habelə cavabdehin əməkdaşları barəsində xüsusi qərardad çıxarılmaması qənaətinə gəlir.

18. Məhkəmə öz hüquqi mövqeyini Azərbaycan Respublikası Əmək Məcəlləsinin 43, 45-ci maddələrinə, 46-cı maddəsinin 6-cı hissəsinə, 49-cu maddəsinin 1-ci hissəsinə, 68ci maddəsinin 2-ci hissəsinin “b” bəndinə, 73-cü maddəsinin 1-ci hissəsinə istinad etməklə əsaslandırmışdır.

b)Apellyasiya instansiyası məhkəməsində icraat

19. Cavabdeh apellyasiya şikayəti verərək iş üzrə birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv edilməsi və iddianın rədd olunması barədə yeni qətnamə çıxarılmasını xahiş etmişdir.

20. Apellyasiya şikayəti onunla əsaslandırılmışdır ki, birinci instansiya məhkəməsi əsassız olaraq qeyd etmişdir ki, müddətli əmək müqaviləsinə ən geci 09 yanvar 2023-cü il tarixdə xitam verilə bilərdi. Lakin, işəgötürən iddiaçı ilə bağlanmış əmək müqaviləsinə 11 yanvar 2023-ci il tarixli əmrlə xitam verərkən səhvə yol vermişdir. Belə ki məhkəmə onu nəzərə almamışdır ki, həmin dövrdə işçi faktiki olaraq əmək funksiyasını yerinə yetirməmiş və işəgötürənlə hər hansı əmək münasibətləri mövcud olmamışdır. İşə baxan birinci instansiya məhkəməsi bu halları nəzərə almamışdır. İşəgötürənin sözügedən əmri ilə cavabdehin 20 sentyabr 2022-ci il tarixli, K-**** saylı əmri ləğv edilmiş və yeni əmək müqaviləsinin bağlanması nəzərdə tutulmamışdır. Belə ki, tərəflər arasında mövcud olan müqavilənin müddəti 31 dekabr 2022-ci il tarixədək

müəyyən edildiyindən, tərəflər arasında yeni əmək müqaviləsinin bağlanmasına zərurət qalmamışdır.

21. Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 11 dekabr 2023-cü il tarixli, 2(103)-6047/2023 saylı qətnaməsi ilə (hakimlər A.Ə. İsgəndərov (sədrlik edən-məruzəçi), V.N. Sadıqov və M.Ə.Rüstəmli) apellyasiya şikayəti təmin edilməmiş, iş üzrə Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin 03 iyul 2023-cü il tarixli, 2(005)-1532/2023 saylı qətnaməsi mübahisələndirilən hissədə, yəni iddianın təmin olunan hissəsində dəyişdirilmədən saxlanılmışdır.

22. Məhkəmə kollegiyası qeyd etmişdir ki, iddiaçının hazırkı tələbi 11 yanvar 2023-cü il tarixli, K-** saylı əmr ləğv olunmaqla vəzifəsinə bərpa edilməsi, məcburi iş buraxma müddəti üçün əmək haqqı ödənilməsi və sair barədədir və birinci instansiya məhkəməsi iddianı əmrin ləğv edilməsi, işə bərpa və məcburi işburaxma müddəti üçün əmək haqqının ödənilməsi hissəsində əsaslı sayaraq təmin etmiş və bu zaman aşağıdakıları nəzərə almışdır. Belə ki, məhkəmənin qənaətinə görə müqavilə müddəti bitdikdən sonrakı bir həftə ərzində işəgötürən tərəfindən müqaviləyə xitam verilməsi ilə bağlı iradə ifadəsi bildirilmədiyindən, eyni zamanda, əmək müqaviləsi bildirişi elektron informasiya sisteminə yerləşdirilmədiyindən, əmək müqaviləsinə xitam verilməsi barədə əmr hüquqi qüvvəyə minməmiş, əmək münasibətləri davam etdirilmişdir. Bununla da tərəflər arasında bağlanmış əmək müqaviləsi əvvəl müəyyən olunmuş müddətə uzadılmış hesab olunmuşdur. Belə olan vəziyyətdə isə həmin müqavilənin qüvvədə olduğu müddətdə cavabdeh tərəfindən əmək müqaviləsinə müqavilənin müddətinin bitməsi əsası ilə xitam verilməsi qanunsuz olmuşdur. Məhkəmə həmçinin işin araşdırılan hallarına əsaslanaraq qeyd etmişdir ki, iddiaçının işə bərpa edilməsinə dair işəgötürənin 30 dekabr 2022-ci il tarixli, K-**** saylı əmrinin mövcud olmasına baxmayaraq, həmin əmr icra olunmamış, iddiaçı faktiki olaraq öz vəzifələrinin icrasına buraxılmamış, məcburi işburaxma dövrü üçün ödənilməli olan əmək haqqı məbləği ona ödənilməmişdir. Halbuki, əmrin özündə bu məsələlər öz əksini tapmış, məhz adıçəkilən əmrin qəbul edilməsi, iddiaçının işdən çıxarılma barədə ilkin əmrin ləğv edilməsi onun iddia ərizəsini geri götürməsinə səbəb olmuşdur. Qeyd edilməlidir ki, bu kateqoriya mübahisələrdə iddiaçının irəli sürdüyü tələblərin əksini sübutetmə yükü iqtisadi baxımdan işçidən daha güclü mövqedə olan işəgötürənin üzərinə düşür, digər tərəfdən əmək və icra intizamı ilə əlaqədar bütün sənədləşdirmələr işəgötürən tərəfindən aparıldığı üçün müvafiq sənədlər də onda olur. Hazırkı əmək mübahisəsindən və iş materiallarından göründüyü kimi iddiaçının tələblərini təkzib edəcək hər hansı mötəbər sübutlar mövcud deyil.

23. Məhkəmə kollegiyası həmçinin işin hallarını nəzərə alaraq qeyd etmişdir ki, tərəflər arasında bağlanmış əmək müqaviləsinə Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin "b" bəndi ilə xitam verilməsi barədə işəgötürənin 11 yanvar 2023-cü il tarixli, ** saylı əmri qanuni sayıla bilməz və buna görə də həmin əmr ləğv edilməli və iddiaçı əvvəlki iş yerinə bərpa edilməlidir. İddia tələbi əmrin ləğv edilməsi və işə bərpa hissəsində əsaslı sayıldığından, iddia tələbi məcburi işburaxmaya görə əmək haqqının ödənilməsi hissəsində də təmin edilməlidir.

24. Bu baxımdan məhkəmə kollegiyası birinci instansiya məhkəməsinin iş üzrə gəldiyi nəticə ilə razılaşaraq apellyasiya şikayətinin dəlillərini əsassız hesab edərək qeyd etmişdir ki, əmək müqaviləsinin müddəti bitdikdən sonra iddiaçı faktiki olaraq əmək funksiyasını yerinə yetirməmiş və işəgötürənlə hər hansı əmək münasibətləri mövcud olmamışdır. Birinci instansiya məhkəməsi işə baxarkən bu halı, eləcə də işəgötürənin 30 dekabr 2022ci il tarixli əmrində yeni əmək müqaviləsinin bağlanmasının nəzərdə tutulmadığını nəzərə almamışdır. Tərəflər arasında mövcud olan əmək müqaviləsinin müddəti 31 dekabr 2022ci il tarixədək müəyyən edildiyindən, tərəflər arasında yeni əmək müqaviləsinin bağlanmasına zərurət qalmamışdır.

25. Məhkəmə kollegiyası apellyasiya şikayətinin dəlilləri ilə razılaşmayıb qeyd etmişdir ki, ilk növbədə iddiaçı ilə bağlanmış əmək müqaviləsinin müddətinin bitdiyi günə aydınlıq gətirilməlidir. Belə ki işəgötürənin 07 iyul 2022-ci il tarixli, K-660 saylı əmrinin məzmunundan

göründüyü kimi əmək müqaviləsinin müddəti 31 dekabr 2022-ci il tarixədək uzadılmışdır. Bu isə o, deməkdir ki, müqavilə müddətinin sonu 30 dekabr 2022ci il qəbul edilməlidir. 30 dekabr 2022-ci il iş günü olmuş, ondan sonra gələn 31 dekabr 2022-ci il və 2024-cü ilin 1-4 yanvar tarixləri qeyri-iş günlərinə təsadüf etmişdir.

26. Məhkəmə kollegiyası qeyd etmişdir ki, işəgötürən Əmək Məcəlləsinin 73-cü maddəsinin 1-ci hissəsinin tələbinə müvafiq olaraq 31 dekabr 2022-ci il tarixdən başlamaqla müddət bitdikdən sonrakı bir həftə ərzində müqaviləyə xitam verilməsinə öz münasibətini bildirməli idi. Həmin normaya görə tərəflərdən heç biri bu bir həftə ərzində müqaviləyə xitam verilməsini tələb etmirsə, əmək müqaviləsi əvvəl müəyyən olunmuş müddətə uzadılmış hesab olunur. Əmək Məcəlləsinin 8-ci maddəsinin 3-cü hissəsinin tələbinə görə illərlə, aylarla, həftələrlə hesablanan müddətlər müvafiq olaraq ilin, ayın, həftənin sonuncu günündə başa çatır. Təqvim həftələri və günləri ilə hesablanan müddətə qeyri-iş günləri də daxildir.

27. Məhkəmə kollegiyası Əmək Məcəlləsinin 8-ci maddəsinin 3-cü hissəsini hazırkı mübahisəyə tətbiq edərək qeyd etmişdir ki, həmin Məcəllənin 73-cü maddəsi ilə müəyyən edilmiş bir həftəlik müddətə 31 dekabr 2022-ci ildən başlamaqla 05 yanvar 2023-cü il tarixədək davam edən qeyri-iş günləri də daxildir. Qeyri-iş günlərindən sonrakı ilk iş günü isə 05 yanvar 2023-cü ilə təsadüf edir. İşin müəyyən edilmiş hallarından göründüyü kimi, işəgötürən iddiaçı ilə bağlanmış əmək müqaviləsinə nə 05 yanvar 2023-cü ildə, nə də həftəlik müddətin davam etdiyi sonrakı iş günlərində deyil, həmin müddət keçdikdən bir neçə gün sonra 11 yanvar 2023-cü il tarixdə xitam vermişdir ki, bu da Əmək Məcəlləsinin 73-cü maddəsinin tələbinə ziddir.

28. Əmək müqaviləsinin müddəti bitdikdən sonra iddiaçının əmək funksiyasını faktiki olaraq yerinə yetirməməsinə və işəgötürənlə hər hansı əmək münasibətində olmamasına gəldikdə isə məhkəmə kollegiyası qeyd etmişdir ki, işəgötürən 30 dekabr 2022-ci il tarixli əmrlə iddiaçını əvvəlki vəzifəsinə bərpa etməklə əslində onunla əmək münasibətlərini davam etdirməkdə maraqlı olduğunu nümayiş etdirmişdir. Bu hal əmrin özünün məzmunundan da aydın görünür. Belə ki, əmrdə iddiaçının əvvəlki vəzifəsinə bərpa edilməsi ilə bağlı zəruri tədbirlərin görülməsi cavabdehin İnsan resursları şöbəsinə və Bakı şəhəri üzrə Təhsil İdarəsinə tapşırılmışdır. Lakin işdən göründüyü kimi, həmin əmr verildikdən sonra işəgötürənin üzərinə müvafiq vəzifə qoyulmuş qurumları tərəfindən iddiaçının əmək fəaliyyətini davam etdirməsinə hər hansı şərait yaradılmamışdır. Birinci instansiya məhkəməsinin də qeyd etdiyi kimi bu kateqoriya mübahisələrdə iddiaçının irəli sürdüyü tələblərin əksini sübutetmə yükü iqtisadi baxımdan işçidən daha güclü mövqedə olan işəgötürənin üzərinə düşür, digər tərəfdən əmək və icra intizamı ilə əlaqədar bütün sənədləşdirmələr işəgötürən tərəfindən aparıldığı üçün müvafiq sənədlər də onda olur. Digər tərəfdən 11 yanvar 2023-cü il tarixli əmrə əsasən iddiaçı ilə əmək müqaviləsinə əmək funksiyalarının, vəzifə öhdəliklərinin yerinə yetirilməməsi, kobud şəkildə pozulması əsası ilə deyil, müqavilə müddətinin bitməsi əsası ilə xitam verilmişdir.

29. Məhkəmə kollegiyası yuxarıda göstərilənlərə əsasən belə nəticəyə gəlmişdir ki, iddiaçı ilə əmək müqaviləsinə xitam verilərkən əmək qanunvericiliyinin tələblərinə əməl olunmamış və Əmək Məcəlləsinin 73-cü maddəsinin tələbləri pozulmuşdur.

30. Məhkəmə kollegiyası işin müəyyən edilən bu faktiki hallarını nəzərə alaraq apellyasiya şikayətinin dəlillərini formal mülahizə xarakterli dəlillər saymış və hesab etmişdir ki, birinci instansiya məhkəməsi işin faktiki hallarını düzgün müəyyən etmiş, tərəflərin qarşılıqlı münasibətləri üzrə düzgün nəticəyə gəlmiş və mübahisəli hüquq münasibətinə maddi və prosessual hüquq normalarını düzgün tətbiq etmişdir.

31. Məhkəmə kollegiyası öz hüquqi mövqeyini Azərbaycan Respublikası Əmək Məcəlləsinin 43-cü maddəsinin 2-ci hissəsinin “d” bəndinə, 45-ci maddəsinin 1-ci hissəsinə, 46-cı maddəsinin 6-cı hissəsinə, 49-cu maddəsinin 1-ci hissəsinə, 68-cı maddəsinin 2-ci hissəsinin “b” bəndinə, 73-cü maddəsinin 1-ci hissəsinə, 300-cü maddəsinin 1-ci hissəsinə istinad edərək əsaslandırmışdır.

Kassasiya şikayətinin və ona qarşı etirazın dəlilləri

a)Kassasiya şikayətinin dəlilləri

32. Cavabdeh (vəkil) kassasiya şikayəti verərək, iş üzrə apellyasiya instansiya məhkəməsinin 11 dekabr 2023-cü il tarixli, 2(103)-6047/2023 saylı qətnaməsinin ləğv olunması və mülki işin yenidən baxılması üçün apellyasiya instansiya məhkəməsinə qaytarılması barədə qərar qəbul olunmasını xahiş etmişdir.

33. Kassasiya şikayəti apellyasiya şikayəti ilə eyni məzmunda əsaslandırılmış və əlavə olaraq qeyd olunmuşdur ki, apellyasiya instansiyası məhkəməsi işə baxarkən mülki iş materiallarına əlavə olunmuş sübutlara düzgün hüquqi qiymət verməmişdir. Belə ki, 2020-ci ildə iddiaçının 65 yaşı tamam olduğundan onunla bağlanmış əmək müqaviləsi 1 il, 2021-ci ildə 1 il müddətinə artırılmışdır. Eyni zamanda məktəbəqədər təhsil müəssisələri cavabdehin tabeçiliyinə verildikdən sonra iddiaçı ilə də bağlanmış əmək müqaviləsinin müddəti 31 dekabr 2022-ci il tarixədək uzadılmışdır. İddiaçı ilə bağlanmış əmək müqaviləsinə müddəti 31 dekabr 2022-ci il tarixdə bitdiyi üçün xitam verilib. İşə baxan məhkəmələr qeyd etmişlər ki, 31 dekabr 2022-ci il tarixdən başlayaraq işəgötürən bir həftə müddətində müqaviləyə xitam verə bilərdi. Lakin, işəgötürən 11 yanvar 2023-cü il tarixli əmrlə əmək müqaviləsinə xitam verərkən əmək qanunvericiliyinin tələblərini pozmuşdur. Belə ki, işə baxan məhkəmələr nəzərə almamışdırlar ki, həmin dövrdə iddiaçı faktiki olaraq əmək funksiyasını yerinə yetirməmiş, iş yerində olmamış və tərəflər arasında ümumiyyətlə əmək münasibəti olmamışdır. İşə baxan məhkəmələr işə əlavə edilmiş sübutlara əhəmiyyət vermədən, habelə iddiaçının çalışmanın son yaş həddinə çatmasını və işəgötürənin onunla əmək münasibətlərini davam etdirmək arzusunda olmamasını nəzərə almamışdır.

34. Cavabdeh kassasiya şikayətinin hüquqi əsası kimi Azərbaycan Respublikası Əmək Məcəlləsinin 10.1, 44, 45-ci maddələrinə, 68-ci maddəsinin 2-ci hissəsinə, 73-cü maddəsinin 1-ci bəndinə, 83-cü maddəsinin 1-ci bəndinə, habelə Mülki Prosessual Məcəllənin 76, 88, 418.1-ci maddələrinə istinad etmişdir.

b)Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

35. Kassasiya şikayətinə qarşı etiraz daxil olmamışdır.

Tətbiq edilən hüquq

Azərbaycan Respublikasının Əmək Məcəlləsi

36. Maddə 8. 3-cü hissə. İllərlə, aylarla, həftələrlə hesablanan müddətlər müvafiq olaraq ilin, ayın, həftənin sonuncu günündə başa çatır. Təqvim həftələri və günləri ilə hesablanan müddətə qeyri-iş günləri də daxildir.

37. Maddə 10-1.1. Dövlət büdcəsindən maliyyələşən müəssisələrdə çalışmanın yaş həddi 65-dir.

38. Maddə 10-1.2. Dövlət büdcəsindən maliyyələşən müəssisənin 65 yaşına çatmış işçisinin həmin müəssisədə çalışma müddəti müvafiq dövlət orqanının rəhbəri tərəfindən hər dəfə 1 ildən çox olmayaraq uzadıla bilər. Çalışma müddətinin 5 ildən çox uzadılmasına yol verilmir.

39. Maddə 10-1.3. Elm, mədəniyyət, səhiyyə və təhsil sahələrinin inkişafında müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş xüsusi xidmətləri olmuş dövlət büdcəsindən maliyyələşən müəssisənin 65 yaşına çatmış işçisinin çalışma müddəti müvafiq dövlət orqanı tərəfindən bu Qanunun 10-1.2-ci maddəsində nəzərdə tutulmuş müddətdən artıq uzadıla bilər.

40. Maddə 10-1.6. Dövlət büdcəsindən maliyyələşən müəssisələrdə çalışan işçilərin çalışma müddətinin uzadılmasına onların razılığı əsasında yol verilir.

41. Maddə 42. Əmək müqaviləsinin tərəflərindən biri işəgötürən, digəri isə işçidir.

42. Maddə 45. Əmək müqaviləsi müddətsiz və ya müddətli bağlanılır. Müddətli əmək müqaviləsi tərəflərin razılaşdığı müddətə bağlanılır.

43. Maddə 46. Əmək müqaviləsi bu Məcəllənin 54-cü maddəsində nəzərdə tutulmuş əmək şəraitinin şərtləri, habelə tərəflərin razılaşdıqları əlavə şərtləri, işçinin əmək funksiyası və tərəflərin öhdəlikləri göstərilməklə fərdi qaydada bağlanılır.

44. Maddə 68. 1-ci hissə. Əmək müqaviləsinə yalnız bu Məcəllə ilə müəyyən edilmiş əsaslarla və qaydada xitam verilə bilər.

45. Maddə 68. 2-ci hissə. Əmək müqaviləsinə xitam verilməsinin əsasları aşağıdakılardır: a) tərəflərdən birinin təşəbbüsü; b) əmək müqaviləsinin müddətinin qurtarması;

46. Maddə 70. Əmək müqaviləsi işəgötürən tərəfindən aşağıdakı əsaslarla ləğv edilə bilər: e) dövlət büdcəsindən maliyyələşən müəssisənin işçisi çalışmanın yaş həddinə çatdıqda.

47. Maddə 73. 1-ci hissə. Müddətli əmək müqaviləsinin müddəti qurtardıqda xitam verilir. Bu Məcəllənin 45-ci maddəsinin beşinci hissəsi nəzərə alınmaqla, müddətli əmək müqaviləsində göstərilən müddət qurtardıqda əmək münasibətləri davam etdirilərsə və müddət bitdikdən sonrakı bir həftə ərzində tərəflərdən heç biri müqaviləyə xitam verilməsini tələb etmirsə, həmin əmək müqaviləsi əvvəl müəyyən olunmuş müddətə uzadılmış hesab olunur.

48. Maddə 73. 2-ci hissə. İşçinin müəyyən üzrlü səbəbdən (xəstələnməsi, ezamiyyətdə, məzuniyyətdə olması, habelə bu Məcəllənin 179-cu maddəsində nəzərdə tutulan iş yeri və orta əmək haqqı saxlandığı hallarda) iş yerində olmadığı dövrdə müddətli əmək müqaviləsinin müddəti qurtardığı hallarda həmin müqaviləyə işçi işə çıxdıqdan sonra işəgötürənin müəyyən etdiyi gündə, lakin onun işə çıxdığı gündən bir təqvim həftəsi keçməmiş xitam verilə bilər.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi

49. Maddə 407.2. Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir.

50. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

51. Maddə 417.1.4. Kassasiya məhkəməsi işə baxarkən apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadını tamamilə, yaxud qismən ləğv edib apellyasiya instansiyası məhkəməsində müəyyən edilmiş hallar və sübutlar əsasında yeni qərar qəbul edə bilər.

52. Maddə 417.2. Bu Məcəllənin 417.1.4-cü maddəsində nəzərdə tutulmuş qərar yalnız o halda qəbul edilir ki, apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi hüquq normaları pozulmuş və ya düzgün tətbiq edilməmiş olsun.

Kassasiya baxışının hədləri

53. Qanunun tələbinə görə kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, mülki iş materiallarında olan və aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən olunmuş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsi tərəfindən faktiki halların araşdırması kimi qiymətləndirilə bilməz.

54. Cavabdehin kassasiya şikayətində apellyasiya instansiyası məhkəməsinin qətnaməsi bütövlükdə mübahisələndirildiyindən, qətnamənin əsaslılığı kassasiya şikayətinin dəlilləri hüdudlarında tam yoxlanıldı.

Kassasiya instansiyası məhkəməsinin hüquqi mövqeyi

54. Kassasiya instansiyası məhkəməsi hesab edir ki, apellyasiya instansiyası məhkəməsi işin hallarını araşdırıb sübutlara düzgün hüquqi qiymət vermiş olsa da, birinci instansiya məhkəməsinin qətnaməsini mübahisələndirilən hissədə, yəni iddianın təmin olunan hissəsində dəyişdirilmədən saxlayarkən maddi hüquq normalarının tələblərini pozub və qanunu səhv təfsir edib.

55. Belə ki, işin mübahisə olunmayan hallarına görə iddiaçı, 01 sentyabr 2003-cü il tarixdən Ünvan 1-dəki Uşaq Bağçasının müdiri vəzifəsində işləyib, ** **** 2020-ci il tarixdə 65 yaşı tamam olduğu üçün onunla çalışma müddəti işəgötürənin 05 iyun 2020-ci il tarixli, *** saylı əmri ilə 1 il; 07 iyun 2021-ci il tarixli, *** saylı əmri ilə 1 il; 07 iyul 2022-ci il tarixli, k-*** saylı əmri ilə 31 dekabr 2022-ci il tarixədək uzadılıb. İşəgötürənin digər 11 yanvar 2023-cü il tarixli, *-*/*-

*-*k/****/1 saylı əmri ilə isə iddiaçı ilə bağlanmış əmək müqaviləsinə 11 yanvar 2023-cü il tarixdən xitam verilib.

56. Hazırda iddiaçı, məhkəmədə cavabdehə qarşı iddia qaldıraraq mübahisələndirilən hissədə- sözügedən əmrin ləğv edilməsini; əvvəlki vəzifəsinə bərpa olunmasını və məcburi işburaxma günləri üçün əmək haqqının ödənilməsini iddia edir.

57. Cavabdeh isə iddiaçının dövlət büdcəsindən maliyyələşən müəssisədə çalışmanın son yaş həddinə, yəni 65 yaşına çatdığını, işəgötürən tərəfindən hər dəfə 1 ildən çox olmayaraq onunla çalışma müddətinin 31 dekabr 2022-ci il tarixədək uzadıldığını və çalışma müddəti bitdiyi üçün iddiaçı ilə bağlanmış əmək müqaviləsinə 11 yanvar 2023-cü il tarixdə Əmək Məcəlləsi ilə müəyyən edilmiş əsaslarla və qaydada xitam verildiyini göstərib, iddiaya etiraz edir.

58. Apellyasiya instansiyası məhkəməsi, birinci instansiya məhkəməsinin mübahisələndirilən hissədə gəldiyi nəticə ilə razılaşaraq qeyd etmişdir ki, iddiaçı ilə bağlanmış əmək müqaviləsinə işəgötürən tərəfindən xitam verilərkən əmək qanunvericiliyinin tələbləri pozulub. Belə ki, əmək müqaviləsi bildirişi elektron informasiya sisteminə yerləşdirilməyib və tərəflər arasında bağlanmış müddətli əmək müqaviləsinin müddəti 31 dekabr 2022-ci il tarixdə bitdiyi halda, onlar arasında əmək münasibətləri davam etdirilib. Habelə işəgötürən, əmək müqaviləsinə müddət bitdikdən sonrakı bir həftə ərzində deyil, 11 yanvar 2023-cü il tarixdə, yəni 10 gündən sonra xitam verib və beləliklə də əmək müqaviləsinin əvvəl müəyyən olunmuş müddətə uzadılmasını nəzərə almayıb.

59. Əvvəla, kassasiya instansiyası məhkəməsi apellyasiya instansiyası məhkəməsinin hüquqi mövqeyi ilə razılaşmır və hesab edir ki, Azərbaycan Respublikası

Konstitusiyasının 35-ci maddəsinin I-IV hissələrinə əsasən, əmək fərdi və ictimai rifahın əsasıdır. Hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır. Heç kəs zorla işlədilə bilməz. Əmək müqavilələri sərbəst bağlanılır. Heç kəs əmək müqaviləsi bağlamağa məcbur edilə bilməz.

60. Əmək Məcəlləsinin 2-ci maddəsinin 3-cü hissəsində əmək münasibətlərində tərəflərin hüquq bərabərliyinin təmin edilməsi, mənafelərinin haqq-ədalətlə və qanunun aliliyinin təmin olunması ilə qorunması, maddi, mənəvi, sosial, iqtisadi və digər həyati tələbatlarını ödəmək məqsədi ilə əqli, fiziki və maliyyə imkanlarından sərbəst istifadə etməsinin təmin edilməsi əmək qanunvericiliyinin vəzifələri və prinsipləri sırasında təsbit edilib.

61. Əmək münasibətləri dedikdə - əmək qanunvericiliyində, kollektiv müqavilə və sazişlərdə nəzərdə tutulmuş öhdəliklərə uyğun olaraq işəgötürənlə qarşılıqlı razılıq əsasında müəyyən edilən iş yerində işçi tərəfindən onun işə qəbul (təyin) edildiyi, seçildiyi, bərpa olunduğu peşə və ya vəzifə üzrə əmək funksiyasının əmək haqqı ödənilməklə şəxsən yerinə yetirilməsinə, daxili intizam qaydalarına riayət edilməsinə, işəgötürən tərəfindən işçinin əmək şəraitinin, təminatlarının və əməyinin mühafizəsinin təmin edilməsinə, habelə Əmək Məcəlləsinin prinsiplərinə əsaslanan münasibətlər başa düşülür (Əmək Məcəlləsinin 3-cü maddəsinin 4-1-ci hissəsi).

62. Nəzərə alınmalıdır ki, əmək hüququ - işçi ilə işəgötürən arasında heç bir ayrıseçkilik olmadan sərbəst qaydada əmək münasibətlərini yaratmaq imkanını ehtiva edir.

63. Göstərilənlərə əsasən kassasiya instansiyası məhkəməsi hesab edir ki, ilk növbədə əmək müqaviləsi üzrə tərəflərin hüquq bərabərliyi prinsipinə əməl etməklə onların qarşılıqlı razılıq əsasında dövlət büdcəsindən maliyyələşən müəssisələrdə 65 yaşına çatmış işçilərin həmin müəssisədə çalışma müddətinin işəgötürən tərəfindən hər dəfə 1 ildən çox olmayaraq uzadılmasının mümkünlüyünü və bu müddət qurtardıqdan sonra ona xitam verilməsini tənzimləyən Əmək Məcəlləsinin 10-1.1, 10-1.2-ci maddələri; habelə 70ci maddəsinin e) bəndi ilə, həmin Məcəllənin 68-ci maddəsinin 2-ci hissəsinin b) bəndi və 73-cü maddəsinin 1-ci hissəsi əlaqəli şəkildə təhlil edilməlidir.

64. Məlum olduğu kimi Əmək Məcəlləsinin 10-1-ci maddəsi “Azərbaycan Respublikasının Əmək Məcəlləsinə dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 17 may 2011-

ci il tarixli Qanuni ilə Əmək Məcəlləsinə əlavə edilmişdir və həmin norma dövlət büdcəsindən maliyyələşən müəssisələrdə çalışmanın son yaş həddinə həsr olunub.

65. Sözügedən normada, habelə Əmək Məcəlləsinin 10-1.2-ci maddəsində göstərilir ki, dövlət büdcəsindən maliyyələşən müəssisələrdə çalışmanın yaş həddi 65-dir. Dövlət büdcəsindən maliyyələşən müəssisənin 65 yaşına çatmış işçisinin həmin müəssisədə çalışma müddəti müvafiq dövlət orqanının rəhbəri tərəfindən hər dəfə 1 ildən çox olmayaraq uzadıla bilər. Çalışma müddətinin 5 ildən çox uzadılmasına yol verilmir.

66. Həmçinin normanın qeyd hissəsində göstərilir ki, burada "müvafiq dövlət orqanının rəhbəri"-nin səlahiyyətlərini müvafiq sahə üzrə mərkəzi icra hakimiyyəti orqanının rəhbəri və nizamnaməsinə uyğun olaraq dövlət büdcəsindən maliyyələşən müəssisənin fəaliyyətinə rəhbərlik edən müvafiq vəzifəli şəxs həyata keçirir. Burada "müvafiq dövlət orqanı" dedikdə-müvafiq sahə üzrə mərkəzi icra hakimiyyəti orqanı nəzərdə tutulur.

67. Göründüyü kimi Əmək Məcəlləsinin 10-1-ci maddəsində hər hansı müddətli əmək müqaviləsinin bağlanmasından və ya onun uzadılmasından deyil, dövlət büdcəsindən maliyyələşən müəssisələrdə çalışmanın son yaş həddinə çatmış işçisinin həmin müəssisədə çalışma müddətinin işəgötürən tərəfindən hər dəfə 1 ildən çox olmayaraq 5 ilədək uzadıla bilməsindən bəhs olunur, yəni həmin norma əslində işçi ilə yeni müddətli əmək müqaviləsinin bağlanmasını və ya onun uzadılmasını deyil, müəssisənin 65 yaşına çatmış işçisinin həmin müəssisədə çalışma müddətinin işəgötürən tərəfindən hər dəfə 1 ildən çox olmayaraq, 5 ilədək uzadıla bilməsinin mümkünlüyünü tənzimləyir.

68. Başqa sözlə Əmək Məcəlləsinin 10-1-ci maddəsi həmin Məcəlləyə sonradan əlavə edilmiş xüsusi bir normadır və bu norma dövlət büdcəsindən maliyyələşən müəssisənin 65 yaşına çatmış işçisinin həmin müəssisədə çalışma müddətini müəyyən edir. Yəni Əmək Məcəlləsinin 10-1.2-ci maddəsində nəzərdə tutulan "hər dəfə 1 ildən çox olmayaraq 5 ilədək uzadıla bilən müddət" üçün işçi ilə işəgötürən arasında yeni müddətli əmək müqaviləsinin bağlanması tələb olunmur və işəgötürən sadəcə olaraq əmək müqaviləsi üzrə müəssisədə çalışan işçisinin 65 yaşına çatmasını nəzərə alaraq, onun müəssisədə çalışma müddətini hər dəfə 1 ildən çox olmayaraq uzada və ya uzatmaya bilər.

69. Ona görə də kassasiya instansiyası məhkəməsi hesab edir ki, apellyasiya instansiyası məhkəməsi, Əmək Məcəlləsinin 10-1-ci maddəsinin təfsirində, habelə dövlət büdcəsindən maliyyələşən sözügedən uşaq bağçasında çalışmanın son yaş həddinə çatmış iddiaçının həmin bağçada çalışma müddətinin işəgötürən tərəfindən hər dəfə 1 ildən çox olmayaraq uzadılmasını müddətli əmək müqaviləsi kimi qiymətləndirməklə və Əmək Məcəlləsinin "müddətli əmək müqaviləsinin müddətinin qurtarmasını" tənzimləyən 68-ci maddəsinin 2-ci hissəsinin b) bəndini, habelə "müddətli əmək müqaviləsinə xitam verilməsi qaydası"-nı tənzimləyən 73-cü maddəsinin 1-ci hissəsini hazırkı əmək mübahisəsinə tətbiq etməkdə səhvə yol verib.

70. Digər tərəfdən, Əmək Məcəlləsinin 10-1.1-ci maddəsi, dövlət büdcəsindən maliyyələşən müəssisələrdə son çalışma müddətini qəti olaraq 65 yaş müəyyən edib. Həmin Məcəllənin 10-1.2-ci maddəsi isə dövlət büdcəsindən maliyyələşən müəssisələrdə işçinin çalışma müddətinin hər dəfə 1 ildən çox olmayaraq 5 ilədək uzadıla bilməsini işəgötürənin vəzifəsi deyil, hüququ kimi müəyyən edib. Yəni, sözügedən norma müvafiq sahə üzrə mərkəzi icra hakimiyyəti orqanının rəhbərinə, habelə nizamnaməsinə uyğun olaraq dövlət büdcəsindən maliyyələşən müəssisənin fəaliyyətinə rəhbərlik edən müvafiq vəzifəli şəxsə, 65 yaşına çatmış işçinin həmin müəssisədə çalışma müddətini hər dəfə 1 ildən çox olmayaraq, bütövlükdə 5 ilədək uzatmaq hüququ verir.

71. Göründüyü kimi sözügedən normada dövlət büdcəsindən maliyələşən müəssisənin 65 yaşına çatmış işçisinin həmin müəssisədə çalışma müddətinin uzadılması zamanı "hər dəfə 1 ildən çox olmayaraq" söz birləşməsindən istifadə olunur, yəni qanunverici işəgötürənə bu haqqı tanıyarkən onun üzərinə həm də 65 yaşına çatmış işçinin öz əmək funksiyasını və ya

əmək müqaviləsi üzrə öhdəliklərini yerinə yetirmək iqtidarında olubolmadığını yoxlamaq öhdəliyi qoyur.

72. Kassasiya instansiyası məhkəməsi hesab edir ki, Əmək Məcəlləsinin 10-1.2-ci maddəsində dövlət büdcəsindən maliyyələşən müəssisənin 65 yaşına çatmış işçisinin həmin müəssisədə çalışma müddətinin hər dəfə 1 ilədək, 5 ildən artıq olmamaqla uzadılması üçün konkret meyarlar müəyyən edilməsə də, belə meyarlara işçinin tam əmək qabiliyyətinə, dərin nəzəri biliyə, böyük iş və həyat təcrübəsinə malik olması, əmək funksiyasını yüksək peşəkarlıq səviyyəsində yerinə yetirməsi, həmin müəssisədə və tutduğu vəzifədə uzun illər qüsursuz işləməsi, mədəni, əxlaqi keyfiyyətləri və sair aid edilə bilər.

73. Hazırkı işdə işəgötürən ** **** 2020-ci il tarixdə 65 yaşı tamam olmuş iddiaçının sözügedən uşaq bağçasında çalışma müddətini 05 iyun 2020-ci il tarixli, 102 saylı əmrlə 1 il; 07 iyun 2021-ci il tarixli, 171 saylı əmrlə 1 il; 07 iyul 2022-ci il tarixli, k-660 saylı əmrlə isə 31 dekabr 2022-ci il tarixədək uzatmışdır.

74. Lakin sonrakı mərhələdə işəgötürən, iddiaçı ilə əmək münasibətini davam etdirməmək barədə iradəsini ifadə edərək 11 yanvar 2023-cü il tarixli, 3-29/3-1028k/2023/1 saylı əmrlə artıq 68 yaşına çatmış iddiaçı ilə çalışma müddətini daha 1 ilədək uzatmaqdan imtina edərək, onunla əmək münasibətinə 11 yanvar 2023-cü il tarixdən xitam verib.

75. Kassasiya instansiyası məhkəməsi hesab edir ki, işəgötürən 68 yaşına çatmış iddiaçının bağçada çalışma müddətini daha 1 ilədək uzatmaqdan imtina edərkən, əmrdə formal olaraq Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin “b” bəndinə istinad etsə də, əslində tərəflər arasındakı əmək münasibətlərinə iddiaçı müəssisədə çalışmanın son yaş həddinə çatdığı üçün xitam verilib. Yəni, işəgötürənin sözügedən əmrinin hüquqi əsasını Əmək Məcəlləsinin 70-ci maddəsinin “e” bəndi təşkil edir.

76. Həmin normanın mənasına görə dövlət büdcəsindən maliyyələşən müəssisənin işçisi çalışmanın yaş həddinə çatdıqda, işəgötürən tərəfindən əmək müqaviləsi ləğv edilə bilər.

77. Göründüyü kimi, işəgötürən tərəfindən işçi ilə bağlanmış əmək müqaviləsinə Əmək Məcəlləsinin 70-ci maddəsinin “e” bəndində nəzərdə tutulan əsasla xitam verilməsi üçün iki şərtin eyni vaxtda mövcud olması tələb olunur: birincisi, işçi dövlət büdcəsindən maliyyələşən müəssisədə çalışmalıdır; ikincisi, işçi çalışmanın son yaş həddinə, yəni 65 yaşa çatmalıdır. Bu iki şərt mövcud olduğu halda işəgötürən, işçi ilə bağlanmış əmək müqaviləsinə Əmək Məcəlləsinin 70-ci maddəsinin “e” bəndinə əsasən xitam verə bilər. Yəni, “dövlət büdcəsindən maliyyələşən müəssisənin işçisi çalışmanın son yaş həddinə, yəni 65 yaşına çatdıqda” əmək müqaviləsinə xitam vermək (çalışma müddətinin uzadılması istisna olmaqla) işəgötürənin hüququ deyil, vəzifəsidir.

78. Belə ki, işəgötürən istəsə də dövlət büdcəsindən maliyyələşən müəssisədə çalışan 65 yaşına çatmış işçi ilə əmək münasibətlərini (çalışma müddətinin uzadılması istisna olmaqla) davam etdirə bilməz, çünki buna Əmək Məcəlləsinin 10-1.1-ci maddəsinin tələbləri yol vermir. Həmin normada imperativ qaydada göstərilir ki, dövlət büdcəsindən maliyyələşən müəssisələrdə çalışmanın son yaş həddi 65-dir.

79. Əmək Məcəlləsinin 10-1.2-ci maddəsində nəzərdə tutulan hal isə, yəni 65 yaşına çatmış işçinin həmin müəssisədə çalışma müddətinin “hər dəfə 1 ildən çox olmayaraq 5 ilədək uzatması” işəgötürənin hüququdur. Belə olan halda işəgötürənin Əmək Məcəlləsinin 10-1.2-ci maddəsində nəzərdə tutulan bu hüququ, həmin Məcəllənin 73-cü maddəsinin 1-ci hissəsində göstərilən “müddətli əmək müqaviləsinə xitam verilməsi qaydası” ilə məhdudlaşdırıla və ya əlaqələndirilə bilməz.

80. Kassasiya instansiyası məhkəməsi həmçinin hesab edir ki, apellyasiya instansiyası məhkəməsinin gəldiyi nəticə Əmək Məcəlləsinin 10-1-ci maddəsinin tələblərinə də ziddir. Çünki məhkəmənin hüquqi mövqeyi ilə razılaşsaq belə nəticəyə gəlmək olar ki, işəgötürən tərəfindən işçinin çalışma müddəti hər dəfə 1 ildən çox olmayaraq 70 yaşınadək uzadıldıqdan sonra da işəgötürən bir həftə ərzində müqaviləyə xitam verilməsini tələb etməmişsə, həmin müqavilə əvvəl müəyyən olunmuş müddətə, yəni işçinin 71 yaşınadək də uzadıla bilər. Halbuki,

işçinin çalışma müddətinin 71 yaşınadək uzadılması qanunla qadağandır, yəni dövlət büdcəsindən maliyyələşən müəssisələrdə çalışmanın son yaş həddi 65-dir və yuxarıda göstərilən meyarlar olduqda isə işəgötürən işçinin çalışma müddətini hər dəfə 1 ildən çox olmayaraq, maksimum 5 ilədək- 70 yaşınadək uzada bilər.

81. Ona görə də tərəflər arasında bağlanmış əmək müqaviləsinin müddətinin bitdiyi 31 dekabr 2022-ci il tarixdən sonrakı bir həftə ərzində işəgötürənin həmin müqaviləyə xitam verməsini tələb etməməsi ilə (əmək müqaviləsinə 11 yanvar 2023-cü il tarixdə xitam verilib) əmək müqaviləsinin eyni müddətə uzadılmış hesab edilməsinə dair apellyasiya instansiyası məhkəməsinin gəldiyi nəticə ilə razılaşmaq olmaz.

82. Daha sonra, işin yuxarıda müəyyən olunmuş hallarına, habelə apellyasiya və kassasiya şikayətlərinin dəlillərinə görə işəgötürənin 11 yanvar 2023-cü il tarixli, ****/*-*-**k/****/1 saylı əmri ilə iddiaçı ilə bağlanmış əmək müqaviləsinə 11 yanvar 2023-cü il tarixdən xitam verilərkən, iddiaçı faktiki olaraq əmək funksiyasını və əmək müqaviləsi üzrə öhdəliklərini yerinə yetirməmiş, iş yerində olmamış, yəni işəgötürənin 20 sentyabr 2022-ci il tarixli, k-**** saylı əmrindən sonra tərəflər arasında ümumiyyətlə əmək münasibətləri əmələ gəlməmişdir. Belə olan halda apellyasiya instansiyası məhkəməsinin gəldiyi nəticə "müddətli əmək müqaviləsinə xitam verilməsini tənzimləyən" Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin "b" bəndinin tələblərinə də uyğun hesab edilə bilməz.

83. Belə ki, əmək qanunvericiliyinə əsasən əmək müqaviləsinə xitam verilməsinin əsaslarından biri də əmək müqaviləsinin müddətinin qurtarmasıdır. Bu əsas üzrə əmək müqaviləsinə xitam verilməsi üçün iki şərtin eyni vaxtda olması zəruridir: birincisi, əmək müqaviləsinin müddətinin qurtarması; ikincisi, müddətli əmək müqaviləsinə xitam verilməsi barədə tərəflərdən birinin təşəbbüsü.

84. Normanın mənasına görə müddətli əmək müqaviləsində göstərilən müddət qurtardıqda əmək münasibətləri davam etdirilərsə və müddət bitdikdən sonrakı bir həftə ərzində tərəflərdən heç biri müqaviləyə xitam verilməsini tələb etməzsə, həmin əmək müqaviləsi əvvəl müəyyən olunmuş müddətə (yəni, əvvəlcə hansı müddətə bağlanmışsa həmin müddətə) uzadılmış hesab olunur. Yəni, əmək müqaviləsində göstərilən müddət qurtardıqda, müqavilə əvvəl müəyyən olunmuş müddətə o halda uzadılmış hesab oluna bilər ki, işçi ilə işəgötürən arasında əmək münasibətləri davam etdirilsin, yəni işçi faktiki olaraq əmək funksiyasını, əmək müqaviləsi üzrə öhdəliklərini yerinə yetirsin, iş yerində olsun və sair və müddət bitdikdən sonrakı bir həftə ərzində tərəflərdən heç biri müqaviləyə xitam verilməsini tələb etməsin.

85. Hazırkı halda tərəflər arasındakı əmək münasibətlərinə əslində işəgötürənin 20 sentyabr 2022-ci il tarixli, k-**** saylı əmri ilə xitam verilib. Bu tarixdən sonra iddiaçı, ümumiyyətlə, iş yerində olmayıb və əmək müqaviləsi üzrə öhdəliklərini yerinə yetirməyib və sonradan işəgötürənin digər 30 dekabr 2022-ci il tarixli, k-**** saylı digər əmri ilə sözügedən əmr ləğv olunaraq iddiaçı əvvəlki vəzifəsinə bərpa olunsa da, tərəflər arasında faktiki əmək münasibətləri əmələ gəlməyib. Belə olan halda Əmək Məcəlləsinin 73-cü maddəsinin 1-ci hissəsi hazırkı əmək mübahisəsinə tətbiq olunsa belə əmək müqaviləsində göstərilən müddət qurtardıqdan sonra tərəflər arasında əmək münasibətləri faktiki davam etmədiyi üçün işəgötürənin müddət bitdikdən sonrakı bir həftə ərzində deyil, 11 yanvar 2023-cü il tarixdə müqaviləyə xitam verilməsini tələb etməsi, həmin müqavilənin əvvəl müəyyən olunmuş müddətə uzadılmış hesab olunması nəticəsinə gəlməyə əsas vermir.

86. Bu baxımdan kassasiya instansiyası məhkəməsi cavabdehin kassasiya şikayətinin dəlilləri ilə qismən razılaşır və hesab edir ki, işəgötürən iddiaçı ilə əmək münasibətini davam etdirməmək barədə iradəsini açıq-aşkar ifadə etdiyindən, bu iradə ifadəsi əlavə heç bir şərtdən asılı olmadan əmək müqaviləsinə xitam verilməsi üçün əsasdır. Ona görə də artıq 68 yaşına çatmış iddiaçının sözügedən bağçada çalışma müddəti 31 dekabr 2022-ci il tarixədək uzadıldığından və bundan sonra tərəflər arasında faktiki əmək münasibətləri əmələ gəlmədiyindən, işəgötürənin iradəsinə zidd olaraq iddiaçının əvvəlki işinə bərpa olunması,

onunla yeni əmək müqaviləsinin bağlanması və işə bərpa olunduğu bütün müddət üçün ona məcburi iş buraxma günləri üçün əmək haqqının ödənilməsi də düzgün yanaşma olmaz və bu yanaşma açıq-aşkar qeyri-mütənasib olmaqla, iddiaçının haqqı çatmayanları əldə etməsinə və nəticədə işəgötürənin ağır iqtisadi sanksiyaya məruz qalmasına səbəb olar.

87. Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 386, 418.1 və 418.2-ci maddələrinin tələblərinə əsasən, maddi və prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması, o cümlədən maddi və prosessual hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması apellyasiya instansiyası məhkəməsinin qətnamə və qərardadının ləğv edilməsi üçün əsasdır. Maddi hüquq normaları o halda pozulmuş və ya düzgün tətbiq olunmamış hesab edilir ki, apellyasiya instansiyası məhkəməsi hüququn tətbiq edilməsində səhv buraxsın, tətbiq edilməli olan qanunu və ya digər normativ hüquqi aktı tətbiq etməsin, yaxud qanunu səhv təfsir etsin.

88. Həmin Məcəllənin 417.1.4 və 417.2-ci maddələrində göstərilir ki, kassasiya instansiyası məhkəməsi işə baxarkən apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadını tamamilə, yaxud qismən ləğv edib apellyasiya instansiyası məhkəməsində müəyyən edilmiş hallar və sübutlar əsasında yeni qərar qəbul edə bilər; bu Məcəllənin 417.1.4-cü maddəsində nəzərdə tutulmuş qərar yalnız o halda qəbul edilir ki, apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi hüquq normaları pozulmuş və ya düzgün tətbiq edilməmiş olsun.

89. Göstərilənlərə əsasən kassasiya instansiyası məhkəməsi hesab edir ki, cavabdehin kassasiya şikayəti qismən təmin edilməli, iş üzrə apellyasiya instansiyası məhkəməsinin qətnaməsi ləğv edilməli, yeni qərar qəbul olunmaqla, iddia - əmək müqaviləsinin müddətinin başa çatması əsasına görə iddiaçının işdən azad edilməsinə dair işəgötürənin 11 yanvar 2023-cü il tarixli, K-** saylı əmrinin ləğv edilməsi, onun əvvəlki vəzifəsinə bərpa edilməsi və 11 yanvar 2023-cü il tarixdən işə bərpa olunduğu günədək məcburi işburaxma günləri üçün ona əmək haqqının hesablanaraq ödənilməsi hissəsində də rədd edilməlidir.

90. Yuxarıda göstərilənlərə əsasən və Azərbaycan Respublikası MPM-nin 416, 417 və 419-cu maddələrinin tələblərini rəhbər tutaraq kassasiya instansiyası məhkəməsi

Qərara aldı:

Cavabdeh Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin kassasiya şikayəti qismən təmin edilsin.

İş üzrə Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 11 dekabr 2023-cü il tarixli, 2(103)-6047/2023 saylı qətnaməsi ləğv edilsin, yeni qərar qəbul olunsun.

İddiaçının cavabdeh Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə qarşı “əmrin ləğv edilməsi, işə bərpa, məcburi işburaxma günləri üçün əmək haqqının və mənəvi ziyana görə kompensasiyanın tutulması” barədə iddiası İddiaçının əmək müqaviləsinin müddətinin başa çatması əsasına görə işdən azad edilməsinə dair Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 11 yanvar 2023-cü il tarixli, *-**/*-*-**k/***/1 saylı əmrinin ləğv edilməsi, İddiaçının Ünvan 1-dəki uşaq bağçasının müdiri vəzifəsinə bərpa edilməsi və 11 yanvar 2023-cü il tarixdən işə bərpa olunduğu günədək məcburi işburaxma günləri üçün ona əmək haqqının hesablanaraq ödənilməsi hissəsində də rədd edilsin.

Qərar qəbul edildiyi andan qanuni qüvvəyə minir.

55. 2(102)-415/2025 nömrəli, 2025-ci il 26 fevral tarixli qərar - İşçinin ərizəsində göstərilmiş xəbərdarlıq müddətini gözləmədən əmək müqaviləsinə xitam verilməsinin hüquqi nəticələri

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: işçi xx.xx.2024-cü il tarixli ərizə ilə işəgötürənə müraciət edərək, onunla bağlanmış əmək müqaviləsinə xx.xx.2024-cü il tarixdən xitam verilməsini xahiş etmiş, işəgötürən həmin müddəti gözləmədən 3 gün sonra xx.xx.2024-cü il tarixdə Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin "a" bəndinə (tərəflərdən birinin təşəbbüsü ilə) əsasən əmək müqaviləsinə xitam vermişdir. İddiaçı xəbərdarlıq müddətinin gözlənilmədiyinə istinad edərək, işdən azad olunması barədə əmrin ləğv olunması və işinə bərpa olunması barədə iddia qaldırmış, məhkəmələr əmri qanunsuz hesab etməklə, işə bərpa olunması qənaətinə gəlmişlər.

Kassasiya instansiya məhkəməsinin mövqeyi:

Məhkəmə tərkibi hesab etmişdir ki, Əmək Məcəlləsinin 69-cu maddəsinin 1-ci hissəsinə əsasən işəgötürən tərəfindən iddiaçı ilə bağlanmış əmək müqaviləsinə onun ərizəsində qeyd olunmuş xəbərdarlıq müddəti bitənədək xitam verilməsi işdən azad olunma barədə əmrin ləğvi üçün əsasdır.

Bu baxımdan işə mahiyyəti üzrə baxmış məhkəmələr əmri ləğv etməkdə haqlı olsalar da, iddiaçının daimi olaraq işə bərpa olunması hissəsində düzgün olmayan qənaətə gəlmişlər.

Belə ki, iddiaçı öz iradəsinə uyğun olaraq xx.xx.2024-cü il tarixdən əmək müqaviləsinə xitam verilməsini tələb etmiş və məhkəmələr tərəfindən Əmək Məcəlləsinin 69-cu maddəsinin 4-cü hissəsinə müvafiq olaraq bu müddət bitənədək ərizəsini geri götürməsi və ya onun etibarsız hesab edilməsi barədə işəgötürənə yeni ərizə verməsi halı müəyyən olunmamışdır.

Belə olan halda, bu tarixdən sonra iddiaçı ilə əmək münasibətlərinin davam etdirilməsi üçün əsas qalmırdı və işəgötürən ona xərədarlıq müddəti bitənədək olan dövr üçün əmək haqqı ödəmək vəzifəsi daşıyır. Ona görə də, iddiaçı işdən azad olunma barədə əmrin verildiyi tarixdən xəbərdarlıq müddətinin bitdiyi tarixədək işə bərpa edilmiş hesab edilməli və həmin müddət üçün ona məcburi işburaxma günlərinə görə əmək haqqı ödənilməlidir.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-415/2025

26.02.2025-ci il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi
Mülki kollegiyasının

İddiaçının cavabdeh "XXX" Məhdud Məsuliyyətli Cəmiyyətinə, (mübahisə predmeti barəsində müstəqil tələb irəli sürməyən üçüncü şəxs qismində Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti cəlb edilməklə) qarşı iş üzrə

Q Ə R A R I

Açar sözlər: işçinin əmək müqaviləsini ləğv etmək barədə ərizəsi üzrə xəbərdarlıq müddətinin müəyyən olunmasının hüquqi məqsədləri, xəbərdarlıq müddəti bitənədək ərizəsini geri götürülməməsi və ya etibarsız hesab edilməməsinin nəticələri.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyası, hakimlər Şəfiyev İspəndiyar Əsəd oğlu (məruzəçi), Əhmədov Əhməd Abbas oğlu və Həsənov Vüqar Təvəkgül oğlundan ibarət tərkibdə,

İddiaçının cavabdeh "XXX" Məhdud Məsuliyyətli Cəmiyyətinə qarşı (mübahisə predmeti barəsində müstəqil tələb irəli sürməyən üçüncü şəxs qismində Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti cəlb edilməklə) "əmrin ləğv edilməsi, işə bərpa olunması, məcburi işburaxmaya görə əmək haqqının ödənilməsi" tələbinə dair mülki iş üzrə Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 8 oktyabr 2024-cü il tarixli 2(103)-4767/2024 nömrəli qətnaməsindən cavabdeh tərəfindən verilmiş kassasiya şikayətinə Azərbaycan Respublikası Ali Məhkəməsinin inzibati binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları

1. İşəgötürən "XXX" Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra - "XXX" MMC və ya işəgötürən) ilə işçi İddiaçı arasında xx.xx.2023-cü il tarixdə bağlanmış əmək müqaviləsinə əsasən İddiaçı hüquqşünas vəzifəsinə qəbil edilmiş, əmək müqaviləsi müddətsiz bağlanmışdır.

2. "İşçinin yazılı izahat yazmaqdan imtina etməsi haqqında" xx.xx.2023-cü il tarixli,*** nömrəli aktda qeyd edilmişdir ki, xx.xx.2023-cü il tarixdə, müəssisənin hüquqşünası İddiaçından xx.xx.-cü il tarixində müəssisənin rəhbərinə yalan məlumat verdiyinə dair şifahi şəkildə yazılı surətdə izahat verməsi tələb edilmiş, lakin İddiaçı izahat verməkdən imtina etmişdir. Akt "XXX" MMC-nin direktoru, kadrlar şəbəsinin əməkdaşı və baş mühasib tərəfindən imzalanıb müəssisənin möhürü ilə təsdilənmişdir.

3. "XXX" MMC-nin "Əmək funksiyası və fəaliyyəti ilə əlaqədar araşdırma haqqında" xx.xx.2023-cü il tarixli, K** nömrəli əmrində qeyd edilmişdir ki, müəssisənin hüquqşünası İddiaçı xx.xx.2023-cü il tarixdə rəhbərliyə səhv məlumat təqdim etmişdir, daha öncə də oxşar hadisələr və pozuntular yaşanmışdır. Şirkətin iş mühitinə, işçi heyətinə mənfi təsir göstərərək, müəssisədaxili intizam qaydalarını kobud şəkildə pozması və işində verdiyi digər nöqsanları müəyyən etmək üçün əmək fəaliyyətinin yoxlanılması ilə əlaqədar işçinin əmək funksiyaları və fəaliyyətinə dair araşdırma aparılsın.

4. İddiaçı "XXX" MMC-nin direktoruna ünvanladığı xx.xx.2024-cü il tarixli ərizəsində, onunla bağlanmış əmək müqaviləsinə xx.xx.2024-cü il tarixindən öz xahişi ilə xitam verilməsini xahiş etmişdir.

5. "İşçinin iş yerində öz həmkarlarına və müdiriyyətə qarşı aqressiv davranışı haqqında" xx.xx.2024-cü il tarixli, ** nömrəli aktda qeyd edilmişdir ki, xx.xx.2024-cü il tarixdə cəmiyyətin hüquqşünası İddiaçı öz xahişi ilə əmək müqaviləsinə xitam verilməsinə dair ərizəsini təqdim etdikdən sonra əmək vəzifələrini kobud şəkildə pozaraq əmək müqaviləsi ilə müəyyən edilmiş əmək funksiyasını keyfiyyətsiz və tam yerinə yetirməməklə yanaşı müdiriyyət və öz həmkarları ilə aqressiv davranaraq şirkətin iş mühitinə, işçi heyətinə mənfi təsir göstərmişdir.

6. "XXX" MMC-nin xx.xx.2024-cü il tarixli qərarında qeyd edilmişdir ki, İddiaçının müəssisədaxili intizam qaydalarını pozması, özünün əmək funksiyasını və müqavilə üzrə öhdəliklərini yerinə yetirməməsi, əmək vəzifələrini kobud şəkildə pozması Azərbaycan Respublikası Əmək Məcəlləsinin 70ci maddəsinin "ç" bəndinə uyğun olaraq qiymətləndirilir, lakin işçinin gələcək iş fəaliyyəti və xx.xx.2024-cü il tarixli işdən azad olma ərizəsi də nəzərə alınaraq, humanist yanaşma göstərilərək öz vəzifəsindən vaxtından əvvəl azad edilsin.

7. xx xx 2024-cü il tarixli "İntizam tənbehi barədə" aktda qeyd edilmişdir ki, "XXX" MMC-nin hüquqşünası, İddiaçı işinə məsuliyyətsiz yanaşaraq, müəssisənin rəhbərliyinə düzgün olmayan məlumatlar təqdim etmiş, şirkətə həm maddi, həm mənəvi ziyan vurmuşdur. Bununla bağlı İddiaçıə şifahi xəbərdarlıq verilmiş və 30 manat məbləğində cərimə tətbiq ediləcəyi barədə məlumatlandırılmışdır. İddiaçı akta imza etməklə xx.xx.2024-cü il tarixdə tanış olmuş və öz etirazına dair qeydlərini yazılı şəkildə akta qeyd etmişdir.

8. “XXX” MMC-nin xx xx 2024-cü il tarixli, ***** saylı “İntizam tənbehinin verilməsi haqqında” əmri ilə xx xx 2024-cü il tarixli “İntizam tənbehi barədə” akta əsasən müəssisənin hüquqşünası İddiaçıin 30 manat məbləğində cərimə edilməsi, Yeni il və Dünya Azərbaycanlılarının həmrəyliyi günü münasibətilə cərimənin 2024-cü ilin yanvar ayı üzrə əmək haqqından tutulması əmr edilmişdir.

9. “XXX” MMC-nin xx xx 2024-cü il tarixli *** saylı əmri ilə İddiaçı haqqında xx xx 2024-cü il tarixli, ****** saylı ”İntizam tənbehinin verilməsi haqqında” əmr və işdən çıxma barədə ərizəsi nəzərə alınaraq, onunla bağlanmış əmək müqaviləsinə Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin “a” bəndinə (tərəflərdən birinin təşəbbüsü ilə) əsasən xx.xx.2024-cü il tarixindən xitam verilmiş, xx.xx.2023-cü il tarixindən xx.xx.2024-cü il tarixinə qədər istifadə edilməmiş 10 məzuniyyət gününün son haqq-hesabının qanunvericiliyə uyğun şəkildə hesablanıb ödənilməsi Maliyyə Şöbəsinə həvalə edilmişdir.

10. xx.xx.2024-cü il tarixli haqq-hesab vərəqəsinə görə İddiaçına xx.xx.2023-cü il tarixindən xx.xx.2024-cü il tarixinə qədər istifadə edilməmiş 10 məzuniyyət günü üzrə 382,56 manat məbləğində son haqq-hesabın ödənilməsi nəzərdə tutulmuşdur.

11. İddiaçı ona inzibati tənbeh verilməsi barədə əmrin və əmək müqaviləsinə xitam verilməsi barədə əmrin ləğv edilməsi ilə bağlı xx.xx.2024-cü il tarixdə mediasiya təşkilatına müraciət etmişdir.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a) Birinci instansiya məhkəməsində icraat

12. İddiaçı cavabdeh “XXX” MMC-yə qarşı iddia ərizəsi və sonradan iddia tələbinin dəqiqləşdirilməsi barədə ərizə ilə məhkəməyə müraciət edərək:

- cavabdehin onun barəsində tərtib etdiyi xx.xx.2024-cü il tarixli “İntizam tənbehi barədə” aktın ləğv edilməsi;
- cavabdehin onun barəsində qəbul etdiyi xx.xx.2024-cü il tarixli “İntizam tənbehinin verilməsi haqqında” *** saylı əmrin ləğv edilməsi;
- həmin əmrin verilməsi ilə əlaqədar onun əmək haqqından tutulmuş 30 manat məbləğində pulun cavabdehdən alınaraq ona ödənilməsi;
- onunla bağlanmış əmək müqaviləsinə xitam verilməsi barədə MMC-nin xx.xx.2024-cü il tarixli, ** saylı əmrinin ləğv edilməsi;
- onun əvvəlki vəzifəsinə - MMC-nin hüquqşünası vəzifəsinə əvvəlki əmək haqqı ilə bərpa edilməsi;
- məcburi iş buraxma müddəti üçün hesablanmış əmək haqqının cavabdehdən onun xeyrinə tutulması;
- mediasiya təşkilatına müraciəti ilə əlaqədar çəkdiyi xərcin - 61 manat məbləğində pulun cavabdehdən onun xeyrinə tutulması barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

13. İddia tələbi işin yuxarıda qeyd olunan hallarına istinadla belə əsaslandırılmışdır ki, MMC-nin fəaliyyəti yerli və xarici hüquqi və fiziki şəxslərə konsaltinq xidmətinin göstərilməsindən ibarətdir. Xidmətin göstərilməsi ilə əlaqədar İddiaçı MMC-nin hüquqşünası olaraq mütəmadi olaraq notariat orqanlarına müraciət etməli olub. Bu cür müraciətlərdən biri də xx.xx.2023-cü il tarixdə olmuşdur. Belə ki, MMC-nin baş direktoru X1 qeyd olunan tarixdə İddiaçıya Yasamal rayonunda yerləşən 23 saylı Notariat Ofisinə yaxınlaşmalı olduğunu və müştəri üçün “Təsis payının alğı-satqı müqaviləsini” bağlamalı olduğunu bildirmişdir. MMC-nin yerləşdiyi ünvan ilə 23 saylı Notariat Ofisinin arasındakı məsafənin uzaq olması, həm də yollarda tıxac olması səbəbindən İddiaçı həmin Notariat Ofisinə nəzərdə tutulan vaxtdan gec çatmışdır. Gecikməyə baxmayaraq, müqavilə elə həmin gün bağlanmışdır. Lakin rəhbərlik tərəfindən şifahi qaydada İddiaçıya cərimə tətbiq olunacağı və əmək haqqından tutulma ediləcəyi bildirilmişdir. Daha sonra dekabr ayının əmək haqqısı İddiaçının bank kartına köçürüldüyü zaman hər hansı bir tutulma edilməmişdir. Bu səbəbdən də İddiaçı məsələnin artıq unudulduğunu və bir daha baş vermiş halın müzakirə edilməyəcəyini düşünsə də,

işəgötürən tərəfindən yanvar ayının əmək haqqı fevral ayının 6-da köçürüldüyü zaman, əmək haqqından 30 manat tutulmuşdur. İddiaçı işəgötürənə tutulmanın hüquqazidd olduğunu və Dövlət Əmək Müfəttişliyi Xidmətinə şikayət edəcəyinə dair məlumat vermiş, lakin o, buna heç bir əhəmiyyət verməmişdir. İşəgötürən tərəfindən əmək haqqından tutulma aparılmazdan əvvəl ona yazılı izahatın verilməsi üçün müraciət olunmayıb və yaxud da tərəfindən yazılı izahatın verilməsindən imtina edilməsi ilə bağlı hal olmayıb. Bununla yanaşı, intizam tənbehinin tətbiqi zamanı Əmək Məcəlləsinin 187-ci maddənin 2ci bəndinin də tələbləri pozulmuşdur. Həmçinin MMC tərəfindən Əmək Məcəlləsinin 189.3cü və 205.1-ci maddəsinin müddəaları da pozulmuşdur. Belə ki, intizam tənbehi işəgötürənin əmri (sərəncamı, qərarı) ilə verilir. İşçi həmin əmrlə (sərəncamla, qərarla) tanış edilməli və onun tələbi ilə əmrin surəti ona təqdim olunmalıdır. İşəgötürənə vurduğu ziyanın məbləği işçinin orta əmək haqqından çox deyildirsə, onun tutulması işəgötürənin əmri (sərəncamı, qərarı) ilə həyata keçirilir. MMC tərəfindən əmək haqqından tutulma edildiyi zaman heç bir əmr tərtib olunmamışdır. Elə bu səbəbdən də İddiaçı hər hansı əmrlə tanış edilməmiş və əmrin surətini əldə edə bilməmişdir. İşəgötürən yalnız şifahi qaydada cərimə tətbiq olunacağını bildirmiş və əmək haqqından tutulmanı həyata keçirmişdir. xx.xx.2024-cü il tarixində isə MMC tərəfindən "İntizam tənbehi barədə" akt və **** saylı "İntizam tənbehinin verilməsi haqqında" əmr verilmiş, Əmək Məcəlləsinin 186.2-ci maddəsi nəzərə alınaraq 30 manat cərimə edilmişdir. Göründüyü kimi əvvəlcə, yəni xx.xx.2024-cü il tarixində intizam tənbehi, yəni əmək haqqından 30 manat tutulma icra edilmiş, bundan 3 gün sonra isə, yəni xx.xx.2024-cü il tarixdə cəriməni hüquqi baxımdan əsaslandırmaq məqsədi ilə akt və əmr rəsmiləşdirlmişdir. Əmrdə İddiaçının işinə məsuliyyətsiz yanaşmağı səbəbindən MMC-yə həm maddi, həm də mənəvi ziyan vurduğu bildirilsə də, maddi və ya mənəvi ziyanın nədən ibarət olmağına dair məlumat verilməmişdir. Ziyanın məzmununun qeyri-müəyyən olması səbəbindən cərimənin hansı əsasla və hansı səbəbdən 30 manat məbləğində təyin edilməsi də bəlli deyil. xx.xx.2024cü il tarixində İddiaçı ərizə ilə MMC-nin rəhbərinə müraciət edərək xx.xx.2024-cü il tarixindən öz xahişi ilə əmək müqaviləsinə xitam verilməsini xahiş etmiş, lakin MMC-nin baş direktoru tərəfindən xx.xx.2024-cü il tarixində əmr verilmişdir ki, İddiaçı ilə bağlanmışə əmək müqaviləsinə xx.xx.2024-cü il tarixindən tərəflərdən birinin təşəbbüsü ilə xitam verilsin. Əmrdə qeyd edilmişdir ki, əmrin verilməsinə əsas İddiaçının xx.xx.2024-cü il tarixli ərizəsi olmuşdur. Göründüyü kimi işəgötürən əmək müqaviləsinə İddiaçının ərizəsində qeyd edilən xx.xx.2024-cü il tarixdən deyil, ərizənin yazıldığı xx.xx.2024-cü il tarixdən xitam verməklə Əmək Məcəlləsinin 69.1-ci maddəsinin tələblərini kobud surətdə pozmuşdur.

14. Məhkəmə iclasında iştirak edən cavabdeh "XXX" Məhdud Məsuliyyətli Cəmiyyətinin nümayəndəsi və vəkili izahatında bildirmişdir ki, İddiaçı öz xahişi ilə əmək müqaviləsinə xitam verilməsi barədə işəgötürənə ərizə ilə müraciət etdikdən sonra, davranışında işə laqeyd münasibət göstərməsi müşahidə edilmişdir. Onun hərəkətləri kollektivin digər üzvlərinə neqativ təsir göstərmişdir. Rəhbərlik tərəfindən İddiaçının əmək karyerasının korlanmaması üçün İddiaçı ilə bağlanmış əmək müqaviləsinin Əmək Məcəlləsinin 70-ci maddəsinin "ç" bəndinə əsasən ləğv edilməməsi qərara alınmışdır. İşçinin yol verdiyi kobud pozuntularla bağlı sübutlar məhkəməyə təqdim edilmişdir. xx xx 2024-cü il tarixli akt və qərarla bağlı bildirmək istəyir ki, o, həmin sənədlərin tərtib edilməsində iştirak etməmişdir. Onların hansı səbəbdən qeyri-iş günündə tərtib edilməsi ilə bağlı suala cavab verə bilmir.

15. Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin 11 iyun 2024-cü il tarixli, e-2(004)2459/2024 nömrəli qətnaməsi ilə (hakim Xudayev Kərim) iddia təmin edilərək, cavabdeh MMC-nin xx xx 2024-cü il tarixli "İntizam tənbehi barədə" aktı və xx xx 2024-cü il tarixli, **** saylı "İntizam tənbehinin verilməsi haqqında" əmrinin ləğv edilməsi, əmrin verilməsi ilə əlaqədar İddiaçının əmək haqqından tutulmuş 30 manat məbləğində pulun cavabdeh MMC-dən alınaraq İddiaçıya ödənilməsi, cavabdeh MMC-nin xx xx 2024-cü il tarixli *** saylı əmrinin ləğv edilməsi və İddiaçının əvvəlki iş yerinə və vəzifəsinə bərpa edilməsi, xx xx 2024-cü il

tarixdən işə bərpa olunduğu günə qədər məcburi iş buraxma müddəti üçün hesablanmış əmək haqqının cavabdeh MMC tərəfindən İddiaçıya ödənilməsi, ödənilmiş mediasiya xərcinin əvəzi kimi 61 manat məbləğdə pulun cavabdeh MMC-dən alınaraq İddiaçıya ödənilməsi qət edilmişdir.

16. Birinci instansiya məhkəməsi iddia tələbinin «cavabdeh "XXX" MMC-nin xx xx 2024-cü il tarixli "İntizam tənbehi barədə" aktı və xx xx 2024-cü il tarixli, **** saylı "İntizam tənbehinin verilməsi haqqında" əmrinin ləğv edilməsi, əmrin verilməsi ilə əlaqədar İddiaçının əmək haqqından tutulmuş 30 manat məbləğində pulun cavabdeh "XXX" MMC-dən alınaraq İddiaçına ödənilməsi» hissəsinə münasibət bildirərək qeyd edib ki, İddiaçının yanvar ayı üzrə əmək haqqından Əmək Məcəlləsinin 205-ci maddəsinin birinci hissəsinin tələbləri pozularaq işəgötürənin müvafiq xx.xx.2024-cü il tarixli əmrindən öncə xx.xx.2024-cü il tarixdə 30 manat məbləğində cərimə tutulmuşdur. Odur ki, Əmək Məcəlləsinin işçiyə intizam tənbehinin tətbiq edilməsi ilə bağlı normaları işəgötürən tərəfindən pozulmuş, intizam tənbehi işəgötürənin əmri olmadan tətbiq edilmiş, işçi cərimə olunduqdan 3 gün sonra intizam tənbehi ilə bağlı əmr verilmişdir. Bununla yanaşı, işçinin xx.xx.2024-cü il tarixdə 30 manat məbləğində cərimə olmasına səbəb olan pozuntunun nədən ibarət olması birbaşa olaraq heç bir sənəddə göstərilməmişdir. "XXX" MMC-nin "İşçinin iş yerində öz həmkarlarına və müdiriyyətə qarşı aqressiv davranışı haqqında" xx.xx.2024-cü il tarixli, *** nömrəli aktında, xx.xx.2024-cü il tarixli qərarında isə xx.xx.2024-cü il tarixində cəmiyyətin hüquqşünası İddiaçının öz xahişi ilə əmək müqaviləsinə xitam verilməsinə dair şəxsi ərizəsini təqdim etdiyi, lakin təqdim etdikdən sonra əmək vəzifələrini kobud şəkildə pozaraq əmək müqaviləsi ilə müəyyən edilmiş əmək funksiyasını keyfiyyətsiz və tam yerinə yetirməməklə yanaşı müdiriyyət və öz həmkarları ilə aqressiv davranaraq şirkətin iş mühitinə, işçi heyətinə mənfi təsir göstərdiyi qeyd edilmişdir. Məhkəmə qeyd edib ki, Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 07 dekabr 2023-cü il tarixli Sərəncamına əsasən növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri elan edilmiş, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına növbədənkənar Azərbaycan

Respublikası Prezidenti seçkilərinin 2024-cü il fevralın 7-nə təyin olunması və Azərbaycan Respublikasının Seçki Məcəlləsində müəyyən edilmiş qaydada keçirilməsinin təmin edilməsi tapşırılmışdır. Əmək Məcəlləsinin 105-1-ci maddəsinə əsasən Azərbaycan Respublikası Milli Məclisi deputatlarının, Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikasında bələdiyyə üzvlərinin seçkiləri, həmçinin referendum zamanı səsvermə günü seçki (referendum) keçirilən ərazidə iş günü hesab edilmir. Səsvermə günü qanunvericiliyə uyğun olaraq müəyyən edilir. Göründüyü kimi MMC-nin "İşçinin iş yerində öz həmkarlarına və müdiriyyətə qarşı aqressiv davranışı haqqında" ** nömrəli aktı xx.xx.2024-cü il tarixində - qeyri-iş günündə tərtib olunmuşdur. Məhkəmə iclasında iştirak edən cavabdehin nümayəndəsi və vəkili isə hakimin məhkəmə iclasında hakimin həmin aktın hansı səbəbdən qeyri-iş günündə tərtib edilməsi ilə bağlı sualına cavab verə bilməmişdir. xx.xx.2024-cü il tarixində baş verdiyini iddia etdiyi pozuntuya görə qeyri-iş günündə işçiyə qarşı belə bir aktların, qərarların tərtib olunması işçiyə olan qərəzli münasibətin göstəricisidir.

17. Məhkəmə həmçinin qeyd edib ki, MMC-nin xx xx 2024-cü il tarixli, *** saylı "İntizam tənbehinin verilməsi haqqında" əmrinə əsasən, müvafiq intizam tənbehi xx.xx.2023-cü il tarixində İddiaçının işinə məsuliyyətsiz yanaşaraq müəssisənin rəhbərliyinə düzgün olmayan məlumatlar təqdim etməsi, şirkətə həm maddi, həm də mənəvi ziyan vurulması ilə əlaqədar olaraq verilmişdir. Əmək Məcəlləsinin 187.2-ci maddəsində qeyd edilmişdir ki, intizam tənbehi, işçi tərəfindən əmək və ya icra intizamının pozulduğu aşkar edildiyi gündən bir ay keçənədək verilə bilər. Lakin işəgötürən qanunvericiliyin qeyd edilən normasını pozaraq, qeyd etdiyi intizam xətası baş verdiyi gündən bir aydan çox müddət keçdikdən sonra, yəni xx.xx.2023-cü il tarixində baş vermiş intizam xətasına görə xx.xx.2024-cü il tarixində intizam tənbehi vermişdir.

18. Birinci instansiya məhkəməsi iddia tələbinin «cavabdehin xx xx 2024-cü il tarixli ** saylı əmrin ləğv edilməsi, İddiaçının eyni məbləğdə əmək haqqı ilə hüquqşünas vəzifəsinə bərpa edilməsi; məcburi iş buraxma müddəti üçün hesablanmış əmək haqqının cavabdeh tərəfindən iddiaçya ödənilməsi» hissəsinə münasibət bildirərək qeyd etmişdir ki, İddiaçının MMC-nin direktoruna ünvanladığı xx.xx.2024-cü il tarixli ərizəsindən də görünür ki, o, əmək müqaviləsinə xx.xx.2024-cü il tarixindən öz xahişi ilə xitam verilməsini xahiş etmişdir. Buna baxmayaraq, işəgötürən əmək müqaviləsinə xitam verilməsi ilə bağlı əmri xx.xx.2024-cü il tarixdə vermiş, qanunvericilikdə nəzərdə tutulmuş 1 aylıq xəbərdarlıq müddətinin bitməsini gözləməmişdir. Cavabdeh xəbərdarlıq müddətini gözləməmisinin səbəbi kimi işçinin xx.xx.2024-cü il tarixində öz xahişi ilə əmək müqaviləsinə xitam verilməsinə dair ərizə təqdim etdikdən sonra əmək vəzifələrini kobud şəkildə pozaraq əmək müqaviləsi ilə müəyyən edilmiş əmək funksiyasını keyfiyyətsiz və tam yerinə yetirməməklə yanaşı müdiriyyət və öz həmkarları ilə aqressiv davranaraq şirkətin iş mühitinə, işçi heyətinə mənfi təsir göstərməsi ilə əlaqələndirmiş və MMC qeyri-iş günündə tərtib etdiyi xx.xx.2024-cü il tarixli qərarında qeyd etmişdir ki, İddiaçı müəssisədaxili intizam qaydalarını pozması, özünün əmək funksiyasını və müqavilə üzrə öhdəliklərini yerinə yetirməməsi, əmək vəzifələrini kobud şəkildə pozması Əmək Məcəlləsinin 70-ci maddəsinin "ç" bəndinə uyğun olaraq qiymətləndirilir, lakin işçinin gələcək iş fəaliyyəti və xx.xx.2024-cü il tarixli işdən azad olma ərizəsi də nəzərə alınaraq humanist yanaşma göstərilərək öz vəzifəsindən vaxtından əvvəl azad edilsin.

19. Məhkəmə bununla bağlı qeyd etmişdir ki, Əmək Məcəlləsinin 76-cı maddəsinin 2ci hissəsinə əsasən əmək müqaviləsinə eyni zamanda iki və daha artıq əsasla, həmçinin qanunvericilikdə nəzərdə tutulmayan əsasla, habelə bu Məcəllə ilə müəyyən edilmiş əmək müqaviləsinin ləğv edilməsi qaydalarına əməl olunmadan xitam verilə bilməz. Bu baxımdan işəgötürən əgər işçinin əmək müqaviləsinə işçinin ərizəsi əsasında xitam verirsə, digər əsaslara istinad edib işçinin öz ərizəsi əsasında əmək müqaviləsinə xitam verilməsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş tələbləri poza bilməz. MMC-nin xx xx 2024-cü il tarixli ** saylı əmri ilə hüquqşünas vəzifəsində işləyən İddiaçı haqqında xx xx 2024-cü il tarixli, ***** saylı "İntizam tənbehinin verilməsi haqqında" əmr və işdən çıxma barədə onun ərizəsi nəzərə alınaraq hüquqşünas vəzifəsində işləyən İddiaçı ilə bağlanmış ***** nömrəli əmək müqaviləsinə Əmək Məsəlləsinin 68.2 "a" – tərəflərdən birinin təşəbbüsü maddəsinə əsasən xx.xx.2024-cü il tarixindən xitam verilmişdir. Öz ərizəsi əsasında işdən çıxarılan işçi barəsində verilmiş əmək müqaviləsinə xitam verilməsi barədə əmrdə "İntizam tənbehinin verilməsi haqqında" əmrin əsas kimi göstərilməsi yolverilməz hesab edilməlidir. Bu baxımdan məhkəmə ƏM-nin 300.1-ci maddəsini rəhbər tutaraq hesab etmişdir ki, cavabdeh "XXX" MMC-nin xx xx 2024-cü il tarixli *** saylı əmri ləğv edilməli, İddiaçı əvvəlki iş yerinə və vəzifəsinə bərpa edilməli, habelə xx xx 2024-cü il tarixdən işə bərpa olunduğu günə qədər məcburi iş buraxma müddəti üçün hesablanmış əmək haqqı cavabdeh "XXX" MMC tərəfindən İddiaçına ödənilməlidir.

20. Məhkəmə gəldiyi nəticəni Azərbaycan Respublikası Əmək Məcəlləsinin 68.2-ci maddəsinin "a" bəndinə, 69, 83.1, 83.2, 84, 300.1-ci maddələrinə, Azərbaycan Respublikası Mülki Prosesual Məcəlləsinin 14.2, 77.1, 218.3-cü istinadla əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsində icraat

21. Cavabdeh apellyasiya şikayəti verərək qətnamənin ləğv edilməsini, iddianın rədd olunmasını xahiş etmişdir.

22. Apellyasiya şikayəti onunla əsaslandırılmışdır ki, dekabr ayında hadisə baş verdikdən sonra İddiaçıdan yazılı surətdə izahat verməsi tələb edilmiş, lakin o izahat verməkdən imtina etmişdir. xx.xx.2023-cü il tarixli ** nömrəli əmrlə onun əmək fəaliyyətinin yoxlanılması ilə əlaqədar işçinin əmək funksiyaları və fəaliyyətinə dair araşdırma aparılması qərara alınmışdır. Barəsində görülmüş intizam tənbehindən sonra, onun davranışında, rəhbərliklə münasibətində və işə yanaşmasında kəskin dəyişiklik olmuşdur. Bu barədə ona rəhbərlik tərəfindən dəfələrlə

şifahi xəbərdarlıq edilmişdir. İddiaçı öz xahişi ilə tərəflər arasında bağlanmış əmək müqaviləsinə xitam verilməsi barədə ərizə təqdim etdikdən sonra Əmək Məcəlləsinin 72-ci maddəsində nəzərdə tutulmuş əmək vəzifələrini kobud şəkildə pozaraq əmək müqaviləsi ilə müəyyən edilmiş əmək funksiyasını keyfiyyətsiz və tam yerinə yetirməməklə yanaşı müdiriyyət və həmkarları ilə aqressiv davranaraq şirkətin iş mühitinə və işçi heyətinə mənfi təsir göstərməsi müəyyən edilmişdir. Həmin akta əsasən xx.xx.2024-cü il tarixdə işçidən izahat yazması tələb edilmiş, lakin işçi izahat yazmaqdan imtina etmişdir. xx.xx.2024-cü il tarixli qərara əsasən İddiaçının öz əmək funksiyasını və müqavilə öhdəliklərini yerinə yetirməməsi, əmək vəzifələrini kobud şəkildə pozması Əmək Məcəlləsinin 70-ci maddəsinin "ç" bəndinə uyğun olaraq qiymətləndirilsə də İddiaçının bir işçi kimi gələcək iş fəaliyyəti nəzərə alınaraq humanist yanaşma göstərilmiş və işçinin öz vəzifəsindən vaxtından öncə azad edilməsi qərara alınmışdır. xx.xx.2024-cü il tarixində isə MMC tərəfindən "İntizam tənbehi barədə" akt və **** saylı "İntizam tənbehinin verilməsi haqqında" əmr verilmişdir. Əmrdə Əmək Məcəlləsinin 186.2-ci maddəsi nəzərə alınaraq araşdırılmanın nəticəsi əsasında yanvar ayının maaşından 30 manat cərimənin tutulması qətiləşdirilmişdir. MMC-nin baş direktoru tərəfindən xx.xx.2024-cü il tarixində ** saylı daha bir əmr verilmişdir ki, İddiaçı ilə bağlanmış "Əmək müqaviləsinə" xx.xx.2024-cü il tarixindən tərəflərdən birinin təşəbbüsü (Əmək Məcəlləsinin 68.2-ci maddəsinin "a" bəndi) ilə xitam verilsin.

23. Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 8 oktyabr 2024-cü il tarixli, 2(103)-4767/2024 nömrəli qətnaməsi ilə apellyasiya şikayəti təmin edilməmiş, birinci instansiya məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmışdır (hakimlər – Məmməd Məmmədov (sədrlik edən və məruzəçi), Fuad Talışinski və Azad İmanov).

24. Məhkəmə kollegiyasının mövqeyi ondan ibarət olmuşdur ki, Əmək Məcəlləsinin işçiyə intizam tənbehinin tətbiq edilməsi ilə bağlı nəzərdə tutulmuş normaları baxımından İddiaçıya tətbiq edilmiş intizam tənbehi işəgötürən tərəfindən qanunvericiliyin bir sıra tələbləri pozulmuşdur. Çünki intizam tənbehi işəgötürənin əmri olmadan tətbiq edilmiş, işçi cərimə olunduqdan 3 gün sonra intizam tənbehi ilə bağlı əmr verilmişdir. Bununla yanaşı, işçinin xx.xx.2024-cü il tarixdə 30 manat məbləğində cərimə olmasına səbəb olan pozuntunun nədən ibarət olması birbaşa olaraq heç bir sənəddə göstərilməmişdir.

25. Cavabdeh MMC-nin apellyasiya şikayətində "İşçinin iş yerində öz həmkarlarına və müdiriyyətə qarşı aqressiv davranışı haqqında" aktında və qəbul etdiyi qərarında MMCnin hüquqşünasının – İddiaçının öz xahişi ilə əmək müqaviləsinə xitam verilməsinə dair ərizəsini təqdim etdiyi, lakin təqdim etdikdən sonra əmək vəzifələrini kobud şəkildə pozaraq əmək müqaviləsi ilə müəyyən edilmiş əmək funksiyasını keyfiyyətsiz və tam yerinə yetirməməklə yanaşı müdiriyyət və öz həmkarları ilə aqressiv davranaraq şirkətin iş mühitinə, işçi heyətinə mənfi təsir göstərdiyi" fikrinə münasibətdə məhkəmə qeyd etmişdir ki, həmin gün növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçki günü və qeyri-iş günü elan edilmişdir.

26. Bundan əlavə, intizam tənbehi, işçi tərəfindən əmək və ya icra intizamının pozulduğu aşkar edildiyi gündən bir ay keçənədək verilə bilər. Lakin işəgötürən qanunvericiliyin qeyd edilən normasını pozaraq, qeyd etdiyi intizam xətası baş verdiyi gündən bir aydan çox müddət keçdikdən sonra, yəni xx.xx.2023-cü il tarixində baş vermiş intizam xətasına görə xx.xx.2024-cü il tarixində intizam tənbehi vermişdir.

27. Bu baxımdan qəbul edilməlidir ki, cavabdeh MMC-nin "İntizam tənbehi barədə" aktı və "İntizam tənbehinin verilməsi haqqında" əmri ləğv edilməli və əmrin verilməsi ilə əlaqədar İddiaçının əmək haqqından tutulmuş 30 manat məbləğində pulun cavabdehdən alınaraq İddiaçıya ödənilməsi barədə tələb də əsaslıdır.

28. Apellyasiya instansiya məhkəməsi gəldiyi nəticəni Azərbaycan Respublikası Əmək Məcəlləsinin 10, 68-ci maddəsinin 2-ci hissəsinin "a", 69, 79, 105-1, 186, 187, 189.3, 205,

300.1-ci maddələrinə, Azərbaycan Respublikası Mülki Prosesual Məcəlləsinin 384.0.1, 385.2-ci istinadla əsaslandırmışdır.

Kassasiya şikayətinin və ona qarşı etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

29. Cavabdeh kassasiya şikayəti verərək apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv edilməsini xahiş etmişdir.

30. Kassasiya şikayətin dəlliləri apellyasiya şikayətin dəlliləri ilə eynilik təşkil edir və apelyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının pozulduğu bildirilir.

31. Kassator şikayətini Əmək Məcəlləsinin 10, 70-ci maddəsinin "ç" bəndinə 72-ci maddəsinin "e" bəndinə, 186-cı maddəsinin 1ci, 2-ci və 3-cü bəndinə, 205.1-ci maddəsinə və Mülki Prosessual Məcəlləsinin 217.1-ci maddəsinə istinad etməklə əsaslandırmışdır.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

32. Kassasiya şikayətinə qarşı yazılı etiraz daxil olmamışdır.

Kassasiya baxışının hədləri

33. Qanunun tələbinə görə, kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

34. Apellyasiya instansiyası məhkəməsinin qətnaməsi cavabdeh tərəfindən tam mübahisələndirildiyindən hazırki kassasiya baxışının hədlərini apellyasiya instansiyası məhkəmsinin qətnaməsinin qanuniliyinin tam yoxlanılması təşkil edir.

Tətbiq edilən hüquq

Azərbaycan Respublikasının Əmək Məcəlləsi

35. Maddə 2. Azərbaycan Respublikası Əmək Məcəlləsinin vəzifələri və prinsipləri

...

3. Azərbaycan Respublikasının Əmək Məcəlləsi (bundan sonra ismin müvafiq hallarında «bu Məcəllə») əmək münasibətlərində tərəflərin:

hüquq bərabərliyinin təmin edilməsi;

mənafelərinin haqq-ədalətlə və qanunun aliliyinin təmin olunması ilə qorunması;

...

əsasən əmək müqaviləsi (kontrakt) üzrə öhdəliklərinin icrasına hüquqi təminat yaradılması prinsiplərinə əsaslanır.

36. Maddə 3. Bu Məcəllədə istifadə edilən əsas anlayışlar

4-1. Əmək münasibətləri – əmək qanunvericiliyində, kollektiv müqavilə və sazişlərdə nəzərdə tutulmuş öhdəliklərə uyğun olaraq işəgötürənlə qarşılıqlı razılıq əsasında müəyyən edilən iş yerində işçi tərəfindən onun işə qəbul (təyin) edildiyi, seçildiyi, bərpa olunduğu peşə və ya vəzifə üzrə əmək funksiyasının əməkhaqqı ödənilməklə şəxsən yerinə yetirilməsinə, daxili intizam qaydalarına riayət edilməsinə, işəgötürən tərəfindən işçinin əmək şəraitinin, təminatlarının və əməyinin mühafizəsinin təmin edilməsinə, habelə bu Məcəllənin prinsiplərinə əsaslanan münasibətlərdir.

37. Maddə 7. Əmək münasibətlərinin qanunvericiliklə və müqavilə bağlamaqla tənzimlənməsi

1. İşçilərin əmək hüquqları və bu hüquqlarla bağlı müvafiq təminatlarının minimum səviyyəsi bu Məcəllənin 1-ci maddəsində göstərilən normativ hüquqi aktlarla müəyyən edilmiş hüquq normaları ilə təmin edilir.

2. Bu Məcəllənin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallar istisna olmaqla, əmək münasibətləri elektron informasiya sisteminə gücləndirilmiş elektron imza vasitəsi ilə daxil edilmiş əmək müqaviləsi bildirişinin qeydiyyata alınmasından və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilməsindən sonra yaranır.

38. Maddə 9. Əmək müqaviləsi üzrə işçinin əsas hüquqları

Əmək müqaviləsi üzrə işçinin aşağıdakı əsas hüquqları vardır:

...

b) əmək müqaviləsinin şərtlərini dəyişdirmək və ya onu ləğv etmək üçün işəgötürənə müraciət etmək;

...

q) əmək hüquqlarının müdafiəsi üçün məhkəməyə müraciət etmək və hüquqi müdafiə olunmaq;

...

39. Maddə 11. İşəgötürənin əsas hüquqları

Əmək münasibətləri sahəsində işəgötürənin aşağıdakı əsas hüquqları vardır:

a. bu Məcəllə ilə müəyyən edilmiş qaydada işçilərlə əmək müqavilələri bağlamaq, onların şərtlərini dəyişdirmək;

b. bu Məcəllə ilə müəyyən edilmiş qaydada və əsaslarla əmək müqavilələrini ləğv etmək;

...

40. Maddə 12. İşəgötürənin əsas vəzifələri və məsuliyyəti

Əmək münasibətləri sahəsində işəgötürənin əsas vəzifələri bunlardır:

a. əmək müqaviləsinin şərtlərinə və onlarda nəzərdə tutulan öhdəliklərə əməl etmək;

b. bu Məcəllənin və əmək qanunvericiliyinə dair digər normativ hüquqi aktların tələblərini yerinə yetirmək;

c. əmək müqavilələrini bu Məcəllədə nəzərdə tutulmuş əsaslarla və qaydada pozmaq;

...

41. Maddə 68. Əmək müqaviləsinə xitam verilməsinin əsasları

1. Əmək müqaviləsinə yalnız bu Məcəllə ilə müəyyən edilmiş əsaslarla və qaydada xitam verilə bilər.

2. Əmək müqaviləsinə xitam verilməsinin əsasları aşağıdakılardır:

a) tərəflərdən birinin təşəbbüsü;

…

42. Maddə 69. Əmək müqaviləsinin işçi tərəfindən ləğv edilməsi qaydası

1. İşçi bir təqvim ayı qabaqcadan işəgötürəni yazılı ərizəsi ilə xəbərdar etməklə əmək müqaviləsini ləğv edə bilər.

2. Ərizə verildiyi gündən bir təqvim ayı bitdikdən sonra işçi işə çıxmamaq və son haqq-hesabının aparılmasını tələb etmək hüququna malikdir. Bu halda işəgötürən işçinin tələblərini yerinə yetirməyə borcludur.

3. İşçi yaşa, əlilliyə görə əmək pensiyasına çıxdıqda, təhsilini davam etdirmək üçün müvafiq təhsil müəssisəsinə daxil olduqda, yeni yaşayış yerinə köçdükdə, başqa işəgötürənlə əmək müqaviləsi bağladıqda, seksual qısnamaya məruz qaldıqda və qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda ərizəsində göstərdiyi gün əmək müqaviləsi ləğv edilə bilər.

4. Əmək müqaviləsini ləğv etmək barədə ərizə vermiş işçi xəbərdarlıq müddəti bitənədək istədiyi vaxt ərizəsini geri götürə və ya onu etibarsız hesab etmək barədə işəgötürənə yeni ərizə verə bilər. Bu halda əmək müqaviləsi ləğv edilə bilməz. Bu şərtlə ki, işəgötürən həmin vəzifəyə (peşəyə) yeni işçinin götürülməsi barədə işçiyə rəsmi qaydada yazılı xəbərdarlıq etməmiş olsun. Əmək müqaviləsi bu maddə ilə müəyyən edilmiş qaydalara əməl olunmaqla ləğv edildikdən sonra işçinin əvvəlki ərizəsini geri götürmək və ya onu etibarsız hesab etmək barədə edilən müraciətin hüquqi qüvvəsi yoxdur.

5. İşçi ərizəsində əmək münasibətlərini dayandırmaq istədiyi günü göstərməyibsə, xəbərdarlıq müddəti bitənədək bu maddə ilə müəyyən edilmiş əsasla əmək müqaviləsinin ləğv edilməsinə yol verilmir.

6. İşçi məzuniyyət hüququndan istifadə etməklə ona müvafiq iş ilinə görə məzuniyyətin verilməsi və məzuniyyət müddətinin qurtardığı gündən əmək müqaviləsinin ləğv edilməsi xahişi ilə işəgötürənə ərizə verə bilər. İşçi məzuniyyət müddəti bitənədək bu maddənin 4-cü hissəsi ilə müəyyən edilmiş qaydada əmək müqaviləsinin ləğv edilməsi barədə ərizəsini geri götürə və ya onu etibarsız hesab etmək barədə işəgötürənə yazılı müraciət edə bilər. Bu halda işçinin xahişi təmin edilməlidir.

7. İşəgötürən tərəfindən zor işlədilərək, hədə-qorxu gələrək, yaxud hər hansı başqa üsulla işçinin iradəsinin əleyhinə əmək müqaviləsini ləğv etməyə onu məcbur etmək qadağandır.

43. Maddə 76. Əmək müqaviləsinin ləğv edilməsini məhdudlaşdıran şərtlər

1. İşəgötürən tərəfindən əmək müqaviləsinə bu Məcəllənin 68, 69, 70, 73, 74 və 75ci maddələrində nəzərdə tutulan əsaslardan yalnız biri ilə xitam verilə bilər.

2. Əmək müqaviləsinə eyni zamanda iki və daha artıq əsasla, həmçinin qanunvericilikdə nəzərdə tutulmayan əsasla, habelə bu Məcəllə ilə müəyyən edilmiş əmək müqaviləsinin ləğv edilməsi qaydalarına əməl olunmadan xitam verilə bilməz.

44. Maddə 300. Əmək müqaviləsinin ləğv edilməsi qaydalarına işəgötürən tərəfindən əməl olunmamasının hüquqi nəticələri

Əgər, işəgötürən əmək müqaviləsinin bu Məcəllənin 68, 69, 70, 73, 74 və 75-ci maddələrində nəzərdə tutulmuş ləğv edilməsi əsaslarını pozaraq və ya 71, 76-cı maddələri ilə müəyyən edilmiş qaydaların tələblərinə əməl etmədən, habelə 79-cu maddəsində nəzərdə tutulmuş hallara əhəmiyyət vermədən işçi ilə əmək münasibətlərinə xitam vermişdirsə, əmək mübahisəsini həll edən məhkəmə iddia ərizəsini və işin faktik hallarını araşdıraraq məcburi iş buraxma müddəti üçün əmək haqqı ödənilməklə işçinin vəzifəsinə bərpa edilməsi barədə qətnamə və ya bu maddənin ikinci hissəsinə müvafiq olaraq tərəflərin barışıq sazişinin təsdiq edilməsi barədə qərardad çıxarır. Məhkəmə qətnamədə işçiyə iddiası üzrə dəymiş zərərin məbləğinin işəgötürən tərəfindən ödənilməsini də nəzərdə tuta bilər.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi

45. Maddə 14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

46. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

47. Maddə 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

48. Maddə 217.1. Məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır.

49. Maddə 217.3. Qətnamə iş üzrə müəyyən edilmiş hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır.

50. Maddə 407.2. Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir.

51. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

52. Maddə 416.2. Apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 418.4-cü maddəsində nəzərdə tutulmuş prosessual hüquq pozuntusu hesab edilən hallara yol verilməsi şikayətin hədlərindən və dəlillərindən asılı olmayaraq yoxlanılmalıdır.

53. Maddə 417.1.4. Kassasiya məhkəməsi işə baxarkən apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadını tamamilə, yaxud qismən ləğv edib apellyasiya instansiyası məhkəməsində müəyyən edilmiş hallar və sübutlar əsasında yeni qərar qəbul edə bilər.

54. Maddə 418.1. Maddi və prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması, o cümlədən maddi və prosessual hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması apellyasiya instansiyası məhkəməsinin qətnamə və qərardadının ləğv edilməsi üçün əsasdır.

Kassasiya instansiya məhkəməsinin mövqeyi

55. Kassasiya instansiyası məhkəməsi hesab edir ki, apellyasiya instansiyası məhkəməsi «“XXX” MMC-nin xx xx 2024-cü il tarixli “İntizam tənbehi barədə” aktı və xx xx 2024-cü il tarixli, *** saylı ”İntizam tənbehinin verilməsi haqqında” əmrinin ləğv edilməsi və əmrin verilməsi ilə əlaqədar İddiaçının əmək haqqından tutulmuş 30 manat məbləğində pulun cavabdehdən alınaraq İddiaçıya ödənilməsi, xx xx 2024-cü il tarixli ** saylı əmrinin ləğv edilməsi» hissəsində işin hallarını araşdırıb sübutlara düzgün hüquqi qiymət vermiş olsa da, «İddiaçının əvvəlki iş yerinə və vəzifəsinə bərpa edilməsi, xx xx 2024-cü il tarixdən işə bərpa olunduğu günə qədər məcburi iş buraxma müddəti üçün hesablanmış əmək haqqının cavabdeh tərəfindən İddiaçıya ödənilməsi» hissəsində maddi hüquq normasının tətbiqində səhvə yol vermişdir.

56. Belə ki, işin məhkəmələr tərəfindən müəyyən olunmuş mübahisəsiz hallarına görə, İddiaçı xx.xx.2023-cü il tarixdə bağlanmış əmək müqaviləsinə əsasən “XXX” MMC-də hüquqşünas vəzifəsinə qəbil edilmiş, əmək müqaviləsinin müddəti müddətsiz olmuşdur.

57. İddiaçı işəgötürənə xx.xx.2024-cü il tarixli ərizə ilə müraciət edərək, onunla bağlanmış əmək müqaviləsinə xx.xx.2024-cü il tarixindən xitam verilməsini xahiş etmişdir. Lakin işəgötürən xx xx 2024-cü il tarixli, *** saylı “İntizam tənbehinin verilməsi haqqında” əmri ilə xx xx 2024-cü il tarixli “İntizam tənbehi barədə” akta əsasən müəssisənin hüquqşünası İddiaçıin 30 manat məbləğində cərimə edilməsi, Yeni il və Dünya Azərbaycanlılarının həmrəyliyi günü münasibətilə cərimənin 2024-cü ilin yanvar ayı üzrə əmək haqqından tutulması əmr edilmişdir. Həmçinin işəgötürənin xx xx 2024-cü il tarixli ** saylı əmri ilə İddiaçının haqqında xx xx 2024-cü il tarixli, *** saylı ”İntizam tənbehinin verilməsi haqqında” əmr və işdən çıxma barədə ərizəsi nəzərə alınaraq, onunla bağlanmış əmək müqaviləsinə Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin “a” bəndinə (tərəflərdən birinin təşəbbüsü ilə) əsasən xx.xx.2024-cü il tarixindən xitam verilmiş, xx.xx.2023-cü il tarixindən xx.xx.2024-cü il tarixinə qədər istifadə edilməmiş 10 məzuniyyət gününün son haqq-hesabının qanunvericiliyə uyğun şəkildə hesablanıb ödənilməsi Maliyyə Şöbəsinə həvalə edilmişdir. xx.xx.2024-cü il tarixli haqq-hesab vərəqəsinə görə İddiaçıya xx.xx.2023-cü il tarixindən xx.xx.2024-cü il tarixinə qədər istifadə edilməmiş 10 məzuniyyət günü üzrə 382,56 manat məbləğində son haqqhesabın ödənilməsi nəzərdə tutulmuşdur. İddiaçı ona inzibati tənbeh verilməsi barədə əmrin və əmək müqaviləsinə xitam verilməsi barədə əmrin ləğv edilməsi ilə bağlı xx.xx.2024-cü il tarixdə mediasiya təşkilatına müraciət etmişdir.

58. İddiaçı cavabdehin onun barəsində verilən əmrləri və hərəkətlərini qanunsuz sayaraq, bu qərarın 12-ci paraqrafında göstərilən iddia tələblərini irəli sürmüş, cavabdeh iddia tələbinə etiraz edərək bildirmişdir ki, İddiaçı öz xahişi ilə əmək müqaviləsinə xitam verilməsi ilə bağlı işəgötürənə ərizə ilə müraciət etdikdən sonra, davranışında işə laqeyd münasibət göstərməsi müşahidə edilmiş, onun hərəkətləri kollektivin digər üzvlərinə neqativ təsir göstərmiş, rəhbərlik tərəfindən İddiaçının əmək karyerasının korlanmaması üçün İddiaçı ilə bağlanmış əmək müqaviləsinin Əmək Məcəlləsinin 70-ci maddəsinin “ç” bəndinə əsasən ləğv edilməməsi qərara alınmışdır.

59. Birinci instansiya məhkəməsi iddia tələbini təmin etmişdir (§ 15).

60. Apellyasiya instansiyası məhkəməsi, « “XXX” MMC-nin xx xx 2024-cü il tarixli “İntizam tənbehi barədə” aktı və xx xx 2024-cü il tarixli, **** saylı ”İntizam tənbehinin verilməsi haqqında”

əmrinin ləğv edilməsi və əmrin verilməsi ilə əlaqədar İddiaçının əmək haqqından tutulmuş 30 manat məbləğində pulun cavabdehdən alınaraq İddiaçıya ödənilməsi» hissəsində iddianı təmin edən birinci instansiya məhkəməsinin mövqeyi və əsaslandırması ilə (§ 16-17) razılaşmışdır.

61. Məhkəmə kollegiyası bu hissədə apelyasiya instansiyası məhkəməsinin gəldiyi nəticə və əsaslandırma ilə tam razılaşır və həmin mövqenin təkrarlanmasına zərurət yoxdur.

62. Məhkəmə kollegiyası, apelyasiya instansiyası məhkəməsinin «Cavabdeh "XXX" MMC-nin xx xx 2024-cü il tarixli ** saylı əmrinin ləğv edilməsi» barədə gəldiyi nəticə ilə razılaşır, lakin əsaslandırması ilə qismən razılaşır və eyni zamanda hesab edir ki, İddiaçının işə bərpa olunması barədə məhkəmə səhv nəticəyə gəlmişdir.

63. Belə ki, Əmək Məcəlləsinin 76.2-ci maddəsinə əsasən əmək müqaviləsinə eyni zamanda iki və daha artıq əsasla, həmçinin qanunvericilikdə nəzərdə tutulmayan əsasla, habelə bu Məcəllə ilə müəyyən edilmiş əmək müqaviləsinin ləğv edilməsi qaydalarına əməl olunmadan xitam verilə bilməz.

64. İddiaçı ilə əmək müqaviləsinə xitam verilməsi barədə işəgötürənin xx xx 2024-cü il tarixli *** saylı əmrində əmək müqaviləsinə xitam verilməsi üçün iki əsasa istinad olunmuşdur:
1. İddiaçının barəsində intizam tənbehi verilməsi barədə xx xx 2024-cü il tarixli, *** saylı əmri;
2. İddiaçının işdən çıxma barədə ərizəsi.

65. Göründüyü kimi işəgötürən əmək müqaviləsinə xitam verilməsi üçün iki əsasa istinad etməklə Əmək Məcəlləsinin 76.2-ci maddəsini tələbini pozmuşdur.

66. Bundan başqa, əmək müqaviləsinin işçi tərəfindən ləğv edilməsi qaydasını tənzimləyən 69-cu maddəsinə görə, işçi bir təqvim ayı qabaqcadan işəgötürəni yazılı ərizəsi ilə xəbərdar etməklə əmək müqaviləsini ləğv edə bilər. Ərizə verildiyi gündən bir təqvim ayı bitdikdən sonra işçi işə çıxmamaq və son haqq-hesabının aparılmasını tələb etmək hüququna malikdir. Bu halda işəgötürən işçinin tələblərini yerinə yetirməyə borcludur. Həmçinin bir qayda olaraq işçi əmək münasibətlərini dayandırmaq istədiyi günü göstərməyibsə, xəbərdarlıq müddəti bitənədək bu maddə ilə müəyyən edilmiş əsasla əmək müqaviləsinin ləğv edilməsinə yol verilmir. Baxılan işdə İddiaçı işəgötürənə yazdığı xx.xx.2024-cü il tarixli ərizəsində onunla bağlanmış əmək müqaviləsinə xx.xx.2024-cü il tarixindən xitam verilməsini xahiş etmişdir. Bu halda işəgötürən İddiaçı ilə əmək müqaviləsinə xitam verilməsi üçün bir aylıq xəbərdarlıq müddətini gözləməli, bu müddət bitdikdən sonra əmək müqaviləsinə xitam verməli idi. Lakin işəgötürən xəbərdarlıq müddətini gözləməmiş, İddiaçının barəsində intizam tənbehi verilməsi barədə xx xx 2024-cü il tarixli, **** saylı əmrin olmasını əsas tutaraq, xəbərdarlıq müddəti bitənədək əmək müqaviləsinə xitam vermişdir. Bu hal (xəbərdarlıq müddətinin bitməməsi) əmrin ləğvinə əsasdır və məhkəmə əmri ləğv etməkdə haqlı olmuşdur. Lakin apelyasiya instansiyası məhkəməsi bu qayda pozuntusuna istinad edərək, əmri ləğv etməklə yanaşı, İddiaçının işə bərpa olunması qənaətinə gəlmişdir.

67. Nəzərə alınmalıdır ki, İddiaçı öz iradəsinə uyğun olaraq xx.xx.2024-cü ildən əmək müqaviləsinə xitam verilməsini tələb etmişdi və bu tarixdən sonra İddiaçı ilə əmək münasibətlərinin davam etdirilməsi üçün əsas qalmırdı. Çünki Əmək Məcəlləsinin 4-1-ci maddəsində verilən tərifə əsasən, əmək münasibətləri – işəgötürənlə qarşılıqlı razılıq prinsipi əsasında işçi tərəfindən əmək funksiyasının yerinə yetirilməsinə əsaslanan münasibətlərdir. Başqa sözlə, əmək münasibətləri müstəsna olaraq işçinin razılığına əsasən yaranır və davam etdirilir. Çünki əmək münasibətləri əmək azadlığı və əmək müqaviləsi azadlığı prinsiplərindən irəli gəlir. İşçi əmək münasibətlərini davam etdirmək istəmədiyi halda onunla əmək müqaviləsinə xitam verilməsini tələb etmək hüququna malikdir və işəgötürən bu təqdirdə bir ay müddətində onunla əmək müqaviləsinə xitam verməlidir.

68. Xəbərdarlıq müddətinin müəyyən olunmasında əsas məqsəd, işəgötürənə işdən çıxan işçinin yerinə başqa işçi tapmaq, işçinin çıxması səbəbindən yaranması mümkün olan iqtisadi itkinin qarşısını almaq imkanının tanınmasıdır. Təsadüfi deyil ki, Əmək Məcəlləsinin 69-cu

maddəsinin 4-cü bəndinə əsasən, işəgötürən həmin vəzifəyə (peşəyə) yeni işçinin götürülməsi barədə işçiyə rəsmi qaydada yazılı (kağız daşıyıcıda və ya elektron informasiya sistemi vasitəsilə) xəbərdarlıq etdikdə, işçinin əmək müqaviləsini ləğv etmək barədə ərizəni geri götürmək və ya onu etibarsız hesab etmək barədə edilən müraciətin hüquqi qüvvəsi tanınmır.

69. Eyni zamanda qeyd olunmalıdır ki, Əmək Məcəlləsinin 69-cu maddəsinin 4-cü hissəsinə əsasən, əmək müqaviləsini ləğv etmək barədə ərizə vermiş işçi xəbərdarlıq müddəti bitənədək istədiyi vaxt ərizəsini geri götürə və ya onu etibarsız hesab etmək barədə işəgötürənə yeni ərizə verə bilər və bu halda əmək müqaviləsi ləğv edilə bilməz.

70. Göründüyü kimi əmək müqaviləsini ləğv etmək barədə ərizənin qüvvədən düşməsi üçün iki hal nəzərdə tutulmuşdur: 1. İşçinin xəbərdarlıq müddəti bitənədək ərizəsini geri götürməsi barədə işəgötürənə yeni ərizə verməsi; 2. Xəbərdarlıq müddəti bitənədək ərizəni etibarsız hesab etmək barədə işəgötürənə yeni ərizə verməsi.

71. Göründüyü kimi bu qaydanı müəyyən etməkdə qanunvericinin məqsədi, işəgötürən həmin vəzifəyə (peşəyə) yeni işçini götürmədiyi halda, işçiyə xəbərdarlıq müddəti ərzində öz fikrini dəyişib əmək münasibətlərini davam etdirmək imkanı tanımaqdır.

72. Baxılan işdən görünür ki, İddiaçı xəbərdarlıq müddəti bitənədək ərizəsini geri götürməsi və ya onu etibarsız hesab etmək barədə işəgötürənə yeni ərizə verməsinə istinad etmir və bu hal məhkəmələr tərəfindən də müəyyən olunmayıb.

73. Başqa sözlə İddiaçının əmək müqaviləsinə xitam verilməsi barədə ərizəsi geri götürülməmişdir, etibarsız sayılmamışdır, hazırda qüvvədədir. Bu halda işəgötürən İddiaçıya xərədarlıq müddəti bitənədək olan dövr üçün əmək haqqını ödəmək vəzifəsi daşıyır. Buna görə də apelyasiya instansiyası məhkəməsinin qətnaməsi «Cavabdeh “XXX” MMC-nin xx xx 2024-cü il tarixli ** saylı əmrinin ləğv edilməsi və İddiaçının əvvəlki iş yerinə və vəzifəsinə bərpa edilməsi, xx xx 2024-cü il tarixdən işə bərpa olunduğu günə qədər məcburi iş buraxma müddəti üçün hesablanmış əmək haqqının cavabdeh tərəfindən İddiaçıya ödənilməsi» hissəsində ləğv edilməli, yeni qərar çıxarılmaqla, “XXX” MMC-nin xx xx 2024-cü il tarixli ** saylı əmri ləğv edilməli, İddiaçı xx xx 2024-cü il tarixdən xx.xx.2024-cü il tarixədək işə bərpa edilmiş hesab edilməli və həmin müddət üçün ona məcburi işburaxma günlərinə görə əmək haqqı ödənilməlidir. Qətnamənin ləğv edilmiş qalan hissəsində - əvvəlki iş yerinə və vəzifəsinə bərpa edilməsi, işə bərpa edilənədək məcburi işburaxmaya görə əmək haqqının ödənilməsi hissəsində iddia təmin edilməməlidir.

74. Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 386, 418.1 və 418.2-ci maddələrinin tələblərinə əsasən, maddi və prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması, o cümlədən maddi və prosessual hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması apellyasiya instansiyası məhkəməsinin qətnamə və qərardadının ləğv edilməsi üçün əsasdır. Maddi hüquq normaları o halda pozulmuş və ya düzgün tətbiq olunmamış hesab edilir ki, apellyasiya instansiyası məhkəməsi hüququn tətbiq edilməsində səhv buraxsın, tətbiq edilməli olan qanunu və ya digər normativ hüquqi aktı tətbiq etməsin, yaxud qanunu səhv təfsir etsin.

75. Həmin Məcəllənin 417.1.4 və 417.2-ci maddələrində göstərilir ki, kassasiya instansiyası məhkəməsi işə baxarkən apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadını tamamilə, yaxud qismən ləğv edib apellyasiya instansiyası məhkəməsində müəyyən edilmiş hallar və sübutlar əsasında yeni qərar qəbul edə bilər; bu Məcəllənin 417.1.4-cü maddəsində nəzərdə tutulmuş qərar yalnız o halda qəbul edilir ki, apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi hüquq normaları pozulmuş və ya düzgün tətbiq edilməmiş olsun.

76. Yuxarıda göstərilənlərə əsasən və Azərbaycan Respublikası MPM-nin 416, 417 və 419-cu maddələrinin tələblərini rəhbər tutaraq kassasiya instansiyası məhkəməsi

Qərara aldı:

Kassasiya şikayəti qismən təmin edilsin.

Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2024-cü il 8 oktyabr tarixli 2(103)4767/2024 nömrəli qətnaməsi qismən - «Cavabdeh “XXX” MMC-nin xx xx 2024-cü il tarixli ** saylı əmrinin ləğv edilməsi və İddiaçının əvvəlki iş yerinə və vəzifəsinə bərpa edilməsi, xx xx 2024-cü il tarixdən işə bərpa olunduğu günə qədər məcburi iş buraxma müddəti üçün hesablanmış əmək haqqının cavabdeh tərəfindən İddiaçıya ödənilməsi» hissəsində ləğv edilsin.

Həmin hissədə yeni qərar çıxarılmaqla iddia tələbi qismən təmin edilsin.

XXX” Məhdud Məsuliyyətli Cəmiyyətinin xx xx 2024-cü il tarixli ** saylı əmri ləğv edilsin. İddiaçı xx xx 2024-cü il tarixdən xx.xx.2024-cü il tarixədək işə bərpa edilmiş hesab edilsin və həmin müddət üçün ona məcburi işburaxma günlərinə görə əmək haqqı ödənilsin.

Qətnamənin ləğv edilmiş qalan hissədə iddia təmin edilməsin.

“XXX” MMC-nin xx xx 2024-cü il tarixli “İntizam tənbehi barədə” aktı və xx xx 2024-cü il tarixli, **** saylı ”İntizam tənbehinin verilməsi haqqında” əmrinin ləğv edilməsi və əmrin verilməsi ilə əlaqədar İddiaçının əmək haqqından tutulmuş 30 manat məbləğində pulun cavabdehdən alınaraq İddiaçıya ödənilməsi hissəsində qətnamə dəyişdirilmədən saxlanılsın.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

56. 2(102)-2525/2025 nömrəli, 2025-ci il 1 oktyabr tarixli qərar – işçinin iş yerində seksual qısnamaya görə ona dəymiş mənəvi zərərin tutulması tələbinə baxılarkən nəzərə alınmalı hallar

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: İşçi işəgötürənə qarşı iş yerində seksual qısnamaya görə mənəvi zərər tələbinə dair iddia qaldırmış, məhkəmələr iddianı qismən (mənəvi təzminatın həcmi hissəsində) təmin edərkən mövqelərini belə əsaslandırmışlar ki, işəgötürənin (müəssisənin) vəzifəli şəxsi tərəfindən iddiaçıya qarşı əxlaq normalarına zidd əməl törədildiyindən ona vurulmuş mənəvi zərərə görə işəgötürən məsuliyyət daşıyır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

Məhkəmə kollegiyası aşağı instansiya məhkəmələrinin gəldiyi nəticə ilə razılaşaraq qeyd etmişdir ki, iş yerində seksual və psixoloji qısnama işçilərin fiziki və mənəvi sağlamlığını pozan və iş şəraitində rahatsızlıq yaradan ciddi problemlər hesab olunur.

Baxılan işdə vəzifəli şəxsin etdiyi hərəkətlər (cinsi təklif xarakterli ünsiyyətlər göndərməsi, iddiaçının görünüş, geyimi və bədən hissələri haqqında şərhlər etməsi) seksual qısnama xarakterli olmuşdur ki, nəticədə iddiaçının şəxsiyyət hüququnun (şəxsi toxunulmazlıq) pozulmasına səbəb olmuşdur. İş yerində seksual qısnama yalnızca istənməyən toxunma və ya cinsi yaxınlaşmadan ibarət deyil. Bu, bir çox formada ola bilən bir pozuntudur. Bu pozuntu birinin görünüşü və ya haqqında söylənilən bir atmaca, uyğunsuz toxunma, cinsi zarafat və ya açıqlamalar, israrla təqib etmə formasında ola bilər.

Eyni iş yerində rəhbər olan şəxslə tabeçiliyində olan şəxs arasında sadəcə işlə bağlı ünsiyyətin aparılmalı olması ağlabatan olmamaqla, əmək qanunvericiliyinin tələbləri də belə məcburiyyəti müəyyən etmir. Lakin bu hal, yəni rəhbərə xoş münasibət bəslənməsi, işçiyə xoş məramlı jestlərinə işçinin dözməsi işçiyə qarşı seksual xarakterli hərəkətlər etməyə rəvac vermir, qısnamaya qarşı tolerant yanaşması və razılıq verməsi anlamına gəlmir. Hazırkı işdə işəgötürənin vəzifəli şəxsi tərəfindən onun görünüşü və bədən üzvləri barəsində bu cür ifadələrin yazılması iddiaçının haqlı narahatlığına səbəb olmuşdur.

Məhkəmə tərkibi qeyd etmişdir ki, işəgötürənin işçilərin bu cür rəftara məruz qalmaması ilə bağlı xüsusi tənzimləmə tələb edən öhdəlikləri mövcuddur və bu öhdəliklər Əmək Məcəlləsinin 195-ci maddəsinin “g” bəndində təsbit olunmuşdur ki, bunun nəticəsi olaraq iddiaçının hazırda məruz qaldığı rəftara və seksual qısnamaya görə işəgötürəndən ona dəymiş mənəvi zərərin kompensasiyasını tələb etmək hüququ vardır.

Kassasiya məhkəməsinin qərarında Əmək Məcəlləsinin müvafiq normaları ilə yanaşı, Birləşmiş Millətlər Təşkilatının Sisteminin Baş İcraçı Direktorlar Şurasının təsdiq etdiyi BMT-nin Cinsi Təcavüzə qarşı Model Siyasətində qeyd olunan qaydalara da istinad edilmişdir

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-2525/2025

01.10.2025-ci il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi
Mülki kollegiyasının

İddiaçı (Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi mübahisə predmeti barəsində müstəqil tələb irəli sürməyən üçüncü şəxs qismində cəlb edilməklə) cavabdeh "XXX" Məhdud Məsuliyyətli Cəmiyyətinə qarşı mülki iş üzrə

Q Ə R A R I

Açar sözlər: əmək münasibətlərindən irəli gələn mübahisələr, işəgötürənin işçiyə vurduğu mənəvi ziyanın ödənilməsi, əmək haqqının tutulması.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Həsənov Vüqar Təvəkgül oğlu (məruzəçi), Əhmədov Əhməd Abbas oğlu və Şəfiyev İspəndiyar Əsəd oğlundan ibarət tərkibdə,

İddiaçının (Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi mübahisə predmeti barəsində müstəqil tələb irəli sürməyən üçüncü şəxs qismində cəlb edilməklə) cavabdeh "XXX" Məhdud Məsuliyyətli Cəmiyyətinə qarşı "əmək haqqı fərqinin ödənilməsi və s." tələbinə dair mülki iş üzrə Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)-1692/2025 nömrəli, 12 mart 2025-ci il tarixli qətnaməsindən cavabdeh "XXX" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən verilmiş kassasiya şikayətinə Ali Məhkəmənin binasında 1 oktyabr 2025-ci il tarixdə yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları

1. "XXX" MMC-nin Yeganə İştirakçısının Növbədənkənar Ümumi Yığıncağının xx.xx.2022-ci il tarixli qərarı ilə X1 xx.xx.2022-ci il tarixdən etibarən MMC-nin direktoru vəzifəsinə təyin edilmişdir.

2. X1 İddiaçıya xx.xx.2023-cü il tarixdə "Hər zaman gözəlsən, hətta xəstə olanda belə"; xx.xx.2023-cü il tarixdə "Bəs sənə komplimentlər deyə bilərəm? Bəzən, həqiqətən də, demək istəyirəm ki, əla görünürsən"; xx.xx.2023-cü il tarixdə "Və yeri gəlmişkən, heç vaxt fikir verməmişdim, çox zərif və gözəl dabanın var. Mən heç bir qüsur görmürəm."; xx.xx.2023-cü il tarixdə "Bilirsən ki, səni nə qədər sevirəm?!" məzmununda mesajlar yazmışdır (mesajlar rus dilində yazılmış, tərcümələri iş materiallarına əlavə edilmişdir).

3. X1 tərəfindən ona yazılmış intim məzmunlu mesajlarla bağlı İddiaçı xx.xx.2023-cü il tarixdə X2 adlı, xx.xx.2023-cü il tarixdə X3, X4 adlı şəxslərə və bir sıra digər şəxslərə elektron poçt vasitəsilə müraciət edərək, tədbir görülməsini xahiş etmişdir (elektron məktubun rus dilindən tərcüməsi iş materiallarına əlavə edilmişdir).

4. X4 adlı şəxs tərəfindən İddiaçıya ünvanlanmış xx.xx.2023-cü il tarixli elektron məktubun tərcüməsindən görünür ki, həmkarı tərəfindən korporativ etikanın sistematik pozulması nəticəsində yaranan emosional vəziyyətə baxmayaraq, iş öhdəliklərini yerinə yetirməyə davam etdiyi, bu vəziyyətdə etdiyi müraciət və göstərdiyi səbrə görə ona təşəkkür edilmiş, müraciəti diqqətlə, messencerlərdən təqdim olunan yazışmalar kollektiv şəkildə araşdırılmışdır. Onunla X1 arasındakı vəziyyətin mürəkkəb olduğunu başa düşdüyünü, bunu nəzərə aldıqlarını, bu səpkidə ünsiyyətin etika hüdudlarından kənara çıxdığını, bunu qətiyyən qəbul etmədiklərini, korporativ etikanın və işçilərin rahatlığının prioritetləri olduğunu xüsusilə vurğulamış, həmin gün X1lə izahlı bir söhbət aparıldığını, onun davranışının yersiz olduğunu və bir daha təkrarlanmayacağını başa düşdüyünü və peşman olduğunu bildirdiyini, iddiaçının və X1in təqdim etdikləri işçilər arasında işgüzar ünsiyyətdən kənara çıxan və qəbuledilməz olan yazışmaları araşdırdıqlarını, mövcud vəziyyəti nəzərə alaraq, aşağıdakı addımları atdıqlarını bildirmişdir: "1.X1ə korporativ etikanın pozulması və həmkarlarla hörmətli ünsiyyət qurmağın zəruriliyi barədə rəsmi olaraq xəbərdarlıq ediləcək (X3, xahiş edirəm, HR ilə müzakirə edilsin). Bu cür vəziyyətlərin təkrarlanacağı təqdirdə, işdən çıxarılmaya qədər olan nəticələr ona aydın şəkildə təqdim edilmişdir. 2. İşçilərin təhlükəsizliyinin və rahatlığının təmin edilməsi məqsədilə onlar ofisin açıq sahələrində və mühasibat kabinetində videokameraların quraşdırılmasına qərar vermişdir. Bu, peşəkar iş mühitinin qorunmasına kömək edən əlavə bir nəzarət vasitəsidir (Sərəncam artıq tərtib edilmiş, növbəti həftənin sonuna qədər icra ediləcəkdir). 3. İddiaçının rahatlığı və təhlükəsizliyi üçün onunla X1 arasındakı əlaqə ünsiyyətinə nəzarət etmək üçün X5 nəzarət xidməti tərəfindən telefon danışıqları qeydləri ilə poçt və "X" vasitəsilə aparılacaqdır. 4. İddiaçının, şirkətin inkişafına, mühasibat uçotunda

nizam və şəffaflığın qurulmasına verdiyiniz töhfəni qiymətləndiririk! Emosional vəziyyətin iş axınına təsir göstərə biləcəyini başa düşürük və dəyərli bir işçi olduğunuz üçün, özünüzü rahat hiss etməyiniz və vəzifələrini uğurla yerinə yetirməyiniz üçün Sizə dəstək olmağa hazırıq. X2 ilə tələb olunan məzuniyyəti razılaşdırmanızı, bir də hazırda departamentinizin böyük bir iş yükü olduğu üçün sabit işə təsir etməməsi məqsədilə maliyyə əməliyyatlarının aparılması üçün əlaqədə qalmanızı xahiş edirəm (bugünki telefon danışığında müzakirə etdik). 5. Müraciətinizə uyğun olaraq, X3, Sizdən X1ə müqavilə müddəti bitənə qədər sınaq müddəti ilə xəbərdarlıq etmənizi xahiş edirəm". Gördükləri tədbirlərin İddiaçının və bütün işçilər üçün təhlükəsiz və peşəkar bir iş şəraitinin yaradılmasına kömək edəcəyinə və bu hadisənin tamamilə həll ediləcəyinə ümid etdiyini əlavə etmişdir.

5. X6 adlı şəxs tərəfindən İddiaçıya ünvanlanmış xx.xx.2023-cü il tarixli elektron məktubun tərcüməsinə əsasən X4ün məktubunda qeyd olunanların davamı olaraq həmin gün şirkət rəhbərləri adından (X3 və X4ün iştirakı ilə) X1lə korporativ etika normalarının pozulması və bu cür halların qəti şəkildə qarşısının alınması barədə rəsmi əlaqə qurulmuş, həmçinin, işgüzar münasibətlərin icazə verilən sərhədləri pozulduğu təqdirdə, işdən çıxarılmaya qədər olan nəticələrlə bağlı. Eyni zamanda, həmkarlar digər şərtlər üzrə işlərini davam etdirirlər. Sonda İddiaçıdan şirkət tərəfindən görülən və onunla əvvəlcədən müzakirə olunan tədbirlərin şirkət rəhbərlərinin gələcək qarşılıqlı fəaliyyətə nəzarət edəcəyi şərtilə vəziyyətin nizamlanması üçün kifayət olduğunu təsdiqləməsini xahiş etmişdir.

6. X7 adlı şəxs tərəfindən İddiaçıya ünvanlanmış mesajlara əsasən, o, öz rəhbərliyinə hesabatda bu məsələdə nalayiq hərəkətlərə yol verildiyini yazacağını, lakin skrinlərdə olan "belə gözəlsən", "qara don" və kirpiklər haqqında hansısa hadisəni anlamadığını, bunları anlamasa da, qəribə olsa da, eyib etməz, bu vaxt kəsiyində və onlarda olan skrinşotlarla 7 dəfə rəhbərin öz əməkdaşına yazdığını, bunun vacib həddi olduğunu, bu faktın təsdiqləndiyini, cari an üçün gördüklərindən və sübutlardan bunun 100 faiz "workplace harassment" – insanın öz statusundan istifadə edərək nəyəsə hansısa şəkildə təsir etməyə çalışması olduğunu bildirmişdir (yazışmaların rus dilindən tərcümələri iş materiallarına əlavə edilmişdir).

7. İddiaçı xx.xx.2024-cü il tarixdə X2 və digərlərinə elektron poçt vasitəsilə müraciət edərək, alınmış qərara və 6 aydır onlayn ünsiyyətlə davam etmələrinə baxmayaraq, X1in hazırda onunla şəxsən ünsiyyət tələb etməsi, əks halda, işdən çıxarılacağı ilə hədələnməsi barədə məlumat vermişdir (rus dilindən tərcümə edilərək, iş materiallarına əlavə edilmişdir).

8. "XXX" MMC-nin xx.xx.2024-cü il tarixli, K** nömrəli əmri ilə baş mühasib vəzifəsində işləyən İddiaçı ilə bağlanmış əmək müqaviləsinə Əmək Məcəlləsinin 68.2. "b" bəndinə - əmək müqaviləsinin müddətinin qurtarması maddəsinə əsasən həmin tarixdən xitam verilmiş, istifadə edilməmiş 27 məzuniyyət gününün son haqq-hesabının qanunvericiliyə uyğun şəkildə hesablanıb ödənilməsi müvafiq şöbəyə həvalə edilmişdir.

9. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti Bakı şəhər İdarəsi tərəfindən İddiaçına ünvanlanmış cavab məktubundan görünür ki, "XXX" MMC-nin rəhbərliyi tərəfindən Dövlət Əmək Müfəttişliyi Xidməti Bakı şəhər İdarəsinə təqdim olunmuş məktubda və inzibati xəta haqqında protokolun müzakirəsi zamanı vəzifəli şəxsin nümayəndəsi tərəfindən bildirilmiş məlumatda İddiaçı ilə "XXX" MMC-nin işəgötürəni arasında xx.xx.2022-ci il tarixində müddətli bağlanmış əmək müqaviləsinə xx.xx.2024-cü il tarixində əmək müqaviləsinin müddətinin qurtarması səbəbilə xitam verən zaman sözügedən əmək müqaviləsinin bağlanmasına dair əmək müqaviləsi bildirişinə xx.xx.2023-cü il tarixində işçi ilə işəgötürən arasında hər hansı bir yazılı və ya şifahi razılaşma olmadan İddiaçı tərəfindən ona həvalə olunmuş vəzifədən sui-istifadə edilərək, "Əmək və Məşğulluq" altsistemində dəyişiklik edildiyi və müddətli əmək müqaviləsinin

müddətsiz əmək müqaviləsinə keçirildiyi, lakin əmək müqaviləsinə olunmuş sonuncu dəyişikliklə bağlı işəgötürənlə qarşılıqlı razılıq olmadığı üçün xx.xx.2022-ci il tarixdə bağlanmış müddətli əmək müqaviləsinə xx.xx.2024cü il tarixində Azərbaycan Respublikası Əmək Məcəlləsinin 68-ci maddəsinin ikinci hissəsinin "b" bəndinə (əmək müqaviləsinin müddətinin qurtarması) əsasən xitam verildiyi qeyd olunmuşdur. Əmək müqaviləsinin bağlanması, ləğv edilməsi və ya onun şərtlərinin dəyişdirilməsi fərdi əmək mübahisələrinin predmeti hesab edilir və fərdi əmək mübahisələrinə bilavasitə məhkəmələr tərəfindən baxılır. "XXX" MMC-nin rəhbərliyi tərəfindən təqdim olunmuş sənədlərdən və İddiaçı tərəfindən araşdırmaya təqdim edilmiş əmək haqqı bank hesabından çıxarışdan onun əmək haqqısının və istifadə edilməmiş əmək məzuniyyətinə görə müəyyən edilmiş kompensasiyasının onun əmək müqaviləsində nəzərdə tutulmuş və aylıq hesablanmış əmək haqqına uyğun olaraq hesablandığı, lakin ödənilməsində Azərbaycan Respublikası Əmək Məcəlləsinin 83-cü maddəsinin ikinci hissəsinin (işəgötürən son haqq-hesabı sonuncu iş günü işçiyə verilməlidir) tələbinin pozularaq xx.xx.2024-cü il tarixində ödənildiyi müəyyən edilmişdir. Bu səbəbdən "XXX" MMC-nin direktoru X1 barəsində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 192.4-cü maddəsinə əsasən MN ****** nömrəli, 30.07.2024-cü il tarixli inzibati tənbeh vermə haqqında qərar qəbul olunmuşdur. Sahibkarlıq sahəsində aparılan yoxlamalar xx.xx.2025ci il tarixənədək dayandırıldığından müraciətdə göstərilən halların yerində araşdırılması və müvafiq tədbirlərin görülməsi mümkün olmamışdır. Müraciətdə qeyd edilən məsələlərin həlli ilə əlaqədar məhkəməyə müraciət etmək hüququnun olması izah edilmişdir.

10. Bakı şəhəri Nəsimi Rayon Prokurorluğu tərəfindən İddiaçına ünvanlanmış xx.xx.2024-cü il tarixli məktuba əsasən "XXX" MMC-nin müraciətində qeyd etdiyi xüsusatlar mülki xarakterli olduğuna görə, müvafiq qaydada məhkəməyə müraciət etmək hüququ izah edilmişdir.

İş üzrə qəbul edilmiş məhkəmə aktları a) Birinci instansiya məhkəməsində icraat

11. İddiaçı cavabdeh "XXX" MMC-yə qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, iddianın təmin edilməsi, cavabdeh işəgötürən "XXX" MMC tərəfindən işdən azad olunanda ödənilməli olan 12.866,87 manat pulun, iş yerində seksual qısnamaya görə 35.000 manat mənəvi zərərin, 60 manat mediasiya haqqının, 185 manat məhkəmə rüsumunun və 320 manat vəkil xidməti haqqının, cəmi 48431,87 manat pulun cavabdehdən tutularaq iddiaçıya ödənilməsi barədə qətnamə çıxarılmasını məhkəmədən xahiş etmişdir.

12. İddia onunla əsaslandırılmışdır ki, İddiaçı xx.xx.2022-ci il tarixdə "XXX" MMC-nin Bakı nümayəndəliyinə baş mühasib vəzifəsinə işə düzəlmişdir. "XXX" MMC-nin təsisçisi Böyük Britaniyada baş ofisi olan "X" şirkətidir. Azərbaycanda təsisçi kimi Kipr Respublikasında "XXX" şirkəti qeyd olunmuşdur. İddiaçı işə qəbul edildikdən bir ay sonra, yəni xx.xx.2022-ci ildə şirkətin direktoru vəzifəsinə X1 təyin edilmiş və həmin gündən o, iddiaçıya qarşı düzgün davranmamış, qısnama başlamışdır. İddiaçı bütün vasitələrlə bu hərəkətlərə son qoymağa çalışsa da, buna nail ola bilməmiş, məcbur qalaraq xaricdə yerləşən baş ofisə müraciət etmişdir. O, əlində olan mesajları, e-mail yazışmalarını baş ofisə təqdim etdikdən sonra araşdırma aparılmış, iddiaçı ilə görüntülü danışıqda rəhbərliyin nümayəndəsi qısnama faktının mövcudluğunu təsdiq etmiş, üzrxahlığını bildirmiş və gələcəkdə bu kimi hallara yol verilməyəcəyinə dair söz vermişdir. Lakin iddiaçı reallıqda daha da ciddi problemlərlə rastlaşmışdır, artıq X1 ona qarşı qarayaxma kampaniyasına başlamış, belə ki, bütün işçilərə iddiaçı ilə danışmaq qadağan edilmiş, onlara iddiaçının əleyhinə danışmaq, guya işdə pozuntulara yol verdiyini demələri tapşırılmışdır. İddiaçı ailəli olduğuna baxmayaraq, X1 onun barəsində iş yerində olan müxtəlif əməkdaşlar ilə münasibətdə olduğu barədə şayiələr yaymış, hətta həyat yoldaşının iddiaçını işə aparıb-gətirməsini belə həzm edə bilməmiş və buna belə

qarışmışdır. İddiaçının əmək müqaviləsinə elektron sistemdə müdaxilə edilmiş və belə təqdim edilmişdir ki, guya iddiaçı saxtakarlıq etmişdir. X1in imzası ilə Nəsimi rayon Prokurorluğuna şikayət göndərilmişdir. İddiaçı müxtəlif sənədlərə qol çəkməyə məcbur edilmiş və imza etdiyi halda, ona şikayətin prokurorluqdan geri götürülməsi bildirilmişdir. Sənədlərin məzmunu isə qısaca olaraq iddiaçının təsisçilərə yazdığı "mail"lər hamısı uydurmadır, həqiqəti əks etdirmir və guya X1 tərəfindən ona qarşı qısnama olmamışdır. İddiaçı açıq-aşkar şantaj olunsa da, bu təxribatlara getməmiş və Nəsimi rayon prokurorluğu tərəfindən araşdırmanın sona qədər aparılmasını tələb etmişdir. Əlbəttə ki, iddiaçı barəsində araşdırma aparıldıqda ərizədəki X1 tərəfindən təqdim olunan faktlar öz əksini tapmamşdır. İddiaçının baş ofisə şikayətlərinin ardı kəsilməmiş, o, özünü müdirdən müdafiə etməkdən ötrü şikayətlər yazaraq qanunsuz hərəkətlərə son qoyulmasını tələb etmişdir. Şifahi olaraq iddiaçıya bildirilmişdir ki, qısnama faktı təsdiqini tapmış və tədbirlər görüləcəkdir. Baş ofisin kadrlar şöbəsinin işçisi X8, məxfilik siyasəti çərçivəsində X1ə yazılan töhmətin bir hissəsini də iddiaçıya göstərmişdir. Lakin görünən odur ki, faktiki olaraq X1 barəsində tədbir görülməsi əvəzinə, iddiaçıya qarşı qarayaxma kampaniyası davam etmişdir. Sonda iddiaçının işində heç bir qüsur olmadığı halda, əmək müqaviləsi bitdiyindən, onunla bağlanmış müqavilənin müddəti uzadılmamışdır. Əmək müqaviləsinin uzadılması qarşılığında isə müdir verilən vəzifə və səlahiyyətlərindən sui-istifadə edib, canlı ünsiyyətə girmə, iddiaçı ilə otağında təkbaşına qalma və iş proseslərini müzakirə etmək bəhanəsini irəli sürmüşdür. Baxmayaraq ki, xx xx 2024-cü il tarixində "X" üzərindən baş tutan zəngdə X1 etiraf etmişdir ki, 6 ay ərzində tətbiq olunan iş formatı onu tam qane edir və canlı ünsiyyətə ehtiyac yoxdur. xx.xx.2023-cü il tarixində təsisçilərin qərarına əsasən, X1 iddiaçı ilə canlı ünsiyyətə girə bilməzdi və bütün yazışmalar yalnız e-mail və şirkət proqramları üzərindən olmalı idi. Lakin xx.xx.2024-cü il tarixində olan şantaj zəngindən sonra, iddiaçı yenidən təsisçilərə şikayət yazmaq qərarına gəlmiş, xx.xx.2024-cü il tarixində (həftənin beşinci günü) təsisçilərə yazılan şikayət "email"indən sonra 6 may tarixində (həftənin birinci günü) X1 vəkili ilə iddiaçıya iş yerində hücum etmiş, ona aid olan şəxsi əşyalara əl qoyub və saxtakarlıq yolu ilə bütün əməkdaşların qarşısında ittiham edib işgüzar nüfuzuna xələl gətirmiş, əməkdaşların qarşısında iddiaçıya saxtakar deyib, tutduracaqları ilə bağlı hədələmiş, iddiaçının şərəf və ləyaqəti yerlə bir olmuşdur. xx xx 2024-cü il tarixində iddiaçının yaşadığı stress və həyəcan onun sağlamlığına da ciddi ziyan vurmuş və bu hadisələrin nəticəsində o, əsəb gərginliyi keçirərək təcili yardıma müraciət etmiş, dəfələrlə panik ataklara məruz qalmışdır, hazırda müalicə alır. Bununla yanaşı, hesablaşmada bilərək səhvə yol verilmiş, müdiri məzuniyyət və ezamiyyət vaxtları əvəz etdiyi saatlara görə iddiaçıya pul yazılmamışdır. Belə, xx.xx.2024 tarixlərində, cəmi 16 gün ezamiyyət zamanı, xx.xx.2024 tarixlərində, cəmi 29 gün məzuniyyət zamanı müdiri əvəz edilməsi günləridir. Bu günlərə görə işdən azad olunduqda ididaçıya ödənilməyən məbləğ 12,866.87 manat təşkil edir. X1 əvəz etmə ilə bağlı vəsaitləri heç bir zaman ödəmək niyyətində olmamışdır. Lakin "XXX" MMC-nin işçiləri qarşılıqlı surətdə əlaqəli şəxslər olduqları üçün baş verən haqsızlıqlar önündə hər zaman susmaq məcburiyyətində qalmışlar. Birmənalı olaraq göstərmək olar ki, işəgötürən hazırkı iş üzrə cavabdeh Azərbaycan Respublikası və beynəlxalq qanunvericiliyin tələblərini kobud şəkildə pozmuşdur. Gender məsələsi bu gün bütün dünya üçün prioritet təşkil edir. Qlobal gender problemlərindən biri iş yerlərində qadınlara qarşı cinsi qısnamadır (harassment). Azərbaycan kimi mentalitet və stereotiplərin güclü olduğu bir ölkədə bu tip həssas mövzular haqqında adətən danışılmır və susmağa üstünlük verilir. Lakin iddiaçı susmaq istəməmiş, bu səbəbdən də işindən məhrum olunmuş, stress yaşamış, mənəvi işgəncələrə məruz qalmışdır. İddiaçı çəkdiyi mənəvi iztirablara görə 35000 (otuz beş min) manat mənəvi zərər tələb etməyə haqlıdır.

13. Cavabdeh “XXX” MMC etiraz göndərərək, iddianın əsassız olduğundan təmin edilməməsini xahiş etmişdir. Etiraz ərizəsi onunla əsaslandırılmışdır ki, iddia ərizəsində tələbin əsasını təşkil edən hallar əsaslandırılmamaqla yanaşı, iddiaçının şəxsi mülahizələrindən ibarətdir. Çünki iddiaçı tərəfin tələbinin əsası kimi istinad etdiyi hallar təqdim etdiyi sənədlərlə öz təsdiqini tapmır. Digər tərəfdən iddiaçının sübut olaraq təqdim etdiyi sənədlər (mesajlardan çıxarışlar) yalnız onun öz istəyinə uyğun hazırladığı və öz məqsədinə çatmaq üçün istifadə etmək qərarına gəldiyi qəbul edilməz dəlillərdir. Yəni gətirilən dəlillər birtərəfliliyi əks etdirməklə, real həqiqətdən tamamilə kənardır. İlk növbədə tələbin “cavabdeh işəgötürən tərəfindən işdən azad olunanda ödənilməli olan 12866,87 manat pulun tutularaq ona ödənilməsi” hissəsinə münasibətdə qeyd olunmuşdur ki, tələb bu hissədə tamamilə əsassızdır. xx.xx.2024 tarixlərində, cəmi 16 gün ezamiyyət zamanı, xx.xx.2024 tarixlərdə cəmi 29 gün məzuniyyət zamanı müdiri əvəz etdiyini qeyd etsə də, buna dair məhkəməyə hər hansı bir mötəbər sənəd və ya sübut təqdim etməmişdir. Əksinə, həmin dövrlərdə şirkətin direktoru müvafiq sənədlərin imzalanmasında birbaşa özü iştirak etmişdir. Digər tərəfdən MMC-nin nizamnaməsinə əsasən səlahiyyətlərin ötürülməsi hüququ ilə təqdim olunan səlahiyyətlər çərçivəsində baş etibarnamələrin verilməsi barədə qərar qəbul etmək yalnız cəmiyyət təsisçilərinin ümumi yığıncağının səlahiyyətlərinə aiddir. Deməli, müdir vəzifəsinin səlahiyyətlərinin icra edilməsi üçün cəmiyyət təsisçilərinin ümumi yığıncağının qərarı olmalıdır ki, belə bir qərar olmamışdır. Ona görə də iddiaçı müdirin vəzifəsini icra edə bilməzdi. Bu səbəbdən də tələb bu hissədə hər hansı bir mötəbər sübutla təsdiq edilmədiyindən təmin edilə bilməz. Bundan əlavə, müəssisənin baş mühasibi olmuş İddiaçı ilə bağlanmış müddətli əmək müqaviləsinin müddəti xx.xx.2024-cü il tarixdə bitmişdir. Bu səbəbdən onunla bağlanmış müddətli əmək müqaviləsinə xitam verilməsi üçün hazırlıq işləri aparılarkən aşkar olunmuşdur ki, xx.xx.2023-cü il tarixdə hər hansı bir yazılı və ya şifahi razılaşma olmadan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Elektron İnformasiya Sistemində “ƏMAS” İddiaçının əmək müqaviləsi bildirişi müddətsiz əmək müqaviləsi kimi dəyişdirilmişdir. Buna baxmayaraq, qanunvericiliyin tələblərinə uyğun olaraq İddiaçı ilə xx.xx.2022-ci il tarixdə bağlanmış müddətli əmək müqaviləsinə xx xx 2024-cü il tarixdə xitam verilmişdir və ona son haqq-hesab tam şəkildə ödənilmişdir. Eyni zamanda, İddiaçının qanunsuz əməlləri barədə MMC tərəfindən xx.xx.2024-cü il tarixdə Bakı şəhəri Nəsimi rayon Prokurorluğuna müraciət edilmiş və iddiaçının qanunsuz hərəkətlərə yol verdiyi aşkara çıxarılmışdır. Bundan başqa, iddia tələbinin “iş yerində seksual qısnamaya görə 35000 manat mənəvi zərərin cavabdehdən tutularaq ona ödənilməsi” hissəsinə münasibətdə qeyd olunmuşdur ki, müəssisədə iddiaçıya qarşı belə bir hala ümumiyyətlə yol verilməmişdir. Bu hal cavabdeh müəssisənin tabe olduğu baş ofis tərəfindən araşdırılmış və iddiaçının iş yerində seksual qısnamaya məruz qalmadığı öz təsdiqini tapmışdır. Qanunla seksual qısnama – əmək və ya xidmət münasibətlərində olan şəxsi alçaldan və təhqir edən, başqa cinsə və ya seksual yönümə mənsubiyyətdən irəli gələn və fiziki hərəkətlərdə (toxunma, əllə vurma), ədəbsiz sözlərdə, jestlərdə, hədələrdə, ləkələyici təkliflərdə və ya dəvətlərdə təzahür edən əxlaqsız davranış hesab edilir. İddiaçı bu sadalanan əməllərdən hər hansı birinə məruz qalmamışdır. Digər tərəfdən müəssisənin direktoru ilə İddiaçının arasında yazışmalar zamanı onların bir-birinə qarşı dost yanaşmasında olduğu aşkar edilir. Hərçənd, iddiaçı bu yazışmaları təhrif etməklə, məhkəməyə sübut kimi təqdim etsə də, həqiqətdə o, ona yazılan dostyana mesajlara laqeyd qalmamış, adekvat cavablar vermiş, mesajlarda ona deyilən xoş sözlərə görə öz narazılığını bu və ya digər formada bildirməmişdir. Hətta, iddiaçı öz sərbəst iradəsi ilə yazdığı ərizəsində belə ona münasibətdə qeyd olunan halın (seksual qısnamanın) baş vermədiyini, dediklərinin uydurma olduğunu bir daha təsdiqləmişdir. İddia tələbinin mənəvi zərərlə bağlı hissəsinə qeyd edilmişdir ki, mənəvi zərər adətən

vətəndaşların şəxsi qeyri-əmlak hüquqlarının pozulması nəticəsində əmələ gəlir. Hazırda İddiaçının cavabdehin hərəkətləri nəticəsində onun hər hansı mənəvi sarsıntı, iztirablar keçirməsi barədə məhkəməyə sübut təqdim etməmiş, habelə iddia tələbində mənəvi zərərlə əlaqədar göstərilən hallar öz təsdiqini tapmamışdır. Yuxarıda qeyd edilənlər onu deməyə əsas verir ki, iddiaçının hazırkı hərəkətləri ilə nail olmağa çalışdığı cavabdehin direktorunun işgüzar nüfuzuna ləkə gətirmək və əsassız qazanc əldə etməkdir.

14. İddiaçı tərəfin vəsatətinə əsasən məhkəmə iclasında şahid qismində dindirilmiş X9 bildirmişdir ki, 2022-ci ildən cavabdeh MMC-də işləməyə başlamışdır. X1 tərəfindən iddiaçıya edilən bütün hərəkətlərin birbaşa şahididir. X1 işdə olmayanda onu iddiaçı əvəz etmişdir. Lakin iddiaçı işdən azad ediləndən sonra Qasımova Nurlan əvəz etmə ilə bağlı əmrləri məcburi qaydada imzalamışdır.

15. Cavabdeh tərəfin vəsatətinə əsasən məhkəmə iclasında şahid qismində dindirilmiş X10 bildirmişdir ki, 1 aprel tarixindən cavabdeh MMC-də işləyir. X1lə iddiaçı arasında problemlər olduğunu hiss etməmiş, iddiaçının işdən azad edilmə səbəbini bilməmişdir. Sadəcə iddiaçının ondan tələb olunan vaxtda kompüteri verməməsinin, bu zaman X1in həmin otaqda olmadığının, çöldə gözlədiyinin, iddiaçıya heç kim tərəfindən hücum edilmədiyinin şahidi olmuşdur.

16. Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 2(006)-4448/2024 nömrəli, 23 noyabr 2024-cü il tarixli qətnaməsi ilə iddia tələbi qismən edilərək, cavabdeh “XXX” MMC-dən mənəvi zərərin əvəzi olaraq 3000 (üç min) manat məbləğində pulun, ödənilmiş mediasiya xərcinin 10 (on) manat, dövlət rüsumunun 20 (iyirmi) manat və hüquqi xidmət xərcinin 150 (bir yüz əlli) manat hissəsinin cavabdeh “XXX” MMC-dən alınaraq İddiaçına verilməsi, məhkəmə xərclərinin qalan hissəsinin İddiaçına aid edilməsi qət edilmişdir (hakim Günay Abidova).

17. Məhkəmə iddianın təmin edilməyən hissədə, yəni, iddia tələbinin “cavabdeh MMC-nin direktoru məzuniyyətdə və ezam olunduğu günlərdə onu əvəz etdiyinə görə işdən azad olunanda ödənilməli olan 12.866,87 manat əmək haqqı fərqinin ödənilməsi” hissəsinə münasibətdə qeyd etmişdir ki, mülki prosessual qanunvericiliyin tələbinə görə, iş iştirakçıları öz tələb və etirazlarının əsası kimi istinad etdikləri halları sübut etmək vəzifəsi daşısalar da, iddiaçı tələbinin bu hissəsi ilə bağlı sübutetmə vəzifəsini icra etməmiş, MMCnin direktoru məzuniyyətdə və ezam olunduğu günlərdə onu əvəz etməsini təsdiq edən heç bir mötəbər sübutu (ümumi yığıncağın qərarı, əmr və s.) məhkəməyə təqdim etməmişdir. İddiaçı bu tələbini yalnız yazılı qaydada tərtib edilmiş, üzərində heç bir imza və möhür olmayan əmrlə, əmək haqqı fərqinin hesablanması ilə bağlı cədvəl şəklində tərtib edilmiş, heç bir imza və möhürlə təsdiqlənməyən sənədlə və şahid ifadəsi ilə əsaslandırsa da, həmin sənədlər heç bir hüquqi qüvvəyə malik olmadığından, mötəbər sübut sayılmır. Şahidin verdiyi ifadədə bu faktı təsdiqləməsi də, vaxtikən iddiaçının köməkçisi kimi işlədiyi nəzərə alınsa, məhkəmə tərəfindən mötəbər və faktı təsdiq edən əsaslı sübut kimi qəbul edilmir.

18. İddiaçının iddia etdiyi bəzi tarixlərdə direktorun ölkə xaricində olması ilə bağlı müvafiq orqandan əldə edilmiş məlumatlar, habelə cavabdeh MMC tərəfindən təqdim edilmiş müvafiq əmrlər direktorun müvafiq tarixlərdə məzuniyyətdə və ezam olunduğunu təsdiq etsə də, bu hal həmin günlərdə iddiaçının onu əvəz etdiyi nəticəsinə gəlməyə əsas vermir. Çünki mülki prosessual qanunvericiliyin tələbinə görə, müəyyən sübutetmə vasitələri ilə təsdiq edilməli olan işin halları başqa sübutlarla təsdiq oluna bilməz. Hazırkı halda isə bu sübutetmə vasitəsi müvafiq qaydada rəsmiləşdirilmiş qərar, əmr və ya başqa adda olan mötəbər rəsmi sənəd olmalı idi. Lakin göründüyü kimi, iddiaçı tərəfindən məhkəməyə belə bir sübut təqdim edilməmişdir.

19. “İddiaçının məruz qaldığı seksual qısnamaya görə 35.000 manat mənəvi zərərin ödənilməsi” tələbinə münasibətdə qeyd etmişdir ki, cavabdeh MMC-də baş mühasib vəzifəsində işləyən iddiaçının MMC-nin direktoru X1 tərəfindən seksual qısnamaya məruz qalması faktı direktor tərəfindən ona həm yazıldığı, həm də şifahi ünsiyyət zamanı deyildiyi mübahisələndirilməyən söz və ifadələrdə öz təzahürünü tapmışdır. Cavabdeh tərəfin məhkəmə araşdırmaları dövründə bu məsələ ilə bağlı mövqeyi ondan ibarət olmuşdur ki, X1 tərəfindən iddiaçıya deyilmiş “boşalmanın iki mənasının olması” (bu sözün deyildiyi cavabdeh tərəfindən inkar edilmir) və “iddiaçının gözəl dabanının olması” barədə mesajlar başqa mənada - məhz direktorun övladının qarın ağrısı və dabanla bağlı problemi olmuşdur deyə, həmçinin, rusdilli olduğu üçün; digər kompliment məzmunlu mesajlar isə iddiaçıdan qarşılıq gördüyünə görə, habelə ona motivasiya və mükafatlandırma olsun deyə yazılmışdır. Lakin məhkəmə hesab edir ki, işçinin buna münasibəti necə olursa-olsun, X1 bir rəhbər vəzifəli şəxs olaraq, tabeçiliyində olan qadın işçiyə qeyd olunan məzmunda mesajlar yazmaqda haqlı hesab oluna bilməz. Çünki əmək müqaviləsinə xitam vermək səlahiyyətinə malik bir rəhbər kişinin qadın işçisinə yazdığı kompliment xarakterli mesajlara qadın işçi, təbii ki, əvvəlcə təşəkkürlə cavab verəcəkdi. Əks halda, birinci belə (“bu gün gözəlsən” məzmunlu) mesaja qarşılıq olaraq sərt reaksiya vermək qadın işçini haqsız vəziyyətə salmış olacaqdı. Bu hal mütəmadi xarakter daşımağa başladıqdan sonra iddiaçı narazılığını bildirsə də (iş materiallarında iddiaçı tərəfindən yazılmış “belə mövzuda arvadınla danış” məzmununda mesaj var), belə halın 7 dəfə təkrarlanması faktı təsisçi şirkət tərəfindən təsdiq edilmişdir.

20. Cavabdeh tərəf iddiaçının təqdim etdiyi yazışmaların və videoyazıların sübut kimi qəbul edilməsinin yolverilməzliyini mübahisələndirsə də, məhkəmə iddiaçının təqdim etdiyi sənədləri ona görə mötəbər sübut qismində qəbul etmişdir ki, birincisi, həmin yazışmalar və videoyazılardakı faktların həqiqiliyi cavabdeh tərəfindən verilmiş izahatlarla da öz təsdiqini tapmışdır. Yəni bu hallar cavabdeh tərəfindən inkar edilmir, sadəcə sübutların yolverilməzliyi mübahisləndirilir. Məhkəmə qeyd etmişdir ki, şəxslər arasındakı yazışmaların, hazırkı məsələ ilə bağlı şirkətdə keçirilmiş iclas videosunun bu söhbətdə iştirak edən (tərəf müqabili olan) biri tərəfindən saxlanması və mübahisə halında onlardan məhkəmədə sübut kimi istifadə olunması müvafiq şərtlər daxilində mümkündür. Belə ki, yazışmalardan sübut kimi istifadənin yolverilməzliyi, əslində şəxsi həyatın gizliliyini qorumaq ehtiyacından irəli gələn bir qaydadır. Bu qayda, əsas etibarı ilə şəxsi həyata müdaxilə edilməklə, sirr təşkil edən məlumatların başqaları tərəfindən qanunsuz şəkildə ələ keçirilməsinin və istifadəsinin qarşısının alınmasına xidmət edir. Qeydə alınan məlumatlar, yazışmada, habelə iclasda çıxış edən digər tərəflərin şəxsi həyatının gizli bir sahəsi olmayıb, bu yazışmanı saxlayan, danışıqları qeydə alan biri ilə mübahisəli münasibətləri barədə ifadə etdiyi fikirlərdirsə, həmin bəyanların sonradan təkzib olunacağı ehtimalı ilə yazılması və saxlanması özü-özlüyündə qanunsuz hərəkət hesab edilə bilməz. Çünki, bu halda şəxs başqasını gizli şəkildə dinləmiş və ya onun sirr xarakterli danışıqlarını yazmaqla, yazılarını saxlamaqla şəxsi həyatı haqqında məlumat toplamış sayılmır. Bu zaman yazışmanın qarşı tərəfi bu mesajları saxlamaqla özünü sığortalamış, səsi yazıya alan, məhz özü ilə əlaqəli olan bir hadisədə qarşı tərəfin şifahi şəkildə ona etdiyi etirafı və ya digər bəyanı fiksə etmiş olur. Söhbətin bir tərəfi də elə yazışan, videoyazını aparan şəxs olduğu üçün o, həm də mübahisəli məsələ ilə bağlı öz şəxsi həyatına dair bir məqamı qeydə almış sayılır. Bu baxımdan şəxsin iştirak etdiyi söhbəti mübahisə halında sübuta yetirə bilməsi üçün saxlaması və bu yazıdan məqsədi xaricində deyil, məqsədinə uyğun bir şəkildə istifadə etməsi (məsələn, qarşı tərəf sonradan təkzib etməsin deyə yazını məhkəməyə təqdim etməsi), sözügedən qeydlərin və yazışmaların qanunsuz sübut sayılmasını istisna edir.

21. Göstərilənlərə əsasən məhkəmə belə qənaətə gəlmişdir ki, hazırkı işdə seksual qısnama faktının mövcudluğu həm cavabdeh MMC-nin tabe olduğu təsisçi şirkət, həm iş materiallarında olan yazışmalar, həm tərəflərin izahatlarının məhkəmə tərəfindən qiymətləndirilməsi, həm də üçüncü şəxsin mövqeyi ilə öz təsdiqini tapdığından, yəni cavabdeh MMC-nin vəzifəli şəxsi olan direktor tərəfindən işçiyə qarşı əxlaq normalarına zidd olan əməl törədildiyindən, işçiyə vurulmuş mənəvi ziyanın əvəzinin ödənilməsinə məhz cavabdeh MMC məsuliyyət daşıyır.

22. Məhkəmə gəldiyi nəticəni Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 12-ci maddənin 1-ci hissəsinin, “g” bəndi, 195-ci maddəsinin “g” bəndi, 290.3-cü maddələri, “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan

Respublikasının Qanununun 2.0.5, 4, 7.2, 7.2.5, 17.2-ci maddələri, Azərbaycan Respublikası Mülki Prosessual Məcəllənin 14.2, 76.1-76.2, 77.1, 80, 81, 88, 87.1, 104.1, 106.1, 119.1, 121.1, 217.3, 217.4-cü maddəsinə istinadla əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

23. Cavabdeh apellyasiya şikayəti verərək qətnamənin iddianın təmin edilmiş hissəsində ləğv edilməsini və iddia tələbinin tam şəkildə rədd olunması barədə yeni qətnamə qəbul edilməsini xahiş etmişdir.

24. Apellyasiya şikayətində qeyd edilmişdir ki, iş üzrə təqdim edilmiş materiallarda və sübutlarda bu elementlərdən heç biri mövcud deyil. Cavabdeh X1 tərəfindən iddiaçıya qarşı hər hansı birbaşa və ya dolayı seksual xarakterli hərəkət, təklif və ya təzyiq faktı sübut edilməmişdir. Mesajların məzmununda yalnız ümumi komplimentlər (“bu gün gözəlsən”, “gözəl daban” ifadələri) yer almışdır ki, bu da seksual qısnama anlayışına uyğun gəlmir. Bu ifadələr qeyri-formal ünsiyyət xarakteri daşıyır və iş mühitində seksual qısnama kimi qiymətləndirilə bilməz. Qanunun tələbinə əsasən, seksual qısnama anlayışının əsas komponentlərindən biri fiziki hərəkətlərin mövcud olmasıdır. Bu, toxunma, əllə vurma, fiziki təzyiq və ya başqa cinsə qarşı seksual xarakterli hərəkətləri əhatə edir. İş materiallarında və iddiaçının təqdim etdiyi dəlillərdə cavabdeh tərəfindən belə hərəkətlərin baş vermədiyi tamamilə aydındır. Fiziki hərəkətlərin olmaması artıq məsələnin seksual qısnama kateqoriyasına daxil edilməməsi üçün əsasdır. Seksual qısnamada ədəbsiz və ya təhqiramiz ifadələrin işlədilməsi tələb olunur. Lakin cavabdeh tərəfindən yazılmış mesajların məzmunu nə ədəbsizdir, nə də alçaldıcıdır. İşdə təqdim edilmiş sübutlarda belə ifadələrin olmaması məsələnin seksual qısnama ilə bağlı olmadığını göstərir. Cavabdeh tərəfindən işlədilmiş ifadələr qeyri-formal və dostyana xarakter daşıyır. Bu ifadələrin təhqir və ya seksual qısnama kimi qiymətləndirilməsi obyektiv deyil, yalnız iddiaçının subyektiv fikirləridir. Seksual qısnama faktının müəyyən edilməsi üçün şəxsin digər tərəfə qarşı açıq və ya dolayı şəkildə seksual xarakterli ləkələyici təkliflər və ya dəvətlər irəli sürməsi tələb olunur. İş materiallarında cavabdeh tərəfindən iddiaçıya qarşı belə təkliflərin irəli sürülmədiyi aydın şəkildə görünür. İddiaçının təqdim etdiyi mesajlar arasında ləkələyici və ya seksual xarakterli hər hansı təklif və ya davranış sübut edilmir. İddiaçının müraciəti əsasında MMC-ni təsis edən xarici şirkət tərəfindən aparılmış daxili korporativ araşdırma nəticəsində, təqdim olunan materialların təhlili və tərəflərdən alınan izahatlar əsasında seksual qısnama faktının təsdiq edilmədiyi müəyyən edilmişdir. Araşdırmada yalnız iş mühitində etik davranış qaydalarının pozulması ehtimalı ilə bağlı müəyyən qənaətə gəlinmişdir. Bununla yanaşı, qeyd olunmalıdır ki, bu nəticələr hüquqi baxımdan bağlayıcı xarakter daşımır, çünki şirkət tərəfindən bu qənaətlərin təsdiqlənməsi ilə bağlı hər hansı rəsmi inzibati əmrin və ya hüquqi sənədin qəbul edilmədiyi açıqdır.

25. Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)-1692/2025 nömrəli, 12 mart 2025-ci il tarixli qətnaməsi ilə apellyasiya şikayətinin təmin edilməməsi, Bakı şəhəri

Nəsimi Rayon Məhkəməsinin 23.11.2024-cü il tarixli, 2(006)-4448/2024 nömrəli qətnaməsinin dəyişdirilmədən saxlanılması qət edilmişdir (hakimlər Fuad Babayev (sədrlik edən və məruzəçi), Cəmilə Musayeva və Fuad Abdıyev).

26. Məhkəmə kollegiyası apellyasiya şikayətinin dəlillərini və iş materiallarını araşdıraraq hesab etmişdir ki, apellyasiya şikayəti təmin edilmədən, birinci instansiya məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmalıdır. Birinci instansiya məhkəməsi iddia tələbini qismən təmin etməklə mübahisənin faktiki halları, tərəflərin münasibətləri və tətbiq edilməli olan hüquqla bağlı düzgün nəticəyə gəlmişdir.

27. Məhkəmə kollegiyası öz mövqeyini Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 12-ci maddəsinin “g” bəndinə, 195-ci maddəsinin “g” bəndinə, 290.3-cü, Mülki Prosessual Məcəlləsinin 14.2, 77.1, 384.0.1, 385.2-ci, “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikasının Qanununun 2.0.5-ci, 4cü, 7.2.5-ci, 11-ci və 17.2-ci maddələrinə istinad edərək əsaslandırmışdır.

Kassasiya şikayətinin və ona qarşı etirazın dəlilləri a) Kassasiya şikayətinin dəlilləri

28. Cavabdeh “XXX” Məhdud Məsuliyyətli Cəmiyyəti kassasiya şikayəti verərək, apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv edilməsini və iddianın təmin edilməməsinə dair yeni qərar qəbul edilməsini xahiş etmişdir.

29. Kassasiya şikayəti onunla əsaslandırılmışdır ki, Bakı Apellyasiya Məhkəməsi tərəfindən çıxarılan qətnamədə yazışmaların ümumi konteksti və onların baş verdiyi dövrün ardıcıllığı obyektiv şəkildə araşdırılmamış, yalnız konkret tarixlərə aid edilən bəzi fraqmentar yazışmalar əsasında nəticə çıxarılmışdır. Məhkəmə, 2023-cü ilin xx ayında göndərilmiş mesajları əsas tutaraq, iddiaçının guya təhqiredici və narahatlıq doğuran ifadələrə məruz qalması nəticəsində mənəvi zərərə uğradığını iddia etsə də, sonrakı aylarda — xüsusən də sentyabr və oktyabr aylarında tərəflər arasında davam edən qarşılıqlı və dostyana xarakterli ünsiyyət bu qənaəti şübhə altına almışdır. Belə ki, həmin yazışmalar sübut edir ki, iddiaçı cavabdehlə şəxsi münasibətləri davam etdirmiş, onunla zarafat və qeyri-rəsmi tonda yazışmalar aparmışdır və bu hal göstərir ki, iddiaçının özünü narahat hiss etməsi iddiası gerçək duruma uyğun deyil.

30. Kassator qeyd etmişdir ki, iş üzrə təqdim edilmiş sənədlərdən və yazışmalardan görünür ki, tərəflər arasında təkcə işgüzar deyil, eyni zamanda qeyri-rəsmi münasibətlər mövcud olmuş, iddiaçı qarşı tərəfin yazışmalarına səmimi və müsbət məzmunda cavablar vermiş, bəzən isə təşəbbüskar olaraq yazışmaları davam etdirmişdir. Bu kontekstdə cavabdehin avqust ayında yazdığı bəzi ifadələrin sonrakı aylarda iddiaçı tərəfindən hər hansı şəkildə problem kimi qaldırılmaması, əksinə münasibətlərin davam etdirilməsi, iddiaçının iddialarının etibarlılığına ciddi şübhə yaratmışdır. Bu faktlar apellyasiya instansiyası tərəfindən düzgün qiymətləndirilməmiş, yazışmalar kontekstdən çıxarılaraq təhrif olunmuş şəkildə təqdim edilmişdir. İş materiallarına əlavə olunmuş və məhkəmə iclasında təqdim edilmiş sübutlar sırasında yer alan video materiallar, xüsusilə iddiaçı tərəfindən cavabdehə göndərilmiş istirahət görüntüləri qətnamədə ümumiyyətlə nəzərə alınmamışdır. Halbuki həmin video sübutlar iddiaçının cavabdehə qarşı münasibətinin dostyana xarakter daşıdığını, şəxsi təşəbbüslə və qeyri-məcburi şəkildə bu görüntüləri paylaşdığını nümayiş etdirmişdir. Həmin videonun konteksti iddiaçının özünü psixoloji və mənəvi baxımdan narahat hiss etmədiyini, əksinə qarşı tərəflə səmimi münasibətini davam etdirdiyini sübut etmişdir. Məhkəmənin bu sübuta heç bir hüquqi qiymət verməməsi prosessual və maddi hüquq normalarının pozulması hesab edilməlidir.

31. Apellyasiya instansiyası cavabdehin yazışmalar zamanı istifadə etdiyi “çox zərif və gözəl dabanın var” və “boşalanda zəng edərsən” kimi ifadələri kontekstdən ayıraraq, onların cinsi xarakter daşıdığına dair nəticəyə gəlmişdir. Halbuki, iş materiallarında yer alan izahatlardan və cavabdehin ifadələrindən aydın olmuşdur ki, bu ifadələr gündəlik danışıq dilində, qeyri-rəsmi ünsiyyət fonunda, ümumiyyətlə zarafat və ya tibbi məsələyə toxunan mövzu çərçivəsində istifadə edilmişdir. Xüsusilə qeyd edilməlidir ki, tərəflər arasında bu cür ifadələrin qarşılıqlı razılaşdırılmış, uzunmüddətli qeyri-rəsmi ünsiyyətin bir parçası olduğu sübut edilmişdir. Məhkəmənin bu kontekstdə heç bir təhlil aparmadan yalnız ifadənin mətninə baxaraq nəticəyə gəlməsi, sübutların obyektiv qiymətləndirilməsi prinsiplərinin pozulması deməkdir.

32. “Boşalanda zəng edərsən” ifadəsi gündəlik rusdilli ünsiyyət kontekstində işlədilmiş, cavabdeh tərəfindən onun seksual məzmun daşıdığı bilinməmiş və bu ifadəyə iddiaçı tərəfindən dərhal və ya sonrakı yazışmalarda heç bir etiraz ifadə olunmamışdır. Əksinə, iddiaçı sözügedən ifadədən sonra yazışmanı davam etdirmiş və hər hansı narahatlıq ifadə etməmişdir. Cavabdeh bu ifadənin mənasını bilmədiyini və gündəlik danışıq formasında istifadə etdiyini məhkəmədə izah etmişdir. Lakin məhkəmə bu izahı nəzərə almadan ifadəni yanlış kontekstdə təhlil etmiş və nəticədə hüquqi əsas olmadan mənəvi zərərin mövcudluğu qənaətinə gəlmişdir.

33. İddiaçı tərəfindən guya seksual qısnamaya məruz qalması ilə bağlı işəgötürənə və digər hüquqi orqanlara əvvəlcədən heç bir rəsmi müraciət edilməmiş, yalnız əmək münasibətlərindəki digər gərginliklərdən sonra bu iddia formalaşdırılmışdır. İddiaçının cavabdehə qarşı mənfi münasibəti sonradan yaranmış, həmin dövrə aid yazışmalar isə bu iddialarla ziddiyyət təşkil etmişdir. Bu isə göstərir ki, təqdim edilən iddialar əsaslı sübutlarla deyil, sonrakı şəxsi münasibətlərdən qaynaqlanan mövqelərlə bağlı olmuşdur və məhkəmə bu ziddiyyətlərə hüquqi qiymət verməmişdir.

34. İşəgötürən tərəfindən aparılan daxili yoxlamalar və araşdırmalar nəticəsində cavabdehin hərəkətlərində əmək qanunvericiliyinin pozuntusu aşkar edilməmiş, onun barəsində heç bir intizam tədbiri görülməmişdir. Bu baxımdan, cavabdehin yazışmaları və hərəkətləri inzibati və ya əmək hüququ pozuntusu səviyyəsinə çatmamışdır. Buna baxmayaraq, məhkəmə bu halları nəzərə almamış, yalnız iddiaçının şəxsi izahlarına əsaslanaraq mənəvi zərərin mövcudluğu barədə qərar qəbul etmişdir ki, bu da sübutların qeyri-obyektiv qiymətləndirilməsinə gətirib çıxarmışdır.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

35. İddiaçının kassasiya şikayətinə qarşı etiraz göndərərək, kassasiya şikayətinin təmin edilməməsi və qətnamənin dəyişdirilmədən saxlanılmasını xahiş etmişdir.

Tətbiq edilən hüquq

Azərbaycan Respublikasının Əmək Məcəlləsi

36. Maddə 12 “g”. Cinsindən asılı olmayaraq eyni işlə məşğul olan işçilərə eyni iş şəraitini yaratmaq, eyni pozuntuya görə işçilərə fərqli intizam tənbehi tədbirini tətbiq etməmək, cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin və seksual qısnamanın qarşısını almaq üçün lazımi tədbirlər görmək əmək münasibətləri sahəsində işəgötürənin əsas vəzifələrindən biridir.

37. Maddə 195 “g”. İşçi seksual qısnamaya məruz qaldıqda işəgötürən əmək münasibətləri prosesində işçiyə vurulan ziyana görə tam maddi məsuliyyət daşıyır.

38. 196.5. İşçiyə vurulan mənəvi ziyanın pul hesabı ilə məbləği bu Məcəllənin 290cı maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş qaydada müəyyən olunur.

39. Maddə 290.3. İşəgötürən əmək münasibətləri prosesində işçiyə vurduğu mənəvi ziyana görə maddi məsuliyyət daşıyır. Mənəvi ziyan vurulduğunu iddia edən işçi həmin ziyana

görə iddiasının məbləğini ərizəsində göstərməlidir. İşçiyə dəyən mənəvi ziyanın pul hesabı ilə məbləği onun ərizəsi əsasında vurulan mənəvi ziyanın ictimai təhlükəlilik dərəcəsinə, işçinin və işəgötürənin şəxsiyyətinə, işin faktik hallarına və ədalətli qərar qəbul edilməsi üçün zəruri olan digər obyektiv hallara uyğun olaraq məhkəmə tərəfindən müəyyən edilir.

Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Qanun

40. Maddə 2.0.4. Cinsi mənsubiyyətə görə ayrı-seçkilik – seksual qısnama, cinsi əlamətə görə hüquqların bərabər həyata keçirilməsini məhdudlaşdıran və ya inkar edən istənilən fərq, istisna və ya üstünlük;

41. Maddə 2.0.5. Seksual qısnama – əmək və ya xidmət münasibətlərində olan şəxsi alçaldan və təhqir edən, başqa cinsə və ya seksual yönümə mənsubiyyətdən irəli gələn və fiziki hərəkətlərdə (toxunma, əllə vurma), ədəbsiz sözlərdə, jestlərdə, hədələrdə, ləkələyici təkliflərdə və ya dəvətlərdə təzahür edən əxlaqsız davranış.

42. Maddə 4. Seksual qısnama qadağandır.

43. Maddə 7.2.5. Cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin və seksual qısnamanın qarşısını almaq üçün lazımi tədbirlər görmək.

44. Maddə 11. Seksual qısnamaya görə işəgötürəndən və ya rəhbərindən şikayət etmiş işçilər işəgötürən və ya rəhbər tərəfindən hər hansı təzyiq və təqibə məruz qala bilməzlər.

45. Maddə 17.1. Cinsi mənsubiyyətə görə ayrı-seçkiliyə məruz qalmış şəxslərə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada zərər ödənilir.

46. Maddə 17.2. Seksual qısnamaya məruz qalmış işçilərə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada işəgötürən tərəfindən zərər ödənilir.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi

47. Maddə 14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

48. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

49. Maddə 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

50. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

51. Maddə 416.2. Apelyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 418.4-cü maddəsində nəzərdə tutulmuş prosessual hüquq pozuntusu hesab edilən hallara yol verilməsi şikayətin hədlərindən və dəlillərindən asılı olmayaraq yoxlanılmalıdır.

52. Maddə 418.3. Prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması qətnamənin yaxud qərardadın ləğv edilməsi üçün o vaxt əsas ola bilər ki, bu pozuntu düzgün qətnamə qəbul edilməməsi ilə nəticələnsin və ya nəticələnə bilsin.

Kassasiya baxışının hədləri

53. Qanunun tələbinə görə, kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

54. Hazırkı kassasiya şikayətində apellyasiya instansiyası məhkəməsinin qətnaməsi cavabdeh tərəfindən iddianın təmin olunan hissəsində mübahisələndirildiyindən apellyasiya instansiyası məhkəməsinin aktı həmin hissədə yoxlanılır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

55. Məhkəmə kollegiyası hesab edir ki, apellyasiya instansiyası məhkəməsi tərəfindən mübahisəli hüquq münasibətini tənzimləyən maddi hüquq normaları düzgün tətbiq olunmuşdur. İş üzrə düzgün qətnamə qəbul edilməməsi ilə nəticələnən prosessual hüquq normalarının pozulması və ya səhv tətbiq olunması halları müəyyən edilmir. Bu baxımdan, apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv olunması və ya dəyişdirilməsi üçün əsas yoxdur.

56. Mübahisəyə mahiyyəti üzrə baxan məhkəmələr iş materiallarını araşdıraraq bu qənaətə gəlmişlər ki, iş materiallarındakı yazışmalara əsasən X1 İddiaçıya xx.xx.2023-cü il tarixdə “Hər zaman gözəlsən, hətta xəstə olanda belə”; xx.xx.2023-cü il tarixdə “Bəs sənə komplimentlər deyə bilərəm? Bəzən, həqiqətən də, demək istəyirəm ki, əla görünürsən”; xx.xx.2023-cü il tarixdə “Və yeri gəlmişkən, heç vaxt fikir verməmişdim, çox zərif və gözəl dabanın var. Mən heç bir qüsur görmürəm.”; xx.xx.2023-cü il tarixdə “Bilirsən ki, səni nə qədər sevirəm?!” məzmununda mesajlar yazmışdır.

57. İddiaçı ilə iş üzrə üçüncü şəxs X1 arasında olan bu qərarın 55-ci bəndində olan yazışmaların məzmunu əmək münasibətləri çərçivəsindən uzaq olmaqla iddiaçının şəxsi həyatı və xarici görünüşü, o cümlədən onun narahatlığına səbəb ola biləcək ifadələrdən ibarət olmuş, bu barədə iddiaçı tərəfindən bir neçə dəfə xəbərdarlıq məzmunlu iradlar da bildirilmişdir.

58. Qeyd edilməlidir ki, birinci və apellyasiya icraatları zamanı üçüncü şəxs X11 bu cür mesajları yazmasını danmamış, sadəcə həmin mesajların seksual qısnamaya hesab edilməsini düzgün qəbul etməmiş və iddiaçının bu “komplimentlərə” müsbət yanaşdığını, motivasiya və mükafatlandırma kimi deyildiyini bildirmişdir. Həmçinin o, tərəfindən iddiaçıya deyilmiş “boş...ma” ifadəsi ilə bağlı boşalmanın iki mənasının olması və rusdilli olduğundan bunu başqa mənada dediyini bildirmişdir.

59. İddiaçı tərəfindən təqdim edilən, üçüncü şəxs tərəfindən isə ifadə edildiyi etiraf edilən yazışmalardakı ifadələrin seksual qısnamanın təsirinə düşüb-düşməməsinin müəyyən edilməsi baxılan iş üzrə əsas və əhəmiyyətlidir.

60. Qeyd edilməlidir ki, Birləşmiş Millətlər Təşkilatının Sisteminin Baş İcraçı Direktorlar Şurasının təsdiq etdiyi BMT-nin Cinsi Təcavüzə qarşı Model Siyasətinə əsasən cinsi təcavüz istənilməyən və cinsi təbiətli olan, iş yerində və ya işlə əlaqədar olaraq, təhqir və ya aşağılanma yaratması ehtimal olunan hər hansı bir davranışdır. Bu cür davranış işə təsir edirsə, işə qəbul şərti olaraq qoyulursa və ya qorxuducu, düşmən mövqeyi və ya təhqiredici bir iş mühiti yaradırsa, cinsi təcavüz olaraq qiymətləndirilə bilər. Cinsi təcavüz iş yerində və ya işlə bağlı hər hansı bir yerdə baş verə bilər. Adətən bir neçə davranış nümunəsi şəklində ortaya çıxsa da, cinsi təcavüz tək bir hadisə ilə də baş verə bilər. Gözləmələrin və ya təsəvvürlərin uyğunluğunu qiymətləndirərkən, bu davranışın hədəfi olan şəxsin baxışı nəzərə alınmalıdır.

61. Həmin qaydalara özünü aşağıdakı formaların birində göstərə bilər: - Hər hansı bir formatda cinsi təklif xarakterli ünsiyyətlər göndərmək, - Cinsi və ya əxlaqsız anekdotlar və zarafatlar paylaşmaq, - Yerləşdirilməyən cinsi jestlər etmək, məsələn, pelvis hərəkətləri etmək. - İstənilməyən toxunmalar, məsələn, dişləmə, vurma, ovuşdurma və ya başqa bir şəxsə bilərəkdən yaxınlaşmaq, - Cinsi təkliflə baxışlar atmaq, - Birini davamlı olaraq görüşə dəvət etmək və ya cinsi əlaqə istəmək, - Birinin cinsəlliyini qiymətləndirmək, Görünüş, geyim və ya bədən hissələri haqqında cinsi şərhlər etmək, - Cinsiyyətə və ya cinsi orientasiyaya aid qeyri-

şəxsi adlar və ya təhqiramiz ifadələr istifadə etmək, - Birinin cinsi orientasiyası və ya cinsiyyət kimliyi haqqında aşağılayıcı və ya alçaldıcı şərhlər etmək.

62. Bu cür davranışlar şəxsin hörmətini poza, onun təhlükəsizliyini və rifahını təhdid edə, həmçinin iş mühitində narahatlıq yarada bilər və bu nəticədə işçinin seksual qısnaması ilə onun istər şəxsi toxunulmazlıq, istərsə də təhlükəsiz şəraitdə işləmək hüquqlarının pozulmasına gətirib çıxara bilər.

63. Bu qərarın 60-61-ci bəndlərində göstərilənlər ümumi olaraq "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanunda da təsbit olunmuşdur.

64. Hazırki işin hallarından da göründüyü kimi X1in iddiaçıya xx.xx.2023-cü il tarixdə "Hər zaman gözəlsən, hətta xəstə olanda belə"; xx.xx.2023-cü il tarixdə "Bəs sənə komplimentlər deyə bilərəm? Bəzən, həqiqətən də, demək istəyirəm ki, əla görünürsən"; xx.xx.2023-cü il tarixdə "Və yeri gəlmişkən, heç vaxt fikir verməmişdim, çox zərif və gözəl dabanın var. Mən heç bir qüsur görmürəm." kimi yazdığı mesajlar yuxarıda qeyd edilən qaydaların dairəsinə düşməklə onun görünüşü və bədən üzvləri barəsində bu cür ifadələrin yazılması iddiaçının haqlı olaraq narahatlığına səbəb olmuşdur.

65. Məhkəmə tərkibi qeyd edir ki, eyni iş yerində rəhbər olan şəxslə tabeçiliyində olan şəxs arasında sadəcə işlə bağlı ünsiyyətin aparılmalı olması ağlabatan olmaz, əmək qanunvericiliyinin tələbləri də belə məcburiyyəti müəyyən etmir, lakin bu hal, yəni rəhbərə xoş münasibət bəslənməsi, işçiyə xoş məramlı jestlərinə işçinin dözməsi işçiyə qarşı seksual xarakterli hərəkətlər etməyə rəvac vermir, qısnamaya qarşı tolerant yanaşması və razılıq verməsi anlamına gəlmir.

66. Baxılan işdə üçüncü şəxsin etdiyi hərəkətlər (cinsi təklif xarakterli ünsiyyətlər göndərməsi, iddiaçının görünüş, geyimi və bədən hissələri haqqında şərhlər etməsi) seksual qısnama xarakterli olmuşdur ki, nəticədə iddiaçının şəxsiyyət hüququnun (şəxsi toxunulmazlıq) pozulmasına səbəb olmuşdur. İş yerində seksual qısnama yalnızca istənməyən toxunma və ya cinsi yaxınlaşmadan ibarət deyil. Bu bir çox formada ola bilən bir pozuntudur. Bu pozuntu birinin görünüşü və ya haqqında söylənilən bir atmaca, uyğunsuz toxunma, cinsi zarafat və ya açıqlamalar, israrla təqib etmə formasında ola bilər.

67. İş yerində seksual qısnama və psixoloji qısnama işçilərin fiziki və mənəvi sağlamlığını pozan və iş şəraitində rahatsızlıq yaradan ciddi problemlər hesab olunur.

68. Nəzərə alınmalıdır ki, seksual qısnama bir şəxsin razılığı olmadan məruz qaldığı cinsi məzmunlu sözlü, yazılı və ya fiziki davranışları ifadə edir. Psixoloji qısnmanın varlığının qəbulu üçün sistemli və davamlı bir hərəkətlər olmalı olduğu halda seksual qısnama ani və tək bir hərəkətlə ("...əla görünürsən" "...səni sevirəm", "Və yeri gəlmişkən, heç vaxt fikir verməmişdim, çox zərif və gözəl dabanın var. Mən heç bir qüsur görmürəm." və s) yaranır. Beləliklə seksual qısnama şəxsə yönəlik təhdid yaradan, onu aşağılayan və kiçik düşürən, həssas və psixoloji olaraq çökməsinə səbəb olan, şəxsin iradəsi xaricində şəxsinə yönələn sözlər, fiziki və/və ya başqa formada hər hansı bir hərəkətlə edilə bilər. İşəgötürənin nəzarət vəzifəsini yerinə yetirməməsi səbəbi ilə iş yerində seksual qısnamaya məruz qalan işçi şəxsiyyət hüququnun zədələnməsinə görə, duyduğu sarsıntıya görə ondan mənəvi təzminat tələb edə bilər.

69. Seksual qısnamaya məruz qalan iddiaçı bu narahatlığını istər həmin şəxsin özünə, istərsə də rəhbərlik səviyyəsinə çatdırmışdır. İddiaçının üçüncü şəxsin hərəkətlərindən dəfələrlə şikayət etməsi, bu şikayətlər üzrə araşdırma aparılması, üçüncü şəxsə bir çox çəkindirici tədbirlərinin tətbiq olunması iddiaçının onun bu davranışlarını xoş qarşılamamasının, belə rəftara razılığının olmamasının aşkar təsdiqidir. Bunlar isə kassasiya

şikayətində göstərilən ifadələrin, yəni “iddiaçının bu “komplimentlərə” müsbət yanaşdığını, motivasiya və mükafatlandırma kimi deyidiyini” dair dəlillərinin əsaslı olmadığını təsdiq edir.

70. Belə ki, X1 tərəfindən ona yazılmış intim məzmunlu mesajlarla bağlı İddiaçı xx.xx.2023-cü il tarixdə X2 adlı, xx.xx.2023-cü il tarixdə X3, X4 adlı şəxslərə və bir sıra digər şəxslərə elektron poçt vasitəsilə müraciət edərək, tədbir görülməsini xahiş etmişdir. X4 adlı şəxs tərəfindən İddiaçıya ünvanlanmış xx.xx.2023-cü il tarixli elektron məktubun tərcüməsindən görünür ki, həmkarı tərəfindən korporativ etikanın sistematik pozulması nəticəsində yaranan emosional vəziyyətə baxmayaraq, iş öhdəliklərini yerinə yetirməyə davam etdiyi, bu vəziyyətdə etdiyi müraciət və göstərdiyi səbrə görə ona təşəkkür edilmiş, müraciəti diqqətlə, messencerlərdən təqdim olunan yazışmalar kollektiv şəkildə araşdırılmışdır. Onunla X1 arasındakı vəziyyətin mürəkkəb olduğunu başa düşdüyünü, bunu nəzərə aldıqlarını, bu səpkidə ünsiyyətin etika hüdudlarından kənara çıxdığını, bunu qətiyyən qəbul etmədiklərini, korporativ etikanın və işçilərin rahatlığının prioritetləri olduğunu xüsusilə vurğulamış, həmin gün X1lə izahlı bir söhbət aparıldığını, onun davranışının yersiz olduğunu və bir daha təkrarlanmayacağını başa düşdüyünü və peşman olduğunu bildirdiyini, İddiaçınınnın və X1in təqdim etdikləri işçilər arasında işgüzar ünsiyyətdən kənara çıxan və qəbuledilməz olan yazışmaları araşdırdıqlarını, mövcud vəziyyəti nəzərə alaraq, aşağıdakı addımları atdıqlarını bildirmişdir: “1. X1ə korporativ etikanın pozulması və həmkarlarla hörmətli ünsiyyət qurmağın zəruriliyi barədə rəsmi olaraq xəbərdarlıq ediləcək (X3, xahiş edirəm, HR ilə müzakirə edilsin). Bu cür vəziyyətlərin təkrarlanacağı təqdirdə, işdən çıxarılmaya qədər olan nəticələr ona aydın şəkildə təqdim edilmişdir. 2. İşçilərin təhlükəsizliyinin və rahatlığının təmin edilməsi məqsədilə onlar ofisin açıq sahələrində və mühasibat kabinetində videokameraların quraşdırılmasına qərar vermişdir. Bu, peşəkar iş mühitinin qorunmasına kömək edən əlavə bir nəzarət vasitəsidir (Sərəncam artıq tərtib edilmiş, növbəti həftənin sonuna qədər icra ediləcəkdir). 3. İddiaçınınnın rahatlığı və təhlükəsizliyi üçün onunla X1 arasındakı əlaqə ünsiyyətinə nəzarət etmək üçün X5 nəzarət xidməti tərəfindən telefon danışıqları qeydləri ilə poçt və “X” vasitəsilə aparılacaqdır. 4. İddiaçının, şirkətin inkişafına, mühasibat uçotunda nizam və şəffaflığın qurulmasına verdiyiniz töhfəni qiymətləndiririk! Emosional vəziyyətin iş axınına təsir göstərə biləcəyini başa düşürük və dəyərli bir işçi olduğunuz üçün, özünüzü rahat hiss etməyiniz və vəzifələrini uğurla yerinə yetirməyiniz üçün Sizə dəstək olmağa hazırıq. X2 ilə tələb olunan məzuniyyəti razılaşdırmanızı, bir də hazırda departamentinizin böyük bir iş yükü olduğu üçün sabit işə təsir etməməsi məqsədilə maliyyə əməliyyatlarının aparılması üçün əlaqədə qalmanızı xahiş edirəm (bugünki telefon danışığında müzakirə etdik). 5. Müraciətinizə uyğun olaraq, X3, Sizdən X1ə müqavilə müddəti bitənə qədər sınaq müddəti ilə xəbərdarlıq etmənizi xahiş edirəm”. Gördükləri tədbirlərin İddiaçının və bütün işçilər üçün təhlükəsiz və peşəkar bir iş şəraitinin yaradılmasına kömək edəcəyinə və bu hadisənin tamamilə həll ediləcəyinə ümid etdiyini əlavə etmişdir.

71. X6 adlı şəxs tərəfindən İddiaçıya ünvanlanmış xx.xx.2023-cü il tarixli elektron məktubdan görünür ki, X4nin məktubunda qeyd olunanların davamı olaraq həmin gün şirkət rəhbərləri adından (X3 və X4nin iştirakı ilə) X1lə korporativ etika normalarının pozulması və bu cür halların qəti şəkildə qarşısının alınması barədə rəsmi əlaqə qurulmuş, həmçinin, işgüzar münasibətlərin icazə verilən sərhədləri pozulduğu təqdirdə, işdən çıxarılmaya qədər olan nəticələrlə bağlı. Eyni zamanda, həmkarlar digər şərtlər üzrə işlərini davam etdirirlər. Sonda İddiaçıdan şirkət tərəfindən görülən və onunla əvvəlcədən müzakirə olunan tədbirlərin şirkət rəhbərlərinin gələcək qarşılıqlı fəaliyyətə nəzarət edəcəyi şərtilə vəziyyətin nizamlanması üçün kifayət olduğunu təsdiqləməsini xahiş etmişdir.

72. xx.xx.2023-cü il tarixdə İddiaçı X7 adlı şəxsə (electron ünvan) rəhbərlik – X1 tərəfindən təqib-təcavüzə məruz qalması ilə bağlı elektron qaydada müraciət edərək, tədbir görülməsini xahiş etmişdir.

73. X7 adlı şəxs (electron ünvan) tərəfindən İddiaçıya ünvanlanmış xx.xx.2023-cü il tarixli elektron məktubdan görünür ki, "Speak Up Policy" İnsidentlər haqqında məlumatlandırma siyasətinin müddəalarına, xüsusilə də 7-ci bölməsinə uyğun olaraq, müraciəti ilə bağlı istintaq başa çatdırılıb və şirkət tərəfindən Azərbaycandakı ofisdə iş mühitinin bərpası üçün lazımi tədbirlər görülmüşdür. İstintaqın nəticələrinə görə, ayrı-seçkliyin və təcavüzün olmaması ilə bağlı siyasətin müddəalarına uyğun olmayan davranış faktı müəyyən edilmişdir. İstintaq başa çatdıqdan sonra uyğun olmayan davranışa yol verən şəxsə qarşı yerli qaydalara uyğun olaraq xəbərdarlıq göndərilməsi barədə qərar qəbul edilmişdir. Bundan əlavə, bu kimi hadisələrin təkrarlanmaması üçün əlavə tədbirlər görülmüşdür, məsələn: 1. Uyğun olmayan davranışa yol verən şəxsə münasibətdə əlavə fərdi təlim; 2. Birmənalı olmayan cümlə və ifadələrin, habelə ikimənalı şərhə malik ola biləcək hər hansı digər hərəkətlərin istifadəsinə qadağa və s. İstintaqın nəticələri və görülən tədbirlər şəxsi və fərdi xarakter daşıyır, buna görə də məxfi məlumatlardır. Həmçinin, "Noventik Yolu" Etik Kodeksinin və ya şirkətlər qrupunun digər Siyasətlərinin mümkün pozuntularının şahidi olsa, hadisələr barədə məlumatlandırma Siyasəti çərçivəsində yenidən müraciət etmək hüququnun olması bildirilmişdir.

74. Birləşmiş Millətlər Təşkilatının Sisteminin Baş İcraçı Direktorlar Şurasının təsdiq etdiyi BMT-nin Cinsi Təcavüzə qarşı Model Siyasətində bu məsələ ilə bağlı həmçinin işəgötürənin görməli olduğu tədbirlərə dair qeyd edilmişdir ki, yüksək rəhbərlər və yüksək menecerlər, işçi heyəti olaraq olan öhdəliklərinə əlavə olaraq: a. Cinsi təcavüzün qarşısının alınması və bu məsələyə cavab verilməsi üzrə öz bağlılıqlarını nümayiş etdirməli, bu mövzuda özlərini maarifləndirməli, şəxsi davranışlarında yüksək bir standart saxlamağa çalışmalı və mövqelərinin gücünü nəzərə alaraq bütün iş yoldaşlarına hörmət və nəzakətlə yanaşmalıdırlar; b. Şikayətlərə dərhal cavab verməli, onları ciddi qəbul etməli və təsirlənmiş şəxsə qarşı məsul olduqları lazımi tədbirləri (məsələn, dəstək, müvəqqəti tədbirlər və s.) həyata keçirməlidirlər; c. Öz komandalarında açıq dialoqları dəstəkləməli, harmoniya içində bir iş mühiti yaratmaq üçün tədbirlər görməli və bu siyasətə zidd ola biləcək qeyri-əxlaqi davranış və hərəkətlər barədə məlumatlı olmalıdırlar; d. Öz iş bölmələrində bu siyasətə zidd ola biləcək davranışları izləməli və harmoniya içində bir iş mühiti təşviq etməyə çalışmalıdırlar; e. Cinsi təcavüz siyasətləri və prosedurlarını hər il işçi yığıncağında komanda və ya iş qrupu ilə müzakirə etməli və cinsi təcavüz siyasətlərinin pozulması halında tətbiq olunacaq nəticələr barədə nəşr olunan məlumatları diqqətə çatdırmalıdırlar; f.İşçilərin qeyri-əxlaqi davranışlar haqqında narahatlıqlarını sərbəst şəkildə ifadə etmələri üçün bir atmosfer yaratmağa çalışmalı və onlara cəza qorxusu olmadan qeyri-rəsmi və rəsmi mexanizmlərdən, xidmətlərdən və bütün hüquqi yollarından istifadə etmələri üçün təşviq etməlidirlər.

75. Məhkəmə tərkibi qeyd edir ki, cavabdehin işçilərin bu cür rəftara məruz qalmaması ilə bağlı xüsusi tənzimləmə tələb edən öhdəlikləri mövcuddur və bu öhdəliklər Əmək Məcəlləsinin 195-ci maddəsinin "g" bəndində təsbit olunmuşdur ki, bunun nəticəsi olaraq iddiaçının hazırda məruz qaldığı rəftara və seksual qısnamaya görə keçmiş işəgötürəndən ona dəymiş mənəvi zərərin kompensasiyasını tələb etmək hüququ vardır.

76. Əmək Məcəlləsinin 290.3-cü maddəsinə əsasən işəgötürən əmək münasibətləri prosesində işçiyə vurduğu mənəvi ziyana görə maddi məsuliyyət daşıyır. Mənəvi ziyan vurulduğunu iddia edən işçi həmin ziyana görə iddiasının məbləğini ərizəsində göstərməlidir. İşçiyə dəyən mənəvi ziyanın pul hesabı ilə məbləği onun ərizəsi əsasında vurulan mənəvi

ziyanın ictimai təhlükəlilik dərəcəsinə, işçinin və işəgötürənin şəxsiyyətinə, işin faktik hallarına və ədalətli qərar qəbul edilməsi üçün zəruri olan digər obyektiv hallara uyğun olaraq məhkəmə tərəfindən müəyyən edilir.

77. Kollegiya bildirir ki, sübutları araşdırmaq və qiymətləndirmək səlahiyyətinə malik olan apellyasiya məhkəməsi tərəfindən işdəki sübutlar araşdırılmış, onlara və cavabdehin dəlillərinə qanunvericiliyə uyğun hüquqi qiymət verilməklə yuxarıdakı qənaətə gəlinmiş və məhkəmənin gəldiyi nəticə əsaslandırılmışdır. Kassasiya kollegiyası apellyasiya məhkəməsinin iş üzrə gəldiyi nəticə və əsaslandırma ilə razılaşır.

78. O da qeyd edilməlidir ki, işin faktiki halları kassasiya instansiyası məhkəməsinin araşdırma predmetini təşkil etmir. Kassasiya instansiyası məhkəməsi sübuta yetirilməyən halların əlavə araşdırılması vəzifəsini öz üzərinə götürmədən mülki prosesdə rəhbər tutulan hüquqi həqiqət prinsipinə uyğun olaraq, yalnız iş üzrə müəyyən edilmiş hallara hüququn düzgün tətbiq edilib-edilmədiyini yoxlayır.

79. Məhkəmə kollegiyası hesab edir ki, apellyasiya məhkəməsi tərəfindən işin hallarının araşdırılması üçün tərəflərə lazımi şərait yaradıldığından və onların dəlillərinə hüquqi qiymət verildiyindən iş üzrə maddi və prosessual hüquq normaları düzgün tətbiq olunmuşdur, kassasiya şikayətinin dəlilləri qətnamənin ləğv edilməsi üçün əsas təşkil etmir.

80. Ona görə də kassasiya şikayəti təmin olunmamalı, apellyasiya instansiyası məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmalıdır.

81. Göstərilənlərə əsasən və MPM-in 416, 417 və 419-cu maddələrini rəhbər tutaraq, Məhkəmə kollegiyası

Qərara aldı:

Kassasiya şikayəti təmin edilməsin.

Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(103)-1692/2025 nömrəli 12 mart 2025-ci il tarixli qətnaməsi dəyişdirilmədən saxlanılsın.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

Əqli mülkiyyət hüququ

57. 2(1-8)-1332/2026 nömrəli, 2026-cı il 9 iyul tarixli qərar – 2. Şəxsi məqsədlər üçün audiovizual əsərin və fonoqramın gəlir götürmədən surəti çıxarılarkən müəlliflərin, ifaçıların, audiovizual əsər və fonoqram istehsalçılarının qonorar almaq hüququ

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: İddiaçı (Gildiya) audiovizual əsər müəlliflərinin əmlak hüquqlarının kollektiv idarəetmə təşkilatı cavabdeh şirkətin audiovizual əsərlərin və fonoqramların şəxsi məqsədlər üçün gəlir götürmədən surətinin çıxarılmasında istifadə olunan avadanlıqları və maddi daşıyıcıları idxal etdiyini bildirərək, cavabdehin üzərinə iddiaçı ilə müqavilə bağlanılması öhdəliyi qoyulmasını və qanunvericilikdə nəzərdə tutulmuş qonoraın tutulmasını tələb edir.

Cavabdeh isə iddiaya etiraz edərək bildirmişdir ki, idxal etdiyi mallar qanunda nəzərdə tutulan surətçıxarma avadanlıqları və maddi daşıyıcılar hesab edilmir, şirkət yalnız elektronika və məişət texnikası idxal edir və satır. Buna görə də qonorar ödəmək və Gildiya ilə müqavilə bağlamaq öhdəliyi daşımadığını irəli sürmüşdür.

İşə mahiyyəti üzrə baxmış məhkəmələr iddianı rədd edərkən belə nəticəyə gəliblər ki, iddiaçı cavabdehə müqavilə bağlanması üçün təklif (oferta) göndərmiş, lakin cavabdeh tərəfindən müqavilənin bağlanmasına dair razılıq (aksept) göndərilməmişdir. Müqavilə tərəflərin qarşılıqlı razılığı əsasında könüllü şəkildə bağlanılır, müqavilə bağlamağa məcburetməyə yol verilmir. Bundan başqa, məhkəmələr cavabdehin idxal etdiyi malların qanunda göstərilən avadanlıq və maddi daşıyıcılar kateqoriyasına aid olduğunu iddiaçının mötəbər sübutlarla təsdiq edə bilmədiyini qeyd etmişlər.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi: “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Qanunun 17.3-cü maddəsinə əsasən, audiovizual əsərlərin və fonoqramların şəxsi məqsədlər üçün gəlir götürmədən surəti çıxarıldıqda müəlliflərin, ifaçıların, audiovizual əsər və fonoqram istehsalçılarının qonorar almaq hüququ vardır və həmin qonorar surətçıxarma üçün istifadə olunan avadanlıqların və maddi daşıyıcıların istehsalçıları və ya idxalçıları tərəfindən ödənilir. Normanın məzmunundan görünür ki, həm müəlliflərin qonorar almaq hüququ, həm də istehsalçı və ya idxalçıların həmin qonoraı ödəmək öhdəliyi birbaşa qanundan irəli gəlir.

Həmin Qanunun 17.4-cü maddəsində nəzərdə tutulmuş müqavilə isə bu hüququ yaradan hüquqi fakt deyil, onun həyata keçirilməsi mexanizmlərindən biridir. Müqavilənin bağlanması tərəflərə, o cümlədən idxalçıya qanunvericilikdə müəyyən edilmiş minimum həddə nəzərə alınmaqla, qonoraın məbləğini və ödənilməsi şərtlərini qarşılıqlı razılıq əsasında müəyyən etmək imkanı verir. Tərəflər razılığa gələ bilmədikdə isə həmin məsələlərin müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən ediləcəyi açıq şəkildə göstərilmişdir.

Kassasiya kollegiyası apellyasiya instansiyası məhkəməsinin cavabdehin üzərinə müqavilə bağlamaq öhdəliyinin qoyulmasının yolverilməz olması barədə mövqeyi ilə razılaşsa da, qeyd etmişdir ki, həmin mövqe öz-özlüyündə iddiaçının pul tələbinin rədd edilməsi üçün əsas hesab edilə bilməz, çünki müəlliflərin qonorar almaq hüququ və cavabdehin ödəniş öhdəliyinin hüquqi əsasının birbaşa qanundan, yoxsa müqavilədən irəli gəldiyi müəyyən olunmalıdır.

Əks yanaşma qəbul edildiyi halda, surətçıxarma üçün istifadə olunan avadanlıqları və maddi daşıyıcıları idxal edən şəxslər sadəcə müqavilə bağlamaqdan imtina etməklə qanunla nəzərdə tutulmuş ödəniş öhdəliyindən yayına bilərlər. Belə yanaşma isə müəlliflərin və əlaqəli hüquq sahiblərinin qanunla təmin edilmiş əmlak hüquqlarının faktiki həyata keçirilməsini mümkünsüz edər, qanunvericinin müəyyən etdiyi kompensasiya mexanizmini əhəmiyyətsiz hala salar və hüquqdan sui-istifadəyə şərait yaradardı.

Beləliklə, tərəflər arasında müqavilənin bağlanmaması müəlliflərin qanundan irəli gələn qonorar almaq hüququnu və idxalçının həmin qonoraro ödəmək öhdəliyini aradan qaldırmır. Müqavilənin hüquqi əhəmiyyəti tərəflərin qanunvericiliklə müəyyən edilmiş çərçivə daxilində qonoraron məbləği və ödənilmə qaydası barədə qarşılıqlı razılığa gəlmələrindən ibarətdir. Belə razılıq əldə edilmədiyi halda isə idxalçı qanunvericilikdə, o cümlədən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.08.2007-ci il tarixli 132 nömrəli qərarı ilə müəyyən edilmiş minimum məbləğdə qonorar ödəmək öhdəliyini daşıyır.

Həmçinin vurğulanmışdır ki, “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Qanunun 17.3-cü maddəsində sadalanan avadanlıq və maddi daşıyıcıların siyahısı məhdud xarakter daşımır. “Başqa avadanlıqlar” və “digər maddi daşıyıcılar” anlayışları texnoloji inkişaf nəzərə alınmaqla funksional meyar əsasında şərh edilməlidir. Konkret texniki vasitənin həmin kateqoriyaya aid olub-olmaması onun adından deyil, audiovizual əsərlərin və fonoqramların surətinin çıxarılması və yazılması imkanını təmin edib-etməməsindən asılı olaraq müəyyən edilməlidir.

**Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.*

2(1-8)-1332/2026

09.07.2026-cı il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının

İddiaçı (Gildiya) audiovizual əsər müəlliflərinin əmlak hüquqlarının kollektiv idarəetmə təşkilatının cavabdeh "XXX" MMC-yə qarşı (müstəqil tələb irəli sürməyən üçüncü şəxs Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi) iddiasına dair iş üzrə

Q Ə R A R I

(Açar sözlər: müəlliflik hüququ, müəlliflərin əmlak hüquqlarının müdafiəsi ilə bağlı tələb)

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Xıdırov Əhliman Mehman oğlu (məruzəçi), Həsənov Vüqar Təvəkgül oğlu və Şamayev Elşad Yaquboviçdən ibarət tərkibdə,

iddiaçı (Gildiya) audiovizual əsər müəlliflərinin əmlak hüquqlarının kollektiv idarəetmə təşkilatının cavabdeh "XXX" MMC-yə qarşı (müstəqil tələb irəli sürməyən üçüncü şəxs Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi) "müqavilənin bağlanma öhdəliyinin qoyulması və pul" tələbinə dair mülki iş üzrə Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(103)5564/2025 nömrəli 2026-cı il 29 yanvar tarixli qətnaməsindən iddiaçı tərəfindən verilmiş kassasiya şikayətinə Ali Məhkəmənin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları

1. Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin *(bundan sonra – Agentlik)* xx.xx.xx-cu il tarixli *** nömrəli əmrinə əsasən audiovizual əsərlərin və fonoqramların şəxsi məqsədlər üçün gəlir götürmədən surətinin çıxarılmasına görə audioviziual əsərə münasibətdə müəlliflərin, ifaçıların və audioviziual əsas istehsalçılarının, fonoqrama münasibətdə isə ifaçıların və fonoqram istehsalçılarının qonorarının yığılmasını Əqli Mülkiyyət Hüquqlarının Təminat Mərkəzinin və (Gildiya) audiovizual əsər müəlliflərinin əmlak hüquqlarının kollektiv idarəetmə təşkilatının *(bundan sonra – iddiaçı və ya Gildiya)* birgə həyata keçirməsi və hesablanmış qonoraron ödəmə mənbəyində vergi tutulduqdan sonra qalan hissəsinin Təminat Mərkəzinə 60%, Gildiyaya 40% olmaqla bölüşdürülməsi əmr edilmişdir.

2. Gildiya xx.xx.1999-cu il tarixdə qeyri-kommersiya qurumlarının dövlət reyestrində qeydiyyatdan keçmiş, Agentliyin xx.xx.2023-cü il tarixli **** nömrəli şəhadətnaməsinə əsasən isə audiovizual əsər müəlliflərinin əmlak hüquqlarının kollektiv idarəçiliyini həyata keçirən təşkilat kimi qeydiyyatdan (akkreditasiyadan) keçmişdir.

3. Agentlik tərəfindən "XXX" MMC-yə *(bundan sonra – cavabdeh)* Gildiya ilə müqavilə münasibətlərinə daxil olması barədə xx.xx.2020-ci il və xx.xx.2022-ci il tarixli məktublarla iki müqavilə və idxalına görə qonorar ödənilməli olan avadanlıq və maddi daşıyıcıların siyahısı barədə əlavələr göndərilmiş, lakin tərəflər arasında müqavilə bağlanmamışdır.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a) Birinci instansiya məhkəməsində icraat

4. İddiaçı Gildiya cavabdeh MMC-yə qarşı (müstəqil tələb irəli sürməyən üçüncü şəxs Agentlik) iddia ərizəsi və iddia tələbinin dəqiqləşdirilməsi barədə ərizə ilə məhkəməyə müraciət edərək, "Müəlliflik və əlaqəli hüquqlar haqqında" Qanunun 17-ci maddəsinin və Nazirlər Kabinetinin 24.08.2007-ci il tarixli 132 nömrəli qərarının icrasının təmini və audiovizual əsərə münasibətdə müəlliflərə, ifaçılara, audiovizual əsər istehsalçılarına və fonoqrama münasibətdə isə ifaçılara və fonoqram istehsalçılarına çatacaq qonoraron yığılması məqsədilə cavabdehin üzərinə Gildiya ilə müqavilə bağlanılması öhdəliyinin qoyulması və 01.01.2021-ci il tarixindən 01.01.2024-cü il tarixinədək (son 3 il ərzində) audiovizual əsərlərin və fonoqramların şəxsi məqsədlər üçün surətinin çıxarılmasında istifadə olunan avadanlıqların və maddi daşıyıcıların idxalını həyata keçirdiyi zaman qanunazidd olaraq audiovizual əsərə münasibətdə müəlliflərə, ifaçılara, audiovizual əsər istehsalçılarına və fonoqrama münasibətdə isə ifaçılara və fonoqram istehsalçılarına qonorar ödəmədiyinə görə ümumilikdə 687.399 manat məbləğində pulun cavabdehden alınaraq, 274.959,60 manatının (40%) Gildiyanın, 412.439,40 manatının isə (60%) fonoqram ifaçılarına və istehsalçılarına çatdırılması üçün Agentliyin hesabına ödənilməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

5. İddiaçı tələbini onunla əsaslandırmışdır ki, cavabdeh MMC audiovizual əsərlərin və fonoqramların surətinin çıxarılmasında istifadə olunan avadanlıqların və maddi daşıyıcıların idxalını "Müəlliflik və əlaqəli hüquqlar haqqında" Qanunun 17-ci maddəsinin və Nazirlər Kabinetinin 24.08.2007-ci il tarixli qərarının tələblərini pozaraq həyata keçirən təşkilatdır. Nazirlər Kabinetinin həmin qərarına əsasən şəxsi məqsədlər üçün audiovizual əsərin və fonoqramın gəlir götürmədən surəti çıxarılarkən, audiovizual əsərə münasibətdə müəlliflərin, ifaçıların və audiovizual əsər istehsalçılarının, fonoqrama münasibətdə isə ifaçıların və fonoqram istehsalçılarının qonorar almaq hüququ vardır. Göstərilən qonorar audiovizual əsərlərin və fonoqramların surətinin çıxarılmasında istifadə olunan (yazılma üçün) audiovideomaqnitofonların və digər avadanlıqların, audio və (və ya) videolentlərin və kasetlərin, lazer disklərin və digər maddi daşıyıcıların istehsalçıları və idxalçıları tərəfindən ödənilir. Cavabdehin kommersiya məqsədilə audiovizual əsərlərin və fonoqramların surətinin çıxarılmasında istifadə olunan maddi daşıyıcıların və avadanlıqların ixdalını həyata keçirməsi zamanı qanunvericiliklə müəyyən edilmiş qaydada heç bir qonorar ödəməməsi müəlliflərin, audiovizual əsər və fonoqram istehsalçılarının və ifaçılarının hüquqlarını kobudcasına pozur. Qanunun 17.3-cü maddəsinə və Nazirlər Kabinetinin qərarının 6 və 8ci bəndlərinə əsasən audiovizual əsərlərin və fonoqramların şəxsi məqsədlər üçün gəlir götürmədən surətinin çıxarılmasına görə avadanlıqların və maddi daşıyıcıların istehsalçıları və ya idxalçıları tərəfindən avadanlıqların və maddi daşıyıcıların hər bir növü üzrə satış (topdansatış) qiymətinin 0,5 faizindən az olmamaqla hər rübün sonunda Agentliyin hesabına qonorar köçürülməlidir. Agentlik 27.12.2019-cu il tarixli əmrlə və 27.12.2023-cü i tarixli şəhadətnamə ilə audiovizal əsər və fonoqramların surətini çıxarma imkanına malik maddi daşıcı və avadanlıqların istehsalçıları və idxalçıları ilə müqavilə münasibətlərinin qurulmasını və onlardan qonorar yığılmasını Gildiyaya tapşırmışdır. Agentliyin cavabdehə göndərdiyi 11.12.2020-ci il və 24.06.2022-cil tarixli məktublarına, həmçinin Gildiyanın dəfələrlə rəsmi və qeyri-rəsmi müraciətlərinə, müqavilə bağlanılmasına dair təkliflərinə baxmayaraq, cavabdeh bu istiqamətdə hüquqi əsasların yaradılması üçün heç bir addım atmamışdır. Cavabdeh bu hərəkətləri ilə qanunun tələblərini pozaraq, müəlliflərə maddi zərər vurur. Gildiyanın Agentliyin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinə göndərdiyi rəsmi sorğuya verilmiş cavaba əsasən 01.01.2021-ci il tarixindən 01.01.2024-cü il tarixinədək cavabdeh tərəfindən idxal olunan audiovizual əsərlərin və fonoqramların surətinin çıxarılmasında istifadə olunan maddi daşıyıcıların və avadanlıqların ümumi dəyəri 80.870.477,27 ABŞ dolları müəyyən edilmişdir. Bu məbləğin manatla ifadəsi 137.479.811,35 manat təşkil edir. Nazirlər Kabinetinin qərarına əsasən bu məbləğin minimum olaraq 0,5 faizi 687.399 manata bərabərdir.

6. Cavabdeh MMC iddia tələbinə qarşı etiraz təqdim edərək bildirmişdir ki, iddiaçının öz iddiasını əsaslandırdığı qanunun 17-ci maddəsinin 3-cü hissəsindən açıq şəkildə göründüyü kimi avadanlıq və qurğulara surətçıxarma üçün istifadə edilən texniki avadanlıqlar, əsərlərin yazıldığı kasetlər, disklər və s. aid edilmişdir. Cavabdeh tərəfindən isə belə məhsullar idxal edilmir. MMC-yə məxsus "X" mağazalarında elektronika və elektrik məişət malları satılır. Həmçinin Nazirlər Kabinetinin "Məlumat daşıyıcısı vasitələrinin gömrük dəyərləndirilməsi Qaydaları"nın təsdiq edilməsi barədə 25.12.2013-cü il tarixli qərarında qeyd edilmişdir ki, məlumat daşıyıcısı vasitələri – informasiya texnologiyaları vasitələri ilə emal edilməyə yararlı məlumat və ya təlimatlar yığımının saxlanılması və istifadəsi üçün təyin edilmiş kompakt disklər (CD-lər), maqnetik kasetlər, disketlər, DVD və s. maddi obyektlərdir. Bu Qaydaların məqsədləri üçün istifadə olunmuş məlumat daşıyıcısı vasitələrinə elektron inteqral sxemləri, yarımkeçiricilər, elektron inteqral sxemlərini və ya mexanizmlərini özündə birləşdirən əşyalar və ya cihazlar (kompüterlər, bərk disklər və s.) daxil deyildir. İddiaçının müqaviləyə əlavə etdiyi siyahıya istisna edilən bir neçə mal kodları gömrük sistemində (rəsmi saytında) verilən anlayış

belədir: 8471300000 - ən azı məlumatın işlənmə mərkəzi blokundan, klaviaturadan və displeydən ibarət olan, kütləsi 10 kq-dan çox olmayan portativ hesablayıcı maşınlar; 8517 başlığı ilə qeyd olunan mallara – mobil və ya digər naqilsiz rabitə şəbəkələri üçün smartfonlar və digər telefon aparatları da daxil olmaqla telefon aparatları və s. Göründüyü kimi, qeyd edilən məhsullar gömrük sistemində belə maddi daşıyıcı, surətçıxarma avadanlıqları kimi qəbul olunmur, o kateqoriyadan olan məhsulları isə cavabdeh MMC idxal etmir.

7. Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin (hakim L.Məmmədova) 2(001)-2189/2025 nömrəli 2025-ci il 11 iyul tarixli qətnaməsi ilə iddia rədd olunmuşdur.

8. Birinci instansiya məhkəməsi qeyd etmişdir ki, iş materiallarından görünür ki, Gildiya cavabdeh MMC-yə müqavilə bağlanması üçün təklif (oferta) göndərmiş, lakin cavabdeh tərəfindən müqavilənin bağlanmasına dair razılıq (aksept) göndərilməmişdir. Müqavilə tərəflərin qarşılıqlı razılığı əsasında könüllü şəkildə bağlanılır, müqavilə bağlamağa məcburetməyə yol verilmir. Həmçinin cavabdeh tərəf yazılı etirazında və məhkəmə çıxışlarında iddia tələbini qəbul etmədiklərini, iddiaçı tərəfin qeyd edilən siyahı üzrə avadanlıqların onlar tərəfindən ölkəyə idxal edilmədiyini bildirmişdir. Qeyd olunanlara əsasən məhkəmə hesab etmişdir ki, iddia cavabdehin üzərinə müqavilə bağlama öhdəliyinin qoyulması hissəsində təmin edilməməlidir.

9. Məhkəmə iddia tələbinin ikinci hissəsini, yəni pulun tutulması hissəsini də əsassız sayaraq qeyd etmişdir ki, tərəflər arasında pulun ödənilməsi ilə bağlı hər hansı müqavilə mövcud deyil və müqavilənin bağlanması öhdəliyi məhkəmə tərəfindən təmin edilməmişdir. Belə olan halda pulun tutulması tələbi ilk tələbdən (müqavilə bağlanması öhdəliyindən) asılı olduğuna görə təmin edilə bilməz.

10. Məhkəmə mövqeyini Azərbaycan Respublikası Mülki Məcəlləsinin *(bundan sonra – Mülki Məcəllə)* 389.1, 390.1, 390.3, 405.1, 405.2, 407.1-ci, "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanunun 15.4, 17.3-cü və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin *(bundan sonra – MPM)* 9.1, 14.2, 77.1, 88, 217.2, 218.1-ci maddələrinə istinadla əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

11. İddiaçı apellyasiya şikayəti verərək, qətnamənin ləğv edilməsini, iddianın təmin edilməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

12. Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)-5564/2025 nömrəli 2026-cı il 29 yanvar tarixli qətnaməsi ilə apellyasiya şikayəti təmin edilməmiş, birinci instansiya məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmışdır (hakimlər G.Axundova (sədrlik edən və məruzəçi), M.Rüstəmli və F.Qasımov).

13. Apellyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsinin gəldiyi nəticə və əsaslandırma ilə razılaşaraq qeyd etmişdir ki, iş materiallarından göründüyü kimi (Gildiya) audiovizual əsər müəlliflərinin əmlak hüquqlarının kollektiv idarəetmə təşkilatı cavabdeh "XXX" MMC-yə müqavilə bağlanması üçün təklif (oferta) göndərmiş, lakin cavabdeh tərəfindən müqavilənin bağlanmasına dair razılıq (aksept) göndərilməmişdir.

14. Mülki münasibətlərdə hüquq və vəzifələrin əmələ gəlməsi, bir qayda olaraq, müqavilələrlə (əqdlərlə) bağlıdır. Əqd mülki hüquq münasibətinin əmələ gəlməsinə, dəyişdirilməsinə və ya xitamına yönəldilmiş birtərəfli, ikitərəfli və ya çoxtərəfli iradə ifadəsidir. Əqdlər birtərəfli və müqavilə şəklində (ikitərəfli və ya çoxtərəfli) ola bilər. Müqavilənin bağlanması üçün tərəflərin razılaşdırılmış iradə ifadəsi olmalıdır.

15. Hər kəs müqavilə bağlamaqda müstəqildir və müqavilə azadlığı mülki qanunvericiliyin əsas prinsiplərindən biridir. Həmin prinsip mülki hüquq subyektlərinə müstəqil

olaraq, heç kəsin iradəsindən asılı olmadan öz mülahizə və istəklərinə görə mənafelərini nəzərə almaqla müqavilə bağlamaq imkanı verir.

16. Cavabdeh tərəf yazılı etirazında və məhkəmə çıxışlarında iddia tələbini qəbul etmədiklərini, iddiaçı tərəfin qeyd edilən siyahı üzrə avadanlıqların onlar tərəfindən ölkəyə idxal edilmədiyini bildirmişdir.

17. İddiaçı isə cavabdehin audiovizual əsərlərin və fonoqramların surətinin çıxarılmasında istifadə olunan (yazılma üçün) audio-videomaqnitofonların və digər avadanlıqların (bundan sonra - avadanlıqlar), audio və (və ya) videolentlərin və kasetlərin, lazer disklərin və digər maddi daşıyıcıların (bundan sonra - maddi daşıyıcılar) idxalçısı olduğunu təsdiq edən hər hansı bir mötəbər sübut məhkəməyə təqdim etməmişdir.

18. İş materiallarında olan İddiaçının İdarə Heyətinin 17.05.2024-cü il tarixli iclasının qərarı ilə təsdiq olunmuş, “audiovizual əsərlərin və fonoqramların şəxsi məqsədlər üçün gəlir götürmədən surətinin çıxarılması məqsədi ilə istifadə olunan avadanlıqların və maddi daşıyıcıların idxalçıları tərəfindən ödəniləcək qonoraron məbləği göstərilməklə həmin avadanlıqların və maddi daşıyıcıların Siyahısı”nda bir sıra informasiya girişini və çıxışını təmin edən qurğuları olan hesablayıcı maşınlar və onların blokları (komputerlər, noutbuklar, tablet və s.), maqnit, optik və elektron inteqral sxemli yaddaş qurğuları, telefon aparatları və s kimi avadalıqların adları qeyd olunmuşdur. Siyahıda qeyd olunan avadanlıq və qurğuların adları iddiaçı tərəfindən birtərəfli qaydada qeyd olunmuşdur.

19. Beləliklə, kollegiya qeyd etmişdir ki, apellyasiya şikayəti təmin edilməməli, birinci instansiya məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmalıdır

20. Məhkəmə kollegiyası mövqeyini Azərbaycan Respublikası Konstitusiyasının 60-cı, Mülki Məcəllənin 6.2, 389.1, 390.1, 390.3, 405.1, 405.2, 407.1-ci, “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikasının Qanununun 12.4, 15.4, 17.3-cü maddələrinə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.08.2007-ci il tarixli 132 nömrəli Qərarı ilə təsdiq edilmiş “Audiovizual əsərlərin və fonoqramın gəlir götürmədən şəxsi məqsədlər üçün surətinin çıxarılmasına görə qonoraron minimum məbləğinin müəyyən edilməsi, bölüşdürülməsi və ödənilməsi Qaydaları”nın 6, 8-ci bəndinə və Azərbaycan Respublikasının MPM-in 14.2, 77.1, 119.1, 217.4-cü maddələrinə istinadla əsaslandırmışdır.

Kassasiya şikayətinin və ona qarşı etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

21. Iddiaçı kassasiya şikayəti verərək, apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv edilməsini, iddianın təmin edilməsi barədə yeni qərar çıxarılmasını xahiş etmişdir.

22. Kassasiya şikayəti onunla əsaslandırılmışdır ki, məhkəmə mübahisəni ümumi mülki-hüquqi müqavilə münasibəti kimi qiymətləndirmiş və Mülki Məcəllənin müqavilə azadlığına dair müddəalarına istinad etmişdir. Lakin bu yanaşma hazırkı mübahisənin hüquqi təbiətinə uyğun deyildir və tətbiq edilməli olan xüsusi hüquq normalarının nəzərə alınmaması ilə nəticələnmişdir. Hazırkı iş üzrə mübahisə tərəflərin sərbəst kommersiya iradəsinə əsaslanan adi müqavilə münasibətindən deyil, müəlliflərin və əlaqəli hüquq sahiblərinin qanunla qorunan əmlak hüquqlarının təmin edilməsindən irəli gəlir. Bu münasibətlər “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Qanunla xüsusi qaydada tənzimlənir və həmin qanun ümumi mülki hüquq normaları ilə müqayisədə prioritet tətbiq edilməlidir. Belə ki, sözügedən Qanunun 17.3-cü maddəsində birbaşa müəyyən edilmişdir ki, şəxsi məqsədlər üçün audiovizual əsərin və fonoqramın gəlir götürmədən surəti çıxarıldıqda audiovizual əsərə münasibətdə müəlliflərin, ifaçıların və audiovizual əsər istehsalçılarının, fonoqrama münasibətdə isə ifaçıların və

fonoqram istehsalçılarının qonorar almaq hüququ vardır və göstərilən qonorar surətçıxarma üçün istifadə olunan avadanlıqların və maddi daşıyıcıların istehsalçısı və ya idxalçısı tərəfindən ödənilir. Normanın məzmunundan açıq görünür ki, müəlliflərin və əlaqəli hüquq sahiblərinin qonorar almaq hüququ qanundan birbaşa yaranır, cavabdehin ödəmə vəzifəsi qanunla müəyyən edilir. Həmin öhdəliyin yaranması üçün tərəflər arasında ayrıca müqavilənin bağlanması şərt kimi nəzərdə tutulmur.

23. Məhkəmə nəzərə almamışdır ki, 17.4-cü maddədə nəzərdə tutulan müqavilə hüququn mənbəyi deyil, qanundan doğmuş öhdəliyin icra mexanizmidir. Həmin normaya əsasən qonoraın yığılması və bölüşdürülməsi kollektiv əsasda idarə edən təşkilat tərəfindən müqaviləyə uyğun həyata keçirilir. Yəni əvvəlcə qanuni öhdəlik mövcuddur, sonra həmin öhdəliyin texniki icrası müqavilə ilə rəsmiləşdirilir. Apellyasiya məhkəməsi isə bu ardıcıllığı tərsinə yozaraq müqavilənin olmamasını öhdəliyin ümumiyyətlə yaranmaması kimi qəbul etmişdir. Belə yanaşma qanunun məqsədini də tamamilə puça çıxarır. Əgər idxalçı və ya istehsalçı sadəcə müqavilə bağlamaqdan imtina etməklə müəlliflərə və əlaqəli hüquq sahiblərinə ödənilməli qonorardan yayınmaq imkanına malik olarsa, bu halda Qanunun 17ci maddəsində nəzərdə tutulmuş kompensasiya mexanizmi faktiki olaraq işləməz vəziyyətə düşər. Qanunvericinin müəllif hüquqlarını qorumaq üçün yaratdığı institut formal xarakter daşıyar və hüquq sahiblərinin qanuni maraqları müdafiəsiz qalar.

24. Müqavilə azadlığı prinsipinin özü də mütləq xarakter daşımır. Mülki dövriyyədə çoxsaylı münasibətlər mövcuddur ki, burada qanun tərəflərin sərbəst iradəsini ictimai maraq və hüquqların müdafiəsi naminə məhdudlaşdırır. Müəllif hüquqları sahəsində kollektiv idarəetmə və məcburi kompensasiya mexanizmi də məhz belə hüquqi institutlardan biridir. Burada söhbət iki bərabər kommersiya subyektinin sərbəst bazar davranışından deyil, qanunla qorunan müəllif hüquqlarının kollektiv müdafiəsindən gedir. Məhkəmə yalnız ümumi mülki hüquq normalarına istinad etməklə kifayətlənə bilməz, mübahisənin xarakterinə uyğun xüsusi qanunvericiliyi tətbiq etməlidirlər.

25. Bundan başqa, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin SIA AKKA/LAA Latviyaya qarşı işində kollektiv idarəetmə təşkilatlarının müəllif hüquqlarının həyata keçirilməsində xüsusi rolu tanınmış, belə təşkilatların iqtisadi maraqlarının mülkiyyət hüququnun müdafiə sferasına aid olduğu qeyd edilmişdir. Həmin işdə milli məhkəmələrin tərəflər arasında razılıq əldə olunmadıqda hüquqların effektiv müdafiəsini təmin etmək və adekvat mexanizm yaratmaq səlahiyyətinin mövcudluğu qəbul olunmuşdur. Hazırkı işdə isə apellyasiya məhkəməsi əksinə olaraq formal “aksept yoxdur” yanaşması ilə kifayətlənmiş, hüquqların effektiv müdafiəsi üçün nəzərdə tutulmuş xüsusi mexanizmi nəzərə almamışdır.

26. Digər tərəfdən apellyasiya məhkəməsi “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Qanunun 45-ci maddəsinin 4 və 5-ci hissələrinin hüquqi nəticələrini də nəzərə almamışdır. Belə ki, həmin normaya əsasən məhkəmə hüquq pozuntusu faktı sübut edildiyi halda hüquq sahibinin çəkdiyi ağlabatan xərclərin ödənilməsi, habelə hüquq pozuntusuna yol vermiş şəxsin bunu bilib-bilməməsindən asılı olmayaraq müəllifə və ya digər hüquq sahibinə kompensasiya ödəməsi barədə qərar çıxarmaq hüququna malikdir. Eyni zamanda müəllifin və ya əlaqəli hüquqlar sahibinin hüquq pozuntusuna yol vermiş şəxsdən kompensasiya ilə yanaşı, ona məxsus əsərdən normal istifadə zamanı əldə edə biləcəyi qonoraın ödənilməsini tələb etmək hüququ vardır. Hazırkı iş üzrə cavabdeh tərəfindən qanunla nəzərdə tutulmuş qonoraın ödənilməməsi hüquq pozuntusu yaratdığından, iddiaçının pul tələbi təkcə 17-ci maddəyə deyil, həmçinin 45-ci maddəyə əsaslanır. Məhkəmə isə həmin normanı ümumiyyətlə tətbiq etməmişdir.

27. Apellyasiya məhkəməsi cavabdehin yazılı etirazına istinad edərək iddiaçı tərəfindən cavabdehin audiovizual əsərlərin və fonoqramların surətinin çıxarılmasında istifadə olunan avadanlıqların və maddi daşıyıcıların idxalçısı olmasının sübuta yetirilmədiyi, iş materiallarında olan Siyahının isə iddiaçı tərəfindən birtərəfli qaydada tərtib edildiyi nəticəsinə gəlmişdir. Lakin həmin nəticə iş materiallarında mövcud olan sübutlara zidd olmaqla yanaşı, sübutların araşdırılması və qiymətləndirilməsi qaydalarının kobud şəkildə pozulması nəticəsində qəbul edilmişdir. İş materiallarında Agentliyin tabeliyində olan Təminatı Mərkəzinin 23.07.2024-cü il tarixli məktubu mövcuddur. Həmin məktubda Dövlət Gömrük Komitəsi tərəfindən təqdim edilmiş məlumatlara əsasən cavabdeh MMC tərəfindən 2021-ci il, 2022-ci ilin I rübü, 2023-cü il və 2024-cü ilin birinci rübündə audiovizual əsər və fonoqramların surətinin çıxarılmasında istifadə olunan avadanlıqların və maddi daşıyıcıların idxal edildiyi, onların ümumi dəyərinin konkret rəqəmlərlə müəyyən olunduğu göstərilmişdir. Məktubda qeyd edilmişdir ki, 2021-ci il və 2022-ci ilin I rübü üzrə idxal olunmuş malların ümumi dəyəri 74.622.445,27 ABŞ dolları, 2023-cü ildə isə 6.248.032 ABŞ dolları təşkil etmişdir. Bundan əlavə, Agentliyin 24.06.2022-ci il tarixli rəsmi məktubu ilə birbaşa cavabdeh MMC-yə bildirilmişdir ki, 2021-ci il və 2022-ci ilin I rübü ərzində ölkəyə idxal edilmiş mübahisəli malların miqdarı 357.265 ədəd, statistik dəyəri isə 74.622.445,27 ABŞ dolları olmuşdur və Nazirlər Kabinetinin 24.08.2007-ci il tarixli qərarına əsasən cavabdehin gecikmiş öhdəliyinin icrası təmin edilməlidir. Beləliklə, səlahiyyətli dövlət orqanı cavabdehin həm idxal faktını, həm də normativ aktdan irəli gələn ödəniş öhdəliyini rəsmi qaydada təsbit etmişdir. Apellyasiya məhkəməsi göstərilən rəsmi sənədlərə ümumiyyətlə hüquqi qiymət verməmiş, dövlət orqanları tərəfindən təqdim edilmiş məlumatların mötəbərliyini araşdırmamışdır. Məhkəmə eyni zamanda cavabdehin sadə inkar xarakterli etirazını faktiki olaraq sübut kimi qəbul etmişdir. Cavabdeh tərəf iddia tələbinə etiraz etsə də, həmin malları idxal etmədiyini təsdiq edən hər hansı gömrük bəyannaməsi, mal nomenklaturası, idxal sənədləri, vergi uçotu sənədləri və ya digər rəsmi sübut təqdim etməmişdir. Buna baxmayaraq məhkəmə cavabdehin sübutsuz etirazını üstün tutmuş, iddiaçının təqdim etdiyi rəsmi dövlət sənədlərini isə nəzərə almamışdır. Bu isə tərəflərin prosessual bərabərliyi və sübutların obyektiv qiymətləndirilməsi prinsiplərinə ziddir. Hazırkı mübahisə idxal əməliyyatları ilə bağlı olduğundan mübahisəli məlumatlar ilk növbədə cavabdehin özündə, habelə gömrük, vergi, statistika və digər dövlət informasiya bazalarında mövcuddur. Nazirlər Kabinetinin 24.08.2007-ci il tarixli qərarının 5-ci bəndində də aidiyyəti dövlət orqanlarının tələb olunan məlumatları rübdə bir dəfə Agentliyə təqdim etməli olduqları birbaşa göstərilmişdir. Belə olan halda məhkəmə passiv mövqe tutmaq əvəzinə işin düzgün həlli üçün zəruri sənədləri tələb etməli, əlavə araşdırma aparmalı idi.

28. Məhkəmə iş materiallarında olan siyahının iddiaçı tərəfindən birtərəfli qaydada tərtib edildiyini göstərmişdir. Lakin həmin siyahı iddia tələbinin predmetini konkretləşdirən, qanunda istifadə olunan “digər avadanlıqlar” və “digər maddi daşıyıcılar” anlayışlarının tətbiqi məqsədilə hazırlanmış texniki və metodiki sənəd xarakteri daşıyır. Siyahının iddiaçı tərəfindən hazırlanması onun hüquqi əhəmiyyətini avtomatik aradan qaldırmır. Əksinə, məhkəmə həmin siyahının qanunun məqsədinə və texniki reallığa uyğun olub-olmamasını araşdırmalı idi. Əgər məhkəmədə kompüterlər, noutbuklar, planşetlər, yaddaş qurğuları, mobil telefon aparatları və digər rəqəmsal cihazların audiovizual əsərlərin və fonoqramların surətinin çıxarılmasında istifadə olunan avadanlıqlar sayılıb-sayılmaması barədə şübhə yaranmışdısa, bu halda xüsusi bilik tələb olunduğundan ekspertiza təyin edilməli və ya mütəxəssis rəyi alınmalı idi. Məhkəmə isə nə ekspertiza təyin etmiş, nə mütəxəssis rəyi almış, nə də texniki araşdırma aparmışdır. Buna baxmayaraq, həmin avadanlıqların mübahisəli kateqoriyaya aid olmadığı barədə nəticəyə gəlmişdir ki, bu da prosessual baxımdan yolverilməzdir. Məhkəmə qanunda sadalanan audio-videomaqnitofonlar, kasetlər və lazer diskləri formal şəkildə əsas götürərək

normanı dar təfsir etmiş, texnoloji inkişafı nəzərə almamışdır. Halbuki müasir dövrdə smartfonlar, kompüterlər, planşetlər, yaddaş kartları, sərt disklər və digər rəqəmsal daşıyıcılar əsərlərin surətinin çıxarılması, saxlanılması və ötürülməsi üçün klassik vasitələrdən daha geniş istifadə olunur. Qanunun 17-ci maddəsində işlədilən "başqa avadanlıqlar" və "digər maddi daşıyıcılar" ifadələri də məhz texnoloji inkişafı əhatə etmək məqsədi daşıyır.

29. Məhkəmə mübahisəli avadanlıqların və maddi daşıyıcıların hüquqi mahiyyətini qiymətləndirərkən Qanunun 4-cü maddəsində nəzərdə tutulmuş əsas anlayışları nəzərə almamışdır. Belə ki, həmin maddəyə əsasən "surətçıxarma" əsərin və ya fonoqramın bir və ya daha çox nüsxəsinin hər hansı maddi formada hazırlanması olmaqla yanaşı, əsərlərin və ya fonoqramların elektron (rəqəmli daxil olmaqla), optik və ya maşınla oxunan digər formada müvəqqəti və ya daimi saxlanma üçün yazılması da surətçıxarma sayılır. Habelə "yazılma" anlayışı texniki vasitələrin köməyi ilə səslərin və ya təsvirlərin dəfələrlə qavranılmasına, surətinin çıxarılmasına və ya bildirilməsinə imkan verən hər hansı maddi formada əks olunması kimi müəyyən edilmişdir. Normanın məzmunundan açıq görünür ki, qanunverici surətçıxarma anlayışını yalnız ənənəvi kaset, disk və maqnit daşıyıcıları ilə məhdudlaşdırmamış, elektron və rəqəmsal texnologiyaları da birbaşa əhatə etmişdir. Buna görə kompüterlər, mobil telefonlar, planşetlər, yaddaş qurğuları, sərt disklər, USB daşıyıcılar və digər rəqəmsal cihazlar audiovizual əsərlərin və fonoqramların surətinin çıxarılması, saxlanılması və təkrar istifadəsi üçün istifadə olunan vasitələr kimi qiymətləndirilməlidir. Apellyasiya məhkəməsi isə bu tərifləri nəzərə almadan normanı dar və köhnəlmiş texniki yanaşma ilə şərh etmiş, nəticədə maddi hüquq normasını səhv tətbiq etmişdir.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

30. Kassasiya şikayətinə qarşı etiraz daxil olmamışdır.

Tətbiq edilən hüquq

Azərbaycan Respublikasının Mülki Məcəlləsi

31. Maddə 6.1. Mülki qanunvericiliyin prinsipləri aşağıdakılardır:

6.1.1. mülki hüquq subyektlərinin bərabərliyi; 6.1.2. mülki hüquq subyektlərinin iradə sərbəstliyi; ...6.1.5. müqavilələr azadlığı...

32. Maddə 6.2. Fiziki və hüquqi şəxslər mülki hüquqları öz mənafelərini gerçəkləşdirmək üçün iradələrinə uyğun olaraq əldə edir və həyata keçirirlər. Onlar müqavilə əsasında öz hüquq və vəzifələrini müəyyənləşdirməkdə və qanunvericiliyə zidd olmayan hər hansı müqavilə şərtləri qoymaqda sərbəstdirlər.

33. Maddə 389.1. Mülki hüquq və vəzifələrin müəyyənləşdirilməsi, dəyişdirilməsi və ya xitamı haqqında iki və ya bir neçə şəxsin razılaşması müqavilə sayılır.

34. Maddə 390.1.Fiziki və hüquqi şəxslər azad surətdə müqavilələr bağlaya və bu müqavilələrin məzmununu müəyyənləşdirə bilərlər. Onlar bu Məcəllədə nəzərdə tutulmayan, lakin ona zidd olmayan müqavilələr də bağlaya bilərlər.

35. Maddə 390.3. Müqavilə bağlamaq vəzifəsinin bu Məcəllədə və ya könüllü götürülmüş öhdəlikdə nəzərdə tutulduğu hallar istisna olmaqla, müqavilə bağlamağa məcburetməyə yol verilmir.

36. Maddə 405.1. Tərəflər müqavilənin bütün mühüm şərtləri barəsində tələb olunan formada razılığa gəldikdə müqavilə bağlanmış sayılır. Müqavilənin predmetinə dair şərtlər, bu Məcəllədə həmin növ müqavilələr üçün mühüm və ya zəruri adlandırılmış şərtlər, habelə

tərəflərdən birinin müraciəti ilə barəsində razılaşma əldə edilməli olan bütün şərtlər mühüm sayılır.

37. Maddə 405.2. Müqavilə tərəflərdən birinin oferta (müqavilə bağlamaq təklifi) göndərməsi və digər tərəfin onu aksept etməsi (təklifin qəbulu) vasitəsi ilə bağlanır.

38. Maddə 407.1. Müqavilə oferta göndərmiş şəxsin onun akseptini aldığı anda bağlanmış sayılır.

"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanun

39. Maddə 4. "**surətçıxarma**" – əsərin və ya fonoqramın bir və ya daha çox nüsxəsinin hər hansı maddi formada, o cümlədən səs və videoyazı şəklində hazırlanması. Əsərlərin və ya fonoqramların elektron (rəqəmli də daxil olmaqla), optik və ya maşınla oxunan digər formada müvəqqəti, yaxud daimi saxlanma üçün yazılması da surətçıxarma sayılır; "**yazılma**" – texniki vasitələrin köməyi ilə səslərin və (və ya) təsvirlərin dəfələrlə qavramağa, surətini çıxarmağa, yaxud bildirməyə imkan verən hər hansı maddi formada əks olunması sayılır.

40. Maddə 12.4.Audiovizual əsərin müəlliflərinin audiovizual əsərin orijinalının və ya nüsxələrinin kommersiya məqsədi ilə kirayəyə verilməsinə və ya digər üsullarla istifadə edilməsinə görə qonorar almaq hüququ vardır. Həmin qonorar bu əsərə hüquq sahibi və ya əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatlarla istifadəçi arasında bağlanmış müqavilədə nəzərdə tutulan şərtlərə uyğun olaraq ödənilir.

41. Maddə 15.4. Müəllifin əsərdən istifadənin hər növünə görə müəllif qonoraro almaq hüququ vardır (qonorar almaq hüququ). Bu qonoraron həcmi və hesablanması qaydası müəlliflərlə (hüquq sahibləri ilə) istifadəçilər arasında bağlanmış müəllif müqaviləsi və ya müəlliflərin verdikləri səlahiyyətlər həcmində əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatlarla istifadəçilər arasında bağlanmış müqavilələrlə müəyyən edilir.

42. Maddə 17 (3-cü hissə) Şəxsi məqsədlər üçün audiovizual əsərin və fonoqramın gəlir götürmədən surəti çıxarılarkən audiovizual əsərə münasibətdə müəlliflərin, ifaçıların və audiovizual əsər istehsalçılarının, fonoqrama münasibətdə isə ifaçıların və fonoqram istehsalçılarının qonorar almaq hüququ vardır. Göstərilən qonorar istehsalçı, yaxud surətçıxarma üçün istifadə olunan avadanlığın (audio və videomaqnitafonlar, başqa avadanlıqlar) və maddi daşıyıcıların (səs (və ya) videolent və kasetlər, lazer diskləri və digər maddi daşıyıcılar) idxalçısı tərəfindən ödənilir. Bu maddədə göstərilən qonoraron minimum məbləği, bölüşdürülməsi və ödənilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

43. Maddə 17 (4-cü hissə). Qonoraron məbləği və ödənilməsi şərtləri, bir tərəfdən göstərilən istehsalçı və ya idxal edən, digər tərəfdən müəllif, ifaçı və audiovizual əsər və fonoqram istehsalçıları, yaxud onların əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatlar arasında bağlanmış müqavilə ilə, tərəflərin razılıq əldə edə bilmədikləri hallarda isə müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum tərəfindən müəyyən edilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 avqust 2007-ci il tarixli, 132 nömrəli Qərarı ilə təsdiq edilmiş "Audiovizual əsərlərin və fonoqramın gəlir götürmədən şəxsi məqsədlər üçün surətinin çıxarılmasına görə qonoraron minimum məbləğinin müəyyən edilməsi, bölüşdürülməsi və ödənilməsi Qaydaları"

44. Bənd 6. Audiovizual əsərlərin və fonoqramların şəxsi məqsədlər üçün gəlir götürmədən surətinin çıxarılmasına görə avadanlıqların və maddi daşıyıcıların istehsalçıları və ya idxalçıları tərəfindən ödənilən qonorarının minimum məbləği qonoraron hesablandığı zaman avadanlıqların və maddi daşıyıcıların hər bir növü üzrə satış (topdansatış) qiymətinin 0,5

faizindən az olmamaqla müəyyən edilir. Azərbaycan Respublikasında istehsal olunmuş avadanlıq və maddi daşıyıcılara görə qonorarı istehsalçı tərəfindən rübdə bir dəfə ödənilir. Azərbaycan Respublikasına idxal olunan avadanlıq və maddi daşıyıcılara görə qonorarı malın sərbəst dövriyyəyə buraxılması üçün gömrük rəsmiləşdirilməsi başa çatdığı gündən sonra, 2 aydan gec olmayaraq, idxalçı tərəfindən ödənilməlidir. İstehsal və ya idxal olunmuş eyni avadanlıq və maddi daşıyıcıya görə qonorarı bir dəfə və yalnız bir müqavilə üzrə ödənilir və təkrar ödənişlərin tələb edilməsi yolverilməzdir.

45. Bənd 8. İstehsalçılar və idxalçılar tərəfindən hesablanmış qonorar hər rübün sonunda Agentliyin xəzinə hesabına köçürülür.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi

46. Maddə 14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

47. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

48. Maddə 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

49. Maddə 217.1. Məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır.

50. Maddə 217.3. Qətnamə iş üzrə müəyyən edilmiş hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır.

51. Maddə 217.4. Məhkəmə (hakim) öz qətnaməsini yalnız məhkəmə iclasında tədqiq olunmuş sübutlarla əsaslandırır.

52. Maddə 407.2. Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir.

53. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

54. Maddə 418.1. Maddi və prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması, o cümlədən maddi və prosessual hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması apellyasiya instansiyası məhkəməsinin qətnamə və qərardadının ləğv edilməsi üçün əsasdır.

55. Maddə 418.3. Prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması qətnamənin yaxud qərardadın ləğv edilməsi üçün o vaxt əsas ola bilər ki, bu pozuntu düzgün qətnamə qəbul edilməməsi ilə nəticələnsin və ya nəticələnə bilsin.

Kassasiya baxışının hədləri

56. Qanunun tələbinə görə, kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

57. Kassasiya şikayətinə əsasən apellyasiya instansiyası məhkəməsinin qətnaməsi tam yoxlanılır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

58. Tərəflər arasındakı mübahisə ondan ibarətdir ki, iddiaçı (Gildiya) audiovizual əsər müəlliflərinin əmlak hüquqlarının kollektiv idarəetmə təşkilatı kimi cavabdehin audiovizual əsərlərin və fonoqramların şəxsi məqsədlər üçün gəlir götürmədən surətinin çıxarılmasında istifadə olunan avadanlıqları və maddi daşıyıcıları idxal etdiyini bildirərək, bununla bağlı qanunvericilikdə nəzərdə tutulmuş qonoraron tutulmasını tələb edir. Cavabdeh isə tərəflər arasında müqavilənin bağlanmadığını, həmçinin idxal etdiyi malların qanunda nəzərdə tutulmuş avadanlıq və maddi daşıyıcılar kateqoriyasına aid olmadığını göstərərək iddiaya etiraz edir.

59. Mübahisənin hüquqi həlli üçün ilk növbədə müəlliflərin və əlaqəli hüquq sahiblərinin qonorar almaq hüququnun yaranmasının tərəflər arasında müqavilənin bağlanmasından asılı olub-olmadığı, daha sonra isə cavabdehin idxal etdiyi malların "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanunun 17.3-cü maddəsində nəzərdə tutulmuş surətçıxarma üçün istifadə olunan avadanlıqlar və maddi daşıyıcılar kateqoriyasına aid olub-olmadığı müəyyən edilməlidir.

60. İşə mahiyyəti üzrə baxmış məhkəmələr iddianı rədd edərkən belə nəticəyə gəlmişlər ki, cavabdeh MMC-yə müqavilə bağlanması üçün təklif (oferta) göndərmiş, lakin cavabdeh tərəfindən müqavilənin bağlanmasına dair razılıq (aksept) göndərilməmişdir. Müqavilə tərəflərin qarşılıqlı razılığı əsasında könüllü şəkildə bağlanılır, müqavilə bağlamağa məcburetməyə yol verilmir. Bundan başqa, məhkəmələr iddiaçının cavabdehin idxal etdiyi malların qanunda göstərilən avadanlıq və maddi daşıyıcılar kateqoriyasına aid olduğunu mötəbər sübutlarla təsdiq edə bilmədiyini qeyd etmişlər.

61. Məhkəmə kollegiyası aşağıda göstərilənlərə əsasən hesab edir ki, apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normaları düzgün tətbiq edilməmiş, iş üzrə əhəmiyyət kəsb edən hallar tam və hərtərəfli araşdırılmamışdır.

62. Əvvəla, məhkəmələr müəlliflərin qonorar almaq hüququnun hüquqi əsasını düzgün müəyyən etməmişlər.

63. Belə ki, "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanunun 17.3-cü maddəsinə əsasən, audiovizual əsərlərin və fonoqramların şəxsi məqsədlər üçün gəlir götürmədən surəti çıxarıldıqda müəlliflərin, ifaçıların, audiovizual əsər və fonoqram istehsalçılarının qonorar almaq hüququ vardır və həmin qonorar surətçıxarma üçün istifadə olunan avadanlıqların və maddi daşıyıcıların istehsalçıları və ya idxalçıları tərəfindən ödənilir. Normanın məzmunundan görünür ki, həm müəlliflərin qonorar almaq hüququ, həm də istehsalçı və ya idxalçıların həmin qonoraro ödəmək öhdəliyi birbaşa qanundan irəli gəlir.

64. Həmin Qanunun 17.4-cü maddəsində nəzərdə tutulmuş müqavilə isə bu hüququ yaradan hüquqi fakt deyil, onun həyata keçirilməsi mexanizmlərindən biridir. Müqavilənin bağlanması tərəflərə, o cümlədən idxalçıya qanunvericilikdə müəyyən edilmiş minimum həddə nəzərə alınmaqla, qonoraron məbləğini və ödənilməsi şərtlərini qarşılıqlı razılıq əsasında müəyyən etmək imkanı verir. Tərəflər razılığa gələ bilmədikdə isə həmin məsələlərin müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən ediləcəyi açıq şəkildə göstərilmişdir.

65. Məhkəmə kollegiyası aşağı instansiya məhkəmələrinin cavabdehin üzərinə müqavilə bağlamaq öhdəliyinin qoyulmasının yolverilməz olması barədə mövqeyi ilə razılaşsa da, həmin mövqe öz-özlüyündə iddiaçının pul tələbinin rədd edilməsi üçün əsas hesab edilə bilməz. Belə ki, məhkəmələr pul tələbinin təmin edilməməsini əsaslandırarkən tərəflər arasında müqavilənin bağlanmamasına istinad etmiş, həmin halı qonoraron tutulması tələbinin təmin edilməsinə maneə kimi qiymətləndirmişlər. Halbuki bu nəticəyə gəlməzdən əvvəl məhkəmələr

müəlliflərin qonorar almaq hüququnun və cavabdehin ödəniş öhdəliyinin hüquqi əsasının birbaşa qanundan, yoxsa yalnız müqavilədən irəli gəldiyini müəyyən etməli idilər.

66. Əks yanaşma qəbul edildiyi halda, surətçıxarma üçün istifadə olunan avadanlıqları və maddi daşıyıcıları idxal edən şəxslər sadəcə müqavilə bağlamaqdan imtina etməklə qanunla nəzərdə tutulmuş ödəniş öhdəliyindən yayına bilərlər. Belə yanaşma isə müəlliflərin və əlaqəli hüquq sahiblərinin qanunla təmin edilmiş əmlak hüquqlarının faktiki həyata keçirilməsini mümkünsüz edər, qanunvericinin müəyyən etdiyi kompensasiya mexanizmini əhəmiyyətsiz hala salar və hüquqdan sui-istifadəyə şərait yaradardı.

67. Beləliklə, tərəflər arasında müqavilənin bağlanmaması müəlliflərin qanundan irəli gələn qonorar almaq hüququnu və idxalçının həmin qonoraro ödəmək öhdəliyini aradan qaldırmır. Müqavilənin hüquqi əhəmiyyəti tərəflərin qanunvericiliklə müəyyən edilmiş çərçivə daxilində qonoraron məbləği və ödənilmə qaydası barədə qarşılıqlı razılığa gəlmələrindən ibarətdir. Belə razılıq əldə edilmədiyi halda isə idxalçı qanunvericilikdə, o cümlədən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.08.2007-ci il tarixli 132 nömrəli qərarı ilə təsdiq edilmiş qaydalara əsasən müəyyən edilmiş minimum məbləğdə qonorar ödəmək öhdəliyini daşıyır.

68. Kassasiya şikayətinin digər dəlili cavabdehin idxal etdiyi malların qonorar öhdəliyi yaradan avadanlıqlar və maddi daşıyıcılar kateqoriyasına aid olub-olmaması ilə bağlıdır.

69. Məhkəmə kollegiyası qeyd edir ki, Qanunun 17.3-cü maddəsində belə avadanlıq və maddi daşıyıcıların qəti və məhdud siyahısı müəyyən edilməmişdir. Qanunverici “audio və videomaqnitofonlar, başqa avadanlıqlar”, habelə “lazer diskləri və digər maddi daşıyıcılar” ifadələrindən istifadə etmişdir. Bu isə normada sadalanan vasitələrin nümunə xarakteri daşıdığını və texnoloji inkişaf nəticəsində eyni funksiyanı yerinə yetirən digər texniki vasitələrin də həmin anlayışın əhatəsinə daxil ola bilməsini göstərir.

70. Həmin kateqoriyaya hansı avadanlıq və maddi daşıyıcıların aid olduğu Qanunun 4-cü maddəsində verilmiş “surətçıxarma” və “yazılma” anlayışları nəzərə alınmaqla müəyyən edilməlidir. Bu maddəyə əsasən surətçıxarma yalnız klassik maddi daşıyıcılarda nüsxənin hazırlanmasını deyil, əsərlərin və fonoqramların elektron (rəqəmli daxil olmaqla), optik və ya maşınla oxunan digər formada müvəqqəti və ya daimi saxlanılması üçün yazılmasını da əhatə edir. Eyni zamanda yazılma anlayışı səslərin və təsvirlərin texniki vasitələrlə dəfələrlə qavranılmasına, surətinin çıxarılmasına və ya bildirilməsinə imkan verən hər hansı maddi formada əks etdirilməsini ifadə edir.

71. Buna görə də konkret texniki vasitənin Qanunun 17.3-cü maddəsində nəzərdə tutulmuş “başqa avadanlıqlar” və ya “digər maddi daşıyıcılar” anlayışına aid olub-olmaması yalnız onun adından deyil, funksional xüsusiyyətlərindən, yəni audiovizual əsərlərin və fonoqramların surətinin çıxarılması və yazılması imkanını təmin edib-etməməsindən asılı olaraq müəyyən edilməlidir.

72. İş materiallarından görünür ki, Agentlik birinci instansiya məhkəməsinin məhkəmənin sorğusu əsasında Dövlət Gömrük Komitəsinin təqdim etdiyi 2021-2023-cü və 01.01.2024-31.03.2024-cü illərdə ölkəyə idxal olunan audiovizual əsər və fonoqramların surətçıxarmasında istifadə olunan maddi daşıyıcı və avadanlıqların siyahılarını məhkəməyə təqdim etmişdir.

73. Apellyasiya instansiyası məhkəməsi isə Gildiyanın İdarə Heyətinin 17.05.2024-cü il tarixli iclasının qərarı ilə təsdiq olunmuş “Audiovizual əsərlərin və fonoqramların şəxsi məqsədlər üçün gəlir götürmədən surətinin çıxarılması məqsədi ilə istifadə olunan avadanlıqların və maddi daşıyıcıların idxalçıları tərəfindən ödəniləcək qonoraron məbləği göstərilməklə həmin avadanlıqların və maddi daşıyıcıların Siyahısı”nın birtərəfli qaydada tərtib

olunduğunu göstərməklə kifayətlənmiş, lakin Dövlət Gömrük Komitəsinin məlumatlarında əks olunan konkret malların hansı səbəbdən Qanunun 17.3-cü maddəsində nəzərdə tutulan avadanlıq və maddi daşıyıcılar hesab edilmədiyini əsaslandırmamış, həmin malların texniki xüsusiyyətlərinə və funksional təyinatına hüquqi qiymət verməmişdir.

74. Halbuki, belə qiymətləndirmə xüsusi bilik tələb edən məsələdir. Məhkəmədə cavabdehin idxal etdiyi avadanlıqların surətçıxarma və yazılma üçün istifadə olunan avadanlıqlar hesab edilib-edilməməsi barədə şübhə yarandığı halda, bununla bağlı müvafiq ekspertiza təyin edilməli və ya mütəxəssis rəyi alınmalı idi.

75. MPM-in 97.1-ci maddəsinə əsasən işə baxılarkən xüsusi bilik tələb olunan sualları izah etmək üçün məhkəmə işdə iştirak edən şəxsin yazılı qaydada verilən əsaslandırılmış vəsatəti və ya öz təşəbbüsü ilə ekspertiza təyin edə bilər.

76. Mülki prosessual qanunvericiliyə əsasən sübutetmə yükü tərəflər arasında bölüşdürülsə də, məhkəmə işin düzgün həlli üçün əhəmiyyət kəsb edən halların müəyyən edilməsində passiv mövqe tuta bilməz. Təqdim edilmiş sübutlar iş üzrə əhəmiyyətli halın müəyyən edilməsi üçün kifayət etmədikdə, həmin halın aydınlaşdırılması xüsusi bilik tələb etdikdə, məhkəmə işin hərtərəfli və obyektiv araşdırılmasını təmin etmək məqsədilə qanunla nəzərdə tutulmuş prosessual vasitələrdən istifadə etməlidir.

77. Belə olan halda apellyasiya instansiyası məhkəməsi bir tərəfdən iddiaçının təqdim etdiyi sübutları kifayət hesab etməmiş, digər tərəfdən isə həmin sübutların yoxlanılması və mübahisəli texniki məsələlərin aydınlaşdırılması üçün zəruri prosessual tədbirlər görməmişdir. Bu səbəbdən iddiaçının tələblərinin yalnız sübut edilməməsi əsası ilə rədd edilməsi işin tam və obyektiv araşdırılması prinsipinə uyğun hesab edilə bilməz.

78. Müvafiq araşdırmalar aparılaraq mübahisəyə hüquqi qiymət verilərkən o da nəzərə alınmalıdır ki, audiovizual əsərlərin və fonoqramların şəxsi məqsədlər üçün gəlir götürmədən surətinin çıxarılması məqsədi ilə istifadə olunan avadanlıqların və maddi daşıyıcıların idxalçıları tərəfindən ödəniləcək qonoraron məbləği Nazirlər Kabinetinin 24.08.2007-ci il tarixli 132 nömrəli qərarı ilə təsdiq edilmiş "Audiovizual əsərlərin və fonoqramın gəlir götürmədən şəxsi məqsədlər üçün surətinin çıxarılmasına görə qonoraron minimum məbləğinin müəyyən edilməsi, bölüşdürülməsi və ödənilməsi Qaydaları"nın 6-cı bəndinə müvafiq olaraq belə avadanlıq və maddi daşıyıcıların hər bir ədədi üzrə deyil, hər bir növü üzrə satış (topdansatış) qiymətinin 0,5 faizindən az olmamaqla müəyyən edilir.

79. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Məhkəmə qətnaməsi haqqında" 24.11.2005-ci il tarixli qərarının 2.2-ci bəndinə əsasən, məhkəmə qətnaməsi maddi və prosessual hüquq normalarına dəqiq əməl edilməklə qəbul edildikdə qanuni hesab edilir. Həmin qərarın 2.4-cü bəndinə əsasən, qətnamə o vaxt əsaslı hesab edilir ki, baxılan iş üçün əhəmiyyətli olan, qanunun tələblərinə uyğun olaraq işə aid edilən və mötəbər sübutlarla təsdiq olunan faktlar əks etdirilmiş olsun, məhkəmənin iş üzrə müəyyən edilən faktlardan irəli gələn qəti nəticəsi şərh edilsin, habelə qətnamədə göstərilən hallar işin materiallarına uyğun olsun.

80. Məhkəmələr tərəfindən qəbul edilmiş qərarlarda həll olunan işə aid bütün zəruri məsələlərə aydınlıq gətirilməli, ziddiyyətli məqamlar aradan qaldırılmalıdır. Azərbaycan Respublikasının adından çıxarılan məhkəmə aktlarında işin ədalətli həllini şübhə altına alan, ziddiyyətlər yaradan və mübahisə üzrə iştirakçıların konstitusiya məhkəmə müdafiəsi hüququna təsir göstərən müddəalar olmamalıdır (Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun N.Əbilovun şikayəti üzrə 13.06.2008-ci il tarixli qərarı).

81. Göstərilənlərə əsasən məhkəmə kollegiyası hesab edir ki, apellyasiya instansiyası məhkəməsi iş üzrə əhəmiyyət kəsb edən halları tam araşdırmamış, maddi hüquq normalarını

düzgün tətbiq etməmiş, sübutlara mülki prosessual qanunvericiliyin tələblərinə uyğun hüquqi qiymət verməmişdir.

82. Buna görə də kassasiya şikayəti qismən təmin edilməli, apellyasiya instansiyası məhkəməsinin qətnaməsi ləğv edilməli və iş yeni apellyasiya baxışına göndərilməlidir. Təkrar apellyasiya baxışı zamanı müəlliflərin qonorar almaq hüququnun hüquqi əsası və müqavilənin bu münasibətlərdə rolu ilə bağlı yuxarıda göstərilən hüquqi mövqelər nəzərə alınmaqla, cavabdehin idxal etdiyi malların Qanunun 17.3-cü maddəsində nəzərdə tutulan avadanlıqlar və maddi daşıyıcılar kateqoriyasına aid olub-olmaması zərurət yarandığı halda xüsusi biliklərdən istifadə edilməklə araşdırılmalı, tərəflərin təqdim etdikləri bütün sübutlara onların məcmusu halında hüquqi qiymət verildikdən sonra mübahisəyə maddi və prosessual hüquq normalarının tələblərinə uyğun yekun hüquqi qiymət verilməlidir.

83. Göstərilənlərə əsasən və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 416, 417 və 419-cu maddələrini rəhbər tutub məhkəmə kollegiyası

qərara aldı:

İddiaçı (Gildiya) audiovizual əsər müəlliflərinin əmlak hüquqlarının kollektiv idarəetmə təşkilatı tərəfindən verilmiş kassasiya şikayəti qismən təmin edilsin.

Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 29.01.2026-cı il tarixli, 2(103)5564/2025 nömrəli qətnaməsi ləğv edilsin.

İş yenidən baxılmaq üçün Bakı Apellyasiya Məhkəməsinə göndərilsin.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

Vergi ödəyicisi və ya sığortaedən olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması

58. 2-2(102)-547/2024 nömrəli, 2024-cü il 6 noyabr tarixli qərar - Ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə ərizələrə baxılması zamanı cinayət işinin gedişatında maliyyə sanksiyasına etiraz edilməsinin əhəmiyyəti

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə ərizələrə baxılması zamanı cinayət işinin gedişatında maliyyə sanksiyasına etiraz edilməsinin əhəmiyyəti.

Vergi orqanı fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsin (bundan sonra maraqlı şəxs) dövlət büdcəsinə olan ümumilikdə 75.784,27 manat, Dövlət Sosial Müdafiə Fonduna olan 3,68 manat, İşsizlikdən sığorta fonduna olan 2,15 manat borcun ödənilməsini təmin etmək üçün onun barəsində ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə xüsusi icraat üzrə ərizə ilə məhkəməyə müraciət etmişdir.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Azərbaycan Respublikası Vergi Məcəlləsinin 63.1 və 63.2-ci maddələrində vergi ödəyicisinin, vergi orqanının qərarlarından (aktlarından), vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) yuxarı vergi orqanına şikayət verdiyi təqdirdə, həmin şikayətə baxılan müddət ərzində vergi ödəyicisinə ona tətbiq edilmiş maliyyə sanksiyasını ödəməmək hüququ təmin edilmişdir.

Həmin şikayət "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununa görə, inzibati şikayət olsa da və bu Qanun inzibati orqanların cinayət təqibi üzrə cinayət-prosessual fəaliyyətinə şamil olunmasa da, hazırkı işdə apellyasiya instansiyası məhkəməsi hüququn tətbiqində səhvə yol verərək, vergi ödəyicisinin cinayət işi çərçivəsində işin düzgün araşdırılması üçün əhəmiyyətli hesab etdiyi xüsusatları istintaq orqanının diqqətinə çatdırmaq üçün verdiyi ərizəni inzibati şikayət kimi qiymətləndirmiş, sözügedən cinayət işi yekunlaşmadığından vergi orqanının vergi ödəyicisinə tətbiq edilmiş maliyyə sanksiyasının ödənilməsini təmin etmək üsulu kimi maraqlı şəxsin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması üçün məhkəməyə verdiyi ərizəni rədd etmişdir.

Kassasiya instansiyası məhkəməsi apellyasiya məhkəməsinin hüquq normasının tətbiqində səhvə yol verərək gəldiyi bu nəticə ilə razılaşmır.

Belə ki, "İnzibati icraat haqqında" Qanunun 2.0.5-ci maddəsində inzibati şikayətə hüquqlarını və qanunla qorunan maraqlarını müdafiə etmək məqsədilə maraqlı şəxsin inzibati aktdan, inzibati aktın qəbul edilməsindən imtinadan və yaxud inzibati orqanın hərəkət və ya hərəkətsizliyindən subordinasiya baxımından yuxarı inzibati orqana yazılı müraciəti kimi anlayış verilmişdir.

Apellyasiya instansiyası məhkəməsinin istinad etdiyi Vergi Cinayətlərinin İbtidai Baş İdarəsinin maraqlı şəxsə ünvanladığı müraciətə 2023-cü il 14 noyabr tarixli cavab məktubundan aydın olur ki, həmin müraciət sadəcə olaraq 2023-cü il 13 yanvar tarixində "Əmək və məşğulluq" altsistemində texniki nasazlığın olub-olmamasının araşdırılması barədə olmuş və bu İdarədə baxılaraq cinayət işinin materiallarına əlavə edilmişdir.

"İnzibati icraat haqqında" Qanunun 3.1, 3.2 və 3.2.1-ci maddələrinin məzmunundan aydın olur ki, inzibati orqan kimi müəyyən (təsnif) edilmiş orqanların fəaliyyətinə şamil olunan bu

Qanunun müddəaları inzibati orqanların cinayət təqibi üzrə cinayət-prosessual fəaliyyətinə ümumiyyətlə şamil olunmur.

Hazırkı halda maraqlı şəxsin müraciəti yalnız cinayət işinin xüsusatlarının araşdırılmasına dair olub və tətbiq edilmiş maliyyə sanksiyasının ləğvinə yönəlməyib. Buna görə də, həmin müraciət inzibati şikayət kimi qiymətləndirilə bilməz. Belə ki, cinayət təqibi üzrə cinayət-prosessual fəaliyyət qanunla inzibati icraat sayılmır. Maraqlı şəxsin vergi orqanının tətbiq etdiyi maliyyə sanksiyasına dair qərarından inzibati şikayət verdiyi isə iş materialları ilə təsdiqini tapmamışdır.

Vergi Məcəlləsinin 77.1 və 78.1-ci maddələrinə əsasən vergi öhdəliyi yalnız vergiləri və faizləri deyil, həm də tətbiq edilmiş maliyyə sanksiyalarını ehtiva edir. Vergi ödəyicisinin maliyyə sanksiyasını ödəməməsi onun vergi öhdəliyini yerinə yetirməməsi kimi qiymətləndirilir.

Vergi Məcəlləsinin 23.1.15-3-cü maddəsinə əsasən isə vergi ödəyicisi maliyyə sanksiyasını ödəmədiyi halda, vergi orqanı onun ölkədən çıxış hüququnun müvəqqəti məhdudlaşdırılması üçün məhkəməyə müraciət edə bilər. Vergi orqanı bu hüququnu cinayət işi ilə əlaqəsiz olaraq həyata keçirə bilər, çünki maliyyə sanksiyası vergi hüquqpozmalarına görə nəzərdə tutulmuşdur.

Hazırkı qərarda qanunvericiliyin müvafiq normaları əlaqəli şəkildə təhlil olunaraq, məsələyə aydınlıq gətirildiyindən, bu qərar baxılacaq analoji işlər üzrə təcrübi əhəmiyyətə malikdir.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2-2(102)-547/2024

06.11.2024-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının

Ərizəçi Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsinin maraqlı şəxs X1-ə qarşı iş üzrə

Q Ə R A R I

Açar sözlər: Vergi ödəyicisi və ya sığortaedən olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması

Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının hakimi Məmmədli Bəhram Məmməd oğlunun məruzəsi ilə, hakimlər Nurməmmədov Əhməd Güləhməd oğlu və Abbasov Aqil Əzizağa oğlundan ibarət tərkibdə,

ərizəçi Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsinin maraqlı şəxs X1-in "ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılmasına" dair ərizəsi üzrə Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2024-cü il 23 may tarixli 2-2(103)-262/2024 nömrəli qətnaməsindən ərizəçi tərəfindən verilmiş kassasiya şikayətinə yazılı icraat qaydasında baxılmışdır.

İşin halları

1. Fiziki şəxs haqqında məlumat ilə müəyyən edilmişdir ki, X1-ə 2006-cı il 3 mart tarixində VÖEN (8600020492) verilmişdir. X1 Ünvan1-də qeydiyyatda olmaqla Ünvan2-də yaşayır.

2. Şəxsi hesab vərəqəsinə əsasən, X1-in 2023-cü il 14 noyabr tarixinə dövlət büdcəsinə 76.631,83 manat borcu mövcuddur.

3. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsi tərəfindən 2023-cü il 28 aprel tarixli ********** nömrəli və ********** nömrəli, 2023-cü il 26 may tarixli ********** nömrəli bildirişlərlə X1-dən borcun 5 gün müddətində ödənilməsi tələb edilmiş və borcu ödəməməyə görə məsuliyyət barədə xəbərdarlıq edilmişdir.

İş üzrə məhkəmə icraatı

a) Birinci instansiya məhkəməsindəki icraat

4. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsi (bundan sonra - "ərizəçi") 2023-cü il 15 noyabr tarixində xüsusi icraat üzrə ərizə ilə məhkəməyə müraciət edərək, vergi ödəyicisi olan fiziki şəxs tərəfindən dövlət büdcəsinə olan ümumilikdə 75.784,27 manat, Dövlət Sosial Müdafiə Fonduna olan 3,68 manat, İşsizlikdən sığorta fonduna olan 2,15 manat borcun ödənilməsini təmin etmək üçün X1 (bundan sonra - "maraqlı şəxs") barəsində ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

5. Ərizəçi tələbini onunla əsaslandırmışdır ki, vergi öhdəliklərini Azərbaycan Respublikasının Vergi Məcəlləsi (bundan sonra – "VM") ilə müəyyən edilmiş müddətdə yerinə yetirmədiyi üçün 2023-cü il 31 avqust tarixinə vergi ödəyicisi olan maraqlı şəxs (VÖEN: 8600020492) İşsizlikdən sığorta fonduna 2,15 manat, Dövlət Sosial Müdafiə Fonduna 3,68 manat, dövlət büdcəsinə 75.784,27 manat (o cümlədən, maliyyə sanksiyası üzrə 75.784,27 manat) olmaqla, ümumilikdə 75.790,1 manat borcu vardır. Yaranmış borc məbləğinin 5 gün ərzində dövlət büdcəsinə və müvafiq fonda ödənilməsi məqsədi ilə vergi ödəyicisinə VM-in 65-ci maddəsinə əsasən bildirişlər göndərilmiş (bax §3), lakin vergi ödəyicisi yaranmış borc məbləğini ödəməmişdir.

6. Maraqlı şəxs etiraz edərək bildirmişdir ki, 2021-ci il 20 noyabr tarixli icarə müqaviləsinə əsasən Ünvan3-də yerləşən X2 şadlıq sarayında restoran və şadlıq evlərinin xidmətlərini həyata keçirir. Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsinin "Operativ vergi nəzarətinin həyata keçirilməsi haqqında" 2023-cü il 13 yanvar tarixli ********** nömrəli Qərarına əsasən həmin tarixdə fəaliyyət göstərdiyi obyektdə Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işə götürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi hallarının aşkar edilməsi məsələsi üzrə operativ vergi nəzarəti həyata keçirilmişdir. Keçirilmiş nəzarət tədbiri nəticəsində tərtib edilmiş 2023-cü il 13 yanvar tarixli DVX seriyalı ****** nömrəli "Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işə götürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi hallarının aşkar olunması ilə bağlı operativ vergi nəzarəti haqqında" Akt 2023-cü il 19 yanvar tarixli ********** nömrəli bildirişə

əlavə olunaraq, poçt vasitəsilə ona çatdırılmışdır. Tərtib olunmuş aktdan görünür ki, fəaliyyət göstərdiyi obyektdə keçirilmiş operativ vergi nəzarəti zamanı 40 nəfər işçinin əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işə götürən tərəfindən işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi müəyyən edilmişdir. Bununla bağlı 2023-cü il 22 fevral tarixli məktubla Lokal Gəlirlər Baş İdarəsinə müraciət etsə də, operativ vergi nəzarətini həyata keçirən vergi orqanı tərəfindən məktubda qeyd olunanlar nəzərə alınmamış və 2023cü il 2 mart tarixində ona 80.000 manat maliyyə sanksiyası tətbiq edilmişdir. Hal-hazırda onun şəxsi hesab vərəqəsi üzrə 73.242,45 manat borcu mövcuddur və bu məbləğ ona tətbiq edilmiş maliyyə sanksiyasından ibarətdir. Eyni zamanda, Dövlət Vergi Xidmətinin Vergi Cinayətlərinin İbtidai Araşdırılması Baş İdarəsində (bundan sonra – "VCİABİ") barəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 162-1-ci maddəsi ilə (Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi) başlanmış cinayət işi istintaq olunur. Yuxarıda qeyd etdiyi məsələlər barəsində istintaq orqanına verdiyi ifadəsində məlumat vermiş və hal-hazırda bu barədə araşdırma aparılır. Ona tətbiq edilmiş maliyyə sanksiyasının məbləği, ümumiyyətlə tərəfindən hər hansı bir hüquq pozuntusuna yol verildiyi barədə istintaq orqanının yekun qərarı olmadığından hazırda şəxsi hesab vərəqəsi üzrə borcu reallığı əks etdirmir. İstintaq orqanı yekunda onun heç bir hüquq pozuntusuna yol vermədiyi qərarına gələrsə, məhkəmə tərəfindən ərizəçinin verdiyi iddianın təmin edilməsi nəticədə onun hüquqlarının müəyyən müddətdə pozulmasına gətirib çıxaracaqdır.

7. Bakı Kommersiya Məhkəməsinin 2023-cü il 24 noyabr tarixli e-2-2(113)-6084/2023 nömrəli qətnaməsi ilə ərizənin təmin olunması qət edilmişdir (hakim – L.Əliyeva).

8. Məhkəmə araşdırması zamanı müəyyən edilmişdir ki, vergi ödəyicisi olan maraqlı şəxs vergi öhdəliklərini qanunla müəyyən edilmiş müddətdə yerinə yetirmədiyi üçün onun dövlət büdcəsinə borcu yaranmışdır. Vergi ödəyicisinə borcunun mövcudluğu və həmin borcu ödəməməyə görə məsuliyyət tədbirləri barədə məlumat verilməsinə baxmayaraq, sonuncu tərəfindən borc məbləğinin ödənilməsi təmin edilməmişdir.

9. Odur ki, borclu fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsin dövlət büdcəsinə olan borcunun ödənilməsini təmin etmək məqsədilə həmin fiziki şəxsin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması üçün qanunvericilikdə nəzərdə tutulmuş əsaslar mövcuddur.

10. Vergi borcunun əsassız olaraq hesablanması barədə maraqlı şəxsin dəlillərinə gəldikdə məhkəmə qeyd etmişdir ki, ərizəçi tərəfindən vergi borcunun düzgün hesablanıbhesablanmaması hazırkı iş üzrə məhkəmə araşdırmasının predmeti olmadığından həmin dəlillər ərizənin rədd edilməsi üçün əsas vermir.

11. Birinci instansiya məhkəməsi bu qənaətini VM-in 23.1.15-3-cü; Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin (bundan sonra – "MPM") 124.1, 355-5.1 və 355-7.4-ci maddələrinə istinad etməklə əsaslandırmışdır.

12. Maraqlı şəxs apellyasiya şikayəti verərək, həmin qətnamənin ləğv edilməsi və ərizənin rədd edilməsini xahiş etmişdir.

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

13. Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2024-cü il 23 may tarixli 2-2(103)-262/2024 nömrəli qətnaməsi ilə apellyasiya şikayəti təmin edilmiş, birinci instansiya məhkəməsi qətnaməsi ləğv, ərizəçinin ərizəsinin rədd olunması qət edilmişdir (sədrlik edən – R.Qurbanov, hakimlər – Z.Şirinov və V.Baxışova).

14. Məhkəmə kollegiyası bildirmişdir ki, hazırkı ərizə 75.784,27 manat maliyyə sanksiyasının ödənilməsinin təmin etmək məqsədilə verilmişdir. Həmin maliyyə sanksiyasının tətbiq edilməsinə əsas olan fakt üzrə cinayət işi başlanılmış və hazırda cinayət işinin istintaqı

davam etdirilir. Maraqlı şəxsin həmin faktın araşdırılması barədə müraciəti də cinayət işinə əlavə edilmiş və hazıra kimi qərar qəbul edilməmişdir.

15. Hazırkı ərizədə göstərilən 75.784,27 manat maliyyə sanksiyası ilə bağlı maraqlı şəxsin müraciətinə baxılmamış, həmin müraciət cinayət işinin materiallarına əlavə edilmiş, hazırda cinayət işinin istintaqı davam edir və hər hansı qərar qəbul edilməmişdir. Ona görə də maraqlı şəxsin qərar qəbul edilənə qədər maliyyə sanksiyasını ödəməmək hüququ vardır. Belə hüquq olduğu halda isə həmin maliyyə sanksiyasının ödənilməsinin təmini ilə bağlı tədbirlər tətbiq edilə bilməz.

16. Ərizədə göstərilən işsizlikdən sığorta fonduna 2,15 manat və Dövlət Sosial Müdafiə Fonduna 3,68 manat borclarla bağlı qeyd edilmişdir ki, VM-in 65 və 89-cu maddələrində vergilər üzrə borcların alınması qaydası nəzərdə tutulmuşdur. Hazırkı halda vergi orqanının məhkəməyə müraciət etməmişdən əvvəl borcun ödənilməsinin təmin edilməsi üçün hansı tədbirlər görməsi iş materiallarından müəyyən olunmur.

17. Halbuki ərizəçi tərəfindən VM-də nəzərdə tutulan digər tədbirlərin tətbiq edilib edilməsi və onların tətbiqinin nəticə verməməsi barədə sübutlar təqdim edilməli və yalnız bundan sonra ölkədən getmə hüququnun məhdudlaşdırılmasının tətbiqinin zəruriliyi əsaslandırılmalıdır.

18. Hazırkı qəbildən olan işlərin həllində vergi orqanları və məhkəmələr tərəfindən mütənasiblik prinsipinin (görülən məhdudlaşdırma tədbirinin gözlənin nəticələrə adekvat olması) gözlənilməsi mühüm əhəmiyyət kəsb edir və hər bir halda belə məhdudiyyətin tətbiq edilməsi mütənasiblik meyarına cavab verməlidir. Sadəcə borcun, xüsusilə hazırkı işdə olduğu kimi cüzi məbləğdə (5,83 manat) borcun mövcud olması bu məhdudiyyətin tətbiq edilməsi üçün kifayət deyildir.

19. Apellyasiya instansiyası məhkəməsi gəldiyi nəticəni Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin II hissəsinə; VM-in 16.1.1, 23.1.15-3, 53.3, 58.10, 63.2, 65.1, 65.2.1, 65.2.2, 65.2.3-1, 65.3, 65.4, 65.7, 77.1, 77.3, 78.1, 89.1, 89.3, 89.4, 89.5 və 89.6-ci maddələrinə; Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun "Klark Qordon Morrisin (Clark Gordon Morris) şikayəti üzrə bəzi normativ hüquqi aktların Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılmasına dair" 2017-ci il 26 may tarixli Qərarına; İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsi haqqında Avropa Konvensiyasına dair 4 saylı Protokolun 2-ci maddəsinə; İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin bir sıra qərarlarına; MPM-in 355-5.1-ci maddəsinə istinad edərək əsaslandırmışdır.

20. Ərizəçi kassasiya şikayəti verərək qətnamənin ləğv edilməsi və ərizənin təmin edilməsi barədə qərar qəbul olunmasını xahiş etmişdir.

Kassasiya şikayətinin və ona qarşı etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

21. Azərbaycan Respublikasının Konstitusiyasının 71-ci maddəsinin I və II hissələri, 73cü maddəsinin I hissəsi; "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun 3.1, 3.4 və 3.5-ci; VM-in 16.1.1, 23.1.15-3, 63.2, 58.10, 77.1, 77.3 və 78.1-ci; "İnzibati icraat haqqında" Qanunun 3-cü maddələri üzrə - Vergi ödəyicisinin maliyyə sanksiyasını ödəməmək hüququ o zaman yaranır ki, vergi ödəyicisi vergi orqanının qərarlarından (aktlarından), vergi orqanının vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) yuxarı vergi orqanına şikayət etmiş olsun. Məhkəmənin vergi ödəyicisinin maliyyə sanksiyasının tətbiq edilməsi ilə bağlı qərardan şikayət etməsi ilə bağlı mövqeyinə münasibətdə qeyd olunur ki, maraqlı şəxs vergi orqanının qərarının ləğv edilməsi ilə bağlı yuxarı vergi orqanına şikayət etməmiş, yaxud məhkəməyə iddia ərizəsi ilə müraciət etməmişdir.

22. Vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi haqqında qərar 2023-cü il 2 mart tarixində qəbul edilmişdir. Həmin qərardan yuxarı vergi orqanına 3 ay, məhkəməyə 30 gün müddətində şikayət oluna bilər. Məhkəmənin şikayət kimi

qəbul etdiyi vergi ödəyicisinin məktubu inzibati akt olan “Vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi haqqında” 2023-cü il 2 mart tarixli 23019002320778 qərarın ləğvinə yönəlməmiş, qərarı qəbul etmiş inzibati orqana, yaxud yuxarı inzibati orqana müraciət olunmamışdır.

23. Vergi ödəyicisinin məhkəmə qətnaməsində sözügedən 2023-cü il 30 oktyabr tarixli məktubu ərizəçiyə göndərilmiş və xahiş olunmuşdur ki, bu məktub cinayət işi materiallarına əlavə olunsun.

24. Göründüyü kimi, maraqlı şəxs vergi orqanının qərarının ləğv olunmasına yönələn hansısa addım atmamış, onun barəsində aparılan cinayət işi ilə bağlı istintaq orqanına müraciətlər etmişdir. Yəni, vergi ödəyicisinin vergi orqanında qeydiyyata alınmış inzibati şikayəti mövcud deyildir. “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 3.2ci maddəsinə əsasən həmin Qanun cinayət təqibi üzrə cinayət-prosessual fəaliyyətinə şamil olunmur. Belə olan halda da cinayət təqibi üzrə cinayət-prosessual fəaliyyət inzibati icraat sayıla bilməz. Bu səbəbdən də məhkəmə vergi ödəyicisinin cinayət işinin istintaqı ilə əlaqədar olan müraciətini hazırkı iş üzrə tətbiq etməməli idi.

25. Maraqlı şəxs barəsində cinayət işi Cinayət Məcəlləsinin 162-1.1-ci maddəsi ilə başlamışdır. Vergi orqanı tərəfindən keçirilmiş nəzarət tədbiri nəticəsində aşkar olunmuş pozuntu və bunun nəticəsində maliyyə sanksiyasının tətbiq edilməsi cinayət işinin başlanması üçün yalnız fakt rolunda çıxış etmişdir. Apellyasiya məhkəməsi qeyd olunanları nəzərə almamış, iş üzrə düzgün olaraq qəbul edilmiş qətnaməni əsassız olaraq ləğv etmişdir.

26. MPM-in 88, 175, 217, 355-5.1, 385.2-ci maddələri üzrə - Məhkəmə tərəfindən qərar qəbul edilərkən işdə olan sübutlar düzgün, hərtərəfli araşdırılmamış, ərizəçi tərəfindən təqdim edilmiş sübutlara düzgün hüquqi qiymət verilməmişdir.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

27. Kassasiya şikayətinə qarşı etiraz təqdim etməmişdir.

Kassasiya baxışının hədləri

28. Apellyasiya məhkəməsinin qətnaməsini bütövlükdə mübahisələndirildiyi üçün hazırkı icraat çərçivəsində məhkəmə aktının qanuniliyi və əsaslılığı tam yoxlanılacaqdır (MPM-in 403.1 və 416-cı maddələri).

29. Kassasiya instansiyası məhkəməsi tərəfindən işin faktiki halları yoxlanılmasa da, apellyasiya instansiyası məhkəməsinin maddi və prosessual hüquq normalarını düzgün tətbiq edib-etməməsini yoxlayarkən hüquqi məsələlərin düzgün qiymətləndirilməsi üçün işin faktiki hallarının nəzərə alınması və onlara istinad olunması zəruridir. Kassasiya instansiyası məhkəməsinin işin müəyyən edilmiş faktiki hallarına istinad etməsi faktiki halların yoxlanılması və araşdırılması kimi qiymətləndirilməməlidir.

Tətbiq edilən hüquq

30. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin müvafiq müddəalarında aşağıdakılar nəzərdə tutulur:

“Maddə 23. Vergi orqanlarının hüquqları

23.1. Vergi orqanlarının hüquqları aşağıdakılardır:

...

23.1.15-3. vergi ödəyicisi vergi öhdəliyini bu Məcəllə ilə müəyyən edilmiş müddətdə yerinə yetirmədikdə, hesablanmış vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının ödənilməsini təmin etmək üsulu kimi vergi ödəyicisi olan fiziki şəxsin və ya hüquqi şəxsin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması üçün məhkəməyə müraciət etmək;

...”

“Maddə 58. Vergilərin azaldılmasına və digər vergi hüquqpozmalarına görə maliyyə sanksiyaları

...

58.10. Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə işəgötürənə, habelə bu Məcəllənin 220.10-cu maddəsinə uyğun olaraq aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, məzhəkəçilik və digər oxşar fəaliyyətlə məşğul olan şəxslərin, foto, audio-video sahəsində məşğul olan şəxslərin və iaşə obyektlərində müştərilərə xidmət göstərən fiziki şəxslərin (ofisiantın) fəaliyyətə başlayanadək, “Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənilməsi haqqında qəbz” əldə edilmədən işlərin yerinə yetirilməsinə cəlb edilməsinə görə vergi orqanında uçotda olan sifarişçiyə hər bir belə şəxs üzrə təqvim ili ərzində belə hala birinci dəfə yol verdikdə 2.000 manat, ikinci dəfə yol verdikdə 4.000 manat, üç və daha çox dəfə yol verdikdə 6.000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

...”

“Maddə 63. Vergi orqanında şikayətə baxılma

63.1. Vergi ödəyicisinin və ya başqa borclu şəxsin vergi orqanının qərarlarından (aktlarından), vergi orqanının vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayətinə yuxarı vergi orqanı və ya onun vəzifəli şəxsi tərəfindən həmin şikayət alındığı gündən 30 iş günü müddətində baxılır və şikayət vermiş şəxsə yazılı cavab verilir. Şikayət üzrə əhəmiyyət kəsb edən halların müəyyən olunması üçün 30 iş günündən artıq müddət tələb olunduğu hallarda şikayətə baxılması müddəti vergi orqanı tərəfindən bir dəfə 30 iş günü müddətində uzadıla bilər. Müddətin uzadılması barədə şikayət vermiş şəxsə 3 iş günü ərzində məlumat verilir.

63.2. Vergi ödəyicisi ona hesablanmış verginin məbləği ilə razı olmadığı halda, verginin ödənilməsini dayandırmadan bilavasitə vergi nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanına və ya məhkəməyə şikayət verə bilər.

Vergi ödəyicisinin şikayətə baxılan müddət ərzində maliyyə sanksiyasını ödəməmək hüququ vardır.

...”

“Maddə 77. Vergi öhdəliyi

77.1. Vergi ödəyicisinin bu Məcəllədə göstərilən hallarda və qaydada müəyyən edilən vergini (o cümlədən cari vergi ödəmələrini), hesablanmış faizləri və tətbiq edilmiş maliyyə sanksiyalarını ödəmək vəzifəsi onun vergi öhdəliyi hesab olunur.

...

77.3. Vergi ödəyicisi vergi qanunvericiliyinin tələblərinə uyğun olaraq verginin ödənilməsini nəzərdə tutan şəraitin yarandığı andan vergi öhdəliklərinin yerinə yetirilməsi üçün cavabdehdir.

...”

“Maddə 78. Vergi öhdəliklərinin yerinə yetirilməsi

78.1. Vergi öhdəliklərinin yerinə yetirilməsi ödənilməli olan vergilərin (o cümlədən cari vergi ödəmələrinin), hesablanmış faizlərin və tətbiq edilmiş maliyyə sanksiyalarının müəyyən edilmiş müddətlərdə və qaydada ödənilməsidir. Vergi ödəyicisinin hesablarında və ya kassasında vəsaitin, habelə onun əmlakının olub-olmamasından asılı olmayaraq vergi öhdəliklərinin yerinə yetirilməsi məcburidir.

...”

31. “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun müvafiq müddəalarında aşağıdakılar nəzərdə tutulur:

“Maddə 2 . Qanunda istifadə olunmuş əsas anlayışlar

2.0. Bu Qanunda istifadə olunmuş əsas anlayışlar aşağıdakı mənalara malikdir:

...

2.0.5. inzibati şikayət - hüquqlarını və qanunla qorunan maraqlarını müdafiə etmək məqsədilə maraqlı şəxsin inzibati aktdan, inzibati aktın qəbul edilməsindən imtinadan və yaxud inzibati orqanın hərəkət və ya hərəkətsizliyindən subordinasiya baxımından yuxarı inzibati orqana yazılı müraciəti;

...”

“Maddə 3. Qanunun tətbiq dairəsi

3.1. Bu Qanunun müddəaları Azərbaycan Respublikasının qanunvericiliyi ilə inzibati orqan kimi müəyyən (təsnif) edilmiş orqanların fəaliyyətinə şamil olunur.

3.2. Bu Qanun inzibati orqanların:

3.2.1. cinayət təqibi üzrə cinayət-prosessual fəaliyyətinə;

...”

32. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin müvafiq müddəalarında aşağıdakılar nəzərdə tutulur:

“Maddə 355-5. Ərizənin verilməsi

355-5.1. Vergi ödəyicisi və ya sığortaedən vergi, məcburi dövlət sosial sığorta, icbari tibbi sığorta və işsizlikdən sığorta haqları üzrə öhdəliyini qanunla müəyyən edilmiş hallarda və müddətlərdə yerinə yetirmədikdə, hesablanmış vergilər, məcburi dövlət sosial sığorta, icbari tibbi sığorta və işsizlikdən sığorta haqları üzrə borcların və faizlərin, vergilər və məcburi dövlət sosial sığorta haqları üzrə tətbiq edilmiş maliyyə sanksiyalarının ödənilməsini təmin etmək üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə məhkəməyə müraciət etmək hüququna malikdir.

...”

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

33. Məhkəmə kollegiyası maraqlı şəxsin kassasiya şikayətinin dəlillərini aşağıdakı səbəblərdən əsaslı hesab edir.

34. Apellyasiya instansiyası məhkəməsi ərizənin rədd edilməli olmasını VM-in 63.2-ci maddəsinə istinadən mahiyyət etibarilə belə əsaslandırmışdır ki, ərizədə göstərilən 75.784,27 manat maliyyə sanksiyasının tətbiq edilməsinə əsas olan fakt üzrə cinayət işi başlanılmışdır. Maraqlı şəxsin həmin faktın araşdırılması barədə müraciəti də cinayət işinə əlavə edilmiş və hazıra kimi qərar qəbul edilməmişdir. Hazırda cinayət işinin istintaqı davam edir. Ona görə də maraqlı şəxsin qərar qəbul edilənə qədər maliyyə sanksiyasını ödəməmək hüququ vardır. Belə hüquq olduğu halda isə həmin maliyyə sanksiyasının ödənilməsinin təmini ilə bağlı tədbirlər tətbiq edilə bilməz.

35. Məhkəmə kollegiyası aşağıdakılara görə məhkəmənin həmin mövqeyi ilə razılaşmır.

36. VM-in 63.1 və 63.2-ci maddələrinə (bax § 30) əsasən, vergi ödəyicisinin və ya başqa borclu şəxsin vergi orqanının qərarlarından (aktlarından), vergi orqanının vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayətinə yuxarı vergi orqanı və ya onun vəzifəli şəxsi tərəfindən həmin şikayət alındığı gündən 30 iş günü müddətində baxılır və şikayət vermiş şəxsə yazılı cavab verilir. Şikayət üzrə əhəmiyyət kəsb edən halların müəyyən olunması üçün 30 iş günündən artıq müddət tələb olunduğu hallarda şikayətə baxılması müddəti vergi orqanı tərəfindən bir dəfə 30 iş günü müddətində uzadıla bilər. Müddətin uzadılması barədə şikayət vermiş şəxsə 3 iş günü ərzində məlumat verilir. Vergi ödəyicisi ona hesablanmış verginin məbləği ilə razı olmadığı halda, verginin ödənilməsini dayandırmadan bilavasitə vergi nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanına və ya məhkəməyə şikayət verə bilər. Vergi ödəyicisinin şikayətə baxılan müddət ərzində maliyyə sanksiyasını ödəməmək hüququ vardır.

37. Göründüyü kimi, qanun vergi ödəyicisinin, vergi orqanının qərarlarından (aktlarından), vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) yuxarı vergi orqanına şikayət verdiyi təqdirdə, həmin şikayətə baxılan müddət ərzində vergi ödəyicisinə ona tətbiq edilmiş maliyyə sanksiyasını ödəməmək hüququnu təmin etmişdir.

38. Baxılan işdə maraqlı şəxsin özünün bildirdiyinə görə, Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsinin ''Operativ vergi nəzarətinin həyata keçirilməsi haqqında" 2023-cü il 13 yanvar tarixli ********** nömrəli Qərarına əsasən həmin tarixdə fəaliyyət göstərdiyi obyektdə Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işə götürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi hallarının aşkar edilməsi məsələsi üzrə operativ vergi nəzarəti həyata keçirilmişdir. Keçirilmiş nəzarət tədbiri nəticəsində tərtib edilmiş 2023-cü il 13 yanvar tarixli DVX seriyalı ****** nömrəli "Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işə götürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi hallarının aşkar olunması ilə bağlı operativ vergi nəzarəti haqqında" Akt 2023-cü il 19 yanvar tarixli ********** nömrəli bildirişə əlavə olunaraq, poçt vasitəsilə ona çatdırılmışdır. Tərtib olunmuş aktdan görünür ki, fəaliyyət göstərdiyi obyektdə keçirilmiş operativ vergi nəzarəti zamanı 40 nəfər işçinin əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işə götürən tərəfindən işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi müəyyən edilmişdir. Bununla bağlı 2023-cü il 22 fevral tarixli məktubla Lokal Gəlirlər Baş İdarəsinə müraciət etsə də, operativ vergi nəzarətini həyata keçirən vergi orqanı tərəfindən məktubda qeyd olunanlar nəzərə alınmamış və 2023-cü il 2 mart tarixində ona 80.000 manat maliyyə sanksiyası tətbiq edilmişdir. Bu faktla bağlı onun barəsində Dövlət Vergi Xidmətinin Vergi Cinayətlərinin İbtidai Araşdırılması Baş İdarəsinin İstintaq və təhqiqat idarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 162-ci maddəsi ilə başlanmış cinayət işinin istintaqı aparılır.

39. Habelə işin apellyasiya instansiyası məhkəməsi tərəfindən müəyyən edilmiş hallarından məlum olur ki, hazırda ****** nömrəli cinayət işinin istintaqı davam etdirilir.

40. Əvvəla, məhkəmə kollegiyası hesab edir ki, VM-in 63.1 və 63.2-ci maddələrinin tələbləri baxımından maraqlı şəxs 2023-cü il 2 mart tarixində müvafiq vergi orqanının onun barəsində çıxardığı maliyyə sanksiyasının tətbiq edilməsi barədə qərardan şikayət verdiyi təqdirdə, həmin şikayətə baxılan müddət ərzində maraqlı şəxsin maliyyə sanksiyasını ödəməmək hüququ tanına bilərdi.

41. Lakin sözügedən qərardan verilmiş və müvafiq qaydada vergi orqanında qeydiyyata alınmış inzibati şikayət iş materiallarında mövcud deyildir.

42. Belə ki, "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 2.0.5-ci maddəsində (bax § 31) inzibati şikayətə hüquqlarını və qanunla qorunan maraqlarını müdafiə etmək məqsədilə maraqlı şəxsin inzibati aktdan, inzibati aktın qəbul edilməsindən imtinadan və yaxud inzibati orqanın hərəkət və ya hərəkətsizliyindən subordinasiya baxımından yuxarı inzibati orqana yazılı müraciəti kimi anlayış verilmişdir.

43. Apellyasiya instansiyası məhkəməsinin istinad etdiyi Vergi Cinayətlərinin İbtidai Baş İdarəsinin maraqlı şəxsə ünvanladığı müraciətə 2023-cü il 14 noyabr tarixli cavab məktubundan aydın olur ki, həmin müraciət sadəcə olaraq 2023-cü il 13 yanvar tarixində "Əmək və məşğulluq" altsistemində texniki nasazlığın olub-olmamasının araşdırılması barədə olmuş və bu İdarədə baxılaraq ********** nömrəli cinayət işinin materiallarına əlavə edilmişdir.

44. Göründüyü kimi, maraqlı şəxsin müraciəti cinayət işin xüsusatı haqqında olmuşdur və müraciətdə onun barəsində qəbul edilmiş qərar barədə hər hansı narazılıq öz əksini tapmamışdır. Bu baxımdan, məhkəmə kollegiyası hesab edir ki, həmin müraciətin inzibati şikayət kimi qiymətləndirilməsi "İnzibati icraat haqqında" Qanunun 2.0.5-ci maddəsinin tələbləri baxımından mümkün deyildir.

45. Digər tərəfdən isə, elə həmin Qanunun 3.1, 3.2 və 3.2.1-ci maddələrinin (bax § 31) məzmunundan aydın olur ki, inzibati orqan kimi müəyyən (təsnif) edilmiş orqanların fəaliyyətinə şamil olunan Bu Qanunun müddəaları inzibati orqanların cinayət təqibi üzrə cinayət-prosessual fəaliyyətinə ümumiyyətlə şamil olunmur.

46. Bu baxımdan, cinayət icraatı çərçivəsində maraqlı şəxsin verdiyi müraciətin məhkəmə tərəfindən mahiyyət etibarilə inzibati şikayət kimi qiymətləndirilməsi, məhkəmə kollegiyasının mövqeyinə görə, ümumiyyətlə həmin normaların tələblərinə uyğun olmamışdır.

47. Göründüyü kimi, maraqlı şəxsin qanunun tələbinə uyğun şəkildə inzibati şikayət verməklə vergi orqanının maliyyə sanksiyasının tətbiqi barədə qərarının ləğv olunmasına yönələn addım atması iş materialları ilə öz təsdiqini tapmır, əvəzində isə, işin məhkəmə tərəfindən müəyyən olunmus hallarından məlum olur ki, o, barəsində aparılan cinayət işi ilə bağlı istintaq orqanına müraciət etməklə kifayətlənmişdir. Cinayət təqibi üzrə cinayətprosessual fəaliyyət isə qanunla inzibati icraat sayılmır.

48. Bundan başqa, məhkəmə kollegiyasının mövqeyinə görə, mübahisəli maliyyə sanksiyasının vergi borcuna və ya məcburi sosial sığorta haqları üzrə borclara hesablanmaması da (maraqlı şəxs apellyasiya icraatında bu dəlillərə də istinad etmiş, lakin mübahisələndirilən qətnamədə buna konkret münasibət bildirilməmişdir) aşağıdakı səbəblərdən hazırkı ərizənin təmin edilməməsi üçün hüquqi əsas hesab edilə bilməz.

49. Əvvəla, əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə maliyyə sanksiyasının tətbiq edilməsini nəzərdə tutan VM-in 58.10-cu maddəsi (bax § 30) VM-in vergilərin azaldılmasına və digər vergi hüquqpozmalarına görə maliyyə sanksiyalarını müəyyən edən 58-ci maddəsinə daxildir. Yəni, sözügedən əməllərə görə müəyyən edilmiş maliyyə sanksiyası ümumilikdə vergilərin azaldılmasına və digər vergi hüquqpozmalarına görə maliyyə sanksiyalarının bir növüdür.

50. VM-in 77.1, 77.3 və 78.1-ci maddələrinin (bax § 30) isə məzmunundan məlum olur ki, vergi ödəyicisinin vergi öhdəliyi yalnız vergini (o cümlədən cari vergi ödəmələrini) və hesablanmış faizləri deyil, həmçinin tətbiq edilmiş maliyyə sanksiyalarını ödəmək vəzifəsini də ehtiva edir. Vergi ödəyicisi verginin ödənilməsini nəzərdə tutan şəraitin yarandığı andan vergi öhdəliklərinin yerinə yetirilməsi üçün cavabdehdir. Vergi öhdəliklərinin yerinə yetirilməsi ödənilməli olan vergilərin (o cümlədən cari vergi ödəmələrinin), hesablanmış faizlərin və **tətbiq edilmiş maliyyə sanksiyalarının** müəyyən edilmiş müddətlərdə və qaydada ödənilməsidir.

51. Digər tərəfdən, VM-in 23.1.15-3-cü maddəsinə (bax § 30) görə, **vergi ödəyicisi vergi öhdəliyini bu Məcəllə ilə müəyyən edilmiş müddətdə yerinə yetirmədikdə**, hesablanmış vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının ödənilməsini təmin etmək üsulu kimi vergi ödəyicisi olan fiziki şəxsin və ya hüquqi şəxsin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması üçün məhkəməyə müraciət etmək vergi orqanının hüququdur.

52. İstinad olunan normaya əsasən, həmin hüququn vergi orqanı tərəfindən reallaşdırılmasına əsas verən hal məhz vergi ödəyicisinin özünün vergi öhdəliyini yerinə yetirməməsidir ki, yuxarıda qeyd olunduğu kimi, tətbiq edilmiş maliyyə sanksiyalarını ödəmək vəzifəsi də vergi ödəyicisinin vergi öhdəliyinin bir hissəsidir. Odur ki, vergi ödəyicisi ona hər hansı vergi hüquqpozmasına görə tətbiq edilmiş maliyyə sanksiyasını ödəməməklə əslində özünün vergi öhdəliyini yerinə yetirməmiş olur.

53. Bu baxımdan, məhkəmə kollegiyasının mövqeyinə görə, VM-in 23.1.15-3-cü və MPM-in 355-5.1-ci maddələrinin (bax § 32) qarşılıqlı təhlili onu deməyə əsas verir ki, hazırkı iş üzrə vergi orqanı əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə tətbiq edilmiş maliyyə

sanksiyasının ödənilməsini təmin etmək üsulu kimi maraqlı şəxsin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması üçün məhkəməyə müraciət edərkən subyektiv hüquqa malik olmuşdur.

54. Həmçinin məhkəmə kollegiyası onu da qeyd etməyi vacib bilir ki, hazırkı ərizədə göstərilən borcun bir hissəsi olan İşsizlikdən sığorta fonduna 2,15 manat, Dövlət Sosial

Müdafiə Fonduna 3,68 manat borc cüzi rəqəm (cəmi 5,83 manat və ümumi borcun – 75.790,1 manatın 0,008 %-i) təşkil etdiyindən hazırkı ərizənin təmin edilməməsi üçün əsas kimi qiymətləndirilə bilməz.

55. Bu səbəbdən də məhkəmə kollegiyası hesab edir ki, apellyasiya instansiyası məhkəməsi VM-in 63.2-ci maddəsinə istinad etməklə hüququn tətbiqində səhvə yol vermiş, nəticədə MPM-in 217.1-ci maddəsinə (bax § 32) zidd olaraq, cinayət işi üzrə qərar qəbul edilənə qədər maraqlı şəxsin maliyyə sanksiyasını ödəməmək hüququnun olması, belə hüquq olduğu halda isə həmin maliyyə sanksiyasının ödənilməsinin təmini ilə bağlı tədbirlərin tətbiq edilə bilinməməsinə dair qanunsuz və əsassız nəticəyə gəlmişdir. Odur ki, mübahisələndirilən qətnamə qüvvədə saxlanıla bilməz.

56. Bununla belə, məhkəmə kollegiyası iş üzrə hər hansı əlavə araşdırma və ya qiymətləndirmə aparılmasına ehtiyac olmamasını nəzərə alaraq hesab edir ki, işə baxan məhkəmələrin müəyyən etdiyi hallar və sübutlar əsasında iş üzrə yeni qərar qəbul edilməlidir.

57. Odur ki, kassasiya şikayəti təmin edilməli, Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2024-cü il 23 may tarixli 2-2(103)-262/2024 nömrəli qətnaməsi ləğv edilməli, iş üzrə yeni qərar qəbul edilməli, ərizə təmin edilməli, ümumilikdə 75.790,1 manat borcun ödənilməsini təmin etmək üçün vergi ödəyicisi olan fiziki şəxs – 1979-cu il **** tarixində A şəhərində anadan olmuş, XXXX ünvanında qeydiyyatda olmaqla Bakı şəhəri, Xəzər rayonu, Mərdəkan qəsəbəsi ünvanında yaşayan X1nun ölkədən getmək hüququ müvəqqəti məhdudlaşdırılmalı, ərizənin verilməsinə görə ödənilməli olan 100 manat məbləğində dövlət rüsumu maraqlı şəxsdən tutularaq dövlət büdcəsinə ödənilməlidir.

58. Göstərilənlərə əsasən və MPM-in 417-419-cu maddələrini rəhbər tutaraq məhkəmə kollegiyası

QƏRARA ALIR:

Ərizəçi İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsinin kassasiya şikayəti təmin edilsin.

Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2024-cü il 23 may tarixli 2-2(103)-262/2024 nömrəli qətnaməsi ləğv edilsin.

İş üzrə yeni qərar qəbul edilsin.

Ümumilikdə 75.790,1 manat borcun ödənilməsini təmin etmək üçün vergi ödəyicisi olan fiziki şəxs – **.**.1979-cu il tarixində X4 şəhərində anadan olmuş, Ünvan1-də qeydiyyatda olmaqla Ünvan2-də yaşayan X1-in ölkədən getmək hüququ müvəqqəti məhdudlaşdırılsın.

Ərizənin verilməsinə görə ödənilməli olan 100 manat məbləğində dövlət rüsumu maraqlı şəxsdən tutularaq dövlət büdcəsinə ödənilsin.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

PROSESSUAL HÜQUQ NORMALARININ TƏTBİQİ İLƏ BAĞLI QƏRARLAR

Mediasiya sessiyasında barışıq sazişinin təsdiq edilməsi

59. 2-2(102)-199/2024 nömrəli, 2024-cü il 17 may tarixli qərar - Mediasiya prosesi nəticəsində bağlanmış barışıq sazişinin təsdiq edilməsindən imtinanın əsaslarının yoxlanılması

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: mediasiya prosesi nəticəsində bağlanmış barışıq sazişinin təsdiq edilməsindən imtinanın əsaslarının yoxlanılması

Mediasiya prosesi nəticəsində bağlanmış barışıq sazişinin təsdiq edilməsi ilə bağlı işlərə baxarkən, MPM-in 355-26.1-ci maddəsinin dispozsiya şərtləri baxımından qiymət verilməli olan halların dairəsi

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Mülki Prosessual Məcəllənin 355-26.1-ci maddəsində tərəflər arasında mediasiya prosesində bağlanmış barışıq sazişinin təsdiq edilməsindən imtina üçün cəmi 2 əsas nəzərdə tutulmuşdur: 1) barışıq sazişinin və ya onun bir hissəsinin qanuna zidd olması; 2) barışıq sazişinin mediasiyada iştirak etməyən üçüncü şəxslərin və ya məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan, yaxud məhdud fəaliyyət qabiliyyətli hesab edilən şəxslərin hüquqlarına toxunulan mübahisələr üzrə keçirilmiş mediasiya prosesinin nəticəsində bağlanılması.

Məhkəmələr bu qəbildən olan işlər üzrə ərizənin rədd edilməsi nəticəsinə gələrkən öz mövqelərini ümumi xarakterli ifadələrlə deyil, konkret dəlillərlə əsaslandırmalı, xüsusilə də mediasiya prosesində bağlanmış barışıq sazişinin zidd olduğu normativ hüquqi aktı və onun müvafiq normalarını dəqiq göstərməli, yaxud da sözügedən sazişin bağlanması ilə üçüncü şəxslərin hüquqlarına toxunulmuşdursa, həmin şəxslərin dairəsini konkretləşdirməli, eləcə də hüquqları pozulmuş ayrı-ayrı fiziki və hüquqi şəxslər haqqında müvafiq fərdiləşdirici məlumatları qeyd etməlidirlər.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2-2(102)-199/2024

17.05.2024-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının

Ərizəçi X1 oğlunun ərizəsinə dair iş üzrə
(X2 MMC maraqlı şəxs olmaqla)

Q Ə R A R I

Açar sözlər: mediasiya prosesi nəticəsində bağlanmış barışıq sazişinin təsdiq edilməsi

Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının hakimi Məmmədli Bəhram Məmməd oğlunun məruzəsi ilə, hakimlər Qəribov Bəhman Fərhad oğlu və Əliyev Zaur Əli oğlundan ibarət tərkibdə,

ərizəçi X1 oğlu tərəfindən verilmiş "barışıq sazişinin təsdiq olunması" barədə ərizə üzrə (maraqlı şəxs X2 MMC olmaqla) Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2023-cü il 7 dekabr tarixli 22(103)-954/2023 nömrəli qətnaməsindən ərizəçi X1 tərəfindən verilmiş kassasiya şikayətinə yazılı icraat qaydasında baxılmışdır.

İşin halları

1. X1 (bundan sonra – "ərizəçi") X3 MMC(hazırkı adı X2 MMC, bundan sonra – "maraqlı şəxs") arasında 2018-ci il 1 dekabr tarixli (təsisçi ilə şirkət arasında) borc müqaviləsi bağlanmışdır. Müqaviləyə əsasən ərizəçi maraqlı şəxsə 500.000 ABŞ dolları borc verməyi, sonuncu isə həmin pulu 12 ay müddətində borc verənə qaytarmağı öz öhdəsinə götürmüşdür. Müqaviləni həm borc alan hüquqi şəxsin rəhbəri, həm də borc verən fiziki şəxs kimi X1 imzalamışdır.

2. Ərizəçi ilə maraqlı şəxs arasında 2023-cü il 3 avqust tarixli MŞB/6-0136 nömrəli barışıq sazişi bağlanmış və mediator tərəfindən təsdiq edilmişdir. Həmin sazişə əsasən tərəflər aşağıdakılar barədə barışığa gəlmişlər:

2.1. Tərəflər razılaşır ki, borc məbləği 471.068 manat təşkil edir.

2.2. 2-ci tərəf (X2 MMC) 5 iş günü ərzində borcu 1-ci tərəfə ödəməyi öz öhdəsinə götürür.

3. Sazişin imzalanması eyni mübahisə predmetinə aid əvvəllər mövcud olan razılaşmalara istinad edilməsini istisna edir və hüquqi statusundan asılı olmayaraq mübahisə predmeti ilə əlaqədar tərəflər üçün yalnız sazişin şərtləri etibarlı olur.

4. Sazişin imzalanması sadəcə bu sazişlə əhatə olunan məsələlərə aiddir və tərəflər arasında digər irad və tələblərə aid edilmir.

5. Bu sazişdə nəzərdə tutulan hallar istisna olmaqla, tərəflər hazırkı mübahisə ilə əlaqədar bir-birini, işçilərini və ya varislərini, vəkillərini və nümayəndələrini bu sazişin bağlandığı ana kimi yaranmış, məlum olan və ya olmayan bütün mübahisələr, iddialar şikayətlər, ittihamlar, tələblər, zərərlər, borclar və öhdəliklərlə bağlı məsuliyyətdən qarşılıqlı şəkildə azad edirlər.

6. Saziş, əgər sazişdə ayrı şərt nəzərdə tutulmayıbsa, imzalandığı gündən tərəflər üçün məcburi xarakter daşıyır. Sazişdə tərəflər arasında ayrı müddət müəyyən edilməyibsə, tam imzalandığı gündən 5 təqvim gün müddətində könüllü şəkildə icra olunmalıdır.

7. Tərəflər sazişdən irəli gələn öhdəliklərinin pozulmasına görə, o cümlədən, sazişin könüllü icrasından boyun qaçırmaya görə əldən çıxmış fayda istisna olmaqla qarşı tərəfə vurulmuş real zərəri ödəməyə borcludurlar.

8. Sazişin könüllü icrasından imtina olunsa, tərəf sazişin məcburi icrası üçün məhkəməyə müraciət edə bilər.

9. Sazişin məcburi icrası ilə əlaqədar müvafiq qaydada məhkəməyə müraciət edən tərəfin qeyd olunan tədbirləri görmək üçün çəkdiyi müvafiq hüquqi xərcləri və məsrəfləri digər tərəf ona ödəməlidir.

10. Tərəflər razılığa gəlirlər ki, onların heç biri digərinin nüfuzuna xələl gətirməyəcək, buna səbəb olan hər hansı davranış və ya münasibətə yol verməyəcəkdir.

11. Tərəflər razılığa gəlirlər ki, tərəflərin birinin yazılı razılığı olmadan sazişə dəyişiklik edilə bilməz. Sazişin hər hansı müddəası səlahiyyətli orqan tərəfindən etibarsız və ya qüvvədən düşmüş hesab edildiyi təqdirdə tərəflər razılığa gəlirlər ki, digər müddəalar hüquqi qüvvəsini saxlayacaqdır.

12. Tərəflər bununla təsdiq edirlər ki, onların vəkil və ya hüquqşünasla, habelə digər mütəxəssislərlə məsləhətləşmək hüququ vardır.

13. Tərəflər razılaşırlar ki, hazırkı sazişdəki heç bir müddəa hər hansı tərəfin təqsirini və ya qanuna zidd hərəkətini etiraf etməsi kimi qəbul edilmir və digər şəxslər tərəfindən bu cür şərh edilə bilməz.

14. Əgər tərəflər arasında ayrı şərt müəyyən edilməyibsə, həmçinin barışıq sazişinin təsdiqi və icrası məqsədilə tələb olunan hallar istisna olmaqla, tərəflərdən hər biri mediasiya zamanı əldə olunan bütün məlumatların (o cümlədən, tərəflərdən birinin mediasiyanın həyata keçirilməsi barədə təşəbbüsü, mediasiyaya və mübahisənin mümkün həll variantına razılıq verməsi, tərəflərdən birinin və ya mediatorun mübahisənin mümkün həllinə dair rəy və ya təklifləri, mediasiya zamanı tərəflərdən birinin verdiyi bəyanatları və ya etdiyi etirafları, mediasiyanın həyata keçirilməsi məqsədi ilə tərtib olunmuş sənədlər və s.) konfidensiallığını qorumaq öhdəliyini öz üzərilərinə götürürlər. Tərəflərin bu qaydaları pozması qanunla nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

15. Tərəflərin onlara mediasiya zamanı məlum olan məlumatları məhkəmə və arbitraj (münsiflər məhkəməsi) proseslərində, başqa mediasiya zamanı və ya hər hansı digər hallarda açıqlamaq və ya onlara istinad etmək hüququ yoxdur (həmin məlumatı verən tərəfin yazılı razılığı olduğu hallar istisna olmaqla) və belə məlumatlarla bağlı tərəflər şahid qismində iştirak edə bilməzlər.

16. Tərəflər aşağıdakı şəxslər və hallar istisna olmaqla, bu sazişin məzmununu üçüncü şəxslərə açıqlaya bilməz:

16.1. bu məlumatı bilmələri vacib olan rəhbərlərinə, işçilərinə, nümayəndələrinə, vəkillərinə, auditorlara və vergi məsləhətçilərinə;

16.2. bu məlumatların açıqlanması qanunvericiliklə tələb edilən şəxslərə;

16.3. Sazişin hazırlanması zamanı vəkil və ya nümayəndələrinin peşə səhlənkarlığı və ya qanun pozuntusu iddialarını əsaslandırmaq məqsədilə müvafiq məhkəmələrə və aidiyyəti qurumlara;

16.4. yaxın qohumlara (qarşı tərəfin yazılı icazəsi ilə);

17. Tərəflər arasında digər razılaşma yoxdursa, “iş tərəflərin qarşılıqlı razılığı ilə həll edildi” və ya oxşar bir şərh vermək və ya ictimaiyyətə açıq olan hər hansı bir məlumatı açıqlamaq və ya istinad etmək məxfiliyin pozulması hesab edilməyəcəkdir.

18. Tərəflər bu sazişlə üzərlərinə götürdükləri öhdəliklərin tam və ya qismən icra edilməməsinə görə məsuliyyətdən o vaxt azad olunurlar ki, bu icra etməmə sazişin bağlanmasından sonra yaranmış, tərəflərin iradəsindən asılı olmayan, əvvəlcədən görə və təsirinə mane ola bilmədikləri qarşısıalınmaz qüvvənin təsirindən əmələ gəlmiş olsun. Bu cür hallara daşqın, zəlzələ, yanğın, yer sürüşməsi və digər təbii fəlakətlər, epidemiya və pandemiyalar, müharibə və hərbi əməliyyatlar, kütləvi iğtişaşlar, tərəflərin münasibətlərini bilavasitə dəyişdirən qanunvericilikdə dəyişikliklər, dövlət və yerli özünüidarəetmə orqanlarının bu sazişin icrasının mümkünsüzlüyünə səbəb olan hərəkətləri və ya qəbul etdikləri aktları aiddir.

19. Sazişin 18-ci bəndində göstərilən səbəblərdən sazişin icrası mümkün olmadıqda, onun icrası həmin halın mövcud olduğu müddət ərzində dayandırılır.

20. Fors-major hallarının təsirinə məruz qalan tərəf digər tərəfi belə halların baş verdiyi gündən 3 təqvim günündən gec olmayaraq yazılı surətdə xəbərdar etməlidir.

21. Fors-major hallarının baş verməsi barədə xəbərdar etməyən və ya vaxtında xəbərdar etməyən Tərəf Saziş üzrə öhdəliklərini icra edə bilmədikdə fors-major hallarına istinad etmək hüququnu itirir.

22. Fors-major hallarının baş verməsinə istinad etmək hüququnu itirmiş Tərəf tətbiq edilən qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıyır.

23. Fors-major hallarının mövcudluğu və təsir müddəti səlahiyyətli dövlət orqanları və ya digər səlahiyyətli təşkilatlar tərəfindən verilən sənədlərlə təsdiq olunmalıdır.

24. Saziş tam imzalandığı tarixdən qüvvəyə minir və Tərəflər öhdəliklərini tam icra edənədək qüvvədədir.

25. Bu Saziş Azərbaycan dilində eyni hüquqi qüvvəyə malik 3 (üç) nüsxədə tərtib edilmişdir. Saziş hər birində 1 (bir) nüsxə olmaqla mediatorda və Tərəflərdə saxlanılır (Tərəflərin tələbi ilə müvafiq orqanlara təqdim etmək üçün əlavə nüsxələrdə hazırlana bilər).

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a) Birinci instansiya məhkəməsindəki icraat

26. Ərizəçi məhkəməyə müraciət edərək, maraqlı şəxslə onun arasında mediasiya prosesində bağlanmış barışıq sazişinin təsdiq edilməsi barədə qətnamə qəbul olunmasını xahiş etmişdir.

27. Ərizə işin yuxarıda qeyd edilən faktiki hallarına (bax §§ 1-2) istinad edilməklə onunla əsaslandırılmışdır ki, borc müqaviləsinə görə ərizəçi tərəfindən maraqlı şəxsə 471.068 manat pul borc verilmişdir. Borc maraqlı şəxsin cari xərclərinin ödənilməsi və əsas vəsaitlərin alınmasının həyata keçirilməsi məqsədi ilə verilmişdir. Ona görə də maraqlı şəxs yerdə qalan məbləğə artıq ehtiyac olmadığını, borc kimi tərəfindən ödənilmiş məbləği müqavilədə göstərilən müddət ərzində ödəyəcəyini bildirmişdir. Artıq uzun müddət keçməsinə baxmayaraq o, öz öhdəliklərini yerinə yetirmir və müxtəlif bəhanələr gətirərək borcu ödəməkdən boyun qaçırır.

28. Maraqlı şəxs ərizədə göstərilənləri təsdiq edərək bildirmişdir ki, borc müqaviləsi bağlanılan zaman ərizəçi maraqlı şəxsin direktoru olduğu üçün müqaviləni hər iki tərəfdən özü imzalamış, bu səbəbdən həmin müqavilənin notarial qaydada təsdiq edilməsi mümkün olmamışdır. Borc maraqlı şəxsin X4 ASC-də olan hesabına nağd qaydada mədaxil edilmiş, bu barədə hesabdan çıxarışları da təqdim etmişlər. Belə ki, həmin məbləği maraqlı şəxs vəsaitin olduğu bank ləğv olunduğu üçün istifadə edə bilməmişdir. Hazırda həmin vəsait maraqlı şəxsin X4 ASC-də olan həmin hesabında qalmaqda davam edir. Bundan əlavə, həmin vəsaitlər barədə vergi orqanına da məlumat verilmiş, mənfəət bəyannaməsini də məhkəməyə təqdim etmişdir. Həmin bəyannamədə gəlirin düzgün göstərilməməsinin səbəbi isə mühasiblərinin səhvi olmuşdur.

29. Bakı Kommersiya Məhkəməsinin 2023-cü il 30 avqust tarixli e-2-2(113)-4588/2023 nömrəli qətnaməsi ilə ərizə təmin edilməmişdir (hakim – Ü.Həsənova).

30. Birinci instansiya məhkəməsi təqdim edilmiş hesabdan çıxarışlardan ərizəçi tərəfindən maraqlı şəxsin hesabına vəsaitin 2018-ci ilin dekabr ayından 2019-cu ilin oktyabr ayınadək hissə-hissə köçürüldüyünün göründüyünü qeyd etmişdir. Lakin maraqlı şəxsin nümayəndəsi məhkəmə iclasında verdiyi izahatında həmin vəsaitdən istifadə edilmədiyini bildirmişdir.

31. Bundan əlavə, məhkəmə tərəfindən həmin vəsaitlərin dövlət vergi orqanına bəyan edilməsi ilə bağlı müvafiq sənədlərin təqdim edilməsi təklif edilsə də, bu barədə hər hansı sənəd məhkəməyə təqdim edilə bilməmişdir.

32. Habelə maraqlı şəxsin nümayəndəsi həmin sazişdə göstərilən borcu qəbul etdiklərini, həmin borcu qaytarmalı olduqlarını bildirsə də, mediasiya prosesi nəticəsində barışıq sazişinin maraqlı şəxs tərəfindən könüllü şəkildə (sazişin təsdiq edildiyi gündən 5 iş günü ərzində) icra edilməməsinin ağlabatan səbəbi də məhkəməyə bildirilməmişdir.

33. Birinci instansiya məhkəməsi öz mövqeyini Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra – “MPM”) 4.6, 52.3, 355-23.1, 355-25.1, 355-26.1ci maddələrinə istinadla əsaslandırmışdır.

34. Ərizəçi X1 apellyasiya şikayəti verərək həmin qətnamənin ləğv, ərizənin təmin edilməsi barədə qətnamə qəbul olunmasını xahiş etmişdir.

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

35. Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2023-cü il 7 dekabr tarixli 2-2(103)-954/2023 nömrəli qətnaməsi ilə apellyasiya şikayəti təmin edilməmiş, birinci instansiya məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmışdır (sədrlik edən – A.Hüseyn, hakimlər – R.Qurbanov və V.Baxışova).

36. Apellyasiya instansiya məhkəməsi birinci instansiya məhkəməsinin gəldiyi nəticə və əsaslandırma (bax § 7-9) ilə razılaşaraq, əlavə olaraq qeyd etmişdir ki, məhkəmə iclasında maraqlı şəxsin nümayəndəsi ərizəçinin mövqeyi ilə razı olduqlarını, borc məbləğinin maraqlı şəxsin X4 ASC-də olan hesabına nağd qaydada mədaxil edildiyini, həmin borc vəsaitinin cari xərclərin ödənilməsini və əsas vəsaitlərin alınmasının həyata keçirilməsi məqsədilə verildiyini, maraqlı şəxsin öz ehtiyaclarını ödəyəcək həddə istifadə etməli olduğunu, bu səbəbdən 471.068 manat pul vəsaitinin borc verildiyini, həmin vəsaitin nağdlaşdırıla bilməyən vəsait olduğuna görə təyinatı göstərilməklə istifadə oluna bildiyini qeyd etmişdir.

37. Bu baxımdan məhkəmə kollegiyası hesab etmişdir ki, hazırda barışıq sazişinin təsdiq edilməsi üçün əsaslar müəyyən edilmir.

38. Apellyasiya instansiyası məhkəməsi öz mövqeyini, MPM-in 355-23.1, 355-24, 355-25.3, 355-26.1-ci, "Mediasiya haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – "Qanun") 34.1-ci, 34.2-ci, 34.3-cü və 34.4-cü maddələrinə istinadla əsaslandırmışdır.

39. Ərizəçi X1 kassasiya şikayəti verərək həmin qətnamənin ləğv, ərizənin təmin edilməsi barədə yeni qərar qəbul olunmasını xahiş etmişdir.

Kassasiya şikayətinin və ona qarşı etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

40. Qanunun 4 və 25.1-ci maddələri üzrə - Məhkəmə ümumiyyətlə ərizənin rədd edilməsi ilə bağlı hər hansı maddi hüquq normasına istinad etməmişdir. Hazırki işdə barışıq sazişinin və ya onun bir hissəsinin təsdiq edilməsindən imtina halları mövcud deyildir. Tərəflər arasında həmin Qanunun 4-cü maddəsində nəzərdə tutulan prinsiplərin hər birinə əməl edilməklə saziş bağlanmışdır. Həmçinin onun tərəfindən vəsaitlərin dövlət vergi orqanına bəyan edilməsi ilə bağlı müvafiq sənədlərin məhkəməyə təqdim edilməməsinə dair məhkəmənin dəlillərinə münasibətdə qeyd edir ki, bu vəzifə hüquqi şəxsin səlahiyyətidir, onun bu vəzifəni icra edib-etməməsi, həmin şəxsi götürdüyü borc öhdəliyindən azad etmir.

41. MPM-in 355-26.1-ci maddəsi üzrə - Mübahisə predmeti olan barışıq sazişi nə qanuna ziddir, nə də ki, mediasiyada iştirak etməyən üçüncü şəxslərin və ya məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan, yaxud məhdud fəaliyyət qabiliyyətli hesab edilən şəxslərin hüquqlarına toxunulan mübahisələr üzrə keçirilmiş mediasiya prosesinin nəticəsində bağlanılmışdır.

42. MPM-in 14.2 və 77.1-ci maddələri üzrə - Məhkəmə iddiaçı tərəfindən təqdim edilmiş bəyannaməni qətnamədə göstərməməklə həmin sübutu görməzlikdən gəlmişdir. Eyni zamanda iş materiallarından da aydın görünür ki, ərizəçi öz ərizəsinin əsası kimi istinad etdiyi halları tam olaraq sübut etmişdir.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

43. Kassasiya şikayətinə qarşı etiraz daxil olmamışdır. Bununla belə, maraqlı şəxsin nümayəndəsi ərizə ilə müraciət edərək, iddiaçı tərəfindən verilmiş kassasiya şikayətini qəbul etdiklərini bildirmiş, kassasiya şikayətinin təmin edilməsini, Bakı Apellyasiya Məhkəməsinin

qətnaməsinin ləğv edilməsini, barışıq sazişinin təsdiq edilməsi barədə yeni qərar qəbul edilməsini xahiş etmişdir.

Kassasiya baxışının hədləri

44. Hazırkı icraat çərçivəsində apellyasiya instansiyası məhkəməsinin qətnaməsi bütövlükdə mübahisələndirildiyi üçün onun qanuniliyi və əsaslılığı MPM-in 403 və 416-cı maddələrinə uyğun olaraq tam yoxlanılacaqdır.

45. Kassasiya instansiyası məhkəməsi tərəfindən işin faktiki halları yoxlanılmasa da apellyasiya instansiyası məhkəməsinin maddi və prosessual hüquq normalarını düzgün tətbiq edib-etməməsini yoxlayarkən hüquqi məsələlərin düzgün qiymətləndirilməsi üçün işin faktiki hallarının nəzərə alınması və onlara istinad olunması zəruridir. Kassasiya instansiyası məhkəməsinin işin müəyyən edilmiş faktiki hallarına istinad etməsi faktiki halların yoxlanılması və araşdırılması kimi qiymətləndirilməməlidir.

Tətbiq edilən hüquq

46. Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin müvafiq müddəalarında aşağıdakılar nəzərdə tutulur:

“Maddə 217. Qətnamənin qanuniliyi və əsaslılığı

217.1. Məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır.

...”

“Maddə 355-26. Mediasiya prosesi nəticəsində bağlanılmış barışıq sazişinin və ya onun bir hissəsinin təsdiq edilməsindən imtina olunması

355-26.1. Məhkəmə aşağıdakı hallarda barışıq sazişinin və ya onun bir hissəsinin təsdiq edilməsindən imtina edir:

355-26.1.1. barışıq sazişi və ya onun bir hissəsi qanuna zidd olduqda;

355-26.1.2. barışıq sazişi mediasiyada iştirak etməyən üçüncü şəxslərin və ya məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan, yaxud məhdud fəaliyyət qabiliyyətli hesab edilən şəxslərin hüquqlarına toxunulan mübahisələr üzrə keçirilmiş mediasiya prosesinin nəticəsində bağlanıldıqda.

...”

“Maddə 392. Apellyasiya instansiyası məhkəməsi qətnaməsinin məzmunu

392.1. Apellyasiya instansiyası məhkəməsinin qətnaməsində aşağıdakılar göstərilməlidir:

...

392.1.5. məhkəmənin nəticəyə gəlməsi barədə motivlər və məhkəmənin rəhbər tutduğu qanunlar;

...

392.2. Apellyasiya şikayəti təmin edilmədikdə və ya məhkəmənin qətnaməsi dəyişdirildikdə, apellyasiya instansiyası məhkəməsi hansı dəlillərə əsasən şikayətin təmin edilmədiyini və yaxud qətnamənin dəyişdirildiyini göstərməyə borcludur.” “Maddə 416. Kassasiya instansiyasında işə baxmanın hədləri

416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

416.2. Apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 418.4cü maddəsində nəzərdə tutulmuş prosessual hüquq pozuntusu hesab edilən hallara yol verilməsi şikayətin hədlərindən və dəlillərindən asılı olmayaraq yoxlanılmalıdır.”

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

47. Məhkəmə kollegiyası aşağıdakı səbəblərdən ərizəçinin kassasiya şikayətinin dəlillərini əsaslı hesab edir.

48. İşə baxan məhkəmələr işdə olan hesabdan çıxarışlara istinadən müəyyən etmişlər ki, ərizəçi tərəfindən maraqlı şəxsin hesabına borc vəsaiti 2018-ci ilin dekabr ayından 2019-cu ilin oktyabr ayına qədər hissə-hissə olmaqla köçürülmüşdür.

49. İş materiallarından görünür ki, maraqlı şəxs həmin faktı aşağı məhkəmə instansiyalarında təsdiq etmişdir.

50. Beləliklə, ərizəçinin borc müqaviləsi üzrə müvafiq pul vəsaitini maraqlı şəxsin bank hesabına köçürməsi mübahisəsiz xarakter daşıyır.

51. Bununla belə, birinci instansiya məhkəməsi hazırkı iş üzrə verilmiş ərizəni təmin etməmiş, apellyasiya instansiyası məhkəməsi həmin mövqe ilə razılaşmış, bu zaman faktiki olaraq 2 dəlilə istinad etmişdir:

- Ərizəçi tərəfindən həmin vəsaitlərin dövlət vergi orqanına bəyan edilməsi ilə bağlı müvafiq sənədlər məhkəməyə təqdim edilməmişdir.
- Əvvəlki məhkəmə iclasında maraqlı şəxsin nümayəndəsi ərizəçinin mövqeyi ilə razı olduqlarını, borc məbləğinin X2 MMC-nin X4 ASC-də olan hesabına nağd qaydada mədaxil edildiyini, həmin borc vəsaitinin cari xərclərin ödənilməsini və əsas vəsaitlərin alınmasının həyata keçirilməsi məqsədilə verildiyini, maraqlı şəxsin öz ehtiyaclarını ödəyəcək həddə istifadə etməli olduğunu, bu səbəbdən 471.068 manat pul vəsaitinin borc verildiyini, həmin vəsaitin nağdlaşdırıla bilməyən vəsait olduğuna görə təyinatı göstərilməklə istifadə oluna bildiyini qeyd etmişdir.

52. Məhkəmə kollegiyası apellyasiya instansiyası məhkəməsinin mövqeyi ilə razılaşmayaraq hesab edir ki, həmin dəlillərin heç biri tərəflər arasında mediasiya prosesində bağlanmış barışıq sazişinin təsdiq edilməsindən imtina üçün əsas ola bilməz.

53. Belə ki, MPM-in 355-26.1-ci maddəsində (bax § 23) belə imtina üçün cəmi 2 əsas nəzərdə tutulmuşdur: 1) barışıq sazişinin və ya onun bir hissəsinin qanuna zidd olması; 2) barışıq sazişinin mediasiyada iştirak etməyən üçüncü şəxslərin və ya məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan, yaxud məhdud fəaliyyət qabiliyyətli hesab edilən şəxslərin hüquqlarına toxunulan mübahisələr üzrə keçirilmiş mediasiya prosesinin nəticəsində bağlanılması.

54. Məhkəmə kollegiyasının qənaətinə görə, məhkəmələr bu qəbildən olan işlər üzrə ərizəçinin ərizəsinin rədd edilməsi nəticəsinə gələrkən öz mövqelərini ümumi xarakterli ifadələrlə deyil, konkret dəlillərlə əsaslandırmalı, xüsusilə də mediasiya prosesində bağlanmış barışıq sazişinin zidd olduğu normativ hüquqi aktı və onun müvafiq normalarını dəqiq göstərməli, yaxud da sözügedən sazişin bağlanması ilə üçüncü şəxslərin hüquqlarına toxunulmuşdursa, həmin şəxslərin dairəsini konkretləşdirməli, eləcə də hüquqları pozulmuş ayrı-ayrı fiziki və hüquqi şəxslər haqqında müvafiq fərdiləşdirici məlumatları qeyd etməlidirlər.

55. Hazırkı halda isə birinci instansiya məhkəməsi MPM-in 355-26.1-ci maddəsində nəzərdə tutulmuş əsaslardan hər hansı birinin hazırkı halda mövcud olmasını öz qətnaməsində tutarlı dəlillərlə əsaslandırmamış, o cümlədən mediasiya sazişinin konkret olaraq hansı qanunvericilik aktlarına və hüquq normalarına zidd olduğunu, yaxud hansı şəxslərin hüquqlarına toxunduğunu göstərə bilməmiş, buna baxmayaraq apellyasiya instansiyası məhkəməsi aşağı məhkəmənin qətnaməsi ilə razılaşmaqla özü də eyni səhvə yol vermiş, beləliklə də həmin maddəni düzgün tətbiq etməmişdir.

56. Bundan başqa, apellyasiya instansiyası məhkəməsinin qətnaməsinə dair tələbləri müəyyən edən MPM-in 392.1, 392.1.5 və 392.2-ci maddələrinin (bax § 23) məzmununa görə, apellyasiya instansiyası məhkəməsi öz qətnaməsində məhkəmənin nəticəyə gəlməsi barədə

motivləri və rəhbər tutduğu qanunları, eləcə də apellyasiya şikayəti təmin edilmədikdə hansı dəlillərə əsasən şikayətin təmin edilmədiyini göstərməyə borcludur.

57. Baxılan işdə isə apellyasiya instansiyası məhkəməsi öz mövqeyini konkret hüquq normalarından irəli gələn və iş üzrə birmənalı nəticəyə gəlməyə imkan verən tutarlı dəlillərlə əsaslandırmamaqla prosessual qanunun istinad olunan tələblərini də pozmuşdur.

58. Belə olan təqdirdə, apellyasiya instansiyası məhkəməsinin konkret olaraq hansı səbəblərə görə mediasiya prosesində bağlanmış barışıq sazişinin təsdiq edilməsi üçün əsasların mövcud olmadığı qənaətinə gəlməsi aydın olmur.

59. Digər tərəfdən, məhkəmə kollegiyası onu da vurğulamağı zəruri hesab edir ki, hüquqi şəxsin hər hansı vəsaitinin vergi orqanına bəyan edilməməsi həmin şəxsi mülki hüquqi əqd üzrə götürdüyü borc öhdəliyindən azad etmir, bu səbəbdən də həmin dəlil hazırkı işin düzgün həlli üçün heç bir hüquqi əhəmiyyət kəsb etmir.

60. Yuxarıda göstərilənləri ümumiləşdirərək məhkəmə kollegiyası belə qənaətə gəlir ki, apellyasiya instansiyası məhkəməsi, prosessual qanunu düzgün tətbiq etməmiş, nəticədə MPM-in 217.1-ci maddəsinə (bax § 23) zidd olaraq qanunsuz və əsassız qətnamə qəbul etmişdir.

61. Odur ki, kassasiya şikayəti qismən təmin edilməli, Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2023-cü il 7 dekabr tarixli 2-2(103)-954/2023 nömrəli qətnaməsi ləğv edilməli və iş yenidən baxılmaq üçün həmin məhkəməyə qaytarılmalıdır.

62. Yeni apellyasiya baxışı zamanı məhkəmə qeyd olunan nöqsanları aradan qaldırmalı, o cümlədən detallı hüquqi dəyərləndirmə apararaq mediasiya prosesində bağlanmış barışıq sazişinin təsdiq edilməsindən imtina üçün MPM-in 355-26.1-ci maddəsində nəzərdə tutulmuş hansı əsas(lar)ın mövcud olduğu barədə qənaətini kassasiya instansiyası məhkəməsinin yuxarıda əks olunmuş mövqeyini nəzərə almaqla konkretləşdirməli, iş üzrə qanuni və əsaslı qətnamə qəbul etməlidir.

63. Göstərilənlərə əsasən və MPM-in 417-419-cu maddələrini rəhbər tutaraq məhkəmə kollegiyası

QƏRARA ALIR:

Ərizəçi X1-in kassasiya şikayəti qismən təmin edilsin.

Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2023-cü il 7 dekabr tarixli 2-2(103)-954/2023 nömrəli qətnaməsi ləğv edilsin.

İş yenidən baxılmaq üçün Bakı Apellyasiya Məhkəməsinə qaytarılsın.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

60. 2(102)-385/2025 nömrəli, 2025-ci il 17 yanvar tarixli qərar - Mediasiya prosesi nəticəsində bağlanmış mövcud vəziyyətin saxlanılmasına (təsbit edilməsinə) dair barışıq sazişinin təsdiq edilməsi barədə ərizəyə baxılmasının yolverilməzliyi

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: mediasiya prosesi nəticəsində əldə edilən barışıq sazişinin təsdiq edilməsi (barışıq sazişi təsbit xarakterli olarsa, müəyyən hüquqi hərəkətləri icra etmək öhdəliyi olmazsa)

Kassasiya instansiya məhkəməsinin mövqeyi:

MPM-in 355-23.1-ci maddəsinə əsasən mediasiya prosesi nəticəsində əldə edilən barışıq sazişinin təsdiq edilməsi barədə məhkəməyə müracət etmək üçün 2 şərtdən biri mövcud olmalıdır: barışıq sazişi könüllü qaydada icra edilməməlidir; barışıq sazişinin könüllü icrasından imtina olunmalıdır.

Barışıq sazişinə mahiyyəti üzrə baxılması nəticəsində sazişinin təsdiq olunmasından imtinanın əsasları MPM-in 355-26.1-ci maddəsində qeyd olunmuşdur: barışıq sazişi və ya onun bir hissəsi qanuna zidd olduqda; barışıq sazişi mediasiyada iştirak etməyən üçüncü şəxslərin və ya məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan, yaxud məhdud fəaliyyət qabiliyyətli hesab edilən şəxslərin hüquqlarına toxunulan mübahisələr üzrə keçirilmiş mediasiya prosesinin nəticəsində bağlanıldıqda.

Barışıq sazişinin şərtlərinin özü-özlüyündə bir növ mövcud vəziyyətin saxlanılmasına, yəni ər-arvadın əmlakının hüquqi rejiminin faktiki vəziyyətdə təsbitinə (hüquqi müəyyənliyə) yönələrsə, mediasiya prosesi nəticəsində bağlanmış həmin barışıq sazişinin şərtlərinə müvafiq olaraq tərəflərdən hər hansı birinin müəyyən hüquqi hərəkətləri icra etmək öhdəliyi olmadığından, MPM-in 261.0.1-ci maddəsinə müvafiq olaraq mediasiya prosesi nəticəsində əldə edilən barışıq sazişinin təsdiqi barədə ərizəyə məhkəmədə baxılmalı olmaması əsası ilə iş üzrə icraata xitam verilməlidir.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-385/2025

17.01.2025-ci il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının

ərizəçinin barışıq sazişinin təsdiq edilməsi tələbinə dair mülki iş üzrə

Q Ə R A R I

(Açar sözlər: iş üzrə icraata xitam verilməsi)

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Xıdırov Əhliman Mehman oğlu (məruzəçi), Vəliyeva Elşanə Rafiq qızı və Şamayev Elşad Yaquboviçdən ibarət tərkibdə,

ərizəçinin (maraqlı şəxs olmaqla) "barışıq sazişinin təsdiq edilməsi" tələbinə dair mülki iş üzrə Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)-5032/2024 nömrəli 29 oktyabr 2024-cü il tarixli qərardadından ərizəçi tərəfindən verilmiş kassasiya şikayətinə Ali Məhkəmənin inzibati binasında yazılı icraat qaydasında baxaraq aşağıdakı qərarı qəbul etdi.

İşin halları

1. Ərizəçi Maraqlı şəxs ilə xx xx 1997-ci il tarixdə rəsmi nikaha daxil olmuşdur. Bir müddət sonra onlar ailə münasibətlərini davam etdirə bilmədiyindən boşanmaq qərarına gəlmiş, bununla bağlı olaraq Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq mediasiyaya müraciət etmişlər. xx xx 2024cü il tarixdə keçirilən mediasiya prosesində tərəflər aşağıdakı şərtlərlə ******** saylı barışıq sazişini bağlamışlar: 1. Tərəflər arasında bağlanmış nikahın pozulması barədə razılığa gəlmişlər. Hər hansı tərəf nikahın pozulmasına etiraz etmir və barışıq üçün əlavə vaxt istəməyəcəkdir. 2. Tərəflər qəbul edirlər ki, bir-birinə qarşı hər hansı əmlak tələbləri olmayacaqdır. 3. Tərəflər razılaşmışdır ki, Maraqlı şəxsnın adında olan Ünvan 1 ünvanında yerləşən 29 saylı mənzil Maraqlı şəxsnın müstəsna mülkiyyəti olaraq qəbul edilir. 4. Tərəflər razılaşmışdır ki, Ərizəçinin adında olan Ünvan 2 ünvanında yerləşən 84 saylı mənzil Ərizəçinin müstəsna mülkiyyəti olaraq qəbul edilir.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a) Birinci instansiya məhkəməsində icraat

2. Ərizəçi xüsusi icraat qaydasında ərizə ilə məhkəməyə müraciət edərək, Maraqlı şəxs, Ərizəçi arasında xx.xx.2024-cü il tarixdə bağlanmış ********** saylı barışıq sazişinin təsdiq edilməsi barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

3. Bakı şəhəri Xətai Rayon Məhkəməsinin 12 iyul 2024-cü il tarixli, 2(011)6116/2024 nömrəli qətnaməsi ilə Maraqlı şəxs və Ərizəçi arasında mediator tərəfindən təsdiq edilmiş xx xx 2024cü il tarixli ********** saylı barışıq sazişinin təsdiq edilməsindən imtina olunması qət edilmişdir.

4. Birinci instansiya məhkəməsi qeyd etmişdir ki, barışıq sazişi Ərizəçi və Maraqlı şəxs tərəflərindən icra olunduğu üçün və tərəflər barışıq sazişinin icrasından yayınmadıqlarından barışıq sazişinin təsdiq edilməsindən imtina edilməlidir.

5. Məhkəmə öz mövqeyini Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra – MPM) 305.1.17 və 355-23.1-ci maddələrinə istinadla əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

6. Ərizəçi apellyasiya şikayəti verərək, birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv edilməsini və xx xx 2024cü il tarixli ********** saylı barışıq sazişinin təsdiq olunması barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

7. Apellyasiya şikayəti onunla əsaslandırmışdır ki, tərəfindən Maraqlı şəxsna barışıq sazişinin şərtlərinin icrası məqsədilə pretenziya məktubu göndərilmiş, lakin Mediator "Mediasiya haqqında" Qanunda nəzərdə tutulmuş müddətin keçməsinə baxmayaraq hələ də icra etməmişdir. "Mediasiya haqqında" Qanunun 34-cü maddəsində göstərilmişdir ki, barışıq sazişi, əgər sazişdə ayrı şərt nəzərdə tutulmayıbsa, imzalandığı gündən tərəflər üçün məcburi xarakter daşıyır. Barışıq sazişində tərəflər arasında ayrı müddət müəyyən edilməyibsə barışıq sazişi imzalandığı gündən 10 gün müddətində könüllü şəkildə icra olunmalıdır.

8. Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının (bundan sonra – apellyasiya instansiyası məhkəməsi) 2(103)-5032/2024 nömrəli iş üzrə 29 oktyabr 2024-cü il tarixli qərardadı ilə (hakimlər F.H.Qasımov (sədrlik edən və məruzəçi), G.T.Axundova və

X.Ə.Sarıyev) apellyasiya şikayəti qismən təmin edilmiş, birinci instansiyası məhkəməsinin qətnaməsi ləğv edilmiş, iş üzrə icraata xitam verilməsi qərara alınmışdır.

9. Apellyasiya instansiyası məhkəməsi mövqeyini əsaslandırarkən qeyd etmişdir ki, mediasiya prosesi nəticəsində bağlanmış barışıq sazişinin məhkəmə tərəfindən təsdiq olunması üçün müraciətin prosessual əsası MPM-nin 355-23.1-ci və "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununun 34.3-cü maddəsidir.

10. MPM-nin 355-23.1-ci madldəsinin tələbinə əsasən "Mediasiya haqqında" Azərbaycan Respublikası Qanununda müəyyən edilmiş müddət ərzində mediasiya prosesi nəticəsində əldə edilən barışıq sazişi könüllü qaydada icra edilmədikdə və ya barışıq sazişinin könüllü icrasından imtina olunduqda, ərizəçi barışıq sazişinin məcburi icrası üçün barışıq sazişinin təsdiq edilməsi barədə (barışıq sazişinin bu Məcəllənin 191.21-ci maddəsinə uyğun olaraq təsdiq edildiyi hal istisna olmaqla) məhkəməyə müraciət edə bilər.

11. "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununun 34.3-cü maddəsinə əsasən əgər barışıq sazişinin könüllü icrasından imtina olunsa, tərəf (o cümlədən məhkəmə baxışında olan işlər üzrə tərəf) barışıq sazişinin məcburi icrası üçün məhkəməyə müraciət edə bilər.

12. Normaların məzmunundan göründüyü kimi barışıq sazişinin təsdiq edilməsi barədə məhkəməyə müracət etmək üçün 2 şərtdən biri mövcud olmalıdır:

- barışıq sazişi könüllü qaydada icra edilməməlidir;
- barışıq sazişinin könüllü icrasından imtina olunmalıdır.

13. Hər 2 normanın mahiyyəti ondan ibarətdir ki, mediasiya prosesi nəticəsində əldə edilən barışıq sazişinin məhkəmə tərəfindən xüsusi icraatda təsdiqlənməsi yalnız razılaşmanın məcburi icrasını təmin etmək məqsədi daşıyır.

14. Ümumiyyətlə, barışıq sazişi tərəflərin mübahisəli münasibətlərinə dair yeni bir hüquqi nəticə - hüquq və öhdəliklər əmələ gətirmək məqsədilə bağladıqları qarşılıqlı ikitərəfli (çoxtərəfli) müqavilədir. Barışıq sazişi tərəflər arasındakı mübahisənin və ya fikir ayrılığına səbəb olma potensialı daşıyan qeyri-müəyyənliyin aradan qaldırılmasına yönəlir. Mediasiya prosesi nəticəsində bağlanmış barışıq sazişinin isə əsas cəhəti ondan ibarətdir ki, bu zaman tərəflərin iradə bəyanları məhkəməyə getmə potensialı olan mübahisənin tamamlanmasını təmin edir.

15. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 881.1-ci və 881.2-ci maddələrində qeyd edildiyi kimi, barışıq razılaşması haqqında müqaviləyə görə tərəflər öz aralarında hüquqlar və ya iddialar barəsində mübahisəni və ya qeyri-müəyyənliyi qarşılıqlı güzəştlər yolu ilə həll edirlər. Barışıq razılaşmasının qüvvəsi ondan ibarətdir ki, əvvəllər mübahisəli və ya qeyri-müəyyən olmuş hüquqlara və iddialara istinad edilməsi həmin razılaşmaya əsasən istisna edilir və hüquqi statusundan asılı olmayaraq iştirakçılar üçün yalnız barışıq razılaşmasında təsbit edilənlər etibarlı olur.

16. Hazırkı barışıq sazişi ilə tərəflər arasında olan mübahisə həllini tapmışdır, hər hansı bir qeyri – müəyyənlik, həmçinin, icrası nəzərdə tutulan hər hansı bir şərt mövcud deyildir. Bu sazişin mahiyyəti ondan ibarətdir ki, tərəflərin bir – birinə əmlak tələbləri olmayacaqdır, hər bir tərəf digərinin mülkiyyətində olan daşınmaz əmlakın onun müstəsna mülkiyyəti kimi qəbul edir.

17. Göründüyü kimi, hazırkı barışıq sazişinin şərtləri özü-özlüyündə bir növ mövcud vəziyyətin saxlanılmasına, yəni ər-arvadın hüquqi rejiminin faktiki vəziyyətdə təsbitinə (hüquqi müəyyənliyə) yönəlmişdir.

18. Belə olan halda isə, sazişin məhkəmə qaydasında təsdiq olunmasına (məcburi icraya) zərurətin nədən ibarət olması aydın deyildir. Ərizəçi ərizəni bu istiqamətdə ümumiyyətlə əsaslandırmamışdır.

19. Birinci instansiya məhkəməsi isə qeyd edilən halları nəzərə almamış, əsassız olaraq ərizəyə mahiyyəti üzrə hüquqi qiymət vermişdir. Çünki, barışıq sazişinə mahiyyəti üzrə baxılması nəticəsində sazişinin təsdiq olunmasından imtinanın əsasları MPM-nin 355-26.1-ci maddəsində qeyd olunmuşdur və hazırkı iş üzrə həmin əsaslardan hər hansı biri (barışıq sazişinin və ya onun bir hissəsi qanuna zidd olması, sazişin mediasiyada iştirak etməyən üçüncü şəxslərin və ya məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan, yaxud məhdud fəaliyyət qabiliyyətli hesab edilən şəxslərin hüquqlarına toxunulan mübahisələr üzrə keçirilmiş mediasiya prosesinin nəticəsində bağlanılması) mövcud deyildir.

20. Yuxarıda da qeyd edildiyi kimi, MPM-nin 355-23.1-ci maddəsi müvafiq ərizə ilə məhkəməyə müraciət etmənin əsaslarını müəyyən edir. Yəni, qərardadın 10-cu bəndində qeyd olunan şərtlər mövcud olmadıqda şəxsin məhkəməyə müraciət etmək üçün əsasları yaranmır, belə vəziyyətdə isə ərizəyə məhkəmədə baxılması mümkün deyildir.

21. Qeyd edilən şərtlər mövcud olmadıqda ərizəyə baxılması MPM-nin 5.1-ci maddəsinin tələbinə də ziddir. Həmin normanın tələbinə əsasən hər hansı fiziki və yaxud hüquqi şəxs öz hüququnun və ya qanunla qorunan mənafeyinin müdafiəsi və yaxud təsdiqi üçün məhkəməyə müraciət etdiyi hallarda məhkəmədə iş başlanılır.

22. Məhkəmə kollegiyası göstərilənlərə əsasən belə nəticəyə gəlmişdir ki, ərizəyə məhkəmədə baxılmalı olmadığından birinci instansiya məhkəməsinin qətnaməsi ləğv olunmalı və iş üzrə icraata xitam verilməlidir.

23. Məhkəmə öz mövqeyini “Mediasiya haqqında” Azərbaycan Respublikasının Qanunun 33.1, 33.1.6, 34.1, 34.2, 34.3, 34.4, 34.5-ci, MPM-in 5.1, 261.0.1, 325-23.1, 325.26.1.1, 325-26.1.2, 384.0.5-ci maddələrinə istinadla əsaslandırmışdır.

Kassasiya şikayətinin və ona etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

24. Ərizəçi (vəkil Piriyev Vəfadar Namiq oğlu) kassasiya şikayəti verərək, apellyasiya instansiyası məhkəməsinin qərardadının ləğv edilməsini və ərizənin təmin edilməsi barədə qərar qəbul edilməsini xahiş etmişdir.

25. Kassasiya şikayəti əsaslandırılarkən, Azərbaycan Respublikası Konstitusiyasının 13-cü, 25-ci maddələrinə, 29-cu maddəsinin IV hissəsinə, 60-cı maddəsinə, Azərbaycan

Respublikasının Mülki Məcəlləsinin 210-cu, “Mediasiya haqqında” Azərbaycan Respublikası Qanununun 34.1, 34.2, 34.3, 34.4, Azərbaycan Respublikasının MPM-in 4.6, 355-23.1, 355-23.2 və 355-24, 355-26-cı maddələrinə istinad edilərək , apellyasiya instansiyası məhkəməsi tərəfindən həmin maddi və prosessual hüquq normalarını pozulduğu bildirilmişdir.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

26. Kassasiya şikayətinə qarşı etiraz daxil olmamışdır.

Tətbiq edilən hüquq

“Mediasiya haqqında” Azərbaycan Respublikasının Qanunu

27. Maddə 33.1. Barışıq sazişi tərəflər arasında yazılı formada bağlanır. Barışıq sazişində aşağıdakı məlumatlar göstərilir:

28. Maddə 33.1.6. barışıq sazişinin şərtlərinin icra edilməməsinin və ya düzgün icra edilməməsinin nəticələri.

29. Maddə 34.1. Barışıq sazişi, əgər sazişdə ayrı şərt nəzərdə tutulmayıbsa, imzalandığı gündən tərəflər üçün məcburi xarakter daşıyır. Barışıq sazişində tərəflər arasında ayrı müddət müəyyən edilməyibsə barışıq sazişi imzalandığı gündən 10 gün müddətində könüllü şəkildə icra olunmalıdır.

30. Maddə 34.2. Barışıq sazişinin könüllü icrasından boyun qaçırma Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq barışıq sazişində müəyyən olunan məsuliyyətə səbəb olur.

31. Maddə 34.3. Əgər barışıq sazişinin könüllü icrasından imtina olunsa, tərəf (o cümlədən məhkəmə baxışında olan işlər üzrə tərəf) barışıq sazişinin məcburi icrası üçün məhkəməyə müraciət edə bilər.

32. Maddə 34.4. Barışıq sazişi məcburi icra edilməsi üçün məhkəmə tərəfindən müvafiq qaydada təsdiq olunur (bu Qanunun 34.5-ci maddəsinin tələbləri nəzərə alınmaqla).

33. Maddə 34.5. Barışıq sazişi bu Qanunun 33.3-cü maddəsinə zidd olduqda, onun təsdiq edilməsindən imtina olunur.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi

34. Maddə 5.1. Hər hansı fiziki və yaxud hüquqi şəxs öz hüququnun və ya qanunla qorunan mənafeyinin müdafiəsi və yaxud təsdiqi üçün məhkəməyə müraciət etdiyi hallarda məhkəmədə iş başlanılır.

35. Maddə 261.0.1. İş məhkəmədə və ya mülki məhkəmə icraatı qaydasında baxılmalı deyildirsə, hakim iş üzrə icraata xitam verir.

36. Maddə 355-23.1. “Mediasiya haqqında” Azərbaycan Respublikası Qanununda müəyyən edilmiş müddət ərzində mediasiya prosesi nəticəsində əldə edilən barışıq sazişi könüllü qaydada icra edilmədikdə və ya barışıq sazişinin könüllü icrasından imtina olunduqda, ərizəçi barışıq sazişinin məcburi icrası üçün barışıq sazişinin təsdiq edilməsi barədə (barışıq sazişinin bu Məcəllənin 191.2-1-ci maddəsinə uyğun olaraq təsdiq edildiyi hal istisna olmaqla) məhkəməyə müraciət edə bilər.

37. Maddə 355-26.1. Məhkəmə aşağıdakı hallarda barışıq sazişinin və ya onun bir hissəsinin təsdiq edilməsindən imtina edir:

38. Maddə 355-26.1.1. Barışıq sazişi və ya onun bir hissəsi qanuna zidd olduqda;

39. Maddə 355-26.1.2. Barışıq sazişi mediasiyada iştirak etməyən üçüncü şəxslərin və ya məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan, yaxud məhdud fəaliyyət qabiliyyətli hesab edilən şəxslərin hüquqlarına toxunulan mübahisələr üzrə keçirilmiş mediasiya prosesinin nəticəsində bağlanıldıqda.

40. Maddə 407.2. Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir.

41. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

42. Maddə 418.1. Maddi və prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması, o cümlədən maddi və prosessual hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması apellyasiya instansiyası məhkəməsinin qətnamə və qərardadının ləğv edilməsi üçün əsasdır.

43. Maddə 418.3. Prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması qətnamənin yaxud qərardadın ləğv edilməsi üçün o vaxt əsas ola bilər ki, bu pozuntu düzgün qətnamə qəbul edilməməsi ilə nəticələnsin və ya nəticələnə bilsin.

Kassasiya baxışının hədləri

44. Qanunun tələbinə görə kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş

materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

45. Hazırkı kassasiya şikayətində qərardad ərizəçi tərəfindən tam mübahisələndirildiyindən apellyasiya instansiyası məhkəməsinin aktı bütövlükdə yoxlanılır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

46. Məhkəmə kollegiyası hesab edir ki, apellyasiya instansiyası məhkəməsi tərəfindən iş üzrə düzgün qərardad qəbul edilməməsi ilə nəticələnən prosessual hüquq normalarının pozulması və ya səhv tətbiq olunması halları müəyyən edilmir. Bu baxımdan, apellyasiya instansiyası məhkəməsinin qərardadının ləğv olunması və ya dəyişdirilməsi üçün əsas yoxdur.

47. Ərizəçi məhkəməyə müraciət edərək mediasiya prosesi nəticəsində Maraqlı şəxs ilə əldə edilmiş barışıq sazişinin təsdiq edilməsini xahiş etmişdir.

48. Məhkəmə kollegiyası qeyd edir ki, “Mediasiya haqqında” Azərbaycan Respublikasının Qanununun 34.2, 34.3, 34.4-cü maddələrinə müvafiq olaraq barışıq sazişinin könüllü icrasından boyun qaçırma Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq barışıq sazişində müəyyən olunan məsuliyyətə səbəb olur. Əgər barışıq sazişinin könüllü icrasından imtina olunsa, tərəf (o cümlədən məhkəmə baxışında olan işlər üzrə tərəf) barışıq sazişinin məcburi icrası üçün məhkəməyə müraciət edə bilər. Barışıq sazişi məcburi icra edilməsi üçün məhkəmə tərəfindən müvafiq qaydada təsdiq olunur

49. Azərbaycan Respublikasının MPM-in 355-23.1-ci maddəsinə əsasən “Mediasiya haqqında” Azərbaycan Respublikası Qanununda müəyyən edilmiş müddət ərzində mediasiya prosesi nəticəsində əldə edilən barışıq sazişi könüllü qaydada icra edilmədikdə və ya barışıq sazişinin könüllü icrasından imtina olunduqda, ərizəçi barışıq sazişinin məcburi icrası üçün barışıq sazişinin təsdiq edilməsi barədə (barışıq sazişinin bu Məcəllənin 191.2-1-ci maddəsinə uyğun olaraq təsdiq edildiyi hal istisna olmaqla) məhkəməyə müraciət edə bilər.

50. Məhkəmə kollegiyası qeyd edir ki, yuxarıda qeyd edilən qanunvericilik normalarında nəzərdə tutulmuş mediasiya prosesi nəticəsində əldə edilən barışıq sazişinin könüllü qaydada icra edilməməsi və ya barışıq sazişinin könüllü icrasından imtina olunması onu nəzərdə tutur ki, mediasiya prosesi nəticəsində barışıq sazişi bağlandıqdan sonra sazişin tərəflərinin biri və ya hər ikisinin həmin barışıq sazişinin şərtlərinə müvafiq olaraq müəyyən hüquqi hərəkətləri icra etmək öhdəliyi olur və tərəf müvafiq öhdəliyi icra etmir və ya lazımi qaydada icra etmir. Barışıq sazişinin tərəflərinin sazişin şərtlərinə uyğun olaraq müəyyən hüquqi hərəkətləri icra etmək öhdəliyi olarsa və tərəflərdən biri barışıq sazişinin şərtini qanunvericiliklə müəyyən edilmiş müddət ərzində könüllü qaydada icra etməzsə sazişin digər tərəfi barışıq sazişinin təsdiq edilməsi barədə (barışıq sazişinin Azərbaycan Respublikasının MPM-in 191.2-1-ci maddəsinə uyğun olaraq təsdiq edildiyi hal istisna olmaqla) məhkəməyə müraciət edə bilər.

51. Apellyasiya instansiyası məhkəməsi müəyyən etmişdir ki, hazırkı barışıq sazişi ilə tərəflər arasında olan mübahisə həllini tapmışdır, hər hansı bir qeyri-müəyyənlik, həmçinin, icrası nəzərdə tutulan hər hansı bir şərt mövcud deyildir. Bu sazişin mahiyyəti ondan ibarətdir ki, tərəflərin bir-birinə əmlak tələbləri olmayacaqdır, hər bir tərəf digərinin mülkiyyətində olan daşınmaz əmlakın onun müstəsna mülkiyyəti kimi qəbul edir.Göründüyü kimi, hazırkı barışıq sazişinin şərtləri özü-özlüyündə bir növ mövcud vəziyyətin saxlanılmasına, yəni ər-arvadın hüquqi rejiminin faktiki vəziyyətdə təsbitinə (hüquqi müəyyənliyə) yönəlmişdir.Belə olan halda isə, sazişin məhkəmə qaydasında təsdiq olunmasına (məcburi icraya) zərurətin nədən ibarət olması aydın deyildir. Ərizəçi ərizəni bu istiqamətdə ümumiyyətlə əsaslandırmamışdır.Birinci instansiya məhkəməsi isə qeyd edilən halları nəzərə almamış, əsassız olaraq ərizəyə mahiyyəti üzrə hüquqi qiymət vermişdir. Çünki, barışıq sazişinə mahiyyəti üzrə baxılması

nəticəsində sazişinin təsdiq olunmasından imtinanın əsasları MPM-nin 355-26.1-ci maddəsində qeyd olunmuşdur və hazırkı iş üzrə həmin əsaslardan hər hansı biri (barışıq sazişinin və ya onun bir hissəsi qanuna zidd olması, sazişin mediasiyada iştirak etməyən üçüncü şəxslərin və ya məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan, yaxud məhdud fəaliyyət qabiliyyətli hesab edilən şəxslərin hüquqlarına toxunulan mübahisələr üzrə keçirilmiş mediasiya prosesinin nəticəsində bağlanılması) mövcud deyildir. Yuxarıda da qeyd edildiyi kimi, MPM-nin 355-23.1-ci maddəsi müvafiq ərizə ilə məhkəməyə müraciət etmənin əsaslarını müəyyən edir. Yəni, qərardadın (apellyasiya instansiyası məhkəməsinin qərardadı) 10-cu bəndində qeyd olunan şərtlər mövcud olmadıqda şəxsin məhkəməyə müraciət etmək üçün əsasları yaranmır, belə vəziyyətdə isə ərizəyə məhkəmədə baxılması mümkün deyildir. Qeyd edilən şərtlər mövcud olmadıqda ərizəyə baxılması MPM-nin 5.1-ci maddəsinin tələbinə də ziddir. Həmin normanın tələbinə əsasən hər hansı fiziki və yaxud hüquqi şəxs öz hüququnun və ya qanunla qorunan mənafeyinin müdafiəsi və yaxud təsdiqi üçün məhkəməyə müraciət etdiyi hallarda məhkəmədə iş başlanılır.

52. Məhkəmə kollegiyası apellyasiya instansiyası məhkəməsinin əsaslandırması və gəldiyi nəticə ilə razılaşır və qeyd edir ki, hazırkı barışıq sazişinin şərtlərinin özüözlüyündə bir növ mövcud vəziyyətin saxlanılmasına, yəni ər-arvadın əmlakının hüquqi rejiminin faktiki vəziyyətdə təsbitinə (hüquqi müəyyənliyə) yönəlməsi müəyyən edilmişdir. Mediasiya prosesi nəticəsində bağlanmış həmin barışıq sazişində şərtlərinə müvafiq olaraq tərəflərdən hər hansı birinin müəyyən hüquqi hərəkətləri icra etmək öhdəliyi omadığından, apellyasiya instansiyası məhkəməsi ərizəyə məhkəmədə baxılmalı olmadığından birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv olunmalı və iş üzrə icraata xitam verilməli olması barədə qənaətə gələrkən prosessual hüquq normaları düzgün tətbiq edilmişdir, kassasiya şikayətinin dəlilləri apellyasiya instansiyası məhkəməsinin qərardadının ləğvi üçün əsas təşkil etmir.

53. Ona görə də kassasiya şikayəti təmin edilməməli, apellyasiya instansiyası məhkəməsinin qərardadı dəyişdirilmədən saxlanılmalıdır.

54. Göstərilənlərə əsasən və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 416, 417 və 419-cu maddələrini rəhbər tutub məhkəmə kollegiyası

qərara aldı:

Ərizəçi tərəfindən verilmiş kassasiya şikayəti təmin edilməsin.

Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 29 oktyabr 2024-cü il tarixli 2(103)-5032/2024 nömrəli qərardadı dəyişdirilmədən saxlanılsın.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

İş üzrə icraata xitam verilməsi

61. 2-2(102)-532/2023 nömrəli, 2023-cü il 5 oktyabr tarixli qərar - İflas olmuş banka qarşı icra edilməmiş ödəniş tapşırıqlarına aid vəsaitlərin qaytarılması barədə kreditor tələblər üzrə icraatın növü.

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: iflas olmuş banka qarşı icra edilməmiş ödəniş tapşırıqlarına aid vəsaitlərin qaytarılması barədə kreditor tələblər üzrə icraatın növü

İddiaçı cavabdehə qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, cavabdehdən müəyyən məbləğdə pulun tutularaq, iddiaçıya ödənilməsini xahiş etmişdir.

Birinci instansiya məhkəməsi tərəfindən iş üzrə icraata xitam verilmiş və göstərilmişdir ki, bankın müflis elan olunmasına dair qərar qüvvəyə mindiyi andan banka qarşı məhkəmə icraatı prosesində olan bütün iddialar dayandırılır, bank barəsində digər məhkəmə icraatına başlanılmır və banka qarşı bütün tələblər yalnız "Banklar haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulan iflas proseduru çərçivəsində irəli sürülür.

Birinci instansiya məhkəməsi gəldiyi nəticəni "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 72.1.2 və 72.1.3-cü maddələrinə, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 72.1.2 və 72.1.3-cü maddələrinin Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra MPM) 254.2, 153.2.1 və 261.0.1-ci maddələri ilə, eləcə də Azərbaycan Respublikası Əmək Məcəlləsinin 178-ci maddəsinin 2-ci bəndinin "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 72, 77 və 82-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair" 2017-ci il 13 iyun tarixli Qərarında ifadə olunmuş hüquqi mövqeyə və MPM-in 261.0.1-ci maddəsinə istinadla əsaslandırmışdır.

Apellyasiya instansiyası məhkəməsinin qərardadı ilə iddiaçı tərəfindən verilmiş şikayət təmin olunmamış, birinci instansiya məhkəməsinin iş üzrə icraata xitam verilməsinə dair qərardadı dəyişdirilmədən saxlanılmışdır.

Həmin qərardaddan iddiaçının verdiyi kassasiya şikayətinə əsasən işə Azərbaycan Respublikası Ali Məhkəməsi tərəfindən baxılmışdır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Kassasiya instansiyası məhkəməsi, apellyasiya instansiyası məhkəməsinin gəldiyi nəticə ilə razılaşmamış və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 72.1.2 və 72.1.3-cü maddələrinin Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra-MPM) 254.2, 153.2.1 və 261.0.1-ci maddələri ilə, eləcə də Azərbaycan Respublikası Əmək Məcəlləsinin 178-ci maddəsinin 2-ci bəndinin "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 72, 77 və 82-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair" 2017-ci il 13 iyun tarixli Qərarında ifadə olunmuş hüquqi mövqeyə istinad edərək göstərmişdir ki, mübahisə iddiaçının cavabdeh Banka, həmin bankın fəaliyyəti dövründə verdiyi ödəmə tapşırıqlarının sonuncu tərəfindən icra edilməməsi ilə əlaqədar yaranmışdır.

İddiaçı məlum ödəmə tapşırıqlarını verərkən cavabdeh Bank hələ müflis elan olunmadığından, həmin vəsaitin geri qaytarılmasına dair iddia tələbinin qanuni əsasını "Banklar haqqında" Qanunun 73.1 və 73.1.1-ci maddələri təşkil edir.

Baxılan işdə iddianın predmetini "Banklar haqqında" Qanunun 76-82 və 87-ci maddələrinin müddəalarında nəzərdə tutulan məsələlər təşkil etmədiyindən, "Banklar haqqında" Qanunun 72.1-ci və MPM-in 261.0 və 261.0.1-ci maddələrinə istinadla işin icraatına xitam vermək üçün hüquqi əsaslar mövcud olmamışdır. Məhkəmələrin gəldiyi nəticə qeyd olunan hüquq normaları ilə yanaşı, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2017-ci il 13 iyun tarixli Qərarında ifadə olunmuş hüquqi mövqeyə də uyğun olmamışdır.

Buna görə də, Azərbaycan Respublikası Ali Məhkəməsinin qərarı ilə iddiaçının kassasiya şikayətinin təmin edilməsi, apellyasiya instansiyası məhkəməsinin iş üzrə qərardadının ləğv edilməsi və növbəti prosessual hərəkətlərin həyata keçirilməsi üçün həmin işin apellyasiya instansiyası məhkəməsinə qaytarılması qərara alınmışdır.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2-2(102)-532/2023

05.10.2023-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından

Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının

İddiaçının Cavabdehə qarşı iş üzrə

Q Ə R A R I

Açar sözlər: müflis elan olunmuş banka qarşı kreditor tələbi, iş üzrə icraata xitam verilməsi

Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının hakimi Məmmədli Bəhram Məmməd oğlunun sədrliyi və məruzəsi ilə, hakimlər Qəribov Bəhman Fərhad oğlu və Məmmədov Vidadi Məmməd oğlundan ibarət tərkibdə,

İddiaçının Cavabdehə qarşı pul tələbinə dair iş üzrə Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2023-cü il 13 iyul tarixli 2-2(103)-684/2023 saylı qərardadından iddiaçı tərəfindən verilmiş kassasiya şikayətinə yazılı icraat qaydasında baxılmışdır.

I. İŞİN HALLARI

1. 1 saylı Bakı İnzibati-iqtisadi Məhkəməsinin 2015-ci il 16 sentyabr tarixli 2(81)2246/2015 saylı qətnaməsi ilə İddiaçının məcburi qaydada ləğv olunması barədə qətnamə qəbul edilmişdir.

2. 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin 2016-cı il 9 fevral tarixli 2-1(81)1494/2016 saylı qərarı ilə ərizəçi Azərbaycan Respublikası Mərkəzi Bankının ərizəsi təmin edilmiş, Cavabdeh müflis elan edilmiş, iflas proseduruna başlanılması qərara alınmışdır.

<u>İş üzrə qəbul edilmiş məhkəmə aktları</u>

a) Birinci instansiya məhkəməsindəki icraat

3. İddiaçı (bundan sonra – "iddiaçı") Cavabdehə qarşı (bundan sonra – "cavabdeh") 2015-ci il 26 oktyabr tarixində iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, cavabdehdən 61.880 ABŞ dolları və 111.206,77 manat pulun və 30 manat məbləğində dövlət rüsumunun tutularaq, iddiaçıya ödənilməsini xahiş etmişdir.

4. 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin 2015-ci il 14 dekabr tarixli 2(82)2481/2015 saylı qiyabi qətnaməsi ilə iddia tələbinin təmin edilməsi, cavabdehdən iddiaçının xeyrinə 61.880,96 ABŞ dolları və 111.206,77 manat pulun tutulması qət edilmişdir.

5. Qiyabi qətnamə 2016-cı il 5 yanvar tarixində cavabdehə çatdırılmış (I cild, i/v 61), cavabdeh 2022-ci il 15 mart tarixində ərizə ilə məhkəməyə müraciət edərək, qiyabi qətnamənin ləğv olunmasını və işə yenidən baxılmasını xahiş etmişdir (I cild, i/v 82).

6. Bakı Kommersiya Məhkəməsinin 2022-ci il 22 iyun tarixli qərardadı ilə 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin 2015-ci il 14 dekabr tarixli 2-2(82)-2481/2015 saylı qiyabi qətnaməsi ləğv edilmiş və kommersiya mübahisəsinə dair iş üzrə icraat təzələnmişdir.

7. Bakı Kommersiya Məhkəməsinin 2022-ci il 31 avqust tarixli 2-2(113)-3676/2022 saylı qərardadı ilə cavabdehin nümayəndəsinin ərizəsi təmin olunmuş və iş üzrə icraata xitam verilmişdir (hakim – A.Əliyeva).

8. Məhkəmə mövqeyini belə əsaslandırmışdır ki, bankın müflis elan olunmasına dair qərar qüvvəyə mindiyi andan banka qarşı məhkəmə icraatı prosesində olan bütün iddialar dayandırılır, bank barəsində digər məhkəmə icraatına başlanılmır və banka qarşı bütün tələblər yalnız "Banklar haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulan iflas proseduru çərçivəsində irəli sürülür.

9. Gəldiyi nəticəni birinci instansiya məhkəməsi "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 72.1.2, 72.1.3-cü maddələrinə, Azərbaycan Respublikası

Konstitusiya Məhkəməsi Plenumunun "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 72.1.2 və 72.1.3-cü maddələrinin Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 254.2, 153.2.1 və 261.0.1-ci maddələri ilə, eləcə də Azərbaycan Respublikası Əmək Məcəlləsinin 178-ci maddəsinin 2-ci bəndinin "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 72, 77 və 82-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair" 2017-ci il 13 iyun tarixli qərarına, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra – "MPM") 261.0.1-ci maddəsinə istinad etməklə əsaslandırmışdır.

10. Həmin qərardad 2022-ci il 2 sentyabr tarixində cavabehin şəxsi elektron kabinetinə yerləşdirilmiş və iddiaçıya göndərilmiş, lakin qərardad iddiaçıya "ünvan tam deyil" qeydi ilə çatdırıla bilinməmişdir (I cild, i/v 143).

11. 2023-cü il 13 aprel tarixində iddiaçı həmin qərardaddan şikayət vermiş, eyni zamanda müddətin bərpasına dair ərizə ilə məhkəməyə müraciət edərək, buraxılmış müddətin bərpa olunmasını xahiş etmişdir.

12. Bakı Kommersiya Məhkəməsinin 2023-cü il 17 aprel tarixli 2-2(113)-3676/2022 saylı qərardadı ilə Bakı Kommersiya Məhkəməsinin 2022-ci il 31 avqust tarixli e-2-2(113)3676/2022 saylı qərardadından iddiaçı tərəfindən şikayət verilməsi ilə əlaqədar buraxılmış prosessual müddət üzrlü hesab edilərək bərpa edilmişdir (hakim – A.Əliyeva).

13. Həmin qərardaddan cavabdeh şikayət verərək onun ləğv edilməsini, buraxılmış prosessual müddətin bərpası haqqında ərizənin təmin olunmamasını xahiş etmişdir.

14. Bakı Kommersiya Məhkəməsinin 2023-cü il 2 may tarixli 2-2(113)-3676/2022 saylı qərardadı ilə Bakı Kommersiya Məhkəməsinin 2023-cü il 17 aprel tarixli e-2-2(113)3676/2022 saylı qərardadından cavabdehin ləğvedicisi Əmanətlərin Sığortalanması Fondu (bundan sonra – "ƏSF") tərəfindən verilmiş şikayət təmin edilməmiş, iş materialları işlə birlikdə baxılması üçün Bakı Apellyasiya Məhkəməsinə göndərilmişdir.

15. Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2023-cü il 31 may tarixli 2-2(103)-576/2023 saylı qərardadı ilə cavabdehin şikayətinin qismən təmin, Bakı Kommersiya Məhkəməsinin 2023-cü il 17 aprel tarixli e-2-2(113)-3676/2022 saylı qərardadının ləğv edilməsi, iddiaçının buraxılmış müddətin bərpası barədə ərizəsinin təmin olunmaması, Bakı Kommersiya Məhkəməsinin 2022-ci il 31 avqust tarixli e-2-2(113)3676/2022 saylı qərardadından iddiaçı tərəfindən şikayət verilməsi üçün müddətin buraxılmamış hesab edilməsi qərara alınmışdır (sədrlik edən – V.Baxışova, hakimlər – A.Hüseyn və R.Qurbanov).

16. Bundan sonra birinci instansiya məhkəməsi tərəfindən Bakı Kommersiya Məhkəməsinin 2022-ci il 31 avqust tarixli e-2-2(113)-3676/2022 saylı qərardadından verilmiş şikayətə baxılmışdır.

17. Şikayət onunla əsaslandırılmışdır ki, hazırkı işə baxılaraq qətnamə qəbul olunarkən bankın müflis elan olunmasına dair qərar yox idi və hətta müflis olunma barədə məhkəməyə müraciət olunmamışdı. Hazırkı iş üzrə qəbul olunmuş qətnamə Banka rəsmi olaraq 2015-ci ildə təqdim olunmuş və həmin dövrdə bank öz prosessual hüquqlarından istifadə etməmişdir. Onlara məlum olmayan səbəblərdən sonradan məhkəmə qanuni qüvvəsini almış qətnaməsini ləğv edərək işə yenidən baxmış və nəticədə icraata xitam verilməsi barədə qanunsuz və əsassız qərardad qəbul etmişdir. Cavabdeh olan Bank sözügedən qiyabi qətnaməni rəsmi olaraq 2015-ci il tarixində almış və ondan şikayət verməmiş, icra mərhələsində iştirak etmiş, hətta hərracdan satılmış əmlakla bağlı Nəsimi rayon Məhkəməsində baxılan işdə tərəf olmuşdur. Bu da cavabdehin qiyabi qətnamədən 2022-ci ildə yox 2015-ci ildən məlumatlı olduğunu göstərir. İş materiallarında qiyabi qətnamənin 2015-ci ildə cavabdehə çatdırılması barədə poçt sənədləri mövcuddur. Pul tələbinə dair işə baxılarkən bank ləğvetmə mərhələsində deyildi və hətta müflis elan olunma barədə məhkəməyə müraciət olunmamışdı. Bank öz fəaliyyətini normal davam etdirirdi. Məhkəmənin bankın ləğvetmə mərhələsində olmasına istinad edərək icraata xitam verilməsi barədə qərardad qəbul etməsi qanunsuz və əsassız olmuşdur.

18. Bakı Kommersiya Məhkəməsinin 2023-cü il 13 iyun tarixli, 2-2(113)-3676/2022 saylı qərardadı ilə Bakı Kommersiya Məhkəməsinin 2022-ci il 31 avqust tarixli, e-2-2(113)3676/2022 saylı qərardadından iddiaçı tərəfindən verilmiş şikayət təmin edilməmiş və işlə birlikdə baxılması üçün Bakı Apellyasiya Məhkəməsinə göndərilmişdir (hakim – A.Əliyeva).

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

19. Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2023-cü il 13 iyul tarixli 2-2(103)-684/2023 saylı qərardadı ilə iddiaçı tərəfindən verilmiş şikayət təmin olunmamış, birinci instansiya məhkəməsinin iş üzrə icraata xitam verilməsinə dair 2022-ci il 31 avqust tarixli qərardadı dəyişdirilmədən saxlanılmışdır (sədrlik edən – A.Hüseyn, hakimlər – E.Kazımov və V.Baxışova).

20. Məhkəmə kollegiyası birinci instansiya məhkəməsinin gəldiyi nəticə ilə razılaşmış və gəldiyi nəticəni birinci instansiya məhkəməsinin istinad etdiyi hüquq normalarına və Azərbaycan Respublikası Məhkəməsinin Konstitusiya Məhkəməsu Plenumunun qərarına istinad etməklə əsaslandırmışdır (bax yuxarıda § 8-9).

21. Qərardad 2022-ci il 31 iyul tarixdə iş üzrə tərəflərin nümayəndələrinə məxsus şəxsi elektron kabinetlərdə yerləşdirilmiş, iddiaçı həmin qərardaddan 2023-cü il 2 avqust tarixdə kassasiya şikayəti verərək onun ləğv olunmasını xahiş etmişdir.

<u>Kassasiya şikayətinin və ona qarşı etirazın dəlilləri</u>

a) Kassasiya şikayətinin dəlilləri

22. MPM-in 9, 9.1, 77.1, 88, 217.3, 218.1, 403.1, 417.1.4-cü maddələri üzrə - hazırkı iş üzrə qəbul olunmuş qətnamə banka rəsmi olaraq 2015-ci ildə təqdim olunmuş və həmin dövrdə bank öz prosessual hüquqlarından istifadə etməmişdir. İddiaçıya məlum olmayan səbəblərdən sonradan məhkəmə qanuni qüvvəsini almış qətnaməsini ləğv edərək işə yenidən baxmış və nəticədə icraata xitam verilməsi barədə qanunusuz və əsassız qərardad qəbul etmişdir. Cavabdeh bank sözügedən qiyabi qətnaməni rəsmi olaraq 2015-ci il tarixində almış və ondan şikayət verməmiş, icra mərhələsində iştirak etmiş və hətta hərracdan satılmış əmlakla bağlı Nəsimi rayon Məhkəməsində baxılan işdə tərəf olmuşdur. Bu isə cavabdehin qiyabi qətnamədən 2022-ci ildə deyil, məhz 2015-ci ildən məlumatlı olduğunu göstərir. İş materiallarında qiyabi qətnamənin 2015-ci ildə cavabdehə çatdırılması barədə poçt sənədləri mövcuddur. Pul tələbinə dair işə baxılarkən bank ləğvetmə mərhələsində deyildi və hətta müflis elan olunma barədə məhkəməyə müraciət olunmamışdı. Bank öz fəaliyyətini normal davam etdirirdi. Məhkəmənin bankın ləğvetmə mərhələsində olmasına istinadən icraata xitam verilməsi barədə qərardad qəbul etməsi qanunsuz və əsassızdır. Bakı Apellyasiya Məhkəməsi qərardadda qeyd etmişdir ki, pul tələbinə dair iddia ərizəsi məhkəmədə baxılarkən bank ləğvetmə prosesində olmuşdur, lakin bununla bağlı məhkəmədə heç bir sübut yoxdur və mübahisələndirilən qərardad əsaslandırılmamış, cavabdehin şifahi bildirdiklərinə əsasən qanunsuz və əsassız qərardad qəbul etmişdir. Məlum olduğu kimi, bankın ləğvetmə prosesinə başlaması üçün mütləq müvafiq qərarlar, sənədlər mövcud olmalıdır ki, həmin sənədlərdə və qərarlarda göstərilən tarixlər bankın ləğvetməyə başladığı tarixi göstərir. Lakin məhkəmə cavabdehin maraqlarına uyğun olaraq əsassız, qanunsuz və heç bir sübuta istinad olunmadan qərardad qəbul etmişdir. Məhkəmə ədalət mühakiməsinin faktlar əsasında həyata keçirilməsi prinsipini pozmuş, sübutların obyektiv qiymətləndirilməsini təmin etməmiş, qanunvericiliyin tələblərinə məhəl qoymayaraq iddiaçının hüquq və mənafeyinə zidd olan qərardad qəbul etmişdir.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

23. Cavabdeh kassasiya şikayətinə qarşı etiraz təqdim edərək bildirmişdir ki, 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin icraatında olan 2(82)-2481/2015 saylı iş üzrə 2015-ci il 14 dekabr tarixli qiyabi qətnamə qəbul olunmuş və tərəflərə göndərilmişdir. İş üzrə məhkəmə sənədləri cavabdehə göndərilməsi üçün iddiaçıya təqdim olunmuş və iddiaçı tərəfindən bütün sənədlər guya göndərilmiş və özəl kuryer xidmətinə məxsus olan çatdırılma qəbzləri

məhkəməyə təqdim olunmuşdur. Həmin qəbzlərdə məhkəmə sənədlərini qəbul etdiyi qeyd olunan şəxslər bankda işləməmişlər. İşdə olan məhkəmə sənədlərinin göndərildiyi kuryer xidməti ilə, iddiaçı tərəfindən tərtib olunaraq cavabdehə ünvanlanan pretenziya məktubunun göndərildiyi kuryer xidməti ilə iddiaçı tərəfindən tərtib olunaraq cavabdehə ünvanlanan pretenziya məktubunun göndərildiyi kuryer xidməti eynilik təşkil edir.

24. MPM-in 244-cü maddəsində qeyd olunmuşdur ki, cavabdeh qətnamənin ona rəsmi qaydada verilməsindən sonra 10 gün müddətində həmin qətnamənin ləğvi üçün qiyabi qətnaməni çıxartmış məhkəməyə ərizə verməyə haqlıdır. Yəni, məhkəmə tərəfindən qəbul olunmuş qiyabi qətnamə tərəflərə rəsmi qaydada təqdim olunmalıdır ki, həmin qətnamənin ləğvi ilə bağlı ərizə verilə bilsin.

25. İddiaçının kassasiya şikayətində vurğuladığı məsələlər tamamilə əsassızdır. Belə ki, apellyasiya instansiyası məhkəməsi tərəfindən hər hansı prosessual normaların tələbləri pozulmamışdır və iddiaçı bunu sübuta yetirə bilməmişdir.

II. KASSASİYA ŞİKAYƏTİNİN MÜMKÜNLÜYÜ, KASSASİYA BAXIŞININ HƏDLƏRİ

26. Kassasiya şikayəti vaxtında, yəni apellyasiya instansiyası məhkəməsinin qərardadının verildiyi gündən 10 gün müddətində verilmiş (MPM-in 405.0.2-ci maddəsi), kassasiya şikayətinin məzmunu MPM-nin 407-ci maddəsinin tələblərinə uyğundur. Ona görə də, şikayət mümkün hesab edilmişdir.

27. Apellyasiya instansiyası məhkəməsinin qərardadı bütövlükdə mübahisələndirildiyi üçün hazırkı icraat çərçivəsində məhkəmə aktının qanuniliyi və əsaslılığı tam yoxlanılacaqdır (MPM-in 403 və 416-cı maddələri).

28. Kassasiya instansiyası məhkəməsi tərəfindən işin faktiki halları yoxlanılmasa da apellyasiya instansiyası məhkəməsinin maddi və prosessual hüquq normalarını düzgün tətbiq edib-etməməsini yoxlayarkən hüquqi məsələlərin düzgün qiymətləndirilməsi üçün işin faktiki hallarının nəzərə alınması və onlara istinad olunması zəruridir. Kassasiya instansiyası məhkəməsinin işin müəyyən edilmiş faktiki hallarına istinad etməsi faktiki halların yoxlanılması və araşdırılması kimi qiymətləndirilməməlidir.

III. TƏTBİQ EDİLƏN HÜQUQ

29. “Banklar haqqında” Azərbaycan Respublikası Qanununun müvafiq müddəalarında aşağıdakılar nəzərdə tutulur:

“Maddə 72. Bankın müflis elan olunmasının nəticələri

72.1. Bankın müflis elan olunmasına dair qərar qüvvəyə mindiyi anından:

...

72.1.2. banka qarşı məhkəmə icraatı prosesində olan bütün iddialar dayandırılır;

72.1.3. bank barəsində digər məhkəmə icraatına başlanılmır və banka qarşı bütün tələblər yalnız bu Qanunda nəzərdə tutulan iflas proseduru çərçivəsində irəli sürülür;

...”

“Maddə 73. Ödəniş sistemlərində hesablaşmaların qətiliyi

73.1. Bu Qanunun 72.1-ci maddəsinin müddəalarından asılı olmayaraq:

73.1.1. ödəniş sistemlərinə daxil edilən və həmin sistemlərin qaydaları ilə gerigötürülməz hesab edilən hesablaşmalar üzrə ödəniş tapşırıqları, o cümlədən qiymətli kağızlar üzrə ödənişlər bankın müflis elan olunmasına dair qərar qəbul edildiyi halda hüquqi qüvvədə qalır və üçüncü tərəf üçün məcburi olur, bu şərtlə ki, ödəniş tapşırıqları həmin qərar qüvvəyə minənədək gerigötürülməz olsun;

73.1.2. bu Qanunun 73.1.1-ci maddəsində göstərilən köçürmələr bu şərtlə hüquqi qüvvəyə malik olmur və üçüncü tərəf üçün məcburi olmur ki, ləğvedici sistemin operatorunun

bankın müflis elan olunmasına dair qərar çıxarıldığından ödəniş tapşırıqları köçürmələri həyata keçirən sistemin qaydalarına görə gerigötürülməz olanadək xəbər tutduğunu sübut edə bilsin.

..."

30. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 72.1.2 və 72.1.3-cü maddələrinin Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 254.2, 153.2.1 və 261.0.1-ci maddələri ilə, eləcə də Azərbaycan Respublikası Əmək Məcəlləsinin 178-ci maddəsinin 2-ci bəndinin "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 72, 77 və 82-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair" 2017-ci il 13 iyun tarixli qərarında müəyyən edilmişdir ki:

"...müflis elan olunmuş banka qarşı (və ya bankın iddiaçı olduğu) iddiaları 2 əsas qrupa bölmək olar:

1. müflis elan olunmuş bankın bilavasitə bank fəaliyyəti ilə bağlı olan iddialar;
2. müflis elan olunmuş bankın hüquqi şəxs kimi hüquq qabiliyyətindən irəli gələn fəaliyyəti ilə bağlı iddialar.

...

"Banklar haqqında" Qanunun 76-82 və 87-ci maddələrinin müddəalarında bankın kreditorlarının tələblərinin qeydə alınması, tələblərə etiraz edilməsi, qeydə alınmış və etiraz edilmiş tələblərin məhkəmə tərəfindən təsdiq edilməsi, qeydə alınmış tələblərin ödənilməsinin xüsusi proseduru və s. müəyyən edildiyindən, bu cür kreditor tələbləri ilə bağlı məhkəmələrdə olan işlər üzrə icraata Mülki Prosessual Məcəllənin 261.0.1-ci maddəsinə uyğun olaraq xitam verilməli, tərəflərə pozulmuş hüquqlarının müdafiə edilməsi üçün iflas proseduruna nəzarət edən məhkəməyə müraciət edilməsi izah olunmalıdır. Bankın müflis elan olunmasına dair məhkəmənin qərarı qüvvəyə mindiyi andan daxil olan ərizələrin Mülki Prosessual Məcəllənin 153.2.1-ci maddəsinə əsasən icraata qəbul edilməsindən imtina olunmalıdır."

31. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin müvafiq müddəalarında aşağıdakılar nəzərdə tutulur:

"Maddə 261. İcraata xitam verilmə əsasları

261.0. Hakim iş üzrə icraata aşağıdakı hallarda xitam verir:

261.0.1. iş məhkəmədə və ya mülki məhkəmə icraatı qaydasında baxılmalı deyildirsə;

..."

"Maddə 416. Kassasiya instansiyasında işə baxmanın hədləri

416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

416.2. Apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 418.4-cü maddəsində nəzərdə tutulmuş prosessual hüquq pozuntusu hesab edilən hallara yol verilməsi şikayətin hədlərindən və dəlillərindən asılı olmayaraq yoxlanılmalıdır."

IV. KASSASİYA İNSTANSİYASI MƏHKƏMƏSİNİN MÖVQEYİ

32. Birinci instansiya məhkəməsi icraata o əsasla xitam vermiş və apellyasiya instansiyası məhkəməsi bu mövqe ilə razılaşmışdır ki, bankın müflis elan olunmasına dair qərar qüvvəyə mindiyi andan banka qarşı məhkəmə icraatında olan bütün iddialar dayandırılır, bank barəsində digər məhkəmə icraatına başlanılmır və banka qarşı bütün tələblər yalnız iflas proseduru çərçivəsində irəli sürülür.

33. Məhkəmə kollegiyası məhkəmələrin həmin mövqeyi ilə razılaşmır və kassasiya şikayətinin dəlilləri üzrə aşağıdakı qaydada qiymətləndirmənin aparılmasını zəruri hesab edir .

34. Belə ki, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 72.1.2 və 72.1.3-cü maddələrinin Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 254.2, 153.2.1 və 261.0.1-ci maddələri ilə, eləcə də Azərbaycan Respublikası Əmək Məcəlləsinin 178-ci maddəsinin 2ci bəndinin "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 72, 77 və 82-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair" 13 iyun 2017-ci il tarixli qərarında (bax yuxarıda § 30) göstərilmişdir ki, "...müflis elan olunmuş banka qarşı (və ya bankın iddiaçı olduğu) iddiaları 2 əsas qrupa bölmək olar:

1. müflis elan olunmuş bankın bilavasitə bank fəaliyyəti ilə bağlı olan iddialar;
2. müflis elan olunmuş bankın hüquqi şəxs kimi hüquq qabiliyyətindən irəli gələn fəaliyyəti ilə bağlı iddialar.

35. Eyni zamanda, həmin Qərarda qeyd edilmişdir ki, "Banklar haqqında" Qanunun 76-82 və 87-ci maddələrinin müddəalarında bankın kreditorlarının tələblərinin qeydə alınması, tələblərə etiraz edilməsi, qeydə alınmış və etiraz edilmiş tələblərin məhkəmə tərəfindən təsdiq edilməsi, qeydə alınmış tələblərin ödənilməsinin xüsusi proseduru və s. müəyyən edildiyindən, bu cür kreditor tələbləri ilə bağlı məhkəmələrdə olan işlər üzrə icraata Mülki Prosessual Məcəllənin 261.0.1-ci maddəsinə uyğun olaraq xitam verilməli, tərəflərə pozulmuş hüquqlarının müdafiə edilməsi üçün iflas proseduruna nəzarət edən məhkəməyə müraciət edilməsi izah olunmalıdır. Bankın müflis elan olunmasına dair məhkəmənin qərarı qüvvəyə mindiyi andan daxil olan ərizələrin Mülki Prosessual Məcəllənin 153.2.1-ci maddəsinə əsasən icraata qəbul edilməsindən imtina olunmalıdır".

36. Göründüyü kimi, "Banklar haqqında" Qanunun 76-82 və 87-ci maddələrinin müddəalarında nəzərdə tutulan məsələlər üzrə iflas proseduruna nəzarət edən məhkəməyə müraciət edilməli, bankın hüquqi şəxs kimi hüquq qabiliyyətindən irəli gələn fəaliyyəti ilə bağlı iddialara isə iddia icraatı qaydasında baxılmalıdır.

37. Baxılan iş üzrə iddia ərizəsindən, Bakı İnzibati-İqtisadi Məhkəməsinin 2015-ci il 14 dekabr tarixli 2(82)-2481/2015 saylı qiyabi qətnaməsindən, digər iş materiallarından aydın olur ki, hazırkı mübahisə iddiaçının Cavabdehə 2015-ci ilin aprel-may aylarında verdiyi ödəmə tapşırıqlarının həmin ASC tərəfindən icra edilməməsi ilə əlaqədar yaranmışdır.

38. İddia ərizəsində qeyd edilənlərə əsasən sözügedən ödəmə tapşırıqları iddiaçının, ASC-nin Bakı filialında olan manat və dollar hesabındakı pul vəsaitlərinin "X" ASC-nin 2 saylı filialına köçürülməsi ilə bağlı olmuş, lakin bank həmin köçürmələri yerinə yetirməmişdir.

39. İşin materiallarından məlum olur ki, Cavabdeh 1 saylı Bakı İnzibati-İqtisad Məhkəməsinin 2016-cı il 9 fevral tarixli qərarı ilə müflis elan olunmuş, iflas proseduruna başlanılması qərara alınmışdır.

40. Göründüyü kimi, iddiaçı məlum ödəmə tapşırıqlarını verərkən (2015-ci ilin aprelmay ayları) Cavabdeh hələ müflis elan olunmamışdı. Bu baxımdan, iddiaçının həmin vəsaitin geri qaytarılmasına dair tələbinin qanuni əsasını "Banklar haqqında" Qanunun 73.1 və 73.1.1-ci maddələri təşkil edir.

41. "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 73.1 və 73.1.1-ci maddələrinin (bax yuxarıda § 29) məzmunundan aydın olur ki, bu Qanunun 72.1-ci maddəsinin (bankın müflis elan olunmasının nəticələri) müddəalarından asılı olmayaraq, ödəniş sistemlərinə daxil edilən və həmin sistemlərin qaydaları ilə gerigötürülməz hesab edilən hesablaşmalar üzrə ödəniş tapşırıqları bankın müflis elan olunmasına dair qərar qəbul edildiyi halda hüquqi qüvvədə qalır və üçüncü tərəf üçün məcburi olur, bu şərtlə ki, ödəniş tapşırıqları həmin qərar qüvvəyə minənədək gerigötürülməz olsun.

42. Göstərilənlərə əsasən məhkəmə kollegiyası belə qənaətə gəlir ki, baxılan işdə iddianın predmetini “Banklar haqqında” Qanunun 76-82 və 87-ci maddələrinin müddəalarında nəzərdə tutulan məsələlər təşkil etmədiyindən, həmin “Banklar haqqında” Qanunun 72.1-ci və MPM-in 261.0, 261.0.1-ci maddələrinə (bax yuxarıda § 31) istinadla işin icraatına xitam vermək üçün hüquqi əsaslar mövcud olmamışdır. Gəlinən nəticə qeyd olunan hüquq normaları ilə yanaşı, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2017-ci il 13 iyun tarixli qərarında ifadə olunmuş hüquqi mövqeyə də uyğun olmamışdır.

43. Odur ki, kassasiya şikayəti təmin edilməli, apellyasiya instansiyası məhkəməsinin iş üzrə 2023-cü il 13 iyul tarixli 2-2(103)-684/2023 saylı qərardadı ləğv edilməli və iş növbəti prosessual hərəkətlərin həyata keçirilməsi üçün həmin məhkəməyə qaytarılmalıdır.

44. Göstərilənlərə əsasən və MPM-in 417-419-cu maddələrini rəhbər tutaraq məhkəmə kollegiyası

QƏRARA ALIR:

İddiaçının kassasiya şikayəti təmin edilsin.

Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2023-cü il 13 iyul tarixli 2-2(103)-684/2023 saylı qərardadı ləğv edilsin.

İş növbəti prosessual hərəkətlərin həyata keçirilməsi üçün həmin məhkəməyə qaytarılsın.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

62. 2(102)-3972/2023 nömrəli, 2023-cü il 24 oktyabr tarixli qərar – Mirasın qəbulu faktına ayrıca iddia icraatında baxılmasının yolverilməzliyi

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: mirasın qəbulu faktına ayrıca iddia icraatında baxılmasının yolverilməzliyi.

Hüquqi əhəmiyyətli faktın müəyyən edilməsi barədə ərizəyə iddia icraatı qaydasında baxılmasının yolverilməzliyi. Mirasın faktiki qəbul edilməsi, mirasın qəbul edilməsi müddətlərinin uzadılması ilə bağlı mübahisələr.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Hüquq barədə mübahisə olduğu üçün xüsusi icraat qaydasında ərizə verə bilməyən, yaxud belə ərizəsi baxılmamış saxlanılmış iddiaçı (ərizəçi) iddia icraatı qaydasında birbaşa müvafiq hüququn (əldə olunması (məsələn, miras payının müəyyən olunması, hüquq müəyyənedici sənədin verilməsi) barədə tələb irəli sürməli və həmin icraat çərçivəsində iddianın əsasını təşkil edən hüquqi faktı (məsələn mirası qanunla müəyyən olunmuş müddət ərzində faktiki qəbul etdiyini) sübuta yetirməlidir.

Bu zaman xüsusi icraat qaydasında tanınması mümkün olan hüquqi fakt iddia icraatı qaydasında irəli sürülən tələbin əsasını təşkil edən hüquqi fakta və ya faktlardan birinə çevrilmiş olur. İddia icraatı qaydasında tələb irəli sürmüş iddiaçı öz tələbinin uğurlu olmasını təmin etmək üçün həmin faktın mövcud olduğunu, baş verdiyini sübuta yetirməlidir. Aparılan icraat nəticəsində işin həmin halı müəyyən edildiyi və iddia tələbinin qanuni əsasının dispozisiya şərtlərinə uyğun olduğu halda, bu, iddianın məhkəmə tərəfindən təmin olunması üçün əsasdır.

Əks yanaşma yuxarıda sadalanan mülki prosessual normalara uyğun olmamaqla, istənilən faktın (işin halının) müəyyən edilməsi barədə iddia icraatı qaydasında müstəqil iddia tələbinin irəli sürülməsinin mümkün olması mənasını verə bilər. Halbuki belə bir yanaşma mülki işlər üzrə məhkəmə icraatının məqsəd və vəzifələrinə ziddir.

Kassasiya instansiyası məhkəməsinin qərarı MPM-in 261.0.1, 261.0.2, 306.1, 306.4, 311, 385.1-ci maddələrinə istinadla əsaslandırılmışdır.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-3972/2023

24.10.2023-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi
Mülki kollegiyasının

İddiaçının cavabdehə qarşı (üçüncü şəxs Quba Asan Xidmət mərkəzinin notariat kontoru)

Q Ə R A R I

Açar sözlər: mirasın qəbul edilməsi faktının müəyyən edilməsi, mirasın qəbulu müddətinin uzadılması, hüquq barədə mübahisə, iddianın yolverilməzliyi

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Hüseynov Abiddin Qabil oğlu (məruzəçi), Babayev Zəki Baba oğlu və Nurməmmədov Əhməd Güləhməd oğlundan ibarət tərkibdə,

iddiaçının cavabdehə qarşı (maraqlı şəxs Quba Asan Xidmət mərkəzinin notariat kontoru) mirasın qəbul edilməsi üçün ötürülmüş müddətin bərpa olunması və mirasın qəbul edilməsi faktının müəyyən olunması tələbinə dair Sumqayıt Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(105)-831/2023 nömrəli, 24 may 2023-cü il tarixli qərardadından cavabdeh tərəfindən verilmiş kassasiya şikayətinə Azərbaycan Respublikası Ali Məhkəməsinin inzibati binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları

1. X1 24.12.2008-ci ildə ölmüş, ondan fərdi yaşayış evi, torpaq sahələri, əmanət miras qalmışdır.
2. İddiaçı (bundan sonra – iddiaçı) miras qoyanın oğlu, cavabdeh (bundan sonra – cavabdeh) nəvəsidir.
3. İddiaçı əvvəllər ayrıca icraatda hazırkı iş üzrə cavabdehə qarşı vərəsəlik üzrə yaşayış evinə və həyətyanı torpaq sahəsinə mülkiyyət hüququnun müəyyən olunması və vərəsələr arasında payların ayrılması tələbi ilə məhkəməyə müraciət etmiş, Sumqayıt Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 05.12.2014-cü il tarixli qətnaməsi ilə iddia rədd olunmuş, qətnamə qanuni qüvvəyə minmişdir.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a) Birinci instansiya məhkəməsində icraat

4. İddiaçı cavabdehə qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, atası X1-nun ölümündən sonra qalmış mirasın qəbul edilməsi üçün qanunla müəyyən edilmiş müddətin ötürülməsini üzrlü sayaraq uzadılması, atasından miras qalmış ünvanda yerləşən evlərin, Torpağa mülkiyyət hüququna dair JN0088 seriyalı, kod ******** nömrəli Dövlət aktına əsasən verilmiş 0,29 ha torpaq sahəsinin və Torpağın mülkiyyətə verilməsinə dair JN-043A seriyalı, kod ******** nömrəli şəhadətnaməyə əsasən verilmiş 0,20 ha torpaq sahəsinin onun tərəfindən qəbul edilməsi faktının müəyyən edilməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir.
5. İddiaçı ərizəsində Quba Asan Xidmət mərkəzinin notariat kontorunu üçüncü şəxs qismində işə cəlb etmişdir.
6. İddia tələbi onunla əsaslandırılmışdır ki, atası vəfat edənədək ona qulluq etmiş, vəfat etdikdən sonra ondan miras olaraq ünvanda yerləşən iki mərtəbəli ev, həmin evin yanında 0,20 ha torpaq sahəsində 1986-cı ildə tikdiyi iki mərtəbəli ev, Torpağa mülkiyyət hüququna dair JN-0088 seriyalı, kod ******** nömrəli Dövlət aktına əsasən verilmiş 0,29 ha torpaq sahəsi və 1991-1994-cü illərdə banka qoyduğu 80.000 rubl pul vəsaiti qalmışdır. Həmin əmlakla bağlı mübahisələr hələ atasının sağlığında, 2003-cü ildən qardaşı X2-in vərəsələri cavabdeh və X3 tərəfindən başlanmışdır. Atası mirasın yarısını ona, yarısını isə cavabdehə vermək istəmişdir. O, ölənə kimi öz iradəsindən dönməmişdir. Atası 2006-cı ildə sovet pasportunu şəxsiyyət vəsiqəsinə dəyişmək üçün təhvil vermişdir. Cavabdeh və X3 həmin şəxsiyyət vəsiqəsini və evin digər sənədlərini gizlədərək, atasının son iradəsini həyata keçirməsinə mane olmuşlar. Atasının vəfatından sonra onun bütün yas mərasimlərinin xərcini o, çəkmiş, evdə təmir-bərpa işləri aparmış, torpaq sahəsini əkib-becərmiş və kommunal xərcləri ödəmişdir. Beləliklə o, mirası faktiki olaraq qəbul etmişdir. Dəfn üçün müəyyən edilmiş müavinəti də o almışdır. Atasından miras qalmış, bankda olan əmanət pullarını almaq üçün ona 25.08.2012-ci ildə qanun üzrə vərəsəlik şəhadətnaməsi verilsə də, sonradan notariat kontoruna müraciət etdikdə

heç bir sübut tələb etmədən notariat hərəkətlərinin aparılmasından imtina edilmişdir. Cavabdehin təqsiri üzündən müvafiq sənədlər onda olmadığından və qanunun tələblərini bilmədiyindən mirasın qəbulu üçün vaxtında notariat orqanına müraciət etməmişdir. 2012-ci ildən etibarən miras əmlakla əlaqədar məhkəmə mübahisələri olmuş, bu müddət ərzində saxta vəsiyyətnamə üzə çıxmış və məhkəmə çəkişmələri 2018-ci ilin sonunadək davam etmişdir. Vəsiyyətnamə atasının ağır xəstə olduğu vaxta təsadüf edir, onun kötüyü arxiv sənədlərində aşkar edilmir, o latın əlifbası ilə yazılsa da, vəsiyyət edənin adı və soyadı kiril əlifbası ilə yazılmışdır. Bu da onun saxta olmasına dəlalət edir.

7. Quba Rayon Məhkəməsinin (bundan sonra – birinci instansiya məhkəməsi) 2(027)-1493/2019 nömrəli, 16 sentyabr 2019-cu il tarixli qətnaməsi ilə (hakim R.Həsənov) iddia təmin edilməmişdir.

8. Məhkəmə qeyd etmişdir ki, iddiaçı atasından iki yaşayış evi və iki torpaq sahəsi miras qaldığı bildirilsə də, ancaq onun adına ünvan ərazisində 0,20 ha torpaq sahəsinin olmasına dair sübut təqdim edilmişdir. İşə sübut kimi əlavə edilmiş digər sənədlər kserosurətlərdən ibarət olmuşdur. İddiaçıya göstərdiyi halları təsdiq edən sənədlərin təqdim edilməsi təklif edilsə də, o, həmin sübutları məhkəməyə təqdim etməmişdir.

9. Məhkəmə müəyyən etmişdir ki, mirası faktiki cavabdeh qəbul etmiş, iddiaçı başqa təsərrüfatda yaşamaqla mirası ümumiyyətlə qəbul etməmişdir. İddiaçının miras mübahisəsi ilə bağlı qaldırdığı əvvəlki iddialar da təmin edilməmişdir.

10. İddiaçı tələbində həm müddətin bərpasını, həm də faktiki olaraq mirasın qəbul edilməsi faktının müəyyən edilməsini xahiş edərək, bir-biri ilə təzad təşkil edən mövqe irəli sürmüşdür. Belə ki, mirasın qəbul edilməsi üçün müəyyənləşdirilmiş müddət o halda uzadılır ki, vərəsə həmin müddətdə müəyyən üzrlü səbəblərdən mirası qəbul edə bilmir (məsələn: vərəsənin ondan asılı olmayan səbəblərdən miras qoyanın ölümündən xəbəri olmur, xəstəlik, fors major hallarda və s). Hazırkı işdə isə iddiaçı qeyd edir ki, o, miras əmlakı guya faktiki olaraq qəbul etmişdir. Miras əmlak qəbul edilmişdirsə, niyə görə mirasın qəbul edilməsi üçün müəyyən edilmiş müddətin uzadılmasına ehtiyac duyulması əsaslandırılmamışdır.

11. Məhkəmə, həmçinin qeyd etmişdir ki, mirasın qəbul edilməsi faktının müəyyən edilməsinə hüquqi əhəmiyyəti olan fakt kimi xüsusi icraat qaydasında baxılır. Xüsusi icraat qaydasında işlərə baxarkən məhkəməyə aid hüquq haqqında mübahisənin olduğu müəyyən edilərsə, hakim ərizənin baxılmamış saxlanılması haqqında qərardad çıxarır. Lakin hazırkı iş iddia icraatı qaydasında verildiyindən məhkəmə bu işə mahiyyəti üzrə baxaraq qərar qəbul etməlidir. İddiaçı həmin faktların müəyyən edilməsi ilə yanaşı, işə cavabdehi qoşmaqla miras əmlakla əlaqədar mübahisənin olduğunu açıq şəkildə nümayiş etdirmişdir. Həmçinin mirasın qəbul edilməsi faktının müəyyən edilməsi ilə cavabdehin bu məsələ ilə əlaqəsi iddiaçı tərəfindən əsaslandırılmamışdır. Belə ki, mirasın qəbulu vərəsəliyə çağırılan digər vərəsələrin iradə ifadəsindən asılı deyil. Mirasın qəbulu iradəvi aktdır, vərəsənin iradəsi ilə bağlıdır. Kənar şəxslərin burada rolu demək olar ki, mümkün deyildir.

12. Məhkəmə öz mövqeyini Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinin V hissəsinə, Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra – Mülki Məcəllə) 1145, 1151.1, 1243.1, 1243.2, 1246, 1248.1-ci, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra – MPM) 14.2 və 77.1-ci maddələrinə, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 18.03.2019-cu il tarixli Qərarında ifadə edilmiş hüquqi mövqelərə istinadla əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

13. İddiaçı apellyasiya şikayəti verərək, qətnamənin ləğv edilməsi, iddianın təmin edilməsi barədə qətnamə qəbul olunmasını xahiş etmişdir.

14. Apellyasiya şikayəti onunla əsaslandırılmışdır ki, birinci instansiya məhkəməsi gəldiyi nəticə üçün mühüm əhəmiyyət kəsb edən halları araşdırmamışdır.

15. Sumqayıt Apellyasiya Məhkəməsi Mülki kollegiyasının (bundan sonra – apellyasiya instansiyası məhkəməsi) 2(105)-831/2023 nömrəli, 24 may 2023-cü il tarixli qərardadı ilə (hakimlər Qafari Səyyad Ağaəli oğlunun sədrliyi və məruzəsi, hakimlər Mahmudov Ayaz Akif oğlu və Məmmədova Lətifə Məhyəddin qızı) apellyasiya şikayəti qismən təmin edilmiş, qətnamə ləğv edilmiş, mülki iş mahiyyəti üzrə baxılması üçün Abşeron Rayon Məhkəməsinə göndərilmişdir.

16. Məhkəmə hesab etmişdir ki, birinci instansiya məhkəməsi tərəfindən aidiyyət qaydaları pozulmuşdur. Belə ki, birinci instansiya məhkəməsi faktın müəyyən olunması barədə tələbə iddia icraatı qaydasında baxaraq qərar qəbul etmişdir. Lakin ərizənin aidiyyət qaydalarına riayət edilmədən verilməsinə diqqət yetirməmişdir. Belə ki, qanunvericiliyin tələbinə əsasən hüquqi faktların müəyyən olunması barədə tələb ərizəçinin qeydiyyatda olduğu yerə görə verilməlidir. İşdən görünür ki, həm iddiaçı, həm də cavabdeh ünvan 1-da qeydiyyatdadırlar.

17. Məhkəmə qeyd etmişdir ki, iddiaçı iddia tələbi ilə maraqlı şəxsin yerləşdiyi yer üzrə məhkəməyə müraciət etmiş, birinci instansiya məhkəməsi yuxarıda qeyd olunan maddələrin tələblərini pozaraq iddiaçının tələbinə maraqlı şəxsin olduğu yer üzrə məhkəmədə baxılması qənaətinə gələrək iddia ərizəsini icraata qəbul etmiş, tələb üzrə yekun məhkəmə aktı qəbul etmişdir. Belə olan halda iddia tələbi cavabdehin yaşayış yeri üzrə Abşeron Rayon Məhkəməsində baxılmalı olduğu halda, Quba Rayon Məhkəməsi ərazi aidiyyət qaydalarını pozmaqla işi icraata götürərək, MPM-nin 35.1-ci maddəsinin tələblərini pozmuşdur.

18. Məhkəmə öz mövqeyini MPM-in 4.1, 35.1, 37.1, 44.2.2, 309.1, 385.1.1-ci maddələrinə istinadla əsaslandırmışdır.

Kassasiya şikayətinin və ona etirazın dəlilləri

Kassasiya şikayətinin dəlilləri

19. Cavabdeh (vəkil) kassasiya şikayəti verərək, qərardadının ləğv edilməsi, işin yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə qaytarılması barədə qərar qəbul olunmasını xahiş etmişdir.

20. Kassasiya şikayəti onunla əsaslandırılmışdır ki, məhkəmə aidiyyəti ilə bağlı apellyasiya instansiyası məhkəməsinin gəldiyi nəticə qanunsuz və əsassızdır. Belə ki, MPM-in 309.1-ci maddəsi xüsusi icraatda baxılan işlər üzrə ərizəçiləri nəzərdə tutur. Hazırkı mülki işə isə iddia icraatında baxılmışdır. Ərizəçi və iddiaçı tamamilə ayrı-ayrı hüquqi mənalar kəsb edir. İcraat qaydaları da tam fərqli qaydada müəyyən olunmuşdur. İddia ərizəsinin məzmunu miras qalmış tikintiyə, qurğuya, torpaq sahəsinə sahiblik faktının müəyyən edilməsi olduğundan isə həmin tikintinin, qurğunun, torpaq sahəsinin olduğu yerdə baxılmalıdır.

Tətbiq edilən hüquq

Mülki Prosessual Məcəllə

21. Maddə 14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

22. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

23. Maddə 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

24. Maddə 259.0. Məhkəmə aşağıdakı hallarda ərizəni baxılmamış saxlayır:

...259.0.10. hüquqi əhəmiyyətli faktların müəyyən edilməsi barəsindəki ərizələrə baxıldıqda hüquq haqqında mübahisə yarandığı aşkar edilərsə.

25. Maddə 261.0. Hakim iş üzrə icraata aşağıdakı hallarda xitam verir:
261.0.1. iş məhkəmədə baxılmalı deyildirsə;

261.0.2. eyni tərəflər arasında, eyni predmet barəsində və eyni əsaslar üzrə məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi və ya iddiaçının iddiadan imtina etməsi və ya tərəflərin barışıq sazişinin təsdiq olunması ilə əlaqədar iş üzrə icraata xitam edilməsi haqqında məhkəmənin qərardadı olarsa...

26. Maddə 306.1. Məhkəmələr tərəfindən xüsusi icraat işlərinə, bu Məcəllənin 30 40-6-cı fəsillərində ikinci bölməsinin üçüncü yarımbölməsində müəyyən edilmiş xüsusiyyətlərlə, iddia icraatı qaydasında baxılır.
27. Maddə 306.4. Xüsusi icraat qaydasında işlərə baxarkən məhkəməyə aid hüquq haqqında mübahisənin olduğu müəyyən edilərsə, hakim ərizənin baxılmamış saxlanılması haqqında qərardad çıxarır və maraqlı şəxslərə onların ümumi əsaslarla iddia vermək hüququnu izah edir.
28. Maddə 311. Məhkəmənin qətnaməsi faktı təsdiq edən sənədi, qeydə alınmalı faktlar üzrə isə qeydiyyatı həyata keçirən orqanların verdiyi sənədləri əvəz etməməklə, belə qeydəalınma üçün əsasdır.
29. Maddə 385.1. Məhkəmə qətnaməsinin apellyasiya qaydasında ləğv edilməsi üçün əsaslar aşağıdakılardır:
385.1.1. maddi hüquq normalarının və ya prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq edilməməsi...

30. Maddə 407.2. Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir.
31. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.
32. Maddə 416.2. Apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 418.4-cü maddəsində nəzərdə tutulmuş prosessual hüquq pozuntusu hesab edilən hallara yol verilməsi şikayətin hədlərindən və dəlillərindən asılı olmayaraq yoxlanılmalıdır.

Kassasiya baxışının hədləri

33. Kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.
34. Baxılan iş üzrə apellyasiya instansiyası məhkəməsinin aktı cavabdehin kassasiya şikayəti əsasında tam yoxlanılır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

35. Apellyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsi tərəfindən aidiyyət qaydalarının pozulduğu ilə bağlı mövqeyini MPM-in 309.1-ci maddəsi ilə əsaslandırmışdır. Halbuki baxılan iş üzrə iddiaçı tərəfindən iddia icraatının qaydalarına uyğun olaraq cavabdehə qarşı iddia tələbi irəli sürülmüş, birinci instansiya məhkəməsi tərəfindən işə iddia icraatı qaydasında baxılmışdır. Miras əmlakın qəbulu ilə bağlı vərəsələr arasında mübahisə olduğu, hətta bu mübahisələr üzrə əvvəllər də başqa mülki işlərə baxıldığı üçün MPM-in 259.0.10-cu və 306.4-cü maddələrinə əsasən iddiaçının tələblərinə xüsusi icraat qaydasında baxılması mümkün olmamışdır.

36. Bu baxımdan apellyasiya instansiyası məhkəməsi MPM-in hazırkı mübahisəyə tətbiq edilməli olmayan 309.1-ci maddəsini tətbiq etməklə prosessual qanunvericiliyin tələbini pozmuş və nəticədə düzgün olmayan məhkəmə aktı qəbul etmişdir.

37. Bununla yanaşı, Məhkəmə kollegiyası hazırkı işin prosessual qanunvericiliyin tələblərinə uyğun olaraq düzgün həlli baxımından aşağıdakıların qeyd olunmasını zəruri hesab edir.

38. Mülki prosesdə həyata keçirilən icraatın iddia icraatı və xüsusi icraat adlanan iki növü vardır. MPM-in 306.1-cı maddəsinə əsasən məhkəmələr tərəfindən xüsusi icraat işlərinə, həmin icraatın qaydalarını, şərtlərini və baxılma əsaslarını tənzimləyən, qanunla müəyyən edilmiş xüsusiyyətlər nəzərə alınmaqla iddia icraatı qaydasında baxılır.

39. Baxılan iş üzrə iddia tələbi iki hissədən ibarətdir: mirasın qəbul edilməsi müddətinin üzrlü sayılaraq uzadılması, mirasın qəbul edilməsi faktının müəyyən edilməsi.

40. Tələbin birinci hissəsi ilə bağlı qeyd olunmalıdır ki, Mülki Məcəllənin 1243.2-ci maddəsinə əsasən vərəsə mirası onun mirasın açıldığı yer üzrə notariat kontoruna ərizə verməklə və ya əmlaka sahiblik etməyə və ya əmlakı idarə etməyə faktiki başlamaqla qəbul edə bilər. Bu iki əsasdan biri üzrə mirası vaxtında qəbul etmiş vərəsə mirası qəbul etmiş sayılır.

41. Mülki Məcəllənin 1248.1-ci maddəsinin dispozisiya şərtlərinə əsasən bu cür iddianın təmin olunması üçün vərəsə tərəfindən mirasın qəbul edilməsi üçün müəyyənləşdirilmiş müddət ötürülməli və bu gecikdirmə üzürlü səbəbdən baş verməlidir. Bu baxımdan istinad olunan maddənin tətbiqi zamanı məhkəmə miras əmlakın iddiaçı tərəfindən həqiqətən müddəti ötürməklə qəbul edilib-edilmədiyini, müddətin nə qədər ötürüldyünü və bunun səbəblərinin üzrlü olub-olmadığını müəyyən etməlidir.

42. İş materiallarına əlavə edilmiş məhkəmə aktlarından görünür ki, hazırkı iş üzrə iddiaçı əvvəllər ayrıca məhkəmə icraatı qaydasında hazırkı iş üzrə cavabdehə qarşı mübahisəli əmlaka miras payının müəyyən edilməsi barədə iddia qaldırmış, həmin iddia apelyasiya instansiya məhkəməsi tərəfindən təmin edilməmişdir.

43. Tərəflər arasında miras əmlaka vərəsəlik paylarının müəyyən edilməsinə dair mülki işin olması eyni tərəflər arasında eyni miras əmlakın qəbulu müddətinin uzadılması barədə ayrıca iddia tələbinə baxılmasını istisna edir. Çünki qanunvericiliyin tələblərinə əsasən həmin hal miras paya hüququn yaranması barədə işə baxan məhkəmə tərəfindən yoxlanılmalı və qiymətləndirilməlidir. MPM-in 77.1-ci maddəsinə əsasən qeyd olunan icraat zamanı miras əmlaka pay hüquqlarının yarandığını təsdiq edən, o cümlədən mirasın qəbulu müddətinin üzrlü səbəbdən ötürüldüyü barədə halları sübut etmək yükü mübahisə tərəfinin üzərinə düşür.

44. İddia tələbinin mirasın qəbul edilməsi barədə hüquqi əhəmiyyətli faktın müəyyən edilməsi hissəsi ilə bağlı qeyd olunmalıdır ki, MPM-də xüsusi icraat qaydasında belə ərizələrə yalnız hüquq haqqında mübahisə olmadığı halda baxıla bilər. Siyahısı qanunda nəzərdə tutulan bu cür mübahisəsiz faktların xüsusi icraat qaydasında məhkəmə tərəfindən müəyyən olunması barədə qətnamə faktı təsdiq edən sənədi, qeydə alınmalı faktlar üzrə isə qeydiyyatı həyata keçirən orqanların verdiyi sənədləri əvəz etməsə də MPM-in 311-ci maddəsinə əsasən əlavə məhkəmə qətnaməsi tələb olunmadan belə qeydəalınma üçün əsas kimi çıxış edir.

45. Bununla da qanunverici hüquq tətbiqedici orqanlar üçün müəyyən olunması çətinlik yaradan mübahisəsiz faktların daha sadə yolla məhkəmə qaydasında təsbit olunmasına şərait yaratmaqla həm maraqlı şəxslərin, həm də dövlət orqanlarının işini asanlaşdırmış olur.

46. Əgər hüquq haqqında, yəni digər şəxsin (şəxslərin) eyni predmetə hüquqlarının olması barədə mübahisə varsa MPM-in 259.0.10-cu maddəsi və 306.4-cü maddəsi hakimin üzərinə xüsusi icraat qaydasında verilmiş ərizəni baxılmamış saxlamaq vəzifəsi qoyur. Bu zaman iddiaçıya ümumi əsaslarla iddia icraatı qaydasında iddia vermək hüququ izah olunur.

47. Lakin istinad olunan maddələr iddiaçının iddia icraatı qaydasında yenidən həmin faktın müəyyən olunması barədə iddia qaldırmalı olduğu kimi başa düşülməməlidir.

48. Hüquq barədə mübahisə olduğu üçün xüsusi icraat qaydasında ərizə verə bilməyən, yaxud belə ərizəsi baxılmamış saxlanılmış iddiaçı iddia icraatı qaydasında birbaşa müvafiq hüququn (əldə olunması (məsələn, miras payının müəyyən olunması, hüquq müəyyənedici sənədin verilməsi) barədə tələb irəli sürməli və həmin icraat çərçivəsində iddianın əsasını təşkil edən hüquqi faktı (məsələn mirası qanunla müəyyən olunmuş müddət ərzində faktiki qəbul etdiyini) sübuta yetirməlidir.

49. Nəzərə alınmalıdır ki, Azərbaycan Respublikasının mülki prosessual qanunvericiliyinə əsasən mülki işlər üzrə məhkəmə icraatının vəzifələri hər bir fiziki və yaxud hüquqi şəxsin Azərbaycan Respublikasının Konstitusiyasından, qanunlarından və digər normativ hüquqi aktlarından irəli gələn hüquq və mənafelərinin məhkəmədə təsdiq olunmasıdır. Fiziki və hüquqi şəxslər məhz özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədi ilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququna malikdirlər. Məhkəmə iş o halda başlanır ki, hər hansı fiziki və yaxud hüquqi şəxs öz hüququnun və ya qanunla qorunan mənafeyinin müdafiəsi və yaxud təsdiqi üçün məhkəməyə müraciət etmiş olsun (MPM-in 2.1, 4.1, 5.1-ci maddələri).

50. Bu baxımdan iddia icraatı qaydasında məhkəməyə verilən istənilən iddia tələbi üzrə deyil, elə iddia tələbi üzrə məhkəmə icraatı başlana bilər ki, həmin tələb şəxsin qanunvericilikdən irəli gələn hüquqlarının və ya qanunla qorunan mənafeyinin müdafiəsi və yaxud təsdiqi üçün verilmiş olsun. MPM-in 149 və 153-cü maddələri iddianın müvafiq olaraq qəbuledilənliyi və yolverilənliyi şərtlərini müəyyən etməklə yanaşı, Məcəllənin 151.1-ci maddəsi nəzərdə tutur ki, iddia ərizəsi bu Məcəllənin tələblərinə riayət edilməklə verildikdə, onun məhkəmə icraatı mümkündür.

51. Beləliklə, hüquq barədə mübahisə olduğu halda hər hansı hüquqi faktın müəyyən edilməsi barədə məsələyə xüsusi icraat qaydasında baxılması istisna edildiyi üçün həmin hüquqi fakt iddia icraatı qaydasında irəli sürülən tələbin əsasını təşkil edən hüquqi fakta və ya faktlardan birinə çevrilmiş olur. İddia icraatı qaydasında tələb irəli sürmüş iddiaçı isə öz tələbinin uğurlu olmasını təmin etmək üçün həmin faktın mövcud olduğunu, baş verdiyini sübuta yetirməlidir. Aparılan icraat nəticəsində işin həmin halı müəyyən edildiyi və iddia tələbinin qanuni əsasının dispozisiya şərtlərinə uyğun olduğu halda isə bu iddianın məhkəmə tərəfindən təmin olunması üçün əsasdır.

52. Əks yanaşma yuxarıda sadalanan mülki prosessual normalara uyğun olmamaqla, istənilən faktın (işin halının) müəyyən edilməsi barədə iddia icraatı qaydasında müstəqil iddia tələbinin irəli sürülməsinin mümkün olması mənasını verə bilər. Halbuki belə bir yanaşma mülki işlər üzrə məhkəmə icraatının məqsəd və vəzifələrinə ziddir.

53. Məhkəmə kollegiyası MPM-in yuxarıda sadalanan müddəalarına əsasən hesab edir ki, hüquq barəsində mübahisə olduğu hallarda MPM-in 307-ci maddəsində sadalanan hüquqi əhəmiyyətli faktların müəyyən edilməsi barədə tələblər iddia icraatı qaydasında ayrıca iddia tələbi kimi məhkəmədə mülki işin başlanmasına əsas ola bilməz. Belə olan hallarda iddiaçı hüquq barədə mübahisə edən tərəfə qarşı əldə etmək istədiyi hüquqi nəticənin (məsələn miras payın tanınması, vərəsəlik şəhadətnaməsinin verilməsi vəzifəsinin qoyulması, əmlakın bölünməsi, ziyanın ödənilməsi və s) əldə olunması ilə bağlı iddia irəli sürməli və iddiasının

əsası kimi yuxarıda qeyd olunan hüquqi faktların mövcud olduğunu (baş verdiyini) sübuta yetirilməlidir.

54. Hüquq barəsində mübahisə olduğu halda hüquqi əhəmiyyətli faktın müəyyən edilməsi barədə iddia icraatı qaydasında müstəqil tələbin irəli sürülməsi isə yolverilməz olduğundan məhkəmənin icraatına qəbul edilə bilməz. Qanunda başqa hal nəzərdə tutulmayıbsa, belə iddia tələblərinin icraata qəbulundan məhkəmə tərəfindən MPM-in 153.2.1-ci maddəsinə əsasən imtina edilməli, yaxud əgər icraata qəbul edilibsə, MPM-in 261.0.1-ci maddəsinə əsasən iş üzrə icraata həmin hissədə xitam verilməlidir.

55. Yuxarıda da qeyd olunduğu kimi hazırkı iş üzrə iddiaçı əvvəllər ayrıca məhkəmə icraatı qaydasında hazırkı iş üzrə cavabdehə qarşı mübahisəli əmlaka miras payının müəyyən edilməsi barədə iddia qaldırmış, həmin tələb üzrə məhkəmə aktları qəbul edilmış və qanuni qüvvəyə minmişdir

56. Buna baxmayaraq birinci instansiya məhkəməsi iddia tələbinə mahiyyəti üzrə baxmış, apellyasiya instansiyası məhkəməsi tərəfindən bu məsələyə ümumiyyətlə hüquqi qiymət verilməmişdir.

57. Məhkəmə kollegiyası qeyd olunanları nəzərə alaraq belə qənaətə gəlir ki, kassasiya şikayəti qismən təmin olunmalı, apellyasiya instansiyası məhkəməsinin qərardadı ləğv edilməli, iş yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilməlidir. İşə yenidən baxılarkən bu Qərarın əsaslandırıcı hissəsində istinad olunan prosessual hüquq normalarının tələblərinə cavab verən əsaslandırılmış məhkəmə aktı qəbul edilməlidir.

58. Yuxarıda göstərilənlərə əsasən və MPM-in 416, 417 və 419-cu maddələrini rəhbər tutaraq, Məhkəmə kollegiyası

Qərara aldı:

Cavabdeh tərəfindən verilmiş kassasiya şikayəti təmin edilsin.

Sumqayıt Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(105)-831/2023 nömrəli, 24 may 2023-cü il tarixli qərardadı ləğv edilsin, iş yeni apellyasiya baxışına qaytarılsın.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

63. 2-2(102)-600/2023 nömrəli, 2023-cü il 1 noyabr tarixli qərar - Müqavilənin əhəmiyyətli dərəcədə pozulmasına görə birtərəfli qaydada ləğvi tələbinə məhkəmə qaydasında baxılmasının mümkünlüyü

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: müqavilənin əhəmiyyətli dərəcədə pozulmasına görə birtərəfli qaydada ləğvi tələbinə məhkəmə qaydasında baxılmasının mümkünlüyü

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

"Müqavilənin əhəmiyyətli dərəcədə pozulmasına görə birtərəfli qaydada ləğv edilməsi" tələbi mübahisə halında hüquqi hadisənin (müqavilənin ləğvinin) baş verib-vermədiyinin məhkəmə qaydasında müəyyən edilməsi barədə təsbitetmə iddiasıdır. Məhkəmənin həmin məsələni həll etməsi, "müqaviləni məhkəmənin ləğv etməsi", yəni ləğvin məhkəmə qərarı ilə yaranması anlamına gəlmir. Bu halda məhkəmə işin hallarına görə müqavilənin ləğvinin qanunvericilikdə nəzərdə tutulan əsaslarla və qaydada gerçəkləşib-gerçəkləşmədiyini təsbit edir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 399, 421.3, 423.2, 424.3 və 447-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair" 2023-cü il 29 mart tarixli qərarında mübahisə halında müqavilənin ləğvi ilə bağlı iddia qaldırmaq imkanı və məhkəmənin belə iddiaya baxmaq səlahiyyəti istisna edilməmişdir. Tərəflərdən hər hansı birinin mənafeyi baxımından təsbit ehtiyacı yaranan halda "müqavilənin ləğv edilməsi" tələbinə məhkəmədə baxılmalı olmamasına görə xitam verilməsi həmin qərardakı hüquqi mövqelərə uyğun yanaşma hesab edilə bilməz.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2-2(102)-600/2023

01.11.2023-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsinin
Kommersiya Kollegiyası

İddiaçının cavabdehə qarşı "icarə haqqı borcunun ödənilməsi və s.", iddiaçının cavabdehə qarşı "qeyri-yaşayış sahəsinin təhvil verilməsi" və cavabdehin iddiaçıya qarşı "artıq ödənilmiş pul vəsaitinin geri qaytarılması" tələblərinə dair birləşdirilmiş iş üzrə

Q Ə R A R I

Açar sözlər: müqavilənin birtərəfli iradə ifadəsi ilə məhkəmədən kənar qaydada ləğvi

Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının hakimi Abiyeva Kəmalə Nəbi qızının məruzəsi ilə, hakimlər Məmmədli Bəhram Məmməd oğlu və Əliyev Zaur Əli oğlundan ibarət tərkibdə,

iddiaçının cavabdehə qarşı "icarə haqqı borcunun ödənilməsi və s.", iddiaçının cavabdehə qarşı "qeyri-yaşayış sahəsinin təhvil verilməsi" və cavabdehin iddiaçıya qarşı "artıq ödənilmiş pul vəsaitinin geri qaytarılması" tələblərinə dair birləşdirilmiş iş üzrə Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2023-cü il 18 avqust tarixli, 2-2(103)-809/2023 saylı qərardadından cavabdeh tərəfindən verilmiş kassasiya şikayətinə yazılı icraat qaydasında baxılmışdır.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a) Birinci instansiya məhkəməsindəki icraat

1. İddiaçı cavabdehə qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, cavabdehdən 2018-ci il 1 avqust tarixli icarə müqaviləsi üzrə 2020-ci ilin aprel, may və iyun aylarının hər biri üçün 13.000 manat olmaqla, ümumilikdə 39.000 manat məbləğində ödənilməmiş icarə haqqı məbləğinin, 10.500 manat dəbbə pulunun, ilkin mediasiya xidməti üçün ödənilmiş 200 manat rüsumun, 39 manat ödənilmiş dövlət rüsumunun və vəkil xidmətləri üçün ödənilmiş 211 manatın onun xeyrinə tutulması, tərəflər arasında bağlanmış 2018-ci il 1 avqust tarixli icarə müqaviləsi üzrə 2022-ci il 1 oktyabr tarixdən 2023-cü il 1 oktyabr tarixədək icarə haqqı məbləğinin 18.720 manat məbləğində müəyyən edilməsi və müqavilə müddətinin sonunadək hər ilin 1 oktyabr tarixindən etibarən icarə haqqı məbləğinə 20% əlavə olunması barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

2. İddiaçı cavabdehə qarşı, həmçinin digər bir iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, tərəflər arasında bağlanmış 2018-ci il 1 avqust tarixli icarə müqaviləsinin ləğv edilməsi, cavabdehin Ünvan1-də yerləşən icarə obyektini boşaldaraq iddiaçıya təhvil verməsi və ödənilmiş 200 manat dövlət rüsumunun iddiaçının xeyrinə tutulması barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

3. Bununla yanaşı, cavabdeh iddiaçıya qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, cavabdehə artıq ödənilmiş 78.232 manat pulun və 325 manat dövlət rüsumunun, 500 manat hüquqi xidmət üçün çəkilmiş xərcin, ümumilikdə 79.057 manat pulun cavabdehdən tutularaq onun hesabına ödənilməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

4. Bakı Kommersiya Məhkəməsinin 2023-cü il 14 aprel tarixli e-2-2(113)-1132/2023 saylı və 2023-cü il 26 may tarixli e-2-2(113)-2480/2023 saylı qərardadları ilə hazırkı qərarın 1-3-cü bəndlərində qeyd edilən iddia tələblərinə dair işlər bir icraatda birləşdirilmişdir.

5. Bakı Kommersiya Məhkəməsinin 2023-cü il 5 iyul tarixli e-2-2(113)-530/2023 saylı qətnaməsi ilə:

- İddiaçınun cavabdehə qarşı "borcun ödənilməsi və s." tələbinə dair iddiası qismən təmin edilərək, tərəflər arasında bağlanmış 2018-ci il 1 avqust tarixli icarə müqaviləsi üzrə 13.566,7 manat icarə haqqı, 700 manat dəbbə pulu olmaqla, cəmi 14.266,7 manat məbləğində pulun, mediasiyaya çəkilmiş xərcin əvəzi olaraq 200 manat məbləğində pulun və vəkilə ödənilmiş pulun əvəzi olaraq 211 manat məbləğində pulun cavabdeh-dən tutularaq iddiaçıya verilməsi, iddianın qalan hissədə təmin edilməməsi;
- İddiaçınun cavabdehə qarşı "müqavilənin ləğv edilməsi və s." tələbinə dair iddiası qismən təmin edilərək, tərəflər arasında bağlanmış 2018-ci il 1 avqust tarixli icarə müqaviləsi üzrə icarəyə verilmiş İddiaçına məxsus olan Ünvan1 ünvanında yerləşən 506 kv.m sahədən ibarət olan qeyri-yaşayış sahəsinin cavabdeh tərəfindən boşaldılaraq İddiaçına təhvil verilməsi, mediasiyaya çəkilmiş xərcin əvəzi olaraq 100 manat məbləğində pulun cavabdehdən tutularaq İddiaçına verilməsi, iddianın qalan hissədə təmin edilməməsi;

- cavabdehin iddiaçıya qarşı “artıq ödənilmiş pul vəsaitinin geri qaytarılması” tələbinə dair iddiasının rədd edilməsi qət edilmişdir (hakim K.Hüseynov).

6. Bakı Kommersiya Məhkəməsinin 2023-cü il 5 iyul tarixli e-2-2(113)-530/2023 saylı qərardadı ilə iddiaçının cavabdehə qarşı “müqavilənin ləğv edilməsi və s.” tələbinə dair iddianın “tərəflər arasında bağlanmış 2018-ci il 1 avqust tarixli icarə müqaviləsinə xitam verilməsi” hissəsində iş üzrə icraata xitam verilmişdir (hakim – K.Hüseynov).

7. Birinci instansiya məhkəməsi iş üzrə icraata xitam verilməsi barədə gəldiyi nəticəni belə əsaslandırmışdır ki, iş materiallarına əlavə edilmiş İddiaçı tərəfindən cavabdehə ünvanlanmış 2022-ci il 5 dekabr tarixli xəbərdarlıq məktubuna əsasən, iddiaçı (icarəyə verən) cavabdehə (icarəçi) icarə müqaviləsinin ləğv edilməsi və obyektin boşaldılaraq təhvil verilməsi ilə bağlı iradə ifadəsini qarşı tərəfə çatdırmışdır. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 399, 421.3, 423.2, 424.3 və 447-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair” 2023-cü il 29 mart tarixli Qərarındakı mövqedən görünür ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra-MM) 421.2-ci maddəsində nəzərdə tutulmuş əsaslar üzrə müqavilənin ləğv edilməsi həmin Məcəllənin 421.3-cü maddəsinə uyğun olaraq birtərəfli iradə ifadəsi ilə məhkəmədən kənar qaydada baş verir. İradə ifadəsinin qarşı tərəfə bildirilməsi ilə müqavilə ləğv edilmiş hesab edilir və bu ləğvetmənin həyata keçirilməsinin ümumi formasıdır. Qeyd olunan halları nəzərə alaraq, məhkəmə hesab etmişdir ki, tərəflər arasında bağlanmış 2018-ci il 1 avqust tarixli icarə müqaviləsinin ləğv edilməsi ilə bağlı iddiaçı tərəf 2022-ci il 5 dekabr tarixdə cavabdehə iradə ifadəsini bildirmiş olduğundan qeyd edilmiş hissədə iş üzrə icraata xitam verilməlidir.

8. Həmin qərardaddan cavabdeh şikayət verərək, qərardadın ləğv edilməsini, həmin hissədə iddianın rədd olunmasını xahiş etmişdir.

9. Bakı Kommersiya Məhkəməsinin 2023-cü il 20 iyul tarixli e-2-2(113)-530/2023 saylı qərardadı ilə cavabdehin şikayəti təmin edilməmiş və baxılması üçün işlə birlikdə Bakı Apellyasiya Məhkəməsinə göndərilmişdir.

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

10. Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2023-cü il 18 avqust tarixli 2-2(103)-809/2023 saylı qərardadı ilə cavabdehin şikayəti təmin edilməmiş, birinci instansiya məhkəməsinin qərardadı dəyişdirilmədən saxlanılmışdır (sədrlik edən-məruzəçi R.Qurbanov, hakimlər – V.Baxışova və X.Sarıyev).

11. Apellyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsinin gəldiyi nəticə və əsaslandırma ilə razılaşaraq, şikayətin dəlillərinə münasibətdə qeyd etmişdir ki, məhkəmə qaydasında MM-in 421.2-ci maddəsində nəzərdə tutulmuş əsaslar üzrə müqavilənin ləğv edilməsinə yol verilmir. Bu əsasa görə həmin hissədə iş üzrə icraata xitam verilməsi isə müqavilənin məhkəmədən kənar (MM-in 421.3-cü maddəsinə uyğun olaraq birtərəfli iradə ifadəsi bildirilməklə) qaydada ləğvinin qanuna uyğun olub-olmamasına qiymət verilməsi kimi qiymətləndirilə bilməz. Çünki həmin məsələyə müqavilənin ləğvindən irəli gələn tələblərə (hazırkı işdə də iddiaçı tərəfindən icarə obyektinin boşaldılması tələbi irəli sürülmüşdür) mahiyyəti üzrə baxıldığı zaman qiymət veriləcək.

12. Cavabdeh həmin qərardaddan kassasiya şikayəti verərək, onun ləğv edilməsini, müqavilənin ləğvi tələbinin digər tələblərlə birlikdə baxılması barədə qərar qəbul olunmasını xahiş etmişdir.

Kassasiya şikayətinin və ona qarşı etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

13. Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra – MPM) 260.0.1 və 217.2-ci maddələrinin tələbləri pozulmuşdur-belə ki, məhkəmələrin “müqavilənin

ləğvi" tələbi üzrə icraata xitam verərkən istinad etdikləri Konstitusiya Məhkəməsi Plenumunun 2023-cü il 29 mart tarixli qərarı məhkəmə mübahisəsinin davam etdiyi dövrdə qəbul edilib. Tərəflər iddia tələblərini formalaşdırarkən həmin qərardan əvvəlki təcrübəyə əsaslanıblar. Belə ki, bundan əvvəl müqavilə tərəfləri müqavilənin ləğvi tələbi ilə (MM-in 421.2-ci maddəsinə əsasən) məhkəməyə müraciət edirdilər və məhkəmə həmin iddiaya baxaraq münasibət bildirirdi. İndiki vəziyyətdə yeni təcrübə mövcud mübahisənin davam etdiyi zamanda formalaşdığı üçün məhkəmə həmin tələbə iddianın qaldırıldığı zaman mövcud olan təcrübəyə əsasən qiymət verməli idi. Başqa sözlə, Plenum qərarından əvvəl mövcud olmuş təcrübə, MPM-in 217.2-ci maddəsi baxımından "mübahisənin yarandığı zaman qüvvədə olan maddi hüquq norması" kimi qəbul edilməlidir.

14. Digər tərəfdən, mübahisələndirilən qərardad nəticəsində hüquq münasibətlərinə müəyyənlik gətirilməsi əvəzinə, qarışıqlıq yaranır. Birinci instansiya məhkəməsinin qərardadından şikayət verilərkən məhkəmənin icraata xitamla bağlı mövqeyinin gələcəkdə hansı hüquqi qeyri-müəyyənliyə və ziddiyyətlərə gətirib çıxaracağını bildirmiş, apellyasiya məhkəməsi həmin məsələlərə natamam cavab vermişdir. Belə ki, həmin şikayətdə icraata xitam verilməsi barədə qərardadla qətnamənin yaratdığı hüquqi nəticələrin, həmçinin hər iki məhkəmə aktının bir-biri ilə üzvi bağlılığına diqqət çəkilmişdir. İcraata xitam verilməsi barədə qərardadın müəyyən mənada qətnaməyə münasibətdə preyudisial əhəmiyyətə malik olması məsələsinə toxunulmuşdur. Apellyasiya məhkəməsi bu məsələyə münasibət bildirərək göstərmişdir ki, "icraata xitam verilməsi barədə qərardad müqavilənin ləğvinin qanuna uyğun olub-olmamasına qiymət verilməsi kimi qiymətləndirilə bilməz, çünki həmin məsələyə müqavilənin ləğvindən irəli gələn tələblərə (hazırkı işdə də iddiaçı tərəfindən icarə obyektinin boşaldılması tələbi irəli sürülmüşdür) mahiyyəti üzrə baxıldığı zaman qiymət veriləcək." Məhkəmənin bu mövqeyi ilə razılaşsaq belə nəticə çıxır ki, mövcud mübahisə üzrə yekun məhkəmə aktı cavabdehin xeyrinə ola bilər. Yəni iddiaçının icarə obyektini boşaltmaq və pulun ödənilməsi tələbləri rədd edilə bilər. O zaman belə bir mənzərə yaranacaq ki, bir tərəfdən icarə müqaviləsi birtərəfli qaydada ləğv olunmuşdur, digər tərəfdən isə həmin icarə müqaviləsinin ləğvinin nəticələrini qanunsuz hesab edən məhkəmə aktı qəbul edilmişdir. Belə olan halda, icarə müqaviləsinin qüvvədə olub-olmaması, əgər qüvvədədirsə, icraata xitam verilməsi barədə qərardadın taleyi, əgər qüvvədə deyilsə, icarəçinin hansı əsasla faktiki olaraq icarə obyektindən istifadə etməyə davam etməsi ilə bağlı suallar meydana çıxacaqdır.

Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

15. Kassasiya şikayətinə qarşı etiraz daxil olmamışdır.

Kassasiya baxışının hədləri

16. Qanunun tələbinə görə, kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

17. Kassasiya şikayətində qərardad tam mübahisələndirildiyi üçün apellyasiya instansiyası məhkəməsinin aktı bütövlükdə yoxlanılır.

Tətbiq edilən hüquq

Azərbaycan Respublikasının Konstitusiyası

18. Maddə 60, hissə 1. Hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir.

"İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyası

19. Maddə 6, hissə. 1. Hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və

qərəzsiz məhkəmə vasitəsi ilə, ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi

20. Maddə 4.1. Bütün fiziki və hüquqi şəxslər özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədi ilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququna malikdirlər.

21. Maddə 14.1. Məhkəmə həqiqətə nail olmaq üçün işin hərtərəfli, tam və obyektiv tədqiqinə lazımi şərait yaradır. Bunun üçün məhkəmə: işdə iştirak edən şəxslərə onların prosessual hüquq və vəzifələrini izah edir, görüləcək, yaxud görülməyəcək hərəkətlərin nəticələri barədə onları xəbərdar edir, onların prosessual hüquqlarının həyata keçməsinə kömək göstərir.

22. Maddə 167.1. Hakim çəkişmə prinsipinə əməl etməklə, işi məhkəmədə baxılmağa hazırlamaq qaydasında işdə iştirak edən şəxslərə işin icraatı barədə məlumat verir, onların iştirakı ilə işin məhkəmə baxışına təyin edilməsi məsələsi müzakirə edilir, tərəflərə təqdim olunmuş yazılı sənədləri tamamlamağı, zərurət olduqda təqdim olunmuş yazılı materiallarla bağlı izahlar verməyi, habelə iş üçün əhəmiyyətli olan sənədləri və digər sübutları işin məhkəmədə baxılmağa hazırlanması yekunlaşana qədər təqdim etməyi təklif edir.

23. Maddə 261.0.1. İş məhkəmədə və ya mülki məhkəmə icraatı qaydasında baxılmalı deyildirsə hakim iş üzrə icraata xitam verir.

24. Maddə 262.1. İş üzrə icraata xitam verilməsi barədə məhkəmə qərardad çıxarır.

25. Maddə 262.3. Bu Məcəllənin 261.0.1-ci və ya 261.0.8-ci maddələrində nəzərdə tutulmuş əsaslar üzrə icraata xitam verilərsə, məhkəmə ərizəçinin hansı orqana müraciət etməli olmasını göstərməlidir.

26. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

27. İddiaçının tələbi cavabdeh ilə bağladığı 2018-ci il 1 avqust tarixli icarə müqaviləsinin ləğv edilməsi, həmin müqavilədən irəli gələn borc məbləğlərinin tutulması, icarə obyektinin boşaldılaraq ona təhvil verməsi barədədir (bax yuxarıda bu qərarın 1-2-ci bəndləri).

28. Birinci instansiya məhkəməsi müqavilənin ləğvi tələbi üzrə işin icraatına xitam vermiş, digər tələblərə mahiyyəti üzrə baxaraq onları qismən təmin etmişdir (bax yuxarıda bu qərarın 5-6-cı bəndləri).

29. Məhkəmə icraata xitam vermə barədə mövqeyini Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 399, 421.3, 423.2, 424.3 və 447-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair" 2023-cü il 29 mart tarixli Qərarına istinadən belə əsaslandırmışdır ki, Mülki Məcəllənin 421.2-ci maddəsində nəzərdə tutulmuş əsaslar üzrə müqavilənin ləğv edilməsi həmin Məcəllənin 421.3-cü maddəsinə uyğun olaraq birtərəfli iradə ifadəsi ilə məhkəmədən kənar qaydada baş verir. İradə ifadəsinin qarşı tərəfə bildirilməsi ilə müqavilə ləğv edilmiş hesab edilir və bu, ləğvetmənin həyata keçirilməsinin ümumi formasıdır. İcarə müqaviləsinin ləğv edilməsi ilə bağlı iddiaçı tərəf 2022-ci il 05 dekabr tarixində cavabdehə iradə ifadəsini bildirmiş olduğundan qeyd edilən hissədə iş üzrə icraata xitam verilməlidir (bax yuxarıda bu qərarın 7-ci bəndi).

30. Bu səbəbdən cavabdeh, əleyhinə yaranmış hüquqi vəziyyətə (ləğv faktının tanınmasına) görə məhkəmə aktından şikayət vermiş, lakin apellyasiya instansiyası məhkəməsi qərardadı dəyişdirmədən saxlamışdır (bax yuxarıda bu qərarın 8 və 10-cu bəndləri).

31. Məhkəmə kollegiyası aşağıdakılara əsasən hesab edir ki, məhkəmələr tərəfindən prosessual hüquq normaları düzgün tətbiq edilməmişdir.

32. Belə ki, hər iki instansiya məhkəməsi müqavilənin ləğvi tələbi üzrə icraata xitam verilməsini MPM-nin 261.0.1-ci maddəsi ilə əsaslandırmışlar. Həmin maddəyə görə, iş məhkəmədə və ya mülki məhkəmə icraatı qaydasında baxılmalı deyildirsə hakim iş üzrə icraata xitam verir (bax yuxarıda bu qərarın 23-cü bəndi).

33. Nəzərə alınmalıdır ki, bu müddəa tərəflər arasında ümumiyyətlə mübahisənin olmamasını və ya iddiaçının xahişinə məhkəmədənkənar bir orqanda, yaxud mövcud mübahisəyə mülki mühakimə icraatı qaydasında deyil, başqa (inzibati, cinayət və s.) məhkəmə icraatında baxılmalı olmasını ehtiva edir. Bu səbəbdən qanunda nəzərdə tutulmuşdur ki, məhkəmə həmin əsaslar üzrə icraata xitam verərsə, ərizəçinin hansı orqana müraciət etməli olmasını göstərməlidir (bax yuxarıda bu qərarın 25-ci bəndi).

34. Baxılan işin hallarından göründüyü kimi, tərəflər arasında bağlanmış icarə müqaviləsinin ləğvi ilə əlaqədar mübahisə mövcuddur. Belə ki, iddiaçı müqavilə öhdəliklərinin pozulmasına istinad edərək onun ləğvinə dair bildiriş göndərmiş, cavabdeh MMC isə razılaşmanın ləğvinə əsasların olmadığını ifadə etmişdir.

35. Qeyd edilənlər müqavilənin birtərəfli iradə bəyanı ilə ləğvinin gerçəkləşib-gerçəkləşmədiyinə dair tərəflər arasında ixtilafın, mübahisənin olduğuna dəlalət edir. Bu mübahisəni isə həll etmək başqa orqanın deyil, məhkəmənin vəzifəsidir.

36. Birinci instansiya məhkəməsi müqavilənin ləğvi üçün yalnız bildirişin göndərilməsini həlledici (kifayətedici) fakt kimi qəbul etməsi, cavabdehdə belə təəssürat yaratmışdır ki, müqavilənin ləğvi artıq baş tutmuş hüquqi fakt kimi məhkəmə tərəfindən tanınmışdır. Elə bu səbəbdən hazırkı işdə iddia tələbinə xitam verilməsinə dair qərardaddan iddiaçı deyil, cavabdeh şikayət vermişdir (məhkəmə təcrübəsində belə hala bir qayda olaraq rast gəlinmir).

37. Müqavilənin ləğvi məsələsinə icarə obyektinin boşaldılması tələbinə mahiyyəti üzrə baxılacağı zaman qiymət veriləcəyini qeyd edən apellyasiya instansiyası məhkəməsi nəzərə almamışdır ki, birinci instansiya məhkəməsinin qərardadı qüvvəyə mindikdə müqavilənin ləğvinin yenidən müzakirə edilməsinin və ona hüquqi qiymət verilməsinin prosessual baxımdan mümkünlüyü ciddi sual doğuracaqdır. Digər tərəfdən, qətnamədə müqavilənin ləğv edilmədiyi müəyyən ediləcəyi halda məhkəmə aktları arasında ziddiyyətin meydana gəlməsi istisna edilmir.

38. Bu baxımdan məhkəmə kollegiyası hesab edir ki, müqavilənin ləğv edilməsi tələbinə xitam verilməsi və bu məsələyə münasibətdə göstərilən ziddiyyətli yanaşmaların sərgilənməsi Mülki Məcəllənin 421-ci və digər aidiyyəti normalarının, eləcə də onların şərhinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 29 mart 2023-cü il tarixli Qərarındakı hüquqi mövqelərin düzgün tətbiq edilməməsindən irəli gəlir.

39. Sözügedən Qərarda göstərilmişdir ki, “Mülki Məcəllənin 421.2-ci maddəsində sadalanan iki əsasdan birinin olduğu halda (digər tərəf müqaviləni əhəmiyyətli dərəcədə pozduqda və ya bu Məcəllədə (və ya müqavilədə) nəzərdə tutulan digər hallarda) müqavilənin ləğv edilməsi məhkəmədənkənar qaydada baş verir... O da nəzərə alınmalıdır ki, qanunvericilikdə xüsusi bir qayda nəzərdə tutulmadığı halda, istər müqavilənin ləğv edilməsi, istər müqavilədən imtina, istərsə də öhdəliyin icrasından imtina bir tərəfin iradə ifadəsinin digər tərəfə bildirilməsi ilə həyata keçirilir... İradə ifadəsinin qarşı tərəfə bildirilməsi ilə müqavilə ləğv edilmiş hesab edilir və bu ləğvetmənin həyata keçirilməsinin ümumi formasıdır”.

40. Bununla belə, həmin Qərarda mübahisə halında müqavilənin ləğvi ilə bağlı iddia qaldırmaq imkanı və məhkəmənin belə iddiaya baxmaq səlahiyyəti istisna edilməmişdir.

41. Ona görə ki, müqavilənin əhəmiyyətli dərəcədə pozulmasına görə birtərəfli qaydada məhkəmədənkənar ləğvinin mümkün sayılması, bütün hallarda bildiriş göndərildiyi andan müqavilənin ləğv edilməsi anlamına gəlmir. Bir çox halda müqavilənin ləğvi barədə iradə ifadəsini kontragent qəbul etmir, müqavilənin ləğvi üçün əsasların olmadığını (ləğvetmənin

müqaviləyə, yaxud qanuna uyğun həyata keçirilmədiyini və s.) bildirir və həmin xüsusatlarla bağlı mübahisə yaranır. Bu hallarda ortaya çıxan mübahisəni məhkəmə həll etməlidir.

42. Məhkəmənin həmin məsələni həll etməsi, "müqaviləni məhkəmənin ləğv etməsi", yəni ləğvin məhkəmə qərarı ilə yaranması anlamına gəlmir. Belə ki, məhkəmə işin hallarına görə müqavilənin ləğvinin qanunvericilikdə nəzərdə tutulan əsaslarla və qaydada gerçəkləşib-gerçəkləşmədiyini təsbit edir. Müqavilənin həqiqətən də məhkəmədənkənar ləğv olunduğunu müəyyən etdikdə məhkəmə, bu hüquqi faktın hansı andan yarandığını əsaslandırır, əgər varsa müqavilənin ləğvindən asılı olan digər tələbləri həll edir. Birtərəfli iradə ifadəsi ilə müqavilənin ləğv edilmədiyi təsbit olunduqda isə məhkəmə bu barədə əsaslandırmış qənaətini ortaya qoyaraq ləğv faktına söykənən tələbləri rədd edir.

43. Bu baxımdan hər hansı mübahisəli hüquqi hadisənin (o cümlədən müqavilənin ləğvinin) baş verib-vermədiyinin müəyyən edilməsi barədə məhkəmə aktı bir təsbit qərarıdır. Məhkəmə təcrübəsində çoxlu sayda işlər mübahisəli halın təsbitinə dair qərarlar verilməklə həll olunur. Məsələn, "əqdin əhəmiyyətsiz sayılması və əşyanın qaytarılması", "payın müəyyən olunması və ayrılması" kimi iddialara baxılarkən məhkəmə, əvvəlcə tələbin birinci hissəsinə münasibətdə məhz təsbit mahiyyətində qərar verir, ardınca nəticənin tətbiqinə dair ikinci tələbi həll edir. Bu kimi hallarda birinci tələbin mütləq qaydada iddia ərizəsində müstəqil bir tələb kimi göstərilməsi məcburi deyil. Yəni, məhkəmə nəticəyə yönəlik (məsələn, icarə obyektinin boşaldılması, əşyanın qaytarılması və s.) tələbi düzgün həll etmək üçün ilk növbədə bunun əsasında duran hüquqi faktı (məsələn, müqavilənin ləğv və ya etibarsız olub-olmamasını) tərəflər irəli sürməsələr də təsbit etməlidir. Lakin bu hal ona əsas vermir ki, mübahisəli hüquqi hadisənin təsbiti barədə tələbə məhkəmədə baxılmadan xitam versin.

44. Hətta, əqdin əhəmiyyətsizliyi faktının mövcud olub-olmaması ilə bağlı mübahisə yaranarsa əhəmiyyətsizliyin təsbiti üçün məhkəmədə iddia qaldırıla bilər (Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 337, 339.6, 346.1 və 354-cü maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair" 2 aprel 2021-ci il tarixli qərarı).

45. Odur ki, tərəflərdən hər hansı birinin mənafeyi baxımından təsbit ehtiyacı yaranan halda "müqavilənin ləğv edilməsi" tələbinə məhkəmədə baxılmalı olmamasına görə xitam verilməsi yuxarıda göstərilən hüquqi mövqelərə uyğun yanaşma hesab edilə bilməz.

46. Məhkəmə təcrübəsindən məlum olduğu kimi, iddia ərizələrində mübahisəli hüquqi hadisənin təsbiti və onun nəticəsinin tətbiqi barədə tələblərin həm birlikdə (məsələn, müqavilənin etibarsız sayılması və əşyanın qaytarılması), həm də onlardan yalnız biri (misal üçün, müqavilənin etibarsız sayılması və ya əşyanın qaytarılması) göstərilməklə irəli sürülməsi hallarına rast gəlinir.

47. Belə hallarda məhkəmə məsələyə formal yanaşmamalı, təsbit və nəticə xarakterli tələblərin vahid bir mübahisənin tərkib hissələri olduğunu diqqətdən kənarda saxlamamalı, tərəflərin çatmaq istədikləri hüquqi nəticəni müəyyənləşdirməli, onlar arasındakı ixtilafı tam və hərtərəfli araşdırmaqla həll etməlidir. Bu məqsədlə məhkəmə qeyri-müəyyənlikləri (tələb başa düşülən tərzdə ifadə olunmadıqda, ərizədə nəticəyə yönəlik tələb əks olunmadan yalnız təsbit iddiası göstərildikdə və s.) MPM-in 14.1-ci və 167.1-ci maddələrinə uyğun qaydada tərəflərlə müzakirə etməlidir.

48. Məhkəmə kollegiyası onu da qeyd etməyi zəruri hesab edir ki, vahid bir mübahisəni təşkil edən və tərəflər arasındakı fikir ayrılığına görə məhz məhkəmə tərəfindən təsbit edilməli olan bir halın işdən ayrılaraq ona xitam verilməsi, anoloji işlər üzrə məhkəmə qərardadından çoxsaylı şikayət icraatlarının da açılmasına səbəb olur. Bu isə qanuni əsas və zərurət olmadan həm işlərə baxılması müddətinin uzanması, habelə məhkəmələrin iş yükünün süni şəkildə artması ilə nəticələnə bilər.

49. Beləliklə, yuxarıda göstərilənlərə əsasən məhkəmə kollegiyası bu nəticəyə gəlir ki, hazırkı işdə müqavilənin ləğvi tələbinə məhkəmə qaydasında baxılmalı olduğundan, MPM-in

261.0.1-ci maddəsi səhv tətbiq edilmiş və həmin hissədə icraata qanuni əsas olmadan xitam verilmişdir. Belə nəticə cavabdehin Azərbaycan Respublikası Konstitusiyasının 60cı, MPM-in 4.1-ci maddələrində nəzərdə tutulan məhkəmə müdafiəsi, Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsində əks olunan ədalətli məhkəmə araşdırması hüquqlarının pozulması kimi qiymətləndirilir (bax yuxarıda bu qərarın 18-20-ci bəndləri). Odur ki, apellyasiya instansiyası məhkəməsinin iş üzrə qəbul etdiyi qərardad ləğv edilməli və iş yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə qaytarılmalıdır.

50. Göstərilənlərə əsasən və MPM-in 416, 417 və 419-cu maddələrini rəhbər tutaraq, Məhkəmə kollegiyası

Qərara aldı:

Kassasiya şikayəti təmin edilsin.

Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2023-cü il 18 avqust tarixli, 2-2(103)-809/2023 saylı qərardadı ləğv edilsin və iş yeni apellyasiya baxışına göndərilsin.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

64. 2(102)-3740/2023 nömrəli, 2023-cü il 22 noyabr tarixli qərar - Mirasın qəbulu faktına ayrıca iddia icraatında baxılmasının yolverilməzliyi

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: mirasın qəbulu faktına ayrıca iddia icraatında baxılmasının yolverilməzliyi.

Birinci və apellyasiya instansiyası məhkəmələrində mahiyyəti üzrə baxılıb qətnamə qəbul olunmuş miras əmlakın faktiki qəbul edilməsi tələbinə dair işin mülki məhkəmə icraatı qaydasında baxılmalı olmaması əsası ilə kassasiya instansiyası məhkəməsində icraata xitam verilməsi.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

MPM-də xüsusi icraat qaydasında hüquqi əhəmiyyətli faktların müəyyən edilməsi, o cümlədən şəxslərin qohumluq münasibətlərinin, mirasın qəbul edilmə faktının və vərəsəliyin açılma yerinin müəyyən edilməsi mümkün hesab olunsa da, həmin ərizələrə yalnız hüquq haqqında mübahisə olmadığı halda baxıla bilər. Siyahısı qanunda nəzərdə tutulan bu cür mübahisəsiz faktların xüsusi icraat qaydasında məhkəmə qaydasında müəyyən olunması barədə qətnamə faktı təsdiq edən sənədi, qeydə alınmalı faktlar üzrə isə qeydiyyatı həyata keçirən orqanların verdiyi sənədləri əvəz etməsə də MPM-in 311-ci maddəsinə əsasən əlavə məhkəmə qətnaməsi tələb olunmadan belə qeydəalınma üçün əsas kimi çıxış edir. Əgər hüquq haqqında, yəni digər şəxsin (şəxslərin) eyni predmetə hüquqlarının olması barədə mübahisə varsa MPM-in 259.0.10-cu maddəsi və 306.4-cü maddəsi hakimin üzərinə xüsusi icraat qaydasında verilmiş ərizəni baxılmamış saxlamaq vəzifəsi qoyur. Bu zaman iddiaçıya ümumi əsaslarla iddia icraatı qaydasında iddia vermək hüququ izah olunur. Lakin istinad olunan maddələr iddiaçının iddia icraatı qaydasında yenidən həmin faktın müəyyən olunması barədə iddia qaldırmalı olduğu kimi başa düşülməməlidir.

Hüquq barədə mübahisə olduğu üçün xüsusi icraat qaydasında ərizə verə bilməyən, yaxud belə ərizəsi baxılmamış saxlanılmış iddiaçı iddia icraatı qaydasında birbaşa müvafiq hüquq (əldə olunması (məsələn miras payının müəyyən olunması, hüquq müəyyənedici sənədin verilməsi) barədə tələb irəli sürməli və həmin icraat çərçivəsində iddianın əsasını təşkil edən hüquqi faktı (məsələn mirası qanunla müəyyən olunmuş müddət ərzində faktiki qəbul etdiyini) sübuta yetirməlidir.

İddia icraatı qaydasında məhkəməyə verilən istənilən iddia tələbi üzrə deyil, elə iddia tələbi üzrə məhkəmə icraatı başlana bilər ki, həmin tələb şəxsin qanunvericilikdən irəli gələn hüquqlarının və ya qanunla qorunan mənafeyinin müdafiəsi və yaxud təsdiqi üçün verilmiş olsun. MPM-in 149 və 153-cü maddələri iddianın müvafiq olaraq qəbuledilənliyi və yolverilənliyi şərtlərini müəyyən etməklə yanaşı, Məcəllənin 151.1-ci maddəsi nəzərdə tutur ki, iddia ərizəsi bu Məcəllənin tələblərinə riayət edilməklə verildikdə, onun məhkəmə icraatı mümkündür.

Hüquq barədə mübahisə olduğu halda hər hansı hüquqi faktın müəyyən edilməsi barədə məsələyə xüsusi icraat qaydasında baxılması istisna edildiyi üçün həmin hüquqi fakt iddia icraatı qaydasında irəli sürülən tələbin əsasını təşkil edən hüquqi fakta və ya faktlardan birinə çevrilmiş olur. İddia icraatı qaydasında tələb irəli sürmüş iddiaçı isə öz tələbinin uğurlu olmasını təmin etmək üçün həmin faktın mövcud olduğunu, baş verdiyini sübuta yetirməli, həyata keçirilən icraat nəticəsində işin həmin halı müəyyən edildiyi və iddia tələbinin qanuni əsasının dispozisiya şərtlərinə uyğun olduğu halda isə iddianın məhkəmə tərəfindən təmin olunması üçün əsasdır.

Əks yanaşma mülki prosessual normalara uyğun olmamaqla, istənilən faktın (işin halının) müəyyən edilməsi barədə iddia icraatı qaydasında müstəqil iddia tələbinin irəli sürülməsinin mümkün olması mənasını verə bilər. Halbuki belə bir yanaşma mülki işlər üzrə məhkəmə icraatının məqsəd və vəzifələrinə ziddir.

Hüquq barəsində mübahisə olduğu hallarda MPM-in 307-ci maddəsində sadalanan hüquqi əhəmiyyətli faktların müəyyən edilməsi barədə tələblər iddia icraatı qaydasında ayrıca iddia tələbi kimi məhkəmədə mülki işin başlanmasına əsas ola bilməz. Belə olan hallarda

iddiaçı hüquq barədə mübahisə edən tərəfə qarşı əldə etmək istədiyi hüquqi nəticənin (məsələn miras payın tanınması, vərəsəlik şəhadətnaməsinin verilməsi vəzifəsinin qoyulması, əmlakın bölünməsi, ziyanın ödənilməsi və s) əldə olunması ilə bağlı iddia irəli sürməli və iddiasının əsası kimi yuxarıda qeyd olunan hüquqi faktların mövcud olduğunu (baş verdiyini) sübuta yetirilməlidir.

Hüquq barəsində mübahisə olduğu halda hüquqi əhəmiyyətli faktın müəyyən edilməsi barədə iddia icraatı qaydasında müstəqil tələbin irəli sürülməsi isə yolverilməz olduğundan məhkəmənin icraatına qəbul edilə bilməz. Qanunda başqa hal nəzərdə tutulmayıbsa, belə iddia tələblərinin icraata qəbulundan məhkəmə tərəfindən MPM-in 153.2.1-ci maddəsinə əsasən imtina edilməli, yaxud əgər icraata qəbul edilibsə, MPM-in 261.0.1-ci maddəsinə əsasən iş üzrə icraata xitam verilməlidir.

Kassasiya instansiyası məhkəməsinin qərarı MPM-in 259.0.10, 261.0, 261.01.1, 306.1, 306.4, 307, 311, 418.4.10-cu maddələrinə istinadla əsaslandırılmışdır.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-3740/2023

22.11.2023-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki Kollegiyasının

iddiaçının cavabdehlər cavabdeh 1, cavabdeh 2, cavabdeh 3 və cavabdeh 4-ə qarşı

Q Ə R A R I

(Açar sözlər: miras əmlakın faktiki qəbul edilməsi)

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, Xıdırov Əhliman Mehman (məruzəçi hakim), Vəliyeva Elşanə Rafiq qızı və Şamayev Elşad Yaquboviçdən ibarət tərkibdə,

İddiaçının cavabdehlər cavabdeh 1, cavabdeh 2, cavabdeh 3 və cavabdeh 4-ə qarşı miras əmlakın faktiki qəbul edilməsi tələbinə dair Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının 2(108)-71/2023 saylı, 24.05.2023-cü il tarixli qətnaməsindən iddiaçı tərəfindən verilmiş kassasiya şikayətinə Ali Məhkəmənin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları

1. Şərur Rayon Nikah Evi tərəfindən verilmiş 28.06.2022-ci il tarixli nikah akt qeydi üzrə çıxarışa əsasən, X1 ilə X2 01.02.1957-ci il tarixdə nikaha daxil olmuşdurlar.

2. Şərur rayon Aqrar İslahat Komissiyasının 13 iyul 1999-cü il 06 nömrəli qərarına əsasən, ünvanda yerləşən 0.04 ha təsərrüfat təyinatlı torpaq sahəsi (JN-***) və 0.19 ha həyətyanı torpaq sahəsi (JN-****) mülkiyyət hüququ əsasında X1 və X2-ə məxsus olmuşdur.

3. Şərur Rayon Nikah Evi tərəfindən verilmiş 28.06.2022-ci il tarixli Az-I № ****** nömrəli və 28.06.2022-ci il tarixli Az-I № ****** nömrəli ölüm akt qeydi üzrə çıxarışlara əsasən, X1 14.02.2017-ci il tarixdə, X2 28.03.2022-ci il tarixdə ölmüşdür.

4. Şərur rayon Məmmədsabir kənd İƏDN-in 05.07.2022-ci il tarixli 107 nömrəli arayışına əsasən, X1 və X2 vəfat edəndən sonra onun vərəsləri cavabdeh 1, cavabdeh 2, cavabdeh 3, iddiaçı, cavabdeh 4 qalmışdır.

5. 01.08.2022-ci il tarixli Şərur rayon 1 saylı notariat ofisinə verilmiş ərizəyə əsasən, iddiaçı 01.08.2022-ci il tarixdə X2-dan qalmış mirası qəbul etməsi ilə bağlı ərizə vermişdir.

6. 13.10.2022-ci il tarixli Şərur rayon 2 saylı notariat ofisinə verilmiş ərizəyə əsasən, cavabdeh 2 13.10.2022-ci il il tarixdə X1-dən və X2-dən qalmış mirası qəbul etmədiyini, həmin mirasdan bacısı iddiaçının xeyrinə imtina etdiyini bildirmişdir.

7. 10.10.2022-ci il tarixli Şərur rayon 2 saylı notariat ofisinə verilmiş ərizəyə əsasən, iddiaçı 10.10.2022-ci il tarixdə X1-dən qalmış mirası qəbul etməsi ilə bağlı ərizə vermişdir.

8. Şərur Rayon 1 Saylı Notariat Ofisinin 16.11.2022-ci il tarixli qərarına əsasən, iddiaçıya vərəsəlik hüququ haqqında şəhadətnamə verilməsindən imtina edilmişdir.

9. Cavabdeh 4 tərəfindən təqdim edilmiş kommunal ödənişlərə dair qəbzlərə əsasən, 2022-ci ilin aprel-iyun ayları ərzində qaz və elektrik sərfiyyatı ilə bağlı cavabdeh 4 tərəfindən kommunal ödənişlər ödənmişdir.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a) Birinci instansiya məhkəməsində icraat

10. İddiaçı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək mərhum atası X1-in ölümündən sonra miras qalmış ünvanda 0.0369 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi, 0.1945 ha həyətyanı torpaq sahəsi və həmin torpaq sahəsinin üzərində yerləşən 2 fərdi yaşayış evlərinin anası X2 tərəfindən qəbul edilməsi, anasının ölümündən sonra isə faktiki olaraq həmin miras əmlakların onun tərəfindən qəbul edilməsinin müəyyən edilməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir

11. İddiaçı iddia ərizəsində iddia tələbinin əsası kimi atası X1 ilə anası X2 1951-ci ildə nikaha daxil olmadan evlənərək bir yerdə yaşadıqlarını, 1953-cü ildə qardaşı cavabdeh 1, 1955-ci ildə bacısı cavabdeh 2-nin doğulduğunu, 01.04.1957-ci ildə nikaha daxil olduqdan sonra 1958-ci ildə qardaşı cavabdeh 3, 1961-ci ildə iddiaçının, 1964-cü ildə qardaşı cavabdeh

4-nun doğulduqlarını, atasının 18.01.2017-ci il tarixdə, anasının isə 28.03.2022-ci il tarixdə öldükərini, onların ölümündən sonra ünvanda yerləşən 0.0369 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi, 0.1945 ha həyətyanı torpaq sahəsi və həmin torpaq sahəsinin üzərində yerləşən 2 fərdi yaşayış evlərinin miras qaldığını, valideynlərinin cavabdeh 1, cavabdeh 2, cavabdeh 3, iddiaçı, cavabdeh 4 vərəsələri olduqlarını, atasının ölümündən sonra həmin miras əmlaklarının anasını qəbul etdiyini, anasının ölümündən sonra həmin miras əmlakları faktiki olaraq özünün qəbul etdiyini, 01.08.2022-ci il tarixdə notariat ofisinə ərizə ilə müraciət etdiyini, valideynlərinin ölümündən əvvəl cavabdehlərin evlənərək özlərinə aid evdə yaşadıqlarını, valideynlərinin ölümündən sonra cavabdehlərdən heç biri həmin mirasa sahiblik etmədiyini, valideynlərinə verilmiş JN-*** nömrəli torpağın mülkiyyətə veilməsinə dair şəhadətnamə itdiyindən bu barədə qəzetdə elan verdiyini, bundan sonra Naxçıvan MR Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinə müraciət edərək valideynlərinin adına torpaq sahəsinin olması barədə arayış aldığını, vərəsəlik şəhadətnaməsinin alınması üçün Şərur rayon 1 saylı Notariat Ofisinə müraciət etdiyini, notariat ofisi 16.11.2022-ci il tarixli qərarında vərəsəlik şəhadətnaməsindən rəsmi olaraq imtina etdiyini bildirmişdir.

12. Məhkəmə iclasında iştirak edən iddiaçı izahatında və verilmiş suallara cavabında iddia ərizəsində qeyd olunan halları təsdiq etdiyini, əlavə olaraq həmin torpaq sahəsində 2 evin olduğunu, onların birində valideynlərinin, digərində isə cavabdeh 4 və onun ailə üzvlərinin yaşayırdıqlarını, anasının xəstə olan vaxtı 3 ay ərzində ona özünün baxdığını, anası vəfat etdikdən sonra qırxına kimi gedib-gəldiyini, onun yeddisini, cümə axşamlarını keçirtdiyini, anasının vəfatının 3-cü günündə cavabdeh 4-ün evin açarlarını ondan aldığını, yas mərasiminin xərclərinin anasının pensiyası ilə ödənildiyini, anasının 28 mart 2022-ci il tarixində vəfat etdiyini, ilk dəfə notariusa 15 iyul 2022-ci ildə müraciət etdiyini, mirasın qəbulu barədə ərizəni 1 avqust 2022-ci il tarixində verdiyini, mirasın qəbulu ilə bağlı 3 ay ərzində notariusa müraciət etdiyini, notariusun torpağın, evin sənədlərini istədiyini, lakin sənədlərin onda olmadığından ərizəsini qəbul etməkdən imtina etdiklərini bildirərək məhkəmədən iddianın təmin olunmasını xahiş etmişdir.

13. Məhkəmə iclasında iştirak edən cavabdeh 4-ün iddianı qəbul etmədiyini, anasının xəstə olanda qardaşı cavabdeh 3-in anasına baxdığını, iddiaçının həftədə 1 dəfə gəlib-getdiyini, yas mərasiminin həmin evdə keçirildiyini, üçü çıxdıqdan sonra iddiaçı gedəndə evin açarlarını ondan istədiyini, iddiaçının da açarlar üstünə ataraq getdiyini, anasının qırxına kimi iddiaçının cümə axşamları gəldiyini, o evin onların ata evi olduğunu, istəyənin gəlib qala biləcəyini, iddiaçının isə məqsədi onu adına keçirib satmaq olduğunu, bir həyətdə 2 evin olduğunu, həmin evin birində ailə üzvləri ilə yaşadıqlarını, valideynlərinin yaşadığı evdə isə heç kimin yaşamadığını, həmin həyətə özünün baxdığını, ağaclarını suvardığını, valideynlərinin yaşadığı evin 1961-ci ildə müqavilə ilə alındığını, digər evi isə 1984-1985-ci illərdə atası tərəfindən tikilməyə başladığını, həmin evlərin üzərində tikildiyi 0.19 ha həyətyanı torpaq sahəsinin ata-anasının mülkiyyəti olduğunu, evlərin isə heç birinin mülkiyyət sənədinin olmadığını bildirərək iddianın rədd olunmasını xahiş etmişdir.

14. Cavabdeh 1 21.02.2023-cü il tarixdə keçirilən məhkəmə iclasında iştirak edən zaman verdiyi izahatında və verilən suallara cavabında iddianı qəbul etmədiyini, bacıları iddiaçı ilə cavabdeh 4 arasında evin açarları üstündə mübahisə yarandığını, cavabdeh 4-ün kiçik qardaş kimi valideynlərinin himayəsində yaşadığını, anaları xəstə olanda bacıları iddiaçı ilə cavabdeh 2-un gedib-gəldiklərini, lakin analarına cavabdeh 3-ün baxdığını, analarını sağlığında və o vəfat edəndən sonra iddiaçının orada yaşamadığını, yəni faktiki olaraq mirası qəbul etmədiyini, evin açarlarının cavabdeh 4-də olduğunu, kənd təsərrüfat təyinatlı torpaq sahəsini əvvəldən özünün əkdiyini bildirərək iddianın rədd olunmasını xahiş etmişdir.

15. Cavabdeh 3 21.02.2023-cü il tarixdə keçirilən məhkəmə iclasında iştirak edən zaman verdiyi izahatında və verilən suallara cavabında iddianı qəbul etmədiyini, anası xəstə olan vaxtı onun bütün ehtiyaclarını özünün qarşıladığını, onun yemeyini bişirdiyini, iddiaçı ilə cavabdeh 2-nin həftədə 1 dəfə analarının yanına gəldiklərini, anasının vəfatından sonra iddiaçı yeddisində çıxıb, cümə axşamları, bir də 40-da gəldiyini, yasın xərclərini anasının pensiyası ilə qarşıladığını, iddiaçının öz torpaq sahəsi olduğunu, onu satıb Naxçıvan şəhərinə gedərək orada yaşamağa başladığını, valideynlərinin bu ev kiçik qardaşları cavabdeh 4 və onun oğlu X3-ın olduğunu həmişə dediklərini, həmin evdə iddiaçının yaşamadığını, həmin evə anası öləndən sonra da cavabdeh 4-ün baxdığını bildirərək iddianın rədd olunmasını xahiş etmişdir.

16. Məhkəmə iclasında iştirak edən şahid 1 ifadəsində və verilən suallara cavabında anaları xəstə olanda ona iddiaçı, cavabdeh 2 və cavabdeh 3-in baxdığını, cavabdeh 3-in anasının pensiyası ilə onu saxladığını, yanında cavabdeh 3-in qaldığını, analarının yas mərasimində iştirak etdiyini, yeddisini vermək üçün iddiaçı və cavabdeh 2 ilə ora getdiklərini, cavabdeh 4-nun onların dalına düşərək evin açarlarını iddiaçının əlindən aldığını bildirmişdir.

17. Məhkəmə iclasında iştirak edən şahid 2 ifadəsində və verilən suallara cavabında tərəflərlə hasar qonşusu olduqlarını, analarının 5-6 ay xəstə olduğunu, xəstə olan vaxtı analarına cavabdeh 3, iddiaçı, cavabdeh 2-nin baxdığını, bacılar gedib-gəldiyini, cavabdeh 3-in isə yanında qaldığını, anaları rəhmətə gedəndən sonra o evdə heç kimin yaşamadığını, həmin həyətə cavabdeh 4-nun baxdığını, çünki cavabdeh 4-nun da evi həmin həyətdə yerləşdiyini, çöl torpağı ilə bağlı hər hansı məlumatının olmadığını, anasının ölməmişdən qabaq iddiaçının gəldiyini gördüyünü, lakin öldükdən sonra onu orada görmədiyini bildirmişdir.

18. Məhkəmə iclasında iştirak edən şahid 3 ifadəsində və verilən suallara cavabında onlarla qonşu olduğunu, aralarında bir ev olduğunu, analarına cavabdeh 3-in baxdığını, cavabdeh 2 ilə iddiaçı isə gedib-gəldiklərini, anaları vəfat etdikdən sonra həmin evin boş olduğunu, evin işıqlarının yanmadığını, həyətin girişinin bir olduğunu, həmin həyətdə iki evin olduğunu, həmin evin birində də cavabdeh 4-ün yaşadığını bildirmişdir.

19. Şərur Rayon Məhkəməsinin (sədrlik edən M.Əliyev) 02 mart 2023-cü il tarixli, 2(110)-148/2023 nömrəli qətnaməsi ilə iddianın rədd edilməsi, məhkəmə xərci olaraq ödənilmiş dövlət rüsumunun iddiaçıya aid edilməsi qət edilmişdir.

20. Məhkəmə qeyd etmişdir ki, X2 28.03.2022-ci il tarixdə ölmüşdür. Onun vərəsələri cavabdeh 1, cavabdeh 2, cavabdeh 3, iddiaçı, cavabdeh 4-dur. X2 öldükdən 4 ay sonra iddiaçı 01.08.2022-ci il tarixdə mirası qəbul etməsi ilə bağlı ərizə vermişdir. Digər vərəsələr mirasın qəbul edilməsi ilə bağlı müraciət etməmişlər. Şərur Rayon 1 Saylı Notariat Kontoru 16.11.2022-ci il tarixli qərarı ilə X2-dən qalan mirasa iddiaçıya vərəsəlik hüququ haqqında şəhadətnamə verilməsindən imtina etmişdir. Şərur Rayon 2 Saylı Notariat Kontoru 10.10.2022-ci il tarixli 25 nömrəli qərarı ilə X1-dan qalan mirasa iddiaçıya vərəsəlik hüququ haqqında şəhadətnamə verilməsindən imtina etmişdir. İddiaçı bundan sonra mirasın faktiki qəbul edilməsi ilə bağlı məhkəməyə müraciət etmişdir. Məhkəmə iclasında tərəflərin izahatı, şahid ifadələri və yazılı sübutlarla müəyyən olundu ki, iddiaçı tərəfindən miras faktiki qəbul edilməmişdir. X2 və X1-dən miras qalan 0.19 ha həyətyanı torpaq sahəsi üzərində yerləşən fərdi yaşayış evlərindən birində həmin şəxslərin sağlığında və vəfatından sonra cavabdeh 4 yaşamışdır. Buna görə də iddiaçının tələbi əsassız olduğundan iddia rədd edilməlidir.

21. Məhkəmə öz mövqeyini əsaslandırarkən Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 1146, 1243.2, 1246, Azərbaycan Respublikası Mülki-Prosessual Məcəlləsinin 14.2, 77.1, 80-ci maddələrinə istinad etmişdir.

b)Apellyasiya instansiyası məhkəməsində icraat

22. Məhkəmənin qətnaməsindən narazı qalan iddiaçı apellyasiya şikayəti ilə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Mülki kollegiyasına müraciət edərək Şərur Rayon Məhkəməsinin 02 mart 2023-cü il tarixli, 2(110)-148/2023 nömrəli qətnaməsinin ləğv edilərək, iddianın təmin olunması barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

23. İddiaçı apellyasiya şikayətini onunla əsaslandırmışdır ki, qətnamə ilə razılaşmır ona görə ki, məhkəmə iclasında iştirak edərkən izahatında və verilmiş suallara cavabında iddia ərizəsində qeyd olunan halları təsdiq etdiyini, əlavə mübahisələndirilən həmin torpaq sahəsində 2 evi olduğunu, onların birində valideynlərinin, digərində isə cavabdeh 4 və onun ailə üzvlərinin yaşadığını bildirmişdir. Anası xəstə olan vaxtı 3 ay ərzində ona özü baxmış, anası vəfat etdikdən sonra qırxa kimi gedib-gəlmiş, onun yeddisini, cümə axşamlarını keçirmişdir. Anasının vəfatının 3-cü günündə cavabdeh 4 evin açarlarını ondan almışdır. Yas mərasiminin xərcləri anasının pensiyası ilə ödənilmişdir. Anası 28 mart 2022-cı il tarixində vəfat etmiş, ilk dəfə notariusa 28 iyun 2022-ci ildə müraciət etmişdir. Mirasın qəbulu barədə ərizəni 01 avqust 2022-ci il tarixində vermiş, notarius torpağın, evin sənədlərini istəmiş, lakin sənədlər onda olmadığından ərizəsini qəbul etməkdən imtina edilmişdir. O, 1 avqust 2022-ci il tarixdə 28 mart 2022-cı il tarixdə vəfat etmiş X2-nın mirasını qəbul etməyi ilə bağlı 1 avqust 2022-ci il tarixdə Şərur rayonu 1 saylı notariat ofisinə ərizə ilə müraciət etmiş, yəni müddəti buraxmamışdır. Lakin notariat ofisi əsassız olaraq 16 noyabr 2022-ci il tarixdə vərəsəlik hüququ haqqında şəhadətnamənin verilməsindən imtina etmişdir. Hesab edir ki, məhkəmənin qətnaməsi qanunsuz (maddi və prosessual hüquq normalarına ziddir) və əsassızdır (iş materialları ilə təkzib edilir). Belə ki, birinci instansiya məhkəməsində işə qeyri-obyektiv və bir tərəfli baxılmış, işin faktiki halları araşdırılmamış və düzgün hüquqi qiymət verilməmişdir. İddia tələbinin təmin edilməməsi barədə qətnaməni qanunsuz və ədalətsiz sayır. İddianın təmin edilməsi barədə qətnamə qəbul etməsini məhkəmə tərəfindən işin dəqiq araşdırılmadığının nəticəsi kimi verilmiş bir qərar olduğunu hesab edir. Hesab edir ki, məhkəmə qeyd etdiyi halları (sübutları) tam, hərtərəfli araşdırmadan nəticəyə gəlmişdir. O, mirası formal olaraq qəbul etmiş, miras onun tərəfindən qəbul edildiyinə görə məhkəmə tərəfindən tətbiq olunan maddi hüquq normaları düzgün tətbiq edilməmişdir. Bundan başqa o, altı aylıq müddət ərzində mirası qəbul etməyi ilə bağlı Şərur rayonu I saylı notariat ofisinə ərizə vermişdir, altı aylıq müddət keçdikdən sonra yox. Apellyator sonda Şərur Rayon Məhkəməsinin 2 mart 2023-cü il tarixli 2(110)-148/2023 nömrəli qətnaməsinin ləğv edilərək, iddianın təmin olunması barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

24. Apellyasiya şikayətinə baxılması zamanı izahat verən iddiaçı Şərur Rayon Məhkəməsinin 2 mart 2023-cü il tarixli, 2(110)-148/2023 nömrəli qətnaməsinin ləğv edilərək, iddianın təmin olunması barədə qətnamə qəbul edilməsini kollegiyadan xahiş etmişdir.

25. Apellyasiya şikayətinə baxılması zamanı izahat verən iş üzrə cavabdeh 3 Şərur Rayon Məhkəməsinin 2 mart 2023-cü il tarixli 2(110)148/2023 nömrəli qətnaməsinin dəyişdirilmədən saxlanılması barədə qətnamə qəbul edilməsini kollegiyadan xahiş etmişdir.

26. Naxçıvan MR Ali Məhkəməsi Mülki kollegiyasının (hakimlər Allahverdiyev Mehman Dünyamalı oğlu (sədrliyi və məruzəsi ilə), Allahverdiyev Əli Kərim oğlu və Kuimova Vera Gennadiyevna) 2(108)-71/2023 saylı, 24.05.2023-cü il tarixli qətnaməsi ilə apellyasiya şikayəti təmin edilmədən, qətnamə dəyişdirilmədən saxlanılmışdır.

27. Məhkəmə kollegiyası birinci instansiya məhkəməsinin gəldiyi nəticə ilə, yəni iddia tələbinin rədd olunması ilə razılaşmış və gəlinmiş nəticəni qanuni və əsaslı hesab etmişdir.

28. Kollegiya öz mövqeyini əsaslandırarkən Azərbaycan Respublikası Konstitusiyasının 29, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1134.1, 1145, 1147.1, 1151.1, 1159.1.1,

1243.2, 1243.3, 1255, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 81, 106.1-ci maddələrinə istinad etmişdir.

Kassasiya şikayətinin və ona qarşı etirazın dəlilləri

a)Kassasiya şikayətinin dəlilləri

29. İddiaçı (vəkil) kassasiya şikayəti verərək Naxçıvan MR Ali Məhkəməsinin Mülki Kollegiyasının 24 may 2023-cü il tarixli, 2(108)-71/2023 saylı qətnaməsini ləğv edərək, iddia tələbinin təmin edilməsi barədə yeni qərar qəbul edilməsini və ya işin yenidən baxılması üçün Naxçıvan MR Ali Məhkəməsinə göndərilməsi barədə qərar qəbul edilməsini xahiş etmişdir.

30. Kassator kassasiya şikayətini əsaslandıraraq qeyd etmişdir ki, Naxçıvan MR Ali Məhkəməsinin Mülki Kollegiyası mübahisəli qərarında qeyd etmişdir ki, mübahisənin mübahisəli halları ilə bağlı apellyasiya icraatı zamanı tədqiq olunan iş materiallarından və işdə iştirak edən şəxslərin izahatından mərhum X1-nun ölümündən sonra ona münasibətdə miras qalmış ünvan yerləşən 0.04 ha təsərrüfat təyinatlı torpaq sahəsi (JN-***) və 0.19 ha həyətyanı torpaq sahəsinin (JN-****) hər hansı əsasla onun həyat yoldaşı mərhum X2 tərəfindən qəbul olunması, eyni zamanda həmin şəxslər tərəfindən adı çəkilən miras əmlaklara dair vəsiyyətnamənin qoyulması halı müəyyən olunmamışdır. İş üzrə iddiaçı istər iddia ərizəsində, istərsə də verdiyi apellyasiya şikayətində mərhum X2-dən mirasqalmış adıçəkilən əmlakları qəbul etdiyini iddia etsə, məhkəməyə təqdim etdiyi Şərur rayon 1 saylı Notariat ofisinə verdiyi 01.08.2022-ci il tarixli ərizədən görünür ki, o, Azərbaycan Respublikası Mülki Məcəlləsinin1246-cı maddəsi ilə müəyyən olunmuş müddəti buraxmış və belə olan halda da haqlı olaraq Şərur rayon 1 saylı Notariat ofisinin 16.11.2022-ci il tarixli qərarı ilə ona vərəsəlik hüququ haqqında şəhadətnamənin verilməsindən imtina edilmişdir. Belə ki, göstərilən maddənin tələbinə əsasən vərəsə vərəsəliyə çağırıldığını bildiyi və ya bilməli olduğu gündən üç ay ərzində mirası qəbul edə bilər. İş üzrə iddiaçı apellyasiya baxışı zamanı verdiyi izahatında mülki qanunvericiliklə mirasın qəbulu ilə bağlı müəyyən olunmuş 3 aylıq müddətin buraxılmasının ondan asılı olmayan üzrlü səbəblərdən olduğunu bildirsə də, kollegiya mirasın qəbul edilməsi müddətinin uzadılması ilə bağlı məsələyə münasibət bildirilməsinin hazırki baxılan tələb çərçivəsində mümkünsüzlüyünü apellyatorun diqqətinə çatdırmağı zəruri hesab edir.

31. Kassator daha sonra bildirmişdir ki, məhkəmə mübahisəli qərarında qeyd etmişdir ki, miras əmlakın faktiki olaraq iddiaçı tərəfindən qəbul olunmasına gəlincə, ilk növbədə qeyd olunmalıdır ki, yuxarıda da qeyd olunduğu kimi, Şərur Rayon Nikah Evi tərəfindən verilmiş 28.06.2022-ci il tarixli nikah akt qeydi üzrə çıxarışdan görünür ki, X1 ilə X2 01.02.1957-ci il tarixdə nikaha daxil olmuşdurlar və Şərur rayon Aqrar İslahat Komissiyasının 13 iyul 1999-cü il 06 nömrəli qərarları ilə ünvan yerləşən 0.04 ha təsərrüfat təyinatlı torpaq sahəsi (JN-***) və 0.19 ha həyətyanı torpaq sahəsi (JN-****) mülkiyyət hüququ əsasında X1-ə və X2-ə məxsus olmuşdur. Yəni belə olan halda həmin şəhadətnamələrdən göründüyü kimi, mərhum X1 ilə yanaşı mərhum X2-nin də adıçəkilən əmlaklarda mülkiyyət hüququ olmuşdur. Tərəflərin verdiyi izahatlardan, birinci instansiya məhkəməsində işə baxılarkən dindirilən şahid ifadələrindən və digər iş materiallarından aydın olur ki, iddiaçı mərhum anası X2-nin 28.03.2022-ci il tarixdə ölümündən sonra sadəcə onun yas mərasimlərində iştirak etmiş, anasının ölümündən keçən vaxt ərzində ümumiyyətlə ondan miras qaldığını iddia etdiyi əmlakdan istifadə və ona sahiblik etməmiş, yuxarıda da qeyd olunduğu kimi, öz mənafeyi üçün əmlakın saxlanılması və normal təsərrüfatın aparılması üçün hərəkətlər etməmiş, miras əmlakı lazımi vəziyyətdə saxlamaq, təmir etmək və ya saxlanılması üçün çəkilən xərcləri ödəmək, vergi ödəmək, siğorta haqqı və

digər ödənişlər vermək kimi addımlar atmamışdır. Yəni konkret hərəkətləri və rəftarı ilə mirası qəbul etmək niyyətini göstərməmişdir. Belə ki, apellyasiya baxışı zamanı verilən sualları cavablandıran iddiaçı həmin kənddə özünə məxsus olan torpaq sahəsini uzun illər əvvəl sataraq hazırda Naxçıvan şəhərində yaşadığını, anasının ölümündən sonra yalnız yas mərasimində və cümə axşamlarında, həmçinin məclisin yeddisi və qırxında iştirak etdiyini, ondan sonra bu ünvana getmədiyini, miras əmlakı idarə etməməyinin səbəbinin qardaşı cavabdeh 4-nun açarları ondan alması ilə bağlı olduğunu bildirmişdir. Birinci instansiya məhkəməsində icraat zamanı dindirilən iş üzrə şahidlər şahid 2 və şahid 3 isə verdikləri izahatlarında mərhum X2-nın ölümündən sonra həmin evdə heç kimin yaşamadığını, həmin həyətdə cavabdeh 4 yaşadığı üçün evə onun baxdığını, X2-nin ölümündən sonra evinin boş qaldığını və işıqlarının heç vaxt yanmadığını bildirmişdirlər. Məhkəmə araşdırması zamanı iş materiallarına əlavə olunmuş elektrik və qaz sərfiyyatına görə ödəniş qəbzlərindən, həmçinin telefon və məişət tullantılarının daşınmasına dair ödəniş qəbzləri ilə də mübahisə olunan təsərrüfata dair ödənişlərin iddiaçı tərəfindən aparılması halı öz təsdiqini tapmamışdır. Bununla bağlı bildirirəm ki, əvvələ iddiaçı tərəfindən miras əmlakın formal yolla yəni, mirasın açıldığı yer üzrə notariat ofisinə mirası qəbul etdiyi barədə ərizə verməsi işin mübahisəsiz halıdır. Həmin ərizəni 3 aylıq müddətin keçməsi əsası ilə təmin edilməməsi isə yuxarıda qeyd etdiyim kimi Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1246, 1248.1 və 1268.2-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair Konstitusiya Məhkəməsi Plenumunun 14 oktyabr 2022-ci il tarixli qərarına zidd olmuşdur. Göründüyü kimi iddiaçı artıq mirası qəbul etmək niyyətində olduğunu ərizə verməklə şəksiz nümayiş etdirmişdir. Mirasın qeyri-formal yolla qəbul məsələsinə gəldikdə isə, iş üzrə şahid ifadələrindən də görünür ki, mərhum anası xəstə olanda ona iddiaçının baxdığı, anasının vəfatından sonra isə evin açarlarının qardaşı cavabdeh 4 tərəfindən ondan zorla alındığı öz təsdiqini tapmışdır. Lakin məhkəmə tərəfindən şahid qismində dindirilən şahid 1-nın ifadəsi təhrif olunmuş, tam şəkildə qətnamədə öz əksini tapmamışdır. Belə ki, şahid ifadəsində iddiaçının qardaşı cavabdeh 4-nun onların üzərinə hücum çəkərək, iddiaçını baltalayacağı ilə hədələdiyini bildirmişdir. Məhkəmə iclasının audio-video yazısına baxış keçirilsə, gərçək ortaya çıxacaqdır. Belə bir real hədə-qorxunun olduğu bir yerdə iddiaçının yaşaması mümkün deyildir. Məhkəmə isə bu hala hər hansı münasibət bildirməmişdir. Ümumiyyətlə, əgər mirası faktiki olaraq qəbul etməmişdisə, onda anasının vəfatından sonra evin açarlarının hansı səbəbdən iddiaçıda olduğu halı məhkəmə tərəfindən araşdırılmamış, bununla da iddiaçının həm də, mirası faktiki qəbul etməsi faktı öz təsdiqini tapsa da, məhkəmə bu hala düzgün hüquqi qiymət verməmişdir.

Tətbiq edilən hüquq

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi

32. Maddə 14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

33. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

34. Maddə 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

35. Maddə 259.0. Məhkəmə aşağıdakı hallarda ərizəni baxılmamış saxlayır:

...259.0.10. hüquqi əhəmiyyətli faktların müəyyən edilməsi barəsindəki ərizələrə baxıldıqda hüquq haqqında mübahisə yarandığı aşkar edilərsə.

36. 261.0. Hakim iş üzrə icraata aşağıdakı hallarda xitam verir:
261.0.1. iş məhkəmədə və ya mülki məhkəmə icraatı qaydasında baxılmalı deyildirsə;

37. Maddə 306.1. Məhkəmələr tərəfindən xüsusi icraat işlərinə, bu Məcəllənin 30 40-6-cı fəsillərində ikinci bölməsinin üçüncü yarımbölməsində müəyyən edilmiş xüsusiyyətlərlə, iddia icraatı qaydasında baxılır.

38. Maddə 306.4. Xüsusi icraat qaydasında işlərə baxarkən məhkəməyə aid hüquq haqqında mübahisənin olduğu müəyyən edilərsə, hakim ərizənin baxılmamış saxlanılması haqqında qərardad çıxarır və maraqlı şəxslərə onların ümumi əsaslarla iddia vermək hüququnu izah edir.

39. Maddə 311. Məhkəmənin qətnaməsi faktı təsdiq edən sənədi, qeydə alınmalı faktlar üzrə isə qeydiyyatı həyata keçirən orqanların verdiyi sənədləri əvəz etməməklə, belə qeydəalınma üçün əsasdır

40. Maddə 407.2. Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir.

41. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

42. Maddə 416.2. Apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 418.4-cü maddəsində nəzərdə tutulmuş prosessual hüquq pozuntusu hesab edilən hallara yol verilməsi şikayətin hədlərindən və dəlillərindən asılı olmayaraq yoxlanılmalıdır.

43. 418.4. Apellyasiya instansiyası məhkəməsinin qətnaməsi və ya qərardadı şikayətin dəlillərindən asılı olmayaraq aşağıdakı hallarda ləğv edilməlidir:

...418.4.10. iddianın baxılmamış saxlanılması və ya iş üzrə icraata xitam verilməsi üçün bu Məcəllədə müəyyən edilmiş əsaslar olduğu halda məhkəmə işə mahiyyəti üzrə baxmışsa.

Kassasiya baxışının hədləri

44. Qanunun tələbinə görə, kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

45. Hazırkı kassasiya şikayətində iddiaçı qətnaməni tam mübahisələndirdiyindən apellyasiya instansiyası məhkəməsinin aktı bütövlükdə yoxlanılır.

Kassasiya instansiya məhkəməsinin mövqeyi

46. Məhkəmə kollegiyası qeyd edir ki, mülki prosesdə həyata keçirilən icraatın iddia icraatı və xüsusi icraat adlanan iki növü vardır. MPM-in 306.1-cı maddəsinə əsasən məhkəmələr tərəfindən xüsusi icraat işlərinə, həmin icraatın qaydalarını, şərtlərini və baxılma əsaslarını tənzimləyən, qanunla müəyyən edilmiş xüsusiyyətlər nəzərə alınmaqla iddia icraatı qaydasında baxılır.

47. MPM-də xüsusi icraat qaydasında hüquqi əhəmiyyətli faktların müəyyən edilməsi, o cümlədən şəxslərin qohumluq münasibətlərinin, mirasın qəbul edilmə faktının və vərəsəliyin

açılma yerinin müəyyən edilməsi mümkün hesab olunsa da, həmin ərizələrə yalnız hüquq haqqında mübahisə olmadığı halda baxıla bilər. Siyahısı qanunda nəzərdə tutulan bu cür mübahisəsiz faktların xüsusi icraat qaydasında məhkəmə qaydasında müəyyən olunması barədə qətnamə faktı təsdiq edən sənədi, qeydə alınmalı faktlar üzrə isə qeydiyyatı həyata keçirən orqanların verdiyi sənədləri əvəz etməsə də MPM-in 311-ci maddəsinə əsasən əlavə məhkəmə qətnaməsi tələb olunmadan belə qeydəalınma üçün əsas kimi çıxış edir.

48. Bununla da qanunverici hüquq tətbiqedici orqanlar üçün müəyyən olunması çətinlik yaradan mübahisəsiz faktların daha sadə yolla məhkəmə qaydasında təsbit olunmasına şərait yaratmaqla həm maraqlı şəxslərin, həm də dövlət orqanlarının işini asanlaşdırmış olur.

49. Əgər hüquq haqqında, yəni digər şəxsin (şəxslərin) eyni predmetə hüquqlarının olması barədə mübahisə varsa MPM-in 259.0.10-cu maddəsi və 306.4-cü maddəsi hakimin üzərinə xüsusi icraat qaydasında verilmiş ərizəni baxılmamış saxlamaq vəzifəsi qoyur. Bu zaman iddiaçıya ümumi əsaslarla iddia icraatı qaydasında iddia vermək hüququ izah olunur.

50. Lakin istinad olunan maddələr iddiaçının iddia icraatı qaydasında yenidən həmin faktın müəyyən olunması barədə iddia qaldırmalı olduğu kimi başa düşülməməlidir.

51. Hüquq barədə mübahisə olduğu üçün xüsusi icraat qaydasında ərizə verə bilməyən, yaxud belə ərizəsi baxılmamış saxlanılmış iddiaçı iddia icraatı qaydasında birbaşa müvafiq hüququn (əldə olunması (məsələn, miras payının müəyyən olunması, hüquq müəyyənedici sənədin verilməsi) barədə tələb irəli sürməli və həmin icraat çərçivəsində iddianın əsasını təşkil edən hüquqi faktı (məsələn mirası qanunla müəyyən olunmuş müddət ərzində faktiki qəbul etdiyini) sübuta yetirməlidir.

52. Belə ki, Azərbaycan Respublikasının mülki prosessual qanunvericiliyinə əsasən mülki işlər üzrə məhkəmə icraatının vəzifələri hər bir fiziki və yaxud hüquqi şəxsin Azərbaycan Respublikasının Konstitusiyasından, qanunlarından və digər normativ hüquqi aktlarından irəli gələn hüquq və mənafelərinin məhkəmədə təsdiq olunmasıdır. Fiziki və hüquqi şəxslər məhz özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədi ilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququna malikdirlər. Məhkəmə iş o halda başlanır ki, hər hansı fiziki və yaxud hüquqi şəxs öz hüququnun və ya qanunla qorunan mənafeyinin müdafiəsi və yaxud təsdiqi üçün məhkəməyə müraciət etmiş olsun (MPM-in 2.1, 4.1, 5.1-ci maddələri).

53. Bu baxımdan iddia icraatı qaydasında məhkəməyə verilən istənilən iddia tələbi üzrə deyil, elə iddia tələbi üzrə məhkəmə icraatı başlana bilər ki, həmin tələb şəxsin qanunvericilikdən irəli gələn hüquqlarının və ya qanunla qorunan mənafeyinin müdafiəsi və yaxud təsdiqi üçün verilmiş olsun. MPM-in 149 və 153-cü maddələri iddianın müvafiq olaraq qəbuledilənliyi və yolverilənliyi şərtlərini müəyyən etməklə yanaşı, Məcəllənin 151.1-ci maddəsi nəzərdə tutur ki, iddia ərizəsi bu Məcəllənin tələblərinə riayət edilməklə verildikdə, onun məhkəmə icraatı mümkündür.

54. Beləliklə, hüquq barədə mübahisə olduğu halda hər hansı hüquqi faktın müəyyən edilməsi barədə məsələyə xüsusi icraat qaydasında baxılması istisna edildiyi üçün həmin hüquqi fakt iddia icraatı qaydasında irəli sürülən tələbin əsasını təşkil edən hüquqi fakta və ya faktlardan birinə çevrilmiş olur. İddia icraatı qaydasında tələb irəli sürmüş iddiaçı isə öz tələbinin uğurlu olmasını təmin etmək üçün həmin faktın mövcud olduğunu, baş verdiyini sübuta yetirməli, həyata keçirilən icraat nəticəsində işin həmin halı müəyyən edildiyi və iddia tələbinin qanuni əsasının dispozisiya şərtlərinə uyğun olduğu halda isə iddianın məhkəmə tərəfindən təmin olunması üçün əsasdır.

55. Əks yanaşma yuxarıda sadalanan mülki prosessual normalara uyğun olmamaqla, istənilən faktın (işin halının) müəyyən edilməsi barədə iddia icraatı qaydasında müstəqil iddia

tələbinin irəli sürülməsinin mümkün olması mənasını verə bilər. Halbuki belə bir yanaşma mülki işlər üzrə məhkəmə icraatının məqsəd və vəzifələrinə ziddir.

56. Məhkəmə kollegiyası MPM-in yuxarıda sadalanan müddəalarına əsasən hesab edir ki, hüquq barəsində mübahisə olduğu hallarda MPM-in 307-ci maddəsində sadalanan hüquqi əhəmiyyətli faktların müəyyən edilməsi barədə tələblər iddia icraatı qaydasında ayrıca iddia tələbi kimi məhkəmədə mülki işin başlanmasına əsas ola bilməz. Belə olan hallarda iddiaçı hüquq barədə mübahisə edən tərəfə qarşı əldə etmək istədiyi hüquqi nəticənin (məsələn miras payın tanınması, vərəsəlik şəhadətnaməsinin verilməsi vəzifəsinin qoyulması, əmlakın bölünməsi, ziyanın ödənilməsi və s) əldə olunması ilə bağlı iddia irəli sürməli və iddiasının əsası kimi yuxarıda qeyd olunan hüquqi faktların mövcud olduğunu (baş verdiyini) sübuta yetirilməlidir.

57. Hüquq barəsində mübahisə olduğu halda hüquqi əhəmiyyətli faktın müəyyən edilməsi barədə iddia icraatı qaydasında müstəqil tələbin irəli sürülməsi isə yolverilməz olduğundan məhkəmənin icraatına qəbul edilə bilməz. Qanunda başqa hal nəzərdə tutulmayıbsa, belə iddia tələblərinin icraata qəbulundan məhkəmə tərəfindən MPM-in 153.2.1-ci maddəsinə əsasən imtina edilməli, yaxud əgər icraata qəbul edilibsə, MPM-in 261.0.1-ci maddəsinə əsasən iş üzrə icraata xitam verilməlidir.

58. Buna baxmayaraq həm birinci instansiya, həm də apellyasiya instansiyası məhkəməsi iddia icraatı qaydasında hüquqi əhəmiyyətli faktın müəyyən olunması barədə iddia tələbinə mahiyyəti üzrə baxaraq həmin tələbin təmin olunması barədə qətnamə çıxarmışdır.

59. Yuxarıda şərh edilənlərə görə də iddiaçı tərəfindən verilmiş kassasiya şikayəti qismən təmin edilməli, Naxçıvan MR Ali Məhkəməsinin Mülki kollegiyasının 24 may 2023-cü il tarixli 2(108)-71/2023 nömrəli qətnaməsi ləğv edilməli və iş üzrə icraata xitam verilməlidir.

60. Göstərilənlərə əsasən və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 416, 417 və 419-cu maddələrini rəhbər tutub məhkəmə kollegiyası

Qərara aldı:

İddiaçı tərəfindən verilmiş kassasiya şikayəti qismən təmin edilsin.

Naxçıvan MR Ali Məhkəməsinin Mülki kollegiyasının 24 may 2023-cü il tarixli 2(108)71/2023 nömrəli qətnaməsi ləğv edilsin və iş üzrə icraata xitam verilsin.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

65. 2(102)-4074/2023 nömrəli, 2023-cü il 6 noyabr tarixli qərar - Ali təhsil müəssislərinin inzibati hüquq münasibətlərinin subyekti kimi çıxış etdiyi mübahisələr

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu:

1. İddiaçı əcnəbi təhsilalan kimi Universitetlə bağlanmış təhsil müqaviləsinin ləğv olunması və onun Universitetdən xaric edilməsi barədə əmri mübahisələndirmiş və həmin təhsil müəssisəsinə bərpa olunmasını xahiş etmişdir.

2. Cavabdeh Azərbaycan Dövlət İqtisad Universiteti - dövlət tərəfindən Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusunda təsis edilmiş ali təhsil müəssisəsidir.

Kassasiya instansiya məhkəməsinin mövqeyi:

1. Ali təhsil müəssisləri bir sıra məsələlər üzrə mülki dövriyyənin müstəqil subyekti kimi mülki hüquq münasibətlərinə iştirak etsə də, ali təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsi, o cümlədən, tələblərin ali təhsil müəssisələrinə qəbul edilməsi və onların həmin müəssisələrdən xaric edilməsi ilə bağlı məsələlərdə inzibati hüquq münasibətlərinin subyekti kimi çıxış edirlər.

2. İddia tələbi publik hüquq münasibətləri ilə tənzimlənən sahədə araşdırma aparılmasını və inzibati orqanların (yaxud inzibati səlahiyyətlərin daşıyıcısı olan fiziki və hüquqi şəxslərin) belə münasibətlərdən irəli gələn fəaliyyətinə qiymət verilməsini tələb edirsə, həmin mübahisəyə mahiyyəti üzrə mülki məhkəmə icraatı qaydasında baxıla bilməz. Belə olan halda, ilk növbədə hüquq münasibətinin inzibati və ya xüsusi hüquqa aid olduğu müəyyənləşdirilməli, əgər mübahisələndirilən münasibətin hakimiyyət səlahiyyətlərinin həyata keçirilməsi ilə müşayiət olunan publik hüquq sahəsindəki fəaliyyətlə bağlı olduğu müəyyən edilərsə, mübahisəyə MPM-in 261.0.1-ci maddəsinin tətbiqi məsələsi müzakirə olunmalıdır.

Kassasiya instansiya məhkəməsinin qərarı MPM-in 31.1, 261.0.1, 387.2, 418.4, İPM-in 2.1, 2.2.5-ci, "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 1.1, 1.2-ci maddələrinə və "İnzibati və mülki hüquq münasibətlərindən irəli gələn mübahisələrin məhkəmə aidiyyətinə dair" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 4 saylı, 10 aprel 2015-ci il Qərarına istinadla əsaslandırılmışdır.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-4074/2023

06.11.2023-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi

Mülki kollegiyasının
iddiaçı cavabdeh Azərbaycan Dövlət İqtisad Universitetinə qarşı iş üzrə

Q Ə R A R I

Açar sözlər: əcnəbilərin ali təhsil hüququ, ali təhsil müəssisəsindən xaric etmə, inzibati mübahisə, ali təhsil müəssisəsinin hakimiyyət səlahiyyətlərini həyata keçirməsi

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Hüseynov Abiddin Qabil oğlu (məruzəçi), Babayev Zəki Baba oğlu və Nurməmmədov Əhməd Güləhməd oğlundan ibarət tərkibdə,

iddiaçı cavabdehə qarşı xarici tələbənin ali təhsil müəssisəsindən xaric edilməsinə dair əmrin ləğv edilməsi və tələbələr sırasına bərpa edilməsi tələbinə dair mülki iş üzrə Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(103)-4014/2023 nömrəli, 16 iyun 2023-cü il tarixli qətnaməsindən cavabdeh tərəfindən verilmiş kassasiya şikayətinə Azərbaycan Respublikası Ali Məhkəməsinin inzibati binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları

1. X.X.2004-cü il təvəllüdlü iddiaçı (bundan sonra – iddiaçı və ya təhsilalan) Rusiya Federasiyasının vətəndaşı kimi 2022-ci ildə ali təhsil almaq üçün cavabdeh (bundan sonra – cavabdeh və ya Universitet) müraciət etmişdir.

2. Tərəflər arasında 19 sentyabr 2022-ci il tarixli “Azərbaycan Dövlət İqtisad Universiteti ilə “Əcnəbi təhsilalan” arasında ödənişli təhsil almaq haqqında” müqavilə (bundan sonra – Müqavilə) imzalanmışdır.

3. Müqaviləyə əsasən, Universitet ödənişli əsaslarla əcnəbi təhsil alana Azərbaycan Respublikasının dövlət standartlarına cavab verən təhsil proqramları əsasında rus dilində əyani, bakalavr təhsil səviyyəsinə uyğun maliyyə ixtisası üzrə təhsil verməyi, əcnəbi təhsilalan isə seçdiyi ixtisas üzrə dövlət standartlarına uyğun təhsil almağı, hər tədris ili üçün 2600 manat məbləğində təhsil haqqının ödənilməsini öhdəsinə götürmüşdür (bənd 1). Əcnəbi təhsil alan Universitetə əyani təhsil alana formasında qəbulu rəsmiləşdirildiyi tarixdən 90 (doxsan) gün müddətində Azərbaycan Respublikasının ərazisində yaşamasını təsdiq edən sənəd təqdim edir (bənd 2.2.4) və təqdim etdiyi sənədlərin doğru olmadığı və mövcud qanunvericiliyinin tələblərinə cavab vermədiyi halda məsuliyyət daşıyır (bənd 2.2.5). Təhsil aldığı müddətdə əcnəbi təhsil alanın Universitetə qəbul zamanı Azərbaycan Respublikası vətəndaşlığının və ya Azərbaycan Respublikasında daimi yaşayış icazəsinin olduğu aşkarlanarsa, əcnəbi təhsil alan 5 iş günü müddətində məlumatlandırılır və Müqavilə birtərəfli qaydada ləğv olunaraq, Universitetin tələbələri sırasından xaric edilir (bənd 2.2.6). Əcnəbi təhsil alan Azərbaycan Respublikası ərazisində yaşamasını təsdiq edən sənədin surətini bu Müqavilənin 2.2.4.-cü yarımbəndi ilə müəyyən edilmiş müddətdə təhsil müəssisəsinə təqdim etməkdə Universitet əcnəbi təhsil alanla bağlanmış Müqaviləni ləğv etmək hüququna malikdir (bənd 3.1.4).

4. Universitetin 29 sentyabr 2022-ci il tarixli, 615/4/2022 №-li əmri ilə iddiaçı Rus iqtisad məktəbinin “Maliyyə” ixtisası üzrə təhsilin 1-ci ilinə qəbul olunmuşdur.

5. Universitetin 20 fevral 2023-cü il tarixli, 141/4/2023 №-li əmri ilə Müqavilə ləğv edilmiş və Müqavilənin 3.1.4-cü bəndinə əsasən iddiaçı 2022/2023-cü tədris ilinin II semestrindən Universitetin tələbələri sırasından xaric edilmişdir.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a) Birinci instansiya məhkəməsində icraat

6. İddiaçı cavabdehə qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, onun Universitetin tələbləri sırasından xaric edilməsinə dair 20.02.2023-cü il tarixli ***/*/**** saylı əmrinin ləğv edilməsinə və onun aldığı ixtisas üzrə Universitetin tələbələri sırasına bərpa edilməsinə dair qətnamə çıxarılmasını xahiş etmişdir.

7. İddiaçı tələbini onunla əsaslandırmışdır ki, Universitetdə təhsilini uğurla davam etdirməsinə, nümunəvi tələbə olmasına baxmayaraq, cari tədris ilinin 2-ci semestrində cavabdeh 20 fevral 2023-cü il tarixli ***/*/**** saylı əmr qəbul etmişdir. Həmin əmrdə qeyd edilmişdir ki, əmrin qəbul edilməsinə əsas Universitetin beynəlxalq əməkdaşlıq departamentinin direktorunun təqdimatıdır. Onun Universitetin tələbələri sırasından xaric olunmağı üçün əmrdə qeyd edilən heç bir hal mövcud deyildir. Universitetə qəbul edilərkən, cavabdeh tərəfindən tələb edilən bütün sənədlər təqdim edilmiş, əks halda 1-ci kursu oxuyub başa vurması və 2-ci kursun yarım ilindən çox müddətində təhsilini davam etdirməsi qeyri-mümkün olardı.

8. Cavabdehin nümayəndəsi məhkəməyə etiraz ünvanlayaraq qeyd etmişdir ki, iddiaçı Universitetə qəbul zamanı ikili vətəndaşlığı barədə düzgün məlumat verməli olduğu halda, yanlış məlumat vermiş, xarici pasport təqdim etməklə Azərbaycan Respublikası vətəndaşlığına mənsubiyyətini gizlətmişdir. İddiaçı, "Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında təhsil alması Qaydaları"na əsasən Azərbaycan Respublikasında müvəqqəti yaşayış icazəsi barədə kartı məhkəməyə təqdim etməmişdir. Buna görə də əcnəbi tələbə kimi təhsil almasının hüquqi əsası yoxdur.

9. Bakı Şəhəri Səbail Rayon Məhkəməsinin (bundan sonra – birinci instansiya məhkəməsi) 2(009)-754/2023 nömrəli, 12 aprel 2023-cü il tarixli qətnaməsi ilə (hakim İ.Rüstəmli) iddia təmin olunmuşdur.

10. Birinci instansiya məhkəməsi gəldiyi nəticə ilə bağlı qeyd etmişdir ki, cavabdeh iddiaçının təhsil hüququna etmiş olduğu məhdudiyyəti (universitetdən xaric edilmə əsasını) "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – "Təhsil haqqında" Qanun) 44.1-ci və 44.2-ci, Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin (bundan sonra – Miqrasiya Məcəlləsi) 3.0.1-ci maddələrinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 yanvar 2011-ci il tarixli, 09 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin 2.2-ci bəndinə istinadla izah edir. Lakin cavabdehin istinad etdiyi qanunvericilik aktlarında Azərbaycan vətəndaşlığı da olan xarici ölkə vətəndaşının sonuncu statusundan istifadə etməklə müqavilə əsasında ödənişli ali təhsil alması qadağan edilməmişdir.

11. Məhkəmə, həmçinin qeyd etmişdir ki, Azərbaycanda müqavilə əsasında ali təhsil almaq istəyən şəxslərin bu hüquqdan yararlanmaları üçün tələb olunan sənədlərin siyahısı, o cümlədən, Azərbaycan vətəndaşlığının olmaması barədə sənəd qanunvericilikdə göstərilməmiş, iddiaçıdan da bu barədə arayış tələb edilməmişdir. Tərəflər arasında bağlanmış müqavilədə də tələbənin Azərbaycan vətəndaşlığının olmaması şərti xüsusi olaraq göstərilməmiş, bu halın sonradan aşkar edilməsi müqavilənin ləğvinin əsası kimi nəzərdə tutulmamışdır. Hətta, iddiaçı ilə cavabdeh arasında bağlanmış müqavilədə tələbənin hüquqi statusu məhz "əcnəbi təhsilalan" kimi qeyd olunmuşdur. Göründüyü kimi, cavabdeh müqaviləni bağlayarkən tələbənin xarici ölkə vətəndaşlığını əsas götürmüşdür.

12. Məhkəmə hesab etmişdir ki, xarici ölkə vətəndaşlığı olan iddiaçının cavabdeh tərəfindən müqavilə əsasında ali təhsil almaq hüququndan Azərbaycan vətəndaşlığı faktına görə məhrum edilməsi dövlətin təhsil sahəsindəki təminatları ilə uzlaşmır. Ölkə qanunvericiliyi Bolonya sistemi çərçivəsində Azərbaycan Respublikası vətəndaşı olan şəxslərin Dövlət İmtahan Mərkəzi tərəfindən test üsulu ilə keçirilən qəbul imtahanından kənar Azərbaycanın ali təhsil müəssisələrində təhsil almaları imkanını tanıyır. Belə imkanın olduğu bir sistemdə, hazırkı halda iddiaçını məhz Azərbaycan vətəndaşı olmasına görə bu hüquqdan məhrum etməsi hüquqi məntiqə uyğun gəlmir. Çünki məhrumiyyətin qanuni məqsədi aydın deyil. Odur ki, "Ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin 2.2-ci bəndinin əks mənasının Azərbaycan vətəndaşlığı olan xarici ölkə vətəndaşının müqavilə əsasında ali təhsil almaq hüququna qadağa kimi təfsir olunması dövlətin təhsil siyasəti və standartları ilə də bir araya sığmır. Azərbaycan vətəndaşlarından fərqli olaraq xarici ölkə (Rusiya Federasiyasının) vətəndaşlığı da olan iddiaçının universitetdən xaric edilməsinin hansı məqsədə xidmət etməsi Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən əsaslandırılmamışdır.

13. Məhkəmə bu nəticəyə gəlmişdir ki, iddiaçının təhsil hüququna müdaxilə edilməsi üçün zəruri olan şərtlər müəyyən edilməmişdir. Buna görə də iddiaçı ilə cavabdeh arasında bağlanmış ödənişli ali təhsil almaq haqqında müqavilə etibarlıdır və tərəflər üçün hüquqi nəticə (icrası məcburi olan öhdəliklər) yaradır.

14. Məhkəmə öz mövqeyini Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin IX hissəsinə, Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra – Mülki Məcəllə) 385.1, 399.1-ci, Avropa Konvensiyasının 1 saylı Protokolunun 2-ci maddəsinə, AİHM-nin Mehmet Reşit Arslan ve Orhan Bingöl Türkiyəyə qarşı 18 iyun 2019-cu il qərarına, Velyo Velev Bolqarıstana qarşı 27 may 2014-cü il tarixli qərarına, "Təhsil haqqında" Qanunun 5.1-5.2-ci

maddələrinə, Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 15.11.2017-ci il tarixli, 5/2 nömrəli Qərarı ilə təsdiq edilmiş, "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, tibb təhsilinin əsas tibb təhsili üzrə təhsilalanların köçürülməsi, xaric edilməsi, bərpa olunması və akademik məzuniyyət götürülməsinə dair" Qaydalarının 2.2, 2.8-ci bəndinə və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra - MPM) 14.2, 77.1, 217.4-cü maddələrinə istinadla əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

15. Cavabdeh apellyasiya şikayəti verərək, birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv edilməsini, iddianın rədd olunmasını xahiş etmişdir.

16. Şikayət belə əsaslandırılmışdır ki, iddiaçının vətəndaşlığı haqqında universitetdə qəbul zamanı məlumat olsaydı, onunla müqavilə bağlanması baş tutmayacaqdı. Ali təhsil müəssisəsinə qəbul zamanı əcnəbi vətəndaşlar ikili vətəndaşlıq hallarını və daimi yaşayış icazəsi kartına sahib olduqlarını gizlədirlərsə, onların ikili vətəndaşlıq hallarının və daimi yaşayış icazəsinə sahib olması hallarının müəyyən olunması Universitetin imkanı xaricindədir. İddiaçının Universitetə qəbul vaxtı Rusiya Federasiyasının vətəndaşlığı ilə yanaşı, Azərbaycan Respublikasının vətəndaşlığına sahib olmasını nəzərə alaraq, onun təhsilini əcnəbi tələbə statusunda davam etdirməsi haqlı olaraq məqsədəuyğun hesab edilməmişdir. Buna görə də iddiaçının "Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında təhsil alması Qaydaları"nın 1.2-ci bəndinə əsasən ("Bu qaydalar Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilərə şamil edilmir. Həmin şəxslər ölkə daxilində Azərbaycan Respublikasının vətəndaşları ilə eyni əsaslarla təhsil hüququna malikdirlər.") əcnəbi tələbə kimi təhsil almasının hüquqi əsası yoxdur.

17. Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının (bundan sonra – apellyasiya instansiyası məhkəməsi 2(103)-4014/2023 nömrəli, 16 iyun 2023-cü il tarixli qətnaməsi ilə (hakimlər – N.Cəfərov (sədrlik edən və məruzəçi), E.Kazımov və M.Tağızadə) apellyasiya şikayəti təmin edilmədən, birinci instansiya məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmışdır.

18. Apellyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsinin gəldiyi nəticə və əsaslandırma ilə razılaşaraq qeyd etmişdir ki, Rusiya Federasiyası vətəndaşı kimi təhsil müəssisəsinə qəbul olunan tələbənin, qəbul zaman həm də Azərbaycan Respublikasının vətəndaşı olması sonradan aşkar edilirsə, tələbənin bu əsasla təhsil müəssisəsindən xaric edilməsi vətəndaş hüquqlarına verilən təminata ziddir. Bundan belə nəticə hasil olur ki, Azərbaycan Respublikasının ərazisində əcnəbinin statusu Azərbaycan Respublikası vətəndaşının statusundan yüksəkdir, yəni iddiaçı Azərbaycan Respublikası vətəndaşı olduğuna görə təhsilini davam etdirə bilməz, əgər Rusiya Federasiyasının vətəndaşı olsa idi, təhsilini davam etdirə bilərdi.

19. Məhkəmə, həmçinin qeyd etmişdir ki, iddiaçı əcnəbi tələbə kimi təhsil müəssisəsinə qəbul edilən zaman, onun Rusiya Federasiyasının vətəndaşlığına mənsubiyyətini təsdiq edən sənəd həqiqi olub. Əgər iddiaçının Rusiya Federasiyasının vətəndaşlığına mənsubiyyətini təsdiq edən sənəd saxta olsa idi, belə halda o, təhsil müəssisəsindən xaric edilə bilərdi. Əks təqdirdə, eyni məntiqlə, əcnəbi tələbə təhsil müəssisəsinə qəbul edildikdən sonra Azərbaycan Respublikasının vətəndaşlığını əldə edərsə, o, təhsil müəssisəsindən xaric edilməlidir.

20. Bundan başqa, tərəflər arasındakı müqavilənin 3.1.4-cü bəndində qeyd olunub ki, əcnəbi tələbə Azərbaycan Respublikasının ərazisində yaşamasını təsdiq edən sənədin surətini bu müqavilənin 2.2.4-cü yarımbəndi ilə müəyyən edilmiş müddətdə təhsil müəssisəsinə təqdim etmədikdə təhsil müəssisəsi əcnəbi təhsilalan ilə bağlanmış müqaviləni ləğv etmək hüququna malikdir. Bu bəndin mahiyyəti ondan ibarətdir ki, Azərbaycan Respublikasında yaşamaq hüququ olmayan şəxsin Azərbaycan Respublikasında əyani təhsil alması mümkün deyil. Lakin həmin bənddə qeyd olunan "Azərbaycan Respublikasının ərazisində yaşamanı təsdiq edən sənəd barədə" tələb ikili vətəndaşlıq halında Azərbaycan Respublikasının vətəndaşı olan şəxsə münasibətdə tam təmin olunmuş sayılır, çünki Azərbaycan Respublikası vətəndaşının Azərbaycan Respublikasının ərazisində yaşamaq hüququ var, yəni onun Azərbaycan

Respublikasının ərazisində əyani təhsil alması mümkündür. Ona görə də müqavilənin 3.1.4-cü bəndinin göstərişi cavabdehə iddiaçını təhsil müəssisəsindən xaric etməyə əsas vermir.

21. Məhkəmə, mövqeyini Azərbaycan Respublikası Konstitusiyasının 52-ci maddəsinə, Miqrasiya Məcəlləsinin 74.1-cü maddəsinə, "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin 1-ci hissəsinə istinad edərək əsaslandırmışdır.

Kassasiya şikayətinin və onlara qarşı etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

22. Cavabdeh kassasiya şikayəti verərək, apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv edilməsini, iddia tələbinin rədd olunması barədə yeni qərar qəbul olunmasını xahiş etmişdir.

23. Şikayət onunla əsaslandırılmışdır ki, iddiaçı ilə cavabdeh arasında bağlanan müqavilə xarici vətəndaş olduğu üçün bağlanmışdır, lakin iddiaçı Azərbaycan Respublikasının vətəndaşı olduğu təqdirdə digər şərtlərlə ali təhsil müəssisəsinə daxil olacağından xəbərdar idi. Mülki Məcəllənin 422.1-ci maddəsinin tələbinə əsasən, iddiaçı faktiki olaraq Azərbaycan Respublikasının vətəndaşı olduğunu gizlətdiyinə görə bu şərtlərlə bu müqaviləni bağlaması həmin müqaviləni etibarsız edir.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

24. Kassasiya şikayətinə qarşı etiraz daxil olmamışdır.

Tətbiq edilən hüquq

"Təhsil haqqında" Qanun

25. Maddə 5.1. Dövlət hər bir vətəndaşın təhsil alması üçün müvafiq şəraitin yaradılmasına təminat verir və təhsilin hər hansı pilləsindən, səviyyəsindən və formasından məhrum edilməsinə yol vermir.

26. Maddə 26.2. Ali və orta ixtisas təhsili müəssisələrinə, həmçinin hazırlıq qruplarına tələbə qəbulu biliyin qiymətləndirilməsi üzrə keçirilən imtahanlarda abituriyentlərin əldə etdikləri nəticələrə əsasən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada həyata keçirilir.

27. Maddə 44.1 Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında təhsilin hər hansı pilləsində təhsil alması və ya ixtisas artırması Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, dövlət tərəfindən müəyyən edilmiş kvota və təhsil müəssisəsinin, hüquqi və fiziki şəxslərin birbaşa bağladıqları müqavilələr əsasında həyata keçirilir.

28. Maddə 44.2. Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında təhsil alması qaydaları, xarici ölkələrin ali təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası) qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş normativ hüquqi aktlarla tənzimlənir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 39 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları"

29. Bənd 1.1. Bu Qaydalar "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 26.2-ci və 26.4-cü maddələrinə əsasən hazırlanmışdır və Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun fəaliyyət göstərən dövlət, bələdiyyə və özəl ali təhsil müəssisələrinə, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrinə tələbə qəbulu qaydalarını müəyyən edir.

30. Bənd 1.6. Ali təhsil müəssisələrinə tələbə qəbulu vətəndaşların təhsil hüququnu tam təmin etməklə, müvafiq təhsil səviyyəsinə uyğun olan təhsil proqramlarını daha yaxşı mənimsəmiş qabiliyyətli və hazırlıqlı abituriyentlərin ixtisası və təhsil müəssisəsini sərbəst seçimi əsasında, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 26.5-ci və 26.53-cü maddələrində göstərilən hallar istisna olmaqla, müsabiqə yolu ilə həyata keçirilir. Ali təhsil müəssisələrinə tələbə qəbulu abituriyentlərin müvafiq tədris ilində biliyin qiymətləndirilməsi üzrə mərkəzləşdirilmiş qaydada bu Qaydaların 3-cü hissəsində göstərilən iki mərhələdə keçirilən imtahanda (qəbul imtahanında) əldə etdikləri nəticələrə əsasən Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən həyata keçirilir

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 1 may tarixli 125 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında təhsil alması Qaydaları"

31. Bənd 1.1. Bu Qaydalar "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 2.2-ci bəndinə əsasən hazırlanmışdır və Azərbaycan Respublikasının vətəndaşlarının xarici ölkələrin təhsil müəssisələrində, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin tabeliyindən və mülkiyyət formasından asılı olmayaraq təhsilin bütün pillə və səviyyələri, habelə tədris dilini zəif bilən əcnəbilərin hazırlıq sinif və kursları üzrə Azərbaycan Respublikasının təhsil müəssisələrində, həmçinin ali təhsilin doktorantura və magistratura səviyyələri üzrə elmi müəssisə və təşkilatlarda və tibb təhsilinin rezidentura səviyyəsi üzrə klinik bazalarında təhsil almasına dair ümumi tələbləri müəyyən edir.

32. Bənd 1.2. Bu Qaydalar Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilərə şamil edilmir. Həmin şəxslər ölkə daxilində Azərbaycan Respublikasının vətəndaşları ilə eyni əsaslarla təhsil hüququna malikdirlər.

33. Bənd 3.1. Əcnəbilərin təhsil müəssisələrində əvvəlki təhsilinə uyğun gələn təhsil səviyyəsinə və ya əlavə təhsilin hər hansı istiqamətinə qəbulu aşağıdakı əsaslarla həyata keçirilir:

3.1.1. təhsil sahəsində Azərbaycan Respublikası ilə xarici ölkələr arasında bağlanılmış müqavilələrə uyğun müəyyənləşdirilmiş kvota əsasında;

3.1.2. təhsil müəssisələrinin iştirak etdiyi beynəlxalq proqramlar əsasında;

3.1.2-1. dövlət tərəfindən müəyyən edilmiş təhsil qrantı proqramı əsasında;

3.1.3. təhsil müəssisələri ilə xarici ölkələrin təhsil müəssisələri arasında bağlanılmış müqavilələr əsasında;

3.1.4. təhsil müəssisəsinin hüquqi şəxslərlə birbaşa bağladığı müqavilələr əsasında;

3.1.5. təhsil müəssisəsinin fiziki şəxslərlə birbaşa bağladığı müqavilələr əsasında;

3.1.6. "Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 860 nömrəli Fərmanının 2.1.2-ci və 2.1.4-cü yarımbəndlərinə uyğun olaraq, Azərbaycan Respublikasının orta ixtisas təhsil müəssisələrinə, ali təhsil müəssisələrində ali təhsilin bakalavriat və magistratura (əsas (baza ali) tibb təhsili və rezidentura) səviyyələrinə, Azərbaycan Milli Elmlər Akademiyasında magistratura səviyyəsinə Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən mərkəzləşdirilmiş qaydada keçirilən tələbə qəbulu müsabiqəsi əsasında.

34. Bənd 3.8. Əcnəbilər Azərbaycan Respublikasında peşə təhsili və ümumi təhsil müəssisələrinə, habelə əyani təhsilalma formasında ali və orta ixtisas təhsili müəssisələrinə qəbulu rəsmiləşdirildiyi tarixdən 90 (doxsan) gün müddətində ölkə ərazisində yaşamalarını təsdiq edən sənədin surətini təhsil müəssisəsinə təqdim etməlidirlər.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 15 yanvar tarixli, 7 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi

35. Bənd 1.3. Ali təhsil müəssisəsi ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olub, "Təhsil haqqında" Qanuna uyğun olaraq müvafiq səviyyələr üzrə ali təhsil, habelə orta ixtisas və əlavə təhsil proqramlarını həyata keçirən, "Elm haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən fundamental, nəzəri-metodoloji, pedaqoji-metodiki və tətbiqi elmi tədqiqatlar aparan publik hüquqi şəxsdir.

36. Bənd 3.1. Ali təhsil müəssisəsinin nizamnaməsi ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, ali təhsil müəssisəsinin vəzifələri aşağıdakılardır:

3.1.1. ali təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək;

3.1.2. dövlət təhsil standartlarına uyğun olaraq, təhsilalanların zəruri biliyə və həyati bacarıqlara yiyələnməsini təmin etmək;...

3.1.16. ali təhsil müəssisəsinin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə Azərbaycan Respublikasının "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və

“İnformasiya əldə etmək haqqında” qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

37. Bənd 3.4. Ali təhsil proqramlarına və onların həyata keçirilməsinə qoyulan ümumi tələbləri Azərbaycan Respublikasının Nazirlər Kabineti ali təhsil pilləsi üzrə təsdiq edilən dövlət təhsil standartı ilə müəyyənləşdirir.

38. Bənd 3.5. Ali təhsil müəssisəsində tədris ali təhsil pilləsi üzrə təhsilin məzmununu və mənimsənilməsi qaydalarını müəyyən edən və Azərbaycan Respublikası

Təhsil Nazirliyinin təsdiq etdiyi təhsil proqramları ilə həyata keçirilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 22 avqust tarixli 365 nömrəli Qərarı ilə təsdiq edilmiş, “Azərbaycan Dövlət İqtisad Universitetinin Nizamnaməsi”

39. Bənd 1.1. Azərbaycan Dövlət İqtisad Universiteti “Bakı Dövlət Universitetinin və Azərbaycan Dövlət İqtisad Universitetinin yenidən təşkili haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 iyun tarixli 3020 nömrəli Sərəncamına əsasən, Azərbaycan Dövlət İqtisad Universitetinin Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusuna malik olan Azərbaycan Dövlət İqtisad Universitetinə çevrilmə yolu ilə yenidən təşkili nəticəsində yaradılmışdır və onun hüquqi varisidir.

40. Bənd 1.2. Azərbaycan Dövlət İqtisad Universiteti ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olub, “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müvafiq səviyyələr üzrə ali təhsil, habelə orta ixtisas və əlavə təhsil proqramlarını həyata keçirən, “Elm haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən fundamental, nəzəri-metodoloji, pedaqoji-metodiki və tətbiqi elmi tədqiqatlar aparan publik hüquqi şəxsdir.

Mülki Prosessual Məcəllə

41. Maddə 14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

42. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

43. Maddə 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

44. Maddə 261.0. Hakim iş üzrə icraata aşağıdakı hallarda xitam verir:

261.0.1. iş məhkəmədə və ya mülki məhkəmə icraatı qaydasında baxılmalı deyildirsə.

45. Maddə 387.2. Şikayətin dəlillərindən asılı olmayaraq birinci instansiya məhkəməsinin qətnaməsi və ya qərardadı aşağıdakı hallarda ləğv edilməlidir:

387.2.8. iddianın baxılmamış saxlanılması və ya iş üzrə icraata xitam verilməsi üçün bu Məcəllədə müəyyən edilmiş əsaslar olduğu halda məhkəmə işə mahiyyəti üzrə baxmışsa.

46. Maddə 407.2. Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir.

47. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

48. Maddə 416.2. Apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 418.4-cü maddəsində nəzərdə tutulmuş prosessual hüquq pozuntusu hesab edilən hallara yol verilməsi şikayətin hədlərindən və dəlillərindən asılı olmayaraq yoxlanılmalıdır.

49. Maddə 418.4. Apellyasiya instansiyası məhkəməsinin qətnaməsi və ya qərardadı şikayətin dəlillərindən asılı olmayaraq aşağıdakı hallarda ləğv edilməlidir: ...418.4.10. iddianın baxılmamış saxlanılması və ya iş üzrə icraata xitam verilməsi üçün bu Məcəllədə müəyyən edilmiş əsaslar olduğu halda məhkəmə işə mahiyyəti üzrə baxmışsa.

Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi

50. Maddə 2.1. Qanunla başqa aidiyyət qaydası müəyyən edilməmişdirsə, inzibati mübahisələrə dair işlər üzrə məhkəmə icraatı inzibati məhkəmələr və inzibati kollegiyalar tərəfindən həyata keçirilir

51. Maddə 2.2.5. İnzibati hüquq münasibətinin mövcud olmasına və ya olmamasına, habelə inzibati aktın etibarsız sayılmasına dair iddialara (müəyyən etmə və ya tanınma haqqında iddia) inzibati məhkəmə icraatı qaydasında baxılır.

Kassasiya baxışının hədləri

52. Qanunun tələbinə görə, kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

53. Apellyasiya instansiyası məhkəməsinin aktı cavabdehin kassasiya şikayəti əsasında tam yoxlanılır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

54. Baxılan iş üzrə iddiaçı əcnəbi təhsilalan kimi Universitetlə bağlanmış təhsil müqaviləsinin ləğv olunması və onun Universitetdən xaric edilməsi barədə əmri mübahisələndirir və həmin təhsil müəssisəsinə bərpa olunmasını xahiş edir.

55. İddiaçının həmin müqaviləni əcnəbi kimi bağladığı, sonradan onun Azərbaycan Respublikası vətəndaşlığının da olduğunun müəyyən edildiyi işin mübahisə olunmayan hallarıdır.

56. Nəzərə alınmalıdır ki, Azərbaycanda daimi yaşayış yeri olmayan əcnəbilərin Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə qəbulu Azərbaycan Respublikası vətəndaşlarının, o cümlədən, Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilərin belə müəssisələrə qəbulundan fərqli tənzimlənir.

57. Belə ki, qüvvədə olan qanunvericiliyə əsasən ali təhsil müəssisələrinə vətəndaşların qəbulu "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 26.5-ci və 26.5-3-cü maddələrində göstərilən hallar istisna olmaqla, müsabiqə yolu ilə, abituriyentlərin müvafiq tədris ilində biliyin qiymətləndirilməsi üzrə mərkəzləşdirilmiş qaydada iki mərhələdə keçirilən imtahanda (qəbul imtahanında) əldə etdikləri nəticələrə əsasən Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən həyata keçirilir (§ 30). Eyni qayda Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilərə də şamil edilmir (§ 32).

58. Azərbaycan Respublikasında daimi yaşayış yeri olmayan əcnəbilər isə ali təhsil müəssisələrinə Azərbaycan Respublikası ilə xarici ölkələr arasında bağlanılmış müqavilələrə uyğun müəyyənləşdirilmiş kvota əsasında; təhsil müəssisələrinin iştirak etdiyi beynəlxalq proqramlar əsasında; dövlət tərəfindən müəyyən edilmiş təhsil qrantı proqramı əsasında; təhsil müəssisələri ilə xarici ölkələrin təhsil müəssisələri arasında bağlanılmış müqavilələr əsasında; təhsil müəssisəsinin hüquqi şəxslərlə birbaşa bağladığı müqavilələr əsasında; təhsil müəssisəsinin fiziki şəxslərlə birbaşa bağladığı müqavilələr əsasında; habelə Dövlət İmtahan Mərkəzi tərəfindən mərkəzləşdirilmiş qaydada keçirilən tələbə qəbulu müsabiqəsi əsasında qəbul edilə bilərlər. Mövcud qaydalar ali təhsil müəssisəsinə qəbul edilmiş əcnəbilərin üzərinə belə müəssisəyə qəbulu rəsmiləşdirildiyi tarixdən 90 gün müddətində ölkə ərazisində yaşamalarını təsdiq edən sənədin surətini təqdim etmək vəzifəsi qoyur (§ 33-34).

59. İstinad olunan maddi hüquq normalarının tələblərindən göründüyü kimi vətəndaşların və əcnəbilərin ali təhsil müəssisələrinə qəbulu və həmin müəssisələrdən xaric edilməsi ilə bağlı yaranan hüquq münasibətləri dövlət tərəfindən həyata keçirilən təhsil siyasətinin tərkib hissəsi olmaqla publik hüquq münasibətlərinə aiddir. Bu münasibətlərdə hakimiyyət səlahiyyətlərinin icraçısı olan inzibati orqanlar qismində Təhsil Nazirliyi və onun tabeliyində olan qurumlar, o cümlədən ali təhsil müəssisələri çıxış edirlər.

60. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 avqust 2007-ci il tarixli, 136 №li Qərarı ilə təsdiq edilmiş "İnzibati orqanların Təsnifatı"nın V hissəsinə müvafiq olaraq qanuna əsasən inzibati akt qəbul etmək səlahiyyəti verilmiş hər hansı fiziki və ya hüquqi şəxslər də inzibati orqanlara aiddir.

61. Baxılan iş üzrə cavabdeh dövlət tərəfindən Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusunda təsis edilmiş ali təhsil müəssisəsidir (§ 39).

62. Cavabdehə qanunvericiliklə ali təhsil müəssisəsi kimi “Təhsil haqqında” Qanuna uyğun olaraq müvafiq səviyyələr üzrə ali təhsil proqramlarını həyata keçirmək səlahiyyəti, fəaliyyət istiqamətlərinə uyğun olaraq, digər vəzifələrlə yanaşı, ali təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək; dövlət təhsil standartlarına uyğun olaraq, təhsilalanların zəruri biliyə və həyati bacarıqlara yiyələnməsini təmin etmək; öz fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə Azərbaycan Respublikasının “Vətəndaşların müraciətləri haqqında”, “İnzibati icraat haqqında” və “İnformasiya əldə etmək haqqında” qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək vəzifələri də həvalə edilmişdir (§ 35-36).

63. Nəzərə alınmalıdır ki, ölkədə ali təhsil proqramlarına və onların həyata keçirilməsinə qoyulan ümumi tələbləri Azərbaycan Respublikasının Nazirlər Kabineti ali təhsil pilləsi üzrə təsdiq edilən dövlət təhsil standartı ilə müəyyənləşdirir. Ali təhsil müəssisəsində tədris ali təhsil pilləsi üzrə təhsilin məzmununu və mənimsənilməsi qaydalarını müəyyən edən və Azərbaycan Respublikası Təhsil Nazirliyinin təsdiq etdiyi təhsil proqramları ilə həyata keçirilir (§ 37-38).

64. Göründüyü kimi ali təhsil müəssisləri bir sıra məsələlər üzrə mülki dövriyyənin müstəqil subyekti kimi mülki hüquq münasibətlərinə iştirak etsə də, ali təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsi, o cümlədən, tələblərin ali təhsil müəssisələrinə qəbul edilməsi və onların həmin müəssisələrdən xaric edilməsi ilə bağlı məsələlərdə inzibati hüquq münasibətlərinin subyekti kimi çıxış edirlər.

65. “İnzibati və mülki hüquq münasibətlərindən irəli gələn mübahisələrin məhkəmə aidiyyətinə dair” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 4 saylı, 10 aprel 2015-ci il Qərarına görə mübahisənin məhkəmə aidiyyətinin müəyyən edilməsi üçün ilk növbədə mübahisənin tərəflərinin hüquqi vəziyyəti və onların arasındakı münasibətlərin ümumi (publik), yaxud xüsusi hüququn nizamasalma predmetinə aid olduğu müəyyən edilməlidir. Xüsusi hüquq, onun subyektləri olan fiziki və hüquqi şəxslər arasında yaranan hüquq münasibətlərini tənzimləyir; xüsusi hüquq münasibətlərinin tərəfləri bərabər mövqedədir, onlar öz iradələrini ifadə etməkdə sərbəstdirlər və heç biri digərinə münasibətdə hakimiyyət səlahiyyətlərini tətbiq etmir. Ümumi (publik) hüquq isə, publik hakimiyyət daşıyıcıları (Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları, onların yerli (struktur) və digər qurumları, bələdiyyələr, habelə qanuna əsasən inzibati akt qəbul etmək səlahiyyəti verilmiş hər hansı fiziki və ya hüquqi şəxs) ilə fiziki və ya hüquqi şəxslər arasında olan münasibətləri tənzimləyir. Bu münasibətlərdə inzibati orqan qanunla ona həvalə edilmiş inzibati funksiyanı yerinə yetirir və digər tərəfə münasibətdə hakimiyyət səlahiyyətlərini tətbiq edir. İnzibati orqanın iştirak etdiyi hüquq münasibətinin inzibati və ya xüsusi hüquqi münasibət olduğunu müəyyənləşdirərkən inzibati orqanın həmin münasibətdə xüsusi hüququn subyekti (mülki dövriyyənin iştirakçısı) kimi iştirak etdiyinin, yaxud hakimiyyət səlahiyyətlərinin subyekti kimi inzibati orqanın yalnız ona xas olan fəaliyyəti həyata keçirdiyinin müəyyən edilməsi vacibdir. Bu zaman ümumi (publik) hüquq sahəsinin ictimai idarəetmə ilə bağlı olması və hakimiyyət səlahiyyətlərinin tətbiq edilməsi ilə müşayiət olunduğu nəzərə alınmalıdır. İnzibati mübahisələr inzibati orqanla fiziki və hüquqi şəxslər arasında inzibati aktın qəbul edilməsi, qəbul edilməsindən imtina olunması, ləğv edilməsi, dəyişdirilməsi, etibarsız sayılması, habelə inzibati orqanın faktiki xarakterli hərəkətləri (fəaliyyəti) və s. ilə bağlı yaranan münasibətlərdən irəli gəlir. Bu səbəbdən inzibati orqanların xaricə yönələn və maraqlı şəxsin publik hüquq sahəsindən irəli gələn bu və ya digər hüququn əldə edilməsi, hüququnun tanınması və ya hüquqlarının həyata keçirilməsi ilə bağlı inzibati orqana müraciətinin nəticəsi olaraq, yaxud inzibati orqanın öz təşəbbüsü ilə qəbul etdiyi aktlarının ləğv edilməsi və ya dəyişdirilməsi barədə (mübahisələndirmə haqqında), yaxud həmin aktların etibarsızlığının (qanunsuz) tanınması barədə (müəyyən etmə və tanınma haqqında) iddialara inzibati məhkəmə icraatı qaydasında baxılır (2, 3.1, 4 və 5.1-ci bəndlər).

66. “Inzibati icraat haqqında” Qanunun 1.1-ci maddəsinə görə bu Qanun inzibati aktların qəbul edilməsi, icra olunması və ya ləğv edilməsi ilə bağlı inzibati orqanlar tərəfindən həyata keçirilən fəaliyyətin hüquqi əsaslarını, prinsiplərini və prosedur qaydalarını müəyyən edir. Həmin Qanunun 1.2-ci maddəsinə əsasən isə bu Qanunun müddəaları inzibati orqanların fiziki və ya hüquqi şəxslərə münasibətdə faktiki xarakterli digər fəaliyyətinə (hərəkətlərinə) də şamil olunur. İnzibati Prosessual Məcəllənin 1.1-ci maddəsində isə təsbit edilmişdir ki, bu Məcəllə

inzibati hüquq münasibətləri ilə bağlı mübahisələrin məhkəmə aidiyyətini, həmin mübahisələrə məhkəmədə baxılmasının və həll edilməsinin prosessual prinsiplərini və qaydalarını müəyyən edir. Həmin Məcəllənin 2.1-ci maddəsinə görə qanunla başqa aidiyyət qaydası müəyyən edilməmişdirsə, inzibati mübahisələrə dair işlər üzrə məhkəmə icraatı inzibati məhkəmələr və inzibati kollegiyalar tərəfindən həyata keçirilir.

67. MPM-in 31.1-ci maddəsinə müvafiq olaraq aidiyyət qaydalarının pozulmasına yol verilmir.

68. Qeyd olunmalıdır ki, iddia tələbi publik hüquq münasibətləri ilə tənzimlənən sahədə araşdırma aparılmasını və inzibati orqanların (yaxud inzibati səlahiyyətlərin daşıyıcısı olan fiziki və hüquqi şəxslərin) belə münasibətlərdən irəli gələn fəaliyyətinə qiymət verilməsini tələb edirsə, həmin mübahisəyə mahiyyəti üzrə mülki məhkəmə icraatı qaydasında baxıla bilməz. Belə olan halda, ilk növbədə hüquq münasibətinin inzibati və ya xüsusi hüquqa aid olduğu müəyyənləşdirilməli, əgər mübahisələndirilən münasibətin hakimiyyət səlahiyyətlərinin həyata keçirilməsi ilə müşayiət olunan publik hüquq sahəsindəki fəaliyyətlə bağlı olduğu müəyyən edilərsə, mübahisəyə MPM-in 261.0.1-ci maddəsinin tətbiqi məsələsi müzakirə olunmalıdır.

69. Buna baxmayaraq birinci instansiya məhkəməsi yuxarıda qeyd olunan məsələlər üzrə hər hansı hüquqi dəyərləndirmə aparmadan, hazırkı işə mahiyyəti üzrə baxmış və iddianın təmin olunması barədə qətnamə qəbul etmişdir.

70. Eyni zamanda birinci instansiya məhkəməsi tərəflər arasında bağlanmış təhsil müqaviləsinin müddəalarına da düzgün hüquqi qiymət verməmiş, mövqeyini həmçinin onunla əsaslandırmışdır ki, tərəflər arasında bağlanmış müqavilədə də tələbənin Azərbaycan vətəndaşlığının olmaması şərti xüsusi olaraq göstərilməmiş, bu halın sonradan aşkar edilməsi müqavilənin ləğvinin əsası kimi nəzərdə tutulmamışdır. Halbuki tərəflər arasında müqavilədə onun məhz əcnəbi təhsilalanla bağlandığı xüsusi qeyd edilmiş, həmin müqavilə "Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında təhsil alması Qaydaları"nın əlavəsi olan "Azərbaycan Respublikasının təhsil müəssisəsi ilə əcnəbi tələbə arasında ödənişli təhsil almaq haqqında" nümunəvi müqaviləyə uyğun olaraq tərtib edilmişdir. Tərəflər arasında bağlanmış müqavilədə nəzərdə tutulmuşdur ki, əcnəbi təhsilalan Universitetə əyani təhsilalana formasında qəbulu rəsmiləşdirildiyi tarixdən 90 (doxsan) gün müddətində Azərbaycan Respublikasının ərazisində yaşamasını təsdiq edən sənəd təqdim etməlidir (bənd 2.2.4) və təqdim etdiyi sənədlərin doğru olmadığı və mövcud qanunvericiliyinin tələblərinə cavab vermədiyi halda məsuliyyət daşıyır (bənd 2.2.5). Müqavilənin 2.2.6-cı bəndində isə nəzərdə tutulmuşdur ki, təhsil aldığı müddətdə əcnəbi təhsilalanın Universitetə qəbul zamanı Azərbaycan Respublikası vətəndaşlığının və ya Azərbaycan Respublikasında daimi yaşayış icazəsinin olduğu aşkarlanarsa, əcnəbi təhsilalan 5 iş günü müddətində məlumatlandırılır və Müqavilə birtərəfli qaydada ləğv olunaraq, Universitetin tələbələri sırasından xaric edilir. Müqaviləyə əsasən əcnəbi təhsilalan Azərbaycan Respublikası ərazisində yaşamasını təsdiq edən sənədin surətini bu Müqavilənin 2.2.4.-cü yarımbəndi ilə müəyyən edilmiş müddətdə təhsil müəssisəsinə təqdim etməkdə Universitet əcnəbi təhsilalanla bağlanmış Müqaviləni ləğv etmək hüququna malikdir (bənd 3.1.4).

71. Qeyd olunanlarla yanaşı, birinci instansiya məhkəməsi öz mövqeyini əsaslandırarkən, həmçinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15.01.2019-cu il tarixli qərarı ilə ləğv edilmiş və tərəflər arasında təhsil müqaviləsinin bağlandığı və xitam olduğu dövrdə artıq qüvvədə olmayan "Ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsinə" istinad etmişdir.

72. İşə baxmış apellyasiya instansiyası məhkəməsi yuxarıda sadalanan maddi və prosessual hüquq normalarının tələblərinin pozulmasına baxmayaraq, birinci instansiya məhkəməsinin qətnaməsini qanuni və əsaslı hesab etmiş və dəyişdirilmədən saxlamışdır. Halbuki MPM-in 385.1.1-ci maddəsinə əsasən maddi və ya prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq edilməməsi birinci instansiya məhkəməsinin qətnaməsinin ləğvi üçün əsas, Məcəllənin 387.2-ci maddəsinə əsasən isə iş üzrə icraata xitam verilməsi üçün bu Məcəllədə müəyyən edilmiş əsaslar olduğu halda işə mahiyyəti üzrə baxılması şikayətin dəlillərindən asılı olmayaraq birinci instansiya məhkəməsinin qətnaməsinin ləğvi üçün əsasdır.

73. Ona görə də kassasiya şikayəti qismən təmin edilməli, qətnamə ləğv edilərək, iş yeni apelyasiya baxışına göndərilməli, işə yenidən baxılarkən birinci instansiya məhkəməsi tərəfindən buraxılmış maddi və prosessual hüquq normalarının pozuntusuna hüquqi qiymət verilməli və həmin normaların tələblərinə cavab verən məhkəmə aktı qəbul edilməlidir.

74. Məhkəmə kollegiyası yuxarıda göstərilənlərə əsasən və MPM-in 416- 419-cu maddələrini rəhbər tutaraq

Qərara aldı

Cavabdehin kassasiya şikayəti qismən təmin edilsin.

Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(103)-4014/2023 nömrəli, 16 iyun 2023-cü il tarixli qətnaməsi ləğv edilsin, iş yenidən baxılması üçün həmin məhkəməyə göndərilsin.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

66. 2(102)-4022/2023 nömrəli, 2023-cü il 29 dekabr tarixli qərar - Reyestr qeydinin təkrar mübahisələndirilməsinin yolverilməzliyi (etibarsızlıq, ləğv və sair tələblər)

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: reyestr qeydinin təkrar mübahisələndirilməsinin yolverilməzliyi (etibarsızlıq, ləğv və sair tələblər).

Mübahisə daşınmaz əmlakın dövlət reyestrində aparılmış qeydiyyatın və çıxarışın fərdi yaşayış evinə dair hissədə ləğv edilməsi ilə bağlıdır.

Bundan əvvəl isə baxılan iş üzrə iddiaçılar cavabdehə qarşı iddia qaldırmışlar. Həmin iddiada daşınmaz əmlakın dövlət reyestrində aparılmış qeydiyyatın və həmin qeydiyyata görə verilmiş çıxarışın fərdi yaşayış evinə dair hissədə etibarsız hesab olunması barədə tələb də irəli sürülmüş və qanuni qüvvəyə minmiş məhkəmə aktı ilə həll edilmişdir.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

İşə mahiyyəti üzrə baxan məhkəmələr irəli sürülmüş iddianı bundan öncə qəbul edilmiş məhkəmə aktları ilə həll olunmuş predmetlə eyni saymamış, fərqli tələb kimi qiymətləndirmişlər. Məhkəmələr mövqelərini belə əsaslandırmışlar ki, baxılan işdə reyestr qeydiyyatının (və onun əsasında verilmiş çıxarışın) fərdi yaşayış evinə dair hissədə ləğv edilməsi tələb olunur, əvvəlki işdə isə eyni qeydiyyatın və çıxarışın etibarsız sayılması barədə iddia həll olunmuşdur.

Kassasiya məhkəməsi bu mövqe ilə razılaşmayaraq qeyd etmişdir ki, "ləğv edilmə" və ya "etibarsız sayılma" haqqında tələblər əqdlərə münasibətdə fərqli hüquqi nəticələr doğurur. Daşınmaz əmlakın dövlət reyestrində aparılan qeydiyyat isə əqd deyil.

Belə ki, əqd mülki hüquq münasibətinin əmələ gəlməsinə, dəyişdirilməsinə və ya xitamına yönəldilmiş birtərəfli, ikitərəfli və ya çoxtərəfli iradə ifadəsidir.

Daşınmaz əmlaka mülkiyyət və digər əşya hüquqlarının dövlət qeydiyyatı isə Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq daşınmaz əmlaka hüquqların əmələ gəlməsinin, məhdudlaşdırılmasının (yüklülüyünün) başqasına keçməsinin və bu hüquqlara xitam verilməsinin dövlət tərəfindən tanınması və təsdiq edilməsi barədə hüquqi aktdır.

Reyestr qeydiyyatı həqiqi hüquqi vəziyyətə uyğun olduqda əsaslı, uyğun olmadıqda isə əsassız hesab edilir. Bu səbəbdən həmin qeydin (yaxud onun əsasında verilmiş çıxarışın) ləğv edilməsi və ya etibarsız sayılması barədə tələb mahiyyətcə əsaslı olmayan qeydiyyatın düzəldilməsi barədə iddiadır. Hansı sözlə (ləğv və ya etibarsızlıq) ifadə olunmasından asılı olmayaraq, iddia icraatında daşınmaz əmlakın dövlət reyestrinin məzmununun mübahisələndirilməsi sözügedən qeyddə düzəlişin aparılması barədə tələb sayılır.

Nəzərə alınmalıdır ki, daşınmaz əmlakın dövlət reyestrində aparılmış qeydiyyatın əsassız olması ilə bağlı iddianın predmetini hüququ pozulmuş şəxsin mənafeyi (subyektiv hüququ) təşkil edir. Bu mənafeyin təmin olunması üçün ayrı-ayrı vaxtlarda irəli sürülən tələblərin "dövlət reyestrinin ləğv edilməsi, etibarsız sayılması, yaxud qeyddə düzəlişin aparılması və s." kimi ifadə olunması iddianın predmetinin dəyişməsi mənasına gəlmir. Belə tələblərin hamısı eyni predmet hesab edilir.

Kassasiya instansiyası məhkəməsinin qərarı MPM-in 261.0.2, 416.1 417.1.5-ci maddələrinə, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin 27 avqust 2012-ci il tarixli və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun Mülki Prosessual Məcəllənin 82.3-cü maddəsinin şərh edilməsinə dair 23 fevral 2016-cı il tarixli Qərarlarına istinadla əsaslandırılmışdır.

2(102)-4022/2023

29.12.2023-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki
Kollegiyasının

iddiaçılar iddiaçı 1, iddiaçı 2 və
iddiaçı 3-ün cavabdehlər Azərbaycan Respublikası İqtisadiyyat
Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti Daşınmaz Əmlakın Dövlət Kadastrı
və Reyestri PHŞ-si 18 saylı Zaqatala Ərazi İdarəsinə qarşı, üçüncü şəxs-nın müstəqil
tələb irəli sürməyən üçüncü şəxs qismində cəlb edildiyi mülki iş üzrə

Q Ə R A R I

Açar sözlər: eyni tərəflər arasında, eyni predmet barəsində və eyni əsaslar üzrə məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda icraata xitam verilməsi

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyasının hakimləri Əliyev Zaur Əli oğlu (məruzəçi), Abbasov Aqil Əzizağa oğlu və Məmmədov Vidadi Məmməd oğlundan ibarət tərkibdə,

Şəki Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)-602/2023 nömrəli iş üzrə 22 iyun 2023-cü il tarixli qətnaməsindən iddiaçı 1 tərəfindən verilmiş kassasiya şikayətinə Ali Məhkəmənin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları:

1. Mübahisə ünvan ünvanında yerləşən daşınmaz əşya barəsində 13 noyabr 2019-cu il tarixdə daşınmaz əmlakın dövlət reyestrində ********** qeydiyyat nömrəsi ilə aparılmış qeydiyyatın və çıxarışın fərdi yaşayış evinə dair hissədə ləğv edilməsi barədədir.

İş üzrə qəbul edilmiş məhkəmə aktları:

a) Birinci instansiya məhkəməsində icraat

2. İddiaçılar ərizə ilə məhkəməyə müraciət edərək, Əmlak Məsələləri Dövlət Xidməti Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri PHŞ-si 18 saylı Zaqatala Ərazi İdarəsi tərəfindən ünvan ünvanında yerləşən fərdi yaşayış evinə dair 13 noyabr 2019-cu il tarixdə daşınmaz əmlakın dövlət reyestrində ********** qeydiyyat nömrəsi ilə, 25 nömrəli reyestr kitabının 15 nömrəli vərəqində aparılmış qeydiyyatın və həmin qeydiyyatın rəsmiləşdirilməsinə dair hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarışın fərdi yaşayış evinə dair hissədə ləğv edilməsi barədə qətnamənin qəbul edilməsini xahiş etmişlər.

3. İddia onunla əsaslandırılmışdır ki, onların mərhum ailə üzvü X1-dən miras qalmış ünvan ünvanında yerləşən fərdi yaşayış evi üzərində iddiaçılar və X2-in hüquqları vərəsəlik şəhadətnamələrinə əsasən 8 yanvar 2016-cı il tarixdə daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınaraq, RX seriyalı ******* nömrəli "Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən çıxarış"larla rəsmiləşdirilmişdir. Üçüncü şəxsin iddiaçılara qarşı qaldırmış olduğu iddiasından sonra məlum olmuşdur ki, iş üzrə cavabdeh Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 18 saylı Zaqatala Ərazi İdarəsi ümumi birgə mülkiyyətlərində olan fərdi yaşayış evinin müəyyən hissəsini iddiaçıların razılığı və heç bir qanuni əsas olmadan və RX seriyalı ******* nömrəli "Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən çıxarış" qüvvədə ola-ola 17 aprel 2018-ci il tarixdə "X" adına qeydiyyata alaraq, RX seriyalı ******* nömrəli "Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən çıxarış"la rəsmiləşdirmişdir. Bundan sonra X2 torpaq sahəsindəki payını üçüncü şəxsə bağışlamışdır. Üçüncü şəxsin həmin əmlak üzərində hüquqları 13 noyabr 2019-cu il tarixdə daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınaraq, "Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən çıxarışlarla rəsmiləşdirilmiş, həmçinin texniki pasport tərtib edilmişdir. İş materiallarından da göründüyü kimi, hüquqların dövlət qeydiyyatı üçün əsas olan sənədlərin içərisində Zaqatala Rayon İcra Hakimiyyətinin qeydiyyatı və nömrəsi olmayan bir məktubu, o cümlədən yenə də qeydiyyatı olmayan bir layihəsi var. Həmin sənədlərdə mərhum ailə üzvlərindən miras qalmış həmin əmlak X2 tərəfindən inşa edilmiş ev kimi qeyd olunmuşdur ki, bunun da heç bir hüquqi qüvvəsi yoxdur.

4. Zaqatala Rayon Məhkəməsinin 2(033)-95/2023 nömrəli iş üzrə 16 fevral 2023-cü il tarixli qətnaməsi ilə (hakim V.Məmmədov) iddia rədd edilmişdir.

5. Birinci instansiya məhkəməsi müəyyən etmişdir ki, X2 torpaq sahəsindəki payını üçüncü şəxsə bağışlamış, həmin əmlak üzərində sonuncunun hüquqları 13 noyabr 2019-cu il tarixdə daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınaraq, "Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən çıxarışlarla rəsmiləşdirilmiş, həmçinin texniki pasport tərtib edilmişdir.

6. Məhkəmə qeyd etmişdir ki, Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 2(102)-3730/2021 nömrəli, 21 iyun 2021-ci il tarixli qərarı ilə həll edilmiş mübahisə digər tələblərlə yanaşı 13 noyabr 2019-cu il tarixdə daşınmaz əmlakın dövlət reyestrində ********** qeydiyyat nömrəsi ilə, 25 nömrəli reyestr kitabının 15 nömrəli vərəqində aparılmış qeydiyyatın və həmin qeydiyyatın rəsmiləşdirilməsinə dair "Hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış"ın fərdi yaşayış evinə dair hissədə etibarsız hesab olunması barədə olsa da, hazırkı tələb 13 noyabr 2019cu il tarixdə daşınmaz əmlakın dövlət reyestrində ********** qeydiyyat nömrəsi ilə, 25 nömrəli reyestr kitabının 15 nömrəli vərəqində aparılmış qeydiyyatın və həmin qeydiyyatın rəsmiləşdirilməsinə dair "Hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış"ın fərdi yaşayış evinə dair hissədə ləğv olunması barədə olmaqla hüquqi nəticəsi fərqli olan yeni iddia olmuşdur.

7. Bundan başqa, iddiaçıların mübahisələndirdiyi qeydiyyat və onun əsasında verilmiş çıxarış üçüncü şəxsin torpaq sahəsinin 6/12 hissəsinə pay hüququnun əmələ gəlməsi və X2-in payının eyni miqdarda azalması ilə bağlı olmuş, fərdi yaşayış evi ilə bağlı hər hansı bir qeyd aparılmamışdır. Lakin iddiaçılar iddia tələblərində həmin qeydiyyat və çıxarışın fərdi yaşayış evinə dair hissədə etibarsızlığını tələb etmişlər. Daşınmaz əmlakın fərdi yaşayış evi ilə bağlı qeydiyyat isə ********** qeydiyyat nömrəsi ilə 08.01.2016-cı il tarixdə aparılmaqla, 13 noyabr 2019-cu il tarixdə ********** qeydiyyat nömrəsi ilə, 25 nömrəli reyestr kitabının 15 nömrəli vərəqində aparılmış qeydiyyat və həmin qeydiyyatın rəsmiləşdirilməsinə dair reyestrdən çıxarış torpaq sahəsi ilə bağlı olmaqla fərdi yaşayış evi barəsində olmamış və X2-in torpaq sahəsinin özünə düşən 6/12 hissəsini üçüncü şəxsə bağışlaması barədə 29.10.2019cu il tarixli daşınmaz əmlakın bağışlanma müqaviləsi əsasında aparılmışdır.

8. Bununla belə, iddiaçılar üçüncü şəxsin mülkiyyət hüququnun əmələ gəlməsininin əsasını (bağışlanma müqaviləsini) mübahisələndirməmişdirlər.

9. Məhkəmə qeyd etmişdir ki, mübahisələndirilən çıxarış və onun verilməsinə əsas olmuş qeydiyyat fərdi yaşayış evi ilə bağlı olmamışdır.

10. Birinci instansiya məhkəməsi mövqeyini Azərbaycan Respublikasının Konstitusiyasının 13 və 29-cu, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 140, 149.2, 152, 324.1, 331.1, 334.1, 337.1, 421.1, 421.2-ci, Azərbaycan Respublikası MülkiProsessual Məcəlləsinin 14.2, 76.1, 77.1, 78.1, 80, 119.1, 217.3, 217.4 və 218.3-cü maddələrinə, eləcə də Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun N.Manafovun şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki işlər üzrə məhkəmə kollegiyasının 6 avqust 2008-ci il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair 13 iyul 2009-cu il tarixli qərarına istinad edərək əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsində icraat

11. İddiaçılar apellyasiya şikayəti verərək, birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv edilərək, iddia tələbinin təmin edilməsi barədə yeni qətnamə çıxarılmasını xahiş etmişlər.

12. Apellyasiya şikayəti onunla əsaslandırılmışdır ki, birinci instansiya məhkəməsi qətnamənin "işin halları" bölməsində qeyd etmişdir ki, "mülki işin materiallarında olan ********** və ********** qeydiyyat nömrəli, 08 yanvar 2016-cı il və 13 noyabr 2019-cu il tarixli Hüquqların

Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən verilmiş Çıxarışın surətindən görünmüşdür ki, ünvan ünvanda yerləşən 0,0313 ha həyətyanı torpaq sahəsinin və fərdi yaşayış evinin 102,55 kv.m-in hər birinin 2/12 hissə olmaqla paylı mülkiyyət hüququ üzrə onların, torpaq sahəsinin 6/12 hissəsi üçüncü şəxsin, fərdi yaşayış evinin 102,55 kv.m-in 6/12 hissəsi və fərdi yaşayış evinin əlavə inşa edilmiş 106,25 kv.m hissəsi (iki yaşayış otağı 43,4 kv.m., qaraj 25,4 kv.m, mətbəx 16,45 kv.m və açıq eyvan 21,20 kv.m) X2-nin adına daşınmaz əmlakın dövlət reyestrində 25 nömrəli reyestr kitabının 15 nömrəli vərəqində qeydiyyata alınmışdır.” Göründüyü kimi, məhkəmə sübutlara düzgün hüquqi qiymət verməməklə yanaşı, sübutlardakı (********** qeydiyyat nömrəli, 13 noyabr 2019-cu il tarixli Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən verilmiş Çıxarışı) məlumatları təhrif etməklə hazırda mübahisələndirilən qanunsuz və əsassız qətnaməsini qəbul etmişdir. Belə ki, məhkəmə mübahisələndirilən çıxarışın fərdi yaşayış evi ilə bağlı olmadığını qeyd etsə də, işin hallarında isə həmin çıxarışın fərdi yaşayış evinə də aid olmasını qeyd etmişdir.

13. Şəki Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(107)-602/23 nömrəli iş üzrə 22 iyun 2023-cü il tarixli qətnaməsi ilə (hakimlər Mahir Əsədli - sədrlik edən və məruzəçi, Ələddin Məcidov və Rövşən Rəfiyev) apellyasiya şikayəti təmin edilməmiş, birinci instansiya məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmışdır.

14. Məhkəmə kollegiyası qeyd etmişdir ki, istənilən bir tələblə bağlı iddia icraatının ən əsas və vacib vəzifəsi həmin tələbin hüquqi əsasının olub-olmadığının məhkəmə tərəfindən müəyyən olunması vəzifəsidir. Məhkəmə bunu tərəflərin həmin tələblə bağlı hansı hüquqi əsaslandırmanı irəli sürmələrindən asılı olmayaraq müstəqil surətdə müəyyən etməlidir. Çünki məhkəmələrin ən əsas və ümdə vəzifəsi pozulmuş hüquqların bərpasını təmin etməkdir. Hüququn pozulub-pozulmadığı isə, qüvvədə olan qanunvericiliklə müəyyənləşdirilir. Əgər əvvəlki məhkəmə iddiaçının 13 noyabr 2019-cu il tarixdə daşınmaz əmlakın dövlət reyestrində ********** qeydiyyat nömrəsi ilə, 25 nömrəli reyestr kitabının 15 nömrəli vərəqində aparılmış qeydiyyatın və həmin qeydiyyatın rəsmiləşdirilməsinə dair “Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən çıxarış”ın fərdi yaşayış evinə dair hissədə etibarsız hesab olunması barədə iddiasının rədd edilməsi barədə qətnamə çıxarırsa, bu qaçınılmaz şəkildə o deməkdir ki, məhkəmə aparılmış qeydiyyatın və həmin qeydiyyatın rəsmiləşdirilməsinə dair “Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən çıxarış”ı mövcud və etibarlı hesab etmişdir.

15. Qeyd edilməlidir ki, eyni səbəb və məntiqə görə də, əgər yuxarıda qeyd edilən qətnamə ilə aparılmış qeydiyyatın və həmin qeydiyyatın rəsmiləşdirilməsinə dair “Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən çıxarış”ı etibarsızlığına dair qaldırılan iddia məhkəmə tərəfindən təmin edilmədikdə, bu artıq həmin aparılmış qeydiyyatın və həmin qeydiyyatın rəsmiləşdirilməsinə dair “Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən çıxarış”ın hüquqi nəticə əmələ gətirən etibarlı bir sənəd olduğunun təsdiq olunması deməkdir.

16. Bu səbəblə də ilkin iddia işi üzrə məhkəmə icraatı və həmin icraatlar üzrə qəbul edilən məhkəmə qətnamələri hüquqi və məntiqi zərurət olaraq həmin aparılmış qeydiyyatın və həmin qeydiyyatın rəsmiləşdirilməsinə dair “Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən çıxarış”ın etibarlı olub-olmadığı məsələsini əhatə etmişdir. Məhkəmə icraatında tərəflərin iddiaçı və ya yeni iddiaçı kimi statuslarının dəyişməsi istinad olunan aparılmış qeydiyyatın və həmin qeydiyyatın rəsmiləşdirilməsinə dair “Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən çıxarış”ın etibarlı olub-olmaması baxımından heç bir əhəmiyyət kəsb etmir.

17. Məhkəmə kollegiyası qeyd etmişdir ki, iddiaçıların mübahisələndirdiyi qeydiyyat və onun əsasında verilmiş çıxarış üçüncü şəxs-nın torpaq sahəsinin 6/12 hissəsinə pay hüququnun əmələ gəlməsi və X2-in payının eyni miqdarda azalması ilə bağlı olmuş, fərdi yaşayış evi ilə bağlı hər hansı bir qeyd aparılmamışdır. İddiaçılar üçüncü şəxs-nın mülkiyyət hüququnun əmələ gəlməsininin əsasını (bağışlanma müqaviləsini) mübahisələndirməmişlər.

18. Məhkəmə kollegiyası, əlavə olaraq qeyd etmişdir ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 140-cı maddəsinə əsasən reyestrin məzmununun qeyri-dəqiqliyi sübuta yetirilməyincə, həmin məzmunun həqiqiliyi və tamamlığı prezumpsiyası qüvvədədir. Əqd əsasında özgəninkiləşdirənin adına qeydiyyata alınmış hər hansı bir hüququ əldə edən şəxsin xeyrinə reyestrdəki qeyd, bu qeydə dair etirazın reyestrə daxil edildiyi və ya əldə edən şəxsin qeydin qeyri-dəqiq olmasını bildiyi hallar istisna olmaqla, həqiqi hesab edilir.

19. Məhkəmə kollegiyasının mövqeyinə görə, daşınmaz əmlak əldə etmək istəyən şəxs əvvəlki mülkiyyətçinin və s. maraqlı şəxslərin qeydə dair etirazlarının olduğunu müəyyən etdikdə həmin əmlakı əldə etməkdən çəkinə bilər. Lakin işin faktiki hallarından da göründüyü kimi, mübahisəli əmlakları əldə edən şəxs, yəni iş üzrə cavabdehdə belə bir etirazın olması barədə heç bir məlumat olmamış, həmin əmlaklarla bağlı dövlət reyestrini aparan orqanda etiraz, yüklülük və s. barədə heç bir rəsmi məlumat olmamışdır. Həmin torpaq sahələrini əldə edən şəxs (cavabdeh) də məhz daşınmaz əmlakın dövlət reyestrinə üstün əhəmiyyət verərək reyestr qeydiyyatını mötəbər sübut kimi qəbul etmişdir.

20. Məhkəmə kollegiyası mövqeyini Azərbaycan Respublikasının Konstitusiyasının 13 və 29-cu, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 140, 149.2, 152-ci, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 14.2, 77.1-ci maddələrinə istinad edərək əsaslandırmışdır.

Kassasiya şikayətinin və ona qarşı etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

21. İddiaçı 1 kassasiya şikayəti verərək (vəkil) apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv olunmasını, işin yenidən araşdırılması üçün həmin məhkəməyə göndərilməsini xahiş etmişdir.

22. Kassasiya şikayətinin məzmunu apellyasiya şikayəti ilə eynilik təşkil etmişdir.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

23. Üçüncü şəxs kassasiya şikayətinə qarşı etiraz verərək şikayətin təmin edilməməsini, apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin dəyişdirilmədən saxlanılmasını xahiş etmişdir. Etiraz belə əsaslandırılmışdır ki, apellyasiya instansiyası məhkəməsi iş üzrə müəyyən edilmiş hallara uyğun olaraq tərəflər arasındakı münasibətlər üzrə düzgün nəticəyə gəlmişdir. Kassasiya şikayətində göstərilənlər formal və əsassızdır.

24. Etirazda o da qeyd olunmuşdur ki, hazırkı iddia tələbi eyni tərəflər arasında, eyni predmet barəsində və eyni əsaslar üzrə baxılmışdır və bu barədə məhkəmənin qanuni qüvvəyə minmiş qərarı mövcuddur. Belə ki, "hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarışın fərdi yaşayış evinə dair hissədə etibarsız hesab olunması" və "dövlət reyestrindən çıxarışın fərdi yaşayış evinə dair hissədə ləğv olunması" eyni predmet və eyni əsaslı iddiadır. İddia tələbləri üzrə "etibarsız" sözü, "ləğv olunma" sözü ilə əvəz edilmişdir. Bu səbəbdən iş üzrə icraata xitam verilməlidir.

Tətbiq edilən hüquq

Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsi

25. Maddə 261.0.2. Eyni tərəflər arasında, eyni predmet barəsində və eyni əsaslar üzrə məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi və ya iddiaçının iddiadan imtina etməsi və ya tərəflərin barışıq sazişinin təsdiq olunması ilə əlaqədar iş üzrə icraata xitam edilməsi haqqında məhkəmənin qərardadı olarsa hakim iş üzrə icraata xitam verir.

26. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

27. Maddə 417.1.5. Kassasiya məhkəməsi işə baxarkən apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadını tamamilə, yaxud qismən ləğv edib, bu Məcəllənin 259.0.1-259.0.3, 259.0.8 və 259.0.10-cu maddələrinə müvafiq olaraq iddianı tamamilə, yaxud qismən baxılmamış saxlaya və ya bu Məcəllənin 261.0.1-261.0.7ci maddələrinə müvafiq olaraq iş üzrə icraata xitam verə bilər.

Kassasiya baxışının hədləri

28. Qanunun tələbinə görə, kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

29. Kassasiya şikayətində qətnamə tam mübahisələndirildiyi üçün apellyasiya instansiyası məhkəməsinin aktı bütövlükdə yoxlanılır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

30. Məhkəmə kollegiyası hesab edir ki, işə baxan apellyasiya instansiyası məhkəməsi tətbiq olunmalı prosessual hüquq normasını tətbiq etməmişdir.

31. Belə ki, məhkəməyə müraciət etmək hüququ bəzi hallarda qanunla məhdudlaşdırılır. Onlardan biri də eyni tərəflər arasında, eyni predmet barəsində və eyni əsaslar üzrə mübahisəyə daha əvvəl məhkəmədə baxılmış olmasıdır. Bu halda həmin mübahisəyə yenidən baxılması mümkün sayılmır.

32. Ona görə də MPM-in 261.0.2-ci maddəsində nəzərdə tutulmuşdur ki, eyni tərəflər arasında, eyni predmet barəsində və eyni əsaslar üzrə məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi və ya iddiaçının iddiadan imtina etməsi və ya tərəflərin barışıq sazişinin təsdiq olunması ilə əlaqədar iş üzrə icraata xitam edilməsi haqqında məhkəmənin qərardadı olarsa hakim iş üzrə icraata xitam verir.

33. Baxılan işin materiallarından görünür ki, hazırkı işdən əvvəl iddiaçılar iddiaçı 1, iddiaçı 2 və iddiaçı 3, üçüncü şəxs-nın üçüncü şəxs qismində cəlb olunduğu, cavabdeh Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 18 saylı Zaqatala Ərazi İdarəsinə qarşı iddia qaldırmışlar. Həmin iddiada həmçinin "Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 18 saylı Zaqatala Ərazi İdarəsi tərəfindən 13 noyabr 2019-cu il tarixdə daşınmaz əmlakın dövlət reyestrində ********** qeydiyyat nömrəsi ilə, 25 nömrəli reyestr kitabının 15 nömrəli vərəqində aparılmış qeydiyyatın və həmin qeydiyyatın rəsmiləşdirilməsinə dair "Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən çıxarış"ın fərdi yaşayış evinə dair hissədə etibarsız hesab olunması" barədə tələb də yer almışdır.

34. Zaqatala Rayon Məhkəməsinin 21 sentyabr 2020-ci il tarixli, 2(033)-575/2020 nömrəli qətnaməsi ilə iddia rədd edilmişdir.

35. Şəki Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 23 fevral 2021-ci il tarixli qətnaməsi ilə birinci instansiya məhkəməsinin aktı dəyişdirilmədən saxlanılmışdır.

36. Ali Məhkəmənin Mülki kollegiyasının 21 iyun 2021-ci il tarixli, 2(102)-3730/2021 nömrəli qərarı ilə apellyasiya instansiyası məhkəməsinin qətnaməsi iddianın "13 noyabr 2019-cu il tarixdə daşınmaz əmlakın dövlət reyestrində ********** qeydiyyat nömrəsi ilə, 25 nömrəli reyestr kitabının 15 nömrəli vərəqində aparılmış qeydiyyatın və həmin qeydiyyatın rəsmiləşdirilməsinə dair Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən çıxarışın fərdi yaşayış evinə dair hissədə etibarsız hesab olunmasının rədd edilməsi" hissəsində dəyişdirilmədən saxlanılmışdır.

37. Hazırkı iş üzrə iddia tələbi "Əmlak Məsələləri Dövlət Xidməti Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri PHŞ-si 18 saylı Zaqatala Ərazi İdarəsi tərəfindən ünvan ünvanında yerləşən fərdi yaşayış evinə dair 13 noyabr 2019-cu il tarixdə daşınmaz əmlakın dövlət reyestrində ********** qeydiyyat nömrəsi ilə, 25 nömrəli reyestr kitabının 15 nömrəli vərəqində aparılmış qeydiyyatın və həmin qeydiyyatın rəsmiləşdirilməsinə dair hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarışın fərdi yaşayış evinə dair hissədə ləğv edilməsi" barədədir.

38. Bu işə mahiyyəti üzrə baxan məhkəmələr irəli sürülmüş iddianı yuxarıda qeyd edilən məhkəmə aktları ilə həll olunmuş predmetlə eyni saymamış, fərqli tələb kimi qiymətləndirmişlər. Məhkəmələr mövqelərini belə əsaslandırmışlar ki, bu işdə üçüncü şəxs-nın adına olan 13 noyabr 2019-cu il tarixli, ********** nömrəli reyestr qeydiyyatının (və onun əsasında verilmiş çıxarışın) fərdi yaşayış evinə dair hissədə ləğv edilməsi tələb olunur, əvvəlki işdə isə eyni qeydiyyatın və çıxarışın etibarsız sayılması barədə iddia həll olunmuşdu (§ 6, 16).

39. Kassasiya məhkəməsi bu mövqe ilə razılaşmır ona görə ki, "ləğv edilmə" və ya "etibarsız sayılma" haqqında tələblər əqdlərə münasibətdə fərqli hüquqi nəticələr doğurur. Daşınmaz əmlakın dövlət reyestrində aparılan qeydiyyat isə əqd deyil.

40. Belə ki, əqd mülki hüquq münasibətinin əmələ gəlməsinə, dəyişdirilməsinə və ya xitamına yönəldilmiş birtərəfli, ikitərəfli və ya çoxtərəfli iradə ifadəsidir (Mülki Məcəllə, m.324).

41. Daşınmaz əmlaka mülkiyyət və digər əşya hüquqlarının dövlət qeydiyyatı isə Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq daşınmaz əmlaka hüquqların əmələ gəlməsinin, məhdudlaşdırılmasının (yüklülüyünün) başqasına keçməsinin və bu hüquqlara xitam verilməsinin dövlət tərəfindən tanınması və təsdiq edilməsi barədə hüquqi aktdır (Daşınmaz əmlakın dövlət reyestri haqqında Azərbaycan Respublikasının Qanunu, m.2.1).

42. Reyestr qeydiyyatı həqiqi hüquqi vəziyyətə uyğun olduqda əsaslı, uyğun olmadıqda isə əsassız hesab edilir. Bu səbəbdən həmin qeydin (yaxud onun əsasında verilmiş çıxarışın) ləğv edilməsi və ya etibarsız sayılması barədə tələb mahiyyətcə əsaslı olmayan qeydiyyatın düzəldilməsi barədə iddiadır. Hansı sözlə (ləğv və ya etibarsızlıq) ifadə olunmasından asılı olmayaraq, iddia icraatında daşınmaz əmlakın dövlət reyestrinin məzmununun mübahisələndirilməsi sözügedən qeyddə düzəlişin aparılması barədə tələb sayılır.

43. Bu səbəbdən Mülki Məcəllənin 141.1-ci maddəsində nəzərdə tutulmuşdur ki, əgər daşınmaz əmlakın dövlət reyestrinin məzmunu torpaq sahəsi üzərində hüquqa və ya həmin hüququn məhdudlaşdırılmasına dair həqiqi hüquqi vəziyyətə uyğun deyildirsə, hüququ qeydə alınmamış və ya hüququ düzgün qeydə alınmamış şəxs, yaxud mövcud olmayan yüklənmə haqqında qeydin daxil edilməsi ilə hüququ pozulmuş şəxs daşınmaz əmlakın dövlət reyestrində qeyddə düzəlişin aparılması üçün belə düzəlişlə hüququna toxunulan şəxsdən razılıq verməsini tələb edə bilər.

44. Nəzərə alınmalıdır ki, daşınmaz əmlakın dövlət reyestrində aparılmış qeydiyyatın əsassız olması ilə bağlı iddianın predmetini hüququ pozulmuş şəxsin mənafeyi (subyektiv hüququ) təşkil edir. Bu mənafeyin təmin olunması üçün ayrı-ayrı vaxtlarda irəli sürülən tələblərin "dövlət reyestrinin ləğv edilməsi, etibarsız sayılması, yaxud qeyddə düzəlişin aparılması və s." kimi ifadə olunması iddianın predmetinin dəyişməsi mənasına gəlmir. Belə tələblərin hamısı eyni predmet hesab edilir.

45. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi 27 avqust 2012-ci il tarixli qərarında qeyd etmişdir ki, iddianın predmeti dedikdə, iddiaçının, barəsində qərar qəbul olunmasını xahiş etdiyi subyektiv hüquq başa düşülür. İddianın predmetinə qanunla qorunan maraqları, o cümlədən bütövlükdə hüquq münasibətlərini aid etmək olar.

46. İddianın əsasını isə irəli sürülən tələblərin əsaslandırıldığı faktlar (iddianın faktiki əsası), eləcə də istinad olunan hüquq normaları (iddianın hüquqi əsası) təşkil edir. İddiaçı ərizəsində tələbinin faktiki əsasını qeyd etməyə borcludur (MPM, m. 149.2.3), hüquqi əsasını isə göstərməkdə isə sərbəstdir.

47. Çünki, tələbin qanuni əsasını yoxlamaq, onun haqlı bir hüquqi əsasa söykənib-söykənmədiyini müəyyən etmək hakimin vəzifəsidir. Hüququn tətbiqinə bilavasitə hakim cavabdehlik daşıdığı üçün tərəflərin faktlar barəsində hüquqi mövqeyi hakim üçün məcburi deyil. Bu qayda Roma hüququndan gələn "da mihi factum, dabo tibi ius" (mənə faktları ver, sənə uyğun hüququ verim) prinsipinə əsaslanır.

48. Baxılan işin materiallarından görünür ki, eyni tərəflər arasında, eyni əsaslarla və eyni predmetə (13 noyabr 2019-cu il tarixli, ********** nömrəli reyestr qeydiyyatının və onun əsasında verilmiş çıxarışın mübahisələndirilməsinə) dair iddia Zaqatala Rayon Məhkəməsinin 21 sentyabr 2020-ci il tarixli qətnaməsi ilə həll edilmişdir.

49. Buna baxmayaraq aşağı instansiya məhkəmələri hazırkı iş üzrə icaata MPM-in 261.0.2-ci maddəsinə əsasən xitam verməli olduqları halda iddiaya mahiyyəti üzrə baxaraq qətnamə çıxarmışlar.

50. Kollegiya bildirir ki, belə yanaşma hüquqi müəyyənlik və preyudisiallıq prinsiplərinə ziddir. Həmin prinsiplərə görə, məhkəmələr tərəfindən tamamilə həll edilmiş iş üzrə qəbul olunan yekun qərar şübhə doğurmamalıdır. Əks yanaşma hüquqi müəyyənliyin tərkib hissəsi olan "res judicata" prinsipinin, yəni artıq həll olunmuş məsələ üzrə qanuni qüvvəyə minmiş məhkəmə qərarlarının sabitliyinə, davamlılığına xələl gətirməklə yanaşı, ədalət mühakiməsinə olan inamın azalmasına səbəb olardı.

51. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Mülki Prosessual Məcəllənin 82.3-cü maddəsinin şərh edilməsinə dair 23 fevral 2016-cı il tarixli qərarında vurğulamışdır ki, preyudisiallıq məhkəmə aktının qanuni qüvvəsinin təkzibedilməzliyi, müstəsnalığı və məcburiliyi kimi keyfiyyət göstəricilərinin nəticəsidir. Preyudisiya institutu məhkəmə aktlarına yenidən baxılmasının qarşısının alınmasına, məhkəmə təcrübəsində eyniliyin, sabitliyin və hüquqi müəyyənliyin təmin edilməsinə yönəlmişdir. Preyudisiallığı tənzim edən normalar sübut etmə prosesini sadələşdirməyə, işlərə baxılma müddətinin qısaldılmasına, məhkəmələrin, eləcə də məhkəmə prosesi iştirakçılarının vəsaitinə qənaət edilməsinə yönəlmişdir.

52. Qeyd olunanları nəzərə alaraq, məhkəmə tərkibi bu qənaətə gəlir ki, apellyasiya instansiyası məhkəməsinin qətnaməsi ləğv edilməli və iş üzrə icraata MPM-in 261.0.2-ci maddəsinə əsasən xitam verilməlidir.

53. Göstərilənlərə əsasən və MPM-in 261, 416-419-cu maddələrini rəhbər tutaraq, məhkəmə kollegiyası

Qərara aldı:

Kassasiya şikayəti təmin edilməsin.

Şəki Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(107)-602/2023 nömrəli iş üzrə 22 iyun 2023-cü il tarixli qətnaməsi ləğv edilərək iş üzrə icraata xitam verilsin.

Qərar qətidir və qəbul edildiyi andan qüvvəyə minir.

67. 2-2(102)-222/2024 nömrəli, 2024-cü il 29 mart tarixli qərar - MMC-nin nizamnamə kapitalında 50% paya sahib iştirakçının ümumi yığıncağın keçirilməsi vəzifəsinin cəmiyyətin üzərinə qoyulması tələbinə məhkəmə qaydasında baxılmasının mümkünlüyü;

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: MMC-nin nizamnamə kapitalında 50% paya sahib iştirakçının ümumi yığıncağın keçirilməsi vəzifəsinin cəmiyyətin uzərinə qoyulması tələbinə məhkəmə qaydasında baxılmasının mümkünlüyü

Məhdud Məsuliyyətli Cəmiyyətin (bundan sonra – MMC) ümumi yığıncaqlarının (növbəti və növbədənkənar) çağırılması qaydası, nizamnamə kapitalında 50 % paya sahib iştirakçının cəmiyyətin üzərinə ümumi yığıncağın (növbəti və növbədən kənar) keçirilməsi vəzifəsinin qoyulması tələbinə məhkəmə qaydasında baxılmasının mümkünlüyü.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

MMC-nin iştirakçılarının növbəti ümumi yığıncağı icra orqanı tərəfindən nizamnamədə müəyyən edilmiş müddətdə, lakin ildə bir dəfədən az olmayaraq çağırılır. MMC-nin iştirakçılarının növbədənkənar ümumi yığıncağı isə icra orqanının öz təşəbbüsü ilə, habelə direktorlar şurasının (müşahidə şurasının), təftiş komissiyasının (müfəttişin) və ya bütün səslərin azı onda birinə malik olan iştirakçıların tələbi ilə, habelə qanunla müəyyən edilən digər şəxslər tərəfindən çağırılır (Mülki Məcəllə, 91.1-2 və 91.1-3-cü maddələr).

Göründüyü kimi, qanunvericilikdə növbəti ümumi yığıncaqdan fərqli olaraq, növbədənkənar ümumi yığıncağın çağırılması üçün təşəbbüs və ya tələb irəli sürən subyektlərin dairəsi göstərilmiş, lakin həmin yığıncağı çağıracaq orqan (və ya şəxs) barədə məlumat nəzərdə tutulmamışdır.

Məcəllənin 91.1-5 və 91.1.6-cı maddələrində MMC-nin iştirakçılarının ümumi yığıncağında və yenidən çağırılan yığıncaqda yetərsay olmadıqda, ümumi yığıncağın məhz cəmiyyətin icra orqanı tərəfindən təkrarən çağırılması nəzərdə tutulmuşdur ki, 91.1-3, 91.1-5 və 91.1.6-cı maddələrinin birgə təfsiri belə nəticəyə gəlməyə əsas verir ki, sözügedən qayda (ümumi yığıncağın cəmiyyətin icra orqanı tərəfindən çağırılması) həm növbəti, həm də növbədənkənar ümumi yığıncağın çağırılmasına aiddir.

Baxılan işdə isə məhkəmə qaydasında baxılmalı olmaması əsası ilə iş üzrə icraata xitam verilməklə iddiaçıya cavabdehin ümumi yığıncağını bilavasitə özünün çağırmasının tövsiyə edilməsi, ümumi yığıncağın keçirilməməsi ilə bağlı tərəflər arasında mövcud mübahisənin həll edilməmiş qalmasına gətirib çıxarmaqla, Mülki Prosessual Məcəllənin 4.1 və 24.1-ci maddələrinin pozulması ilə nəticələnmişdir.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2-2(102)-222/2024

29.03.2024-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından

Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının

İddiaçının Cavabdehə qarşı iş üzrə

Q Ə R A R I

Açar sözlər: iş üzrə icraata xitam verilməsi, iş məhkəmədə baxılmalı deyildirsə

Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının hakimi Məmmədli Bəhram Məmməd oğlunun məruzəsi ilə, hakimlər Qəribov Bəhman Fərhad oğlu və Nurməmmədov Əhməd Güləhməd oğlundan ibarət tərkibdə,

İddiaçının cavabdehə qarşı sənədlərin təqdim olunması və digər tələblərinə dair iş üzrə Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2023-cü il 25 dekabr tarixli 2-2(103)-1137/2023 nömrəli qərardadından cavabdeh tərəfindən verilmiş kassasiya şikayətinə yazılı icraat qaydasında baxılmışdır.

İşin halları

1. Cavabdehnin nizamnaməsinin 6.1-ci bəndinə əsasən, müəssisənin ali idarəetmə orqanı - cəmiyyətin iştirakçılarının ümumi yığıncağıdır. Həmin nizamnamənin 6.4-cü bəndinə əsasən, ümumi yığıncağın növbədənkənar iclasları cəmiyyətin təsisçilərindən birinin və ya baş müdirin yazılı tələbi ilə çağırılır.

İş üzrə məhkəmə icraatı

a) Birinci instansiya məhkəməsindəki icraat

2. İddiaçı (bundan sonra – "iddiaçı") Cavabdehə (bundan sonra – "cavabdeh") qarşı iddia və iddianın dəqiqləşdirilməsi barədə ərizə ilə məhkəməyə müraciət edərək, cavabdehin üzərinə:

- cəmiyyətin iştirakçılarının növbədənkənar ümumi yığıncağının keçirilməsi, keçiriləcək ümumi yığıncaqda yetərsay olmadıqda gündəlik dəyişdirilmədən ümumi yığıncağın yenidən çağırılması,
- təyin olunacaq növbədənkənar ümumi yığıncaqda baxılacaq məsələlərə dair bütün sənədlərin, o cümlədən cəmiyyətin büdcəsini, ştat cədvəlini, strukturunu təsdiq edən sənədlərin, 2019-cu ildən hal-hazıradək illik maliyyə və kənar audit hesabatlarının, vergi bəyannamələrinin, cəmiyyətin bütün banklarda olan hesabları üzrə ən son tarixə çıxarışların təsdiq olunmuş surətlərinin yığıncağın keçirilmə tarixinə azı 20 gün qalmış iddiaçıya təqdim edilməsi vəzifələrinin qoyulması barədə qətnamə qəbul olunmasını xahiş etmişdir.

3. Bakı Kommersiya Məhkəməsinin 2023-cü il 13 noyabr tarixli e-2-2(113)3725/2023 nömrəli qərardadı ilə "cavabdehin üzərinə cəmiyyətin iştirakçılarının növbədənkənar ümumi yığıncağının keçirilməsi, keçiriləcək ümumi yığıncaqda yetərsay olmadıqda gündəlik dəyişdirilmədən ümumi yığıncağın yenidən çağırılması vəzifəsinin qoyulması" hissəsində iş üzrə icraata xitam verilmişdir (hakim - Kənan Hüseynov).

4. Birinci instansiya məhkəməsi qeyd etmişdir ki, həmin iddia tələbinə zahirən nəzər yetirildikdə xarakter etibarilə pozulmuş hüququn bərpasına dair mübahisəyə aid etmək olar. Belə ki, iddiaçı tərəf cavabdehdə 50 faiz paya sahib olduğunu qeyd edərək, göstərilmiş tələblə çıxış etmişdir.

5. Azərbaycan Respublikasının Mülki Məcəlləsinin (bundan sonra – "MM") 91.1-3cü maddəsinə görə, cəmiyyətin növbədənkənar ümumi yığıncağı onun nizamnaməsində müəyyən edilən hallarda və qaydada çağırılır.

6. İşin hallarından (bax § 1) göründüyü kimi, məhdud məsuliyyətli cəmiyyətin iştirakçılarının növbədənkənar ümumi yığıncağının çağırılma qaydası qanunvericiliklə, habelə cavabdehin nizamnaməsi ilə tənzimlənmişdir. Bu səbəbdən, cavabdehin üzərinə ümumi yığıncağın keçirilməsi vəzifəsinin qoyulması, habelə keçiriləcək ümumi yığıncaqda yetərsay olmadıqda gündəlik dəyişdirilmədən ümumi yığıncağın yenidən çağırılması vəzifəsinin qoyulması məsələsinə baxılması məhkəmənin səlahiyyətinə aid deyildir. Bu baxımdan, iddianın qeyd edilən hissəsi məhkəmə qaydasında baxılmalı olmaması əsası ilə xitam verilməlidir.

7. İddiaçı əvvəlcə, cavabdehin iştirakçılarının ümumi yığıncağının keçirilməsini tələb etməli, cəmiyyətin iştirakçılarının ümumi yığıncağında yetərsay olmadıqda, MM-in 91.1-5ci maddəsinə uyğun olaraq ümumi yığıncağın keçirilməsini yenidən çağırmalı, MM-in 91.16-cı maddəsində göstərilən əsaslara görə yenidən çağırılan yığıncaqda yetərsay olmadıqda, ümumi yığıncağın keçirilməsini təkrarən çağırılmalıdır. Təkrarən çağırılan ümumi yığıncaq cəmiyyətin paylarının 25 faizinə malik olan iştirakçıları iştirak etdikdə səlahiyyətlidir. Göründüyü kimi, iddiaçı yuxarıda qeyd olunan ardıcıllığa riayət etməklə cəmiyyətin ümumi yığıncağının keçirilməsinə nail ola bilər.

8. Birinci instansiya məhkəməsi gəldiyi nəticəni MM-in 87.1, 91.1 və 91.1-1 - 91.16-cı maddələrinə, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin (bundan sonra – "MPM") 261.0.1-ci maddəsinə istinad etməklə əsaslandırmışdır.

9. Bakı Kommersiya Məhkəməsinin 2023-cü il 13 noyabr tarixli e-2-2(113)3725/2023 nömrəli qətnaməsi ilə iddia qismən təmin olunmuş, cavabdeh büdcəsinin, ştat cədvəlinin, strukturunu təsdiq edən sənədlərin, 2019-cu ildən hal-hazıradək illik maliyyə və kənar audit hesabatlarının, vergi bəyannamələrinin, cəmiyyətin bütün banklarda olan hesabları üzrə ən son tarixə çıxarışların təsdiq edilmiş surətlərinin cavabdeh tərəfindən iddiaçıya təqdim olunması qət edilmişdir (hakim – K.Hüseynov).

10. Həmin qətnamədən apellyasiya şikayəti verilməmişdir.

11. İddiaçı məhkəmənin 2023-cü il 13 noyabr tarixli qərardadından şikayət verərək onun ləğv olunması, iddianın iş üzrə icraata xitam verilmiş hissədə təmin olunmasını xahiş etmişdir.

12. Bakı Kommersiya Məhkəməsinin 2023-cü il 24 noyabr tarixli e-2-2(113)3725/2023 nömrəli qərardadı ilə şikayət təmin edilməmiş və işin baxılması üçün apellyasiya məhkəməsinə göndərilməsi qərara alınmışdır.

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

13. Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2023-cü il 25 dekabr tarixli 2-2(103)-1137/2023 nömrəli qərardadı ilə şikayət təmin edilməmiş və birinci instansiya məhkəməsinin qərardadı dəyişdirilmədən saxlanılmışdır (sədrlik edən V.Baxışova, hakimlər - R.Qurbanov və A.Hüseyn).

14. Apellyasiya instansiyası məhkəməsi bu qərarın 1 və 6-cı bəndlərində göstərilənləri vurğulayaraq, birinci instansiya məhkəməsinin mövqeyi ilə razılaşmışdır.

15. Şikayətin MM-in 91.1-3-cü maddəsi və cavabdehin nizamnaməsində cəmiyyətin iştirakçılarının növbədənkənar ümumi yığıncağının çağırılmasının icra mexanizmi və qaydasının nəzərdə tutulmaması ilə bağlı dəlilinə gəldikdə isə apellyasiya instansiyası məhkəməsi qeyd etmişdir ki, MM-in 11.1-ci maddəsinə əsasən, mülki hüquq münasibətləri mülki qanunvericiliklə və ya tərəflərin razılaşması ilə birbaşa tənzimlənmədikdə və onlara tətbiq edilə bilən işgüzar adət olmadıqda həmin münasibətlərə, əgər bu, onların mahiyyətinə zidd deyildirsə, oxşar münasibətləri tənzimləyən mülki qanunvericilik normaları tətbiq edilir (qanunun analogiyası). MM-də məhdud məsuliyyətli cəmiyyətlər üçün ümumi yığıncağın çağırılması üsulu və qaydası nəzərdə tutulmasa da MM-in 107-1ci maddəsində səhmdar cəmiyyətlər üçün səhmdarlarının ümumi yığıncağının digər səhmdarlara bildiriş göndərilməklə çağırılması, bildirişdə ümumi yığıncağın gündəliyə təklif olunan məsələlərin qeyd edilməli olduğu nəzərdə tutulmuşdur. İddiaçının 50 faiz paya malik təsisçi olaraq digər təsisçiyə bildiriş göndərməklə növbədənkənar ümumi yığıncaq çağırmasını qadağan edən norma olmadığından şikayət məhkəmə tərəfindən əsassız hesab edilmişdir.

16. Apellyasiya instansiyası məhkəməsi gəldiyi nəticəni MM-in 91.1-3–91.1-6-cı, MPM-in 2.1, 4.1 və 24.1-ci maddələrinə istinad etməklə əsaslandırmışdır.

17. İddiaçı həmin qərardaddan kassasiya şikayəti verərək, onun ləğv olunması və işin baxılması üçün apellyasiya məhkəməsinə qaytarılmasını xahiş etmişdir.

Kassasiya şikayətinin və ona qarşı etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

18. MM-in 91.1-3-cü maddəsinin tələbləri pozulmuşdur-iddiaçı qanuna müvafiq qaydada 2019-cu il 24 may tarixində cavabdehin nizamnamə kapitalında 50 faiz (50.000 ABŞ dolları dəyərində) pay əldə etmiş və bu haqda sabiq Vergilər Nazirliyi yanında Milli Gəlirlər Departamentinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi tərəfindən cavabdehin adına 2019-cu il 21 iyun tarixli dövlət reyestrindən çıxarış verilmişdir. Cavabdehin 2019, 2020, 2021 və 2022-ci illər üzrə illik fəaliyyətinin yekunlarına həsr olunmuş cəmiyyətin iştirakçılarının növbəti ümumi yığıncaqları müvafiq olaraq hər növbəti ilin aprel ayının sonuna qədər keçirilməli olduğu halda, təsisçisi olan iddiaçıya növbəti ümumi yığıncağın çağırılması barədə məlumat verilməmişdir. Bununla əlaqədar iddiaçı tərəfindən 2020-ci il 10 yanvar, 2020-ci il 14 fevral,

2020-ci il 4 avqust və 2020-ci il 17 avqust tarixli məktublarla yazılı formada cavabdehə müraciət edilsə də, məsələ bu günədək öz həllini tapmamışdır. Son olaraq, qeyd olunan məsələ ilə bağlı iddiaçı tərəfindən cavabdehə 2023-cü il 14 iyun tarixli 13-7/2-3-11/1548/2023 nömrəli pretenziya məktubu göndərilmiş, lakin cavabdeh həmin pretenziya məktubuna da əhəmiyyət verməmiş və cəmiyyətin təsisçilərinin ümumi yığıncağının keçirilməsini təmin etməmişdir. Bundan sonra iddiaçı hazırkı iddia ilə məhkəməyə müraciət etmişdir.

19. Apellyasiya məhkəməsi MPM-in 385.1.1 və 386-cı maddələrinə əsasən maddi hüquq normalarını pozaraq hüququn tətbiq olunmasında səhv buraxmaqla, tətbiq edilməli olan qanunu tətbiq etməyərək qanunu səhv təfsir etmiş, yalnız qanunvericiliyin normalarını təkrar etməklə kifayətlənmiş, şikayətin dəlillərinə tam hüquqi qiymət verməmiş, şikayətin hansı əsaslara görə təmin edilmədiyini tam əsaslandırmamışdır.

20. Lakin MM-in 91.1-3-cü maddəsi və cavabdehin nizamnaməsində cəmiyyətin iştirakçılarının növbədənkənar ümumi yığıncağının bütün səslərin azı onda birinə malik olan iştirakçıların tələbi ilə çağırılmasının icra qaydası nəzərdə tutulmamışdır. Bundan başqa, MM-in 91.1-3-cü maddəsində göstərilmiş "çağırılır" sözünün təhlili və təfsiri onu deməyə əsas verir ki, bu hərəkəti iştirakçıların (iştirakçının) özü deyil, onun tələbi ilə başqa şəxs yerinə yetirməli, mövcud halda isə icra orqanı belə iclası çağırmalıdır. Ona görə də, MM-in 91.1-2-ci maddəsində nəzərdə tutulmuş prosedur qayda bu hala da (qanunun analogiyası) tətbiq olunmaqla ümumi yığıncaq icra orqanı tərəfindən çağırılmalıdır.

21. Cəmiyyətin təsisçilərinin ümumi yığıncağının keçirilməsi barədə cavabdehə müraciətlər cavabsız qaldığından və iddiaçı pozulmuş hüquqlarının müdafiəsini məhkəmədən kənar digər qaydada həyata keçirə bilmədiyindən, MPM-in 24.1-ci maddəsinə əsasən həmin hüquqların müdafiəsi üçün məhkəməyə müraciət etmək məcburiyyətində qalmışdır. Lakin apellyasiya məhkəməsi MM-də məhdud məsuliyyətli cəmiyyətlər üçün ümumi yığıncağın çağırılması üsulu və qaydasının nəzərdə tutulmamasına dair iddiaçının şikayətində göstərdiyi hüquqi mövqeyi ilə razılaşmasına baxmayaraq, qərardadında MM-in 11-ci maddəsinə əsasən qanunun analogiyasının tətbiq edilməli olduğunu bildirmişdir. Məhkəmə MM-in 107-1-ci maddəsinə istinad etməklə həmin maddədə nəzərdə tutulmuş qaydada səhmdar cəmiyyətlər üçün nəzərdə tutulmuş səhmdarların ümumi yığıncağının keçirilməsi prosedurunun iddiaçının tələbinə də tətbiq olunmasını mümkün hesab edərək şikayəti təmin etməmişdir. Apellyasiya məhkəməsi bu halda da istinad etdiyi maddi hüquq normalarının tələblərini pozmuşdur.

22. Belə ki, MM-in 107-1-ci maddəsində səhmdarların özləri tərəfindən səhmdarların ümumi yığıncağının çağırılması nəzərdə tutulmamışdır. Həmin maddənin məzmunundan görünür ki, hər bir halda, o cümlədən səhmdarların tələbi olduqda belə ümumi yığıncaq səhmdar cəmiyyətin icra orqanı tərəfindən çağırılır. Lakin apellyasiya məhkəməsi MM-in 107-1-ci maddədə nəzərdə tutulmuş prosedurun (hər bir halda ümumi yığıncağın cəmiyyətin icra orqanı tərəfindən çağırılması) istinad etdiyi MM-in 11-ci maddəsində nəzərdə tutulmuş qanunun analogiyası baxımından iddiaçının tələbinə də aid etməli olduğu halda, MM-in 11 və 107-1-ci maddələrinin tələblərini pozaraq bunu etməmişdir.

23. MPM-nin 9.3, 24.1, 418.1 və 418.2-ci maddələrinin tələbləri pozulmuşdurapellyasiya məhkəməsi qeyd olunan maddənin tələblərini pozaraq qanunsuz və əsassız qərardad qəbul etmişdir. İddiaçı tərəfindən cəmiyyətin təsisçilərinin ümumi yığıncağının keçirilməsi barədə cavabdehə ünvanlanmış 2020-ci il 10 yanvar, 2020-ci il 14 fevral, 2020ci il 4 avqust və 2020-ci il 17 avqust tarixli məktublar, həmçinin 2023-cü il 14 iyun tarixli 137/2-3-11/1548/2023 nömrəli pretenziya cavabsız qaldığından və iddiaçı pozulmuş hüquqların müdafiəsini məhkəmədən kənar digər qaydada həyata keçirə bilmədiyindən məhkəməyə müraciət etsə də, məhkəmə pozulmuş hüquqların müdafiəsini əsassız və qanunsuz olaraq təmin etməmişdir. Məhkəmə MM-in 11 və 107-1-ci maddələrində nəzərdə tutulmuş maddi hüquq normalarını pozaraq, hüququn tətbiq edilməsində səhv buraxmaqla tətbiq olunmalı qanunu tətbiq etməyərək qanunu səhv təfsir etmişdir.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

24. Kassasiya şikayətinə qarşı tərəf etiraz təqdim etməmişdir.

Kassasiya baxışının hədləri

25. MPM-in 403 və 416-cı maddələrinin tələbləri baxımından hazırkı icraat çərçivəsində məhkəmə aktının qanuniliyi və əsaslılığı tam yoxlanılacaqdır.

Tətbiq edilən hüquq

26. Azərbaycan Respublikasının Mülki Məcəlləsinin müvafiq müddəalarında aşağıdakılar nəzərdə tutulur:

“Maddə 91. Məhdud məsuliyyətli cəmiyyətdə idarəetmə

...

91.1-2. Cəmiyyətin iştirakçılarının növbəti ümumi yığıncağı icra orqanı tərəfindən nizamnamədə müəyyən edilmiş müddətdə, lakin ildə bir dəfədən az olmayaraq çağırılır. Cəmiyyətin illik fəaliyyətinin yekunlarına həsr olunmuş ümumi yığıncaq hesabat-maliyyə ili başa çatdıqdan sonra dörd aydan gec olmayaraq çağırılır.

91.1-3. Cəmiyyətin iştirakçılarının növbədənkənar ümumi yığıncağı qanunda və ya nizamnamədə müəyyən edilən hallarda və qaydada çağırılır. Növbədənkənar ümumi yığıncaq icra orqanının öz təşəbbüsü ilə, habelə direktorlar şurasının (müşahidə şurasının), təftiş komissiyasının (müfəttişin) və ya bütün səslərin azı onda birinə malik olan iştirakçıların tələbi ilə, habelə qanunla müəyyən edilən digər şəxslər tərəfindən çağırılır. Ləğvetmə prosesində olan cəmiyyətin növbədənkənar ümumi yığıncağı ləğvetmə komissiyası tərəfindən çağırılır.

...

91.1-5. Cəmiyyətin iştirakçılarının ümumi yığıncağında yetərsay olmadıqda, ümumi yığıncaq cəmiyyətin icra orqanı tərəfindən cəmiyyətin nizamnaməsində müəyyən edilmiş qaydada, ümumi yığıncağın gündəliyi dəyişdirilmədən çağırılmalıdır. Yenidən çağırılan ümumi yığıncaq cəmiyyətin paylarının əlli faizinə malik olan iştirakçıları iştirak etdikdə səlahiyyətlidir.

91.1-6. Yenidən çağırılan yığıncaqda yetərsay olmadıqda, ümumi yığıncaq cəmiyyətin icra orqanı tərəfindən cəmiyyətin nizamnaməsində müəyyən edilmiş qaydada, ümumi yığıncağın gündəliyi dəyişdirilmədən təkrarən çağırılmalıdır. Təkrarən çağırılan ümumi yığıncaq cəmiyyətin paylarının 25 faizinə malik olan iştirakçıları iştirak etdikdə səlahiyyətlidir.

...”

“Maddə 107-1. Səhmdarların ümumi yığıncağının çağırılması

107-1.1. Səhmdarların ümumi yığıncağı növbəti və növbədənkənar ola bilər.

107-1.2. Səhmdarların növbəti ümumi yığıncağı ildə bir dəfədən az olmayaraq çağırılmalıdır (illik ümumi yığıncaq).

107-1.3. “Banklar haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallar istisna olmaqla, səhmdarların illik ümumi yığıncağı maliyyə ili bitdikdən sonra altı aydan gec olmayaraq, direktorlar şurası (müşahidə şurası) tərəfindən çağırılır və bu barədə səhmdarlara məlumat verilir. Cəmiyyətin direktorlar şurası (müşahidə şurası) olmadıqda, səhmdarların ümumi yığıncağının çağırılması cəmiyyətin icra orqanı tərəfindən həyata keçirilir.

107-1.4. Səhmdarların ümumi yığıncağının çağırılmasına qırx beş gün qalmış yığıncağın çağırılması barədə media ilə məlumat verilməli (qapalı səhmdar cəmiyyətinin səhmdarlarının ümumi yığıncağının çağırılması halları istisna olunmaqla), habelə səhmdarlara və ya nominal saxlayıcılara bu barədə yazılı bildiriş göndərilməlidir. Nominal saxlayıcı həmin bildirişin səhmdara çatdırılmasını təmin etməlidir.

107-1.5. Səhmdarların ümumi yığıncağının çağırılması barədə bildirişdə aşağıdakılar göstərilməlidir:

107-1.5.1. cəmiyyətin adı və olduğu yer;

107-1.5.2. səhmdarların ümumi yığıncağının keçirilmə tarixi, vaxtı və ünvanı;

107-1.5.3. səhmdarların ümumi yığıncağının gündəliyi;

107-1.5.4. səhmdarların ümumi yığıncağının gündəliyi üzrə materiallarla tanış olunma qaydası.

107-1.6. Qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, səhmdarların növbədənkənar ümumi yığıncağı direktorlar şurasının (müşahidə şurasının) öz təşəbbüsü ilə və ya təftiş komissiyasının (müfəttişin), yaxud səsli səhmlərin on faizinə malik olan səhmdarların yazılı tələbi ilə cəmiyyətin icra orqanı tərəfindən çağırılır. Cəmiyyətin direktorlar şurası (müşahidə şurası) olmadıqda səhmdarların növbədənkənar ümumi yığıncağı icra orqanının təşəbbüsü ilə çağırılır.

107-1.7. Səhmdarların növbədənkənar ümumi yığıncağının çağırılması tələbində gündəliyə təklif olunan məsələlər göstərilməlidir. Həmin məsələlər yığıncağın gündəliyinə mütləq salınmalıdır.

107-1.8. Səhmdarların növbədənkənar ümumi yığıncağının çağırılması haqqında tələbin (təşəbbüsün) daxil olduğu gündən etibarən icra orqanı aşağıdakıları yerinə yetirməlidir:

107-1.8.1. üç iş günü müddətində səhmdarların ümumi yığıncağının vaxtını və yerini təyin edib, qapalı səhmdar cəmiyyətinin səhmdarlarının ümumi yığıncağının çağırılması halları istisna olunmaqla, bu barədə mediada elan verməlidir;

107-1.8.2. beş iş günü müddətində səhmdarların ümumi yığıncağının çağırılması barədə bildirişləri səhmdarlara göndərməlidir;

107-1.8.3. otuz gündən tez, qırx beş gündən gec olmayaraq səhmdarların ümumi yığıncağının keçirilməsini təmin etməlidir."

27. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin müvafiq müddəalarında aşağıdakılar nəzərdə tutulur:

"Maddə 4. Müdafiə üçün məhkəməyə müraciət etmək hüququ

4.1. Bütün fiziki və hüquqi şəxslər özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədi ilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququna malikdirlər.

..."

"Maddə 24. Mübahisələrin məhkəməyə aidiyyəti

24.1. Azərbaycan Respublikasının məhkəmələri, pozulmuş və barəsində mübahisə edilən hüquq və azadlıqları müdafiəsi məhkəmədən kənar digər qaydada həyata keçirilmirsə, bu Məcəlləyə və ya digər qanunlara müvafiq olaraq belə hüquq və azadlıqları müdafiə və təmin edir."

"Maddə 416. Kassasiya instansiyasında işə baxmanın hədləri

416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

416.2. Apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 418.4-cü maddəsində nəzərdə tutulmuş prosessual hüquq pozuntusu hesab edilən hallara yol verilməsi şikayətin hədlərindən və dəlillərindən asılı olmayaraq yoxlanılmalıdır."

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

28. Apellyasiya instansiyası məhkəməsinin mübahisələndirilən qərardadı ilə cavabdehin 50% payçısı olan iddiaçının, cavabdehin üzərinə ümumi yığıncağın keçirilməsi vəzifəsinin qoyulması, habelə keçiriləcək ümumi yığıncaqda yetərsay olmadıqda gündəlik dəyişdirilmədən ümumi yığıncağın yenidən çağırılması vəzifəsinin qoyulmasına dair tələbinə qiymət verilmişdir.

29. Birinci instansiya məhkəməsi həmin tələb hissəsində iş üzrə icraata xitam verərək, gəldiyi nəticəni onunla əsalandırmışdır ki, məhdud məsuliyyətli cəmiyyətin iştirakçılarının növbədənkənar ümumi yığıncağının çağırılma qaydası mülki qanunvericiliklə, habelə cavabdehin nizamnaməsi ilə tənzimləndiyindən həmin iddia tələblərinə məhkəmədə baxıla bilməz.

30. Apellyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsinin mövqeyi ilə razılaşmış və əlavə olaraq qanunun analogiyası qaydasında belə nəticəyə gəlmişdir ki, MM-də məhdud məsuliyyətli cəmiyyətlər üçün ümumi yığıncağın çağırılması üsulu və qaydası nəzərdə tutulmasa da, MM-in 107-1-ci maddəsində səhmdar cəmiyyətlər üçün səhmdarlarının

ümumi yığıncağının digər səhmdarlara bildiriş göndərilməklə çağırılması, bildirişdə ümumi yığıncağın gündəliyə təklif olunan məsələlərin qeyd edilməli olduğu nəzərdə tutulmuşdur. İddiaçının 50 faiz paya malik təsisçi olaraq digər təsisçiyə bildiriş göndərməklə növbədənkənar ümumi yığıncaq çağırmasını qadağan edən norma olmadığından şikayət məhkəmə tərəfindən əsassız hesab edilir.

31. Məhkəmə kollegiyası aşağıdakı səbəblərdən məhkəmənin mövqeyi ilə razılaşmır və kassasiya şikayətinin dəlilləri üzrə aşağıdakı qaydada qiymətləndirmə aparılmasını zəruri hesab edir.

32. Əvvəla, MM-də hüquqi şəxsin təşkilati hüquq forması olaraq məhdud məsuliyyətli cəmiyyətlərdə növbədənkənar ümumi yığıncaqdan fərqli olaraq, növbəti ümumi yığıncağın çağırılması qaydası nəzərdə tutulmuşdur. Belə ki, MM-in 91.1-2-ci maddəsinə (bax bu qərarın 26-cı bəndinə) görə, məhdud məsuliyyətli cəmiyyətin (bundan sonra – "MMC") iştirakçılarının növbəti ümumi yığıncağı icra orqanı tərəfindən nizamnamədə müəyyən edilmiş müddətdə, lakin ildə bir dəfədən az olmayaraq çağırılır.

33. İstinad olunan normanın məzmunundan göründüyü kimi, MMC-nin növbəti ümumi yığıncağı icra orqanı tərəfindən çağırılır.

34. MM-nin 91.1-3-cü maddəsində (bax bu qərarın 26-cı bəndinə) isə MMC-nin iştirakçılarının növbədənkənar ümumi yığıncağının, icra orqanının öz təşəbbüsü ilə, habelə direktorlar şurasının (müşahidə şurasının), təftiş komissiyasının (müfəttişin) və ya bütün səslərin azı onda birinə malik olan iştirakçıların tələbi ilə, habelə qanunla müəyyən edilən digər şəxslər tərəfindən çağırıldığı təsbit olunmuşdur.

35. Göründüyü kimi, MM-nin 91.1-3-cü maddəsində iştirakçıların növbədənkənar ümumi yığıncağının çağırılması üçün təşəbbüs və ya tələb irəli sürən subyektlərin dairəsi göstərilmiş, lakin həmin yığıncağı çağıracaq orqan (və ya şəxs) barədə məlumat nəzərdə tutulmamışdır.

36. Bununla belə, MM-nin 91.1-5 və 91.1.6-cı maddələrində (bax bu qərarın 26cı bəndinə) MMC-lərin iştirakçılarının ümumi yığıncağında və yenidən çağırılan yığıncaqda yetərsay olmadıqda, ümumi yığıncağın məhz cəmiyyətin icra orqanı tərəfindən təkrarən çağırılması nəzərdə tutulmuşdur.

37. MM-in 91.1-3, 91.1-5 və 91.1.6-cı maddələrinin məzmununun birgə təfsiri belə nəticəyə gəlməyə əsas verir ki, sözügedən qayda MMC-lərin iştirakçılarının həm növbəti, həm də növbədənkənar ümumi yığıncaqlarına aiddir.

38. Apellyasiya instansiyası məhkəməsinin qanunun analogiyası qaydasında ümumi şəkildə istinad etdiyi MM-nin səhmdar cəmiyyətlərə aid 107-1-ci maddəsindən isə aydın olur ki, səhmdarların istər növbəti, istərsə də növbədənkənar yığıncaqları səhmdar cəmiyyətin idarəetmə orqanı tərəfindən çağırılır.

39. Belə ki, MM-in 107-1.2, 107-1.3 və 107-1.6-cı maddələrinin (bax bu qərarın 26-cı bəndinə) məzmununa görə, səhmdarların növbəti ümumi yığıncağı ildə bir dəfədən az olmayaraq çağırılmalıdır (illik ümumi yığıncaq). İllik ümumi yığıncağı maliyyə ili bitdikdən sonra altı aydan gec olmayaraq, direktorlar şurası (müşahidə şurası) tərəfindən, direktorlar şurası (müşahidə şurası) olmadıqda isə, cəmiyyətin icra orqanı tərəfindən çağırılır. Səhmdarların növbədənkənar ümumi yığıncağı direktorlar şurasının (müşahidə şurasının) öz təşəbbüsü ilə və ya təftiş komissiyasının (müfəttişin), yaxud səsli səhmlərin on faizinə malik olan səhmdarların yazılı tələbi ilə cəmiyyətin icra orqanı tərəfindən çağırılır.

40. Göründüyü kimi, analoji normalarda da səhmdarların növbəti və ya növbədənkənar ümumi yığıncağının bilavasitə səhmdarın özü tərəfindən, digər səhmdarlara bildiriş göndərilməklə çağırılması qaydası müəyyən edilməmişdir.

41. Odur ki, məhkəmə kollegiyası hesab edir ki, apellyasiya instansiyası məhkəməsi sözügedən məsələdə qanunun analogiyası qaydasında MM-in 107-1-ci maddəsinə istinad etməklə hüququn tətbiqində səhvə yol vermişdir.

42. Bildirişdə ümumi yığıncağın gündəliyə təklif olunan məsələlərin qeyd edilməli olduğuna gəldikdə isə, həmin məsələlər öz əksini MM-in 107-1.5-ci maddəsində (bax bu

qərarın 26-cı bəndinə) tapmışdır. Həmin maddənin MM-in 107.1.2, 107-1.3 və 107-1.4-cü maddələri ilə qarşılıqlı təhlili onu deməyə əsas verir ki, sözügedən normalar səhmdarların növbədənkənar deyil, məhz növbəti (illik) ümumi yığıncağının çağırılması ilə bağlıdır.

43. Belə olan təqdirdə isə, apellyasiya instansiyası məhkəməsinin sözügedən məsələdə qanunun analogiyası qaydasında nəyə görə MM-in MMC-lərə aid olan 91.1-2-ci maddəsinə deyil, məhz səhmdar cəmiyyətlərə aid olan 107-1-ci maddəsinə istinad etməsinin hüquqi əsasları mübahisələndirilən qərardadda göstərilməmişdir. Halbuki yuxarıda qeyd olunduğu kimi, MM-in 91.1-2-ci maddəsi MMC-lərin iştirakçılarının növbəti ümumi yığıncağının keçirilməsi qaydasını müəyyən etmiş və həmin maddədə də növbəti yığıncağın MMC-nin icra orqanı tərəfindən çağırıldığı təsbit olunmuşdur.

44. O da qeyd olunmalıdır ki, baxılan işdə iddiaçıya cavabdehin ümumi yığıncağını bilavasitə özünün çağırmasının tövsiyə edilməsi, ümumi yığıncağın keçirilməməsi ilə bağlı tərəflər arasında mövcud mübahisənin həll edilməmiş qalmasına gətirib çıxarmaqla, MPM-in 4.1 və 24.1-ci maddələrinin pozulması ilə nəticələnmişdir.

45. Belə ki, iddiaçı iddia edir ki (bunun əksini təsdiq edən sübutlar cavabdeh tərəfindən təqdim edilməmişdir), cavabdehin 2019, 2020, 2021 və 2022-ci illər üzrə illik fəaliyyətinin yekunlarına həsr olunmuş cəmiyyətin iştirakçılarının növbəti ümumi yığıncaqları müvafiq olaraq hər növbəti ilin aprel ayının sonuna qədər keçirilməli olduğu halda, təsisçisi olan iddiaçıya növbəti ümumi yığıncağın çağırılması barədə məlumat verilməmişdir. Bununla əlaqədar iddiaçı tərəfindən 2020-ci il 10 yanvar, 2020-ci il 14 fevral, 2020-ci il 4 avqust və 2020-ci il 17 avqust tarixli məktublarla yazılı formada cavabdehə müraciət edilsə də, məsələ bu günədək öz həllini tapmamışdır. Son olaraq, qeyd olunan məsələ ilə bağlı iddiaçı tərəfindən cavabdehə 2023-cü il 14 iyun tarixli 13-7/2-3-11/1548/2023 nömrəli pretenziya məktubu göndərilmiş, lakin cavabdeh həmin pretenziya məktubuna da əhəmiyyət verməmiş və cəmiyyətin təsisçilərinin ümumi yığıncağının keçirilməsini təmin etməmişdir. Bundan sonra iddiaçı hazırkı iddia ilə məhkəməyə müraciət etmişdir.

46. Bütün fiziki və hüquqi şəxslər özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədi ilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququna malikdirlər. Məhkəmələr, pozulmuş və barəsində mübahisə edilən hüquq və azadlıqları müdafiəsi məhkəmədən kənar digər qaydada həyata keçirilmirsə, bu Məcəlləyə və ya digər qanunlara müvafiq olaraq belə hüquq və azadlıqları müdafiə və təmin edir (MPM-in 4.1 və 24.1-ci maddələri - bax bu qərarın 27-ci bəndinə).

47. Məhkəmə kollegiyası hesab edir ki, hazırkı işə baxan məhkəmələr MPM-nin 4.1 və 24.1-ci maddələrinə istinad etsələr də, iş üzrə icraata xitam verməklə, yuxarıda qeyd olunan maddi hüquq normalarının tələblərinə zidd nəticəyə gəlmişlər.

48. Yuxarıda göstərilənləri ümumiləşdirərək məhkəmə kollegiyası belə qənaətə gəlir ki, hazırkı iddia ərizəsinə məhkəmədə baxılmalı və iddianın əsaslı olubolmamasına hüquqi qiymət verilməlidir. Odur ki, kassasiya şikayəti təmin edilməli, apellyasiya instansiyası məhkəməsinin 2023-cü il 25 dekabr tarixli 2-2(103)1137/2023 nömrəli qərardadı ləğv edilməli, iş yenidən baxılmaq üçün həmin məhkəməyə qaytarılmalıdır.

49. MPM-in 417-419-cu maddələrini rəhbər tutaraq məhkəmə kollegiyası

QƏRARA ALIR:

Kassasiya şikayəti təmin edilsin. Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2023-cü il 25 dekabr tarixli 2-2(103)-1137/2023 nömrəli qərardadı ləğv edilsin, iş yenidən baxılmaq üçün qaytarılsın. Qərar qəbul edildiyi andan qüvvəyə minir.

68. 2(102)-1637/2024 nömrəli, 2024-cü il 1 may tarixli qərar - Aliment borcundan tam və ya qismən azad edilmə barədə tələbə iddia icraatı qaydasında baxılmasının yol verildiyi hallar

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: aliment borcundan tam və ya qismən azad edilmə barədə tələbə iddia icraatı qaydasında baxılmasının yol verildiyi hallar.

İddiaçı 2022-ci ilin avqust, sentyabr, oktyabr, noyabr və dekabr ayları üzrə aliment ödəmək öhdəliyindən azad olunması və həmin aylar üçün yaranmış aliment borcunun silinməsi tələbini onunla əsaslandırmışdır ki, həmin dövrdə uşaqların maddi ehtiyaclarını təmin etmişdir. Belə olan halda həmin aylar üzrə ona yenidən aliment borcu hesablana bilməz.

Birinci instansiya məhkəməsi iddiaya mahiyyəti üzrə baxaraq qətnamə qəbul etsə də, apellyasiya instansiyası məhkəməsi qətnaməni ləğv edərək işin icraatına Mülki Prosessual Məcəllənin 261.0.1-ci maddəsinə əsasən xitam vermişdir.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Apellyasiya instansiyası məhkəməsi qeyd etmişdir ki, aliment borcundan tam və ya qismən azad edilmə barədə tələbə iddia icraatı qaydasında baxılması mümkündür. Lakin bu zaman iddia tələbinin mahiyyətinə diqqət yetirilməli və nəzərdə saxlanılmalıdır ki, qanunvericiliyin tələblərinə görə aliment borcunun silinməsi ilə bağlı tələb yalnız iddiaçının bu borcun şəxsin xəstəliyi, maddi vəziyyəti və ya digər üzrlü səbəblərə görə ödəmək iqtidarında olmaması ilə bağlı verilmiş olsun. Hazırkı iddia tələbində isə iddiaçı borcun olmadığını bildirir, icra məmuru tərəfindən borcun hesablanması ilə razılaşmır, borcun silinməsi ilə bağlı tələbinin əsasını hansısa xəstəliyi və ya digər üzrlü səbəbinin nəzərə alınması təşkil etmir.

Apellyasiya məhkəməsinin mövqeyinə görə iddiaçı 12 avqust – 20 dekabr 2022-ci il tarixləri aralığında övladı və ailəsi üçün kifayət qədər xərc çəkdiyini bildirərək həmin dövrləri əhatə edən borcun silinməsi ilə bağlı icra sənədinin icrasının həvalə olunduğu icra məmuruna müraciət etməli, sübutlarını ona təqdim etməli və qeyd edilən mübahisə məhz icra qaydasında öz həllini tapmalıdır. Əgər iddiaçı icra məmuru tərəfindən yenə də aliment üzrə həmin dövrü əhatə edən borcun müəyyən edilməsi ilə razılaşmazsa, bu zaman qanunvericiliklə müəyyən edilmiş qaydada icra məmurunun hərəkətlərindən (hərəkətsizliyindən) şikayət ərizəsi ilə müraciət etmək hüququ vardır.

Məhkəmə tərkibi hesab etmişdir ki, apellyasiya instansiyası məhkəməsinin mövqeyi və iş üzrə gəldiyi nəticə qanuni və əsaslıdır.

Belə ki, Ailə Məcəlləsinin 106.5-ci maddəsinə görə, icra məmuru tərəfindən aliment üzrə borcun müəyyən edilməsi ilə razılaşmayan tərəflərdən hər biri onun hərəkətlərindən mülki prosessual qanunvericiliklə müəyyən olunmuş qaydada şikayət edə bilər.

İddia ərizəsindən görünür ki, aliment borcunun silinməsi tələbinin əsasında onun üzrlü səbəblərdən icra edilməməsi ilə bağlı dəlillər dayanmır. Tələb müəyyən olunan borc məbləğindən aliment öhdəliklərinin faktiki olaraq yerinə yetirilməsi ilə əlaqədar 2022-ci ilin avqust - dekabr aylarına hesablanan məbləğin silinməli olması ilə əsaslandırılır. Bu barədə sübutlar təqdim edilməsinə baxmayaraq icra məmuru tərəfindən müəyyənləşdirilən aliment borcunun məbləği ilə razılaşmayan borclu icra məmurunun hərəkətlərindən məhkəməyə şikayət verə bilər.

Qanunda bu qaydada şikayət vermək imkanının nəzərdə tutulması mübahisəli məsələyə iddia icraatı qaydasında baxılmasını istisna edir.

Mülki Prosessual Məcəllənin 261.0.1-ci maddəsinə əsasən, iş məhkəmədə və ya mülki məhkəmə icraatı qaydasında baxılmalı deyildirsə hakim iş üzrə icraata xitam verir.

2(102)-1637/2024

01.05.2024-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının

İddiaçının Cavabdehə qarşı iş üzrə

Q Ə R A R I

İş № 2(102)-1637/2024

(Açar sözlər: aliment borcunun silinməsi)

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Əliyev Zaur Əli oğlu (məruzəçi), Məmmədov Vidadi Məmməd oğlu və Abbasov Aqil Əzizağa oğlundan ibarət tərkibdə,

Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(103)-1525/2024 nömrəli, 14 fevral 2024-cü il tarixli qərardadından iddiaçı tərəfindən verilmiş kassasiya şikayətinə Ali Məhkəmənin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları

1. Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin 2(001)-5095/2022 saylı, 20.12.2022-ci il tarixli qətnaməsi ilə tərəflər arasında olan nikah pozulmuş, birgə nikahdan olan **.**.2018-ci il təvəllüdlü X1-in və **.**.2013-cü il təvəllüdlü X2-nin analarının yanında saxlanılması və 12.08.2022-ci il tarixdən başlayaraq, uşaqların yetkinlik yaşına çatana qədər saxlanılması üçün hər ay qazancının (başqa gəlirlərinin) üçdə bir hissəsi miqdarında alimentin tutulması qət edilmişdir.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a) Birinci instansiya məhkəməsində icraat

2. İddiaçı Cavabdehə qarşı "aliment borcunun silinməsi" tələbinə dair iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, 2022-ci ilin avqust, sentyabr, oktyabr, noyabr və dekabr ayları üzrə aliment ödəmək öhdəliyindən azad olunması və həmin aylar üçün yaranmış aliment borcunun silinməsinə dair qətnamə qəbul edilməsini xahiş etmişdir.

3. İddia onunla əsaslanıdırılmışdır ki, 12.08.2022-ci il tarixdən 20.12.2022-ci il tarixədək tərəflər ayrı yaşasalar da, münasibətləri tam kəsilməmiş, telefonda Whatsapp yazışmaları davamlı şəkildə olmuş, cavabdeh ev üçün lazım olan xərcləri, bazarlıqları və digər vəsaitləri iddiaçının Whatsapp nömrəsinə yazıyla bildirmiş, iddiaçı isə ya həmin gün, ya da, bir gün sonra həmin ehtiyacları təmin etmişdir. 10.03.2023-cü il tarixdə iddiaçı 2022-ci ilin avqust, sentyabr, oktyabr, noyabr və dekabr ayları üzrə aliment ödəmək öhdəliyindən azad olunması və həmin aylar üçün yaranmış aliment borcunun silinməsinə dair məhkəmədə iddia qaldırmış və iddia təmin edilmişdir. Lakin cavabdeh bununla razılaşmayaraq apellyasiya şikayəti vermiş və Bakı Apellyasiya Məhkəməsinin 13.06.2023-cü il tarixli qərardadı ilə iddiaçı məhkəməyə müraciət etməzdən əvvəl mediasiya prosessində iştirak etmədiyindən, apellyasiya şikayəti qismən təmin edilərək birinci instansiya məhkəməsinin qətnaməsi 18.04.2023-cü il tarixli qətnaməsi ləğv edilmiş, iddia ərizəsi baxılmamış saxlanılmışdır.

4. Cavabdeh məhkəməyə iddia ərizəsinə etiraz təqdim edərək iddia tələbini qəbul etmədiyini, aliment borcunun silinməməsini xahiş etmişdir.

5. Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin (bundan sonra- birinci instansiya məhkəməsi) 2(001)-5392/2023 saylı, 20.11.2023-cü il tarixli qətnaməsi ilə (hakim Günel Abbasova) iddia təmin edilmişdir.

6. Məhkəmənin mövqeyi ondan ibarət olmuşdur ki, iddiaçının dəlilləri əsaslıdır. Belə ki, nikahın pozulmasına dair mülki işin məhkəmədə baxıldığı müddətdə iddiaçı tərəfindən uşaqlarının saxlanılması iş materialları ilə təsdiq olunur və faktiki olaraq cavabdeh tərəfindən mübahisələndirilmir. Belə olan halda iddiaçıdan həmin müddət üçün yenidən alimentin tutulması qanunsuz, əsassız və tərəflərin hüquqları arasında ədalətli tarazlığı pozmuş olar.

7. Məhkəmə gəldiyi nəticəni Azərbaycan Respublikası Ailə Məcəlləsinin 75.1, 75.4, 100.1, 100.2, 112.1-ci maddələrinə istinadla əsaslandırmışdır.

b) **Apellyasiya instansiyası məhkəməsindəki icraat**

8. Qətnamədən Cavabdeh apellyasiya şikayəti verərək onun ləğv edilməsini və iddia tələbinin təmin olunmaması barədə yeni qətnamə çıxarılmasını xahiş etmişdir.

9. Apellyasiya şikayəti onunla əsaslandırılmışdır ki, işə baxan məhkəmə tətbiq edilməli olan Azərbaycan Respublikası Ailə Məcəlləsinin 106-cı (aliment üzrə borcların müəyyən edilməsi), 109-cu (alimentin geri qaytarılmasının yolverilməzliyi) maddələrini tətbiq etməmiş, "aliment borcunun müəyyən edilməsi və silinməsinin" məsələsi Ailə Məcəlləsinin 106.3-cü

maddəsinə əsasən birbaşa icra məmurunun səlahiyyətinə aid olan bir məsələ olmasına baxmayaraq, birinci instansiya məhkəməsi öz səlahiyyətinə aid olmayan məsələyə dair işə baxmış və sonda düzgün olmayan, əsassız qətnamə qəbul etmişdir. Həmin qətnamədən görünür ki, məhkəmənin gəldiyi nəticə üçün mühüm əhəmiyyəti olan bütün faktiki hallar düzgün aydınlaşdırılmamışdır. Birinci instansiya məhkəməsi tərəfindən iddiaçının təqdim etdiyi 2022-ci ilin avqust-dekabr ayları üzrə ərzaq alınması və kommunal xidmətlərə görə ödəmə qəbzləri üzrə riyazi hesablamalar düzgün aparılmamışdır, bu səhvlər sonda düzgün olmayan qətnamənin qəbul edilməsi ilə nəticələnmişdir, məhkəmənin iddiaçını 2022-ci ilin avqust dekabr aylarına görə aliment öhdəliyindən azad etməsi və həmin aylar üçün hesablanmış aliment borcunun silinməsi barədə qətnaməsi tamamilə əsassızdır.

10. Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının (bundan sonra- apellyasiya instansiya məhkəməsi) 2(103)-1525/2024 nömrəli iş üzrə 14 fevral 2024-cü il tarixli qərardadı ilə (hakimlər – Fuad Babayev (sədrlik edən və məruzəçi), Cəmilə Musayeva və Günay Axundova) apellyasiya şikayəti qismən təmin edilmiş, birinci instansiya məhkəməsinin qətnaməsi ləğv edilmiş, iş üzrə icraata xitam verilmişdir.

11. Məhkəmənin mövqeyi ondan ibarət olmuşdur ki, alimentin hesablanma tarixi qanuni qüvvəsini almış məhkəmə qətnaməsi ilə təsbit olunmuşdur və iddiaçının tələbi məhz həmin tarixdən etibarən icra məmuru tərəfindən hesablanan borcun silinməsi ilə bağlıdır. İddiaçı 12.08.2022-ci il – 20.12.2022-ci il tarixləri aralığında övladı və ailəsi üçün kifayət qədər xərc çəkdiyini bildirərək həmin dövrləri əhatə edən borcun silinməsi ilə bağlı icra sənədinin icrasının həvalə olunduğu icra məmuruna müraciət etməli, sübutlarını ona təqdim etməli və qeyd edilən mübahisə məhz icra qaydasında öz həllini tapmalıdır. Əgər iddiaçı icra məmuru tərəfindən yenə də aliment üzrə həmin dövrü əhatə edən borcun müəyyən edilməsi ilə razılaşmazsa, bu zaman qanunvericiliklə müəyyən edilmiş qaydada icra məmurunun hərəkətlərindən (hərəkətsizliyindən) şikayət ərizəsi ilə müraciət etmək hüququ vardır.

12. Kollegiya qeyd etmişdir ki, qanunvericiliklə şəxsin aliment borcundan tam və ya qismən azad edilməsi ilə bağlı iddialara iddia icraatı qaydasında da baxılması mümkündür. Lakin bu zaman iddia tələbinin mahiyyətinə diqqət yetirilməli və nəzərdə saxlanılmalıdır ki, qanunvericiliyin tələblərinə görə aliment borcunun silinməsi ilə bağlı tələb yalnız iddiaçının bu borcun şəxsin xəstəliyi, maddi durumu və ya digər üzrlü səbəblərə görə ödəmək iqtidarında olmaması ilə bağlı verilmiş olsun. Hazırkı iddia tələbində isə iddiaçı, ümumiyyətlə, icra məmuru tərəfindən borcun hesablanması ilə razı deyil və onun borcun silinməsi ilə bağlı tələbinin əsasını hansısa xəstəliyi və ya digər üzrlü səbəbinin nəzərə alınması təşkil etmir.

13. Məhkəmə kollegiyası hesab etmişdir ki, iddia ərizəsində irəli sürülən tələb məhkəmənin qanuni qüvvəyə minmiş yekun qərarının icrası mərhələsində həll olunmalı məsələdir. Birinci instansiya məhkəməsi iddia tələbinin əsaslarını, mübahisənin mahiyyətini nəzərə almadan işə mülki məhkəmə icraatı qaydasında baxaraq qətnamə qəbul etmişdir.

14. Məhkəmə gəldiyi nəticəni Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 387.1, 387.2.8, 261.0.1-ci maddələrinə istinadla əsaslandırmışdır.

Kassasiya şikayətinin və ona etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

15. İddiaçı (vəkil) kassasiya şikayəti verərək apellyasiya instansiya məhkəməsinin qərardadının ləğv edilməsini və işin yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilməsini xahiş etmişdir.

16. Şikayət onunla əsaslandırılmışdır ki, Bakı Apellyasiya Məhkəməsinin qərardadında Ailə Məcəlləsinin 106.2 və 106.5-ci maddələrə istinad edilməsi yanlışdır. Məhkəmə nəzərə almalıdır və fərqləndirməlidir ki, iddiaçı borcun silinməsini ona görə istəyir ki, həmin aylar üzrə iddiaçıdan (borclu)qeyd olunan dövrlər üçün iki dəfə (ikiqat) pul tutulub. Birinci dəfə tərəf özü ödənişləri könüllü icra edib, ikinci dəfə qətnamə əsasında sonradan tutulub. Bu mübahisəyə 106-cı maddənin aidiyyəti yoxdur. Çünki tərəf sübut edib ki, könüllü ödənişləri icra edib və

məhkəmə qətnaməsi sonradan qəbul edilərək əvvəlki aylar üçün aliment müəyyən edilib. İcra məmuru yalnız qətnamə üzrə tutulmalı olan məbləği hesablaya bilir. Mülki mübahisə Məhkəmənin səlahiyyətinə aiddir.

17. Məhkəmə Ailə Məcəlləsinin 107.2-ci maddəsinə istinad edərkən nəzərə almamışdır ki, hazırkı iş üzrə mübahisə aliment borcu ilə deyil, aliment məbləğin ikiqat ödənilməsi ilə əlaqədardır. Hansı ki, cavabdeh təqdim etdiyi apellyasiya şikayətində 2022-ci ilin avqust-dekabr ayları aralığında pul vəsaitlərinin ödənilməsi faktını şikayətlərində etiraf ediblər. Belə olan halda iddiaçı sübut edib ki, məhkəmə təkzib olunmaz fakt olduğu halda məhkəmə qanunsuz qərarlar qəbul edib.

18. Məhkəmə nəzərə almamışdır ki, eyni predmet üzrə eyni məhkəmənin əvvəlki qərarında – bu mübahisənin məhkəmə aidiyyəti olmaması, yaxud icra məmurunun hərəkətsizliyi və s. ilə əlaqələndirilməmişdir. Çünki belə bir əsas yoxdur!

19. Məhkəmə tərəfindən Mülki Prosessual Məcəllənin 77, 81, 88, 218.1, 386-cı maddələrinin tələbləri pozulmuş, həm prosessual, həm də maddi hüquq normaları düzgün tətbiq edilməmişdir.

20. Apellyasiya Məhkəməsinin qərarı birbaşa tənzimlənən qanun normasına ziddir. Apellyasiya instansiya məhkəməsi işin faktiki halları baxımından iddiaçının eyni aylar üzrə iki dəfə ödəniş etməsi faktını nəzərə almadan qanunları düzgün tətbiq etməmişdir. Əslində tərəflər arasında bu mübahisə mülki xarakterlidir. Bu mübahisə yalnız məhkəmə tərəfindən qiymətləndirilməli olan mübahisədir.

21. İddiaçı hesab etmişdir ki, aliment məbləğinin iddiaçı tərəfindən iki dəfə, birinci dəfə könüllü olaraq özü ödənişləri icra etmiş və ikinci dəfə məhkəmə qətnaməsi qanuni qüvvəyə mindikdən sonra icra vərəqəsi əsasında iddiaçının iş yeri üzrə əmək haqqından tutulma kimi alimentin eyni aylar üçün iki dəfə ödənilməsi kimi ikiqat ödəniş təcrübəsi bütün hallarda qanunsuzdur. Belə bir təcrübə yolverilməzdir. Eyni zamanda alimentin iki dəfə ödənilməsi halın aradan qaldırılması icraçı tərəfindən deyil, məhkəmə qaydasında həll edilməli olan məsələdir.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

22. Kassasiya şikayətinə qarşı etiraz daxil olmamışdır.

Tətbiq edilən hüquq

Ailə Məcəlləsi

23. Maddə 106.5. İcra məmuru tərəfindən aliment üzrə borcun müəyyən edilməsi ilə razılaşmayan tərəflərdən hər biri onun hərəkətlərindən mülki prosessual qanunvericiliklə müəyyən olunmuş qaydada şikayət edə bilər.

Mülki Prosessual Məcəllə

24. Maddə 261.0.1. İş məhkəmədə və ya mülki məhkəmə icraatı qaydasında baxılmalı deyildirsə hakim iş üzrə icraata xitam verir.

25. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

Kassasiya baxışının hədləri

26. Qanunun tələbinə görə, kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

27. Kassasiya şikayətində qərardad tam mübahisələndirildiyindən apellyasiya instansiyası məhkəməsinin aktı bütövlükdə yoxlanılır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

28. Məhkəmə kollegiyası hesab edir ki, iş üzrə düzgün qərardad qəbul edilməməsi ilə nəticələnən prosessual hüquq normalarının pozulması və ya səhv tətbiq olunması halları müəyyən edilmir. Bu baxımdan, apellyasiya instansiyası məhkəməsinin qərardadının ləğv olunması və ya dəyişdirilməsi üçün əsas yoxdur.

29. İddiaçı 2022-ci ilin avqust, sentyabr, oktyabr, noyabr və dekabr ayları üzrə aliment ödəmək öhdəliyindən azad olunması və həmin aylar üçün yaranmış aliment borcunun silinməsi tələbini onunla əsaslandırır ki, həmin dövrdə uşaqların maddi ehtiyaclarını təmin etmişdir. Belə olan halda həmin aylar üzrə ona yenidən aliment borcu hesablana bilməz.

30. Apelyasiya instansiyası məhkəməsi qeyd etmişdir ki, aliment borcundan tam və ya qismən azad edilmə barədə tələbə iddia icraatı qaydasında baxılması mümkündür. Lakin bu zaman iddia tələbinin mahiyyətinə diqqət yetirilməli və nəzərdə saxlanılmalıdır ki, qanunvericiliyin tələblərinə görə aliment borcunun silinməsi ilə bağlı tələb yalnız iddiaçının bu borcun şəxsin xəstəliyi, maddi vəziyyəti və ya digər üzrlü səbəblərə görə ödəmək iqtidarında olmaması ilə bağlı verilmiş olsun. Hazırkı iddia tələbində isə iddiaçı borcun olmadığını bildirir, icra məmuru tərəfindən borcun hesablanması ilə razılaşmır, borcun silinməsi ilə bağlı tələbinin əsasını hansısa xəstəliyi və ya digər üzrlü səbəbinin nəzərə alınması təşkil etmir.

31. Apellyasiya məhkəməsinin mövqeyinə görə iddiaçı 12 avqust – 20 dekabr 2022-ci il tarixləri aralığında övladı və ailəsi üçün kifayət qədər xərc çəkdiyini bildirərək həmin dövrləri əhatə edən borcun silinməsi ilə bağlı icra sənədinin icrasının həvalə olunduğu icra məmuruna müraciət etməli, sübutlarını ona təqdim etməli və qeyd edilən mübahisə məhz icra qaydasında öz həllini tapmalıdır. Əgər iddiaçı icra məmuru tərəfindən yenə də aliment üzrə həmin dövrü əhatə edən borcun müəyyən edilməsi ilə razılaşmazsa, bu zaman qanunvericiliklə müəyyən edilmiş qaydada icra məmurunun hərəkətlərindən (hərəkətsizliyindən) şikayət ərizəsi ilə müraciət etmək hüququ vardır.

32. Məhkəmə tərkibi hesab edir ki, apellyasiya instansiyası məhkəməsinin mövqeyi və iş üzrə gəldiyi nəticə qanuni və əsaslıdır.

33. Belə ki, Ailə Məcəlləsinin 106.5-ci maddəsinə görə, icra məmuru tərəfindən aliment üzrə borcun müəyyən edilməsi ilə razılaşmayan tərəflərdən hər biri onun hərəkətlərindən mülki prosessual qanunvericiliklə müəyyən olunmuş qaydada şikayət edə bilər.

34. İddia ərizəsindən görünür ki, aliment borcunun silinməsi tələbinin əsasında onun üzrlü səbəblərdən icra edilməməsi ilə bağlı dəlillər dayanmır. Tələb müəyyən olunan borc məbləğindən aliment öhdəliklərinin faktiki olaraq yerinə yetirilməsi ilə əlaqədar 2022-ci ilin avqust - dekabr aylarına hesablanan məbləğin silinməli olması ilə əsaslandırılır. Bu barədə sübutlar təqdim edilməsinə baxmayaraq icra məmuru tərəfindən müəyyənləşdirilən aliment borcunun məbləği ilə razılaşmayan borclu icra məmurunun hərəkətlərindən məhkəməyə şikayət verə bilər.

35. Qanunda bu qaydada şikayət vermək imkanının nəzərdə tutulması mübahisəli məsələyə iddia icraatı qaydasında baxılmasını istisna edir.

36. Mülki Prosessual Məcəllənin 261.0.1-ci maddəsinə əsasən, iş məhkəmədə və ya mülki məhkəmə icraatı qaydasında baxılmalı deyildirsə hakim iş üzrə icraata xitam verir.

37. Beləliklə, hazırkı iş üzrə icraata xitam verilməsi barədə apellyasiya instansiyası məhkəməsinin mövqeyi əsaslı olduğundan kassasiya şikayəti təmin edilməməli, qərardad dəyişdirilmədən saxlanılmalıdır.

38. Kollegiya onu da qeyd edir ki, iddiaçının eyniməzmunlu tələbinə daha əvvəl məhkəmədə baxılması apellyasiya instansiyası məhkəməsinin yuxarıda göstərilən hüquqi mövqeyə uyğun olaraq iş üzrə icraata xitam vermək səlahiyyətini aradan qaldırmır.

39. Göstərilənlərə əsasən və MPM-in 416, 417 və 419-cu maddələrini rəhbər tutaraq, Məhkəmə kollegiyası

Qərara aldı:

Kassasiya şikayəti təmin edilməsin.

Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(103)-1525/2024 nömrəli, 14 fevral 2024-cü il tarixli qərardadı dəyişdirilmədən saxlanılsın.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

69. 2-2(102)-634/2024 nömrəli, 2024-cü il 1 noyabr tarixli qərar - Hərrac xərclərinin və əldə edilmiş əmlakla bağlı digər xərclərin (vergilərin) icra işi üzrə borclulardan tutulması ilə bağlı ayrıca iddia tələbinə məhkəmə tərəfindən baxılmasının yolverilməzliyi

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: hərrac xərclərinin və əldə edilmiş əmlakla bağlı digər xərclərin (vergilərin) icra işi üzrə borclulardan tutulması ilə bağlı ayrıca iddia tələbinə məhkəmə tərəfindən baxılmasının yolverilməzliyi.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Nəzərə alınmalıdır ki, hərrac təşkilatının xidmət haqqı və ya hərracın keçirilməsi xərcləri, habelə hərracın qalibinin əldə etdiyi əmlakla bağlı digər xərclər (vergilər və s.) icra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı xərclərə və ipoteka predmetinə tutmanın yönəldilməsi ilə əlaqədar xərclərə aiddir. Həmçinin ipoteka saxlayanın "İpoteka haqqında" Qanunun 43.7 və 43.7-1-ci maddələrinə əsasən ipoteka predmetini əldə etdiyi zaman çəkdiyi xərclər də həmin xərclərə aiddir. Belə ki, həmin xərclər bilavasitə icra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı və ipoteka predmetinə tutmanın yönəldilməsi ilə əlaqədar xərclərdir.

Bu baxımdan məhkəmənin qənaəti ondan ibarətdir ki, hazırkı mübahisənin predmetini təşkil edən hərrac xərclərinin və əldə edilmiş əmlakla bağlı digər xərclərin (vergilərin) icra işi üzrə borclulardan tutulması ilə bağlı ayrıca iddianın irəli sürülməsi və məhkəmə tərəfindən baxılması üçün əsaslar mövcud deyil.

Hazırkı iş üzrə iddia tələbinə ayrıca iddia icraatı qaydasında baxılmasının mümkünsüz olmasına hüquqi qiymət verildiyindən, baxılacaq analoji işlər üzrə təcrübi əhəmiyyətə malikdir.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2-2(102)-634/2024

01.11.2024-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından

Azərbaycan Respublikası Ali Məhkəməsinin

Kommersiya Kollegiyasının

İddiaçının Cavabdeh1, Cavabdeh2, Cavabdeh3 və

Cavabdeh4-ə qarşı iş üzrə

Q Ə R A R I

Açar sözlər: iş üzrə icraata xitam verilməsi

(iş məhkəmədə baxılmalı deyildirsə)

Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının hakimi Abiyeva Kəmalə Nəbi qızının məruzəsi ilə, hakimlər Məmmədli Bəhram Məmməd oğlu və Babayev Zəki Baba oğlundan ibarət tərkibdə,

iddiaçı İddiaçının cavabdehlər Cavabdeh1, Cavabdeh2, Cavabdeh3 və Cavabdeh4nə qarşı maddi ziyanın ödənilməsi tələbinə dair iş üzrə Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2024-cü il 10 sentyabr tarixli 2-2(103)-754/2024 nömrəli qərardadından iddiaçı tərəfindən verilmiş kassasiya şikayətinə yazılı icraat qaydasında baxılmışdır.

İşin halları

1. Bakı şəhəri Xətai rayon Məhkəməsinin 2019-cu il 15 mart tarixli 2(011)-104/2019 nömrəli qətnaməsi ilə cavabdeh X1 MMC-dən və Cavabdeh3ndan 2013-cü il 22 fevral tarixli 92304/1 saylı kredit xətti müqaviləsi üzrə cəmi 340.432.50 959.86 ABŞ dolları (qətnamədə göstərildiyi kimi) əsas borc, 27.527 ABŞ dolları faiz, 2752 ABŞ dolları cərimə borcunun, cavabdehlər X1 MMC-dən, Cavabdeh3dən, Cavabdeh1-dən və Cavabdeh2dən 2014-cü il 29 avqust tarixli 92304/3 saylı kredit müqaviləsi üzrə 526.587,39 manat əsas, 40.005,10 manat faiz, 4000 manat cərimə borcunun bankın xeyrinə tutulması, tutmanın ipoteka predmetlərinə yönəldilməsi, həmin əmlakın açıq hərracdan satılaraq satışdan əldə edilmiş məbləğlərdən banka ödənilməli olan borc dəyərində bankın xeyrinə tutulması qət edilmişdir.

2. Bakı Apellyasiya Məhkəməsinin 2020-ci il 30 sentyabr tarixli 2(103)-652/2020 nömrəli qətnaməsi ilə iddiaçının apellyasiya şikayəti qismən təmin edilərək, Bakı şəhəri Xətai Rayon Məhkəməsinin 2(001)-105/2019 nömrəli 2019-cu il 15 mart tarixli qətnaməsi ləğv edilmiş və iddia qismən təmin edilərək, cavabdehlər X1 MMC-dən və Cavabdeh3-dən 2013-cü il 22 fevral tarixli 92304/1 saylı Kredit Xətti Müqaviləsinin 2014-cü il 17 sentyabr tarixli 10 nömrəli Kredit Sazişi Müqaviləsi üzrə əsas borc üzrə 116.018,15 ABŞ dolları, faiz borcu üzrə 2.568,73 ABŞ dolları, cərimə borcu üzrə 66,99 ABŞ dolları olmaqla, ümumilikdə 118.653,87 ABŞ dolları, 2014-cü il 4 dekabr tarixli 11 nömrəli Kredit Sazişi Müqaviləsi üzrə 65.580 manat əsas, 3333,65 ABŞ dolları faiz və 378,94 ABŞ dolları cərimə olmaqla, ümumilikdə 69.292,59 ABŞ dolları, 2014-cü il 19 dekabr tarixli 12 nömrəli Kredit Sazişi Müqaviləsi üzrə 168.200 ABŞ dolları əsas, 10.512,50 ABŞ dolları faiz, 1576,87 ABŞ dolları cərimə olmaqla, 180.289,37 ABŞ dolları (ödəniş gününə Azərbaycan manatı ifadəsində), habelə cavabdehlər X1 MMC, Cavabdeh3, Cavabdeh1 və Cavabdeh2-dən 2014-cü il 29 avqust tarixli 92304/3 saylı Kredit müqaviləsi üzrə 508.834,73 manat əsas, 165.508,43 manat faiz, 14.824,92 manat cərimə olmaqla, cəmi 689.168,08 manatın İddiaçının xeyrinə tutulması, tutmanın ipoteka (girov) qoyulmuş əmlaklara yönəldilməsi, həmin əmlakların açıq hərracdan satılması və əldə ediləcək vəsait hesabına kredit borclarının ödənilməsi, X2-yə məxsus olan 0.06 ha torpaq sahəsində yerləşən, 2 mərtəbəli, 240.95 kv.m ümumi, 193.15 kv.m yaşayış, 47.8 kv.m yardımçı sahədən ibarət olan Ünvan1 ünvanında yerləşən bağ evi, ilkin satış (likvid) qiyməti 450.000 manat, X3-ə məxsus olan 0.02063 ha torpaq sahəsində yerləşən, 2 mərtəbəli, 245.3 kv.m ümumi sahədən ibarət olan Ünvan2 ünvanında yerləşən əmlak kompleksinin ilkin satış (likvid) qiymətinin 530.000 manat, X4-ə məxsus olan 0.0651 ha torpaq sahəsində yerləşən, 7 mərtəbəli, 272.76 kv.m ümumi, 141.66 kv.m yaşayış sahəsindən ibarət olan Ünvan3 ünvanında yerləşən mənzilin ilkin satış (likvid) qiymətinin 400.000 manat müəyyən edilməklə iddianın qalan hissədə təmin edilməməsi qət edilmişdir.

3. Azərbaycan Respublikası Ali Məhkəməsinin 2021-ci il 31 may tarixli 2(102)2502/2021 nömrəli qərarı ilə cavabdeh Cavabdeh3 tərəfindən verilmiş kasassiya şikayəti təmin edilməmiş və Bakı Apellyasiya Məhkəməsinin 2020-ci il 30 sentyabr tarixli 2(103)-652/2020 nömrəli qətnaməsi mübahisələndirilən hissədə dəyişdirmədən saxlanılmışdır.

4. Həmin qətnamənin icrası ilə əlaqədar keçirilən hərrac prosesində keçmiş mülkiyyətçi X2-yə məxsus olmuş (2013-cü il 22 fevral tarixli ipoteka müqaviləsi) 0,06 ha torpaq sahəsində yerləşən, 2 mərtəbəli, 240,95 kv.m ümumi, 193,15 kv.m yaşayış, 47,8 kv.m yardımçı sahədən ibarət olan Ünvan1 ünvanında yerləşən bağ evi satılmadığı üçün yekun olaraq Banka (girov saxlayana) təklif edilmiş və həmin əmlak hərracın nəticələri barədə 2023-cü il 18 may tarixli 130/23 saylı yekun protokola əsasən 286.875 manat vəsaitə İddiaçı tərəfindən əldə edilmişdir/alınmışdır.

5. Keçirilən digər hərrac prosesində keçmiş mülkiyyətçi X4-ə məxsus olmuş (2014-cü il 27 sentyabr tarixli ipoteka müqaviləsi) 0,0651 ha torpaq sahəsində yerləşən, 7 mərtəbəli, 272,76 kv.m ümumi, 141,66 kv.m yaşayış sahəsindən ibarət olan Ünvan3 ünvanında yerləşən mənzil satılmadığı üçün yekun olaraq Banka (girov saxlayana) təklif edilmiş və həmin əmlak hərracın nəticələri barədə 2023-cü il 9 iyun tarixli 97 saylı yekun protokola və ipoteka predmetinin ipoteka saxlayan tərəfindən əldə olunmasına dair 2023-cü il 9 iyun tarixli müqaviləyə əsasən 255.000 manat vəsaitə İddiaçı tərəfindən əldə edilmişdir/alınmışdır.

6. 2023-cü il 22 may tarixli 174 saylı ödəniş tapşırığına əsasən İddiaçı tərəfindən Ünvan1 ünvanında yerləşən əmlaka dair "Əmlak Hərrac Mərkəzi" MMC-yə 12.668,08 manat, 457 saylı ödəniş tapşırığına əsasən isə 4765,04 manat məbləğində hərrac xidmətinə görə ödənişlər edilmişdir.

7. 2023-cü il 8 iyun tarixli 519 saylı ödəniş tapşırığına əsasən İddiaçı tərəfindən Ünvan3 ünvanında yerləşən 28 saylı mənzilə (0,0651 ha torpaq sahəsində yerləşən, 7 mərtəbədə, 6 otaqlı, ümumi sahəsi 272,76 kv.m, yaşayış sahəsi 141,66 kv.m olan) dair 10.805,08 manat və 1944,92 manat məbləğlərində hərrac xidmət haqqı ödənişləri həyata keçirilmişdir.

İş üzrə məhkəmə icraatı

a) Birinci instansiya məhkəməsindəki icraat

8. İddiaçı (bundan sonra"iddiaçı") cavabdehlər Cavabdeh4, Cavabdeh2, Cavabdeh1 və Cavabdeh3-ə qarşı iddia və iddia tələbinin dəqiqləşdirilməsi barədə ərizələrlə məhkəməyə müraciət edərək, cavabdehlərdən müştərək (birgə) qaydada iddiaçı qarşısında götürdükləri kredit öhdəliklərini pozduqları üçün-0,06 ha torpaq sahəsində yerləşən, 2 mərtəbəli, 240,95 kv.m ümumi, 193,15 kv.m yaşayış, 47,8 kv.m yardımçı sahədən ibarət olan Ünvan1 ünvanında yerləşən bağ evinin iddiaçının mülkiyyətinə keçirilməsi ilə bağlı hərrac xərci daxil ümumilikdə 18.500,84 manat, o cümlədən hərrac xidmətləri-12.155,72 manat, sadələşdirilmiş vergi yalnız bağ evinə (tikiliyə) görə – 3797,10 manat, sadələşdirilmiş vergi yalnız torpaq sahəsinə görə - 360 manat, əldə edilmiş əmlakın Əlavə Dəyər Vergisi (ƏDV) 18% dərəcəsi ilə - 2188,02 manat; 0,0651 ha torpaq sahəsində yerləşən, 7 mərtəbəli, 272,76 kv.m ümumi, 141,66 kv.m yaşayış sahədən ibarət olan Ünvan3 ünvanında yerləşən mənzilin iddiaçının mülkiyyətinə keçirilməsi ilə bağlı hərrac xərci daxil ümumilikdə 12.750 manat, o cümlədən hərrac xidmətləri -10.805,08 manat, əldə edilmiş əmlakın Əlavə Dəyər Vergisi (ƏDV) 18% dərəcəsi ilə - 1944,92 manat məbləğində vəsaitin (Banka vurulmuş maddi ziyan) və 217,59 manat dövlət rüsumunun iddiaçının xeyrinə tutulması (ödənilməsi) barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

9. İddia tələbi işin yuxarıda göstərilən halları ilə əsaslandırılmışdır.

10. Cavabdehlər tərəfindən iddia tələbinə qarşı etiraz daxil olmamışdır.

11. Bakı Kommersiya Məhkəməsinin 2024-cü il 15 may tarixli e-2-2(113)-2128/2024 nömrəli qətnaməsi ilə iddia tələbi rədd edilmişdir (hakim – G.Namazova).

12. Birinci instansiya məhkəməsi gəldiyi nəticə ilə bağlı göstərmişdir ki, hazırkı iddianın predmetini hərrac xidmətinə çəkilmiş vəsait təşkil edir. İddiaçı iddianın əsası kimi ona istinad edir ki, cavabdehlər tərəfindən öhdəliklərin icra edilməməsi nəticəsində ona ziyan dəymişdir. Halbuki, iddiaçının da iddia ərizəsində istinad etdiyi kimi cavabdehlərin öhdəliklərinin icra

etməməsi nəticəsində yaranmış borc məlbəğləri onların əmlaklarına yönəldilərək satışa çıxarılmışdır. Digər məqam isə həmin əmlaklar 25% aşağı qiymətə ipoteka saxlayan kimi iddiaçı banka təklif edilmiş, iddiaçı da həmin əmlakları əldə etmək hüququndan istifadə edərək əldə etmiş və onlara görə müəyyən xidmət haqqı ödəmişdir. Hazırkı mübahisə üzrə delikt nəticəsində vurulmuş zərər mövcud olmamışdır.

13. Məhkəmə gəldiyi nəticəni Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra-"MM") 21.1, 21.2, 386.1, 1096.1, 1115-ci, "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun 43.7, 43.7-1, 43.8-ci maddələrinə istinadla əsaslandırmışdır.

14. İddiaçı tərəfindən həmin qətnamədən verilmiş apellyasiya şikayətində, qətnamənin ləğv olunması və iddia tələbinin təmin edilməsi barədə qətnamə çıxarılması xahiş edilmişdir.

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

15. Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2024-cü il 10 sentyabr tarixli 2-2(103)-754/2024 nömrəli qərardadı ilə iddiaçı tərəfindən verilmiş apellyasiya şikayəti qismən təmin edilmiş, birinci instansiya məhkəməsinin qətnaməsi ləğv edilərək, iş üzrə icraata xitam verilmiş, iddiaçıya izah olunmuşdur ki, iddia ərizəsində irəli sürdüyü tələblər icra mərhələsində həll olunan məsələlərə aid olduğuna görə istinad etdiyi qətnamənin icrasını həyata keçirən icra məmuruna müraciət edə bilər (sədrlik edən məruzəçi hakim- R.Qurbanov, hakimlər Z.Şirinov və V.Baxışova).

16. Apellyasiya instansiyası məhkəməsi qeyd etmişdir ki, hazırkı tələbə iddia icraatı qaydasında baxıla bilməz. Belə ki, "İcra haqqında" Qanunun müddəalarından müəyyən edilir ki, borclunun əmlakının satılması ilə bağlı xərclər icra xərclərinə aiddir. Eyni zamanda, ipoteka predmetinin satılmasından əldə olunan gəlir "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmuş qaydada bölüşdürülür. Həmin Qanunun müddəalarından isə müəyyən edilir ki, ipoteka predmetinin satılmasından əldə olunan gəlir icra məmurlarının depozit hesabına daxil olduqdan sonra müəyyən olunan qaydada bölüşdürülür və həmin gəlir hesabına ipoteka predmetinə tutmanın yönəldilməsi ilə əlaqədar xərclərin ödənilməsi də daxildir. Eyni zamanda, həmin məsələni icra məmuru həll edir, yalnız ipoteka saxlayanın bütün tələbləri təmin olunduqdan sonra "İcra haqqında" Qanunda nəzərdə tutulmuş məbləğdə icra ödənişi ödənilir və bütün bu ödənişlər həyata keçirildikdən sonra ipoteka predmetinin satışından əldə olunan vəsaitin qalan hissəsi ipoteka qoyana qaytarılır.

17. Hərrac təşkilatının xidmət haqqı və ya hərracın keçirilməsi xərcləri ilə bağlı məhkəmə qeyd etmişdir ki, bu məsələ yalnız Mülki Məcəllənin 319.5-ci maddəsində göstərilmişdir. Belə ki, həmin maddənin tələblərinə görə hərrac "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş hallarda baş tutmamış elan edildikdə, təkrar hərrac keçirilir. Təkrar hərrac birinci hərracın formasında elan edilməli və həmin qaydada keçirilməlidir. Təkrar hərracın təşkilatçısı ipoteka predmetini ilkin satış qiymət ilə, təkrar hərracın birinci hərracın iştirakçısı olmadığı səbəbindən keçirildiyi halda isə ilkin satış qiymətindən 15 faiz aşağı qiymətlə hərraca çıxara bilər, bu şərtlə ki, ipoteka predmetinin ən aşağı satış qiyməti ən azı hərracın keçirilməsi xərclərinin və hüquqlarının qeydiyyat növbəliliyinə görə ipoteka predmetini açıq hərracdan satan ipoteka saxlayandan üstün olan digər ipoteka saxlayanların tələblərinin ödənilməsi üçün kifayət qədər olsun. Hərrac üzrə xərclər mülkiyyətçinin üzərinə qoyulur.

18. Bununla yanaşı, "İcra haqqında" Qanunun 79.1-ci maddəsində müəyyən edilib ki, icra hərəkətlərinin təşkilinə və keçirilməsinə sərf olunan vəsaitlər icra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı xərclər sayılır. Həmin Qanunun 79.2.1-ci maddəsində isə göstərilmişdir ki, icra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı xərclərə borclunun əmlakının daşınmasına, saxlanmasına və satılmasına sərf edilən vəsaitlər aiddir. Bundan əlavə, "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununun 4.1.4-cü maddəsində "ipoteka predmetinə tutmanın yönəldilməsi ilə əlaqədar digər xərclər" ifadəsindən istifadə olunmuşdur.

19. Qeyd olunanlar belə nəticəyə gəlməyə əsas verir ki, hərrac təşkilatının xidmət haqqı və ya hərracın keçirilməsi xərcləri, habelə hərracın qalibinin əldə etdiyi əmlakla bağlı digər xərclər (vergilər və s.) icra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı xərclərə və ipoteka predmetinə tutmanın yönəldilməsi ilə əlaqədar xərclərə aiddir.

20. Eyni zamanda, ipoteka saxlayanın "İpoteka haqqında" Qanunun 43.7 və 43.7-1-ci maddələrinə əsasən ipoteka predmetini əldə etdiyi zaman çəkdiyi xərclər də həmin xərclərə aiddir. Belə ki, həmin xərclər bilavasitə icra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı və ipoteka predmetinə tutmanın yönəldilməsi ilə əlaqədar xərclərdir. "İcra haqqında" Qanunun 47.2-ci maddəsindən isə müəyyən edilir ki, bu xərclərin müəyyən edilərək ipoteka predmetinin satılmasından əldə olunan gəlirin bölüşdürülməsi, habelə ipoteka predmetini ipoteka saxlayan əldə etdiyi zaman nəzərə alınması icra məmurunun səlahiyyətinə aiddir.

21. Bu baxımdan apellyasiya instansiyası məhkəməsi belə qənaətə gəlmişdir ki, hazırki mübahisənin predmetini təşkil edən hərrac xərclərinin və əldə edilmiş əmlakla bağlı digər xərclərin (vergilərin) icra işi üzrə borclulardan tutulması ilə bağlı ayrıca iddianın irəli sürülməsi və məhkəmə tərəfindən baxılması üçün əsaslar mövcud deyil , MPM-nin

261.0.1-ci maddəsinin tələbləri baxımından iş üzrə icraata xitam verilməlidir.

22. Apellyasiya instansiyası məhkəməsi gəldiyi nəticəni MM-nin 319.5-ci maddəsinə, "İcra haqqında" Azərbaycan Respublikası Qanununun 8.2, 74.1, 74.2, 74.3, 79.1, 79.2.1 və 81.4-cü maddələrinə, "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun 4.1.4, 42.1, 43.2, 43.5, 43.6, 43.7, 43.7-1, 47.2.1, 47.2.2, 47.2.3, 47.2.4 və 47.4-cü maddələrinə, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra – "MPM") 261.0.1ci maddələrinə istinadla əsaslandırmışdır.

23. İddiaçı tərəfindən həmin qərardaddan verilmiş kassasiya şikayətində, qərardadın ləğv edilməsi, apellyasiya şikayətinə mahiyyəti üzrə baxılması üçün işin apellyasiya məhkəməsinə qaytarılması xahiş edilmişdir.

Kassasiya şikayətinin və ona qarşı etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri:

24. MM-in 14, 385.1, 385.2, 448.1, 448.2-ci, "İcra haqqında" Azərbaycan Respublikası Qanununun 80.1, 80.3-cü maddələri üzrə - icra mərhələsində borclulardan tutulmalı olan vəsaitlərin həmin iş üzrə tələbkar olan iddiaçı tərəfindən ödənilməsi borcluları həmin öhdəlik yükündən azad edə bilməz və bu halda "İcra haqqında" Qanunun 80.1 və 80.3-cü maddələrinin müddəaları nəzərə alınmalıdır. Apellyasiya məhkəməsi maddi hüquq normalarını işin hallarına düzgün tətbiq etmək əvəzinə, bir sıra qanun normalarına formal istinad etməklə kifayətlənmişdir. Məhkəmə nəzərə almamışdır ki, iddiaçı hərrac nəticələrinə əsasən məcburi olaraq cavabdehlərin öz öhdəliklərini icra etməməsi nəticəsində əmlakı əldə etmiş, hazırkı iş üzrə cavabdehlər tərəfindən ödənilməli olan və qanunvericiliklə müəyyən olunmuş ödənişlərin həyata keçirilməsi məcburiyyətində qalmış, icra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı cavabdehlərin əvəzinə ödəmiş, iddiaçıya qaytarılmalı olan həmin vəsaitlər qaytarılmadığından, iddiaçıya maddi ziyan dəymişdir.

25. "İcra haqqında" Qanunun 74.1-ci, "İpoteka haqqında" Qanunun 4.1 və 47.2-ci maddələri üzrə - İpoteka predmetinin hərracdan satılması ilə bağlı hərrac təşkilatçısının xərcləri həmin iş üzrə tələbkar iddiaçıdan alınmışdır. "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 440.4-cü və "Məhkəmə qərarlarının icrası haqqında" Azərbaycan Respublikası Qanununun 74.1-ci maddələrinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 2002-ci il 27 dekabr tarixli Qərarında qeyd edilmişdir ki, "Mülki Məcəllənin 440.4-cü maddəsində isə müəyyən edilmiş növbəlilik ədalət anlayışına cavab vermir, ümumi və xüsusi

mənafelər arasında ədalətli tarazlıq pozulmuş olur. Belə ki, yuxarıda göstərilən maddədə nəzərdə tutulmuş məhkəmə xərclərinin ödənilməsinin əsasını iddia təşkil etdiyi halda, tələbkarın tələblərinin yalnız məhkəmə xərclərinin ödənilməsindən sonra təmin olunması, pozulmuş hüquqların təsirli şəkildə bərpa olunması kimi qəbul edilə bilməz və belə hal Konstitusiyanın 60-cı maddəsinin pozulması kimi qiymətləndirilməlidir.

26. MPM-nin 261.0.1-ci maddəsi üzrə-apellyasiya məhkəməsi iş üzrə icraata xitam verilməsi barədə qəbul etdiyi qərardadını qeyd edilən maddəyə istinad etməklə əsaslandırmış və məhkəmənin dəlili bundan ibarət olmuşdur ki, iddia ərizəsində irəli sürülmüş tələblər icra mərhələsində həll olunan məsələlərə aid olduğuna görə istinad olunan qətnamənin icrasını həyata keçirən icra məmuruna müraciət oluna bilər. Halbuki, iddiaçının cavabdehlərdən tutulmasını istədiyi məbləği (onların əvəzinə ödədiyi məbləğləri) tələb etmək üzrə yaranmış subyektiv hüququnu hazırkı icra mərhələsində həyata keçirmək imkanları tükənmişdir. Belə ki, yuxarıda da qeyd edildiyi kimi, ipoteka qoyulmuş əmlakların hərrac xərcləri iddiaçı tərəfindən ödənilmiş, alıcı olmadığı səbəbindən iddiaçı məcbur olub həmin əmlakları götürmüş, yəni satış olmadığı üçün icra şöbəsinin depozitinə də hər hansı məbləğ daxil olmamışdır və bu səbəbdən də "İcra haqqında" Qanunun 80.3-cü maddəsində nəzərdə tutulmuş imkanı icra mərhələsində reallaşdıra bilməmişdir.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

27. Kassasiya şikayətinə qarşı etiraz daxil olmamışdır.

Kassasiya baxışının hədləri

28. Apellyasiya instansiyası məhkəməsinin qərardadı bütövlükdə mübahisələndirildiyindən, hazırkı icraat çərçivəsində məhkəmə aktının qanuniliyi və əsaslılığı tam olaraq yoxlanılacaqdır (MPM-in 403 və 416-cı maddələri).

29. Kassasiya instansiyası məhkəməsi tərəfindən işin faktiki halları yoxlanılmasa da, apelyasiya instansiyası məhkəməsinin maddi və prosessual hüquq normalarını düzgün tətbiq edib etməməsini yoxlayarkən hüquqi məsələlərin düzgün qiymətləndirilməsi üçün işin faktiki hallarının nəzərə alınması və onlara istinad olunması zəruridir. Kassasiya instansiyası məhkəməsinin işin müəyyən edilmiş faktiki hallarına istinad etməsi faktiki halların yoxlanılması və araşdırılması kimi qiymətləndirilməməlidir.

Tətbiq edilən hüquq

30. Azərbaycan Respublikası Mülki Məcəlləsinin müvafiq müddəalarında aşağıdakılar nəzərdə tutulur:

"Maddə 319. Borclunun öhdəlikləri yerinə yetirməyi gecikdirməsinin nəticələri

...

319.5. Hərrac "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş hallarda baş tutmamış elan edildikdə, təkrar hərrac keçirilir. Təkrar hərrac birinci hərracın formasında elan edilməli və həmin qaydada keçirilməlidir. Təkrar hərracın təşkilatçısı ipoteka predmetini ilkin satış qiymət ilə, təkrar hərracın birinci hərracın iştirakçısı olmadığı səbəbindən keçirildiyi halda isə ilkin satış qiymətindən 15 faiz aşağı qiymətlə hərraca çıxara bilər, bu şərtlə ki, ipoteka predmetinin ən aşağı satış qiyməti ən azı hərracın keçirilməsi xərclərinin və hüquqlarının qeydiyyat növbəliliyinə görə ipoteka predmetini açıq hərracdan satan ipoteka saxlayandan üstün olan digər ipoteka saxlayanların tələblərinin ödənilməsi üçün kifayət qədər olsun. Hərrac üzrə xərclər mülkiyyətçinin üzərinə qoyulur.

...”

31. “İcra haqqında” Azərbaycan Respublikası Qanununun müvafiq müddəalarında aşağıdakılar nəzərdə tutulur:

“ M a d d ə 7 4 . Borcludan tutulmuş pul məbləğinin bölüşdürülməsi

74.1. İcra məmuru tərəfindən borcludan tutulmuş, o cümlədən borclunun əmlakının satılmasından əldə olunmuş pul məbləğindən əvvəlcə tələbkarın (tələbkarların) tələblərinin təmin olunması üçün istifadə edilir.

74.2. Bütün tələblər təmin olunduqdan sonra qanunvericilikdə başqa hal nəzərdə tutulmayıbsa, qalan pul məbləği borcluya qaytarılır.

74.3. İpoteka predmetinə məhkəmənin qərarı və ya notariusun icra qeydi əsasında tutma yönəldikdə, ipoteka predmetinin satılmasından əldə olunan gəlir "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmuş qaydada bölüşdürülür.”

“ M a d d ə 7 9 . İcra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı xərclər

79.1. İcra hərəkətlərinin təşkilinə və keçirilməsinə sərf olunan vəsaitlər icra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı xərclər sayılır. Həmin xərclər icra xidməti icra məmurlarının xüsusi fondunun, habelə icraatda iştirak edən tərəflərin və digər şəxslərin vəsaitləri hesabına ödənilir.

79.2. İcra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı xərclərə:

79.2.1. borclunun əmlakının daşınmasına, saxlanmasına və satılmasına;

...”

“ M a d d ə 8 1 . İcra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı xərclərin ödənilməsi qaydası

...

81.4. İcra hərəkətləri ilə bağlı xərclərin tutulması, habelə bu Qanunla müəyyən edilmiş hallarda həmin xərclərin dövlət büdcəsi hesabına ödənilməsi icra məmurunun qərarına əsasən həyata keçirilir. Həmin qərar icra qurumunun rəhbəri tərəfindən yoxlanılaraq təsdiq olunur və onun surəti 3 gün müddətində tərəflərə göndərilir.

...”

32. “İpoteka haqqında” Azərbaycan Respublikası Qanununun müvafiq müddəalarında aşağıdakılar nəzərdə tutulur:

“M a d d ə 4. İpoteka ilə təmin edilən tələbin həcmi

4.1. Əgər ipoteka müqaviləsi ilə ayrı qayda nəzərdə tutulmayıbsa, ipoteka saxlayanın tələbi aşağıdakılar da daxil edilməklə tam həcmdə təmin edilir:

...

4.1.4. ipoteka predmetinə tutmanın yönəldilməsi ilə əlaqədar icra qeydinin aparılması, məhkəmə xərclərinin və digər xərclərin ödənilməsi.

...”

“M a d d ə 42. Hərracın keçirilmə qaydası

42.1. Hərracın təşkilatçısı icra məmurundan sifarişi aldığı gündən 5 iş günü müddətində hərracın keçirilməsinə dair mediada və özünün rəsmi internet saytında elan dərc etdirir və bu barədə ipoteka saxlayana və ipoteka qoyana sifarişli poçt göndərişi (məktubu) ilə bildiriş göndərir. Elan və bildiriş hərracın keçirilməsinə ən geci 20 təqvim günü qalmış verilir (göndərilir). Hərrac sifarişin alındığı gündən 30 təqvim günündən gec olmayaraq keçirilir. Elanda və bildirişdə hərracın vaxtı, yeri, keçirilmə qaydası, satışa çıxarılan ipoteka predmetinin yerləşdiyi ərazi və təsviri, ilkin satış qiyməti, hərrac addımı (ilkin satış qiymətinin 3 faizindən artıq olmamaqla), hərracda iştirak üçün behin məbləği, onun ödənilməsi müddəti və qaydası, hərracda iştirak hüququnu əldə etmək üçün sənədlərin siyahısı, habelə alış qiymətinin ödənilməsi müddəti və qaydası haqqında məlumat olmalıdır. Hərracın iştirakçısı hərracın predmetinin ilkin satış qiymətinin 5 faizi məbləğində beh ödəməlidir.

...”

“M a d d ə 43. Hərracın baş tutmamış elan edilməsi

...

43.2. Bu Qanunun 43.1.1 - 43.1.4-cü maddələrində nəzərdə tutulmuş hallarda hərracın baş tutmaması barədə elan hərracın keçirilməsinin təyin olunduğu və ya müvafiq olaraq alış qiymətinin ödənilməsi üçün nəzərdə tutulmuş gündən 3 təqvim günü gec olmayaraq dərc etdirilir.

...

43.5. Təkrar hərrac bu Qanunun 42-ci maddəsində nəzərdə tutulmuş qaydada keçirilir. Hərracın təşkilatçısı ipoteka predmetini ilkin satış qiymət ilə, hərracın iştirakçısı olmadığına görə hərracın baş tutmadığı səbəbə görə isə ilkin satış qiymətindən 15 faiz aşağı qiymətlə hərraca çıxara bilər, bu şərtlə ki, ipoteka predmetinin ən aşağı satış qiyməti ən azı hərracın keçirilməsi xərclərinin və hüquqlarının qeydiyyat növbəliliyinə görə ipoteka predmetini açıq hərracdan satan ipoteka saxlayandan üstün olan digər ipoteka saxlayanların tələblərinin ödənilməsi üçün kifayət qədər olsun.

43.6. Təkrar hərracda bir iştirakçı olduqda hərrac baş tutmuş hesab olunur və bu halda həmin şəxs hərracın qalibi olur.

43.7. Bu Qanunun 43.1.1-ci maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, hərrac digər səbəblərə görə baş tutmamış elan edildikdə ipoteka saxlayan ipoteka predmetini təkrar hərracdakı satış qiymətindən 25 faiz az olmayan qiymətlə ala bilər, bu şərtlə ki, ipoteka predmetinin ən aşağı satış qiyməti ən azı hüquqlarının qeydiyyat növbəliliyinə görə ipoteka predmetini satın alan ipoteka saxlayandan üstün olan digər ipoteka saxlayanların tələblərinin ödənilməsi üçün kifayət qədər olsun.

43.7-1. Təkrar hərrac baş tutmamış elan edildikdə, ipoteka predmetinin ipoteka saxlayan tərəfindən əldə olunması barədə ipoteka saxlayan və hərracın təşkilatçısı 30 təqvim günü ərzində protokol imzalayırlar; bu protokol müqavilə qüvvəsinə malikdir.

...”

“M a d d ə 47. İpoteka predmetinin satılmasından əldə olunan gəlirin bölüşdürülməsi

...

47.2. İpoteka predmetinə məhkəmənin qərarı və ya notariusun icra qeydi əsasında tutma yönəldildikdə ipoteka predmetinin satılmasından əldə olunan gəlir icra məmurlarının depozit hesabına daxil olduqdan sonra 7 təqvim günündən gec olmayaraq icra məmuru tərəfindən aşağıdakı qaydada bölüşdürülür:

47.2.1. ipoteka saxlayanın ipoteka ilə təmin olunmuş tələbinin, o cümlədən əsas borcun, faizlərin, öhdəliyin icra edilməməsi və ya lazımınca icra edilməməsi, yaxud icranın gecikdirilməsi nəticəsində dəbbə pulunun və (və ya) vurulmuş zərərin əvəzinin ödənilməsinə (bu ödənişlər göstərilən ardıcıllıqla həyata keçirilir);

47.2.2. bu Qanunun 4.1.4-cü və 5-ci maddələrində nəzərdə tutulmuş xərclərin ödənilməsinə;

47.2.3. sonrakı ipoteka saxlayan ipoteka hüququnu həyata keçirdikdə onun tələbinin ödənilməsinə;

47.2.4. bu Qanunun 47.2.1–47.2.3-cü maddələrində qeyd edilən tələblər tam ödənildikdən sonra "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş məbləğdə icra ödənişinin ödənilməsinə.

...

47.4. Bu Qanunun 47.2-ci maddəsində nəzərdə tutulmuş ödənişlər həyata keçirildikdən sonra ipoteka predmetinin satışından əldə olunan vəsaitin qalan hissəsi ipoteka qoyana qaytarılır.

..."

33. Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin müvafiq müddəalarında aşağıdakılar nəzərdə tutulur:

"Maddə 14. İş üzrə məhkəmə baxışının prinsipləri

14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

..."

"Maddə 77. Sübut etmə vəzifəsi

77.1. Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

..."

"Maddə 88. Sübutların qiymətləndirilməsi

Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir.

Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur."

"Maddə 261. İcraata xitam verilmə əsasları

261.0. Hakim iş üzrə icraata aşağıdakı hallarda xitam verir:

261.0.1. işməhkəmədə və yamülki məhkəmə icraatı qaydasında baxılmalı deyildirsə;

..."

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

34. Məhkəmə kollegiyası kassasiya şikayətinin dəlillərinə qiymət verərkən nəzərə alır ki, kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır (MPM-in 416.1-ci maddəsi).

35. "Kassasiya məhkəməsi sübut və faktlara yenidən qiymət vermədən işin hallarını müəyyən olunmuş kimi qəbul edərək, apellyasiya məhkəməsinin qərarının mahiyyəti üzrə düzgün olub-olmamasını yoxlamır, onu yalnız məhkəmə tərəfindən qanunun tələblərinə riayət olunub-olunmaması maraqlandırır, çünki həmin məhkəmənin fəaliyyətinin fundamental prinsipinə görə, "kassasiya məhkəməsi işi deyil, qərarı mühakimə edir". Məhkəmə aktı o zaman

qanuni hesab olunur ki, mübahisəyə prosessual qanunla müəyyən olunmuş qaydalara uyğun olaraq baxılmış və qərar qəbul olunmuş, mübahisələndirilən münasibətlər isə onlara dair maddi hüquq normaları ilə müəyyən edilmiş qaydalarla tənzimlənmişdir (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 420-ci maddəsinin şərh edilməsinə dair" 2012-ci il 28 fevral tarixli Qərarı).

36. Məhkəmə kollegiyası kassasiya şikayətinin dəlillərini apellyasiya instansiyası məhkəməsinin iş üzrə qərardadının ləğv edilməsi üçün əsas hesab etmir və qeyd edilməsini zəruri hesab edir ki, iddiaçı tərəfindən qaldırılan hazırki iddiaya ayrıca iddia icraatı qaydasında baxılmasının mümkünsüzlüyünə apellyasiya instansiyası məhkəməsi tərəfindən həm «İcra haqqında» Qanunun, həm də «İpoteka haqqında» Qanunun yuxarıda qeyd olunan normalarının tələbləri baxımından düzgün hüquqi qiymət verilmişdir (bax yuxarıda 16-22-ci bəndlər). Ona görə də məhkəmə kollegiyası eyni hüquqi məsələ üzrə təkrar hüquqi qiymətləndirmə aparılmasına zərurət görmür.

37. Göstərilənlərə əsasən məhkəmə hesab edir ki, apellyasiya instansiyası məhkəməsinin qərardadının ləğv edilməsi və ya dəyişdirilməsi üçün əsas olmadığından apellyasiya instansiyası məhkəməsinin iş üzrə qərardadı dəyişdirilmədən saxlanılmalı, kassasiya şikayəti isə təmin edilməməlidir.

38. MPM-in 417 419-cu maddələrini rəhbər tutaraq məhkəmə kollegiyası

Qərara alır:

Kassasiya şikayəti təmin edilməsin.

Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2024-cü il 10 sentyabr tarixli, 2-2(103)-754/2024 saylı qərardadı dəyişdirilmədən saxlanılsın.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

70. 2(102)-3821/2024 nömrəli, 2024-cü il 19 noyabr tarixli qərar - Mediasiya qaydasında bağlanmış barışıq sazişi ilə razılaşdırılmış məsələlər üzrə qaldırılmış iddiaya baxılmasının yolverilməzliyi

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: mediasiya qaydasında bağlanmış barışıq sazişi ilə razılaşdırılmış məsələlər üzrə qaldırılmış iddiaya baxılmasının yolverilməzliyi.

İddiaçı ilə cavabdeh nikahlarından 2 uşaqları anadan olmuşdur. Mediasiya prosesində tərəflər uşaqların atalarının (iddiaçının) yanında saxlanılması, həmçinin uşaqların yetkinlik yaşına çatana qədər anadan aliment tələb edilməyəcəyi barədə razılığa gələrək, 2023-cü il 10 iyul tarixində barışıq sazişi imzalamışlar.

Bundan sonra iddiaçı məhkəməyə müraciət edərək, aralarında olan nikahın pozulması, birgə nikahdan olan uşaqların onun himayəsində saxlanılması barədə qətnamə çıxarılmasını xahiş etmiş, birinci instansiya məhkəməsinin qətnaməsi ilə iddia nikahın pozulması hissəsində təmin, qalan hissədə rədd edilmişdir. İddiaçı qətnamədən apellyasiya şikayəti vermiş, apellyasiya instansiyası məhkəməsi tərəfindən qətnamə mübahisələndirilən hissədə (uşaqların atanın yanında saxlanılması tələbinin rədd olunması) dəyişdirilmədən saxlanılmışdır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Ailə münasibətləri baxımından mediasiyanın mahiyyəti, ər-arvadın məhkəməyə getmədən könüllülük, hüquq bərabərliyi və əməkdaşlığı, mediasiya prosesinə müdaxilənin yolverilməzliyi, konfidensiallıq prinsipləri əsasında fikir ayrılıqlarının həllinə nail olmaqdır. Qanun mübahisənin bu cür həllini ilkin olaraq tərəflərin iradə ifadələrinə uyğun hesab etməklə, ona məcburi qüvvə verir və razılaşdırılmış məsələ ilə bağlı məhkəməyə müraciət olunmasının xüsusi qaydasını müəyyən edir.

Belə ki, “Mediasiya haqqında” Qanunun 34.1-ci maddəsinə görə barışıq sazişi, imzalandığı gündən tərəflər üçün məcburi xarakter daşıyır. Barışıq sazişində tərəflər arasında ayrı müddət müəyyən edilməyibsə barışıq sazişi imzalandığı gündən 10 gün müddətində könüllü şəkildə icra olunmalıdır. Həmin müddət ərzində barışıq sazişi tərəflərdən hər hansı biri tərəfindən könüllü olaraq icra edilmədiyi və ya sazişin könüllü icrasından imtina edildiyi halda, digər tərəf barışıq sazişinin məcburi icrası üçün barışıq sazişinin təsdiq edilməsi barədə məhkəməyə müraciət edə bilər.

Göründüyü kimi, mediasiya prosesində tərəflər arasında nikah pozulduqdan sonra uşaqların yaşayış yerinin müəyyən edilməsi barədə barışıq sazişi bağlandığı halda, həmin qərarın icrası ilə bağlı xüsusi icraat qaydası müəyyən olunub. Buna görə də, Ailə Məcəlləsində nikah pozularkən ar-arvadın uşaqlar barədə məsələləri saziş əsasında həll etmək hüququna üstünlük verilmiş və bir qayda olaraq bu cür saziş olmadığı halda (eləcə də bu saziş uşaqların və ya tərəflərdən birinin marağını pozduqda) məhkəmənin boşanmadan sonra yetkinlik yaşına çatmayan uşaqların valideynlərindən hansının yanında qaldığını müəyyən etməli olduğu təsbit edilmişdir (21.2, 22.1 və 22.2-ci maddələr).

Beləliklə, nikah pozulduqdan sonra uşaqların yaşayış yeri barədə mediasiya prosesində barışıq sazişi bağlandığına görə, iddiaçının hazırkı iş üzrə uşaqların yanında saxlanması barədə tələbinə iddia icraatı qaydasında baxılması üçün prosessual əsaslar olmamışdır. Bu halda məhkəmə tərəfindən “uşaqların atanın himayəsində saxlanılması” tələbi üzrə icraata xitam verilməli idi. Lakin məhkəmələr həmin tələbə də mahiyyəti üzrə baxıb qətnamə çıxarmaqla prosessual hüquq normalarını pozmuşlar.

2(102)-3821/2024

19.11.2024-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının

iddiaçının cavabdehə qarşı (üçüncü şəxs Siyəzən Rayon İcra Hakimiyyətinin yanında Qəyyumluq və Himayəçilik Komissiyası cəlb olunmaqla) iş üzrə

Q Ə R A R D A D I

Açar sözlər: nikah pozulduqdan sonra uşaqların yaşayış yerinin müəyyən olunması barədə mediasiya prosesində bağlanmış barışıq sazişi olduğu halda eyni məsələ üzrə iddia tələbinə işə məhkəmədə baxılmalı olmaması əsası ilə xitam verilməsi

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Şəfiyev İspəndiyar Əsəd oğlu (məruzəçi), Əhmədov Əhməd Abbas oğlu və Həsənov Vüqar Təvəkgül oğlundan ibarət tərkibdə,

iddiaçının cavabdehə qarşı "nikahın pozulması və uşaqların atanın yanında saxlanılması" tələbinə dair mülki iş üzrə Sumqayıt Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 3 iyul 2024-cü il tarixli, 2(105)-1026/2024 nömrəli qətnaməsindən cavabdeh tərəfindən verilmiş kassasiya şikayətinə Azərbaycan Respublikası Ali Məhkəməsinin inzibati binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları

1. İddiaçı ilə cavabdeh 11.06.2015-ci il tarixdə nikaha daxil olmuş, birgə nikahlarından **.**.2017-ci il təvəllüdlü X1 və **.**.2019-cu il təvəllüdlü X2 anadan olmuşdur.

2. Bakı 13 saylı Mediasiya Təşkilatı tərəfindən 10 iyul 2023-cü il tarixdə tərtib edilmiş MŞB/13/2023-000959 nömrəli barışıq sazişinə əsasən, tərəflər nikahın pozulması, eləcə də birgə nikahdan doğulmuş ** ** 2017-ci il təvəllüdlü X1-nun və ** ** 2019-cu il təvəllüdlü X2-nun ataları iddiaçının yanında saxlanılması barədə razılığa gəlmiş, həmçinin sonuncu uşaqların yetkinlik yaşına çatana qədər cavabdehdən aliment tələb etmədiyini bildirmiş, tərəflər sözügedən sazişi imzalamışlar. Sazişin şərtlərinə görə əgər sazişin könüllü icrasından imtina olunsa, tərəf sazişin məcburi icrası üçün məhkəməyə müraciət edə bilər. Tərəflər razılaşıblar ki, bu saziş tam imzalandığı tarixdən qüvvəyə minir və tərəflər öhdəliklərini tam icra edənədək qüvvədədir.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a) Birinci instansiya məhkəməsində icraat

3. İddiaçı cavabdehə qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, aralarında olan nikahın ləğv edilməsi, birgə nikahdan olan uşaqları ** ** 2017-ci il təvəllüdlü X1-nun və ** ** 2019-cu il təvəllüdlü X2-nin onun himayəsində saxlanılması barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

4. İddia tələbi onunla əsaslandırılmışdır ki, əvvəllər cavabdehlə münasibətləri yaxşı olsa da, sonradan tez-tez fikir ayrılıqları səbəbi ilə mübahisələri yaranmış, münasibətləri sonradan tamamilə korlanmışdır. Bu səbəbdən də, birgə təsərrüfatı idarə etmirlər. Eyni zamanda, onlar 10 iyul 2023-cü il tarixdə keçirilmiş mediasiya prosesində iştirak etmiş, nikahın pozulması və bu nikahdan doğulmuş ** ** 2017-ci il təvəllüdlü X1-in və ** ** 2019-cu il təvəllüdlü X2-nin onun yanında saxlanılması barədə razılığa gəlmişlər. Bundan başqa, cavabdehlə barışmaları, habelə ailənin qorunub saxlanılması mümkün deyildir.

5. İddiaçının nümayəndəsi və vəkili məhkəmə iclasında iddia ərizəsinə uyğun izahat vermiş, əlavə olaraq bildirmişdir ki, tərəflərin birgə nikahından doğulmuş uşaqlar azyaşlı olsa da, hazırda ataları - iddiaçının yanında yaşayırlar. Bundan başqa, tərəflər mediasiya prosesində iştirak etmiş və cavabdeh ** ** 2017-ci il təvəllüdlü X1-in və ** ** 2019-cu il təvəllüdlü X2-nin iddiaçının yanında saxlanılmasına razı olmuşdur. Eyni zamanda, iddiaçı da uşaqların yetkinlik yaşına çatanadək saxlanılması üçün qarşı tərəfdən aliment tələb etmədiyini qeyd etmişdir. Tərəflərin bu barədə bağladığı barışıq sazişi hazırda qüvvədə olmuşdur. Uşaqlara təxminən 57-58 yaşlarında olan iddiaçının anası baxır.

6. Cavabdeh 2 oktyabr 2023-cü il tarixdə məhkəməyə ərizə göndərərək iddia tələbini qəbul etdiyini, nikahın pozulmasına və birgə nikahdan doğulmuş ** ** 2017-ci il təvəllüdlü X1-nun və ** ** 2019-cu il təvəllüdlü X2-nun ataları, iddiaçının himayəsinə verilməsinə razı olduğunu qeyd etmişdir.

7. Siyəzən Rayon İcra Hakimiyyəti yanında Qəyyumluq və himayəçilik komissiyasının (bundan sonra – Komissiya) 23 yanvar 2024-cü il tarixli rəyinə əsasən, uşaqların mənafeyi, onların bir-birinə və atalarına olan bağlılığı, uşaqların inkişaf və tərbiyəsi üçün yaradılmış şərait, cavabdehin və iddiaçının Komissiyaya yazdıqları izahatları nəzərə alınmaqla, ** ** 2017-ci il təvəllüdlü X1-nun və ** ** 2019-cu il təvəllüdlü X2-nun ataları iddiaçının himayəsinə verilməsi məqsədəmüvafiq hesab edilmişdir.

8. Siyəzən Rayon Məhkəməsinin 12.03.2024-cü il tarixli, 2(059)-17/2024 nömrəli qətnaməsi ilə (hakim:Bəylər Ələkbərov) iddianın qismən təmin edilməsi, iddiaçı ilə cavabdeh arasında bağlanmış nikahın pozulması, iddianın qalan hissədə təmin edilməməsi qət edilmiş, məhkəmə xərci iddiaçıya aid edilmişdir.

9. Məhkəmə qeyd etmişdir ki, nikahın pozulması tələbinə dair hazırkı iddia ərizəsi 20 iyul 2023-cü il tarixdə, nikahın pozulması ilə bağlı razılıq ərizəsi isə 2 oktyabr 2023-cü il tarixdə məhkəməyə daxil olmuş və həmin tarixlərdən bir aydan artıq müddət keçmişdir. Həmçinin, tərəflərin nikahın pozulmasına qarşılıqlı razılığı olduğundan, onlar arasındakı nikah Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 21.1-ci maddəsinə əsasən onun pozulma səbəbləri məhkəmə qaydasında araşdırılmadan pozulmalıdır.

10. Məhkəmə həmçinin qeyd etmişdir ki, tərəflərin nikahından doğulmuş ** ** 2017-ci il təvəllüdlü X1 və ** ** 2019-cu il X2 ataları, iddiaçının himayəsində və yanında qalırlar. Eyni zamanda tərəflər, 10 iyul 2023-cü il tarixdə bağlanmış barışıq sazişinə əsasən ümumi nikahdan doğulmuş uşaqların atanın yanında qalması, eləcə də iddiaçının cavabdehə qarşı aliment tələbinin olmaması barədə razılığa gəlmişlər. Həmçinin Komissiya da tərəflərin birgə nikahından doğulmuş uşaqların ataları iddiaçının himayəsinə verilməsini məqsədəmüvafiq hesab etmişdir. Bundan əlavə, uşaqların hansı valideynin himayəsində qalması və aliment məsələsi ilə bağlı 10 iyul 2023-cü il tarixdə bağlanmaqla, tərəflərin sərbəst iradələrini ifadə etdikləri “barışıq sazişi” uşaqların və ya tərəflərdən birinin marağını pozmur, hər hansı digər şəxsin hüquqlarına toxunmur. Həmçinin, sözügedən barışıq sazişi 10 iyul 2023-cü il tarixdən imzalanmaqla, həmin gündən tərəflər üçün məcburi xarakter daşımağa başlamış, eləcə də maraqlı şəxsi müqavilə üzrə öhdəliklərin icraçısına çevirmiş, həmçinin bu hal sazişin mühüm şərtlərində də öz əksini tapmışdır.

11. Məhkəmə 10 iyul 2023-cü il tarixli barışıq sazişini nəzərə alaraq, iddia tələbinin “uşaqların iddiaçının, yəni atanın himayəsində saxlanılması” hissəsinə münasibətdə məhkəmə (iddia icraatı) qaydasında təmin edilməsini məqsədəmüvafiq hesab etmişdir. Buna görə də, X1-a və X2-a münasibətdə Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 22.2-ci maddəsinin müddəalarının tətbiqi istisna edilir. Belə ki, sözügedən Məcəllənin bu maddəsinin mənasına görə Məhkəmə yetkinlik yaşına çatmayan uşaqlarının kiminlə qalmasını yalnız o halda müəyyən edə bilər ki, tərəflər (ər-arvad) arasında bu barədə saziş olmasın. Halbuki, hazırkı işin faktiki hallarından görünür ki, ümumi nikahdan olan uşaqların atanın yanında və himayəsində qalması artıq sözügedən sazişlə razılaşdırılmış və bu saziş hazırda da qüvvədədir. Belə olan halda, məhkəmə, birgə nikahdan olan uşaqların yaşayış yerini yenidən müəyyən etməyi zəruri bilmir.

12. Məhkəmə öz mövqeyini Azərbaycan Respublikası Ailə Məcəlləsinin 19.1, 20.1, 21.1, 21.3, 22.1, 22.2.1, 22.2.2 və 23.1-ci maddələrinə, “Mediasiya haqqında” Azərbaycan Respublikası Qanununun 34-cü maddəsinin I, III və IV hissələrinə, Azərbaycan Respublikası Mülki Prosessual Məcəllənin 119.4, 217.4 və 216- 220-ci maddələrinə istinad etməklə əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

13. Cavabdeh qətnamədən apellyasiya şikayəti verərək, Siyəzən Rayon Məhkəməsinin 2(059)-17/2024 nömrəli 12.03.2024-cü il tarixli qətnaməsinin dəyişdirilməsini, uşaqların onun himayəsinə verilməsini və hər uşağa görə ayrılıqda 235 manat olmaqla hər iki uşaq üçün ayda 470 manat sabit pul məbləğinin cavabdehdən tutularaq onun xeyrinə ödənilməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

14. Apellyasiya şikayəti onunla əsaslandırılmışdır ki, iddiaçının iddia tələbinin uşaqların atanın yanında qalmasına dair hissəsi məhkəmə tərəfindən təmin edilməmişdir. Belə ki, məhkəmə əsas gətirmişdir ki, uşaqların hansı valideynin himayəsində qalması və aliment məsələsi ilə bağlı 10 iyul 2023-cü il tarixdə barışıq sazişi bağlanmış, həmin sazişdə cavabdeh tərəfdən uşaqların atanın yanında, eləcə də himayəsində qalmasına razılıq verilmiş, hər hansı bir formada maneə mövcud olmamasını və aşkarlanmamasını bildirmişdir. Sözügedən halda isə uşaqların atanın himayəsində qalması bu tələblə, yəni iddia icraatı qaydasında deyil, xüsusi icraat qaydasında baxılaraq həll edilməlidir. Beləliklə, məhkəmə birgə nikahdan olan uşaqların yaşayış yerini yenidən müəyyən etməyin zəruri olmadığı qənaətinə gəlmişdir. Lakin 10 iyul 2023-cü il tarixli barışıq sazişi formal xarakter daşımışdır. Belə ki, həmin barışıq sazişində uşaqların iddiaçının, yəni atalarının yanında saxlanılmasına dair vermiş olduğu razılıq onun həqiqi iradə ifadəsini əks etdirmir. Barışıq sazişində verdiyi razılığı fiziki və psixoloji məcburiyyət təsiri altında vermişdir. İddiaçı uşaqlara aliment ödəməkdən boyun qaçırmaq üçün ona psixoloji təsir göstərməklə və müxtəlif yalan bəhanələr gətirərək təsir altına alaraq həmin barışıq sazişini və qəyyumluq və himayəçilik orqanına verilən ərizəni ona imzalatmışdır. Həmin sənədlər etibarsız sayılmalıdır, çünki nə barışıq sazişi nə də qəyyumluq və himayəçilik orqanına verilən ərizədə onun həqiqi iradə ifadəsi əks olunmamışdır. İddiaçı birgə nikah dövründə mütəmadi olaraq onu döymüşdür. Hətta bununla bağlı 3 fevral 2024cü il tarixdə Siyəzən RPŞ-nə müraciət edərək, həmin tarixdə ünvan yaşadıqları iddiaçı ilə aralarında yaranmış mübahisə zəminində onu döymüş və sağlamlığına zərər yetirdiyini bildirmişdir. Aparılmış təhqiqat zamanı məhkəmə tibbi ekspertizası təyin edilmişdir. 03.03.2024-cü il tarixdə Siyəzən RPŞ-nə daxil olmuş MTE-nın 06.02.2024-cü il tarixli 25 saylı rəyindən görünür ki, bədəninin müxtəlif hissələrində müxtəlif qançır və xəsarət izləri aşkar edilmişdir. Bununla əlaqədar olaraq, iddiaçı barəsində Azərbaycan Respublikasının İXM-nin 157-ci maddəsinə uyğun inzibati qaydada tədbir görülmüşdür. Onu döyməsi ilk dəfə deyildir. Belə ki, birgə nikah dövrü ərzində də müxtəlif bəhanələr gətirərək onu döymüş və ona qarşı nalayiq ifadələr işlədərək şəxsiyyətini alçaltmışdır. 2024-cü ilin yanvar ayında iddiaçı onu Komissiyaya apararaq uşaqların atalarının yanında qalmasına razı olması barədə ərizə verməsini istəmiş və onu buna məcbur etmişdir. Əfsuslar olsun ki, məcburiyyət təsiri altında çarəsiz qalaraq övladlarının atalarının yanında qalmalarına dair sənədlə qol çəkməyə məcbur olmuşdur. Bildirir ki, o övladlarından imtina etmək istəməmiş, onların yanında qalmalarını və onların tərbiyə edilməsi və saxlanılmaları ilə özü məşğul olmaq istəyir. Çünki uşaqların onun yanında qalması onların mənafelərinə uyğundur, habelə onların mənəvi, psixi və fiziki inkişafına müsbət təsir göstərəcəkdir.

15. Sumqayıt Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(105)-1026/2024 nömrəli 3 iyul 2024-cü il tarixli qətnaməsi ilə (hakimlər: Lalə Rəhimli (sədrlik edən və məruzəçi), İlqar Dəmirov və Fuad Məmmədov) cavabdehin apellyasiya şikayəti təmin edilməmiş, birinci instansiya məhkəməsinin qətnaməsi mübahisələndirilən hissədə dəyişdirilmədən saxlanılmışdır.

16. Birinci instansiya məhkəməsinin hüquqi mövqeyi ilə razılaşan məhkəmə kollegiyası hesab etmişdir ki, nə qədər ki, barışıq sazişi qüvvədədir, nikah pozularkən uşaqların valideynlərindən hansının yanında qalması və uşaqlar üçün alimentin tutulmasına dair məsələlər hazırkı mülki işin çərçivəsində həll oluna bilməz.

17. Məhkəmə kollegiyası yekun hüquqi dəyərləndirmə aparmaqla apellyasiya şikayətinin dəlillərinə hüquqi qiymət verərək hesab etmişdir ki, birinci instansiya məhkəməsi hazırkı işin faktiki hallarını tam, hərtərəfli və obyektiv araşdırmış və tərəflər arasındakı mübahisənin həlli üçün tətbiq edilməli olan maddi və prosessual hüquq normalarına düzgün istinad etmişdir.

18. Məhkəmə kollegiyası gəldiyi nəticənin əsası kimi Ailə Məcəlləsinin 22.1, 22.2 və 61.3-cü maddələrinə, "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanunun 3 və 5-ci maddələrinə, BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasının 3-cü maddəsinə, "Mediasiya haqqında" Azərbaycan Respublikası Qanunun 1.0.7, 33.1, 33.2, 33.4 və 34-cü maddələrinə istinad etmişdir.

Kassasiya şikayətinin və ona qarşı etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

19. Cavabdeh (vəkil) kassasiya şikayəti verərək, qətnaməsinin maddi və prosessual hüquq normalarının tələbləri kobud şəkildə pozulmaqla qəbul edildiyindən qanunsuz hesab edilərək ləğv edilməsi və mülki işin yenidən baxılması üçün apellyasiya instansiya məhkəməsinə qaytarılması haqqında qərar qəbul edilməsini xahiş etmişdir.

20. Kassasiya şikayəti apellyasiya şikayətinin dəlilləri ilə eyni məzmunda əsaslandırılmışdır.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

21. Kassasiya şikayətinə qarşı etiraz daxil olmamışdır.

Tətbiq edilən hüquq

Azərbaycan Respublikası Konstitusiyası

22. Maddə 17 (hissə 2). Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir.

Azərbaycan Respublikasının Ailə Məcəlləsi

23. Maddə 1.3. Ailə qanunvericiliyi ailənin möhkəmləndirilməsi zəruriyyətindən, ailə münasibətlərinin qarşılıqlı məhəbbət və hörmət hissləri əsasında qurulmasından, ailənin işinə hər kəsin qarışmasının yolverilməzliyindən, ailə üzvlərinin ailə qarşısında qarşılıqlı yardım və məsuliyyətindən, onların hüquqlarının maneəsiz həyata

keçirilməsinin təmin olunmasından və bu hüquqların məhkəmədə müdafiəsi imkanlarından irəli gəlir.

24. Maddə 2.2. Ailə münasibətlərinin hüquqi tənzimi qadınla kişinin nikahının könüllülüyü, ər-arvadın hüquq bərabərliyi, ailədaxili məsələlərin qarşılıqlı razılıq əsasında həll olunması, uşaqların ailə tərbiyəsinin üstünlüyü, onların rifahına və inkişafına qayğı, ailənin yetkinlik yaşına çatmayan və əmək qabiliyyəti olmayan üzvlərinin hüquq və mənafelərinin müdafiəsinin təmin olunması prinsiplərinə uyğun həyata keçirilir.

25. Maddə 22.1. Nikah məhkəmə qaydasında pozularkən, ər-arvad məhkəməyə yetkinlik yaşına çatmayan uşaqlarının kiminlə qaldığını, uşaqların və (və ya) ehtiyacı olan və əmək qabiliyyəti olmayan ərin (arvadın) saxlanması üçün vəsaitin ödənilmə qaydasını, bu vəsaitin

miqdarını və ər-arvadın ümumi birgə mülkiyyətinin bölünməsini müəyyən edən saziş təqdim edə bilərlər.

26. Maddə 22.2. Bu Məcəllənin 22.1-ci maddəsində göstərilən məsələlər üzrə ərarvad arasında saziş olmadıqda, eləcə də bu saziş uşaqların və ya tərəflərdən birinin marağını pozduqda, məhkəmə:

27. Maddə 22.2.1. Boşanmadan sonra yetkinlik yaşına çatmayan uşaqların valideynlərindən hansının yanında qaldığını müəyyən etməli;

28. Maxddə 22.2.2. uşaqlar üçün alimentin hansı valideyndən və hansı miqdarda tutulduğunu müəyyən etməlidir.

29. Maddə 61.3. Uşaqlarından ayrı yaşayan valideynlər valideynlik hüququnun həyata keçirilməsi qaydası haqqında yazılı saziş bağlaya bilərlər. Valideynlər razılığa gələ bilmədikdə, mübahisə onların (onlardan birinin) tələbi əsasında müvafiq icra hakimiyyəti orqanının iştirakı ilə məhkəmə tərəfindən həll edilir.

“Mediasiya haqqında” Azərbaycan Respublikası Qanunu

30. Maddə 1.0. Bu Qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir: ...

Maddə 1.0.7. barışıq sazişi – tərəflər arasında mediasiya prosesi nəticəsində əldə edilən yazılı razılaşma; ...

31. Maddə 33.1. Barışıq sazişi tərəflər arasında yazılı formada bağlanır.

32. Maddə 33.2. Barışıq sazişi tərəflər və mediator (mediatorlar) tərəfindən imzalanır. Barışıq sazişinin nüsxələri tərəflərin və təqdim ediləcəyi orqanların (qurumların) sayına uyğun olaraq tərtib olunur.

33. Maddə 33.4. Barışıq sazişi imzalandığı gündə tərəflərə təqdim edilməlidir. Barışıq sazişinin müvafiq orqana (quruma) təqdim edilməli olan nüsxəsini tərəflərdən biri həmin nüsxənin ona təqdim edildiyi tarixdən 1 iş günü müddətində müvafiq orqana (quruma) təqdim edir.

34. Maddə 34.1. Barışıq sazişi, əgər sazişdə ayrı şərt nəzərdə tutulmayıbsa, imzalandığı gündən tərəflər üçün məcburi xarakter daşıyır. Barışıq sazişində tərəflər arasında ayrı müddət müəyyən edilməyibsə barışıq sazişi imzalandığı gündən 10 gün müddətində könüllü şəkildə icra olunmalıdır.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi

35. Maddə 1.1. Azərbaycan Respublikasının məhkəmələrində mülki işlər və kommersiya mübahisələri üzrə məhkəmə icraatının qaydası Azərbaycan Respublikasının Konstitusiyası, “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanunu, bu Məcəllə, digər qanunlar, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilir.

36. Maddə 4.1. Bütün fiziki və hüquqi şəxslər özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədi ilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququna malikdirlər.

37. Maddə 5.1. Hər hansı fiziki və yaxud hüquqi şəxs öz hüququnun və ya qanunla qorunan mənafeyinin müdafiəsi və yaxud təsdiqi üçün məhkəməyə müraciət etdiyi hallarda məhkəmədə iş başlanılır.

38. Maddə 261.0. Hakim iş üzrə icraata aşağıdakı hallarda xitam verir: 261.0.1. iş məhkəmədə və ya mülki məhkəmə icraatı qaydasında baxılmalı deyildirsə; ...

39. Maddə 262.1. İş üzrə icraata xitam verilməsi barədə məhkəmə qərardad çıxarır.

40. Maddə 262.3. Bu Məcəllənin 261.0.1-ci və ya 261.0.8-ci maddələrində nəzərdə tutulmuş əsaslar üzrə icraata xitam verilərsə, məhkəmə ərizəçinin hansı orqana müraciət etməli olmasını göstərməlidir.

41. Maddə 262.4. İşin icraatına xitam verildikdə, eyni tərəflər arasında, eyni predmet haqqında və eyni əsaslar üzrə mübahisə barəsində məhkəməyə müraciət edilməsinə yol verilmir.

42. Maddə 305.1. Məhkəmə xüsusi icraat qaydasında aşağıdakı işlərə baxır: ... 305.1.17. mediasiya prosesi nəticəsində bağlanılmış barışıq sazişinin təsdiq edilməsi haqqında.

43. Maddə 355-23.1. "Mediasiya haqqında" Azərbaycan Respublikası Qanununda müəyyən edilmiş müddət ərzində mediasiya prosesi nəticəsində əldə edilən barışıq sazişi könüllü qaydada icra edilmədikdə və ya barışıq sazişinin könüllü icrasından imtina olunduqda, ərizəçi barışıq sazişinin məcburi icrası üçün barışıq sazişinin təsdiq edilməsi barədə (barışıq sazişinin bu Məcəllənin 191.2-1-ci maddəsinə uyğun olaraq təsdiq edildiyi hal istisna olmaqla) məhkəməyə müraciət edə bilər.

44. Maddə 355-23.2. Mediasiya prosesi nəticəsində bağlanılmış barışıq sazişinin təsdiq edilməsi ilə bağlı ərizə ərizəçi fiziki şəxsin yaşadığı yer, hüquqi şəxsin ünvanının olduğu yer üzrə, ərizə dövlət orqanı (qurumu) tərəfindən verildikdə, barışıq sazişinin icrasından imtina edən fiziki şəxsin yaşadığı, hüquqi şəxsin ünvanının olduğu yer üzrə məhkəməyə verilir.

45. Maddə 355-25.1. Barışıq sazişinin təsdiq edilməsi ilə bağlı ərizəyə məhkəməyə daxil olduqdan sonra 10 gün müddətində baxılır.

46. Maddə 355-25.3. Məhkəmə ərizəyə baxarkən bu Məcəllənin 355-26-cı maddəsində sadalanmış halların olub-olmadığını müəyyən edir və barışıq sazişinin təsdiq edilməsi və ya təsdiq edilməsindən imtina olunması barədə qətnamə qəbul edir.

47. Maddə 407.2. Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir.

48. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

49. Maddə 416.2. Apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 418.4-cü maddəsində nəzərdə tutulmuş prosessual hüquq pozuntusu hesab edilən hallara yol verilməsi şikayətin hədlərindən və dəlillərindən asılı olmayaraq yoxlanılmalıdır.

50. Maddə 417.1.5 Kassasiya məhkəməsi işə baxarkən apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadını tamamilə, yaxud qismən ləğv edib, bu Məcəllənin 259.0.1-259.0.3, 259.0.8 və 259.0.10-cu maddələrinə müvafiq olaraq iddianı tamamilə, yaxud qismən baxılmamış saxlaya və ya bu Məcəllənin 261.0.1-261.0.7ci maddələrinə müvafiq olaraq iş üzrə icraata xitam verə bilər.

51. Maddə 418.4. Apellyasiya instansiyası məhkəməsinin qətnaməsi və ya qərardadı şikayətin dəlillərindən asılı olmayaraq aşağıdakı hallarda ləğv edilməlidir:

52. ...

53. Maddə 418.4.10. iddianın baxılmamış saxlanılması və ya iş üzrə icraata xitam verilməsi üçün bu Məcəllədə müəyyən edilmiş əsaslar olduğu halda məhkəmə işə mahiyyəti üzrə baxmışsa.

Kassasiya baxışının hədləri

54. Azərbaycan Respublikası mülki prosessual qanunvericiliyinin tələbinə görə kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır, yəni işə baxan apellyasiya instansiyası məhkəməsi tərəfindən sübut kimi qəbul olunan faktlara hüquqi qiymət vermir. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan sübutlara və hüquqi faktlara istinad etməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir. Belə ki, işin faktiki hallarının prosessual qanunvericiliyin tələblərinə riayət edilmədən müəyyən olunması ədalətli məhkəmə araşdırması hüququnun pozulmasına dəlalət etməklə mübahisənin hüquqi aktlarına təsir göstərə bilər.

55. Hazırda apellyasiya instansiyası məhkəməsinin qətnaməsi cavabdeh tərəfindən tam mübahisələndirildiyindən, hazırkı kassasiya baxışının predmetini apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin qanuniliyinin kassasiya şikayətinin dəlillərinə uyğun olaraq tam yoxlanılması təşkil edir.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

56. Məhkəmə kollegiyası aşağıdakılara əsasən hesab edir ki, apellyasiya instansiyası məhkəməsi uşaqların nikah pozulduqdan sonra atanın yanında saxlanması barədə tələb üzrə icraata xitam verilməli olduğu halda işə mahiyyəti üzrə baxmış, bununla da prosessual hüquq normaları düzgün tətbiq edilməmişdir.

57. Məhkəmə kollegiyası baxılan iş üzrə qəbul ediləcək qərardadın məhkəməyə müraciət etmə hüququ ilə bağlılığını nəzərə alıb, ilk növbədə hüquqi məsələlərə giriş olaraq qeyd edir ki, Konstitusiyanın 60-cı maddəsinə görə hər kəsin hüquq və azadlıqlarının məhkəmə müdafiəsinə təminat verilir. Şəxsin məhkəmə müdafiəsi hüququnun reallaşdırılması yollarından biri onun pozulmuş hüquqlarının bərpa olunması üçün məhkəməyə müraciət etmək hüququdur.

58. Bu hüququn mülki mühakimə icraatında həyata keçirilməsini müəyyən edən Azərbaycan Respublikası MPM-nin 4.1-ci maddəsinə görə bütün fiziki və hüquqi şəxslər özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədi ilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququna malikdirlər.

59. Həmin Məcəllənin 5.1-ci maddəsində göstərilmişdir ki, hər hansı fiziki və yaxud hüquqi şəxs öz hüququnun və ya qanunla qorunan mənafeyinin müdafiəsi və yaxud təsdiqi üçün məhkəməyə müraciət etdiyi hallarda məhkəmədə iş başlanılır.

60. Məhkəməyə müraciət etmək hüququnun məhdudlaşdırılmasına yol verilmir. Konstitusiyanın 71-ci maddəsində göstərilmişdir ki, insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini heç kəs məhdudlaşdıra bilməz. Bu Konstitusiyanın heç bir müddəası insan və vətəndaş hüquqlarının və azadlıqlarının ləğvinə yönəldilmiş müddəa kimi təfsir edilə bilməz. Azərbaycan Respublikasının ərazisində insan və vətəndaş hüquqları və azadlıqları birbaşa qüvvədədir.

61. Hər kəsin hüquq və azadlıqlarına təminat verməklə yanaşı, Konstitusiyanın 60cı maddəsi müxtəlif məhkəmə instansiyalarında müraciətin (şikayətin) baxılmasının prosessual qaydalarına dəqiq riayət olunmasını da özündə ehtiva edir. Bu məqsədlə qanunverici mülki işlər üzrə məhkəmə aktlarının ədalətli və qanuni olmasını təmin etmək üçün Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində məhkəmənin, işdə iştirak edən şəxslərin və

prosesin digər iştirakçılarının hüquq və vəzifələrini müəyyənləşdirir, mülki mühakimə icraatında prosessual qaydaları tənzim edir.

62. Lakin nəzərə alınmalıdır ki, məhkəmə müdafiəsi hüququ mütləq hüquq deyildir və müəyyən prosessual şərtlərin mövcudluğunda bəzi məhdudiyyətlərə məruz qala bilər. Bu cür prosessual şərtlərdən bəziləri MPM-nin 261-ci maddəsində nəzərdə tutulmuşdur.

63. Belə ki, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 261.0.1-ci maddəsinə görə işə məhkəmədə və ya mülki məhkəmə icraatı qaydasında baxılmalı deyildirsə iş üzrə icraata xitam verilir.

64. Qeyd olunmalıdır ki, formalaşmış məhkəmə təcrübəsində xüsusi icraat qaydasında baxılmalı olan tələblərin məhkəməyə iddia kimi (iddia icraatı qaydasında baxılmalı olan tələb kimi) verilməsi də, bəzi hallarda MPM-in 261.0.1-ci maddəsinə istinadla icraata xitam verilməli olan hal kimi təfsir edilir.

65. Baxılan işdən görünür ki, tərəflər 11.06.2015-ci il tarixdə nikaha daxil olmuş, birgə nikahlarından **.**.2017-ci il təvəllüdlü X1 və **.**.2019cu il təvəllüdlü X2 anadan olmuşdur. Tərəflər ayrılmaqla aralarında olan nikahı pozmaq qərarına gəlmiş və mediasiya prosesində, nikah pozulduqdan sonra uşaqların atalarının yanında saxlanması barədə razılığa gələrək, 10 iyul 2023-cü il tarixdə barışıq sazişi bağlayıblar.

66. Mediasiya prosesində bağlanan barışıq sazişinin hüquqi təbiəti və barışıq sazişinin nikahın pozulması zamanı həll edilməli olan məsələlərə təsiri ilə bağlı qeyd olunmalıdır ki, boşanma üzrə meydana gələn mübahisələr əsasən məhkəmə araşdırması və məhkəmə tərəfindən qərar qəbul olunması ilə həll olunur. Lakin "Mediasiya haqqında" Qanunla mübahisələrin alternativ həlli üsulu kimi mediasiya institutu təsis edilmişdir. Mediasiyanın məqsədi, tərəflər arasında münaqişə səviyyəsinin azaldılması və onları razı salacaq şəkildə mübahisənin həllini təmin etməkdən ibarətdir. Eyni zamanda, ailə münasibətlərindən irəli gələn mübahisələr üzrə məhkəməyə müraciət etməmişdən əvvəl tərəflərin ilkin mediasiya sessiyasında iştirak etməli olması pozulmaz şərt kimi müəyyən edilmiş, bu qaydaya riayət olunmadan məhkəməyə verilən iddianın baxılmamış saxlanması təsbit edilmişdir.

67. Ailə münasibətləri baxımından mediasiyanın mahiyyəti, ər-arvadın məhkəməyə getmədən könüllülük, hüquq bərabərliyi və əməkdaşlığı, mediasiya prosesinə müdaxilənin yolverilməzliyi, konfidensiallıq prinsipləri əsasında ailə münasibətləri üzrə fikir ayrılıqlarının həllinə çatmaqdır. Qanun mübahisənin bu cür həllini ilkin olaraq tərəflərin iradə ifadələrinə uyğun hesab etməklə, ona məcburi qüvvə verir və razılaşdırılmış məsələ ilə bağlı məhkəməyə müraciət olunmasının xüsusi qaydasını müəyyən edir.

68. Belə ki, "Mediasiya haqqında" Qanunun 34.1-ci maddəsinə görə barışıq sazişi, imzalandığı gündən tərəflər üçün məcburi xarakter daşıyır. Barışıq sazişində tərəflər arasında ayrı müddət müəyyən edilməyibsə barışıq sazişi imzalandığı gündən 10 gün müddətində könüllü şəkildə icra olunmalıdır.

69. Həmin müddət ərzində barışıq sazişi tərəflərdən hər hansı biri tərəfindən könüllü olaraq icra edilmədiyi və ya sazişin könüllü icrasından imtina edildiyi halda, digər tərəf barışıq sazişinin məcburi icrası üçün barışıq sazişinin təsdiq edilməsi barədə məhkəməyə müraciət edə bilər. Məhkəmə ərizəyə daxil olduqdan sonra 10 gün müddətində baxır və barışıq sazişinin təsdiq edilməsi və ya təsdiq edilməsindən imtina olunması barədə qətnamə qəbul edir (MPM-in 355-25.1 və 355-25.3-cü maddələri).

70. Göründüyü kimi tərəflərin mediasiya prosesində nikah pozulduqdan sonra uşaqların yaşayış yerinin müəyyən edilməsi barədə barışıq sazişi bağlandığı halda, həmin qərarın icrası ilə bağlı xüsusi icraat qaydası müəyyən edilmişdir.

71. Buna görə də Ailə Məcəlləsində nikah pozularkən ar-arvadın uşaqlar barədə məsələləri saziş əsasında həll etmək hüququna üstünlük verilmiş və bir qayda olaraq, bu cür saziş olmadığı halda (eləcə də bu saziş uşaqların və ya tərəflərdən birinin marağını pozduqda) məhkəmənin boşanmadan sonra yetkinlik yaşına çatmayan uşaqların valideynlərindən hansının yanında qaldığını müəyyən etməli olduğu təsbit edilmişdir (Ailə Məcəlləsinin 21.2, 22.1 və 22.2-ci maddələri).

72. Qeyd olunanlara əsasən, nikah pozulduqdan sonra uşaqların yaşayış yeri barədə mediasiya prosesində barışıq sazişi bağlandığına görə, iddiaçının hazırkı iş üzrə uşaqların yanında saxlanması barədə tələbinə iddia icraatı qaydasında baxılması üçün prosessual əsaslar olmamışdır. Bu halda məhkəmə tərəfindən "** ** 2017-ci il təvəllüdlü X1-in və ** ** 2019-cu il təvəllüdlü X2-nin iddiaçının himayəsində saxlanılması" tələbi üzrə icraata xitam verilməli idi. Lakin məhkəmələr həmin tələbə də mahiyyəti üzrə baxıb qətnamə çıxarmaqla prosessual hüquq normalarını pozmuşdur.

73. MPM-in 418.1-ci maddəsinə görə prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması apellyasiya instansiyası məhkəməsinin qətnamə və qərardadının ləğv edilməsi üçün əsasdır.

74. Həmçinin qeyd olunmalıdır ki, MPM-in müvafiq olaraq 387.2.8 və 418.4.10-cu maddələrinə əsasən, iş üzrə icraata xitam verilməsi üçün əsasların olub-olmamasının yoxlanılması apelyasiya şikayətinin və ya kassasiya şikayətinin dəlillərinə tabe tutulmur və şikayətin dəlillərindən asılı olmayaraq, icraata xitam verilməsi üçün əsasların olub-olmaması hər bir halda araşdırılmalıdır.

75. Qeyd olunanlara əsasən apelyasiya instansiyası məhkəməsinin qətnaməsi ləğv edilməli, uşaqların atanın himayəsində saxlanmasına aid hissədə iş üzrə icraata iddia icraatı qaydasında baxılmalı olmadığı əsası ilə xitam verilməlidir.

76. MPM-nin 262.4-cü maddəsinə əsasən, işin icraatına xitam verildikdə, eyni tərəflər arasında, eyni predmet haqqında və eyni əsaslar üzrə mübahisə barəsində məhkəməyə müraciət edilməsinə yol verilmir.

77. Yuxarıda qeyd olunduğu kimi mediasiya prosesində nikah pozulduqdan sonra uşaqların yaşayış yerinin müəyyən edilməsi barədə barışıq sazişi bağlandığı halda, əldə edilən barışıq sazişi könüllü qaydada icra edilmədikdə və ya barışıq sazişinin könüllü icrasından imtina olunduqda, maraqlı tərəf barışıq sazişinin məcburi icrası üçün barışıq sazişinin təsdiq edilməsi barədə məhkəməyə müraciət edə bilər.

78. Məhkəmə kollegiyası yuxarıda göstərilənlərə əsasən və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 416- 419-cu maddələrini rəhbər tutaraq,

Qərara aldı:

Kassasiya şikayəti qismən təmin edilsin.

Sumqayıt Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 3 iyul 2024-cü il tarixli 2(105)1026/2024 nömrəli qətnaməsi ləğv edilsin.

İddiaçının cavabdehə qarşı mülki işin icraatına, ** ** 2017-ci il təvəllüdlü X1 və ** ** 2019-cu il təvəllüdlü X1-nin iddiaçının himayəsində saxlanması tələbinə aid hissədə xitam verilsin.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

65. 2(102)-4056/2024 nömrəli, 2024-cü il 19 dekabr tarixli qərar - İcra icraatı zamanı sıradan çıxmış tərəflərin hüquqi varisləri arasında eyni predmet üzrə mübahisəyə baxılmasının yolverilməzliyi

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: icra icraatı zamanı sıradan çıxmış tərəflərin hüquqi varisləri arasında eyni predmet üzrə mübahisəyə baxılmasının yolverilməzliyi.

Məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə iddiaçının (tələbkar, baxılan iş üzrə iddiaçının atası) mülki iddiası təmin olunaraq, yol-nəqliyyat hadisəsi nəticəsində vurduğu maddi ziyana görə 17.500 manat və mənəvi ziyana görə 4.000 manat olmaqla, ümumilikdə 21.500 manat pulun cavabdehdən (borclu, baxılan iş üzrə cavabdehlərin atası) alınaraq iddiaçıya verilməsi qərara alınmışdır. Hökmün icrası mərhələsində tələb olunan məbləğdən 1.250 manat ödənilmiş, 20.250 manat ödənilməmiş qalmışdır. Tələbkar və borclu icra icraatı gedişində vəfat etmişlər. Baxılan iş üzrə iddiaçı tələbkarın vərəsəsi olmaqla, mirasın qəbulu ilə bağlı şəhadətnamə almış, cavabdehlər isə borclunun ailə üzvləri-hüquqi varisləri olmaqla sonuncudan miras qalmış əmlaka sahiblik və istifadə edirlər.

İddiaçı məhkəməyə müraciət edərək, cavabdehlər tərəfindən həmin hökmlə müəyyən edilmiş qalıq borcun ödənilməsi barədə qətnamə çıxarılmasını xahiş etmiş, birinci instansiya məhkəməsinin qətnaməsi ilə iddia təmin edilmişdir. Cavabdeh X qətnamədən apellyasiya şikayəti vermiş, apellyasiya instansiyası məhkəməsi tərəfindən qətnamə dəyişdirilmişdir.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Hazırkı iddia ərizəsi ilə tələb olunan pul vəsaitinin borcludan tutulmasına dair qanuni qüvvəsini almış məhkəmə aktının icrası üzrə icraat zamanı borclu və tələbkar vəfat etdiyindən faktiki olaraq icra icraatında sıradan çıxmış hesab olunurlar.

Budan sonra, icra məmuru "İcra haqqında" Qanunun 31-ci maddəsinə müvafiq qərar qəbul edərək, sıradan çıxmış tərəflərin onların vərəsəsi və ya hüquq varisi ilə əvəz edilməsini təmin etməli və cəlb olunmuş şəxslərlə birlikdə icra sənədinin icraatını davam etdirməli olduğu halda, icra sənədi üzrə icraata xitam vermişdir.

Nəzərə alınmalıdır ki, "İcra Haqqında Qanunun" 20-ci maddəsində borclunun və ya tələbkarın ölümündən sonra vərəsəlik işinin açılmaması əsası ilə icra icraatına xitam verilməsi nəzərdə tutulmamışdır.

İcra məmuru tərəfindən qanunvericiliyin tələbinin pozulmasını nəzərə almayan məhkəmələr tələbkarın vərəsəsinin iddiasını icraata qəbul edərək artıq məhkəmə aktı ilə həll olunmuş tələb üzrə yeni icraat açmış və iddianı mahiyyəti üzrə həll edən məhkəmə aktları qəbul etmişlər. Odur ki, hazırkı məsələ icra icraatı qaydasında həll edilməli olduğundan MPM-in 261.0.1-ci maddəsinə əsasən işə məhkəmədə baxılmalı olmaması əsası ilə iş üzrə icraata xitam verilməlidir.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-4056/2024

19.12.2024-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi
Mülki kollegiyasının

iddiaçının cavabdehlər cavabdeh 1, cavabdeh 2 və cavabdeh 3-a qarşı iş üzrə

Q Ə R A R I

(Açar sözlər: prosessual məsələlər, işə mülki məhkəmə icraatı qaydasında baxılmalı olmaması əsası ilə iş üzrə icraata xitam verilməsi, prosessual hüquq varisliyi)

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Həsənov Vüqar Təvəkgül oğlu (məruzəçi hakim), Əhmədov Əhməd Abbas oğlu və Şəfiyev İspəndiyar Əsəd oğlundan ibarət tərkibdə,

iddiaçının cavabdehlər cavabdeh 1, cavabdeh 2 və cavabdeh 3-a qarşı "dəymiş zərərin əvəzinin ödənilməsi" tələbinə dair mülki iş üzrə Sumqayıt Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(105)-135/2024 nömrəli iş üzrə 25 iyul 2024-cü il tarixli qətnaməsindən cavabdeh 1 tərəfindən kassasiya şikayətinə dair işə 19 dekabr 2024-cü il tarixdə Ali Məhkəmənin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları:

1. Quba Rayon Məhkəməsinin 24.01.2019-cu il tarixli 1(027)28/2019 saylı hökmü ilə, X1 Azərbaycan Respublikası CM-nin 263-1.1-ci maddəsi ilə təqsirli bilinib, 2 (iki) il müddətinə nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum edilməklə, 2 (iki) il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş, X1-dan vurduğu maddi ziyana görə 17.500 (on yeddi min beş yüz) manat və mənəvi ziyana görə 1.000 (bir min) manat məbləğində pul alınaraq, X2-ə (bundan sonra mətndə-iddiaçı) verilməsi qərara alınmışdır.

2. Sumqayıt Apellyasiya Məhkəməsinin 12.04.2019-cu il tarixli 1(105)-164/2019 saylı hökmü ilə, Quba Rayon Məhkəməsinin 24.01.2019-cu il tarixli 1(027)-28/2019 saylı hökmü mülki iddianın təmin edilməsi hissəsində dəyişdirilərək, mənəvi ziyana görə X1-dan alınaraq X2-ə verilməli olan pulun məbləği 1.000 (bir min) manatdan 4.000 (dörd min) manata qədər artırılmışdır.

3. AZ-II ****** nömrəli ölüm haqqında şəhadətnamənin surətinə görə, X2 19.11.2021-ci il tarixdə ölmüşdür.

4. Qanun üzrə vərəsəlik hüququ haqqında şəhadətnaməsinə görə, iddiaçı X2-in vərəsəsidir.

5. 12.12.2019-cu il tarixli çıxarışına görə ünvan-də yerləşən 0,3191 ha torpaq sahəsi X1-nun adına rəsmiləşdirilmişdir. Həmin torpaq sahəsi 19.12.2019-cu il tarixdə notarial qaydada bağlanmış alqı-satqı müqaviləsinə əsasən alıcı X3-nın adına özgəninkiləşdirilmişdir.

6. Torpağın mülkiyyətə verilməsinə dair JN-**** KOD ******** saylı şəhadətnamənin surətinə görə, X1 və onun ailə üzvləri cavabdeh 1, cavabdeh 2 və cavabdeh 3-ə Quba rayon Aqrar İslahat Komissiyasının 22.04.2003-cü il tarixli qərarı ilə 0,06 ha torpaq sahəsi verilmişdir.

7. Quba RİHB-nın Alekseyevka kənd İƏD üzrə nümayəndəliyinin arayışına görə, cavabdehlər cavabdeh 1, cavabdeh 2 və cavabdeh 3 ünvan-də yaşayış yeri üzrə qeydiyyatdadırlar.

8. Quba Regional "Asan Xidmət" mərkəzində notariat ofisinin 03.03.2023-cü il tarixli məktubuna görə, X1-in ölümündən sonra Quba Regional "Asan Xidmət" mərkəzində notariat ofisinə onun adına vərəsəlik işinin açılması barədə məlumat aşkar edilməmişdir.

İş üzrə qəbul edilmiş məhkəmə aktları:

a) Birinci instansiya məhkəməsində icraat:

9. İddiaçı cavabdehlər cavabdeh 1, cavabdeh 2 və cavabdeh 3-ə qarşı "dəymiş zərərin əvəzinin ödənilməsi" tələbinə dair iddia ərizəsi ilə müraciət edərək, cavabdehlər cavabdeh 1, cavabdeh 2 və cavabdeh 3-dən 20250 (iyirmi min iki yüz əlli) manat məbləğində zərərin və 151 manat məhkəmə rüsumunun əvəzinin tutularaq ona verilməsi barədə ödənilməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

10. İddia tələbi onunla əsaslandırılmışdır ki, borclu X1 qərarın icrası mərhələsində tələb olunan məbləğdən 1250 manat pul ödəmişdir. Görülmüş icra tədbirlərinə baxmayaraq keçən müddət ərzində 20250 manat pul borclu tərəfindən ödənilməmişdir. X2 19 noyabr 2021-ci il tarixdə vəfat etmiş, atasının vəfatından sonra hüquqi varis kimi o, proseslərdə iştirak etmişdir. Borclu X1 isə 15 sentyabr 2022-ci il tarixdə vəfat etmişdir. Onun vəfatından sonra üç vərəsəsi - cavabdehlər qalmışdır. Cavabdehlər qərəzli formada öhdəlik yaranmaması üçün miras qoyan X1-nun ölümündən sonra vərəsəlik açılması üçün notariat orqanına müraciət etmirlər. Buna

baxmayaraq cavabdehlər X1-ə məxsus 0,06 ha torpaq sahəsində yerləşən evdə yaşamaqla, onun mirasından istifadə və idarə etməklə mirası faktiki qəbul etmişlər. Həmçinin cavabdehlərdən cavabdeh 1 borclunun ölümündən sonra məhkəmə proseslərində hüquqi varis kimi tanınmış və iştirak etmişdir. Cavabdehlər göstərilən borcu ödəmək istəmirlər.

11. Cavabdeh 1 iddianı qəbul etməyərək, bildirib ki, atası X1-in vəfatından sonra vərəsəliyi qəbul etməmişlər. Evin çıxarışı yoxdur. Onlar miras əmlakdan birgə istifadə edirlər. Vərəsəliyi qəbul etmədikləri üçün, qeyd olunan borc öhdəliyi onların üzərinə qoyulmamalıdır. İddia əsassızdır. Göstərilənləri nəzərə alaraq, iddia tələbinin rədd olunması barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

12. Quba Rayon Məhkəməsinin (bundan sonra-birinci instansiya məhkəməsi) 19.06.2023-cü il tarixli, 2(027)-1041/2023 nömrəli qətnaməsi ilə, iddianın təmin edilməsi, cavabdehlər cavabdeh1, cavabdeh 2 və cavabdeh 3-dan 20250 (iyirmi min iki yüz əlli) manat məbləğində vəsaitin iddiaçının xeyrinə tutulması, ödənilmiş dövlət rüsumunun əvəzi 151 manat cavabdehlərdən iddiaçının xeyrinə tutulması qət edilmişdir (hakim Vüqar Seyidov).

13. Birinci instansiya məhkəməsi iş üzrə gəldiyi qənaəti onunla əsaslandırmışdır ki, cavabdehlər cavabdeh 1, cavabdeh 2 və cavabdeh 3 15 sentyabr 2022-ci il tarixdə vəfat etmiş X1-dən miras qalmış əmlakı qanunla müəyyən edilmiş rəsmi formada vərəsəliyi qəbul etməsələr də, iş materiallarından müəyyən edildiyi kimi onlar X1-in ailə üzvləridir və mərhumdan qalan miras əmlaka faktiki olaraq sahib olmuşlar. Belə olan halda cavabdehlər cavabdeh 1, cavabdeh 2 və cavabdeh 3 X1-nun vəfatından sonra mirası və qalan bütün öhdəlikləri qəbul etmiş olurlar.

14. Məhkəmə 24.01.2019-cu il tarixli 1(027)-28/2019 saylı hökmü və Sumqayıt Apellyasiya Məhkəməsinin 12.04.2019-cu il tarixli 1(105)-164/2019 saylı qərarını mötəbər sübut kimi qəbul edib hesab edib ki, iddia tələbi dəymiş ziyanın tutulması hissəsində əsaslıdır və cavabdehlərdən tutulmalıdır.

15. Məhkəmə qeyd olunan maddi hüquq normalarının tələblərinə və işin faktiki hallarına, toplanmış və tədqiq olunmuş sübutlara məcmu halda hüquqi qiymət verərək hesab edib ki, iddiaçının cavabdehlər cavabdeh 1, cavabdeh 2 və cavabdeh 3-ə qarşı “dəymiş zərərin əvəzinin ödənilməsi” tələbinə dair iddiası əsaslıdır, iddiaçı iddiasını əsaslı edən müvafiq sübutlarını məhkəməyə təqdim etmiş, həmin sübutlar məhkəmədə araşdırılmış və qarşılıqlı tədqiq edilmiş işin faktiki halları ilə tam olaraq öz təsdiqini tapmışdır.

16. Birinci instansiya məhkəməsi öz mövqeyini Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsinin I hissəsinə, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 21.1, 1096.1, 1096.2, 1097.1, 1097.3, 1112 və 1113.1-ci maddələrinə, “Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsi baxımından Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1243-cü maddəsinin və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 307.2.9-cu maddəsinin əlaqəli şəkildə şərh edilməsinə dair” Azərbaycan Respublikası onstitusiya Məhkəməsi Plenumunun 16.10.2020-ci il tarixli Qərarına və Azərbaycann Respublikası Mülki Prosessual Məcəllənin 77.1, 77.3, 78.1, 78.2, 80, 88, 106.1-ci maddələrinə maddələri ilə əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat:

17. Qətnamədən narazı qalan cavabdeh 1 apellyasiya şikayəti verərək, birinci instansiya məhkəməsinin 19 iyun 2023-cü il tarixli, 2(027)-1041/2023 nömrəli qətnaməsinin ləğv edilərək, iddia tələbinin təmin edilməməsi barədə yeni qətnamə qəbul edilməsini xahiş etmişdir.

18. Cavabdeh 1 apellyasiya şikayətini onunla əsaslandırmışdır ki, ziyana görə hesablanan pul iddiaçıya aid olmadığı üçün iddiaçının bu pulu cavabdehlərdən tələb etməyə subyektiv hüququ yoxdur. Bu tələb X2-ə aid olub. Onun vəfat etməsi ilə tələbə də xitam verilib. Bu tələb Azərbaycan Respublikası Mülki Məcəlləsinin normalarına əsasən vərəsəlik üzrə keçə bilməz. Bu tələb şəxsin özünə aid olduğundan onun ölümü ilə də tələbə xitam verilmişdir. Bununla yanaşı cavabdehlər X1-nun vərəsəliyini qəbul etməyiblər. Bununla bağlı Quba rayon icra və

probasiya şöbəsinin icraata xitam verilməsi haqqında 18 aprel 2023-cü il tarixli qərarı qəbul edilmişdir. Həmin qərara əsasən X1-in adına vərəsəlik açılmadığı üçün Quba Rayon Məhkəməsinin 24.01.2023-cü il tarixli, 2(027)-28/2021 saylı icra sənədi üzrə icraata xitam verilmişdir.

19. Sumqayıt Apellyasiya Məhkəməsinin 14.09.2023-cü il tarixli, 2(105)-1695/2023 nömrəli qərardadı ilə X1-dan miras qalmış birgə mülkiyyətdə olan ünvan-də yerləşən 0,06 ha torpaq sahəsinin hazırki bazar qiyməti müəyyən edilməsinə dair ekspertiza təyin edilmişdir. 04 dekabr 2023-cü il tarixli ekspert rəyinə görə ünvan-də yerləşən birgə mülkiyyətdə olan 0,06 ha torpaq sahəsinin hazırki orta bazar qiymətinin 13000 manat olduğu qeyd edilmişdir.

20. Sumqayıt Apellyasiya Məhkəməsinin 18.01.2024-cü il tarixli, 2(105)-135/2024 nömrəli qərardadı ilə ünvan-də yerləşən hazırda cavabdehlərin yaşadıqları həmin evin tikintisinə istifadə edilmiş tikinti materiallarının ümumi dəyərinin müəyyən edilməsinə dair məhkəmə tikinti-texniki və əmtəəşünaslıq ekspertizası təyin edilmişdir. Ekspertizanın keçirilməsi ilə əlaqədar tədqiqat obyekti olan evə baxış keçirilməsi 06 mart 2024-cü il tarixə saat 16:00-a təyin edilsə də, cavabdehlər tərəfindən həmin tarixdə tədqiqat obyektinə baxış keçirilməsi təmin olunmadığından ekspert X4 tərəfindən ekspertizanın aparılmasından imtina edilmişdir.

21. Sumqayıt Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının (bundan sonra apellyasiya instansiya məhkəməsi) 25.07.2024-cü il tarixli, 2(105)-135/2024 nömrəli qətnaməsi ilə (hakimlər İ.K.Dəmirov (sədrlik edən və məruzəçi), F.Ə.Məmmədov və L.E.Rəhimli ibarət tərkibdə) cavabdeh 1-nun apellyasiya şikayətinin rədd edilməsini, birinci instansiya məhkəməsinin 19 iyun 2023-cü il tarixli, 2(027)-1041/2023 nömrəli nömrəli qətnaməsinin dəyişdirilməsini, cavabdehlər cavabdeh 1, cavabdeh 2 və cavabdeh 3-dan hər birindən 6750 manat olmaqla, ümumilikdə 20250 manat məbləğində vəsaitin iddiaçının xeyrinə tutulmasını və qətnamənin digər hissədə dəyişdirilmədən saxlanılmasını qət etmişdir.

22. Məhkəmə kollegiyası apellyasiya şikayətinin dəlillərini və iş materiallarını araşdıraraq hesab edib ki, mübahisə predmeti olan cavabdehlərin yaşadıqları fərdi yaşayış evinin tikintisinə müəyyən vəsait sərf olunmuşdur. Həmin tikilinin fotoşəkilləri işin 167,168,169-cu səhifələrində əks olunmuşdur. Məhkəmə kollegiyasının iclasında cavabdeh 1 cavabdehlərin yaşadıqları evin onun atası mərhum X1 tərəfindən deyil, babası X5 tərəfindən tikildiyini bildirmişdir və bunu təsdiq edən cavabdehlərin imza etdikləri 16 yanvar 2024-cü il tarixli aktı məhkəmə kollegiyasına təqdim etmişdir (i/v 181). Belə olan halda isə həmin evin tikintisinə çəkilmiş xərclər üzrə hüquqlar mərhum X5-dan onun hüquqi varisi olan 15.09.2022-ci ildə vəfat etmiş X1-na keçmişdir. Bununla əlaqədar məhkəmə kollegiyasının 18.01.2024-cü il tarixli, 2(105)-135/2024 nömrəli qərardadı ilə ünvan-də yerləşən hazırda cavabdehlərin yaşadıqları həmin evin tikintisinə istifadə edilmiş tikinti materiallarının ümumi dəyərinin müəyyən edilməsinə dair məhkəmə tikinti-texniki və əmtəəşünaslıq ekspertizası təyin edilmişdir. Ekspertizanın keçirilməsi ilə əlaqədar tədqiqat obyekti olan evə baxış keçirilməsi 06 mart 2024-cü il tarixə saat 16:00-a təyin edilsə də, cavabdehlər tərəfindən həmin tarixdə tədqiqat obyektinə baxış keçirilməsi təmin olunmadığından ekspert X4 tərəfindən ekspertizanın aparılmasından imtina edilmişdir.

23. Məhkəmə qeyd etmişdir ki, cavabdehlərin hazırda yaşadıqları mərhum X1-na məxsus yaşayış evinə çəkilmiş xərclərə görə hüquqlar onun vərəsələri olan cavabdehlər tərəfindən qəbul olunduğundan mərhum X1-nun borcları üzrə vəzifələr bərabər payda onun birinci növbəli vərəsələri olan cavabdehlərə keçməlidir.

24. Bundan əlavə məhkəmə kollegiyası həmçinin qeyd etməyi zəruri hesab edib ki, mərhum borcluya məxsus yaşayış evi qeydiyyatdan keçməsə də, həmin tikinti X1-nun və onun hüquqi varislərinin ümumi birgə mülkiyyətində olan 0,06 ha torpaq sahəsində yerləşdiyindən qeyd edilən yaşayış evinə Mülki Məcəllənin 180.3-cü maddəsinin tələbləri baxımından cavabdehlərin gələcəkdə gözlənilən mülkiyyət hüququ vardır.

25. Bununla əlaqədar məhkəmə kollegiyası mərhum borclu X1-na aid torpaq sahəsi üzrə payının dəyərinin ayrılıqda müəyyən edilməsini işin yuxarıda araşdırılan hallarına əsasən artıq zəruri hesab etməmişdir. Yəni evin tikintisinə çəkilmiş xərclər yuxarıda göstərilənlərə əsasən ümumi borc məbləğindən çox olduğundan, mərhum borclunun torpaq payının dəyərinin ayrılıqda müəyyən edilməsinə zərurət aradan qalxmış olur.

26. Məhkəmə kollegiyası həmçinin borcdan yayınmaq məqsədi ilə hələ mərhum borclunun sağlığında ona məxsus torpaq sahələrinin onun nümayəndəsi cavabdeh 1 tərəfindən özgəninkiləşdirilməsinə dair iddiaçının dəlillərinin araşdırılmasını da zəruri hesab etməmişdir.

27. Məhkəmə öz mövqeyini Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinin VII hissəsinə, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1151, 1151.1, 1151.2, 1243, 1255, 1306.1 və 1306.2-ci maddələrinə, Konstitusiya Məhkəməsi Plenumunun G.Qəhrəmanovanın şikayəti üzrə 2014-cü il 18 iyul tarixli Qərarına, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 26 dekabr 2023-cü il tarixli Qərarına, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 14.2, 97.5, 217.3, 217.4 və 384.0.3-cü maddələrinə istinad edərək əsaslandırmışdır.

Kassasiya şikayətinin və ona etirazın dəlilləri:

a)Kassasiya şikayətinin dəlilləri:

28. Cavabdeh 1 (onun vəkili) apellyasiya instansiya məhkəməsinin Mülki kollegiyasının 2(105)-135/2024 saylı, 25.07.2024-cü il tarixli qətnaməsinin ləğv olunmasını, işin yenidən baxılması üçün Sumqayıt Apellyasiya Məhkəməsinin Mülki kollegiyasına göndərilməsini xahiş etmişdir.

29. Kassasiya şikayəti belə əsaslandırılmışdır ki, apellyasiya instansiya məhkəməsi 2(105)-135/2024 saylı, 25.07.2024-cü il tarixli qətnaməni qəbul etməklə bir sıra maddi hüquq normalarının tələblərini pozmuşdur. Apellyasiya instansiya məhkəməsi demək olar ki, birinci instansiya məhkəməsinin qətnaməsində olan mövqeni qəbul etdiyi qətnaməyə köçürməklə öz işini bitmiş hesab etmiş, özü də qeyd etdiyi kimi birinci instansiya məhkəməsinin qətnaməsini tam həcmdə yoxlamalı olduğu halda bu vəzifəsini yerinə yetirməmişdir. Məhkəmə ziyanı vərəsələrə münasibətdə düzgün bölməmiş və formal təhlilə üstünlük vermiş və bunla da hansı mövqeni sərgiləmək istədiyi məlum olmur. Məhkəmə çəkişmə prinsipinin də tələblərini pozmuş, cavabdeh tərəfindən məhkəməyə təqdim olunmuş sübutları və ifadələri nəzərə almamış, öz mövqeyini mötəbər sübutlarla deyil, iddiaçının ziddiyyətli ifadələri və qeyri–mötəbər sübutlarla əsaslandırmışdır. Apellyasiya instansiya məhkəməsi iddiaçının subutu olmadan iddianın təmin edilməsi ilə bağlı səhv nəticəyə gəlmiş və həmçinin işin mühüm halını araşdırmamış, işdə olan digər sübutlarla əlaqəli şəkildə təhlil etməmiş və mülki prosessual qanunun yuxarıda adı çəkilən normasının tələblərini pozaraq yanlış nəticəyə gəlmişdir.

30. Cavabdeh kassasiya şikayətinin əsası kimi Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1153-cü maddəsinə, Azərbaycan Respublikası Konstitusiya məhkəməsinin M.Bağırovun şikayati üzrə Azarbaycan Respublikası Ali Məhkaməsinin mülki işlər üzrə məhkəmə kollegiyasının 04 may 2007-ci il tarixli qərarının Azarbaycan Respublikası Konstitusiyasına va qanunlarına uyğunluğunun yoxlanılmasına dair 30 iyul 2008-ci il tarixli qərarına və Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 9.1, 9.3, 14.1 və 88-ci maddələrinə istinad etmişdir.

b)Kassasiya şikayətinə qarşı etirazın dəlilləri:

31. İddiaçı teleqramla müraciət edərək, kassasiya şikayətinin təmin edilməməsini və apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin dəyişdirilmədən qüvvədə saxlanılmasını xahiş etmişdir.

Mülki işə tətbiq edilən hüquq:

Azərbaycan Respublikası Mülki Məcəlləsi:

32. Maddə 1151. Ölən şəxsə tələb hüququ ilə məxsus olan borc məbləği onun miras kütləsinə daxildir və buna görə də vərəsəliyi qəbul etmiş şəxs də həmin ona ödənilməli olan borcu da qəbul etmiş sayılır.

33. Maddə 1151.1. Mirasa (miras əmlaka) miras qoyanın öldüyü məqamadək malik olduğu əmlak hüquqlarının (miras aktivi) və vəzifələrin (miras passivi) toplusu daxildir.

34. Maddə 1151.2.Mirasa ümumi mülkiyyətdən ölənə çatası pay, əmlakın naturada bölünməsi mümkün olmadıqda isə bu əmlakın dəyəri daxildir.

35. Maddə 1243.Mirası istər qanun üzrə, istərsə də vəsiyyət üzrə vərəsə qəbul edir. Vərəsə mirasın açıldığı yer üzrə notariat ofisinə mirası qəbul etdiyi barədə ərizə verdikdə və ya əmlaka sahiblik etməyə və ya əmlakı idarə etməyə faktik başladıqda və bununla da mirası qəbul etdiyini şəksiz nümayiş etdirdikdə miras vərəsə tərəfindən qəbul edilmiş sayılır. Vərəsə mirasın bir hissəsinə sahiblik etməyə faktik başladıqda hesab edilir ki, mirasın nədə ifadə edilməsindən və harada olmasından asılı olmayaraq, o, mirası tamamilə qəbul etmişdir.

36. Maddə 1255.Qəbul edilmiş miras onun açıldığı gündən vərəsənin mülkiyyəti sayılır.

37. Maddə 1306.1.Vərəsələr miras qoyanın mövcud olan və onun ölümü ilə xitam olunmayan bütün öhdəlikləri üzrə qəbul etdikləri miras əmlakdakı paylarına mütənasib surətdə birgə borclu kimi məsuliyyət daşıyırlar.

38. Maddə 1306.2.Əgər miras qoyan vərəsələrə keçmiş borclar üzrə birgə borclu olmuşdursa, vərəsələr birgə məsuliyyət daşıyırlar.

Konstitusiya Məhkəməsi Plenumunun G.Qəhrəmanovanın şikayəti üzrə 2014-cü il 18 iyul tarixli Qərarı:

39. Mirasın qəbulu şəxsin iradəsi ilə bağlı olan hüquqi hərəkət olmaqla, vərəsə tərəfindən miras əmlakın əldə edilməsinə razılığın ifadə edilməsidir. Vərəsənin mirasın açıldığı yer üzrə notariat ofisinə mirası qəbul etdiyi barədə ərizə verməsi mirasın qəbul edilməsinin formal üsuludur. Miras əmlakın faktiki qəbulu vərəsənin konkret hərəkətləri və rəftarı ilə onun mirası qəbul etmək niyyətinin açıq-aşkar təsdiqlənməsi və sübut edilməsi kimi qəbul edilir və belə hərəkətlərin məzmunu vərəsə tərəfindən məhz mirası qəbul etmək məqsədi daşıyır.Mirasın faktiki qəbulu üsulu iki cür olur: miras əmlaka faktiki sahiblik etmək üsulu və miras əmlakı faktiki idarə etmək üsulu. Faktiki sahiblik etmək üsulu ondan ibarətdir ki, onun əsasında vərəsə miras qoyan şəxsin əmlakını faktiki cəhətdən ələ keçirir və ona sahib durur. Miras əmlakı faktiki idarə etmək isə vərəsə tərəfindən elə hərəkətləri nəzərdə tutur ki, bu hərəkətləri adətən mülkiyyətçi öz mənafeyi üçün əmlakın saxlanması və normal təsərrüfatın aparılması üçün etmiş olsun.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 26 dekabr 2023-cü il tarixli Qərarı:

40. Azərbaycan Respublikası Mülki Məcəlləsinin vərəsəlik hüququ üçün xüsusi qəbul şərtini və müddətini müəyyən edən 1246 və 1273-1-ci maddələri mütənasiblik konstitusiya prinsipinə və Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinin VII hissəsində təsbit olunmuş vərəsəlik hüququnun təminatına və bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə uyğun olmadığından qüvvədən düşmüş hesab edilmiş, Azərbaycan Respublikası Mülki Məcəlləsinin mirasın qəbulu institutunun tələblərindən irəli gələn hüquqi tənzimləmələrin bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelər nəzərə alınmaqla təkmilləşdirilməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilmiş, mülki dövriyyənin sabitliyinin təmin olunması baxımından bu Qərar qüvvəyə mindikdən sonra yaranacaq vərəsəlik münasibərlərinə və hazırda məhkəmələrin icraatında olan mübahisələr üzrə işlərə şamil edilmişdir.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi:

41. Maddə 14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

42. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

43. Maddə 82.3. Bir mülki iş üzrə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsi ilə müəyyən edilmiş faktlar həmin işdə iştirak edən şəxslər tərəfindən başqa məhkəmə prosesində mübahisələndirilmir və yenidən sübut edilmir.

44. Maddə 97.5.Tərəf ekspertizanın keçirilməsində iştirak etməkdən imtina edirsə və ya onun keçirilməsinə mane olursa (ekspertizaya gəlmir, zəruri tədqiqat predmetlərini ekspertə təqdim etmir, ekspertizanın aparılması üçün tələb olunan xərcləri ödəmir və s.) və işin hallarına görə bu tərəfin iştirakı olmadan ekspertizanı keçirmək mümkün deyilsə, məhkəmə hansı tərəfin iştirak etməkdən imtina etməsindən, habelə bunun onun üçün hansı əhəmiyyət kəsb etməsindən asılı olaraq, ekspertiza təyin edilən faktı, onun hüquqi nəticələrini əsaslandırmaqla təsdiq olunmuş və yaxud rədd edilmiş hesab edə bilər;

45. Maddə 217.3. Qətnamə iş üzrə müəyyən edilmiş həqiqi hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır.

46. Maddə 217.4. Məhkəmə (hakim) öz qətnaməsini yalnız məhkəmə iclasında tədqiq olunmuş sübutlarla əsaslandırır.

47. Maddə 233.3. Qətnamə qanuni qüvvəyə mindikdən sonra tərəflər və işdə iştirak edən digər şəxslər, habelə onların hüquq varisləri məhkəmədə eyni iddia tələblərini, eyni əsas üzrə yenidən irəli sürə bilməzlər, habelə məhkəmə tərəfindən müəyyən edilmiş faktlara və hüquq münasibətlərinə qarşı başqa prosesdə mübahisə edə bilməzlər.

48. Maddə 261.0. Hakim iş üzrə icraata aşağıdakı hallarda xitam verir: 261.0.1. iş məhkəmədə və ya mülki məhkəmə icraatı qaydasında baxılmalı deyildirsə; ...

49. Maddə 262.1. İş üzrə icraata xitam verilməsi barədə məhkəmə qərardad çıxarır.

50. Maddə 262.3. Bu Məcəllənin 261.0.1-ci və ya 261.0.8-ci maddələrində nəzərdə tutulmuş əsaslar üzrə icraata xitam verilərsə, məhkəmə ərizəçinin hansı orqana müraciət etməli olmasını göstərməlidir.

51. Maddə 262.4. İşin icraatına xitam verildikdə, eyni tərəflər arasında, eyni predmet haqqında və eyni əsaslar üzrə mübahisə barəsində məhkəməyə müraciət edilməsinə yol verilmir.

İcra haqqında Azərbaycan Respublikasının Qanunu

52. Maddə 20.1. İcra sənədi üzrə icraata aşağıdakı hallarda xitam verilir:

20.1.1. məhkəmə tələbkarın tələbdən imtinasını qəbul etdikdə;

20.1.2. məhkəmə tələbkar ilə borclu arasında barışıq sazişini təsdiq etdikdə;

20.1.3. tələbkar və ya borclu öldükdə, ölmüş elan edildikdə və ya xəbərsiz itkin düşmüş hesab edildikdə, əgər məhkəmə və ya digər orqanın qərarı ilə müəyyən edilmiş tələblər və ya vəzifələr həmin şəxsin vərəsəsinə və ya qanunvericiliklə müəyyən edilmiş qaydada onun əmlakını idarə edən şəxsə keçə bilməzsə;

20.1.4. icra sənədinin verilməsi üçün əsas olmuş məhkəmə və ya digər orqanın qərarı və yaxud qanuna görə icra sənədi sayılan sənəd ləğv edildikdə;

20.1.4-1. qanun əsasında borclunun dövlətə olan borcu silindikdə;

20.1.4-2. qanuni qüvvəyə minmiş məhkəmə qərarı ilə təmin edilmiş vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının (məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları istisna olmaqla) dövlət büdcəsinə alınması barədə məhkəmə qərarının qüvvəyə mindiyi tarixdən 5 illik müddət keçdikdə;

20.1.5. icra sənədi tam icra olunduqda.

20.2. İcra sənədi üzrə icraata xitam verilməsi barədə icra məmuru tərəfindən əsaslandırılmış qərar qəbul edilir. Həmin qərar icra qurumunun rəhbəri tərəfindən yoxlanılaraq təsdiq olunur və onun surəti 3 gün müddətində tərəflərə, habelə icra sənədini vermiş məhkəməyə və ya digər orqana (notarius istisna olmaqla) göndərilir.

20.3. İcra məmuru icraata xitam verilməsi barədə qərar qəbul etdikdən sonra icraat üzrə hər hansı icra hərəkətlərinin həyata keçirilməsinə yol verilmir.

20.4. İcra məmurunun icra sənədi üzrə icraata xitam verilməsi barədə qərarı daxil olduqdan sonra məhkəmə 10 gün müddətində həmin qərarın bu Qanunun tələblərinin pozulmaqla qəbul edilməsini müəyyən edərsə həmin qərarı ləğv edir.

20.5. Tərəflər və icra sənədini vermiş digər orqan qərarın onlara təqdim olunduğu (onlar tərəfindən alındığı) gündən 10 gün müddətində həmin qərardan müvafiq məhkəməyə şikayət verə bilərlər.

20.6. İcraata xitam verilməsi barədə icra məmurunun qərarı məhkəmə tərəfindən ləğv edildikdə icra tədbirləri davam etdirilir. Bu zaman icra sənədinin icra müddəti icraata başlamaq haqqında qərarın qəbul edildiyi vaxtdan hesablanır.

20.7. İcraata xitam verilməsi barədə icra məmurunun qərarı bu Qanunun 20.4-cü və 20.5-ci maddələrinə müvafiq olaraq ləğv olunmadıqda və ya ondan şikayət verilmədikdə, şikayət verildikdə isə bu şikayətin təmin olunmaması barədə məhkəmə qərarı qanuni qüvvəyə mindikdən sonra icra sənədi 3 gün müddətində onu vermiş məhkəməyə və ya digər orqana (notarius istisna olmaqla) geri qaytarılır.

20.8. İcra sənədi məhkəməyə və ya icra sənədini vermiş digər orqana qaytarıldıqdan sonra icra məmuru təyin etdiyi bütün icra tədbirlərini ləğv edir.

Maddə 3 1 . İcraat zamanı tərəflərdən biri sıradan çıxdıqda (fiziki şəxs öldükdə, hüquqi şəxs yenidən təşkil edildikdə, tələb güzəşt edildikdə, borc köçürüldükdə) icra məmuru qərar qəbul edərək, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada həmin tərəfi onun vərəsəsi və ya hüquq varisi ilə əvəz edir. Vərəsə və hüquq varisi icraata daxil olanadək həyata keçirilmiş bütün hərəkətlər, onun əvəz etdiyi şəxs üçün məcburi olduğu kimi, vərəsə və ya hüquq varisi üçün də eyni dərəcədə məcburidir.

Kassasiya baxışının hədləri:

53. Qanunun tələbinə görə, kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

54. Hazırkı kassasiya şikayətini cavabdeh tərəfindən qətnamə tam mübahisələndirdiyindən apelyasiya instansiyası məhkəməsinin aktı tam yoxlanılır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

55. Məhkəmə kollegiyası aşağıdakılara əsasən hesab edir ki, apellyasiya instansiyası məhkəməsi işə mülki məhkəmə icraatı qaydasında baxılmalı olmadığına görə iş üzrə icraata xitam verilməli olduğu halda işə mahiyyəti üzrə baxmış, bununla da prosessual hüquq normaları düzgün tətbiq edilməmişdir.

56. Baxılan işin halları ilə müəyyən edilmişdir ki, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə iddiaçının (baxılan iş üzrə iddiaçının atasının) mülki iddiası təmin olunmuş, yolnəqliyyat hadisəsi nəticəsində vurduğu maddi ziyana görə 17500 manat və mənəvi ziyana görə 4000 manat pul vəsaitinin, ümumilikdə 21500 manat pulun X1-dan (baxılan iş üzrə cavabdehlərin atasından) alınaraq iddiaçının atası X2-ə verilməsi qərara alınmışdır. Qərarın icrası mərhələsində tələb olunan məbləğdən 1250 manat pul ödənilmiş, 20250 manat ödənilməmiş qalmışdır. X2 19 noyabr 2021-ci il tarixdə və X1 15 sentyabr 2022-ci il tarixdə vəfat etmişlər. İddiaçı X2-in vərəsəsidir və o, mirasın qəbulu ilə bağlı şəhadətnamə almışdır. Cavabdehlər isə X1-nun ailə üzvləri-hüquqi varisləri olmaqla sonuncudan miras qalmış əmlaka sahiblik və istifadə edirlər.

57. Quba rayon icra və probasiya şöbəsinin icraata xitam verilməsi haqqında 18 aprel 2023-cü il tarixli qərarı qəbul edilmişdir. Həmin qərara əsasən X1-un adına vərəsəlik açılmadığı

üçün Quba Rayon Məhkəməsinin 24.01.2023-cü il tarixli, 2(027)28/2021 saylı icra sənədi üzrə icraata xitam verilmişdir.

58. Məhkəmə kollegiyası aşağıdakılara əsasən hesab edir ki, apellyasiya instansiyası məhkəməsi verilmiş şikayətə mahiyyəti üzrə baxarkən ilkin olaraq iddianın mülki məhkəmə icraatı qaydasında baxılmasının mümkünlüyünü müzakirə etməli və birinci instansiya məhkəməsində işə baxılarkən prosessual qanunvericiliyin tələblərinə əməl edilib-edilməməsinə qiymət verməli idi.

59. Məhkəməyə müraciət etmək hüququnun təmin edilməsi, öz növbəsində, pozulmuş hüquq və azadlıqları qanunvericilikdə nəzərdə tutulan hədlər çərçivəsində səmərəli müdafiə və bərpa edə bilən ədalət mühakiməsinin həyata keçirilməsini şərtləndirir. Ədalət mühakiməsi vasitəsi ilə insan hüquq və azadlıqlarının təminatı sisteminin universal xarakteri, şəxsin qanunsuz və əsassız məhkəmə qərarlarından müdafiə olunması məqsədilə müvafiq məhkəmələrə şikayət etmək imkanlarını da əhatə edir. Bu hüquq məhkəmə prosesinin bütün mərhələlərinə aid olmaqla, məhkəmə müdafiəsinin yalnız birinci instansiyada təmin olunmasını deyil, qanunla nəzərdə tutulmuş hallarda apellyasiya və kassasiya instansiyalarında da həyata keçirilməsini nəzərdə tutur (Konstitusiya Məhkəməsi Plenumunun “Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 420-ci maddəsinin şərh edilməsinə dair” 2012-ci il 28 fevral və “Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 28-ci maddəsinin şərh edilməsinə dair” 2017-ci il 12 aprel tarixli Qərarları).

60. Qeyd olunmalıdır ki, Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsi müxtəlif məhkəmə instansiyalarına verilmiş şikayətlərə baxılmasının prosessual qaydalarına dəqiq riayət olunmasını da özündə ehtiva edir. Bu məqsədlə qanunverici mülki işlər üzrə məhkəmə aktlarının ədalətli və qanuni olmasını təmin etmək üçün Mülki Prosessual Məcəllədə məhkəmənin, işdə iştirak edən şəxslərin və prosesin digər iştirakçılarının hüquq və vəzifələrini müəyyənləşdirir, mülki mühakimə icraatında prosessual qaydaları tənzim edir. Məcəllə mülki məhkəmə icraatının ümumi qaydalarını, habelə icraatın prinsip və şərtlərini müəyyən etməklə yanaşı, ümumi yurisdiksiyalı məhkəmələr tərəfindən mülki icraatın aparılması, işin ədalətli həllinə yönəlmiş qaydalara riayət olunmaqla son nəticədə məhkəmə aktlarının qəbulunu, onlardan şikayət verilməsi və bu şikayətlərə baxılması qaydasını tənzimləyir.

61. Mülki Prosessual Məcəllənin normaları nəinki mülki məhkəmə icraatının gedişatını, həmçinin mülki prosessual münasibətlərin hər bir iştirakçısı tərəfindən müvafiq hərəkətlərin aparılması və onların mümkünlüyünü müəyyən edir (Konstitusiya Məhkəməsi Plenumunun İ.Şabanovanın şikayəti ilə əlaqədar 2012-ci il 27 avqust tarixli Qərarı).

62. Məhkəmə kollegiyası baxılan iş üzrə qəbul ediləcək qərardadın məhkəməyə müraciət etmə hüququ ilə bağlılığını nəzərə alıb, qeyd edir ki, mülki mühakimə icraatında həyata keçirilməsini müəyyən edən Azərbaycan Respublikası MPM-nin 4.1-ci maddəsinə görə bütün fiziki və hüquqi şəxslər özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədi ilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququna malikdirlər.

63. Həmin Məcəllənin 5.1-ci maddəsində göstərilmişdir ki, hər hansı fiziki və yaxud hüquqi şəxs öz hüququnun və ya qanunla qorunan mənafeyinin müdafiəsi və yaxud təsdiqi üçün məhkəməyə müraciət etdiyi hallarda məhkəmədə iş başlanılır.

64. Məhkəməyə müraciət etmək hüququnun məhdudlaşdırılmasına yol verilmir. Konstitusiyanın 71-ci maddəsində göstərilmişdir ki, insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini heç kəs məhdudlaşdıra bilməz. Bu Konstitusiyanın heç bir müddəası insan və vətəndaş hüquqlarının və azadlıqlarının ləğvinə yönəldilmiş müddəa kimi təfsir edilə bilməz. Azərbaycan Respublikasının ərazisində insan və vətəndaş hüquqları və azadlıqları birbaşa qüvvədədir.

65. Hər kəsin hüquq və azadlıqlarına təminat verməklə yanaşı, Konstitusiyanın 60-cı maddəsi müxtəlif məhkəmə instansiyalarında müraciətin (şikayətin) baxılmasının prosessual

qaydalarına dəqiq riayət olunmasını da özündə ehtiva edir. Bu məqsədlə qanunverici mülki işlər üzrə məhkəmə aktlarının ədalətli və qanuni olmasını təmin etmək üçün Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində məhkəmənin, işdə iştirak edən şəxslərin və prosesin digər iştirakçılarının hüquq və vəzifələrini müəyyənləşdirir, mülki mühakimə icraatında prosessual qaydaları tənzim edir.

66. Lakin nəzərə alınmalıdır ki, məhkəmə müdafiəsi hüququ mütləq hüquq deyildir və müəyyən prosessual şərtlərin mövcudluğunda bəzi məhdudiyyətlərə məruz qala bilər. Bu cür prosessual şərtlər əsasən MPM-nin 261-ci maddəsində nəzərdə tutulmuşdur.

67. Belə ki, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 261.0.1-ci maddəsinə görə işə məhkəmədə və ya mülki məhkəmə icraatı qaydasında baxılmalı deyildirsə, iş üzrə icraata xitam verilir.

68. Baxılan işin hallarında görünür ki, artıq tələb olunan pul vəsaitinin borcludan tutulmasına dair məhkəmə aktı qəbul olunmuş, qanuni qüvvədədir və qismən icra olunmuşdur. Lakin icra icraatında tərəf olan borclu və tələbkar vəfat etdiyindən faktiki olaraq icra icraatında sıradan çıxmış hesab olunurlar. Bu halda icra məmuru müvafiq qərar qəbul edərək sıradan çıxmış tərəflərin əvəz edilməsini təmin etməlidir. İcra məmurunun bu vəzifəsi "İcra haqqında Qanunun" 31-ci maddəsindən irəli gəlir.

69. Belə ki, icraat zamanı tərəflərdən biri sıradan çıxdıqda (fiziki şəxs öldükdə, hüquqi şəxs yenidən təşkil edildikdə, tələb güzəşt edildikdə, borc köçürüldükdə) icra məmuru qərar qəbul edərək, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada həmin tərəfi onun vərəsəsi və ya hüquq varisi ilə əvəz edir. Vərəsə və hüquq varisi icraata daxil olanadək həyata keçirilmiş bütün hərəkətlər, onun əvəz etdiyi şəxs üçün məcburi olduğu kimi, vərəsə və ya hüquq varisi üçün də eyni dərəcədə məcburidir.

70. Baxılan işin hallarından aydın olur ki, tələbkarın vərəsəsi rəsmi qaydada mirası qəbul etmiş və bununla bağlı ona mirasın qəbulu haqqında şəhadətnamə verilmişdir.

71. Borclunun mülkiyyətində torpaq sahəsi və onun üzərində yerləşən qeydə alınmayan tikili mövcud olmuşdur. İşin halları ilə aşkar olaraq müəyyən olunur ki, həmin miras əmlak olan torpaq sahəsi və üzərində olan tikililəri faktiki olaraq baxılan iş üzrə cavabdeh qismində cəlb olunmuş şəxslər qəbul edərək ona sahiblik və istifadə edilər.

72. Vərəsəlik şəhadətnaməsi mirasın qəbulu faktını rəsmiləşdirən sənəd olmaqla, sadəcə hüquqtəsdiqedici xarakter daşıyır və şəhadətnamənin olmaması vərəsənin mirası qəbul etməməsini ifadə etmir (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsi baxımından Azərbaycan Respublikası Mülki

Məcəlləsinin 1243-cü maddəsinin və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 307.2.9-cu maddəsinin əlaqəli şəkildə şərh edilməsinə dair" 2020-ci il 16 oktyabr tarixli Qərarı).

73. Həmin qərarda Konstitusiya Məhkəməsinin Plenumu qeyd etmişdir ki, miras əmlaka sahiblik etməklə və ya əmlakı idarə etməklə mirası qəbul etdiyini şəksiz nümayiş etdirən vərəsənin vərəsəlik şəhadətnaməsinin olmaması onu mirasın qəbulu ilə bağlı yaranan öhdəliklərdən azad etmir.

74. Beləliklə göstərilən şəxslərin mirasın qəbulu haqqında şəhadətnamə almamaları miras qoyanın borcları-passivi üçün onların cavabdehliyini istisna etmir. Göstərildiyi kimi miras qoyanın passivinə mirası rəsmi olaraq qəbul etməmiş vərəsələrinin cavabdehlik daşımasına dair Konstitusiya Məhkəməsi 16.10.2020-ci il tarixli qərarında öz mövqeyini bildirmişdir. İcra məmuru məhz həmin qərarda olan Konstitusiya Məhkəməsinin mövqeyinə uyğun hərəkətləri yerinə yetirməli olmuşdur.

75. Belə olan halda icra məmuru yuxarıda istinad olunan normanı tətbiq etməklə sıradan çıxmış tərəfləri hüquqi varisi (varisləri) ilə əvəz etməli və bundan sonra cəlb olunmuş şəxslərlə birlikdə icra sənədinin icraatının davam etdirilməsi təmin edilməli idi.

76. Digər tərəfdən nəzərə alınmalıdır ki, “İcra Haqqında Qanunun” 20-ci maddəsində icra işi üzrə icraata xitam verilməsinin əsaslarını müəyyən edilmişdir. Həmin maddədə borclunun və ya tələbkarın ölümündən sonra vərəsəlik işinin açılmaması əsası ilə icra icraatına xitam verilməsi nəzərdə tutulmamışdır.

77. Göstərilən əsasla icra icraatına xitam verilməsinə dair qərar qəbul edildiyi halda icra məmurunun həmin qərarı icra sənədini vermiş məhkəməyə göndərilməsinə dair vəzifəsi olmuş, həmin məhkəmə isə qanunun 20.4-cü maddəsinin tələbi baxımdan xidməti vəzifəsindən çıxış edərək qərarın qəbulu zamanı qanunvericiliyin tələblərinin düzgün tətbiq edilib-edilməməsini yoxlamalı və qanuna uyğun olmayan halların müəyyən edildiyi halda həmin qərarı ləğv edərək icra icraatının davam etdirilməsi üçün icra sənədinin yenidən icraya yönəldilməsi təmin edilməlidir.

78. Göründüyü kimi, “İcra haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 30 dekabr tarixli Qanunu ilə “İcra haqqında” Qanuna edilmiş dəyişikliklərə əsasən, icra sənədi üzrə icraata xitam verilməsi səlahiyyəti məhkəmələrdən alınaraq icra qurumuna verilsə də, qanunverici məhkəməyə öz təşəbbüsü ilə icra məmurunun icraata xitam verilməsi barədə qərarının qanuniliyini yoxlamaq səlahiyyəti vermişdir.

79. Beləliklə, qanunda edilən bu dəyişikliklər məhkəmə qərarlarının vaxtında və düzgün icrasını təmin etmək məqsədi daşıyır. İcra sənədi üzrə icraata xitam verilməsi barədə icra məmurunun qərarı həmin mülki, iqtisadi və inzibati işin bilavasitə davamıdır və icra məmurunun bu qərarından şikayətə icra sənədini vermiş məhkəmə tərəfindən baxılması hüquqi müdafiə vasitələrinin əlçatanlığına və səmərəliliyinə xidmət edir.

80. Lakin icra məmuru tərəfindən qanunvericiliyin tələbinin pozulmasını nəzərə almayan məhkəmələr tələbkarın vərəsəsinin iddiasını icraata qəbul edərək artıq məhkəmə aktı ilə həll olunmuş tələb üzrə yeni icraat açmış və iddianı mahiyyəti üzrə həll edən məhkəmə aktları qəbul etmişlər.

81. Halbuki, Mülki Prosessual Məcəllənin 233.3-cü maddəsinin tələbinə görə qətnamə qanuni qüvvəyə mindikdən sonra tərəflər və işdə iştirak edən digər şəxslər, habelə onların hüquq varisləri məhkəmədə eyni iddia tələblərini, eyni əsas üzrə yenidən irəli sürə bilməzlər, habelə məhkəmə tərəfindən müəyyən edilmiş faktlara və hüquq münasibətlərinə qarşı başqa prosesdə mübahisə edə bilməzlər.

82. Göründüyü kimi istinad olunan norma tərəflərlə birlikdə onların hüquq varislərini qətnamə qanuni qüvvəyə mindikdən sonra məhkəmədə eyni iddia tələblərini, eyni əsas üzrə yenidən irəli sürmək imkanını tam məhdudlaşdırmışdır.

83. Bu halda isə birinci instansiya məhkəməsi Mülki Prosessual Məcəllənin 153-cü maddəsinin müəyyən etdiyi qaydanı tətbiq edərək iddianın yolverilməz hesab edilməsinə də dair qərar qəbul edilməsini təmin etməli idi.

84. Konstitusiya Məhkəməsinin Plenumu “İcra haqqında” Azərbaycan Respublikası Qanununun 7, 10, 24 və 26-cı maddələrinin Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin bəzi müddəaları baxımından şərh edilməsinə dair” 2 sentyabr 2015-ci il tarixli Qərarında formalaşdırdığı hüquqi mövqeyə əsasən, məhkəmə müdafiəsi hüququ bir tərəfdən hər kəsin pozulmuş hüquqlarının və azadlıqlarının bərpası məqsədilə məhkəməyə müraciət etmək hüququnu, digər tərəfdən isə məhkəmələrin həmin müraciətlərə ağlabatan müddətdə baxmaq və ədalətli qərar qəbul edərək, onların vaxtında icra edilməsinə nəzarət etmək vəzifəsini müəyyən edir.

85. Bu məsələ ilə bağlı Konstitusiyanın 129-cu maddəsinin müddəaları böyük əhəmiyyətə malikdir. Həmin maddənin tələblərinə görə, məhkəmənin qəbul etdiyi qərarların icrası məcburidir. Məhkəmə qərarının icra olunmaması qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

86. Qanuni qüvvəyə minmiş məhkəmə aktlarının məcburiliyi onların bütün dövlət orqanları və vəzifəli şəxslər tərəfindən qanunla müəyyən edilmiş qaydada hər hansı haldan asılı olmayaraq icra edilməsini nəzərdə tutmaqla yanaşı, belə aktların qanunsuz və əsassız olması ehtimalları ilə bağlı icra məhdudiyyətlərinin yaradılmasını və maneələrin törədilməsini qadağan edir.

87. Məhkəmə qərarlarının icrasının məcburiliyi "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsində də əks olunmuşdur. Həmin maddəyə əsasən, məhkəmələr baxılmış işlər üzrə Azərbaycan Respublikası adından qətnamələr, hökmlər, qərardadlar və qərarlar çıxarırlar. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada qanuni qüvvəyə minmiş bu qərarlar Azərbaycan Respublikası ərazisində bütün fiziki və hüquqi şəxslər tərəfindən mütləq, vaxtında və dəqiq icra olunmalıdır. Qanuni qüvvəyə minmiş məhkəmə qərarlarının icra edilməməsi Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

88. Məhkəmə kollegiyası qeyd edir ki, qanuni qüvvəyə minmiş məhkəmə qərarının icrası məhkəmə müdafiəsi hüququnun tərkib hissəsi olmaqla pozulmuş hüquqların bərpa olunmasında xüsusi önəm daşıyır. Belə ki, məhkəmə qərarının vaxtında və düzgün icra olunmaması bütövlükdə məhkəmə müdafiəsi hüququnun həyata keçirilməsini səmərəsiz və qəbul olunmuş qərarı əhəmiyyətsiz edər.

89. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qanuni qüvvəyə minmiş məhkəmə aktlarının icrasına dair mövqeyinə görə, son və məcburi qüvvəyə malik olan məhkəmə qərarı tərəflərdən birinin ziyanına olaraq icra edilmədikdə, ədalətli məhkəmə araşdırması xəyali hüquqa çevrilir. Ağlasığmaz haldır ki, tərəflərə verilən ədalətli, açıq və ağlabatan müddətdə məhkəmə araşdırması kimi prosessual təminatları ətraflı təsvir edən Konvensiyanın 6-cı maddəsi məhkəmə qərarlarının icrasını təmin etməmiş olsun. Həmin maddənin yalnız məhkəməyə müraciət etmək hüququ və məhkəmə iclasının aparılmasına aid edilməsi iştirakçı dövlətlərin Konvensiyaya qoşularkən üzərlərinə götürdükləri öhdəliklərlə bağlı qəbuledilməz vəziyyət yarada bilər. Ona görə də hər hansı məhkəmə tərəfindən çıxarılmış qərarın icrası Konvensiyanın 6-cı maddəsinin mənasına görə "məhkəmə araşdırması"nın ayrılmaz tərkib hissəsi hesab edilməlidir (Hornsbi Yunanıstana qarşı iş üzrə 19 mart 1997-ci il tarixli Qərar).

90. Qeyd olunanlara əsasən məhkəmə kollegiyası belə qənaətə gəlir ki, artıq baxılan iş üzrə irəli sürülmüş tələb üzrə qanuni qüvvədə olan məhkəmə aktı olduğundan və həmin tələbin yenidən irəli sürülməsi üçün tələbkarın hüquqi varisinin prosessual əsası olmadığından tələbə mahiyyəti üzrə yenidən baxmaqla məhkəmələr prosessual qanunvericiliyin tələblərini pozmuşlar.

91. MPM-in 418.1-ci maddəsinə görə prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması apellyasiya instansiyası məhkəməsinin qətnamə və qərardadının ləğv edilməsi üçün əsasdır.

92. Həmçinin qeyd olunmalıdır ki, MPM-in müvafiq olaraq 387.2.8 və 418.4.10-cu maddələrinə əsasən, iş üzrə icraata xitam verilməsi üçün əsasların olub-olmamasının yoxlanılması apelyasiya şikayətinin və ya kassasiya şikayətinin dəlillərinə tabe tutulmur və şikayətin dəlillərindən asılı olmayaraq, icraata xitam verilməsi üçün əsasların olub-olmaması hər bir halda araşdırılmalıdır.

93. Odur ki, apellyasiya instansiyası məhkəməsinin qətnaməsi ləğv edilməli, iş üzrə icraata iddia icraatı qaydasında baxılmalı olmadığı əsası ilə xitam verilməlidir.

94. MPM-nin 262.4-cü maddəsinə əsasən, işin icraatına xitam verildikdə, eyni tərəflər arasında, eyni predmet haqqında və eyni əsaslar üzrə mübahisə barəsində məhkəməyə müraciət edilməsinə yol verilmir.

95. Məhkəmə kollegiyası izah edir ki, icra icraatında sıradan çıxmış tərəflərin hüquqi varislərinin əvəz edilməsi icra məmurunun vəzifəsidir. İcra icraatında sıradan çıxmış tərəflər əvəz edildikdən sonra isə vərəsə və hüquq varisi icraata daxil olanadək həyata keçirilmiş bütün

hərəkətlər, onun əvəz etdiyi şəxs üçün məcburi olduğu kimi, vərəsə və ya hüquq varisi üçün də eyni dərəcədə məcburidir. Əgər icra məmuru tərəfindən bu vəzifələr yerinə yetirilmədikdə, tələbkarın müraciəti əsasında icra məmuru "İcra Haqqında Qanunun"un 31-ci maddəsində irəli gələn vəzifələrini icra etməli, əks təqdirdə tələbkarın icra icraatı üzərində məhkəmə nəzarətini həyata keçirən məhkəməyə müraciət etmək hüquq vardır.

96. Məhkəmə kollegiyası yuxarıda göstərilənlərə əsasən və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 416- 419-cu maddələrini rəhbər tutaraq,

Qərara aldı:

Kassasiya şikayəti qismən təmin edilsin.

Sumqayıt Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 25 iyul 2024-cü il tarixli, 2(105)-135/2024 nömrəli qətnaməsi ləğv edilsin, iş üzrə yeni qərar qəbul edilsin.

İş üzrə icraata xitam verilsin.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

71. 2-2(102)-46/2025 nömrəli, 2025-ci il 8 yanvar tarixli qərar - MPM-in 261.0.2. maddəsi baxımından eyni tərəflər arasında eyni predmet barəsində qanuni qüvvəyə minmiş qətnamə olduğu halda fərqli əsaslar üzrə işlərə baxılmasının mümkünlüyü

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu:

İddiaçı cavabdehə qarşı müqavilənin etibarsız hesab edilməsi ilə bağlı iddia qaldırmışdır. Apellyasiya məhkəməsi isə eyni tərəflər arasında daha əvvəl mübahisəli əqd üzrə məhkəmə qətnaməsi mövcud olması əsası ilə MPM-in 261.0.2-ci maddəsinə istinadla iş üzrə icraata xitam vermişdir.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Ali Məhkəmə işə hüquqi qiymət verərkən, MPM-in 261.0.2-ci maddəsinin tətbiqinin düzgün olub-olmadığını araşdırmışdır. Bu maddəyə əsasən, iş üzrə icraata yalnız o halda xitam verilə bilər ki, eyni tərəflər arasında, eyni predmet və eyni əsaslar üzrə məhkəmə tərəfindən qanuni qüvvəyə minmiş qərar mövcud olsun.

Ali Məhkəmə müəyyən etmişdir ki, əvvəlki məhkəmə işi ilə hazırkı işin tərəfləri və iddianın predmeti eyni olsa da, iddianın əsasları tamamilə fərqlidir. Əvvəlki işdə iddiaçı mülkiyyət hüququnun pozulması və cavabdehin əsassız olaraq ikinci dəfə eyni əmlakı satmasına görə müqavilənin etibarsız hesab edilməsi tələbini irəli sürmüşdür. Hazırkı işdə isə iddiaçı cavabdehin öhdəliklərini yerinə yetirməməsi əsası ilə müqavilənin etibarsız hesab edilməsi tələbini irəli sürmüşdür. Bu da o deməkdir ki, hər iki iddianın predmeti formal olaraq eyni olsa da, əsasları fərqlidir.

Bundan əlavə, Ali Məhkəmə vurğulayır ki, MPM-in 261.0.2-ci maddəsi geniş mənada şərh edilə bilməz və yalnız bütün dispozisiya şərtləri eyni olduğu halda tətbiq edilə bilər. Eyni zamanda, əqdin etibarsızlığı ilə bağlı iddianın fərqli əsaslarla irəli sürülməsinə qanunvericilik icazə verir. Lakin, bu zaman iddianın əsasının faktoloji cəhətdən fərqli olması vacibdir.

Ali Məhkəmə həmçinin apellyasiya instansiyasının MPM-in 82.3-cü maddəsinə istinad etməsinin əsassız olduğunu bildirmiş və qeyd etmişdir ki, həmin maddə yalnız işə mahiyyəti üzrə baxıldığı halda sübutetmə predmeti çərçivəsində tətbiq oluna bilər.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

Bakı şəhəri İş № 2-2(102)-46/2025 08.01.2025

Azərbaycan Respublikası adından

Azərbaycan Respublikası Ali Məhkəməsinin
Kommersiya kollegiyasının

İddiaçı Cavabdehə qarşı müqavilənin etibarsız hesab edilməsi tələbinə dair iş üzrə

Q Ə R A R I

Açar sözlər: icraata xitam verilməsi əsasları

Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının hakimi Qurbanov Raqib Əliddin oğlunun məruzəsi ilə, hakimlər Məmmədli Bəhram Məmməd oğlu və Şamayev Elşad Yaquboviçdən ibarət tərkibdə,

Gəncə Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2024-cü il 23 oktyabr tarixli 2-2(104)-214/2024 nömrəli qərardadından İddiaçı tərəfindən verilmiş kassasiya şikayətinə yazılı icraat qaydasında baxılmışdır.

İşin halları

1. Şəmkir Rayon Məhkəməsinin 2018-ci il 10 avqust tarixli 2(076)-2795/2018 saylı qətnaməsi ilə X1 iddiası təmin edilmiş, cavabdehlər İddiaçı ilə Cavabdeh arasında bağlanmış və Şəmkir rayon Notariat Kontorunda təsdiqlənmiş "X1"dəkı 100 faiz payın satılmasına dair 2014-ci il 22 oktyabr tarixli müqavilənin etibarsız hesab edilməsi, Azərbaycan Respublikası Vergilər Nazirliyinin 14 saylı Ərazi Vergilər İdarəsi tərəfindən cavabdeh İddiaçı verilmiş 2014-cü il 21 oktyabr tarixli, kommersiya hüquqi şəxslərinin dövlət reyestrindən çıxarışın və Cavabdeh verilmiş 2014-cü il 22 oktyabr tarixli, kommersiya hüquqi şəxslərinin dövlət reyestrindən çıxarışın ləğv edilməsi, İddiaçı ******* manat məbləğində pulun alınıb Cavabdeh verilməsi qət edilmişdir.

2. Gəncə Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 2018-ci il 26 dekabr tarixli 2(104)-4017/2018 nömrəli qətnaməsi ilə Cavabdeh apellyasiya şikayətinin təmin edilməsi, Şəmkir Rayon Məhkəməsinin 2018-ci il 10 avqust tarixli qətnaməsinin tamamilə ləğv edilməsi və yeni qətnamə qəbul edilməsi, iddiaçı2-nin cavabdehlər İddiaçı, Cavabdeh, Azərbaycan Respublikasının Vergilər Nazirliyinin 14 saylı Ərazi Vergilər İdarəsi və üçüncü şəxs Şəmkir rayon Notariat Kontoruna qarşı müqavilənin etibarsız hesab olunması və çıxarışların ləğv edilməsi tələbinə dair iddiasının təmin edilməməsi qət olunmuşdur.

İş üzrə məhkəmə icraatı

a) Birinci instansiya məhkəməsindəki icraat

3. İddiaçı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək onunla Cavabdeh arasında bağlanmış və Şəmkir rayon notariat kontorunda təsdiqlənmiş "X1"dəki 100 faiz payın satılmasına dair 2014-cü il 22 oktyabr tarixli alqı-satqı müqaviləsinin (bundan sonra – alqısatqı müqaviləsi) etibarsız hesab edilməsi və 14 saylı Ərazi Vergilər İdarəsi tərəfindən cavabdehə kommersiya hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın ləğv edilməsi barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

4. İddia onunla əsaslandırılmışdır ki, "X1" 100 faiz pay ilə ona məxsus olmuşdur. Onunla cavabdeh arasında bağlanmış alğı-satqı müqaviləsinə əsasən "X1 "dəki 100 faiz payı ******* manata satılmışdır. Lakin müqavilə bağlanarkən alğı-satqı müqaviləsində qeyd olunan ******* manat məbləğində pul cavabdeh tərəfindən ona ödənilməmişdir. Bununla da, müqavilənin mühüm şərti pozulmuşdur. Tərəfindən əmlak alıcıya təhvil verilsə də, alıcı üzərinə düşən öhdəliyi yerinə yetirməmiş, əvəzində müəyyənləşdirilmiş ******* manat məbləğində pul məbləğini ödəməmişdir. Bununla da o, əvəzsiz olaraq mülkiyyətindən məhrum olmuşdur. Bundan əvvəl Şəmkir Rayon Məhkəməsində mübahisəli əmlakla bağlı işə baxılsa da, hazırkı mülki işdə həm iddianın əsası, həm də tərəflər dəyişmişdir. Belə ki, hazırkı işdə artıq cavabdeh alğı-satqı müqaviləsinin nəticəsində ona heç bir pul məbləği ödəmədiyini öz ərizəsində etiraf edir. Hətta bununla əlaqədar olaraq 2019-cu il 2 dekabr tarixində ərizə vermişdir. Ona görə də bağlanmış alğı-satqı müqaviləsi etibarsız edilməlidir.

5. Gəncə Kommersiya Məhkəməsinin 2024-cü il 21 avqust tarixli 2-2(115)-1321/2024 saylı qərardadı ilə iddiaçının cavabdehə qarşı alqı-satqı müqaviləsinin etibarsız hesab edilməsi və çıxarışın ləğv edilməsi tələbinə dair kommersiya işinin icraatına xitam verilmişdir (hakim: R.Qələndərzadə).

6. Məhkəmə gəldiyi nəticə ilə bağlı qeyd etmişdir ki, Gəncə Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 26 dekabr 2018-ci il tarixli, 2(104)-4017/2018 nömrəli qətnaməsindən görünür ki, Şəmkir Rayon Məhkəməsinin 10 avqust 2018-ci il tarixli 2(076)-2795/2018 saylı qətnaməsi ilə iddia təmin edilmiş, cavabdeh İddiaçı Cavabdeh arasında bağlanmış və Şəmkir rayon Notariat Kontorunda təsdiqlənmiş "X1"dəkı 100 faiz payın satılmasına dair 22 oktyabr 2014-ci il tarixli müqavilənin etibarsız hesab edilməsi, Azərbaycan Respublikası Vergilər Nazirliyinin 14 saylı Ərazi Vergilər İdarəsi tərəfindən cavabdeh İddiaçı verilmiş xx.xx.2014-cü il tarixli, ********** kommersiya hüquqi şəxslərinin dövlət reyestrindən çıxarışın və Cavabdeh verilmiş xx.xx.2014-cü il tarixli, ********** saylı kommersiya hüquqi şəxslərinin dövlət reyestrindən çıxarışın ləğv edilməsi, İddiaçı ******* manat məbləğində pulun alınıb Cavabdeh verilməsi qət edilmişdir. Qətnamədən narazı qalan Cavabdeh apellyasiya şikayəti verərək Şəmkir Rayon Məhkəməsinin 10 avqust 2018-ci il tarixli, 2(076)-2795/2018 saylı qətnaməsini ləğv edərək iddia tələbinin rədd edilməsi barədə yeni qətnamə qəbul edilməsini xahiş etmişdir.

7. Qeyd edilən qətnamə ilə Cavabdeh apellyasiya şikayətinin təmin edilməsi, Şəmkir Rayon Məhkəməsinin 10 avqust 2018-ci il tarixli 2(076)- 2795/2018 saylı qətnaməsinin təmamilə ləğv edilməsi və yeni qətnamə qəbul edilməsi, iddiaçı X1 cavabdehlər İddiaçı, Cavabdeh, Azərbaycan Respublikasının Vergilər Nazirliyinin 14 saylı Ərazi Vergilər İdarəsi və üçüncü şəxs Şəmkir rayon Notariat Kontoruna qarşı müqavilənin etibarsız hesab olunması və çıxarışların ləğv edilməsi tələbinə dair iddiasının təmin edilməməsi qət olunmuşdur.

8. Qətnamədə qeyd olunur ki, işin mübahisələndirilməyən hallarından göründüyü kimi Cavabdeh xx.xx.2014-cü il tarixdə "X1"in nizamnamə kapitalındakı 100 faiz payı alqısatqı müqaviləsi əsasında onun həmin tarixdəki mülkiyyətçisi olan İddiaçı ******* manata almış, payın dəyərini tam ödəmiş və təsisçilərin dəyişməsi ilə bağlı klubun nizamnaməsinə edilmiş dəyişiklik dövlət qeydiyyatına alınmışdır. Apellyasiya instansiya məhkəməsində müəyyən olunmuşdur ki, Cavabdeh "X1"in nizamnamə kapitalındakı 100 faizi payı almamışdan əvvəl nə İddiaçı, nə də Turqay Aslanovu tanımamış, "X1"in nizamnamə kapitalındakı paya dair münasibətdə üçüncü şəxslərin hər hansı hüquqlarının mövcud olduğunu bilməmişdir və bilədə bilməzdi.

9. Belə ki, 26 dekabr 2018-ci il tarixli 2(104)-4017/2018 nömrəli Gəncə Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının qətnaməsi ilə hazırki məhkəmə mübahisəsinin predmeti olan İddiaçı ilə Cavabdeh arasında xx.xx.2014-cü il tarixdə bağlanmış alqı-satqı müqaviləsinin etibarlılığı müəyyən edilmişdir. Yəni qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsi ilə tərəflər arasında bağlanmış alğı-satqı müqaviləsi etibarlı hesab edilmişdir. İddiaçı Cavabdeh alqı-satqı müqaviləsindən irəli gələn öhdəliyini icra etmədiyini əsas gətirərək məhkəməyə müraciət etmişdir. Halbuki sözügedən qətnamə ilə Cavabdeh xx.xx.2014-cü il tarixdə "X1"in nizamnamə kapitalındakı 100 faiz payı alqı-satqı müqaviləsi əsasında onun həmin tarixdəki mülkiyyətçisi olan İddiaçı ******* manata aldığı, payın dəyərini tam ödədiyi müəyyən olunur. Belə olan halda işin mahiyyəti ilə bağlı məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi olduğundan hazırki iş üzrə icraata xitam verilməlidir.

10. Məhkəmə mövqeyini Mülki Prosessual Məcəllənin (bundan sonra – MPM) 82.3 və 261.0.2-ci maddələrinə istinadla əsaslandırmışdır.

11. Birinci instansiya məhkəməsinin qərardadından iddiaçı şikayət verərək onun ləğv edilməsini, əks təqdirdə şikayətin baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilməsini xahiş etmişdir.

12. Gəncə Kommersiya Məhkəməsinin 2024-cü il 1 oktyabr tarixli, 2-2(115)1321/2024 nömrəli qərardadı ilə iddiaçı tərəfindən verilmiş şikayət təmin edilməyərək baxılması üçün Gəncə Apellyasiya Məhkəməsinə göndərilmişdir (hakim: G.Quliyeva).

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

13. Gəncə Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2024-cü il 23 oktyabr tarixli 2-2(104)-214/2024 nömrəli qərardadı ilə iddiaçı tərəfindən verilmiş apellyasiya şikayəti təmin edilməyərək birinci instansiya məhkəməsinin qərardadı dəyişdirilmədən saxlanılmışdır.

14. Məhkəmə kollegiyası birinci instansiya məhkəməsinin qərardadının əsaslandırıcı və nəticə hissələri razılaşaraq qeyd etmişdir ki, Gəncə Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 26 dekabr 2018-ci il tarixli 2(104)-4017/2018 nömrəli qətnaməsindən də göründüyü kimi İddiaçı ilə Cavabdeh arasında xx.xx.2014-cü il tarixdə bağlanmış alqı-satqı müqaviləsi etibarlı hesab edilmişdir. Lakin mübahisələndirilən müqavilənin etibarlılığı məhkəmə qatnaməsi ilə müəyyən edildiyindən və qətnamə qanuni qüvvəyə minməsinə baxmayaraq iddiaçı həmin müqaviləni yenidən mübahisələndirmiş, həmin tələb üzrə buna görə də birinci instansiya məhkəməsi hazırki iş üzrə icraata xitam verməkdə haqlı olmuşdur

15. Məhkəmə kollegiyası gəldiyi nəticəni MPM-in 82.3 və 261.0.2-ci maddələrinə istinadla əsaslandırmışdır.

16. İddiaçı qərardaddan kassasiya şikayəti verərək onun ləğv edilməsini və işin mahiyyəti üzrə baxılması barədə qərar qəbul edilməsini xahiş etmişdir.

Kassasiya şikayətinin və ona qarşı etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

17. MPM-nin 82.3-cü maddəsində qanuni qüvvəyə minmiş qətnamə ilə müəyyən edilmiş faktların həmin işdə iştirak edən şəxslər tərəfindən mübahisələndirilə bilməməsi qeyd edilmişdir. Yəni həmin işdə iştirak edən tərəflərin tərkibi ilə hazırkı işdə olan tərəflərin tərkibi fərqlidir. Beləliklə, tərəflər fərqli olduğuna görə Gəncə Apelyasiya Məhkəməsinin Mülki Kollegiyasının 2018-ci il 26 dekabr tarixli 2(104)-4017/2018 nömrəli qətnaməsi hazırkı işdə preyudisial əhəmiyyətli hal kimi qəbul edilə bilməz. Göründüyü kimi apellyasiya məhkəməsi tərəfindən hüquq normaları düzgün tətbiq edilməmişdir.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

18. Kassasiya şikayətinə qarşı etiraz təqdim edilməmişdir.

Kassasiya baxışının hədləri

19. Hazırkı icraat çərçivəsində apellyasiya məhkəməsinin qərardadı bütövlükdə mübahisələndirildiyi üçün onun qanuniliyi və əsaslılığı MPM-in 416-cı maddəsinə uyğun olaraq tam yoxlanılacaqdır.

Tətbiq edilən hüquq

20. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin müvafiq müddəalarında aşağıdakılar nəzərdə tutulur:

“Maddə 82. Sübut etməkdən azad olmaq üçün əsaslar

82.3.Bir mülki iş üzrə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsi ilə müəyyən edilmiş faktlar həmin işdə iştirak edən şəxslər tərəfindən başqa məhkəmə prosesində mübahisələndirilmir və yenidən sübut edilmir.”

“Maddə 261. İcraata xitam verilmə əsasları

261.0. Hakim iş üzrə icraata aşağıdakı hallarda xitam verir:

261.0.2. eyni tərəflər arasında, eyni predmet barəsində və eyni əsaslar üzrə məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi və ya iddiaçının iddiadan imtina etməsi və ya tərəflərin barışıq sazişinin təsdiq olunması ilə əlaqədar iş üzrə icraata xitam edilməsi haqqında məhkəmənin qərardadı olarsa.”

“Maddə 416. Kassasiya instansiyasında işə baxmanın hədləri

416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

416.2. Apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 418.4-cü maddəsində nəzərdə tutulmuş prosessual hüquq pozuntusu hesab edilən hallara yol verilməsi şikayətin hədlərindən və dəlillərindən asılı olmayaraq

yoxlanılmalıdır.”

“Maddə 417. Kassasiya instansiyası məhkəməsinin səlahiyyətləri

417.1. Kassasiya məhkəməsi işə baxarkən:

417.1.3. apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadını qismən ləğv edə və ya tamamilə, yaxud qismən ləğv edib işi yenidən baxılmaq üçün apellyasiya instansiyası məhkəməsinə göndərə bilər.”

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

21. Məhkəmə kollegiyası hesab edir ki, şikayət qismən təmin edilməli, Gəncə Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2024-cü il 23 oktyabr tarixli 22(104)-214/2024 nömrəli qərardadı ləğv olunmalı və iş yenidən baxılması üçün həmin Məhkəməyə qaytarılmalıdır.

22. Belə ki, mülki məhkəmə icraatı qaydasında baxılan işin MPM-in 261.0.2-ci maddəsinə əsasən xitam verilməsi üçün tələb olunur ki, eyni tərəflər arasında, eyni predmet barəsində və eyni əsaslar üzrə məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi və ya iddiaçının iddiadan imtina etməsi və ya tərəflərin barışıq sazişinin təsdiq olunması ilə əlaqədar iş üzrə icraata xitam edilməsi haqqında məhkəmənin qərardadı mövcud olsun.

23. Həmin maddənin dispozisiya şərtlərinə görə iddianın elementlərinə aid hər üç komponent, yəni həm tərəflər, həm iddianın predmeti, həm də iddianın əsası eyni olmalıdır və yalnız onların hamısı mövcud olduğu halda MPM-in 261.0.2-ci maddəsində göstərilən əsasa görə iş üzrə icraata xitam verilə bilər.

24. MPM-in 50.1-ci maddəsinə əsasən prosesdə tərəflər iddiaçı və cavabdeh hesab edilirlər.

25. İddianın predmetini – iddiaçının məhkəmədən baxılmasını və həll olunmasını xahiş etdiyi maddi hüquqi tələb, yəni tərəflər arasında olan mübahisəli hüquq münasibətindən irəli gələn iddiaçının cavabdehə yönəltdiyi konkret tələb təşkil edir.

26. İddianın əsasını isə iddiaçının cavabdehə qarşı öz tələbini əsaslandırmaq üçün istinad etdiyi faktiki hallar, yəni tərəflər arasındakı maddi hüquq münasibətlərinin yaranması, dəyişməsi və xitamı ilə bağlı olduğu faktlar (hüquqi faktlar) təşkil edir.

27. Qeyd olunanlarla bağlı Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 24 sentyabr 2020-ci il tarixli qərarında belə hüquqi mövqe ifadə edilmişdir ki, mülki prosesdə iddianın predmeti dedikdə, iddiaçının cavabdehə qarşı irəli sürdüyü və mübahisəli hüquq münasibətindən irəli gələn maddi hüquqi tələbi başa düşülür. İddianın predmetinə qanunla qorunan maraqları, o cümlədən bütövlükdə hüquq münasibətlərini aid etmək olar. İddianın əsası dedikdə isə iddiaçının öz tələbini təsdiq etmək üçün irəli sürdüyü hallar, yəni tərəflər arasındakı maddi-hüquq münasibətlərinin yaranması, dəyişməsi və xitamının bağlı olduğu hallar başa düşülür. İddianın faktiki əsasına iddiaçının cavabdehə qarşı olan tələbini əsaslandırdığı hüquqi faktlar, iddianın hüquqi əsasına isə iddiaçının cavabdehə qarşı olan tələbinin hüquqi cəhətdən əsaslandırılması aiddir.

28. Bu baxımdan kollegiya qeyd edir ki, Gəncə Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 26 dekabr 2018-ci il tarixli, 2(104)-4017/2018 nömrəli qətnaməsi ilə həll olunmuş

mülki işin (bundan sonra - əvvəlki iş) tərəfləri, iddianın predmeti və əsası ilə hazırkı işin tərəflərinin, iddianın əsasının və predmetinin eyni olub-olmamasına qiymət verilməlidir.

29. Əvvəlki işdə iddiaçı1-in iddiası onunla əsaslandırılmışdır ki, iddiaçı ilə cavabdeh İddiaçı arasında bağlanmış 27 sentyabr 2008-ci il tarixli payın alqı-satqı müqaviləsinə əsasən İddiaçı "X1"dəkı ona məxsus olan 100 faiz payı X3 ******* manata satmışdır. Müqavilə bağlandıqdan sonra İddiaçı tərəfindən "X1"ə aid bütün hüquq müəyyənedici sənədlər iddiaçıya təhvil verilmişdir. İddiaçı 2018-ci ilin iyun ayında yerli vergi orqanına "X1"ə dair reyestrdən çıxarış almaq üçün müraciət edərkən məlum olmuşdur ki, cavabdeh İddiaçı 22 oktyabr 2014-cü il tarixdə yenidən "X1"dəkı ona məxsus olan 100 faiz payı digər Cavabdeh ******* manata satmışdır. "X1"dəkı ona məxsus olan 100 faiz payın dəyərini tam ödəməklə aldıqdan sonra iddiaçı paya mülkiyyət hüququnu əldə etmiş, həmin pay üzərində qanuni əsaslarla əmlak hüquqlarına malik olmuşdur. Cavabdeh İddiaçı ilə iddiaçı arasında öhdəlik münasibətləri daha əvvəl, yəni 27 sentyabr 2008-ci il tarixdən, Cavabdeh ilə isə sonradan, yəni 22 oktyabr 2014-cü il tarixdən yaranmışdır. Ona görə də, pay öhdəliyin daha əvvəl əmələ gəldiyi kreditora, yəni iddiaçıya mülkiyyət hüququ ilə məxsusdur. Cavabdeh İddiaçı artıq özünə məxsus olmayan payı yenidən satmaqla iddiaçının mülkiyyət hüququnu pozmuşdur. Göründüyü kimi cavabdehlər arasında bağlanmış müqavilə əhəmiyyətsizdir. Belə ki, İddiaçı buna heç bir hüququ olmadan iddiaçının mülkiyyətində olan paya dair sərəncam vermişdir.

30. Hazırkı iş üzrə iddia isə onunla əsaslandırılmışdır ki, iddiaçı tərəfindən əmlak cavabdehə təhvil verilsə də, sonuncu üzərinə düşən öhdəliyi yerinə yetirməyərək müəyyənləşdirilmiş pul məbləğini ödəməmişdir.

31. Qeyd olunanlardan müəyyən olunur ki, əvvəlki işin tərəfləri ilə hazırkı işin tərəfləri eynidir. Çünki hazırkı iş üzrə tərəflər əvvəlki işdə birgə cavabdehlər kimi çıxış etmişlər.

32. İddiaların predmetinə dair qeyd edilir ki, əvvəlki işdə iddiaçı və cavabdehlər arasında olan mübahisəli hüquq münasibətləri ilə hazırkı işin tərəfləri arasında olan mübahisəli hüquq münasibətləri tamamilə fərqli olsa da, hər iki iddia ərizəsində eyni tələb (müqavilənin etibarsız hesab edilməsi) irəli sürüldüyünə görə, iddiaların predmetinin də eyni olması qəbul edilə bilər.

33. İddiaların əsası isə fərqlidir. Çünki əvvəlki işdə iddiaçı1 mülkiyyətində olan paya səlahiyyətsiz şəxsin, yəni cavabdeh İddiaçı tərəfindən buna hüququ olmadan sərəncam verilməsinə istinad etmişdir. Hazırki işdə isə iddiaçı cavabdeh tərəfindən öhdəliklərin yerinə yetirilməməsinə istinad edir.

34. Göründüyü kimi mübahisənin tərəfləri və iddianın predmeti eyni olsa da, iddianın əsası fərqlidir.

35. Bundan əlavə, kollegiya qeyd edir ki, əqdin etibarsızlığı ilə bağlı iddianın fərqli əsaslarla irəli sürülməsinə yol verilir. Lakin burada nəzərə alınmalıdır ki, iddianın əsasının fərqli olması dedikdə, iddiaçının istinad etdiyi faktlara əsasən güman etdiyi fərqli hüquqi nəticə deyil, istinad edilən faktların özlərinin fərqli olması başa düşülür. Yəni eyni faktlara istinad edilərək əqdin etibarsız hesab edilməsi barədə təkrar iddianın irəli sürülməsinə yol verilmir (məsələn: birinci dəfə əqdin aldadılmaqla bağlanması əsası ilə mübahisələndirilməsi, ikinci dəfə isə eyni faktları göstərməklə əqdin vacib əhəmiyyətli yanılmanın təsiri altında bağlanması əsası ilə mübahisələndirilməsi).

36. Əqdin etibarsız hesab edilməsi barədə təkrar iddianın irəli sürülməsinə yalnız o halda yol verilir ki, iddianın əsasını təşkil edən faktlar birinci iddiada göstərilən faktlardan tamamilə və ya əsas faktoloji hissədə fərqlidir.

37. Digər istisna, yəni əqdin etibarsızlığı ilə bağlı iddianın irəli sürülməsini qeyrimümkün edən hal tərəflər arasında həmin əqdə əsaslanan iddia üzrə qanuni qüvvəyə minmiş məhkəmə qərarının mövcudluğudur.

38. Belə ki, Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki və Kommersiya kollegiyalarının “Əqdə əsaslanan iddialara baxıldığı halda, ayrıca icraatda həmin əqdin etibarlılığının mübahisələndirilməsinin mümkünlüyünə dair qanunvericiliyin tətbiqi məsələləri üzrə” 14 iyun 2022-ci il tarixli 02/2022 nömrəli qərardadında ifadə olunmuş hüquqi mövqeyə görə, ...hər hansı bir əqdə əsaslanaraq verilən iddianın düzgün hüquqi həlli üçün, ilk növbədə, istinad olunan əqdin etibarlı olub-olmaması müəyyən edilməlidir. Məhkəmə, əqdə əsaslanan mübahisəyə baxdıqda həmin əqdin etibarlı olub-olmamasını hər hansı tələbdən və etibarsızlığın növündən asılı olmadan müəyyən etməlidir. Hakimin bu xüsusatlar üzrə qiymətləndirmə aparması ilə əqdin etibarsız sayılması (nəticəsinə gəlməsi) bir-birindən fərqləndirilməlidir. Sözügedən qiymətləndirmə əqdin etibarlı olubolmaması ilə bağlı hüquqi vəziyyətin nədən ibarət olduğunun təsbit edilməsidir. Başqa sözlə, bu fəaliyyət etibarsızlığın növündən asılı olmayaraq işin hallarına görə əqdin hüquqi nəticə yaradıb-yaratmaması barədə dəyərləndirmədir. ...Bu baxımdan, əqdə əsaslanan iddia tələbinə mahiyyəti üzrə qiymət verildikdən sonra, eyni tərəflər arasında müvafiq iddianın əsasını təşkil etmiş həmin əqdin etibarsız hesab edilməsi barədə ayrıca iddiaya baxılması mülki prosessual qanunvericiliyin tələbləri baxımından yolverilməzdir.

39. Həmin qərardadda Ali Məhkəmənin Mülki və Kommersiya kollegiyalarına daxil olan bütün hakimlərdən ibarət məhkəmə tərkibi qərara almışdır ki, məhkəmənin icraatında əqdə əsaslanan iddialar olduğu halda, işdə iştirak edən şəxslər tərəfindən ayrıca icraatda həmin əqdin etibarsız hesab edilməsinə dair verilmiş iddia ərizəsinin qəbulundan Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 153.2.4-cü maddəsinə əsasən imtina olunmalı, belə iddialar səhvən məhkəmənin icraatına qəbul edildiyi halda isə, iddia ərizəsi Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 259.0.4-cü maddəsinə əsasən baxılmamış saxlanılmalıdır. Əqdə əsaslanan iddialar üzrə qanuni qüvvəsini almış məhkəmə aktı və ya iddiaçının iddiadan imtina etməsi və ya tərəflərin barışıq sazişinin təsdiq olunması ilə əlaqədar iş üzrə icraata xitam verilməsi haqqında məhkəmənin qərardadı olduğu halda, işdə iştirak etmiş şəxslər tərəfindən ayrıca icraatda həmin əqdin etibarsız hesab edilməsinə dair verilmiş iddia ərizəsinin qəbulundan Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 153.2.2-ci maddəsinə əsasən imtina olunmalı, belə iddialar səhvən məhkəmənin icraatına qəbul edildiyi halda isə Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 261.0.2-ci maddəsinə əsasən iş üzrə icraata xitam verilməlidir.

40. Hazırki işdə isə belə hal mövcud deyildir. Belə ki, hazırkı iddiadan əvvəl mübahisələndirilən əqdə əsaslanan iddia irəli sürülməmiş və ona görə də, həmin əqdin tələbdən və etibarsızlığın növündən asılı olmadan etibarlı olub-olmamasına qiymət verilməmişdir.

41. Əvvəlki işdə irəli sürülmüş iddia əqdin etibarsız hesab edilməsi ilə bağlı təsbitetmə iddiası olmuşdur. Belə növ iddiaya baxıldıqda isə məhkəmənin iddianın əsasından kənara çıxmaq səlahiyyəti yoxdur.

42. Belə ki, MPM-in 218.3-cü maddəsinə əsasən hakim işdə iştirak edən şəxslərin verdiyi tələblər üzrə qətnamə çıxarır.

43. Həmin maddədə qeyd edilən “tələblər”ə isə həm iddianın predmeti, həm də əsası aiddir.

44. Beləliklə, nə əvvəlki iddia ilə hazırkı iddianın əsasını təşkil edən faktların eyni olması, nə də mübahisələndirilən əqdə əsaslanan iddia üzrə qanuni qüvvəyə minmiş məhkəmə qərarının mövcud olması müəyyən edilmir.

45. Belə olan halda MPM-in 261.0.2-ci maddəsində nəzərdə tutulmuş bütün dispozisiya şərtləri mövcud deyildir.

46. Apellyasiya instansiyası məhkəməsi isə qeyd olunanları nəzərə almayaraq MPMin 261.0.2-ci maddəsini düzgün tətbiq etməmişdir.

47. Məhkəmə tərəfindən MPM-in 82.3-cü maddəsinə istinad edilməsi isə tam əsassız olmuşdur.

48. Belə ki, iş üzrə icraata xitam verilmə əsasları MPM-in 261-ci maddəsində göstərilmiş və onların geniş təfsirinə yol verilmir.

49. MPM-in 82.3-cü maddəsi isə sübut etməkdən azad olmaq üçün əsasları müəyyən etməklə yalnız işə mahiyyəti üzrə baxıldığı vaxt sübutetmə predmetinin müəyyən edilməsi üçün tətbiq oluna bilər.

50. Qeyd olunanları və MPM-in 417.1.3-cü maddəsi ilə müəyyən edilən səlahiyyətlərini nəzərə alaraq kollegiya hesab edir ki, şikayət qismən təmin edilməli, apellyasiya instansiyası məhkəməsinin qərardadı ləğv edilməli və iş yenidən baxılmaq üçün həmin Məhkəməyə göndərilməlidir.

51. İşə yenidən baxılarkən MPM-in 261.0.2-ci maddəsinin tətbiq edilməsi ilə bağlı hazırkı qərarda şərh olunanlar nəzərə alınmalıdır.

52. Kollegiya yuxarıda göstərilənləri nəzərə alaraq,

Qərara aldı:

İddiaçı tərəfindən verilmiş kassasiya şikayəti qismən təmin edilsin.

Gəncə Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2024-cü il 23 oktyabr tarixli 2-2(104)-214/2024 nömrəli qərardadı tam ləğv edilərək iş yenidən baxılması üçün həmin Məhkəməyə göndərilsin.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

72. 2(102)-188/2025 nömrəli, 2025-ci il 21 yanvar tarixli qərar - Mənəvi zərərin kompensasiyası tələblərində hüquqi varisliyə yol verilən hallar

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu:

İddiaçı təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri ilə vurulmuş maddi və mənəvi zərərin ödənilməsi barədə iddia qaldırmış, birinci instansiya məhkəməsinin tərəfindən mənəvi zərər tələbi qismən təmin edilmiş, cavabdeh qətnamədən apellyasiya şikayəti vermiş və iddiaçı apellyasiya baxışında ölmüşdür.

Apellyasiya məhkəməsi MPM-in 261.0.7-ci maddəsinə istinadla iş üzrə icraata xitam verməklə, hesab etmişdir ki, mənəvi zərərin ödənilməsi tələbi iddiaçının şəxsiyyəti ilə əlaqədar olduğu üçün bu tələb üzrə hüquq varisliyinə yol verilmir.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Məhkəmə kollegiyası MPM-in 261.0.7-ci maddəsinin baxılan işə tətbiqinin düzgün olmadığı qənaətinə gəlmişdir.

Qərarda qeyd olunmuşdur ki, Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Mənəvi zərərin ödənilməsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" 2008-ci il 3 noyabr tarixli qərarında mənəvi zərərin ödənilməsi ilə bağlı iddialarda iddiaçının ölümü ilə iş üzrə icraata xitam verilməsi bir halla şərtləndirilib ki, bu da iddiaçının qətnamə qəbul edilənə kimi vəfat etməsidir. Hazırkı işdə isə iddiaçı ölənə kimi birinci instansiya məhkəməsinin qətnaməsi artıq var idi. Bu baxımdan, həmin qərara istinadən iş üzrə icraata xitam verilməsi düzgün olmamışdır.

Bundan əlavə, mənəvi zərərin qeyri-əmlak xarakterli kompensasiyası (məsələn, üzr istənilməsi) tələbi zərərçəkənin şəxsiyyəti ilə bağlı olduğundan bu tələb üzrə hüquq varisliyinə yol verilmir və güzəşt edilmir. Lakin pulla ifadə edilən mənəvi zərər tələbinin şəxsə bağlılığı bu barədə həmin tələbin bəyan edilməsinə (müvafiq iddia tələbi irəli sürülməsinə, bu barədə qarşı tərəfə yazılı pretenziya göndərilməsinə) qədər davam edir. Tələb bəyan ediləndən sonra isə mənəvi zərərin ödənilməsi ilə bağlı tələb hüququ artıq əmlak tələbi vəziyyətinə keçir. Bu zaman tələbin hər hansı, o cümlədən məhkəməyəqədər və ya məhkəmə müstəvəsində hansı mərhələdə olması, eləcə də qətnamənin qanuni qüvvəyə minib-minməməsinin heç bir əhəmiyyəti yoxdur.

Başqa sözlə, mənəvi zərərin kompensasiyasının digər üsullarından fərqli olaraq, mənəvi təzminat tələbləri üzrə şəxsiyyətə bağlılıq zərərçəkənin bu tələb hüququndan istifadə anınadək davam edir. Bu andan etibarən mənəvi təzminatın ödənilməsi tələbi əmlak hüququna çevrildiyindən həmin hüququn zərərçəkənin vərəsələri tərəfindən təqibi mümkündür. Belə tələbin isə güzəşt edilməsi və miras yolu ilə keçməsinə hər hansı hüquqi maneə yoxdur.

Bu baxımdan, mənəvi zərərin əvəzinin pulla ödənilməsi ilə bağlı iddialarda iddiaçının məhkəmə tərəfindən bu iddia üzrə qətnamə qəbul edilənə kimi vəfat etməsi və ya hətta belə iddianın rədd olunması (iddiaçının öldüyü halda) da tələbin əmlak xarakterini dəyişmir. Əmlak tələbinin güzəşt edilməsi və miras yolu ilə keçməsini istisna edən qayda isə yoxdur.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-188/2025

21.01.2025-ci il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi
Mülki kollegiyasının

İddiaçının cavabdeh Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə qarşı iş üzrə

Q Ə R A R I

(Açar sözlər: dəymiş maddi və mənəvi ziyanın ödənilməsi, iddiaçını ölümü ilə iş üzrə icraata xitam verilməsi, iddianın əmlak xarakterli olması)

Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının hakimləri Abbasov Aqil Əzizağa oğlu (məruzəçi), Şəfiyev İspəndiyar Əsəd oğlu, Nurməmmədov Əhməd Güləhməd oğlundan ibarət tərkibdə,

iddiaçı İddiaçınun cavabdeh Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə qarşı "maddi və mənəvi ziyanın ödənilməsi" tələbinə dair mülki iş üzrə Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 4 noyabr 2024-cü il tarixli 2(103)5592/2024 nömrəli qərardadından iddiaçının arvadı X1in verdiyi kassasiya şikayəti üzrə işə 21 yanvar 2025-ci il tarixdə Ali Məhkəmənin inzibati binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakıları müəyyən etdi

İşin halları

1. Yasamal Rayon Məhkəməsinin 9 avqust 2021-ci il tarixli qərarına əsasən, İddiaçının barəsində xx xx 2021-ci il tarixədək həbs qətimkan tədbiri seçilmişdir. Yasamal Rayon Məhkəməsinin 5 yanvar 2023-cü il tarixli, 1(004)12/2023-cü il nömrəli hökmü ilə İddiaçıya bəraət verilmişdir.

2. İddiaçı qanunsuz olaraq, xx xx 2021-ci il tarixdən xx xx 2023-cü il tarixədək (2 ildən çox müddətə) təqsirləndirilən şəxs statusunda olmaqla, xx.xx.2021-ci il tarixdən xx.xx.2021-ci il tarixədək qətimkan tədbiri kimi həbsdə, xx.xx.2021-ci il tarixdən xx.xx.2022-ci il tarixədək ev dustaqlığında olmuş, xx.xx.2022-ci il tarixdən xx.xx.2023-cü il tarixədək barəsində "polisin nəzarəti alına vermə" qətimkan tədbiri seçilmişdir.

İş üzrə qəbul edilmiş məhkəmə aktları Birinci instansiya məhkəməsində icraat

3. İddiaçı 18 yanvar 2024-cü il tarixdə iddia ərizəsi (iddia tələbinin dəqiqləşdirilməsi barədə ərizə) ilə Nəsimi rayon Məhkəməsinə müraciət edərək, cavabdeh Azərbaycan Respublikası Maliyyə Nazirliyindən maddi ziyana görə 31000 manat, peyvəndlə bağlı məcburi müalicə xərclərinə görə 1081 manat, vurulmuş mənəvi zərərə görə 50000 manat məbləğində, sağlamlığına vurulmuş zərərə görə 100000 manat və hüquqi yardım üçün ödənilmiş 830 manat, cəmi 182.911 manat pulun tutularaq ona ödənilməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

4. Birinci instansiya məhkəməsi Bakı şəhəri Yasamal rayon Prokurorluğunu, Bakı şəhəri Yasamal rayon Polis İdarəsini və "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" Publik Hüquqi Şəxsi mübahisə predmeti barəsində müstəqil tələb irəli sürməyən üçüncü şəxs qismində işə cəlb etmişdir.

5. Nəsimi Rayon Məhkəməsinin e-2(006)- 1413/2024 nömrəli, 09 iyul 2024-cü il tarixli qətnaməsi ilə iddia qismən təmin edilmiş, cavabdeh Azərbaycan Respublikasının Maliyyə Nazirliyi vasitəsilə, Azərbaycan Respublikasının dövlət büdcəsi vəsaiti hesabına iddiaçı İddiaçınun xeyrinə 5800 manat məbləğində mənəvi zərərin və iddiaçı tərəfindən ödənilmiş 830 manat məbləğində vəkil xərcinin əvəzinin ödənilməsi, iddia tələbinin qalan hissədə rədd edilməsi qət edilmişdir. (hakim Ramin Xəlilov)

Apellyasiya instansiyası məhkəməsində icraat

6. Cavabdeh Azərbaycan Respublikasının Maliyyə Nazirliyi qətnamədən apellyasiya şikayəti verərək qətnamənin ləğv, iddia tələbinin rədd edilməsi barədə yeni qətnamə qəbul edilməsini xahiş etmişdir.

7. İddiaçı İddiaçı apellyasiya baxışının gedişində – xx xx 2024-cü il tarixdə vəfat etmişdir

8. Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 2(103)-5592/2024 nömrəli, 4 noyabr 2024-cü il tarixli qərardadı ilə şikayət qismən təmin edilmiş, Bakı Şəhəri Nəsimi Rayon Məhkəməsinin 9 iyul 2024-cü il tarixli, e-2(006)-1413/2024 saylı qətnaməsi ləğv edilmiş, iş üzrə icraata xitam verilmişdir.

9. Apellyasiya instansiyası məhkəməsi iddiaçının xx.xx.2024-cü il tarixdə vəfat etməsini göstərərək iş üzrə icraata xitam verilməsi nəticəsinə gəlmişdir.

10. Apellyasiya instansiyası məhkəməsi qeyd etmişdir ki, "Mənəvi zərərin ödənilməsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 03.11.2008-ci il tarixli Qərarındakı hüquqi mövqeyə görə mənəvi zərərin ödənilməsi tələbi iddiaçının şəxsiyyəti ilə əlaqədar olduğu üçün bu tələb üzrə hüquq varisliyinə yol verilmir. İddiaçı məhkəmə tərəfindən bu iddia üzrə qətnamə qəbul edilənə kimi vəfat edərsə, Azərbaycan Respublikası MPM-nin 261.0.7-ci maddəsinə əsasən həmin iş üzrə icraata xitam verilməlidir.

11. Apellyasiya instansiyası məhkəməsi belə nəticəyə gəlmişdir ki, qanunvericiliyin tələbinə əsasən iddiaçı öldükdən sonra barəsində mübahisə edilən hüquq münasibəti hüquq varisliyinə yol vermədiyindən iş üzrə icraata xitam verilməlidir.

12. Apellyasiya instansiyası məhkəməsi gəldiyi nəticəni Mülki Prosessual Məcəlləsinin 58.1 və 261.0.7-ci maddələri əsaslandırmışdır.

Kassasiya şikayətinin və ona qarşı etirazın dəlilləri

13. İddiaçının arvadı X1 kassasiya şikayəti verərək, apellyasiya instansiyası məhkəməsinin qərardadının ləğv edilməsi barədə qərar qəbul edilməsini xahiş etmişdir.

14. Kassasiya şikayəti onunla əsaslandırılmışdır ki, barəsində mübahisə edilən hüquq münasibətində və ya qətnamə ilə müəyyən edilən hüquq münasibətində tərəflərdən biri sıradan çıxdıqda (şəxs öldükdə, hüquqi şəxs yenidən təşkil edildikdə, tələb güzəşt edildikdə, borc köçürüldükdə və maddi hüquq münasibətlərində şəxslərin dəyişməsinin digər hallarında) məhkəmə həmin tərəfi onun hüquq varisi ilə əvəz etməyə yol verir. Hüquq varisliyi prosesin hər hansı mərhələsində mümkündür. Apellyasiya instansiya məhkəməsi göstərilən prosessual hüquq normasının tələblərini pozaraq, iddiaçının vərəsəsi, yəni arvadı X1 olduğu halda məhkəmə onu mərhumun hüquqi varisi kimi əvəz etməmişdir.Apellyasiya instansiyası məhkəməsi Ali Məhkəmənin Plenumunun 03.11.2008-ci il tarixli qərarına əsaslanaraq, mənəvi zərərlə bağlı olan hissədə iddiaçının şəxsiyyəti ilə əlaqədar olduğu üçün bu tələb üzrə hüquqi varisliyinə yol verilmədiyini göstərsə də, lakin iddia tələbi həm maddi, həm də mənəvi tələb olduğu halda yalnız mənəvi zərəri əsas tutaraq, iş üzrə icraata xitam vermişdir.

Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

15. Kassasiya şikayətinə qarşı etiraz daxil olmamışdır.

Tətbiq edilən hüquq Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsi

Maddə 56.0.1. Cinayət prosesini həyata keçirən orqanın səhvi və ya sui-istifadəsi nəticəsində bəraət almış təqsirləndirilən şəxs vurulmuş ziyanın ödənilməsi hüququna malikdir.

Maddə 58.2. Fiziki və mənəvi ziyan Azərbaycan Respublikasının qanunvericiliyi ilə digər hal nəzərdə tutulmayıbsa, məhkəmə tərəfindən ədalətli hesab olunmuş məbləğdə ödənilir.

Maddə 58.3.4. Bu Məcəllənin 56-cı maddəsində göstərilən şəxslərə müdafiəçiyə ödənilmiş pul məbləğinə görə kompensasiya verilir.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi

Maddə 58.1. Barəsində mübahisə edilən hüquq münasibətində və ya qətnamə ilə müəyyən edilən hüquq münasibətində tərəflərdən biri sıradan çıxdıqda (şəxs öldükdə, hüquqi şəxs yenidən təşkil edildikdə, tələb güzəşt edildikdə, borc köçürüldükdə və maddi hüquq münasibətlərində şəxslərin dəyişməsinin digər hallarında) məhkəmə həmin tərəfi onun hüquqi varisi ilə əvəz etməyə yol verir. Hüquq varisliyi prosesin hər hansı mərhələsində mümkündür.

Maddə 261.0.7. İş üzrə tərəflərdən biri olan şəxs öldükdən sonra barəsində mübahisə edilən hüquq münasibəti hüquq varisliyinə yol verməzsə, hakim iş üzrə icraata xitam verir.

Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

Maddə 416.2. Apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 418.4-cü maddəsində nəzərdə tutulmuş prosessual hüquq pozuntusu hesab edilən hallara yol verilməsi şikayətin hədlərindən və dəlillərindən asılı olmayaraq yoxlanılmalıdır.

Maddə 417.1.3. Kassasiya məhkəməsi işə baxarkən apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadını qismən ləğv edə və ya tamamilə, yaxud qismən ləğv edib işi yenidən baxılmaq üçün apellyasiya instansiyası məhkəməsinə göndərə bilər.

Maddə 418.1. Maddi və prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması, o cümlədən maddi və prosessual hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması apellyasiya instansiyası məhkəməsinin qətnamə və qərardadının ləğv edilməsi üçün əsasdır.

Maddə 418.3. Prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması qətnamənin yaxud qərardadın ləğv edilməsi üçün o vaxt əsas ola bilər ki, bu pozuntu düzgün qətnamə qəbul edilməməsi ilə nəticələnsin və ya nəticələnə bilsin.

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Mənəvi zərərin ödənilməsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" "03" noyabr 2008-ci il 7№-li Qərarı

Bənd 4. Mənəvi zərərin ödənilməsi tələbi iddiaçının şəxsiyyəti ilə əlaqədar olduğu üçün bu tələb üzrə hüquq varisliyinə yol verilmir. İddiaçı məhkəmə tərəfindən bu iddia üzrə qətnamə qəbul edilənə kimi vəfat edərsə, Azərbaycan Respublikası MPM-nin 261.0.7-ci maddəsinə əsasən həmin iş üzrə icraata xitam verilməlidir.

İddiaçının xeyrinə mənəvi zərərin tutulması barədə qətnamə qanuni qüvvəyə mindikdə və o, həmin məbləği alana kimi vəfat etdikdə bu tələb vərəsəlik üzrə keçir.

Kassasiya baxışının hədləri

16. Kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apelyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir

17. Kassasiya şikayətində qərardad tam mübahisələndirildiyindən, apellyasiya instansiyası məhkəməsinin aktı tam yoxlanılır.

18. Məhkəmə kollegiyası hüququn inkişafının və ya məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi üçün əhəmiyyətli hesab etmədiyindən hazırki şikayətə yazılı icraat qaydasında baxılmasını qərara almışdır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

19. İddia tələbi mənəvi və maddi zərərlə bağlı olmuşdur. Birinci instansiya məhkəməsi hər iki zərər növü üzrə iddianı qismən təmin etmiş, cavabdehdən mənəvi zərərin əvəzi kimi 5800 manat, iddiaçı tərəfindən vəkilə çəkilmiş xərcin əvəzi olaraq 830 manat məbləğində pul tutmuşdur.

20. Barəsində şikayət verilən qərardaddan görünür ki, apellyasiya instansiyası məhkəməsi iddiaçının ölümü əsası ilə iş üzrə icraata xitam verərkən mənəvi zərərin ödənilməsi tələbinin iddiaçının şəxsiyyəti ilə bağlı olmasına, buna görə də həmin tələb üzrə hüquq varisliyinə yol verilməməsinə və bununla əlaqəli olan Ali Məhkəmənin Plenumunun 03.11.2008-ci il tarixli qərarına istinad etmişdir.

21. Məhkəmə kollegiyası hesab edir ki, apellyasiya instansiyası məhkəməsi düzgün nəticəyə gəlməmişdir.

22. Əvvəla, işdən görünür ki, birinci instansiya məhkəməsinin qətnaməsi yalnız mənəvi zərərlə deyil, həmçinin maddi zərərin ödənilməsi (cinayət işi üzrə vəkilə çəkilmiş xərcin) ilə də bağlı olmuşdur. Lakin apellyasiya instansiyası məhkəməsi iş üzrə tam icraata xitam vermişdir.

23. Halbuki apellyasiya instansiyası məhkəməsini özünün gətirdiyi dəlillərə əsasən maddi zərərə aid hissədə iş üzrə icraata xitam verilə bilməzdi. Çünki Cinayət Prosessual Məcəllənin 58.3.4-cü maddəsinin tələbləri baxımından müdafiəçiyə ödənilmiş pul məbləği hazırki iddiada maddi zərər qismində çıxış edir.

24. Bundan əlavə, Ali Məhkəmənin Plenumunun 03.11.2008-ci il tarixli qərarının 4-cü bəndində göstərilib ki, mənəvi zərərin ödənilməsi ilə bağlı iddialarda iddiaçı məhkəmə tərəfindən bu iddia üzrə qətnamə qəbul edilənə kimi vəfat edərsə, Azərbaycan Respublikası MPM-nin 261.0.7-ci maddəsinə əsasən həmin iş üzrə icraata xitam verilməlidir.

25. Göründüyü kimi, Ali Məhkəmənin Plenumunun istinad edilən qərarında da mənəvi zərərin ödənilməsi ilə bağlı iddialarda iddiaçının ölümü ilə iş üzrə xitam verilməsi bir halla şərtləndirilib ki, bu da iddiaçının qətnamə qəbul edilənə kimi vəfat etməsidir. Başqa sözlə, Ali Məhkəmənin Plenumunun həmin qərardakı mövqeyindən belə qənaət hasil olur ki, qətnamə qəbul ediləndən sonra iddiaçının vəfat etməsi halı iş üzrə icraata xitam verilməsinə əsas ola bilməz.

26. Hazırki işdə isə iddiaçı ölənə kimi birinci instansiya məhkəməsinin qətnaməsi artıq var idi.

27. Bu baxımdan, Ali Məhkəmənin Plenumunun qeyd edilən qərarına istinad edilməklə hazırki işin halları baxımından iş üzrə icraata xitam verilməsi düzgün olmamışdır.

28. Mənəvi zərərin ödənilməsi tələbinin iddiaçının şəxsiyyəti ilə əlaqədar olması barədə apellyasiya instansiyası məhkəməsinin mövqeyinə gəldikdə, məhkəmə kollegiyası bununla bağlı bir neçə məqama diqqəti cəlb etməyi zəruri hesab edir.

29. İlkin olaraq qeyd ediləmlidir ki, mənəvi zərərin fiziki şəxsin şəxsiyyəti ilə əlaqədar olması mübahisə doğurmur.

30. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Azərbaycan Respublikası Mülki Məcəlləsinin 21 və 23-cü maddələrinin şərh edilməsinə dair 31 may 2002-ci il tarixli qərarında göstərilibi ki, mənəvi zərər adətən vətəndaşların şəxsi qeyriəmlak hüquqlarının pozulması nəticəsində əmələ gəlir. Mənəvi zərər qeyri əmlak zərəri olmaqla iqtisadi məzmun və dəyər kəsb etməyən hüquq pozuntusudur. Belə zərər vətəndaşa anadangəlmə və ya qanun əsasında ona məxsus olan qeyri-maddi nemətlərə aid (şərəf, ləyaqət, işgüzar nüfuz, şəxsi ailə sirri, hərəkət etmək azadlığı, yaşayış yeri seçmə, ad hüququ, müəlliflik hüququ, sair şəxsi qeyri-əmlak hüquqlar və digər maddi nemətlər) hüquqlarını pozmaqla fiziki şəxsə mənəvi sarsıntı, iztirab verir.Mənəvi zərər bilavasitə zərər vuran şəxsin hərəkətlərindən sonra zərər çəkmişin şüuruna təsir göstərməklə mənfi psixoloci reaksiyaya səbəb olur. Mənəvi zərər vətəndaşların hüquqlarının pozulmasının müstəqil nəticəsidir. O həm vurulmuş əmlak zərəri ilə birlikdə yaxud əmlak zərəri vurulmadığı hallarda kompensasiya edilir.

31. Mənəvi zərərin tutulması ilə bağlı qanunvericilik aktlarında əks edilən normaların (CPM, 58.2-ci maddə, “Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxsə vurulmuş ziyanın ödənilməsi haqqında” Qanun, 5-ci maddə, “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” Qanun, 12-ci maddə) məzmunundan, eləcə də, mənəvi zərərin vətəndaşın anadangəlmə və ya qanun əsasında ona məxsus olan qeyri-maddi nemətlərə aid (şərəf, ləyaqət, işgüzar nüfuz, şəxsi ailə sirri, hərəkət etmək azadlığı, yaşayış yeri seçmə, ad hüququ, müəlliflik hüququ, sair şəxsi qeyri-əmlak

hüquqlar və digər maddi nemətlər) hüquqlarını pozmaqla fiziki şəxsə mənəvi sarsıntı, iztirab verməsinin nəticəsi olması barədə Konstitusiya Məhkəməsi Plenumunun şərhindən də belə qənaətə gəmək olar ki, mənəvi zərər tələbi onu irəli sürən şəxsin şəxsiyyəti ilə bağlıdır.

32. Həmçinin Əmək Məcəlləsinin 290-cı maddəsinin qeyd hissəsində göstərilmişdir ki, mənəvi ziyan dedikdə, işəgötürən və ya onun tabeçiliyində olan vəzifəli şəxs tərəfindən hər hansı üsulla işçinin şərəf və ləyaqətinin ləkələnməsi, alçaldılması, ona böhtan atılması, şəxsiyyətinin təhqir edilməsi, kollektiv arasında gözdən salınması məqsədi ilə barəsində həqiqətə uyğun olmayan, yalan məlumatlar yayması, habelə mənəviyyatına, əxlaq normalarına, milli qürur hissinə, etiqadına zidd olan digər əməllər və hərəkətlər başa düşülməlidir.

33. Əmək Məcəlləsinin 290-cı maddəsinin qeyd hissəsindən də belə nəticəyə gəlmək olar ki, mənəvi zərər və belə bir tələb şəxsə bağlı tələbdir.

34. Lakin pulla ifadə edilən mənəvi zərər tələbinin şəxsə bağlılığı bu barədə həmin tələbin bəyan edilməsinə (müvafiq iddia tələbi irəli sürülməsinə, bu barədə qarşı tərəfə yazılı pretenziya göndərilməsinə) qədər davam edir. Tələb bəyan ediləndən sonra isə mənəvi zərərin ödənilməsi ilə bağlı tələb hüququ artıq əmlak tələbi vəziyyətinə keçir. Bu zaman tələbin hər hansı, o cümlədən məhkəməyəqədər və ya məhkəmə müstəvəsində hansı mərhələdə olması, eləcə də qətnamənin qanuni qüvvəyə minib-minməməsinin heç bir əhəmiyyəti yoxur.

35. Mənəvi zərərin qeyri-əmlak xarakterli kompensasiyası (məsələn, üzr istənilməsi) tələbi zərərçəkənin şəxsiyyəti ilə bağlı olduğundan bu tələb üzrə hüquq varisliyinə yol verilmir və güzəşt edilmir.

36. Mənəvi zərərin kompensasiyasının digər üsullarından fərqli olaraq mənəvi təzminat tələbləri üzrə şəxsiyyətə bağlılıq zərərçəkənin bu tələb hüququndan istifadə anınadək davam edir. Bu andan etibarən mənəvi təzminatın ödənilməsi tələbi əmlak hüququna çevrildiyindən həmin hüququn zərərçəkənin vərəsələri tərəfindən təqibi mümkündür. Belə tələbin isə güzəşt edilməsi və miras yolu ilə keçməsinə hər hansı hüquqi maneə yoxdur.

37. Zərərçəkənin bu hüququndan istifadəsi onun zərərvurana qarşı mənəvi təzminat tələbini irəli sürməsini ehtiva edir. Bu cür tələb zərərçəkənin məhkəmədə cavabdehə qarşı iddia qaldırması və ya məhkəmədənkənar qaydada (yazılı pretenziya) tələb irəli sürməsi ilə də ifadə oluna bilər.

38. Mənəvi zərərə dair tələb hüququ sahibi tərəfindən bəyan edildiyi halda mənəvi zərəri tələb etmək hüququ şəxsə bağlı olmaq vəziyyətindən çıxmış olur. Yəni mənəvi zərərin istənilməsi bir tələb olaraq irəli sürüldüyü andan etibarən şəxsi hüquq olma vəziyyətindən çıxaraq əmak hüququna çevrilir. Bu andan etibarən əmlak tələbi kimi mənəvi zərər tələbi başqalarına güzəşt edilə bilər və ya miras qaydasında vərəsələrə keçə bilər. Bunun əksi fərz edilsə, hüquqazidd əmələ uğrayan və zərərçəkmiş şəxs vəziyyətində olan şəxs deyil, hüquqa zidd hərəkətə yol vermiş olan şəxs əlverişli mövqe əldə etmiş olar.

39. Hüquq nəzəriyyəsində də hakim mövqe bundan ibarətdir ki, mənəvi zərər (təzminat) iddiası baxımından şəxsə bağlılıq yalnız hüququn istifadəsinə qərar verilməsinə qədər davam edir. Bu hüquqdan istifadə edildikdən sonra başqaları (hüquq varisləri) tərəfindən həmin hüququn tətbiqi və həyata keçirilməsi mümkündür. Mənəvi zərərlə bağlı şəxsə bağlılıq vəziyyəti zərər çəkmiş şəxs tərəfindən bu barədə tələbin irəli sürülməsinə qərar verildikdən sonra bununla bağlı hüquqi hərəkətlərin edilməsini və ödəniləcək mənəvi zərərin məhz mənəvi zərər məruz qalmış şəxsə verilməsini zəruri etmir.

40. Şərh edilənlərdən belə nəticəyə gəlmək olar ki, bəyan ediləndən sonra mənəvi ziyanın ödənilməsi ilə bağlı tələb hüququ artıq əmlak tələbi vəziyyətinə keçir, əmlak tələbinin güzəşt edilməsi və miras yolu ilə keçməsini istisna edən qayda isə yoxdur.

41. Çünki Mülki Məcəllənin 1151.1-ci maddəsinə görə mirasa (miras əmlaka) miras qoyanın öldüyü məqamadək malik olduğu əmlak hüquqlarının (miras aktivi) və vəzifələrin (miras passivi) toplusu daxildir.

42. Bu baxımdan, mənəvi zərərin əvəzinin pulla ödənilməsi ilə bağlı iddialarda iddiaçının məhkəmə tərəfindən bu iddia üzrə qətnamə qəbul edilənə kimi vəfat etməsi və ya hətta belə iddianın rədd olunması (iddiaçının öldüyü halda) da tələbin əmlak xarakterini dəyişmir.

43. Qeyd edilənlərə uyğun olaraq məhkəmə kollegiyası belə qənaətə gəlir ki, apellyasiya instansiya məhkəməsinin gəldiyi nəticə və MPM-in 261.0.7-ci maddəsinə əsasən iş üzrə icraat xitam verməsi düzgün olmamışdır. Hazırki işin müəyyən edilmiş halları baxımından barəsində mübahisə edilən hüquq münasibəti hüquq varisliyinə yol verir.

44. Beləliklə, kassasiya şikayəti təmin edilməli, apellyasiya instansiyası məhkəməsinin qərardadı ləğv edilməli, iş prosessual hüquq varisliyi və sonrakı digər prosessual hərəkətlərin yerinə yetirilməsi üçün apellyasiya instansiyası məhkəməsinə qaytarılmalıdır.

45. Yuxarıda göstərilənləri və MPM-in 416, 417, 418, 419-421-ci maddələrini rəhbər tutaraq, məhkəmə kollegiyası

Qərara aldı:

İddiaçının arvadı X1in kassasiya şikayəti təmin edilsin.

Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)-5592/2024 nömrəli, 4 noyabr 2024-cü il tarixli qərardadı ləğv edilsin. İş sonrakı prosessual hərəkətlərin yerinə yetirilməsi üçün apellyasiya instansiyasına qaytarılsın.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

73. 2-2(102)-168/2025 nömrəli, 2025-ci il 23 aprel tarixli qərar – Fərdi sahibkar statusuna malik olmayan fiziki şəxsin müflis elan edilməsi barədə ərizəyə baxılmasının yolverilməzliyi

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu:

Fiziki şəxs kommersiya fəaliyyəti nəticəsində yaranmış borcları əsas götürərək məhkəməyə müflis elan olunmaq üçün müraciət etmişdir. Ərizəçi fərdi sahibkar kimi qeydiyyata alınmamışdır.

Birinci və apellyasiya instansiyası məhkəmələri ərizəçinin borc öhdəliklərini yerinə yetirmək qabiliyyətinin olmadığı barədə yetərli sübut təqdim etmədiyini əsas gətirərək ərizəni təmin etməmişlər.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Fərdi sahibkar statusuna malik olmayan fiziki şəxsin “Müflisləşmə və iflas haqqında” Qanun çərçivəsində müflis elan olunması mümkün deyil. Bu qanun yalnız hüquqi şəxs və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti həyata keçirən fiziki şəxslərə şamil olunur. Ərizəçinin isə fərdi sahibkar statusu mövcud deyildir.

Buna görə də ərizəyə mahiyyəti üzrə baxılmalı deyil, çünki ərizəçi “Müflisləşmə və iflas haqqında” Qanunda nəzərdə tutulmuş subyektlərdən biri deyildir. Bu səbəbdən iş üzrə məhkəmə icraatı qanuni əsaslara malik olmamış və işə mahiyyəti üzrə baxılması prosessual normaların pozulması ilə nəticələnmişdir.

Mülki Prosessual Məcəllənin 261.0.1-ci maddəsinə əsasən, belə hallar olduqda məhkəmə iş üzrə icraata xitam verməlidir.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

Bakı şəhəri İş № 2-2(102)-168/2025 23.04.2025

ALİ MƏHKƏMƏ

Azərbaycan Respublikası adından

Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyası

Ərizəçi və Maraqlı şəxs iş üzrə

Q Ə R A R

Açar sözlər: Müflisləşmə (iflas) ilə bağlı mübahisələr

Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının hakimi Qurbanov Raqib Əliddin oğlunun məruzəsi ilə, hakimlər Qəribov Bəhman Fərhad oğlu və Abbasov Aqil Əzizağa oğlundan ibarət tərkibdə,

Ərizəçinin "müflis elan olunma" barədə ərizəsinə dair iş üzrə Sumqayıt Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2024-cü il 7 noyabr tarixli 2-2(105)-109/2024 nömrəli qətnaməsindən ərizəçi tərəfindən verilmiş kassasiya şikayətinə yazılı icraat qaydasında baxılmışdır.

İŞ ÜZRƏ QƏBUL EDİLMİŞ MƏHKƏMƏ AKTLARİ

a) Birinci instansiya məhkəməsindəki icraat

1. Ərizəçi maraqlı şəxsi göstərməklə ərizə ilə məhkəməyə müraciət edərək ərizəçinin müflis elan edilməsi barədə qətnamə qəbul olunmasını xahiş etmişdir.

2. Ərizə onunla əsaslandırılmışdır ki, ərizəçi uzun müddət Xarici İşlər Nazirliyində diplomat vəzifəsində çalışmış və təyinatı ilə əlaqədar bir müddət ABŞ-da, Nyu-York şəhərində işləmişdir. Çalışdığı dövrdə bir qədər pul topladıqdan sonra öncədən tanışlıq əlaqələri olan maraqlı şəxs ilə şəriklik edərək avtomobil ticarətinə başlamışdır. Ticarətə başlamaq üçün o, 90.000 ABŞ dolları, maraqlı şəxs isə 76.000 ABŞ dolları məbləğində pul qoymuşdur. Dövlət qulluqçusu olduğu üçün VÖEN açа bilməzdi və buna görə də həmin ticarət zamanı əməliyyatlar maraqlı şəxs tərəfindən icra olunurdu. Lakin, fəaliyyəti birbaşa gəlir əldə etməyə yönəlmiş ticarət xarakterli münasibət olmuşdur. Birgə ticarət əlaqələri olduğu zaman maraqlı şəxs tərəfindən aldadıldığı üçün hal-hazırda külli miqdarda müxtəlif şəxslərə borcu da yaranmışdır. Sumqayıt Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 2022-ci il 25 aprel tarixli 2(105)-702/2022 nömrəli qətnaməsinə görə onun maraqlı şəxsə 195.000 ABŞ dolları məbləğində borcu yaranmışdır. Hal-hazırda yaranmış bu vəziyyət işinə mənfi təsir etdiyindən, Xarici İşlər Nazirliyindəki vəzifəsində də çalışmır. Buna görə də gəlirləri qətnamədə qeyd olunmuş borcu ödəməyə imkan vermir. Yəni, maddi vəziyyəti getdikcə çətinləşdiyindən borcu ödəmək qabiliyyətində deyildir.

3. Maraqlı şəxs ərizəyə etiraz etmişdir.

4. Sumqayıt Kommersiya Məhkəməsinin 2024-cü il 4 iyul tarixli e-2-2(119)-731/2024 saylı qətnaməsi ilə ərizə rədd edilmişdir (hakim – Z.Sadiqov).

5. Məhkəmə qeyd etmişdir ki, qanunvericilik iş üzrə tərəflərin istinad etdiyi halların onlar tərəfindən sübuta yetirilməsini nəzərdə tutduğuna görə, müflis elan olunma üçün borclunun öz öhdəliklərini ödəmə qabiliyyətinin olmaması məhkəmə araşdırması zamanı təsdiqini tapmalıdır. Lakin, ərizəçi tərəfindən məhkəməyə hazırkı ərizəsində qeyd olunan xüsusatlarla bağlı hər hansı mötəbər sübut təqdim olunmamış və məhkəmə araşdırması zamanı ərizəçinin dəlilləri mötəbər sübutlarla öz təsdiqini tapmamışdır.

6. Həmçinin məhkəmə bildirmişdir ki, məhkəmə araşdırması zamanı ərizəçinin Sumqayıt Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 2022-ci il 25 aprel tarixli 2(105)702/2022 nömrəli qətnaməsi üzrə yaranmış borc öhdəliklərini ödəmək qabiliyyətinin olmayan sayılması üçün kifayət qədər əsaslar müəyyən edilmədiyindən və eləcə də, ümumilikdə ödəmə qabiliyyətinin olmayan sayılması üçün kifayət qədər sübutlar olmadığından ərizə təmin oluna bilməz.

7. Məhkəmə gəldiyi nəticəni "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikası Qanununun 2, 3, 5, 11-ci maddələrinə, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra – "MPM") 14.2, 77.1, 88-ci maddələrinə istinad etməklə əsaslandırmışdır.

8. Ərizəçi apellyasiya şikayəti verərək, birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv edilməsi və ərizənin təmin olunmasını xahiş etmişdir.

b) Apellyasiya instansiya məhkəməsindəki icraat

9. Sumqayıt Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2024-cü il 7 noyabr tarixli 2-2(105)-109/2024 nömrəli qətnaməsi ilə ərizəçinin apellyasiya şikayəti təmin edilməmiş, birinci instansiya məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmışdır (sədrlik edən hakim – İ.Dəmirov, hakimlər – Z.Məmmədov, M.Hüseynov).

10. Məhkəmə birinci instansiya məhkəməsinin gəldiyi nəticə və hüquqi mövqeyi ilə razılaşmış və əlavə olaraq qeyd etmişdir ki, ərizəçi hazırda ərizəsinin əsası kimi hər hansı yerdə işləməməsini qeyd etsə də, bu onun ödəmək qabiliyyətinin olmadığını sübut etmir.

11. Məhkəmə gəldiyi nəticəni Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra – "MM") 63-cü maddəsinə, "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikası Qanununun 1, 2.5, 3, 11-ci maddələrinə, MPM-in 14.2, 77.1, 88, 217.4, 384.0.1, 392, 393 və 405-ci maddələrinə istinad etməklə əsaslandırmışdır.

12. Ərizəçi kassasiya şikayəti verərək, apellyasiya instansiya məhkəməsinin qətnaməsinin ləğv edilərək, ərizənin təmin olunmasını xahiş etmişdir.

KASSASİYA ŞİKAYƏTİNİN VƏ ONA QARŞİ ETİRAZİN DƏLİLLƏRİ

a) Kassasiya şikayətinin dəlilləri:

13. "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsi üzrə - apellyasiya məhkəməsi müvafiq normanın tələblərini pozmuş, ərizəçinin əleyhinə qanunsuz və əsassız qətnamə qəbul etmiş, ərizəçinin hazırda işsiz olduğunu və borcu ödəmək qabiliyyətinin olmadığını nəzərə almadan işin faktiki hallarını tam, ədalətli, obyektiv şəkildə araşdırmamış və nəticədə onun əleyhinə qanunsuz və əsassız qətnamə qəbul etmişdir.

14. MPM-in 14, 88, 217.1, 217.3, 418.1, 418.2, 418.3-cü maddələri üzrə - məhkəmə həqiqətə nail olmaq və işin hallarının tam və hərtərəfli araşdırılması məqsədilə lazımi şərait yaratmaq əvəzinə natamam iş materialları əsasında işi tam aydınlaşdırmamış və tədqiq etməmişdir.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri:

15. Kassasiya şikayətinə qarşı etiraz təqdim edilməmişdir.

KASSASİYA BAXİŞİNİN HƏDLƏRİ

16. İş üzrə apellyasiya məhkəməsinin qətnaməsi bütövlükdə mübahisələndirildiyi üçün hazırkı icraat çərçivəsində məhkəmə aktının qanuniliyi və əsaslılığı tam olaraq yoxlanılacaqdır (MPM-in 416-cı maddəsi).

TƏTBİQ EDİLƏN HÜQUQ

17. "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikası Qanununun Məcəlləsinin müvafiq müddəalarında aşağıdakılar nəzərdə tutulur:

"Maddə 1. Əsas anlayışlar

Bu Qanunda istifadə edilən əsas anlayışlar aşağıdakı mənaları daşıyır:

Müflisləşmə – borclunun öz öhdəliklərinin ödəmə qabiliyyətinin olmaması;

Ərizəçi – məhkəməyə iflas haqqında ərizə (iddia ərizəsi) vermiş şəxs;

Borclu müəssisə – Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən və ya fəaliyyəti dayandırılmış və borcu olan hüquqi şəxs;

Fərdi borclu – öz fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən və borcu olan sahibkar – fiziki şəxs;"

"Maddə 2. İflas prosesinə başlanmasının ümumi qaydaları

1. İflas haqqında işlərə başlanması və həmin işlərə baxılması qaydası bu Qanunun spesifik tələbləri nəzərə alınmaqla, qüvvədə olan prosessual qanunvericiliklə tənzimlənir.

2. Bu Qanun bütün kommersiya (banklar istisna olmaqla) və qeyri-kommersiya təşkilatlarına şamil edilir.

Bu Qanun publik hüquqi şəxslərə şamil edilmir.

Ələt azad iqtisadi zonasında müflisləşmə və iflas sahəsində münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.

Bu Qanunda istifadə edilən "borclu" anlayışı borclu müəssisəyə və fərdi borcluya aiddir.

Səhmdar investisiya fondu və sığortaçı bu Qanunla yanaşı, müvafiq olaraq

"İnvestisiya fondları haqqında" və "Sığorta fəaliyyəti haqqında" Azərbaycan

Respublikası qanunlarının tələbləri nəzərə alınmaqla müflis elan edilir."

"Maddə 11. İflas haqqında iş üzrə məhkəmə baxışının prosessual nəticələri

1. İflas haqqında işə məhkəmə iclasında baxıldıqdan sonra məhkəmə qanunvericiliklə müəyyən edilmiş qaydada aşağıdakılar barədə müvafiq qərar çıxarır:

a) borclunun müflis elan olunması və əmlak inzibatçısının təyin edilməsi barədə;

b) müvəqqəti əmlak inzibatçısının təyin edilməsi və ya təyinatının uzadılması barədə;

c) borclunu müflis elan etməkdən imtina barədə.

2. Məhkəmə iclasında baxılan iflas haqqında iş mahiyyətcə həll olunmadıqda məhkəmə qanunvericiliklə müəyyən edilmiş qaydada aşağıdakılar haqqında müvafiq qərar çıxarır:

a) işə baxılmanın təxirə salınması barədə;

b) iş üzrə icraatın dayandırılması barədə;

c) işə xitam verilməsi barədə;

ç) iddianın baxılmadan saxlanması barədə.

Məhkəmə qəbul etdiyi qərarlarda borcların ödənilməsi tədbirlərinin, o cümlədən borclunun əmlakını təşkil edən aktivlərin müsadirəsinin dayandırılmasını (əgər bu təminatlı kreditorun hüquqlarını pozmursa) nəzərdə tuta bilər.

3. Məhkəmə qanunvericilikdə nəzərdə tutulmuş əsaslardan başqa aşağıdakı hallarda da borclunu müflis elan etməkdən imtina edə bilər:

a) borclu bu Qanunda göstərilmiş müddəalara müvafiq surətdə ödəmə qabiliyyəti olmayan deyildirsə;

b) ərizəçi bu Qanunun 2-ci maddəsində göstərilmiş şəxslərdən biri deyildirsə.

Belə hallarda məhkəmə özünün müvafiq qərarında iflas haqqında əsassız ərizə verilməsi nəticəsində borcluya və ya kreditora (kreditorlara) dəymiş ziyanın əvəzinin ödənilməsinə dair göstəriş verə bilər."

18. 1999-cu il noyabrın 26-da qəbul olunmuş "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Qanunun müvafiq müddəalarında aşağıdakılar nəzərdə tutulur:

Maddə 7. Normativ hüquqi aktların tətbiq edilmə qaydası

Normativ hüquqi aktların tətbiqi zamanı müxtəlif hüquqi qüvvəyə malik olan normativ hüquqi aktlar arasında ziddiyyət olduqda daha yüksək hüquqi qüvvəyə malik olan akt tətbiq olunur. Eyni hüquqi qüvvəyə malik olan normativ hüquqi aktlar arasında ziddiyyət olduqda isə daha sonra qüvvəyə minmiş normativ hüquqi akt tətbiq olunur.

19. "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunun müvafiq müddəalarında aşağıdakılar nəzərdə tutulur:

"Maddə 1. Sahibkarlıq fəaliyyəti

Sahibkarlıq fəaliyyəti şəxsin müstəqil surətdə həyata keçirdiyi, əsas məqsədi əmlak istifadəsindən, malların istehsalından və (və ya) satışından, işlər görülməsindən və ya

xidmətlər göstərilməsindən mənfəət (fərdi sahibkarlar tərəfindən gəlir) götürülməsi olan fəaliyyətdir."

"Maddə 10. Sahibkarlıq fəaliyyətinin dövlət qeydiyyatı

1. Hüquqi şəxs yaratmaqla sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin dövlət qeydiyyatını müvafiq icra hakimiyyəti orqanı həyata keçirir.

2. Hüquqi şəxsin və sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxsin vergi orqanlarında vergi ödəyicisi kimi uçota alınması Azərbaycan Respublikasının vergi qanunvericiliyi ilə tənzimlənir.

20. Azərbaycan Respublikası Vergi Məcəlləsinin müvafiq müddəalarında aşağıdakılar nəzərdə tutulur:

"Maddə 13. Bu Məcəllədə istifadə edilən əsas anlayışlar

13.2. Bu Məcəllənin məqsədləri üçün aşağıdakı anlayışlar istifadə olunur:

13.2.37. Sahibkarlıq fəaliyyəti - şəxsin müstəqil surətdə, həyata keçirdiyi, əsas məqsədi əmlak istifadəsindən, malların təqdim edilməsindən, işlər görülməsindən və ya xidmətlər göstərilməsindən mənfəət (fərdi sahibkarlar tərəfindən gəlir)

götürülməsi olan fəaliyyətidir."

"Maddə 33. Vergi ödəyicilərinin uçotu

33.3. Hüquqi şəxsin və sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxsin (bundan sonra - fərdi sahibkar) bu Məcəllə ilə vergi ödəməsi vəzifəsini şərtləndirən halların olub-olmamasından asılı olmayaraq onlar vergi orqanında vergi ödəyicisi kimi uçota alınır."

21. Azərbaycan Respublikası Mülki Məcəlləsinin müvafiq müddəalarında aşağıdakılar nəzərdə tutulur:

"Maddə 11. Mülki qanunvericiliyin analogiya üzrə tətbiqi

11.4. Xüsusi münasibətləri tənzimləyən mülki qanunvericilik müddəaları (istisna normaları) analogiya üzrə tətbiq edilməməlidir."

22. Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin müvafiq müddəalarında aşağıdakılar nəzərdə tutulur:

"Maddə 1. Mülki məhkəmə icraatı haqqında qanunvericilik

1.4. Digər qanunlarda olan prosessual hüquq normaları bu Məcəllənin müddəalarına uyğunlaşdırılmalıdır."

"Maddə 153. İddianın yolverilməzliyinə görə iddia ərizəsini qəbul etməkdən imtina

153.2. Hakim aşağıdakı hallarda iddianın yolverilməzliyinə görə iddia ərizəsini qəbul etməkdən imtina edir:

153.2.1. ərizəyə məhkəmə qaydasında və ya mülki məhkəmə icraatı qaydasında baxılmalı deyildirsə;"

"Maddə 261. İcraata xitam verilmə əsasları

261.0. Hakim iş üzrə icraata aşağıdakı hallarda xitam verir:

261.0.1. iş məhkəmədə və ya mülki məhkəmə icraatı qaydasında baxılmalı deyildirsə;"

"Maddə 416. Kassasiya instansiyasında işə baxmanın hədləri

416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

416.2. Apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 418.4-cü maddəsində nəzərdə tutulmuş prosessual hüquq pozuntusu hesab edilən hallara yol verilməsi şikayətin hədlərindən və dəlillərindən asılı olmayaraq yoxlanılmalıdır."

“Maddə 417. Kassasiya instansiyası məhkəməsinin səlahiyyətləri 417.1. Kassasiya məhkəməsi işə baxarkən:

417.1.5 apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadını tamamilə, yaxud qismən ləğv edib, bu Məcəllənin 259.0.1-259.0.3, 259.0.8 və 259.0.10-cu maddələrinə müvafiq olaraq iddianı tamamilə, yaxud qismən baxılmamış saxlaya və ya bu Məcəllənin 261.0.1-261.0.7-ci maddələrinə müvafiq olaraq iş üzrə icraata xitam verə bilər.”

“Maddə 418. Apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin və ya qərardadının ləğv edilməsinin əsasları

418.1. Maddi və prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması, o cümlədən maddi və prosessual hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması apellyasiya instansiyası məhkəməsinin qətnamə və qərardadının ləğv edilməsi üçün əsasdır.

418.4. Apellyasiya instansiyası məhkəməsinin qətnaməsi və ya qərardadı şikayətin dəlillərindən asılı olmayaraq aşağıdakı hallarda ləğv edilməlidir:

418.4.10. iddianın baxılmamış saxlanılması və ya iş üzrə icraata xitam verilməsi üçün bu Məcəllədə müəyyən edilmiş əsaslar olduğu halda məhkəmə işə mahiyyəti üzrə baxmışsa.”

KASSASİYA İNSTANSİYASİ MƏHKƏMƏSİNİN MÖVQEYİ

23. Məhkəmə kollegiyası hesab edir ki, kassasiya şikayəti qismən təmin edilməli, apellyasiya instansiyası məhkəməsinin qətnaməsi ləğv edilməklə iş üzrə icraata xitam verilməlidir.

24. Belə ki, MPM-in 418.4-cü maddəsində kassasiya şikayətinin dəlillərindən asılı olmayaraq qətnamə və ya qərardadın ləğv edilməsi əsasları müəyyən edilmişdir.

25. Həmin əsaslardan birini – iddianın baxılmamış saxlanılması və ya iş üzrə icraata xitam verilməsi üçün bu Məcəllədə müəyyən edilmiş əsaslar olduğu halda məhkəmənin işə mahiyyəti üzrə baxması təşkil edir (418.4.10).

26. Hazırkı işdə də həmin maddədə nəzərdə tutulmuş hal mövcuddur.

27. Belə ki, “Müflisləşmə və iflas haqqında” Azərbaycan Respublikası Qanununun 1ci maddəsində əsas anlayışlar qeyd edilmişdir.

28. Həmin maddəyə əsasən, bu Qanunda istifadə edilən əsas anlayışlar aşağıdakı mənaları daşıyır: Müflisləşmə – borclunun öz öhdəliklərinin ödəmə qabiliyyətinin olmaması; Ərizəçi – məhkəməyə iflas haqqında ərizə (iddia ərizəsi) vermiş şəxs; Borclu müəssisə – Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən və ya fəaliyyəti dayandırılmış və borcu olan hüquqi şəxs; Fərdi borclu – öz fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən və borcu olan sahibkar – fiziki şəxs.

29. Həmin Qanunun 2-ci maddəsində isə müəyyən edilmişdir ki, iflas haqqında işlərə başlanması və həmin işlərə baxılması qaydası bu Qanunun spesifik tələbləri nəzərə alınmaqla, qüvvədə olan prosessual qanunvericiliklə tənzimlənir (bənd 1). Bu Qanun bütün kommersiya (banklar istisna olmaqla) və qeyri-kommersiya təşkilatlarına şamil edilir. Bu Qanun publik hüquqi şəxslərə şamil edilmir. Bu Qanunda istifadə edilən “borclu” anlayışı borclu müəssisəyə və fərdi borcluya aiddir (bənd 2).

30. Beləliklə, “Müflisləşmə və iflas haqqında” Qanunun qeyd olunan tələblərinə görə məhkəməyə iflas haqqında ərizə ilə istənilən fiziki şəxs deyil, yalnız öz fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən sahibkar müraciət edə bilər.

31. Eyni zamanda, “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunun 1 və 10-cu maddələri və Vergi Məcəlləsinin 13.2.37 və 33.3-cü maddələrindən

müəyyən edilir ki, fiziki şəxs sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirməsi üçün vergi orqanlarında qeydiyyatdan keçməli və VÖEN əldə etməlidir. Yalnız bundan sonra fiziki şəxs fərdi sahibkar statusunu əldə edir.

32. Ərizəçi isə aktiv VÖEN-i mövcud deyil və özü də kommersiya fəaliyyətini qeydiyyata alınmadan həyata keçirdiyini bildirir. Bu hal, onun fərdi sahibkar kimi hüquqi statusa malik olmadığını təsdiq edir. Belə olan halda, o, "Müflisləşmə və iflas haqqında" Qanunu ilə müəyyən edilən subyektlər sırasına aid deyildir.

33. Həmin Qanunla müəyyən edilən subyektlər sırasına aid olmayan şəxsin verdiyi iflas haqqında ərizəyə isə məhkəmə tərəfindən mahiyyəti üzrə baxıla bilməz.

34. Belə ki, "Müflisləşmə və iflas haqqında" Qanunda fərdi sahibkar statusuna malik olmayan fiziki şəxsin müflis elan olunması nəzərdə tutulmamışdır.

35. Mülki Məcəllənin "Fiziki şəxslər" adlı 3-cü fəslində də həmin məsələnin mümkünlüyü qeyd edilməmişdir.

36. Eyni zamanda, belə şəxsin verdiyi ərizə üzrə MM-in 11-ci maddəsinə əsasən mülki qanunvericiliyin analogiya üzrə, yəni "Müflisləşmə və iflas haqqında" Qanunun müddəalarının fərdi sahibkar statusu olmayan fiziki şəxslərə münasibətdə tətbiq edilməsi də mümkün deyildir.

37. Belə ki, həmin Qanun hüquqi və fiziki şəxslərin müflisləşməsi ilə bağlı xüsusi münasibətləri tənzimləyir.

38. MM-in 11.4-cü maddəsində isə müəyyən edilmişdir ki, xüsusi münasibətləri tənzimləyən mülki qanunvericilik müddəaları (istisna normaları) analogiya üzrə tətbiq edilməməlidir.

39. Qeyd olunanlara əsasən müəyyən edilir ki, fərdi sahibkar statusu olmayan fiziki şəxslərin müflisləşməsi ilə bağlı ərizəyə baxılmasının hüquqi əsasları mövcud deyildir.

40. Belə olan halda isə həmin işlərə baxılmasının prosessual əsaslarının mövcudluğu da istisna edilir. Belə ki, mülki qanunvericiliyin xüsusi münasibətlərinə aid işə baxılmasının hüquqi əsası olmadıqda bununla bağlı ərizəyə mahiyyəti üzrə baxılaraq, onun təmin və ya rədd edilməsi mümkün deyildir.

41. "Müflisləşmə və iflas haqqında" Qanunun 11-ci maddəsinin 3-cü hissəsinin b) bəndində qeyd olunanlar da işə mahiyyəti üzrə baxılmasını nəzərdə tutan norma kimi qiymətləndirilə bilməz.

42. Belə ki, həmin maddənin tələblərinə görə məhkəmə qanunvericilikdə nəzərdə tutulmuş əsaslardan başqa aşağıdakı hallarda da borclunu müflis elan etməkdən imtina edə bilər: a) borclu bu Qanunda göstərilmiş müddəalara müvafiq surətdə ödəmə qabiliyyəti olmayan deyildirsə; b) ərizəçi bu Qanunun 2-ci maddəsində göstərilmiş şəxslərdən biri deyildirsə.

43. Qeyd olunan maddənin b) bəndi hərfi mənada təfsir edildikdə belə nəticəyə gəlinə bilər ki, müflisləşmə barədə ərizə "Müflisləşmə və iflas haqqında" Qanunun 2-ci maddəsində qeyd edilən şəxslər tərəfindən verilmədikdə ərizə rədd edilməlidir.

44. Lakin həmin Qanunun 2-ci maddəsində müəyyən edilmişdir ki, iflas haqqında işlərə başlanması və həmin işlərə baxılması qaydası bu Qanunun spesifik tələbləri nəzərə alınmaqla, qüvvədə olan prosessual qanunvericiliklə tənzimlənir (bənd 1).

45. Prosessual qanunvericiliyin tələblərinə görə isə ərizəyə məhkəmə qaydasında və ya mülki məhkəmə icraatı qaydasında baxılmalı deyildirsə ərizənin qəbulundan imtina edilir, ərizə icraata götürüldüyü halda isə iş üzrə icraata xitam verilir (MPM-in 153.2.1 və 261.0.1-ci maddələri).

46. Həmçinin, MPM-in 1.4-cü maddəsində müəyyən edilmişdir ki, digər qanunlarda olan prosessual hüquq normaları bu Məcəllənin müddəalarına uyğunlaşdırılmalıdır.

47. Qeyd olunan maddədə təsbit edilən “uyğunlaşdırma”ya isə digər qanunlarda olan prosessual hüquq normalarının MPM-in müddəalarına uyğun təfsir və tətbiq edilməsi də başa düşülür.

48. Buna misal olaraq “Banklar haqqında” Azərbaycan Respublikası Qanununun 72.1.2-ci maddəsinin tətbiq edilməsini qeyd etmək olar.

49. Belə ki, həmin maddənin tələblərinə görə bankın müflis elan olunmasına dair qərar qüvvəyə mindiyi anından banka qarşı məhkəmə icraatı prosesində olan bütün iddialar dayandırılır.

50. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2017-ci il 13 iyun tarixli Qərarında isə müəyyən edilmişdir ki, “Banklar haqqında” Azərbaycan Respublikası Qanununun 72.1.2-ci maddəsinin “dayandırma” ifadəsi bankın müflis elan olunmasına dair məhkəmənin qərarı qüvvəyə mindiyi andan banka qarşı kreditor tələblərlə bağlı mülki məhkəmə icraatında olan işlərin Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 254-cü maddəsində nəzərdə tutulmuş qaydada icraatının dayandırılmasını deyil, bu Məcəllənin 261.0.1-ci maddəsinə əsasən icraatına xitam verilməsini nəzərdə tutur. Həmin andan daxil olan ərizələrin qəbul edilməsindən Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 153.2.1-ci maddəsinə əsasən imtina olunmalıdır.

51. Bundan əlavə, “Müflisləşmə və iflas haqqında” Qanunun 11-ci maddəsinin 3-cü hissəsinin b) bəndi ilə MPM-in 153.2.1 və 261.0.1-ci maddələri arasında kolliziyanın olması qəbul edilsə belə, hər iki qanun hal-hazırda qüvvədə olan “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununun qəbul olunmasından əvvəl qüvvəyə mindiyindən həmin normalar arasındakı kolliziya qüvvədən düşmüş “Normativ hüquqi aktlar” haqqında Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun tənzimlənməlidir.

52. Həmin Qanunun 7-ci maddəsinə görə hazırkı münasibətlərə zamanca daha sonra qüvvəyə minmiş MPM tətbiq edilməlidir.

53. MPM-in tələblərinə görə isə fərdi sahibkar statusu olmayan fiziki şəxslərin müflisləşməsi ilə bağlı ərizəsinə məhkəmə qaydasında baxıla bilməz.

54. Bu baxımdan, məhkəmə kollegiyası hesab edir ki, iş üzrə icraata xitam verilməlidir. Belə ki, MPM-in 261.0, 261.0.1-ci maddələrinə əsasən, iş məhkəmədə və ya mülki məhkəmə icraatı qaydasında baxılmalı deyildirsə hakim iş üzrə icraata xitam verir.

55. Apellyasiya instansiyası məhkəməsi isə iş üzrə icraata xitam verilməli olduğunu nəzərə almayaraq və qeyd olunan prosessual hüquq normalarının tələblərini pozaraq işə mahiyyəti üzrə baxmışdır.

56. Bu da, MPM-in 418.4.9 və 418.5-ci maddələrinə əsasən kassasiya instansiyası tərəfindən qətnamənin ləğv edilməsinə və iş üzrə icraata xitam verilməsinə hüquqi əsas yaradır.

57. Göstərilənlərə əsasən məhkəmə kollegiyası hesab edir ki, MPM-in 261.0.1 və 417.1.5-ci maddələrinə əsasən, apellyasiya instansiyası məhkəməsinin qətnaməsi ləğv edilməli və iş üzrə icraata xitam verilməlidir.

58. Qeyd olunanlara əsasən və MPM-in 416-419-cu maddələrini rəhbər tutaraq məhkəmə kollegiyası

Qərara aldı:

Ərizəçi tərəfindən verilmiş kassasiya şikayəti qismən təmin edilsin.

Sumqayıt Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2024-cü il 7 noyabr tarixli 2-2(105)-109/2024 nömrəli qətnaməsi ləğv edilsin.

İş üzrə icraata xitam verilsin.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

74.2(102)-3152/2025 nömrəli, 2025-ci il 21 oktyabr tarixli qərar – İcra şöbəsinə qarşı icra sənədinin icrası zamanı vurulmuş ziyanın ödənilməsi tələbinin məhkəmə aidiyyəti

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu:

Cavabdehin mənzildən çıxarılması və mənzilin boşaldılaraq iddiaçıya təhvil verilməsi barədə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsi icra edilmişdir. Həmin icra işi üzrə borclu hazırda iddia qaldıraraq, başqa tələblərlə yanaşı, icra sənədinin icrası zamanı icra məmuru və tələbkar hüquqi şəxsin əməkdaşları tərəfindən ev əşyalarının kobud şəkildə çölə atılması və zədələnməsi səbəbindən vurulmuş zərərin ödənilməsini tələb etmişdir.

İşə baxmış apellyasiya instansiyası məhkəməsi "İcra haqqında" Qanunun 87.1-ci və İnzibati Prosessual Məcəllənin 2.2.7-ci maddələrinə istinadla tələbin icra şöbəsinə qarşı yönəlmiş hissəsinə inzibati məhkəmə icraatı qaydasında baxılmalı olması əsası ilə iş üzrə icraata xitam vermişdir.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Məhkəmə tərkibi hesab etmişdir ki, icra məmurunun icra sənədi üzrə "İcra haqqında" Qanuna uyğun olaraq qəbul etdiyi hər hansı qərar və ya icranın həyata keçirilməsinə yönəlmiş hərəkətləri bir qayda olaraq tərəflərin mövcud hüquqi vəziyyətində dəyişikliklərə səbəb olmayan faktiki xarakterli hərəkətlərdən ibarət olur. Yaşayış sahəsinin boşaldılması barədə icra sənədi əsasında icra məmurunun bilavasitə mənzilin boşaldılması ilə bağlı hərəkətləri və bu zaman hər hansı əşyanın korlanması, İnzibati Prosessual Məcəllənin 2.2.7-ci maddəsi və "İcra haqqında" Qanunun 87.1-ci maddəsi baxımından inzibati məhkəmədə baxılmalı olan mübahisə deyil. Həmin normalar icra məmurunun öz publik səlahiyyətlərindən çıxış etməklə hər hansı qərar qəbul edilmədən, məhkəmə qərarının icrası ilə bağlı adi axarda həyata keçirilən faktiki xarakterli hərəkət səbəbindən yaranan ziyan tələbinə inzibati məhkəmədə baxılmasını nəzərdə tutmur. Bu normalar, icra məmurunun adi icra hərəkətlərinin kifayət etmədiyi halda, tərəflərə münasibətdə əlavə tədbirlərin görülməsinə yönələn qərar və ya hərəkətləri ehtiva edir.

Başqa sözlə, bu maddələrin tətbiqi icra məmurunun qanunsuz qərarları, publik səlahiyyətlərə bağlı (qərar xarakterli) hərəkətləri və ya hərəkətsizliyi səbəbindən ziyan vurulduğu hallarda mümkündür. İcra məmurunun bir sıra fəaliyyətləri hər hansı hüquqi vəziyyəti dəyişmir, qərar xarakteri daşımır və inzibati xarakter daşıyan hərəkət hesab edilmir. Yaşayış sahəsinin faktiki boşaldılması, əşyaların yığılması, daşınması, qapının açılması, bağlanması, inventarın götürülməsi və s. kimi hərəkətlər texniki xarakterli olmaqla icra sənədinin icrasının təşkilinə yönəlib və fərqli bir hüquqi nəticə doğuran inzibati xarakterli hərəkət deyil.

İcra məmurunun mübahisələndirilən fəaliyyəti istinad olunan maddələrin tətbiq dairəsinə daxil deyil. İcra məmurunun bu cür hərəkəti nəticəsində əmlakın korlanması (onun inzibati səlahiyyətlərindən kənarda baş verən fəaliyyət olub), mülki hüquq pozuntusu (zərərvurma) hesab olunur və bununla bağlı iddiaya mülki məhkəmə qaydasında, Mülki Məcəllənin 1097-ci maddəsinin dispozisiya şərtləri əsasında baxılmalıdır.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-3152/2025

21.10.2025-ci il Bakı şəhəri

Azərbaycan Respublikası adından

Azərbaycan Respublikası Ali Məhkəməsi
Mülki kollegiyasının

İddiaçının cavabdehlər "XXX" Mənzil-Tikinti Kooperativi və Bakı şəhəri Binəqədi rayon İcra şöbəsinə qarşı (mübahisə predmeti barəsində müstəqil tələb irəli sürməyən üçüncü şəxslər qismində "X" Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin İcra Baş İdarəsi cəlb edilməklə) iş üzrə

Q Ə R A R I

Açar sözlər: İcra sənədinin icra olunması ilə bağlı icra məmuru tərəfindən fiziki və hüquqi şəxslərə vurulmuş ziyanın ödənilməsi tələblərinin məhkəmə aidiyyəti

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Şəfiyev İspəndiyar Əsəd oğlu (məruzəçi), Əhmədov Əhməd Abbas oğlu və Həsənov Vüqar Təvəkgül oğlundan ibarət tərkibdə,

İddiaçının cavabdehlər "XXX" Mənzil-Tikinti Kooperativi və Bakı şəhəri Binəqədi rayon İcra şöbəsinə qarşı (mübahisə predmeti barəsində müstəqil tələb irəli sürməyən üçüncü şəxslər qismində "X" Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin İcra Baş İdarəsi cəlb edilməklə) **"**maddi zərərin əvəzinin ödənilməsi" tələbinə dair mülki iş üzrə Sumqayıt Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2025-ci il 20 iyun tarixli 2(105)662/2025 nömrəli qərardadından iddiaçı tərəfindən verilmiş kassasiya şikayətinə Ali Məhkəmənin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları

1. "XXX" Mənzil-Tikinti Kooperativi (bundan sonra – MTK) ilə İddiaçı (payçı) arasında 25.10.2016-cı il tarixdə bağlanmış 000000459 nömrəli payçı müqaviləsi ilə Ünvan 1də tikilməkdə olan 2 otaqlı mənzili tikib payçının mülkiyyətinə verməyi, payçı isə mənzili qəbul etməyi, müqavilədə göstərilən müddətdə və qaydada mənzil üzrə tələb olunan bütün ödənişlərin MTK-ya ödənilməsini və yaşayış kompleksində xidmət göstərəcək şirkətə kommunal ödənişi etməyi öhdəsinə götürmüşdür. Müqavilənin şərtlərinə görə mənzilin ümumi dəyəri 105.835 manat təşkil etmiş və payçı bu məbləği, illik 10% olmaqla, 240 ay müddətinə payçı, MTK və "X" ASC arasında bağlanacaq üç tərəfli daşınmaz əmlakın ipoteka müqaviləsinə əsasən aldığı kredit vəsaitinin hesabına tam şəkildə ödəməyi öhdəsinə götürmüşdür. Payçı tərəfindən bu müqavilənin şərtləri pozulduqda və ya Bank arasında imzalanmış mənzilin alışını nəzərdə tutan kredit müqaviləsi üzrə öz öhdəliklərini yerinə yetirmədikdə və yaxud lazımınca yerinə yetirmədikdə, bankın rəsmi bildirişi əsasında MTK birtərəfli olaraq bu müqaviləni ləğv edib payın sahibi ola bilər. Bu halda MTK Bank və payçı arasında imzalanmış zaminlik müqaviləsindən irəli gələn payçının öhdəliklərini yerinə yetirməlidir. Cədvəl üzrə ödənişlərin iki ay müddətindən artıq gecikdirildiyi halda, MTK müqaviləni birtərəfli olaraq ləğv edir və həmin mənzili digər şəxsə satmaq hüququnu özündə saxlayır. Bu halda MTK həmin mənzili digər şəxsə satdıqdan sonra, mənzil üzrə hesablanan faiz, cərimə, kommunal borcları, komisyon, bank xərcləri və digər xərclər çıxıldıqdan və ya ödənildikdən sonra yerdə qalan məbləğ payçıya qaytarılır. Payçı tərəfindən Bank ilə imzalanmış kredit müqaviləsi üzrə təqdim olunmuş ödəniş cədvəlinə əsasən kredit üzrə ödənişlər, əsas və ya faiz borcu ayrı-ayrılıqda 2 ay müddətində aparılmadıqda və ya lazımınca aparılmadıqda payçı qeyd olunan müqavilənin predmeti olan mənzili boşaltmalıdır (müqavilənin 1.1, 1.2, 2.1, 2.2, 2.3, 2.4, 4.2.7, 8.1, 8.11 bəndləri).

2. Bank (borcverən) ilə İddiaçı (borcalan) arasında 25.10.2016-cı il tarixdə bağlanmış **********-*** nömrəli təminatlı kredit müqaviləsinə görə borcverən borcalana, borcalanla MTK arasında imzalanmış 25.10.2016-cı il tarixli 459 nömrəli müqavilənin predmeti olan mənzilin alınması üçün 105.835 manat məbləğində kreditin verilməsini öhdəsinə götürmüş, borcalan bu müqaviləyə əsasən krediti qəbul etməyi, bu müqavilədə göstərilən müddətdə (240 ay) və qaydada krediti və kredit üzrə hesablanacaq faizləri (illik 10%) borcverənə qaytarmağı öhdəsinə götürmüşdür. Bu müqavilə ilə müəyyən edilən öhdəliklərin icrasının təminat üsulu ipoteka və ***-*** nömrəli, 25.10.2016-cı il tarixli zaminlik müqaviləsindən irəli gələn zaminlikdir. Borcalan tərəfindən müqavilənin 7.3-cü bəndində nəzərdə tutulan qrafik üzrə ödənişlər 3 ay müddətində aparılmadıqda, yaranmış borc tələblərinin ödənilməsi üçün 25.10.2016-cı il tarixli 459 nömrəli MTK və İddiaçı arasında imzalanmış müqavilənin predmeti olan Ünvan 1də tikilməkdə olan ümumi sahəsi 69.4 kv.m ibarət 2 otaqlı mənzil üzrə bütün hüquqlar borcverənə keçir (müqavilənin 2.2, 2.3, 4.1, 15.8 bəndləri).

3. Bank (borcverən), İddiaçı (borcalan) və MTK (zamin) arasında 25.10.2016-cı il tarixdə bağlanmış **********-*** nömrəli zaminlik müqaviləsinə görə, kreditorla borclu arasında bağlanmış 25.10.2016-cı il tarixli **********-*** nömrəli kredit müqaviləsi üzrə borclunun öhdəliklərinin yerinə yetirilməsinə görə zamin kreditor qarşısında cavabdehlik daşımağı və borcun özünün malik olduğu pul vəsaitləri hesabına ödənilməsini öhdəsinə götürmüşdür.

4. Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin 2023-cü il 24 may tarixli 2(001)2075/2023 nömrəli qətnaməsinə əsasən MTK ilə İddiaçı arasında bağlanmış 25.10.2016-cı il tarixli payçı müqaviləsinin ləğv edilmiş hesab edilməsi, cavabdeh İddiaçının Ünvan 1 mənzildən çıxarılması və həmin mənzilin boşaldılaraq iddiaçı MTK-ya qaytarılması qət edilmişdir.

5. Qətnamə qanuni qüvvəyə minmiş və 22.12.2023-cü tarixdə icraya yönəldilərək, icra olunması üçün Binəqədi rayon İcra şöbəsinə göndərilmişdir.

6. İcra məmuru tərəfindən 13.06.2024-cü il tarixdə tərtib edilmiş aktda göstərilir ki, Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin 2(001)-2075/2023 nömrəli, 24.05.2023-cü il tarixli icra vərəqəsinin icrası ilə əlaqədar əvvəlcədən iş üzrə borcluya rəsmi qaydada bildiriş verilməsinə baxmayaraq, icra yerinə gəlməmiş və gəlməməyinin səbəbləri barədə heç bir məlumat verməmişdir. Tərəflərindən qapı açılmış və mənzilə baxış keçirilmişdir. Mənzilə baxış zamanı heç bir qiymətli əşya, qızıl-zinət əşyaları və ya pul vəsaitləri aşkar edilməmişdir. Baxış zamanı 2 otaqlı mənzildə olan 34 adda məişət əşyaları - 2 ədəd televizor, 1 ədəd ikigüzgülü kamot, 1 ədəd stenka, 1 ədəd bir qapılı stenka, 1 ədəd televizor altı, 1 ədəd jurnalnı, 1 ədəd dairəvi xalça, 6 ədəd stul, 1 ədəd stol, 1 ədəd künc divan, 1 ədəd uşaq stolu, 2 ədəd matraslı taxt, 13 ədəd döşək, 3 ədəd yorğan, 8 ədəd yastıq, 1 ədəd dolab, 2 ədəd tumbuçka, 7 ədəd yastıq (karopka), 1 dəst mətbəx mebeli, 1 ədəd (Eurolux) paltaryuyan, 1 ədəd (Heiner) soyuducu, 1 ədəd fırın (İltimat), 1 ədəd dörd gözlü qaz plitəsi (Öztürklər), 1 ədəd aspirator (Zuxell), 1 ədəd tozsoran (Eurolux), 1 ədəd tozsoran (Galaksi star), 1 ədəd şirəçəkən (Bergamo), 1 ədəd toster (Haeger), 1 ədəd kombi (Eca), 1 ədəd blender (Raf), 1 ədəd lüstur, 1 ədəd iki gözlü divan dolabı, 10 dəst pal-paltar dəsti siyahıya alınmaqla iş üzrə tələbkar MTK-nın nümayəndəsi-komendantı X1a təhvil verilmiş və ona Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 303cü maddəsinin məsuliyyəti elan edilmişdir. X1 mənzili boş vəziyyətdə təhvil almışdır.

7. Bakı şəhəri Binəqədi rayon İcra şöbəsinin 2024-cü il 20 iyun tarixli icraata xitam verilməsi haqqında qərarı ilə icra sənədində qeyd olunan tələb borclu tərəfindən tam şəkildə təmin olunduğu üçün Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin 24.05.2023-cü il tarixli 2(001)-2075/2023 nömrəli icra sənədinə xitam verilməsi qərara alınmışdır.

8. Bundan sonra MTK 04.10.2024-cü il tarixli payçı müqaviləsi əsasında Ünvan 1 ünvanında yerləşən yaşayış kompleksində inşa olunan 2 otaqlı mənzili X2yə satmışdır.

9. Bank tərəfindən MTK-ya ünvanlanmış 25.11.2024-cü il tarixli məktubda göstərilir ki, İddiaçı 25.10.2016-cı il tarixli kredit müqaviləsindən irəli gələn öhdəliklərini yerinə yetirmədiyi üçün 03.10.2024-cü il tarixdə əsas borc 98.061,36 manat, faiz borcu 20.685,17 manat olmaqla, ümumilikdə 118.746,53 manat vəsait zamin MTK-nın ********** nömrəli hesabından silinib kredit bağlanmışdır.

10. İddiaçının 24.10.2020-ci ildə Birləşmiş Ərəb Əmirliyinin aidiyyəti qurumunda 01.01.1972-ci il təvəllüdlü X5lə bağlanmış nikahı haqqında məlumatlar 10.03.2022-ci ildə xarici ölkədə qeydə alınmış akt kimi Ədliyyə Nazirliyinin "Vətəndaşlıq vəziyyəti aktları" avtomatlaşdırılmış qeydiyyat informasiya sisteminə daxil edilmişdir.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a) Birinci instansiya məhkəməsində icraat

11. İddiaçı İddiaçı cavabdehlər MTK və Bakı şəhər Binəqədi rayon İcra şöbəsinə qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin 2023-cü il 24 may tarixli 2(001)-2075/2023 nömrəli qətnaməsi ilə ləğv edilmiş müqavilə üzrə tərəfindən ödənilmiş 93.000 manat məbləğdə pul vəsaitinin, faiz borcları və digər tutulmalar çıxılmaqla 73.000 manat məbləğdə pul vəsaitinin cavabdeh MTK-dan və mənzil boşaldılarkən edilmiş qanunsuz hərəkətlər nəticəsində iddiaçıya məxsus əmlaklara: TV LC Smart 82 ekran televizor - 1 ədəd, dəyəri 1.000 manat, 2 ədəd xrustal şamdanlı çilçıraq dəyəri - 250 manat (ümumilikdə 500 manat), Almaniya istehsalı servis naboru dəyəri 500 manat, mətbəx mebeli ümumi dəyəri 1.500 manat, klassik stildə qonaq otağı şkafı (qorka) 1 - ədəd qiyməti 700 manat, 3 ədəd dolab hər biri 350 manat olmaqla, ümumilikdə 1050 manat, 12 ədəd xrustal stəkan 50 manat, yataq otağında asılqan dolab - 1 ədəd 300 manat, 2 qapılı dolabın güzgüləri hər biri 150 manat olmaqla 300 manat, Karaca qaşıq bıçaq dəstləri - 1 dəst olmaqla ümumi dəyəri 100 manat olmaqla, vurulan ziyan nəticəsində ona dəymiş 6.000 manat məbləğdə maddi zərərin əvəzinin Binəqədi rayon İcra şöbəsi və MTK-dan tutularaq iddiaçının xeyrinə ödənilməsi, dövlət rüsumu qismində ödənilmiş 327 manat məbləğdə pul vəsaitinin cavabdehlərdən tutularaq iddiaçının xeyrinə ödənilməsi, tutmanın ipoteka predmeti olan Ünvan 1dəki mənzilinə yönəldilməsi, mənzilin açıq hərracda satılması və satışdan əldə edilmiş pul vəsaitinin (cavabdeh MTK-ya aid hissəsində) iddiaçıya ödənilməsi, satışdan əldə edilmiş vəsait qətnamə ilə müəyyən edilmiş məbləği əhatə etmədikdə, yerdə qalan məbləğin təkrar cavabdeh MTK-dan tutularaq iddiaçının xeyrinə ödənilməsi barədə qətnamə qəbul edilməsini, icra tədbirləri həyata keçirərkən kobud qanun pozuntularına və əmlakına qarşı yol verilmiş qeyri-qanuni əməllərə görə Binəqədi rayon İcra Şöbəsinin müvafiq icra məmurları barəsində xüsusi qərardad çıxarılmasını, aidiyyəti üzrə İcra Baş İdarəsinə təqdimatın ünvanlanmasını xahiş etmişdir.

12. İddiaçı işin yuxarıda qeyd edilən faktiki hallarına istinad etməklə tələbini belə əsaslandırmışdır ki, icra məmurları və MTK-nın əməkdaşları tərəfindən qətnamə icra edilərkən və mənzil boşaldılarkən mənzildə ona məxsus olan ev əşyaları kobud şəkildə çölə atılmış, bir çoxu zədələnmiş, məhv olmuşdur. Belə ki, icra məmurları tərəfindən mənzil boşaldılarkən mənzildə ona məxsus olan qab-qacaq əşyaları tamamilə sındırılmış, "LG Smart TV" markalı televizor, çilçıraqlar, mebellər, bütün mətbəx əşyaları və digər əşyalar yararsız hala salınmış, bununla da ona külli miqdarda zərər vurulmuşdur. Müvafiq müqavilə məhkəmə tərəfindən ləğv edilmiş olsa da, mənzilə münasibətdə müqavilə üzrə onun tərəfindən ödənişlər həyata keçirilmiş, ümumilikdə 73.000 manat məbləğdə pul vəsaiti ödənmişdir. Müqavilə ləğv edildiyi təqdirdə həmin ödənişlər (faiz borcları çıxılmaqla) və mənzil boşaldılarkən edilmiş qanunsuz hərəkətlər nəticəsində ona dəymiş 6.000 manat məbləğdə maddi zərərin əvəzi, ümumilikdə 79.000 manat məbləğdə pul vəsaiti MTK tərəfindən ona qaytarılmalı, qətnaməni icra edərkən kobud qanun pozuntularına və əmlakına qarşı yol verilmiş qeyri-qanuni əməllərə görə Binəqədi rayon İcra Şöbəsinin müvafiq icra məmurları barəsində xüsusi qərardad qəbul edilməlidir.

13. Məhkəmə iclasında cavabdeh MTK-nin nümayəndəsi X3 iddia tələbini qismən qəbul edərək, bildirmişdir ki, iddiaçının tələb etdiyi faiz məbləği Banka ödənilmiş puldur ki, onu MTK-dan tələb edə bilməz, bu hal müqavilədə də öz əksini tapmışdır. MTK iddiaçının əvəzinə həm krediti həm də qalıq məbləğini ödəmişdir. 20.700 manat gecikdirilmiş borc üzrə, ümumilikdə 118.746 manat ödəniş edilmişdir. Hazırda mənzil başqa şəxsə satılmış və onun mülkiyyətindədir. Mənzilin girovdan çıxarılması üçün ödənişləri MTK etmişdir. MTK iddiaçıya müqavilə üzrə nəzərdə tutulmuş şəkildə yalnız 10.000 manat ödəniş etməyə razıdır. Mənzilin boşaldılması üçün MTK və İcra şöbəsi tərəfindən dəfələrlə iddiaçıya müraciət edilsə də,

iddiaçı mənzili boşaltmaqdan boyun qaçırmışdır. Ona görə də məcburi icra tədbirləri həyata keçirildi. Mənzil boşaldılarkən icra məmurunun iştirakı ilə kamera qeydiyyatı aparılaraq əşyalar təhvil verilmişdir. Heç bir əşyaya zərər vurulmamışdır. Əşyalar binanın zirzəmisinə yığılmışdır. Daha sonra iddiaçı həmin əşyalardan bəzilərini götürmüş, əşyalardan yalnız televizora ziyan dəymişdir. İddia tələbinin ödənilmiş pulun geri qaytarılması hissəsində qismən, yəni 10.000 manat ödənilməsinə razı olduğunu, iddia tələbinin qalan hissədə təmin edilməməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

14. Məhkəmə iclasında cavabdeh Bakı şəhəri Binəqədi rayon İcra şöbəsinin icra məmuru X4 İcra şöbəsinə qarşı iddia tələbini qəbul etməyərək bildirmişdir ki, iddiaçıya şəxsən bildiriş təqdim edilmişdir. Daha sonra İcra şöbəsinə gəlib razılıq əldə edilməsi üçün səy göstərilib, amma barışıq və razılıq olmamışdır. Ona görə də məcburi icra tədbirinin həyata keçirilməsinə başlanılıb və qapı xüsusi alətlə açılaraq mənzil MTK-ya təhvil verilib, əşyaların təhvil-təslimi həyata keçirilmişdir. Mənzil təhvil verilərkən əşyalara heç bir ziyan dəyməmişdir.

15. Məhkəmənin sorğusuna cavab olaraq MTK tərəfindən verilmiş 21.10.2024-cü il tarixli arayışa əsasən payçı 25.10.2016-cı il tarixdən 21.10.2024-cü il tarixə qədər Bankın ödəniş cədvəli üzrə 66.865,90 manat ödəmişdir, bu məbləğin 7.773,64 manat əsas məbləğ, 59.092,26 manat isə kreditin faiz məbləği olaraq hesablanmışdır. İddiaçının qeyd olunan mənzilə görə Banka qalıq kredit borcu 98.061,36 manat təşkil etmişdir. Qeyd edilən məbləğ 03.10.2024-cü il tarixdə MTK tərəfindən Banka ödənilmiş, ümumilikdə MTK tərəfindən həmin tarixdə Banka 118.746,53 manat ödənilmişdir. Bunlardan əlavə İddiaçının MTK-ya 4.250 manat borcu var, əlavə olaraq mənzilin yenidən təmirinə 7.666 manat məbləğində xərc çəkilmişdir. Müştəriyə qaytarılacaq məbləğ 10.000 manat hesablanmışdır.

16. Abşeron Rayon Məhkəməsinin (bundan sonra - birinci instansiya məhkəməsi) 2025-ci il 13 yanvar tarixli 2(012)-293/2025 nömrəli qətnaməsi ilə iddia tələbi qismən təmin edilərək, iddiaçı ilə cavabdeh MTK arasında bağlanmış 25.10.2016-cı il tarixli payçı müqaviləsinə əsasən ödənilmiş 10.000 manat məbləğində pul və dövlət rüsumuna görə 120 manat pul vəsaitinin MTK-dan alınaraq iddiaçıya verilməsi, iddia tələbinin qalan hissədə təmin olunmaması qət edilmişdir (hakim Mirnəsir Mirhəsənli).

17. Birinci instansiya məhkəməsinin mövqeyi ondan ibarət olmuşdur ki, tərəflər arasında hazırkı mübahisəli məsələ onlar arasında bağlanmış 25.10.2016-cı il tarixli müqavilənin 8.1-ci bəndi ilə bağlıdır. Həmin bənddə qeyd edilmişdir ki, cədvəl üzrə ödənişlərin iki ay müddətindən artıq gecikdirildiyi halda, MTK müqaviləni birtərəfli olaraq ləğv edir və həmin mənzili digər şəxsə satmaq hüququnu özündə saxlayır. Bu halda MTK həmin mənzili digər şəxsə satdıqdan sonra, mənzil üzrə hesablanan faiz, cərimə, kommunal borcları, komisyon, bank xərcləri və digər xərclər çıxıldıqdan və ya ödənildikdən sonra yerdə qalan məbləğ payçıya qaytarılır. İş materiallarından görünür ki, müqavilə ləğv edildikdən sonra MTK tərəfindən Banka olan borc ödənilmiş və mənzil artıq digər şəxsə satılmışdır. Həmçinin, məhkəmə sorğusuna əsasən əldə edilmiş materiallardan görünür ki, İddiaçı müqavilə ləğv edilənədək 25.11.2016-cı il tarixdən 16.01.2023-cü il tarixədək kredit müqaviləsi üzrə 7773.64 manat əsas borc üzrə, 59092.91 manat məbləğində faiz borcu üzrə ödənişlər edilmişdir. Belə olan halda müqavilənin 8.1-ci bəndi əsas götürülərək, MTK-dan iddiaçının xeyrinə ödənilmiş əsas məbləğin tutulması hissəsində iddiaçının tələbi əsaslıdır və təmin edilməlidir. Göstərilənləri və cavabdeh MTKnın nümayəndəsinin izahatını nəzərə alaraq məhkəmə hesab etmişdir ki, 10.000 manat (cavabdehin nümayəndəsinin izahatı nəzərə alınaraq) məbləğdə pul vəsaiti cavabdeh MTK-dan tutularaq iddiaçıya ödənilməlidir.

18. İddia tələbinin mənzil boşaldılarkən edilmiş qanunsuz hərəkətlər nəticəsində iddiaçıya məxsus əmlaklara vurulan ziyan nəticəsində ona dəymiş 6.000 manat məbləğdə

maddi zərərin əvəzinin cavabdehlərdən tutularaq iddiaçının xeyrinə ödənilməsi hissəsinə münasibətdə məhkəmə qeyd etmişdir ki, Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin 24.05.2023-cü il tarixli 2(001)-2075/2023 nömrəli icra sənədinin icrası zamanı hər hansı qanun pozuntusuna yol verilməmişdir. Əksinə, borclu qanuni qüvvəsini almış qətnamənin könüllü icrası ilə əlaqədar məlumatlandırılmış, lakin o, məhkəmə qətnaməsini icra etməkdən yayınmışdır. İcra zamanı iddiaçıya məxsus 34 adda əşyalar akt tərtib edilərək, MTK-nın nümayəndəsinə təhvil verilmişdir. Məhkəmə araşdırması zamanı icra zamanı hər hansı qanun pozuntusu aşkarlanmamış, həmçinin iddiaçı bu tələbi ilə bağlı sübutları məhkəməyə təqdim edə bilməmişidir.

19. Məhkəmə tutmanın ipoteka predmeti olan Ünvan 1, 2-ci bina, 73 nömrəli mənzilə yönəldilməsi, mənzilin açıq hərracda satılması və satışdan əldə edilmiş pul vəsaitinin (cavabdeh MTK-ya aid hissəsində) iddiaçıya ödənilməsi, satışdan əldə edilmiş vəsait qətnamə ilə müəyyən edilmiş məbləği əhatə etmədikdə, yerdə qalan məbləğin təkrar cavabdeh MTK-dan tutularaq iddiaçının xeyrinə ödənilməsi hissəsinə münasibətdə qeyd etmişdir ki, həmin mənzil artıq 3-cü şəxsə satıldığından, MTK-nın həmin mənzilə dair hüquqları olmadığından tutmanın yönəldilməsi yolverilməzdir, ona görə də bu hissədə iddia təmin edilə bilməz.

20. Məhkəmə mövqeyini Azərbaycan Respublikası Mülki Məcəlləsinin 21, 385, 389, 421, 424, 1096, 1097-ci, "İcra haqqında" Azərbaycan Respublikası Qanununun 2, 12-ci maddələrinə, «"İcra haqqında" Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinin şərh edilməsinə dair» Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 10 oktyabr 2017-ci tarixli Qərarına istinad edərək əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

21. İddiaçı apellyasiya şikayəti verərək, qətnamənin "iddia tələbi qalan hissədə təmin edilməsin" hissəsində ləğv edilməsini və iddia tələbinin tam təmin olunması barədə yeni qətnamə çıxarılmasını xahiş etmişdir.

22. Apellyasiya şikayəti onunla əsaslandırılmışdır ki, məhkəmə sübutları kifayət qədər hərtərəfli araşdırmamış, qanunsuz və əsassız qətnamə çıxarmışdır. Məhkəmə dəymiş 6000 manat məbləğdə maddi zərəri nəzərə almadan, 25.10.2016-cı il tarixli payçı müqaviləsinə əsasən ödənilmiş 10.000 manat məbləğində pul vəsaiti MTK-dan alınaraq iddiaçıya verilməsini təmin edərkən mənzilə və ya əşyalara münasibətdə verilməsini əsaslandırmadan, eyni zamanda əmlakın ümumi dəyərini müəyyən etmədən qətnamə qəbul etmişdir. Belə ki, iddiaçı əmlakın ümumi dəyərini müəyyən edilməsi istiqamətində kifayət qədər pul vəsaiti ödəmişdir. Tərəfindən vəsatət verilərək mülki iş üzrə məhkəməmühasibatlıq ekspertizası, habelə məhkəmə-əmtəəşünaslıq ekspertizasının keçirilməsi barədə vəsatətlər verilsə də, məhkəmə tərəfindən vəsatətləri təmin edilməmişdir. Bundan əlavə, MTK ilə X2 arasında bağlanmış həmin mənzilə dair

04.10.2024-cü il tarixli payçı müqaviləsi məhkəməyə təqdim olunmalı və məhkəmə tərəfindən bu məsələ X2 mülki iş üzrə üçüncü şəxs qismində cəlb edilərək düzgün, obyektiv, tam, hərtərəfli araşdırılmalı idi. İddia tələbinin qalan hissədə təmin edilməməsi məhkəmə tərəfindən əsaslandırılmamışdır.

23. Sumqayıt Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının (bundan sonra apellyasiya instansiyası məhkəməsi) 2025-ci il 20 iyun tarixli 2(105)-662/2025 nömrəli qətnaməsi ilə apellyasiya şikayəti qismən təmin edilərək birinci instansiya məhkəməsinin qətnaməsi ləğv edilmiş, iddianın qismən təmin olunması, cavabdeh MTK-dan 26.993,47 manat və iddia ərizəsinin verilməsi üçün ödənilmiş dövlət rüsumunun 125 manatı olmaqla, cəmi 27.113,47 manat pulun alınıb iddiaçıya verilməsi, iddianın qalan hissədə təmin

olunmaması qət edilmişdir (hakimlər - Afiq Hüseynzadə (sədrlik edən və məruzəçi), Ayaz Mahmudov və Səyyad Qafari).

24. Apellyasiya instansiya məhkəməsinin 2025-ci il 20 iyun tarixli qərardadı ilə iddiaçı tərəfindən verilmiş apellyasiya şikayəti qismən təmin edilməklə, birinci instansiya məhkəməsinin qətnaməsinin iddia tələbinin Binəqədi rayon İcra şöbəsinə qarşı maddi zərərin əvəzinin ödənilməsinin təmin edilməməsi hissəsində ləğv edilmiş, həmin hissədə iş üzrə icraata xitam verilməsi qərara alınmışdır.

25. Apellyasiya instansiya məhkəməsinin mövqeyi ondan ibarət olmuşdur ki, birinci instansiya məhkəməsi hazırkı tələbə mülki məhkəmə icraatı qaydasında baxmaqda haqlı olmamışdır. Belə ki, cavabdeh Binəqədi rayon İcra şöbəsi inzibati orqan hesab olunmaqla, iddiaçı cavabdeh Binəqədi rayon İcra şöbəsi tərəfindən mənzil boşaldılarkən edilmiş qanunsuz hərəkətlər nəticəsində ona məxsus əmlaklara ziyan vurulmasını iddia etməkdədir ki, bu da icra şöbəsinin ümumi (publik) hüquq sahəsindəki səlahiyyətlərin icrasından və ya həmin sahədə səlahiyyətlərinin həyata keçirilməsi ilə bağlı faktiki xarakterli hərəkətlərindən irəli gəlmişdir.

26. Buna görə də məhkəmə kollegiyası hesab etmişdir ki, birinci instansiya məhkəməsi tərəfindən Binəqədi rayon İcra şöbəsinə qarşı tələbə mülki məhkəmə icraatı qaydasında baxılması ilə prosessual qanunvericiliyin məhkəmə aidiyyəti ilə bağlı normaları pozulmuşdur.

27. Məhkəmə kollegiyası mövqeyini "İcra haqqında" Azərbaycan Respublikası Qanununun 87-ci, Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 2-ci, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 261-ci maddələrinə, "İnzibati və mülki hüquq münasibətlərindən irəli gələn mübahisələrin məhkəmə aidiyyətinə dair" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 10 aprel 2015-ci il tarixli 4 nömrəli Qərarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 avqust 2007-ci il tarixli, 136 nömrəli qərarı ilə təsdiq edilmiş "İnzibati orqanların Təsnifatı"na istinad edərək əsaslandırmışdır.

Kassasiya şikayətinin və ona qarşı etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

28. İddiaçı kassasiya şikayəti verərək, apellyasiya instansiyası məhkəməsinin qərardadının ləğv edilməsini xahiş etmişdir.

29. Şikayət onunla əsaslandırılmışdır ki, məhkəmə tərəfindən iddia tələbinin Binəqədi rayon İcra şöbəsinə qarşı maddi zərərin əvəzinin ödənilməsinin təmin edilməməsi hissəsində qətnamə ləğv edilərək, həmin hissədə iddia tələbinin icraatına xitam verilməklə, qanunsuz qərardad çıxarılmışdır. Məhkəmə tərəfindən həmin əşyalarla bağlı dəymiş zərərə dair heç bir araşdırma aparılmamış, bütünlükdə icraata xitam verilmişdir. Bu səbəbdən məhkəmə tərəfindən gəlinmiş nəticə qanunsuz və əsassız hesab edilməlidir. Cavabdeh qismində Binəqədi rayon İcra şöbəsi ilə yanaşı eyni zamanda MTK da çıxış edir. Məhkəmə tərəfindən bu hal nəzərə alınmamış, bir cavabdehə münasibətdə, yəni Binəqədi rayon İcra şöbəsinə münasibətdə qərardad qəbul edilmişdir. Məhkəmə tərəfindən qərardad qəbul edilərkən digər cavabdeh olan MTK-ya qarşı tələbə münasibət bildirilməmişdir.

30. İddiaçı şikayətini Azərbaycan Respublikası Mülki Məcəlləsinin 21, 135, 152, 385, 389, 412, 424, 1096, 1097-ci, "İcra haqqında" Qanunun 2, 3, 7, 8, 87-ci, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 77, 385, 387-ci maddələrinə istinad edərək əsaslandırmışdır.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri 31.

Kassasiya şikayətinə qarşı etiraz daxil olmamışdır.

Tətbiq edilən hüquq

“İcra haqqında” Azərbaycan Respublikasının Qanunu

32. Maddə 72.4. İcra məmuru icra sənədində göstərilmiş sahədən borclunun (çıxarılanın), onun əmlakının, ev heyvanlarının çıxarılmasını təmin edir. Bundan əlavə, borcluya (çıxarılana) həmin sahədən istifadə etməsi qadağan olunur.

33. Maddə 72.5. Çıxarılma icra məmuru tərəfindən hal şahidlərinin iştirakı ilə və hökmən əmlak siyahıya alınmaqla həyata keçirilir. İcra məmuru çıxarılma zamanı müvafiq icra hakimiyyəti və yerli özünüidarə orqanlarının əməkdaşlarını dəvət etmək hüququna malikdir.

34. 72.6. İcra məmuru, borclunun əmlakının mühafizəsini təmin edir və bununla bağlı xərcləri borclunun üzərinə qoyur. Borclunun əmlakı üç ildən çox olmayan müddət ərzində mühafizə edilir. Həmin müddət bitdikdən sonra göstərilən əmlak sahibsiz əmlakın satılması üçün müəyyən edilmiş qaydada satılır.

35. Maddə 72.7. Borclunun yaşayış və ya qeyri-yaşayış sahəsindən çıxarılması haqqında icra məmuru tərəfindən müvafiq akt tərtib olunur.

36. Maddə 87.1. İcra sənədinin icra olunması ilə bağlı icra məmurunun hərəkətlərindən və ya hərəkətsizliyindən tələbkar və ya borclu icra məmurunun olduğu yer üzrə inzibati məhkəməyə şikayət verə bilər.

Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi

37. Maddə 2.2.7. İnzibati mübahisələrin həlli ilə bağlı əmlak tələbinə, habelə inzibati orqanların qanunsuz qərarları (inzibati aktları) və ya hərəkətləri (hərəkətsizliyi) nəticəsində vurulmuş ziyana görə kompensasiyanın ödənilməsi tələbinə dair iddialara inzibati məhkəmə icraatı qaydasında baxılır.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi

38. Maddə 261.0.1. İş məhkəmədə və ya mülki məhkəmə icraatı qaydasında baxılmalı deyildirsə hakim iş üzrə icraata xitam verir.

39. Maddə 407.2. Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir.

40. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 avqust 2007-ci il tarixli, 136 nömrəli qərarı ilə təsdiq edilmiş “İnzibati orqanların Təsnifatı”

41. Bənd 2.1.1. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin icra xidməti inzibati orqan hesab olunur.

“İnzibati və mülki hüquq münasibətlərindən irəli gələn mübahisələrin məhkəmə aidiyyətinə dair” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 10 aprel 2015-ci il tarixli 4 nömrəli Qərarı

42. Bənd 7.1. İnzibati orqanların ümumi (publik) hüquq sahəsindəki səlahiyyətlərin icrasından doğan qanunsuz qərarları (inzibati aktları) və ya hərəkətləri (hərəkətsizliyi) nəticəsində maraqlı şəxsə vurulmuş ziyana görə müvafiq inzibati orqan məsuliyyət daşıyır. Maraqlı şəxsin vurulmuş ziyana görə kompensasiyanın ödənilməsi barədə tələbi inzibati orqan tərəfindən təmin edilmədikdə, bununla bağlı iddialara inzibati məhkəmə icraatı qaydasında baxılır.

Kassasiya baxışının hədləri

43. Qanunun tələbinə görə, kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq

normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

44. Hazırkı kassasiya şikayətində qərardad tam mübahisələndirildiyindən apellyasiya instansiyası məhkəməsinin aktı bütövlükdə yoxlanılır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

45. Məhkəmə kollegiyası aşağıdakılara əsasən hesab edir ki, apellyasiya instansiyası məhkəməsi tərəfindən prosessual hüquq normaları düzgün tətbiq edilmədiyinə görə mübahisələndirilən qərardad ləğv edilməli və iş sonrakı prosessual hərəkətlərin edilməsi üçün həmin məhkəməyə göndərilməlidir.

46. Belə ki, baxılan mübahisə, İddiaçının Biləcəri qəsəbəsində yerləşən mənzildən çıxarılması və həmin mənzilin boşaldılaraq MTK-ya qaytarılması barədə qanuni qüvvəyə minmiş qətnaməsi əsasında verilmiş icra sənədinin icrası zamanı İddiaçıya vurulmuş zərərin ödənilməsi ilə bağlıdır. İşə baxmış apellyasiya instansiyası məhkəməsi bu iddiaya inzibati məhkəmə icraatında baxılmalı olduğu barədə nəticəyə gəlmişdir.

47. İlk növbədə qeyd olunmalıdır ki, MPM-in 31.1-ci maddəsinə görə aidiyyət qaydalarının pozulmasına yol verilmir.

48. “Məhkəmələr və hakimlər haqqında” Qanunun 15-ci maddəsində də işlərin Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən edilmiş məhkəmə aidiyyətinin dəyişdirilməsi qadağan edilmişdir.

49. Məhkəmə aidiyyətinə ciddi əməl olunması barədə qayda, Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsində əksini tapmış hüquq və azadlıqların məhkəmədə müdafiəsinə təminat hüququ ilə bilavasitə bağlıdır. Məhkəmə müdafiəsi hüququnun tam həcmdə həyata keçirilməsi və pozulmuş hüquqların ədalət mühakiməsinin əsas prinsiplərinin tələblərinə cavab verən şəkildə bərpa edilməsi üçün qanunvericilikdə digər təminatlar da nəzərdə tutulmuşdur. Həmin təminatlardan biri Konstitusiyanın 62-ci maddəsində təsbit edilmiş hər kəsin onun işinə qanunla müəyyən edilmiş məhkəmədə baxılması hüququdur. Bu normada qeyd olunan “qanunla müəyyən edilmiş məhkəmə” müddəası, işlərə baxılması zamanı aidiyyət qaydalarına əməl olunmasını, qanunla müəyyən edilmiş məhkəmə tərkibinin mövcudluğunu, habelə digər əhəmiyyətli şərtləri əhatə edir.

50. Məhkəmə aidiyyəti ədalət mühakiməsinin həyata keçirilməsi zamanı şəxsin hüquqlarının və qanuni maraqlarının əsas prosessual təminatlarından biri kimi qəbul olunur.

51. Buna görə də verilmiş iddia tələbinin mümkünlüyü zamanı ilk növbədə iddianın aidiyyəti müəyyən edilməlidir. Bu zaman işdə iştirak edən şəxslərin subyektiv tərkibi, mübahisənin predmeti və hüquq münasibətlərinin xarakteri nəzərə alınır.

52. İcra sənədinin icra olunması ilə bağlı icra məmurunun hərəkətlərindən şikayətin aidiyyəti “İcra haqqında” Qanunun 87.1-ci maddəsində müəyyən edilmişdir. Həmin normaya görə, icra sənədinin icra olunması ilə bağlı icra məmurunun hərəkətlərindən və ya hərəkətsizliyindən tələbkar və ya borclu icra məmurunun olduğu yer üzrə inzibati məhkəməyə *şikayət* verə bilər.

53. Habelə İnzibati Prosessual Məcəllənin 2.2.7-ci maddəsinə əsasən, inzibati orqanların qanunsuz qərarları (inzibati aktları) və ya hərəkətləri (hərəkətsizliyi) nəticəsində vurulmuş ziyana görə kompensasiyanın ödənilməsi tələbinə dair iddialara inzibati məhkəmə icraatı qaydasında baxılır.

54. “İnzibati icraat haqqında” Qanunun 1-ci maddəsinə görə bu Qanun inzibati aktların qəbul edilməsi, icra olunması və ya ləğv edilməsi ilə bağlı inzibati orqanlar tərəfindən həyata

keçirilən fəaliyyətin hüquqi əsaslarını, prinsiplərini və prosedur qaydalarını müəyyən edir və inzibati orqanların fiziki və ya hüquqi şəxslərə münasibətdə faktiki xarakterli digər fəaliyyətinə (hərəkətlərinə) də şamil olunur.

55. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 avqust 2007-ci il tarixli, 136 nömrəli qərarı ilə təsdiq edilmiş "İnzibati orqanların Təsnifatı"nda Ədliyyə Nazirliyinin icra xidməti inzibati orqan kimi müəyyən edilmişdir.

56. Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 2-ci və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 25-ci maddələrinin inzibati xətalar haqqında işlər üzrə icraata aidiyyəti baxımından şərh edilməsinə dair" 4 aprel 2012-ci il tarixli Qərarında formalaşdırdığı hüquqi mövqeyə əsasən idarəçilik sahəsində ümumi (publik) hüquq münasibətləri dövlət idarəçiliyi və ya yerli özünüidarəetmə sahəsində yaranır və bilavasitə dövlət idarəetmə fəaliyyətinin həyata keçirilməsi prosesində inzibati orqanların vəzifə və səlahiyyətlərinin yerinə yetirilməsi ilə bağlıdır. Bu isə özündə inzibati orqanlar tərəfindən ümumi (publik) hüquq sahəsinə aid olan müəyyən (konkret) məsələlərin həllinə dair inzibati aktların qəbul edilməsini ehtiva edir.

57. İnzibati hüquq münasibətlərində tərəflərdən ən azı biri «İnzibati icraat haqqında» Qanunun 2.0.1 və 3.1-ci maddələrində nəzərdə tutulmuş mənada inzibati orqan olmalıdır. Lakin nəzərə alınmalıdır ki, tərəfin inzibati orqan olması, özlüyündə həmin işə məhz inzibati məhkəmə icraatı qaydasında baxılmasını şərtləndirmir. Hər bir halda inzibati orqanın iştirak etdiyi hüquq münasibətinin inzibati və ya xüsusi hüquqi münasibət olduğu müəyyən edilməlidir. Bu zaman inzibati orqanın həmin münasibətdə xüsusi hüququn subyekti (mülki dövriyyənin iştirakçısı) kimi iştirak etdiyinin, yaxud hakimiyyət səlahiyyətlərinin subyekti kimi inzibati orqanın yalnız ona xas olan fəaliyyəti həyata keçirdiyinin müəyyən edilməsi vacibdir. Bu zaman ümumi (publik) hüquq sahəsinin ictimai idarəetmə ilə bağlı olması və hakimiyyət səlahiyyətlərinin tətbiq edilməsi ilə müşayiət olunduğu nəzərə alınmalıdır.

58. "İnzibati və mülki hüquq münasibətlərindən irəli gələn mübahisələrin məhkəmə aidiyyətinə dair" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 10 aprel 2015-ci il tarixli qərarının 7.1-ci bəndində deyilir ki, inzibati orqanların ümumi (publik) hüquq sahəsindəki səlahiyyətlərinin icrasından doğan qanunsuz qərarları (inzibati aktları) və ya hərəkətləri (hərəkətsizliyi) nəticəsində maraqlı şəxsə vurulmuş ziyana görə müvafiq inzibati orqan məsuliyyət daşıyır. Maraqlı şəxsin vurulmuş ziyana görə kompensasiyanın ödənilməsi barədə tələbi inzibati orqan tərəfindən təmin edilmədikdə, bununla bağlı iddialara inzibati məhkəmə icraatı qaydasında baxılır.

59. Lakin nəzərə alınmalıdır ki, icra məmurunun icra sənədi üzrə «İcra haqqında» Qanuna uyğun olaraq qəbul etdiyi hər hansı qərar və ya icranın həyata keçirilməsinə yönəlmiş hərəkətləri bir qayda olaraq tərəflərin mövcud hüquqi vəziyyətində dəyişikliklərə səbəb olmayan faktiki xarakterli hərəkətlərdən ibarət olur. Yaşayış sahəsinin boşaldılması barədə icra sənədi əsasında icra məmurunun bilavasitə mənzilin boşaldılması ilə bağlı hərəkətləri və bu zaman hər hansı əşyanın korlanması, İPM-nin 2.2.7-ci maddəsi və "İcra haqqında" qanunun 87.1-ci maddəsi baxımından, inzibati məhkəmədə baxılmalı olan mübahisə deyil. Həmin norma, icra məmurunun öz publik səlahiyyətlərindən çıxış etməklə hər hansı qərar qəbul edilmədən, məhkəmə qərarının icrası ilə bağlı adi axarda həyata keçirilən faktiki xarakterli hərəkət səbəbindən yaranan ziyan tələbinə inzibati məhkəmədə baxılmasını nəzərdə tutmur. Bu normalar, icra məmurunun adi icra hərəkətlərinin kifayət etmədiyi halda, tərəflərə münasibətdə əlavə tədbirlərin görülməsinə yönələn qərar və ya hərəkətləri ehtiva edir.

60. Başqa sözlə İPM-nin 2.2.7-ci və “İcra haqqında” Qanunun 87.1-ci maddələri, icra məmurunun qanunsuz qərarları, publik səlahiyyətlərə bağlı (qərar xarakterli) hərəkətləri və ya hərəkətsizliyi səbəbindən ziyan vurulduğu hallarda mümkündür. İcra məmurunun bir sıra fəaliyyətləri hər hansı hüquqi vəziyyəti dəyişmir, qərar xarakteri daşımır və inzibati xarakter daşıyan hərəkət hesab edilmir. Yaşayış sahəsinin faktiki boşaldılması, əşyaların yığılması, daşınması, qapının açılması, bağlanması, inventarın götürülməsi və s. kimi hərəkətlər, texniki xarakterli olmaqla icra sənədinin icrasının təşkilinə yönəlib və fərqli bir hüquqi nəticə doğuran inzibati xarakterli hərəkət deyil.

61. İcra məmurunun mübabahisələndirilən fəaliyyəti İPM-nin 2.2.7-ci və “İcra haqqında” Qanunun 87.1-ci maddələrinin tətbiq dairəsinə daxil deyil. İcra məmurunun bu cür hərəkəti nəticəsində əmlakın korlanması (onun inzibati səlahiyyətlərindən kənarda baş verən fəaliyyət olub), mülki hüquq pozuntusu (zərərvurma) hesab olunur və bununla bağlı iddiaya mülki məhkəmə qaydasında, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1097-ci maddəsinin dispozisiya şərtləri əsasında baxılmalıdır.

62. Buna görə də məhkəmə kollegiyası hesab edir ki, apellyasiya instansiyası məhkəməsi tərəfindən “Binəqədi rayon İcra şöbəsinə qarşı maddi zərərin əvəzinin ödənilməsi” barədə tələbə inzibati hüquq münasibətlərindən irəli gələn mübahisə kimi qiymət verilməsi və həmin tələbə inzibati məhkəmə icraatında baxılmalı olduğu barədə gəldiyi nəticə əsassızdır.

63. MPM-in 418.1-ci maddəsinə görə maddi və prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması, o cümlədən maddi və prosessual hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması apellyasiya instansiyası məhkəməsinin qətnamə və qərardadının ləğv edilməsi üçün əsasdır.

64. Məhkəmə kollegiyası yuxarıda göstərilənlərə əsasən və MPM-in 416, 417 və 419-cu maddələrini rəhbər tutaraq,

Qərara aldı:

Kassasiya şikayəti qismən təmin edilsin.

Sumqayıt Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2025-ci il 20 iyun tarixli 2(105)-662/2025 nömrəli qərardadı ləğv edilsin və iş sonrakı prosessual hərəkətlərin edilməsi üçün həmin məhkəməyə göndərilsin.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

Digər prosessual məsələlər

75. 2(102)-3616/2023 nömrəli, 2023-cü il 18 sentyabr tarixli qərar - Ekspertin dindirilməsində müəyyən edilən hədlər

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: ekspertin dindirilməsində müəyyən edilən hədlər.

İddiaçının şəxsi mülkiyyətində 0,1545 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsindən cavabdehin çıxarılması, torpaq sahəsinin əvvəlki vəziyyətinin bərpa olunması və zəbt olunmuş torpaq sahəsinin naturada iddiaçıya təhvil verilməsi.

Ekspert rəyi, torpaqların elektron kadastr uçotu (TEKUİS).

Dövlət orqanlarının rəyi.

Sübutların qiymətləndirilməsi.

Ekspertin (mütəxəssisin) dindirilməsi.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Ekspert qarşısında yalnız xüsusi bilik tələb edən suallar qoyula və bu suallar ətrafında rəy verilə bilər. Rəy vermiş ekspertin bundan kənar, tədqiqat zamanı müşahidə etdiyi faktlar və hallar əsasında gəldiyi subyektiv qənaət, habelə məhkəmənin səlahiyyətlərinə aid olan hüquqi dəyərləndirməsi ekspertizanın predmetinə aid olmadığı üçün sübut əhəmiyyətinə malik deyildir. Bu mövqe eyni qaydada MPM-in 60-cı maddəsində müəyyən edilmiş dövlət orqanlarının rəylərinə də aiddir.

Həmçinin ekspert və ya dövlət orqanları tərəfindən verilmiş rəylərdə anlaşılmazlıqlar, ziddiyyətlər və qeyri-müəyyənliklər varsa, MPM-in 175-ci maddəsində ifadə edilmiş məhkəmə baxışının bilavasitəliyi və şifahiliyi prinsipinə görə hakim bu məsələni aydınlaşdırmaq üçün təqdim olunmuş rəyi tədqiq etməli, zərurət yaranarsa, ekspertin izahatını və mütəxəssisin məsləhət və şərhini dinləməklə həmin məsələlərə aydınlıq gətirməlidir. MPM-in 206-cı maddəsinə müvafiq olaraq zərurət olarsa məhkəmə əlavə və ya təkrar ekspertiza təyin edə bilər.

Lakin nəzərə almaq lazımdır ki, ekspertin və ya dövlət orqanının nümayəndəsinin məhkəmə iclasında dindirilməsi məhz verilmiş rəydə mövcud olan anlaşılmazlıqların (sualların) aradan qaldırmasına yönəldiyi üçün həmin rəyin məzmunun dəqiqləşdirilməsinə yönəlməli, faktiki olaraq rəydə qeyd olunanlardan tam fərqli nəticələr əsasında, yaxud rəydə əhatə olunmamış suallar üzrə yeni (əlavə) rəy verilməsinə səbəb olmamalıdır. Çünki MPM-in 102.1 və 102.2-ci maddələrinə əsasən ekspertin rəyinin kifayət qədər aydın və ya tam olmaması əlavə ekspertiza təyin edilməsi, məhkəmənin fikrinə görə əsassız olması isə təkrar ekspertiza keçirilməsi üçün əsasdır.

Kassasiya instansiyası məhkəməsinin qərarı Mülki Məcəllənin 157.2, Torpaq Məcəlləsinin 111, MPM-in 60, 64.1, 82.3, 97.1, 101.7, 102.1, 102.2, 102.3, 103.1, 103.2, 175.1, 175.2, “Məhkəmə ekspertizası fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununun 1, 12 və 26-cı maddələrinə istinadla əsaslandırılmışdır.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-3616/2023

18.09.2023-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi
Mülki kollegiyasının

İddiaçının Cavabdehə qarşı iş üzrə

Q Ə R A R I

Açar sözlər: torpaq sahəsindən çıxarma, preyudisiya, ekspert rəyi, dövlət orqanlarının rəyi, sübutların qiymətləndirilməsi, ekspertin (mütəxəssisin) dindirilməsi

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Hüseynov Abiddin Qabil oğlu (məruzəçi), Nurməmmədov Əhməd Güləhməd oğlu və Babayev Zəki Baba oğlundan ibarət tərkibdə,

İddiaçının Cavabdehə qarşı torpaq sahəsinin boşaldılması tələbinə dair mülki iş üzrə Şirvan Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(106)-49/2023 nömrəli, 10 may 2023-cü il tarixli qətnaməsindən cavabdeh tərəfindən verilmiş kassasiya şikayətinə Azərbaycan Respublikası Ali Məhkəməsinin inzibati binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi

İşin halları

1. Ünvan 1-də yerləşən 0,1545 ha torpaq sahəsi (bundan sonra – mübahisəli torpaq sahəsi)15.10.2015-ci il tarixdə daşınmaz əmlakın dövlət reyestrində tam mülkiyyət hüququ üzrə İddiaçının adına ******** nömrəsi ilə qeydiyyata alınmış, bununla bağlı sonuncuya dövlət reyestrindən RX seriyalı, ********* nömrəli çıxarış verilmişdir.

2. Şirvan Apellyasiya Məhkəməsi Mülki kollegiyasının qanuni qüvvəyə minmiş 2(106)-755/2017 nömrəli, 25 sentyabr 2017-ci il tarixli qətnaməsi ilə hazırkı iş üzrə iddiaçının X1-ə qarşı cavabdehin Ünvan 1-də yerləşən və ona məxsus 0,1545 ha torpaq sahəsindən çıxarılması, həmin torpaq sahəsində olan su quyuları üçün hazırlanmış günlərin götürülməsi, eləcə də torpaq sahəsinə hasarın çəkilməsinə olan maneələrin aradan qaldırılması barədə iddiası təmin edilməmişdir. Məhkəmə tərəfindən işdə olan sübutlar, o cümlədən ekspert rəyi əsasında müəyyən edilmişdir ki, iddiaçının cavabdehin çıxarılmasını tələb etdiyi mübahisəli torpaq sahəsi dövlət aktına əsasən X1-in və onun ailə üzvlərinin mülkiyyətinə verilmiş torpaq sahəsi nəinki zəbt olunmamış, həmin torpaq sahəsi cavabdehə daha öncə ayrılmaqla onun mülkiyyətindədir.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a) Birinci instansiya məhkəməsində icraat

3. İddiaçı Cavabdehə qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, cavabdehin zəbt etmiş olduğu mübahisəli torpaq sahəsindən çıxarılması, torpaq sahəsinin əvvəlki vəziyyətinin bərpa olunması və zəbt olunmuş torpaq sahəsinin naturada iddiaçıya təhvil verilməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

4. İddia tələbi onunla əsaslandırılmışdır ki, onun şəxsi mülkiyyətində 0,1545 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi vardır. Cavabdehin özbaşına hərəkətləri nəticəsində faktiki olaraq, mülkiyyətindən istifadə etmək hüququndan məhrum edilmişdir. Belə ki, cavabdeh torpaq sahəsini qanunsuz zəbt edərək, qeyri-kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olur. Torpaq sahəsinin zəbt olunması barədə hüquq mühafizə orqanlarına dəfələrlə müraciət etmiş və araşdırma zamanı cavabdeh özü də izahatında bunu etiraf etmişdir. Cavabdeh torpaq sahəsinin ona məxsus olduğunu iddia edir.

4. Məhkəmə baxışı zamanı cavabdeh iddianı qəbul etməyərək, izahatında bildirmişdir ki, torpaq sahəsi ona məxsusdur. 20 ildir həmin torpaq sahəsini əkib-becərir. İddiaçı torpağa dair sənədi qanunsuz yolla əldə etmişdir. Ona görə də torpaq sahəsindən çıxmayacaq.

5. Lənkəran Rayon Məhkəməsinin (bundan sonra - birinci instansiya məhkəməsi) 2(049)-63/2020 nömrəli, 3 mart 2020-ci il tarixli qətnaməsi ilə (sədrlik edən T.Məmmədov) iddia qismən təmin edilmiş, cavabdehin mübahisəli torpaq sahəsindən çıxarılması qət edilmişdir.

6. Məhkəmə öz mövqeyini onunla əsaslandırmışdır ki, cavabdeh həmin torpaq sahəsinin ona məxsus olduğunu iddia etmiş, iddiaçının çıxarışı qanunsuz yolla əldə etdiyini bildirmişdir. 19 fevral 2019-cu il tarixli qərardadla iş üzrə məhkəmə tikinti-texniki ekspertizası təyin edilmiş,

lakin cavabdeh öz hərəkətləri ilə dəfələrlə ekspertizanın keçirilməsinə mane olmuş, ekspertizanın keçirilməsi mümkün olmamışdır. Məhkəmə Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra - MPM) 97.5-ci maddəsinə əsasən hesab etmişdir ki, cavabdeh tərəfindən mübahisəli torpaq sahəsi zəbt edilmişdir. İddiaçı torpaq sahəsinin əvvəlki vəziyyətinin bərpa olunması tələbini irəli sürsə də, torpaq sahəsinin əvvəllər hansı vəziyyətdə olmasına dair məhkəməyə hər hansı sübut təqdim etmədiyindən iddia qeyd edilən hissədə təmin edilməməlidir.

7. Məhkəmə gəldiyi nəticəni Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsinə, Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra – Mülki Məcəllə) 140, 152.1, 152.5-ci, Azərbaycan Respublikası Torpaq Məcəlləsinin (bundan sonra – Torpaq Məcəlləsi) 111-ci, MPM-in 14.2, 77.1, 88, 97.5 və 119.1-ci maddələrinə istinadla əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsində birinci icraat

8. Cavabdeh apellyasiya şikayəti verərək, birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv edilməsini, iddianın rədd olunması barədə yeni qərar qəbul olunmasını xahiş etmişdir.

9. İş üzrə məhkəmə-mühəndislik ekspertizası təyin edilmiş, Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin 08 may 2021-ci il tarixli, 10/1502 saylı rəyi üzrə ekspert belə qənaətə gəlmişdir ki, iddiaçının mülkiyyətində olan mübahisəli torpaq sahəsi cavabdeh tərəfindən hasarlanaraq zəbt edilmişdir. Ekspert rəyi “XX” MMC tərəfindən verilmiş 15 mart 2021-ci il tarixli rəy əsasında (həmin rəyin mətni köçürülməklə) tərtib edilmişdir.

10. Şirvan Apellyasiya Məhkəməsi Mülki kollegiyasının (bundan sonra – apellyasiya instansiyası məhkəməsi) 2(106)-122/2021 nömrəli mülki iş üzrə 16 sentyabr 2021-ci il tarixli qətnaməsi ilə (hakimlər Z.Zeynalov (sədrlik edən və məruzəçi) Z.Allahyarov və M.Həsənov) ilə cavabdehin apellyasiya şikayəti təmin edilməmiş, birinci instansiya məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmışdır.

11. Apellyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsinin mövqeyi ilə razılaşmışdır.

c) Kassasiya instansiyası məhkəməsində birinci icraat

12. Cavabdeh kassasiya şikayəti verərək, apellyasiya instansiya məhkəməsinin qətnaməsinin ləğv edilməsini, iddianın rədd olunması barədə yeni qərar qəbul olunmasını xahiş etmişdir.

13. Kassasiya şikayəti iddiaya etirazın və apellyasiya şikayətinin dəlillərinə uyğun əsaslandırılmış, həmçinin qeyd edilmişdir ki, cavabdehin mülkiyyətində olan torpaq sahəsi Ünvan 2 ərazisində yerləşir və ancaq ondan istifadə edir. İddiaçının mülkiyyətində olan torpaq isə Ünvan 1 ərazisində yerləşir və cavabdehin mülkiyyətində olan torpaq sahəsindən 5-6 km aralı məsafədədir. Bu hal kənd bələdiyyəsi tərəfindən yaradılmış xüsusi komissiya tərəfindən də təsdiq olunmuşdur. Bundan başqa, “Torpaq münasibətlərinin tənzimlənməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 07 mart 2016-ci il tarixli, 818 saylı Fərmanının yerlərdə icrası ilə əlaqədar dövlət səviyyəsində yaradılmış işçi komissiyası Ünvan 2 ərazi vahidi üzrə torpaq mülkiyyətçilərinin faktiki yerləşmə vəziyyəti elektron kadastr uçotu qaydasında dürüst dəqiqləşmə işi aparmış və bu əsasda elektron baza xəritəsi hazırlanmışdır. Hazırlanmış xəritədə cavabdehin mülkiyyət və istifadəsində olan pay torpaq sahəsi Ünvan 2 ərazisində, iddiaçının mülkiyyətində olan torpaq sahəsi isə Ünvan 1-də yerləşməsi faktı öz əksini tapmışdır. Məhkəmə prosessual qanunvericiliyin tələblərinə zidd olaraq qeyri-mötəbər sübutlar əsasında nəticəyə gəlmişdir.

14. Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının 2(102)-797/2022 nömrəli mülki iş üzrə 28 yanvar 2022-ci il tarixli qərarı ilə (hakimlər S.Hacıyev (sədrlik edən və məruzəçi) A.Abbasov və E.Şamayev) ilə cavabdehin kassasiya şikayəti qismən təmin edilmiş, işin yenidən baxılması üçün apellyasiya instansiya məhkəməsinə göndərilməsi qərara alınmışdır.

15. Kassasiya instansiyası qeyd etmişdir ki, apellyasiya instansiyası məhkəməsi qətnamə qəbul edərkən işə əlavə edilmiş Şirvan Apellyasiya Məhkəməsinin 2(106)-755/2017 nömrəli, 25 sentyabr 2017-ci il tarixli qanuni qüvvəsini almış qətnaməsi ilə müəyyən edilmiş halları nəzərə almamışdır. Məhkəmə tərəfindən işdə olan sübutlara istinad edilməklə, cavabdeh tərəfin iddiaçının mülkiyyətində olan torpaq sahəsinin zəbt edilməsi qənaətinə gəlinmiş, lakin işdə olan sübutlara MPM-in 88-ci və 103.1-ci maddələrinin tələbləri baxımından qiymət verməmiş və sübutlar arasında olan ziddiyyətlərə aydınlıq gətirməmişdir.

d) Apellyasiya instansiyası məhkəməsində ikinci icraat

16. Yeni apellyasiya baxışı zamanı əlavə məhkəmə tikinti-texniki ekspertizası təyin edilmişdir.

17. Həmin ekspertiza üzrə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri publik hüquqi şəxsinin 10 saylı Lənkəran Ərazi İdarəsinin 10.11.2022-ci il tarixli, X2 tərəfindən tərtib olunmuş mütəxəssis rəyində aşağıdakılar qeyd olunmuşdur:

18. "Araşdırma zamanı məlum oldu ki, mülki işin mübahisə predmeti JN-*** nömrəli "Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı" əsasında verilmiş pay torpaq sahəsidir.

Müəyyən olundu ki, torpaq islahatı zamanı Lənkəran rayon AİK-nın 21.02.1998-ci il tarixli, 03 nömrəli qərarı əsasında JN-*** nömrəli "Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı" ilə 0,22 ha pay torpaq sahəsi (2 yerdə olmaqla 0,1545 ha və 0,0685 ha) X3 və ailə üzvlərinin mülkiyyətlərinə verilmiş və həmin torpaq sahəsi 2006-cı ildə daşınmaz əmlakın alğı-satqı müqaviləsi əsasında digər şəxsə Ünvan 2 qəsəbəsində yaşayan X4-ə satılmışdır. Son olaraq sözügedən 0,22 ha torpaq sahəsini X4-dən 2015-ci ildə daşınmaz əmlakın alğı-satqı müqaviləsi əsasında hazırkı mülki işdə iddiaçı qismində olan İddiaçı satın almışdır. Qeyd olunan 0,22 ha torpaq sahəsinin mübahisəli ərazidə yerləşən 0,1545 ha hissəsinə dair əvvəl yaranmış hüquqların daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınması ilə bağlı İddiaçının ərizəsi Ərazi İdarəsində icraata qəbul edilərək sözügedən torpaq sahəsinə daşınmaz əmlakın dövlət reyestrindən 15 oktyabr 2015-ci il tarixli, ****** qeydiyyat nömrəli müvafiq Çıxarış və ******* reyestr nömrəli "Torpaq sahəsinin planı və ölçüsü" sənədi tərtib olunmuşdur. Sözügedən torpaq sahəsinin yerləşmə yerinin koordinatları əks olunan "Torpaq sahəsinin planı və ölçüsü" sənədi torpaq islahatı zamanı texniki, qüsurlu hazırlanmış, naturaya uyğun gəlməyən DWG faylına əsasən tərtib olunmuşdur. "Azərbaycan Respublikasında torpaq münasibətlərinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 mart tarixli 818 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasında torpaqların elektron kadastr uçotu işləri aparılmış və həmin məlumatlar Torpaqların elektron kadastr uçotu informasiya sisteminə (TEKUİS-ə) və AZCAD-a miqrasiya edilmişdir. Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən ********* reyestr nömrəli Çıxarışa (ilkin hüquqmüəyyənedici sənəd JN-*** nömrəli "Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı" əsasında) əsasən İddiaçının mülkiyyətində olan Lənkəran rayonunun Ünvan 1-də yerləşən 0,1545 ha torpaq sahəsinin sərhədləri və koordinatları Torpaqların elektron kadastr uçotu informasiya sisteminə əsasən müəyyən edildi. Araşdırma zamanı məlum oldu ki, iddiaçı İddiaçının mülkiyyətində olan həmin 0,1545 ha torpaq sahəsi elektron kadastr uçotu informasiya sistemində Ünvan 1 ərazisində yerləşməklə iddiaçının iddia etdiyi yerdə deyil, iddia olunan yerdən 185-190 metr aralı faktiki istifadə

vəziyyətinə uyğun öz əksini tapmışdır. Yəni elektron uçot işləri nəticəsində tərtib edilmiş rəqəmsal kadastr xəritəsində torpaq sahələri faktiki istifadə vəziyyətlərinə uyğun işlənilərək sözügedən 0,1545 ha torpaq sahəsinin yerləşdiyi yer isə digər torpaq mülkiyyətçisinin uzunmüddətli faktiki istifadə vəziyyətinə uyğun öz əksini tapmışdır. Eyni zamanda araşdırma zamanı iddiaçı tərəfindən həmin torpaq sahəsi satın alındığı tarixdən bəri istifadə edilməməsi müəyyən olundu. Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən ********* reyestr nömrəli Çıxarışa əsasən Cavabdeh , X5, X6, X7 və X8-in ümumi birgə mülkiyyətlərində olan Ünvan 2 qəsəbəsində yerləşən 0,0299 ha torpaq sahəsinin sərhədləri və koordinatları müəyyən edildi. Mövcud baza məlumatlarına əsasən araşdırma zamanı həmin 0,0299 ha torpaq sahəsinin Ünvan 1 ərazisindəki mübahisəli yerdə deyil, qonşu Ünvan 2 qəsəbəsində yerləşməsi müəyyən edildi. Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən ******** reyestr nömrəli Çıxarışa əsasən Cavabdeh , X5, X6, X7 və X8-in ümumi birgə mülkiyyətlərində olan Ünvan 2 qəsəbəsində yerləşən 0,221 ha torpaq sahəsinin sərhədləri və koordinatları müəyyən edildi. Mövcud baza məlumatlarına əsasən araşdırma zamanı həmin 0,221 ha torpaq sahəsinin Ünvan 1 ərazisindəki mübahisəli yerdə deyil, qonşu Ünvan 2 qəsəbəsində yerləşməsi müəyyən edildi. Hazırkı iş üzrə mübahisə predmeti olan iddiaçı iddia etdiyi torpaq sahəsi Ünvan 1-də yerləşir. Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən ******* reyestr nömrəli Çıxarışa (ilkin hüquqmüəyyənedici sənəd JN-*** nömrəli "Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı" əsasında) əsasən İddiaçının mülkiyyətində olan Ünvan 1-də yerləşən 0,1545 ha torpaq sahəsi elektron kadastr uçotu informasiya sistemində Ünvan 1 ərazisində yerləşməklə iddiaçının iddia etdiyi yerdə deyil, iddia olunan yerdən 185-190 metr aralı yerləşir. Tədqiqat zamanı mülki işdə cavabdeh qismində olan Cavabdeh mübahisəli ərazidən istifadə etmədiyini bildirdi. Həmin mübahisəli torpaq sahəsinin digər şəxs X1 tərəfindən istifadə olunduğu müşahidə olundu. "Azərbaycan Respublikasında torpaq münasibətlərinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 mart tarixli 818 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması və rəqəmsal kadastr xəritəsinin tərtib olunması Qaydaları"na əsasən ərazidə aparılmış elektron uçot işləri nəticəsində tərtib edilmiş rəqəmsal kadastr xəritəsində İddiaçınun iddia etdiyi sözügedən 0,1545 ha torpaq sahəsi hazırki iş materiallarında adıçəkilməyən şəxs-X9 və ailə üzvlərinin (JN-*** nömrəli "Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı" əsasında) faktiki istifadələrində olan torpaq sahəsi öz əksini tapmış və həmin məlumatlar Torpaqların elektron kadastr uçotu informasiya sisteminə (TEKUİS-ə) və AZCAD-a miqrasiya edilmişdir.

19. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin 10/7660 saylı, 24 yanvar 2023-cü il tarixli, X10 tərəfindən verilmiş ekspert rəyi yuxarıda göstərilən mütəxəssis rəyi müəyyən ixtisarla köçürülməklə tərtib edilmiş və qeyd edilmişdir ki, iddiaçının mülkiyyətində olan, mübahisəli torpaq sahəsinin kim tərəfindən zəbt edilməsinin, istifadə olunmasının müəyyən olunması hüquqi xarakterli məsələ olmaqla, ekspertizanın predmetinə aid deyil və məhkəmə tərəfindən həll edilə bilər.

20. Apellyasiya instansiyası məhkəməsinin 3 may 2023-cü il tarixli iclasında iştirak edən Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin eksperti X10 izahatında bildirmişdir ki, o, 24 yanvar 2023-cü il tarixli ekspert rəyini Əmlak Məsələləri Dövlət Xidmətinin "kadastr.az" sistemi ilə, həmçinin iş materialları əsasında araşdırma apararaq vermişdir. Rəyin nəticə hissəsində 1-ci və 5-ci sualların cavabları üzrə 1-ci abzası təqdim edilmiş mütəxəssis rəyində olduğu kimi göstərmişdir. Mütəxəssis rəyində iddiaçının mülkiyyətində olan torpaq sahəsinin iddia edilən yerdə deyil, əmin yerdən təxminən 185-190 metr aralıda yerləşdiyi qeyd olunmuşdur. Lakin onun özü tərəfindən aparılan araşdırma nəticəsində müəyyən olunmuşdur ki, iddiaçının mülkiyyətində olan torpaq sahəsi yolun

kənarında birinci sırada yerləşən torpaq sahəsidir və həmin torpaq sahəsinin yaxınlığında bir idarənin inzibati binası yerləşir. Ərazinin tərpənməz oriyentirlərinə istinadən onun tərəfindən aşkarlanmışdır ki, iddiaçının mülkiyyətində olan torpaq sahəsi ilə onun iddia etdiyi torpaq sahəsi üst-üstə düşür. Lakin mütəxəssis rəyində iddiaçının mülkiyyətində olan torpaq sahəsinin iddia olunan yerdən 185-190 metr aralıda, yoldan içərilərə doğru yerləşməsinin qeyd olunma səbəbini bilmir. Ekspert qərardadın 6-cı sualı üzrə ekspert rəyində göstərilmiş nəticə, yəni iddiaçının torpaq sahəsinin digər şəxs X1 tərəfindən istifadə olunmasının müşahidə edilməsi ilə bağlı verilmiş suala cavab olaraq bildirmişdir ki, həmin hissəni yalnız mütəxəssisin verdiyi rəy əsasında yazmışdır.

21. Həmin məhkəmə iclasında iştirak edən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri publik hüquqi şəxsinin 10 saylı Lənkəran Ərazi İdarəsinin mütəxəssisi X2 izahatında bildirmişdir ki, Ərazi İdarəsinin 10 noyabr 2022-ci il tarixli məktubu ilə təqdim edilmiş mütəxəssis rəyinin verilməsi zamanı tədqiqatı Azərbaycan Respublikası Prezidentinin 7 mart 2016-cı il tarixli, 818 nömrəli Fərmanı əsasında aparılmış elektron uçot xəritələrinə uyğun olaraq həyata keçirmişdir. İddiaçının mülkiyyətində olan torpaq sahəsi Aqrar İslahat Komissiyasının vətəndaşlara verdiyi pay torpaq sahələrindəndir. İlkin sənədlərdəki koordinatlardan görünür ki, həqiqətən də, ekspertin bildirdiyi kimi, iddiaçının mülkiyyətində olan torpaq sahəsi yolun kənarında yerləşməli olsa da, hazırkı faktiki istifadə ilə bağlı hazırlanmış elektron xəritələrə görə yolun kənarında yerləşmir. O da mütəxəssis rəyini məhz həmin xəritələrə uyğun vermişdir. İddiaçının ilkin sənədləri ilə işlənmiş sonuncu xəritələr arasındakı ziddiyyətin səbəbi ona məlum deyil. Mübahisəli torpaq sahəsinə baxış keçirilməsi üçün gedərkən onu ilk öncə özünü X1 kimi təqdim edən şəxs qarşılamış, mübahisəli ərazinin girişində qıfıllı qapı olmuş, torpaq sahəsinə baxış keçirilməli olduğu bildirilərkən, özünü X1 kimi təqdim etmiş şəxs açarın onda olmadığını bildirmiş, kənarda maşında əyləşmiş Cavabdehdən açarı götürərək qıfılı açmışdır. Lakin torpaq sahəsinin kimin istifadəsində olması soruşulduqda X1 onun öz istifadəsində olduğunu bildirmişdir. Bu səbəbdən də mütəxəssis rəyində mübahisəli torpaq sahəsinin Cavabdeh tərəfindən deyil, X1 tərəfindən istifadə olunduğunun müşahidə edildiyini qeyd etmişdir.

22. Apellyasiya instansiyası məhkəməsinin 2(106)-49/2023 nömrəli, 10 may 2023-cü il tarixli qətnaməsi ilə (hakimlər S.Mayılov (sədrlik edən və məruzəçi) İ.Əsədov və T.Heydərov) ilə cavabdehin apellyasiya şikayəti təmin edilməmiş, birinci instansiya məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmışdır.

23. Apellyasiya instansiyası məhkəməsi mütəxəssis X2-in rəydəki nəticəyə gəlmək üçün əsas götürdüyü faktiki halları (onu X1 kimi təqdim etmiş şəxsin qarşılaması, sonucunun onları qarşılamış olsa da, mübahisəli ərazinin girişində qıfıllı qapı olması, X1-in açarın onda olmadığını bildirməsi, kənarda maşında əyləşmiş Cavabdehdan açarı götürərək qıfılı açması) nəzərə alaraq belə qənaətə gəlmişdir ki, X1 mübahisəli torpaq sahəsinin öz istifadəsində olduğunu bildirsə də, açarın onda olmaması onun torpaq sahəsinə faktiki sahiblik etmədiyini, sonuncu dəfə mütəxəssis tərəfindən mübahisəli torpaq sahəsinə baxış keçirilənədək cavabdeh Cavabdehin özünü torpağın sahibi kimi təqdim etməsi torpaq sahəsinin əslində Cavabdehin sahibliyində və istifadəsində olduğunu göstərir. Bu zaman həm də nəzərə alınmalıdır ki, İddiaçının əvvəllər X1-ə qarşı torpaq sahəsindən çıxarılma barədə iddiası olmuş, lakin Şirvan Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 25 sentyabr 2017-ci il tarixli, 2(106)755/2017 saylı qətnaməsi ilə iddia tələbi təmin edilməmiş, müəyyən olunmuşdur ki, iddiaçının mülkiyyətində olan torpaq sahəsi X1 tərəfindən tutulmamışdır. Həmin iş üzrə **** nömrəli, 28 iyul 2017-ci il tarixli ekspert rəyində mübahisəli torpaq sahəsinin kəndin digər vətəndaşları tərəfindən istifadə edildiyi qeyd olunmuşdur. İddiaçının nümayəndəsi (vəkil) də məhkəmənin iclasında X1-lə Cavabdehin qohum olduğunu, onlardan birinə qarşı iddia qaldırdıqda torpaq sahəsinin digəri tərəfindən idarə edildiyini bildirdiklərini, bununla da məhkəmənin yanlış yönləndirilməsinə cəhd

etdiklərini qeyd etmişdir. Əslində torpaq sahəsi hazırda həqiqətən də Cavabdeh tərəfindən istifadə edilir.

Kassasiya şikayətinin və ona etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

24. Cavabdeh kassasiya şikayəti verərək, apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin tam ləğv edilməsi və iddianın rədd edilməsinə dair yeni qərar qəbul olunmasını xahiş etmişdir.

25. Kassasiya şikayəti onunla əsaslandırılmışdır ki, əgər müvafiq ekspertiza təyin edilmişdirsə, həmin torpağa ekspertiza mərkəzindən gələn ekspert baxış keçirməklə, bu mübahisəyə aydınlıq gətirməli idi. Belə ki, hər hansı bir torpaq sahəsinin zəbt olunması faktını müəyyən etmək üçün müvafiq məlumat bazasına, texniki və digər vasitələrə malik təşkilatın rəyi əsaslı ola bilər. Lakin həmin təşkilatın işdə heç bir rəyi yoxdur. Məhkəmənin hansı səbəbdən qeyd olunan təşkilatın rəyini və ya zərurət yaranarsa, müvafiq ekspertizaların rəylərinin alınmasından ötrü tədbir görməməsi qeyri-müəyyən qalmışdır. Bununla bağlı, cavabdehin verdiyi vəsatətlər də baxılmamış qalmışdır. Bundan başqa, iddiaçının mülkiyyət sənədində qeyd olunan torpaqla cavabdehin istifadə etdiyi torpaq sahəsi eyni deyil. Cavabdeh heç kimin torpağını zəbt etməmiş, özünə məxsus torpaqdan istifadə etmişdir.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

26. Kassasiya şikayətinə qarşı yazılı etiraz daxil olmamışdır.

Tətbiq edilən hüquq

Mülki Məcəllə

27. Maddə 157.2. Mülkiyyətçi özgəsinin qanunsuz sahibliyindən öz əmlakını geri tələb edə bilər.

Torpaq Məcəlləsi

28. Maddə 111. Azərbaycan Respublikasında torpaqların özbaşına tutulması (zəbt edilməsi) qanunla qadağan olunur. Özbaşına tutulmuş (zəbt edilmiş) torpaq sahələri qanunsuz istifadə zamanı çəkilən xərclərin əvəzi ödənilmədən aidiyyəti üzrə geri qaytarılmalıdır. Torpaqların əvvəlki vəziyyətinə gətirilməsi (orada olan binaların, tikililər və qurğuların sökülməsi də daxil olmaqla) torpaqları zəbt etmiş hüquqi və fiziki şəxslər tərəfindən və ya onların hesabına həyata keçirilir.

Mülki Prosessual Məcəllə

29. Maddə 14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

30. Maddə 60. Qanunla nəzərdə tutulmuş hallarda məhkəmə qətnamə çıxaranadək onlara tapşırılmış vəzifələrin həyata keçirilməsi, fiziki şəxslərin hüquqlarının, azadlıqlarının və qanunla qorunan mənafelərinin, habelə dövlət və ictimai mənafelərin müdafiəsi məqsədi ilə iş üzrə rəy vermək üçün dövlət orqanlarını və yerli özünüidarə orqanlarını prosesdə iştirak etməyə cəlb edə bilər.

31. Maddə 64.1. İşə baxılarkən məhkəməyə kömək etmək üçün zəruri texniki, digər bilik və düşüncəyə malik olan şəxs məhkəmədə mütəxəssis qismində çıxış edə bilər.

32. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

33. Maddə 82.3. Bir mülki iş üzrə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsi ilə müəyyən edilmiş faktlar həmin işdə iştirak edən şəxslər tərəfindən başqa məhkəmə prosesində mübahisələndirilmir və yenidən sübut edilmir

34. Maddə 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

35. Maddə 97.1. İşə baxılarkən xüsusi bilik tələb olunan sualları izah etmək üçün məhkəmə işdə iştirak edən şəxsin vəsatəti və ya öz təşəbbüsü ilə ekspertiza təyin edə bilər. İşdə iştirak edən şəxsin vəsatəti rədd edildikdə məhkəmə bu barədə əsaslandırılmış qərardad qəbul etməlidir.

36. Maddə 101.7. Ekspertin rəyi məhkəmədə tədqiq olunur və digər sübutlarla yanaşı qiymətləndirilir.

37. Maddə 102.1. Ekspertin rəyi kifayət qədər aydın və ya tam olmadıqda, məhkəmə əlavə ekspertiza təyin edə bilər və onun keçirilməsini həmin və ya başqa ekspertə tapşıra bilər.

38. Maddə 102.2. Məhkəmə, əsassızlığına görə ekspertin rəyi ilə razılaşmadıqda, habelə bir neçə ekspertin rəyləri arasında ziddiyyətlər olduqda, ekspertiza aparılmasını başqa ekspertə və ya ekspertlərə tapşırmaqla, təkrar ekspertiza təyin edə bilər.

39. Maddə 102.3. Məhkəmə işdə iştirak edən şəxslərin vəsatəti ilə əlavə və ya təkrar ekspertiza təyin edə bilər. İşdə iştirak edən şəxsin vəsatəti rədd edildikdə məhkəmə bu barədə əsaslandırılmış qərardad qəbul etməlidir.

40. Maddə 103.1. Ekspertin rəyi məhkəmə üçün məcburi deyildir və bu Məcəllənin 88-ci maddəsində müəyyən edilmiş qaydalar üzrə məhkəmələr tərəfindən qiymətləndirilir.

41. Maddə 103.2. Ekspertin rəyi ilə məhkəmənin razılaşmaması iş üzrə qətnamədə və ya qərardadda əsaslandırılmalıdır.

42. Maddə 175.1. Məhkəmə işə baxarkən iş üzrə sübutları bilavasitə tədqiq etməyə, tərəflərin və üçüncü şəxslərin izahatlarını, şahidlərin ifadələrini, ekspertlərin rəylərini dinləməyə, yazılı sübutlarla tanış olmağa, maddi sübutları müayinə etməyə, səs yazılarına qulaq asmağa, video yazılara baxmağa və işə baxılması ilə əlaqədar digər hərəkətləri etməyə borcludur.

43. Maddə 175.2. Zəruri hallarda iş üzrə sübutların tədqiqi zamanı məhkəmə mütəxəssisin məsləhəti və şərhini dinləyir.

44. Maddə 407.2. Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmədiyi üçün kassasiya instansiyası məhkəməsi şikayətin belə dəlilləri üzrə araşdırma aparmır və onlara qiymət vermir.

45. Maddə 416.1 Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

46. Maddə 417.1.3. Apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadını tamamilə, yaxud qismən ləğv edib işi yenidən baxılmaq üçün apellyasiya instansiyası məhkəməsinə göndərə bilər

47. Maddə 418.1. Maddi və prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması, o cümlədən maddi və prosessual hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması apellyasiya instansiyası məhkəməsinin qətnamə və qərardadının ləğv edilməsi üçün əsasdır.

48. Maddə 420. Kassasiya instansiyasında işə baxan məhkəmənin qərarında şərh edilən göstərişlər həmin işə yenidən baxan məhkəmə üçün məcburidir.

“Məhkəmə ekspertizası fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu

49. Maddə 1. Bu Qanunda aşağıdakı anlayışlardan istifadə olunur: məhkəmə ekspertizası - təhqiqat, ibtidai istintaq orqanının və ya məhkəmənin (hakimin) icraatında olan işin halları barədə informasiya daşıyan maddi obyektlər, hadisələr və proseslər haqqında xüsusi elmi biliklər əsasında aparılan tədqiqatdır;

50. Maddə 12. Ekspert məhkəmə ekspertizasının aparılmasından aşağıdakı hallarda imtina edir:
...verilən suallar ekspertin zəruri biliyindən kənara çıxdıqda.

51. Maddə 26. Məhkəmə ekspertinin (ekspertlərinin) rəyində aşağıdakılar göstərilir: ...istifadə edilən metodlar göstərilməklə tədqiqatın məzmunu və nəticələri; tədqiqatın nəticələrinin qiymətləndirilməsi, qoyulmuş suallar üzrə yekun nəticələrinin
əsaslandırılması və dürüst ifadə olunması.

Kassasiya baxışının hədləri

52. Qanunun tələbinə görə, kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

53. Hazırkı icraat üzrə apellyasiya instansiyası məhkəməsinin aktı cavabdehin kassasiya şikayəti əsasında tam yoxlanılır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

54. Hazırkı iş üzrə kassasiya instansiyası məhkəməsinin əvvəlki qərarında verilmiş göstərişlərdən biri ondan ibarət olmuşdur ki, apellyasiya instansiyası məhkəməsi qətnamə qəbul edərkən işə əlavə edilmiş Şirvan Apellyasiya Məhkəməsinin 2(106)-755/2017 nömrəli, 25 sentyabr 2017-ci il tarixli qanuni qüvvəsini almış qətnaməsi ilə müəyyən edilmiş halları nəzərə almamışdır.

55. İş materiallarına əlavə edilmiş Şirvan Apellyasiya Məhkəməsi Mülki kollegiyasının qanuni qüvvəyə minmiş 2(106)-755/2017 nömrəli, 25 sentyabr 2017-ci il tarixli qətnaməsi ilə hazırkı iş üzrə iddiaçının X1-ə qarşı cavabdehin Ünvan 1-də yerləşən və ona məxsus 0,1545 ha torpaq sahəsindən çıxarılması, həmin torpaq sahəsində olan su quyuları üçün hazırlanmış günlərin götürülməsi, eləcə də torpaq sahəsinə hasarın çəkilməsinə olan maneələrin aradan qaldırılması barədə iddiası təmin edilməmişdir. Məhkəmə tərəfindən işdə olan sübutlar, o cümlədən ekspert rəyi əsasında müəyyən edilmişdir ki, iddiaçının cavabdehin çıxarılmasını tələb etdiyi mübahisəli torpaq sahəsi dövlət aktına əsasən X1-in və onun ailə üzvlərinin mülkiyyətinə verilmiş torpaq sahəsi nəinki zəbt olunmamış, həmin torpaq sahəsi cavabdehə daha öncə ayrılmaqla onun mülkiyyətindədir.

56. Beləliklə, iddiaçının tərəf olduğu digər iş üzrə mübahisə predmeti olan torpaq sahəsinin həmin iş üzrə cavabdehin mülkiyyətində olduğu və zəbt edilmədiyi müəyyən edilmişdir. Eyni zamanda hazırkı iş üzrə mübahisə predmeti olan torpaqla həmin torpaq sahələrinin eyni olduğu da işin mübahisəsiz halıdır. Hətta apellyasiya instansiyası məhkəməsi baxılan qətnamədə

iddiaçının nümayəndəsinin izahatına istinad edərək, mövqeyini onunla əsaslandırmışdır ki, X1-lə hazırkı iş üzrə cavabdeh qohumdur, onlardan birinə qarşı iddia qaldırdıqda torpaq sahəsinin digəri tərəfindən idarə edildiyini bildirir, bununla da məhkəmənin yanlış yönləndirilməsinə cəhd edirlər.

57. Buna baxmayaraq apellyasiya instansiyası məhkəməsi hazırkı iş üzrə iddiaçının tərəf olduğu başqa iş üzrə müəyyən edilmiş halların MPM-in 82.3-cü maddəsinə əsasən hazırkı iş üzrə preyudisial əhəmiyyətə malik olub-olmadığı barədə heç bir hüquqi dəyərləndirmə aparmamışdır. Həmin maddənin tələblərinə əsasən bir mülki iş üzrə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsi ilə müəyyən edilmiş faktlar həmin işdə iştirak edən şəxslər tərəfindən başqa məhkəmə prosesində mübahisələndirilmir və yenidən sübut edilmir.

58. Bununla yanaşı, nəzərə alınmalıdır ki, torpaq münasibətlərinin tənzimlənməsi mexanizmlərini təkmilləşdirmək, torpaqların elektron uçotunu aparmaq, elmi-texniki tərəqqinin inkişafı nəticəsində yaranmış müasir coğrafi informasiya sistemləri, geodeziya avadanlıq və cihazları tətbiq edilməklə torpaqların faktiki istifadə vəziyyəti ilə hüquqları təsdiq edən sənədlərdə olan uyğunsuzluqların aradan qaldırılmasına nail olmaq, torpaqlardan daha səmərəli istifadəni təmin etmək məqsədi ilə "Azərbaycan Respublikasında torpaq münasibətlərinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 07 mart 2016-cı il tarixli, 818 nömrəli Fərmanı imzalanmışdır.

59. Həmin Fərmanla "Azərbaycan Respublikasında torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması və rəqəmsal kadastr xəritəsinin tərtib olunması Qaydaları" təsdiq edilmişdir.

60. Göründüyü kimi Fərmanla yaradılan torpaqların elektron kadastr uçotu informasiya sisteminin və rəqəmsal kadastr xəritəsinin əsas məqsədlərindən biri məhz torpaqların faktiki istifadə vəziyyəti ilə hüquqları təsdiq edən sənədlərdə olan uyğunsuzluqların aradan qaldırılması olmuşdur. Fərmanın 2.3-cü bəndinə əsasən digər məsələlər yanaşı, həmin sistem və xəritə hazırlanarkən torpaq islahatı zamanı verilmiş pay torpaqlarında hüquqi və texniki sənədlərdəki məkan göstəriciləri ilə torpaqlardan faktiki istifadə vəziyyətinin məkan göstəriciləri arasında mövcud olan uyğunsuzluqların (sərhəd, yerləşmə və konfiqurasiya fərqlərinin) Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 43-cü maddəsinə uyğun olaraq yerquruluşu qaydasında aradan qaldırılması Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə tapşırılmışdır. Fərmanın icrası qaydasında Azərbaycan Respublikasında torpaqların elektron kadastr uçotu işləri aparılmış və həmin məlumatlar Torpaqların elektron kadastr uçotu informasiya sisteminə (TEKUİS) və AZCAD-a inteqrasiya edilmişdir.

61. Yeni apellyasiya baxışı zamanı təyin edilmiş əlavə ekspertiza üzrə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri publik hüquqi şəxsinin 10 saylı Lənkəran Ərazi İdarəsinin mütəxəssisi tərəfindən verilmiş rəydə və həmin rəyi təkrarlayan Məhkəmə Ekspertizası Mərkəzinin rəyində qeyd edilmişdir ki, hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən ******** reyestr nömrəli çıxarışa (ilkin hüquq müəyyənedici sənəd JN-*** nömrəli "Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı" əsasında) əsasən iddiaçının mülkiyyətində olan 0,1545 ha mübahisəli torpaq sahəsi elektron kadastr uçotu informasiya sistemində Ünvan 1 ərazisində yerləşməklə iddiaçının iddia etdiyi yerdə deyil, iddia olunan yerdən 185-190 metr aralı faktiki istifadə vəziyyətinə uyğun öz əksini tapmışdır. Yəni elektron uçot işləri nəticəsində tərtib edilmiş rəqəmsal kadastr xəritəsində torpaq sahələri faktiki istifadə vəziyyətlərinə uyğun işlənərək sözügedən 0,1545 ha torpaq sahəsinin yerləşdiyi yer isə digər torpaq mülkiyyətçisinin uzunmüddətli faktiki istifadə vəziyyətinə uyğun öz əksini tapmışdır.

62. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin 10/7660 saylı, 24 yanvar 2023-cü il tarixli, X10 tərəfindən verilmiş ekspert rəyi yuxarıda göstərilən mütəxəssis rəyi müəyyən ixtisarla köçürülməklə tərtib edilmiş və qeyd edilmişdir ki, iddiaçının mülkiyyətində olan, mübahisəli torpaq sahəsinin kim tərəfindən zəbt edilməsinin, istifadə

olunmasının müəyyən olunması hüquqi xarakterli məsələ olmaqla, ekspertizanın predmetinə aid deyil və məhkəmə tərəfindən həll edilə bilər.

63. Bununla yanaşı, apellyasiya instansiyası məhkəməsinin 03 may 2023-cü il tarixli iclasında rəy vermiş ekspert və mütəxəssis dindirilmişdir.

64. Məhkəmə Ekspertizası Mərkəzinin eksperti X10 izahatında bildirmişdir ki, o, 24 yanvar 2023-cü il tarixli ekspert rəyini Əmlak Məsələləri Dövlət Xidmətinin "kadastr.az" sistemi ilə, həmçinin iş materialları əsasında araşdırma apararaq vermişdir. Rəyin nəticə hissəsində 1-ci və 5-ci sualların cavabları üzrə 1-ci abzası təqdim edilmiş mütəxəssis rəyində olduğu kimi göstərmişdir. Mütəxəssis rəyində iddiaçının mülkiyyətində olan torpaq sahəsinin iddia edilən yerdə deyil, həmin yerdən təxminən 185-190 metr aralıda yerləşdiyi qeyd olunmuşdur. Lakin onun özü tərəfindən aparılan araşdırma nəticəsində müəyyən olunmuşdur ki, iddiaçının mülkiyyətində olan torpaq sahəsi yolun kənarında birinci sırada yerləşən torpaq sahəsidir və həmin torpaq sahəsinin yaxınlığında bir idarənin inzibati binası yerləşir. Ərazinin tərpənməz oriyentirlərinə istinadən onun tərəfindən aşkarlanmışdır ki, iddiaçının mülkiyyətində olan torpaq sahəsi ilə onun iddia etdiyi torpaq sahəsi üst-üstə düşür. Lakin mütəxəssis rəyində iddiaçının mülkiyyətində olan torpaq sahəsinin iddia olunan yerdən 185-190 metr aralıda, yoldan içərilərə doğru yerləşməsinin qeyd olunma səbəbini bilmir. Ekspert qərardadın 6-cı sualı üzrə ekspert rəyində göstərilmiş nəticə, yəni iddiaçının torpaq sahəsinin digər şəxs X1 tərəfindən istifadə olunmasının müşahidə edilməsi ilə bağlı verilmiş suala cavab olaraq bildirmişdir ki, həmin hissəni yalnız mütəxəssisin verdiyi rəy əsasında yazmışdır.

65. Dövlət Xidmətinin Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri publik hüquqi şəxsinin 10 saylı Lənkəran Ərazi İdarəsinin mütəxəssisi X2 izahatında bildirmişdir ki, ilkin sənədlərdəki koordinatlara görə, həqiqətən də, ekspertin bildirdiyi kimi, iddiaçının mülkiyyətində olan torpaq sahəsi yolun kənarında yerləşməli olsa da, hazırkı faktiki istifadə ilə bağlı hazırlanmış elektron xəritələrə görə yolun kənarında yerləşmir. O da mütəxəssis rəyini məhz həmin xəritələrə uyğun vermişdir. İddiaçının ilkin sənədləri ilə işlənmiş sonuncu xəritələr arasındakı ziddiyyətin səbəbi ona məlum deyil. Mübahisəli torpaq sahəsinə baxış keçirilməsi üçün gedərkən onu ilk öncə özünü X1 kimi təqdim edən şəxs qarşılamış, mübahisəli ərazinin girişində qıfıllı qapı olmuş, torpaq sahəsinə baxış keçirilməli olduğu bildirilərkən, özünü X1 kimi təqdim etmiş şəxs açarın onda olmadığını bildirmiş, kənarda maşında əyləşmiş Cavabdehdan açarı götürərək qıfılı açmışdır. Lakin torpaq sahəsinin kimin istifadəsində olması soruşulduqda X1 onun öz istifadəsində olduğunu bildirmişdir. Bu səbəbdən də mütəxəssis rəyində mübahisəli torpaq sahəsinin Cavabdeh tərəfindən deyil, X1 tərəfindən istifadə olunduğunun müşahidə edildiyini qeyd etmişdir.

66. Nəzərə alınmalıdır ki, iş üzrə ekspert rəyləri mülki iş üzrə əldə edilən sübutlar sırasında olmaqla, MPM-in 88-ci maddəsinə əsasən onların da məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur. İşin hallarından asılı olaraq, yaxud qanunun birbaşa göstərişinə əsasən məhkəmə işə baxılması zamanı ekspertiza təyin etmişsə və ya müvafiq dövlət orqanlarından rəylər almışsa, hər bir halda alınmış rəyi məhkəmə prosesi zamanı tədqiq etməli, tərəflərlə müzakirə etməli və digər sübutlarla yanaşı qiymətləndirməlidir. Məhkəmənin sübutlardan biri kimi ekspert rəyi və ya onun müəyyən hissələri ilə razılaşmamaq hüququ olduğu kimi, MPM-in 103.2-ci maddəsinə əsasən, bu halı qəbul etdiyi qətnamədə və ya qərardadda əsaslandırmaq vəzifəsi də vardır.

67. MPM-in 97.1-ci maddəsinə əsasən iş üzrə ekspertiza xüsusi bilik tələb olunan sualları izah etmək üçün təyin edə bilər. MPM-in 101.6-cı maddəsinə əsasən ekspert rəyində aparılmış tədqiqatların müfəssəl təsviri, onlara əsasən çıxarılmış nəticələr və məhkəmə tərəfindən qoyulmuş suallara əsaslandırılmış cavablar verilməlidir.

68. "Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanuna əsasən məhkəmə ekspertizası - təhqiqat, ibtidai istintaq orqanının və ya məhkəmənin (hakimin) icraatında olan işin halları barədə informasiya daşıyan maddi obyektlər, hadisələr və

proseslər haqqında xüsusi elmi biliklər əsasında aparılan tədqiqatdır (maddə 1). Ekspert qarşısında qoyulan suallar ekspertin zəruri biliyindən kənara çıxdıqda ekspert məhkəmə ekspertizasının aparılmasından imtina etmək hüququ vardır (maddə 12).

69. Eyni zamanda MPM-in 60-cı maddəsinə əsasən qanunla nəzərdə tutulmuş hallarda məhkəmə qətnamə çıxaranadək onlara tapşırılmış vəzifələrin həyata keçirilməsi, fiziki şəxslərin hüquqlarının, azadlıqlarının və qanunla qorunan mənafelərinin, habelə dövlət və ictimai mənafelərin müdafiəsi məqsədi ilə iş üzrə rəy vermək üçün dövlət orqanlarını və yerli özünüidarə orqanlarını prosesdə iştirak etməyə cəlb edə bilər.

70. Göründüyü kimi ekspert qarşısında yalnız xüsusi bilik tələb edən suallar qoyula və bu suallar ətrafında rəy verilə bilər. Rəy vermiş ekspertin bundan kənar, tədqiqat zamanı müşahidə etdiyi faktlar və hallar əsasında gəldiyi subyektiv qənaət, habelə məhkəmənin səlahiyyətlərinə aid olan hüquqi dəyərləndirməsi ekspertizanın predmetinə aid olmadığı üçün sübut əhəmiyyətinə malik deyildir. Bu mövqe eyni qaydada MPM-in 60-cı maddəsində müəyyən edilmiş dövlət orqanlarının rəylərinə da aiddir.

71. Həmçinin ekspert və ya dövlət orqanları tərəfindən verilmiş rəylərdə anlaşılmazlıqlar, ziddiyyətlər və qeyri-müəyyənliklər varsa, MPM-in 175-ci maddəsində ifadə edilmiş məhkəmə baxışının bilavasitəliyi və şifahiliyi prinsipinə görə hakim bu məsələni aydınlaşdırmaq üçün təqdim olunmuş rəyi tədqiq etməli, zərurət yaranarsa, ekspertin izahatını və mütəxəssisin məsləhət və şərhini dinləməklə həmin məsələlərə aydınlıq gətirməlidir. MPM-in 206-cı maddəsinə müvafiq olaraq zərurət olarsa məhkəmə əlavə və ya təkrar ekspertiza təyin edə bilər.

72. Lakin nəzərə almaq lazımdır ki, ekspertin və ya dövlət orqanının nümayəndəsinin məhkəmə iclasında dindirilməsi məhz verilmiş rəydə mövcud olan anlaşılmazlıqların (sualların) aradan qaldırmasına yönəldiyi üçün həmin rəyin məzmunun dəqiqləşdirilməsinə yönəlməli, faktiki olaraq rəydə qeyd olunanlardan tam fərqli nəticələr əsasında, yaxud rəydə əhatə olunmamış suallar üzrə yeni (əlavə) rəy verilməsinə səbəb olmamalıdır. Çünki MPM-in 102.1 və 102.2-ci maddələrinə əsasən ekspertin rəyinin kifayət qədər aydın və ya tam olmaması əlavə ekspertiza təyin edilməsi, məhkəmənin fikrinə görə əsassız olması isə təkrar ekspertiza keçirilməsi üçün əsasdır.

73. Lakin baxılan iş üzrə apellyasiya instansiyası məhkəməsi yuxarıda sadalanan prosessual hüquq normalarının tələblərinə zidd olaraq işin hallarını ekspert rəyində xüsusi biliklər tələb edən məsələ üzrə verilmiş nəticələr əsasında deyil, belə rəylərin predmetinə aid olmayan və rəyin məzmunu ilə tam ziddiyyət təşkil edən, rəy vermiş şəxslərin tədqiqat zamanı müşahidə etdiyi faktlar və hallar əsasında gəldiyi subyektiv qənaət əsasında müəyyən etmişdir.

74. Məhkəmə kollegiyası qeyd olunanları nəzərə alaraq hesab edir ki, iddiaçının kassasiya şikayəti qismən təmin olunmalı, yuxarıda göstərilən prosessual hüquq pozuntuları ilə əlaqədar apellyasiya instansiyası məhkəməsinin qətnaməsi ləğv edilməli, iş yeni apellyasiya baxışına göndərilməli, işə yenidən baxılarkən kassasiya instansiyası məhkəməsinin əvvəlki qərarında verilmiş və MPM-in 420-ci maddəsinə əsasən məcburi olan göstərişləri, habelə bu Qərarın əsaslandırıcı hissəsində istinad olunan prosessual hüquq normalarının tələbləri nəzərə alınmaqla yeni məhkəmə aktı qəbul edilməlidir.

75. Yuxarıda göstərilənlərə əsasən və MPM-in 416, 417 və 419-cu maddələrini rəhbər tutaraq, Məhkəmə kollegiyası

Qərara aldı:

Cavabdeh tərəfindən verilmiş kassasiya şikayəti qismən təmin edilsin.

Şirvan Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(106)-49/2023 nömrəli mülki iş üzrə 10 may 2023-cü il tarixli qətnaməsi ləğv edilsin, iş yeni apellyasiya baxışına qaytarılsın.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

76. 2-2(102)-575/2023 nömrəli, 2023-cü il 4 dekabr tarixli qərar - Kredit müqaviləsindən irəli gələn tələblər üzrə kredit öhdəliyinin mövcudluğunu sübut etmək vəzifəsi

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: kredit müqaviləsindən irəli gələn tələblər üzrə kredit öhdəliyinin mövcudluğunu sübut etmək vəzifəsi

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Kredit müqaviləsindən irəli gələn tələblər üzrə kredit öhdəliyinin mövcudluğunu sübut etmək vəzifəsi iddiaçının (kreditorun) üzərinə düşür. Bu məqsədlə iddiaçı tərəfindən məhkəməyə kredit müqaviləsi (əsli və ya lazımi qaydada təsdiq edilmiş surəti), o cümlədən kredit məbləğinin cavabdehə verilməsini təsdiq edən sənədlər təqdim edilməyibsə və təqdim edilmiş ödəniş qəbzlərindən onların hansı müqavilə üzrə ödənildiyi müəyyən olunmursa, öhdəliyin mövcudluğu sübuta yetirilmədiyindən bankların bu kateqoriya tələbləri əsaslı hesab edilmir. Bankın təqdim etdiyi hesabdan çıxarış və maliyyə arayışı isə birtərəfli qaydada tərtib edilmiş sənədlər olduğundan həmin halı təsdiq edən mötəbər sübutlar kimi qəbul edilmir.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2-2(102)-575/2023

04.12.2023-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının

İddiaçının ləğvedicisi Əmanətlərin Sığortalanması Fondunun Cavabdehə qarşı iş üzrə

Q Ə R A R I

Açar sözlər: kredit borcunun qaytarılması, kredit müqaviləsinin təqdim olunmaması, sübutetmə vəzifəsi

Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyası, hakim Çingiz İsgəndər oğlu Əsgərovun məruzəsi ilə, hakimlər Elşanə Rafiq qızı Vəliyeva və Əhliman Mehman oğlu Xıdırovdan ibarət tərkibdə,

İddiaçının ləğvedicisi Əmanətlərin Sığortalanması Fondunun (bundan sonra - "iddiaçı") cavabdehə (bundan sonra - "cavabdeh") qarşı "kredit borcunun qaytarılması" tələbinə dair kommersiya işi üzrə Bakı Apellyasiya Məhkəməsi Kommersiya Kollegiyasının 2023-cü il 12 iyun tarixli 2-2(103)-140/2023 nömrəli qətnaməsindən cavabdeh tərəfindən verilmiş kassasiya şikayətinə yazılı icraat qaydasında baxmışdır.

I. İŞİN HALLARI

1. İddiaçının mövqeyinə görə, 2015-ci il sentyabrın 18-də "X3 ilə cavabdeh arasında bağlanmış 0812124000014710000 nömrəli kredit müqaviləsinə əsasən cavabdehə 36 ay müddətinə illik 6 % ödəmək şərtilə 15.000 (on beş min) manat məbləğində kredit verilmişdir.

2. İddiaçının təqdim etdiyi ödəniş qəbzlərinə və hesabdan çıxarışa əsasən, 2015ci il 30 oktyabr tarixindən 2019-ci il 27 fevral tarixinədək olan dövr ərzində cavabdehin adına ümumilikdə 6675 (altı min altı yüz yetmiş beş) manat məbləğində ödənişlər edilmiş, 50 manat məbləğində sonuncu ödəniş 2019-cu il fevralın 27-də həyata keçirilmişdir. Həmin ödəniş qəbzlərindən ikisində, yəni 2017-ci il 17 noyabr tarixli qəbzdə "Kimdən" qrafasında "X1", 2017-ci il 20 dekabr tarixli qəbzdə isə "X2", digər qəbzlərdə isə cavabdehin adı qeyd olunmuşdur.

3. İddiaçının 2022-ci il aprelin 12-də təqdim etdiyi maliyyə arayışına əsasən cavabdeh tərəfindən 2015-ci il 30 oktyabr tarixindən 2019-cu il 27 fevral tarixinədək əsas borc məbləğindən 4.680,43 manat, faiz borcundan 1.994,57 manat olmaqla, ümumilikdə 6.675 manat məbləğində ödəniş edildiyi qeyd olunmuşdur.

4. Mərkəzi Bankın Problemli kredit məlumatlarının sorğulanması saytından əldə olunmuş məlumata əsasən, cavabdehə verilmiş kredit üzrə restrukturizasiya olunmalı, dövlət büdcəsi hesabına kompensasiya olunmalı əsas kredit borclarına dair məlumatlar hazırda dəqiqləşdirilmə mərhələsindədir.

5. 2021-ci il iyunun 14-də iddiaçı tərəfindən cavabdehə göndərilmiş pretenziya məktubunda 2015-ci il 18 sentyabr tarixli ********** nömrəli kredit müqaviləsi üzrə 13.726,55 (on üç min yeddi yüz iyirmi altı manat əlli beş qəpik) manat məbləğində borcun ödənilməsi tələb edilmiş, əks təqdirdə məhkəməyə müraciət olunacağı barədə xəbərdarlıq edilmişdir.

İŞ ÜZRƏ QƏBUL EDİLMİŞ MƏHKƏMƏ AKTLARI

a) Birinci instansiya məhkəməsindəki icraat

6. 2021-ci il dekabrın 20-də iddiaçı cavabdehə qarşı iddia ərizəsi ilə Bakı Kommersiya Məhkəməsinə müraciət edərək, Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra – "MM") 385.1, 427.3, 442, 445, 449.1, 465-ci maddələrinə əsaslanaraq, 10.319,57 (on min üç yüz on doqquz manat əlli yeddi qəpik) manat əsas, 1.100,80 (bir min yüz manat səksən qəpik) manat faiz, 899,06 (səkkiz yüz doxsan doqquz manat altı qəpik) manat cərimə, kredit müqaviləsi bitdikdən sonra Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 2014-cü il 24 dekabr tarixli qərarına əsasən hesablanmış 1.407,12 (bir min dörd yüz yeddi manat on iki qəpik) manat, 200 (iki yüz) manat mediasiya xərci, 31,20 manat (otuz bir manat iyirmi qəpik) dövlət rüsumu, ümumilikdə 13.726,55 (on üç min yeddi yüz iyirmi altı manat əlli beş qəpik) manat məbləğində pulun cavabdehdən tutularaq iddiaçıya ödənilməsi barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

7. Cavabdeh iddiaya qarşı etiraz və izahatında bildirmişdir ki, X3-dən 15.000 (on beş min) manat məbləğində kredit götürməmiş və iddiaçının istinad etdiyi kredit müqaviləsini bağlamamış, iddiaçının tələbinin əsası kimi istinad edilən sübutlar siyahısında isə tərəflər arasında müqavilə öhdəliklərinin şərtlərini müəyyən edən 2015-ci il 18 sentyabr tarixli kredit müqaviləsi yoxdur. Eyni zamanda, iddiaçı cavabdehin iddia tələbində qeyd edilmiş pul vəsaitini götürməsini təsdiq edən sənədlər, kassa məxaric orderi təqdim etməmişdir.

8. Cavabdeh, həmçinin iddia müddətinin tətbiq edilməsi barədə ərizə təqdim edərək qeyd etmişdir ki, iddiaçının istinad etdiyi 2015-ci il 18 sentyabr tarixli kredit müqaviləsi üzrə son ödəniş tarixi 2018-ci il sentyabrın 18-i olduğundan, həmin müqavilə üzrə iddia müddətinin son

tarixi 2021-ci il 18 sentyabr tarixi müəyyən edilməlidir. Lakin iddiaçı iddia ərizəsini 2021-ci il noyabrın 22-də imzalamaqla iddia müddətini ötürmüşdür.

9. Bakı Kommersiya Məhkəməsinin (hakim İlham Bayram oğlu Əhmədov) 2022-ci il 12 aprel tarixli e-2-2(113)-555/2022 nömrəli qətnaməsi ilə iddia qismən təmin edilərək, cavabdehdən 10.319,57 (on min üç yüz on doqquz manat, əlli yeddi qəpik) əsas borc, 1.100,80 manat (bir min yüz manat səksən qəpik) faiz borcu, ilkin mediasiya sessiyasının keçirilməsi ilə bağlı ödənilmiş 200 (iki yüz) manat məbləğində xərc və iş üzrə ödənilmiş 31.20 manat (otuz bir manat iyirmi qəpik) dövlət rüsumu, ümumilikdə 11.651,57 manat (on bir min altı yüz əlli bir manat əlli yeddi qəpik) pulun tutularaq iddiaçıya ödənilməsi qət edilmiş, iddia qalan hissədə təmin olunmamışdır.

10. Birinci instansiya məhkəməsinin qətnaməsində göstərilmişdir ki, iddiaçı iddia ərizəsində qeyd etdiyi 2015-ci il 18 sentyabr tarixli ********** nömrəli kredit müqaviləsini məhkəməyə təqdim edə bilməsə də, işin hallarından məlum olur ki, həqiqətən də tərəflər arasında kredit müqaviləsi üzrə münasibətlər əmələ gəlmiş və həmin müqavilə üzrə cavabdehə kredit verilmişdir. İş materiallarına əlavə edilmiş ödəniş qəbzləri və hesabdan çıxarışdan görünür ki, 2015-ci il 30 yanvar - 2019-cu il 27 fevral tarixlərini əhatə edən dövrdə cavabdeh tərəfindən kredit müqaviləsi üzrə müvafiq ödənişlər edilmiş, sonuncu ödəniş isə 2019-cu il 27 fevral tarixli ödəniş qəbzinə əsasən həmin tarixdə həyata keçirilmişdir. Buna görə də, iddiaçı tərəfindən qanunvericiliklə müəyyən olunmuş 3 il müddət ötürülmədən məhkəməyə müraciət edilmişdir.

11. Kredit məbləği cavabdeh tərəfindən qəbul olunduğundan, kredit və faizlərin bir hissəsi cavabdeh tərəfindən ödənildiyindən, yəni cavabdeh kredit müqaviləsini bəyəndiyindən və bu bəyənmə cavabdehin kredit müqaviləsi üzrə hüquq və vəzifələrinin müqavilənin bağlandığı andan əmələ gəlməsinə səbəb olduğundan kredit müqaviləsi üzrə tələb edilən əsas borc və faiz borcu hissəsində iddia tələbi əsaslı olduğundan təmin edilməli, iddiaçı tərəfindən tələb edilən cərimə məbləğinin müqavilədə nəzərdə tutulması ilə bağlı müvafiq sübutlar mövcud olmadığından bu hissədə isə iddia tələbi əsassızdır.

12. Eyni zamanda, MM-in 445 və 449-cu maddələrinin hazırkı mübahisəyə tətbiqi üçün hər hansı əsas olmadığından iddia tələbi 1.407,12 (bir min dörd yüz yeddi manat on iki qəpik) manat məbləğinin ödənilməsi hissəsində də təmin edilməmişdir.

13. Məhkəmə qətnaməsi MM-in 373.2, 373.3, 399.1, 405.2, 409.4, 425.1, 431.1, 442, 443.1, 445.2.1, 448.1, 448.2, 448.3, 460.1, 462.1, 462.3, 739.1, 739.2-ci maddələrinə istinad edilməklə əsaslandırılmışdır.

14. Cavabdeh tərəfindən həmin qətnamədən verilmiş apellyasiya şikayətində qətnamənin ləğv olunması, iddianın rədd olunması barədə qətnamə qəbul edilməsi xahiş olunmuşdur.

b) Apellyasiya instansiyası məhkəməsindəki birinci icraat

15. Cavabdeh apellyasiya şikayətində iddia ərizəsinə qarşı etirazında və iddia müddətinin ötürülməsi barədə ərizəsində qeyd etdiyi faktiki və hüquqi halları təkrarlamaqla, bildirmişdir ki, birinci instansiya məhkəməsi tərəfindən sübutetmə vəzifəsi düzgün müəyyən edilməmiş, iddiaçı iddia ərizəsində qeyd etdiyi şərtlərlə və məbləğdə kredit müqaviləsini məhkəməyə təqdim edə bilməmişdir.

16. Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının (sədrlik edən və məruzəçi Raqib Əliddin oğlu Qurbanov, hakimlər Vüsalə Ələkbər qızı Baxışova və Vidadi Məmməd oğlu Məmmədov) 2022-ci il 5 iyul tarixli 2-2(103)-582/2022 nömrəli qətnaməsi ilə cavabdehin apellyasiya şikayəti təmin olunmuş, birinci instansiya məhkəməsinin qətnaməsi ləğv edilmiş, iddia rədd olunmuşdur.

17. Apellyasiya instansiyası məhkəməsi qeyd etmişdir ki, iddiaçı öz tələblərinin əsası kimi istinad etmiş kredit müqaviləsini, həmçinin 15.000 (on beş min) manat məbləğində pulun cavabdehə verilməsini əks etdirən sənədləri (kassa məxaric orderi, qəbz, ödəniş tapşırığı və s.) məhkəməyə təqdim etməmiş, bununla Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra – "MPM") 77.1-ci maddəsi ilə üzərinə düşən sübut etmə vəzifəsini yerinə yetirə bilməmişdir.

18. Eyni zamanda, apellyasiya instansiyası məhkəməsi hesab etmişdir ki, iddia əsassız olduğu üçün cavabdeh tərəfindən verilmiş iddia müddətinin tətbiqi barədə ərizəyə qiymət verilməsinə lüzum olmamışdır.

19. İddiaçı Bakı Apellyasiya Məhkəməsinin qətnaməsindən verilmiş kassasiya şikayətində qətnamənin ləğv olunmasını, iddianın təmin olunması barədə yeni qərar qəbul olunmasını xahiş etmişdir.

c) Kassasiya instansiyası məhkəməsindəki birinci icraat

20. Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının (məruzəçi Bəhram Məmməd oğlu Məmmədli, hakimlər Bəhman Fərhad oğlu Qəribov və İlqar Ağababaş oğlu Dadaşov) 2022-ci il 22 noyabr tarixli 2-2(102)-707/2022 nömrəli qərarı ilə iddiaçının kassasiya şikayəti qismən təmin olunmuş, apellyasiya instansiyası məhkəməsinin qətnaməsi ləğv edilmiş, iş yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmişdir.

21. Məhkəmə qeyd etmişdir ki, apellyasiya instansiyası məhkəməsi iddiaçının təqdim etdiyi hesabdan çıxarış və kassa mədaxil orderlərini qeyri-mötəbər, cavabdehin sözlərini isə mötəbər sübut kimi qiymətləndirmişdir. Halbuki, işin məhkəmələr tərəfindən müəyyən edilmiş hallarından görünür ki, cavabdeh tərəfindən banka 2015-ci il 30 oktyabr tarixindən 2019-cu il 27 fevral tarixinədək olan dövrdə əsas borc məbləğindən 4.680,43 manat (dörd min altı yüz səksən manat qırx üç qəpik), faiz borcundan 1.994,57 manat (bir min doqquz yüz doxsan dörd manat əlli yeddi qəpik) olmaqla ümumilikdə 6.675 (altı min altı yüz yetmiş beş) manat məbləğində ödəniş həyata keçirilmişdir.

22. Məhkəmənin mövqeyinə görə, cavabdeh iş materiallarında olan ödənişlərin digər kredit müqaviləsi üzrə həyata keçirildiyini bildirsə də, bununla bağlı hər hansı tutarlı sənədi, o cümlədən digər kredit müqaviləsini məhkəməyə təqdim etməmişdir. Bununla da, apellyasiya instansiyası məhkəməsi sübutetmə qaydalarını (MPM-in 77.1 və 106.1-ci maddələri) pozaraq onun izahatını mötəbər sübut kimi qiymətləndirmişdir.

23. Bundan başqa, apellyasiya instansiyası məhkəməsi MPM-in 88-ci maddəsinin tələblərini pozaraq, öz qətnaməsində Azərbaycan Respublikasının Mərkəzi Bankının Problemli kredit məlumatlarının sorğulanması portalından (pk.cbar.az) çıxarılmış məlumata (bax, yuxarıda 4-cü paraqrafa) ümumiyyətlə istinad etməmiş və qiymət verməmiş, o cümlədən iş apellyasiya icraatında olarkən sözügedən məlumatların dəqiqləşdirilməsi prosesinin başa çatıb-çatmamasını, eləcə də bu portalın fəaliyyətinə məsul olan müvafiq dövlət qurumuna iddiaçı tərəfindən mübahisə predmeti olan müqavilənin təqdim edilib-edilməməsini aydınlaşdırmamışdır.

24. Məhkəmə qərarında öz qənaətini MPM-in 77.1, 88, 106.1, 217, 416-cı maddələrinə istinad etməklə əsaslandırmışdır.

d) Apellyasiya instansiyası məhkəməsindəki ikinci icraat

25. Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının (sədrlik edən və məruzəçi Mirzə Nəsib oğlu Tağızadə, hakimlər Şərafət Asif qızı Məmmədova və Kamran Hüseyn oğlu Əkbərov) 2023-cü il 12 iyun tarixli e-2-2(103)-140/2023 nömrəli qətnaməsi ilə cavabdehin apellyasiya şikayəti qismən təmin edilmiş, birinci instansiya məhkəməsinin qətnaməsi qismən - “1100,80 manat (bir min yüz manat səksən qəpik) məbləğində faiz borcunun cavabdehdən tutulması” hissəsində ləğv olunmuş, həmin hissədə iddia rədd edilmiş, qətnamə qalan hissədə dəyişdirilmədən saxlanılmışdır.

26. Apellyasiya instansiyası məhkəməsi hesab etmişdir ki, birinci instansiya məhkəməsinin qətnaməsi cavabdehdən iddiaçının xeyrinə 10.319,57 manat (on min üç yüz on doqquz manat, əlli yeddi qəpik) əsas borc, ilkin mediasiya sessiyasının keçirilməsi ilə bağlı ödənilmiş 200 (iki yüz) manat məbləğində xərc və iş üzrə ödənilmiş 31.20 manat (otuz bir manat iyirmi qəpik) dövlət rüsumu məbləğinin tutulması hissəsində əsaslı olsa da, 1.100,80 manat (bir min yüz manat səksən qəpik) faiz borcunun tutulması hissəsində əsaslı olmamışdır.

27. Məhkəmənin mövqeyinə görə, cavabdeh işdə olan ödəniş qəbzlərinin digər kredit müqaviləsi üzrə ödənişlərə aid olmasını bildirsə də, istinad etdiyi kredit müqaviləsini, bununla da öz dəlillərini əsaslandırmaq üçün hər hansı sübutu məhkəməyə təqdim etməmişdir.

Mübahisənin predmeti olman kredit müqaviləsinin faktiki təqdim edilməməsinə baxmayaraq, işin faktiki halları (edilmiş ödənişlər və s.) müqavilənin mövcud olmasına dəlalət etmiş, lakin müqavilənin özü və şərtləri məhkəməyə birbaşa təqdim edilmədiyindən, hansı faiz məbləği əsasında borcun hesablanması konkret olaraq məlum deyildir. Belə olan halda, hər hansı dəlil olmadan iddiaçı tərəfindən irəli sürülən faiz məbləğinə dair cavabdehdən pul tutulması əsassızdır.

28. Məhkəmə qətnaməsi MM-in 373.2, 373.3, 405.2, 409.4, 425.1, 431.1, 442, 443.1, 445.2.1, 448.1, 448.2, 448.4, 449.1, 460.1, 462.1, 462.3, 739.1, 739.2-ci, MPM-in 14.2, 77.1, 88-ci maddələrinə istinad edilməklə əsaslandırılmışdır.

29. Qətnamədən cavabdeh tərəfindən verilmiş kassasiya şikayətində qətnamənin tam ləğv olunması, işin yenidən baxılması üçün apellyasiya məhkəməsinə göndərilməsi xahiş olunmuşdur.

KASSASİYA ŞİKAYƏTİNİN VƏ ONA QARŞI ETİRAZIN DƏLİLLƏRİ

a) Kassasiya şikayətinin dəlilləri

30. Kassator MM-in 324.4, 324.6, 385.1, 386.1, 389.1, 405.1, 739.1, 739.2 və 740cı maddələri tələblərinin pozulmasını bildirərək, qeyd etmişdir ki, iş üzrə iddia tələbinin əsasını təşkil edən hal tərəflər arasında müqavilənin bağlanması olmuş, lakin məhkəməyə bu halı sübut edən heç bir mötəbər sənəd təqdim edilməmişdir.

31. Bundan əlavə, kassator MPM-in 77.1-ci maddəsinin tələbləri pozulmasını bildirmişdir.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

32. İddiaçı kassasiya şikayətinə qarşı yazılı etiraz təqdim edərək, cavabdehin kassasiya şikayətinin dəlillərinin formal mülahizələrə əsaslandığını bildirmişdir.

II. KASSASİYA ŞİKAYƏTİNİN MÜMKÜNLÜYÜ, KASSASİYA BAXIŞININ HƏDLƏRİ

33. Kassasiya şikayəti vaxtında, yəni apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin təqdim olunduğu gündən 2 ay müddətində verilmiş (MPM-in 405.0.1-ci maddəsi), kassasiya şikayətinin məzmunu MPM-in 407-ci maddəsinin tələblərinə uyğundur. Ona görə də, şikayət mümkün hesab edilmişdir.

34. Cavabdeh kassasiya şikayətində qətnamənin tam ləğv edilməsini xahiş etsə də, kassasiya şikayətinin dəlilləri qətnamənin iddianın təmin edilən hissələri (əsas borc, mediasiya xərci və iddia ərizəsinin verilməsi üçün ödənilmiş dövlət rüsumunun tutulması) ilə bağlı olduğundan məhkəmə aktının qanuniliyi və əsaslılığı yalnız həmin hissələrdə yoxlanılacaqdır (MPM-in 403 və 416-cı maddələri).

35. Kassasiya instansiyası məhkəməsi tərəfindən işin faktiki halları yoxlanılmasa da, apellyasiya instansiyası məhkəməsinin maddi və prosessual hüquq normalarını düzgün tətbiq edib-etməməsini yoxlayarkən hüquqi məsələlərin düzgün qiymətləndirilməsi üçün işin faktiki hallarının nəzərə alınması və onlara istinad olunması zəruridir. Kassasiya instansiyası məhkəməsinin işin müəyyən edilmiş faktiki hallarına istinad etməsi faktiki halların yoxlanılması və araşdırılması kimi qiymətləndirilməməlidir.

III. TƏTBİQ EDİLƏN HÜQUQ

36. MM-in müvafiq müddəalarında aşağıdakılar nəzərdə tutulur:

“Maddə 386. Öhdəliklərin əmələ gəlməsi əsasları

386.1. Öhdəliyin zərər vurulması, əsassız varlanma və ya bu Məcəllədə nəzərdə tutulmuş digər əsaslar nəticəsində əmələ gəlməsi halları istisna olmaqla, öhdəliyin əmələ gəlməsi üçün onun iştirakçıları arasında müqavilə olmalıdır.

...”

37.MPM-in müvafiq müddəalarında aşağıdakılar nəzərdə tutulur:

“Maddə 14. İş üzrə məhkəmə baxışının prinsipləri

...

14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

...”

“Maddə 76. Sübutlar

76.1. Tərəflərin tələb və etirazlarını əsaslandıran halların və işi düzgün həll etmək üçün əhəmiyyəti olan başqa halların mövcud olduğunu və ya olmadığını məhkəmə müəyyən edərkən bu Məcəllədə və başqa qanunlarda müəyyən olunmuş qaydada əldə etdiyi məlumatlar sübutlar hesab olunur."

"Maddə 77. Sübut etmə vəzifəsi

77.1. Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

..."

"Maddə 88. Sübutların qiymətləndirilməsi

Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur."

"Maddə 416. Kassasiya instansiyasında işə baxmanın hədləri

416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

416.2. Apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 418.4-cü maddəsində nəzərdə tutulmuş prosessual hüquq pozuntusu hesab edilən hallara yol verilməsi şikayətin hədlərindən və dəlillərindən asılı olmayaraq yoxlanılmalıdır."

"Maddə 417. Kassasiya instansiyası məhkəməsinin səlahiyyətləri

417.1.4. Kassasiya instansiyası məhkəməsi apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadını tamamilə, yaxud qismən ləğv edib apellyasiya instansiyası məhkəməsində müəyyən edilmiş hallar və sübutlar əsasında yeni qərar qəbul edə bilər.

417.2. Məcəllənin 417.1.4-cü maddəsində nəzərdə tutulmuş qərar yalnız o halda qəbul edilir ki, apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi hüquq normaları pozulmuş və ya düzgün tətbiq edilməmiş olsun."

"Maddə 418. Apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin və ya qərardadının ləğv edilməsinin əsasları

418.1. Maddi və prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması, o cümlədən maddi və prosessual hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması apellyasiya instansiyası məhkəməsinin qətnamə və qərardadının ləğv edilməsi üçün əsasdır."

"Maddə 418-1. Kasasiya instansiyası məhkəməsində icraat zamanı hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi

418-1.1. Ali Məhkəmənin məhkəmə tərkibi işə kasasiya qaydasında baxarkən Ali Məhkəmənin digər məhkəmə tərkibinin əvvəllər qəbul etdiyi qərarda müəyyən edilmiş hüquqi mövqedən fərqli yanaşmanın tətbiq edilməsini zəruri hesab etdikdə və ya Ali Məhkəmənin məhkəmə tərkibi apellyasiya instansiyası məhkəməsinin bu Məcəllənin 418.6-cı maddəsində nəzərdə tutulmuş qətnamə və ya qərardadının əsaslandırılması ilə razılaşdıqda, həmin mübahisəli hüquqi məsələyə hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə Ali Məhkəmənin mülki və kommersiya kollegiyalarına daxil olan bütün hakimlərdən ibarət tərkibdə baxılır.

...

418-1.3. Ali Məhkəmənin mülki və kommersiya kollegiyaları mübahisəli hüquqi məsələyə birgə baxaraq ona dair hüquqi mövqeyini qəbul etdiyi qərardadda təsbit edir.

418-1.4. Ali Məhkəmənin işə baxan məhkəmə tərkibi, habelə eyni xarakterli məsələlərə baxarkən bütün digər məhkəmə tərkibləri bu Məcəllənin 418-1.3-cü maddəsində nəzərdə tutulmuş qərardadda müəyyən edilmiş hüquqi mövqeni rəhbər tutmalıdırlar. ..."

38."Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununun (10 iyun 1997-ci il, № 310-IQ) müvafiq maddəsində aşağıdakılar nəzərdə tutulur:

"Maddə 79-1. Ali Məhkəmə tərəfindən vahid məhkəmə təcrübəsinin formalaşdırılması

Vahid məhkəmə təcrübəsi məhkəmələrin hüquqi məsələlərin həllinə yanaşmasının sabitliyini və ədalət mühakiməsi həyata keçirilərkən maddi və prosessual hüquq normalarının eyni cür tətbiq edilməsini təmin etmək məqsədilə formalaşdırılır.

Ali Məhkəmə hüququn tətbiqi üzrə vahid məhkəmə təcrübəsini baxdığı işlər üzrə məhkəmə kollegiyalarının və Ali Məhkəmənin Plenumunun qərarları, habelə Ali Məhkəmənin Plenumunun məhkəmə təcrübəsinə dair verdiyi izahlar vasitəsilə

formalaşdırır. ...”

IV. ALİ MƏHKƏMƏNİN MÖVQEYİ

39.Məhkəmə kollegiyası hazırki iş üzrə kassasiya şikayətinin dəlillərini araşdıraraq hesab edir ki, kassasiya şikayəti təmin edilməklə apellyasiya instansiyası məhkəməsinin qətnaməsi ləğv edilməli və iş üzrə yeni qərar qəbul edilməklə iddia təmin olunmamalıdır.

40.İlk növbədə qeyd edilməlidir, Ali Məhkəmədə oxşar mübahisələr üzrə çıxarılmış qərarlarda MPM-in 77.1-ci maddəsinə əsasən, iddiaçının öz tələbinin əsası kimi istinad etdiyi halları sübut etmək vəzifəsi daşıdığı müəyyən edilmişdir. Kredit müqaviləsindən irəli gələn tələblər üzrə iddiaçı tərəfindən məhkəməyə həmin kredit müqaviləsi (əsli və ya lazımi qaydada təsdiq edilmiş surəti) və kredit məbləğinin cavabdehə verilməsini təsdiq edən sənədlər (kassa məxaric orderi və s.) təqdim edilməyibsə və təqdim edilmiş ödəniş qəbzlərindən onların hansı müqavilə üzrə ödənildiyi müəyyən olunmursa, öhdəliyin mövcudluğu sübuta yetirilmədiyindən bankların bu kateqoriya tələbləri rədd edilir. Bankın təqdim etdiyi hesabdan çıxarış və maliyyə arayışı isə birtərəfli qaydada tərtib edilmiş sənədlər olduğundan həmin halı təsdiq edən mötəbər sübutlar kimi qəbul edilmir (Ali Məhkəmənin 2(102)-1113/2021, 2(102)-2906/2021, 2-2(102)-239/2021, 2-2(102)-402/2022 və 2(102)-546/2023 nömrəli işlər üzrə qərarları).

41.Bununla da, “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununun 79-1-ci maddəsinin ikinci hissəsinin müddəalarına görə, hazırkı işə oxşar işlər üzrə vahid məhkəmə təcrübəsi formalaşmış hesab edilməlidir (bax, yuxarıda 38-ci paraqrafa).

42.İşə apellyasiya icraatı qaydasında birinci dəfə baxmış Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyası qeyd edilən mövqedən çıxış edərək, iddianı rədd etmişdir.

43.İşə kassasiya icraatı qaydasında birinci dəfə baxmış Ali Məhkəmənin Kommersiya Kollegiyası fərqli mövqe ifadə edərək, işi yenidən baxılması üçün apelyasiya instansiyası məhkəməsinə göndərmişdir.

44.Bununla belə, Məhkəmə kollegiyası hesab edir ki, hazırkı iş üzrə qərar qəbul edilməsi üçün MPM-in 418-1-ci maddəsində müəyyən edilmiş qaydaya müraciət etmək zəruri deyil, çünki işə kassasiya icraatı qaydasında birinci dəfə baxmış məhkəmə tərkibinin qəbul etdiyi qərar vahid məhkəmə təcrübəsinin dəyişməsinə gətirib çıxarmamışdır (bax, yuxarıda 40-cı paraqrafa).

45.Belə olan halda, Məhkəmə kollegiyası formalaşmış vahid məhkəmə təcrübəsinə uyğun qərar qəbul edilməsini məntiqi və məqsədəuyğun hesab edir.

46.İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin “Mahmudov Rusiyaya qarşı” iş üzrə 2007-ci il 26 iyul tarixli qərarında qeyd edilmişdir ki, Konvensiya araşdırmalarında sübutları qiymətləndirərkən, bir qayda olaraq, affirmanti, non neganti, incumbit probatio (sübutetmə yükü təkzib edənin deyil, iddia edənin üzərinə düşür) prinsipi rəhbər tutulur. Sübut kifayət qədər güclü, aydın və bir-birinə uyğun qənaətlərin həm-mövcudluğundan və ya təkzibedilməz oxşar fakt ehtimallarından irəli gələ bilər (Makhmudov v. Russia, № 35082/04, § 68, 26 iyul 2007-ci il). Qeyd edilən prinsip universal olaraq hazırkı iş üzrə araşdırma qaydasına tətbiq olunmalıdır.

47.Məhkəmə kollegiyası Ali Məhkəmə tərəfindən vahid məhkəmə təcrübəsinə uyğun formalaşmış hüquqi mövqeyi xatırladaraq qeyd edir ki, hesabdan çıxarış iddiaçının özü tərəfindən birtərəfli qaydada tərtib edilən sənəd olduğundan, həmçinin nə hesabdan çıxarışda, nə də kassa mədaxil orderlərində iddiaçının istinad etdiyi kredit müqaviləsinə istinad edilmədiyindən, iddiaçının təqdim etdiyi hesabdan çıxarış və kassa mədaxil orderləri həmin halı təsdiq edən sübut kimi qiymətləndirilə bilməz.

48.Məhkəmə kollegiyası bir daha vurğulayır ki, MPM-in 77.1-ci maddəsinə əsasən hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir. Qeyd edilən

norma sübutetmə vəzifəsinin bölüşdürülməsinin ümumi qaydasını, sübutetmə prosesində məhkəmənin mövqeyini müəyyənləşdirir və mülki prosesin çəkişmə xarakteri daşımasını təsbit edir. İddiaçı iddiasının əsasını təşkil edən halları sübut etməlidir. Həmin hallara mübahisəli hüquq münasibətinin mövcudluğu ilə əlaqədar olan faktlar və cavabdeh tərəfindən iddiaçının hüququnun pozulmasını və mübahisələndirilməsini təsdiqləyən faktlar aiddir.

49.Qanunvericiliyə əsasən iddiaçının tələbləri bilavasitə sübutetmə yükü ilə bağlıdır, işin faktiki hallarının müəyyən edilməsinin məhkəmə qərarının qanuniliyinin və əsaslığının əsas göstəricisi olduğu nəzərə alınsa, bu institut xüsusi əhəmiyyət kəsb edir.

50.Hazırkı işin mübahisəsiz və sübuta yetirilmiş halı ondan ibarətdir ki, sübut etmək vəzifəsinə uyğun olaraq, iddiaçı kredit müqaviləsini, o cümlədən 15.000 manat məbləğində pulun cavabdehə verilməsini təsdiq edən sübutları işə mahiyyəti üzrə baxan məhkəməyə təqdim etməli idi. Lakin iddiaçı həmin sübutları məhkəməyə təqdim etməmiş və MPM-in 77.1-ci maddəsi ilə üzərinə düşən sübut etmə vəzifəsini yerinə yetirə bilməmişdir.

51.Həmçinin cavabdeh də bildirmişdir ki, onunla belə bir kredit müqaviləsi bağlanılmamış, göstərilən məbləğdə pul verilməmiş və kassa mədaxil orderləri digər kredit müqaviləsi üzrə ödənişlərə aiddir.

52.İddiaçı öz dəlillərini əsaslandırmaq üçün sübutları təqdim edə bilmədiyi halda, cavabdeh üzərində əks dəlilləri əsaslandırmaq üçün sübut təqdim etmək öhdəliyinin müəyyən edilməsi, ilk növbədə, tərəflərin bərabərliyi prinsipinə, ümumiyyətlə MPM-də əks etdirilmiş ədalət mühakiməsinin prinsiplərinə sığışmır.

53.Bu baxımdan, tərəflər arasında MM-in 739.1 və 739.2-ci maddələrinin tələblərinə uyğun kredit müqaviləsinin bağlanılması və cavabdehə həmin kredit müqaviləsi üzrə borcun verilməsi sübut olunmadığına görə tərəflər arasında MM-in 386.1-ci maddəsinin tələbləri baxımından öhdəlik münasibətlərinin yaranması öz təsdiqini tapmır.

54.MPM-in 417.1 və 417.1.4-cü maddələrinin tələblərinə görə, kassasiya məhkəməsi işə baxarkən, apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadını tamamilə, yaxud qismən ləğv edib apellyasiya instansiyası məhkəməsində müəyyən edilmiş hallar və sübutlar əsasında yeni qərar qəbul edə bilər.

55.Göründüyü kimi apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi hüquq normaları düzgün tətbiq edilməmiş, prosessual pozuntuya yol verilmiş, düzgün olmayan qətnamənin qəbul olunması ilə nəticələnmişdir.

56.Ona görə də apelyasiya instansiyası məhkəməsinin qətnaməsi ləğv edilməli və iddia rədd edilməlidir.

57.Məhkəmə kollegiyası iddia tələbinin məhkəmə xərcləri ilə bağlı qeyd edir ki, iddia tələbi rədd edildiyindən həmin hissədə də iddia tələbi rədd edilməli, məhkəmə xərcləri iddiaçının özünə aid edilməlidir.

58.Yuxarıda göstərilənlərə və MPM-in 416, 417, 419-cu maddələrinə əsasən, məhkəmə kollegiyası

QƏRARA ALDI:

Cavabdehin kassasiya şikayəti təmin edilsin.

Bakı Apellyasiya Məhkəməsi Kommersiya Kollegiyasının 2-2(103)-140/2023 nömrəli iş üzrə 2023-cü il 12 iyun tarixli qətnaməsi ləğv edilsin.

İş üzrə yeni qərar qəbul edilsin.

İddia təmin edilməsin.

İddiaçı tərəfindən ödənilmiş məhkəmə xərcləri iddiaçının özünə aid edilsin.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

77. 2(102)-1481/2024 nömrəli, 2024-cü il 1 may tarixli qərar - İnformasiya subyektlərinə qarşı qaldırılmış tələblərdə iddiaya cavab verməli olan şəxsin müəyyən edilməsi

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: informasiya subyektlərinə qarşı qaldırılmış tələblərdə iddiaya cavab verməli olan şəxsin müəyyən edilməsi.

İddiaçı barəsində məlumat informasiya saytlarının birində paylaşılmışdır. İddia tələbi iddiaçının müvafiq informasiya sorğularına cavab vermək öhdəliyinin yerinə yetirilməsi barədədir. MMC-nin direktoru qanuni qüvvəyə minmiş məhkəmə qərarı ilə İXM-nin 374.1-ci maddəsində nəzərdə tutulmuş əməli (informasiya sahibi tərəfindən açıq informasiyanı əldə etmək hüququnun məhdudlaşdırılması və ya sorğuçuya bilərəkdən yanlış informasiya verilməsinə görə) törətməkdə təqsirli bilinərək cərimə edilmişdir. İddiaçı MMC-nin direktorunu informasiya sahibi olaraq cavabdeh qismində göstərmişdir.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Apellyasiya instansiyası məhkəməsi iddianı təmin edərkən iki əsasa – cavabdehin inzibati qaydada tənbeh olunmasına və hüquqi şəxsin informasiya məsələləri üzrə vəzifəli şəxsinin təyin olunmaması halında onun rəhbərinin mülki məsuliyyət daşımalı olmasına söykənmişdir.

İnformasiyanın verilməsinə məsul olan şəxs informasiya sahibi deyil, informasiya sahibinin onun verilməsi ilə bağlı təyin etdiyi məsul şəxsdir.

"İnformasiya əldə etmək haqqında" Qanunun 11-ci maddəsinə görə informasiyanın bu Qanunla müəyyənləşdirilmiş qaydada açıqlanması üçün məsuliyyəti, bu funksiyanın icrası rəsmi qaydada başqasına həvalə olunmayıbsa, informasiya sahibinin rəhbəri daşıyır.

Sözügedən maddədə nəzərdə tutulan məsuliyyət inzibati xəta məsuliyyətidir və həmin xəta ilə tənbeh olunan şəxsin həm də informasiya sahibi kimi qəbul edilməsi düzgün deyil.

Bundan əlavə, hüquqi şəxsin informasiya məsələləri üzrə vəzifəli şəxsinin təyin olunmaması halında da onun rəhbərinin məsuliyyət daşımalı olması barədə qanunvericilikdə göstərilən tələb hüquqi şəxsin rəhbərinin üzərinə informasiya sahibi kimi öhdəlik qoyulmasına əsas vermir.

Bu kateqoriyadan olan iddialar üzrə iddiaya cavab verməli olan şəxs hüquqi şəxsin rəhbəri deyil, hüquqi şəxsin özüdür.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-1481/2024

01.05.2024-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının

İddiaçının Cavabdehə qarşı
iş üzrə

Q Ə R A R I

(Açar sözlər: informasiya sorğusuna cavab verilməsi öhdəliyi)

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Abbasov Aqil Əzizağa oğlu (məruzəçi), Əliyev Zaur Əli oğlu və Məmmədov Vidadi Məmməd oğlundan ibarət tərkibdə,

İddiaçının Cavabdehə qarşı (mübahisə predmeti barədə müstəqil tələb irəli sürməyən üçüncü şəxs "XX" MMC və "X" MMC cəlb edilməklə) "informasiya sorğusuna cavab verilməsi öhdəliyinin qoyulması" tələbinə dair mülki iş üzrə Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(103)-6484/2023 nömrəli, 11 dekabr 2023-cü il tarixli qətnaməsindən Cavabdehin kassasiya şikayətinə 01 may 2024-cü il tarixdə Ali Məhkəmənin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

İşin halları

1. Kommersiya qurumlarının dövlət reyestri məlumatlarına əsasən, "X" MMC-nin (VÖEN **********) hüquqi ünvanı Ünvan 1 olmaqla qanuni təmsilçisi Cavabdehdir. Cavabdeh "X" MMC-nin icraçı direktoru, "XX" MMC-nin isə direktorudur.

2. Kommersiya qurumlarının dövlət reyestri məlumatlarına əsasən, "XX" MMC-nin (VÖEN **********) hüquqi ünvanı Ünvan 1 olmaqla qanuni təmsilçisi X1-dir.

3. Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombusdmanın) Aparatının rəhbəri tərəfindən tərtib edilmiş 14.06.2022-ci il tarixli, MN ********** nömrəli inzibati xəta haqqında Protokola əsasən, Ünvan 2, "x" saytı vasitəsilə 26.04.2022-ci il tarixdə "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının 10.4.2 və 24.1-ci maddələrinin tələbləri pozulmaqla inzibati xəta törədilməsi müəyyən edilmiş, nəticədə Cavabdeh, "XX" MMC tərəfindən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 374.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xəta törədilmişdir.

4. Bakı şəhəri, Nəsimi Rayon Məhkəməsinin 07.07.2022-ci il tarixli, 3(003)2174/2022 saylı qərarına əsasən, Cavabdehin Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 374.1-ci maddəsində nəzərdə tutulmuş əməli (informasiya sahibi tərəfindən açıq informasiyanı əldə etmək hüququnun məhdudlaşdırılması və ya sorğuçuya bilərəkdən yanlış informasiya verilməsinə görə) törətməkdə təqsirli bilinərək 500 manat məbləğində cərimə edilməsi qərara alınmışdır.

5. Bakı Apellyasiya Məhkəməsinin 23.08.2022-ci il tarixli, 3(103)- 2052/2022 saylı qərarına əsasən, barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan Cavabdehin nümayəndəsi X2 tərəfindən verilmiş apellyasiya şikayətinin təmin edilməmiş, Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 07.07.2022-ci il tarixli qərarının dəyişdirilmədən saxlanılmışdır.

6. İddiaçının 25.02.2023-cü il tarixli sorğusuna "x" MMC-nin 03.03.2023-cü il tarixli, *** nömrəli cavab məktubuna əsasən, bildirilmişdir ki, http://www."x" saytında 12.02.2022-ci il tarixində 15:04- də yayımlanan məqalənin müəllifi onların saytı deyil. Belə ki, 12.02.2022-ci il tarixli sorğuya əlavə edilən və edilməyən bir çox saytlarda qeyd edilən başlıqda məqalə yayımlanmışdır. Başqa saytlarda yayımlanan, müəllifi onların saytı olmayan məqalələr xüsusi proqram vasitəsi ilə heç bir insan müdaxiləsi olmadan bir başa saytda yerləşdirilir və yayımlanır. Bildirdikləri kimi, qeyd edilən məqalənin yayımlanması müəllifi onların saytı olmadığına görə dərc edilməsi üçün hər hansı bir məsul şəxs qərar verməmişdir. http://www."x" saytının qeyd edilən məqalənin yayımlandığı müddətdə yazının dərc edildiyi digər saytlarla və eyni zamanda heç bir saytla hər hansı bir müqaviləsi olmamışdır. Qeyd edilən yazının müəllifi onlar olmadıqlarından həmin yazıya təkzib verilməsi vəzifəsini daşımırlar, eyni zamanda həmin məqalənin yalan olması barədə hər hansı əks arqument təqdim olunmamışdır.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

a) Birinci instansiya məhkəməsində icraat

7. İddiaçı iddia ərizəsi (iddia tələbinin dəqiqləşdirilməsi barədə ərizə) ilə Bakı şəhəri Xəzər rayon Məhkəməsinə müraciət edərək "XX" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Cavabdehin adına göndərdiyi 17 aprel 2022-ci il tarixli, 08 №-li, 31 avqust 2022-ci il tarixli 19 №-li, 3 mart 2023-cü il tarixli 02 №-li yazılı sorğularında verdiyi "x" saytında 12 fevral 2022-ci ildə saat 12:04-də barəsində "Vəzifədən getmək üçün yarım milyonu şərt qoyan İddiaçı kimdir?" şərlövhəli yazının müəllifinin adı, ata adı, soyadı, qeydiyyat və faktiki ünvanı necədir? Bu yazının dərc olunmasına "x" saytının hansı məsul əməkdaşı qərar vermişdir? (Adı, ata adı, soyadı, təhsili, ixtisası, vəzifəsi, qeydiyyat və faktiki ünvanı göstəriməklə və əmək müqaviləsinin surəti təqdim olunmaqla), 25 fevral 2023-cü il tarixli, 2 №-li yazılı sorğusuna cavab məktubunu imzalayan, adını, soyadını göstərməyən direktor vəzifəsini müvəqqəti icra edən şəxsin adı, ata adı, soyadı, qeydiyyat və faktiki ünvanı necədir? (Şəxsə hansı tarixdən hansı tarixədək "XX" MMC direktoru vəzifəsini müvəqqəti icra etmək səlahiyyəti verilməsi barədə əmrin (sərəncamın, qərarın, digər aidiyyəti sənədlərin) sənədlərin təsdiqlənmiş surətlərini təqdim etməklə ən qısa müddətdə yazılı cavab verməsi öhdəliyinin "XX" Məhdud Məsuliyyətli Cəmiyyətinin qanuni nümayəndəsi və direktoru Cavabdehin üzərinə qoyulması barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

8. İddiaçı tələbini belə əsaslandırmışdır ki, ömrünün 76-cı ilini yaşayır. Ali ixtisas təhsilli peşəkar jurnalist kimi kütləvi informasiya vasitələrində 56 il qüsursuz əmək fəaliyyəti göstərmişdir. Bu müddət ərzində vətəninə, dövlətinə ləyaqətlə xidmət etmiş, hazırda da missiyasını ictimai əsaslarla davam etdirir. İndiyədək heç bir ciddi qanun pozuntusuna yol verməmiş, kiminsə qanuni mənafeyinə toxunmamışdır. Barəsində həm mediada, həm də ictimaiyyət arasında yalnız müsbət rəy formalaşmışdır.

9. Bu il (2022-ci il) fevralın 12-də saat 12:04-də Cavabdehin sahibi və direktoru olduğu, Azərbaycan əhalisinin 99 faizinin mənasını başa düşmədiyi, özünün qeydiyyat sənədinə uyğun olmayan "x" adlandırdığı və bu adla fəaliyyət göstərən onlayn media subyektində elə "x"-in müəllifliyi ilə barəsində şərəf və ləyaqətinə zərbə vuran, heç bir konkret fakta söykənməyən, yazılış tərzi etik normalara sığmayan və fotoşəkili ilə müşaiyət olunan geniş bir dezinformasiya yayımlanmışdır. Dərhal 30-dan artıq sayt da bu dezinformasiyanı "x"-ə istinadla olduğu kimi kopyalayaraq öz səhifəsində vermişdir. Bir sözlə, iddiaçının barəsində heç vaxt təsəvvür etmədiyi təşkil olunmuş qarayaxma kompaniyası baş vermişdir.

10. Həm bu dezinformasiyanın heç bir araşdırma aparılmadan qəfil ortaya çıxması və yayılması, həm də təcili şəkildə bu qədər başqa saytlarda tirajlanması peşəkar jurnalistika prinsiplərinə, "Media haqqında" Qanunun, digər qanunlarının tələblərinə tamamilə ziddir. "x"-nin, eyni zamanda oradan köçürərək yayımlayan digər saytların bu hərəkətləri böhtandır, ağır cinayətdə suçlamadır, təhqirdir və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 147 və 148-ci maddələri ilə yazı müəllifi və məsul redaktorlar üçün cinayət məsuliyyəti və mülki məsuliyyət yaradır.

11. Bu səbəbdən iddiaçı bu saytlar və onların rəhbərləri barədə qeydiyyatda olduqları rayonların məhkəmələrinə xüsusi ittiham qaydasında şikayətlər vermişdir. Lakin bu şikayətlərinin icraata qəbulundan imtina edilmiş, səbəb kimi də iddiaçının həmin yazının müəllifinin və informasiyanı saytlarda yerləşdirən məsul əməkdaşının kimliyini dəqiq müəyyən etdikdən sonra həmin fiziki şəxslər barəsində məhkəməyə xüsusi ittiham qaydasında şikayət verə bilməsi göstərilmişdir.

12. İddiaçı bu faktları müəyyən etmək üçün əvvəlcə həmin saytların, o cümlədən, dezinformasiyanın "episentri" "x"-in direktoru Cavabdehə poçtla sorğu göndərmişdir. Sorğuda dezinformasiyanın saytdan dərhal çıxarılması və təkzib verilməsi tələbini də qoymuşdur. Sorğu belə olmuşdur: "x" İnformasiya Agentliyinin həmin yazıda göstərdiyi faktlar konkret olaraq hansı

mənbədən əldə edilmişdir? (Dəqiq adı, soyadı, ata adı, ünvanı, əlaqə vasitələri göstərilməklə) 2. Həmin yazının müəllifinin adı, ata adı, soyadı, qeydiyyat və faktiki ünvanı necədir? 3. Bu yazının dərc olunmasına "x" İnformasiya Agentliyinin hansı məsul əməkdaşı qərar vermişdir? (adı, ata adı, soyadı, təhsili, ixtisası, vəzifəsi, qeydiyyat və faktiki ünvanı).

13. Cavabdeh iddiaçının sorğusuna 26 aprel 2022-ci ildə aşağıdakı məzmunda (səhvlərə düzəliş edilmədən olduğu kimi göstərilir) cavab göndərmişdir: "XX xəbər portalına ünvanladığınız 08 saylı 17 aprel 2022-ci il tarixli sorğusuna cavab olaraq bildirilir ki, "Kütləvi informasiya vasitələri haqqında" Qanunun 34 və 36-cı maddələrinin tələblərinə müvafiq olaraq sorğuda qaldırdığı sualların tərəflərindən cavablandırılması digər şəxslərin qanuni mənafeyinin qorunması baxımından mümkün deyil".

14. Digər saytların rəhbərləri hərəkətsizlik nümayiş etdirərək iddiaçının sorğusuna cavab verməmişlər, bəziləri isə xəbəri öz saytlarından dərhal silmişlər.

15. İddiaçı sorğusuna qanunvericiliyin tələblərinə uyğun cavab verilməməsi ilə əlaqədar Azərbaycan Respublikasının İnsan Hüquqları Üzrə Müvəkkilinə - Ombudsmana yazılı şikayət göndərmişdir. Bu müraciət əsasında yuxarıda qeyd edilən saytların rəhbərləri Ombudsman aparatına dəvət olunmuş, "X" istisna olmaqla, digər saytlar böhtan yazını səhifələrindən dərhal çıxarmışlar. Ombudsman aparatında Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 99-cu maddəsinə əsaslanmaqla inzibati xəta haqqında iş üzrə icraata başlamağa səbəblər və əsas olduğundan inzibati xəta haqqında iş üzrə icraata başlanılmış, icraat çərçivəsində sorğu üzrə məsul vəzifəli şəxs olaraq "x" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Cavabdeh müəyyən edilmiş və sonuncunun barəsində inzibati xəta haqqında protokol (MN № **********) tərtib edilməklə müvafiq qaydada baxılması üçün Bakı şəhər Nəsimi Rayon Məhkəməsinə göndərilmişdir. Nəsimi Rayon Məhkəməsinin 3(006)-2174/2022 saylı, 07.07.2022-ci il tarixli qərarı ilə "x" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Cavabdeh vəzifəli şəxs kimi Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 374.1-ci maddəsi ilə təqsirli bilinməklə 500 (beş yüz) manat məbləğində cərimə edilmişdir. Cavabdehin Bakı Apellyasiya Məhkəməsinə verdiyi apellyasiya şikayəti də təmin edilməmişdir.

16. Bu inzibati tənbehdən sonra Cavabdehin tutduğu əməldən peşman olacağı, saytında təkzib verərək sifarişli yazısı ilə iddiaçıya atdığı böhtandan peşman olacağı, ondan üzr istəyəcəyi ehtimalları da boşa çıxmışdır.

17. İddiaçı 29 sentyabr 2022-ci il tarixdə Cavabdehə poçtla eyni məzmunda 2-ci yazılı sorğu göndərmişdir. Cavabdehin qanunazidd cavab məktubu daha acınacaqlı olmuşdur. Burada Cavabdeh sorğunu qanunvericiliyin tələbləri səviyyəsində cavablandırmaq əvəzinə, tamamilə başqa, lüzumsuz mülahizələrini izah etmişdir. Cavabdehə 3-cü yazılı sorğusuna 3 mart 2023-cü ildə göndərilən "cavab" isə iddiaçını heyrətə gətirmişdir. Sayta imza edən, lakin adını, soyadını göstərməyən naməlum şəxs yazmışdır: "Sizin 25.02.2023-cü il tarixli sorğunuza cavab olaraq bildiririk ki, http://www."x" saytında 12.02.2022-ci il tarixində 15:04-də (? E.İ.) yayımlanan qeyd etdiyiniz məqalənin müəllifi bizim sayt deyil". Yazının altında müəllif yerində açıq-aşkar "X" yazılıb! Həm də yazı göstərilən tarixdə saat 15:04-də deyil, 12:04-də tirajlanmışdır.

18. "X" canlı insan deyil ki, qələm-kağız götürüb, yaxud kompüter arxasına keçib informasiya yazsın və onu saytda dərc etsin. İmza yerinə "X" yazılıbsa, deməli, bu yazını redaksiyanın rəhbərinin, yaxud onun səlahiyyət verdiyi digər əməkdaşının göstərişi ilə hansısa insan, müəllif yazmışdır. Bu müəllif heç bir halda redaksiya rəhbərinin tanımadığı, əlaqəsi olmadığı şəxs ola bilməz.

19. Cavabdeh və sonda onun adından sorğuya cavab verməyə səlahiyyət verdiyi naməlum şəxs tərəfindən imzalanan hər üç cavab bir-birini təkzib edir və iddiaçının sorğusunun

düzgün, əsaslandırılmış cavablandırılmasını təmin etmir. İddiaçının cavabdehə göndərdiyi sorğular və cavablar, həmçinin Ombudsmanın məktubları, protokol, məhkəmə qərarları və digər sənədlər iddia ərizəsinə əlavə edildiyi üçün bu barədə geniş yazıb mətləbi uzatmaq istəmir. Sənədlər hər şeyi dəqiq göstərir və sübut edir. "x" Məhdud Məsuliyyətli Cəmiyyətinin sahibi və direktoru Cavabdeh "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununun bütün müddəalarını bilərəkdən pozmuşdur.

20. İddiaçı tələbinin hüquqi əsas kimi Azərbaycan respublikası Konstitusiyasının 50ci, "İnformasiya əldə etmək haqqında" Qanunun 14, 15.7 və 24-cü maddələrinə istinad etmişdir.

21. Birinci instansiya məhkəməsində Cavabdehin nümayəndəsi və vəkili iddiaya yazılı etiraz vermişdir.

Etirazın dəlilləri:

- Cavabdeh hal-hazırda işləmir, "XX" MMCnin ona heç bir aidiyyəti yoxdur. Dərc olunmuş məlumatların çox hissəsi silinmişdir. "x" saytında cavabdehin nə vəzifəsi daşıması bilinmir, o, orada heç bir vəzifə daşımır;
- məlumat 60-a yaxın saytda dərc olunmuşdur. Sübut yoxdur ki, həmin məlumatı ilk olaraq onlar dərc etmişlər. Onlardan əvvəl həmin məlumat başqa saytda dərc edilmişdir. Sorğulara verilmiş cavablar iddiaçını qane etmirsə, bu, iddianın təmin olunmasına əsas deyil. Həmçinin ən pis halda belə informasiya sahibi fiziki şəxs deyil, məqalənin dərc olunduğu sayt ola bilər. Ona görə də cavabdeh düzgün seçilməmişdir. Cavabdehin iddiaçının sorğularına cavab vermək səlahiyyəti yoxdur;
- həmçinin iddiaçının sorğularına tam əsaslandırılmış cavablar verilmişdir. İnformasiyanın mənbəyi onlar deyillər, məlumatlar başqa saytdan götürülmüşdür. İnformasiyanın əsas mənbəyi barədə məhkəməyə sübut təqdim edə bilmir. Lakin məqalə başqa saytda yayılmış, onların saytı həmin məlumatı avtomatik götürərək yayımlamışdır. İddiaçının iddia ərizəsi qanunvericiliyin tələblərinə uyğun olmayaraq verilmişdir;
- iddiaçı cavabdehin "x"-in rəhbəri olması barədə məhkəməyə sübut təqdim etməmiş, sorğuya cavabda göstərilən "x"-in direktoru Cavabdehin məhz hazırki cavabdehin olması müəyyənləşdirilməmişdir;
- bununla belə, iddia ərizəsinə əlavə olunmuş sənədlərdən görünür ki, informasiya sorğusuna "x" tərəfindən iki dəfə cavab verilmişdir. a) "x"-in 26.04.2022ci il tarixli cavabından görünür ki, "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanunun 34 və 36-cı maddələrinin tələblərinə müvafiq olaraq iddiaçının sorğuda qaldırdığı sualların tərəflərindən cavablandırılması digər şəxslərin qanuni mənafeyinin qorunması baxımından mümkün deyil". b) "x"-in 03.03.2023-cü il tarixli cavabından görünür ki, iddiaçının 25.02.2023-cü il tarixli sorgusuna cavab olaraq bildirmişlər ki, http://www."x" saytında 12.02.2022-ci il tarixində 15:04-da yayımlanan geyd etdiyi məgalənin müəllifi onların saytı deyil;
- belə ki, 12.02.2022-ci il tarixində iddiaçının sorğusuna əlavə etdiyi və etmədiyi bir çox saytlarda qeyd edilən başlıqda məqalə yayımlanmışdır. Başqa saytlarda yayımlanan, müəllifi onların saytı olmayan məqalələr xüsusi program vasitəsi ilə heç bir insan müdaxiləsi olmadan bir başqa saytda yerləşdirilir və yayımlanır. Bildirdikləri kimi, qeyd edilən məqalənin yayımlanmasının müəllifi onların saytı olmadığına görə dərc edilmasi üçün hər hansı bir məsul şəxs qərar verməmişdir;
- http://www."x" saytının qeyd edilən məqalənin yayımlandığı müddətdə yazının dərc edildiyi digər saytlarla və eyni zamanda heç bir saytla har hansı bir müqaviləsi olmamışdır. Qeyd edilən yazının müəllifi onlar olmadıqlarından həmin yazıya təkzib verilməsi vəzifəsini daşımırlar, eyni zamanda həmin məqalənin yalan olması barədə

iddiaçı tərəfindən hər hansi əks arqument təqdim olunmamışdır;

- eyni zamanda iddiaçı məqalənin 12.02.2022-ci il tarixdə saat 12.04-də yayımlanmasını qeyd edir, lakin saytdan görünür ki, məqalə 12.02.2022-ci il tarixdə saat 15.04-də yayımlanmışdır. (link məhkəmə tərəfindən kopyalanaraq baxıla bilər) https://"x");
- iş materiallarına əlavə olunmuş 25.02.2023-cü il tarixli sorğuya əlavədən görünür ki, iddiaçı özü etiraf edir ki, bir çox saytlarda məqalə dərc olunmuş və silinmişdir. Digər saytların linklərinə girdikdə müəyyən olunur ki, qeyd edilən saytlarda dərc edilmə saatı "x"-də dərc edilmə saatından əvvəl baş vermişdir. Məsələn, həmin əlavədə olan "xxx" saytında olan yayımlamadan görünür ki, saytda məqalə 12.02.2022-ci il tarixdə, saat 12.28-də dərc edilmişdir;
- həmçinin informasiya sorğusuna cavab verilməsi və ya sorğuçunun istədiyi cavabın verilməməsi, belə bir cavabın verilməsi öhdəliyinin qoyulması barədə iddia verilməsi qanunvericilikdə nəzərdə tutulmamışdır. "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun 27-1-ci maddəsinə əsasən sorğuçu sorğunun icrasından imtina edilməsi, yaxud lazımınca icra olunmaması barədə məhkəməyə və ya Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinə (ombudsmana) şikayət etmək hüququna malikdir. İnformasiya sorğusunu icra edən informasiya sahibi sorğuçunun bu hüququnu ona izah edir və təqdim edilən cavabda (məlumatda) qeyd edir. Göründüyü kimi bu barədə iddia deyil, şikayət verilməsi nəzərdə tutulmuşdur;
- iş materiallarından görünür ki, iddiaçının sorğularına "x" tərəfindən cavab verilmişdir. "İnformasiya əldə etmək haqqında" Qanunun 1-ci maddəsinə əsasən, bu Qanunun məqsədi Azərbaycan Respublikası Konstitusiyasının 50-ci maddəsi ilə təsbit olunmuş məlumat əldə etmək hüququnun sərbəst, maneəsiz və hamı üçün bərabər şərtlərlə, açıq cəmiyyətin və demokratik hüquqi dövlətin prinsipləri əsasında təmin edilməsinin hüquqi əsaslarını müəyyənləşdirməkdən, həmçinin ictimai vəzifələrin yerinə yetirilməsinə vətəndaşlar tərəfindən nəzarət olunmasına şərait yaratmaqdan ibarətdir. Həmin Qanunun 21.1-ci maddəsinə əsasən, informasiya sahibi sorğulanan informasiyaya malik olmadıqda sorğunun icrasından imtina edir. Qanunun 21.2-ci maddəsinə görə, sorğu edilən informasiyanın həcmi iri olduğundan sorğunun icrası informasiya sahibinin üzərinə qoyulmuş ictimai vəzifələrin yerinə yetirilməsinə ciddi maneə yaradırsa və ya əsassız böyük məsrəflərə səbəb olursa; sorğunun icrası informasiyanın sistemləşdirilməsini, təhlil edilməsini və ya sənədləşdirilməsini tələb edirsə, informasiya sahibi sorğunun icrasından imtina edə bilər;
- adı çəkilən Qanunun 27-ci maddəsinə görə isə, informasiya sorğuçuya bu Qanunla nəzərdə tutulmuş formada və üsulla təqdim edildikdə və informasiya sorğusunun icrasından imtina barədə sorğuçuya əsaslandırılmış cavab verildikdə informasiya sorğusu icra olunmuş sayılır;
- Cavabdeh "x"-in rəhbər şəxsi olmasa belə, hüquqi nöqteyi nəzərdən hazırki iddia ərizəsi üzrə "x" informasiya sahibi hesab edilə bilməz;
- "İnformasiya əldə etmək haqqında" Qanunun 9.1.2-ci maddəsinə əsasən, ictimai funksiyaları yerinə yetirən hüquqi şəxslər, həmçinin normativ hüquqi aktlarla və ya müqavilə əsasında təhsil, səhiyyə, mədəniyyət və sosial sahələrdə xidmət göstərən özəl hüquqi şəxslər və fiziki şəxslər informasiya sahibləri sayılır. Həmin Qanunun 9.2-ci maddəsinə görə, bu Qanunun 9.1.2-ci maddəsində təsbit olunan hüquqi və fiziki şəxslərə informasiya sahiblərinin bu Qanunla müəyyənləşdirilmiş vəzifələri yalnız ictimai funksiyaların yerinə yetirilməsi, yaxud normativ hüquqi aktlarla və ya müqavilə əsasında təhsil, səhiyyə, mədəniyyət və sosial sahələrdə göstərilən xidmət nəticəsində yaranan və ya əldə edilən informasiyalar üzrə şamil olunur. Adı çəkilən Qanunun 21.2.2-ci maddəsinə görə isə, bu Qanunun 9.1.2-ci və 9.3-cü maddələrində nəzərdə tutulan hüquqi və fiziki şəxslərdən sorğulanan informasiya bu Qanunun

9.1.2-ci və 9.3- cü maddələrində göstərilən vəzifələrin yerinə yetirilməsinə aid deyilsə, informasiya sahibi sorğunun icrasından imtina edə bilər;

- "x" "İnformasiya əldə etmək haqqında" Qanunun məqsədləri baxımından informasiya sahibi hesab edilə bilməz, bu səbəblə də, həmin Qanuna istinadən onun

üzərinə müxtəlif suallara cavab verilməsi vəzifəsinin qoyulması yolverilməzdir;

- iş materiallarına əlavə edilmiş informasiya sorğularından görünür ki, iddiaçı informasiya sorğularına şəxsiyyətini təsdiq edən sənədi də əlavə etməmişdir. "İnformasiya əldə etmək haqqında" Qanununa görə informasiya sahibi aşağıdakı hallarda sorğunun icrasından imtina edir: sorğu əldə edilməsi qanunla məhdudlaşdırılan informasiyaya aid olduqda, yaxud sorğuçunun bu informasiyanı əldə etməyə səlahiyyəti çatmadıqda və ya bu Qanunla tələb edildiyi hallarda, sorğuçu şəxsiyyətini təsdiq edən sənəd təqdim etmədikdə; informasiya sahibi sorğulanan informasiyaya malik olmadıqda və yaxud həmin informasiyanın sahibini müəyyənləşdirməkdə çətinlik çəkdikdə; sorğuçunun hansı informasiyanı əldə etmək istədiyini aydınlaşdırmaq mümkün olmadıqda (21.1-ci maddə);

- iddiaçının informasiya sorğusuna "x" tərəfindən "İnformasiya əldə etmək haqqında" Qanunun tələblərinə uyğun olaraq cavab verildiyi üçün "x" tərəfindən qanunsuz hərəkətsizliyə yol verilməmiş və iddiaçının hüquq və azadlıqları pozulmamışdır. Bu səbəbə görə iddia rədd edilməlidir;

- qeyd edilməlidir ki, informasiya sorğusuna göndərilən cavabın iddiaçı tərəfindən alınmaması və həmin cavabda göstərilən məlumatların iddiaçını qane etməməsi iddianın təmin edilməsi üçün əsas ola bilməz. Belə ki, informasiya sorğusuna göndərilən cavabın sorğuçu tərəfindən alınıb-alınmaması üçün informasiya sahibi məsuliyyət daşımır. Eyni zamanda həmin cavabda göstərilən məlumatların məzmunu hazırki mübahisənin predmetini təşkil etmir.

22. Birinci instansiya məhkəməsi iddiaçıya Cavabdehin əsl cavabdeh "XX" MMC ilə əvəz edilməsi təklif etmiş, iddiaçı buna razı olmamışdır.

23. Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin 2(003)-1673/2023 nömrəli iş üzrə 2 avqust 2023-cü il tarixli qətnaməsi ilə iddia təmin edilməmişdir. **(hakim İlham Cəfərzadə)**

24. Birinci instansiya məhkəməsi "İnformasiya əldə etmək haqqında" Qanunun müddəalarına istinadən göstərmişdir ki, informasiya sahibi - dövlət orqanları və bələdiyyələr, ictimai funksiyaları yerinə yetirən hüquqi şəxslər (o cümlədən publik hüquqi şəxslər), həmçinin normativ hüquqi aktlarla və ya müqavilə əsasında təhsil, səhiyyə, mədəniyyət və sosial sahələrdə xidmət göstərən özəl hüquqi şəxslər və fiziki şəxslərdir. İnformasiya sahibi öz informasiya ehtiyatlarından hər kəsin sərbəst, maneəsiz və hamı üçün bərabər şərtlərlə informasiya əldə etmək hüququnu bu Qanunla müəyyənləşdirilmiş qaydada təmin etməyə borcludur. İnformasiya sahibi bu məqsədlə informasiya məsələləri üzrə vəzifəli şəxs təyin edir, yaxud struktur bölmə yaradır, informasiya xidmətləri göstərir. İnformasiya məsələləri üzrə vəzifəli şəxsin təyin olunmaması və ya struktur bölmənin yaradılmaması informasiya xidmətləri göstərməkdən imtina üçün əsas ola bilməz. Əgər informasiya sahibi informasiya məsələləri üzrə vəzifəli şəxs təyin etməyibsə, yaxud struktur bölmə yaratmayıbsa, informasiya sorğusunun icrasına məsuliyyəti informasiya sahibinin bu funksiyanın yerinə yetirilməsi üçün müəyyənləşdirdiyi şəxs daşıyır. İnformasiyanın bu Qanunla müəyyənləşdirilmiş qaydada açıqlanması üçün məsuliyyəti, bu funksiyanın icrası rəsmi qaydada başqasına həvalə olunmayıbsa, informasiya sahibinin rəhbəri daşıyır.

25. Birinci instansiya məhkəməsi qanunvericiliyin tələblərini nəzərə alaraq, həmçinin hesab etmişdir ki, Cavabdeh hazırki iddiaya cavab verməli olan şəxs olmadığından iddianın təmin edilməsi mümkün deyil. Belə ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 14.1-ci maddəsinə əsasən mülki hüquqlar və vəzifələr mülki qanunvericilikdə nəzərdə tutulan

əsaslardan, habelə fiziki və hüquqi şəxslərin qanunvericilikdə nəzərdə tutulmasa da, mülki qanunvericiliyin prinsiplərinə görə mülki hüquqlar və vəzifələr doğuran hərəkətlərindən əmələ gəlir.

26. Mülki Prosessual Məcəllənin 50.1-ci maddəsinə görə prosesdə tərəflər iddiaçı və cavabdeh hesab edilirlər. Fiziki və hüquqi şəxslər, vəzifəli şəxslər, dövlət orqanları və başqa orqanlar iddiaçı və ya cavabdeh qismində çıxış edə bilərlər.

27. İddia tələbinin əsası ondan ibarətdir ki, iddiaçı barəsində "x" informasiya saytında "Vəzifədən getmək üçün yarım milyonu şərt qoyan İddiaçı kimdir?" adlı məqalə paylaşılmış, iddiaçı həmin məqalənin müəllifi, həmin yazının "x" saytında dərc olunmasına qərar vermiş məsul əməkdaşı barədə məlumat verilməsi üçün "x" MMC-yə sorğu vermiş, lakin onun sorğusuna cavab verilməsindən imtina edilmişdir. İddiaçı hesab edir ki, iş üzrə Cavabdeh "XX" MMC-nin qanuni nümayəndəsi və direktoru olduğundan verilmiş sorğuya cavab da onun tərəfindən verilməlidir.

28. Birinci instansiya məhkəməsinin mövqeyinə görə iddiaya və işin müəyyən edilmiş hallarına əsasən iddiaçı barəsində məlumat "x" informasiya saytında paylaşılmışdır. Yəni, informasiya sahibi "XX" MMC-dir. "XX" MMC-nin qanuni təmsilçisi X1, direktoru isə Cavabdehdir. Göründüyü kimi iş üzrə cavabdeh informasiya sahibi deyil, o, informasiya sahibində rəhbər vəzifəsində çalışan şəxsdir. Odur ki, məhkəmə hesab edir ki, Cavabdeh, iddiaçı tərəfindən tələb olunan məlumatla bağlı informasiya sahibi olmadığından hazırki iddiaya cavab verməli şəxs kimi qəbul edilməsi və qanunvericilikdə nəzərdə tutulmuş qaydada informasiyanın verilməsi öhdəliyinin onun üzərinə qoyulması qanuna uyğun deyil. O, qanunvericiliyə əsasən yalnız informasiya sahibi tərəfindən sorğu edilən informasiyanın sorğuçuya verilməli olduğu halda bu funksiyanın yerinə yetirilməməsinə görə rəhbər vəzifəli şəxs kimi məsuliyyət daşıyan şəxsdir.

29. Birinci instansiya məhkəməsi gəldiyi nəticəni Azərbaycan Respublikası Konstitusiyasının 50-ci, "İnformasiya əldə etmək haqqında" Qanunun 2.2, 2.3, 2.4, 3.0.5, 9.1.1, 9.1.2, 9.2, 10.1, 10.2, 10.3, 11-ci, Mülki Prosessual Məcəllənin 14.2, 50.1 və 77.1-ci maddələri ilə əsaslandırmışdır.

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

30. İddiaçı apellyasiya şikayəti verərək, qətnamənin ləğv, iddia tələbinin təmin edilməsi barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

31. Apellyasiya şikayəti iddia ərizəsinin dəlillərinə uyğun məzmunda əsaslandırılıb və əlavə olaraq göstərilib ki, cavabdehə göndərdiyi sorğular və cavablar, həmçinin Ombudsmanın məktubları, inzibati protokol, məhkəmə qərarları və digər sənədlər birinci instansiya məhkəməsinə təqdim etdiyi iddia ərizəsinə əlavə edilmişdir. Sənədlər hər şeyi dəqiq göstərir və sübut edir. İnformasiya əldə etmə hüququ dünyanın bütün sivil demokratik dövlətlərinin konstitusiyalarında, həmçinin insan hüquqları üzrə beynəlxalq konvensiyalarda, BMT və Avropa İttifaqı sənədlərində mühüm bəşəri dəyər kimi təsbit olunub. Bu hüquq Azərbaycan Respublikası Konstitusiyasının 50-ci maddəsində də dəyişilməz hüquqi dəyər kimi göstərilib, üstəlik, "İnformasiya əldə etmək haqqında" Qanunla hüquqi müstəvidə ciddi şəkildə qorunur. İddiaçı əvvəllər də dəfələrlə yazılı sorğusuna qanunvericiliyin tələbləri səviyyəsində əsaslandırılmış cavab verməyən, yaxud, ümumiyyətlə, hərəkətsizlik nümayiş etdirən nüfuzlu rəhbər dövlət orqanları, yüksək məmurlar, qanunsuz oliqarx hüquqi və fiziki şəxslər barədə inzibati və ümumi məhkəmələrdə iddia qaldırmış, bəzən səhhəti ilə əlaqədar işə iştirakı olmadan baxılmasını xahiş etmişdir. İddialarının hamısı və əksəriyyəti də bir şifahi məhkəmə baxışı iclasında təmin olunub. Təkcə onun tələbi ilə hüquqi qüvvəyə minən bu qətnamə və qərarlar ölkədə bu sahədə vahid məhkəmə təcrübəsinin formalaşmasına sübutdur. İnsan

Hüquqları üzrə Müvəkkil – Ombudsman hər ilin yekununda öz fəaliyyəti, o cümlədən informasiya əldə edilməsi barədə qanunvericiliyin pozulmasına qarşı necə mübarizə apardığı barədə ölkənin ali qanunvericilik hakimiyyətinə – Milli Məclisə geniş hesabat verir. Lakin ilk dəfədir ki, Xəzər Rayon Məhkəməsi bu mövzüda iddia tələbini rədd edir. Burada geniş araşdırma tələb edən bir məsələ yoxdur. Cavabdeh sahibi və rəhbəri olduğu saytda iddiaçı barəsində, hər-hansı mövzuda informasiya verib. İddiaçı da həmin yazının müəllifinin kimliyi barədə cavabdehə yazılı informasiya sorğusu vermiş və materialı saytdan çıxarmasını ilk gündən xahiş etmişdir. Qarşı tərəf isə mütəmadi olaraq cavabdan yayınmış, informasiyanı isə saytdan çıxarmamışdır. Cavabdehin vəkili və nümayəndəsi məhkəməyə təqdim etdiyi etirazda qısaca 3 əsaslandırılmamış məsələ ortaya qoymuşdur: 1). İddiaçı cavabdehin “x”-in rəhbəri olması barədə məhkəməyə sübut təqdim etməyib; 2) sorğuya cavabda göstərilən “x”-in direktoru Cavabdehin məhz hazırki cavabdehin olması müəyyənləşdirilməyib; 3) iddia ərizəsinə əlavə olunmuş sənədlərə əsasən informasiya sorğusuna “x” tərəfindən iki dəfə cavab verilib; 4) yazının müəllifi onların sayt deyil; 5) başqa saytlarda yayımlanan, müəllifi onların saytın olmayan məqalələr xüsusi proqram vasitəsi ilə heç bir insan müdaxiləsi olmadan bir başa saytda yerləşdirilir və yayımlanır; 6) http://www.”x” saytının qeyd edilən məqalənin yayımlandığı müddətdə yazının dərc edildiyi digər saytlarla və eyni zamanda heç bir saytla hər hansı müqaviləsi olmamışdır; 7). qeyd edilən yazının müəllifi onlar olmadığından həmin yazıya təkzib verilməsi vəzifəsini daşımırlar, eyni zamanda həmin məqalənin yalan olması barədə iddiaçı tərəfindən hər hansi əks arqument təqdim olunmamışdır; 8) iddiaçı məqalənin 12.02.2022-ci il tarixdə saat 12.04-də yayımlanmasını qeyd etsə də, saytdan görünür ki, məqalə 12.02.2022-ci il tarixdə saat 15.04-də yayımlanmışdır; 9) iş materiallarına əlavə olunmuş 25.02.2023-cü il tarixli sorğuya əlavədən görünür ki, iddiaçı özü etiraf edir ki, bir çox saytlarda məqalə dərc olunub və silinib. Digər saytların linklərinə girdikdə müəyyən olunur ki, qeyd edilən saytlarda dərc edilmə saatı “x”-də dərc edilmə saatından əvvəl baş vermişdir. Cavabdehin vəkilinin bu sadaladıqları “İnformasiya əldə etmək haqqında” və “Media haqqında” Qanunlarının müddəalarına tamamilə ziddir. Cavabdeh “x”-in rəhbəri və sahibidir. Buna dair faktlar: Cavabdehin həyatı, təhsili, məşğuliyyəti, işi, tərcümeyi-halı, nəhayət, “x”-i 40 ABŞ dollarına dostlarından necə satın aldığı, rəhbəri və sahibi olduğunu məhkəmə bu gün, 15.09.2023-cü ildə saat 02:55-də (https://”x”/) yoxlaya bilər. Həmin səhifəni iddiaçı PrintScrean edərək, yəni monitordan olduğu kimi köçürərək apellyasiya şikayətinə əlavə etmişdir. İnzibati icraat çərçivəsində iddiaçının sorğusu üzrə məsul vəzifəli şəxs olaraq “XX” Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Cavabdeh müəyyən edilmiş və işdə olan Ombudsman tərəfindən göndərilən məktublar, inzibati protokol, qanuni qüvvəyə minmiş və icra olunmuş məhkəmə qərarları var. Bu sənədlərdə şikayəti üzrə təqsirkar, məhz, vəzifəli şəxs Cavabdeh müəyyən edilib. Bu işdə Cavabdehin təqsiri tam sübuta yetirilmişdir. Mülki Məcəllənin 82.3-cü maddəsi birmənalı olaraq tələb edir: “Bir mülki iş üzrə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsi ilə müəyyən edilmiş faktlar həmin işdə iştirak edən şəxslər tərəfindən başqa məhkəmə prosesində mübahisələndirilmir və yenidən sübut edilmir”. Cavabdeh informasiya sorğusunu qanunvericiliyin tələbləri səviyyəsində cavablandırmadığından inzibati tənbeh də almışdır, lakin yenə qanunlara sayğısızlıq göstərməkdə davam edir. Məhkəmə də bu normanı sadalasa da yekunda nəzərə almamış, informasiya əldə etmək hüququnun kobud şəkildə pozulmasının qarşısını almaq əvəzinə iddia tələbini təmin etməməklə vətəndaş hüququnu pozanların tərəfində durmuşdur. Sorğu edilən informasiya informasiya sahibi yox idisə, o, aidiyyəti informasiya sahibini müəyyənləşdirməli və informasiya sorğusunu ləngitmədən, lakin 5 iş günündən gec olmayaraq ona göndərməli, bu barədə sorğuçuya məlumat verməlidir. Bu sənədlərdə şikayəti üzrə təqsirkar, məhz, vəzifəli şəxs Cavabdeh oğlu müəyyən edilib. Bu işdə

onun təqsiri tam sübuta yetirilmişdir. Məhkəmə işə düzgün hüquqi qiymət verməli, iddia tələbinin təmin edilməsi barədə qətnamə qəbul etməli idi. Lakin mötəbər sənədləri araşdırılmayıb və yanlış nəticəyə gəlinib.

32. Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)-6484/2023 nömrəli mülki iş üzrə 11 dekabr 2023-cü il tarixli qətnaməsi ilə iddiaçı tərəfindən verilmiş apellyasiya şikayəti təmin olunmuş, birinci instansiya məhkəməsinin qətnaməsi ləğv edilmiş, iddia tələbi təmin olunaraq, "XX" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Cavabdehin adına göndərdiyi 17 aprel 2022-ci il tarixli, 08 №-li, 31 avqust 2022-ci il tarixli 19 №-li, 3 mart 2023-cü il tarixli 02 №-li yazılı sorğularında verdiyi "x" saytında 12 fevral 2022-ci ildə saat 12:04-də barəsində "Vəzifədən getmək üçün yarım milyonu şərt qoyan İddiaçı kimdir?" şərlövhəli yazının müəllifinin adı, ata adı, soyadı, qeydiyyat və faktiki ünvanı necədir? Bu yazının dərc olunmasına "x" saytının hansı məsul əməkdaşı qərar vermişdir? (Adı, ata adı, soyadı, təhsili, ixtisası, vəzifəsi, qeydiyyat və faktiki ünvanı göstəriməklə və əmək müqaviləsinin surəti təqdim olunmaqla) 25 fevral 2023-cü il tarixli, 2 №-li yazılı sorğusuna cavab məktubunu imzalayan əvvəlkilərdən fərqli mövzuda "cavab" göndərən, məktubu imzalayan və adını, soyadını göstərməyən direktor vəzifəsini müvəqqəti icra edən şəxsin adı, ata adı, soyadı, qeydiyyat və faktiki ünvanı necədir? (Şəxsə hansı tarixdən hansı tarixədək "XX" MMC direktoru vəzifəsini müvəqqəti icra etmək səlahiyyəti verilməsi barədə əmrin (sərəncamın, qərarın, digər aidiyyəti sənədlərin) surətlərinin MMC rəhbərliyi tərəfindən təsdiq edilmiş surətlərini təqdim etməklə) suallarına "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun göstərişlərinə uyğun qaydada, tələb olunan sənədlərin təsdiqlənmiş surətlərini təqdim etməklə ən qısa müddətdə yazılı cavab verməsi öhdəliyi "XX" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Cavabdehin üzərinə qoyulmuşdur. (hakimlər Fuad Talışinski (sədrlik edən və məruzəçi), Azad İmanov, Məmməd Məmmədov)

33. Apellyasiya instansiya məhkəməsinin mövqeyi ondan ibarət olmuşdur ki, apellyasiya şikayətinin haqlı dəlillərinə və qanunvericilik iyerarxiyasına əsasən yalnız informasiya sahibi tərəfindən sorğu edilən informasiyanın sorğu verənə verilməli olduğu halda bu funksiyanın yerinə yetirilməməsinə görə rəhbər vəzifəli şəxs kimi cavabdeh məsuliyyət daşıyan şəxsdir. Belə ki, "İnformasiya əldə etmək haqqında" Qanunun 10.4.2 və 24.1-ci maddələrinin tələbləri pozulması barədə qanuni qüvvəyə minmiş məhkəmə qərarı ilə inzibati xəta törədilməsi müəyyən edilmiş vəzifəli şəxs - informasiya sahibinin rəhbəri olduğu cavabdeh müəyyən edilmişdir. Buna görə, başqa hal müəyyən edilmədiyindən, informasiya verilməsi məsuliyyəti (vəzifəsi) informasiya sahibinin rəhbəri vəzifəsini həyata keçirən cavabdehin (dəyişdirildiyi təqdirdə onu əvəz edən şəxsin) üzərinə düşür.

34. Apellyasiya instansiya məhkəməsi qeyd etmişdir ki, tələb üzrə bilavasitə hüquqi şəxsin üzərinə düşən cavabdehlik mülki qanunvericiliyin ümumi norma tələblərindən irəli gəlsə də, onu inkişaf etdirən xüsusi norma və yeni normativ hüquqi aktın ("İnformasiya əldə etmək haqqında" Qanunun) tələbləri hüquqi şəxsin müəyyən etdiyi vəzifəli şəxsinin, o cümlədən (informasiya məsələləri üzrə vəzifəli şəxsin təyin olunmaması halında) onun rəhbərinin mülki məsuliyyətini müəyyən etmişdir.

35. Apellyasiya instansiya məhkəməsi gəldiyi nəticəni Azərbaycan Respublikası Konstitusiyasının 50-ci, "İnformasiya əldə etmək haqqında" Qanunun 2.4, 3.0.5, 9.1.1, 9.1.2, 9.2, 10.1, 10.2, 10.3, 10.4.2, 11.1, 11.2, 11.3, 24.1-ci, Mülki Prosessual Məcəllənin 51.3 və 77.1-ci maddələri ilə əsaslandırmışdır.

Kassasiya şikayətinin və ona qarşı etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

36. Cavabdeh (vəkil) kassasiya şikayəti verərək, apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv, iddianın rədd edilməsi barədə qərar qəbul edilməsini xahiş etmişdir.

37. Şikayət onunla əsaslandırılmışdır ki, informasiya sahibi “XX” MMC-dir. “XX” MMC-nin qanuni təmsilçisi X1, direktoru isə Cavabdehdir və o, "X" MMC-də rəhbər vəzifəsində çalışan şəxsdir. Lakin iddia tələbindən də görünür ki, bütün proseslər “x” informasiya saytında baş vermiş, həmin saytın rəhbəri olduğu şəxs məhkəmə tərəfindən müəyyən edilməmiş, saytın “XX” MMC-nin balansında olması və ya Cavabdehə aidiyyatı aydınlaşdırılmamışdır. Cavabdeh, iddiaçı tərəfindən tələb olunan məlumatla bağlı informasiya sahibi olmadığından onun hazırki iddiaya cavab verməli şəxs kimi qəbul edilməsi və qanunvericilikdə nəzərdə tutulmuş qaydada informasiyanın verilməsi öhdəliyinin onun üzərinə qoyulması qanuna uyğun deyil. Həmçinin qeyd iddiaçı tərəfindən məhkəməyə təqdim edilmiş sübutlar iddianın təmin edilməsi üçün kifayət etməmiş, lakin məhkəmə sübut olmadan iddianı təmin etmişdir.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

38. Kassasiya şikayətinə qarşı etiraz daxil olmamışdır.

Tətbiq edilən hüquq

Azərbaycan Respublikasının Konstitusiyası

Maddə 50. (Hissə I) Hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır.

Maddə 50. (Hissə II) Kütləvi informasiyanın azadlığına təminat verilir. Kütləvi informasiya vasitələrində, o cümlədən mətbuatda dövlət senzurası qadağandır.

Maddə 50. (Hissə III) Hər kəsin kütləvi informasiya vasitələrində dərc edilən və onun hüquqlarını pozan və ya mənafelərinə xələl gətirən məlumatı təkzib etmək və ya ona cavab vermək hüququna təminat verilir.

“İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının Qanunu

Maddə 2.4. Fiziki şəxslərin özləri barəsindəki sənədləşdirilmiş informasiya ilə maneəsiz tanış olmaq, onu əldə etmək, bu informasiyada dəqiqləşdirmələr aparılmasını tələb etmək, informasiyadan kimlərin və hansı məqsədlə istifadə etdiyini öyrənmək hüququ vardır.

Maddə 3.0.5. informasiya sahibi - informasiya əldə etmək hüququnu təmin etmək üçün bu Qanunun 9-cu maddəsi ilə müəyyənləşdirilən dövlət orqanları, bələdiyyələr, mülkiyyət növündən asılı olmayaraq yaradılmış hüquqi şəxslər və fiziki şəxslərdir.

Maddə 9.1. Aşağıdakılar informasiya sahibləri sayılır:

Maddə 9.1.1. dövlət orqanları və bələdiyyələr;

Maddə 9.1.2. ictimai funksiyaları yerinə yetirən hüquqi şəxslər (o cümlədən publik hüquqi şəxslər), həmçinin normativ hüquqi aktlarla və ya müqavilə əsasında təhsil, səhiyyə, mədəniyyət və sosial sahələrdə xidmət göstərən özəl hüquqi şəxslər və fiziki şəxslər.

Maddə 10.1. İnformasiya sahibi öz informasiya ehtiyatlarından hər kəsin sərbəst, maneəsiz və hamı üçün bərabər şərtlərlə informasiya əldə etmək hüququnu bu Qanunla müəyyənləşdirilmiş qaydada təmin etməyə borcludur.

Maddə 10.2. İnformasiya sahibi bu məqsədlə informasiya məsələləri üzrə vəzifəli şəxs təyin edir, yaxud struktur bölmə yaradır, informasiya xidmətləri göstərir.

Maddə 10.3. İnformasiya məsələləri üzrə vəzifəli şəxsin təyin olunmaması və ya struktur bölmənin yaradılmaması informasiya xidmətləri göstərməkdən imtina üçün11.1. İnformasiya sahibinin rəhbəri informasiya xidmətlərinin təşkili ilə əlaqədar daxili icraat qaydalarını müəyyənləşdirir.

Maddə 11.2. Bu Qanunun 9-cu maddəsində nəzərdə tutulan informasiya sahibləri informasiyanın əldə olunmasının təşkilinə görə qanunvericiliklə müəyyənləşdirilmiş qaydada məsuliyyət daşıyırlar.

Maddə 11.3. Əgər informasiya sahibi informasiya məsələləri üzrə vəzifəli şəxs təyin etməyibsə, yaxud struktur bölmə yaratmayıbsa, informasiya sorğusunun icrasına məsuliyyəti informasiya sahibinin bu funksiyanın yerinə yetirilməsi üçün müəyyənləşdirdiyi şəxs daşıyır.

Maddə 11.4. İnformasiyanın bu Qanunla müəyyənləşdirilmiş qaydada açıqlanması üçün məsuliyyəti, bu funksiyanın icrası rəsmi qaydada başqasına həvalə olunmayıbsa, informasiya sahibinin rəhbəri daşıyır.

Maddə 24.1. İnformasiya sorğusu ən qısa müddətdə, lakin 7 iş günündən gec olmayaraq icra edilir.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi

Maddə 14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

Maddə 77.1. Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

Maddə 407.2. Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir.

Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

Maddə 416.2. Apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 418.4cü maddəsində nəzərdə tutulmuş prosessual hüquq pozuntusu hesab edilən hallara yol verilməsi şikayətin hədlərindən və dəlillərindən asılı olmayaraq yoxlanılmalıdır.

Maddə 417.1.1. Kassasiya məhkəməsi işə baxarkən apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadını dəyişiklik edilmədən, şikayəti təmin etmədən saxlaya bilər.

Maddə 417.1.2. Kassasiya məhkəməsi işə baxarkən apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadına dəyişiklik edə bilər.

Maddə 417.1.3. Kassasiya məhkəməsi işə baxarkən apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadını qismən ləğv edə və ya tamamilə, yaxud qismən ləğv edib işi yenidən baxılmaq üçün apellyasiya instansiyası məhkəməsinə göndərə bilər.

Maddə 417.1.4. Kassasiya məhkəməsi işə baxarkən apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadını tamamilə, yaxud qismən ləğv edib apellyasiya instansiyası məhkəməsində müəyyən edilmiş hallar və sübutlar əsasında yeni qərar qəbul edə bilər.

Maddə 418.1. Maddi və prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması, o cümlədən maddi və prosessual hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması apellyasiya instansiyası məhkəməsinin qətnamə və qərardadının ləğv edilməsi üçün əsasdır.

Maddə 418.2. Bu Məcəllənin 386-cı maddəsində göstərilən hallarda maddi hüquq normaları pozulmuş və ya düzgün tətbiq olunmamış hesab edilir.

Maddə 418.3. Prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması qətnamənin yaxud qərardadın ləğv edilməsi üçün o vaxt əsas ola bilər ki, bu pozuntu düzgün qətnamə qəbul edilməməsi ilə nəticələnsin və ya nəticələnə bilsin.

Kassasiya baxışının hədləri

39. Kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

40. Kassasiya şikayətində cavabdeh qətnaməni tam mübahisələndirib. Bu səbəbdən kollegiya qətnaməni tam yoxlayır.

41. Məhkəmə kollegiyası hüququn inkişafının və ya məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi üçün əhəmiyyətli hesab etmədiyindən hazırki şikayətə yazılı icraat qaydasında baxılmasını qərara almışdır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

42. Məhkəmə kollegiyası apellyasiya məhkəməsinin gəldiyi nəticəni işin müəyyən edilmiş hallarına uyğun hesab etmir.

43. İddia tələbi iddiaçının müvafiq informasiya sorğularına cavab vermək öhdəliyinin yerinə yetirilməsi barədədir. İddiaçı müvafiq informasiya sorğularına cavab verməli olan şəxs kimi Cavabdehi informasiya sahibi olaraq cavabdeh qismində göstərmişdir.

44. İşdən görünür ki, birinci instansiya məhkəməsi müəyyən etmişdir ki, iddiaçı barəsində məlumat “x” informasiya saytında paylaşılmışdır. İnformasiya sahibi “XX” MMC-dir. “XX” MMC-nin qanuni təmsilçisi X1, direktoru isə Cavabdehdir.

45. Birinci instansiya məhkəməsi hesab etmişdir ki, iş üzrə Cavabdeh informasiya sahibi deyil, o, informasiya sahibində rəhbər vəzifəsində çalışan şəxsdir. Cavabdeh iddiaçı tərəfindən tələb olunan məlumatla bağlı informasiya sahibi olmadığından hazırki iddiaya cavab verməli şəxs kimi qəbul edilməsi və qanunvericilikdə nəzərdə tutulmuş qaydada informasiyanın verilməsi öhdəliyinin onun üzərinə qoyulması qanuna uyğun deyil.

46. Həmçinin işdən o da görünür ki, birinci instansiya məhkəməsi iddiaçıya cavabdehi əsl cavabdehlə əvəz edilməsini təklif etsə də, iddiaçı buna razı olmamışdır.

47. Apellyasiya instansiyası məhkəməsi isə “İnformasiya əldə etmək haqqında” Qanunun 10.4.2 və 24.1-ci maddələrinin tələbləri pozulması barədə qanuni qüvvəyə minmiş məhkəmə qərarı ilə inzibati xəta törədən şəxsin informasiya sahibinin rəhbəri olduğu Cavabdehin olmasına, eləcə də “İnformasiya əldə etmək haqqında” Qanunun tələblərinə görə hüquqi şəxsin müəyyən etdiyi vəzifəli şəxsinin, o cümlədən informasiya məsələləri üzrə vəzifəli şəxsin təyin olunmaması halında onun rəhbərinin mülki məsuliyyət daşımalı olmasına istinad edərək iddianı təmin etmişdir.

48. Göründüyü kimi, apellyasiya instansiyası məhkəməsi iddianı təmin edərkən iki əsasa – Cavabdehin inzibati qaydada tənbeh olunmasına və hüquqi şəxsin informasiya məsələləri üzrə vəzifəli şəxsinin təyin olunmaması halında onun rəhbərinin mülki məsuliyyət daşımalı olmasına söykənmişdir.

49. Məhkəmə kollegiyası qeyd edir ki, Nəsimi Rayon Məhkəməsinin 07.07.2022-ci il tarixli, 3(003)-2174/2022 saylı qərarı ilə Cavabdehin Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 374.1-ci maddəsində nəzərdə tutulmuş əməli törətməkdə təqsirli bilinərək 500 manat məbləğində cərimə edilməsi informasiya sorğusuna cavab vermək öhdəliyinin informasiya sahibinin rəhbəri olaraq onun üzərinə qoyulması üçün əsas ola bilməz.

50. Bunun üçün məhkəmə kollegiyası diqqəti “İnformasiya əldə etmək haqqında” Qanunun 11-ci maddəsinə cəlb edir. Həmin norma dörd hissədən ibarət olmaqla informasiya əldə olunmasının təşkili və buna görə məsuliyyət daşımalı olan şəxslərin dairəsini müəyyən edir.

51. Yuxarıda qeyd edilən həmin normaya görə ilkin olaraq informasiya sahibinin rəhbəri informasiya xidmətlərinin təşkili ilə əlaqədar daxili icraat qaydalarını müəyyənləşdirir. İnformasiya sahibi informasiya məsələləri üzrə vəzifəli şəxs təyin etməyibsə, yaxud struktur bölmə yaratmayıbsa, informasiya sorğusunun icrasına məsuliyyəti informasiya sahibinin bu funksiyanın yerinə yetirilməsi üçün müəyyənləşdirdiyi şəxs daşıyır. İnformasiyanın bu Qanunla müəyyənləşdirilmiş qaydada açıqlanması üçün məsuliyyəti, bu funksiyanın icrası rəsmi qaydada başqasına həvalə olunmayıbsa, informasiya sahibinin rəhbəri daşıyır.

52. Qeyd edilən normanın məzmunundan belə nəticə çıxır ki, burada nəzərdə tutulan məsuliyyət İnzibati Xətalar Məcəlləsinin 32-ci fəslində nəzərdə tutulan "İnformasiyadan istifadə edilməsi, onun yayılması və mühafizəsi qaydaları əleyhinə olan inzibati xətalar"ı ehtiva edir və bu məsuliyyətin müəyyən edilməsi informasiya sahibinin əvəzinə inzibati tənbeh tədbiri tətbiq edilmiş şəxsin üzərinə informasiyanı vermək öhdəliyinin qoyulması anlamına gəlməməlidir.

53. Qeyd edilən normaya görə informasiya məsələləri üzrə vəzifəli şəxs təyin edilmədiyi, yaxud struktur bölmə yaradılmadığı hallarda, informasiya sorğusunun icrasına məsuliyyəti informasiya sahibinin bu funksiyanın yerinə yetirilməsi üçün müəyyənləşdirdiyi şəxs daşıyır.

54. Bu normadan çıxış edərək məhkəmə kollegiyası qeyd edir ki, inzibati tənbeh tədbiri tətbiq edilmiş şəxsin üzərinə həm də informasiyanı vermək öhdəliyin qoyulması kimi nəticəyə gəlmək o deməkdir ki, bu funksiyanın yerinə yetirilməsi üçün müəyyənləşdirilən şəxs də informasiya sahibi kimi analoji işlərdə cavabdeh ola bilər. Halbuki informasiyanın verilməsinə məsul olan şəxs informasiya sahibi deyil, informasiya sahibinin onun verilməsi ilə bağlı təyin etdiyi məsul şəxsdir.

55. Daha sonra "İnformasiya əldə etmək haqqında" Qanunun 11-ci maddəsinə görə informasiyanın bu Qanunla müəyyənləşdirilmiş qaydada açıqlanması üçün məsuliyyəti, bu funksiyanın icrası rəsmi qaydada başqasına həvalə olunmayıbsa, informasiya sahibinin rəhbəri daşıyır.

56. Bu normadan da görünür ki, informasiya sahibinin rəhbəri o halda informasiyanın açıqlanması üçün məsuliyyəti daşıyır ki, o, bu funksiyanın icrasını rəsmi qaydada başqasına həvalə etməsin.

57. Göründüyü kimi qeyd edilən normanın qısa təhlili onu deməyə əsas verir ki, "İnformasiya əldə etmək haqqında" Qanunun 11-ci maddəsində nəzərdə tutulan məsuliyyət inzibati xəta məsuliyyətidir və həmin xəta ilə tənbeh olunan şəxsin həm də informasiya sahibi kimi qəbul edilməsi düzgün deyil.

58. Bundan əlavə, hüquqi şəxsin informasiya məsələləri üzrə vəzifəli şəxsinin təyin olunmaması halında da onun rəhbərinin məsuliyyət daşımalı olması barədə qanunvericilikdə göstərilən tələb hüquqi şəxsin rəhbərinin üzərinə informasiya sahibi kimi öhdəlik qoyulmasına əsas vermir.

59. Bu baxımdan, apellyasiya instansiyası məhkəməsinin yuxarıda göstərilən iki əsasla iddianı təmin etməsi düzgün olmamışdır.

60. "İnformasiya əldə etmək haqqında" Qanunun 9.1. və 91.2-ci maddələrinə görə dövlət orqanları və bələdiyyələr; ictimai funksiyaları yerinə yetirən hüquqi şəxslər (o cümlədən publik hüquqi şəxslər), həmçinin normativ hüquqi aktlarla və ya müqavilə əsasında təhsil, səhiyyə, mədəniyyət və sosial sahələrdə xidmət göstərən özəl hüquqi şəxslər və fiziki şəxslər informasiya sahibləri sayılır.

61. İşin müəyyən edilmiş hallarına görə iddia tələbində qeyd edilən informasiyanın sahibi Cavabdeh yox, "XX" MMC-dir. İddiaçı həmin MMC-nin direktorudur. Buna baxmayaraq, iddiaçı tələbini informasiya sahibi olan "XX" MMC-yə yox, MMC-nin direktoru olan Cavabdehə qarşı

irəli sürmüş, birinci instansiya məhkəməsinin təklifinə baxmayaraq, cavabdehin əsl cavabdehlə əvəz edilməsinə də razı olmamışdır.

62. Mülki Prosessual Məcəllənin 50.3-cü maddəsinə görə iddia tələbinin yönəldiyi fiziki və hüquqi şəxslər cavabdeh hesab olunurlar.

63. Mülki Prosessual Məcəllənin 54.1-ci maddəsinə görə iddia tələb hüququ olmayan şəxs tərəfindən verildikdə və ya iddiaya cavab verməli olmayan şəxsə verildikdə məhkəmə işin məhkəmədə baxılmağa hazırlanması yekunlaşana qədər iddiaçının yazılı razılığı ilə iddiaçını və ya cavabdehi əsl iddiaçı və ya cavabdeh ilə əvəz edə bilər. Məhkəmə baxışı zamanı iddiaçının və ya cavabdehin əsl iddiaçı və ya cavabdeh ilə əvəz edilməsinə o halda yol verilir ki, bunun üçün əsaslar məhkəmə baxışı gedişində əmələ gəlmiş olsun.

64. Mülki Prosessual Məcəllənin 54.2-ci maddəsinə görə isə iddiaçı özünün əsl iddiaçı ilə və ya cavabdehin əsl cavabdehlə əvəz edilməsinə razı olmadıqda, məhkəmə işə irəli sürülmüş tələblər üzrə baxır.

65. Beləliklə, apellyasiya instansiyası məhkəməsi iddia tələbində göstərilən informasiya sahibinin Cavabdehin olmamasına, nəticədə hazırki iş üzrə iddianın əsl olmayan cavabdehə qarşı verilməsinə baxmayaraq iddianı təmin etmiş, bununla da yuxarıda göstərilən maddi və prosessual hüquq normalarını pozmuşdur.

66. Bu baxımdan, yuxarıda şərh edilən hallar hüquqi məsələ olduğu üçün məhkəmə kollegiyası işi apellyasiya baxışına göndərmədən apellyasiya instansiyası məhkəməsində müəyyən edilmiş hallar və sübutlar əsasında yeni qərar qəbul edilməklə iddianın təmin edilməməli olması qənaətinə gəlir.

67. Məhkəmə kollegiyası qeyd olunanlara əsasən belə qənaətə gəlir ki, kassasiya şikayəti təmin edilməli, apellyasiya instansiyası məhkəməsinin qətnaməsi ləğv edilməli, iddiaçının cavabdehə qarşı “informasiya sorğusuna cavab verilməsi öhdəliyinin qoyulması” barədə iddia tələbi təmin edilməməlidir.

68. Yuxarıda göstərilənlərə əsasən və MPM-in 416, 417, 418 və 419-cu maddələrini rəhbər tutaraq, məhkəmə kollegiyası

Qərara aldı:

Cavabdehin kassasiya şikayəti təmin edilsin.

Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(103)-6484/2023 nömrəli, 11 dekabr 2023-cü il tarixli qətnaməsi ləğv edilsin.

İddiaçının Cavabdehə qarşı “informasiya sorğusuna cavab verilməsi öhdəliyinin qoyulması” barədə iddia tələbi təmin edilməsin.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

78. 2-2(102)-664/2024 nömrəli, 2024-cü il 31 oktyabr tarixli qərar - İnzibati ərazi dairələri üzrə nümayəndəliklərin prosessual hüquq qabiliyyəti

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: inzibati ərazi dairələri üzrə nümayəndəliklərin prosessual hüquq qabiliyyəti.

İddiaçı cavabdeh yerli icra hakimiyyətinin inzibati ərazi dairəsi üzrə nümayəndəliyinə qarşı pul tələbinə dair iddia ərizəsi ilə məhkəməyə müraciət etmiş, apellyasiya instansiyası məhkəməsi isə hesab etmişdir ki, iddia tələbi həmin tələbə cavab verməli olmayan nümayəndəliyə qarşı yönəldiyindən mübahisəyə mahiyyəti üzrə baxıla bilməz. Apellyasiya məhkəməsi belə qənaətə gəlmişdir ki, nümayəndəlik mülki prosessual fəaliyyət qabiliyyətinə malik olmadığına görə iddiaçı əsl cavabdeh olan rayon icra hakimiyyətinə qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət etməli idi.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu və 124-cü maddələrinə əsasən, yerli icra hakimiyyəti orqanlarının yaradılması, fəaliyyətlərinin tənzimlənməsi və ləğvi birbaşa Prezidentin səlahiyyətlərinə daxildir. Prezident tərəfindən təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında" Əsasnaməyə görə, bu qurumlar dövlət idarəçiliyini həyata keçirir, müstəqil balansı, dövlət əmlakı və xüsusi möhürləri ilə təchiz olunmuşdur. Yerli icra hakimiyyəti orqanlarının strukturu, ştat vahidlərinin sayı və onların tabeliyində olan digər qurumların fəaliyyət qaydaları Prezidentin qərarları ilə tənzimlənir.

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.6-cı maddəsinə görə yerli icra hakimiyyətinin inzibati ərazi dairələri üzrə nümayəndəlikləri və sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklər də 5-ci kateqoriya dövlət orqanları sırasında göstərilmişdir.

Mülki qanunvericiliyə əsasən, dövlət orqanları, qanunda ayrı qayda nəzərdə tutulmadığı hallarda, mülki hüquq münasibətlərində digər hüquqi şəxslər kimi iştirak edə bilərlər. Mülki Məcəllənin 5-ci və 43-cü maddələri dövlət hakimiyyəti orqanlarının hüquqi şəxslər kimi mülki dövriyyədə iştirakını nəzərdə tutur. Eyni zamanda, Mülki Prosessual Məcəllənin 46 və 50-ci maddələrinə görə, dövlət orqanları məhkəmə prosesində iddiaçı və ya cavabdeh qismində çıxış edə bilərlər.

Məhkəmə kollegiyası qeyd olunan qanunvericilik normalarını nəzərə alaraq belə qənaətə gəlmişdir ki, rayon icra hakimiyyətinin inzibati ərazi dairəsi üzrə nümayəndəliyi hazırkı mübahisədə tərəf kimi çıxış edə bilər.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2-2(102)-664/2024

31.10.2024-cü il Bakı şəhəri

Azərbaycan Respublikası adından

Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının

İddiaçının Cavabdehə qarşı iş üzrə

Q Ə R A R I

Açar sözlər: iş üzrə icraata xitam verilməsi barədə qərardadın ləğvi

Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının hakimi Qəribov Bəhman Fərhad oğlunun sədrliyi və məruzəsi, hakimlər Əhmədov Əhməd Abbas oğlu və Məmmədli Bəhram Məmməd oğlundan ibarət tərkibdə,

İddiaçının cavabdehə qarşı pul tələbinə dair iş üzrə Şəki Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2024-cü il 20 sentyabr tarixli 2-2(107)-107/2024 nömrəli qərardadından iddiaçı tərəfindən verilmiş kassasiya şikayətinə yazılı icraat qaydasında baxılmışdır.

İş üzrə məhkəmə icraatı

a) Birinci instansiya məhkəməsindəki icraat

1. İddiaçının (bundan sonra – "iddiaçı") cavabdeh Cavabdehnə (bundan sonra – "cavabdeh") qarşı pul tələbinə dair iddia ərizəsi ilə Şəki Kommersiya Məhkəməsinə müraciət etmişdir.

2. Şəki Kommersiya Məhkəməsinin 2024-cü il 12 iyun tarixli e-2-2(117)-613/2024 nömrəli qətnaməsi ilə iddia qismən təmin edilərək, cavabdehdən 12237,47 manat əsas, 600 manat cərimə borcu və 130.38 manat dövlət rüsumu tutularaq iddiaçıya ödənilmiş, iddia qalan hissədə rədd edilmişdir.

3. Cavabdeh qətnamədən apellyasiya şikayəti verərək, birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv, iddianın rədd edilməsini xahiş etmişdir.

b) Apellyasiya instansiyası məhkəməsindəki icraat

4. Şəki Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2024-cü il 20 sentyabr tarixli 2-2(107)-107/2024 nömrəli qərardadı ilə cavabdeh tərəfindən verilmiş apellyasiya şikayəti qismən təmin edilmiş, birinci instansiya məhkəməsinin qətnaməsi ləğv edilərək, kommersiya mübahisəsi üzrə icraata xitam verilmişdir (sədrlik edən – N.Quliyev, hakimlər – E.Hüseynov və Ə.Kərimov).

5. Apellyasiya instansiyası məhkəməsi gəldiyi nəticə ilə bağlı göstərmişdir ki, birinci instansiya məhkəməsi iddia ərizəsində cavabdeh kimi qeyd edilmiş Cavabdehi hüquqi şəxs kimi qəbul edərək həmin cavabdehə qarşı yönəlmiş tələbə mahiyyəti üzrə baxmaqla prosessual hüquq normalarının tələblərini pozmuşdur.

6. Məhkəmə bildirmişdir ki, mülki prosessual qanunvericiliyə əsasən tərəfin əsl tərəflə əvəz edilməsi məhkəmənin imperativ vəzifəsi olmasa da iddia tələbinin iddiaya cavab verməli olmayan şəxsə qarşı qaldırılması məsələsinin müzakirəsi məhkəmənin vəzifəsidir.

7. Göründüyü kimi, işdə iştirak mülki prosessual fəaliyyət qabiliyyətinin olması ilə şərtləndirilməklə fiziki şəxslərdə yetkinlik yaşına çatma halında yaranmış hesab olunur. Hüquqi şəxslərə gəldikdə isə onların mülki prosessual hüquq və fəaliyyət qabiliyyəti eyni anda, hüquqi şəxsin dövlət qeydiyyatına alındığı andan yaranır. Yəni, hüquqi şəxsin mülki prosessual hüquq qabiliyyəti onun maddi hüququn subyekti olduğu andan əmələ gəlir.

8. Məhkəmə kollegiyası qeyd etmişdir ki, iddia tələbi həmin tələbə cavab verməli olmayan nümayəndəliyə qarşı yönəldildiyindən, apellyasiya mərhələsində cavabdehin əsl cavabdehlə əvəz edilməsi imkanları nəzərdə tutulmadığından, hazırkı vəziyyətdə mübahisənin mahiyyəti üzrə həlli baxımından qiymətləndirilməsi doğru hesab edilə bilməz.

9. Beləliklə, məhkəmə kollegiyası hesab etmişdir ki, hazırkı halda cavabdeh yuxarıda qeyd edilən hüquq və vəzifələri həyata keçirmək üçün məhkəmə iclasında iştirak etmək, həmçinin verilən iddiaya görə cavabdehlik daşımaq iqtidarında deyildir. Birinci instansiya məhkəməsi işin bütün faktiki hallarını tam, hərtərəfli və obyektiv araşdırmamış və tərəflər arasındakı mübahisənin həlli üçün tətbiq edilməli olan prosessual hüquq normalarını düzgün tətbiq etməmişdir.

10. Sonda məhkəmə kollegiyası izah etmişdir ki, iş üzrə cavabdeh qismində göstərilmiş Cavabdeh mülki prosessual fəaliyyət qabiliyyətinə malik olmadığına görə iddiaçı hazırkı tələblə bağlı əsl cavabdeh olan Zaqatala Rayon İcra Hakimiyyətinə qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edə bilər.

11. Apellyasiya instansiyası məhkəməsi mövqeyini Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra – "MM") 53.1, 53.2, 53.3, 54.2-ci maddələrinə, "Azərbaycan Respublikası Əmək Məcəlləsinin 3-cü maddəsinin 1 və 3-cü hissələrinin Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 49.1, 50.1 və 50.4-cü maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 22 fevral 2024-cü il tarixli qərarına, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli, 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 1.6-cı bəndinə, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra – "MPM") 48, 49.1, 50.1, 50.3, 54.1, 54.2, 261.0.1, 262.1, 262.3, 372.6, 372.7, 384.0.5, 387.2.8, 402.2-ci maddələrinə istinad etməklə əsaslandırmışdır.

12. İddiaçı kassasiya şikayəti verərək, apellyasiya instansiya məhkəməsinin qərardadının ləğv edilməsini və işin yenidən baxılması üçün həmin məhkəməyə qaytarılmasını xahiş etmişdir.

Kassasiya şikayətinin və ona qarşı etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

13. İddiaçı qeyd edir ki, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 7-ci bəndinin və 124-cü maddəsinin I hissəsinin tələbləri pozulmuşdur.

14. MM-in 43-cü maddəsi üzrə - apellyasiya məhkəməsi qeyd etmişdir ki, cavabdeh qismində göstərilmiş Cavabdeh mülki prosessual fəaliyyət qabiliyyətinə malik olmadığına görə iddiaçı hazırkı tələblə bağlı əsl cavabdeh olan Zaqatala Rayon İcra Hakimiyyətinə qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edə bilər. İddiaçı məhkəmənin bu mövqeyi ilə razılaşmır və qeyd edir ki, məhkəmə tərəfindən qərardad qəbul edilərkən yerli icra hakimiyyətlərinin hüquqi statusuna münasibət bildirilməmiş, hansı kateqoriyaya aid olduğu (Kommersiya hüquqi şəxslər, Qeyri-kommersiya hüquqi şəxslər, Publik hüquqi şəxslər) öz əksini tapmamışdır.

15. MM-in 53-cü maddəsi və Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında" Əsasnamə üzrə - Məhkəmə qərardadında hüquqi şəxsin struktur vahidlərinə münasibətdə qeyd etmişdir ki, MM-in 53.1 və 53.2-ci maddələrinə görə, hüquqi şəxsin olduğu yerdən kənarda yerləşən və hüquqi şəxsin mənafelərini təmsil və müdafiə edən ayrıca bölməsi nümayəndəlik sayılır. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında" Əsasnaməyə əsasən, inzibati ərazi dairələri üzrə nümayəndəliklər MM-in 53.1 və 53.2-ci maddələrinə görə, hüquqi şəxsin olduğu yerdən kənarda yerləşən və hüquqi şəxsin mənafelərini təmsil və müdafiə edən ayrıca bölməsi hesab edilmir. Müvafiq inzibati ərazi vahidində onun fəaliyyətini təmin etmək məqsədi ilə yaradılan aparat, inzibati ərazi dairələri üzrə nümayəndəliklər, sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklər, yerli icra hakimiyyəti başçısının yanında olan qurumlar, habelə tabeliyində olan hüquqi şəxslər bilavasitə yerli icra hakimiyyətinin başçısına tabedirlər. Yəni, yerli icra hakimiyyətləri dövlət idarəetmə orqanlarıdır, inzibati ərazi dairələri üzrə nümayəndəliklər yerli icra hakimiyyətinin başçısına tabedirlər, MM-in 53 və 54-cü maddələrinin təsir dairəsinə düşmürlər.

16. İddiaçı qeyd edir ki, tərəflər arasında hüquq münasibətləri "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan

Respublikasının 2016-cı il 4 mart tarixli 158-VQD nömrəli Qanununun tətbiqi və "Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 859 nömrəli Fərmanına əsasən tənzimlənmişdir.

17. MPM-in 261-ci maddəsi üzrə - Məhkəmə qərardadla MPM-in və hüquq nəzəriyyəsinin təməli olan subyektiv hüququn prinsiplərini pozmuşdur. Qeyd olunan mübahisə predmeti üzrə məhkəmənin cavabdehin Cavabdeh yox Zaqatala Rayon İcra Hakimiyyəti olması qənaətinə gəlməsi, işə məhkəmədə və ya mülki məhkəmə icraatı qaydasında baxılmamalıdır əsası ilə iş üzrə icraata xitam verilməsi üçün səbəb deyildir və qərardad qəbul olunarkən iddiaçının prossesual hüquqları pozulmuşdur. Qərardad mülki prosessual qanunvericiliyə əsasən düzgün əsaslandırılmamış və xitam verildiyi halda iddiaçıya məhkəməyə yox hara müraciət ediləcəyi göstərilməmişdir.

18. Tərəflər arasında kommersiya mübahisəsinin yaranmasına əsas 2020-ci il 28 sentyabr tarixli SA-553 nömrəli müqavilədir. Məhkəmənin qərardadla iş üzrə icraata xitam verməsi əsassızdır. Məhkəmə mübahisə predmeti üzrə cavabdehin Cavabdeh yox Zaqatala Rayon İcra Hakimiyyəti olması qənaətinə gəlmişdirsə iddianın tam və ya qismən təmin edilməsi və ya rədd edilməsi haqqında (yaxud əsl olmayan tərəfin əsl olan tərəflə əvəz olunması) yekun qərar çıxarmalı idi.

19. MPM-in 372-ci maddəsi üzrə - Məhkəmə qərardadında apellyasiya instansiyası məhkəməsində işə baxılmanın hədləri pozulmuşdur. İş materiallarına əlavə edilmiş 2024-cü il 13 iyul tarixli məktubda cavabdehin nümayəndəsi X bildirmişdir ki, öz iradəsi ilə yox Zaqatala rayon İcra Hakimiyyəti Başçısı X-in göstərişinə əsasən apellyasiya şikayəti vermək qənaətinə gəlmişdir.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

20. Kassasiya şikayətinə qarşı etiraz daxil olmamışdır.

Kassasiya baxışının hədləri

21. Apellyasiya instansiyası məhkəməsinin qərardadı bütövlükdə mübahisələndirildiyi üçün hazırkı icraat çərçivəsində məhkəmə aktının qanuniliyi və əsaslılığı tam olaraq yoxlanılacaqdır (MPM-in 403 və 416-cı maddələri).

22. Kassasiya instansiyası məhkəməsi tərəfindən işin faktiki halları yoxlanılmasa da, apellyasiya instansiyası məhkəməsinin maddi və prosessual hüquq normalarını düzgün tətbiq edib-etməməsini yoxlayarkən hüquqi məsələlərin düzgün qiymətləndirilməsi üçün işin faktiki hallarının nəzərə alınması və onlara istinad olunması zəruridir. Kassasiya instansiyası məhkəməsinin işin müəyyən edilmiş faktiki hallarına istinad etməsi faktikihalların yoxlanılması və araşdırılması kimi qiymətləndirilməməlidir.

Tətbiq edilən hüquq

23. Azərbaycan Respublikası Məcəlləsinin müvafiq müddəalarında aşağıdakılar nəzərdə tutulur:

"Maddə 53. Nümayəndəliklər və filiallar

53.1. Hüquqi şəxsin olduğu yerdən kənarda yerləşən və hüquqi şəxsin mənafelərini təmsil və müdafiə edən ayrıca bölməsi nümayəndəlik sayılır.

53.2. Hüquqi şəxsin olduğu yerdən kənarda yerləşən və onun funksiyalarının hamısını və ya bir hissəsini, o cümlədən nümayəndəlik funksiyalarını həyata keçirən ayrıca bölməsi filial sayılır.

53.3. Nümayəndəliklər və filiallar hüquqi şəxs deyildirlər və hüquqi şəxsin təsdiq etdiyi əsasnamələr üzrə fəaliyyət göstərirlər. Nümayəndəliklərin və filialların rəhbərləri hüquqi şəxs tərəfindən təyin edilir və onun etibarnaməsi əsasında fəaliyyət göstərirlər. Təsisçilərinin əcnəbilər və ya xarici hüquqi səxslər olduğu qeyrihökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin rəhbərlərinin müavinləri

Azərbaycan Respublikasının vətəndaşları olmalıdır."

"Maddə 54. İdarə

...

54.2. İdarə hüquqi şəxs deyildir və hüquqi şəxsin təsdiq etdiyi əsasnamə üzrə fəaliyyət göstərir.

..."

24. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli, 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin müvafiq müddəalarında aşağıdakılar nəzərdə tutulur:

"Ümumi müddəalar

...

1.6 Müvafiq inzibati ərazi vahidində onun fəaliyyətini təmin etmək məqsədi ilə yaradılan aparat, inzibati ərazi dairələri üzrə nümayəndəliklər, sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklər, yerli icra hakimiyyəti başçısının yanında olan orqanlar, habelə tabeliyində olan hüquqi şəxslər bilavasitə yerli icra hakimiyyətinin başçısına tabedirlər.

Rayon bölgüsü olan şəhərin icra hakimiyyəti başçısının yanında olan orqanların və tabeliyində olan hüquqi şəxslərin müvafiq şəhər rayonunun ərazisində mənzil-kommunal təsərrüfatı və mənzil istismarı sahəsində fəaliyyət göstərən, məişət tullantılarının yığılması və daşınması, abadlaşdırma, yaşıllaşdırma, təmizlik və işıqlandırma işlərini yerinə yetirən struktur bölmələri (mənzil-kommunal istismarı və mənzil istismarı sahələri də daxil olmaqla) ikili tabelikdədir – onlar həm şəhər icra hakimiyyətinin başçısına, həm də müvafiq şəhər rayonunun icra hakimiyyətinin başçısına tabedirlər.

Yerli icra hakimiyyətinin başçısı müvafiq ərazidə fəaliyyət göstərən mərkəzi icra hakimiyyəti orqanlarının yerli qurumlarına ümumi rəhbərliyi həyata keçirir.

25. Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin müvafiq müddəalarında aşağıdakılar nəzərdə tutulur:

"Maddə 48. Mülki prosessual hüquq qabiliyyəti

Hər bir fiziki və hüquqi şəxs eyni dərəcədə qanunla müəyyən edilən və qanunla yol verilən mülki prosessual hüquqlar əldə etmək və vəzifələr daşımaq qabiliyyətinə (mülki-prosessual hüquq qabiliyyəti) malikdir."

"Maddə 49. Mülki prosessual fəaliyyət qabiliyyəti

49.1. Öz fəaliyyəti ilə məhkəmədə hüquqlarını həyata keçirmək və vəzifələrini yerinə yetirmək, işin aparılmasını nümayəndəyə tapşırmaq qabiliyyəti (mülkiprosessual fəaliyyət qabiliyyəti) tam həcmdə yetkinlik yaşına çatmış hər bir fiziki şəxsə və qanunvericiliklə müəyyən edilmiş qaydada qeydə alınmış hüquqi şəxsə məxsusdur.

..."

"Maddə 50. Tərəflər

50.1. Prosesdə tərəflər iddiaçı və cavabdeh hesab edilirlər. Fiziki və hüquqi şəxslər, dövlət orqanları və başqa orqanlar iddiaçı və ya cavabdeh qismində çıxış edə bilərlər.

...

50.3. İddia tələbinin yönəldiyi fiziki və hüquqi şəxslər cavabdeh hesab olunurlar.
...”
“Maddə 54. Əsl olmayan tərəfin əvəz edilməsi

54.1. İddia tələb hüququ olmayan şəxs tərəfindən verildikdə və ya iddiaya cavab verməli olmayan şəxsə verildikdə məhkəmə işin məhkəmədə baxılmağa hazırlanması yekunlaşana qədər iddiaçının yazılı razılığı ilə iddiaçını və ya cavabdehi əsl iddiaçı və ya cavabdeh ilə əvəz edə bilər. Məhkəmə baxışı zamanı iddiaçının və ya cavabdehin əsl iddiaçı və ya cavabdeh ilə əvəz edilməsinə o halda yol verilir ki, bunun üçün əsaslar məhkəmə baxışı gedişində əmələ gəlmiş olsun.

54.2. İddiaçı özünün əsl iddiaçı ilə və ya cavabdehin əsl cavabdehlə əvəz edilməsinə razı olmadıqda, məhkəmə işə irəli sürülmüş tələblər üzrə baxır.
...”
“Maddə 261. İcraata xitam verilmə əsasları
...
261.0. Hakim iş üzrə icraata aşağıdakı hallarda xitam verir:
261.0.1. iş məhkəmədə və ya mülki məhkəmə icraatı qaydasında baxılmalı deyildirsə;
...”
“Maddə 262. İcraata xitam verilmə qaydası və nəticələri

...
262.3. Bu Məcəllənin 261.0.1-ci və ya 261.0.8-ci maddələrində nəzərdə tutulmuş əsaslar üzrə icraata xitam verilərsə, məhkəmə ərizəçinin hansı orqana müraciət etməli olmasını göstərməlidir.
...”
“Maddə 372. Apellyasiya instansiyası məhkəməsində işə baxılmanın hədləri
...
372.7. Apellyasiya instansiyası məhkəməsi şikayətin dəlillərindən asılı olmayaraq, məhkəmənin maddi və prosessual hüquq normalarına riayət etməsini yoxlayır.”
“Maddə 384. Apellyasiya instansiyası məhkəməsinin səlahiyyətləri
...
384.0.5. birinci instansiya məhkəməsinin qətnamə və ya qərardadını qismən ləğv edə, qətnamə və ya qərardadı tamamilə, yaxud qismən ləğv edib, bu Məcəllənin 259.0.1-259.0.5-ci və 259.0.8—259.0.12-ci maddələrinə müvafiq olaraq iddianı tamamilə, yaxud qismən baxılmamış saxlaya, qətnamə və ya qərardadı tamamilə, yaxud qismən ləğv edib, bu Məcəllənin 261-ci maddələrinə müvafiq olaraq iş üzrə icraata xitam verə bilər. Bu Məcəllənin 259.0.11-ci maddəsində göstərilən əsaslar işə yalnız birinci instansiya məhkəməsində baxılarkən yarandığı halda tətbiq edilir;
...”
“Maddə 387. Prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq edilməməsi
...
387.2. Şikayətin dəlillərindən asılı olmayaraq birinci instansiya məhkəməsinin qətnaməsi və ya qərardadı aşağıdakı hallarda ləğv edilməlidir:
...
387.2.8. iddianın baxılmamış saxlanılması və ya iş üzrə icraata xitam verilməsi üçün bu Məcəllədə müəyyən edilmiş əsaslar olduğu halda məhkəmə işə mahiyyəti üzrə baxmışsa;
...”

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

26. Məhkəmə kollegiyası ilk növbədə qeyd edir ki, bütün fiziki və hüquqi şəxslər özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədi ilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququna malikdirlər. Məhkəmələr, pozulmuş və barəsində mübahisə edilən hüquq və azadlıqları müdafiəsi məhkəmədən kənar digər qaydada həyata keçirilmirsə, bu Məcəlləyə və ya digər qanunlara müvafiq olaraq belə hüquq və azadlıqları müdafiə və təmin edir (MPM-nin 4.1 və 24.1-ci maddələri).

27. Hazırkı iş üzrə məhkəmə kollegiyası apellyasiya instansiyası məhkəməsinin gəldiyi nəticə ilə razılaşmayaraq aşağıdakıların qeyd olunmasını zəruri hesab edir.

28. Belə ki, hazırkı iş üzrə apellyasiya instansiyası məhkəməsinin mövqeyi bu qərarın §8, 9-da göstərilən məzmunu ilə əhatələnmişdir. Məhkəmə kollegiyası bununla bağlı vurğulayır ki, mövcud qanunvericiliyin tələbləri baxımından bu cür mövqe ilə razılaşma aşağıda göstərilən qanunvericilik normaları baxımından məqbul hesab edilə bilməz.

29. İlk növbədə qeyd edilməlidir ki, MM-in müddəalarına görə hüquqi şəxs qanunla müəyyənləşdirilən qaydada dövlət qeydiyyatından keçmiş, xüsusi yaradılmış elə bir qurumdur ki, mülkiyyətində ayrıca əmlakı vardır, öz öhdəlikləri üçün bu əmlakla cavabdehdir, öz adından əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və ya cavabdeh olmaq hüququna malikdir. Hüquqi şəxsin müstəqil balansı olmalıdır. Hüquqi şəxslər bir fiziki və ya hüquqi şəxs tərəfindən, yaxud fiziki və hüquqi şəxslərin toplusu tərəfindən yaradıla bilər, üzvlüyə əsaslana bilər, üzvlərin olmasından asılı ola və ya asılı olmaya bilər, sahibkarlıq fəaliyyəti ilə məşğul ola və ya məşğul olmaya bilər (MM-in 43.1 və 43.2-ci maddələri). Bundan başqa hüquqi şəxsin fəaliyyətinin istiqamətləri, habelə bunlardan gəlir əldə edib-etməməsi də onların qanunvericilikdə fərqləndirilməsini də şərtləndirmişdir.

30. MM-in 43.5-ci maddəsindən görünür ki, hüquqi şəxslər fəaliyyətinin əsas məqsədi mənfəət götürməkdən ibarət olan (kommersiya hüquqi şəxsləri) və ya əsas məqsədi mənfəət götürməkdən ibarət olmayan və götürülən mənfəəti iştirakçıları arasında bölüşdürməyən (qeyri-kommersiya hüquqi şəxsləri), habelə ümumdövlət və (və ya) ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olan (publik hüquqi şəxslər) qurumlar ola bilər.

31. Bu normaların müqayisəli təhlilindən belə qənaətə gəlinir ki, hüquqi təbiəti baxımından MM ilə anlayışı verilmiş hüquqi şəxslərlə dövlət tərəfindən yaradılan və yaradılması xüsusi normativ aktlarla tənzimlənən digər təsisatların əhəmiyyətli dərəcədə fərqləndirilmə əlamətləri mövcuddur. Nəzərə alınmalıdır ki, MM-in müddəalarına uyğun olaraq yaradılan hüquqi şəxslərin hüquq qabiliyyəti yalnız onlar təsis edildikdən sonra dövlət qeydiyyatına alındığı andan yaranır. Hüquqi şəxsin nizamnaməsi, təsis edilməsi, idarəetmə orqanları, təşkilati hüquqi formaları ilə bağlı qaydalar isə MM-in 45, 47, 49, 64-cü maddələri ilə tənzimlənmişdir. Diqqətdən qaçırılmamalıdır ki, MM-in 53-cü maddəsində hüquqi şəxsin nümayəndəlik və filiallarla bağlı qaydalar da nizamlanmış, lakin bu tənzimləmə məhz bu Məcəllənin normalarına əsasən yaradılmış hüquqi şəxslərin nümayəndəlik və filiallarının səlahiyyətlərini ehtiva edir.

32. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinə görə Azərbaycan Respublikasının dövlət büdcəsində icra hakimiyyəti üçün nəzərdə tutulmuş xərclər çərçivəsində mərkəzi və yerli icra hakimiyyəti orqanlarının yaradılması, həmçinin yerli icra hakimiyyəti orqanlarının aktlarının ləğv edilməsi də Azərbaycan Respublikası Prezidentinin səlahiyyətləri sırasında göstərilmişdir (Konstitusiyasının 109-cu maddəsinin VII və IX hissələri). Konstitusiyanın 124-cü maddəsində nəzərdə tutulur ki, yerlərdə icra hakimiyyətini yerli icra

hakimiyyətlərinin başçıları həyata keçirirlər. İcra hakimiyyəti başçılarını Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir. Yerli icra hakimiyyətlərinin səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti müəyyən edir.

33. Göründüyü kimi yerli icra hakimiyyəti orqanlarının yaradılması, onların fəaliyyətlərinin tənzimlənməsi birbaşa Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinə aiddir və hüquqi şəxslərlə bağlı MM-in yuxarıda göstərilən normalarının təsir dairəsindən kənardadır.

34. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında" Əsasnamənin 1.5-ci bəndində göstərilmişdir ki, inzibati ərazi dairələri üzrə nümayəndəliklər və sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklər də yerli icra hakimiyyəti sisteminə daxildir və müvafiq ərazidə dövlət idarəçiliyini həyata keçirirlər. Həmçinin yerli icra hakimiyyəti orqanlarının, yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairələri üzrə nümayəndəliklərinin, sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərinin, yerli icra hakimiyyəti başçısının yanında olan orqanların və yerli icra hakimiyyəti başçısının tabeliyində olan hüquqi şəxslərin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri (yerli icra hakimiyyəti başçısının tabeliyində olan hüquqi şəxslərin möhürləri istisna olmaqla) və müvafiq yerli icra hakimiyyətinin adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır (bu əsasnamənin 1.7-ci bənd). Yerli icra hakimiyyətlərinin təşkili qaydalarına görə yerli icra hakimiyyəti başçısının aparatının, inzibati ərazi dairələri üzrə nümayəndəliklərinin və sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərinin strukturunu və ştat vahidlərinin sayını, yerli icra hakimiyyəti başçısının yanında olan orqanları və onların işçilərinin say həddini Azərbaycan Respublikasının Prezidenti müəyyən edir. İnzibati ərazi dairələri üzrə və sahə inzibati ərazi dairələri üzrə yerli icra hakimiyyəti başçısı nümayəndələrinin vəzifə və səlahiyyətlərindən biri də Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi digər vəzifə və səlahiyyətləri həyata keçirməkdir (bu Əsasnamənin 2.8 və 5.3-cü bəndləri).

35. Təsadüfi deyildir ki, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanunu 8.1.6-cı maddəsinə görə yerli icra hakimiyyətinin inzibati ərazi dairələri üzrə nümayəndəlikləri və sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklər də 5-ci kateqoriya dövlət orqanları sırasında göstərilmişdir.

36. Yuxarıda qeyd olunanlardan belə təəssürat yarana bilər ki, dövlət orqanları hesab edildiklərinə görə MM-də müəyyən edilmiş dövlət orqanı kimi hüquqi şəxs statusundan kənarda qalmaqla yerli icra hakimiyyətinin inzibati ərazi dairələri üzrə nümayəndəlikləri və sahə inzibati ərazi dairələri üzrə nümayəndəlikləri mülki dövriyyədə müstəqil subyektlər kimi iştirak edə bilməzlər.

37. Lakin belə yanaşma elə MM-in özündə müəyyənləşdirilmiş qaydaların təkzibi ilə nəticələnərdi. Belə ki, MM-in 5-ci maddəsində birbaşa göstərilir ki, dövlət hakimiyyəti orqanlarının və yerli özünü-idarə orqanlarının digər şəxslərlə mülki hüquq münasibətləri, qanunda ayrı qayda nəzərdə tutulmayıbsa, mülki qanunvericiliklə tənzimlənir (MM-in 5.2-ci maddəsi). Eyni zamanda MM-in 43.3-cü maddəsinə görə Azərbaycan Respublikası mülki hüquq münasibətlərində eynilə digər hüquqi şəxslər kimi iştirak edir. Bu hallarda Azərbaycan Respublikasının səlahiyyətlərini onun hüquqi şəxslər olmayan orqanları həyata keçirirlər.

38. Qeyd edilən bu normanın məzmunu isə MM-in 53-cü maddəsində müəyyənləşdirilmiş nizamlamadan əhəmiyyətli surətdə fərqlənməklə yerli icra hakimiyyətinin inzibati ərazi dairələri üzrə nümayəndəlikləri və sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərinin mülki dövriyyədə iştirakına sədd çəkmir.

39. Bundan başqa MPM-in işdə iştirak tərəflərin dairəsini müəyyənləşdirmiş 46-cı maddəsində dövlət orqanları da göstərilmiş, həmin Məcəllənin 50.1-ci maddəsinə görə isə prosesdə dövlət orqanları da iddiaçı və ya cavabdeh qismində çıxış edə bilərlər.

40. Yuxarıda göstərilənlərə əsasən məhkəmə kollegiyası belə qənaətə gəlir ki, bu qərarın əvvəlində qanunvericilik normalarının təhlili baxımından hazırkı iş üzrə Cavabdeh dövlət orqanı kimi hazırkı mübahisə üzrə bilavasitə tərəfdir və onun prosessual statusunu inkar edən və ya şübhə altına alan hər hansı bir müddəa həm maddi, həm də prosessual qanunvericilikdə mövcud deyildir.

41. Yuxarıda göstərilənləri ümumiləşdirərək məhkəmə kollegiyası belə qənaətə gəlir ki, hazırkı iddia ərizəsinə məhkəmədə baxılmalı və iddianın əsaslı olub-olmamasına hüquqi qiymət verilməlidir. Odur ki, kassasiya şikayəti təmin edilməli, apellyasiya instansiyası məhkəməsinin 2023-cü il 25 dekabr tarixli 2-2(103)-1137/2023 nömrəli qərardadı ləğv edilməli, iş yenidən baxılmaq üçün həmin məhkəməyə qaytarılmalıdır.

42. MPM-in 417-419-cu maddələrini rəhbər tutaraq məhkəmə kollegiyası

QƏRARA ALIR:

İddiaçı tərəfindən verilmiş kassasiya şikayəti təmin edilsin.

Şəki Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2024-cü il 20 sentyabr tarixli 2-2(107)-107/2024 nömrəli qərardadı ləğv olunsun.

İş yenidən baxılmaq üçün Şəki Apellyasiya Məhkəməsinə qaytarılsın.

79. 2(102)-669/2025 nömrəli, 2025-ci il 10 aprel tarixli qərar – Mülki işlər üzrə preyudisial olan məhkəmə aktlarının dairəsi

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu:

Cavabdehin müvafiq əmri ilə iddiaçı Əmək Məcəlləsinin 70-ci maddəsinin "ç" bəndinə əsasən (işçi özünün əmək funksiyasını və ya əmək müqaviləsi üzrə öhdəliklərini yerinə yetirmədikdə, yaxud bu Məcəllənin 72-ci maddəsində sadalanan hallarda əmək vəzifələrini kobud şəkildə pozduqda) işdən azad edilmişdir.

Məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə iddiaçının hərəkətlərində İnzibati Xətalar Məcəlləsinin 227-ci maddəsində nəzərdə tutulan inzibati xətanın tərkibi aşkar edilmədiyindən, onun barəsində "İnzibati xəta haqqında" qərara dair iş üzrə icraata xitam verilmişdir.

İddiaçı əmrin ləğv edilməsi, işə bərpa, məcburi işburaxma günləri üçün əmək haqqının ödənilməsi və mənəvi zərərin tutulası barədə iddia ilə məhkəməyə müraciət etmişdir.

Məhkəmələr Mülki Prossesual Məcəllənin (bundan sonra – "MPM") 13.4-cü maddəsinə istinadən analoji olaraq həmin Məcəllənin 82.4-ci maddəsinə əsaslanıb, inzibati xəta haqqında iş üzrə məhkəmənin qanuni qüvvəyə minmiş aktının hazırkı mülki iş üzrə preyudisial əhəmiyyətə malik olduğunu vurğulayaraq, iddianı qismən təmin etmişlər.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

MPM-in 82.4-cü maddəsində məhz məhkəmənin cinayət işi üzrə hökmünün, habelə cinayət təqibi üzrə qüvvəyə minmiş digər qərarının mülki işə baxılarkən məhkəmə üçün hadisənin olub-olmaması və şəxsin həmin hadisəyə aidiyyəti hissəsində preyudisiallığından bəhs olunur. Məhkəmələrin inzibati xəta haqqında iş üzrə qanuni qüvvəyə minmiş qərarları, habelə istintaq və təhqiqat orqanlarının hər hansı qərarı mülki iş üzrə preyudisial əhəmiyyət daşımır.

Belə olan halda, işə baxan məhkəmələrin MPM-in 13.4-cü maddəsinə istinadən həmin Məcəllənin 82.4-ci maddəsinə əsaslanıb, preyudisial halları və faktları əks etdirən məhkəmə aktlarının dairəsini genişləndirərək, inzabati xəta haqqında iş üzrə məhkəmə aktını da həmin məhkəmə aktlarının sırasına aid etmələri 82-ci maddənin tələblərinə zidd olmuşdur.

Belə ki, sözügedən normada sübut etməkdən azad olmaq üçün konkret əsaslar müəyyən edilib və həmin normada istənilən başqa aktlar, məsələn inzibati aktlar, istintaq, prokurorluq orqanlarının aktları, habelə müxtəlif dövlət orqanlarının aktları, eləcə də inzibati xətalara dair işlər üzrə məhkəmə aktları deyil, məhz mülki iş üzrə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsi, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü, habelə cinayət təqibi üzrə qüvvəyə minmiş digər qərarları ilə müəyyən edilən faktlar preyudisial faktlar sayılır. Yəni, məhz sözügedən məhkəmə aktlarında əks olunmuş, araşdırılmış, qiymətləndirilmiş, tələbin və (və ya) etirazların predmetinə aid olan faktlar, işdə iştirak edən şəxslər tərəfindən başqa işə baxılarkən yenidən mübahisələndirilə bilməz və həmin faktların sübuta ehtiyacı yoxdur.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-669/2025

10.04.2025-ci il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi
Mülki kollegiyasının

İddiaçının cavabdeh Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və "XXX" Məhdud Məsuliyyətli Cəmiyyətinə qarşı mülki iş üzrə

Q Ə R A R I

Açar sözlər: işə bərpa, məcburi işburaxma günləri üçün əmək haqqının ödənilməsi

Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının hakimləri Əhmədov Əhməd Abbas oğlu (məruzəçi), Həsənov Vüqar Təvəkgül oğlu və Şəfiyev İspəndiyar Əsəd oğlundan ibarət tərkibdə,

Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 28 oktyabr 2024-cü il tarixli, 2(103)-5542/2024 saylı qətnaməsindən cavabdeh Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və "XXX" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən verilmiş kassasiya şikayəti üzrə işə 10 aprel 2025-ci il tarixdə Ali Məhkəmənin binasında yazılı icraat qaydasında baxaraq, aşağıdakıları müəyyən etdi:

İşin halları

1. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, "XXX" MMC-nin xx.xx.2023-cü il tarixli, ***/ş/AZT saylı əmrinə əsasən, "Satınalma və Təchizat Departamenti, Təsərrüfat və Nəqliyyat Şöbəsinin aparıcı mütəxəssisi İddiaçı ilə bağlanmış əmək müqaviləsinə xx.xx.2023-cü ildən AR ƏM-nin 70-ci maddəsinin "ç" bəndinə əsasən (işçi özünün əmək funksiyasını və ya əmək müqaviləsi üzrə öhdəliklərini yerinə yetirmədikdə, yaxud bu məcəllənin 72-ci maddəsində sadalanan hallarda əmək vəzifələrini kobud şəkildə pozduqda) xitam verilmişdir.

2. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, "XXX" MMC-nin xx.xx.2017-ci il tarixli, *** saylı əmri ilə İddiaçı ilə bağlanmış əmək müqaviləsinə AR ƏM-nin 70-ci maddəsinin "b" bəndinə əsasən (ştatların ixtisarı ilə əlaqədar) tutduğu vəzifədən azad edilmişdir.

3. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, "XXX" MMC-nin xx.xx.2018-ci il tarixli, *** saylı əmri ilə İddiaçı Bakı şəhəri, Yasamal rayon Məhkəməsinin xx.xx.2017-ci il tarixli, 2(004)-8461/2017 saylı qətnaməsinə əsasən işə bərpa olunmuşdur.

4. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, "XXX" MMC-nin xx.xx.2022-ci il tarixli, ** nömrəli əmri ilə İddiaçı Satınalma və Təchizat Departamentində Təchizat və Nəqliyyat şöbəsində aparıcı mütəxəssis vəzifəsinə keçirilmişdir.

5. Bakı şəhəri, Yasamal Rayon Məhkəməsinin xx.xx.2024-cü il tarixli, 3(004)1104/2024 saylı qərarı ilə İddiaçının hərəkətlərində AR İXM-nin 227-ci maddəsində nəzərdə tutulan inzibati xətanın tərkibi aşkar edilmədiyindən, onun barəsində AR Baş Prokurorluğunun Cinayət təqibindən kənar icraatlar idarəsi tərəfindən qəbul edilmiş xx.xx.2023-cü il tarixli "İnzibati xəta haqqında" iş üzrə icraatın başlanması haqqında qərara dair iş üzrə icraata xitam verilmiş və həmin qərar xx.xx.2024-cü il tarixdə qanuni qüvvəsini almışdır.

İş üzrə qəbul edilmiş məhkəmə aktları

Birinci instansiya məhkəməsində icraat

6. İddiaçı (bundan sonra- iddiaçı) cavabdeh AR Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, "XXX" MMC-nə (bundan sonra- cavabdeh) qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, işəgötürənin xx.xx.2023-cü il tarixli, ***/ş/AZT saylı əmrinin ləğv edilməsi, buraxılmış müddət üçün əmək haqqının ödənilməsi və ona vurulmuş mənəvi ziyana görə 10.000 manatın cavabdehdən tutulub ona ödənilməsi barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

7. İddiaçı tələbini onunla əsaslandırmışdır ki, onun barəsində olan işdən çıxarmaya dair əmrdə qeyd edilmişdir ki, cavabdehin daxili nəzarət şöbəsi tərəfindən aparılan araşdırmaya görə məlum olmuşdur ki, guya o, əmək vəzifələrini kobud şəkildə pozmuşdur, yəni daxili nəzarət şöbəsi tərəfindən keçirilmiş monitorinq zamanı guya onun tərəfindən cavabdehin Ünvan 1 saylı ünvanda yerləşən inzibati binada dezinfeksiya xidmətini həyata keçirən "XX" MMC-nin nümayəndəsi ilə məbləğin müəyyən hissəsinin ona verilməsi ilə bağlı razılığa gəlinməsi və bunun qarşılığında inzibati binada Cəmiyyət tərəfindən mütəmadi olaraq dezinfeksiya xidmətlərinin həyata keçirilməsi üçün şərait yaradılacağına dair Cəmiyyətin

nümayəndəsinə söz verməsi müəyyən edilmişdir. O, cavabdehdə satınalma və təchizat Departamentində təchizat və nəqliyyat şöbəsində aparıcı mütəxəssis vəzifəsində işləmişdir. Cavabdehdə dezinfeksiya işlərinin həyata keçirilməsi üzrə satınalma və təchizat Departamentində təchizat və nəqliyyat şöbəsində aparıcı mütəxəssis vəzifəsində işləyən şəxsin hansı səlahiyyətlərinin olduğu və bu məqsədlə kiminlə və nə kimi əlaqəyə girə biləcəyi müəyyənləşdirilməlidir. Sözügedən əmr ona qarşı qərəzli olaraq verilmişdir.

8. Cavabdeh, iddiaya yazılı etiraz verərək bildirmişdir ki, iddiaçı ilə bağlanmış əmək müqaviləsinə işəgötürənin xx.xx.2023-cü il tarixli, ***/ş/AZT saylı əmrinə əsasən AR ƏMnin 70-ci maddəsinin "ç" bəndinə əsasən xitam verilməklə, o işdən azad edilmişdir. İddiaçı öz əmək vəzifələrini kobud surətdə pozmuş və hərəkətləri ilə cavabdehin mənafeyinə xələl gətirmişdir. Cavabdehin daxili nəzarət şöbəsi tərəfindən keçirilmiş monitorinq zamanı iddiaçının cavabdehin Bakı şəhəri, Tbilisi prospekti *** saylı ünvanda yerləşən inzibati binasında dezinfeksiya işlərinin həyata keçirilməsi üçün "XX" MMC-nin nümayəndəsi ilə məbləğin müəyyən hissəsinin özünə verilməsi ilə bağlı razılığa gəldiyi, bunun qarşılığında isə inzibati binada Cəmiyyət tərəfindən mütəmadi olaraq dezinfikesiya xidmətlərinin həyata keçirilməsi üçün şərait yaradılacağına dair Cəmiyyətin nümayəndəsinə söz verdiyi aşkar edilmişdir. Həmçinin, iddiaçı, "XX" MMC-nin cavabdehin nümayəndəsinə onun şərtləri ilə razı olmayacaqları təqdirdə həmin Cəmiyyət tərəfindən xidmətin göstərilməsinə maneə yaradılacağını bildirmişdir. Nəticədə iddiaçı inzibati binada dezinfeksiya olunacaq sahənin həcmini böyüdərək dezinfeksiya olunması zəruri olan sahədən daha çox sahənin dezinfeksiya olunması barədə akt imzalamış və xidmətin həyata keçirilməsinə nail olmuşdur. Bunun qarşılığında isə iddiaçı, 210 manatın Cəmiyyətin nümayəndəsi tərəfindən ona ödənilməsinə nail olaraq həmin məbləği mənimsəmişdir. Daha sonra, iddiaçının təşkilatçılığı ilə 2023-cü ilin iyun ayı ərzində 2-ci dəfə dezinfeksiya ilə bağlı müraciət edilmiş, yenidən dezinfeksiya olunması zəruri olan sahədən daha çox sahə göstərilmiş və müvafiq akt iddiaçı tərəfindən imzalanmışdır. Qeyd olunanlarla əlaqədar iddiaçı əmək müqaviləsinə xitam verilməsinə münasibət bildirilməsi ilə bağlı Həmkarlar İttifaqı Komitəsinə məktub ünvanlanmış və sonuncu isə iddiaçı ilə bağlanmış əmək müqaviləsinə xitam verilməsinə razılıq vermişdir. İddiaçı, xx.xx.2023-cü il tarixli izahatında dezinfeksiya işlərinin görülməsi ilə bağlı aktda olan qiymət və obyektin sahəsinə nəzarət etmədiyini bildirmiş, sonradan isə elə həmin izahatında özünü təkzib edərək bildirmişdir ki, "XX MMC-nə Aktda 2-ci dəfə səhvən kvadratı 10 dəfə çox göstərmiş və o, aktın dəyişdirilməli olduğunu bildirmişdir. İddiaçı yalnız işlərin görülməsinə nəzarət etdiyini bildirsə də, izahatında onun akta nəzər salıb, dəyişiklik edilməsini deməsi faktı öz təsdiqini tapmışdır. İddiaçı tərəfindən ünvan 1 ünvanda yerləşən "XXX" MMC-də 9.900 kv.metr ərazidə dezinfeksiya və deratizasiya işlərinin görülməsi ilə bağlı xx.xx.2023-cü il tarixli, *** saylı təhvil-təslim Aktı imzalanmışdır. Sonradan yenidən xx.xx.2023-cü il tarixdə iddiaçının imzası ilə Akt tərtib olunmuşdur. İddiaçı öz izahatında bildirmişdir ki, müvafiq xidmətin göstərilməsi ilə bağlı Aktda uyğunsuzluq aşkar etdikdən sonra "XX" MMC-nin rəhbərliyinə zəng edərək iradını bildirmiş və Aktın dəyişdirilməsini tələb etmişdir. Qeyd olunan Aktda yazılmış ərazinin sahəsinin şişirdilmiş olduğu digər əməkdaş tərəfindən müəyyən olunduqdan sonra, həmin sahə azaldılaraq yenidən "XX" MMC-yə göndərilmiş, dezinfeksiya və deratizasiya işləri ilə bağlı 560 kv.m və 560 kv.m olmaqla, ümumilikdə 1120 kv.metr sahə qeyd olunmaqla təhvil-təslim Aktı tərtib olunmuş, "XX" MMC ilə "XXX" MMC arasında hesablaşmalar həmin təhvil-təslim Aktına əsasən aparılmışdır. "XX" MMC-nin direktoru X1 xx.xx.2023-cü il tarixli izahatında yuxarıda qeyd olunanları etiraf etmişdir. O, bildirmişdir ki, ona "XXX" MMC-nin məsul şəxsi tərəfindən tapşırıq gəlmiş, onun əsasında xidmət göstərilmiş və həmin məsul şəxs iddiaçı olmuşdur. Eyni zamanda, o, əlavə olaraq etiraf etmişdir ki, "XXX" MMC-nin 20 yanvar

dairəsindəki ərazisində dezinfeksiya aparılması müqavilə əsasında həyata keçiriləcəkdi, lakin iddiaçı onunla görüş zamanı inzibati binanın rəhbəri olduğunu və inzibati binada kimin, necə işləmək istədiyinin qərarını da özü verəcəyini, onun dediyi şərtlərlə razılaşmasalar həmin binada xidmət göstərilməyəcəyini bildirmişdir. İddiaçı onunla razılaşacağı halda daha tez-tez xidmət göstəriləcəyini, həmçinin xidmət sahəsinin olduğundan 10 dəfə çox göstərəcəyini və pulun köçürülməsinə özünün nəzarət edəcəyini qeyd etmişdir. Bunun müqabilində xidmət haqqı üzrə qazancın hər dəfə müəyyən məbləğini ona geri qaytarmağı şərt kimi qoymuşdur. İddiaçı nümayəndəyə həmin görüşdə 1-ci işə görə 210 manatın ona geri qaytarılmalı olduğunu bildirmişdir. İddiaçı söz verdiyi kimi iyun ayında ikinci dəfə dezinfeksiya xidməti üçün tələb göndərmişdir. O, öz izahatında ikinci dəfə göndərilən təklifin qətiyyən dezinfeksiya ilə əlaqədar olmadığını bildirmiş, 210 manat ödənişin müqavilədən kənar iddiaçıya ödənildiyini etiraf etmiş və bunlar "whatsapp" yazışmalarında öz əksini tapmışdır. O, öz izahatında qeyd etdiyi və iş materiallarında olan sənədlərlə aralarında olan yazışmalarda bank kartını nümayəndəyə təqdim etmiş və həmin hesaba 210 manat ödəniş olunmuşdur. Qeyd edilənləri nəzərə alaraq, iddianın təmin edilməməsi barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

9. Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin 18 iyul 2024-cü il tarixli, 2(004)141/2024 saylı qətnaməsi ilə (hakim K.Xudayev) iddianın qismən təmin edilərək, işəgötürənin xx.xx.2023-cü il tarixli, ***/ş/AZT saylı əmrinin ləğv edilməsi, onun əvvəlki işinə və vəzifəsinə bərpa edilməsi, xx.xx.2023-cü ildən işə bərpa olunduğu günədək məcburi işburaxma müddəti üçün hesablanmış əmək haqqının cavabdeh tərəfindən iddiaçıya ödənilməsi, cavabdehdən mənəvi zərərə görə 1.000 manatın alınıb iddiaçıya ödənilməsi və iddianın qalan hissədə təmin olunmaması qət edilmişdir.

10. Birinci instansiya məhkəməsi gəldiyi nəticəni onunla əsaslandırmışdır ki, iddiaçı ilə bağlanmış əmək müqaviləsinə xitam verilərkən, cavabdeh tərəfindən qüvvədə olan əmək qanunvericiliyinin tələbləri pozulmuşdur. Belə ki, iş materiallarına əsasən, iddiaçının işdən çıxarılmasına əsas olmuş fakt məhkəmə qaydasında sübuta yetirilməmiş, şəxsin təqsirliliyi məhkəmə qaydasında öz təsdiqini tapmamışdır.

11. AR MPM-nin 82.4-cü maddəsinə əsasən, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü, habelə cinayət təqibi üzrə qüvvəyə minmiş digər qərarı mülki işə və kommersiya mübahisəsinə baxılarkən məhkəmə üçün hadisənin olub-olmaması və şəxsin həmin hadisəyə aidiyyəti hissəsində məcburidir. Həmin Məcəllənin 13.4-cü maddəsinə əsasən, barəsində mübahisə edilən hüquq münasibətlərini tənzimləyən hüquq norması olmadıqda, məhkəmə analoji münasibətləri tənzimləyən hüquq normalarına müraciət edir. Qeyd edilən normanın məzmunundan belə qənaətə gəlmək olar ki, inzibati xətalara dair işlər üzrə icraatla bağlı məhkəmənin qanuni qüvvəyə minmiş qərarı, hazırki mülki iş üzrə preyudisial əhəmiyyətə malikdir. Belə olduğu təqdirdə, AR ƏM-nin 70-ci maddəsinin "ç" bəndinə uyğun olaraq iddiaçının işdən çıxarılmasına əsas olan fakt, Bakı şəhəri, Yasamal Rayon Məhkəməsinin 27.05.2024-cü il tarixli, 3(004)-1104/2024 saylı qanuni qüvvəyə minmiş qərarı ilə öz təsdiqini tapmadığından, işəgötürənin xx.xx.2023-cü il tarixli, ***/ş/AZT saylı əmri ləğv edilməli və iddiaçı əvvəlki işinə və vəzifəsinə bərpa edilməlidir.

12. Məhkəmə, həmçinin qeyd etmişdir ki, iddiaçının xx.xx.2023-cü il tarixdən işə bərpa olunduğu günədək məcburi iş buraxma müddəti üçün hesablanmış əmək haqqı cavabdeh tərəfindən iddiaçıya ödənilməlidir.

13. Məhkəmə, iddia tələbinin "ona vurulmuş mənəvi ziyana görə 10.000 manatın cavabdehdən tutulması" hissəsində qismən, yəni 1.000 manatın təmin edilməsini qanuni və ədalətli hesab etmişdir. İş materiallarında olan sənədlərdən görünür ki, iddiaçı əsassız olaraq işdən çıxarılmış, qulluq mövqeyindən sui-istifadə yolu ilə qanunsuz olaraq 210 manatı

mənimsədiyi iddia olunmuş və onun barəsində AR İXM-nin 227-ci maddəsinə müvafiq olaraq inzibati xətalar haqqında işlər üzrə icraat aparılmışdır. Bunun nəticəsində iddiaçının əmək kollektivi arasında nüfuzu zədələnmişdir. Yekun olaraq məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə qeyd edilən faktlar öz təsdiqini tapmamışdır. Qeyd edilən faktların hər biri iddiaçıya mənəvi zərər vurduğunu təsdiq edir.

14. Göstərilənlərə əsasən, məhkəmə iş üzrə mənəvi ziyana dair iddia tələbində göstərilən məbləğin çox yüksək olmasını nəzərə alaraq qeyd etmişdir ki, iddiaçıya dəymiş mənəvi zərərin 1.000 manat həcmində müəyyənləşdirilməsi, onun mənəvi iztirablarının ağlabatan və mütənasib əvəzi kimi qəbul edilə bilər.

15. Məhkəmə, gəldiyi nəticəni AR ƏM-nin 68.1, 71.2, 71.3, 72, 80.1, 80.2, 83.1, 83.2, 84 və 300-cü, habelə MPM-in 13.4, 14.2, 77.1, 82.4 və 88-ci maddələrinə istinad etməklə əsaslandırmışdır.

Apellyasiya instansiyası məhkəməsindəki icraat

16. Cavabdeh apellyasiya şikayəti verərək, iş üzrə birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv edilərək, iddianın rədd edilməsi barədə yeni qətnamə qəbul edilməsini xahiş etmişdir.

17. Apellyasiya şikayəti onunla əsaslandırılmışdır ki, birinci instansiya məhkəməsi qeyri-qanunu olaraq qanunu geniş təfsir edərək heç bir əsas gətirmədən inzibati xəta barədə icraatla bağlı qərara cinayət təqibi ilə əlaqədar qərara aid olan normanı tətbiq etmişdir. Preyudisiya, daha əvvəl baxılan iş üzrə sübutetmə predmetinə aid olan və qanuni qüvvəyə minmiş məhkəmə qərarı ilə müəyyənləşdirilən halların bir daha sübuta yetirilməsi zərurətindən azad olunmanı nəzərdə tutur. "AR CPM-in 142-ci maddəsinin şərh edilməsinə dair" AR Konstitusiya Məhkəməsi Plenumunun Qərarına əsasən, qanuni qüvvəyə minmiş məhkəmə qərarının preyudisiallığı, barəsində bu qərarın çıxarıldığı şəxslərin dairəsi ilə məhdudlaşdırılır və aşağıdakı hər üç şərtin mövcudluğu halında mümkün olur: konkret fakt bir iş üzrə cinayət prosesinin iştirakçısının iştirak etdiyi başqa bir iş üzrə çıxarılmış və qanuni qüvvəyə minmiş məhkəmə qərarı ilə müəyyən edilmiş olmalıdır; bu fakt hər iki iş üzrə sübut etmə predmetinə aid olmalıdır; hər iki işdə şəxsin hüquqi statusu eyni olmalıdır. Birinci instansiya məhkəməsi qətnamə qəbul edərkən, Bakı şəhəri, Yasamal Rayon Məhkəməsinin 27.05.2024-cü il tarixli, 3(004)-1104/2024 saylı inzibati xəta haqqında iş üzrə icraatın başlanması haqqında qərara dair iş üzrə icraata xitam verilməsi qərarını əsas götürmüş, lakin qeyd olunan əsaslardan olan hər iki işdə cavabdehin hüquqi statusunun eyni olmaması faktını nəzərə almamışdır. Yekun məhkəmə qərarlarının preyudisial əhəmiyyəti mütləq deyildir və prosessual qanunla müəyyən edilmiş hədlərə malikdir. Göründüyü kimi, birinci instansiya məhkəməsi sübutları tam və hərtərəfli araşdırmadan, işin nəticəsi üçün mühüm əhəmiyyət kəsb edən sübutlara lazımi hüquqi qiymət vermədən, iş üzrə gəldiyi nəticə qanuni və əsaslı sayıla bilməz. İddiaçı öz vəzifəsini yerinə yetirən zaman qanunsuz olaraq adını qurban payı adlandıraraq 210 manatı qəbul etmiş və bu barədə rəhbərliyə məlumat verməmişdir və bu fakt X1-in prokurorluqda verdiyi ifadəsi ilə də təsdiq olunmuşdur. İddiaçı öz əmək vəzifələrini kobud surətdə pozmuş və hərəkətləri ilə cəmiyyətin mənafeyinə xələl gətirməsinə baxmayaraq məhkəmə tərəfindən ətraflı araşdırılma aparılmadan, yalnız qanunun analogiyası tətbiq edilərək qanunsuz nəticəyə gəlinmişdir. İddiaçı, əmək funksiyasını, vəzifə borcunu yerinə yetirmədiyinə görə, onunla bağlanmış əmək müqaviləsinə xitam verilməsi qərara alınmış və onun əvvəlki işinə bərpa olunması barədə qətnamə qəbul edilmişdir. Məhkəmə bu qərarı ilə gələcəkdə qanunsuz əməl törətmiş bu kimi işçilərin sayının artacağına səbəb olacağını nəzərə almamışdır. İddiaçı ilə "XX" MMC-in direktoru X1 arasında münasibətlər cavabdehlə müqavilə bağlanması nəticəsində yaranmış iş münasibətləridir və iddiaçının 210 manatı hədiyyə və ya Qurban payı kimi X1-in

qəbul etməsi qanunvericiliyə uyğun deyil. Qeyd olunan məsələ ilə bağlı iddiaçının hesabına 210 manat göndərilmiş və bununla bağlı rəhbərliyə məruzə edilməmişdir. Hər bir halda iddiaçı tərəfindən həmin pul vəsaitinin qəbul edilməsi qanunla qadağandır. İddiaçı, 210 manatı vəzifə səlahiyyətlərini yerinə yetirən zaman qurban payı adı adlandıraraq qəbul etmiş, bununla bağlı rəhbərliyə heç bir məlumat verməmiş, qulluq mövqeyindən sui-istifadə edərək həmin məbləğdə pul vəsaitini mənimsəmişdir. Məhkəmə, heç bir əsas olmadan iddiaçının bu əməlini ətraflı araşdırmadan yekun qərara gəlmişdir. Eyni zamanda, birinci instansiya məhkəməsi qətnamə qəbul edərkən, Bakı Şəhəri, Yasamal Rayon Məhkəməsinin 27.05.2024-cü il tarixli, 3(004)-1104/2024 saylı qərarını əsas götürmüş, lakin cavabdeh həmin iş üzrə nə təqsirləndirilən, nə də ki, zərərçəkmiş şəxs kimi çıxış etmiş, yəni əsas iştirakçı kimi qeyd olunmamış və nəticədə məhkəmə qanunsuz olaraq həmin qərara əsaslanmışdır. Məhkəmə aktının preyudisiallığının tanınması üçün preyudisiallığın obyektiv və subyektiv hədlərinin məcmusu vacib şərtdir. Preyudisiallığın subyektiv həddi əvvəl baxılmış işdə və yeni baxılan işdəki şəxslərin dairəsinin, yəni subyekt tərkibinin eyniliyini şərtləndirir. Həmin normanın genişləndirici formada təfsiri işçinin maraqları daxilində olsa da, işəgötürənin hüquqlarının əhəmiyyətli dərəcə pozulmasına və işçinin hüquqdan sui-istifadəsinə şərait yaratmış olur. Göründüyü kimi, müvafiq iş üzrə cavabdehin hüquqi statusu eyni olmamış, birinci instansiya məhkəməsi əsassız olaraq qanunun analogiyasını tətbiq etmiş, əlavə araşdırmaya zərurət olmadığı qənaətinə gəlmişdir.

18. Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 28.10.2024-cü il tarixli, 2(103)5542/2024 saylı qətnaməsi ilə (hakimlər X.Mərdanova sədrlik edən, məruzəçi, V.Sadıqov və S.Bəhramzadə) apellyasiya şikayəti təmin edilməmiş, iş üzrə birinci instansiya məhkəməsinin qətnaməsi mübahisləndirilən hissədə dəyişdirilmədən saxlanılmışdır.

19. Məhkəmə kollegiyası, apellyasiya şikayətinin Bakı Şəhəri, Yasamal Rayon Məhkəməsinin 27.05.2024-cü il, 3(004)-1104/2024 saylı qərarının preyudisiyal əhəmiyyət kəsb etməməsi və birinci instansiya məhkəməsinin iddianı təmin edərkən həmin qərara istinad etməsinə dair dəlillərinə qiymət verərək qeyd etmişdir ki, birinci instansiya məhkəməsi AR MPM-in 13.4-cü maddəsinə istinad etməsi ilə prosessual normaların tələblərini pozmamışdır.

20. Belə ki, AR MPM-in 82.4-cü maddəsində "Məhkəmənin qanuni qüvvəyə minmiş hökmü, habelə cinayət təqibi üzrə qüvvəyə minmiş digər qərarı"ndan bəhs edilmişdir, bu zaman inzibati xəta haqqında qərar qeyd edilməmişdir. Bununla belə AR MPM-in 13.4-cü maddəsində barəsində mübahisə edilən hüquq münasibətlərini tənzimləyən hüquq norması olmadıqda, məhkəmə analoji münasibətləri tənzimləyən hüquq normalarına müraciət edir ki, birinci instansiya məhkəməsi də hazırkı iş üzrə iddiaçının barəsində verilmiş əmrin əsaslandığı halları aradan qaldıran Bakı Şəhəri, Yasamal Rayon Məhkəməsinin 27.05.2024-cü il tarixli, 3(004)-1104/2024 saylı qanuni qüvvəyə minmiş qərarına istinad etməsi düzgün olmuşdur.

21. Məhkəmə kollegiyası, qeyd etməyi zəruri hesab etmişdir ki, sözügedən qərar preyudisiyal əhəmiyyətli olması qəbul edilməsə belə, birinci instansiya məhkəməsi Bakı Şəhəri, Yasamal Rayon Məhkəməsinin 27.05.2024-cü il tarixli, 3(004)-1104/2024 saylı qanuni qüvvəyə minmiş qərarının məzmununda göstərilənləri hazırkı mübahisəyə tətbiq etməkdə haqlı olmuşdur.

22. Belə ki, iddiaçının AR ƏM-in 70-ci maddəsinin "ç" bəndinə uyğun olaraq işdən çıxarılmasına əsas olan fakt, yəni, onun 210 manatın "XX" MMC-in nümayəndəsi tərəfindən ona ödənilməsinə nail olaraq onun tərəfindən mənimsənilməsi Bakı Şəhəri, Yasamal Rayon Məhkəməsinin 27.05.2024-cü il tarixli, 3(004)-1104/2024 saylı qanuni qüvvəyə minmiş qərarı ilə öz təsdiqini tapmamışdır. Yəni, məhkəmənin həmin qərara əsaslanması qanunsuz olmamışdır.

23. Məhkəmə kollegiyası qeyd etmişdir ki, cavabdeh apellyasiya şikayətində həmçinin işçinin əmək funksiyasını, vəzifə borcunu (öhdəliklərini) yerinə yetirmədiyinə görə, işəgötürənin hüquqlarına və qanunla qorunan mənafelərinə xələl gətirildiyini qeyd etmişdir.

24. Məhkəmə kollegiyası bu halla bağlı qeyd etmişdir ki, iddiaçının onun göstərdiyi kart hesabına 210 manatın "XX" MMC-in nümayəndəsi tərəfindən göndərilməsini ianə (qurban payı) kimi qiymətləndirməsinə baxmayaraq, faktiki olaraq hüquq mühafizə orqanları və məhkəmələr tərəfindən aparılan araşdırmalar nəticəsində onun bu əməlinin nə inzibati, nə də cinayət qanunvericiliyində nəzərdə tutulmuş əməl olması öz təsdiqini tapmamışdır.

25. Məhkəmə kollegiyası qeyd etmişdir ki, apellyasiya şikayətinin dəlillərinin əsassız olmasını təsdiqi kimi xx.xx.2023-cü il tarixli əmrin verilməsinə əsas göstərilmiş daxili nəzarət şöbəsinin müdiri Kamilla Məmmədovanın xx.xx.2023-cü il tarixli xidməti qeydinin məzmununda göstərilənlərin işin faktiki hallarına uyğun olmamasını göstərmək olar.

26. Belə ki, xidməti qeydin müəllifi göstərir ki, iddiaçı, cavabdeh tərəfindən ödənişin olunmasını gözləmədən Cəmiyyətin nümayəndəsindən özünə çatacaq payı 210 manat müəyyən edərək tələb etmişdir. Əvvəla, yuxarıda qeyd edildiyi kimi 210 manatla bağlı hüquq mühafizə orqanları və məhkəmələr tərəfindən aparılan araşdırmalar nəticəsində onun bu əməlinin nə inzibati, nə də cinayət qanunvericiliyində nəzərdə tutulmuş əməllər olması öz təsdiqini tapmamışdır. İkincisi, təqdim edilmiş materiallardan görünür ki, qeyd edilən məbləğ xx.xx.2023-cü il tarixdə kart hesağına ödənilsə də, "XX" MMC-ti ilə bağlanmış xx.xx.2022-ci il tarixli müqaviləyə əsasən, ödənişlər köçürmə yolu ilə xx.xx.2023; xx.xx.2023; xx.xx.2023-cü il tarixlərdə həyata keçirilmişdir. Müqaviləyə olan əlavədən görünür ki, müqavilə əsasında il ərzində iki dəfə işlərin görülməsinin sayı, işlənəcək faktiki sahə, kv.m-in sahəsi və ödəniləcək məbləğ müəyyən edilmişdir. Həmçinin sənədlərdən görünür ki, "XX" MMC-ti ilə bağlanmış xx.xx.2022-ci il tarixli müqaviləyə əsasən ödənişlərin köçürmə yolu ilə ödənilməsi xx.xx.2023; xx.xx.2023; xx.xx.2023; xx.xx.2023; xx.xx.2023; xx.xx.2023-cü il tarixlərdə davam etmişdir. Göstərilən ödənişlər müqavilədə əksini tapmış məbləğlərlə üst-üstə düşmüşdür.

27. Məhkəmə kollegiyası xidməti qeyddə keçirilmiş monitorinq zamanı iddiaçının Cəmiyyətin Bakı şəhəri, Tbilisi prospekti 187 saylı ünvanda yerləşən inzibati binasında dezinfeksiya xidmətinin həyata keçirilməsi üçün "XX" MMC-nin nümayəndəsi ilə məbləğin müəyyən hissəsinin özünə verilməsi ilə bağlı razılığa gəldiyi, bunun qarşılığında inzibati binada Cəmiyyət tərəfindən mütəmadi olaraq dezinfikesiya xidmətlərinin həyata keçirilməsi üçün şərait yaradılacağına dair Cəmiyyətin nümayəndəsinə söz verdiyi aşkar edilməsi ilə bağlı göstərilənlərlə əlaqədar qeyd etmişdir ki, iş materiallarına əsasən, iddiaçı tərəfindən dezinfikesiya xidmətlərinin həyata keçirilməsi üçün təşəbbüs göstərilməmiş, sifariş verilməmiş, artıq pul köçürülməmiş, beləliklə də onun qəsdən və ya səhlənkarlıqla, etinasızlıqla əmək funksiyasını, vəzifə borcunu (öhdəliklərini) yerinə yetirməməsi, iş yerində işin, istehsalın, əmək və icra intizamının normal ahəngi pozmaması, habelə işəgötürənin hüquqlarına və qanunla qorunan mənafelərinə ziyan dəyməsi halları öz təsdiqni tapmamışdır.

28. Məhkəmə kollegiyası qeyd etmişdir ki, iş üzrə aparılmış araşdırma zamanı birinci instansiya məhkəməsi tərəfindən prosessual hüquq normalarının pozulması müəyyən edilməmişdir. Belə ki, məhkəmənin müəyyən etdiyi kimi iddiaçının irəli sürdüyü faktiki hallar onun iddia tələblərinin qanuni əsasının dispozisiya şərtləri ilə uzlaşmışdır. Bu səbəbdən də, cavabdehin iddiaya etirazının və apellyasiya şikayətinin dəlilləri əsaslı sayıla bilməz

29. Məhkəmə kollegiyası öz hüquqi mövqeyini ƏM-in 80, 83 və 300.1-ci, MM-in 21.1 və 21.2-ci, habelə MPM-in 14.2, 77.1 və 88-ci maddələrinə istinad etməklə əsaslandırmışdır.

Kassasiya şikayətinin və ona qarşı etirazın dəlilləri

Kassasiya şikayətinin dəlilləri

30. Cavabdeh kassasiya şikayəti verərək, iş üzrə apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv edilməsi və iddianın rədd edilməsi barədə yeni qərar qəbul edilməsini xahiş etmişdir.

31. Kassasiya şikayəti də apellyasiya şikayətinin dəlilləri ilə eyni məzmunda əsaslandırılmışdır.

Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

32. Kassasiya şikayətinə qarşı etiraz daxil olmamışdır.

Tətbiq edilən hüquq

Azərbaycan Respublikasının Əmək Məcəlləsi

33. Maddə 70. Əmək müqaviləsi işəgötürən tərəfindən aşağıdakı əsaslarla ləğv edilə bilər: ç) şçi özünün əmək funksiyasını və ya əmək müqaviləsi üzrə öhdəliklərini yerinə yetirmədikdə, yaxud bu Məcəllənin 72-ci maddəsində sadalanan hallarda əmək vəzifələrini kobud şəkildə pozduqda əmək müqaviləsi işəgötürən tərəfindən ləğv edilə bilər.

34. Maddə 80 (1-ci hissə). Bu Məcəllənin 70-ci maddəsinin b) və ç) bəndlərində göstərilən əsaslarla işəgötürən tərəfindən həmkarlar ittifaqının üzvü olan işçinin əmək müqaviləsi müəssisədə fəaliyyət göstərən həmkarlar ittifaqı təşkilatının qabaqcadan razılığı alınmaqla ləğv edilir.

35. Maddə 80 (2-ci hissə). Həmkarlar ittifaqının üzvü olan işçinin əmək müqaviləsini bu maddənin 1-ci hissəsində nəzərdə tutulan hallardan hər hansı biri ilə əlaqədar ləğv etmək istəyən işəgötürən həmin müəssisənin həmkarlar ittifaqı təşkilatına əsaslandırılmış yazılı təqdimatla müraciət edir. Təqdimata müvafiq əsaslandırma sənədləri əlavə edilir. Həmkarlar ittifaqı təşkilatı bu təqdimatın daxil olduğu gündən ən geci on gün müddətində özünün əsaslandırılmış yazılı qərarını işəgötürənə təqdim etməlidir.

36. Maddə 83 (1-ci hissə). Əgər işçi ilə bağlanmış əmək müqaviləsində onun ləğv edilməsinin sənədləşdirilməsi barədə bu fəsildə müəyyən edilmiş qaydalardan fərqli olan başqa qaydalar nəzərdə tutulmayıbsa, onda istər işçi, istərsə işəgötürən tərəfindən və istərsə də tərəflərin iradəsindən asılı olmayan hallarda bu Məcəllənin 68, 69, 70, 73, 74 və 75- ci maddələrində nəzərdə tutulan əsaslara və qaydalara müvafiq olaraq əmək müqaviləsinin ləğv edilməsi işəgötürənin əsaslandırılmış əmri (sərəncamı, qərarı) ilə rəsmiləşdirilməlidir. Əmək müqaviləsinə bu Məcəllənin 68, 69, 70, 73, 74 və 75-ci maddələrində nəzərdə tutulan əsaslara və qaydalara uyğun olaraq xitam verilməsi işəgötürənin əsaslandırılmış əmri (sərəncamı, qərarı) ilə rəsmiləşdirilməlidir.

37. Maddə 83 (2-ci hissə). Əmək müqaviləsinə xitam verilməsi barədə işəgötürənin əmri (sərəncamı, qərarı) onun tərəfindən imzalanmalı və müəssisənin möhürü ilə təsdiqlənməlidir. Bu əmrin surəti, işçinin əmək kitabçası və işəgötürənin son haqq-hesabı (istifadə edilməmiş əmək məzuniyyətinə görə pul əvəzi, işçiyə ödənilməli əmək haqqı və digər ödəmələr) ilə birlikdə sonuncu iş günü işçiyə verilməlidir. Elektron sənəd formasında bağlanılmış əmək müqavilələrinə xitam verilən zaman bu barədə işəgötürənin əmri (sərəncamı, qərarı) elektron informasiya sistemində gücləndirilmiş elektron imza ilə imzalanaraq işçinin informasiya sistemində yaradılan elektron kabinetində yerləşdirilir.

38. Maddə 300. Əgər işəgötürən əmək müqaviləsinin bu Məcəllənin 68, 69, 70, 73, 74 və 75-ci maddələrində nəzərdə tutulmuş ləğv edilməsi əsaslarını pozaraq və ya 71, 76cı maddələri ilə müəyyən edilmiş qaydaların tələblərinə əməl etmədən, habelə 79-cu maddəsində nəzərdə tutulmuş hallara əhəmiyyət vermədən işçi ilə əmək münasibətlərinə xitam vermişdirsə, əmək mübahisəsini həll edən məhkəmə iddia ərizəsini və işin faktik hallarını araşdıraraq

məcburi iş buraxma müddəti üçün əmək haqqı ödənilməklə işçinin vəzifəsinə bərpa edilməsi barədə qətnamə və ya bu maddənin ikinci hissəsinə müvafiq olaraq tərəflərin barışıq sazişinin təsdiq edilməsi barədə qərardad çıxarır.

39. Maddə 310. İstər işçilər, istərsə işəgötürənlər, istərsə də başqa şəxslər bu Məcəllə ilə və əmək qanunvericiliyi sisteminə daxil olan digər normativ hüquqi aktlarla müəyyən olunmuş hüquqları pozmağa, onları hər hansı şərtlə və ya qaydada məhdudlaşdırmağa, habelə bu hüquqlardan sui-istifadə etməyə, əmək müqaviləsi ilə müəyyən edilmiş öhdəlikləri, vəzifə funksiyasını yerinə yetirməməyə görə qanunvericiliklə müəyyən edilmiş qaydada maddi, intizam və cinayət məsuliyyəti daşıyırlar.

"Mənəvi zərərin ödənilməsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 3 noyabr

2008-ci il tarixli, 7 saylı Qərarı:

40. Mənəvi zərər, insanın anadangəlmə və ya qanun əsasında ona məxsus olan şəxsi qeyri-əmlak xarakterli hüquq və azadlıqların, habelə əmlak hüquqlarının pozulması nəticəsində fiziki əzab çəkməsi kimi başa düşülür. Fiziki şəxsin mənəvi sarsıntı keçirməsi dedikdə isə ona qarşı törədilmiş qanunsuz hərəkətin və ya hərəkətsizliyin onun şüurunda müəyyən mənfi psixi reaksiyaya səbəb olması, iztrab keçirməsi dedikdə isə onun sağlamlığının pozulması nəticəsində fiziki əzab çəkməsi başa düşülür. Şəxsə mənəvi zərər vurulması onun yaxın qohumlarını və ya iş yerini itirməsi, fəal ictimai həyat tərzindən məhrum olması, şəxsi, ailə və tibbi sirlərinin açıqlanması, şərəf, ləyaqət və işgüzar nüfuzunun ləkələnməsi, hər hansı başqa hüquqlarının müvəqqəti olaraq məhdudlaşdırılması və ya həmin hüquqlardan məhrum olması, sağlamlığına xəsarət yetirilməsi və s. hallarda özünü biruzə verir.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi

41. Maddə 13.4. Barəsində mübahisə edilən hüquq münasibətlərini tənzimləyən hüquq norması olmadıqda, məhkəmə analoji münasibətləri tənzimləyən hüquq normalarına müraciət edir.

42. Maddə 14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

43. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

44. Məhkəmənin qanuni qüvvəyə minmiş hökmü, habelə cinayət təqibi üzrə qüvvəyə minmiş digər qərarı mülki işə və kommersiya mübahisəsinə baxılarkən məhkəmə üçün hadisənin olub-olmaması və şixsin həmin hadisəyə aidiyyəti hissəsində məcburidir.

45. Maddə 88. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

46. Maddə 217.2. Qətnamə mübahisəli hüquq münasibətinin yarandığı zaman qüvvədə olan maddi hüquq normalarına və işin baxılması zamanı qüvvədə olan prosessual hüquq normalarına uyğun çıxarılmalıdır.

47. Maddə 407.2. Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir.

48. Maddə 416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

Kassasiya baxışının hədləri

49. Qanunun tələbinə görə, kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir.

50. Cavabdeh kassasiya şikayətində qətnaməni bütövlükdə mübahisələndirdiyindən, apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin əsaslılığı kassasiya şikayətinin dəlilləri hüdudlarında tam yoxlanıldı.

Kassasiya instansiyası məhkəməsinin hüquqi mövqeyi

51. Kassasiya instansiyası məhkəməsi kassasiya şikayətinin dəlillərini araşdırıb hesab edir ki, apellyasiya instansiyası məhkəməsi, birinci instansiya məhkəməsinin qətnaməsini mübahisələndirilən hissədə dəyişdirilmədən saxalyarkən düzgün nəticəyə gəlsə də, AR MPM-in 13.4 və 82.4-cü maddələrinin təfsirində və hazırkı mübahisəyə tətbiqində səhvə yol verib.

52. Belə ki, işin apellyasiya instansiyası məhkəməsi tərəfindən müəyyən edilmiş hallarına görə, iddiaçı cavabdeh təşkilatda aparıcı mütəxəssis vəzifəsində işləyib və işəgötürənin xx xx 2023-cü il tarixli, ***/Ş/AZT saylı əmri ilə onunla bağlanmış əmək müqaviləsinə xx xx 2023-cü il tarixdən AR ƏM-in 70-ci maddəsinin “ç” bəndinə əsasən (işçi özünün əmək funksiyasını və ya əmək müqavilə üzrə öhdəliklərini yerinə yetirmədikdə, yaxud bu Məcəllənin 72-ci maddəsində sadalanan hallarda əmək vəzifələrini kobud şəkildə pozduqda) xitam verilib və əmrin verilməsinə əsas kimi Daxili nəzarət şöbəsinin xidməti qeydi, habelə həmkarlar ittifaqı təşkilatının razılığı və digər sənədlər göstərilib.

53. Əmrin məzmunundan isə görünür ki, Daxili nəzarət şöbəsi tərəfindən keçirilmiş monitorinq zamanı cavabdehin ünvan 1-də yerləşən inzibati binasında dezinfeksiya xidmətinin həyata keçirilməsi üçün iddiaçı, “XX” MMC-in nümayəndəsi ilə məbləğin müəyyən hissəsinin ona verilməsi ilə bağlı razılığa gəlib və bunun qarşılığında inzibati binada mütəmadi dezinfeksiya xidmətinin həyata keçirilməsinə şərait yaradacağına söz verib. Həmçinin, iddiaçı, inzibati binada dezinfeksiya olunacaq sahənin həcmini artıq göstərərək, bu barədə akt imzalamaqla, xidmətin həyata keçirilməsinə şərait yaradıb. Bunun qarşılığında isə iddiaçı, 210 manatın Cəmiyyətin nümayəndəsi tərəfindən ona ödənilməsinə nail olaraq həmin məbləği mənimsəyib. Daha sonra, iddiaçının təşkilatçılığı ilə 2023-cü ilin iyun ayı ərzində 2-ci dəfə dezinfeksiya ilə bağlı Cəmiyyətə müraciət olunub və yenidən dezinfeksiya olunacaq sahə artıq göstərilməklə müvafiq akt imzalanıb. Lakin, Daxili nəzarət şöbəsi tərəfindən keçirilən monitorinq nəticəsində sahənin artıq göstərilməsi aşkarlanaraq, cavabdehə vurulacaq ziyanın qarşısı alınıb.

54. Eyni zamanda, qanuni qüvvəyə minmiş Bakı Şəhəri, Yasamal Rayon Məhkəməsinin 27 may 2024-cü il tarixli, 3(004)-1104/2024 saylı Qərarı ilə müəyyən olunub ki, iddiaçının hərəkətlərində AR İXM-in 227-ci maddəsində nəzərdə tutulan inzibati xətanın tərkibi olmadığı üçün, onun barəsində AR Baş Prokurorluğunun Cinayət təqibindən kənar icraatlar idarəsi tərəfindən qəbul edilmiş 13 dekabr 2023-cü il tarixli inzibati xəta haqqında qərar üzrə icraata xitam verilib.

55. Həmin Qərarla həmçinin təsdiq olunur ki, iddiaçının hərəkətlərində AR İXM-in 227-ci maddəsində nəzərdə tutulan xırda talamanın, yəni mənimsəmə, israfçılıq, qulluq mövqeyindən sui-istifadə yolu ilə cavabdehin əmlakını talaması halları aşkar edilməyib. Başqa sözlə, cavabdehin inzibati binasında dezinfeksiya xidmətini həyata keçirəcək “XX” MMC-in

nümayəndəsinin iddiaçı tərəfindən hər hansı formada ələ alınması, ona vəd verilməsi, habelə iddiaçının cavabdehin etibarından sui-istifadə edərək, sözügedən Cəmiyyətin nümayəndəsindən 210 manat alması və ümumiyyətlə iddiaçının belə bir niyyətdə olması müəyyən edilmir.

56. Daha sonra, həmin Qərardan görünür ki, inzibati xətaya dair iş materiallarında "XX" MMC-in nümayəndəsi tərəfindən iddiaçıya 210 manat verməsi ilə bağlı cavabdehə hər hansı müraciət ünvanlaması, habelə iddiaçının təmizləyici şirkətə bilə-bilə yalan, həqiqətə uyğun olmayan məlumatlar verməsi və ya həqiqi məlumatları gizlətməsi, yaxud 210 manatı almasına yönələn qəsdən törədilən başqa hərəkətlər, habelə cavabdehin etibarından sui-istifadə etməsi halları müəyyən edilməyib.

57. Nəzərə alınmalıdır ki, qulluq mövqeyindən sui-istifadə yolu ilə mənimsəmə halında, vəzifə səlahiyyətlərindən sui-istifadə edən şəxs etdiyi əmələ münasibətdə vəzifəsinə görə malik olduğu səlahiyyətlərdən istifadə və yaxud bundan imtina etməlidir. Lakin, bu cür istifadə etmə və yaxud istifadədən yayınma hər bir halda qulluq mənafeləri əleyhinə yönəlməlidir.

58. Hazırkı halda, iddiaçının vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə cavabdehə məxsus inzibati binada dezinfeksiya ediləcək sahəni artıq göstərməsi, bunun müqabilində təmizləyici şirkətdən 210 manat alması və nəticədə onun AR ƏM-in 70-ci maddəsinin "ç" bəndində nəzərdə tutulan intizam xətasına, yəni özünün əmək müqaviləsi üzrə öhdəliklərini yerinə yetirməməsi, yaxud həmin Məcəllənin 72-ci maddəsində sadalanan əmək vəzifələrini kobud şəkildə pozan hallara yol verməsi mülki iş materialları ilə müəyyən olunmur.

59. Belə ki, sözügedən normaların mənasına görə, qeyd olunan əsasla iddiaçı ilə bağlanmış əmək müqaviləsinə işəgötürən tərəfindən o, halda xitam verilə bilərdi ki, dezinfeksiya ediləcək sahənin ölçüsünün, qiymətinin müəyyən edilməsi, habelə dezinfeksiya aparacaq təmizləyici şirkətlə müqavilə bağlamaq və sair hərəkətləri yerinə yetirmək səlahiyyətləri, bilavasitə iddiaçının əmək müqaviləsi üzrə öhdəliklərinə aid edilmiş olsun. Yalnız bu halda, iddiaçının "öz qulluq mövqeyindən sui-istifadə etməsin"dən, yəni öz səlahiyyətlərindən qəsdən qulluq mənafeyi əleyhinə faydalanmasından söhbət gedə bilərdi. Halbuki, iddiaçı ilə bağlanmış əmək müqaviləsində, habelə onun vəzifə səlahiyyətləri siyahısında dezinfeksiya ediləcək sahənin ölçüsünü, qiymətini müəyyən etmək və bu barədə təmizləyici şirkətlə hər hansı müqavilə bağlamaq səlahiyyətləri olmamışdır.

60. Əksinə, işə əlavə edilmiş sənədlərdən görünür ki, cavabdehə məxsus inzibati binada profilaktik deratizasiya və dezinfeksiya xidmətlərinin göstərilməsinə dair 14 noyabr 2022-ci il Xidməti müqavilə iddiaçı ilə təmizləyici şirkət arasında deyil, sonuncu ilə məhz cavabdehin qanuni təmsilçisi arasında bağlanıb. Həmin müqavilədə, habelə müqaviləyə əlavə edilmiş 1 saylı Əlavədə də xidmətin adı, sahənin ölçüsü, bir il ərzində görüləcək işin sayı, 1 kv.metr sahənin qiyməti, habelə cəmi ödəniləcək məbləğ dəqiq müəyyən edilib göstərilib.

61. Bundan başqa, işdən görünür ki, sözügedən inzibati binada dezinfeksiya və deratizasiya işləri görülməmişdən əvvəl cavabdehin müxtəlif əməkdaşları tərəfindən binada həşəratların olması barədə iddiaçıya məlumat verilib və bundan sonra məhz rəhbərliyin göstərişi ilə binada dezinfeksiya işləri aparılıb, sonrakı dezinfeksiya zamanı isə iddiaçı, binanın yeni dezinfeksiya olunduğunu qeyd edərək, təkrar binada dezinfeksiya aparılmasına ehtiyac olmadığını bildirib.

62. Bütün bunlar isə cavabdehin apellyasiya və kassasiya şikayətlərində, iddiaçının əmək müqaviləsi üzrə öhdəliklərini kobud şəkildə pozması nəticəsində qanunla qorunan mənafelərinə ziyan dəyməsinə dair göstərdiyi dəlilləri təkzib edir.

63. Göründüyü kimi, iddiaçı ilə bağlanmış əmək müqaviləsinə işəgötürən tərəfindən AR ƏM-in 70-ci maddəsinin "ç" bəndində nəzərdə tutulan əsasla xitam verilməsi üçün qanuni

əsaslar olmayıb. Başqa sözlə, iddiaçının vəzifə borcunu (öhdəliklərini) yerinə yetirmədiyinə görə, onun iş yerində işin, istehsalın, əmək və icra intizamının normal ahənginin pozulması halları baş verməyib, habelə işəgötürənin, əmək kollektivinin hüquqlarına və qanunla qorunan mənafelərinə hər hansı formada ziyan dəyməyib. Halbuki, sözügedən normaların, habelə AR ƏM-in 71-ci maddəsinin 2-ci hissəsinin mənasına görə, əmək müqaviləsi işəgötürən tərəfindən qeyd olunan əsasla o, halda ləğv edilə bilər ki, işçi özünün əmək funksiyasını və ya əmək müqaviləsi üzrə öhdəliklərini yerinə yetirməsin və yaxud həmin Məcəllənin 72-ci maddəsində sadalanan hallar baş verməklə əmək vəzifələrini kobud şəkildə pozmuş olsun və nəticədə iş yerində işin, istehsalın, əmək və icra intizamının normal ahəngi pozulsun və ya mülkiyyətçinin, işəgötürənin, habelə əmək kollektivinin (onun ayrı-ayrı üzvlərinin) hüquqlarına və qanunla qorunan mənafelərinə hər hansı formada ziyan dəymiş olsun.

64. Daha sonra, yuxarıda qeyd edildiyi kimi, iddiaçının təmizləyici şirkətin nümayəndəsindən 210 manat alması faktı, hüquq mühafizə orqanlarında və məhkəmələrdə ayrıca aparılan araşdırmalar zamanı da öz təsdiqini tapmayıb, yəni iddiaçının əməlində nə inzibati, nə də cinayət qanunvericiliyində nəzərdə tutulan əməlin olması müəyyən edilməyib.

65. Digər tərəfdən, işdən görünür ki, təmizləyici şirkətlə bağlanmış xx xx 2022-ci il tarixli müqavilə üzrə ödənişlər cavabdeh tərəfindən nağd deyil, köçürmə yolu ilə həyata keçirilib və həmin ödənişlər müqaviləyə əlavə edilmiş 1 saylı Əlavədə əksini tapmış məbləğlərlə üst-üstə düşür.

66. Ona görə də kassasiya instansiyası məhkəməsi, cavabdehin kassasiya şikayətinin dəlilləri ilə razılaşmır və hesab edir ki, işəgötürən, iddiaçı ilə bağlanmış əmək müqaviləsinin AR ƏM-in 70-ci maddəsinin "ç" bəndində nəzərdə tutulan ləğv edilmə əsaslarını pozaraq, onunla əmək münasibətlərinə qanunsuz olaraq xitam verdiyi üçün, birinci instansiya məhkəməsi iddia ərizəsini, işin faktiki hallarını araşdırıb, iddiaçının əsassız olaraq işdən çıxarılması nəticəsində keçirdiyi sarsıntı və iztirabı nəzərə alıb, məcburi iş burxma müddəti üçün əmək haqqı ödənilməklə onun əvvəlki vəzifəsinə bərpa olunması və cavabdehdən onun xeyerinə mənəvi zərərə görə 1000 manat kompensasiyanın tutulması barədə qətnamə çıxarmaqla, apellyasiya instansiyası məhkəməsinin isə həmin qətnaməni mübahisələndirilən hissədə dəyişdirilmədən saxlamaqla düzgün nəticəyə gəlib.

67. Lakin, kassasiya instansiyası məhkəməsi, işə baxan məhkəmələrin AR MPM-in 13.4 və 82.4-cü maddələrinin tələblərinə istinad edərək, Bakı Şəhəri, Yasamal Rayon Məhkəməsinin inzibati xəta haqqında iş üzrə 27 may 2024-cü il tarixli, 3(004)-1104/2024 saylı Qərarının hazırkı mülki iş üçün preyudisiallığı ilə bağlı hüquqi əsaslandırmaları ilə razılaşmır.

68. Əvvəla, AR MPM-in 82.4-cü maddəsində göstərilir ki, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü, habelə cinayət təqibi üzrə qüvvəyə minmiş digər qərarı mülki işə və kommersiya mübahisəsinə baxılarkən məhkəmə üçün hadisənin olub-olmaması və şəxsin həmin hadisəyə aidiyyəti hissəsində məcburidir.

69. Normanın mənasına görə, məhz cinayət işi üzrə qanuni qüvvəyə minmiş məhkəmə hökmündə, habelə cinayət təqibi üzrə qüvvəyə minmiş digər məhkəmə qərarında əks olunan faktların iki növü mülki iş üzrə sübut olunmaqdan azaddır: birincisi, hərəkətin olu-olmaması faktı (yəni cinayətin törədilib-törədilməməsi faktı); ikincisi isə bu hərəkətin konkret şəxs tərəfindən edilməsi faktı (yəni cinayətin subyekti barədə məsələ).

70. Göründüyü kimi, AR MPM-in 82.4-cü maddəsində məhkəmənin qanuni qüvvəyə minmiş inzibati xəta haqqında iş üzrə qərarının deyil, cinayət işi üzrə hökmünün, habelə cinayət təqibi üzrə qüvvəyə minmiş digər qərarının mülki işə baxılarkən məhkəmə üçün hadisənin olub-olmaması və şəxsin həmin hadisəyə aidiyyəti hissəsində məcburiliyindən, başqa sözlə preyudisiallığından bəhs olunur.

71. Nəzərə alınmalıdır ki, preyudisiallıq məhkəmə aktının qanuni qüvvəsinin təkzibedilməzliyi, müstəsnalığı və məcburiliyi kimi keyfiyyət göstəricilərinin nəticəsidir. Preyudisiya institutu məhkəmə aktlarına yenidən baxılmasının qarşısının alınmasına, məhkəmə təcrübəsində eyniliyin, sabitliyin və hüquqi müəyyənliyin təmin edilməsinə yönəlib. Preyudisiallığı tənzim edən normalar sübut etmə prosesini sadələşdirməyə, işlərə baxılma müddətinin qısaldılmasına, məhkəmələrin, eləcə də məhkəmə prosesi iştirakçılarının vəsaitinə qənaət edilməsinə yönəlib.

72. Eyni hüquqi mövqe "Q.Məmmədova və digərlərinin şikayəti üzrə" AR Konstitusiya Məhkəməsinin Plenumunun 15 iyul 2015-ci il tarixli Qərarında da ifadə olunub və həmin Qərarda göstərilir ki, preyudisiya institutunun əsas funksiyası eyni faktiki hallar arasındakı qarşılıqlı əlaqəni və məhkəmə qərarları arasındakı stabilliyi təmin etməkdir. Preyudisiya institutunun mülki prosesdə eyni faktiki hallar arasındakı qarşılıqlı əlaqəni təmin etmək funksiyasının mahiyyəti eyni faktiki halların təkrarən, lüzumsuz olaraq araşdırılması və onlar barəsində yenidən nəticəyə gəlinməsinin qarşısını almaqdan ibarətdir.

73. Müki hüquqda faktlar dedikdə isə, mülki-hüquq münasibətlərinin əmələ gəlməsinin, dəyişdirilməsinin və ya xitam olunmasının əsası kimi mülki qanunvericilikdə nəzərdə tutulan hallar başa düşülür. Başqa sözlə faktlar mülki-hüquqi nəticələrin baş verməsi ilə mülki qanunvericiliyin əlaqələndirdiyi və bağladığı həyati hallardır. Bu faktlar olmadan hər hansı bir mülki-hüquq münasibətinin əmələ gəlməsi, dəyişdirilməsi və ya xitam olunması mümkün deyildir.

74. Yalnız məhkəmə tərəfindən qanunla nəzərdə tutulmuş qaydada müəyyən edilmiş, yoxlanılmış və qiymətləndirilmiş faktlar preyudisial əhəmiyyət daşıyır. Mülki prosessual qanunvericiliyə görə isə məhkəmə tərəfindən faktların, halların müəyyən edilməsi, yoxlanılması və qiymətləndirilməsi yalnız məhkəmə aktının əsaslandırıcı hissəsində öz əksini tapmalıdır. Qətnamənin əsaslandırıcı hissəsi baxılan işin mahiyyəti üzrə nəticə çıxarılması üçün əsas yaradaraq mühüm əhəmiyyət daşıyır.

75. Beləliklə, məhkəmə qərarının preyudisiallığı qanuni qüvvəyə minmiş məhkəmə qərarının əsaslandırıcı hissəsində müəyyənləşdirilmiş faktların və hüquq münasibətlərinin işdə iştirak edən şəxslər tərəfindən yenidən mübahisələndirilməsinin, məhkəmə üçün isə onların başqa prosesdə araşdırılmasının və təkzib edilməsinin mümkünsüzlüyünü nəzərdə tutur.

76. Eyni zamanda, qeyd olunmalıdır ki, istintaq və təhqiqat orqanlarının heç bir qərarı mülki iş üzrə preyudisial əhəmiyyət daşımır və AR MPM-in 82-ci maddəsində preyudisial halları və faktları əks etdirən məhkəmə aktlarının dəqiq dairəsi müəyyən edilib.

77. Ona görə də kassasiya instansiyası məhkəməsi hesab edir ki, işə baxan məhkəmələrin AR MPM-in 13.4-cü maddəsinin tələblərinə istinad edərək, həmin Məcəllənin 82.4-ci maddəsinə əsaslanıb preyudisial halları və faktları əks etdirən məhkəmə aktlarının dairəsini genişlənidirərək, inzabati xəta haqqında iş üzrə məhkəmə aktını da həmin məhkəmə aktlarının sırasına aid etmələri yolverilməz olmaqla, AR MPMin 82-ci maddəsinin tələblərinə ziddir.

78. Belə ki, sözügedən normada sübut etməkdən azad olmaq üçün konkret əsaslar müəyyən edilib göstərilib və həmin normada istənilən başqa aktlar, məsələn inzibati aktlar, istintaq, prokurorluq orqanlarının aktları, habelə müxtəlif dövlət orqanlarının aktları, eləcə də inzibati xətalara dair işlər üzrə məhkəmə aktları deyil, məhz mülki iş üzrə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsi, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü, habelə cinayət təqibi üzrə qüvvəyə minmiş digər qərarları ilə müəyyən edilən faktlar preyudisial faktlar sayılır. Yəni, məhz sözügedən məhkəmə aktlarında əks olunmuş, araşdırılmış, qiymətləndirilmiş, tələbin və (və ya) etirazların predmetinə aid olan faktlar, işdə iştirak edən şəxslər tərəfindən

başqa işə baxılarkən yenidən mübahisələndirilə bilməz və həmin faktların sübuta ehtiyacı yoxdur.

79. Bu baxımdan kassasiya instansiyası məhkəməsi hesab edir ki, sözügedən inzibati xətaya dair iş üzrə müəyyən edilmiş yuxarıda göstərilən faktlar, hazırkı mülki iş üzrə işdə iştirak edən şəxslər üçün preyudisial əhəmiyyətə malik deyil. Lakin işə baxan məhkəmələr qeyd olunan inzibati xətaya dair məhkəmə aktı ilə müəyyən edilmiş faktlarla yanaşı, işə əlavə edilmiş digər sübutlara da istinad edərək iddia tələblərinin qismən əsaslı olması nəticəsinə gəldiyinidən, cavabdehin kassasiya şikayətinin digər dəlilləri ilə razılaşmaq olmaz.

80. Göstərilənlərə əsasən, kassasiya instansiyası məhkəməsi hesab edir ki, apellyasiya instansiyası məhkəməsi hazırkı işə baxarkən qanunvericiliyin yuxarıda göstərilən tələblərini nəzərə alaraq, işin faktiki hallarını ətraflı müəyyənləşdirərək düzgün hüquqi nəticəyə gəlib. Ona görə də kassasiya şikayəti təmin edilmədən, iş üzrə apellyasiya instansiyası məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmalıdır.

81. Yuxarıda göstərilənlərə əsasən və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 416, 417 və 419-cu maddələrinin tələblərini rəhbər tutaraq, kassasiya instansiyası məhkəməsi

Qərara aldı:

Cavabdeh Azərbaycan Respublikası Rəqamsal İnkişaf və Nəqliyyat Nazirliyi “XXX” Məhdud Məsuliyyətli Cəmiyyətin kassasiya şikayəti təmin edilməsin.

İş üzrə Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 28 oktyabr 2024-cü il tarixli, 2(103)-5542/2024 saylı qətnaməsi dəyişdirilmədən saxlanılsın.

Qərar qəbul edildiyi andan qanuni qüvvəyə minir.

80. 2-2(102)-574/2025 nömrəli, 2025-ci il 20 avqust tarixli qərar - Azərbaycan Respublikası vətəndaşları və hüquqi şəxsləri arasında olan razılaşmada məhkəmə mübahisəsinin xarici dövlətin məhkəmələrində baxılmasına dair şərt olduğu halda mübahisəyə yerli məhkəmələr tərəfindən baxılmasının mümkünlüyü

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu:

İddiaçı Azərbaycan Respublikası vətəndaşı olan fiziki şəxs, cavabdeh isə Azərbaycan Respublikasında təsis olunmuş kommersiya hüquqi şəxsidir. Tərəflər arasında bağlanmış beynəlxalq yükdaşıma müqaviləsinin 8-ci və 9-cu bəndlərində mübahisələrin Türkiyə qanunvericiliyi ilə İstanbul məhkəmələrində həll olunması razılaşdırılmışdır. Birinci instansiya məhkəməsi bu müqavilə şərtinə əsaslanaraq MPM-in 261.0.1-ci maddəsinə istinadla iş üzrə icraata xitam vermiş, apellyasiya instansiyası məhkəməsi həmin qərardadı qüvvədə saxlamışdır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

MPM-in 261.0.1-ci maddəsi yalnız o hallarda tətbiq oluna bilər ki, mübahisəyə ümumiyyətlə məhkəmə qaydasında və ya konkret olaraq mülki məhkəmə icraatı qaydasında baxıla bilməz. Hazırkı işdə isə bu hallar mövcud deyildir.

Belə ki, Azərbaycan Respublikası vətəndaşları və hüquqi şəxsləri arasında olan məhkəmə mübahisəsinin həll edilməsi səlahiyyəti Azərbaycan dövlətinin yurisdiksiyasına aiddir. Azərbaycan Respublikasında da məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız Azərbaycan məhkəmələri həyata keçirirlər (Azərbaycan Respublikası Konstitusiyasının 60, 125-ci maddələri, “Məhkəmələr və hakimlər haqqında” Qanunun 1-ci maddəsi və MPM-in 2.1, 4.1-ci maddələri).

MPM-in 450.1 və 450.2-ci maddələri baxımından xarici şəxslərin iştirak etdiyi işlərə aid edilməyən və yalnız Azərbaycan Respublikası vətəndaşları və hüquqi şəxslərinin iştirak etdiyi işlərdə, tərəflərdən birinin xarici ölkədə yaşayış yeri, iş yeri və ya onun adətən olduğu yer varsa, tərəflər xarici dövlətin məhkəməsinin beynəlxalq səlahiyyəti barədə razılığa gələ bilərlər. Qeyd olunan hallar olmadıqda isə tərəflər arasında olan belə razılaşma etibarsızdır və mübahisəyə Azərbaycan Respublikasının məhkəmələrində baxılmasını qeyri-mümkün edən hal kimi qiymətləndirilə bilməz.

Beynəlxalq konvensiyalarda və ya Azərbaycan Respublikası ilə xarici dövlət arasında bağlanmış beynəlxalq müqavilələrdə belə şərtin, yəni Azərbaycan Respublikası vətəndaşları və hüquqi şəxsləri arasında olan məhkəmə mübahisəsinin xarici dövlətin məhkəmələrində baxılması ilə bağlı razılaşmanın bağlanmasını mümkün edən qaydalar nəzərdə tutula bilər.

Lakin Azərbaycan Respublikası 2005-ci il tarixli Haaqa Konvensiyasına qoşulmamış və Türkiyə Respublikası ilə olan 2002-ci il tarixli ikitərəfli müqavilədə də belə müddəa nəzərdə tutulmamışdır.

Beləliklə, Ali Məhkəmə hesab edir ki, apellyasiya instansiyası məhkəməsi MPM-in 450.2-ci maddəsindəki şərtləri nəzərə almayaraq iş üzrə icraata xitam verilməsi barədə qərardad qəbul etmişdir.

Bakı şəhəri İş № 2-2(102)-574/2025 20.08.2025

Azərbaycan Respublikası adından

Azərbaycan Respublikası Ali Məhkəməsinin
Kommersiya Kollegiyasının

İddiaçı cavabdeh MMC-yə
qarşı iş üzrə

Q Ə R A R I

Açar sözlər: iş üzrə icraata xitam verilməsi

Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya kollegiyası Qurbanov Raqib Əliddin oğlunun məruzəsi ilə, hakimlər Məmmədli Bəhram Məmməd oğlu və Abbasov Aqil Əzizağa oğlundan ibarət tərkibdə,

İddiaçı Cavabdeh MMC-yə qarşı "maddi ziyanın ödənilməsi" tələbinə dair iş üzrə Bakı Apellyasiya Məhkəməsinin Kommersiya kollegiyasının 2025-ci il 9 iyul tarixli 2-2(103)749/2025 nömrəli qərardadından iddiaçı tərəfindən verilmiş kassasiya şikayətinə yazılı icraat qaydasında baxılmışdır.

İş üzrə məhkəmə icraatı

a) Birinci instansiya məhkəməsindəki icraat

1. İddiaçı Cavabdehə qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək cavabdehdən maddi ziyana görə 15.000 manat pulun və 135 manat ödədiyi dövlət rüsumunun tutularaq iddiaçıya ödənilməsi barədə qətnamə qəbul olunmasını xahiş etmişdir.

2. İddia tələbi onunla əsaslandırılmışdır ki, iddiaçı beynəlxalq və ölkədaxili yükdaşıma ilə məşğul olur. 2024-cü ilin 19 oktyabr tarixində cavabdehlə iddiaçı arasında yükdaşıma müqaviləsi bağlanmışdır. Həmin müqaviləyə əsasən Türkiyə Respublikasının Gaziantep şəhərindən Bakı şəhərinə yük daşınmalı idi. İddiaçı müqavilə üzrə öz üzərinə düşən öhdəliklərini vaxtlı-vaxtında və tam həcmdə yerinə yetirmişdir. Lakin cavabdeh öz öhdəliklərini müxtəlif bəhanələrlə icra etmir və ya icra etməkdən yayınır. Cavabdeh tərəfə indiyə qədər həm yazılı, həm də şifahi şəkildə dəfələrlə pulun ödənilməsi barədə xəbərdarlıq edilmişdir. Lakin, cavabdeh müxtəlif bəhanələrlə borcunu ödəməkdən imtina edir. Aralarında bağlanmış 2024-cü il 19 oktyabr tarixli daşınma müqaviləsinin 4-cü maddəsinə görə iddiaçının işi yükü təyinat yerinə çatdırmaqdır ki, iddiaçı da bu şərtə əməl etmiş və yükün daşınması müddətində heç bir qayda pozuntusuna yol verməmiş və ya iddiaçının təqsirindən hər hansı pozuntu halı baş verməmişdir və yaxud da daşıdığı yük korlanmamış, məhv olmamışdır. Cavabdehin qanunsuz hərəkətləri nəticəsində iddiaçıya dəymiş maddi ziyan 15.000 manat təşkil edir. Bu işin qeyd etdiyi faktiki tərəfləri ilə bərabər, qanunvericiliyikdə də iddiaçının qeyd etdiyi tələblərin hüquqi əsaslarını göstərən kifayət qədər hüquqi normalar mövcuddur.

3. Cavabdeh iddia tələbinə qarşı etiraz göndərərək bildirmişdir ki, iddiaçının iddia ərizəsinə əlavə etdiyi hansı hüquqi şəxslə bağlandığı məlum olmayan razılaşmanın sonuncu səhifəsində olan 8-ci bənddə deyilir: "İş bu protokolun uygulanmasına ilişkin doğacak ihtilaflann hallinde Türk Hukuku uygulanacak olup İstanbul Mahkemeleri və İcra daireleri yetkilidir." Sadəcə bu maddəyə münasibət kimi belə bir ağlabatan ehtimalla çıxış etmək olar ki, iddiaçının istinad etdiyi və formal olaraq təqdim etdiyi "sübut" Türkiyə dövlətinə məxsus hansısa şirkətlə iddiaçının arasında olan razılaşmadır. Buna görə də məhz mübahisə olduğu təqdirdə Türkiyə dövlətinə aid məhkəmələrə müraciət etmək konkretləşdirilmişdir. Lakin həmin razılaşmaya müəyyən dəyişiklik edilib və MMC-nin imzası olmadan loqosu vurulub.

4. Cavabdeh daha sonra idda tələbinə qarşı daha bir etiraz göndərərək bildirmişdir ki, iddiaçının iddia ərizəsinə əlavə etdiyi xarici hüquqi şəxslə bağladığı razılaşmanın sonuncu səhifəsində 8-ci bənddə qeyd edilir: "İş bu protokolun uygulanmasına ilişkin doğacak ihtilaflann hallinde Türk Hukuku uygulanacak olup İstanbul Mahkemeleri və İcra daireleri yetkilidir." 9-cu bənddə isə deyilir: "Taraflar arasında işbu taşıma sözleşmesi hükumleri uygulanacaktır. Sözlüşmede hüküm bulunmaması halinde, Türk borclar kanunu və Türk ticaret kanunu və diger ilgili mevzuattaki tamamlayıcı hükümleri ve teamülleri uygunlanacaktır." Göründüyü kimi, iddiaçı türk şirkətinə aid müqaviləyə istinad etmiş, buna görə də müqavilədə mübahisələrə Türkiyə məhkəmələri və Türkiyə qanunvericiliyi ilə baxılması sərtləşdirilmişdir.

5. Bakı Kommersiya Məhkəməsinin 2025-ci il 2 aprel tarixli e-2-2(113)-1336/2025 nömrəli qərardadı ilə iş üzrə icraata xitam verilmişdir (hakim – Z.Axundova).

6. Məhkəmənin mövqeyi belə olmuşdur ki, mülki prosessual qanunvericiliyin tələblərinə əsasən iş məhkəmədə baxılmalı deyildirsə, hakim iş üzrə icraata xitam verir. Hazırkı iddia tələbinin əsasını təşkil edən 2024-cü il 19 oktyabr tarixli daşıma müqaviləsinin 8-ci bəndinə əsasən tərəflər arasında mübahisə yaranarsa Türkiyə hüququ tətbiq olunacaq və mübahisələrə baxmağa İstanbul Məhkəmələri və İcra Dairələri səlahiyyətlidir. Müqavilənin 9cu bəndinə əsasən isə tərəflər arasında bu daşıma müqaviləsinin müddəaları tətbiq olunacaq. Müqavilədə müvafiq müddəalar olmazsa, Türkiyə öhdəliklər və Türkiyə ticarət qanunvericiliyi tətbiq olunacaq.

7. Gəldiyi nəticəni məhkəmə Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra – "MPM") 2.1, 4.1, 261.0.1-ci maddələrinə istinad etməklə əsaslandırmışdır.

8. İddiaçı qərardaddan şikayət verilməsi üçün buraxılmış prosessual müddətin üzrlü hesab edilərək bərpası barədə ərizə və həmin qərardaddan şikayət verərək onun ləğv olunmasını xahiş etmişdir.

9. Bakı Kommersiya Məhkəməsinin 2025-ci il 27 may tarixli e-2-2(113)-1336/2025 nömrəli qərardadı ilə buraxılmış prosessual müddət üzrlü hesab edilərək bərpa edilmiş, iddiaçı tərəfindən qərardaddan verilmiş şikayət təmin edilməmiş və işlə birlikdə baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmişdir.

b) Apellyasiya instansiya məhkəməsindəki icraat

10. Bakı Apellyasiya Məhkəməsinin Kommersiya kollegiyasının 2025-ci il 9 iyul tarixli 22(103)-749/2025 nömrəli qərardadı ilə şikayət təmin edilməmiş, birinci instansiya məhkəməsinin qərardadı dəyişdirilmədən saxlanılmışdır (sədrlik edən – T.Mahmudova, hakimlər – Z.Şirinov və L.Əliyeva).

11. Məhkəmə kollegiyasının mövqeyi belə olmuşdur ki, yüklərin, sərnişinlərin və ya baqajın daşınma müqavilələrindən əmələ gələn yük daşıyanlara qarşı iddialar nəqliyyat təşkilatı idarəsinin olduğu yerə görə verilir. Yəni, mülki prosessual qanunvericilik yük daşıyanlara qarşı iddialara münasibətdə müstəsna aidiyyət müəyyən etmişdir. Hazırkı icraatda isə 2024-cü il 19 oktyabr tarixli daşıma müqaviləsindən irəli gəlməklə nəqliyyat təşkilatı idarəsinə yönələn mübahisəyə baxılır. Belə olan halda, birinci instansiya məhkəməsi müqavilənin 8-ci bəndinə istinad edərək iş üzrə icraata xitam verməkdə düzgün nəticəyə gəlmişdir.

12. Gəldiyi nəticəni apellyasiya məhkəməsi Azərbaycan Respublikası Konstitusiyasının 60-cı, MPM-in 39, 40.4-cü maddələrinə istinad etməklə əsaslandırmışdır.

13. İddiaçı həmin qərardaddan kassasiya şikayəti verərək onun ləğv edilməsini xahiş etmişdir.

Kassasiya şikayətinin və ona qarşı etirazın dəlilləri

a) Kassasiya şikayətinin dəlilləri

14. MPM-in 39.1, 39.3, 40.3-cü maddələri üzrə - mübahisə üçün müstəsna aidiyyət nəzərdə tutulduğu halda bu Məcəllənin 40.1-40.3-cü maddələrinin qaydaları tətbiq oluna bilməz.

b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri

15. Kassasiya şikayətinə qarşı etiraz təqdim edilməmişdir.

Kassasiya baxışının hədləri

16. Apellyasiya instansiyası məhkəməsinin qərardadı MPM-in 416-cı maddəsinə uyğun olaraq tam yoxlanılacaqdır.

Tətbiq edilən hüquq

17. Azərbaycan Respublikasının Konstitusiyasının müvafiq müddəalarında nəzərdə tutulmuşdur:

"Maddə 60. Hüquq və azadlıqların inzibati və məhkəmə təminatı

İ. Hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir.

İİ. Hər kəsin hüququ var ki, onun işinə qərəzsiz yanaşılsın və həmin işə inzibati icraat və məhkəmə prosesində ağlabatan müddətdə baxılsın.

İİİ. Hər kəsin inzibati icraat və məhkəmə prosesində dinlənilmək hüququ vardır.

İV. Hər kəs dövlət orqanlarının, siyasi partiyaların, hüquqi şəxslərin, bələdiyyələrin və vəzifəli şəxslərin hərəkətlərindən və hərəkətsizliyindən inzibati qaydada və məhkəməyə şikayət edə bilər."

"Maddə 125. Məhkəmə hakimiyyətinin həyata keçirilməsi

İ. Azərbaycan Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirirlər.

İİ. Məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikasının Ali Məhkəməsi, Azərbaycan Respublikasının apellyasiya məhkəmələri, Azərbaycan Respublikasının ümumi məhkəmələri və digər ixtisaslaşdırılmış məhkəmələri həyata keçirirlər.

İİİ. Məhkəmə hakimiyyəti Konstitusiya, mülki və cinayət məhkəmə icraatı vasitəsilə və qanunla nəzərdə tutulmuş digər vasitələr ilə həyata keçirilir.

V. Məhkəmə quruluşu və məhkəmə icraatı qaydası qanunla müəyyən olunur. Vİ. Məhkəmələrin səlahiyyətlərinin dəyişdirilməsi məqsədi ilə müəyyən olunmamış hüquqi üsulların tətbiq edilməsi və fövqəladə məhkəmələrin yaradılması qadağandır."

18. "Məhkəmələr və hakimlər haqqında" "Azərbaycan Respublikası Qanununun müvafiq müddəalarında aşağıdakılar nəzərdə tutulur:

"Maddə 1. Azərbaycan Respublikasında məhkəmələrin təsis olunması

Azərbaycan Respublikasında Azərbaycan Respublikasının qanunları ilə təsis edilmiş Azərbaycan Respublikası məhkəmələri fəaliyyət göstərirlər. Azərbaycan Respublikası Konstitusiyasının 125-ci maddəsinin Vİ hissəsinə uyğun olaraq məhkəmələrin səlahiyyətlərinin dəyişdirilməsi məqsədilə müəyyən olunmamış hüquqi üsulların tətbiq edilməsi və fövqəladə məhkəmələrin, eləcə də xarici dövlətlərin, yaxud bu qanunla nəzərdə tutulmayan qaydada məhkəmələrin yaradılması qadağandır."

19. Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin müvafiq müddəalarında aşağıdakılar nəzərdə tutulur:

"Maddə 2. Mülki məhkəmə icraatının vəzifələri

2.1. Mülki işlər və kommersiya mübahisələri üzrə məhkəmə icraatının vəzifələri hər bir fiziki və yaxud hüquqi şəxsin Azərbaycan Respublikasının Konstitusiyasından, qanunlarından və digər normativ hüquqi aktlarından irəli gələn hüquq və mənafelərinin məhkəmədə təsdiq olunmasıdır."

"Maddə 4. Müdafiə üçün məhkəməyə müraciət etmək hüququ

4.1. Bütün fiziki və hüquqi şəxslər özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədi ilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququna malikdirlər."

"Maddə 261. İcraata xitam verilmə əsasları

261.0. Hakim iş üzrə icraata aşağıdakı hallarda xitam verir:

261.0.1. iş məhkəmədə və ya mülki məhkəmə icraatı qaydasında baxılmalı deyildirsə;"

"Maddə 416. Kassasiya instansiyasında işə baxmanın hədləri

416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

416.2. Apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 418.4-cü maddəsində nəzərdə tutulmuş prosessual hüquq pozuntusu hesab edilən hallara yol verilməsi şikayətin hədlərindən və dəlillərindən asılı olmayaraq yoxlanılmalıdır."

"Maddə 450. Müqavilə aidiyyəti

450.1. Azərbaycan Respublikasının məhkəməsi bu bölməyə uyğun olaraq səlahiyyətli olmamasına baxmayaraq, tərəflər Azərbaycan Respublikası məhkəməsinin beynəlxalq səlahiyyətləri barədə razılığa gələ bilərlər. Belə razılıq yazılı şəkildə olmalıdır.

450.2. Tərəflərdən birinin xarici ölkədə yaşayış yeri, iş yeri və ya onun adətən olduğu yer varsa, tərəflər bu Məcəllənin 450.1-ci maddəsinə müvafiq olaraq xarici dövlətin məhkəməsinin beynəlxalq səlahiyyəti barədə razılığa gələ bilərlər."

Kassasiya instansiyası məhkəməsinin mövqeyi

20. Məhkəmə kollegiyası hesab edir ki, kassasiya şikayəti qismən təmin edilməlidir.

21. Belə ki, məhkəmələrin istinad etdiyi MPM-in 261.0.1-ci maddəsində iş üzrə icraata xitam verilməsi əsası kimi iki hal nəzərdə tutulmuşdur.

22. Birincisi işə ümumiyyətlə məhkəmə qaydasında baxılmalı deyildir. Bu o hallara aiddir ki, qanunla və ya digər normativ hüquqi akta əsasən tərəflər arasında olan mübahisənin məhkəmədə deyil, başqa dövlət orqanı və ya digər təşkilatda baxılması nəzərdə tutulmuşdur.

23. İkinci halda işə məhkəmə qaydasında, lakin mülki məhkəmə icraatı qaydasında baxılmalı deyildir.

24. Hazırki iş üzrə məhkəmələrin qənaəti isə ondan ibarət olmuşdur ki, tərəflər arasında bağlanmış müqavilənin şərtlərinə görə hazırkı mübahisəyə Azərbaycan məhkəmələrində deyil, Türkiyə Respublikasının məhkəməsində baxılmalıdır.

25. Bununla yanaşı, hazırkı işin halları ondan ibarətdir ki, iddiaçı Azərbaycan Respublikasının vətəndaşı olan fiziki şəxs, cavabdeh isə Azərbaycan Respublikasında təsis edilmiş kommersiya hüquqi şəxsdir.

26. Azərbaycan Respublikası Konstitusiyasının 60, 125-ci maddələri, "Məhkəmələr və hakimlər haqqında" Qanunun 1-ci maddəsi və MPM-in 2.1, 4.1-ci maddələrinə əsaslanaraq kollegiya qeyd edir ki, Azərbaycan Respublikası vətəndaşları və hüquqi şəxsləri arasında olan məhkəmə mübahisəsinin həll edilməsi səlahiyyəti Azərbaycan dövlətinin yurisdiksiyasına aiddir. Azərbaycan Respublikasında da məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız Azərbaycan məhkəmələri həyata keçirirlər.

27. Bu baxımdan kollegiya hesab edir ki, belə şəxslər arasında bağlanmış müqavilədə qeyd olunan şərtin, yəni mübahisənin Azərbaycan Respublikasının məhkəmələrində deyil, xarici dövlətin məhkəmələrində baxılması ilə bağlı razılaşmanın qanunauyğun olubolmamasına qiymət verilməlidir.

28. Bununla bağlı qeyd edilir ki, MPM-in "Ümumi qaydalar" adlı birinci bölməsinə aid normalarda belə razılaşmanın mümkünlüyü nəzərdə tutulmamışdır.

29. MPM-in həmin bölməsinə aid "Ərazi aidiyyəti" adlı İV fəslində yer alan 40-cı maddəsi isə Azərbaycan Respublikasının birinci instansiya məhkəmələrinə aid ərazi aidiyyəti

qaydalarının müqavilə əsasında dəyişdirilməsi ilə bağlı məsələləri tənzimləyir və hazırkı işdə tətbiq edilə bilməz.

30. Bununla yanaşı, MPM-in 450.1-ci maddəsində müəyyən edilmişdir ki, Azərbaycan Respublikasının məhkəməsi bu bölməyə uyğun olaraq səlahiyyətli olmamasına baxmayaraq, tərəflər Azərbaycan Respublikası məhkəməsinin beynəlxalq səlahiyyətləri barədə razılığa gələ bilərlər. Belə razılıq yazılı şəkildə olmalıdır.

31. MPM-in 450.2-ci maddəsində isə təsbit edilmişdir ki, tərəflərdən birinin xarici ölkədə yaşayış yeri, iş yeri və ya onun adətən olduğu yer varsa, tərəflər bu Məcəllənin 450.1-ci maddəsinə müvafiq olaraq xarici dövlətin məhkəməsinin beynəlxalq səlahiyyəti barədə razılığa gələ bilərlər.

32. Məhkəmə kollegiyası qeyd edir ki, MPM-in 450-ci maddəsi "Xarici şəxslərin iştirakı ilə icraat" adlı dördüncü bölmədə yer alsa da, MPM-in 450.1-ci maddəsi xarici şəxslərin iştirak etdiyi işlərə, 450.2-ci maddəsi isə xarici şəxslərin iştirak etdiyi işlərlə yanaşı yalnız Azərbaycan Respublikası vətəndaşları və hüquqi şəxslərinin iştirak etdiyi işlərə də aid edilməlidir.

33. Belə yanaşma maddələrin birgə təfsirindən və MPM-in 450.2-ci maddəsinin dispozisiya şərtlərindən irəli gəlir. Çünki MPM-in 450.2-ci maddəsində müəyyən edilən "tərəflərdən birinin xarici ölkədə yaşayış yeri, iş yeri və ya onun adətən olduğu yer varsa" şərti həm xarici şəxslərə, həm də Azərbaycan Respublikası vətəndaşları və hüquqi şəxslərinə aid edilən şərtdir.

34. Şərh olunanlara əsasən kollegiya qeyd edir ki, xarici şəxslərin iştirak etdiyi işlərə aid edilməyən və yalnız Azərbaycan Respublikası vətəndaşları və hüquqi şəxslərinin iştirak etdiyi işlərdə, tərəflərdən birinin xarici ölkədə yaşayış yeri, iş yeri və ya onun adətən olduğu yer varsa, tərəflər xarici dövlətin məhkəməsinin beynəlxalq səlahiyyəti barədə razılığa gələ bilərlər.

35. Qeyd olunan hallar olmadıqda isə tərəflər arasında olan belə razılaşma etibarsızdır və mübahisəyə Azərbaycan Respublikasının məhkəmələrində baxılmasını qeyri-mümkün edən hal kimi qiymətləndirilə bilməz.

36. Bununla yanaşı qeyd olunur ki, beynəlxalq konvensiyalarda və ya Azərbaycan Respublikası ilə xarici dövlət arasında bağlanmış beynəlxalq müqavilələrdə belə şərtin, yəni Azərbaycan Respublikası vətəndaşları və hüquqi şəxsləri arasında olan məhkəmə mübahisəsinin xarici dövlətin məhkəmələrində baxılması ilə bağlı razılaşmanın bağlanmasını mümkün edən qaydalar nəzrdə tutula bilər.

37. Lakin Azərbaycan Respublikası belə razılaşmanın bağlanmasını nəzərdə tutan 2005-ci il 30 iyun tarixli Haaqa Konvesiyasına qoşulmamışdır.

38. Azərbaycan Respublikasının 2002-ci il 22 oktyabr tarixli 369-İİQ nömrəli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında mülki və ticarət işləri üzrə hüquqi əməkdaşlıq haqqında müqavilədə də analoji müddəalar nəzərdə tutulmamışdır.

39. Apellyasiya instansiyası məhkəməsi isə qeyd olunanları və MPM-in 450.2-ci maddəsində müəyyən edilən şərtləri nəzərə almamışdır.

40. Beləliklə, məhkəmə kollegiyası belə qənaətə gəlir ki, kassasiya şikayəti qismən təmin edilərək apellyasiya instansiyası məhkəməsinin qərardadı ləğv edilməli və iş yenidən baxılması üçün həmin məhkəməyə göndərilməlidir.

41. Göstərilənlərə əsasən və MPM-in 417-419-cu maddələrini rəhbər tutaraq məhkəmə kollegiyası

Qərara aldı:

Kassasiya şikayəti qismən təmin olunsun.

Bakı Apellyasiya Məhkəməsinin Kommersiya kollegiyasının 2025-ci il 9 iyul tarixli 22(103)-749/2025 nömrəli qərardadı ləğv edilsin və iş yenidən baxılması üçün həmin məhkəməyə göndərilsin.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

81. 2(102)-3376/2025 nömrəli, 2025-ci il 23 oktyabr tarixli qərardad - mübahisəsiz (akseptsiz) qaydada həyata keçirilən icra sənədinin və digər sənədin icra edilməməli sənəd hesab edilməsi barədə mülki işlər üzrə şikayətinin mümkünlüyü

X Ü L A S Ə

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: İddiaçı ondan cavabdehin xeyrinə 885,69 manat məbləğində borcun tutulmasına dair notariusun icra qeydinin ləğv edilməsi barədə iddia qaldırmış, birinci instansiya məhkəməsi tərəfindən iddiası təmin edilmiş, apellyasiya məhkəməsi cavabdehin apellyasiya şikayətini təmin etməmiş, qətnaməni dəyişdirmədən saxlamışdır. Cavabdeh bu qətnamədən kassasiya şikayəti vermişdir.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi: Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra - MPM) 112.1.11-ci maddəsinə əsasən iddianın qiyməti tutulma mübahisəsiz (akseptsiz) qaydada həyata keçirilən icra sənədinin və digər sənədin icra edilməməli sənəd hesab edilməsi barədə iddialarda - barəsində mübahisə edilən məbləğlə müəyyən edilir.

İcra qeydinin ləğv edilməsi barədə hazırkı mübahisə üzrə cavabdehin qətnaməni mübahisələndirdiyi hissədə iddianın qiyməti 885,69 manat təşkil edir. Bu məbləğ MPM-in 402.1-ci maddəsində nəzərdə tutulmuş beş min manatdan az olduğundan, cavabdehin həmin qətnamədən kassasiya şikayəti vermək hüququ istisna olunur. Bu səbəbdən kassasiya şikayəti qeyri-mümkün hesab edilmişdir.

*Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.

2(102)-3376/2025

23.10.2025-ci il Bakı şəhəri

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının

İddiaçının cavabdehlər Bakı şəhəri 36 saylı notariat ofisi və "XXX" Açıq Səhmdar Cəmiyyətinə qarşı iş üzrə

Q Ə R A R D A D I

Açar sözlər: kassasiya şikayətinin qeyri-mümkünlüyü, qətnamənin mübahisələndirilən hissəsində iddianın qiyməti beş min manatdan az olduqda

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Babayev Zəki Baba oğlu (məruzəçi), Əliyev Zaur Əli oğlu və Baxışova Vüsalə Ələkbər qızından ibarət tərkibdə,

İddiaçının cavabdehlər Bakı şəhəri 36 saylı notariat ofisi və "XXX" ASC-yə qarşı "icra qeydinin ləğvi" tələbinə dair mülki iş üzrə Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)-3895/2025 nömrəli 2025-ci il 14 iyul tarixli qətnaməsindən cavabdeh (vəkil Orucov Qardaşəli Elman oğlu) tərəfindən verilmiş kassasiya şikayətini nəzərdən keçirərək,

Müəyyən etdi:

1. Kassasiya şikayəti Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra – MPM) tələblərinə cavab vermədiyindən qeyri-mümkün hesab edilməlidir.

2. Belə ki, MPM-in 402.1-ci maddəsinə əsasən, mülki işlər üzrə qəbul edilmiş qətnamənin mübahisələndirilən hissəsində iddianın qiyməti beş min manatdan, kommersiya mübahisələrinə dair işlər üzrə isə müvafiq olaraq on min manatdan az olan əmlak xarakterli iddialar üzrə qətnamələr istisna olmaqla, apellyasiya məhkəmələrinin mülki və kommersiya kollegiyalarının və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki və kommersiya kollegiyalarının qətnamələrindən kassasiya şikayəti verilə bilər.

3. İş materiallarından görünür ki, iddia ərizəsində cavabdeh "XXX" ASCnin xeyrinə iddiaçıdan ********** nömrəli müqaviləyə əsasən müddət üçün vaxtında ödənilməmiş 885,69 manatın tutulması ilə bağlı xx xx 2025-ci il tarixində aparılan 8İ-** reyestr nömrəli icra qeydinin ləğvi xahiş olunmuşdur.

4. Bakı şəhəri Xətai Rayon Məhkəməsinin 2(011)-2918/2025 nömrəli 2025-ci il 22 aprel tarixli qətnaməsi ilə iddia təmin edilmiş, Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)-3895/2025 nömrəli xx xx 2025-ci il tarixli qətnaməsi ilə cavabdeh "XXX" ASC-nin apellyasiya şikayəti təmin edilməmiş, birinci instansiya məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmışdır.

5. Qeyd olunan qətnamədən cavabdeh "XXX" ASC kassasiya şikayəti verərək, birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv olunaraq, mülki işin yeni apellyasiya baxışına göndərilməsini xahiş etmişdir.

6. MPM-in 112.1.11-ci maddəsinə əsasən, iddianın qiyməti tutulma mübahisəsiz (akseptsiz) qaydada həyata keçirilən icra sənədinin və digər sənədin icra edilməməli sənəd hesab edilməsi barədəki iddialarda - barəsində mübahisə edilən məbləğlə müəyyən edilir.

7. Məhkəmə kollegiyası qeyd edir ki, cavabdeh "XXX" ASC-nin qətnaməni mübahisələndirdiyi hissəsində iddianın qiyməti 885,69 manat təşkil edir ki, bu da MPM-in 402.1-ci maddəsində nəzərdə tutulmuş beş min manatdan az olduğundan, cavabdeh Bankın həmin qətnamədən kassasiya şikayəti vermək hüququ istisna olunur.

8. MPM-in 408.1.1-ci maddəsinə əsasən kassasiya şikayəti Məcəllənin 402-ci və 407.1-ci maddələrinin tələblərinə cavab vermirsə, imzalanmamışsa, yaxud hüququ olmayan və ya vəzifəsi göstərilməyən şəxs tərəfindən imzalanmışsa, habelə kassasiya şikayəti vermək hüququ olmayan şəxs tərəfindən verilmişdirsə, apellyasiya instansiyası məhkəməsi tərəfindən qaytarılır.

9. MPM-in 404-1.2-ci maddəsinə əsasən işə kassasiya qaydasında baxmaq üçün prosessual əsaslar olmadıqda kassasiya şikayətinin qeyri-mümkün hesab edilməsinə dair qərardad qəbul edilir.

10. Göstərilənlərə əsasən məhkəmə kollegiyası hesab edir ki, cavabdeh "XXX" ASC-nin kassasiya şikayəti qeyri-mümkün hesab edilməli, kassasiya şikayəti geri qaytarılması üçün mülki işlə birlikdə Bakı Apellyasiya Məhkəməsinə göndərilməlidir.

11. Məhkəmə kollegiyası qeyd edilənlərə əsasən və MPM-in 404-1.2, 408.1.1 və 408.3-cü maddələrini rəhbər tutaraq,

Qərara aldı:

Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)-3895/2025 nömrəli 2025-ci il 14 iyul tarixli qətnaməsindən cavabdeh “XXX” Açıq Səhmdar Cəmiyyəti tərəfindən verilmiş kassasiya şikayəti qeyri-mümkün hesab edilsin.

Kassasiya şikayəti geri qaytarılması üçün mülki işlə birlikdə Bakı Apellyasiya Məhkəməsinə göndərilsin.

Qərardad qəbul edildiyi andan qanuni qüvvəyə minir.